Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Sənədlər məcmuəsi

2009

I hissə

- 18104 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı
2010

Redaksiya kollegiyasının sədri:
Elmar M. Məmmədyarov

Redaksiya kollegiyasının üzvləri:

Araz B. Əzimov
Xələf Ə. Xələfov
Mahmud Ə. Məmməd-Quliyev
Hafiz M. Paşayev
Vaqif İ. Sadıqov
Murad N. Nəcəfbəyli
Famil Ə. Əliyev
Vasif Ç. Abutalıbov
Fəridə M. Ağazadə

Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi. 2009. Birinci hissə.
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi.
Bakı, "Qoliaf Nəşriyyat Evi" MMC, 2009-cu il. - 976 səh.



ISBN 978-9952-455-13-7

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin növbəti buraxılışı 2009-cu ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir.

Buraxılışın böyük hissəsini AzərTAc və digər mənbələrdə nəşr edilmiş rəsmi sənəd və materiallar təşkil edir. Onların bir nəşrdə cəmləşdirilməsi Azərbaycanın bu dövrdəki xarici siyasətini daha dolğun göstərməyə imkan verir.

Kitabın ərsəyə gəlməsindəki köməklərinə görə AzərTac-ın bütün kollektivinə, xüsusilə də baş direktor cənab Aslan Aslanova minnətdarlığımızı bildiririk.

Bir sıra materiallar ilk dəfə olaraq təqdim edilir. Sənədlər xronoloji ardıcıllıqla nəşr edilmişdir.

Məcmuə beynəlxalq münasibətlər sahəsində praktiki və elmi işçilər, həmçinin diplomatiya, xarici siyasət və beynəlxalq hüquq tarixi ilə maraqlanan şəxslər üçün faydalı ola bilər.

© Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

RUSİYANIN AZƏRBAYCANDAKI SƏFİRİ XARİCİ İŞLƏR NAZİRLİYİNƏ DƏVƏT EDİLMİŞDİR

Son günlər mətbuatda Ermənistan Respublikasının Gümri şəhərində yerləşən Rusiya Federasiyasının hərbi qüvvələrinə məxsus 102 saylı hərbi bazadan Ermənistanın hərbi qüvvələrinə 800 milyon ABŞ dolları dəyərində hərbi silah və sursatın verilməsinə dair yayılmış məlumatla əlaqədar Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı səfiri Vasili İstratov yanvarın 12-də Xarici İşlər Nazirliyinə dəvət edilmişdir.

Nazir müavini A.Əzimov ilə görüş zamanı səfir V.İstratova məlumatın həqiqətə uyğun olub-olmamasının təsdiq edilməsi barədə rəsmi sorğu edilmişdir. Öz növbəsində Vasili İstratov sorğu ilə əlaqədar Rusiya tərəfinin məsələyə aydınlıq gətirəcəyini bildirmişdir.

ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Yanvarın 12-də Estoniya Prezidenti Toomas Hendrik İlves Azərbaycana rəsmi səfərə gəlmişdir.

Azərbaycan və Estoniyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Estoniya dövlətinin başçısını Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar Estoniya Prezidentinə və xanımına gül dəstələri təqdim etdilər.

Hava limanının ali qonaqlar üçün salonunda Prezident Toomas Hendrik İlves və Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov arasında qısa protokol görüşü oldu.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Yanvarın 13-də Estoniya Prezidenti Toomas Hendrik İlves Fəxri xiyabana gəlmişdir.

Burada ali qonağı və nümayəndə heyətinin üzvlərini Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, xarici işlər nazirinin müavini Hafiz Paşayev və digər rəsmi şəxslər qarşıladılar.

Estoniyanın dövlət başçısı türk dünyasının görkəmli oğlu, ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, xatirəsini ehtiramla andı.

Prezident Toomas Hendrik İlves görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə gül dəstəsi qoydu.

Ali qonağa Fəxri xiyabanın tarixi barədə məlumat verildi.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Yanvarın 13-də Estoniya Prezidenti Toomas Hendrik İlves Şəhidlər xiyabanını ziyarət etmişdir.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Toomas Hendrik İlves "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Estoniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

Prezident Toomas Hendrik İlves Azərbaycan paytaxtının mənzərəsini seyr etdi.

Estoniya Prezidentini Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, xarici işlər nazirinin müavini Hafiz Paşayev və digər rəsmi şəxslər müşayiət edirdilər.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Azərbaycanda rəsmi səfərdə olan Estoniya Respublikasının Prezidenti Toomas Hendrik İlvesin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Estoniya Prezidenti Toomas Hendrik İlvesi və xanımı Evelin İlvesi səmimiyyətlə qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Estoniya Prezidentinə raport verdi.

Estoniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Estoniya Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Toomas Hendrik İlvesə, Estoniya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN TƏKBƏTƏK GÖRÜŞÜ

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Estoniya Prezidenti Toomas Hendrik İlvesin təkbətək görüşü olmuşdur.

Görüşdə iki ölkə arasında münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi, əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.

Bu səfərin də qarşılıqlı münasibətlərin inkişafı baxımından əhəmiyyəti vurğulandı və əlaqələrin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

Dövlət başçıları ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN VƏ ESTONİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Estoniya Prezidenti Toomas Hendrik İlvesin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı İLHAM ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Cənab Prezident!

Əziz qonaqlar!

Sizi bir daha Azərbaycanda salamlayıram və ölkəmizdə xoş vaxt keçirməyinizi arzulayıram.

Biz indicə hər iki tərəf üçün maraq doğuran məsələləri - ikitərəfli və regional inkişafla bağlı məsələləri geniş müzakirə etdik. Bütün bu məsələlər bir-biri ilə bağlıdır və əlbəttə ki, Sizin bizim ölkəyə səfərinizin əhəmiyyətini vurğulamaq istərdim. Estoniya Prezidentinin Azərbaycana ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafını nəzərdən keçirmək üçün çox gözəl imkandır. Ölkələrimiz arasındakı siyasi əlaqələr çox yaxşıdır və əminəm ki, bu səfər əlaqələrimizi daha da möhkəmləndirəcəkdir. Tərəfdaşlığın praktik tərəflərinə diqqət daha da artırılmalıdır.

Biz bu gün iqtisadi əlaqələrin perspektivlərini müzakirə etdik və hər iki ölkədən olan iş adamlarının bunları daha geniş müzakirə etməyə imkanları olacaqdır. Əlbəttə ki, regional inkişaf, regionda vəziyyət və təhlükəsizlik, enerji məsələləri, - bunlar hamısı bir-biri ilə əlaqəlidir. Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr, bu əlaqələrin daha da inkişaf etdirilməsi bizim üçün çox mühümdür. Avropa İttifaqı ilə əlaqələrin inkişafını nəzərdə tutan təşəbbüslərimizi və fəaliyyətimizi dəstəklədiyi üçün biz Estoniyaya minnətdarıq.

Ümidvarıq ki, bu, belə də davam edəcəkdir. Əminəm ki, bu səfər hər bir cəhətdən uğurlu olacaqdır.

Bir daha xoş gəlmisiniz.

Estoniya Prezidenti TOOMAS HENDRİK İLVES səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Çox sağ olun, cənab Prezident!

Yenidən Sizin ölkəyə səfər etdiyimə görə çox şadam. Ona görə yenidən deyirəm ki, mən təxminən on il öncə Azərbaycana ölkəmizin xarici işlər naziri kimi səfər etmişdim.

Əvvəlcə, icazə verin, Sizi bu müddət ərzində Azərbaycanda gedən müsbət dəyişikliklərə görə təbrik edim. Mən aeroportu, Bakını tanımadım, Qız qalasından başqa heç yeri tanımadım. Hər şey tamamilə dəyişibdir. Biz də bu mərhələni keçmişik. Bir tərəfdən, hər şey fərqli görünür, digər tərəfdən, bu hisslər bizə tanışdır. Mən bir daha deyirəm ki, burada olmağıma çox şadam.

AZƏRBAYCAN VƏ ESTONİYA PREZİDENTLƏRİ BİRGƏ BƏYANNAMƏ İMZALAMIŞLAR

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Estoniya Respublikasının Prezidenti Toomas Hendrik İlves birgə Bəyannamə imzaladılar.

Birgə Bəyannamənin imzalanmasından sonra prezidentlər İlham Əliyev və Toomas Hendrik İlves mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident,

Hörmətli qonaqlar,

Xanımlar və cənablar!

İlk növbədə, mən cənab Prezidentə "Azərbaycana xoş gəlmisiniz!" demək istəyirəm. Cənab Prezident, Sizə və nümayəndə heyətinə ölkəmizdə xoş səfər arzulayıram.

Biz bu gün apardığımız müzakirələri yüksək dəyərləndiririk. Sizi qəbul etməkdən çox şadıq. Bu, ölkələrimiz arasında olan münasibətlərin tarixində Estoniya Prezidentinin ilk səfəridir. Əminəm ki, səfər çox uğurlu olacaqdır. Bu gün qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş müzakirələr aparıldı. Ölkələrimiz arasında ikitərəfli əlaqələr də çox uğurla inkişaf edir. Bizim yaxşı siyasi münasibətlərimiz mövcuddur. Siyasi dialoqumuz get-gedə güclənir.

Bu gün imzalanmış Birgə Bəyannamə ikitərəfli münasibətlərə, regional vəziyyətə və bizi bir-birimizə bağlayan bir çox məsələlərə dair fikirlərimizi və ideyalarımızı əks etdirir. Biz Estoniyanın Bəyannamədə əks olunmuş mövqeyinə görə çox minnətdarıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə gəlincə, həmin sənəddə bildirilir ki, məsələ ərazi bütövlüyü prinsipi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və ATƏT-in qərarları əsasında həll olunmalıdır.

Ümid edirik ki, bu yanaşma münaqişənin həllinə aparacaq və Ermənistanın təcavüzü və etnik təmizləməsindən əziyyət çəkmiş yüz minlərlə azərbaycanlı öz yurdlarına qayıtmaq imkanını əldə edəcəkdir. Bu gün, əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin həlli apardığımız müzakirələrin mövzularından biri idi. Ümidvarıq ki, gələn aylar ərzində biz həmin prosesin inkişafını görəcəyik. Azərbaycanın mövqeyi yalnız və yalnız beynəlxalq hüquq normaları və prinsiplərinə əsaslanır və bu, münaqişənin həllinə aparan yeganə yoldur.

Təbii ki, mövcud olan ikitərəfli münasibətlər biznes əlaqələrinin inkişafına geniş imkanlar açır. Bu gün Estoniya və Azərbaycanın biznes dairələri birgə forum keçirəcəklər. Hesab edirəm ki, bu tədbir iqtisadi əlaqələrin inkişafı yolunda yaxşı bir addım olacaqdır. Müxtəlif sahələrdə iqtisadi imkanları nəzərdən keçirmək imkanına malik olacağıq və həmin münasibətlərin daha da inkişaf etdirilməsi üçün nəyin vacib olduğunu müzakirə edəcəyik.

Regional vəziyyət və təhlükəsizlik, o cümlədən enerji siyasəti müzakirə edildi. Nəhəng

neft və qaz yataqlarına, o cümlədən neft və qazın nəqli üçün artıq müasir infrastruktura malik olan Azərbaycan enerji təchizatının şaxələndirilməsində gələcəkdə daha önəmli rol oynayacaqdır. Biz ölkəmizdə bütün əsas məqsədlərimizə artıq nail olmuşuq. Biz enerjinin nəql olunması sistemini şaxələndirmişik. Əminəm ki, gələcəkdə Azərbaycan ilə Avropa istehlakçıları arasında münasibətlər uğurla inkişaf edəcəkdir

Azərbaycan artıq öz işləri ilə burada milyardlarla dollar həcmində sərmayə qoymuş xarici şirkətlərin etibarlı tərəfdaşı olduğunu nümayiş etdirmişdir. Biz Azərbaycanda əlverişli sərmayə mühitini yaratmışıq. Eyni zamanda, biz etibarlı təchizatçıyıq. Azərbaycandan neft və qaz dünyanın müxtəlif yerlərinə ixrac edilir. Bütün ixrac əməliyyatlarımızda heç vaxt elə bir hal olmayıb ki, təchizatımız dayansın və ya istehlakçılar müəyyən problemlərlə üzləşsinlər.

Beləliklə, regionumuzda Azərbaycan tərəfindən başlanılan Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz boru kəməri kimi layihələr enerji mənbələrinin şaxələndirilməsi sahəsində regionda tamamilə yeni vəziyyət yaratmışdır. Şaxələndirmə hamı üçün, yəni həm istehsalçılar, həm də istehlakçılar üçün olmalıdır. Əlbəttə ki, tranzit ölkələr mühüm rol oynamalı və coğrafi yerləşmədən yararlanmalıdır. Hər gün xəbərlərdə izlədiyimiz son hadisələri nəzərə alsaq görürük ki, hazırda bütün bu kimi məsələlərin əhəmiyyəti daha da artır. Buna görə də gələcəkdə enerji siyasəti dostluğa və əməkdaşlığa xidmət etməlidir. O, millətləri bir-birindən ayırmalı deyil, onları birləşdirməlidir.

Ötən ilin noyabr ayında Bakıda keçirilmiş mühüm Enerji Sammiti, onun qərarları və Bəyannaməsi gündəliyimizi açıq şəkildə nümayiş etdirir. Azərbaycan enerji təchizatının şaxələndirilməsində oynadığı konstruktiv rolu davam etdirəcəkdir. Tərəfdaşlarımız əmin ola bilər ki, etibarlı tərəfdaş və dost kimi Azərbaycan öz mühüm rolunu gələcəkdə də davam etdirəcəkdir.

Mən bir daha Estoniya Prezidentinin səfərinin nəticələrindən çox məmnun olduğumu bildirmək istəyirəm və dəvətimizi qəbul etdiyinə görə ona minnətdaram. Ümid edirəm ki, münasibətlərimiz gələcəkdə uğurla davam edəcəkdir.

ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN BƏYANATI

- Çox sağ olun, cənab Prezident!

İcazənizlə, mən sözümə Azərbaycanda bizə göstərilmiş səmimi qonaqpərvərliyə görə minnətdarlığımı bildirməklə başlayım. Mən Azərbaycanda xarici işlər naziri kimi təxminən on il bundan öncə olmuşam. İcazə verin, həmin səfərdən ötən müddətdə ölkənizdə şahidi olduğumuz böyük dəyişikliklərlə Sizi təbrik edim. Hava limanına gəldiyim ilk dəqiqələrdən, şəhərə getdiyim zaman ölkənizi tanımadım. Tamamilə fərqli şəhər, fərqli məkanı gördüm. Belə qısa müddət ərzində əldə etdiyiniz nailiyyətlər çox böyük təqdirə layiqdir. Zənnimcə, ölkənizə verdiyiniz töhfə olduqca böyükdür.

Biz Estoniyada müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycanla çox yaxşı münasibətlərə malik olmuşuq. Bəlkə də, coğrafi baxımdan məsafə böyük görünə bilər, lakin eyni zamanda, deyirəm ki, Estoniya Azərbaycana yaxın ölkədir və bu, sadəcə sözlər deyildir. 1990-cı illərin sonuna gəldikdə, demək istəyirəm ki, Azərbaycanın Avropa Şurasına daxil olmasını ürəkdən dəstəkləyən ölkələrdən biri də Estoniya olmuşdur. Biz

Azərbaycanın Avropa İttifaqında güclü tərəfdaşı və dostu olaraq qalırıq. Estoniya Avropanın enerji təlabatlarının təmin edilməsində Azərbaycanın oynamalı olduğu mühüm rolu etiraf edən ölkələrdəndir.

Son ay ərzində baş vermiş hadisələr bir daha göstərdi ki, Avropanın müxtəlif enerji təchizatı mənbələrinə malik olması nə dərəcədə zəruridir. Ona görə də Avropa enerji mənbələri sahəsində özünün rəqabətcil siyasətini aparmalıdır. Müzakirələrimiz zamanı bu məsələnin nəzərdən keçirilməsinin səbəbi ondan ibarətdir ki, Estoniya Avropanın enerji təchizatının şaxələndirilməsinin zəruriliyinə qəti şəkildə inanır. Bu məsələdə isə ölkəmiz Azərbaycanı vacib iştirakçılardan biri kimi hesab edir. Bu baxımdan, istərdik ki, Azərbaycan ilə Avropa arasında daha sıx əməkdaşlıq olsun. Bilirəm ki, Azərbaycan buna hazırdır. Biz isə Avropa İttifaqının bu istiqamətdə addımlaması üçün həmin təşkilatda ürəkdən çalışacağıq.

Cənab Prezidentin düzgün qeyd etdiyi kimi, ərazi bütövlüyü prinsipinə hörmətlə yanaşma bu gün dünyanın ən mühüm məsələlərindən biridir. Ötən yay biz onun şahidi olduq ki, ərazi bütövlüyünə yenə də əməl olunmur. Ərazi bütövlüyünün qorunması və mübahisələrin dinc vasitələrdən istifadə edilməklə, sülh yolu ilə həlli İkinci Dünya müharibəsindən sonra Avropada xarici siyasətin və beynəlxalq münasibətlərin təməl daşıdır. Bu prinsipin pozulduğu zaman nəyin baş verdiyini görürük. Bu baxımdan, biz Azərbaycanın məsələ ilə bağlı mövqeyini yaxşı anlayırıq.

Siz, eyni zamanda qeyd etdiniz, mən buraya Estoniyanın biznes nümayəndələrindən ibarət böyük heyətlə gəlmişəm. Elə sahələr var ki, biz Estoniyada uğurlar qazanmışıq, yeniliklər gətirmişik. Bəzi sahələrdə biz hətta dünyada öncül mövqeyə malikik, baxmayaraq ki, biz kiçik ölkəyik və sovet işğalından əziyyət çəkmişik. Bununla belə, əlli illik sovet işğalından miras qalmış bütün problemləri həll etməyə nail olmuşuq və bir çox yeniliklər də gətirmişik. Özəl sektorumuz Azərbaycana gəlməkdə, sizin müəssisələrinizlə işləməkdə, buraya yeni ideyaları gətirməkdə çox maraqlıdır. Eyni zamanda, istəyirik ki, sizin özəl sektorunuz Estoniyaya gəlsin və layihələrdə iştirak etsin.

Ümumilikdə, bildirmək istəyirəm ki, biz müstəqilliyimizi bərpa etdikdən sonra çox yaxşı münasibətlərimiz olubdur. Hər iki ölkə sovet işğalı altında olub, lakin biz indi çox işlər görməliyik. Keçdiyimiz yol böyük və yaxşı olub, indi isə biz səmimi hisslərlə, ümumi yanaşmamızla irəliyə doğru getməliyik. Gördüyümüz kimi, ikitərəfli münasibətlərimizin fundamental əsasları var, indi isə ona söykənərək, quruculuq işləri davam etməlidir. Siyasi və iqtisadi əlaqələrimiz daha sıx olmalıdır.

Hesab edirəm ki, bu səfərim həmin sahələrdə bir çox işləri görmək üçün böyük imkanlar açacaqdır.

Sonda mən göstərilmiş qonaqpərvərliyə, iki dost xalq əlaqələrimizin gücləndirilməsi və genişləndirilməsi kimi məqsədlərimizə nail olmaq üçün əla şəraitin yaradılmasına görə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Sağ olun!

AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVANIN VƏ ESTONİYA PREZİDENTİNİN XANIMI EVELİN İLVESİN GÖRÜŞÜ

Yanvarın 13-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın və Estoniyanın birinci xanımı Evelin İlvesin görüşü olmuşdur.

ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN VƏ AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏNİN BİRGƏ İŞGÜZAR NAHARI

Yanvarın 13-də Estoniya Prezidenti Toomas Hendrik İlves və Azərbaycanın Baş naziri Artur Rasizadə "Hyatt Park" mehmanxanasında birgə işgüzar nahar etmişlər.

Səmimi söhbət zamanı iki ölkə arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri haqqında fikir mübadiləsi oldu.

PREZİDENT İLHAM ƏLİYEV VƏ PREZİDENT TOOMAS HENDRİK İLVES BAKIDA KEÇİRİLMİŞ AZƏRBAYCAN-ESTONİYA BİZNES FORUMUNDA İŞTİRAK ETMİŞLƏR

Yanvarın 13-də Bakıda Azərbaycan-Estoniya biznes forumu keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev və Estoniya Prezidenti Toomas Hendrik İlves forumun açılışında iştirak etmişlər.

Biznes forumunda Estoniya tərəfdən 20 nəfərlik heyət, Azərbaycan tərəfdən isə 100-dək iş adamı təmsil olunmuşdu. Estoniya biznesmenləri informasiya-kommunikasiya texnologiyaları, maliyyə, daşınmaz əmlak, nəqliyyat, logistika və bir sıra digər sektorları təmsil edirdilər.

Dövlət başçıları forumda çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Sizin hamınızı görməkdən çox şadam. Görürəm ki, cənab Prezidentin Azərbaycana səfəri məhsuldar keçir. Biz bu səfərə böyük əhəmiyyət veririk. Bu, sırf onunla bağlı deyil ki, dövlətlərimiz arasında münasibətlərin tarixində Estoniya dövlət başçısının Azərbaycana ilk səfəridir. Bu, həm də qarşılıqlı maraq doğuran məsələlərlə bağlıdır. Ölkələrimiz müstəqillik qazandıqdan sonrakı onilliklər ərzində uğurla əməkdaşlıq edibdir. İndi isə, hesab edirəm, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün vaxt artıq yetişibdir. Əlbəttə ki, ölkələrimiz arasındakı olduqca möhkəm siyasi münasibətlər müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı bünövrəni təmin edibdir. Cənab Prezidentin səfəri çərçivəsində Bakıda bu biznes forumun keçirilməsi həmin marağı nümayiş etdirən yaxşı əlamətdir.

Bu gün ikitərəfli görüşlərimiz zamanı müxtəlif məsələləri və iqtisadi əməkdaşlığı müzakirə etdik. Bu prosesləri irəlilətmək məqsədi ilə hansı işlərin görülməsi barədə fikir mübadiləsi apardıq. Bu işin öhdəsindən gəlmək üçün ən münasib yollardan biri bir-birimizi daha yaxşı tanımaqdır. Bu gün ölkəmizə səfər edən Estoniyanın iş adamları bir-birimizi daha yaxşı tanımaq, ölkəmizdə biznes imkanlarını araşdırmaq, potensial sərmayə layihələri barədə məlumat əldə etmək, qarşılıqlı təşəbbüslər, sərmayə imkanlarını bilmək üçün yaxşı fürsət qazanıblar. Bütün bunlar iqtisadi əməkdaşlığımızın çox vacib elementlərinə çevrilə bilər. Bu gün biz məmnunluqla qeyd edə bilərik ki, bu sahədə artıq müəyyən işlər görülübdür. Bilirəm ki, ölkələrimizin şirkətləri işbirliyi qurmağı planlaşdırır, bunu nəzərə alaraq, artıq görüşlər keçiriblər. Zənnimcə, bu gün prezidentlərin iştirakı ilə keçirilən bu görüşün nəticələri daha böyük olacaqdır.

Hüquq çərçivəsi, vergi sistemi, sərmayə qaydaları və biznes imkanları barədə məlumatı aldıqdan sonra biznesi aparmaq və əməkdaşlıq sahələrini müəyyən etmək daha asan olacaqdır. Biz bütün zəruri məlumatları verməyə və dövlətin dəstəyinin təmin edilməsinə hazırıq. Bütün bunlar ölkələrimiz arasında iqtisadi münasibətlərin irəliyə doğru aparılmasına yönəlibdir.

Son bir neçə ildə Azərbaycanın ümumi iqtisadi inkişafı çox müsbət olubdur. İqtisadi artıma gəldikdə, ölkəmiz ardıcıl olaraq 4 il ərzində dünyada birinci yerdədir. Son beş ildə ÜDM 2,5 dəfədən çox artıbdır. Sənaye istehsalında da artım eyni səviyyədədir. Bütün bunlar Azərbaycanda müxtəlif layihələrin həyata keçirilməsi üçün imkanlar açıbdır. Son beş il ərzində dövlət büdcəsinin xərcləri 12 dəfə artıbdır. İqtisadi və maliyyə böhranına, o cümlədən bizə gəldikdə, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, bu gün də müsbət dinamikanı qoruyub saxlayırıq. Ümidvarıq ki, əvvəlki illər kimi, 2009-cu il də uğurlu olacaq və biz planlaşdırdığımız bütün işləri yerinə yetirəcəyik.

İqtisadi və sosial inkişaf, siyasi islahatlar hər hansı bir ölkə, xüsusən də müstəqillik baxımından gənc ölkə üçün vacibdir. Sovet İttifaqı dağılandan sonra ölkələrimiz - Estoniya və Azərbaycan, demək olar ki, eyni vəziyyətdə idi. O vaxt yalnız dövlətə məxsus iqtisadiyyat vardı, indi isə Azərbaycanda ümumi daxili məhsulun 85 faizdən çoxu özəl sektor tərəfindən təmin edilir. İqtisadiyyatın liberallaşdırılması, biznes qurmaq imkanları, yerli və xarici sərmayədarlar üçün çox münasib və asan qaydalar elə bir vəziyyət yaradıb ki, biz bu gün onun faydasını görürük.

Biz 90-cı illərin əvvəlində - 1994-cü ildə dünyanın ən iri neft şirkətlərini ölkəmizə dəvət etdik. Həmin vaxtdan bu günə qədər bizim onlarla heç bir ciddi mübahisəmiz və ya narazılıq doğuran məsələmiz olmayıbdır. Bu onu göstərir ki, biz yerli və xarici sərmayədarlarla dövlət qurumları arasında əməkdaşlığın çox səmərəli formatını yarada bilmişik. Azərbaycan adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə regionda liderdir. Bizim neft ehtiyatlarımız inkişaf üçün yeni perspektivlər açır. 2009-cu il üçün nəzərdə tutulan dövlət sərmayə proqramlarının həcmi 5 milyard dollardan çox olacaq, həmin layihələr dövlət büdcəsindən maliyyələşdiriləcəkdir. Bundan əlavə, yerli şirkətlər daha da möhkəmlənir, Azərbaycanda və xaricdə sərmayə yatırırlar. Son illərdə şirkətlərimiz qonşu ölkələrin iqtisadiyyatına bir neçə milyard dollar sərmayə yatırıblar. Təbii ki, sərmayə yatırılan ölkələrlə bizim yaxşı siyasi əlaqələrimiz var. Ona görə də mən bir

daha xatırlatmaq istəyirəm ki, fəal iqtisadi əməkdaşlıq üçün ölkələrimiz arasında yaxşı və möhkəm əlaqələrin olması ilkin şərtdir.

Biz eston şirkətlərini Azərbaycanın sərmayə proqramlarında iştiraka dəvət edirik. Yeri gəlmişkən, bu məsələni biz bu gün ikitərəfli müzakirələrimiz zamanı nəzərdən keçirdik. Əgər onlar sərmayədar kimi iştirak etmək istəyirlərsə, biz bundan çox şad olarıq. Əgər onlar dövlət büdcəsindən maliyyələşən layihələrdə podratçı olmağa üstünlük verirlərsə, biz yenə də məmnun olarıq. Çünki bizim planlaşdırdığımız layihələrin həyata keçirilməsi üçün peşəkar və bacarıqlı şirkətlərə ehtiyacımız var. Eyni zamanda, burada və ya Estoniyada, yaxud da digər ölkələrdə bəzi müştərək layihələr barədə düşünə bilərik.

Siz öz regionunuzda, biz isə öz regionumuzda güclü mövqelərə malikik. Müxtəlif enerji təşəbbüsləri sayəsində bu gün biz artıq Xəzər-Qara dəniz və Baltik dənizi regionları arasında güclü əlaqələr haqqında danışa bilərik. Biz enerji nəqli marşrutları üzərində sıx işləyirik. Enerji təchizatının şaxələndirilməsi sahəsində planlaşdırdığımız işlərə artıq nail olmuşuq. Lakin eyni zamanda, Xəzər dənizindən çıxarılan neft və qazın Baltik regionunun bazarlarına yeni marşrutlar vasitəsilə çatdırılması üzərində düşünə bilərik. Bu məsələ ilə bağlı biz Estoniya ilə, o cümlədən digər tərəfdaşlarımız və dostlarımızla ciddi şəkildə işləməyə hazırıq. Fikrimcə, bu gün imkanları araşdırmaq üçün münasib fürsət yaranıb və biz əməkdaşlığımızın real perspektivlərini nəzərdən keçirə bilərik. Azərbaycanda artan bazar imkanları cəlbedici ola bilər. Bir çox digər imkanlar da mövcuddur. Əminəm ki, dövlət qurumları şirkətlər arasında qurulan biznes əlaqələrinə dəstək verməlidir və bu baxımdan biz daha fəal əməkdaşlığı görmək istərdik.

Bu gün enerji amili daha böyük əhəmiyyətə malikdir. Biz bunu bugünkü xəbərlərdən görürük. İndiki vəziyyəti təhlil etsək, Azərbaycanda 50 il öncə neft hasilatı bu qədər böyük deyildi. İttifaq dağıldıqdan sonra isə sənaye durğunluq vəziyyətinə düşmüşdü, ölkənin ümumi inkişafı sual altında idi, iqtisadiyyat işləmirdi, sovet vaxtında fəaliyyət göstərən bütün zavodlar bağlanmışdı. Ona görə də ölkəmiz üçün enerji siyasəti sürətli inkişaf üçün əsas alət hesab edildi.

Zənnimcə, biz planlaşdırdığımız məqsədlərə nail olduq. Neft və qaz hasilatına böyük sərmayələr yatırıldı, nəhəng neft-qaz yataqları aşkar edildi. Qaz ehtiyatlarına gəldikdə, onların həcmi qarşıdakı 100 il üçün kifayətdir. Neft və qazın nəqli üçün bizim yaratdığımız müasir nəqletmə yolları və infrastruktur neft və qazımızı böyük həcmdə dünya bazarlarına çıxarır. Enerji siyasəti, əgər belə demək olarsa, enerji fəlsəfəsi ondan ibarətdir ki, enerji xalqları bir-birindən ayırmalı deyil, birləşdirməlidir. Biz öz imkanlarımızdan istifadə edərək tərəfdaş və dostlarımızla işbirliyi qururuq. Biz enerji resurslarını heç vaxt başqa məqsədlər üçün istifadə etməmişik və etməyəcəyik. Onlar yalnız dəstək, yardım, bu və ya digər ölkənin siyasi və iqtisadi maraqları üçün sərf olunacaqdır. Bu günə qədər Azərbaycan özünü enerji ehtiyatlarının hasilatçısı, nəqlinin təminatçısı və tranzit ölkə kimi nümayiş etdirmişdir. Əminəm ki, bu siyasət vəziyyətin proqnozlaşdırılmasına və əməkdaşlığa, ölkələr arasında daha yaxşı anlaşmaya xidmət edəcəkdir.

Ona görə Azərbaycanın bu regionda və daha geniş məkanda enerji inkişafı sayəsində oynayacağı rol, təbii ki, artacaqdır. Bu, sırf coğrafiya ilə bağlı deyil, ölkəmiz Mərkəzi Asiya ilə Avropa arasında körpüdür. Azərbaycan nəhəng daxili resurslara, müasir nəqletmə infrastrukturuna malikdir. Biz Xəzər dənizində çox güclü daşıma qurğularını ya-

ratmışıq. Bundan istifadə edərək, biz xoş məramla dostlarımızla işləməyə hazırıq.

Qiymət məsələsinə gəldikdə, bu, hasilatçı və istehlakçı üçün münasib olmalıdır. Qiymət ehtiyacı olan ölkələrin iqtisadiyyatını böhrana sürükləməli deyil. Biz bu məsələlərə bu cür yanaşırıq. Hətta bir neçə il bundan öncə, yəni 90-cı illərin sonlarında neft və qaz yataqlarının istismarına sərmayələrə başladığımız bir dövrdə də bizim siyasətimiz dəyişməz qalırdı. Qeyd etdiyim kimi, biz dünyanın əsas enerji şirkətləri ilə yaxşı münasibətlər qurmuşuq. Biz hasilat sənayesində şəffaflıq üzrə lider ölkələr sırasındayıq. 2007-ci ildə Azərbaycanın Dövlət Neft Fonduna BMT-nin şəffaflıq mükafatı verilibdir. Bu qurum dünyada digər bu kimi müstəqil fondlar arasında ən şəffaf qurumdur. Biz bundan qürur duyuruq. Azərbaycanın hər bir vətəndaşı və dünyanın istənilən vətəndaşı həmin qurumun fəaliyyəti və orada toplanan vəsaitlər barədə məlumat əldə edə bilər.

Biz iqtisadiyyatın şaxələndirilməsinə və iqtisadi islahatlara çox böyük diqqət yetiririk. Bəzi hallarda buradakı vəziyyəti yaxşı bilməyən şəxslər sürətli iqtisadi inkişafımızı yalnız neft və qaz amili ilə bağlayırlar. Lakin Azərbaycanla müqayisədə digər ölkələrdə daha böyük həcmdə neft və qaz var. Lakin bu, avtomatik şəkildə uğura, tərəqqiyə və ümumi daxili məhsulun artımına aparmır. Bizim timsalımızda neft və qaz iqtisadi inkişafımızda çox vacib rol oynayıbdır. Lakin bu, yeganə mühüm amil deyildir. Bundan əlavə, deyim ki, Dünya Bankı Azərbaycanı 2008-ci ildə bir nömrəli islahatçı ölkə kimi tanıyıbdır. Bu, iqtisadiyyatımızda islahatların aparılmasına və Azərbaycanın güclü, müasir dövlətə çevrilməsinə yönələn səylərimizə verilən yüksək qiymətdir.

Mən sizin vaxtınızı çox almaq istəmirəm, ölkəmiz haqqında çox danışa bilərdim. Sadəcə, görülən və planlaşdırılan işlər, o cümlədən iqtisadi və enerji sahələrində digər ölkələrlə qurduğumuz əlaqələr haqqında məlumat vermək istədim. Əminəm ki, biz cənab Prezidentlə tədbiri tərk etdikdən sonra aparacağınız müzakirələr praktik nəticələrə səbəb olacaq və yaxın vaxtlarda bugünkü tədbirin nəticələrini görəcəyik. Diqqətinizə görə çox sağ olun.

ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN ÇIXIŞI

- Hörmətli Prezident Əliyev!

Hörmətli nazirlər!

Əziz dostlar!

Çıxışıma belə bir səmimi qəbulun təşkilinə və bizi qəbul etdiyinizə görə minnətdarlıq sözləri ilə başlamaq istərdim.

Artıq dediyim kimi, mən Azərbaycana ikinci dəfədir səfər edirəm. Bundan əvvəl, 2000-ci ildə ölkənizə xarici işlər naziri kimi gəlmişdim. Prezidentə dediyim kimi, biz yalnız iki məkanı tanıya bildik: Xəzər dənizi və Qız qalası. Yəni, bütün qalan şeylər tamamilə dəyişibdir. Bu, bizə çox xoş təəssürat bağışlayır. Ona görə ki, mənim ölkəmdə də xeyli dəyişikliklər baş veribdir. 200 il bundan öncə biz xalq mahnımızda oxuyardıq: "Bizim nə qızılımız, nə də ki, gümüşümüz var. Torpaqdan başqa heç nəyimiz yoxdur". İndi isə deyə bilərik, bizim neftimiz və qazımız yoxdur, lakin yaxşı bacarıqlı insanlarımız var.

Həqiqətən, Estoniyada nə qaz, nə də ki, neft hasil olunur. Lakin nümayəndə heyətlərinin bir araya gəlməsi bir çox maraqlı fikirlərin üzə çıxmasına imkan yaradır. Bu şəxslər, həqiqətən, yaradıcı düşüncəyə malikdirlər. Müasirləşmə və inkişafa gəldikdə, artıq qeyd etdiyim kimi, biz telekommunikasiyalar sahəsində bir çox həll variantlarına malikik. Ola bilsin ki, Estoniyanın hüdudlarından kənarda estonların ən məşhur innovasiyası "Skayp" internet telefonlarıdır. Bu, estonların informasiya texnologiyaları sahəsində yeganə ixtirası deyildir.

Lakin demək istəyirəm ki, informasiya texnologiyaları sahəsi ikitərəflidir, yəni burada istifadəçilərin vərdişləri vacib hesab olunur. Məsələn, biz NATO-nun ən yüksək kompyuter standartları mərkəzinə çevrilmişik. Çünki siz informasiya texnologiyalarından nəinki insanlarla əlaqə saxlamaq, o cümlədən bəzi hallarda hücum etmək üçün də istifadə edə bilərsiniz. Bu məsələlərin həlli sayəsində böyük nailiyyətlərimizi görən NATO ölkəmizi aparıcı məkan kimi seçibdir. NATO-nun Kompyuter Mərkəzi Estoniyada yerləşir. Bir sözlə, biz informasiya texnologiyaları sahəsinə xüsusi önəm verdik və onlardan inkişaf və artım vasitəsi kimi istifadə etmək qərarına gəldik. İnformasiya texnologiyalarını nəinki iqtisadiyyatın ayrılmaz bir hissəsinə, o cümlədən dövlət idarəçiliyinin tərkib elementinə çevirdik. Bütün bunlar dövlət idarəçiliyinin rəvan, sürətli və şəffaf formada həyata keçirilməsi məqsədinə xidmət edir.

Zənnimcə, bu, bizim uğurlarımızı şərtləndirən əsas amillərdən biridir. Bütün ixtiralarımızı özümüz etmişik, yəni bu sahədə dərsliklər də yoxdur. Lakin apardığımız işlər gözəçarpan nəticələr veribdir. Məsələn, "Ekspat" adlı məlumatların mübadiləsi sistemi sahəsində tanınmış tərtibatçılarımızdan bəziləri burada əyləşiblər. Yəni vergi, polis, seçki məsələlərinə aid bütün işlər tam şəkildə kompyuterləşdirilibdir. Məsələn, Estoniyanın şəxsiyyət vəsiqələrində məlumat kartı yerləşdirilibdir. Həmin kart vasitəsilə səs verə, vergi və ya səhiyyə sahəsində sizə aid olan qovluqlara daxil ola bilərsiniz. Bələ şəxsiyyət vəsiqəsini ölkəmizdə istənilən səhiyyə işçisinə təqdim etdikdə, həkim sizin əvvəlki müayinələriniz barədə dərhal məlumat əldə edə bilər. Bütün bunları biz özümüz yaratmışıq. Bu gün bir çoxları elektron cəmiyyət terminindən istifadə edir. Biz isə Estoniyada ölkəmizi "e-Estoniya" adlandırırıq. Ümidvarıq ki, həmin təcrübəmizi digər ölkələrlə, o cümlədən Azərbaycanla da bölüşə bilərik.

Kompyuterləşdirilmiş dövlət xidmətlərinin faydalı olduğunu görən eston şirkətləri elektron idarəçilik laboratoriyası yaradıblar.

Bu laboratoriyanın əsasını elektron məlumatların təhlükəsiz qaydada mübadiləsini təmin edən "Ekspat" sistemi təşkil edir. Bu sistemi özəl şirkətlər dövlət qurumları üçün yaradıbdır. Hökumət xidmətləri bütün ölkələrdə vacibdir. Məsələn, polis orqanlarının fəaliyyətinin əlaqələndirilməsi. Günlərin birində, hələ prezident olmazdan öncə meşəyə dincəlməyə getmişdim. Birdən yol polisi əməkdaşı yaxınlaşıb bildirdi ki, mənim maşınım texniki baxışdan keçməyibdir. Mən ondan soruşdum: siz bunu haradan bildiniz? O dedi ki, kompyuter vasitəsilə. Mən təəccüblə soruşdum: Burada, meşədə? O, isə cavab verdi ki, biz şəbəkə vasitəsilə bütün qurumlarla bağlantıdayıq.

Bütün bu kimi nailiyyətlər ölkəmizdə işlərin daha səmərəli şəkildə qurulmasına xidmət edir. Beləliklə, dövlət və özəl sektorun nümayəndələri, banklar, sığorta və kommunal xidmət şirkətləri həmin "Ekspat" sistemi ilə bir araya gətirilibdir. Hökumət, onun müx-

təlif xidmətləri, səhiyyə sektoru əlaqəli şəkildə işləyir. Biz 100-ə yaxın dövlət məlumat bazası yaratmışıq. Ölkəmizin kiçik olmasına baxmayaraq, çox ədalətli idarəçilik sisteminin qurulmasına nail olmuşuq. Bu, o deməkdir ki, dəftərxana və sənədləşmə işlərinin aparılması üçün əlavə işçi qüvvəsinə də ehtiyac duyulmur. Fikrimcə, bu, təklif edə biləcəyimiz ən cəlbedici ideyamızdır. Bunu məhsul kimi digər ölkələrə təqdim edə bilərik.

Bir sözlə, demək istəyirəm ki, ölkəmiz informasiya texnologiyalarına meyillidir. Bizim üçün qalan yeganə iş neft və qazın rəqəmsal formata salınmasıdır. Bunu hələ etməmişik. Əgər bunu edə bilsək, ideal əməkdaşlıq qura bilərik. Çünki neft və qazı elektron formatda internet vasitəsilə nəql edə biləcəyik.

Ümid edirəm ki, biz şirkətlərimizi bir araya gətirəcəyik. Bugünkü tədbirin də məqsədi məhz bundan ibarətdir. Mən hamıya müraciət edərək, həm Azərbaycan, həm Estoniya tərəfini bir-biri ilə müştəri və ya tərəfdaş qismində danışıqlar aparmağa çağırıram. Məhz bu yolla kiçik ölkələrimiz, rəqabətə baxmayaraq, daha sıx şəkildə inteqrasiya edəcəkdir. Belə olan halda, üzləşdiyimiz kinli siyasi mühitə baxmayaraq, əməkdaşlığımız daha da genişlənəcəkdir.

Cənab Prezident!

Tədbir iştirakçılarını bir araya gətirdiyinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Səfər uğurla keçir. Biz bunu elə belə də zənn edirdik. Hətta deyərdim ki, zənn etdiyimizdən də yaxşıdır, çünki bundan sonra görüləcək işlər çoxdur.

Çox sağ olun.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Estoniya Prezidenti Toomas Hendrik İlves Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Estoniyanın dövlət başçısını və onun xanımı Evelin İlvesi səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədləri, ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar barədə ətraflı məlumat verdi.

Estoniya Prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Toomas Hendrik İlves Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Sonra qarşılıqlı hədiyyələr təqdim olundu. Dövlət başçıları və xanımları Heydər Əliyev Fondunun fəaliyyəti haqqında filmə baxdılar.

Ali qonaq Fonddan zəngin təəssüratla ayrıldı.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Yanvarın 13-də Azərbaycan Prezidenti İlham Əliyevin adından Estoniya Prezidenti Toomas Hendrik İlvesin şərəfinə rəsmi ziyafət verilmişdir.

ESTONİYA PREZİDENTİ İCTİMAİ TELEVİZİYAYA MÜSAHİBƏ VERMİŞDİR

Yanvarın 13-də Estoniya Prezidenti Toomas Hendrik İlves Azərbaycan İctimai Televiziyasına müsahibə vermişdir.

- Axşamınız xeyir, cənab Prezident!

Proqramımıza xoş gəlmisiniz. Vaxt ayırıb İctimai televiziyaya məxsusi müsahibə verdiyinizə görə Sizə təşəkkürümüzü bildiririk. Sizə ilk sualımız iki ölkə arasındakı münasibətlər barədə olacaq. İkitərəfli münasibətlərin hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?

- Münasibətlərimiz çox yaxşıdır, bizim dostluq münasibətlərimiz var. Bu, mənim Azərbaycana ikinci səfərimdir. Birinci səfərimi xarici işlər naziri kimi 2000-ci ildə etmişəm. Bir daha deyim ki, münasibətlərimiz yaxşıdır. Amma biz daha intensiv şəkildə çox işlər görməliyik. İqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsi üçün mənimlə özəl sektoru təmsil edən 30 nəfər gəlibdir. Siyasi baxımdan isə Estoniya lap əvvəldən Azərbaycanı güclü şəkildə dəstəkləyən ölkə olubdur.

Xatırladım ki, 1995, 1996, 1997-ci illərdə də biz Azərbaycanı Avropa Şurasına qəbul olunması üçün dəstəkləmişik. Münasibətlərimiz yaxın olub, amma bir daha deyim ki, siyasi və ticarət əlaqələrimizin genişləndirilməsi üçün daha çox işlər görməliyik.

- Estoniya Avropa İttifaqının üzvüdür, eyni zamanda, Azərbaycan da yeni qonşuluq siyasətində fəal iştirak edir. Ölkələrimiz arasındakı münasibətlər Avropa İttifaqı çərçivəsində əməkdaşlığın genişləndirilməsinə nə kimi töhfə verə bilər?

- Mən istərdim ki, Avropa İttifaqının qonşuluq siyasəti indikindən daha güclü olsun. Şəxsən mən özüm və Estoniya Avropa qonşuluq siyasətinin təkmilləşdirilməsinə cəlb olunmuşuq. Səmimi olaraq onu da deyim ki, həyata keçirilən Avropa qonşuluq siyasətinin səviyyəsi ilə razı deyilik. Biz fikirləşirik ki, daha çox işlər görülməlidir. Biz həmçinin Azərbaycanın bu prosesdə daha yaxından iştirakında çox maraqlıyıq. Bu barədə bu gün Prezident İlham Əliyevlə də müzakirələr apardıq ki, daha nə edə bilərik? İnanırıq ki, Avropa xarici siyasətində bizə daha çox diqqət ayıracaqdır. Bu, bizim üçün də önəmlidir. Bu mənada Azərbaycan vacib ölkədir. Avropanın hazırkı enerji durumuna nəzər saldıqda, Azərbaycanın vacibliyini görməmək mümkün deyildir.

- Azərbaycan torpaqlarının 20 faizi Ermənistanın işğalı altındadır. Ölkəmizin ərazi bütövlüyü dünya dövlətləri, eləcə də beynəlxalq təşkilatlar tərəfindən tanınıbdır. Ermənistan isə beynəlxalq hüquqa nə əməl, nə də hörmət edir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində Estoniyanın mövqeyi yəqin ki, indi bizə baxan tamaşaçıları ən çox düşündürən sualın cavabı olardı.

- Estoniya hər zaman ölkələrin ərazi bütövlüyünə hörmət edibdir. Müharibə məqsədə

nail olmaq üçün vasitə deyildir. Ötən ilin avqustunda baş verən hadisələr də göstərdi ki, ərazi bütövlüyünə güc yolu ilə müdaxilə necə də təhlükəlidir. Mən Azərbaycanın İctimai televiziyasına müsahibə verdiyim üçün belə demirəm. Həqiqətən də, ərazi bütövlüyünün pozulması yalnız həmin ölkənin deyil, bütün ölkələrin problemidir. Dağlıq Qarabağ tək sizin yox, hamımızın problemidir.

İstər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ, istərsə də digər münaqişələr tezliklə danışıqlar yolu ilə həllini tapmalıdır. Əks təqdirdə, bütün dünyanı müharibələr bürüyər. Bir daha bildirmək istəyirəm ki, Estoniya dövlətlərin sərhədlərinin toxunulmazlığı prinsipini qəti şəkildə dəstəkləyir.

- Humanitar sahədə əlaqələrin daha da genişlənməsi üçün yaxşı potensial var. Siz bu fikirlə razısınızmı?

- Bunun üçün həqiqətən də güclü baza mövcuddur. Estoniyada 2 mindən çox azərbaycanlı yaşayır. Amma təəssüf ki, Azərbaycanda o qədər də çox eston yaşamır. Bu 2 min nəfər də Azərbaycan mədəniyyət mərkəzində çox fəal iştirak edir. Bu yaxınlarda biz estonca-azərbaycanca lüğətin nəşrinin şahidi olduq. Yəni, ünsiyyət qurmaq üçün artıq lüğətimiz də var. Amma gördüyünüz kimi, biz artıq ingilis dilində rahat söhbət edirik. Bununla yanaşı, humanitar və mədəni sahələrdə də bir çox işlər görülməlidir. Bütün bunları iqtisadi sahəyə də aid etmək olar.

- Estoniyadakı Azərbaycan diasporu ölkənizin ictimai həyatında və digər sahələrdə fəal iştirak edir. İkitərəfli münasibətlərin genişlənməsində, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasında diasporun rolunu necə qiymətləndirirsiniz?

- Düşünürəm ki, bu sahədə xeyli iş görülə bilər. Əlaqələrin qurulmasında diasporun böyük rolu var. Mənimlə gələn 30 nəfər özəl sektor nümayəndəsi sadə estoniyalılardır və onlar iqtisadi əlaqələrin genişləndirilməsində maraqlıdırlar. Mədəniyyət sahəsində isə daha çox imkanlar var. Hər iki dildə danışan insanlar bu işdə daha böyük rol oynaya bilərlər. Biz Estoniyada yaşayan azərbaycanlılarla fəxr edirik. Onlar həm də ölkənin siyasi həyatında fəaldırlar. Azərbaycanlı Eldar Əfəndiyev parlamentin üzvüdür. Bu, bizim ölkə üçün çox normaldır və insanları bu cür fəaliyyətə həvəsləndiririk.

Hazırkı böhran göstərir ki, enerji, təbii qaz mənbəyindən asılılıq Avropa üçün ziyanlıdır. Ümid edirəm ki, bu, bizim üçün bir siqnal olacaq ki, Azərbaycanın əsas iştirakçı sayıldığı Nabukko layihəsinə, Cənub dəhlizinə daha ciddi yanaşaq.

- Avropa enerji təhlükəsizliyinin təmin olunması məsələsində Azərbaycanın potensialına böyük önəm verir. Bu barədə nə deyə bilərsiniz?

- Mən enerji mənbələrinin şaxələndirilməsi barədə Avropada bir neçə dəfə danışıqlar aparmışam. Ümid edirəm ki, gələcək illərdə Nabukko layihəsinə daha çox diqqət yetiriləcəkdir. Mən düşünürəm ki, buna nail olacağıq. Hətta deyərdim ki, bir qədər gecikmişik. Ötən bir neçə həftə də növbəti bir siqnal olubdur. Avropadakı bu problem ona bənzəyir ki, sizi səhər yuxudan ayıldacaq zəngi hər dəfə bir az sonraya dəyişirsiniz. 5-10 dəqiqədən sonra yenidən zəng çalınır və siz yenidən oyanırsınız. Biz də bu cür yeni siqnal gözləməməliyik. Estoniya bu məsələyə digər ölkələrdən daha ayıq yanaşır. Biz Avropa İttifaqı ilə bu məsələyə dair bağlı müzakirələri davam etdirəcəyik.

- Cənab Prezident, biz enerji sahəsi barədə danışdıq. Bizim üçün o da maraqlıdır ki, Estoniya Azərbaycanla konkret hansı sahələrdə iqtisadi əlaqələrin inkişaf etdirilməsini istərdi?

- Sonuncu olmayacaq bu səfərimdə, nümayəndə heyəti, əsasən, informasiya texnologiyaları sektorunu təmsil edir. Bu sahə bizim inkişafımızın göstəricisidir. Çünki Estoniya təbii resurslarla zəngin deyildir. Yəni, Allah tərəfindən verilən neft və qazımız, başqa təbii sərvətlərimiz yoxdur. Ona görə də biz informasiya texnologiyaları sahəsinə arxalanmalıyıq. Məncə, Azərbaycanda çox az adam bilir ki, "Skayp" internet telefonu Estoniyanın məhsuludur. Nümayəndə heyətində də bu sahənin təmsilçiləri var. Bizim Azərbaycanla rabitə və digər sahələrdə birgə işləməklə bağlı çoxlu ideyalarımız var. Məncə, bütün bunlar ölkəni daha da müasirləşdirməyə və şəffaflığı artırmağa kömək edəcəkdir.

- Cənab Prezident, vaxt tapıb bizim proqramımıza qatıldığınıza görə Sizə bir daha təşəkkürümüzü bildiririk.

ESTONİYA PREZİDENTİ AZƏRBAYCANIN SƏNAYE VƏ ENERGETİKA NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Yanvarın 14-də Estoniya Prezidenti Toomas Hendrik İlves Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyevlə görüşmüşdür.

Estoniyanın Azərbaycanla iqtisadi, xüsusən energetika və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıqda maraqlı olduğunu bildirən Prezident Toomas Hendrik İlves ölkəsinin Avropanın enerji təhlükəsizliyi ilə bağlı məsələlərə önəm verdiyini vurğuladı. Son iki həftə ərzində baş vermiş hadisələrin Nabukko layihəsini daha da aktuallaşdırdığını deyən Estoniya dövlətinin başçısı, Avropanın enerji tələbatlarının təmin edilməsində Azərbaycanın mühüm rola malik olduğunu söylədi. Estoniyanın Avropa İttifaqında Azərbaycanın fəal dostu və tərəfdaşı olduğunu vurğulayan Prezident Toomas Hendrik İlves Avropanın enerji təchizatının şaxələndirilməsinin vacibliyini bildirərək dedi ki, bu məsələdə biz Azərbaycanı mühüm iştirakçılardan biri hesab edirik.

Natiq Əliyev ali qonağa ölkəmizin enerji potensialı, Xəzər dənizinin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının hasilatı və ixracı ilə bağlı həyata keçirilən layihələr barədə ətraflı məlumat verdi. Azərbaycanla Estoniya arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini deyən nazir ölkəmizin təbii enerji ehtiyatlarını dünya bazarlarına çıxarmaqda, Avropa ölkələrinin isə Azərbaycan qazını almaqda maraqlı olduğunu söylədi.

Görüşdə Avropanı təbii qazla təmin edəcək Nabukko layihəsinin vacibliyi bildirildi.

SƏNGƏÇAL NEFT TERMİNALI İLƏ TANIŞLIQ

Yanvarın 14-də Estoniya Prezidenti Toomas Hendrik İlves və ölkəmizə səfərdə onu müşayiət edən nümayəndə heyəti Səngəçal neft terminalında olmuşdur.

Xəzər Enerji Mərkəzindən başlanmış tanışlıq zamanı terminalın rəhbərləri və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə qonaqlara mərkəz barədə ətraflı məlumat vermişlər.

Azərbaycan Respublikası Prezidentinin
PREZİDENT KİTABXANASI

Estoniya Prezidenti karbohidrogenlərin yaranması, onların kəşfiyyatı, hasilatı, nəqli, emalı və s. məsələləri əhatə edən zəngin eksponatlara, kosmosdan çəkilmiş nadir görüntülərə, eləcə də ölkəmizin neft-qaz sənayesi haqqında dolğun məlumatları əks etdirən şəkillərə, qlobal enerji layihələri haqqında slaydlara maraqla baxdı.

Qonaqlara bildirildi ki, inşasına 2001-ci ildən başlanmış terminalda tutumu 880 min barrel olan 3 xam neft çəni, baş nasos stansiyası, separatorlar, emal qurğuları və idarəetmə məntəqəsi vardır. Buraya fiberoptik rabitə kabelləri, sahildən 187 kilometr aralıda yerləşən dəniz yataqlarından sualtı neft və qaz kəmərləri çəkilmişdir.

Estoniyalı qonaqlar avtobusla terminalın ərazisini də gəzdilər, onlara buradakı texnoloji proseslər barədə məlumat verildi.

Toomas Hendrik İlves terminalda gedən texnoloji proseslərlə, nəzarət-idarəetmə məntəqəsinin iş sistemi ilə də tanış oldu. Ali qonağa bildirildi ki, bu məntəqədən Bakı-Novorossiysk, Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan neft boru kəmərlərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin ölkə ərazisindəki hissələrində bütün prosesləri izləmək, hər hansı qəza, nasazlıq barədə dərhal xəbər tutmaq və müvafiq tədbir görmək mümkündür.

Terminalla tanışlıqdan xatirə olaraq, Estoniyanın Prezidentinə hədiyyə təqdim edildi.

Dünyanın ən nəhəng terminallarından biri ilə tanışlıq qonaqlarda xoş təəssürat doğurdu.

ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVES QALA ARXEOLOJİ-ETNOQRAFİK MUZEY KOMPLEKSİNDƏ OLMUŞDUR

Yanvarın 14-də Estoniya Prezidenti Toomas Hendrik İlves Bakının yaxınlığındakı Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində olmuşdur.

Ali qonağa məlumat verildi ki, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihə Azərbaycanın tarixi keçmişinin qorunub saxlanması ilə yanaşı, ölkəmizin turizm mərkəzlərindən birinə çevrilməsinə də xidmət edir. Burada hələ 1988-ci ildə Qala Dövlət Tarix Etnoqrafiya Qoruğu təşkil olunmuşdu. Buradakı abidələrin qorunması, eləcə də Abşeronda aşkar edilən arxeoloji tapıntılar hesabına qoruğun daha da zənginləşdirilməsi üçün 2008-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə burada açıq səma altında ilk arxeoloji-etnoqrafik muzey kompleksi yaradılmışdır. Kompleksdə Abşeron yarımadasında tapılmış və eramızdan əvvəl III-II minilliklərdən orta əsrlərə qədər dövrü əhatə edən qayaüstü rəsmlər, keramika, məişət və bəzək əşyaları, silah və sikkələr, qədim yaşayış kompleksinin konservasiya olunmuş qalıqları və sair yerləşdirilmişdir.

Estoniya Prezidenti Toomas Hendrik İlves muzey kompleksini gəzdi, buradakı eksponatlarla tanış oldu.

Qala Dövlət Tarix Etnoqrafiya qoruğunun direktoru Fikrət Abdullayev məlumat verdi ki, dünyanın ən qədim insan məskənlərindən olan Azərbaycan ərazisi arxeoloji abidələrlə, maddi-mədəniyyət nümunələri ilə zəngindir. Kompleksin ərazisində Abşeron yarımadasında aşkar edilmiş arxeoloji, memarlıq abidələri toplanmış və bərpa olunmuşdur. Bu ərazidə eramızdan əvvəl III-II minilliklərə aid kurqanlar, yaşayış binaları və s.

ilkin görünüşündə olduğu kimi qurulmuşdur.

Ali qonaq Qavaldaşa, Şüvəlan, Ağdaş düzü, Xaşaxuna, Zirə yaşayış məskənlərinin planına, qədim toyxana yerinə, tacir evinin maketinə, dəvələrə, Dübəndidə və digər ərazilərdə arxeoloji qazıntılar zamanı aşkar olunmuş tapıntılara, qədim qəbiristanlıqdakı abidələrə də baxdı, xatirə kitabına ürək sözlərini yazdı.

Ali qonaq muzey kompleksindən zəngin təəssüratla ayrıldı.

ESTONİYA PREZİDENTİ CAZ MUSİQİSİ KONSERTİNDƏ OLMUŞDUR

Yanvarın 14-də Estoniya Prezidenti Toomas Hendrik İlves Bakı Caz Mərkəzində konsertdə olmuşdur.

Estoniya dövlətinin başçısına Azərbaycanın zəngin musiqi ənənələri, ölkəmizi bütün dünyada tanıtmış məşhur caz ifaçıları haqqında məlumat verildi. Bildirildi ki, Bakı Caz Mərkəzində müxtəlif illərdə dünyanın caz ulduzları çıxış etmişlər.

Ali qonaq və nümayəndə heyətinin üzvləri Estoniya və Azərbaycan musiqiçilərinin ifasında caz kompozisiyalarını dinlədilər.

ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Yanvarın 15-də Estoniya Prezidenti Toomas Hendrik İlvesin Azərbaycana rəsmi səfəri başa çatmışdır.

Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Hava limanında Prezident Toomas Hendrik İlvesi və onun xanımını Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola saldılar.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Kütləvi informasiya vasitələrinin məlumatlarına əsasən, Rusiya Federasiyası Ermənistana 800 milyon ABŞ dolları dəyərində hərbi texnika və sursat vermişdir. İnternet şəbəkəsində (http://www.mediaforum.az) Rusiya Federasiyasının Ermənistan Respublikasının Gümrü şəhərində yerləşən 102 saylı hərbi hissəsindən Ermənistan Respublikasının silahlı qüvvələrinə silah-sursatın ötürülməsini sübut edən sənədlər yayılmışdır. Məsələnin araşdırılması üzrə aparılmış işlər silah-sursatın ötürülməsinin həqiqətən də baş verdiyi qənaətinə gəlmək üçün yetərli əsas verir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu fakt ilə bağlı öz dərin narahatlığını bildirir. Belə ki, ötürülmüş silah-sursat Azərbaycan Respublikasının ərazilərinin bir hissəsini işğal edən ölkənin hərbi potensialını əhəmiyyətli dərəcədə gücləndirəcəkdir. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi hesab edir ki, silahların ötürülməsi bu işğalın davamına və güclənməsinə imkan yaradacaqdır.

Bu ötürmələr BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsinə dair

qəbul etdiyi müvafiq qətnamələrin və BMT Baş Məclisində 14 mart 2008-ci il tarixində qəbul olunmuş "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsinin bilavasitə pozulmasıdır. Burada söhbət, ilk növbədə, Rusiya Federasiyası tərəfindən Azərbaycanın ərazilərinin işğalının davamına və güclənməsinə hər hansı addımları ilə yardım etməməyə dair öhdəliyinin pozulmasından gedir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu ötürmələrlə bağlı Azərbaycanla Rusiya Federasiyasını birləşdirən dostluq və sıx strateji tərəfdaşlıq münasibətləri, həmçinin Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasında vasitəçi rolu ilə bağlı Azərbaycanın bəslədiyi ümidlər kontekstində öz xüsusi narahatlığını bildirir. Xarici İşlər Nazirliyi hesab edir ki, yuxarıda qeyd olunanlar münaqişənin nizamlanması ilə bağlı vəziyyətin gələcək inkişafına görə Rusiya Federasiyasının üzərinə xüsusi məsuliyyət qoyur.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan ərazilərinin işğalının güclənməsinə yardımçı olan bu cür addımlara qarşı öz etirazını bildirir. Azərbaycan tərəfi Rusiya Federasiyasını silahların ötürülməsinin nəticələrinin aradan qaldırılması məqsədi ilə bütün mümkün tədbirlərin həyata keçirilməsinə çağırır.

Bakı, 15 yanvar 2009-cu il.

AZƏRBAYCANIN VƏ RUSİYANIN XİN RƏHBƏRLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR

Yanvarın 16-da Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ilə Rusiya xarici işlər naziri Sergey Lavrov arasında Rusiya Federasiyasından Ermənistana hərbi texnika və sursatın verilməsi məsələsi ilə bağlı telefon danışığı olmuşdur.

Söhbət zamanı Sergey Lavrov Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Rusiya Silahlı Qüvvələrinin Baş Qərargahı ilə birlikdə qeyd olunan məsələ ilə bağlı araşdırmalar apardığını bildirmiş və əmin etmişdir ki, 2008-ci il ərzində Rusiya Federasiyasının Gümrü şəhərində yerləşən 102 saylı hərbi hissəsi də daxil olmaqla, Rusiya Federasiyasından Ermənistana rəsmi şəkildə heç bir silah-sursat ötürülməmişdir.

Tərəflər bu məsələnin daha ətraflı şəkildə aydınlaşdırılması istiqamətində məsləhətləşmələri davam etdirməklə bağlı razılığa gəlmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzəni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ XARİCİ ƏLAQƏLƏR VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI XANIM BENİTA FERRERO-VALDNERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının xarici əlaqələr və Avropa qonşuluq siyasəti üzrə komissarı xanım Benita Ferrero-Valdnerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə ölkəmizlə Avropa İttifaqı arasında müxtəlif sahələrdə uğurla inkişaf edən əməkdaşlığın bundan sonra da yaxşı perspektivləri olduğu vurğulandı. Azərbaycanın Avropa qonşuluq siyasətində fəal iştirakı yüksək qiymətləndirildi, Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin gələcək inkişafına dair geniş fikir mübadiləsi aparıldı.

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOV AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR

Yanvarın 22-də Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov Azərbaycana işgüzar səfərə gəlmişdir.

Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Bolqarıstan Prezidentini hava limanında Azərbaycanın xarici işlər nazirinin müavini Vaqif Sadıqov və digər rəsmi şəxslər qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN TƏKBƏTƏK GÖRÜŞÜ

Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun təkbətək görüşü olmuşdur.

Azərbaycanın dövlət başçısı Bolqarıstan rəhbərini qarşıladı.

Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi, qarşılıqlı əlaqələrin, o cümlədən iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial imkanların olduğu vurğulandı.

Azərbaycan ilə Bolqarıstan arasında enerji sahəsində də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi.

Beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığın əhəmiyyətini vurğulayan prezidentlər ikitərəfli münasibətlərin bundan sonra da genişləndiriləcəyinə əminliklərini ifadə etdilər.

Görüşdə daha sonra ikitərəfli münasibətlər, regional və beynəlxalq əməkdaşlıq, qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun şərəfinə işçi nahar verilmişdir.

SƏFƏR BAŞA ÇATDI

Yanvarın 22-də Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun Azərbaycana işgüzar səfəri başa çatmışdır.

Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Bolqarıstan Prezidentini Azərbaycanın xarici işlər nazirinin müavini Vaqif Sadıqov və digər rəsmi şəxslər yola saldılar.

RUSİYA TƏRƏFİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLİYİNİN RƏSMİ NOTASINA CAVAB NOTASI TƏQDİM ETMİŞDİR

Yanvarın 22-də nazir Elmar Məmmədyarov Rusiya Federasiyasının Azərbaycandakı səfiri Vasili İstratov ilə görüşmüşdür.

Görüşdə səfir V.İstratov Ermənistanın Gümrü şəhərində yerləşən Rusiyanın hərbi qüvvələrinə məxsus 102 saylı hərbi bazadan Ermənistanın hərbi qüvvələrinə təxminən 800 milyon ABŞ dolları həcmində hərbi silah və sursatın verilməsinə dair mətbuatda yayılmış məlumatla əlaqədar yanvarın 15-də Azərbaycanın Xarici İşlər Nazirliyinin verdiyi rəsmi notaya Rusiya tərəfinin cavab notasını təqdim etmişdir.

Notada bildirilir ki, Rusiya Federasiyasının Müdafiə Nazirliyi tərəfindən 2008-ci ildə Ermənistana Azərbaycan Respublikası ictimaiyyəti arasında, o cümlədən kütləvi informasiya vasitələrində geniş mənfi əks-səda yaratmış 2009-cu ilin yanvarın 8-də http://www.mediaforum.az internet saytında dərc edilmiş naməlum sənəddə göstərilmiş nomenklatura üzrə və məbləğdə silah və hərbi texnika verilməmişdir və satılmamışdır.

Həmçinin notada qeyd edilir ki, Rusiya Federasiyası və Azərbaycan Respublikası onları birləşdirən strateji əməkdaşlığın sıx əlaqələri ruhunda mümkün şübhələri birgə həll edəcəklər.

Rusiya tərəfi ümidvar olduğunu bildirmişdir ki, Azərbaycanın Xarici İşlər Nazirliyi ölkə ictimaiyyətini və kütləvi informasiya vasitələrini Rusiyanın məsələ ilə bağlı mövqeyi barədə məlumatlandıracaqdır.

AZƏRBAYCANIN ABŞ-DAKI SƏFİRİ HİLLARİ KLİNTONU DÖVLƏT KATİBİ TƏYİN OLUNMASI MÜNASİBƏTİLƏ TƏBRİK ETMİŞDİR

Yanvarın 22-də Azərbaycanın ABŞ-dakı səfiri Yaşar Əliyev Hillari Klintonu dövlət katibi vəzifəsinə təyin olunması münasibətilə təbrik etmişdir.

Səfir Y.Əliyev Prezident Barak Obamanın andiçmə mərasimində H.Klintonla qısa söh-

bət zamanı yeni administrasiyanın fəaliyyəti dövründə Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın daha da inkişaf edəcəyinə əminliyini bildirmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ KEYPTAUNDA KEÇİRİLƏN BEYNƏLXALQ FORUMDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti yanvarın 21-24-dək Keyptaun şəhərində Avropa Şurası Venesiya Komissiyası ilə Cənubi Afrika Respublikasının Konstitusiya Məhkəməsinin birgə təşkil etdiyi "Konstitusiya ədalət mühakiməsinin cəmiyyətin inkişafına təsiri" mövzusunda Konstitusiya Məhkəmələrinin Dünya Forumunda iştirak etmişdir.

Tədbirin təntənəli açılışında Cənubi Afrika Respublikasının Prezidenti Kalema Motlante çıxış edərək, konstitusiya nəzarəti orqanlarını sıx əməkdaşlığa dəvət etmiş, beynəlxalq forumun işinə uğurlar arzulamışdır. Prezident, həmçinin dövlətlərarası əlaqələrin inkişafına məhkəmə-hüquq orqanlarının əməkdaşlığının xüsusi töhfə verəcəyinə əminliyini bildirmişdir.

Forumda xarici konstitusiya nəzarəti orqanları qərarlarının milli konstitusiya məhkəmələrinin fəaliyyətində tətbiqi, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinin konstitusiya məhkəmələrinin qərarlarında öz əksini tapması, konstitusiya məhkəmələrində baxılan fərdi şikayətlərlə bağlı müzakirələr və fikir mübadiləsi aparılmışdır.

Forumun yekununda Bəyannamə qəbul edilmişdir. Bəyannamədə deyilir ki, ölkə konstitusiyalarında təsbit edilmiş dəyərlərin müdafiəsində Konstitusiya Məhkəmələri xüsusi rol oynayır. Dünya Forumunda dinlənilmiş məruzələr və aparılmış müzakirələr onu göstərir ki, bəzi konstitusiya-hüquq xüsusiyyətlərinə baxmayaraq, konstitusiya nəzarəti orqanları insan hüquq və azadlıqlarının qorunması məqsədi ilə bu sahədə beynəlxalq əməkdaşlıq həyata keçirirlər. Bu əməkdaşlıq çərçivəsində Konstitusiya Məhkəməsinin hakimləri oxşar işlərə baxarkən öz xarici həmkarlarının təcrübəsini ümumiləşdirərək müvafiq məhkəmə praktikasını tətbiq edirlər. Məhz bu məqsədlə milli məhkəmələr arasında məlumat mübadiləsinin daha da genişləndirilməsi məqsədəuyğun hesab olunur.

Səfər çərçivəsində Cənubi Afrika Respublikası Konstitusiya Məhkəməsinin sədri Puis Lanqa ilə görüş keçirilmiş, məhkəmələr arasında əməkdaşlıq əlaqələrinin inkişafı məsələləri müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTANA İŞGÜZAR SƏFƏRİ

Yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Macarıstan Respublikasına işgüzar səfərə gəlmişdir.

Azərbaycan Prezidentini və xanımı Mehriban Əliyevanı Budapeştin "Ferihegy-2" beynəlxalq hava limanında təyyarənin pilləkəni yanında Macarıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha - "Intercontinental" mehmanxanasına yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTAN TELEQRAF AGENTLİYİNƏ VƏ DUNA TELEVİZİYASINA MÜSAHİBƏ VERMİŞDİR

Yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Intercontinental" mehmanxanasında Macarıstan Teleqraf Agentliyinə (MTİ) və Duna televiziyasına müsahibə vermişdir.

Dövlətimizin başçısı Nabukko layihəsinin əhəmiyyəti, Azərbaycanın bu beynəlxalq layihəyə münasibəti, ölkəmizin qaz hasilatı, ixrac potensialı, onun perspektivləri, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu, habelə Azərbaycan və Macarıstan xalqları arasında tarixi oxşarlıq, yaxın münasibətlər, eləcə də kütləvi informasiya vasitələrinin əlaqələrimizin inkişafındakı rolu ilə bağlı suallara ətraflı cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BLOOMBERG NEWS TELEVİZİYASINA MÜSAHİBƏ VERMİŞDİR

Yanvarın 26-da Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Intercontinental" mehmanxanasında Bloomberg News televiziyasına müsahibə vermişdir.

Prezident İlham Əliyev Nabukko layihəsi ilə bağlı Azərbaycanın mövqeyi, ölkəmizdə neft-qaz sənayesinin hazırkı vəziyyəti və perspektivləri, boru kəmərlərinin fəaliyyəti, şaxələndirilməsi, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın iştirakı ilə bağlı suallara cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA İNVESTİSİYA BANKININ PREZİDENTİ İLƏ GÖRÜŞÜ

Yanvarın 26-da Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Intercontinental" mehmanxanasında Avropa İnvestisiya Bankının (EİB) prezidenti Filipp Maystadt ilə görüşmüşdür.

Görüşdə Nabukko layihəsi və onun həyata keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTANIN BAŞ NAZİRİ SERGEY STANİŞEV İLƏ GÖRÜŞÜ

Yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Budapeştdə Bolqarıstan Respublikasının Baş naziri Sergey Stanişev ilə görüşmüşdür.

Görüşdə əsasən enerji sahəsində əməkdaşlıq və ikitərəfli münasibətlərin bütün sahələrdə daha da inkişaf etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, son illər ərzində iki ölkə arasında əlaqələr bütün sahələrdə uğurla inkişaf edir.

Bolqarıstanın Baş naziri dedi ki, Budapeştdə Nabukko ilə bağlı sammitin keçirilməsinin konkret addımların atılması baxımından böyük əhəmiyyəti olacaqdır.

Prezident İlham Əliyev ikitərəfli münasibətlərin dinamik şəkildə inkişaf etdiyini vurğuladı və dedi ki, indi enerji amili gündəlikdə prioritet məsələlərdən biri kimi durur və bu, gələcəkdə də davam edəcəkdir. Çünki enerji təhlükəsizliyi hər bir ölkə üçün vacib məsələlərdən biridir. Bu baxımdan Nabukko ilə əlaqədar sammitin keçirilməsi əməkdaşlığın genişləndirilməsinə imkan yaradacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇEXİYANIN BAŞ NAZİRİ MİREK TOPOLANEK İLƏ GÖRÜŞÜ

Yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Budapeştdə Çexiya Respublikasının Baş naziri Mirek Topolanek ilə görüşmüşdür.

Baş nazir Çexiyanın Avropa İttifaqına sədrliyi dövründə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın daha da genişləndirilməsi, Azərbaycanın Avropa strukturlarına daha da sıx inteqrasiyasına öz töhfəsini verməyə hazır olduğunu bildirdi.

O, Azərbaycanla ikitərəfli münasibətlərin müxtəlif sahələrdə də genişlənəcəyinə əmin olduğunu vurğuladı və dedi ki, əməkdaşlığımız müxtəlif sahələrdə inkişaf edəcəkdir. Çexiya bunda maraqlıdır.

Mirek Topolanek Nabukko layihəsinin əhəmiyyətinə də toxundu, Azərbaycanı Avropanın enerji təhlükəsizliyi məsələsində çox önəmli rol oynayan bir ölkə kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Çexiya ilə əməkdaşlığın, eyni zamanda, Avropa İttifaqına sədrliyi dövründə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı dedi ki, Azərbaycan Avropa İttifaqının Yeni qonşuluq siyasətində yaxından iştirak edir. Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyinə töhfə verir, Azərbaycan qazı Avropa ölkələrinə ixrac olunur.

Prezident İlham Əliyev Nabukko layihəsinin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Çexiya ilə ikitərəfli münasibətlərin daha da genişlənəcəyinə əminliyini bildirdi.

Eyni zamanda, Ermənistanın Azərbaycana təcavüzünün, ərazimizin Ermənistan tərəfindən işğal olunmasının regional əməkdaşlığa, təhlükəsizlik arxitekturasına böyük əngəllər yaratdığını bildirdi.

Prezident İlham Əliyev əmin olduğunu vurğuladı ki, Avropa İttifaqı bu münaqişənin tezliklə həllində fəal iştirak edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇAN İLƏ GÖRÜŞÜ

Yanvarın 26-da Azərbaycan Prezidenti İlham Əliyev Budapeştdə Parlament binasında Macarıstanın Baş naziri Ferents Dyurçan ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Macarıstan arasında əlaqələrin siyasi-iqtisadi, humanitar sahə-

də uğurla inkişaf etdiyi bildirildi, bu əlaqələrin daha da genişləndirilməsi üçün geniş potensialın olduğu vurğulandı. Söhbət zamanı yanvarın 27-də keçiriləcək Nabukko sammitinin əhəmiyyəti, habelə, Azərbaycanın Avropanın enerji təhlükəsizlik sistemində rolu, önəmi qeyd olundu.

Görüşdə ölkələrimiz arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi, bu əlaqələrin Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın genişlənməsi baxımından əhəmiyyətli olduğu bildirildi.

NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN ŞƏRƏFİNƏ

Yanvarın 26-da Budapeştdə Macarıstan Respublikasının Baş naziri Ferents Dyurçanın adından Nabukko sammitində iştirak edən nümayəndə heyətlərinin rəhbərləri üçün nahar verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev naharda iştirak edirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MACARISTAN PREZİDENTİ LASLO ŞOYOMUN GÖRÜŞÜ

Yanvarın 27-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Macarıstanın dövlət başçısı Laslo Şoyomun görüşü olmuşdur.

Görüşdə iki ölkə arasında münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə olundu, yüksək səviyyədə qarşılıqlı səfərlərin əlaqələrin inkişafına töhfə verdiyi, habelə müxtəlif sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi.

Dövlət başçıları ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ ENERGETİKA MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI ANDRİS PİEBALQS İLƏ GÖRÜŞÜ

Yanvarın 27-də Azərbaycan Prezidenti İlham Əliyev Avropa Komissiyasının energetika məsələləri üzrə komissarı Andris Piebalqs ilə görüşmüşdür.

Görüşdə Nabukko layihəsinə dair sammitin əhəmiyyəti vurğulandı, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olundu. Söhbət zamanı qarşılıqlı əməkdaşlığın gələcək perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

BUDAPEŞTDƏ NABUKKO LAYİHƏSİNƏ DAİR ENERJİ SAMMİTİ KEÇİRİLMİŞDİR

Yanvarın 27-də Macarıstanın paytaxtı Budapeştdə Nabukko layihəsinə dair enerji sammiti keçirilmişdir.

Parlament binasında başlayan sammitdə Azərbaycan Prezidenti İlham Əliyev, Macarıstanın Baş naziri Ferents Dyurçan, Çexiyanın Baş naziri Mirek Topolanek, Bolqarıstanın Baş naziri Sergey Stanişev, Gürcüstanın Baş nazirinin birinci müavini, maliyyə naziri Nika Giluari, Avropa Komissiyasının energetika məsələləri üzrə komissarı Andris Piebalqs, Avstriyanın iqtisadiyyat və əmək naziri Reynhold Mitterlehner, Rumıniyanın iqtisadiyyat naziri Adrian Videanu, Misirin neft naziri Amin Samih Fəhmi, Türkiyənin energetika və təbii sərvətlər naziri Hilmi Gülər, Türkmənistanın Karbohidrogen Ehtiyatlarının İdarəedilməsi və İstifadəsi üzrə Dövlət Agentliyinin direktoru Yaxşıgoldi Kakayev, habelə Almaniyanın, İraqın, ABŞ-ın nümayəndələri, Avropa İnvestisiya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentləri iştirak edirdilər.

Xəzər hövzəsi və Mərkəzi Asiyadan, gələcəkdə isə Yaxın Şərqdən təbii qazın Avropaya nəqlini nəzərdə tutan Nabukko layihəsi ilə bağlı yaradılmış transmilli konsorsiuma Avstriyanın OMV, Macarıstanın MOL, Bolqarıstanın "Bulqarqaz", Rumıniyanın "Transqaz", Türkiyənin BOTAŞ və Almaniyanın RWE şirkətləri daxildir. Fransanın "Qaz de Frans" şirkəti də konsorsiuma qoşulmaq niyyətini bildirmişdir.

Budapeşt sammitinin keçirilməsi təklifini Macarıstanın Baş naziri Ferents Dyurçan ötən ilin iyulunda Azərbaycana və Türkmənistana səfəri zamanı bəyan etmişdi.

Nabukko layihəsinin operatoru qismində Avstriyanın OMV şirkəti çıxış edir. Konsorsium üzvləri layihə üzrə hökumətlərarası sazişi imzalamağı planlaşdırırlar ki, bu da kəmərin tikintisinin qanunverici bazasının yaradılması üçün zəruri hesab olunur.

Layihə dəyəri 8 milyard avro olan və ildə təqribən 26-32 milyard kubmetr qaz ötürəcək Nabukko kəmərinin inşası 2014-cü ilədək yekunlaşmalıdır. Nabukko boru kəməri ilə 2012-ci ildə Azərbaycan, sonra Qazaxıstan və Türkmənistan qazının nəqli nəzərdə tutulur. Növbəti mərhələdə, 2017-ci il üçün bu kəmərlə İran, İraq və Misir qazının nəqli də istisna olunmur.

Nabukko ilk qaz xəttidir ki, dünyanın bir çox regionu arasında əlaqə yaradacaqdır. Uzunluğu 3,3 min kilometr nəzərdə tutulan kəmərin marşrutunda əsas tranzit ölkə Türkiyə olacaqdır (2 min kilometr). Layihəyə görə kəmərin 400 kilometri Bolqarıstan, 460 kilometri Rumıniya, 390 kilometri Macarıstan, 50 kilometrə qədəri isə Avstriyanın ərazisinə düşür.

Sammit açıq elan olunduqdan sonra çıxış edən Macarıstanın Baş naziri Ferents Dyurçan Azərbaycan Prezidenti İlham Əliyevi və digər iştirakçıları salamladı, dostluq xarakteri daşıyan Nabukkonun hamını birləşdirən layihə olduğunu vurğuladı.

Son illər Avropa ölkələrinin enerji problemləri ilə üzləşdiyini, onların iqtisadiyyatında geriləmə müşahidə olunduğunu deyən Baş nazir Avropanın enerji təhlükəsizliyinin, eləcə də ayrı-ayrı ölkələrin müstəqilliyinin möhkəmləndirilməsi baxımından yeni alternativ layihəyə ehtiyac duyulduğunu söylədi. Bu məqsədlə də Nabukko layihəsinin reallaşdırılmasına qərar verilmişdir. Bu işdə Azərbaycana və Türkmənistana ümid böyükdür. Bu layihənin maliyyələşdirmə mənbələrinin müəyyənləşdirilməsi və kreditlərin alınmasında problem yaranmayacaqdır.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar,

Öncə mən bizi qəbul edən Macarıstan tərəfinə və Baş nazir Dyurçana bu cür möhtəşəm tədbiri təşkil etdiyinə görə minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu gün keçirdiyimiz müzakirələr layihənin bütün iştirakçıları, istər təchizatçı, tranzit ölkələr, istərsə də istehlakçılar arasında daha çox anlaşmanı təmin edəcək və irəliyə doğru daha sürətlə addımlamağa imkan yaradacaqdır.

Azərbaycan regionun və Avropanın enerji təhlükəsizliyində öz rolunu oynayır. Son illər ərzində başladığımız və uğurla həyata keçirdiyimiz layihələr regionda artıq yeni vəziyyət yaradıbdır. Dünyada ilk dəfə olaraq, Xəzərin enerji resursları alternativ yolla Qərb bazarlarına çıxarılır. Tərəfdaşlarımızla birgə çəkdiyimiz neft və qaz boru kəmərləri Azərbaycana təchizat marşrutlarını şaxələndirməyə, iqtisadi və sosial tələbatlarımızı ödəməyə, iqtisadi və siyasi islahatları daha sürətlə aparmağa imkan yaradır.

Bir sözlə, Azərbaycanın enerji siyasəti ölkəmiz, xalqımız, qonşularımız və bütöv region üçün artıq böyük fayda verir. Bu gün Xəzərdə alternativ mənbələr üçün yeni nəqletmə layihələri haqqında söhbət açdığımız zaman hamımız etiraf edirik ki, bu nailiyyətin bünövrəsi 1990-cı illərin ortalarında qoyulmuşdur. Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri tikilmişdir. Bu addım qapıları açır və imkanlara aparan yolun təzahürüdür. Vaxt keçdikcə və həmin layihələri yekunlaşdırdıqca, biz lazım olan bütün işləri yerinə yetirdik. Azərbaycanın çəkdiyi boru kəmərləri xəritəsinə nəzər yetirsə, görərsiniz ki, neft və qaz kəmərləri hər bir istiqamətdə gedir. Bu gün malik olduğumuz yeddi neft və qaz boru kəməri bizə hasil etdiyimiz qədər enerji daşıyıcılarını müxtəlif istiqamətlərdə nəql etməyə imkan yaradır. Bunlar bizə imkan verir ki, yalnız bir marşrutdan, tranzit yolundan asılı olmayaq.

Biz xüsusən hasilatçılar ilə tranzit ölkələr arasında mübahisədən əziyyət çəkən istehlakçıların narahatlığını aydın şəkildə anlayırıq. Etibarlı tərəfdaş və dost ölkə kimi, o cümlədən müstəqillik dövründən verdiyi vədləri yerinə yetirən tərəf kimi Azərbaycan öz bəyan etdiyi addımları atıbdır. Gələcəkdə isə biz şaxələndirmə işində daha fəal rol oynamağı planlaşdırırıq. Şaxələndirmə hamımız, o cümlədən hasilatçılar üçün vacibdir. Əgər biz yalnız bir yoldan asılı olacağıqsa, onda problemlərlə üzləşə bilərik və ədalətli qiymətə nail olmayacağıq. Lakin variantların müxtəlif olduğu təqdirdə özümüzü daha rahat hiss edə bilərik.

Azərbaycanın nəhəng qaz ehtiyatlarını nəzərə alsaq, - minimum hesablamalara görə, onun həcmi 2 trilyon kubmetr səviyyəsindədir, - bu sərvətimiz gələn onilliklər, yüz il ərzində bizim üçün kifayət edəcəkdir. Əlbəttə ki, biz bazarlara və tranzit ölkələrlə münasibətlərimizə uyğun olaraq hasilat sürətimizi, sərmayə proqramlarımızı planlaşdırmalıyıq. Nə qədər çox ölkə Azərbaycandan qaz alarsa, bu, Azərbaycanın özü üçün bir o qədər yaxşıdır və həmin ölkələr üçün faydalıdır. Bu, hər tərəfdən faydalı variantdır. Başladığımız və uğurla həyata keçirdiyimiz layihələr hazırda göstərir ki, bütün iştirakçıların maraqları üst-üstə düşəndə, vahid heyət kimi işləyəndə və səylərini əlaqələndirəndə, o cümlədən hər bir tərəf ümumi işə töhfə verəndə biz uğur əldə edirik.

Nabukkoya gəldikdə, Azərbaycan hər zaman bu layihəni dəstəkləyibdir. Bu gün bir daha bəyan etmək istəyirik ki, biz öz dəstəyimizi davam etdirəcəyik. Bu məqsədlə hazırlanmış bəyannamə bunu aydın şəkildə əks etdirir. Əlavə olaraq demək istəyirəm ki, bir neçə ay bundan öncə Bakıda enerji sammiti zamanı biz Xəzər dənizi regionunda müxtəlif layihələri, o cümlədən Nabukkonu müzakirə etdik və onu dəstəkləməklə öz siyasi iradəmizi qəbul olunmuş bəyannamədə ifadə etdik.

Hesab edirəm ki, bütün iştirakçıların - təchizatçıların, tranzit ölkələrin və istehlakçıların maraqlarını bir araya gətirmək vaxtı artıq yetişibdir. Təbii ki, bu halda biz bir neçə məqsədə nail olmalıyıq. Öncə, etibarlı təchizat təmin edilməlidir, çünki evlərində qazın olmamasında kimin günahkar olduğu istehlakçılar üçün vacib deyildir. Onlar, sadəcə, qaza ehtiyac duyurlar, qazın qiymətini ödəyiblər və ondan istifadə etmək hüququna malikdirlər. İkincisi, etibarlı təchizat marşrutudur. Ümumi şəkildə qavranılmalıdır ki, tranzit ölkələr ərazisindən daha çox həcmdə enerji daşıyıcıları keçəndə bir o qədər çox fayda götürürlər. Eyni zamanda, qiymət də ədalətli olmalıdır, çünki neftdən fərqli olaraq, qazın qiyməti azad bazar tərəfindən tənzimlənmir. Bəzən biz qaz hasil edən ölkələrin bu və ya digər istehlakçıya fərqli yanaşmasının şahidi oluruq.

Azərbaycana gəldikdə, biz hər zaman istehlakçılarımızın tələbatlarına cavab verməyin tərəfdarı olmuşuq və yaxşı tərəfdaşlıq ruhu bizə uğur qazanmağa imkanlar yaradıbdır. Hesab edirəm ki, bütün bu amilləri və Avropada təchizat mənbələrinin şaxələndirmə ilə bağlı narahatlıqları nəzərə alaraq, regionumuzda nəhəng enerji ehtiyatlarından istifadədə uğurlar əldə edə bilərik.

Bir məsələni də əlavə etmək istəyirəm. Nabukko barədə müzakirələr başlayanda, Azərbaycan təchizatçılardan biri kimi nəzərdə tutulmurdu. O vaxt təchizat mənbəyi kimi başqa yer baxılırdı. Səmimi desək, bu, həmin vaxt düzgün qərar idi, çünki Azərbaycan həmin dövrdə hətta öz tələbatlarımızı ödəmək üçün kifayət qədər həcmdə qaz hasil etmirdi. Lakin bu gün vəziyyət fərqlidir. Azərbaycan artıq həm tranzit ölkə, həm potensial ilkin təchizat mənbəyi hesab edilir. Bu cür nəhəng ehtiyatların və artıq müasir infrastrukturun, nəql qurğularının olması, eləcə də ilbəil artan qaz hasilatının həcmi ilə təbii ki, biz qarşılıqlı maraq doğuran məsələlər üzərində ciddi şəkildə işləyə bilərik. Əminəm ki, bütün maraqları bir araya gətirərək, uğur əldə edəcəyik.

Mən eyni zamanda dostum, Baş nazir Dyurçanın söylədiyi fikirlə bağlı demək istəyirəm ki, o, haqlı olaraq bildirdi: "Azərbaycan kimi ölkələr sırf xammal mənbəyi hesab edilməsini istəmirlər". Bu, keçmişdə də belə olub. Həmin vaxt biz Sovet İttifaqında yaşayırdıq və enerji mənbələri ilə zəngin respublikalar təchizat bazası sayılırdı. Azərbaycanda böyük miqdarda neft və qaz hasil olunurdu. Lakin ölkəmiz müstəqilliyini əldə etdikdən sonra, biz onun faydasını görmədik. Bizə qalan yalnız dağıdılmış infrastruktur, tükənmiş neft və qaz yataqları və böhran içərisində olan iqtisadiyyat oldu. Bu, xalqımızın 1991-ci ildə üzləşdiyi miras idi. Biz çox səylər göstərdik və xarici tərəfdaşlarımızla əməkdaşlıq qurduq. Beləliklə, bugünkü hasilat həcmimiz ölkəmizə heç nədən asılı olmamaq imkanı yaradır. Nabukkodakı iştirakımıza gəldikdə, əlbəttə ki, əməkdaşlığımızın əlavə aspektlərini görmək istərdik. Biz maliyyə dəstəyinə ehtiyac duymuruq və özümüzü təmin edən ölkəyik. Bizə sıx inteqrasiya, Avropa İttifaqı ilə daha çox proqramlar, birgə səylər nəticəsində həll olunan məsələlər və səmərəli tərəfdaşlıq lazımdır. Bütün bunlar üçün yaxşı əsaslar var. Əminəm ki, enerji layihələri bu tərəfdaşlığı gücləndirəcəkdir.

Bizim enerji siyasətimiz və fəlsəfəmiz ondan ibarətdir ki, enerji məsələləri xalqları ayırmalı deyil, birləşdirməlidir. Enerji məsələləri siyasi təzyiq və böhtan aləti kimi istifadə edilməli deyildir. Bizim siyasətimiz, təcrübəmiz və Azərbaycan tərəfindən atılmış praktik addımlar, - əminəm ki, istehlakçılarımız və tranzit ölkələr bunu etiraf edə bilər, - göstərir ki, tərəfdaşlığa və dərhal maliyyə nəticələrinə yönəlmiş siyasət bir çox uğurlar gətirəcəkdir.

Mən bu cür vacib tədbiri təşkil etdiyinə görə qəbul edən tərəfə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Bir daha demək istəyirəm, Azərbaycan şaxələndirmə siyasətinə, Avropa İttifaqı və Avratlantik strukturları ilə güclü tərəfdaşlığına sadiqdir. Biz bu layihəni irəli doğru aparmaqda əlimizdən gələni edəcəyik.

Çox sağ olun.

* * *

Çexiyanın Baş naziri Mirek Topolanek çıxışında Avropa İttifaqı ölkələri üçün Nabukko layihəsinin əhəmiyyətini vurğulayaraq bildirdi ki, Avropa qaz təchizatındakı asılılıqdan qurtarmalıdır və bunun üçün Nabukkonun reallaşması zəruridir.

Bir neçə həftə davam etmiş məlum qaz böhranı zamanı Avropa ölkələrinə 2-3 milyard dollar məbləğində zərər dəydiyini bildirən Baş nazir dedi ki, qarşıda duran əsas vəzifə Nabukko kəmərinin nəzərdə tutulan vaxtda tikintisinə başlamaqdır. Bu istiqamətdə bütün səylər birləşdirilməlidir və əminik ki, biz məqsədimizə çatacağıq. Bu məsələlərdə Azərbaycan və Mərkəzi Asiya ölkələri ilə səmərəli əməkdaşlığı genişləndirməliyik. Bir sözlə, bu layihənin həyata keçirilməsinə yaşıl işıq yandırılmalıdır və bu sammitin keçirilməsi bu layihəyə siyasi dəstəyin göstəricisidir.

Mirek Topolanek onu da vurğuladı ki, layihə Rusiyaya qarşı yönəldilməmişdir. Rusiyanın rəsmiləri bu layihənin əleyhinə olmadığını bildirmişlər. Biz "Cənub axını" layihəsinə də diqqət yetiririk və bu layihə üzrə də sammitin keçirilməsi nəzərdə tutulmuşdur.

Sonra çıxış edən Bolqarıstanın Baş naziri Sergey Stanişev dedi ki, Avropanın qaz təchizatı üçün yeni ideyalara və layihələrə ehtiyac var. Biz irəliyə baxmalıyıq və Nabukko layihəsinin reallaşması üçün alternativ mənbələr axtarmalı, Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin təbii qazının Avropa məkanına çatdırılmasına nail olmalıyıq. Avropa İttifaqına üzv olan ölkələrin təbii qaz təchizatının yaxşılaşdırılması məqsədi daşıyan Nabukko layihəsinə tərəfdaş ölkələr siyasi dəstəklərini vermişlər. Bolqarıstan üçün Nabukko prioritet xarakter daşıyır və biz bunun gerçəkləşməsi üçün əlimizdən gələni edəcəyik. Baş nazir vurğuladı ki, bütün tərəfdaş ölkələr Azərbaycanın mövqeyini yüksək qiymətləndirir.

Sonra Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun sammit iştirakçılarına məktubu oxundu. Məktubda Azərbaycanın tutduğu mövqe təqdir edilir və Nabukko layihəsinin dəstəkləndiyi bildirilir.

Sammitdə digər nümayəndə heyətlərinin rəhbərləri, habelə potensial hasilatçı və tranzit ölkələrin təmsilçiləri də çıxış etdilər. Onlar belə bir ümumi fikir bildirdilər ki, Nabukko qaz kəmərinin tikintisi layihəsində iştirak edən dövlətlərin sammiti bu layihənin həyata keçirilməsinə müsbət təsir edəcəkdir.

Tərəfdaş ölkələrin nümayəndələri çıxışlarında layihənin reallaşdırılması ilə bağlı bütün siyasi səyləri yüksək qiymətləndirdilər. Vurğuladılar ki, Rusiya ilə Ukrayna arasında yaranmış qaz böhranı Nabukko layihəsini daha da aktuallaşdırmışdır və Xəzər hövzəsinin təbii qazının Avropanın enerji təhlükəsizliyində rolunu ön plana çıxarmışdır. Nabukko kəmərinin çəkilişi üçün bütün qüvvələr səfərbər ediləcəkdir. Maraqlı tərəflər çoxdur və layihəni reallaşdırmaq üçün imkanlar kifayət qədərdir.

Sammitdə çıxış edən ABŞ dövlət katibinin Avrasiya məsələləri üzrə müşaviri Motyu Brayzə dedi ki, Birləşmiş Ştatlar Nabukko layihəsinin həyata keçirilməsində maraqlıdır, bunu dəstəkləyir və layihənin təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayacaq və hər zaman tərəfdaşlarının yanında olacaqdır.

Avropa İnvestisiya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentləri də Avropa üçün mühüm əhəmiyyət kəsb edən Nabukko layihəsinin maliyyələşdirilməsinə hazır olduqlarını bildirdilər.

Sammitdə bu layihədə maraqlı olan tərəflərin öhdəliklərini müəyyən edən bəyannamə qəbul olundu.

Sammit iştirakçıları birgə foto çəkdirdilər.

* * *

Daha sonra Macarıstan Elmlər Akademiyasının binasında Nabukko sammitinin qapalı iclası oldu. İclasda layihə ilə bağlı işin sürətləndirilməsi, maliyyələşdirilməsi və qaz nəqli məsələləri müzakirə edildi. Bununla da sammit işini başa çatdırdı.

* * *

Sammit başa çatdıqdan sonra Macarıstanın Baş naziri Ferents Dyurçanın adından nümayəndə heyətlərinin rəhbərləri üçün nahar verildi.

AZƏRBAYCAN PREZİDENTİNİN MACARISTANA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATDI

Yanvarın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstan Respublikasına işgüzar səfəri başa çatmışdır.

Azərbaycan Prezidentini Budapeştin "Ferihegy-2" beynəlxalq hava limanında Macarıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

İSTANBULDA QAFQAZDA SABİTLİK VƏ ƏMƏKDAŞLIQ PLATFORMASI İLƏ BAĞLI GÖRÜŞ KEÇİRİLMİŞDİR

Yanvarın 26-27-də İstanbulda Qafqazda Sabitlik və Əməkdaşlıq Platforması ilə bağlı görüş keçirilmişdir.

Qafqazda Sabitlik və Əməkdaşlıq Platforması bu il imzalana bilər. Ekspertlər hesab edir ki, Azərbaycan-Türkiyə-Ermənistan münasibətləri bu sənədin imzalanmasında vacib rol oynayır.

Qafqazda Sabitlik və Əməkdaşlıq Platforması ilə bağlı İstanbulda aparılmış müzakirələ-

ri faydalı hesab etmək olar. Odur ki, rəsmi Ankara platformanın bu il imzalanmasında israrlıdır.

Azərbaycan, Türkiyə, Gürcüstan, Rusiya və Ermənistanın xarici siyasət idarələrinin yüksək vəzifəli nümayəndələrinin iştirakı ilə keçirilmiş görüşdə regionda sülhün və sabitliyin bərqərar olması platformanın yaradılmasında vacib şərt kimi dəyərləndirilmişdir.

Görüşdə regionda mövcud münaqişələri aradan qaldırmaq, sülhü bərpa etmək üçün görülə biləcək birgə işlər müzakirə olunmuş və strateji məsələlərə toxunulmuşdur. Regiona daxil olan ölkələr platforma ideyasını bir daha dəstəkləmiş və görüşlərin davam etdirilməsini qərara almışlar.

Azərbaycanı bu görüşdə təmsil edən xarici işlər nazirinin müavini Araz Əzimov bildirmişdir ki, rəsmi Bakı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmadan Ermənistan ilə əməkdaşlığa yol açan heç bir platformanın həyata keçirilməsini mümkün hesab etmir.

A.Əzimov demişdir ki, Azərbaycan ümumən bu ideyanı dəstəkləyir. Platformada iştirak edən beş ölkənin regionda təhlükəsizliyin yaradılmasında maraqlı olması bu platformanın həyata keçirilməsi, inkişafı üçün vacibdir. Münaqişələr həll olunmadan əməkdaşlığa dəvət edən platformanın reallaşması mümkün deyildir. Eyni zamanda, bu platforma çərçivəsində aparılacaq müzakirələri faydalı hesab edirik.

YAPONİYANIN GUNMO UNİVERSİTETİ İLƏ BAKI DÖVLƏT UNİVERSİTETİ ARASINDA ƏMƏKDAŞLIĞA DAİR MÜQAVİLƏ İMZALANMIŞDIR

Yanvarın 27-də Yaponiyanın Gunmo Universitetinin rektoru Mamoru Suzukinin başçılıq etdiyi nümayəndə heyəti Bakı Dövlət Universitetində (BDU) olmuşdur.

Burada keçirilən görüşdə BDU-nun rektoru, Milli Məclisin deputatı, akademik Abel Məhərrəmov xalqlarımız arasındakı dostluq əlaqələrindən danışmış, ümummilli lider Heydər Əliyevin Yaponiyaya səfərindən sonra bu əlaqələrin daha da genişləndiyini bildirmişdir. O, universitetin Yaponiyanın ali təhsil müəssisələri ilə əməkdaşlıq etdiyini və şərqşünaslıq fakültəsində yapon dili və ədəbiyyatı şöbəsinin fəaliyyət göstərdiyini diqqətə çatdırmışdır.

Bildirilmişdir ki, hazırda BDU-da yapon dili ixtisası üzrə 36 tələbə təhsil alır. Eyni zamanda, azərbaycanlı tələbələr Yaponiya hökumətinin köməyi ilə həmin ölkədə təcrübə keçmişlər.

Yaponiyanın Gunmo Universitetinin rektoru Mamoru Suzuki rəhbərlik etdiyi universitetin tarixi, fəaliyyəti və iş prinsipləri haqqında danışmış, əməkdaşlığın elmi səmərə verəcəyinə əmin olduğunu bildirmişdir.

Yaponiyanın Bakıdakı səfiri Masamitsu Oki ölkələrimiz arasındakı əməkdaşlığın, o cümlədən təhsil əlaqələrinin əhəmiyyətindən bəhs etmiş və bu münasibətlərin daha da inkişaf edəcəyinə əmin olduğunu vurğulamışdır.

Sonra BDU ilə Gunmo Universiteti arasında elm və təhsil sahəsində əməkdaşlığa dair müqavilə imzalanmışdır.

Müqaviləni BDU-nun rektoru A.Məhərrəmov və Gunmo Universitetinin rektoru Mamoru Suzuki imzalamışlar.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ İŞƏ QƏBULLA BAĞLI KEÇİRİLƏN İMTAHAN NƏTİCƏSİNDƏ 26 NƏFƏR STAJ KEÇMƏK İMKANI QAZANMIŞDIR

Xarici İşlər Nazirliyinə işə qəbul üçün keçirilən imtahan nəticəsində cari ildə 26 nəfər bu qurumda stajçı kimi çalışmaq imkanı əldə etmişdir.

Bu barədə yanvarın 28-də keçirdiyi mətbuat konfransında məlumat verən xarici işlər nazirinin müavini, akademiyanın rektoru Hafiz Paşayev bildirmişdir ki, həmin şəxslər ADA-da 6 aylıq staj keçəcəklər.

XİN-də işə qəbulla bağlı imtahanlar 2005-ci ildən keçirilir. İlk iki ildə hər il Azərbaycanın xarici siyasət idarəsinə stajçı qismində 8 nəfər, 2007-ci ildə isə 13 nəfər qəbul olunmuşdur.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI BİNASININ TİKİNTİSİNƏ BAŞLANILMIŞDIR

Bu barədə yanvarın 28-də keçirdiyi mətbuat konfransında məlumat verən xarici işlər nazirinin müavini, akademiyanın rektoru Hafiz Paşayev bildirmişdir ki, ADA-nın binası 40 hektar ərazisi olan Dədə Qorqud parkının 3 hektarlıq sahəsində tikilir. Müasir beynəlxalq standartlara cavab verəcək akademiya şəhərciyi tədris mərkəzi, kitabxana, tələbə mərkəzi, pedaqoji heyət və tələbələr üçün yaşayış binalarından, müxtəlif idman və istirahət guşələrindən ibarət olacaqdır.

Tikintinin 2011-ci ildə tamamlanacağını deyən Hafiz Paşayev, Diplomatik Akademiyanın fəaliyyət göstərdiyi 2 il ərzində gördüyü işlər və gələcək planları barədə də danışmışdır. ADA-nın beynəlxalq münasibətlər institutu olduğunu, burada diplomatlar və dövlət qurumlarının əməkdaşları üçün akademik proqramlar üzrə kurslar keçirildiyini vurğulayan rektor, hazırda magistraturaya sənədlərin qəbulunun davam etdiyini, tədrisin isə bu ilin sentyabrında başlanacağını bildirmişdir. Bu il magistraturaya 25 nəfərin qəbulu nəzərdə tutulur, gələcəkdə isə bu rəqəm 120-yə çatacaq və onların 25 faizini xarici tələbələr təşkil edəcəkdir. Təhsil yalnız ingilis dilində aparılacaq, illik təhsil haqqı 4750 manat olacaqdır.

H.Paşayev qeyd etmişdir ki, akademiyaya qəbul olunmuş istedadlı gənclərin maddi cəhətdən problemləri olarsa, onlara güzəşt ediləcəkdir.

Rektor "Heydər Əliyev" və "Dədə Qorqud" təqaüdlərinin təsis edildiyini, ADA-nın davamlı inkişafı təmin edən maliyyə fondunun olacağını, bura şirkətlərdən, xeyriyyə təşkilatlarından, xarici fondlardan vəsait köçürüləcəyini bildirmişdir. Artıq bu məqsədlə Qətər, Küveyt və Birləşmiş Ərəb Əmirliklərində görüşlər keçirilmişdir.

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ RƏHBƏRİNİN TƏKLİFLƏRİ İKT ÜZVÜ OLAN DÖVLƏTLƏRİN İNFORMASİYA NAZİRLƏRİNİN RABATDA KEÇİRİLƏN 8-Cİ KONFRANSININ YEKUN QƏTNAMƏSİNƏ DAXİL EDİLMİŞDİR

Yanvarın 26-28-də Rabat şəhərində İslam Konfransı Təşkilatının (İKT) üzvü olan dövlətlərin informasiya nazirlərinin 8-ci konfransı keçirilmişdir.

Konfransda 57 islam ölkəsinin nazirləri, nümayəndə heyətləri və nüfuzlu beynəlxalq təşkilatların əməkdaşları iştirak etmişlər. Azərbaycanı bu mötəbər tədbirdə Prezidentin İcra Aparatının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun başçılığı ilə nümayəndə heyəti təmsil etmişdir.

İslam Konfransı Təşkilatın baş katibi professor Ekmələddin İhsanoğlu rəhbərlik etdiyi təşkilatın informasiya problemləri ilə bağlı ötən dövrdə gördüyü işlər barədə konfrans iştirakçılarına məlumat verərək, bu istiqamətdə müsəlman ölkələrinin qarşısında duran vəzifələrdən danışmışdır. Baş katib İKT çərçivəsində informasiya sisteminin və kütləvi informasiya vasitələrinin yenidən qurulmasında rəhbəri olduğu təşkilatın rolu, müsəlman ölkələri arasında informasiya sahəsində əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinin vacibliyini, islam cəmiyyətində, mədəniyyətlərarası və dinlərarası dialoqda informasiyanın gündən-günə artan mühüm rolunun əhəmiyyətini vurğulamışdır.

Azərbaycan Prezidenti İcra Aparatının şöbə müdiri Əli Həsənov konfransda çıxış edərək bu mötəbər toplantının islam dünyası üçün əhəmiyyətindən danışmış, qloballaşmanın vüsət aldığı müasir dünyada informasiya və təbliğatın rolunun getdikcə gücləndiyini qeyd etmiş, islam ölkələrinin informasiya sahəsində üzləşdiyi problemlərdən bəhs etmişdir. Əli Həsənov çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun nəticələri barədə İKT üzvü olan ölkələrin nazirlərinə ətraflı məlumat vermiş, bu münaqişəyə dair həqiqətlərin yayılması ilə bağlı informasiya dəstəyinin verilməsi və Ermənistanın hərbi təcavüzü nəticəsində öz tarixi yurdlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin problemlərinin İKT üzvü olan ölkələrin mətbuatında işıqlandırılması ilə əlaqədar konfrans iştirakçılarına müraciət etmişdir.

İKT üzvü olan dövlətləri birliyə çağıran Ə.Həsənov, hər hansı bir müsəlman dövlətində baş verən hadisələrin, xüsusən bu ölkələrin suverenliyinə qarşı təcavüzün dünya ictimaiyyətinə çatdırılmasında bütün üzv dövlətlərin informasiya vasitələrinin imkanlarından istifadə olunması məsələsini konfransın qətnaməsinə daxil olunmasını təklif etmişdir. Həmçinin İKT üzvü olan ölkələrin elektron və yazılı medialarının, informasiya agentliklərinin və rəsmi dövlət informasiya təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı İKT-nin katibliyi qarşısında məsələ qaldırılması təklifini irəli sürmüşdür. Ə.Həsənovun çıxışı konfrans iştirakçıları tərəfindən diqqətlə dinlənilmiş, onun Azərbaycan həqiqətləri haqqında məlumatları və irəli sürdüyü mühüm təkliflər böyük maraqla qarşılanmışdır.

Konfransda çıxış edən digər İKT üzvü olan ölkələrin, o cümlədən Səudiyyə Ərəbistanı, Misir, Türkiyə, Pakistan, Malayziya, İran, Küveytin nümayəndə heyətlərinin başçıları hazırkı mərhələdə informasiya sahəsində olan çətinliklərdən danışaraq, islama dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, İsrailin Fələstin xalqına qarşı təcavüzünün

pislənməsi və müsəlman ölkələri ilə Qərb dövlətləri arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin vacibliyini vurğulamışlar.

Konfransın qəbul etdiyi yekun qətnamədə İKT çərçivəsində informasiya işinin təkmilləşdirilməsi, islam aləmində mövcud olan mətbuat və informasiya problemlərinin həlli yolları, müsəlman ölkələri arasında informasiya sahəsində əməkdaşlığın möhkəmləndirilməsi və bu sahə üzrə aparılan birgə işin əlaqələndirilməsi, həmçinin Fələstin problemi və digər məsələlər öz əksini tapmışdır.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Ə.Həsənov və ölkəmizin Mərakeşdəki səfiri S.Ağabəyov Mərakeşin Baş naziri Abbas Əl-Fassi və informasiya naziri Xaled Nasiri, həmçinin digər islam dövlətlərinin rəsmi şəxsləri ilə görüşmüş, bu ölkələr arasında informasiya sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparmışlar.

SÜRİXDƏ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Yanvarın 27-də İsveçrənin Sürix şəhərində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan ilə görüşü keçirilmişdir.

Nazirlər Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün detallarını müzakirə etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ

Yanvarın 28-də İsveçrənin Sürix şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın təkbətək görüşü olmuşdur.

Sonra görüş ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə davam etdirilmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlərin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ SÜRİXDƏ BİRGƏ BƏYANAT YAYMIŞLAR

ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın yanvarın 28-də İsveçrənin Sürix şəhərində keçirilmiş görüşü barədə birgə bəyanat yaymışlar.

Bəyanatda bildirilir ki, həmsədrlər Bernar Fasye (Fransa), Yuri Merzlyakov (Rusiya) və Metyu Brayzə (ABŞ) yanvarın 19-da Bakıda Prezident İlham Əliyev və xarici işlər naziri Elmar Məmmədyarovla, yanvarın 20-də isə Yerevanda Prezident Serj Sarkisyan və xarici işlər naziri Edvard Nalbandyan ilə görüşmüşlər. Yanvarın 27-də isə həmsədrlərin Azərbaycan və Ermənistanın xarici işlər nazirləri ilə görüşü olmuş və yanvarın 28-də Sürixdə prezidentlər İlham Əliyevin və Serj Sarkisyanın görüşünü təşkil etmişlər.

Prezidentlər arasında keçirilmiş görüşü şərh edən həmsədrlər, ATƏT-in Madrid sammitində tərəflərə təklif edilmiş Baza prinsipləri əsasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair fikir mübadiləsi aparıldığını bildirmişlər.

Həmsədrlər tərəflər arasındakı əsas fikir ayrılıqlarını aradan qaldırmaq məqsədi ilə Baza prinsipləri ətrafında hər iki ölkənin XİN rəhbərləri ilə birlikdə təkliflər üzərində çalışacaqlarına razılıqlarını ifadə etmişlər. Həmsədrlər ümid edirlər ki, tərəflər ən yaxın gələcəkdə münaqişə ilə bağlı sülh sazişinin əldə olunması üçün mövcud olan fikir ayrılığını aradan qaldıra biləcəklər. Bu, bütün tərəflər üçün hazırkı Dstatus-kvo" vəziyyətindən daha münasibdir.

Bəyanatda vurğulanır ki, (həmsədrlərin) qarşıya qoyduğu məqsəd münaqişənin Helsinki Yekun Aktında nəzərdə tutulan ərazi bütövlüyü, öz müqəddəratını təyinetmə və güc tətbiqinin imtina prinsipləri əsasında ədalətli və tarazlı həll yoluna nail olmaqdır".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "WALL STREET JOURNAL" QƏZETİNƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də İsveçrənin Sürix şəhərindən Davosa gəlmişdir.

Dövlətimizin başçısı həmin gün ABŞ-ın məşhur "Wall Street Journal" qəzetinə müsahibə vermişdir.

- İlk növbədə, təşəkkür edirəm. Bilirəm ki, Siz Ermənistan Prezidenti ilə görüşmüsünüz. Münaqişəni həll edə bilirsinizmi?

- Hələlik xeyr.

- Hər hansı bir irəliləyişə nail oldunuzmu?

- Bildiyiniz kimi, danışıqlar prosesi uzun müddətdir davam edir. On beş ildir atəşkəs rejimi mövcuddur, lakin təəssüf ki, münaqişə hələ də həll olunmayıbdır. Bizim mövqeyimiz tam aydındır: münaqişə beynəlxalq hüquq normaları əsasında, Ermənistan qoşunlarının ərazilərimizdən dərhal çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll olunmalıdır. Amma əfsus ki, Ermənistan beynəlxalq hüquq normalarına əməl etmir və bu, münaqişənin həll olunmamasının əsas səbəbidir. Danışıqlarda irəliləyiş olmuşdur, amma bu, kifayət deyildir.

- Gürcüstandakı münaqişə nəyi dəyişmişdir? Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, bunun məsələyə təsiri varmı? Yaxud geosiyasi baxımdan Rusiya və yaxud Türkiyə və ya Amerika Birləşmiş Ştatları hansı rolu oynaya bilər?

- Danışıqlar prosesinə birbaşa cəlb olunmuş ölkələr, Minsk qrupunun həmsədrləri - Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa Gürcüstandakı münaqişədən sonra açıq şəkildə elan etdilər ki, Dağlıq Qarabağın tanınması müzakirə mövzusu deyil, həmin hadisələr bu cür presedent yaratmayacaqdır. Lakin geosiyasi baxımdan, əlbəttə ki, əgər sizin qonşunuz və ya qonşularınız bir-biri ilə müharibədədirsə, demək, bu, sizin özünüz üçün yaxşı deyil. İndiki halda Gürcüstan və Rusiya Azərbaycanın qonşularıdır və bizim hər iki ölkə ilə yaxşı münasibətlərimiz var.

- Hazırda, Siz qazı, neftı və digər məhsullarınızı Qərbə Gürcüstan vasitəsilə nəql edirsiniz. Oradakı müharibə isə, belə görünür ki, həmin marşrutların təhlükəsizliyini sual altına aldı. Demək olarmı ki, Ermənistanla Dağlıq Qarabağ probleminin həllinə nail olmaq üçün göstərdiyiniz səylərin səbəbi yeni marşrutun əldə olunmasından ibarətdir?

- Ermənistan və Azərbaycanın apardığı danışıqlar prosesi ilə Gürcüstandakı müharibə zamanı üzləşdiyimiz çətinliklər arasında əlaqə yoxdur. Bəli, həmin vaxt bizim üçün asan olmadı, çünki bizim əsas enerji daşıyıcılarımız Gürcüstan ərazisindən nəql olunur, müharibə isə, onun üçün böyük maneə idi. Biz neft nəql etmək üçün başqa yollar axtarmalı olduq. Əlbəttə, beynəlxalq bazarlara nə qədər çox çıxışımız olsa, bizim üçün bir o qədər yaxşıdır. Lakin hazırda Gürcüstanda vəziyyət sabitləşmişdir, bu ölkənin ərazisindən nəqletmə ilə bağlı problem yoxdur. Bundan əlavə, qeyd etdiyim kimi, başqa marşrutlar da mövcuddur.

- Nabukko haqqında sual vermək istərdim. Siz layihənin tərəfdarısınız, lakin boru kəmərinin çəkilməsində ən mühüm rolu avropalılar oynamalıdırlar. Necə düşünürsünüz, boru kəmərini Avropa hökumətlərinin iştirakı olmadan inşa etmək olarmı? İkinci sualım: Siz nə qədər gözləyə bilərsiniz? Bəlkə qazınızı birbaşa Rusiyaya satasınız!?

- Mən buraya Budapeştdə keçirilən Nabukko sammitindən gəlirəm. Düşünürəm ki, daha böyük anlaşma baxımından həmin tədbir çox əhəmiyyətli oldu. Layihənin statusu və perspektivləri kimi suallar nəzərdən keçirildi. Bildiyiniz kimi, uzun illərdir ki, biz Nabukko haqqında çox eşidirdik, lakin səmimi desək, bu istiqamətdə əməli addımlar görmürük. İndi daha aydın olur ki, layihə avropalılar üçün əhəmiyyətlidir. Layihənin həyata keçirilməsinə gəlincə, əlbəttə ki, hər hansı bir mənbədən xeyli maliyyə yardımı edilməlidir. Bu, banklar, mərkəzləşmiş maliyyə paketi ola bilər. Nabukko konsorsiumuna daxil olan şirkətlər üçün böyük həcmdə vəsaiti toplamaq asan olmayacaqdır. Əsas şərt ondan ibarətdir ki, güclü maliyyə dəstəyi olmalıdır. Bunun olmaması layihənin həyata keçirilməsinə mancə yarada bilər. Sualımızda haqlı olaraq qeyd edirsiniz ki, biz nə qədər gözləyəcəyik. Biz çox məmnunuq ki, qazımızı başqa ölkələrin bazarlarına nəql etmək üçün müasir infrastruktur qurmağa müvəffəq olmuşuq. Bu gün qazımız Gürcüstana və Türkiyəyə nəql olunur, sonra isə Türkiyə ərazisi ilə Avropa İttifaqının bazarlarına çıxarılır. Bizim bugünkü hasilat həcmimiz mövcud qaz kəmərləri ilə əhatə olunur. Bununla belə, hasilatı daha yüksək səviyyəyə qaldırmaq üçün böyük planlarımız var. Sonra isə bizə daha çox marşrutlar lazım olacaqdır. Nabukko onlardan biridir.

- Bəlkə, qazı Rusiya və Mərkəzi Asiya vasitəsilə nəql edəsiniz? Rusiyaya satasınız və Rusiya isə qazı Avropaya çatdırsın? Nəyə görə buna müqavimət göstərirsiniz?

- Biz müqavimət göstərmirik. Bu təklifi bu yaxınlarda almışıq. 2008-ci ilin ortalarına qədər bu, ümumiyyətlə müzakirə məsələsi deyildi. Biz həmin istiqaməti heç zaman qazın nəqli üçün potensial marşrut kimi nəzərdən keçirmirdik və Rusiya onunla bağlı heç vaxt maraq da ifadə etməmişdi. Həmin təklifi məhz yarım il bundan öncə almışıq və biz onu hələ qiymətləndirməliyik. Təklif özlüyündə cəlbedici görünür. Əgər biz qazımızı öz sərhədimizdə tranzit ölkə ilə heç bir problem olmadan sata bilsək, nəql layihələrinə çətinlik olmadan və sərfəli bazar qiyməti təklif edilərsə, onda təklifə niyə də baxmayaq!? Biz təklifi rədd etməmişik, lakin eyni zamanda, onu daha təfərrüatlı şəkildə nəzərdən keçirməliyik. Əvvəlki illərdə məqsədlərimizdən biri şaxələndirmə olub və bu baxım-

dan, Azərbaycan özünü çox rahat hiss edir. Neft və qaz kəmərlərimiz karbohidrogen ehtiyatlarımızı müxtəlif istiqamətlərdə nəql etməyə imkan verir. Beləliklə, biz bir marşrutdan asılı deyilik. Bir sözlə, "Qazprom"dan, Türkiyə, Yunanıstan, İtaliya, Bolqarıstan və başqa ölkələrdən gələn təkliflər nəzərdən keçirilir və əlbəttə ki, biz ölkəmiz üçün ən yaxşı variantı seçəcəyik.

- Bu il Azərbaycanda iqtisadi artım nə səviyyədə gözlənilir?

- Biz təxminən 10 faiz səviyyəsində artımın olacağını gözləyirik.

- Bu, qeyri-adi görünür.

- Son beş il ərzində, 2003-cü ildən 2008-ci ilə kimi ÜDM 2,6 dəfə artmışdır. Keçən il ÜDM-in artımı 11 faiz olmuşdur. Beləliklə, ümid edirik ki, bu göstərici eyni səviyyədə qalacaqdır.

- Sizin fikrinizcə, böhran iqtisadiyyatın bütün sahələrini əhatə edəcəkmi?

- Maliyyə təsisatları, banklar baxımından xeyr. İqtisadiyyatın real sektoruna gəldikdə, böhran qismən ola bilər. İxrac məhsulları istehsal edən müəssisələr və zavodlar isə müəyyən çətinliklərlə üzləşə bilər. Lakin biz onlara yardım məqsədi ilə kifayət qədər valyuta ehtiyatlarına malikik. Son beş ildə biz özəl biznesə maliyyə yardımı göstərmək məqsədi ilə güzəştli kreditlər nəzərdə tutan bir çox proqramlar həyata keçirmişik və bu işi davam etdiririk. Mən Azərbaycan üçün hər hansı ciddi çətinliklər görmürəm.

- Ortamüddətli beynəlxalq layihələrin maliyyələşdirilməsi çətin olacaqmı?

- Bəli, söhbət enerji layihələrindən gedirsə, hesab edirəm ki, hazırda nəzərdən keçirdiyimiz layihə tez və ya gec həyata keçiriləcəkdir. Hətta onlar baş verməsə, bu günə qədər görülmüş işlər bizim üçün kifayət edəcəkdir. Hazırda biz gündə 1 milyon barrel neft nəqletmə qabiliyyəti olan Bakı-Tbilisi-Ceyhan boru kəmərinə malikik. Bundan əlavə, bizim Gürcüstana və Rusiyaya gedən iki əlavə boru kəmərimiz var. Onların nəqletmə imkanı gündə 300-400 min barreldir. Müəyyən texniki işlər nəticəsində Bakı-Tbilisi-Ceyhan boru kəmərinin buraxıcılıq gücü 1,5 milyon barrelə çatdırıla bilər. Bir sözlə, biz hər şeyi vaxtında yerinə yetirdik. Hazırda isə biz praktik olaraq, hər hansı əlavə böyük infrastruktur layihəsinə ehtiyac duymuruq.

- İcazə verin, Sizdən başqa məsələni soruşum. Bir neçə həftə bundan öncə, dekabr ayında parlament xarici radiostansiyaların, yəni "Amerikanın səsi", "Azadlıq" radiolarının və BBC-nin yayımını qadağan edən qərara səs verdi. Siz bununla razısınızmı? Buna razılıq verirsinizmi?

- Əslində, bu, parlamentin qadağa qərarı deyildir. Bu, düzgün məlumat deyil, bu qərar Milli Televiziya və Radio Şurası tərəfindən verilmişdir. Həmin qərar 2002-ci ildə qəbul olunmuş və xarici radiolara milli tezliklərdə yayımlamaya icazə verməyən qanun əsasında qəbul edilmişdir. Beləliklə, bu, qadağa deyildir. "Azadlıq" radiostansiyası, BBC və "Amerikanın səsi" qısa dalğalarda öz verilişlərini yaya bilər. Onlar internet, kabel və peyk vasitəsilə verilişlərinin yayımını davam etdirə bilərlər. Ola bilsin ki, bizim tərəfdən guya onlara qadağa qoyulması ilə bağlı beynəlxalq mətbuatda anlaşılmazlıq yaranıbdır. Lakin biz qadağa qoymamışıq, sadəcə, öz qanunvericiliyimizə uyğun formaya gətirmişik. Biz Avropadakı vəziyyəti öyrənmişik. Orada da vəziyyət eynidir. Biz Azər-

baycanda medianı məhdudlaşdırmırıq, sadəcə, onlar milli qanunvericiliyə və Avropadakı mövcud normalara uyğun olmalıdır.

- Prezidentlik müddətinə aid məhdudiyyətin aradan qaldırılması məqsədi ilə referendumun keçirilməsi barədə dekabr ayında parlamentin səs verdiyi qərar haqqında nə deyə bilərsiniz? Demək istəyirəm ki, Siz bu yaxınlarda yenidən seçilmisiniz. Sizin fikrinizcə, bu, yaxşı ideyadırmı?

- Bu təşəbbüs parlamentdə çoxluq təşkil edən partiyamız tərəfindən irəli sürülmüşdür. Eyni zamanda, demək istəyirəm ki, xalqın bir şəxsin iki dəfədən artıq prezident seçilməsinə səs vermək hüququna malik olması demokratik prinsipdir. Referendum demokratik prosedurdur və xalqın iradəsinə əsaslanır. Eyni zamanda, bu, Avropa təcrübəsinə uyğundur.

- Sonuncu sualım iqtisadiyyatla bağlıdır. Siz qeyd etdiniz ki, bu il artım təqribən 11 faiz olacaqdır. Təkcə Sizin ölkəniz üçün buna nail olmaq çətin deyilmi?

- Əsas ixracımızı təbii ki, neft və qaz təşkil edir. Neftin qiymətlərinin aşağı düşməsi, əlbəttə ki, ÜDM-in artımını da azaldacaqdır. Çünki ixrac edilən həcm eyni qalacaq, lakin qiymət aşağı olacaqdır. Lakin iqtisadiyyatın digər sektorlarının çox böyük potensialı vardır. Son bir neçə il ərzində həyata keçirdiyimiz islahatlar artıq yaxşı nəticələr verir. Kənd təsərrüfatı sahəsində çox yaxşı potensialımız var. Kiçik və orta sahibkarlıqda möhkəm potensial mövcuddur. İnfrastruktur layihələri çox uğurla həyata keçirilir. Azərbaycanda qeyri-neft sektorunda ÜDM-in artımı 15,7 faiz olmuşdur. Beləliklə, bütün bunlar əsas amillər və həyata keçirdiyimiz islahatlardır. Həmin amillər bu cür artımın əsas səbəblərindən biridir. Neft və qaz digər ölkələrdə də hasil edilir.

Yeri gəlmişkən deyim ki, Xəzəryanı beş dövlət arasında Azərbaycan enerji resursları, hasilat və ixrac baxımından ən böyük ölkə sayılmır. Əsas nailiyyətlərimiz islahatlar sayəsində mümkün olmuşdur. Eyni zamanda, əlavə edə bilərəm ki, ötən il Dünya Bankı özünün "Doing Business" icmalında Azərbaycanı dünyanın bir nömrəli islahatçı ölkəsi elan etmişdir. Bundan əlavə, bizim gəlirlərin toplanmasında çox şəffaf maliyyə sistemimiz mövcuddur. 2007-ci ildə Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın Neft Fondunu şəffaflıq mükafatı ilə təltif etmişdir. Həmin amillər öz rolunu oynayır və biz nəticələri görürük. Mənim üçün son beş il ərzində əldə olunmuş mühüm nailiyyətlərdən biri işsizlik probleminin, demək olar ki, tamamilə aradan qaldırılması və yoxsulluğun xeyli azalması olmuşdur.

2003-cü ildə Azərbaycan xalqının 49 faizi yoxsulluq səviyyəsindən aşağı yaşayırdı. 2008-ci ilin hesablamalarına görə, hazırda bu rəqəm 13,2 faiz təşkil edir. Bu onu göstərir ki, enerji siyasəti sərvətlərin düzgün bölüşdürülməsinə, həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir. Əlbəttə ki, görüləcək işlər də çoxdur. Ölkəmizdə hələ də bir çox problemlər var, lakin meyil müsbətdir. Ölkə regionda artıq öz mövqeyini qazanıb və siyasi, iqtisadi və enerji inkişafı sahəsində sabitlik amili rolunu oynayır. Ümid edirəm ki, bu müsbət meyil gələcəkdə də davam edəcəkdir.

- Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA NAZİRLƏR ŞURASININ SƏDRİ DONALD TUSK İLƏ GÖRÜŞÜ

Yanvarın 28-də Azərbaycan Prezidenti İlham Əliyev Davosda "Konqress" mehmanxanasında Polşa Nazirlər Şurasının sədri Donald Tusk ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Polşa arasında ikitərəfli münasibətlərin siyasi-iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi, iqtisadi əlaqələrin səviyyəsindən məmnunluq ifadə olundu. Söhbət zamanı həmçinin Nabukko layihəsi çərçivəsində enerji sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "STATOIL-HYDRO" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜ

Yanvarın 28-də Azərbaycan Prezidenti İlham Əliyev "Konqress" mehmanxanasında "Statoil-Hydro" şirkətinin baş icraçı direktoru Helge Lund ilə görüşmüşdür.

Helge Lund bildirdi ki, "Şahdəniz-1" və "Şahdəniz-2" layihəsi çərçivəsində Azərbaycan Dövlət Neft Şirkəti ilə əməkdaşlıq uğurla inkişaf edir. O, "Şahdəniz-2" layihəsi üzrə işlərin sürətləndirilməsinin zəruriliyini bildirdi.

Prezident İlham Əliyev ölkəmizin enerji sahəsində uğurlarından danışaraq dedi ki, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın önəmi daha da artır, beynəlxalq enerji əməkdaşlığı genişlənir. Dövlətimizin başçısı dünyanın aparıcı şirkətləri, o cümlədən "Statoil" ilə əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CNBS TELEVİZİYA KANALINA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 28-də Davosda "Konqress" mehmanxanasında ABŞ-ın CNBS televiziya kanalına müsahibə vermişdir

- Cənab Prezident, proqramımıza xoş gəlmisiniz. Sizinlə bir yerdə olmaq xoşdur.

- Təşəkkür edirəm, sizi görməyimə şadam.

- Sağ olun. Burada forumun əsas müzakirə mövzusu beynəlxalq böhrandır. Hər kəs böhran haqqında danışır. Azərbaycana gəldikdə, beynəlxalq böhranın iqtisadiyyatınıza təsiri necə hiss olunur?

- Beynəlxalq böhran iqtisadiyyatımıza elə də güclü təsir göstərməyibdir. Azərbaycan dünya iqtisadiyyatına getdikcə daha çox inteqrasiya olunduğundan, xüsusən ixrac potensialı ilə bağlı müəyyən narahatlıqlarımız var. Qeyri-neft sektorundakı ixrac potensialı son aylarda az da olsa azalmışdır. Lakin ümumilikdə, bizdə maliyyə məsələləri və iqtisadiyyatın inkişafı ilə bağlı vəziyyət yaxşıdır.

- Azərbaycan dünyanın ən sürətlə artan iqtisadiyyata malik ölkələrindən biridir. Hətta artımda müəyyən qədər azalmalar olsa belə, yenə Azərbaycan ən yüksək pillədədir.

- Bəli, düzdür. Son beş il ərzində iqtisadiyyatımız 2,6 dəfə artdığından, yüksək artım sürətini saxlamaq indi əvvəlkindən daha çətindir. Keçən il bu göstərici 11 faiz təşkil etmişdir. Daha öncəki il isə 25 faiz olmuşdur. Bu səviyyəni uzun müddət saxlamaq mümkün deyildir. Lakin iqtisadi artım əhəmiyyətli dərəcədədir. Getdikcə iqtisadiyyatın daha çox şaxələndirilməsi, neftin qiymətlərindən və enerji amilindən daha az asılı olmaq vacibdir. Bu, iqtisadi islahatlar, şaxələndirmə, özəl sahibkarlığın dəstəklənməsi sahələrində həyata keçirilən siyasət nəticəsində mümkün olmuşdur. Biz enerji amilindən asılılığı əhəmiyyətli dərəcədə azaltmağa müvəffəq olmuşuq.

- Mən enerji və şaxələndirmə haqqında danışmaq istərdim. Gəlin əvvəlcə enerjidən başlayaq. Hər halda, bu, indi Avropada ən çox müzakirə olunan mövzulardandır. Biz Rusiya və Ukrayna arasında bu yaxınlardakı danışıqlardan xəbərdarıq. Brüssel, Avropa Komissiyası, bütün Avropa İttifaqı, o cümlədən Almaniya enerji təhlükəsizliyinin təmin olunmasında, xüsusilə də qaz təchizatında çox maraqlıdırlar. Azərbaycana gəldikdə, enerji təhlükəsizliyi məsələsində Sizin ölkənizin töhfəsi nədən ibarət ola bilər?

- Biz on ildən artıqdır ki, çox mühüm enerji layihələrini həyata keçiririk və hazırda Xəzər neftini dünya bazarına çıxaran boru kəməri xətti beynəlxalq enerji təhlükəsizliyində getdikcə daha əhəmiyyətli rol oynamaqdadır. Bizim nəhəng enerji ehtiyatlarımız var. Qaz ehtiyatlarımız bizə ən azı yüz il kifayət edəcəkdir. Artıq müasir nəqliyyat infrastrukturumuz var, təchizat marşrutlarımızı şaxələndirmişik. Şaxələndirmə təkcə istehlakçılar üçün yox, eyni zamanda, təchizatçılar üçün də əhəmiyyətlidir. Düzdür, indiki böhran zamanı istehlakçıların problemi diqqət mərkəzində olmuşdur, lakin təchizatçı ölkə kimi Azərbaycana da etibarlı və təhlükəsiz nəql marşrutları gərəkdir. Müxtəlif istiqamətlərdə boru kəmərləri inşa etməklə biz bu məqsədə nail oluruq. Bu gün söhbət Avropa ölkələrinin enerji təhlükəsizliyini təmin etmək üçün lazım olan əlavə həcmlərdən gedir. Bunun üçün Azərbaycanın imkanları vardır. Biz Türkiyə-Yunanıstan-İtaliya, Nabukko, Transadriatik boru kəmərləri kimi layihələrin müzakirələrində iştirak edirik. Ölkəmizdə bu vaxta kimi görülmüş işlər göstərir ki, Azərbaycan etibarlı tərəfdaşdır. Həyata keçirdiyimiz layihələrin heç biri böhran zamanı sual altına alınmadı.

- Gəlin, Nabukko haqqında danışaq. Avropa bankları, Avropa İttifaqı Nabukkonu maliyyələşdirməkdə maraqlıdır. Bu layihə böyük maliyyə vəsaiti tələb edir və çox əhəmiyyətlidir. Əgər layihə maliyyələşdirilsə, Azərbaycan bu layihədə iştirakına sadiqdirmi?

- Əlbəttə, biz yeni layihələrdə iştirak etməkdə maraqlıyıq, belə ki, mövcud kəmərlərin nəqletmə qabiliyyəti enerji ehtiyatlarımızın ixrac potensialına tam cavab vermir. Biz bu gün hasil etdiyimiz qazdan, ola bilsin ki, iki dəfə artıq hasil edək. Builki qaz hasilatı 20 milyard kubmetrdən artıq olacaqdır. İxracımız hələlik regional bazarla məhdudlaşır. Beləliklə, Nabukko və ya bu kimi layihələr şaxələndirmə və uzunmüddətli etibarlı təchizat mexanizmlərinə malik olmaq üçün imkan yaradır. Lakin əlbəttə ki, Nabukko ilə bağlı böyük əhəmiyyət daşıyan məsələlər, ilk növbədə, sizin də dediyiniz kimi, maliyyələşmə məsələsi aydınlaşdırılmalıdır. İkinci mühüm məsələ isə ondan ibarətdir ki, Avropa bu və ya digər dərəcədə vahid enerji siyasətinə malik olmalıdır. Nabukko bütün Avropa İttifaqını deyil, Mərkəzi Avropanın bir neçə ölkəsini birləşdirir. Digər mühüm məsələ bütövlükdə Avropa İttifaqının Nabukkonun həyata keçirilməsində nə dərəcədə önəmli rol oynamasından ibarətdir. Düzdür, ümidverici məqamlar var, lakin bu işdə hər hansı irəliləyişin olması vacibdir. Üçüncüsü, bizim üçün Azərbaycan qazının tranziti ilə bağlı məsələlərin aydınlaşdırılması vacibdir. Avropa İttifaqı bazarına birbaşa çıxış əldə etmək üçün tranzit ölkələrlə tranzit müqaviləmiz olmalıdır.

Beləliklə, bütün bu mühüm məsələlər bir-biri ilə əlaqəlidir və biz bunların həyata keçirilmə sürətinə uyğun şəkildə hasilatın planlaşdırılmasını aparacağıq. Biz bazar olmadan qaz hasil edə bilmərik. Bazar və müqavilələr olmalıdır ki, sonra hasilat olsun. Azərbaycanda təsdiq olunmuş qaz ehtiyatları minimum 2 trilyon kubmetr təşkil edir.

- Avropa ölkələri arasında dostlarınızdan danışarkən deyim ki, Azərbaycan İtaliya ilə güclü əlaqələr qurur. İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoni ilə bu yaxınlarda görüşmüsünüz. Sizin yaxşı ticarət əlaqələriniz var. Bu barədə nə deyə bilərsiniz?

- İxrac məhsullarımızın əksər hissəsi Avropa İttifaqına çıxarılır və bu baxımdan İtaliya da bizim mühüm ticarət tərəfdaşımızdır. Bizim İtaliya və eləcə də digər Avropa ölkələri ilə yaxşı münasibətlərimiz var. Biz Avropa İttifaqının üzvü olan, demək olar ki, bütün dövlətlərlə yaxşı siyasi və iqtisadi əlaqələr qurmuşuq. Bu əlaqələr bir-birimizi daha yaxşı tanımağa imkan verir, qarşılıqlı inama əsaslanır və biz ümumi maraqlara söykənən birgə layihələrdə iştirak edirik. İndi enerji təhlükəsizliyi məsələsi təkcə enerji ilə bağlı deyil, bu, həm də qlobal təhlükəsizlik məsələsidir.

- Türkiyə ilə gözəl münasibətləriniz var.

- Əlbəttə, Türkiyə bizim dostumuz, müttəfiqimizdir. Bizim Türkiyə ilə ümumi tarixi, mədəni əlaqələrimiz var. Bu gün Azərbaycanla Türkiyə arasında birgə səylərin mövcudluğu regionda sabitliyin təmin olunmasına xidmət edir.

- Nabukko ilə bağlı Rusiya tərəfindən Sizə hansısa təzyiqlər olurmu?

- Xeyr, bizə Rusiya tərəfdən heç bir təzyiq olmayıbdır. Enerji məsələsində Rusiya ilə aramızda heç bir ziddiyyət yoxdur.

- Vaşinqtonun keçmiş administrasiyası ilə münasibətləriniz yaxşı olub. Bəs Obama administrasiyası ilə əlaqələrinizin perspektivlərini necə görürsünüz?

- Biz yaxşı tərəfdaşlıq münasibətlərimizin bundan sonra da inkişaf etdiriləcəyinə ümidvarıq. Azərbaycan-ABŞ əlaqələrinin qurulmasından uzun zaman keçir. Tərəfdaşlığımızda enerji siyasəti mühüm rol oynayır. Əlaqələrimiz hər iki ölkənin milli maraqlarına uyğundur. Ümid edirik ki, bu müsbət meyil yeni administrasiya ilə də davam edəcəkdir.

- İqtisadiyyatımızın modernləşdirilməsi siyasətinə nəzər yetirdikdə, şaxələndirmə mühüm yer tutur. Şaxələndirmədə informasiya-kommunikasiya texnologiyaları sektoru ən əhəmiyyətli sektor kimi görünür. Xahiş edirəm, bununla bağlı strategiyanızdan danışasınız.

- Strategiyamızın əsas məqamları bunlardır: şaxələndirmə və modernləşdirmə, iqtisadiyyatın enerji sahəsindən asılılığının azaldılması və ölkəmizin dayanıqlı inkişafının təmin olunması. Bununla bağlı müasir texnologiyalar, informasiya-kommunikasiya texnologiyaları, təhsil, əhalinin məşğulluğu, yoxsulluğun azaldılması, səhiyyə və digər sahələr prioritet təşkil edir. Bütün bunlar həyatımızın sosial sektorunu əhatə edir. Biz bütün bu sahələrdə, o cümlədən informasiya-kommunikasiya texnologiyaları sahəsində əhəmiyyətli inkişafa nail olmuşuq. Qeyd etdiyim kimi, indi informasiya-kommunikasiya texnologiyaları iqtisadiyyatımızın ən prioritet sahələrindəndir. Biz hazırda güclü iqtisadiyyatı, maliyyə imkanları, güclü intellektual potensialı olan ölkə qurmağı qarşımıza məqsəd qoymuşuq. Neftdən əldə etdiyimiz gəlirlər insan kapitalına sərmayə yatırmağa

imkan verir. Hazırda informasiya-kommunikasiya texnologiyaları dünyada iqtisadiyyatın ən perspektivli sahələrindən biridir. Bu, təkcə iqtisadiyyat deyil, həm də bilikdir, təhsildir, ümumi inkişaf və müasirləşmədir. Biz dünyanın aparıcı informasiya-kommunikasiya texnologiyaları şirkətləri ilə çox yaxşı əlaqələr qurmuşuq və bunun davam etdiriləcəyinə ümid edirəm. Biz indi peyk buraxmaq, Azərbaycanda kosmos sənayesi yaratmaq ərəfəsindəyik. Çox böyük planlarımız var və ümid edirəm ki, məqsədlərimizə nail olacağıq.

- Bizim proqramımıza tamaşa edən insanlar bilirlər ki, yeni İpək yolu haqqında çox danışmışıq. Bu, XXI əsrin mühüm layihələrindəndir. Azərbaycan strateji baxımdan Çinlə Avropa arasında yerləşir. Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları sahəsi üzrə regional mərkəzə çevrilməsi üçün inkişaf planlarınız nədən ibarətdir?

- Biz bu sahəyə böyük diqqət ayırırıq, hazırda isə informasiya-kommunikasiya texnologiyaları sahəsində şirkətlərin Azərbaycanı bu sahə üzrə regional mərkəz seçməsi üçün şərait yaradılmasını planlaşdırırıq. Regional mərkəz olmaq üçün yalnız arzunun olması kifayət deyil, burada birgə səylər lazımdır. Birinci, dövlətin bu işə fəal cəlb olunması, dövlət tərəfindən təşəbbüslər və dövlət informasiya-kommunikasiya texnologiyaları proqramı. İkinci, iqtisadiyyatın liberallaşdırılması, əlverişli sərmayə mühitinin yaradılması. Daha sonra, əlbəttə ki, əlverişli coğrafi mövqeyimizdən səmərəli istifadə edərək, regional mərkəzə çevrilmək. Necə ki, biz bunu nəqliyyat və enerji sahələrində etdik. Bu gün biz boru kəmərləri, avtomobil yolları, İpək yolu, Şərq-Qərb və Şimal-Cənub dəhlizlərini inşa edirik. Bunlar həm əlverişli coğrafi mövqeyimiz, həm də konkret proqramlarımız əsasında həyata keçirilir. İnformasiya-kommunikasiya texnologiyaları sektorunda nəzərdə tutduğumuz işlər Azərbaycanı inkişafın yeni mərhələsinə gətirib çıxaracaqdır. Bildiyiniz kimi, gələcək neft və qaza deyil, texnoloji inkişafa məxsusdur. Neft və qaz ehtiyatları tez və ya gec tükənəcək, bilik və texnologiya isə hər zaman inkişafda dominantlıq edəcəkdir. İndi dünyanın aparıcı ölkələri informasiya-kommunikasiya texnologiyaları sektoruna sərmayə yatıran, ən qabaqcıl texnoloji imkanlara malik olan ölkələrdir.

- Bu baxımdan Siz kosmos sənayesi və regional innovasiyaları nəzərdə tutursunuz?

- Texnoparklar və regional innovasiyalar dövlətin İKT proqramında nəzərdə tutulubdur. Biz dövlət tərəfindən ilkin sərmayə qoyuluşuna hazırıq. Əlbəttə ki, biz xarici və yerli sərmayələrin qoyuluşundan da məmnun olardıq. Lakin bu işlərə təkan vermək, başlamaq üçün biz bütün hazırlıq işlərini həyata keçirməli, infrastruktur yaratmalı, investisiyanı təmin etməliyik. Enerji layihələri üçün cəlbedici olmağı bacardığımız kimi, informasiya-kommunikasiya texnologiyaları sektorunun inkişafı üçün də cəlbedici olmalıyıq.

- Cənab Prezident, müsahibəyə görə minnətdarıq.

- Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN HERSOQU ENDRYU İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 28-də "Konqress" mehmanxanasında Böyük Britaniyanın hersoqu Endryu ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, bu sahədə əməkdaşlığın genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

Yanvarın 28-də "Konqress" mehmanxanasında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyindən məmnunluq ifadə olundu. Ölkələrimizin iqtisadi cəhətdən inkişafının xalqlarımızın rifah halının daha da yüksəlməsi işinə xidmət etdiyi, ikitərəfli münasibətlərin həm də regional əməkdaşlığa töhfə verdiyi bildirildi. Söhbət zamanı ikitərəfli əlaqələrin daha da möhkəmlənməsi və genişlənməsi baxımından yüksək səviyyədə mütəmadi görüşlərin əhəmiyyəti vurğulandı, qarşılıqlı münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

PREZİDENT İLHAM ƏLİYEV "ENERGY OUTLOOK-2009" MÖVZUSUNDA İCLASDA İŞTİRAK ETMİŞDİR

Yanvarın 29-da Davosda Forumun "Energy Outlook-2009" mövzusunda iclası keçirilmişdir. Böyük əhəmiyyətə malik bu iclasda Azərbaycan Prezidenti İlham Əliyev iştirak etmişdir.

Forumun əsas tədbirlərindən olan "Energy Outlook-2009" iclasını açan "CNN-International" televiziya kanalının aparıcısı Con Defterios Prezident İlham Əliyevi və digər qonaqları salamladı, bu iclasda qlobal iqtisadiyyatla bağlı ən aktual məsələlərin müzakirə olunacağını bildirdi. Son vaxtlar neftin qiymətinin aşağı düşdüyünü xatırladan Con Defterios bildirdi ki, bir il öncə dünya bazarında neftin 1 barrelinin dəyəri 100 dollardan yuxarı olanda ilin sonuna qədər "qara qızıl"ın qiymətinin 200 dollara çatması proqnozlaşdırılırdı. İndi isə neftin 1 barrelinin qiyməti 40 dollara bərabərdir. Bu baxımdan da iclasın əsas müzakirə mövzuları dünyada enerji təhlükəsizliyi, neftin qiymətinin hansı səbəbdən aşağı düşməsi və sabitləşməsi məsələləri olacaqdır.

Con Defterios ilk sözü Azərbaycan Prezidentinə verməklə istədiyini bildirərək dedi ki, OPEK-in Əlcəzairdə keçirilən son iclasında Azərbaycan quruma üzv olmayan hasilatçı ölkə kimi gündəlik hasilatı 300 min barrel aşağı salmağı, yəni son 2 ildə hasilatı ən aşağı həddə endirməyi təklif etmişdir. Bu iclas 2002-ci ildən bəri OPEK üzvü olan və üzvü olmayan ölkələrin bir araya gəldiyi ən böyük toplantıdır.

İclasın aparıcısı Prezident İlham Əliyevdən "2009-cu ilin proqnozuna dair deyilənlər nəzərə alınarsa, OPEK ölkələri, habelə Azərbaycan indi neft hasilatını kifayət qədər

azaldıbmı, yoxsa bundan da az neft çıxarılmalıdır?" sualına cavab verməyi xahiş etdi.

Prezident İLHAM ƏLİYEV suala cavabında dedi:

- Hesab edirəm ki, neft hasilatında elan edilmiş və hazırda həyata keçirilən azaldılma tədbirləri qiymətin sabit səviyyədə saxlanılması üçün kifayət edəcəkdir. Əlbəttə ki, hər şey tələbatdan, hasilatdan və öhdəliklərin hansı şəkildə yerinə yetirilməsindən asılı olacaqdır.

Azərbaycana gəldikdə isə, hasilatın həcmi hələ ki, o qədər yüksək deyildir. Lakin biz ümumi işə öz töhfəmizi verməyə çalışırıq. Biz də müxtəlif vasitələrlə qiymətin tarazlaşdırılmasına və enerji təhlükəsizliyində öz rolumuzu oynamağa çalışırıq. Hər iki məsələ bir-biri ilə əlaqəlidir və vacibdir. 5-6 il bundan əvvəl enerji təhlükəsizliyi məsələləri heç müzakirə edilmirdi. İndi isə bu, nəinki istehlakçılar, o cümlədən hasilatçılar üçün böyük bir problemə çevrilibdir. Hasilatçı ölkə kimi Azərbaycan öz enerji təhlükəsizliyinin təmin edilməsi üçün dünya bazarlarına müxtəlif çıxış marşrutlarının olmasında maraqlıdır.

Hesab edirəm ki, neft hasil edən ölkələrin birgə səyləri, eləcə də enerji siyasətinin bütün iştirakçıları - hasilatçılar, tranzit ölkələr və istehlakçılar arasında qarşılıqlı anlaşma hamımız üçün daha yaxşı şərait yaradacaqdır.

Sonra iclasın aparıcısı Con Defterios bildirdi ki, Nabukko kəməri layihəsi 2003-cü ildən bəri dəfələrlə müzakirə olunubdur. Lakin Rusiya ilə Ukrayna arasındakı mübahisə bu layihənin reallaşmasına, belə demək olarsa, təkan vermişdir. Azərbaycan Prezidentinə ünvanlanan növbəti sual belə oldu: "İndi Azərbaycandan və Xəzər regionundan həmin kəmər üçün hasilatı əldə etməyin vaxtıdırmı?"

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV suala cavabında dedi:

- Bizim üçün potensial bazarları dəqiq bilməyimiz çox vacibdir. Bu vaxta qədər Azərbaycan öz qazını qonşu ölkələrə ixrac edir. Hazırda Azərbaycanın qaz hasilatı mövcud infrastruktur və bazarlarla əhatə olunur. Lakin biz daha böyük miqdarda qaz hasil etmək ərəfəsindəyik. Növbəti beş il ərzində biz bu həcmi 2 dəfə artırmağı planlaşdırırıq. Məhz bu səbəbdən mövcud bazarlar kifayət deyildir.

Nabukko layihəsinin bir çox problemləri var idi: siyasi dəstək, siyasi iradə, maliyyə öhdəliyi və tranzit məsələləri. Bu layihəyə bir çox iştirakçılar cəlb olunmuşdur. Hesab edirəm ki, bütün iştirakçıların birgə səyi və güclü maliyyə dəstəyi bu layihənin irəlilədilməsinə yardımçı ola bilər. Biz öz təcrübəmizdən bilirik ki, ehtiyatlar olmadan boru kəmərini tikmək necə çətindir. Lakin biz öz tərəfdaşlarımızla - bp və digər şirkətlərlə bunu etdik. Biz neftin qiyməti təxminən 30 dollar olan vaxtda Bakı-Tbilisi-Ceyhan neft kəmərini tikdik. O zaman Azərbaycanın gündəlik neft hasilatı 200 min barrelə bərabər idi. Biz gündəlik həcmi 1 milyon barrel olan boru kəmərinə sərmayə qoymağa başladıq.

Bu səbəbdən hesab edirəm ki, Nabukko ölkələri və bu layihəni dəstəkləyən təşkilatlar daha cəsarətli olmalı, onlar bu layihəyə təkcə gəlir mənbəyi kimi baxmalı deyillər. Bu, enerji təhlükəsizliyidir. Enerji təhlükəsizliyi ümumi təhlükəsizliyə və uzunmüddətli müstəqilliyə aparır. Bu səbəbdən hesab edirəm ki, daha güclü siyasi iradə, daha aydın maliyyə dəstəyi olmalıdır. Azərbaycan kimi ölkələr həm tranzit, həm də təchizatçı ölkə rolunu oynayaraq, bu layihəyə dəstək vermək üçün əlindən gələni etməyə hazırdır.

İclasın aparıcısı dəyərli fikirlərinə görə Azərbaycan Prezidentinə təşəkkür etdi və bu məsələyə yenidən qayıdılacağını bildirdi.

Con Defterios OPEK-in baş katibinə müraciət edərək, 2008-ci ilin dördüncü rübündə dünya bazarında hasilatın azalmasının təşkilatda hansı narahatlıq yaratdığını və neftin qiymətini 40 dollar həddində saxlamaq üçün nə etməyin lazım olduğunu soruşdu.

OPEK-in baş katibi ABDULLAH SƏLİM ƏL-BƏDRİ bildirdi ki, istehsalın həcmi ilə bağlı məsələ qurumun martın 15-də keçiriləcək iclasında yenidən müzakirə olunacaqdır. Neft istehsal edən ölkələrin mövqeyi ondan ibarətdir ki, "qara qızıl"ın indiki qiyməti çox aşağıdır və hasilatçı ölkələri təmin etmir. Neft hasil edən ölkələr enerji sahəsi ilə yanaşı, infrastruktura da sərmayə qoyur. Bizi hətta neftin barrelinin 50 dollar olması da qane etmir. Ötən əsrin 80-ci illərində baş verən hadisələrin təkrarlanmasını istəmirik. O zaman biz yüksək peşəkar işçiləri ixtisar edirdik və yeni sərmayələr qoymurduq.

"Biz artan tələbata hazır olmalıyıq" deyən OPEK-in baş katibi bildirdi ki, məqsəd neftin qiymətini 60-80 dollar səviyyəsində saxlamaqdır. Neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, hasilatı genişləndirmək üçün əlavə infrastruktura sərmayə qoymaq vacibdir, çünki tələbat artdığı halda, istehsalçı ölkələr buna hazır olmalıdır.

OPEK-in baş katibi onu da bildirdi ki, hazırda təşkilatın neft ehtiyatları mövcud nəql marşrutlarının ixrac edəcəyi həcmdən qat-qat çoxdur.

Neft hasilatının indiki səviyyədə qalıb-qalmaması ilə bağlı suala isə bp şirkətinin prezidenti TONİ HEYVORD cavab verdi. O dedi ki, bunu proqnozlaşdırmaq çox çətindir, çünki gələcəkdə baş verə biləcək hadisələr qlobal iqtisadiyyatdan asılıdır. Hazırda dünya ölkələrində iqtisadi artım, demək olar ki, dayanmışdır. Bu səbəbdən də "qara qızıla" tələbat o qədər də böyük deyil və bu, nəticə etibarilə neftin qiymətinin aşağı düşməsinə səbəb olmuşdur. Hesab edirəm ki, münasib qiymət 60-80 dollar arasında olmalıdır. Bu qiymət OPEK-ə üzv ölkələrə büdcələrini tarazlaşdırmağa, zəruri sosial proqramları maliyyələşdirməyə, habelə gələcək enerji ehtiyatlarının təminatçısına çevriləcək yeni yataqlara sərmayələr yatırmağa şərait yaradacaqdır.

bp prezidenti iqtisadi dirçəliş bərpa olunduqdan sonra "qara qızıla" tələbatın yenidən artacağını da dedi.

Hindistanın "Reliance Industries" şirkətinin sədri MUKEŞ AMBANİ "Neftin qiymətinin aşağı düşməsi sizi hasilata sərmayə qoymaqdan çəkindirməyəcəkmi?" sualına cavabında bildirdi ki, onun ölkəsi neftin təxminən 80 faizini idxal edir. Buna baxmayaraq, bu il Hindistanda iqtisadi artım sürətinin ikirəqəmli olması proqnozlaşdırılır. Ölkənin şərq hissəsində yataqlar var və hazırda bu yataqların işlənilməsi prosesi gedir. Növbəti aylarda biz neft hasilatını nəzərdə tuturuq və əlverişli qiymətə satacağıq.

Mukeş Ambani dedi ki, dünyanın bundan sonrakı 100 il üçün neft ehtiyatı var. Bu baxımdan bütün ölkələr ekoloji cəhətdən təmiz dünyaya körpü salmalıdırlar. İnkişaf etmiş ölkələr isə bu körpünün yaradılması ilə bağlı dünyaya təqdim oluna biləcək platformalar hazırlaya bilər.

Sonra Fransanın EDF enerji şirkətinin prezidenti PYER QADENİYA "Avropanın nüvə enerjisi ilə bağlı növbəti 10 il ərzində hədəfi nə olmalıdır?" sualına cavab verdi. O, "iq-

tisadi dirçəliş bərpa olunduqdan sonra "qara qızıla" olan tələbat yenidən artacaq" fikri ilə razı olduğunu bildirdi.

Pyer Qadeniya dedi ki, indi neft və qaza alternativ olan sahələrə, o cümlədən rəhbərlik etdiyi şirkətinin də cəlb olunduğu nüvə enerjisi sahəsinə sərmayə qoymağın vaxtıdır. Enerji sektorunun uzunmüddətli perspektivinin hazırda yaşadığımız iqtisadi böhranla heç bir əlaqəsi yoxdur. Bildiyiniz kimi, dünya iqtisadiyyatı yenidən öz inkişaf xəttinə qayıdacaqdır. Bunun neçə aylar, yoxsa illər sonra baş verəcəyini heç kim deyə bilməz. Lakin biz bilirik ki, bu, baş verəcəkdir.

EDF şirkətinin prezidenti lazım olan enerjinin nüvə sahəsində də mövcud olduğunu, bu sahəyə sərmayə yatırmağın zəruriliyini diqqətə çatdırdı. O, təmsil etdiyi şirkətin Fransa, Böyük Britaniya, Çin və Amerikada nüvə enerjisi sahəsinin yeniləşdirilməsində əsas rol oynamağa hazır olduğunu dedi.

Pyer Qadeniya onu da etiraf etdi ki, nüvə enerjisi istehsalçılarının üzləşdiyi ən böyük maneə ictimaiyyətin bu sahənin təhlükəsiz və ekoloji cəhətdən əlverişli olmasına dair şübhələridir.

Müzakirələrə Birləşmiş Ştatların "Bunge Limited" şirkətinin sədri ALBERTO VAYZER də qoşuldu. O, bioyanacağın da neft və qaza alternativ olduğunu bildirdi və onun faydası ilə bağlı fikirlərini bölüşdü. Onun sözlərinə görə, bioyanacağın istehsalı üçün tələb olunan ərazi ondan alınan faydanı üstələyə bilər.

Alberto Vayzer bioyanacaq üçün zəruri olan kənd təsərrüfatı məhsullarını daha çox müxtəlifləşdirməyə çağırdı. Hazırda dünyada kənd təsərrüfatı və ümumiyyətlə ərzaq və qida məhsullarına artan tələbata baxmayaraq, "Bunge Limited" şirkətinin sədri bu növ yanacağın müəyyən töhfə verəcəyinə ümidvar olduğunu dedi.

Növbəti sual yenə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlandı. Aparıcı dövlətimizin başçısına müraciətlə bildirdi ki, son iki ildə hasilatçı və tranzit ölkələr arasında yaranan müəyyən mübahisələrdən ən çox istehlakçılar əziyyət çəkir. Əgər son iki ildə siyasi səbəblərdən ehtiyatlar bağlı saxlanılırsa, o zaman beynəlxalq əməkdaşlıq necə olmalıdır?

Prezident İLHAM ƏLİYEV suala cavabında dedi:

- Bu münasibətlər davranış, enerji siyasəti və belə demək olarsa, enerji fəlsəfəsi məsələsidir. Azərbaycana gəldikdə isə, biz artıq sübut etmişik ki, ölkəmiz etibarlı tərəfdaşdır. Biz öz istehlakçılarımız qarşısında bütün öhdəliklərimizi yerinə yetirmişik və regionumuzda hasilatçı, tranzit və istehlakçı ölkələr arasında çox səmərəli əməkdaşlıq var.

Şübhəsiz ki, biz öz enerji ehtiyatlarımıza ilk növbədə milli maraqlar və davamlı inkişaf nöqteyi-nəzərindən baxırıq. Eyni zamanda, biz bu ehtiyatlardan əməkdaşlığı daha da gücləndirmək və bu sahədə bizdən asılı olan dostlarımıza və ölkələrə dəstək məqsədi ilə istifadə etməyə çalışırıq. Bu halda o ölkələr nəzərdə tutulur ki, hazırda onlar qazın bazar qiymətləri ilə ayaqlaşa bilmir. Biz realist olmalıyıq. Bu səbəbdən də ədalətli qiymət və uzunmüddətli maraqlar arasında tarazlığı tapmaq çox vacibdir.

Düşünürəm ki, bu yaxınlarda baş verənlərin müxtəlif səbəbləri ola bilər. Lakin əsas fərq yanaşmadadır. Əgər siz öz enerji ehtiyatlarınız vasitəsilə daha çox şey əldə etməyə və ya ərazinizdən istifadə edərək, daha ucuz qiymət əldə etməyə çalışırsınızsa, onda bu cür

böhranlar qaçılmazdır. Əgər enerji bazarının bütün iştirakçılarının maraqlarını nəzərə alırsınızsa, onda uğur əldə etmək olar. Zənnimcə, bu mənada bizim təcrübəmiz nümunə ola bilər. Biz bu təcrübəni bölüşə və sübut edə bilərik ki, enerji ehtiyatları münaqişə və ya ayrı-seçkilik aləti kimi deyil, dostluq aləti kimi istifadə oluna bilər.

Sonra "Enerji təhlükəsizliyi və təchizatı, o cümlədən münasib qiymətlə bağlı beynəlxalq əməkdaşlıq necə olmalıdır" mövzusunda müzakirələr başlandı.

OPEK-in baş katibi ABDULLAH SƏLİM ƏL-BƏDRİ bildirdi ki, 2008-ci ildə neftin 1 barelinin qiyməti 147-150 dollar olanda məlum idi ki, bu, tələbatdan yox, möhtəkirlik yolu ilə yaranmışdır. O, tələbata zərbə vuran bu cür bazar möhtəkirliyinin gələcəkdə qarşısını almaq üçün beynəlxalq qaydaların hazırlanmasına çağırdı. Əl-Bədri dedi ki, biz sui-istifadə hallarının qarşısını tam ala bilmərik, bu, daim olacaqdır. Lakin hesab edirəm ki, bu prosesə qarşı müəyyən qaydalar tətbiq olunmalıdır. Bu mənada istehlakçı və təchizatçı tərəflərin əməkdaşlığı və dialoqu vacibdir.

Daha sonra iclas iştirakçılarının diqqətinə 2000-ci ildən bəri neftin qiymətində müşahidə edilən dəyişikliklər təqdim olundu. Bildirildi ki, son 9 ildə neftin 1 barelinin qiyməti orta hesabla 50 dollar 12 sent təşkil etmişdir.

İclasın aparıcısı dedi ki, Səudiyyə Ərəbistanında keçirilən toplantıda neft nazirləri bildirmişlər ki, növbəti 10-20 ildə "qara qızılın" hasilatını planlaşdırmaq üçün neftin bir barrelinin qiyməti 75 dollar olmalıdır.

"Qlobal iqtisadiyyata ziyan vurmadan və sərmayə yatırımlarını həvəsləndirmək üçün neftin münasib qiyməti nə qədər olmalıdır?" sualına cavabında bp şirkətinin prezidenti TONİ HEYVORD bildirdi ki, növbəti 20 ildə qlobal enerji sənayesinə ildə 25-26 trilyon dollar həcmində sərmayə qoymalıdır ki, dünyada tələbat təmin olunsun. Neftin qiyməti isə sərmayə qoyulmasına sövq edəcəkdir. Bir sözlə, hasilatçı ölkələrin sosial yönümlü sahələri maliyyələşdirməsi və enerji sahəsinə yeni investisiyalar yatırması üçün neftin bir barrelinin qiyməti 60-80 dollar arasında olmalıdır.

Fransanın EDF şirkətinin sədri PYER QADENİYA isə bildirdi ki, neftin bir barrelinin qiymətinin 60-80 dollar civarında saxlanılması üçün hökumətlər səylər göstərməlidir. Amma nüvə enerjisi bu qiymətdən daha əlverişlidir və bu növ enerjini istehsal etməyə imkan var, ondan da istifadə olunmalıdır. Buna nail olmaq və bu növ enerjinin təhlükəsiz olduğuna inandırmaq üçün ictimai rəy də formalaşmalıdır.

Yenidən müzakirələrə qoşulan "Reliance Industries" şirkətinin sədri MUKEŞ AMBANİ isə neftin 60-80 dollar arasındakı qiymətinin həm hasilatçılar, həm də istehlakçılar üçün münasib olduğunu bildirdi. Bununla belə, tərəflər arasında şəffaflıq amilinin və neftin qiymətinin tarazlaşdırılması üçün müəyyən mexanizmin olmasının vacibliyini vurğuladı.

Daha sonra "Energy Outlook-2009" iclasının iştirakçılarına suallar verildi.

Londonda yerləşən Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun baş icraçı direktoru Con Çip Azərbaycan Prezidenti İlham Əliyevə sualla müraciət etdi:

- Sualım Prezident İlham Əliyevə və bp-nin prezidenti Toni Heyvordadır.

Dünən Rusiya hökumətinin sədri Vladimir Putin Şərqdən Qərbə gedən boru kəmərlərinin şaxələndirilməsindən danışdı. Zənnimcə, o, Rusiyadan və ona dost münasibətdə olan ölkələrin ərazisindən keçən boru kəmərlərini nəzərdə tuturdu. Lakin Nabukkonu xüsusi olaraq təriflədiyini eşitmədim.

Dünən Almaniya kansleri Angela Merkel də Avropa İttifaqı ilə Rusiya arasında uzunmüddətli və etibarlı münasibətlərin əsas meyarı kimi enerjidaşıyıcıları kəmərlərinin müxtəlif marşrutlarının olmasının zərurətini vurğuladı. Sualım hər iki natiqədir. Rusiya ilə Avropa İttifaqı arasında bu cür enerji durumu baxımından siz hansı məsləhətləri verərdiniz? Eyni zamanda, Avropa İttifaqı-Rusiya enerji təhlükəsizliyi paketinə salına biləcək hansı məsələləri siz istənilməz hesab edərsiniz? Buyurun, Prezident Əliyev və Toni Heyvord.

Prezident İLHAM ƏLİYEV suala cavabında dedi:

- Azərbaycana gəldikdə, onu deyim ki, planlaşdırdığımız bütün layihələri vaxtında və yüksək səmərə ilə başa çatdırmışıq. Bu gün bizim şaxələndirmə ilə bağlı heç bir problemimiz yoxdur. Əksinə, bizim karbohidrogen ehtiyatlarımızı müxtəlif istiqamətlərə nəql edə biləcək 7 neft və qaz kəmərimiz var. Biz təkcə bir marşrutdan və yeganə bir bazardan asılı deyilik.

Ətrafımızda yerləşən ölkələr bizim ehtiyatlarımıza ehtiyac duyur. Bu, bir az qəribə görünə bilər, lakin hətta bizdən daha çox neft, qaz hasil edən ölkələr də bizim neft və qazı almaq üçün təkliflər irəli sürmüşlər. Bu səbəbdən də növbəti illər ərzində biz şaxələndirmə ilə bağlı yaranan çətinliklərdən əziyyət çəkməyəcəyik.

Biz hazırda yeni bazarların necə tapılması və istədiyimiz qədər neft çıxara bilmək üçün mövcud boru kəmərlərini necə genişləndirmək haqqında düşünürük. Bunu etmək üçün bizə yeni bazarlar lazımdır. Yeni bazarlar hazırdır. Onlar Qərbdə, Mərkəzi Avropada yerləşir və yeni bazarlar Nabukko kəməri, Türkiyə, Yunanıstan, İtaliya, Transadriatik kəməri və digərləri ola bilər.

Beləliklə, hazırda bizim ehtiyatlara tələbat mövcud infrastruktur vasitəsilə təchiz oluna biləcək miqdardan qat-qat artıqdır. Beləliklə, biz növbəti illər ərzində qonşuluğumuzda bəzən o qədər də xoşa gəlməyən hadisələrin inkişafını izləyəcəyik. Şübhəsiz ki, biz regionda daha sıx əməkdaşlıq görmək istəyirik, çünki bu və ya digər halda bu gərginliklər öz mənfi təsirini göstərir. Bu da, öz növbəsində, qlobal enerji sektorunda əlavə gərginlik yaradır. Biz bunu görmək istəmirik. Biz gözlənilən və davamlı təchizat marşrutlarını və bütün iştirakçılar arasında qarşılıqlı anlaşmanı görmək istəyirik.

Sonra bp şirkətinin prezidenti TONİ HEYVORD iki məsələni vurğuladı. Bunlardan birincisi açıq, azad, şəffaf və yaxşı idarə olunan enerji bazarı, ikincisi isə sabit fiskal və tənzimləyici rejimlər.

"Azərbaycan bu mənada nümunə ölkə kimi göstərilə bilər" deyən Toni Heyvord bildirdi ki, bütün bunlar bp və onun tərəfdaşlarını son on ildə 25 milyard dollar sərmayə qoymağa sövq etmişdir. Bu isə Azərbaycan Prezidentinin də dediyi kimi, enerji infrastrukturunun yaradılmasına imkan vermişdir.

"Biz Azərbaycanla çox uğurlu tərəfdaşlıqdan məmnunuq. Çünki Azərbaycan açıq, azad, şəffaf və yaxşı idarə olunan enerji bazarı qaydalarına riayət etmişdir, sabit fiskal və

tənzimləyici rejimlər isə bizə Azərbaycanda müxtəlif istiqamətlərə infrastruktur qurmağa imkan yaratmışdır" deyən bp şirkətinin rəsmisi onu da əlavə etdi ki, bu da öz növbəsində çoxsaylı istehlakçı deməkdir.

Toni Heyvord bunun Azərbaycana böyük fayda gətirdiyini, xüsusilə də siyasi müstəqillik, enerji və maliyyə sahəsində müstəqillik verdiyini diqqətə çatdırdı.

Daha sonra iclas iştirakçıları digər suallara cavab verdilər.

PREZİDENT İLHAM ƏLİYEV "BÖYÜK OYUN TƏKRARLANIR" DEVİZİ İLƏ KEÇİRİLƏN İCLASDA İŞTİRAK ETMİŞDİR

Yanvarın 29-da Davos forumu çərçivəsində "Böyük oyun təkrarlanır" devizi altında xüsusi iclas keçirilmişdir.

İclasda Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, İranın xarici işlər naziri Mənüçehr Mottəki, Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan iştirak etmişlər.

İclası "Avrasia Group" şirkətinin prezidenti İAN BREMMER açaraq dedi:

- Günaydın. Mən Avrasiyada Qlobal Risklər Təşkilatının rəhbəriyəm. Dünya İqtisadi Forumunun "Böyük oyun təkrarlanır" adlı ikinci iclasına başlamaqdan məmnunam. Bu, mürəkkəb bir mövzudur və dünən Klaus Şvabla müzakirə olunanda bildirildi ki, belə mühüm sahənin müntəzəm və hərtərəfli araşdırılması və cavabların tapılması əhəmiyyətlidir. Bu söhbət hazırda dünyanın hər yerində gedir, amma xüsusi vurğulamaq istəyirəm ki, bu meyar Avrasiyaya aiddir. Müasir geosiyasət nəzəriyyəsinin banisi Helford Makkinder deyib ki, "Avrasiya" adlı böyük adanı kim idarə edirsə, o, bütün dünyanı idarə edir. Müəmmalı görünməsinə baxmayaraq, bu ideya fundamental xarakter daşıyır. Mürəkkəb bir zamanda və geosiyasi gərginliyin müşahidə olunduğu dövrdə böyük güclər Avrasiya məkanına şahmat lövhəsi kimi baxır və bu məkanda enerji resursları və təsir uğrunda mübarizə aparırlar. Keçmiş Sovet İttifaqını əvəz edən 15 müstəqil ölkədən söhbət gedəndə bu, xüsusi əhəmiyyət kəsb edir. Amerikanın bu gün dünya miqyasında siyasi müdaxiləsinin eroziyası bir çox yeni tədbirlərin görülməsini tələb edir. Digər tərəfdən, Rusiyanın bərpa olunan cavab gücü bir daha göstərir ki, böyük oyun təkrarlanır.

İclasımızda bu cür mövzuları nəzərdən keçirəcək əsas şəxsləri sizə təqdim etmək istərdim. Onlar eyni regiondan olan dövlət başçısı və yüksək vəzifəli dövlət xadimləridir. Burada, sol tərəfdə Azərbaycan Prezidenti İlham Əliyev əyləşibdir. Onun solunda Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan əyləşibdir. Bir azdan Ermənistan Prezidenti Serj Sarkisyan bizə qoşulacaqdır. O, beş dəqiqədən sonra gəlməlidir. O cümlədən İranın xarici işlər naziri Mənuçehr Mottəki də yoldadır.

Nəzərdə tutduğum bir-iki məsələdən başlayaq. O məsələlər müzakirə edildikdə, biz rəylərlə razılaşmaya da bilərik. Gəlin, onda elə bir məsələ ilə başlayaq ki, hamımız onunla razılaşacağıq. Burada, Avropanın mərkəzində - Davosda görürük ki, azərbaycanlılar, türklər, ermənilər, qazaxlar bir çox Avropa təşkilatlarının üzvləridir. Onlar ATƏT-in üzvləridir. Keçmiş Sovet İttifaqı ölkələri arasında Qazaxıstan ilk ölkədir ki, bu təşkilata sədrliyə başlayıbdır. Futbola baxsanız görərsiniz ki, sadaladığım bütün bu

ölkələr Orta Şərq liqasında deyil, Avropa liqasında oynayırlar. Avropalılar buna etiraz etmir, lakin onlar bu ölkələrin Avropa İttifaqına üzvlüyü məsələsində tərəddüd edirlər.

Beləliklə, birinci sualım Prezident Əliyevədir. Ondan soruşmaq istərdim: Avropanın ikili standartları varmı? Azərbaycanın Avropa ilə gələcəkdə iqtisadi inteqrasiyasında marağı varmı, yoxsa, Siz Rusiya və Orta Şərq istiqamətini götürmək məcburiyyətində olacaqsınız?

İLHAM ƏLİYEV: Müstəqillik əldə etdiyimiz vaxtdan etibarən siyasətimizin Avropa istiqaməti prioritet məsələ idi və bu gün də davam edir. Buna bir çox misal gətirmək olar. Bu, təkcə Avropa İttifaqının, demək olar ki, bütün üzv ölkələri ilə faydalı ikitərəfli əməkdaşlıqla deyil, həm də iştirak etdiyimiz proqramlarla ölçülə bilər. Məsələn, Azərbaycan Avropa İttifaqının "Yeni qonşuluq siyasətinə dair fəaliyyət planı"nın iştirakçısıdır. İki ildən artıqdır ki, Azərbaycan Avropa İttifaqı ilə enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalamışdır. Bu gün Azərbaycanın da daxil olduğu Şərq tərəfdaşlığı Proqramı müzakirə olunur. Ümid edirik ki, bu yaxınlarda biz həmin proqramın icrasının əyani şahidi olacağıq. Bütün bu mühüm addımlar və tədbirlər Azərbaycanla Avropa arasında əlaqələrin necə inkişaf etdiyini göstərir. Enerji əməkdaşlığını və mövcud müasir enerji nəqli infrastrukturu da əlavə etsək görərik ki, birgə görüləcək işlər çoxdur. Avropa ölkələri ilə bizim əlaqələrimiz qarşılıqlı maraq və hörmətə əsaslanır. Ümid edirik ki, bu müsbət dinamika davam edəcəkdir.

İkili standartlara dair verdiyiniz sualla bağlı deyə bilərəm ki, bəli, biz ikili standartları hər yerdə görürük. Yəni, bunlar müəyyən coğrafi məkanlarda müşahidə edilmir. Azərbaycanın üzləşdiyi ikili standartlarla bağlı mən sizə bir çox misal gətirə bilərəm. Yəqin ki, bu, çox vaxt aparar. Ümumiyyətlə, onu demək istəyirəm ki, Azərbaycanla Avropa İttifaqı arasında əlaqələr müsbətdir. Biz bu əməkdaşlığın səviyyəsindən məmnunuq. Təbii ki, gələcəkdə daha geniş fəaliyyət görmək arzusundayıq.

APARICI: Cənab Prezident, sağ olun. İndi isə sözü Baş nazir Ərdoğana verirəm. Türkiyənin Avropa İttifaqına qoşulmaq istəyi davamlı şəkildə hamı tərəfindən müzakirə edilir. Biz Türkiyənin daha çox Orta Şərq istiqamətinə meyilli olacağını görəcəyikmi?

RƏCƏB TAYYİB ƏRDOĞAN: Xüsusilə, bir məsələyə toxunmaq istəyirəm. Biz iqtidarda olduğumuz dövrü dəyərləndirməli olsaq, deyə bilərəm ki, bu müddətdə Avropa İttifaqı ilə müzakirələrdə hər hansı bir geriləmə, ləngimə olmamışdır. Hazırda Avropa İttifaqı ilə müzakirələri, fəaliyyətimizi davam etdiririk. Burada heç bir axsama yoxdur. Amma narahat olduğumuz bir məsələ var: hər müzakirə dövründə çətinlik yaradacaq vəziyyət yaşanır. Misal üçün, müzakirələr zamanı yeni iki fəsil açılır, digər müzakirə dövründə yenə iki fəsil açılır və bu, belə davam edir. İndiyə qədər bu fəsillər nə bir oldu, nə də üç oldu. Fəqət, avropalı dostlarımızla görüşdüyümüz zaman, keçən həftə Brüsseldə mənə belə dedilər ki, iki birdən böyükdür. Mən də təbii olaraq dedim ki, üç də ikidən böyükdür. Yəni, uğur qazanmaq istəyiriksə, qoy üç olsun, uğursuz olursa, bir olsun. Onlara dedim ki, bunları gözdən keçirin.

Çexiyanın sədrliyi dövründə eyni qərarlılıqla, ciddiyyətlə çalışmalarımızı davam etdiririk. Təbii ki, bizim Avropa İttifaqı ilə əməkdaşlığımızın bir başadüşülən qolu var. Avropa İttifaqına üzv olmaq barədə müzakirələrlə bərabər, bizim 1996-cı ildən başlanan əməkdaşlığımız da var. Yəni biz Avropa İttifaqının Gömrük İttifaqına üzv olaraq fəaliy-

yət göstəririk. Digər üzv ölkələr heç zaman bu formada üzv olmamışlar. Əvvəlcə Avropa İttifaqına üzv oldular, ondan sonra Gömrük İttifaqına üzv seçildilər. Biz hazırda Gömrük İttifaqının üzvüyük. Bizə belə bir fərqliliklə yanaşma var. Düşünürəm ki, dostlarımızın Türkiyəyə baxışı bu nöqtədə fərqli olmamalıdır. İnanıram ki, bu fərqi onlar da hiss edəcəklər. Amma hazırda, 2009-cu ilə daxil olarkən üzvlük məsələsini bir az da ciddi tutmaq məqsədi ilə Avropa İttifaqı ilə əlaqədar yeni nazir ştatı yaratdıq. İndi dövlət nazirimizin biri Avropa İttifaqı ilə bağlı məsələlərlə məşğuldur. Bundan sonra Avropa İttifaqı ölkələri ilə daha tez-tez əlaqələr yaradılacaq, Brüssellə əlaqələr çox sıx şəkildə inkişaf etdiriləcək, müzakirələr ciddi xarakter alacaqdır. İnanıram ki, bundan sonrakı dövrdə müsbətə doğru dəyişiklik olacaqdır.

APARICI: Cənab Baş nazir, sağ olun. İndi isə mən İranın xarici işlər naziri Mənuçehr Mottəkini salamlamaq istəyirəm. Geosiyasəti nəzərə alaraq, hamı bilir ki, Amerikada yeni administrasiya fəaliyyətə başlayıbdır. Mən bildirmək istəyirəm ki, Prezident Obama İran hökumətinə aid yeni, müxtəlif siyasətin yürüdüləcəyi ilə bağlı bəyanat veribdir. İranlılar bunu eşitdikdən sonra bildiriblər ki, yaşayarıq, görərik.

Avrasiyada böyük oyun baxımından sizə belə sual vermək istəyirəm. Son bir neçə il ərzində İranın regionda geosiyasi təsiri xeyli artıbdır. Bu təsir xüsusilə İraqda və Əfqanıstanda hiss olunur. Sualım belədir: Əgər Prezident Obama İran hökumətinə Əfqanıstan və İraqla bağlı birgə işləməyi təklif etsəydi, ona hansı cavab verilərdi?

MƏNUÇEHR MOTTƏKİ: Bismillahir rəhmanir-rəhim. Mən hörmətli natiqlərin və burada əyləşən, tanıdığım əziz dostların iştirakı ilə bu toplantıya qoşulmaqdan olduqca məmnunam. Bəli, etiraf etməliyəm ki, siz də qeyd etdiyiniz kimi, bu günə qədər, yəni, Amerikada keçirilən prezident seçki kampaniyası zamanı səsləndirilən və hazırda bütün ictimaiyyətə yaxşı məlum olan söz - "dəyişiklik" sözü idi. Bu cür yanaşmanı alqışlayaraq, inamımızı bildirmək istəyərdik ki, bu söz həqiqətən dəyişiklik olsun. Bizim üçün çox vacibdir ki, Prezident Obama bu dəyişikliyi anlasın. Biz o ümidlə yaşayırıq ki, bəyan edilən bu dəyişiklik həyata keçirilsin. Regionumuzda o qədər sahələr var ki, orada yaşayan bütün xalqlar və ölkələr həmin dəyişikliklə nəyin baş verəcəyini səbirsizliklə gözləyirlər: bu, strateji dəyişiklik, yaxud taktiki dəyişiklik olacaq? Bütün bu suallar növbəti bu cür toplantının müzakirə mövzusu ola bilər. Yəni, yeni administrasiya dünyanın gözlədiyi nəticələrə cavab verəcəkmi?!

Mənim ölkəmin mövqeyinə gəldikdə, bəli, etiraf etməliyəm ki, bizim tariximizə, mədəniyyətimizə və əmin-amanlıq şəraitində birgə yaşama yanaşmamıza onilliklər, əsrlər deyil, bir neçə minilliklər dövründə əsaslanaraq, İranın sizin qeyd etdiyiniz təsiri formalaşmışdır. Regionun tarixində İran hər zaman konstruktiv rol oynamışdır. Başqa sözlə desək, İran bu təsirini sizin qeyd etdiyiniz formada - konstruktiv və davamlı şəkildə birgə yanaşı yaşama və əməkdaşlıq naminə istifadə etməyə çalışmışdır. Bizim tariximizə nəzər yetirsəniz, bu yanaşmadan kənara çıxma olmamışdır. Lakin son dövr ərzində İran bir neçə təcavüzlə, hətta müharibə ilə üzləşmişdir.

Birləşmiş Ştatlarda yeni proseslərə və dəyişikliyə gəldikdə, elə məsələlər var ki, regiondakı bütün ölkələrə aiddir. Bu, Birləşmiş Ştatların özünə də aiddir, çünki onlar həm də bu və ya digər formada regionda iştirakçı hesab edilirlər. İnanırıq ki, əgər Birləşmiş Ştatların yeni administrasiyası, cənab Obamanın dediyi kimi, öz siyasətini sözdə yox,

əməldə dəyişərsə, onda təbii ki, region da əməkdaşlıq ruhunda öz reaksiyasını verər. İran isə regional miqyasda bu cür ümumi yanaşmada istisna edilmir. Biz bunu keçmişdə də nümayiş etdirmişik. Əfqanıstanla bağlı bir çox yerlərdə, Tokioda və digər yerlərdə keçirilən tədbirlərdə olmuşuq. Həmin ölkədə təhlükəsizlik və sabitlik nəinki Əfqanıstanın milli maraqları üçün, eləcə də region üçün lazımdır. Bu sözləri İraqa da aid etmək olar. Bu halda, İran yenə də özünün sabitlik, təhlükəsizlik və əmin-amanlığın bərqərar olunmasını nəzərdə tutan konstruktiv yanaşmasından istifadə edir. Digər ölkələr kimi, biz də bunu öz maraqlarımız üçün vacib hesab edirik. Ona görə də qonşu ölkələrə gəldikdə, biz hər zaman konstruktiv yanaşmadan müxtəlif səviyyələrdə istifadə etmişik. Bu, birmənalı olaraq, İran İslam Respublikasının bu gün regionda yaşadığımız böhrana aid hazırkı siyasətini təşkil edir.

APARICI: Çox sağ olun. Gəlin şimala qayıdaq və Baş nazir Ərdoğanla başlayaq. Rusiya Prezidenti Medvedev bəyan etmişdir ki, dünyada elə regionlar var ki, orada Rusiyanın xüsusi maraqları var. O, Avrasiyanı da bu regionlara aid etmişdir. Bunu Birləşmiş Ştatların Latın Amerikası regionunda olan xüsusi maraqları ilə müqayisə etmək olar. Mənim iki sualım var. Birincisi, Rusiyanın bu mövqeyinə necə yanaşırsınız? İkincisi, bu baxımdan Türkiyənin xarici siyasəti nədən ibarətdir?

RƏCƏB TAYYİB ƏRDOĞAN: Ən əvvəl hər bir ölkənin yaşadığı bölgəyə özünə görə yanaşması vardır. Yəni, Rusiyanın da bu cür baxışları məqbuldur. Rusiyaya nəyə görə belə bir yanaşma edirsiniz deməyə haqqımız yoxdur. Rusiya bu cür yanaşmalar edirsə, eyni şəkildə Türkiyənin də öz bölgəsində bu istiqamətdə yanaşması vardır. Türkiyə öz yanaşmasını edəcək və varlığını daha güclü biləcək, gələcəyə daha güclü formada yanaşma həyata keçirmək halında olacaqdır. Məsələlərə belə formada yanaşarkən, təbii ki, kənardakı digər ölkələrlə qarşılıqlı maraqları təminetmə məqsədinə yönəlmiş bir fəaliyyət olarsa, bu, bölgəyə faydalı olacaqdır.

Diqqət yetirsəniz, Rusiya Federasiyası ilə Gürcüstan arasındakı sıxıntılarla əlaqədar Türkiyə olaraq biz bir addım atdıq. Dedik ki, bölgədə, Qafqazda Əməkdaşlıq və təhlükəsizlik platformasını həyata keçirək. Bu məqsədlə ilk səfəri Moskvaya etdik. Onlardan buna müsbət yanaşma gördük. Ertəsi gün Gürcüstana getdik, təklifimizi bildirdik. Oradan da müsbət cavab aldıq. Sonra dəyərli qardaşım hörmətli Əliyevi ziyarət etdim, bu məsələni ona dedim. Ondan da müsbət cavab aldıq. Daha sonra cümhurbaşqanımız Ermənistan və Türkiyə milli komandalarının futbol oyununa baxmaq üçün Yerevana gedəndə orada bu məsələ Ermənistan rəsmilərinə bildirildi. Onlardan da müsbət cavab gəldi. İndi bu sahədə işlərə xarici işlər nazirləri səviyyəsində başlanmışdır. Bütün hədəfimiz bölgənin maraqlarını müştərək elə alaraq, birlikdə mənfəət qazanmaqdır. Biz gərək təhlükəsizlik məsələsini də bunun üstünə gətirək və bölgəmiz təhlükəsiz, sabit bir bölgə olsun. Bu sabit bölgədə nə Azərbaycanın Ermənistanla indiki vəziyyəti davam etsin, nə Türkiyənin Ermənistanla, nə də Rusiyanın Gürcüstanla sıxıntılı vəziyyəti davam etsin. Biz gərək bunları ortadan qaldıraq və bölgəni sülh vəziyyətinə gətirək. Dərdimiz, arzumuz, fəaliyyətimiz bundan ibarətdir. İnanıram ki, Rusiya buna müsbət yanaşacaqdır.

APARICI: Mən bunu qiymətləndirirəm. Bizim cəmi 25 dəqiqəmiz var. Prezident Əliyev, Sizə gəldikdə, enerji məsələsini xatırlatmadan böyük oyun haqqında danışmaq mümkün deyil. Son bir neçə həftə ərzində Rusiya ilə Ukrayna arasında baş vermiş qaz

mübahisəsinin və onun bu yaxınlarda həllinin şahidi olduq. Lakin avropalılar Rusiyadan yan keçən digər qaz kəmərlərinin çəkilməsini dəstəkləyirlər. Sualım belədir: Sizin fikrinizcə, Azərbaycan Nabukko kimi layihələrdə tranzit və təchizat sahəsində hansı rolu oynaya bilər?

İLHAM ƏLİYEV: Hələ 1990-cı illərin ortasında dünyanın enerji şirkətləri ilə əməkdaşlığa başladığımız vaxt heç bir böhran yox idi və potensial təchizata təhlükədən söhbət belə gedə bilməzdi. Enerji təhlükəsizliyi məsələləri heç müzakirə edilmirdi. Bütün bu hadisələr son illərdə baş verir. Biz Azərbaycanda əsasən nəyi etdik? Müasir infrastruktur yaratdıq, neft və qazı hasil etmək üçün xarici şirkətlərlə birgə sərmayə qoyduq və müxtəlif boru kəmərləri vasitəsilə neft və qazı beynəlxalq bazarlara çıxardıq. Bu gün biz onun müsbət nəticələrini görürük.

Azərbaycanın bu gün karbohidrogen ehtiyatlarını nəql edən və gələcəkdə böyük həcmdə nəql edə biləcək 7 neft və qaz kəməri var. Bu baxımdan biz özümüzü tam təhlükəsiz hiss edirik. Biz enerji və maliyyə ehtiyatları baxımından özünü təmin edən ölkəyik. Azərbaycan qonşu ölkələri enerjidaşıyıcıları ilə təchiz edir və onların enerji təhlükəsizliyində iştirak edir və töhfə verir.

Bu gün qaz ətrafında yaranan mübahisələr Azərbaycana diqqəti artırır və bu yaxınlara qədər tranzit ölkə sayılan rolda deyil, həm də bir təchizat mənbəyi sayılır. Bizim nəhəng qaz ehtiyatlarımız var. Hesablamalara görə, bizim sübuta yetirilmiş qaz ehtiyatımız minimum 2 trilyon kubmetrə bərabərdir. Daha optimal şəraitdə bu rəqəm 5-6 trilyona bərabər ola bilər. Beləliklə, bu həcm onilliklər, hətta yüz il üçün kifayətdir. Eyni zamanda, qonşularımızı qazla təmin edə biləcək mövcud kəmərlərimiz var.

Hələ iki gün bundan öncə Budapeşt sammitində müzakirə etdiyimiz Nabukko layihəsi kimi layihələrin yaxşı gələcəyi var. Lakin bunun üçün ciddi öhdəliklər müəyyən olunmalıdır. İlk növbədə, siyasi öhdəlik olmalıdır. Bu layihəyə Avropa tərəfindən güclü dəstək olmalıdır, ikincisi, maliyyə dəstəyi təmin edilməlidir. Zənnimcə, bu cür çoxmilyardlı layihəni maliyyələşdirmək Nabukko şirkətləri üçün çox çətin olacaqdır.

Etibarlı təchizat mənbələrinə gəldikdə, təbii ki, Azərbaycan ilkin təchizat mənbəyi kimi və bütün tranzit məsələlərinin həllində öz rolunu oynaya bilər. Bütün bu səylərin bir araya gəlməsi və qeyd etdiyim seqmentlərin ayrılıqda hər birinin nəticəsi uğura doğru aparacaqdır. Təbii ki, neft və qazla zəngin olan bir ölkə kimi biz istehlakçıların əhatə dairəsinin genişlənməsində maraqlıyıq. Bu gün səhər biz enerji təhlükəsizliyi məsələsini geniş şəkildə müzakirə etdik. Mən orada qeyd etdim ki, enerji təhlükəsizliyi hamıya, o cümlədən təchizatçılara da şamil olunmalıdır. Təchizatçı, tranzit və istehlakçı ölkələr arasında maraqların tarazlığı ehtimal olunan nəticələrə, davamlı təchizata və enerji əlaqələrində sülhə və əməkdaşlığa aparacaqdır. Ayrı-seçkiliyə xidmət etməli deyil. Zənnimcə, enerji amili müəyyən məqsədlərə nail olmaq üçün alət kimi istifadə edilməməlidir. Bizim üçün bu prinsip daim belə olub və belə də olacaqdır.

APARICI: Çox sağ olun. Mən Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanı salamlamaq istəyirəm. Sizin iclasa elə indicə qoşulduğunuzu nəzərə alaraq, gəlin birbaşa sual verim. Vaxtımız azdır. Xahiş edərdim, suallara qısa cavab verəsiniz. Elə indicə Avrasiyada enerji məsələləri haqqında danışdıq. Ermənistan isə regiondakı əsas iqtisadi təşəbbüslərə qoşulmayıbdır. Bu sözlər xüsusən də Cənubi Qafqaz və Cənub dəhlizinə

aiddir. Ermənistanın Avrasiyada geoiqtisadi strategiyası ilə bağlı fikirlərinizi öyrənmək istərdik. Xüsusən də mən bilirəm ki, sizin Rusiya ilə çox sıx iqtisadi əlaqələriniz var. Rusiya ölkənizin iqtisadiyyatında güclü şəkildə iştirak edir və 80 faizini təmin edir.

EDVARD NALBANDYAN: Ermənistanın geoiqtisadi strategiyasına gəldikdə, öncə onu deməliyəm ki, regionda heç bir ölkə enerji və nəqletmə sahəsində infrastruktur layihələrindən istisna edilə bilməz. Yaxşı məlumdur ki, nəqletmə və enerji marşrutlarına gəldikdə, Ermənistan ərazisindən keçən yol ən ucuz birbaşa yoldur. Məsələn, daşınma və dəmir yol xətləri mövcuddur, onlar bərpa olunmalıdır. Həmin dəmir yolları bərpa edilərsə, bu, bütün region üçün faydalı olardı. Avqust ayında Cənubi Osetiyada baş vermiş hadisələrdən sonra tamamilə aydındır ki, regionumuzda enerji və infrastruktur marşrutları inkişaf etmir, bizə yeni alternativlər lazımdır və bütün region bu cür layihələrdə iştirak etməlidir. Buna görə də biz Gürcüstan ilə yeni alternativ nəqletmə yolunun çəkilməsini istəyirik. Bu səbəbdən biz İranla dəmir yol xəttinin tikilməsini səbirsizliklə gözləyirik. Biz regional enerji və nəqletmə layihələrində iştirak etməyə və müzakirə aparmağa hazırıq.

APARICI: Sağ olun. İcazənizlə, mən bir anlığa da olsa, Türkiyə-Ermənistan münasibətlərinə toxunmaq istərdim. Bilirəm ki, son günlər ərzində sizinlə Türkiyənin xarici işlər naziri arasında üç görüş olubdur. Ümid etmək olar ki, bu cür əlaqələr müəyyən bir irəliləyişin əldə edilməsinə imkan yaratsın. Bilirəm ki, tarixən Türkiyə hökuməti Davos forumundan Yunanıstanla münasibətlərini yaxşılaşdırmaq məqsədi ilə istifadə etmiş və bu, uğurlu olmuşdur.

Baş nazir Ərdoğana müraciət edərək bilmək istərdim. Mənim üçün maraqlıdır, siz bir azdan Ermənistan Prezidenti ilə görüşəcəksiniz. Ermənistan Prezidentinə verəcəyiniz mesaj və bu ölkə ilə mümkün ola biləcək münasibətlər barədə fikirlərinizi görüşdən öncə bizimlə bölüşə bilərsinizmi?

EDVARD NALBANDYAN: Bəli, nəyə görə Davosdan Türkiyə ilə münasibətlərimizi inkişaf etdirmək üçün istifadə etməyək?! Bilirsiniz ki, Ermənistan Prezidenti təşəbbüs göstərərək, Türkiyə Prezidentini sentyabr ayında Yerevana dəvət etmişdi. Prezident Gülün Ermənistana səfəri ilə bağlı bu dəvəti qəbul etməsi müdrik bir addım idi. Səfər normallaşdırma prosesini başlamağa imkan yaratdı. Bu günə qədər bizim həm Türkiyənin xarici işlər naziri ilə, həm də texniki səviyyədə bir çox görüşlərimiz olubdur. Hesab edirəm ki, düzgün yoldayıq. Məsələlərə nikbin baxırıq. Ümid edirik ki, Türkiyənin, Ermənistanın, eləcə də regionun maraqları naminə münasibətlərimizin normallaşmasına nail olacağıq. Mövqeyimiz ondan ibarətdir ki, biz münasibətlərimizi normallaşdırmaq, diplomatik əlaqələr qurmaq, sərhədləri açmaq və narahatlıq doğuran bütün məsələləri ikitərəfli qaydada müzakirə etmək istəyirik. Hesab edirəm ki, biz düzgün yoldayıq və ola bilsin, Davos ölkələrimiz arasında münasibətlərin normallşadırılması üçün yeni mərhələ olacaqdır.

RƏCƏB TAYYİB ƏRDOĞAN: Mən bu axşam prezidentlə görüşəcəyəm. Bu görüşdən əvvəl mənim burada hər hansı açıqlama verməyim düzgün olmazdı. Həmin görüşdən sonra danışdığımız, müzakirə etdiyimiz məsələlərlə bağlı açıqlama verə bilərik. Təbii ki, bütün hədəf, məqsəd bir az əvvəl ifadə etdiyim kimi, bölgədə sülhə nail olmaqdır. Tərəflərin bu istiqamətdə cəsarətli addımlar atması lazımdır. Əgər atılan bu addımlar di-

asporların fəaliyyətinə qurban verilərsə, yazıq olar. Ən böyük sıxıntı budur. Diasporlar hazırda dinc dayanmır, onlar çalışırlar. Nə üçün çalışırlar? Bu addımlar atılmasın deyə çalışırlar. Diasporu kənara qoymaq lazımdır. Öz göbəyimizi özümüz kəsəcəyik. Bu işdə başqasına yer verməyəcəyik, bu işi bu şəkildə bitirəcəyik. Ona görə də biz bəzi jestlər edirik. İstəyirik ki, bu jestlər qarşılıqlı olsun və bu işi tezliklə bitirək, həll edək.

Eyni zamanda, Ermənistanla Azərbaycan arasında 17 ildir münaqişə davam edir. Minsk qrupuna ABŞ, Rusiya və Fransa həmsədrlik edir. 17 ildir ki, bu məsələ də həll olunmadı. Dolayısı ilə bizim burada bəzi bağlantılarımız var, qardaşlıq, soydaşlıq əlaqələrimiz var. Bütün bunları nəzərə alaraq, Qafqazda Əməkdaşlıq və Təhlükəsizlik Platforması çox böyük önəm daşıyır. Bütün bunlarla yanaşı, hazırda xarici işlər nazirlərimizin öz aralarındakı fəaliyyətini yüksək dəyərləndirirəm. Bunlara faydalı addımlar kimi baxıram. Bu faydalı addımları başqalarının mənasız yanaşmalarına qurban vermək lazım deyildir. Qoy, çıxdığımız bu yol uğurlu olsun.

APARICI: Yəqin ki, yaxın gələcəkdə diplomatik əlaqələrin qurulmasını görə biləcəyik. Davosla bağlı söylədiyiniz sözlər çox vədedicidir. Bildirdiyi fikirlərə görə Baş nazir Ərdoğana minnətdaram.

Prezident Əliyev, bu münasibətlərlə bağlı Azərbaycan tərəfinin şərhini vermək istərdinizmi?

İLHAM ƏLİYEV: Hansı münasibətlər?!

APARICI: Ermənistan-Azərbaycan münasibətləri barədə.

İLHAM ƏLİYEV: Ermənistanla heç bir əlaqəmiz yoxdur. Səbəb Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davam edən işğalıdır. Danışıqlar prosesi davam edir. Lakin Baş nazir Ərdoğanın dediyi kimi, əfsuslar ki, bu illər ərzində danışıqlar münaqişənin həllinə gətirib çıxarmayıbdır. Bu proses nə sülhlə, nə də beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpaqlarının azad olunması ilə nəticələnibdir. Təbii ki, belə bir şəraitdə istər enerji, istərsə də nəqletmə sahəsində heç bir əməkdaşlıqdan söhbət gedə bilməz. Əgər xəritəyə baxsanız görərsiniz ki, karbohidrogen ehtiyatlarının Qərbə çıxarılmasının ən qısa yolu Ermənistan ərazisindən keçir. Lakin bu, yalnız xəritədə belədir. Amma, torpağın üzərində dayananda görürsünüz ki, əslində, bu, uzun yolla gedir. Nə qədər ki, bizim torpaqlarımız işğal altındadır, bu əməkdaşlıq mümkün deyildir. Hesab edirəm ki, bizim mövqeyimiz başadüşüləndir. Biz qeyri-adi bir şey tələb etmirik. Biz yalnız Ermənistanın beynəlxalq hüquq normalarına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə riayət etməsini və öz qoşunlarını torpaqlarımızdan çıxarmasını tələb edirik. Məhz bundan sonra sülh bərqərar ola, kommunikasiyalar açıla bilər və bütün ölkələr bir-birinin imkanlarından yararlana bilər.

APARICI: İndi isə sualım nazir Mənuçehr Mottəkiyədir. Mən Azərbaycanda olanda, ilk növbədə, İranla həmsərhəd bölgədə qaçqın düşərgəsini gördüm. Biz bilirik ki, sizi bu ölkə ilə uzun tarix bağlayır. Bilirik ki, İranın regionda bir neçə təşəbbüsə, xüsusən də Qafqaz və Mərkəzi Asiya ölkələri ilə münasibətlərinə dair öz mövqeyi vardır. Nazir Mottəki bu mövqeyi təsvir etsə, çox minnətdar olardım.

MƏNUÇEHR MOTTƏKİ: İcazə versəydiniz, mən əvvəlki mövzuya qayıdardım. Çünki bunlar ümumi maraq və narahatlıq doğuran məsələlərdir. Söhbət eyni regionda yerləşən ölkələr arasında inteqrasiya və əməkdaşlıqdan gedir. Bu yaxınlarda regionumuz Qafqazda baş vermiş böhranla üzləşdi. Hazırda biz Cənubi Qafqazın iki əsas ölkəsi - Ermənistan və Azərbaycanla münasibətlərimizi nəzərə alaraq danışıqlarda iştirak etmişik. Bizim birgə yaxşı və konstruktiv məsləhətləşmələrimiz olubdur. İnanırıq ki, həmin regionda, Gürcüstanda baş vermiş böhran daha sıx təmas və əməkdaşlığın olmasını xüsusi nümayiş etdirən bir dərsdir. Biz region xalqlarının maraqları naminə ədalət və qaydalar əsasında həll yoluna nail olmalıyıq. İnanırıq ki, regional dialoq üçün çərçivəyə ehtiyac duyulur. Biz anlayırıq ki, hamı ilə məsləhətləşmə və anlaşma olmadan bu, mümkün deyildir. Bu çərçivəyə əsaslanaraq görürük ki, regionda üç əsas mövzu var: enerji, nəqletmə və təhlükəsizlik. Bu mövzular konstruktiv regional dialoq vasitəsilə həll olunmalıdır.

Siz qeyd etdiyiniz kimi, bu mövzulardan əlavə, Mərkəzi Asiya regionu var. Mərkəzi Asiya öz xalqlarının mədəniyyəti, tarixi və mentaliteti ilə başa düşülməlidir. 1990-cı illərdən etibarən ortaya çıxan yeni imkanları, xüsusən də enerji məsələlərini nəzərə alaraq Türkmənistan, Özbəkistan, Qazaxıstan və artıq Tacikistan regionda mühüm rol oynamağa başlayıbdır. Eyni zamanda, Mərkəzi Asiya Böyük İpək yolunun bir hissəsidir. Hazırda bu regiondan malların daşınması xüsusi əhəmiyyətə malikdir. Orada bir neçə mühüm layihə var. Bunu Xəzər dənizi regionuna da aid etmək olar. Qazaxıstan, Türkmənistan və İran prezidentləri arasında Xəzərin şərq sahili ilə dəmiryol daşımaları haqqında üçtərəfli saziş imzalanıbdır. Biz həmçinin Mərkəzi Asiya ölkələri, Türkiyə, Pakistan, Əfqanıstan, Azərbaycanla bərabər, EKO təşkilatının üzvüyük. İran və Mərkəzi Asiya ölkələri Şanxay təşkilatının üzvləridir. Gördüyünüz kimi, regionda inteqrasiya və əməkdaşlıq üçün bir çox məsələlər və imkanlar mövcuddur. Əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərindən biz regiona aid olmayan kənar qüvvələrin regional əməkdaşlıqdan diqqəti yayındıran müdaxiləsinin şahidi olduq. Biz bu maneələri aradan qaldırmalıyıq. Hazırda biz 1 milyon barrel neftin Qazaxıstandan İranın Xəzər dənizindəki limanına çatdırılması məqsədi ilə razılaşma əldə etmişik. Sonra həmin neftin Fars körfəzi ilə ixracının davam etdirilməsi nəzərdə tutulur.

Biz bir aydan sonra regionda EKO təşkilatının sammitini keçirəcəyik. Çaba və Bəmdən işə salınan dəmir yolunun açılışını edəcəyik. Bu, Fars körfəzi regionu ilə Mərkəzi Asiya regionu arasında digər bir əlaqədir. Bildirmək istəyirəm ki, bizim bütün əziz dostlarımız regiondakı potensial imkanlara bələddirlər. Eyni zamanda, regionda sabitlik, region ölkələri arasında əməkdaşlığa dair mövqelər ümumi konsensusa malikdir. Bu baxımdan bizim heç bir problemimiz yoxdur. Rusiya, Azərbaycan və körfəz dövlətləri ilə yanaşı, Mərkəzi Asiya dünya istehlakçıları üçün potensial şəkildə vacib olan digər təchizat mənbəyi sayıla bilər.

APARICI: Çox sağ olun. Vaxtımız bitməzdən öncə qısa olaraq iki sual da vermək istərdim. Birinci sual Prezident Əliyevədir. Sizin regionunuzda ötən il Prezident Saakaşvili üçün pis il olubdur. Siz Gürcüstanda vəziyyətin yaxşılaşdırılması məqsədi ilə 2009-cu il üçün Prezident Saakaşviliyə hansı məsləhəti verərdiniz?

İLHAM ƏLİYEV: Bizim elə bir problemimiz yoxdur, çünki biz bir-birimizi tez-tez görürük. Biz qonşuyuq. Gürcüstan və Azərbaycan strateji tərəfdaşdır. Müstəqilliyə və enerji təhlükəsizliyinə töhfə verən, Avropanın enerji təhlükəsizliyinə xidmət edən böyük layihələri birgə həyata keçirmişik. Biz bu səbəbdən sıx əlaqədəyik və tez-tez ikitə-

rəfli məsələlər ətrafında fikir mübadiləsi aparırıq. Vəziyyəti sabitləşdirmək və böhranın yaratdığı fəsadları aradan qaldırmaq istiqamətində gürcüstanlı dost və qardaşlarımıza uğurlar arzulamaq istərdim.

Etibarlı tərəfdaş və dost kimi Azərbaycan Gürcüstana bu işdə dəstək vermək üçün əlindən gələni edəcəkdir. Onu deyə bilərəm ki, biz Gürcüstanın iqtisadiyyatına böyük sərmayələr qoyuruq. Şirkətlərimiz son iki il ərzində Gürcüstan iqtisadiyyatına 3 milyard dollara yaxın sərmayə qoyublar. Dövlət Neft Şirkətimizin Gürcüstan filialı bu ölkədə ən böyük sərmayədar və ən böyük vergi ödəyicisidir. Bu da bizim əməkdaşlığımızın bariz nümunəsidir. Bizim münasibətlərimiz nə qədər güclü olsa, bu, region üçün o qədər yaxşıdır. Biz bu müsbət ahəngi davam etdirməliyik. Daxildəki və sərhədlərindən kənardakı sabitlik hər bir ölkə, o cümlədən Azərbaycan üçün vacibdir.

APARICI: Çox sağ olun. Sonuncu sualım Baş nazir Ərdoğanadır. Sizin hökumətiniz xarici siyasət sahəsində çox fəal olubdur. Siz Suriya və İranla münasibətlərinizi yaxşılaşdırmısınız. İraqla münasibətləriniz var. Bu münasibətlər davamlı xarakter daşıyır. Siz Pakistan ilə Əfqanıstan arasında əlaqələrin yaxşılaşdırılması məqsədi ilə üçtərəfli müzakirələr aparırsınız.

Böyük İpək yolu məsələsinə qayıdaq. Prezident Dəmirəl türkdilli xalqların Adriatik dənizindən Çinə qədər ümumi birliyinin yaradılmasını vacib hesab etmişdi. Sizin fikrinizcə, bu, Türkiyənin xarici siyasəti qarşısında dayanan həddindən artıq böyük vəzifə deyilmi? Siz Qərblə birgə Xəzər dənizi regionunda çox fəal iştirak edirsiniz və aparıcı rol oynayırsınız.

RƏCƏB TAYYİB ƏRDOĞAN: Biz bu məsələlərlə bağlı işləri hörmətli Əliyev, Saakaşvili və Türkiyə olaraq başlamışıq. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin ilk addımını atdıq, təməli qoyuldu və indi işlər davam edir. Əsl İpək yolu budur. Yəni, iş boş danışma yolunda deyil, inkişaf yolundadır. Bizim İpək yolu ilə bağlı fəaliyyətimiz davam edir.

Digər məsələlərə gəlincə, təbii ki, bölgədə sülhə xidmət etməyi ön plana çəkdik, bunu prioritet məqsəd kimi qarşıya qoyduq. Yaranmış vəziyyətdən çıxış yolları tapmaq üçün bu işləri başladıq. Belə ki, Pakistan və Əfqanıstan üzrə ilk görüş keçirildi. Əhməd Necdət Sezərin prezidentliyi dövründə də, hörmətli Gülün prezidentliyi dönəmində də bu görüşləri keçirdik. Bundan sonrakı dövrdə də davam edəcəkdir. Bilirsiniz ki, Pakistan ilə Əfqanıstan arasında problemlər var və bunun həlli lazımdır. Burada əsas terrorizm məsələsidir.

Bundan başqa, İsrail-Suriya məsələsi ilə bağlı bu ölkələrə dörd dəfə səfər edildi. İlk əvvəl bu səfərləri xüsusi təmsilçilərimiz, növbəti mərhələdə isə baş nazirlər olaraq bizlər xüsusi təmsilçilərimizlə bərabər həyata keçirdik. Təbii ki, bu vasitəçiliyimizi müxtəlif cür yozanlar, yəni indiki Qəzzə hadisələri ilə eyniləşdirənlər oldu. Halbuki, bunun heç bir əlaqəsi yoxdur. Mənim hörmətli Bəşşar Əsədlə görüşüm oldu. Yanımdakı özəl təmsilçinin isə Suriyanın xarici işlər naziri ilə görüşü oldu. Həmin görüşlərdə bildirdik ki, əgər xüsusilə Həmasla İsrail arasında məsələlərlə bağlı bizə bir vəzifə düşərsə, buna hər an hazırıq. Bəzi məsələləri müzakirə etdikdən sonra, dekabrın 27-də Qəzzəyə bombalar yağmağa başladı. Bunu bizə qarşı hörmətsizlik kimi qəbul etdik və bunu açıqladıq.

İsrail ilə Fələstin arasında da vasitəçilik missiyasında iştirakımız oldu. Eyni zamanda, İraqda seçkilərə qatılmayan sünnilərin seçkidə iştirakları barədə çox önəmli işləri yerinə yetirdik. Biz bu istiqamətdə fəaliyyətimizi bundan sonra da davam etdirməkdə qərarlıyıq. Xüsusilə sülh məsələsində biz siyasətçilərin üzərinə düşən vəzifə budur ki, danışıqlardan qaçmalı yox, danışıqlar aparmalı və məsələləri bu yolla çözməliyik. Mən son hadisələrlə bağlı burada bir daha deyirəm ki, son Qəzzə olaylarına əsla yəhudilər formasında baxmamalı, bu anlayışla yanaşmamalıyıq. Bizim bu sahədə mövqeyimiz fərqlidir. Mən antisemitizmi insanlıq suçu kimi elan etmiş bir Baş nazirəm. Bu gün də eyni fikirdəyəm, hər yerdə söyləyirəm, fikrimdə dəyişən heç nə yoxdur. Mən İsrailin rəhbərliyini qınadım, gördükləri işlərin doğru olmadığını söylədim. İndi də belə düşünürəm, eyni fikirdəyəm.

Mən beynəlxalq ictimaiyyətin Qəzzədə baş verənlərə etinasızlığını da tənqid etdim. Baxın, Gürcüstan hadisəsindən dərhal sonra humanitar yardımlar Sarp qapısında idi. Bütün ölkələr Gürcüstan məsələsinə müdaxilə etdilər. Yaxşı, bəs niyə Qəzzə məsələsinə dərhal müdaxilə olmadı, iki həftə gözlədilər və bu işlərə seyrçi qaldılar?! Orada 1200-dən çox dinc sakin öldü, 5 mindən çox insan yaralandı. Müxtəlif bəhanələrlə bu müddət uzadıldı. İndi atəşkəs yaranıbdır. Arzu edirik ki, bu atəşkəs qərarlı şəkildə davam etsin və Yaxın Şərqdə sülh bərqərar olsun.

APARICI: Çox sağ olun, hamınıza təşəkkür edirəm.

PREZİDENT İLHAM ƏLİYEV "NEFT-QAZ SİYASƏTİ - XƏRİTƏ DƏYİŞİKLİYİ" MÖVZUSUNDA İCLASDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 29-da "Morasani Şveizerhov" mehmanxanasında Davos forumunun "Neft-qaz siyasəti - xəritə dəyişikliyi" mövzusunda xüsusi iclasında da iştirak etmişdir.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin, Avropa İttifaqının və dünyanın aparıcı ENI, Total, Exxon Mobil, Statoil-Hydro şirkətlərinin nümayəndələrinin iştirak etdiyi iclasda neft hasilatının tənzimlənməsi, neft-qaz şirkətlərinin Rusiya və Yaxın Şərqdə artan maraqları, OPEK və qaz üçlüyünün maraqları, yaxın gələcəkdə enerji sahəsində nə kimi dəyişikliklərin baş verə biləcəyi məsələləri diqqət mərkəzində olmuşdur.

İclasda təbii qaz təchizatının təhlükəsizliyinin təmin olunması, bu sahəyə sərmayə qoyuluşunun perspektivləri, özəl beynəlxalq şirkətlərin dövlət şirkətləri ilə münasibətlərində yeni formaların tapılması məsələləri də müzakirə edilmişdir.

Bu iclasda çıxış edən ABŞ-ın, Belçikanın, Almaniyanın, Böyük Britaniyanın, Fransanın, Norveçin, İtaliyanın, Avstriyanın, Meksikanın, Cənubi Afrika Respublikasının nümayəndələri, əsasən, neft və qaz ölkəsi kimi tanınan dövlətlərdə iqtisadi inkişafdan, eləcə də qlobal maliyyə böhranının yaratdığı çətinliklərdən söhbət açmışlar.

Çıxışlarda enerji sahəsində əməkdaşlıqda Azərbaycanın tutduğu mövqe yüksək dəyərləndirilmiş, ölkəmizin neft və qaz marşrutlarının çoxşaxəliliyinə tərəfdar olması və Avropanın enerji təhlükəsizliyində və yeni layihələrin meydana gəlməsində rolu və əhəmiyyəti xüsusi vurğulanmışdır.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev də iclasda çıxış etmişdir. Diskussiya xarakterli bu görüşdə gələcəkdə Mərkəzi Asiya ölkələrinin, o cümlədən Qazaxıstanın karbohidrogen ehtiyatlarının Xəzər dənizi vasitəsilə də Qərbə çatdırılmasının böyük önəm daşıdığı bildirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışında müzakirə olunan məsələlərə münasibətini bildirmiş, beynəlxalq enerji əməkdaşlığının əhəmiyyətindən, Azərbaycanın enerji sahəsində qazandığı nailiyyətlərdən və dünyada artan rolundan danışmışdır.

Azərbaycan iqtisadiyyatının hazırkı artımı və ölkənin qlobal iqtisadiyyata, inkişafda olan dövlətlərin bazarlarına fəal inteqrasiyası nəzərə alınmaqla, belə mühüm tədbirdə iştirak regionda lider rolunu oynayan Azərbaycana fayda gətirəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

İsveçrə Konfederasiyasının Prezidenti Hans-Rudolf Merts tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ TOMAS MİROV İLƏ GÖRÜŞÜ

Yanvarın 29-da Azərbaycan Prezidenti İlham Əliyev "Konqress" mehmanxanasında Avropa Yenidənqurma və İnkişaf Bankının Prezidenti Tomas Mirov ilə görüşmüşdür.

Görüşdə Azərbaycanın Avropa Yenidənqurma və İnkişaf Bankı ilə uğurlu əməkdaşlığından məmnunluq ifadə olundu, əlaqələrin hazırkı vəziyyəti və gələcək perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV REUTERS AGENTLİYİNƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Davosda "Konqress" mehmanxanasında Reuters agentliyinin müxbiri Qay Folkonbriqə müsahibə vermişdir.

- Neftin qiymətləri ilə bağlı proqnozlarınız necədir? Siz Avropa bazarlarında əsas hasilatçı ölkələrdən birisiniz. Hamı, xüsusən də Rusiya, Birləşmiş Ştatlar və Çin də neftin qiymətinin hansı səviyyədə olacağı ilə maraqlanır. Neftin qiyməti ilə bağlı Sizin öz proqnozunuz varmı? Bu, çox çətin işdir.

- Bəli, bu, çətin məsələdir. Hesab etmirəm ki, kimsə neftin qiyməti ilə bağlı dəqiqliklə düzgün proqnoz verə bilər. Bu, müxtəlif amillərdən asılıdır. Hətta OPEK tərəfindən hasilatın azaldılması da qiymətə ciddi təsir göstərmədi. Bizə gəldikdə isə, düşünürəm ki, qiymət təxminən 80, 90 və ya 100 dollar səviyyəsində olarsa, sərfəli sayıla bilər. Bütün bunlar şirkətlərə lazımi dərəcədə sərmayə qoymağa, insan kapitalı kimi humanitar məsələlərə yatırımların ayrılmasını davam etdirməyə imkan yaradacaqdır. Təhsil, səhiyyə və infrastruktur sahələri xərclərimizin əsas istiqamətlərini təşkil edir. Lakin sizə deyə bilərəm ki, hətta bu gün mövcud olan qiymətlə - 1 barrel 45 dollar qiyməti ilə də bizim

iqtisadiyyat uğurla inkişaf edir.

- Sizin proqnozunuza əsaslansaq, bu il ÜDM-in artımı nə qədər olacaq?

- Fakt ondan ibarətdir ki, son beş il ərzində ölkəmizdə ÜDM 2,6 dəfə artıbdır. Fikrimcə, bu, tarixi rekorddur. Gələn aylar ərzində, proqnozumuza uyğun olaraq, bu göstərici təxminən 10 faiz ola bilər. Zənnimcə, qlobal böhran şəraitində bu rəqəm kifayətedici səviyyədən də artıqdır. Bu inkişaf səviyyəsini davam etdirməyə çalışacağıq. Biz artıq neft sektoruna böyük sərmayələr qoymuş, dövlət maliyyə vəsaitləri və kreditlər hesabına özəl sektora güclü şəkildə dəstək vermişik. Hazırda biz qeyri-neft sektorunun inkişafının bəhrəsini, iqtisadiyyatımızın şaxələndirilməsinin faydasını görürük. Gələcəkdə bu cür inkişaf bizə neftin qiymətindən asılı olmamaq imkanı yaradacaqdır.

- Demək, Sizin fikrinizcə, artım 10 faiz olacaqdır. Bu, əla rəqəmdir.

- Bəli.

- Yəni, iqtisadi böhran zamanı...

- Zənnimcə, biz bu işin öhdəsindən gələcəyik.

- 2010-cu il necə? Yoxsa, bu haqda düşünmək tezdir?

- Bəli. Əlbəttə ki, əgər neftin qiymətləri qalxsa, onda avtomatik olaraq artım səviyyəsi də qalxacaqdır. Lakin hazırkı böhran vəziyyətində və neftin qiymətlərinin aşağı düşməsi şəraitində göstəricilərimizi nəzərə alsaq görərik ki, iqtisadi inkişafımızın əsas uğuru neft deyildir. İqtisadi islahatlar, qeyri-neft sektorunda artım, iqtisadiyyatın liberallaşdırılması, əlverişli sərmayə mühiti fikirlərimizi əsaslandıran əsas amillərdir. Təsadüfi deyil ki, Dünya Bankı 2008-ci ildə Azərbaycanı bir nömrəli islahatçı ölkə elan etdi. Bu, fəaliyyətimizə verilən çox yüksək qiymətdir. Nəzərə almaq lazımdır ki, bu qiymət dünyanın aparıcı maliyyə təsisatı olan Dünya Bankı tərəfindən verilibdir. Bir sözlə, biz az vəsait əldə edəcəyimizə baxmayaraq, iqtisadi islahatları və infrastruktur sərmayələrini davam etdirəcəyik. Hesab edirəm ki, bütün bunlar böhran zamanı da iqtisadiyyatın inkişafına xidmət edəcəkdir.

- Siz infrastruktur deyəndə, boru kəmərlərini nəzərdə tutursunuz?

- Biz özümüzə lazım olan bütün infrastrukturu yaratmışıq. Hazırda müxtəlif istiqamətlərə gedən yeddi boru kəmərimiz var. Bundan əlavə, biz elektrik stansiyalarının, qazlaşdırma qurğularının yaradılmasına, avtomobil yollarının çəkilməsinə və digər infrastruktur sahələrinin inkişafına nail olmuşuq. Biz planlaşdırdığımız məqsədlərə çatmışıq və bu işlər gələcəkdə də davam etdiriləcəkdir.

- Cənab Prezident, atanız çox böyük strateji düşüncəyə malik insan kimi tanınırdı. Dünyada gedən proseslərə Siz də eyni müdriklikllə yanaşırsınız. Hazırda dünya böyük iqtisadi böhran içərisindədir. Fikrinizcə, böhrandan çıxmaq üçün nə edilməlidir?

- Böhranla bağlı düşünürəm ki, əgər kimsə bunu öncədən proqnozlaşdırsaydı, onda tədbirlər vaxtında görülərdi. Bu böhran hamı üçün problemə çevrilibdir. Digər ölkələr kimi, biz də bu böhranı ümumiyyətlə gözləmirdik. Məsələn, hazırda biz məhsullarımızın ixracında müəyyən çətinliklərlə rastlaşırıq. Buna səbəb istehlakçılarımızın bazarlarında yaranan problemlərdir. Fikrimcə, maliyyə bazarlarında daha geniş əməkdaşlıq, daha

çox proqnozlaşdırma olmalı, daha çox məsləhətləşmələr aparılmalıdır.

- Mən Sizə boru kəmərləri və enerji təhlükəsizliyi haqqında sual vermək istərdim. Son vaxtlar üzə çıxmış məsələlərdən biri də Türkiyə ilə tranzit qaz kəməri və qazın tranziti haqqında razılaşma ilə bağlıdır. Bu, Azərbaycan üçün önəmli məsələdir. Bu sahədə hər hansı irəliləyiş varmı? Razılaşmanın imzalanmasını bu yaxınlarda gözləmək olarmı?

- Biz danışıqlar prosesindəyik və ümidvaram ki, həmin danışıqları mümkün qədər tez başa çatdıracağıq. Həmin saziş Azərbaycan qazının Avropa İttifaqı bazarına çıxışını daha da genişləndirəcəkdir. Buna görə də bu cür razılaşma hamımız - hasilatçılar, istehlakçılar və tranzit ölkələr üçün faydalı olacaqdır. Beləliklə, ümid edirik ki, razılaşma yaxın vaxtlarda yekunlaşacaqdır.

- Belə çıxır ki, qazın ixracı həmin saziş imzalandığı vaxtdan etibarən başlayacaq?

- Tamamilə doğrudur. Biz, ola bilsin, cari ilin sonunda və ya gələn ildə təchizatı başlamağa hazırıq.

- İndi isə, mən siyasi məsələlərə - Dağlıq Qarabağ probleminə keçmək istərdim. Bilirəm ki, Siz Ermənistan Prezidenti ilə görüş keçirmisiniz. Dağlıq Qarabağ problemi çox mürəkkəb məsələdir. Hər hansı irəliləyiş varmı? Baza prinsiplərini nə vaxt gözləyə bilərik?

- Əfsuslar olsun, indiyə qədər nəticəyə nail olmamışıq. Danışıqlar prosesi gedir, müəyyən irəliləyiş var, lakin nəticə yoxdur. Bu, əsas problemdir. Problem yalnız beynəlxalq hüquq prinsipləri əsasında həll oluna bilər. Bundan başqa prinsiplər yoxdur. Beynəlxalq hüququn həmin prinsipləri Ermənistanın işğalçı qüvvələrinin torpaqlarımızdan çıxmasını, məcburi köçkünlərin bu torpaqlara qayıtmasını nəzərdə tutur. Bu, münaqişənin həllinə aparan yoldur. Əfsuslar olsun ki, Ermənistanın mövqeyi son vaxtlara qədər konstruktiv olmamışdır. Lakin ümid edirik ki, əgər onlar konstruktiv yanaşma nümayiş etdirsələr və beynəlxalq hüquq normalarına əməl etməyə hazır olduqlarını göstərsələr, münaqişə həllini tapa bilər, regionda sülh bərqərar ola bilər. Torpaqların işğal altında saxlanılması Ermənistana nə fayda verir? Onlar özlərini regionda təcrid vəziyyətinə salıblar. Enerji layihələri, boru kəmərləri və dəmir yol xətlərindən kənarda qalıblar. Azərbaycan və digər qonşularla münasibətləri normallaşdırmadan, təcrid olunmuş vəziyyətdə yaşamaq gələcəkdə Ermənistan üçün daha da çətin olacaqdır.

- Cənab Prezident, qarşıdan referendum gəlir. Bəzi şəxslər bildirir ki, bu, Sizə uzun müddət ərzində hakimiyyətdə olmağınıza yönəlibdir. Həmin referendumla bağlı və onun məqsədləri barədə hər hansı şərh verə bilərsinizmi?

- Referenduma bir çox məsələlər çıxarılacaq və yekun olaraq xalq öz münasibətini bildirəcəkdir. Referendum, bir çox digər ölkələrdə olduğu kimi, xalqa qərar qəbul etmək imkanını yaradan demokratik prosedurdur. Seçilməklə bağlı məhdudiyyətə gəldikdə, dünya təcrübəsinə nəzər salsaq, eyni vəziyyəti görəcəksiniz. Əgər xalq bu və ya digər lideri dəstəkləyirsə, xalqın onu seçmək hüququ var.

- Bəziləri Azərbaycanın gözəl iqtisadi artımına baxmayaraq, insan hüquqları ilə bağlı məsələləri qaldırırlar. Bu tənqidlə bağlı nə deyə bilərsiniz? Bəzən onların tənqidini başa düşmək Azərbaycan üçün çətin olur.

- Bilirsiniz, əgər tənqid əsaslıdırsa, biz bunu müzakirə etməyə həmişə hazırıq. Azər-

baycan Avropa Şurası kimi bir neçə beynəlxalq təşkilatın üzvüdür. Avropa Şurasına qəbul olunduğumuz zaman biz üzərimizə müəyyən öhdəliklər götürmüşük və onları yerinə yetiririk. Bəzən müxtəlif QHT-lər tərəfindən səsləndirilən müəyyən tənqidi fikirlər bizi narahat etmir, çünki bu tənqid bir çox hallarda əsassızdır. Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyət normaldır. Əgər siz regiona nəzər yetirsəniz görərsiniz ki, Ermənistanda hətta ən adi insan hüquqlarının kobud şəkildə pozulmasına görə heç kim tənqidə məruz qalmır. Həmin ölkədə prezident seçkiləri keçiriləndə baş vermiş hadisələri, ordu tərəfindən qətlə yetirilmiş insanların sayını, fövqəladə vəziyyətin elan edilməsini və internet saytlarının bağlanaraq senzuranın qoyulmasını hamı bilir. Yüzlərlə müxalifətçi həbs edildi, xeyli sayda insan yaralandı, lakin biz Ermənistanla bağlı hər hansı tənqidi eşitdikmi? Xeyr! Niyə? Buna səbəb ikili standartlardır, çünki erməni lobbisi Ermənistanı tənqidlərdən qoruyur. Azərbaycanda isə, insan hüquqlarının müəyyən dərəcədə pozulması kimi hesab edilə biləcək hər hansı, kiçik də olsa, epizod baş verdiyi zaman, ölkəmiz dərhal insan hüquqlarını pozan ölkə kimi təqdim edilir. Bunu edən strukturlara etimadımız itir. Beləliklə, bu cür fikirlər eyni standartlara əsaslanmalıdır. Azərbaycanın demokratik inkişafında hər şeyin mükəmməl olduğunu demək olarmı? Xeyr. Amma deyin görək, harada insan hüquqları mükəmməl qorunur? Tənqidi fikirlər real vəziyyətə əsaslanmalıdır. Cənubi Qafqaz və digər keçmiş Sovet İttifaqı ölkələrinə gəldikdə, eyni standart tətbiq edilməlidir. Hesab edirəm ki, Azərbaycanda real vəziyyət haqqında nə qədər çox məlumat olarsa, ölkəmizə bir o qədər obyektiv qiymət verilə bilər. Buna görə də çox istəyirik ki, bizi tənqid edənlər Azərbaycana gəlsinlər və ölkədə gedən prosesləri öz gözləri ilə görsünlər.

- Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN GÖRÜŞÜ

Yanvarın 29-da "Konqress" mehmanxanasında Azərbaycan Prezidenti İlham Əliyevin və Litva Prezidenti Valdas Adamkusun görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Litva arasında ikitərəfli münasibətlərin uğurla genişlənməsindən məmnunluq ifadə olundu, yüksək səviyyədə görüşlərin bu əlaqələrin daha da möhkəmlənməsində önəmi qeyd edildi.

Prezidentlər iki ölkənin müxtəlif sahələrdə əməkdaşlığının daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğunu vurğuladılar.

Görüşdə ikitərəfli münasibətlər, qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "MICROSOFT" KORPORASİYASININ BAŞ VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞÜ

Yanvarın 29-da Azərbaycan Prezidenti İlham Əliyev "Konqress" mehmanxanasında "Microsoft" korporasiyasının baş vitse-prezidenti və "Microsoft International"ın prezidenti Jan-Filip Kurtua ilə görüşmüşdür.

Görüşdə Azərbaycanın son illərdəki iqtisadi uğurları vurğulandı, təkcə energetika sahəsinin deyil, qeyri-neft sektorunun, xüsusilə informasiya texnologiyaları sahəsinin inkişafının dövlət başçısı tərəfindən prioritet istiqamətlərdən biri kimi irəli sürüldüyü və bu sahədə artıq nailiyyətlərin qazanıldığı bildirildi. Bununla əlaqədar Azərbaycan ilə dünyanın aparıcı "Microsoft" şirkəti arasında əməkdaşlığın hazırkı vəziyyəti və gələcək perspektivləri barədə fikir mübadiləsi aparıldı, bu sahədə əhəmiyyəti vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALBANİYA NAZİRLƏR ŞURASININ SƏDRİ SALİ BERİŞA İLƏ GÖRÜŞÜ

Yanvarın 29-da "Konqress" mehmanxanasında Azərbaycan Prezidenti İlham Əliyev Albaniya Nazirlər Şurasının sədri Sali Berişa ilə görüşmüşdür.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişaf etdiyi, iqtisadi sahədə əməkdaşlığın yaxşı potensialının olduğu vurğulandı. Söhbət zamanı həmçinin bu sahədə işlərin həyata keçirilməsi və əlaqələrin genişləndirilməsi üçün imkanların araşdırılmasının zəruriliyi bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CNN TELEVİZİYA KANALINA MÜSAHİBƏ VERMİŞDİR

Yanvarın 30-da Azərbaycan Prezidenti İlham Əliyev "Konqress" mehmanxanasında CNN televiziya kanalına müsahibə vermişdir.

- Sizin qatıldığınız tədbirdə iştirak etməkdən məmnun olduq. Davos forumunun gündəliyindəki məsələlərdən biri də enerji bazarının mövcud vəziyyəti ilə bağlı olacaqdır. Beynəlxalq Valyuta Fondu bildirmişdir ki, ümumən dünyada 2009-cu ildə artım yalnız 0,5 faiz təşkil edəcəkdir. Eyni zamanda, neftin qiyməti 40 dollardan aşağı düşmüşdür. Qlobal artımın bu qədər zəifliyi şəraitində, hər hansı sabitlikdən danışmaq olarmı?

- Bildiyiniz kimi, bir neçə ay bundan öncə qiymətlərin birdən-birə bu dərəcədə aşağı düşməsini proqnozlaşdırmaq çox çətin idi. Ona görə də biz tam əmin ola bilmərik ki, qiymət indiki səviyyədən də aşağı düşməyəcəkdir. Eyni zamanda, biz hasilatçılar hamımız ümid edirik ki, qiymət yenidən qalxacaqdır. Bunu əvvəlcədən demək çox çətindir. Bu, tələbatdan, dünya iqtisadiyyatından və dünyada qlobal böhranın hansı yolla aradan qaldırılmasından asılıdır.

- OPEK-in baş katibi bildirmişdir ki, əgər gündə dörd milyon barrel nefti bazardan çıxarsaq və əgər zəruri hesab edilərsə, təchizatı bundan da çox azaltsaq, vəziyyət sabitləşər. Siz eyni addımları atarsınızmı: məsələn, hasilat gündə 300 min barrel həcmində azalsın?

- Hesab edirəm ki, proqnozlaşdırdığımız gündəlik 1 milyon barrel hasilat kifayət qədər töhfəmiz hesab edilə bilər. Bundan artıq həcmi hasil etməyəcəyik.

- Siz hesab edirsinizmi ki, bazarda satışdan daha çox həcmdə enerji daşıyıcıları çıxarılmalıdır?

- Bir daha qeyd edirəm ki, bu günə qədər OPEK-in gördüyü tədbirlər, əlbəttə ki, həvəs-

ləndiricidir. Lakin hamımız gördük ki, bu, fayda vermir. Onlar tərəfindən hasilatın nə qədər azaldılmasına baxmayaraq, qiymət yenə də aşağı düşür. Bu onu göstərir ki, həcmlərlə qiymət arasında birbaşa əlaqə yoxdur. Eyni vəziyyət qiymətlər sürətlə artanda da baş verirdi. OPEK o vaxt da məsələni nizamlamağa çalışırdı. Beləliklə, bu mexanizmlər işləmir.

- OPEK və qeyri-OPEK ölkələri, eyni zamanda, istehlakçı ölkələr və 20-lər qrupu arasında dialoqun əsas mahiyyəti haqqında nə deyə bilərsiniz?

- Zənnimcə, OPEK və qeyri-OPEK ölkələri arasında əməkdaşlıq bu işə əhəmiyyətli töhfə verə bilər. Lakin bu, daha geniş formatda aparılmalıdır. Bildiyiniz kimi, OPEK-ə üzv olmayan ölkələrdən yalnız ikisi hasilatın azaldılması barədə bəyanat vermişdir. Onlardan biri Azərbaycandır. Hesab edirəm ki, OPEK və qeyri-OPEK ölkələri arasında hasilat həcmi ilə bağlı daha geniş formatlı əməkdaşlıq sazişi olmalıdır. Bu sazişə əməl edilməlidir, heç kəs kiminsə hesabına daha yaxşı şərait əldə etməyə çalışmamalıdır.

- Yaxud daha çox bazar payı?

- Əlbəttə.

- Neft qiymətinin 147 dollardan 40 dollara düşməsi digər bir məsələni də üzə çıxardı. Gələcək üçün planlaşdırma məsələsini. Gələcək üçün münasib qiymət hansı ola bilər? Yəni, böhran aradan qalxandan sonra qiymətin 60 və ya 80 dollar səviyyəsində olması münasibdirmi?

- Bu, qəbul edilə biləcək qiymət ola bilər. Lakin hesab edirəm ki, sərfəli qiymət təxminən 100 dollar civarında ola bilər. Bu qiymət şirkətlərə daha asan şəkildə sərmayə qoymaq imkanını yaradacaqdır. 60 və ya 70 dollar isə iqtisadi baxımdan minimum sərfəli qiymətdir. Belə qiymətlə şirkətlər həm sərmayə qoya bilər, həm də bu qərardan yayına bilər. Bu, şirkətlərin imkanlarından asılı olacaqdır. Neft şirkətlərinin heç də hamısı bərabər potensiala və maliyyə ehtiyatlarına malik deyildir. Fikrimcə, qiymət təxminən 100 dollar həcmində olarsa, bu, neft hasil edən ölkələr üçün ədalətli hesab edilə bilər. Neft şirkətlərindən fərqli olaraq, ölkələr nəinki neft hasilatına, başqa sahələrə də sərmayə qoymalıdır.

- Zənnimcə, xüsusi vurğulamağa ehtiyac yoxdur ki, 100 dollarlıq qiymət Qərbin heç də ürəyincə deyildir. Bu, həqiqətən belədir.

- Lakin hesab edirəm ki, bu qiymət hamının tələbatına cavab verir və istehlakçılar ilə bazar bu qiymətlə ayaqlaşa bilər. Hasilatçı ölkələr "qara qızıl"ı asanlıqla insan kapitalına çevirə bilər. Şirkətlər isə daha çox sərmayə qoyar.

- Hazırda Orta Şərqdə resessiya ilə bağlı narahatlıq yaranıbdır. Lakin orada izafi hasilatla bağlı mənfəət də əldə edirlər. Bu sözləri Azərbaycana da aid etmək olar. Belə şəraitdə, siz insan kapitalının, informasiya texnologiyalarının daha da inkişafını davam etdirirsinizmi? İzafi hasilatla yanaşı, son illərdə ölkəniz fenomenal şəkildə inkişaf etmişdir.

- Tamamilə haqlısınız. Biz iqtisadiyyatı şaxələndiririk və onun neftdən asılılığını azaldırıq. İnformasiya texnologiyaları, infrastruktur, kənd təsərrüfatı, təhsil, səhiyyə və digər sahələrə sərmayə yatırırıq. Hesab edirəm ki, biz artıq bu sahədə mühüm nailiyyətlər əl-

də etmişik. Neft qiymətindən daha az, əvvəllər heç zaman olmadığı qədər asılıyıq. Hətta neftin bugünkü 40 dollarlıq qiyməti ilə belə, Azərbaycanın iqtisadiyyatı inkişaf edir. Belə düşünürəm ki, 2009-cu il də ÜDM-in artımı baxımından ölkəmiz üçün uğurlu olacaqdır.

- Sizdən sualıma açıq cavab almaq istərdim. Enerji daşıyıcılarının Avropaya nəql edilməsi ilə bağlı Rusiya və Ukrayna arasında iki ildən artıqdır ki, mübahisə davam edir. Sizcə bu çətin vəziyyətdən necə çıxmaq olar? Azərbaycan alternativ boru kəmərləri şəbəkəsi çəkmək fikrindədirmi?

- Rusiya ilə Ukrayna arasında gərginlik, belə demək mümkünsə, alternativ marşrutlara daha çox diqqəti cəlb etmişdir. Bizə gəldikdə isə, heç vaxt özümüzü bir növ alternativ marşrut hesab etməmişik. Biz sadəcə, hasilata sərmayə yatırılması, boru kəmərlərinin çəkilməsi və enerji daşıyıcılarımızın Qərb bazarlarına çatdırılması işi ilə məşğuluq. Bir neçə il bundan öncə enerji məsələlərinin həlli təxirəsalınmaz məsələ kimi üzə çıxdı. Təkcə bir hasilatçıdan asılılıq müəyyən narahatlıqlar doğurur. Buna görə də tamamilə təbiidir ki, Avropada xəritəyə daha diqqətlə baxmağa başladılar. Gördülər ki, Azərbaycanda, Xəzərdə böyük enerji ehtiyatları var, Azərbaycan qazını Qərb bazarlarına nəql edən müasir boru kəməri fəaliyyət göstərir. Onlar belə fikrə gəldilər ki, niyə də bu prosesi sürətləndirməyək?! Ona görə də bu gün yeni mənbələrə diqqət artmaqdadır. Onu deyə bilərəm ki, Xəzərin ehtiyatları, xüsusən də Azərbaycan Avropa bazarları üçün yeganə yeni qaz mənbəyidir. Bütün digər mənbələr artıq istifadədədir. Bir yerdə hasilat artırılmalıdır ki, digər mənbədən asılılıq azalsın. Lakin yeni mənbəyə gəldikdə, söhbət yalnız bizdən gedə bilər.

- İran, Pakistan və Hindistan arasında sülh boru kəməri adlanan ideya mövcuddur və buna Amerika Birləşmiş Ştatları müqavimət göstərir.

- Bilirsiniz, əgər bu, kommersiya baxımından faydalıdırsa, onda layihədə iştirak edən ölkələr bunu edə bilər. Bəzən neft biznesində müqavimət və əks mövqelər özünü büruzə verir. Neft şirkətlərinin bir çox rəsmiləri bacarıqlı diplomatlara çevrilirlər, çünki onlar bu mühitdə yaşamalıdırlar. Ona görə əgər siyasi iradə olarsa, istənilən layihə baş tutar. Azərbaycanın təcrübəsi çox nümunəvidir. Biz Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisinə başlayanda bir çox müqavimətlərlə üzləşdik. Lakin güclü iradəmiz, aparıcı maliyyə təsisatlarının dəstəyi bunu mümkün etdi.

- Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN bp ŞİRKƏTİNİN PREZİDENTİ TONİ HEYVORD İLƏ GÖRÜŞÜ

Yanvarın 30-da Azərbaycan Prezidenti İlham Əliyev "Konqress" mehmanxanasında bp şirkətinin prezidenti Toni Heyvord ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə bp şirkəti arasında uzunmüddətli məhsuldar, səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirildi, ölkəmizdə enerji sahəsində görülən işlərin, habelə enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın artan önəmi vurğulandı.

Görüşdə bp ilə əməkdaşlığın genişlənəcəyinə əminlik bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN GÖRÜŞÜ

Yanvarın 30-da "Konqress" mehmanxanasında Azərbaycan Prezidenti İlham Əliyevin və Latviya Prezidenti Valdis Zatlersin görüşü olmuşdur.

Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə genişlənməsindən məmnunluq ifadə olundu, qarşılıqlı əlaqələrin Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığa öz töhfəsini verdiyi bildirildi. Həmçinin yüksək səviyyədə görüşlərin bu əlaqələrin möhkəmlənməsi işinə xidmət etdiyi vurğulandı.

İki ölkə arasında münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildiyi görüşdə ikitərəfli əlaqələr və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSRAİL PREZİDENTİ ŞİMON PERESİN GÖRÜŞÜ

Yanvarın 30-da Davos şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin və İsrail Prezidenti Şimon Peresin görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlər, o cümlədən iqtisadi əlaqələr ətrafında fikir mübadiləsi aparıldı.

DAVOSDA AZƏRBAYCAN ÜZRƏ QARŞILIQLI BİZNES ƏLAQƏLƏRİ QRUPUNUN FORUMU KEÇİRİLMİŞDİR

Yanvarın 30-da İsveçrənin Davos şəhərinin "Konqress" mərkəzində Azərbaycan üzrə qarşılıqlı biznes əlaqələri qrupunun forumu keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev forumda iştirak etmişdir.

Beynəlxalq işgüzar dairələrin nümayəndələrinin iştirak etdiyi görüşü Dünya İqtisadi Forumunun Avropa və Mərkəzi Asiya regionu üzrə direktoru STEFAN KİNNOK açaraq dedi:

- Xanımlar və cənablar, bu gün hamınızı burada görməkdən olduqca məmnunuq. Davosda Dünya İqtisadi Forumuna xoş gəlmisiniz. Mən Dünya İqtisadi Forumunun Avropa və Mərkəzi Asiya regionu üzrə direktoru Stefan Kinnokam. Bu gün görüşümüzdə Prezident İlham Əliyevin iştirakından çox məmnunuq.

Forum uzun müddət ərzində Prezident Əliyevlə uğurla əməkdaşlıq edib və ümidvarıq ki, bu münasibətlər belə də davam edəcəkdir. Qarşılıqlı biznes əlaqələri qrupunun məqsədi dəvət olunmuş ölkələrdə iqtisadi vəziyyət barədə məlumatı birbaşa əsas mənbədən almaq və işgüzar dairələri maraqlandıran sualları hökumət rəsmilərinə və biznes sektorunun tanınmış şəxslərinə vermək, narahatlıq doğuran məsələləri onlarla araşdırmaq və nəhayət, biznes əlaqələri baxımından gələcək işlər ətrafında fikir mübadiləsi aparmaqdan ibarətdir. Beləliklə, bu görüşün çərçivəsi söylədiyim mövzular ətrafında olacaqdır.

İndi isə, çıxış üçün sözü Prezident Əliyevə vermək istəyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Çox sağ olun.

Hörmətli xanımlar və cənablar!

Sizi görməyimə çox şadam. Hesab edirəm ki, bugünkü görüş ölkəmizin hazırkı inkişafını daha yaxşı anladacaqdır. Ölkəmiz dövlətin planlı iqtisadiyyatından bazar iqtisadiyyatına keçidlə xarakterizə olunan böyük dəyişikliklər yolunu keçmişdir. İyirmi ilə yaxındır ki, ölkəmiz müstəqil dövlətdir. Bu müddət ərzində qarşımızda qoyduğumuz bütün məqsədlərə nail ola bildik. Bu gün iqtisadiyyatımız özünü təmin edir. Ümumi daxili məhsulun artımına gəldikdə, Azərbaycan son dörd il ərzində ardıcıl şəkildə dünyanın ən sürətlə inkişaf edən ölkəsi olubdur. 2003-2008-ci illər ərzində ÜDM 2,6 dəfə artmışdır. Təbii ki, bu, çox böyük göstəricidir və planlaşdırdığımız bütün islahatları həyata keçirməyə imkan yaradır. Biz bazar iqtisadiyyatı prinsiplərinə qəti surətdə sadiqik.

Sizə məlumat vermək istərdim ki, 1991-ci ildə Azərbaycan müstəqilliyini qazandığı zaman iqtisadiyyatımızın özəl sektoru sıfır səviyyəsində idi. İndi isə, iqtisadiyyatımızın 85 faizi özəl sektorun payına düşür. Sürətli iqtisadi inkişaf, böyük infrastruktur, enerji və nəqletmə layihələrinin həyata keçirilməsi regionda yeni vəziyyət yaratmışdır. Coğrafi mövqeyimiz olduqca əlverişlidir. Lakin davamlı nəqletmə marşrutları olmadan coğrafiya böyük məna kəsb etmir. Coğrafi mövqeyimizdən istifadə edərək, biz ölkəmizin və xalqımızın tələbatlarına cavab vermək və qonşuluqda olan dövlətlərin və Avropa qitəsinin enerji təhlükəsizliyinə töhfə vermək məqsədi ilə müxtəlif istiqamətlərdə gedən neft və qaz kəmərlərini çəkdik.

Son beş il ərzində Azərbaycanın sənaye istehsalı iki dəfədən çox artmışdır. Biz, demək olar ki, işsizliyi aradan qaldıra bildik. Regionların inkişafı proqramı bizə son beş il ərzində 766 min yeni iş yeri açmaq imkanı yaratdı. Bu proqram hazırda Azərbaycanın bütün bölgələrinin daha tarazlı şəkildə inkişafını təmin edir. Bir sözlə, sürətli iqtisadi inkişaf, iqtisadi islahatlar, enerji siyasəti, güclü sosial proqramlar, təhsilə, səhiyyəyə və informasiya texnologiyalarının inkişafına qoyulan sərmayələr bu gün Azərbaycanın reallığıdır.

Hesab edirəm ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın 2008-ci ildə dünyada bir nömrəli islahatçı ölkə elan olunması göstərdiyimiz səylərə verilən yüksək qiymətdir. Bu, yerli və xarici sərmayədarları Azərbaycandakı imkanlara daha diqqətlə baxmağa sövq edir. Ölkəmizdə sərmayə mühiti də çox müsbətdir. Son beş il ərzində Azərbaycana təxminən 40 milyard dollar sərmayə yatırılmışdır. Xarici və yerli sərmayələr qanunla qorunur. Gələn illər ərzində, təbii olaraq, biz iqtisadiyyatın qeyri-neft sektoruna daha çox sərmayə qoyacağıq. İqtisadiyyatın inkişafına təkan vermək məqsədi ilə olduqca güzəştli kreditlərin ayrılması ilə özəl sektora dəstəyimizi davam etdirəcəyik. Bütün məqsədlərimizə nail olmaq üçün gələcəkdə görüləcək işlər çoxdur. Təcrübəmiz göstərir ki, güclü siyasi iradə və regional əməkdaşlıq, eləcə də siyasi və iqtisadi islahatlar nəticəsində planlaşdırdıqlarımıza nisbətən qısa müddət ərzində nail olmaq mümkündür.

Bu gün Azərbaycan tam mənada müstəqil ölkədir. Yəni ölkəmiz heç bir digər dövlətdən asılı deyildir. Biz özünü təmin edən ölkəyik. Maliyyə ehtiyatlarımız 20 milyard dollara yaxındır. Halbuki, dövlət borcu təqribən 2,5 milyard dollar həcmindədir. Hətta

böhranın ilk aylarında da, iqtisadiyyatımız davamlı şəkildə inkişaf etmişdir.

Bəlkə, mən burada giriş sözümü başa çatdırım və sizi maraqlandıran sualların verilməsinə imkan yaradaq. Sağ olun.

APARICI: Sual verərkən özünüzü təqdim edin və işlədiyiniz təşkilatın adını çəkin.

- Cənab Prezident, bizimlə görüşdüyünüzə görə minnətdaram. Mən Türkiyənin "Borusan Holdinq" şirkətinin rəhbəriyəm. İcazənizlə, mən iki məsələ ilə bağlı Sizə sual verərdim. Biz "Katerpillar"ı Azərbaycanda və regionun digər ölkələrində təmsil edirik. Mən gələcəkdə, xüsusən hazırkı mürəkkəb iqtisadi böhran şəraitində, infrastruktur sərmayələri sahəsində Sizin prioritetlərinizi bilmək istəyirəm.

İkinci sualım ondan ibarətdir ki, biz Türkiyədə bərpa olunan enerji növlərinə sərmayə qoyan şirkətik. Bununla bağlı yeni imkanları fəal şəkildə axtarırıq. Azərbaycanda alternativ, xüsusən də külək enerjisi ilə bağlı Sizin şərhlərinizi bilmək istərdim.

- İnfrastruktur layihələrinə gəldikdə, bu il biz həmin sahəyə böyük sərmayə qoyuluşunu davam etdirəcəyik. Bu işlərin bütün məsuliyyətini dövlət öz üzərinə götürür. Özəl şirkətlər üçün daha yaxşı şərait təmin etmək məqsədi ilə biz müasir infrastruktur yaratmalıyıq. Son illər ərzində biz dəmir və avtomobil yollarına, elektrik stansiyalarına, su təchizatına, hava limanlarına və Xəzərdə yük daşımalarını artırmaq üçün gəmiçiliyə sərmayə qoymuşuq. 2009-cu ildə dövlət sərmayələrinin həcmi təxminən 5 milyard dollar olacaqdır. Əlbəttə ki, neftin qiymətləri planlarımıza müəyyən təsir göstərə bilər, lakin əminəm ki, planlaşdırdığımız bütün infrastruktur layihələrini həyata keçirə biləcəyik. Tikinti sahəsi bu işlərin ən böyük hissəsini təşkil edir. Biz dünyanın bütün yerlərindən şirkətləri həmin layihələrdə iştirak etməyə dəvət edirik. Onları həm sərmayədar, həm də podratçı kimi görməkdən şad olardıq. İmkanlar çoxdur. Enerjinin kifayət dərəcədə olmasına gəlincə, son beş il ərzində biz əsasən ənənəvi enerji mənbələrindən istifadə etmişik. Beş il ərzində biz qazla işləyən altı elektrik stansiyası tikdik və bu, bizə elektrik enerjisini ixrac etmək imkanını da yaratdı. Bundan əvvəl biz elektrik enerjisini idxal edirdik. Hazırda biz bərpa olunan enerji mənbələrinə sərmayə qoymaqda özümüzü daha rahat mühitdə hiss edirik. Bunun üzərində çalışırıq, çünki bizdə, əsasən, su elektrik enerjisi stansiyaları nəzərdə tutulur. Çaylarımızın bütün potensialından istifadə etməyə və süni göllər əsasında böyük elektrik enerjisi stansiyalarının tikintisini planlaşdırırıq. Eyni zamanda, külək və günəş enerjisinin də böyük potensialı var. Bakı küləklər şəhəridir. İlboyu küləklər əsir. Eyni zamanda, ölkəmizin digər bölgələri kimi, paytaxtımız çox günəşli şəhərdir. Təbii ki, gələn beş il ərzində biz bərpa olunan enerji mənbələrinə daha çox diqqət yetirəcəyik və bir çox şirkətləri bu səylərimizə qoşulmağa dəvət edəcəyik.

- Şərhlərinizə görə çox minnətdaram. Mən "MasterKard"ın sədriyəm. Ölkənizdə neft sənayesi sahəsinə illər boyu yatırılmış böyük sərmayələrdən xəbərimiz var. Şəxsən mən özüm neft sənayesində işləmişəm və bu sahə ilə bağlılığım var. Lakin, eyni zamanda, bilirik ki, Xəzər dənizində Türkmənistanla mübahisəli yerlərdə işlənilməmiş ehtiyatlar da var. Həmin mübahisənin gələcəkdə həllinə nikbin baxırsınızmı?

- Əlbəttə ki, qonşular arasında narahatlıq doğuran bütün məsələlərin qarşılıqlı surətdə məqbul həllinə ümid edirik. Bütün bu həll variantları beynəlxalq təcrübəyə, hüquqa

əsaslanmalıdır. Azərbaycan beynəlxalq hüquq əsasında Xəzər dənizində öz sektoru daxilində təbii sərvətlərini hasil etmək hüququndan istifadə edir. 1990-cı illərin ortalarında aşkar etdiyimiz neft və qaz yataqları onilliklər ərzində özümüzə və ixrac üçün kifayət edəcəkdir. Əgər qazdan danışırıqsa, ehtiyatlar daxili istehlak və ixrac üçün, ən azı, yüz ilə bəsdir. Bir neçə onilliklər ərzində böyük həcmdə neft hasilatını davam etdirəcəyik. Bu, o demək deyil ki, biz bəzi qonşularımız tərəfindən mübahisəli hesab edilən yataqlara daxil olmağa təcili ehtiyac duyuruq. Biz yaxşı, vicdanla və tərəfdaşlıq ruhunda həll yolunu tapmaq istəyirik. Lakin bu, beynəlxalq təcrübəyə əsaslanmalıdır. Əlbəttə, əgər biz bu məsələni qısa vaxt ərzində həll etsək, həmin yataqlar tezliklə ümumi hasilat işlərinə daxil edilə bilər. Lakin bu, bizim hasilat həcmimizə təsir göstərməyəcək, Azərbaycan nefti və qazının ixracında böyük maneə olmayacaqdır. Bir sözlə, mümkün qədər tezliklə düzgün həll variantını tapmalıyıq. Lakin o, bütün iştirakçılar üçün qəbuledilən olmalıdır.

- Mənim adım Sami Kuridir. Mən CCC şirkətini təmsil edirəm. Biz Bakı-Tbilisi-Ceyhan boru kəmərini tikmişik. Sualım belədir: söhbət gedir ki, buraxıcılıq gücünü artırmaq və Qazaxıstandan əlavə neft həcmini nəql etmək üçün Bakı-Tbilisi-Ceyhan boru kəməri genişləndiriləcəkdir. Bu, həqiqətən baş verəcəkmi?

- Bilirsiniz, bunu sizdən soruşmalıyıq, çünki boru kəmərini siz çəkmisiniz. Genişləndirmək üçün imkan varmı? Bildiyiniz kimi, Qazaxıstan nefti artıq Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə nəql olunur. Bu, bir daha onu göstərir ki, biz hər şeyi vaxtında etməliyik. Bildiyiniz kimi, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisinə razılıq və onun başa çatdırılması neftin qiymətlərinin aşağı səviyyədə olduğu zaman baş tutmuşdur. Ola bilsin, 1 barrelin qiyməti hətta 30 dollardan da az idi. Həmin vaxt hasilatın həcmi təxminən gündə 200 min barrel təşkil edirdi. Belə bir vaxtda buraxıcılıq gücü gündə bir milyon barrel olan boru kəmərinin çəkilməsinə milyonlarla dollar sərmayə yatırmağa başladıq.

Bildirmək istəyirəm ki, Avropada hazırda müzakirə edilən Nabukko, TGI və TAP kimi layihələr, ola bilsin ki, ehtiyatların həcmindən asılı olmayaraq, həyata keçirilməlidir. Qazaxıstanın timsalında olduğu kimi, boru kəmərləri istismara veriləndə neft və qazın nəqli başlana bilər. 2006-cı ildə boru kəməri istismara verildi və nəqlolunma ilə bağlı Qazaxıstanla hökumətlərarası saziş imzalandı. 2007-ci ildə dövlət şirkətləri saziş imzaladılar və 2008-ci ildə artıq Qazaxıstan neftinin nəqli başlamışdır. Genişlənmə potensialı var. Hasilatın həcmi gündə təqribən 1,1 və 1,2 milyon barrel olacaqdır. Onun əksər hissəsi Bakı-Tbilisi-Ceyhan boru kəmərinə yönəldilir. Təbii ki, Xəzərin şərq sahilindən daha çox neft ötürülərsə, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin imkanları sizin köməyinizlə genişləndirilə bilər. Belə olarsa, ərazimizdən əvvəl planlaşdırılan həcmdən daha çox neft nəql edilə bilər.

- Cənab Prezident, mənim adın Con Ceymbersdir. CISCO-nu təmsil edirəm. Sizi bir daha görməyimə şadam. Sualdan öncə, ölkənizin özəl sektorunda etdiyiniz uğurlu dəyişikliklər münasibətilə Sizi təbrik etmək istərdim. Hazırda bir çox ölkələr genişzolaqlı infrastrukturu sürətlə yaradır. Hətta bu sürət gözləniləndən də yüksəkdir. Böhrana baxmayaraq, bu inkişaf sürətini həm Birləşmiş Ştatlarda, həm Birləşmiş Krallıqda, həm də Sinqapurda görmüşəm. İlk növbədə, Sizi bu nailiyyətlər münasibətilə təbrik edirəm. Sizinlə görüşmək imkanının yaradılmasına görə minnətdarıq.

Bilirəm ki, Sizin rəhbərliyiniz altında Azərbaycan götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Lakin bilmək istərdim: Siz gələcəkdə genişzolaqlı infrastrukturun inkişaf sürətini artırmaq və ya eyni səviyyədə saxlayaraq, daha çox səhiyyə, təhsil və digər sahələrə diqqət yetirəcəyinizi planlaşdırırsınızmı?

- Şərhlərinizə görə çox minnətdaram. Qarşılıqlı maraq doğuran məsələlərə aid görüşlər və müzakirələr yadımdadır. Biz Azərbaycanda informasiya texnologiyaları sektorunun inkişafına çox sadiqik. Onun böyük gələcəyi var. Fikrimcə, neft və enerji sektorundan sonra bu, iqtisadiyyatımızın aparıcı sektoru ola bilər və gələcəkdə diqqət mərkəzimizdə olmalıdır.

Enerji məsələlərinə gəldikdə, biz planlaşdırdığımıza artıq nail olmuşuq. Ona görə neftdə olduğu kimi, biz dünyanın ən böyük qeyri-neft şirkətləri ilə birgə eyni razılaşma üsulundan istifadə etməliyik. Bunun böyük potensialı var. Artıq bir çox sərmayələr qoymuşuq. Planlarımız böyükdür. Buraya kosmos sənayesinin yaradılması da daxildir. Azərbaycanda informasiya texnologiyalarının inkişafı sürətlə gedir. Hazırda bütün ali məktəblərin kompyuterləşdirilməsini yekunlaşdırmaq üzrəyik. Gündəlik həyatımızın bütün sahələrində informasiya texnologiyalarının daha geniş şəkildə tətbiqini planlaşdırırıq. Bu sahə gələcəkdə prioritetlərdən biri olaraq qalacaqdır. İqtisadiyyatın digər sahələrində olduğu kimi, biz sosial infrastruktura - səhiyyə və təhsilə böyük sərmayələri davam etdirməliyik. Bu istiqamətdə informasiya texnologiyalarının daha geniş şəkildə tətbiqinə ehtiyac duyulur. Ümidvarıq ki, bu işdə dünyanın aparıcı şirkətləri, o cümlədən CİSCO ilə yaxşı əməkdaşlığımızı davam etdirəcəyik.

- Cənab Prezident, mən Hindistanın "Reliance Qrupu"nu təmsil edirəm. Enerji məsələsi ilə bağlı sualım var. Dünən bu məsələ barədə söylədiyiniz fikirlər məndə böyük təəssürat doğurdu və onları eşitməkdən məmnun oldum. Azərbaycanda nəhəng neft və qaz ehtiyatları var. Ola bilsin, ehtiyatların həcmi cari əsrin sonuna qədər kifayət edəcəkdir. Sizin fikrinizcə, neft və qaz hasilatından əldə olunan gəlirlər gələcəkdə nəinki Azərbaycanın, həm də bütün Avropa regionunun iqtisadi rifahı üçün nə kimi rol oynaya bilər?

- Neft və qaz bizim üçün güclü iqtisadiyyat qurmaq vasitəsi rolunu oynamışdır. Sovet İttifaqının süqutundan sonra, Azərbaycan müstəqilliyini 1991-ci ildə əldə etdiyi vaxt heç nəyimiz yox idi. İqtisadiyyat böhran içərisində idi. Sənaye dayanmışdı. Sovet vaxtında fəaliyyət göstərmiş bütün zavodlarımız faydasız olmuşdu. Sənaye istehsalında və ümumən iqtisadiyyatda müşahidə olunan tənəzzül həddindən artıq böyük idi. İnflyasiya 100 faiz təşkil edirdi. Ona görə də, bizim üçün vəziyyətdən çıxmağın yeganə yolu təbii sərvətlərdən istifadə etmək və potensial sərmayədarlar üçün şərait yaratmaq idi. Bu gün bizim sərmayə qoymaq üçün maliyyə imkanlarımız var. Lakin o vaxt biz sərmayədarları dilə tutmalı idik. Bu, daha çətin idi. Azərbaycan həmin dövrdə Ermənistanla fəal müharibə mərhələsində idi. Ermənistan ölkəmizə qarşı təcavüzə başlamışdı. Belə şəraitdə, əlbəttə ki, Azərbaycan sərmayələr üçün çox riskli ölkə hesab edilirdi. Lakin buna baxmayaraq, biz bu gün əldə etdiyimiz nailiyyətə çatdıq.

Əlbəttə, biz gələcəkdə enerji məsələlərinə davamlı şəkildə diqqət yetirəcəyik, çünki bu məsələlərin ölkəmizin, hətta regionun hüdudlarından kənara çıxması göz qabağındadır.

Enerji təhlükəsizliyi qlobal təhlükəsizlik məsələsidir. Halbuki, beş il əvvəl belə deyildi. Təbii ki, enerji amili iqtisadi inkişafımızda və müəyyən dərəcədə siyasi təşəbbüslərimizdə əsas yer tutacaqdır. Qeyri-neft sektorunun inkişafı üzərində ciddi şəkildə düşünürük. Lakin biz neftin qiymətlərindən və neft hasilatından asılılığı azaltmalıyıq.

Yeri gəlmişkən deyim ki, neftin bir barrelinin qiyməti 40 dollar səviyyəsində olduğu şəraitdə iqtisadiyyatımızın inkişaf səviyyəsi iqtisadiyyatın şaxələndirilməsi, neft və qazdan asılılığın azaldılması sahəsində görülmüş bir çox işləri aydın şəkildə nümayiş etdirir. Bütün bunlar davamlı inkişaf üçün imkanlar yaradacaqdır. Günlərin birində neft və qaz tükənəcəkdir. İqtisadiyyatı irəliyə doğru aparan və inkişaf etmiş ölkələrin uğurunun əsas səbəbi bilik, texnologiya və təhsildir. Biz bu sahəyə diqqət yetiririk və bunu davam etdirəcəyik.

- Mənim adım Markdır, enerji daşıyıcılarının satışı ilə məşğul olan iri şirkətlərdən birinin rəhbəriyəm. Cənab Prezident, Siz ölkənizlə bağlı bir çox müsbət məsələlər söylədiniz. Lakin bilmək istərdim ki, ölkənin gələcəyi ilə bağlı Sizi narahat edən məsələlər varmı? Əgər varsa, hansılardır: neftin qiyməti, iqtisadi böhran və sair.

- İqtisadi inkişafa gəldikdə, əlbəttə ki, siz elə bir ölkə tapa bilməzsiniz ki, böhrandan narahat olmasın. Söhbət mənfi təsirin səviyyəsindən gedir. Vacibi odur ki, bu və ya digər ölkə bu böhrana nə dərəcədə hazırdır. Xoşbəxtlikdən, hesab edirəm ki, Azərbaycan böhrandan minimum itki ilə çıxacaqdır. Lakin yenə də, bu məsələ narahatlıq doğuran məsələdir. Artıq dediyim kimi, enerji məsələlərində davamlı inkişafı təmin etmək üçün hər şey əvvəlcədən planlaşdırılırdı və lazım olan bütün işlər yerinə yetirilmişdir. Bu gün biz regionumuzdan kənarda yerləşən istehlakçılar üçün əhəmiyyətli olan layihələrə daha çox diqqət yetiririk. Avropanın enerji təhlükəsizliyi məsələsinə töhfəmizi davam etdiririk və bildiyiniz kimi, müxtəlif layihələr baxılmaq üzrədir.

Azərbaycan üçün həlli təcili xarakter daşıyan real problem, təbii ki, Ermənistanın Azərbaycan torpaqlarına qarşı davam edən təcavüzüdür. Artıq 17 ildən çoxdur ki, təcavüz hər hansı irəliləyiş və nizamlama olmadan davam edir. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən qətnamələr qəbul edibdir. Ötən il BMT-nin Baş Məclisi oxşar qətnamə qəbul etmişdir. Həmçinin ATƏT, Avropa Şurası və İslam Konfransı Təşkilatı bu cür qətnamələr qəbul etmişlər. Bu, bütün beynəlxalq ictimaiyyət tərəfindən tələb olunur. Bu tələb düzgün, mənalı tələbdir, çünki digər dövlətin ərazisinin işğalını davam etdirmək olmaz. Bu, əsas problemdir. Hesab edirəm ki, beynəlxalq ictimaiyyət bu məsələdə daha həlledici rol oynaya bilər və oynamalıdır.

Biz sülh prosesinə sadiqik, lakin bunun da hüdudları olmalıdır. Biz daim gözləyə bilmərik. Artıq dediyim kimi, bu, 17 ildir davam edir və atəşkəsdən indiyə qədər 15 ildir ki, danışıqlardayıq. Bu məsələ təcili qaydada həll edilməlidir. Belə olmasa, bunun çox təhlükəli nəticələri ola bilər. Qafqazda sülh bərqərar olmayıbdır. Ermənistan ilə Azərbaycan arasında sülh yoxdur. Əslində, iki ölkə arasında müharibə də başa çatmayıbdır. Sadəcə, müharibənin birinci mərhələsi başa çatıbdır. Biz hələ də müharibə şəraitindəyik. Bu, təkcə Azərbaycanın deyil, qlobal və regional təhlükəsizlik problemi və əslində, ədalət problemidir. Əgər dünyada ədalətsizliyi görürüksə və aparıcı beynəlxalq təşkilatlar məsələni ədalət və qanun əsasında həll etməkdə acizdirsə, onda beynəlxalq mü-

nasibətlərin bütün sisteminə xələl gəlir. Beynəlxalq təşkilatlara, beynəlxalq qaydalara etimad sual altına alınır. Bu, sadə bir regional problem deyil, böyük məsələdir. Bu, suallınıza verdiyim cavabdır. Bu məsələ, bizi daim narahat edir.

- Cənab Prezident, mən Hindistandanam, əczaçılıq şirkətini təmsil edirəm. Dünyanın 60 ölkəsində fəaliyyət göstəririk. Bilmək istərdim, Bakıda və ya ölkənizin digər bölgələrində əczaçılıq zavodunu necə açmaq olar və yaxud bunu, müştərək müəssisə formasında etmək mümkündürmü? Sağ olun.

- Bu sualı eşitməkdən çox məmnunam. Zənnimcə, siz bu sahədə işləri necə həyata keçirəcəyinizlə maraqlanırsınız. Bu, çox yaxşı ideyadır və həm ölkələr, həm də şirkətlər üçün daha faydalı olardı. Hazırda bizdə əczaçılıq sənayesi yoxdur, bütün dərmanlar xaricdən gətirilir. Əgər siz əczaçılıq zavodu açmaq istəyirsinizsə, biz bundan şad olardıq. Bunu etmək çətin deyil. Hazırda bizdə biznesi aparmaqda, o cümlədən sərmayə qoymaqda çox asan tənzimləyici qaydalar mövcuddur. Bu, çox vaxt aparmır. Siz, sadəcə, bazar haqqında məlumatı əldə etməli və sərmayələri planlaşdırmalısınız. O ki qaldı başqa qaydalara, bunlar asanlıqla həll oluna bilər. Biz bu səyləri yüksək dəyərləndirərdik və beləliklə, Azərbaycanda yeni sənaye sahəsi açılardı.

* * *

Müzakirələrdə Azərbaycan Beynəlxalq Bankı İdarə Heyətinin sədri Cahangir Hacıyev və Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti Elşad Nəsirov da iştirak edirdilər.

Tədbir başa çatdıqdan sonra işgüzar dairələrin nümayəndələri Prezident İlham Əliyevə yaxınlaşaraq, Azərbaycanla əməkdaşlığa, yeni layihələrdə iştiraka və ölkəmizə sərmayə qoymaqda maraqlı olduqlarını bildirdilər, informasiya texnologiyaları və bank sektoru ilə maraqlandılar.

Forumda İsveçrənin "Swiss Style" jurnalı Azərbaycan Dövlət Neft Şirkətinə xüsusi mükafatını təqdim etdi. Bildirildi ki, Dövlət Neft Şirkəti bu mükafata ekoloji sahədə həyata keçirdiyi kompleks tədbirlərin səmərəliliyinə və Bakı buxtasının təmizlənməsinə görə layiq görülmüşdür.

XARİCİ İŞLƏR NAZİRİ ESTONİYA RESPUBLİKASININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİ AİVO ORAVI ETİMADNAMƏLƏRİNİN SURƏTİNİ TƏQDİM ETMƏSİ İLƏ BAĞLI QƏBUL ETMİŞDİR

Fevralın 2-də xarici işlər naziri Elmar Məmmədyarov Estoniya Respublikasının Azərbaycana yeni təyin edilmiş səfiri Aivo Oravı etimadnamələrinin surətini təqdim etməsi ilə bağlı qəbul etmişdir.

Səfir A.Orav Azərbaycana təyinatından məmnunluğunu bildirmiş və fəaliyyəti dövründə Azərbaycan-Estoniya münasibətlərinin daha da genişlənməsinə xidmət edəcəyini söyləmişdir.

Görüşdə bu ilin əvvəlində Estoniya Prezidenti Toomas Xendrik İlvesin Azərbaycana üçgünlük səfəri və Estoniyanın Baş Naziri Andrus Ansipin 2008-ci ildə Bakıda keçirilmiş Enerji Samitində iştirakı ölkələr arasındakı münasibətlərə əlavə təkan verici kimi qiy-

mətləndirilmiş, bu xüsusda səfərlərin davam etdirilməsinin vacibliyi vurğulanmışdır. İki ölkə arasında iqtisadi sahədə əməkdaşlığın vacibliyi qeyd edilmiş, qarşılıqlı sərmayə layihələrinin həyata keçirilməsi üçün geniş imkanların mövcudluğu bildirilmişdir.

Görüşdə ikitərəfli münasibətlərə aid bir sıra digər məsələlər müzakirə edilmişdir.

XARİCİ İŞLƏR NAZİRİ POLŞANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 4-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Polşanın xarici işlər nazirinin müavini Anjey Kremer ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında uğurla inkişaf edən münasibətlərin daha da intensivləşdirilməsi, yüksək səviyyəli qarşılıqlı səfərlərin təşkil olunmasının vacibliyi vurğulanmışdır. İkitərəfli əlaqələrin inkişaf etdirilməsi, xüsusən qeyri-neft sektorunda əməkdaşlığın perspektivləri nəzərdən keçirilmiş, hökumətlərarası iqtisadi komissiyanın işinin daha da sürətləndirilməsinin əhəmiyyəti qeyd olunmuşdur.

Bundan əlavə, Azərbaycan ilə Polşa arasında mədəniyyət və təhsil sahələrində əlaqələrin daha da genişləndirilməsi üçün gənc mədəniyyət xadimlərinin, diplomatların təcrübə mübadiləsinin davam etdirilməsi, həmçinin iki ölkənin Diplomatik Akademiyaları arasında əməkdaşlığın həyata keçirilməsinin məqsədəmüvafiqliyi vurğulanmışdır.

Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" təşəbbüsünün irəli sürülməsində Polşanın xüsusi rolu olduğunu qeyd edən nazir E.Məmmədyarov bu proqram çərçivəsində əməkdaşlığın davam etdirilməsinin qarşılıqlı faydalı olacağına inandığını bildirmişdir.

E.Məmmədyarov, həmçinin Azərbaycanın qarşılıqlı investisiyaların artırılmasında, iş adamları üçün əlverişli biznes mühitinin yaradılmasında maraqlı olduğunu diqqətə çatdırmışdır.

Ermənistanın Azərbaycan ərazilərini işğal etməsini və bu səbəbdən də bu ölkənin bir sıra irimiqyaslı regional layihələrdən kənarda qaldığını qeyd edən nazir E.Məmmədyarov münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının vacibliyini vurğulamışdır.

Görüşdə beynəlxalq əhəmiyyətli, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN HÖKUMƏTİNİN UNİVERSAL DÖVRİ İCMAL MEXANİZMİ ÜZRƏ HAZIRLADIĞI MİLLİ MƏRUZƏ YÜKSƏK QİYMƏTLƏNDİRİLMİŞDİR

Fevralın 4-də Cenevrə şəhərində BMT Baş Məclisinin 2006-cı il 15 mart tarixli 60/251 saylı Qətnaməsinə müvafiq olaraq İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi üzrə işçi qrupunun 4-cü sessiyası çərçivəsində dövlətlərin insan hüquqlarına dair öhdəliklərinin yerinə yetirilməsinin öyrənilməsi məqsədi ilə Azərbaycan Respublikasının milli məruzəsinə baxılmışdır.

Azərbaycan Prezidentinin 2009-cu il 13 yanvar tarixli Sərəncamına uyğun olaraq xarici

işlər nazirinin müavini X.Xələfovun başçılıq etdiyi nümayəndə heyəti milli məruzənin təqdim edilməsində iştirak etmişdir.

Azərbaycan nümayəndə heyətinin başçısı X.Xələfov milli məruzənin təqdim edilməsi zamanı çıxış edərək sənədin hazırlanması ilə əlaqədar həyata keçirilmiş tədbirlər, ölkəmizdə insan hüquqlarının və əsas azadlıqlarının təmin olunması üçün yaradılmış hüquqi əsaslar, insan hüquqlarının və əsas azadlıqlarının təşviqinin möhkəmləndirilməsinə yönəldilmiş səylər barədə ətraflı məlumat vermiş, 2009-cu il martın 18-də keçiriləcək referendumun insan hüquqları və azadlıqlarının daha da möhkəmləndirilməsi və inkişafı baxımından əhəmiyyətini vurğulamışdır.

Nümayəndə heyətinin başçısı Azərbaycanın insan hüquqlarının beynəlxalq səviyyədə müdafiəsi mexanizmlərində iştirakı, onların fəaliyyətinə töhfəsi, bu sahədə çalışan beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı barədə tədbir iştirakçılarını məlumatlandırmışdır.

Həmçinin X.Xələfov qanunvericiliyin təkmilləşdirilməsi, məhkəmə-hüquq, o cümlədən penitensiar sistemdə aparılan islahatlar və ölkəmizin iqtisadi nailiyyətlərindən danışmış, eyni zamanda Heydər Əliyev Fondu tərəfindən sosial, təhsil, səhiyyə və mədəniyyət sahələrində həyata keçirilmiş proqram və layihələr barədə məlumat vermişdir.

Nümayəndə heyətinin başçısı Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsindən indiyədək keçən qısa müddət ərzində insan hüquqlarının təmin edilməsi sahəsində əldə olunmuş irəliləyiş və nailiyyətlərlə yanaşı, Azərbaycanın qarşılaşdığı çətinliklər və problemlər barədə də danışmışdır.

Çıxışda Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü, onun ağır nəticələri və Azərbaycan Hökuməti tərəfindən qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən söhbət açılmışdır.

Müzakirələrdə iştirak edən dövlətlərin nümayəndələri Azərbaycan Hökumətinin universal dövri icmal üzrə hazırladığı milli məruzəsini və onun müzakirələrə təqdim edilməsini, insan hüquqları və əsas azadlıqlarının təmin olunması istiqamətində qazanılmış nailiyyətləri və həyata keçirilən tədbirləri, bir sıra sahələrdə, xüsusilə də iqtisadi-sosial sahədə aparılan uğurlu islahatları yüksək qiymətləndirmişlər.

Daha sonra nümayəndə heyətinin başçısı və üzvləri digər dövlətlərin nümayəndələri tərəfindən məruzə üzrə verilən sualları və şərhləri ətraflı cavablandırmış, onlarla bağlı Azərbaycan Respublikasında görülmüş tədbirlər, atılmış addımlar və davamlı surətdə göstərilən səylərin mahiyyəti və nəticələri haqqında ətraflı şərhlər vermişlər.

Müzakirələr interaktiv dialoq formasında davam etmiş, Azərbaycan nümayəndə heyətinin başçısı X.Xələfovun yekun çıxışı ilə başa çatmışdır.

Fevralın 5-də Azərbaycan xarici işlər nazirinin müavini X.Xələfov BMT-nin insan hüquqları üzrə yeni seçilmiş Ali Komissarı xanım Navanethem Pillay ilə görüşmüşdür.

Görüşdə tərəflər Azərbaycan Respublikası Hökuməti ilə İnsan Hüquqları üzrə Ali Komissarlığın Ofisi arasında hazırkı əməkdaşlıq səviyyəsindən razılıqlarını bildirmiş, əməkdaşlığın istiqamətləri və perspektivləri ətrafında geniş fikir mübadiləsi aparmışlar. Xanım Ali Komissar Azərbaycan tərəfindən insan hüquqları sahəsində həyata keçirilən islahatları və görülən kompleks tədbirləri müsbət qiymətləndirmişdir.

Xarici işlər nazirinin müavini ölkədə aparılan islahatlar, insan hüquqları və əsas azadlıqlarının təmin olunması sahəsində həyata keçirilən tədbirlər, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və onun nəticəsində insan hüquqlarının kobud və kütləvi pozuntusunun qurbanı olmuş qaçqın və məcburi köçkünlər, o cümlədən itkin düşmüş və girov götürülmüş insanlar barədə həmsöhbətinə məlumat vermişdir.

Səfər çərçivəsində fevralın 6-da X.Xələfov BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Antonio Guteres ilə görüşmüşdür.

Görüşdə Ali Komissar Azərbaycan Respublikası Hökumətinin qaçqın və məcburi köçkünlərin hüquqlarının təmin olunmasına yönəlmiş siyasətini yüksək qiymətləndirmiş və onların vəziyyətinin yaxşılaşdırılması, əhəmiyyətli sayda olan hissəsinin çadır şəhərciklərindən yeni salınmış qəsəbələrə köçürülməsini digər ölkələr üçün nümunə olduğunu qeyd etmişdir.

Azərbaycan Respublikası Hökuməti ilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasında əməkdaşlıq istiqamətləri, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə beynəlxalq donorların cəlb olunmasında Ali Komissarlığın rolu, qaçqın və məcburi köçkünlər üçün yeni salınmış şəhərciklərdə təhsil, məşğulluq, səhiyyə sahəsində Azərbaycan Hökuməti və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən birgə layihələrin işlənib hazırlanması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması məsələləri ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ YƏMƏN, NİGERİYA, BENİN, CƏNUBİ AFRİKA RESPUBLİKASI, VYETNAM, ZİMBABVE VƏ ŞRİ LANKANIN EYNİ ZAMANDA AZƏRBAYCANA YENİ TƏYİN OLUNMUŞ SƏFİRLƏRİNİ ETİMADNAMƏLƏRİNİN SURƏTİNİ TƏQDİM ETMƏLƏRİ ÜÇÜN QƏBUL ETMİŞDİR

Fevralın 5-də xarici işlər naziri Elmar Məmmədyarov Yəmən, Nigeriya, Benin, Cənubi Afrika Respublikası, Vyetnam, Zimbabve və Şri Lankanın eyni zamanda Azərbaycana yeni təyin olunmuş səfirlərini etimadnamələrinin sürətini təqdim etmələri üçün qəbul etmişdir,

Nazir Elmar Məmmədyarov Yəmən, Nigeriya, Benin, Cənubi Afrika Respublikası, Vyetnam, Zimbabve və Şri Lankanın eyni zamanda Azərbaycana yeni təyin olunmuş səfirlərini etimadnamələrinin sürətini təqdim etmələri üçün qəbul etmişdir,05.02.2009

Yəmən Respublikasının səfiri Cəmal Abdulla Əl-Səllal ilə görüşdə səfir ölkələrimiz və xalqlarımız arasında dərin tarixi köklərə söykənən əlaqələrin mövcudluğunu söyləyərək, onların inkişafı üçün mövcud imkanlardan istifadə edilməsinin vacibliyini bildirmişdir. Nazir Məmmədyarov ölkələrimiz arasındakı münasibətlərin intensivləşdirilməsi üçün lazımı əsasların olduğunu qeyd etmiş, Yəmən Respublikasının rəhbərliyinə Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyətlə bağlı qətnaməyə dair BMT-in BA-da 2008-ci ildə keçirilən səsvermə zamanı ölkəmizin ədalətli mövqeyini dəstəklədiyinə görə öz minnətdarlığını bildirmişdir.

Nigeriya Federal Respublikasının səfiri Abubakar Çika ilə görüş zamanı səfir ölkələrimiz arasında neft sənayesi, təhsil və digər sahələrdə əlaqələrin genişlənməsinin vacib-

liyindən danışmışdır. Tərəflər İKT çərçivəsində əməkdaşlıq, dünya neft bazarlarında cərəyan edən proseslər və digər qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmişlər. Nazir E.Məmmədyarov Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyətlə bağlı qətnaməyə dair BMT-in BA-da 2008-ci ildə keçirilən səsvermə zamanı ölkəmizin ədalətli mövqeyini dəstəklədiyinə görə Nigeriya tərəfinə təşəkkür etmişdir.

Benin Respublikasının səfiri d'Almeid Ai Vissinto ilə görüş zamanı tərəflər ölkələr arasındakı münasibətlərin genişlənməsi imkanları, xüsusilə də kənd təsərrüfatı, neft sənayesi, turizm və digər prioritet istiqamətlər ətrafında fikir mübadiləsi aparmışlar. Nazir Azərbaycanın Afrika qitəsinə artan maraqları çərçivəsində Benin Respublikası ilə əlaqələrin möhkəmlənməsinin mühüm rol oynadığını bildirmişdir. Nazir E.Məmmədyarov həmçinin, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlara toxunaraq, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının mümkünlüyünü bildirmişdir.

Cənubi Afrika Respublikasının səfiri Teboqo Seokolo ilə görüşdə iki ölkə arasında bir çox sahələrdə ikitərəfli, habelə beynəlxalq təşkilatlar çərçivəsində münasibətlərin inkişafı perspektivləri nəzərdən keçirilmiş, yüksək səviyyəli qarşılıqlı səfərlərin təşkil edilməsinin vacibliyi vurğulanmışdır. Görüşdə Ermənistanın Azərbaycana qarşı təcavüzü ətrafında da fikir mübadiləsi aparılmış və nazir E.Məmmədyarov münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının mümkünlüyünü qeyd etmişdir.

Vyetnam Sosialist Respublikasının səfiri Buy Din Zin ilə görüşdə siyasi, iqtisadi, xüsusilə neft sənayesi, habelə mədəniyyət, təhsil sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin məqsədəuyğunluğu qeyd olunmuşdur. Nazir E.Məmmədyarov Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı ətraflı məlumat vermiş, münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində nizamlanmasının mümkünlüyünü vurğulamışdır. Görüşdə iki ölkənin XİN-ləri arasında müvafiq məsləhətləşmələrin aparılması və yüksək səviyyədə səfərlərin təşkili ilə bağlı razılıq əldə edilmişdir.

Zimbabve Respublikasının səfiri Pelekezela Mpoko ilə görüşdə səfir öz ölkəsində hazırkı vəziyyət haqqında məlumat vermiş, Zimbabvenin Azərbaycanla münasibətlərin genişləndirilməsində maraqlı olduğunu bildirmişdir. Tərəflər ölkələrimiz üçün qarşılıqlı maraq doğuran sahələrin nəzərdən keçirilməsinin vacibliyini qeyd etmişlər. Eyni zamanda, Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlara toxunaraq, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının mümkünlüyünü bildirmişdir.

Şri-Lanka Demokratik Sosialist Respublikasının səfiri Mohamed Mohamed Zohair ilə görüşdə səfir ölkəsinin Azərbaycanla ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf etdirilməsi, bu istiqamətdə yüksək səviyyədə qarşılıqlı səfərlərin təşkil edilməsində maraqlı olduğunu qeyd etmişdir. Nazir E.Məmmədyarov ölkələrimiz arasında bir çox sahələrdə əməkdaşlıq etmək üçün geniş imkanların mövcud olduğunu qeyd etmiş və bu istiqamətdə müvafiq məsləhətləşmələr aparılmasının əhəmiyyət kəsb etdiyini söyləmişdir. Nazir E.Məmmədyarov habelə, Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq və etnik təmizləmə siyasəti barədə həmsöhbətinə məlumat vermiş, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının mümkünlüyünü bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HİNDİSTAN RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DEBNAD ŞOUNUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Debnad Şounun etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Debnad Şou etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə xatirə şəkli çəkdirdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu.

Səfir ölkəmizdə diplomatik fəaliyyəti dövründə Azərbaycan-Hindistan əlaqələrinin daha da genişlənməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ AİVO ORAVIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Estoniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Aivo Oravın etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Aivo Orav etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə xatirə şəkli çəkdirdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı iki ölkə arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı, bunun daha da genişləndirilməsi üçün böyük potensial imkanların olduğunu dedi. Prezident İlham Əliyev Estoniya Prezidenti Toomas Hendrik İlvesin Azərbaycana rəsmi səfərinin qarşılıqlı əlaqələrin inkişafı baxımından əhəmiyyətini vurğuladı, səfər zamanı keçirilən görüşlərin, biznes forumunun münasibətlərin daha da möhkəmləndirilməsi üçün yaxşı zəmin yaratdığını bildirdi.

Səfir Aivo Orav ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu, əməkdaşlığın müxtəlif sahələrdə genişləndiyini dedi. O, dövlətimizin başçısını əmin etdi ki, Azərbaycandakı diplomatik fəaliyyəti dövründə qarşılıqlı münasibətlərin daha da genişləndirilməsinə səy göstərəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ANQOLA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ SAMUEL TİTU ARMANDUNUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Anqola Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Samuel Titu Armandunun etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Samuel Titu Armandu etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə xatirə şəkli çəkdirdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Söhbət zamanı Azərbaycanla Anqola arasında ikitərəfli münasibətlərə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YƏMƏN RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ CƏMAL ABDULLAH ƏL-CƏLALIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Yəmən Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cəmal Abdullah əl-Cəlalın etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Cəmal Abdullah əl-Cəlal etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə xatirə şəkli çəkdirdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Diplomat Yəmən Respublikasının Prezidenti Əli Abdullah Salehin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yəməndə böyük hörmət və ehtiramla xatırlandığını bildirdi.

Səfir Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan xalqına bundan sonra da tərəqqi və firavan həyat arzuladı.

Dövlətimizin başçısı Azərbaycanla Yəmən arasında ikitərəfli münasibətlərin yaxşı səviyyədə olduğunu dedi və əminliyini bildirdi ki, səfirin ölkəmizdəki diplomatik fəaliyyəti dövründə də qarşılıqlı əlaqələr uğurla inkişaf edəcək, əməkdaşlığın genişləndirilməsi üçün yeni sahələr müəyyənləşdiriləcəkdir. Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Dövlətimizin başçısı Yəmən Prezidenti Əli Abdullah Salehin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİGERİYA FEDERATİV RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ABUBAKAR SİKANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Nigeriya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abubakar Sikanın etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Abubakar Sika etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə xatirə şəkli çəkdirdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Diplomat Nigeriya Prezidenti Umaru Yar Aduanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Nigeriyanın Afrika qitəsində strateji mövqeyi olduğunu bildirən səfir ölkəsinin sürətli iqtisadi inkişaf yolunda olan və zəngin mədəniyyətə malik Azərbaycanla həm ikitərəfli səviyyədə, həm də beynəlxalq təşkilatlar, o cümlədən İslam Konfransı Təşkilatı çərçivəsində əməkdaşlığa böyük önəm verdiyini dedi. O, dövlətimizin başçısını əmin etdi ki, diplomatik fəaliyyəti dövründə qarşılıqlı münasibətlərin daha da genişləndirilməsi üçün səylə çalışacaqdır.

Prezident İlham Əliyev Azərbaycanla Nigeriya arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə inkişafı üçün yaxşı imkanların mövcudluğunu vurğuladı. Dövlətimizin başçısı Nigeriya Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını və xoş arzularını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BENİN RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ VASSİNTO AYİ D'ALMEİDİANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Benin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vassinto Ayi d'Almeidianın etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Vassinto Ayi d'Almeidia etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə xatirə şəkli çəkdirdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Benin arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi baxımından əsas istiqamətlərin müəyyənləşdirilməsinin vacibliyini vurğuladı, bu işdə səfirin üzərinə mühüm vəzifələrin düşdüyünü bildirdi.

Səfir Vassinto Ayi d'Almeidia ikitərəfli münasibətlərin inkişaf etdirilməsində siyasi dialoqun, iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinin əhəmiyyətini vurğuladı. O, dövlətimizin başçısını əmin etdi ki, ölkəmizdə diplomatik fəaliyyəti dövründə qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün fəal surətdə çalışacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VYETNAM SOSİALİST RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ BUY DİN DİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Vyetnam Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Buy Din Dinin etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Buy Din Din etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə xatirə şəkli çəkdirdi.

Sonra Prezident İlham Əliyev diplomatla söhbət etdi.

Ölkələrimiz arasında dostluq əlaqələrinin mövcud olduğunu və bu əlaqələrin genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini söyləyən səfir bu işdə Azərbaycan hökumətinin dəstəyinə arxalandığını vurğuladı.

Dövlətimizin başçısı hər iki ölkənin iqtisadi inkişafının dinamik xarakter daşıdığını xatırlatdı və əlaqələrin inkişafı üçün yaxşı imkanların olduğunu bildirdi. İqtisadi əməkdaşlığın daha da genişləndirilməsi üçün konkret sahələrin müəyyənləşdirilməsinin önəmini vurğulayan Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏNUBİ AFRİKA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TEBOGO SEOKOLONUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Cənubi Afrika Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tebogo Seokolonun etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Tebogo Seokolo etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə xatirə şəkli çəkdirdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Söhbət zamanı qarşılıqlı münasibətlərin inkişafı üçün yaxşı potensialın olduğu vurğulandı və əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ZİMBABVE RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ FELEKEZELA MFOKONUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Zimbabve Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Felekezela Mfokonun etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Felekezela Mfoko etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə xatirə şəkli çəkdirdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Söhbət zamanı iki ölkə arasında münasibətlərin və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ MOHAMED MOHAMED ZUHAİRİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Şri-Lanka Demokratik Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mohamed Mohamed Zuhairin etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Mohamed Mohamed Zuhair etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə xatirə şəkli çəkdirdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Diplomat Şri-Lanka Prezidenti Mahinda Racapaksanın salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycanda olmasından xoş hisslər duyduğunu söyləyən səfir Prezident İlham Əliyevi əmin etdi ki, fəaliyyəti müddətində ikitərəfli münasibətlərin genişləndirilməsi üçün səylə çalışacaqdır.

Prezident İlham Əliyev Azərbaycanla Şri-Lanka arasında əlaqələrin genişləndirilməsi baxımından yaxşı imkanların olduğunu və bunlardan səmərəli istifadə edilməsinin vacibliyini vurğuladı. Dövlətimizin başçısı Şri-Lanka Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

ALMANİYADA AVROPANIN TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİNƏ HƏSR EDİLƏN 45-Cİ BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR

Fevralın 6-8-də Almaniyanın Münhen şəhərində təhlükəsizliyə dair 45-ci konfrans keçirilmişdir. Üç gün davam edən konfransda dünyanın müxtəlif ölkələrinin dövlət və hökumət başçıları, yüksək səviyyəli şəxsləri, ümumən 300-ə yaxın nümayəndə iştirak etmişdir. Konfrans iştirakçıları arasında Almaniya kansleri Angela Merkel, Fransa Prezidenti Nikola Sarkozi, ABŞ-ın vitse-prezidenti Cozef Bayden, Gürcüstan Prezidenti Mixail Saakaşvili, NATO-nun baş katibi Yan de Hop Şxeffer, Beynəlxalq Atom Enerjisi Agentliyinin prezidenti Məhəmməd əl-Baradeyi, Polşa hökumətinin sədri Donald Tusk və başqaları var idi.

Tədbirdə Azərbaycan Respublikasını xarici işlər naziri Elmar Məmmədyarov təmsil etmişdir.

Konfransda nüvə silahının yayılmaması, silahlara nəzarət, NATO-nun gələcəyi, Əfqanıstanda vəziyyət, İranın nüvə proqramı, Qərb və Rusiya arasında münasibətlər müzakirələrin əsas mövzusu olmuşdur.

Konfransın ikinci günü "Regional qeyri-sabitliklər: Cənubi Qafqaz və Balkan" adı altında panel diskussiyaları keçirilmişdir. Cənubi Qafqazda təhlükəsizlik və sabitliyin bərqərar edilməsi üçün münaqişələrin həllinin vacibliyini vurğulayan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov regionun geniş iqtisadi imkanlarının olması və əməkdaşlığın böyük inkişaf gətirəcəyi barədə səslənən fikirləri bölüşdüyünü bildirmişdir. Eyni zamanda, bu əməkdaşlığın yalnız Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxmasından sonra mümkün olduğunu, bu halda regionun qarşısında geniş imkanların açılacağını vurğulamışdır.

Konfransın sonuncu günü DNATO-nun gələcəyi və onun Əfqanıstanda missiyası" mövzusunda geniş iclas keçirilmişdir.

Tədbirin təşkilatçısı və sədri, Almaniya diplomatı Volfqanq İşinger yekun sözündə demişdir ki, Münhen görüşü dünya birliyinin qətiyyətli hərəkətlərə hazır olduğunu göstərən mühüm siqnal oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏLİ BABACANI QƏBUL ETMİŞDİR

Fevralın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin xarici işlər naziri Əli Babacanı qəbul etmişdir.

Əli Babacan Türkiyə Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev ötən ay Davosda Baş nazir Rəcəb Tayyib Ərdoğanla görüşünü məmnunluqla xatırladı.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.

Prezident İlham Əliyev Türkiyə Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib

Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını onlara çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜVEYTƏ RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Küveyt Dövlətinə rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Küveytin dövlət bayraqları ilə bəzədilmiş Əl-Küveyt beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi təyyarənin pilləkəni yanında Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah, Küveyt vəliəhdi şeyx Nəvvaf əl-Əhməd əs-Sabah, Milli Məclisin sədri Casim Məhəmməd əl-Xərafi, Baş nazir şeyx Nasir əl-Məhəmməd əl-Əhməd əs-Sabah və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.

Milli geyimli uşaqlar Azərbaycan Prezidentinə gül dəstəsi təqdim etdilər.

Azərbaycanın və Küveytin dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi. Dövlət başçıları fəxri qarovul dəstəsinin önündən keçdilər.

Küveyt Dövlətinin rəsmi şəxsləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri əmir şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabaha təqdim edildi.

Sonra dövlət başçıları arasında qısa protokol söhbəti oldu.

Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜVEYT TİCARƏT VƏ SƏNAYE PALATASI İDARƏ HEYƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞÜ

Fevralın 10-da Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda -"Bəyan" sarayında Küveyt Ticarət və Sənaye Palatası idarə heyətinin sədri Əli Məhəmməd Sünayən əl-Ğənim ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndiyi məmnunluqla vurğulandı. Eyni zamanda, bildirildi ki, qarşılıqlı iqtisadi-ticarət əlaqələri mövcud potensiala cavab vermir və bu əlaqələrin genişləndirilməsi üçün konkret tədbirlərin görülməsi zəruridir.

Söhbət zamanı qarşılıqlı investisiyaların qoyulması, birgə müəssisələrin yaradılması və digər konkret istiqamətlərdə işlərin görülməsinin vacibliyi vurğulandı və əməkdaşlığın genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜVEYT MİLLİ MƏCLİSİNİN SƏDRİ İLƏ GÖRÜŞÜ

Fevralın 10-da Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Bəyan" sarayında Küveyt Milli Məclisinin sədri Casim Məhəmməd əl-Xərafi ilə görüşmüşdür.

Görüşdə Azərbaycanla Küveyt arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olundu, Azərbaycan Prezidentinin Küveyt Dövlətinə rəsmi səfərinin qarşılıqlı münasibətlərin daha da möhkəmlənməsinə xidmət etdiyi vurğulandı. Parlamentlərarası əlaqələrin əhəmiyyətinə toxunulan görüşdə bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsi baxımından yaxşı perspektivlərin mövcudluğu bildirildi, münasibətlərimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜVEYT DÖVLƏTİNİN BAŞ NAZİRİ İLƏ GÖRÜŞÜ

Fevralın 10-da Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Bəyan" sarayında Küveyt Dövlətinin Baş naziri şeyx Nasir əl-Məhəmməd əl-Əhməd əs-Sabah ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında əlaqələrin uğurlu inkişafı vurğulandı, iqtisadi əlaqələrin genişlənməsi üçün yaxşı potensialın olduğu bildirildi.

Azərbaycan Prezidenti İlham Əliyevin Küveyt Dövlətinə rəsmi səfərinin əhəmiyyətinin xüsusi vurğulandığı görüşdə ikitərəfli əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHIN GÖRÜŞÜ

Fevralın 10-da Küveyt paytaxtının "Bəyan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın görüşü olmuşdur.

Görüşdə iki ölkə arasında münasibətlərin inkişaf etdiyi, siyasi əlaqələrin yüksək səviyyədə olduğu bildirildi. Azərbaycanla Küveyt arasında iqtisadiyyat, ticarət, turizm, investisiya sahələrində əlaqələrin inkişaf etdirilməsindən söhbət açıldı.

Dövlət başçıları beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi apardılar.

* * *

Görüş başa çatdıqdan sonra Azərbaycan Prezidentinin və Küveyt Dövləti əmirinin yüksək dövlət ordenləri ilə qarşılıqlı təltif edilməsi mərasimi oldu.

Əmir şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah Prezident İlham Əliyevə ölkəsinin ən ali mükafatı olan "Mübarək əl-Kəbir" ordenini təqdim etdi.

Prezident İlham Əliyev əmir şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabaha Azərbaycanın ali mükafatını - "Heydər Əliyev" ordenini təqdim etdi.

Mərasimdə Küveytin vəliəhdi şeyx Nəvvaf əl-Əhməd əs-Sabah və digər rəsmi şəxslər, Azərbaycan nümayəndə heyətinin üzvləri iştirak edirdilər.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Ali dövlət mükafatlarının təqdim edilməsindən sonra "Bəyan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın iştirakı ilə sənədlərin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlığa dair Birgə komissiyanın yaradılması haqqında sazişi Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Küveyt tərəfdən Baş nazirin müavini və xarici işlər naziri Məhəmməd Sabah əl-Səlim əs-Sabah, Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişi Azərbaycan tərəfdən iqtisadi inkişaf naziri Şahin Mustafayev, Küveyt tərəfdən maliyyə naziri Mustafa Casim əl-Şimali, Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında sazişi Azərbaycan tərəfdən vergilər naziri Fazil Məmmədov, Küveyt tərəfdən maliyyə naziri Mustafa Casim əl-Şimali, Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında ticarət sazişini Azərbaycan tərəfdən iqtisadi inkişaf naziri Şahin Mustafayev, Küveyt tərəfdən ticarət və sənaye naziri və Milli Məclis işləri üzrə dövlət naziri Əhməd Yaqub Bağır əl-Abdullah, Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Küveyt tərəfdən ticarət və sənaye naziri və Milli Məclis işləri üzrə dövlət naziri Əhməd Yaqub Bağır əl-Abdullah imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Fevralın 10-da "Bəyan" sarayında Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜVEYTƏ RƏSMİ SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Fevralın 11-də "Bəyan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın qısa görüşü olmuşdur.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Küveyt Dövlətinə rəsmi səfəri başa çatmışdır.

Azərbaycanın və Küveytin dövlət bayraqları ilə bəzədilmiş Əl-Küveyt beynəlxalq hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycanın və Küveytin dövlət himnləri səsləndi.

Prezident İlham Əliyevi Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah və ölkənin digər rəsmi şəxsləri böyük hörmət və ehtiramla yola saldılar.

ÇEXİYANIN BAŞ NAZİRİ MİREK TOPOLANEKİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Fevralın 13-də Çexiya Respublikasının Baş naziri Mirek Topolanek Azərbaycana birgünlük rəsmi səfərə gəlmişdir.

Heydər Əliyev adına beynəlxalq hava limanında hörmətli qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Milli geyimli uşaqlar Çexiya hökumətinin başçısına gül dəstəsi təqdim etdilər.

Çexiyanın Baş naziri Mirek Topolaneki Azərbaycanın Baş naziri Artur Rasizadə və digər rəsmi şəxslər qarşıladılar.

Hər iki ölkənin dövlət himnləri səsləndirildi.

Qarşılanma mərasimindən sonra hava limanının ali qonaqlar üçün salonunda Çexiyanın Baş naziri Mirek Topolanek və Azərbaycanın Baş naziri Artur Rasizadə arasında qısa protokol söhbəti oldu.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Çexiya Respublikasının Baş naziri Mirek Topolanek və onu müşayiət edən nümayəndə heyəti fevralın 13-də Fəxri xiyabanı ziyarət etmişdir.

Mirek Topolanek xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etdi, məzarı önünə əklil qoydu.

Qonaq görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə tər güllər düzdü.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Fevralın 13-də Baş nazir Mirek Topolanek və Çexiya nümayəndə heyətinin üzvləri Şəhidlər xiyabanına gələrək, ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş cəsur Vətən övladlarının xatirəsini yad etdilər. Baş nazir "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Qonaqlar buradan Bakının mənzərəsini seyr etdilər. Onlara xalqımızın müstəqillik uğrunda apardığı mübarizə, Şəhidlər xiyabanının salınma tarixi və burada aparılan yenidənqurma işləri barədə məlumat verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYANIN BAŞ NAZİRİ MİREK TOPOLANEK İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Çexiyanın Baş naziri Mirek Topolanek ilə görüşmüşdür.

Görüşdə Azərbaycanla Çexiya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. İqtisadi əlaqələrin, o cümlədən energetika sahəsində əməkdaşlığın gələcəkdə genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.

İkitərəfli əlaqələrimizin, eyni zamanda, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı çərçivəsində daha da möhkəmləndirilməsi baxımından önəmi qeyd olundu. Ötən ay Budapeştdə keçirilən Nabukko sammiti çərçivəsində Azərbaycan Prezidenti ilə Çexiya Baş nazirinin görüşünün, habelə Mirek Topolanekin ölkəmizə rəsmi səfərinin ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi, əlaqələrin gələcək perspektivlərinin müzakirəsi və əməkdaşlığın daha da dərinləşdirilməsi üçün konkret istiqamətlərin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli olduğu bildirildi.

ÇEXİYA BAŞ NAZİRİNİN ŞƏRƏFİNƏ

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Çexiyanın Baş naziri Mirek Topolanekin şərəfinə rəsmi nahar verilmişdir

AZƏRBAYCAN VƏ ÇEXİYA BAŞ NAZİRLƏRİNİN GÖRÜŞÜ

Fevralın 13-də Azərbaycanın Baş naziri Artur Rasizadə hazırda Avropa İttifaqında sədrlik edən Çexiya hökumətinin rəhbəri Mirek Topolanek ilə görüşmüşdür.

Artur Rasizadə Çexiyanın Baş nazirinin ölkəmizə ilk səfərindən sonra ikitərəfli əlaqələrin daha da genişlənəcəyinə əmin olduğunu bildirərək dedi ki, Azərbaycan Avropa strukturlarına fəal inteqrasiya etmək niyyətindədir. Bu yolda çox işlər görülüb və bundan sonra daha çox işlər görülməlidir.

Azərbaycan hökumətinin başçısı ölkəmizdə siyasi və iqtisadi sabitlikdən danışaraq bildirmişdir ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi həm Azərbaycan üçün, həm də bütövlükdə bizim region üçün əsas problem olaraq qalır.

A.Rasizadə Çexiya nümayəndə heyətinin üzvlərinə Azərbaycanın dinc sakinlərinin doğma yurdlarından qovulmasına gətirib çıxarmış bu münaqişənin tarixi barədə ətraflı məlumat verdi, onları Ermənistan silahlı birləşmələri tərəfindən Azərbaycanın Xocalı şəhərinin sakinlərinə qarşı törədilmiş vəhşilikləri əks etdirən fotoxronika ilə tanış etmişdir.

Görüşdə regionda vəziyyət, beynəlxalq həyatın aktual problemləri barədə geniş fikir mübadiləsi aparıldı.

Görüş başa çatandan sonra keçirilmiş brifinqdə M.Topolanek bildirdi ki, Çexiyanın Avropa İttifaqında sədrliyi dövründə Aİ ilə əməkdaşlığa səy göstərən ölkələr üçün viza rejiminin sadələşdirilməsi, gələcəkdə sərbəst ticarət zonası yaradılması kimi yeni təşəbbüslər prioritet olacaqdır. M.Topolanek dedi: "Yeni qonşuluq", "Şərq tərəfdaşlığı" kimi proqramlar Avropa İttifaqında üzvlüyü əvəz edə bilməz. Lakin Ukrayna, Gürcüstan, Azərbaycan və başqa ölkələrin də bu istiqamətdə irəliləməsi üçün biz həmin təşəbbüsləri onlar üçün reallaşdırmağa çalışırıq".

Daha sonra o vurğuladı ki, görüş zamanı iki ölkə arasında əlaqələrin genişləndirilməsi, habelə Azərbaycanla Avropa İttifaqının qarşılıqlı münasibətləri məsələləri nəzərdən keçirilmişdir.

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ İLƏ TANIŞLIQ

Fevralın 13-də Çexiya Respublikasının Baş naziri Mirek Topolanek və onu müşayiət edən nümayəndə heyəti Milli Azərbaycan Tarixi Muzeyində olmuşdur.

Qonağa məlumat verildi ki, 1920-ci ildə yaradılmış muzeydə qədim dövrdən başlayaraq, Azərbaycan tarixinin bütün mərhələlərinə dair 300 mindən çox eksponat toplanmışdır. Azərbaycanın ərazisində mövcud olmuş Atropatena, Albaniya, Şirvanşahlar, Ağqoyunlular, Səfəvilər dövlətləri dövrünə aid maddi mədəniyyət nümunələri ölkəmizin qədim dövlətçilik ənənələrinin bariz nümunəsidir.

Orta əsr Azərbaycan əhalisinin məişətdə işlətdiyi əşyalar Cexiyanın Baş nazirində xüsusi maraq doğurdu. Hörmətli qonağa məlumat verildi ki, 150-dən çox işçinin çalışdığı muzey həm də Milli Elmlər Akademiyasının strukturunda elmi tədqiqat və mədəni-maarif müəssisəsi funksiyasını yerinə yetirir. Muzeyin yerləşdiyi, 1895-1897-ci illərdə tikilmiş və Bakının memarlıq abidələrindən sayılan bina isə Azərbaycan milyonçusu, məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin mülkü olmuşdur.

Bina Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə əsaslı təmir olunmuş və yeni görkəm almışdır.

Muzeylə tanışlıqdan xoş təəssürat alan Mirek Topolanek fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

AZƏRBAYCAN İLƏ ÇEXİYA ARASINDA MÜNASİBƏTLƏRİN İNKİŞAFINDA MÜHÜM ROL OYNAMIŞ ŞƏXSLƏRƏ "KAREL KRAMARJ" XATİRƏ MEDALI TƏQDİM EDİLMİŞDİR

Fevralın 13-də Çexiya Respublikasının Baş naziri Mirek Topolanek Azərbaycan ilə Çexiya arasında münasibətlərin inkişafında mühüm rol oynamış şəxslərə "Karel Kramarj" adına xatirə medalını təqdim etmişdir.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, ölkəmizin Çexiyadakı səfiri Tahir Tağızadə, Bakı Slavyan Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Kamal Abdullayev, tanınmış kinorejissor, xalq yazıçısı Rüstəm İbrahimbəyov bu medala layiq görülmüşlər.

Mərasimdə Azərbaycan-Çexiya münasibətlərinin strateji əhəmiyyəti, əlaqələrin daha da dərinləşməsinin zəruriliyi vurğulandı. Baş nazir Mirek Topolanek iki ölkə arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə əlaqələrin mövcud səviyyəsini yüksək qiymətləndirərək bildirdi ki, Azərbaycan-Çexiya münasibətləri qarşılıqlı maraqlara uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Azərbaycan ilə Çexiya arasında gözəl əlaqələrin olduğunu bildirən xarici işlər naziri Elmar Məmmədyarov qarşılıqlı münasibətlərin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini söylədi. Çexiyanın bu ilin payızında Bakıda səfirliyini açmaq niyyətini yüksək qiymətləndirən nazir bunu ikitərəfli münasibətlərin daha da inkişafına töhfə verəcəyini bildirdi.

SƏFƏR BAŞA ÇATDI

Fevralın 13-də Çexiya Respublikasının Baş naziri Mirek Topolanekin Azərbaycana birgünlük rəsmi səfəri başa çatmışdır.

Heydər Əliyev adına beynəlxalq hava limanında hörmətli qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Çexiya hökumətinin başçısını Azərbaycanın Baş naziri Artur Rasizadə və digər rəsmi şəxslər yola saldılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ QORAN LENMARKERİ QƏBUL ETMİŞDİR

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkeri qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

XARİCİ İŞLƏR NAZİRİ BÖYÜK BRİTANİYA KRALLIĞININ XARİCİ VƏ BİRLİK OFİSİNİN SİYASİ İDARƏSİNİN BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 13-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Böyük Britaniya Krallığının Xarici və Birlik Ofisinin Siyasi İdarəsinin baş direktoru Mark Justin Layll Qrant ilə görüşmüşdür.

M.Qrant ölkələrimiz arasında sıx və faydalı əməkdaşlığın olduğunu qeyd edərək, onun inkişaf perspektivlərindən danışmışdır. Avropa İttifaqının "Şərq tərəfdaşlığı" təşəbbüsünün regionun inkişafında vacib rol oynaya biləcəyini söyləyən britaniyalı qonaq, proqramın Cənubi Qafqazda sülh və əmin-amanlığın bərqərar olmasında mümkün təsiri barəsində fikirlərini söyləmişdir.

Nazir E.Məmmədyarov ikitərəfli münasibətlərdən məmnun olduğunu bildirmiş və Avropa İttifaqının "Şərq tərəfdaşlığı" təşəbbüsünə toxunaraq, bu proqramın Azərbaycanın Aİ ölkələri ilə əməkdaşlığının daha da genişlənməsi üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunun nazir E.Məmmədyarov, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həllinin mümkünlüyünü bildirmişdir.

Görüşdə, həmçinin ikitərəfli münasibətlərə dair bir sıra digər məsələlər də müzakirə edilmişdir.

XARİCİ İŞLƏR NAZİRİ NİDERLAND KRALLIĞININ XARİCİ SİYASƏT İDARƏSİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 13-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Niderland Krallığının xarici siyasət idarəsinin siyasi məsələlər üzrə baş direktoru Piter de Hayer ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Niderland arasında əməkdaşlığın cari vəziyyəti müzakirə olunmuş, əlaqələrin daha da inkişafı üçün xarici işlər nazirlikləri arasında mütəmadi siyasi məsləhətləşmələrin aparılması, qarşılıqlı səfərlərin daha da intensivləşdirilməsi, iş adamlarının, mədəniyyət nümayəndələrinin təcrübə mübadiləsinin və digər sahələrdə əlaqələrin genişləndirilməsinin məqsədəmüvafiqliyi vurğulanmışdır.

Niderland diplomatı Cənubi Qafqaz bölgəsində gedən proseslərə toxunaraq regionda sabitliyin bərqərar olunması, bunun üçün Avropa İttifaqının "Şərq tərəfdaşlığı" təşəbbüsünün həyata keçirilməsinin vacibliyi və ölkəsinin bu proqramı tam dəstəklədiyini demişdir.

Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermiş, problemin yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipi, sərhədlərinin toxunulmazlığı çərçivəsində həllinin mümkünlüyünü qonağın diqqətinə çatdırmışdır.

Piter de Hayer Niderland hökumətinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini birmənalı dəstəklədiyini vurğulamışdır.

Görüşdə, həmçinin regional məsələlər və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YUNANISTANA DÖVLƏT SƏFƏRİ

Fevralın 15-də Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstana dövlət səfərinə gəlmişdir.

Azərbaycanın və Yunanıstanın dövlət bayraqları ilə bəzədilmiş Afina beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Yunanıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmətlə qarşıladılar.

Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.

Azərbaycan Prezidenti hava limanından "Grande Bretagne" mehmanxanasında onun üçün ayrılmış iqamətgaha yola düşdü.

PREZİDENT SARAYI ÖNÜNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ

Fevralın 16-da Yunanıstan Prezidentinin sarayı önündə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Sarayın qarşısında Azərbaycanın və Yunanıstanın dövlət bayraqları asılmış, Azərbaycan Prezidentinin şərəfinə milli qvardiyaçılardan ibarət fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Yunanıstan Prezidenti Karolos Papulyas qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Yunanıstanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Yunanıstanın rəsmi şəxsləri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Yunanıstan Prezidenti Karolos Papulyasa təqdim olundu.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYASIN GÖRÜŞÜ

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Yunanıstan Prezidenti Karolos Papulyasın təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, enerji sahələrində əlaqələrin inkişafından məmnunluq ifadə olundu və bu səfərin qarşılıqlı əlaqələrin genişlənməsi baxımından əhəmiyyəti vurğulandı.

İki ölkə arasında münasibətlərin bundan sonra da genişlənəcəyinə əminliklərini bildirən dövlət başçıları ikitərəfli, beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi apardılar.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Təkbətək görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Yunanıstan Prezidenti Karolos Papulyasın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Qarşılıqlı əlaqələrin genişlənməsindən danışan Prezident Karolos Papulyas Azərbaycan Prezidentinin Türkiyə-Yunanıstan qaz kəmərinin açılış mərasimində iştirakının əhəmiyyətini vurğuladı, eyni zamanda, indiki səfərin də ikitərəfli əlaqələrin genişlənməsinə təkan verəcəyini bildirdi.

Yunanıstanın dövlət başçısı dedi ki, iki ölkə arasında energetika sahəsində əlaqələr də yaxşı inkişaf edir. Bunun regional əməkdaşlıq baxımından da əhəmiyyətli olduğunu vurğulayan Prezident Karolos Papulyas qarşılıqlı əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini söylədi.

İkitərəfli münasibətlərin inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev dedi ki, səfər zamanı imzalanacaq sənədlər siyasi, iqtisadi, enerji və digər sahələrdə əlaqələrin daha da genişlənməsi üçün yaxşı hüquqi əsas yaradacaqdır.

Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın fəal iştirakını xatırladan dövlətimizin başçısı bu baxımdan Yunanıstan ilə də enerji sahəsində əməkdaşlığın əhəmiyyətini vurğuladı.

Türkiyə-Yunanıstan qaz kəmərinin açılış mərasimində iştirakını və həmin tədbiri məmnunluqla xatırladan Prezident İlham Əliyev dedi ki, həmin qaz xəttinin açılması Azərbaycan-Yunanıstan əlaqələri, eyni zamanda, regional enerji əməkdaşlığı üçün yeni bir mərhələnin başlanğıcı olmuşdur.

Azərbaycan Prezidenti ümidvar olduğunu bildirdi ki, iki ölkənin qarşılıqlı əlaqələri bundan sonra da genişlənəcəkdir.

Prezidentlər ikitərəfli əlaqələrin Azərbaycan-Avropa İttifaqı əlaqələri çərçivəsində əhəmiyyətini vurğuladılar, qarşılıqlı münasibətlərin daha da genişlənməsi üçün yaxşı potensialın olduğunu bildirdilər.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Geniş tərkibdə görüşdən sonra Prezidentlər İlham Əliyevin və Karolos Papulyasın iştirakı ilə Azərbaycan-Yunanıstan sənədlərinin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında konvensiyanı Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Yunanıstanın iqtisadiyyat və maliyyə nazirinin müavini Adtonis Bezas imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında hava əlaqələri haqqında sazişi "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov və Yunanıstanın nəqliyyat və kommunikasiya nazirinin müavini Mixail Bekiris imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov və Yunanıstanın nəqliyyat və kommunikasiya nazirinin müavini Mixail Bekiris imzaladılar.

Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Yunanıstan Respublikasının İnkişaf Nazirliyi arasında bərpa olunan enerji ehtiyatları və enerji səmərəliliyi sahəsində anlaşma memorandumunu Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev və Yunanıstanın inkişaf naziri Kostis Hatzidakis imzaladılar.

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI

Sənədlərin imzalanma mərasimindən sonra Yunanıstanın və Azərbaycanın dövlət başçıları mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

Yunanıstan Prezidenti KAROLOS PAPULYAS dedi:

- Xanımlar və cənablar!

Azərbaycan Prezidentini və onun nümayəndə heyətini burada, Prezident sarayında qarşılamaq böyük şərəfdir. Danışıqlar zamanı biz, əsasən, ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi imkanlarına böyük diqqət yetirdik. Ölkələrimiz arasında prioritet sayılan enerji, sərmayələr, ticarət, mədəniyyət sahələrində əməkdaşlıq əlaqələrin inkişafı üçün böyük potensiala malik olan məsələlərdir.

Cənab İlham Əliyev ilə mən Avropanın qonşuluq siyasəti çərçivəsində Azərbaycanın Avropa İttifaqı əlaqələrini müzakirə etdik.

Yunanıstan Prezidenti bildirdi ki, Azərbaycan Prezidentinin səfəri və yeni imzalanmış sənədlər iki ölkə arasında əlaqələrin inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

Karolos Papulyas Azərbaycana səfərə dəvət etdiyinə görə Prezident İlham Əliyevə təşəkkür etdi və bu dəvəti məmnunluqla qəbul etdiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu səfər Azərbaycan Prezidentinin Yunanıstana ilk dövlət səfəridir və biz Azərbaycanda buna çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfərin nəticələri çox uğurlu olacaq və Yunanıstan-Azərbaycan ikitərəfli münasibətlərinin gələcək inkişafına çox müsbət təsir göstərəcəkdir.

Biz bu gün Sizinlə çox geniş fikir mübadiləsi apardıq və ikitərəfli, regional məsələləri çox geniş təhlil etdik. Azərbaycanın böyük enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün son illər ərzində böyük işlər görülüb və indiki mərhələdə Yunanıstan ilə Azərbaycan arasında əlaqələrin bu sahədə inkişafına mühüm təsiri olacaqdır.

Enerji təhlükəsizliyi məsələləri bu gün dünyanın gündəliyində birinci yerdə dayanan məsələdir və Azərbaycan öz tərəfindən Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolunu oynamağa hazırdır. Artıq bir ildən çoxdur ki, Azərbaycan qazı Yunanıstan bazarına və beləliklə, Avropa İttifaqının bazarına daxil olur. Şübhə yox ki, gələcəkdə bu əməkdaşlığın daha böyük həcmdə aparılması üçün çox yaxşı imkanlar var. Sabah keçiriləcək birgə biznes forumu, əminəm ki, biznes aləmini də bir-birinə daha da yaxınlaşdıracaqdır. Bu istiqamətdə çox böyük potensial var.

Görüş zamanı mən cənab Prezidentə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə Azərbaycanın mövqeyini təqdim etdim. Bildirdim ki, uzun illər ərzində Azərbaycan torpaqları Ermənistanın işğalı altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından didərgin salınıbdır. Münaqişələrin həlli üçün ərazi bütövlüyü prinsipi əsas tutulmalıdır və əminəm ki, belə olsa və Ermənistan beynəlxalq hüquq normalarına riayət etsə, tezliklə bu münaqişə öz həllini tapa bilər.

Cənab Prezident, mənim dəvətimi qəbul etdiyinizə görə Sizə öz təşəkkürümü bildirmək istəyirəm və səbirsizliklə Sizi Azərbaycanda gözləyirəm.

Bir daha qonaqpərvərliyə və göstərdiyiniz çox səmimi münasibətə görə Sizə minnətdarlığımı bildirirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTAN PARLAMENTİNDƏ ƏSAS MÜXALİFƏT PARTİYASININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 16-da Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Grande Bretagne" mehmanxanasında Yunanıstan parlamentində əsas müxalifət partiyası olan Ümumyunanıstan Sosialist Hərəkatının sədri Georgios Papandreu ilə görüşmüşdür.

Görüşdə Azərbaycan-Yunanıstan münasibətlərinin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.

"VARDINOYANNIS GROUP"UN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ "MOTOR OIL HELLAS"IN PREZİDENTİ İLƏ GÖRÜŞ

Fevralın 16-da Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Grande Bretagne" mehmanxanasında "Vardinoyannis Group"un idarə heyətinin sədri və "Motor Oil Hellas"ın prezidenti Vardis Vardinoyannis ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Yunanıstan arasında energetika sahəsində əməkdaşlığa dair məsələlər müzakirə olundu.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI YUNANISTAN MİLLİ QALEREYASINDA OLMUŞDUR

Fevralın 16-da Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Yunanıstan Milli Qalereyasında olmuşdur.

Mehriban xanım muzeydə Yunanıstanın müasir rəngkarlıq məktəbini təmsil edən rəssamların əsərlərinə baxdı.

Azərbaycanın birinci xanımına qalereyadakı eksponatların kataloqu hədiyyə olundu.

Muzeylə tanışlıq zamanı Mehriban xanım Əliyevanı YUNESKO-nun xoşməramlı səfiri Marianna Vardinoyannis müşayiət edirdi.

MİLLİ ARXEOLOJİ MUZEY İLƏ TANIŞLIQ

Fevralın 16-da Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstan paytaxtındakı Milli Arxeoloji Muzeylə tanış olmuşdur.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı muzeyin rəhbərləri qarşıladılar.

Dövlətimizin başçısına məlumat verildi ki, muzeydə Yunanıstan tarixinin ən qədim dövrlərini əks etdirən eksponatlar nümayiş etdirilir. Muzey Afinaya gələn turistlərin ən çox maraq göstərdikləri yerlərdən biridir və onlarda Yunanıstanın qədim tarixi, insanların yaşayışı, məşğuliyyəti haqqında aydın təsəvvür yaradır.

Dövlətimizin başçısı və xanımı muzeyin ayrı-ayrı bölmələrində nümayiş etdirilən eksponatlara baxdılar.

Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim olundu.

Azərbaycan Prezidenti və xanımı muzeyin əməkdaşları ilə xatirə şəkli çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ

Fevralın 16-da Yunanıstan Prezidenti Karolos Papulyasın adından Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə ziyafət verilmişdir.

Əvvəlcə mərasim iştirakçıları Azərbaycan Prezidentinə və xanımına təqdim olundu.

Azərbaycanın və Yunanıstanın dövlət himnləri səsləndirildi.

Dövlət başçıları ziyafətdə nitq söylədilər.

YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYASIN NİTQİ

- Zati-aliləri,

Sizi və xanımınızı Afinada salamlamaqdan olduqca məmnunuq. Əminəm ki, bu səfər Azərbaycan ilə Yunanıstan arasında münasibətlərin daha da möhkəmlənməsinə töhfə verəcəkdir.

Xalqlarımız arasında əlaqələr Prometeyin ölkənizdən odu gətirdiyinə həsr olunmuş əfsanənin vaxtlarına təsadüf edir. Siciliyalı Deodor və Strabon xalqlarımızı bir-birinə bağlayan mədəni tellərə də istinad edirdilər.

Bizans dövründə təmaslarımız və mübadilələr dayanmadan davam etmişdir. Sizin regionun cənubuna səfərlərindən sonra, Herakl məhz bu yerlərdə özünə istirahət üçün sakit məskən tapmışdır. Yeni tarixdə Azərbaycan Qara dəniz sahilində yaşayan yunanlara çətin anlarda öz qapılarını açmışdır. Hətta bu gün yunanların Bakıda kiçik, lakin tarixi icmasının olması ölkələrimiz arasında önəmli əlaqələri əks etdirir.

Cənab Prezident,

Bilirəm ki, Siz yunan sivilizasiyasına çox yaxşı bələdsiniz və mən yunan dili və ədəbiyyatını sevdiyinə görə Azərbaycan xalqına minnətdarlığımı bildirmək istəyirəm. Bakıda Yunan Dili və Mədəniyyəti Mərkəzinin fəaliyyət göstərməsi, eləcə də Azərbaycan tələbələrinin dilimizin öyrənilməsinə olan marağı çox əhəmiyyətlidir. Yunanıstan bu səyləri həmişə dəstəkləyəcək və Mərkəzin işinin təkmilləşdirilməsinə yönəlmiş hər bir təşəbbüsə maddi yardım göstərəcəkdir.

Siyasi səviyyədəki münasibətlərimiz daim inkişaf edir. Buna sübut nazirlər və digər hökumət rəsmiləri səviyyəsində qarşılıqlı səfərlərdir.

Xüsusi əhəmiyyət kəsb edən enerji sahəsində, Yunanıstan Azərbaycanı Türkiyə və Yunanıstan vasitəsilə İtaliya ilə birləşdirəcək təbii qaz boru kəmərinin çəkilməsi sahəsində ölkələrimiz arasında əməkdaşlığı səmimiyyətlə arzulayır.

Biz həmçinin arzu edirik ki, ikitərəfli iqtisadi və ticari əlaqələr genişlənsin. İnanıram ki, səfəriniz zamanı iş adamlarımızın görüşləri bu istiqamətə töhfə verəcəkdir.

Cənab Prezident,

Bilirsiniz ki, Qafqaz regionu Yunanıstan üçün çox vacibdir. Biz tarixi dostluq və əməkdaşlıq telləri ilə bağlıyıq. Biz demokratiyanın möhkəmləndirilməsi, qanunun aliliyinin təşviq olunmasına, insan hüquqlarına hörmət bəslənməsində və bütöv regionun əziyyət çəkdiyi münaqişələrin sülh yolu ilə həllində maraqlıyıq.

Karolos Papulyas qeyd etdi ki, bu il Yunanıstan ATƏT-də sədrlik edir və təşkilatın fundamental tələblərinə cavab vermək məqsədi ilə bütün səyləri göstərir. Sədrlik edən tərəf kimi Yunanıstan Dağlıq Qarabağ münaqişəsinin həllinə çalışır, münaqişənin həllində münasib format sayılan Minsk qrupunun yardımı ilə məsələnin dinc yolla çözülməsinə yönəlmiş qərarların qəbul olunmasını məqbul hesab edir. Həmin məsələnin həlli bütün Qafqaz regionunda, habelə dünyada sülh və sabitlik üçün həlledici əhəmiyyətə malikdir.

Karolos Papulyas dedi ki, Yunanıstan Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığını dəstəkləyir və Aİ-yə daha da yaxınlaşmaqda Azərbaycana yardım göstərmək üçün öz təcrübəsini bölüşməyə hazırdır.

Biz "Qara dəniz işbirliyi" çərçivəsində Avropa İttifaqının təşviq etdiyi hər bir regional siyasəti dəstəkləyirik və inanırıq ki, Şərq tərəfdaşlığı region ölkələrini Avropaya daha da yaxınlaşdıraraq, onlara əlavə fayda gətirəcəkdir.

Ölkəmiz "Sülh naminə tərəfdaşlıq" proqramına öz dəstəyini verərək, Azərbaycanın Avratlantik xəttinə yardım edəcəkdir.

Yunanıstanın dövlət başçısı iki ölkə arasında əməkdaşlığın daha da güclənəcəyinə və xalqlarımızın bir-birinə daha yaxın olacağına əminlik ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident,

Xanımlar və cənablar!

İlk növbədə cənab Prezident, Yunanıstan torpağında mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu, Azərbaycan Respublikası Prezidentinin Yunanıstana ilk dövlət səfəridir. İnanıram ki, bu səfər ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır. Keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi, habelə imzalanmış sənədlər əlaqələrimizin inkişafına və genişlənməsinə öz töhfəsini verəcəkdir. Aramızdakı siyasi dialoq yüksək səviyyədədir.

Eyni zamanda, düşünürəm ki, bundan sonra bizim münasibətlərimiz daha sürətlə inkişaf edəcəkdir. Mən Yunanıstanla Azərbaycan arasında münasibətlərin inkişafına xüsusi əhəmiyyət verirəm. Yunanıstan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Ölkələrimiz həm ikitərəfli əsasda, həm də beynəlxalq aləmdə uğurlu əməkdaşlıq edir. Beynəlxalq və regional təşkilatlarda, o cümlədən Avropa İttifaqının yeni qonşuluq siyasəti proqramı və NATO-nun fərdi tərəfdaşlığın fəaliyyət planı çərçivəsində sıx əlaqələrimiz məmnunluq doğurur. Son illərdə irimiqyaslı beynəlxalq layihələrin həyata keçirilməsi, xüsusən Böyük İpək yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması, eləcə də, Avropanın enerji təhlükəsizliyinin təmin olunması is-

tiqamətində səylərimiz artıq öz bəhrəsini verməkdədir. Yunanıstanın ötən ilin noyabrında Bakı şəhərində keçirilən Enerji sammitində təmsil olunması və sammit çərçivəsində imzalanmış bəyannaməyə qoşulması ikitərəfli və regional əməkdaşlıq üçün yaxşı imkanlar açır.

Ölkələrimiz arasında turizm, gəmiqayırma, alternativ enerji, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın yaxşı perspektivləri vardır. Lakin iqtisadi münasibətlərimizin bugünkü göstəriciləri ölkələrimizin potensialına cavab vermir. İki ölkə arasında ticarət dövriyyəsi və sərmayə qoyuluşunun həcmi daha da artmalıdır.

Azərbaycan son illər ərzində sürətli inkişaf yolu keçmiş və iqtisadi baxımdan regionun lider dövlətinə çevrilmişdir. Son beş ildə ölkəmizin iqtisadiyyatı 2,6 dəfə artmışdır. Ölkəmizdə xarici sərmayələrin cəlb edilməsi üçün əlverişli şərait yaradılmışdır, biz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə regionda lider ölkəyik. Son beş ildə ölkə iqtisadiyyatına 47 milyard dollar həcmində sərmayə qoyulmuşdur. Fürsətdən istifadə edərək, Yunanıstanın iş adamlarını Azərbaycana sərmayə qoymağa dəvət edirəm.

Azərbaycan regionda təhlükəsizliyin, sabitliyin təmin edilməsində və beynəlxalq əməkdaşlığın inkişafında mühüm rol oynayır. Lakin artıq 20 ilə yaxındır ki, Azərbaycan Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır. Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal etmiş və burada etnik təmizləmə siyasəti aparmışdır. Nəticədə ölkədə 1 milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun olaraq ədalətli şəkildə həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası Parlament Assambleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri var. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq prinsiplərinə uyğun həll olunmalıdır. Biz bu məsələdə hazırda ATƏT-də sədrlik edən Yunanıstanın da dəstəyinə ümid bəsləyirik.

Hörmətli cənab Prezident,

İcazə verin, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə bir daha öz minnətdarlığımı bildirim və bu badəni Sizin sağlığınıza, Yunanıstanla Azərbaycan arasında dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırım.

NAMƏLUM ƏSGƏRİN MƏZARINI ZİYARƏT

Fevralın 17-də Azərbaycan Prezidenti İlham Əliyev Afinada naməlum əsgərin məzarını ziyarət etmişdir.

Məzarın yerləşdiyi meydanda fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev məzarın önünə əklil qoydu. Hərbi orkestrin ifasında Yunanıstanın və Azərbaycanın dövlət himnləri səsləndi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTAN PARLAMENTİNİN SƏDRİ DİMİTRİS SİUFASLA GÖRÜŞMÜŞDÜR

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 17-də Afinada Yunanıstan parlamentində olmuşdur.

Yunanıstan parlamentinin - Deputatlar palatasının sədri Dimitris Siufas Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

DİMİTRİS SİUFAS dövlətimizin başçısına müraciətlə dedi:

- Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Sizi və parlament üzvlərini bütün deputatlar adından Yunanıstan parlamentinin binasında salamlamaqdan məmnunluq duyuram.

Cənab Prezident, bu, bizim artıq üçüncü görüşümüzdür. Birinci görüşümüz 2007-ci il avqustun 2-də olmuşdu. Həmin vaxt mən ölkənizdə səfərdə idim. Səfərim zamanı tərəfinizdən qəbul edilmək şərəfinə nail oldum. Sonra isə sizin iqtisadi inkişaf nazirinizlə əməkdaşlıq haqqında saziş imzaladıq. İkinci görüşümüz 2007-ci ilin noyabr ayında baş tutdu. Görüş Evros rayonunda yerləşən sərhəd məntəqəsində keçirildi. Həmin tədbir Azərbaycan qazının Türkiyədən Yunanıstana çatdırılması münasibətilə təşkil olunmuşdu. Təbii ki, bu hadisə nəinki Yunanıstan və Türkiyə üçün, o cümlədən Azərbaycan və İtaliya üçün də önəmli idi. Həmin vaxt Azərbaycan qazının Yunanıstan vasitəsilə İtaliyaya və digər Avropa ölkələrinə çatdırılması üçün şərait yarandı.

Cənab Prezident, nazirinizlə imzaladığımız saziş Azərbaycanla Yunanıstan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair sənəd idi. Cənab Prezident, Bakıda söylədiyim fikirlərimizi bir daha xatırlatmaq istəyirəm ki, dördtərəfli, yəni Azərbaycan, Türkiyə, Yunanıstan və İtaliya arasında sazişin imzalanması vacibdir. Çünki bu saziş əsasında Azərbaycan qazı Türkiyə və Yunanıstan ərazisindən tranzit olaraq İtaliyaya və Avropaya çatdırılacaqdır. Bu çox mühümdür, çünki Xəzər dənizində hasil olunan təbii qaz ilk dəfədir ki, Avropaya daxil olur.

Cənab Prezident, həyata keçirdiyiniz dövlət səfəri Yunanıstanla Azərbaycan arasındakı münasibətləri daha da möhkəmləndirəcəkdir. Yunanıstan Prezidenti, Baş nazirlə, müxalifət partiyasının sədri ilə keçirdiyiniz və keçirəcəyiniz görüşlər Azərbaycanla Yunanıstan arasında nəinki enerji sahəsində, həm də tədqiqatlar, texnologiyalar, sərmayələr, ticarət sahələrində münasibətlərin yeni mərhələsini açır. Bu münasibətlər hər iki tərəfin - Yunanıstan və Azərbaycan xalqlarının marağına cavab verəcəkdir.

Cənab Prezident, Sizi Yunanıstan parlamentində bir daha salamlayıram. Burada ölkələrimizin səfirləri də iştirak edirlər. Sizi burada görməkdən çox məmnunuq. Fürsətdən istifadə edərək, icazə verin, Yunanıstan parlamenti sədrinin müavininin və Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədrinin iştirakı ilə keçirilən bu görüşdə ölkəmizə dövlət səfəriniz münasibətilə Sizə Yunanıstan parlamentinin qızıl medalını - "Şərəf" medalını təqdim edim. Medalın üzərində yunan demokratiyasının banisi Peristoklun portreti əks olunmuşdur.

Cənab Prezident, digər bir rəmzi hədiyyəmiz də var. Bu, eramızdan əvvəl VI əsrə aid piyalənin dəqiq surətidir. Onun üzərində həyatın mənbəyi sayılan günəş təsvir olun-

muşdur.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV təşəkkür edərək dedi:

- Hörmətli cənab sədr!

Yüksək mükafata görə sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bundan sonra da Yunanıstan-Azərbaycan ikitərəfli münasibətləri uğurla inkişaf edəcəkdir. Siz qeyd etdiyiniz kimi, bu səfər bizim ikitərəfli münasibətlərin tarixində Azərbaycan Respublikası Prezidentinin Yunanıstana ilk dövlət səfəridir. Mən çox şadam ki, bu səfər çox uğurlu keçir. Tam əminəm ki, səfərin nəticələri də çox yaxşı olacaq və iki ölkə arasında münasibətlər yeni pilləyə qalxacaqdır.

Bizim müxtəlif sahələrdə əməkdaşlığımız həm iki ölkə üçün, həm region üçün, həm geniş coğrafiya üçün çox böyük əhəmiyyət kəsb edir. Siz bizim bundan əvvəlki görüşlərimizi xatırlatdınız. Mən də o görüşləri yaxşı xatırlayıram. Məhz sizin iştirakınızla Yunanıstanla Azərbaycan arasında enerji sahəsində ilk addımlar atılmışdır. Sizin bu sahədəki fəaliyyətinizi biz çox yüksək qiymətləndiririk.

Qısa müddət ərzində biz artıq konkret layihələr üzərində çalışırıq və əminəm ki, bu səfər çərçivəsində aparılan danışıqlar Yunanıstanla Azərbaycan arasında qaz sahəsindəki əməkdaşlığın dərinləşməsi üçün çox mühüm addım olacaqdır. Yunanıstan Avropa İttifaqının birinci ölkəsidir ki, bu ölkəyə Azərbaycan qazı daxil olubdur. Hələ ki, məhdud həcmdədir, ancaq mən ümid edirəm ki, yaxın zamanlarda həcm baxımından daha da böyük müqavilə imzalana bilər. Hesab edirəm, bu, Yunanıstanın, eyni zamanda Azərbaycanın və Avropanın marağındadır ki, bizim ölkələrimiz arasında ikitərəfli əsasda enerji sahəsində müqavilə tezliklə imzalansın. Bu sahədə əməkdaşlıq, əlbəttə ki, öz müsbət təsirini bütün digər sahələrə də göstərəcəkdir. Siyasi, iqtisadi, mədəniyyət sahəsindəki əməkdaşlığın da çox gözəl perspektivləri, çox gözəl gələcəyi vardır.

Mənə verilən yüksək mükafata görə sizə bir daha təşəkkürümü bildirmək istəyir və sizə yeni-yeni uğurlar arzulayıram.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Yunanıstan parlamentinin - Deputatlar palatasının sədri Dimitris Siufas ilə görüşü oldu.

Azərbaycan ilə Yunanıstan arasında münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunan görüşdə parlamentlərarası əlaqələrin əhəmiyyəti vurğulandı və bu sahədəki əməkdaşlığın qarşılıqlı münasibətlərə töhfə verdiyi bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN BAŞ NAZİRİ KOSTAS KARAMANLİS İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstan Respublikası Baş nazirinin iqamətgahında hökumət başçısı Kostas Karamanlis ilə görüşmüşdür.

Görüşdə iki ölkə arasında əlaqələrin genişlənməsindən məmnunluq ifadə olundu, iqtisadi sahədə, xüsusilə də, enerji sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulandı. Azər-

baycan Prezidentinin Yunanıstana dövlət səfərinin qarşılıqlı əlaqələrin genişlənməsi baxımından əhəmiyyəti qeyd olundu.

Bildirildi ki, Azərbaycan-Yunanıstan biznes forumu konkret sahələrdə işgüzar əlaqələrin yaranmasına kömək edəcəkdir. İki ölkə arasında imzalanmış sənədlərin iqtisadi və digər sahələrdə əməkdaşlıq üçün hüquqi baza yaratdığı vurğulandı.

Görüşdə qarşılıqlı əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirildi.

PREZİDENT İLHAM ƏLİYEV VƏ BAŞ NAZİR KOSTAS KARAMANLİS MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Azərbaycan Prezidenti İlham Əliyev və Yunanıstanın Baş naziri Kostas Karamanlis görüşdən sonra mətbuat nümayəndələri qarşısında bəyanatlarla çıxış etmişlər.

YUNANISTANIN BAŞ NAZİRİ KOSTAS KARAMANLİSİN BƏYANATI

- Bu gün mən böyük məmnuniyyətlə Azərbaycan Respublikasının Prezidentini, əziz dostumu Afinada salamlayıram.

Sonuncu dəfə biz 2007-ci ildə görüş keçirmişik. Həmin görüş Türkiyə-Yunanıstan-İtaliya boru kəmərinin Türkiyə-Yunanıstan hissəsinin açılışına həsr olunmuşdu. Həmin vaxtdan etibarən bizim əməkdaşlığımız üçün yeni imkanlar yaranmışdır.

Azərbaycan Qafqazın çox mühüm ölkəsidir və Yunanıstanın bu ölkə ilə siyasi, iqtisadi və mədəni əlaqələri vardır. Eyni zamanda, biz həmin regionda təhlükəsizlik və sabitlik sahəsində də birgə səylərimizi göstəririk. Xüsusən də ki, Yunanıstan hazırda ATƏT-də sədrlik edir.

Yunanıstan və Azərbaycan əməkdaşlığı daha da genişləndirmək əzmindədir. Dünən biz mühüm sazişlər imzaladıq və bunların əsasında ikitərəfli münasibətlərimiz daha da inkişaf edəcəkdir. Bu gün keçiriləcək Yunanıstan-Azərbaycan biznes forumunda mən cənab Prezidentlə birgə iştirak edəcəyəm. Tədbir çərçivəsində biz iqtisadi sahədə münasibətlərimizi müzakirə edəcəyik.

Eyni zamanda, danışıqlarımız zamanı boru kəməri və enerji təhlükəsizliyi məsələlərini müzakirə etdik. Vaxt keçdikcə, hasilatçı və tranzit ölkə kimi Azərbaycanın rolu daha da artır. Yunanıstan birbaşa Azərbaycanda hasil edilən, oradan nəql olunan təbii qazın idxalçısıdır. Prezident Əliyev də xüsusi vurğuladı ki, bu əməkdaşlıq bizə daha yeni imkanlar açır.

Bir daha Sizi salamlayıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Təşəkkür edirəm, cənab Baş nazir.

Mənim Yunanıstana dövlət səfərim başa çatır və deyə bilərəm ki, səfərin nəticələri çox uğurlu olmuşdur. Səfər zamanı həm ikitərəfli sənədlərin imzalanması, həm də aparılan

danışıqlar nəticəsində Yunanıstanla Azərbaycan bir-birinə daha da yaxın olmuşdur. Bizim aramızda çox yüksək siyasi dialoq aparılır. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və şübhə yoxdur ki, bu səfər əlaqələri daha da möhkəmləndirəcəkdir.

Eyni zamanda iqtisadi sahədə, mədəni sahədə bizim böyük planlarımız var. Bu gün keçiriləcək müştərək forum biznes strukturlarına da imkan verəcək ki, bu gözəl siyasi əlaqələrin olmasından onlar da faydalansınlar. Çünki biznes strukturları, adətən, siyasi cəhətdən məqbul olan yerlərə getməyə daha çox üstünlük verirlər.

Yunanıstan-Azərbaycan münasibətləri isə bu gün tərəfdaşlıq xarakteri daşıyır və biz çox istəyirik ki, bu münasibətlərimizi daha da yüksək pilləyə qaldıraq. Bu gün biz bölgədə yaranmış vəziyyət, xüsusilə mövcud olan təhlükələr haqqında da fikir mübadiləsi apardıq.

Mən cənab Baş nazirə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycan mövqeyini bir daha bildirdim. Söylədim ki, bütün başqa münaqişələr kimi, bu problem də yalnız və yalnız ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı əsasında öz həllini tapmalıdır, beynəlxalq hüquq normalarına əsaslanmalıdır.

Əlbəttə ki, bizim münasibətlərimizin hərtərəfli inkişafı üçün enerji sahəsində əməkdaşlıq böyük əhəmiyyət daşıyır. Cənab Baş nazirin qeyd etdiyi kimi, bu sahədə artıq çox gözəl nəticələr vardır. Yunanıstan Avropa İttifaqının üzvü olan ilk ölkədir ki, Azərbaycan qazı bu ölkəyə nəql edilir. Bir ildən bir az çox müddət ərzində biz bunu edirik. Çox istəyirik ki, gələcəkdə ikitərəfli əsasda Yunanıstanla Azərbaycan arasında qaz sahəsində əməkdaşlıqda daha da böyük nailiyyətlərə çataq. Bunu etmək üçün bütün imkanlar var. Azərbaycanın zəngin qaz ehtiyatları, mövcud olan boru kəmərləri və Azərbaycan qazına Avropada, o cümlədən Yunanıstanda olan tələbat - bütün bu amillər birlikdə və eyni zamanda, tranzit məsələlərinin tezliklə həll olunması, əminəm ki, bu sahədə uzunmüddətli və qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəmlənməsində daha da müsbət rol oynayacaqdır.

Bununla bərabər, bir daha demək istəyirəm ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunması işində öz rolunu oynamağa davam edəcəkdir. Biz buna hazırıq, bunu etməyə başlamışıq. Avropada enerji təhlükəsizliyi məsələlərinin həlli üçün Yunanıstan-Azərbaycan əlaqələrinin çox böyük əhəmiyyəti var.

Mənə və nümayəndə heyətinə göstərilən gözəl münasibətə, böyük qonaqpərvərliyə görə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu fürsətdən istifadə edərək, Baş naziri Azərbaycana dəvət etmək istəyirəm ki, biz münasibətlərimizi bundan sonra da uğurla irəliyə aparaq.

Təşəkkür edirəm.

* * *

Sonra Prezident İlham Əliyev və Baş nazir Kostas Karamanlis jurnalistlərin suallarına cavab verdilər.

- Mənim sualım cənab Prezidentə və cənab Baş nazirədir. Bildiyimiz kimi, iki ölkə arasında enerji sahəsində yaxşı əməkdaşlıq var. Bəs qeyri-enerji sektorunda əməkdaşlığın

perspektivlərini necə qiymətləndirirsiniz?

KOSTAS KARAMANLİS: Hesab edirəm ki, münasibətlərimizin xüsusiyyəti ondan ibarətdir ki, biz hər bir sektorda əməkdaşlıq edəcəyik. Prezident Əliyev və mən bəyan etdik ki, iqtisadi sahədə münasibətlərimiz yaxşı səviyyədədir və bir çox sahələr var ki, orada da əməkdaşlıq aparıla bilər. Təbii ki, enerji əsas sahələrdən biridir. Lakin biz bununla məhdudlaşmalı deyilik. İqtisadi əməkdaşlıq üçün digər sektorlar da var. Hazırda biz lazımi hüquqi çərçivəni yaratmışıq və keçiriləcək biznes forumu çərçivəsində iqtisadi münasibətlərimiz üçün daha geniş imkanlar açılacaqdır.

İLHAM ƏLİYEV: Bu səfər çərçivəsində əməkdaşlığın bütün aspektləri müzakirə edildi və şübhəsiz ki, qeyri-enerji sektorunun inkişafı üçün lazımi tədbirlər görülməlidir. Bunun üçün artıq çox geniş hüquqi baza var və şübhə yoxdur ki, biznes aləminin bir-birinə yaxın olması və müştərək layihələrdə iştirakı bizim ümumi münasibətlərimizə çox müsbət təsir edəcəkdir.

Bildiyiniz kimi, qeyri-neft sektorunun inkişafı Azərbaycanda son illər ərzində prioritet vəzifədir, bu sahəyə çox böyük investisiyalar yatırılır. Biz daha böyük sayda yunan şirkətlərini Azərbaycanda görmək istəyirik, investorlar kimi, servis şirkətləri, yəni podratçılar kimi görmək istəyirik. Bizim müxtəlif sahələrdə yaranmış imkanlarımız bütün yunan şirkətlərinə də açıqdır.

Bu məsələnin daha da dərindən təhlili üçün, əlbəttə ki, müvafiq tədbirlər görülməlidir. Biznes forumunun keçirilməsi biznes aləmini bir-birinə daha da yaxınlaşdıracaqdır. Ümid edirəm ki, bu biznes forumunun nəticəsində real konkret layihələr üzə çıxacaqdır. Onu da demək istəyirəm ki, artıq Azərbaycan şirkətləri də xarici ölkələrə sərmayələrin qoyulmasına başlamışlar. Son iki il ərzində xaricə bir neçə milyard dollar həcmində Azərbaycan sərmayələri qoyulmuşdur. Əlbəttə ki, Yunanıstanla bu sahədə işləmək bizim üçün də çox vacib olacaqdır.

Ona görə də hesab edirəm ki, biz enerji və qeyri-enerji sektorlarını bir-birindən ayırmamalıyıq. Onların bəzi hallarda birgə fəaliyyəti, yaxud da ki, bir yerdə olan layihələr daha da böyük uğurlara gətirib çıxarır.

- Azərbaycan qazının alınması ilə bağlı danışıqlarda hər hansı bir dəyişiklik varmı? İkincisi, Yunanıstan bir çox səylər göstərir ki, cənubdan da qaz alsın.

KOSTAS KARAMANLİS: Bilirsiniz, hazırda Yunanıstan ilə Azərbaycan arasında gedən bu danışıqlar bizim siyasətimizə heç bir vəchlə dəyişiklik gətirmir. Azərbaycandan təbii qazın ikitərəfli və yaxud çoxtərəfli əsaslarla alınması, bunun mövcud olan boru kəməri ilə həyata keçirilməsi də həmişə bizim prioritetimiz və siyasətimizin mərkəzində olubdur. Biz - Prezident Əliyev və mən bu məsələni və Türkiyə-Yunanıstan-İtaliya boru kəməri məsələsindəki irəliləyişi müzakirə etdik. Hesab edirəm, bu, bizim birgə Avropa məqsədlərimizin ayrılmaz bir hissəsidir ki, Cənubi Avropa dəhlizi yaradılsın, bu dəhliz Xəzər dənizindən başlasın. Ona görə biz, sözün əsl mənasında, real tələbatlara cavab vermək istəyirik. Avropa İttifaqının maraqlarını nəzərə alaraq, qaz tələbatına cavab vermək istəyirik.

Türkiyə ilə münasibətlərimizə gəldikdə, biz çox yaxşı işləyirik ki, əsas layihələr irəlilədilsin və enerji resursları Avropaya çatdırılsın.

- Mənim sualım cənab Prezidentə və Baş nazirədir. Hər iki ölkə qarşılıqlı tranzit imkanlarını necə dəyərləndirir? Çünki ölkələrimiz strateji mövqeyə və böyük iqtisadi potensiala malikdir.

KOSTAS KARAMANLİS: Yunanıstan artıq bir sıra sazişlər imzalayaraq Cənubi Avropa regionunda bir enerji qovşağına çevrilmişdir. Bu sahədə biz daim işləyirik. Hesab edirik ki, bu, bizim marağımızdadır və eyni zamanda, region dövlətlərinin, misal üçün Azərbaycanın da marağındadır. Ümumiyyətlə bütün Avropa İttifaqının marağındadır. Biz buna nail olmaq istəyirik.

İLHAM ƏLİYEV: Bu gün, əlbəttə ki, iki ölkənin tranzit imkanları da müzakirə olundu. Bu sahədə əməkdaşlıq üçün çox yaxşı imkanlar vardır. Azərbaycan həm enerji resurslarının hasilatçısı, həm də tranzit ölkə kimi öz funksiyalarını yerinə yetirməyi davam etdirmək əzmindədir. Yunanıstanla Azərbaycan arasında enerji sahəsində olan əməkdaşlıq çərçivələri bu iki məsələni özündə ehtiva edir. Biz qaz sahəsində Yunanıstanla çoxtərəfli və ikitərəfli əsasda əməkdaşlıq etmək fikrindəyik. Bunu reallaşdırmaq üçün artıq ciddi ikitərəfli danışıqlar gedir.

Çoxtərəfli və ikitərəfli formatların fərqi ondan ibarətdir ki, mənim fikrimə görə, ikitərəfli əsasda biz daha da qısa müddət ərzində qaz anlaşmasına nail ola bilərik. Hər halda, bu iki formatı paralel şəkildə apararaq, həm ikitərəfli münasibətlərdə, həm də digər tərəfdaşlarımızla münasibətlərimizdə elə etməliyik ki, hasilatçı ölkələrin, tranzit ölkələrin və istehlakçıların birgə fəaliyyəti təşkil olunsun və onların müştərək maraqları qorunsun. Əgər hər bir layihə üçün, xüsusilə enerji layihəsi üçün üç önəmli komponenti komanda şəklində bir araya gətirə bilsək, demək, biz öz istəyimizə tezliklə nail olacağıq.

BİRGƏ İŞÇİ NAHAR

Fevralın 17-də Azərbaycan Prezidenti İlham Əliyev və Yunanıstanın Baş naziri Kostas Karamanlis birgə işçi nahar etmişlər.

AZƏRBAYCAN-YUNANISTAN BİZNES FORUMU

Fevralın 17-də Afinada "İşgüzar əməkdaşlığın imkanları" mövzusunda Azərbaycan-Yunanıstan biznes forumu keçirilmişdir.

Azərbaycan Prezidentinin beynəlxalq aləmdəki nüfuzundan, Azərbaycan-Yunanıstan əməkdaşlığının inkişafından narahatlıqlarını gizlədə bilməyən Afinadakı bir qrup erməni forumun keçirildiyi binanın qarşısında ucuz şou yaratdılar. Lakin 5-10 ermənin bu hərəkəti, təbii ki, küçədən keçən insanların diqqətini cəlb etmədi.

Azərbaycan Prezidenti İlham Əliyev və Yunanıstan Prezidenti Karolos Papulyas, bu ölkənin Baş naziri Kostas Karamanlis biznes forumun açılışında iştirak etmişlər.

Azərbaycanda İnvestisiyaların İxracı və Təşviqi Fondunun və Afina Ticarət və Sənaye Palatasının birgə təşkil etdiyi görüşü palatanın prezidenti Konstantinos Mixalos açaraq dedi ki, biznes forumda Yunanıstanın 100-dək, Azərbaycanın isə 20-yə yaxın şirkəti təmsil olunmuşdur. Əminik ki, forum iki ölkə arasında iqtisadi əlaqələrin daha da genişlənməsinə xidmət edəcəkdir.

Forumun açılışında dövlət başçıları, Yunanıstanın Baş naziri çıxış etdilər.

YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYASIN ÇIXIŞI

- Cənab Azərbaycan Respublikasının Prezidenti!

Cənab Baş nazir!

Xanımlar və cənablar, nazirlər, hörmətli Afina Sənaye və Ticarət Palatasının prezidenti!

Əziz dostlar!

Bu gün Azərbaycan Respublikasının Prezidentini cənab İlham Əliyevi, onun xanımını və Azərbaycan nümayəndə heyətini Yunanıstanda salamlamaqdan olduqca məmnunam. Bu səfər uğurlu olmuşdur və səfər çərçivəsində bir çox sazişlər imzalanmışdır. Hesab edirəm ki, bunlar ölkələrimiz arasında münasibətlərin gələcəkdə daha dinamik inkişafına imkan yaradacaqdır. Bildirirəm ki, bu sazişlər iqtisadi, siyasi və mədəni sahədə əməkdaşlığımızı daha da artıracaqdır. Bu gün Azərbaycandan gəlmiş işgüzar dairələrin burada olmasının xüsusi əhəmiyyəti vardır.

Cənab Prezident!

Xanımlar və cənablar!

Bu gün bizim əməkdaşlığımız xüsusi əhəmiyyət daşıyır. Çünki hazırda bütün dünyada böhran var və ölkələrimizin iqtisadi əməkdaşlıq perspektivləri olduqca böyükdür.

Mən Sizin Yunanıstana səfəriniz çərçivəsində yunan şirkətlərinə edilmiş dəvətdən çox şad oldum. Hesab edirəm ki, Azərbaycanla enerji sektorundakı apardığımız əməkdaşlıq digər sahələrdə də əlaqələrə zəmin yaradacaqdır. Bunun böyük perspektivləri var. Beləliklə, biz çox istəyirik ki, artıq mövcud olan əməkdaşlıq genişlənsin. Yunanıstan tərəfi texnologiyalarla bölüşə və birgə tədbirlər həyata keçirə bilər. Turizmdə və digər sahələrdə bir çox yeniliklər gətirə bilər. Bizim elmi potensialımız və bu sahədə təcrübəmiz var.

Siz məni səfəriniz çərçivəsində Azərbaycana dəvət etdiniz. Bildirmək istəyirəm ki, mən bu dəvəti qəbul etməkdən çox məmnun oldum.

Təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab Prezident,

Hörmətli cənab Baş nazir,

Xanımlar və cənablar!

İlk növbədə, Yunanıstana dövlət səfərim zamanı mənə və nümayəndə heyətimə göstərilmiş səmimi qonaqpərvərliyə görə cənab Prezidentə və cənab Baş nazirə minnətdarlığımı bildirmək istəyirəm. Səfər çox uğurlu olmuşdur. Bu forum səfərimin rəsmi proqramında nəzərdə tutulmuş sonuncu tədbirdir. Əminəm ki, ölkələrimizin işgüzar dairələri

arasında görüş Azərbaycan-Yunanıstan ikitərəfli əlaqələrini gücləndirəcəkdir. İnanıram ki, səfərin nəticələri yaxın vaxtlarda hiss olunacaqdır. İmzaladığımız sazişlər və bir çox məsələlər ətrafında apardığımız danışıqlar ölkələrimiz arasında anlaşmanı daha da möhkəmləndirəcək və hüquqi çərçivəni artıq genişləndirmişdir. Əminəm ki, bütün bunlar gələcəkdə bizə ümumi məqsədlərə doğru irəliləməkdə imkan yaradacaqdır.

Yunanıstan ilə Azərbaycan arasında olduqca yüksək səviyyəli siyasi münasibətlər var. Mənim ölkənizə səfərim bu əlaqələri birmənalı şəkildə gücləndirəcəkdir. Biz ölkələrimiz arasında daha sıx iqtisadi əlaqələrin olmasına çalışırıq. Qarşılıqlı ticarət dövriyyəsinin artırılması üçün hələ də çox işlər görməliyik və bu ticarətin strukturu üzərində çalışmalıyıq. Bu sahədə enerji komponenti əsas yer tutur. Təbii ki, bu, müsbət haldır. Lakin əminəm ki, iqtisadiyyatlarımızın qeyri-enerji sektorunda biznes qurmaq, birgə layihələrdə iştirak etmək, qarşılıqlı sərmayə imkanlarını araşdırmaq üçün böyük imkanlar vardır. Zənnimcə, Yunanıstan ilə Azərbaycan arasındakı güclü ikitərəfli əlaqələri nəzərə alaraq, işgüzar dairələr bu fürsətdən istifadə edəcək, birbaşa təmaslar quracaqlar.

Ümidvarıq ki, hazırkı biznes forumunun keçirilməsi nəticəsində yeni müqavilələr yaranacaq, yeni təmaslar və əlaqələr qurulacaqdır. Bütün bunlar isə, öz növbəsində, ikitərəfli əlaqələrimizdə yeni istiqamətlərin müəyyən edilməsinə kömək göstərəcəkdir. Bir sözlə, insanlar arasında təmaslar çox vacibdir. Biz yunan tərəfdaşlarımıza maksimum münasib şəraitin yaradılması üçün əlimizdən gələni edəcəyik.

Müstəqil dövlət kimi Azərbaycan nisbətən gəncdir. Müstəqillik tariximiz 17 ildən bir az artıqdır. Biz öz taleyimizi və atacağımız addımları özümüz həll edirik. Həmin müddət ərzində biz böyük tarixi keçid yolunu keçmişik. Azərbaycan 1991-ci ildə müstəqilliyini qazananda özəl sektorda ÜDM-in həcmi sıfır faiz idi. Hər şey dövlətə məxsus idi. İndi isə ÜDM-in 85 faizi özəl sektorumuz tərəfindən təmin edilir. Biz çox ciddi iqtisadi islahatlar, olduqca liberal iqtisadi siyasət, açıq qapı siyasəti həyata keçiririk. Bu siyasət birbaşa xarici sərmayələrə təkan verir. Fərəh hissi ilə bildirirəm ki, Azərbaycan adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə keçmiş SSRİ ölkələri arasında birinci yeri tutur. Dünyanın müxtəlif yerlərindən olduqca geniş tərəfdaşlar şəbəkəsinə malikik. Təbii ki, sərmayələr təkcə enerji sektoruna yatırılmır, halbuki bu, ən əsas cəlbedici sahə idi. Lakin hazırda Azərbaycanda şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi ilə qeyri-enerji sektorunda da daha çox imkanlar açılır. İqtisadi islahatların aparılması ölkəmizi möhkəmləndirir. Azərbaycan özünü təmin edən ölkədir. Təbii sərvətlər çoxdur. Lakin biz həmin təbii sərvətləri insan kapitalına çeviririk. Səhiyyədə və humanitar sahələrdə, sosial problemlərin həllində bir çox işlər görülmüşdür.

İqtisadi siyasətimiz Dünya Bankının diqqətini cəlb etmişdir və Azərbaycan həmin bankın "Doing Business-2008" hesabatında dünyanın bir nömrəli islahatçı ölkəsi elan olunmuşdur. Bu qiymət bizim siyasətimizi və məqsədlərimizi açıq şəkildə nümayiş etdirir. Son beş ildə iqtisadiyyatımız dünyada ən böyük sürətlə inkişaf etmiş, həmin dövrdə Azərbaycanın ÜDM-i 2,6 dəfə artmışdır. Sənaye istehsalı da, demək olar ki, eyni səviyyədə artmış, büdcə gəlirləri 12 dəfə çoxalmışdır. Bir çox infrastruktur və sosial proqramlar həyata keçirilmək üzrədir. Coğrafi mövqeyimizdən yararlanaraq, biz nəqliyyat infrastrukturuna çox sərmayə yatırmışıq və nəqliyyat qovşağına çevrilmək üçün bir çox işlər görmüşük. Hazırda Azərbaycan vasitəsilə Avropanı Asiya ilə birləşdirəcək dəmir

yolu xətti üzərində çalışırıq. Ümid edirik ki, bir neçə ildən sonra bu yol artıq istismara veriləcəkdir.

Təbii ki, ölkəmizin apardığı enerji siyasəti diqqət mərkəzində olmuşdur, çünki hazırda enerji məsələlərinin əhəmiyyəti, - xüsusən də, Avropa üçün, - get-gedə artır. Biz planlaşdırdığımız məqsədlərə nail olmuşuq. 1991-ci ildə Azərbaycan müstəqilliyini əldə edəndə keçmiş SSRİ-də ən ağır iqtisadi vəziyyət bizdə idi. Sənaye istehsalı, o cümlədən neft və qaz hasilatı sürətlə azalırdı. Azərbaycan təbii qaz idxal edən ölkəyə çevrilmişdi. Biz hər şeyi sıfırdan başlamalı idik. Sovet İttifaqının çox aqressiv enerji siyasəti nəticəsində ətraf mühitə çox böyük ziyan dəymişdi. Son illər ərzində ölkədə neft hasilatını 5 dəfədən çox artıra bildik. Hazırda hasilatın gündəlik həcmi təxminən 1 milyon barreldir və bu səviyyə ölkə iqtisadiyyatı və daxildə sərmayə yatırımları üçün kifayətdir. Son iki il ərzində biz qaz ixrac edən ölkəyə çevrildik. 2007-ci ilə qədər biz təbii qazı idxal edirdik. Bu nailiyyət nəinki bizim üçün, o cümlədən tərəfdaşlarımız üçün mühümdür.

Bu gün, ixrac əməliyyatlarımız bir neçə ölkəni əhatə edir. Azərbaycan qazı artıq Avropa İttifaqının bazarına daxil olur. Dünən və bu gün apardığımız müzakirələrin mövzularından biri də bu əməkdaşlığın ikitərəfli və çoxtərəfli səviyyədə genişləndirilməsi ilə bağlı idi. Yaxşı imkanlar var. Ümumi əsaslar və maraqlar mövcuddur. Biz nəqletmə imkanlarımızı mümkün qədər geniş şəkildə şaxələndirməliyik. İndi bizim karbohidrogen ehtiyatlarımızı müxtəlif istiqamətlərdə nəql edən yeddi neft və qaz boru kəmərimiz var. Biz yalnız bir nəql marşrutundan asılı deyilik. Bunun özü böyük nailiyyətdir. İstərdik ki, bizim istehlakçılarımız arasında daha çox ölkə olsun. Bu sahədə Azərbaycan Yunanıstanla artıq yaxşı əməkdaşlıq edir. Əminəm ki, səfərdən sonra görüləcək işlər uzunmüddətli, qarşılıqlı surətdə faydalı və hər iki tərəfin maraqlarına cavab verəcək razılaşmanın əldə olunması ilə nəticələnəcəkdir. Enerji təhlükəsizliyi xarici təchizatdan asılı olan istehlakçılar üçün vacibdir. Enerjidaşıyıcıların nəqli yollarının şaxələndirilməsi isə hasilatçılar və istehlakçılar üçün əhəmiyyətlidir. İstehlakçılar bir mənbədən asılı olmaq istəmirlər, hasilatçılar isə bir marşrutdan asılı olmaq arzusunda deyillər. Belə olmasa, mövqelərimiz zəifləyə bilər. Burada maraqlar üst-üstə düşür. Biz yalnız ümumi maraqlar əsasında irəliyə doğru gedə bilərik.

Bir daha demək istəyirəm ki, ölkələrimiz arasında çox yüksək səviyyəli münasibətlər vardır. Həmin əlaqələrə müxtəlif komponentlərin əlavə edilməsi məqsədi ilə biz mümkün olan bütün işləri görməliyik. Enerji siyasəti və bu sahədə əməkdaşlıq həmin işlərdən biridir. Mən son iki gün ərzində apardığım müzakirələrdən çox razıyam. Bundan əlavə, biz qeyri-neft sahəsində mümkün olan işləri həyata keçirmək üzərində düşünməliyik. Azərbaycandakı biznes imkanları öyrənilməlidir: hansı baxımdan biz cəlbedici ola bilərik? Qaydalar hansılardır? Vergilər və sərmayə mühiti necədir? Əməkdaşlığın gələcək sahələri hansılardır? Əminəm bütün bunlar biznes forumunda müzakirə olunacaq və Yunanıstan-Azərbaycan birgə iqtisadi komissiyasının ümumi səyləri, aparıcı rolu və əlaqələndirməsi ilə biz bu sahədə yaxşı nəticələr əldə edə bilərik.

Bir sözlə, səfərimin nəticələrini yekunlaşdıraraq, bir daha bildirmək istəyirəm ki, mən bu nəticələrdən çox razıyam. İki gün ərzində mənə göstərilmiş qonaqpərvərliyə görə çox minnətdaram. Hüquqi bazamızı genişləndirdik, ölkələrimiz arasında münasibətlər daha sıx olur. Regional vəziyyət və bizi narahat edən məsələlərlə bağlı fikirlərimizi açıq şəkildə bildirdik. Region ölkələri səylər göstərir. Lakin planlaşdırdığımız bütün iş-

lərə nail olmaq üçün Cənubi Qafqaz regionunda sabitlik olmalıdır. Sabitlik və təhlükəsizlik hər bir inkişaf üçün ən vacib ilkin şərtdir. Ölkədə sabitlik olmayanda nə sərmayələr, nə irəliləyiş, nə də ki, etimad olur. Eyni sözləri regiona da aid etmək olar. Əgər regional təhlükəsizlik yüz faiz təmin olunmursa, onda daha çox risklər və potensial təhlükələr yaranır.

Əfsuslar olsun ki, Azərbaycan mövcud və potensial təhlükələrin olduğu regionda yerləşir. Onlardan biri yaxşı məlum olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bildiyiniz kimi, Dağlıq Qarabağ münaqişəsi təxminən 20 ildir davam edir. Bu iyirmi il ərzində torpaqlarımız işğal altındadır. Ermənistanın silahlı qüvvələri ərazimizin iyirmi faizini zəbt edib və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıbdır. Bunun nəticəsində 1 milyon soydaşımız öz doğma torpaqlarından qovularaq, qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Ermənilər Azərbaycanın işğal olunmuş ərazilərində hər şeyi dağıdıblar. 2005-ci ildə ATƏT-in faktaraşdırıcı missiyası Azərbaycanın işğal olunmuş torpaqlarında yoxlama aparmış, öz hesabatında aydın şəkildə bildirmişdir ki, hər şey - bütün binalar, məktəblər, səhiyyə ocaqları, zavodlar, məscidlər, qəbiristanlıqlar yerlə-yeksan edilibdir. Bunlar Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüzün nəticələridir. Eyni zamanda, bu, beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasıdır. BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrinin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi var. Lakin onlar yerinə yetirilməyibdir. ATƏT, digər beynəlxalq təşkilatlar da işğala son qoymağa çağıran qərarlar qəbul etmişdir. Biz torpaqlarımızın azad olunmasını tələb edirik. Heç bir başqa, qeyri-adi tələbimiz yoxdur. Yəni beynəlxalq hüququn normaları və prinsiplərinə əməl olunmalı, erməni işğalçı qüvvələri torpaqlarımızdan çıxarılmalı və qaçqın və məcburi köçkünlərimiz öz yurdlarına qayıtmaq imkanına malik olmalıdırlar. Bu, hər bir şəxsin fundamental hüququdur. Ermənistan tərəfindən torpaqlarımızın işğalı nəticəsində etnik təmizləmə siyasətinin aparılması bir milyon azərbaycanlının ən adi insan hüquqlarının kobud şəkildə pozulması deməkdir. Bunları ona görə deyirəm ki, həmin münaqişə regional təhlükəsizliyə daim təhlükə mənbəyidir. Bu təhlükə bütün planlarımıza mənfi təsir göstərə bilər. Mürəkkəb regional vəziyyətə baxmayaraq, indiyə qədər biz enerji layihələrimizin hamısını həyata keçirə bildik. Lakin gələcəkdə Azərbaycandan və ya digər ölkələrdən başlayan və bizim ərazimizdən keçən uzunmüddətli sabit enerji dəhlizinə nail olmaq üçün bütün regional münaqişələr həll olunmalıdır. Buna aparan yeganə yol beynəlxalq hüquq normalarına hörmətlə yanaşmadır.

Görürəm ki, ölkələrimizin biznes icmaları bir-biri ilə işləməyə hazırdırlar. Burada çoxlu sayda Azərbaycan və yunan şirkətlərinin təmsil olunması bu məramın bariz nümunəsidir. Yunanıstan Prezidenti və Baş nazirinin bir tərəfdən, Azərbaycan Prezidentinin digər tərəfdən bu tədbirdə iştirakı işlərin nə dərəcədə əhəmiyyətli olmasını nümayiş etdirir. Biz enerji, təhlükəsizlik, müxtəlif ikitərəfli məsələlər sahəsində, hətta biznes dairələri arasında təmas olmasa belə, uğurla əməkdaşlıq edə bilərik. Lakin onların təmaslarının olması iqtisadiyyatlarımız və ölkələrimizin gələcəyi üçün vacibdir.

Mən çox səmimi qonaqpərvərliyə görə bizi qəbul edən tərəfə bir daha təşəkkürümü bildirir, Yunanıstana və yunan xalqına uğurlar və rifah arzulayıram.

Çox sağ olun.

YUNANISTANIN BAŞ NAZİRİ KOSTAS KARAMANLİSİN ÇIXIŞI

- Hörmətli cənab Prezident Əliyev!

Hörmətli xanımlar və cənablar!

Biz Prezident Əliyevi Afinada görməkdən çox məmnunuq. Bu dövlət səfəri bizim üçün çox əhəmiyyətlidir. Bu səfər Yunanıstan Respublikasının keçmiş Prezidenti Konstantinos Stefanopulosun Azərbaycana səfərindən sonra baş tutur və ikitərəfli münasibətlərin genişləndirilməsində yeni mühüm addımdır. Biz bu gün Prezident Əliyevlə və onun nümayəndə heyəti ilə danışıqlar apardıq. Həmin danışıqlar ölkələrimiz arasında yeni sahələrdə əməkdaşlığın aparılması üçün yol açdı. Biz qarşılıqlı maraq doğuran məsələləri ətraflı müzakirə etdik. Eyni zamanda, beynəlxalq məsələlərə də toxunduq.

Dünən tərəflər ikiqat vergitutmanın aradan qaldırılması və nəqliyyat sahəsində əməkdaşlığa dair sazişlər imzaladılar. Hesab edirik ki, bu hüquqi çərçivə əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı şərait yaradır. Əlavə edim ki, imzalanmış digər bir sənəd kommunikasiyalar və informasiya texnologiyaları sahəsinə aid idi. Nəhayət, sonuncu sənəd bərpa olunan enerji mənbələri sahəsində Anlaşma memorandumu adlanır.

Danışıqlar zamanı Yunanıstan və Azərbaycan tərəfləri əməkdaşlığın digər sahələrdə də başlanmasının öz maraqlarına uyğun olduğunu söylədilər. Hazırda yeni sazişlərin imzalanması üçün bir çox təşəbbüslər var. Həmin təşəbbüslərin hamısı bizim dinamik surətdə inkişaf edən ikitərəfli əlaqələrimizdən irəli gəlir. Mən bu işlərdən böyük məmnunluğumu bildirmək istəyirəm. Çünki əldə etdiyimiz irəliləyiş, həqiqətən, böyükdür.

Bugünkü biznes forumu ölkələrimizin işgüzar dairələri arasında işbirliyinin genişləndirilməsi üçün yeni bir fürsətdir. Dövlətlərimizin iqtisadiyyatı bir-birini tamamlayır, rəqabət aparmır. İstəyirik ki, hər iki ölkənin iş adamları qarşılıqlı surətdə sərmayə qoysunlar və ticarət əlaqələrimiz daha da inkişaf etsin. 2007-ci ilin avqust ayında enerji sahəsində əməkdaşlıq haqqında imzaladığımız sazişdən sonra başlanan əməkdaşlığın yeni mərhələsi davam etdirilməlidir. Azərbaycandan başlayan boru kəməri vasitəsilə təbii qazın Türkiyə və Yunanıstan ərazisindən keçərək, İtaliyaya çatdırılmasına dair razılaşmamız var. Bu boru kəməri strateji əhəmiyyətə malikdir və ölkəmizin strateji seçimidir. Həmin boru kəmərinin Türkiyə-Yunanıstan hissəsi 2007-ci ilin noyabrında istismara verilmişdir. İşlər 2005-ci ildə başlanmış və iki il sonra, 2007-ci ildə tamamlanmışdır. Bildirmək istəyirəm ki, həmin boru kəməri Yunanıstanın enerji təhlükəsizliyini möhkəmləndirir. İndi biz gələcəyə baxırıq və boru kəmərinin tam başa çatdırılması ilə əlaqədar müvafiq ölkələrlə daim təmasdayıq. 2007-ci ildə imzaladığımız sazişə əlavə olaraq, birbaşa Azərbaycan qazının alınması ilə bağlı yeni kommersiya müqaviləsini imzalamağa hazırıq.

Cənab prezidentlər, xanımlar və cənablar!

Prezident Əliyevin səfəri əməkdaşlığımızda yeni mühüm addımın atılması üçün əla fürsət idi. Hesab edirəm ki, indi də növbə iş adamlarınındır. Hər bir şey bazardan və iqtisadi imkanlardan asılıdır. Biz Azərbaycanla əməkdaşlıq etməliyik, birgə müəssisələr yaratmalıyıq və ikitərəfli ticarət dövriyyəsinə yeni təkan verməliyik. Bir çox imkanlar var, lakin görüləcək işlər də çoxdur. Hər iki ölkənin hökumətləri bu işdə sizə yardımçı olacaqdır. Mən yaratdıqları imkana görə Afina Ticarət və Sənaye Palatasının üzvlərinə təşəkkürümü bildirirəm.

Cənab Prezident, Sizi Afinada görmək bizim üçün böyük şərəfdir. Yunanıstan və Azərbaycan böyük Qara dəniz regionuna aid olan ölkələrdir, oxşarlıqlarımız da çoxdur. İkitərəfli əməkdaşlığı gücləndirdikdən sonra gələcək daha parlaq ola bilər. Bu işlərdə Sizin xüsusi marağınızı nəzərə alaraq, əminəm ki, növbəti addımlar atılacaqdır.

Bu cür mühüm səfərə və konstruktiv danışıqlara görə Sizə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Hesab edirəm ki, bu gün biz gələcək əməkdaşlığımız üçün daha geniş perspektivlər müəyyən edə bildik.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Biznes forumunda hər iki ölkədə biznes imkanlarına və sərmayə mühitinə dair təqdimatlar, şirkətlərin nümayəndələri arasında ikitərəfli görüşlər keçirilmişdir.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI AFİNADA XƏRÇƏNG XƏSTƏLİYİNƏ TUTULAN UŞAQLARIN DOSTLUQ ASSOSİASİYASINDA OLMUŞDUR

Fevralın 17-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Afinada Xərçəng Xəstəliyinə Tutulan Uşaqların Dostluq Assosiasiyasında - "ELPİDA"da olmuşdur.

Mehriban xanım Əliyevanı assosiasiyanın rəhbərləri hörmətlə qarşıladılar. Uşaqlar Heydər Əliyev Fondunun prezidentinə gül dəstəsi təqdim etdilər.

Burada xərçəng xəstəliyinə tutulan uşaqların, onların valideynlərinin iştirakı ilə keçirilən görüşdə YUNESKO-nun xoşməramlı səfiri Marianna Vardinoyannis Assosiasiyanın fəaliyyəti barədə məlumat verdi. Xanım Vardinoyannis Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanımın nəcib və xeyirxah fəaliyyətindən, humanitar sahədə gördüyü işlərdən danışdı.

Marianna Vardinoyannis görüşdən xatirə olaraq Mehriban xanıma hədiyyə təqdim etdi.

Assosiasiyanın binasında yaradılmış şəraitlə tanış olan Mehriban xanım uşaqlarla və onların valideynləri ilə söhbət etdi, uşaqlara Heydər Əliyev Fondunun hədiyyələrini təqdim etdi.

Uşaqlar Mehriban xanıma öz əl işlərindən ibarət hədiyyə verdilər.

Azərbaycanın birinci xanımı uşaqlara sağlamlıq, Assosiasiyanın kollektivinə uğurlar arzuladı.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI YUNANISTAN MİLLİ QALEREYASINDA OLMUŞDUR

Fevralın 17-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Yunanıstan Milli Qalereyasında olmuşdur.

Mehriban xanım muzeydə Yunanıstanın müasir rəngkarlıq məktəbini təmsil edən rəssamların əsərlərinə baxdı.

Azərbaycanın birinci xanımına qalereyadakı eksponatların kataloqu hədiyyə olundu.

Muzeylə tanışlıq zamanı Mehriban xanım Əliyevanı YUNESKO-nun xoşməramlı səfiri Marianna Vardinoyannis müşayiət edirdi.

YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MARİANNA VARDİNOYANNİSİN ADINDAN AZƏRBAYCANIN BİRİNCİ XANIMININ ŞƏRƏFİNƏ NAHAR VERİLMİŞDİR

Fevralın 17-də YUNESKO-nun xoşməramlı səfiri Marianna Vardinoyannisin adından Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın şərəfinə nahar verilmişdir.

SƏFƏR BAŞA ÇATDI

Fevralın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yunanıstan Respublikasına dövlət səfəri başa çatmışdır.

Azərbaycanın və Yunanıstanın dövlət bayraqları ilə bəzədilmiş Afina beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Yunanıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmətlə yola saldılar.

MİLLİ MƏCLİSİN NÜMAYƏNDƏ HEYƏTİ SLOVENİYADA SƏFƏRDƏ OLMUŞDUR

ATƏT Parlament Assambleyasının Vyanada keçirilən qış sessiyasında iştirak etmək üçün Avstriyada səfərdə olan ATƏT PA yanında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclis sədrinin müavini Bahar Muradova və nümayəndə heyətinin üzvü, insan hüquqları daimi komissiyasının sədri Rəbiyyət Aslanova bir sıra ikitərəfli görüşlər keçirmişlər.

Fevralın 17-də Bahar Muradova və Rəbiyyət Aslanova Sloveniyanın paytaxtı Lublyana şəhərində səfərdə olmuş, burada Xarici İşlər Nazirliyinin Avropa İttifaqı və ikitərəfli əlaqələr üzrə baş direktoru Mitya Drobniç, Milli Assambleyanın (parlament) sədr müavini Miran Potrç və Milli Assambleyanın xarici siyasət komitəsinin sədri İvo Vayql, eləcə də Azərbaycan-Sloveniya parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşlər keçirmişlər.

Görüşlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Sloveniyaya rəsmi səfəri xatırlanmış və yaxın gələcəkdə Sloveniya Prezidenti Danilo Türkün Azərbaycana rəsmi səfəri zamanı imzalanacaq bir sıra sənədlərə toxunulmuş və həmin sənədlərin işlənib hazırlanması istiqamətində səylərin artırılması ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Görüşlər zamanı qarşı tərəfə Azərbaycanın iqtisadi, siyasi və ictimai vəziyyəti, aparılan

quruculuq işləri, həyata keçirilən islahatlar və ölkənin qoşulduğu beynəlxalq layihələr barədə ətraflı məlumat verilmişdir. Sloveniya nümayəndələri qeyd etmişlər ki, ölkələri Azərbaycan ilə iqtisadi, mədəni, ticarət və xüsusilə enerji sahəsində əməkdaşlığa böyük maraq göstərir.

Qeyd edilmişdir ki, gələcəkdə Azərbaycanın Avropa İttifaqına daha da yaxınlaşması istiqamətində Sloveniyanın təcrübəsindən yararlanmaq mümkündür. Həmçinin Avropa İttifaqı və NATO-ya üzv olan Sloveniya Azərbaycanla bu təsisatlar arasında əlaqələrin dərinləşməsində, eləcə də "Şərqdə yeni qonşuluq siyasəti" çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfəsini verə bilər.

Xarici İşlər Nazirliyində keçirilmiş görüşdə Azərbaycanda Sloveniyanın və Sloveniyada Azərbaycanın səfirliyinin açılması məsələsinə toxunulmuş, bu amilin ikitərəfli əlaqələrin inkişafında oynayacağı roldan bəhs olunmuşdur. 2007-ci ildə Sloveniyada abidəsi ucaldılmış Sovet İttifaqı Qəhrəmanı, Azərbaycanın igid oğlu Mehdi Hüseynzadənin (Mixaylo) sloven xalqının faşizmə qarşı mübarizəsində oynadığı unudulmaz roldan danışılmış və xatirəsi anılmışdır. B.Muradova Azərbaycanın qəhrəman oğlunun xatirəsinə göstərilən ehtiram və ucaldılmış abidəyə görə Sloveniya tərəfinə minnətdarlığını bildirmişdir. O, qeyd etmişdir ki, Azərbaycanın Sloveniyada birbaşa səfirliyi olmasa da, M.Hüseynzadə mənəvi olaraq Azərbaycanın bu ölkədə ilk səfiri hesab edilə bilər və hər iki xalqın bir-birinə yaxınlaşmasında, dostluq əlaqələrinin dərinləşməsində əvəzsiz tarixi rol oynamışdır.

Sloven tərəfinə Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi, danışıqların hazırkı vəziyyəti və müzakirə edilən həll variantları barədə məlumat verilmişdir. Xatırladılmışdır ki, ötən il martın 14-də BMT-nin Baş Məclisinin 62-ci sessiyasında qəbul edilmiş "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət"ə dair qətnaməyə Avropa İttifaqının digər üzv dövlətləri kimi, Sloveniyanın da bitərəf mövqe tutması ilə əlaqədar Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sloveniyalı həmkarına məktubla müraciət etmişdir. Məktubda Sloveniya tərəfindən qətnamənin müzakirəsi zamanı bitərəf qalması ilə bağlı mövqeyinin açıqlanması öz əksini tapmışdır. İndiyədək həmin məktuba reaksiya verilmədiyini bildirən B.Muradova, cavab məktubunda ölkələrin ərazi bütövlüyü prinsipi şərtinin öz əksini tapacağına əminliyini ifadə etmişdir.

M.Drobniç qeyd etmişdir ki, həmin qətnamənin müzakirəsi zamanı Sloveniya Avropa İttifaqının ümumi mövqeyinə qoşularaq hərəkət etmişdir. Sloveniya da yaxın keçmişdə öz qonşuları ilə ərazi münaqişəsində olmuş və ölkəyə qaçqın axını baş vermişdir. Bu səbəbdən də Azərbaycanın üzləşdiyi problemi burada yaxşı başa düşürlər.

Azərbaycan və Sloveniyanın dövlət bayraqları ilə bəzədilmiş Milli Assambleyada keçirilmiş görüşlərdə Azərbaycan nümayəndə heyəti yüksək səviyyədə qarşılanmışdır. Qeyd edilmişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sloveniyaya rəsmi səfəri zamanı bağışladığı və parlamentin foyesində görməli yerdə nümayiş olunan hədiyyə dost ölkələrimiz arasında münasibətlərin yüksək inkişafına bariz nümunədir.

Ölkələrimizin parlamentləri arasında əlaqələrin möhkəmləndirilməsi, təcrübə mübadiləsi, dostluq qrupları və parlament sədrlərinin qarşılıqlı səfərlərinin təşkili məsələləri ətrafında söhbət aparılmışdır. Qarşılıqlı əlaqələrin inkişafı ilə yanaşı, eyni zamanda, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanmışdır.

Azərbaycan tərəfi sloveniyalı həmkarlarının Azərbaycanda iqtisadi-siyasi-sosial vəziyyət, parlamentarizmin strukturu, ölkədə milli azlıqların vəziyyəti, eləcə də siyasi partiya və milli azlıqların parlamentdə təmsil olunması barədə suallarını cavablandırmışdır.

Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovun Sloveniya Milli Assambleyasının sədrinə ünvanladığı dəvət məktubu təqdim olunmuşdur. Eyni zamanda, O.Əsədovun yaxın gələcəkdə Sloveniyaya mümkün rəsmi səfəri barədə fikir mübadiləsi aparılmışdır.

Fevralın 18-də Milli Məclis sədrinin müavini Bahar Muradova və MM-in insan hüquqları daimi komissiyasının sədri Rəbiyyət Aslanova Slovakiya parlamenti sədrinin müavini Anna Belausovova ilə görüşmüşdür.

Qonaqları səmimiyyətlə salamlayan A.Belausovova son görüşdən keçən vaxt ərzində dövlətlərimiz arasında əlaqələrin dərinləşdiyini qeyd etmiş və buna nümunə olaraq, ötən ilin dekabr ayında hər iki ölkənin mədəniyyət nazirlikləri arasında imzalanmış əməkdaşlığa dair sazişi qeyd etmişdir.

B.Muradova səmimi qəbul üçün təşəkkür etmiş və imzalanmış sazışın ölkələrimiz arasında mədəni əlaqələrin dərinləşməsinə öz töhfəsini verəcəyinə əminliyini bildirmişdir. Qeyd edilmişdir ki, əlaqələrin bugünkü səviyyəsi hər iki ölkənin potensialına kifayət qədər cavab vermir. Həm hökumətlər, həm də parlamentlər vətəndaş cəmiyyətləri arasında əlaqələrin dərinləşməsi üçün səylərini gücləndirməlidir. İndiyədək ölkələrimiz arasında əksəriyyəti iqtisadiyyat sahəsinə daxil olmaqla, altı saziş imzalanıbdır. Yaxşı haldır ki, tenderdə qalib gəlmiş Slovakiya şirkəti Bakı-Heydər Əliyev adına beynəlxalq hava limanı magistral yolunu beynəlxalq standartlara uyğun şəkildə tikərək vaxtında təhvil vermişdir. Azərbaycanın potensialını nəzərə alsaq, Slovakiya şirkətlərinin ölkəmizdə görəcəyi işlər hələ çoxdur.

Parlamentlərimiz arasında əlaqələrin dərinləşməsi, dostluq qruplarının fəaliyyətinin genişlənməsi, təcrübə mübadiləsi və yüksək səviyyəli qarşılıqlı səfərlərin reallaşması da diqqət mərkəzində olmalıdır.

Görüşdə, həmçinin ölkələrimiz arasında iqtisadi, mədəni, turizm və digər sahələrdə əlaqələrin inkişafı, həmçinin parlamentlərarası münasibətlərin dərinləşdirilməsi imkanları müzakirə edilmişdir.

Qarşılıqlı əlaqələrin inkişafı ilə yanaşı, beynəlxalq təşkilatlar səviyyəsində səmərəli əməkdaşlığa nail olmaq üçün işlək mexanizmlərin tapılmasının vacibliyi vurğulanmışdır. Eləcə də Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq təşkilatlar çərçivəsində müzakirəsi zamanı Azərbaycanın dost ölkələrin dəstəyinə ehtiyacı olduğu bildirilmişdir. Dünyanın ən mürəkkəb regionlarından biri sayılan Cənubi Qafqazda sülh və əmin-amanlığın əldə edilməsi bütün bəşəriyyətin marağında olmalıdır. Ötən ilin avqust ayında Gürcüstanda baş verən hadisələr, regionda separatçı ünsürlər və qeyri-qanuni silahlanma meyilləri böyük narahatlıq doğurur. Xüsusilə bu yaxınlarda Rusiyadan Ermənistana 800 milyon ABŞ dolları dəyərində silah-sursatın ötürülməsi regionda sülhün bərqərar olmasına böyük təhlükə yaradır.

Bildirilmişdir ki, ATƏT Parlament Assambleyasının iclasında ATƏT Parlament Assambleyasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nüma-

yəndəsi Qoran Lenmarkerin hesabatı dinlənilməkdir. Problemə yanaşmanın beynəlxalq hüquq normalarına və dövlətlərin ərazi bütövlüyü prinsipinə uyğun şəkildə formalaşması üçün ATƏT-in üzvü olan ölkələrinin dəstəyi lazımdır. Azərbaycan tərəfi hesab edir ki, ATƏT Parlament Assambleyasının sessiyasında slovak dostlarımız bu məsələyə çox diqqətli yanaşacaqlar.

Dağlıq Qarabağ münaqişəsinə toxunan A. Belausovova qeyd etmişdir ki, ölkəsi bütün belə münaqişələrin nizamlanmasında beynəlxalq hüquq normalarına əməl edilməsini əsas şərt kimi qəbul edir. Bu səbəbdən də bir çox Avropa İttifaqı ölkələri Kosovonun müstəqilliyini tanısa da, Slovakiya Respublikası bunu beynəlxalq hüquqa zidd hesab edir və Kosovonun müstəqilliyini tanımayacaqdır. Slovakiya ikili standartların tətbiq edilməsinin daim əleyhinədir və dövlətlərin ərazi bütövlüyünə zərbə vuran istənilən növ separatizmi pisləyir.

Görüşdə, həmçinin Avropanın enerji təminatında çoxşaxəlilik məsələsi və Nabukko qaz kəməri layihəsinin gələcək potensialı da müzakirə edilmişdir. Bildirilmişdir ki, Azərbaycan neft-qaz resurslarının nəqlində çoxşaxəliliyin tərəfdarıdır və bunu real şəkildə həyata keçirir. Azərbaycan Prezidenti İlham Əliyev bu yaxınlarda Budapeştdə keçirilmiş Nabukko sammitində bir daha bildirmişdir ki, Azərbaycanın qaz resursları enerji təminatında çətinliklə üzləşən Avropa ölkələri üçün açıqdır və heç bir ölkə öz neft-qaz ehtiyatlarından siyasi şantaj vasitəsi kimi sui-istifadə etməməlidir. Azərbaycan öz qaz resurslarını Avropa bazarlarına çıxarmağa hazır olmaqla yanaşı, Mərkəzi Asiyanın enerji ehtiyatlarının Avropaya nəqlində tranzit ölkə rolunu da təklif edir. Azərbaycan öz dostlarının qaz böhranından çıxması üçün lazımi dəstəyi verməyə hazırdır.

Görüşdə iştirak edən Slovakiya Mədəniyyət Nazirliyinin dövlət katibi Yozef Lanq ölkələrimiz arasında mədəni əlaqələrin inkişafından bəhs etmiş və konkret əməkdaşlıq imkanlarına toxunmuşdur. Eyni zamanda, elm, təhsil sahəsində geniş əməkdaşlıq imkanlarının mövcudluğu qeyd edilmiş, elmi tədqiqat institutları arasında birgə layihələr, tələbə-müəllim mübadiləsi, kitabxana işi, kitabxanalarda rəqəmsal kataloqların hazırlanması və s. sahələrdə səmərəli işbirliyinin mümkünlüyü diqqətə çatdırılmışdır. Xüsusilə vurğulanmışdır ki, hər iki ölkədə mədəniyyət evlərinin yaradılması mədəniyyətlərin təbliği, mədəniyyətlərarası dialoqun inkişafı və xalqlarımızın yaxınlaşması sahəsində əhəmiyyətli rol oynaya bilər.

Görüşün sonunda B.Muradova Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovun Slovakiya Milli Şurasının (parlament) sədri Pavol Paşkaya ünvanladığı dəvət məktubunu təqdim etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSESKO-NUN BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.

Əbdüləziz bin Osman əl-Tüveycri Prezident İlham Əliyevə Bakının İslam mədəniyyətinin paytaxtı elan edilməsinə həsr olunmuş tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirdi, dünyanın müxtəlif ölkələrindən çoxsaylı nümayəndələrin bu tədbirdə iştirakını məmnunluqla qeyd etdi. O, Azərbaycan xalqının dünya mədəniyyətinə və dünya sivilizasiyasına böyük töhfələr verdiyini, Prezident İlham Əliyevin Azərbaycanda mədəniyyətin inkişafına xüsusi qayğısını vurğuladı.

Qonaq Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi altında bu sahədə böyük işlərin görüldüyünü də bildirdi.

Əbdüləziz bin Osman əl-Tüveycri sözügedən tədbirin Azərbaycanda keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı Bakının İslam mədəniyyətinin paytaxtı seçilməsi işində göstərdiyi dəstəyə görə İSESKO-nun baş direktoruna minnətdarlıq etdi, bu hadisənin Azərbaycan üçün əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, Bakının İslam mədəniyyətinin paytaxtı seçilməsi dünya ölkələrinə, o cümlədən islam dövlətlərinin Azərbaycanda gedən inkişaf prosesləri barədə daha geniş məlumat əldə etməsinə imkan verəcəkdir. Dövlətimizin başçısı ölkəmizin bundan sonra da islam ölkələri arasında əlaqələrin inkişafı işinə öz töhfəsini verəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİNİN MÜAVİNİ ATTA ƏL-MƏNNANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də İslam Konfransı Təşkilatının baş katibinin müavini Atta əl-Mənnanı qəbul etmişdir.

Görüşdə Bakının İslam mədəniyyətinin paytaxtı elan edilməsinə həsr olunmuş tədbirin əhəmiyyəti vurğulandı, bu tədbirin Azərbaycanda keçirilməsinin ölkəmizin islam dövlətləri arasında əməkdaşlığın genişləndirilməsi işinə verdiyi töhfə kimi qiymətləndirildi.

TOKİODA GUAM + YAPONİYA FORMATINDA MİLLİ ƏLAQƏLƏNDİRİCİLƏRİN İCLASI KEÇİRİLMİŞDİR

Fevralın 19-da Tokioda GUAM+Yaponiya formatında milli əlaqələndiricilər Şurası səviyyəsində dördüncü görüş keçirilmişdir və görüşün yekunlarına dair bəyanat qəbul olunmuşdur.

Səkkiz bənddən ibarət sənəddə deyilir ki, GUAM-a üzv ölkələrin milli əlaqələndiriciləri - xarici işlər nazirlərinin müavinləri və GUAM-ın baş katibi Valeri Çeçelaşvili Yaponiyanın xarici işlər naziri Xirofumi Nakasone, nazirliyin dövlət katibi Şintaro İto, GUAM-dakı xüsusi nümayəndə Nobukatsu Kanexara ilə görüşlərində müzakirə olunmuş məsələlər və qəbul olunmuş qərarlar əksini tapmışdır.

Bildirilir ki, görüşlərdə ticarət, investisiya, turizm və nəqliyyat, beynəlxalq əməkdaşlıq, o cümlədən iqlim dəyişməsi, BMT Təhlükəsizlik Şurasında (TŞ) islahatlar və münaqişələrin sülh yolu ilə TŞ-nin qərarları əsasında həlli məsələləri müzakirə olunmuşdur.

GUAM təmsilçiləri Yaponiya işgüzar dairələri ilə iqtisadi əlaqələri genişləndirmək niyyətlərini bildirmişlər.

Yaponiya tərəfi GUAM-ın turizm sahəsində ekspertlərinin Kiyevdə keçirilmiş görü-

şündən məmnunluğunu bildirmiş və təşkilata üzv ölkələrdə turizmin inkişafına dəstək verməyə hazır olduğunu bəyan etmişdir.

Tərəflər GUAM-Yaponiya formatında dialoqu davam etdirməyə hazır olduqlarını vurğulamışlar.

İclasda Azərbaycanı xarici işlər nazirinin müavini, GUAM-da milli əlaqələndirici Araz Əzimov təmsil edirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİ, AZƏRBAYCAN-İRAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ HƏMSƏDRİ MƏNUÇEHR MOTTƏKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da İran İslam Respublikasının xarici işlər naziri, Azərbaycan-İran Hökumətlərarası Komissiyasının həmsədri Mənuçehr Mottəkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Mənuçehr Mottəki İran Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə əlaqələrimizin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. İranın xarici işlər nazirinin ölkəmizə bu səfərinin əlaqələrin daha da genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı, Azərbaycan və İran arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

BAKIDA AZƏRBAYCAN-İRAN DÖVLƏTLƏRARASI MÜŞTƏRƏK KOMİSSİYANIN YEDDİNCİ İCLASI KEÇİRİLMİŞDİR

Fevralın 19-da Bakıda Azərbaycan və İran arasında iqtisadi, ticarət, humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın yeddinci iclası keçirilmişdir.

Komissiyanın iclasına həmsədrlik edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və onun iranlı həmkarı Mənuçehr Mottəki danışıqların davam etdiriləcəyini vurğulamışlar.

Bu danışıqlar iclasın sonunda qəbul olunmuş beş sənədə əsasən davam etdiriləcəkdir.

Bildirilmişdir ki, nəqliyyat, rabitə, kommunikasiya, iqtisadi-ticarət, mədəniyyət, sərhəd, hüquq, sənaye və energetika sahələrinin inkişaf etdirilməsi üçün hər iki ölkənin işçi qrupu birgə çalışacaqdır.

Azərbaycan ilə İran arasında münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini deyən xarici işlər naziri E.Məmmədyarov müzakirələrdən razı qaldığını söyləmişdir.

İranın xarici işlər naziri Mənuçehr Mottəki ölkələrimiz arasında əlaqələrin böyük tarixə

malik olduğunu, bunun indiki münasibətlərə də müsbət təsir etdiyini vurğulamışdır.

Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın növbəti səkkizinci iclası Tehranda keçiriləcəkdir. İclasın keçirilmə tarixi isə qarşılıqlı razılaşma əsasında müəyyən olunacaqdır.

AZƏRBAYCAN VƏ İRAN ARASINDA DÖVLƏTLƏRARASI KOMİSSİYANIN YEDDİNCİ İCLASININ NƏTİCƏLƏRİ BARƏDƏ MEMORANDUM İMZALANMIŞDIR

Fevralın 19-da Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət, humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın yeddinci iclasının nəticələri barədə Memorandum imzalanmışdır.

Memorandumu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və İranın xarici işlər naziri Mənuçehr Mottəki imzalamışlar.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI MOSKVADA BİR SIRA TƏDBİRLƏR KEÇİRMİŞDİR

Fevralın 19-20-də Azərbaycan Diplomatik Akademiyasının (ADA) beynəlxalq münasibətlər və diplomatiya üzrə iki illik magistr proqramının RF XİN-nin Diplomatik Akademiyasında, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (universitetində) və Azərbaycanın Moskvadakı Səfirliyində 5 təqdimat mərasimi təşkil olunmuşdur.

Ümumilikdə, təqdimat mərasimlərinə 200 nəfərə yaxın adam, o cümlədən "beynəlxalq münasibətlər", "beynəlxalq iqtisadi münasibətlər", "beynəlxalq hüquq", "regionşünaslıq" və "konfliktologiya" fakültələrinin axırıncı kurslarında təhsil alan rus və azərbaycanlı tələbələr, rektorlar, xarici əlaqələr üzrə dekan və prorektorlar, RF Təhsil və Elm Nazirliyinin xarici əlaqələr departamentinin, eləcə də Təhsil üzrə Federal Agentliyin rəsmiləri, xarici ölkələrin diplomatları və jurnalistlər də qatılmışlar. Təqdimatlar ADA-nın xarici siyasət proqramının direktor müavini Aygün Hacıyeva tərəfindən edilmiş, iştirakçılara Akademiya haqqında slayd-şou və videomateriallar göstərilmişdir.

RF XİN-nin Diplomatik Akademiyasında MADİA proqramı üzrə keçirilən təqdimatdan əvvəl ADA-nın nümayəndəsi səfirlik əməkdaşları və Rusiyada Azərbaycan Gənclər Təşkilatının əlaqələndiricisi ilə birlikdə Akademiyanın rəhbərliyi - rektorun müşaviri Y.Fokin və beynəlxalq iqtisadi əlaqələr fakültəsinin dekanı M.Kazaçkova tərəfindən qəbul olunmuş, bu zaman iki tədris müəssisəsinin qarşılıqlı əməkdaşlıq perspektivləri, ADA-nın magistr proqramında rusiyalı gənclərin iştirakı məsələləri barədə fikir mübadiləsi aparılmışdır. ADA-da təhsil almaq qaydaları, proqramların strukturu və məzmunu, Qafqaz regionunun öyrənilmə dərəcəsi, yaşayış imkanları ilə bağlı tələbələrin çoxsaylı suallarını A.Hacıyeva ətraflı cavablandırmışdır. Tədbirin yekununda ADA-nın kitabxana fondu üçün Rusiya, eləcə də dünya diplomatiya tarixi və Akademiya barədə məcmuə dəstləri hədiyyə olunmuşdur.

Eyni mövzulu təqdimat Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda

(MDBMİ) da təşkil edilmişdir. Təqdimatdan əvvəl, təhsil müəssisəsinin rəhbərliyi - rektorun müşaviri A.Malginlə keçirilən görüşdə ADA-nın proqramlarına rusiyalı kontingentin cəlbi məsələsinin əhəmiyyəti barədə geniş fikir mübadiləsi aparılmışdır. Təqdimat mərasiminin sonunda ADA nümayəndəsi MDBMİ-nin maddi-texniki bazası ilə tanış olmuş, buradakı təhsil metodları, proqram təminatı məsələləri barədə ətraflı məlumatlandırılmışdır.

Səfirliyin əməkdaşları sonra xarici ölkə diplomatları üçün xarici siyasət (AFSP) proqramının 6 istiqamət üzrə modulu, daha sonra isə tələbə-müəllim heyəti və təhsili idarəetmə qurumlarının nümayəndələri üçün MADİA proqramı çərçivəsində təqdimatlar keçirilmiş, bütün iştirakçılara ADA və onun təqdim etdiyi proqramlar barədə materiallar paylanmışdır.

Ümumiyyətlə qeyd olunmalıdır ki, Azərbaycan Respublikasında beynəlxalq təhsil standartlarına cavab verən Diplomatik Akademiyanın yaradılması və fəaliyyətə başlaması Rusiya tərəfinin aidiyyəti təşkilat, müəssisə və idarəetmə orqanları, eləcə də ictimai elitası tərəfindən müsbət qarşılanır, diplomatik korpus üçün kadr hazırlığı məsələsinə göstərilən diqqət yüksək qiymətləndirilir.

ATƏT-İN MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİNİN HƏRBİ YOLLA MÜMKÜNSÜZLÜYÜNƏ DAİR BƏYANATLARI ERMƏNİSTANA YÖNƏLMƏLİDİR

Fevralın 20-də Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Xəzər İbrahim ATƏT-in Minsk qrupu həmsədrlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaydıqları son bəyanatla əlaqədar nazirliyin mövqeyini bildirmişdir.

X.İbrahim demişdir ki, Minsk qrupu həmsədrlərinin bəyanatında Azərbaycanın ötən ilin dekabrında BMT Baş Məclisində yaydığı sənədlərdə əks olunmuş məsələlər, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həllinin mümkün olmaması ilə bağlı məsələlər daxildir. Azərbaycanın yaydığı sənədlər beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmışdır. Bu prinsiplər noyabrın 2-də Moskvada Azərbaycan, Rusiya və Ermənistan prezidentləri arasında imzalanmış bəyannamədə də münaqişənin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində qəbul olunmuş sənəd və qərarlar əsasında həlli qeyd olunur. Azərbaycanın bu cür sənədlər yayması normal haldır. Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan münaqişənin sülh yolu ilə həllinin tərəfdarıdır. Bu sülh yolu isə beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalıdır.

X.İbrahim bildirmişdir ki, Ermənistan hər zaman münaqişənin hərbi yolla həllinə çalışmışdır. Ona görə ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişənin hərbi yolla həllinin mümkünsüzlüyünə dair tələbləri məhz Ermənistana yönəlməlidir. Həmsədrlər Ermənistanın münaqişənin sülh yolu ilə həllini və işğalçı ölkədən silahlı qüvvələrini Azərbaycan torpaqlarından çıxarmasını tələb etməlidirlər.

AZƏRBAYCAN 2010-CU İLƏDƏK QANUNVERİCİLİYİN DTT STANDARTLARINA UYĞUNLAŞDIRILMASI ÜZRƏ FƏALİYYƏT PLANINI YERİNƏ YETİRMƏK NİYYƏTİNDƏDİR

Azərbaycan 2010-cu ilədək qanunvericiliyin Dünya Ticarət Təşkilatının (DTT) standartlarına uyğunlaşdırılması üzrə fəaliyyət planını yerinə yetirmək niyyətindədir. Bunu xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev Xəzər İnteqrasiya İşgüzar Klubunun üzvləri ilə görüşdə bəyan etmişdir.

M.Məmmədquliyev bildirmişdir ki, 2006-cı ildə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qanunvericiliyin DTT standartlarına uyğunlaşdırılmasına dair fəaliyyət planı təsdiqlənmişdir. Hazırda bu plan çərçivəsində müəyyən qanun və sənədlər artıq təsdiqlənmiş, onların digər hissəsi təsdiqlənmə prosesindədir. Ümid olunur ki, bu plan 2009-cu ilin sonunadək yerinə yetiriləcəkdir. Gələcəkdə zərurət yaranarsa, qanunvericiliyin DTT standartlarına uyğunlaşdırılması prosesi davam etdirilə bilər.

Nazir müavini əlavə etmişdir ki, 2009-cu ilin birinci yarısında Cenevrədə işçi qrupunun DTT Katibliyi ilə növbəti görüşü keçirilə bilər. Hər şey qurum üzvlərindən aldığımız suallara nə qədər tez cavab verə biləcəyimizdən asılıdır. Bizim cavablarımızla tanış olmaq üçün onlara ən azı bir ay vaxt lazımdır. Əgər biz martın sonunadək bütün suallara cavab verə bilsək, onda cari ilin birinci yarısında işçi qrupunun növbəti iclasının keçirilməsi üçün imkan yaranacaqdır. Sualların sayı çox deyil, lakin onlar daha ətraflı cavab tələb edir.

Azərbaycanın 2009-cu ildə DTT-nin bəzi üzvləri ilə ikitərəfli danışıqları başa çatdıra biləcəyini deyən M.Məmmədquliyev vurğulamışdır ki, hazırda 6 ölkə ilə danışıqlar sona yetmişdir. Onlardan Türkiyə, BƏƏ, Oman ilə müvafiq protokollar imzalanmış, Gürcüstan, Qırğızıstan, Moldova ilə isə sənədlər imzalanmaq üçün hazırlanır.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ XƏZƏR İŞGÜZAR KLUBUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan 2009-cu il mayın 1-dən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında (QİƏT) sədrlik edə bilər. Bu barədə xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev fevralın 20-də Xəzər İşgüzar İnteqrasiya Klubunun üzvləri ilə görüşündə bildirmişdir.

M.Məmmədquliyev demişdir ki, rotasiya prinsipinə görə, Azərbaycan 2009-cu ilin mayından QİƏT-də 6 ay müddətinə sədr olmalıdır. Biz hazırda bu məsələni öyrənirik. Azərbaycan təşkilatda sədrlik edəcəyi təqdirdə əsas prioritet istiqamətlərini müəyyənləşdirmişdir. Birinci istiqamət QİƏT-in strukturunda islahatların dərinləşdirilməsidir. 2003-cü ildə biz islahatlarla bağlı məsələ qaldırdıq, lakin indiyədək lazımi nəticələr əldə olunmamışdır. Buna görə də hesab edirik ki, QİƏT-də sədrlik islahatlara yeni təkan verəcəkdir.

Nazir müavini Avropa İttifaqı ilə əməkdaşlığın genişləndirilməsini ikinci, QİƏT ölkələrində informasiya-kommunikasiya texnologiyalarının inkişafının təşviqini üçüncü prioritet istiqamət adlandırmışdır. Biz informasiya-kommunikasiya texnologiyalarının inkişafını vacib sayırıq və Azərbaycan bu sahədə əlaqələndirici ölkə olmağa hazırdır.

AZƏRBAYCAN "ŞƏRQ TƏRƏFDAŞLIĞI" PROQRAMINA QOŞULMAQLA BAĞLI AVROPA İTTİFAQININ TƏKLİFİNİ ÖYRƏNİR

Azərbaycan Avropa İttifaqının (Aİ) "Şərq tərəfdaşlığı" Proqramına qoşulmaqla bağlı mövqeyini tezliklə bildirəcəkdir. Bu sözləri fevralın 20-də jurnalistlərə xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev demişdir.

M.Məmmədquliyev bildirmişdir ki, "Şərq tərəfdaşlığı" Proqramı Aİ-nin qonşuluq təşəbbüsü çərçivəsində siyasətidir. Bu proqramın 6 ölkəyə - Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Ukrayna və Belarusa şamil ediləcəyi nəzərdə tutulur. Hazırda biz bu təklifi öyrənirik və tezliklə öz rəyimizi bildirəcəyik. "Şərq tərəfdaşlığı" Proqramının gerçəkləşdirilməsi bir sıra sahələr üzrə Aİ ilə əməkdaşlığı dərinləşdirəcək və assosiativ üzvlük haqqında saziş imzalamağa imkan verəcəkdir.

Azərbaycanın Aİ ilə əməkdaşlığın genişlənməsində maraqlı olduğunu qeyd edən nazir müavini demişdir ki, ölkəmiz Avropa Qonşuluq Siyasəti çərçivəsində 2008-ci ildə görülmüş işlər barədə 130 səhifədən ibarət hesabat təqdim etmişdir. Hesabata vergi və gömrük sistemlərinin təkmilləşdirilməsi, biznes mühitinin yaxşılaşdırılması, korrupsiya ilə mübarizə və digər istiqamətlər üzrə görülmüş tədbirlər daxildir.

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI

Fevralın 21-də Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Dövlət başçıları ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etməsindən məmnun olduqlarını bildirmişlər. Rusiya Federasiyasının Prezidenti dövlətimizin başçısına Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının və Avrasiya İqtisadi Birliyinin (EvrAzGS) Moskvada keçirilən iclaslarının nəticələri barədə məlumat vermişdir.

Prezidentlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparmışlar. Dövlət başçıları dünyada iqtisadi böhranla bağlı vəziyyəti də müzakirə etmişlər.

Azərbaycan və Rusiya prezidentləri ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əmin olduqlarını bildirmişlər.

Telefon söhbəti zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

MOSKVADA AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ PROQRAMININ TƏQDİMATI KEÇİRİLMİŞDİR

Fevralın 21-də Azərbaycanın Moskvadakı səfirliyində Azərbaycan Diplomatik Akademiyasının (ADA) və onun diplomatiya və beynəlxalq münasibətlər üzrə magistr proqramının təqdimatı keçirilmişdir.

Moskva ali məktəbləri tələbələrinin iştirak etdiyi tədbiri açan səfirliyin humanitar məsələlər üzrə müşaviri Nigar Axundova bildirmişdir ki, Azərbaycan Diplomatik Akademiyası iki il əvvəl yaradılmışdır və bu, inkişaf üçün böyük üstünlük və potensialdır. O, Akademiyanın proqramlarının həmdirektoru, ADA-nın xarici siyasət proqramının direktor müavini Aygün Hacıyevanı təqdim etmişdir.

A.Hacıyeva bildirmişdir ki, fevralın 19-20-də ADA-nın Rusiyada magistr proqramlarının təqdim olunması məqsədi ilə Rusiya Diplomatik Akademiyasında və RF XİN-i yanında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (universiteti) və s. 5 tədbir keçirilmişdir. O, ADA-nın yaradılmasından ətraflı danışmış, foto və video slaydlar vasitəsilə Bakının Dədə Qorqud parkında yaradılacaq Akademiya şəhərciyinin maketini təqdim etmişdir. 2011-ci ilədək burada Akademiyanın yeni kompleksi tikiləcəkdir. Hələlik isə ADA Azərbaycan XİN-in yaxınlığındakı üçmərtəbəli binada yerləşir və artıq 2009-cu ilin sentyabrından 25 tələbəni qəbul etməyə hazırdır. Akademiyada tələbələrin ən yüksək səviyyəli təhsil alması üçün geniş imkanlar yaradılmışdır. Təhsil ocağında respublikada bənzəri olmayan elmi kitabxana fəaliyyət göstərəcəkdir. Müvafiq müqavilələrə əsasən, kitabxana üçün ABŞ-dan beynəlxalq münasibətlər və diplomatiya mövzusunda 100 min kitab alınmışdır.

A.Hacıyeva xarici siyasət proqramını təqdim edərək demişdir ki, proqram üç səviyyədə - diplomatik xidmətə yenicə başlamış diplomatlar, XİN-də 5-10 il işləmiş əməkdaşlar və daha təcrübəli rəhbər heyət üçün həyata keçiriləcəkdir. Bu ilin sentyabrından ADA-da təhsil alacaq 25 tələbənin təxminən üçdə biri əcnəbi vətəndaş olacaqdır. A.Hacıyeva demişdir: "Biz altı əsas istiqamətdə diplomatlar hazırlayırıq, 2009-cu ildən isə Akademiyada yeni təhlükəsizlik və münaqişələrin həlli və Xəzər regionunun öyrənilməsi ixtisası üzrə tələbələr hazırlanacaqdır".

ADA-nın nümayəndəsi əlavə etmişdir ki, Akademiyada dörd növ təqaüd – tədqiqat proqramı vardır. A.Hacıyeva demişdir: "Onların birincisi təhsil haqqının 100 faiz ödənilməsini nəzərdə tutan "Heydər Əliyev Scholarship" proqramı, ikincisi, illik təhsil haqqını 50 faiz güzəştlə ödəməyə imkan verən "Zeynalabdin Tağıyev" və ADA-nın tədqiqat xarakterli iki proqramıdır".

Onun sözlərinə görə, ADA-nın proqramları artıq Gürcüstanda və Moskvada təqdim olunmuşdur. Bu cür tədbirlərin gələn həftə Sankt-Peterburqda, habelə Pakistanda, Çexiyada və digər Avropa ölkələrində keçirilməsi nəzərdə tutulmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ PRİDON TODUANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Gürcüstan parlamenti sədrinin müavini Pridon Toduanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı parlamentlərarası əlaqələrin genişlənməsində bu səfərin əhəmiyyətini vurğuladı və ümidvar olduğunu bildirdi ki, iki ölkənin qanunverici orqanları arasında əməkdaşlığın gələcək perspektivlərini müzakirə etmək baxımından səfər səmərəli olacaqdır.

Pridon Todua vaxtilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə görüşdü-

yünü xatırladı və bundan böyük şərəf duyduğunu dedi. O, parlamentlərarası əlaqələrin genişlənməsinin vacibliyini vurğuladı və bu səfərin əməkdaşlığın möhkəmlənməsinə töhfə verəcəyinə əmin olduğunu bildirdi.

BAKIDA AZƏRBAYCAN RESPUBLİKASI VƏ RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA KONSULLUQ MƏSƏLƏLƏRİ İLƏ BAĞLI NİYYƏT PROTOKOLU İMZALANMIŞDIR

Fevralın 25-də Bakıda Azərbaycan Respublikası və Rusiya Federasiyası Xarici İşlər nazirlikləri arasında konsulluq məsələlərinə dair növbəti məsləhətləşmələr keçirilmişdir.

Məsləhətləşmələrdən əvvəl nümayəndə heyətinin üzvləri Fəxri xiyabanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəmanların məzarlarını ziyarət etmişlər.

Sonra məsləhətləşmələr davam etdirilmiş, Azərbaycan Respublikası və Rusiya Federasiyasında yaşayan hər iki ölkə vətəndaşlarının hüquqi vəziyyəti, onların qarşılaşdıqları çətinliklərin həlli yolları, xüsusilə Rusiyada yaşayan Azərbaycan Respublikası vətəndaşlarının vəziyyəti, onlara qarşı törədilmiş qətl hadisələri, Rusiya Federasiyası ərazisində qeyri-qanuni yaşayan Azərbaycan Respublikası vətəndaşlarının deportasiyası zamanı yaranan problemlər, deportasiya ediləcək şəxslərin saxlanma şəraiti, qanunsuz deportasiya olunduqlarını bildirən vətəndaşların şikayətetmə mexanizmi, miqrasiya problemləri və readmissiya kimi vacib məsələlər müzakirə olunmuşdur.

Müzakirələrdə hər iki ölkənin Daxili İşlər, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Sərhəd, Miqrasiya və Gömrük xidmətlərinin nümayəndələri çıxış edərək gündəlikdəki məsələlərə dair fikir və təkliflərini bildirmişlər.

Azərbaycan tərəfdən məsləhətləşmələrdə nümayəndə heyətinə Xarici İşlər Nazirliyi Konsulluq İdarəsinin rəisi, fövqəladə və səlahiyyətli səfir Nadir Hüseynov, Rusiya nümayəndə heyətinə fövqəladə və səlahiyyətli səfir Lev Pauzin rəhbərlik etmişlər.

Sonda tərəflər arasında müzakirə olunan məsələlərə dair Niyyət Protokolu imzalanmışdır.

Azərbaycan Respublikası və Rusiya Federasiyası Xarici İşlər nazirliklərinin bundan əvvəlki konsulluq məsləhətləşmələri 2007-ci il yanvarın 30-31-də Moskva şəhərində keçirilmişdir.

AZƏRBAYCAN VƏ UKRAYNA XARİCİ İŞLƏR NAZİRLƏRİ ÖLKƏLƏRİMİZ ARASINDA BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ ƏLAQƏLƏRİ MÜZAKİRƏ ETMİŞLƏR

Fevralın 26-da Ukraynada səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov həmkarı Vladimir Oqrızko ilə görüşmüşdür.

Ukraynanın Xarici İşlər Nazirliyinin rəsmi saytında bildirilir ki, görüşdə Azərbaycan-Ukrayna münasibətlərinin hazırkı vəziyyəti, iki ölkə arasında beynəlxalq təşkilatlar

çərçivəsində əlaqələr, həmçinin regional məsələlər müzakirə olunmuşdur.

Tərəflər Azərbaycan ilə Ukrayna arasında siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əlaqələrin yüksək səviyyədə olduğunu vurğulamışlar.

Görüşdə, həmçinin enerji təhlükəsizliyi və nəqliyyat sahələrində əməkdaşlığa dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI VƏ İORDANİYA HAŞİMİLƏR KRALLIĞI ARASINDA TİCARƏT, İQTİSADİ VƏ TEXNİKİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ BİRİNCİ İCLASI KEÇİRİLMİŞDİR

Fevralın 25-26-da İordaniyanın paytaxtı Əmman şəhərində Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında ticarət, iqtisadi və texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın birinci iclası keçirilmişdir.

Azərbaycan tərəfdən komissiyanın həmsədri, iqtisadi inkişaf naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətinə Xarici İşlər, Səhiyyə, Rabitə və İnformasiya Texnologiyaları nazirliklərinin, Milli Bankın, Dövlət Mülki Aviasiya Administrasiyasının və ölkəmizin İordaniyadakı səfirliyinin əməkdaşları daxil idi.

İordaniya tərəfdən komissiyanın həmsədri, sənaye və ticarət naziri Əmir Hədidinin rəhbərlik etdiyi nümayəndə heyətində bu ölkənin müvafiq dövlət qurumlarının nümayəndələri təmsil olunurdu.

Tədbirdə iqtisadi inkişaf naziri Şahin Mustafayev hökumətlərarası komissiyanın iclasının keçirilməsini Azərbaycan Prezidenti İlham Əliyev və İordaniya Kralı II Abdullahın ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinə göstərdikləri diqqətin təzahürü olduğunu vurğulamışdır. Bildirilmişdir ki, 2006-cı ilin avqustunda və 2008-ci ilin mayında İordaniya Kralının Azərbaycana, 2007-ci ilin iyulunda Azərbaycan Prezidentinin İordaniyaya rəsmi səfərləri ölkələrimiz arasında yüksək səviyyəli siyasi münasibətlərin formalaşmasına səbəb olmuş, iqtisadi əməkdaşlıqda yeni mərhələnin başlanğıcını qoymuşdur. Şahin Mustafayev iqtisadi əlaqələri siyasi münasibətlər səviyyəsinə yüksəltməyin, bununla bağlı ölkələrimizin mövcud potensialını reallaşdırmağın başlıca vəzifə olduğunu qeyd etmişdir. Müasir Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə qazanılmış iqtisadi uğurlar barədə İordaniya tərəfinə məlumat verilmişdir.

İordaniyanın sənaye və ticarət naziri Əmir Hədidi Azərbaycan və İordaniya arasında iqtisadi əməkdaşlığın daha da inkişafı üçün səylərin birləşdirilməsinin məqsədəuyğunluğunu vurğulamış, İordaniyanın ölkəmizlə iqtisadi əlaqələrin genişlənməsində maraqlı olduğunu qeyd etmişdir.

İclasda Azərbaycan və İordaniya arasında ticarət-iqtisadi, sənaye və energetika, rabitə və informasiya texnologiyaları, kənd təsərrüfatı, gömrük işi, hava və dəniz nəqliyyatı, mədəniyyət və turizm, təhsil, səhiyyə və digər sahələrdə əməkdaşlığın istiqamətləri müzakirə olunmuş, konkret məsələlərlə bağlı razılaşmalar əldə edilmişdir.

İclasın yekunlarına dair protokol imzalanmışdır. Sənədi komissiyanın həmsədrləri - Şa-

hin Mustafayev və Əmir Hədidi imzalamışlar.

Səfər çərçivəsində Şahin Mustafayev İordaniyanın Baş naziri Nadir Dahabi ilə görüşmüşdür. Tərəflər ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişaf perspektivlərini müzakirə etmişlər.

Səfər çərçivəsində iş adamlarının iştirakı ilə İordaniya-Azərbaycan biznes forumu keçirilmişdir. Azərbaycanın informasiya texnologiyaları, kimya, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, inşaat, səhiyyə, ticarət və digər sahələrdə fəaliyyət göstərən 10-dan çox şirkətinin təmsil olunduğu tədbirdə hər iki ölkənin investisiya mühiti və iqtisadi imkanları barədə məlumatlar verilmişdir. Forum çərçivəsində iş adamları arasında ikitərəfli işgüzar görüşlər, azərbaycanlı iş adamlarının İordaniyanın sənaye və ticarət müəssisələrinə səfərləri təşkil edilmişdir.

Bu cür tədbirlərin müntəzəm olaraq hər iki ölkədə keçirilməsi qərara alınmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

M.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının açılmasının humanitar sahədə əməkdaşlığın, ümumən iki ölkə arasındakı münasibətlərin genişlənməsində əhəmiyyəti vurğulandı. Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkinin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin qarşılıqlı əlaqələrin genişlənməsinə töhfə verdiyi bildirildi.

Görüşdə ikitərəfli münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzeni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN "TOTAL" ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT ÜZRƏ PREZİDENTİ İV LUİ DARRİKARRERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də "Total" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti İv Lui Darrikarreri qəbul etmişdir.

Dövlətimizin başçısı Xəzər dənizinin Azərbaycan sektorundakı "Abşeron" yatağı blokunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Dövlət Neft Şirkəti və Total Exploration and Production Abşeron B.İ.V.İ şirkəti arasında imzalanmış sazişin əhəmiyyətini vurğuladı. Ölkəmizin "Total" şirkəti ilə əməkdaşlığına toxunan Prezident İlham Əliyev işbirliyinin bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.

İv Lui Darrikarrer imzalanmış sazişin önəmini vurğuladı. O, Azərbaycanla əməkdaşlığın uğurla həyata keçirilməsi üçün geniş imkanların olduğunu dedi və işbirliyinin daha da inkişaf edəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KİKBOKSİNQ TƏŞKİLATLARI DÜNYA ASSOSİASİYASININ PREZİDENTİ ENNİO FALSONİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Kikboksinq Təşkilatları Dünya Assosiasiyasının prezidenti Ennio Falsonini qəbul etmişdir.

Ennio Falsoni Azərbaycanda idmanın inkişafı üçün hər cür şəraitin yaradıldığını vurğuladı. Ölkəmizin beynəlxalq idman aləmində artan nüfuzundan danışan qonaq bir sıra mötəbər beynəlxalq yarışların keçirilməsi üçün Azərbaycanda əlverişli imkanın olduğunu söylədi.

Prezident İlham Əliyev Azərbaycanda idmanın bütün növlərinə dövlət tərəfindən yüksək diqqət göstərildiyini, gənclərin fiziki sağlamlığı üçün ölkəmizin hər yerində lazımi idman infrastrukturunun yaradıldığını bildirdi.

Dövlətimizin başçısı Kikboksinq Təşkilatları Dünya Assosiasiyası ilə Azərbaycanın müvafiq idman qurumlarının əməkdaşlığının gələcəkdə daha da genişlənəcəyinə ümidvar olduğunu vurğuladı.

KİYEVDƏ GUAM KATİBLİYİ BİNASININ AÇILIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR

Fevralın 27-də Ukrayna Prezidenti Viktor Yuşşenko Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın - GUAM-ın üzvü olan dövlətlərin bu beynəlxalq qurumun Xarici İşlər Nazirləri Şurasının XI iclasında iştirak edən nümayəndə heyətlərinin başçılarını qəbul etmişdir. Azərbaycan nümayəndə heyətinə xarici işlər naziri Elmar Məmmədyarov başçılıq edir.

V.Yuşşenko nümayəndə heyətlərinin üzvlərini GUAM Katibliyi binasının açılması münasibətilə təbrik edərək demişdir ki, indi GUAM Katibliyinin və bütövlükdə təşkila-

tın səmərəli fəaliyyəti üçün hər bir şərait vardır.

Birliyin prioritetlərindən danışan V.Yuşşenko energetika, nəqliyyat və ticarət sahələrində əməkdaşlığı önə çəkmiş, "Odessa-Brodı" layihəsinin həyata keçirilməsinin vacibliyini vurğulamışdır.

Sonra GUAM Katibliyi binasının təntənəli açılış mərasimi keçirilmişdir. Tədbiri GUAM-ın baş katibi Valeri Çeçelaşvili açaraq bildirmişdir ki, Katiblik qarşıda duran bütün vəzifələri yerinə yetirəcəkdir.

Azərbaycan xarici işlər naziri çıxışında təşkilatın təhlükəsizliyi, ilk növbədə, GUAM-ın üç ölkəsinin ərazisində dondurulmuş münaqişələrin həlli məsələlərinin əhəmiyyətini vurğulamışdır.

ABŞ ümid edir ki, bu beynəlxalq təşkilat çərçivəsində əməkdaşlıq, əsasən, innovasiya xarakteri daşıyacaqdır. Bu fikri Vaşinqtonla birbaşa telebağlantı zamanı ABŞ dövlət katibinin müavini Yan Kelli bildirmişdir. O demişdir ki, ABŞ GUAM-ı əməkdaşlıq çərçivəsində dəstəkləməkdə davam edəcəkdir. Bu təşkilat region ölkələrinə demokratiyanın və hüququn aliliyinin tətbiqi üçün real mexanizmlər təqdim edir. Öncül istiqamətlərdən danışan Yan Kelli bildirmişdir ki, ABŞ GUAM çərçivəsində, o cümlədən sərhədlərdə təhlükəsizliyin təmin edilməsinə dair layihələrin gerçəkləşdirilməsi sahəsində əməkdaşlığı davam etdirəcəkdir.

Görüşdə bildirilmişdir ki, Katibliyin açılması GUAM-ın inkişafı prosesinə, habelə iqtisadiyyat, nəqliyyat, energetika, terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə, turizm, fövqəladə hallarda yardım və s. sahələrdə əməkdaşlığa dair praktik layihələrlə məşğul olan işçi qruplarının planauyğun fəaliyyətinin təmin olunmasına yeni təkan verəcəkdir.

GUAM-ın tərəfdaşları - ABŞ, Yaponiya, Polşa və hazırda Aİ-də sədrlik edən Çexiyanın səfirləri çıxışlarında gələcək əməkdaşlığın perspektivlərindən nikbinliklə danışmışlar.

Tədbirdə, həmçinin Azərbaycan xarici işlər nazirinin müavini, GUAM-da Azərbaycan tərəfindən milli əlaqələndirici Araz Əzimov iştirak etmişdir.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ REKTORU HAFİZ PAŞAYEV PAKİSTANA DƏVƏT EDİLMİŞDİR

Azərbaycan Diplomatik Akademiyasının (ADA) akademik məsələlər üzrə dekan müavini Taleh Ziyadov fevralın 25-dən 28-dək Pakistanda səfərdə olmuşdur.

ADA-nın bu ölkədə təbliği, habelə Azərbaycanın regionda oynadığı aparıcı rolu barədə mühazirələr oxumaq məqsədi daşıyan səfər çərçivəsində Pakistan Xarici Xidmət Akademiyasının baş direktoru xanım Nəsrin Fouziyyə və akademiyanın professor-müəllim heyəti ilə görüş olmuşdur.

Görüşdə T.Ziyadov Azərbaycan Diplomatik Akademiyası, onun təhsil və tədqiqat imkanları barədə ətraflı təqdimatla çıxış etmiş, ADA-nın Pakistandan və Əfqanıstandan iki tələbəni magistraturada davamlı əsasda ödənişsiz təhsil almağa dəvət etdiyini bildirmişdir.

Xanım Nəsrin Fouziyyə bu addımı yüksək qiymətləndirmiş, Pakistan Xarici Xidmət Akademiyası ilə tanışlıq və akademiyalar arasında əməkdaşlıq imkanlarının müzakirəsi

məqsədilə Azərbaycan xarici işlər nazirinin müavini, ADA-nın rektoru Hafiz Paşayevi Pakistana səfərə dəvət etmişdir.

T.Ziyadov Pakistan Regional Tədqiqatlar İnstitutunda, Pakistanın ən nüfuzlu təhsil ocaqlarından olan Qaidi Əzəm Universitetində, Preston Universitetində, Pakistan Strateji Araşdırmalar İnstitutunda görüşlər keçirmiş, ADA-nın təhsil və tədqiqat imkanları barədə ətraflı məlumat vermiş, Azərbaycanın regionda və Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rolundan, irimiqyaslı enerji layihələrindən bəhs edən "Xəzər regionunun strateji rolu: Azərbaycandan baxış" mövzusunda mühazirə oxumuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN ACARISTAN MR HÖKUMƏTİNİN BAŞÇISI LEVAN VARŞALOMİDZENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Gürcüstanın Acarıstan Muxtar Respublikası hökumətinin başçısı Levan Varşalomidzeni qəbul etmişdir.

Levan Varşalomidze Batumi ilə Bakı arasında əlaqələrin tarixi köklərə malik olduğunu bildirdi, səfəri zamanı əməkdaşlığın genişləndirilməsi istiqamətində səmərəli müzakirələrin aparılacağına əminliyini söylədi.

Prezident İlham Əliyev Acarıstan Muxtar Respublikası ilə iqtisadi əlaqələrin Azərbaycan-Gürcüstan ikitərəfli münasibətlərinin daha da genişləndirilməsi baxımından əhəmiyyətini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ALFREDO MANTİKANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də İtaliya xarici işlər nazirinin müavini, senator Alfredo Mantikanı qəbul etmişdir.

Alfredo Mantika İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoninin salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Azərbaycan Prezidentinin İtaliyaya səfəri zamanı hökumət başçısı ilə keçirdiyi görüşün və aparılan səmərəli danışıqların iki ölkə arasında əlaqələrin daha da möhkəmləndirilməsi baxımından böyük əhəmiyyətini vurğuladı.

Görüşdə Azərbaycanla İtaliya arasında münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi və əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Prezident İlham Əliyev İtaliya Nazirlər Şurası sədrinin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzəni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu

(Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN AZƏRBAYCANDAKI REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ VƏ BMT-NİN İNKİŞAF PROQRAMININ RƏHBƏRİ BRUNO PUEZANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi və BMT-nin İnkişaf Proqramının rəhbəri Bruno Puezanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkəmizlə BMT arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı və tərəfdaşlıq əlaqələrinin gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Bruno Pueza Azərbaycanın BMT-nin İnsan Hüquqları Komissiyasına təqdim etdiyi hesabatın yüksək qiymətləndirildiyini və bunun davamlı inkişafın nəticəsi kimi dəyərləndirildiyini vurğuladı.

Görüşdə Azərbaycanın BMT ilə əməkdaşlığının perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

MİLLİ MƏCLİSİN NÜMAYƏNDƏ HEYƏTİ İSVEÇRƏDƏ SƏFƏRDƏ OLMUŞDUR

Martın 2-dən 5-dək Azərbaycan Milli Məclisi sədrinin müavini Bahar Muradovanın rəhbərlik etdiyi nümayəndə heyəti İsveçrədə səfərdə olmuşdur. Səfər zamanı nümayəndə heyəti İsveçrənin Kantonlar Şurasının (ölkə parlamentinin yuxarı palatası) prezidenti Alain Berset ilə görüşmüşdür.

Martın 3-də Azərbaycan nümayəndə heyəti İsveçrənin Aarqau kantonuna dəvət edilmiş, yerli hökumətin rəhbəri Peter Beyelerlə görüşmüş, maraq kəsb edən məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

Həmin gün axşam ölkənin paytaxtı Bern şəhərinin "Bellevue Palace" mehmanxanasında İsveçrə parlamentində İsveçrə-Azərbaycan dostluq qrupunun yaradılması münasibətilə Azərbaycan səfirliyi tərəfindən rəsmi tədbir keçirilmişdir. Tədbirdə İsveçrə parlamentində Azərbaycan ilə dostluq qrupunun rəhbəri, Kantonlar Şurasının üzvü xanım Kristin Egerszegi-Obrist, Milli Məclis sədrinin müavini, Azərbaycan-İsveçrə dostluq qrupunun rəhbəri Bahar Muradova və ölkəmizin İsveçrədəki səfiri Elçin Əmirbəyov çıxış etmişlər.

Tədbirdə Azərbaycan haqqında film nümayiş etdirilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİN XALQ RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ÇJAN XAYÇJOUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Çjan Xayçjounu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Azərbaycanda səfir vəzifəsində çalışmasından böyük şərəf duyduğunu söyləyən səfir iki ölkə arasında əlaqələrin uğurla inkişaf etdiyini, qarşılıqlı münasibətlərin bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı səfir Çjan Xayçjounun Azərbaycanda fəaliyyəti dövründə ikitərəfli münasibətlərin daha da möhkəmləndiyini vurğuladı. Azərbaycan ilə Çin arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edən Prezident İlham Əliyev iqtisadi sahədə də əməkdaşlığın yaxşı inkişaf etdiyini bildirdi. Bu işə səfirin də töhfələr verdiyini vurğulayan dövlətimizin başçısı gələcək fəaliyyətində ona uğurlar arzuladı.

ATƏT-İN MİNSK QRUPU HƏMSƏDRLƏRİ BÖLGƏYƏ SƏFƏRLƏRİNİN YEKUNLARINA DAİR BƏYANAT VERMİŞLƏR

Martın 7-də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzə (ABŞ), Bernar Fasye (Fransa) və Yuri Merzlyakov (Rusiya) bölgəyə səfərlərinin yekunlarına dair bəyanat vermişlər.

ATƏT-in rəsmi internet səhifəsində yerləşdirilmiş bəyanatda deyilir ki, Azərbaycan və Ermənistan prezidentləri görüşlərin müntəzəm olaraq davam etdirilməsi istəklərini ifadə etmişlər. Buna görə də həmsədrlər gələcək aylarda Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına dair baza prinsipləri çərçivəsində həll edilməmiş əsas məsələləri müzakirə etmək üçün hər iki prezidentin görüşünü təşkil etməyə çalışacaqdır. Həmsədrlər bu məsələlərin hər iki prezidentlə açıq və səmimi müzakirəsindən məmnunluq ifadə etmişlər. Onlar ümidvar olduqlarını bildirmişlər ki, münaqişənin tez bir zamanda sülh yolu ilə həlli üçün tərəflər arasında fikir ayrılıqlarını müəyyənləşdirmək və aradan qaldırmaqla danışıqlarda irəliləyişlərə nail olmağa davam edəcəklər.

Həmsədrlər fevralın 26-da ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşikin rəhbərliyi ilə Azərbaycan və Ermənistan qoşunlarının Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisindəki təmas xəttində keçirilmiş növbəti monitorinq zamanı atəşkəsin pozulmasını pisləmişlər. Həmsədrlər bu hadisənin baş verməsi ilə bağlı tərəflərin izahat verməsini istəyirlər.

Həmsədrlər atəşkəsin pozulması nəticəsində 2008-ci ildə 30-dan çox insanın həlak olması və 50-dən çox adamın yaralanmasından, bu ilin başlanğıcında isə daha 6 nəfərin həlak olmasından təəssüfləndiklərini bildirmişlər.

AMSTERDAMDA BENİLÜKS AZƏRBAYCANLILARI KONQRESİNİN II QURULTAYI KEÇİRİLMİŞDİR

Martın 7-də Niderland Krallığının paytaxtı Amsterdamda Benilüks Azərbaycanlıları Konqresinin (BAK) II qurultayı keçirilmişdir.

Qurultay Azərbaycan dövlət himninin səsləndirilməsi ilə başlamış, konqresin ikiillik fəaliyyətindən bəhs edən film nümayiş etdirilmişdir.

Konqresin sədri Sahil Qasımov rəhbərlik etdiyi qurumun hesabat məruzəsi ilə çıxış etmişdir. O, iki il əvvəl bu konqresi yaradarkən çox gözəl model fikirləşdiklərini, bu modelin ilk dəfə olaraq Benilüks məkanında - Belçika, Niderland və Lüksemburqda yaşayan Azərbaycan diaspor təşkilatlarını birləşdirməyə çalışdıqlarını bəyan etmiş, həmin dövrdə bütün təşkilatları birləşdirmək mümkün olmasa da, 15 qurumun konqresə qoşulduğunu, beləliklə Benilüks Azərbaycanlıları Konqresinin yarandığını diqqətə çəkmişdir. Yenicə kövrək addımlarını atmağa başlamış BAK təkcə Azərbaycan cəmiyyətlərini deyil, eyni zamanda türk icmalarını və türk dünyasının digər təşkilatlarını da öz ətrafında toplaya bilmişdir.

Konqres tərəfindən 2007-ci ilin fevralında Xocalı faciəsinin ildönümü ilə bağlı Brüsseldə Avropa İttifaqının yerləşdiyi binanın qarşısında izdihamlı mitinq təşkil edilmiş, Xocalı soyqırımına siyasi qiymət verilməsinə dair bəyanat İttifaqın sədrinə təqdim olunmuş, sonra Ermənistan səfirliyi qarşısında etiraz aksiyası keçirilmiş, işğal olunmuş ərazilərin tezliklə azad edilməsi barədə tələb səfirliyə verilmişdir. Həmin tədbiri 30-dan artıq yerli və xarici kütləvi informasiya vasitəsi bütün dünyaya yaymışdır.

Konqresin fəaliyyətinin ən yaddaqalan hadisələrindən biri ana dilinin təbliği ilə əlaqədar Amsterdamda və Rotterdamda həftəsonu məktəblərinin açılışı olmuşdur. Xarici ölkələrdə Azərbaycanla bağlı tədbirlərin keçirilməsinə hərtərəfli yardım göstərən Heydər Əliyev Fondu həmin məktəbləri dərslik və ləvazimatla təmin etmişdir. Bu gün həmin məktəblər fəaliyyətlərini uğurla davam etdirirlər.

S.Qasımov ölkənin Utrext şəhərində keçirilmiş beynəlxalq turizm sərgisində Azərbaycanın konqresin bilavasitə təşkilatçılığı sayəsində yüksək səviyyədə təmsil olunduğunu xatırlatmış, Azərbaycanın zəngin mətbəx nümunələrinin, musiqisinin və rəqslərinin iştirakçıların böyük marağına səbəb olduğunu qeyd etmişdir.

Konqres yerli əhali arasında Azərbaycan həqiqətlərinə maraq oyatmaq məqsədi ilə rəngarəng tədbirlər həyata keçirməklə yanaşı, televiziya və mətbuatda ölkəmiz barədə getmiş yanlış məlumatlara dəfələrlə sərt münasibət bildirmiş, onları təkzib verməyə məcbur etmişdir. Bildirilmişdir ki, BAK –ın yaxşı təməl üzərində qurulması onun gələcəkdə yeni uğurlar qazanacağına böyük inam yaradır.

Azərbaycanın Niderland Krallığındakı səfiri Fuad İsgəndərov ölkədə fəaliyyət göstərən diaspor təşkilatlarının ölkəmizin tanınması istiqamətində mühüm işlər gördüyünü diqqətə çatdırmış, bu sahədə BAK-ın fəaliyyətini yüksək qiymətləndirmiş, konqresin praktik cəhətdən konkret istiqamətdə-ikitərəfli əlaqələrin yaranmasında və inkişaf etdirilməsində əhəmiyyətli işlər gördüyünü bildirmiş, Niderlandda Azərbaycan diasporunun təşkilatlanması istiqamətində ciddi addımlar atıldığını, bu sahədə BAK-ın xüsusi

rol oynadığını vurğulamışdır.

BAK Azərbaycanı Niderlandda tanıtmaq istiqamətində digər Azərbaycan cəmiyyətləri və türk icmaları ilə birlikdə bir-birindən maraqlı və yaddaqalan tədbirlər həyata keçirmişdir. Buna misal olaraq Xocalı faciəsi ilə bağlı keçirilmiş etiraz aksiyalarını, nümayişləri misal gətirmək olar. Bu və digər tədbirlərdə Vətənini və xalqını sevən bütün azərbaycanlılar, onlara daim dəstək verən türk qardaşlarımız birlik nümayiş etdirirlər.

Azərbaycan həqiqətlərini nəinki Niderlandda, həmçinin bütün Avropada tanıtmaq sahəsində diaspor təşkilatlarının birliyinin vacibliyini vurğulayan səfir, soydaşlarımızın ölkənin ictimai-siyasi həyatına inteqrasiyası, parlamentə seçilmək, müxtəlif təşkilatlarda təmsil olunmaq və onlarda Azərbaycan maraqlarının həyata keçirilməsi arzusunu ifadə etmiş, Azərbaycan diaspor təşkilatlarının digər ölkələrin diaspor qurumları ilə əlaqələr yaratmalarının əhəmiyyətini diqqətə çəkmişdir. Bildirmişdir ki, Azərbaycan xalqının digər xalqlar ilə əməkdaşlıqda maraqlı olduğunu göstərmək lazımdır. Bunun ümumi işimiz üçün - Azərbaycanın hər yerdə tanınmasında böyük əhəmiyyəti olacaqdır. Azərbaycan xalqı hamı ilə əməkdaşlıq etməyə hazırdır.

Azərbaycan-Lüksemburq parlamentlərarası dostluq qrupunun sədri, Milli Məclisin deputatı Elmira Axundova xarici ölkələrdə yaşayan azərbaycanlıları öz doğma Vətənləri ətrafında sıx birləşdirmək məqsədi ilə ulu öndərimiz Heydər Əliyevin diasporların yaradılmasına xüsusi önəm verməsindən söz açmış, ümummilli liderin 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışarkən 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik günü elan edilməsində xüsusi xidmətini xatırlatmışdır. Deputat qeyd etmişdir ki, xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlmiş ümummilli lider Heydər Əliyev xarici ölkələrə səfərlərində soydaşlarımızla görüşür, onları diqqətlə dinləyir və faydalı məsləhətlər verirdi. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların fəaliyyətini istiqamətləndirmək üçün Heydər Əliyevin göstərişi ilə ölkəmizdə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmış, bundan sonra diasporumuzun fəal və sürətli təşkilatlanma prosesi başlamışdır.

Hazırda bir çox ölkələrdə fəaliyyət göstərən Azərbaycan diasporları arasında BAK-ın öz yeri vardır. Qurum cəmi iki əvvəl yaranmasına baxmayaraq, Avropada, eləcə də Benilüks məkanında Azərbaycan həqiqətlərini tanıtmaq sahəsində çoxlu maraqlı və faydalı tədbirlər keçirmişdir.

BAK Benilüks ölkələrində yaşayan ictimai baxışlarından, siyasi əqidəsindən asılı olmayaraq sağlam, işgüzar qüvvələri öz ətrafında toplaya bilmiş və onların səylərini bir məcraya yönəltmişdir. Bütün dünyada, habelə Benilüks ölkələrində yaşayan azərbaycanlıların bir amalı olmalıdır. Hamılıqla doğma Vətənimizin, müstəqil Azərbaycan dövlətinin çiçəklənməsinə, ölkəmizin daha da qüdrətli olmasına, xaricdə, xüsusən Avropada tanınmasına, ümumilikdə, Azərbaycanın dünya miqyasında müsbət imicinin formalaşmasına çalışmalıyıq.

Sevindirici haldır ki, Avropada məskunlaşmış azərbaycanlılar yaşadıqları ölkələrin ictimai həyatına inteqrasiya olunur. Arzumuz budur ki, onlar yaşadıqları ölkələrin ictimai, siyasi, iqtisadi strukturlarında daha fəal iştirak etsinlər, yerli özünüidarəetmə orqanlarında, parlamentlərdə və digər təşkilatlarda təmsil olunsunlar. Onlar ermənilərin Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti, 20 Yanvar və Xocalı faciələri barədə avropalı-

lara dolğun və ətraflı məlumatlar çatdırmalı, düşmənlərimizə layiqli cavab verməyə hazır olmalıdırlar.

Azərbaycan-Niderland Parlamentlərarası işçi qrupunun rəhbəri, Milli Məclisin deputatı Adil Əliyev çıxışında qeyd etmişdir ki, bu gün ölkəmizin hüdudlarından min kilometrlərlə uzaqda bu qədər azərbaycanlının bir araya gəlməsi çox sevindirici haldır. BAK-ın balaca soydaşlarımızın soy köklərindən uzaq düşməmələri, ana dillərini unutmamaları üçün Amsterdam və Rotterdamda həftəsonu məktəblərini açması diqqətəlayiq hadisədir.

Bu gün qloballaşan dünyada, bir çox xalqların öz adət-ənənələrindən, dillərindən uzaq düşməsi artıq günün reallığına çevrilmişdir. Vətənlərini tərk edərək başqa ölkələrdə məskunlaşmış insanlar əvvəlcə doğma dillərini, tarixi köklərini, nəhayət adət-ənənələrini unudurlar. Amma azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq, Vətəninə, xalqına, keçmişinə həmişə bağlı olmuşlar. Biz qurultayla əlaqədar zala toplaşmış çoxsaylı soydaşımızın timsalında bunun bir daha şahidi olduq.

Soydaşlarımız harada məskunlaşmalarından asılı olmayaraq doğma Azərbaycanı ana Vətən saymalı, öz ölkəsinə, xalqına, Prezidentinə güvənməlidir. Prezident İlham Əliyev Azərbaycan həqiqətlərinin yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırılması işində sizlərə inanır. Hər birimiz xalqımızın haqq işinin beynəlxalq ictimaiyyətə daha geniş miqyasda, daha dolğun və dürüst çatdırılmasına səy göstərməliyik. Bu gün qəddar və amansız düşmənə qarşı mübarizə aparmaq üçün azərbaycanlılara birlik və həmrəylik hər zamankından daha artıq vacibdir.

Biz deputatlar xaricdə yaşayan soydaşlarımızla hər zaman birlikdə olmaqdan daim qürur hissi duyur, sizlərlə birlikdə xalqımız, dövlətimiz naminə bir çox nailiyyətlərə nail olmağa çalışırıq. Bunun üçün hər cür imkanlarımız vardır. Fürsətdən istifadə edərək sizləri bir daha həmrəyliyə, beşiyimiz olan doğma Vətənimiz ətrafında sıx birləşməyə çağırıram.

Diaspor ilə İş üzrə Dövlət Komitəsi Qərbi Avropa idarəsinin rəisi İlham Məmmədov BAK-ın Azərbaycanı Benilüks ölkələrində tanıtmaq istiqamətindəki fəaliyyətinə yüksək qiymət vermiş, vaxtilə xarici ölkələrdə baxışlarından asılı olmayaraq soydaşlarımızı öz sıralarında birləşdirən bir təşkilatın yaranmasını arzuladığını, BAK-ın yaranması ilə bu üç ölkədə yaşayan azərbaycanlıların bir qurumda birləşmək imkanını əldə etməsini mühüm hadisə adlandırmışdır.

Niderland krallığında Azərbaycanın müxtəlif təşkilatları ölkə naminə çiyin-çiyinə fəaliyyət göstərirlər. Dövlət Komitəsi Niderlanddakı Azərbaycan diasporlarını, xüsusilə BAK-ın işini yüksək dəyərləndirir və ümid edir ki, bundan sonra da BAK, eləcə də müstəqil fəaliyyət göstərən digər təşkilatlar əldə edilmiş nailiyyətlərlə kifayətlənməyəcək, Azərbaycanı tanıtmaq, onu təbliğ etmək yolunda daha intensiv çalışacaqlar.

Niderland parlamentinin üzvləri Songul Akkaya və Koksal Gor, Xristian Partiyasının nümayəndəsi Osman Almacı, Avropa Türk Demokratlar Birliyinin baş katibi Əhməd Suat Ari, Heydər Əliyev Fondunun Rumıniyadakı nümayəndəliyinin rəhbəri İqbal Hacıyev və BAK-ın idarə heyətinin üzvü Musa Pünhan ulu öndərimiz Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamını xatırlatmış, düzgün siyasəti, qlobal layihələrdə iştirakı nəticəsində Azərbaycanın beynəlxalq aləmdəki nüfuz və imicinin yüksəldiyini diqqətə çatdırmışlar.

Çıxış edənlər Azərbaycan və türk xalqlarının dostluq əlaqələrindən söz açmış, neçə illərdən bəri Avropa ölkələrində məskunlaşmış türk icmalarının işini istiqamətləndirmək məqsədi ilə bu günədək Türkiyədə diaspor nazirliyinin yaradılmadığını, amma uzaqgörən siyasətçi, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Diaspor ilə İş üzrə Dövlət Komitəsinin yaradılmasının xüsusi əhəmiyyətini, bu işin ölkəmizin xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu vurğulamışlar. Benilüks ölkələrindəki azərbaycanlıların, xüsusilə BAK və onun sədri Sahil Qasımovun fəaliyyəti diqqətə çəkilmiş, Azərbaycan və türk icmalarının bir yerdə olması yüksək qiymətləndirilmiş və gənclərimizin idman sahəsindəki uğurlarından danışılmışdır.

Sahil Qasımov rəhbərlik etdiyi quruma əməli kömək göstərdiklərinə görə BAK tərəfindən mükafatlandırılmış şəxsləri elan etmişdir. Azərbaycanın milli dəyərlərini, tariximizin və zəngin mədəniyyətimizin beynəlxalq aləmdə təbliğində apardığı məqsədyönlü və uğurlu fəaliyyətinə görə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva BAK tərəfindən təsis edilmiş və səkkizguşəli ulduzun təsvir olunduğu ən yüksək mükafata, Diaspor ilə İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov, səfir Fuad İsgəndərov, Milli Məclisin deputatları Elmira Axundova və Adil Əliyev birinci dərəcəli mükafatlara layiq görülmüşlər.

Tədbirdə Amsterdam meriyasının, Eyndhoven şəhər bələdiyyəsinin, Brabant əyaləti rəhbərliyinin və senator Joyse Slivesterin qurultaya ünvanladıqları təbrik məktubları oxunmuşdur.

Qurultayda təşkilati məsələlərə də baxılmışdır.

Səsvermə yolu ilə 12 nəfərdən ibarət BAK idarə heyətinin üzvləri seçilmişdir. İdarə heyətinin ilk iclasında Elsevər Məmmədov sədr, Sahil Qasımov isə fəxri sədr seçilmişlər.

Qardaş Ukrayna, Qazaxıstan və Gürcüstanın Niderland Krallığındakı səfirləri, Almaniya, Fransa, Rumıniya və Böyük Britaniyadakı, habelə Benilüks məkanındakı Azərbaycan və türk icmalarının təmsilçiləri, Niderlandda yaşayan soydaşlarımız qurultayın işində iştirak etmişlər.

Sonda Amsterdam və Rotterdamdakı həftəsonu məktəblərinin şagirdləri Azərbaycan şairlərinin şeirlərini ifa etmiş, kiçik səhnəciklər göstərmişlər. Azərbaycan incəsənət ustaları maraqlı konsert proqramı ilə çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN JANDARM QÜVVƏLƏRİ KOMANDANI, ORDU GENERALI ATİLLA İŞIKI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Türkiyə Respublikasının Jandarm Qüvvələri komandanı, ordu generalı Atilla İşıkı qəbul etmişdir.

Atilla İşık bu vəzifəyə təyin olunandan sonra ilk xarici səfərini Azərbaycana etməsindən məmnunluq duyduğunu dedi. O, ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladaraq, Azərbaycan və Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin daim inkişaf etdiyini vurğuladı. Türkiyə Jandarm Qüvvələri ilə Azər-

baycanın müvafiq qurumları arasında əməkdaşlığın genişləndiyini deyən Atilla Işık bunun iki ölkə arasında əlaqələrin möhkəmlənməsinə xidmət etdiyini bildirdi.

Dövlətimizin başçısı Atilla Işıkın Türkiyə Jandarm Qüvvələri komandanı kimi ilk səfərini Azərbaycana etməsinin əhəmiyyətli olduğunu dedi, ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini qeyd etdi. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Atilla Işıkın Azərbaycana səfəri çərçivəsində keçirdiyi görüşlər Türkiyə Jandarm Qüvvələri ilə Azərbaycanın əlaqədar qurumları arasında əməkdaşlığın genişlənməsinə xidmət edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN "RWI" ENERGETİKA ŞİRKƏTİNİN PREZİDENTİ VƏ İDARƏ HEYƏTİNİN SƏDRİ YURGEN QROSSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Almaniyanın "RWI" energetika şirkətinin prezidenti və İdarə Heyətinin sədri Yurgen Qrossmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Yurgen Qrossman Azərbaycanda nümayəndəliyini yaradan "RWI" energetika şirkətinin fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi və ölkəmizdə xarici şirkətlərin sərbəst və azad fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını bildirdi. Gələcəkdə Azərbaycanla neft-qaz sektorunda əməkdaşlıq etmək istədiklərini deyən qonaq, ölkəmizlə etibarlı tərəfdaş kimi fəaliyyət göstərmək əzmində olduqlarını vurğuladı.

Prezident İlham Əliyev "RWI" şirkətinin nümayəndə heyətinin Azərbaycanda görüşlərinin və apardığı danışıqların səmərəli keçəcəyinə ümidvar olduğunu bildirdi.

Görüşdə "RWI" energetika şirkəti ilə Azərbaycanın əlaqədar qurumları arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

TEHRANDA İƏT XARİCİ İŞLƏR NAZİRLƏRİNİN 18-Cİ İCLASI KEÇİRİLMİŞDİR

Martın 9-da İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin xarici işlər nazirlərinin XVIII iclası Tehranda keçirilmişdir. Azərbaycan Respublikasını iclasda xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev təmsil etmişdir.

İclasda çıxış edən M.Məmmədquliyev terrorşuluğun və təcavüzkar separatizmin region ölkələrinin sosial-iqtisadi vəziyyətinə ciddi zərər vurduğunu, regional əməkdaşlığın inkişafına mənfə olduğunu xüsusi vurğulamışdır.

Yekunda İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçılarının martın 11-də Tehran şəhərində keçiriləcək X zirvə toplantısı ilə bağlı bəyannamə qəbul edilmişdir. Azərbaycan nümayəndə heyətinin təklifi ilə bəyannaməyə bölgə ölkələrindəki dondurulmuş münaqişələrin regional əməkdaşlığı əngəllədiyi və bu münaqişələrin dövlətlərin ərazi bütövlüyü prinsipləri gözlənilməklə, beynəlxalq hüquq normalarına uyğun həllinə aid maddə də daxil edilmişdir.

İƏT-dən verilən məlumata görə zirvə toplantısında təşkilati məsələlərə də baxılacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANA RƏSMİ SƏFƏRİ

Martın 10-da Azərbaycan Prezidenti İlham Əliyev İrana rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və İranın dövlət bayraqları ilə bəzədilmiş Tehranın "Mehrabad" hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi İranın xarici işlər naziri Mənuçehr Mottəki və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar dövlətimizin başçısına gül dəstəsi təqdim etdilər.

PREZİDENT SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

Martın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Azərbaycanın və İranın dövlət bayraqlarının asıldığı Prezident sarayının qarşısındakı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İran Prezidenti Mahmud Əhmədinejad Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycanın və İranın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin önündən keçdilər. Azərbaycan Prezidenti İlham Əliyev İran əsgərlərini salamladı.

İranın rəsmi şəxsləri Azərbaycan Prezidentinə, Azərbaycan nümayəndə heyətinin üzvləri İran Prezidentinə təqdim olundular.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejadın təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Azərbaycan Prezidentinin İrana rəsmi səfərinin əhəmiyyətinə toxunan prezidentlər bu səfərin qarşılıqlı əlaqələrin daha da genişlənməsinə xidmət etdiyini bildirdilər.

Görüşdə Azərbaycan-İran münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN İŞTİRAKI İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Martın 10-da təkbətək görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf səviyyəsindən məmnunluq ifadə edildi, siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın yaxşı perspektivləri olduğu bildirildi. İran ilə Azərbaycanın müxtəlif bölgələri, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişaf etdiyi vurğulandı və bildirildi ki, bunun daha da genişlənməsi üçün yaxşı imkanlar var.

İki ölkə arasında iqtisadiyyat və energetika sahələrində həyata keçirilən konkret layihələrin əməkdaşlığın inkişafı baxımından əhəmiyyəti qeyd olundu. Azərbaycan Prezidenti İlham Əliyevin İrana rəsmi səfərinin ikitərəfli münasibətlərin daha da genişlənməsinə töhfə verəcəyi bildirildi.

Görüşdə Azərbaycan və İran xalqları arasında mədəni əlaqələrin zəngin tarixi olduğu xatırladıldı, humanitar əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd olundu, iki ölkə arasında münasibətlərin inkişafının regional əməkdaşlığa da töhfə verdiyi vurğulandı.

Bildirildi ki, Azərbaycan Prezidenti İlham Əliyevin İrana rəsmi səfəri çərçivəsində imzalanacaq sənədlər ikitərəfli əlaqələrin hüquqi bazasını daha da genişləndirəcəkdir.

Görüşdə ikitərəfli münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparıldı, qarşılıqlı əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

SƏNƏDLƏRİN İMZALANMASI

Martın 10-da geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Mahmud Əhmədinejadın iştirakı ilə sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında sazişi Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, İran tərəfdən iqtisadiyyat və maliyyə naziri Şəmsəddin Hüseyni imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair protokolu Azərbaycan tərəfdən iqtisadi inkişaf naziri Şahin Mustafayev, İran tərəfdən ticarət naziri Məsud Mirkazımi imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlığa dair anlaşma memorandumunu Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, İran tərəfdən Prezidentin birinci müavini vəzifəsini icra edən Həmid Dəqai imzaladılar.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və İran İslam Respublikasının Mədəni İrs, Xalq Tətbiqi Sənəti və Turizm Təşkilatı arasında mədəni irs sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunu Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, İran tərəfdən Prezidentin birinci müavini vəzifəsini icra edən Həmid Dəqai imzaladılar.

Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası və İran İslam Respublikası-

nın Milli Kitabxanası və Arxivi arasında əməkdaşlığa dair anlaşma memorandumunu Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, İran tərəfdən Prezidentin mədəniyyət məsələləri üzrə müşaviri, Milli Kitabxana və Arxivin sədri Əliəkbər Əşəri imzaladılar.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və İran İslam Respublikasının Statistika Mərkəzi arasında statistika sahəsində əməkdaşlığa dair anlaşma memorandumunu Azərbaycan tərəfdən Dövlət Statistika Komitəsinin sədri Arif Vəliyev, İran tərəfdən Statistika Mərkəzinin sədri Məhəmməd Mədəd imzaladılar.

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında poçt məsələləri üzrə əməkdaşlıq haqqında anlaşma memorandumunu Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, İran tərəfdən xarici işlər naziri Mənuçehr Mottəki imzaladılar.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Martın 10-da İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.

İMAM XOMEYNİNİN MƏQBƏRƏSİNİ ZİYARƏT

Azərbaycan Prezidenti İlham Əliyev martın 10-da İran inqilabının rəhbəri imam Xomeyninin məqbərəsini ziyarət etmişdir.

Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının və İran İslam Respublikasının dövlət himnləri səsləndi.

Azərbaycan Prezidenti İran inqilabı rəhbərinin məqbərəsinə əklil qoydu.

Prezident İlham Əliyevə məqbərə kompleksinin inşası ilə bağlı məlumat verildi.

Dövlətimizin başçısı xatirə kitabına ürək sözlərini yazdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRANIN ALİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİNİN GÖRÜŞÜ

Martın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının ali rəhbəri Seyid Əli Xameneinin görüşü olmuşdur.

İranın ali rəhbəri dedi ki, Azərbaycan ilə qonşuluq və qardaşlıq münasibətləri müxtəlif sahələrdə, o cümlədən siyasi və iqtisadi sahələrdə uğurla inkişaf edir. İran bu əlaqələri daha da genişləndirmək əzmindədir.

Seyid Əli Xamenei Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşlərini məmnunluqla xatırladaraq, qarşılıqlı əlaqələrin daha da genişlənməsi üçün yaxşı perspektivlərin olduğunu bildirdi.

Prezident İlham Əliyev İrana uğurla keçən rəsmi səfərinin iki ölkə arasında müxtəlif sa-

hələrdə inkişaf edən əlaqələrin perspektivinin müzakirəsi baxımından əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Azərbaycan-İran münasibətlərinin bundan sonra da genişlənəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

Martın 11-də Tehranda Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi.

Dövlət başçıları Azərbaycan-Türkiyə münasibətlərinin inkişafının regional əməkdaşlığın möhkəmlənməsinə xidmət etdiyini vurğuladılar.

Görüşdə ikitərəfli əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

TEHRANDA İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ 10-CU ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Martın 11-də Tehranın "Hafiziyə" sarayında İqtisadi Əməkdaşlıq Təşkilatının 10-cu zirvə görüşü keçirilmişdir.

Görüşdə təşkilatın üzvü olan ölkələrin dövlət və hökumət rəhbərləri, nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri iştirak etmişlər.

Tədbir İran İslam Respublikasının himninin səslənməsi və "Qurani-Kərim"dən ayə oxunması ilə başlandı.

2006-cı ilin mayında Bakıda keçirilmiş 9-cu zirvə görüşündən etibarən İqtisadi Əməkdaşlıq Təşkilatında sədrlik edən Azərbaycan Respublikasının Prezidenti İLHAM ƏLİYEV zirvə görüşünü açıq elan edərək dedi:

- Hörmətli İran İslam Respublikasının Prezidenti cənab Mahmud Əhmədinejad,

Hörmətli dövlət başçıları,

Hörmətli nümayəndə heyətlərinin başçıları,

Əziz dostlar!

İlk növbədə, mən sizin hamınızı ürəkdən salamlayıram və İqtisadi Əməkdaşlıq Təşkilatının 10-cu zirvə görüşünü açıq elan edirəm.

Bu zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyinə görə əziz dostumuz, İran İslam Respublikasının Prezidenti cənab Mahmud Əhmədinejada böyük məmnuniyyətlə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycanın sədrliyi ilə bizim təşkilatımız 9-cu zirvə görüşündən sonra çox uğurlu bir yol keçmişdir. Təşkilat daha da inkişaf etmiş, dünyada öz mövqelərini möhkəmləndirə bilmişdir, təşkilat daxilində inteqrasiya prosesləri güclənmişdir. Bir sıra çox önəmli təşəbbüslər irəli sürülmüşdür və bu gün deyə bilərəm ki, İqtisadi Əməkdaşlıq Təşkilatı

həm bölgədə, həm də geniş mənada dünyada çox böyük nüfuza malik olan bir təşkilatdır.

Mən bu gün bizim zirvə görüşümüzdə qonaq qismində iştirak edən dövlət başçılarını böyük məmnuniyyətlə salamlayır, onlara öz ehtiramımı bildirmək istəyirəm. Mən hesab edirəm ki, bizim formatımız nə qədər geniş olsa, hamımız üçün bir o qədər yaxşıdır.

Son illər ərzində İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində bir sıra mühüm məsələlər müzakirə olunmuş və öz həllini tapmışdır. Regional təhlükəsizlik məsələlərinə çox böyük diqqət göstərilmişdir və şübhəsiz ki, bu məsələ növbəti illərdə də diqqət mərkəzində olmalıdır. Regional əməkdaşlıq məsələləri öz həllini tapır, bizim aramızda həm ikitərəfli, həm çoxtərəfli formatda inteqrasiya prosesləri güclənir və bu, hər bir üzv ölkənin inkişafı üçün əlavə imkanlar yaradır. Energetika sahəsində görülmüş işlər enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini vermişdir. Nəqliyyat sahəsində, humanitar sahədə, bütün başqa sahələrdə gələcək inkişaf üçün çox gözəl perspektivlər, çox gözəl imkanlar var.

Mən xüsusilə təşkilatın Katibliyinin son üç il ərzindəki fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Bu fəaliyyət çox uğurlu olmuşdur və əminəm ki, təşkilatın gələcək inkişafı üçün öz müsbət rolunu oynamışdır.

Gündəliyə uyğun olaraq, biz indi İqtisadi Əməkdaşlıq Təşkilatının 10-cu zirvə görüşünün sədrini seçməliyik və mən böyük məmnuniyyətlə İran İslam Respublikasının Prezidenti cənab Mahmud Əhmədinejadın 10-cu zirvə görüşünün sədri seçilməsini təklif edirəm.

Sizin mövqeyinizi bu təklifə dəstək kimi qiymətləndirirəm. Hörmətli cənab Prezident, mən Sizi 10-cu zirvə görüşünün sədri seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm, Sizə on xoş arzularımı bildirmək istəyirəm və sədrliyi Sizə təqdim edirəm.

* * *

10-cu zirvə görüşünə sədrlik edən İran Prezidenti Tehran görüşünün dünyada qlobal dəyişikliklər dövrünə təsadüf etdiyini bildirdi. Dünyada böyük iqtisadi problemlərin yaşandığını deyən Mahmud Əhmədinejad onların aradan qaldırılması üçün birgə səylərin *vacibliyini vurğuladı. O, İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətinin genişləndirilməsində Azərbaycan Prezidenti İlham Əliyevin xidmətlərini xüsusi qeyd edərək, Azərbaycanın dövlət başçısına minnətdarlığını bildirdi.*

İranın xarici işlər naziri Mənuçehr Mottəki təşkilatın Nazirlər Şurasının 18-ci iclasının nəticələrindən danışdı. O, İqtisadi Əməkdaşlıq təşkilatının fəaliyyəti, qurum çərçivəsində imzalanan sənədlərin icrası və həyata keçirilən layihələrdən, regional və beynəlxalq məsələlərdən bəhs etdi. Bildirdi ki, təşkilatın Nazirlər Şurası öz fəaliyyətində üzv ölkələr arasında ticarət və iqtisadi əlaqələrinin möhkəmləndirilməsi, dünya maliyyə böhranından çıxış yollarının axtarılmasını əsas tutmuşdur.

İƏT-in baş katibi Xurşid Ənvər təşkilatın fəaliyyəti barədə hesabat verməzdən əvvəl, İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən 9-cu zirvə görüşündən keçən dövr ərzində qurumun fəaliyyətinə verdiyi dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin təşəkkürünü bildirdi.

İqtisadi Əməkdaşlıq Təşkilatının Bakı görüşünün əhəmiyyətinə toxunan baş katib bildirdi ki, həmin zirvə görüşündə qəbul olunmuş mühüm qərarlar daha səmərəli tədbirlərin və görüşlərin keçirilməsi istəyini reallaşdırmışdır. Təkcə son iki ildə təşkilat çərçivəsində keçirilən müxtəlif görüşlərin sayı 35 faiz artmışdır. Bu görüşlər nəqliyyat, kommunikasiya, enerji, sənaye, kənd təsərrüfatı, səhiyyə, təhsil, mədəniyyət və ətraf mühitin qorunması sahələrini əhatə etmişdir.

Xurşid Ənvər İqtisadi Əməkdaşlıq Təşkilatının ötən dövrdəki uğurları və qarşıda duran məsələlər haqqında geniş məruzə ilə çıxış etdi.

Əfqanıstan İslam Respublikasının Prezidenti Həmid Kərzai digər məsələlərlə yanaşı, terrorizm və narkotik maddələrin dövriyyəsi ilə mübarizədə üzv ölkələrin birgə fəaliyyətindən danışdı, bu məsələdə ölkəsinin digər dövlətlərin yardımına ehtiyacı olduğunu bildirdi.

Sonra Azərbaycan Prezident İlham Əliyev çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab sədr,

Əziz dostlar!

Bir daha sizin hamınızı ürəkdən salamlayır və bildirmək istəyirəm ki, son üç il ərzində Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının inkişafı üçün öz səylərini göstərmişdir. Biz təşkilatdakı fəaliyyətimizə çox böyük önəm veririk. Hesab edirik ki, təşkilatın gücləlnməsi, bölgədə və dünyada mövqelərinin möhkəmlənməsi hər bir üzv ölkə üçün əlavə fayda gətirə bilər.

Biz son illər ərzində regional əməkdaşlıq məsələlərinə çox böyük əhəmiyyət vermişik. İqtisadi Əməkdaşlıq Təşkilatında təmsil olunan ölkələri birgə tarix birləşdirir, mədəniyyət birləşdirir. Bizim aramızda ənənəvi olaraq, çox güclü əlaqələr mövcud olmuşdur və indiki mərhələdə, xüsusilə dünyanı iqtisadi və maliyyə böhranı bürüdüyü bir vaxtda regional əməkdaşlıq, iqtisadi təşəbbüslər, inteqrasiya məsələləri xüsusi önəm daşıyır. Biz öz tərəfimizdən bu istiqamətdə addımlarımızı davam etdirməyə hazırıq və xüsusilə siyasi və iqtisadi sahələrdə əməkdaşlığın genişlənməsində maraqlıyıq.

İqtisadi Əməkdaşlıq Təşkilatında təmsil olunan ölkələr arasında siyasi əlaqələr çox yüksək səviyyədədir və elə etməliyik ki, üzv ölkələr iqtisadi sahədə də bizim potensialımızdan maksimum dərəcədə istifadə edə bilsinlər. Azərbaycan öz tərəfindən bu istiqamətdə önəmli addımlar atır. Son üç il ərzində bizim sədrliyimiz altında İqtisadi Əməkdaşlıq Təşkilatında müxtəlif təşəbbüslər irəli sürülmüşdür.

Eyni zamanda, Azərbaycanın təşəbbüsü ilə bölgədə enerji, nəqliyyat və digər sahələrdə çox önəmli addımlar atılmışdır. Azərbaycan enerji təhlükəsizliyinin möhkəmləndirilməsi işinə öz töhfəsini verməkdə davam edir. Bizim təşəbbüsümüzlə bölgədə yaradılmış yeni enerji infrastrukturu enerji təhlükəsizliyi məsələlərinə, ikitərəfli və çoxtərəfli əlaqələrin güclənməsinə xidmət göstərir. Bu baxımdan biz həm neft-qaz kəmərlərini sadalaya bilərik, eyni zamanda, elektrik enerjisi sahəsində qonşu ölkələrlə çox uğurlu və qarşılıqlı surətdə faydalı layihələrin gerçəkləşməsini qeyd edə bilərik.

Enerji məsələləri bu gün dünya miqyasında gündəliyin ön sıralarındadır. Bizim ölkələrimizdə mövcud olan böyük təbii enerji resursları dövlətlərimizin milli maraqlarına xidmət göstərməlidir. Ölkələrimizin milli maraqlarını müdafiə etməlidir və əlbəttə ki, regional əməkdaşlıq məsələlərinə də bunun çox böyük təsiri olmalıdır. Biz bu sahədə öz səylərimizi əlaqələndirilmiş şəkildə davam etdirməliyik.

Nəqliyyat sahəsində Azərbaycanın və bizimlə qonşu ölkələrin təşəbbüsü ilə çox önəmli dəmir yolu layihəsi icra olunur. Tikilən bu dəmir yolu Avropanı Asiya ilə birləşdirəcəkdir. Hazırda Türkiyə, Gürcüstan və Azərbaycan birlikdə bu layihəni icra edir, ancaq şübhə etmirəm ki, Bakı-Tbilisi-Qars dəmir yolu işə başlayandan sonra regionun digər ölkələri də bu imkanlardan istifadə edəcəklər. Çünki bu, həm iqtisadi cəhətdən çox sərfəlidir, eyni zamanda, bizim aramızda olan dostluq, qardaşlıq münasibətlərini daha da gücləndirəcəkdir.

Bütövlükdə biz iqtisadi sahədə üzv ölkələrin potensialından maksimum dərəcədə səmərəli istifadə etməliyik. Qarşılıqlı ticarəti təşviq etməliyik. Elə etməliyik ki, öz ticarət əməliyyatlarımızı daha çox üzv ölkələrlə aparaq. Azərbaycan bu istiqamətdə öz səylərini göstərir.

Deyə bilərəm ki, ölkəmiz son beş il ərzində iqtisadi inkişaf baxımından çox uğurla addımlamışdır. Son beş ildə Azərbaycanda ümumi daxili məhsul 2,6 dəfə, sənaye istehsalı isə 2,5 dəfə artmışdır. Bu nailiyyətlər bizə imkan verib ki, yoxsulluğun səviyyəsini kəskin şəkildə aşağı salaq. Beş il ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 13 faizə enmişdir. Biz növbəti illərdə də çalışacağıq ki, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal rolumuzu davam etdirək və əminəm ki, gələcəkdə biz bunun gözəl nəticələrini görəcəyik.

Bütün vacib olan investisiya, inteqrasiya, iqtisadi əməkdaşlıq, regional əməkdaşlıq məsələlərini daha da uğurla həll etmək üçün bölgədə sülh, əmin-amanlıq olmalıdır. Əfsuslar olsun ki, biz bunu hələ ki, görmürük. Müxtəlif təhlükələr, müxtəlif risklər, çağırışlar mövcuddur və bəzi hallarda onlar nəinki azalmır, hətta artır. Eyni zamanda Azərbaycanın son 20 il ərzində üzləşdiyi böyük problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətidir. Bu siyasət nəticəsində və Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından qovularaq, qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Torpaqlarımızın 20 faizi işğal altına düşmüşdür və bu işğal indi də davam edir. Bu, həm Azərbaycan üçün böyük problemdir, həm də bölgədə təhlükəsizlik tədbirlərinin güclənməsinə böyük maneçilik törədir.

Eyni zamanda, bu, böyük ədalətsizlikdir. Bütün beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyi müdafiə olunur, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması haqqında 4 qətnamə qəbul edilmişdir. Ancaq Ermənistan buna məhəl qoymur. Düz bir il bundan əvvəl BMT-nin Baş Məclisində Azərbaycanın işğal olunmuş torpaqlarında vəziyyətlə bağlı qətnamə qəbul edilmişdir. İslam Konfransı Təşkilatı çərçivəsində çox mühüm və ədalətli qərarlar qəbul olunmuşdur. Həmçinin digər təşkilatlarda da. Ancaq əfsuslar olsun ki, bu diplomatik səylər hələ ki, nəticəyə gətirib çıxarmır. Biz bu ədalətsizliklə barışa bilmərik. Mən xüsusilə bütün səsvermələrdə Azərbaycan mövqeyini,

haqq-ədaləti dəstəkləyən bütün ölkələrə öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Əminəm ki, bu münaqişə öz həllini tapandan sonra bölgədə tamamilə yeni vəziyyət yaranacaq, əməkdaşlıq üçün, işbirliyi üçün yeni imkanlar açılacaqdır.

Eyni zamanda, biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan digər ölkələrin üzləşdiyi problemlərə də çox fəal münasibətimizi bildirməliyik. Azərbaycan beynəlxalq tədbirlərdə üzv ölkələrin milli maraqlarının müdafiəsi üçün həmişə öz səsini ucaldıb, səsvermədə həmişə həmrəylik göstəribdir. Həm İqtisadi Əməkdaşlıq Təşkilatı, həm də İslam Konfransı Təşkilatı çərçivəsində həmrəylik məsələlərinə həmişə böyük həssaslıqla yanaşıbdır. Azərbaycan bundan sonra da həmişə dost, qardaş ölkələrə siyasi dəstəyini göstərməkdə davam etməyə hazırdır.

Mən bu fürsətdən istifadə edərək, bütün üzv ölkələrin dövlət, hökumət başçılarına, nümayəndə heyətlərinin başçılarına bir daha hörmət və ehtiramımı bildirmək istəyirəm. Əziz dostum, qardaşım, İran İslam Respublikasının Prezidenti cənab Mahmud Əhmədinejada növbəti illərdə təşkilatın idarə edilməsində uğurlar arzulayıram. Əminəm ki, İqtisadi Əməkdaşlıq Təşkilatı gələcək illərdə öz mövqelərini daha da möhkəmləndirəcəkdir və bu, bilavasitə hər bir üzv ölkənin milli maraqlarına cavab verir.

Sağ olun.

* * *

Pakistan Prezidenti Asif Əli Zərdari İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrdə 800 milyon əhalinin yaşadığını xatırladaraq, müxtəlif məsələlərin həllində bu potensialdan səmərəli istifadə etməyin əhəmiyyətindən danışdı. O, dünya maliyyə böhranının üzv ölkələrə təsirini azaltmaq məqsədi ilə ticarət əlaqələrinin gücləndirilməsini və təşkilat çərçivəsində vahid bank sisteminin yaradılmasını təklif etdi.

Tacikistan Prezidenti Emoməli Rəhmon qlobal böhran şəraitində keçirilən sammitin xüsusi əhəmiyyəti olduğunu vurğuladı, problemin həlli üçün görülməsi vacib olan tədbirlərdən danışdı. Tacikistanın dövlət başçısı azad ticarət zonalarının yaradılması təklifi ilə çıxış etdi.

Türkiyə Prezidenti Abdullah Gül təşkilat çərçivəsində səmərəli işbirliyinin iqtisadi böhranın yaratdığı çətinliklərin aradan qaldırılmasına kömək göstərə biləcəyini dedi. Abdullah Gül üzv ölkələrin fəaliyyətinin əlaqələndirilməsinin vacibliyini vurğulayaraq, Azərbaycanın sədrliyi dövründə İƏT ölkələri arasında iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsi üçün çox böyük addımlar atıldığını, eyni zamanda, bu cür tədbirlərin davam etdirilməsinin zəruriliyini bildirdi.

Türkiyə Prezidenti dedi ki, Dağlıq Qarabağın işğalı nəticəsində yaranan terror, silahların və narkotik maddələrin qeyri-qanuni ticarəti, insan alveri kimi problemlər regional əməkdaşlığa əngəl törədir, bölgədə və dünyada sülhə təhlükə yaradır.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov üzv ölkələrin enerji sahəsində əməkdaşlığını genişləndirmək zərurətindən danışdı.

Qazaxıstanın Baş naziri Kərim Məsimov, Qırğızıstanın Baş nazirinin birinci müavini Omurbek Babanov, Özbəkistan Senatının sədri İlgizar Sabirov üzv ölkələrin tərəqqisi

naminə təşkilatın fəaliyyətini daha da təkmilləşdirmək barədə fikirlərini söylədilər.

Zirvə görüşündə qonaq qismində iştirak edən İraq Prezidenti Cəlal Tələbani, Suriyanın vitse-prezidenti Faruk Şəraa, Qətər Dövlətinin əmiri Həməd bin Xəlifə Al Tani İqtisadi Əməkdaşlıq Təşkilatının fəal rolundan və ölkələrinin bu quruma üzv dövlətlərlə əlaqələri genişləndirməkdə maraqlı olduqlarını bildirdilər.

BMT Baş Məclisinin sədri Migel d'Eskoto Brokkman və İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğlu İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətinə uğurlar arzuladılar.

İqtisadi Əməkdaşlıq Təşkilatının növbəti zirvə görüşünün iki ildən sonra Pakistanda keçirilməsi qərara alındı.

Zirvə görüşünün yekunlarına dair Tehran Bəyannaməsi qəbul olundu.

* * *

Zirvə görüşünün geniş iclası başa çatdıqdan sonra İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın adından zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Zirvə görüşünün qapalı iclasından sonra İqtisadi Əməkdaşlıq Təşkilatının mükafatlarının təqdim edilməsi mərasimi olmuşdur. Bildirilmişdir ki, mükafatlar 8 sahə (iqtisadiyyat, elm, texnika və sair) üzrə verilir. Mükafatlara layiq görülənlər İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrdən irəli sürülmüş 50 namizəd arasından seçilmişdir. Mərasimdə qaliblər barədə geniş məlumat verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev iqtisadiyyat sahəsində xidmətlərinə görə mükafatı tacikistanlı alim Talbak Nazarova təqdim etmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Neft Kimyası Prosesləri İnstitutunun şöbə müdiri Vaqif Abbasov elm və texnika sahəsində xidmətlərinə görə mükafata layiq görülmüşdür.

Sonra dövlət başçıları, baş nazirlər və tədbirin digər yüksək səviyyəli iştirakçıları İqtisadi Əməkdaşlıq Təşkilatının 10-cu zirvə görüşünün yubiley markasını imzalamış, xatirə şəkli çəkdirmişlər.

10-cu zirvə görüşündən başlayaraq İqtisadi Əməkdaşlıq Təşkilatında sədrlik edən İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad çıxış etmişdir. O, təşkilatın Bakıda keçirilən 9-cu zirvə görüşündən etibarən İƏT-də sədrlik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətini bir daha yüksək qiymətləndirmiş, dövlətimizin başçısının səyləri sayəsində təşkilatın işinin ötən müddətdə fəallaşdığını xüsusi vurğulamışdır. İran Prezidenti Tehran Bəyannaməsinin İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətinin genişlənməsinə təkan verəcəyini bildirmiş, üzv dövlətləri bu istiqamətdə səyləri birləşdirməyə çağırmışdır.

Bununla da Tehran zirvə görüşü başa çatmışdır.

MOSKVADA HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR

Martın 11-də Rusiya paytaxtında Moskva hökuməti ilə Azərbaycan hökuməti arasında ticarət-iqtisadi və mədəni sahələrdə əməkdaşlıq haqqında sazişin yerinə yetirilməsinə dair hökumətlərarası komissiyanın yeddinci iclası keçirilmişdir.

İclasda Azərbaycanı Baş nazirin birinci müavini Yaqub Eyyubovun rəhbərliyi ilə nümayəndə heyəti, Rusiya tərəfini Moskva merinin birinci müavini Lyudmila Şvetsovanın başçılığı ilə nümayəndə heyəti təmsil etmişdir.

Azərbaycan nümayəndə heyətinin tərkibinə ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu, habelə iqtisadi inkişaf, kənd təsərrüfatı, təhsil, gənclər və idman nazirlərinin müavinləri, ekspertlər daxildir.

İclasda gündəliyə daxil edilmiş məsələlər müzakirə olunmuşdur. Onların arasında "Ticarət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlığa dair hökumətlərarası Sazişin həyata keçirilməsi üzrə komissiyanın 6-cı iclasının Protokolunun yerinə yetirilməsinin gedişi haqqında", Moskva ilə Azərbaycan arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında, humanitar sahədə əməkdaşlıq haqqında məsələlər də vardır.

Tərəflər komissiyanın 6-cı iclasının yekunlarını, habelə ticarət-iqtisadi əməkdaşlıq çərçivəsində qarşılıqlı fəaliyyətin səviyyəsini yüksək qiymətləndirmişlər. Bildirilmişdir ki, ötən ilin yanvar-sentyabr aylarında Moskva ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin həcmi 157,1 milyon ABŞ dollarına bərabər olmuşdur. Moskvadan Azərbaycana 133,7 milyon dollarlıq, Azərbaycandan Moskvaya 23,4 milyon dollarlıq mal göndərilmişdir ki, bu da 2007-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 dəfə çoxdur.

Hökumətlərarası komissiyanın iclasının yekunlarına dair protokol imzalanmışdır. Sənəddə tərəflərin ticarət-iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsinə, habelə birbaşa əlaqələrin inkişaf etdirilməsinə və konkret layihələrin həyata keçirilməsinə dair müəyyən addımlar atması barədə müddəalar əksini tapmışdır.

Komissiyanın növbəti iclasının Bakıda keçirilməsi qərara alınmışdır.

Növbəti iclasın vaxtı və gündəliyi komissiyanın məsul katibləri tərəfindən işgüzar qaydada razılaşdırılacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı iki ölkənin rəhbərlikləri, habelə digər qurumları, o cümlədən xarici işlər nazirlikləri arasında olan yüksək səviyyəli qarşılıqlı anlaşmanın, fəal əməkdaşlığın ikitərəfli əlaqələrin dinamik inkişafına xidmət etdiyini vurğuladı.

Prezident İlham Əliyev dedi ki, bütün bunların nəticəsində ikitərəfli münasibətlər möhkəmlənir, ticarət dövriyyəsi artır, geniş miqyasda regional əməkdaşlığın müxtəlif istiqamətlərdə təmin olunması baxımından birgə səylər daha da güclənir.

Azərbaycan Prezidenti ümidvar olduğunu bildirdi ki, Rusiya xarici işlər nazirinin indiki səfəri və onun gedişində aparılan müzakirələr ötən il Rusiya Prezidentinin Azərbaycana səfəri zamanı dövlət başçılarının müəyyən etdikləri kimi, qarşılıqlı əməkdaşlığın dostluq, strateji tərəfdaşlıq prinsipləri əsasında daha da inkişafına xidmət edəcəkdir.

Sergey Lavrov səfəri zamanı iki ölkə prezidentlərinin müəyyən etdikləri istiqamətlər üzrə səmərəli müzakirələr keçirildiyini vurğuladı. O dedi ki, biz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtında, sonra isə İlham Əliyevin Prezidentliyi dövründə Rusiya və Azərbaycan rəhbərlikləri arasında yaranmış qarşılıqlı anlaşma ruhuna uyğun olaraq fəaliyyət göstərməyə çalışırıq

Sergey Lavrov iki ölkə arasında münasibətlərin bundan sonra da dərinləşəcəyinə və möhkəmlənəcəyinə əmin olduğunu bildirdi.

NİDERLANDIN HAARLEM ŞƏHƏRİNDƏ "MƏDƏNİYYƏTLƏRARASI DİALOQDA QADINLARIN ROLU" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLMİŞDİR

Niderland Krallığında fəaliyyət göstərən "Azərbaycanın Holland Dostları" ictimai birliyi və yerli hökumət Haarlem şəhərindəki Tayler muzeyində "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda tədbir keçirmişdir.

Azərbaycan və Niderland cəmiyyətlərində qadınların yeri və hüquqlarının müzakirəsinə həsr edilmiş tədbir bədii və konfrans hissələrindən ibarət olmuşdur.

Tədbirdə Haarlem şəhərinin meri B.Şneyders, Niderland cəmiyyətində böyük nüfuza malik siyasətçilər, jurnalistlər və elm adamları, tanınmış holland ziyalıları iştirak etmişlər. Azərbaycanın Niderland Krallığındakı səfiri Fuad İsgəndərov, Milli Məclisin deputatı Elmira Axundova tədbirə qonaq qismində dəvət olunmuşdular.

Konfransda giriş sözü ilə çıxış edən "Azərbaycanın Holland Dostları" təşkilatının icraçı direktoru xanım Marion van der Vegh tədbirin Hollandiyada keçirilməsi ideyasının ötən il Bakıda Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın rəhbərliyi ilə təşkil olunmuş "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Forumda Niderland nümayəndə heyətinin iştirakından sonra yarandığını xüsusi qeyd etmişdir.

Bakı Forumu zamanı söylənilmiş fikirlərin və təkliflərin mədəniyyətlərarası dialoqun inkişafına yeni təkan verdiyini bildirən xanım Marion van der Vegh vurğulamışdır ki, bugünkü tədbirin Niderlandın ən qədim və tarixi mərkəzlərdən biri olan Haarlem şəhərində təşkil olunması məhz Mehriban xanım Əliyeva tərəfindən Forumda səsləndirilmiş tövsiyələrin Avropa İttifaqı məkanında həyata keçirilməsi kimi qiymətləndirilməlidir. Azərbaycan bir tərəfdən öz tolerantlığı, dünyəviliyi və gender bərabərliyinə görə nümunəvi Avropa dövləti, digər tərəfdən isə milli və dini ənənələri qoruyub inkişaf etdirməyə qadir bir ölkə kimi beynəlxalq ictimaiyyətdə tanıdılmalı, Azərbaycanın sivilizasi-

yalararası dialoqun təşkil olunması, bu proseslərdə qadınların fəal iştirakının təmin edilməsi istiqamətində topladığı təcrübə holland cəmiyyəti tərəfindən dərindən öyrənilməlidir. Məhz bu səbəbdən tədbirin Hollandiyada bayram kimi qeyd edilən 8 Mart - Beynəlxalq Qadınlar günündə keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bədii proqram çərçivəsində mövzuya dair Azərbaycan haqqında film nümayiş olundu. Hollandiyanın Qroningen şəhərinin qadınlardan ibarət xor kapellası Azərbaycan xalqına xüsusi hörmət nümayişi olaraq "Sarı gəlin" xalq mahnısını Azərbaycan dilində məharətlə ifa etdilər. Niderlandda yaşayan azərbaycanlı musiqiçi Firəngiz Bağırova, habelə Bakıdan dəvət edilmiş musiqiçilər - Tünzalə Ağayeva, Elza Seyidcahan və Azərin milli, klassik və caz musiqisindən ibarət konsert proqramı ilə çıxış etmişlər.

Haarlem şəhərinin meri tədbirin xanım iştirakçılarını Beynəlxalq Qadınlar günü münasibətilə təbrik etdikdən sonra Azərbaycanın səfiri Fuad İsgəndərovu salamlamışdır. O, indiyədək Haarlemdə bu mövzuda tədbirin keçirilmədiyini bildirərək, onun yüksək səviyyədə və rəngarəng təşkil etdiyinə görə "Azərbaycanın Holland Dostları" ictimai birliyinə minnətdarlığını bildirmişdir.

Səfir Fuad İsgəndərov Azərbaycan cəmiyyətində və mədəniyyətlərarası dialoqda qadınların rolu haqqında ətraflı məlumat vermiş, Bakı Forumunun davamı olaraq Haarlemdə belə bir tədbirin keçirilməsini, Azərbaycan mədəniyyəti ilə yaxından tanış olmaq məqsədi ilə təşkil olunmuş proqramı yüksək qiymətləndirmişdir. Diplomat şəhər meriyasına, muzey rəhbərliyinə və "Azərbaycanın Holland Dostları" təşkilatının fəallarına minnətdarlıq etmiş, hədiyyələr vermişdir.

Tədbirin konfrans hissəsində Niderlandın tanınmış tədqiqatçıları Azərbaycanın gender siyasətində əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirmiş, onların Azərbaycan xalqının tolerantlığı, ölkənin mədəniyyətlərarası dialoqun etibarlı təşkilatçısı kimi tanınması ilə bağlılığını xüsusi vurğulamışlar.

Tədbirdə mövzu ilə bağlı Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmış materiallar paylanmışdır.

Tədbir yerli kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılmışdır.

HAFİZ PAŞAYEVİN "YÜKSƏKLİYƏ DOĞRU" KİTABININ TƏQDİMATI OLMUŞDUR

Martın 12-də Azərbaycan Dillər Universitetinin Amerika Mərkəzində Azərbaycan Marketinq Cəmiyyətinin və ABŞ Təhsilli Azərbaycan Məzunları Assosiasiyasının təşkilatçılığı ilə xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru Hafiz Paşayevin "Yüksəkliyə doğru" kitabının Azərbaycan dilində nəşrinin təqdimatı olmuşdur.

Mərasimi açan ABŞ Təhsilli Azərbaycan Məzunları Assosiasiyasının sədri Ceyhun Kərəmov bildirmişdir ki, tanınmış diplomat Hafiz Paşayevin 1993-cü ilin fevralından 2006-cı ilin iyununa qədər Vaşinqtonda, Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfiri kimi işlədiyi dövrdə fəaliyyətini əks etdirən müxtəlif materiallar kitab şəklində 2006-cı ildə Vaşinqtonda ingilis dilində nəşr edilmişdir. Oxucuların marağı nəzərə alınaraq, kitab Azərbaycan Marketinq Cəmiyyətinin təşəbbüsü ilə dilimizə tərcümə olunmuşdur. Kitaba müəllifin Amerika universitetlərində, müstəqil tədqiqat mərkəzlərində, habelə ABŞ-ın 30-dan çox ştatında keçirilən biznes forumlarda çıxışları, ABŞ mətbuatında dərc olunmuş bir sıra məqalələri, müsahibələri və bəyanatları daxil edilmişdir.

Oxucular bu nəşrdə Azərbaycanın ABŞ-dakı səfirliyinin açılmasından etibarən ABŞ-Azərbaycan ikitərəfli əlaqələrinin mürəkkəb inkişaf dinamikası barədə ətraflı məlumat alacaqlar.

Mərasimdə çıxış edən Dillər Universitetinin prorektoru Natiq Yusifov, Azərbaycan Marketinq Cəmiyyətinin sədri, Rəhim Hüseynov, İqtisad Universitetinin rektoru, Milli Məclisin elm və təhsil məsələləri daimi komissiyasının sədri Şəmsəddin Hacıyev, BDU-nun professoru Abuzər Xələfov, tərcüməçi Xumar Hüseynova və başqaları kitabın məziyyətlərindən danışmışlar. Bildirilmişdir ki, burada toxunulan məsələlərin - Xəzərin enerji ehtiyatlarının Qərb ölkələrinə çatdırılması, regional münaqişələrin həlli, yeni müstəqil dövlətlərdə demokratiyanın dəstəklənməsi, Cənubi Qafqazda təsiri gücləndirmək üstündə geosiyasi rəqabət və ABŞ-ın xarici siyasətinin formalaşdırılmasında Konqresin rolu kimi məsələlərin əhəmiyyəti ABŞ-Azərbaycan əlaqələrinin çərçivəsindən çox-çox kənara çıxır. Azərbaycanlı oxucular buradakı materiallar əsasında ölkəmizin beynəlxalq aləmdə özünü təsdiqləmək üçün keçdiyi çətin, kəşməkəşli yolu, aradan qaldırdığı maneələri təsəvvür edə biləcəklər.

Sonra çıxış edən professor Hafiz Paşayev kitabın yazılma səbəbi, nəşr prosesi, habelə oxucanın o tayında Azərbaycan diplomatlarının fəaliyyəti barədə məlumat vermişdir. Müəllifin ümummilli liderimiz Heydər Əliyevin 1997-ci il iyulun 27-dən avqustun 7-dək ABŞ-a ilk rəsmi səfəri, burada keçirdiyi görüşləri haqqında xatirələri xüsusi maraq doğurmuşdur. Hafiz Paşayev Prezident İlham Əliyevin 2006-cı ilin aprelində ABŞ-a səfərinin, Prezident Buşla, digər dövlət rəsmiləri ilə danışıqlarının, səmimi söhbətlərinin ölkələrimiz arasında münasibətlərin inkişafında yeni mərhələ açdığını bildirmişdir. O demişdir ki, kitabın 1993-94-cü illəri əhatə edən birinci fəsli "Azərbaycanın Vaşinqton xəritəsində yerləşdirilməsi", 1995-2001-ci illəri əhatə edən ikinci fəsli "ABŞ-Azərbaycan münasibətlərinin möhkəmlənməsi", 2001-2006-cı illəri əks etdirən üçüncü fəsli isə "Əməkdaşlıqdan strateji tərəfdaşlığa doğru" adlanır və bunlar həm də iki dövlət arasında əlaqələrin mərhələlərini göstərir.

Daha sonra müəllif suallara cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZISTAN PARLAMENTİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ ÇOLPON BAYEKOVANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Qırğızıstan parlamenti (Joqorku Kenеş) sədrinin birinci müavini Çolpon Bayekovanı qəbul etmişdir.

Xanım Çolpon Bayekova bildirdi ki, Bakıya səfərinin əsas məqsədi parlamentlərarası münasibətlərin inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparmaq, habelə dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatova həsr olunmuş kitabın təqdimat mərasimində iştirak etmək və Azərbaycanda yazıçının yubiley tədbirlərinin keçirilməsi ilə bağlı bir sıra məsələləri müzakirə etməkdir.

Dövlətimizin başçısı Azərbaycanda dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatova həsr olunmuş silsilə tədbirlərin keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev Azərbaycanla Qırğızıstan arasında ikitərəfli münasibətləri bütün səviyyələrdə, o cümlədən parlamentlərarası əlaqələr sahəsində də genişləndirməyin zəruriliyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ VASİLİ İSTRATOVU FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Rusiya Federasiyasının ölkəmizdəki səfiri Vasili İstratovu fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı və Bakıda diplomatik fəaliyyəti dövründə səfirin əlaqələrimizin daha da möhkəmlənməsinə töhfə verdiyini bildirdi. Ölkələrimiz arasında münasibətlərin bundan sonra da genişlənəcəyinə əminliyini söyləyən Prezident İlham Əliyev səfirə gələcək fəaliyyətində uğurlar arzuladı.

Vasili İstratov ölkəmizdəki səfirlik fəaliyyətinə verilən qiymətə görə dövlətimizin başçısına minnətdarlıq etdi. O, iki ölkənin prezidentləri arasında olan səmimi münasibətlərin qarşılıqlı əlaqələrin inkişafındakı rolunu xüsusi vurğuladı. Vasili İstratov Azərbaycanda səfir kimi çalışmasından məmnun qaldığını bildirdi.

XARİCİ İŞLƏR NAZİRİ BOLQARISTANIN AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Martın 13-də xarici işlər naziri Elmar Məmmədyarov Bolqarıstanın Azərbaycana yeni təyin olunmuş səfiri Vasil Kalinovu qəbul etmişdir.

Etibarnamənin surətini təqdim edən səfir Azərbaycana təyin olunmasından şad olduğunu və fəaliyyəti dövründə Azərbaycan-Bolqarıstan arasındakı münasibətlərin daha da inkişaf və genişlənməsinə xidmət edəcəyini söyləmişdir.

Öz növbəsində Nazir Məmmədyarov cənab Kalinovu Azərbaycana səfir təyin edilməsi münasibətilə ürəkdən təbrik etmiş və ölkələr arasındakı əlaqələrin yüksək səviyyədə olmasından məmnunluğunu bildirmişdir.

Sonra tərəflər ikitərəfli münasibətlər və bir sıra maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA SENATININ KEÇMİŞ SƏDRİ, SENATOR KRİSTİAN PONSÖLENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Fransa Senatının keçmiş sədri, senator Kristian Ponsöleni qəbul etmişdir.

Senator Kristian Ponsöle ölkəmizə səfərindən məmnunluğunu bildirdi, ulu öndər Heydər Əliyevlə görüşlərini böyük ehtiramla xatırladı. O, Azərbaycanda gedən böyük inkişaf proseslərinin şahidi olduğunu və bunun onda xoş təəssürat yaratdığını bildirdi.

Prezident İlham Əliyev Kristian Ponsölenin Azərbaycanla Fransa arasında dostluq münasibətlərinin möhkəmlənməsindəki rolunu xüsusi vurğuladı və onun ölkəmizlə əlaqələrinin bundan sonra da davam etdirəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA UĞRUNDA LİBERALLAR VƏ DEMOKRATLAR ALYANSININ NÜMAYƏNDƏSİ POL UİLİN BAŞÇILIQ ETDİYİ KONSTİTUSİONAL REFERENDUMUN MÜŞAHİDƏ OLUNMASI ÜZRƏ XÜSUSİ KOMİTƏNİN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Avropa uğrunda Liberallar və Demokratlar alyansının nümayəndəsi Pol Uilin başçılıq etdiyi Konstitusional referendumun müşahidə olunması üzrə xüsusi komitənin üzvlərini qəbul etmişdir.

Pol Uil bildirdi ki, ölkəmizə səfərin məqsədi Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklərə dair martın 18-də keçiriləcək ümumxalq referendumunu yaxından müşahidə etməkdən ibarətdir.

Görüşdə Azərbaycanda gedən demokratik inkişaf prosesləri və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

NİDERLANDIN BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA AZƏRBAYCAN HAQQINDA KİTABLARIN TƏQDİMATI KEÇİRİLMİŞDİR

Azərbaycanın Niderland Krallığındakı səfirliyi Niderlandın Beynəlxalq Münasibətlər İnstitutu - "Klinqendal"ın kitabxanasına ölkəmiz haqqında kitablar hədiyyə etmişdir.

Səfirlikdən bildirmişlər ki, bu münasibətlə keçirilmiş tədbirdə Azərbaycan səfiri Fuad İsgəndərov, "Klinqendal" İnstitutunun direktoru Yaap de Zvaan, direktorun müşaviri Pol Meerts, institutun aparıcı tədqiqatçısı Marsel de Xaas, diplomatik təlim üzrə direktoru Ron Ton və diplomatiyanın öyrənilməsi üzrə şöbəsinin əməkdaşı Xinke Pyetersma iştirak etmişlər.

Səfir Fuad İsgəndərov Azərbaycanın tarixi, mədəniyyəti və tolerantlığı, müasir iqtisadi inkişafı, qazandığı nailiyyətləri, neft strategiyası haqqında ətraflı məlumat vermişdir. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası tərəfindən "Klinqendal" İnstitutunun kitabxanasına ölkəmiz haqqında kitabların hədiyyə verilməsi xüsusi əhəmiyyət daşıyır. Təqdim olunan kitablar arasında Heydər Əliyev Fondu tərəfindən hazırlanmış nəşr nümunələri öz mahiyyəti və nəfis tərtibatına görə xüsusi yer tutur.

Tədbirdə ümummilli lider Heydər Əliyevin həyatını əks etdirən nəşrlər, habelə Ermənistanın Azərbaycana hərbi təcavüzünü obyektiv işıqlandıran kitablar haqqında ətraflı məlumat verilmişdir.

İnstitutun direktoru Yaap de Zvaan hədiyyə olunmuş kitablara görə dərin təşəkkürünü bildirmiş, bu kitabların holland oxucuları üçün zəngin tarixə, mədəniyyətə malik, dinamik inkişafda olan Azərbaycan haqqında keyfiyyətcə yeni məlumat mənbələri olaca-

ğını xüsusi vurğulamışdır. Direktor İnstitutun Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə əməkdaşlığını yüksək qiymətləndirərək hazırda bu münasibətlərin nümunəvi xarakter daşıdığını qeyd etmişdir.

İnstitutun direktoru Azərbaycan Diplomatik Akademiyası (ADA) haqqında məlumatlı olduğunu bildirmiş, bu təhsil ocağının Avropanın ən müasir təhsil və tədqiqatlar mərkəzlərindən birinə çevrilməsi perspektivlərini yüksək qiymətləndirmişdir. O, "Klinqendal"ın ADA ilə səmərəli əməkdaşlığın qurulmasına, özünün və yaxud institut əməkdaşlarının Bakıya səfər edəcəyinə, ADA-nın beynəlxalq səviyyəli təhsil ocağı kimi formalaşmasına holland tərəfinin zəruri dəstək verəcəyinə ümidvar olduğunu vurğulamışdır.

İnstitutun diplomatik təlim üzrə direktoru Ron Ton Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və institut arasında əməkdaşlığın yarandığı gündən 50-yə yaxın gənc Azərbaycan diplomatının "Klinqendal"da diplomatik təhsil aldığını və onların bir çoxunun hazırda Xarici İşlər Nazirliyində yüksək vəzifə tutduğunu vurğulamışdır. Bundan əlavə, R.Ton Azərbaycan Diplomatik Akademiyası ilə "Klinqendal" arasında yaradılmış əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulamış, gələcəkdə bu əlaqələrin daha da intensiv olacağına ümid etdiyini bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin müavini Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Svetlana Orlova ölkəmizdə referenduma hazırlığın yüksək səviyyədə təşkil olunduğunu, bir çox məntəqədə veb-kameraların quraşdırıldığını, dairələrin texniki vasitələrlə tam təchiz edildiyini vurğuladı. O, 40-dan artıq seçki məntəqəsində müşahidələr apardıqlarını bildirərək dedi ki, saat 12-yə qədər həmin məntəqələrdə seçicilərin 43 faizdən çoxunun referendumda iştirak etməsi yüksək göstəricidir.

Qonaq ölkəmizə səfəri müddətində ümumilikdə Azərbaycanda gedən inkişaf proseslərinin şahidi olduqlarını söylədi.

Dövlətimizin başçısı ölkəmizdə referenduma hazırlıq işlərinin yüksək səviyyədə təşkil edildiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanda bütün sahələrdə sürətli inkişafa nail olunduğunu vurğuladı.

Görüşdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində də uğurla inkişaf etdiyi bildirildi, Rusiya nümayəndə heyətinin səfərinin qarşılıqlı əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNESKO-NUN BAŞ DİREKTORU KOİŞİRO MATSUURANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 19-da YUNESKO-nun baş direktoru Koişiro Matsuuranı qəbul etmişdir.

YUNESKO-nun rəhbəri Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən Beynəlxalq Muğam Festivalının rəsmi açılış mərasimində iştirak etmək üçün ölkəmizə səfər etməsindən məmnunluğunu bildirdi. Azərbaycanda gedən sürətli iqtisadi inkişaf proseslərinə toxunan Koişiro Matsuura ölkəmizdə mədəniyyət sahəsində də böyük işlərin görüldüyünü söylədi.

Azərbaycan Prezidenti dünyadakı maliyyə böhranına baxmayaraq, ölkəmizdə bütün istiqamətlərdə, o cümlədən mədəniyyət sahəsində də sürətli inkişafa nail olunduğunu bildirdi. Azərbaycanda mədəniyyətlə bağlı həyata keçirilən layihələrdən danışan dövlətimizin başçısı bu baxımdan Bakıda Beynəlxalq Muğam Festivalının keçirilməsinin əhəmiyyətini xüsusi vurğuladı. Prezident İlham Əliyev Koişiro Matsuuranın ölkəmizə bu səfərinin Azərbaycanla YUNESKO arasında əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN XARİCİ TİCARƏT ÜZRƏ DÖVLƏT KATİBİ, FRANSA-AZƏRBAYCAN BİRGƏ İQTİSADİ KOMİSSİYASININ HƏMSƏDRİ ANN-MARİ İDRAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 19-da Fransanın xarici ticarət üzrə dövlət katibi, Fransa-Azərbaycan Birgə İqtisadi Komissiyasının həmsədri xanım Ann-Mari İdrakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Xanım Ann-Mari İdrak Fransa Prezidenti Nikola Sarkozinin məktubunu dövlətimizin başçısına təqdim etdi, onun salamlarını və xoş arzularını çatdırdı.

Görüşdə Azərbaycanla Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə - siyasi, iqtisadi, enerji, mədəniyyət və digər sahələrdə genişlənməsindən məmnunluq ifadə olundu, ölkəmizdə Fransa şirkətlərinin uğurla fəaliyyət göstərdikləri bildirildi.

Söhbət zamanı Komissiyanın Bakıda keçirilən iclasının əhəmiyyətinə də toxunuldu, Fransanın iş adamlarından ibarət nümayəndə heyətinin Azərbaycana səfərinin əlaqələrin daha da inkişaf etdirilməsi baxımından önəmi vurğulandı.

Dövlətimizin başçısı Fransa Prezidenti Nikola Sarkozinin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını və xoş arzularını Fransanın dövlət başçısına çatdırmağı xahiş etdi.

YUNESKO ÜZRƏ AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ KOMİSSİYASI "DƏYİRMİ MASA" GÖRÜŞÜ KEÇİRMİŞDİR

Martın 19-da YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasi "dəyirmi masa" görüşü keçirmişdir. Görüşdə "Muğam aləmi" Beynəlxalq festivalının rəsmi

açılışında iştirak etmək üçün Azərbaycana gələn YUNESKO-nun baş direktoru Kouşiro Matsuura da qatılmışdır.

Komissiyanın sədri, xarici işlər naziri Elmar Məmmədyarov görüşü açaraq, Azərbaycanda YUNESKO ilə birgə həyata keçirilən layihələrin əhəmiyyətindən danışmışdır. Nazir YUNESKO ilə Azərbaycan arasında əməkdaşlığın inkişafında Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın xidmətlərini xüsusi vurğulamışdır.

Bildirilmişdir ki, məhz bu uğurlu əməkdaşlığın sayəsində mədəni irsin mühafizəsi istiqamətində bir neçə mühüm layihə həyata keçirilmişdir.

Mədəniyyət və turizm naziri Əbülfəz Qarayev Bakıda keçirilən "Muğam aləmi" Beynəlxalq festivalının əhəmiyyətindən danışaraq, bu tədbirin dünya mədəniyyətinə yaxşı töhfə olacağını bildirmişdir. Nazir ermənilərin işğal etdiyi ərazilərimizdəki abidələrin qorunması istiqamətində birgə komissiyanın yaradılmasının vacibliyini vurğulamışdır.

Görüşdə çıxış edən təhsil naziri Misir Mərdanov, rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova da Azərbaycan ilə YUNESKO arasındakı əməkdaşlığın əhəmiyyətindən, həyata keçirilən layihələrdən danışmışlar.

İlk dəfə 2000-ci ildə ümummilli lider Heydər Əliyevin dəvəti ilə Türkdilli ölkələrin dövlət başçılarının sammitində iştirak etmək üçün ölkəmizə gəldiyini xatırlayan YUNESKO-nun baş direktoru Koişiro Matsuura Azərbaycanla rəhbərlik etdiyi təşkilat arasındakı əməkdaşlığı yüksək dəyərləndirmişdir. Azərbaycan mədəni irsinin təbliğ olunmasında, inkişafında Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın xidmətlərindən danışan baş direktor demişdir ki, birgə fəaliyyətin nəticəsində mədəni irsin qorunması istiqamətində mühüm uğurlar əldə olunmuşdur.

YUNESKO-nun baş direktoru dünya mədəni irsinə verdiyi töhfələrə görə məşhur fırça ustası, Azərbaycanın xalq rəssamı Tahir Salahova təşkilatın adından "Pikasso" medalını təqdim etmişdir. Bildirilmişdir ki, bu medal 1981-ci ildə dünya şöhrətli rəssam Pablo Pikassonun 100 illiyi münasibətilə təsis olunmuşdur.

Tahir Salahov böyük rəssamın adını daşıyan bu mükafatın bütünlükdə Azərbaycan incəsənətinə və rəssamlarına verilən qiymət olduğunu demişdir. O, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan incəsənətinin, mədəniyyətinin, musiqisinin təbliğindəki xidmətlərindən, bu sahədə çalışan insanlara göstərdiyi diqqətdən danışmışdır.

Azərbaycan Respublikasının Milli Komissiyası adından Koişiro Matsuuraya hədiyyə olunmuşdur.

BAKIDA AZƏRBAYCAN-FRANSA HÖKUMƏTLƏRARASI İQTİSADİ KOMİSSİYANIN 5-Cİ İCLASI KEÇİRİLMİŞDİR

Martın 19-da Bakıda Azərbaycan-Fransa hökumətlərarası iqtisadi komissiyanın 5-ci iclası keçirilmişdir.

İclası Prezident İlham Əliyevin Sərəncamı ilə komissiyanın Azərbaycan tərəfdən yeni həmsədri təyin edilən maliyyə naziri Samir Şərifov açaraq, belə görüşlərin ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verəcəyini vurğulamışdır. Ölkələrimiz arasında iqtisadi və ticarət əlaqələrinin səviyyəsini yüksək qiymətləndirən nazir Azərbaycanın Fransa ilə istər ikitərəfli, istərsə də regional əməkdaşlığı daha da genişləndirməyə mühüm əhəmiyyət verdiyini diqqətə çatdırmışdır.

Nazir qeyd etmişdir ki, Avropa İttifaqının üzvü olan Fransa ilə əməkdaşlıq, Azərbaycan-Fransa əlaqələrinin inkişafı Prezident İlham Əliyevin xüsusi diqqəti mərkəzindədir.

Azərbaycan ilə Fransa arasında infrastruktur, energetika, informasiya-kommunikasiya texnologiyaları, turizm və digər sahələrdə əməkdaşlığın daha da möhkəmləndiyini bildirən S.Şərifov, Fransanın ticarət üzrə Azərbaycan ilə əməkdaşlıqda beşinci yer tutduğunu, sərmayə qoyuluşu üzrə isə ən böyük investorlardan biri olduğunu vurğulamışdır. Nazir qeyd etmişdir ki, 2004-cü ildən bəri dövlət başçılarının dəstəyi sayəsində ölkələrimiz arasında əmtəə dövriyyəsi iki dəfədən çox artmışdır. Ümumilikdə isə Azərbaycan ilə Fransa arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın möhkəmlənməsində dövlət başçılarının dostluq münasibətləri mühüm rol oynamışdır.

Dünya maliyyə və iqtisadi böhranını geniş xarakterizə edən S.Şərifov, bu böhranın ötən illərdə məqsədyönlü siyasət yürüdən Azərbaycan iqtisadiyyatına əsaslı təsir göstərmədiyini, 2008-ci ildə ümumi daxili məhsulun 10,8 faiz artdığını və respublikamızın Dünya Bankı tərəfindən ən islahatçı ölkə elan olunduğunu demişdir.

Komissiyanın Fransa tərəfdən həmsədri, bu ölkənin xarici ticarət üzrə dövlət katibi xanım Ann-Mari İdrak da Azərbaycan ilə Fransa arasında əlaqələrin bütün sahələrdə, o cümlədən iqtisadi sahədə yüksələn xətlə inkişafında dövlət başçılarının səylərinin həlledici rolu olduğunu təsdiqləmişdir. Fransalı həmsədr ölkəsinin Azərbaycan iqtisadiyyatının inkişafına bundan sonra da hərtərəfli dəstəyini əsirgəməyəcəyini bildirmişdir.

A.-M. İdrak 2008-ci ildə Azərbaycan ilə Fransa arasında əmtəə dövriyyəsinin həcminin 1,8 milyard avronu üstələdiyini demişdir. Komissiyanın beşinci iclasının Azərbaycan ilə Fransanın ətraf mühit, sığorta, hava nəqliyyatı, enerji daşıyıcıları və iqtisadiyyatın digər sahələrindəki əməkdaşlığının daha da genişlənməsinə təkan verəcəyini demişdir.

İclasda Azərbaycan və Fransadakı iqtisadi vəziyyət, qlobal iqtisadi və maliyyə böhranına qarşı həyata keçirilən tədbirlər, iqtisadi, ticarət və maliyyə sahəsində əməkdaşlığa dair konkret məsələlər və layihələr barədə fikir mübadiləsi aparılmışdır.

Azərbaycan-Fransa hökumətlərarası iqtisadi komissiyanın beşinci iclasının yekunlarına dair Protokol imzalanmışdır. Protokolu nazir S.Şərifov və xanım A.-M.İdrak imzalamışdır.

* * *

Sonra Azərbaycan-Fransa hökumətlərarası iqtisadi komissiyanın beşinci iclasının yekunlarına dair komissiyanın həmsədrləri Azərbaycanın maliyyə naziri Samir Şərifov və Fransanın xarici ticarət üzrə dövlət katibi xanım Ann-Mari İdrak birgə mətbuat konfransı keçirmişlər.

S.Şərifov bildirmişdir ki, iclasda Azərbaycan ilə Fransa arasında iqtisadi münasibətlərin

inkişaf səviyyəsi yüksək qiymətləndirilmiş, bir çox sahələrdə bu əməkdaşlığın daha da genişləndirilməsi və dərinləşdirilməsi üçün imkanların mövcudluğu qeyd olunmuşdur. Nazir demişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü ildə Fransaya səfəri ölkələrimiz arasında münasibətlərin, xüsusilə də iqtisadi əməkdaşlığın inkişafına təkan verdiyi iclasda xüsusi qeyd edilmişdir.

Nazir vurğulamışdır ki, Prezident İlham Əliyevin xanım Ann-Mari İdrakı qəbul etməsi əməkdaşlığımızın gələcək inkişafı baxımından olduqca vacibdir.

Fransalı həmsədr Azərbaycan-Fransa əlaqələrinin inkişafında iqtisadi komissiyanın rolunu xüsusi vurğulamışdır. O, Fransa Prezidenti Nikola Sarkozinin göndərdiyi məktubda da komissiyanın fəaliyyətinə xüsusi önəm verdiyini bildirmişdir. Azərbaycanla Fransa arasında dərin əməkdaşlığın olduğunu qeyd edən xanım A.-M.İdrak bildirmişdir ki, onun ölkəsi gələcəkdə bu əməkdaşlığın bütün sahələri əhatə etməsini istəyir.

Fransanın xarici ticarət üzrə dövlət katibi qeyd etmişdir ki, dünya maliyyə və iqtisadi böhranının tüğyan etməsinə baxmayaraq, Azərbaycanın iqtisadiyyatı inkişaf etməkdədir, hətta Azərbaycan iqtisadi sahədə Fransa ilə müqayisədə daha çox uğurlar qazanmışdır.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ARAZ ƏZİMOV BÖYÜK BRİTANİYADA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR

Martın 19-da Azərbaycanın xarici işlər nazirinin müavini Araz Əzimov Böyük Britaniyada işgüzar səfərdə olmuşdur.

Azərbaycanın Böyük Britaniyadakı səfirliyindən bildirmişlər ki, səfər çərçivəsində A.Əzimov Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin bir sıra rəsmiləri ilə görüşmüşdür.

Görüşlərdə Azərbaycan ilə Böyük Britaniya arasında münasibətlərin müxtəlif istiqamətləri ətrafında geniş fikir mübadiləsi aparılmış, bu əlaqələrin perspektivləri qiymətləndirilmişdir. Azərbaycan-Böyük Britaniya münasibətlərinin mövcud səviyyəsindən məmnunluq ifadə olunmuş və müxtəlif sahələr üzrə əlaqələrin genişləndirilməsi imkanları müzakirə edilmişdir.

Bundan əlavə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə toxunulmuş, münaqişənin regional əməkdaşlıq imkanlarını məhdudlaşdırdığı və Cənubi Qafqaz regionunun Avropaya inteqrasiyasına mühüm əngəl olduğu xüsusilə vurğulanmışdır.

A.Əzimov Böyük Britaniyanın Beynəlxalq münasibətlər üzrə Kral İnstitutunda (Chatham House) "Cənubi Qafqazda təhlükəsizlik vəziyyəti və inkişaf meyilləri" mövzusunda çıxış etmişdir.

Azərbaycanın xarici işlər nazirinin müavini regional münaqişələrin dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini diqqətə çatdırmış, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin təkcə Cənubi Qafqazın deyil, bütövlükdə Avropanın təhlükəsizliyini təhdid etdiyi vurğulanmışdır.

Tədbirdə diplomatlar, tədqiqatçılar, tanınmış ekspertlər və jurnalistlər iştirak etmişlər.

Səfərin sonunda A.Əzimov BBC-nin Azərbaycan və rus xidmətlərinə müsahibə vermişdir.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ARAZ ƏZİMOVUN BBC-NİN AZƏRBAYCAN XİDMƏTİNƏ MÜSAHİBƏSİ

Azərbaycanda ölkə konstitusiyasına önəmli dəyişiklikləri nəzərdə tutan referendum keçirilib. Referendumun nəticələrinin Azərbaycanın xarici siyasəti və təhlükəsizlik məsələlərinə nə kimi təsiri olacaq?

- Məncə referendumun nəticələri Azərbaycana daha ardıcıllıq və stabillik şəraitində öz xarici siyasətini və təhlükəsizlik siyasətini aparmağa yeni imkanlar açacaq.

Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında indi biz haradayıq?

- Danışıqlarda biz həmişə münaqişənin həlli üçün formalaşmış prinsiplərdən irəli gəlmişik. Konkret məqsədə nail olmaq üçün bu danışıqlarda iştirak edirik. Bu məqsəd isə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməkdir. Və ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağ regionunda yaşayacaq iki icmanın birgə sülh və əmin-amanlıq şəraitində yaşamalarını təmin edəcək bir statusun işlənilməsi üçün konkret tədbirlərin görülməsi kimi görürük. Hal-hazırda biz olduğumuz mərhələ ondan ibarətdir ki, həmsədrlər vasitəsilə aparılan təmaslar və görüşlər zamanı əsas problemlərə toxunan prinsipial yanaşmaları aydınlaşdırmalıyıq. Və bu yanaşmaların aydınlaşdırıldığı bir halda, onun əsasında münaqişənin həlli üçün xidmət edəcək sazişin işlənilməsinə keçəcəyik. Saziş təmin ediləndən sonra onun reallaşması və icrası nəticəsində dediyim konkret məqsədlərə nail olacağıq.

Azərbaycanın Rusiya ilə yüksək səviyyəli əlaqələri, Rusiyanın Ermənistana silah satışı ilə bağlı Azərbaycanın narahatlıqlarına son qoyub, onları cözə bilib?

- Rusiyanın hakimiyyət nümayəndələri, Xarici İşlər Naziri faktları təkzib edir və aydındır ki, biz rəsmi mənbələrdən başqa bir reaksiyanı gözləyə də bilməzdik. Lakin Xarici İşlər Naziri rəsmi olaraq Rusiya Müdafiə Nazirliyi tərəfindən Ermənistanın Müdafiə Nazirliyinə hansısa bir silahın ötürülməsini rədd edirsə, yəqin ki, belə bir rəsmi formada belə təhvilvermə baş tutmayıbdır. İstənilən formada bu silahların ötürülməsi baş verə bilər ki, bəlkə də Xarici İşlər Nazirinin xəbəri də olmadan.

Gürcüstan-Rusiya münaqişəsinin Azərbaycana nə kimi təsiri oldu? Azərbaycan bundan, belə demək olarsa, nə kimi ibrət dərslərini öyrəndi?

- Dərs də olmasa, bir təcrübə olubdur. Bu böhran əlbəttə ki, çox belə hiss olunan zərbələri endirib regiona, və nəticədə orada məncə strateji yönümdən, strateji baxımdan kimsə, heç udan da olmayıb. Bur daha bu böhran göstəribdir ki, Cənubi Qafqaz regionu çox həssas bir regiondur və burada olan problemlər Avropa miqyası səviyyəsində öz təsirini göstərmək qabiliyyətindədir. Bu böhran onu göstərib ki, ərazi bütövlüyü prinsipi ən vacib və Avropa təhlükəsizliyinin formalaşdırılması üçün ən əsaslı bir prinsipdir.

Bəs Azərbaycanın Avropanın təhlükəsizliyinə qatqısı nədən ibarətdir?

- Siyasi cəhətdən Azərbaycan Avropada təhlükəsizlik proseslərinin fəal iştirakçılarından biridir. Enerji təhlükəsizliyi sahəsində Azərbaycan külli miqdarda töhfələr vermədədir. Azərbaycan həm NATO-nun, həm Avropa İttifaqının yaxın tərəfdaşlarından biridir. Eyni zamanda Azərbaycan kifayət qədər balanslaşdırılmış, tarazlaşdırılmış bir siyasət aparır, həm ABŞ, həm Rusiya ölkələrinin hökumətləri ilə qarşılıqlı əsaslarda əmək-

daşlıq aparır.

Gürcüstan böhranından sonra Avropa İttifaqı Şərqi Tərəfdaşlıq proqramını açıqladı. Azərbaycan bu tərəfdaşlıqdan nə əldə etmək ümidindədir?

- Mən deməzdim ki, Şərqi Tərəfdaşlıq bilavasitə, xronoloji şəkildə olsa da belə, Gürcüstanla Rusiya böhranından sonrakı mərhələsində açılmışdır. Avropa İttifaqı ilə maraqlarımız ilk öncə iqtisadi və ticarət, təhlükəsizlik və siyasi, və insan hüquqları və sosial sahələrdə əməkdaşlığımızı, qarşılıqlı əsaslarla maraqlarımıza cavab verən formada qurmaqdır ki, Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin qurulması üçün yeni, həm siyasi, həm ticarət və iqtisadi, həm də insani əlaqələri ərsəyə gətirsin. Və burda Azərbaycan vətəndaşları da daha sıx əlaqələri qura bilsinlər.

Rusiya ordusunun yenidən silahlandırılması ilə bağlı Azərbaycanın mövqeyi nədir?

- Rusiya Azərbaycana bilavasitə qonşu ölkədir. Rusiya böyük bir dövlətdir və beynəlxalq səhnədə müxtəlif öhdəliklərə razılığını vermiş, müvafiq öhdəlikləri daşıyan bir ölkədir. Və əlbəttə ki, beynəlxalq öhdəlikləri çərçivəsində əməl edən bir ölkədir. Başqa tərəfdən Rusiya hər hansı bir suveren dövlət kimi öz ordusunun silahlanmasına dair qərarlarını qəbul etmək və reallaşdırmaq iqtidarındadır. Ona görə də, bu bir növ, Rusiyanın daxili siyasətinin elementidir. Eyni zamanda Rusiyanın beynəlxalq səhnədə cərəyan edən inkişaflara təsir potensialı və həqiqi rolu çox böyükdür, güclüdür. Və ümidvaram ki, bu silahlanması beynəlxalq səviyyədə hansısa mənfi nəticələrə gətirib çıxarmayacaq. Ümidvaram ki, Rusiya Cənubi Qafqaz regionunda təhlükəsizliyin və sabitliyin bərpa edilməsi və beynəlxalq hüquq və normalara uyğun olaraq əlaqələrin qurulması üçün öz lazımi və vacib olan töhfəsini verə biləcək.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

2009-cu il martın 18-də Azərbaycan Respublikasında Konstitusiyaya əlavələr və dəyişikliklər üzrə referendum keçirilmişdir. Ümumxalq səsverməsi 1995-ci ildə hazırkı Konstitusiyanın qəbulundan ötən müddət ərzində baş vermiş mühüm dəyişikliklər fövqündə dövlətin konstitusion əsaslarının təkmilləşdirilməsi və gücləndirilməsi məqsədi daşımışdır.

Azərbaycan Konstitusiyasına dəyişikliklərin edilməsi və bunun həyata keçirilmə qaydası Azərbaycan vətəndaşlarının daxili məsələsi olması ilə yanaşı, martın 18-də keçirilmiş Konstitusiya referendumu Azərbaycanın demokratik inkişafı üçün çox vacibdir.

Konstitusiya referendumunun Azərbaycanın ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliklərə tam uyğun şəkildə keçirilməsi üçün müvafiq tədbirlər görülmüşdür. Referendum prosesi Azərbaycan vətəndaşlarının lazımınca məlumatlı olaraq qərar vermələrinə imkan yaradaraq, tam şəkildə azad və açıq olmuşdur. Hökumət azad və ədalətli səsvermə və səslərin sayılması, eləcə də səsvermə zamanı və sonra azad, şəffaf və çevik şikayət edilmə prosesi üçün şəraiti təmin etmişdir.

47 mindən artıq yerli, eləcə də Avropa Şurası Parlament Asambleyasını, Müstəqil Dövlətlər Birliyini və bir sıra xarici ölkələri təmsil edən 177 beynəlxalq müşahidəçi referendumu müşahidə etmişdir. 20 xarici kütləvi informasiya vasitəsi referendumu işıqlandırmışdır. Beynəlxalq müşahidəçilər səsvermə prosesinin şəffaf və yaxşı təşkil olunduğunu qeyd etməklə, referendumu müsbət dəyərləndirmişlər.

Mərkəzi Seçki Komissiyasının bəyan etdiyi nəticələrə əsasən, 29 bənddə təqdim olunan bütün düzəlişlər qəbul edilmişdir ki, bu da geniş və güclü ictimai dəstəyin təcəssümüdür. Xüsusilə, prezidentlik müddəti üzərində məhdudiyyəti ləğv edən düzəliş səslərin 91,76 faizi ilə dəstəklənmişdir.

Referendum və onun nəticələri Azərbaycan xalqının iradəsini əks etdirmiş, Azərbaycanın fundamental azadlıqlara və demokratik dəyərlərə sadiqliyini bir daha nümayiş etdirərək, ölkədəki sabitlik və onun inkişafının digər vacib göstəricisi kimi çıxış edir.

19 mart 2009-cu il

AZƏRBAYCAN İLƏ ÖZBƏKİSTAN ARASINDA HƏRBİ-TEXNİKİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR

Azərbaycanda rəsmi səfərə olan Özbəkistanın müdafiə naziri Kabul Berdiyev martın 26-da Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoymuş, ulu öndərin əziz xatirəsini ehtiramla yad etmişdir. Qonaqlar görkəmli oftalmoloq Zərifə xanım Əliyevanın da məzarı üstünə gül dəstəsi qoymuşlar.

Özbəkistan nümayəndə heyəti Şəhidlər Xiyabanını da ziyarət etmiş, Azərbaycanın suverenliyi və azadlığı uğrunda canlarından keçmiş qəhrəman Vətən oğullarının məzarları üstünə tər qərənfillər düzmüşdür.

Müdafiə Nazirliyində nümunəvi hərbi orkestrin müşayəti ilə təntənəli qarşılanma mərasimi keçirilmişdir.

Hər iki ölkənin dövlət himni səsləndikdən sonra nümayəndə heyətlərinin geniştərkibli, daha sonra nazirlərin təkbətək görüşü olmuşdur. Görüşdə, ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri, regional təhlükəsizlik məsələləri müzakirə edilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və bölgədəki vəziyyət barədə də fikir mübadiləsi aparılmışdır.

Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev Azərbaycan torpaqlarının işğalı nəticəsində bir milyon soydaşımızın öz yurd-yuvalarından didərgin düşdüyünü, işğal olunmuş bütün ərazilərdə infrastrukturun tamamilə dağıldığını özbəkistanlı həmkarı Kabul Berdiyevin diqqətinə çatdırmışdır. General-polkovnik bildirmişdir ki, rəsmi Bakı problemin danışıqlar yolu ilə həllinə tərəfdardır, amma sülh danışıqları nəticə verməsə Azərbaycan öz torpaqlarını işğaldan azad etmək üçün bütün vasitələrdən istifadə edəcəkdir.

Özbəkistanın müdafiə naziri Kabul Berdiyev demişdir ki, onun ölkəsi əvvəllər olduğu kimi, bu gün də Dağlıq Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyini müdafiə edir.

Sonda Azərbaycan Respublikası və Özbəkistan Respublikası Hökumətləri arasında hərbi-texniki əməkdaşlıq haqqında saziş imzalanmışdır.

ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏ AZƏRBAYCANA GƏLMİŞDİR

ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Mətyu Brayzə martın 26-da Azərbaycana səfərə gəlmişdir.

Birgünlük səfər çərçivəsində Mətyu Brayzə xarici işlər nazirinin müavini Araz Əzimovla görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Cənubi Qafqaz regionu ilə bağlı müzakirələr aparılmışdır.

MİLLİ MƏCLİS ÜZVLƏRİ ALMANİYADA SƏFƏRDƏ OLMUŞLAR

Almaniya Federativ Respublikası Bundestaqının dəvəti ilə Milli Məclisin Almaniya-Azərbaycan dostluq qrupunun üzvləri bu il noyabrın 23-dən 27-dək Almaniyada səfərdə olmuşlar. Nümayəndə heyətinə Milli Məclisin üzvləri Fəttah Heydərov, Rövşən Rzayev, Adil Əliyev, Çingiz Əsədullayev, Fuad Muradov, Fazil Mustafayev və Əhməd Vəliyev daxil idilər. Nümayəndə heyətinə F.Heydərov başçılıq etmişdir.

Nümayəndə heyətinin üzvləri səfərin ilk günü səfər proqramına uyğun olaraq Potsdam şəhərinə səfər edərək Brandenburq əyalət parlamentinin sədri Qünter Fritşlə görüşmüşlər. Görüş zamanı ölkələrarası münasibətlərin hazırkı vəziyyəti və onun daha da inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparılmış, Azərbaycanda həyata keçirilən islahatlar, onun siyasi və iqtisadi inkişafı haqqında ətraflı məlumatlar alman tərəfinə çatdırılmışdır. Tərəflər ikitərəfli münasibətlərin yaxşılaşdırılması üçün bu cür görüşlərin və faydalı fikir mübadilələrinin vacibliyini vurğulamışlar.

Milli Məclisin üzvləri Brandenburq əyalət parlamentinin bir neçə komissiyaları ilə də ayrıca görüşlər keçirmişlər.

Nümayəndə heyətinin üzvləri daha sonra Potsdam şəhərində bir sıra elmi tədqiqat mərkəzləri ilə tanış olmuşlar.

Daha sonra Brandenburq əyalət parlamenti tərəfindən Azərbaycan nümayəndə heyətinin şərəfinə ziyafət verilmişdir.

Martın 24-də Almaniya-Azərbaycan Forumunun sədri, Almaniyanın keçmiş dövlət katibi O.Hauzer Milli Məclisin üzvləri ilə görüşərək iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparmışdır.

Elə həmin gün axşam Azərbaycanın Almaniyadakı Səfirliyi binasında Almaniya Bundestaqının və MM üzvlərinin, Berlin senatının nümayəndələrinin, Almaniyanın tanınmış elm, siyasət və mədəniyyət xadimlərinin, habelə Almaniyadakı Azərbaycan diaspor cəmiyyətlərinin sədrlərinin iştirakı ilə rəsmi qəbul təşkil edilmişdir. Səfir Pərviz Şahbazov tədbiri açaraq iştirakçıları salamlamış, Almaniya-Azərbaycan münasibətlərinin dinamik inkişafını vurğulayaraq, bu səfərin əlaqələrin daha da inkişafına töhfə verəcəyini bildirmişdir. Azərbaycan nümayəndə heyəti adından Milli Məclisin üzvü F.Heydərov çıxış edərək Azərbaycanın Almaniya ilə münasibətlərin inkişafına xüsusi önəm verdiyini qeyd etmiş və əlaqələrin möhkəmlənməsinin vacibliyini vurğulamışdır. Bun-

destaq üzvü, Almaniya-Cənubi Qafqaz Dostluq Qrupunun sədri Şteffen Rayxe çıxış edərək parlamentlərarası əlaqələrin belə inkişafının sevindirici hal olduğunu bildirmiş və bu münasibətlərin gələcək inkişafına da böyük nikbinliklə baxdığını ifadə etmişdir. Daha sonra iştirakçılar ziyafət süfrəsinə dəvət olunmuşlar. Tədbir münasibətlərin inkişafı baxımından faydalı olmuşdur.

Nümayəndə heyəti martın 25-də "EİTİ" cəmiyyəti (Xammal istehsal olunan ölkələrdə şəffaflıq təşəbbüsü) və "Transparency İnternational" təşkilatının banisi Peter Ayqner və bu təşkilatların əməkdaşları ilə, Almaniya Bundestaqının vitse-prezidenti Susanna Kastnerlə, Bundestaqın Almaniya-Cənubi Qafqaz Dostluq Qrupunun sədri Şteffen Rayxe ilə, federal hökumətin İnsan hüquqları və Humanitar Yardım məsələləri üzrə müvəkkili cənab Qünter Nooke ilə görüşərək müzakirələr aparmışlar. Deputatlarımız həmçinin Almaniyanın nüfuzlu təşkilatları Konrad Adenauer Fondu, Fridrix Ebert Fondu, Haynrix Böll Fondu, Roza Luksemburq Fondu ilə görüşlər keçirmişlər.

Martın 26-da isə deputatlarımız AFR XİN Şərqi Avropa, Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri ilə xüsusi tapşırıqlar üzrə səfir Hans Diter Lukasla görüşmüşlər.

Görüşlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, siyasi, iqtisadi və humanitar sahələrdə Almaniya - Azərbaycan münasibətləri ətrafında müzakirələr aparılmışdır. Almaniyalı diplomat Almaniyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verdiyini bildirmişdir. Milli Məclisin üzvləri daha sonra Bundestaqın xarici siyasət komissiyasının sədr Ruprext Polents və komissiya üzvləri ilə, Yaşıllar partiyasının deputatı, Bundestaq üzvü, Almaniya-Cənubi Qafqaz dostluq qrupunun sədr müavini RaynderŞtenblokla görüşlər keçirərək müxtəlif məsələlərə dair fikir mübadiləsi aparmışlar.

Almaniyadakı Azərbaycanlılarla iş üzrə Koordinasiya Mərkəzində Milli Məclisin üzvlərinin Azərbaycan diasporunun nümayəndələri ilə də görüş olmuşdur. Mərkəzin icraçı direktoru Samirə Patser-İsmayılova iştirakçıları salamlayaraq Azərbaycan diasporu və onun fəaliyyəti haqqında danışmışdır. Milli Məclisn üzvləri diaspor üzvləri ilə söhbət apararaq onların vəzifələri və problemləri ətrafında fikir mübadiləsi aparmışlar. Daha sonra deputatlar Almaniyada fəaliyyət göstərən "Azərbaycan evi" cəmiyyətinin təşkil etdiyi ziyafətdə iştirak etmişlər.

Səfərin sonuncu günü deputatlarımız Almaniyanın Sənaye və Ticarət Palatasının idarə rəisi Tobias Baumanla görüşmüşlər. Görüşdə Azərbaycan-Almaniya iqtisadi əlaqələri, alman sərmayələrinin Azərbaycan iqtisadiyyatına daha geniş miqyasda cəlb olunması imkanları və iqtisadi əməkdaşlıq üçün mövcud potensialdan daha geniş istifadə yolları müzakirə olunmuşdur.

Milli Məclis üzvlərinin Almaniyaya səfəri martın 27-də başa çatmışdır.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ TƏLƏBƏLƏRİ VƏ XARİCİ İŞLƏR NAZİRLİYİNİN GƏNC DİPLOMATLARI QUBADAKI KÜTLƏVİ MƏZARLIĞI ZİYARƏT ETMİŞLƏR

Martın 28-də Azərbaycan Diplomatik Akademiyasının tələbələri və Xarici İşlər Nazirliyinin gənc diplomatları erməni quldurlarının Qubada törətdikləri vəhşiliklərin bariz təs-

diqi olan kütləvi məzarlığı ziyarət etmişlər.

Gənclərə 1918-ci ildə ermənilərin Qubada törətdikləri vəhşilikləri, terroru və soyqırımı faktını sübut edən kütləvi məzarlıqla bağlı ətraflı məlumat verilmişdir.

Tələbələr və gənc diplomatlar ermənilərin 1918-ci ildən bəri Azərbaycanda, o cümlədən Qubada törətdikləri soyqırımı aktları barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün səylərini daha da artıracaqlarını bildirmişlər.

XARİCİ İŞLƏR NAZİRİ RUSİYA FEDERASİYASININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Martın 29-da xarici işlər naziri Elmar Məmmədyarov Rusiya Federasiyasının Azərbaycana yeni təyin olunmuş səfirini Vladimir Doroxini qəbul etmişdir.

Etimadnaməsinin surətini təqdim edən səfir Rusiya ilə Azərbaycan arasındakı münasibətlərin yüksək səviyyədə olmasını vurğulayaraq, fəaliyyəti dövründə əlaqələrin daha da dərinləşməsi və möhkəmləndirilməsinə çalışacağını demişdir. Azərbaycanda ilk dəfə olduğunu bildirən səfir, ölkənin onda gözəl təəssürat yaratdığını da söyləmişdir.

Səfiri yeni təyinatı ilə təbrik edən nazir Məmmədyarov Azərbaycan ilə Rusiya arasındakı əməkdaşlığı yüksək qiymətləndirmiş, münasibətlərin daha da dərinləşdirilməsi üçün mövcud imkanlardan faydalı istifadə edilməsinin məqsədəmüvafiqliyini bildirmişdir.

Nazir E.Məmmədyarov Rusiya Federasiyasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında vacib rol oynadığını vurğulayaraq Azərbaycan və Rusiya prezidentlərinin imzaladığı bütün birgə bəyannamələrdə və digər sənədlərdə qeyd olunan münaqişənin suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığının təmin olunması kimi beynəlxalq hüquq normaları və prinsipləri, habelə müvafiq BMT TŞ qətnamələri və ATƏT qərarları əsasında tezliklə həllinin vacibliyi fikrinə istinad etmişdir.

Sonra tərəflər iki ölkə arasında əməkdaşlığın inkişaf perspektivləri, habelə Xəzər dənizi və Qafqaz regionu ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

XARİCİ İŞLƏR NAZİRİ MƏRAKEŞ KRALLIĞININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Martın 29-da xarici işlər naziri Elmar Məmmədyarov Mərakeş Krallığının ölkəmizə yeni təyin edilmiş səfirini Həsən Hamini qəbul etmişdir.

Etimadnaməsinin surətini təqdim edən səfir Azərbaycana təyin olunmasından məmnun olduğunu və fəaliyyəti dövründə ölkələr arasındakı münasibətlərin daha da genişlənməsinə xidmət edəcəyini söyləmişdir.

Cənab Hami Azərbaycana səfir təyin edilməsi münasibətilə təbrik edən nazir Məmmədyarov Azərbaycan ilə Mərakeş arasındakı əlaqələrin yüksək səviyyədə olmasından məmnunluğunu bildirmiş və növbəti illərdə əlaqələrin daha da genişləndirilməsi üçün mövcud imkanlardan daha faydalı şəkildə istifadə ediləcəyinə ümidvar olduğunu vurğulamışdır.

Sonra tərəflər ikitərəfli münasibətlər və bir sıra maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCAN AUDİTORLAR PALATASI İLƏ RUSİYA AUDİTORLAR KOLLEGİYASI ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR

Martın 30-da Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Rusiya Auditorlar Kollegiyası arasında əməkdaşlıq haqqında sazişin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzov Rusiya Auditorlar Kollegiyası arasında ilk əməkdaşlıq sazişinin ulu öndər Heydər Əliyevin xeyir-duası ilə 1999-cu ilin martında Moskvada imzalandığını, indiki sənədin isə qarşılıqlı münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət edəcəyini bildirmişdir.

Prezident İlham Əliyevin bazar infrastrukturunun çox mühüm sahəsi kimi auditə verdiyi böyük önəmi və dövlətimizin başçısının bu sahəyə göstərdiyi gündəlik qayğını diqqətə çatdıran V.Novruzov, hazırda Azərbaycanda auditin mükəmməl qanunvericilik bazası əsasında inkişafını vurğulamışdır. Qeyd edilmişdir ki, hakimiyyətin bütün pillələrində şəffaflığın təmin edilməsi və korrupsiyaya qarşı mübarizəyə dair səmərəli qanunun və dövlət proqramlarının qəbul edilməsi bu sahədə konkret nailiyyətlərin əldə olunmasına imkan vermişdir.

Məlumat verilmişdir ki, sazişdə mühasibat uçotu, audit sahəsində inteqrasiya proseslərinin daha da inkişaf etməsinə hərtərəfli yardım göstərmək, milli müstəqil audit təsisatlarının daha da təşəkkül tapmasına və inkişaf etməsinə yönəlmiş ümumi peşə maraqlarını müəyyənləşdirmək, tərəflərin mütəxəssisləri arasında işgüzar ünsiyyət üçün əlverişli şərait yaratmaq, bir-birinin təcrübəsinin öyrənilməsi, xarici və beynəlxalq peşə birlikləri ilə qarşılıqlı fəaliyyət göstərmək və digər məsələlər əksini tapmışdır.

Rusiya Auditorlar Kollegiyası Mərkəzi Şurasının sədri Aleksandr Ruf qurumun fəaliyyətinin əsas istiqamətləri barədə, imzalanan sazişin əhəmiyyəti haqqında danışmışdır. Bildirmişdir ki, ötən ilin noyabrında Roma şəhərində keçirilmiş iclasda həm Azərbaycan, həm də Rusiya auditorlar birliyi eyni vaxtda Beynəlxalq Mühasiblər Federasiyasının tamhüquqlu üzvü qəbul edilmişdir. Bu isə beynəlxalq mühasibat uçotu və audit standartlarının tətbiqi, maliyyə şəffaflığının artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığımızda mühüm rol oynayacaqdır.

Əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Auditorlar Palatasının sədri Vahid Novruzov, Rusiya tərəfdən isə Auditorlar Kollegiyası Mərkəzi Şurasının sədri Aleksandr Ruf imzalamışlar.

Mərasimdən əvvəl Rusiya nümayəndə heyəti Fəxri xiyabana gələrək, ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyaraq xatirəsini ehtiramla yad etmişlər.

Qonaqlar görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də gül düzmüşlər.

BAKIDA AZƏRBAYCAN-ALMANİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Martın 31-də Bakıda Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Almaniyanın "COMMIT" şirkətinin təşkilatçılığı ilə Azərbaycan-Almaniya biznes forumu keçirilmişdir.

Almaniya Federal İqtisadiyyat Nazirliyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində keçirilən biznes forumda Almaniya tərəfdən enerji, maşınqayırma, ticarət, nəqliyyat, kimya, qida sənayesi, və s. sahələrdə fəaliyyət göstərən 20-yə yaxın firma və şirkətin nümayəndələri iştirak etmişlər. Azərbaycan tərəfi isə tədbirdə İqtisadi İnkişaf Nazirliyinin nümayəndələri və uyğun sahələrdə fəaliyyət göstərən şirkətlər və iş adamları ilə təmsil olunmuşdur.

İqtisadi İnkişaf Nazirliyi aparatının rəhbəri Samir Vəliyev tədbiri açaraq bildirmişdir ki, son vaxtlar Azərbaycanda aparılan iqtisadi islahatlar ölkədə biznes mühitinin daha da yaxşılaşmasına, sahibkarlığın inkişafı və iqtisadiyyatda rolunun əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olmuşdur. Bunun nəticəsidir ki, 2008-ci ildə ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi 85 faizə çatmış, Azərbaycan iqtisadiyyatına 11,2 milyard ABŞ dolları məbləğində investisiya qoyulmuşdur. Xarici investisiyaların adambaşına düşən məbləğinə görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında birincidir. S.Vəliyev Azərbaycan-Almaniya biznes forumunun nəticələrinin bu istiqamətdə mühüm rol oynayacağına əminliyini bildirmişdir.

Almaniyanın Bakıdakı səfiri Per Kristofer Stançina zəngin təbii sərvətlərə, xüsusilə neft-qaz ehtiyatlarına malik Azərbaycanda əlverişli biznes mühitinin yaradıldığını, ölkədə bərqərar olan siyasi və iqtisadi sabitliyin investisiya imkanlarını əhəmiyyətli dərəcədə artırdığını xüsusi vurğulamış, ötən ilin oktyabrında keçirilmiş prezident seçkilərinin və bu il martın 18-də keçirilən referendumun nəticələrinin xalqın öz Prezidenti İlham Əliyevə inandığını və etimad göstərdiyini bir daha sübut etdiyini demişdir. Prezident İlham Əliyevin ölkənin qaz ehtiyatının yüz ilədək kifayət etməsi barədə bəyanatını xatırladan diplomat, təmsil etdiyi dövlətin Xəzərin zəngin karbohidrogen resurslarının mənimsənilməsində, Azərbaycanın qeyri-neft sektoruna investisiya qoymaqda maraqlı olduğunu bir daha diqqətə çatdırmışdır.

Almaniya Federal İqtisadiyyat və Texnologiya Nazirliyinin Rusiya, Ukrayna, Belarus, Moldova, Mərkəzi Asiya və Qafqaz ölkələri üzrə referenti xanım Margit Steffel biznes forumun Almaniya ilə Azərbaycan arasında getdikcə daha intensiv xarakter alan iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə imkan yaradacağına inandığını bildirmişdir.

Sonra almaniyalı iş adamları təmsil etdikləri şirkət və firmaların istehsal təyinatları haqqında məlumat vermişlər.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) investisiyaların təşviqi üzrə direktoru Anar Quliyev və Azərbaycan İnvestisiya Şirkətinin icraçı direktoru Əfqan İsayev ölkəmizdə investisiya mühiti, ticarət və biznes imkanları üzrə təqdimatlarla çıxış etmişlər.

Forum çərçivəsində iş adamlarının ikitərəfli görüşləri təşkil edilmişdir. Bu görüşlərdə almaniyalı və azərbaycanlı sahibkarlar arasında əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunmuşdur.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ XƏLƏF XƏLƏFOV ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QERNOT ERLERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Aprelin 1-də xarici işlər nazirinin müavini Xələf Xələfov Almaniyanın xarici işlər nazirinin müavini Qernot Erlerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Nazir müavini X.Xələfov ikitərəfli münasibətlərin inkişaf səviyyəsindən məmnunluqla söz açaraq, iki ölkə arasında mövcud siyasi dialoqun davam etdirilməsini yüksək qiymətləndirmişdir. O, humanitar, mədəniyyət və iqtisadiyyat sahələrində qarşılıqlı əlaqələrin dərinləşdirilməsi baxımından böyük potensialın olduğunu qeyd etmişdir.

Nazir müavini Q.Erler səfəri çərçivəsində keçirdiyi görüşlər haqqında həmsöhbətinə məlumat vermiş, ölkələrimiz arasında inkişaf edən münasibətlərin səviyyəsindən razılıq ifadə etmişdir.

Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinə toxunmuşlar. Nazir müavini X.Xələfov Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq və soyqırım siyasəti haqqında qonaqlara ətraflı məlumat vermişdir.

Nazir müavini münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü əsasında, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həll olunmasının vacibliyini diqqətə çatdırmışdır. O, Ermənistanın tutduğu mövqeyin problemin həll olunmasına imkan vermədiyini vurğulayaraq, beynəlxalq birliyin bu məsələdə ardıcıl və prinsipial mövqe nümayiş etdirməsinin zəruriliyini qeyd etmişdir.

Öz ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirən nazir müavini Q.Erler, münaqişənin tezliklə həll edilməsi və regionda sülhün bərqərar olmasında Almaniyanın maraqlı olduğunu vurğulamışdır.

Görüş zamanı qarşılıqlı maraq kəsb edən beynəlxalq və regional məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ XƏLƏF XƏLƏFOV ÇİN XALQ RESPUBLİKASININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Aprelin 1-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov bu Çin Xalq Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş Səfiri cənab Çjan Yannyanın etimadnaməsinin surətini qəbul etmişdir.

Görüş zamanı ikitərəfli siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin inkişaf səviyyəsindən razılıq ifadə olunmuşdur. Tərəflər, ölkələrin suverenliyi və ərazi bütövlüyündə hörmətə əsaslanan Azərbaycan-Çin əlaqələrinin bundan sonra da inkişaf etdirilməsi əzmində olduqlarını bildirmişlər.

BAKIDA AVROPA İTTİFAQI İLƏ AZƏRBAYCAN ARASINDA İMZALANMIŞ TƏRƏFDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ SAZİŞİ ÇƏRÇİVƏSİNDƏ ALT KOMİTƏNİN IV İCLASI KEÇİRİLMİŞDİR

Aprelin 1-də Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyində Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi çərçivəsində Enerji, Nəqliyyat və Ətraf mühit məsələləri üzrə Alt Komitənin IV iclası keçirilmişdir.

İclasda Avropa Komissiyasının Nümayəndəliyinin rəhbəri Alan Uaddams, təşkilatın təmsilçiləri Endrü Bernard, Aili Rubilis, Jan-Lui Lavrov, Kristofer Ross, Azərbaycan tərəfdən İqtisadi İnkişaf, Nəqliyyat, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Dövlət Neft Şirkəti, "Azərenerji" ASC, "Azəriqaz" QSC, "Azərbaycan Hava Yolları" QSC, "Azərsu" ASC və digər dövlət qurumlarının nümayəndələri iştirak etmişlər.

İclası açan sənaye və energetika naziri Natiq Əliyev bildirmişdir ki, demokratik inkişaf və Avropaya inteqrasiya xətti tutan Azərbaycanla Avropa İttifaqı arasında sıx əməkdaşlıq münasibətləri formalaşmışdır. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş bu strategiya Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısı bu əməkdaşlığı yüksək qiymətləndirir və Aİ ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi çərçivəsində Enerji, Nəqliyyat və Ətraf mühit məsələləri üzrə Alt Komitənin fəaliyyətinə böyük əhəmiyyət verir. Nazir qeyd etmişdir ki, hazırkı maliyyə böhranı şəraitində enerji təminatı və ətraf mühitin qorunması kimi məsələlər aktual əhəmiyyət kəsb edir. Bu problemlər bütün ölkələrin səyləri birləşdirilmədən aradan qaldırıla bilməz.

Avropanın enerji təhlükəsizliyində Azərbaycanın karbohidrogen ehtiyatlarının önəmli rol oynadığını deyən N.Əliyev bildirmişdir ki, respublikamız bu baxımdan Aİ üçün maraqlı ölkədir. Aİ ilə Azərbaycan arasında imzalanmış sazişdə karbohidrogen ehtiyatlarının öyrənilməsi, istismarı və birgə istifadəsi məsələlərinə xüsusi diqqət yetirildiyini xatırladan nazir, bu istiqamətlərdə çoxsaylı birgə layihələrin həyata keçirildiyini vurğulamışdır.

Karbohidrogen ehtiyatlarından səmərəli istifadə nəticəsində ölkəmizin qaz və elektrik enerjisi idxal edən ölkədən ixracatçı ölkəyə çevrildiyini bildirən N.Əliyev, Azərbaycanın Avropaya inteqrasiya xəttinə sadiq olduğunu qeyd etmişdir.

Azərbaycanın enerji ehtiyatlarının Avropaya şaxələndirilmiş nəqli istiqamətində layihələrin təhlil olunduğu, Odessa-Brodı-Qdansk, Gürcüstan-Türkiyə-Yunanıstan-İtaliya, Nabukko, Transadriatik kimi kəmərlərin imkanlarının ölkəmiz tərəfindən araşdırıldığı diqqətə çatdırılmışdır. Bildirilmişdir ki, hazırda Bolqarıstan, İtaliya, Macarıstan və digər ölkələrlə bu layihələrin reallaşması istiqamətində danışıqlar aparılır.

Azərbaycanın hasilat, menecment, marketinq və digər məsələlərlə bağlı Avropa ölkələrinin təcrübəsinə ehtiyacı olduğu qeyd olunmuşdur. Bundan başqa, alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması, hasilatın artırılması, itkilərin azaldılması, ekologiya və innovasiyalar sahəsində əməkdaşlığın dərinləşdirilməsinə ehtiyac duyulduğu vurğulanmışdır.

İclasda çıxış edən Avropa Komissiyası Nümayəndəliyinin rəhbəri Alan Uaddams təmsil etdiyi təşkilatın Azərbaycanla təcrübə mübadiləsinə mühüm yer ayırdığını bildirmişdir. Qeyd edilmişdir ki, Aİ tərəfindən əməkdaşlığı daha da sıxlaşdırmaq üçün bir sıra yeni Alt komissiyaların yaradılması təklifi Azərbaycanın qurumun vacib tərəfdaşlarından biri olduğunu təsdiq edir. Aİ-nin Şərq Tərəfdaşlığı layihəsi haqqında məlumat verən Aİ nümayəndəsi buraya əsasən 4 platformanın daxil edildiyini bildirmişdir. Bu platformalar layihəyə daxil olan ölkələrdə demokratiya, yaxşı idarəçilik və sabitlik, qanunvericilik bazasının Avropa qanunvericiliyinə uyğunlaşdırılması, enerji sahəsində əməkdaşlıq və insanlar arasında ünsiyyətin gücləndirilməsini nəzərdə tutur.

Nəzərə çatdırılmışdır ki, mayda Avropada Şərq Tərəfdaşlığı ilə bağlı sammitin keçirilməsi planlaşdırılır.

Sonra iclasın gündəliyinə uyğun olaraq "Şərq Tərəfdaşlığında enerji, nəqliyyat və ətraf mühit məsələləri", "II strateji enerji icmalı daxil olmaqla, Aİ-nin enerji sektorundakı son vəziyyət", "Enerji üzrə Anlaşma Memorandumunun icrası", "Enerji təhlükəsizliyi və infrastrukturun inkişafı (neft, qaz, elektrik)" və digər məsələlər ətrafında müzakirələr aparılmışdır.

İclasda neft, qaz və enerji təhlükəsizliyi, o cümlədən infrastrukturun inkişafı ilə bağlı fikirlər dinlənilmiş, həyata keçirilən tvinninq layihələri və milli qanunvericiliyin Avropa qanunvericiliyinə uyğunlaşdırılması işlərinin gedişi müzakirə edilmişdir.

AZƏRBAYCAN İLƏ OPEC-İN BEYNƏLXALQ İNKİŞAF FONDU ARASINDA ƏMƏKDAŞLIQ UĞURLA DAVAM EDİR

Aprelin 1-də Maliyyə Nazirliyində OPEC-in Beynəlxalq İnkişaf Fondunun baş direktoru Süleyman əl-Hərbişin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Görüşdən əvvəl qonaqlar Fəxri xiyabanda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də tər çiçəklər düzülmüşdür.

Nümayəndə heyəti Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anmış, "Əbədi məşəl" abidəsi önünə əklil qoymuşlar.

Maliyyə naziri Samir Şərifovun OPEC-in Beynəlxalq İnkişaf Fondunun baş direktoru Süleyman əl-Hərbiş ilə görüşündə Azərbaycan ilə OPEC-in Fondu arasında əlaqələrinin uğurla inkişaf etdiyi xüsusi vurğulanmışdır.

Nazir Samir Şərifov Azərbaycan ilə dünyanın ən mötəbər beynəlxalq iqtisadi və maliyyə qurumları arasında əməkdaşlığın genişlənməsini daim diqqətdə saxlayan Prezident İlham Əliyevin siyasətinə müvafiq olaraq ölkəmizlə OPEC-in Beynəlxalq İnkişaf Fondu arasında əlaqələrin dərinləşməsi istiqamətində ardıcıl praktiki addımlarının atıldığını bildirmişdir.

Fondun baş direktoru Süleyman əl-Hərbişin Azərbaycana ilk səfərinin əhəmiyyətinə

toxunan nazir, bu səfər çərçivəsində müəyyənləşdiriləcək tədbirlərin əməkdaşlığın əsaslı şəkildə genişlənməsinə təkan verəcəyinə əminliyini söyləmişdir.

Süleyman əl-Hərbiş rəhbərlik etdiyi Fond ilə Azərbaycan arasında əlaqələrin inkişafından razılığını bildirmiş, səfər çərçivəsində əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanların hərtərəfli araşdırılacağını demişdir.

Qonaq Fondun ölkəmiz ilə əlaqələrin genişləndirilməsinə mühüm əhəmiyyət verməsini Azərbaycan iqtisadiyyatının uğurla inkişaf etməsi, burada əlverişli biznes mühitinin formalaşdırılması və islahatların layiqincə həyata keçirilməsi ilə əsaslandırmışdır.

Görüşdən sonra "Azəriqazbank" Səhmdar İnvestisiya Bankı və OPEC-in Beynəlxalq İnkişaf Fondu arasında kredit sazişi imzalanmışdır. Sənədi "Azəriqazbank" Səhmdar İnvestisiya Bankı müşahidə şurasının sədri Çingiz Əsədullayev və OPEC-in Beynəlxalq İnkişaf Fondunun baş direktoru Süleyman əl-Hərbiş imzalamışlar.

* * *

Sonra maliyyə naziri Samir Şərifov və Süleyman əl-Hərbiş görüşün yekunlarına dair mətbuat konfransı keçirmişlər.

Samir Şərifov imzalanan sənədi uğurlu əməkdaşlığın daha bir bariz nümunəsi kimi qiymətləndirmişdir. Nazir belə bir sazişin dünyanı bürümüş maliyyə və iqtisadi böhran dövründə imzalanmasını Azərbaycanın mükəmməl iqtisadi siyasətinin, beynəlxalq səviyyədə etibarlı tərəfdaş imici qazanmasının məntiqi nəticəsi kimi dəyərləndirmişdir.

Nazir S.Şərifovun fikirləri ilə şərik olduğunu vurğulayan Süleyman əl-Hərbiş, OPEC-in Beynəlxalq İnkişaf Fondu barədə geniş məlumat vermiş, 1976-cı ildən fəaliyyətə başlayan bu mötəbər qurumun həyata keçirdiyi tədbirləri ətraflı xarakterizə etmişdir.

Bildirilmişdir ki, Azərbaycanda OPEC-in Beynəlxalq İnkişaf Fondunun dəstəyi ilə iki layihə həyata keçirilir. Fond Vəlvələçay-Taxtakörpü kanalının tikintisi və Ucar-Yevlax avtomobil yolunun bərpa olunması layihələrinə 14 milyon ABŞ dolları güzəştli kredit ayırmışdır. Bu kreditlər 20 il müddətinə 5 il güzəştli olmaqla illik 2,75 faizlə verilir.

OPEC Fondunun Azərbaycanın qeyri-neft sektoru ilə də əlaqələrini genişləndirməkdə qərarlı olduğu vurğulanmış, "Azəriqazbank" Səhmdar İnvestisiya Bankı ilə imzalanan kredit sazişinin bunun konkret nümunəsi olduğu diqqətə çatdırılmışdır.

XARİCİ İŞLƏR NAZİRİNİN GÜRCÜSTANA SƏFƏRİ

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 1-2-də Gürcüstanda ikigünlük səfərdə olmuşdur.

1 aprel tarixində xarici işlər naziri Elmar Məmmədyarov Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadze ilə görüşmüşdür.

İlk növbədə Gürcüstanın xarici işlər naziri Q.Vaşadze Azərbaycanda 18 mart tarixində keçirilmiş referendumun nəticələri ilə bağlı öz həmkarını təbrik edərək, Azərbaycanın bundan sonra da yüksək inkişaf tempi ilə çiçəklənməsini arzu etdiyini söyləmişdir.

Görüş zamanı iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olduğu vurğulanaraq,

Azərbaycan ilə Gürcüstanın enerji və nəqliyyat layihələrində birgə iştirakı, o cümlədən Bakı-Tiflis-Qars dəmir yolu layihəsinin həyata keçirilməsi, ölkələrin tranzit funksiyasının genişləndirilməsi, beynəlxalq təşkilatlarda, xüsusilə də GUAM təşkilatı çərçivəsində aparılan işlərin davam etdirilməsi, Aİ "Şərq Tərəfdaşlığ" proqramı, regional və dünyada gedən proseslərə dair müzakirələr aparılmış, gələcəkdə nəzərdə tutulan birgə planların istiqamətləri müəyyənləşdirilmişdir.

Görüş zamanı nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, Azərbaycanın danışıqlarda tutduğu mövqe barədə məlumat vermiş, ölkənin ərazi bütövlüyü istiqamətində atılan addımlara göstərilən daimi dəstəyə görə gürcü tərəfinə minnətdarlığını ifadə etmişdir. Q.Vaşadze öz növbəsində bu məsələyə münasibət bildirərək, Gürcüstanın Azərbaycanın ərazi bütövlüyünü birmənalı tanıdığını və ölkəsinin bundan sonra da Azərbaycanın mövqeyini bütün müstəvilərdə dəstəkləyəcəyini bəyan etmişdir.

Q.Vaşadze Azərbaycan rəhbərliyinə Gürcüstana bütün sahələrdə və ən çətin məqamlarda daim dəstək olduğuna görə öz minnətdarlığını bildirmişdir. Gürcü nazir Cənubi Osetiya və Abxaziya münaqişə zonasında baş verən son hadisələr barəsində həmkarına məlumat vermişdir. Cavab olaraq, nazir E.Məmmədyarov Azərbaycanın Gürcüstanın ərazi bütövlüyünü birmənalı tanıdığını və dəstəklədiyini vurğulamışdır.

Görüş çərçivəsində nazirlər planlaşdırılan Gürcüstan Prezidenti M.Saakaşvilinin Azərbaycan Respublikasına dövlət səfəri, Gürcüstanın Baş naziri N.Gilaurinin isə rəsmi səfərinin təşkili və bu səfərlər çərçivəsində həyata keçiriləcək iş planları ilə bağlı müzakirələr aparmışlar.

Görüşün sonunda 2009-cu il üçün Xarici İşlər Nazirlikləri arasında məsləhətləşmələr planına dair sənəd imzalanmışdır. Sənəddə nazirliklərin müvafiq strukturları arasında 2009-cu ildə aparılacaq işlərin planları öz əksini tapmışdır. Sonra hər iki nazir KİV nümayəndələri üçün brifinq keçirmiş, verilən sualları cavablandırmışlar.

Həmin gün, nazir Elmar Məmmədyarov Gürcüstanın Baş Naziri N.Gilauri ilə görüşmüşdür.

Görüş zamanı tərəflər regionun təhlükəsizlik durumu, qarşılıqlı sərmayələrin yatırılması, enerji, nəqliyyat və digər ikitərəfli və beynəlxalq səviyyəli məsələləri müzakirə etmişlər. Ölkələr arasında strateji tərəfdaşlıq əlaqələrinin olduğunu deyən xarici işlər naziri E.Məmmədyarov bu əlaqələrin bütün sahələrdə uğurla inkişaf edildiyini də vurğulamışdır. Regionda sülhün və əmin-amanlığın vacib olduğunu qeyd edən nazir, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində görülən işlər barədə ətraflı məlumat vermişdir.

Gürcüstanın Baş naziri N.Gilauri öz növbəsində göstərdiyi hərtərəfli yardıma görə Azərbaycan Respublikasının rəhbərliyinə öz minnətdarlığını ifadə etmişdir.

Tərəflər Bakı-Tiflis-Qars dəmir yolu layihəsinin həyata keçirilməsi məsələsi ilə bağlı fikir mübadiləsi aparmışlar. Baş nazir Gilauri bildirmişdir ki, layihənin ikinci mərhələsinin başlanması ilə əlaqədar tenderlər elan ediləcək və bununla bağlı müvafiq işlər həyata keçirilir.

ARDNŞ-nin Gürcüstanda geniş layihələrin həyata keçirdiyi qeyd olunmuş və artıq bu

layihələr ölkənin əhaliyə qaz paylayıcı sektorunu da əhatə etdiyi bildirilmişdir. Gürcüstan tərəfinin təklifi ilə tərəflər Gürcüstanda iri qaz anbarının tikilişi və gələcəkdə belə bir anbarın Avropaya qazın nəqli üçün istifadə olunması imkanları ətrafında fikir mübadiləsi aparılmışlar. N.Gilauri bildirmişdir ki, hazırda Gürcüstan tərəfi Aİ təşəbbüsü ilə "Ağ axın" qaz tranziti layihəsinin texniki əsaslandırması üzərində iş aparır. Bu layihə Xəzər Dənizi regionundan qazın Azərbaycan və Gürcüstan ərazisi ilə Rumıniyaya və sonradan digər Avropa ölkələrinə nəqlinə istiqamətləndirilib.

Həmin gün xarici işlər nazirinin Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşü olmuşdur.

Görüş zamanı nazir E.Məmmədyarov ilk öncə Prezident İlham Əliyevin Prezident M.Saakaşviliyə səmimi salamlarını çatdırmış, ölkələrimiz arasında bütün sahələrdə və istiqamətlərdə mövcud olan sıx əməkdaşlıq məsələlərinə toxunaraq, bu əməkdaşlığın gündən-günə yüksələn xətt üzrə inkişaf etdiyinin sevindirici bir fakt olduğunu vurğulamışdır. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ətrafında aparılan danışıqlar prosesi barədə də Gürcüstan prezidentinə ətraflı məlumat vermiş, beynəlxalq müstəvidə Azərbaycanın mövqeyini dəstəklədiyinə görə gürcü tərəfinə öz minnətdarlığını ifadə etmişdir.

Öz növbəsində, Gürcüstan Prezidenti Azərbaycan Prezidenti İlham Əliyevə öz səmimi arzularını çatdırmağı xahiş etmişdir. O, ölkələrimiz arasında əməkdaşlığın nümunəvi olduğunu dilə gətirərək, Gürcüstana ən çətin məqamlarda göstərdiyi daimi dəstəyə görə minnətdarlıq etmiş, bunun əsl qardaşlıq nümunəsinin göstəricisi olduğunu demişdir.

Səfərin ikinci günü, 2 aprel tarixində Azərbaycan Respublikasının xarici işlər nazirinin rəhbərlik etdiyi rəsmi heyət Gürcüstanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin memorialını ziyarət etmiş, əklillər qoymuşlar. Sonra rəsmi heyət Tiflis şəhərinin tarixi "Meydan" adlanan rayonunda yerləşən Heydər Əliyev adına parka yola düşmüş və ulu öndərin heykəli önünə tər-çiçək dəstləri və əklillər qoymuşlar.

Günün ikinci yarısında nazir E.Məmmədyarovun rəhbərlik etdiyi rəsmi heyət soydaşlarımızla görüşmək üçün Marneuli rayon mərkəzinə səfər etmişdir. Gürcüstanda yaşayan Azərbaycan icması nümayəndələri ilə görüş zamanı soydaşlarımızı narahat edən məsələlər müzakirə edilmişdir. Nazir Məmmədyarov Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Gürcüstanda yaşayan soydaşlarımıza daim qayğı və diqqət göstərdiyi, onların problemlərinin həllinə yönəlmiş bir sıra layihələrin həyata keçirilməsi barədə tədbir iştirakçılarına məlumat vermişdir.

Gürcüstan azərbaycanlıları ziyalıları öz çıxışlarında Azərbaycan Respublikası Prezidentinin qayğısını daim hiss etdiklərini və bunun üçün dərin minnətdarlığını bildirərək, əhalini işsizlik, torpaq, təhsil və digər narahat edən məqamlar barədə danışmış, problemlərin həlli istiqamətdə səylərin artırılmasını xahiş etmişlər.

Marneuli rayonunda keçirilən görüşdən sonra rəsmi heyət səfərə yekun vuraraq Azərbaycana dönmüşdür.

BAKIDA XƏZƏRYANI ÖLKƏLƏRİN NƏQLİYYAT NAZİRLƏRİNİN BİRİNCİ İCLASI KEÇİRİLMİŞDİR

Aprelin 2-də Bakıda Xəzəryanı ölkələrin nəqliyyat nazirlərinin birinci iclası keçirilmişdir.

İclasda Azərbaycan, Rusiya və Qazaxıstanın nəqliyyat nazirləri, Türkmənistanın dəmir yolu nəqliyyatı naziri, Qazaxıstanın və Türkmənistanın Azərbaycandakı səfirləri iştirak etmişlər.

Birinci iclasın iştirakçılarını Azərbaycan hökuməti adından salamlayan nəqliyyat naziri Ziya Məmmədov bildirmişdir ki, regionda nəqliyyat sahəsində əməkdaşlıq ilk növbədə xalqlarımız arasında dostluq münasibətlərinin inkişafına və genişmiqyaslı iqtisadi əməkdaşlığa yol açır.

Nazir son beş ildə Prezident İlham Əliyevin rəhbərliyi altında iqtisadiyyatın digər sahələrində olduğu kimi, Azərbaycanın yol-nəqliyyat kompleksinin inkişafı istiqamətində də ardıcıl və məqsədyönlü addımların atıldığını vurğulamışdır. Bildirilmişdir ki, dövlət investisiyaları və beynəlxalq maliyyə institutlarının kreditlərinin cəlb edilməsi nəticəsində ölkənin nəqliyyat infrastrukturu sürətlə inkişaf etdirilir, nəqliyyat parkı təzələnir, beynəlxalq nəqliyyat dəhlizlərinin işi müasir tələblər səviyyəsinə qaldırılır.

Z.Məmmədov ölkəmizdə nəqliyyat infrastrukturunun yenilənməsi, avtomobil yollarının və dəmir yolu xətlərinin əsaslı şəkildə yenidən qurulması istiqamətində görülmüş işlər, həyata keçirilən layihələr barədə ətraflı məlumat vermişdir. İnşası davam etdirilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsi, Ələt qəsəbəsində inşa olunacaq beynəlxalq dəniz limanı, gəmi və bərə parkının, tanker donanmasının təzələnməsi istiqamətində həyata keçirilən tədbirlər, cari ilin əvvəlindən sərhəd keçid məntəqələrində avtonəqliyyat vasitələrinin hərəkətini asanlaşdırmaq məqsədi ilə "vahid pəncərə" sisteminin tətbiqi, Bakı şəhərində nəqliyyatın intellektual idarəetmə sisteminin yaradılması barədə görülən işlər qeyd edilmişdir.

Beynəlxalq aləmdə nəqliyyatın sərbəst hərəkəti üçün son illər terror aktlarının qarşısının alınması məqsədi ilə birgə tədbirlərin görülməsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan nazir, qeyd etmişdir ki, bu problem artıq transmilli xarakter daşıyır. Nəqliyyatda terror aktlarının faciəsini yaşamış Azərbaycan sərnişinlərin və yüklərin daşınması zamanı təhlükəsizliyin təmin edilməsinə xüsusi əhəmiyyət verir. Bununla yanaşı, iqtisadi-ticari əlaqələrin qloballaşması da milli nəqliyyat sistemlərinin beynəlxalq inteqrasiyasının sürətləndirilməsini tələb edir. Xəzəryanı regionda nəqliyyat əlaqələrinin inkişaf etdirilməsinin bütün ətraf ölkələrin marağına xidmət etdiyini vurğulayan nazir əmin olduğunu bildirmişdir ki, bugünkü tədbir qarşılıqlı əməkdaşlığın yenilənməsinə böyük təsir göstərəcəkdir.

İclasda Rusiyanın nəqliyyat naziri İqor Levitin, Qazaxıstanın nəqliyyat və kommunikasiya naziri Əbilqazi Kusainov və Türkmənistanın dəmir yolu nəqliyyatı naziri Dəryaqulu Muhammedquliyev çıxış edərək, təmsil etdikləri ölkələrin yol-nəqliyyat kompleksinin inkişafı, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı son illər həyata keçirilmiş tədbirlər haqqında ətraflı məlumat vermiş, sahə nazirlərinin birinci görüşünün nəqliyyat üzrə regional əməkdaşlığın inkişafına ciddi təsir göstərəcəyini vurğulamışlar.

İclasın gündəliyinə uyğun olaraq nəqliyyat infrastrukturu, regional nəqliyyat potensialından səmərəli istifadə etməklə, Xəzər dənizi regionunda multimodal daşımalar və onun inkişaf perspektivləri məsələləri müzakirə edilmişdir.

İclas çərçivəsində Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin səmərəliliyinin və yük dövriyyəsinin artırılması barədə danışıqlar aparılmışdır.

Bundan əlavə, bir sıra ikitərəfli görüşlər keçirilmiş, nəqliyyatın müxtəlif sahələri ilə bağlı qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Nazirlər birinci iclasın yekunlarına dair rəsmi sənəd imzalamışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Bolqarıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vasil Todorov Kalinovun etimadnaməsini qəbul etmişdir.

Səfir Prezident sarayında fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Vasil Todorov Kalinov etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişafını, yüksək səviyyəli qarşılıqlı səfərlərin, məsləhətləşmələrin əlaqələrin dinamik inkişafına xidmət etdiyini vurğuladı. Dövlətimizin başçısı səfirin ölkəmizdəki diplomatik fəaliyyəti müddətində də Azərbaycanla Bolqarıstan arasında əlaqələrin inkişaf edəcəyinə və genişlənəcəyinə əminliyini bildirdi.

Vasil Todorov Kalinov Bolqarıstan Prezidenti Georgi Pırvanovun salamlarını dövlətimizin başçısına yetirdi. O dedi ki, Bolqarıstanın rəhbəri cənab İlham Əliyevə Prezidentliyi dövründə ölkədə bütün sahələrdə, o cümlədən demokratiya sahəsində əldə olunan inkişaf münasibətilə təbriklərini çatdırır və bu işdə dövlətimizin başçısına və xalqımıza yeni-yeni uğurlar arzulayır. Bolqarıstanın regionda sabitliyin tərəfdarı olduğunu bildirən səfir ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğuladı.

Prezident İlham Əliyev Bolqarıstan Prezidenti Georgi Pırvanovun salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını və xoş arzularını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vladimir Doroxinin etimadnaməsini qəbul etmişdir.

Diplomat Prezident sarayında fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Vladimir Doroxin etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin dinamik və səmərəli şəkildə inkişaf etdiyini bildirdi. Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin ilk rəsmi səfərlərindən birini Azərbaycana etməsini yüksək qiymətləndirən dövlətimizin başçısı qarşılıqlı münasibətlərimizin strateji əməkdaşlıq xarakteri daşıdığını, bu əməkdaşlığın möhkəm tarixi əlaqələrə söykəndiyini vurğuladı.

Azərbaycan rəhbəri bunun Rusiya Prezidenti Dmitri Medvedevin Bakıya səfəri zamanı dövlət başçılarının imzaladıqları Dostluq və strateji əməkdaşlıq haqqında bəyannamədə də öz əksini tapdığını bildirdi.

Prezident İlham Əliyev ikitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini söylədi.

Səfir Vladimir Doroxin Rusiya Prezidenti Dmitri Medvedevin salamlarını dövlətimizin başçısına çatdırdı. Xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən diplomat Bakıya gəlməzdən əvvəl Prezident Dmitri Medvedevlə görüşü zamanı Rusiya rəhbərinin də ona ikitərəfli münasibətlərlə bağlı eyni fikirləri söylədiyini vurğuladı. Səfir bildirdi ki, Dmitri Medvedev Rusiya-Azərbaycan əlaqələrini müttəfiq dövlətlər arasındakı əlaqələr kimi dəyərləndirir.

Vladimir Doroxin əminliklə vurğuladı ki, səfir kimi fəaliyyəti dövründə qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsi üçün səylərini əsirgəməyəcəkdir.

Prezident İlham Əliyev Rusiya Prezidenti Dmitri Medvedevin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRAKEŞ KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Mərakeş Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Həsən Haminin etimadnaməsini qəbul etmişdir.

Səfir Prezident sarayında fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Həsən Hami etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Azərbaycanla Mərakeş arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğulayan Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, fəaliyyəti dövründə səfir ölkələrimiz arasında əlaqələrin inkişafına öz töhfəsini verəcəkdir.

Səfir Bakıya gəldiyi vaxtdan ölkəmizdə böyük inkişafın şahidi olduğunu dedi. Həsən Hami ölkəmizdə səmərəli fəaliyyəti üçün göstərilən diqqətə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirdi, qarşılıqlı əlaqələrin genişlənməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİNİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Çjan Yannyanın etimadnaməsini qəbul etmişdir.

Diplomat Prezident sarayında fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Çjan Yannyan etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Azərbaycanla Çin arasında əlaqələrin uğurla inkişaf etdiyini, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı. Çin Xalq Respublikasının böyük inkişaf yolu keçdiyini xatırladan dövlətimizin başçısı ötən il Pekin Olimpiadası zamanı bu inkişafın əyani şahidi olduğunu söylədi. Səfirə fəaliyyətində uğurlar arzulayan dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, onun ölkəmizdəki diplomatik fəaliyyəti müddətində ikitərəfli əlaqələr daha da genişlənəcəkdir.

Səfir Çin Xalq Respublikasının sədri Hu Szintaonın səmimi salamlarını dövlətimizin başçısına çatdırdı. O dedi ki, Çin rəhbəri Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci ildə Çinə dövlət səfərinin qarşılıqlı əlaqələri yeni inkişaf səviyyəsinə qaldırdığını bildirir. Azərbaycan-Çin dostluq və əməkdaşlıq münasibətlərinin daim inkişaf etdiyini və möhkəmləndiyini vurğulayan diplomat dövlətimizin başçısını əmin etdi ki, səfir kimi fəaliyyəti müddətində ikitərəfli əlaqələrin daha da genişlənməsinə səy göstərəcəkdir.

Prezident İlham Əliyev Çin Xalq Respublikasının sədri Hu Szintaonın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XƏZƏRYANI ÖLKƏLƏRİN NƏQLİYYAT NAZİRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Xəzəryanı dövlətlərin nəqliyyat nazirlərinin birinci görüşündə iştirak edən Rusiya Federasiyasının nəqliyyat naziri İqor Levitini, Qazaxıstan Respublikasının nəqliyyat və kommunikasiya naziri Əbilqazi Kusainovu və Türkmənistanın dəmiryol nəqliyyatı naziri Dəryaqulu Məhəmmədquliyevi qəbul etmişdir.

Rusiya Federasiyasının nəqliyyat naziri Bakıda Xəzəryanı dövlətlərin nəqliyyat nazirlərinin birinci görüşünün yüksək səviyyədə təşkil edildiyini bildirdi, Azərbaycana sonuncu səfərindən ötən dövr ərzində ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu xüsusi vurğuladı.

Xəzəryanı dövlətlərin nəqliyyat nazirlərinin ilk görüşünün Bakıda keçirilməsinin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev nəqliyyat sahəsində əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu, bu sahədə ölkəmizdə mühüm infrastruktur layihələrinin həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısı bu tədbirin Xəzəryanı ölkələrin əməkdaşlığının daha da genişlənməsinə xidmət edəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ GERNOT ERLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Almaniya xarici işlər nazirinin müavini Gernot Erlerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Gernot Erler ölkəmizdə keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi, Milli Məclisdə, xüsusilə Azərbaycan-Almaniya dostluq qrupunun üzvləri ilə səmərəli müzakirələr apardıqlarını bildirdi. Səfəri müddətində Səngəçal terminalında da olduqlarını deyən qonaq bu tanışlığın onlarda böyük təəssürat doğurduğunu söylədi.

Azərbaycanla Almaniya arasında münasibətlərin genişlənməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev ikitərəfli əlaqələrin perspektivlərinin və eləcə də regionda gedən proseslərin müzakirə edilməsi baxımından bu səfərin yaxşı imkan yaratdığını vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV OPEC-İN BEYNƏLXALQ İNKİŞAF ÜÇÜN FONDUNUN BAŞ DİREKTORU SÜLEYMAN ƏL-HERBİŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) Beynəlxalq İnkişaf üçün Fondunun baş direktoru Süleyman əl-Herbişin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Süleyman əl-Herbiş Bakıda keçirdiyi görüşlərdən danışdı. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini böyük ehtiramla yad etdiklərini bildirdi.

Prezident İlham Əliyev OPEC-in Beynəlxalq İnkişaf üçün Fondu ilə Azərbaycanın müvafiq strukturları arasında əlaqələrin uğurla davam edəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ MÜŞAVİRİ, ATƏT-İN MİNSK QRUPUNUN ABŞ-DAN OLAN HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də ABŞ dövlət katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya regionu üzrə müşaviri, ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Mətyu Brayzəni qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI

Aprelin 3-də Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Rusiya Federasiyasının Prezidenti dövlətimizin başçısına Londonda "Böyük iyirmi-

lər"in sammitinin yekunları və dünya iqtisadi böhranının həllinə yönəlmiş qərarlar barədə məlumat vermişdir. Dövlət başçıları dünyada iqtisadi böhranla əlaqədar yaranmış vəziyyətlə bağlı fikir mübadiləsi aparmışlar.

Azərbaycan və Rusiya prezidentləri, eyni zamanda, ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafından məmnunluqlarını ifadə etmiş və əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildirmişlər.

Telefon söhbəti zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə edilmişdir.

VATİKAN DÖVLƏTİNDƏ AZƏRBAYCAN GÖMRÜYÜNÜN FƏALİYYƏTİNƏ HƏSR OLUNMUŞ SƏRGİ VƏ KİTABLARIN TƏQDİMATI KEÇİRİLMİŞDİR

Aprelin 2-dən 4-dək Vatikan dövlətində "Azərbaycan gömrüyünün tarixi təsviri sənətdə" mövzusunda sərgi, eləcə də "Azərbaycan gömrüyü mədəni irsin keşiyində", "Azərbaycan gömrüyünün tarixi təsviri sənətdə" və "Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik" kitablarının təqdimatı keçirilmişdir.

Tədbir barədə elan Roma şəhərinin aparıcı kütləvi informasiya vasitələrindən biri olan, 250 min tirajla çap edilən "Ventiquattro minuti" qəzetində dərc edilmişdir.

Azərbaycan Dövlət Gömrük Komitəsinin (DGK) və Xarici İşlər Nazirliyinin birgə təşkilatçılığı, eləcə də Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə keçirilən tədbirdə DGK sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev, Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademiyanın müxbir üzvü, Milli Məclisin deputatı Yaqub Mahmudov, Rəssamlar İttifaqının katibi, xalq rəssamı Ağəli İbrahimov və digər şəxslər iştirak etmişlər.

Aprelin 3-də Vatikan dövlətinin apostolik dəftərxana sarayında keçirilmiş sərginin rəsmi açılışında Vatikanın yüksək vəzifəli şəxsləri, eləcə də ABŞ, Türkiyə, Çernoqoriya, Bolqarıstan, Ukrayna və digər ölkələrin səfirləri, beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər.

Mərasimdə ölkəmizin Müqəddəs Taxt-Tacdakı səfiri Elçin Əmirbəyov Azərbaycan ilə Vatikan dövləti arasında mövcud əlaqələrdən söhbət açmış, qədimliyi, zənginliyi ilə fərqlənən Azərbaycan tarixinin Avropada, eləcə də dünyanın nüfuzlu dini mərkəzlərindən biri olan Vatikan dövlətində tanıdılması və təbliği baxımından belə tədbirlərin müstəsna əhəmiyyətinə toxunmuşdur.

DGK sədri Aydın Əliyev son illərdə müstəqil Azərbaycanın gömrük xidməti tərəfindən böyük miqdarda qədim əşyaların ölkəmizdən çıxarılmasının və onun sərhədlərindən tranzitlə qanunsuz keçirilməsi cəhdlərinin qarşısının alındığını qeyd etmişdir. Bildirmişdir ki, bugünkü görüşümüz iştirakçıları bir sıra kitablarla, xilas edilmiş əsərlərin bir qismi və bizim rəsm qalereyasının eksponatları ilə tanış etmək arzusu, Azərbaycan xalqının tarixi, mədəniyyəti və tolerantlığı ilə tanış etmək imkanıdır, yer üzündə tarixi və mədəni sərvətlərinə qəsd edilən, hələ də İraq və Əfqanıstan kimi narahat və Dağlıq Qarabağ kimi nəzarətsiz ərazilərə diqqətinizi cəlb etmək cəhdidir, hər birimizin digərlərinin ləyaqətinə, adət-ənənələrinə hörmətlə yanaşmasının müqəddəs borcu olduğunu xa-

tırlatmaq istəyidir.

Tədbirdə Azərbaycanla Vatikan dövləti arasında mövcud əlaqələrin tarixindən bəhs edən "Nəsihət" sənədli filmi və Azərbaycan muğamı haqqında film nümayiş etdirilmiş, milli musiqimizin şah əsəri olan muğam barədə qonaqlara ətraflı məlumat verilmişdir.

Qonaqlar və mərasim iştirakçıları nümayiş etdirilmiş əsərləri böyük maraqla seyr etmiş, sərgi onlarda xoş təəssürat yaratmışdır. Müğənni Zaur Əmiraslanovun italyan və Azərbaycan dillərində oxuduğu mahnılar, musiqişünas Nizami Əliyevin pianoda ifası mərasim iştirakçılarının zövqünü oxşamışdır.

Tədbirdə Rəssamlar İttifaqının katibi, xalq rəssamı Ağəli İbrahimov özünün xalqımızın ümummilli lideri Heydər Əliyevin Roma papası II İohann Pavellə birgə görüşünü əks etdirən rəsm əsərini, eləcə də Cəbrayıl Quliyevin şəbəkə üslubunda hazırladığı incəsənət əsərini Vatikan şəhəri dövləti üzrə pontifik komissiyanın sədri, Vatikan şəhəri dövləti üzrə qubernatorluğun sədri kardinal Covanni Layoloya hədiyyə edilmişdir.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Vatikan dövlətinin bir sıra rəsmi şəxsləri ilə - kardinal Covanni Layolo, Vatikanın xarici işlər naziri arxiyepiskop Dominik Mamberti və Müqəddəs Taxt-Tacın mədəniyyət üzrə pontifik şurasının sədri (mədəniyyət naziri) arxiyepiskop Canfranko Ravazi ilə görüşlər keçirmişdir.

Görüşlərdə Azərbaycan ilə Vatikan dövləti arasındakı münasibətlərdən məmnunluqla söhbət açılmış, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Vatikan dövlətinə, həmçinin Roma papası II İohann Pavelin respublikamıza tarixi səfərlərinin mövcud əlaqələrə yeni təkan verdiyi vurğulanmış, bu gün Azərbaycan torpaqlarının 20 faizinin işğal altında olduğu, ermənilərin işğalçılıq siyasətinin hələ də davam etdiyi diqqətə çatdırılmış, Azərbaycanın ərazi bütövlüyünün beynəlxalq hüquq normaları çərçivəsində həllinin Vatikan dövləti tərəfindən dəstəklənəcəyinə ümidvar olunduğu bildirilmişdir.

Azərbaycan nümayəndə heyəti tərəfindən Vatikan dövlətinin Mədəniyyət Nazirliyinin kitabxanasına "Azərbaycan gömrüyü mədəni irsin keşiyində", "Azərbaycan gömrüyünün tarixi təsviri sənətdə" və "Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik" kitabları hədiyyə olunmuşdur.

Vatikan dövlətində təşkil olunmuş sərgi aprelin 9-dək davam etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ VİQAUDAS UŞATSKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Litvanın xarici işlər naziri Viqaudas Uşatskasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Litva arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Litvanın xarici işlər nazirinin Azərbaycana səfərinin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev əminliklə bildirdi ki, bu səfər daim genişlənməkdə olan ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.

Bakıya ilk dəfə səfər etdiyini deyən Viqaudas Uşatskas paytaxtımızın nümayəndə heyə-

tində xoş təəssürat doğurduğunu söylədi. Bakının İslam mədəniyyətinin paytaxtı, Vilnüsün isə Avropa mədəniyyətinin paytaxtı olduğunu bildirən qonaq bunun mədəni əlaqələrimizin daha da genişlənməsinə xidmət edəcəyini vurğuladı.

AZƏRBAYCAN VƏ LİTVANIN XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA SİYASİ DİALOQUN GÜCLƏNDİRİLMƏSİNƏ DAİR MEMORANDUM İMZALANMIŞDIR

Aprelin 7-də Bakıda Azərbaycan və Litvanın xarici işlər nazirlikləri arasında siyasi dialoqun gücləndirilməsinə dair memorandum imzalanmışdır. Memorandumu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Litvanın xarici siyasət idarəsinin rəhbəri Viqaudas Uşatskas imzalamışlar.

Sənəddə tərəflər birgə maraq kəsb edən, regional və beynəlxalq məsələlərlə bağlı ikitərəfli siyasi dialoqun və əməkdaşlığın möhkəmləndirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq, xüsusilə suverenlik, ərazi bütövlüyü və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında sülh yolu ilə həlli istiqamətində diplomatik səylərin artırılmasının vacibliyini təsdiqləmişlər.

Memorandumda Avropa Qonşuluq Siyasəti və "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Avropaya inteqrasiya sahəsində qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, enerji, nəqliyyat, kənd təsərrüfatı, ətraf mühit, hüquq mühafizə, humanitar sahələrdə, habelə viza verilməsi məsələsinin sadələşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi məsələləri üzrə əməkdaşlığın təşviqi də qeyd olunmuşdur.

Görüşdə tərəflər iki ölkə arasındakı münasibətlərin yüksək səviyyəsindən məmnunluğunu ifadə edərək, əlaqələrin daha da möhkəmləndirilməsi üçün böyük potensialın olduğunu vurğulamışlar.

Azərbaycana ilk dəfə səfər etdiyini deyən V.Uşatskas, ölkəmizdə yüksək iqtisadi inkişafın şahidi olduğunu demişdir. İqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsinə ehtiyac olduğunu bildirən qonaq, səfər çərçivəsində Bakıda Litva-Azərbaycan biznes forumunun keçirilməsinin əhəmiyyətini vurğulamışdır. Avropanın, o cümlədən Litvanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində Azərbaycanın rolunu yüksək qiymətləndirən V.Uşatskas, Nabukko, "Ağ axın" və Avropanın enerji təchizatına yönəlmiş müxtəlif layihələrin həyata keçirilməsinin vacibliyindən danışmışdır.

Nazir E.Məmmədyarov Azərbaycan ilə Litva arasında bütün sahələrdə əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulamış, istər ikitərəfli, istərsə də Avropa İttifaqı (Aİ) çərçivəsində əməkdaşlıq üçün geniş imkanların mövcudluğunu qeyd etmişdir. Nazir "Şərq tərəfdaşlığı" təşəbbüsünün iştirakçı dövlətlərlə Aİ arasında əməkdaşlığın inkişaf etdirilməsində mühüm vasitə olduğunu deyərək, bu təşəbbüs çərçivəsində Litva ilə Azərbaycan arasında müxtəlif layihələrin həyata keçirilməsinin mümkünlüyünü vurğulamışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi barədə məlumat verən E.Məmmədyarov Litva tərəfinin münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi mövqeyində dayandığını yüksək qiymətləndirmişdir.

Görüşdən sonra nazirlər birgə mətbuat konfransı keçirmişlər.

Jurnalistlərin suallarını cavablandıran Litvanın xarici işlər naziri Viqaudas Uşatskas demişdir ki, Azərbaycan Litvanın Cənubi Qafqazda ticarət sahəsində əsas tərəfdaşıdır.

Litva xarici siyasət idarəsinin rəhbəri Azərbaycanla əməkdaşlığı daha da genişləndirmək niyyətində olduqlarını bildirmişdir: "Biz Azərbaycana yalnız Avropanın enerji təminatçısı kimi baxmırıq. Azərbaycan həm də regionun siyasi və mədəni mərkəzidir. Buna görə biz ölkələrimiz arasında siyasi dialoqun daha da dərinləşməsi üçün memorandum imzaladıq".

V.Uşatskas Azərbaycanın Aİ-nin "Şərq tərəfdaşlığı" proqramında iştirakının hər iki tərəf üçün əhəmiyyətini vurğulamışdır.

Litva xarici siyasət idarəsinin rəhbəri Azərbaycanda "Litva evi"nin açılmasının iş adamları və turistlər üçün faydalı olacağına əminliyini bildirmişdir.

Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri E.Məmmədyarov isə Litva ilə Azərbaycan arasında əlaqələrin səviyyəsindən razılığını bildirmişdir. O demişdir ki, bizim Litva ilə siyasi əlaqələrimiz gündən-günə genişlənir. Biz qonağı regionda olan vəziyyətlə tanış etdik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ətraflı məlumat verdik. Ümumiyyətlə, bu gün Litva ilə Azərbaycan arasında sıx əməkdaşlıq qurulmuşdur və biz bu əməkdaşlığı davam etdirəcəyik.

Litvanın xarici işlər naziri E.Məmmədyarova bu il Avropa mədəniyyətinin paytaxtı olan Vilnüsün rəmzini hədiyyə etmişdir.

AZƏRBAYCAN VƏ ABŞ PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI

Aprelin 7-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obama Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Səmimi söhbət zamanı prezidentlər Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif istiqamətlərdə uğurlu inkişafından məmnunluq ifadə etmişlər. Dövlət başçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, energetika sahəsində əməkdaşlıq və regional təhlükəsizliklə bağlı məsələləri müzakirə etmişlər.

ABŞ Prezidenti Türkiyə-Ermənistan münasibətləri ilə bağlı ABŞ dövlətinin atdığı addımlar barədə danışmışdır. Azərbaycan Prezidenti bu məsələ ilə əlaqədar Azərbaycan dövlətinin mövqeyini Prezident Obamaya çatdırmışdır.

Telefon söhbəti zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİ BERNAR FASYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Bernar Fasyeni qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ BOLQARISTAN VƏ MACARISTAN XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Aprelin 7-də Milli təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarının yaranmasının 90 illik yubiley tədbirlərində iştirak etmək məqsədi ilə ölkəmizdə səfərdə olan Bolqarıstan Milli Kəşfiyyat Xidmətinin direktoru general-mayor Kirço Kirovla görüşmüşdür.

Qonağı səmimi salamlayan nazir Eldar Mahmudov onu Azərbaycanda görməkdən məmnun olduğunu bildirmişdir. Nazir beynəlxalq terrorçuluğa, ekstremizmə və mütəşəkkil cinayətkarlığın digər təzahürlərinə qarşı görülən işlər barədə danışmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin doğurduğu, eləcə də onun nəticəsində yaranmış nəzarət olunmayan ərazilərin mövcudluğundan irəli gələn fəsadlar barədə ətraflı məlumat vermişdir.

Kirço Kirov 90 illik yubiley münasibətilə Milli Təhlükəsizlik Nazirliyinin şəxsi heyətini bir daha təbrik etmiş, göstərilən yüksək qonaqpərvərliyə, ətraflı məlumata görə təşəkkürünü bildirmişdir. Qonaq respublikamıza ilk səfərindən xoş təəssüratlar aldığını, Bolqarıstanın Azərbaycanla sıx dostluq əlaqələrinin və müvafiq dövlət strukturları arasında əməkdaşlıq münasibətlərinin formalaşmasına xüsusi önəm verdiyini bildirmişdir.

Səmimi və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə maraq doğuran bir sıra digər məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

* * *

Aprelin 7-də Milli təhlükəsizlik naziri Eldar Mahmudov Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarının yaranmasının 90 illik yubiley tədbirlərində iştirak etmək məqsədi ilə ölkəmizdə səfərdə olan Macarıstan Milli Təhlükəsizlik Bürosunun baş direktoru general-mayor Şandor Laborsla görüşmüşdür.

Görüşdə Eldar Mahmudov nazirlikdə həyata keçirilən islahatlar və onların səmərəli nəticələri, terrorçuluq, qanunsuz miqrasiya, narkotiklərin qanunsuz dövriyyəsi, mütəşəkkil cinayətkarlığa qarşı aparılan mübarizə üzrə görülmüş işlər haqqında məlumat vermişdir. Nazir, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı problemə toxunaraq, ölkəmizin işğal olunmuş ərazilərində baş verən mənfi proseslərin nəinki region, eləcə də Avropa dövlətləri üçün də ciddi narahatlıq doğurduğunu diqqətə çatdırmışdır.

Şandor Labors 90 illik yubiley münasibətilə azərbaycanlı həmkarlarını bir daha təbrik edərək, göstərilən yüksək qonaqpərvərliyə, geniş və dolğun məlumata görə təşəkkürünü bildirmişdir. Qonaq respublikamıza ilk səfərindən xoş təəssüratlar aldığını, Macarıstan və Azərbaycan, eləcə də müvafiq strukturlar arasında münasibətlərin inkişafından məmnun qaldığını və səfərinin ölkələrimizin əlaqələrinin daha da möhkəmlənməsi üçün faydalı olacağına əminliyini qeyd etmişdir.

Görüşdə təhlükəsizlik işinin səmərəli təmin olunması baxımından təcrübə və məlumat mübadiləsinin genişləndirilməsinin vacibliyi vurğulanmışdır.

LEYLA XANIM ƏLİYEVA İSTANBULDA İSESKO-NUN BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 7-də İstanbulda BMT-nin Sivilizasiyaların Alyansı təşəbbüsünün ikinci Dünya forumunda iştirak edən İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri ilə görüşmüşdür.

Əbdüləziz bin Osman əl-Tüveycri Leyla Əliyevanı İKT Gənclər Forumu tərəfindən BMT-nin Gənclər Məşvərət Şurasına üzv seçilməsi münasibətilə təbrik etmiş, gənclərin forumunda onun fəaliyyətini yüksək qiymətləndirmişdir.

Leyla Əliyeva Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumunun müxtəlif ölkələrdə həyata keçirdiyi layihələr, xüsusilə Xocalı soyqırımı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində gördüyü işlərdən danışmışdır.

BAKIDA AZƏRBAYCAN-LİTVA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Aprelin 7-də "Crown hotel"də İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Litvanın Beynəlxalq Ticarət Palatasının təşkilatçılığı ilə Azərbaycan-Litva biznes forumu keçirilmişdir.

Litvanın xarici işlər naziri Viqaudas Uşatskasın Azərbaycana rəsmi səfəri çərçivəsində keçirilən biznes forumda bu ölkənin dövlət rəsmiləri ilə yanaşı, kənd təsərrüfatı məhsullarının emalı, nəqliyyat, mühəndislik, turizm, tikinti və digər sahələri təmsil edən müəssisələrdən 20-yə yaxın, Azərbaycan tərəfdən isə müvafiq sahələrdə fəaliyyət göstərən 30-dan çox sahibkar iştirak etmişdir.

Mərasimdə iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə başlanmış və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən iqtisadi islahatlar, müxtəlif sahələrdə həyata keçirilən layihələr, sahibkarlığın inkişafı istiqamətində görülən tədbirlər barədə, son illər Azərbaycanda qazanılmış nailiyyətlər haqqında qonaqlara qısa məlumat vermişdir. Bildirmişdir ki, dünyanın ən nüfuzlu maliyyə institutlarından sayılan Dünya Bankının dərc etdiyi sonuncu hesabata görə, Azərbaycan 181 ölkə arasında 97-ci yerdən 33-cü yerə yüksəlmiş, biznes mühitinin yaxşılaşdırılması üzrə dünyada lider ölkə adını qazanmışdır. Son beş ildə ölkədə 750 mindən çox yeni iş yeri açılmış, regionlarda 20 mindən artıq müəssisə yaradılmış, yoxsulluğun səviyyəsi isə 46 faizdən 13 faizə düşmüşdür. Nazir müavini Azərbaycan Prezidentinin sərəncamları ilə yeni sahələrin, o cümlədən xarici investorlar üçün xüsusilə cəlbedici olan metallurgiya, kimya, energetika, maşınqayırma, nəqliyyat, rabitə və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin özəlləşdirməyə açılmasını xarici investisiya axınına güclü təkan verdiyini söyləmişdir.

Ölkədə yaradılmış əlverişli biznes mühiti və özəl bölmənin inkişafı sahəsində həyata keçirilən tədbirlər də diqqətə çatdırılmış və bildirilmişdir ki, sahibkarlara güzəştli kreditlərin verilməsi, "bir pəncərə" prinsipinin tətbiqi və s. bu sahənin genişlənməsinə, investisiyaların həmçinin artmasına səbəb olmuşdur.

Azərbaycan ilə Litva arasında iqtisadi əlaqələrdən danışan N.Səfərov ötən il ölkələrimiz

arasında ticarət dövriyyəsinin 26,3 milyon ABŞ dolları təşkil etdiyini, lakin bu əlaqələrin daha da genişləndirilməsi üçün böyük imkanların olduğunu diqqətə çatdırmışdır.

Litvanın xarici işlər naziri Viqaudas Uşatskas qarşılıqlı səfərlərin ölkələrimiz arasında əlaqələrin daha da inkişafında əhəmiyyətli olduğunu söyləmiş, Azərbaycandakı sürətli iqtisadi inkişafı yüksək qiymətləndirmişdir. O, ölkəsinin Azərbaycan ilə iqtisadi, siyasi, mədəni və digər sahələrdə əməkdaşlığı genişləndirmək niyyətində olduğunu bildirmişdir. Qonaq, həmçinin Vilnüsdə keçirilmiş Avropa çempionatında Azərbaycan güləşçilərinin qazandıqları uğurlardan məmnunluğunu diqqətə çatdırmışdır.

Tədbirdə AZPROMO-nun prezidenti Rəhim Hüseynov Azərbaycan iqtisadiyyatı, həmçinin xarici iş adamları üçün yaradılmış imkan və perspektivlər barədə, Litva Xarici İşlər Nazirliyi departamentinin direktoru Petras Şimelyunas ölkəsinin iqtisadi potensialı və biznes imkanları haqqında məlumat vermişlər.

Forumun rəsmi hissəsindən sonra Azərbaycan və Litva iş adamları arasında keçirilmiş görüşlərdə əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ ANDRES HERKELİN VƏ XANIM YEVGENİYA JİVKOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Avropa Şurası Monitorinq Komitəsinin həmməruzəçiləri Andres Herkelin və xanım Yevgeniya Jivkovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə ölkəmizdə müxtəlif sahələrdə həyata keçirilən demokratik inkişaf prosesləri, Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQI ŞURASININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Avropa İttifaqı Şurasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Piter Semnebi Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali komissarı Xavyer Solanonun salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizdə keçirdiyi görüşlər barədə Prezident İlham Əliyevə məlumat verdi, Azərbaycanla Avropa İttifaqı arasında sıx əlaqələrin olduğunu bildirdi.

Dövlətimizin başçısı ölkəmizlə Avropa İttifaqı arasında genişlənən əlaqələrin bundan sonra da möhkəmlənəcəyinə əminliyini vurğuladı. Prezident İlham Əliyev Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali komissarı Xavyer Solanonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali komissarına çatdırmağı xahiş etdi.

XARİCİ İŞLƏR NAZİRİ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİ FƏHD BİN ƏLİ ƏL-DUSƏRİNİ ETİMADNAMƏLƏRİNİN SURƏTİNİ TƏQDİM ETMƏSİ İLƏ BAĞLI QƏBUL ETMİŞDİR

Aprelin 8-də xarici işlər naziri Elmar Məmmədyarov Səudiyyə Ərəbistanı Krallığının Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fəhd bin Əli əl-Dusərini etimadnamələrinin surətini təqdim etməsi münasibətilə qəbul etmişdir.

Mehriban və səmimiyyət şəraitində keçirilmiş görüşdə qarşılıqlı olaraq iki ölkə arasında yüksək səviyyəli dostluq, anlaşma və etimadın mövcudluğundan məmnunluq ifadə edilmiş, tarixi köklərə söykənən münasibətlərin hazırkı duruma çatdırılmasına Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanına həyata keçirilmiş səfərlərinin böyük təkan verdiyi vurğulanmışdır.

Nazir E.Məmmədyarov islam ümmətinin bir hissəsi kimi Azərbaycanda Səudiyyə Ərəbistanına xüsusi münasibət bəslənildiyini və azərbaycanlıların qəlblərində bu ölkənin xüsusi yeri olduğunu bildirmişdir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ölkəmizin mövqeyinin hər zaman Səudiyyə Ərəbistanı tərəfindən dəstəklənildiyinə görə təşəkkür edən nazir E.Məmmədyarov bildirmişdir ki, ölkəmiz üçün bu ağrılı məsələdə Səudiyyə Ərəbistanı əsl dost ölkə kimi hər zaman Azərbaycanın yanında olmuşdur və belə bir münasibət bizim üçün çox önəmlidir.

Azərbaycanın Yaxın Şərq böhranının nizamlanması ilə bağlı Səudiyyə Ərəbistanının mövqeyini bölüşdüyünü də vurğulayan E.Məmmədyarov ölkəmizin Qəzza zolağında sülh və əmin-amanlığın təmin olunmasında maraqlı olduğu və bölgədəki yenidənqurma işlərinə sosialyönümlü obyektlərin tikintisi ilə töhfə verməyi planlaşdırdığını bildirmişdir.

Səfir Fəhd bin Əli əl-Dusəri dost və qardaş ölkə kimi Azərbaycanın problemlərinə Səudiyyə Ərəbistanında böyük həssaslıqla yanaşıldığını və bu problemlərin həllində ölkəsinin Azərbaycana lazımi dəstəyin göstərilməsinə hər zaman hazır olduğunu bildirərək demişdir ki, Azərbaycan torpaqları işğaldan azad olunmayana, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmayana və münaqişənin nizamlanması ilə bağlı Azərbaycanın maraqları tam təmin olunmayana qədər Səudiyyə Ərəbistanı Ermənistanla diplomatik əlaqələr qurmayacaqdır. Səfir Fəhd bin Əli əl-Dusəri Azərbaycanın Yaxın Şərq böhranının nizamlanması ilə bağlı mövqeyi, habelə Qəzza bölgəsinin yenidən qurulmasına yardım göstərilməsi səylərini yüksək dəyərləndirmişdir.

AZƏRBAYCAN İLƏ ÖZBƏKİSTAN VƏ BELARUS XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Aprelin 8-də Milli təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarının yaranmasının 90 illik yubileyi tədbirlərində iştirak etmək məqsədi ilə ölkəmizdə səfərdə olan Özbəkistan Milli Təhlükəsizlik Xidmətinin sədri general-polkovnik Rustam İnoyatov ilə görüşmüşdür.

Nazir Eldar Mahmudov qonağı Azərbaycanda görməkdən məmnun olduğunu söyləmiş, ölkələrimiz arasında tarixi-mədəni və dostluq əlaqələrinin, eləcə də hər iki dövlətin yerləşdiyi coğrafi məkanda bəzi oxşar problemlərin mövcudluğunu qeyd etmişdir. O, Azərbaycanda təhlükəsizliyin təmin olunması, cinayətkarlıqla, onun təhlükəli forma və təzahürləri ilə mübarizə sahəsində Milli Təhlükəsizlik Nazirliyi tərəfindən görülən işlər barədə danışmış, regiondakı vəziyyət, ona təsir göstərən amillər, xüsusən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin doğurduğu fəsadlar və digər amillər, habelə bununla əlaqədar görülən adekvat tədbirlər barədə məlumat vermişdir.

Göstərilən yüksək qonaqpərvərliyə, səmimi və mehriban qarşılandığına, eləcə də ətraflı məlumata görə təşəkkürünü bildirən Rustam İnoyatov, 90 illik yubiley münasibətilə bir daha təbriklərini çatdıraraq, qardaş Azərbaycana ilk səfərindən xoş təəssüratlar aldığını xüsusi qeyd etmişdir. Qonaq bu cür görüşlərin hər iki dövlətin təhlükəsizlik maraqlarının səmərəli qorunmasında böyük əhəmiyyət daşıdığını söyləmiş, eyni zamanda, öz ölkəsi tərəfindən beynəlxalq terrorçuluğa, ekstremizmə, mütəşəkkil cinayətkarlığın müxtəlif təzahürlərinə qarşı mübarizə üzrə görülən işlərə dair məlumat vermişdir.

Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə, maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

* * *

Aprelin 8-də Milli təhlükəsizlik naziri Eldar Mahmudov Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarının yaranmasının 90 illik yubiley tədbirlərində iştirak etmək məqsədi ilə ölkəmizdə səfərdə olan Belarus Dövlət Təhlükəsizlik Komitəsinin sədri general-mayor Vadim Zaytsevlə görüşmüşdür.

Nazir Eldar Mahmudov regionda mövcud əməliyyat şəraiti və ona təsir göstərən amillər, ümumən təhlükəsizlik problemləri ilə əlaqədar Azərbaycanın həyata keçirdiyi tədbirlər, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, onun acı nəticələri haqqında qonağa ətraflı məlumat vermişdir. Nazir, həmçinin regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasında xarici partnyorların köməyini yüksək qiymətləndirdiyini və Milli Təhlükəsizlik Nazirliyinin bütün tərəfdaşlara əməli və məlumat dəstəyini verməyə hazır olduğunu qeyd etmişdir.

Vadim Zaytsev 90 illik yubiley münasibətilə Milli Təhlükəsizlik Nazirliyinin şəxsi heyətini bir daha təbrik etmiş, göstərilən yüksək qonaqpərvərliyə, ətraflı məlumata görə təşəkkürünü bildirmişdir. Qonaq Azərbaycana ilk səfərindən xoş təəssüratlar aldığını, Belarus və Azərbaycan arasında tarixi-mədəni və dostluq əlaqələrinin olduğunu vurğulamış, hər iki xalqın mənafelərinin və təhlükəsizliyinin təmin olunması naminə xüsusi xidmət orqanlarının əməkdaşlıq münasibətlərinin inkişafından məmnun qaldığını qeyd etmişdir.

Səmimi və işgüzar şəraitdə keçən görüşdə maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Bakıda səfərdə olan Litvanın xarici işlər naziri Viqaudas Uşatskas aprelin 8-də Azərbaycan Diplomatik Akademiyasının tələbələri üçün mühazirə oxumuşdur.

Nazir Azərbaycan ilə Litva arasında münasibətlərin inkişafından, xarici siyasətin prioritetlərindən danışmışdır. V.Uşatskas bildirmişdir ki, Azərbaycan Avropanın enerji təminatında bundan sonra da mühüm rol oynaya bilər. Azərbaycanın potensialından hələ də kifayət qədər istifadə olunmamışdır. Xəzər dənizi də bu istiqamətdə bir növ Avropa ilə Azərbaycan arasında böyük bağlılıq yarada bilər.

"Şərq tərəfdaşlığı" layihəsinə toxunan Litvanın xarici işlər naziri Azərbaycanın Avropaya inteqrasiyası yolunda gördüyü işləri xüsusi qeyd etmişdir. V.Uşatskas bildirmişdir ki, Avropa ölkələri ilə viza rejiminin sadələşdirilməsi də mühüm məsələlərdən biridir. Litva istər Avropa İttifaqı daxilində, istərsə də ikitərəfli münasibətlərdə Azərbaycana öz töhfəsini verir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllində də Litva Azərbaycanın haqlı mövqeyini, münaqişənin sülh yolu ilə həllini dəstəkləyir.

Azərbaycan xarici işlər nazirinin müavini, akademiyanın rektoru Hafiz Paşayev Litvanın xarici işlər naziri V.Uşatskas haqqında tələbələrə məlumat verərək, onun diplomatik fəaliyyətindən danışmışdır.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA LİTVANIN ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Ölkəmizdə səfərdə olan Litvanın xarici işlər naziri Viqaudas Uşatskasın rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 8-də Heydər Əliyev Fondunda olmuşdur.

Qonaqlar əvvəlcə Fondun sərgi və ekspozisiyası ilə tanış oldular. Xalqımızın ümummilli lideri Heydər Əliyevin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən sənədlərə, dahi şəxsiyyətin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə, ulu öndərimiz haqqında kitablara, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə böyük maraqla baxdılar.

Litvanın Baş nazirinin xanımı, Mstislav Rostropoviç Fondunun prezidenti Rasa Kubilienė Fondun Xatirə kitabına ürək sözlərini yazdı.

Qonaqlar Fondun fəaliyyətinə, həyata keçirdiyi layihələrə həsr olunmuş sənədli filmə də tamaşa etdilər.

Sonra Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva litvalı qonaqlarla görüşdü. Mehriban xanım onları ölkəmizdə və ulu öndər Heydər Əliyevin adını daşıyan Fondda görməkdən məmnun olduğunu söylədi. Litva ilə Azərbaycan arasında bütün səviyyələrdə xoş münasibətlərin formalaşdığını deyən Mehriban xanım görüş iştirakçılarına Heydər Əliyev Fondunun müxtəlifyönümlü proqramları haqqında məlumat verdi. Bil-

dirdi ki, əsas məqsədi Azərbaycan xalqının ümummilli lideri tərəfindən yaradılmış azərbaycançılıq ideologiyasının təbliği və gələcək nəsillərə çatdırılması olan Fond həm də qayğıya və köməyə ehtiyacı olanların problemlərinin həlli, uşaq evləri və internat məktəblərində tərbiyə alan uşaqlara, qaçqın və məcburi köçkünlərə yardım, elm, təhsil, səhiyyə və mədəniyyət sahəsində çoxsaylı tədbirlər həyata keçirir.

Səmimi görüşə görə təşəkkürünü bildirən Litvanın Baş nazirinin xanımı Rasa Kubiliene Heydər Əliyev Fondu ilə tanışlığın onlarda zəngin təəssürat doğurduğunu söylədi. Başçılıq etdiyi Fondun 2003-cü ildən fəaliyyət göstərdiyini deyən qonaq bildirdi ki, M.Rostropoviç Fondu da, demək olar, eyni funksiyaları həyata keçirir, xeyriyyəçilik tədbirləri ilə məşğul olur.

Görüşdə fondlar arasında əməkdaşlığın hər iki tərəf üçün səmərəli olacağı vurğulandı.

Qonaqlar Mehriban xanıma nəcib və xeyirxah fəaliyyətində uğurlar arzuladılar.

TBİLİSİDƏ "AZƏRBAYCAN, TÜRKİYƏ VƏ GÜRCÜSTAN ENERJİ KÖRPÜSÜ" LAYİHƏSİNƏ DAİR MEMORANDUM İMZALANMIŞDIR

Aprelin 8-də Tbilisidə "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti, "Gürcüstan dövlət elektrik sistemi" və Türkiyə Elektrik Enerjisi Korporasiyası arasında "Azərbaycan, Gürcüstan, Türkiyə enerji körpüsü" layihəsinə dəstək çərçivəsində memorandum imzalanmışdır.

Birgə "Enerji körpüsü" layihəsi ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) tərəfindən maliyyələşdirilir.

Memorandumu imzalayan tərəflər yüksək gərginlikli şəbəkələrin regional modelini işləyib hazırlayacaqlar. İşçi qrupu hər üç ölkədə mövcud olan yüksək gərginlikli şəbəkələrin işini təhlil edəcək, regional perspektivlər baxımından sərmayələrin identifikasiyasını həyata keçirəcəkdir. Bu, şəbəkənin gücünün artırılmasına, elektrik enerjisi mübadiləsinə və satışına kömək edəcək, bütün sistemin təhlükəsizliyini və etibarlığını optimallaşdıracaqdır.

Gürcüstanın energetika naziri Aleko Xetaquri demişdir ki, bu layihə potensial baxımından ölkənin iqtisadiyyatına mühüm təsir göstərəcəkdir. Yüksək gərginlikli şəbəkələrin gücünün artırılması ilə Gürcüstan Avropa İttifaqı ölkələrinə elektrik enerjisi satmaq imkanı qazanacaqdır. Layihə, eyni zamanda, elektrik verilişi üzrə regional məsələlərin həlli baxımından üç ölkənin vahid enerji rejimində işləməsinə imkan yaradacaqdır.

AZƏRBAYCAN İLƏ LİTVA ARASINDA TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ QARŞILIQLI MARAQ DOĞURAN MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR

Aprelin 10-da Milli təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarının yaranmasının 90 illik yubiley tədbirlərində iştirak etmək məqsədi ilə ölkəmizdə səfərdə olan Litva Respublikasının Dövlət Təhlükəsizlik Departamentinin direktoru Povilas Malakauskasla görüşmüşdür.

Nazir Eldar Mahmudov regionda gedən proseslər, meydana çıxan müxtəlif növ təhdidlər, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi və ondan irəli gələn fəsadlar barədə danışmışdır. General-leytenant Eldar Mahmudov beynəlxalq terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, qeyri-leqal miqrasiya və transmilli mütəşəkkil cinayətkarlığın digər təhlükəli təzahürlərinin artmasının bütün dünyada ciddi narahatlıq doğurduğunu qeyd etmiş, bununla əlaqədar Milli Təhlükəsizlik Nazirliyi tərəfindən yeni təhdidlərə qarşı həyata keçirilən adekvat tədbirlərin, yaradılmış aidiyyatı qurumların fəaliyyətinin konkret nəticələri barədə qonağa məlumat vermişdir.

Povilas Malakauskas 90 illik yubiley münasibətilə Milli Təhlükəsizlik Nazirliyinin şəxsi heyətini bir daha təbrik etmiş, göstərilən yüksək qonaqpərvərliyə, geniş və dolğun məlumata görə təşəkkürünü bildirmişdir. Qonaq respublikamıza ilk gəlişindən xoş təəssüratlar aldığını, Azərbaycan Respublikasının və Litva Respublikasının təhlükəsizlik maraqlarının təmin olunması sahəsində aktuallıq kəsb edən məsələlər ətrafında aparılan müzakirələrin nəticələrindən razı qaldığını qeyd etmiş və səfərinin ölkələrimizin, eləcə də müvafiq strukturlar arasındakı əlaqələrinin daha da möhkəmlənməsi üçün faydalı olacağına əminliyini bildirmişdir.

Səmimi və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə maraq doğuran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ NATO ARASINDA FAYDALI ƏMƏKDAŞLIQ İNKİŞAF EDİR

Xarici işlər naziri Elmar Məmmədyarov aprelin 9-da NATO baş katibinin ictimai diplomatiya üzrə müavini Jan Fransua Büro ilə görüşmüşdür.

Şimali Atlantika blokunun 60 illiyinə həsr olunmuş konfransda iştirak etmək üçün Bakıya gəldiyini deyən J.F.Büro, NATO ilə Azərbaycan arasındakı münasibətlərin səviyyəsindən və Fərdi Tərəfdaşlığın Əməliyyat Planı (FTƏP) çərçivəsində aparılan əməkdaşlıqdan məmnun olduğunu söyləmiş, əlaqələrin uğurla davam edəcəyinə ümid bəslədiyini demişdir.

Azərbaycan ilə NATO arasında faydalı əməkdaşlığın inkişaf etdirildiyini vurğulayan E.Məmmədyarov, FTƏP-in əhəmiyyətini diqqətə çatdırmış, Bakıda NATO-nun 60 illiyinə həsr olunmuş konfransın keçirilməsinin Azərbaycanda Şimali Atlantika bloku haqqında biliklərin artırılması baxımından vacib rol oynadığını diqqətə çatdırmışdır.

E.Məmmədyarov aprelin 6-da NATO-nun 60 illiyinə həsr olunmuş sammitdə qəbul edilmiş bəyannamədə qurum tərəfindən Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bir daha dəstəklənməsini yüksək qiymətləndirmişdir.

Görüşdə ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

BAKIDA "NATO - TAM SİYASİ KAMİLLİK ALYANSI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR

Aprelin 9-da Bakıda Şimali Atlantika blokunun 60 illiyinə həsr olunmuş "NATO - tam siyasi kamillik alyansı" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Rumıniyanın Bakıdakı səfirliyinin təşkilatçılığı ilə keçirilən konfransda çıxış edən Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov rəsmi Bakının NATO-nun fəal tərəfdaşı kimi hərbi-siyasi sahədə islahatlar keçirdiyini, sərhəd təhlükəsizliyində pilot ölkə olduğunu demişdir. Azərbaycanın NATO ilə əməkdaşlığı genişləndirmək istiqamətində planları olduğunu vurğulayan nazir müavini bildirmişdir ki, hazırda alyansın mülki və hərbi əməliyyatlarında daha fəal iştirak etmək üçün müəyyən imkanlar nəzərdən keçirilir. Bu yaxınlarda Əfqanıstana yardımlar göstərilməsi müzakirə olunmuşdur. Azərbaycan, həmçinin "Sülh naminə tərəfdaşlıq" sənədində dəyişikliyi nəzərdən keçirir. Bu dəyişiklik NATO-nun marağına uyğun olacaqdır.

A.Əzimov demişdir ki, NATO üzünü müsəlman ölkələrinə tərəf tutmalıdır. Çünki qurumun Azərbaycanın simasında digər müsəlman ölkələrinə ehtiyacı ola bilər. 1994-cü ildən Azərbaycanın NATO ilə əməkdaşlıq etdiyini xatırladan A.Əzimov bildirmişdir ki,

Fərdi Tərəfdaşlığın Əməliyyat Planına ilk qoşulan ölkələrdən biri də Azərbaycandır. Azərbaycan qurumla əlaqələri genişləndirir, hərbi sahəni NATO standartlarına uyğunlaşdırmaq istiqamətində islahatlar aparır. Azərbaycan əsgərləri dünyadakı münaqişə bölgələrində sülhün təmin olunmasına töhfə verir.

Rumıniyanın Azərbaycandakı səfiri Nikolaye Ureke ölkəsinin xarici işlər nazirinin müraciətini oxumuşdur. Nazirin müraciətində deyilir ki, əlaqələndirici dövlət olaraq Rumıniya Azərbaycanın Avratlantik məkana inteqrasiyasını dəstəkləyəcəkdir. Bu əməkdaşlıq NATO-nun Elm Proqramı çərçivəsində ərzaq və su təhlükəsizliyi proqramları ilə yanaşı, Bakı və Gəncədəki Avratlantik mərkəzlərlə sıx əlaqələrin qurulması istiqamətlərində olacaqdır.

NATO baş katibinin ictimai diplomatiya üzrə müavini Jan Fransua Büro vurğulamışdır ki, alyans Azərbaycanın NATO əməliyyatlarına töhfəsini yüksək qiymətləndirir. J.F.Büro "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində əməkdaşlığın genişləndirilməsi üçün yeni sahələrin müəyyənləşdirilməsinə ehtiyac olduğunu demişdir: "Biz Azərbaycan ilə gələcək əməkdaşlığın hansı sahələri əhatə edəcəyini müzakirə edirik. NATO-nun elm proqramları çərçivəsində əməkdaşlıqda Azərbaycan qurumun ikinci tərəfdaşına çevrilmişdir və region ölkələrini qabaqlamışdır".

ABŞ-ın Azərbaycandakı səfiri xanım Ann Ders bildirmişdir ki, NATO Azərbaycanı öz tərəfdaşı hesab etməkdən qürur duyur. Azərbaycanın Avratlantik təsisatlarına inteqrasiya etməyə dair verdiyi strateji qərar onun müstəqil dövlət tarixində ən önəmli qərar ola bilər. Azərbaycanın NATO ilə olan əlaqələri təhlükəsizliyi və demokratik dəyərləri gücləndirməklə yanaşı, siyasi və hərbi təkmilləşdirmə və islahatlar prosesinə dəstək verir.

Diplomat demişdir ki, NATO-nun Fərdi Tərəfdaşlığın Əməliyyat Planı çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin və milli təhlükəsizlik strukturlarının müasirləşdirilməsinə dair öz üzərinə öhdəliklər götürmüşdür. Belə islahatlar Azərbaycan Silahlı Qüvvələrinə NATO-nun əməliyyatlarına inteqrasiya etmək üçün imkan yaradacaqdır. Bu islahatlar digər demokratik dövlətlərdə olduğu kimi, Azərbaycan Silahlı Qüvvələrinin mülki siyasi istiqamətinə uyğun olan konstruktiv rol oynaya bilər. Azərbaycanın bu istiqamətdə irəliləyişinin əyani nümunəsi Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasının hazırlanması və hökumətin hərbi doktrinanın üzərində işləməsi olmuşdur.

Rumıniyanın Xarici İşlər Nazirliyi departamentinin direktoru Daniel İonita ölkəsinin NATO ilə əməkdaşlığı çərçivəsində qazandığı təcrübəni tərəfdaş ölkə missiyasını yerinə yetirdiyi dövrdə Azərbaycan ilə paylaşacağını vurğulamışdır.

Beynəlxalq konfransda Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, deputatlar, ekspertlər, o cümlədən xarici ölkələrin Bakıdakı səfirləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Aprelin 9-da Ukrayna Prezidenti Viktor Yuşşenko Azərbaycana rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Ukraynanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Ukrayna dövlətinin başçısını Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar. Milli geyimli uşaqlar Ukrayna Prezidentinə və xanımı Katerina Yuşşenkoya gül dəstələri təqdim etdilər.

Hava limanının ali qonaqlar üçün salonunda Prezident Viktor Yuşşenko və Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov arasında qısa protokol görüşü oldu.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Aprelin 9-da Azərbaycanda rəsmi səfərdə olan Ukrayna Prezidenti Viktor Yuşşenkonun rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə rapport verdi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Ukrayna Prezidenti Viktor Yuşşenkonu və xanımı Katerina Yuşşenkonu səmimiyyətlə qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Ukrayna Prezidentinə raport verdi.

Ukraynanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Ukrayna Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Viktor Yuşşenkoya, Ukrayna nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səslərı altında dövlət başçılarının qarşısından keçdi.

Sonra prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

Aprelin 9-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan-Ukrayna əlaqələrinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olundu.

Dövlət başçıları ikitərəfli münasibətlərin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladılar. Bildirildi ki, səfər zamanı imzalanacaq sənədlər Azərbaycan ilə Ukrayna arasında əlaqələrin daha da dərinləşməsinə yaxşı zəmin yaradacaqdır.

Prezidentlər ölkələrimiz arasında münasibətlərin bundan sonra da genişlənəcəyinə əminliklərini söylədilər.

UKRAYNA VƏ AZƏRBAYCAN PREZİDENTLƏRİ ŞURASININ İLK İCLASI

Aprelin 9-da Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü başa çatandan sonra iki ölkənin Prezidentləri Şurasının ilk iclası olmuşdur. İclasda Azərbaycan və Ukrayna nümayəndə heyətlərinin üzvləri də iştirak edirdilər.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV iclası açaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Hörmətli cənab Prezident, əminəm ki, Sizin rəsmi səfəriniz ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişafına və möhkəmlənməsinə kömək edəcəkdir. Bu gün biz qarşılıqlı maraq doğuran məsələlər, ikitərəfli əməkdaşlığımızla bağlı məsələlər barəsində geniş fikir mübadiləsi aparmışıq və ölkələrimiz arasında münasibətlərdə böyük dinamika olmasını vurğulamışıq. Münasibətlərimiz çox səmərəli, dinamik inkişaf edir, yaxşı nəticələr əldə olunmuşdur və ümid edirik ki, bu müsbət meyillər gələcəkdə də inkişaf edəcək və möhkəmlənəcəkdir. Biz regional əhəmiyyətli məsələləri də müzakirə etdik. Fikrimcə, biz regionda vəziyyət barədə ümumi fikrimizi və regional əməkdaşlıq üçün perspektivləri ifadə etmişik.

Bu gün Ukrayna və Azərbaycan Prezidentləri Şurasının birinci iclası keçirilir. Bu, əvvəl əldə edilmiş razılaşmaların nəticəsidir. Şura çərçivəsində biz öz həllini tələb edən məsələləri müzakirə edəcəyik. Bunlar iqtisadi əməkdaşlıq, energetika sahəsində və hərbi-texniki sahədə əməkdaşlıq məsələləridir. Bunlar Prezidentlər Şurasının bugünkü iclasının əsas mövzularıdır, lakin təbii ki, biz bununla kifayətlənməyəcəyik, çünki münasibətlərin formatı və iclasın gündəliyi kifayət qədər genişdir.

Mən bir daha dərin məmnunluğumu bildirmək istəyirəm ki, bu gün Siz Azərbaycana rəsmi səfər edirsiniz. Əminəm ki, bu səfərin nəticələri əməli cəhətdən də uğurlu olacaq və biz ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsi baxımından bundan sonra

da irəliyə doğru gedəcəyik.

Bir daha xoş gəlmisiniz.

Sonra çıxış edən Ukrayna Prezidenti VİKTOR YUŞŞENKO dedi:

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli azərbaycanlı dostlar!

Hörmətli Şura üzvləri!

İlham Heydər oğlu ilə biz bir məsələdə həmrəyik ki, əgər ikitərəfli münasibətlərimizə qiymət verməli olsaq, bu münasibətlər ən yüksək statusa malikdir, bunlar siyasi əlaqələrin, nazirliklər və idarələr səviyyəsində əlaqələrin çox yüksək dinamikasına malik olan strateji tərəfdaşlıq münasibətləridir. Açıq demək istərdim ki, bu illər ərzində biz insani münasibətləri də çox fəallaşdırmışıq. Başqa sözlə desək, biz ikitərəfli münasibətlərin inkişafından tam razıyıq. Bu münasibətlərin çox yaxşı dinamikası var. Bu münasibətlər yaxşı nəticələr verir.

İqtisadi böhranın həm ticarətə, həm də iqtisadi əməkdaşlığa təsir göstərdiyi indiki vaxtda rəqəmlər bəlkə də bir qədər azalmış, ola bilsin, ciddi şəkildə azalmışdır. Biz başa düşürük ki, bu, bizim münasibətlərin problemlərinin təsiri deyildir. Çox güman ki, burada bizim iradəmizdən, Ukrayna və Azərbaycan tərəflərindən asılı olmayan amillər təsir göstərir. Buna görə də mən Prezidentlər Şurasının iclasının əvvəlində həm siyasi, həm iqtisadi, həm də işgüzar münasibətlərimizi yüksək qiymətləndirmək istərdim.

İkincisi. Əvvəlki görüşlərimizdə də dediyimiz kimi, münasibətlərimizin aydın inkişaf planının olması çox vacibdir. Ona görə də bu gün imzalanacaq "Tədbirlər planı" 2009-2010-cu illərdə münasibətlərimizin perspektivini, özü də təkcə Prezidentlər Şurası çərçivəsində deyil, həm də nazirliklərin, idarələrin və biznes dairələrinin qarşılıqlı münasibətləri çərçivəsində bu perspektivləri necə təsəvvür etməyimiz barədə suala ən aydın və dəqiq cavab olacaqdır.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Aprelin 9-da, Azərbaycan və Ukrayna Prezidentləri Şurasının ilk iclasından sonra ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.

"2009-2010-cu illər üçün Azərbaycan-Ukrayna əməkdaşlığına dair tədbirlər planı"nı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukraynanın Prezidenti Viktor Yuşşenko imzaladılar.

Azərbaycan Respublikasının Gəncə Şəhər İcra Hakimiyyəti və Ukraynanın Volınsk vilayətinin Dövlət administrasiyası arasında ticari-iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında sazişi Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Volınsk vilayəti Dövlət administrasiyasının rəhbəri Nikolay Romanyuk imzaladılar.

Azərbaycan Respublikası və Ukrayna xarici işlər nazirlikləri arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın aktual məsələləri üzrə 2009-2010-cu illər üçün məsləhətləşmələr planını Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ukraynanın xarici işlər

naziri vəzifəsini icra edən Vladimir Xondogi imzaladılar.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Xarici Kəşfiyyat Xidməti arasında əməkdaşlığa dair sazişi Azərbaycanın milli təhlükəsizlik naziri Eldar Mahmudov və Ukraynanın Xarici Kəşfiyyat Xidmətinin rəisi Nikolay Malomuj imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında kosmik məkanın sülh məqsədləri üçün tədqiqi və istifadəsi sahəsində əməkdaşlıq haqqında çərçivə sazişini Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov və Ukrayna Milli Kosmik Agentliyi baş direktorunun birinci müavini Valeri Komarov imzaladılar.

- Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında hərbi, texniki əməkdaşlığa dair sazişə dəyişikliklərin edilməsi haqqında Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında protokolu Azərbaycanın müdafiə naziri Səfər Əbiyev və Ukraynanın müdafiə naziri Yuri Yexanurov imzaladılar.

Azərbaycan Respublikası və Ukrayna Prezidentləri Şurası iclasının protokolunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ukraynanın xarici işlər naziri vəzifəsini icra edən Vladimir Xondogi imzaladılar.

DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Aprelin 9-da ikitərəfli sənədlərin imzalanma mərasimindən sonra Azərbaycan və Ukrayna Prezidentləri mətbuat nümayəndələri üçün bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli Viktor Andreyeviç,

Hörmətli qonaqlar,

Xanımlar və cənablar!

Ukrayna Prezidenti başda olmaqla bu ölkənin nümayəndə heyətini Azərbaycanda bir daha səmimi salamlamaq istəyirəm. Mən Ukrayna Prezidentinin Azərbaycana səfərinin nəticələrindən, aparılmış danışıqlardan, fikir mübadiləsindən çox razıyam. Biz qarşılıqlı maraq doğuran məsələlər barədə çox geniş fikir mübadiləsi apardıq. Ölkələrimiz arasında müxtəlif sahələrdə münasibətlər dərindən təhlil edildi. Biz regional problemlərə toxunduq, regional əməkdaşlıq məsələlərini, Avropa İttifaqı çərçivəsində nəzərdə tutulan "Şərq tərəfdaşlığı" layihəsi üzrə əməkdaşlığın perspektivlərini geniş müzakirə etdik.

Bu gün Prezidentlər Şurasının ilk iclası keçirildi. Biz əsas diqqəti qarşılıqlı siyasi əlaqələr, iqtisadi əməkdaşlıq, energetika, nəqliyyat sahələrində və hərbi-texniki əməkdaşlıq məsələləri üzərində cəmləşdirdik. Bütün diskussiyalarda və fikir mübadilələrində biz vahid mövqedən çıxış edirdik. Ən başlıcası odur ki, ölkələrimiz arasında strateji tərəfdaşlıq uğurla davam edir. Bu münasibətlər Azərbaycanın milli maraqlarına uyğundur və biz Ukraynanı dünyada ən etibarlı tərəfdaşlarımızdan biri hesab edirik. Biz beynəlxalq

təşkilatlarda, o cümlədən Birləşmiş Millətlər Təşkilatında hiss etdiyimiz dəstəyə görə şəxsən Ukrayna Prezidentinə və Ukrayna dövlətinə minnətdarıq. Keçən il, düz bir il bundan əvvəl Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət haqqında məsələyə dair səsvermə zamanı Ukraynanın nümayiş etdirdiyi prinsipial, ədalətli mövqe bütün Azərbaycan xalqında dərin minnətdarlıq hissi doğurur.

Artıq qeyd etdiyim kimi, bu gün biz təkcə ölkələrimiz üçün deyil, əminəm ki, həm də region üçün, Avropa üçün əhəmiyyətli məsələləri və nəqliyyat sahəsində, Xəzərin enerji ehtiyatlarının beynəlxalq bazarlara çıxarılması, enerji daşıyıcıları nəqlinin şaxələndirilməsi sahəsində nəzərdə tutduğumuz məsələləri, bu istiqamətdə Ukraynanın və Azərbaycanın rolunu hərtərəfli müzakirə etdik. Bütün bu məsələlər çox ciddi diqqət yetirilməsini tələb edir. Bizim iştirakımızla, Ukrayna və Azərbaycan prezidentlərinin və dost ölkələrdən olan həmkarlarımızın iştirakı ilə enerji sammitləri keçirilmişdir. Bunlardan axırıncısı, ötən ilin noyabrında Bakıda keçirilmiş zirvə görüşü bir daha nümayiş etdirdi ki, biz enerji sahəsində geniş əməkdaşlığa sadiqik. Bakı sammitinin və Bakı Bəyannaməsinin nəticələri – indi regionda, praktik olaraq, bütün enerji layihələri üçün, yəni həm mövcud layihələrin, həm də birgə səylərimizlə həyata keçirilməli layihələr üçün təməldir.

Bu gün mən ölkələrimiz arasında əməkdaşlıq ruhunu da vurğulamaq istərdim. Bəli, biz siyasi və iqtisadi maraq doğuran, bütövlükdə regional vəziyyətdə öz əksini tapacaq mühüm məsələləri müzakirə etdik. Çox əhəmiyyətlidir ki, bu müzakirələr olduqca dostluq şəraitində, qarşılıqlı anlaşma və qarşılıqlı dəstək şəraitində keçmişdir. Bizim münasibətlərimizdə heç də az əhəmiyyəti olmayan sahəni - humanitar əməkdaşlıq məsələsini də qeyd etmək istərdim. Biz buna çox diqqət yetiririk və bu əməkdaşlığın yaxşı nəticələri vardır. Viktor Andreyeviçin Azərbaycana, demək olar ki, hər bir səfərində bu istiqamətdə tərəqqi olduğunu vurğulayır və çox mühüm tədbirlərdə birgə iştirak edirik.

Mən bizim dəvətimizi qəbul edərək yenidən buraya səfər etdiyinə görə Ukrayna Prezidentinə bir daha təşəkkürümü bildirmək, aparılmış danışıqlardan məmnunluğumu ifadə etmək və ümidvar olduğumu bildirmək istərdim ki, bizim müzakirə etdiyimiz və razılığa gəldiyimiz bütün məsələlər, əvvəlki illərdə olduğu kimi, dəqiq yerinə yetiriləcəkdir. Biz nəzərdə tutduqlarımızın hamısını yerinə yetirmişik. Bir daha xoş gəlmisiniz və ümid edirəm ki, Azərbaycan torpağında olmağınız Sizə çox xoş təsir bağışlayacaqdır.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN BƏYANATI

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli azərbaycanlı dostlar!

Xanımlar və cənablar!

Bugünkü danışıqların mahiyyətini İlham Heydər oğlu artıq şərh etdi. Mən mühüm və aktual hesab etdiyim bəzi məqamları xüsusi vurğulamaq istərdim.

Hər şeydən əvvəl, bu gün biz münasibətlərimizin strateji xarakter daşımasını bir daha təsdiqləyirik. 2009-2010-cu illər üçün Ukrayna-Azərbaycan əməkdaşlığına dair tədbirlər planının imzalanmasından başlayaraq bu gün nəzərdən keçirdiyimiz bütün məsələlər

onu göstərir ki, bizim ikitərəfli münasibətlərimiz əhəmiyyətli dərəcədə inkişaf etmişdir.

Biz indiyə qədər 27 müqavilə, rəsmi məlumat, memorandum imzalamışıq. Bu gün onların sırasına daha 8 ikitərəfli müqavilə və saziş əlavə etdik. Bizim strateji xarakterli münasibətlərimiz bu gün daha geniş normativ-hüquqi baza əldə etdi.

Xüsusi vurğulamaq istəyirəm ki, bizim münasibətlərimiz qarşılıqlı etimada əsaslanan konkret münasibətlərdir, buna görə də prezidentlərin hər bir görüşünün aktivində konkret nailiyyətlər olur. Biz dörd məsələyə xüsusi diqqət yetirdik. Birincisi ticarət-iqtisadi və energetika sahəsində münasibətlər blokudur. Energetika blokunu xüsusi vurğulamaq istərdim.

Bu gün biz bildiririk ki, AANND (Avrasiya Neft Nəqli Dəhlizi) barədə - Xəzər neftinin Avropa İttifaqı ölkələrinə nəqlini nəzərdə tutan layihəyə dair təqribən iki il əvvəl başlanmış dialoqumuz əslində final mərhələsindədir. Aprelin 24-də Varşavada "Sarmatiya" birgə müəssisəsi idarə heyətinin işçi iclasında Xəzər neftinin bütün marşrut üzrə nəql edilməsinin texniki-iqtisadi əsaslandırılması qəbul olunacaqdır. Biz bildiririk ki, çoxsaylı mancələrlə üzləşmiş bu layihə bu gün öz məntiqi sonuna yaxınlaşır və heç şübhəsiz, biz bununla fəxr edirik.

Biz Azərbaycan qazının Avropa İttifaqı ölkələrinə göndərilməsi məsələsinin müzakirəsinə xüsusi diqqət yetirdik. Bu məsələ barədə Azərbaycan və Ukrayna ortaq mövqe ifadə edə bilərdi. Biz razılaşdıq ki, bu məsələyə dair müvafiq məsləhətləşmələr xarici işlər nazirlikləri səviyyəsində aparılacaqdır.

Ticarət əlaqələri bizim münasibətlərimizdə mühüm məsələdir. Biz bu əlaqələrin dinamik inkişaf etməsini vurğulayırıq. Ticarət münasibətlərimiz azad rejimə əsaslanır. Əmtəələr və xidmətlər barəsində qarşılıqlı məhdudiyyət yoxdur. Buna görə də keçənilki dinamika çox yüksək olmuşdur. Hazırda qlobal iqtisadi böhranla əlaqədar baş verən proseslər, əlbəttə, ikitərəfli ticarət münasibətlərimizə də təsir göstərmişdir. Lakin biz hamımız başa düşürük ki, bu, müvəqqəti haldır. Ona görə də ticarət münasibətlərinin, o cümlədən 2009-cu ildə də, inkişafına nikbin baxırıq.

Biz nəqliyyat və tranzit sahəsində əməkdaşlıq kimi məsələlərə də xüsusi diqqət yetirdik. Cənab Prezidentlə biz hazırda ikitərəfli ekspertlər səviyyəsində perspektivli layihə kimi müzakirə olunan bir variantı da nəzərdən keçirdik. Söhbət hazırda Klaypedadan İliçevskə qədər işləyən "Vikinq" konteyner daşımaları marşrutunun İliçevskdən gəmi-bərə vasitəsilə Potiyə və Batumiyə qədər uzadılmasından gedir. Bu il biz Kerç-Poti-Batumi gəmi-bərə yolunu açacağıq. Beləliklə, bu konteyner daşımaları marşrutunun və hazırda Qara dəniz limanlarından Bakıya, oradan Almatıya və Mərkəzi Asiya ölkələrinə qədər işləyən marşrutun uyğunlaşdırılması məsələsinə baxılması iqtisadi cəhətdən məqsədəuyğun olardı.

Biz bu layihənin həyata keçirilməsində marağı olan ölkələrin müvafiq nəqliyyat nazirlərinin himayəsi altında birgə təşəbbüslə çıxış edirik. Yaxın vaxtlarda Kiyevdə ilk görüş keçiriləcək və güman edirik ki, həmin görüşdə bu siyasi təşəbbüs dürüst ifadə ediləcəkdir.

Biz "Şərq tərəfdaşlığı" və lap yaxın vaxtlarda, mayın 7-də Praqada keçiriləcək zirvə

toplantısı məsələlərinə xeyli diqqət yetirdik. Biz bunu əsas götürürük ki, həmin zirvə toplantısının vəzifəsi perspektivdə təkcə altı ölkə ilə dialoq rejimini dürüst ifadə etmək deyil, həm də bu layihənin aydın məqsəd və vəzifələrini müəyyən etməkdir. Hesab edirik ki, bu layihə qarşıya elə vəzifə qoymalıdır ki, həmin altı ölkəyə əvvəlcə ümumi sahəvi, regional layihələrə dair yaxınlaşma və inteqrasiya perspektivlərini görmək imkanı versin. Sonra isə biz, əlbəttə, perspektivlərimiz barədə daha güclü və qüdrətli zəmin olmasını istərdik.

Biz İlham Heydər oğluna, Azərbaycan tərəfinə minnətdarıq ki, humanitar sahədə əməkdaşlığın zəruri olmasını bu cür aydın və həssaslıqla qəbul edirlər. İlham Heydər oğlunun Ukraynaya səfərləri kimi mənim də Azərbaycana səfərlərimin, demək olar ki, hər biri təhsil, mədəniyyət sahələrində və bütövlükdə humanitar sahədə müxtəlif layihələrlə əlamətdar olur. Budəfəki rəsmi səfər çərçivəsində biz Ukraynanın Azərbaycandakı səfirliyinin bir müddət yerləşmiş olduğu binada xatirə lövhəsini açacağıq. Bu, bizim tarixi münasibətlərimizin mühüm səhifəsidir. 1932-1933-cü illərdəki Qolodomor barədə Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin müvafiq qətnamələrini Azərbaycanın dəstəkləməsi bizim üçün çox vacibdir, prinsipial əhəmiyyəti vardır.

Bu gün Ukraynanın rəsmi nümayəndə heyətinin tərkibində Təhsil Nazirliyinin nümayəndələri, ali məktəblərin rəhbərləri var. Sabah biz günün xeyli hissəsini bu məsələlərə həsr edəcəyik. Qeyd etmək istərdim ki, biz bu məsələlər üzrə münasibətlərimizin inkişaf dinamikasını yüksək qiymətləndiririk.

Bizim danışıqlarımızın ayrıca bir bölməsi kosmos sahəsində əməkdaşlığa və hərbi-texniki əməkdaşlığa həsr edilmişdir. Mən qarşılıqlı hörmət şəraitinə, konstruktivliyə və ikitərəfli münasibətlərimizə xas olan ənənəvi etimada görə cənab Prezident İlham Heydər oğluna, rəsmi danışıqlarda, Prezident Şurasının birinci iclasında Azərbaycan tərəfdən təmsil olunmuş əziz dostlara bir daha təşəkkür etmək istərdim.

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ İLƏ TANIŞLIQ XOŞ TƏƏSSÜRAT DOĞURMUŞDUR

Ukrayna Prezidenti Viktor Yuşşenkonun Azərbaycana rəsmi səfəri çərçivəsində xanımı Katerina Yuşşenko aprelin 9-da Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyində olmuşdur.

Qonağa muzeyin tarixi barədə ətraflı məlumat verilmişdir. Bildirilmişdir ki, muzeyin yerləşdiyi və Bakının ən gözəl memarlıq abidələrindən olan bu bina 1895-1897-ci illərdə tikilmiş və Azərbaycan milyonçusu, mesenat Hacı Zeynalabdin Tağıyevin mülkü olmuşdur. 1920-ci ildə binada yaradılmış muzeydə qədim dövrdən başlayaraq Azərbaycan tarixinin bütün mərhələlərinə dair qiymətli eksponatlar toplanmışdır.

Azərbaycanın ərazisində mövcud olmuş Atropatena, Albaniya, Şirvanşahlar, Ağqoyunlular, Səfəvilər dövlətləri dövrünə aid maddi mədəniyyət nümunələri ölkəmizin qədim dövlətçilik ənənələrindən xəbər verir.

Orta əsr Azərbaycan qadınlarına məxsus zinət əşyaları, məişətdə işlədilmiş əşyalar qonaqda böyük maraq doğurmuşdur.

Muzeyin direktoru, akademik Nailə Vəlixanlı bildirmişdir ki, 150-dən çox işçisi olan muzey həm də Milli Elmlər Akademiyasının strukturunda elmi tədqiqat və mədəni-maarif müəssisəsi funksiyasını yerinə yetirir. Muzeyin binası Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə əsaslı təmir olunmuş və yeni görkəm almışdır.

Muzeydə 1918-ci il mart hadisələri zamanı Bakıda erməni daşnakları tərəfindən törədilmiş qırğınlarla bağlı eksponatlar, tarixi sənədlər xanım Katerina Yuşşenkonun xüsusi marağına səbəb olmuşdur. Bu hadisələr barədə ona ətraflı məlumat verilmişdir.

300 mindən çox eksponatı olan muzeydə xalqımızın bir çox görkəmli şəxsiyyətlərinin təhsil almasına yardımçı olmuş Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə dair fotoşəkillər, tarixi sənədlər, ona məxsus qiymətli əşyalar da toplanmışdır. Ukrayna Prezidentinin xanımı Hacı Zeynalabdin Tağıyevin xatirə muzeyinin eksponatları ilə də tanış olmuşdur.

Muzeylə tanışlıqdan xoş təəssürat alan xanım Yuşşenko Xatirə kitabına ürək sözlərini yazmışdır.

Hörmətli qonağa muzeylə bağlı kitablar, albom və kompakt disk hədiyyə olunmuşdur.

Xanım Katerina Yuşşenko muzeyə xatirə hədiyyəsi - "Ukrayna Milli İncəsənət Muzeyi" kitabını təqdim etmişdir.

UKRAYNA PREZİDENTİNİN XANIMI HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

Ukrayna Prezidentinin xanımı Katerina Yuşşenko aprelin 9-da Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva xanım Katerina Yuşşenkonu qarşıladı.

Birinci xanımlar əvvəlcə Heydər Əliyev Fondunun fəaliyyəti haqqında filmə baxdılar.

Mehriban xanım hörmətli qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədləri, ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar barədə ətraflı məlumat verdi.

Xanım Katerina Yuşşenko fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Ukraynanın birinci xanımı Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Xanım Katerina Yuşşenko Heydər Əliyev Fonduna xatirə hədiyyəsi təqdim etdi.

Ukrayna Prezidentinin xanımına Heydər Əliyev Fondunun layihəsi olan "Qarabağ xanəndələri" musiqi albomu hədiyyə olundu.

Xanım Katerina Yuşşenko Fonddan zəngin təəssüratla ayrıldı.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Aprelin 9-da "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanın adından Ukrayna Prezidenti Viktor Yuşşenkonun və xanımı Katerina Yuşşenkonun şərəfinə rəsmi ziyafət verilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident,

Hörmətli Ukraynanın birinci xanımı,

Əziz qonaqlar!

Mən dostum Viktor Andreyeviç Yuşşenkonu yenidən salamlamaqdan çox şadam. Bu gün biz ikitərəfli münasibətlərin inkişaf yolları haqqında çox geniş müzakirələr apardıq və belə bir ümumi qənaətə gəldik ki, ölkələrimiz arasında ikitərəfli strateji tərəfdaşlığın potensialını fəal surətdə inkişaf etdirməli və artırmalıyıq. Tarixdə bizim xalqlarımızı birləşdirən məqamlar çoxdur. Ukrayna və Azərbaycan xalqları əsrlər boyu dostluq və mehribanlıq şəraitində yaşamışlar. Xalqlarımızın mədəniyyətlərinin bir-birinə qarşılıqlı təsirinin xalqlarımızı, ölkələrimizi zənginləşdirməsinə aid çox misallar göstərmək olar. Çox fərəhli haldır ki, ölkələrimizin müstəqil suveren dövlətlər kimi inkişaf etdiyi dövrdə dostluq münasibətlərimiz möhkəmlənir, çox fəal siyasi dialoq aparılır. Təkcə Ukrayna və Azərbaycan prezidentlərinin səfərlərinin statistikasına nəzər salsaq görərik ki, bu münasibətlər ən dinamik münasibətlərdən biridir. Statistik məlumatlardan əlavə, müzakirə edilən məsələlərin mahiyyəti də ikitərəfli əməkdaşlıq üçün, regional əməkdaşlıq üçün, qitə çərçivəsində əməkdaşlıq üçün çox böyük əhəmiyyət kəsb edir. Bu gün bizim fəal müzakirə etdiyimiz məsələlər arasında qarşılıqlı siyasi əlaqələr, bu əlaqələrin dərinləşdirilməsi, iqtisadi kooperasiya, enerji təhlükəsizliyi, nəqliyyat məsələləri, sənayenin inkişafı, hərbi-texniki əməkdaşlıq və humanitar sahə ilə bağlı məsələlər vardır. Yəni, bizim gündəliyimiz çox genişdir. Hər bir istiqamət üzrə konkret fəaliyyət planı var və bu gün artıq o, qarşıdakı iki ildə Ukrayna ilə Azərbaycan arasında birgə tədbirlər planının, "yol xəritəsinin" imzalanması ilə hüquqi cəhətdən rəsmiləşdirildi. Orada bizim fəal əməkdaşlıq edəcəyimiz bütün istiqamətlər, qərarların yerinə yetirilməsinin konkret müddətləri, konkret qrafiki göstərilmişdir.

Mənim bəhs etdiyim məsələlərin hər birinin böyük əhəmiyyəti vardır. Lakin heç şübhəsiz, regiondakı vəziyyət, enerji təhlükəsizliyi məsələləri təkcə bizim ölkələrimizdə deyil, bütövlükdə Avropa qitəsində daha çox maraq doğurur. İndi iqtisadi əməkdaşlıq məsələlərini enerji sahəsində əməkdaşlıqdan təcrid olunmuş şəkildə nəzərdən keçirmək mümkün deyildir. Hər bir ölkənin enerji təhlükəsizliyi yüksək diqqət yetirilən məsələdir. Azərbaycan regionun, Avropanın enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini verməyə çalışır və inanıram ki, ötən illərdə bizim irəli sürdüyümüz və hazırda uğurla həyata keçirilən təşəbbüslər, habelə indi münasibətlərimizin ikitərəfli formatında fəal müzakirə etdiyimiz təşəbbüslər həyata keçirildiyi təqdirdə enerji bazarında vəziyyətin proqnozlaşdırılmasına, istehsalçıların, tranzit ölkələrin və istehlakçıların uzunmüddətli əməkdaşlığa əmin olmasına kömək edəcəkdir.

Bu gün biz enerji ehtiyatlarının nəqlinin şaxələndirilməsi baxımından ölkələrimiz üçün müstəsna əhəmiyyəti olan Odessa-Brodı-Plotsk-Qdansk layihəsini ətraflı müzakirə etdik. Təbii ki, neft və qaz hasil edən ölkə kimi Azərbaycan bazarların şaxələndirilməsində öz maraqlarını görür. Buna görə də Odessa-Brodı-Plotsk-Qdansk layihəsi bizim üçün böyük maraq doğurur. Əlbəttə, tranzit ölkələr və istehlakçı ölkələr xammal mənbələrinin şaxələndirilməsinin müsbət cəhətlərini görürlər və bu da tamamilə məntiqə uyğundur. Ona görə də bu istiqamətdə səylərin birləşdirilməsi və əlaqələndirilməsi, maraqların birləşdirilməsi uğurun rəhnidir. Deməliyəm ki, bu baxımdan Ukrayna və Azərbaycan rəhbərliyi arasında gələcəkdə bu istiqamətdə necə əməkdaşlıq etməli olduğumuz, bu əməkdaşlığın formatının nə dərəcədə geniş olması və iri beynəlxalq qurumların bu əməkdaşlıqda necə iştirak edə bilməsi, zəruri hallarda buna necə kömək edə bilməsi məsələlərində tam anlaşma var.

Energetika bizi yaxınlaşdıran yeganə sahə deyildir. Bu gün gündəlikdə duran çox geniş məsələləri nəzərdən keçirdik və əlbəttə, indi bizim üçün böyük maraq doğuran və gələcəkdə də böyük maraq doğuracaq məsələləri müzakirə etdik. Onların arasında humanitar əməkdaşlıq məsələsini xüsusi qeyd etmək istərdim, çünki bunsuz, insanlar səviyyəsində əlaqələr olmasa, mədəni mübadilə olmasa gələcəkdə ölkələrimiz arasında əməkdaşlığın müsbət ruhunu qoruyub saxlamaq çətin olacaqdır.

Bu gün mən də, Viktor Andreyeviç də mətbuat üçün bəyanatda bildirdik ki, bizim Ukraynaya və Azərbaycana səfərlərimizin, demək olar, hər biri ölkələrimizin və xalqlarımızın mədəni həyatında çox mühüm hadisələrlə bağlı olur. Bizim tariximizə, mədəniyyətimizə, milli dəyərlərimizə qayğıkeş münasibət ölkələrimizi səciyyələndirən cəhətlərdir. Mən Ukrayna xalqının böyük oğlu Taras Şevçenkonun Bakıda abidəsini birlikdə açdığımız günü çox səmimi hisslərlə xatırlayıram. Bu abidənin qoyulduğu bağça indi Bakının ən gözəl guşələrindən birinə, Ukrayna diasporu nümayəndələrinin və Bakı sakinlərinin toplaşdığı yerə çevrilmişdir. Bu cür misallardan çox göstərmək olar. Başlıcası odur ki, gələcəkdə biz bu sahəni heç vaxt unutmayaq. Ölkələrimizin suverenliyini möhkəmlətmək və bir neçə əsr irəlicədən müstəqil inkişafımızı təmin etmək üçün, ölkələrimiz üçün, əlbəttə, mühüm olan iqtisadi, siyasi layihələrin, energetika layihələrinin əhəmiyyəti arxasında biz həmişə yadda saxlamalıyıq ki, ölkələrimizi və xalqlarımızı bir-birinə yaxınlaşdıran nədir.

Mən dəvətimi qəbul etdiyinə və bu gün buraya gəldiyinə görə Ukrayna Prezidentinə dərin minnətdarlığımı bildirmək, aparılmış danışıqlardan, qəbul edilmiş qərarlardan məmnunluğumu ifadə etmək istərdim. Əminəm ki, bizim münasibətlərimizin praktikasında dəfələrlə olduğu kimi, bu qərarların da hamısı həyata keçiriləcəkdir.

Mən bu badəni Ukrayna Prezidentinin, onun xanımının sağlığına, qardaş Ukrayna xalqının sağlığı və firavanlığı şərəfinə qaldırmaq istəyirəm!

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN ÇIXIŞI

- Çox hörmətli İlham Heydər oğlu!

Ölkənin çox hörmətli birinci xanımı!

Xanımlar və cənablar!

İlham Heydər oğlu keçirdiyimiz bu günü, münasibətlərimizin xüsusiyyətlərini o qədər ətraflı səciyyələndirdi ki, mən öz çıxışımı prinsipcə aşağıdakı kimi qura bilərdim: "Sonda demək istərdim ki, gəlin, bu badəni böyük xalqlarımızın şərəfinə, Azərbaycan Respublikasının şərəfinə, Ukrayna dövlətinin şərəfinə qaldıraq". Bu, daha düzgün olardı.

Ancaq hər halda, mən deyilənlərin davamı olaraq bir neçə kəlmə bəzi fikirlərimi söyləmək istərdim.

Mən fəxr edirəm ki, iki il tamam olmamış biz AANND adlanan layihənin sonuncu mərhələsinə çatmışıq. 18 ay əvvəl beş prezident ilk addım kimi, siyasi saziş imzalamışdı. İndi isə deyirik ki, on iki gündən sonra "Novaya Sarmatiya" müştərək müəssisəsinin Varşavada keçiriləcək iclasında bu layihəyə dair texniki-iqtisadi əsaslandırma qəbul ediləcəkdir. Beləliklə, asan olmayan layihənin siyasi niyyətdən reallaşdırılmayadək yolunda nöqtə qoyulur. Ona görə asan layihə deyil ki, siyasət olmasaydı, bu layihə çoxdan həyata keçirilərdi.

Lakin təəssüf ki, energetika sahəsində münasibətlərdən danışanda çox sərtləşən siyasət bu layihənin həyata keçirilməsində tez-tez ciddi əngələ, bizdən asılı olmayan əngələ çevrilirdi. Biz cənab Prezidentlə başa düşürük ki, bu cür layihə bir aya və hətta bir ilə də ərsəyə gəlmir. Düşünürəm, 24 ay ərzində bu layihənin reallaşdırılmasına yaxınlaşa biləcəyimiz gözəl nəticədir.

Biz danışmışıq və Klaypedadan İlyiçevskə konteyner daşımalarını uğurla təmin edən "Vikinq" layihəsi üzrə təşəbbüsü əslində dürüstləşdirmişik. İnişil İlyiçevskdən bu marşrutu Potiyədək, Batumiyədək davam etdirdik, bu il Kerçdən Potiyə, Batumiyədək davam etdirəcəyik. Bu gün biz razılığa gəldik ki, bu tranzit layihəsi Gürcüstan-Azərbaycan-Qazaxıstan, Poti-Batumi-Bakı-Almatı tranzit layihəsi ilə ahəngdarlığını tapacaqdır.

Şübhə etmirəm ki, az vaxt ötəcək və biz müvafiq nazirliklər, idarələr səviyyəsində tariflərin də, sığorta ödənişlərinin də, gömrük ödənişlərinin də, anbar xərclərinin də, yükləmə-boşaltmanın da idarə olunmasının uyğunlaşdırılmasına nail ola biləcəyik, bu marşrut ahəngdar şəkil alacaq və o, "Vikinq" layihəsi kimi səmərəli olacaqdır.

Bizim bu gün çox diqqət yetirdiyimiz hərbi-texniki əməkdaşlıqdan danışmaq olar. Artıq deyildiyi kimi, humanitar sahədə əməkdaşlıqdan danışmaq olar. Düşünürəm ki, biz 17-18 ildir müstəqillik şəraitində yaşayan ölkələrimiz üçün ən mühüm layihələrdən danışırıq. 18 il ərzində təkcə dövlətə deyil, həm də regional münasibətlərə xas olan münasibətlər sistemini qurmaq çətindir. 18 il az vaxtdır. 18 il ərzində insanı tərbiyə etmək olmaz, biz isə dövlətin təşəkküllündən danışırıq.

İlham Heydər oğlu, ona görə də bu gün Sizinlə haqqında çox danışdığımız məsələlər - razılığa gəldiyimiz məsələlərə qarşılıqlı surətdə sadiq qalmağın və onlara görə məsuliyyət daşımağın nə qədər vacib olması mənim üçün çox həssas məqamdır. Bizim siyasətçilərimiz arasında, biznesmenlərimiz arasında, insanlarımız arasında münasibətlərin gözəl tarixi var və buna görə də biz əlaqələrimizdə insani səviyyədə münasibətlərə xüsusi yer veririk. Biz təhsildən danışırıq, mədəniyyət sahəsində münasibətlərdən danışırıq, biz hər iki ölkədə abidələr qoyulması, milli mədəniyyət günləri və ya illəri mübadiləsi haqqında danışırıq.

Əminəm ki, əsl münasibətlər bu zəmində qurulur. Sonra iqtisadiyyat, ticarət və bütün

başqa şeylər gəlir. İnsanlarımız arasında, xalqlarımız arasında münasibətlərin gözəl ənənəsi var. Bəlkə bugünkü günün əhval-ruhiyyəsini, ab-havasını bu ənənə müəyyənləşdirir. Çünki bugünkü gün bizə dəqiq və aydın şəkildə deyir: biz bir-birimizə sadiqik, qarşımızda çox böyük ümumi məqsədlər durur, bizim aramızda ciddi ziddiyyətlər, fikir ayrılığı yoxdur. Aramızdakı etimad elə səviyyədədir ki, qarşılıqlı milli dövlət siyasətini - bu və digər millət üçün səciyyəvi olan həssas məsələlərə çox həssaslıqla reaksiya verən siyasəti qurmağa imkan verir. Mən nəyi nəzərdə tuturam? Onu nəzərdə tuturam ki, Dağlıq Qarabağda siyasətdən, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində qəbul olunan məsələlərdən söhbət gedəndə, Ukrayna dost Azərbaycanı bu məsələdə dəstəkləməkdən başqa ayrı bir variantın olması barədə heç düşünmədi də.

Zənnimcə, siz sadəlövh deyilsiniz və başa düşürsünüz ki, Ukraynanın mövqeyinin başqa cür olmasını arzulayanlar nə qədər idi. Mən qəti əminəm ki, bu, Azərbaycanın dostları kimi, bizim öz dostlarımıza - respublikanın Prezidentinə də, respublikanın xalqına da göndərməli olduğumuz işarədir.

Hörmətli İlham Heydər oğlu, Baş Məclisdə mənim millətim, mənim xalqım üçün heç də az həssas olmayan məsələ - 1932-1933-cü illər Qolodomoru barədə məsələ qaldırılanda Sizin də münasibətinizi və Azərbaycanın da münasibətini biz bu cür hörmətlə qarşılayırıq. Bu isə, insani səviyyədə, mən heç siyasi səviyyədə demirəm, çox yüksək qiymətləndirilir.

Ona görə də çıxışımın sonunda demək istərdim, mən fəxr edirəm ki, Azərbaycanın inkişafı, möhkəmlənməsi üçün bu mühüm, nadir bir vaxtda ölkəsini daim müsbət qiymətləndiriləcək bir yolla aparan Azərbaycan Prezidenti İlham Heydər oğlu kimi dostum vardır. Fəxr edirəm ki, Ukrayna xalqının Azərbaycan xalqı kimi dostu vardır. Şadam ki, bizim hökumətlərimiz, nazirliklərimiz, idarələrimiz, regional hakimiyyətlərimiz arasında da səmimi dostluq münasibətləri vardır.

Buna görə də sonda nitqimin əvvəlində söylədiyim sözləri təkrar etmək istərdim. Mən demək istəyirəm ki, biz Azərbaycanın şərəfinə, Azərbaycan Prezidentinin şərəfinə, Ukraynanın şərəfinə və dostluğumuzun şərəfinə badə qaldırırıq!

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Azərbaycanda rəsmi səfərdə olan Ukrayna Prezidenti Viktor Yuşşenko aprelin 10-da Fəxri xiyabana gəlmişdir.

Burada ali qonağı və Ukrayna nümayəndə heyətinin üzvlərini Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, xarici işlər nazirinin müavini Vaqif Sadıqov və digər rəsmi şəxslər qarşıladılar.

Prezident Viktor Yuşşenko Azərbaycan xalqının görkəmli oğlu ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, xatirəsini ehtiramla andı.

Ukraynanın dövlət başçısı görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül qoydu.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Ukrayna Prezidenti Viktor Yuşşenko aprelin 10-da Şəhidlər xiyabanını ziyarət etmişdir.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Viktor Yuşşenko Azərbaycanın azadlığı və suverenliyi uğrunda şəhid olmuş qəhrəman Vətən oğullarının məzarları üstünə tər çiçəklər düzdü, "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Ukraynanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

Prezident Viktor Yuşşenko buradan Azərbaycan paytaxtının mənzərəsini seyr etdi.

Ukrayna Prezidentini Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, xarici işlər nazirinin müavini Vaqif Sadıqov və digər rəsmi şəxslər müşayiət edirdilər.

PREZİDENTLƏR İLHAM ƏLİYEV VƏ VİKTOR YUŞŞENKO 1919-1920-Cİ İLLƏRDƏ UKRAYNANIN AZƏRBAYCANDAKI XÜSUSİ DİPLOMATİK MİSSİYASININ YERLƏŞDİYİ BİNADA XATİRƏ LÖVHƏSİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞLƏR

Aprelin 10-da Bakıda 1919-1920-ci illərdə Ukrayna Xalq Respublikasının Azərbaycan Xalq Cümhuriyyətindəki xüsusi diplomatik missiyasının yerləşdiyi binada - İstiqlaliyyət küçəsi, 31 ünvanında xatirə lövhəsinin açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukrayna Prezidenti Viktor Yuşşenkonu binanın önündə qarşıladı və ali qonağa şəhərin bu hissəsində yerləşən binalar, o cümlədən Bakı Şəhəri İcra Hakimiyyətinin binası, metronun "İçərişəhər" stansiyası, habelə qala divarları haqqında məlumat verdi.

Prezidentlər Ukrayna heykəltəraşı İqor Qreçanikin müəllifi olduğu və üzərində Azərbaycan və Ukrayna dillərində "1919-1920-ci illərdə bu binada Ukrayna Xalq Respublikasının Azərbaycan Xalq Cümhuriyyətindəki xüsusi diplomatik missiyası yerləşmişdir" sözləri yazılmış lövhənin üstündən örtüyü götürdülər.

Xatirə lövhəsinin üzərində Azərbaycanın və Ukraynanın dövlət gerblərinin təsviri də əks olunmuşdur.

Ukrayna Xalq Respublikasnın Bakıdakı ilk xüsusi diplomatik missiyasının rəhbəri İvan Kraskovski 1919-cu il fevralın 8-də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, eyni zamanda xarici işlər naziri olan Fətəli xan Xoyskiyə etimadnaməsini təqdim etmişdi.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO MİLLİ MƏCLİSDƏ OLMUŞDUR

Azərbaycanda səfərdə olan Ukrayna Prezidenti Viktor Yuşşenko aprelin 10-da Milli Məclisə gəlmişdir.

Parlamentin binası önündə ali qonağı Milli Məclisin sədri Oqtay Əsədov, sədrin birinci müavini Ziyafət Əsgərov, müavin Valeh Ələsgərov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər qarşıladılar.

Ukrayna Prezidenti Viktor Yuşşenko Milli Məclisin iclas salonuna baxdı, deputatlar üçün yaradılmış şəraiti yüksək qiymətləndirdi. Sonra ali qonaq Heydər Əliyev Xatirə salonu ilə tanış oldu və burada fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Sonra Milli Məclisin sədri Oqtay Əsədov və Ukrayna Prezidenti Viktor Yuşşenko arasında görüş oldu.

Parlamentin sədri Oqtay Əsədov dedi ki, Azərbaycan ilə Ukrayna arasındakı mehriban dostluq əlaqələri daim inkişaf edir. Qarşılıqlı münasibətlərin yüksək səviyyəyə çatmasında dövlət başçılarının rolunu xüsusi vurğulayan Milli Məclisin sədri bildirdi ki, prezidentlərin qarşılıqlı səfərləri, keçirilən görüşlər, imzalanan sənədlər ikitərəfli əməkdaşlığın inkişafı üçün möhkəm təməl yaratmışdır. İndiyədək iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafına dair 100-dən çox sənəd imzalanmışdır.

Azərbaycanın iqtisadi uğurlarından danışan parlamentin sədri ticarət dövriyyəsinin artırılması üçün geniş imkanların olduğunu bildirdi. O.Əsədov dedi ki, ölkələrimizin əlaqələrinin inkişafında parlamentlər də xüsusi rol oynayır. Milli Məclisdə yaradılmış Azərbaycan-Ukrayna parlamentlərarası işçi qrupunda 21 deputat təmsil olunur. Deputatlarımız xalqlarımızın milli mənafeyinə xidmət edən məsələlərdə çox vaxt eyni mövqedən çıxış edirlər. Oqtay Əsədov GUAM çərçivəsində əməkdaşlıqdan razılığını ifadə etmişdir.

Prezident Viktor Yuşşenko Azərbaycan-Ukrayna əməkdaşlığının strateji xarakter daşıdığını vurğuladı. Ali qonaq indiki səfəri çərçivəsində keçirilən görüşlərdən, aparılan müzakirələrdən danışdı, növbəti illərdə birgə reallaşdırılacaq layihələrin, görüləcək işlərin ölkələrimizə və xalqlarımıza xeyir gətirəcəyini dedi. Ukrayna Prezidenti ölkəsinin Azərbaycan ilə əlaqələrinin daha da inkişafında maraqlı olduğunu vurğulayaraq dedi ki, əməkdaşlığı bundan sonra da genişləndirmək və qarşılıqlı ticarət dövriyyəsini artırmaq üçün yaxşı potensial var.

Viktor Yuşşenko Azərbaycan parlamentinə gələcək fəaliyyətində uğurlar arzuladı.

UKRAYNA PREZİDENTİ BSU-NUN MÜƏLLİM VƏ TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Ukrayna Prezidenti Viktor Yuşşenko və xanımı Katerina Yuşşenko aprelin 10-da Bakı Slavyan Universitetində (BSU) olmuşlar.

Ukrayna Prezidentini və xanımını burada səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Ukrayna dövlətinin başçısı əvvəlcə Taras Şevçenko adına Ukrayna dili linqafon kabine-

tinin açılışında iştirak etdi.

Sonra Prezident Yuşşenko və xanımı Ukrayna Mədəniyyət Mərkəzi və Ukrayna bazar günü məktəbi ilə tanış oldular. Məktəbin dinləyiciləri və BSU-da ukraynaşünaslıq ixtisası üzrə təhsil alan tələbələr ali qonağı və xanımını Ukrayna dilində səmimiyyətlə salamladılar.

Prezident Viktor Yuşşenkoya məlumat verildi ki, 2001-ci ildə Ukrayna Ali Radasının sədri İvan Plyuş tərəfindən açılan Ukrayna Mədəniyyət Mərkəzi hazırda universitetdə fəaliyyət göstərən mərkəzlərdən birincisidir. Onun nəzdindəki Ukrayna bazar günü məktəbi isə respublikamızda ilk belə məktəbdir.

Daha sonra Prezident Viktor Yuşşenko universitetin elmi şurasının üzvləri, professor-müəllim heyəti və tələbələri ilə görüşdü.

BSU-nun rektoru, AMEA-nın müxbir üzvü Kamal Abdullayev ali qonağı universitetin professor-müəllim heyəti və tələbələri adından salamladı.

Rektor dedi ki, Ukrayna Prezidentini Azərbaycanda müdrik, iradəli siyasətçi, ölkəmizin böyük dostu kimi tanıyırlar. Elmi şuranın üzvləri və universitetin bütün kollektivi əmindir ki, BSU-nun fəxri doktoru Viktor Yuşşenko ölkələrimizin elmi-mədəni əlaqələrinin daha da genişlənməsinə, BSU ilə Ukraynanın ali təhsil müəssisələri arasında əməkdaşlığın dərinləşməsi üçün əlavə imkanlar yaradılmasına, Bakının bu təhsil ocağında ukraynaşünas mütəxəssislər hazırlanmasının keyfiyyətinin yaxşılaşmasına kömək edəcəkdir.

K.Abdullayev vurğuladı ki, ümummilli lider Heydər Əliyevin Fərmanı ilə 2000-ci ildə yaradılan Bakı Slavyan Universiteti Azərbaycan ilə Ukrayna arasında mənəvi, elmi, mədəni əlaqələrin inkişafında xüsusi rol oynayır. BSU-da ukraynaşünaslıq həm bakalavr, həm də magistr pillələrində tədris olunur. Məzunlar Azərbaycanın müxtəlif təşkilatlarında uğurla çalışır, bir çoxları Ukrayna-Azərbaycan əlaqələrinə dair elmi araşdırmalar aparırlar.

Prezident Viktor Yuşşenko Azərbaycana rəsmi səfərini, aparılmış danışıqları yüksək qiymətləndirərək bildirdi ki, ikitərəfli münasibətlərimiz dinamik inkişaf edir. Konkret iqtisadi layihələrin həyata keçirilməsi də daxil olmaqla, bizi əla perspektivlər gözləyir.

Ukrayna rəhbəri Azərbaycan xalqını qazandığı uğurlar münasibətilə təbrik etdi və əminliklə dedi ki, Ukrayna dövlətinin və xalqının simasında Azərbaycan xalqının həmişə dostları olacaqdır. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə toxunaraq bəyan etdi ki, Ukrayna münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını dəstəkləyir.

Prezident Viktor Yuşşenko Azərbaycan paytaxtında onun ölkəsinin, xalqının tarixini, dilini və mədəniyyətini öyrənən universitetin fəaliyyət göstərməsinin Ukrayna üçün çox mühüm olduğunu vurğuladı, BSU-nun tələbələrinə və professor-müəllim heyətinə yeni uğurlar, dost Azərbaycan xalqına isə sülh və tərəqqi arzuladı.

Görüşdə iştirak edən Azərbaycan Baş nazirinin müavini Elçin Əfəndiyev BSU-nun avropaşünaslıq kafedrasının dosenti Habil Məmmədovun "Müasir Ukrayna tarixi" kitabını və Taras Şevçenkonun Azərbaycan dilində nəşr olunmuş seçilmiş əsərlərini Ukrayna

dövlətinin başçısına təqdim etdi.

BSU-nun rektoru Kamal Abdullayevə Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasının Ukrayna və Azərbaycan dillərində yubiley nəşri təqdim olundu.

Ukrayna Prezidenti universitet tələbələrinin suallarına cavab verdi.

UKRAYNA KİV-LƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSI

Ukrayna Prezidenti Viktor Yuşşenko aprelin 10-da, BSU-da görüşdən sonra Azərbaycana səfərdə onu müşayiət edən Ukrayna KİV-lərinin təmsilçiləri üçün mətbuat konfransı keçirmişdir.

Prezident Viktor Yuşşenko Ukraynanın xarici siyasət xəttindən danışaraq dedi ki, biz Azərbaycan ilə ikitərəfli münasibətləri, siyasi dialoqun inkişafını yüksək qiymətləndiririk. İqtisadi əməkdaşlıq da dinamik artır, keçən il iki ölkə arasında əmtəə dövriyyəsi ilk dəfə 1 milyard dollara çatmışdır.

Ukrayna Prezidenti Azərbaycana rəsmi səfəri, aparılmış danışıqlar, imzalanmış sənədlər barədə də məlumat verdi. O bildirdi ki, görüşlərdə energetika sahəsində əməkdaşlıq məsələlərinə mühüm yer verilmişdir. Humanitar sahədə əməkdaşlıq da diqqət mərkəzində olmuşdur. Bizi əla perspektivlər gözləyir. Bu səfər iki ölkənin ali rəhbərliyi, hökumətləri arasında etimadı möhkəmlətmək üçün yaxşı imkan olacaqdır.

Sonda Prezident jurnalistlərin suallarına cavab verdi.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO BÖYÜK KOBZAR TARAS ŞEVÇENKONUN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycanda rəsmi səfərdə olan Ukrayna Prezidenti Viktor Yuşşenko aprelin 10-da görkəmli Ukrayna şairi Taras Şevçenkonun Bakıda ucaldılmış abidəsini ziyarət etmişdir.

Ukraynanın dövlət başçısı və xanımı Katerina Yuşşenko böyük kobzarın xatirəsini ehtiramla anaraq, onun abidəsi önünə əklil qoydular.

Prezident Viktor Yuşşenko Azərbaycandakı Ukrayna diasporunun nümayəndələri ilə səmimi söhbət etdi, xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN XALÇALARININ NÜMUNƏLƏRİ ZƏNGİN TƏƏSSÜRAT DOĞURMUŞDUR

Ukrayna Prezidenti Viktor Yuşşenko və xanımı Katerina Yuşşenko aprelin 10-da "Azər-İlmə" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Sehrli ilmələr" qalereyasında olmuşlar.

Ali qonağa və xanımına məlumat verildi ki, xalçaçılıq Azərbaycanın ən qədim el sənətlərindən biridir. Qədim səyyahlar, salnaməçilər ölkəmizdə toxunan xalı-xalçanın yüksək keyfiyyəti, zəngin çeşniləri barədə yazılı məlumatlar vermiş, Şirvan, Təbriz, Qarabağ, Qazax, Gəncə, Quba xalçalarının Böyük İpək yolu üstündəki bütün ölkələrdə məşhur olduğunu bildirmişlər.

Azərbaycanın xalı və xalçaları indi də dünyanın bir çox muzeylərinin ən nadir eksponatlarından sayılır. 1996-cı ildən fəaliyyətə başlamış, hazırda 350 nəfərin çalışdığı "Azər-İlmə"nin məhsulları ABŞ, Almaniya, Avstriya, İngiltərə, İtaliya, Yaponiya və Rusiyada keçirilən satış sərgilərində xüsusi mükafatlara və sertifikatlara layiq görülmüşdür.

Müəssisədə yun və ipək saplardan toxunan, ilmələrin incəliyi və yüksək sıxlığı, tərtibatın orijinallığı, milli koloriti ilə seçilən xalçalar bütün beynəlxalq standartlara cavab verir. Sapları boyamaq üçün ancaq təbii rənglərdən istifadə edilir, eskizlər yalnız milli naxış və çeşnilərdən götürülür. İşlədilən bütün xammal yerli məhsullardır.

Ali qonaq və xanımı qalereyanın zəngin eksponatlarına baxdı, boyama, toxuma prosesini maraqla izlədilər, xalçaçı qızlarla səmimi söhbət etdilər.

Ukraynanın birinci xanımı toxucuların köməyi ilə hanada toxunan orijinal kompozisiyalı xalçaya bir neçə ilmə də vurdu.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ İLƏ TANIŞ OLMUŞDUR

Ukrayna Prezidenti Viktor Yuşşenko və xanımı Katerina Yuşşenko aprelin 10-da Beynəlxalq Muğam Mərkəzində olmuşlar.

Burada ali qonağı Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və digər rəsmi şəxslər qarşıladılar.

Ukrayna Prezidentinə və xanımına dənizkənarı Milli parkda yerləşən Mərkəz haqqında ətraflı məlumat verildi. Bildirildi ki, Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı layihələr sırasında xüsusi əhəmiyyəti olan bu Mərkəzin inşası Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir. 2005-ci il aprelin 6-da Prezident İlham Əliyev Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında Sərəncam imzalamışdır. Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada YUNESKO-nun Dünya irs siyahısına daxil edilməsi onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.

Mərkəz ilə yaxından tanış olan Prezident Viktor Yuşşenko və xanımı Azərbaycanın görkəmli muğam ifaçılarının büstlərinə və "Ud" restoranına da baxdılar.

AZƏRBAYCAN VƏ UKRAYNA XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Aprelin 10-da Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov Ukrayna Prezidenti Viktor Yuşşenkonun respublikamıza rəsmi səfəri ilə əlaqədar ölkəmizdə olan Ukrayna Xarici Kəşfiyyat Xidmətinin rəisi, ordu generalı Nikolay Malomuj ilə görüşmüşdür.

dövlətinin başçısına təqdim etdi.

BSU-nun rektoru Kamal Abdullayevə Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasının Ukrayna və Azərbaycan dillərində yubiley nəşri təqdim olundu.

Ukrayna Prezidenti universitet tələbələrinin suallarına cavab verdi.

UKRAYNA KİV-LƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSI

Ukrayna Prezidenti Viktor Yuşşenko aprelin 10-da, BSU-da görüşdən sonra Azərbaycana səfərdə onu müşayiət edən Ukrayna KİV-lərinin təmsilçiləri üçün mətbuat konfransı keçirmişdir.

Prezident Viktor Yuşşenko Ukraynanın xarici siyasət xəttindən danışaraq dedi ki, biz Azərbaycan ilə ikitərəfli münasibətləri, siyasi dialoqun inkişafını yüksək qiymətləndiririk. İqtisadi əməkdaşlıq da dinamik artır, keçən il iki ölkə arasında əmtəə dövriyyəsi ilk dəfə 1 milyard dollara çatmışdır.

Ukrayna Prezidenti Azərbaycana rəsmi səfəri, aparılmış danışıqlar, imzalanmış sənədlər barədə də məlumat verdi. O bildirdi ki, görüşlərdə energetika sahəsində əməkdaşlıq məsələlərinə mühüm yer verilmişdir. Humanitar sahədə əməkdaşlıq da diqqət mərkəzində olmuşdur. Bizi ola perspektivlər gözləyir. Bu səfər iki ölkənin ali rəhbərliyi, hökumətləri arasında etimadı möhkəmlətmək üçün yaxşı imkan olacaqdır.

Sonda Prezident jurnalistlərin suallarına cavab verdi.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO BÖYÜK KOBZAR TARAS ŞEVÇENKONUN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycanda rəsmi səfərdə olan Ukrayna Prezidenti Viktor Yuşşenko aprelin 10-da görkəmli Ukrayna şairi Taras Şevçenkonun Bakıda ucaldılmış abidəsini ziyarət etmişdir.

Ukraynanın dövlət başçısı və xanımı Katerina Yuşşenko böyük kobzarın xatirəsini ehtiramla anaraq, onun abidəsi önünə əklil qoydular.

Prezident Viktor Yuşşenko Azərbaycandakı Ukrayna diasporunun nümayəndələri ilə səmimi söhbət etdi, xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN XALÇALARININ NÜMUNƏLƏRİ ZƏNGİN TƏƏSSÜRAT DOĞURMUŞDUR

Ukrayna Prezidenti Viktor Yuşşenko və xanımı Katerina Yuşşenko aprelin 10-da "Azər-İlmə" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Sehrli ilmələr" qalereyasında olmuşlar.

Ali qonağa və xanımına məlumat verildi ki, xalçaçılıq Azərbaycanın ən qədim el sənətlərindən biridir. Qədim səyyahlar, salnaməçilər ölkəmizdə toxunan xalı-xalçanın yüksək keyfiyyəti, zəngin çeşniləri barədə yazılı məlumatlar vermiş, Şirvan, Təbriz, Qarabağ, Qazax, Gəncə, Quba xalçalarının Böyük İpək yolu üstündəki bütün ölkələrdə məşhur olduğunu bildirmişlər.

Azərbaycanın xalı və xalçaları indi də dünyanın bir çox muzeylərinin ən nadir eksponatlarından sayılır. 1996-cı ildən fəaliyyətə başlamış, hazırda 350 nəfərin çalışdığı "Azər-İlmə"nin məhsulları ABŞ, Almaniya, Avstriya, İngiltərə, İtaliya, Yaponiya və Rusiyada keçirilən satış sərgilərində xüsusi mükafatlara və sertifikatlara layiq görülmüşdür.

Müəssisədə yun və ipək saplardan toxunan, ilmələrin incəliyi və yüksək sıxlığı, tərtibatın orijinallığı, milli koloriti ilə seçilən xalçalar bütün beynəlxalq standartlara cavab verir. Sapları boyamaq üçün ancaq təbii rənglərdən istifadə edilir, eskizlər yalnız milli naxış və çeşnilərdən götürülür. İşlədilən bütün xammal yerli məhsullardır.

Ali qonaq və xanımı qalereyanın zəngin eksponatlarına baxdı, boyama, toxuma prosesini maraqla izlədilər, xalçaçı qızlarla səmimi söhbət etdilər.

Ukraynanın birinci xanımı toxucuların köməyi ilə hanada toxunan orijinal kompozisiyalı xalçaya bir neçə ilmə də vurdu.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ İLƏ TANIŞ OLMUŞDUR

Ukrayna Prezidenti Viktor Yuşşenko və xanımı Katerina Yuşşenko aprelin 10-da Beynəlxalq Muğam Mərkəzində olmuşlar.

Burada ali qonağı Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və digər rəsmi şəxslər qarşıladılar.

Ukrayna Prezidentinə və xanımına dənizkənarı Milli parkda yerləşən Mərkəz haqqında ətraflı məlumat verildi. Bildirildi ki, Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı layihələr sırasında xüsusi əhəmiyyəti olan bu Mərkəzin inşası Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir. 2005-ci il aprelin 6-da Prezident İlham Əliyev Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında Sərəncam imzalamışdır. Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada YUNESKO-nun Dünya irs siyahısına daxil edilməsi onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.

Mərkəz ilə yaxından tanış olan Prezident Viktor Yuşşenko və xanımı Azərbaycanın görkəmli muğam ifaçılarının büstlərinə və "Ud" restoranına da baxdılar.

AZƏRBAYCAN VƏ UKRAYNA XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Aprelin 10-da Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov Ukrayna Prezidenti Viktor Yuşşenkonun respublikamıza rəsmi səfəri ilə əlaqədar ölkəmizdə olan Ukrayna Xarici Kəşfiyyat Xidmətinin rəisi, ordu generalı Nikolay Malomuj ilə görüşmüşdür.

Nazir Eldar Mahmudov Ukrayna Xarici Kəşfiyyat Xidməti rəisinin Azərbaycana ilk səfərinin hər iki ölkənin müvafiq strukturları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində atılan növbəti addım kimi qiymətləndirmişdir.

Görüşdə tərəflər arasında transmilli mütəşəkkil cinayətkarlıq, hazırda ən aktual problem olan terrorçuluqla mübarizə sahəsində görülən işlər, narkotiklərin qanunsuz dövriyyəsi, miqrasiya prosesləri, bundan irəli gələn məsələlərlə bağlı fikir mübadiləsi aparılmış, Ukrayna və Azərbaycanın xüsusi xidmət orqanları arasında işgüzar və səmərəli əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunmuşdur.

Milli təhlükəsizlik naziri Eldar Mahmudov mövcud əməliyyat şəraiti və ona təsir göstərən amillər, beynəlxalq terrorçuluqla mübarizə sahəsində, ümumən təhlükəsizlik problemləri ilə əlaqədar Azərbaycanın həyata keçirdiyi tədbirlər, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin doğurduğu, eləcə də onun nəticəsində yaranmış nəzarət olunmayan ərazilərin mövcudluğundan irəli gələn fəsadlar barədə ətraflı məlumat vermişdir.

Göstərilən yüksək qonaqpərvərliyə, ətraflı məlumata görə təşəkkürünü bildirən Nikolay Malomuj, ölkələrimizin təhlükəsizlik maraqlarının təmin olunması sahəsində aktual məsələlər ətrafında aparılan müzakirələrin nəticələrindən razı qaldığını qeyd etmişdir. Qonaq Ukrayna və Azərbaycan, həmçinin müvafiq strukturlar arasında münasibətlərin inkişafından məmnun olduğunu, səfər çərçivəsində Ukrayna Xarici Kəşfiyyat Xidməti və Milli Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlığa dair imzalanmış sazişin ölkələrimizin əlaqələrinin daha da möhkəmlənməsi üçün faydalı olacağına əminliyini qeyd etmişdir.

İşgüzar və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə tərəfləri maraqlandıran məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

SƏFƏR BAŞA ÇATDI

Aprelin 10-da Ukrayna Prezidenti Viktor Yuşşenkonun Azərbaycana rəsmi səfəri başa çatmışdır.

Azərbaycanın və Ukraynanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Viktor Yuşşenkonu və xanımı Katerina Yuşşenkonu Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola saldılar.

AŞQABADDA MDB XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR

Aprelin 10-da Aşqabadda MDB Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) növbəti iclası keçirilmişdir.

Şuranın iclasında ölkəmizi Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov təmsil etmişdir.

İclasın açılışında Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov çıxış etmiş, iştirakçılara uğurlar arzulamışdır.

Tədbirdə dünyada gedən maliyyə və iqtisadi böhranının qarşısının alınması istiqamətində birgə fəaliyyət tədbirlərinin hazırlanması, bu ölkələrdə təhlükəsizliyin təmin olunması, 2009-2010-cu illərdə MDB ölkələri arasında humanitar sahədə əlaqələrin dərinləşdirilməsi ilə bağlı Tədbirlər Planı müzakirə edilmiş, birlik dövlətləri arasında razılaşdırılmış miqrasiya siyasəti ilə əlaqədar informasiya dinlənilmişdir.

İclasda 2010-cu ilədək dövrdə təhsil sahəsində MDB ölkələri arasında əməkdaşlıq üzrə Tədbirlər Planının təsdiq edilməsi, 2010-cu ilin MDB ölkələrində Böyük Vətən Müharibəsi Veteranları İli elan olunması, həmçinin birlik dövlətlərində veteran təşkilatları haqqında qərarlar qəbul edilmişdir.

XİNŞ-ın iclasında cinayətkarlıqla mübarizə sahəsində informasiya mübadiləsi aparılması haqqında Müqavilənin layihəsi təsdiq olunmuş, Moldovada vəziyyətlə bağlı Birgə Bəyanat qəbul edilmişdir.

Ümumiyyətlə, iclasda 20-yə yaxın məsələ müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp-AZƏRBAYCAN ŞİRKƏTİNİN PREZİDENTİ BİLL ŞREDERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də bp-Azərbaycan şirkətinin prezidenti Bill Şrederin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

bp-nin yüz illik yubileyi münasibətilə təbriklərini çatdıran Prezident İlham Əliyev bu tarixi günü təkcə bp-nin həyatında deyil, bütövlükdə neft sənayesinin tarixində əlamətdar gün kimi dəyərləndirdi. Dövlətimizin başçısı bildirdi ki, ötən dövr ərzində bp dünyanın aparıcı şirkətlərindən birinə çevrilmiş və özünü səriştəli şirkət kimi göstərmişdir. Azərbaycanın bp şirkəti ilə on beş illik uğurlu əməkdaşlığına toxunan Prezident İlham Əliyev qarşılıqlı fayda verən bu tərəfdaşlığın ümumilikdə Xəzər regionunda əməkdaşlıq üçün geniş imkanlar açdığını dedi. Dövlətimizin başçısı Azərbaycanın bp şirkəti ilə əməkdaşlığını dünyanın nüfuzlu şirkəti ilə dövlət arasında əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirdi.

Prezident dedi ki, zəngin təbii ehtiyatlara malik olan Azərbaycan yalnız müstəqillik əldə etdikdən sonra öz sərvətlərinin sahibi kimi bu sərvətləri xalqımızın və ölkəmizin rifahı istiqamətinə yönəldə bildi, ölkəmiz regionda və eləcə də dünyada enerji sahəsində əməkdaşlığa öz töhfəsini verdi. Dövlətimizin başçısı neft gəlirlərindən səmərəli istifadə etməklə Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinə nail olunduğunu və regionlarda mühüm infrastruktur layihələrinin reallaşdırıldığını vurğuladı. Ölkəmizdə bütün sahələrdə uğurlu islahatların həyata keçirildiyini xatırladan Prezident İlham Əliyev bu islahatların 1994-cü ilin sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ilə başlandığını bildirdi. Yubiley münasibətilə bir daha təbriklərini çatdıran Prezident İlham Əliyev Azərbaycanın dövlət strukturları və şirkətləri ilə bp arasında olan yaxşı tərəfdaşlıq ruhunun gələcəkdə də qarşılıqlı maraqlara xidmət edəcəyinə əminliyini söylədi.

Bill Şreder bp-nin yubileyi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşlərindən məmnun olduqlarını dedi. O, Azərbaycanın neft sənayesinin böyük tarixinin olduğunu, ölkəmizin bu sahədə son 15 ildə mühüm nailiyyətlər qazandığını və bp şirkəti-

nin də bu inkişafda payı olmasından böyük şərəf duyduqlarını qeyd etdi. Bill Şreder bildirdi ki, Azərbaycan bp şirkəti ilə əməkdaşlıq edən elə ölkələrdəndir ki, şirkətin icraçı direktoru Toni Heyvard və icraçı vitse-prezidenti Endryu İnqlis həmişə Azərbaycanı dünyada əsl uğur modeli kimi dəyərləndirmişlər. O, bp şirkətinin Azərbaycanla uğurlu əməkdaşlığının bundan sonra da davam edəcəyinə əminliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏNİN HOLSİM GROUP ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ BAŞ DİREKTORU MARKUS AKERMANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də İsveçrənin nüfuzlu Holsim Group şirkətinin idarə heyətinin sədri və baş direktoru Markus Akermanı qəbul etmişdir.

Dövlətimizin başçısı dünyadakı maliyyə böhranına baxmayaraq, Azərbaycanda sürətli iqtisadi inkişaf proseslərinin davam etdiyini, ölkəmizdə yeni iş yerlərinin açılması, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl tədbirlərin görüldüyünü bildirdi. Prezident İlham Əliyev xarici sərmayənin cəlb olunması və xarici şirkətlərin fəaliyyəti üçün ölkəmizdə əlverişli şəraitin yaradıldığını dedi. Azərbaycanın etibarlı tərəfdaş olduğunu vurğulayan dövlətimizin başçısı Holsim şirkəti ilə tərəfdaşlığın da böyük əhəmiyyət daşıdığını qeyd etdi və bunun Azərbaycan-İsveçrə iqtisadi əlaqələrinin genişlənməsinə töhfə verəcəyinə əminliyini söylədi.

Dünyanın 70-dən çox ölkəsində çalışdıqlarını xatırladan Holsim Group şirkətinin idarə heyətinin sədri və baş direktoru Markus Akerman Azərbaycandakı fəaliyyətlərindən məmnunluğunu bildirdi. O dedi ki, Holsim Group şirkəti yeni texnologiyalar gətirmək, ətraf mühitin mühafizəsi işinə sərmayə qoymaq və yüksək keyfiyyətli məhsul istehsal etməklə Azərbaycandakı sürətli inkişafı dəstəkləmək arzusundadır. Azərbaycanda əlverişli investisiya mühitinin olduğunu deyən Markus Akerman rəhbərlik etdiyi şirkətin ölkəmizdə gələcəkdə də fəaliyyət göstərəcəyinə əminliyini bildirdi.

BAKIDA "İNTERSPUTNİK" TƏŞKİLATININ SESSİYALARI KEÇİRİLİR

Aprelin 14-də Bakıda Azərbaycan rabitə və informasiya texnologiyaları naziri Əli Abbasovun dəvəti ilə "İnterputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatı (BKRT) Şurasının XXXVII və İstismar Komitəsinin 9-cu birgə sessiyası başlamışdır.

Sessiyada giriş sözü ilə təşkilatın baş direktoru Vadim Belov çıxış etmişdir.

Daha sonra iştirakçılar yekdilliklə Azərbaycan rabitə və informasiya texnologiyaları naziri Əli Abbasovu növbəti bir ilə BKRT Şurasının sədri seçmişlər.

Birgə sessiya çərçivəsində Şura və İstismar Komitəsi təşkilatın fəaliyyəti ilə bağlı məsələlərə baxmış, bir sıra vacib qərarlar qəbul etmişdir.

Sessiya iştirakçılarına "İnterputnik"in baş direktorunun təşkilatın ötən il gördüyü işlərin nəticələrinə dair hesabatı təqdim olunmuşdur. Hesabat yüksək qiymətləndirilmişdir.

Sessiyada İstismar Sazişində "İnterputnik"in üzvləri və iştirakçıları arasında dividendlərin bölüşdürülmə mexanizminin dəqiqləşdirilməsi ilə bağlı ediləcək dəyişikliklər müzakirə olunmuşdur. Təklif olunmuş dəyişikliklər bəyənilmiş və müvafiq qərardan sonra qüvvəyə minmişdir.

Müzakirə olunan əsas məsələlər sırasında, həmçinin BKRT-nin peyk şəbəkələrinə dair sənədlərin, bu şəbəkələrin qeydiyyatı və beynəlxalq tezliklə bağlı məsələlər də yer almışdır.

Birgə sessiya zamanı İstismar Komitəsi sədrinin qurumun ötənilki fəaliyyətinə dair, eləcə də Müfəttiş Komissiyasının "İnterputnik"in maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması barədə hesabatları dinlənildikdən sonra təsdiq olunmuşdur. Həmçinin iştirakçılar "İnterputnik Holdinq" çərçivəsində beynəlxalq şirkət-operatorlar qrupunun fəaliyyəti barədə məlumatlandırılmışlar.

Tədbirdə "İnterputnik"in baş direktorunun seçkisi keçirilmişdir. Bu vəzifəyə dörd il müddətinə təşkilatın hazırkı baş direktoru Vadim Belov seçilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ FƏHD BİN ƏLİ ƏL-DÜSƏRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fəhd bin Əli əl-Düsərinin etimadnaməsini qəbul etmişdir.

Səfir Prezident sarayında fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Fəhd bin Əli əl-Düsəri etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi

Səfir Fəhd bin Əli əl-Düsəri İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Abdullah bin Əbdüləzizin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycana səfir təyin olunmasından böyük şərəf duyduğunu, ölkəmizdəki diplomatik fəaliyyəti dövründə ikitərəfli əlaqələrin daha da möhkəmlənməsi işində səylərini əsirgəməyəcəyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı ilə keçirdiyi görüşləri məmnunluqla xatırladı, qarşılıqlı əlaqələrin möhkəmlənməsində bu görüşlərin əhəmiyyətini qeyd etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərdə dostluq və tərəfdaşlıq ruhunun olduğunu, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini daim dəstəkləməkdə davam etdiklərini vurğuladı.

Səfirə Azərbaycandakı fəaliyyətində uğurlar arzulayan Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, ölkəmizdəki fəaliyyəti müddətində o, əlaqələrimizin daha da genişlənməsində səylərini əsirgəməyəcəkdir.

Dövlətimizin başçısı Səudiyyə Ərəbistanının Kralı Abdullah bin Əbdüləzizin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAQIN TURİZM VƏ TARİXİ ABİDƏLƏR NAZİRİ KAHTAN ABBAS NOMAN ƏL-CUBURİ ALAVADİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də İraqın turizm və tarixi abidələr naziri Kahtan Abbas Noman Əl-Cuburi Alavadinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanın İraqla münasibətlərin inkişaf etdirilməsində və fəal əməkdaşlıq əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu bildirdi. Qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların mövcudluğunu vurğuladı. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, İraqın turizm və tarixi abidələr naziri Kahtan Abbas Noman Əl-Cuburi Alavadinin başçılıq etdiyi nümayəndə heyətinin səfəri iki ölkənin müvafiq qurumları arasında əməkdaşlıq imkanlarını nəzərdən keçirmək və Azərbaycanla tanışlıq baxımından əhəmiyyətli olacaqdır.

İraqın turizm və tarixi abidələr naziri Kahtan Abbas Noman Əl-Cuburi Alavadi İraq Prezidenti Cəlal Tələbaninin və Baş nazir Nuri Əl-Malikinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Ölkəmizə səfərindən məmnunluğunu bildirən qonaq İraqın çətin vaxtlarında Azərbaycan xalqının göstərdiyi dəstəyi minnətdarlıq hissi ilə xatırladı. Kahtan Abbas Noman Əl-Cuburi Alavadi Azərbaycanın və İraqın turizm və tarixi abidələr sahəsində əməkdaşlığını müzakirə etmək üçün bu səfərin yaxşı imkan yaratdığını söylədi.

Dövlətimizin başçısı İraq Prezidenti Cəlal Tələbaninin və Baş nazir Nuri Əl-Malikinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İraqın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN MÜŞAVİRİ, ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də ABŞ dövlət katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya regionu üzrə müşaviri, ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Mətyu Brayzəni qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XƏZƏRİN STATUSUNA DAİR DANIŞIQLARIN MOSKVA RAUNDU KEÇİRİLMİŞDİR

Rusiya Federasiyasının Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsinə dair xüsusi işçi qrupunun nümayəndəsi Aleksandr Qolovin aprelin 15-də Moskvada keçirilən mətbuat konfransında bildirmişdir ki, Xəzərin hüquqi statusuna dair Konvensiyanın mətni 70-80 faiz razılaşdırılsa da, bəzi müddəalarla bağlı razılıq əldə olunmamışdır.

O demişdir ki, işçi qrupunun ikigünlük iclasında tərəflər Konvensiyanın mətninin razılaşdırılmasını davam etdirmiş, beştərəfli Moskva görüşünü müsbət qiymətləndirmiş, onun yekunlarına dair rəsmi məlumat qəbul etmişlər.

A.Qolovin razılaşdırılmamış məsələlərə toxunaraq vurğulamışdır ki, bu, həm Xəzərin dibinin bölünməsi, - bu barədə saziş yalnız Rusiya, Azərbaycan və Qazaxıstan arasında imzalanmışdır, - həm də akvatoriyanın delimitasiyasına aiddir. O demişdir: "Bunlar, üzərində işlədiyimiz mühüm məsələlərdir. Lakin bu, o demək deyildir ki, bir-birimizdən uzaqdayıq. Hər dəfə görüşəndə mövqelərimizi yaxınlaşdırırıq. Biz qarşılıqlı surətdə məqbul formulların axtarışındayıq".

O ümidvar olduğunu bildirmişdir ki, Xəzərin təhlükəsizliyi məsələlərinə dair Bakıda keçiriləcək məsləhətləşmələr, konkret olaraq, Azərbaycan tərəfinin təklif etdiyi sənədin müzakirəsi, habelə Xəzəryanı dövlətlərin başçılarının bu il Bakıda nəzərdə tutulmuş üçüncü zirvə görüşü səmərəli xarakter daşıyacaqdır.

Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov mətbuat konfransında demişdir: "Xəzəryanı dövlətlərin iqtisadi əməkdaşlıq təşkilatının yaradılmasına dair mövqeyi müvafiq məsələlər razılaşdırıldıqdan sonra açıqlanacaqdır. Biz bu və ya digər məsələ, o cümlədən iqtisadi əməkdaşlıq təşkilatı ilə bağlı bütün mövqeləri razılaşdırandan sonra dövlət başçılarının müvafiq qərarı qəbul ediləcəkdir. Biz isə hələlik bütün məsələləri razılaşdırmaq məqsədi ilə işçi qrupu və ekspertlər səviyyəsində işləyirik. Sahilyanı ölkələr Xəzərə dair vaxtı çatmış bütün məsələlərlə bağlı fəal dialoq aparırlar. Biz həm iqtisadi, həm təhlükəsizliklə bağlı məsələləri, həm də bütün Xəzəryanı dövlətlər üçün maraq doğuran digər məsələləri fəal surətdə müzakirə edirik".

İranın nümayəndəsi Mehdi Səfəri isə bildirmişdir ki, Xəzərin bərabər hissələrə bölünməsi məsələsində İranın mövqeyi dəyişməmişdir. Lakin buna baxmayaraq, həmin məsələ ilə bağlı Azərbaycan və Türkmənistan ilə müsbət xarakterli məsləhətləşmələr aparılır. M.Səfəri demişdir: "Təbii ki, hər bir dövlət öz milli maraqlarını müdafiə edir. Ona görə də biz müxtəlif məsələləri müzakirə etmək və mövqelərimizi yaxınlaşdırmaq üçün bir araya gəlirik".

O, dövlət başçılarının Tehran zirvə görüşünü, Həştərxanda keçirilən hökumətlərarası iqtisadi konfransı yüksək qiymətləndirərək, ümidvar olduğunu bildirmişdir ki, Xəzərdə iqtisadi əməkdaşlıq təşkilatının yaradılması üçün nəzərdə tutulan konturlar Bakı görüşlərində daha dəqiq müəyyən olunacaqdır.

M.Səfəri sabitlik və təhlükəsizlik məsələlərinə dair Azərbaycanın təklif etdiyi sənədin layihəsini yüksək qiymətləndirərək, onun yaxın vaxtlarda Bakıda imzalanacağını istisna etməmişdir.

AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ İORDANİYA HAŞİMİLƏR KRALLIĞINDA RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycanın müdafiə naziri, general-polkovnik Səfər Əbiyev aprelin 13-dən 15-dək İordaniya Haşimilər Krallığında rəsmi səfərdə olmuşdur. O, Krallığın baş naziri, müdafiə naziri Nader Dəhabi ilə görüşmüşdür.

Görüşdə Azərbaycan-İordaniya əlaqələrinin hazırkı vəziyyəti və hər iki ölkənin dövlət

başçılarının qarşılıqlı münasibətlərə xoş töhfələr verməsi önə çəkilmişdir.

S.Əbiyevin İordaniya Silahlı Qüvvələrinin Birləşmiş Qərargah rəisləri Komitəsinin sədri, general-polkovnik Xalid Cəmil Əl-Sarayrah ilə də görüşmüşdür.

İordaniya Birləşmiş Qərargah rəisləri Komitəsi sədrinin dəvəti ilə baş tutan bu səfər zamanı hərbi əməkdaşlıq və regional təhlükəsizlik məsələləri müzakirə edilmişdir.

Nazir İordaniyanın nümunəvi hərbi hissələri ilə tanış olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏNİN İQTİSADİ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ JAN-DANİEL GERBERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da İsveçrənin iqtisadi məsələləri üzrə dövlət katibi, hökumətlərarası iqtisadi komissiyanın həmsədri Jan-Daniel Gerberi qəbul etmişdir.

Jan-Daniel Gerber Dünya Bankının Azərbaycan üzrə nümayəndəsi olarkən ölkəmizdə bir neçə dəfə səfərdə olduğunu bildirdi, xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini ehtiramla xatırladı. O, ötən dövr ərzində Azərbaycanda çox böyük iqtisadi inkişaf proseslərinin getdiyini və əldə olunan bütün bu nailiyyətləri ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin misilsiz xidmətlərinin nəticəsi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı Azərbaycanla İsveçrə arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirdi. Prezident İlham Əliyev ölkəmizin beynəlxalq maliyyə qurumları ilə, o cümlədən Dünya Bankı ilə də səmərəli əməkdaşlıq etdiyini vurğuladı. Dövlətimizin başçısı əminliklə qeyd etdi ki, Jan-Daniel Gerberin ölkəmizə bu səfəri Azərbaycan-İsveçrə münasibətlərinin daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN XARİCİ İŞLƏR NAZİRİ MARİS RİEKSTİNŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Latviyanın xarici işlər naziri Maris Riekstinşin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, bu baxımdan yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi, Latviyanın xarici işlər nazirinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin möhkəmlənməsinə xidmət edəcəyinə əminlik ifadə olundu.

XARİCİ İŞLƏR NAZİRİ ATƏT-İN BAKI OFİSİNİN YENİ RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 16-da xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in Bakı ofisinin yeni rəhbəri Əli Bilgə Cankorel ilə görüşmüşdür.

Səfir Ə.B.Cankorel Azərbaycana təyinatından məmnun olduğunu diqqətə çatdırmış və fəaliyyət dövründə rəhbərlik etdiyi təşkilatın Azərbaycanın Xarici İşlər Nazirliyi ilə sıx, faydalı və səmərəli əlaqələr quracağını demişdir.

Nazir E.Məmmədyarov Əli Bilgə Cankoreli yeni təyinatı münasibətilə təbrik etmiş, ATƏT-in Bakı ofisi ilə daim sıx və səmərəli əlaqələrin olduğunu qeyd edərək, bu əməkdaşlığın daha da genişlənəcəyi və möhkəmlənəcəyinə ümidvar olduğunu bildirmişdir.

Nazir Əli Bilgə Cankorelə yeni vəzifəsində uğurlar arzulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ

Aprelin 16-da Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.

Moskvanın "Vnukovo-2" hava limanında Azərbaycan dövlətinin başçısını və onun xanımı Mehriban Əliyevanı Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ

Aprelin 17-də Rusiya Prezidentinin Moskva ətrafındakı Barvixa iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin görüşü olmuşdur.

RF Prezidenti DMİTRİ MEDVEDEV Azərbaycan dövlətinin başçısına müraciətlə dedi:

- Hörmətli İlham Heydər oğlu, Sizi bir daha salamlayıram. Bizim aramızda yaxşı münasibətlər yaranmışdır: müntəzəm görüşürük, ən müxtəlif məsələləri müzakirə edirik ki, bu da heç şübhəsiz, ölkələrimiz arasında hərtərəfli əlaqələrin inkişafı üçün çox vacibdir.

Sizi rəqəmlərlə yormaq fikrində deyiləm, özünüz onları yaxşı bilirsiniz. Lakin hər halda, biz keçən ili ticarət-iqtisadi baxımından çox yaxşı göstəricilərlə başa vurmuşuq. Əmtəə dövriyyəsinin həcmi 40 faiz artmışdır. Əlbəttə, bu il vəziyyət xeyli mürəkkəb olacaqdır. Bizim vəzifəmiz əldə edilən uğurları saxlamağa çalışmaqdır. Xüsusən ona görə ki, biz bu uğurlara təkcə enerji daşıyıcılarının mübadiləsi hesabına nail olmamışıq. Əmtəə dövriyyəsinin keyfiyyətcə artması xüsusilə əhəmiyyətlidir. Biz müsbət iqtisadi dinamikanı hətta iqtisadi böhran şəraitində də qoruyub saxlamağa çalışacağıq.

Mədəniyyət və humanitar sahələrdə də bir sıra sevindirici hadisələr olmuşdur. Bu yaxınlarda Bakıda informasiya-mədəniyyət mərkəzi, Moskva Dövlət Universitetinin filialı açılmışdır. Bizim Linqvistika Universiteti nəzdində xüsusi Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi açılmışdır. Əlbəttə, bunlar münasibətlərimizə çox yaxşı təsir göstərir, bizi daha sıx birləşdirir.

Moskvaya xoş gəlmisiniz! Sizi görməyə çox şadam.

Prezident İLHAM ƏLİYEV Moskvaya səfərə dəvətə görə Rusiya dövlətinin başçısına təşəkkürünü bildirərək dedi:

- Bu, Sizinlə görüşmək və Sizin qeyd etdiyiniz kimi, çox yaxşı inkişaf etməkdə olan ikitərəfli münasibətlər barədə fikir mübadiləsi aparmaq üçün yaxşı imkandır. Zənnimcə, bizim şəxsi dostluq münasibətlərimiz də burada az rol oynamır.

Bizim münasibətlərimizin dinamik inkişafı həm iqtisadiyyatda, həm də qarşılıqlı siyasi əlaqələrdə öz səmərəsini verir. Əlbəttə, qlobal böhran əmtəə dövriyyəsinin həcminə təsir göstərmişdir, lakin 2009-cu ilə qədər əmtəə dövriyyəsinin dinamikası çox xoş təsir bağışlayırdı. Biz artıq real surətdə 3 milyard dollar səviyyəsinə yaxınlaşırıq. Əminəm ki, bütün çətinliklərə baxmayaraq, 2009-cu il bu mənada çox müsbət olacaq, çünki həm əməkdaşlıq sahələri genişlənir, həm də əmtəə dövriyyəsinin strukturu yaxşılaşır. Bu, ölkələrimiz arasında olan möhkəm siyasi münasibətlərin nəticələridir və bütün başqa sahələrə də təsir göstərir. Bakıda həm Moskva Dövlət Universitetinin filialının, həm də Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin açılması, - bu hadisələr bizim axırıncı görüşümüzdən sonra baş vermişdir, - onu göstərir ki, bizim razılığa gəldiyimiz hər bir məsələ praktikada həyata keçirilir. Əlbəttə, biz bütün sahələrdə əməkdaşlığın daha da genişlənəcəyinə ümid edirik. Rusiya Azərbaycanın dostu, qonşusu, strateji tərəfdaşıdır. Biz əməkdaşlığımızı strateji tərəfdaşlıq ruhunda davam etdirmək niyyətindəyik.

D.MEDVEDEV: Belə də edəcəyik.

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSI

Aprelin 17-də Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin görüşündən sonra dövlət başçılarının mətbuat konfransı olmuşdur. Prezidentlər əvvəlcə bəyanatlarla çıxış etmişlər.

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN BƏYANATI

- Hər vaxtınız xeyir, hörmətli xanımlar və cənablar!

Mən bugünkü görüşümüzün əvvəlində bir neçə kəlmə demək istərdim. Əlbəttə, mən İlham Heydər oğlu ilə Moskvada yenidən keçirilən görüşümüzdən çox şadam. Bu gün artıq bu barədə danışmışıq, bizim aramızda həqiqətən səmimi dostluq münasibətlərimiz var və bu, heç şübhəsiz, ölkələrimizin dolğun, tamformatlı, strateji tərəfdaşlıq münasibətləri qurmasına kömək edir. Bu, indi belədir və ümid edirəm ki, gələcəkdə də belə olacaqdır.

Biz ikitərəfli əməkdaşlığımızın əsas məsələləri, ticarət-iqtisadi əlaqələr barədə söhbət etmişik. Əlbəttə, son vaxtlar biz, belə deyək, nəyəsə nail olmuşuq və bu, tamamilə konkret rəqəmlərlə ifadə olunur. Müxtəlif hesablamalara görə, ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi üç milyard dollara yaxındır. Bu, əlbəttə, çox vacibdir. Eyni zamanda, əmtəə dövriyyəsinin strukturu da vacibdir. Buraya təkcə son illərdə qiyməti müntəzəm qalxan enerji daşıyıcıları daxil deyil, - bunun hesabına əmtəə dövriyyəsinin həcmi artırdı. Bu, həm də başqa rəqəmləri, ən müxtəlif istiqamətlərdə görülən işləri,

texnoloji təyinatlı məhsulların göndərilməsini, nəqliyyatı, kağız-sellüloz sənayesini, bir sözlə, ən müxtəlif istiqamətləri əhatə edir. Əlbəttə, indi ən başlıcası əldə edilmiş tempi qoruyub saxlamaq, iqtisadi problemlər nəticəsində əmtəə dövriyyəsinin azalmasına yol verməməkdir. Hərçənd, təbii ki, bu problemlər bizim iqtisadiyyatlara təsir göstərir.

Eyni zamanda, həm adlarını çəkdiyim sahələrdə, həm də energetika sahəsində, qaz nəqli sahəsində əməkdaşlıq, Azərbaycan neftinin ixracı, Bakı-Novorossiysk boru kəməri vasitəsilə nəqli kimi ənənəvi məsələlərdə yaxşı perspektiv imkanlar var. Bir sözlə, artıq işlədiyimiz və gələcəkdə işləyə biləcəyimiz bütün istiqamətlərdə perspektivlər var.

Lakin bizim humanitar əlaqələrimiz də az əhəmiyyət kəsb etmir və son illərdə bu sahədə çox iş görülmüşdür. Mən açıq demək istəyirəm, bu sahədə, əlbəttə, Azərbaycan Prezidentinin birbaşa xidmətləri var və biz görülən işləri çox yüksək qiymətləndiririk, başa düşürük ki, bu, həm Rusiyanın, həm də Azərbaycanın maraqlarına uyğundur.

Əlbəttə, Bakıda informasiya-mədəniyyət mərkəzinin və Moskva Universitetinin filialının açılması da xalqlarımız arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə kömək edir və ən başlıcası, onu göstərir ki, bizi birləşdirən, bütün istiqamətlər üzrə əlaqələrin inkişafına kömək edən ümumi dəyərlərə sadiqik.

Hesab edirəm ki, bu cür əlaqələrin müstəsna əhəmiyyəti var, biz indicə bu barədə danışmışıq və İlham Heydər oğlu da belə hesab edir. Ona görə də bu, nə isə mühafizəkar təmaslar, sadəcə, diplomatik protokola hörmət deyil ki, biz mədəni əlaqələri inkişaf etdiririk. Bu, həqiqətən əməkdaşlığın çox mühüm sahələridir.

Bir neçə il bundan əvvəl Azərbaycanda Rusiya İli və Rusiyada Azərbaycan İli keçirilmişdir. O vaxt mən Hökumətdə işləyəndə bununla məxsusi məşğul olmuşdum. Hesab edirəm ki, bu hadisələr uğurlu olmuşdur və biz bundan sonra da humanitar, mədəni əlaqələrin möhkəmləndirilməsi ilə məşğul olmalıyıq.

Əlbəttə, biz beynəlxalq vəziyyət, regional problemlər barədə də danışdıq. Dağlıq Qarabağ probleminin həlli haqqında, əvvəllər müzakirə etdiyimiz yanaşmalar haqqında, o cümlədən burada, bizim təmaslarımızın gedişində, keçən il noyabrın 2-də Moskva Bəyannaməsinin imzalanması gedişində yaranmış fikirlərin həyata keçirilməsinin zəruri olması, cari perspektivlər barədə danışdıq. Bu mövzunun çox mürəkkəb olmasına baxmayaraq, ümid edirik ki, bu sahədə iş davam etdiriləcəkdir.

Biz vaxtımızın bir hissəsini beynəlxalq məsələlərin müzakirəsinə, iqtisadi böhranın aradan qaldırılması yollarına, bir sözlə, hazırda, demək olar ki, bütün dövlətlərin gündəliyində olan məsələlərə həsr etdik. Mən çox məzmunlu dialoqa görə İlham Heydər oğluna bir daha təşəkkürümü bildirmək istərdim. Bu dialoq həqiqətən çox səmimi ahəngi ilə səciyyələnir, biz asanlıqla dil tapırıq, haqqında söhbət etdiyimiz məsələlərin, demək olar, hamısı barədə mövqelərimiz çox yaxındır. Bu isə ölkələrimizi bir-birinə bağlayan xüsusi strateji münasibətlərin davam etdirilməsinə təminatdır.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Sağ olun, Dmitri Anatolyeviç! Əvvələn, məni Moskvaya səfərə dəvət etdiyinizə görə, Sizinlə ünsiyyətdə olmaq və həm ikitərəfli münasibətlərə, həm də regional problemlərə aid mühüm məsələləri müzakirə etmək imkanına görə Sizə bir daha təşəkkür etmək istərdim. Siz artıq qeyd etdiniz ki, biz qarşılıqlı maraq doğuran məsələlər barədə çox səmimi, açıq fikir mübadiləsi apardıq.

Rəhbərlər arasında münasibətlər xeyli dərəcədə ölkələr arasında münasibətləri də müəyyən edir. Çox fərəhli haldır ki, Rusiya ilə Azərbaycan arasında dostluq münasibətləri prezidentlər arasındakı münasibətlərdə də müşahidə olunur. Biz hər bir görüşdən maksimum səmərəli istifadə edirik, müzakirəsi tələb olunan bütün məsələləri çox səmimi şəraitdə müzakirə edirik. Hər dəfə də əmin oluruq ki, hansısa şəkildə operativ müdaxilə tələb edə biləcək məsələlərin sayı getdikcə azalır. Bizim ölkələr arasında heç bir problem yoxdur, müzakirəsi və həlli tələb olunan məsələlər isə operativ şəkildə həll edilir.

Dmitri Anatolyeviç, bizim bu gün müzakirələrimizin gündəliyində duran məsələləri qeyd etdi, gündəliyimiz isə kifayət qədər geniş idi. Həm ikitərəfli əməkdaşlıqda, həm də regional məsələlərdə Rusiyanın və Azərbaycanın baxışları bir çox cəhətdən üst-üstə düşür.

Ölkələrimiz arasında münasibətlərin necə inkişaf etməsi bizi çox sevindirir. Çox möhkəm siyasi və müqavilə-hüquqi baza mövcuddur və keçən ilin yayında Bakıda imzalanmış Dostluq və strateji tərəfdaşlıq haqqında müqavilə fəaliyyətin və əməkdaşlığın bütün sahələrini əhatə edir.

Bizim münasibətlərimizi məhz strateji tərəfdaşlıq termini ilə ifadə etmək olar. Biz iqtisadiyyatda da yaxşı nəticələr olduğunu görürük. Böhrana baxmayaraq, ölkələrimiz arasında əmtəə dövriyyəsi çox cüzi həcmdə azalmışdır. Ümid edirəm ki, gələcəkdə, böhran aradan qaldırılandan sonra iqtisadi münasibətlərimizin uğurlu inkişafı davam edəcəkdir.

Biz energetika sahəsində qarşılıqlı əlaqələrə dair məsələləri çox ətraflı müzakirə etdik. Əlbəttə, neft və qaz hasilatçısı və ixracçısı kimi həm Rusiya, həm də Azərbaycan öz enerji təhlükəsizliyini və enerji maraqlarını maksimum dərəcədə təmin etməyə çalışır. Təbii ki, hasilatçılar kimi, bu istiqamətdə bizim məqsədlərimiz ümumidir.

Biz Dağlıq Qarabağ münaqişəsinin həlli məsələlərini ətraflı müzakirə etdik və ümid edirik ki, Ermənistanla Azərbaycan arasında danışıqların davam etdirilməsi regionumuzda sülhün bərqərar olmasına gətirib çıxaracaq, bu münaqişə ATƏT-in qərarlarına və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq, beynəlxalq hüququn prinsipləri və normaları əsasında həll ediləcəkdir.

Humanitar əməkdaşlıq münasibətlərimizin çox mühüm sahəsidir və biz bu sahədəki mövcud dinamikanı böyük razılıq hissi ilə qeyd edirik, ən başlıcası isə odur ki, qəbul olunan bütün qərarlar yerinə yetirilir.

Dmitri Anatolyeviç qeyd etdi ki, Bakıda MDU-nun filialının, Rusiya Mədəniyyəti Mərkəzinin açılması həm bizim ölkə üçün və əminəm, həm də Rusiya üçün və ümumiyyətlə xalqlarımız arasında daha artıq qarşılıqlı anlaşma üçün mühüm hadisələrdir.

Onu da deməliyəm ki, bir qədər əvvəl Bakıdakı Rus Dram Teatrı, demək olar, təzədən tikilmişdir. Bu teatrın çox böyük ənənələri və ölkəmizdə çox sadiq pərəstişkarları var.

Ümumiyyətlə, tədrisin rus dilində olduğu məktəblərin sayı humanitar sahədə münasibətləri yəqin ki, hər şeydən yaxşı səciyyələndirə bilər. Azərbaycanda yüzlərlə belə məktəb var. Azərbaycanda rus dilinə və rus mədəniyyətinə münasibət həmişə çox xeyirxah, çox səmimi olmuşdur və biz şadıq ki, bu, indi də davam edir. Xalqlarımız arasında münasibətlər ölkələrimiz arasında münasibətlərin ayrılmaz tərkib hissəsidir.

Ümumən, sözümü yekunlaşdıraraq, bugünkü fikir mübadiləsindən çox məmnun qaldığımı bildirmək istərdim. Əminəm ki, bu görüş münasibətlərimizin daha da inkişafına, yaxınlaşmasına kömək edəcəkdir. Rusiya və Azərbaycan prezidentləri arasında görüşlər müntəzəm xarakter daşıyır və bu, bizim münasibətlərimizin inkişafında dinamikanın saxlanmasına daim imkan yaradır.

Dmitri Anatolyeviç, qonaqpərvərliyə görə, səmimi qəbula görə, dəvətə görə Sizə bir daha çox minnətdaram. Ümid edirəm ki, yenidən həm Azərbaycanda, həm də Rusiyada görüşəcəyik.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab vermişlər.

AzərTAc-ın müxbiri: Rusiya danışıqlar prosesinin fəal iştirakçısıdır. Sizin təşəbbüsünüzlə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmiş, Moskva Bəyannaməsi imzalanmışdır. Rusiya gələcəkdə hansı addımları atmağı planlaşdırır? Rusiya tərəfindən hansısa yeni təşəbbüslər gözləmək olarmı?

DMİTRİ MEDVEDEV: Bəli, biz həqiqətən çox istərdik ki, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlarda maksimum irəliləyiş olsun. Noyabr ayında məhz burada, bu binada görüş keçirilməsi, Moskva Bəyannaməsinin imzalanması ən azı onu göstərir ki, biz irəliləyə bilərik, tərəflər bir-birinin dəlillərini eşidir və perspektivlər var. Azərbaycan Prezidentinin indicə dediyi kimi, ilk növbədə, beynəlxalq hüquq normalarına, Birləşmiş Millətlər Təşkilatı tərəfindən, ATƏT çərçivəsində qəbul edilmiş qətnamələrə istinad etmək lazımdır. Mənim fikrimcə, hər halda, prinsipcə irəliləyiş var və ən başlıcası odur ki, bu proseslərə hansısa üçüncü dərəcəli, lakin bəzən çox-çox mürəkkəb olan amillər təsir göstərməsin. Tərəflər hökmən təmkinlilik nümayiş etdirsin və perspektivləri görsünlər. Mənim fikrimcə, daha bir çox mühüm məqam Azərbaycan və Ermənistan prezidentləri arasında görüşlərin müntəzəm xarakter daşımasıdır. Rusiya bu məsələdə öz mandatını yerinə yetirməyə hazırdır. Biz həmişə bu proseslərə kömək etməyə çalışmışıq və əgər bu cür təmaslar davam edərsə, - bunun isə heç bir alternativi yoxdur, - əminəm ki, bu problemi məhz hər iki xalqın maraqlarını əsas tutmaqla, əvvəllər hazırlanmış təklifləri nəzərə almaqla həll etmək olar. Ola bilsin ki, mən müəyyən yeni ideyaları da nəzərdə tuturam.

Əlbəttə, bu hüquqi müstəvidə dayanmaq, müəyyən vəziyyətdə yenilik gətirə biləcək, bu yeniliyin ətrafında mövqelərin uyğunlaşdırılması mümkün olan yeni yanaşmalardan təcrid olunmamaq lazımdır. Mənə elə gəlir ki, bu, mümkündür. Hər halda, biz çox ağır, lakin eyni zamanda, həlli mümkün olan bu problemin tənzimlənməsinə nail olmaq üçün bizdən, Rusiya Federasiyasından asılı olan hər şeyi edəcəyik.

İLHAM ƏLİYEV: Mən demək istərdim ki, bu münaqişənin həlli məsələləri ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Rusiya çox müsbət rol oynayır və biz tərəflərin mövqelərini yaxınlaşdırmaq cəhdlərinə görə ona təşəkkür edirik. ATƏT-in Minsk qrupu uzun illərdir ki, mövcuddur. Son vaxtlar həmsədrlərin fəaliyyəti daha aktiv xarakter daşıyır.

Əlbəttə, nəticənin olmaması bizi sevindirə bilməz, lakin bununla belə, biz ona da göz yuma bilmərik ki, danışıqlar prosesində müəyyən irəliləyiş vardır. Məhz bu irəliləyiş bizə ümid verir ki, münaqişə kifayət qədər tezliklə həll olunacaqdır. Son vaxtlar tərəflərin mövqeləri müəyyən dərəcədə yaxınlaşmış, əvvəllər çətin görünən bəzi məsələlər razılaşdırılmışdır. Mənim fikrimcə, bu, danışıqların davam etdirilməsi üçün yaxşı bazadır. Bununla belə, elə məsələlər də var ki, tərəflər razılığa gələ bilmirlər.

Bizim cəhdlərimiz həmişə konstruktiv yanaşmaya, beynəlxalq hüquqa, tarixi ədalətin bərpa edilməsinə əsaslanmışdır. Heç kəs üçün sirr deyil ki, təqribən 20 ildir Azərbaycanın ərazisi işğal altındadır və aparıcı beynəlxalq təşkilatlar da daxil olmaqla, bütün dünya birliyi bu faktı təsdiq etmişdir. Biz ümid edirik ki, yaxın aylarda münaqişənin tənzimlənməsi prosesini irəlilədə və bütün tərəflərin maraqlarına cavab verəcək, Azərbaycanın ərazi bütövlüyünün bərpasını, regionumuzda beynəlxalq hüququn normaları və prinsiplərinin bərpasını təmin edəcək həll tapmağa nail olacağıq. Bu, hamının xeyrinə olardı və bu halda biz Cənubi Qafqaz regionunda tammiqyaslı regional əməkdaşlıq haqqında danışa bilərdik.

Bir daha demək istəyirəm ki, danışıqlar prosesindəki irəliləyiş müəyyən nikbinlik doğurur, nəticənin olmaması isə, əlbəttə, bizi məyus edir.

İnterfaksın müxbiri: Xahiş edirəm deyin, sizin danışıqlarınız zamanı qaz problemi, qazın nəqli, qaz sahəsində əməkdaşlıq barədə hansısa yeni razılaşmalar əldə edildimi? Bu sualım isə Dmitri Anatolyeviçədir. Dünən məlum olmuşdur ki, NATO Qafqazda, yəni Gürcüstanda hərbi təlimlər keçirməyi qərara almışdır. Həmin regiondakı vəziyyəti nəzərə almaqla, NATO-nun bu qərarı ilə əlaqədar Sizin fikriniz necədir?

İLHAM ƏLİYEV: Təbii ki, biz qaz sahəsində əməkdaşlıq məsələlərini müzakirə etmişik. Deməliyəm ki, bütövlükdə, energetika sahəsində ölkələrimiz arasında əməkdaşlıq çox müsbət xarakter daşıyır. Bakı-Novorossiysk neft kəməri uzun illərdir ki, fəaliyyət göstərir və biz gələcəkdə bu kəmərlə nəql edilən neftin həcmini artırmaq fikrindəyik. *Elektrik energetikası sahəsində də səmərəli əməkdaşlıq var və biz bu əməkdaşlığı da genişləndirmək üzərindəciddi işləyirik.* Bunlar qarşılıqlı faydası olan məsələlərdir. Qaz sahəsində bu mövzu nisbətən təzədir, çünki yaxın vaxtlarda müzakirə olunmağa başlamışdır. Lakin mənim fikrimcə, bu müzakirələrin o qədər də çox vaxt aparmadığını nəzərə alsaq, bu istiqamətdə kifayət qədər irəliləyiş olduğunu deyə bilərik. "Qazprom" və Azərbaycan Dövlət Neft Şirkəti arasında saziş barədə danışıqlar aparılır. Bildiyiniz kimi, bir müddət əvvəl bu məsələyə dair memorandum imzalanmışdır və o, qarşılıqlı maraqların olduğunu təsdiq edir. Qaz sahəsində əməkdaşlığa bizim tərəfimizdən heç bir məhdudiyyət yoxdur və ola da bilməz. Bu istiqamətdə əməkdaşlıq Azərbaycan üçün həm də qaz ixracının şaxələndirilməsi elementidir, çünki hazırda Azərbaycan qazı Qərb istiqamətində nəql edilir. İxracın şaxələndirilməsi və yeni bazarlara çıxmaq imkanı hər bir başqa ölkə üçün olduğu kimi, bizim üçün də böyük maraq doğurur. Mən ümid edirəm

ki, şirkətlər arasında aparılan danışıqlar uğurla başa çatacaqdır. Təbii ki, həmin danışıqlar beynəlxalq praktikanı əks etdirməli, qarşılıqlı surətdə faydalı, mehriban qonşuluq və tərəfdaşlıq ruhunda olmalıdır. Zənnimcə, biz bu prosesləri çox səmərəli şəkildə irəlilədə biləcəyik. Xüsusən ona görə ki, Rusiya və Azərbaycan qonşudur. Bizim aramızda heç bir tranzit ölkə yoxdur. Artıq kifayət qədər səmərəli nəqliyyat infrastrukturu vardır. Qaz kəmərinin çəkilməsi üçün əlavə investisiyalara ehtiyac yoxdur. Kəmər mövcuddur. Ona görə də bütün bu ilkin amillər çox sərfəli görünür. Şirkətlərin xoş məramla razılığa gəlməsi lazımdır və mənim fikrimcə, bu halda Azərbaycan ilə Rusiya arasında qaz sahəsində əməkdaşlıq ölkələrimiz arasında əməkdaşlığın ümumi mənzərəsinə üzvi şəkildə daxil olacaqdır.

DMİTRİ MEDVEDEV: Mənə o qalır ki, əvvəla, Rusiya və Azərbaycanı bir-birinə bağlayan energetika sahəsində əməkdaşlığın dəyərləndirilməsi ilə razılaşım. Son illər biz belə əməkdaşlığı irəlilətmişik. Xatırladılan neftin nəqli kimi ənənəvi sahələr var. Yeni sahələr var. Bax, məsələn, haqqında sual verilən qaz sahəsi var. Bu, hər iki ölkə üçün maraqlı sahədir. Şirkətlər birbaşa danışıqlar aparır və bu, bir müddətdir davam edir. Hesab edirəm və mən İlham Heydər oğlu ilə tam razıyam ki, əlbəttə, dövlətlərimizin maraqlarını, şirkətlərin kommersiya maraqlarını əsas tutaraq bizim mükəmməl sazişə çıxmaq üçün çox böyük imkanlarımız var. Bu, energetika sahəsində əməkdaşlıqda yeni səhifə aça bilər. Əgər belə saziş hazırlanarsa, - bir daha deyirəm ki, bu məsələdə irəliləyişə nail olmaq imkanı çox-çox yüksəkdir, - bu zaman onun imzalanması mümkün olardı. Bu isə özlüyündə ölkələrimiz arasında münasibətlərdə çox mühüm hadisə olardı. Digər tərəfdən, bu, energetika sahəsində şaxələndirmə barədə və bütövlükdə dünyada xeyli dərəcədə narahatlıq yaradan enerji təhlükəsizliyi probleminin həlli haqqında danışmağa imkan verərdi. Hətta iqtisadi böhrana baxmayaraq, biz gələcəkdə enerji təhlükəsizliyinin hansı şəkildə təmin olunması barədə düşünməliyik. Biz dəfələrlə bildirmişik ki, bu mövzuda yetərli konvensiyaların imzalanması, ölkələr və onların şirkətləri arasında düzgün beynəlxalq rejimlərin və qarşılıqlı surətdə faydalı olan hərtərəfli münasibətlərin yaradılmasına tərəfdarıq. Rusiya və Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq da belə ola bilər.

Gürcüstanda NATO-nun təlimlərinə dair sualınıza cavab olaraq, hesab edirəm ki, bu, düzgün qərar deyil, təhlükəli qərardır. Çünki bu və ya başqa hərbi blok lap bu yaxınlarda gərginliyin çox yüksək olduğu və indinin özündə də heç də hər şeyin sadə olmadığı ərazilərin yaxınlığında təlim keçirirsə, bu, hər cür mürəkkəb vəziyyətə gətirib çıxara bilər. Bu cür təlimlər, məsələn, Yaxın Şərqdə, Şimali Koreya yaxınlığında, yüksək gərginlik müşahidə olunan hər hansı digər yerdə keçirilərsə, hansı vəziyyətin yaranacağını təsəvvür edə bilərik. Təbii ki, bu vəziyyəti gərginliklə izləyənlər üçün problem yaradır. Mən əminəm ki, bu, Cənubi Osetiya və Abxaziya xalqlarına müsbət emosiyalar gətirməyəcək. Çünki belə hərəkətlər açıq-aşkar güc nümayişinə, hərbi komponentlərin artırılmasına yönəldilmişdir. Qafqazda onsuz da hamının kifayət qədər gərgin vəziyyətdə olduğu bir şəraitdə bu qərar, əgər məsələn, Rusiya ilə Şimali Atlantika alyansı arasında münasibətlərdən danışsaq, düşünülməmiş, tərəfdaşlığa yaraşmayan hərəkətdir. Belə qərarlar təəssüf doğurur və Rusiya Federasiyası ilə NATO arasında yetərli təmasların bərpa olunmasına kömək etmir. Biz orada baş verənləri ən ciddi şəkildə izləyəcəyik və lazım gəldikdə bu və ya başqa qərar qəbul edəcəyik.

* * *

Elə həmin gün Rusiya Prezidenti Dmitri Medvedevin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə işçi nahar verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN APARICI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 18-də İTAR-TASS agentliyində Rusiya Federasiyasının aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşmüşlər.

İTAR-TASS agentliyinin baş direktoru Vitali İqnatenko bu görüşün Prezident İlham Əliyevin müxtəlif məsələlərə dair fikirlərini bilavasitə özündən eşitmək üçün yaxşı imkan olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan-Rusiya ikitərəfli münasibətləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycanın beynəlxalq energetika layihələrində iştirakı, dünyadakı iqtisadi və maliyyə böhranı şəraitində ölkəmizin iqtisadi inkişafı, regional məsələlər, Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolu və digər məsələlər barədə suallara ətraflı cavab verdi.

Maraqlı keçən söhbətdə Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin baş direktoru Oleq Dobrodeyev, Rusiyanın Birinci kanalının baş direktoru Konstantin Ernst, "RİA Novosti" agentliyinin baş redaktoru Svetlana Mironyuk, "Exo Moskvı" radiostansiyasının baş redaktoru Aleksey Venediktov, Rusiyanın aparıcı qəzet və jurnallarının rəhbərləri iştirak etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYANIN "VESTİ" KANALINA VƏ İTAR-TASS AGENTLİYİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də, Moskvaya işgüzar səfəri çərçivəsində Rusiyanın "Vesti" kanalına və İTAR-TASS agentliyinə müsahibə vermişdir.

- İlham Heydər oğlu, bu müsahibəni götürmək imkanına görə çox sağ olun. Birinci sual, yəqin ki, başlanğıc üçün bir qədər gözlənilməz ola bilər. Bununla belə, güman edirik ki, bu, maraqlı olacaqdır. Mən bu müsahibəyə hazırlaşanda gördüm ki, həm Siz, həm də Dmitri Anatolyeviç Medvedev tez-tez deyirsiniz ki, aranızda çox yaxın, dostluq münasibətləri yaranmışdır. Maraqlıdır, bu münasibətlər nəyə əsaslanır, sizi bu qədər yaxınlaşdıran nədir?

- Bu, həqiqətən belədir. Mən çox şadam ki, Rusiya Prezidenti ilə bizim doğrudan çox yaxın, dostluq münasibətlərimiz var. Yəqin ki, burada bir neçə amil rol oynayır. Bəlkə də ona görədir ki, biz eyni nəslin nümayəndələriyik, praktik olaraq qonşu şəhərlərdə təxminən eyni təhsil almışıq, gənc yaşlarımızdan siyasətdəyik və prezident olmazdan əvvəl də ölkələrimiz üçün böyük əhəmiyyət kəsb edən müxtəlif məsələlərlə fəal məşğul olmuşuq. Əlbəttə, ölkələr arasında münasibətlərdə şəxsi rəğbət hissi də az rol oynamır və mənə çox xoşdur ki, Rusiya Prezidenti ilə mənim münasibətlərim ölkələrimiz

arasında dolğun münasibətlərin genişləndirilməsi üçün çox yaxşı zəmin yaradır.

Bizim müzakirə etməyimiz üçün mövzular çoxdur. Bu dəfə mənim Dmitri Anatolyeviçlə iki dəfə görüşmək imkanım oldu – birinci axşam ailə çərçivəsində, ertəsi gün rəsmi danışıqlarda. Biz təkcə siyasət haqqında deyil, çox müxtəlif mövzular barədə söhbət etdik. Buna görə də həmin amil mənim üçün həqiqətən çox mühümdür. Bu cür münasibətlərin mövcud olması çox xoşdur və ümid edirəm ki, gələcəkdə onlar daha da möhkəmlənəcəkdir.

- Amma hər halda, gəlin siyasətə qayıdaq. Dünən rəsmi danışıqlar aparılmışdır. Siz həmin danışıqların hansı əsas məqamlarını vurğulamaq istərdiniz?

- Ölkələrimiz arasında münasibətlərin gündəliyi kifayət qədər genişdir, buna görə də biz prioritet məsələləri əhatə etməyə, təhlil etməyə və onlar barədə fikir mübadiləsi aparmağa çalışdıq. Çünki hazırda ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq həyata keçirilir və münasibətlərimiz çox səmərəli, dinamik inkişaf edir.

Təbii ki, biz qarşılıqlı siyasi əlaqələr, siyasi əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı məsələləri müzakirə etdik. Bunun üçün çox yaxşı müqavilə - hüquqi baza, keçən ilin yayında Bakıda imzalanmış Dostluq və strateji tərəfdaşlıq haqqında müqavilə var. Həmin müqavilə bütün bu sahələri əhatə edir. Biz gündəlikdə duran iqtisadi məsələləri ətraflı nəzərdən keçirdik, məmnuniyyətlə vurğuladıq ki, keçən il əmtəə dövriyyəsinin həcmi 40 faiz artmış və 3 milyard dollara yaxınlaşmışdır. Böhrana baxmayaraq, bu il əmtəə dövriyyəsi müəyyən qədər, ancaq gözlənildiyinə nisbətən cüzi azalmışdır. Əmtəə dövriyyəsinin strukturunda keyfiyyət dəyişiklikləri baş vermişdir. Bütün bunlar ölkələrimiz arasındakı möhkəm siyasi münasibətlərin nəticəsidir.

Humanitar əməkdaşlıq barədə də razılıq hissi ilə qeyd edildi ki, mənim Moskvaya bundan əvvəlki səfərimdən sonra ötən müddətdə çox mühüm hadisələr baş vermişdir: Bakıda MDU-nun filialı, Rusiya Mədəniyyət Mərkəzi açılmışdır. Yəni bunlar o deməkdir ki, qəbul edilmiş qərarlar praktikada yerinə yetirilir, bu qərarlar operativ şəkildə həyata keçirilmişdir.

Dağlıq Qarabağ münaqişəsinin həlli və ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiyanın rolu məsələsi diqqət mərkəzində olmuşdur. Energetika ilə bağlı dialoq davam edir və yeni-yeni sahələri əhatə edir. Neft və elektrik energetikası sahəsində ənənəvi əməkdaşlığa qaz komponenti də əlavə olunur. Bu, həm ikitərəfli münasibətlərin, həm də regional inkişafın mühüm elementidir. Əlbəttə, bizim müzakirə etdiyimiz bütün məsələləri sadalamaq çətindir. Lakin adlarını çəkdiyim, diqqəti daha çox cəmləşdirdiyimiz bu mövzular göstərir ki, bizim münasibətlərimiz nə qədər strateji xarakter daşıyır, müxtəlif sahələri əhatə edir və bütün bu istiqamətlər üzrə aramızda qarşılıqlı anlaşma, əməkdaşlıq və daha da irəliləmək arzusu var.

Bütün bu sahələrdə nəzərdə tutduğumuz proqramların hamısının uğurla həyata keçirilməsi, öz növbəsində, ölkələrimiz arasında, bir-biri ilə qonşu olan Rusiya və Azərbaycan arasında münasibətlərin daha da möhkəmlənməsinə doğru aparır, bizim maraqlarımıza və əminəm ki, Rusiyanın da maraqlarına tamamilə uyğundur.

- Əlbəttə. İcazənizlə, Sizin adlarını çəkdiyiniz bir neçə mövzudan biri - qaz sahəsində əməkdaşlıq üzərində bir qədər ətraflı dayanmağınızı xahiş edərdik. Dünən mətbuat

konfransında Siz və Prezident Medvedev dediniz ki, qazla bağlı saziş bağlanması ehtimalı çox böyükdür. Mümkündürsə, bu istiqamətdə nə, hansı şərtlər daxilində və nə vaxt edilə biləcəyini bir qədər açıqlayardınız...

- Bu, bizim münasibətlərimizdə nisbətən yeni mövzudur. Rusiya ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq əvvəllər başqa formatda həyata keçirilirdi. Təxminən 2006-cı ilə qədər biz Rusiyadan qaz alırdıq. 2007-ci ildən bu əməkdaşlıq dayandırılmışdır. İndi isə artıq Rusiyaya Azərbaycan qazının satışından söhbət gedir.

Nisbətən qısa müddət ərzində biz öz investisiya layihələrimizi, qaz hasilatına sərmayə qoyuluşunu xeyli dərəcədə həyata keçirməyə, qaz hasilatını ciddi şəkildə artırmağa və mahiyyət etibarilə qaz ixracatçısına çevrilməyə nail olmuşuq. Biz Türkiyə bazarına təqribən 7 milyard kubmetr qaz ixrac edirik, Türkiyə isə bu qazın bir hissəsini təkrar Yunanıstana ixrac edir. Beləliklə, bizim qaz fiziki mənada artıq Avropa İttifaqına çıxmışdır. Digər qaz kəməri vasitəsilə biz Gürcüstana qaz ixrac edirik. Üçüncü qaz kəməri vasitəsilə İranla mübadilə əməliyyatları aparılır. Təəssüf ki, bizim qonşulardan təkcə Rusiya ilə qaz sahəsində hələlik praktik nəticə yoxdur. Ona görə də bu boşluğu doldurmaq üçün, habelə qaz ixracını tam şaxələndirmək imkanına malik olmaq üçün Rusiya bazarı Azərbaycan üçün, əlbəttə, çox cəlbedicidir.

Rusiya tərəfi də bu əməkdaşlıqda maraqlıdır və Rusiya tərəfindən qaz sahəsində əməkdaşlıq haqqında təklifi bir il bundan əvvəl almışdıq. Bu, Rusiya tərəfinin təşəbbüsü idi və biz bunu çox müsbət qarşıladıq. Bu yaxınlarda "Qazprom" ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında Memorandum imzalanmışdır, hazırda danışıqlar gedir. Zənnimcə, bu danışıqlar müsbət nəticə ilə yekunlaşa bilər və yekunlaşmalıdır. Təbii ki, şirkətlər bütün şərtləri - kommersiya, texniki, zəmanət məsələlərini, yəni şirkətlər səviyyəsində həll edilməli olan məsələlərin bütün kompleksini razılaşdırırlar.

Qaz sahəsində əməkdaşlıq üçün hər iki dövlətin siyasi iradəsi var. Buna görə də, danışıqlar uğurlu gedərsə, təbii ki, saziş imzalana bilər. Bu sazişin nədən ibarət olacağı, hansı həcmdə qaz ixrac edilməsinin nəzərdə tutulması – bütün bunlar yəqin ki, şirkətlər səviyyəsində müzakirə olunacaqdır. Mənim fikrimcə, bu sazişin əhəmiyyəti məhz ondadır ki, Azərbaycan qazının ixracı üçün yeni istiqamət açılır. Rusiya Azərbaycan qazından istifadə imkanı əldə edir, beləliklə, gələcəkdə bu sahədə daha genişmiqyaslı əməkdaşlıq üçün perspektivlər açılır.

- Mən bir məsələni dəqiqləşdirmək istərdim. Siz hazırda hasilatın artması barədə danışanda "Şahdəniz" və "Şahdəniz-2" yataqlarını nəzərdə tuturdunuz...

- Təkcə onları yox, Azərbaycanda bir neçə yataqdan qaz çıxarılır. "Şahdəniz" layihəsi əcnəbi tərəfdaşlarımızla birgə işlənilir. Bundan əlavə, biz "Azəri-Çıraq" yataqlarından səmt qazı da alırıq, o da ümumi qaz balansına daxildir. Dövlət Neft Şirkəti özü hasilatın həcmini praktik olaraq iki dəfə artırmış, onu təxminən 8 milyard kubmetrə çatdırmışdır. Yəni, indi Azərbaycanın qaz hasilatı potensialı 20 milyard kubmetrdən çoxdur. Qısa müddətdə bu hasilatı artırmaq üçün potensial imkan var. Biz neft hasilatını artırmaq üçün neft yataqlarından alınan səmt qazının bir hissəsini yenidən neft laylarına vururuq. Bu qazdan ixrac üçün də istifadə edilə bilər. Siz "Şahdəniz-2" layihəsinin adını çəkdiniz, həmin layihəyə görə bugünkü hasilatın həcminə daha 12-14 milyard kubmetr əlavə edilməsi nəzərdə tutulur.

- Bu, nə vaxt baş verə bilər?

- Yəqin ki, əlbəttə, işin sürətinin müxtəlif olması nəzərə alınmaqla, layihə təsdiqlənəndən sonra 3-5 il müddətində baş verə bilər. Layihə hələ təsdiqlənməyib və bunun səbəbi də məhz ondan ibarətdir ki, bizim satış bazarımız yoxdur. Bizim qazın ənənəvi yollarla, əlavə həcmin tranziti vasitəsilə nəql edilməsi məsələləri hələ tənzimlənməmişdir. Potensial alıcılarla danışıqlar aparılmalıdır, çünki qaz biznesinin neft biznesindən fərqli xüsusiyyətləri var. Buna görə də "Şahdəniz-2" layihəsinin təsdiqlənməsinin və onun həyata keçirilməsinin müəyyən dərəcədə ləngiməsi bizim təqsirimiz üzündən baş verməmişdir. Əlbəttə, bizə çox ağır gəlir ki, təsdiqlənmiş minimum ehtiyatları 2 trilyon kubmetr, perspektiv ehtiyatları isə 5 trilyon kubmetr olan Azərbaycanın tranzit məsələləri həll edilmədiyinə görə malik olduğu qazı hasil etmək imkanı yoxdur.

Buna görə də mən hesab edirəm ki, əsas məsələ Rusiya ilə Azərbaycan arasında həm qazın tranziti, həm də onun alqı-satqısı barədə razılığa gəlmək və irəliyə doğru hərəkət etməkdir. Bizim münasibətlərimizdə üstünlüklərdən biri ondan ibarətdir ki, artıq nəqliyyat infrastrukturu, yəni ciddi əlavə sərmayə qoyuluşu həyata keçirilmədən indi ildə ən azı 5 milyard kubmetr qaz nəql edə biləcək kəmər mövcuddur. Bizim aramızda tranzitlə bağlı məsələlər yoxdur, çünki biz qonşuyuq və bununla da müəyyən dərəcədə mürəkkəblik doğuran məsələ aradan qalxır. Ümumiyyətlə, Rusiya da dəfələrlə bu vəziyyətlə üzləşmişdir. Demək istəyirəm ki, indiki halda bütün bunlar bizim əməkdaşlığımızın üstünlükləridir. İndi yalnız qarşılıqlı surətdə faydalı kommersiya şərtlərini razılaşdırmaq, hansısa məqamların, yaxud bazar konyunkturunun əməkdaşlığımızın sonrakı gedişinə mane olmaması üçün uzunmüddətli əməkdaşlığa zəmanət məsələlərini razılaşdırmaq lazımdır. Saziş elə olmalıdır ki, tərəflərin hər hansı biri sonradan ona düzəlişlər etməsin. Onda irəliyə doğru hərəkət etmək olar.

- Siz boru kəmərləri, qaz kəmərləri mövzusuna toxundunuz. Bu yaxınlarda mətbuatda, o cümlədən Qərb mətbuatında xəbər verilmişdi ki, Azərbaycan şirkətlərinin Nabukko layihəsinə qoşulması mümkündür. Bu məlumat həqiqətə nə dərəcədə uyğundur və ümumiyyətlə, həmin layihə nə vəziyyətdədir?

- Bildiyiniz kimi, Nabukko layihəsi çoxdan müzakirə edilir. Bu layihə barədə ilk dəfə təşəbbüs irəli sürüləndə Azərbaycan təchizatçı kimi nəzərdə tutulmurdu. Başqa təchizatçılar vardı və onlar layihənin iştirakçılarının fikrincə, indiyə qədər də Nabukkonun əsas təchizatçılarıdır. Biz Nabukko konsorsiumunun üzvü deyilik. Birinci mərhələdə bizi Xəzərin şərq sahillərindən çıxarılan qazın nəql edilməsi üçün tranzit ölkə kimi nəzərdə tuturdular. Müəyyən mərhələdə məhz hasilatın həcmini artırmağa başladığımıza və idxalatçıdan ixracatçıya çevrildiyimizə görə, bizi potensial təchizatçı kimi nəzərdən keçirməyə başladılar.

Əlbəttə, yeni bazarlara çıxış imkanına malik olmaq hər bir ölkə üçün böyük maraq doğurur, ona görə ki, bazarların sayı nə qədər çox olsa, rəqabət bir o qədər güclü, qiymətlər bir o qədər yaxşı olacaq, müəyyən səbəblər üzündən təchizatda fasilələr yaranmayacağına zəmanət bir o qədər çox olacaqdır. Ona görə də biz, əlbəttə, həmin layihənin həyata keçiriləcəyi halda onda iştirak etməkdə maraqlıyıq.

Lakin Nabukko layihəsinin başqa layihələrdən, o cümlədən bizim həyata keçirdiyimiz layihələrdən fərqi ondadır ki, bu halda boru kəmərinin inşası ilə hasilatçılar deyil, isteh-

lakçılar məşğul olmalıdır. Təbii ki, istehlakçılar həm maliyyə məsələləri haqqında, həm də beynəlxalq maliyyə təsisatları tərəfindən dəstək barədə razılığa gəlməlidirlər. Əlbəttə, ciddi siyasi dəstək olmasa, bu layihəni reallaşdırmaq çox çətin olacaq, ona görə ki, texniki məsələləri həll etmək, boru kəmərləri çəkmək o qədər də asan iş deyildir. Biz son dövrdə Bakı-Tbilisi-Ceyhan boru kəmərini, Bakı-Tbilisi-Ərzurum qaz kəmərini, Bakı-Supsa boru kəmərini tikmişik. Bizim ərazinin relyefini və Qafqazın coğrafiyasını nəzərə alsaq, bunlar çox mürəkkəb texniki layihələrdir. Yəni burada mürəkkəb məqamlar olduqca çoxdur. Lakin siyasi iradə, maliyyə komponenti və layihənin bütün üzvlərinin əlaqələndirilmiş, ahəngdar işi olanda, həmin layihə həyata keçirilə bilər.

Bir daha demək istəyirəm ki, Azərbaycan Nabukko layihəsinin nə təşəbbüsçüsü, nə də onun iştirakçısıdır. Lakin əgər tranzit ölkə qismində tranziti təmin etmək üçün bizə müraciət olunsa, biz, əlbəttə, bunu məmnuniyyətlə edərik. Çünki hər bir başqa ölkə kimi biz də maraqlıyıq ki, karbohidrogenlər də daxil olmaqla, istənilən yüklər bizim ərazidən keçməklə nəql edilsin. Bundan əlavə, biz tranzit ölkənin bu cür mövqeyini nəzərdə tutan Enerji Xartiyasını imzalamışıq. Əgər Nabukko boru kəməri tikilsə, təbii ki, biz yaxşı şərtlər daxilində öz qazımızın bir hissəsini bu istiqamətdə nəql edə bilərik.

Lakin indiki anda elə vəziyyət yaranmışdır ki, bu layihənin durğunluq nöqtəsindən nə vaxt tərpədiləcəyini və bunu kimin edəcəyini söyləmək çətindir.

- Onda icazə verin, indi daha bir çox mühüm mövzuya keçək. Mən Dağlıq Qarabağı nəzərdə tuturam. Rusiya Prezidenti dünən mətbuat konfransında demişdir ki, bu məsələnin həllinə yeni yanaşmalar yarana bilər. Siz isə dediniz ki, hələlik aşkar irəliləyiş yoxdur və bu, əlbəttə, təəssüf doğurur, bununla belə, müəyyən irəliləyişlər nəzərə çarpır. Siz nəyi nəzərdə tuturdunuz və yaxın gələcəkdə bu məsələdə irəliləyiş gözləmək olarmı?

- Mətbuat konfransında Rusiya Prezidenti və mən öz şərhlərimizdə, onu da qeyd etdik ki, münaqişəni beynəlxalq hüquq normaları, ATƏT-in qərarları və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll etmək lazımdır. Yəni bunlar münaqişənin həlli üçün hüquqi əsasdır. Təbii ki, bu hüquqi əsas Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini, erməni işğalçı qüvvələrinin bizim ərazimizdən çıxarılmasını və qaçqınların öz doğma torpaqlarına qayıtmasını nəzərdə tutur.

İrəliləyiş və tərəqqi barədə danışarkən mən çoxdan davam edən mürəkkəb danışıqlar prosesini nəzərdə tuturdum və son beş ildən artıq müddətdə Azərbaycanın Prezidenti kimi mən bilavasitə bu məsələ ilə məşğulam. Bu müddətdə razılaşdırılması çox çətin görünən bir sıra məsələlər razılaşdırılmışdır. Yəni hər iki tərəf, əlbəttə, müxtəlif dərəcədə həvəs və uğur nümayiş etdirməklə çalışmışdır ki, həll oluna bilən məsələləri konstruktiv yolla həll edək. Dediyim kimi, bəzi məsələlər barədə biz mövqelərimizi, prinsipial mövqeləri razılaşdırmışıq.

Lakin razılaşdırılmış məsələlərdən heç də az əhəmiyyət kəsb etməyən, bəlkə də onlardan daha əhəmiyyətli olan bir sıra məsələlər, təəssüf ki, hələ həll edilməmiş qalır. Minsk qrupunun həmsədrləri çox kreativ, çox səmərəli işləməyə cəhd göstərirlər. Biz bunu qiymətləndiririk. Dünən mən Rusiyanın rolunu vurğuladım və hər iki tərəfə bu məsələnin həllində kömək etməyə çalışan o biri həmsədrlərin də rolunu qeyd etmək istəyirəm. Əlbəttə, biz ümid edirik ki, Ermənistan tərəfi bu məsələlərə konstruktiv ruhda,

o cümlədən beynəlxalq hüquq mövqeyindən yanaşacaqdır. Ona görə ki, bu məsələni beynəlxalq hüquq çərçivəsindən kənarda həll etmək mümkün olmayacaqdır.

Bizim təklifimizdə də məhz hazırda orada, Dağlıq Qarabağda yaşayan və gələcəkdə də yaşayacaq insanların təhlükəsizliyi öz əksini tapır; Dağlıq Qarabağın yerli özünüidarə məsələləri öz əksini tapır; Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi məsələləri də öz əksini tapır. Dağlıq Qarabağın statusu haqqında qərar qəbul edilməsi qeyri-müəyyən vaxta təxirə salına bilər. İndiki halda biz Minsk qrupu həmsədrlərinin təklifini dəstəkləyirik. Münaqişənin nəticələrini aradan qaldırmaq lazımdır, Ermənistan işğalçı qüvvələrinin Dağlıq Qarabağın inzibati sərhədindən kənarda yerləşən ərazilərdən də çıxarılmasına nail olmaq lazımdır. Biz Ermənistan ilə Dağlıq Qarabağ arasında yerüstü əlaqəyə malik olmağın erməni tərəfi üçün vacibliyini başa düşürük və bu məsələdə problem görmürük. Laçın dəhlizi ilə bağlı məsələlər elə səmərəli həll edilə bilər ki, həm bu gün Dağlıq Qarabağda yaşayanların, həm də münaqişənin həllindən sonra oraya qayıdacaq azərbaycanlı əhalinin kommunikasiya blokadasında qalmaq baxımından narahatlığı olmasın.

Yəni biz bu məsələyə məhz elə yanaşmağa çalışırıq ki, onu həll etmək mümkün olsun. Həm bizim təklifimizdə, həm də Minsk qrupu həmsədrlərinin təklifində ərazi bütövlüyünün bərpası, təhlükəsizliyə zəmanətin təmin edilməsi, bütün qaçqınların və daxili köçkünlərin Dağlıq Qarabağın ətrafındakı tarixi torpaqlarına və Dağlıq Qarabağa qaytarılması və gələcəkdə Dağlıq Qarabağın statusu barəsində hər iki tərəfi qane edən qərar qəbul olunması məsələləri əlaqələndirilir. Dağlıq Qarabağın statusu haqqında birtərəfli qərar qəbul edilə bilməz. Dağlıq Qarabağın Azərbaycandan hüquqi cəhətdən ayrılması mexanizmini nəzərdə tutan proseslərdə Azərbaycan özünün iştirakını mümkün saymır və heç vaxt bu proseslərdə iştirak etməyəcəkdir. Bu, bizim birmənalı mövqeyimizdir.

Eyni zamanda, biz başa düşürük ki, münaqişənin həlli üçün orada yaşayan insanlar özlərini təhlükəsiz şəraitdə hiss etməli, özünüidarə imkanlarına malik olmalı, öz həyatlarını yaşamalıdırlar. Bu baxımdan bizim heç bir amirlik cəhdlərimiz və ya onların həyatına müdaxilə cəhdlərimiz yoxdur. Yəni mənim fikrimcə, bütün bu amillər birlikdə münaqişənin həllində irəliləyişə gətirib çıxara bilər.

- İlham Heydər oğlu, söhbətimizə qısa yekun vurmaq üçün soruşuram: Sizin fikrinizcə, Azərbaycanın fikrincə, indiki mürəkkəb şəraitdə Qafqazda həm siyasi, həm də ümumiyyətlə iqtisadi firavanlığa necə nail olmaq mümkündür?

- Bizim ölkəmizə gəldikdə, deməliyəm ki, qazandığımız uğurlardan razıyıq. Son beş ildə Azərbaycanın iqtisadiyyatı 2,6 dəfə, büdcə xərcləri 10 dəfədən çox artmış, yoxsulluğun səviyyəsi 49 faizdən 13 faizə düşmüş, işsizlik bir sosial hadisə kimi praktik olaraq aradan qaldırılmışdır. Böhranlı 2009-cu ilin üç ayı ərzində ÜDM-in artımı 4,1 faiz, qeyri-neft sektorunda ÜDM-in artımı, demək olar ki, 14 faiz təşkil etmişdir.

- Özü də neftin qiymətinin düşməsinə baxmayaraq...

- Bəli, neftin qiymətinin düşməsinə və bizdə mövcud olan müəyyən texniki problemlər üzündən hasilatın bir qədər azalmasına baxmayaraq. Yəni bu onu göstərir ki, biz iqtisadiyyatı şaxələndirməyə, neft amilindən asılılığı aradan qaldırmağa və ölkənin davamlı inkişafını təmin etməyə nail olmuşuq.

Lakin sizin qeyd etdiyiniz kimi, regionda firavanlıq, yəni ayrılıqda götürülmüş bir ölkənin firavanlığı əməkdaşlıq, təhlükəsizlik olmadan və sabah nə olacağını bilmədən mümkün deyildir. Bu baxımdan mən söhbətimizin əvvəlinə qayıdaraq, hesab edirəm ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər bütün Qafqaz regionunda - həm Cənubi, həm də Şimali Qafqazda sabitləşmənin mühüm amilidir. Ona görə ki, Qafqaz vahid orqanizmdir və həm Cənubi Qafqazda, həm də Şimali Qafqazda məskunlaşan xalqlar arasında ənənəvi mədəni əlaqələr, qohumluq əlaqələri mövcuddur və əminəm ki, mövcud olacaqdır.

Ona görə də iki Qafqaz ölkəsi kimi Rusiya və Azərbaycan bu regionda təhlükəsizliyin bərqərar olmasında maraqlı ölkələr kimi, əlbəttə, bundan sonra Qafqazla bağlı məsələlərdə aparıcı rol oynamalıdır. Bu rolu həm ölkələrimizin tarixi, həm də onların bugünkü iqtisadi potensialı, siyasi sanbalı, proseslərə təsir göstərmək imkanı irəlicədən müəyyən etmişdir və biz regional məsələlərdə bir-birimizi çox yaxşı tamamlaya bilərik.

Mən Cənubi Qafqaz regionunda genişmiqyaslı əməkdaşlığın yaranacağı günü görməyi arzulayıram. Lakin buna yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və qaçqınların öz doğma yurdlarına qayıtması şərti ilə nail olmaq mümkündür. Onda Qafqaz regionunda əməkdaşlıq tamam başqa şəkil alacaq, bu halda indiyə qədər mühüm layihələrə cəlb edilməmiş ölkələr özlərini daha çox cəlb olunmuş hiss edə biləcək və təbii ki, onların həm iqtisadi preferensiyaları, həm təhlükəsizliyə təminatı, həm də siyasi perspektivləri olacaqdır. Mənim fikrimcə, Azərbaycanla münasibətləri tənzimləmədən Ermənistanın böhrandan çıxması, siyasi təcriddən, enerji və nəqliyyat baxımından təcriddən çıxması asan olmayacaqdır. Biz əməkdaşlığa hazırıq, lakin təbii ki, yalnız işğala son qoyulacağı və sülhün bərqərar olacağı təqdirdə.

- İlham Heydər oğlu, bu müsahibəyə görə və maraqlı cavablarınıza görə bir daha çox sağ olun.

- Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYAYA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Aprelin 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.

Moskvanın "Vnukovo-2" hava limanında Prezident İlham Əliyevi Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola salmışlar.

MÜDAFİƏ NAZİRİ ABŞ-IN AVROPA ÜZRƏ QURU QOŞUNLARIN KOMANDANI İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 17-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Səfər Əbiyev ABŞ-ın Avropa üzrə Quru Qoşunlarının komandanı, general Kater Hemin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə ABŞ-Azərbaycan münasibətləri, hərbi sahədə əməkdaşlığın vəziyyəti müzakirə edilmişdir. Eyni zamanda, NATO ilə Azərbaycan Respublikası arasında imzalanmış

"Sülh Naminə Tərəfdaşlıq" proqramı və Azərbaycanda keçiriləcək "Regional cavab-2009" beynəlxalq təlimləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

BAKIDA AZƏRBAYCAN-LATVİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Aprelin 17-də Bakıda "Avropa" mehmanxanasında İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Xəzər-Avropa İnteqrasiya İşgüzar Klubunun təşkilatçılığı ilə Azərbaycan-Latviya biznes forumu keçirilmişdir.

Biznes forumunda Bakıda rəsmi səfərdə olan Latviya xarici işlər naziri Maris Riekstinş, bu ölkənin maşınqayırma, bankçılıq, enerji, qida sənayesi, kimya, ticarət, nəqliyyat və digər sahələri təmsil edən 10-dan çox, Azərbaycan tərəfdən isə müvafiq sahələrdə fəaliyyət göstərən 50-yə yaxın sahibkar iştirak etmişdir.

Foyedə Latviya şirkətlərinin istehsal etdikləri süd məhsulları, şirələr, şirniyyatlar və sair qida məhsulları nümayiş olunurdu.

Tədbirdə iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov ölkəmizdə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə başlanmış və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən iqtisadi islahatlar, müxtəlif sahələrdə həyata keçirilən layihələr, sahibkarlığın inkişafı istiqamətində görülən tədbirlər, son illər qazanılmış nailiyyətlər haqqında məlumat vermişdir. Qeyd etmişdir ki, 2008-ci ildə ümumi daxili məhsul 10,8 faiz artmış, ötən əsrin 90-cı illərindən indiyədək ölkə iqtisadiyyatına 60 milyard ABŞ dollarından çox investisiya qoyulmuşdur. Təkcə ötən il yatırılan investisiyaların məbləği 11 milyard dollardan artıq olmuşdur.

N.Səfərov ölkədə yaradılmış əlverişli biznes mühiti və özəl bölmənin inkişafı sahəsində həyata keçirilən tədbirlərdən söz açmış və bildirmişdir ki, sahibkarlara güzəştli kreditlərin verilməsi, "bir pəncərə" prinsipinin tətbiqi və s. bu sahənin genişlənməsinə, investisiyaların həcminin artmasına səbəb olmuşdur. Prezident İlham Əliyevin regionların inkişafına verdiyi diqqət və qayğını faktlarla diqqətə çatdıran natiq demişdir ki, son beş ildə regionlarda 27 mindən artıq müəssisə yaradılmış, ölkədə açılmış 750 mindən çox yeni iş yerinin 80 faizi bölgələrin payına düşmüşdür. Bu tədbirlər nəticəsində yoxsulluğun səviyyəsi 2002-ci ildəki 47,7 faizdən 2008-ci ildə 13,2 faizə düşmüşdür. Təsadüfi deyildir ki, dünyanın ən nüfuzlu maliyyə institutlarından sayılan Dünya Bankının dərc etdiyi sonuncu hesabata görə, Azərbaycan 181 ölkə arasında 97-ci yerdən 33-cü yerə yüksəlmiş, biznes mühitinin yaxşılaşdırılması üzrə dünyada lider ölkə adını qazanmışdır. Belə mühüm nailiyyətlər isə respublikanın iqtisadi və sosial həyatında son illərdə islahatların aparılması, qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq aləmdə əldə edilən uğurlar və s. nəticəsində mümkün olmuşdur.

Azərbaycan və Latviya arasında iqtisadi əlaqələrdən danışan nazir müavini ötən il ölkələrimiz arasında ticarət dövriyyəsinin 8 milyon dollar təşkil etdiyini, lakin bu əlaqələrin daha da genişləndirilməsi üçün böyük imkanların olduğunu diqqətə çatdırmışdır.

Latviyanın xarici işlər naziri Maris Riekstinş ölkəsinin Azərbaycan ilə iqtisadi, siyasi, mədəni və digər sahələrdə əməkdaşlığı genişləndirmək niyyətində olduğunu vurğulamış, belə qarşılıqlı səfərlərin dövlətlərimiz arasında əlaqələrin daha da inkişaf etdiril-

məsində əhəmiyyətli olduğunu bildirmişdir. Nazir Bakıda keçirdiyi görüşlərdə Azərbaycan tərəfinin Latviya ilə hərtərəfli əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyindən, eləcə də ölkələrimizin müxtəlif beynəlxalq təşkilatlarda əməkdaşlığının səviyyəsindən məmnunluğunu diqqətə çatdırmışdır.

AZPROMO-nun prezidenti Rəhim Hüseynov Azərbaycan iqtisadiyyatı və investisiya mühiti, həmçinin xarici iş adamları üçün yaradılmış imkan və perspektivlər barədə danışmış, latviyalı sahibkarlar təmsil etdikləri şirkətlər haqqında məlumat vermişlər.

Latviya xarici işlər naziri Maris Riekstinşə Xəzər-Avropa İnteqrasiya İşgüzar Klubunun fəxri üzvü sertifikatı təqdim olunmuşdur.

Forumun rəsmi hissəsindən sonra Azərbaycan və Latviya iş adamları arasında keçirilmiş ikitərəfli görüşlərdə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunmuşdur.

XARİCİ ÖLKƏLƏRİN AZƏRBAYCAN RESPUBLİKASINDAKI SƏFİRLƏRİ AZƏRBAYCANIN CƏNUB BÖLGƏLƏRİNƏ SƏFƏR ETMİŞLƏR

Aprel ayının 17-18 tarixlərində Xarici ölkələrin Azərbaycan Respublikasındakı səfirləri (Çin, Hindistan, İsrail, Koreya, Kuba, Qazaxıstan, Macarıstan, Polşa, Tacikistan səfirləri və Beynəlxalq Miqrasiya Təşkilatının Bakıdakı Daimi Nümayəndəsi) XİN-in Dövlət Protokol idarəsinin dəstəyi ilə Azərbaycanın cənub bölgələri - Masallı və Lənkərana səfər etmişlər. Məlumat üçün qeyd etmək lazımdır ki, bu kimi səfərlər artıq sil-silə xarakteri daşıyır.

Səfərin məqsədi Azərbaycanın regionları ilə daha yaxından tanış olmaq, bölgələrin sosial-iqtisadi inkişafı, potensialı, mədəniyyət abidələri və turizm imkanları barədə dünya ictimaiyyətinin daha geniş məlumatlandırılmasıdır.

Qonaqlar aprel ayının 17-də Masallı Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev və rayonun rəhbər işçiləri ilə görüşmüşlər.

Xarici diplomatlar tanışlığa şəhərin Heydər Əliyev parkında Ümummilli Liderimizin xatirəsinə yaradılmış muzeydən başlamışlar. Burada qonaqlara ulu öndərin ömür yolu barədə məlumat verilmiş, onlar muzeydəki fotoşəkillər və şəxsi sənədlərlə yaxından tanış olmuşlar. İsrail, Kuba və Macarıstanın səfirləri muzeyin xatirə kitabına ürək sözlərini yazmışlar.

Diplomatlar oradan şəhərdəki "Embawood" mebel fabrikinə gəlmişlər. Müəssisənin icraçı direktoru burada istehsal olunan məhsullar və fabrikin fəaliyyət prosesinə dair qonaqlara məlumat vermişdir.

Həmin gün diplomatlar yerli ailə-istirahət zonalarından birini, Viləşçay su anbarı, "Fatimeyi Zəhra" İstisu sanatoriyası, Hişkədərə kəndindəki tarix-diyarşünaslıq muzeyində də olmuşlar.

Daha sonra, Xarici diplomatlar Lənkəran rayonuna gəlmişlər. Qonaqları qarşılayan Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, rayonun coğrafi mövqeyi, sosial-iqtisadi inkişafı, əhalinin məşğulluğu və s. məsələlər barədə qonaqlara

məlumat vermişdir. Lənkəranla tanışlığa şəhərin Heydər Əliyev parkında Ümummilli Liderimizin xatirəsinə yaradılmış muzeydən başlayan xarici qonaqlar, burada ulu öndərin şərəfli həyat yolunu əks etdirən eksponatlar, fotoşəkillər və şəxsi sənədlərlə tanış olmuşlar.

Aprel ayının 18-də xarici diplomatlar Lənkəran şəhərində bu yaxınlarda inşa edilmiş süd zavoduna gəlmişlər. Müəssisənin direktoru zavodda istehsal edilən məhsullar və işçilər üçün yaradılan şərait barədə məlumat vermiş, süd zavodunda istehsal prosesi ilə qonaqlara yaxından tanış etmişdir.

Sonra qonaqlar Lənkəran şəhərindəki Osman Mirzəyev adına uşaq evində olmuşlar. Uşaq evinin rəhbərliyi tərəfindən məlumat verilmişdir ki, valideyn himayəsindən məhrum olmuş 51 uşağın təhsil aldığı və yaşadığı uşaq evi 2006-cı ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir edilmiş, lazımi mebel və avadanlıqla təmin olunmuşdur. Xarici qonaqlar uşaq evində yaradılan şəraitlə yaxından tanış olmuş, bədii özfəaliyyət kollektivlərinin çıxışlarına tamaşa etmişlər.

Həmin gün xarici diplomatlar "Xəzər-Lənkəran" futbol komandasının mərkəzi stadionu ilə də tanış olmuşlar.

MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRİ QƏTƏRİN DAXİLİ İŞLƏR NAZİRLİYİ ÜMUMİ TƏHLÜKƏSİZLİK BAŞ İDARƏSİNİN BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Milli Təhlükəsizlik Nazirliyinin ictimai əlaqələr mərkəzindən bildirmişlər ki, aprelin 20-də Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin hüquq mühafizə orqanları rəhbərlərinin Bakıda keçirilən konfransında iştirak etmək üçün ölkəmizə səfərə gələn Qətər Dövlətinin Daxili İşlər Nazirliyi Ümumi Təhlükəsizlik Baş İdarəsinin baş direktoru general-mayor Saad Casim Əl-Xuleyfi ilə görüşmüşdür.

Qonağı səmimi salamlayan nazir Eldar Mahmudov Milli Təhlükəsizlik Nazirliyi tərəfindən görülən işlər barədə danışmış, beynəlxalq terrorçu təşkilatlarla sıx əlaqələri olan mütəşəkkil transmilli cinayətkar qrupların zərərsizləşdirilməsi üzrə həyata keçirilən tədbirləri, eləcə də antiterror koalisiyasının fəal üzvlərindən biri kimi Azərbaycanın bu istiqamətdə dönməz və ardıcıl mövqeyini qeyd etmişdir. Nazir, eyni zamanda, regiondakı mövcud əməliyyat şəraiti, ona təsir göstərən amillər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, nəzarət olunmayan ərazilərin doğurduğu fəsadlar, qanunsuz miqrasiya, narkotrafik və digər məsələlər, həmçinin bununla əlaqədar həyata keçirilən adekvat tədbirlər barədə geniş məlumat vermişdir. Eldar Mahmudov Azərbaycan və Qətərin müvafiq qurumları arasında informasiya və təcrübə mübadiləsinin, habelə hər iki dövlətin təhlükəsizlik maraqlarının təmin olunması sahəsində əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini vurğulamışdır.

Səmimi və mehriban qarşılandığına, ətraflı məlumata görə təşəkkürünü çatdıran qonaq, Bakı konfransında iştirak etmək üçün qardaş Azərbaycana səfərindən xoş təəssürat aldığını qeyd etmişdir. Saad Casim Əl-Xuleyfi bu cür görüşlərin transmilli cinayətkarlıqla, o cümlədən beynəlxalq terrorçuluqla mübarizə işində və hər iki dövlətin müvafiq struk-

turları arasında əməkdaşlığın inkişaf perspektivlərinin müəyyənləşdirilməsində xüsusi əhəmiyyət daşıdığını söyləmişdir. General-mayor Saad Casim Əl-Xuleyfi Qətər və Azərbaycan münasibətlərinin indiki səviyyəsindən böyük məmnunluq hissi duyduğunu, ölkələrimiz arasındakı dostluq və tərəfdaşlıq əlaqələrinin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əminliyini bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN İQTİSADİYYAT NAZİRİ, FEDERAL NƏQLİYYAT VƏ FEDERAL MÜLKİ AVİASİYA QURUMLARININ SƏDRİ SULTAN BİN SƏİD AL MƏNSURİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Birləşmiş Ərəb Əmirliklərinin iqtisadiyyat naziri, federal nəqliyyat və federal mülki aviasiya qurumlarının sədri Sultan bin Səid Al Mənsurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Əsasən özəl sektoru təmsil edən nümayəndə heyəti ilə Azərbaycana səfər etdiyini deyən Sultan bin Səid Al Mənsuri ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi üçün böyük imkanların mövcudluğunu vurğuladı, münasibətlərimizin daha da möhkəmləndirilməsində hər iki ölkə rəsmilərinin maraqlı olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı perspektivlərin olduğunu vurğuladı. Ölkəmizin iqtisadiyyatında özəl sektorun əhəmiyyətli rolundan danışan Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Sovetlər Birliyinin tərkibində olarkən ölkədə özəl sektor yox idi. Son illər aparılan islahatlar nəticəsində özəl sektor sürətlə inkişaf etməyə başlamışdır. Ölkədə ÜDM-in təxminən 85 faizinin özəl sektorun payına düşdüyünü qeyd edən dövlətimizin başçısı, bunun Azərbaycan iqtisadiyyatında mühüm önəm daşıdığını bildirdi. Prezident İlham Əliyev hazırda ölkə iqtisadiyyatının şaxələndirilməsinin əsas prioritetlərdən biri olduğunu dedi.

Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Birləşmiş Ərəb Əmirliklərinin Federal Nəqliyyat və Federal Mülki Aviasiya Qurumlarının sədri Sultan bin Səid Al Mənsurinin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə bu səfəri qarşılıqlı əlaqələrin daha da genişlənməsinə xidmət edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN-ABŞ TİCARƏT PALATASI İDARƏ HEYƏTİNİN HƏMSƏDRİ CEYMS BEYKERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Azərbaycan-ABŞ Ticarət Palatası idarə heyətinin həmsədri Ceyms Beykeri qəbul etmişdir.

Görüşdə Azərbaycan-ABŞ münasibətlərinin digər sahələrdə olduğu kimi, iqtisadi-ticarət sahəsində də uğurla inkişaf etdiyi vurğulandı, iqtisadi əlaqələrin perspektivləri haqqında fikir mübadiləsi aparıldı.

Azərbaycan-ABŞ Ticarət Palatası idarə heyətinin həmsədri Ceyms Beykerin Azərbaycana səfərinin ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığı bildirildi.

PREZİDENT İLHAM ƏLİYEV İKT-NİN ÜZVÜ OLAN DÖVLƏTLƏRİN HÜQUQ MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİNİN BAKIDA KEÇİRİLƏN KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Aprelin 21-də Prezident İlham Əliyev İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin hüquq mühafizə orqanları rəhbərlərinin Bakıda keçirilən konfransının iştirakçılarını qəbul etmişdir.

Prezident İLHAM ƏLİYEV qonaqlara müraciətlə dedi:

- Əziz dostlar!

Mən sizin hamınızı Azərbaycanda salamlayıram. Bu gün Bakıda İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin hüquq mühafizə orqanları rəhbərlərinin konfransı keçirilir. Bu, çox əlamətdar hadisədir. Mən ümid edirəm ki, konfrans çox maraqlı, çox uğurlu keçəcək və onun nəticələri ölkələrimiz arasında olan əməkdaşlığın dərinləşməsində öz mühüm rolunu oynayacaqdır.

Azərbaycan İslam Konfransı Təşkilatında fəal rol oynayır. Bakıda bizim təşəbbüsümüzlə İKT çərçivəsində müxtəlif tədbirlər keçirilmişdir, nazirlər və digər strukturların nümayəndələri Bakıda olmuşlar. Biz bunun tərəfdarıyıq. Biz istəyirik ki, İslam Konfransı Təşkilatı çərçivəsində əməkdaşlıq daha da güclənsin, İslam həmrəyliyi daha da möhkəm olsun və ölkələrimiz arasında qarşılıqlı dəstək bütün beynəlxalq təşkilatlarda özünü göstərsin. Biz bu həmrəyliyi görürük, ancaq siz də yəqin razılaşarsınız ki, gələcəkdə daha da böyük işlərin görülməsinə ehtiyac var.

Hüquq mühafizə orqanlarının əməkdaşlığı hər bir ölkənin təhlükəsizliyi üçün önəmli rol oynayır. Çünki bugünkü dünyada beynəlxalq təhlükəsizlik tədbirlərinin görülməsi böyük zərurətdir. Heç bir ölkə özünü tam sığortalanmış hiss edə bilməz. Ölkənin böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, yalnız müştərək səylərlə biz həm bölgədə, həm dünyada təhlükəsizliyin təmin olunması işində uğurlar qazana bilərik. Beynəlxalq cinayətkarlığa qarşı məhz müştərək mübarizə uğur gətirə bilər. Beynəlxalq terrorçuluq əleyhinə görülən tədbirlər yalnız əlaqələndirilmiş şəkildə səmərəli ola bilər.

Biz Azərbaycanda təhlükəsizliyin təmin olunması üçün çox böyük işlər görürük. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndə burada vəziyyət o qədər də ürəkaçan deyildi. Həm qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, eyni zamanda, cinayətkarlıq çox yüksək səviyyədə idi. Bu gün isə Azərbaycan və ölkəmizin paytaxtı Bakı şəhəri təhlükəsizlik baxımından dünyanın, demək olar ki, ən sakit yerlərindən, şəhərlərindən biridir. Azərbaycan xalqı sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayır. Əlbəttə, biz istəyirik ki, bölgəmizdə sülh, əmin-amanlıq tam bərqərar olsun.

Bir daha demək istəyirəm ki, sizin fəaliyyətinizdən həm təmsil etdiyiniz ölkələrin təhlükəsizliyi asılıdır, eyni zamanda, beynəlxalq əməkdaşlıq məsələləri sizin iştirakınızla həll olunur. Ona görə bir daha demək istəyirəm ki, mən Bakıda keçirilən bu konfransa müxtəlif səbəblərdən çox böyük önəm verirəm. İlk növbədə, bir daha demək istəyirəm

ki, bu, İKT çərçivəsində əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcək, praktik cəhətdən hüquq mühafizə orqanları arasında əməkdaşlığın təmin olunmasına xidmət göstərəcəkdir. Mən ümid edirəm ki, konfrans zamanı ikitərəfli görüşlər də keçiriləcək, buna da böyük ehtiyac vardır. Bütövlükdə, Azərbaycanla, ölkəmizin reallıqları ilə tanış olmaq, hesab edirəm ki, sizin üçün də maraqlı olacaqdır. Bir də demək istəyirəm ki, baxmayaraq, ölkəmiz müstəqil dövlət kimi gəncdir, ancaq müstəqilliyimizin ilk illərindən İslam həmrəyliyinin möhkəmlənməsinə öz töhfəsini verir.

Bir məsələni də böyük məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, bu il Azərbaycanın paytaxtı Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilibdir. Bu, bizim üçün böyük şərəfdir. Bu, bütün İslam dünyasının Azərbaycana, onun tarixinə, mədəniyyətinə verdiyi qiymətdir. Biz böyük təntənəli mərasimlər keçirdik və İslam ölkələrini təmsil edən mədəniyyət nümayəndələri bu tədbirlərdə fəal iştirak etmişlər. Bütün il ərzində Bakıda İslam mədəniyyətinin təbliği ilə bağlı çoxsaylı tədbirlər keçiriləcəkdir. Hesab edirəm ki, ümumi işimizə bu da çox önəmli töhfədir. Ümid edirəm ki, indiki konfrans da çox uğurlu, səmərəli keçəcəkdir. Eyni zamanda, əminəm ki, Bakıya səfəriniz sizin üçün çox xoş keçəcək, siz burada özünüzü doğma vətəninizdəki kimi hiss edəcəksiniz.

Bir daha sizi salamlayıram və sizə uğurlar arzulayıram.

İslam Konfransı Təşkilatı baş katibinin siyasi məsələlər üzrə müavini İZZƏT KAMAL MÜFTİ konfransın iştirakçıları adından minnətdarlıq edərək dedi:

- Bismillahir-rəhmanir-rəhim!

Zati-aliləri cənab Prezident!

Sizi İslam Konfransı Təşkilatının hazırkı konfransında və bu mötəbər görüşdə iştirak edən həmkarlarım, qardaşlarım, nümayəndə heyətləri adından salamlamaqdan şərəf duyuram və bizi qəbul etdiyinizə görə dərin təşəkkürümüzü və minnətdarlığımızı ifadə etmək istəyirəm.

İcazə verin, əvvəlcə, mənə onların adından danışmaq şərəfini həvalə etdiklərinə görə nümayəndə heyətlərinin bütün üzvlərinə və rəhbərlərinə təşəkkürümü bildirim. Ümid edirəm ki, onların bu böyük etimadını doğruldacağam.

Mən İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğlunun səmimi salamlarını Sizə çatdırmaq istəyirəm. O, bu konfransa böyük önəm verdiyini və onun işində iştirak etmək istəyini bildirmişdi. Təəssüf ki, əvvəlcədən planlaşdırılmış tədbirlərə görə, bu konfransda iştirak etmək şərəfini mənə həvalə etdi. Bir daha onun salamlarını Sizə çatdırmaq istərdim.

Cənab Prezident, bu görüşdə çox məsələlərdən, real işlərdən bəhs edildi. İcazənizlə, Bakının 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı seçilməsi münasibətilə Sizi təbrik etmək istərdim.

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra Sizin müdrik rəhbərliyinizlə İslam Konfransı Təşkilatı ilə olan əlaqələrinə və İKT-nin bir sıra tədbirlərinə ev sahibliyi etdiyinə görə Sizə minnətdarlığımı bildirirəm. 2006-cı ildə xarici işlər nazirlərinin konfransını, informasiya nazirlərinin toplantısını və Azərbaycanın birinci xanımının təşəbbüsü ilə "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda keçirilmiş iclası xatırlatmaq istərdim.

Bütün bu tədbirlər ölkənizin İslam Konfransı Təşkilatındakı roluna Sizin diqqətinizin bariz nümunəsidir. Bu diqqət, maraq Mərkəzi Asiya regionunda da hiss olunmaqdadır.

Bütün bunlar Azərbaycanın siyasi, iqtisadi və elmi sahələrdə əldə etdiyi nailiyyətləri ilə yanaşı, İslam ölkələri ailəsində də öz layiqli yerini tutması üçün Sizin göstərdiyiniz səylərin bariz nəticəsidir.

Azərbaycanın İslam Konfransı Təşkilatının hüquq mühafizə orqanları rəhbərlərinin dünyada mütəşəkkil cinayətkarlıqla mübarizəyə, təhlükəsizliyin təmin olunmasına yönəlmiş konfransına ev sahibliyi etməsi, belə bir tədbirin Azərbaycanda keçirilməsi Sizin İslam Konfransı Təşkilatı ilə münasibətlərə verdiyiniz önəmi göstərir. Təbii ki, heç bir ölkədə təhlükəsizlik təmin edilmədən inkişafdan və tərəqqidən danışmaq olmaz. Təhlükəsizliyin təmin edilməsi bir çox problemlərin həllinə imkan verir. Mən burada İki Müqəddəs ocağın xadimi, Kral Abdullanın təhlükəsizliklə bağlı informasiyaların toplanmasına dair beynəlxalq mərkəzin yaradılması təşəbbüsünü qeyd etmək istərdim. Bu mərkəz müxtəlif ölkələrin hüquq mühafizə orqanları rəhbərlərinə problemlərin həllində daha səmərəli əməkdaşlığa imkan verəcək və cinayətkarlığa qarşı mübarizədə, İslam dövlətlərinin bir-biri ilə, eləcə də digər dünya dövlətləri ilə əməkdaşlığına kömək edəcəkdir.

Mən burada İslam Konfransı Təşkilatının üzvü olan bütün dövlətlərin beynəlxalq səviyyələrdə daim Azərbaycanın Dağlıq Qarabağ problemi, Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi və Xocalı faciəsi ilə bağlı ədalətli mövqeyini dəstəklədiklərini qeyd etmək istəyirəm. İslam Konfransı Təşkilatı bu yöndə səylərini davam etdirir. Biz hamımız ümid edirik ki, Sizin müdrik siyasətiniz və səyləriniz nəticəsində və qardaş İslam dövlətlərinin dəstəyi ilə Dağlıq Qarabağ, o cümlədən Xocalı tezliklə azad ediləcəkdir. Sizin müdrik rəhbərliyinizlə Azərbaycan dövlətinin bir çox İslam ölkələrinin problemlərinin həllində göstərdiyi səylərə görə öz minnətdarlığımızı bildirmək istərdim. Yaşadığımız çətin dövrdə İslam ölkələrinin bir-biri ilə əməkdaşlığının böyük əhəmiyyəti vardır. Bu baxımdan İslam Konfransı Təşkilatı böyük nüfuza malikdir. Buna görə biz qurum çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi məqsədi ilə bütün səylərimizi birləşdirməliyik.

Zati-aliləri cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə bir daha minnətdarlığımızı bildirir, Azərbaycan xalqına və ümumiyyətlə İslam ümmətinə xeyir, sülh və əmin-amanlıq arzulayıram.

Çox sağ olun.

Prezident İLHAM ƏLİYEV təşəkkür edərək dedi:

- Xoş sözlərinizə görə təşəkkür edirəm. Xahiş edirəm ki, mənim ən səmimi salamlarımı İslam Konfransı Təşkilatının baş katibi və bütün təşkilatda işləyən dostlarımıza çatdırasınız.

Biz İslam Konfransı Təşkilatı tərəfindən həmişə xoş münasibət, dəstək görürük və qeyd etdiyiniz kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli işində İslam Konfransı Təşkilatı Azərbaycanın haqlı mövqeyini daim birmənalı şəkildə müdafiə etmişdir. Təşkilat dəfələrlə bu məsələ ilə əlaqədar müvafiq qərarlar, qətnamələr qə-

bul etmişdir. Eyni zamanda, digər təşkilatlarla ünsiyyətdə olduğu zaman İKT daim bu məsələni qaldırmış və Azərbaycanın haqlı olduğunu dəfələrlə bəyan etmişdir.

Onu da qeyd etmək istəyirəm ki, keçən ilin mart ayında Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində Azərbaycanın işğal edilmiş torpaqlarında vəziyyətlə bağlı aparılmış müzakirələrdə bizim mövqeyimizi ən çox dəstəkləyən İslam ölkələri olmuşdur və böyük səs çoxluğu ilə qəbul edilmiş qətnamədə haqq-ədalət öz əksini tapmışdır. Mən bu fürsətdən istifadə edərək, bizi dəstəkləmiş bütün ölkələrə, xüsusilə İslam ölkələrinə bir daha öz minnətdarlığımı, təşəkkürümü bildirmək istəyirəm.

Bu münaqişə bölgə üçün ən böyük təhlükədir. Buna baxmayaraq, Azərbaycan son illər ərzində öz imkanlarını böyük dərəcədə genişləndirə bilmişdir. Son dörd il ərzində Azərbaycan iqtisadi artım baxımından dünya miqyasında birinci ölkədir. Ötən beş ildə bizim iqtisadiyyatımız 2,6 dəfə artmışdır. Sənaye istehsalı 2,5 dəfə artmışdır. Beş ildə yoxsulluğun səviyyəsi 49 faizdən 13 faizə düşmüşdür, 750 mindən çox yeni iş yerləri açılmışdır. Ölkəmizin bütün yerlərində böyük quruculuq, abadlıq işləri aparılır, nəhəng infrastruktur layihələri icra olunur və iqtisadiyyatın şaxələndirilməsi üçün lazımi tədbirlər görülübdür. Baxmayaraq ki, bu gün dünyanı maliyyə-iqtisadi böhranı bürüyüb, bu ilin birinci rübündə Azərbaycan iqtisadiyyatı inamla inkişaf edir və artır.

Əlbəttə ki, bölgədə sülhün təmin olunmaması, Azərbaycan torpaqlarının 20 faizinin hələ də Ermənistanın işğalı altında qalması həm bizim üçün, həm də bölgə üçün böyük təhlükədir. Artıq dünya da görür ki, dondurulmuş münaqişələr uzun müddət ərzində bu vəziyyətdə qala bilməz. Bölgədə keçən il yaşanan qanlı hadisələr bunu bir daha göstərdi. Bizim istəyimiz, tələbimiz beynəlxalq hüquq normalarına əsaslanır.

Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış torpaqlarını xarici qoşunlar işğal edibdir. Ermənistanın Azərbaycana qarşı təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox soydaşımız qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Dağlıq Qarabağın özündən on minlərlə azərbaycanlı qovulmuşdur. Azərbaycanın Dağlıq Qarabağın inzibati hüdudlarından kənarda yerləşən yeddi rayonundan 700 mindən çox azərbaycanlı qovulmuşdur. Ermənistandan 250 mindən çox azərbaycanlı qovulmuşdur. Bu gün Azərbaycanın işğal edilmiş torpaqlarında hər şey dağıdılıbdır. Bütün binalar, məktəblər, xəstəxanalar, muzeylərimiz talan edilibdir, milli sərvətlərimiz məhv edilib, yaxud da ki, talan olunubdur. Bizim müqəddəs ocaqlarımız, məscidlərimiz ermənilər tərəfindən yerlə-yeksan edilibdir. Bu gün Bakının mərkəzində hər kəs vaxtilə burada tikilmiş erməni kilsəsini görə bilər. Bu gün Azərbaycanda həm məscidlər tikilir, həm kilsələr tikilir və budur bizim tolerantlığımız, budur bizim başqa xalqların dinlərinə, mədəniyyətlərinə münasibətimiz. Baxmayaraq ki, bizim məscidlərimiz Azərbaycanın torpağında ermənilər tərəfindən dağıdılıbdır, biz erməni kilsəsini bərpa etmişik. Bax, bu, bizim mədəniyyətimizin təzahürüdür. Biz sadəcə olaraq istəyirik ki, beynəlxalq hüquq normaları tətbiq olunsun. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası tərəfindən 4 qətnamə qəbul edilibdir. Yəni dünya miqyasında bu qurumdan önəmli və böyük qurum yoxdur. Bu qətnamələrin qəbul edilməsindən artıq 20 ilə yaxın vaxt keçir, Ermənistan tərəfi isə buna məhəl qoymur. Danışıqlar, bizim bütün səylərimiz nəticə vermir və işğalçı qüvvələr hələ də bizim torpaqlarımızda yerləşibdir. Ona görə bizim işimiz haqq işidir. Bizim heç bir başqa ölkənin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç

kimə verməyəcəyik və heç vaxt dünya birliyi qondarma Dağlıq Qarabağ rejimini müstəqil qurum kimi tanımayacaqdır. Azərbaycan heç vaxt buna icazə verməyəcək və istənilən yollarla öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Sadəcə olaraq biz istəyirik ki, bunu sülh yolu ilə, danışıqlar yolu ilə edək. Əgər Ermənistan tərəfi konstruktivlik göstərərsə, danışıqlar masasında olan təkliflər razılaşmanın əldə edilməsi üçün yaxşı əsas ola bilər. Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır: Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və tarixi ədalət bərpa olunmalıdır.

Dağlıq Qarabağ dünya birliyi tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır və ölkəmiz müstəqil dövlət kimi Birləşmiş Millətlər Təşkilatına üzv olduqda Azərbaycanın suverenliyi və ərazi bütövlüyü Dağlıq Qarabağ daxil olmaq şərtilə tanınıbdır. Biz sadəcə olaraq, istəyirik ki, öz ərazi bütövlüyümüzü bərpa edək. Əgər münaqişə öz həllini taparsa, Dağlıq Qarabağda yaşayan, Azərbaycanda azlıq təşkil edən erməni əhalisi gələcəkdə sülh, əmin-amanlıq şəraitində yaşayacaqdır.

Mən bir daha demək istəyirəm ki, bu məsələ təkcə bizim üçün deyil, bölgə üçün böyük təhlükədir. Bölgənin hərtərəfli inkişafı və genişmiqyaslı əməkdaşlığı bu məsələ həll olunmadan təmin edilə bilməz. Bölgədə təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi işində çox səylər göstərilir, amma Dağlıq Qarabağ münaqişəsi həll olunmadan tammiqyaslı əməkdaşlıq ola bilməz.

Mən bir daha bu məsələ ilə əlaqədar Azərbaycanın haqq işini dəstəkləyən bütün qardaşlarımıza öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bilin ki, Azərbaycan xalqı bilir və yaxşı dərk edir ki, onun dostları kimlərdir. Bayaq qeyd etdiyim kimi, keçən il BMT-nin Baş Məclisində keçirilən səsvermə, əslində, həqiqət anı idi. O səsvermədə Azərbaycanın real dostları bir daha öz mövqeyini göstərdi, o səsvermə Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir. Biz öz siyasətimizdə bizim üçün dost, qardaş ölkələrin bizə olan münasibətini ilk növbədə əsas tuturuq. Biz bütün ölkələrlə yaxşı əlaqələr yaratmaq fikrindəyik və bu istiqamətdə böyük addımlar atılıbdır. Azərbaycan bu gün dünya miqyasında tanınan ölkədir və bizə hörmətlə yanaşırlar. Ancaq əlbəttə ki, hər bir ölkə üçün çətin anlarda əsas dostlar özünü göstərir.

Ona görə bir daha deyirəm, mənim üçün bugünkü konfrans da xüsusi əhəmiyyət daşıyır. Çünki bu gün Bakıda bizim qardaşlarımız bizim qonaqlarımızdır. İslam Konfransı Təşkilatının üzvü olan bütün ölkələrə mənim çox böyük hörmətim var, böyük məhəbbətim var.

İstəyirəm onu da biləsiniz ki, baxmayaraq, müstəqil dövlət kimi gəncik, İslam həmrəyliyinin möhkəmlənməsi üçün biz Azərbaycanda çox işlər görürük. Mən qəti əminəm ki, əgər biz bütün İslam ölkələri arasında bu həmrəyliyi, qarşılıqlı dəstəyi tam şəkildə təmin edə bilsək, təşkilata üzv olan ölkələrin daxili problemləri də daha da asanlıqla həll oluna bilər.

Bir sözlə, mən bir daha sizi ürəkdən salamlayıram. Ümid edirəm ki, Bakıda keçirdiyiniz günlər sizin üçün xoş olacaqdır və siz vətənə yaxşı təəssüratlarla dönəcəksiniz. Sağ olun.

İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV OLAN DÖVLƏTLƏRİN HÜQUQ MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

İslam Konfransı Təşkilatına üzv olan dövlətlərin hüquq mühafizə orqanları rəhbərləri Konfransının keçirilməsi münasibətilə sizi təbrik edir və işinizdə uğurlar arzulayıram.

İslam sivilizasiyası sülh və tolerantlığı, bəşəri ideyaları və insan ləyaqətinə hörməti, humanizm və mərhəməti təşviq edən, milyonlarla insanı birləşdirən dəyərlər sistemidir. İslam bütün cinayətləri, xüsusilə terrorçuluğu, ekstremizmi və hər cür zorakılığı rədd edir. Belə əməllər xalqlarımızın bölüşdüyü ümumi dəyərləri nəinki təhdid edir, həm də dövlətlərin ictimai-siyasi sabitliyinə, insanların əmin-amanlığına təhlükə yaradır.

Terrorizm, separatizm, silahların və narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, qanunsuz miqrasiya, cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin leqallaşdırılması kimi cinayətlər transmilli xarakter daşıdığından dövlətlərin birgə dinc yanaşı yaşamasına ciddi təhlükə yaradır. Ona görə də xalqlarımızın ümumi rifahına və inkişafına nail olmaq, təhlükəsizliyi təmin etmək məqsədi ilə sosial-iqtisadi, siyasi tədbirlərlə yanaşı, cinayətkarlığa qarşı mübarizənin səmərəli şəkildə həyata keçirilməsi vacibdir.

Son on beş il ərzində həyata keçirilən fundamental islahatlar Azərbaycanın dinamik inkişafında və müasirləşməsində zəruri faktor olmuşdur. Bununla yanaşı, Azərbaycanın qarşılaşdığı ən ağrılı problem Ermənistanın yürütdüyü təcavüzkar separatizm, etnik təmizləmə və terror siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunması, bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsidir. İşğal olunmuş ərazilərə Ermənistanın və qondarma separatist rejimin nəzarət etməsi narkotiklərin və silahların qanunsuz dövriyyəsinə, insan alveri, çirkli pulların yuyulması kimi cinayətlərin vüsət almasına şərait yaratmışdır. Həmin ərazilərdə törədilən cinayətlər nəinki Azərbaycan, bütövlükdə region üçün təhlükə doğurur. Bu baxımdan transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə ölkələrimizin hüquq mühafizə orqanlarının fəaliyyətinin regional və universal səviyyədə əlaqələndirilməsini tələb edir.

Əminəm ki, ölkələrimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığın təşviqi və dərinləşdirilməsi transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin səmərəsini artıracaq, bu sahədə qarşılıqlı razılaşdırılmış siyasətin yürüdülməsinə imkan yaradacaqdır.

Bir daha sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram, sülh, sabitlik, əmin-amanlıq və təhlükəsizlik naminə səylərimizi birləşdirməyə çağırıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2009-cu il.

BAKIDA İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN HÜQUQ MÜHAFİZƏ ORQANLARININ RƏHBƏRLƏRİNİN KONFRANSI KEÇİRİLMİŞDİR

Aprelin 21-də Bakıda İslam Konfransı Təşkilatının (İKT) üzvü olan ölkələrin hüquq mühafizə orqanlarının rəhbərlərinin ikigünlük konfransı işə başlamışdır.

Prezident Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxumuşdur.

Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov çıxış edərək demişdir ki, tədbirdən məqsəd İKT-nin üzvü olan dövlətlər arasında hüquq mühafizə sahəsində qarşılıqlı əməkdaşlığın əsas istiqamətlərini müəyyən etməkdir. Konfrans ölkələr arasında transmilli mütəşəkkil cinayətkarlığın, beynəlxalq terrorçuluğun, ekstremizmin, təcavüzkar separatizmin, silahların, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin, insan alverinin, qanunsuz miqrasiyanın, cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının, terrorçuluğun maliyyələşdirilməsinin və korrupsiyanın qarşısının alınmasına öz töhfəsini verəcək, əməkdaşlığın gücləndirilməsində mühüm rol oynayacaqdır.

Baş nazirin müavini qeyd etmişdir ki, Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır və bu ərazilər nəzarətdən kənarda qalmışdır. Həmin ərazilərdə transmilli mütəşəkkil cinayətkarlığın inkişafı üçün münbit şərait yaradılmışdır ki, bu, təkcə Azərbaycana yox, bütün regiona mənfi təsir göstərir. Bu baxımdan transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə ölkələrimizin hüquq mühafizə orqanlarının fəaliyyətinin regional və beynəlxalq səviyyələrdə əlaqələndirilməsini tələb edir.

Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində beynəlxalq birliyin səylərinin artırılmasının transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizəyə öz töhfəsini verəcəyinə əminliyini ifadə edən Abid Şərifov bildirmişdir ki, bu konfransın keçirilməsi İKT çərçivəsində qəbul olunmuş əvvəlki qərarların icrası istiqamətində mühüm addım olacaq və hüquq mühafizə qurumları arasında əməkdaşlığın səmərəliliyini artıracaqdır.

Abid Şərifov vurğulamışdır ki, Prezident İlham Əliyev İKT ilə əlaqələrin genişləndirilməsini Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir.

Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov isə bildirmişdir ki, bu konfrans İKT çərçivəsində əməkdaşlığın yeni strategiyasını müəyyənləşdirəcək, beynəlxalq çağırışlar və təhdidlərlə mübarizəyə töhfə verəcəkdir.

Konfransın əhəmiyyətindən danışan İKT baş katibinin müavini İzzət Kamil Müfti tədbirin qurumun üzvü olan ölkələrin hüquq mühafizə orqanları arasında birgə hüquqi normativ bazanın yaradılmasına və əməkdaşlığın inkişafına kömək edəcəyini bildirmişdir.

Baş katibin müavini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq vurğulamışdır ki, Azərbaycan ərazilərinin bir hissəsi 20 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Dağlıq Qarabağ və onun ətrafında olan 7 rayon Ermənistan tərəfindən zəbt olunmuşdur. Bunun nəticəsində Azərbaycanın 1 milyon qaçqını və məcburi köçkü-

nü vardır. İKT Azərbaycanın haqlı mövqeyini dəstəkləyir.

Sonra konfrans öz işini sessiyalarda davam etdirmişdir.

Azərbaycanın milli təhlükəsizlik naziri Eldar Mahmudovun sədrlik etdiyi birinci sessiyada transmilli mütəşəkkil cinayətkarlığa, xüsusilə beynəlxalq terrorçuluğa, ekstremizmin bütün forma və təzahürlərinə, təcavüzkar separatizmə, kibercinayətkarlığa qarşı mübarizə məsələləri müzakirə olunmuşdur.

Nazir Eldar Mahmudov bildirmişdir ki, keçən il ölkədə müxtəlif təhlükəli çağırışların, radikal qrupların fəaliyyətinin qarşısı alınmışdır. Artıq Azərbaycanı nəinki Cənubi Qafqazda, hətta bütün MDB-də təhlükəsiz ölkə hesab etmək olar. Bu nailiyyət Azərbaycanın ümummilli lideri Heydər Əliyevin dürüst təhlükəsizlik siyasətinin qətiyyətlə həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Məhz ulu öndərin müdrikliklə müəyyən etdiyi fəaliyyət prioritetləri və inkişaf istiqamətlərinin işdə rəhbər tutulması sayəsində Azərbaycan beynəlxalq təhlükəsizlik sistemində layiqli yeri ni tutub və xarici ölkələr arasında özünə etibarlı müttəfiq nüfuzunu qazanmışdır.

Eldar Mahmudov vurğulamışdır ki, Azərbaycan Prezidenti İlham Əliyev regionda və dünyada sülh, beynəlxalq hüquq və normalara hörmət, qanunçuluq və milli-mənəvi dəyərlərin vəhdəti, sabitlik və inkişaf, antibəşəri təzahürlərə, o cümlədən terrorçuluğa qarşı fəal mübarizə prinsiplərinə söykənən tarazlı siyasət yürüdür, beynəlxalq əməkdaşlıq münasibətlərinə böyük önəm verir.

Nazir Eldar Mahmudov diqqətə çatdırmışdır ki, bu gün demokratik, dünyəvi dövlət quruculuğu yolunu seçmiş Azərbaycan özünün tarix boyu qoruyub saxladığı və onu bütün islam aləmi ilə birləşdirən ənənə və dəyərlərə dönməz sədaqət nümayiş etdirir. Qardaş islam ölkələri ilə bütün səviyyələrdə və sahələrdə təmasların yaradılması bizim üçün vacibdir. Eyni zamanda, müsəlman ölkəsi olaraq, biz dünya mədəniyyətinə inteqrasiya edir, islami dəyərlər və sivil yanaşmalarla ona öz töhfəmizi verməyə çalışırıq. 2008-ci ildə Heydər Əliyev Fondu tərəfindən Bakıda keçirilmiş "Sivilizasiyalararası dialoqda qadınların rolu" adlı tədbirin keçirilməsi də bu mövqeyimizin bariz nümunəsidir.

Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığına toxunan Eldar Mahmudov, İKT-nin üzvü olan ölkələrin hüquq mühafizə orqanlarının əlaqələrinin inkişaf etdirilməsinin əhəmiyyətini vurğulamışdır. Nazir bu ölkələri bir sıra ümumi problemlərin narahat etdiyini, Azərbaycanın da həmin sahədə prinsipial mövqe nümayiş etdirdiyini bildirmişdir.

Sonra birinci sessiya ilə bağlı müzakirələr aparılmış mövzu üzrə səmərəli təkliflər səsləndirilmişdir.

Fasilədən sonra konfrans ikinci sessiya ilə işini davam etdirmişdir. Azərbaycanın daxili işlər naziri, general-polkovnik Ramil Usubovun sədrlik etdiyi ikinci sessiyada silahların, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi, insan alveri, qanunsuz miqrasiyaya qarşı mübarizə məsələləri müzakirə olunmuşdur.

Nazir Ramil Usubov bildirmişdir ki, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı təkcə daxili işlər orqanları tərəfindən aşkar edilmiş faktların sayı son 5 ildə 71 faiz

artmış və əsas diqqət qanunsuz dövriyyədən ağır təsirə malik narkotiklərin çıxarılmasına yönəlmişdir. Həmin dövrdə 6 min tona yaxın narkotik tərkibli bitki aşkarlanaraq yaşıl kütlə halında məhv edilmişdir.

Qarşıda duran mühüm vəzifələrdən danışan Ramil Usubov vurğulamışdır ki, onlardan biri də ölkəmizin geosiyasi mövqeyi baxımından, onun ərazisindən narkotiklərin digər ölkələrə daşınmasında transmilli qruplaşmaların tranzit dəhlizi kimi istifadə etmələrinin qarşısını almaqdır.

Azərbaycanın Orta Asiya ölkələri, İran, Türkiyə, Rusiya, Gürcüstan və digər dövlətlərin hüquq mühafizə orqanları ilə sıx peşəkar əlaqələr qurduğunu deyən Ramil Usubov qeyd etmişdir ki, işgüzar münasibətlərimizdə, həmkarlarımızın bəhrələnə biləcəyi kifayət qədər müsbət təcrübə əldə etmişik. Bu potensialdan tam həcmdə istifadə olunmasının vacibliyinə isə şübhə yoxdur.

Daxili işlər naziri Ramil Usubov insan alverinin latent cinayətlərdən olduğunu, respublikamızda ona qarşı mübarizənin nəticələrinin ilbəil yaxşılaşdığını bildirərək diqqətə çatdırmışdır ki, aşkarlanan müvafiq cinayətlərin sayı 2004-cü illə müqayisədə ötən ilin sonuna 5 dəfə artmış və həmin dövrdə 122 cinayətkar qrup zərərsizləşdirilmişdir.

Bu sahədə şəraitin kifayət qədər çevik dəyişməsi səbəbindən qabaqlayıcı qərarların qəbul olunmasının vacibliyini xüsusi vurğulayan Ramil Usubov qeyd etmişdir ki, son illərdə Hindistan, Çin və Yaxın Şərq ölkələrindən olan əməkçi miqrantların, onlarla birgə qeyri-leqalların Azərbaycana axını hiss olunur. Yaranan vəziyyət isə, öz növbəsində miqrantların başqa ölkələrə tranzitini istisna edən cavab tədbirlərinin görülməsi zərurətini yaradır. Sistematik olaraq keçirdiyimiz əməliyyat-profilaktiki tədbirlərlə son 10 ildə əllərdə qanunsuz saxlanılan və əksəriyyəti avtomatik olan 25 minə yaxın silah yığılmışdır. Bunun məntiqi nəticəsi kimi odlu silahdan istifadə etməklə törədilən cinayətlərin sayı 2009-cu ilin əvvəlinə təxminən 5 dəfə azalmışdır.

İKT çərçivəsində yeni formatda mühüm əməkdaşlıq istiqamətlərinin əsasının yaradılmasına yönəlmiş tədbirdə BMT-nin Narkotiklər və Cinayətkarlığa dair İdarəsinin Mərkəzi Asiya üzrə regional nümayəndəsi Ceyms Kallahan və bir sıra beynəlxalq qurumların əməkdaşları ikinci sessiyada çıxış etmiş, mövzu ilə əlaqədar səmərəli təkliflər vermişlər.

Vurğulanmışdır ki, qlobal kriminallaşma, müxtəlif risklərin artması və dərinləşməsi şəraitində beynəlxalq, regional və milli səviyyələrdə təhlükəsizliyə olan təhdidlərə qarşı müvafiq cavab tədbirlərinin görülməsi müasir dövrdə əsas vəzifələrdəndir.

Konfransın ikinci günündə hüquqi yardım və ekstradisiya məsələləri, qeyri-qanuni yolla əldə edilmiş pulların və mülkiyyətin leqallaşdırılması, korrupsiyaya qarşı mübarizə məsələləri müzakirə olunmuşdur.

Bu mövzu ilə bağlı konfransın üçüncü sessiyasına sədrlik edən Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov bildirmişdir ki, tədbir cinayətkarlığa qarşı daha səmərəli birgə mübarizə üçün zəmin yaradacaqdır. Bununla yanaşı yeni prioritetlər müəyyən olunacaq və İKT-nin üzvü olan ölkələr arasında hüquq sahəsində mövcud əlaqələr daha da inkişaf edəcəkdir.

Korrupsiya ilə mübarizə məsələsi də konfransda əsas müzakirə mövzusu olduğunu diq-

qətə çatdıran Fikrət Məmmədov demişdir ki, korrupsiya dövlətin əsaslarını və ictimaiyyətin inamını sarsıdır, hər bir vətəndaşın maraqlarına ziyan vurur. Nazir vurğulamışdır ki, Azərbaycanın iqtisadi inkişaf sürətinə görə lider ölkələr sırasında olması nəzərə alınaraq, bu sahədə geniş miqyaslı tədbirlər həyata keçirilir. Ölkəmiz BMT-nin və Avropa Şurasının müvafiq konvensiyalarına qoşulmuş, aidiyyəti ixtisaslaşdırılmış beynəlxalq təşkilatların fəal iştirakçısına çevrilmişdir.

Nazir Fikrət Məmmədov bildirmişdir ki, Azərbaycan İKT-nin üzvü olan ölkələrdən Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, İran, Türkmənistan, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), İordaniya ilə hüquqi yardım, cinayət törətmiş şəxslərin ekstradisiyası, hüquqi informasiya mübadiləsi haqqında müqavilələr imzalamışdır. Azərbaycan Səudiyyə Ərəbistanı, Mərakeş və Əlcəzair ilə müvafiq ikitərəfli sənəd layihələri imzalamağa hazırdır.

İKT çərçivəsində yeni formatda mühüm əməkdaşlıq istiqamətlərinin əsasının yaradılmasına yönəlmiş tədbirdə Liviyanın nümayəndə heyətinin rəhbəri Mustafa Məhəmməd Əbdülcəlil, Nigeriyanın nümayəndə heyətinin rəhbəri Kabir Sani, BƏƏ-nin nümayəndə heyətinin rəhbəri Əhməd Rəşid və bir sıra beynəlxalq qurumların əməkdaşları üçüncü sessiyada çıxış etmiş, mövzu ilə əlaqədar səmərəli təkliflər vermişlər.

Vurğulanmışdır ki, bu konfrans cinayətkarlığa qarşı birgə daha səmərəli mübarizə aparmaq üçün, yeni prioritetlər müəyyən olunmaqla İKT-nin üzvü olan ölkələr arasında hüquqi sahədə mövcud əlaqələrin daha da inkişaf etdirilməsinə zəmin yaradacaqdır.

Sonda konfransın yekunlarına dair Bakı Bəyannaməsi qəbul olunmuşdur.

XARİCİ İŞLƏR NAZİRİ İRAN İSLAM RESPUBLİKASININ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Aprelin 21-də xarici işlər naziri Elmar Məmmədyarov İran İslam Respublikasının Səfiri Nəsir Həmidi Zareni Azərbaycanda fəaliyyət müddətinin bitməsi ilə əlaqədar qəbul etmişdir.

Görüşdə səfir N. Həmidi Zarenin İİR-in öncə Naxçıvanda baş konsulu, daha sonra isə Bakıda səfir kimi fəaliyyət göstərdiyi dövrdə Azərbaycan-İran münasibətlərinin inkişafı ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Səfir fəaliyyəti dövründə Azərbaycan hökuməti tərəfindən ona göstərilmiş dəstəyə görə minnətdarlığını bildirmiş, öz növbəsində, nazir E.Məmmədyarov isə İran diplomatına gələcək fəaliyyətində uğurlar arzulamışdır.

İKT-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN HÜQUQ MÜHAFİZƏ ORQANLARININ RƏHBƏRLƏRİNİN KONFRANSI CİNAYƏTKARLIQLA BİRGƏ MÜBARİZƏDƏ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNMƏSİNƏ XİDMƏT EDƏCƏKDİR

Aprelin 22-də Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov İslam Konfransı Təşkilatının (İKT) baş katibinin müavini İzzət Kamil Müfti ilə birgə İKT-nin üzvü olan ölkələrin hüquq mühafizə orqanlarının rəhbərlərinin Bakı konfransının yekunlarına həsr olunmuş mətbuat konfransı keçirmişlər.

Konfransın əhəmiyyətindən danışan Xələf Xələfov bildirmişdir ki, tədbir İKT-nin üzvü olan ölkələr arasında transmilli mütəşəkkil cinayətkarlığın, beynəlxalq terrorçuluğun, ekstremizmin, təcavüzkar separatizmin, silahların, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin, insan alverinin, qanunsuz miqrasiyanın, cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının, terrorçuluğun maliyyələşdirilməsinin və korrupsiyanın qarşısının alınmasına öz töhfəsini verəcək, əməkdaşlığın inkişaf etdirilməsində mühüm rol oynayacaqdır. Tədbirin yekunlarına dair qəbul olunmuş bəyannamədə bu məsələlərə geniş yer ayrılmışdır.

Sənədin tövsiyə xarakteri daşıdığını qeyd edən Xələf Xələfov vurğulamışdır ki, buna əsaslanan fəaliyyət mexanizmi yaradılarsa, nəticə əldə etmək olar.

Nazir müavini İran nümayəndə heyətinin konfransda İKT Hüquq Mühafizə Orqanlarının Əməkdaşlıq Mərkəzinin yaradılması təklifi ilə çıxış etdiyini deyərək, onun müsbət qarşılandığını söyləmişdir.

Konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür edən İKT baş katibinin müavini İzzət Kamil Müfti isə tədbiri təşkilatın üzvü olan ölkələrin cinayətkarlıqla birgə mübarizə aparması üçün atdıqları ilk addım hesab etmişdir. İKT-nin rəsmisi bildirmişdir ki, konfrans təşkilata üzv olan ölkələrin fəaliyyətlərinin əlaqələndirməsinə xidmət edəcəkdir. Birgə fəaliyyət olmasa, mütəşəkkil cinayətkar şəbəkələrin qarşısını almaq mümkün olmayacaqdır. Çünki cinayət vətəni, milliyyəti olmayan məfhumdur.

AZƏRBAYCAN NƏQLİYYAT NAZİRLİYİ İLƏ BƏƏ-NİN İQTİSADİYYAT NAZİRLİYİ ARASINDA İKİTƏRƏFLİ ƏMƏKDAŞLIĞA DAİR PROTOKOL İMZALANMIŞDIR

Aprelin 22-də Nəqliyyat Nazirliyində Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iqtisadiyyat naziri, Federal Nəqliyyat və Federal Mülki Aviasiya qurumlarının sədri Sultan bin Səid Al Mənsurinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Azərbaycanla BƏƏ arasında əlaqələrin xoş məcrada inkişaf etdiyini deyən nəqliyyat naziri Ziya Məmmədov bu səfərin iki ölkə arasında əməkdaşlığın inkişafına müsbət təsir göstərəcəyini vurğulamışdır. Dövlətimizin başçısı İlham Əliyevin BƏƏ-yə səfərindən sonra iki dövlət arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğu, həm siyasi, həm də iqtisadi sahələrdə əməkdaşlıq üçün böyük potensialın olduğu qeyd edilmişdir.

Son illər Azərbaycanın dinamik inkişaf etdiyi, bütün sahələrlə yanaşı, yol-nəqliyyat kompleksinin inkişafı istiqamətində də əsaslı addımların atıldığı, böyük layihələrin həyata keçirildiyi qeyd olunmuşdur. Bildirilmişdir ki, ölkə iqtisadiyyatında nəqliyyat sektorunun xüsusi payı vardır. Azərbaycanın nəqliyyat sektoru sürətlə inkişaf edir, reallaşdırılan layihələr onun dünya nəqliyyat ailəsinə inteqrasiyasını daha da dinamikləşdirir.

Nəqliyyat naziri qonaqlara Azərbaycanda həyata keçirilən həm beynəlxalq, həm də yerli əhəmiyyətli layihələr barədə ətraflı məlumat vermişdir. Ölkəmizin Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşdiyi, bu geosiyasi mövqedən bacarıqla istifadə olunduğu xüsusi vurğulanmışdır. Qeyd edilmişdir ki, Azərbaycandan

keçən tranzit nəqliyyat dəhlizləri vasitəsilə ildə 20 milyon ton yük daşınır. Daşımaların əksər hissəsinin avtomobil nəqliyyatı ilə həyata keçirildiyi, buna görə də magistral yolların diqqət mərkəzində saxlanıldığı nəzərə çatdırılmışdır. Bununla yanaşı, nəqliyyat vasitələrinin yeniləşdirildiyi, yeni təyyarələrin, bərələrin, lokomotivlərin alındığı, nəqliyyatın idarə edilməsi məqsədi ilə yeni texnologiyalardan istifadəyə üstünlük verildiyi qeyd edilmişdir.

Azərbaycanın dəmir yolu, su, hava nəqliyyatı sahəsində də uğurlu inkişafa nail olduğu, son illərdə 4 beynəlxalq aeroportun, Bakı Beynəlxalq Avtovağzal Kompleksinin, çoxsaylı nəqliyyat ötürücülərinin və yolların istifadəyə verildiyi, Ələt qəsəbəsi yaxınlığında yeni limanın texniki iqtisadi əsaslandırmasının hazırlandığı diqqətə çatdırılmışdır. Bildirilmişdir ki, yeni liman inşa olunduqdan sonra burada yük daşımaları ildə 15 milyon tona çatacaqdır. Bundan başqa, dəmir yolu sahəsində həyata keçirilən Şimal-Cənub və Bakı-Tbilisi-Qars beynəlxalq layihələri Avropa ilə Asiya arasında yükdaşımalara mühüm təsir göstərəcəkdir.

Ziya Məmmədov vurğulamışdır ki, Azərbaycanda nəqliyyat sahəsində layihələrin müştərək qaydada həyata keçirilməsi üçün çox əlverişli imkanlar və şərait vardır.

Səmimi görüşə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən BƏƏ-nin iqtisadiyyat naziri, Federal Nəqliyyat və Federal Mülki Aviasiya qurumlarının sədri Sultan bin Səid Al Mənsuri ölkələrimiz arasında sıx dostluq münasibətlərinin formalaşdığını söyləmişdir. Qonaq bildirmişdir ki, cari ilin planı hazırlanarkən məhz Azərbaycana olan mehriban münasibətə görə, ona prioritet mövqe ayrılmış və yeni ildə ilk səfərlərdən biri Bakıya olmuşdur.

Azərbaycanın sürətlə inkişaf etməsinin onları sevindirdiyini qeyd edən qonaq bu inkişafın Bakının timsalında aydın göründüyünü bildirmişdir. Vaxtilə BƏƏ-nin də həmin yolu keçdiyini deyən qonaq, bu yolun necə çətin olduğunu yaxşı bildiklərini, buna görə də Azərbaycana hərtərəfli yardım etməyə hazır olduqlarını vurğulamışdır. Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin öz bəhrəsini verdiyini, bununla bağlı iki ölkə arasında sıx əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini deyən qonaq bir daha qeyd etmişdir ki, BƏƏ Azərbaycanda nəqliyyat sahəsində reallaşdırılan layihələrə kömək göstərməyə hazırdır. Qeyd olunmuşdur ki, Azərbaycan BƏƏ tərəfindən həyata keçirilən körfəz layihəsinə də qoşula bilər və bu, ölkəmizin həmin şəbəkəyə çıxışını təmin edər.

Nazir vətəninə qayıtdıqdan sonra müvafiq qurumlarla danışıqlar apararaq onları iki ölkə arasında əməkdaşlığın inkişafı üçün daha fəal fəaliyyətə çağıracağını qeyd etmişdir.

Görüşün sonunda iki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlığa dair protokol imzalanmışdır.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI ABŞ UNİVERSİTETLƏRİ İLƏ ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRİR

Azərbaycan Diplomatik Akademiyası və ölkəmizin Los-Anceles şəhərindəki baş konsulluğunun birgə təşkilatçılığı ilə ABŞ-ın Kaliforniya ştatının bir sıra universitetlərində Azərbaycanla bağlı mühazirələr silsiləsi keçirilmişdir.

Akademiyanın nümayəndəsi Fariz İsmailzadə Çapman, Pepperdayn və Los-Ancelesin Kaliforniya Universitetlərində oxuduğu mühazirələrdə dinləyicilərə Azərbaycanın qlobal enerji təhlükəsizliyində mühüm rolu və Cənubi Qafqaz bölgəsində son zamanlar sürətlə dəyişən geosiyasi vəziyyətə dair ətraflı məlumat verilmişdir.

Ali təhsil ocaqlarının mühazirələrdə iştirak edən professor-müəllim və tələbə heyətinin Prezident Barak Obamanın hakimiyyəti dövründə ABŞ-Azərbaycan münasibətlərinin inkişafı, ölkəmizin terrorla qlobal mübarizədə oynadığı fəal rola dair sualları cavablandırılmışdır.

Azərbaycan Diplomatik Akademiyasının nümayəndəsi mühazirələrlə yanaşı, Kaliforniya Universitetləri ilə əməkdaşlıq münasibətlərinin qurulmasına dair görüşlər keçirmişdir.

MİNSKDƏ MDB-NİN FƏALİYYƏTİNİN İNFORMASİYA DƏSTƏYİNİN GÜCLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

Aprelin 23-də Belarus paytaxtında Müstəqil Dövlətlər Birliyinin (MDB) mənzil-qərargahında "MDB-nin fəaliyyətinin informasiya dəstəyinin gücləndirilməsi" mövzusunda müşavirə işə başlamışdır.

MDB İcraiyyə Komitəsinin sədri - Birliyin icraçı katibi Sergey Lebedev forumu açaraq "MDB-nin fəaliyyətinin informasiya dəstəyinin vəziyyəti haqqında" məruzə ilə çıxış etmişdir. S.Lebedev bu sahədə müsbət məqamları qeyd etməklə bərabər, bəzi nöqsanlara da toxunmuşdur. Natiq özünütənqid ruhunda demişdir: "Biz mətbuat üçün sənədlər hazırlamağı, MDB-nin fəaliyyəti haqqında materialları maraqlı şəkildə təqdim etməyi, bu qurumun qarşısında duran ən mühüm vəzifələri, Birlikdə baş verən inteqrasiya proseslərini lazımınca işıqlandırmağı öyrənməmişik".

İTAR-TASS agentliyinin (Rusiya) MDB və Baltikyanı ölkələr sektorunun direktoru Boris Qruşin "MDB üzvü olan dövlətlərin informasiya agentliklərinin Birlik ölkələri arasında informasiya mübadiləsinin yaxşılaşdırılması üçün birgə fəaliyyəti haqqında" çıxışında MDB-nin Milli Agentliklər Assosiasiyasında AzərTAc-ın fəal rolunu xüsusi vurğulamışdır. Natiq əhalinin təkcə Rusiyada deyil, Birliyin üzvü olan başqa ölkələrdə də həyat şəraiti barədə vizual məlumatlandırılması mövzusuna toxunaraq, təmsil etdiyi agentliyin - dünyada ən iri informasiya agentliyi olan İTAR-TASS-ın Moskvadakı əsas binasının vitrinində "İTAR-TASS-ın foto pəncərəsi"nin yaradılması təcrübəsini başqa ölkələrdə də yaymağı təklif etmişdir. B.Qruşin xatırlatmışdır ki, bu "foto pəncərəsi" 90 il bundan əvvəl yaradılmış "ROSTA-nın pəncərələri"nin davamıdır.

"Mir" Dövlətlərarası Teleradio Şirkəti sədrinin müavini İqor Dvureçenskinin çıxışı da çox maraqlı olmuşdur. Natiq bildirmişdir ki, həmin kanalın auditoriyası 40 milyondan artıq televiziya tamaşaçısını əhatə edir.

İqor Nikolayeviç xüsusi vurğulamışdır ki, MDB ölkələrinin Hökumət Başçıları Şurasının "Mir" Dövlətlərarası Teleradio Şirkətinin fəaliyyətinin təmin edilməsi üçün maliyyə-iqtisadi tədbirlər haqqında 2008-ci il 14 noyabr tarixli qərarına yalnız RF-də, bir də (həmin qərarın şirkətin fəaliyyətində iştirak payının artırılmasına aid hissəsinə) Azərbaycanda əməl edilir. İ.Dvureçenski qeyd etmişdir ki, bu barədə qərar şəxsən Prezident

İlham Əliyev tərəfindən qəbul edilmişdir.

Qısa fasilədən sonra müzakirələr zamanı "Armenpress" informasiya agentliyinin icraçı direktoru Qrayr Zoryan öz əsassız çıxışına görə xəcalət çəkməli olmuşdur. Zoryan təmsil etdiyi agentliyin MDB-nin İcraiyyə Komitəsinin mənzil-qərargahından informasiya almaması barədə İcraiyyə Komitəsinin mətbuat xidmətinə iradını bildirəndən dərhal sonra onlara vaxtlı-vaxtında göndərilmiş bütün informasiya bülletenlərinin çap variantı ona təqdim edilmişdir. Sən demə, "Armenpress"in elektron ünvanı dəyişmiş, lakin ermənilər bu barədə MDB-nin İcraiyyə Komitəsinin mətbuat xidmətinə məlumat verməyi... unutmuşlar.

Müşavirədə informasiya məkanının genişləndirilməsi və onun imkanlarının artırılması məsələləri də müzakirə edilmişdir. Forumun yekunlarına əsasən, MDB-nin fəaliyyətinin informasiya təminatının hər bir istiqaməti üzrə konkret tapşırıqlar nəzərdə tutulan tədbirlər planı hazırlanacaqdır.

Bir sözlə, Frensis Bekonun "Kim informasiyaya malikdirsə, o, bütün dünyanın sahibidir!" kəlamı bu gün də çox aktualdır.

MDB-nin üzvü olan dövlətlərin humanitar əməkdaşlığa dair dövlətlərarası fondunun icraçı direktoru vəzifəsini icra edən Tatyana Bubnova cari ildə və 2010-cu ilin əvvəllərində görüləcək mədəni tədbirlərin təqvimi barədə danışaraq bildirmişdir ki, gələn il "MDB ölkələrinin klassik ədəbiyyatı" seriyasından Azərbaycan söz ustalarının tərcümələri nəşr olunacaqdır.

MDB İcraiyyə Komitəsinin informasiya-analitik departamentinin direktoru Aleksandr Zavarzin "Müstəqil Dövlətlər Birliyinin İnternet-portalının yaradılması haqqında" məruzə etmiş, internet-portalın məqsədləri, onun informasiya strukturu, normativ-hüquqi təminatı və s. barədə danışmışdır. Sonra geniş müzakirələr olmuşdur.

Sonda MDB İcraiyyə Komitəsinin humanitar əməkdaşlıq, ümumsiyasi və sosial problemlər departamentinin direktoru Anatoli Neboqatov "MDB-nin nəşr layihələrinin hazırlanması haqqında" məruzə etmişdir. Müzakirələrin gedişində, xüsusən səyahət üçün cəlbedici yerlərdən bəhs edən Birlik ölkələrinin turizm sorğularının böyük tirajla çap edilməsi barədə maraqlı təklif səslənmişdir.

MDB-nin İcraiyyə Komitəsinin sədri - Birliyin icraçı katibi Sergey Lebedev müşavirəyə yekun vuraraq bütün iştirakçılara səmərəli və dolğun müzakirələrə görə təşəkkürünü bildirmişdir.

Xüsusilə qeyd edilməlidir ki, MDB-nin fəaliyyətinin informasiya dəstəyinin gücləndirilməsinə dair AzərTAc-ın bütün təklifləri rəğbətlə qarşılanmışdır və onlardan proqram sənədlərində istifadə olunacaqdır.

MDB-nin İcraiyyə Komitəsinin informasiya-analitik departamentinin informasiya və informasiyalaşdırma şöbəsinin rəisi İqor Qriqoryev bildirmişdir ki, cari ilin may ayının 28-29-da Astanada Birliyin İnformasiya Şurası keçiriləcəkdir.

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI

Aprelin 23-də Türkiyə Prezidenti Abdullah Gül Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Abdullah Gül Türkiyə-Ermənistan arasında aparılan danışıqlar barədə dövlətimizin başçısına məlumat vermişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu məsələlərlə bağlı Azərbaycan dövlətinin mövqeyini Türkiyə Prezidenti Abdullah Gülə çatdırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ SƏRHƏD POLİSİNİN KOMANDANI GENERAL-MAYOR QASIM RZAYİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də İran İslam Respublikası Sərhəd Polisinin komandanı general-mayor Qasım Rzayini qəbul etmişdir.

Görüşdə Azərbaycana qonşu ölkələr olan İranın və Rusiyanın sərhəd xidməti rəhbərlərinin toplantılarının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulandı. Birgə məsələlərin müzakirəsi və eləcə də ölkələrimiz arasında regional əməkdaşlığın genişləndirilməsi baxımından bu cür görüşlərin önəmi qeyd olundu və bu sahədə əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün belə görüşlərin mütəmadi keçirilməsinin zəruriliyi bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzəni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ FEDERAL TƏHLÜKƏSİZLİK XİDMƏTİ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ - SƏRHƏD XİDMƏTİNİN RƏHBƏRİ, ORDU GENERALI VLADİMİR PRONİÇEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini - Sərhəd Xidmətinin rəhbəri, ordu generalı Vladimir Proniçevi qəbul etmişdir.

Ordu generalı Vladimir Proniçev Azərbaycan, Rusiya və İranın sərhəd xidməti rəhbər-

lərinin Bakı görüşünün 2007-ci ildə dövlət başçılarının Tehran görüşü zamanı verdikləri tapşırıqlara əsasən təşkil olunduğunu vurğulayaraq, görüşdə Xəzər regionunun təhlükəsizliyi ilə əlaqədar məsələlərin müzakirə edildiyini bildirdi. O, Rusiya Sərhəd Xidməti ilə Azərbaycanın Dövlət Sərhəd Xidməti arasında dostluq münasibətlərinə əsaslanan əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Rusiya Federasiyasına səfərini xatırladan dövlətimizin başçısı Azərbaycan ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə, o cümlədən sərhəd xidməti sahəsində də uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan, Rusiya və İran sərhəd xidmətləri rəhbərlərinin Bakıda keçirilən görüşünün həm ikitərəfli, həm də çoxtərəfli formatda müzakirələr aparmaq üçün yaxşı imkan yaratdığını bildirdi.

AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ ANKARADA GÖRÜŞLƏR KEÇİRMİŞDİR

Türkiyədə rəsmi səfərdə olan Azərbaycanın müdafiə naziri, general-polkovnik Səfər Əbiyev aprelin 24-də Ankarada bir sıra görüşlər keçirmişdir. Görüşlərdə regional təhlükəsizlik məsələləri, Türkiyə və Azərbaycan silahlı qüvvələri arasında mövcud hərbi-texniki əməkdaşlığın vəziyyəti və onun inkişaf perspektivləri müzakirə olunmuşdur.

Səfər Əbiyev əvvəlcə Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı İlker Başbuğla görüşmüşdür. Sonra, Səfər Əbiyevin Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptan və müdafiə naziri Vəcdi Gönüllə görüşləri olmuşdur.

Azərbaycanın müdafiə nazirini Türkyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan da qəbul etmişdir.

Tərəflər qarşılıqlı etimad mühitinə bir daha inamlarını ifadə etmişlər.

Rəcəb Tayyib Ərdoğan demişdir ki, Türkiyə Azərbaycanın mənafeyinə zidd, yaxud Azərbaycanı incidəcək heç bir addım atmayacaqdır.

BAKIDA AZƏRBAYCAN-AVSTRİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Aprelin 24-də "Crown hotel"də İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə Azərbaycan-Avstriya biznes forumu keçirilmişdir.

Biznes forumunda Avstriyanın Ştiriya Federal Əyaləti parlamentinin deputatları ilə yanaşı, nəqliyyat, tikinti, konsaltinq, məişət avadanlığı istehsalı və digər sahələri təmsil edən müəssisələrdən 10-dan çox, Azərbaycan tərəfdən isə müvafiq sahələrdə fəaliyyət göstərən 30-dan artıq sahibkar iştirak etmişdir.

Tədbirdə İqtisadi İnkişaf Nazirliyi Aparatının rəhbəri Samir Vəliyev ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən islahatlar, müxtəlif sahələrdə həyata keçirilən layihələr, sahibkarlığın inkişafı istiqamətində görülən tədbirlər, son illər qazanılmış nailiyyətlər haqqında məlumat vermişdir. Bildirmişdir ki, Azərbaycan öz inkişaf tempinə görə dünya ölkələri arasında, adambaşına düşən investisiyaların həcmi-

nə görə isə MDB məkanında liderlərdən biridir. Son beş ildə ümumi daxili məhsul (ÜDM) 2,6 dəfə, sənaye istehsalı 2,5 dəfə, əhalinin gəlirləri 4 dəfə artmış, yoxsulluğun səviyyəsi təxminən 3 dəfə azalaraq 13,2 faiz təşkil etmişdir.

Ölkədə biznes mühitinin yaxşılaşdırılması, yerli və xarici investorlar üçün əlverişli şəraitin yaradılması həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətlərindən biridir. Təsadüfi deyildir ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan iqtisadiyyatına 60 milyard ABŞ dolları məbləğində investisiya yatırılmışdır ki, onun da yarıdan çoxu xarici sərmayədir.

Bildirilmişdir ki, ölkədə aparılan islahatların məntiqi nəticəsi kimi Dünya Bankının və Beynəlxalq Maliyyə Korporasiyasının birgə hazırladıqları illik "Doing Business-2009" hesabatında Azərbaycan dünyanın bir nömrəli iqtisadi islahatçısı adlandırılmışdır. Azərbaycan əvvəlki ilin müvafiq göstəriciləri ilə müqayisədə 64 pillə irəliləyərək 181 ölkə sırasında 33-cü yeri tutmuşdur ki, bu da hesabatın tarixində rekord irəliləyişdir.

Hazırda dünyada qlobal maliyyə və iqtisadi böhranın davam etdiyini və bir çox ölkələrin ciddi problemlərlə üzləşdiyini diqqətə çatdıran S.Vəliyev, Azərbaycanın böhrana ən az məruz qalmış ölkələrdən biri olduğunu, bu ilin birinci rübünün yekunlarına görə ÜDM istehsalının 4,1 faiz, o cümlədən qeyri-neft sektoru üzrə 14 faiz artdığını, investisiya qoyuluşunun 15,2 faiz çoxaldığını, milli valyutanın məzənnəsinin sabit qaldığını vurğulamışdır.

Avstriyanın Ştiriya Federal Əyaləti parlamentinin sədri Ziqfrid Şrittvizer ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdiyini, bu cür tədbirlərin işgüzar əlaqələrin genişlənməsində əhəmiyyətini vurğulamış, iş adamlarını fəal əməkdaşlığa dəvət etmişdir.

AZPROMO-nun prezidenti Rəhim Hüseynov Azərbaycan iqtisadiyyatı və investisiya mühiti, həmçinin xarici iş adamları üçün yaradılmış imkan və perspektivlər barədə danışmış, avstriyalı biznesmenlər təmsil etdikləri şirkətlər haqqında məlumat vermişlər.

Forumun rəsmi hissəsindən sonra Azərbaycan və Avstriya iş adamları arasında keçirilmiş ikitərəfli görüşlərdə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunmuşdur.

TÜRKMƏNİSTANIN DÖVLƏT BAŞÇISI AŞQABADDA İŞGÜZAR SƏFƏRDƏ OLAN ARDNŞ-NİN PREZİDENTİ RÖVNƏQ ABDULLAYEVİ QƏBUL ETMİŞDİR

Aprelin 24-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov "Enerji daşıyıcılarının etibarlı və sabit tranziti, bunun beynəlxalq əməkdaşlıq və inkişafdakı rolu" mövzusunda Aşqabadda keçirilən Beynəlxalq konfransda iştirak edən Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayevi qəbul etmişdir.

Rövnəq Abdullayev Qurbanqulu Berdiməhəmmədova Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını çatdırmışdır.

Aşqabad forumunun yüksək səviyyədə təşkil edilməsi üçün Türkmənistan Prezidentini təbrik edən Rövnəq Abdullayev demişdir ki, Azərbaycan qlobal energetika təhlükəsizliyinin təminatı və bu məsələnin həlli ilə əlaqədar Türkmənistanın mövqeyini dəstəkləyir.

Qurbanqulu Berdiməhəmmədov qonaqdan Azərbaycan Prezidenti İlham Əliyevə salamlarını çatdırmağı xahiş etmişdir. Prezident demişdir ki, Türkmənistan qonşu Azərbaycanla mehriban dostluq və əməkdaşlıq üzərində qurulan münasibətləri yüksək qiymətləndirir və Aşqabad forumunda Azərbaycan nümayəndə heyətinin iştirakı ölkələrimiz arasında energetika dialoqunun inkişafı istiqamətində daha bir addımdır.

Tərəflər hər iki dövlət üçün strateji əhəmiyyət daşıyan yanacaq-energetika sahəsinin imkanları və perspektivləri ilə əlaqədar fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCAN İLƏ BELÇİKA-LÜKSEMBURQ İQTİSADİ İTTİFAQI ARASINDA PROTOKOL İMZALANMIŞDIR

Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov aprelin 27-də Belçika Krallığının ölkəmizdəki səfiri Filippe Jottardla görüşmüşdür.

Görüşdə Azərbaycan Hökuməti ilə Belçika-Lüksemburq İqtisadi İttifaqı arasında 2004-cü ilin mayın 18-də Brüsseldə imzalanmış sərmayələrin qarşılıqlı təşviqi və qorunması haqqında Saziş üzrə ratifikasiya fərmanlarının mübadiləsinin həyata keçirilməsinə dair Protokol imzalanmışdır.

Tərəflər qeyd etmişlər ki, Sazişin qüvvəyə minməsi ölkələrimiz arasında iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi üçün möhkəm hüquqi əsas yaradaraq, qarşılıqlı sərmayə qoyuluşunun artırılmasına öz töhfəsini verəcəkdir.

Saziş cari ilin mayın 27-dən qüvvəyə minəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Belçika Krallığına işgüzar səfərə gəlmişdir.

Dövlətimizin başçısını Brüsselin "Abelaq" hava limanında Belçika Krallığının dövlət və hökumət rəsmiləri böyük hörmət və ehtiramla qarşıladılar.

Azərbaycan Prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.

PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZU İLƏ GÖRÜŞÜ

Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Brüsseldə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşmüşdür.

Dövlətimizin başçısı İlham Əliyevi Avropa Komissiyasının sədri Joze Manuel Barrozu səmimiyyətlə qarşıladı. Onlar Azərbaycan Respublikasının və Avropa İttifaqının bayraqları önündə xatirə şəkli çəkdirdilər.

Sonra Prezident İlham Əliyevin Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşü oldu.

Joze Manuel Barrozu bildirdi ki, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr genişlənir və bu, müxtəlif sahələrdə özünü göstərir. Əlaqələrimiz Avropa Qonşuluq Siyasəti çərçivəsində uğurla inkişaf edir və bu əlaqələr "Şərq tərəfdaşlığı" təşəbbüsünün reallaşması ilə yeni mərhələyə daxil olur.

Avropa İttifaqı Azərbaycan ilə enerji sahəsində də uğurla əməkdaşlıq edir və Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin genişlənməsinin Azərbaycanın Avropa dəyərlərinə verdiyi önəmin göstəricisi olduğunu deyən Barrozu gələcəkdə tərəflər arasında daha konkret layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğuladı.

Avropa Komissiyasının sədri Azərbaycanın iqtisadi sahədə yüksək nailiyyətlər qazandığını söylədi və ölkəmizin böyük potensiala malik olduğunu diqqətə çatdırdı.

Prezident İlham Əliyev Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyini bildirərək qeyd etdi ki, Azərbaycan bundan sonra da Avropaya inteqrasiyanı davam etdirmək əzmindədir.

Azərbaycanda gedən iqtisadi inkişafdan danışan dövlətimizin başçısı ölkəmizin bu sahədə böyük nailiyyətlər əldə etdiyini, Azərbaycanın regional iqtisadi əməkdaşlığa, bölgənin təhlükəsizliyinin təmin olunması işinə öz töhfəsini verdiyini bildirdi.

Bütün bunların Avropa İttifaqı ilə Azərbaycan arasında qarşılıqlı faydalı əlaqələrin inkişafına imkan yaratdığını deyən Azərbaycan Prezidenti İlham Əliyev bildirdi ki, ölkəmiz böyük energetika layihələrinin təşəbbüskarı və fəal iştirakçısıdır. Dövlətimizin başçısı dedi ki, Azərbaycan bundan sonra da Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verməyə hazırdır.

Prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğuladı.

* * *

Görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu birlikdə işçi nahar etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZUNUN BİRGƏ MƏTBUAT KONFRANSI

İşçi nahardan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu birgə mətbuat konfransı keçirmişlər.

Cənab Joze Manuel Barrozu və Prezident İlham Əliyev əvvəlcə jurnalistlər qarşısında çıxış etdilər.

AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZUNUN ÇIXIŞI

- Xanımlar və cənablar, sizi salamlayıram.

Mən Prezident Əliyevi Brüsseldə yenidən alqışlamaqdan məmnunam. Sonuncu dəfə biz

burada, Brüsseldə görüş keçirdik və enerji sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunu imzaladıq. Bu gün bizim çox yaxşı, konstruktiv və açıq söhbətimiz oldu. Mən minnətdarlığımı bildirmək istəyirəm ki, danışıqlarımız zamanı biz, həqiqətən, həmin səmimiyyət və açıqlıq ruhunu hiss etdik. Azərbaycan Cənubi Qafqaz regionunda olduqca mühüm tərəfdaşdır. Əminəm ki, dialoq və əməkdaşlığımızın intensivləşdirilməsi hər iki tərəfə böyük fayda gətirəcəkdir. Artıq on ildir ki, həyata keçirilən Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi möhkəm bünövrədir. Avropa İttifaqı Azərbaycanın ümumi xarici ticarətində təxminən 30 faizi təşkil edərək, bu ölkənin əsas ticari tərəfdaşıdır. Son illər ərzində Azərbaycan iqtisadiyyatı mühüm artım rəqəmlərini nümayiş etdirmişdir. 2008-ci ildə ölkənin iqtisadi artımı 10,8 faiz səviyyəsində olmuşdur. Bu, əsasən neft və qaz sektoru ilə bağlıdır. Lakin hazırkı maliyyə və iqtisadi böhran həmin inkişafa ciddi təhlükədir. Bu böhran, həmçinin bizə də aiddir. Bu baxımdan, əlbəttə ki, iqtisadiyyatın şaxələndirilməsi Azərbaycanın uzunmüddətli inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Biz etiraf edirik ki, münasibətlərimizi irəliyə doğru aparmaq istəyirik və bunu edə bilərik. Bu məsələ Prezident Əliyevin mənimlə görüşündə vurğulanmışdır. Bir neçə gündən sonra Praqada təqdim olunacaq "Şərq tərəfdaşlığı" isə fürsəti təmin edir.

Mən, həmçinin regional sabitlik sahəsində əlavə irəliləyişin vacibliyini qeyd etdim. Həmin məsələ ilə bağlı özümün və Avropa İttifaqının fikirlərini bölüşdüm. Biz hesab edirik ki, enerji Avropa İttifaqı ilə Azərbaycan arasında daha sıx münasibətlər üçün çox mühüm amildir. Əməkdaşlığımızın gücləndirilməsi ilə bağlı fikirlərdə yekdilik.

Bildiyiniz kimi, təhlükəsizlik Avropa İttifaqı üçün ən vacib prioritetdir. Azərbaycan həm hasilatçı, həm tranzit ölkə baxımından əhəmiyyətli tərəfdaşdır. Vəziyyəti təhlil etdiyinə görə mən Prezident Əliyevə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Mən Prezident Əliyev ilə xüsusi olaraq Nabukko layihəsini müzakirə etdim. Hesab edirik ki, bu layihə bütöv region və Avropa üçün önəmlidir. Azərbaycan tərəfindən enerji siyasəti sahəsində qəbul edilmiş çətin, lakin cəsarətli qərarları alqışlayıram. Fikrimizcə, bu, elə bir mühüm sahədir ki, Azərbaycan ilə Avropa İttifaqı konkret fayda əldə edə bilərlər. Bir sözlə, göndərəcəyimiz mesaj müsbətdir. Biz Azərbaycan ilə bir çox sahələrdə birgə işləmək arzusundayıq. Biz Avropa ilə daha sıx əməkdaşlığın aparılması məqsədilə Azərbaycan tərəfindən atılmış bütün addımları alqışlayırıq. Hesab edirəm ki, bu, həm Azərbaycanın, həm də bütövlükdə Avropa İttifaqının marağındadır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar,

İlk öncə, mən Brüsselə yenidən səfər etmək məqsədi ilə göndərdiyi dəvətinə görə cənab Sədrə minnətdarlığımı bildirmək istəyirəm.

Xatirimdədir ki, sonuncu səfərim zamanı biz strateji enerji tərəfdaşlığı haqqında Memorandum imzaladıq. Həmin vaxtdan etibarən, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər uğurla inkişaf etmişdir. Biz münasibətlərimizə çox mühüm əhəmiyyət veririk. Bugünkü söhbət bir daha göstərdi ki, həmin münasibətlər hər iki tərəf üçün necə inkişaf etməlidir.

Mən ölkəmizin iqtisadi inkişafı ilə bağlı söylədiyi sözlərə görə cənab Sədrə dərin min-

nətdarlığımı bildirirəm. Faktiki olaraq, son beş il ərzində, ölkəmizdə görünməmiş iqtisadi artım müşahidə olunmuşdur. Ümumi daxili məhsul 2,6 dəfə, sənaye istehsalı 2,5 dəfə, büdcə xərcləri isə, 10 dəfə artmışdır. Bu il, iqtisadi böhrana və neftin qiymətlərinin gözəçarpan dərəcədə bir neçə dəfə aşağı düşməsinə baxmayaraq, biz artımı davam etdirəcəyik. Cari ilin birinci rübündə iqtisadiyyatımız 4 faizdən çox artmışdır. Ən vacibi isə ondan ibarətdir ki, qeyri-neft iqtisadiyyatı 14 faiz artmışdır. Bu, aydın şəkildə onu göstərir ki, bizim iqtisadi inkişafın şaxələndirilməsi, sərmayələr və iqtisadi islahatlar siyasətimiz onunla nəticələnmişdir ki, biz artıq neft və qazdan asılı deyilik. Neft və qaz iqtisadiyyatımızda əvvəl olduğu kimi həlledici rol oynamır. Biz iqtisadi islahatları davam etdiririk. Ötən il, Dünya Bankı özünün "Doing Business" hesabatında Azərbaycanı bir nömrəli islahatçı ölkə elan etmişdir.

Azərbaycanda, həmçinin siyasi islahatlar aparılır. İqtisadi və siyasi islahatlar paralel şəkildə həyata keçirilir. Bizim üçün Avropa İttifaqı ilə münasibətlər vacibdir, çünki biz istəyirik ki, həyatımızın bütün meyarları Avropa İttifaqının meyarlarına uyğun olsun. Həmin əlaqələrimiz çox möhkəmdir. Onların yaxşı gələcəyi var və ikitərəfli maraqlara əsaslanır.

Enerji cənab Sədr ilə ciddi şəkildə müzakirə etdiyimiz məsələlərdən biri idi. Mən Avropada müzakirə olunan layihələrə bir daha öz dəstəyimi bildirdim. Azərbaycan Xəzərdən Qərbə gedən boru kəmərlərinin tikintisini başlayan ölkə oldu. Məhz bizim təşəbbüslərimiz və işlərimiz əsasında bu gün biz Nabukko, Türkiyə-Yunanıstan-İtaliya, Transadriatik qaz kəmərləri və digər layihələr haqqında danışa bilərik, çünki biz bütün zəruri ilkin işləri artıq yerinə yetirmişik. Bu gün, nəhəng neft və qaz ehtiyatları, müasir infrastruktur, boru kəmərləri və önəmli məkanda yerləşən Azərbaycan əlbəttə ki, regional enerji təhlükəsizliyi və Avropanın enerji təhlükəsizliyində mühüm rolunu davam etdirir. Avropa Azərbaycanın böyük tərəfdaşıdır. Əminəm ki, bu səfər və gələcəkdə atılacaq addımlar həmin münasibətləri möhkəmləndirəcəkdir.

Mən dəvətə, o cümlədən məhsuldar və səmimi söhbətə görə cənab Sədrə bir daha minnətdarlığımı bildirmək istəyirəm və bu söhbət gələcəyimiz üçün çox vacibdir.

Sağ olun!

* * *

Sonra jurnalistlərin suallarına cavab verildi.

SUAL (Şahin Cəfərov, AzərTAc): Sualım Prezident Əliyev və cənab Barrozuyadır. Həm Azərbaycan, həm də Ermənistan "Şərq tərəfdaşlığı"nın üzvləridir. Halbuki Ermənistan Azərbaycan ərazilərini hələ də işğal altında saxlayır. Vəziyyətlə bağlı rəyinizi bilmək istərdik.

İLHAM ƏLİYEV: Belə suala mən Azərbaycanda tez-tez cavab verirəm, ona görə də, özüm birinci başlayım. Biz bu məsələni cənab Sədrlə müzakirə etdik. Əlbəttə ki, uzun illər ərzində Ermənistan tərəfindən torpaqlarımızın davamlı işğalı nəinki Azərbaycan, o cümlədən regional təhlükəsizlik və sabitlik üçün ən böyük təhdiddir. Bu, regionumuzda təxminən iki onillikdir ki, müşahidə etdiyimiz ən böyük ədalətsizlikdir. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri qonşu ölkənin işğalı altındadır. Bu işğal nəticəsində bir milyon azərbaycanlı ölkə daxilində qaçqın və məcburi köçkün vəziyyətinə dü-

şüb. Azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti nəticəsində Dağlıq Qarabağın inzibati sərhədlərinin ətrafında yerləşən yeddi rayon hazırda Ermənistan silahlı qüvvələrinin nəzarəti altındadır. Biz münaqişəni beynəlxalq hüquq normaları, o cümlədən ATƏT-in qərarları və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazimizdən qeyd-şərtsiz çıxmasını tələb edən qətnamələri əsasında həll etməyə çalışırıq. Bəzən Ermənistanın mövqeyi Dağlıq Qarabağda yaşayanların öz müqəddəratını təyin etmək hüququna əsaslanır. Bu hüquq o demək deyil ki, öz müqəddəratını təyin etmək Azərbaycanın ərazi bütövlüyünün pozulmasına gətirib çıxarmalıdır. Ermənilər bir millət kimi öz müqəddəratını artıq təyin ediblər. Onlar suveren Ermənistan dövlətinə malikdirlər. Əgər bu məntiqlə yanaşsaq, dünyada əhalisi erməni olan 20 dövlət yarana bilər. İkincisi, ermənilərin və azərbaycanlıların Dağlıq Qarabağda öz müqəddəratını təyin etməsi suveren Azərbaycan dövlətinin hüdudları çərçivəsində baş verə bilər və verməlidir. Beynəlxalq hüququn normaları bunu tələb edir. Azərbaycan bu mövqedə qətiyyətlə dayanır və əminəm ki, münaqişə yalnız bu əsaslarla həll oluna bilər.

JOZE MANUEL BARROZU: Bəli, əlbəttə ki, sizin qeyd etdiyiniz kimi, həm Azərbaycan, həm də Ermənistan "Şərq tərəfdaşlığı" çərçivəsində tərəfdaşlarımızdır. İcazə verin bir daha vurğulayım ki, biz Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədi ilə Ermənistan və Azərbaycan arasında danışıqların davam etdirilməsinə yönəlmiş bütün səyləri yüksək qiymətləndiririk. Ümid edirik ki, bu sahədə müəyyən irəliləyiş olacaq. Biz bu yaxınlarda həmin müzakirələrin keçirilməsinə çağırırıq. Bilirəm ki, Prezident Əliyev Praqada Ermənistan prezidenti ilə görüşəcək. Biz bu problemin həllinə yönəlmiş səyləri dəstəkləyirik, çünki bu, elə problemdir ki, konstruktiv və yaxşı münasibətlər qurmaq istədiyimiz hər iki ölkəyə təsir göstərir. Biz regionda gərginliyin azaldılması üçün atılan hər bir addımı dəstəkləyəcəyik. İnanırıq ki, regionda daha yaxşı mühit yaratmaq üçün, müəyyən irəliləyişə nail olmaqdan ötrü bir sıra konkret aspektlər vacibdir.

SUAL ("Sabah Daily" qəzeti): Sualım Sədr Barrozuya və Prezident Əliyevədir. Ermənistan ilə Türkiyə arasında son yaxınlaşmanı müzakirə etdinizmi? Məsələ ilə bağlı mövqeyinizi bilmək istərdik.

JOZE MANUEL BARROZU: Bu dəfə, mən başlayım. Bəli, məsələni müzakirə etdik. Bizim çox yaxşı və səmimi söhbətimiz oldu. Dostlar arasında hər bir şey müzakirə olunur. Biz bu məsələni çox açıq şəkildə müzakirə etdik. Əvvəlcə icazə verin bildirim ki, mən məsələnin Azərbaycan üçün həssaslığını tam anlayıram. Biz bunu anlayırıq. Prezident Əliyev məsələnin Azərbaycan xalqı üçün nə olduğunu çox aydın şəkildə bildirdi. Eyni zamanda, siz anlayırsınız ki, Avropa İttifaqı kimi biz regionda istənilən vaxt gərginliyin azaldılmasından çox məmnunuq. Türkiyə ilə Ermənistan arasında gərginliyin azaldılması faktına gəldikdə isə hesab edirəm ki, biz bunu alqışlayırıq. Buna görə də biz məsələni alqışlayırıq, çünki Türkiyə ilə Ermənistan arasında ənənəvi olaraq çox mühüm problemlər var. Hesab edirik ki, bu, bütöv region üçün faydalı ola bilər. Beləliklə, biz bu müsbət hadisəni alqışlayırıq. Lakin bu, o demək deyil ki, biz Dağlıq Qarabağ məsələsinin həllini istəmirik və mən çox aydın şəkildə qeyd edirəm ki, biz ümid edirik və çox istəyirik ki, Azərbaycan və Ermənistan problemin həllinə nail olsunlar. Biz bunu əvvəlcə də rəsmən qeyd etmişik. Bu gün mən Prezident Əliyevə bunu bildirdim və məsələnin Azərbaycan xalqı üçün nə qədər həssas olduğunu onun tərəfindən çox açıq və

aydın şəkildə izah edildiyinə görə, ona minnətdarlığımı bildirmək istəyirəm.

İLHAM ƏLİYEV: Biz Sədr Barrozu ilə çox geniş şəkildə bir çox məsələləri, o cümlədən regional inkişaf və əməkdaşlıq məsələlərini müzakirə etdik. Əlbəttə ki, biz regional əməkdaşlıqdan danışarkən, sizin də sualınızda qeyd etdiyiniz regiondakı son hadisələrdən yan keçə bilməzdik. Biz bu məsələ ilə bağlı mövqeyimizi dəfələrlə bildirmişik. Bu mövqe ondan ibarətdir ki, biz heç vaxt nə digər bir ölkənin daxili işlərinə qarışırıq, nə də ki, iki suveren ölkə arasındakı münasibətlərə. Bu, Türkiyə və Ermənistan tərəfindən qəbul edilə bilən bir qərardır. Öz aralarında münasibətləri necə davam etdirmək onların öz seçimidir. Bu məsələnin tarixi kökləri ilə bağlı bəzi şərhlərə gəldikdə isə, xatırlatmaq istəyirəm ki, Türkiyə ilə Ermənistan arasında sərhəd 1993-cü ildə Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı nəticəsində bağlanmışdır və bu gün bu işğal davam edir. Bu gün Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini hələ də işğal altında saxlamaqda davam edir. Bir daha demək istəyirəm ki, biz belə bir mövqedə deyilik ki, bu iki ölkə arasında münasibətlərin irəliyə getməsinə imkan verək və ya onun qarşısını alaq. Yalnız bir şeyi qeyd etmək istəyirəm ki, bizim də öz siyasətimizi regionda mövcud olan yeni reallığa uyğunlaşdırmaq, regionda yarana biləcək yeni vəziyyətə uyğun addımlar atmaq hüququmuz var. Bu gün biz bu məsələ ilə bağlı müxtəlif mənbələrdən bir çox ziddiyyətli şərhləri eşidirik. Bəziləri deyir ki, ilkin şərtlərlə "yol xəritəsi" tərtib edilmişdir. Digər mənbələrdən eşidirik ki, ilkin şərtlər haqqında "yol xəritəsi"ndə heç nə deyilməyib. Bu, bir növ söz oyunudur. Hesab edirəm ki, dünya, region və Azərbaycan xalqı nəyin baş verdiyini bilməlidir. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması Türkiyə ilə Ermənistan arasında yaxınlaşma kontekstindən çıxarılıb, ya yox? Bu, çox sadə cavab tələb edən sadə bir sualdır.

SUAL (Xədicə İsmaylova, "Azadlıq" radiostansiyası): Azərbaycanda demokratik sahədə inkişafla bağlı göstəricilərə gəldikdə nə deyə bilərsiniz? Bu baxımdan, əməkdaşlıq sazişi əsasında yeni mərhələ haqqında danışmaq olarmı?

JOZE MANUEL BARROZU: Bu yaxınlarda biz öz hesabatımızı dərc etdik. Mənim Prezident Əliyevlə çox mehriban və açıq söhbətim oldu. Biz Azərbaycanda qanunun aliliyi ilə bağlı göstərilən səyləri çox yüksək dəyərləndiririk. Bir neçə dəfə burada qeyd edilmişdir ki, ölkədəki meyarlar Avropa İttifaqının meyarlarına uyğunlaşdırılmalıdır. Biz bu sahədə irəliləyişi görmək arzusundayıq. Cənab Əliyevin dediyi kimi, iqtisadi islahatlar, həmçinin siyasi islahatlarla müşayiət olunmalıdır. Hesab edirəm ki, demokratiya ən münasib siyasi sistemdir və Azərbaycan öz demokratik sistemi və təsisatları, qanunun aliliyi baxımından bir çox işlər görmüşdür.

İLHAM ƏLİYEV: Əlavə etmək istəyirəm ki, çiçəklənən davamlı cəmiyyəti qanunun aliliyi və cəmiyyətin güclü şəkildə demokratikləşməsi olmadan qurmaq mümkün deyil. İqtisadi və siyasi islahatlarımız paralel şəkildə aparılır. Onlar bir-birini tamamlayır. Mən qətiyyətlə inanıram ki, ciddi iqtisadi və sosial problemlər, o cümlədən yoxsulluq olan ölkədə əsl demokratik dövlət qurmaq çox çətin olacaq. Ona görə də səylərimiz uğurla azaltdığımız yoxsulluğun aradan qaldırılmasına yönəlib. Son beş il ərzində yoxsulluq səviyyəsi xeyli azalmışdır. Ölkəmizin demokratikləşməsi də uğurla getmişdir. Avropa İttifaqı və Avropa Şurası ilə münasibətlərimiz gündəlikdə bu məqsədi güdür. Əgər bu, Azərbaycanın məqsədi olmasaydı, biz bunu etməzdik. Xüsusən nəzərə alsaq ki, Azərbaycan güclü iqtisadi potensiala malik olan və özünü təmin edən ölkədir. Azərbaycan

müstəqil ölkə kimi yaşamaq və uğurla inkişaf etmək qabiliyyətini artıq nümayiş etdirmişdir. Biz öz siyasi sistemini, sosial problemlərin həllini və iqtisadi azadlıqları Avropa İttifaqının meyarlarına uyğunlaşdıran müasir ölkəni, müasir Azərbaycanı qurmaq istəyirik və hesab edirəm ki, Avropa İttifaqı, xüsusən də Qonşuluq Proqramı və "Şərq tərəfdaşlığı" bu müsbət meyli gücləndirəcəkdir. Sağ olun.

PREZİDENT İLHAM ƏLİYEVİN BELÇİKANIN BAŞ NAZİRİ HERMAN VAN ROMPEY İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Brüsseldə Belçika Krallığının Baş naziri Herman Van Rompey ilə görüşmüşdür.

Baş nazir Herman Van Rompey Azərbaycan Prezidenti İlham Əliyevi binanın önündə böyük səmimiyyətlə qarşıladı.

Görüşdə Azərbaycan ilə Belçika arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, siyasi əlaqələrin genişlənməsindən məmnunluq ifadə olundu.

Azərbaycan Prezidentinin Belçikaya səfərinin əlaqələrimizin daha da inkişafı baxımından əhəmiyyətinin vurğulandığı görüşdə qeyd olundu ki, qarşılıqlı səfərlər əməkdaşlığın genişlənməsinə öz töhfəsini verir. Bildirildi ki, ölkələrimizin iqtisadi əlaqələrinin inkişafı üçün də yaxşı imkanlar vardır.

Görüşdə Azərbaycan ilə Belçika arasında əməkdaşlığın Azərbaycan-Avropa İttifaqı əlaqələri baxımından əhəmiyyəti vurğulandı.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki önəmli rolunun qeyd edildiyi görüşdə ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AVROPA SİYASİ MƏRKƏZİNDƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 28-də Brüsseldə Avropa Siyasi Mərkəzində (ASM) "Azərbaycan: Avropa İttifaqı üçün əhəmiyyəti artan tərəfdaş" mövzusunda görüşü olmuşdur.

Görüşü mərkəzin rəhbəri Hans Martens açaraq dedi:

- Hörmətli qonaqlar və mərkəzin üzvləri, mən sizi salamlayıram.

Bu gün keçirilən görüşə xoş gəlmisiniz. Hazırkı görüş "Şərq tərəfdaşlığı" çərçivəsində Avropa Siyasi Mərkəzi tərəfindən yenicə başlanmış layihədir. Bildiyiniz kimi, "Şərq tərəfdaşlığı" Avropa İttifaqının Şərqdə yerləşən ölkələrlə, o cümlədən Cənubi Qafqaz regionundakı dövlətlərlə münasibətlərin daha da inkişaf etdirilməsinə yönəlmişdir. Beləliklə, biz bir sıra müxtəlif məsələləri, nəinki Avropa İttifaqına, o cümlədən digər ölkələrə aid enerji təhlükəsizliyi, miqrasiya və regional təhlükəsizliklə bağlı məqamları, idarəçilik məsələlərini nəzərdən keçirəcəyik. Fikrimcə, aparılacaq müzakirələr bizi maraqlandıran məsələlərə aydınlıq gətirəcəkdir.

Azərbaycana gəldikdə, hesab edirəm ki, bu ölkənin get-gedə artan strateji əhəmiyyəti

haqqında söhbət açsaq heç də yanılmarıq. Azərbaycanın Avropa İttifaqı ilə əlaqələri uzun illər ərzində inkişaf etmişdir. 1996-cı ilin aprel ayında Azərbaycan ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi imzalanmışdır. Lakin, təbii ki, Avropa İttifaqının Qonşuluq Siyasəti də mövcuddur. Bununla belə, qeyd etməliyəm ki, "Şərq tərəfdaşlığı" Proqramı Azərbaycanı Avropa İttifaqına daha da yaxınlaşdıracaqdır. Eyni zamanda, nəinki neft və qaz hasilatı, o cümlədən enerji daşıyıcılarının tranziti xüsusi maraq kəsb edən məsələlərdəndir və Nabukko layihəsi də bu baxımdan nəzərdən keçirilməlidir. Neft sənayesi Sizin ölkənizdə gözəçarpan dərəcədə inkişaf edib və zənnimcə, iqtisadi baxımdan Azərbaycan daha yaxşı mövqedədir. Biz bu gün həmin məsələlər haqqında məlumatları məhz Sizdən almaq istərdik.

Hazırda, bir çox yeni hadisələr baş verir və çox güman ki, biz Dağlıq Qarabağ münaqişəsi haqqında da danışacağıq. Bununla belə, nəyin baş verdiyini bilmək məqsədi ilə, biz birbaşa Sizdən məlumat almaq fikrindəyik. Hesab edirəm ki, həmin məsələləri Prezident Əliyevdən yaxşı heç kəs bilmir. Beş ildən sonra biz burada yenidən Prezident Əliyevlə görüşürük. Həmin vaxtdan etibarən, bir çox mühüm dəyişikliklər baş vermişdir. Cənab Prezident, Sizə minnətdarıq ki, bu gün vaxt tapıb bizimlə görüşürsünüz.

İştirakçılara dövlət başçısının tərcümeyi-halı paylanıb. Mən sadəcə qeyd etmək istəyirəm ki, cənab Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişdir. Müxtəlif sahələrdə çalışmış, o cümlədən Azərbaycan Respublikası Dövlət Neft Şirkətində işləmişdir. Bu şəxs böyük siyasi yol keçmişdir. Bir neçə dəfə parlamentə seçilmiş, 2003-cü ilin avqust ayında Baş nazir vəzifəsində işləmiş, həmin ildə Prezident vəzifəsinə seçilmişdir. Bu yaxınlarda o, yenidən bu vəzifəyə seçilmişdir. Bu, qısaca giriş sözü idi.

Diqqətinizə görə minnətdaram. İndi isə, söz Sizə verilir, cənab Prezident. Biz Azərbaycan haqqında çıxışınızı böyük maraqla gözləyirik.

PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Çox sağ olun. Mən ilk öncə sizinlə bu gün bir daha görüşmək məqsədi ilə aldığım dəvətə görə minnətdarlığımı bildirmək istəyirəm.

Əvvəlcə qeyd edildiyi kimi, beş il bundan öncə biz bir-birimizlə görüşmək imkanını əldə etdik. Mən həmin vaxt əsasən planlarımız, Azərbaycanın gələcəyi və inkişafı ilə bağlı fikirlərimiz haqqında danışmışdım. Həmin görüş 2003-cü ildə prezident seçkilərindən bir il sonra baş tutmuşdu. O vaxt, bizim bir çox planlarımız və gözlədiyimiz nəticələr var idi. Bu gün isə mən sizi bir daha görməyimə və bu vaxt çərçivəsində Azərbaycanda əldə etdiyimiz nailiyyətlər haqqında məlumatları sizinlə bölüşməyimə şadam.

Şərhlərimdə qısa olmağa çalışacağam, çünki inkişafın bütün sahələrinə toxunsaq, bir neçə saat tələb olunacaqdır. Ümumiyyətlə, son beş il ərzində Azərbaycanın inkişafı çox uğurlu olmuşdur. Biz ölkəmizdə genişmiqyaslı islahatlar həyata keçirmişik. Biz artıq elə bir iqtisadiyyat yaratmışıq ki, o, enerji amilindən ciddi şəkildə asılı deyil. İqtisadi islahatlar siyasəti və enerji strategiyamız nəticəsində, biz dünyada görünməmiş iqtisadi artıma nail olmuşuq. Ötən beş il ərzində ölkədə ümumi daxili məhsul (ÜDM) 2,6 dəfə, sənaye istehsalı isə 2,5 dəfə artmışdır. Yoxsulluq səviyyəsində yaşayan insanların sayı

49 faizdən 13 faizə qədər azalmışdır. Beş il ərzində büdcə xərcləri on dəfədən çox artmışdır. Biz sosial infrastruktura, təhsil, səhiyyə və informasiya texnologiyalarının inkişafına böyük sərmayələr yatırmışıq. Özəl sahibkarlığın dəstəklənməsi məqsədi ilə bir çox işlər görülmüşdür. Bu gün iqtisadiyyatımızın 85 faizi özəl sektorun payına düşür. Onu da qeyd edim ki, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycanda özəl sektor sıfır dərəcəsində idi. Ölkənin sürətli iqtisadi inkişafı siyasi islahatlar da aparmağa imkan yaratdı. Tam əminəm ki, güclü siyasi dəyişikliklər olmadan, iqtisadi nailiyyətlər əldə etmək mümkün deyil. Biz ölkədə möhkəm siyasi sistem yaratmışıq, qanunun aliliyini və cəmiyyətimizin daha da demokratikləşməsini təmin edirik. Bütün bunlar, o cümlədən iqtisadi islahatlar daim diqqət mərkəzimizdədir. Başqa sözlə desək, Azərbaycanda iqtisadi və siyasi islahatlar son beş il ərzində paralel şəkildə aparılmışdır. Bunlar bir-birini tamamlamışdır. Bunun nəticəsində biz hazırda davamlı iqtisadi inkişafa nail olmuşuq.

Azərbaycanda siyasi vəziyyət çox sabitdir. Həyata keçirdiyimiz tədbirlər xalqımızın tam dəstəyini qazanmışdır. Bu dəstək siyasi və iqtisadi islahatların həyata keçirilməsi üçün möhkəm zəmin yaradır. Xarici siyasətə gəldikdə isə bu sahədə əldə etdiyimiz uğurlar ölkəmizə dünyada yeni dostlar qazandırmışdır. Xarici siyasətimiz aydın, proqnozlaşdırılan siyasətdir. Azərbaycan etibarlı tərəfdaş olduğunu sübuta yetirib. Bütün dünyada, o cümlədən Avropada biz müxtəlif ölkələrlə çox möhkəm əlaqələr qurmuşuq. Hazırda Avropa İttifaqının üzvü olan ölkələr Azərbaycanın əsas ticarət tərəfdaşlarıdır. İxracımızın böyük hissəsi Avropa İttifaqı ölkələri ilə bağlıdır.

Biz Azərbaycanda infrastruktur və xidmət sahəsinə böyük sərmayələr yatırmışıq. Özəl sahibkarlığa dəstək veririk. Bu il özəl sektorun dəstəklənməsinə 150 milyon dollar məbləğində uzunmüddətli güzəştli kreditlər ayrılacaqdır. Bəzən inkişafımız və əldə etdiyimiz nailiyyətlər neft və qaz amili ilə izah edilir. Bu, qismən həqiqətdir. Lakin biz, eyni zamanda, insan kapitalına böyük həcmdə sərmayə qoyuruq. Əgər belə demək olarsa, neft və qaz amili bizim üçün hədiyyə deyil. Biz bu sahədə çox cəsarətli enerji siyasətini həyata keçirməklə böyük uğurlara nail olmuşuq. Neft və qaz yataqlarının işlənilməsinə böyük sərmayələr yatırmışıq, xarici investorları cəlb etmişik, münbit biznes mühiti yaratmışıq.

Biz bəzən xülya kimi görünən layihələri reallığa çevirmişik. Çox ağır geosiyasi şəraitdə 90-cı illərin ortalarında biz bu gün Azərbaycanın rifahına xidmət edən nəhəng transmilli enerji layihələrini həyata keçirdik. Enerji sahəsində şaxələndirmə siyasəti Avropanın enerji təhlükəsizliyi işinə töhfə verir. Buna görə də, bəzən neft və qaz amili iqtisadi uğurlarımızın yeganə mexanizmi kimi təqdim edilir. Düzdür, bu amil əlavə nailiyyətlərin əldə edilməsi üçün imkan yaradır. Lakin bu uğurlar bizim tərəfimizdən yaradılmışdır. Bu, bizim uğurumuzdur.

Mən iqtisadi və maliyyə böhranı ili kimi xarakterizə edilən il üçün iqtisadi göstəricilərimiz barədə də sizə məlumat vermək istərdim. Bu ildə neft qiymətləri üç-dörd dəfə aşağı düşmüşdür. Buna baxmayaraq, iqtisadiyyatımız inkişaf edir. Cari ilin birinci rübündə Azərbaycanda iqtisadiyyatın artımı 4,1 faiz səviyyəsində olmuşdur. Milli valyutamız sabitdir. Ölkənin ümumi inkişafı çox müsbətdir. Bu ilin ilk üç ayı ərzində iqtisadiyyatımızın qeyri-neft sektoru təqribən 14 faiz artmışdır. Bu, aydın şəkildə onu göstərir ki, iqtisadi inkişafımızın əsas səbəbi apardığımız iqtisadi islahatlar, eləcə də iqtisadi təşəbbüslər,

bütün səylərimizin səfərbər edilməsi, əsas diqqətin sosial məsələlərə yetirilməsi və iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsidir. 2008-ci ildə Azərbaycanın Dünya Bankı tərəfindən "Doing Business" hesabatında bir nömrəli islahatçı ölkə kimi elan edilməsi bütün bunların göstəricisidir. Bu o deməkdir ki, biz bütün ölkələr arasında islahatlara görə birinci yerdəyik. Bu qiymət ciddi iqtisadi islahatlar nəticəsində qazanılmışdır.

Biz enerji sektorunun maliyyə sistemində yüksək dərəcəli şəffaflığa nail olmuşuq. Azərbaycanın Dövlət Neft Fondu tam şəffaf strukturdur. Bu qurum toplanmış kapital barədə ictimaiyyət qarşısında dövri hesabatlarla çıxış edir. Onun fəaliyyəti beynəlxalq səviyyədə auditdən keçir. Birləşmiş Millətlər Təşkilatı 2007-ci ildə Azərbaycanın Dövlət Neft Fondunu şəffaflıq mükafatı ilə təltif etmişdir.

Bir sözlə, bütün bunlar ölkəmizin iqtisadi inkişafını xarakterizə edən məqamlardır. Enerji sahəsinin inkişafı və bu sahədə siyasətə gəldikdə, son bir neçə il ərzində biz əsas boru kəmərlərinin tikintisini başa çatdıra bildik. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərini çəkdik. Ondan əvvəlki dövrdə tikdiyimiz boru kəmərlərini əlavə etsək, qeyd edə bilərik ki, bu şəbəkə Azərbaycana öz enerjidaşıma marşrutlarını tam şəkildə şaxələndirməyə imkan yaradır.

Hazırda neft hasilatı artır. Ümid edirik ki, bu il Azərbaycanda hasil edilən neftin həcmi 45-50 milyon ton olacaqdır. Qaz yataqlarında xeyli inkişafa nail olmuşuq və bu gün Azərbaycan qazı müxtəlif istiqamətlərdə nəql olunur. Deyə bilərik ki, enerji siyasətində əsas məqsədlərə nail olmuşuq. Buna görə biz özümüzü kifayət dərəcədə rahat hiss edirik. Növbəti addımlarımız bu siyasətin davam etdirilməsinə yönəlməlidir. Qarşıdakı mərhələdə yeni bazarlar haqqında düşünməliyik və Azərbaycandan karbohidrogen ehtiyatlarının davamlı şəkildə nəqli üçün tərəfdaşlar, şirkətlər və ölkələrlə birgə işləməliyik.

Hesab edirəm ki, ötən illər ərzində gördüyümüz işlər bu gün xüsusən Avropada müzakirə olunan layihələrə yaxşı təkan verir. Bu layihələr Avropaya təchizat marşrutlarının şaxələndirilməsinə imkan yaradacaqdır. Bütün bunlar üçün iştirakçılar - hasilatçılar, tranzit ölkələri, istehlakçılar arasında olan münasibətlər uğurla nəticələnməlidir. Hər üç tərəfin maraqları təmin edilməlidir. İstehlakçılar üçün şaxələndirmə yeni mənbə deməkdir. Bu, hasilatçı bir ölkə kimi bizim üçün yeni bazarlar deməkdir. Ətrafımızda bir çox bazarlar mövcuddur. Bizim karbohidrogen ehtiyatlarımıza ehtiyac daha da artır. Təbii ki, irəli sürülmüş hər bir təklifi biz kommersiya əsasları ilə nəzərdən keçiririk. Əlbəttə ki, qəbul etdiyimiz qərarlar müxtəlif amillərə əsaslanır. Bizim üçün isə şaxələndirmə enerji daşıyıcılarının nəqletmə yollarının şaxələndirilməsi deməkdir.

Bu günə qədər Azərbaycanın enerji siyasəti çox uğurlu olmuşdur. 90-cı illərin ortalarından bu günə qədər mümkün ola biləcək hər bir münasib vəziyyətin yaradılması üçün Azərbaycanda çox işlər görmüşük. Bizim Avropa İttifaqı ilə güclü əməkdaşlığımız var. 2006-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq Memorandumunu imzalamışıq. Avropa İttifaqı bu baxımdan bizim strateji tərəfdaşımızdır. Buna görə də indi biz təchizatın şaxələndirilməsinə müəyyən maneə yaradan məsələləri həll etməliyik. Biz onları çox açıq və səmimi şəraitdə nəzərdən keçirməli və irəliyə doğru addımların atılması üzərində düşünməliyik. Bizim bu sahədə təcrübəmiz var, biz boru kəmərlərini çox mürəkkəb vəziyyətdə tikmişik. Dünyada ilk dəfə idi ki,

Xəzər dənizinin karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxardıq. Texniki imkanlarımız var, bu cür boru kəmərlərini çəkmək asan məsələ deyil. Çox mürəkkəb coğrafi relyef mövcuddur və dənizdəki yataqlarda nefti hasil etmək çətin işdir. Ona görə də biz, sadəcə, səylərimizi əlaqələndirməliyik və bütün iştirakçılar arasında enerji inkişafı sahəsində güclü tərəfdaşlıq ruhunu yaratmalıyıq.

Azərbaycan əməkdaşlığa dair bütün proqram və layihələri həyata keçirir. Bu işlər həm neft, həm qaz, həm də dəmir yolu sahəsində aparılır. Bütün bunlar Avropa ilə Asiya arasında daha geniş əməkdaşlıq və iqtisadi əlaqələrə zəmin yaradacaqdır. Əlbəttə ki, bu sahədə Azərbaycanın coğrafi mövqeyi mühüm rol oynayır. Lakin infrastrukturu olmayan coğrafi mövqe böyük əhəmiyyət kəsb etmir. Biz çox güclü daşıma infrastrukturunu, avtomobil və dəmir yollarını, hava xətlərini yaratmışıq, Xəzər dənizi donanmasını gücləndirmişik. Bütün bu infrastrukturla Xəzərin şərq sahilindən Azərbaycan ərazisi vasitəsilə göndərilən malların, xüsusən də karbohidrogenlərin həcmini dəfələrlə artırmaq mümkündür. Bütün bunlar tərəfdaşlıq və dostluq, eləcə də sülh və təhlükəsizlik şəraitində həyata keçirilməlidir.

Bəli, ölkəmizdə sabit vəziyyət mövcuddur. Lakin hamı bilir ki, regionumuzdakı potensial təhlükələr hələ ki, aradan qaldırılmayıbdır. Dondurulmuş münaqişələr adlandırılan münaqişələr, əslində dondurulmuş vəziyyətdə deyil. Son hadisələr bunu bir daha göstərdi. Buna görə də, ciddi şəkildə başa düşülməlidir ki, Cənubi Qafqazdakı münaqişələr həll olunmalıdır, xüsusən də Azərbaycan torpaqlarının işğalına son qoyulmalıdır. Təxminən 20 ildir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan əraziləri Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bir milyon azərbaycanlı öz doğma yurd-yuvalarından qovulublar, etnik təmizləmə siyasəti nəticəsində onlar öz evlərini, mülkiyyətlərini və ümumiyyətlə, hər şeylərini itiriblər. Ərazimizin 20 faizi işğal altındadır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının və Baş Məclisinin işğalçı qüvvələrin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmasını tələb edən qətnamələri, ATƏT-in qərarları, sadəcə, kağız üzərində qalıb. Budur böyük problem. Dünyanın aparıcı beynəlxalq təşkilatları qərarlar qəbul edib, lakin həmin qərarlar icra olunmur və həmin qərarları pozan ölkələr cəzalandırılmır. Bu, nəinki bizim üçün, bütövlükdə beynəlxalq münasibətlər sistemi üçün təhlükədir. Bu, beynəlxalq ictimaiyyət qarşısında böyük çağırışdır. Azərbaycanın mövqeyi tam aydındır. Ərazi bütövlüyümüz bərpa olunmalı, işğalçı qüvvələr çıxmalı və Dağlıq Qarabağın bugünkü sakinləri, bu ərazidə yaşamış və doğma yurd-yuvalarına tam qayıtmaq hüququna malik olan qaçqın və məcburi köçkünlər orada təhlükəsizlik zəmanəti və qanunun aliliyi əsasında sülh şəraitində yaşamalıdırlar. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional sabitliyə əsas təhlükədir. Hesab edirəm ki, münaqişəni yalnız beynəlxalq hüquq normaları əsasında həll etmək məqsədi ilə beynəlxalq ictimaiyyət bu məsələyə daha böyük diqqət yetirməlidir.

Öncə qeyd etdiyim kimi, ölkəmiz haqqında uzun danışmaq olar. Zənnimcə, yaxşı olardı ki, sizi maraqlandıran suallara keçək.

Çox sağ olun.

* * *

APARICI: Çox sağ olun. Zənnimcə, iqtisadi inkişafla bağlı suallarımıza başlaya bilərik. Yaxşı olardı ki, deyəsiniz, ölkənizin iqtisadi inkişafı iqtisadi və maliyyə böhranı zamanı

davam edirmi? Fikrimcə, hazırkı şəraitdə gördüyünüz tədbirlər ölkənizin uzunmüddətli iqtisadi inkişafının gücləndirilməsinə yönəlmişdir. Bilirik ki, ölkənizin iqtisadi inkişaf templəri çox yüksəkdir. Bir sözlə, bu gün hamımız bura toplaşmışıq ki, uğurlu işlər haqqında, o cümlədən çətin məsələlər haqqında cənab Prezidentlə fikir mübadiləsi aparaq.

SUAL: İcazə verin özümü təqdim edim. Mənim adım Yevgeni Kirilovdur. Mən Avropa Parlamentinin Bolqarıstandan olan üzvüyəm. Azərbaycanın bu gün iqtisadi inkişaf sahəsində əldə etdiyi nailiyyətlərdən məmnunluq hissi duyuruq. Cənab Prezident, maraqlı təqdimatınıza görə olduqca minnətdarıq. Biz verdiyiniz məlumatları qeyd etdik. Bildirmək istəyirəm ki, mən Azərbaycanda keçirilən prezident seçkilərində müşahidəçi olmuşam. Biz bir orta məktəbdə olanda orada müəllimlərin ölkənin gələcəyi və əmək haqlarının bir neçə dəfə artırılması haqqında söhbətlərini eşitdik. Zənnimcə, bu sahədə Azərbaycanın əldə etdiyi nailiyyətlər sözün əsil mənasında təqdirəlayiqdir.

Dağlıq Qarabağ münaqişəsi artıq 20 ildir ki, mövcuddur. Bu problem uzun müddətdir ki, davam edir. Bir çox səylər də göstərilib. Lakin öz dostlarımız arasında bu məsələni müzakirə edərkən qeyd edirik ki, Avropa təsisatları problemin həlli üçün kifayət dərəcədə fəal rol oynamır. Bu baxımdan təbii ki, irəliyə doğru addımlar atılmalı, xüsusi qərarlar qəbul edilməlidir. Fikrimcə, zəruri hesab edilən etimadın qurulması tədbirləri məqsədi ilə heç olmasa Dağlıq Qarabağın ətrafında yerləşən və erməni silahlı qüvvələrinin işğalı altında olan rayonlarla bağlı hər hansı addım atılmalıdır. Hesab edirəm ki, Avropa İttifaqı burada daha fəal rol oynamalıdır. Lakin fikrimcə, Rusiya da fəal olmalıdır. Bilirəm ki, Siz Rusiyaya səfər etmisiniz. İndi isə Brüsseldə səfərdəsiniz. Fikrinizcə, qeyd olunan hər iki tərəf daha fəal olarsa Dağlıq Qarabağ münaqişəsinin həllində hansı irəliləyişi əldə etmək olar?

APARICI: Cənab Prezident, yaxşı olardı ki, əlavə digər iki sual da verilsin, sonra hamısına birlikdə cavab verəsiniz.

SUAL: Sağ olun, mən TÜSİAB-ı - Türkiyə Sənayeçilər Birliyini təmsil edirəm. Xəzərdə hasil olunan qazın Avropaya nəqli üçün Avropa İttifaqının dəstəyi ilə yaradılacaq Xəzər konsorsiumu və region üçün qaz təchizatı ilə bağlı rəyinizi bilmək istərdim.

SUAL: Çox sağ olun, mən Aida Əliyevayam. Mən Avropadakı Azərbaycanlı Tələbələr Forumunun nümayəndəsiyəm. Brüssel Universitetində təhsil alıram.

Hörmətli cənab Prezident, Siz çıxışınızda ölkəmizin iqtisadi göstəriciləri və digər sahələrdəki inkişafı barədə məlumat verdiniz. Mən belə bir sual vermək istəyirəm. Hazırda bir çox azərbaycanlı tələbə Avropada təhsil alır və təhsillərini başa vurduqdan sonra iş yeri axtarırlar. Avropanın akademik dairələri Azərbaycan tələbələrindən çox razıdırlar. Bilmək istərdim ki, Avropada təhsil alan azərbaycanlı tələbələrin Azərbaycana qayıtdıqdan sonra işlə təmin olunma perspektivləri necədir?

İLHAM ƏLİYEV: İlk olaraq burada Dağlıq Qarabağ probleminin həlli ilə bağlı sual verildi. Hazırda danışıqlar ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılır. Minsk qrupunun həmsədrləri 3 ölkədən - Amerika Birləşmiş Ştatları, Fransa və Rusiyadan ibarətdir. Bu ölkələr dünyanın aparıcı ölkələridir. Avropa İttifaqının üzvü kimi Fransa həmsədr ölkədir, bundan başqa Birləşmiş Ştatlar və Rusiya da var. Münaqişə artıq 20 ildir ki, davam edir. Sualınızda düzgün qeyd etdiniz ki, hazırda nəinki Dağlıq Qarabağ, o cümlədən

keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərindən kənarda yerləşən 7 rayon da işğal altındadır. Məhz həmin 7 rayondan qovulan azərbaycanlılar məcburi köçkünlərin əksər hissəsini, yəni 700 mindən çoxunu təşkil edir. Bu gün həmin rayonlarda hər şey dağıdılıb, heç bir yaşayış yoxdur. Ermənilər hər şeyi yerlə-yeksan edib, məktəbləri, xəstəxanaları, binaları və məscidləri, hətta qəbiristanlıqları dağıdıblar. Onlar Azərbaycanla danışıqlarda bir növ mübadilə vasitəsi kimi həmin torpaqları əllərində saxlayırlar ki, günlərin bir günü Azərbaycan həmin rayonların qaytarılması müqabilində Dağlıq Qarabağın müstəqilliyinə razılıq versin. Bu, heç vaxt baş verməyəcək. Onlar bunu da yaxşı bilirlər ki, Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir. Əgər tarixə nəzər salsaq görərik ki, ermənilər nə vaxt və kim tərəfindən həmin bölgəyə köçürülüblər. Bu hadisələr təxminən 200 il bundan əvvəl baş verib. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Azərbaycan BMT-yə daxil olanda o, Dağlıq Qarabağla birlikdə qəbul edilib. Buna görə də Azərbaycanın ərazisinin bölünməsi və Dağlıq Qarabağın müstəqil olmasına razılığın verilməsi imkanından söhbət belə gedə bilməz.

Münaqişənin həlli ilə nəticələnə biləcək yeganə yol var. Əvvəlcə, Ermənistan silahlı qüvvələrini Dağlıq Qarabağ ətrafında olan rayonlardan çıxarmalıdır. Biz, eyni zamanda, razılaşırıq ki, hamı üçün təhlükəsizliyin təmin edilməsi məqsədi ilə sülhməramlı əməliyyatlar aparıla bilər. Ermənistanla Dağlıq Qarabağ arasında torpaq əlaqəsinin olmasında da problem görmürük. Bu ona görə edilə bilər ki, bölgədə yaşayan insanlar özlərini daha təhlükəsiz hiss etsinlər. Biz, eyni zamanda, Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək muxtariyyət statusu verilməsinə də razıyıq. Avropada da bu təcrübədən istifadə edirlər. Biz dünyada muxtariyyətin ən yaxşı nümunəsini tətbiq edə bilərik.

Bundan əlavə, qeyd etmək istəyirəm ki, onların dedikləri məntiqsizdir. Onlar Dağlıq Qarabağın müstəqilliyini istəyirlər və bildirirlər ki, Dağlıq Qarabağda ermənilərin öz müqəddəratını təyin etmək hüququ var. Lakin onlar artıq öz müqəddəratını təyin ediblər və Ermənistan dövlətinə malikdirlər. Sabah onlar ABŞ, Fransa, Rusiya və yaşadıqları digər ölkələrdə öz müqəddəratını təyin etmək tələbi ilə çıxış edə bilərlər. Belə olarsa, neçə erməni dövləti yarana bilər? Bu, düzgün yanaşma deyil. Biz ümid edirik ki, hər iki tərəf Minsk qrupunun yaxından iştirakı ilə Azərbaycanın ərazi bütövlüyünün bərpasına, Dağlıq Qarabağ ermənilərinə Azərbaycanın ərazisi çərçivəsində özünüidarəetmə imkanlarının yaradılmasına yardım edəcəkdir.

Növbəti suala gəldikdə, siz Xəzərin şərq sahilində hasil olunan qazın Azərbaycan ərazisi ilə nəql edilməsi məqsədi ilə Xəzər konsorsiumunun yaradılması imkanı haqqında danışdınız. Biz bu haqda eşitmişik. Biz həmin qurumun təfərrüatlarını, onun hansı praktiki addımlar atacağını və nə vaxt atacağını bilmirik. Lakin əvvəlcədən dəfələrlə bildirmişik ki, hər bir ölkə malların öz ərazisindən daşınmasına üstünlük verir. Bu istər neft, istər qaz, istərsə də digər mallar ola bilər.

Azərbaycan əlverişli coğrafi mövqeyə malikdir və əvvəl qeyd etdiyim kimi, bu mövqe mövcud olan infrastruktura əsaslanır. Əgər şərq sahilindəki qonşularımızın bu sahədə arzusu olarsa və bizim ərazimiz vasitəsilə öz mallarını daşımaq istəyərlərsə, biz buna şərait yaradacağıq. Bu baxımdan biz istehlakçıların da səylərini dəstəkləyirik ki, onların karbohidrogen ehtiyatlarına çıxışı daha da asanlaşsın.

Azərbaycan tələbələrinə gəldikdə isə, deyə bilərəm ki, bu yaxınlarda biz gənc azərbay-

canlıların xaricdə təhsil alması məqsədi ilə Dövlət Proqramının icrasına başlamışıq. Bu məqsədlər üçün vəsaitlər Dövlət Neft Fondundan ayrılır. Çox qısa müddətdə biz min tələbəyə yardım etməyi planlaşdırırıq. Planlaşdırırıq ki, onlar xaricdə yaxşı təhsil alsınlar.

O ki qaldı, onların qayıdıb işləməsinə, bilirsiniz, bu gün qloballaşan dünyada Avropadan və ABŞ-dan olan bir çox insanlar Azərbaycanda işləyirlər. Azərbaycanlılar da Avropada çalışırlar. Mən bunu normal hesab edirəm. Hər kəsin təhsil almaq hüququ var. Azərbaycan dövləti bu imkanı yaradır və bunu maliyyələşdirir. Əlbəttə ki, ölkəmizdəki inkişaf səviyyəsi dünyanın inkişaf etmiş dövlətlərinin səviyyəsi ilə müqayisə edilə bilməz. Lakin vaxt yetişəcək ki, Azərbaycan da dünyanın inkişaf etmiş ölkələrindən birinə çevriləcəkdir. İşlə təmin olunmaya gəldikdə deyə bilərəm ki, böyük sosial bəla olan işsizlik son 5 il ərzində demək olar ki, aradan qaldırılmışdır, 760 min iş yeri açmışıq.

Bir əlavə məsələni də qeyd edim: Azərbaycanda fəaliyyət göstərən bir çox xarici və yerli şirkətlərin rəhbərləri xarici ölkə vətəndaşlarıdır. Bu, onu göstərir ki, bizim lazımi bilik və bacarıqlara malik şəxslərə ehtiyacımız var. Ümid edirəm ki, sizin təhsiliniz vətəndə müvafiq iş tapmağa yardım edəcəkdir. Mən bilirəm ki, bu, bütün azərbaycanlıların ürəyindəndir, onların hamısı öz ölkəsində yaşamaq istəyir və ölkəmiz də onların qayıtmasını arzulayır.

APARICI: Cənab Prezident, icazə verin, öncə Sizə ünvanladığım sualı bir daha təkrarlayım. İqtisadi və maliyyə böhranı Sizin ölkənizə nə kimi təsir göstərir?

İLHAM ƏLİYEV: Təbii ki, biz dünya iqtisadiyyatının bir hissəsiyik. Böhranın mənfi təsirini hiss edirik. Bu, xüsusən də müvafiq bazarların olmamasından və istehsal etdiyi məhsulları kifayət qədər ixrac edə bilməməsindən əziyyət çəkən müəssisələrə aiddir.

Lakin bizim müşahidələrimizə və beynəlxalq maliyyə təsisatlarının verdiyi qiymətlərə əsasən, böhran Azərbaycana daha az təsir göstərir. Artıq qeyd etdiyim kimi, iqtisadiyyatımız yenə də inkişaf edir, milli valyuta sabitdir. Bəzən görürük ki, bizim regionda, keçmiş sovet məkanında və hətta Şərqi Avropa ölkələrində milli valyutanın dəyəri 10, 20, 50 faiz aşağı düşür. Bizim güclü maliyyə imkanlarımız var. Bu ilin əvvəlinə olan məlumata görə, Azərbaycanın valyuta ehtiyatları 18 milyard dollara bərabərdir, büdcə kəsiri yoxdur. Təbii ki, biz dövlətin maliyyələşdirdiyi layihələrə düzəliş edə bilərik. Çünki neftin qiymətinin aşağı düşməsi bizə təsir edib, lakin adi vətəndaşlara gəldikdə, onlar əziyyət çəkmirlər. Çünki istehlak mallarının qiymətləri aşağı düşüb. Ərzağın qiymətləri 20-30 faiz aşağı düşüb, bunu digər mallara da aid etmək olar. Zənnimcə, biz böhran dövrünü minimal itkilərlə yaşayacağıq.

SUAL: Cənab Prezident, çıxışınıza görə minnətdaram. Mən Amerikanın təhlükəsizlik araşdırmaları ilə məşğul olan qeyri-hökumət təşkilatını təmsil edirəm. Mənim sualım Azərbaycanla OPEK, qaz OPEK-i adlandırılan qurumla münasibətlərin perspektivlərinə aiddir.

SUAL: Cənab Prezident, Siz çıxışınızda Avropa İttifaqı ilə əməkdaşlıq və tərəfdaşlığı qeyd etdiniz. Sizin Avropa İttifaqına inteqrasiyanız seçiminizdir, yoxsa məqsədiniz? Nəzərə alsaq ki, iki qonşunuz - Ermənistan və Gürcüstan bu istiqamətdə irəliləyirlər.

SUAL: Mən Avropa İttifaqının Sosial və İqtisadi Komissiyasının icra şurasının nümayəndəsiyəm. Biz Avropada yeni enerji dəhlizləri məsələsi ilə məşguluq, o cümlədən

mən Cənubi Qafqazda Demokratiya və Vətəndaş Cəmiyyəti Fondunun rəhbəriyəm.

Zati-aliləri, mənim sualım sırf yeni enerji dəhlizləri ilə bağlıdır. Sizin Nabukko ilə bağlı real və dəqiq rəyinizi bilmək istərdim. İkincisi, bir həftə sonra İstanbulda Avrasiya İqtisadi Forumu keçiriləcəkdir. Nabukko layihəsinə alternativ bir təklif də var - Qara dənizin dibindən keçməklə Zonquldağı Konstansiya ilə birləşdirən, oradan Polşaya, Baltikyanı ölkələrə və Bolqarıstanın cənubuna gedən boru xəttinin çəkilməsi gündəlikdədir. 2013-cü ildə "Şahdəniz" layihəsinin ikinci fazasının başlanması imkanlarını necə görürsünüz? Avropa İttifaqını təbii qazla təmin edəcək bu cür layihələr üçün müəyyən kvotanın zəruri olması ilə bağlı fikirlərinizi bilmək istərdik.

İLHAM ƏLİYEV: Bizim OPEK-lə əlaqələrimiz formalaşma mərhələsindədir. Bizim nümayəndələrimiz OPEK-in son bir neçə tədbirində iştirak etmişlər. Bu, birinci dəfə idi ki, baş verirdi. Əvvəllər OPEK-lə əlaqələrimiz olmayıb. OPEK-lə əlaqələrimiz ona görə yox idi ki, biz əvvəllər əsas neft hasilatçısı deyildik. Biz neft istehsalını son illər sürətlə artırmağa başladıq. Amma bizim əməkdaşlıq əlaqələrimizə ehtiyac duyularsa, biz bunları qura bilərik. Bundan əlavə, qeyd etmək istərdim ki, Azərbaycan çox az ölkələrdən biri olmuşdur ki, ümumi işin naminə bu il üçün nəzərdə tutulan neftin istehsal həcmini aşağı salmışdır.

Sizin qeyd etdiyiniz qaz OPEK-i ilə bağlı heç bir şərh verə bilmərəm. 2006-cı ilin sonuna qədər biz Rusiyadan qaz idxal edirdik, indi isə biz qazı Gürcüstana, Türkiyəyə ixrac edirik. Türkiyə qazımızın bir hissəsini yenidən Yunanıstana satır və eyni zamanda, biz qaz sahəsində İranla mübadilə əməliyyatı aparırıq. Eyni zamanda, Rusiyaya gedən qaz borumuz da var.

Buna görə də çıxışımda qeyd etdiyim kimi, biz özümüzü kifayət qədər təhlükəsiz hiss edirik. Avropa İttifaqı ilə münasibətlərimizə gəldikdə isə, biz bu münasibətlərimizin səviyyəsindən məmnunuq. Bu cür münasibətlərdə təşəbbüs həmişə Avropa İttifaqından gəlir. Biz Avropa İttifaqı ilə əlaqələrimizi - Avropa İttifaqı bunu nə qədər istəyirsə, o qədər qurmaq istəyirik və bu təşkilatla əməkdaşlıqda, inteqrasiyada Avropa İttifaqı nə dərəcədə hazırdısa, biz də bir o qədər irəliyə getməyə hazırıq.

Siz sualınızda qeyd etdiniz ki, Gürcüstan və Ermənistan sizin fikrinizcə bu istiqamətdə irəliləyirlər. Lakin onların bu istiqamətdə irəliləmə sürəti də Avropa İttifaqından asılıdır. Buna görə də biz realist olmalıyıq. Əgər Avropa İttifaqı bizi assosiasiya olunmuş, inteqrasiya olunmuş və ya hansısa digər şəkildə görmək istəyirsə, biz buna hazırıq. Lakin eyni zamanda, qeyd etmək istəyirəm ki, biz öz siyasətimizi populizm üzərində yox, realizm üzərində qururuq. Biz burada və ya orada olmaq istəyimizlə bağlı hər hansı bir bəyanatdan uzaq olmağa çalışırıq. Bu bir prosesdir. Buna biz də hazır olmalıyıq, Avropa da hazır olmalıdır.

Yenə də demək istəyirəm ki, bu gün bizim Avropa İttifaqı ilə əlaqələrimiz çox müsbət istiqamətdə inkişaf edir və əlbəttə ki, biz "Şərq tərəfdaşlığı"na böyük ümidlərlə baxırıq. Mən belə düşünürəm ki, bu təşəbbüs mütləq Azərbaycan ilə Avropa İttifaqı arasında daha yaxın əməkdaşlığa xidmət etməlidir.

Enerji dəhlizləri və o cümlədən, Nabukko ilə əlaqədar demək istəyirəm ki, biz təşəbbüslərimizin nəticəsində meydana çıxan bütün layihələri dəstəkləyirik. Nabukko layihəsindən danışdıqda, biz bu layihənin necə meydana gəlməsinə nəzər salmalıyıq. Bu layihə irəli sürülən zaman Azərbaycan potensial təchizatçı ölkələr sırasında deyildi. Azərbaycan yalnız tranzit ölkə kimi nəzərdə tutulurdu. Potensial təchizatçılar digər ölkələr idi və onlar bu gün də Nabukko layihəsi üçün mühüm ehtiyatlara malik ölkələr sayılırlar. Lakin sonradan aydın oldu ki, Azərbaycan təkcə tranzit deyil, eyni zamanda, təchizatçı ölkə ola bilər, biz bu barədə daha ətraflı danışmağa başladıq. Biz ötən ilin noyabrında Bakıda böyük enerji sammiti keçirdik və orada Nabukko, həmçinin hazırda mövcud olan və gələcəkdə nəzərdə tutulan digər layihələrə iştirakçı ölkələr tərəfindən güclü dəstək verildi. Sammitin birgə bəyannaməsinə imza atan ölkələr sırasında Avropa İttifaqına üzv olan doqquz ölkə də var idi.

Fikrimcə, Nabukko layihəsinin reallaşmasını sürətləndirmək üçün bir neçə mühüm məsələ öz həllini tapmalıdır. Əvvəla, tranzit məsələləri. Tranzit ölkələrlə tranzit müqaviləsi yoxdur. Bu məsələ bir ildən artıqdır ki, həllini gözləyir. Bizim mövqeyimiz tamamilə beynəlxalq normalara, beynəlxalq təcrübəyə əsaslanmışdır və bu mövqe Avropa İttifaqı tərəfindən dəstəklənir. İkincisi, güclü siyasi dəstək. Belə düşünürəm ki, bunsuz Nabukko layihəsini həyata keçirmək çətin olacaqdır. Üçüncüsü, çox güclü maliyyə öhdəliyi. Əgər Nabukko layihəsi konsorsiumunda iştirak edən ölkələrin siyahısına baxsaq, görərik ki, öz hesablarına milyardlarla dollar məbləğində vəsait qoymaq onlar üçün çətin ola bilər. Beynəlxalq maliyyə yardımına, bank kreditlərinə böyük ehtiyac var. Hətta biz Bakı-Tbilisi-Ceyhan boru xəttini inşa edərkən, bp və digər şirkətlərin bu layihədə iştirakına baxmayaraq, xərclənən vəsaitin 75 faizi müxtəlif banklardan alınan vəsait idi. Bu gün biz maliyyə paketi ilə bağlı vədverici addımların atıldığını görürük. Digər mühüm məsələ bütün iştirakçı ölkələr, o cümlədən hasilatçı, istehlakçı və tranzit ölkələr arasında güclü koordinasiyanın olmasıdır. Buna görə də düşünürəm ki, bütün bu addımlar atılarsa, layihənin yaxşı gələcəyi ola bilər.

"Şahdəniz" yatağının ikinci fazası ilə bağlı sualınıza qismən cavab vermişəm. Bununla bağlı yubanma var və bu yubanma bizim səhvimiz üzündən deyil, tranzit məsələsinin *həll* olunmaması səbəbindən baş verir. Biz "Şahdəniz" yatağının ikinci fazası ilə bağlı azı iki il vaxt itirdik. "Şahdəniz" qazına Avropada böyük ehtiyac var.

Qaz məsələsinə bir daha qayıdaraq bildirmək istəyirəm ki, biz bu prosesi başladıq, boru kəmərlərini çəkdik. Boru kəmərlərini Türkiyəyə çəkdik, indi isə həmin kəmərlə nəql olunan qaz Yunanıstana çatdırılır. Bizim üçün bazar qıtlığı yoxdur, ətrafımızda bazarlar çoxdur. Qonşu ölkədən bizə təklif olundu ki, biz istədiyimiz qədər qazı onlara sata bilərik. Ona görə də layihəyə bilərəkdən və ya bilməyərəkdən mane olan tərəflər bunu nəzərə almalıdır.

APARICI: Çox sağ olun. Cənab Prezident, Siz "Şərq tərəfdaşlığı" təşəbbüsünü burada xüsusilə qeyd etdiniz. Siz Avropa İttifaqı ilə əməkdaşlıq etmək istəyirsiniz, Avropa İttifaqı da bunu istəyir. Bilmək istərdik ki, bu sahədə Sizin üçün perspektivlər nədən ibarətdir?

SUAL: Cənab Prezident, sovet dönəmində və hətta ondan əvvəl quruda vaxtilə hasil edilən neft yataqlarında ekoloji vəziyyətlə bağlı hökumətinizin planları haqqında bilmək istərdik. Həmin yerlərin çirklənmədən təmizlənməsi üçün hazırda Sizin hökumətiniz hansı addımları atır?

SUAL ("Ceyns Difens" jurnalının müxbiri): Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar təbii ki, müsbət haldır. Lakin bilirik ki, Ermənistan ümumi daxili məhsulun böyük bir hissəsini hərbi xərclərə yönəldir. Ermənistan hərbi baxımdan daha da güclənmək fikrindədir. Mənim Sizə iki sualım var: Bu cür addımlar iki ölkə arasında etimad tədbirlərini sual altına qoymurmu və Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə nizamlanmasını çətinləşdirmirmi? İkinci sualım, Azərbaycan Ermənistanın bu addımına qarşı hansı tədbirləri görür?

İLHAM ƏLİYEV: "Şərq tərəfdaşlığı" məsələsi ilə bağlı bizim bu yaxınlarda - may ayında Praqada görüşümüz olacaqdır. Təbii ki, bizim də gözləntilərimiz var. Bəlkə də indi nəyi gözlədiyimiz haqda dəqiq nəsə demək çətin olar. Lakin vacib məsələ odur ki, "Şərq tərəfdaşlığı" proqramında həm Avropaya, həm də Azərbaycana fayda gətirəcək konkret və dəqiq elementlər mövcuddur. İlk mərhələdə Avropa Qonşuluq Siyasəti proqramına start verildi və biz bunun yaxşı bir addım olduğunu başa düşdük. Bu regiona verilən önəmin göstəricisi idi. Lakin indi "Şərq tərəfdaşlığı" proqramından biz daha çox şey gözləyirik. Biz Avropaya, oradakı bəzi təhsil proqramlarına daha asanlıqla çıxış əldə etmək istəyirik. Ümumiyyətlə, məqsədimiz Avropa İttifaqının qabaqcıl təcrübələrinə çıxış əldə etmək, həyatımızın müxtəlif sahələrini Avropa İttifaqının standartlarına yaxınlaşdırmaq və gələcək illər üçün çiçəklənən və dayanıqlı ölkə qurmaqdır.

Ətraf mühitin qorunması məsələlərinə gəldikdə isə, bu istiqamətdə biz çalışmalıyıq. Çünki əfsuslar olsun ki, hələ Sovet İttifaqı, hətta Rusiya imperiyası dövründə neft və qaz sahələrinin işlənilməsi nəticəsində biz ətraf mühitin ciddi şəkildə çirklənməsinə məruz qalmışıq. 1991-ci ildə müstəqil ölkə kimi bizə qalan çirklənmiş ərazi, çürümüş infrastruktur və neft istehsalının aşağı düşməsi idi. Azərbaycan dünya neft istehsalının 50-70 faizini təmin edən bir məkan olub. 1990-cı illərdə biz hər şeyi yenidən başlamalı olduq. Xarici şirkətlər neftin hasilatı və işlənilməsi sahələrinə sərmayə qoymaqda maraqlı idi. Lakin ətraf mühit elə bir məsələ idi ki, biz onunla özümüz məşğul olmalı idik. Hətta bu məsələ ilə bağlı bizə kömək etmək üçün beynəlxalq maliyyə təsisatlarına ünvanladığımız müraciətlər cavabsız qoyuldu. Yalnız vəsait toplayandan sonra biz sərmayə qoymağa başladıq. Ətraf mühitin qorunması ilə bağlı biz böyük bir proqrama start verdik. Bakı ətrafında ən çox çirklənmiş bəzi ərazilər artıq təmizlənmiş və onların yerində parklar salınmışdır. Keçmişin mirasından yaxa qurtarmaq və bütün çirklənmiş əraziləri münbit hala gətirmək üçün biz böyük vəsaitlər sərf etməyi planlaşdırırıq.

Ermənistanın müdafiə xərcləri məsələsinə gəldikdə isə, siz tamamilə doğru deyirsiniz. Ölkənin ümumi daxili məhsuluna (ÜDM) nisbətdə bu, yəqin ki, regionda ən yüksək göstəricidir. Əgər siz rəqəmlərə diqqət yetirsəniz görərsiniz ki, bizim iqtisadi imkanlarımız hərbi sahəyə daha çox sərmayə yatırmağa imkan verir. Hətta bəzən bəzi beynəlxalq qurumlar tərəfindən tənqid edilirik ki, biz regionu hərbiləşdiririk. Bu isə bizim işğala qarşı təbii cavabımızdır. Mən sizə sadə bir rəqəmi deyim. Bildiyimə görə, Ermənistanın dövlət büdcəsi təxminən 2 milyard dollardır. Azərbaycanın hərbi xərcləri isə 2 milyard dollar təşkil edir. Başqa sözlə desək, Azərbaycanın hərbi xərcləri Ermənistanın dövlət büdcəsinə bərabərdir. Biz hərbi xərcləri istədiyimiz qədər artıra bilirik, onlar isə imkanları çatdığı qədər. Bu, böyük bir fərqdir. Bu səbəbdən də onlar məsuliyyətli olmalı, işğala son qoymalı və bizi digər addımlar atmağa məcbur etməməlidirlər.

APARICI: Digər suallara keçək.

SUAL: Cənab Prezident, maraqlı çıxışınıza görə minnətdarıq. Mən Avropa İttifaqının mülki böhranların idarə edilməsi qurumunu təmsil edirəm. 1990-cı illərdən etibarən mən Azərbaycana səfər edirdim, ölkənizdə bir çox maraqlı şəxslərlə tanış olmuşam, söhbətlərim olub, bölgədə silahlanma məsələlərini araşdırmışam. Məhz bu məsələ ilə bağlı Sizin fikirlərinizi öyrənmək istərdik. Lakin eyni zamanda, olmazmı ki, Cənubi Qafqazın üç ölkəsi Rusiya və digər tərəflərin, o cümlədən Minsk qrupunun vasitəçiliyi olmadan "Qafqaz icması" təşəbbüsü ilə taleyini öz əllərinə götürərək danışıqlar masasına əyləşib ümumi nəticəyə gəlsinlər. Zənnimcə, nəqliyyat, münaqişələrin həlli və enerji məsələləri üzrə "Qafqaz icması" qrupunun yaradılması Azərbaycanın da marağında olardı. Əslində bu, Cənubi Qafqazın üç ölkəsinin maraqlarına uyğun ola bilərdi. Sağ olun.

SUAL: Cənab Prezident, verilən xəbərlərdə qazın qiyməti ilə bağlı Türkiyə ilə Azərbaycan arasında problemin olduğu bildirilmişdi. Türkiyə rəsmiləri bunu inkar edir. Məsələ ilə bağlı yekun sözünüzü bilmək istərdik. İkinci sualım: Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılmasına dair razılaşma paketində Dağlıq Qarabağ məsələsi qoyulmasa Sizin reaksiyanız necə olardı? Nəhayət, sonuncu sualım: cənab Joze Manuel Barrozu Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasına hər hansı bir formada sərt reaksiya verməməyi Sizdən xahiş edibmi? Çox sağ olun.

SUAL: Çox sağ olun, cənab Prezident. Mən elə həmin mövzu, yəni, Türkiyə-Ermənistan yaxınlaşması və sərhədlərin açılması ilə bağlı sual vermək istəyirdim. Lakin məndən əvvəl artıq bu sual verildi. Buna görə də Sizə digər bir sual vermək istərdim. Sizin fikrinizcə, Dağlıq Qarabağ münaqişəsinin həllindən öncə iki ölkənin xalqları arasında hər hansı təmas ola bilərmi, yaxud biz məsələnin tam həllini gözləməliyik ki, bu cür təmaslar baş tutsun?

İLHAM ƏLİYEV: Qeyd etdiyiniz "Qafqaz icması" təşəbbüsünə gəldikdə, bizim mövqeyimiz ondan ibarətdir ki, münaqişə sona çatmayanadək biz Ermənistanla hər hansı bir əməkdaşlıq etməyəcəyik. Hesab edirəm ki, bu, başadüşülən mövqedir. Bəzən ermənilər ictimai rəyi manipulyasiya etməyə çalışırlar. Onlar özlərini çox konstruktiv, çox dost və əməkdaşlıq edilə biləcək bir tərəf kimi qələmə verirlər. Aydındır ki, torpaqlarımızı işğal edən, yüz minlərlə vətəndaşımızın acınacaqlı vəziyyətə düşməyinə səbəb olan bir ölkə ilə əməkdaşlıq ola bilməz. Məhz bu səbəbdən münaqişə həll edilmədən hər hansı bir birgə iqtisadi əməkdaşlıqdan söhbət gedə bilməz, istər ikitərəfli olsun, istərsə də çoxtərəfli. Bu, birmənalıdır.

Qeyd etdiyiniz nəqliyyat və enerji sahəsi ilə bağlı. Biz Qafqaz regionunda qonşumuz olan Gürcüstanla bu sahələrdə əməkdaşlıq edirik. Bildiyiniz kimi, biz Gürcüstanı təbii qazla tam təmin edirik, neft məhsullarının əsas təchizatçısı sayılırıq, bizim Dövlət Neft Şirkətinin törəməsi olan "SOCAR Energy Georgia" Gürcüstanın ən iri vergi ödəyicisi və ən iri sərmayədarıdır. Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan hissəsinin tikintisi üçün biz Gürcüstana bir faizlə 200 milyon dollar məbləğində kredit ayırmışıq. Bu isə bizim tərəfdaşlığımızın əyani nəticəsidir.

Ermənistan isə özünü normal apararsa, işğala son qoyarsa, o da istər enerji, istərsə də nəqliyyat sahəsində bu layihələrin bir hissəsi ola bilər. Sadəcə, onlar özlərini hər şey-

dən - enerji və ya nəqliyyat layihələri baxımından təcrid ediblər və zaman ötdükcə bu təcrid onların vəziyyətinə daha çox təsir edəcəkdir. Bu, bizim üçün onların işğala son qoymalarına təsir edən vasitələrdən biridir. Bunun yalnız bir mənası var. Göstərmək istəyirik ki, onların işğal siyasətinin gələcəyi yoxdur. Hesab edirəm ki, bu münaqişə həll edilmədən bizim Ermənistanla nə üçün əməkdaşlıq etməyə hazır olmadığımızı göstərən vacib bir izahdır.

Türkiyəyə satılan qazın qiymətinin qaldırılması ilə bağlı onu demək istərdim ki, bu müddət ərzində təbii qazın mövcud qiyməti Türkiyə və "Şahdəniz" konsorsiumu üzvləri arasında aparılan danışıqlar nəticəsində formalaşmışdır. Azərbaycanın Dövlət Neft Şirkəti isə "Şahdəniz" konsorsiumunun yeganə üzvü deyil. Qiymət razılaşdırılanda, - bu 2000-ci illərin əvvəlinə təsadüf edirdi, - o zaman razılaşdırılırdı ki, hər min kubmetr qaza görə 120 dollar ödəniləcək. Bu qiymət yalnız bir il üçün müəyyən edilmişdi. Bir ildən sonra isə qiymət bazara uyğun hesablanmalı idi. Həmin bir il ötən ilin aprel ayında başa çatıb və konsorsiumun bütün üzvləri tərəfindən ümumi anlaşma yaranıb ki, yeni qiymət danışılsın. Qiymətin yuxarı və ya aşağı olacağını demək çətindir. İndi neftin qiyməti aşağı düşür, ola bilər ki, qiymət də aşağı olsun. Lakin bazar qiyməti olmalıdır. Bu sahədə çalışanlar bilirlər ki, 2008-ci ildə Türkiyə təbii qazı Rusiyadan 400 dollara, bəzən isə 500 dollara alırdı, Əlcəzairdən 300 və ya bir qədər çox. Azərbaycandan isə aldığı qazın qiyməti 120 dollar idi. 2008-ci ildə isə bazar qiyməti 400-500 dollar idi.

İndi siz özünüz hesablaya bilərsiniz, bu səbəbdən "Şahdəniz" konsorsiumunun itkiləri nə qədər idi. Lakin o da aydındır ki, hər şey müqavilə əsasında həll edilməlidir. Biz daim beynəlxalq öhdəliklərə hörmətlə yanaşmışıq. Azərbaycan heç vaxt beynəlxalq müqavilələri pozmayıb və bütün danışıqlar tərəfdaşlıq, dostluq ruhunda, qarşılıqlı maraq, ədalətli bazar qiyməti və hüquqi baza çərçivəsində aparılmalıdır. Bizim mövqeyimiz bundan ibarətdir. Ona görə hesab edirəm ki, artım və ya azalmadan danışmaq düzgün olmazdı. Biz gərək müqavilənin öhdəliklərindən və bazar qiymətlərindən danışaq. Bazar qiyməti olmasa o, nəinki iqtisadi itkilər yarada bilər, həmçinin əməkdaşlığın perspektivlərinə də təsir göstərə bilər.

Növbəti sual belə idi ki, Dağlıq Qarabağ məsələsi Türkiyə və Ermənistan razılaşmasında olmasa nə baş verər. Belədirmi?

İlk növbədə, mən bunu bu gün mətbuat konfransında da demişdim, biz heç bir ölkənin daxili işlərinə qarışmırıq. Biz heç vaxt ölkələrin ikitərəfli münasibətlərinə müdaxilə etmirik. Lakin o da aydındır ki, 1993-cü ildə Türkiyə ilə Ermənistan arasında sərhədlərin bağlanmasının səbəbi Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı olmuşdu. Hazırda Azərbaycan torpaqları hələ də işğal altındadır.

Son illər ərzində Türkiyə rəhbərləri adından bəyanatlar verilirdi və onlarla söhbətlər zamanı bildirilirdi ki, Dağlıq Qarabağ münaqişəsi həll edilmədən sərhədlər açılmayacaq. Bu yaxınlarda Türkiyə rəhbərlərindən eyni bəyanatları eşitdik. Verdiyiniz sual tamamilə əsaslıdır. Bu sual mənə ünvanlanmamalıdır. Dağlıq Qarabağ münaqişəsinin həlli Ermənistan-Türkiyə gündəliyindən kənardadır, yoxsa yox? Bu, bir sözdən ibarət cavabı olan sadə bir sualdır. Bəli, yaxud xeyr. Ondan sonra hər şey aydın olacaqdır.

Bir daha söylədiklərimə qayıdaraq onu demək istərdim ki, əgər Türkiyə və Ermənistan arasındakı əlaqələrin normallaşdırılması Dağlıq Qarabağ münaqişəsinin həllində hər

hansı irəliləyişdən öncə baş versə, o zaman bu, Azərbaycanın milli maraqlarına uyğun olmayacaqdır. Lakin bu heç də o demək deyil ki, biz bu prosesə hər hansı şəkildə müdaxilə etməyə çalışırıq. Xeyr, bu, seçim məsələsidir.

Türkiyə ilə güclü mədəni, tarixi və siyasi əlaqələrə malik olan və artıq 20 ildir ki, Ermənistanın təcavüzündən əziyyət çəkən Azərbaycan öz seçimini etmək və özünün milli maraqlarına uyğun addımları atmaq hüququna malikdir.

Fərdi təmaslara gəldikdə, biz bunun əleyhinə deyilik. Bizim ziyalılardan ibarət bir qrup Xankəndi və İrəvana, onların qrupu isə Bakıya səfər etmişdilər. Bu görüşlər bir gün ərzində keçirildi və fikrimcə, bu, danışıqlar prosesinə bir dəstək oldu. Qrup üzvləri keçirdikləri görüşlərdən razı qaldılar. Lakin məsələ elə bununla da bitdi, yəni, bu təşəbbüs hər hansı ciddi irəliləyişlə nəticələnmədi. Ona görə də əgər öz cəmiyyətlərində nüfuza malik şəxslər arasında təmasların nəticəsi olmursa, bu görüşlərin dəyəri nədir? Zənnimcə, Dağlıq Qarabağ münaqişəsi həll edilmədən bu haqda danışmaq tezdir. Məsələ öz həllini tapmasa vəziyyəti əvvəlcədən proqnozlaşdırmaq və ya əməkdaşlıq etmək mümkün deyil.

APARICI: Cənab Prezident Əliyev, bizimlə görüşdüyünüzə və bu cür geniş, maraqlı söhbət apardığımıza görə Sizə olduqca minnətdarıq.

PREZİDENT İLHAM ƏLİYEVİN NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFER İLƏ GÖRÜŞÜ

Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da NATO-nun baş katibi Yaap de Hoop Sxeffer ilə görüşmüşdür.

NATO-nun baş katibi dövlətimizin başçısını NATO-nun mənzil-qərargahının önündə böyük səmimiyyətlə qarşıladı.

Sonra Prezident İlham Əliyev və Yaap de Hoop Sxeffer Azərbaycanın və NATO-nun bayraqları önündə şəkil çəkdirdilər.

Görüşdə baş katib dedi ki, Azərbaycan ilə əməkdaşlıq uğurla inkişaf edir və NATO bu əməkdaşlığa böyük əhəmiyyət verir. Azərbaycanın regionda xüsusi rolunu vurğulayan Yaap de Hoop Sxeffer bildirdi ki, NATO Azərbaycana bölgədə mühüm rol oynayan tərəfdaş ölkə kimi yanaşır və Prezident İlham Əliyevin bu səfəri NATO-Azərbaycan münasibətlərinin genişlənməsinə xidmət edəcəkdir.

NATO-nun baş katibi Azərbaycanın antiterror əməliyyatlarında iştirakını yüksək qiymətləndirdi və dedi ki, ölkəniz "Fərdi tərəfdaşlığın əməliyyat planı"nda da fəal iştirak edir.

Prezident İlham Əliyev bildirdi ki, NATO-Azərbaycan əlaqələri inkişaf edir, Azərbaycan NATO-nun müxtəlif proqramlarında və tədbirlərində fəal iştirak edir.

"Fərdi tərəfdaşlığın əməliyyat planı"nda ölkəmizin fəal iştirak etdiyini vurğulayan Prezident İlham Əliyev dedi ki, Azərbaycan-NATO əlaqələri ölkəmizin Avratlantik strukturlara inteqrasiyasının tərkib hissələrindən biridir.

Azərbaycanın dövlət başçısı ümidvar olduğunu bildirdi ki, əlaqələrimiz bundan sonra da inkişaf edəcəkdir.

ŞİMALİ ATLANTİKA ŞURASINDA GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Brüsseldə, NATO-nun mənzil-qərargahında Şimali Atlantika Şurasında NATO-nun üzvü olan dövlətlərin Şuradakı daimi nümayəndələri və səfirləri qarşısında çıxış etmişdir.

Görüşdə dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında əməkdaşlığın mövcud vəziyyətindən və perspektivlərindən danışdı.

Prezident İlham Əliyev 15 il ərzində "Sülh naminə tərəfdaşlıq" Proqramı və "Fərdi tərəfdaşlığın əməliyyat planı" çərçivəsində Azərbaycan-NATO əməkdaşlığı, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verdi.

Sonra görüşdə müzakirələr aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFERİN BİRGƏ MƏTBUAT KONFRANSI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Brüsseldə, NATO-nun mənzil qərargahında təşkilatın baş katibi Yaap de Hoop Sxeffer ilə görüşmüşdür.

Görüşdən sonra Prezident İlham Əliyev Şimali Atlantika Şurasında NATO-nun üzvü olan dövlətlərin Şuradakı daimi nümayəndələri və səfirləri qarşısında çıxış etmiş, müzakirələr aparılmışdır.

Müzakirələrdən sonra Prezident İlham Əliyev və NATO-nun baş katibi Yaap de Hoop Sxeffer birgə mətbuat konfransı keçirmişlər.

Azərbaycan Prezidenti və NATO-nun baş katibi əvvəlcə bəyanatlarla çıxış etmişlər.

NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFERİN BƏYANATI

- Sabahınız xeyir, xanımlar və cənablar. Deyə bilərəm ki, Baş katib kimi mən və Şimali Atlantika Şurası Azərbaycan Prezidenti cənab Əliyevi Şimali Atlantika Şurasında yenidən qəbul etməkdən olduqca məmnunuq.

Azərbaycan NATO-nun dəyərli tərəfdaşıdır. Artıq on beş ildir ki, "Sülh naminə tərəfdaşlıq" proqramı, 2005-ci ildən etibarən isə "Fərdi tərəfdaşlığın əməliyyat plan"ı çərçivəsində çalışırıq. Təbii ki, Azərbaycan nəinki regionda, o cümlədən onun hüdudlarından kənarda mühüm iştirakçıdır. Azərbaycan enerji təhlükəsizliyi baxımından çox vacib bir ölkədir və NATO-nun çox dəyərli tərəfdaşıdır. Biz həmin tərəfdaşlığı genişləndiririk. Mən Əfqanıstanda İSAF əməliyyatları çərçivəsində Azərbaycanın verdiyi vacib töhfəsinə görə Prezident Əliyevə minnətdarlığımı bildirmək istəyirəm. Biz bu işləri davam etdiririk və gələcəkdə də bu əsaslarla işləyəcəyik.

Bir neçə il bundan əvvəl mən Prezident Əliyevlə şəxsi münasibətlər qurmuşuq. Bunu nəyə görə deyirəm? Mən NATO-nun baş katibi olmağımla yanaşı, ATƏT-in keçmişdə fəaliyyətdə olan sədri kimi ümidvar olduğumu bildirmək istəyirəm və arzulayıram ki, Dağlıq Qarabağ münaqişəsi, bu problemi NATO dövlət və hökumət başçılarının bu ayın

əvvəlində Strasburqda keçirilmiş Zirvə görüşündə qeyd edildiyi kimi, çox vacib bildiyim mühüm prinsip - ərazi bütövlüyü prinsipi əsasında öz həllini tapmalıdır.

Prezident Əliyev Azərbaycandakı vəziyyət, regiondakı enerji durumu və siyasi vəziyyət haqqında çox maraqlı təqdimatla çıxış etdi. Təbii ki, Prezident Əliyev Dağlıq Qarabağ məsələsinə də diqqət yetirdi.

Cənab Prezident, Sizi burada görməyimizdən çox şad olduq və məmnuniyyətlə sözü Sizə verirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Çox sağ olun, cənab baş katib.

Dəvətə görə bir daha olduqca minnətdaram. Burada yenidən olmağıma və Sizinlə görüşmək, eləcə də Şurada çıxış etmək imkanına görə çox şadam.

İlk öncə, mən, cənab baş katib, şəxsən Sizə Azərbaycan-NATO münasibətlərinə verdiyiniz töhfəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Biz bir-birimizi uzun illərdir ki, tanıyırıq. Sizin baş katib kimi fəaliyyətiniz təşkilatı daha da gücləndirmişdir. Eyni zamanda, apardığınız iş Azərbaycan kimi ölkələri təşkilata daha da yaxınlaşdırmış və bir çox tədbirlərdə iştirakını mümkün etmişdir. Artıq öncə qeyd etdiyim kimi, təkcə ötən il Azərbaycan təmsilçiləri NATO-nun təşkil etdiyi 200-dən çox əməkdaşlıq tədbirində iştirak etmişlər. Biz bu tərəfdaşlığı yüksək dəyərləndiririk. Azərbaycan Əfqanıstanda öz hərbçilərinin sayını iki dəfə artırmaq üzrədir. Biz öz regionumuz və bütün dünyada sülh, sabitlik və təhlükəsizlik kimi ümumi işə və antiterror əməliyyatlarına verdiyimiz töhfəni davam etdirəcəyik.

Bu gün müzakirə etdiyimiz məsələlər arasında təbii ki, NATO ilə Azərbaycan arasında münasibətlərə və regional vəziyyətə dair məsələlər var idi. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ərazi bütövlüyü prinsipinə əsaslanan qəti mövqeyinə görə NATO-ya olduqca minnətdarıq. Bu, regiona çox yaxşı mesajdır. Hesab edirəm ki, biz həmin münaqişənin həlli istiqamətində yalnız bu prinsip əsasında irəliyə doğru gedə bilərik.

Bu gün biz enerji təhlükəsizliyi və əməkdaşlığını müzakirə etdik. Regionda enerji təhlükəsizliyi olmadan ümumi təhlükəsizlikdən danışmaq mümkün deyil. Enerji təhlükəsizliyi və əməkdaşlığı bu gün dünyada daha əhəmiyyətli məsələlərə çevrilmişdir. Yaxşı resurslara, infrastruktura və coğrafi mövqeyə, o cümlədən önəmli kommunikasiyalara, siyasi əlaqələrə və qonşuluğa malik olan Azərbaycan, təbii ki, gələcəkdə daha mühüm rol oynamağı planlaşdırır.

Bu günə qədər rolumuz regional hüdudlarla məhdudlaşırdı. İndi isə, hesab edirəm ki, qlobal səviyyədə qarşılıqlı əməkdaşlıq üçün çox yaxşı imkanlar var. Boru kəmərlərimiz, neft və qaz ehtiyatları regionun bugünkü sabitliyi və təhlükəsizliyinə xidmət edir və gələcəkdə qlobal enerji təhlükəsizliyinə töhfə verəcəkdir. Buna görə, bu məsələlər gündəliyimizdə davamlı olaraq birinci yeri tutacaqdır.

Azərbaycan siyasi və iqtisadi dəyişikliklər siyasətini aparmaqdadır. Bu günə qədər həmin siyasət uğurlu olmuşdur. NATO-Azərbaycan əlaqələri, o cümlədən "Fərdi tərəf-

daşlığın əməliyyat planı" formatı ölkəmizdə ümumi siyasi dəyişikliklərdə mühüm rol oynayır.

Yekun olaraq, bildirmək istəyirəm ki, biz NATO ilə əlaqələri yüksək dəyərləndiririk. Münasibətlərimizin uzun - 15 illik tarixi var. Həmin vaxtdan biz "Sülh naminə tərəfdaşlıq" proqramının üzvüyük və bu səmərəli əməkdaşlığı davam etdirmək istəyirik.

* * *

SUAL (Şahin Cəfərov, AzərTAc): Ermənistanın Azərbaycana davam edən təcavüzü bölgədə sülhün və sabitliyin təmin olunmasına zərər vurur. NATO-nun bu yaxınlarda keçirilmiş yubiley sammitinin bəyannaməsində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı narahatlıq ifadə olunur. Perspektivdə bu münaqişənin həllini necə görürsünüz?

YAAP DE HOOP SXEFFER: İcazə verin onunla başlayım ki, əvvəlcə qeyd etdiyim kimi, NATO Dağlıq Qarabağ münaqişəsinin həllində birbaşa rol oynamır və buna çalışmır. Vaxtilə ATƏT-in fəaliyyətdə olan sədri kimi mən məsələ ilə yaxından məşğul olmuşam. Minsk qrupu, əlbəttə ki, məsələ üçün müvafiq qurumdur. Lakin siz və mən, həmçinin qeyd etdiyimiz kimi, NATO-nun üzvü olan dövlət və hökumət başçılarının Strasburqda keçirilmiş Zirvə görüşündə bir daha qeyd edilən qaydada əsas prinsip ərazi bütövlüyü prinsipidir. Ərazi bütövlüyü danışıqlar prosesində müzakirə mövzusuna çevrilməməlidir. Buna görə də, mən sizin diqqətinizi Strasburq Sammitində qəbul edilmiş bəyannaməyə yönəltdim, çünki bildiyiniz kimi, vacib prinsip bundan ibarətdir. Lakin hazırda NATO, Şimali Atlantika Alyansı Dağlıq Qarabağ probleminin həllində rol oynamağa çalışmır.

Cənab Prezident, çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA İTTİFAQI NAZİRLƏR ŞURASININ BAŞ KATİBİ, ÜMUMİ XARİCİ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ XAVYER SOLANA İLƏ GÖRÜŞÜ

Aprelin 29-da Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Nazirlər Şurasının baş katibi, ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin perspektivlərinə, regiondakı vəziyyətə, enerji əməkdaşlığına, Ermənistan-Azərbaycan, Dağlıq Qarabaq münaqişəsinin sülh yolu ilə həllinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ AVROPA İTTİFAQI NAZİRLƏR ŞURASININ BAŞ KATİBİ, ÜMUMİ XARİCİ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ XAVYER SOLANA MƏTBUAT NÜMAYƏNDƏLƏRİ QARŞISINDA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Aprelin 29-da Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Nazirlər Şurasının baş katibi, ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana görüşdən sonra mətbuat nümayəndələri qarşısında bəyanatlarla çıxış etmişlər.

AVROPA İTTİFAQI NAZİRLƏR ŞURASININ BAŞ KATİBİ, ÜMUMİ XARİCİ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ XAVYER SOLANANIN BƏYANATI

- Sabahınız xeyir. İcazə verin mən qısaca olaraq bildirim ki, Prezident Əliyevi burada qəbul etməkdən olduqca məmnunam.

Azərbaycan Avropa İttifaqı üçün çox önəmli bir ölkədir. Bu ölkə ilə bizim "Şərq tərəfdaşlığı" və "Avropa Qonşuluq Siyasəti" çərçivəsində gözəl əlaqələrimiz var. Bizim enerji sahəsində də xüsusi əlaqələrimiz var və olacaqdır. Məlum olduğu kimi, bu məsələlərin bir çoxu geniş şəkildə müzakirə etdiyimiz mövzuların bir hissəsidir. Mən cənab Prezidentə bunun davam etdiriləcəyinə söz verdim. Bizim kifayət qədər vaxtımız var ki, görmək istədiyimiz bütün bu məsələləri eyni gözlə və eyni baxışlarla nəzərdən keçirək. Söz verirəm ki, bu söhbəti davam etdirmək üçün Azərbaycana səfər edəcəyəm.

Onu da demək istərdim ki, Azərbaycan bizim üçün önəmli bir ölkədir. Bildiyiniz kimi, bu yaxınlarda biz bir sıra tədbirlərdə görüşəcəyik. Hesab edirəm ki, biz yenidən bir araya gələrək bu tərəfdaşlıq, o cümlədən enerji və "Cənub dəhlizi" haqqında müzakirələrimizi davam etdirəcəyik.

Ümid edirəm ki, Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli əlaqələr daha da dərinləşəcəkdir. Bu, bizim məqsədimizdir və biz bu istiqamətdə də çalışacağıq.

Cənab Prezident, buraya səfər etdiyinizə, ayırdığınız vaxta və danışıqlar zamanı bölüşdüyünüz fikirlərə görə Sizə öz dərin minnətdarlığımı bildirirəm. İndi söz Sizindir və nəticənin hasil olunması üçün biz danışıqları davam etdirəcəyik.

Cənab Prezident, bir daha Sizə təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Sağ olun. Dəvətə görə Sizə təşəkkür edirəm. Dünən və bu gün apardığım danışıqlardan çox məmnunam. Bu müzakirələr Avropa İttifaqı və Azərbaycan arasındakı əlaqələrin davamlı inkişafı üçün çox geniş imkanlar yaradır. Biz bu əlaqələrə böyük önəm veririk. Biz əməkdaşlığın səviyyəsini yüksək dəyərləndiririk. Biz bu əməkdaşlığın praktiki cəhətlərini müzakirə etdik. Əlaqələrimizin gündəliyi genişlənir. Hazırda bu gündəlik regional inkişafa, iqtisadi əməkdaşlığa, siyasi islahatlara və təbii ki, enerji təhlükəsizliyi və şaxələndirməyə dair bir sıra məsələləri özündə əks etdirir.

Münaqişələrin həlli, regiondakı təhlükəsizlik - bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir və bu məsələlərin həlli üçün biz Avropa İttifaqı ilə Azərbaycan arasındakı səmərəli dialoqu davam etdirəcəyik. Bizim baxışlarımız bir çox regional inkişaf məsələləri üzrə üst-üstə düşür. Bu gün qitənin təhlükəsizliyi sahəsində ən mühüm məsələlərdən biri sayılan enerji təhlükəsizliyinə gəldikdə isə, Azərbaycan bir dost, karbohidrogen ehtiyatlarının etibarlı təchizat mənbəyi və etibarlı tranzit ölkəsi kimi enerji şaxələndirilməsində öz rolunu davam etdirəcəkdir. Bu, hamımız üçün vacibdir.

Avropa İttifaqı və Azərbaycan arasındakı əlaqələr qarşılıqlı şəkildə faydalıdır. Ümid edirəm ki, "Şərq tərəfdaşlığı" təşəbbüsü çərçivəsində yaranacaq yeni format bu əlaqələri möhkəmləndirəcəkdir.

Bir daha qəbul edən tərəfə qonaqpərvərliyə görə təşəkkür etmək istərdim və cənab Solananı istənilən münasib bir vaxtda Azərbaycana səfərə dəvət edirəm. Bu günlərdə apardığım danışıqlardan dərin razılığımı ifadə edirəm.

Sağ olun.

SƏFƏR BAŞA ÇATDI

Aprelin 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatmışdır.

Brüsselin "Abelaq" hava limanında Prezident İlham Əliyevi Belçika Krallığının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ PRAQADA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR

Aprelin 27-28-də Çexiya Respublikasının paytaxtı Praqada "Miqrasiya sahəsində tərəfdaşlıq quruculuğu" mövzusunda nazirlər konfransı keçirilmişdir.

Konfransda Dövlət Miqrasiya Xidmətinin rəisi Arzu Rəhimovun rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir.

Dünyanın 45 ölkəsinin və 8 beynəlxalq təşkilatın iştirak etdiyi konfransda qeyri-qanuni miqrasiyaya qarşı mübarizə, readmissiya, geri qayıtma və reinteqrasiya, qanuni miqrasiya, inteqrasiya, miqrasiya və inkişaf mövzularında məruzələr dinlənilmiş, geniş diskussiyalar aparılmışdır.

Konfrans çərçivəsində dövlət miqrasiya xidmətinin rəisi Arzu Rəhimov və Beynəlxalq Miqrasiya Təşkilatının Baş direktoru Vilyam Leysi Svinq, Niderland Krallığının ədliyyə naziri Nebahat Albayraq arasında ikitərəfli görüşlər keçirilmiş, miqrasiya proseslərinin tənzimlənməsi, ikitərəfli əlaqələrin inkişaf etdirilməsi və təcrübə mübadiləsi məsələləri müzakirə edilmişdir.

Aprelin 28-də konfrans iştirakçıları tərəfindən miqrasiya sahəsində əməkdaşlığa dair birgə Bəyannamə qəbul edilmişdir.

BAŞ NAZİR ESTONİYA VERGİ VƏ GÖMRÜK ŞURASININ BAŞ DİREKTORU QƏBUL ETMİŞDİR

Aprelin 28-də Azərbaycanın Baş naziri Artur Rasizadə Estoniya Vergi və Gömrük Şurasının baş direktoru Enriko Aavın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş nazir Azərbaycanın və Estoniyanın müxtəlif idarələri arasında əlaqələrin yaradılmasının vacibliyini vurğulayaraq ümidvar olduğunu bildirmişdir ki, Azərbaycan Vergilər Nazirliyi ilə Estoniya Vergilər və Gömrük Şurası arasında əməkdaşlıq haqqında bu gün imzalanan Memorandum ikitərəfli əlaqələrin genişlənməsinə kömək edəcəkdir.

Enriko Aavın azərbaycanlı həmkarları ilə Bakıda apardığı danışıqların nəticələrindən, Azərbaycan vergi sistemindəki yeniliklərin təqdimatından razı qaldığını bildirərək de-

mişdir ki, iki ölkənin vergi xidmətləri arasında təcrübə mübadiləsi barədə razılıq əldə edilmişdir.

DÖVLƏT GÖMRÜK KOMİTƏSİNDƏ GÜRCÜSTANLI HƏMKARLARLA GÖRÜŞ KEÇİRİLMİŞDİR

Aprelin 28-də Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Gürcüstan Gəlirlər Xidmətinin rəisi Qriqol Qobecişvili və Gömrük Nəzarəti Departamentinin rəhbəri Qiqa Xvinqiya ilə görüşmüşdür.

Görüşdə DGK-nın sədri Aydın Əliyev tarixi köklərə əsaslanan Azərbaycan-Gürcüstan əlaqələrinin hazırkı durumundan söhbət açmış, xalqımızın ümummilli lideri Heydər Əliyevin gərgin əməyi, uzaqgörən siyasəti nəticəsində iki qonşu, dost ölkə arasında əlaqələrin daha da möhkəmləndiyini və hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirmişdir.

Azərbaycanla Gürcüstan arasında sağlam təməllər üzərində qurulan münasibətlərin formalaşmasında hər iki ölkə prezidentlərinin yorulmaz fəaliyyətini xüsusi qeyd edən DGK sədri, regionda həyata keçirilən irimiqyaslı layihələrin - Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, eləcə də Bakı-Tbilisi-Qars dəmir yol xəttinin gerçəkləşməsini xalqlarımızın firavan gələcəyinə yönəldiyini, Azərbaycan-Gürcüstan əlaqələrinin daha da dərinləşməsinə bir töhfə olduğunu vurğulamışdır.

İqtisadi-ticari münasibətlərə toxunan Aydın Əliyev qeyd etmişdir ki, iki qonşu ölkə arasında ticarət dövriyyəsinin həcmi artan templə inkişaf edir və bu tempin davamlılığını təmin etmək üçün birgə səylərimizi daha da artırmalıyıq.

İki ölkənin gömrük xidmətləri arasında mövcud əməkdaşlığı müsbət qiymətləndirən DGK sədri A.Əliyev sərhəd-gömrük buraxılış məntəqələrində aparılan yenidənqurma işlərindən söhbət açmış, vətəndaşların rahat gediş-gəlişinə mane ola biləcək problemlərin yerindəcə həll edilməsinin zəruriliyini diqqətə çatdırmış, əlaqələrin daha da intensivləşdirilməsinin vacibliyinə toxunmuş, gələcək perspektivlərdən bəhs etmişdir.

Görüşdə Azərbaycandan qonşu ölkəyə gedən malların gələcəkdə üçüncü ölkəyə ötürülməsi cəhdlərinin qarşısının alınması məsələsinin vacibliyinə toxunulmuş, bu cür halların baş verməməsi üçün tədbirlərin görülməsi tövsiyə edilmişdir.

Səmimi qəbula görə təşəkkür edən Gürcüstan Gəlirlər Xidmətinin rəisi Qriqol Qobecişvili iki dost ölkə arasında əlaqələrin inkişaf dinamikasından məmnunluğunu ifadə etmişdir.

Hər iki ölkə prezidentlərinin səyi ilə həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadi potensialının xeyli gücləndiyini bildirən qonaq, gömrük xidmətləri arasında əlaqələrin inkişafından da razılıqla söhbət açmış, uyğun qurumlar arasında əməkdaşlığın genişləndirilməsinin zəruriliyini vurğulamışdır.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər barəsində ətraflı fikir mübadiləsi aparılmışdır.

BAKIDA GUAM TİCARƏT VƏ NƏQLETMƏYƏ YARDIM LAYİHƏSİNİN HƏYATA KEÇİRİLMƏSİ ÜZRƏ RƏHBƏR KOMİTƏNİN 10-CU İCLASI KEÇİRİLMİŞDİR

Aprelin 29-da "Crescent Beach" hotelində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Ticarət və nəqletməyə yardım layihəsinin həyata keçirilməsi üzrə Rəhbər Komitənin 10-cu iclası keçirilmişdir.

Tədbirin iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək, müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil və gül dəstələri qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər çiçəklər düzülmüşdür.

Sonra qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anmış, məzarları üzərinə güllər düzmüş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşlar.

Buradan Bakının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtda gedən quruculuq işləri barədə məlumat verilmişdir.

İclasa sədrlik edən Azərbaycan Dövlət Gömrük Komitəsi (DGK) sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev bildirmişdir ki, birgə səylər nəticəsində gömrük və sərhəd xidmətlərimiz arasında əlaqələr möhkəmlənmişdir. Əminəm ki, keçirilən bu tədbir də bizə təcrübə və informasiya mübadiləsi sahəsində, eləcə də gömrük prosedurlarının və sənədlərinin sadələşdirilməsi, ticarət əlaqələrinin inkişafı və malların daşınması istiqamətində geniş imkanlar açacaqdır.

Ə.Abdullayev dünyanı bürümüş qlobal iqtisadi-maliyyə böhranından müdafiə tədbirlərinin həyata keçirilməsinin vacibliyindən danışmış, bu istiqamətdə birgə səylərin əhəmiyyətini vurğulamışdır.

DGK Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Şahin Bağırov ekspertlərin bir gün əvvəl - aprelin 28-də keçirilmiş iclası barədə məlumat vermişdir.

Tədbirdə ticarət və nəqletməyə yardım layihəsinin həyata keçirilməsi üzrə görülmüş işlər barədə məlumat verilmiş, malların və nəqliyyat vasitələrinin sərhəd-keçid məntəqələrindən keçməsi prosedurunun sadələşdirilməsi məsələsi müzakirə edilmişdir. İclasda, həmçinin Azərbaycan tərəfdən təqdim edilmiş "GUAM təşkilatına üzv ölkələr arasında əqli mülkiyyət hüquqlarının qorunması müddəaları üzrə saziş" layihəsinin qəbul edilməsi məsələsi və Ukrayna tərəfdən hazırlanmış "Texniki yardım barədə" layihə də nəzərdən keçirilmişdir.

Bütün məsələlər üzrə müzakirələrdən sonra Ticarət və nəqletməyə yardım layihəsinin həyata keçirilməsi üzrə Rəhbər Komitənin 10-cu iclasının yekun protokolu imzalanmışdır.

BAKI DÖVLƏT UNİVERSİTET VƏ YUNİSEF ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

Bakı Dövlət Universiteti (BDU) ilə YUNİSEF-in Azərbaycandakı nümayəndəliyi arasında anlaşma memorandumu imzalanmışdır. Sənədi aprelin 28-də BDU-nun rektoru Abel Məhərrəmov və bu təşkilatın ölkəmizdəki nümayəndəliyinin rəhbəri Məhəmməd Bendris Alami imzalamışdır.

Bu münasibətlə keçirilən tədbirdə Abel Məhərrəmov rəhbərlik etdiyi ali məktəbin fəaliyyətindən, beynəlxalq əlaqələrindən danışmışdır.

Bildirilmişdir ki, sənədin əsas məqsədi BDU ilə YUNİSEF arasında Azərbaycanda sosial iş, yuvenal ədliyyə və uşaqların dostu jurnalistikası sistemlərinin inkişafını dəstəkləməkdir. Memorandum həmçinin müvafiq sahədə əməkdaşlığı, sosial iş strukturlarının inkişafının artırılmasını, ölkədə yuvenal ədliyyə islahatlarının dəstəklənməsini, eləcə də Uşaq Hüquqları Konvensiyasına, Azərbaycanda 2009-cu ilin "Uşaq ili" elan edilməsi ilə bağlı tədbirlər planı əsasında uşaq hüquqlarına dair tədris proqramının tətbiqini nəzərdə tutur.

M.B.Alami təmsil etdiyi qurumun həyata keçirdiyi layihələrdən, cəmiyyətin tərəqqisində universitetlərin rolundan söz açmış, BDU ilə əməkdaşlığın əhəmiyyətini vurğulamışdır.

AZƏRBAYCAN İLƏ AVROPA ŞURASI ARASINDA ƏMƏKDAŞLIĞIN İNKİŞAFI ÜÇÜN GENİŞ İMKANLAR VAR

Aprelin 29-da ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Avropa Şurası Baş katibinin Azərbaycandakı xüsusi nümayəndəsi xanım Veronika Kotek ilə görüşmüşdür.

Ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafı üzrə Avropa Şurası ilə birgə irimiqyaslı tədbirlərin həyata keçirildiyini vurğulayan nazir, hüquqi tədris sahəsində işləri qeyd etmiş, xüsusilə geniş dinləyici dairəsinə malik olan Ədliyyə Akademiyasının dövlətimizin başçısı tərəfindən yüksək statusunun müəyyən edildiyini bildirmişdir.

Avropa Şurasının Azərbaycanla əməkdaşlığının perspektivlərindən danışan xanım V.Kotek təmsil etdiyi qurumun ölkəmizlə qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsinə hazır olduğunu vurğulamış, Ədliyyə Nazirliyi ilə qurulmuş səmərəli və işgüzar əlaqələrdən böyük məmnunluğunu ifadə etmişdir.

Görüşdə əməkdaşlığa dair konkret təkliflər irəli sürülmüş, Ədliyyə Akademiyasının işinin təşkili, tədris prosesinin səmərəliliyinin artırılması, Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) ilə qarşılıqlı fəaliyyət və digər aktual məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN BAKI OFİSİNİN YENİ TƏYİN OLUNMUŞ RƏHBƏRİ BİLGE CANKORELİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də ATƏT-in Bakı ofisinin yeni təyin olunmuş rəhbəri Bilge Cankoreli qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ATƏT arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olundu, əməkdaşlığın müxtəlif istiqamətlərinə dair ATƏT-in Bakı ofisinin fəaliyyəti barədə fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı ATƏT-in Bakı ofisinin rəhbəri vəzifəsinə təyin olunması münasibətilə Bilge Cankoreli təbrik etdi və fəaliyyətində ona uğurlar arzuladı. Bilge Cankorel Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın inkişaf etdirilməsində səylərini əsirgəməyəcəyini bildirdi.

TÜRKİYƏNİN YENİ XARİCİ İŞLƏR NAZİRİ İLK GÖRÜŞÜNÜ AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ KEÇİRMİŞDİR

Türkiyənin yeni təyin olunmuş xarici işlər naziri Əhməd Davutoğlu ilk görüşünü Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimovla keçirmişdir.

Əhməd Davutoğlu və Araz Əzimov regional məsələlər və ikitərəfli əlaqələr, habelə mayın 8-də Praqada keçiriləcək enerji sammiti ilə bağlı fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCAN VƏ TÜRKİYƏ ÖZ MARAQLARINI BİRGƏ QORUMALIDIR

Azərbaycan və Türkiyə maraqlarının təminatı üçün birgə iş aparmalıdır. Bu sözləri mayın 5-də Azərbaycanın xarici işlər nazirinin müavini Araz Əzimov bildirmişdir.

Nazir müavini demişdir ki, Azərbaycan və Türkiyənin maraqları eynidir. Regionda təhlükəsizlik təmin olunmalı, Ermənistan qonşu ölkələrin ərazi bütövlüyünü tanımalı və silahlı qüvvələrini işğal olunmuş Azərbaycan torpaqlarından çıxarmalıdır.

Diplomat vurğulamışdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqlarda heç bir güzəştdən söhbət gedə bilməz. Azərbaycanın işğal olunmuş bütün əraziləri birmənalı şəkildə azad edilməlidir. Dağlıq Qarabağ Azərbaycanın tərkibində qalacaq və orada iki icmanın dinc yanaşı yaşaması üçün konkret model hazırlanacaqdır. Lakin bu məqsədə nail olmaq üçün müvafiq mərhələlərin keçməsi vacibdir. Əhali öz doğma torpaqlarına qayıtmalı, yollar açılmalı, əməkdaşlığa başlanılmalı, təhlükəsizlik təmin olunmalıdır. Əgər bu baş verməsə, regionla bağlı normal şəraitin yaradılması barədə danışıqlardan söhbət gedə bilməz.

Nazir müavini demişdir ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin təklif etdikləri baza prinsipləri üzrə müzakirələr davam edir.

A.Əzimov Türkiyəyə səfəri barədə məlumat verərək demişdir ki, səfər çərçivəsində qardaş ölkənin yeni xarici işlər naziri Əhməd Davudoğlu ilə görüşmüşdür. Görüşdə ikitərəfli münasibətlər, regional problemlər və təhlükəsizlik məsələləri müzakirə olunmuşdur. Müəyyən suallara cavab tapılmış, bəziləri dəqiqləşdirilməlidir. Lakin ən əsası odur ki, biz ölkələrimizin maraqlarının təmin olunması üçün Türkiyə ilə birgə iş aparmalıyıq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜDAFİƏ NAZİRİNİN AVROPA VƏ NATO SİYASƏTİ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ XANIM MERİ VARLİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də ABŞ müdafiə nazirinin Avropa və NATO siyasəti məsələləri üzrə müşaviri xanım Meri Varlikin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Xanım Meri Varlik Azərbaycan Dövlət Neft Akademiyasında çoxsaylı insanların həlak olması ilə nəticələnmiş faciəli hadisə ilə əlaqədar ABŞ Prezidenti Barak Obamanın başsağlığını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramına qoşulmasının 15 illiyi münasibətilə Bakıda keçirilən "NATO-Azərbaycan: keçmişi qiymətləndirərək gələcəyə baxış" mövzusuna həsr olunmuş beynəlxalq konfransda iştirak etmək üçün səfər etdiyini dedi. Xanım Meri Varlik İraqda və Əfqanıstanda aparılan sülhməramlı əməliyyatlara Azərbaycanın verdiyi töhfəyə görə ABŞ-ın minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı ABŞ Prezidentinin başsağlığına görə təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini vurğuladı. Azərbaycan-NATO əməkdaşlığına toxunan dövlətimizin başçısı bu əlaqələrin genişlənməsindən məmnunluğunu bildirdi.

BAKIDA "NATO-AZƏRBAYCAN: KEÇMİŞİ QİYMƏTLƏNDİRƏRƏK GƏLƏCƏYƏ BAXIŞ" ADLI BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR

Mayın 5-də Bakıda Azərbaycan-NATO Beynəlxalq Məktəbinin və Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə ölkəmizin NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramına qoşulmasının 15 illiyinə həsr olunmuş "NATO-Azərbaycan: keçmişi qiymətləndirərək gələcəyə baxış" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Azərbaycan ilə Şimali Atlantika bloku arasında siyasi dialoqun genişləndirilməsi prosesini davam etdirmək məqsədi daşıyan beynəlxalq konfransda Avratlantik məkanda təhlükəsizlik problemləri, 15 il ərzində Azərbaycan-NATO tərəfdaşlığının inkişafı məsələləri, Azərbaycanın NATO ilə əməkdaşlıq çərçivəsində əldə etdiyi nailiyyətlər müzakirə olunmuşdur.

Konfransda NATO-nun baş katibi Yaap de Hoop Sxefferin Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramına qoşulmasının 15 illiyi münasibətilə təbrik videomüraciəti göstərilmişdir. Azərbaycanın NATO ilə əməkdaşlıq sahəsində etibarlı tərəfdaş olduğunu vurğulayan baş katib bildirmişdir ki, Azərbaycan Avratlantik məkanda sülh və sabitliyin təmin olunmasında maraqlıdır.

Yaap de Hoop Sxeffer Azərbaycanın Əfqanıstanda həyata keçirilən İSAF proqramında iştirakını yüksək qiymətləndirərək bildirmişdir ki, NATO etibarlı tərəfdaş kimi Azərbaycan ilə regional təhlükəsizlik sahəsində əməkdaşlığı genişləndirmək niyyətindədir.

NATO-nun müxtəlif transformasiya mərhələlərini keçdiyini və Sovet İttifaqının süqutundan sonra qurum üçün yeni cranın başlandığını deyən Azərbaycan xarici işlər naziri-

nin müavini Araz Əzimov xatırlatmışdır ki, Şərqi Avropada yeni yaranmış dövlətlər və onların müstəqilliyi haqqında məsələlər 1991-ci il Roma Sammitində NATO-nun hazırladığı yeni Strateji Konsepsiyaya daxil edilmişdir. Nəticədə üç ildən sonra, 1994-cü ilin yanvarında Şimali Atlantika Şurasının Brüssel Sammitində NATO Avropa ərazisində stabilliyi və təhlükəsizliyi gücləndirmək məqsədilə bu ölkələrlə əməkdaşlıq üçün yeni təşəbbüslə çıxış etmişdir. NATO-nun tərəfdaş ölkələrlə uzun müddətli əməkdaşlığını nəzərdə tutan "Sülh naminə tərəfdaşlıq" (SNT) Proqramı fəaliyyətə başlamışdır.

Azərbaycan ilə NATO arasında əməkdaşlığın 15 ilinin tamam olduğunu vurğulayan A.Əzimov demişdir ki, bu tərəfdaşlıq münasibətlərinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən 1994-cü il mayın 4-də Şimali Atlantika blokunun mənzil qərargahında SNT Proqramının çərçivə sənədinin imzalanması ilə qoyulmuşdur. Azərbaycan bu proqrama ilk qoşulan dövlətlərdən biridir. NATO ilə əməkdaşlığın sonrakı mərhələsi "Fərdi tərəfdaşlığın əməliyyat planı"nın (FTƏP) icrası olmuşdur. Ölkəmizin SNT Proqramına qoşulmasından 10 il sonra - 2004-cü ilin mayında Prezident İlham Əliyev Azərbaycanın FTƏP Təqdimat Sənədini NATO-nun baş katibinə təqdim etmişdir. Bununla da, Azərbaycan ilə NATO münasibətlərində yeni mərhələ başlamışdır. Bu gün Azərbaycan-NATO əməkdaşlığının genişləndirilməsi istiqamətində işlər aparılır.

A.Əzimov bildirmişdir ki, Azərbaycan NATO ilə hərbi, müdafiə institutlarının qurulması, silahlı qüvvələrə demokratik nəzarət, təhlükəsizlik sahəsində islahatlar, siyasi məsləhətləşmələr, sülhə dəstək əməliyyatları, mülki-fövqəladə planlaşdırma, iqtisadi və ekoloji məsələlər də daxil olmaqla, müxtəlif sahələrdə əməkdaşlıq edir. Azərbaycanın NATO-ya üzvlük məsələsində ölkənin coğrafi mövqeyi və digər amillər mühüm rol oynayır. Azərbaycanın NATO ilə əməkdaşlığı nəticəsində ölkəmizin sərhədlərinə nəzarət, enerji təhlükəsizliyi, antiterror əməliyyatlarının keçirilməsində uğurlar əldə olunmuşdur.

Azərbaycanın NATO-nun SNT Proqramının müasirləşdirilməsinin tərəfdarı olduğunu deyən diplomat qeyd etmişdir ki, yeni risklər və təhlükələr ondan xəbər verir ki, bu gün proqram 1994-cü ildə olduğu kimi qala bilməz. Proqram çərçivəsində əməkdaşlığı genişləndirmək və digər regionlara çıxmaq lazımdır. Azərbaycan bu planda NATO və Şərq ölkələri arasında əlaqələndirici körpü ola bilər.

A.Əzimov, həmçinin NATO tərəfindən Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin dəstəklənməsini yüksək qiymətləndirmişdir.

Türkiyənin sabiq xarici işlər naziri, NATO-nun Əfqanıstandakı baş mülki zabiti Hikmət Çətin regionda təhlükəsizlik məsələlərindən danışaraq demişdir ki, Gürcüstandakı münaqişələr və Dağlıq Qarabağ problemi tezliklə həll olunmalıdır. Bu münaqişələrin həlli regionda sabitliyə və təhlükəsizliyə böyük töhfə verəcəkdir.

H.Çətin region ölkələrinin suverenliyinin və ərazi bütövlüyünün beynəlxalq birlik tərəfindən dəstəklənməsinin vacibliyini vurğulayaraq bildirmişdir ki, NATO mühüm enerji layihələrinin olduğu Cənubi Qafqazda sülh və təhlükəsizliyin təminatına diqqəti artırmalıdır.

ABŞ-ın Azərbaycanın NATO-ya inteqrasiyasını müsbət qiymətləndirdiyini vurğulayan Birləşmiş Ştatların müdafiə nazirinin Avropa və NATO siyasəti məsələləri üzrə müşa-

viri xanım Meri Varlik demişdir ki, Azərbaycanın Müdafiə Nazirliyi Strateji Müdafiə İcmalının hazırlanmasına başlamışdır. Hesab edirik ki, bu proses sürətləndirilməlidir.

ABŞ-ın Strateji Müdafiə İcmalının hazırlanmasında Azərbaycana kömək etdiyini qeyd edən M.Varlik sənəddə hərbi büdcə, hərbi resursların istifadəsi, NATO standartlarının tətbiqi və digər məsələlərin öz əksini tapacağını bildirmişdir.

Rəsmi Bakının NATO-nun fəal tərəfdaşı kimi hərbi-siyasi sahədə islahatlar keçirdiyini, sərhəd təhlükəsizliyində pilot ölkə olduğunu deyən Rumıniyanın ölkəmizdəki səfiri Nikolaye Ureke bildirmişdir ki, Azərbaycan qurumla əlaqələri genişləndirir, hərbi sahəni NATO standartlarına uyğunlaşdırmaq istiqamətində islahatlar aparır. Azərbaycan əsgərləri dünyadakı münaqişə bölgələrində sülhün təmin olunmasına töhfə verir.

Əlaqələndirici dövlət olaraq Rumıniyanın Azərbaycanın Avratlantik məkana inteqrasiyasını dəstəkləyəcəyini vurğulayan səfir qeyd etmişdir ki, bu əməkdaşlıq NATO-nun Elm Proqramı çərçivəsində ərzaq və su təhlükəsizliyi proqramları ilə yanaşı, Bakı və Gəncədəki Avratlantik mərkəzlərlə sıx əlaqələrin qurulması istiqamətində olacaqdır.

Konfransda iştirak edən Azərbaycan və NATO-nun, həmçinin Şimali Atlantika blokunun üzvü olan dövlətlərin rəsmiləri, elm xadimləri vurğulamışlar ki, alyans Azərbaycanın NATO əməliyyatlarına töhfəsini yüksək qiymətləndirir. Bildirilmişdir ki, SNT Proqramı çərçivəsində əməkdaşlığın genişləndirilməsi üçün yeni sahələrin müəyyənləşdirilməsinə ehtiyac vardır.

NATO-nun Elm Proqramı çərçivəsində əməkdaşlıqda Azərbaycan qurumun ikinci tərəfdaşına çevrilmişdir və region ölkələrini qabaqlamışdır. Azərbaycanın NATO ilə əlaqələri təhlükəsizliyi və demokratik dəyərləri gücləndirməklə yanaşı, siyasi və hərbi təkmilləşdirmə və islahatlar prosesinə dəstək verir.

Qeyd olunmuşdur ki, NATO-nun FTƏP çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin və milli təhlükəsizlik strukturlarının müasirləşdirilməsinə dair öz üzərinə öhdəliklər götürmüşdür. Belə islahatlar Azərbaycan Silahlı Qüvvələrinə NATO-nun əməliyyatlarına inteqrasiya etmək üçün imkan yaradacaqdır. Bu islahatlar digər demokratik dövlətlərdə olduğu kimi, Azərbaycan Silahlı Qüvvələrinin mülki siyasi istiqamətinə uyğun olan konstruktiv rol oynaya bilər. Azərbaycanın bu istiqamətdə irəliləyişinin əyani nümunəsi ölkənin Milli Təhlükəsizlik Konsepsiyasının hazırlanması və hökumətin hərbi doktrinanın üzərində işləməsi olmuşdur.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ABŞ-A SƏFƏRİ

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mayın 4-5-də Vaşinqtonda işgüzar səfərdə olmuşdur.

Səfər çərçivəsində E.Məmmədyarov ABŞ-ın dövlət katibi Hillari Klinton, Ağ Evin milli təhlükəsizlik müşaviri Ceyms Cons, Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Moninqstarla ikitərəfli görüşlər keçirmiş, eləcə də Vaşinqtonda Avrasiya regionu ilə məşğul olan tədqiqat mərkəzlərinin təmsilçiləri ilə fikir mübadiləsi aparmışdır.

Görüşlərdə ABŞ-Azərbaycan ikitərəfli strateji əməkdaşlığı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamasalınması və bu işə ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi ABŞ-ın töhfəsi, həmçinin Avrasiyanın enerji infrastrukturu və Azərbaycanın terrora qarşı qlobal mübarizədə rolu diqqət mərkəzində olmuşdur.

Azərbaycan xarici işlər naziri ilə görüşdən əvvəl jurnalistlər qarşısında çıxış edən ABŞ-ın dövlət katibi Hillari Klinton vurğulamışdır ki, ölkələrimiz arasında bir sıra mühüm məsələlər üzrə çox yaxın münasibətlər qurulmuşdur. Elmar Məmmədyarov ilə bugünkü müzakirələrimiz bu münasibətləri genişləndirmək və dərinləşdirmək üçün yollar axtarmağa imkan verəcəkdir. Xanım Klinton qeyd etmişdir ki, Azərbaycanın çox vacib strateji məkanda yerləşməsi regional və qlobal mənada əhəmiyyətlidir. Ona görə də, ölkəmiz bölgəni maraqlandıran vacib məsələlərdə artan məsuliyyəti və liderliyi üzərinə götürməyə qadirdir.

Elmar Məmmədyarov isə amerikalı həmkarı ilə görüşün ABŞ-Azərbaycan strateji əməkdaşlığını irəliyə aparacağına əminliyini ifadə etmişdir.

AZƏRBAYCAN AUDİTORLAR PALATASI İLƏ RUMINİYA MALİYYƏ AUDİTORLARI PALATASI ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

Mayın 5-də Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Rumıniya Maliyyə Auditorları Palatası arasında Anlaşma Memorandumu imzalanmışdır.

Azərbaycan Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzov qonaqlara ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən islahatlar, sahibkarlığın inkişafı istiqamətində görülən tədbirlər, son illər qazanılmış nailiyyətlər haqqında ətraflı məlumat vermişdir. Bildirmişdir ki, son beş ildə ümumi daxili məhsul istehsalı (ÜDM) 2,7 dəfə artmış, ölkədə 750 mindən çox yeni iş yeri açılmış, yoxsulluğun səviyyəsi isə 49 faizdən 13 faizə enmişdir. Azərbaycanın dünyanı bürümüş maliyyə və iqtisadi böhrana ən az məruz qalmış ölkələrdən biri olduğu, bu ilin birinci rübünün yekunlarına görə ÜDM istehsalının 4 faizdən çox, o cümlədən qeyri-neft sektoru üzrə 14 faiz artdığı diqqətə çatdırılmışdır.

Dost ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinə toxunan V.Novruzov, Rumıniyanın XX əsrin sonlarında Azərbaycanın müstəqilliyini tanıyan ikinci dövlət olduğunu, ümummilli lider Heydər Əliyevin 1995-ci ildə bu ölkəyə rəsmi səfərindən sonra əlaqələrimizin dinamik inkişaf etdiyini söyləmişdir.

Prezident İlham Əliyevin bazar infrastrukturunun çox mühüm sahəsi kimi auditə verdiyi böyük əhəmiyyəti və dövlətimizin başçısının bu sahəyə göstərdiyi gündəlik qayğını diqqətə çatdıran V.Novruzov, hazırda Azərbaycanda auditin mükəmməl qanunvericilik bazası əsasında inkişafını vurğulamışdır.

Məlumat verilmişdir ki, imzalanacaq sənəddə işçilərin ixtisasartırma proqramlarında iştirak etməsinə qarşılıqlı yardım etmək, bir-birinin təcrübəsinin öyrənilməsi, peşə üçün vacib olan müxtəlif məsələlərlə bağlı məsləhətləşmələr aparmaq, milli və beynəlxalq səviyyəli tədbirlərdə (seminarlar, konfranslar və s.) iştirak etmək və digər məsələlər əksini tapmışdır. Audit sahəsində Rumıniya təcrübəsinin öyrənilməsinin vacibliyi vurğulanmışdır.

Rumıniya Maliyyə Auditorları Palatasının prezidenti, professor İon Mihailesku qurumun vəzifələri və fəaliyyətinin əsas istiqamətləri barədə, imzalanan müqavilənin əhəmiyyəti haqqında danışmışdır. Bildirmişdir ki, ötən ilin noyabrında keçirilmiş iclasda həm Azərbaycan, həm də Rumıniya auditorlar qurumu eyni vaxtda Beynəlxalq Mühasiblər Federasiyasının tamhüquqlu üzvü qəbul edilmişlər. Həmin tədbirdə əməkdaşlıq haqqında sazişin imzalanması barədə razılığa gəlindiyi, sənəd üzərində üç aya yaxın iş aparıldığı bildirilmişdir.

Anlaşma Memorandumunu Azərbaycan tərəfdən Auditorlar Palatasının sədri Vahid Novruzov, Rumıniya tərəfdən isə Maliyyə Auditorları Palatasının prezidenti İon Mihailesku imzalamışlar.

Mərasimdən əvvəl Rumıniya nümayəndə heyəti Fəxri xiyabana gələrək, ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoymuş, xatirəsini ehtiramla yad etmişlər.

Qonaqlar görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də gül düzmüşlər.

Sonra nümayəndə heyəti Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anmış, məzarları üzərinə tər çiçəklər düzmüşlər.

BELARUS-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN BEŞİNCİ İCLASI KEÇİRİLMİŞDİR

Mayın 6-da Minskdə Azərbaycan və Belarus arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın beşinci iclası keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Belarusun Baş nazirinin müavini Andrey Kobyakov ölkələrimiz arasında yüksək səviyyədə siyasi dialoqun qurulduğunu söyləmişdir. O demişdir ki, iki ölkə arasında ikitərəfli ticari-iqtisadi əlaqələr dinamik inkişaf edir. Son beş ildə qarşılıqlı ticarət dövriyyəsi 7 dəfədən çox artaraq 2008-ci ildə 100 milyon dollardan çox olmuşdur. Cari ilin ilk rübündə ölkələrimiz arasında ticarət dövriyyəsi 32 faiz artaraq 33,5 milyon dollar təşkil etmişdir.

Andrey Kobyakov qeyd etmişdir ki, "Belarus" traktorlarının və "MAZ" yük avtomobillərinin Gəncə avtomobil zavodunda yığılmasına başlanılmışdır. Bu sahədə daha irəli gedərək "Belarus" traktorlarının istehsalı üzrə birgə şirkət yaradılması, texnikanın digər ölkələrin bazarlarına çıxarılması planlaşdırılır. Azərbaycanda yaxın gələcəkdə avtokranların, liftlərin, kommunal texnikasının yığılmasını da təşkil edəcəyik.

Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov isə Azərbaycan iqtisadiyyatının xüsusi model üzərində qurulduğunu bildirmişdir. O demişdir ki, ölkəmizdə qeyri-neft sektorunun inkişafı dövlətin əsas prioritetlərindən biridir.

Belarusun Azərbaycanın strateji tərəfdaşı olduğunu vurğulayan Yaqub Eyyubov, son zamanlar Azərbaycan iqtisadiyyatının əldə etdiyi uğurlar barədə məlumat verərək bildirmişdir ki, bütün dünyada hökm sürən maliyyə böhranına baxmayaraq böyük iqtisadi potensiala malik ölkəmizin iqtisadiyyatı sürətlə inkişaf edir. Biz Belarusla iqtisadi sahə-

də əməkdaşlığı genişləndirmək niyyətindəyik. Əgər 2003-cü ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 10 milyon dollar təşkil edirdisə, bu rəqəm beş ildə 10 dəfə artmışdır. Azərbaycan regionda lider ölkədir. Bu ilin ilk rübündə Azərbaycanda ümumi daxili məhsul istehsalı 4,1 faiz, qeyri-neft sektorunun inkişafı isə 14 faiz artmışdır. Neftin qiymətinin ucuzlaşmasına baxmayaraq, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Azərbaycan ilə Belarusun qarşılıqlı əlaqələrinin inkişafında ölkələrimizin prezidentləri arasında möhkəm dostluq münasibətlərinin böyük rolu da vardır.

Belarus-Azərbaycan hökumətlərarası komissiyanın beşinci iclası hər iki ölkə arasında ticari-iqtisadi əməkdaşlıq haqqında protokolun imzalanması ilə başa çatmışdır. Sənədi Azərbaycan tərəfdən Yaqub Eyyubov, Belarus tərəfdən Andrey Kobyakov imzalamışlar.

Sonda Yaqub Eyyubov və Andrey Kobyakov jurnalistlərin suallarını cavablandırmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇEXİYA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Çexiya Respublikasına işgüzar səfərə gəlmişdir.

Dövlətimizin başçısını Praqa şəhərinin "Ruzıne" hava limanında Çexiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.

Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUSUN GÖRÜŞÜ

Praqada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Çexiya Respublikasının Prezidenti Vatslav Klaus ilə görüşmüşdür.

Prezident sarayının qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Çexiya Prezidenti Vatslav Klaus Azərbaycan Prezidenti İlham Əliyevi səmimiyyətlə qarşıladı.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

Ölkələrimizin siyasi əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayan Çexiya Prezidenti, bu görüşün ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivi barədə fikir mübadiləsi aparılmasına yaxşı imkanlar yaratdığını qeyd etdi.

Çexiyanın dövlət başçısı Azərbaycanda və regionda gedən siyasi, iqtisadi proseslərin ölkəsində yaxından izlənildiyini dedi.

Çexiyanın Azərbaycanda səfirliyini açmağı planlaşdırdığını diqqətə çatdıran Vatslav Klaus bildirdi ki, bu, əlaqələrin genişləndirilməsinə kömək edəcəkdir.

Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin son illərdə uğurla inkişaf etdiyini vurğuladı.

Dövlətimizin başçısı ölkəmizdə gedən iqtisadi inkişaf prosesi haqqında danışdı.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin uğurla inkişaf etdiyini və genişləndiyini bildirdi, respublikamızın Avropanın enerji təhlükəsizliyində yaxından iştirak etdiyini vurğuladı.

Ermənistanın Azərbaycana davam edən təcavüzü barədə ətraflı məlumat verən Prezident İlham Əliyev bunun regionda sülhə və sabitliyə ciddi maneə olduğunu dedi.

Dövlət başçıları ölkələrimiz arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSRAİLİN BAŞ NAZİRİNİN MÜAVİNİ VƏ XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMAN İLƏ GÖRÜŞÜ

Çexiyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Praqada İsrail Dövləti Baş nazirinin müavini və xarici işlər naziri Aviqdor Liberman ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq əlaqələri müzakirə edildi, beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ

Mayın 7-də Praqada, ABŞ səfirliyinin iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.

Hər iki ölkənin xarici işlər nazirlərinin və ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ YAN PETER BALKENENDE İLƏ GÖRÜŞÜ

Mayın 7-də Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Niderland Krallığının Baş naziri Yan Peter Balkenende ilə görüşmüşdür.

Görüşdə Baş nazir Yan Peter Balkenende Azərbaycanın çox əlverişli geosiyasi məkanda yerləşdiyini və iqtisadi əməkdaşlıq üçün böyük potensiala malik olduğunu vurğuladı. O, Niderlandın, eləcə də bu ölkənin şirkətlərinin Azərbaycan ilə ikitərəfli əməkdaşlığı genişləndirməkdə maraqlı olduqlarını bildirdi.

Azərbaycanın da Niderland Krallığı ilə ikitərəfli əlaqələri genişləndirmək istədiyini qeyd edən Prezident İlham Əliyev dedi ki, ölkəmiz bütün sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin inkişafında maraqlıdır.

Dövlətimizin başçısı Azərbaycanda iqtisadi fəaliyyətə başlamaq istəyən Niderland şirkətlərinə dövlət tərəfindən lazımi dəstəyin veriləcəyini bildirdi.

Sonra görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

Mayın 7-də Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün görüşü olmuşdur.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, Türkiyə ilə Ermənistan arasında aparılan danışıqlar və enerji məsələləri ilə bağlı müzakirələr aparıldı.

AVROPA İTTİFAQININ "ŞƏRQ TƏRƏFDAŞLIĞI" SAMMİTİ KEÇİRİLMİŞDİR AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SAMMİTDƏ İŞTİRAK ETMİŞDİR

Mayın 7-də Praqada Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Sammiti keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak etmişdir.

Avropa İttifaqı ölkələrinin, eləcə də "Şərq tərəfdaşlığı" təşəbbüsünün üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iştirak etdiyi Sammiti giriş sözü ilə hazırda Avropa İttifaqına sədrlik edən Çexiyanın Baş naziri Mirek Topolanek açaraq qonaqları salamladı, "Şərq tərəfdaşlığı" proqramının əhəmiyyətini xüsusi vurğuladı.

Azərbaycan Prezidenti İlham Əliyev Sammitdə çıxış etdi.

"Şərq tərəfdaşlığı" Sammitinin əhəmiyyətini qeyd edən dövlətimizin başçısı bu proqramın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin daha da yaxınlaşmasına və genişlənməsinə təkan verəcəyini dedi.

Ölkəmizin siyasi, iqtisadi və digər sahələrdə inkişafını, aparılan demokratik islahatları qeyd edən dövlətimizin başçısı dedi ki, bu islahatlar Azərbaycanın Avropa ailəsinə daha da yaxınlaşmasına kömək edəcəkdir. Azərbaycanın Avropa üçün çox önəmli tərəfdaş olduğunu bildirən Prezident İlham Əliyev ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynadığını diqqətə çatdırdı. Dövlətimizin başçısı dedi ki, bu sahədə əməkdaşlığımız yüksək səviyyədədir, Azərbaycan Avropa İttifaqı ilə qeyri-enerji sahələrində əlaqələrinin daha da genişləndirilməsində maraqlıdır.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana davam edən təcavüzü barədə də məlumat verdi.

Sammitdə Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramı qəbul edildi.

Sammitin iştirakçıları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN BAŞ NAZİRİ FRANSUA FİYON İLƏ GÖRÜŞÜ

Mayın 7-də Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın Baş naziri Fransua Fiyon ilə görüşmüşdür.

Görüşdə Azərbaycan-Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə olundu, ölkələrimiz arasında ikitərəfli münasibətlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar, regional və digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN XARİCİ İŞLƏR NAZİRİ DEVİD MİLİBEND İLƏ GÖRÜŞÜ

Mayın 7-də Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniyanın xarici işlər naziri Devid Milibend ilə görüşmüşdür.

Görüşdə Devid Milibend Böyük Britaniya Baş nazirinin salamını Azərbaycan Prezidentinə çatdırdı, ölkələrimiz arasında ikitərəfli əlaqələrin, o cümlədən siyasi, iqtisadi əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı.

Devid Milibend Böyük Britaniyanın Baş nazirinin Azərbaycan Prezidenti İlham Əliyevi bu ölkəyə səfərə dəvətini çatdırdı.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar, regional, beynəlxalq və enerji məsələləri barədə fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Böyük Britaniyanın Baş nazirinin dəvətinə görə minnətdarlığını bildirdi, onun da salamını Baş nazirə çatdırmağı xahiş etdi və səfərə dəvəti qəbul etdiyini vurğuladı.

PRAQADA "CƏNUB DƏHLİZİ - YENİ İPƏK YOLU" SAMMİTİ KEÇİRİLMİŞDİR

Mayın 8-də Praqada "Cənub dəhlizi - Yeni İpək yolu" sammiti keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak etmişdir.

Türkiyə Prezidenti Abdullah Gül, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Avropa Komissiyasının sədri Joze Manuel Barrozu, Avropa İttifaqı Nazirlər Şurasının baş katibi, ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana, Avropa Komissiyasının energetika məsələləri üzrə komissarı Andris Piebalqs, ABŞ-ın, Ukraynanın və digər ölkələrin, beynəlxalq iqtisadi və maliyyə qurumlarının nümayəndələri sammitdə iştirak etmişlər.

Hazırda Avropa İttifaqına sədrlik edən Çexiyanın Baş naziri Mirek Topolanek Azərbaycan Prezidenti İlham Əliyevi və sammitdə iştirak edən digər dövlət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladı.

M.Topolanek sammiti giriş sözü ilə açaraq qonaqları salamladı.

Enerji məsələlərinin hazırda ən aktual problemlərdən biri olduğunu vurğulayan Çexiyanın Baş naziri, bu baxımdan "Cənub dəhlizi - Yeni İpək yolu" sammitinin əhəmiyyətini xüsusi qeyd etdi, ümidvar olduğunu bildirdi ki, tədbirin nəticələri səmərəli olacaqdır.

Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Avropanın enerji təhlükəsizliyinin təminatı məsələlərindən danışdı.

Azərbaycan Prezidenti İlham Əliyev sammitdə çıxış etdi.

Dövlətimizin başçısı ölkəmizin böyük enerji potensialı, zəngin neft-qaz yataqları, geniş ixracat imkanları barədə danışdı, 1990-cı illərin ortalarında Azərbaycanın təşəbbüsü və iştirakı ilə qlobal enerji layihələrinin, neft boru kəmərlərinin, sonra isə qaz kəmərlərinin inşasının uzaqgörən bir strategiya olduğunu bildirdi.

Prezident İlham Əliyev dedi ki, bu layihələr hazırda enerji sahəsində regional və beynəlxalq səviyyədə geniş əməkdaşlıq üçün böyük imkanlar yaradır.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində rolundan danışan dövlətimizin başçısı dedi ki, bu rol getdikcə artır, ölkəmiz özünün neft və qazının nəqlində çoxşaxəliliyə böyük diqqət yetirir. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycandan müxtəlif istiqamətlərə neft-qaz kəmərlərinin fəaliyyət göstərməsi çoxşaxəliliyin təmin olunmasına töhfədir.

Azərbaycan Prezidenti sabitliyin, siyasi dəstəyin, iqtisadi imkanların, maliyyə əsaslarının mövcudluğunun və digər amillərin enerji sahəsində əməkdaşlıq üçün əsas olduğunu vurğuladı.

Prezident İlham Əliyev "Cənub dəhlizi – Yeni İpək yolu" sammitinin əhəmiyyətini qeyd etdi.

Nümayəndə heyətlərinin rəhbərlərinin də çıxışları oldu. Sammitdə bəyannamə qəbul edildi.

Tədbirin iştirakçıları birgə foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTAR İLƏ GÖRÜŞÜ

Praqada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 8-də ABŞ-ın Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstar ilə görüşmüşdür.

Görüşdə "Cənub dəhlizi - Yeni İpək yolu" sammitinin əhəmiyyəti qeyd olundu.

Bildirildi ki, Azərbaycan ilə ABŞ arasında energetika sahəsində həyata keçirilən uğurlu əməkdaşlıq, eyni zamanda, regional səviyyədə də enerji əməkdaşlığının genişlənməsinə xidmət edir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında əlaqələrin daha da genişlənəcəyinə əminlik ifadə olundu.

SƏFƏR BAŞA ÇATDI

Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çexiya Respublikasına işgüzar səfəri başa çatmışdır.

Praqa şəhərinin "Ruzıne" hava limanında Prezident İlham Əliyevi Çexiya Respublikasının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BİRGƏ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR

Mayın 7-də Praqada Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşündən sonra ATƏT-in Minsk qrupunun həmsədrləri mətbuat konfransı keçirmişlər. Həmsədrlər əvvəlcə bəyanatla çıxış etmişlər.

MƏTYU BRAYZƏ: Hər vaxtınız xeyir olsun, dostlar. Buraya gəldiyinizə görə təşəkkür edirəm. Mən sizi həmkarlarım adından ABŞ-ın Praqadakı səfirliyinin iqamətgahında salamlayıram. Məmnunluqla deyə bilərəm ki, Prezident İlham Əliyev və Prezident Serj Sarkisyan arasında danışıqlar konstrukiv oldu. Düşünürəm ki, onlar əsas prinsiplər çərçivəsində fərqləri azalda biliblər. Ümumilikdə isə, onlar burada müzakirə etdikləri əsas ideyalara dair razılığa gələ biliblər. Ümumiləşdirməyə çalışdığımız əsas prinsiplərə dair xüsusi ideya və elementlərimiz oldu. Həmin ideyalar əsasında prezidentlər ümumi yanaşmaya dair də razılığa gəliblər. Beləliklə, hər iki prezident tərəfindən tapşırıldığı kimi, indi xarici işlər nazirləri ilə birgə fəal çalışmaqla detallar üzərində işləmək və bu gün yenidən müzakirə olunan müddəaları tamamlamaq biz həmsədrlərin üzərinə düşür. Bu, müsbət əlamətdir. Əsas prinsiplər çərçivəsində qalan digər müddəalara dair detalları tamamlamaq üçün biz yaxın günlərdə və həftələrdə yenidən xarici işlər nazirləri ilə birgə işləməyi planlaşdırırıq. Bu qədər. Əlavə şərhlər üçün sözü həmkarlarıma verirəm. Çox sağ olun.

YURİ MERZLYAKOV: Çox sağ olun. Mən belə düşünürəm ki, cənab Brayzənin dediklərinə praktiki olaraq nəsə əlavə etməyə lüzum yoxdur. Bir fikri əlavə edirəm ki, növbəti görüşün iyunun əvvəlində Sankt-Peterburqda keçiriləcəyinə dair prinsipial razılaşma əldə olunub. Biz çalışacağıq ki, o vaxta qədər bu görüşü təşkil edək. O vaxta qədər isə həmkarım cənab Brayzənin dediyi kimi, xarici işlər nazirləri ilə bizim görüşlərimiz keçiriləcək və Sankt-Peterburqdakı görüşə hazırlıq məqsədi ilə yəqin ki, həmsədrlərin regiona səfəri olacaqdır. Sağ olun.

BERNAR FASYE: Amerikadan və Rusiyadan olan həmkarlarımın dediyi kimi, yaxın günlər və həftələr ərzində bizi böyük işlər gözləyir. Rusiyalı həmkarımın da dediyi kimi, bu gün biz hər iki dövlət başçısından eşitdiklərimiz əsasında iyunun əvvəllərində prezidentlərin Sankt-Peterburqda növbəti görüşünün keçirilməsinə dair iki ölkə rəhbərinə niyyətimizi açıqladıq. Üzümüzə gələn həftələr və aylar ərzində bir sıra irəliləyişləri təsdiq etmək üçün bizim bəzi gözləntilərimiz vardır. Bildiyiniz kimi, biz münaqişənin həllində əsaslı irəliləyişə hazırlaşırıq. Biz əsaslı irəliləyişin nədən ibarət ola biləcəyini müəyyən etmək mövqeyindəyik. Lakin biz hələlik bu nöqtəyə gəlib çatmamışıq. Beləliklə, bizə irəliləmək lazımdır və növbəti həftələrdə ona nail olmaq ümidindəyik. Sağ olun.

Sonra həmsədrlər jurnalistlərin suallarını cavablandırdılar.

YUNANISTAN PARLAMENTİNİN NÜMAYƏNDƏLƏRİ AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA OLMUŞLAR

Azərbaycanda səfərdə olan Yunanıstan-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Konstatinos Tsiarasın başçılıq etdiyi nümayəndə heyəti mayın 7-də

Azərbaycan Diplomatik Akademiyasında (ADA) olmuş, xarici işlər nazirinin müavini Xələf Xələfovla görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Yunanıstan arasındakı münasibətlər müzakirə edilmişdir. K.Tsiaras hazırda Azərbaycan-Yunanıstan əlaqələrinin yeni inkişaf mərhələsində olduğunu vurğulayaraq bildirmişdir ki, hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri ikitərəfli münasibətlərin genişlənməsinə mühüm təkan vermişdir. Xüsusilə də Prezident İlham Əliyevin Yunanıstana səfəri çərçivəsində keçirdiyi görüşlərdə bir daha aydın olmuşdur ki, rəsmi Afina Azərbaycan ilə daha sıx əlaqələri qurmaqda maraqlıdır.

Yunanıstanın Azərbaycan ilə əməkdaşlığı əsasən enerji sahəsində ola biləcəyini deyən K.Tsiaras Prezident İlham Əliyevin Yunanıstana səfəri çərçivəsində bu məsələnin müzakirə olunduğunu xatırlatmışdır.

Tərəflər əməkdaşlığın inkişafı üçün həm iqtisadi, həm də siyasi əlaqələrin artırılmasının vacibliyini vurğulamışlar.

Görüşdə yunanıstanlı tələbələrin gələcəkdə ADA-da təhsil almaları barədə fikir mübadiləsi aparılmışdır. Yunanıstan ilə Azərbaycan arasındakı mövcud əlaqələr və inkişaf perspektivləri haqqında məruzələr dinlənilmişdir.

Sonda ADA-nın 2011-ci ildə istifadəyə veriləcək tədris korpusunun layihəsini əks etdirən videolent nümayiş olunmuşdur.

BAKI DÖVLƏT UNİVERSİTETİ İLƏ KOREYA POLİTEXNİK UNİVERSİTETİ ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

Koreya Politexnik Universitetinin rektoru Çoy Cun Yeongin başçılıq etdiyi nümayəndə heyəti Bakı Dövlət Universitetində (BDU) olmuşdur.

Görüşdə BDU-nun rektoru, Milli Məclisin deputatı, akademik Abel Məhərrəmov Azərbaycan ilə Koreya Respublikası arasındakı əlaqələrin, o cümlədən təhsil sahəsindəki əməkdaşlığın əhəmiyyətindən danışmışdır.

Bakı Dövlət Universitetinin fəaliyyəti, beynəlxalq əlaqələri barədə məlumat verən akademik A.Məhərrəmov bu ali məktəbdə təhsilin inkişafı üçün həyata keçirilən tədbirləri diqqətə çatdırmışdır. O, eyni zamanda, BDU-da Koreya dilinin tədris olunduğunu, bu dil üzrə mütəxəssislər hazırlandığını bildirmişdir.

Koreya Politexnik Universitetinin rektoru Çoy Cun Yeong müasir şəraitdə elmin, təhsilin önəmli rolunu xatırladaraq, ölkələrimiz arasında bu sahələrdə əməkdaşlığın genişlənəcəyinə əminliyini vurğulamışdır.

Təhsilin inkişafı ilə bağlı yeni təkliflər, layihələr üzrə geniş müzakirələr aparılmışdır.

Sonra əməkdaşlıq barədə Anlaşma Memorandumu imzalanmışdır. Sənədi akademik A.Məhərrəmov və Ç.C.Yeong imzalamışlar.

Anlaşma Memorandumu müvafiq təhsil müəssisələri arasında birgə təcrübə mübadiləsinin aparılmasını, proqram və layihələrin həyata keçirilməsini və s. əhatə etmişdir.

AZƏRBAYCAN MİQRASİYA SAHƏSİNDƏ UĞURLAR ƏLDƏ ETMİŞDİR

Mayın 8-də Dövlət Miqrasiya Xidmətinin (DMX) rəisi Arzu Rəhimov Azərbaycanda səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) miqrasiya, qaçqınlar və əhali üzrə məruzəçisi Con Qrinvey ilə görüşmüşdür.

Con Qrinvey demişdir ki, qaçqın və məcburi köçkün vəziyyətində yaşayan insanların problemlərini, istəklərini öyrənməyin ən yaxşı yolu onlarla görüşməkdir. Səfər çərçivəsində Bakıda müvəqqəti məskunlaşmış, eyni zamanda bu yaxınlarda yeni qəsəbələrə köçürülmüş və köçürülməsi gözlənilən əhali ilə görüşdük. Gəldiyimiz nəticə odur ki, Azərbaycan tərəfindən miqrasiya sahəsində irəliləyişlər əldə edilmişdir. Bu, hesabatımızda öz əksini tapacaqdır. Görüşlərdə məcburi köçkünlər burada müvəqqəti qaldığını və öz torpaqlarına qayıtmaq istəyini bildirdilər. Biz məsələ ilə bağlı digər görüşlər də keçirdik.

AŞPA-nın məruzəçisi diqqətə çatdırmışdır ki, təmsil etdiyi qurum cari ilin iyununda Avropada uzun müddət qaçqın və məcburi köçkün vəziyyətində yaşayan əhalinin problemlərinin davamlı həlli yollarının tapılmasına dair debatlar keçirəcəkdir.

DMX-nin rəisi Arzu Rəhimov Azərbaycanda aparılan uğurlu siyasi və iqtisadi islahatlar nəticəsində yaşayış səviyyəsinin yüksəldiyini və bütün sahələrdə müşahidə olunan sürətli inkişafla əlaqədar ölkəmizə gələn əcnəbilərin sayının ilbəil artdığını qeyd etmişdir.

A.Rəhimov bildirmişdir ki, miqrasiya proseslərinin tənzimlənməsi, ölkəmizin miqrasiya siyasətinin formalaşdırılması, ümumiyyətlə, miqrasiya proseslərinə nəzarətin təmin edilməsi məqsədi ilə 2007-ci il martın 19-da Azərbaycan Prezidentinin müvafiq Fərmanı əsasında Dövlət Miqrasiya Xidməti yaradılmış və qarşıya ciddi vəzifələr qoyulmuşdur. Xidmətdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti yaşama müddətinin artırılması, qaçqın statusunun müəyyən edilməsi ilə bağlı qərarlar qəbul edilir, onların müvəqqəti və ya daimi yaşamasına icazə verilməsi məsələlərinə baxılır.

Xidmətdə "bir pəncərə" prinsipinin tətbiqi ilə bağlı ətraflı məlumat verən DMX rəisi vurğulamışdır ki, Prezident İlham Əliyevin miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında Fərmanı Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində qanuni əsaslarla yaşaması və əmək fəaliyyəti ilə məşğul olması üçün müvafiq icazələrin verilməsi, onların yaşayış yeri üzrə qeydiyyata alınması prosedurlarının sadələşdirilməsinə, aidiyyəti dövlət qurumlarının işində şəffaflığın təmin olunmasına xidmət edəcəkdir. "Bir pəncərə" prinsipi 2009-cu il iyulun 1-dən DMX-də tətbiq ediləcəkdir.

A.Rəhimov diqqətə çatdırmışdır ki, miqrasiya sahəsində xarici ölkələrin təcrübəsinin öyrənilməsi üçün bir sıra ölkələrin müvafiq qurumları ilə ikitərəfli əlaqələr yaradılmışdır.

Görüşdə miqrasiya sahəsindəki digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ TƏLƏBƏLƏRİ VƏ QONAQLARI HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü ilə bağlı Azərbaycan Diplomatik Akademiyasının tələbələri və ali məktəbin qonaqları olan xarici diplomatlar mayın 8-də Heydər Əliyev Fondunda olmuşlar.

Qonaqlara Fondun beşillik fəaliyyəti haqqında ətraflı məlumat verilmişdir.

Ömrünü Azərbaycana və xalqına həsr etmiş, bugünkü müstəqil dövlətimizin qurucusu ulu öndər Heydər Əliyevin xatirəsinə hörmət və ehtiramlarını bildirmək üçün Fonda gələn qonaqlar buradakı zəngin ekspozisiya ilə yaxından tanış olmuşlar.

Ulu öndərin şəxsi arxivindən götürülmüş, onun həyat və fəaliyyətinin müxtəlif dövrlərini əhatə edən fotoşəkillər, Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan zəngin materiallar iştirakçılar tərəfindən maraqla qarşılanmışdır. Fondda ümummilli liderin oxuduğu təhsil ocaqlarında fərqləndiyini əks etdirən diplomlar, milli təhlükəsizlik orqanlarında işlədiyi dövrdəki xidməti vəsiqələri, həm sovetlər, həm də müstəqillik dövründə Azərbaycana rəhbərlik etdiyi zaman gördüyü quruculuq işlərini əks etdirən fotolar, aldığı fəxri fərman və sənədlər də saxlanılır. Ulu öndərin Bakıda, Naxçıvanda, Moskvada yaşadığı, işlədiyi illər, hakimiyyəti dövrlərində ölkənin müxtəlif sahələrində qazanılan uğurlar, həyata keçirilən layihələr fondun ziyarətçilərində böyük maraq doğurmuşdur.

Burada akademiyanın tələbələrinə və gənc xarici diplomatlara Azərbaycanın beynəlxalq əlaqələrinin qurulması istiqamətində ulu öndərin həyata keçirdiyi uğurlu siyasət barədə məlumat verilmişdir. Fondun ziyarətçiləri Heydər Əliyevin dünyanın tanınmış siyasi lideri, dövlət başçıları ilə keçirdiyi görüşləri zamanı çəkilən fotoşəkillərə, onun mədəniyyətə, elmə, bu sahədə çalışan insanlara diqqət və qayğısının təzahürü olan stendlərə tamaşa etmiş, dünyanın müxtəlif ölkələrində ümummilli liderin xatirəsinə göstərilən ehtiramı əks etdirən guşə ilə tanış olmuşlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN XARİCİ ƏLAQƏLƏR ŞURASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də ABŞ-ın Xarici Əlaqələr Şurasının üzvlərini qəbul etmişdir.

Görüşdə Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması istiqamətində danışıqların hazırkı vəziyyəti ilə əlaqədar verilən suala belə cavablandırmışdır:

- Hazırda vəziyyətlə bağlı müxtəlif yanaşmalar, qiymətləndirmələr var. Bəzilərinə belə gələ bilər ki, biz razılaşmaya yaxınıq, digərləri isə iddia edə bilərlər ki, bu istiqamətdə hələ çox iş görülməlidir. Danışıqlarda irəliləyişə gəldikdə, mən bunu müsbət istiqamətdə gedən proses kimi dəyərləndirirəm və razılaşmanın müəyyən məsələləri ilə bağlı irəliləyişə nail olunmuşdur, hansı ki, bir neçə il əvvəl bu mümkün deyildi. Lakin bu irəliləyiş məsələnin nizamlanmasına nail olmaq və razılaşmanın əldə edilməsi üçün kifayət etmir.

Minsk qrupunun yaranmasından 17 il keçib və bütün irəliləyişlərə baxmayaraq, heç bir nəticə yoxdur. Vəziyyət əvvəllər olduğu kimi qalmaqda davam edir. Torpaqlarımız işğal altındadır. Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda yerləşən 7 rayon ermənilər tərəfindən zəbt olunmuşdur. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir və bu vəziyyət indi də davam etməkdədir.

Münaqişənin nizamlanmasına gəldikdə, bu, beynəlxalq hüquq normalarının möhkəm əsasları üzərində həll olunmalıdır. Münaqişə yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında nizamlanmalıdır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Torpaqlarımızın işğal faktı beynəlxalq birlik tərəfindən tanınmışdır. Azərbaycanın ərazi bütövlüyü də beynəlxalq səviyyədə qəbul edilmiş və dəstəklənmişdir. Minsk qrupunun həmsədrləri Azərbaycanın ərazi bütövlüyünün müdafiə olunması ilə bağlı bir neçə dəfə açıq bəyanatlar vermişlər. Azərbaycan BMT-yə üzv olarkən ərazi bütövlüyümüz bu təşkilat tərəfindən tanınmışdır.

Ermənistan tərəfinin bir arqument kimi ortaya qoymağa çalışdığı öz müqəddəratını təyin etmək hüququ ilə bağlı demək istəyirəm ki, ermənilər Ermənistan dövlətini yaradarkən artıq bu hüquqdan istifadə etmişlər. Əgər onların bu məntiqlərinə əsaslanılarsa, dünyada xeyli sayda erməni dövləti yaranar. Bu səhv yanaşmadır. Biz həmişə danışıqlarda Ermənistan tərəfinin diqqətini Helsinki Yekun Aktına yönəltməyə çalışırıq. Bu yekun aktında ərazi bütövlüyünün toxunulmazlığı və öz müqəddəratını təyin etmə hüquqları barədə müddəalar açıq şəkildə öz əksini tapmışdır: öz müqəddəratını təyin etmə hər hansı bir dövlətin beynəlxalq səviyyədə tanınmış ərazilərinin bütövlüyü prinsipini poza bilməz. Buna görə də münaqişədə nizama salınma, ilk növbədə, beynəlxalq hüquq normalarına əsaslanmalıdır ki, bu da öz növbəsində ərazi bütövlüyümüzü bərpa etməyə, orada ermənilərin və münaqişədən əvvəl Dağlıq Qarabağda yaşayan azərbaycanlı əhalinin öz torpaqlarına qayıdaraq sülh şəraitində yaşamasına imkan verəcəkdir. Bu gün Avropada sərhədlərin açıldığı və inteqrasiya proseslərinin getdiyi bir dövrdə heç bir ölkə öz gələcəyini təcrid olunmuş şəkildə qurmamalıdır. Bu gün Ermənistanın düşdüyü bu vəziyyəti onlar təcavüzkar siyasət həyata keçirməklə özləri yaratmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVAKİYANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, ƏDLİYYƏ NAZİRİ ŞTEFAN HARABİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Slovakiyanın Baş nazirinin müavini, ədliyyə naziri Ştefan Harabini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında uğurla inkişaf edən əməkdaşlıq çərçivəsində ədliyyə sistemlərinin əlaqələrinin inkişaf etdirilməsi üçün geniş hüquqi bazanın mövcud olduğu vurğulandı. Azərbaycan Ali Məhkəməsinin yeni inzibati binasının istifadəyə verilməsinin ölkəmizdə məhkəmə sisteminin təkmilləşdirilməsi baxımından əhəmiyyəti qeyd olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ ALİ MƏHKƏMƏSİNİN SƏDRİ HASAN GERÇƏKƏRİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Türkiyə Ali Məhkəməsinin sədri Hasan Gerçəkəri qəbul etmişdir.

Türkiyə Ali Məhkəməsinin sədri Hasan Gerçəkər qeyd etdi ki, dost və qardaş ölkələr olan Azərbaycan ilə Türkiyə arasında əlaqələr bütün sahələrdə, o cümlədən məhkəmə sistemi sahəsində də uğurla inkişaf edir. O, Azərbaycan Ali Məhkəməsinin yeni binasının açılış mərasimində iştirakından məmnunluğunu bildirdi.

Azərbaycan Ali Məhkəməsinin yeni binasının açılışını əlamətdar hadisə kimi dəyərləndirən dövlətimizin başçısı ölkəmizdə demokratik və hüquqi islahatların uğurla həyata keçirildiyini qeyd etdi. Prezident İlham Əliyev yeni binanın istifadəyə verilməsini ölkəmizdə məhkəmə sisteminin daha da təkmilləşdirilməsi işinə xidmət edəcəyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN ALİ MƏHKƏMƏSİNİN SƏDRİ KONSTANTİN KUBLAŞVİLİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Gürcüstan Ali Məhkəməsinin sədri Konstantin Kublaşvilini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən məhkəmə sistemi sahəsində də inkişaf etdiyi bildirildi, bu sahədə əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TELIASONERA" ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU LARS NİBERQİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də "TeliaSonera" şirkətinin prezidenti və baş icraçı direktoru Lars Niberqi qəbul etmişdir.

"TeliaSonera" şirkətinin prezidenti və baş icraçı direktoru Lars Niberq sonuncu dəfə ölkəmizdə ötən il səfərdə olduğunu və dünyadakı maliyyə böhranına baxmayaraq, ötən dövr ərzində Azərbaycanda sürətli tikinti və quruculuq işlərinin getdiyini məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı dünyadakı maliyyə böhranının Azərbaycan iqtisadiyyatına o qədər də təsir göstərmədiyini, ölkədə iqtisadi inkişaf proseslərinin davam etdiyini dedi. Hazırkı dövrdə qeyri-neft sektorunda ÜDM-in 14 faiz artdığını qeyd edən Prezident İlham Əliyev bu göstəricilərin getdikcə artacağını bildirdi. İnformasiya, kommunikasiya və texnologiyalar sektorunun Azərbaycanda prioritet sahələrdən biri olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizdə bu istiqamətdə də böyük işlərin görüldüyünü qeyd etdi.

XARİCİ İŞLƏR NAZİRİ YUNANISTANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QƏBUL ETMİŞDİR

Mayın 12-də xarici işlər naziri Elmar Məmmədyarov Yunanıstanın xarici işlər nazirinin müavini Miltiadis Varvitsiotis ilə görüşmüşdür.

M.Varvitsiotis Azərbaycana əlliyə yaxın iş adamı ilə gəldiyini bildirərək iki ölkə arasında münasibətlərin daha da genişlənməsinin zəruriliyini vurğulamış, səfər çərçivəsində Bakıda keçirilmiş Azərbaycan-Yunanıstan biznes forumunun məhz buna xidmət etdiyini demişdir.

E.Məmmədyarov Azərbaycan iqtisadiyyatı üçün qeyri-neft sektorunun inkişafının prioritet məsələ olduğunu diqqətə çatdıraraq belə səfərlərin Azərbaycan ilə Yunanıstan arasındakı əlaqələrin möhkəmləndirilməsinə əlavə imkanlar yaratdığını da qeyd etmişdir.

Görüşdə tərəflər arasında ikitərəfli münasibətlər, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, regional və beynəlxalq əhəmiyyətli məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN VƏ SLOVAKİYA ƏDLİYYƏ NAZİRLİKLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANMIŞDIR

Slovakiya Respublikası Baş nazirinin müavini, ədliyyə naziri Ştefan Harabin mayın 12-də Azərbaycana səfərə gəlmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Ali Məhkəmənin yeni möhtəşəm və müasir binasının açılış mərasiminə qatılmış slovakiyalı qonaq Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmiş, abidəsi önünə əklil qoymuşdur. Görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın da məzarı üstünə tər güllər düzülmüşdür. Ş.Harabin Şəhidlər xiyabanında olmuş, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən oğullarının xatirəsini yad etmişdir. Sonra o, ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovla görüşmüşdür.

Nazir ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş və ölkəmizin başçısı İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən ədliyyə və məhkəmə orqanlarının müasirləşdirilməsinə dair işlər barədə ətraflı məlumat vermiş, ölkələrimiz arasında hüquq sahəsində əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş perspektivlərin olduğunu bildirmişdir. Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal olunması, 1 milyon soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətində yaşadığı diqqətə çatdırılmışdır.

Azərbaycana ilk səfərindən məmnunluğunu bildirən qonaq respublikamızda həyata keçirilən hüquqi islahatlar barədə məlumatları böyük maraqla dinləmiş, bu sahədə əldə edilmiş yüksək nailiyyətləri təqdir etmiş, Ali Məhkəmənin yeni binasının Avropanın ən gözəl məhkəmə binalarından biri və belə bir ədalət sarayının inşasının ölkəmizin məhkəmə hakimiyyətinin müstəqilliyinə verilən böyük əhəmiyyətin əyani təzahürü olduğunu vurğulamışdır.

Ş.Harabin ölkəsində də islahatların aparıldığını, bu sahədə təcrübə və fikir mübadiləsinin böyük əhəmiyyət kəsb etdiyini söyləmiş, ölkəmizin ədliyyə nazirini Slovakiya Res-

publikasına səfərə dəvət etmişdir.

Sonra Azərbaycan və Slovakiya ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

Mərasimdə çıxış edən nazirlər dövlətlərimiz arasında hüquqi əməkdaşlığın daha da möhkəmləndirilməsində bu sənədin rolunu qeyd edərək, ədliyyənin mühüm istiqamətləri üzrə qarşılıqlı fəaliyyəti dəstəkləyəcəklərini vurğulamışlar.

Qonaq nazirlikdə Heydər Əliyev və Ədliyyə tarixi muzeyləri, habelə səfərlə bağlı hazırlanmış və Azərbaycan-Slovakiya əməkdaşlığını əks etdirən ekspozisiyalarla tanış olmuşdur.

AZƏRBAYCANIN MÜDAFİƏ SƏNAYESİ NAZİRİ İSRAİLİN KEÇMİŞ SƏHİYYƏ NAZİRİ VƏ MÜDAFİƏ NAZİRİNİN KEÇMİŞ MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 12-də Azərbaycanın müdafiə sənayesi naziri Yavər Camalov ölkəmizdə səfərdə olan İsrailin keçmiş səhiyyə naziri və müdafiə nazirinin keçmiş müavini Efraim Snehlə görüşmüşdür.

Nazir Yavər Camalov qonağa Müdafiə Sənayesi Nazirliyinin fəaliyyət istiqamətləri barədə məlumat vermişdir.

İsrailin ölkəmizdəki səfiri Artur Lenkin də iştirak etdiyi görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə edilmişdir.

ATƏT-İN HAZIRKI SƏDRİ AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA ATƏŞKƏS ELAN OLUNMASININ 15 İLLİYİ MÜNASİBƏTİLƏ BƏYANATLA ÇIXIŞ ETMİŞDİR

Mayın 12-də ATƏT-in hazırkı sədri Yunanıstanın xarici işlər naziri Dora Bakoyanni Dağlıq Qarabağ münaqişəsi tərəflərinin sülh nizamlanması istiqamətində tərəqqiyə nail olacaqlarına ümidvar olduğunu demişdir.

ATƏT-in rəsmi saytında bildirilir ki, D.Bakoyanni tərəfləri atəşkəs rejiminə tam əməl etməyə, həmçinin snayperləri ön xətdən çəkməyə çağırmışdır.

Keçmiş SSRİ məkanında ən irimiqyaslı hərbi əməliyyatlara 15 il əvvəl son qoyulduğunu vurğulayan ATƏT sədri, həmsədrlərin vasitəçiliyi ilə münaqişənin nizamlanmasına dair Azərbaycan və Ermənistan prezidentləri arasında mayın 7-də Praqada aparılan dialoqu alqışladığını bəyan etmişdir

ATƏT-in sədri Dağlıq Qarabağ münaqişəsinin Madrid sənədi əsasında nizamlanması istiqamətində Minsk qrupu həmsədrlərinin, həmçinin şəxsi nümayəndəsi Anji Kaspşikin səylərini tam dəstəklədiyini demişdir.

D.Bakoyanni bildirmişdir ki, münaqişənin həllinə dair danışıqlar prosesində müşahidə olunan tempi saxlamaq zəruridir. Biz bir məsələni də diqqətdən qaçırmamalıyıq ki, 15 il əvvəl atəşkəs əldə olunmasına baxmayaraq, təmas xəttində vəziyyət qeyri-sabitdir, itkilər davam edir. Qarşılıqlı etimad mühitinin yaranması üçün atəşkəs rejiminin şərtlərinə

tam əməl olunmalı, həmsədrlərin snayperləri ön cəbhədən geri çəkmək çağırışına riayət edilməlidir.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA ATƏŞKƏS ELAN OLUNMASININ 15 İLLİYİ MÜNASİBƏTİLƏ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR

Mayın 12-də ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzə (ABŞ), Bernar Fasye (Fransa) və Yuri Merzlyakov (Rusiya) Azərbaycan ilə Ermənistan arasında atəşkəs elan olunmasının 15 illiyi münasibətilə bəyanatla çıxış etmişlər.

Bəyanatda bildirilir ki, Dağlıq Qarabağda fəal hərbi əməliyyatlar 15 il əvvəl dayandırılmışdır. Təəssüf ki, atəşkəsə tam əməl olunmaması cəbhədə hər iki tərəfin itki verməsinə səbəb olur. Biz səmimi olaraq ümid edirik ki, tərəflərin üzərində işlədiyi sülh nizamlanması Azərbaycan, Ermənistan və Dağlıq Qarabağda böyüyən yeni nəslə müharibənin dəhşətlərini bir daha yaşamamağa imkan verəcəkdir.

Bundan əlavə, həmsədrlər tərəfləri atəşkəs rejiminə sona qədər əməl etməyə və snayperləri ön xətdən geri çəkməyə çağırmışlar.

Bəyanatda vurğulanır: "Biz ümid edirik ki, ölkə liderləri Dağlıq Qarabağ münaqişəsinin mürəkkəb səbəblərini və ağır nəticələrini aradan qaldırmağa, təhlükəsizlik, etimad və regionun xalqları arasında səmərəli əməkdaşlıq, qarşılıqlı münasibətlər qurulmasına nail olacaqlar. Bu isə həmin xalqların mehriban qonşuluq şəraitində yaşamasına imkan verəcəkdir. Biz, həmçinin, inanırıq ki, ölkə başçıları həmsədrlərin əməkdaşlığı ilə münaqişənin nizamlanmasına dair baza prinsipləri üzərində işi sona çatdırmağa nail ola biləcəklər".

FRANSANIN XARİCİ İŞLƏR VƏ AVROPA MƏSƏLƏLƏRİ NAZİRLİYİ AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA ATƏŞKƏS ELAN OLUNMASININ 15-Cİ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BƏYANAT YAYMIŞDIR

Mayın 12-də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəsə nail olunmasının 15 illiyi ilə əlaqədar Fransanın Xarici İşlər və Avropa Məsələləri Nazirliyi Bəyanat yaymışdır.

Bəyanatda deyilir ki, ATƏT-in Minsk qrupunun həmsədri olan Fransa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli və davamlı həllinin nizamlanmasına kömək etmək üçün səylərini davam etdirir. Fransa prezidentlər İlham Əliyev və Serj Sarkisyanın Şərq Tərəfdaşlığı Sammiti çərçivəsində həmsədr ölkələrin təşəbbüsü ilə mayın 7-də Praqada keçirilmiş görüşündən məmnundur. Bu görüş hazırkı danışıqlar prosesinin canlı olduğuna bir nümunədir və onlar arasında bərqərar olmuş münasibətin konstruktiv xarakterini təsdiq edir. Görüş 2007-ci ilin sonlarında Madriddə həmsədrlərin təqdim etdiyi təkliflərin kompromisi mümkün ola bilən bir çox məsələlərini dəqiqliklə təyin etməyə imkan vermişdir.

ABŞ və Rusiya ilə yanaşı, Fransa da münaqişə tərəflərini növbəti görüşlərində, o cümlədən iyunun əvvəlinə nəzərdə tutulmuş Sankt-Peterburq görüşündə daha irəliyə get-

məyə çağırır.

Sənəddə, həmçinin bildirilir ki, 2009-cu il mayın 11-də iki ölkə arasında böyük miqyaslı döyüşlərə son qoyan atəşkəsin 15-ci ildönümüdür. Fransa davam edən münaqişə nəticəsində hələ də ölən və yaralananların olmasından kədərləndiyini bildirir və tərəfləri ilkin atəşkəsin və onu möhkəmləndirməyə yönəlmiş sonrakı mətnlərin qaydalarına dəqiqliklə riayət etməyə dəvət edir.

BAKIDA AZƏRBAYCAN-YUNANISTAN BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Mayın 12-də "Excelsior" mehmanxanasında İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Yunanıstanın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə Azərbaycan-Yunanıstan biznes forumu keçirilmişdir.

Biznes forumunda Yunanıstanın xarici işlər nazirinin müavini Miltiadis Varvitsiotisin başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir. Nümayəndə heyətinə dövlət rəsmiləri ilə yanaşı, tikinti, turizm, kənd təsərrüfatı, telekommunikasiya və digər sahələri təmsil edən müəssisələrdən 35-dən çox, Azərbaycan tərəfdən isə müvafiq sahələrdə fəaliyyət göstərən 100-ə yaxın sahibkar iştirak etmişdir.

Tədbirdə İqtisadi İnkişaf Nazirliyi Aparatının rəhbəri Samir Vəliyev ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən islahatlar, müxtəlif sahələrdə həyata keçirilən layihələr, sahibkarlığın inkişafı istiqamətində görülən tədbirlər, son illər qazanılmış nailiyyətlər haqqında ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, Azərbaycan öz inkişaf sürətinə görə dünya ölkələri arasında, adambaşına düşən investisiyaların həcminə görə isə MDB məkanında liderlərdən biridir. Son beş ildə ümumi daxili məhsul (ÜDM) 2,6 dəfə, sənaye istehsalı 2,5 dəfə, əhalinin gəlirləri 4 dəfə artmış, yoxsulluğun səviyyəsi təxminən 3 dəfə azalaraq 13,2 faiz təşkil etmişdir. Ölkədə biznes mühitinin yaxşılaşdırılması, yerli və xarici investorlar üçün əlverişli şəraitin yaradılması həyata keçirilən iqtisadi siyasətin üstün istiqamətlərindən biridir. Təsadüfi deyildir ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan iqtisadiyyatına 60 milyard ABŞ dolları məbləğində investisiya yatırılmışdır ki, onun da yarıdan çoxu xarici sərmayədir.

Məlumat verilmişdir ki, ölkədə aparılan islahatların məntiqi nəticəsi kimi Dünya Bankının və Beynəlxalq Maliyyə Korporasiyasının birgə hazırladıqları illik "Doing Business-2009" hesabatında Azərbaycan dünyanın bir nömrəli iqtisadi islahatçısı adlandırılmışdır. Azərbaycan əvvəlki ilin müvafiq göstəriciləri ilə müqayisədə 64 pillə irəliləyərək 181 ölkə sırasında 33-cü yeri tutmuşdur ki, bu da hesabatın tarixində rekord irəliləyişdir.

Hazırda dünyada qlobal maliyyə və iqtisadi böhranın davam etdiyini və bir çox ölkələrin ciddi problemlərlə üzləşdiyini diqqətə çatdıran S.Vəliyev, Azərbaycanın böhrana ən az məruz qalmış ölkələrdən biri olduğunu, bu ilin birinci rübünün yekunlarına görə ÜDM istehsalının 4,1 faiz, o cümlədən qeyri-neft sektoru üzrə 14 faiz artdığını, investisiya qoyuluşunun 15,2 faiz çoxaldığını, milli valyutanın məzənnəsinin sabit qaldığını vurğulamışdır.

Sənaye və energetika nazirinin müavini Gülməmməd Cavadov bu cür tədbirlərin işgü-

zar əlaqələrin genişlənməsində əhəmiyyətini diqqətə çatdırmış, nazirliyin ölkələrimiz arasında əməkdaşlığın inkişafına töhfə verməyə daim hazır olduğunu söyləmişdir.

Yunanıstanın xarici işlər nazirinin müavini Miltiadis Varvitsiotis ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdiyini, əməkdaşlığın genişləndirilməsində sahibkarların rolunu vurğulamış, iş adamlarını tədbirdə fəal iştiraka dəvət etmişdir. Azərbaycanın qlobal maliyyə və iqtisadi böhrana ən az məruz qalmış ölkələrdən biri olduğunu məmnunluqla vurğulayan M.Varvitsiotis, Yunanıstanda sərmayə yatırmaq üçün böyük imkanların olduğunu da diqqətə çatdırmışdır. O, Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin fevralında Yunanıstana dövlət səfərinin ölkələrimiz arasında hərtərəfli əlaqələrin inkişafına güclü təkan verəcəyinə əminliyini bildirmişdir.

AZPROMO-nun prezidenti Rəhim Hüseynov Azərbaycan iqtisadiyyatı və investisiya mühiti, həmçinin xarici iş adamları üçün yaradılmış imkan və perspektivlər barədə danışmış, Yunan Sahibkarlar Federasiyası (SEV) idarə heyətinin sədri Atanase Lavidas isə ölkəsinin iqtisadi potensialı və biznes imkanları haqqında "Yunanıstan cənub-şərqi Avropada vədedici məkan" mövzusunda çıxış etmişdir.

Tədbir çərçivəsində AZPROMO ilə SEV arasında Anlaşma Memorandumu imzalanmışdır. Sənəddə investisiya mühiti, iqtisadi və investisiya imkanlarının inkişafı, bu sahədə qanunvericilik aktları barədə məlumat mübadiləsi, sahibkarlar arasında görüşlərin, biznes forumların, seminar və təlimlərin təşkili və s. məsələlər öz əksini tapmışdır.

Forumun rəsmi hissəsindən sonra Azərbaycan və Yunanıstan iş adamları arasında ikitərəfli görüşlər keçirilmiş, əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunmuşdur.

AZƏRBAYCAN-TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ İLƏ YUNANISTAN SAHİBKARLAR FEDERASİYASI ARASINDA SƏNƏD İMZALANMIŞDIR

Azərbaycan-Türkiyə İş Adamları Birliyinin (ATİB) ictimaiyyətlə əlaqələr şöbəsindən bildirmişlər ki, mayın 12-də Bakıda Azərbaycan-Yunanıstan biznes forumu çərçivəsində ATİB ilə Yunanıstan Sahibkarlar Federasiyası (SEV) arasında əməkdaşlıq protokolu imzalanmışdır.

Protokola əsasən, tərəflər Azərbaycan, Yunanıstan və Türkiyənin biznes mühitini Azərbaycan və Yunanıstanın müxtəlif sektorlarındakı investisiya, ticarət və birgə əməkdaşlıq imkanları barədə məlumatlarla təmin edəcəklər.

Tərəflər, həmçinin Yunanıstan, Azərbaycan və Türkiyədən olan iş adamlarının və biznes heyətlərinin görüşlərini təşkil edəcəklər.

Bundan başqa, Yunanıstan, Azərbaycan və Türkiyədən olan şirkətlərin adıçəkilən ölkələrdə qarşılaşdıqları maneələr, əngəllərlə bağlı məsələ qaldırılması əməkdaşlıq protokoluna daxil edilmişdir. Tərəflər təcrübə mübadiləsi aparmaq və digər məsələlər barədə də razılığa gəlmişlər.

Protokolu ATİB tərəfindən idarə heyətinin sədri Əhmət Erentok, SEV tərəfindən isə direktorlar şurasının sədr müavini Atanase Lavidas imzalamışlar.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN AZƏRBAYCANA SƏFƏRƏ GƏLMİŞDİR

Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan mayın 12-də Azərbaycana səfərə gəlmişdir. Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına beynəlxalq hava limanında qardaş ölkənin hökumət başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı Azərbaycanın Baş nazirinin müavini Abid Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

Hava limanının ali qonaqlar üçün salonunda Rəcəb Tayyib Ərdoğanla Abid Şərifov arasında qısa protokol söhbəti oldu.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan və onu müşayiət edən nümayəndə heyəti mayın 13-də Fəxri xiyabanı ziyarət etmişdir.

Rəcəb Tayyib Ərdoğan xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşdur.

Qonaq görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə tər güllər düzmüşdür.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Ölkəmizdə səfərdə olan Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan mayın 13-də Şəhidlər xiyabanına gələrək, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsini ehtiramla yad etmiş, "Əbədi məşəl" kompleksinin önünə əklil qoymuşdur.

Buradan Bakının mənzərəsini seyr edən Türkiyənin Baş nazirinə Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verilmişdir.

* * *

Elə həmin gün Rəcəb Tayyib Ərdoğan Şəhidlər xiyabanında türk şəhidlərinin xatirəsinə ucaldılmış abidəni də ziyarət etmişdir. Türkiyənin Baş naziri 1918-ci ildə Bakının bolşevik-erməni daşnak qoşunlarından azad edilməsi uğrunda döyüşlərdə şəhid olmuş 1130 türk əsgərinin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə əklil qoymuş, Şəhidlik kitabəsinin üstünə gül dəstələri düzmüşdür.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN MİLLİ MƏCLİSDƏ OLMUŞDUR

Mayın 13-də Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Milli Məclisə gəlmişdir. Burada qonağı Milli Məclisin sədri Oqtay Əsədov, birinci müavin Ziyafət Əsgərov, müavin Valeh Ələsgərov və digər rəsmi şəxslər qarşılamışlar.

Oqtay Əsədov ilə Rəcəb Tayyib Ərdoğan arasında görüş olmuşdur.

Sonra Türkiyə Baş naziri Milli Məclisdə deputatlar qarşısında çıxış etmişdir. Parlamentin deputatları Türkiyənin Baş nazirini sürəkli alqışlarla qarşılamışlar.

Milli Məclisin sədri Oqtay Əsədov qonağı salamlayaraq demişdir ki, Azərbaycan-Türkiyə hər zaman bir-birinə güvənib və bundan sonra da belə olacaqdır.

Bakıda özünü evindəki kimi hiss etdiyini deyən Baş nazir Rəcəb Tayyib Ərdoğan 71 milyon qardaş türkün ürək dolusu salam və sevgilərini çatdırmışdır. O bildirmişdir ki, Türkiyə və Azərbaycan xalqları arasında qardaşlıq, həmrəylik həm yaxşı, həm də pis gündə davam etmişdir. İki ölkənin siyasi münasibətlərinin dərin kökləri var. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir. Bu əlaqələr hər hansı iki dövlətin münasibətləri ilə müqayisə oluna bilməz. Biz bu dostluğun və yaxınlığın kiminsə müzakirə, mübahisə mövzusuna çevrilməsinə izn vermərik.

Beynəlxalq aləmdə də ölkələrimizin bir-birinin hüquq və mənafeyini qorumasının ən böyük hədəfimiz olduğunu bildirən Türkiyənin Baş naziri əlavə etmişdir ki, dövlətlərimiz bir-birinə bağlı olmaqla yanaşı, həm də bir-birinə güvənir.

Rəcəb Tayyib Ərdoğan demişdir ki, Türkiyə Ermənistan ilə sərhədləri Dağlıq Qarabağ tamamilə Ermənistanın işğalı altına düşməsindən sonra bağlanmışdır. Bu işğal ortadan qalxandan sonra sərhədlər açıla bilər. Biz azərbaycanlı qardaşlarımızın razı qalmadığı müddətdə bu nöqtədən irəli bir addım atmarıq. Bunlar bir-biri ilə bağlıdır, ayrı düşünülə bilməz. Çünki biz bir millətik, iki dövlətik. Bu anlayışımız bir təməldir. Bu təməldə bir dəyişiklik yoxdur, ola da bilməz.

Cənubi Qafqazda sülhün və təhlükəsizliyin Dağlıq Qarabağ münaqişəsi həll edilmədən mümkün olmadığını diqqətə çatdıran Türkiyənin Baş naziri, Milli Məclisdən dünya dövlətlərinə də müraciət edərək bildirmişdir ki, Türkiyə heç zaman Azərbaycanın milli maraqlarına xələl gətirəcək addım atmayıb və atmayacaqdır.

Türkiyənin Baş naziri Dağlıq Qarabağ münaqişəsinin həll olunmasının bütünlükdə Avropa və Asiya dövlətlərinə fayda gətirəcəyini demişdir. Baş nazir əlavə etmişdir ki, bunun üçün Azərbaycan torpaqları işğaldan azad olunmalıdır.

Rəcəb Tayyib Ərdoğan çıxışını Türkiyənin və Azərbaycanın dövlət himnlərindən misraları səsləndirməklə yekunlaşdırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

Mayın 13-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə hazırkı vəziyyəti və perspektivi, eləcə də regional və beynəlxalq məsələlər müzakirə edilmişdir.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Mayın 13-də təkbətək görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident İlham ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Hörmətli Baş nazir!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda salamlayıram. Xoş gəlmisiniz!

Hörmətli cənab Baş nazir, biz indi sizinlə təkbətək görüşdə Türkiyə-Azərbaycan əlaqələrinin müxtəlif sahələrini geniş müzakirə etdik. Çox səmərəli, səmimi söhbət etdik. Həm bu vaxta qədər əldə edilmiş uğurları bir daha gözdən keçirdik və ən önəmlisi, gələcək haqqında da öz fikirlərimizi çox aydın şəkildə bildirdik.

Sizin səfərinizə biz çox böyük əhəmiyyət veririk. Bu çox önəmli səfərdir. Hər dəfə bu ikitərəfli danışıqlar və görüşlər gələcəyə atılan addımları dəstəkləyir. Türkiyə-Azərbaycan əlaqələri inkişaf edir, yüksək səviyyədədir və mən əminəm ki, bu səfər əlaqələri daha da gücləndirəcək, genişləndirəcəkdir. Siz Azərbaycana böyük heyətlə gəlmisiniz və əminəm ki, nümayəndə heyətində təmsil olunan dostlarımız azərbaycanlı həmkarları ilə də ikitərəfli söhbətlər aparacaqlar və bütün sahələrdə daha da geniş əməkdaşlıq üçün yaxşı imkanlar yaradacaqlar.

Bir daha xoş gəlmisiniz və nümayəndə heyətinin bütün üzvlərinə öz hörmətimi bildirirəm.

Sonra Baş nazir Rəcəb Tayyib ƏRDOĞAN çıxış edərək dedi:

- Bəli, mən də çox təşəkkür edirəm. Hörmətli Prezidenti və dəyərli nümayəndə heyətini şəxsən öz adımdan və nümayəndə heyətimizin adından ən səmimi duyğularla salamlayıram.

Təbii ki, bu görüşümüzdə, xüsusilə təkbətək görüşümüzdə Türkiyə ilə Azərbaycan arasında əlaqələrimizi təkrar gözdən keçirmək fürsətini tapdıq. Bu əlaqələrimizin hər keçən gün daha irəli getdiyini yenidən dəqiqləşdirdik, təsdiq etdik. İnanıram ki, qarşıdakı müddətdə bunlar daha çox fərqli bir şəkildə inkişaf edəcəkdir. Regional problemləri, xüsusilə bölgədə enerji sahəsindəki məsələləri Türkiyə ilə Azərbaycan arasında dəyərləndirmək imkanımız oldu.

Əlbəttə, bütün bunlarla birlikdə Türkiyə ilə Azərbaycan arasında "Bir millət, iki dövlət" anlayışının gələcəyə aparılması istiqamətində bizim aramızdakı birliyimizi, bərabərliyimizi, dayanışmamızı sağdan, soldan gələ biləcək, bizə aid olmayan hər hansı bir düşüncələr poza bilməz. Bu cür fitnə-fəsad ocaqlarına heç bir zaman fürsət verə bilmərik və verməməliyik. Bu mövzudakı düşüncələrimizi paylaşmağın xoşbəxtliyi içərisində olduq.

İnanıram ki, bütün nazirlərimiz də, təbii ki, bu heyətdə yeni kabinetdə vəzifə tutan nazirlər var, - azərbaycanlı həmkarlar ilə qarşılıqlı fəaliyyəti daha da sürətləndirməklə bu

addımları atacağıq.

Mən bu görüşümüzün xeyirliyə səbəb olmasını arzu edirəm.

BİRGƏ MƏTBUAT KONFRANSI

Mayın 13-də geniş tərkibdə görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan birgə mətbuat konfransı keçirmişlər.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan əvvəlcə bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Baş nazir,

Hörmətli qonaqlar,

Xanımlar və cənablar!

İlk növbədə, mən Baş naziri bir daha Azərbaycanda salamlayıram, xoş gəlmisiniz. Bu gün biz sizinlə çox səmərəli işlədik. Geniş fikir mübadiləsi aparılmışdır. Həm təkbətək görüşdə, həm də ki, nümayəndə heyətlərinin iştirakı ilə aparılan danışıqlarda Türkiyə-Azərbaycan əlaqələrinin müxtəlif sahələri nəzərdən keçirildi, təhlil edildi. Əldə edilmiş nailiyyətlər, uğurlar haqqında danışdıq və şübhəsiz ki, gələcək əməkdaşlıq haqqında da geniş fikir mübadiləsi aparıldı.

Türkiyə ilə Azərbaycan arasında əlaqələr həmişə olduğu kimi, çox yüksək səviyyədədir. Bizim xalqlarımız qardaş xalqlardır və bu birlik, qardaşlıq əlbəttə ki, ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verir. Biz bu gün həm ikitərəfli məsələləri geniş müzakirə etdik, həm də bölgədə mövcud olan vəziyyət nəzərdən keçirildi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli yolları müzakirə olundu və danışıqlar prosesi haqqında mən hörmətli cənab Baş nazirə öz fikirlərimi bildirdim. Regional vəziyyət, regionda baş verən hadisələr şübhəsiz ki, diqqətimizdən kənarda qalmadı. Eyni zamanda, Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələr, enerji sektorunda əldə edilmiş nailiyyətlər və perspektivlər haqqında da çox səmimi söhbətimiz olmuşdur.

Türkiyə-Azərbaycan əlaqələri çoxşaxəlidir, bu əlaqələrin çox böyük tarixi vardır. Bütün dövrlərdə bizim xalqlarımız bir yerdə yaşayıb-yaratmışlar. Bu gün isə iki müstəqil dövlət kimi biz öz imkanlarımızı ortaya qoyaraq, həm ikitərəfli münasibətlərin inkişafı üçün çalışırıq, həm də ki, bölgədə sülhün təmin olunması üçün birgə səylər göstəririk.

Beynəlxalq məsələlərdə Türkiyə ilə Azərbaycan bir çox hallarda vahid mövqedən çıxış edir. Əlbəttə, bu bölgədə yerləşdiyimizə görə biz istəyirik ki, bölgədə sülh nə qədər mümkünsə tez təmin olunsun, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun və beləliklə, bölgə geniş mənada əməkdaşlıq çərçivəsində inkişaf etsin.

Mən aparılan danışıqlardan və keçirdiyimiz söhbətlərdən razıyam. Hesab edirəm ki, hər zaman olduğu kimi, səmimi söhbətlər bir çox məsələyə aydınlıq gətirdi və ən önəmlisi gələcək birgə fəaliyyət və əməkdaşlıq üçün çox gözəl şərait yaratdı. Sağ olun.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI

- Hörmətli Cümhurbaşqanı!

Dəyərli mətbuat nümayəndələri!

Buraya dəvət olunmuş bütün qonaqları və dəyərli mətbuat nümayəndələrini ən səmimi duyğularımla salamlayıram.

Həqiqətən, dost və qardaş Azərbaycanda olmaqdan duyduğum məmnunluğu xüsusilə ifadə etmək istəyirəm. Bu gün dəyərli qardaşım hörmətli İlham Əliyevlə Türkiyə ilə Azərbaycan arasındakı ikitərəfli əlaqələri ən geniş şəkildə müzakirə etmək fürsəti əldə etdik. Təbii ki, bizim tarixi birliyimiz müzakirə mövzusu deyil. Buna kölgə salmaq istəyənlərə də şübhəsiz ki, bu görüşlərimiz ən gözəl cavabı vermiş olacaqdır. Bizim bu görüşümüzdə də müzakirə edilən ən önəmli məsələ şübhəsiz ki, budur. Bir az sonra parlamentdə edəcəyim çıxışda bunları çox açıq şəkildə ifadə edəcəyəm.

Təbii ki, ikitərəfli əlaqələrimizin təməlində bizim "bir millət, iki dövlət" anlayışımız eynilə davam etməkdədir. Xüsusilə Azərbaycanın Dağlıq Qarabağ məsələsindəki həssaslığı, həmçinin bizim də həssaslığımızdır. Dağlıq Qarabağ məsələsində bu günə qədər yol verilmiş bəzi möhtəkirliklər Türkiyə olaraq, Türkiyə Cümhuriyyətinin hazırkı hökuməti olaraq bizim qəbul etməyimiz mümkün deyildir. Bu günə qədər necə qəbul edilməyibsə, bu gün də eyni şəkildə qəbul edilə bilməz, inanıram ki, belə bir şey bundan sonra da əsla qəbul edilməyəcəkdir. Çünki burada bir səbəb-nəticə bağlılığı vardır. Dağlıq Qarabağın işğalı bir səbəbdir. Sərhədlərin bağlanması bir nəticədir. Dağlıq Qarabağ işğal edildiyi üçün Türkiyə sərhədləri bağlamışdır. İşğala son qoyulmayınca bilavasitə sərhədlərin açılması da mümkün deyildir. Bunu çox açıq şəkildə bir çox yerdə ifadə etdiyim kimi, bu gün Bakıda da bunu ifadə edirəm.

Təbii ki, burada digər bir atılmalı olan addım Minsk qrupu üçlüyünün - ABŞ, Rusiya, Fransa - 18 ildir sürən müzakirələri sürətləndirməsi və qısa bir zamanda nəticə əldə olunması vacibdir. Burada da, yenə inanıram ki, son qərar dəyərli qardaşım Əliyevlə Ermənistan Prezidenti Sarkisyanın görüşlərində əldə ediləcəkdir. Ondan sonra bizim də üzərimizə bir vəzifə düşərsə həmin vəzifəni icra edərik.

Bütün bunlarla bərabər təbii ki, bölgədəki problemləri, həmçinin enerji məsələsini müzakirə etmək fürsətimiz oldu. Bu gün Azərbaycan ixracatçı ölkədir. Təbii qaz üzrə hazırda xüsusilə önəmli ixracatçı ölkədir və ixracatçı ölkə olaraq da həm bizim Azərbaycanla təbii qazla bağlı ikitərəfli anlaşmalarımız, həm də regional və qonşu ölkələrlə bağlı ola biləcək anlaşmalar var. Bu istiqamətlərdə də söhbətimiz olmuşdur. Bütün bunlarla bərabər təbii ki, nəqletmədə gələcəyə doğru hansı addımları ata biləcəyimiz barədə müzakirələr oldu. Nazirlərimizin bir-biriləri ilə görüşləri oldu və belə görüşlər bu gün də davam edəcəkdir.

Əminəm ki, Azərbaycandakı bu görüşümüz gələcəyə doğru daha da fərqli, daha da güclü təməllərin eyni şəkildə yüksəlməsinə bir zəmin olacaqdır. Mən bununla əlaqədar şəxsən öz adımdan və nümayəndə heyətim adından bir daha hörmətli Cümhurbaşqanına təşəkkür edirəm və eyni zamanda sizlərə də minnətdarlığımı bildirirəm.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarına cavab verdilər.

SUAL (ANS, Azərbaycan): Təşəkkür edirəm. Mənim sualım cənab Baş nazirədir.

Cənab Baş nazir, Siz qeyd etdiniz ki, işğal amili ortadan qalxmayınca sərhədlər açılmayacaqdır. Ermənistan mətbuatında fevralın əvvəllərindən bəri sərhədlərin açılmasına dair məlumatla bağlı Türkiyənin Xarici İşlər Nazirliyi, Türkiyə səfirliyi birbaşa suallara cavab vermədi. Yalnız aprelin ortalarında Siz cavab verdiniz ki, işğal amili ortadan qalxmayınca sərhədlər açılmayacaqdır. Nə üçün bəs, Türkiyə tərəfi bu şübhələr üçün yer qoydu.

Baş nazir Rəcəb Tayyib ƏRDOĞAN: - Mənim əgər həm Londonda, həm də Türkiyə parlamentindəki qrup danışıqlarında etdiyim açıqlamalarımı bir mətbuat nümayəndəsi olaraq izləsəydiniz inanıram ki, mənə burada bu sualı verməzdiniz. Mən Türkiyədə parlamentdəki qrup danışıqlarında bunu dəfələrlə açıqladım. Eyni zamanda televiziya proqramlarında açıqladım. Londonda iştirak etdiyim "Böyük 20-lər"in zirvə toplantısından sonra keçirdiyim konfransda yenə eyni şəkildə açıqladım. İsrarla üzərində dayandığım məsələ budur - bizim sərhədlərimiz Dağlıq Qarabağın işğalından sonra bağlanmışdır. İndi də işğal ortadan qalxmayınca biz sərhədlərimizi açmayacağıq. Bunu kim söyləyir? Bunu Türkiyə Cümhuriyyətinin Baş naziri söyləyir. Bundan başqa daha zəmanətli ifadə ola bilərmi?!

SUAL (Ceyda Karan - "Radikal" qəzeti, Türkiyə): - Mənim sualım hörmətli Əliyevədir. Keçən ay Brüsseldə etdiyiniz açıqlamada Türkiyə ilə Ermənistan arasındakı "Yol xəritəsi"ndə Dağlıq Qarabağın əsas şərt olub-olmadığı məsələsində sadə bir cavab gözləyirik demişdiniz. Buna cavab ala bildinizmi?

Prezident İlham ƏLİYEV: - Məncə, hörmətli cənab Baş nazir, dəyərli qardaşımın sözləri bu suala ən gözəl cavabdır. Mən bu suala görə də, cavaba görə də minnətdaram. Çünki, bundan açıq-aydın cavab ola bilməz.

Onu da qeyd etmək istəyirəm ki, yəqin bu, heç kim üçün sirr deyil, son aylar ərzində Azərbaycan cəmiyyətində müəyyən mənada bir narahatlıq hissləri var idi. O hisslərin yəqin ki, müəyyən təbii səbəbləri də var idi. Ancaq ən önəmlisi odur ki, hesab edirəm və bu gün mən özümü Azərbaycan xalqına tutub bunu demək istəyirəm ki, heç bir şübhə üçün, heç bir başqa fikir üçün, möhtəkirlik üçün yer qalmadı. Türkiyə hökumətinin başçısı, Türkiyə Cümhurbaşqanı dəfələrlə bu məsələyə aydınlıq gətirmişlər və bu gün dəyərli qardaşım cənab Baş nazirin sözləri, bir daha demək istəyirəm ki, bunun ən gözəl cavabıdır.

SUAL (Nərmin Yüzdəri - NTV, Türkiyə): Mənim də sualım hörmətli Prezident Əliyevə olacaq. Əslində hörmətli Baş nazirə verdiyimiz sualın başqa bir tərəfi. Dediniz ki, heç bir şübhə qalmadı. Hörmətli Baş nazir, hörmətli Cümhurbaşqanı Türkiyədə dəfələrlə Dağlıq Qarabağ problemi həll olunmayınca sərhədlərin açılmayacağını söylədiyi halda, bilmək istərdik bəs, bu şübhələr nədən yarandı?

İkincisi, bu hadisələrdən sonra Azərbaycanın Rusiyaya yaxınlaşması haqqında bəzi xəbərlər, şərhlər yayıldı. Azərbaycanın Rusiya ilə əlaqələrində, siyasətində bir dəyişiklik varmı?

Son olaraq Türkiyəyə verilən qaza yaxın zamanda qiymət artımı gözlənilirmi? Bu istiqamətdə xəbərlər yayılmışdı. Təşəkkür edirəm.

İlham ƏLİYEV: Bu bir sual olmadı, bir üç sual oldu və elə suallardır ki, bunu bir sözlə cavablandırmaq çətin olacaq, ancaq mən çalışaram.

Birincisi, əgər biz məsələnin xronologiyasına baxsaq görərik ki, erməni mətbuatında Türkiyə-Ermənistan sərhədlərinin açılması ilə bağlı məlumatlar fevral ayının birinci yarısından yayımlanmağa başlamışdır və bu məlumatlar bir müddət bir növ cavabsız qaldı. Yəni bu məlumatlara lazımi səviyyədə cavabı hər halda Azərbaycan cəmiyyəti görmədi, yəni heç bir şərh verilməmişdir. Yəqin ki, müəyyən şübhələrin ortaya çıxmasının birinci səbəbi budur.

Digər tərəfdən, müxtəlif ölkələri təmsil edən yüksək vəzifəli şəxslər öz çıxışlarında və öz sözlərində yenə də bir növ Türkiyə-Ermənistan əlaqələrinin normallaşması məsələlərinə əldə edilmiş bir fakt kimi yanaşırdılar və belə olan halda əlbəttə ki, Azərbaycanda müəyyən fikirlər ortaya çıxdı, müəyyən şübhələr oyandı. Aprel ayının ortalarında bu şübhələrə son qoyuldu. Məhz Türkiyənin yüksək vəzifəli şəxsləri – Baş nazirin, Prezidentin birmənalı sözlərindən sonra bu məsələyə son qoyuldu. Artıq mən hesab edirəm ki, bu, tarixdir və biz bu tarixə qayıtmamalıyıq.

O ki qaldı, Azərbaycanın hansısa ölkə ilə yaxınlaşma siyasətinə, biz bütün ölkələrlə normal dostluq münasibətlərinin qurulmasına tərəfdarıq. Azərbaycan-Rusiya münasibətlərinin də çox böyük tarixi vardır və hər iki ölkə üçün bu münasibətlər əhəmiyyətlidir. Onu da qeyd etmək istəyirəm ki, Rusiya Prezidenti cənab Medvedev ilk xarici səfərlərindən birini bir il bundan əvvəl məhz Azərbaycana etmişdir. O səfər zamanı Rusiya ilə Azərbaycan arasında dostluq və strateji tərəfdaşlıq haqqında Müqavilə bağlanmışdır. Bu Müqavilə çox böyük siyasi məna daşıyır. Bizim Rusiya ilə münasibətlərimiz onsuz da yaxındır və hansısa müvəqqəti qeyri-müəyyən vəziyyəti nəzərə alıb əlavə addımlar atmağa ehtiyac yoxdur. Biz istəyirik ki, bütün ölkələrlə münasibətlərimiz yaxın olsun, yaxşı olsun, qarşılıqlı hörmət, etimad, bir-birinin işlərinə qarışmamaq əsasında qurulsun. Bizim qonşularımızla münasibətlər məhz bu məqsədləri güdür və bu əsaslarda qurulubdur.

Üçüncü suala gəldikdə isə, bu məsələnin də son aylar ərzində mövcud olan ab-hava ilə heç bir əlaqəsi yoxdur. Çünki Türkiyə ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlığın uzun tarixi vardır, razılaşdırılmış kontraktda müəyyən müddəalar vardır. O müddəalar tələb edirdi ki, qiymətlərə vaxtaşırı yenidən baxılsın. Amma qiymətin dəyişməsi əlbəttə ki, dünyada neftin qiymətindən asılıdır. Yəni qaz qiymətləri neftin qiymətinə bağlıdır və belə olan halda qiymətlərə vaxtaşırı yenidən baxılır. Bu məsələni, yenə də demək istəyirəm ki, bölgədə yarana biləcək, yaxud, yaranmaqda olan, yaxud da ki, yaranmaqda olmayan hər-hansı yeni bir vəziyyətlə bağlamaq düzgün olmazdı.

SUAL: (ATV, Azərbaycan): Mənim sualımın birinci hissəsi cənab Ərdoğanadır. Bildiyiniz kimi, Türkiyə 2008-ci ildə Rusiyadan qazı 400-450 dollara, Əlcəzairdən 300-350 dollara alırdı. Azərbaycan qazı isə Türkiyəyə 120 dollar civarında satılır. Sizcə, bu nə dərəcədə ədalətlidir və nə üçün bir ildən çoxdur ki, Türkiyə Azərbaycan qazının Avropaya ixrac olunması işinə imkan vermir?

Sualımın ikinci hissəsi Azərbaycan Prezidentinədir. Cənab Prezident, gələcəkdə qaz ixracı ilə bağlı hansı təkliflər nəzərdən keçirilir? Təşəkkür edirəm.

Rəcəb Tayyib ƏRDOĞAN: Təbii ki, ilk müqavilə bağlandığı zamandan bu rəqəm bu işin başladığı vəziyyətdədir. İndiki halda təbii ki, mən bu rəqəmin ədalətli olduğunu hesab etmirəm. Ədalətli rəqəm deyil. Ona görə biz bu gün dəyərli qardaşım, hörmətli Cümhurbaşqanı Əliyevlə bu söhbətləri etdik. ARDNŞ-in başçısı hörmətli Rövnəqlə enerji nazirim bu gün görüşəcəklər və bu görüşmələrdən sonra, inşallah, bunu daha ədalətli bir rəqəmə çatdıracağıq.

İlham ƏLİYEV: Təkliflərə gəldikdə isə, bildiyiniz kimi, Azərbaycanın çox böyük qaz ehtiyatları vardır. Təsdiq edilmiş ən minimum rəqəmlər onu göstərir ki, Azərbaycanın ən azı 2 trilyon kubmetr qaz potensialı vardır və əlavə qazma işlərinin aparılması nəticəsində bu rəqəm ən azı iki dəfə artа da bilər.

Bu gün Azərbaycan qazı Türkiyəyə, Gürcüstana birbaşa ixrac edilir və növbəti illərdə, hər halda müzakirələr onu göstərir ki, bu ixracın həcmi artа da bilər və artmalıdır. Biz "Şahdəniz" yatağının ancaq birinci mərhələsini artıq icra edirik. "Şahdəniz" layihəsinin ikinci mərhələsini başlamaq üçün müəyyən şərtlər olmalıdır. Həm alqı-satqı müqavilələri, eyni zamanda tranzit anlaşması imzalanmalıdır.

Bu yaxınlarda Praqada "Cənub dəhlizi" mövzusunda enerji zirvəsi keçirilmişdir və çox önəmli qərarlar qəbul edilmişdir. Azərbaycan Avropanın enerji təhlükəsizliyi işinə öz töhfəsini verir və verməkdə davam edəcəkdir. Digər tərəfdən, Azərbaycana başqa yerlərdən də təkliflər daxil oldu. Bildiyiniz kimi, qaz bazarı çox genişdir və Azərbaycanın hüdudlarından kənarda hər yerdə Azərbaycan qazına ehtiyac var. Biz digər qonşu ölkələrdən də rəsmi təklifləri aldıq və bu təkliflər indi nəzərdən keçirilir.

Bir sözlə, biz neft sahəsində olduğu kimi, qaz sahəsində də şaxələndirmə siyasətimizi uğurla aparırıq. Bu siyasət bizim maraqlarımıza cavab verir və əminəm ki, bizim üçün dost, qardaş ölkələrin maraqlarına da cavab verir. Hesab edirəm ki, indiki mərhələdə çox ciddi addımlar atılmalıdır ki, qaz sahəsində əməkdaşlıq daha yeni müstəviyə qalxsın. Bu gün əldə edilmiş razılaşmalar daha çox regional xarakter daşıyır. Ancaq həm bizdə potensial var, həm potensial istehlakçılarda maraq var ki, bu əməkdaşlığın həcmi böyüsün və əməkdaşlıq genişlənsin. Azərbaycan etibarlı tərəfdaş kimi bu sahədə öz rolunu davam etməyə hazırdır.

TÜRKİYƏ BAŞ NAZİRİNİN ŞƏRƏFİNƏ

Mayın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın şərəfinə nahar verilmişdir.

SƏFƏR BAŞA ÇATDI

Mayın 13-də Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri başa çatmışdır.

Türkiyənin və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Hava limanında qonağı Azərbaycanın Baş nazirinin müavini Abid Şərifov və digər rəsmi şəxslər yola saldılar.

MOSKVADA AZƏRBAYCAN-RUSİYA ƏLAQƏLƏRİNİN İNKİŞAFI İLƏ BAĞLI MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR

Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Moskvada Rusiya Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkin və MDB İcraiyyə komitəsinin sədri Sergey Lebedev ilə görüşmüşdür.

Rusiya Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkinlə Kremldə keçirilən görüşdə Azərbaycan ilə Rusiya arasında ictimai, siyasi, mədəni əlaqələr, kütləvi informasiya vasitələrində əməkdaşlığa dair müxtəlif məsələlər müzakirə olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin bu yaxınlarda Moskvaya səfəri zamanı yüksək səviyyədə danışıqların nəticələrinə əsasən, iki ölkə arasında iqtisadi, siyasi, sosial və mədəni sahələrdə əməkdaşlığın genişləndirilməsi barədə mühüm qərarlardan irəli gələn məsələlərə toxunulan görüşdə, ölkələrimiz arasında strateji tərəfdaşlığın inkişaf etdirilməsi istiqamətində müvafiq qurumların qarşısında duran vəzifələr də müzakirə edilmişdir.

Görüşdə Azərbaycanın və Rusiyanın gəncləri, ziyalıları və qeyri-hökumət təşkilatları arasında sıx qarşılıqlı əlaqələri daha da möhkəmlətmək barədə də geniş fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun Müstəqil Dövlətlər Birliyi İcraiyyə komitəsinin sədri Sergey Lebedev ilə görüşündə isə Azərbaycanın Birlik ölkələri ilə əlaqələrindən danışılmışdır. Görüşdə MDB çərçivəsində həyata keçirilən layihələrdə Azərbaycanın iştirakı məsələlərinə toxunulmuş, ikitərəfli və çoxtərəfli əməkdaşlığın müxtəlif aspektləri müzakirə edilmişdir.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA TƏŞKİLATIN XOŞMƏRAMLI SƏFİRLƏRİNİN İLLİK TOPLANTISINDA İŞTİRAK ETMİŞDİR

Mayın 14-də Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin illik toplantısı keçirilmişdir. Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva toplantıda iştirak etmişdir.

Mehriban Əliyevanı YUNESKO-nun mənzil-qərargahında təşkilatın yüksək vəzifəli şəxsləri səmimiyyətlə qarşıladılar.

YUNESKO-nun xoşməramlı səfirlərinin illik toplantısı təşkilatın təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə fəaliyyətinin əlaqələndirilməsi, yeni istiqamətlərin müəyyən olunması baxımından xüsusi əhəmiyyət daşıyır. Toplantı ölkəmizdə də həmin sahələrdə həyata keçirilən proqram və layihələr, əldə olunan uğurlar, qarşıda duran vəzifələr barədə məlumat vermək üçün çox önəmli auditoriyadır.

Toplantını YUNESKO-nun baş direktoru Koişiro Matsuura açdı. O, ötən dövrdə həyata keçirilən layihələr, görülən işlər barədə xoşməramlı səfirlərə məlumat verdi. Bildirildi ki, xoşməramlı səfirlər ailəsinə iki yeni üzv qəbul edilib. Onlar Rusiyanın İTAR-TASS agentliyinin baş direktoru Vitali İqnatenko və Kamerunun birinci xanımı Şantal Biyadır. Baş direktor yeni xoşməramlı səfirləri bir daha təbrik etdi.

Koişiro Matsuura YUNESKO-nun dünyada təhsil, səhiyyə, mədəniyyət və digər sosial sahələrlə bağlı problemlərin həllini daim diqqətdə saxladığını, müxtəlif dövlətlər və beynəlxalq qurumlar arasında bu istiqamətdə əməkdaşlığın inkişafında maraqlı olduqlarını dedi.

YUNESKO-nun baş direktoru bu ilin martında Azərbaycanda səfərdə olduğunu, Prezident İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə birgə Beynəlxalq Muğam Mərkəzinin və I-ci Beynəlxalq Muğam Festivalının açılışında iştirak etdiyini bildirdi. Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən festivalın böyük dinləyici auditoriyası topladığını diqqətə çatdıran Koişiro Matsuura vurğuladı ki, bu Fond Azərbaycanın inkişafı naminə böyük işlər görür, muğam sənətinin qorunması, inkişafı və təbliği ilə bağlı həyata keçirilən tədbirlər baxımından çox uğurludur. Koişiro Matsuura bildirdi ki, muğam dünyanın qeyri-maddi mədəni irsi siyahısına daxil edilib və onun inkişafı diqqət mərkəzindədir. Baş direktor Azərbaycan xalqının daha bir musiqi sənətinin - aşıq musiqisinin həmin siyahıya daxil edilməsi istiqamətində iş getdiyini, bu ilin oktyabrında Abu-Dabidə Dünya Qeyri-Maddi Mədəni İrs Komitəsinin iclasında məsələyə baxılacağını bildirdi.

Koişiro Matsuura xoşməramlı səfirlərin ictimai-siyasi həyatdakı fəallığını yüksək qiymətləndirdi və YUNESKO-nun işinə töhfə verdiklərini dedi.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva toplantıda çıxış etdi.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

- Hörmətli dostlar!

Ötən il Heydər Əliyev Fondu üçün dinamik və məhsuldar olmuşdur. Mədəniyyət, təhsil və sosial sahələrdə bir sıra böyük layihələr uğurla həyata keçirilmişdir. Bir neçə gün bundan öncə, biz Heydər Əliyev Fondunun beş illiyini qeyd etdik. Bu münasibətlə biz beş il ərzində Fond tərəfindən görülən işləri əks etdirən kitab nəşr etmişik. Kitab Heydər Əliyev Fondunun məqsədlərini açıqlayır və həyata keçirilmiş layihələr haqqında ətraflı məlumat verir. Bu gün həmin kitabın nüsxələri sizə paylanıb, zənnimcə, bizim qeyri-hökumət təşkilatı kimi əldə etdiyimiz nailiyyətlər haqqında məlumatlarla tanış olmaq sizin üçün maraqlı olacaqdır. Təhsil, səhiyyə və mədəniyyət sahələrində son beş il ərzində gördüyümüz işlər Heydər Əliyev Fonduna həm Azərbaycanda, həm də beynəlxalq ictimaiyyət arasında hörmət və ehtiram qazandırmışdır. Təqdirəlayiq haldır ki, Heydər Əliyev Fondu və Azərbaycan Mədəniyyətinin Dostları Fondu YUNESKO kimi nüfuzlu beynəlxalq təşkilatla sıx əməkdaşlıq etmişdir.

Ötən görüşümüzdən sonra həyata keçirdiyimiz bir sıra birgə layihələr haqqında məlumat vermək istərdim. Cənab Matsuuranın qeyd etdiyi kimi, birinci Beynəlxalq Muğam

Festivalı Heydər Əliyev Fondunun dəstəyi ilə mart ayında Bakıda keçirilmişdir. Beynəlxalq Muğam Mərkəzi rəsmən açılmışdır. Bu mərkəzin tikintisinə 2005-ci ilin avqust ayında başlanmış və cənab Matsuura təməlqoyma mərasimində iştirak etmişdir. Söz verdiyi kimi, o, mart ayında Beynəlxalq Muğam Festivalının açılışında da iştirak etmişdir. Bakıdakı birinci Beynəlxalq Muğam Festivalı əlamətdar hadisə idi və muğam daha geniş auditoriyaya təqdim edildi. Muğam festivalı 14 ölkədən ifaçıları bir araya gətirdi. Beynəlxalq ictimaiyyətin bu tədbirə böyük marağı onun gözəl perspektivlərə malik olduğuna dəlalət edir. Bu səbəbdən biz festivalı hər iki ildən bir keçirmək qərarına gəldik.

Heydər Əliyev Fondu digər xalqların da mədəni irsinin qorunmasına yardım etməyi arzulayır və böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Afrika dövlətlərinin qeyri-maddi mədəni irsinin qorunması layihəsinə maliyyə yardımı göstərməyə hazırdır. Dörd ay üçün nəzərdə tutulmuş bu layihə Afrika dövlətlərindən 26 mütəxəssisi mədəni irsin qorunması sahəsində formalaşdırmaq məqsədi daşıyır. Onlar Afrika dövləti Benində yerləşən məktəbdə kurslara gedəcəklər. Bu məktəb Afrikanın 6 dövləti üçün mütəxəssislər hazırlamaq məqsədi ilə regional təhsil-tədqiqat mərkəzi kimi 1998-ci ildə yaradılmışdır. Layihənin məqsədi Afrikanın mədəni irsinin qorunması və təşviqi sahəsində bacarıqlı mütəxəssislər hazırlamaqdan ibarətdir. Bundan başqa, layihə Afrika ölkələri arasında bu sahədə əməkdaşlıq və təcrübə mübadiləsinə xidmət edir. Əminəm ki, Heydər Əliyev Fondu onun uğurlu olmasına dəyərli töhfə verəcəkdir.

Hörmətli həmkarlar!

Artıq beş il ərzində YUNESKO-nun xoşməramlı səfiri kimi, fəaliyyətimə əsaslanaraq bildirmək istəyirəm ki, YUNESKO ailəsinin üzvü olmaqdan böyük şərəf hissi duyuram. Eyni zamanda, bildirmək istəyirəm ki, bu illər ərzində sizinlə işləyərək göstərdiyimiz səylər, əldə etdiyimiz nailiyyətlər şəxsi həyatımın və peşə fəaliyyətimin ayrılmaz hissəsinə çevrilmişdir. Burada bacarıqlı, istedadlı və çox yaxşı insanlarla, dostlarla tanış olduğuma görə YUNESKO-ya olduqca minnətdaram. Onlar nə isə etməyə, dəyişməyə və ya kiməsə yardım etməyə, ehtiyacı olanları dinləməyə və köməyə hazır olan şəxslərdir.

Yekun olaraq burada gözəl mühit yaratdığına görə YUNESKO-nun baş direktoru cənab Matsuuraya dərin təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda, YUNESKO ideallarının, prinsiplərinin həyata keçirilməsində göstərdiyi şəxsi səylərinə görə ona minnətdaram. Hamınızın adından humanizm ideallarına sadiqliyinə görə cənab Matsuuraya təşəkkürümü bildirmək istəyirəm. Sizə gələcəkdə uğurlar və xoşbəxtlik arzulayıram.

Diqqətinizə görə minnətdaram.

* * *

YUNESKO-nun xoşməramlı səfirləri - İordaniya şahzadəsi xanım Ferial, Litva Prezidenti Valdas Adamkus, Kamerunun birinci xanımı Şantal Biya çıxış edərək öz ölkələrində gördükləri işlər barədə məlumat verdilər, dünyada təhsil, səhiyyə sahələrində problemlərin aradan qaldırılması istiqamətində səylərin artırılmasının vacibliyini vurğuladılar. Xoşməramlı səfirlər dünyanın münaqişələrdən əziyyət çəkən bölgələrində təhsil, səhiyyə və mədəni irsin qorunması ilə bağlı layihələrin həyata keçirilməsi, bu istiqamətdə fəaliyyətin daha da gücləndirilməsi təşəbbüsünə qoşulduqlarını bəyan etmişlər.

YUNESKO-nun xoşməramlı səfiri Marianna Vardinoyannis səhiyyə sahəsində görülən işlərə diqqət çəkdi. O, ölkəsində - Yunanıstanda onkoloji xəstəliklərdən əziyyət çəkən uşaqlar üçün yaradılan şərait və onlara qayğı layihələrindən bəhs etdi. Prezident İlham Əliyevin bu ilin əvvəlində Yunanıstana dövlət səfəri zamanı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın həmin uşaqları ziyarət etdiyini, onların valideynləri ilə görüşdüyünü diqqətə çatdırdı.

Toplantının sonunda xoşməramlı səfirlər xatirə şəkli çəkdirdilər.

Yeri gəlmişkən qeyd edək ki, YUNESKO-nun nəşrlərində ölkəmiz və Azərbaycanın birinci xanımı, xoşməramlı səfir Mehriban Əliyevanın fəaliyyəti haqqında geniş məlumatlar yer almışdır. YUNESKO-da Azərbaycanla bağlı keçirilən mərasimlər, ölkəmizin zəngin mədəniyyəti, tarixi irsi haqqındakı bu nəşrlərdə böyük Avropa ailəsinin üzvü olan respublikamızda Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətindən, həyata keçirdiyi layihələrdən və onların əhəmiyyətindən söhbət açılır.

Toplantı başa çatandan sonra YUNESKO-nun baş direktorunun adından xoşməramlı səfirlərin şərəfinə verilən nahar zamanı Koişiro Matsuuranın fəaliyyətindən, onun ölkəmizə səfərlərindən bəhs edən filmin nümayişi oldu. Heydər Əliyev Fondunun təqdim etdiyi filmdə Koişiro Matsuuranın fəaliyyətinin müxtəlif istiqamətlərinə nəzər salınmış, YUNESKO-nun inkişafındakı xidmətləri xüsusi vurğulanmışdır.

Filmin nümayişindən sonra Koişiro Matsuura Mehriban xanım Əliyevaya təşəkkürünü bildirdi.

Mehriban Əliyeva Heydər Əliyev Fondunun hazırladığı filmin diskini Koişiro Matsuuraya hədiyyə etdi.

AZƏRBAYCAN PARLAMENTİNİN ÜZVLƏRİ SANKT-PETERBURQDA MDB PA-NIN TƏDBİRLƏRİNDƏ İŞTİRAK ETMİŞLƏR

Sankt-Peterburqdakı Tavriçeski sarayında MDB üzvü olan dövlətlərin Parlamentlərarası Assambleyasının 32-ci geniş iclası olmuşdur. İclasın işində Milli Məclisin sədr müavini Bahar Muradovanın başçılığı ilə Azərbaycan parlamentinin nümayəndə heyəti də iştirak edir.

Milli Məclisin sədr müavini, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasını (ATƏT PA) təmsil edən Bahar Muradova iclas iştirakçıları qarşısında çıxış etmişdir. Bahar Muradova ATƏT-in Parlament Assambleyasının sədri Joao Soareşin tapşırığı ilə bu təşkilatı MDB PA-nın iclaslarında təmsil edir.

Bahar Muradova RF parlamentinin yuxarı palatasının spikeri Sergey Mironovu və iclasın bütün iştirakçılarını, o cümlədən beynəlxalq təşkilatların nümayəndələrini səmimi salamlamışdır. O, səmimi qəbul və səmərəli iş üçün gözəl şərait yaratdıqlarına görə rusiyalı dostlara minnətdarlığını bildirmişdir. B.Muradova demişdir: "Mən Azərbaycan Respublikası Milli Məclisinin ATƏT PA-da milli nümayəndə heyətinin rəhbəriyəm. Bu gün isə mənə burada öz ölkəmlə yanaşı, həm də ATƏT-in Parlament Assambleyasını təmsil etmək şərəfi nəsib olmuşdur. Xüsusi vurğulamaq istəyirəm ki, MDB Parlamentlərarası Assambleya kimi, ATƏT PA da gənc qurumdur. Buna baxmayaraq, həmin

təşkilatların hər ikisi Vankuverdən Vladivostoka qədər bütün ATƏT məkanında demokratiyanın inkişafında çox fəal rol oynayır. Bu gün biz Yer kürəsinin bütün vətəndaşları üçün sülhün, təhlükəsizliyin və azadlığın təmin edilməsi məqsədi ilə həmişəkindən daha sıx əlbir olmalıyıq. Bizim fikirlərimizdə və əməllərimizdə ən mühüm məqam insan olmalıdır, bundan ötrü isə biz - parlament təmsilçiləri ATƏT və MDB kimi təşkilatların demokratik əsaslarını bundan sonra da təkmilləşdirməliyik". Onun sözlərinə görə, hər iki təşkilat Avropanın təhlükəsizliyinin arxitekturasında mühüm rol oynamışdır və bu rolu oynamaqda davam edir.

B.Muradova çıxışında yeni risklərin və təhdidlərin aradan qaldırılması üçün müasir təfəkkür və yeni yanaşmalar lazım olduğunu vurğulamışdır. Onun sözlərinə görə, həm ATƏT məkanında, həm də başqa regionlarda çətinliklər var və adamların çoxu hələ də dinc həyat arzusundadır. O demişdir: "Nümunə kimi bizim ölkənin adını çəkmək olar. O hələ də Azərbaycan ərazisinin beşdə bir hissəsini işğal altında saxlamaqda davam edən Ermənistanla müharibə vəziyyətindədir, bu müharibənin nəticələri çox mürəkkəb və ağrılıdır".

B.Muradovanın sözlərinə görə, ATƏT PA-nın himayəsi altında keçirilən müxtəlif forumlarda ən ümdə məsələlərə dair açıq fikir mübadiləsi üçün həmişə şərait yaradılır. B.Muradova demişdir: "Məsələn, lap yaxın vaxtlarda, bu ilin fevral ayında Vyanada ATƏT PA-nın qış sessiyasında Rusiya Prezidenti Dmitri Medvedevin və Fransa Prezidenti Nikola Sarkozinin birgə təklifi əsasında Avropada təhlükəsizliyin yeni arxitekturasına dair açıq fikir mübadiləsi aparılmışdır. Mən həmin diskussiyada şəxsən iştirak etmişəm və hesab ediləm ki, o, yaranmış vəziyyətin beynəlxalq anlamına öz töhfəsini vermişdir.

B.Muradova əmin olduğunu bildirmişdir ki, Avratlantika və Avrasiya ölçülərinə malik olan yeganə təşkilat kimi ATƏT onun əhatə etdiyi bütün məkanda təhlükəsizliyin təmin edilməsində əsas rol oynamalıdır. Azərbaycan parlamentinin təmsilçisi onu da xatırlatmışdır ki, ATƏT PA-nın keçən il Qazaxıstanda keçirilmiş sessiyasının yekun sənədi Astana bəyannaməsi olmuşdur. O demişdir: "Mən fəxr edirəm ki, biz, ATƏT Parlament Assambleyasının üzvləri - ən müxtəlif ölkələrin parlament üzvlərinin daxil olduğu bizim təşkilat bu cür mühüm sənədləri birlikdə hazırlamağı və qəbul etməyi bacarır". B.Muradova gender bərabərliyinə, fəaliyyətimizdə və təsisatlarımızda daha artıq transparentliyə nail olmaq məsuliyyəti məsələlərinə toxunaraq demişdir: "Biz bu mühüm məsələlərə dair debatlara başlamışıq və ölkələrimizdə həmin problemlərin həllinə diqqətin artırılması üçün bundan sonra da bizdən asılı olan hər şeyi edəcəyik".

Milli Məclisin sədr müavini qeyd etmişdir ki, hər iki təşkilat düşmənçilik məqsədləri güdən süni bölgüləri istisna edən ümumi problemlərə birgə yanaşma işləyib hazırlamalıdır. Azərbaycan parlamentinin təmsilçisi sonda demişdir: "Bununla əlaqədar ATƏT PA MDB PA-dan olan həmkarları ilə əməkdaşlığın daha da inkişaf edəcəyinə və dərinləşəcəyinə ümid edir".

İclasda nəzərdən keçirilən məsələlər arasında MDB üzvü olan ölkələrdə müasir gənclik siyasətinin qanunvericilik əsaslarının formalaşmasına xüsusi diqqət yetirilmişdir. Bu məsələ barədə Azərbaycan adından Milli Məclisin deputatı Arif Rəhimzadə məruzə ilə çıxış etmişdir.

Elə həmin gün MDB PA-nın dörd daimi komissiyasının iclasları keçirilmişdir. Arif Rəhimzadənin təmsil etdiyi sosial siyasət və insan hüquqları komissiyasında "Dövlətdə uşaq hüquqlarının əsas təminatları haqqında" model qanunun yeni redaksiyasının layihəsi haqqında, "MDB iştirakçısı olan dövlətlərdə müasir gənclik siyasətinin prioritet istiqamətləri haqqında" Bəyannamə layihəsi haqqında və bir sıra başqa məsələlərə baxılmışdır.

Aqrar siyasət, təbii ehtiyatlar və ekologiya komissiyasının işinə sədrlik edən Milli Məclisin deputatı Elton Məmmədov "Xəzər dənizinin karbohidrogen ehtiyatlarının mənimsənilməsində dəniz mühitinin ekoloji təhlükəsizliyinin təmin edilməsi məsələsinə dair" məruzə ilə çıxış etmişdir.

Müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyanın iclasında "Terrorizmə qarşı mübarizə haqqında" model qanunun yeni redaksiyasına dəyişiklik və əlavələrin layihəsi haqqında, "Uşaqların onların sağlamlığına, mənəvi və əxlaqi inkişafına zərər vuran informasiyadan qorunması haqqında" model qanunun layihəsi haqqında məsələlər müzakirə edilmişdir.

Siyasi məsələlər və beynəlxalq əməkdaşlıq komissiyasının iclasında həmin komissiyanın sədr müavini Əli Hüseynov iştirak etmişdir. İclasda "Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilməsinə dair referendumun (18 mart 2009-cu il) müşahidəsində MDB PA-dan olan müşahidəçilər qrupunun iştirakı haqqında", "Seçkilərin müşahidəsinə dair ümumi beynəlxalq standartlar sahəsində MDB PA-nın beynəlxalq təşkilatlarla əməkdaşlığı haqqında", "Türkmənistan Məclisinə seçkilər haqqında" və bir sıra başqa məsələlərə baxılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİ BERNAR FASYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Bernar Fasyeni qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması barədə danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ƏDALƏTLİ OYUNLAR HƏRƏKATININ İCRAÇI KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Avropa Ədalətli Oyunlar Hərəkatının İcraçı Komitəsinin nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev ölkəmizin regiondakı rolu və idmanın inkişafı barədə qonaqlara məlumat verərək bildirdi ki, Azərbaycanda Milli Olimpiya Hərəkatı uğurla davam edir. Bunun sayəsində Azərbaycan idmançıları Olimpiya oyunlarında və digər beynəlxalq idman yarışlarında yüksək nəticələr əldə edirlər.

Ölkəmizdə idmanın inkişafı üçün yaradılan infrastruktur barədə danışan Prezident İlham Əliyev dedi ki, indi Azərbaycanın hər yerində beynəlxalq standartlara cavab verən idman qurğuları tikilib və dünyada hökm sürən böhrana baxmayaraq bu proses bu gün də davam etdirilir.

Dövlətimizin başçısı qeyd etdi ki, 2016-cı il Olimpiya oyunlarının Bakıda keçirilməsi barədə müraciətimiz müsbət həll olunmasa da bu, bizi ruhdan salmır. Çünki, bu, bizim ilk cəhdimiz idi. Təcrübə göstərir ki, dünyanın heç bir ölkəsi ilk cəhddən buna nail ola bilməmişdir.

İdmanın Azərbaycanın ictimai həyatının mühüm amilinə çevrildiyini diqqətə çatdıran Prezident İlham Əliyev bu sahədə beynəlxalq qurumlarla əlaqələrə mühüm əhəmiyyət verildiyini söylədi. Dövlətimizin başçısı bu baxımdan Avropa Ədalətli Oyunlar Hərəkatının İcraçı Komitəsinin nümayəndə heyətinin ölkəmizə səfərinin də əməkdaşlığı genişləndirmək baxımından faydalı olacağını dedi.

Avropa Ədalətli Oyunlar Hərəkatının prezidenti Karlos Qonsalves nümayəndə heyətinin üzvlərini Azərbaycan Prezidentinə təqdim etdi. Qonaq 1974-cü ildən qeyri-hökumət idman təşkilatı kimi İsveçrədə yaranan və 40 idman ailəsini özündə birləşdirən Avropa Ədalətli Oyunlar Hərəkatı İcraçı Komitəsi adından dövlətimizin başçısına səmimi qəbula görə təşəkkür etdi.

Azərbaycan Milli Olimpiya Komitəsinin yarandığı vaxtdan bəri keçdiyi inkişaf yolundan və qazandığı uğurlardan xəbərdar olduqlarını söyləyən Karlos Qonsalves, Azərbaycanın Avropanın Ədalətli Oyunlar Hərəkatına verdiyi dəstəyi və onun fəaliyyətində yaxından iştirakını nəzərə alaraq Avropanın Ədalətli Oyunlar Hərəkatının İcraçı Komitəsinin ötən ilin mayında Nikosiya şəhərindəki iclasında qurumun 15-ci konqresinin bu ilin oktyabrında Bakıda keçiriləcəyinə dair yekdilliklə qərar qəbul edildiyini bildirdi.

Əsas mövzusunun ədalətli oyunların mədəniyyətlərarası dialoqda rolundan ibarət olacaq konqresdə Avropanın 30-a yaxın milli ədalətli oyunlar təşkilatının mütəxəssisləri iştirak edəcəklər.

Son illərdə Azərbaycanın idmanda qazandığı böyük nailiyyətlərdən danışan Karlos Qonsalves Prezident İlham Əliyevin bu sahədə xidmətlərindən xəbərdar olduqlarını söyləyərək dedi:

- Zati-alilərı, idman fəaliyyətlərinizdə və gündəlik həyatınızda olimpiya tərbiyəsinin, ədalətli oyunlar dəyərlərinin və prinsiplərinin vacibliyinə yönələn bütün təşəbbüslərə verdiyiniz hərtərəfli dəstəyi də bilirik. Buna görə də Olimpiya Ədalətli Oyunlar Hərəkatının İcraçı Komitəsi Sizin təşkilatın tarixində ilk dəfə olaraq Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanı ilə təltif edilməyinizə dair qərar qəbul etmişdir. Bu, ümumi məqsədlərimizə nail olmaq üçün verdiyiniz böyük töhfələrə görə bizim Sizə dərin minnətdarlığımızın ifadəsidir.

Səmimi qəbula görə Sizə bir daha minnətdarlığımızı bildiririk. Zati-alilərı, icazə verin Avropa ədalətli oyunlar ictimaiyyəti adından Azərbaycan xalqına ən xoş arzularımızı, sülh və əmin-amanlıq diləklərimizi çatdırım. Zati-alilərı, bir daha təşəkkür edirəm.

Sonra Avropa Ədalətli Oyunlar Hərəkatının vitse-prezidenti Ərdoğan Arpinar çıxış etdi:

- Möhtərəm Prezident, Azərbaycan xalqının yüzdə yüz çoxluğu ilə Sizi təkrar bu ali vəzifəyə gətirdiyi üçün təbrik edirik. Türkiyə buna görə çox məmnundur. Şərəfli vəzifənizə layiq olduğunuzu hər bir işdə göstərdiniz.

Xatırlayırsınızsa, Azərbaycan Milli Olimpiya Komitəsinin 15-ci ildönümü tədbirində mən də iştirak edirdim. Orada Xəzər və Çingiz müəllimlə birlikdə bizə deyildi ki, toplantını keçirin və söz verildi. Bu toplantı ona görə həyata keçirilir. Göründüyü kimi, Azərbaycan Prezidenti nə söz verirsə, o sözün üstündə durur.

Ərdoğan Arpinar Azərbaycanın idman ictimaiyyətinin də qurumun fəaliyyətinə verdiyi dəstəkdən razılığını bildirdi və Bakıdan başlanan bu estafetin digər ölkələrə də örnək olacağını söylədi.

Sonra Karlos Qonsalves və Ərdoğan Arpinar Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanını dövlətimizin başçısına təqdim etdilər.

Prezident İlham Əliyev yüksək mükafata görə təşəkkürünü bildirərək dedi ki, bu mükafatı Azərbaycanda həyata keçirilən bütün işlərə dəstəyin əlaməti hesab edir. Dövlətimizin başçısı dedi:

- Bizim Azərbaycanda idmanın inkişafına münasibətimiz çox genişdir. Bu, təkcə beynəlxalq standartlara cavab verən yeni idman qurğularının yaradılması ilə deyil, həmçinin idmanın və Olimpiya hərəkatının Azərbaycanda geniş vüsət alması ilə ölçülür. Bu, idmançılara, idman veteranlarına olan böyük dəstəyin və hörmətin, ölkədə gənc nəsil arasında idmanın inkişaf etdirilməsinə yönələn səylərin əlamətidir. Təbii ki, bir istiqamətdə əldə olunan nailiyyət digər istiqamətdə öz töhfəsini verir. Gənc idmançılarımız Olimpiya oyunlarının qalibi olanda biz dərhal uşaqlar arasında idmana marağın artmasının şahidi olduq. İdmançılar cəmiyyətimizdə çox hörmətli şəxslərə çevriləndə bu, gənc nəsli öz bacarıqlarını sınamağa sövq edir. İndi bizim çox müasir idman infrastrukturumuz var və idmanda bacarıqları sınamaq üçün hamıya yaxşı şərait yaradılmışdır.

Dövlətimizin başçısı Avropa Ədalətli Oyunlar Hərəkatının idman etik normalarının bərqərar olunmasında və bütövlükdə dünyada Olimpiya hərəkatındakı rolunu yüksək qiymətləndirdi və qurumun fəaliyyətinin Olimpiya ideyalarına, yəni dostluğa, əməkdaşlığa, bütün müxtəlif etnik və dini mənsubiyyətli insanlar arasında ünsiyyətə əsaslandığını vurğuladı.

Prezident İlham Əliyev idmanın təkcə nəticə, qələbə və ya uğurdan ibarət olmadığını, onun həm də sülhün bərqərar olunmasında, təhlükəsizliyin təmin edilməsində, mədəniyyətlər və dinlər arasında dialoqun yaradılmasında çox mühüm bir vasitə olduğunu dedi.

Azərbaycan Prezidenti ölkəmizdə bütün beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdırdı və oktyabrda Avropa Ədalətli Oyunlar Hərəkatının konqresinin də Bakıda uğurla keçəcəyinə əminliyini bildirdi.

Qurumun gördüyü işlərə dəstəyini əsirgəməyəcəyini söyləyən dövlətimizin başçısı, Azərbaycanın Cənubi Qafqazda və Mərkəzi Asiyada təkcə coğrafi mövqeyi və iqtisadi potensialı ilə deyil, həm də idman sahəsində nailiyyətləri ilə fərqləndiyini vurğuladı.

Prezident İlham Əliyev dövlət başçısı olmaqla yanaşı, Milli Olimpiya Komitəsinə rəh-

bərlik etdiyini də söylədi və bildirdi ki, ölkə həyatının bütün sahələri kimi, idmanın inkişafına da qayğı daim diqqətdədir.

Dövlətimizin başçısı Avropa Ədalətli Oyunlar Hərəkatının nümayəndələrinə uğurlar arzuladı.

Görüşdən sonra xatirə şəkli çəkdirildi.

AZƏRBAYCAN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN LİTVAYA RƏSMİ SƏFƏRİ

Mayın 14-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyətinin Litva Respublikasına rəsmi səfəri başlamışdır.

Milli Məclisin mətbuat katibi Akif Nəsirov bildirmişdir ki, deputatlardan Musa Quliyev, Əhməd Vəliyev, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslərin daxil olduğu nümayəndə heyəti mayın 15-də Litva Prezidenti Valdas Adamkusla görüşmüşlər.

İkitərəfli münasibətlərin bir sıra istiqamətlərinin diqqət mərkəzində olduğu görüşdə ölkələrimiz arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Litva Prezidenti dövlətimizin başçısı İlham Əliyevlə görüşlərini xatırlayaraq, Azərbaycanın daxili və xarici siyasətini, xüsusilə də Avropanın enerji təhlükəsizliyinin qorunması istiqamətində atdığı addımları yüksək dəyərləndirmişdir.

Azərbaycan nümayəndə heyəti Litva Respublikasının Baş naziri Andryus Kubilyus ilə də görüşmüşdür.

Baş nazir belə səfərlərin qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini yüksək qiymətləndirmiş, ümumi maraqlarımızın həyata keçirilməsində geniş perspektivlər açacağına əminliyini ifadə etmişdir.

Səmimi qəbul üçün təşəkkürünü bildirən Milli Məclisin sədri Oqtay Əsədov Azərbaycan-Litva əlaqələrinin bəzi aspektlərini müzakirə etmək üçün yaranmış imkanı yüksək qiymətləndirmiş, ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın bir sıra istiqamətlərinə toxunmuşdur.

Görüşdə iqtisadi, mədəni, enerji ehtiyatlarından istifadə, Avropanın enerji təhlükəsizliyinin təminatı, dövlətlərarası əlaqələrin inkişafında parlamentlərin rolu və digər məsələlər müzakirə olunmuşdur.

Səfər zamanı Azərbaycan parlament nümayəndə heyəti Litva Respublikası Seyminin sədri Arunas Valinskas ilə görüşmüşdür.

Əvvəlcə parlament sədrləri Azərbaycan və Litvanın dövlət bayraqları önündə xatirə şəkli çəkdirmişlər.

Görüşdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, bu sahədə əməkdaşlığın daha da dərinləşdirilməsi, dostluq qruplarının fəaliyyətinin gücləndirilməsi, beynəlxalq təşkilatlarda, parlament assambleyalarında qarşılıqlı əməkdaşlığın genişləndirilməsi,

təcrübə mübadiləsi, Tvininq layihəsinin əhəmiyyəti və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Söhbət zamanı Azərbaycanın üzləşdiyi ən ağrılı problem - Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun həlli, Ermənistanın təcavüzkar siyasətinin acı nəticələri və Azərbaycan həqiqətləri bir daha diqqətə çatdırılmış, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

Sonra Milli Məclisin sədri Oqtay Əsədov Seymin xatirə kitabına ürək sözlərinin yazmışdır.

Səfər çərçivəsində nümayəndə heyəti Vilnüs şəhərinin tarixi yerləri ilə də tanış olmuşdur.

XARİCİ İŞLƏR NAZİRİ İRAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİ MƏHƏMMƏDBAQİR BƏHRAMİNİ ETİMADNAMƏLƏRİNİN SURƏTİNİ TƏQDİM ETMƏSİ İLƏ BAĞLI QƏBUL ETMİŞDİR

Mayın 15-də xarici işlər naziri Elmar Məmmədyarov İran İslam Respublikasının Azərbaycana yeni təyin olunmuş səfiri Məhəmmədbaqir Bəhramini etimadnamələrinin surətini təqdim etməsi ilə bağlı qəbul etmişdir.

Səfir M. Bəhrami Azərbaycana təyinatından məmnunluğunu bildirmiş, fəaliyyəti dövründə Azərbaycan-İran münasibətlərinin daha da dərinləşəcəyinə xidmət edəcəyini söyləmişdir.

Öz növbəsində, nazir E.Məmmədyarov cənab Bəhramini yeni təyinatla əlaqədar təbrik etmiş və növbəti dövr ərzində iki ölkə arasında əməkdaşlığın daha da genişlənməsi üçün mövcud imkanlardan istifadə ediləcəyinə ümidvar olduğunu bildirmişdir.

Görüşdə Azərbaycan-İran münasibətlərinin hazırki vəziyyəti və inkişaf perspektivləri müzakirə olunmuşdur.

MİLLİ MƏCLİSİN NÜMAYƏNDƏ HEYƏTİ İKİNCİ BEYNƏLXALQ MOSKVA KONQRESİNİN İŞİNDƏ İŞTİRAK ETMİŞDİR

Mayın 15-də Sankt-Peterburqdakı Tavriçeski sarayında RF Hökumətinin dəstəyi ilə MDB üzvü olan dövlətlərin Parlamentlərarası Assambleyası (MDB PAA), Avropa Şurası Parlamentlərarası Assambleyası və Rusiya Federal Məclisinin Federasiya Şurası tərəfindən təşkil edilmiş İkinci Beynəlxalq Neva Konqresi keçirilmişdir.

Konqresin işində Azərbaycan Milli Məclisinin nümayəndə heyəti - parlament sədrinin müavini Bahar Muradova, Regional Məsələlər Komitəsinin sədri Arif Rəhimzadə, Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri Əli Hüseynov, Təbii Ehtiyatlar, Energetika və Ekologiya Komitəsinin sədr müavini Elton Məmmədov, Milli Məclisin MDB PAA-da daimi nümayəndəsi, MDB PAA Baş katibinin müavini Aydın Cəfərov iştirak etmişdir.

Konqresin açılışında Rusiya prezidenti Dmitri Medvedevin və RF Hökumətinin sədri

Vladimir Putinin Konqresə təbrikləri oxunmuşdur.

Neva Konqresinin məqsəd və vəzifələri haqqında məruzə ilə RF Federasiya Şurasının və MDB PAA Şurasının sədri Sergey Mironov və təşkilat komitəsinin həmsədri, Avropa Şurası Parlament Assambleyasının sədri Luis Mariya de Puç çıxış etmişdir. Qeyd edilmişdir ki, Neva Konqresinin əsas məqsədi beynəlxalq ekoloji təhlükəsizlik sisteminin formalaşması, təbii ehtiyatlardan istifadə və onların idarə edilməsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, bioloji müxtəlifliyin qorunub saxlanması və ekoloji fəlakətlərə qarşı mübarizə məsələlərini müzakirə etməkdir. 2008-ci ilin dekabrında keçirilmiş birinci Neva Konqresində əldə edilmiş razılaşmaya görə, ekoloji təhlükəsizliyin təmin edilməsi müxtəlif ölkələrin, təşkilatların və hər bir insanın məsuliyyəti ilə birbaşa əlaqədar olan qlobal vəzifə hesab edilməlidir.

Plenar iclaslarda və tematik "dəyirmi masa"larda enerji ehtiyatlarından istifadə və ətraf mühitin qorunması, MDB üzvü olan dövlətlərin və Avropa Şurasının üzvü olan ölkələrin ekoloji qanunvericiliyinin uyğunlaşdırılması, enerji ehtiyatlarından istifadənin ekoloji təhlükəsizliyinin artırılması, ekoloji sistemlərin qorunub saxlanması, habelə texnogen ekoloji fəlakətlərin, iqlim dəyişməsi ilə əlaqədar təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə uğurlu strategiya və proqramların həyata keçirilməsinə istiqamətində informasiya və təcrübə mübadiləsi məsələlərinə dair geniş müzakirələr olmuşdur.

"Energetikada ekoloji təhlükəsizlik" mövzusunda "dəyirmi masa" çərçivəsində yanacaq-energetika kompleksində ekoloji təhlükəsizlik, atom elektrik stansiyalarının təhlükəsizliyi, tullantılardan istifadə edilməsi, energetika sahəsində tullantıların basdırılması və təkrar emalı problemləri, bir sıra digər məsələlər müzakirə edilmişdir. "Dəyirmi masa"nın moderatorlarından biri, Milli Məclisin deputatı Elton Məmmədov müzakirələrdə çıxış etmişdir. Ekoloji təhlükəsizlik məsələləri "Ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində transsərhəd əməkdaşlıq", "Əhalinin sağlamlığı və ətraf mühit: vətəndaş cəmiyyəti təhlükəsiz energetikanın tərəfdarıdır", "İnsanın yaşayış mühitinin ekoloji problemləri və energetika ehtiyatlarından davamlı istifadənin təmin edilməsi", "Su ehtiyatlarının ekologiyası" mövzularına həsr edilmiş "dəyirmi masa"lar çərçivəsində də geniş müzakirə edilmişdir. Deputatlar Arif Rəhimzadə və Əli Hüseynov diskussiyalarda fəal iştirak etmiş, müzakirə edilən məsələlər barəsində Azərbaycanın mövqeyini bildirmişlər.

Konqres çərçivəsində "Ekoloji təhlükəsizlik və enerji ehtiyatları" mövzusunda sərgi təşkil edilmişdir.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA GENİŞMİQYASLI LAYİHƏLƏRƏ BAŞLANILMIŞDIR

Azərbaycan Diplomatik Akademiyası xarici diplomatların da bu təhsil ocağında təcrübələrin artırılması üçün genişmiqyaslı layihələrə başlamışdır.

Bu layihələr çərçivəsində Azərbaycanın Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə Əfqanıstanın xarici siyasət idarəsinin dörd nümayəndəsi mayın 5-dən 14-dək Akademiyada keçirilmiş "İctimai diplomatiya" mövzusunda seminarda iştirak etmişlər.

Yaxın vaxtlarda İraq və Gürcüstan diplomatlarının da Azərbaycana səfəri gözlənilir.

PREZİDENT YANINDA STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNİN RƏHBƏRİ ABŞ-DA SƏFƏRDƏDİR

Nyu-Yorkda Kolumbiya Universiteti nəzdindəki Enerji, Dəniz Nəqliyyatı və İctimai Siyasət Mərkəzində "Enerji və digər təbii sərvətlər sahəsində investisiya münasibətlərində münaqişələrin qarşısının alınması və idarə edilməsi" mövzusunda konfrans keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Nuriyev konfransı "Geniş dialoq siyasəti: ümumi baxışların tapılmasına yönəlmiş qlobal və regional təşəbbüslər" mövzusundakı sessiyasında əsas məruzəçi qismində çıxış etmişdir.

Azərbaycanın balanslı xarici siyasət kursundan danışan məruzəçi bölgədəki münaqişələrin ədalətli həlli, region ölkələrinin ümumi əmin-amanlığı və rifahı naminə dövlətimizin qonşuları ilə sıx əməkdaşlığa can atdığını diqqətə çatdırmışdır.

Konfrans çərçivəsində Beynəlxalq və İctimai Əlaqələr Məktəbinin dekanı Con Kotsvors ilə görüşdə Azərbaycanın ABŞ-ın ali təhsil və siyasi elmlər üzrə tədqiqat müəssisələri ilə sıx əlaqələrin qurulmasında maraqlı olduğunu bildirmişdir. C.Kotsvors Kolumbiya Universitetinin Azərbaycana bir neçə istiqamət üzrə, o cümlədən dövlət qulluqçularının və dövlət rəsmilərinin idarəetmə sahəsində təhsili, elmi tədqiqatla məşğul olan alimlərin mübadiləsi sahəsində kömək edə biləcəyini söyləmişdir. O, azərbaycanlı tələbələrin Beynəlxalq və İctimai Əlaqələr Məktəbində elmi dərəcə almağa daha çox maraq göstərəcəklərinə ümidvar olduğunu vurğulamışdır. Bildirilmişdir ki, Kolumbiya Universiteti mayın 16-da Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 91-ci ildönümünə həsr olunmuş konfransa da ev sahibliyi edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin rəhbəri ABŞ-ın aparıcı tədqiqat mərkəzlərində Azərbaycanın xarici siyasətinə, dövlətimizin dünya enerji təhlükəsizliyi sistemində oynadığı rola və Qarabağ münaqişəsinə həsr olunmuş çıxışlar edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN SABİQ PREZİDENTİ ARNOLD RÜYTELİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Estoniyanın sabiq Prezidenti Arnold Rüyteli qəbul etmişdir.

Estoniyanın sabiq Prezidenti xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini ehtiramla xatırladı, istər sovetlər dönəmində, istərsə də müstəqilliyin ilk illərində xalqlarımızın üzləşdiyi ən çətin və böhranlı vaxtlarda ulu öndərin dəstəyini daim yaxından hiss etdiyini vurğuladı.

Dövlətimizin başçısı Estoniyanın sabiq Prezidenti Arnold Rüytelin ulu öndərlə həmişə yaxşı münasibətlərindən xəbərdar olduğunu dedi. Prezident İlham Əliyev dövlət başçıları arasında şəxsi münasibətlərin ikitərəfli əlaqələrin daha da genişlənməsində mühüm rol oynadığını vurğulayaraq, hazırda Azərbaycan-Estoniya münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin adından Estoniyanın sabiq Prezidenti Arnold Rüütelin şərəfinə nahar verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏ KONFEDERASİYASININ XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT KATİBİ MİXAEL AMBÜLÜ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də İsveçrə Konfederasiyasının xarici işlər üzrə dövlət katibi Mixael Ambülü qəbul etmişdir.

İsveçrə Konfederasiyasının xarici işlər üzrə dövlət katibi Mixael Ambül Azərbaycan ilə İsveçrə arasında siyasi sahədə dialoqun və məsləhətləşmələrin aparılmasının əhəmiyyətini vurğulayaraq səfərinin bu istiqamətdə əməkdaşlığın daha da genişləndirilməsi işinə yaxşı imkan yaratdığını qeyd etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin sürətlə və uğurla inkişaf etdiyini bildirdi. İkitərəfli əlaqələrlə və regional vəziyyətlə bağlı fikir mübadiləsi aparmağın önəmini qeyd edən Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, İsveçrə Konfederasiyasının xarici işlər üzrə dövlət katibi Mixael Ambülün ölkəmizə bu səfəri ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məmmədbaqir Bəhraminin etimadnaməsini qəbul etmişdir.

Səfir Prezident sarayında fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Məmmədbaqir Bəhrami etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin böyük tarixə malik olduğunu dedi, yüksək səviyyəli qarşılıqlı səfərlərin bu əlaqələrin genişlənməsindəki əhəmiyyətini vurğuladı. Səfirə fəaliyyətində uğurlar arzulayan Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Məmmədbaqir Bəhraminin ölkəmizdə fəaliyyəti müddətində Azərbaycan ilə İran arasında münasibətlər daha da genişlənəcəkdir.

Səfir Məmmədbaqir Bəhrami İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli sahələrdə əlaqələrin daha da genişləndirilməsinin vacibliyini qeyd etdi.

Dövlətimizin başçısı Prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN İLƏ BÖYÜK BRİTANİYA ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Mayın 19-da Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici və Birlik Ofisinin Siyasi İdarəsinin Rusiya, Cənubi Qafqaz və Orta Asiya Departamentinin direktoru Maykl Davenport ilə görüşmüşdür.

Görüşdə Azərbaycan-Britaniya əlaqələrinə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və onun həlli yollarına, regionda vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ SƏNAYESİ FEDERAL NAZİRİ ƏBDÜL QƏYYUM XAN CATOYU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Pakistan İslam Respublikasının müdafiə sənayesi federal naziri Əbdül Qəyyum Xan Catoyu qəbul etmişdir.

Əbdül Qəyyum Xan Catoy Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdarinin və Baş nazir Seyid Yusif Rza Gilaninin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Azərbaycanın Pakistan üçün dost və qardaş ölkə olduğunu vurğulayan Əbdül Qəyyum Xan Catoy bildirdi ki, Azərbaycana bu səfəri rəhbərlik etdiyi nazirliklə Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi arasında gələcək əməkdaşlıqla bağlı müzakirələr aparmaq üçün yaxşı imkan yaradır.

Dövlətimizin başçısı Azərbaycan ilə Pakistan arasında əlaqələrin bütün istiqamətlərdə, o cümlədən müdafiə sənayesi sahəsində də uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Pakistana səfərini və həmin səfər zamanı Müdafiə Sənayesi Nazirliyi nəzdində Hərbi İxraca Yardım Təşkilatının istehsalı olan məhsulların nümayiş etdirildiyi sərgi ilə tanışlığını xatırladı. Qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Pakistanın müdafiə sənayesi federal naziri Əbdül Qəyyum Xan Catoyun ölkəmizə bu səfəri müdafiə sənayesi sahəsində əməkdaşlığımızın daha da genişlənməsi işinə xidmət edəcəkdir.

Prezident İlham Əliyev Pakistan Prezidenti Asif Əli Zərdarinin və Baş nazir Seyid Yusif Rza Gilaninin salamlarına və ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Pakistanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQI ŞURASININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Avropa İttifaqı Şurasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr, "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlıq və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTAN PARLAMENTİNİN AVROPA İŞLƏRİ ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ MATYAS EÖRŞİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Macarıstan Parlamentinin Avropa İşləri üzrə komitəsinin sədri Matyas Eörşinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycanın regionda lider dövlətə çevrildiyini bildirən Macarıstan Parlamentinin Avropa İşləri üzrə Komitəsinin sədri Matyas Eörşi "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Azərbaycanın ölkəsi ilə əməkdaşlığını yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı Macarıstana səfərini xatırladı və bu səfərin uğurla keçdiyini qeyd etdi. Ölkələrimiz arasında ikitərəfli münasibətlərə, eyni zamanda Avropa İttifaqı çərçivəsində əməkdaşlığa toxunan Prezident İlham Əliyev "Şərq tərəfdaşlığı" proqramının Azərbaycanın Avropa İttifaqı ilə daha sıx əməkdaşlıq etməsinə şərait yaradacağına əminliyini bildirdi.

XARİCİ İŞLƏR NAZİRİ SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QƏBUL ETMİŞDİR

Mayın 19-da xarici işlər naziri Elmar Məmmədyarov Slovakiya Respublikasının xarici işlər nazirinin müavini Olqa Alqayerovanı qəbul etmişdir.

O.Alqayerova ölkəmizə səfərinin məqsədinin əməkdaşlığın genişləndirilməsi imkanlarını öyrənməkdən ibarət olduğunu vurğulamış, habelə əlaqələrin intensivləşdirilməsi üçün yüksək səviyyəli nümayəndə heyətlərinin səfərlərinin təşkilinin vacibliyini qeyd etmişdir. O.Alqayerova ümidvar olduğunu bildirmişdir ki, Azərbaycanın Bratislavada fəxri konsulluğunun açılması, iki ölkə arasında hüquqi-normativ bazanın inkişaf etdirilməsi, enerji və digər sektorlar üzrə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi əlaqələrin genişləndirilməsinə töhfə verəcəkdir.

Qonaq bir sıra Slovakiya şirkətlərinin Azərbaycanda nəqliyyat-infrastruktur layihələrində iştirak etdiyini, iqtisadi əlaqələrin daha da inkişafı üçün biznes forumların keçirilməsinin faydalı olacağını qeyd etmişdir. Slovakiyanın Azərbaycanla Aİ-nin Şərq Tərəfdaşlığı çərçivəsində də əməkdaşlığın inkişaf etdirilməsi istəyində olduğunu qeyd edərək və bu istiqamətdə Azərbaycanın məsələyə münasibətinin və təkliflərinin maraqlı olduğunu vurğulamışdır.

Nazir E.Məmmədyarov Slovakiyanın Azərbaycana marağını yüksək qiymətləndirərək, bunun qarşılıqlı olduğunu bildirmiş, xüsusilə də Aİ-nin yeni üzv ölkələrindən biri kimi Slovakiya ilə yaxın əlaqələrin qurulmasının Azərbaycanı Avropada daha yaxşı tanıtmağa imkan yaratdığını qeyd etmişdir. Əlaqələrin genişləndirilməsi üçün Slovakiya tərəfindən qaldırılan bütün istiqamətlərin vacibliyini bölüşmüş, habelə iki ölkənin XİN-lərinin diplomatik akademiyaları arasında əməkdaşlığın, mədəniyyət günlərinin mübadiləsinin də məqsədəmüvafiqliyini diqqətə çatdırmışdır.

Aİ-nin Şərq Tərəfdaşlığına münasibətdə E.Məmmədyarov Azərbaycanın bu əməkdaşlığın bir-biri ilə sıx bağlı olan təhlükəsizlik, iqtisadi, humanitar sahələr kimi 3 səbət üzrə inkişaf etdirilməsində maraqlı olduğunu bildirmişdir. Təhlükəsizlik səbətində əsas məsələ kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının vacibliyini bildirən E.Məmmədyarov bu münaqişə həll edilməyənədək regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsinin mümkün olamayacağını, münaqişənin həllinin regionun inkişafı üçün yeni imkanlar açacağını diqqətə çatdırmış, habelə, münaqişənin həllinə dair Azərbaycanın mövqeyi ilə bağlı ətraflı məlumat vermişdir.

Şərq Tərəfdaşlığında iqtisadi səbət üzrə müxtəlif layihələrin həyata keçirilməsi, humanitar səbət üzrə isə viza rejiminin sadələşdirilməsi, təhsil proqramları üzrə əməkdaşlıqda ölkəmizin maraqlı olduğunu qeyd etmişdir.

Görüşdə, habelə, birgə maraq kəsb edən digər ikitərəfli, regional, qlobal mövzular ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ KUBA ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZIŞ İMZALANMIŞDIR

Mayın 19-da Bakıda Azərbaycan-Kuba Hökumətlərarası Komissiyanın ikinci iclası keçiriləcəkdir.

İclas çərçivəsində mayın 18-də mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Kuba Respublikasının Xarici ticarət və xarici investisiyalar nazirinin müavini Rikardo Gerrero və onun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ə.Qarayev demişdir ki, qarşılıqlı səfərlər ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafında mühüm əhəmiyyət daşıyır.

Son illərdə Azərbaycanda turizmin inkişafına xüsusi önəm verildiyini diqqətə çatdıran nazir bildirmişdir ki, teatr binaları, mədəniyyət ocaqları, tarixi abidələr yenidən bərpa edilir və ölkəmizin turizm potensialı daha da möhkəmləndirilir. Görülən işlər nəticəsində cari ildə Azərbaycan bir çox mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir.

Nazir vurğulamışdır ki, üç ay bundan öncə Kubada olarkən bu ölkənin turizm naziri Manuel Marrero Krus ilə görüşmüşdür. Görüş zamanı iki ölkə arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş imzalanmış, habelə səfər çərçivəsində qarşılıqlı mədəniyyət günlərinin təşkil olunmasına dair ümumi razılıq əldə olunmuşdur. Kubada Azərbaycan mədəniyyət günlərinin keçirilməsi 2010-cu ilin fevral-mart ayına planlaşdırılmışdır.

Səmimi görüşə və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Rikardo Gerrero ölkəsinin Azərbaycanla mədəniyyət, turizm, səhiyyə, idman və digər sahələrdə əməkdaşlıq etməyə hazır olduğunu söyləmişdir.

Dostluq münasibətlərinin möhkəmləndirilməsi naminə bütün təşəbbüsləri dəstəklədiklərini bildirən qonaq vurğulamışdır ki, ölkələrimiz arasında qarşılıqlı əlaqələr bundan sonra daha da genişlənəcəkdir.

Sonra Əbülfəs Qarayevlə Rikardo Gerrero Azərbaycan ilə Kuba arasında mədəniyyət sahəsində əməkdaşlığa dair saziş imzalamışlar.

AZƏRBAYCAN İLƏ KUBA ARASINDA ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN İKİNCİ İCLASI KEÇİRİLMİŞDİR

Mayın 19-da "Park INN" mehmanxanasında Azərbaycan ilə Kuba arasında əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın ikinci iclası keçirilmişdir.

İclasda iki ölkə arasında mədəniyyət, səhiyyə, iqtisadiyyat, ticarət, idman və digər sahələr üzrə əməkdaşlıq məsələləri müzakirə olunmuş və yaxın vaxtlarda tərəflərin imzalayacağı yeni sənədlərin layihələri ətrafında fikir mübadiləsi aparılmışdır.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirmişdir ki, komissiyanın ilk iclası Kubada keçirilmiş və bu tədbir ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafında mühüm əhəmiyyət kəsb edir.

Ə.Qarayev demişdir ki, Kuba nümayəndə heyəti səfər çərçivəsində Azərbaycanın bir sıra bölgələrini də ziyarət etmiş və orada aparılan islahatlarla yaxından tanış olmuşlar. Lənkəranda olan qonaqlar qida məhsulları, diaqnostika, təhsil və s. müəssisələrdə görülən işləri, yeni turizm layihələrini yaxından izləmişlər.

Hazırda iki ölkə arasında ticarət dövriyyəsinin yüksək olmadığını diqqətə çatdıran nazir vurğulamışdır ki, əldə edilən razılıqlar bu istiqamətdə mühüm dönüş yaradacaqdır.

Bildirilmişdir ki, Kubada Azərbaycan mədəniyyəti günlərinin 2010-cu, Azərbaycanda isə Kuba mədəniyyəti günlərinin 2011-ci ildə keçirilməsi planlaşdırılmışdır.

Kubanın xarici ticarət və xarici investisiyalar nazirinin müavini Rikardo Gerrero Blanko Azərbaycanda keçirdiyi görüşləri yüksək qiymətləndirmiş, ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş qarşılıqlı marağa səbəb olan məsələlər müzakirə edilmişdir.

Azərbaycan və Kuba arasında əlaqələrin əhəmiyyətli dərəcədə inkişaf etdiyini söyləyən qonaq demişdir: "İki ölkə arasında 2006-cı ildən etibarən bir sıra saziş imzalanmışdır. Yaxın gələcəkdə isə Azərbaycanla Kuba arasında energetika, ticarət, səhiyyə, idman və s. sahələri əhatə edən sazişlərin imzalanacağı gözlənilir".

Vurğulanmışdır ki, komissiyanın üçüncü iclası 2010-cu ildə Kubada keçiriləcək və bizim ölkəmizə Azərbaycanın tanınmış mədəniyyət, incəsənət ustalarından ibarət nümayəndə heyəti gələcəkdir. Biz iki ölkə arasında ticarət sahəsində də əməkdaşlıqda maraqlıyıq. Dörd saziş artıq hazırdır və onlar yaxın vaxtlarda imzalanacaqdır. Bundan əlavə, imzalanacaq sazişlərlə bağlı müzakirələr aparılır.

Rikardo Gerrero Blanko bildirmişdir ki, yaxın vaxtlarda Azərbaycanın neft-qaz sahəsi üzrə mütəxəssisləri Kubada aparılacaq yeni yataqların işlənməsində iştirak edəcək və öz təcrübələrini həmvətənlərimizlə bölüşəcəklər.

Sonra Əbülfəs Qarayevlə Rikardo Gerrero Blanko Azərbaycan ilə Kuba arasında əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın ikinci iclasının yekunlarına dair protokol imzalamışlar. Sənəddə iqtisadiyyat, ticarət və investisiya, sənaye və energetika, kənd tə-

sərrüfatı, ekologiya və balıqçılıq, səhiyyə, təhsil, mədəniyyət və turizm, rabitə və informasiya, idman və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər əksini tapmışdır.

GÜRCÜSTAN PREZİDENTİ MIXAIL SAAKAŞVİLİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Gürcüstan Prezidenti Mixail Saakaşvili mayın 20-də Azərbaycana rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Gürcüstanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Gürcüstan dövlətinin başçısını Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar Gürcüstan Prezidentinə gül dəstəsi təqdim etdilər.

Hava limanının ali qonaqlar üçün salonunda Prezident Mixail Saakaşvili və Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov arasında qısa protokol görüşü oldu.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Gürcüstan Prezidenti Mixail Saakaşvili mayın 20-də Fəxri xiyabana gəlmişdir.

Gürcüstan Prezidenti xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarı önünə əklil qoydu, xatirəsini ehtiramla andı.

Ali qonaq görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə tər güllər düzdü.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Gürcüstan Prezidenti Mixail Saakaşvili mayın 20-də Şəhidlər xiyabanını ziyarət etmişdir.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Mixail Saakaşvili Azərbaycanın azadlığı və suverenliyi uğrunda şəhid olmuş qəhrəman Vətən oğullarının məzarları üstünə tər çiçəklər düzdü, "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin olahiddə nümunəvi orkestrinin ifasında Gürcüstanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

Prezident Mixail Saakaşvili buradan Azərbaycan paytaxtının mənzərəsini seyr etdi.

Gürcüstan Prezidentini Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər müşayiət edirdilər.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Azərbaycanda rəsmi səfərdə olan Gürcüstan Prezidenti Mixail Saakaşvilinin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.

Prezident İlham Əliyev Gürcüstan Prezidenti Mixail Saakaşvilini səmimiyyətlə qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Gürcüstan Prezidentinə raport verdi.

Gürcüstanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Gürcüstan Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Mixail Saakaşviliyə, Gürcüstan nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı İLHAM ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli cənab Prezident!

Əziz dostlar!

Sizi salamlamağa çox şadam, Azərbaycana xoş gəlmisiniz.

Biz sizi görməyə həmişə şadıq. Bu, mühüm məsələləri müzakirə etmək üçün həmişə yaxşı imkandır. Biz bu gün ikitərəfli, regional və beynəlxalq məsələləri müzakirə etdik. Bizim aramızda tam qarşılıqlı anlaşma, irəliləmək, bütün sahələrdə əməkdaşlığı genişləndirmək arzusu var və əlbəttə, dövlət başçıları səviyyəsində əlaqələr xüsusi əhəmiyyət kəsb edir.

Müxtəlif beynəlxalq tədbirlərdə və forumlarda tez-tez görüşmək imkanımız olsa da, həll edilməli məsələləri bu gün Sizin rəsmi səfəriniz çərçivəsində yenidən müzakirə etməyimiz çox vacibdir. Bizim birgə işlədiyimiz illər ərzində Gürcüstan və Azərbaycan bir-birinə daha da yaxınlaşmışdır, biz həm də qlobal əhəmiyyət kəsb edən çoxlu ikitərəfli mühüm məsələləri həll etmişik. Əminəm ki, qarşıdakı illərdə də əməkdaşlığı eyni fəallıqla və bu cür dostluq ruhunda davam etdirəcəyik. Bir daha xoş gəlmisiniz.

Gürcüstan Prezidenti MİXAİL SAAKAŞVİLİ səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Biz Sizinlə birlikdə, dostlarımız arasında olmağa görə çox şadıq və özümüzü xoşbəxt hiss edirik. Mənə, bizim əməkdaşlığımız çox dinamik inkişaf edir. Bu əməkdaşlıq başqa ölkələr arasında olduğu kimi sadəcə xoş arzulara və yaxşı niyyətlərə yox, konkret planlara və həmin planların həyata keçirilməsinə dair konkret qərara əsaslanır.

Biz görürük ki, İlham Heydər oğlu və onun komandasının üzvləri sadəcə vədlər vermir, öz vədlərini həmişə yerinə yetirirlər. Bizim aramızda qardaşlıq münasibətləri var və mən həmişə demişəm ki, biz əslində qeyri-formal konfederasiya yaradırıq. Əlbəttə, biz iki müstəqil dövlətik, lakin bizim münasibətlərimiz əslində qardaşcasına konfederativ münasibətlərdir. Gürcüstanla Azərbaycanı birləşdirməyən, onları bir-birindən ayıran məsələlər yoxdur. Bizim tezliklə həll edə bilməyəcəyimiz məsələlər yoxdur. Demək istəyirəm ki, bizim bir neçə il bundan əvvəl həyata keçirməyə başladığımız bütün böyük planların çoxu artıq həyata keçmişdir. Qarşıda bizim daha geniş planlarımız var.

DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan və Gürcüstan prezidentləri mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV bəyanatla çıxış edərək dedi:

- Hörmətli cənab Prezident,

Hörmətli qonaqlar!

Əziz dostlar!

İlk növbədə, cənab Prezident, Sizi və nümayəndə heyətinizin bütün üzvlərini Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Bu gün biz Sizinlə geniş müzakirələr apardıq, ikitərəfli münasibətlər təhlil edildi, regional məsələlərə münasibətimizi bildirdik. Gürcüstan-Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. Bu əlaqələrin çox böyük tarixi var. Bu tarix bizi daha da sıx birləşdirir. İki müstəqil dövlət öz əlaqələrini bu möhkəm tarixi əsaslar üzərində qurubdur və bu əlaqələr sürətlə irəli gedir.

Səfər çərçivəsində apardığımız danışıqlar və etdiyimiz söhbətlər, əminəm ki, Gürcüstan-Azərbaycan münasibətlərinin gələcək inkişafına çox müsbət təkan verəcəkdir, bunun çox böyük rolu olacaqdır və beləliklə, biz bölgədə ənənəvi dostluq, qardaşlıq müna-

sibətlərini daha da gücləndirəcəyik.

Regional məsələlərə gəldikdə, Gürcüstan və Azərbaycan tərəfindən birgə icra olunan layihələr region üçün çox mühüm əhəmiyyət daşıyır və daha geniş mənada isə beynəlxalq münasibətlərə müsbət təsirini göstərir. Bu gün müzakirə etdiyimiz məsələlər müxtəlifdir. Energetika sahəsində əldə olunmuş uğurlar bir daha təhlil edildi və biz gələcək birgə layihələr haqqında fikir mübadiləsi apardıq.

Gürcüstan və Azərbaycan bölgədə enerji təhlükəsizliyinin təmin edilməsi məsələlərinə daim böyük diqqət göstərmişdir və birgə səylərimiz nəticəsində bu gün bölgədə tamamilə yeni vəziyyət yaranmışdır. Əlbəttə, çox vacibdir ki, əldə edilmiş bu uğurlarla kifayətlənməyək, gələcəkdə daha önəmli və böyük layihələri birlikdə icra edək.

Bu gün, eyni zamanda, Avropanın enerji təhlükəsizliyi məsələləri müzakirə edildi. Bu yaxınlarda "Cənub dəhlizi" ilə əlaqədar keçirilmiş tədbirdə Sizinlə bərabər iştirak etdik və bizim mövqeyimiz də birmənalıdır. Biz həm öz maraqlarımızı müdafiə edirik, həm də bütün tərəfdaşlarımızla energetika sahəsində çox səmərəli əməkdaşlıq edirik.

Nəqliyyat sahəsində əməkdaşlıq uğurla davam edir. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi uğurla gedir. Bu gün, eyni zamanda, biz bu layihənin gələcək icrası haqqında geniş fikir mübadiləsi apardıq və müvafiq göstərişlər verdik.

Biz ənənəvi olaraq beynəlxalq təşkilatlarda bir-birimizi müdafiə edirik, bir-birimizi dəstəkləyirik və mən əminəm ki, bu qarşılıqlı dəstək gələcəkdə də davam etdiriləcəkdir. Gürcüstan-Azərbaycan münasibətlərinin bölgədə çox böyük əhəmiyyəti vardır. Dostluq və qardaşlıq əlaqələrimizin inkişafı həm xalqlarımız üçün, ölkələrimiz üçün vacibdir, həm də bölgədə sülhün, sabitliyin təmin edilməsi üçün böyük əhəmiyyət daşıyır.

Mən apardığımız danışıqların mahiyyəti haqqında fikirlərimi söyləmişəm. Hesab edirəm ki, bu danışıqlar və gələcək birgə fəaliyyət ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaqdır.

Bir daha Sizi ürəkdən salamlayıram və Sizə, bütün Gürcüstan xalqına xoşbəxtlik və uğurlar arzulayıram.

* * *

Gürcüstan Prezidenti MİXAİL SAAKAŞVİLİ ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə təşəkkür etdi.

"Bu, Azərbaycan ilə münasibətlərimizin ən gözəl təzahürüdür", - deyən dövlət başçısı, Azərbaycanın demokratik ölkə kimi inkişaf etdiyini bildirdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin xidmətlərini xatırladan Mixail Saakaşvili dedi ki, ulu öndər Azərbaycanın inkişafında müstəsna rol oynamışdır.

Mixail Saakaşvili bildirdi ki, ölkələrimiz arasında əməkdaşlığın ən vacib istiqamətlərindən biri də iqtisadiyyatdır. Gürcüstan Azərbaycan ilə qaz təchizatı haqqında beş illik müqavilə imzalamışdır. Bu isə o deməkdir ki, gələn beş il ərzində gürcü xalqı elektrik enerjisini və digər enerji daşıyıcılarını Azərbaycandan alacaqdır.

Ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın dinamik inkişaf etdiyini vurğulayan M.Saakaşvili, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etdi.

Mixail Saakaşvili ölkələrimiz arasında enerji və nəqliyyat sahələrində həyata keçirilən layihələrin əhəmiyyətindən də danışdı. "Biz strateji layihələri həyata keçiririk", - deyən Gürcüstan dövlətinin başçısı bildirdi ki, mayın 21-də Bakı-Batumi hava reysinin açılması münasibətilə təyyarə ilə ora gedəcəkdir. Bu yaxınlarda Batumidə böyük inşaat layihəsinin icrasına da başlanılacaqdır. Bütün bunlar isə xalqlarımız və ölkələrimiz arasında inkişaf edən əməkdaşlığın nəticəsidir.

Dövlətlərimiz arasında münasibətlərin bünövrəsinin ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu bildirən Gürcüstan Prezidenti, bu gün Prezident İlham Əliyevin qarşılıqlı əməkdaşlığı uğurla davam etdirdiyini qeyd etdi.

Sonda Gürcüstan Prezidenti ona və nümayəndə heyətinə göstərilən diqqətə görə bir daha minnətdarlıq etdi.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Mayın 20-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin iştirakı ilə Azərbaycan-Gürcüstan sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"ə dəyişikliklər edilməsi haqqında Protokol"u Azərbaycan tərəfdən "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov, Gürcüstan tərəfdən iqtisadi inkişaf naziri Laşa Jvaniya imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında azad ticarət haqqında 1996-cı il tarixli Saziş"ə dəyişiklik edilməsinə dair Protokol"u Azərbaycan tərəfdən iqtisadi inkişaf naziri Şahin Mustafayev, Gürcüstan tərəfdən iqtisadi inkişaf naziri Laşa Jvaniya imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında əqli mülkiyyətin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"i Azərbaycan tərəfdən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov, Gürcüstan tərəfdən iqtisadi inkişaf naziri Laşa Jvaniya imzaladılar.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Mayın 20-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Gürcüstan Prezidenti Mixail Saakaşvilinin şərəfinə rəsmi ziyafət verilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV Gürcüstan dövlətinin başçısını və nümayəndə heyətini salamlayaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Gürcüstan Prezidentini və qonşu qardaş ölkənin bütün nümayəndə heyətini Azərbay-

canda bir daha salamlamaq istəyirəm.

Bu gün biz çox səmərəli danışıqlar apardıq və bu danışıqlar çərçivəsində ikitərəfli əməkdaşlığın uğurları təhlil olundu, həmçinin münasibətlərimizin inkişaf yolları müəyyən edildi.

Ölkələrimiz arasında münasibətlərin tarixi çox qədimdir. Xalqlarımız həmişə yanaşı, qonşuluqda, sülh və mehribanlıq şəraitində yaşamış, həmişə bir-birinə kömək etmişlər. Bu gün iki müstəqil dövlətin inkişafına, əməkdaşlığa və həm təhlükəsizliyimizi, həm də iqtisadi firavanlığımızı təmin edən, qlobal dünya prosesləri üçün böyük əhəmiyyətə malik olan layihələrdə iştirakına kömək edən münasibətlərin möhkəm təməli budur.

Bizim ikitərəfli münasibətlər çox möhkəm və proqnozlaşdırıla biləndir, zənnimcə, gələcəkdə də belə qalacaqdır. Biz əlaqələrimizin gündəliyini konkret işlərlə genişləndirməli, diqqəti operativ həll olunması tələb edilən məsələlər üzərində cəmləşdirməliyik. Biz bu gün məhz bu cür etdik, ölkələrimizin iqtisadiyyatı üçün, enerji təhlükəsizliyi, nəqliyyat təhlükəsizliyi üçün böyük əhəmiyyətə malik məsələlər barəsində bizdə tam anlaşma var. Ölkələrimizin fəal iştirakı ilə regionda çox iri infrastruktur layihələri həyata keçirilmişdir, indi onlar artıq qlobal miqyaslı gələcək layihələr üçün bazadır. Bu, ilk növbədə, energetikaya aiddir.

Bu gün biz həmin sahədə əməkdaşlığın miqyasını daha da genişləndirmək üçün əlavə konkret addımları müzakirə etdik. Neft və qaz sahəsi ilə yanaşı, elektroenergetika sahəsində əməkdaşlıq da böyük maraq doğurur. Burada çox böyük potensial mövcuddur və bizim imkanlarımız bir-birini tamamlayır. Biz elektrik enerji dəhlizinin mövcud neft-qaz dəhlizlərini tamamlaması üçün ciddi səy göstərəcəyik.

Biz ölkələrimizin nəqliyyat təhlükəsizliyinin təmin edilməsi prosesində fəal iştirak edirik. Gürcüstan və Azərbaycan Qərb ilə Şərq arasında nəqliyyat kommunikasiyalarının mühüm hissəsidir. Bu, təkcə coğrafiya deyil, həm də infrastruktur sahəsində qazanılmış nailiyyətlərdir. Başqa sözlə, biz iqtisadi sahədə nəzərdə tutduqlarımızın hamısını yerinə yetiririk.

Gürcüstan dinamik inkişaf edən, həm siyasi, həm də iqtisadi islahatların fəal həyata keçirildiyi islahatçı ölkə kimi investorlar üçün çox böyük maraq doğurur. Əlbəttə, mən çox şadam ki, Azərbaycan şirkətləri, ilk növbədə, ARDNŞ Gürcüstanın çox mühüm investorlarından biridir. ARDNŞ-in sərmayələri artıq bu gün yüz milyonlarla ölçülür, gələcəkdə isə yəqin ki, milyardlarla ölçüləcəkdir. Bunlar həm yanacaqdoldurma stansiyaları şəbəkəsi, həm neft məhsulları satışı, həm Gürcüstanın qazlaşdırılması, həm də təbii qazla təmin edilməsidir.

Biz Gürcüstanın enerji təhlükəsizliyini tam təmin etmək və qış dövründə qaz ehtiyatlarından daha səmərəli istifadə etmək üçün gələcəkdə qaz anbarları tikilməsi məsələlərini müzakirə etdik. Bununla da, gələcək layihələr üçün artıq bu gün baza olan tamamilə yeni regional şərait yaranır. Bu yaxınlarda Gürcüstan Prezidenti və digər həmkarlarımızla birlikdə Praqada enerji dəhlizinə həsr edilmiş konfransda iştirak etdik. Heç kəsə sirr deyil ki, müzakirə olunan layihələr üçün əsas bizim birlikdə həyata keçirdiyimiz layihələrdir. Bu, Bakı-Tbilisi-Ceyhan neft boru kəməridir, həmin kəmər olmasaydı, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi mümkün olmazdı, - bu, Bakı-Supsa boru kə-

məridir. Bu istiqamətdə gələcək addımlar da bugünkü infrastruktur layihələrinə əsaslanır. Biz onları birlikdə həyata keçirmişik və təbii ki, bu bizə inam verir. Bu, belə layihələri artıq öz ölkələrimizdə həyata keçirmək üçün yaxşı təcrübədir.

Biz bundan sonra da infrastruktur, investisiya layihələrində fəal iştirak etmək niyyətindəyik. Gürcüstanda təkcə energetikada deyil, həm də nəqliyyat sahəsində, turizm sahəsində, servis sahəsində - bütün istiqamətlərdə yaxşı potensial imkanlar var.

Humanitar sahədə əməkdaşlıq da inkişaf edir. Bu da ölkələrimiz üçün çox böyük əhəmiyyətə malikdir. Bizim Gürcüstanda yaşayan azərbaycanlı qardaşlarımızın gürcü dilini də öz ana dili kimi bilməsi, onların Gürcüstan cəmiyyətinə fəal inteqrasiya etməsi, Gürcüstanın inkişafında layiqli yer tuta bilməsi və daha fəal iştirak etməsi çox vacibdir.

Gürcüstan və Azərbaycan hərəsi öz yolu ilə - inkişaf, tərəqqi yolu ilə gedən iki qonşu ölkə, iki qardaş ölkə, iki müstəqil ölkədir. Bizim nəzərdə tutduqlarımızı tam həcmdə təmin etmək üçün, əlbəttə, regionda sülh olmalıdır. Fikrimcə, bu, belə də olacaqdır. Biz buna çalışırıq və fikrimcə, buna nail olacağıq.

Mən gürcüstanlı qonaqlarımıza ən xoş arzularımı bildirmək, qardaş gürcü xalqına dərin hörmətimi ifadə etmək və bu badəni Gürcüstan Prezidentinin sağlığına, gürcü xalqının, bizim dostluğumuzun şərəfinə qaldırmaq istəyirəm.

* * *

Gürcüstan Prezidenti MİXAİL SAAKAŞVİLİ Azərbaycan dövlətinin başçısına müraciətlə dedi:

- Hörmətli İlham Heydər oğlu,

Hörmətli dostlar!

Bakıya gəlmək mənim üçün fərəhli nümunə, ünsiyyət deməkdir. Mən buraya həmişə məmnuniyyətlə gəlirəm və buradan böyük təəssüratla ayrılıram.

İndicə biz Bakının yeni məhəllələrini, genişləndirilmiş yeni küçələrini gəzdik, yeni parklara baxdıq. Mənca, burada baş verənlər bizim üçün nümunə və ilham mənbəyidir. Əgər Azərbaycan bizim arxamızda dayanmasaydı, bilmirəm biz indi harada olardıq və ümumiyyətlə mövcud olardıqmı?

Gürcüstan Prezidenti Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində ulu öndər Heydər Əliyevin siyasi müdrikliyinin və Prezident İlham Əliyevin cəsarətli addımlarının həlledici rolundan danışdı.

O, Azərbaycan Prezidenti İlham Əliyevin təkcə region üçün deyil, bütövlükdə dünya üçün, Avropa üçün çox böyük siyasi xadim olduğunu vurğuladı.

M.Saakaşvili qeyd etdi ki, qonşu dövlət kimi Azərbaycan çətin anlarda Gürcüstana işıq və qaz vermişdir. Gürcü xalqı bunu heç zaman unutmayacaqdır.

Gürcüstanın dövlət başçısı dedi ki, bizi bağlayan tellər təkcə neft kəməri, elektrik xətləri deyil, insanlar arasındakı əlaqələrdir.

Nitqinin sonunda Mixail Saakaşvili Azərbaycan xalqına və Azərbaycanın dövlət başçısına ən xoş arzularını çatdırdı.

GÜRCÜSTAN PREZİDENTİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR

Azərbaycanda müşahidə olunan sürətli inkişaf, aparılan quruculuq işləri, əldə olunan nailiyyətlər ölkədə həyata keçirilən uğurlu siyasətin parlaq nəticəsidir.

Bu sözləri ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti Mixail Saakaşvili mayın 21-də Milli Məclisdə keçirdiyi görüşdə demişdir.

Prezident Mixail Saakaşvili əvvəlcə parlamentin iclas zalı ilə tanış olmuş, deputatlar üçün yaradılmış iş şəraitini yüksək qiymətləndirmişdir.

Ali qonaq parlament binasındakı Heydər Əliyev Xatirə zalına da baxmışdır. Ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, parlamentə sədrliyi dövründə qəbul olunmuş mühüm sənədlər Gürcüstanın dövlət başçısında maraq doğurmuşdur. Milli Məclisin sədri Oqtay Əsədov qonağa məlumat vermişdir ki, Azərbaycan parlamentinin formalaşmasında və xarici ölkələrin qanunverici orqanları ilə əlaqələrin qurulmasında ulu öndərin xidmətləri böyükdür.

Prezident Mixail Saakaşvili xatirə kitabına ürək sözlərini yazmışdır.

Sonra Gürcüstan dövlətinin başçısı Milli Məclisin sədri Oqtay Əsədov ilə görüşmüşdür.

Oqtay Əsədov demişdir ki, Azərbaycan ilə Gürcüstan arasında qədim dostluq əlaqələri daim inkişaf edir və möhkəmlənir. Müstəqilliyimizi bərpa etdikdən sonra münasibətlərimizin yeni mərhələsi başlanmışdır. Dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri, keçirilən görüşlər əməkdaşlığa yaxşı töhfə vermişdir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan ilə Gürcüstan strateji tərəfdaşdırlar.

Bölgədə həyata keçirilən regional layihələrin hər iki xalqın rifahının yaxşılaşmasına xidmət etdiyini vurğulayan Milli Məclisin sədri Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, eləcə də reallaşmaqda olan Bakı-Axalkalaki-Qars dəmir yolunun rolunu və əhəmiyyətini xüsusi qeyd etmişdir.

O.Əsədov parlamentlərarası əməkdaşlıqdan da danışmış və qanunverici orqanlar arasında əlaqələrin inkişafında dostluq qruplarının fəaliyyətini yüksək qiymətləndirmişdir.

Bildirilmişdir ki, həm bu səfər, həm də nəzərdə tutulmuş digər səfərlər münasibətlərimizi daha da möhkəmləndirəcəkdir.

Gürcüstan Prezidenti Mixail Saakaşvili demişdir ki, Azərbaycan ilə Gürcüstan arasında möhkəm təməl üzərində qurulmuş dostluq və qardaşlıq münasibətləri vardır. Gürcüstanın çətin günlərində Azərbaycan öz dost köməyini əsirgəməmişdir. Qonşu ölkənin dövlət başçısı Azərbaycanın qazandığı uğurlardan danışaraq, dost və qardaş gürcü xalqının bu nailiyyətə sevindiyini bildirmişdir.

Paytaxt Bakını dünyanın möhtəşəm şəhərləri ilə müqayisə edən Mixail Saakaşvili demişdir ki, bütün bu inkişaf ölkədə həyata keçirilən düzgün, uğurlu siyasətin nəticəsidir. O, iki dövlət arasındakı əməkdaşlığın inkişafı üçün yaxşı potensial olduğunu vurğulamış və Azərbaycan parlamentinə gələcək fəaliyyətində uğurlar arzulamışdır.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞÜ

Mayın 21-də Gürcüstan Prezidenti Mixail Saakaşvili onun üçün ayrılmış iqamətgahda Azərbaycanın Baş naziri Artur Rasizadəni qəbul etmişdir.

Gürcüstan dövlətinin başçısı Bakıda aparılmış danışıqlardan məmnun olduğunu bildirərək qeyd etmişdir ki, neft-qaz və energetika sahəsində əməkdaşlığa dair, o cümlədən Gürcüstan ərazisində qaz anbarları tikilməsi barədə razılaşma əldə edilmişdir. M.Saakaşvili demişdir ki, həmin anbarlar ölkəsinin təbii qaz ilə təchizatına çoxillik təminat olacaqdır.

Gürcüstan Prezidenti qış dövründə qaz verilməsində fasilələr olmadığına görə, Azərbaycana təşəkkürünü bildirmişdir. Prezident Mixail Saakaşvili demişdir: "Azərbaycan Gürcüstanın ən yaxın dostudur".

Azərbaycanın Baş naziri Artur Rasizadə vurğulamışdır ki, iki ölkənin müxtəlif idarələri arasında tənzimlənmiş geniş əlaqələr qarşıya çıxan məsələləri operativ həll etməyə imkan verir. Baş nazir ölkələrimiz arasında ikitərəfli iqtisadi əməkdaşlığın yaxşı dinamikaya malik olduğunu qeyd etmişdir.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA GÜRCÜSTANIN BİRİNCİ XANIMI SANDRA ELİZABET RULOFS İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 21-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva ölkəmizdə səfərdə olan Gürcüstan Prezidentinin xanımı Sandra Elizabet Rulofs ilə görüşmüşdür.

BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ İLƏ TANIŞLIQ

Gürcüstan Prezidenti Mixail Saakaşvili mayın 21-də Beynəlxalq Muğam Mərkəzi ilə tanış olmuşdur.

Gürcüstan Prezidentinə dənizkənarı Milli Parkda yerləşən Mərkəz haqqında ətraflı məlumat verildi. Bildirildi ki, Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı layihələr sırasında xüsusi əhəmiyyəti olan bu Mərkəzin inşası Fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir. 2005-ci il aprelin 6-da Prezident İlham Əliyev Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında Sərəncam imzalamışdır. Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada YUNESKO-nun dünya qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.

Mərkəz ilə yaxından tanış olan Prezident Mixail Saakaşvili burada Azərbaycanın görkəmli muğam ifaçılarının büstlərinə baxdı.

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN ZƏNGİN EKSPONATLARI GÜRCÜSTAN PREZİDENTİNDƏ BÖYÜK MARAQ DOĞURMUŞDUR

Gürcüstan Prezidenti Mixail Saakaşvili mayın 21-də Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyində olmuşdur.

Ali qonağa muzeyin tarixi barədə ətraflı məlumat verilmişdir. Bildirilmişdir ki, Bakının ən gözəl memarlıq abidələrindən olan bu bina 1895-1897-ci illərdə tikilmiş və Azərbaycan milyonçusu, mesenat Hacı Zeynalabdin Tağıyevin mülkü olmuşdur. 1920-ci ildə binada yaradılmış muzeydə qədim dövrdən başlayaraq Azərbaycan tarixinin bütün mərhələlərinə dair qiymətli eksponatlar toplanmışdır.

Azərbaycanın ərazisində mövcud olmuş Atropatena, Albaniya, Şirvanşahlar, Ağqoyunlular, Səfəvilər dövlətləri dövrünə aid maddi mədəniyyət nümunələri ölkəmizin qədim dövlətçilik ənənələrindən xəbər verir.

Orta əsr Azərbaycan əhalisinin məişətdə işlətdiyi əşyalar Prezident Mixail Saakaşvilinin xüsusi marağına səbəb olmuşdur.

Muzeyin direktoru, akademik Nailə Vəlixanlı bildirmişdir ki, 130-dan çox işçisi olan muzey həm də Milli Elmlər Akademiyasının strukturunda elmi tədqiqat və mədəni-maarif müəssisəsi funksiyasını yerinə yetirir. Muzeyin binası Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə əsaslı təmir olunmuşdur.

300 mindən çox eksponatı olan muzeydə xalqımızın bir çox görkəmli şəxsiyyətlərinin təhsil almasına yardımçı olmuş Hacı Zeynalabdin Tağıyevin həyatı və fəaliyyətinə dair fotoşəkillər, tarixi sənədlər, ona məxsus qiymətli əşyalar da toplanmışdır.

Gürcüstan dövlətinin başçısı Hacı Zeynalabdin Tağıyevin xatirə muzeyinin eksponatlarına da maraqla tamaşa etmişdir. Buradakı məişət əşyaları və tarixi sənədlər onda zəngin təəssürat yaratmışdır.

Prezident Mixail Saakaşvili muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.

Muzeyin direktoru ali qonağa xatirə hədiyyələri təqdim etmişdir.

ALİ MƏHKƏMƏNİN YENİ BİNASI İLƏ TANIŞLIQ

Azərbaycanda rəsmi səfərdə olan Gürcüstan Prezidenti Mixail Saakaşvili və xanımı Sandra Elizabet Rulofs mayın 21-də Ali Məhkəmənin yeni binası ilə tanış olmuşdur.

Qonaqlara məlumat verilmişdir ki, 2006-cı ildə Prezident İlham Əliyev tərəfindən təməli qoyulmuş Ali Məhkəmənin yeni binası üçün klassik-eklektika üslubu seçilmiş, bu zaman milli daş memarlığının elementləri, eləcə də dövlət atributları nəzərə alınmışdır. Müəllifi gənc memar Vüqar Həsənov olan binanın arxitektura həlli mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmiş və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə Azərbaycan Memarlar İttifaqının "Müstəqillik dövrünün ən yaxşı layihəsi" nominasiyası üzrə ikinci mükafata layiq görülmüşdür.

Binanın birinci mərtəbəsində 9 böyük və kiçik məhkəmə zalı var. Prezident Mixail Saakaşvili iclas zallarında yaradılmış şəraitlə tanış oldu. Bildirildi ki, Almaniyanın

"Bosch" firmasının avadanlığı quraşdırılmış zallarda ən müasir avtomatlaşdırılmış şəbəkə yaradılmışdır. Gürcüstan Prezidentinə məlumat verildi ki, Azərbaycanda ilk dəfə olaraq burada müasir informasiya texnologiyalarının tətbiqi ilə elektron kargüzarlıq və sənəd dövriyyəsini təmin edən "İstinad" informasiya sistemi qurulmuşdur. Prezident Mixail Saakaşviliyə binanın girişində quraşdırılmış informasiya köşkləri barədə də məlumat verildi. Bildirildi ki, bu köşklər vasitəsilə məhkumun adını və soyadını qeyd etməklə tabloda həmin işlə bağlı bütün məlumatları əldə etmək olar. Ali məhkəmədə quraşdırılmış informasiya təminatı şəbəkəsi digər məhkəmələrin informasiya sistemləri ilə də əlaqə yaratmağa imkan verir.

İclas zalları audio-video avadanlıqla, binaya giriş elektron kart sistemi, daimi video müşahidə və avtomat siqnal qurğuları ilə təchiz olunmuşdur.

Binanın digər mərtəbələri ilə tanış olan Gürcüstan dövlətinin başçısına məlumat verildi ki, 2-ci və 3-cü mərtəbələrdə sədarət və hakimlərin iş otaqları yerləşir.

Mixail Saakaşvili 4-cü mərtəbədə kitabxana, muzey, konfrans və plenum zalları ilə tanış oldu.

Gürcüstan Prezidenti və xanımı binanın sonuncu mərtəbəsinin eyvanından şəhərin panoramını seyr etdilər.

Buradan zəngin təəssüratlarla ayrılan Gürcüstan Prezidenti Mixail Saakaşvili Ali Məhkəmənin muzeyinin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

BAKI-BATUMİ-BAKI AVİAREYSİ AÇILMIŞDIR

Mayın 21-də "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti Bakı-Batumi-Bakı marşrutu ilə ilk sərnişin aviareysini yerinə yetirmişdir.

Yeni aviareysin ilk sərnişini Azərbaycana ikigünlük rəsmi səfərini başa çatdıran Gürcüstan Prezidenti Mixail Saakaşvili olmuşdur. Heydər Əliyev adına Beynəlxalq hava limanında Gürcüstan dövlətinin başçısına ilk billet və sertifikat təqdim olunmuşdur.

Uçuş zamanı verdiyi müsahibədə Gürcüstan Prezidenti yeni reysin necə yerinə yetirildiyinin şəxsən şahidi olmaq, bu reysin vətəndaşlarımızın qarşılıqlı uçuşları üçün gözəl imkan yaradacağına əmin olmaq istədiyini bildirərək dedi: - İlk növbədə demək istəyirəm ki, bu, doğrudan da, yeni gözəl təyyarədir. Batumidə də, Tbilisidə də yeni hava limanlarımız var və orada olanlar bunu bilirlər. Biz Bakıda hava limanına yeni avtobanla gəldik və indi bir gözəl şəhərdən digər gözəl şəhərə uçuruq. Batumi Bakının kiçik əkizidir. Azərbaycanda neft bumu başlayanda, Bakı ilə paralel olaraq Batumi də inkişaf edirdi. Çünki dünyada ilk neft kəməri Bakı ilə Batumi arasında tikilmişdir. Bakıda da Nobelin evi var, Batumidə də. Bu şəhərlərin memarlığı eynidir. Köhnə Batumini gəzsəniz, Bakı ilə çox oxşarlıq görərsiniz. Mən dünən və bu gün Bakının necə sürətlə inkişaf etdiyini gördüm, bizdə də belə iş aparılır. Ona görə də Bakıdan Acarıstana gedən hər bir kəs özünü, sanki heç bir yerə getməmiş kimi hiss edəcəkdir. Çünki, o, özünü doğrudan da doğma insanlar arasında hiss edəcəkdir.

Mixail Saakaşvili Azərbaycanın sürətlə inkişaf etməsinin, Bakının gözəlləşməsinin bir daha şahidi olduğunu vurğulayaraq, Batuminin də inkişafı və abadlaşması üçün aparılan

işlərdən danışdı, bununla bağlı investisiya layihələrinin reallaşdırıldığını dedi. Bakı-Batumi aviareysinin açılması ilə ölkələrimiz arasında əlaqələrin daha da inkişaf edəcəyinə əmin olduğunu bildirən Mixail Saakaşvili Azərbaycan ilə Gürcüstan arasında enerji sahəsində əməkdaşlığın uğurlarını qeyd etdi. Gürcüstan dövlətinin başçısı ölkəmizin regiondakı rolunun daha da artacağını vurğulayaraq, ölkəsinin Azərbaycandan elektrik enerjisinin idxalında maraqlı olduğunu bildirdi. Bakı ilə Tbilisi arasında iqtisadi əməkdaşlığın xüsusi önəm daşıdığını qeyd edən Mixail Saakaşvili, bu işbirliyinin daha da genişləndirilməsi üçün yeni layihələrin zəruri olduğunu söylədi, bütün bunların son nəticədə dövlətlərimiz arasında əlaqələrin, xalqlarımız arasında dostluğun inkişafına xidmət edəcəyini vurğuladı.

Bakı vaxtı ilə saat 16.20-də havaya qalxan təyyarə iki saatdan sonra Batumi Beynəlxalq aeroportunda yerə endi. "Azərbaycan Hava Yolları" QSC-nin ilk aviareysini burada təntənə ilə qarşıladılar. Acarıstan Muxtar Respublikası hökumətinin sədri Levan Varşalomidze və digər rəsmi şəxslər qarşılayanlar arasında idilər.

Milli geyimli qızlar bu aviareysin sərnişinlərini - Gürcüstan Prezidenti Mixail Saakaşvilini, iqtisadi inkişaf naziri Laşa Jvaniyanı, Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədovu, "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərovu, Milli Məclisin deputatı Qənirə Paşayevanı və digər rəsmi şəxsləri təyyarənin pilləkənləri önündə gül-çiçəklə qarşıladılar.

Gürcüstan Prezidenti qonaqlarla və heyət üzvləri ilə xatirə şəkli çəkdirdi.

Təntənəli qarşılanma mərasimini açan Acarıstan Muxtar Respublikası hökumətinin sədri Levan Varşalomidze əlamətdar hadisə münasibətilə tədbirin iştirakçılarını təbrik etdi. Dedi ki, Azərbaycan ilə Gürcüstanı qədim qonşuluq və dostluq əlaqələri birləşdirdiyi kimi, liman şəhərləri Batumi ilə Bakı arasında da həmişə doğma münasibətlər olmuşdur. Yeni aviareysin Azərbaycan ilə Gürcüstan arasında dostluq və əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirəcəyi, coxsaylı azərbaycanlı turistlərin füsunkar təbiətə malik Acarıstana, gürcülərin isə Azərbaycana xoş istirahətə gəlmələri üçün əlverişli imkan yaradacağı xüsusi vurğulandı.

Yeni aviareysin açılmasını çox əhəmiyyətli hadisə adlandıran "Azərbaycan hava yolları" QSC-nin prezidenti Cahangir Əsgərov bildirdi ki, Bakıdan Batumiyə uçuşlar həftədə 2 dəfə həyata keçiriləcəkdir. C.Əsgərov dedi ki, Azərbaycan Prezidenti İlham Əliyevin qayğısı və tapşırığı ilə "Azal"ın aviaparkı yenilənmiş, məşhur "Boeing" şirkəti ilə bağlanan müqavilələr nəticəsində beynəlxalq reyslərin və təhlükəsiz uçuşların təmin olunması üçün mühüm addımlar atılmışdır. Bunun sayəsində "Azərbaycan Hava Yolları" QSC dünyanın aparıcı aviaşirkətləri ilə rəqabətdə irəli çıxmağa nail olmuşdur.

Bildirildi ki, Bakı-Batumi-Bakı marşrutu üzrə reyslər Fransa istehsalı olan "ATR-72-500" tipli yeni təyyarələrlə yerinə yetiriləcəkdir. Bununla da Batumi "Azal"ın uçuşlar təşkil etdiyi şəhərlər sırasına daxil oldu.

Sonra qonaqlar Batumi bulvarı ilə tanış oldular.

Mərasim bulvardakı musiqili fəvvarənin önündə konsert proqramı ilə davam etdi. Gürcüstan Prezidenti Mixail Saakaşvilinin də qatıldığı konsertdə yerli rəqqaslarla yanaşı, Azərbaycanın "Cəngi" rəqs ansamblının oynaq rəqsləri tamaşaçılar tərəfindən alqışlarla qarşılandı. Maraqlı konsert münasibətilə rəqqasları təbrik edən Gürcüstan dövlətinin başçısı və qonaqlar onlarla xatirə şəkli çəkdirdilər.

Prezident Mixail Saakaşvili jurnalistlərə müsahibəsində bildirdi ki, Bakı-Batumi aviareysi ilə yanaşı, ölkələrimiz digər layihələrin də həyata keçirilməsində birgə səylər göstərəcəkdir. Son nəticədə isə bu layihələr vətəndaşlarımızın qarşılıqlı səyahətlər etməsinə, ölkələrimiz və xalqlarımız arasında dostluğun möhkəmləndirilməsinə xidmət edəcəkdir.

SƏFƏR BAŞA ÇATDI

Mayın 21-də Gürcüstan Prezidenti Mixail Saakaşvilinin Azərbaycana rəsmi səfəri başa çatmışdır. Azərbaycanın və Gürcüstanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Gürcüstan dövlətinin başçısı əvvəlcə hava limanının şimal terminalında ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzdü. Daha sonra Mixail Saakaşviliyə yeni açılmış Bakı-Batumi reysinin ilk sərnişini olması münasibətilə bir nömrəli bilet və sertifikat təqdim olundu.

Prezident Mixail Saakaşvilini Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər Bakı–Batumi reysi ilə yola saldılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN AVROPADAKI SİLAHLI QÜVVƏLƏRİNİN KOMANDANI GENERAL BANTS KRADDOKUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də ABŞ-ın Avropadakı Silahlı Qüvvələrinin komandanı General Bants Kraddokun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmış, regional əməkdaşlıq və beynəlxalq məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ ENDİ İNQLİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də bp şirkətinin vitse-prezidenti Endi İnqlisi qəbul etmişdir.

Endi İnqlis dövlətimizin başçısına bp-Azərbaycan şirkətinin işçi heyəti ilə keçirdiyi görüşlər barədə məlumat verərək, ölkəmizdə bp-Azərbaycan şirkətinin həyata keçirdiyi işlərin çox uğurla getdiyini bildirdi. bp şirkətinin vitse-prezidenti "Azəri-Çıraq-Günəşli" layihəsinin növbəti mərhələsi hesab olunan "Çıraq" layihəsi üzrə işlərin də müvəffəqiyyətlə aparıldığını dedi.

Dövlətimizin başçısı bp ilə əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. İstehsal sa-

həsində işlərin yaxşı getdiyini bildirən Prezident İlham Əliyev əməkdaşlığımızın bundan sonra da müvəffəqiyyətlə davam etdiriləcəyinə əminliyini ifadə etdi.

ASTANADA MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ HÖKUMƏT BAŞÇILARI ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR

Mayın 22-də Astanadakı Müstəqillik sarayında MDB Hökumət Başçıları Şurasının iclası keçirilmişdir.

İclasda Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubovun başçılığı ilə nümayəndə heyəti də iştirak etmişdir.

Şuranın iclasında Müstəqil Dövlətlər Birliyinin 2020-ci ilədək dövrü əhatə edən İqtisadi İnkişaf Strategiyasının 2009-2010-cu illər üçün nəzərdə tutulan birinci mərhələsinin həyata keçirilməsi istiqamətində Tədbirlər Planı, 2009-2010-cu illərdə MDB-nin humanitar əməkdaşlıq sahəsində Tədbirlər Planı, MDB-nin ümumi tədris məkanının inkişaf perspektivləri ilə əlaqədar Tədbirlər Planı və 2010-cu ilədək təhsil sahəsində əməkdaşlıq məsələləri, cinayətkarlıqla mübarizə sahəsində informasiya mübadiləsinin aparılması, dünyada gedən maliyyə-iqtisadi böhran, Böyük Vətən Müharibəsində Qələbənin 65 illiyi ilə əlaqədar Birlik ölkələrində birgə tədbirlərin keçirilməsi, "1941-1945-ci illər Böyük Vətən Müharibəsində Qələbənin 65 illiyi" yubiley medalının hazırlanması qaydaları və bir sıra digər məsələlər müzakirə edilmişdir.

Ümumiyyətlə, iclasda 18 məsələyə baxılaraq qərarlar qəbul olunmuşdur.

Şuranın növbəti iclasının bu ilin payızında Ukraynanın Yalta şəhərində keçirilməsi qərara alınmışdır.

Şuranın iclası çərçivəsində Qazaxıstan Prezidenti Nursultan Nazarbayev nümayəndə heyətinin başçılarını qəbul etmiş, MDB ölkələri arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV GƏNC DİPLOMATLARLA GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mayın 22-də test üsulu ilə nazirliyə qəbul olunmuş və Azərbaycan Diplomatik Akademiyasında (ADA) altı ay ərzində müvafiq ixtisasartırma kurslarını müvəffəqiyyətlə başa vurmuş gənc diplomatlarla görüşmüşdür.

Nazir E.Məmmədyarov Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri, dünyada və regionda baş verən proseslərlə bağlı ölkəmizin mövqeyi, diplomatdan tələb olunan fərdi və peşəkar xüsusiyyətlər barədə danışmışdır. Sonra gənc diplomatlarla fikir mübadiləsi aparılmış, onları maraqlandıran suallar cavablandırılmışdır.

Görüşdə Azərbaycanın xarici işlər nazirinin müavini, ADA-nın rektoru Hafiz Paşayev də iştirak etmişdir.

Təlim-tədris çərçivəsində gənc diplomatlar Azərbaycanın xarici siyasətinin prioritetləri, dövlət strukturları və onların fəaliyyəti ilə tanış olmuş, ölkəmizin irsi və mədəniyyə-

tinin tədqiq olunması sahəsində, habelə intensiv xarici dil kurslarında iştirak etmiş, Azərbaycanın müxtəlif bölgələrinə, xüsusən də düşmənlə təmas xəttinə, qaçqın və məcburi köçkün düşərgələrinə səfərlər etmişlər. Kursları bitirən gənc diplomatların bir qrupu təcrübə toplamaq üçün bir aylığa Azərbaycanın xaricdəki səfirliklərinə ezam olunacaqdır.

OMBUDSMAN ANKARADA KEÇİRİLMİŞ BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) Elmira Süleymanova Türkiyənin Baş naziri yanında İnsan Hüquqları qurumunun təşkilatçılığı ilə Ankarada keçirilmiş "Mədəniyyətlər birliyi: beynəlxalq insan hüquqları konfransı"nda iştirak etmişdir.

Macarıstan, Makedoniya, Qırğızıstan ombudsmanlarının, milli insan hüquqları təsisatlarının, nüfuzlu beynəlxalq qurumların, Türkiyə Konstitusiya Məhkəməsinin, dövlət və qeyri-hökumət təşkilatları nümayəndələrinin, tanınmış hüquqşünasların, alimlərin iştirak etdiyi tədbirdə insan hüquq və azadlıqlarının təminatı, həyata keçirilməsi və müdafiəsində ombudsmanın, milli insan hüquqları institutlarının rolu, bu sahədə qabaqcıl təcrübənin, hüquqi maarifləndirmənin və biliklərin öyrənilməsi və digər məsələlər müzakirə olunmuşdur.

Konfransın "İnsan hüquqlarının müdafiəsi və təbliğində ombudsman təsisatlarının rolu" mövzusuna həsr edilmiş ikinci hissəsində E.Süleymanova "Azərbaycanda Ombudsman təsisatı: inkişaf və fəaliyyəti" mövzusunda məruzə etmişdir.

Müvəkkil, ölkəmizdə insan hüquqları sahəsində görülən işlərdən danışmış, milli qanunvericiliyimizin təkmilləşdirilməsi, İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının uğurla həyata keçirilməsi, 2009-cu ilin Azərbaycanda "Uşaq ili" elan olunması barədə ətraflı məlumat vermişdir.

E.Süleymanova respublikamızda iyunun 18-nin İnsan Hüquqları günü kimi qeyd olunduğunu, bu münasibətlə İnsan Hüquqları aylığının keçirildiyini, aylıq çərçivəsində silsilə tədbirlərin, o cümlədən mayın 25-dən 27-dək "Ekstremal şəraitdə uşaq hüquqlarının müdafiəsi və Milli insan hüquqları institutlarının rolu" mövzusunda beynəlxalq konfransın, habelə YUNESKO-nun dəstəyi ilə iyunun 17-dən 19-dək "Bioetika, insan hüquqları və yeni texnologiyalar: reproduktiv sağlamlığın və ailə planlaşmasının hüquqi və etik aspektləri" mövzusunda Ombudsmanların VII Bakı Beynəlxalq konfransının təşkil olunacağını bildirmişdir.

Konfransda, həmçinin Türkiyədə İnsan hüquqlarının müdafiəsi üzrə təsisatın yaradılması ilə bağlı müzakirələr aparılmışdır.

AZƏRBAYCAN VƏ TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA KONSULLUQ MƏSƏLƏLƏRİNƏ DAİR NÖVBƏTİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR

Mayın 25-26-da Bakıda Azərbaycan Respublikası və Türkiyə Respublikası Xarici İşlər Nazirlikləri arasında konsulluq məsələlərinə dair növbəti məsləhətləşmələr keçirilmişdir.

Məsləhətləşmələr zamanı tərəflər Azərbaycan Respublikasında və Türkiyə Respublikasında yaşayan hər iki ölkə vətəndaşlarının hüquqi vəziyyəti, onların qarşılaşdıqları çətinliklərin həlli yolları, xüsusilə Türkiyədə yaşayan Azərbaycan vətəndaşlarının vəziyyəti, vətəndaşlarımızın deportasiyası zamanı yaranan problemlər, viza sahəsinə dair məsələlər, insan alverinə qarşı birgə mübarizə, Azərbaycan vətəndaşlarının Türkiyədə daşınmaz əmlaka mülkiyyət hüququnun tanınması, eləcə də Azərbaycan Respublikası ərazisindəki Türkiyə vətəndaşlarının yaşayış və olduğu yer üzrə qeydiyyata alınması kimi vacib məsələləri müzakirə etmişlər.

Müzakirələrdə hər iki ölkənin Daxili İşlər, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Sərhəd, Miqrasiya və Gömrük xidmətlərinin nümayəndələri iştirak etmiş, müzakirə olunan məsələlərə dair fikir və təkliflərini bildirmişlər.

Azərbaycan tərəfdən məsləhətləşmələrdə nümayəndə heyətinə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Konsulluq İdarəsinin rəisi, fövqəladə və səlahiyyətli səfir Nadir Hüseynov, Türkiyə nümayəndə heyətinə bu ölkənin Xarici İşlər Nazirliyi Konsulluq İdarəsinin rəisi, fövqəladə və səlahiyyətli səfir Kemal Gür rəhbərlik etmişlər.

Məsləhətləşmələrin sonunda tərəflər müzakirə olunan məsələlərə dair niyyət protokolu imzalamışlar.

DƏMƏŞQDƏ İKT XARİCİ İŞLƏR NAZİRLƏRİNİN KONFRANSI KEÇİRİLMİŞDİR

Mayın 23-25-də Suriya Ərəb Respublikasının paytaxtı Dəməşq şəhərində İslam Konfransı Təşkilatına (İKT) üzv ölkələrin Xarici İşlər Nazirlərinin 36-cı Konfransı keçirilmişdir.

Tədbirdə ölkəmiz xarici işlər naziri Elmar Məmmədyarovun başçılıq etdiyi nümayəndə heyəti ilə təmsil olunmuşdur.

Konfransın açılış mərasimində Suriya Prezidenti Bəşər Əsəd iştirak etmişdir.

İKT XİN 35-ci Konfransının Sədri Uqanda toplantını açıq elan etmiş və sədrliyi Suriya Ərəb Respublikasına təhvil vermişdir.

Konfransın gündəliyinə İKT üzvü olan ölkələrin maraqlarını ifadə edən 80 məsələ, o cümlədən Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair 3 sənəd- Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair Qətnamə, Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar Azərbaycana iqtisadi yardımın göstərilməsi haqqında Qətnamə, Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan ərazilərində İslam mədəni və tarixi abidələrinin məhv edilməsinə dair Qətnamə daxil edilmişdi.

Plenar iclasda Elmar Məmmədyarov çıxış etmişdir. O, ölkəmizin 35-ci konfransdan sonra Təşkilat çərçivəsində fəaliyyəti, respublikamızda keçirilmiş mühüm beynəlxalq tədbirlər barədə məlumat vermişdir. Nazir erməni təcavüzü və onun nəticələri ilə bağlı Azərbaycanın mövqeyini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Konfransda hesabat nitqi söyləyən İKT Baş katibi E.İhsanoğlu bir daha Ermənistanın

Azərbaycana qarşı təcavüzü ilə bağlı İslam Konfransı Təşkilatının birmənalı mövqeyini ifadə etmiş, qurum tərəfindən təcavüzün qətiyyətlə pisləndiyini, erməni işğalçılarının dərhal və qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmasının tələb olunduğunu vurğulamışdır.

İKT XİN 36-cı Konfransında bir sıra təşkilati məsələlərə baxılmış, Baş katibin müavinləri vəzifəsinə namizədlər irəli sürülmüşdür. İKT-nin sülhməramlı fəaliyyəti geniş müzakirə olunmuşdur.

Elmar Məmmədyarov konfrans çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirmişdir.

Konfransın sonuncu iclasında nazirlər İslam Konfransı Təşkilatı Gənclər Forumu (İKT GF) haqqında qəbul etdikləri yekun qətnamədə "Xocalıya Ədalət" kampaniyasını tam dəstəkləyərək üzv ölkələri bu kampaniyada fəal iştiraka çağırmışlar.

İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə Baş Əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə beynəlxalq səviyyədə aparılan kampaniya qətnamədə İKT ölkələrinin dünyada haqq səsinin ucaldılması işində mühüm təşəbbüs kimi qiymətləndirilmişdir. Eyni zamanda, konfrans kampaniyanı əsas məqsədinə çatanadək, yəni Xocalıda törədilmiş kütləvi qırğına üzv ölkələr tərəfindən və beynəlxalq səviyyədə düzgün qiymət verilənədək dəstəkləməyə çağırmışdır.

Qeyd edək ki, qətnamə mühüm siyasi əhəmiyyət daşıyır. Yekdilliklə qəbul edilmiş sənəddə Azərbaycanın milli maraqları baxımından çox əhəmiyyətli olan "Xocalıya Ədalət" kampaniyasına 57 ölkə yüksək siyasi səviyyədə tam dəstək vermişdir. Qətnamə həm İKT üzvü olan dövlətləri kampaniyada fəal iştirak etməyə, həm də dünya birliyini faciəyə siyasi və mənəvi qiymət verməyə, bununla da Azərbaycan xalqına qarşı törədilmiş bu misilsiz ədalətsizliyi aradan qaldırmağa çağırmışdır. Yeri gəlmişkən, adətən, ümumi proseslərdən bəhs edən bu beynəlxalq təşkilatın qətnaməsində məhz konkret kampaniyanın dəstəklənməsi Leyla xanım Əliyeva tərəfindən irəli sürülmüş təşəbbüsün beynəlxalq əhəmiyyətinə bariz sübut, Azərbaycan diplomatiyasının uğurudur".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlunu qəbul etmişdir.

Əhməd Davudoğlu Türkiyə Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını Azərbaycan dövlətinin başçısına çatdırdı.

Görüşdə Azərbaycan-Türkiyə ikitərəfli münasibətləri, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyev Türkiyə Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkiyə Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ KRALLIĞININ ENERGETİKA NAZİRİ MƏHƏMMƏD DHAEN ƏL-HAMİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Birləşmiş Ərəb Əmirlikləri Krallığının energetika naziri Məhəmməd Dhaen Əl-Hamilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycana ilk dəfə səfər etdiyini vurğulayan Birləşmiş Ərəb Əmirliklərinin energetika naziri Prezident İlham Əliyev ilə Davosdakı görüşünü məmnunluqla xatırladı. Nazir bu səfərindən əsas məqsədin ölkələrimiz arasında energetika sahəsində həm ikitərəfli, həm də beynəlxalq səviyyədə əməkdaşlığın perspektivlərini müzakirə etməkdən ibarət olduğunu bildirdi. Qonaq dedi ki, neft hasilatı və neft sənayesi sahəsində böyük tarixə malik olan Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında energetika sahəsində gələcək əməkdaşlıq üçün yaxşı potensial vardır.

Azərbaycanın neft sənayesinin zəngin təcrübəsinə toxunan Prezident İlham Əliyev, eyni zamanda, ölkəmizin energetika sahəsində uğurlarından söhbət açaraq qeyd etdi ki, nəhəng energetika layihələrinin təşəbbüskarı və iştirakçısı olan Azərbaycan beynəlxalq energetika sahəsində əlaqələrini də gündən-günə genişləndirir. Azərbaycan dövlətinin başçısı Birləşmiş Ərəb Əmirliklərinin energetika nazirinin bu səfərinin də iki ölkə arasında energetika sahəsində əməkdaşlığı genişləndirmək baxımından faydalı olacağına əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU ƏSƏD ALƏMİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Əsəd Aləmin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaq Dünya Bankının Azərbaycan ilə uzun illər uğurlu əməkdaşlıq etdiyini vurğuladı. Daha sonra Əsəd Aləm dedi: "Təmsil etdiyim qurumun fəaliyyətinin əsas istiqamətlərindən biri də Sizin rəhbərliyiniz altında Azərbaycanın iqtisadiyyat sahəsində əldə etdiyi uğurlara dəstək verməkdən ibarətdir".

Dövlətimizin başçısı iqtisadiyyatın bütün sahələrində böyük nailiyyətlər əldə edən ölkəmizin beynəlxalq maliyyə qurumları, o cümlədən Dünya Bankı ilə səmərəli əməkdaşlıq etdiyini bildirdi və bu əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminliyini ifadə etdi.

ABŞ KONQRESİNİN NÜMAYƏNDƏLƏRİ AZƏRBAYCANDAKI İNKİŞAFI YÜKSƏK QİYMƏTLƏNDİRMİŞLƏR

Xarici işlər naziri Elmar Məmmədyarov mayın 27-də ABŞ-ın Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin üzvləri Alan Makovski və Conatan Katz ilə görüşmüşdür.

Azərbaycanda ilk dəfə olduqlarını vurğulayan amerikalı qonaqlar ölkəmizdə gedən inkişaf prosesindən məmnun qaldıqlarını bildirmişlər. Cənubi Qafqazdakı siyasi proseslərdən danışan Konqres nümayəndələri, Azərbaycanın bu proseslərdə mühüm rol oynadığını vurğulamışlar.

Nazir E.Məmmədyarov Azərbaycanda gedən inkişaf prosesinin təməlində ölkə rəhbərliyinin düzgün siyasətinin dayandığını bildirmişdir. Ölkəmizdə hərtərəfli inkişaf prosesinin getməsi ilə eyni vaxtda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də davam etdiyini diqqətə çatdıran E.Məmmədyarov problemin həllinin ümumilikdə Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin edilməsindəki vacibliyini vurğulamışdır. Münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyini diqqətə çatdıran E.Məmmədyarov problemin ölkəmizin ərazi bütövlüyü çərçivəsində tezliklə nizamlanmasının yeganə çıxış yolu olduğunu qeyd etmişdir.

Görüşdə tərəflər arasında birgə maraq kəsb edən ikitərəfli, regional, qlobal məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzəni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ ENERGETİKA NAZİRİ, MDB-NİN ELEKTROENERGETİKA ŞURASININ SƏDRİ SERGEY ŞMATKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Rusiya Federasiyasının energetika naziri, MDB-nin Elektroenergetika Şurasının (EES) sədri Sergey Şmatkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Rusiya Federasiyasının energetika naziri Sergey Şmatko Bakıda eyni vaxtda iki mühüm tədbirin - Azərbaycan-Rusiya hökumətlərarası birgə komissiyanın toplantısının və MDB ölkələrinin Elektroenergetika Şurasının növbəti iclasının keçirilməsinin əhəmiyyətini vurğuladı. O, MDB ölkələrinin Elektroenergetika Şurasının növbəti iclasında qarşılıqlı maraq doğuran məsələlərin, o cümlədən dünyadakı maliyyə böhranı fonunda MDB ölkələrinin enerji strukturlarının payız-qış mövsümünə hazırlıq işləri ilə bağlı konstruktiv müzakirələrin aparıldığını qeyd etdi. Sergey Şmatko iclasda enerji sistemlərinin paralel fəaliyyət göstərməsinin təmin edilməsi ilə əlaqədar aparılan müzakirələrin də maraqla keçdiyini dedi.

Elektoenergetika sisteminin vacib sahə olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli səviyyədə əməkdaşlığımızın böyük təcrübəyə malik olduğunu dedi və eyni zamanda çoxtərəfli əməkdaşlıq üçün də yaxşı imkanların olduğunu vurğuladı.

Azərbaycan ilə Rusiyanın enerji imkanlarının bir-birini tamamladığını qeyd edən Prezident İlham Əliyev energetika sahəsində çox səmərəli regional əməkdaşlığın da yarana biləcəyini bildirdi. Ölkələrimiz arasında energetika sahəsində ikitərəfli əməkdaşlığın uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı bu sahədə yaxşı dinamikanın olduğunu bildirdi və lazım olan anlarda ölkələrimizin bir-birinə qarşılıqlı kömək göstərdiyini qeyd etdi. Prezident İlham Əliyev bu sahədə işlərin gələcəkdə də konstruktiv şəkildə inkişaf edəcəyinə əminliyini vurğuladı.

AZƏRBAYCAN İLƏ RUSİYA ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN 12-Cİ İCLASI KEÇİRİLMİŞDİR

Mayın 29-da Bakıda Azərbaycan ilə Rusiya arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın 12-ci iclası keçirilmişdir.

İclası giriş sözü ilə açan komissiyanın həmsədri, Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov iki ölkə arasında mehriban dostluq əlaqələrinin qurulduğunu bildirmişdir.

Rusiyanı Azərbaycanın əsas strateji tərəfdaşı kimi qiymətləndirən Y.Eyyubov məlumat vermişdir ki, ölkələrimiz arasında ticarət dövriyyəsi son illər 200 milyon ABŞ dollarından 2,4 milyard dollara çatmışdır. O qeyd etmişdir ki, bu rəqəmi daha da artırmaq üçün potensial imkanlar vardır. Azərbaycan Rusiya ilə yalnız iqtisadi sahədə deyil, həm də humanitar, mədəni sahələrdə də sıx əlaqələr qurmuşdur. Rusiyanın regionları ilə fəal əməkdaşlıq aparılır. Yaxın vaxtlarda Ulyanovsk vilayəti, Kabardin–Balkar və Başqırdıstan respublikaları ilə ticari əməkdaşlığa dair sazişlər imzalanacaqdır. Baş nazirin birinci müavini Azərbaycanın Rusiya ilə müdafiə sənayesi sahəsində əməkdaşlıqda maraqlı olduğunu bildirmişdir.

Azərbaycanda olmasından məmnunluğunu ifadə edən Rusiyanın energetika naziri Sergey Şmatko dəvətə görə minnətdarlığını bildirmiş, iki ölkə arasında əlaqələrdən razı qaldığını söyləmişdir. S.Şmatko bu iclasın ikitərəfli əlaqələrin daha da inkişafına təkan verəcəyinə əmin olduğunu vurğulamışdır.

Komissiyanın iclası xüsusi mülkiyyət məsələlərinin həlli, humanitar, turizm, informasiya texnologiyaları, əmək miqrasiyası və digər məsələlərin müzakirəsi ilə davam etdirilmişdir.

Azərbaycan-Rusiya hökumətlərarası komissiyanın növbəti iclasının 2010-cu ildə Moskvada keçirilməsi qərara alınmış, iclasın yekununa dair protokol imzalanmışdır.

BAKIDA MDB DÖVLƏTLƏRİ ELEKTROENERGETİKA ŞURASININ 35-Cİ İCLASI KEÇİRİLMİŞDİR

Mayın 29-da Bakıda "Hyatt-Regency-Naxçıvan" mehmanxanasında MDB dövlətləri Elektroenergetika Şurasının 35-ci iclası keçirilmişdir.

İclasda Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya Federasiyası, Tacikistan, Türkmənistan, Özbəkistan, Ukrayna və İranın nümayəndələri iştirak etmişlər.

İclası giriş sözü ilə açan Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev demişdir ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin respublikamızın enerji təhlükəsizliyi üçün həyata keçirdiyi irimiqyaslı tədbirlər nəticəsində ölkənin elektroenergetika sistemi formalaşmış və inkişaf etmişdir. Bu inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının rəhbərliyi altında həyata keçirilən iqtisadi inkişaf proqramlarının nəticəsi olaraq iqtisadiyyatın bütün sahələrində olduğu kimi, elektrik energetikası sahəsində də böyük nailiyyətlər əldə edilmişdir. Həyata keçirilmiş məqsədyönlü tədbirlər sayəsində respublikamız enerji idxalından azad olmuşdur. Hazırda Azərbaycan elektrik enerjisinə olan tələbatını tam həcmdə ödəməklə yanaşı, qonşu dövlətlərin elektrik enerjisi təhlükəsizliyində də mühüm rol oynayır.

Natiq Əliyev son illər Azərbaycanın elektroenergetika sektorunda həyata keçirilən layihələr barədə məlumat vermiş, bildirmişdir ki, artıq iki ildir Azərbaycan qonşu ölkələrə elektrik enerjisi ixrac edir. Azərbaycanın enerji sisteminin respublikanın bütün ərazisini əhatə etdiyini vurğulayan nazir bildirmişdir ki, hazırda ölkənin enerji sistemi Rusiyanın Vahid Enerji sistemi ilə paralel iş rejimində işləyir. Bundan başqa, Gürcüstanın enerji sistemi ilə qarşılıqlı zərurət yaranan hallarda paralel iş rejimi bərpa olunur. İran və Türkiyənin enerji sistemləri ilə "ada" rejimində elektrik enerjisi mübadiləsi həyata keçirilir. Elektrik energetikası sahəsində Azərbaycanın əsas tərəfdaşı Rusiyadır. Hər iki ölkənin elektrik energetikası sistemləri sinxronlaşdırılıb ki, bu da istehlakçılara verilən elektrik enerjisinin yüksək keyfiyyətini təmin edir.

Nazir qeyd etmişdir ki, enerji sisteminin yeniləşməsində və inkişafında beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq mühüm rol oynayır. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, "Bayrişe Landesbank Girosentrale", İslam İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı, KFW və digər maliyyə qurumları Azərbaycanla tərəfdaşlıq edirlər. Ölkəmiz ABŞ, Almaniya, Yaponiya, Türkiyə, İsveçrə, Rusiya, İran, Hindistan, İtaliya və digər dövlətlərin tanınmış şirkətləri və iş adamları ilə işgüzar görüşlər keçirir, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və bir sıra qurumlarla sıx əməkdaşlıq edir.

N.Əliyev vurğulamışdır ki, Azərbaycan yaxın perspektivdə elektrik enerjisi istehsalını 10 min MVt-a qədər artırmaq niyyətindədir. Bu məqsədlə yeni stansiyalar inşa olunur, köhnə stansiyalar yenidən qurulur və təmir işləri nəticəsində mövcud güclər artırılır. Azərbaycanla Rusiya və İran arasında yüksək gərginlikli elektrik xəttinin tikildiyini deyən nazir Xəzəryanı dairəvi enerji sisteminin qurulmasının vacibliyini qeyd etmişdir.

İclasda çıxış edən MDB dövlətləri Elektroenergetika Şurasının prezidenti, Rusiyanın energetika naziri Sergey Şmatko bildirmişdir ki, tədbir çərçivəsində 2008-2009-cu illərin payız-qış mövsümündə MDB enerji sistemlərinin işinin yekunları, enerji sistemlərinin paralel işləməsi barədə müqavilənin icrası, MDB dövlətlərinin energetika sahəsində əməkdaşlıq Konsepsiyasının layihələri və onların reallaşdırılması üzrə tədbirlər planının hazırlanmasının gedişi barədə müzakirələr aparılacaqdır. Bundan başqa, UCTE (Cənubi, Mərkəzi və Qərbi Avropanın 23 dövlətinin sistem operatorlarını birləşdirən elektrik enerjisinin ötürülməsinin koordinasiyası üzrə birlik) enerji birliyi ilə MDB və

Baltikyanı ölkələrin sinxron birləşməsinin texniki-iqtisadi əsaslandırılmasının başa çatdırılması, Paylanmış hesabatlar texnologiyasının reallaşdırılması üzrə pilot layihəsinin və enerji sistemlərinin iş rejimlərinin planlaşdırılmasının gedişi, MDB Elektroenergetika Şurasının fəaliyyətinin maliyyələşdirilməsi və digər məsələlər müzakirə ediləcəkdir.

MDB İcraiyyə Komitəsinin nümayəndəsi Ələddin Quluzadə MDB dövlətləri Elektroenergetika Şurasının fəaliyyətinin intensivləşdirilməsi məqsədi ilə təmsil etdiyi qurum tərəfindən həyata keçirilmiş tədbirlər barədə məlumat vermiş, iclasın iştirakçılar üçün səmərəli olacağına əminliyini bildirmişdir.

BAKIDA MDB DÖVLƏTLƏRİ ELEKTROENERGETİKA ŞURASININ 35-Cİ İCLASININ YEKUNLARINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSI KEÇİRİLMİŞDİR

Mayın 29-da Bakıda "Hyatt-Regency-Naxçıvan" mehmanxanasında keçirilmiş MDB dövlətləri Elektroenergetika Şurasının 35-ci iclasının yekunlarına həsr edilmiş mətbuat konfransı olmuşdur.

Yerli və xarici jurnalistlərin suallarını cavablandıran MDB dövlətləri Elektroenergetika Şurasının prezidenti, Rusiyanın energetika naziri Sergey Şmatko bildirmişdir ki, tədbir çərçivəsində 2008-2009-cu illərin payız-qış mövsümündə MDB enerji sistemlərinin işinin yekunları, enerji sistemlərinin paralel işləməsi barədə müqavilənin icrası, MDB dövlətlərinin energetika sahəsində əməkdaşlıq Konsepsiyasının layihələri və onların reallaşdırılması üzrə tədbirlər planının hazırlanmasının gedişi barədə müzakirələr aparılmışdır. Bundan başqa UCTE (Cənubi, Mərkəzi və Qərbi Avropanın 23 dövlətinin sistem operatorlarını birləşdirən elektrik enerjisinin ötürülməsinin koordinasiyası üzrə birlik) enerji birliyi ilə MDB və Baltikyanı ölkələrin sinxron birləşməsinin texniki-iqtisadi əsaslandırılmasının başa çatdırılması, Paylanmış hesabatlar texnologiyasının reallaşdırılması üzrə pilot layihəsinin və enerji sistemlərinin iş rejimlərinin planlaşdırılmasının hazırlanmasının gedişi, MDB Elektroenergetika Şurasının fəaliyyətinin maliyyələşdirilməsi və digər məsələlər müzakirə edilmişdir.

İclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan, Özbəkistan, Ukrayna və İranın nümayəndələri iştirak etmişlər.

Rusiyalı nazir vurğulamışdır ki, bu gün zamanın çağırışlarına operativ və innovativ cavab verilməli, bu məqsədlə əməkdaşlıq əlaqələri inkişaf etdirilməlidir.

İclasın yekunu olaraq protokolun imzalandığı, gündəliyə daxil edilmiş məsələlər üzrə müvafiq qərarların qəbul olunduğu bildirilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ NİKA QİLAURİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Gürcüstanın Baş naziri Nika Qilaurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Gürcüstanın Baş naziri Nika Qilauri Prezident Mixail Saakaşvilinin salamlarını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırdı. Energetika naziri olduğu dövrdə Azərbaycana tez-tez səfər etdiyini vurğulayan qonaq, ölkələrimiz arasında energetika sahəsində mövcud əməkdaşlığa toxundu və bu əməkdaşlığın daha da möhkəmlənməsində iyunun 2-də Bakıda keçiriləcək XVI Beynəlxalq Xəzər neft, qaz, neftayırma və neft kimyası sərgi və konfransının əhəmiyyətini qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi və energetika sahəsində uğurla inkişaf etdiyini dedi, Gürcüstanın Baş nazirinin ölkəmizə bu səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyini vurğuladı. XVI Beynəlxalq Xəzər neft, qaz, neftayırma və neft kimyası sərgi və konfransının əhəmiyyətinə toxunan Prezident İlham Əliyev energetika sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından bu sərginin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Gürcüstan Prezidenti Mixail Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ SƏFİR RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi səfir Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi səfir Riçard Morninqstar ölkəmizə sonuncu dəfə səfəri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü ehtiramla xatırladı. O, həmin səfərinin Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin çəkilişinə başlanılması kimi əlamətdar hadisə ilə əlaqədar olduğunu bildirdi, bu layihənin regional və dünya miqyaslı əhəmiyyətini qeyd etdi. Sonra Riçard Morninqstar ABŞ Prezidenti Barak Obamanın məktubunu Azərbaycan Prezidentinə çatdırdı.

Dövlətimizin başçısı Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin çəkilişini böyük nailiyyət kimi dəyərləndirərək, Azərbaycanın təşəbbüsçüsü və iştirakçısı olduğu digər iri enerji layihələrinin də enerji sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsi işinə töhfə verəcəyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin mühüm məsələlər üzrə birgə işləri bundan sonra da davam etdirəcəyinə əminliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Böyük Britaniyanın York hersoqu şahzadə Endryunu qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında əlaqələrin iqtisadi sahədə, o cümlədən energetika sahəsində uğurla inkişaf etdiyi bildirildi, XVI Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransının energetika sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsindəki əhəmiyyətli rolu qeyd olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN DÖVLƏT KATİBİ, NEFT VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ ROBİN MARTİN KAASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Norveçin dövlət katibi, neft və energetika nazirinin müavini Robin Martin Kaasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Robin Martin Kaas XVI Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransında Norveçin siyasi səviyyədə iştirak etməsinin ölkəsi üçün çox mühüm olduğunu dedi. O bildirdi ki, bu beynəlxalq tədbirdə ölkələrin siyasi və sənaye nümayəndələri baxımından fəal iştirak etmələri Azərbaycanın neft və qaz sənayesində təkcə regionda deyil, beynəlxalq aləmdə mühüm rol oynadığının göstəricisidir. Robin Martin Kaas Xəzərdə neft-qaz hasilatının uğurlu nəticələri münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransının ilk illərdən başlayaraq təkcə Azərbaycan üçün deyil, dünyanın enerji sahəsində inkişafı baxımından xüsusi əhəmiyyətə malik olduğunu vurğulayan dövlətimizin başçısı, ötən 16 il ərzində keçirilən bütün konfransların önəmli olduğunu dedi. Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransının Azərbaycanın neft siyasətinin müxtəlif mərhələlərinin uğurla həyata keçirilməsini əks etdirdiyini deyən Prezident İlham Əliyev ötən dövrdə qarşıda duran bütün planların müvəffəqiyyətlə icra olunduğunu bildirdi.

Görüşdə Azərbaycan ilə Norveç arasında enerji sahəsində əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

BAKIDA XVI BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSI İŞƏ BAŞLAMIŞDIR AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

İyunun 2-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində XVI Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransı işə başlamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

Sərgi və konfransı açan ITE Group Plc şirkətinin baş məsləhətçisi Endryu Vud Prezident İlham Əliyevi, sərgi və konfransın iştirakçılarını salamladı. Azərbaycanda neft və qaz sektorunun sürətli inkişafını vurğulayan Endryu Vud bildirdi ki, bütün bunlar xalqımızın tərəqqisinə və rifahına yönəlmişdir. Sərgi və konfransın yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Endryu Vud ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin dövlətimizin başçısı tərəfindən uğurla davam etdirildiyini dedi.

Endryu Vud bildirdi ki, Azərbaycan dünyada neft və qaz sənayesində getdikcə daha mü-

hüm rol oynayır, əhəmiyyətli enerji mərkəzinə çevrilir.

Sərginin dinamik inkişafda olduğu, sərgidə dünyanın 22 ölkəsindən 300-dək şirkətin iştirak etdiyi, onlardan 60-nın beynəlxalq tədbirdə ilk dəfə təmsil olunduğu diqqətə çatdırıldı. Sərgi və konfransın iştirakçılar üçün faydalı olacağı əminliklə vurğulandı.

Prezident İlham Əliyev açılış mərasimində nitq söylədi.

VI BEYNƏLXALQ XƏZƏR NEFT-QAZ, SƏRGİ VƏ KONFRANSININ AÇILIŞINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar,

Hörmətli sərgi iştirakçıları,

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox əlamətdar bir gündür, bizim üçün ənənəvi bir gündür. On altıncı ildir ki, Bakıda Xəzər Beynəlxalq neft-qaz sərgisi keçirilir. Bu sərgi beynəlxalq müstəvidə öz yerini tutan bir tədbirdir. On altı il bundan əvvəl ilk dəfə olaraq Bakıda belə sərginin keçirilməsi Azərbaycanın enerji potensialının dünyaya təqdimatı kimi qəbul edilirdi. Bu münasibətlə mən sərginin təşkilatçılarına öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Çünki onların səyi nəticəsində Azərbaycanı tanıdılar.

Deyə bilərəm ki, 1994-cü ildə ilk dəfə olaraq Azərbaycanda, ümumiyyətlə, nəinki enerji sahəsində, bütövlükdə Azərbaycan üçün ən önəmli tədbir keçirilmişdi. Azərbaycan gənc müstəqil dövlət idi. Azərbaycan müəyyən səbəblər üzündən o vaxt hələ öz imkanlarını tam şəkildə ortaya qoya bilmirdi. Ölkə iqtisadiyyatı çox ağır vəziyyətdə idi. Ölkənin gələcəyi o qədər də aydın deyildi. Məhz o şəraitdə Azərbaycanın neft-qaz sektoruna göstərilən maraq və bu marağın nəticəsində ondan sonrakı illərdə əldə edilmiş nailiyyətlər ölkəmizin ümumi gələcəyini müəyyən etdi.

O illər Azərbaycan üçün həlledici anlar idi. Azərbaycan hansı yolu seçəcək, hansı istiqamətlə irəliyə gedəcək? Müxtəlif variantlar var idi. Ancaq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qətiyyəti və birmənalı siyasəti nəticəsində Azərbaycan düzgün yol seçmişdi və biz bu yolun düzgün olmasını bugünkü Azərbaycanın inkişafında görürük. 1994-cü ildə isə Azərbaycan çox riskli bir ölkə kimi tanınırdı. Ölkədə ictimai-siyasi vəziyyət hələ tam sabitləşməmişdi. Ölkədə bütövlükdə iqtisadi inkişaf çox aşağı səviyyədə idi, daha doğrusu, iqtisadiyyatda və sənayedə tənəzzül müşahidə olunurdu. Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində torpaqlarımızın işğal altına düşməsi də, əlbəttə ki, xarici investorlar üçün əlavə stimulverici amil sayıla bilməzdi.

O illərdə ölkəmiz üçün həlledici qərarlar qəbul edildi və sərginin keçirilməsi, Azərbaycanın imkanlarının dünya birliyinə çatdırılması çox önəmli hadisə idi. İlk sərginin keçirilməsindən bir neçə ay sonra "Əsrin müqaviləsi" imzalandı. "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanda yeni neft strategiyasının başlanması demək idi. Bu gün uğurla icra edilən neft siyasətimiz həm Azərbaycanın enerji təhlükəsizliyini təmin etdi, Azərbaycanı dünya birliyinə çox etibarlı ölkə və etibarlı tərəfdaş kimi təqdim etdi və eyni zamanda, bu gün bizim ölkəmiz və neft-qaz imkanlarımız geniş mənada qitənin enerji təh-

lükəsizliyi üçün əvəzolunmaz funksiyalar daşıyır.

"Əsrin müqaviləsi"nin imzalanması, ondan iki il sonra "Şahdəniz" yatağı üzrə müqavilənin imzalanması bu gün Azərbaycanın əsas enerji potensialını təşkil edir. Ondan sonrakı illərdə çoxsaylı beynəlxalq müqavilələr imzalanmışdır. Azərbaycan xarici investisiyalar üçün çox cəlbedici ölkə kimi özünü təqdim etməyi bacarmışdır. Azərbaycanda yaradılmış gözəl investisiya iqlimi şübhəsiz, qeyri-neft sektoruna da öz müsbət təsirini göstərmişdir.

Neft sektoru bizim üçün təkanverici bir vasitə idi. Mən həmişə demişəm, bu gün də demək istəyirəm ki, bizim üçün neft amili bir məqsəd deyil, bir vasitədir. Biz bu vasitədən çox uğurla istifadə etdik. Bu gün Azərbaycan iqtisadiyyatı çoxşaxəli iqtisadiyyatdır. Bu gün iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı neft sektorundan daha da sürətlə irəli gedir. Bu ilin, bütün dünya üçün böhranlı ilin ilk rübündə iqtisadi inkişaf 4,3 faiz, qeyri-neft sektorunun artımı isə 13,7 faiz təşkil etmişdir. Biz buna məhz neft siyasətinin uğurlu icrası nəticəsində, neftdən əldə edilmiş gəlirlərin səmərəli şəkildə digər sektorlara investisiya kimi qoyuluşu nəticəsində nail ola bilmişik. Bu gün Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır və əminəm ki, bütün son illər ərzində əldə edilmiş iqtisadi uğurlar növbəti illərdə davam etdiriləcəkdir.

Neft-qaz sahəsinə gəldikdə, Azərbaycan 1994-cü ildən bu günə qədər çox böyük və uğurlu yol keçibdir. Biz qarşıda duran bütün vəzifələri, demək olar ki, uğurla icra etmişik. Bu gün reallıq sayılan layihələr o illərdə əfsanəvi ideyalar kimi təqdim edilirdi. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum nəinki Azərbaycanın inkişafını müəyyən etdi, eyni zamanda, bölgədə və regionda tamamilə yeni situasiyanı yaratdı. İlk dəfə olaraq, xarici şirkətlər məhz Azərbaycan tərəfindən Xəzər dənizinə dəvət olundular və investisiyalar qoymağa başladılar. İlk dəfə olaraq Xəzər dənizinin nefti müxtəlif yollarla dünya bazarlarına çıxarıldı və artıq hasilat gündən-günə artır. İlk dəfə olaraq Azərbaycan qaz ixrac edən ölkəyə çevrildi. Bu gün Azərbaycan qazı həm Azərbaycanın enerji təhlükəsizliyini təmin edir, həm də qonşu ölkələrə ixrac edilir və gələcəkdə bu ixrac daha da böyük rəqəmlərlə ölçüləcəkdir.

Biz investisiyaları cəlb edə bilmişik, çox dərin yerlərdə, minlərlə metr suyun altında yerləşən yataqların işlənilməsinə nail ola bilmişik. Neft-qaz sərvətimizi dünya bazarlarına ixrac edə bilmişik və bu gün Azərbaycan öz enerji potensialını müxtəlif boru kəmərləri ilə ixrac edir. Bizim 7 neft və qaz kəmərimiz var. Hər bir kəmər özlüyündə böyük məna daşıyır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk neft kəmərləri - onların hamısı bu gün işlək vəziyyətdədir, Azərbaycan neftini müxtəlif istiqamətlərə ixrac edir. Bakı-Tbilisi-Ərzurum, Bakı-Rusiya, Bakı-İran, Bakı-Gürcüstan qaz kəmərləri. Bu dörd kəmərdən üçü bu gün işlək vəziyyətdədir və üç kəmər vasitəsilə Azərbaycan qazı ixrac edilir. Yəni, Azərbaycanın enerji, neft və qaz potensialının şaxələndirilməsi məsələlərini biz tam şəkildə həll edə bilmişik. Dünya bazarına birbaşa çıxışı olmayan ölkə üçün bu, həlledici məsələdir. Neft-qaz sərvəti nə qədər olursa-olsun, bunları dünya bazarına çıxarmaq mümkün olmadığı təqdirdə onun heç bir mənası yoxdur.

Ona görə mən deyirəm ki, Azərbaycanın neft-qaz sahəsində qarşısında duran bütün vəzifələr vaxtında yüksək keyfiyyətlə icra olundu. Çox gərgin regional vəziyyətdə, çox həlledici məqamlarda Azərbaycandan çox böyük qətiyyət tələb edilirdi və bu qətiyyət

göstərildi.

Bu gün isə biz irəliyə baxırıq. Biz öz siyasətimizi artıq əldə edilmiş uğurlar əsasında genişləndiririk. Bu gün Azərbaycan artıq elektrik enerjisi ixracatçısı kimi çıxış edir. Biz elektrik enerjisini qonşu ölkələrə ixrac edirik və əminəm ki, görüləcək əlavə tədbirlər nəticəsində bu sahədə də çox böyük - həm iqtisadi, həm də siyasi məsələlər həllini tapacaqdır.

Biz regional müstəvidə çox fəal iştirak edirik və bölgədə ənənəvi olaraq Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığı bu gün də davam edir. Bu əməkdaşlıq artıq yeni layihələrə keçir. Bakı-Tbilisi-Qars dəmir yolu da Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən, eyni zamanda, Avropanı Asiya ilə birləşdirən bir layihədir. Necə ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələri artıq regional müstəvidən çıxıb və qlobal xarakter daşıyır. Bu layihələr olmasaydı, bu gün hər hansı bir "Cənub dəhlizi"ndən söhbət gedə bilməzdi. Bu layihələr olmasaydı, bu gün Avropanın enerji təhlükəsizliyi məsələləri tamamilə başqa istiqamətdə həll olunacaqdı. Məhz bu layihələr barədə bax, burada, Azərbaycanda, Bakıda xarici şirkətlərin sərmayələri ilə, Azərbaycan hökumətinin qərarları ilə, beynəlxalq birliyin və beynəlxalq maliyyə qurumlarının maliyyə dəstəyi ilə həlledici qərarlar qəbul edildi.

Bu, təsadüfi deyil, çünki hamımız yaxşı bilirik ki, dünyada sənaye üsulu ilə ilk neft məhz Bakıda hasil edilib. İlk dəfə olaraq dəniz yataqlarından neft məhz Azərbaycan neftçiləri tərəfindən hasil edilib. Ona görə də Bakı və Azərbaycan ənənəvi neft paytaxtıdır, - bu gün isə yeni reallıqlar əsasında, - amma əslində, eyni mənzərəni biz bu gün də görürük. Bizim növbəti addımlarımız da bu vaxta qədər olduğu kimi, ilk növbədə, Azərbaycanın milli maraqlarını təmin edəcək, eyni zamanda, əməkdaşlığın dərinləşməsi, beynəlxalq səviyyədə enerji təhlükəsizliyinin təmin edilməsi məsələlərinə də çox müsbət təsir göstərəcəkdir.

Keçən il noyabr ayında Bakıda keçirilmiş enerji sammiti və qəbul edilmiş qərarlar, ondan sonra keçən ay Praqada keçirilmiş "Cənub dəhlizi" mövzusunda enerji sammiti və orada qəbul edilmiş qərarlar bir-biri ilə uzlaşır, bir-birinin elə bil ki, məntiqi davamıdır.

Bu gün biz artıq əldə edilmiş uğurlar əsasında gələcəyə baxırıq. O gələcəyə ki, bizə yeni imkanlar açacaq, qarşımızda yeni üfüqlər açılacaqdır. Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda bugünkü neft-qaz hasilatı nəinki bizim tələbatımızı ödəyir, eyni zamanda bölgənin enerji təhlükəsizliyini təmin edir. Müxtəlif hesablamalara görə, bu il Azərbaycanda hasil ediləcək neftin həcmi minimum 45 milyon ton təşkil edəcəkdir. Təbii qazın hasilatı 25-27 milyard kubmetr təşkil edəcəkdir. Düzdür, bu qazın bir hissəsi təzyiqin artırılması üçün yenidən laylara vurulacaqdır. Ancaq bu gün bax, bu rəqəmlər Azərbaycanın real imkanlarını göstərir. Nəzərə alsaq ki, Azərbaycanda ən minimal hesablamalara görə, qaz ehtiyatları 2 və orta hesabla 5 trilyon kubmetr səviyyədədirsə, görmək olar ki, uzun illər bundan sonra, onilliklər bundan sonra Azərbaycan enerji sahəsində çox önəmli və strateji tərəfdaş kimi öz rolunu oynayacaq və bu rol getdikcə artacaqdır.

Biz çalışmalıyıq və çalışırıq ki, bu gözəl imkanlardan gələcəkdə də səmərəli şəkildə istifadə edək, Azərbaycanı hərtərəfli inkişaf etdirək. Bu gün Azərbaycanın enerji potensialı ölkəmizin hərtərəfli inkişafına xidmət göstərir. Biz neft kapitalını insan kapitalına

çeviririk. Bu gün neftdən əldə olunan gəlirlər sosial məsələlərin həllinə yönəldilir. Bu gün işğaldan əziyyət çəkən soydaşlarımız yeni qəsəbələrə köçürülür. Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayıbdır. Bu, məhz, neft siyasətinin sayəsində mümkün olubdur. Minlərlə yeni məktəblər, yüzlərlə yeni xəstəxanalar, yollar, elektrik stansiyaları bugünkü Azərbaycanın reallıqlarıdır və bunun təməlində enerji siyasəti dayanır.

Növbəti illərdə biz elə etməliyik ki, ölkə qarşısında duran bütün vəzifələr öz həllini tapsın. Bunun üçün həm bizim maddi imkanlarımız var, eyni zamanda, iradə də var.

Bir məsələni də qeyd etmək istəyirəm, o da çox böyük əhəmiyyət daşıyır və bugünkü uğurlu neft siyasətimizdə sonuncu rol oynamır - bu, şəffaflıq kriteriyalarıdır. Biz ilk illərdən çalışmışıq və hesab edirəm ki, buna nail olmuşuq ki, neft-qaz sahəsində maksimum dərəcədə şəffaflıq təmin edilsin.

Azərbaycan ilk ölkələrdəndir ki, Böyük Britaniyanın keçmiş Baş nazirinin təşəbbüsü ilə Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsünə qoşulmuşdur. Azərbaycan bu təşəbbüsdə, bu proqramda deyə bilərəm ki, aparıcı rol oynayır. Azərbaycanda yaradılmış Dövlət Neft Fondu şəffaflıq kriteriyaları üzrə nümunəvi bir qurumdur və təsadüfü deyil ki, BMT Azərbaycan Dövlət Neft Fondunu yüksək mükafatla təltif etmişdir.

Biz elə etməliyik ki, neft-qaz sahəsində əldə edilmiş şəffaflıq bütün maliyyə sektoruna şamil edilsin və Azərbaycanın bütün iqtisadiyyatı maksimum dərəcədə şəffaflıq əsasında təşkil edilsin. Bütün gələn gəlirlər şəffaf şəkildə saxlanılır, əhaliyə mütəmadi qaydada məlumatlar verilir, gəlirlərin yığılması və gəlirlərin xərclənməsi çox şəffaf şəkildə keçirilir. Məhz buna görə hesab edirəm, əsas səbəb kimi bunu göstərmək olar ki, Azərbaycanda neftdən əldə edilmiş gəlirlər çox səmərəli şəkildə istifadə olundu, Azərbaycan xalqının milli maraqlarının müdafiəsinə sərf edildi.

Azərbaycanda qeyri-neft sektorunun inkişafı da dediyim kimi, neft siyasətinin məntiqi davamıdır. Növbəti illərdə Azərbaycan enerji sahəsində etibarlı tərəfdaş kimi öz mühüm funksiyalarını davam etdirəcəkdir. Biz həm hasilatçı, həm tranzit ölkə kimi nadir imkanlara malikik. Həm təbii sərvətlər, həm coğrafi vəziyyətimiz, həm də ki, artıq mövcud olan enerji və nəqliyyat infrastrukturu bizim üçün bu imkanları açır. Gələcək illərdə enerji təhlükəsizliyinin təmin edilməsi işində istehsalçılar, istehlakçılar və tranzit ölkələr mütləq əməkdaşlıq etməlidirlər. Hər üç tərəfin maraqları təmin edilməlidir. Azərbaycan bir müddət bundan əvvəl istehlakçı ölkə kimi, fəaliyyət göstərib və biz bilirik ki, xarici enerji resurslarından asılılıq nə deməkdir. Eyni zamanda, bu gün Azərbaycan həm tranzit, həm də ixracatçı ölkədir. Əlbəttə ki, bizim maraqlarımız da müdafiə olunmalıdır. Enerji təhlükəsizliyi hamı üçün, təkcə istehlakçılar üçün yox, eyni zamanda istehsalçılar üçün, tranzit ölkələr üçün təhlükəsizlik deməkdir. Ancaq bu üç tərəf arasında əməkdaşlıq mütləq şəffaf olmalıdır. Bu əməkdaşlıq beynəlxalq təcrübəyə əsaslanmalıdır. Bu əməkdaşlıq qarşılıqlı surətdə faydalı əsaslar üzərində, bazar iqtisadiyyatı prinsipləri əsasında, azad və sağlam rəqabət prinsipləri əsasında qurulmalıdır. Bu, çox önəmlidir. Çünki neft-qaz sahəsi son illər ərzində çox siyasiləşib və bunu siyasiləşdirmək istəyən qüvvələr kifayət qədərdir. Biz elə etməliyik ki, üç tərəf arasında əməkdaşlıq maksimum dərəcədə, bir daha demək istəyirəm ki, beynəlxalq normalara uyğun olsun. Əgər alqı-satqı müqaviləsi gözlənilirsə, qiymət ədalətli olmalıdır. Əgər tranzit anlaşması gözlənilirsə, şərtlər beynəlxalq praktikaya uyğun olmalıdır. Ancaq bu təqdirdə

həm istehsalçılar, həm tranzitçilər, həm də istehlak edən tərəflər öz maraqlarını təmin edə bilərlər. Bir tərəfin maraqları başqa tərəfin maraqları hesabına təmin oluna bilməz. Bu, bizim prinsipial yanaşmamızdır və bu, bizim enerji siyasətimizin mühüm hissəsini təşkil edir. Mən əminəm ki, ancaq bu yanaşma bölgədə və geniş mənada qitədə enerji məsələlərində əməkdaşlığın təmin olunmasına şərait yarada bilər. Hər halda biz bu mövqedəyik və bu mövqeyi müdafiə edəcəyik. Nəzərə alsaq ki, Azərbaycanın iştirakı olmadan bölgədə və geniş mənada yerləşdiyimiz qitədə enerji təhlükəsizliyi məsələləri tam şəkildə həll oluna bilməz, şübhə etmirəm ki, bu mövqe üstünlük təşkil edəcəkdir. Bilirəm ki, tərəfdaşlarımızın böyük əksəriyyəti bu mövqeyi bölüşür.

Mən hesab edirəm, bugünkü sərgi və konfrans, eyni zamanda, yaxşı fürsətdir ki, burada iştirak edən şirkətlərin nümayəndələri bütün bu məsələləri bir daha müzakirə etsinlər, təhlil etsinlər və növbəti illər üçün biz vahid strateji yanaşmanı hazırlamalıyıq.

Mən bir daha bütün iştirakçılara öz salamlarımı çatdırmaq istəyirəm, sərgiyə və konfransa uğurlar arzulayıram. Sağ olun.

* * *

Mərasimdə çıxış edən Gürcüstanın Baş naziri Nika Qilauri dedi ki, Azərbaycan dünyanın enerji təhlükəsizliyində getdikcə önəmli rol oynayır. Azərbaycan, Gürcüstan və Türkiyə Avropa ilə Asiya arasında enerji körpüsü rolunu oynamaq və Avropanın sabit enerji təminatına öz töhfəsini vermək imkanına malikdirlər. Artıq real faktdır ki, Azərbaycan nefti və qazı Gürcüstan və Türkiyə ərazisindən keçərək, Avropa ölkələrinə nəql olunur. Bu layihələrin reallaşmasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərini vurğulayan Baş nazir bildirdi ki, həmin layihələr Avropa üçün enerji təchizatının alternativ mənbəyi olmaqla yanaşı, həm də regionun təhlükəsizliyinin təminatıdır.

Baş nazir vurğuladı ki, bu sərgi və konfrans yeni əlaqələrin qurulması və əməkdaşlığın inkişafı üçün əlavə imkanlar yaradır.

ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi səfir Riçard Morninqstar Azərbaycanın yerləşdiyi regionun əhəmiyyətini vurğuladı. Səfir dedi ki, Xəzərin enerji ehtiyatları çox dəyərli mənbədir və beynəlxalq enerji təhlükəsizliyində mühüm əhəmiyyətə malikdir. Hazırda Azərbaycanın Orta Asiya ölkələri ilə birlikdə Avropanın mühüm qaz təchizatçısına çevrilməsi üçün böyük potensialı vardır.

Sərgi-konfransla bağlı ABŞ Prezidenti Barak Obamanın təbrik məktubunu Azərbaycan Prezidenti İlham Əliyevə çatdırdığını bildirən Riçard Morninqstar məktubun məzmunu ilə tədbir iştirakçılarını tanış etdi.

Böyük Britaniyanın York hersoqu şahzadə Endryu təmsil etdiyi ölkə ilə Azərbaycan arasındakı əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini vurğuladı. Böyük Britaniyanın Azərbaycanla təkcə neft yox, qaz sahəsində də əməkdaşlıqda maraqlı olduğunu bildirən şahzadə Endryu qarşılıqlı faydaya əsaslanan münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi. O, bu sərgidə iri şirkətlərin iştirak etdiyini və bunun əməkdaşlığın genişləndirilməsi üçün gözəl imkan açdığını vurğuladı.

Şahzadə Endryu Böyük Britaniyanın Baş naziri Qordon Braunun təbrik məktubunu oxudu.

Türkiyənin energetika və təbii ehtiyatlar nazirinin müavini Yusif Yazar Bakıda on altıncı dəfə keçirilən beynəlxalq neft-qaz sərgi və konfransını Xəzər hövzəsində bu sahədə təşkil edilən ən böyük tədbir kimi qiymətləndirdi. O dedi ki, bu beynəlxalq tədbir əməkdaşlıq əlaqələrinin, faydalı iş birliyinin qurulması üçün gözəl imkandır. Karbohidrogen ehtiyatlarının böyük əhəmiyyət kəsb etdiyini vurğulayan türkiyəli nazir müavini Azərbaycan ilə Türkiyə arasında dostluq və əməkdaşlıq münasibətlərindən danışdı.

Azərbaycanın zəngin enerji ehtiyatlarının Avropaya nəqlində Türkiyənin tranzit ölkə kimi rolundan danışan Yusif Yazar bildirdi ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars layihələri ölkələrimiz arasında əməkdaşlığın rəmzidir.

Norveçin dövlət katibi, neft və energetika nazirinin müavini Robin Martin Kaas sərgi və konfransın yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirdi.

Norveç Krallığının Baş naziri Yens Stontelberqin adından tədbir iştirakçılarını təbrik edən Robin Martin Kaas, regionun enerji sektorunun inkişafını müşahidə etmək üçün çoxsaylı nüfuzlu iştirakçıları bir araya gətirən sərgi və konfransın işinə uğurlar arzuladı.

Müasir neft hasilatının beşiyi Azərbaycanı görməkdən məmnunluğunu bildirən Robin Martin Kaas Bakıda Azərbaycanın neft sənayesinin tarixi ilə bağlı ətraflı məlumat əldə etdiyini dedi. O, norveçli səyyah Tur Heyerdal, şair Henrik Verqelann, həmçinin Nobel mükafatı laureatı Knut Hamsunun Azərbaycanla bağlı fikir və xatirələrini diqqətə çatdırmışdır.

Norveçin neft sənayesi tarixinin Azərbaycanın neft sənayesi tarixinə nisbətdə yeni olduğunu qeyd edən dövlət katibi, ölkəsinin neft-qaz sahəsində respublikamızla sıx əməkdaşlıq etdiyini bildirdi. O, Azərbaycan-Norveç əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini vurğuladı və ən xoş arzularını çatdırdı.

Açılış mərasimindən sonra Prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu.

Dövlətimizin başçısı əvvəlcə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) ekspozisiyasına baxdı.

Prezident İlham Əliyevə ARDNŞ-in axtarış-kəşfiyyat işləri, neft və qaz hasilatı, neftin emalı, neftçıxarmada nanotexnologiyaların tətbiqi barədə ətraflı məlumat verildi. Qeyd olundu ki, nanotexnologiyalar hasilatın 2-2,5 dəfə artmasına, enerji sərfinin isə 15 faiz azalmasına imkan verir. Dövlətimizin başçısına şirkətin sosial inkişaf, ekologiya, idman və digər sahələrdə həyata keçirdiyi layihələr barədə məlumat verildi.

Sonra Prezident İlham Əliyev "bp-Azərbaycan" şirkətinin ekspozisiyası ilə tanış oldu. Burada Səngəçal terminalı, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Gürcüstandakı 1 nömrəli nasos stansiyası və Ceyhan terminalı ilə birbaşa videoəlaqə yaradıldı.

Videoəlaqəyə qoşulan mütəxəssislər Prezident İlham Əliyevə işlərin gedişi barədə ətraflı məlumat verdilər.

Dövlətimizin başçısı onlara gələcək işlərində uğurlar arzuladı.

Prezident İlham Əliyev sərgidəki digər şirkətlərin ekspozisiyaları ilə də tanış oldu.

BRÜSSELDƏ "AZƏRBAYCANIN AVROPA VƏ AVRATLANTİK MƏKANA İNTEQRASİYASI: GƏLƏCƏK TENDENSİYA VƏ PERSPEKTİVLƏR" ADLI ELMİ-PRAKTİK KONFRANS KEÇİRİLMİŞDİR

İyunun 2-də Brüsseldə "Azərbaycanın Avropa və Avratlantik məkana inteqrasiyası: gələcək tendensiya və perspektivlər" adlı elmi-praktik konfrans keçirilmişdir. Azərbaycan diplomatiyasının 90 illik yubileyinə həsr olunmuş konfrans ölkəmizin Avropa İttifaqı (Aİ) yanında missiyası və NATO yanında nümayəndəliyinin dəstəyi ilə Strateji Araşdırmalar İnstitutu tərəfindən təşkil edilmişdir.

Konfransın birinci hissəsində Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Araz Əzimov, Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebi, qurumun xarici əlaqələr və Avropa qonşuluq siyasəti üzrə komissarının kabinet üzvü Emma Udvin, Avropa Siyasi Mərkəzinin aparıcı elmi işçisi Amanda Akcakosa məruzə etmişlər.

İkinci hissədə A.Əzimov, NATO Baş katibinin köməkçisi Jan-Fransua Büro, Rumıniyanın NATO yanında daimi nümayəndəsi Sorin Dukaru və NATO-nun Beynəlxalq Hərbi Qərargahı direktorunun müavini, general-mayor Corc Lebel çıxış etmişlər.

Məruzəçilər müasir geostrateji şəraitdə Azərbaycanın mövqeyinin xüsusi əhəmiyyətini vurğulamış, Azərbaycan rəhbərliyinin həyatın müxtəlif sahələrinin müasirləşdirilməsi üçün bir çox strateji islahatların həyata keçirilməsi ilə bağlı məqsədyönlü fəaliyyətini yüksək qiymətləndirmiş, ölkəmizin Avropanın enerji təhlükəsizliyinə, regional əməkdaşlığa konstruktiv töhfəsini xüsusi qeyd etmişlər.

Diskussiyalar zamanı Azərbaycanın Avropa və Avratlantik məkana gələcək inteqrasiyası, respublikamızın Aİ və NATO ilə praktiki əməkdaşlığının, ilk növbədə, münaqişələrin həlli, təhlükəsizlik və sabitliyin təmin edilməsi, iqtisadiyyat, ticarət, nəqliyyat və energetikanın inkişafı kimi prioritet istiqamətlərin dərinləşdirilməsi yolları müzakirə edilmişdir.

Konfransın işində Aİ və NATO strukturlarının yüksək vəzifəli nümayəndələri, Brüsseldə fəaliyyət göstərən aparıcı elmi araşdırma mərkəzinin ekspertləri, burada akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SURİYANIN XARİCİ İŞLƏR NAZİRİ VALİD ƏL-MUALLEMİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Suriya Ərəb Respublikasının xarici işlər naziri Valid əl-Muallemin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Suriyanın xarici işlər naziri Valid əl-Muallemin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərini və Bakıda keçirdiyi uğurlu görüşlərini əlaqələrimizin yaxşı göstəricisi kimi qiymətləndirdi. Bu yaxınlarda Azərbaycanın Suriyada səfirliyinin açıldığını deyən Prezident İlham Əliyev bunu əlaqələrimizin inkişafı istiqamətində vacib amillərdən biri hesab etdi. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi

ki, Suriyanın xarici işlər naziri Valid əl-Muallemin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə bu səfəri əlaqələrimizin genişlənməsi işinə öz töhfəsini verəcəkdir.

Xarici işlər naziri Valid əl-Muallem Suriya Prezidenti Bəşşar əl-Əsədin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Valid əl-Muallem ölkəmizə ilk dəfə 2006-cı ildə səfər etdiyini, ötən dövr ərzində Bakıda çox böyük inkişaf proseslərinin getdiyinin şahidi olduğunu dedi və əldə olunan yüksək nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı Suriya Prezidenti Bəşşar əl-Əsədin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Suriyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ MƏRAKEŞDƏ AKKREDİTƏ OLUNMUŞ BİR SIRA DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 3-də xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizin Mərakeşdəki səfirliyinin, Azərbaycanın Xarici İşlər, Mədəniyyət və Turizm nazirliklərinin birgə təşkilatçılığı ilə tanışlıq məqsədi ilə Bakıya səfər etmiş Mərakeşdə akkreditə olunmuş Portuqaliya, Yunanıstan, Tailand, Oman, Qətər, Mavritaniya, Bruney, Malayziya, Vyetnam, Banladeş diplomatik nümayəndəliklərinin rəhbərləri və Avropa Komissiyasının təmsilçisi ilə görüşmüşdür.

Görüşdə nazir E.Məmmədyarov qonaqlara Azərbaycanın xarici siyasətinin prioritetləri haqqında ətraflı məlumat vermişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinə dair aparılan danışıqlara toxunan nazir E.Məmmədyarov münaqişənin nizamlanması ilə bağlı Azərbaycanın mövqeyini diqqətə çatdırmışdır.

Azərbaycanın sürətlə inkişaf etdiyini vurğulayan E.Məmmədyarov ölkəmizin təşəbbüskarı və iştirakçısı olduğu qlobal əhəmiyyətli regional layihələrdən də danışmışdır.

Sonda Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri qonaqları maraqlandıran sualları cavablandırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.

Dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin "Pulkovo-1" hava limanında Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.

Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ

İyunun 4-də Sankt-Peterburqda, "Konstantinovski" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin görüşü olmuşdur.

Rusiya Federasiyasının Prezidenti DMİTRİ MEDVEDEV Azərbaycan dövlətinin başçısına müraciətlə dedi:

- Hörmətli İlham Heydər oğlu, Sizi Peterburq şəhərində salamlamaq istəyirəm. Bu gün hava ilə razılığa gələ bilməsək də, mənim üçün çox xoşdur ki, Siz gəlmisiniz.

İndi bizim üçün işin gərgin vaxtıdır: forum keçirilir və bu bizə görüşmək, ikitərəfli münasibətlərimizi müzakirə etmək, regional problemlər haqqında danışmaq üçün əlavə imkanlar verir. Bu gün bizim hamını narahat edən – dünyada baş verən maliyyə və iqtisadi böhranın nəticələri, ölkələrimiz üçün çox aktual olan enerji təhlükəsizliyi məsələsi ilə bağlı müzakirə edəcəyimiz çoxlu mühüm mövzular, birgə maraqlı layihələr vardır. Biz fikirləşməliyik ki, son dövrdə əldə etdiyimiz əmtəə dövriyyəsinin səviyyəsi dünya iqtisadi konyunkturasında baş verən dəyişikliklərə uyğun olaraq əhəmiyyətli dərəcədə enməsin, bir növ bizim ikitərəfli fəaliyyətimizdən asılı olsun.

Mən əlbəttə, ikitərəfli humanitar layihələri çox vacib hesab edirəm. Siz bu məsələlərə, o cümlədən rus dili ilə bağlı layihələrə böyük diqqət yetirirsiniz. Biz bunu qiymətləndiririk, buna görə Sizə minnətdarıq. Əlbəttə, digər ideyalar da vardır. Xoş gəlmisiniz. Sizi Peterburqda görməyimə çox şadam.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV təşəkkür edərək dedi:

- Çox sağ olun, Dmitri Anatolyeviç. Dəvətə görə təşəkkür edirəm. Sizinlə görüşmək və çox geniş gündəlik üzrə diskussiyalarımızı davam etdirmək üçün yeni imkan əldə etdiyimə görə çox şadam.

Bizim görüşlərimiz kifayət qədər müntəzəm, intensiv xarakter daşıyır və bu, ölkələrimiz arasında münasibətlərin inkişaf səviyyəsini əks etdirir. Biz çox məmnunuq ki, əlaqələrimiz inkişaf edir və Sizin də qeyd etdiyiniz kimi əlaqələrimiz bir çox istiqamətlərdə - həm siyasi qarşılıqlı fəaliyyət, həm də iqtisadi planda inkişaf edir. Böhrana baxmayaraq, ümid edirəm ki, əmtəə dövriyyəsi çox da güclü zərər çəkməyəcək.

Hesab edirəm ki, humanitar planda bizim münasibətlər nümunəvi ola bilər. Çox iş görülmüşdür, eyni zamanda, gələcək üçün çoxlu planlar vardır.

Bizim çox geniş gündəliyimiz və həmişə olduğu kimi, danışıqlar üçün çoxlu mövzu, - regional məsələlər və bizim regionda təhlükəsizlik məsələləri, bu gün xüsusi əhəmiyyət və aktuallıq kəsb edən neft-qaz sahəsində əməkdaşlıq məsələləri, - vardır. Təbiidir ki, bu məsələlərin bir daha müzakirə edilməsi və gələcək inkişafın yollarının yenidən birgə müəyyənləşdirilməsi böyük əhəmiyyətə malikdir. Böhrana baxmayaraq, həm Rusiya, həm də Azərbaycan nümayiş etdirirlər ki, bizim ölkələrimiz inkişaf etməyə, öz ehtiyatları hesabına yaşamağa qadirdirlər, bu da çox vacibdir. Mən əminəm ki, bu əməkdaşlıq gələcəkdə elə bu cür konstruktiv, gözlənilən, dostluq xarakterli olacaqdır. Dəvətə görə bir daha təşəkkür edirəm.

DMİTRİ MEDVEDEV: Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ

İyunun 4-də Sankt-Peterburqda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun, Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın və ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzə (ABŞ), Bernar Fasye (Fransa) və Yuri Merzlyakovun (Rusiya) iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

İyunun 4-də Sankt-Peterburqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü olmuşdur.

AZƏRBAYCANIN VƏ ERMƏNİSTANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ MƏTBUATA AÇIQLAMA VERMİŞLƏR

İyunun 4-də Sankt-Peterburqda Azərbaycan və Ermənistan prezidentlərinin görüşündən sonra hər iki ölkənin xarici işlər nazirləri - Elmar Məmmədyarov və Edvard Nalbandyan mətbuata açıqlama vermişlər.

Edvard NALBANDYAN: Biz deyə bilərik ki, görüş konstruktiv tərzdə keçdi, tərəflər irəliləməkdə davam edirlər. Hərçənd, bu gün hər hansı əhəmiyyətli irəliləyişdən və ya tərəqqidən danışmaq mümkün olmasa da, tərəflər irəliləyirlər və danışıqların davam etdirilməsi barədə razılığa gəlmişlər. Prezidentlər arasında yeni görüşün hazırlanması mümkündür. Bununla əlaqədar prezidentlər xarici işlər nazirlərinə Minsk qrupunun həmsədrləri ilə birlikdə müvafiq hazırlıq işlərinin görülməsi və tərəflərin mövqelərinin razılaşdırılması üzrə gələcək danışıqların davam etdirilməsi barədə tapşırıq vermişlər.

Elmar MƏMMƏDYAROV: Mən həmkarımın dedikləri ilə razıyam. Yalnız əlavə edə bilərəm ki, əvvəlkilərdən fərqli olaraq bu görüş başqa tərzdə keçirilmişdir. Əlbəttə, irəliləyiş olduğunu deyə bilmərik - deyilənlərlə tam razıyam ki, görüşdə müəyyən irəliləyiş olmuşdur. Lakin prinsipcə böyük anlaşma, bir-birinin mövqelərinin daha çox dərk edilməsi və ən başlıcası irəliləyiş, bu məsələnin həll olunmasının vacibliyi barədə ümumi razılıq var və bu qərar çox sevindiricidir.

SUAL: Məhz hansı məsələlər ətrafında mübahisəli mövqelər olmuşdur?

Elmar MƏMMƏDYAROV: Mən belə xarakterizə edərdim. Praqa prosesindən başlayaraq, Madrid sənədində əksini tapan son beş il müddətində işlənmiş prinsiplər mövcuddur. Prezidentlər səviyyəsində indi müzakirə olunan bu prinsiplərin bəziləri üzrə anlaşmalarda müəyyən konturlar hiss olunur. Bu kontekstdə deyə bilərəm ki, əgər sənəd qəbul edilsə, - bu isə ümumi anlaşmadır, - onda həmin sənəd birgə şəkildə qəbul ediləcəkdir.

SUAL: Hansı məsələlər müzakirə edilmişdir?

Elmar MƏMMƏDYAROV: Bütün məsələlər müzakirə edilmişdir.

SUAL: Madrid prinsipləri əsas olaraq qalırmı?

Edvard NALBANDYAN: Təbii, danışıqlar Madrid təklifləri, Madrid prinsipləri, Madrid sənədi əsasında aparılır.

SUAL: Cənab Məmmədyarov, belə ola bilərmi ki, sonra siz bəyanat verəcəksiniz ki, Ermənistan yenə tam konstruktiv mövqe tutmamışdır?

Elmar MƏMMƏDYAROV: Sizə cavab verirəm ki, bizim bəyanatlar, - siz yəqin ki, mənə istinad edirsiniz, - həmişə faktlara və reallıqlara əsaslanır. Çox sağ olun.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BƏYANAT YAYMIŞLAR

ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzə (ABŞ), Bernar Fasye (Fransa) və Yuri Merzlyakov (Rusiya) Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın iyunun 4-də Sankt-Peterburqda görüşü ilə bağlı bəyanat yaymışlar.

Bəyanatda deyilir ki, ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzə, Bernar Fasye və Yuri Merzlyakov qurumun hazırkı sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiklə birlikdə iyunun 4-də Sankt-Peterburqda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşündə iştirak etmişlər. Bu görüş 2008-ci ilin iyun ayından bəri prezidentlərin keçirdikləri beşinci görüş olmuşdur.

Həmsədrlər bildirmişlər ki, istər təkbətək, istərsə də Minsk qrupunun həmsədrləri və hər iki ölkənin xarici işlər nazirlərinin iştirakı ilə keçirilmiş görüşlərdə Prezidentlər Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vasitəçilər tərəfindən irəli sürülmüş konsepsiyanı və həllin razılaşdırılmamış bəzi elementlərini müzakirə etmişlər.

Danışıqlar konstruktiv şəraitdə keçmiş və iki ölkə arasında münaqişənin həlli ilə bağlı əsas prinsiplər üzrə ziddiyyətlərin azaldılması istiqamətində müsbət addımların atılması ilə nəticələnmişdir.

Müzakirələrdə bu cür müsbət məqamlar olduğuna görə, hər iki Prezident tərəfindən vasitəçilərə tapşırılmışdır ki, fəaliyyətlərini davam etdirsinlər və danışıqların Madrid prinsipləri əsasında aparılması ilə bağlı yeni və vacib təkliflər irəli sürsünlər.

Bundan başqa, hər iki Prezident vasitəçilərin onların ən yaxın gələcəkdə, əgər mümkün olsa iyul ayında danışıqları davam etdirmələrinə dair təklifləri ilə razılaşmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR

İyunun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.

Dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin "Pulkovo-1" hava limanında Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.

BAKIDA TÜRKDİLLİ DÖVLƏTLƏRİN PARLAMENT ASSAMBLEYASINA ÜZV ÖLKƏLƏRİN PARLAMENT APARATLARI RƏHBƏRLƏRİNİN TOPLANTISI KEÇİRİLMİŞDİR

İyunun 4-də Bakıda Türkdilli Dövlətlərin Parlament Assambleyasına üzv ölkələrin parlament aparatları rəhbərlərinin toplantısı keçirilmişdir.

Türkiyə, Qazaxıstan və Qırğızıstandan gəlmiş qonaqlar tədbirdən əvvəl Milli Məclisin iclas zalına baxmış, deputatlar üçün yaradılmış şəraiti yüksək qiymətləndirmişlər. Sonra qonaqlar parlamentin binasındakı Heydər Əliyev Xatirə zalı ilə tanış olmuşlar. Türkdilli Dövlətlərin Parlament Assambleyasına üzv ölkələrin parlament aparatlarının rəhbərləri türk dünyasının ümummilli lideri, XX əsrin görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyəti, xarici ölkələrə səfərləri, eləcə də Milli Məclisdə keçirdiyi görüşləri əks etdirən fotoşəkillər və digər materiallarla yaxından tanış olmuşlar.

Sonra aparat rəhbərlərinin toplantısı öz işinə başlamışdır. Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Səfa Mirzəyev qonaqları salamlamış, tədbirin əhəmiyyətindən danışmışdır. O, bu tədbiri yüksək dəyərləndirmiş və türk xalqları tarixində yeni bir dövrün başlanması kimi qiymətləndirmişdir. Aparat rəhbəri dövlətlərimizin və xalqlarımızın əlaqələrinin daha da möhkəmlənməsində, qarşılaşdığımız problemlərin birgə həllində iştirakçılara uğurlar arzulamışdır.

Türkiyə Böyük Millət Məclisinin baş katibi Əli Osman Koca, Qırğızıstan Parlamenti Aparatının rəhbəri Suyumbek Kasmambetov və Qazaxıstan Senatı Aparatının rəhbərinin müavini Serik Sıdıkov çıxış edərək tədbiri yüksək qiymətləndirmişlər.

Toplantıda əsasən Türkdilli Dövlətlərin Parlament Assambleyasının Nizamnaməsi, Assambleyanın Baş Katibliyinin harada yerləşməsi, eləcə də Parlament Assambleyasının növbəti sessiyasının gündəliyi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

Sonda təşkilatın nizamnaməsinin müddəaları razılaşdırılmış, Türkdilli Dövlətlərin Parlament Assambleyasının növbəti toplantısının cari ilin sentyabrında Bakıda keçirilməsi qərara alınmışdır.

Tədbirin sonunda Türkdilli Dövlətlərin Parlament Assambleyasına üzv ölkələrin parlament aparatlarının rəhbərləri Protokol imzalamışlar.

MDB ÖLKƏLƏRİ DİN-İN BAŞÇILARI YALTADA TOPLAŞMIŞLAR

İyunun 4-də Yaltanın Livadiya sarayında MDB üzvü olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının növbəti iclası keçirilmişdir.

İclasda birliyin 11 ölkəsinin müvafiq nazirliklərinin rəhbərləri iştirak etmişdilər. Azərbaycanı həmin iclasda daxili işlər naziri, general-polkovnik Ramil Usubov təmsil etmişdir.

Gündəliyə daxili işlər nazirliklərinin (polisin) əməkdaşlığının mövcud vəziyyəti və perspektivləri, cinayətkarlığa qarşı mübarizə üzrə dövlətlərarası proqramların həyata keçirilməsi gedişi, informasiya texnologiyalarından istifadə olunması ilə əlaqədar olan yeni cinayət formalarına qarşı profilaktik tədbirlərin qəbul olunması, narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında və digər məsələlər daxil edilmişdir.

Bir sıra ikitərəfli və çoxtərəfli görüşlərin də keçirilməsi planlaşdırılmışdır.

Nazirlər hüquq mühafizə orqanları arasında əməkdaşlığın vəziyyəti və perspektivləri, habelə cinayətkarlığa qarşı dövlətlərarası mübarizə proqramlarının həyata keçirilməsi barədə bir sıra yekun sənədləri, o cümlədən informasiya texnologiyalarından istifadə ilə bağlı yeni cinayət formalarına qarşı mübarizəyə dair birgə profilaktik tədbirlər; narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında sənədi imzalamışlar.

Bundan əlavə, insan alverinə qarşı mübarizə sahəsində əməkdaşlıq; mütəşəkkil cinayətkarlığa və digər təhlükəli cinayət növlərinə qarşı mübarizəni əlaqələndirmə Bürosunun ixtisaslaşdırılmış məlumat bankının hüquqi təminatı və fəaliyyətinin səmərəliliyinin artırılması sahəsində sazişlər də imzalanmışdır.

İmzalanma mərasimindən sonra iclasa sədrlik edən Ukrayna daxili işlər naziri Yuri Lutsenko səmərəli fəaliyyətə görə həmkarlarına minnətdarlığını bildirərək, onlara "Kazak şöhrəti" xatirə kortikləri təqdim etmişdir.

TÜRKDİLLİ DÖVLƏTLƏRİN PARLAMENT ASSAMBLEYASI TÜRK XALQLARININ MƏNAFELƏRİNİN BEYNƏLXALQ MİQYASDA QORUNMASI BAXIMINDAN BÖYÜK ÜMİDLƏR VƏD EDİR

İyunun 4-də Milli Məclisin sədri Oqtay Əsədov Türkdilli Dövlətlərin Parlament Assambleyasına (TürkPA) üzv ölkələrin parlament aparat rəhbərlərinin Bakı toplantısının iştirakçıları ilə görüşmüşdür.

Oqtay Əsədov qonaqları səmimi salamlayaraq onlara Bakı toplantısının işində uğurlar diləmiş və demişdir ki, bu tədbiri TürkPA-nın sentyabrın 28-29-da Bakıda keçiriləcək toplantısına hazırlıq işlərinin başlanğıcı kimi dəyərləndirmək olar.

Milli Məclisin sədri ötən il noyabrın 21-də İstanbulda Türkdilli Dövlətlərin Parlament Assambleyasının təsis edilməsini türk xalqlarının həyatında mühüm hadisə olduğunu vurğulamışdır. Qeyd olunmuşdur ki, təşkilat Türkdilli ölkələrin daha da yaxınlaşmasında, onlar arasında qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsində mühüm rol oynayacaqdır. Təşkilat çərçivəsində prinsipial məsələlərdə mövqelərin dəqiqləşdirilməsi, quruma üzv ölkələri maraqlandıran məsələlər ətrafında informasiya mübadiləsi əhəmiyyətli məsələlərdəndir. Assambleya türk xalqlarının mənafelərinin beynəlxalq miqyasda qorunması baxımından da böyük ümidlər vəd edir.

O.Əsədov təşkilata üzv dövlətlərin parlament aparat rəhbərlərinin Bakı toplantısında müzakirə olunan məsələlərin qarşıya qoyulmuş vəzifələrin həllində mühüm rol oynayacağına inamını ifadə etmişdir.

Səmimi qəbul üçün təşəkkürlərini çatdıran nümayəndə heyətlərinin üzvləri müzakirə olunan məsələlər barədə fikirlərini açıqlamış, tədbirin təşkilini yüksək qiymətləndirmiş və buna görə minnətdarlıqlarını bildirmişlər. Onlar müzakirələr nəticəsində Bakıda qəbul ediləcək sənədin əhəmiyyətini vurğulayaraq, TürkPA-nın Azərbaycan paytaxtın-

da keçiriləcək növbəti iclasının uğurlu olacağına inandıqlarını vurğulamışlar.

Görüşdə TürkPA-nın beynəlxalq arenada mövqeyi, qurum çərçivəsində parlamentlərarası əlaqələrin inkişafı, dövlətlərarası münasibətlərin dərinləşməsində qanunvericilik orqanlarının rolu, təşkilatın nizamnaməsi, qurumun mənzil-qərargahının yerinin müəyyənləşdirilməsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Türkiyə Böyük Millət Məclisinin baş katibi Əli Osman Koca, Qırğızıstan parlamenti Aparatının rəhbəri Suyumbek Kasmambetov, Qazaxıstan parlamenti Aparatı rəhbərinin müavini Serik Sıdıkov iştirak etmişlər.

AZƏRBAYCANIN BAŞ NAZİRİ MİNSK TRAKTOR ZAVODUNUN BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 4-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə Minsk traktor zavodunun baş direktoru Aleksandr Puxovoyla görüşmüşdür.

Qonağı səmimi salamlayan Baş nazir demişdir ki, Azərbaycan ilə Belarus arasında faydalı iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər mövcuddur. Xüsusilə hər iki ölkənin dövlət başçılarının qarşılıqlı rəsmi səfərləri zamanı əldə edilmiş razılaşmalar və imzalanmış sənədlər belə bir inkişafa münbit şərait yaradır.

Aleksandr Puxovoy respublikamızdakı həmkarları ilə birgə gördükləri işlər barədə Azərbaycan hökumətinin başçısına ətraflı məlumat vermişdir. Bildirmişdir ki, səmərəli əməkdaşlıq nəticəsində bu gün rəhbərlik etdiyi müəssisə ilə Gəncə avtomobil zavodu arasında "AzBelTraktor" adlı müştərək müəssisənin yaradılması barədə təsis sənədləri imzalanmışdır. Gəncə avtomobil zavodunun nəzdində fəaliyyət göstərəcək bu iri müəssisənin qurulmasının məqsədi istehsal olunacaq "Belarus" markalı traktorların regionun digər ölkələrində satışını təşkil etməklə yanaşı, həm də əhalinin məşğulluğunun təmin olunması üçün əlavə iş yerlərinin açılmasıdır.

Azərbaycan və Belarus mütəxəssislərinin birgə layihəsini təqdir edən Artur Rasizadə onlara gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

BAKIDA TÜRKDİLLİ DÖVLƏTLƏRİN PARLAMENT ASSAMBLEYASINA ÜZV ÖLKƏLƏRİN PARLAMENT APARATLARI RƏHBƏRLƏRİNİN TOPLANTISI KEÇİRİLMİŞDİR

İyunun 4-də Bakıda Türkdilli Dövlətlərin Parlament Assambleyasına üzv ölkələrin parlament aparatları rəhbərlərinin toplantısı keçirilmişdir.

Türkiyə, Qazaxıstan və Qırğızıstandan gəlmiş qonaqlar tədbirdən əvvəl Milli Məclisin iclas zalına baxmış, deputatlar üçün yaradılmış şəraiti yüksək qiymətləndirmişlər. Sonra qonaqlar parlamentin binasındakı Heydər Əliyev Xatirə zalı ilə tanış olmuşlar. Türkdilli Dövlətlərin Parlament Assambleyasına üzv ölkələrin parlament aparatlarının rəhbərləri türk dünyasının ümummilli lideri, XX əsrin görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyəti, xarici ölkələrə səfərləri, eləcə də Milli Məclisdə keçirdiyi görüşləri əks etdirən fotoşəkillər və digər materiallarla yaxından tanış olmuşlar.

Sonra aparat rəhbərlərinin toplantısı öz işinə başlamışdır. Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Səfa Mirzəyev qonaqları salamlamış, tədbirin əhəmiyyətindən danışmışdır. O, bu tədbiri yüksək dəyərləndirmiş və türk xalqları tarixində yeni bir dövrün başlanması kimi qiymətləndirmişdir. Aparat rəhbəri dövlətlərimizin və xalqlarımızın əlaqələrinin daha da möhkəmlənməsində, qarşılaşdığımız problemlərin birgə həllində iştirakçılara uğurlar arzulamışdır.

Türkiyə Böyük Millət Məclisinin baş katibi Əli Osman Koca, Qırğızıstan Parlamenti Aparatının rəhbəri Suyumbek Kasmambetov və Qazaxıstan Senatı Aparatının rəhbərinin müavini Serik Sıdıkov çıxış edərək tədbiri yüksək qiymətləndirmişlər.

Toplantıda əsasən Türkdilli Dövlətlərin Parlament Assambleyasının Nizamnaməsi, Assambleyanın Baş Katibliyinin harada yerləşməsi, eləcə də Parlament Assambleyasının növbəti sessiyasının gündəliyi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

Sonda təşkilatın nizamnaməsinin müddəaları razılaşdırılmış, Türkdilli Dövlətlərin Parlament Assambleyasının növbəti toplantısının cari ilin sentyabrında Bakıda keçirilməsi qərara alınmışdır.

Tədbirin sonunda Türkdilli Dövlətlərin Parlament Assambleyasına üzv ölkələrin parlament aparatlarının rəhbərləri Protokol imzalamışlar.

İCTİMAİ TELERADİO İLƏ TÜRKMƏNELİ TELEVİZİYASI ARASINDA NİYYƏT PROTOKOLU İMZALANMIŞDIR

İyunun 5-də İctimai Televiziya və Radio Yayımları Şirkəti (İTRYŞ) ilə Kəlkükdə fəaliyyət göstərən Türkmənəli Televiziyası arasında niyyət protokolu imzalanmışdır.

İTRYŞ-nin baş direktoru İsmayıl Ömərov və Türkmənəli Televiziyasının direktoru Yalman Həcəroğlu tərəfindən imzalanan protokola əsasən, tərəflər birgə proqramlar hazırlayacaq və digər layihələr həyata keçirəcəklər. Türkmənəli Televiziyasının texniki və yaradıcı əməkdaşları təcrübə keçmək məqsədi ilə İTRYŞ-yə ezam da olunacaqlar.

Tədbirdə Türkmənəli Televiziyasının direktoru Y.Həcəroğlu diqqətə çatdırmışdır ki, biz eyni tarixə, eyni mədəniyyətə malik qardaş xalqlarıq. TRT, İctimai Teleradio və Türkmənəli Televiziyası eyni millətin müxtəlif televiziyalarıdır.

İsmayıl Ömərov televiziyalar arasındakı əməkdaşlığın xalqları bir-birinə daha da yaxınlaşdıracağına əminliyini bildirmiş, İTRYŞ-nin Kəlkük türklərinin mədəniyyətinin bütün dünyaya çatdırılması üçün lazımi işləri görəcəyini vurğulamışdır.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barəsində də fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ QƏTƏRİN MƏDƏNİYYƏT, İNCƏSƏNƏT VƏ İRS MİLLİ ŞURASININ BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 8-də nazir Elmar Məmmədyarov Qətərin Mədəniyyət, İncəsənət və İrs Milli Şurasının baş katibi Mübarək bin Nasir əl-Xəlifə ilə görüşmüşdür.

Bakıda keçirilən Qətər Dövlətinin Mədəniyyət günləri çərçivəsində Azərbaycanda sə-

fərdə olan Qətər nümayəndə heyətinə rəhbərlik etdiyini deyən qonaq ölkələrimiz arasındakı mövcud münasibətlərin səviyyəsindən məmnunluğunu bildirmişdir.

Nazir E.Məmmədyarov Azərbaycan ilə Qətər arasında siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulamışdır.

Ölkəmizdə Qətər Mədəniyyət günlərinin keçirilməsinin xalqlarımızın mədəniyyətlərini yaxınlaşdırmasına xidmət etdiyini bildirən nazir E.Məmmədyarov yaxın gələcəkdə Azərbaycanın Mədəniyyət günlərinin Qətərdə keçiriləcəyinə ümidvar olduğunu demişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ RUMINİYANIN XARİCİ İŞLƏR NAZİRLİYİNİN STRATEJİ İŞLƏR ÜZRƏ DÖVLƏT KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 9-da nazir Elmar Məmmədyarov Rumıniyanın Xarici İşlər Nazirliyinin strateji işlər üzrə dövlət katibi Boqdan Aurescu ilə görüşmüşdür.

Ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirən qonaq Rumıniyanın Avropa və Avratlantik məkanına inteqrasiya sahəsində əldə etdiyi təcrübəni Azərbaycan ilə bölüşməyə hazır olduğunu və xarici işlər nazirlikləri arasında əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulamışdır.

Nazir E.Məmmədyarov mövcud əlaqələrin səviyyəsindən məmnunluğunu ifadə etmiş və ikitərəfli əməkdaşlığın inkişaf potensialının geniş olduğunu bildirmişdir. Regionda baş verən proseslərdən danışan E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli istiqamətində aparılan danışıqlar, münaqişənin nizamlanması ilə bağlı Azərbaycanın mövqeyi barədə qonağa ətraflı məlumat vermişdir.

B.Aurescu Rumıniyanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini hər zaman dəstəklədiyini vurğulamış, münaqişənin həll ediləcəyinə ümidvar olduğunu demişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

BERLİNDƏ BEYNƏLXALQ HÜQUQA DAİR YÜKSƏK SƏVİYYƏLİ KONFRANS KEÇİRİLMİŞDİR

İyunun 9-10-da Berlində Almaniyanın Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin təşkilatçılığı ilə "Davamlı inkişaf hüquqi dövlətçilik tələb edir - əməkdaşlığın imkanları" mövzusunda yüksək səviyyəli beynəlxalq konfrans keçirilmişdir.

Tədbirdə Almaniya, Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova və Ermənistan ədliyyə orqanlarının rəhbərləri, ali məhkəmələrin sədrləri, parlamentlərin və ombudsman institutlarının 200-ə yaxın nümayəndəsi iştirak etmişdir.

Azərbaycanı konfransda ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Ali Məhkəmənin sədri Ramiz Rzayev, habelə Milli Məclisin, ombudsmanın, Vəkillər Kollegiyasının və QHT-lərin nümayəndələri təmsil etmişlər.

Tədbiri Almaniyanın Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin dövlət katibi və Avropa İttifaqının nümayəndəsi açaraq Avropa Qonşuluq Siyasəti, Şərq Tərəfdaşlığı Proqramı və Qafqaz təşəbbüsü çərçivəsində qanunun aliliyinin və vətəndaş cəmiyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirləri dəstəklədiklərini qeyd etmişlər.

Azərbaycanın ədliyyə naziri F.Məmmədov konfransda çıxış edərək dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə hüquqi dövlət quruculuğu, demokratiyanın gücləndirilməsi, insan hüquqlarının qorunması, vətəndaş cəmiyyətinin inkişafı istiqamətində aparılan genişmiqyaslı islahatlar barədə ətraflı məlumat vermiş, onların iqtisadi inkişafa böyük töhfəsini qeyd etmişdir.

Konfrans iştirakçılarının diqqəti, həmçinin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, hakimliyə namizədlərin ən demokratik və şəffaf üsullarla seçilməsi, hakimlərin mükəmməl tədrisi, bu sahədə beynəlxalq təşkilatlar və xarici dövlətlərlə, xüsusilə Almaniya ilə həyata keçirilən uğurlu əməkdaşlığa cəlb edilmişdir.

Konfransda təşkil olunmuş iki sessiyada Azərbaycanın Ali Məhkəməsinin sədri və ədliyyə naziri iştirak edərək, məhkəmə islahatı zamanı toplanmış müsbət təcrübədən danışmış, hüquq islahatlarının həyata keçirilməsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi ətrafında faydalı müzakirələr aparmışlar. Çıxışlara və Azərbaycan təcrübəsinə böyük maraq göstərilmişdir.

Nümayəndə heyətinin digər üzvləri hakimiyyətlərin bölgüsü, məhkəmələrin müstəqilliyi, vəkillərin rolu, inzibati ədliyyənin təşviqi, mülkiyyət hüquqlarının təminatı, sərmayə şəraitinin yaxşılaşdırılması, ekologiya hüququnun inkişafı üzrə seminar-məşğələlərdə fəal iştirak edərək, Azərbaycan təcrübəsini bölüşmüş və faydalı fikir mübadiləsi aparmışlar.

XARİCİ İŞLƏR NAZİRİ POLŞANIN KEÇMİŞ BAŞ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 10-da xarici işlər naziri Elmar Məmmədyarov Polşanın keçmiş Baş naziri, hazırda bu ölkə senatının üzvü Vloçimej Çimoşeviç ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Polşa arasında əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə edilmiş, əlaqələrin daha da genişləndirilməsi üçün mövcud imkanlardan səmərəli istifadənin məqsədəuyğun olduğu bildirilmişdir.

Bundan əlavə, Azərbaycan ilə Avropa strukturları arasında əlaqələr, bu çərçivədə Azərbaycan-Polşa əməkdaşlığı məsələsi müzakirə olunmuşdur.

Ermənistanın Azərbaycana qarşı təcavüzünə toxunan nazir E.Məmmədyarov müasir dünyada etnik təmizləmə və işğala yer olmadığını bildirmiş, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Azərbaycanın mövqeyi barədə qonağa ətraflı məlumat vermişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

BAKIDA NATO HƏFTƏSİ ÇƏRÇİVƏSİNDƏ "ENERJİ TƏHLÜKƏSİZLİYİ: ÇAĞIRIŞLAR VƏ YENİ İMKANLAR" MÖVZUSUNDA SEMİNAR KEÇİRİLİR

İyunun 10-da Bakıda NATO həftəsi çərçivəsində Avratlantika Tərəfdaşlığı Şurasının "Enerji təhlükəsizliyi: təhdidlər və perspektivlər" mövzusunda seminarı işə başlamışdır.

NATO-nun Müdafiə və İqtisadi Təhlükəsizlik Direktoratlığının rəhbəri Maykl Qaul bildirmişdir ki, aparılan tədqiqatlara görə, 2030-cu ilədək dünyada enerjiyə tələbat 15 dəfə artacaqdır. Tələbatın sürətlə artmasını nəzərə alan dövlətlər də əsas diqqəti bu sahəyə yönəldirlər. Enerji infrastrukturlarına hücumlar, dəniz quldurlarının fəallaşması böyük iqtisadi itkilərlə nəticələndiyindən bəzən enerji təhlükəsizliyi hərbi xarakter daşıyır və burada siyasi və iqtisadi təsirlər də rol oynayır.

M.Qaul Şimali Atlantika Alyansının problemin həlli yolu kimi enerji marşrutlarının şaxələndirilməsini, həmçinin əlaqələndirilmiş infrastrukturun mühafizəsini bu sahədə mühüm saydığını demişdir. O, bu kontekstdə Xəzərin enerji resurslarının Avropaya nəqli marşrutlarında infrastrukturların qorunmasının vacibliyini vurğulamışdır.

Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov isə demişdir ki, rəsmi Bakı enerji təhlükəsizliyi məsələsinin NATO çərçivəsində müzakirəsini müsbət qiymətləndirir. Enerji təhlükəsizliyinin sırf hərbi təhlükəsizlik anlayışı olmadığını vurğulayan A.Əzimov, bunun siyasi proseslərdə mühüm rol oynadığını bildirmişdir.

Nazir müavininin sözlərinə görə, enerji təhlükəsizliyinin təmin olunmasında təchizatçılar və istehlakçılarla yanaşı, tranzit ölkələrin də maraqları nəzərə alınmalıdır. Enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın strategiyası hazırlanmalıdır. Gələcəkdə NATO-nun dəstəyi ilə Azərbaycanda enerji təhlükəsizliyi üzrə beynəlxalq treninq mərkəzi yaradıla bilər.

Rumıniyanın Xarici İşlər Nazirliyinin strateji işlər üzrə dövlət katibi Boqdan Auresku bildirmişdir ki, NATO Qara dəniz və Xəzər dənizi regionlarında təhlükəsizliyin təmin edilməsi sahəsində rolunu getdikcə artıracaqdır. Şimali Atlantika Alyansının enerji təhlükəsizliyində mühüm rol oynaya biləcəyini vurğulayan B.Auresku, Aralıq dənizindən keçən kəmərlərin və digər infrastrukturların mühafizəsinin vacibliyini diqqətə çatdırmışdır.

Onun sözlərinə görə, bu gün NATO kiber-təhlükəsizlik, dəniz quldurları ilə mübarizə və s. proseslərdə fəal iştirak edir.

Azərbaycanın Xarici İşlər Nazirliyi və NATO-nun birgə təşkilatçılığı ilə keçirilən ikigünlük seminarda enerji infrastrukturlarının mühafizəsi, mümkün təhdidlər, enerji təhlükəsizliyində əməkdaşlığın rolu və s. məsələlər müzakirə olunacaqdır.

Seminarda NATO və Azərbaycanın müvafiq qurumlarının təmsilçiləri, xarici ölkələrin diplomatik nümayəndəliklərinin rəhbərləri də iştirak edirlər.

BMT İNSAN HÜQUQLARI ŞURASININ SESSİYASI ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN HÖKUMƏTİNİN MƏRUZƏSİNƏ DAİR YEKUN SƏNƏD QƏBUL OLUNMUŞDUR

BMT-nin İnsan Hüquqları Şurasının Cenevrədə keçirilmiş 11-ci sessiyası çərçivəsində iyunun 11-də təşkilatın Baş Məclisinin 2006-cı il 15 mart tarixli Qətnaməsinə müvafiq olaraq, İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi üzrə Azərbaycan Respublikası Hökumətinin məruzəsinə dair yekun sənəd qəbul olunmuşdur.

Sessiyanın müvafiq iclasında Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılığı ilə Azərbaycanın BMT-nin Cenevrədəki bölməsi və digər beynəlxalq təşkilatlar yanındakı daimi nümayəndəliyinin rəhbəri Elçin Əmirbəyov və Xarici İşlər Nazirliyinin beynəlxalq hüquq və müqavilələr idarəsinin rəisi Murad Nəcəfbəylidən ibarət nümayəndə heyəti iştirak etmişdir.

Nazir müavini X.Xələfov cari il fevralın 4-də BMT-nin İnsan Hüquqları Şurasına təqdim olunmuş Azərbaycan Respublikası Hökumətinin Universal Dövri İcmal mexanizmi üzrə məruzəsinə dair tövsiyələrə cavab olaraq Azərbaycan tərəfinin şərhlərini təqdim etmişdir.

X.Xələfov Azərbaycanda insan hüquq və əsas azadlıqlarının təmin olunması üçün yaradılmış hüquqi əsaslar, onların təşviqinin möhkəmləndirilməsinə yönəldilmiş səylər barədə ətraflı məlumat vermişdir. Nazir müavini bu il martın 18-də keçirilmiş referendum nəticəsində Azərbaycan Respublikasının Konstitusiyasına edilmiş düzəlişlərin insan hüquqları və azadlıqlarının daha da möhkəmləndirilməsi və inkişafı baxımından əhəmiyyətini xüsusi vurğulamışdır.

Həmçinin Azərbaycan nümayəndə heyətinin rəhbəri qanunvericiliyin təkmilləşdirilməsi və implementasiyası, məhkəmə-hüquq, o cümlədən penitensiar sistemdə aparılan islahatlar, Azərbaycanda qadın və uşaqların, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının, gender bərabərliyinin, dözümlülüyün təşviq və təmin edilməsi, ölkəmizdə insan alverinə qarşı mübarizədə görülən tədbirlər barədə məlumat vermiş, Heydər Əliyev Fondu tərəfindən müxtəlif sahələrdə həyata keçirilən proqram və layihələrdən danışmışdır.

X.Xələfov Azərbaycanın sosial-iqtisadi inkişaf göstəricilərinə, eləcə də ölkəmizdə iqtisadi və sosial hüquqların qorunması məsələlərinə toxunmuşdur.

Nazir müavini Azərbaycan Respublikası hökuməti tərəfindən qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirləri də xüsusi vurğulamışdır.

İclasda dövlətlərin nümayəndələri Azərbaycan Respublikası Hökumətinin universal dövri icmal məruzəsinə dair tövsiyələrə cavab olaraq, Azərbaycanın təqdim etdiyi şərhləri və ölkəmizdə insan hüquqları və əsas azadlıqlarının təmin olunması istiqamətində əldə olunmuş nailiyyətləri, xüsusilə gender bərabərliyi, insan alverinə və zorakılığa qarşı mübarizə, penitensiar və iqtisadi-sosial sahələrdə aparılan uğurlu islahatları yüksək qiymətləndirmişlər.

Azərbaycanın insan hüquqlarını müdafiəsi üzrə beynəlxalq əməkdaşlığa yüksək diqqət ayırması iştirakçılar tərəfindən xüsusilə alqışlanmışdır.

XARİCİ İŞLƏR NAZİRİ ABŞ DÖVLƏT KATİBİNİN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 11-də nazir Elmar Məmmədyarov ABŞ dövlət katibinin Avropa məsələləri üzrə köməkçisi Filip Qordon ilə görüşmüşdür.

Azərbaycana ilk dəfə gəldiyini deyən F.Qordon ölkələrimiz arasında mövcud əlaqələrin səviyyəsindən məmnunluğunu ifadə etmiş və əməkdaşlığın müxtəlif sahələrdə inkişafı üçün böyük potensial olduğunu bildirmişdir.

F.Qordon vurğulamışdır ki, ABŞ regionda sülhün və sabitliyin bərqərar olmasında maraqlıdır və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında irəliləyişə nail olunmasına töhfə verməyə hazırdır.

Amerikalı diplomat Azərbaycana gəlməzdən əvvəl Ermənistan və Gürcüstanda keçirdiyi görüşlər barədə məlumat vermişdir.

Nazir E.Məmmədyarov F.Qordonu yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etmişdir. Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini vurğulayan E.Məmmədyarov Vaşinqtona son səfəri çərçivəsində aparılmış müzakirələrin faydalı olduğunu demiş, Barak Obama administrasiyası dövründə bu əlaqələrin daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında, yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizamlanması ilə bağlı mövqeyin ölkəmizin xarici siyasətinin əsas prioriteti olduğunu vurğulayan nazir E.Məmmədyarov, bu istiqamətdə rəsmi Vaşinqtonun dəstəyinin əhəmiyyətini qeyd etmişdir. Münaqişənin göstərilən prinsiplər əsasında həllinin regionda sülhün və sabitliyin bərqərar olmasında mühüm rol oynayacağını deyən E.Məmmədyarov, buna tezliklə nail olunmasının vacibliyini diqqətə çatdırmışdır.

Görüşdə Azərbaycan ilə ABŞ arasında enerji sahəsində əməkdaşlıq barədə də fikir mübadiləsi aparılmış, bu əlaqələrin səviyyəsindən məmnunluq ifadə edilmişdir.

Tərəflər arasında birgə maraq doğuran ikitərəfli, regional, qlobal məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AVROPA İTTİFAQI-AZƏRBAYCAN TİCARƏT, İQTİSADİ VƏ ƏLAQƏDAR HÜQUQİ MƏSƏLƏLƏR ÜZRƏ ALTKOMİTƏNİN VIII İCLASI KEÇİRİLMİŞDİR

İyunun 17-də İqtisadi İnkişaf Nazirliyində Avropa İttifaqı (Aİ)-Azərbaycan ticarət, iqtisadi və əlaqədar hüquqi məsələlər üzrə altkomitənin VIII iclası keçirilmişdir.

Tədbirdə ticarət əlaqələrinin inkişafı, Aİ ilə ölkəmiz arasındakı mövcud əməkdaşlığın vəziyyəti və inkişaf perspektivləri müzakirə edilmişdir.

İclasda Azərbaycanda həyata keçirilən islahatlar və əldə olunmuş uğurlar barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, dünyadakı maliyyə böhranı şəraitində valyuta ehtiyatlarından səmərəli istifadə, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, maliyyə

intizamının möhkəmləndirilməsi, milli valyutanın sabitliyinin qorunması və ölkədə investisiya mühitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər böhranın Azərbaycan iqtisadiyyatına təsirini neytrallaşdırmışdır. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan və biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən nüfuzlu "Doing Business" hesabatında Azərbaycanın reytinqi 2008-ci ildə 96-cı yerdən 33-cü yerə yüksəlmiş və respublikamız dünyada ən islahatçı ölkə elan edilmişdir.

Altkomitə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatları yüksək qiymətləndirmiş və bu istiqamətdə əldə olunan uğurların davam etdirilməsi zərurətini vurğulamışdır.

Tərəflər Aİ-də baş verən inteqrasiya və genişləndirmə təmayüllərində Azərbaycanın fəal iştirakını dəstəkləmiş və bu proseslərdə birgə qurumların potensialından tam istifadə olunacağına dair bir daha razılığa gəlmişlər.

İclasda həmçinin, Aİ-nin təşəbbüsü olan "Şərq tərəfdaşlığı"nın əhəmiyyəti qeyd olunmuş və bildirilmişdir ki, bu təşəbbüs Azərbaycan və Aİ arasında əlaqələrin yeni səviyyəyə çatdırılmasında xüsusi rol oynayacaqdır.

İclasda Aİ-də baş verən inteqrasiya prosesləri və dünyadakı maliyyə-iqtisadi böhranın Aİ-yə təsiri və böhrandan çıxış üçün görülən tədbirlər barədə Azərbaycan tərəfinə məlumat verilmişdir. Azərbaycan tərəfi isə 2008-ci ildə ölkədə Aİ ilə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişindən irəli gələn öhdəliklərin icrası ilə bağlı Avropa Komissiyasına ətraflı məlumat təqdim etmiş, Komissiyanı maraqlandıran sualları cavablandırmışdır.

Danışıqlar çərçivəsində ölkə qanunvericiliyinin Aİ-nin tələblərinə uyğunlaşdırılması ilə bağlı fikir mübadiləsi aparılmışdır. Altkomitə bu sahədə görülən ardıcıl fəaliyyəti dəstəklədiyini və bu istiqamətdə səylərin gücləndirilməsi üçün Azərbaycanla əməkdaşlığa hazır olduğunu bəyan etmişdir.

Tədbirdə Azərbaycan tərəfdən İqtisadi İnkişaf, Xarici İşlər, Maliyyə, Ədliyyə, Vergilər, Sənaye və Energetika, Kənd Təsərrüfatı, Səhiyyə nazirliklərinin, Mərkəzi Bankın, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Dövlət Gömrük Komitəsinin, Əmlak Məsələləri Dövlət Komitəsinin, Dövlət Statistika Komitəsinin, Satınalmalar üzrə Dövlət Agentliyinin və Müəllif Hüquqları Agentliyinin nümayəndələri iştirak etmişlər. Aİ-ni iclasda qurumun Azərbaycandakı nümayəndəliyinin başçısı Alan Vaddamsın rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

XARİCİ İŞLƏR NAZİRİ YAPONİYANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 16-dan Yaponiya Hökumətinin dəvəti ilə bu ölkədə səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ayın 17-də bu ölkənin Baş naziri Taro Aso ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Yaponiya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın hazırkı vəziyyəti, regional və qlobal məsələlər müzakirə olunmuşdur.

Yaponiyanın Azərbaycan ilə əməkdaşlığa böyük önəm verdiyini bildirən Baş nazir T.Aso siyasi və iqtisadi sahələrdə əlaqələrin mövcud səviyyəsindən məmnunluğunu

ifadə etmişdir. Xüsusilə, ölkələrimiz arasında enerji sahəsində səmərəli əməkdaşlığın mövcudluğunu qeyd edərək, yapon şirkətlərinin Azərbaycanda "Azəri-Çıraq-Günəşli" və Bakı-Tbilisi-Ceyhan layihələrindəki iştirakını vurğulamış, Yaponiya hökumətinin Azərbaycan ilə digər sahələrdə də əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu demişdir.

Nazir E.Məmmədyarov Prezident İlham Əliyevin Yaponiyanın Baş naziri T.Asoya ünvanlanmış dəvət məktubunu təqdim etmişdir.

Azərbaycan ilə Yaponiya arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan E.Məmmədyarov əksər regional və beynəlxalq məsələlərə münasibətdə ölkələrimizin eyni mövqeyi bölüşdürdüyünü bildirmişdir. Azərbaycan ilə Yaponiya arasında enerji sahəsində mövcud əməkdaşlığından məmnunluğunu ifadə edən nazir digər sahələrdə də əlaqələrin səmərəli olacağını vurğulamışdır. E.Məmmədyarov qeyd etmişdir ki, Azərbaycan qeyri-neft sektoruna yapon texnologiyalarının cəlb olunmasında maraqlıdır.

Görüşdə Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsinin və regiondakı qlobal əhəmiyyətli layihələrin həyata keçirilməsinin vacibliyi vurğulanmışdır. Nazir E.Məmmədyarov Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında, yalnız Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı çərçivəsində nizamlanmasına verdiyi dəstəyə görə Yaponiya tərəfinə təşəkkür etmişdir.

XARİCİ İŞLƏR NAZİRİ YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 17-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov yaponiyalı həmkarı Hirofumi Nakasone ilə görüşmüşdür.

Görüşdə ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran qlobal məsələlər müzakirə olunmuşdur.

Nazirlər Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı ildə Yaponiyaya səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası və Yaponiya arasında dostluq və əməkdaşlığın gələcək inkişafı haqqında birgə Bəyannamə"ni xatırladaraq, bugünədək əldə olunmuş nailiyyətləri yenidən nəzərdən keçirmiş və ikitərəfli münasibətlərin inkişaf istiqamətinə dair fikir mübadiləsi aparmışlar.

E.Məmmədyarov və H.Nakasone son illər ölkələrimiz arasında aparılan fəal və məhsuldar dialoqu, eyni zamanda Prezident İlham Əliyevin Yaponiyaya səfərindən sonra həm Bakıda, həm də Tokioda dörd dəfə aparılmış siyasi məsləhətləşmələri yüksək qiymətləndirmişlər. Xarici işlər nazirlikləri arasında əlaqələri genişləndirmək məqsədi ilə nazirlər bir çox məsələləri, o cümlədən ikitərəfli münasibətləri və qarşılıqlı maraq doğuran beynəlxalq məsələlərin bütün aspektlərini müzakirə etmək üçün mütəmadi görüşlər keçirməyi qərara almışlar. Hər iki tərəf əmin etmişdir ki, konstruktiv və sabit dialoq gələcək ikitərəfli əlaqələrin inkişafına öz töhfəsini verəcəkdir.

Nazir E.Məmmədyarov "Əyalətlərin su təminatı və kanalizasiya layihəsi" üzrə və azimkanlı fermerlərə Yaponiyanın ayırdığı Rəsmi İnkişaf Yardımına (ODA) və qranta

görə minnətdarlığını bildirmişdir.

Nazir H.Nakasone isə geosiyasət və enerji siyasəti baxımından Yaponiya üçün əhəmiyyətli olan Azərbaycanın sabitliyinin Cənubi Qafqazda inkişaf və sülhə töhfə verəcəyini bildirmişdir. O, demokratikləşmə və bazar iqtisadiyyatı istiqamətində daha çox nailiyyət əldə etmək üçün Azərbaycan tərəfindən atılan addımlarla bağlı əməkdaşlığın genişləndirilməsinin davam etdirilməsi niyyətini ifadə etmişdir.

Ölkələrimiz arasında ticarət əlaqələrinin və sərmayələrin artımında Yaponiya-Azərbaycan İqtisadi Komissiyasının oynadığı rolun əhəmiyyətini nəzərə alaraq, nazirlər komissiyanın yaxın gələcəkdə növbəti görüşünün keçirilməsinin vacibliyini vurğulamışlar. Bununla bağlı, Azərbaycan əlverişli sərmayə mühitinin daha da yaxşılaşdırmaq niyyətini elan edir. Hər iki tərəf Azərbaycanın Dünya Ticarət Təşkilatına daha tez qəbul olunması üçün dövlətlərimiz arasında indiyədək aparılan danışıqları yüksək qiymətləndirmişdir.

Nazirlər bundan sonra da enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsi niyyətində olduqlarını ifadə etmişlər. Onlar Yaponiyanın özəl şirkətlərinin Azərbaycanda "Azəri-Çıraq-Günəşli" və Bakı-Tbilisi-Ceyhan layihələrindəki iştirakını yüksək qiymətləndirmişlər.

Hər iki tərəf dövlətlərimiz arasında millətlərarası və mədəni mübadilənin gücləndirilməsinin elm, təhsil, mədəniyyət və səhiyyə sahələri üzrə qarşılıqlı anlaşmanın və əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli olduğunu vurğulamışdır.

Azərbaycan tərəfi Yaponiyanın GUAM-a verdiyi dəstəyə və Yaponiya ilə GUAM arasında fəal əməkdaşlıq və dialoqun aparılmasına görə dərin minnətdarlığını ifadə etmişdir. Nazirlər "GUAM-Yaponiya" dialoqunun cari ilin fevralında Tokioda Milli Əlaqələndiricilər Görüşü ilə davam etdirilməsinin və "Ticarət və sərmayələrin dəstəklənməsi" mövzusunda seminarın keçirilməsinin turizm, ticarət və sərmayələr, enerjiyə qənaət və ətraf mühitin mühafizəsi kimi qarşılıqlı maraq doğuran sahələrdə gələcək əməkdaşlıq üçün möhkəm bünövrənin yaranmasına kömək edəcəyini bildirmişlər.

Hər iki tərəf Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipi əsasında müxtəlif yollarla, o cümlədən ATƏT-in Minsk qrupu çərçivəsində sülh yolu ilə nizamlanmasının əhəmiyyətini vurğulamışlar. Nazir H.Nakasone Yaponiyanın regionda sülhün və sabitliyin əldə olunmasına istiqamətlənmiş cəhdləri dəstəklədiyini, Cənubi Qafqazın sülh və tərəqqi regionuna çevrilməsi üçün böyük potensialın olduğunu, beynəlxalq tərəfdaşların konstruktiv müdaxiləsini gözlədiyini demişdir.

Nazir E.Məmmədyarov Azərbaycanda minaların və partlamamış hərbi sursatın təmizlənməsinə Yaponiyanın göstərdiyi yardıma görə minnətdarlığını bildirmişdir.

Nazirlər BMT daxilində yaxından əməkdaşlıq, təşkilatın Təhlükəsizlik Şurasında (TŞ) islahatların keçirilməsində, o cümlədən şuranın daimi və daimi olmayan üzvlərinin sayının artırılması sahəsində nəzərdə tutulan işlərdə yaxından və fəal iştirak etməyə hazır olduqlarını vurğulamışlar. Bildirilmişdir ki, Azərbaycan Yaponiyanın BMT-nin TŞ-da daimi üzvlüyünə dəstək verir.

Görüşdə qarşılıqlı maraq doğuran beynəlxalq məsələlərə, o cümlədən Koreya Xalq Demokratik Respublikasındakı (KXDR) vəziyyətə dair fikir mübadiləsi aparılmışdır. Hər iki nazir BMT TŞ-nin qəbul etdiyi 1874 saylı Qətnaməni bir daha təsdiq etmiş və vurğulamışlar ki, KXDR BMT TŞ-nin bu və digər müvafiq qətnamələrinin tələblərini yerinə yetirilməlidir. Tərəflər KXDR ilə əlaqədar vacib olan, o cümlədən zorla qaçırma (abduksiya) məsələlərinin tam şəkildə həll olunmasının vacibliyini qeyd etmişlər.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılığı ilə nümayəndə heyəti Gürcüstanda işgüzar səfərdə olmuşdur.

Nümayəndə heyətinin üzvləri iyunun 17-18-də Tbilisidə Azərbaycan və Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Azərbaycan–Gürcüstan hökumətlərarası komissiyanın iclasında iştirak etmişdilər.

VYANADA AVROPA ŞURASI ÖLKƏLƏRİNİN AİLƏ MƏSƏLƏLƏRİ ÜZRƏ NAZİRLƏRİNİN KONFRANSI KEÇİRİLMİŞDİR

İyunun 16-17-də Vyanada Avropa Şurası ölkələrinin ailə məsələləri üzrə nazirlərinin 29-cu konfransı keçirilmişdir.

Konfransda ölkəmizi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir.

"Ailənin uşaq arzusuna dövlət dəstəyi" mövzusuna həsr edilmiş konfransda Avropa Şurası baş katibinin müavini xanım Mod de Bur Bukikkio, Avstriya Prezidenti Haynts Fişer, Avstriyanın iqtisadiyyat və əmək naziri Raynhold Mitterlener, Avropa Şurası ölkələrinin ailə məsələləri üzrə dövlət qurumlarının təmsilçiləri iştirak etmişlər.

Çıxış edən natiqlər son dövrlərdə beynəlxalq iqtisadi böhranın ailələrdən də yan keçmədiyini, bu səbəbdən dövlət tərəfindən ailələrə xüsusi qayğının göstərilməsinin vacibliyini vurğulamışlar. Eyni zamanda, ailəli şəxslərin iş şəraitinin yaxşılaşdırılması, gənc ailələrə övlad arzusunu gerçəkləşdirməkdə sosial-iqtisadi imkanların artırılması, Avropada demoqrafik mənzərənin, doğum səviyyəsinin yaxşılaşdırılmasının əhəmiyyəti vurğulanmışdır. Təxminən 50 il əvvəl Avropa Şurasının ailə məsələləri üzrə nazirlərinin ilk konfransının məhz Vyanada keçirilməsi məmnunluqla xatırlanmışdır.

Konfransda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova məruzə etmişdir. Məruzədə ailəyönümlü siyasətin Azərbaycanda prioritet sahələrdən biri olduğu diqqətə çatdırılmışdır. Azərbaycanda ailə siyasəti ilə bağlı bir sıra qanun və proqramların qəbul edildiyi, çoxlu sayda layihələrin həyata keçirildiyi bildirilmişdir.

Vurğulanmışdır ki, 2008-ci ilin Azərbaycanda "Gənclər ili", 2009-cu ilin "Uşaq ili" elan edilməsi, 2009-cu ilin martında keçirilən referendumla Konstitusiyaya "Ailə, uşaq və dövlət" adlı xüsusi bəndin əlavə edilməsi dövlətin bu sahəyə diqqət və qayğısının əyani təzahürüdür.

Azərbaycan hökumətinin uşaqlar və onların ailələrinin xoşbəxt gələcək və təhlükəsiz həyatla təmin olunması üçün ardıcıl siyasət yürütdüyü, bu sahədə qeyri-hökumət təşkilatları arasında ölkənin birinci xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xüsusilə böyük rol oynadığı qeyd edilmişdir.

Vyana konfransında Avropa Şurası ölkələrində ailə siyasəti barədə məlumatları əks etdirən hesabat toplusu yayılmışdır. Azərbaycan barədə məlumatlar quruma Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təqdim edilmişdir. Hesabatdan məlum olur ki, Azərbaycan Avropa Şurasının uşaqlara və ailələrə dəstək mərkəzlərinin mövcud olduğu yeddi ölkəsindən biridir və bu addım şura tərəfindən təqdir edilmişdir.

Konfransın sonunda iştirakçılar yekun bəyannamə imzalamışlar. Ailə formaları (hetero və ya eynicinsli cütlüklər) barədə müddəalar dəqiqləşdirilərkən, bir sıra ölkələrlə yanaşı, Azərbaycan da bu məsələnin hər bir ölkənin yerli qanunvericiliyi əsasında müəyyənləşdirilməli olduğunu dəstəkləmişdir və həmin müddəa da bəyannamədə öz əksini tapmışdır.

Konfrans çərçivəsində H.Hüseynova bir sıra ikitərəfli görüşlər keçirmişdir. BMT-nin Qadınlar Gildiyasının (UNWG) rəhbəri Ən Herr, Avropa Şurası baş katibinin müavini Mod de Bur Bukikkio, Avropa Şurasının sosial məsələlər üzrə komissiyasının baş direktoru Aleksandr Vladiçenko, Avstriyanın ailə məsələləri üzrə dövlət katibi Kristine Marek, Sloveniyanın əmək, ailə və sosial məsələlər üzrə naziri İvan Svetlik ilə keçirilmiş görüşlərdə əməkdaşlığın perspektivləri müzakirə edilmiş, eyni zamanda, gələcəkdə bu sahədə müvafiq sənədlərin imzalanması barədə fikir mübadiləsi aparılmışdır.

AVROPA ƏDLİYYƏ NAZİRLƏRİNİN 29-CU KONFRANSI KEÇİRİLMİŞDİR

İyunun 17-19-da Norveçin Tromso şəhərində Avropa Şurasının və Norveç hökumətinin təşkilatçılığı ilə Avropa ədliyyə nazirlərinin 29-cu konfransı keçirilmişdir. "Sükutu pozaq - məişət zorakılığına qarşı birləşək" mövzusuna həsr olunmuş tədbirdə Azərbaycanı ədliyyə naziri Fikrət Məmmədov təmsil etmişdir.

Avropanın 40-dan çox ölkəsinin ədliyyə orqanları rəhbərlərinin iştirak etdiyi konfransda Avropa Şurası baş katibinin müavini Mod de Bur-Bukikkio, Norveçin ədliyyə naziri Knut Storberqet və BMT baş katibinin müavini Aşa-Rouz Migiro çıxış etmişlər.

Vurğulanmışdır ki, gender bərabərliyi dünyada xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biridir. Məişət zorakılığı insan hüquqlarının pozulmasıdır və bu məsələ uzun müddət qapalı, qadağan olunmuş mövzu idi. Halbuki statistikaya əsasən, dünyada hər üç qadından biri zorakılığın qurbanı olur. Avropa Şurası bu problemin aradan qaldırılması məqsədilə xüsusi Konvensiya layihəsi hazırlayır.

Ölkəmizin ədliyyə naziri tədbirdə çıxış edərək ümummilli lider Heydər Əliyevin gender probleminə xüsusi diqqəti nəticəsində Azərbaycanda qadınların cəmiyyətdə rolunun artırılması, bu sahədə dövlət siyasətinin gücləndirilməsi, ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində mühüm tədbirlərin görüldüyünü diqqətə çatdırmışdır.

Nazir vurğulamışdır ki, bu siyasətin davamı olaraq Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən mühüm qərarlar, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsini nəzərdə tutan İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı, Demokratik cəmiyyətdə gündəlik zorakılıqla mübarizə üzrə Respublika Kompleks Proqramı qəbul edilmiş, beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış "Məişət zorakılığına qarşı mübarizə haqqında" qanun layihəsinin Milli Məclisin müzakirəsinə verilmişdir.

Tədbir iştirakçılarının diqqəti Ermənistanın təcavüzü nəticəsində 1 milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına, 250 min ailənin üzləşdiyi sosial, mənəvi və məişət problemlərinə və bundan irəli gələn psixoloji gərginliyə cəlb edilmişdir.

Çıxışda məişət zorakılığına qarşı mübarizənin gücləndirilməsinə dair bir sıra təkliflər irəli sürülmüşdür.

Maraqla qarşılanmış ingilis dilində çıxışın rus dilində mətni, habelə məişət zorakılığının qarşısının alınması ilə bağlı xüsusi broşürlər və videoçarxlar yazılmış DVD-lər tədbir iştirakçılarına paylanmışdır.

Tədbirdə məişət zorakılığına qarşı mübarizənin gücləndirilməsi, beynəlxalq hüquqi yardımın səmərəliliyinin artırılması, qanunun aliliyinin möhkəmləndirilməsinə dair 3 qətnamə qəbul olunmuş, Avropa Şurasının bir sıra konvensiyaları imzalanmaq üçün açıq elan edilmişdir.

Konfrans çərçivəsində Azərbaycan ədliyyə naziri Avropa Şurası baş katibinin müavini, insan hüquqları üzrə Avropa komissarı və digər rəsmi şəxslərlə görüşmüş, əməkdaşlığa dair danışıqlar aparmışdır.

Səfər çərçivəsində bir sıra dövlətlərin, o cümlədən Türkiyə, Niderland, Macarıstan, Slovakiya, Avstriya və digər ölkələrin ədliyyə nazirləri ilə işgüzar görüşlər keçirilmiş, qarşılıqlı fəaliyyət barədə faydalı fikir mübadiləsi olmuşdur.

MOSKVADA AZƏRBAYCANIN DİPLOMATİK XİDMƏTİNİN 90 İLLİYİNƏ HƏSR EDİLMİŞ ELMİ KONFRANS KEÇİRİLMİŞDİR

İyunun 19-da ölkəmizin Moskvadakı səfirliyində Azərbaycanın diplomatik xidmətinin 90 illiyinə həsr olunmuş "Azərbaycan-Rusiya münasibətləri postsovet məkanında praqmatik əməkdaşlığın modeli kimi" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir.

Tədbiri açan Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu ölkəmizdə diplomatik xidmətin yaranması tarixindən danışaraq demişdir ki, 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti böyük çətinliklərlə üzləşmişdi. Lakin buna baxmayaraq, həmin dövrdə müstəqil Azərbaycanın diplomatik xidməti olan Xarici İşlər Nazirliyi yaradıldı, Azərbaycan nümayəndə heyəti xarici ölkələrlə fəal işləməyə, diplomatik siyasət qurmağa başladı, müxtəlif konfranslarda, o cümlədən 1919-cu ildə Paris Sülh Konfransında iştirak etdi. Səfir vurğulamışdır ki, Azərbaycan xalqı müstəqilliyini bərpa etdikdən sonra Yaxın Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin ənənələrini davam etdirmək qərarına gəldi. İki il əvvəl Azərbaycan Prezidenti İlham Əliyevin Fərmanı ilə ölkədə Diplomatik Xidmət günü təsis edildi. Hər il iyulun 9-da

Azərbaycanda diplomatların peşə bayramı qeyd olunur. Bu gün Azərbaycanın müxtəlif ölkələrdə və bütün dünyada böyük iş aparan ayrı-ayrı qurumlarda 50-dək diplomatik missiyası vardır. Səfir demişdir: "Heç kəsə sirr deyildir ki, Dağlıq Qarabağ məsələsi ilə bağlı Ermənistanla yaranmış ciddi münaqişə həyatımızı çətinləşdirir. Bu, köhnə, lakin çox ciddi və həlli çətin münaqişə olsa da, Azərbaycan davamlı surətdə bu münaqişənin sülh yolu ilə həlli yolundadır və həmin işdə hər bir ölkədə və hər bir nümayəndəlikdə bu problem üzərində dərindən və ciddi surətdə işləyən Azərbaycan diplomatlarının rolu böyükdür".

Sonra o, tədbiri aparmaq üçün sözü konfransın moderatoruna – postsovet məkanında ictimai-siyasi proseslərin öyrənilməsi üzrə MDU-nun İnformasiya-Təhlil Mərkəzinin baş direktoru Aleksey Vlasova vermişdir.

Azərbaycan diplomatik xidmətinin veteranı, tanınmış publisist və ictimai xadim Ramiz Abutalıbov Azərbaycanda diplomatik xidmətin yaranması tarixindən, Xalq Cümhuriyyəti dövründə Azərbaycanın görkəmli diplomatlarından, Azərbaycan nümayəndə heyətinin 1919-cu ildə Paris Sülh Konfransında iştirakından ətraflı söhbət açaraq vurğulamışdır ki, Azərbaycanın indiki rəhbərliyinin səyləri, habelə Xarici İşlər Nazirliyinin fəal köməyi ilə ilk diplomatlarımızın fəaliyyətinə dair arxiv materiallarından istifadə etmək mümkün olmuşdur. O bildirmişdir ki, həmin arxivlərin müasir Azərbaycan tarixçiləri tərəfindən tədqiq edilməsi yaxın vaxtlarda - Xalq Cümhuriyyətinin yubileyinə qədər Azərbaycanın diplomatik tarixinə dair üçcildliyin çapdan buraxılmasına imkan verəcəkdir. Birinci cild Azərbaycan dövlətinin 1918-1920-ci illərdəki diplomatik fəaliyyətinə həsr ediləcəkdir.

RF XİN MDBMİ-nin Postsovet Tədqiqatları Mərkəzinin direktoru Stanislav Çernyavski Azərbaycanın indiki rəhbərliyinin dövlət həyatının bütün sahələrindəki uğurlarından, ilk növbədə ölkənin milli maraqlarına söykənən, dünyanın bütün dövlətləri ilə dostluq, bərabərhüquqlu və qarşılıqlı surətdə faydalı tərəfdaşlıq siyasəti yeridən müasir Azərbaycan diplomatiyasının geniş fəaliyyətindən danışmışdır. Alim qeyd etmişdir ki, Azərbaycan diplomatiyası Cənubi Qafqaz və Xəzər hövzəsi regionunda bütün qonşu ölkələrlə münasibətlərdə tarazlaşdırılmış yanaşma vəzifəsinin öhdəsindən məharətlə gəlir. Onun sözlərinə görə, mehriban qonşuluq, dostluq münasibətlərinə, habelə strateji tərəfdaşlığa, ilk növbədə, 80-dən yuxarı dövlətlərarası və hökumətlərarası sazişdən ibarət zəngin normativ-hüquqi bazaya söykənən Azərbaycan-Rusiya münasibətləri nümunə ola bilər. S.Çernyavski dövlətlərarası münasibətlərdə iki ölkənin liderləri İlham Əliyev və Dmitri Medvedev arasındakı şəxsi dostluğun və qarşılıqlı anlaşmanın da yüksək rolunu vurğulamış, ölkələr arasında indiki qarşılıqlı fəaliyyətin əsasını təşkil edən səmərəli görüşlər və bəyanatlar üzərində ətraflı dayanmışdır. O, təkcə Rusiya və Azərbaycan arasında mehriban qonşuluq əlaqələrinin yaranmasında deyil, həm də müasir Azərbaycan dövlətinin və deməli, müstəqil Azərbaycan diplomatiyasının təşəkkülündə və inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rolunu və müstəsna xidmətlərini xüsusi vurğulamışdır.

Qərb Universitetinin (Azərbaycan) politologiya və beynəlxalq münasibətlər kafedrasının professoru Fikrət Sadıqov "Azərbaycan və regionun geosiyasi reallıqları" mövzusunda məruzəsində Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesində Ermənistanın qeyri-konstruktiv mövqeyi üzərində ətraflı dayanaraq demişdir ki, Azərbaycanın su-

verenliyinə təcavüz etmiş Ermənistan indi bu təcavüzün nəticələrini sadəcə möhkəmləndirməyə çalışır. Bu da istənilən baxımdan qəbuledilməzdir. F.Sadıqov bildirmişdir ki, Azərbaycan diplomatiyası ölkənin sırf milli maraqlarına söykənir. Bunu belə bir fakt da göstərir ki, bu yaxınlarda Kosovonun İslam Konfransı Təşkilatına daxil olmasına məhz Azərbaycan etiraz etmişdi. Halbuki bunun təşəbbüskarları Səudiyyə Ərəbistanı və Azərbaycanın yaxın strateji tərəfdaşı olan Türkiyə idi. F.Sadıqov demişdir: "Bu, Azərbaycanın ərazi bütövlüyü prinsipindən və beynəlxalq sabitliyin və təhlükəsizliyin əsasını təşkil edən beynəlxalq hüququn digər prinsiplərindən geri çəkilməyəcəyindən xəbər verir". Onun fikrincə, işğal altında olan ərazilərinin azad edilməsi üçün Azərbaycanın Rusiyadan və ATƏT-in Minsk qrupunun digər həmsədrlərindən real kömək gözləməyə hər cür əsası vardır.

REA-nın Avropa İnstitutunun Aralıq dənizi və Qara dəniz ölkələri problemlərinin öyrənilməsi üzrə Mərkəzinin rəhbəri Alla Yazıkova ümumavropa regional təhlükəsizliyi kontekstində Rusiya və Azərbaycan arasındakı münasibətlərdən danışmışdır.

Xarici Siyasətin və Strateji Tədqiqatların Planlaşdırılması İdarəsinin ikinci katibi, Azərbaycan XİN-in "Diplomatiya aləmi" jurnalının məsul katibi Hüseyn Hüseynov "Rusiya mənbələrində Ermənistan-Azərbaycan münaqişəsi tarixinin qısa oçerki"ni təqdim etmişdir.

Çıxış edənlər müasir mərhələdə Rusiya-Azərbaycan əməkdaşlığının aktual cəhətlərinə toxunmuş, dövlətlərarası münasibətlərin yüksək səviyyədə olduğunu vurğulamışlar.

Tədbirdə Rusiya rəsmi dairələrinin nümayəndələri, ictimai-siyasi xadimlər, politoloqlar, ekspertlər və Rusiya elmi ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN YAPONİYAYA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

İyunun 20-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Yaponiyaya işgüzar səfəri başa çatmışdır.

Səfər çərçivəsində nazir E.Məmmədyarov vəliəhd əlahəzrət Naruhito, inzibati islahatlar üzrə dövlət naziri, Azərbaycan-Yaponiya Parlamentlərarası Dostluq Liqasının sədri Akira Amari, xarici işlər nazirinin müavini Yasutoşi Nişimura, Azərbaycan-Yaponiya iqtisadi əməkdaşlıq üzrə dövlət komissiyasının üzvləri ilə görüşmüş, Yaponiya Beynəlxalq Münasibətlər İnstitutunda çıxış etmişdir.

Vəliəhd Naruhito ilə görüşdə Azərbaycanın xarici işlər naziri ölkəmizin siyasi, iqtisadi, ictimai vəziyyəti barədə məlumat vermiş, ikitərəfli münasibətləri müzakirə etmişdir. Nazir E.Məmmədyarov, həmçinin xarici işlər nazirinin müavini Yasutoşi Nişimura ilə də görüşmüş, Azərbaycan ilə Yaponiya arasında əlaqələrə dair fikir mübadiləsi aparmışdır.

İnzibati İslahatlar üzrə dövlət naziri, Azərbaycan-Yaponiya Parlamentlərarası Dostluq Liqasının sədri Akira Amari ilə görüşdə Azərbaycan ilə Yaponiya parlamentlərinin əməkdaşlıq məsələləri müzakirə olunmuş, ölkələrimiz arasında münasibətlərdə Liqanın rolunun vacibliyi vurğulanmışdır.

Azərbaycan-Yaponiya iqtisadi əməkdaşlıq üzrə dövlət komissiyasının üzvləri ilə görüşdə nazir E.Məmmədyarov Azərbaycanın iqtisadiyyatı, əlverişli investisiya mühiti, ölkəmizdə həyata keçirilən və tamamlanmış transmilli layihələr haqqında məlumat vermiş, konkret layihələrlə bağlı fikir mübadiləsi aparmışdır.

Nazir E.Məmmədyarov Yaponiya Beynəlxalq Münasibətlər İnstitutunda "Azərbaycan Şərq və Qərb arasında körpü - regional təhlükəsizlik və inkişafda aparıcı rolu" mövzusunda çıxış etmişdir. Tədbirdə Yaponiyanın siyasi-ictimai dairələrinin nümayəndələri, Azərbaycan və region üzrə mütəxəssislər, Tokioda akkreditə olunmuş bir sıra diplomatik nümayəndəliklərin rəhbərləri iştirak etmişlər.

E.Məmmədyarov Azərbaycanın hazırkı siyasi, iqtisadi, ictimai vəziyyəti, ölkəmizin xarici siyasətinin prioritetləri haqqında ətraflı məlumat vermiş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun nizamlanması prosesinə toxunmuş, həmçinin regional və qlobal məsələlərə münasibətdə Azərbaycanın mövqeyini diqqətə çatdırmışdır. Sonda Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri iştirakçıları maraqlandıran sualları cavablandırmışdır.

Nazir E.Məmmədyarov Yaponiyanın NHK telekanalına, "Kyodo News" agentliyinə və "Nikkei" qəzetinə müsahibə vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ÖLKƏMİZDƏKİ SƏFİRİ XANIM ANN DERSİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI MÜNASİBƏTİLƏ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Ann Dersi diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev xanım Ann Dersin ölkəmizdə səfir kimi fəaliyyəti dövründə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin inkişafına öz töhfəsini verdiyini bildirdi və gələcək fəaliyyətində ona müvəffəqiyyətlər arzuladı. Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etdi.

Xanım Ann Ders ABŞ-Azərbaycan əlaqələrinin hər iki ölkə üçün mühüm əhəmiyyət kəsb etdiyini dedi. O, bu əlaqələrin bütün istiqamətlərdə daha da gücləndirilməsi üçün səyləri davam etdirməyin zəruriliyini vurğuladı. Diplomat Azərbaycandakı üç illik fəaliyyəti dövründə əlaqələrimizin yeni sahələrinin müəyyən edilməsinə çalışdığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ PAULO ANTONİONUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Braziliya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Paulo

Antonionun etimadnaməsini qəbul etmişdir.

Səfir Paulo Antonio Prezident sarayında fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Paulo Antonio etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Braziliyanın ölkəmizdə səfirinin təyin olunmasını Azərbaycanla Braziliya arasında ikitərəfli münasibətlərin yaxşı göstəricisi kimi qiymətləndirdi. Prezident İlham Əliyev ölkələrimizin əlaqələrinin inkişafı üçün geniş imkanların olduğunu dedi və bundan istifadə etməyin vacibliyini vurğuladı.

Səfir Paulo Antonio ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi-iqtisadi sahələrdə inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu söylədi və respublikamızdakı diplomatik fəaliyyəti müddətində əlaqələrimizin genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini bildirdi.

AVROPA İTTİFAQI AZƏRBAYCAN İLƏ ƏMƏKDAŞLIĞA BÖYÜK ÖNƏM VERİR

İyunun 22-də Azərbaycanda səfərdə olan Avropa İttifaqının (Aİ) Şərqi Avropa və Mərkəzi Asiya Ölkələri üzrə işçi qrupunun üzvləri ilə Milli Məclisdə görüş keçirilmişdir.

Avropalı qonaqlar Azərbaycan parlamentinin son vaxtlar qəbul etdiyi qanun və qərarlarla yaxından tanış olmuşlar.

Aİ-nin Şərqi Avropa və Mərkəzi Asiya Ölkələri üzrə işçi qrupunun üzvü Mixal Stroxal demişdir ki, Avropa İttifaqı Cənubi Qafqaz və Azərbaycan ilə əməkdaşlığa böyük önəm verir. İşçi qrupunun Azərbaycana səfər etməsi, ölkənizlə və qanunverici orqanın fəaliyyəti ilə yaxından tanış olması bunu bir daha təsdiqləyir. Qonaq əlavə etmişdir ki, Azərbaycanın qurumun "Şərq tərəfdaşlığı" təşəbbüsünə qoşulması təqdirəlayiqdir. Bu, Azərbaycan ilə Avropa İttifaqı arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına yaxşı zəmin yaradacaqdır.

Qurum regionda, o cümlədən Azərbaycanda sabitliyin və firavanlığın təminatında maraqlıdır deyən nümayəndə heyətinin üzvü, ölkələrin parlamentləri arasında əməkdaşlığın vacibliyindən danışmışdır. Bildirmişdir ki, Aİ-nin bu ilin mayında Praqada keçirilmiş zirvə toplantısında qəbul olunan bəyannamədə də bu məsələ xüsusi olaraq öz əksini tapmışdır.

Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynov ölkəmizin Avropaya inteqrasiya istiqamətində atdığı addımlardan danışaraq bildirmişdir ki, müstəqillik qazandıqdan sonra əldə etdiyimiz uğurlardan biri Azərbaycanın Aİ təsisatları ilə əməkdaşlıq əlaqələri qurması olmuşdur. Ölkədə müxtəlif sahələrdə həyata keçirilən islahatların əsas məqsədi də Avropaya inteqrasiyadır. Azərbaycan "Şərq tərəfdaşlığı" təşəbbüsü prosesində də fəal iştirak edir.

Görüşdə qonaqlara Milli Məclisin ölkənin qanunvericilik bazasının təkmilləşdirilməsi sahəsində görülən işlər barədə məlumat verilmişdir.

AZƏRBAYCAN İLƏ İNDONEZİYA ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

İyunun 22-də Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan İndoneziya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşmüşdür.

Z.Əsgərov qonaqlara Milli Məclisin fəaliyyəti, qanunvericilik bazasının yaradılması prosedurları barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Milli Məclisdə iqtisadi, siyasi, mədəni, elm, təhsil, sosial, müdafiə, təhlükəsizlik və ölkə həyatının digər məsələlərinə dair minlərlə qanun qəbul edilmişdir.

Milli Məclis sədrinin birinci müavini demişdir ki, İndoneziya Azərbaycanın özünə strateji tərəfdaş bildiyi çox mühüm dövlətlərdən biridir. Ölkəmizə belə bir geniş tərkibdə nümayəndə heyətinin gəlməsi onu göstərir ki, İndoneziyada da Azərbaycana maraq böyükdür. Ölkəmizin İndoneziyada səfirliyinin fəaliyyət göstərdiyini deyən Z.Əsgərov, yaxın vaxtlarda dost dövlətin də Azərbaycanda diplomatik missiyasının açılacağına ümid etdiyini demişdir.

Azərbaycan ilə İndoneziya arasında müxtəlf sahələri əhatə edən əməkdaşlıq əlaqələrinə toxunan Z.Əsgərov illik ticarət dövriyyəsinin 1,5 milyard dollar təşkil etdiyini bildirmiş, bu rəqəmin mövcud potensial imkanlarla müqayisədə çox az olduğunu vurğulamışdır.

Z.Əsgərov parlamentin beynəlxalq əlaqələrindən söhbət açaraq demişdir ki, Milli Məclis NATO, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatlar, eləcə də onların parlament assambleyaları ilə sıx əməkdaşlıq edir.

Milli Məclis sədrinin birinci müavini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermiş, Ermənistanın təcavüzü nəticəsində bir milyondan çox insanın doğma yurd-yuvalarından didərgin düşdüyünü, 200 mindən artıq azərbaycanlının isə işğalçı dövlətin ərazisindən deportasiya edildiyini diqqətə çatdırmış, İndoneziya tərəfinə bu münaqişədə Azərbaycanın ədalətli mövqeyini daim dəstəklədiyinə görə təşəkkürünü bildirmişdir.

İndoneziya parlamenti nümayəndə heyətinin başçısı Hənif İsmayıl Bin M. Rıdvan Azərbaycana səfərlərdən və aldıqları məlumatlardan məmnun qaldığını bildirmişdir. Azərbaycanın daha parlaq gələcəyi olduğunu vurğulayan qonaq, təmsil etdiyi dövlətin ölkəmizlə əməkdaşlığı daha da genişləndirməyə böyük maraq göstərdiyini qeyd etmişdir. Qonaq İndoneziyanın bundan sonra da Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində diplomatik səylərini davam etdirəcəyini vurğulamışdır.

Daha sonra görüşdə Azərbaycanın Cənubi Qafqazdakı rolu, İndoneziya iş adamlarının ölkəmizə investisiya qoymaq imkanları, qanunvericilik sahəsində təcrübə mübadiləsi və əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur.

İSTANBULDA TÜRKİYƏ VƏ AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ OLMUŞDUR

Türkiyə xarici siyasət idarəsinin başçısı Əhməd Davudoğlu İstanbulda Yaponiyaya səfərdən qayıdan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşmüşdür.

Jurnalistlərə açıqlama verən nazirlər bildirmişlər ki, əvvəlcədən planlaşdırılmayan bu görüşdə tərəflər dünyadakı aktual məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Ermənistan xarici işlər nazirinin münasibətlərin normallaşması üçün Türkiyədən yeni addımlar gözlədikləri barədə bəyanatına münasibət bildirən Əhməd Davudoğlu demişdir ki, Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olması təktərəfli addımlarla mümkün deyildir. Bu addımlar qarşılıqlı olmalıdır. Türkiyə keçmişdə xoş niyyətli addımlar atmışdır və bunların qarşılığı olmalıdır. Elmar Məmmədyarovla bu məsələləri müzakirə etdik. Biz hər zaman olduğu kimi, bir millət, iki dövlət anlayışı ilə bölgədəki bütün prosesləri gözdən keçirdik. Son zamanlardakı Azərbaycan ilə Ermənistan arasındakı danışıqları, əlaxüsus uğurla inkişaf edən ikitərəfli əlaqələrimizi müzakirə etdik.

Türkiyəli həmkarı ilə görüşün çox mühüm və faydalı olduğunu söyləyən Elmar Məmmədyarov bildirmişdir ki, Ermənistanla sülh danışıqları davam etdiriləcəkdir və "biz bu müzakirələrin yekunu olaraq, Ermənistan qoşunlarının işğal edilmiş torpaqlardan çıxmasını istəyirik".

BAKIDA AZƏRBAYCAN NATO BEYNƏLXALQ MƏKTƏBİNİN "BÖHRANLARIN İDARƏ EDİLMƏSİNDƏ VƏTƏNDAŞ CƏMİYYƏTİNİN ROLU" MÖVZUSUNDA YAY SESSİYASI KEÇİRİLİR

İyunun 22-də Bakıda Xarici İşlər Nazirliyinin dəstəyi ilə Azərbaycan NATO Beynəlxalq Məktəbinin "Böhranların idarə edilməsində vətəndaş cəmiyyətinin rolu" mövzusunda yay sessiyası işə başlamışdır.

İyunun 26-dək davam edəcək sessiya çərçivəsində böhranların idarə edilməsi, bu prosesdə NATO-nun rolu, idarəetmə mexanizmləri, dənizdə böhranlar, dəniz, enerji və sərhəd təhlükəsizliyi, əhəmiyyətli infrastrukturların mühafizəsi, beynəlxalq terrora qarşı mübarizə, böhranların idarə edilməsində sosioloji tədqiqatlar və digər mövzularda məsələlər müzakirə olunacaqdır.

Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov bildirmişdir ki, ölkəmiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir sıra problemlərlə üzləşmişdir. Ərazilərin işğalı, əhalinin öz doğma evlərindən qovulması, həmçinin hərbi əməliyyatlar böhranlara yol açır. Bu cür problemlər qonşu ölkələrə də təsir göstərir.

İzmir Universitetinin əməkdaşı İtir Bağdadi müasir dövrün təhdidlərindən danışaraq vurğulamışdır ki, bu gün meydana çıxan beynəlxalq təhlükəsizlik məsələlərinin həlli dövlətlərin birgə səylərindən asılıdır.

Rumıniyanın Azərbaycandakı səfiri Nikolaye Ureke əlaqələndirici dövlət olaraq ölkəsinin Azərbaycanın Avratlantik qurumlara inteqrasiyasını dəstəklədiyini və bu sahədə müvafiq işlər aparıldığını demişdir.

Sessiyada yerli mütəxəssislər, hərbi və təhlükəsizlik qurumlarının, həmçinin müxtəlif beynəlxalq təşkilatların nümayəndələri iştirak edirlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SERBİYANIN XARİCİ İŞLƏR NAZİRİ VUK YEREMİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Serbiyanın xarici işlər naziri Vuk Yeremiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Serbiya arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini bundan sonra da dəstəkləyəcəyini dedi. Ölkələrimiz arasında münasibətlərin sürətli inkişafının zəruri olduğunu deyən dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Serbiyanın xarici işlər nazirinin Azərbaycana səfəri bu istiqamətdə atılan mühüm addım olacaqdır. Münasibətlərin inkişafı üçün yaxşı potensialın mövcud olduğunu bildirən Prezident İlham Əliyev dedi ki, beynəlxalq təşkilatlarda ölkələrimizin qarşılıqlı dəstəyini nəzərə alsaq bu sahədə əməkdaşlıq, əlaqələrimizin daha da genişlənməsi üçün möhkəm əsas yaradır. Dövlətimizin başçısı təkcə siyasi sahədə deyil, iqtisadi, mədəni və digər sahələrdə məhsuldar əməkdaşlıq üçün yeni sahələrin müəyyənləşdirilməsi istiqamətində konkret addımların atılacağını vurğuladı və əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Bakıda, Xarici İşlər Nazirliyində aparılan danışıqlara toxunan qonaq dedi ki, biz siyasi sahədə uğurla inkişaf edən əlaqələrimizin daha da genişləndirilməsinin vacibliyi barədə yekdil qərara gəldik. Bakıya gəlməzdən əvvəl ölkəsinin Prezidenti ilə söhbət etdiyini bildirən xarici işlər naziri Vuk Yeremiç qeyd etdi ki, Serbiya rəhbərliyi Azərbaycan ilə ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, habelə beynəlxalq əməkdaşlıq sahəsində sürətlə inkişaf etməsində maraqlıdır. Nazir əlaqələrimizin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN ƏTRAF MÜHİT NAZİRİ RAYMONDS VEYONİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Latviyanın ətraf mühit naziri Raymonds Veyonisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Səfərinin uğurla keçdiyini vurğulayan Latviyanın ətraf mühit naziri Raymonds Veyonis bu gün səhər Latviya hökuməti ilə Azərbaycan hökuməti arasında ətraf mühitlə bağlı əməkdaşlığa dair razılaşma imzaladıqlarını dedi. Razılaşmanın əhəmiyyətinə toxunan qonaq bildirdi ki, əgər indiyə kimi Latviya və Azərbaycan maliyyə, iqtisadi və digər sahələrdə əməkdaşlıq edirdisə, bu razılaşmadan sonra iki ölkə arasında əlaqələr daha da genişlənir. O qeyd etdi ki, hazırkı qlobal iqlim dəyişikliyini nəzərə alsaq ətraf mühitin mühafizəsi məsələləri bu gün ciddi xarakter daşıyır və gündəlik həyatımıza daha çox təsir edir.

Dövlətimizin başçısı Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin təkcə iq-

tisadi və siyasi istiqamətlərdə deyil, yeni sahələri əhatə etməklə genişləndiyinin əhəmiyyətini vurğuladı. Ətraf mühitin mühafizəsi məsələsinin ölkəmiz üçün prioritet məsələ olduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, Abşeron yarımadasında, Xəzər dənizi zonasında, o yerlərdə ki neft və qaz hasil olunur, həmin ərazilər ekoloji təhlükəsizlik baxımından xüsusi yanaşma tələb edir.

Azərbaycanın digər ərazilərində isə bu cür təhlükələrin olmadığını, əksinə yaxşı iqlimin və təbii şəraitin mövcudluğunu qeyd edən dövlətimizin başçısı bildirdi ki, Bakı və Abşeron yarımadasında iki yüz ilə yaxın bir müddət ərzində neft hasil olunsa da, ekoloji məsələlərə uzun illər əhəmiyyət verilməyib. Azərbaycan dövləti bu istiqamətdə çoxlu işlərin görülməsini planlaşdırır.

ASTANADA AVRATLANTİK TƏRƏFDAŞLIQ ŞURASININ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİNƏ DAİR 3-CÜ FORUMU KEÇİRİLMİŞDİR

İyunun 25-də Astanada Avratlantik Tərəfdaşlıq Şurasının təhlükəsizlik məsələlərinə dair 3-cü Forumu keçirilmişdir.

Forumda NATO-nun üzvü olan 28, tərəfdaşı olan 22 ölkənin yüksək səviyyəli nümayəndələri iştirak etmişlər.

Ölkəmizi bu tədbirdə Milli Məclis sədrinin birinci müavini, NATO Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinin rəhbəri Ziyafət Əsgərovun başçılığı ilə deputat Jalə Əliyeva və NATO yanında Azərbaycan nümayəndəliyinin başçısı Kamil Xasıyevdən ibarət nümayəndə heyəti təmsil etmişdir.

Tədbirdə Mərkəzi Asiyada və Qafqazda təhlükəsizlik problemləri, Əfqanıstanda vəziyyətin sabitləşməsi məsələləri, problemin həllində dünya ölkələrinin və qonşu dövlətlərin rolu, enerji təhlükəsizliyi, Qara dəniz regionunda əməkdaşlığın genişləndirilməsi, insan hüquqları və digər məsələlər müzakirə edilmişdir.

Forumda "Enerji təhlükəsizliyi: Xəzər dənizi və Qara dəniz regionunda əməkdaşlıq" mövzusunda məsələ müzakirə olunan qrupda Ermənistanın NATO-dakı nümayəndəsi "regionun enerji layihələrindən kənarda qaldıqlarını və bundan əziyyət çəkdiklərini" bildirmişdir. O demişdir: "Ermənistan bütün neft və qaz layihələrindən kənarda qalmışdır və çox istərdik ki, bu layihələrdə iştirak edək".

Ziyafət Əsgərov cavab olaraq bildirmişdir ki, Ermənistanın bütün regional layihələrdən kənarda qalmasında Azərbaycan deyil, məhz bu ölkənin özü günahkardır. Ermənistan özünün işğalçılıq siyasətinin girovuna çevrilib və ona görə də layihələrdə iştirak edə bilmir. Siz işğalçı dövlətsiniz, torpaqları azad edin, işğaldan əl çəkin, ondan sonra sizinlə əməkdaşlığı müzakirə edə bilərik.

Z.Əsgərov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, problemin həllində Azərbaycanın sülh təşəbbüsləri barədə də məlumat vermişdir.

Qazaxıstanın energetika və mineral ehtiyatlar nazirinin müavini Aset Maqauov, ABŞ-dan olan politoloq Zeyno Baran Avropanın enerji təminatında Azərbaycanın rolundan danışmışlar.

Forumun "Regional perspektivlər: Qafqazda həll olunmayan münaqişələrin həllinin perspektivləri" mövzusundakı seminarda Türkiyənin NATO-dakı nümayəndəsi Ünal Çevikgöz Dağlıq Qarabağ münaqişəsinə toxunaraq demişdir ki, münaqişə həll olunmayınca, Türkiyə Ermənistanla hər hansı diplomatik danışıqların aparılmasına razılıq verməyəcəkdir.

Kamil Xasıyev isə çıxışında bildirmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapa bilər.

Jalə Əliyeva enerji layihələrinin icrasında Azərbaycanın rolundan danışmışdır.

VYANADA ATƏT MƏKANINDA TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

İyunun 23-24-də Vyanada ATƏT-in təhlükəsizlik məsələlərinin icmalı üzrə yeddinci illik konfransı keçirilmişdir. Cari ildə ATƏT-ə sədrlik edən Yunanıstanın təşkilatçılığı ilə keçən konfransda 56 üzv ölkənin nümayəndələri iştirak etmişdir.

Konfransda münaqişələrin həlli, böhranların idarə edilməsi, böhrandan sonra sabitliyin bərpa olunması, ATƏT məkanında silahlanmaya nəzarət, etimadyaradıcı tədbirlərin təşkili, beynəlxalq terrorizm və onun təzahürlərinə qarşı mübarizə yolları müzakirə olunmuşdur.

Tədbirdə Azərbaycanı xarici işlər nazirinin müavini Araz Əzimov təmsil etmişdir. Konfransın gedişatında Azərbaycanın ATƏT yanında daimi nümayəndəliyi müzakirə olunan məsələlərə mövqeyini yazılı şəkildə iştirakçılara paylamışdır.

DÖVLƏT MİQRASİYA XİDMƏTİNİN RƏİSİ ALMANİYANIN DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 26-da Dövlət Miqrasiya Xidmətinin (DMX) rəisi Arzu Rəhimov Azərbaycanda səfərdə olan Almaniya Federativ Respublikasının daxili işlər nazirinin müavini Auqust Hanninqin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

İki ölkə arasındakı mövcud münasibətlərdən danışan Auqust Hanninq bildirmişdir ki, son illər Azərbaycan böyük inkişafa nail olmuşdur. Bakının inkişafına da toxunan Auqust Hanninq burda gedən abadlıq və quruculuq işlərini xüsusi vurğulamışdır.

Qonaq münasibətləri dərinləşdirmək üçün səmərəli danışıqlar apardıqlarını, miqrasiya sahəsində əlaqələrin genişləndirməsində maraqlı olduqlarını qeyd etmiş, əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminliyini vurğulamışdır.

DMX-nin rəisi Arzu Rəhimov Azərbaycanda aparılan uğurlu siyasi və iqtisadi islahatlar nəticəsində insanların yaşayış səviyyəsinin yüksəldiyini və bütün sahələrdə müşahidə olunan sürətli inkişafla əlaqədar ölkəmizə gələn əcnəbilərin sayının ilbəil artdığını vurğulamışdır.

A.Rəhimov bildirmişdir ki, miqrasiya proseslərinin tənzimlənməsi, miqrasiya siyasətinin formalaşdırılması, ümumiyyətlə, miqrasiya proseslərinə nəzarətin təmin edilməsi

məqsədi ilə Azərbaycan Prezidentinin 2007-ci il 19 mart tarixli Fərmanı ilə Dövlət Miqrasiya Xidməti yaradılmış və qarşıya ciddi vəzifələr qoyulmuşdur. Xidmətdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddətlərinin artırılması, qaçqın statusunun müəyyən edilməsi ilə bağlı qərarlar qəbul edilir, onların müvəqqəti və ya daimi yaşamasına icazə verilməsi və vətəndaşlıq məsələlərinə baxılır.

Xidmətdə "bir pəncərə" prinsipinin tətbiqi ilə bağlı ətraflı məlumat verən DMX rəisi diqqətə çatdırmışdır ki, Prezident İlham Əliyevin miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında Fərmanı Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində qanuni əsaslarla yaşaması və əmək fəaliyyəti ilə məşğul olması üçün müvafiq icazələrin verilməsi, onların yaşayış yeri üzrə qeydiyyata alınması prosedurlarının sadələşdirilməsinə, aidiyyəti dövlət qurumlarının işində şəffaflığın təmin olunmasına xidmət edəcəkdir.

A.Rəhimov qeyd etmişdir ki, miqrasiya sahəsində xarici ölkələrin təcrübəsinin öyrənilməsi üçün bir sıra ölkələrin müvafiq qurumları ilə ikitərəfli əlaqələr yaradılmışdır.

Görüşdə miqrasiya sahəsində birgə əməkdaşlığın daha da genişləndirilməsi və digər məsələlər barədə ətraflı müzakirələr aparılmışdır.

PARİSDƏ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

İyunun 26-da Parisdə ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü keçirilmişdir.

Danışıqlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin hazırkı durumu ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA NEFT VƏ QAZ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

Misirdə səfərdə olan Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev iyunun 28-də Misirin neft naziri Səmih Fəhmi ilə görüşmüşdür.

Görüşdə iki ölkə arasında neft və qaz sahələrində əməkdaşlığın perspektivləri, neft və qaz sənayesinin bugünkü vəziyyəti, xüsusən də Azərbaycan Prezidenti İlham Əliyevin 2007-ci ilin mayında Misirə rəsmi səfəri zamanı, neft və qaz sahələrində əməkdaşlığa dair tərəflər arasında əldə olunmuş razılıq, hər iki ölkənin dövlət başçılarının bu istiqamətdə göstərişləri müzakirə olunmuşdur.

Görüşdə, həmçinin Azərbaycanın neft və qaz potensialını araşdırmaq, ölkəmizin bu sahələrdə zəngin təcrübəsindən faydalanmaq məqsədilə, neft və qaz sənayesi üzrə misirli mütəxəssislərin yaxın vaxtlarda Azərbaycana səfər etmələri barədə razılıq əldə olunmuşdur.

Görüşdən sonra hər iki nazir Misirin "Nile TV International" və "Nile Akhbar" xəbər kanallarına müsahibə vermiş, jurnalistləri maraqlandıran sualları cavablandırmışlar.

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ŞİMON PERESİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

İyunun 28-də İsrail Dövlətinin Prezidenti Şimon Peres Azərbaycana rəsmi səfərə gəlmişdir.

Hər iki ölkənin dövlət bayraqlarının asıldığı Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İsrail Dövlətinin Prezidenti Şimon Peresi Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar İsrail Prezidentinə gül dəstəsi təqdim etdilər.

Hava limanının ali qonaqlar üçün salonunda Prezident Şimon Peres və Baş nazirin birinci müavini Yaqub Eyyubov arasında qısa protokol görüşü oldu.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

İyunun 28-də İsrail Dövlətinin Prezidenti Şimon Peresin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev İsrail Prezidenti Şimon Peresi böyük səmimiyyətlə qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi İsrail Prezidentinə raport verdi.

İsrailin və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları İlham Əliyev və Şimon Peres fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İsrail Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Şimon Peresə, İsrail nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSRAİL PREZİDENTİ ŞİMON PERESİN TƏKBƏTƏK GÖRÜŞÜ

İyunun 28-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İsrail Prezidenti Şimon Peresin təkbətək görüşü olmuşdur.

Görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

İyunun 28–də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İsrail Prezidenti Şimon Peresin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamaq istərdim. Əminəm ki, səfər uğurlu olacaqdır.

Biz sizinlə ikitərəfli münasibətlərə, o cümlədən regional və beynəlxalq məsələlərə dair geniş müzakirə apardıq. Əminəm ki, nümayəndə heyətlərimizin üzvləri də bir-biri ilə söhbət edə biləcəklər və ikitərəfli münasibətlərimizə aid məsələləri nəzərdən keçirəcəklər. Münasibətlərimiz uğurla inkişaf edir. Əməkdaşlığımızın səviyyəsindən məmnunuq. İqtisadiyyatın müxtəlif sahələrində yaxşı imkanlar var. Humanitar sahədə məsələlər üzrə də əməkdaşlıq edirik. Siz bizə ölkənizin iş adamlarından ibarət böyük bir qrupla gəlmisiniz. Hesab edirəm ki, işgüzar dairələr arasındakı əlaqələr ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət edir.

Mən sizə uğurlu səfər arzulayıram.

İsrail Prezidenti Şimon PERES səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Çox sağ olun. Şəxsən öz adımdan və nümayəndə heyəti adından olduqca səmimi qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm. Bizə demişdilər ki, Bakıda hava çox isti olacaq. Amma əslində gördük ki, hava o qədər də isti deyil. Bizə göstərdiyiniz hərarətli qəbula görə minnətdarıq. Biz bir çox məsələləri müzakirə etdik.

İsrail Prezidenti dedi ki, nümayəndə heyətinin tərkibində iştirak edən nazirlər də əməkdaşlığımızın vəziyyəti barədə öz fikirlərini söyləyəcəklər.

AZƏRBAYCAN-İSRAİL SƏNƏDLƏRİNİN İMZALANMASI

İyunun 28-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İsrail Prezidenti Şimon Peresin iştirakı ilə Azərbaycan-İsrail sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və İsrailin elm və texnologiya naziri Daniel Herşkovitz imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov və İsrailin milli infrastruktur naziri Uzi Landau imzaladılar.

DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

İyunun 28-də Azərbaycan-İsrail sənədlərinin imzalanması mərasimi başa çatdıqdan sonra prezidentlər İlham Əliyev və Şimon Peres mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV bəyanatla çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Biz bu gün bir sıra məsələlər üzrə yaxşı müzakirələr apardıq. Biz ikitərəfli əlaqələrə dair məsələləri müzakirə etdik və əminəm ki, bu səfər ikitərəfli əlaqələrimizin uğurlu inkişafında çox önəmli rol oynayacaqdır. Biz iqtisadiyyatın inkişafına dair məsələləri də müzakirə etdik. Ölkələrimiz arasında birgə ticarət dövriyyəsinin həcmi artmaqdadır və bu rəqəm ötən il 3,6 milyard dollara bərabər olmuşdur.

Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət dövriyyəsinin 2009-cu ildə də bu rəqəm civarında olacağına əminliyini vurğuladı. Kənd təsərrüfatı, səhiyyə, turizm, elm və texnologiya, kosmik sənaye sahələrində əməkdaşlıq üçün çox yaxşı perspektivlərin olduğunu bildirən dövlətimizin başçısı, ölkələrimizin bu sahələrdəki nailiyyətlərindən danışdı və müsbət meyli gələcəkdə inkişaf etdirməyin planlaşdırıldığını söylədi.

Ölkələrimiz arasında enerji sektorundakı əlaqələrə toxunan Prezident İlham Əliyev bu sahədə əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyini bildirdi. Humanitar əməkdaşlıqdan söz açan dövlətimizin başçısı Azərbaycan və İsrail xalqları arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirdi.

Prezident İlham Əliyev dedi: Azərbaycanın yəhudi icması əsrlər boyu burada sülh və dostluq şəraitində yaşayıb və yaşayır. Bu gün müzakirə etdiyimiz kimi, Azərbaycanda doğulan və hazırda İsraildə yaşayıb çalışan İsrail vətəndaşları da ikitərəfli əlaqələrimizin inkişafında çox önəmli rol oynayırlar. Onlar əslində İsraildə Azərbaycan diasporu kimi fəaliyyət göstərirlər. Yəqin ki, insanlar arasında ünsiyyət cənab Prezidentin səfərindən sonra daha geniş vüsət alacaqdır.

Biz, eyni zamanda, bu gün regional məsələləri, regional vəziyyəti, Yaxın Şərqdəki, Qafqazdakı vəziyyəti, münaqişələrə aid məsələləri də müzakirə etdik. Mən cənab Prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vəziyyət haqda məlumatlandırdım. Əfsuslar olsun ki, atəşkəsin əldə edilməsindən 15 ildən də çox vaxt keçsə də, münaqişənin həllində heç bir əsaslı irəliləyiş, nailiyyət olmayıb. Torpaqlarımızın 20 faizi hələ də işğal altındadır. Bir milyondan çox azərbaycanlı öz torpaqlarında qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. BMT-nin Təhlükəsizlik Şurasının Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından dərhal çıxarılmasını tələb edən 4 qətnaməsinin qəbul olunmasına baxmayaraq, işğal hələ də davam edir və bu, nəinki bizə, hətta bütün regiona ən böyük təhlükədir.

Əminəm ki, uğurla başlanan səfər bu gün və sabah da belə davam edəcəkdir. Qəbul ediləcək qərarlar və əldə olunacaq razılaşmalar ikitərəfli əlaqələrimizi inkişaf etdirmək

üçün yeni imkanlar yaradacaqdır.

Cənab Prezident, bir daha xoş gəlmisiniz və diqqətinizə görə minnətdaram.

* * *

İsrail Prezidenti Şimon PERES bəyanatla çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Əvvəlcə mənə və nümayəndə heyətinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm.

Xoş münasibətə, məsələləri geniş şəkildə müzakirə etmək imkanına görə Sizə səmimi qəlbdən təşəkkürümü çatdırıram. Qeyd edə bilərəm ki, ölkənizə səfərimdən öncə Azərbaycana vurğun idim. Lakin bu gün Sizinlə apardığım söhbətdən sonra anladım ki, bu sözlər hamı tərəfindən deyilə bilər.

Prezident Şimon Peres dedi ki, ölkələrimiz arasında oxşarlıqlar var. Ölkələrimiz ərazicə kiçik olsa da, insanlarımızın qəlbi çox genişdir.

İsrail dövlətinin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və münaqişə nəticəsində yaranmış işğal faktına da münasibət bildirdi.

Prezident Şimon Peres dedi: İşğala baxmayaraq, siz öz mədəniyyətinizi və nikbinliyinizi qoruyub saxlaya bildiniz. Səkkiz milyondan çox əhalisi olan ölkədə bir milyon qaçqın və məcburi köçkün probleminin nə dərəcədə çətin məsələ olduğunu anlayıram. Bu, o deməkdir ki, hər 8 nəfərdən biri qaçqın və məcburi köçkündür. Siz bu məsələnin öhdəsindən lazımınca gəlirsiniz.

Şimon Peres əməkdaşlığımızın daha da genişləndirilməsinin vacibliyini vurğuladı və qeyd etdi ki, Azərbaycanda yüksək tolerantlıq mühiti vardır.

İsrail Prezidenti ölkəmizdə yəhudi icmasına göstərilən xoş münasibətə görə minnətdarlığını bildirərək dedi: Bu, tarixən belə olub. Azərbaycanı tərk edərək İsrailə gələn yəhudilər ölkəniz haqqında daim xoş təəssüratlarını bölüşürlər. Biz yeniliklər yolunun başlanğıcındayıq. Bu, böyük və vədedici başlanğıcdır. Lakin bu gün kiçik ölkələr öz yenilikləri ilə məhdudlaşmamalı, yeni üfüqlərə, milli konsepsiya və təfəkkürə doğru addımlamalıdırlar.

Biz bu səfərə böyük nümayəndə heyəti ilə gəlmişik. Onun tərkibində üç nazir var. Bundan əlavə, 50-yə yaxın nüfuzlu iş adamı da var. Onlar bizim münasibətlərimizi daha da dərinləşdirmək və zənginləşdirmək fikrindədirlər. Bu, qarşılıqlı olmalıdır. Biz qarşılıqlı fayda naminə birgə çalışmalıyıq.

Prezident Şimon Peres Azərbaycanın bölgədə sülhün əldə olunması istiqamətindəki səylərini yüksək qiymətləndirdi. Ali qonaq ona və nümayəndə heyətinə göstərilən səmimi qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirdi.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

İsrail Prezidenti Şimon Peres iyunun 28-də Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevi və İsrail Prezidenti Şimon Peresi Fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva qarşıladı.

Ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədləri və fəaliyyəti barədə məlumat verildi.

Prezident İlham Əliyev İsrail Prezidentini ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar və fotoşəkillərlə tanış etdi.

Dövlətimizin başçısı bildirdi ki, bugünkü qüdrətli və zəngin Azərbaycan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yol ilə uğurla irəliləyir. Müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev azərbaycanlıların milli qürur və iftixar mənbəyinə çevrilmiş, xalqımızın ümummilli lideri adını qazanmışdır. Ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixində ən şərəfli səhifələrdən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

İsrail Prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Şimon Peres Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı. İsrail Prezidentinə hədiyyə təqdim olundu.

Dövlət başçıları və Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun fəaliyyəti haqqında filmə baxdılar.

Ali qonaq Fonddan zəngin təəssüratla ayrıldı.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

İyunun 28-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İsrail Dövlətinin Prezidenti Şimon Peresin şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Hörmətli cənab Prezident!

Əziz qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Mən İsrail Prezidentini Azərbaycanda bir daha salamlamaq istəyirəm. Bu gün bizim çox

yaxşı müzakirələrimiz oldu. Münasibətlərimiz uğurla inkişaf edir. Biz cənab Prezidentlə bir neçə dəfə görüşmüşük və bu görüşlər beynəlxalq tədbirlər çərçivəsində müxtəlif ölkələrdə baş tutub. İndi isə cənab Prezident Azərbaycana rəsmi səfərə gəlib. Bu səfər böyük əhəmiyyət daşıyır. Səfər ikitərəfli münasibətlərin inkişafı üçün yeni imkanlar açacaq. Bu gün biz ikitərəfli əlaqələrə dair vacib məsələləri, regional inkişaf məsələlərini, o cümlədən beynəlxalq əhəmiyyət daşıyan məsələləri nəzərdən keçirdik.

İkitərəfli əlaqələr haqqında danışarkən əminəm ki, əlaqələrimiz bundan sonra daha da güclənəcəkdir. Bizim iqtisadi əməkdaşlığımızın çox yaxşı perspektivləri var. Bu gün belə məsələlər çox geniş formatda müzakirə olundu. İqtisadi münasibətlərimiz inkişaf edir və bu sahədə dövriyyəmiz 2 milyard dollara yaxındır. Zənnimcə, gələcək illərdə bu rəqəm daha da artacaq.

Biz kənd təsərrüfatı, turizm, elm, texnologiyalar sahəsində əməkdaşlıq haqqında da danışdıq, səhiyyə sahəsinə də toxunduq. Əminəm ki, bu sahələrdə və bir çox digər yeni sahələrdə yaxşı həll variantlarını tapa bilərik ki, onlar bizi bir-birimizə daha yaxın etsin.

Azərbaycanda xalqımızın yəhudilərlə daim dinc şəraitdə birgə yaşadığını vurğulayan Prezident İlham Əliyev respublikamızdakı yəhudi icmasının ölkəmizin inkişafı üçün töhfələrini əsirgəmədiyini bildirdi. Dövlətimizin başçısı İsraildəki Azərbaycan diasporunun da çox məhsuldar fəaliyyətini xüsusi qeyd edərək dedi:

- Onlar məhz Azərbaycanı tərk etmiş yəhudilərdir. Lakin onlar ölkəmizi tərk etmələrinə baxmayaraq, Azərbaycanla hər zaman təmaslarını saxlayırlar və ikitərəfli münasibətlərdə müstəsna rol oynayırlar ki, bu da bizi çox fərəhləndirir. Mən şübhə etmirəm ki, bu səfərdən sonra ikitərəfli münasibətlərimiz uğurla davam və inkişaf edəcəkdir.

Dövlətimizin başçısı İsrail Prezidenti Şimon Pereslə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də ətraflı fikir mübadiləsi apardıqlarını diqqətə çatdıraraq dedi:

- Bu münaqişə regionda ən böyük hədə mənbəyidir və bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunmalıdır. Yalnız o yolla ki, Azərbaycanın ərazi bütövlüyü təmin edilsin. Bildiyiniz kimi, işğalçı qüvvələr Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılmalıdır və Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasətinin qurbanına çevrilmiş soydaşlarımız öz yurd-yuvalarına qayıtmalıdırlar.

Prezident İlham Əliyev Azərbaycan ilə İsrail arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu bildirdi və həmin potensialın reallaşdırılması üçün ölkəmizdə əlverişli biznes mühitinin yaradıldığını vurğuladı.

Dövlətimizin başçısı dedi:

- Azərbaycanda çox münbit sərmayə mühiti var və dünyanın bütün ölkələrindən olan şirkətlər ölkəmizdə rahat işləyə bilərlər.

Mən bir daha cənab Prezident, Sizi və nümayəndə heyətinizi Azərbaycanda salamlamaq istəyirəm və bu badəni Sizin şərəfinizə, İsrail ilə Azərbaycan xalqlarının şərəfinə qaldırmaq istəyirəm.

İsrail Prezidenti Şimon PERES təşəkkür edərək dedi:

- Hörmətli dostum cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Xanımlar və cənablar!

Mən sadəcə qarşınızda bildirmək istəyirəm ki, cənab Prezident burada yüksək səviyyədə olan münasibətlərimizin gözəl təsvirini verdi. Mən bundan çox məmnunam və zənnimcə hətta bundan sonra uzun-uzadı danışsam da, onun qədər gözəl danışa bilməyəcəyəm. Bu qəbula görə Sizə sözün əsl mənasında səmimi qəlbdən minnətdarlığımı bildirirəm. Siz mənə və mənim nümayəndə heyətimə bu qonaqpərvərliyi göstərdiniz. Bu, sözün əsl mənasında bizim yadımızda daim qalan bir qəbuldur və eyni zamanda mən bildirmək istəyirəm ki, atanız Azərbaycanın tarixində çox görkəmli şəxsiyyətlərdən biridir. Mən onun rolunu xüsusilə vurğulamaq istəyirəm.

Cənab Prezident, qeyd etmək istəyirəm ki, əgər Siz neftinizi mədəniyyətdən daha əvvəl tapsaydınız, aşkar etsəydiniz nə baş verərdi? Bu düzgün, yoxsa qeyri-düzgün olardı? Bilirsiniz ki, ölkənizin təbiəti sizin torpağınızda, insanlarınızın qonaqpərvərliyində öz əksini tapmışdır. Siz mənə bu gün bildirdiniz ki, öz işlərinizi davam etdirəcəksiniz. Çünki neft-neftdir, qaz-qazdır, mədəniyyət-mədəniyyətdir. Bütün bunlar xalqa lazımdır. Siz qeyd etdiniz ki, öz xalqınızın naminə yorulmadan çalışırsınız.

Ermənistanın Azərbaycan ərazisini işğal etməsi ilə bağlı ətraflı məlumata malik olduqlarını deyən İsrail Prezidenti Şimon Peres zəngin mədəni irsə malik respublikamızın dost ölkələrə daim kömək əlini uzatdığını qeyd etdi. Bu həqiqəti yəhudi xalqının yaxşı bildiyini söylədi:

- Biz çox minnətdarıq ki, Azərbaycanda, burada yəhudi icmasına xüsusi xoş münasibət bəslənilir. Biz bilirik ki, Azərbaycandan İsrailə gələn şəxslər ölkənizlə bağlı ən xoş təəssüratlarını daim bölüşürlər.

Azərbaycanda ictimai-siyasi sabitliyin hökm sürdüyünü, insanlar arasında sıx münasibətlərin yarandığını deyən İsrail Prezidenti məhz belə şəraitdə demokratiyanın da uğurla inkişaf etdiyini bildirdi. İsrailin dövlət başçısı Heydər Əliyev Fondunun və Fondun prezidenti Mehriban Əliyevanın fəaliyyətini də yüksək dəyərləndirərək dedi:

- Xanım Əliyeva, Sizin burada olmağınızdan böyük şərəf hissi duyuram. Biz Sizin işinizlə də tanış olduq. Biz Sizin Fondda olarkən gördük ki, Heydər Əliyevin təhsil haqqında şəhadətnaməsində qiymətlərinin hamısı əla olmuşdur. Biz bu məlumatları topladıq. Biz bunu öyrənməkdən çox şad olduq.

Bizi birləşdirən məsələlər çoxdur. Hesab edirik ki, bizim sizinlə münasibətlərimiz həm sizin üçün, həm bizim üçün çox faydalıdır. Eyni zamanda, hesab edirəm ki, bizim gələcək potensialımız çoxdur. Biz nəinki əməkdaşlıq yolu ilə, o cümlədən işlərimizin əlaqələndirilməsi yolu ilə daha böyük nəticələr əldə edə bilərik.

Prezident Şimon Peres ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla anaraq dedi:

- Mən Sizin atanızla görüşmüşəm və onun mənə söylədiyi məsələlərdən bir çox vacib meyarları özüm üçün qeyd etmişəm. O, Azərbaycanın gələcəyi ilə bağlı uzaqgörənliyi və müdrik mövqeyi ilə daim seçilirdi.

Güclü ordunun xalqlarımızın və ölkələrimizin milli mənafeyini qorumaq üçün lazım olduğunu vurğulayan Prezident Şimon Peres nitqini dahi Azərbaycan şairi Nizami Gəncəvinin kəlamı ilə tamamladı:

- Dahi Azərbaycan şairi Nizami Gəncəvi demişdir: "Ünsiyyəti hansı kəs arayıbdır yaxşıda, Məqamında işinə yarayıbdır yaxşı da". Bu gün məhz bu kəlam aktual hesab olunur. Hesab edirəm ki, Sizin müdrikliyinizlə bu ölkə daha da inkişaf edəcəkdir. Mən bədəmi bizə əziz olan, hamımıza əziz olan dostluğun, Azərbaycan ilə İsrail arasındakı əməkdaşlığın şərəfinə qaldırıram.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

İyunun 29-da İsrail Prezidenti Şimon Peres Fəxri xiyabana gəlmişdir.

Ali qonaq xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarı önünə əklil qoydu, xatirəsini ehtiramla andı.

İsrail dövlətinin başçısı görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə əklil qoydu.

Prezident Şimon Peresə Fəxri xiyabanın tarixi barədə məlumat verildi.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

İsrail Prezidenti Şimon Peres iyunun 29-da Şəhidlər xiyabanını ziyarət etmişdir.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Şimon Peres Azərbaycanın azadlığı və suverenliyi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsini yad etdi, "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında İsrailin və Azərbaycanın dövlət himnləri səsləndi.

Ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

Prezident Şimon Peres Azərbaycan paytaxtının mənzərəsini seyr etdi.

AZƏRBAYCAN-İSRAİL BİZNES FORUMU

İyunun 29-da Bakıda Azərbaycan-İsrail biznes forumu keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və İsrail Prezidenti Şimon Peres forumun açılışında iştirak etmişlər.

Azərbaycanın 70-ə yaxın şirkəti nümayəndələrinin və İsrailin 50-yə yaxın iş adamının qatıldığı forumda Azərbaycan Prezidenti İlham ƏLİYEV çıxış edərək Prezident Şimon Pereslə aparılan danışıqlar zamanı bir çox məsələlərin müzakirə edildiyini bildirdi.

Dövlətimizin başçısı biznes forumda İsraildən çox sayda iş adamının iştirakını müsbət hal kimi dəyərləndirdi və ölkəmizdəki sərmayə mühiti barədə məlumat verərək dedi:

- Azərbaycanda çox müsbət sərmayə mühiti var. Bizim tərəfdaşlarımız dünyanın aparıcı şirkətləridir. Bu günə qədər onlar hər hansı bir narazılıq və yaxud mübahisələrlə üzləşməyiblər. Azərbaycanda sərmayə qoyan şirkətlər ilə hökumət arasında heç bir mübahisə olmayıb. Əsas beynəlxalq müqavilələr parlament tərəfindən ratifikasiya edilir, Prezident tərəfindən Fərmanla təsdiqlənir və qanun qüvvəsini alır. Bu o deməkdir ki, həmin müqaviləni heç kim dəyişə bilməz. Bu, sərmayədarlarda əlavə etimadı artırır və eyni zamanda, Azərbaycanda çox münbit sərmayə mühiti yaradır. Məhz elə bu səbəblərə görə, ola bilsin, Azərbaycan uzun illər ərzində regionda aparıcı mövqeləri tutmuşdur. Bu öncül mövqe birbaşa xarici sərmayələrin həcminə görə mövcuddur.

Bu gün dünyada mövcud böhranın olmasına baxmayaraq, bir çox digər ölkələr və onların şirkətləri Azərbaycana sərmayə yatırmağı davam etdirirlər. Biz öz islahatlar siyasətimizi davam etdirməyə çalışırıq, "açıq qapı" siyasətini yürüdürük. Bizim sərmayədarlarla apardığımız iş çox məhsuldar bir mühitdə baş tutur və bu siyasət yaxşı nəticələr verir. Ötən il Dünya Bankı özünün "Doing Business" hesabatında Azərbaycanı islahatların aparılması sahəsində birinci yerdə tutmuşdur.

Prezident İlham Əliyev dünyada hökm sürən iqtisadi böhrana baxmayaraq, Azərbaycan iqtisadiyyatının yüksələn templə inkişaf etdiyini diqqətə çatdıraraq dedi:

- Böhrana baxmayaraq, cari ilin birinci aylarında iqtisadiyyatımız yenə də artmışdır. İlk beş ay ərzində ümumi daxili məhsulun (ÜDM) artımı 4,5 faiz, qeyri-neft sektorunda isə artım 6 faizdən çox olmuşdur. Bu, onu göstərir ki, infrastruktura yatırılan sərmayələr, insan kapitalına, təhsilə, xidmətə, qeyri-neft sektoruna qoyulan sərmayələr artıq yaxşı imkanlar açır və biz iqtisadiyyatımızı şaxələndiririk.

Birmənalı olaraq gələcəkdə bir neçə il ərzində neft sektoru iqtisadiyyatımızda əsas yer tutacaq. Bu, məhz onunla bağlıdır ki, biz enerji siyasətimizi, enerji strategiyamızı uğurla həyata keçiririk. Azərbaycan müstəqilliyini bərpa etdiyi ilk illərdə bizim neft və qaz hasilatımız öz tələbatlarımıza cavab vermirdi. Halbuki Azərbaycan neft hasilatının vətənidir. Dünyada ilk neft məhz Azərbaycanda hasil edilmişdir. Daha sonra dənizdə yerləşən yataqlardan neft birinci dəfə məhz Azərbaycanda hasil olunubdur. İkinci dünya müharibəsində Sovet İttifaqında hasil edilən neftin 70 faizi Bakıdan göndərilirdi. Bu günə qədər Azərbaycanın yataqlarından 1,5 milyard ton neft hasil edilmişdir. Lakin 1991-ci ildə müstəqilliyimizi əldə etdikdən sonra biz özümüzü çox çətin bir vəziyyətdə hiss etdik. Çünki daxili qaz hasilatı da qənaətbəxş deyildi. Həmin vaxt Azərbaycanda neft hasilatı yalnız 8 milyon ton təşkil edirdi. Bu gün isə iqtisadi islahatlar siyasətinə, "açıq qapı" siyasətinə, sərmayədarların stimullaşdırılmasına və eyni zamanda, sabit siyasi vəziyyətə görə Azərbaycan etibarlı tərəfdaş hesab edilir.

Azərbaycan Prezidenti qeyd etdi ki, bu il ölkəmizdə neft hasilatı 50 milyon ton, qaz hasilatı isə 25-27 milyard kubmetrə çatacaqdır. Bu gün Azərbaycan enerjiyə olan daxili tələbatını tam ödəyir, bununla yanaşı, Azərbaycanın təbii sərvətləri beynəlxalq bazarlara da çıxarılır. Üç-dörd il bundan əvvəl elektrik enerjisi çatışmazlığından əziyyət çəkən Azərbaycan indi bəzi qonşu ölkələrə elektrik enerjisi ixrac edir.

Dövlətimizin başçısı Xəzərin karbohidrogen ehtiyatlarının Avropanın müxtəlif ölkələrinə çatdırılması üçün tikilən nəhəng boru kəmərlərinin regionda vəziyyətə təsirindən də danışaraq dedi:

- Əgər Xəzər dənizindən Aralıq dənizinə neftin nəqli üçün boru kəməri olmasaydı, əgər digər boru kəmərləri və 4 qaz boru kəməri olmasaydı, ola bilsin ki, enerji təhlükəsizliyi məsələlərinin həlli daha da mürəkkəb olardı.

Artıq qeyd etdiyim kimi, enerji sektorunun bu gün iqtisadiyyatımızın əsas hissəsi olması bizim üçün prioritet deyil. Bizim üçün təhsil, səhiyyə, kənd təsərrüfatı vacibdir. Biz bu sahələrə çox uğurla sərmayələr yatırırıq. Mən bir neçə rəqəmi söylədim. Azərbaycanda son beş il ərzində 1300 yeni məktəb tikilmiş və yüzlərlə tibb ocağı istismara verilmişdir. Biz kənd təsərrüfatı sahəsinə sərmayələr qoymuşuq. Bu il bəlkə də birinci il olacaq ki, Azərbaycan kənd təsərrüfatı məhsullarına olan tələbatını tam, 100 faizlik əminliklə təmin edəcəkdir.

Biz turizm sahəsində işləyirik və hökumət infrastruktura böyük sərmayələr yatırır. Bu, bizə nəinki paytaxtı, o cümlədən regionları da inkişaf etdirməyə imkan yaradır. 2004-cü ildə icrasına başladığımız regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı 100 faiz həyata keçirilmişdir. Bu proqramın həyata keçirilməsi nəticəsində Azərbaycanda təxminən 800 min iş yeri açılmışdır. Yoxsulluq səviyyəsi 2003-cü ildə 49 faiz idisə, ötən ilin sonunda 13 faizə düşmüşdür.

Prezident İlham Əliyev qeyd etdi ki, son beş il ərzində ölkədə ümumi daxili məhsulun həcmi 2,3 dəfə, sənaye məhsulu 2,5 dəfə, büdcə xərcləri 12 dəfə artmışdır.

Dövlətimizin başçısı bütün bunlara Azərbaycan xalqının öz gücü sayəsində nail olduğunu dedi:

- Bəzi qonşularımızdan fərqli olaraq böyük xarici yardıma möhtac deyilik, yəni kənar mənbələrdən vəsait almırıq. Bütün bunlar - əldə etdiyimiz nailiyyətlər məhz bizim öz fəaliyyətimiz və gərgin işimiz sayəsində mümkün olmuşdur.

Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi imkanları çox genişdir. Mən öz prioritetlərimizi təşkil edən bir neçə sahəni qeyd etdim. Qeyd etdim ki, biz, eyni zamanda, Azərbaycanda çox sahədə infrastruktur layihələri həyata keçiririk. Yolların çəkilməsi, suvarma, su təchizatı və digər layihələri həyata keçiririk. Biz İsraildən olan şirkətləri burada işləməyə, daha fəal şəkildə işləməyə dəvət edirik. Təbii ki, biz onları sərmayədar kimi görmək istəyirik və eyni zamanda, onlar podratçı kimi də işləyə bilərlər. Çünki Azərbaycanda bunun üçün çox yaxşı imkanlar var. Xüsusən də İsrail Prezidentinin ölkəmizə uğurlu səfəri çərçivəsində dünən bizim səmərəli danışıqlarımız olmuşdur. Hesab edirəm ki, bu danışıqların davam etdirilməsi səfərin birinci günü kimi ikinci günündə də uğurlu olacaqdır. Əminəm ki, ölkələrimizin işgüzar dairələri bizim ikitərəfli münasibətlərimizin gücləndirilməsinə töhfə verəcəklər.

Çox sağ olun.

İsrail Prezidenti Şimon PERES forumda çıxış edərək dedi:

- Şərhinizə, dostluğa və iqtisadi əlaqələrimizin gələcəyinə dair nikbin baxışlarınıza görə Sizə təşəkkür edirəm. Hesab edirəm ki, həm İsrail, həm də Azərbaycan gələcəyə baxan və sabahı düşünən ölkələrdir.

Şimon Peres dünyada hökm sürən iqtisadi böhran və onun səbəbləri barədə fikirlərini bölüşdü, bəşəriyyəti narahat edən problemlərdən danışdı. Onların sırasında enerji və su

məsələlərini önə çəkərək dedi:

- Hesab edirəm ki, su təchizatı növbəti 10 il ərzində ən iri sənayeyə çevriləcək. Hesablamalara görə bu, ildə 400 milyard dollara bərabər ola bilər. Eyni məsələ enerji sahəsinə də aiddir. Əhalinin sayı artır, enerji isə siyasi və iqtisadi sahələrdəki dəyişikliklər fonunda çox incə bir məsələdir. Bu səbəbdən də neft və qazla bərabər, insanlar günəş, külək və su enerjisi kimi alternativ enerji mənbələri axtarışındadırlar.

İsrail Prezidenti qeyd etdi ki, nanotexnologiyaların tətbiqi günəş enerjisindən istifadəni genişləndirəcəkdir. Bu da bəşəriyyətin qarşılaşdığı enerji probleminin həllinə və ondan qənaətlə istifadə olunmasına imkan yaradacaqdır.

Şimon Peres ölkəsində səhiyyə, təhsil və digər sahələrdəki vəziyyət barədə məlumat verərək dedi:

- Bu qənaətdəyəm ki, müəllim çatışmazlığı təhsildə mühüm problemlərdən birinə çevriləcəkdir. Son məlumatlara görə müəllim çatışmazlığı problemi var. Bir çox hallarda uşaqlar öz müəllimlərindən daha çox məlumatlıdırlar. Məhz buna görə də biz tədris sistemini yeni avadanlıqla, yeni elektron cihazlarla, yeni vasitələrlə, yeni filmlərlə təkmilləşdirməliyik. Bir daha qeyd edirəm ki, təhsil yeni və mühüm sahəyə çevriləcəkdir.

İsrail Prezidenti müstəqilliyin qorunması üçün müdafiə sahəsinə daim diqqət yetirilməsini əsas şərtlərdən biri kimi səciyyələndirdi. O, ölkəsinin inkişafından danışaraq, heç bir təbii sərvətə malik olmayan İsraildə elmi tədqiqatlara xüsusi diqqət yetirildiyini söylədi. Bundan başqa, kənd təsərrüfatının inkişafında əldə olunan nailiyyətlərdən danışaraq dedi:

- Bilirsiniz ki, Roma Papası İsrailə səfər edəndə ona ölkənin kənd təsərrüfatı məhsulunun yeni bir nümunəsi təqdim olunmuşdu. Onu mən zənginləşdirilmiş taxıl adlandırardım. Bu məhsul adi bir sünbüllü yox, dörd sünbüllü taxıl bitkisidir.

Daha sonra Şimon Peres bugünkü biznes forumun keçirilməsini yaxşı təşəbbüs kimi qiymətləndirərək dedi:

- Bildiyiniz kimi, bizim 50 nüfuzlu iş adamı biznes forumda iştirak edir. Onlar nazirlərimizin dəstəyi və məsləhəti ilə bu məsələnin təşəbbüskarlarıdır. Hesab edirəm ki, hökumət və özəl sektor əl-ələ verib çalışacaqdır.

İsrail Prezidenti daha sonra Azərbaycanın tarixi, mədəniyyəti və adət-ənənələri barədə də fikirlərini bölüşdü:

- Biz Sizin modernləşdirmə istiqamətindəki səylərinizi qiymətləndiririk. Bizim sizin keçmişinizə böyük hörmətimiz var. Azərbaycan hələ İsveçrə və ABŞ-dan öncə qadınların səsvermə hüququnu təmin etmişdir, azadlığa məhəbbət sizin adət-ənənələrinizdə, şeirlərinizdə, musiqinizdə əks olunur. Düşünürəm ki, işgüzar adamlar bir araya gələndə məhz iş barədə danışmalıdırlar. Amma bir az da duyğulardan danışmaq lazımdır. Çünki dostluq, etimad, qarşılıqlı anlaşma olmadan biznesdən söhbət belə gedə bilməz.

Prezident Şimon Peres bu görüşün iki ölkənin iş adamları arasında əlaqələrin daha da möhkəmlənəcəyinə təkan verəcəyini söylədi və Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi.

İSRAİL PREZİDENTİ ŞİMON PERES AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİNDƏ OLMUŞDUR

İsrail Prezidenti Şimon Peres Azərbaycana rəsmi səfəri çərçivəsində iyunun 29-da Azərbaycan Dillər Universitetində müəllim və tələbə heyəti ilə görüşmüşdür.

Ali qonağı təhsil ocağında salamlayan universitetin rektoru Səməd Seyidov burada tələbələrə İsrail tarixinin, mədəniyyətinin və dilinin öyrədildiyini dedi.

Azərbaycan Dillər Universitetində İsrail Mədəniyyət Mərkəzinin fəaliyyət göstərdiyini diqqətə çatdıran rektor bildirdi ki, xalqlar arasında dost münasibətlər bir çox məsələlərin həllinə yardım edir.

Səməd Seyidov Prezident Şimon Peresin Azərbaycana səfərinin iki ölkə arasında münasibətlərin daha da möhkəmləndirilməsinə əsaslı töhfə olacağını dedi. Səfər, həmçinin Azərbaycan və İsrail təhsil ocaqları arasında əməkdaşlığın genişlənməsinə də mühüm töhfədir.

Sonra İsrail Prezidenti Şimon Peres tələbələri maraqlandıran sualları cavablandırdı.

Sualların əksəriyyətinin qonağın doğma ivrit dilində verilməsi İsrail Prezidentində xoş təəssürat yaratdı.

Enerji sahəsinə aid sualın cavabında ali qonaq Azərbaycanın zəngin təbii ehtiyatlara malik olduğunu və bəzi ölkələrdən fərqli olaraq bunun məsuliyyətini dərk etdiyini bildirdi. O, alternativ enerji mənbələrinin axtarışını da vacib hesab etdiyini diqqətə çatdırdı.

Dünyada mövcud münaqişələrlə bağlı sualı cavablandıran Şimon Peres əminliklə bildirdi ki, bütün problemlər danışıqlar masası arxasında həll oluna bilər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Şimon Peres məsələ ilə bağlı ölkəsinin mövqeyini bir daha açıqladı:

- İsrailin mövqeyi çox aydındır. Biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik. Bir dövlətin digərinin ərazisini işğal etməyə haqqı yoxdur. Biz Azərbaycan Prezidentinin torpaqları sülh yolu qaytarmaq siyasətini dəstəkləyirik.

Tələbələrə müraciət edən Şimon Peres bir daha elmə, təhsilə yiyələnməyin vacibliyini vurğuladı, dedi ki, ölkənin inkişafı bu amilin sayəsində mümkündür.

Ölkəsi barədə məlumat verən ali qonaq İsraildə bir çox nailiyyətlərin məhz elmin inkişafı nəticəsində mümkün olduğunu bildirdi.

Çıxışının sonunda Ş.Peres dedi ki, Azərbaycan gələcəyi olan ölkədir. Çünki bu ölkənin ilk növbədə zəngin mədəniyyəti vardır.

İsrail dövlətinin başçısına universitetdən xatirə hədiyyəsi olaraq ivrit dilini öyrənən tələbələrin və İsrail Mədəniyyət Mərkəzinin fəaliyyətini əks etdirən fotoalbom hədiyyə edildi.

İSRAİL PREZİDENTİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATDI

İyunun 29-da İsrail Prezidenti Şimon Peresin Azərbaycana rəsmi səfəri başa çatmışdır.

Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İsrail dövlətinin başçısını Azərbaycanın Baş nazirinin müavini Elçin Əfəndiyev və digər rəsmi şəxslər yola saldılar.

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev iyunun 29-da Azərbaycana işgüzar səfərə gəlmişdir.

Rusiyanın və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rusiya Prezidentini Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT DMİTRİ MEDVEDEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

İyunun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin təkbətək görüşü olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Dmitri Medvedevi qarşıladı.

Görüşdə Azərbaycan ilə Rusiya arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Bu əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə əminlik ifadə olundu.

Həmçinin görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

İyunun 29-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlamağa şadam. Xoş gəlmisiniz. Biz Sizin gəlişinizi gözləyirdik və bu səfər qısamüddətli olsa da, ümid edirik ki, kifayət qədər səmərəli olacaqdır. Son bir ildə biz bir neçə dəfə görüşmüşük və bu, bizim münasibətlərimizin dinamik xarakte-

rini göstərir. Bu gün biz xatırladıq ki, düz bir il əvvəl Siz Azərbaycanda rəsmi səfərdə olmusunuz və həmin səfər çərçivəsində imzalanmış dostluq və strateji əməkdaşlıq haqqında Bəyannamə uğurla yerinə yetirilir.

Biz çox şadıq ki, bir il sonra Sizi yenidən Bakıda görmək, ikitərəfli münasibətlərin mühüm məsələlərini, regional problemləri, - adətən olduğu kimi, - dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət ruhunda müzakirə etmək imkanı var. Biz Sizin gəlişinizə həmişə şadıq.

Bir daha xoş gəlmisiniz.

Rusiya Prezidenti Dmitri MEDVEDEV təşəkkürünü bildirərək dedi:

- Çox sağ olun, İlham Heydər oğlu. Bu gün Azərbaycana gəlmək mənə də çox xoşdur. Bizim iş cədvəllərimiz çox gərgindir. Lap yaxın vaxtlarda Sizinlə Peterburqda görüşmüşdük, ondan əvvəl də Siz Rusiyaya səfər etmişdiniz. Mənim indiki səfərim işgüzar səfərdir, Sizin düzgün olaraq qeyd etdiyiniz kimi, nisbətən qısamüddətli, lakin məzmunlu səfərdir, çünki biz görüşün gündəliyini hərtərəfli hazırlamışıq. Bir sıra sənədlər üzərində iş aparılmışdır, onlar bu gün imzalanacaqdır. Əlbəttə, bu, ölkələrimiz, xalqlarımız arasında münasibətlərin - xalqlarımızı bir-birinə bağlayan ənənəvi dostluq, mehriban qonşuluq münasibətlərinin strateji xarakterini əks etdirir və biz həmin münasibətlərin daha da inkişaf etməsi üçün lazım olan hər şeyi etməyə hazırıq.

Ümidvaram ki, bugünkü görüşün nəticəsində biz əməkdaşlığın yeni formatlarını müəyyən edəcək, iqtisadiyyat haqqında da söhbət edəcəyik, çünki bu da çox vacibdir. Əlbəttə, biz siyasət haqqında da, o cümlədən xarici siyasət məsələləri barədə də söhbət edəcəyik.

AZƏRBAYCAN-RUSİYA SƏNƏDLƏRİNİN İMZALANMASI

İyunun 29-da Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Rusiya sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Dmitri Medvedev Xəzər dənizi üzrə birgə Bəyannaməni və dövlət sərhədlərinin delimitasiyasının başa çatdırılmasının əsas prinsipləri və Samur çayının su resurslarının Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında bölüşdürülməsi barədə birgə Bəyannaməni imzaladılar.

Azərbaycan təbii qazının alış-satışı üzrə müqavilənin əsas şərtlərini Azərbaycan tərəfdən Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və Rusiya tərəfdən "Qazprom" Açıq Səhmdar Cəmiyyəti idarə heyətinin prezidenti Aleksandr Miller imzaladılar.

Azərbaycan Respublikası və Rusiya Federasiyasının Kabardin-Balkar Respublikası hökumətləri arasında ticarət-iqtisadi, elmi-texniki, mədəni əməkdaşlıq haqqında razılaşmanı Azərbaycan tərəfdən Baş nazirin birinci müavini Yaqub Eyyubov, Rusiya tərəfdən isə Kabardin-Balkar Respublikasının prezidenti Arsen Konokov imzaladılar.

Azərbaycan Respublikası və Rusiya Federasiyası hökumətləri arasında Azərbaycan

Respublikasının Rusiya Federasiyasında və Rusiya Federasiyasının Azərbaycan Respublikasında diplomatik nümayəndəliklərinin yerləşdirilməsi və xidmət göstərilməsi üzrə şərtlər haqqında sazişin hazırlanması barədə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında birgə Bəyannaməni Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov və Rusiya tərəfdən xarici işlər naziri Sergey Lavrov imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN BİRGƏ MƏTBUAT KONFRANSI

İyunun 29-da Azərbaycan-Rusiya sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin birgə mətbuat konfransı olmuşdur.

Dövlət başçıları bəyanatla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən Rusiya Prezidentini ölkəmizdə yenidən salamlamağa şadam. Ölkələrimiz arasında çox yüksək səviyyədə qarşılıqlı siyasi fəaliyyət, çox sıx əlaqələr mövcuddur. Münasibətlər yüksək dərəcədə dinamikliyi ilə xarakterizə edilir. Prezidentlər səviyyəsində müntəzəm görüşlər keçirilir ki, bu da münasibətlərimizin xarakterini əks etdirir və ölkələrimizi daha da yaxınlaşdırır.

Biz hamımız Prezident Medvedevin düz bir il əvvəl Azərbaycana rəsmi səfərini çox yaxşı xatırlayırıq. Yüksək qiymətləndiririk ki, bu, Prezident kimi Dmitri Anatolyeviçin ilk rəsmi səfərlərindən biri idi və həmin səfər çərçivəsində imzalanmış sənədlər bu gün yerinə yetirilir. Dostluq və strateji əməkdaşlıq haqqında müqavilə uğurla yerinə yetirilir və bu gün imzalanmış sənədlər son bir il müddətində əldə etdiklərimizin məntiqi davamıdır.

Bizim aramızda bir neçə görüş olmuşdur və onların hər biri çox mühüm idi. Biz həm bu gün və həm də gələcəkdə münasibətlərimizin xarakterini və regional prosesləri xeyli dərəcədə müəyyənləşdirən qərarlar qəbul etmişik.

İqtisadi planda müxtəlif layihələr də uğurla həyata keçirilir. Dünyada baş vermiş maliyyə böhranı ilə əlaqədar əmtəə dövriyyəsinin bir qədər azalmasına baxmayaraq, bunun dinamikliyi, strukturu deməyə imkan verir ki, bu müvəqqəti hal tezliklə aradan qaldırılacaqdır. Həm də, bu gün imzalanmış sənədləri nəzərə almaqla inanıram ki, növbəti ildə biz əmtəə dövriyyəsinin kəskin surətdə artacağını görəcəyik.

Biz humanitar sahədə əməkdaşlığın inkişaf etməsindən çox məmnunuq. Bu sahə ölkələrimiz üçün çox mühüm əhəmiyyətə malikdir. Biz öz tərəfimizdən hər şeyi etməyə çalışırıq ki, bu sahədə əməkdaşlıq ölkələrimiz arasında həm siyasi və həm də iqtisadi münasibətlərə həmişə uyğun gəlsin. Şadam ki, bu baş verir.

Bu gün biz qaz sahəsində səmərəli əməkdaşlıq üçün yaxşı zəmin yaratdıq. Bu gün

"Qazprom" və ARDNŞ arasında münasibətlərimizdə yeni səhifə açan müqavilə imzalamışıq. Hesab edirəm ki, bu əməkdaşlıq çox uğurlu, qarşılıqlı faydalı olacaq, Rusiya və Azərbaycanın maraqlarını tam təmin edəcəkdir. Təməli qoyulan bu işlərin, bu təşəbbüslərin uğurla həyata keçirilməsi, təbii ki, ölkələrimiz arasında energetika sahəsində genişmiqyaslı əməkdaşlıqdan çox asılı olacaqdır. Bu, neft, qaz və həm də elektroenergetikadır və bütün bu istiqamətlərdə yaxşı nəticələr vardır.

Bu gün imzalanmış müqavilə energetika üzrə münasibətlərimizin yeni istiqamətidir. Qaz amilinin regionda və dünyada vacibliyini nəzərə alaraq, hesab edirəm ki, imzalanmış müqavilənin mühümlüyü xüsusi şərh tələb etmir.

Bu gün ölkələrimiz arasında sərhədin yekun delimitasiyası işində də mühüm addım atdıq. Bundan sonra bu istiqamətdə irəliləyəcəyimiz və müqavilələrin imzalanmasına imkan verən prinsiplər razılaşdırılmışdır. Ümumiyyətlə mən münasibətlərimizin inkişafından çox razıyam.

Rusiya və Azərbaycan arasında münasibətlər barədə çox danışmaq olar. Bu gün geniş formatın yalnız bir hissəsi müzakirə edildi və biz mühüm razılaşmaya nail olduq.

Təbii, bu gün biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələlərini müzakirə etdik. Biz Rusiyaya və şəxsən onun Prezidentinə münaqişənin nizama salınması prosesində fəal iştiraka görə çox minnətdarıq. Bu ayın əvvəllərində Peterburqda Rusiya Prezidentinin iştirakı ilə Ermənistan və Azərbaycan prezidentləri arasında keçirilmiş görüş əminəm ki, danışıqların davam etdirilməsi üçün yaxşı mühit yaratmışdır. Biz vasitəçi kimi, Azərbaycanın qonşusu kimi bu mürəkkəb məsələnin nizama salınmasında Rusiyanın gələcəkdə də fəal iştirakına ümid bəsləyirik.

Bir daha bu gün keçirilmiş görüşlər və imzalanmış sənədlərə, həm də bütövlükdə ölkələrimiz arasında münasibətlərə görə məmnunluğumu ifadə etmək istəyirəm.

Əminəm ki, gələcəkdə onlar uğurla inkişaf edəcəkdir.

Sağ olun.

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN BƏYANATI

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri.

Həqiqətən Azərbaycan Prezidenti ilə bizim çox yaxşı və səmərəli danışıqlarımız oldu. Demək istərdim ki, doğrudan da görüşlərimizin tez-tez baş tutması və dinamikliyi, bu danışıqları fərqləndirən şərait, mühit bizi çox sevindirir. Ona görə ki, bu, məlum dərəcədə danışıqları necə aparmağın, ən müxtəlif iqtisadi, siyasi məsələlər üzrə razılığa necə gəlməyin nümunəsidir.

Biz həqiqətən tez-tez görüşürük. Bu, Rusiya və Azərbaycanı birləşdirən strateji münasibətlərin xalqlarımızın rifahı naminə möhkəmlənəcəyinə, davamlı və çox qarşılıqlı faydalı surətdə inkişafına təminatdır. Bu gün burada, belə gözəl yerdə biz ən müxtəlif məsələlər üzrə danışıqlar apardıq. Lakin, əlbəttə, buna qədər bizim nümayəndə heyətləri də işləmişlər. Buna görə də biz sadəcə daxili və xarici mövzuları müzakirə etmək üçün

deyil, sənədlər üzərində işi yekunlaşdırmaq üçün görüşmüşük. Elə indicə mənim həmkarım - Azərbaycan Prezidenti də həmin sənədlərin adını çəkdi. Əlbəttə mən də qaz üzrə müqaviləni qeyd etmək istərdim. Çünki bu, qaz sahəsində əməkdaşlığa başlamağın mərhələ anıdır. Ölkələrimiz enerji daşıyıcılarının ən iri təchizatçılarıdır. Biz neft sahəsində işləmişik və işləməkdə davam edirik, lakin qaz sahəsində əməkdaşlığın inkişafını birbaşa indi açırıq. Deməli bu, hələlik başlanğıcdır. Lakin mənə elə gəlir ki, həmin istiqamətdə əlaqələri daha da təkmilləşdirmək, qaz sahəsində qarşılıqlı faydalı əməkdaşlıqla məşğul olmaq üçün yaxşı başlanğıcdır. Mən hesab edirəm ki, biz yaranan böyük imkanları və get-gedə artması ehtimal olunan böyük həcmləri nəzərə almaqla, bu işi bundan sonra da davam etdirə bilərik. Hər halda, bu gün imzaladığımız sənəd yaxşı başlanğıcdır.

Əməkdaşlığın digər istiqamətlərinə gəldikdə isə, həqiqətən son illər az iş görülməmişdir. Ötən il yeni strateji sənəd - dostluq və strateji əməkdaşlıq haqqında Bəyannamə imzaladıq. Bu sənəd indi icra olunur və bu gün imzaladığımız müqavilə həmin baza sənədinin konkretləşdirilməsidir.

Ayrıca onu da qeyd etmək istərdim ki, biz İlham Heydər oğlu ilə müntəzəm görüşürük və əgər hər hansı yeni təklif yaranırsa, onlar təcili və olduqca konstruktiv şəkildə nəzərdən keçirilir. Buna görə də mən dedim ki, bu, xarici siyasi işlərin aparılması baxımından nümunəvi xarakter daşıyır. Bu gün imzaladığımız bütün sənədlər, - bu, Xəzər dənizi üzrə birgə Bəyannamədir, - biz elə indi bu dənizin sahilindəyik və belə bir yerdə həmin sənədləri necə imzalamamaq olar. Bu, Xəzər tematikası üzrə birgə işimizin növbəti mərhələsidir; bu həmçinin diplomatik məsələdir, bizim çoxdan müzakirə etdiyimiz və yekunlaşdırılması lazım gələn və bu gün həllinə nöqtə qoyulmuş daşınmaz əmlak məsələsidir; bu, sərhədin yekun delimitasiyası məsələsi üzrə gələcək irəliləyişə dair memorandumdur – burada da iş görülmüş, kompromislər tapılmış və biz, əlbəttə həmin prosesi yaxın vaxtlarda başa çatdırmaq üçün bu işi davam etdirəcəyik. Bu gün gördüyümüz bütün işlər münasibətlərimizin çoxcəhətli - iqtisadi və humanitar sahələr üzrə mənzərəsini əks etdirir.

Son illər iqtisadiyyat, həqiqətən heç də pis inkişaf etməmişdir. Ötən il əmtəə dövriyyəsi 2 milyard 400 milyon dollar səviyyəsinə qalxmışdır. Bu il, əlbəttə əmtəə dövriyyəsində azalma müşahidə edilir. Lakin qeyd etmək istəyirəm ki, bu, bizim münasibətlərimizə, Rusiya və Azərbaycan arasında münasibətlərə aid edildikdə faciəvi azalma deyildir. Təəssüf ki, bəzi hallarda sürətli enmə baş verir, bizdə isə bu belə deyildir. Biz əldə olunan səviyyəni saxlamaq istərdik. Bu gün imzalanan sənədləri nəzərə almaqla İlham Heydər oğlunun dedikləri ilə tam həmrəyəm, hər şeydən əvvəl burada hətta itirilmiş əmtəə dövriyyələrini bərpa etmək imkanı vardır.

Ölkələrimiz və xalqlarımız arasında münasibətlərin dostluq xarakterini nəzərə alaraq deməliyəm ki, humanitar istiqamət ənənəvi olaraq çox vacibdir. Humanitar sahəyə başqa yerdə olmadığı qədər göstərdiyi diqqətə görə, Azərbaycan Prezidentinə məxsusi minnətdarlığımı bildirmək istərdim. Rusiya ali məktəblərinin filiallarının açılmasına dair qəbul edilən qərarlar, əlbəttə qarşılıqlı faydalı xarakterə malikdir. Biz çox şadıq ki, burada əməkdaşlıq sürətlə və güman etdiyimiz tərzdə çox səmərəli davam edir. Yaxın vaxtlarda müxtəlif tədbirlər olacaqdır. Praktik olaraq bu gün Rusiyada Azərbaycan günləri başlayır və bir sıra humanitar tədbirlər olacaqdır. Beləliklə, humanitar istiqamətdə

bizdə hər şey qaydasındandır və istərdik ki, inkişaf edən iqtisadi və xarici siyasət istiqamətlərindəki əlaqələrimiz kimi, onlar da uğurla və səmərəli inkişaf etsin.

Biz, əlbəttə Dağlıq Qarabağ probleminin nizama salınması məsələsinə toxunmaya bilməzdik. Biz Peterburqda görülən işlər barədə danışdıq. Mənim üçün eşitmək xoşdur ki, Azərbaycan Prezidenti həmin məsləhətləşmələr mərhələsini kifayət qədər səmərəli qiymətləndirir. Rusiya bu prosesdə bundan sonra da kömək etməyə, həmin prosesin davam etməsinə və təbii ki, problemin yekun həllinə doğru irəliləməsi üçün bütün imkanları və vasitəçilik xidmətlərini göstərməyə hazırdır.

Buna görə də demək istərdim ki, bu gün əldə etdiyimiz nəticələrdən məmnunuq və Azərbaycan Prezidentinə məni və bizim nümayəndə heyətini Azərbaycana işgüzar səfərə dəvət etdiyinə görə təşəkkürümü bildirirəm.

Sağ olun, İlham Heydər oğlu.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL: (Mixail Petrov, İTAR-TASS). Mənim sualım hər iki Prezidentədir. Elə indicə özünüzün bəyanatlarınızda Siz qaz müqaviləsini xatırlatdınız. İstərdim ki, bunu bir qədər geniş şərh edəsiniz. Sizin fikrinizcə, bu nədir? İki ölkə arasında əməkdaşlığın inkişafı istiqamətində növbəti addım, yeni tərəqqinin sübutudur və ya dünyada müasir meyillərə, müasir böhranlara cavab reaksiyasıdır?

İLHAM ƏLİYEV: Hesab edirəm ki, ilk növbədə həmin müqavilə burada, bu sarayda apardığımız və əldə etdiyimiz razılaşmalardan irəli gəlir. Bir il əvvəl Dmitri Anatolyeviçin rəsmi səfəri zamanı bu mövzu müzakirə edilmişdi. Bundan əvvəl "Qazprom"un prezidenti cənab Miller ölkəmizə səfər etmişdi. Beləliklə, minimum bir il müddətində şirkətlərimiz arasında həmin mövzu ilə bağlı danışıqlar aparılmış, prinsiplər, kommersiya parametrləri razılaşdırılmışdır. Danışıqlar konstruktiv, xoş məram ruhunda aparılmış və tərəflər razılığa gəlmişlər, bu da təbii olaraq, bizdə müsbət hisslər yaradır. Ona görə ki, bu gün qeyd edildiyi kimi, Azərbaycan qazının Rusiyaya ixrac olunması münasibətlərimizin yeni sahəsidir.

Azərbaycan bu yaxınlarda qaz ixrac edən ölkəyə çevrilmişdir. Bu gün Azərbaycan qazı artıq dünyanın dörd ölkəsinə nəql edilir və gələn ildən başlayaraq, həm də Rusiyaya ixrac olunacaqdır. Ölkəmizin qaz potensialı kifayət qədərdir və mən deyə bilərəm ki, bu il qaz hasilatının səviyyəsi təqribən 27 milyard kubmetr olacaqdır. Növbəti ildə isə biz 30 milyard kubmetrdən çox qaz çıxarmağı planlaşdırırıq. Bizim üçün Rusiya ilə qaz sahəsində əməkdaşlıq həm də yeni bazara çıxmaq, qaz təchizatının şaxələndirilməsini təmin etmək imkanıdır. Hərdən "şaxələndirmə" sözü eşidiləndə, əsasən istehlakçılar üçün şaxələndirmə nəzərdə tutulur. Lakin Rusiya kimi və artıq Azərbaycan kimi istehsalçılar üçün nəqletmənin şaxələndirilməsi, istehsalçılar üçün təchizat mənbələrinin şaxələndirilməsi kimi vacibdir. Bu müqavilə maraqlarımıza bütünlüklə cavab verir və deyə bilərdim ki, Rusiyanın da maraqlarına cavab verir. Həmin müqavilə yaxşı perspektivlərə malikdir. Gələcəkdə Azərbaycanda qaz hasilatı artdıqca, nəql olunacaq qaz həcmlərini də artırmağı planlaşdırırıq.

Bu müqavilə kommersiya xarakterinə malikdir və ona görə çox vacibdir ki, təəssüf, son vaxtlar qaz münasibətləri mövzusu süni surətdə və tamamilə əsaslandırılmamış şəkildə siyasiləşdirilir. Bu müqavilə ilə Rusiya və Azərbaycan qaz sahəsində siyasiləşdirilməyən, hər iki dövlətin marağına xidmət edən, azad rəqabət və bazar iqtisadiyyatı ruhuna cavab verən münasibətlər mədəniyyətini nümayiş etdirir. Belə olan halda heç bir məsələ meydana çıxmaz.

Gizlətmirəm ki, bu müqavilənin əldə olunması üçün potensial nəqledənlərlə çoxlu məsləhətləşmələr və danışıqlar aparmaq lazım olmamışdır. Rusiya və Azərbaycan arasında heç bir nəqledən yoxdur. Bizə, habelə qaz kəmərləri çəkmək üçün vəsait axtarmaq lazım deyildir. Qaz kəməri vardır və o, işlək vəziyyətdədir. Bizə isə yalnız texniki və kommersiya parametrləri üzrə və bir il əvvəl imzalanmış dövlətlərimizin milli maraqlarını təmin edən dostluq və strateji əməkdaşlıq haqqında Bəyannamənin ruhuna uyğun müqavilə lazım idi. Mən sizin sualınızı belə şərh edərdim.

DMİTRİ MEDVEDEV: İlham Heydər oğlunun söylədiklərinə, demək olar heç nə əlavə edə bilməyəcəyəm. Çünki Azərbaycan Prezidentinin imzalanmış həmin müqavilələrin məzmunu, əməkdaşlığımızı inkişaf etdirən həmin sazişlərin istiqaməti və mahiyyətinə dair söylədiklərinin altından qol çəkməyə hazıram. Yeganə olaraq nəyi demək istərdim: Rusiyanın əslində təbii qazı az deyil və biz həqiqətən müxtəlif bazarlarda işləyirik. Lakin məhz belə sazişlər bizə gələcəyə baxmağa imkan verir. Niyə? Ona görə ki, enerji daşıyıcılarını özlərinin baza milli sərvəti kimi nəzərdən keçirən iki ölkə nəinki sivil şəkildə razılığa gəlir, həmçinin perspektivi bunda görür. Həm də bu, siyasi motivlərə görə deyil, bayaq düzgün deyildiyi kimi, qarşılıqlı faydadan irəli gələrək edilir. Bizim əməkdaşlığımıza heç kimin manc ola bilməyəcəyi şəraitdə edilir və yalnız əlavə imkanlar yaradır. Mənim fikrimcə bu, hamımızın belə intensiv şəkildə can atdığımız, haqqında çox danışdığımız və onunla bağlı xüsusi enerji layihəsi, yəni yaxın gələcəkdə energetika sahəsində necə işləyəcəyimiz barədə razılaşma qəbul olunmasını təklif etdiyimiz enerji təhlükəsizliyinin özünə dair nümunədir. Buna görə də hesab edirəm ki, bu cür, yenidən bu termini işlədirəm, nümunəvi münasibətlər digər energetika münasibətlərinin, bu sahədə digər münasibətlərin istiqamətləndiyi indikator rolunu oynaya bilər.

Hesab edirəm ki, imzalanmış müqavilənin yaxşı gələcəyi vardır. Bu, yalnız başlanğıcdır. Ümid edirik ki, bu əməkdaşlıq gözlədiyimiz bəhrəni verəcəkdir, bunun üçün bütün şərait vardır. O zaman əməkdaşlığın miqyası genişlənəcəkdir. Biz bu sahədə hansısa digər birgə layihələr barədə düşünə bilərik. Ən əsası nədənsə başlamaqdır. Bu gün elə həmin əməkdaşlığın başlanğıcıdır. Bu gün Rusiya-Azərbaycan qaz münasibətləri üçün mühüm gündür. Ümid edirəm ki, biz hamımız bu günü yadda saxlayacağıq.

SUAL: (Səbinə Məmmədova, AzTV). Mənim sualım hər iki Prezidentədir. Moskva Bəyannaməsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq və beynəlxalq təşkilatların qərarları əsasında nizama salınması barədə dəqiq deyilmişdir. Bu müddəa beynəlxalq birliyin prinsipial mövqeyinə uyğundur. Həmin müddəanın gələcək həyatı təcəssümünü necə görürsünüz?

İLHAM ƏLİYEV: Bəli, siz haqlısınız. Moskvada imzalanmış Bəyannamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hansı prinsiplər üzrə nizama salınması dəqiq göstərilmişdir: beynəlxalq hüquq prinsipləri hamıya məlumdur, indiki halda bey-

nəlxalq təşkilatların qərarlarını, təbii ki, ən nüfuzlu beynəlxalq təşkilatın - Birləşmiş Millətlər Təşkilatının qərarını əsas götürürük. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərindən qeyd-şərtsiz surətdə çıxmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Digər beynəlxalq təşkilatlar, o cümlədən ATƏT də müvafiq qərarlar qəbul etmişdir. ATƏT-in Lissabon sammitinin qərarı da indiyədək qüvvədədir. Təbii ki, həmin münaqişə bu prinsiplər əsasında nizama salınmalıdır. Ərazi bütövlüyü prinsipi pozulmazdır. Xalqların öz müqəddəratını təyin etməsinə gəldikdə isə o, vahid Azərbaycan dövlətinin ərazi bütövlüyü çərçivəsində uğurla reallaşdırıla bilər.

Bu gün danışıqlar prosesi mən deyərdim ki, yekun mərhələsinə daxil olur. Bu gün biz Dmitri Anatolyeviçlə birlikdə qeyd etdik ki, bu ay Sankt-Peterburqda keçirilmiş danışıqların növbəti mərhələsi kifayət qədər səmərəli olmuşdur. Biz irəliyə doğru daha bir neçə addım ata bilmişik. Əlbəttə, Azərbaycanda, yəqin ki, Ermənistanda və dünyada münaqişənin mümkün qədər tez nizama salınmasına dair böyük ümidlər vardır. Lakin biz irəliyə doğru hərəkət edirik. Bu, nikbinlik tələb edir, danışıqlar prosesini möhkəmlədir. Baxmayaraq ki, atəşkəs barədə qərarın qəbul edildiyi 1994-cü ildən bəri münaqişə nizama salınmamışdır, bir neçə il əvvəllə müqayisədə bu gün münaqişənin nizama salınmasına ümidlər daha çoxdur. Buna görə də hesab edirəm ki, münaqişəni bütün tərəflərin konstruktiv əməkdaşlığı, anlaşma üstünlükləri və maraqları ruhunda nizamlaya biləcəyik. Biz bunu istəyirik, buna can atırıq və öz tərəfimizdən buna nail olmaq üçün hər şeyi edirik.

DMİTRİ MEDVEDEV: Mən, əlbəttə tamamilə razılaşmaq istəyirəm ki, bu cür problemlər yalnız möhkəm beynəlxalq hüquqi baza əsasında nizama salına bilər. Həmin baza məlumdur. O, elə indicə İlham Heydər oğlu tərəfindən ifadə olunmuşdur. Həqiqətən, söhbət, bir vaxtlar sivil adlandırılan xalqlar tərəfindən işlənib hazırlanmış beynəlxalq hüququn ümumi prinsiplərindən gedir. Söhbət təbii ki, əsas beynəlxalq təşkilatların və ilk növbədə Birləşmiş Millətlər Təşkilatının Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair qərarlarından və qətnamələrindən gedir. Mənim fikrimcə, ən başlıcası heç də o deyil ki, bu prinsiplər mövcuddur – onları heç kim inkar etmir, başlıcası odur ki, tərəflər bütün məsələləri məhz bu ruhda nəzərdən keçirməyə hazır olmalı və münaqişəni hansısa başqa şeylər düşünmədən həmin baza prinsipləri əsasında nizama salmalıdırlar. Bax elə bu, mənim fikrimcə, ümid verir ki, həmin mürəkkəb və kifayət qədər uzun sürən münaqişənin həll edilməsi şansı vardır. Sankt-Peterburqda keçirilmiş sonuncu görüş göstərdi ki, fikrimizcə, tərəfləri qəbul edən Rusiya Federasiyasının fikrincə, danışıqların iştirakçıları, - mən Azərbaycanı və Ermənistanı nəzərdə tuturam, - müxtəlif məsələlər üzrə mövqelərdə mövcud olan fikir ayrılıqlarını tədricən aradan qaldırmağa və Azərbaycan Prezidentinin irəliyə doğru hərəkət barədə söylədiyi kimi, irəliləməyə hazırdırlar. Münaqişənin çox yaxın perspektivdə həll olunması üçün bütün imkanlar vardır və Rusiya digər dövlətlərlə birlikdə, - burada heç bir qısqanclıq ola bilməz, - bu münaqişənin maksimum səmərəli şəkildə nizama salınmasına çalışacaqdır.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

İyunun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin şərəfinə şam yeməyi verilmişdir.

İşgüzar səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin mətbuat konfransı. Moskva, 17 aprel 2009 il

İşgüzar səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çexiya Respublikasının Prezidenti Vatslav Klausun görüşü. Praqa, 6 may 2009 il

"Cənub dəhlizi - Yeni İpək yolu" sammitinin bəyannaməsinin imzalanma mərasimi. Praqa, 8 may 2009 il

Rəsmi səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü. Bakı, 20 may 2009 il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın mətbuat konfransı. Bakı, 13 may 2009 il

İşgüzar səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü. Sankt-Peterburq, 4 iyun 2009 il

Rəsmi səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti Şimon Peresin görüşü. Bakı 28 iyul 2009 il

İşgüzar səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin görüşü. Bakı, 29 iyul 2009 il

Estoniya Respublikasının Prezidenti Toomas Hendrik İlvesin Azərbaycana rəsmi səfəri. Bakı, 13 yanvar 2009 il

İşgüzar səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstanın Baş naziri Ferents Dyurçanın görüşü. Budapeşt, 26 yanvar 2009 il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nabukko layihəsinə dair enerji sammitində çıxış edir. Budapeşt, 27 yanvar 2009 il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya İqtisadi Forumu çərçivəsində "Energy Outlook-2009" mövzusunda keçirilən iclasda iştirak edir. Davos, 29 yanvar 2009 il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Küveyt Dövlətinə rəsmi səfəri çərçivəsində rəsmi qarşılanma mərasimi. Əl-Küveyt, 10 fevral 2009 il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yunanıstan Respublikasına dövlət səfəri çərçivəsində rəsmi qarşılanma mərasimi. Afina, 16 fevral 2009 il

Rəsmi səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın təkbətək görüşü. Tehran, 10 mart 2009 il

Rəsmi səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun mətbuat konfransı. Bakı, 9 aprel 2009 il

Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü. Naxçıvan, 3 oktyabr 2009 il

MDB Dövlət Başçıları Şurasının iclası. Kişinyov, 9 oktyabr 2009 il

Rəsmi səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın İordaniya Kralı II Abdullah və xanımı Raniyə ilə birgə görüşü. Əmman, 12 oktyabr 2009 il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasına rəsmi səfəri çərçivəsində rəsmi qarşılanma mərasimi. Bern, 19 oktyabr 2009 il

Sloveniya Respublikasının Prezidenti Danilo Türkün Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində rəsmi qarşılanma mərasimi. Bakı, 9 noyabr 2009 il



Rəsmi səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü. Minsk, 12 noyabr 2009 il

İşgüzar səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun birgə mətbuat konfransı. Sofiya, 13 noyabr 2009 il

Rəsmi səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Fransa Milli Assambleyasının sədri Bernar Akoyerin görüşü. Paris, 9 dekabr 2009 il

Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin Azərbaycan Respublikasına rəsmi səfəri. Bakı, 2 iyul 2009 il

Rəsmi səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsəd və xanımı Əsma əl-Əsəd ilə birgə görüşü. Bakı, 8 iyul 2009 il

Rəsmi səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Böyük Britaniyanın Baş naziri Qordon Braunun görüşü. London, 13 iyul 2009 il

"Rusiya Prezidentinin 2009-cu il üçün mükafatı" uğrunda cıdır yarışları. Moskva, 18 iyul 2009 il

Latviya Respublikasının Prezidenti Valdis Zatlersin Azərbaycan Respublikasına rəsmi səfəri. Bakı, 10 avqust 2009 il

Azərbaycan Prezidenti İlham Əliyevin, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin, Rusiya Prezidenti Dmitri Medvedevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun görüşü. Aktau, 11 sentyabr 2009 il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniyaya dövlət səfəri çərçivəsində rəsmi qarşılanma mərasimi. Buxarest, 28 sentyabr 2009 il

Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri. Bakı, 2 oktyabr 2009 il

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATDI

İyunun 29-da Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin Azərbaycana işgüzar səfəri başa çatmışdır.

Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rusiya dövlətinin başçısını Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola saldılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA DÖVLƏT TELEVİZİYA KANALININ "VESTİ V SUBBOTU" VERİLİŞİNİN APARICISINA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Rusiya Dövlət Televiziya kanalının "Vesti v subbotu" verilişinin aparıcısı Sergey Brilyova müsahibə vermişdir.

- Hörmətli İlham Heydər oğlu, Dmitri Medvedevlə Sizin imzaladığınız, indiyə qədər misli-bərabəri olmayan müqavilənin əhəmiyyətini çoxları hələ dərk etmir. Uzun illər boyu Azərbaycana qaz satmış Rusiya indi ilk dəfədir ki, Azərbaycandan qaz alır. Bunun mənası nədən ibarətdir və nə üçün hamı razıdır? Dünən Siz çox məmnun görünürdünüz.

- Bu saziş, həqiqətən həm Rusiyanın, həm də Azərbaycanın maraqlarına cavab verir. Bizə gəldikdə, bu saziş bizim üçün yeni, böyük bazara çıxmaq imkanı, qaz satışının tamamilə şaxələndirilməsini təmin etmək imkanı deməkdir. Çünki bizim qaz ixracı əvvəldən Qərbə istiqamətlənmişdi və bu gün Azərbaycan qazı artıq dörd ölkəyə satılır. Buna görə də Rusiya bazarına çıxış, əlbəttə, böyük əhəmiyyət kəsb edir. Mən dünən qeyd etdim ki, indiki halda infrastruktur, qaz kəməri artıq mövcuddur. Əlavə investisiyalara ehtiyac yoxdur, tranzit dövlətlər yoxdur, ona görə də tranzit barədə danışıqlarla məşğul olmaq "ləzzətindən" məhrumuq. Rusiyanın cənub regionlarının Azərbaycandan göndərilən qazla təmin edilməsinə ehtiyac var. Çox güman ki, bu, iqtisadi baxımdan Rusiya tərəfi üçün daha sərfəlidir.

- Bəli, bu halda bizə Sibirdən qaz kəməri çəkmək lazım olmayacaqdır.

- Əlbəttə. Üstəlik, qarşılıqlı faydalı olan yaxşı kommersiya şərtləri də vardır. Buna görə də bu vəziyyətdə hər iki tərəf qazanır və Sizin qeyd etdiyiniz kimi, dünən görüşdə iştirak edənlərin hamısı məmnun idi.

- "Qazprom"un başçısı Aleksey Miller jurnalistlərə məlumat verərkən xüsusi vurğuladı ki, "Qazprom" Azərbaycana çox sərfəli kommersiya şərtləri təklif edir, qazı çox sərfəli qiymətə alır və istehlakın həcmini artırmağa hazırlaşır. Bu o deməkdirmi Nabukko kəmərini doldurmaq üçün potensial imkan olmayacaqdır?

- Hələlik bu barədə danışmaq çətindir. Nabukko layihəsinə gəldikdə isə, biz bu məsələ barədə öz mövqeyimizi dəfələrlə bildirmişik. Bu ideya yarananda Azərbaycan təchizatçı kimi nəzərdə tutulmurdu. Azərbaycan tranzit ölkələrdən biri hesab edilirdi. Əsas təc-

hizatçılar başqa ölkələr hesab olunurdu və hələ də belə hesab edilir. Lakin görünür, ilkin təchizatçılarla müəyyən səbəblər üzündən razılıq əldə edilməsində çətinliklər yaranmış və Azərbaycanın artıq böyük həcmdə qaz hasil edən ölkəyə çevrilməsi ilə əlaqədar əlbəttə, bizə də maraq yaranmışdır. Təbii ki, biz qaz potensialımızın tam reallaşdırılmasında maraqlıyıq. Bizim qaz ehtiyatlarımız çox böyükdür. Buna görə də təbii ki, biz yeni ölkələrin bazarlarına çıxmağımıza imkan verəcək layihələri dəstəkləyirik. Lakin biz özümüzün qaz infrastrukturunu artıq yaratmışıq. Onun bir qismi, məsələn, Rusiya ilə bizi əlaqələndirən qaz kəməri sovet dövründən qalmış, bir qismi təzə tikilmişdir. Buna görə də yeni qaz kəmərlərinin tikintisinə sərmayə qoymağımıza heç bir lüzum yoxdur. İndi elə vəziyyət yaranıb ki, istehlakçıların qaza marağı istehsalçıların marağından üstündür. İstehsalçıların qarşısında ciddi problemlər yoxdur, çünki bazar başqa variantları nəzərdən keçirməyə imkan verir. Təbii ki, belə olan halda yeni infrastrukturu istehlakçılar yaratmalıdırlar, onlar sərmayə qoymalı, öz enerji təhlükəsizliyini təmin etməlidirlər.

- Necə deyərlər, sizə lazımdır, siz də tikin.

- Ümumiyyətlə, belədir. Lap sadə dildə desək, yəqin ki, belədir. Bununla bərabər, əlbəttə, əgər qazın nəqli üçün əlavə vasitələr yaradılsa, bu, bizim yalnız xeyrimizə olacaqdır. Əgər Nabukko qaz kəməri tikilsə və bizə münasib kommersiya şərtləri təklif etsələr, əlbəttə, biz bundan istifadə edəcəyik. Lakin biz bu prosesi başlamaq təşəbbüsünü irəli sürməyəcəyik və onu maliyyələşdirməyəcəyik. Bu, bizim birmənalı mövqeyimizdir. Bu mövqe hamıya - həm Qərbdə, həm Türkiyədə, həm də başqa ölkələrdə olan tərəfdaşlarımıza, bizim qazın potensial alıcılarına məlumdur. Buna görə də dünən imzalanmış müqavilə ikitərəfli xarakter daşıyır. Azərbaycandan Rusiyaya göndəriləcək qaz Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən hasil edilir. Bu, gələn il hasilatının artırılması nəzərdə tutulan "Şahdəniz-1" yatağından çıxarılan qaz ola bilər. Bu, gələcəkdə "Şahdəniz-2" yatağından və başqa yataqlardan çıxarılan qaz da ola bilər. Bizim qazın alıcısı kimi Rusiya üçün bu, yəqin ki, əsas mövzu deyildir. Əsas mövzu təchizatın, qarşılıqlı öhdəliklərin yerinə yetirilməsinin etibarlı və uzunmüddətli olmasıdır.

- Hazırda söhbət Azərbaycan qazının Rusiyanın cənubundakı istehlakçılara satışından gedir. Bəs, Siz Rusiya ərazisinə, həm də Azərbaycan qazının oradan Avropaya satışı üçün tranzit ərazi kimi baxırsınızmı?

- Mənim bildiyimə görə, Rusiya qanunvericiliyi Rusiya ərazisindən tranzitin mümkünlüyünü nəzərdə tutmur. Biz bu məsələni qaldırmışdıq. Məsələn, Türkiyədə bizə məxsus olan neft-kimya kompleksinin Rusiyadan qaz ala bilməsi üçün svop əməliyyatları məsələsi nəzərdən keçirilmişdir. Bu variant da istisna edilmir. Ona görə də, indiki halda Azərbaycan qazı Rusiya sərhədini keçəndən sonra onun haraya gedəcəyinin bizim üçün ciddi fərqi yoxdur.

- Başlıcası odur ki, sərhədi keçərkən yaxşı qiymət ödəsinlər.

- Əlbəttə, başlıcası budur. Əsas məsələ uzunmüddətli münasibətlərin etibarlı olması, hər hansı bazar konyunkturunun artıq razılaşdırılmış mövqelərə düzəlişlər etməməsidir. Buna görə də müqavilə öhdəliklərinin etibarlı və uzunmüddətli olması hər bir ölkə üçün, o cümlədən dünyada qazın əsas təchizatçısı olan Rusiya üçün, həm də bizim üçün prioritet məsələdir.

- Axşam danışıqlar başa çatdıqdan sonra Siz Dmitri Anatolyeviç Medvedevlə Xəzər dənizinin dalğalarına tamaşa etməyə getdiniz. Həmin dalğalara baxanda, xüsusən Bakıda keçiriləcək növbəti Ümumxəzər sammiti ərəfəsində ürəyinizdən hansı fikirlər keçirdi? Xəzəryanı dövlətlər öz mövqelərinin razılaşdırılması baxımından çox uzun bir yolun hansı mərhələsindədir?

- Bu mənzərə bizim üçün təzə deyil. Biz Xəzər dənizinin mənzərəsinə adət etmişik. Lakin əminəm ki, Bakı sakinlərinin mütləq əksəriyyəti Xəzər dənizinə enerji ehtiyatları mənbəyi kimi və həll edilməsi zəruri olan məsələ kimi baxmır - mən beş Xəzəryanı dövlətin delimitasiyasını nəzərdə tuturam. Biz həmişə bu fikirdə olmuşuq və indi də belə düşünürük. Xəzər dənizi bizim üçün həyat tərzidir, təbiətdir, çimərliklərdir, istirahətdir. Lakin iş elə gətirib ki, Xəzərin enerji ehtiyatları, ekoloji təhlükəsizliyi, Xəzərdə milli sektorların müəyyən edilməsi məsələləri təkcə Xəzəryanı dövlətləri deyil, daha geniş formatda bir sıra başqa ölkələri də narahat edən məsələlərdir. Əlbəttə, biz istərdik ki, Xəzər dənizinin delimitasiyası məsələsinin tam tənzimlənməsinə nail olaq. Bunun üçün yaxşı baza vardır. Mən hesab edirəm ki, bunun üçün zəmin artıq mövcuddur. Məsələn, Azərbaycan və Rusiya, Azərbaycan və Qazaxıstan, Rusiya və Qazaxıstan arasında ikitərəfli sazişlər imzalanmışdır. Bu müqavilələr həm də çoxtərəfli, beştərəfli sazişin əsası olmalıdır.

- Türkmənləri və iranlıları da inandırmaq üçün.

- Mənim fikrimcə, Rusiya, Qazaxıstan və Azərbaycan öz aralarında bu müqavilələri bağlayarkən beynəlxalq hüquq normalarını, öz milli maraqlarını əsas götürmüşlər. Biz onu əsas götürmüşük ki, Xəzər hər ölkəyə 20 faiz olmaqla deyil, milli sektorlara uyğun bölünməlidir. Əgər belə olsaydı, Rusiya bəlkə də qane olmazdı ki, ona 20 faiz deyil, daha az pay düşür. Buna görə də hər ölkəyə 20 faiz olmaqla bölgü yanaşmasının heç bir əsası yoxdur və bu, sadəcə, məsələni dolaşdırmaq deməkdir. Əlbəttə, mənim fikrimcə, bütün mövqeləri öz aralarında artıq razılaşdırmış, bütün sərhədləri müəyyən etmiş ölkələrin öz mövqelərini müdafiə etməyə daha çox haqqı vardır. Çünki bu mövqe beynəlxalq miqyasda tanınmışdır. İstərdik ki, Xəzər regionundakı bütün ölkələr bu mövqedən çıxış etsinlər. Əlbəttə, hər bir ölkənin öz mövqeyi vardır. Lakin Xəzərin statusunun müəyyən edilməsi məsələsinin uzadılması istər ekoloji təhlükəsizlik baxımından, istərsə də təbii ehtiyatların istifadəsi üçün böyük problem deyildir. Biz öz neftimizin və qazımızın çox hissəsini Xəzərdən çıxarırıq. Xəzərin statusunun tənzimlənməmiş qalması bizə mane olmur. Ancaq istərdik ki, bu mövzu havadan asılı qalmasın, hər hansı spekulyasiyaların mövzusuna çevrilməsin, belə qeyri-müəyyən vəziyyətdə qalmasın.

- Bundan əvvəl Tehran sammitində qərara alınmışdır ki, növbəti sammit Bakıda keçiriləcəkdir. Biz həmin sammiti keçirməyə hazırıq. Lakin, əlbəttə bu sammitin sadəcə söhbət edib dağılışmaq üçün görüşə çevrilməməsindən ötrü müəyyən qərarlar hazırlanmalıdır.

- Sizinlə söhbətdə bir mövzudan yan keçə bilməyəcəyəm. Son iki həftə ərzində dünya xəbərlərində bu məsələ ilk sətirlərdə yer tuturdu. Xüsusən də ona görə ki, Sizin iqamətgahın pəncərələrindən Xəzər görünür. Mənim coğrafiyadan bildiyimə görə, Siz İran tərəfə baxırsınız və etnik azərbaycanlıların təqribən dörddə üç hissəsi də Azərbaycan Respublikasında deyil, məhz İranda yaşayır. Azərbaycan rəhbərliyinin fikrincə, Tehranda

baş vermiş son dramatik hadisələr, ümumiyyətlə seçkilərdən sonra İranda vəziyyət necə qiymətləndirilir?

- Bilirsinizmi, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bizim bütün ölkələrlə, o cümlədən və yəqin ki, ilk növbədə, qonşu ölkələrlə münasibətlərimiz mehriban qonşuluq, dostluq və bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanır. Müstəqillik dövrünün ilk iki ili istisna olmaqla, bütün bu müddət ərzində biz həmişə bu qızıl qaydaya əməl etmişik. Bu, qonşularla münasibətlərimizi həmin ölkələrdə hakimiyyətin və idarəetmənin hansı strukturunun mövcudluğundan asılı olmayaraq, məhz qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq əsasında qurmağa imkan vermişdir. Diqqət yetirsək, həm keçmiş SSRİ məkanında, həm də bizim regionda idarəetmə mexanizmlərinin tamamilə müxtəlif olduğunu görərik. Buna görə də biz İranda seçkilərlə əlaqədar məsələləri bu ölkənin daxili işi hesab edirik. Onlar özləri heç kəsin məsləhəti və müdaxiləsi olmadan bu məsələni daha yaxşı ayırd edərlər.

- Bakılı tanışlarım İran radiosunda son günlərdə səslənən verilişlərin məzmununu mənə söyləyiblər. İran öz növbəsində, Azərbaycanın daxili həyatının bəzi məqamlarına ciddi maraq göstərir. Məsələn, Dmitri Anatolyeviç Medvedevin Bakıya səfəri ərəfəsində Siz burada İsrail Prezidentini qəbul edirdiniz. Əhalisinin əksəriyyəti müsəlman olan bir ölkə üçün bu, çox qeyri-adi haldır. Ümumiyyətlə, Siz bu cür çoxvektorlu siyasəti necə qurursunuz?

- Biz həmin siyasəti çoxvektorlu hesab etmirik. Bəzən bu siyasətə bir qədər tarazlaşdırılmış çoxvektorluluq çalarları gətirilir. Bəlkə də kənardan baxanda belə görünür, lakin bizim üçün bu, təbii prosesdir. Fikrimcə, Azərbaycanın timsalında çoxları yəqin edə bilər ki, bir-biri ilə, yumşaq desək, dostluq etməyən ölkələrlə yaxşı münasibətlər qurmaq tamamilə mümkündür. Lakin bu bizim problem deyildir. Əgər bizim tərəfdaşlarımızın və dostlarımızın öz aralarında problemləri varsa, biz həmişə onu əsas götürmüşük ki, Azərbaycan həmin ölkələrin öz münasibətlərini ayırd edəcəyi yerə çevrilməməlidir. Müəyyən dövrdə bu cür meyillər olmuşdur və öz aralarında problemləri olan ölkələr Azərbaycanın bu və ya digər ölkə ilə nə üçün yaxşı münasibət yaratmasına qısqanclıqla yanaşırdılar. Lakin regionda bizim mövqeyimiz möhkəmləndikcə, hamıya aydın olmuşdur ki, Azərbaycan özünü təmin edə bilən ölkədir. Hətta iqtisadi böhran da göstərdi ki, biz yardımlardan, bəxşişlərdən, ianələrdən asılı deyilik...

- Mənim bildiyimə görə, Azərbaycanın milli valyutası manatın məzənnəsi elə əvvəlki kimidir.

- Bəli, tamamilə doğrudur. İqtisadiyyat inkişaf edir. Bu ilin ilk beş ayı ərzində ÜDM 4,5 faiz, qeyri-neft sahəsində isə 6 faizdən çox artmışdır. Buna görə də artıq başa düşürlər ki, bizim işlərimizə qarışmasalar yaxşıdır. Əlbəttə, bəzi narazılıq amilləri ola bilər. Bizim də narazılığımız ola bilər. Lakin Azərbaycan ərazisinin işğalını davam etdirən ölkənin prezidentini İranda ən yaxşı dost kimi qəbul edəndə biz ki, buna etirazımızı bildirmirik. Biz buna tamamilə adi yanaşırıq. Bu, İranın daxili işidir. Müsəlman dövlətlərinin rəhbərləri Ermənistana rəsmi səfərlər edəndə və həmin ölkə ilə dostluq və qardaşlıq haqqında bəyanatlar verəndə də eyni cür. Biz belə hallara hər hansı əsəbi jestlərlə münasibət bildirmirik. Buna görə də təbii ki, biz də özümüzə eyni münasibət tələb edirik.

- Sizin dediyiniz məqamlar və müəyyən narazılıq halları o qədər aşağı səviyyədə ifadə

olunmuşdur ki, bunu araşdırmağa ehtiyac qalmamışdır. Heç bir dövlətin rəsmi strukturları bununla əlaqədar bizə heç bir mesaj göndərməmişdir.

- Siz Ermənistanın adını çəkdiniz. Bu, təbii haldır. Dmitri Medvedevlə birgə bəyanat zamanı Siz Rusiyanın vasitəçiliyi ilə Sankt-Peterburqda Ermənistan prezidenti ilə son görüşünüzün nəticələrini çox yüksək qiymətləndirdiniz. Rusiyanın vasitəçiliyi ilə Ermənistanla münasibətlər barədə Sizdə nikbinlik doğuran konkret amil nədən ibarətdir?

- Mənim dediklərim məhz danışıqlar prosesinin bugünkü vəziyyətini və Rusiyanın rolunu tam əks etdirir. Tənzimləmənin vasitəçilərindən biri kimi Rusiyanın rolunun nə qədər səmərəli olduğunu görürük. Moskvada imzalanmış, problemin həlli yollarını müəyyənləşdirən və beynəlxalq hüququn prinsiplərinə və beynəlxalq təşkilatların qərarlarına əsaslanan bəyannamə buna misaldır. Dünən Dmitri Anatolyeviç də bu barədə danışdı. Ermənistan və Azərbaycan prezidentləri arasında Rusiyada görüşlərin təşkil edilməsi də bu qəbildəndir. Son bir ildə iki görüş istisna olmaqla, qalan görüşlərin hamısı Rusiya ərazisində keçmişdir və biz Rusiyada bir daha görüşmək barədə yeni təklif almışıq. Rusiya Prezidentinin iştirak etdiyi ötən görüş də çox səmərəli olmuşdur. Yəni biz, hər halda, Azərbaycanda aydın görürük ki, Rusiya tərəfi münaqişə tərəflərinin razılığa gəlməsinə həqiqətən kömək etmək istəyir. Müəyyən nəticələr də vardır, çünki danışıqlar prosesi mürəkkəb olsa da, biz düzgün istiqamətdə irəliləyirik.

- Danışıqların məxfiliyini açıqlamamaq şərti ilə nə deyə bilərdiniz? Normallaşmanın başlanması üçün oriyentir nə ola bilər?

- Siz müddətləri nəzərdə tutursunuz, yoxsa mahiyyəti?

- Mahiyyəti.

- Mahiyyət etibarilə razılıq əldə edilmişdir ki, işğalçı Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasına başlanmalı, hazırda Dağlıq Qarabağda yaşayan vətəndaşların və işğal edilmiş ərazilərə, o cümlədən Dağlıq Qarabağa qayıdacaq, milliyyətcə azərbaycanlı olan vətəndaşların da təhlükəsizliyinə beynəlxalq zəmanət təmin edilməlidir. Biz hesab edirik ki, indiki halda siyasi zəmanətlər hərbi və ya hər hansı sülhməramlı zəmanətlərdən qat-qat sanballıdır. Söhbət ondan gedir ki, biz Dağlıq Qarabağda yaşayanların işğal edilmiş yeddi rayonun hamısı qaytarılandan sonra Dağlıq Qarabağın Ermənistandan coğrafi mənada yenidən təcrid edilə biləcəyindən narahat olduqlarını başa düşürük, Dağlıq Qarabağın Ermənistanla heç vaxt əlaqəsi olmayıb. Buna görə də biz hazırda orada yaşayanların narahatlığını başa düşürük və yerüstü əlaqə məsələsini konstruktivlik və beynəlxalq normalar ruhunda nəzərdən keçirməyə hazırıq, bu əlaqə etibarlı olmalı, narahatlığa əsas verməməlidir.

- Biz qarşı tərəfin narahatlığının səbəblərini başa düşürük. Dağlıq Qarabağın statusu məsələsinə gəldikdə isə, bu, gələcəyin işidir. Bu gün bizim müzakirə etdiyimiz, qəbul etdiyimiz və razılaşdırdığımız təkliflərdə status məsələsi yoxdur. Əgər mövqelərin razılaşdırılması üçün bu mövzu yenidən ilkin şərt kimi irəli sürülərsə, biz heç nəyə nail olmayacağıq. Buna görə də real həyatda olanları başa düşmək lazımdır. Əlbəttə, biz Dağlıq Qarabağın müstəqil dövlət kimi mövcud olmasını mümkün hesab etmirik və Azərbaycan heç vaxt buna razılıq verməyəcəkdir. Bizə belə gəlir ki, erməni tərəfi bunu başa düşür. Eyni zamanda, erməni tərəfi hesab edir ki, Dağlıq Qarabağda hazırda mövcud

olan özünüidarə səviyyəsi saxlanılmalıdır. Sovet dövründə Dağlıq Qarabağ Muxtar Vilayəti mövcud idi. Vilayətin rəhbərliyində, vilayət bürosunda cəmi bir nəfər azərbaycanlı var idi, qalanları erməni idi. Həmin azərbaycanlı da əhalisinin 90 faizi azərbaycanlılar olan Şuşa şəhərinin rəhbəri idi. Bu gün həmin ərazinin gələcək fəaliyyəti məsələsini nəzərdən keçirərkən çox uzağa getməməliyik. Bu gün biz münaqişənin nəticələrini aradan qaldırmalı, işğala son qoymalı, bütün millətlərdən olan vətəndaşların təhlükəsizliyini təmin etməli, bundan sonra bütün kommunikasiyaları açmalıyıq. Bundan sonra barışıq baş tuta bilər. Axı, həm Azərbaycanda, həm də Ermənistanda azərbaycanlılar və ermənilər yaşamışdır və heç bir ciddi problem yox idi. Yəni barışıq baş tutmalıdır. Biz daim müharibə vəziyyətində yaşaya bilmərik və biz hərbi potensialımızı artırmağımıza baxmayaraq, müharibə istəmirik. Bu onun nəticəsidir ki, atəşkəs elan ediləndən sonra 15 il müddətində tənzimləməyə nail ola bilməmişik. Bizim yanaşmamız bundan ibarətdir. Zənnimcə, əgər Ermənistan tərəfi siyasi iradə göstərsə və hər bir halda atmalı olduğu addımları atsa, işğal edilmiş bütün ərazilərdən çıxsa, azərbaycanlılar Şuşaya, Dağlıq Qarabağa qayıdandan sonra gələcəkdə biz təbii ki, statusun müəyyən edilməsi məsələsini də müzakirə edəcəyik. Əlbəttə, Dağlıq Qarabağın müəyyən statusu olmalıdır. Biz bunu başa düşürük. Lakin bir daha deyirəm, biz həmin statusu suveren Azərbaycan dövlətindən kənarda təsəvvür etmirik. Zənnimcə, işğal edilmiş ərazilər azad olunandan sonra danışıqlar prosesi daha konstruktiv ola bilər.

- Bununla əlaqədar mənim əlavə bir sualım var. Siz prioritetləri müddətlər üzrə sadalayanda bütün ərazilər haqqında məsələni birdən-birə qaldırırsınız, yoxsa məsələn, əvvəlcə hazırda ermənilərin hərbi nəzarəti altında olan sırf Azərbaycan rayonlarından başlamağı, sonra isə Dağlıq Qarabağ məsələsini qaldırmağı nəzərdə tutursunuz?

- Düzdür, belə bir xronologiya vardır. O, Minsk qrupunun həmsədrlərinin təkliflərində də mövcuddur. Hətta söhbət Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal edilmiş ərazilərdəki erməni qoşunlarının mərhələlər üzrə oradan çıxarılmasından gedir. Yəni sazişlər imzalandıqdan dərhal sonra birinci mərhələdə qoşunların beş rayondan çıxarılması nəzərdə tutulur. Ermənistanla Dağlıq Qarabağ arasında yerləşən Kəlbəcər və Laçın rayonlarından erməni silahlı qüvvələrinin çıxarılmasını məhz həmin rayonların coğrafi şəraiti nəzərə alınmaqla, sazişə qüvvəyə minəndən beş il sonra təmin etmək nəzərdə tutulur. Bizim fikrimizcə, bu, kompromis müddətdir və yəqin ki, həmin zonada daha artıq təhlükəsizlik tədbirləri təmin edilməlidir ki, hər iki tərəfin sülhsevər xarakterinə heç kəsin şübhəsi olmasın. Lakin erməni silahlı qüvvələrinin eyni vaxtda bütün yeddi rayondan çıxarılması hər hansı başqa amillərlə əsla bağlı deyildir və Minsk qrupunun təkliflərində bu məqam dəqiq göstərilmişdir. Dağlıq Qarabağın statusu məsələsinə gəldikdə isə, birinci mərhələdə müvəqqəti status mexanizmi razılaşdırıla bilər, qəti status məsələsi isə tərəflər bu barədə razılığa gələndən sonra həll ediləcəkdir. Bunun üçün ola bilsin bir il, ola bilsin on il, ola bilsin yüz il vaxt lazım gələcək, bəlkə də heç vaxt mümkün olmayacaqdır. Bunu zaman göstərər.

- İlham Heydər oğlu, toxunmaq istədiyim sonuncu mövzu onunla əlaqədardır ki, Dmitri Medvedevlə Sizin görüşünüz Barak Obamanın Moskvaya səfərindən cəmi bir neçə gün əvvəl baş tutmuşdur. Özü də Azərbaycan ərazisində yerləşən Rusiya hərbi obyektindən - Qəbələ RLS-dən ümumdünya raketdənmüdafiə sistemi yaradılması üçün istifadə edilməsi və raketdənmüdafiə barədə Moskvanın amerikalılara hələ inişil təklif etdiyi məsələ Amerika və Rusiya nümayəndə heyətlərinin danışıqlar masası üzərindədir. Bu məsələ barədə Azərbaycanın mövqeyi necədir? Bu barədə Rusiya ilə Amerika arasında ehtimal edilən sazişlərə Sizin münasibətiniz necə olacaq?

- Qeyd etdiyiniz kimi, bu, təzə məsələ deyildir. Əvvəllər də ortaya çıxmışdı. O vaxt bu barədə bizə müraciətlər olanda biz bunu...

- O vaxt Siz dərhal razılaşmışdınız.

- ... müsbət qarşıladıq. Bəli, yəni biz bu mövzunu bir növ müzakirə etməyə razılaşmışdıq. Amerika və Rusiya nümayəndələri arasında danışıqlar aparılmış, hətta rusiyalı və amerikalı mütəxəssislərdən ibarət birgə qrup Qəbələ stansiyasına səfər etmişdi. Ona görə də indiki halda biz bu məsələyə beynəlxalq təhlükəsizliyin çox mühüm problemini həll etməyə imkan verən bir proses kimi yanaşırıq. Eyni zamanda, Rusiya ilə Azərbaycan arasında imzalanmış sazişdə dəqiq göstərilmişdir ki, stansiyanın idarə edilməsi ilə bağlı hər hansı dəyişikliklər və ya hər hansı əlavə addımlar Azərbaycan tərəfi ilə razılaşdırılmalıdır. Bu stansiya bizim mülkiyyətimizdir. Təbii ki, stansiyanın fəaliyyətinin hər hansı yeni formatı Azərbaycanın iştirakı olmadan qeyri-mümkündür. Yadınızdadırsa, müəyyən mərhələdə bu mövzuda söhbətlər səngimişdi. Təbii ki, bu səngimədən sonra biz həmin məsələni qaldıra bilməzdik. Əgər bu gün ona yenidən maraq yaranarsa və bu mövzu ciddi müzakirə edilərsə, onda əlbəttə, biz öz sözümüzü deyəcəyik, lakin bunu lazımi məqamda edəcəyik.

- Əgər Rusiya və Amerika qlobal beynəlxalq təhlükəsizlik məsələləri barədə razılığa gəlsələr, buna manc olmaq fikrimiz yoxdur. Təbii ki, bu halda Azərbaycan həmin prosesin tərkib hissəsi olacaqdır. Biz həm də qlobal beynəlxalq təhlükəsizliyin təmin edilməsi prosesinin tərkib hissəsi olacağıq və təbii ki, vaxtı gələndə bizim maraqlarımızla əlaqədar müəyyən şərtlər də irəli sürəcəyik.

- Çox sağ olun.

FRANSANIN XARİCİ İŞLƏR VƏ AVROPA MƏSƏLƏLƏRİ NAZİRLİYİ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN PARİS GÖRÜŞÜ BARƏDƏ BƏYANAT YAYMIŞDIR

İyunun 30-da Fransanın Xarici İşlər və Avropa Məsələləri Nazirliyi Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin iyunun 26-da Parisdə keçirilmiş görüşü ilə bağlı bəyanat yaymışdır.

Bəyanatda deyilir ki, ATƏT-in Minsk qrupunda ABŞ və Rusiya ilə yanaşı həmsədr olan Fransa Azərbaycana və Ermənistana onları qarşıdurmaya gətirən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli və davamlı həllinin nizamlanmasına kömək etmək üçün öz mediasiya səylərini əsirgəmir.

Mediator ölkələrin təşəbbüsü ilə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan yeni danışıqlar məqsədi ilə iyunun 26-da Parisdə görüşmüşlər.

Prezidentlər İlham Əliyev və Serj Sarkisyanın iyunun əvvəlində Sankt-Peterburqda olduqca müsbət keçən son görüşlərinin davamı barədə imkanları araşdırmaq məqsədi ilə

hər iki nazir konstruktiv əhval-ruhiyyədə, əvvəlcə vasitəçilərlə ayrılıqda ətraflı danışmış, daha sonra isə vasitəçilərin iştirakı ilə söhbət etmişlər.

Bu söhbətlər Sankt-Peterburqda əldə olunmuş irəliləyişləri möhkəmlətməyə və əldə edilə biləcək yeni irəliləyişlər sahələrini dəqiqliklə müəyyənləşdirməyə imkan vermiş, həmsədrlər bu sahələrə dair yeni kompromis təkliflər irəli sürmüşlər.

Vasitəçilər hər iki Prezidentin iyul ayının ortalarında Moskvada baş tuta biləcək yeni görüşünü hazırlamaq məqsədi ilə növbəti ayın əvvəlində Bakıya və Yerevana, həmçinin Dağlıq Qarabağa bir daha səfər etməyi qərara almışlar.

DÜNYA GÖMRÜK TƏŞKİLATININ AVROPA ÜZRƏ REGİONAL OFİSİ AZƏRBAYCANDA AÇILACAQDIR

İyunun 25-dən 27-dək Belçika Krallığının Brüssel şəhərində, Dünya Gömrük Təşkilatının baş qərargahında Gömrük Əməkdaşlıq Şurasının 113-114-cü sessiyası keçirilmişdir. Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir.

Bir sıra mühüm məsələlərin müzakirə edildiyi sessiyada əvvəlcə Dünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya hesabatla çıxış etmiş, sonra regionlar üzrə məsləhətləşmələr aparılmış, həmçinin siyasi məsələlər müzakirə edilmişdir.

Sessiyadan bir qədər əvvəl, DGT-nin baş qərargahında Siyasi Komissiyanın iclası keçirilmiş, potensialın gücləndirilməsi ilə bağlı məsələlərin, o cümlədən bu yaxınlarda Norveç Krallığının Bergen şəhərində təşkil olunan DGT Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin Konfransında bu sahə üzrə regional ofisin Gömrük Əməkdaşlıq Şurasının sessiyasına göndərilmişdir. Məhz sessiyada müzakirə obyekti olan siyasi məsələlər çərçivəsində Avropa üzrə yeganə regional ofisin Azərbaycanda açılması təklifi dəstəklənmiş və ofisin Bakı şəhərində yaradılması qərara alınmışdır.

Sonra sessiyada texniki məsələlər - qiymətləndirmə, əmtəələrin mənşəyinin tanınması üzrə aparılan işlər, malların ahəngdar sistem üzrə təsnifləndirilməsi, eyni zamanda saxtakarlığa və piratçılığa qarşı mübarizə məsələləri müzakirə olunmuş, ətraflı fikir mübadiləsi aparılmışdır.

Sessiyanın sonuncu günü isə DGT-nin büdcəsi, ümumilikdə maliyyə məsələləri müzakirə edilmiş, eləcə də qurumun rəhbər vəzifələrinə seçkilər keçirilmişdir.

Sessiya zamanı gömrük işinə aid fotosorgi təşkil olunmuş, müsabiqə keçirilmişdir. Final mərhələsində 20 fotoşəkil arasında Azərbaycan Gömrük Xidmətinə aid olan fotoşəkil də nümayiş etdirilmiş, gizli səsvermə yolu ilə Danimarka Gömrük Xidmətinin təqdim etdiyi fotoşəkil qalib elan olunmuşdur.

Sessiya çərçivəsində, iyunun 25-də Dünya Gömrük Təşkilatının baş qərargahında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Türkiyə Cümhuriyyəti Gömrük İdarəsi arasında "Kadrların peşəkar hazırlığı sahəsində əməkdaşlıq haqqında Protokol" imzalanmışdır. Sənədi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Türkiyə Cümhuriyyəti Gömrük İdarəsi M.Emin Zararsız imzalamışlar.

İyunun 29-30-da isə Brüssel şəhərində sərhədlərin idarəedilməsinə həsr olunmuş Forum keçirilmişdir. Forumda sərhədyanı idarəetmədə koordinasiya məsələsi, sərhəd idarəedilməsinin modernləşdirilməsi, bu sahədə nəzərdə tutulan islahatlar, sərhəddə təşkilatlar arasında əlaqələrin yaradılması və birgə fəaliyyət, gələcəkdə istər virtual, istərsədə fiziki cəhətdən sərhəd idarəedilməsinin perspektivləri və bu sahədə insan potensialının gücləndirilməsi məsələləri müzakirə edilmişdir.

Azərbaycan Gömrük Xidmətinin rəhbərliyi DGT baş katibi Kunio Mikuriya ilə görüşmüş, regional ofisin respublikamızda açılması ilə bağlı ətraflı fikir mübadiləsi aparılmışdır. DGT sədrinin Avropa regionu üzrə müavini, İrlandiya Gömrük Xidmətinin rəhbəri xanım Cozefin Fihili, Potensialın Gücləndirilməsi üzrə Direktorluğun direktoru Lars Karlson və direktorluğun nümayəndəsi Valeri Mikeladze ilə keçirilən görüşdə isə regional ofisin işi ilə bağlı memorandum layihəsi, eləcə də Bakıda tikiləcək yeni binanın layihəsi müzakirə edilmiş və bəyənilmiş, binanın inşasına yaxın zamanlarda başlanmasına qərar verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN MDB ÖLKƏLƏRİNDƏ AKKREDİTƏ OLUNAN SƏFİRLƏRİNİ QƏBUL ETMİŞDİR

İyulun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Respublikasının MDB ölkələrində akkreditə olunan səfirlərini qəbul etmişdir.

Prezident İlham ƏLİYEV qonaqlara müraciətlə dedi:

- Xoş gəlmisiniz. Sizi Azərbaycanda görməyimdən çox məmnunam. Səfirlərin bu iclasının keçirilməsi üçün ölkəmizi seçdiyinizə görə şadam. Eyni zamanda, bu, ölkəmizi daha yaxından tanımaq üçün yaxşı bir fürsətdir. Yəqin ki, sizlərin çoxu Azərbaycanda heç vaxt olmayıb. Əminəm ki, aparacağınız danışıqlarla yanaşı, bir az da ölkəmizlə tanışlıq imkanınız olacaqdır.

Bildiyiniz kimi, ölkələrimiz arasındakı əlaqələr uğurla inkişaf edir. Bir çox sahələri əhatə edən ikitərəfli əlaqələrimizin gündəliyi çox genişdir. Bizim iqtisadi, enerji sahələrində yaxşı əlaqələrimiz var, siyasi münasibətlərimiz çox yüksək səviyyədədir. Bu, regional inkişaf üçün çox önəmli amildir. Azərbaycan Fransa şirkətləri üçün sərmayələr baxımından cəlbedici məkandır. Bu yaxınlarda nəhəng qaz yatağının işlənilməsinə dair böyük müqavilə imzalanıb. Ümid edirik ki, bu, uğurlu olacaq və enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini verəcəkdir. Eyni zamanda, Fransanın bir çox şirkətləri Azərbaycanda podratçı kimi çalışır, tenderlərdə iştirak edir, qalib gəlir və ölkəmiz üçün əhəmiyyətli olan nəhəng layihələri həyata keçirirlər.

Müstəqilliyimizin ilk illərindən yaxın keçmişədək ölkəmizin siyasətinin əsas istiqaməti xarici sərmayələrin Azərbaycana cəlb olunması idi. Bu siyasət davam edir və böyük həcmdə sərmayələrin cəlb edilməsinə nail olmuşuq. Birbaşa sərmayələrin adambaşına düşən həcminə görə Azərbaycan keçmiş sovet respublikaları arasında ilk yerlərdən birini tutur. İnkişafımızın bu mərhələsində isə daxili sərmayələr xarici sərmayələrdən daha çoxdur. Bu səbəbdən də hazırda biz təkcə sərmayədarlar haqqında danışmırıq, biz, eyni zamanda, ölkəmizə zəruri olan layihələrin həyata keçirilməsi üçün yaxşı şirkətlərin, tərəfdaşların və podratçıların axtarışındayıq.

Son beş ildə Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edib. Biz ümumi daxili məhsulun (ÜDM) 2,6 dəfə artırılmasına nail olmuşuq. Sənaye istehsalı eyni həcmdə artıb. Biz büdcə xərclərini də eyni sürətlə 12 dəfə artırmağa nail olmuşuq. Biz yoxsulluğu 4 dəfə azaltdıq və son beş il ərzində 800 minə yaxın yeni iş yerinin açılması demək olar ki, işsizlik problemini aradan qaldırdı. Biz hazırda digər ölkələr kimi, qeyri-leqal miqrasiya problemi ilə üzləşirik və Azərbaycana xaricdən sürətlə gələn əmək qüvvəsinin fəaliyyətini tənzimləmək üçün tədbirlər görməliyik.

İqtisadi vəziyyət sabit olaraq qalır, hətta böhran dövründə iqtisadiyyatımız artır, cari ilin ilk beş ayında ÜDM 4,5 faiz artıb. Mühüm məsələ ondan ibarətdir ki, təkcə enerji deyil, əsasən qeyri-enerji sektoru da inkişaf edir. Ümumi daxili məhsulda qeyri-enerji sektorunun həcminin 6 faizdən çox olması iqtisadiyyatımızın şaxələndirilməsinə nail olduğumuzu göstərir. Biz bir çox keçmiş sovet respublikaları kimi, xarici yardımdan asılı deyilik, biz heç kimə maliyyə dəstəyi, kredit və buna aid məsələlər üçün müraciət etməmişik.

Bu, onu göstərir ki, ölkəmiz özünü tam şəkildə təmin etməyə qadirdir. Təbii ki, enerji amili enerji resursları ilə zəngin olan digər keçmiş sovet ittifaqı respublikaları kimi, ölkəmiz üçün də mühüm əhəmiyyət kəsb edir. Təbii ki, idarəetmənin səmərəli olması, şəffaflıq, məsuliyyət və şaxələndirmə də vacibdir. Azərbaycan indiyədək dünyada yeganə ölkədir ki, Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsünün tam üzvüdür. Bizim Neft Fondumuz çox şəffaf qurumdur, BMT tərəfindən mükafatlandırılıb. Bu səbəbdən də Neft Fondunda toplanan və xərclənən vəsait çox şəffaf və tarazlıdır. Neft və qaz satışından əldə olunan vəsaitin xərclənməsi yalnız parlamentin təsdiqindən sonra mümkündür.

Neft və qaz hasilatı artır. Bu il neft hasilatı gündə 1 milyon barrelə yaxın olacaq. Hətta bu qiymətlərlə də bu çoxdur. Qaz hasilatı 27 milyard kubmetr olacaq. Son iki il ərzində Azərbaycan təbii qaz idxalçısından ixracçısına çevrilməyə nail olub. 2006-cı ilin sonunadək biz idxalçı ölkə idik. Biz 4,5 milyard kubmetr qaz idxal edirdik. Bu gün biz təbii qazımızı müxtəlif ölkələrə ixrac edirik və onun coğrafi ərazisi genişlənir. Enerji təhlükəsizliyi məsələləri üçün bu gün qaz amili neft amilindən də önəmlidir. Biz qonşu ölkələrlə, Avropa İttifaqı ilə çox yaxından çalışırıq və ümid edirik ki, ədalətli tranzit şərtlərinə nail olmaq üçün səylərimiz uğurlu olacaqdır.

Siyasətimiz çox aydındır. Biz istəyirik ki, iqtisadi sahədə digər ölkələrlə əməkdaşlığımız yaxşı beynəlxalq təcrübəyə, bazar iqtisadiyyatına və azad rəqabətə əsaslansın. Əgər bu yanaşmalar regionda üstünlük təşkil edəcəksə, biz böyük qaz yataqlarımızın daha sürətlə işlənilməsi imkanını əldə edəcəyik. Həll olunmamış tranzit məsələləri, alqı-satqı razılaşmaları səbəbindən biz artıq iki il itirmişik və bütün bunlar olmadan biz qaz layihələrinin əsas mərhələsinə sərmayə qoymağa başlaya bilmərik.

Yeri gəlmişkən, deyim ki, bu sərmayələr 20 milyard dollara yaxın olacaqdır. Bu, təkcə bizim deyil, beynəlxalq enerji şirkətlərinin də sərmayələri olacaqdır. Təbii ki, əsas sərmayə layihələrindən birinin başlanması üçün bütün razılaşmalar masa üzərində olmalıdır. Tranzit, alqı-satqı, əlavə infrastruktura sərmayələrin yatırılması həmin məsələlərdəndir. Biz avropalı tərəfdaşlarımızla bu istiqamətdə çox ciddi çalışırıq. Bizim ümumi yanaşmamız var.

Beləliklə, əminəm ki, qarşıdan gələn bir çox illər ərzində də bizim Avropa İttifaqına üzv ölkələrlə əlaqələrimizdə enerji komponenti də olacaqdır. Bu səbəbdən biz bu əlaqələrə çox geniş şəkildə baxırıq. Bu yaxınlarda biz "Şərq tərəfdaşlığı" proqramına qoşulduq. Ümid edirik ki, bu, Avropa İttifaqı ilə Azərbaycan arasında daha yaxın əməkdaşlığa aparacaq və Fransanın Avropa İttifaqının qabaqcıl ölkələrindən biri kimi bu təşəbbüslərdə təbii ki, xüsusi rolu var.

Fransa, eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədri kimi bizimlə birgə çalışır və ümid edirik ki, beynəlxalq ictimaiyyətin birgə səyləri Ermənistan-Azərbaycan münaqişəsinin həllinə gətirib çıxaracaqdır. Biz hazırda hər iki tərəfin mövqeyinə dair daha çox anlayışa malikik. Danışıqlar artıq son mərhələyə qədəm qoyub. Keçmişdə elə dövrlər olub ki, aparılan danışıqlar nəticəyə yaxın olub. Lakin Ermənistanda baş verən hadisələr, bəzən isə faciəli hadisələr nəticəsində bu danışıqlar dayandırılmışdır. Başqa sözlə, bütün mümkün ssenarilər artıq müzakirə edilib. Praqa prosesi adlandırılan bu format isə yəqin ki, son imkandır. Təbii ki, biz Ermənistan tərəfindən daha konstruktiv mövqe sərgiləməyi, danışıqlar prosesində heç bir süni ləngimələrin olmayacağını gözləyirik. Çünki bu status-kvo daha bir neçə il ərzində davam edə bilməz. Atəşkəs rejiminin əldə olunmasından 15 il vaxt keçməsinə baxmayaraq, hələ də danışıqlar prosesini davam etdirməyimiz faktı münaqişəni sülh yolu ilə həll etmək istəyimizin bariz nümunəsidir. Biz ATƏT-in Minsk qrupunun həmsədrlərinin təkliflərini ciddi şəkildə nəzərə almalıyıq və nizamlama prosesinin əyani icrasına başlamalıyıq.

Azərbaycanın işğal olunan bütün əraziləri azad edilməlidir ki, Ermənistanın etnik təmizləmə siyasətinə məruz qalan qaçqın və köçkünlərimiz öz doğma torpaqlarına qayıda bilsinlər. Torpaqlarımız işğalçı qüvvələrdən azad olunmalıdır. Məhz bundan sonra bölgədə sülh bərqərar oluna bilər. Düşünürəm ki, bu, Ermənistan üçün də faydalı olacaq, çünki onların işğalçılıq siyasəti heç bir nəticəyə gətirib çıxarmadı. İşğal olunmuş ərazilərdə yaşayış yoxdur. Onlar çalışdılar, lakin insanların olmaması səbəbindən buna nail ola bilmədilər. İşğal olunmuş bu ərazilərdə hər şey dağıdılıb. Bu işğalçılıq siyasəti nəticəsində Ermənistan regional inkişafdan, nəqliyyat yollarından, enerji əməkdaşlığından təcrid olunub.

Atəşkəsin imzalanmasından sonrakı 15 il ərzində Azərbaycan irəliyə doğru böyük addımlar atıb. Biz əsl müstəqil ölkəyə çevrilmişik. Biz müstəqil siyasət yürüdürük. Biz qərarları qəbul edərkən, hamı əmindir ki, bu qərarlar Azərbaycanda, Bakıda qəbul olunub. Ermənistana gəldikdə isə, onlar regional əməkdaşlığın bir hissəsi deyil - nə nəqliyyat, nə də enerji sahəsində. Əsasən Azərbaycanla ünsiyyəti bərpa etmədən onların gələcək inkişafı çox çətin olacaq, xüsusilə də bu, böhran zamanı mümkün olmayacaq. Böhran əslində kimin kim olduğunu göstərdi. Böhrandan öncə hamı siyasi və iqtisadi keçid dövründə çox uğurlu və səmərəli nəticələrə nail olduğunu iddia edə bilərdi. Lakin böhran bir göstəricidir. Əgər indiki dövrdə keçid mərhələsini yaşayan ölkələrə baxsaq, kimin nə etdiyini görərik.

Biz bir daha onu demək istəyirik ki, digərlərindən fərqli olaraq, bu böhranın təsirini öz resurslarımız vasitəsilə azaltmağa çalışırıq. Təbii ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli Ermənistan üçün mütləq faydalı olacaq, bundan sonra bütün əlaqələr bərpa ediləcək. Münaqişə həll edilmədən regional vəziyyət sabit ola bilməz. Dağlıq Qarabağ münaqişəsinin həlli nəzərə alınmadan bəzi regional məsələlərin nizamlanmasına yönə-

lən bir sıra cəhdlər uğursuz olub və uğurlu ola da bilməz. Çünki regiondakı reallıq ondan ibarətdir ki, Azərbaycanın mövqeyi və fikri mütləq nəzərə alınmalıdır. Azərbaycanın iştirakı olmadan regional inkişaf obosdir. Coğrafi yeri, regional mövqeyi, iqtisadi nailiyyətləri və təbii ki, enerji resursları baxımından Azərbaycanla hesablaşmalıdırlar.

Dağlıq Qarabağ münaqişəsi nizama salınmadan bəzi regional məsələlərin həllinə yönələn cəhdləri biz təbii ki, heç vaxt dəstəkləmirik. Bizim dəstəyimiz olmadan bu cəhdlərin gələcəyi yoxdur. Bunlar son ayların əsas hadisələridir. Bu, bir daha onu aydın şəkildə göstərir ki, regional məsələlər elə bir yolla həll edilməlidir ki, bütün ölkələr bundan faydalansın. Maraqlara məhəl qoymamağı planlaşdıran bir ölkədən biz əməkdaşlıq gözləyə bilmərik, bu da ədalətli deyil. Bir daha onu demək istərdim ki, bu münaqişə yalnız bizim problemimiz deyil. Bu, çox ciddi regional təhlükədir. Hazırda həssas sülh və atəşkəs rejimi mövcuddur və burada sülhün sabit və uzunmüddətli olması üçün biz müharibənin nəticələrini aradan qaldırmalıyıq. Mən sadəcə bu məsələ ilə bağlı öz fikirlərimi bölüşmək istərdim, çünki mövqeyi mənbənin özündən öyrənmək vacibdir.

Bir daha qeyd etmək istərdim ki, Azərbaycan Avropa İttifaqının dostu və tərəfdaşı kimi bu qurumla olan münasibətlərdən çox razıdır. Bununla belə, biz qarşılıqlı şəkildə faydalı, daha çox əməkdaşlıq, daha çox əlaqələr yaratmaq istəyirik. Bu mənada Azərbaycan ilə Fransa arasındakı əlaqələr xüsusi əhəmiyyət kəsb edir. Çox şadam ki, ölkənizin səfirləri Azərbaycana səfər ediblər. Ümid edirik ki, Azərbaycana səfəriniz maraqlı olacaq. Sizə və ölkənizə uğurlar arzulayıram. Bir daha sizi görməkdən şadam.

* * *

Fransa Xarici İşlər Nazirliyinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə idarəsinin direktor müavini Erik MİLLE qəbula görə təşəkkür edərək dedi:

- Cənab Prezident, vaxt tapıb bizi qəbul etdiyinizə görə çox sağ olun. Azərbaycanın əldə etdiyi nailiyyətləri və ölkəni narahat edən problemlər haqqında fikirlərinizi bizimlə bölüşdüyünüzə görə, Sizə öz həmkarlarım adından dərin təşəkkürümü bildirirəm.

Qafqaz ölkələri, Şərqi Avropa, Mərkəzi Asiya və Rusiyada çalışan həmkarlarım - səfirlərdən ibarət nümayəndə heyəti bu görüş vasitəsilə ölkənizi daha yaxşı tanımaq fürsətini əldə etdi. Təbii ki, bu görüşün baş tutmasında həmkarım cənab Qabriel Kellerin xidmətini də xüsusi qeyd etmək istəyirəm. Fürsətdən istifadə edərək, Fransa ilə Azərbaycan arasında Sizin sayənizdə yüksək dərəcədə inkişaf etmiş münasibətlərə görə minnətdarlığımızı bildiririk. Əlaqələrimiz bir çox sahələrdə genişlənir. Azərbaycan Fransa üçün mühüm tərəfdaşdır. Bizi qəbul etdiyinizə görə bir daha Sizə minnətdaram.

Prezident İlham ƏLİYEV:

- Sağ olun. Qeyd etmək istəyirəm ki, tərəfdaşlığımız nisbətən yeni olsa da, lakin onun yaxşı tarixi var. Müstəqilliyimizi əldə etdiyimiz dövrdən etibarən Fransa ilə Azərbaycan arasında münasibətlər çox uğurla inkişaf edir. Bir daha qeyd etmək istəyirəm ki, rəhmətlik atam Heydər Əliyevin Prezident kimi ilk rəsmi səfəri məhz Fransaya olmuşdu. O, 1993-cü ildə prezident seçildikdən sonra ilk rəsmi səfərini Fransaya etdi. Bu ənənə davam edir. 2003-cü ildə mənim prezident kimi ilk rəsmi səfərim Fransaya oldu. Həmin vaxtdan etibarən bir çox tədbirlər keçirilib. Mən ölkənizin rəhbərləri ilə çoxsaylı görüşlər keçirmişəm. Mənim əvvəlki Prezidentlə, o cümlədən hazırkı Prezident cənab Sarko-

zi ilə çox yaxşı, səmimi münasibətlərimiz var. Onunla çox yaxşı müzakirələrimiz olub.

Azərbaycanın enerji siyasəti çox aydındır. Biz Xəzər dənizini xarici sərmayələr üçün açıq elan etmiş ilk ölkə olduq. Xarici şirkətlərlə birgə Xəzər dənizindən Aralıq dənizinə qədər boru kəmərini tikmiş ilk ölkə biz olduq. Bu, bir növ qapıları açdı. Sonra isə ikinci qaz xətti çəkildi.

Biz iqtisadiyyatımızın tamamilə şaxələndirilməsinə nail olmuşuq. İqtisadi islahatlar siyasətini həyata keçirmişik. 2008-ci ildə Dünya Bankı öz hesabatında Azərbaycanı bir nömrəli islahatçı ölkə elan edib. Bütün bunlar birdən-birə baş verməyib, biz uzun yol keçmişik. Əgər sizin özünüzə inamınız varsa, resurslara maliksinizsə və özünüzü təmin edirsinizsə, o zaman siz digərlərindən asılı deyilsiniz.

Prezident İlham Əliyev onu da dedi ki, Avropa İttifaqı hazırda dünyada təkmil sistemlərdən biridir. Quruma üzv olan ölkələr böyük inkişaf yolu keçib, aralarındakı sərhədləri tam açıblar. Əfsuslar olsun ki, Avropadan fərqli olaraq, Azərbaycanın yerləşdiyi region sabit deyildir. Regionda münaqişələrin mövcudluğu bu reallığı ortaya qoyur. Dövlətimizin başçısı diqqətə çatdırdı ki, Azərbaycan heç kimin daxili işlərinə qarışmır, qonşularla olan münasibətlər qarşılıqlı hörmətə əsaslanır. Azərbaycan dünyəvi dövlətdir, ölkəmiz öz dini və milli dəyərlərini qoruyaraq ümumbəşəri dəyərlərə də sadiqdir. Azərbaycan Avropa İttifaqı ilə tərəfdaşlıq münasibətlərini bundan sonra da möhkəmləndirmək əzmindədir.

Görüşün sonunda Fransanın MDB ölkələrində akkreditə olunmuş səfirləri Prezident İlham Əliyevlə xatirə şəkli çəkdirdilər.

"AZERBAIJAN INTERNATIONAL" JURNALININ TƏSİSÇİSİNƏ HAFİZ PAŞAYEV ADINA MÜKAFAT TƏQDİM OLUNMUŞDUR

İyulun 1-də ABŞ səfirinin Bakıdakı iqamətgahında "Azerbaijan International" jurnalının təsisçisi Pirus Xanlıya və jurnalın baş redaktoru Betti Bleyerə ABŞ-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə töhfəyə görə Hafiz Paşayev adına mükafat təqdim olunmuşdur.

ABŞ-ın ölkəmizdəki səfiri Ann Ders demişdir: "Pirus və Betti "Azerbaijan International" jurnalının səhifələrində Azərbaycan xalqına, onun tarixinə, mədəniyyətinə, ədəbiyyatına, musiqisinə, mətbəxinə və ənənələrinə həsr olunmuş yazılara xüsusi yer ayırmışdır.

Tədbirdə iştirak edən Azərbaycan xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru Hafiz Paşayev jurnalın təsisçilərini təbrik etmişdir. O, nəşrin yaranma tarixindən və bu istiqamətdə qarşıya çıxmış çətinliklərdən danışmışdır. Hafiz Paşayev ABŞ-Azərbaycan münasibətlərinin inkişafında jurnalın gördüyü işlərin əhəmiyyətini vurğulamışdır.

Hafiz Paşayev adına mükafat 2008-ci ildə təsis edilmişdir. Bu mükafat ABŞ ilə Azərbaycan arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərin inkişafına töhfələr vermiş insanlara təqdim olunur.

AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN ARASINDA 2009-2010-CU İLLƏRDƏ GƏNCLƏR SİYASƏTİ SAHƏSİNDƏ TƏDBİRLƏR PLANI TƏSDİQ OLUNMUŞDUR

İyulun 1-də Azərbaycan Gənclər və İdman Nazirliyi ilə Özbəkistan gənclərinin "Kamolot" İctimai Hərəkatı arasında 2009-2010-cu illərdə gənclər sahəsində əməkdaşlığa dair fəaliyyət planı təsdiq olunmuşdur. Sənəd Azərbaycan və Özbəkistan hökumətləri arasında 1997-ci ildə idman və gənclərlə iş sahəsində əməkdaşlıq haqqında imzalanmış Saziş çərçivəsində təsdiq edilmişdir.

Fəaliyyət planını Azərbaycan gənclər və idman naziri Azad Rəhimov və "Kamolot" ictimai hərəkatının Mərkəzi Şurasının sədri Akrom Alimov təsdiq etmişlər.

Nazir demişdir ki, fəaliyyət planı yaxın illərdə Azərbaycanla Özbəkistan arasında gənclər siyasəti sahəsində nəzərdə tutulan tədbirləri qısa zamanda həyata keçirməyə şərait yaradacaqdır. A. Rəhimov ölkələrimiz arasında gənclərlə iş sahəsində gələcəkdə də uğurlu əməkdaşlığın quruluacağına əmin olduğunu söyləmişdir. Nazir demişdir ki, ötən illər ərzində Azərbaycan gənclərinin Özbəkistanda, Özbəkistan gənclərinin isə ölkəmizdə günləri təşkil edilmişdir. Ümumiyyətlə, Özbəkistanın gənclərlə iş sahəsində qazandığı təcrübədən faydalanmaq maraqlı olar.

Akrom Alimov isə Azərbaycanla gənclər siyasəti sahəsində sıx əlaqələrin qurulmasından məmnun olduğunu söyləmişdir.

Daha sonra "Kamolot" İctimai Hərəkatının fəaliyyəti, habelə, Azərbaycanda gənclər siyasəti sahəsində görülən işlər haqqında video kliplər nümayiş olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMINİYANIN İQTİSADİYYAT NAZİRİ, AZƏRBAYCAN-RUMINİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİ ADRİYAN VİDYANUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Rumıniyanın iqtisadiyyat naziri, Azərbaycan-Rumıniya hökumətlərarası komissiyanın həmsədri Adriyan Vidyanunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Rumıniya arasında əlaqələrin uğurla inkişaf etdiyini, əməkdaşlığımızın səviyyəsinin məmnunluq doğurduğunu bildirdi, əlaqələrimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. İqtisadi əlaqələri yeni sahələrlə daha da zənginləşdirməyin zəruriliyini vurğulayan Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Rumıniyanın iqtisadiyyat naziri, Azərbaycan-Rumıniya hökumətlərarası komissiyanın həmsədri Adriyan Vidyanunun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri uğurlu keçəcək və əməkdaşlığımızın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.

Rumıniyanın iqtisadiyyat naziri, Azərbaycan-Rumıniya hökumətlərarası komissiyanın həmsədri Adriyan Vidyanu Rumıniya Prezidenti Trayan Beseskunun salamlarını dövlətimizin başçısına çatdırdı. O bildirdi ki, Rumıniya Prezidenti Azərbaycan Prezidentinin Buxarestə rəsmi səfərini səbirsizliklə gözləyir. Bu səfərin Rumıniya üçün əhəmiyyətli

olacağını deyən Adriyan Vidyanu ölkəsinin Azərbaycan ilə ikitərəfli münasibətlərin genişləndirilməsinə ümidlə baxdığını qeyd etdi.

Dövlətimizin başçısı Prezident Trayan Beseskunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rumıniyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN XARİCİ İŞLƏR NAZİRİ, ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ XANIM DORA BAKOYANNİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Yunanıstanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Dora Bakoyannini qəbul etmişdir.

Əvvəlcə dövlətimizin başçısının Yunanıstanın xarici işlər naziri xanım Dora Bakoyanni ilə görüşü oldu. Xanım Dora Bakoyanni Yunanıstan Prezidenti Karolos Papulyasın və Baş nazir Kostas Karamanlisin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu. Münasibətlərimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu, ikitərəfli əlaqələrimizin perspektivləri müzakirə edildi.

Dövlətimizin başçısı Yunanıstan Prezidenti Karolos Papulyasın və Baş nazir Kostas Karamanlisin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Yunanıstanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

Sonra görüş geniş tərkibdə davam etdirildi. Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın perspektivləri barədə məsələlər müzakirə edildi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ: TƏSİR EDƏN AMİLLƏR VƏ PRİORİTETLƏR

Sovet İttifaqının dağılması ilə Azərbaycan xalqı öz müstəqilliyini yenidən bərpa etmək və dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət qazandı. Həmin vaxtlar çoxları qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalmış, ağır iqtisadi böhran və daxili qeyri-sabitliyin hökm sürdüyü Azərbaycanın bu mürəkkəb vəziyyətdən çıxacağına və uğur qazanacağına inanmırdı.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin prezident seçilməsindən sonra xalqın firavanlığı və ölkənin davamlı inkişafı üçün ilkin şərt olan Azərbaycanın müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsi istiqamətində uğurlu strategiyanın həyata keçirilməsinə başlanıldı. Müasir müstəqil Azərbaycanın memarı və qurucusu olan ümummilli lider Heydər Əliyev dövlət institutlarını təkmilləşdirdi, çox ehtiyac duyulan xarici əlaqələrimizi genişləndirdi, hərtərəfli enerji strategiyasını reallaşdırdı və ölkənin uzunmüddətli inkişafının təməlini qoydu. Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə yönəlmiş strategiyası onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bugünkü Azərbaycan dövlətçiliyinin kökləri müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlıdır. 23 aylıq ömür yaşamış Azərbaycan Xalq Cümhuriyyəti regionda geosiyasi vəziyyətin dəyişməsi ilə süqut etmişdir. Qısa müddət ərzində mövcud olmasına baxmayaraq, Xarici İşlər Nazirliyi də daxil olmaqla əsas dövlət institutları məhz həmin dövrdə yaradılmışdır. Biz Azərbaycanın diplomatik xidmətinin yaranmasının 90 illiyini bu il böyük fəxr hissi ilə qeyd edirik.

Azərbaycan iqtisadiyyatda yüksək artıma, habelə sabit siyasi sistemə malik, sürətlə inkişaf edən gənc demokratik ölkədir. Azərbaycan öz milli maraqlarının gerçəkləşdirilməsi, habelə regional və qlobal mövqelərinin möhkəmləndirilməsi üçün özünün iqtisadi və siyasi imkanlarından məharətlə istifadə edir. Azərbaycan regionda lider və beynəlxalq aləmdə etibarlı tərəfdaş ölkə kimi tanınmışdır. Ölkəmiz bütün regional məsələlərdə əsas oyunçudur və regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycansız gerçəkləşə bilməz.

Azərbaycanın xarici siyasət istiqamətləri və strateji seçimləri aşağıdakı təsiredici amillərlə müəyyənləşir:

Ermənistanın Azərbaycana qarşı təcavüzü. - Hərbi işğal, etnik təmizləmə, bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarının kobudcasına pozulması, ölkənin böyük bir hissəsində tarixi və mədəni irsimizin ermənilər tərəfindən dağıdılması faktlarını özündə cəmləşdirən Ermənistanın Azərbaycana qarşı təcavüzü ölkəmizin təhlükəsizlik mühitinin əsas təyinedici amili olaraq qalır və bu da öz növbəsində Azərbaycanın təhlükəsizlik və xarici siyasətinin formalaşdırılmasında əsas rol oynayır.

Qlobal proseslər. - Azərbaycan öz müstəqilliyini bərpa etməsi ilə eyni vaxtda beynəlxalq münasibətlər sistemi köklü surətdə dəyişməyə başlamışdır və son iyirmi il ərzində cərəyan edən hadisələr göstərir ki, sistem mahiyyətcə hələ də rəqabətlidir. Dövlətlər müxtəlif və bəzən də mübahisəli xarici siyasət məqsədləri güdürlər. "İkiqütblülük" və "çoxqütblülük" konsepsiyalarının toqquşmasında təzahür edən çağdaş dünya nizamına dair ziddiyyətli təsəvvürlər dünyanın müxtəlif yerlərində siyasi və iqtisadi nüfuz uğrunda rəqabəti canlandırmışdır. Davamlı olacağı təqdirdə bu rəqabət qlobal və regional təhlükəsizlik mühitinə mənfi təsir göstərəcəkdir.

Strateji coğrafi yerləşmə. - Azərbaycanın coğrafi yerləşməsi bir çox mənada strateji əhəmiyyətə malikdir. Yaranmaqda olan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat və enerji dəhlizi üzərində böyük ticarət yollarının kəsişməsində yerləşməsi ölkəyə enerji və infrastruktur mərkəzinə çevrilmək üçün əhəmiyyətli imkan verir. Ölkənin belə bir mərkəzə çevrilməsi üçün Azərbaycanın coğrafi yerləşməsi kimi üstünlükdən tam istifadə edilməsi vacib şərtdir.

Zəngin təbii ehtiyatlar. - Azərbaycanın zəngin təbii sərvətlərə malik olması nəinki ölkənin çiçəklənməsinə və xalqın rifahına xidmət edir, eyni zamanda bu fakt respublikanın milli təhlükəsizliyinin, siyasi müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsində mühüm amildir. Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının işlənilməsi və dünya bazarlarına nəqli sonradan Azərbaycanın enerji strategiyası adlandırılan siyasətin əsas elementinə çevrilmişdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi bu strategiya Azərbaycanın xarici siyasətinin təməl daşıdır.

Müasir dövrdə təhlükəsizliyə təhdidlər və risklər. - Beynəlxalq arenada qeyri-dövlət aktorları olan beynəlxalq terrorçu qruplaşmalar, hərbi separatçı hərəkatlar, etnik və dini ekstremizm, mütəşəkkil cinayətkarlıq şəbəkələri, habelə qeyri-qanuni miqrasiya, narkotik maddələr və insan alveri, kütləvi qırğın silahlarının yayılması, vacib enerji və nəqliyyat infrastrukturunda sabotaj riski və son illərin fenomeni olan kiber hücumlar qlobal və regional təhlükəsizlik mühitinə ciddi təsir göstərən amillərdir.

Məsuliyyət və özünəməxsusluq. - Azərbaycan tarixi əsas etibarilə müxtəlif regional güclər arasındakı müharibələr və real müstəqillik uğrunda gedən davamlı mübarizə tarixindən ibarətdir. Bu "irs" kiçik ölkələrin suverenliyi və hüquqlarını təmin edə biləcək beynəlxalq mexanizmlərin gücləndirilməsinə töhfə vermək üçün Azərbaycanın beynəlxalq birliyin fəal və məsuliyyətli üzvü olmasını tələb edir. Məsuliyyətin kökləri Azərbaycanın hər zaman müxtəlif dini etiqada, dünyagörüşünə, etnik qruplara aid insanların birgə yaşaması və tolerantlıq kimi sosiyyəvi xüsusiyyətlərinə bağlıdır. Azərbaycan dərin tarixi köklərə malik, həqiqətən də etnik və dini dözümlülük baxımından nadir dünyəvi müsəlman ölkəsidir. Azərbaycan 1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublika elan edilmişdir. Əsrlər boyu burada müsəlman, xristian və yəhudilər bir-biri ilə dinc yanaşı yaşamışlar. Mədəniyyətlər arasında körpü rolunu oynayan Azərbaycan beynəlxalq birliyin mənafeyi naminə bu dəyərləri təşviq etmək məsuliyyətini hiss edir.

Azərbaycan beynəlxalq əlaqələr sisteminə cəlb olunan bütün dövlətlərə münasibətdə onların ərazi böyüklüyü, hərbi gücü və iqtisadi potensialından asılı olmayaraq, dövlətlərin suveren bərabərliyi prinsipinə əsaslanan müstəqil xarici siyasət həyata keçirir. Şəffaflıq və öncədən müəyyənləşdirmə Azərbaycanın xarici siyasətini səciyyələndirən əsas xüsusiyyətlərdir. Azərbaycan bütün ölkələrlə dostluq və qarşılıqlı səmərəli ikitərəfli və çoxtərəfli əlaqələrini inkişaf etdirməklə öz regionunda və onun sərhədlərindən kənarda sülh içində birgə yaşama və mehriban qonşuluğu təşviq etməkdə çox maraqlıdır.

Ölkəmiz mövcud beynəlxalq təhlükəsizlik sisteminin təməl daşı olan beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasət həyata keçirir. Bütün dövlətlərin suverenliyi, ərazi bütövlüyü və daxili işlərinə qarışmamaq Azərbaycanın başqa ölkələrlə qarşılıqlı əlaqələrində əsas prinsiplərdir. Azərbaycanın ölkənin milli maraqlarının təmin olunmasına və onun qlobal və regional mövqeyinin möhkəmləndirilməsinə yönələn xarici siyasət prioritetləri aşağıdakılardır:

Azərbaycanın ərazi bütövlüyünün bərpası. - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ölkəmizin təhlükəsizliyi ilə bağlı narahatlıq doğuran təxirəsalınmaz məsələ və xarici siyasətimizin bir nömrəli prioriteti hesab olunur. Münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi danışıqların ilk günlərindən dəyişməz olaraq qalır. Biz münaqişənin həlli üçün erməni hərbi qüvvələrinin işğal olunmuş Azərbaycan ərazisindən çıxarılması, bu ərazilərdə Azərbaycanın pozulmuş suveren hüquqlarının bərpası, məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması, Azərbaycanın Dağlıq Qarabağ regionunda ölkənin hərtərəfli iqtisadi inkişafı çərçivəsində kommunikasiyaların bərpası və sosial-iqtisadi inkişaf üçün şərtlərin müəyyən olunması, qanuni və demokratik proses çərçivəsində Dağlıq Qarabağ regionunda Azərbaycan və erməni icmalarının dinc yanaşı yaşamasını və Azərbaycan Respublikasının tərkibində muxtariyyətini təmin edəcək statusun müəyyənləşdirilməsindən başqa bir yol görmürük.

Dağlıq Qarabağın öz müqəddəratını təyin etməsi yalnız etnik təmizləməyə məruz qalmış azərbaycanlıların öz doğma yurdlarına qaytarılmasından sonra və yalnız Azərbaycanın tərkibində mümkündür. Azərbaycan heç bir zaman öz ərazi bütövlüyünü müzakirə obyektinə çevirməyəcəkdir.

Münaqişənin həllinin hüquqi və siyasi əsasları BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi A/RES/62/243 saylı qətnaməsi, habelə ATƏT və Avropa Şurasının müvafiq sənədləri və qərarlarında əks olunan beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. Bütün bu sənədlər Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını təsdiqləyir. Bundan əlavə, Strasburq/Kehl sammitində NATO Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll olunmasına yönəlmiş səyləri bir daha dəstəkləmişdir.

Azərbaycan münaqişənin sülh yolu ilə nizamlanmasına sadiqdir və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ədalətli və davamlı həllinin dəstəklənməsi üçün bütün səylərin səfərbər olunması məqsədi ilə öz tərəfdaşları, beynəlxalq və regional təşkilatlarla aparılan işi davam edəcəkdir. Buna baxmayaraq, sülh prosesinin uğurla nəticələnməsi Ermənistan tərəfinin eynilə bu prosesə sadiqliyindən və konstruktiv yanaşmasından, həmçinin beynəlxalq birliyin, ATƏT-in bütün üzv dövlətlərinin, xüsusən də Minsk qrupunda təmsil olunan və həmsədrlik edən ölkələrin fəal töhfəsindən asılıdır.

Beynəlxalq sülh və sabitliyin təşviqi. - İstər ənənəvi, istərsə də yeni təhlükə və problemlərin qarşısı fəal beynəlxalq səylər hesabına alına bilər və onların birtərəfli qaydada aradan qaldırılması mümkün deyildir.

Azərbaycan beynəlxalq terrorizm və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə ilə bağlı çoxtərəfli və ikitərəfli çərçivədə beynəlxalq əməkdaşlığa fəal cəlb olunmuşdur. Terrorizmə qarşı mübarizəyə dair bütün beynəlxalq sənədlərə qoşulan Azərbaycan bu sahəyə dair daim məlumat mübadiləsi həyata keçirir və müvafiq məruzələr hazırlayır. Bizim sülhməramlılar Kosovo, İraq və Əfqanıstanda beynəlxalq birliyin digər üzvlərindən olan əsgərlərlə çiyin-çiyinə xidmət göstərmişlər. Azərbaycan hökuməti və şirkətlərinin Əfqanıstana yardımı və bu ölkənin bərpası ilə bağlı səyləri ehtiyac içində yaşayan əhali üçün də imkanlar yaradır.

Azərbaycan istər "Kütləvi qırğın silahlarının yayılmaması haqqında Saziş", istərsə də digər ölkələrlə əməkdaşlıq çərçivəsində ixraca nəzarət və sərhəd təhlükəsizliyi tədbirləri vasitəsilə kütləvi qırğın silahlarının yayılmaması istiqamətində fəaliyyət göstərir. Azərbaycan kütləvi qırğın silahlarının yayılmaması ilə bağlı beynəlxalq rejimin gücləndirilməsinə tərəfdardır və müvafiq nəzarətin həyata keçirilməsi üçün dünya birliyi və müvafiq təşkilatlarla əməkdaşlığı davam etdirəcəkdir.

Transmilli cinayətkarlıq və insan alverinə qarşı mübarizə region ölkələri ilə, eləcə də BMT, ATƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın gündəliyində duran məsələdir.

Cənubi Qafqazdakı sabitliklə ümumilikdə qlobal təhlükəsizlik arasında əlaqənin mövcudluğu məlum məsələdir. Cənubi Qafqazdakı uzadılmış münaqişələrin regiondakı təhlükəsizliyə və sabitliyə zərbə vurması, region ölkələrinin iqtisadi və siyasi inkişafına maneə yaratması və regiondakı real əməkdaşlığın qarşısını alması səbəbindən region ölkələri və geniş anlamda beynəlxalq birlik üçün xüsusi narahatlıq kəsb edir.

Səmərəli çoxtərəfli beynəlxalq münasibətlər sisteminin təşviqi. - Beynəlxalq sülhün ən yaxşı halda səmərəli çoxtərəfli münasibətlər sistemi vasitəsilə əldə edilməsinə əmin olaraq, Azərbaycan bütün dünyada və regionumuzda beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində BMT-nin rolunun vacibliyini qəbul edir. BMT-nin Nizamnaməsində öz əksini tapan beynəlxalq hüququn norma və prinsipləri mövcud beynəlxalq təhlükəsizlik sisteminin təməl daşını təşkil edir. Azərbaycan XXI əsrin problemlərinə və təhdidlərinə daha səmərəli şəkildə cavab vermək üçün beynəlxalq hüquq sisteminin möhkəmləndirilməsi və qəbul edilmiş qərarların həyata keçirilməsi də daxil olmaqla, BMT-nin operativ imkanlarının artırılmasına yönələn islahatları dəstəkləyir.

ATƏT ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətində mühüm yer tutur. ATƏT-in Helsinki Yekun Aktı və digər sənədlər bu təşkilata üzv olan ölkələr arasında münasibətləri tənzimləyən norma və prinsipləri müəyyən edir və kollektiv təhlükəsizliyin saxlanılması üçün əsas yaradır. BMT kimi, ATƏT-in də fəaliyyətinin onun bütün sənədlərinə və mexanizmlərinə əsaslanmış əməli nəticələr vasitəsilə səmərəliliyinin artırılmasına ehtiyac vardır.

Eyni zamanda, milli maraqlarımızın təmin olunması, daxili siyasi və institusional islahatların səmərəli şəkildə həyata keçirilməsi, həmçinin Azərbaycan qanunvericiliyinin Avropanın norma və standartlarına uyğunlaşdırılması nöqteyi-nəzərdən Avropa Şurası ilə əməkdaşlıq vacibdir.

Azərbaycan regional çoxtərəfli əməkdaşlığı çox vacib hesab edir və GUAM-ın əsas yaradıcısı kimi biz regionda daha mehriban və daha sabit münasibətlərə nail olunmasına öz töhfəmizi veririk.

Azərbaycanın həm Qərb, həm də Şərq mədəniyyətinə məxsus olması ilə bağlı nadir xüsusiyyəti dini məlumatsızlığın və dözümsüzlüyün aradan qaldırılması üçün dinlərarası dialoqda mühüm rol oynamaq üçün imkanlar yaradır. 2007-ci ildə İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirləri Şurasının sədri kimi Azərbaycan İslam Konfransı Təşkilatının strukturlarının və funksiyalarının daha da gücləndirilməsi və Avropa təşkilatları ilə əməkdaşlıq mexanizmlərinin yaradılması istiqamətində səylər göstərmişdir. Azərbaycan sivilizasiyalar arasındakı dialoqda fəal iştirak edir və bu məsələyə töhfə verən ilk ölkələr sırasında olmuşdur. Təqdirəlayiq hal kimi qeyd etmək lazımdır ki, ölkəmizin bu istiqamətdə fəaliyyəti Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilir. Habelə beynəlxalq səviyyədə tanınmış elmi tədqiqatçıların və mütəxəssislərin iştirakı ilə Bakıda mədəniyyətlərarası dialoqa dair üç möhtəşəm beynəlxalq tədbir təşkil olunmuşdur.

Qarşılıqlı faydalı ikitərəfli əlaqələrin inkişafı. - Azərbaycan regional əməkdaşlığı regionda sülhün və sabitliyin qorunub saxlanılması üçün mühüm amil hesab edir və yuxarıda qeyd edilmiş səbəblərə görə Ermənistan istisna olmaqla bütün yaxın qonşuları ilə qarşılıqlı faydalı dostluq münasibətləri qurmuşdur. Qonşu dövlətlərlə əlaqələrin daha da inkişafı həllini gözləyən regional problemlərin qarşılıqlı surətdə qəbul olunan şəkil-

də nizamlanması variantının tapılmasına imkan yaradacaqdır.

Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli strateji tərəfdaşlıq və dərinləşən əməkdaşlıq regionda sabitliyin göstəricisinə çevrilmişdir. Rusiya ilə münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir və bu əməkdaşlığın genişlənməsi davam edir. Azərbaycan İranla mütərəqqi və gələcəyə istiqamətlənmiş dialoq aparır, habelə Xəzər dənizi ilə Avropa regionu arasında körpü yaratmaq məqsədi ilə Orta Asiya dövlətləri ilə münasibətlərini inkişaf etdirir.

Azərbaycan strateji tərəfdaşı olan ABŞ ilə qlobal problemlər və təhlükələrə qarşı mübarizə aparmaq məqsədi ilə ikitərəfli və çoxtərəfli çərçivədə əməkdaşlıq edir. Azərbaycan ABŞ-ın rəhbərlik etdiyi antiterror koalisiyasının üzvüdür, beynəlxalq birliyin terrorizmə qarşı mübarizəsini hərtərəfli şəkildə dəstəkləyir və bu istiqamətdə bir sıra əhəmiyyətli addımlar atır. Biz ABŞ-la, habelə iqtisadi, enerji təhlükəsizliyi və demokratik inkişafın təşviqi sahələrində də əməkdaşlığımızın genişləndirilməsi istiqamətində iş aparırıq.

Coğrafi baxımdan Qərb ilə Şərqin kəsişməsində yerləşən Azərbaycan Avropa ölkələrindən mal və xidmətlərin böyüyən Asiya bazarlarına və əksinə daşınması üçün təbii keçid imkanını təmin edir. Bu mənada Orta Şərq və Asiya ölkələri ilə əlaqələr Azərbaycanın xarici siyasətində vacib yer tutur. Yaranmaqda olan siyasi güc mərkəzləri və sürətlə artan iqtisadiyyatlara malik bu regionlar iqtisadi, telekommunikasiya və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün perspektivlər açır.

Avropa və Avratlantik strukturlara inteqrasiya. - Azərbaycan Avropa və Avratlantik birliyin dəyərləri ilə bölüşür, çoxtərəfli Transatlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını inkişaf etdirərək Avropa qitəsində və onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə töhfə verir. Azərbaycan 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramına qoşulan ilk ölkələrdən biri olmuşdur və Avratlantik Tərəfdaşlıq Şurası və digər vasitələrlə NATO ilə mümkün tərəfdaşlıq mexanizmlərindən tam şəkildə bəhrələnir. Azərbaycan Fərdi Tərəfdaşlığın Fəaliyyəti Planının (FTFP) birinci mərhələsini uğurla başa vurmuşdur və FTFP-in ikinci mərhələsinin icrasına başlamışdır ki, bu da növbəti illərdə NATO-Azərbaycan münasibətlərini istiqamətləndirəcəkdir.

Azərbaycanın Aİ ilə əməkdaşlığı ölkənin təhlükəsizlik ehtiyacları çərçivəsindən kənara çıxaraq iqtisadi, siyasi və sosial sahələrdə də genişlənir. Avropa Qonşuluq Siyasəti çərçivəsində 2006-cı ildə qəbul olunmuş Aİ-Azərbaycan Fəaliyyət Planı Azərbaycan və Aİ arasında siyasi dialoqu gücləndirir, siyasi, iqtisadi və institusional islahatlar sahələrində əməkdaşlığı inkişaf etdirir, əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə qaldırılması üçün əsaslar yaradır. Aİ-Azərbaycan Fəaliyyət Planının yerinə yetirilməsi Aİ ilə Azərbaycan arasında qarşılıqlı siyasi və iqtisadi asılılığın daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Biz Aİ-nin Şərq Tərəfdaşlığı Təşəbbüsünü alqışlayır və biz bunun Aİ ilə əməkdaşlığımızı sürətləndirəcəyinə ümid edirik.

Davamlı inkişaf və Avropanın enerji və nəqliyyat dəhlizinin genişləndirilməsi. - Neft və qaz kəmərlərinin, digər müvafiq infrastrukturun tikintisi də daxil olmaqla, Azərbaycanın neft sektorunun inkişafı artıq ölkənin iqtisadi yüksəlişinə töhfə vermiş, regional və qlobal əməkdaşlıq üçün əlavə imkanlar yaratmışdır. Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri və Cənubi Qafqaz qaz kəməri kimi regional infrastruktur layihələrinin

uğurla həyata keçirilməsi ilə nəticələnən bu əməkdaşlıq Cənubi Qafqaz regionunun əhəmiyyətini artırmış, Avropa və qlobal enerji təhlükəsizliyinə töhfə vermiş və Avropa üçün yeni, həyati əhəmiyyətli enerji mənbələrinin əsasını qoymuşdur. Azərbaycanın karbohidrogen ehtiyatları strateji coğrafi yerləşmə ilə birlikdə ölkəni əhəmiyyətli enerji mənbəyinə və beynəlxalq enerji təchizatı sisteminin vacib tərkib hissəsinə çevirir. Yalnız enerji istehsalçısı və ixracçısı kimi deyil, eyni zamanda, vacib tranzit ölkəsi kimi Azərbaycanın regionun mərkəzi oyunçusu və beynəlxalq arenada əhəmiyyətli aktor olaraq imkanları getdikcə artır.

Azərbaycanın coğrafi yerləşməsi ölkənin dünya bazarlarına çıxışını şaxələndirmək imkanı verir. Cənubi Qafqaz regionu ərazisindən beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin genişləndirilməsi və Azərbaycanın tranzit imkanlarının gücləndirilməsi ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı strategiyasının vacib elementidir. Bu mənada, Azərbaycan Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi (TRASECA) layihəsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizinin həyata keçirilməsinə fəal cəlb olunmuşdur. Habelə, Azərbaycan Türkiyə və Gürcüstanla geostrateji əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin qurulması istiqamətində əməkdaşlıq edir. Bu xəttin həyata keçirilməsi regional əməkdaşlığın sürətləndirilməsi və gücləndirilməsi üçün vacib addım olacaq, eyni zamanda, qlobal təsirlərə malik yeni regional imkanlar yaradacaqdır.

Bazarlar və xarici sərmayələrin rəqabəti, fiskal və monetar siyasətlərin əlaqələndirilməsi məqsədi ilə mövcud beynəlxalq kommersiya şəbəkələrini cəlb etmək zərurəti ilə səciyyələnən beynəlxalq mühit fəal xarici iqtisadi siyasətin həyata keçirilməsini tələb edir. Azərbaycan iqtisadiyyatın qeyri-neft sektorlarına xarici sərmayələrin cəlb edilməsi, ölkədə istehsal olunan malların beynəlxalq bazarlara mancəsiz keçidinin təmin olunması, ticarət, sərmayə qoyuluşu və iqtisadi yüksəlişin gücləndirilməsi vasitəsilə davamlı iqtisadi inkişafa töhfə vermək üçün regiondakı və ondan kənarda yerləşən ölkələrlə əməkdaşlıqda maraqlıdır. Azərbaycanın iqtisadi inkişaf fəlsəfəsi çox sadədir - qonşu ölkələrin çiçəklənməsi qarşılıqlı fayda gətirir.

Azərbaycan xarici əlaqələrinin coğrafiyasını əhəmiyyətli dərəcədə genişləndirmiş, beynəlxalq aləmdə daha çox nəzərəçarpan və hörmət edilən ölkəyə çevrilmiş və xarici siyasət məqsədlərini daha da təkmilləşdirmişdir. Avstraliya istisna olmaqla, bizim bu gün dünyanın bütün qitələrində diplomatik nümayəndəliklərimiz vardır. İkitərəfli sənədlərin imzalanması, qarşılıqlı yüksək səviyyəli səfərlər, beynəlxalq konfrans və dünya forumlarında iştirak bizim gündəlik diplomatik həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir.

Diplomatik xidmət orqanlarımızın rəhbərlərinin son müşavirəsində Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, xarici siyasətimiz bütün istiqamətlərdə uğurludur, biz işimizi məhz bu istiqamətdə davam etdirəcəyik və xarici siyasət fəaliyyətimizdə fəal olmalıyıq.

Müstəqilliyimizin bərpa olunmasından keçən on səkkiz il ərzində Azərbaycanın xarici siyasət strategiyasının uğurlu olmasının sübutu ondan ibarətdir ki, bu dövr ərzində ölkəmiz daim dəyişən beynəlxalq mühitə uyğunlaşmaqla yanaşı, eyni zamanda regional liderə çevrilməyə nail olmuşdur.

Milli maraqların həyata keçirilməsi, müstəqilliyin və suverenliyin gücləndirilməsi, ərazi bütövlüyünün bərpasına istiqamətlənmiş fəal xarici siyasət strategiyası, habelə özünəməxsus və bəzən ziddiyyətli siyasət yürüdən regional və regiondan kənarda olan aktorlarla modus vivendi-nin tapılmasına imkan yaradan elastiklik arasında mürəkkəb balans Azərbaycanın xarici siyasətinin səciyyəvi xüsusiyyətidir.

Diplomatik xidmətimizin 90 illik yubileyi ilə eyni vaxtda xarici siyasətimizin keçdiyi yolu nəzərdən keçirərək qeyd etməliyik ki, çoxsaylı uğur və nailiyyətlərimizin olması ilə yanaşı, hələ də bir sıra məsələlərin həlli, ən əsası isə ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində işlərin daha da gücləndirilməsi Xarici İşlər Nazirliyinin başlıca vəzifəsi olaraq qalır və əminəm ki, Prezident İlham Əliyevin rəhbərliyi altında biz tezliklə bütün bu uğurlara nail olacağıq.

Elmar Məmmədyarov
Azərbaycan Respublikasının xarici işlər naziri

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

İyulun 2-də Polşa Respublikasının Prezidenti Lex Kaçinski Azərbaycan Respublikasına ikigünlük rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Polşanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Polşa dövlətinin başçısını və xanımını hava limanında Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar Polşa Prezidentinə və xanımına gül dəstəsi təqdim etdilər.

Prezident Lex Kaçinski və Baş nazirin birinci müavini Yaqub Eyyubov hava limanının ali qonaqlar üçün salonunda qısa protokol söhbəti keçirdilər.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

İyulun 2-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Polşa Prezidenti Lex Kaçinskini və xanımı Mariya Kaçinskanı səmimiyyətlə qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Polşa Prezidentinə raport verdi.

Polşanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları İlham Əliyev və Lex Kaçinski fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Polşa Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Lex Kaçinskiyə, Polşa nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səslərı altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin təkbətək görüşü olmuşdur.

Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin Avropa İttifaqı çərçivəsində əməkdaşlıq baxımından əhəmiyyəti vurğulandı.

Polşa Prezidentinin Azərbaycana rəsmi səfərinin əlaqələrimizin daha da genişlənməsində yeni bir mərhələ olduğu qeyd edildi.

Görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Biz Sizin səfərinizə böyük əhəmiyyət veririk. Bu gün biz bir çox məsələləri, o cümlədən ikitərəfli münasibətlərə, regional inkişafa və beynəlxalq problemlərə dair məsələləri geniş şəkildə müzakirə etdik. Münasibətlərimiz möhkəmdir və bir çox sahələri əhatə edir. Biz müxtəlif tədbirlərdə prezidentlər səviyyəsində dəfələrlə görüşmüşük. Sizin bu gün və sabah Azərbaycana rəsmi səfəriniz indiyədək əldə olunmuş nailiyyətləri bir daha nəzərdən keçirmək üçün yaxşı fürsətdir. Bu gün ölkələrimiz arasında tərəfdaşlığı daha da gücləndirəcək mühüm sənədlər imzalanacaqdır.

Əminəm ki, həmin sənədlərin həyata keçirilməsi ölkələrimiz arasında gələcək əməkdaşlığı daha da genişləndirəcəkdir. Əlaqələrimiz bir çox sahələri əhatə edir. Siyasi, iqtisadi, humanitar və enerji sahələrini qeyd etmək olar. Hər bir istiqamətdə bizim güclü qarşılıqlı anlaşmamız vardır.

Sizi bir daha salamlayır, səfəriniz zamanı Sizə uğurlar arzulayıram.

Polşa Prezidenti Lex KAÇİNSKİ səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Çox sağ olun, cənab Prezident.

Siz düzgün qeyd etdiniz ki, biz dəfələrlə görüşmüşük və münasibətlərimiz müxtəlif sahələri əhatə edir. Ölkələrimiz arasında mövcud tərəfdaşlıq böyük əhəmiyyət kəsb edir və bu tərəfdaşlığın gələcəkdə yaxşı inkişaf perspektivləri vardır.

Əvvəlcə mən enerji sahəsindəki əməkdaşlığımızı qeyd etmək istəyirəm. Çünki bunun xüsusi əhəmiyyəti vardır. Siyasi səviyyədə əlaqələrimiz yüksəkdir. Bu gün bir sıra sənədlər imzalanacaqdır. Onlardan biri enerji sahəsində əməkdaşlığa aiddir. Həmin sənəd mövcud əməkdaşlığımıza əlavə dəstək verəcəkdir. Digər sənəd isə siyasi əməkdaşlığımıza, Prezidentlərin Məşvərət Komitəsinin Nizamnaməsinə aiddir.

AZƏRBAYCAN-POLŞA SƏNƏDLƏRİNİN İMZALANMASI

İyulun 2-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin iştirakı ilə Azərbaycan-Polşa sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Lex Kaçinski "Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin Məşvərət Komitəsinin Nizamnaməsi"ni imzaladılar.

"Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Polşanın "Grupa Lotos" Səhmdar Cəmiyyəti arasında niyyət haqqında Protokol"u ARDNŞ-in prezidenti Rövnəq Abdullayev və "Grupa Lotos" Səhmdar Cəmiyyəti idarə heyətinin sədri Pavel Olexnoviç imzaladılar.

"Azərbaycan Respublikası Təhlükəsizlik Şurası və Polşa Respublikası Milli Təhlükəsizlik Bürosu arasında 2009-2010-cu illər üçün əməkdaşlıq cədvəli"ni Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təhlükəsizlik Şurasının katibi Ramiz Mehdiyev və Polşa Respublikası Milli Təhlükəsizlik Bürosunun rəhbəri, dövlət katibi Aleksandr Şçıqlo imzaladılar.

POLŞA PREZİDENTİ "HEYDƏR ƏLİYEV" ORDENİ İLƏ TƏLTİF EDİLMİŞDİR

İyulun 2-də sənədlərin imzalanma mərasimindən sonra Polşa Prezidenti Lex Kaçinskinin təltif etmə mərasimi olmuşdur.

Polşa ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsindəki xüsusi xidmətlərinə görə Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin ölkəmizin ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxundu.

Azərbaycan Prezidenti İlham ƏLİYEV Polşa Prezidenti Lex Kaçinskini təbrik edərək dedi:

- Hörmətli Cənab Prezident, mən Sizi Azərbaycan dövlətinin ən ali mükafatı - "Heydər

Əliyev" ordeni ilə məmnuniyyətlə təltif edirəm.

Siz Azərbaycan xalqının yaxın dostusunuz və Polşa-Azərbaycan ikitərəfli əlaqələrinin inkişafında Sizin xüsusi xidmətləriniz vardır. Sizin önəmli təşəbbüsləriniz Polşa ilə Azərbaycan arasında energetika sahəsində və geniş mənada Avropada enerji məsələlərinin həlli işində çox mühüm rol oynamışdır. Son üç il ərzində bu, Sizin Azərbaycana beşinci səfərinizdir. Bu, iki ölkə arasında çox güclü əlaqələrin bariz nümunəsidir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması prinsiplərini Siz həmişə müdafiə edirsiniz və bütün Azərbaycan xalqı buna görə Sizə minnətdardır.

Sizə möhkəm can sağlığı və gələcək fəaliyyətinizdə yeni uğurlar arzu edirəm.

İndi isə icazə verin bu yüksək mükafatı Sizə təqdim edim.

Azərbaycan Prezidenti İlham Əliyev ordeni Polşa Prezidenti Lex Kaçinskiyə təqdim etdi.

Polşa Prezidenti Lex KAÇİNSKİ təşəkkür edərək dedi:

- Cənab Prezident!

Bu ordeni Sizin tərəfdən qəbul etməkdən şərəf hissi duyuram. Çünki bu orden Azərbaycanın müstəqilliyinin rəmzidir. Bu elə bir müstəqillikdir ki, Sizin ölkəniz də, bizim ölkəmiz də müstəqilliyi eyni zaman kəsiyində qazanmışdır. Məhz bu elə bir müstəqillik idi ki, qəti surətdə və prinsipial qaydada həm Azərbaycan, həm də Polşa xalqlarının həyatında çox böyük, ciddi dəyişikliklərə səbəb oldu. Mən uzun müddət siyasətlə məşğul olmuşam. Daha sonra isə öz ölkəmin prezidenti seçildim və qarşıda duran əsas vəzifələrdən biri 18 il əvvəl müstəqilliyini qazanmış, müstəqil inkişaf yoluna qədəm qoymuş ölkələrlə münasibətlərin qurulmasından ibarət idi. Bu, həmçinin Azərbaycan və Polşanın maraqlarını anlayan tərəflərin, dairələrin də uğuru idi. Eyni zamanda, vacib məsələ ondan ibarətdir ki, həm böyük, həm kiçik xalqların muxtariyyətə və müstəqilliyə tam hüquqları vardır.

İcazə verin, Dağlıq Qarabağ məsələsi barədə bir-iki söz deyim. Bu məsələ ilə bağlı şəxsən məndə heç bir şəkk-şübhə yoxdur. Güc tətbiq etməklə hər hansı bir ölkənin ərazi bütövlüyünün pozulması qəbuledilməzdir. Heç kəs hətta ən güclü bir himayədarın bayrağı altında hərəkət etməli deyil. Mən bilirəm ki, elə bu məsələdə işlər məhz belə də baş verdi. Mən təbii ki, bu problemin sülh yolu ilə nizamlanmasının tərəfdarıyam. Lakin əslinə qalsa bu məsələnin həlli məhz bir formada olmalıdır. Azlıqların hüququnun qorunmasına əməl olunmalı, lakin Azərbaycanın ərazi bütövlüyünün saxlanması, bərpası təmin edilməlidir.

Bir daha Sizə minnətdaram.

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI

İyulun 2-də Polşa Prezidentinin təltif etmə mərasimi başa çatdıqdan sonra prezidentlər İlham Əliyev və Lex Kaçinski mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV bəyanatla çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Əziz dostlar!

İlk növbədə, cənab Prezident, Sizi və nümayəndə heyətinizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz. Bu, Sizin Azərbaycana son üç il ərzində etdiyiniz beşinci səfərdir. Bu, özlüyündə gözəl göstəricidir. Bu onu göstərir ki, bizim aramızda əlaqələr çox yüksək səviyyədədir, çox intensiv xarakter daşıyır. Nəzərə alsaq ki, mən də öz prezidentlik dövrümdə Polşaya beş dəfə səfər etmişəm, yəqin ki, əlavə şərhə ehtiyac yoxdur. Doğrudan da Polşa-Azərbaycan münasibətləri son illər ərzində ən yüksək səviyyəyə qalxmışdır.

Bizim çox güclü siyasi əlaqələrimiz var, iqtisadi sahədə yaxşı nəticələr var, Polşa-Azərbaycan birgə iqtisadi komissiyası uğurla fəaliyyət göstərir və bir sıra sahələrdə, iqtisadi məsələlərin həlli istiqamətində çox vacib addımlar atılmışdır. Humanitar sahədə ənənəvi olaraq əməkdaşlıq mövcuddur və bu gün bu, daha da sürətlə inkişaf edir. Polyaklar əsrlər boyu Azərbaycanda yaşamış, yaratmışlar. Onların əsərləri, eyni zamanda memarlıq əsərləri bu günə qədər Bakını gözəlləşdirir.

Biz son illər ərzində, o cümlədən Sizin təşəbbüsünüzlə energetika sahəsində Polşa-Azərbaycan əlaqələrinin inkişafını müşahidə edirik. Bu sahə həm bizim üçün, həm sizin üçün, Avropa üçün çox önəmlidir, çox vacibdir. Azərbaycanın çox böyük və zəngin neft-qaz yataqları vardır. Biz 15 ilə yaxındır ki, Azərbaycanda çox uğurlu neft-qaz strategiyamızı icra edirik. Bu işlərin nəticəsində Azərbaycan neft-qaz hasilatını böyük dərəcədə artıra bilmişdir və bu gün Azərbaycan nefti və qazı müxtəlif istiqamətlərlə dünya və Avropa bazarlarına əmniyyətli şəkildə çatdırılır. Nəzərə alsaq ki, Azərbaycanın ehtiyatları, Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz yataqlarının ehtiyatları çox böyükdür, uzun illər, onilliklər bundan sonra da Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsi üçün önəmli ölkə olacaqdır.

Polşa-Azərbaycan əlaqələri bu istiqamətdə əlbəttə ki, həm ikitərəfli, həm geniş formalda həyata keçirilir. Sizin təşəbbüsünüzlə Krakov təşəbbüsü adlandırdığımız addımlar əlbəttə ki, geniş mənada regional əməkdaşlığın dərinləşməsinə xidmət göstərir. Bir neçə enerji sammitinin uğurla keçirilməsi və əldə edilmiş nailiyyətlər, qəbul edilmiş siyasi bəyanatlar bizim iradəmizi ortaya qoyur, bizim istəklərimizi ifadə edir.

Əminəm ki, bu vaxta qədər əldə edilmiş nəticələr əsasında biz növbəti illərdə yeni addımlar atmalıyıq. Artıq bu sahədə vacib tədbirlər görülür, Odessa-Brodı-Qdansk neft kəmərinin texniki-iqtisadi əsaslandırılması hazırlanıbdır və bu da çox önəmli hadisədir. Ümid edirəm ki, gələcək illərdə regional əməkdaşlıq məsələləri həll edildikcə biz istədiyimizə nail olacağıq.

Bu gün biz Xəzər dənizi-Qara dəniz-Baltik dənizi bölgəsinin əməkdaşlığından söhbət açırıq. Bu, həm energetikanı, həm siyasi əlaqələri, nəqliyyat, humanitar məsələlərin həllini, ümumiyyətlə çox məsələləri ehtiva edir. Polşa-Azərbaycan ikitərəfli münasibətləri bu məsələlərin həlli üçün çox böyük əhəmiyyətə malikdir.

Prezident İlham Əliyev Polşa Prezidenti ilə görüşdə bölgədəki vəziyyətlə bağlı fikri mübadiləsi aparıldığını, regional və beynəlxalq məsələlərin müzakirə olunduğunu dedi.

Dövlətimizin başçısı bildirdi ki, görüşdə Avropa İttifaqı ilə əlaqələrin gücləndirilməsi ilə bağlı müzakirələr də aparılmışdır.

Dövlətimizin başçısı daha sonra dedi:

- Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin gücləndirilməsi işində Polşanın çox mühüm və təsirli imkanları vardır və Polşa bu imkanlardan istifadə edir. Bu yaxınlarda "Şərq tərəfdaşlığı" Proqramının başlanması, hesab edirəm, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərdə yeni səhifənin açılması deməkdir və biz buna hazırıq. Biz enerji təhlükəsizliyi məsələlərinin həllinə öz töhfəmizi verməyə hazırıq. Digər məsələlərlə əlaqədar Avropa İttifaqı ilə Azərbaycan arasında qarşılıqlı hörmət əsasında gözəl münasibətlər qurulubdur. Növbəti illərdə biz bu münasibətləri daha da dərinləşdirəcəyik. Bir sözlə, bizim münasibətlərimiz çox geniş məna daşıyır, həm ikitərəfli münasibətlərimizi, uğurlu inkişafımızı təmin edir, eyni zamanda bunun Avropa-Azərbaycan münasibətlərinə də böyük təsiri vardır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində müəyyən irəliləyiş vardır. Sizin bugünkü və bu günə qədər ki, çıxışlarınız bu mənada xüsusi əhəmiyyət daşıyır. Çünki bu bəyanatlar birmənalıdır. Bütün məsələlər, bütün münaqişələr bir prinsip əsasında həll olunmalıdır, hər bir ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşılmalıdır. Hər bir ölkənin ərazi bütövlüyü toxunulmazdır. İstənilən münaqişə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini məhz bu əsasda tapa bilər. Birmənalı və qətiyyətli mövqeyinizə görə mən bir daha Azərbaycan xalqı adından Sizə öz təşəkkürümü bildirmək istəyirəm.

Əminəm ki, hörmətli cənab Prezident, səfəriniz çox uğurlu olacaq, Sizin üçün xoş keçəcək və səfərin nəticələri iki ölkə arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır.

Bir daha xoş gəlmisiniz.

* * *

Polşa Prezidenti Lex KAÇİNSKİ bəyanatla çıxış edərək dedi:

- Cənab Prezident!

Xanımlar və cənablar!

Hörmətli nümayəndə heyətinin üzvləri!

Mən də qeyd etmək istəyirəm ki, həqiqətən bu, mənim Bakıya beşinci səfərimdir. Cənab Prezident də öz prezidentliyi dövründə bizim ölkəyə beş dəfə səfər edib. Biz sammitlər çərçivəsində də dəfələrlə görüşmüşük. Təbii ki, bu görüşlər həm Azərbaycanın, həm də Polşanın maraqlarına xidmət edən görüşlərdir.

Mən artıq qeyd etdim ki, əməkdaşlıq üçün imkanlar böyükdür və bu imkanlar, xüsusilə də cənab Prezident, Sizin və dost ölkəmizin imkanlarından istifadə etməyimiz sayəsində daha da genişlənir. Biz yerləşdiyimiz coğrafi məkanda bu münasibətlərə dəstək verməyə çalışırıq. Qeyd edim ki, ötən əsrdə ölkələrimiz bir çox çətinliklərlə üzləşmişdir. Cənab Prezidentin burada qeyd etdiyi kimi, əməkdaşlıq məsələləri çox əhəmiyyətlidir və hesab edirik ki, Azərbaycanın Xəzər dənizində zəngin ehtiyatları bizim ümumi əməkdaşlığımıza xidmət edir. Mən hesab edirəm ki, Sizin ölkəniz artıq Avropanın ener-

ji təhlükəsizliyinə çox böyük təsir göstərən ölkəyə çevrilibdir və biz bunu görürük. Biz bunu son illər ərzində müşahidə etmişik, biz bunun şahidi olmuşuq. Mən hətta belə deyərdim ki, Siz Avropaya bu cür töhfə verməklə qitənin daha mühüm bir hissəsinə çevrilirsiniz. Burada mən hamıya müraciət edərək demək istəyirəm, fakt ondan ibarətdir ki, nəinki mənim vətənimdə - Polşada, bütün Avropa İttifaqında, o cümlədən Avropa İttifaqına üzv olmayan dövlətlərdə də bir çox şəxslər, bir çox dairələr anlayırlar ki, burada, məhz bu məkanda ən vacib açarlar vardır. Nəinki Polşanın uğurunun, bütün Avropa İttifaqının uğurunun açarı buradadır. Bu, bizim enerji müstəqilliyimizdir.

Polşa Prezidenti Lex Kaçinski Dağlıq Qarabağ münaqişəsinə toxunaraq ərazi bütövlüyü prinsipinin pozulmasının qəbuledilməz və yolverilməz olduğunu dedi:

- Ərazi bütövlüyü prinsipinin pozulması, xüsusən də güc tətbiqi ilə pozulması qəbuledilməzdir və buna yol vermək olmaz. Çünki bu, hərbi münaqişənin daha da gücləndirilməsinə səbəb ola bilər. Ona görə də bu münaqişənin olması nə Azərbaycanın, nə də digər dövlətlərin marağındadır. Məhz sülhsevər ölkələrin marağındadır ki, münaqişələr olmasın. Biz hesab edirik ki, Azərbaycan ilə Polşa bu baxımdan tam anlaşır. Ərazi bütövlüyü prinsipinə əməl edilməli, hörmətlə yanaşılmalıdır. Biz ərazi bütövlüyünə əməl edilməsini istəyirik. Azlıqların hüquqlarına da hörmətlə yanaşılmalıdır, amma bu, ərazi bütövlüyü çərçivəsində baş verməlidir.

Polşanın dövlət başçısı ölkələrimiz arasında iqtisadi münasibətlərin, xüsusilə də enerji sahəsində əlaqələrin inkişaf etdiyini bildirərək söylədi ki, hər iki ölkə bu sahədə bir çox irəliləyişlərə nail olmuşdur. Biz bu yolun başlanğıcındayıq və əməkdaşlığımızın əsasları möhkəmdir. Heç bir maneə bizi bu yoldan döndərməməlidir.

Polşa Prezidenti daha sonra dedi:

- Mən hökumətlərarası komissiyanın mayda keçirilmiş iclasından məmnunluğumu bildirirəm. Orada iqtisadi məsələlər qaldırılmışdı. Turizm və mədəniyyət sahəsində əməkdaşlığın imkanları xüsusi qeyd edilmişdi. Bütün bunlar olduqca vacibdir. Çünki bütün xalqların, o cümlədən Polşa xalqının və Azərbaycan xalqının müəyyən imkanları var ki, onlar o imkanlarla mübadilə edə bilərlər. Mədəni mübadilələr olmalıdır. Yəni bu, birtərəfli olmamalıdır, bu, Qərbdən Şərqə, Şərqdən Qərbə və Cənubdan Şimala, Şimaldan Cənuba olmalıdır. Bu sözləri, bu məsələləri xüsusi vurğulayaraq biz bu ölkədə, bu məkanda, bu regionda sülhə xidmət etməliyik.

Ölkəsinin bir çox sahələrdə xeyli təcrübə qazandığını deyən Lex Kaçinski tibb sektorunda əməkdaşlıq üçün yaxşı imkanların olduğunu qeyd etdi. Dövlət başçısı Polşa-Azərbaycan münasibətlərinin xüsusi əhəmiyyət daşıdığını, bundan sonra bu əlaqələrin daha sıx olacağına əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVANIN VƏ POLŞA PREZİDENTİNİN XANIMI MARİYA KAÇİNSKANIN GÖRÜŞÜ

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın və Polşanın birinci xanımı Mariya Kaçinskanın görüşü olmuşdur.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

İyulun 2-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin və xanımı Mariya Kaçinskanın şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söylədilər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli xanım Kaçinska!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizin hamınızı Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Bu gün çox gözəl bir gündür. Polşa Prezidentinin Azərbaycana rəsmi səfəri çərçivəsində Polşa-Azərbaycan əlaqələrinin inkişafı üçün çox vacib və əhəmiyyətli qərarlar qəbul edilibdir. Əminəm ki, bu qərarlar iki ölkə arasında əlaqələrin inkişafı üçün çox mühüm əhəmiyyət daşıyacaqdır. Çünki, bu gün bir tərəfdən indiyə qədər əldə edilmiş nəticələr və nailiyyətlər müzakirə olundu, eyni zamanda, müştərək gələcəyimizi müəyyən edən çox önəmli sənədlər imzalandı. İlk növbədə siyasi sənədlər, Polşa və Azərbaycan Prezidentlərinin Məşvərət Komitəsinin yaradılması haqqında, eyni zamanda, iki ölkə arasında təhlükəsizlik məsələlərinin həlli üçün vacib sənədlər imzalandı. Enerji sahəsində, şirkətlər arasında vacib sənədlər imzalandı və görülən bütün bu işlər bir daha göstərir ki, bizim münasibətlərimiz nə qədər geniş və çoxşaxəlidir. Bu, həm siyasi məsələləri, həm də iqtisadi, sosial, təhlükəsizlik və enerji təhlükəsizliyi məsələlərini əhatə edir. Əlbəttə ki, bu məsələlərin hamısı diqqət mərkəzindədir. Humanitar sahəyə çox böyük diqqət verilir və bu sahədə bizim çox gözəl müştərək tariximiz vardır.

Əsrlər boyu Polşa xalqının nümayəndələri Azərbaycanda işləmişlər, yaratmışlar, onlar Azərbaycanın inkişafına çox önəmli töhfələr vermişlər. Polyak memarları Bakıda çox gözəl memarlıq abidələri yaratmışlar. Bu gün bu abidələr Bakını gözəlləşdirir. Onların hamısı bərpa və təmir olunur. Gələcəkdə bu gözəl tarixi binaların təmirində Polşadan gələn mütəxəssislər də iştirak edəcəklər. Eyni zamanda, cənab Prezident, yaxşı xatırlayıram ki, 2005-ci ildə mən Polşada səfərdə olarkən, Sizinlə bərabər, - Siz o vaxt Varşavanın meri idiniz, - Varşava Üsyanı Muzeyinin həyətində Polşa uğrunda vuruşmuş Azərbaycan zabitlərinin xatirə lövhəsini bərabər açmışdıq. Yəni, bu tarix bizim bugünkü və gələcək münasibətlərimiz üçün çox gözəl bir əsasdır. Bizim ölkələr arasında münasibətlər çox dinamik və intensiv xarakter daşıyır. Bizim qarşılıqlı səfərlərimizin sayı bunun ən gözəl göstəricisidir. Siz Azərbaycana beş dəfə səfər etmisiniz. Mən Polşaya beş dəfə səfər etmişəm. Bundan başqa, müxtəlif beynəlxalq tədbirlərdə biz dəfələrlə Sizinlə birlikdə olmuşuq, məsələləri müzakirə etmişik və beləliklə, iki ölkə arasında əlaqələr bu gün çox yüksək səviyyədədir.

Mən birgə hökumətlərarası komissiyanın fəaliyyətini çox yüksək qiymətləndirirəm. Komissiya əməli məsələlərlə məşğuldur. Təkcə iqtisadi, siyasi, energetika sahələrində deyil, eyni zamanda, başqa sahələrdə, iqtisadiyyatın digər sahələrində çox gözəl

perspektivlər vardır. O ki qaldı enerji məsələlərinin həllinə, heç kimə sirr deyil ki, "Krakov təşəbbüsü" məhz Sizin tərəfinizdən irəli sürülmüşdür və enerji məsələlərinə dair bir sıra zirvə görüşləri keçirilmişdir. Sonuncu dəfə ötən ilin noyabr ayında keçirilən Bakı Enerji Sammitinin qərarları bu gün də aktualdır və gələcək enerji əməkdaşlığının dərinləşməsi üçün o qərarların çox vacib əhəmiyyəti vardır.

Bu gün energetika sahəsində imzalanmış müqavilə əminəm ki, əməkdaşlığın gələcəkdə daha da dərinləşməsinə xidmət göstərəcəkdir. Azərbaycan çox zəngin neft-qaz yataqlarına malikdir və bu gün Odessa-Brodı-Qdansk neft kəmərinin tikintisi, fəaliyyətə başlaması məsələləri çox böyük əhəmiyyət daşıyır.

Biz Sizinlə bərabər bu sahədə çox böyük işlər görmüşük. Ümid edirəm ki, gələcəkdə layihənin reallaşması üçün bütün iştirakçı ölkələr eyni dərəcədə səylər göstərəcəklər. Mən keçən dəfə Polşaya səfərimdə Sizinlə bərabər Qdansk şəhərində olmuşdum. Biz həm şəhərlə tanış olduq, həm də eyni zamanda, Xəzər dənizi-Qara dəniz-Baltik dənizi enerji dəhlizinin gələcəyi haqqında fikir mübadiləsi apardıq. Bu dəhliz təkcə enerji daşıyıcıları üçün deyil, eyni zamanda, gələcəkdə çox etibarlı nəqliyyat dəhlizinə çevrilməlidir. Bu, əslində üç dənizin birləşməsi, bu bölgələrin birləşməsi, geniş mənada regional əməkdaşlığın dərinləşməsi deməkdir. Bütün bu işlərdə Polşa-Azərbaycan münasibətlərinin xüsusi əhəmiyyəti vardır. Çünki biz Xəzər hövzəsində, siz Baltik dənizi hövzəsində iki bölgənin birləşməsi üçün əməli işlər görürük.

Bu gün mən qeyd etdim, bir daha demək istəyirəm ki, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin genişlənməsi işində Polşanın çox böyük rolu vardır. Polşa müxtəlif təşəbbüslərlə çıxış etmişdir və bu təşəbbüslər bu gün reallığa çevrilir. "Şərq tərəfdaşlığı" proqramının başlanması hesab edirəm ki, çox vacib və tarixi bir məsələdir. Postsovet məkanında yerləşən ölkələr ilk dəfə olaraq Avropa İttifaqı ilə çox konkret proqram çərçivəsində birgə fəaliyyət göstərəcəkdir. Biz çox istərdik ki, "Şərq tərəfdaşlığı" proqramının konkret real nəticələri olsun, proqramın icrası nəticəsində Azərbaycan Avropa İttifaqı ilə daha da sıx əməkdaşlıq edə bilsin.

Bütün məsələlərdə, bu gün müzakirə etdiyimiz çox geniş gündəlikdə bizim mövqeyimiz üst-üstə düşür. Mən Polşa-Azərbaycan münasibətlərinin gələcəyinə də çox böyük ümidlərlə və böyük nikbinliklə baxıram. Polşa bizim üçün dost, tərəfdaş ölkədir və Sizin simanızda Azərbaycan Polşa kimi çox böyük dost qazanıbdır. Sizin fəaliyyətiniz Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir və Azərbaycan dövləti Sizin fəaliyyətinizə çox yüksək qiymət verir. Məhz bunun nəticəsidir ki, bu gün Siz ölkəmizin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilmisiniz. Bu münasibətlə mən Sizi bir daha ürəkdən təbrik edirəm.

Bu badəni, cənab Prezident, Sizin sağlığınıza, xanım Kaçinskanın sağlığına, Polşa-Azərbaycan əlaqələrinin inkişafının şərəfinə qaldırıram.

***

Polşa Prezidenti Lex KAÇİNSKİ təşəkkür edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli Mehriban xanım!

Cənab spiker!

Hörmətli dostlar!

Bu, mənim burada - Azərbaycanın paytaxtında, Bakıda söylədiyim birinci nitq deyil. İcazə verin mən elə cənab Prezidentin nitqində söylədiyi fikirlərdən başlayım. Cənab Prezident Polşanın memarları haqqında danışdı və xidmətlərini qeyd etdi. Vaxtilə Varşava Üsyanında iştirak etmiş azərbaycanlıların da xidmətlərini qeyd etdi. Eyni zamanda, cənab Prezident bildirdi ki, bərpa layihələrində Polşanın memarları iştirak edə bilər.

Bilirsiniz, Sizin böyük ədəbiyyatınız Azərbaycana ilk səfərim zamanı mənə böyük təəssürat bağışladı və qeyd etmək istəyirəm ki, eyni zamanda, Azərbaycan ədibləri Polşanın ədəbiyyat tarixində də xüsusi yer tutmuşlar, öz romanları ilə yadda qalmışlar.

Polşanın çox məşhur ədibi Sezara Bareka Azərbaycanda - Bakıda anadan olmuşdur. Onun yazdığı hekayələr hətta orta məktəbdə bütün şagirdlərə məlum olan əsərlərdir. Polşa bu ədibi ilə böyük fərəh hissi duyur və onun yazdığı əsərləri inqilab dövrünə aid edirik. O vaxtlar Azərbaycan da müstəqilliyini əldə etmişdi. Əfsuslar olsun ki, həmin müstəqillik iki il çəkdi. 70 ildən sonra Azərbaycan yenidən uğur qazandı, öz müstəqilliyini bərpa etdi. Biz Sizin bu nailiyyətinizə, Azərbaycanın müstəqilliyini möhkəmləndirən fəaliyyətinizə, uğurlarınıza çox vurğunuq.

Eyni zamanda, qeyd etmək istəyirik ki, xalqlarımız tarixən bir yerdə olmuşlar. Biz hazırda elə bir konsepsiyanı formalaşdırmalıyıq ki, - mən bu gün o konsepsiya haqqında dəfələrlə danışdım, - bu konsepsiya nəinki Azərbaycan-Polşa xalqlarının maraqlarına, o cümlədən sizin Avropa İttifaqı ilə, ümumiyyətlə, dünya miqyasında maraqlarınızın təmin edilməsinə xidmət etsin.

Polşa Prezidenti Lex Kaçinski ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını söylədi və bildirdi ki, Azərbaycanın enerji təhlükəsizliyi sahəsindəki fəaliyyəti və nailiyyətləri yüksək qiymətləndirilir. Dövlət başçısı dedi ki, Azərbaycanın enerji resursları həm ölkəmizin, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verir. Lex Kaçinski Xəzər dənizi, Qara dəniz və Baltik dənizi regionlarının əməkdaşlığının da əhəmiyyətini vurğuladı.

"Bu gün bütün dünyaya sülh lazımdır. Kiçik münaqişələr hər zaman təhlükə mənbəyidir və bu münaqişələrə son qoyulmalıdır", - deyən Polşanın dövlət başçısı bildirdi ki, xalqlar arasında münasibətlər qarşılıqlı hörmətə əsaslanmalıdır.

Polşa Prezidenti ölkələrimizin humanitar sahədə, xüsusilə də səhiyyə və mədəniyyət sahələrində sıx əməkdaşlığının vacib olduğunu, ölkəsinin Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini və Polşa-Azərbaycan münasibətlərindən fəxr hissi keçirdiyini diqqətə çatdırdı.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Azərbaycanda rəsmi səfərdə olan Polşa Prezidenti Lex Kaçinski iyulun 3-də Fəxri xiyabana gəlmişdir.

Ali qonaq xalqımızın ümummilli lideri, müstəqil müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarı önünə əklil qoydu, xatirəsini ehtiramla andı.

Polşa dövlətinin başçısı görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın

da məzarı üstünə tər gül dəstəsi qoydu.

Prezident Lex Kaçinskiyə Fəxri xiyabanın tarixi barədə məlumat verildi.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Polşa Respublikasının Prezidenti Lex Kaçinski iyulun 3-də Şəhidlər xiyabanını ziyarət etmişdir.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Lex Kaçinski Azərbaycanın azadlığı və suverenliyi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsini yad etdi, "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Polşanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

Prezident Lex Kaçinski Azərbaycan paytaxtının mənzərəsini seyr etdi.

POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR

Ölkəmizdə səfərdə olan Polşa Respublikasının Prezidenti Lex Kaçinski iyulun 3-də Milli Məclisə gəlmişdir.

Parlamentin binası önündə ali qonağı Milli Məclisin sədri Oqtay Əsədov, sədrin birinci müavini Ziyafət Əsgərov, müavin Bahar Muradova, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər qarşılamışlar.

Polşa Prezidenti Milli Məclisin iclas zalına baxmış, parlamentin binasındakı Heydər Əliyev Xatirə zalında olmuşdur. Burada qonağa ümummilli liderin həyat və fəaliyyəti, xarici ölkə rəhbərlərinin, dövlət və hökumət üzvlərinin müxtəlif illərdə Azərbaycana səfərləri zamanı Heydər Əliyevlə görüşlərini əks etdirən fotoşəkillər, tarixi sənədlər, eləcə də Azərbaycan parlamentinin formalaşmasında və xarici ölkə parlamentləri ilə əlaqələrin qurulmasında ulu öndərin xidmətləri barədə məlumat verilmişdir.

Sonra Milli Məclisin sədri Oqtay Əsədov ilə Polşa Prezidenti Lex Kaçınski arasında görüş olmuşdur.

Milli Məclisin sədri Oqtay Əsədov Prezident Lex Kaçinskini Azərbaycan-Polşa arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə ölkəmizin ən ali mükafatı - "Heydər Əliyev" ordeni ilə təltif olunması münasibətilə təbrik etmişdir.

O.Əsədov ölkələrimiz arasında əlaqələrin qədim tarixindən danışmış, müstəqilliyimizi bərpa etdikdən sonra münasibətlərimizin yeni müstəvidə inkişaf etdiyini bildirmiş və bunu müsbət dəyərləndirmişdir. Milli Məclisin sədri bildirmişdir ki, münasibətlərimizin belə yüksək səviyyəyə çatmasında dövlətlərimizin başçılarının müstəsna xidmətləri vardır. Dövlət başçılarının qarşılıqlı səfərləri, keçirdikləri səmərəli görüşlər hər iki tərəfə fayda gətirmiş, əməkdaşlığın hərtərəfli inkişafı üçün möhkəm hüquqi baza yaratmışdır.

Azərbaycanda olmaqdan məmnun qaldığını deyən Prezident Lex Kaçinski bundan əvvəlki səfərlərini, görüşlərini xatırlatmışdır.

Polşa-Azərbaycan dostluğunun dərin kökləri olduğunu bildirən ali qonaq, iki dost ölkə arasında əlaqələrin inkişafı üçün bundan sonra da əlindən gələni əsirgəməyəcəyini bildirmişdir.

Ölkəmizin Avropanın enerji təminatında mühüm rolunu vurğulayan Lex Kaçinski Azərbaycanın son illər əldə etdiyi uğurlardan da danışmışdır. O demişdir ki, Azərbaycanda əldə olunmuş bütün uğurlar ölkədə həyata keçirilən düzgün siyasətin nəticəsidir.

Polşanın dövlət başçısı parlamentlərin rolundan danışaraq qanunverici orqanların əməkdaşlığını, xüsusilə də dostluq qruplarının fəaliyyətini yüksək dəyərləndirmiş, Azərbaycan parlamentinə gələcək fəaliyyətində uğurlar arzulamışdır.

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN BAŞ NAZİR ARTUR RASİZADƏ İLƏ GÖRÜŞÜ

Ölkəmizdə rəsmi səfərdə olan Polşa Prezidenti Lex Kaçinski iyulun 3-də Azərbaycanın Baş naziri Artur Rasizadə ilə görüşmüşdür.

Baş nazir Polşa Prezidenti Lex Kaçinskinin Azərbaycana səfərini yüksək qiymətləndirmiş və bunu ölkələrimiz arasında münasibətlərin inkişafında irəliyə doğru addım kimi səciyyələndirmişdir. Azərbaycan hökumətinin başçısı ali qonağa son zamanlar ölkəmizdə həyata keçirilən islahatlar barədə məlumat vermiş, siyasi və iqtisadi sabitlikdən danışmışdır.

Görüşdə, həmçinin Cənubi Qafqaz regionunda vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə fikir mübadiləsi aparılmışdır.

Polşa Prezidenti hər səfərində Azərbaycanda həyata keçirilən irimiqyaslı layihələrin, müxtəlif sahələrdə yüksək dinamikanın şahidi olduğunu bildirmişdir. "Bu, Azərbaycanın dünya birliyinə inteqrasiyası, iqtisadi sahədə əldə etdiyi uğurlarından irəli gəlir", - deyən Lex Kaçinski ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin inkişafı üçün hər cür imkanların olduğunu və səfərlərin ikitərəfli əməkdaşlığa təkan verəcəyini xüsusi vurğulamışdır.

POLŞA PREZİDENTİNİN XANIMI BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycanda rəsmi səfərdə olan Polşa Prezidenti Lex Kaçinskinin xanımı Mariya Kaçinska iyulun 3-də Beynəlxalq Muğam Mərkəzi ilə tanış olmuşdur.

Polşa Prezidentinin xanımına dənizkənarı Milli Parkda yerləşən mərkəz haqqında ətraflı məlumat verildi.

Xanım Mariya Kaçinska qaval daşlarına maraqla baxdı.

Bildirildi ki, Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı layihələr sırasında xüsusi əhəmiyyəti olan bu

mərkəzin inşası Fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir. 2005-ci il aprelin 6-da Prezident İlham Əliyev Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında Sərəncam imzalamışdır. Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada YUNESKO-nun dünya qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.

Mərkəz ilə yaxından tanış olan xanım Mariya Kaçinska burada Azərbaycanın görkəmli muğam ifaçılarının büstlərinə və "Ud" restoranına baxdı, Azərbaycan muğamını dinlədi.

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİYƏ BAKI SLAVYAN UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMİŞDİR

İyulun 3-də Bakı Slavyan Universitetində Polşa Respublikasının Prezidenti Lex Kaçinskiyə BSU-nun fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi keçirilmişdir.

Universitetdə Polşa Prezidentini səmimiyyətlə qarşılamışlar. Tələbələr ali qonağa gül-çiçək dəstələri təqdim etmişlər.

Polşa dövlətinin başçısı və nümayəndə heyətinin üzvləri BSU-da fəaliyyət göstərən Polyak Dili və Mədəniyyəti Mərkəzinin işi ilə tanış olmuşlar. Bu ali məktəbdə "Polşaşünaslıq" ixtisası üzrə təhsil alan tələbələr Polşa Prezidentini onun ana dilində səmimi salamlamışlar. Lex Kaçinski Mərkəzin Fəxri Qonaqlar Kitabına ürək sözlərini yazmışdır.

Sonra Universitetin akt salonunda təntənəli mərasim keçirilmişdir. Tələbələr xorunun ifasında "Haudeamus" tələbə himni səslənmişdir.

Mərasimi universitetin rektoru professor Kamal Abdullayev açmışdır.

BSU-nun rektoru universitetin professor-müəllim heyəti və tələbələri adından ali qonağı salamlayaraq bildirmişdir ki, 2009-cu il iyunun 30-da ali məktəbin Elmi Şurası Prezident Lex Kaçinskinin Polşa ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf etdirilməsində, Azərbaycan və polyak xalqları arasında dostluq əlaqələrinin möhkəmlənməsində, ölkələrimiz arasında elm, təhsil və mədəniyyət sahələrində münasibətlərin genişləndirilməsində və dərinləşdirilməsində xidmətlərinə görə ona Bakı Slavyan Universitetinin fəxri doktoru diplomu verilməsi haqqında yekdilliklə qərar qəbul etmişdir.

Rektor qeyd etmişdir ki, ümummilli lider Heydər Əliyevin Fərmanı ilə yaradılmış Bakı Slavyan Universiteti Azərbaycan xalqı ilə polyak xalqı, habelə digər slavyan xalqları arasında mənəvi, elmi, mədəni əlaqələrin inkişafında xüsusi rol oynayır. K.Abdullayev vurğulamışdır ki, BSU-nun kollektivi prezidentlər İlham Əliyevin və Lex Kaçinskinin həyata keçirdiyi siyasətə müvafiq olaraq Polşa-Azərbaycan dostluğunun daha da möhkəmləndirilməsi üçün hər cür səy göstərir.

Kamal Abdullayev universitetdə polyak dili və ədəbiyyatının tədrisindən bəhs edərək vurğulamışdır ki, bu istiqamətdə genişmiqyaslı elmi tədqiqatlar aparılır. Ali məktəbin tələbələri polyak dilini və mədəniyyətini, Polşa tarixini, Azərbaycan-Polşa münasibətlərini böyük maraqla öyrənirlər. Universitetdə yaradılmış Polyak Dili və Mədəniyyəti Mərkəzi uğurla fəaliyyət göstərir. Bu mərkəz həm tələbələrin və müəllimlərin, həm də

Azərbaycanda yaşayan və işləyən polyakların ünsiyyət yerinə çevrilmişdir. Rektor bu mərkəzin açılmasına fəal kömək göstərmiş Polşanın Azərbaycandakı səfirinə və Azərbaycanın Polşadakı səfirinə təşəkkürünü bildirmişdir.

BSU Polşanın ali məktəbləri ilə, o cümlədən Varşava Universiteti və Adam Mitskeviç adına Poznan Universiteti ilə sıx əlaqə saxlayır. Artıq bir neçə ildir ki, Poznan Universitetinin gənc müəllimləri BSU-da mühazirələr oxuyur, BSU-nun tələbələri isə Polşa ali məktəblərində təcrübə keçirlər. Azərbaycanda polonistikanın və Polşada azərbaycanşünaslığın təbliğ edilməsi məqsədi ilə Varşava Universiteti nəzdində fəaliyyət göstərən Şərqi Avropa Tədqiqatları İnstitutunda çalışan alimlər üçün Heydər Əliyev və marşal Pilsudski adına təqaüdlər təsis edilmişdir.

Sonra professor K.Abdullayev Polşa dövlətinin başçısına Bakı Slavyan Universitetinin fəxri doktoru diplomunu və doktor mantiyasını təqdim etmişdir.

Mərasimdə çıxış edən Polşa Prezidenti Lex Kaçinski qeyd etmişdir ki, Bakı Slavyan Universitetinin fəxri doktoru adına layiq görülməsini özü üçün böyük şərəf hesab edir. Qədim və gözəl Azərbaycan torpağında, müstəqil Azərbaycanda bu cür hörmətli auditoriya qarşısında çıxış etməyə şad olduğunu bildirən Polşa dövlətinin başçısı xüsusi vurğulamışdır ki, Polşa ilə Azərbaycan arasında sıx dostluq münasibətləri vardır, bu iki ölkəni bağlayan cəhətlər çoxdur, belə amillərdən biri də hər iki dövlətin müstəqil siyasət yeritməsidir.

Prezident Lex Kaçinski Polyak Dili və Mədəniyyəti Mərkəzinin yaradılmasına görə təşəkkürünü bildirərək vurğulamışdır ki, BSU-nun tələbələri onu polyak dilində salamlayanda sözün yaxşı mənasında təəccüblənmişdir. O, mərasim iştirakçılarını əmin etmişdir ki, Polşada Azərbaycan dilinin geniş təbliğ və təşviq edilməsi üçün hər cür səy göstərəcək, elə edəcəkdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Varşavaya növbəti səfəri zamanı yerli sakinlər onu Azərbaycan dilində salamlasınlar.

Polşa dövlətinin başçısı ümidvar olduğunu bildirmişdir ki, xalqlarımız arasında münasibətlər də dövlətlərarası münasibətlər kimi yüksək səviyyədə olacaqdır.

Sonra ali məktəbin tələbələri Frederik Şopenin əsərlərini fortepianoda ifa etmişlər.

Polşa Prezidenti BSU-nun rektoru Kamal Abdullayevə onun "Yarımçıq əlyazma" kitabının polyak dilində nəşr edilmiş nüsxəsini təqdim etmişdir.

SƏFƏR BAŞA ÇATDI

İyulun 3-də Polşa Prezidenti Lex Kaçinskinin Azərbaycana rəsmi səfəri başa çatmışdır.

Azərbaycanın və Polşanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Polşa dövlətinin başçısını və xanımını Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola saldılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN VƏ ERMƏNİSTANIN BİR QRUP ZİYALISINI QƏBUL ETMİŞDİR

Azərbaycan və Ermənistanın Rusiya Federasiyasındakı səfirlərinin təşəbbüsü ilə Azərbaycan və Ermənistanın bir qrup ziyalısı ATƏT-in xətti ilə iyulun 3-də Xankəndidə, Şuşada olmuş, oradan Ermənistana gedərək, Prezident Serj Sarkisyan ilə görüşmüşlər.

Həmin gün qrupun üzvləri İrəvandan Bakıya gəlmiş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qəbulunda olmuşlar.

Qrupa Ermənistanın Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Armen Smbatyan, "Arovot" qəzetinin baş redaktoru Aram Abramyan, "Mediamaks" informasiya agentliyinin direktoru Ara Tadevosyan, "Novoye Vremya" qəzetinin jurnalisti Armen Xanbabyan, Ermənistan Milli Məclisinin deputatları Ermine Naqdalyan, Mxitar Mnasakanyan, futbolçu Eduard Markarov, S.Paradcanov muzeyinin direktoru Zaven Sarqsyan, İctimai Təşkilatın direktoru Şuşan Katlamadcan, Dağlıq Qarabağdan tibb işçisi Lyudmila Qriqaryan, Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvidkoy, Azərbaycanın Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbül oğlu, Azərbaycan Milli Məclisinin deputatları Asim Mollazadə, Rövşən Rzayev, Milli Konservatoriyanın rektoru Səyavuş Kərimi, Şuşa İcra Hakimiyyəti mədəniyyət şöbəsinin müdiri Zahid Abbasov, "Qarabağ" qəzetinin baş redaktoru Çingiz İsmayılov daxil idilər.

Görüşdə dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı Azərbaycanın mövqeyini bildirərək vurğulamışdır ki, münaqişə yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində, həmçinin Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilməklə həll edilə bilər.

AZƏRBAYCAN-RUMINİYA HÖKUMƏTLƏRARASI MÜŞTƏRƏK KOMİSSİYANIN DÖRDÜNCÜ İCLASI KEÇİRİLMİŞDİR

İyulun 2-3-də Bakıda Azərbaycan Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 4-cü iclası keçirilmişdir.

Komissiyanın Azərbaycan tərəfindən həmsədri, Baş nazirin birinci müavini Yaqub Eyyubov iclası açaraq demişdir ki, ölkələrimiz arasında dostluq, strateji tərəfdaşlıq münasibətləri yüksələn xətlə inkişaf edir.

Rumıniya-Azərbaycan əlaqələrinin qədim tarixini, Rumıniyanın respublikamızın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğunu, xalqımızın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllində həmişə ədalətli, obyektiv mövqe tutduğunu xatırladan Y.Eyyubov bildirmişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya səfərindən sonra qarşılıqlı əlaqələr daha da genişlənmişdir.

Komissiyanın həmsədri son illərdə Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini bildirmiş, ölkəmizdə həyata keçirilən irimiqyaslı layihələrdən danışmışdır. Y.Eyyubov Rumıniyanın Şərqi Avropada ölkəmizin etibarlı tərəfdaşı olduğunu, əlaqələrin genişlənməsi üçün potensial imkanların olduğunu, müştərək komissiyanın ötən illər ərzində xeyli işlər gördüyünü, müzakirə və təsdiq üçün mühüm sənədlər hazırladığını vurğulamışdır.

Baş nazirin birinci müavini qeyd etmişdir ki, bu gün dünyada mövcud olan iqtisadi böhran Azərbaycana təsirsiz ötüşmüşdür.

Komissiyanın Rumıniya tərəfdən həmsədri, iqtisadiyyat naziri Adriyan Vidyanu ölkəsinin sabit inkişaf sürətinə görə Şərqi Avropada irəlidə getdiyini, rumın xalqının və dövlətinin Azərbaycanı özünə mehriban dost, etibarlı tərəfdaş hesab etdiyini bildirmişdir.

Ticarət-iqtisadi sahədə əlaqələrin inkişafı üçün çox əlverişli imkanların olduğunu, rumın iş adamlarının Azərbaycana marağının getdikcə artdığını vurğulayan nazir nəqliyyat, energetika, sənaye, kənd təsərrüfatı məhsullarının idxalı, mədəniyyət, turizm sahələrində qarşılıqlı əməkdaşlığın genişlənməsinin hər iki tərəf üçün əhəmiyyətli ola biləcəyini demişdir.

İclasda hər iki tərəfdən komissiya üzvlərinin müzakirə edilən məsələlərə dair təklifləri səslənmiş, iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, birgə müəssisələrin yaradılması və digər məsələlər müzakirə olunmuşdur.

Azərbaycanın Baş naziri Artur Rasizadə iyulun 3-də Rumıniyanın iqtisadiyyat naziri, Azərbaycan-Rumıniya hökumətlərarası komissiyanın həmsədri Adriyan Vidyanunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş nazir qonaqları salamlayaraq ölkəmizdə həyata keçirilən iqtisadi islahatların nəticələrindən, ümumi daxili məhsulun artım tempindən, infrastruktura yatırılan xarici sərmayələrin məbləğindən, əmək haqlarının və müxtəlif sosial müavinətlərin qaldırılması sahəsində görülən işlərdən danışmış, Azərbaycan rəhbərliyinin qlobal enerji layihələrinin həyata keçirilməsi ilə yanaşı, qeyri-neft sektorunun inkişafına da xüsusi diqqət yetirdiyini vurğulamışdır.

Rumıniya-Azərbaycan əlaqələrinin qədim tarixini, Rumıniyanın respublikamızın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğunu xatırladan Artur Rasizadə bildirmişdir ki, Prezident İlham Əliyevin Rumıniyaya səfərindən sonra qarşılıqlı əlaqələr daha da genişlənmişdir.

Baş nazir vurğulamışdır ki, Azərbaycanın başlıca bir problemi vardır. Bu da Azərbaycan torpaqlarının işğalına və bir milyon insanın doğma yurd-yuvalarından didərgin düşməsinə səbəb olmuş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyədək həll edilməməsidir. A.Rasizadə xalqımızın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllində həmişə ədalətli, obyektiv mövqe tutan, bütün beynəlxalq tədbirlərdə Azərbaycanın haqq işini dəstəkləyən Rumıniya hökumətinə təşəkkürünü bildirmişdir.

Adriyan Vidyanu səmimi qəbula görə Artur Rasizadəyə minnətdarlığını bildirmiş, Azərbaycan Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 4-cü iclasının gedişi barədə ətraflı məlumat vermişdir. Ticarət-iqtisadi sahədə əlaqələrin inkişafı üçün çox əlverişli imkanların olduğunu, rumın iş adamlarının Azərbaycana marağının getdikcə artdığını vurğulayan nazir nəqliyyat, energetika, sənaye, kənd təsərrüfatı məhsullarının idxalı, mədəniyyət, turizm sahələrində qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin hər iki tərəf üçün

əhəmiyyətli ola biləcəyini demişdir.

A.Vidyanu rumın xalqının və dövlətinin Azərbaycanı özünə mehriban dost, etibarlı tərəfdaş hesab etdiyini bildirmişdir. Qonaq demişdir ki, Rumıniya hökuməti bundan sonra da Azərbaycanın ədalətli mövqeyini dəstəkləyəcək, Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi yolunda əlindən gələni əsirgəməyəcəkdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI NÖVBƏTİ YAY MƏKTƏBİNDƏ "ENERJİ SİYASƏTİ VƏ İQTİSADİYYAT" MÖVZUSUNU MÜZAKİRƏ EDİR

İyulun 3-də Azərbaycan Diplomatik Akademiyası Dövlət Neft Şirkəti ilə birgə növbəti yay məktəbinə başlamışdır.

Xarici ölkələri təmsil edən gənc diplomatlar, tələbələr bu dəfə dünyanın əsas diqqətində olan "Enerji siyasəti və iqtisadiyyat" mövzusunu müzakirə edəcəklər. On gün davam edəcək tədbirdə beynəlxalq siyasətlə enerji amili arasındakı əlaqələr araşdırılacaq, xarici siyasi maraqların gerçəkləşdirilməsi üçün enerji amilindən istifadə olunması, OPEC-in üzvü olan ölkələr arasında mövcud əməkdaşlıq, iqlim dəyişmələri ilə əlaqədar bağlanan yeni sazişlərin gələcəkdə enerji istehlakı və istehsalı meyillərinə təsiri və s. məsələlər müzakirə olunacaqdır. Tədbirdə Kolumbiya, Hayfa, Moskva universitetlərinin, Cenevrə Təhlükəsizlik Siyasəti Mərkəzinin və digər aparıcı beynəlxalq tədris ocaqlarının professorları mühazirə oxuyacaqlar. Yay məktəbində Avropa, Afrika, Yaxın Şərq, Avstraliya və Cənubi Amerikanın 20-dən çox ölkəsindən 28 nümayəndə iştirak edir.

Akademiyanın rektoru Hafiz Paşayev bildirmişdir ki, iştirakçılar Azərbaycanın mədəni-tarixi abidələri ilə bərabər Səngəçal neft terminalı, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bibiheybət neft yatağı ilə də tanış olacaqlar.

Hafiz Paşayev demişdir: Proqramın böyük əhəmiyyəti həm də ondadır ki, iştirakçılar burada bir-biri ilə ünsiyyətdə olacaq, aldıqları məlumatlardan və təcrübə mübadiləsindən gələcəkdə öz tədqiqat işlərində istifadə edəcəklər. Enerji siyasətinin müzakirəsi və əldə ediləcək nəticələr iştirakçıların diqqətini daha çox cəlb edib. Onlar həm enerji problemlərini araşdıracaq, həm də Azərbaycanla bağlı məlumat əldə edəcəklər.

Yay məktəbi Kembric Enerji Araşdırmaları Mərkəzi və Nyu-Yorkun Kolumbiya Universitetinin Enerji, Dəniz Nəqliyyatı və Dövlət Siyasəti Mərkəzinin dəstəyi ilə keçirilir. Proqramın sonunda iştirakçılara sertifikat veriləcəkdir. Yay məktəbinin davamı kimi bu ilin dekabrında Böyük Britaniyanın Kembric Enerji Araşdırmaları Mərkəzində qış simpoziumu keçiriləcəkdir.

"AZƏRBAYCAN DİPLOMATİYASININ TARİXİ" FİLMİ ÇƏKİLMİŞDİR

Azərbaycanda diplomatik xidmətin yaranmasının 90 illiyi ilə əlaqədar Xarici İşlər Nazirliyinin sifarişi ilə "Azərbaycan diplomatiyasının tarixi" sənədli filmi hazırlanmışdır.

Bu həftə nümayiş olunacaq filmin ssenari müəllifi tanınmış kinodramaturq Ziya Şıxlinskidir. Çəkilişlər Azərbaycanda, Gürcüstanda və başqa ölkələrdə aparılmışdır. Azərbaycan və xarici dillərdə səslənəcək ekran əsərində dəyərli materiallar toplanmışdır.

GƏNCƏDƏ AZƏRBAYCANDA DİPLOMATİK XİDMƏTİN YARADILMASININ 90 İLLİYİ QEYD EDİLMİŞDİR

İyulun 6-da Gəncədə Azərbaycanda diplomatik xidmətin yaradılmasının 90 illik yubileyi ilə əlaqədar geniş bayram tədbirləri keçirilmişdir.

Tədbirlərdə iştirak etmək üçün Gəncəyə gələn respublikanın xarici işlər naziri Elmar Məmmədyarov və Azərbaycanı xarici ölkələrdə təmsil edən diplomatlarımız böyük mehribanlıq və hərarətlə qarşılanmışlar.

Bayram tədbirinə ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarətlə başlayan ölkə diplomatları abidə önünə əklil və gül dəstələri qoymuş, ulu öndərin xatirəsini ehtiramla yad etmişlər.

Sonra qonaqlar şəhəri gəzmişlər. Əvvəlcə 16-cı əsr Şah Abbas məscidində olan diplomatlar Cavad xanın türbəsini də ziyarət etmiş, xalq qəhrəmanının məzarı üzərinə gül-çiçək qoymuşlar. Qonaqlara məlumat verilmişdir ki, bir neçə il əvvəl Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə məscid əsaslı təmir edilmiş, Cavad xanın məzarı üzərində isə türbə ucaldılmışdır.

Məscidlə tanışlıq zamanı şəhərin axundu Hacı Tahir Elmar Məmmədyarova müqəddəs Qurani-Kərim hədiyyə etmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yerləşdiyi binaya gələn bayram iştirakçılarına Demokratik Respublikanın tarixi və onun qurucularının fəaliyyəti haqqında ətraflı məlumat verilmişdir.

Bayram tədbiri görkəmli yazıçı və alim Mir Cəlal Paşayev muzeyində davam etdirilmişdir. Muzeylə yaxından tanış olan qonaqlar burada Gəncə Simfonik Orkestrinin ifasında musiqi nömrələrini dinləmişlər.

Növbəti tədbir dahi Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsində davam etdirilmişdir. Görkəmli söz ustasının məzarını ziyarət edən diplomatlar məzarın üzərinə gül dəstələri qoymuşlar. Məqbərədən qayıdarkən qonaqlar yolüstü Gəncə darvazaları önündə dayanaraq şəhərin tarixi keçmişini xatırladan abidəyə baxış keçirmişlər.

Bayram tədbiri Gəncə Şəhər İcra Hakimiyyətinin iclas salonunda Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyinə həsr olunmuş iclasla davam etdirilmişdir.

İclası giriş sözü ilə açan şəhər icra hakimiyyətinin başçısı Eldar Əzizov bu bayram tədbirini şəhərin ictimai-siyasi həyatında əlamətdar hadisə adlandırmış və Gəncə ictimaiyyəti adından Azərbaycan diplomatiyasının inkişafında böyük xidmətlər göstərən Xarici İşlər Nazirliyinin bütün əməkdaşlarına və dövlətimizi xarici ölkələrdə layiqincə təmsil edən səfirlərimizə minnətdarlıq etmişdir.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ÇIXIŞI

- Hörmətli konfrans iştirakçıları,

Əziz gəncəlilər,

Bu gün Azərbaycan dövlətinin çoxəsrlik tarixinin vacib siyasi və mədəni mərkəzlərindən biri olan Gəncədə olmağımdan və sizinlə birlikdə Azərbaycan diplomatiyasının 90-cı ildönümünə həsr olunmuş iclasda iştirak etməyimdən məmnunam.

İlk növbədə qonaqpərvərliyə və bu iclasın yüksək səviyyədə təşkilinə verdikləri töhfəyə görə Gəncə şəhərinin İcra hakimiyyətinə və bütün gəncəlilərə XİN-in nümayəndə heyəti adından dərin təşəkkürümü bildirmək istərdim.

Bu gün Gəncədə müşahidə etdiyimiz tərəqqi hamımızı çox sevindirir. Bu tərəqqi, əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən məqsədyönlü siyasət nəticəsində əldə edilmiş hərtərəfli inkişafın bir nümunəsidir.

Hörmətli iclas iştirakçıları,

Azərbaycan diplomatiyasının 90-cı ildönümü deyəndə biz dövlətimizin peşəkar diplomatik xidmətinin məhz 9 iyul 1919-cu il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin Katibliyinə dair qərarın qəbul edilməsindən ötən müddəti nəzərdə tuturuq. Bildiyiniz kimi, bu tarixi fakt əsasında Prezident İlham Əliyev cənablarının 24 avqust 2007-ci il tarixli fərmanı ilə 9 iyul Azərbaycan diplomatlarının peşə bayramı elan edilmişdir.

Məlum olduğu kimi, Heydər Əliyev 1918-1920-ci illərin Azərbaycan Xalq Cümhuriyyəti tarixinə xüsusi diqqətlə yanaşırdı. Onun fərmanı əsasında Azərbaycan xarici siyasət sənədləri toplusunun hazırlanması ilə yanaşı, ilk dəfə olaraq, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətinə aid bütün sənədlər nəşr edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti və onun diplomatiyası haqqında danışmazdan əvvəl bir vacib məqamı qeyd etmək istərdim: hələ Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsindən əvvəl, Cənubi Qafqazda siyasi vəziyyətin çox mürəkkəb olduğu və tez-tez dəyişdiyi zaman, Milli Şuranı təşkil edən Azərbaycanın qabaqcıl siyasi xadimləri 1917-1918-ci illərdə Tiflisdə Cənubi Qafqaz Komissarlığı və onun Seyminin tərkibində aktiv diplomatik fəaliyyətə başlamış və vacib diplomatik təcrübə əldə edərək, milli istiqlaliyyət uğrunda siyasi mübarizə aparmışlar.

Xüsusi ilə qeyd etmək istərdim ki, Azərbaycanın müstəqilliyi və dövlətçiliyi uğrunda vuruşan milli qüvvələrin formalaşmasında, Azərbaycan Xalq Cümhuriyyətinin birinci hökumətinin xarici siyasət və hərbi sahədə ilk qərarlarının həyata keçirilməsində Gəncə şəhəri tarixi rol oynamışdır.

1918-ci ilin 28 mayında Tiflisdə Milli Şura tərəfindən İstiqlal Bəyannaməsinin qəbul edilməsindən iki gün sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaranması barədə məlumat Nazirlər Şurasının sədri Fətəli Xan Xoyskinin imzaladığı radioteleqrafla bütün ölkələrin xarici işlər nazirliklərinə yayılmışdır. Bu məlumatda Gəncə şəhəri yeni yaranmış dövlətin müvəqqəti paytaxtı kimi göstərilmişdir.

Mürəkkəb daxili və beynəlxalq şəraitdə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin birinci hökuməti və Milli Şurası iyun ayının 16-da Tiflisdən Gəncəyə köçmüşdür və burda milli qüvvələri səfərbər edərək, Azərbaycanın dövlət suverenliyi və ərazi bütövlüyünü təmin etməyi və, ilk növbədə, Bakını bolşevik və daşnak qüvvələrdən azad etməyi özünə başlıca məqsəd qoymuşdur. O zaman Azərbaycan dövlətçiliyini tamamı ilə rədd edən bolşevik Şaumyanın rəhbərliyi altında olan qüvvələr Bakı və onun ətraf rayonlarında azərbaycanlılara qarşı soyqırım siyasətini yürüdərək, bütün Azərbaycanda öz hakimiyyətini bərqərar etməyə çalışırdı. Bu planların qarşısını almaq və Bakını Azərbaycan xalqına və dövlətinə qaytarmaq məqsədi ilə Milli Şura Osmanlı hökumətindən hərbi yardım istəmişdi. İkitərəfli hərbi-siyasi əməkdaşlığı rəsmiləşdirmək üçün Azərbaycanın birinci hökuməti 4 iyun 1918 il tarixində Tiflisdə Osmanlı hökuməti ilə dostluq müqaviləsi imzalamışdı. Bu Azərbaycan dövlətinin xarici dövlətlə imzaladığı ilk müqavilə idi.

Bu müqavilə əsasında artıq Gəncəyə gəlmiş türk ordusunun hissələri və general Ə.Şıxlinskinin komandanlığı altında olan, əsasən könüllülərdən ibarət Azərbaycanın silahlı qüvvələri birləşərək Bakı istiqamətində tarixi yürüşə başlamış, Milli Şura və Baş nazir Xan Xoyskinin hökuməti hərbi və diplomatik meydanda yüksək bacarıq göstərək, dövlətin paytaxtı Bakıda milli hakimiyyətin qurulmasına müvəffəq olmuşlar.

Xan Xoyski və onun hökuməti Bakıda ali hakimiyyət hesab olunan Britaniya hərbi nümayəndəliyi ilə qarşılıqlı konstruktiv münasibətlər qurmağa nail olmuşdur. Qısa zaman ərzində Britaniya hərbi nümayəndəliyi Londona göndərdiyi məlumatlarında Bakı hökumətinin müasir dünya görüşlü insanlardan ibarət olduğunu, ölkədə inzibati sistemin və sabitliyin bərpa edilməsini bacardığını qeyd edirdi. Bunun nəticəsi olaraq, Britaniya nümayəndəliyi Azərbaycan hökumətinin bütün Azərbaycan ərazisində, o cümlədən Qarabağda, milli hakimiyyət qurmaq haqqını tanımışdı, hətta, Azərbaycan hökumətinin nümayəndələrinə Birinci Dünya müharibəsinin nəticələri üzrə keçiriləcək Paris sülh konfransına dəvət almağa yardım göstərməyi vəd etmişdir.

Milli hakimiyyətin möhkəmlənməsi, dövlət strukturları və nizami ordunun yaradılması ilə yanaşı, gənc Azərbaycan hökumətinin qarşısında duran ən vacib diplomatik vəzifə - Birinci Dünya müharibəsində qalib gəlmiş müttəfiq dövlətlər tərəfindən təşkil olunan Paris sülh konfransında iştirak etmək və Azərbaycan dövlətinin dünya birliyi tərəfindən tanınması idi.

Nəhayət, böyük çətinliklərdən sonra Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Paris sülh konfransında iştirak etmək hüququnu qazanmışdır. Habelə, 1920-ci ilin 11 yanvarında Paris sülh konfransında Azərbaycan diplomatiyası özünün ən vacib uğurunu əldə etmişdir - Versal Ali Şurasını təşkil edən müttəfiq ölkələr yekdilliklə Azərbaycan dövlətini tanımışdı. Dövlətin tanınması Azərbaycanın nümayəndə heyətinə Versal Ali Şurasının müxtəlif, o cümlədən Hökümət başçıları səviyyəsində keçirilən iclaslarında rəsmən iştirak etmək, öz hüquq və ehtiyacları haqqında danışıqlar aparmaq imkanını vermişdi. Azərbaycan nümayəndə heyəti o dövrün beynəlxalq səhnəsində həlledici təsirə malik olan məşhur siyasi xadimləri - Lloyd Corç, Klemanso, Lord Kerzon, Çerçil, Foş, Vilson və digərləri ilə Paris sülh konfransının Ali Şurasının və digər iclaslarında müzakirələr apararaq, müttəfiq dövlətlər tərəfindən Azərbaycana müxtəlif yardımın göstərilməsi haqqında qərarın qəbul edilməsinə də nail

olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin siyasi xadimləri və məharətli diplomatları öz fəaliyyətləri ilə Azərbaycan tarixinin ən parlaq və şərəfli səhifələrini yazmışlar. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması dünyada gedən hərbi, diplomatik və siyasi proseslərin tərkib hissəsi olaraq, eyni zamanda, müsəlman dünyasında demokratiya, vətəndaş cəmiyyəti və müasir dünyəvi dəyərlərə əsaslanan ilk respublikanın qurulması demək idi.

Bu il 28 May - Respublika gününə həsr olunmuş rəsmi qəbuldakı nitqində Prezident İlham Əliyev cənabları 91 il əvvəl müsəlman aləmində ilk dəfə demokratik respublika olaraq Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qurulmasını tarixi hadisə kimi qiymətləndirmiş, Azərbaycan Xalq Cümhuriyyətinin ömrünün uzun olmadığı və iki ildən sonra respublikanın müəyyən səbəblər üzündən süqut etdiyini təəssüflə vurğulamış, Azərbaycan xalqı və Azərbaycan dövlətinin Azərbaycan Xalq Cümhuriyyətinin, onun qurucularının fəaliyyətinə həmişə böyük hörmətlə yanaşdığını, bu tarixin bizə məxsusluğunu və ondan həmişə ibrət dərsi götürməli olduğumuzu bildirmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yalnız 23 ay yaşamasına baxmayaraq, yeni Sovet Azərbaycanının paytaxtı Bakı və suveren ərazisi ilə Sovet İttifaqı tərkibində, formal da olsa, bərabərhüquqlu Respublika kimi saxlanılmasını bu dövrün əsas nəticəsi kimi qiymətləndirmək olar. Bakıda Sovet hakimiyyəti bərqərar olandan sonra da, Azərbaycanın bir sıra siyasi xadimləri diplomatik meydanda öz fəaliyyətini və Azərbaycanın mənafeyinin müdafiəsini davam etdirməyə müvəffəq olmuşlar.

XX əsrin sonunda Azərbaycan öz müstəqilliyini bərpa etmək üçün tarixi fürsət əldə etmiş oldu. Həmin vaxt qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalmış, ağır iqtisadi böhran və daxili qeyri-sabitliyin hökm sürdüyü Azərbaycan öz tarixinin ən mürəkkəb dövrlərindən birini yaşayırdı. Belə bir mürəkkəb şəraitdə Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycanın rəhbərliyinə gəlməsini tarixi əhəmiyyətli hadisə kimi qiymətləndirmək lazımdır. Ulu Öndər Heydər Əliyevin hərtərəfli fəaliyyəti nəticəsində milli dövlətçilik möhkəmləndirilmiş, daxildə siyasi sabitlik və milli birlik təmin edilmiş, dövlət quruculuğu və sosial-iqtisadi sahədə dərin islahatların aparılmasına başlanmış, habelə Azərbaycanın milli maraqlarının təmin edilməsinə yönələn xarici siyasətinin prioritet istiqamətləri müəyyənləşdirilərək onların həyata keçirilməsi təmin olunmuşdur.

Ümummilli Liderimiz Heydər Əliyevin nəhəng fəaliyyətinin nəticələrinə arxalanaraq, bu gün Azərbaycan Prezident İlham Əliyev cənablarının rəhbərliyi altında bütün sahələrdə nəzərə çarpan tərəqqi əldə etmişdir. Azərbaycan geniş Xəzər və Qara dənizləri bölgəsində baş verən strateji siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir regional liderə çevrilmişdir. Ölkəmiz xarici əlaqələrinin coğrafiyasını əhəmiyyətli dərəcədə genişləndirmiş, beynəlxalq aləmdə daha çox nəzərə çarpan və hörmət edilən ölkəyə çevrilmiş və xarici siyasət məqsədlərini daha da təkmilləşdirmişdir. Ermənistan təcavüzünün nəticələrini aradan qaldırmaq istiqamətində BMT, ATƏT, Avropa Şurası, NATO və İslam Konfransı Təşkilatı çərçivəsində ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən və Ermənistanın təcavüzkar siyasətini pisləyən bir çox qətnamələr və qərarlar qəbul edilmişdir.

Diplomatik xidmət orqanlarımızın rəhbərlərinin son müşavirəsində xarici siyasətimizin uğurlu olduğunu qeyd edən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənabları daha fəal xarici siyasət fəaliyyəti həyata keçirilməsinin vacibliyini vurğulamış və müvafiq göstərişlər vermişdir. Hazırda Azərbaycan diplomatik xidmət oranları bu göstərişlərin həyata keçirilməsi istiqamətində fəaliyyətinin davam etdirir.

Sözümü bitirərək, Azərbaycan diplomatiyasının 90-cı ildönümünü qeyd etdiyimiz bu əlamətdar gündə sizin hamınıza doğma diyarımızın çiçəklənməsi naminə daha böyük müvəffəqiyyətlər arzulayıram.

Eyni zamanda, fürsətdən istifadə edərək bir daha başda Eldar Əzizov olmaqla Gəncə şəhər İcra Hakimiyyətinə və gəncəlilərə qonaqpərvərliyə və diqqətə görə təşəkkürümü bildirirəm.

AZƏRBAYCAN RESPUBLİKASININ MACARISTANDAKI SƏFİRİ HƏSƏN HƏSƏNOVUN ÇIXIŞI

- Hörmətli cənab nazir,

Hörmətli cənab Gəncə İcra Hakimiyyətinin başçısı,

Hörmətli cənab səfirlər,

Hörmətli gəncəlilər,

Hörmətli xanımlar və cənablar,

Biz bu gün tariximizin ən mühüm hadisələrindən birini - Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyini qeyd edirik.

Prezidentimiz cənab İlham Əliyevin Azərbaycan diplomatları ilə mütəmadi keçirdiyi görüşlərində, xarici siyasətlə bağlı çıxış və bəyanatlarında qoyduğu vəzifələr diplomatlarımızın fəaliyyətinin ana xəttini təşkil edir.

Bu müqabildə Diplomatik xidmət orqanları gününün və 90 illik yubiley tədbirlərinin belə yüksək səviyyədə və özünəməxsus formada təşkili, diplomatik xidmətimizə göstərdiyi qayğı və diqqətinə, diplomatlarımızın fəaliyyətinin yüksək qiymətləndirilməsinə görə hörmətli həmkarlarım adından Möhtərəm cənab Prezidentimiz İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk.

Azərbaycanın diplomatiya ənənəsinin tarixi çox qədimdir. Minilliklərlə qurulmuş Azərbaycan dövlətləri xarici ölkələrlə siyasi, hərbi, ticari əlaqələrini həyata keçirmək üçün qurumlar yaratmışlar. Həmin ənənələrin davamı olaraq Azərbaycan Xalq Cümhuriyyəti, 1919-cu ildə müasir tipli Diplomatik xidməti həyata keçirən rəsmi struktur olan Azərbaycan Xarici İşlər Nazirliyini yaratdı.

90 il ərzində Azərbaycan diplomatik xidmətinin necə çətin və şərəfli bir inkişaf yolu keçdiyi göz qabağındadır.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulan kimi Azərbaycan dövlətçiliyinin qorunması və dünyaya tanıdılması kimi şərəfli və məsuliyyətli tarixi missiyanı boynuna götürən Respublikamızın yeni formalaşan diplomatları ölkəmizi tanıtmaq istiqamə-

tində var qüvvələrini əsirgəməmişlər. Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Versal Sülh Konfransında Azərbaycanın müstəqilliyinin tanınması yolunda fədakarcasına çalışan diplomatlarımızın tarixi xidmətlərini bu gün xüsusi qeyd etməliyik.

Sovet hakimiyyətinin ilk illərində xarici əlaqələrimizin xəttini müəyyənləşdirən, Nəriman Nərimanovun səyləri nəticəsində, Azərbaycan Rusiya və Türkiyə arasında əlaqələndirici missiyanı öz üzərinə götürmüş, taleyüklü sənədlər imzalanmışdır. Məlum təzyiqlərə baxmayaraq, Naxçıvan, Dağlıq Qarabağ və Zaqatala Azərbaycanın tərkibində qalmaqla dövlət sərhədləri müəyyənləşdirilmişdir. Rusiya kommunistləri ilə erməni daşnaklarının Azərbaycandan ayırmaq istədiyi Bakının Sovet Azərbaycanın tərkibində qalması və paytaxt olması da bu dövrdə dönməz xarakter almışdır. Sovet hakimiyyətinin ilk illərində Azərbaycan türk dünyası və bütün şərqdə gedən ictimai-siyasi proseslərin əsas mərkəzlərindən biri olmuş, Bakıda keçirilmiş Türkoloji və Şərq Xalqları Qurultayları bütün müsəlman - şərq və türk dünyasının tarixində silinməz iz buraxmışdır.

Sevindirici haldır ki, Azərbaycan Türkiyə əlaqələri tarixin bütün mərhələlərində, sınaqlardan uğurla çıxmış və müasir dövrümüzdə ulu öndərimiz Heydər Əliyev demişkən "Bir millət, iki dövlət" prinsipi ilə yüksələn istiqamətlə inkişaf edir.

Sovet hakimiyyətinin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin səyləri nəticəsində xarici ölkələrdə Azərbaycan Mədəniyyəti və İqtisadiyyatı Günləri təşkil edilmiş, Azərbaycan radiosu xarici dillərdə xarici ölkələrlə yayımlanmağa başlamış, alim və ədiblərimizin əsərləri xarici dillərdə nəşr edilmişdir. Bu illərdə Azərbaycanda siyasi, elm, mədəniyyət, iqtisadiyyat və digər mövzularda bir sıra irimiqyaslı beynəlxalq tədbirlər keçirilmiş, bunlarda minlərlə xarici iştirak edərək Azərbaycanla əyani tanış olmuşlar.

Azadlıq və müstəqilliyə can atan xalqımız ötən əsrin 80-ci illərinin ikinci yarısında qanlı maneələrə baxmayaraq azadlıq uğrunda mübarizəyə başladı, öz haqq səsini dünyaya çatdırmağa çalışdı.

Böyük zəhmət və qurbanlar hesabına müstəqilliyimiz əldə olundu. Ancaq onu möhkəmləndirmək əvəzinə, Azərbaycanda daxili qarşıdurma, siyasi ambisiyalar uğrunda amansız mübarizə aparıldı. Xalq yeganə çıxış yolu olaraq üzünü ulu öndər Heydər Əliyevə tutdu. Heydər Əliyev müstəqilliyimizə, dövlətçiliyimizə yeni nəfəs gətirdi. Onun yüksək nüfuzu, qətiyyətli mövqeyi, dərin məlumatlılığı, peşəkarlığı bütün dünya tərəfindən qəbul edildi. Onun ölkəmizi dirçəltmək və tanıtmaq istiqamətində siyasi və diplomatik gedişlər, apardığı danışıqlar, keçirdiyi görüşlər dünya siyasətində ildırım kimi çaxdı.

Nədir müasir diplomatiyamızı səciyyələndirən?

BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının erməni qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılma tələbi, İslam Konfransı Təşkilatının Ermənistanı təcavüzkar kimi tanınması, ATƏT-in Budapeşt Sammitində münaqişənin Avropa təhlükəsizliyi çərçivəsində, Lissabon Sammitində isə konfliktin Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həll edilməsi, Avropa Şurasının - Azərbaycan torpaqlarının məhz Ermənistan tərəfindən işğal olunmasının tanınması, Avropa İttifaqının - münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasıdır. Bu tələblərin yekdilliklə qəbul

olunması, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda müasir Azərbaycan diplomatiyasının bir mənalı uğurlarıdır.

- Avropa Şurasında tam hüquqlu üzv olmağımız, NATO çərçivəsində "Sülh naminə tərəfdaşlıq", Avropa İttifaqı çərçivəsində "Yaxın qonşuluq siyasəti" və "Şərq tərəfdaşlıq" proqramlarına qoşulmamız, ölkəmizin Avro-Atlantika strukturlarına inteqrasiya olmasıdır.

- YUNESKO və İSESKO və bir sıra donor dövlətləri tərəfindən Azərbaycanın mədəniyyətinə və incəsənətinə böyük diqqət göstərilməsi;

- Tərəfdaş dövlətlərimizin sayının mütəmadi artması və dünyanın aparıcı dövlətləri ilə əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə qalxması;

- "Bakı-Tbilisi-Ceyhan", "Bakı-Tbilisi-Ərzurum", "Bakı-Tbilisi-Qars" möhtəşəm iqtisadi layihələrin həyata keçirilməsi" ulu öndərimiz Heydər Əliyevin və möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərlik etdikləri Azərbaycan diplomatiyasının şərəfli səhifələrindəndir.

Hörmətli toplantı iştirakçıları!

Azərbaycanın diplomatik xidməti 90 illik tarixi boyunca çox çətin və keçməkeçli yollardan keçmişdir.

1918-ci illərdə dövlətimiz Ermənistanın hücumlarına məruz qalırdı; Avropa və kommunist Rusiyası Azərbaycan neftini ələ keçirmək niyyətlərini davam edirdi, hətta ölkənin tarixi adı olan Azərbaycan sözünün rəsmiləşməsinə etiraz edənlər də tapılırdı, istər 1918-ci ildə, istərsə də Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu 1920-ci ildə düşmən qüvvələr Bakının Azərbaycanın paytaxtı olmasına maneələr yaradı, Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycana dövlətçilikdən imtina edərək kommunist Rusiyanın muxtariyyətinə çevirməsi yolunda hiylələr quruldu.

1980-ci illərdə azadlıq uğrunda mübarizə başladıqda, Azərbaycan xalqı öz haqq səsini dünyaya eşitdirməyə çalışanda Sovet rejimi və onun diplomatik xidməti buna hər yolla maneçilik törədir, öldürülən, yurd-yuvasından qovulan, torpaqlarına göz dikən xalqın səsini eşitmək istəmir və bunun dünyaya çatdırılmasına imkan verilmirdi.

Müstəqilliyimizin bərpasından sonra da diplomatiya yolumuz min bir maneələrlə, tələlərlə, hiylələrlə rastlaşmışdır. Bunun əsas səbəbi dünyanın bir çox kütləvi informasiya vasitələrində, şirkətlərində, dövlət idarələrində, elm-təhsil müəssisələrində erməni diasporunun mövqeyinin güclü olmasıdır.

Torpaqlarımızın işğal olunduğunu dünyaya çatdırarkən, Azərbaycan diplomatları yalnız Ermənistan və erməni diasporu ilə yox, həm də Ermənistana və Azərbaycana qarşı münasibətlərdə mövcud olan ikili standartlarla, işğalçı ilə işğala məruz qalanı, qatil ilə qurbanı tərəzinin eyni gözünə qoymaq cəhdləri ilə mübarizə aparır.

XX əsrin ən dəhşətli faciələrindən birinə - Xocalı soyqırımına gözlərini bağlayanların gözlərini tarixin bu qanlı səhifəsinə çevirməyə çalışırıq. Azərbaycan dövlətinin 3 min illik tarixi, ədəbiyyatı, mədəniyyəti, incəsənəti, folklorunun mənimsənilməsi oğurlanması, özgəninkiləşdirilməsi cəhdləri hələ də davam edir.

Minilliklər boyu yaratdığımız mətbəximizin, oxuduğumuz mahnılarımızın, yaratdığımız musiqi alətlərimizin, Nizaminin, Füzulimizin, Şah İsmayılımızın bizə məxsus olmadıqları iddia olunur.

Peşəkar, istedadlı, təcrübəli mütəxəssislərlə gənc kadrların vəhdətinin bariz nümunəsi olan diplomatlarımızı, sadaladığım çətinliklər nəinki sarsıtmır, əksinə onların daha mübariz olmasını təmin edir. Ən kiçik nailiyyətin, ən xırda uğurun arxasında ölkəmizi tanıtmaq və yaşatmaq uğrunda çalışan diplomatlarımızın gərgin əməyi, əzmkar fəaliyyəti, yuxusuz gecələri, yanar ürəkləri dayanır.

Bütün bunların başında Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev tərəfindən təyin edilən xarici siyasətimizin ana xətti durur və bu siyasət Xarici İşlər Nazirliyinin rəhbərliyinin təlimatı əsasında: Mərkəz, Səfirlik və Nümayəndəliklərimiz davamlı olaraq həyata keçirilir.

Hörmətli xanımlar və cənablar,

Bu tədbir 30 il bundan əvvəl Azərbaycanda baş vermiş, tarixi əhəmiyyət daşıyan bir hadisə ilə eyni günlərə təsadüf edir. 30 il əvvəl məhz bu günlərdə ulu öndər Heydər Əliyev Azərbaycana uğurlu rəhbərliyinə görə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüşdür. Bu fəxri adı aldıqdan sonra ulu öndərin ilk səfəri 30 il əvvəl bu günlərdə məhz Gəncə şəhərinə olmuşdur. Həmin vaxt Gəncənin 250.000 əhalisinin tam əksəriyyəti dahi rəhbəri qarşılamaq, ona olan məhəbbətini göstərmək üçün küçə və meydanlara axışmışdı.

Həmin səfər zamanı Gəncə şəhərinin adını özünə qaytarılması təşəbbüsü irəli sürülmüş və ulu öndərimizin söyləri nəticəsində bu qərar rəsmiləşdirilmişdir. O dövrdə Gəncə şəhəri Kirovabad adlandırılsa da, şəhərin bir hissəsinə rəsmi olaraq "Gəncə" adının verilməsi ilə ulu şəhərimizin tarixi adı özünə qaytarılmışdır.

Bu sadə bir inzibati dəyişiklik deyil. Tarix boyunca, Gəncənin dövlətimiz və xalqımız qarşısındakı xidmətlərinə yüksək ehtiramın təzahürü idi.

Gəncənin adı qaytarılmaqla, təcavüzkar qarşısında baş əyməyən Cavad xanın, ötən əsrin 20-ci ilində bolşeviklər tərəfindən həlak olan oğulların, tarix boyu düşmənə qarşı son damla qanına qədər mübarizə aparan fədailərimizin, şəhərin zəngin ədəbi və mədəni irsini yaradan ziyalılarımızın əzəməti qaytarıldı.

1917-ci ildə Peterburqda çar hakimiyyəti devrilərkən Azərbaycanda ilk siyasi mitinq məhz Gəncədə keçirilmişdir. Gənc Nəsib Bəy Usubbəyovun təşkilatçılığı və rəhbərliyi ilə keçirilən mitinqdə "Yaşasın Azərbaycan avtonomiyası" şüarı yazılmış plakatlar qaldırılmış və bu çağırış qığılcım olaraq Azərbaycanda müstəqillik alovunu yandırmışdır. 1918-ci ilin mayında bu çağırış "müstəqil Azərbaycan dövləti" ideyası olaraq reallaşmış paytaxtımız Bakı düşmən işğalı altında olduğundan, Azərbaycan hökuməti müvəqqəti olaraq Gəncədə məskunlaşmışdır.

Gəncə tarix boyunca olduğu kimi, bu gün də Azərbaycanın fəxridir, gündən-günə sürətlə inkişaf edir. Diplomatik xidmətimizin 90 illik yubileyinin Gəncə şəhərində keçirilməsi, Gəncənin öz adına və tarixinə layiq olan gözəlliyinin və inkişafının bir daha şahidi olmaq bizi daha da fərəhləndirir.

Göstərilən qonaqpərvərliyə görə Gəncə şəhərinin İcra Hakimiyyətinin Başçısı hörmətli, cənab Eldar Əzizova və bütün gəncəlilərə öz və həmkarlarım adından ürəkdən təşəkkür edirəm.

Bu gün hörmətli Prezidentimiz cənab İlham Əliyevin uğurlu rəhbərliyi nəticəsində Azərbaycan günü-gündən çiçəklənir, əhalinin güzəranı get-gedə yaxşılaşır, ölkədə demokratiya, sabitlik və əmin-amanlıq hökm sürür, paytaxt Bakı ilə yanaşı ölkənin bütün şəhər və rayonları abadlaşır və gözəlləşir.

Dünya böhran keçirdiyi halda iqtisadiyyatımız arası kəsilmədən inkişaf edir. Avropanın enerji problemləri ilə rastlaşdığı halda bir dövrdə cənab İlham Əliyevin uğurla həyata keçirdiyi neft və qaz strategiyası bu gün Azərbaycanı Avropa enerji təhlükəsizliyinin etibarlı təminatçılarından və Avropa siyasətinin əsas iştirakçılarından birinə çevirib.

Azərbaycan Prezidenti dünyanın aparıcı siyasətçiləri ilə görüşlərində, beynəlxalq təşkilatlardakı çıxışlarında, dünyanın nüfuzlu kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində öz biliyi, təcrübəsi, peşəkarlığı, uzaqgörənliyi ilə ölkəmizi layiqincə təmsil etməkdə ,Azərbaycanın adını ucaltmaqdadır. Cənab İlham Əliyev müdrik dövlət xadimi kimi bütün dünyada tanınmaqda və qəbul edilməkdədir.

Hörmətli xanımlar və cənablar,

İcazə verin, Azərbaycan diplomatik korpusu adından mənə əziz və doğma olan Gəncədə, çıxış etmək imkanını yaratdığına görə Hörmətli Nazirimiz cənab Elmar Məmmədyarova öz təşəkkürümü bildirim!

Əziz iştirakçılar, diqqətinizə görə Sizə minnətdaram!

* * *

Bayram mərasiminin rəsmi hissəsi başa çatdıqdan sonra Azərbaycan diplomatları yubiley tədbirlərini davam etdirmək üçün təyyarə ilə Naxçıvan Muxtar Respublikasına yola düşmüşlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN BAŞ NAZİRİ SERGEY SİDORSKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Belarusun Baş naziri Sergey Sidorskini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev əlaqələri inkişaf etdirmək, inteqrasiya olunmaq və əməkdaşlığı genişləndirmək üçün hər iki tərəfdə ümumi istəyin olduğunu vurğuladı. Qısa vaxt ərzində birgə istehsal sahələrinin yaradılmasını yaxşı təcrübə kimi dəyərləndirən Prezident İlham Əliyev bu təcrübəni digər sahələrə də tətbiq etməyin zəruriliyini bildirdi. Dünyadakı mövcud iqtisadi və maliyyə böhranı şəraitində əməkdaşlığın əhəmiyyətini qeyd edən dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Belarusun Baş naziri Sergey Sidorskinin Azərbaycana səfəri ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da genişləndirilməsi işinə xidmət edəcəkdir.

Belarusun Baş naziri Sergey Sidorski Belarus Prezidenti Aleksandr Lukaşenkonın sa-

lamlarını dövlətimizin başçısına çatdırdı. Sergey Sidorski bildirdi ki, dünyadakı maliyyə böhranına baxmayaraq dövlətlərimizin başçılarının müəyyənləşdirdiyi uğurlu siyasət nəticəsində əlaqələrimiz inkişaf edir və bu siyasət əməkdaşlığımızın daha da genişlənməsi üçün yaxşı imkan yaradır.

Azərbaycan Prezidenti İlham Əliyev Prezident Aleksandr Lukaşenkonın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus dövlətinin başçısına çatdırmağı xahiş etdi.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK XİDMƏTİNİN 90 İLLİYİ MÜNASİBƏTİLƏ KONFRANS KEÇİRİLMİŞDİR

İyulun 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyi münasibətilə konfrans keçirilmişdir. Əvvəlcə konfrans iştirakçıları ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsini ziyarət etmiş, önünə gül dəstələri qoymuşlar.

Sonra ulu öndərin dövlətçilik fəaliyyətini əks etdirən muzeylə tanış olan qonaqlar oradan xoş təəssüratlarla ayrılmışlar.

Konfransda Xarici İşlər Nazirliyinin məsul işçiləri, Azərbaycanın xarici ölkələrdəki səfirləri və konsulları iştirak etmişlər.

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ALI MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOVUN ÇIXIŞI

- Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyi münasibəti ilə keçirilən tədbirin hörmətli iştirakçıları!

Bugünkü konfrans əlamətdar bir dövrdə keçirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə hər il iyul ayının 9-u Azərbaycanda diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd olunur. Bu il eyni zamanda Azərbaycan Respublikasında diplomatik xidmətin 90 illiyi qeyd edilir.

Qarşıdan gələn peşə bayramınız və diplomatik xidmətin 90 illiyi münasibəti ilə Sizi səmimi qəlbdən təbrik edir, ölkəmizin milli maraqlarının qorunması kimi olduqca vacib, şərəfli və məsuliyyətli işdə uğurlar arzulayıram.

Hər bir ölkənin diplomatiyası o ölkənin qürur mənbəyidir. Milli dövlətçiliyi və dövlət sərhədləri olan ölkələr istər-istəməz beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilirlər. Bu mənada diplomatiya dövlətçiliklə birbaşa bağlıdır və ondan kənarda ölkələrarası münasibətlər mümkün deyil.

Qədim dövlətçilik ənənələrinə malik olan digər dövlətlər kimi, Azərbaycanın da beynəlxalq münasibətlər və diplomatiya tarixi olduqca zəngindir. Qədim Azərbaycan dövlətləri olan Ağqoyunlu və Səfəvilərin Azərbaycan diplomatiyasının inkişafında xidmətləri böyükdür. Bu dövlətlərin Vatikan, Venesiya və Macarıstan kimi nüfuzlu dövlətlərlə münasibətləri diplomatiya tariximizin "qızıl fondu"na daxil olmuşdur.

Azərbaycanın Naxçıvan diyarı da ən qədim dövrlərdən başlayaraq böyük dövlətlərin maraq dairəsində olmuşdur. 5 min illik tarixə və şəhər mədəniyyətinə malik Naxçıvan bir yandan geostrateji mövqeyi və zəngin təbii sərvətləri ilə fatehlərin diqqətini özünə cəlb edirdisə, digər tərəfdən əlverişli tranzit imkanlarına malik olması, Böyük İpək Yolunun üzərində yerləşməsi səbəbindən ölkələr və regionlararası maraqların kəsişdiyi əraziyə çevrilmişdi. Bütün bunlar isə qədim Naxçıvanı hərbi və siyasi diplomatiya müstəvisinə çıxarmışdı. Naxçıvan şəhəri bizim eranın onuncu əsrində Naxçıvan şahlığının, on ikinci əsrdə qüdrətli Atabəylər dövlətinin, on səkkizinci əsrdə siyasi səhnədə əhəmiyyətli rol oynayan Naxçıvan xanlığının, 1918-ci ildə 1 milyondan artıq əhaliyə malik Araz-Türk Respublikasının paytaxtı olmuş, Azərbaycan dövlətçiliyinin, siyasi və diplomatik münasibətlər sisteminin formalaşmasında mühüm mərhələ təşkil etmişdir.

Naxçıvanın muxtariyyət əldə etməsindən sonra formalaşmış xarici dövlətlərlə əlaqələr sahəsində təcrübəsi Azərbaycan dövlətçiliyinin daha da zənginləşməsinə xidmət etmişdir.

Ötən əsrin 20-ci illərində Azərbaycanın himayəsi altında muxtariyyət qazanmış Naxçıvanın Maku, Xoy və Təbrizdə konsulluqları, Bakı, Tiflis və İrəvanda nümayəndəlikləri yaradılmış, Rusiya Federasiyasının Qarsdakı konsulluğu yanında müvəkkilliyi təşkil olunmuşdur. 1924-cü ilədək Naxçıvanda Türkiyənin hərbi nümayəndəliyi, 1938-ci ilədək isə İranın konsulluğu fəaliyyət göstərmişdir.

Tarixə nəzər salsaq, aydın görmək mümkündür ki, Naxçıvan ərazisində yaradılmış dövlət qurumlarının, həyata keçirilən diplomatik fəaliyyətin yalnız bir məqsədi olmuşdur: min illər boyu Azərbaycan türklərinin vətəni olan bu qədim ərazinin Azərbaycana məxsusluğunu, Azərbaycan dilini, milli-mənəvi dəyərlərini və Azərbaycan dövlətçiliyini qoruyub-saxlamaq, xalqımızın birliyini və bütövlüyünü təmin etmək. Xarakterikdir ki, bu missiya təkcə dövlət xadimlərinin yox, eyni zamanda geniş xalq kütlələrinin də iştirakı ilə həyata keçirilmiş, özünəməxsus "xalq diplomatiyası" yaranaraq formalaşmışdır.

Ötən əsrin 20-ci illərində Amerika, İngiltərə və Rusiya kimi böyük dövlətlərin mövqeyinin əksinə olaraq Naxçıvan əhalisinin siyasi iradəsi nəticəsində bu diyarın Azərbaycanın tərkibində muxtar respublika kimi qorunub saxlanması xalqın iradəsinin, "xalq diplomatiyası"nın tarixdə oynadığı rolun əyani ifadəsidir. Aparılmış siyasi və diplomatik söylərin nəticəsi olaraq 1921-ci ildə imzalanmış 2 mühüm beynəlxalq sənəddə - Moskva və Qars müqavilələrində Naxçıvanın muxtariyyət hüququnun tanınması, Naxçıvan Muxtar Respublikasının ərazisinin təsdiq olunması və beynəlxalq müqavilələrlə qorunan toxunulmazlıq hüququnun təsbit edilməsi gənc Azərbaycan diplomatiyasının şəksiz qələbəsi idi.

Azərbaycan tarixi xalqımızın taleyində əhəmiyyətli rol oynayan bu cür diplomatik nailiyyətlərlə zəngin olduğu kimi, görkəmli diplomatlar nəslinin formalaşması ilə də zəngindir. Qüdrətli Azərbaycan Atabəylər dövlətinin İraq sultanlığı, bu hakimiyyətin rəqibləri olan Marağa və Rey hakimləri ilə münaqişələrini böyük təcrübə və müdrikliklə aradan qaldıran Məmînə xatın, qadın siyasətçi kimi on ikinci əsr Azərbaycan diplomatiyası tarixində özünə şərəfli yer tutmuşdur. Naxçıvan xanlarından Heydərqulu xan, Abbasqulu xan və Cəfərqulu xan xanlığın xarici siyasətinə bilavasitə rəhbərlik etmiş, birinci Kalbalı xan isə on səkkizinci əsrin nüfuzlu siyasi lideri və diplomatı kimi məşhur-

laşmışdır.

Azərbaycandan ərazicə ayrı düşmüş Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyəti ilə birləşməsi üçün böyük səylər göstərən Araz-Türk Respublikasının xarici işlər naziri Bəhram xan Naxçıvanski təmsil etdiyi dövlətin ərazisinin qorunması uğrunda fəal mübarizə aparmış, işğalçı ermənilərə qarşı döyüşdə şəhid olmuşdur.

Ötən əsrin 20-ci illərində Naxçıvanda Behbud bəy Şahtaxtinski, İbrahim Əbilov kimi diplomatlar yetişmişdir. Behbud bəy Şahtaxtinskinin fəaliyyəti ağır vəziyyətdə diplomatiyanın mümkün olmayanı mümkün etmək prinsipinə ən gözəl nümunədir. Moskva və Qars müqavilələrinin xalqımızın milli maraqlarına uyğun şəkildə bağlanması, hər şeydən əvvəl onun diplomat bacarığı hesabına mümkün olmuşdur.

Göründüyü kimi, diplomatiya sıravi peşələrdən deyil. O, xalqın milli və siyasi maraqlarına birbaşa təsir göstərən fəaliyyət sahəsidir. Xarici siyasət üzrə mütəxəssislərin fikrincə, "diplomatiya - dövlətlərin xarici siyasətinin həyata keçirilməsi üçün vasitə olub, konkret şərait və yerinə yetirilən vəzifələrin xarakteri nəzərə alınmaqla tətbiq edilən qeyri-hərbi praktik tədbirlərin, üsul və metodların məcmusudur". Yaxşı işlənmiş və əsaslandırılmış diplomatiyası olmayan dövlətlər siyasi səhnədən silinməyə məhkumdurlar. Bu fikrin təsdiqi kimi ötən əsrin 90-cı illərində Azərbaycanın düşdüyü vəziyyəti göz önünə gətirmək kifayətdir.

Bu dövrdə nə baş verirdi? Dünyada gedən qlobal proseslər, Sovetlər Birliyinin dağılması, Varşava Müqaviləsi Təşkilatının buraxılması planetimizin siyasi mənzərəsini ciddi şəkildə dəyişdirmiş, keçmiş SSRİ məkanında meydana çıxmış yeni müstəqil dövlətlər birbaşa beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilmişdilər. Bir sıra dövlətlər bu münasibətləri milli maraqlara uyğunlaşdırmaq xətti götürdüyü halda, Azərbaycanın siyasi rəhbərliyi birtərəfli qaydada ölkənin xarici siyasətini imperiya qüvvələrinin maraqlarına uyğunlaşdırmaq yolunu tutmuşdu. Bununla da dövlətin suveren hüquqlarının qorunmasına beynəlxalq təminat heçə endirilmişdi.

Xalq Cəbhəsi-Müsavat cütlüyünün xarici siyasət kursu da ayrı-ayrı vəzifəli şəxslərin bir-birini təkzib edən təsadüfi bəyanatları ilə yadda qalmışdı. "Bizimlə müharibə vəziyyətində olan dövlətə atom zərbəsi endirmək", "Çinə türk bayrağı sancmaq" kimi məsuliyyətsiz çağırışlar xarici siyasətin ali məqsədi barədə yanlış rəy doğurmaqla ölkəmizin beynəlxalq imicini ciddi zərbə altında qoymuşdu. Nəticə nə oldu? Azərbaycan təkləndi. Ölkə ərazisinin 20 faizinin işğalı və Naxçıvan Muxtar Respublikasının tam blokada vəziyyətinə düşməsi faktına beynəlxalq birlik lazımi reaksiya vermədi, Azərbaycana qarşı ədalətsiz "907-ci düzəliş" tətbiq olundu.

Bundan fərqli olaraq həmin dövrdə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi ulu öndər Heydər Əliyev xarici dövlətlərlə münasibətdə qonşuluq prinsipinin əsaslarını yaradaraq tətbiq etdi, İran və Türkiyə ilə mehriban münasibətlər quruldu, Araz çayı üzərində Şahtaxtı-Poldəşt, Sədərək-Dilucu körpüləri salındı. Sadələşdirilmiş rejimdə işləyən yeni sərhəd-keçid məntəqələri yaradıldı. İranın və Türkiyənin Naxçıvan Muxtar Respublikasında konsulluqları fəaliyyətə başladı.

O dövrdə tətbiq olunan düzgün siyasi xətt Naxçıvanın işğalının qarşısını alırdısa, son dərəcə ağır blokada şəraitində burada yaşayışı və inkişafı təmin edirdisə, yarıtmaz xarici

siyasət Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunu sual altında qoyurdu.

Azərbaycan diplomatiyası yenidən təşkilatlanmasına və əldə etdiyi ciddi nailiyyətlərə görə ümummilli lider Heydər Əliyevə borcludur. Böyük dövlət xadiminin ikinci dəfə ali hakimiyyətə qayıdışı ilə ölkəmizin təklənməsinə səbəb olan kortəbii xarici siyasətə son qoyuldu. Mehriban qonşuluq münasibətlərinin və tarazlaşdırılmış xarici siyasətin tətbiqi Azərbaycanı beynəlxalq birliyin və Avropa ailəsinin nüfuzlu üzvünə çevirdi.

Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin xarici siyasətinin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirərək demişdir: "Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəlməlidir. Vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".

Möhtərəm Heydər Əliyev Azərbaycanın həmsərhəd və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla iqtisadi, ticarət, elmi-texniki və mədəni münasibətlərinin genişlənməsinə, Naxçıvan Muxtar Respublikasının da bu münasibətlərdə iştirakına mühüm diqqət yetirirdi. Onun bilavasitə tapşırığı ilə 1997-ci ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasında Konsulluq Məntəqəsi fəaliyyətə başlamış, bir il sonra bu qurumun əsasında Konsulluq şöbəsi, 2003-cü ilin fevralında isə Konsulluq idarəsi yaradılmışdır.

Eyni zamanda, ulu öndər Heydər Əliyevin 1992-ci il fevralın 24-də qəbul etdiyi qərara əsasən Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində nümayəndəliyi təsis edilmişdir. 2002-ci il oktyabr ayının 10-da Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyinin yeni binasının açılış mərasimində iştirak və çıxış edən ümummilli liderimiz demişdir: "Mən son vaxtlar Naxçıvanın inkişafı ilə əlaqədar bəzi tədbirlər həyata keçirmək barədə qərarlar vermişəm. Bunlar lazımdır. Nə üçün? çünki Naxçıvanın vəziyyəti, onun coğrafi vəziyyəti və Naxçıvana qarşı ermənilərin daimi ərazi iddiası Naxçıvanı xüsusi inkişaf etdirmək məsələsini qarşımıza qoyur. Naxçıvan Azərbaycanın ən qədim torpaqlarından biridir. Naxçıvanda Azərbaycanın milli mədəniyyətini, memarlığını, rəssamlığını nümayiş etdirən abidələr vardır.

Biz Azərbaycanın xüsusi ağır şəraitdə olan bir hissəsini gərək o qədər inkişaf etdirək ki, oradakı problemlər insanları narahat etməsin. Həmin insanlar orada daim yaşasınlar. Azərbaycan torpağını qorusunlar, saxlasınlar. Bax, bunlara görə bu qərarlar qəbul olunmuşdur".

Ulu rəhbərimizin siyasi xəttini davam etdirən hörmətli Prezidentimiz İlham Əliyevin 2005-ci il 31 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi təşkil olunmuş və İdarənin Əsasnaməsi təsdiq edilmişdir. Həmin Əsasnamə ilə İdarəyə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müvafiq vəzifə və funksiyalarının Naxçıvan Muxtar Respublikasında fasiləsiz və ardıcıl həyata keçirilməsi tapşırılmışdır.

Ötən il Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yeni inzibati binasının açılış mərasimində Azərbaycan Respublikası

Prezidentinin şəxsən iştirak etməsi, bu il isə Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyi münasibəti ilə konfransın Naxçıvanda keçirilməsi barədə tapşırıq verməsi, Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi barədə sərəncam imzalaması muxtar respublikanın tarixi keçmişinə, Azərbaycan diplomatiyası və dövlətçilik tarixində oynadığı müstəsna rola verilən yüksək qiymətin əyani ifadəsidir.

Bu yüksək qayğıya və diqqətə görə ölkə rəhbəri hörmətli İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk.

Hörmətli konfrans iştirakçıları!

90 illik yubiley çərçivəsində keçirilən tədbirdə diplomatik xidmət orqanları rəhbərlərinin, səfir və konsulların iştirakı 1991-ci ildən Ermənistan Respublikasının işğalçılıq siyasəti nəticəsində blokada şəraitində yaşayan muxtar respublikanın üzləşdiyi problemləri bilavasitə yerindəcə müşahidə etmək və beynəlxalq aləmə həqiqəti çatdırmaq imkanı yaradacaqdır.

Sizin bu imkanlardan məqsədyönlü şəkildə yararlanacağınıza əminliyimi ifadə edir, çıxışımı Azərbaycan Prezidenti cənab İlham Əliyevin aşağıdakı fikirləri ilə tamamlayıram: "Biz bütün sahələrdə görürük ki, Azərbaycanın inkişafı, güclü dövlətə çevrilməsi artıq reallıqdır. Biz çalışmalıyıq ki, bunu daha da sürətlə həyata keçirək, öz maraqlarımızı tam şəkildə müdafiə edək. Elə edək ki, Azərbaycanın xarici siyasəti Azərbaycanı qorusun, Azərbaycanın qarşısında, elə bil, qalxan kimi dayansın ki, ölkəmiz inkişaf etsin. Ölkə öz istəyinə nail olsun və insanlar daha da yaxşı yaşasınlar. Budur siyasətimizin əsas istiqamətləri".

Diplomatik xidmət korpusunun bütün əməkdaşlarını bir daha yubiley münasibəti ilə təbrik edir, ölkə Prezidentinin müəyyənləşdirdiyi vəzifələrin həyata keçirilməsində uğurlar arzulayıram.

Sağ olun!

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ÇIXIŞI

- Hörmətli Vasif müəllim,

Əziz naxçıvanlılar,

Bu gün Azərbaycan dövlətinin çoxəsrlik tarixinin vacib siyasi və mədəni mərkəzlərindən biri olan, ulu Naxçıvanda olmağımdan və sizinlə birlikdə Azərbaycan diplomatiyasının 90-cı ildönümünə həsr olunmuş konfransda iştirak etməyimdən məmnunam.

İlk növbədə səmimi qonaqpərvərlik və iclasın yüksək səviyyədə təşkilinə görə Naxçıvan Muxtar Respublikasının rəhbərliyinə və bütün naxçıvanlılara Xarici İşlər Nazirliyinin nümayəndə heyəti adından dərin təşəkkürümü bildirmək istərdim.

Naxçıvan hamımız üçün doğma bir diyardır. Bu diyar Azərbaycanımıza Heydər Əliyev kimi dövlət xadimi, dahi tarixi şəxsiyyət bəxş etmişdir. Məhz Ulu Öndər Heydər Əliyev çox mürəkkəb və ağır şəraitdə Naxçıvana rəhbərlik edərək Azərbaycan üçün strateji əhəmiyyətə malik bu bölgənin qorunmasını və təhlükəsizliyini təmin etmişdir. Bizim

hər birimiz Ümummilli Liderimizin bu xidmətləri ilə fəxr edir və qürur hissi keçiririk.

Bu gün Naxçıvanda böyük tərəqqinin, genişmiqyaslı abadlıq işlərinin, firavanlığın şahidi oluruq. Bu işlər, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və onun layiqli davamçısı Prezident İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilən məqsədyönlü siyasət nəticəsində əldə olunmuş hərtərəfli inkişafın tərkib hissəsidir.

Hörmətli iclas iştirakçıları,

Azərbaycan diplomatiyasının 90-cı ildönümü deyəndə biz dövlətimizin peşəkar diplomatik xidmətinin məhz 9 iyul 1919-cu il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin Katibliyinə dair qərarın qəbul edilməsindən ötən müddəti nəzərdə tuturuq. Bildiyiniz kimi, bu tarixi fakt əsasında Prezident İlham Əliyev cənablarının 24 avqust 2007-ci il tarixli fərmanı ilə 9 iyul Azərbaycan diplomatlarının peşə bayramı elan edilmişdir.

Bugünkü Azərbaycan dövlətçiliyinin kökləri müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlıdır. Naxçıvan diyarı Azərbaycanın müstəqilliyi və dövlətçiliyi uğrunda vuruşan milli qüvvələrin formalaşması mərkəzlərindən biri olmuşdur. Naxçıvan torpağının yetirmələri olan Azərbaycan Xalq Cümhuriyyətinin parlament və hökumətinin üzvləri Həmid ağa Şaxtatinski və İbrahim Əbilov kimi siyasi xadimlər onun daxili siyasətində və diplomatiyasının həyata keçirilməsində fəal iştirak etmişlər. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin hərbi-siyasi imkanlarının çox məhdud olmasına baxmayaraq, onun daxili və xarici siyasətində Naxçıvan həmişə diqqət mərkəzində olmuşdur. Birinci dünya müharibəsinin cəbhə bölgəsinə yaxın olduğuna görə Naxçıvan torpağı, erməni daşnaq qüvvələrinin uzun müddət ərzində mütəmadi təcavüzünə məruz qalmışdır. Bütün bunlara baxmayaraq, Naxçıvan camaatı milli yerli hakimiyyət qurumlarını yaradaraq, erməni qüvvələrinə qarşı müdafiə təşkil etmiş və onların qəddar planlarını pozmuşlar.

Bakıda Sovet hakimiyyəti bərqərar olandan sonra da Azərbaycanın bir sıra siyasi xadimləri diplomatik meydanda öz fəaliyyətini və Azərbaycanın mənafeyinin müdafiəsini davam etməyə müvəffəq olmuşdurlar. Naxçıvan torpağının yetirmələri İbrahim Əbilov və Behbud ağa Şahtaxtinski Azərbaycan diplomatları kimi Rusiya, Türkiyə, Azərbaycan və Ermənistan arasında dövlət münasibətlərinin və sərhədlərin tənzimlənməsində fəal iştirak etmişlər. Sovet-Türkiyə danışıqlarında Azərbaycan nümayəndə heyətinin başçısı Şahtaxtinski ilə birlikdə Əbilov Naxçıvan muxtariyyətini və sərhədlərini müəyyən edən 1921-ci il Moskva və Qars müqavilələrini imzalamışlar. Habelə, Əbilov Sovet Azərbaycanın Türkiyədə səfiri və 1921-ci ildən Zaqafqaziya Federativ Respublikasının Türkiyədə fövqəladə və səlahiyyətli səfiri olmuşdur. O, Azərbaycan-Türkiyə dostluq münasibətlərinin möhkəmləndirilməsində böyük rol oynamış və Türkiyə Cümhuriyyətində ilk islahatların həyata keçirilməsində Mustafa Kamalın yaxın məsləhətçilərindən biri olmuşdur.

Sovet İttifaqı dövründə müstəqillikdən məhrum olmuş Azərbaycan SSRİ ali təhsil qurumları və diplomatik xidmət orqanlarının imkanlarından faydalanaraq milli diplomatik kadrların yetişdirilməsinə nail olmuşdur. Xüsusilə də, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə milli kadr və mütəxəssislərin hazırlanması və müxtəlif sahələrdə irəliləməsi daha sistemli şəkildə həyata keçirilmişdir. Bütün dünya-

nı əhatə edən Sovet diplomatik xidmət qurumlarında və çoxtərəfli xarici siyasətində, əsas etibarilə Yaxın və Orta Şərq istiqamətində azərbaycanlı diplomatlar və müxtəlif sahələr üzrə mütəxəssislər fəal iştirak etmiş, İran, Türkiyə, Əfqanıstan, İraq və digər ərəb ölkələrində yüksək səviyyəli fəaliyyətləri ilə fərqlənmişlər.

Məhz bu illərdə formalaşmış kadr potensialı bu gün bizə müstəqil diplomatik fəaliyyətimizi genişləndirməyə, bir çox ölkələrdə və təşkilatlarda səfirlik və nümayəndəliklər açmağa imkan verir. Bu dövrün ən vacib xüsusiyyəti isə ondan ibarətdir ki, Sovet İttifaqında ümumi durğunluğun olmasına baxmayaraq, məhz Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda milli şüurun dirçəlməsi sahəsində, o cümlədən milli tarix və mədəniyyətə aid tədqiqat və fəaliyyətin xeyli çoxalması, milli iqtisadiyyat və elmin inkişaf etdirilməsində böyük işlər görülmüşdür. Bu geniş əhatəli nailiyyətlər Azərbaycanın yeni mərhələdə müstəqilliyə hazır olması üçün zəruri potensial yaratmışdır.

Beləliklə, 1991-ci ildə Sovet İttifaqının dağılması ilə yeni yaranmış müstəqil dövlətlər arasında Azərbaycan müstəqil dövlət kimi inkişaf etməyə qadir olan ölkələrdən biri idi.

XX əsrin sonunda Azərbaycan öz müstəqilliyini bərpa etmək üçün tarixi fürsət əldə etmiş oldu. Həmin vaxt qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalmış, ağır iqtisadi böhran və daxili qeyri-sabitliyin hökm sürdüyü Azərbaycan öz tarixinin ən mürəkkəb dövrlərindən birini yaşayırdı. Belə bir mürəkkəb şəraitdə Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycanın rəhbərliyinə gəlməsi tarixi əhəmiyyətli hadisə idi. Ümummilli Lider Heydər Əliyevin hərtərəfli fəaliyyəti nəticəsində milli dövlətçilik möhkəmləndirilmiş, daxildə siyasi sabitlik və milli birlik təmin edilmiş, dövlət quruculuğu və sosial-iqtisadi sahədə dərin islahatların aparılmasına başlanmışdır.

Məhz ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanın milli maraqlarının təmin edilməsinə yönələn xarici siyasətinin prioritet istiqamətləri müəyyənləşdirilmiş və onların həyata keçirilməsi təmin olunmuşdur. Böyük diplomatik məharət tələb edən uğurlu neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycanın dünya birliyində geosiyasi əhəmiyyəti xeyli artmış, ölkəmizin ətrafında daha əlverişli strateji reallıq əmələ gəlmişdir. Fəal xarici siyasətin nəticəsi olaraq, dünya dövlətlərinin və beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi istiqamətində səyləri gücləndirilmişdir.

Ümummilli Lider Heydər Əliyevin nəhəng fəaliyyətinin nəticələrinə arxalanaraq, onun layiqli davamçısı Prezident İlham Əliyev cənablarının rəhbərliyi altında Azərbaycan siyasi və sosial-iqtisadi, hərbi və enerji strategiyası sahələrində yeni nəzərə çarpan tərəqqi əldə etmişdir.

Azərbaycan ətrafda olan geniş bölgədə baş verən strateji siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir olan ölkəyə çevrilmişdir. Azərbaycanın siyasi və iqtisadi qüdrəti, strateji coğrafi mövqeyi, zəngin təbii ehtiyatları xarici siyasət prioritetlərinin təmin olunmasında böyük əhəmiyyətə malikdir. Azərbaycan öz milli mənafeyinə uyğun olaraq beynəlxalq birliyin əksər üzvləri ilə sabit münasibətlər və qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirir. Ölkəmiz xarici əlaqələrinin coğrafiyasını əhəmiyyətli dərəcədə genişləndirmiş, beynəlxalq aləmdə daha çox nəzərə çarpan və hörmət edilən ölkəyə çevrilmiş və xarici siyasət məqsədlərini daha da təkmilləşdirmişdir. Avstraliya istis-

na olmaqla, bizim bu gün dünyanın bütün qitələrində diplomatik nümayəndəliklərimiz mövcuddur.

Ermənistan təcavüzünün nəticələrini aradan qaldırmaq istiqamətində fəaliyyətini gücləndirərək, Azərbaycan diplomatiyası BMT, ATƏT, Avropa Şurası, NATO, İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən və Ermənistanın təcavüzkar siyasətini pisləyən bir çox qətnamələr və qərarların qəbul edilməsinə nail olmuşdur. Biz Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə, Minsk qrupu həmsədrlərinin vasitəçilik yardımı əsasında həll edilməsi istiqamətində səylərimizi davam etdiririk. Azərbaycanın mövqeyi birmənalıdır, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüquq prinsipləri, o cümlədən Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında həll oluna bilər.

Müstəqilliyimizin bərpa olunmasından sonra keçən on səkkiz il ərzində Azərbaycanın xarici siyasət strategiyasının uğurlu olmasının sübutu ondan ibarətdir ki, bu dövr ərzində ölkəmiz daim dəyişən beynəlxalq mühitə uyğunlaşmaqla yanaşı, eyni zamanda regional liderə və beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrilmişdir. Ölkəmiz bütün regional məsələlərdə əsas oyunçudur və regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycansız gerçəkləşə bilməz.

Diplomatik xidmət orqanlarımızın rəhbərlərinin son müşavirəsində Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının qeyd etdiyi kimi xarici siyasətimiz bütün istiqamətlərdə uğurludur, biz işimizi məhz bu istiqamətdə davam etdirəcəyik və xarici siyasət fəaliyyətimizdə fəal olmalıyıq. Bu gün Azərbaycan diplomatik xidməti Möhtərəm cənab Prezidentin göstərişlərinə uyğun olaraq xarici siyasət prioritetlərimizin təmin olunması istiqamətində fəaliyyətini davam etdirir.

Sözümü bitirərək, Azərbaycan diplomatiyasının 90-cı ildönümünü qeyd etdiyimiz bu əlamətdar gündə sizin hamınıza doğma diyarımızın çiçəklənməsi naminə daha böyük müvəffəqiyyətlər arzulayıram.

Eyni zamanda, fürsətdən istifadə edərək başda Vasif Talıbov olmaqla Naxçıvan Muxtar Respublikasının rəhbərliyinə və naxçıvanlılara qonaqpərvərliyə və diqqətə görə bir daha təşəkkürümü bildirirəm.

* * *

Çıxış edən digər natiqlər də Azərbaycan diplomatiyasının tarixindən və bugünkü uğurlarından danışmışlar.

Konfransdan sonra Azərbaycan Respublikası diplomatik korpusunun nümayəndələri Naxçıvan şəhərindəki "Gənclik" mərkəzinə gələrək yubiley münasibətilə təşkil olunmuş konsert proqramını seyr etmişlər. Naxçıvan Muxtar Respublikası Dövlət Filarmoniyasının müğənniləri klassik və müasir bəstəkarların mahnılarını ifa etmişlər.

Sonra qonaqlar Naxçıvanın görməli yerlərini gəzmiş, təbiət və tarixi abidələri ilə tanış olmuşlar.

AZƏRBAYCAN DİPLOMATİK XİDMƏTİNİN 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ "AZƏRBAYCAN QLOBAL SİYASƏTDƏ: XARİCİ SİYASƏTİN FORMALAŞMASI" ADLI BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR

İyulun 8-də Bakıda Azərbaycan Respublikasının Diplomatik Xidmətinin 90 illiyinə həsr olunmuş "Azərbaycan qlobal siyasətdə: xarici siyasətin formalaşması" adlı beynəlxalq konfrans keçirilmişdir.

Konfransa sədrlik edən xarici işlər nazirinin müavini Hafiz Paşayev 90 il əvvəl Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yarandığını, bu dövlətin qurulması ilə diplomatik xidmətinin əsaslarının qoyulduğunu diqqətə çatdırmışdır.

Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri Elmar Məmmədyarov Xarici İşlər Nazirliyinin yaranması, keçdiyi yol və qarşıda duran vəzifələr barədə konfrans iştirakçılarına ətraflı məlumat vermişdir.

E.Məmmədyarov vurğulamışdır ki, Sovet İttifaqının dağılması ilə Azərbaycan xalqı öz müstəqilliyini bərpa etmək və dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət qazanmışdır. Həmin vaxtlar çoxları qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalmış, ağır iqtisadi böhranın və daxili qeyri-sabitliyin hökm sürdüyü Azərbaycanın bu mürəkkəb vəziyyətdən çıxacağına və uğur qazanacağına inanmırdı. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin prezident seçilməsindən sonra Azərbaycanın müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsi istiqamətində uğurlu strategiyanın həyata keçirilməsinə başlanılmışdır. Ulu öndər Heydər Əliyev xarici əlaqələrimizi genişləndirmiş, ölkənin uzunmüddətli inkişafının təməlini qoymuşdur.

Bugünkü Azərbaycan dövlətçiliyinin köklərinin Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı olduğunu deyən nazir bildirmişdir ki, AXC-nin qısa müddət ərzində mövcud olmasına baxmayaraq, Xarici İşlər Nazirliyi də daxil olmaqla əsas dövlət institutları məhz həmin dövrdə yaradılmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması xarici siyasətimizin bir nömrəli prioriteti olduğunu qeyd edən E.Məmmədyarov vurğulamışdır ki, biz münaqişənin həlli üçün erməni hərbi qüvvələrinin işğal olunmuş Azərbaycan ərazisindən çıxarılması, bu ərazilərdə Azərbaycanın pozulmuş suveren hüquqlarının bərpası, məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması, qanuni və demokratik proses çərçivəsində Dağlıq Qarabağda Azərbaycan və erməni icmalarının dinc yanaşı yaşaması və Azərbaycan Respublikasının tərkibində muxtariyyətini təmin edəcək statusun müəyyənləşdirilməsindən başqa bir yol görmürük. Azərbaycan münaqişənin sülh yolu ilə nizamlanmasına sadiqdir və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ədalətli həllinin dəstəklənməsi üçün bütün səylərini səfərbər etməklə öz tərəfdaşları, beynəlxalq və regional təşkilatlarla aparılan işi davam edəcəkdir.

Türkiyənin keçmiş xarici işlər naziri və parlamentinin sabiq sədri Hikmət Çətin ölkəmizin qısa müddətdə böyük nailiyyətlər əldə etdiyini vurğulayaraq bildirmişdir ki, bu gün Azərbaycan yüksək iqtisadi artıma malik olan, sürətlə inkişaf edən gənc demokratik ölkədir. Azərbaycan öz milli maraqlarının gerçəkləşdirilməsi, habelə regional və qlobal mövqelərinin möhkəmləndirilməsi üçün özünün iqtisadi və siyasi imkanlarından məharətlə istifadə edir.

Ulu öndər Heydər Əliyevin ölkəmizin Avratlantika məkanına inteqrasiyası yolunda böyük xidmətləri olduğunu qeyd edən H.Çətin demişdir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmışdır.

Rusiya Prezidentinin sabiq xüsusi nümayəndəsi və keçmiş energetika naziri Viktor Kalyujnı, CNN agentliyinin baş siyasi icmalçısı Bil Şnayder və başqaları bildirmişlər ki, Azərbaycan dövlətlərin suveren bərabərliyi prinsipinə əsaslanan müstəqil xarici siyasət yürüdür. Azərbaycan bütün ölkələrlə dostluq və qarşılıqlı səmərəli əlaqələrini inkişaf etdirməklə öz regionunda və onun sərhədlərindən kənarda mehriban qonşuluğu təşviq etməkdə çox maraqlıdır.

Beynəlxalq konfrans işini sessiyalarda davam etdirmişdir. Sessiyalarda "Bölgə təhlükəsizlik və münaqişələr: Güc tarazlığının tapılması", "Bölgədəki iqtisadi və enerji inkişafı - xarici siyasət amili" mövzularında məruzələr dinlənilmiş, müzakirələr aparılmışdır.

Konfransda Azərbaycanın xarici ölkələrdəki səfirləri ilə yanaşı, bir çox ölkələrin xarici siyasət idarələrinin nümayəndələri iştirak etmişlər.

Konfrans çərçivəsində "Azərbaycan qlobal siyasətdə: Xarici siyasətin formalaşması" kitabının təqdimatı olmuşdur

Kitabın redaktoru, Azərbaycan Diplomatik Akademiyasının diplomatik xidmət proqramı üzrə direktoru Fariz İsmayılzadə mərasimdə çıxış edərək Azərbaycan diplomatiyasının 90 illiyinə həsr olunmuş "Azərbaycan qlobal siyasətdə: Xarici siyasətin formalaşması" toplu barədə məlumat vermişdir. O demişdir ki, ingilis dilində çap olunmuş kitabda təkcə Azərbaycanın xarici siyasəti, diplomatiyası barədə deyil, bütövlükdə Cənubi Qafqazın regional siyasətini əks etdirən məlumatlar, təhlillər və məqalələr əksini tapmışdır.

Kitabda xarici işlər naziri Elmar Məmmədyarovun, nazir müavinləri Hafiz Paşayev, Xələf Xələfov, Araz Əzimov, Vaqif Sadıqov, Mahmud Məmmədquliyev, Prezident Administrasiyasının xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov, Milli Məclis sədrinin müavini Valeh Ələsgərov, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, beynəlxalq ekspertlərdən səfir Mahmud əl-Səid, Robert Finn və digər diplomatların Azərbaycanın xarici siyasətinə, insan haqlarına, Dağlıq Qarabağ münaqişəsinə və bütövlükdə Cənubi Qafqaz regionuna həsr edilən məqalələri yer almışdır.

Azərbaycanın xarici siyasətinin müxtəlif istiqamətləri barədə də kitabda materiallar verilmişdir.

Kitabın digər redaktoru, Atlantika Şurası yanında Avrasiya Enerji Mərkəzinin direktor müavini Aleksandros Petersen əvvəlcə konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirmişdir.

O, kitabın Azərbaycanın və Cənubi Qafqazın xarici və qlobal siyasətini araşdıranlar üçün olduqca mükəmməl sənədlər toplusu olduğunu vurğulamışdır. Petersen demişdir ki, bu çox dəyərli kitabda əksini tapmış məqalələrdə Azərbaycanın xarici siyasətinin formalaşması, qlobal siyasəti, diplomatiyasının dünəni və bu günü konkret faktlara əsas-

lanaraq dərindən təhlil olunmuş, çox maraqlı arqumentlər irəli sürülmüşdür. Azərbaycanın qlobal siyasəti və diplomatiyası ilə bağlı müxtəlif təhlillər, çıxarılan nəticələr regionu və ölkəni yaxından tanımağa böyük imkanlar açır.

Azərbaycanın çoxşaxəli beynəlxalq maraqları, çoxtərəfli mürəkkəb xarici siyasətin incəlikləri, Bakının neft diplomatiyası, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti, eləcə də həmin dövrdəki xarici siyasətlə indiki, xüsusən də 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonrakı dövrlər arasındakı bağlılıqlar barədə dərin məzmunlu təhlillər əksini tapmış, Azərbaycanın regional və beynəlxalq baxımdan strateji əhəmiyyəti diqqətə çatdırılmışdır.

Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasının vitse-prezidenti Səməd Seyidov Rusiya, Qazaxıstan, Gürcüstan nümayəndələri, ekspertlər və diplomatlar çıxış edərək Azərbaycanın ikitərəfli və çoxtərəfli münasibətləri, enerji təhlükəsizliyində oynadığı rol, Dağlıq Qarabağ probleminin həlli yolları, insan hüquqlarının müdafiəsi və digər mövzulardan ibarət məqalələr haqqında fikirlərini bölüşmüşlər.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

Sonda xarici işlər nazirinin müavini Vaqif Sadıqov tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlıq etmişdir.

BAKIDA MDB ÖLKƏLƏRİ DAXİLİ İŞLƏR NAZİRLİKLƏRİNİN MÜHAFİZƏ XİDMƏTİ RƏHBƏRLƏRİNİN İŞTİRAKI İLƏ BEYNƏLXALQ KONFRANS KEÇİRİLİMİŞDİR

İyulun 8-də Bakıda Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinin Daxili İşlər Nazirliklərinin Mühafizə xidməti rəhbərlərinin beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir.

Azərbaycan, Rusiya, Ukrayna, Belarus, Moldova, Özbəkistan və Tacikistan nümayəndələrinin iştirak etdikləri ikigünlük konfransda mühafizə xidmətinin vəziyyəti və inkişaf perspektivləri müzakirə olunacaqdır.

Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin rəisi Mədət Quliyev iştirakçılara Azərbaycanın daxili işlər orqanlarının fəaliyyəti haqqında geniş məlumat vermişdir. Bildirmişdir ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra Daxili İşlər Nazirliyinin tərkibində mühafizə xidməti fəaliyyət göstərməyə başlamışdır. Azərbaycandakı siyasi sabitlikdən də danışan M.Quliyev demişdir ki, ölkəmizdə əmin-amanlıq hökm sürür. Bütün sahələrdə inkişaf özünü göstərməkdədir.

Daxili işlər nazirinin müavini Oruc Zalov mühafizə xidmətinin bu sahədə respublikada yeganə xidmət olduğunu bildirmişdir.

Nazir müavini vurğulamışdır ki, güclü maddi-texniki bazaya malik Baş Mühafizə İdarəsində etibarlı xidmətin təmin olunması üçün xeyli sayda avtonəqliyyat, radiorabitə və digər texniki vasitələrdən istifadə olunur. Mühafizə olunan obyektlərdə beynəlxalq standartlara cavab verən müasir siqnalizasiya sistemləri quraşdırılır. Eyni zamanda, Bakıda və digər iri sənaye şəhərlərində kompyuterlə təchiz olunmuş mərkəzləşdirilmiş mühafizə məntəqələri fəaliyyət göstərir və ümumilikdə respublika üzrə 3000-dən artıq

obyekt bu sistemin köməyi ilə qorunur.

Konfransda iştirakçı dövlətlərin mühafizə xidmətlərinin nümayəndələri tədbirin yüksək səviyyədə təşkilindən və onun gedişindən razılıqlarını bildirmişlər. Rusiya Dövlət Mühafizə Departamentinin rəisi Vadim Saviçev demişdir ki, biz müxtəlif istiqamətlərdə əməkdaşlıq edirik. Əməkdaşlıq çərçivəsində obyektlərin mühafizəsi ilə bağlı təcrübə mübadiləsi aparılır. Hər bir dövlətin mühafizə sahəsində müəyyən üstünlükləri vardır. Ona görə də belə tədbirlər təcrübə mübadiləsi baxımından çox əhəmiyyətlidir. Ukrayna Daxili İşlər Nazirliyinin departament rəisi Vitali Qriçaq bildirmişdir ki, belə konfransların keçirilməsi müsbət nəticələrlə yanaşı, dövlətlərarası münasibətlərə də öz töhfəsini verir.

Azərbaycanda mühafizə xidmətinin uğurlarına gəldikdə isə mühafizə polisi həvalə olunmuş əsas vəzifələrlə yanaşı ölkə ərazisində cinayətkarlığa və ictimai qaydaları pozanlara qarşı mübarizə işində də nəzərəçarpacaq nəticələrə nail olmuşdur. Son 3 il ərzində İdarənin əməkdaşları tərəfindən vətəndaşlardan qanunsuz saxlanılan 100-ə yaxın odlu silah və 22 min ədədə yaxın müxtəlif növ sursat aşkar edilərək götürülmüşdür. Eyni zamanda, həmin müddətdə mühafizə olunan 163 obyektdə oğurluğun, 400-ə yaxın digər cinayət hadisəsinin qarşısı alınaraq 650 cinayətkar, axtarışda olan 180 və ictimai qaydanı pozan 3000-dən yuxarı şəxs saxlanılaraq ərazi polis orqanlarına təhvil verilmişdir.

Hazırda idarənin strukturları tərəfindən dövlət və özəl mülkiyyətə məxsus 8500-ə yaxın obyekt, o cümlədən 1000-ə yaxın vətəndaşın mənzilləri qorunur. Mülkiyyətçilərlə mühafizəyə dair 1500-ə yaxın müqavilə bağlanmışdır.

Konfrans işini iyulun 9-da davam etdirəcəkdir.

AZƏRBAYCAN HÖKUMƏTİ İLƏ AVROPA İTTİFAQI ARASINDA HAVA XİDMƏTLƏRİNƏ DAİR SAZİŞ İMZALANMIŞDIR

Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının direktoru Arif Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 7-8-də Avropa Mülki Aviasiya Konfransının (ESAS) Strasburqda (Fransa) keçirilmiş 31-ci geniş sessiyasında iştirak etmişdir. Üç ildən bir keçirilən iclasa üzv dövlətlərin aviasiya administrasiyalarının rəhbərləri ilə yanaşı, beynəlxalq təşkilatların (ACAC, AFCAC və LACAC) müşahidəçiləri də dəvət olunmuşdular.

Dövlət Mülki Aviasiya Administrasiyasından bildirmişlər ki, sessiyada Avropa Şurası baş katibinin, Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) prezidentinin, habelə ECAC-ın məsul şəxslərinin məruzələri dinlənilmişdir. Məruzələrdə uçuşların və ətraf mühitin təhlükəsizliyi, sənədləşdirmənin sadələşdirilməsi, aviasiya təhlükəsizliyi məsələlərinə toxunulmuş, Avropa hava nəqliyyatının 2020-ci il üçün inkişaf proqnozunu müəyyən edən iqtisadi amillər vurğulanmışdır.

Azərbaycan Prezidentinin 2009-cu il 6 iyul tarixli 370 nömrəli Sərəncamı ilə verilmiş səlahiyyətə əsasən Dövlət Mülki Aviasiya Administrasiyasının direktoru Arif Məmmədov iyulun 7-də iclas çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Avropa İttifaqı arasında hava xidmətlərinin müəyyən aspektlərinə dair saziş"i ("Üfüqi saziş") Azərbaycan Hökuməti adından imzalamışdır. Azərbaycanın Nəqliyyat Nazirliyi tərə-

fiindən 2004-cü il noyabrın 14-də paraflanmış bu sazişin imzalanması Azərbaycan ilə Avropa İttifaqı arasında mülki aviasiya sahəsində əməkdaşlığın genişləndirilməsinə yönəlmişdir.

Bundan əlavə, sessiyanın gündəliyinə uyğun olaraq, Uçuşların Təhlükəsizliyi üzrə Avropa Agentliyi (EASA) ilə Avropa İttifaqının üzvü olmayan 11 dövlət arasında "İşçi saziş"in ("Working Arrangement") imzalanma mərasimi keçirilmişdir. Həmin 11 dövlətdən biri də Azərbaycandır. İlk dəfə bu sənəd "Azərbaycan Hava Yolları" Dövlət Konserni ilə EASA arasında 2006-cı il dekabrın 6-da imzalanmışdı. Ölkəmizin də üzv olduğu Avropanın Birləşmiş Aviasiya Administrasiyaları Qurumunun (JAA) 2009-cu il iyunun 30-da ləğv edildiyini nəzərə alaraq və mülki aviasiyada uçuşların təhlükəsizliyi ilə bağlı əməkdaşlığın davam etməsi üçün iyulun 7-də EASA ilə Dövlət Mülki Aviasiya Administrasiyası arasında yeni "İşçi saziş" imzalanmışdır.

BAKIDA "AZƏRBAYCAN-AVROPA ŞURASI MƏDƏNİ ƏMƏKDAŞLIĞI: İMKANLAR VƏ PERSPEKTİVLƏR" MÖVZUSUNDA MƏRASİM KEÇİRİLMİŞDİR

İyulun 8-də Bakıda Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Avropa Şurasının Bakıdakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə Avropa Şurasının 60 illik yubileyi çərçivəsində "Azərbaycan-Avropa Şurası mədəni əməkdaşlığı: İmkanlar və perspektivlər" mövzusunda mərasim keçirilmişdir.

Əvvəlcə Avropa Şurasının tarixindən bəhs edən film nümayiş etdirilmişdir.

Mərasimi açan Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Azərbaycan ilə Avropa Şurasının birgə həyata keçirdiyi layihələrdən danışmış, mədəni əlaqələrimizin hazırda yüksək səviyyədə olduğunu bildirmişdir. Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini bildirən nazir, ölkəmizin şuranın iclasında ilk dəfə iştirak etdiyi 2001-ci ildə rəsmi nümayəndə heyətinə məhz Prezident İlham Əliyevin rəhbərlik etdiyini xatırlatmışdır. Əbülfəs Qarayev Avropa Şurasının mədəniyyət, mədəni və təbii irs üzrə direktoru Robert Palmerin rəhbərliyi ilə nümayəndə heyətinin mərasimdə iştirakını yüksək qiymətləndirmişdir.

Avropa Şurasının baş katibinin Azərbaycandakı xüsusi nümayəndəsi xanım Veronika Kotek ölkəmizdə son illərdə mədəniyyətlərarası və sivilizasiyalararası dialoqlara dair bir sıra mötəbər tədbirin keçirilməsini Azərbaycan dövlətinin mədəniyyət sahəsinə böyük qayğısı kimi qiymətləndirmişdir.

Avropa Şurasının mədəniyyət, mədəni və təbii irs üzrə direktoru Robert Palmer Bakıda onları səmimiyyətlə qarşıladıqlarına və tədbirin yüksək səviyyədə təşkilinə görə dərin minnətdarlığını bildirmişdir. Azərbaycanın Avropa Şurasının əsas konvensiyalarına, o cümlədən Mədəniyyət Konvensiyasına qoşulduğunu və bu sahədə fəal iştirakını qeyd edən Robert Palmer sülhün və əmin-amanlığın bərpası istiqamətində gördükləri işlərdən danışmışdır.

Mədəniyyət və turizm nazirinin müavini Sevda Məmmədəliyeva çıxış edərək ölkəmizdə həyata keçirilən mədəniyyət layihələrindən, Avropa Şurası ilə əlaqələrin inkişafı sahəsində görülən işlərdən danışmışdır.

Avropa Şurasının 60 illik fəaliyyəti, Azərbaycan ilə təşkilat arasında mədəni əməkdaşlığın vəziyyəti müzakirə edilmişdir.

Azərbaycan ilə Avropa Şurasının birgə həyata keçirdiyi layihələr slaydlarla nümayiş etdirildikdən sonra Avropa Şurasının üzvü olan ölkələrin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda 2008-ci il dekabrın 2-3-də Bakıda keçirilən konfransından hazırlanmış film göstərilmişdir.

Nazir Əbülfəs Qarayev mərasimə yekun vuraraq gələcəkdə mədəniyyətlərarası dialoqun genişləndirilməsi istiqamətində Avropa Şurası ilə həyata keçiriləcək birgə layihələrdən danışmış, tədbirdə iştirakına görə Avropa Şurasının səlahiyyətli nümayəndələrinə, bir sıra dövlət qurumlarının və vətəndaş cəmiyyətinin təmsilçilərinə təşəkkürünü bildirmişdir.

Fasilədən sonra Avropa Şurasının "Sənətçilər dialoq naminə" layihəsinə həsr olunan birinci ekspert görüşü olmuşdur.

İki gün davam edəcək "Sənətçilər dialoq naminə" layihəsinin əsası Azərbaycanın təşəbbüsü ilə başlanmış "Bakı prosesi" çərçivəsində Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin 2008-ci il dekabrın 2-3-də keçirilən konfransında qoyulmuşdur. Layihənin məqsədi müxtəlif sivilizasiyaları, xüsusilə də Avropa və ona qonşu regionlarda yerləşən dövlətlərin sənət adamları vasitəsilə dialoqu təşviq etmək və bu istiqamətdə layihələr həyata keçirməkdir.

SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ BƏŞŞAR ƏL-ƏSƏDİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

İyulun 8-də Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsəd Azərbaycan Respublikasına ikigünlük rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Suriyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Suriya dövlətinin başçısını və xanımını hava limanında Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar Suriya Prezidentinə və xanımına gül dəstəsi təqdim etdilər.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

İyulun 8-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsədin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Suriya Prezidenti Bəşşar əl-Əsədi və xanımı Əsma əl-Əsədi səmimiyyətlə qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Suriya Prezidentinə raport verdi.

Suriyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları İlham Əliyev və Bəşşar əl-Əsəd fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Suriya Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Bəşşar əl-Əsədə, Suriya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər və xanımları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SURİYA PREZİDENTİ BƏŞŞAR ƏL-ƏSƏDİN TƏKBƏTƏK GÖRÜŞÜ

İyulun 8-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsəd və xanımı Əsma əl-Əsəd ilə birgə görüşü olmuşdur.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Suriya Prezidenti Bəşşar əl-Əsədin təkbətək görüşü keçirilmişdir.

Görüşdə dövlət başçıları ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluqlarını ifadə etdilər.

Prezidentlər dövlətlərimiz arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə ümidvar olduqlarını bildirdilər, bu səfərin Azərbaycan-Suriya ikitərəfli münasibətlərinin yeni mərhələyə yüksəlməsinə təkan verəcəyini vurğuladılar.

Görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ SURİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

İyulun 8-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Suriya Prezidenti Bəşşar əl-Əsədin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən bir daha sizi ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Bu Sizin Azərbaycana ilk rəsmi səfərinizdir və mən əminəm ki, səfər çox uğurlu keçəcəkdir. Səfər çərçivəsində imzalanacaq sənədlər və əldə ediləcək nailiyyətlər iki ölkə arasında münasibətlərin yeni səviyyəyə qalxmasına xidmət göstərəcəkdir.

Biz çox istəyirik ki, Suriya-Azərbaycan əlaqələri bütün sahələrdə genişlənsin və iki

xalqa fayda versin. Əminəm ki, səfəriniz uğurlu keçəcək və gələcək münasibətlərə güclü təkan verəcəkdir.

Bir daha xoş gəlmisiniz.

Suriya Prezidenti Bəşşar əl-ƏSƏD səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Cənab Prezident, öz adımdan və məni müşayiət edən nümayəndə heyəti adından Sizə minnətdarlığımı bildirirəm.

Sizin ölkənizə gələndən bəri biz isti qonaqpərvərlik duyuruq. Biz səfər başlayandan bəri hiss edirik ki, iki ölkə arasında əməkdaşlıq üçün qapılar açıqdır və bu, bizi daha da güclü gələcəyə inandırır.

1990-cı illərin əvvəllərində Prezident Heydər Əliyev və Prezident Hafiz Əsədin də münasibətlərimizin inkişafı barədə böyük niyyətləri var idi. Ölkələrimiz dünya səviyyəsində strateji mövqelərə malikdir. Həm bölgədə olan ölkələrlə, həm qonşuluğumuzda olan ölkələrlə dövlətlərimizin dost və xoş münasibəti vardır.

Əminəm ki, bu münasibətlərin ümumən bizim vəziyyətimizə çox müsbət təsiri vardır.

AZƏRBAYCAN-SURİYA SƏNƏDLƏRİNİN İMZALANMASI

İyulun 8-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Suriya Prezidenti Bəşşar əl-Əsədin iştirakı ilə Azərbaycan-Suriya sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikasının Hökuməti və Suriya Ərəb Respublikasının Hökuməti arasında diplomatik, xidməti və ya xüsusi pasportlara malik olan şəxslərin viza tələblərindən azad olunması haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Suriyanın xarici işlər naziri Valid əl-Muallem imzaladılar.

"Azərbaycan Respublikasının Hökuməti və Suriya Ərəb Respublikasının Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikasının Hökuməti və Suriya Ərəb Respublikasının Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə birgə komissiyanın yaradılması haqqında Anlaşma Memorandumu"nu, "Azərbaycan Respublikasının Hökuməti və Suriya Ərəb Respublikasının Hökuməti arasında sənaye və energetika sahəsində əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikasının Hökuməti və Suriya Ərəb Respublikasının Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Suriyanın Baş nazirinin iqtisadi məsələlər üzrə müavini Abdullah əl-Dərdəri imzaladılar.

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI

İyulun 8-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra prezidentlər İlham Əliyev və Bəşşar əl-Əsəd mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV bəyanatla çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi və nümayəndə heyətinizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Bu səfər Suriya Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfər çox uğurlu keçəcək və səfər sayəsində Suriya-Azərbaycan əlaqələri daha da inkişaf edəcəkdir. Buna nail olmaq üçün bütün imkanlar vardır. Biz bu gün çox geniş fikir mübadiləsi apardıq. Həm ikitərəfli münasibətlər müzakirə edildi, regional məsələlərə vaxt ayrıldı, eyni zamanda, əminəm ki, imzalanmış sənədlər münasibətlərimizin inkişafında çox mühüm rol oynayacaqdır.

Suriya-Azərbaycan münasibətlərinin çox gözəl perspektivləri vardır. Biz bu münasibətlərə xüsusi əhəmiyyət veririk və bildiyiniz kimi, keçən ildən başlayaraq Suriyada Azərbaycanın səfirliyi fəaliyyət göstərir. Biz beynəlxalq təşkilatlarda çox uğurlu əməkdaşlıq edirik. BMT və İslam Konfransı Təşkilatı çərçivəsində əməkdaşlığımız ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmlənməsinə xidmət göstərir və eyni zamanda, regional müstəvidə birgə səylərimiz uğur gətirir.

İslam Konfransı Təşkilatı çərçivəsində birgə səylərimiz də çox təqdirəlayiqdir. Biz Azərbaycanda islam həmrəyliyinin möhkəmlənməsi üçün əməli tədbirlər həyata keçiririk. Bakı şəhəri bu il İslam Mədəniyyətinin paytaxtı elan edilibdir. Gələcəkdə bu istiqamətdə atılacaq müştərək addımlar bütün İslam dünyasının birləşməsinə xidmət göstərəcəkdir.

Əminəm ki, siyasi əlaqələr gələcəkdə sürətlə inkişaf edəcəkdir. İqtisadi sahədə yaxşı perspektivlər vardır və əminəm ki, sabah keçiriləcək birgə biznes forum iş adamları arasında əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcəkdir. Müxtəlif imkanlar var, müxtəlif təşəbbüslər irəli sürülə, birgə layihələr icra oluna bilər. Biz buna hazırıq və çox böyük maraq göstəririk.

Regional məsələlərin müzakirəsinə də bu gün vaxt ayrıldı və mən cənab Prezidentə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış vəziyyət haqqında fikirlərimi bildirdim. Bildiyiniz kimi, Azərbaycan torpaqları uzun illərdir işğal altındadır, 15 ildən artıqdır ki, atəşkəs elan olunubdur, ancaq hələ ki, məsələ öz həllini tapmamışdır.

Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasəti və hərbi təcavüzü ölkəmizin ərazisinin 20 faizinin işğal altına düşməsinə gətirib çıxarıbdır, bir milyondan artıq qaçqın, köçkün yaranmışdır.

Biz məsələnin beynəlxalq hüquq normalarına uyğun həll olunmasına tərəfdarıq və BMT Baş Məclisinin qərarları və Təhlükəsizlik Şurasının dörd qətnaməsi erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Digər beynəlxalq təşkilatların qərarları da bizim mövqeyimizi müdafiə edir. Bu işğala son qoyulmalıdır və Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. O ki qaldı Ermənistan tərəfinin bəzən səsləndirdiyi tezislərə - xalqların öz müqəddəratını təyin etmək hüququna, qeyd etmək istəyirəm ki, erməni xalqı öz müqəddəratını artıq müəyyən edib. Ermənistan müstəqil dövlətdir və əlbəttə ki, məsələnin həlli yalnız ərazi bütövlüyü prinsipləri əsasında mümkündür.

Cənab Prezident, mən bu gün çox şadam ki, bizim aramızda şəxsi münasibətlər də yaranır. Əminəm ki, bu münasibətlərin də çox yaxşı gələcəyi vardır və şəxsi münasibətlər tarixdə çox mühüm rol oynayır. Bu gün qeyd edildi ki, bizim atalarımız da bir-biri ilə çox yaxşı əməkdaşlıq edirdilər, bir-birini tanıyırdılar, onları dostluq münasibətləri bağlayırdı. Əminəm ki, biz də bu gözəl ənənəni davam etdirəcəyik.

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Sizə və bütün Suriya xalqına xoşbəxtlik arzulayıram.

* * *

Suriya Prezidenti BƏŞŞAR ƏL-ƏSƏD bəyanatla çıxış edərək dedi:

- Çox sağ olun, cənab Prezident, qardaşım İlham Əliyev!

Bu gözəl sözlərə görə minnətdaram. Bu sözlər bizim aramızda, ölkələrimiz arasında - Suriya ilə Azərbaycan arasında münasibətləri tam ifadə edir. Bu əlaqələr tarixi əlaqələrdir. Azərbaycan xalqına, Azərbaycan hökumətinə və dost Azərbaycana minnətdarlığımı bildirirəm.

Mən və nümayəndə heyətim çox isti qarşılandı. Bu səfərin həyata keçirilməsi yolunda atılan bütün addımlara görə minnətdarlığımı bildirirəm və əminəm ki, bu səfər çox uğurlu olacaqdır. Ölkələrimiz arasındakı münasibətlər tarixi münasibətlərdir.

Suriya Prezidenti dedi ki, ölkələrimizi tarix boyu Böyük İpək Yolu bağlamışdır. Bu, ondan irəli gəlir ki, hər iki ölkənin strateji mövqeyi vardır. Xalqlarımız arasındakı münasibətlərin qardaşlıq münasibətləri olduğunu bildirən Bəşşar əl-Əsəd dedi:

- Azərbaycan şairi Nəsiminin həyat və yaradıcılığı ölkələrimiz arasındakı münasibətlərin dərinliyinə dəlalət edir. Bu şair altı əsr bundan əvvəl Suriyada yaşayıb-yaratmışdır. O, böyük şairdir, böyük filosofdur. Suriyada dəfn olunmuş Nəsiminin məqbərəsinin daha da gözəlləşdirilməsi, yenidən bərpası barədə hökumətlər arasında razılıq əldə olunmuşdur.

Prezident Bəşşar əl-Əsəd ölkəmiz müstəqillik qazanandan sonra aramızda birbaşa etimadın yarandığını bildirərək dedi:

- Azərbaycana bu səfərim iki dost ölkə arasında bu qəbildən olan birinci səfərdir. Bu səfərin əsasını güclü bünövrə təşkil edir. Bu əlaqələrimizin, münasibətlərimizin strateji əhəmiyyəti vardır. Bu münasibətlər gələcəyə istiqamətlənib və bütün sahələri əhatə edəcəkdir. Bir sıra sənədlər imzalanmışdır və yaxın saatlarda da digər sənədlər - ticarət, gömrük, maliyyə, sənaye, informasiya, təhsil sahələrinə və digər sahələrə dair bir sıra anlaşma memorandumları imzalanacaqdır. Bu səfərin əsas məqsədi ondan ibarətdir ki, ölkələrimiz arasında qapıları tam açaq. Özəl sektor, Suriya və Azərbaycan iş adamları arasında qapıları tam açaq.

Qafqaz, Yaxın Şərq və Balkan həm dünya, həm də bölgə səviyyəsində olduqca mühüm və dinamik bölgələrdir. Əsrlər boyu bu bölgələr çox mühüm regionlar olmuşlar. Eyni zamanda, cənab Prezident İlham Əliyev də mənə ətraflı məlumat verdi. Mən də ona ətraflı məlumat verdim. Ölkələrimizin yaşadığı problemlər barədə, eyni zamanda, tarixi təcrübələrimiz, yaşadığımız problemlər barədə fikir mübadiləsi apardıq. Şübhəsiz ki, Qafqaz və Yaxın Şərq regionları dünyanın ürəyini təşkil edir və bu regionlar arasında

birbaşa əlaqələrin yaradılması və bütün problemlərin həlli olduqca vacibdir. Biz Yaxın Şərq regionunda sabitlik və sülh prosesi, 1991-ci ildən bəri başladığımız sülh danışıqları və üzləşdiyimiz problemlər barədə danışdıq.

Sonra Suriya Prezidenti İsraillə aparılan danışıqlar barədə məlumat verdi:

- Bütün işğal olunmuş ərazilər azad olunmalı, ələlxüsus Suriyanın işğal olunan əraziləri - Holan təpələri sahiblərinə qaytarılmalıdır. Mən cənab Prezidentə sülhlə bağlı bizim mövqeyimiz barədə ətraflı məlumat verdim və bildirdim ki, bizim tərəfdən heç bir güzəşt ola bilməz. Şübhəsiz ki, işğal altındakı ərazilər azad edilməsə Yaxın Şərqdə heç vaxt sülh bərqərar ola bilməz. Mən cənab Prezidentə Fələstinin Qəzzə zolağının blokadası, Fələstindəki ağır vəziyyət barədə məlumat verdim. Bildirdim ki, bu blokada aradan qaldırılmalıdır. Fələstinlilər öz aralarında müəyyən razılığa gəlməlidirlər. Bundan sonra fələstinlilərlə israillilər arasında razılıq əldə olunmalıdır və sülh prosesi kamil şəkildə həyata keçirilməlidir. Biz sülhə nail olmaqdan imtina etmirik, lazımi şərait olandan sonra biz münasib vaxtda sülhə nail ola bilərik.

Suriyanın dövlət başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikirlərini də bölüşdü:

- Azərbaycanın mövqeyi beynəlxalq qanunlar çərçivəsinə söykənir. Təbii ki, problem nə qədər tez həll olunarsa, bir o qədər faydalı olar. Çünki problemlər xroniki xəstəliklər kimi nə qədər uzanırsa, onların həll olunması da o qədər çətin olur. Böyük xəstəliklər qəflətən gəlir. Lakin xəstəlikləri müalicə etmək lazımdır, problemləri tez həll etmək lazımdır. Suriyanın da bu prosesdə çox böyük rolu ola bilər. Suriyanın həm Azərbaycan, həm də erməni tərəfi ilə yaxşı münasibətləri vardır. Suriya bu məsələnin həllinə öz töhfəsini verə bilər.

Bu gün axşam və sabah da Azərbaycanda görüşlərimiz olacaqdır. Biz Sizinlə tam razıyıq və fikirləşirik ki, problemlərə dair mövqelərimiz üst-üstə düşür. Üzləşdiyimiz problemlər, hər iki regionun problemləri bir-birinə oxşayır. Əminəm ki, bu səfərin nəticələri uğurlu olacaqdır və əməkdaşlıq üçün qapıları daha geniş açacaqdır.

Bir daha qardaşım Prezidentə xoşbəxtlik və dost Azərbaycan xalqına əmin-amanlıq, çiçəklənmə arzulayıram.

Çox sağ olun.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA VƏ SURİYANIN BİRİNCİ XANIMI ƏSMA ƏL-ƏSƏD "AZƏRİLMƏ"DƏ OLMUŞLAR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva, Suriyanın birinci xanımı Əsma əl-Əsəd və Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyeva iyulun 8-də "Azərilmə" Məhdud Məsuliyyətli Cəmiyyətində olmuşlar.

Birinci xanımlar nadir Azərbaycan xalçalarından, "Azərilmə"nin məmulatından ibarət sərgiyə baxdılar.

Xanım Əsma əl-Əsədə məlumat verildi ki, xalçaçılıq Azərbaycan xalqının ən qədim el sənətlərindən biridir. Yüksək keyfiyyəti və zəngin çeşidi ilə fərqlənən Azərbaycan xalçaları indi də dünyanın bir çox muzeylərinin ən nadir eksponatlarından sayılır. 1996-cı ildə yaradılmış "Azərilmə"nin məhsulları ABŞ, Almaniya, Avstriya, İngiltərə, İtaliya, Yaponiya, Rusiyada keçirilən sərgilərdə xüsusi mükafat və sertifikatlara layiq görülmüşdür. Naxışların incəliyi və ilmələrin yüksək sıxlığı, çeşnilərin orijinallığı və milli koloriti ilə seçilən xalçaların istehsal prosesi bütün beynəlxalq standartlara cavab verir. İplər ancaq təbii rənglərlə boyanır, çeşnilərdə yalnız milli naxışlardan istifadə olunur.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Suriyanın birinci xanımı Əsma əl-Əsəd müxtəlif ölçülü yun və ipək xalçaların toxunduğu emalatxanada iş prosesini maraqla izlədilər. Bildirildi ki, burada müxtəlif çeşnilər hazırlanır və onların eskizləri əsasında Azərbaycanın bütün klassik xalçaçılıq məktəblərinə aid xalçalar toxunur.

Xanım Əsma əl-Əsəd toxunuşu davam edən xalıya bir neçə ilmə vurdu.

"Sehrli naxışlar" qalereyasında nümayiş etdirilən xalçalar da böyük maraq doğurdu.

Səmimi söhbət çay süfrəsi arxasında davam etdirildi.

BİRİNCİ XANIMLAR TALASSEMİYA MƏRKƏZİNDƏ OLMUŞLAR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva, Suriyanın birinci xanımı Əsma əl-Əsəd və Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyeva iyulun 8-də Talassemiya Mərkəzində olmuşlar.

Səhiyyə naziri Oqtay Şirəliyev mərkəz barədə qonaqlara məlumat verdi. Bildirildi ki, Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa olunan və yenicə istifadəyə verilən mərkəz həmin xəstəliyə düçar olanlar və onların yaxınları üçün ümid yeridir. Burada gün ərzində 40-50 xəstə qəbul edilir.

Baş həkim Azər Kərimov qonaqları mərkəzlə yaxından tanış etdi. Azərbaycanın və Suriyanın birinci xanımlarına məlumat verildi ki, hazırda ölkəmizdə min nəfərə yaxın talassemiyalı xəstə vardır və onlardan 700 nəfərə yaxını daimi nəzarət altındadır. Mərkəzin üç regional şöbəsi də fəaliyyət göstərir.

Beynəlxalq standartlara tam cavab verən mərkəzin laboratoriyasında qan qrupunu avtomatik təyin edən aparat və digər lazımi avadanlıq quraşdırılmışdır. Qeyd olundu ki, burada donorlardan götürülən qan dərhal müayinə edilir.

Mehriban xanım Əliyeva və xanım Əsma əl-Əsəd mərkəzin üçüncü mərtəbəsində yerləşən reanimasiya palatasına, manipulyasiya və transplantasiya otaqlarına, sterilləşdirmə mərkəzinə baxdılar. Bildirildi ki, burada sümük iliyinin köçürülməsi üçün əməliyyat otağı fəaliyyət göstərir. Xəstələr xüsusi qapalı şəraitdə 100 gün ərzində müalicə alırlar.

Sonra qonaqlar 2-ci mərtəbədə yerləşən transfuziya zalı və 12 otaqdan ibarət klinika, manipulyasiya, iri saheli ümumi laboratoriya, şüa diaqnostikası otaqlarına baxdılar. Suriya Prezidentinin xanımı transfuziya zalında müalicə alan uşaqlarla səmimi söhbət etdi, onların vəziyyəti ilə maraqlandı. Mərkəzdə xəstəliyin aşkar edilməsi üçün xüsusi poliklinika da fəaliyyət göstərir.

Çay süfrəsi arxasında davam edən söhbət zamanı xanım Əsma əl-Əsəd ölkəmizdə irsi qan xəstəliyinin müalicəsi məqsədi ilə yaradılan Talassemiya Mərkəzinin fəaliyyətindən məmnun qaldığını bildirdi.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsəd və xanımı Əsma əl-Əsəd iyulun 8-də Heydər Əliyev Fondunda olmuşlar.

Suriya Prezidentini və xanımını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.

Ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədləri və fəaliyyəti barədə məlumat verildi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Suriya Prezidentini və xanımını ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar və fotoşəkillərlə tanış etdilər.

Dövlətimizin başçısı bildirdi ki, bugünkü qüdrətli və zəngin Azərbaycan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yol ilə uğurla irəliləyir. Müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev azərbaycanlıların milli qürur və iftixar mənbəyinə çevrilmiş, xalqımızın ümummilli lideri adını qazanmışdır. Ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixində ən şərəfli səhifələrdən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

Suriya Prezidenti və xanımı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin verdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldular, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdılar.

Suriya Prezidenti Bəşşar əl-Əsəd Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı. Suriya Prezidentinə və xanımına hədiyyələr təqdim olundu.

Dövlət başçıları və xanımları Heydər Əliyev Fondunun fəaliyyəti haqqında filmə baxdılar.

Ali qonaq Fonddan zəngin təəssüratla ayrıldı.

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN EKSPOZİSİYASI SURİYA PREZİDENTİNİN MARAĞINA SƏBƏB OLMUŞDUR

İyulun 8-də ölkəmizdə rəsmi səfərdə olan Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsəd və xanımı Əsma əl-Əsəd Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyində olmuşlar.

Ali qonağa muzeyin tarixi haqqında ətraflı məlumat verilmişdir. Qeyd edilmişdir ki, muzeyin yerləşdiyi bina Bakının ən gözəl memarlıq abidələrindən biridir. 1895-1897-ci illərdə tikilmiş bu bina azərbaycanlı milyonçu və xeyriyyəçi hacı Zeynalabdin Tağıyevin mülkiyyəti idi. 1920-ci ildə binada muzey yaradılmışdır. Burada Azərbaycan tarixinin qədim dövrlərdən başlayaraq müxtəlif mərhələlərini əhatə edən qiymətli eksponatlar toplanmışdır. Bildirilmişdir ki, Atropaten, Albaniya, Şirvanşahlar, Ağqoyunlular, Səfəvilər dövlətlərinin mövcud olduğu dövrlərə aid eksponatlar Azərbaycanın dövlətçilik tarixinin qədimliyinə dəlalət edir.

Atropaten hökmdarı ilə Makedoniyalı İsgəndərin görüşü haqqında məlumat, qədim Azərbaycan əhalisinin məişəti və həyat tərzi barədə eksponatlar Suriya Prezidentinin xüsusi marağına səbəb olmuşdur.

Qeyd edilmişdir ki, 130 nəfərdən çox əməkdaşı olan muzey həm də Milli Elmlər Akademiyasının strukturunda elmi-tədqiqat və mədəni-maarif müəssisəsi funksiyasını yerinə yetirir. Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə muzeyin binası əsaslı təmir edilmişdir.

300 mindən çox eksponat saxlanılan muzeydə hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər və tarixi sənədlər, habelə ona məxsus qiymətli əşyalar da toplanmışdır. Qonağa bildirilmişdir ki, Azərbaycan xalqının bir sıra görkəmli nümayəndələri Z.Tağıyevin vəsaiti hesabına xarici ölkələrdə təhsil almışdır.

Hacı Zeynalabdin Tağıyevin xatirə salonunun eksponatları Suriya dövlətinin başçısının xüsusi marağına səbəb olmuşdur.

Prezident Bəşşar əl-Əsəd Muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.

SURİYA PREZİDENTİ BƏŞŞAR ƏL-ƏSƏD TƏZƏPİR MƏSCİD KOMPLEKSİNDƏ OLMUŞDUR

İyulun 8-də Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsəd Təzəpir məscid kompleksində olmuşdur. Ali qonağı Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə qarşılamışdır.

Prezident Bəşşar əl-Əsəd Təzəpir məscidi ilə tanış oldu. Məlumat verildi ki, Prezident İlham Əliyevin göstərişi əsasında 2005-ci ildə məscidin bərpası və ətraf ərazilərin yenidən qurulması layihəsi hazırlanmışdı. Layihədə Təzəpir məscidinin ilkin görkəminə qaytarılması məqsədi ilə yenidən bərpası və əzəli memarlığına xələl gətirməyən elementlərin əlavə edilməsi öz əksini tapmışdı. Məscidin bərpasında Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq oriyentalistikasının nadir nümunələrindən istifadə olunmuşdur.

Təzəpir məscidinin tamamlayıcı dekorativ elementlərinin üstü, minarələrin başı və kəmərbənd yazıları ən yüksək əyarlı qızıl lövhələrdəndir. Yuxarı hissədə "La İlahə-İlləllah" kəlməsi 6 dəfə təkrar olunmuş günbəzin tən ortasında Qurani-Kərimdən "Nas", dairələrdə "Ayətül-kürsü", kiçik gümbəzlərdə isə "Həmd" surələri həkk edilmişdir.

Bildirilmişdir ki, kompleksdə Bakı İslam Universitetinin tədris korpusu yerləşir. Korpusun hər mərtəbəsində 10 sinif otağı olmaqla 250 tələbənin təhsil alması üçün hər cür şərait yaradılmışdır.

Suriya Prezidenti Bəşşar əl-Əsəd kompleksdə Qafqaz Müsəlmanları İdarəsinin 6 min

ədəbiyyatın mühafizə edildiyi kitabxanası ilə tanış olmuşdur. Kitabxananın bir hissəsində dini verilişlərin hazırlanması üçün yaradılmış ministudiya ali qonaqda böyük maraq doğurmuşdur.

Prezident Bəşşar əl-Əsəd burada nümayiş olunan qədim kitablara, Təzəpir məscidi haqqında CD-lərə baxdı, xatirə kitabına ürək sözlərini yazdı.

Təzəpir məscid kompleksi ilə tanışlıqdan sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin və Suriya Prezidenti Bəşşar əl-Əsədin görüşü olmuşdur.

Görüşdə tərəflər ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluqlarını ifadə etmişlər.

Şeyxülislam Allahşükür Paşazadə və Prezident Bəşşar əl-Əsəd dövlətlərimiz arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə ümidvar olduqlarını bildirərək, bu səfərin Azərbaycan-Suriya ikitərəfli münasibətlərinin yeni mərhələyə yüksəlməsinə təkan verəcəyini vurğulamışlar.

Görüşdə ikitərəfli münasibətlər, dini məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

Ali qonağa xatirə hədiyyələri təqdim olunmuşdur.

AZƏRBAYCAN İLƏ SURİYA ARASINDA DAHA 14 HÖKUMƏTLƏRARASI SƏNƏD İMZALANMIŞDIR

İyulun 8-də Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsədin Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində Nazirlər Kabinetində daha 14 hökumətlərarası sənədin imzalanması mərasimi olmuşdur.

Baş nazirin birinci müavini Yaqub Eyyubov qonaqları salamlayaraq Azərbaycan Prezidenti İlham Əliyevin və Suriya Prezidenti Bəşşar əl-Əsədin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşündən sonra imzalanmış sənədlərin dövlətlərimiz arasında əməkdaşlığın daha da genişlənməsinə təkan verəcəyinə əminliyini vurğulamışdır. Ümummilli lider Heydər Əliyevin səyləri sayəsində ölkələrimiz arasında əlaqələrin bünövrəsinin qoyulduğunu söyləyən Y.Eyyubov dost dövlətlərimizin başçıları İlham Əliyevin və Bəşşar əl-Əsədin bu əməkdaşlığı uğurla davam etdirdiklərini bildirmişdir.

Yaqub Eyyubov Nazirlər Kabinetində imzalanacaq 14 sənədin də ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəyini nəzərə çarpdırmışdır.

Suriyanın Baş nazirinin iqtisadi məsələlər üzrə müavini Abdullah əl-Dərdəri Azərbaycanda səmimi qəbul olunduqlarına görə təşəkkürünü bildirmişdir.

Sonra sənədlərin imzalanması mərasimi olmuşdur.

"Suriya Dəniz Gəmiçiliyi Palatası və Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov və Suriyanın xarici işlər nazirinin müavini Abdul Fattah Ammura, "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və Suriya Ərəb Respublikasının Əl-Əsəd Kitabxanası arasında qarşılıqlı əməkdaşlıq haqqında Memorandum"u Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov və Suriyanın xarici işlər nazirinin müavini Abdul Fattah Ammura, "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Suriya Ərəb Respublikasının Kənd Təsərrüfatı və Aqrar İslahatlar Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın kənd təsərrüfatı naziri İsmət Abasov və Suriyanın xarici işlər nazirinin müavini Abdul Fattah Ammura, "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Suriya Ərəb Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlığa dair Niyyət Protokolu"nu Azərbaycanın daxili işlər naziri Ramil Usubov və Suriyanın xarici işlər nazirinin müavini Abdul Fattah Ammura, "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Suriya Ərəb Respublikasının Sənaye Nazirliyi arasında sənaye sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev və Suriyanın xarici işlər nazirinin müavini Abdul Fattah Ammura, "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Suriya Ərəb Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın səhiyyə naziri Oqtay Şirəliyev və Suriyanın xarici işlər naziri Valid əl-Muallem, "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Suriya Ərəb Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Suriyanın xarici işlər naziri Valid əl-Muallem, "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Suriya Ərəb Respublikasının Ali Təhsil Nazirliyi arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Suriya Ərəb Respublikasının Təhsil Nazirliyi arasında orta təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın təhsil naziri Misir Mərdanov və Suriyanın xarici işlər naziri Valid əl-Muallem, "Azərbaycan Respublikası hökuməti və Suriya Ərəb Respublikası hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov və Suriyanın xarici işlər naziri Valid əl-Muallem, "Azərbaycan Respublikası hökuməti və Suriya Ərəb Respublikası hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Suriyanın xarici işlər naziri Valid əl-Muallem, "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Suriya Ərəb Respublikası Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Suriyanın xarici işlər naziri Valid əl-Muallem, "Suriya Ərəb Respublikası hökuməti və Azərbaycan Respublikası hökuməti arasında elektroenergetika və bərpa olunan enerji sahəsində Anlaşma Memorandumu"nu Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev və Suriyanın Baş nazirinin iqtisadi məsələlər üzrə müavini Abdullah əl-Dərdəri, "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Suriya Ərəb Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın maliyyə naziri Samir Şərifov və Suriyanın Baş nazirinin iqtisadi məsələlər üzrə müavini Abdullah əl-Dərdəri imzalamışlar.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

İyulun 8-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsədin və xanımı Əsma əl-Əsədin şərəfinə rəsmi ziyafət verilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.

Azərbaycan Prezidenti İlham Əliyev qonaqları salamlayaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli xanım Əsma əl-Əsəd!

Xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, mən Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Bu Sizin Azərbaycana ilk səfərinizdir. Düşünürəm ki, bu səfəriniz ikitərəfli münasibətlərimizdə mühüm hadisə olacaq və əlaqələrimizin inkişafına güclü təkan verəcəkdir.

Mən bu gün keçirilmiş görüşlərə, aparılmış danışıqlara və fikir mübadiləsinə, habelə imzalanmış sənədlərə, sabah təşkil olunacaq biznes foruma xüsusi əhəmiyyət verirəm və onları yüksək qiymətləndirirəm. Suriya ilə Azərbaycan arasında əlaqələrin dərin tarixi kökləri vardır. Bizi uzun əsrlər ərzində təşəkkül tapmış münasibətlər bağlayır. İslam dini xalqlarımızın tarixində çox mühüm rol oynamış, müştərək mənəvi dəyərlər formalaşdırmışdır. Azərbaycanın və Şərqin böyük mütəfəkkir şairi İmadəddin Nəsimi, həmçinin Hələb şəhərində yaşayıb-yaratmışdır. Nəsiminin əsərləri xalqlarımızın mənəvi sərvətidir. Ümummilli liderlərimiz, mərhum prezidentlər Heydər Əliyev və Hafiz əl-Əsəd arasındakı görüşlər və şəxsi dostluq münasibətləri ölkələrimizin yaxınlaşmasında müstəsna əhəmiyyət kəsb etmişdir. Beynəlxalq və regional təşkilatlar, o cümlədən İslam Konfransı Təşkilatı çərçivəsində əməkdaşlığımızdan razıyam. Bu əməkdaşlıq İslam həmrəyliyinin möhkəmlənməsi, İslam ümmətinin problemlərinin aradan qaldırılması baxımından xüsusilə əhəmiyyətlidir. 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilmiş Bakı bu istiqamətdə səylərini əsirgəməyəcəkdir.

Mən Suriya ilə Azərbaycan arasında əməkdaşlığın genişlənməsinin tərəfdarıyam. Biz bu əməkdaşlığı inkişaf etdirmək üçün Dəməşqdə səfirliyimizi açdıq. Ölkələrimiz arasında bir sıra sahədə, xüsusilə də energetika, mədən sənayesi, kənd təsərrüfatı, turizm, təhsil, səhiyyə sahələrində əməkdaşlığın yaxşı perspektivləri vardır.

Bu gün Azərbaycanın neft və qaz ehtiyatlarının istismarı və enerji daşıyıcılarının dünya bazarlarına nəqli böyük əhəmiyyətə malikdir. Artıq fəaliyyət göstərən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin bütün regionun inkişafına və beynəlxalq enerji təhlükəsizliyinə töhfəsi heç kimdə şübhə doğurmur. İnanıram ki, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçməsi əməkdaşlığımızın genişlənməsinə və ticarət dövriyyəsinin artmasına şərait yaradacaqdır. Həyata keçirilən siyasi və iqtisadi islahatlar Azərbaycanın sürətli inkişafına güclü təkan vermiş, yeni investisiya imkanları yaratmış, iqtisadi potensialın gücləndirilməsini təmin etmişdir. Atılan addımların nəticəsidir ki, son beş il ərzində Azərbaycan iqtisadiyyatı 2,6 dəfə artmışdır.

Bizim regionda ən böyük təhlükə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmamasıdır. Ermənistanın hərbi təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunmuş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində qədim tarix və mədəniyyət abidələri, məktəblər, muzeylər, məscidlər dağıdılmış, dünya və İslam sivilizasiyasının nadir inciləri yer üzündən silinmişdir. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi, ATƏT, İKT, Avropa Şurası Parlament Assambleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bu münaqişə yalnız beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, Azərbaycana rəsmi səfərinizə böyük əhəmiyyət verdiyimi bir daha ifadə edir, Sizə və bütün Suriya xalqına xoşbəxtlik, səadət, firavanlıq arzulayıram.

* * *

Suriya Prezidenti Bəşşar əl-Əsəd təşəkkür edərək dedi:

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Xanım Mehriban Əliyeva!

Xanımlar və cənablar!

İcazə verin mənim, xanımımın və nümayəndə heyətinin Azərbaycanda səmimiyyətlə qarşılanmasına görə dərin minnətdarlığımı və təşəkkürümü bildirim. Bu gün dost və qədim ölkənizdə olmağımdan çox məmnunam.

Suriya ilə Azərbaycanı bir-birinə tarix, sivilizasiya, mədəniyyət və əməkdaşlıq telləri bağlayır. Bu münasibətlərin bünövrəsi hələ İpək Yolu əsrində, müstəqillik qazandığımızdan əvvəlki və sonrakı dövrlərdə qoyulmuşdur.

Prezident Bəşşar əl-Əsəd əcdadlarımız tərəfindən qoyulmuş bünövrə üzərində yaradılan əməkdaşlığın xalqlarımızın və ölkələrimizin sülh, təhlükəsizlik, sabitlik və inkişaf şəraitində yaşamasına və inkişafına xidmət etdiyini bildirdi. Suriya Prezidenti Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrin daha da genişlənməsi zərurətindən irəli gəldiyini əsaslandırdı. Ali qonaq əməkdaşlığımızın tarixi və perspektivləri barədə fikirlərini söyləyərək dedi:

- Ölkələrimiz hələ İpək Yolu dövründə Asiya ilə Avropanı birləşdirən iki mühüm körpü rolunu oynamış, mədəniyyətlərin yaxınlaşması prosesini gücləndirmiş, bölgəmizdəki sivilizasiyaları tanıtmış, bu da öz növbəsində ölkələrimizə və xalqlarımıza böyük təcrübə qazandırmışdır, xalqların adətləri, ənənələri və mədəniyyətlərindən ibarət maarif bazası yaratmışdır.

Hələ əlaqə qurmaq imkanlarının məhdud olduğu əsrlərdə aramızda münasibətlər mövcud olmuşsa, bu gün bu münasibətlərin bütün sahələrdə gücləndirilməsi naminə səy göstərməyimiz bir aksiomdur.

Əminik ki, Suriya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın, xüsusən də yerüstü, dəniz və hava nəqliyyatı yollarının inkişaf etdirilməsi, neft və qaz sahələrindəki strateji layihələrin birgə qurulması vasitəsilə iki ölkə arasındakı ticarət mübadiləsinin və sərmayə qoyuluşunun artırılması üçün real fürsət vardır. Bunun üçün birgə niyyət vardır və əməkdaşlığın gücləndirilməsi üzrə geniş imkanlar mövcuddur. Əminəm ki, Azərbaycanın Qafqaz, Suriyanın isə Yaxın Şərq bölgələrində mühüm strateji mövqelərə malik olması ölkələrimizə Asiya ilə Avropa arasında, Yaxın Şərqlə Qafqaz arasında birləşdirici

körpü olmaq imkanı verir.

Əziz dost Prezident İlham Əliyev,

Xanımlar və cənablar!

İqtisadi münasibətlərə diqqət yetirməyimizlə bərabər, deməliyəm ki, Yaxın Şərq, Qafqaz və Balkan bölgələrindəki siyasi münasibətlər və sabitlik dünyada təhlükəsizlik və sabitlik üçün daim böyük önəm kəsb etmişdir.

Beləliklə, səfər mübadilələrinin, ölkələrimiz arasındakı əlaqələrin və məsləhətləşmələrin davam etdirilməsi yolu ilə siyasi münasibətlərimizi əla səviyyəyə qaldıraraq, dinamik və mühüm bölgələrimizin və bütövlükdə dünyamızın sabitliyinə bütün müstəvilərdə xidmət etmiş olarıq.

Yaxın Şərq bölgəsindəki təcrübəmiz birmənalı şəkildə onu sübut etdi ki, regiondakı problemlərin həlli üçün vaxt o qədər də yetərli amil deyildir. Bunun üçün xoş məram, bütün tərəflər arasında səylərin birliyi tələb olunur və bu, çözüm yollarının tapılmasının bölgə xalqlarına və dünyaya nə dərəcədə müsbət təsir edəcəyinin vacibliyinə inamdan irəli gəlir. Yaxın Şərqdə sülhün və sabitliyin bərqərar olunması yolunda Suriya da öz gücünü əsirgəmir. Lakin biz sülh yolunda daim inadcıllıq və təkəbbürlük divarı ilə, İsrailin sülhü inkar etməsi ilə, sülhə çağırışlar, o cümlədən ərəb sülh çağırışı müqabilində təcavüzkar müharibələrlə, o cümlədən Livana və Qəzzəyə qarşı müharibələrlə, işğal olunmuş ərazilərdəki ərəb xalqına qarşı aparılan ardı-arası kəsilməyən təcavüzlərlə, Qüdsü yəhudiləşdirmək cəhdləri ilə, yaşayış məntəqələrinin genişləndirilməsi, Fələstin xalqının blokadası və bu xalqın yaşamaq hüququndan məhrum olunması cəhdləri ilə qarşılaşırıq.

Suriya "sülh əvəzinə torpaq" prinsipinə deyil, beynəlxalq norma və qanunlara, hüquqların öz sahiblərinə qaytarılması prinsipinə istinadən sülhün bərqərar olunması yolunda daim çalışacaqdır.

Qafqazda və Orta Asiyadakı hadisələrin gedişini, xüsusən də Dağlıq Qarabağ problemi-nin, Ermənistan-Azərbaycan münasibətlərinin beynəlxalq norma və qanunlar əsasında və bütün tərəflərin hüquqlarının qorunması şərti ilə həlli yollarının dialoq vasitəsilə tapılması istiqamətində göstərdiyiniz səyləri biz böyük diqqətlə izləyirik və problemin uzun, sürəkli olmaması üçün dialoq prosesinin tezləşdirilməsi zərurətinə inanırıq. Təcrübəmiz göstərir ki, problemin həlli müddəti uzandıqca, onu çözmək imkanları da mürəkkəbləşir.

Bu prizmadan yanaşaraq və hər iki tərəflə əla münasibətlərimiz olduğu üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı lazımi yardım göstərməyə hazır olduğumuzu bildiririk.

Sonda ümidvar olduğumu bildirirəm ki, bu səfər dost ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin bütün səviyyələrdə gücləndirilməsinə təkan verəcək və fürsətdən istifadə edərək Sizi Suriya ilə Azərbaycan arasındakı münasibətlərin daha da inkişaf etdirilməsi məqsədi ilə ən yaxın vaxtda Suriyaya səfərə dəvət edirəm.

Bir daha qonaqpərvərliyinizə görə öz təşəkkürümü bildirir, Sizə cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına davamlı tərəqqi və çiçəklənmə arzulayıram.

AZƏRBAYCAN-SURİYA BİZNES FORUMU

İyulun 9-da Bakıda Azərbaycan-Suriya biznes forumu keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və Suriya Prezidenti Bəşşar əl-Əsəd forumun açılışında iştirak etmişlər.

Biznes forumda Azərbaycandan 120-yə yaxın şirkət nümayəndələri və Suriyadan 70-ə yaxın iş adamı iştirak etmişdir.

Prezident İLHAM ƏLİYEV biznes forumda çıxış edərək dedi:

- Hörmətli cənab Prezident, əziz dostum!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi və Sizinlə bərabər Azərbaycana gəlmiş dostlarımızı Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Bu, Sizin səfərinizin ikinci günüdür və deyə bilərəm ki, birinci gün çox uğurlu keçdi. Çox geniş fikir mübadiləsi aparılmışdır. Çox vacib sənədlər imzalanmışdır. O sənədlər demək olar ki, bütün sahələri əhatə edir. Əminəm ki, sənədlərin və əldə edilmiş razılaşmaların icrası nəticəsində Suriya-Azərbaycan əlaqələri gələcəkdə sürətlə inkişaf edəcəkdir. Biz buna çox maraqlıyıq, bunu arzulayırıq və əminəm ki, iki ölkəni təmsil edən iş adamları da belə gözəl siyasi ab-havadan, bu fürsətdən səmərəli istifadə edəcəklər.

Mən çox şadam ki, hörmətli cənab Prezident, Azərbaycana Suriyadan Sizinlə bərabər iş adamlarından ibarət böyük bir qrup gəlmişdir. Mən ümid edirəm ki, bugünkü biznes forum və Azərbaycan-Suriya iş adamları arasında yaranacaq əlaqələr iqtisadi sahədə əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcəkdir. İqtisadi sahədə əməkdaşlığın bizi qane etdiyini deyə bilmərəm. Bu sahədə hələ çox iş görmək lazımdır. Dövlətlərimiz arasında ticarət dövriyyəsi ölkələrimizin potensialına cavab vermir və əlbəttə ki, siyasi əlaqələr gücləndikcə iqtisadi sahədə də daha böyük işlər görmək mümkün olacaqdır. Deyə bilərəm ki, bugünkü tarixi görüş iki ölkə arasında iqtisadi sahədə canlanmaya gətirib çıxaracaqdır. Bunu etmək üçün gözəl imkanlar, yaxşı potensial vardır. Ölkələrimizin iqtisadiyyatları inkişaf edir və bir-birini tamamlayır.

Biz müxtəlif sahələrdə çox uğurlu əməkdaşlıq edə bilərik. Dünən müzakirə etdiyimiz məsələlər əsasən iqtisadi sahəyə aid idi. Biz turizm, əczaçılıq, energetika, kənd təsərrüfatı sahəsində - bütün sahələrdə geniş əməkdaşlığın tərəfdarıyıq və ümid edirəm ki, bu gün yaranan ilkin əlaqələr yaxın gələcəkdə konkret müqavilələrin, sazişlərin imzalanmasına gətirib çıxaracaqdır.

Azərbaycan iqtisadiyyatı son illər ərzində sürətlə inkişaf edir. Biz müstəqilliyimizi əldə edəndə - 1991-ci ildə iqtisadiyyatımız demək olar ki, dağılmış vəziyyətdə idi. Sənaye müəssisələri dayanmışdı, iqtisadi artımdan ümumiyyətlə söhbət getmirdi, Azərbaycanda çox dərin iqtisadi böhran yaşanırdı. Bunun müxtəlif səbəbləri var idi və aparılan köklü islahatlar, cəsarətli iqtisadi və siyasi islahatlar nəticəsində Azərbaycan o böhranlı illərdən şərəflə çıxa bilmişdir.

90-cı illərin ortalarından Azərbaycanda geniş iqtisadi islahatlar aparılmağa başlanmışdır. Xüsusilə Azərbaycanın energetika, neft-qaz sahələrinə qoyulan sərmayələr bu gün də iqtisadiyyatımıza böyük təkan verir. Xüsusilə 1990-cı illərin ortalarında - o vaxt

Azərbaycan haqqında bütövlükdə dünyada məlumat çox məhdud idi, olan məlumat da reallığı əks etdirmirdi, - məhz o illərdə başlanmış iqtisadi islahatlar hesabına biz bugünkü nailiyyətlərə çata bilmişik. Onu da qeyd etmək istəyirəm ki, bəzi başqa qonşulardan fərqli olaraq Azərbaycan bütün uğurlarını, bütün siyasi və iqtisadi nailiyyətlərini öz hesabına, Azərbaycan xalqının zəhməti hesabına, Azərbaycan dövlətinin siyasəti hesabına əldə etmişdir.

Azərbaycan özünü tam şəkildə təmin edən bir ölkədir və iqtisadi sahədə görülən işlər bunun bariz nümunəsidir. Əgər 1991-ci ildə Azərbaycanda bazar iqtisadiyyatı sıfır səviyyədə idisə, - çünki biz Sovet İttifaqının tərkibində yaşayırdıq və Sovet İttifaqında bazar iqtisadiyyatı mümkün deyildi, - bu gün iqtisadiyyatın 85 faizi özəl sektorda formalaşıb və strateji müəssisələrdən başqa bütün digər sahələrdə genişmiqyaslı özəlləşdirmə siyasəti aparılmışdır. Bu gün iqtisadiyyatımız deyə bilərəm ki, çoxşaxəli iqtisadiyyatdır. Biz çox ciddi investisiya siyasəti aparmışıq və bu gün də aparırıq. Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan bu bölgədə birinci yerdədir. Azərbaycan xarici investorlar üçün cəlbedici yerdir və əlbəttə ki, xarici investisiyalar iqtisadiyyatın şaxələndirilməsinə də xidmət göstərirlər. Bu yaxınlarda Azərbaycanda Dövlət İnvestisiya Şirkəti yaradılmışdır. Bu şirkətin əsas vəzifəsi xarici və yerli investorları Azərbaycan dövlətinə lazım olan sahələrə yönəltməkdir ki, ölkəmizin iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf etsin. Biz iqtisadiyyatımızın əsas sahəsi olan neft-qaz amilindən asılılığımızı böyük dərəcədə azaltmağa çalışmışıq və buna nail olmuşuq. Hətta neftin qiyməti 140 dollardan 35 dollara düşəndə belə nə Azərbaycan iqtisadiyyatı, nə də Azərbaycan əhalisi bu asılılığı hiss etmədi. Gələcəkdə şaxələndirmə siyasətinin gücləndirilməsi üçün xüsusilə qeyri-neft-qaz sektoruna daha da böyük diqqət göstəriləcəkdir. Bizdə bu gün buna nail olmaq üçün çox yaxşı imkanlar vardır və Suriya-Azərbaycan iş adamları arasında bu istiqamətdə müxtəlif formada əməkdaşlıq mümkündür. Biz əlbəttə ki, qarşılıqlı investisiya layihələrini dəstəkləyirik və buna çox böyük əhəmiyyət veririk. Eyni zamanda, ölkələrimizi təmsil edən şirkətlər müxtəlif layihələrdə podratçı kimi iştirak edə bilərlər. Yəqin ki, bu gün burada ölkələrimizin imkanları, qanunvericilik bazası, vergi məsələləri, geniş müzakirə ediləcəkdir.

Əlbəttə iş adamlarımız bir-birini yaxşı tanımalıdırlar, eyni zamanda, ölkələrimizin imkanlarını yaxşı bilməlidirlər ki, hansı sahədə işləməyin onlar üçün daha sərfəli olduğunu müəyyən etsinlər. Biz prezidentlərin vəzifəsi ondan ibarətdir ki, bu gün sizə öz tövsiyəmizi verək. Bu da ondan ibarətdir ki, Suriya-Azərbaycan əlaqələri sürətlə inkişaf edir. Biz çox istəyirik ki, iş adamları da bizdən geridə qalmasınlar və iqtisadi əlaqələri siyasi əlaqələrin səviyyəsinə gətirib çıxarsınlar.

Bizim dünən müzakirə etdiyimiz məsələlərdən biri də neft-qaz sahəsi olmuşdur. Bu sahədə çox gözəl imkanlar vardır. Biz dünən konkret məsələlər haqqında danışmışıq və istisna olunmur ki, gələcəkdə Suriya ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq yaransın. Biz görürük ki, bunun üçün qarşılıqlı maraq vardır. Azərbaycan zəngin neft-qaz yataqlarına malik olan ölkədir və nəinki bu yataqlar mövcuddur, bu yataqlarda böyük işlər aparılır, hasilat aparılır, bütün nəqliyyat infrastrukturu yaradılmışdır. Azərbaycanda yeddi neft və qaz kəməri fəaliyyət göstərir. Bizim ehtiyatlarımız dünya və Avropa bazarlarına bu kəmərlərlə çıxarılır. Bütün istiqamətlərə ixrac etmək üçün bizim imkanlarımız vardır və hesab edirəm ki, Suriyanın Bakı-Tbilisi-Ərzurum qaz kəmərinə

qoşulması layihəsi də çox real layihədir. Biz bu layihənin üzərində çox böyük məmnuniyyətlə işləyəcəyik.

Bu il Azərbaycanda qaz hasilatı təxminən 25-27 milyard kubmetr səviyyəsində olacaqdır, Azərbaycan qazı müxtəlif ölkələrə - Gürcüstana, Türkiyəyə, Yunanıstana, İrana nəql edilir. Gələn ildən bu yaxınlarda imzalanmış sazişə əsasən Rusiyaya da Azərbaycan qazı ixrac ediləcəkdir. Coğrafi məkan nə qədər çox genişlənsə, həm bizim üçün, həm istehlakçılar, həm də istehsalçılar üçün bir o qədər yaxşıdır. Ona görə əminəm ki, energetika sahəsində yaxın zamanlarda ciddi irəliləyiş ola bilər.

Bütövlükdə Azərbaycan iqtisadiyyatı son beş il ərzində çox sürətlə artıb, ümumi daxili məhsul 2,6 dəfə, sənaye istehsalı 2,5 dəfə artıb. Yoxsulluğun səviyyəsi beş ildə 4 dəfə azalıb. Dövlət büdcəsinin xərcləri isə 12 dəfə artıbdır və bunun hesabına bu gün ölkədə geniş quruculuq-abadlıq işləri aparılır, bütün infrastruktur layihələri icra edilir, insanların sosial vəziyyətinin yaxşılaşdırılması üçün konkret proqramlar icra edilir. Hesab edirəm ki, bugünkü görüşlərdə bu məsələlər, ilk növbədə ikitərəfli iqtisadi məsələlər geniş müzakirə ediləcək. Mən Suriya və Azərbaycan iş adamlarına birgə fəaliyyətdə uğurlar arzulayıram.

Sağ olun.

Suriya Prezidenti BƏŞŞAR ƏL-ƏSƏD forumda çıxış edərək dedi:

- Əziz qardaşım İlham Əliyev!

Mən Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm. Həqiqətən cənab Prezident doğru buyurdu ki, bu səfər tarixi səfərdir. Ona görə ki, bu səfər çərçivəsində əlaqələrimizin yeni əsası qoyulacaqdır. Ölkələrimiz arasında mədəni əlaqələrin tarixi çox qədimdir. Ancaq tarixin müəyyən mərhələsində xalqlarımız bu əlaqələri lazımi səviyyədə inkişaf etdirə bilməmişlər. Doğrudur, prezidentlər Hafiz Əsəd və Heydər Əliyev arasında hələ sovet dönəmində sıx əlaqələr olmuşdur. Ancaq o münasibətlər şəxsi münasibətlər olmuşdur. Azərbaycan ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyini bərpa etdikdən sonra bu münasibətlər dövlətlərarası əlaqələr səviyyəsinə yüksəlmişdir.

Şübhəsiz ki, ölkələrimiz arasında əlaqələr çox yaxşı səviyyədədir və bu, məhz birgə səylərimiz sayəsində təşəkkül tapmışdır. 90-cı illərdən sonra biz yeni həyatdan yeni dərslər götürmüşük və başa düşmüşük ki, ölkələrimizi inkişaf etdirmək üçün biz çoxvektorlu siyasət aparmalıyıq. Azərbaycan haqqında geniş məlumatlara malikik. Bizim müştərək maraqlarımız çoxdur. Ölkələrimiz arasında məsafə təyyarə ilə cəmi 2 saat 20 dəqiqədir. Yəni demək olar ki, məsafə çox qısadır. Bu, bizə həm iqtisadi, həm də sərmayə qoymaq baxımından səmərəli işlər görməyə imkan verir.

Cənab Prezident, mən ilk növbədə demək istərdim ki, iş adamları çox həssas olurlar. Biz çox istərdik ki, iş adamlarının həssaslığından istifadə edək və onları ölkələrimizin maraqlarına xidmət edən məsələlərə istiqamətləndirək. İş adamları siyasi əlaqələrin səviyyəsini bilmək istəyirlər. Prezident Əliyevin sözlərini bir daha təsdiq etmək istərdim və mətbuata bəyanatımda da demişəm ki, bizim aramızda çox gözəl dostluq münasibətləri vardır. Biz, şübhəsiz ki, ölkələrimiz arasında da əlaqələrin yüksək səviyyədə olmasına çalışırıq. Prezident İlham Əliyevin bu foruma gəlməsi də onu göstərir ki, biz bu istiqamətdə səylərimizdə qətiyyətliyik və iş adamları da bu münasibətlərdən səmərəli isti-

fadə etməlidirlər.

Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi münasibətlərin qurulmasından danışdı və bildirdi ki, artıq bu sahədə qanunvericilik bazası vardır, dünən Suriya-Azərbaycan əlaqələrinə dair 18 sənəd imzalanmışdır. Şübhəsiz ki, əgər iş adamlarımız və məmurlarımız bu müqavilələrə dəstək verməsələr, onlar sadəcə kağız üzərində qalar. Biz bəyan etdik ki, qapılar açıqdır və iş adamları bundan istifadə etməlidirlər. Ticari baxımından infrastrukturu daha da təkmilləşdirməliyik. Biz qısa zamanda əlaqələrimizə yeni baxış formalaşdırmalıyıq.

Dünən biz qaz məsələsi barədə danışdıq. Bu məsələ danışıqlarımızın əsas prioritetlərindən birini təşkil etmişdir. Təbii ki, Azərbaycan ilə İran, Gürcüstan və Türkiyə arasında qaz kəmərləri vardır. İki il bundan əvvəl biz Türkiyədən Suriyaya qaz ötürməsi və ya qaz kəməri çəkilməsi barədə danışıqlara başladıq. Azərbaycan qazı bu kəmərlə Suriyaya, oradan isə cənuba - İordaniyaya və Misirə çatdırıla bilər. Bizdə təbii qaz alınması çox böyük əhəmiyyətə malikdir, çünki, bizim ehtiyatlarımız çox azdır. Şübhəsiz ki, həmin marşrutla nəql olunacaq qazın çox hissəsini Azərbaycan qazı təşkil edəcəkdir. Qaz kəmərləri Xəzər dənizi, Qara dəniz və Ərəb körfəzi regionları arasında əlaqələrin inkişafına təkan verəcəkdir. Biz Azərbaycandan qaz almaq barədə danışıqlar apardıq. Bu qaz Suriyaya Türkiyə vasitəsilə çatdırılmalıdır. Azərbaycan Suriyaya müasir qiymətlərlə ildə təqribən 1 milyard kubmetr qaz satmağa razılıq vermişdir. Türkiyə tərəfi də bu məsələyə rəğbətlə baxır. Heç şübhəsiz ki, bu kəmər Azərbaycan, Türkiyə və Suriya münasibətlərinə yeni ab-hava gətirəcəkdir. Suriya ilə Türkiyə arasında siyasi münasibətlər əvvəllər pis olmuşdur. Hazırda Türkiyə bizə sözün əsl mənasında qardaşdır. Hesab edirəm ki, Azərbaycanı Suriya ilə coğrafi baxımdan Türkiyə bağlayır. Çünki Türkiyə vasitəsilə məsafə o qədər də böyük deyildir.

Suriya ilə İran arasında, həmçinin əla münasibətlər vardır. Azərbaycan ilə İran arasında münasibətlər də inkişaf etməkdədir. İraq şübhəsiz ki, daim qeyri-sabit qalmayacaqdır. Biz görürük ki, artıq İraqdakı siyasi vəziyyət normallaşmağa başlamışdır.

Vaxtı ilə - ölkələrimiz müstəqilliklərini bərpa edəndən sonra Suriyada da, Azərbaycanda da sabitliyin pozulmasına cəhdlər olmuşdur. Ancaq bu cəhdlərin qarşısı qətiyyətlə alındı. Biz birgə maraqlarımıza xidmət edən münasibətlərimizi inkişaf etdirərək, daha da güclü olmalıyıq.

Azərbaycan ilə Suriyanı bütün sahələrdə möhkəm tellər bağlayır. Azərbaycan iqtisadiyyatının bütün sahələrində qapıları üzümüzə açmışdır, əlaqələrimiz üçün heç bir problem yoxdur və bu, ölkələrimizin münasibətlərinin inkişafına müsbət təsir edəcəkdir. Eyni zamanda, biz İKT və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirik. Biz ilk növbədə qaz sahəsində, eyni zamanda dəmir yolu sahəsində səmərəli əməkdaşlıq edə bilərik. Bizim böyük dəmir yolu şəbəkəmiz vardır. Suriya-Aralıq dənizi və Ərəb körfəzi arasında ilk qatar - "XXI əsrin qatarı" iki ay bundan əvvəl İraqdan keçməklə yola düşmüşdür. Eyni zamanda, bilirik ki, Azərbaycan ilə Türkiyə arasında da Gürcüstandan keçməklə dəmir yolu tikilir. Şübhəsiz ki, bütün bu təkamül prosesləri ölkələr arasında ixrac-idxal əməliyyatlarının artmasına kömək edəcəkdir. Bilirik ki, son illər Azərbaycanda böyük iqtisadi islahatlar aparılmışdır. Suriyada da iqtisadi islahatlar həyata keçirilmişdir. Əlbəttə hər bir ölkənin öz fərqli cəhətləri vardır. Misal

üçün, bizdə qaz azdır, sizdə isə çoxdur. Biz imkanlarımızdan ölkələrimizin mənafeyinə xələl gətirmədən qarşılıqlı surətdə faydalana bilərik.

Azərbaycan planlı iqtisadiyyatdan özəl iqtisadiyyata, yəni bazar münasibətlərinə keçən bir ölkəyə çevrilmişdir. Həmçinin biz də. Biz bir neçə il bundan əvvəl böyük islahatlara, özəlləşdirmə prosesinə başlamışıq və ən əsası da digər ölkələrlə münasibətləri inkişaf etdirmək niyyətindəyik. Suriya iqtisadiyyatının fərqləndirici cəhətləri ondan ibarətdir ki, burada sənaye çox güclü inkişaf etmişdir. Bununla belə, biz Avropa bazarları ilə rəqabətə hazır olmalıyıq. Suriyada sənaye tədricən Avropa standartlarına yaxınlaşır. Biz şübhəsiz ki, beynəlxalq bazarda çox güclü rəqabətlə rastlaşırıq. Bu rəqabətlə bütün ölkələr rastlaşır. Lakin biz bu rəqabətə davam gətirməyə çalışırıq. Suriyada müasir infrastruktur vardır. Amma bu infrastrukturun yaxın illərdə 10 milyardlarla sərmayəyə ehtiyacı vardır. Ona görə də biz istəyirik ki, gələcəkdə gözəl mexanizm yaradılsın - Suriya-Azərbaycan iş adamlarının birgə fəaliyyətini tənzimləyən bir mexanizm yaradılsın. İş adamlarımız bugünkü imkandan istifadə edib öz təkliflərini verməlidirlər, biz irəliyə getməliyik.

Hörmətli dostum Prezident İlham Əliyev də, mən də ölkələrimizin iqtisadi münasibətlərinin inkişafına diqqətimizi artıracağıq.

Bizə belə bir formatda görüşə imkan yaradıldığına görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm və hamıya müvəffəqiyyət arzulayıram. Çox sağ olun!

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Azərbaycanda rəsmi səfərdə olan Suriya Prezidenti Bəşşar əl-Əsəd iyulun 9-da Fəxri xiyabana gəlmişdir.

Ali qonaq xalqımızın ümummilli lideri, müstəqil müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarı önünə əklil qoydu, xatirəsini ehtiramla andı.

Prezident Bəşşar əl-Əsədə Fəxri xiyabanın tarixi barədə məlumat verildi.

SURİYA PREZİDENTİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR

Azərbaycanda rəsmi səfərdə olan Suriya Prezidenti Bəşşar əl-Əsəd iyulun 9-da Milli Məclisdə olmuşdur. Ali qonağı parlamentin binası önündə Milli Məclisin sədri Oqtay Əsədov və digər rəsmi şəxslər qarşılamışlar.

Suriya dövlətinin başçısı Milli Məclisin iclas zalına baxmış, parlamentin binasındakı Heydər Əliyev Xatirə zalında olmuşdur. Burada qonağa ümummilli liderin həyat və fəaliyyəti, xarici ölkə rəhbərlərinin, dövlət və hökumət üzvlərinin müxtəlif illərdə Azərbaycana səfərləri zamanı Heydər Əliyevlə görüşlərini əks etdirən fotoşəkillər, tarixi sənədlər, eləcə də Azərbaycan parlamentinin formalaşmasında və xarici ölkələrin parlamentləri ilə əlaqələrin qurulmasında ulu öndərin xidmətləri barədə məlumat verilmişdir. Suriya Prezidenti xatirə kitabına ürək sözlərini yazmışdır.

Sonra Milli Məclisin sədri Oqtay Əsədov ilə Suriya Prezidenti Bəşşar əl-Əsəd arasında görüş olmuşdur.

Milli Məclisin sədri Azərbaycan-Suriya dostluq münasibətlərindən söz açmış, bu səfərin ölkələrimiz arasındakı əlaqələrin tarixində yeni səhifə açdığını bildirmişdir. Səfər çərçivəsində imzalanmış sənədlər gələcək əməkdaşlığımız üçün möhkəm hüquqi baza yaratmışdır.

O.Əsədov dövlətlərimiz arasındakı münasibətlərin inkişafında ümummilli liderlər, mərhum prezidentlər Heydər Əliyevin və Hafiz Əsədin rolunu xüsusi qeyd etmiş, bu siyasi xəttin prezidentlər İlham Əliyev və Bəşşar əl-Əsəd tərəfindən uğurla davam etdirildiyini vurğulamışdır.

Dövlətlərarası əlaqələrin inkişafında parlamentlərin rolunu qeyd edən Milli Məclisin sədri hər iki ölkənin qanunverici orqanında dostluq qruplarının yaradıldığını bildirmiş, bu qrupların fəaliyyətinin daha da sürətləndirilməsinin vacibliyini qeyd etmişdir.

Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verən O.Əsədov Suriyanın daim Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, problemin sülh yolu ilə həllinə tərəfdar olduğunu məmnunluq hissi ilə xatırlatmışdır.

Suriya Prezidenti Bəşşar əl-Əsəd onlara göstərilən qonaqpərvərliyə görə, dövlətimizin başçısı İlham Əliyevə və Azərbaycan xalqına minnətdarlıq etmişdir.

Suriya-Azərbaycan dostluğunun dərin kökləri olduğunu bildirən ali qonaq iki dost ölkə arasında əlaqələrin inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini bildirmişdir.

Suriyanın dövlət başçısı parlamentlərin rolundan danışaraq qanunverici orqanların əməkdaşlığının, xüsusilə də dostluq qruplarının fəaliyyətinin genişləndirilməsinin vacibliyini vurğulamış, Milli Məclisə gələcək fəaliyyətində uğurlar arzulamışdır.

SURİYA PREZİDENTİ BƏŞŞAR ƏL-ƏSƏD AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda rəsmi səfərdə olan Suriya Prezidenti Bəşşar əl-Əsəd iyulun 9-da onun üçün ayrılmış iqamətgahda Baş nazir Artur Rasizadə ilə görüşmüşdür.

Suriya dövlətinin başçısı Azərbaycan Prezidenti İlham Əliyevlə apardığı danışıqları yüksək qiymətləndirərək bildirmişdir ki, onun fikrincə bu danışıqlar bütün sahələrdə ikitərəfli əlaqələrin genişləndirilməsi üçün zəmin yaratmışdır. Suriya Prezidenti Suriya-Azərbaycan iqtisadi əməkdaşlığının perspektivlərindən söhbət açaraq iki ölkənin işgüzar dairələri arasında əlaqə yaradılması və qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi üçün səfər müddətində imzalanmış ikitərəfli sənədlərin əhəmiyyətini vurğulamışdır.

Baş nazir Artur Rasizadə son vaxtlar ölkədə həyata keçirilmiş iqtisadi islahatlar barədə Suriya Prezidentinə məlumat vermişdir. O, əmin olduğunu bildirmişdir ki, Suriyanın dövlət başçısının Azərbaycana ilk rəsmi səfəri iki ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsinə təkan verəcəkdir.

SƏFƏR BAŞA ÇATDI

İyulun 9-da Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsədin Azərbaycana rəsmi səfəri başa çatmışdır.

Azərbaycanın və Suriyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Suriya dövlətinin başçısını və xanımını Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola saldılar.

ATƏT PARLAMENT ASSAMBLEYASININ 18-Cİ İLLİK SESSİYASI AZƏRBAYCAN ÜÇÜN UĞURLU OLMUŞDUR

ATƏT Parlament Assambleyasının (PA) Vilnüsdə keçirilmiş 18-ci illik sessiyası Azərbaycan üçün uğurlu olmuşdur. Azərbaycanın bu qurumdakı nümayəndə heyətinin 5 qətnaməyə dair təqdim etdiyi düzəlişlər qəbul olunmuşdur.

Milli Məclisin ATƏT PA-dakı nümayəndə heyəti rəhbərinin müavini, parlamentin aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov demişdir ki, sessiyada əsasən "ATƏT: təhlükəsizlik sahəsində yeni çağırışlara qarşıdurma" mövzusunda geniş müzakirələr aparılmış, bir sıra təşkilati məsələlərə baxılmışdır.

E.İbrahimov bildirmişdir ki, Azərbaycanın bu qurumdakı nümayəndə heyəti 6 qətnamə layihəsinə düzəlişlər olunması təklifi ilə çıxış etmiş və bu təkliflərdən 5-i qəbul olunmuşdur.

ATƏT PA siyasi komitəsinin iclasında Ermənistan nümayəndələri də "Sərhədlərin bağlanması ölkələrin iqtisadi inkişafına təsir edir" düzəlişini təklif etmişdilər. Azərbaycan və Türkiyə deputatlarının birgə səyi nəticəsində bu təklif qəbul olunmamışdır.

Sessiya çərçivəsində Cənubi Qafqaz ölkələri deputatlarının görüşü də keçirilmişdir. Görüşdə erməni deputatlar əvvəlkindən fərqli olaraq mövqelərində yumşaqlıq nümayiş etdirmişlər. Görüşdə Parlament Assambleyasının sədri də iştirak etmişdir. Artıq ermənilər də başa düşürlər ki, ilk növbədə Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır və insanlar yurd-yuvalarına qayıtdıqdan sonra digər məsələlər həll edilə bilər.

Qurumun iqtisadi komitəsinin toplantısında isə dünya maliyyə böhranı şəraitində Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlar yüksək qiymətləndirilmişdir.

Nümayəndə heyətimizin üzvləri qeyd etmişlər ki, Ermənistan Azərbaycan ərazilərini işğal altında saxlamasaydı, ölkəmizin iqtisadi sahədə nailiyyətləri daha böyük olardı.

Azərbaycan parlament nümayəndə heyəti Litvada bir sıra səmərəli görüşlər də keçirmişdir. Görüşlərdə Azərbaycan ilə Litva arasında mövcud əməkdaşlıq və digər sahələrə dair müzakirələr aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR NAZİRİ ŞEYX ABDULLA BİN ZAİD AL-NƏHƏYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər naziri şeyx Abdulla bin Zaid al-Nəhəyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Şeyx Abdulla bin Zaid al-Nəhəyan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Xəlifə bin Zaid al-Nəhəyanın salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycana ilk dəfə səfər etdiyini bildirən qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin inkişafı istiqamətində böyük işlər görüldüyünü dedi və əldə olunan nailiyyətlərə görə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin uğurlu inkişafından məmnunluğunu bildirdi. Birləşmiş Ərəb Əmirliklərinə səfərini və Prezident şeyx Xəlifə bin Zaid al-Nəhəyanla səmimi və dostluq ruhunda keçən görüşünü xatırlayan dövlətimizin başçısı ikitərəfli əməkdaşlığımızın çox fəal olduğunu dedi. Ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini vurğulayan Prezident İlham Əliyev ötən il BMT-nin Baş Məclisində "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair" məsələnin müzakirəsi zamanı ölkəmizin mövqeyini müdafiə etdiyinə görə Birləşmiş Ərəb Əmirliklərinə təşəkkür etdi. İkitərəfli münasibətlərimizin iqtisadi, siyasi və digər sahələrdə möhkəmləndiyini vurğulayan Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər naziri şeyx Abdulla bin Zaid al-Nəhəyanın ölkəmizə səfərinin də əlaqələrimizin daha da genişləndirilməsinə xidmət edəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Xəlifə bin Zaid al-Nəhəyanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını BƏƏ-nin dövlət başçısına çatdırmağı xahiş etdi.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN ƏMƏKDAŞLARI ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI VƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİRLƏR

Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyi münasibətilə Xarici İşlər Nazirliyinin əməkdaşları, Bakıda keçirilmiş "Azərbaycan qlobal siyasətdə: xarici siyasətin formalaşması" adlı beynəlxalq konfrans iştirakçıları və xarici ölkələrdə olan səfirlərimiz iyulun 9-da Fəxri xiyabana gələrək, müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar.

Sonra diplomatlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anmış, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşlar.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLİYİNİN MUZEYİ YARADILMIŞDIR

İyulun 9-da Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyi münasibətilə Xarici İşlər Nazirliyinin muzeyinin açılış mərasimi keçirilmişdir.

Muzeydə Azərbaycan diplomatiyasının zəngin tarixini əks etdirən arxiv materialları, sənədlər toplanılmışdır. Bu materialların və sənədlərin bir çoxu Cenevrədəki Millətlər Liqasının, Türkiyənin, İtaliyanın, Fransanın, Çexiyanın, Böyük Britaniyanın arxivlərindən, habelə Milli Arxiv Fondundan əldə olunmuşdur. Onların arasında Azərbaycan Respublikasının Parisdəki Sülh Nümayəndə Heyətinə təqdim etdiyi "Qafqazda Azərbaycan Respublikası" adlı arayış, Azərbaycan Respublikasının Millətlər Cəmiyyətinə qəbul edilməsi müraciəti ilə bağlı baş katibin Memorandumu, Millətlər Cəmiyyəti Assambleyası baş katibinin Ə.M.Topçubaşova Azərbaycanın Millətlər Cəmiyyətinə qəbul edilməsi ilə bağlı müraciətinə cavab məktubu kimi bir sıra maraqlı sənəd və materiallar vardır.

Bundan əlavə, muzeydə ulu öndər Heydər Əliyevin və Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasətinə dair materiallar toplanmışdır.

Muzeydə toplanılmış sənədlər mərasimdə iştirak edən Azərbaycanın xarici ölkələrdəki səfirləri və digər rəsmi şəxslər tərəfindən maraqla qarşılanmışdır.

Xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycan diplomatik xidmətinin zəngin tarixini əks etdirən muzeyin xatirə kitabına ürək sözlərini yazmışdır.

Mərasimdə Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən hazırlanmış "Azərbaycanın xarici siyasəti. Sənədlər məcmuəsi" toplusunun və "Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Sənədlər məcmuəsi" kitabının təqdimatı olmuşdur.

Sənədlər məcmuəsinin ilk buraxılışı Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyinə həsr edilmişdir. Minilliklər boyu dünya siyasətində mühüm yer tutmuş diplomatiyamızın tarixində AXC dövrü xüsusi önəm daşıyır. Bu illərdə qurulan Xarici İşlər Nazirliyi dövlətimizin müstəqil xarici siyasətini həyata keçirərək tariximizə qızıl hərflərlə yazılmışdır.

Məcmuədə nəşr edilən sənədlər AXC xarici siyasətinin az öyrənilmiş səhifələrinə aydınlıq gətirir. Sənədlərin Azərbaycan dilinə tərcümə edilməsi bu işi daha da asanlaşdırır. Bir sıra materiallar ilk dəfə nəşr edilir.

Sənədlər məcmuəsi Azərbaycan Respublikası səfirliklərinin, nümayəndəliklərinin və konsulluqlarının birgə əməyinin nəticəsidir.

BAKIDA 1918-1919-CU İLLƏRDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ İŞLƏR NAZİRLİYİNİN YERLƏŞDİYİ BİNADA XATİRƏ LÖVHƏSİ AÇILMIŞDIR

İyulun 9-da Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində 1918-1919-cu illərdə Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin yerləşdiyi - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin inzibati binası üzərində xatirə lövhəsinin açılış mərasimi olmuşdur.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov lövhənin üstündən örtüyü götürmüşdür. Xatirə lövhəsinin üzərində "Bu binada 1918-1919-cu illərdə Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi yerləşmişdir" sözləri həkk olunmuşdur.

AZƏRBAYCANIN DİPLOMATİK XİDMƏTİNİN 90 İLLİYİ MÜNASİBƏTİLƏ MƏRASİM KEÇİRİLMİŞDİR

İyulun 9-da "Buta" sarayında Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyi münasibətilə mərasim keçirilmişdir.

Tədbirdə dövlət və hökumət rəsmiləri, nazirlər, deputatlar, Azərbaycanın xarici ölkələrdəki səfirləri, Bakıdakı diplomatik korpusun təmsilçiləri iştirak etmişdirlər. Xarici işlər naziri Elmar Məmmədyarov tədbirdə nitq söylədi.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ÇIXIŞI

Hörmətli xanımlar və cənablar,

Hörmətli nazirlər, səfirlər, baş konsullar,

Əziz qonaqlar və həmkarlar,

Bu gün bu möhtəşəm sarayda Azərbaycan Diplomatik Xidmətinin 90 illik yubileyinə həsr olunmuş tədbirlərin yekunu olan bu ziyafətdə sizləri salamlamaqdan məmnunam.

Azərbaycan diplomatiyasının 90-cı ildönümü deyəndə biz dövlətimizin peşəkar diplomatik xidmətinin məhz 9 iyul 1919-cu il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin Katibliyinə dair qərarın qəbul edilməsindən ötən müddəti nəzərdə tuturuq.

Ümummilli Liderimiz Heydər Əliyev 1918-1920-ci illərin Azərbaycan Xalq Cümhuriyyəti tarixinə xüsusi diqqətlə yanaşırdı. Onun fərmanı əsasında Azərbaycan xarici siyasət sənədləri toplusu da daxil olmaqla, ilk dəfə olaraq, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətinə aid bütün sənədlər nəşr edilmişdir.

Bu tarixi fakt əsasında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 24 avqust 2007-ci il tarixli fərmanı ilə 9 iyul Azərbaycan diplomatlarının peşə bayramı elan edilmişdir. Bu qərar Möhtərəm Prezidentimizin Azərbaycanın diplomatik xidmətinə və onun əməkdaşlarına göstərdiyi diqqət və qayğının nümunəsidir.

Azərbaycanın peşəkar diplomatik xidməti ötən 90 il ərzində şərəfli yol keçmişdir. Xüsusilə, müstəqilliyimizin bərpasından sonra Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və milli maraqlarımıza uyğun xarici siyasətin həyata keçirilməsinə başlanmışdır.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan diplomatiyası uğurla davam etdirilir. Ölkəmiz beynəlxalq arenada mövqelərini daha da möhkəmləndirmiş, regionun liderinə çevrilmişdir.

Əminik ki, Azərbaycan diplomatiyasının uğurları davamlı olacaqdır. Biz Möhtərəm Prezidentimizin rəhbərliyi ilə xarici siyasətimizin bütün istiqamətlərində yüksək nailiyyətlər əldə edəcəyik, xüsusilə də diplomatiyamız üçün ən prioritet məsələ olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylərimizi daha da artıracağıq.

Sizləri diplomatiyamızın 90 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir və hamınıza uğurlar arzulayıram.

Təşəkkür edirəm.

BAKIDAKI DİPLOMATİK KORPUSUN DUAYENİ NIKOLAE UREKENİN ÇIXIŞI

Hörmətli nazir Elmar Məmmədyarov,

Hörmətli nazir müavinləri,

Hörmətli səfirlər və həmkarlar,

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 90 illik yubileyi münasibətilə bu gün burada Azərbaycan diplomatları və Bakıdakı diplomatik korpusun üzvləri qarşısında çıxış etməkdən böyük məmnunluq və şərəf duyuram.

Bu, Azərbaycan Diplomatik Xidməti və Azərbaycan diplomatları ilə bağlı fikir və hisslərimi ictimaiyyətə bildirmək üçün çox yaxşı imkandır. Zənnimcə, Azərbaycanda 5 illik fəaliyyət müddətimdən sonra mən rəyimi bildirmək üçün müvafiq mövqedəyəm. Bu gün mən Bakıdakı Diplomatik Korpusun duayeniyəm və bu, mənə müəyyən fikirlərimi ifadə etməyə əla imkan verir, digər xarici səfirlərin də bu fikirlərimə şərik olacağına ümid edirəm.

Son beş ildə Bakıda xarici səfirliklərin sayının artdığını müşahidə etmişəm. Bu, Azərbaycan Respublikasının beynəlxalq arenada rolunun gücləndirilməsinin birbaşa nəticəsidir. Getdikcə daha çox ölkələr hər iki tərəfin qarşılıqlı maraqlarına müvafiq olaraq ikitərəfli əlaqələrə yardım etmək məqsədilə Bakıda səfirliklər açmağın öz maraqlarına müvafiq olduğu qənaətinə gəliblər. Hal-hazırda bütün mühüm regional və beynəlxalq təşkilatların nümayəndəlikləri ilə yanaşı, bütün qitələrdən olan 40-dan çox dövlətin Bakıda diplomatik nümayəndəliyi var. Bakıda çox olmayan, lakin dinamik və çox peşəkar olan diplomatlar Azərbaycan xalqının dostcasına münasibəti ilə qarşılaşır. Bakıda öz missiyasını sona çatdıran xarici diplomatların əksəriyyəti bu ölkəni tərk etməli olduqlarından səmimi olaraq təəssüflənirlər.

Bu mənim şəxsi fikrimdir ki, ümumi mühitə, intensiv siyasi, sosial, iqtisadi və mədəni fəaliyyətlərə görə Bakı diplomatik fəaliyyətlər üçün çox yaxşı yerdir. Eyni zamanda, geostrateji mövqeyi və enerji təhlükəsizliyi ilə bağlı Azərbaycan Respublikasının əhəmiyyəti ikitərəfli əlaqələri inkişaf etdirmək üçün fəaliyyətimizə daha da təkan verir. Bakı eyni zamanda regional inkişafı müşahidə etmək üçün çox yaxşı imkanlar təklif edir.

Biz, xarici diplomatlar, eləcə də bu ölkədə olan bütün digər müəssisələr və təşkilatlar Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin yardımı olmadan öz vəzifələrimizi müvafiq şəkildə icra edə bilmərik. Xarici İşlər Nazirliyi ilə, demək olar ki, gündəlik işlədiyimə görə Azərbaycan diplomatlarının yüksək peşəkarlığını, bacarıqlarını və bu ba-

carıqları təkmilləşdirmək cəhdlərini müşahidə etmək imkanım olub. Bu baxımdan, yaşlarından asılı olmayaraq diplomatlara daima təlim keçilməsi böyük əhəmiyyət daşıyır.

Əlbəttə, Azərbaycanda fəaliyyət göstərdiyim beş ildə ölkə və xalq, yerli şərait və ənənələr haqqında daha çox öyrənmək üçün yaxşı imkanlar olub. Ölkənin çox yüksək səviyyədə iqtisadi inkişafı həqiqətən çox dərin təəssürat doğurur. Dəyişikliklər o qədər böyükdür ki, Azərbaycan və xüsusilə Bakının 2004-cü ildə olduğundan çox fərqləndiyini deyə bilərəm. Lakin gözəl Azərbaycan xalqı əvvəl olduğu kimi yenə də çox istiqanlı, qonaqpərvər və çox dözümlüdür.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 90 illik yubileyi kimi belə xoş mərasim Azərbaycan Respublikasının Diplomatik Xidmətinə təbriklərimi çatdırmaq üçün mənə yaxşı imkan verir.

Hörmətli nazir Məmmədyarov,

Bakıdakı diplomatik korpus adından, xarici səfirlər və diplomatların təşkil etdiyi bu qrupunun duayeni kimi Sizi və həmkarlarınızı, əslində bizim həmkarlarımızı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 90 illik yubileyi münasibətilə təbrik etməkdən məmnunluq duyuram və hamınıza yeni uğurlar, möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

Bu gün bayramdır, Azərbaycan Respublikası Diplomatik Xidmətinin bayramıdır, lakin mən Nazirliyin 100 illik yubileyində burada olmayacağımdan təəssüfləndiyimi bildirirəm.

Hörmətli həmkarlarım,

Bu qısa çıxışımın sonunda ilk qədəhi nazir Məmmədyarovun və Azərbaycan Diplomatik Xidmətinin şərəfinə qaldırmağı təklif edirəm və Azərbaycanlı həmkarlarıma təbriklərimi çatdırıram.

AZƏRBAYCAN RESPUBLİKASININ İORDANİYA HAŞİMİLƏR KRALLIĞINDAKI SƏFİRİ ELMAN ARASLININ ÇIXIŞI

- Hörmətli cənab nazirlər,

Dövlət qurumlarının rəhbərləri,

Səfirlər,

Qonaqlar,

Xanımlar və cənablar,

Bu gün xalqımızın tarixində əlamətdar hadisə olan Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 90 illik yubileyinə həsr olunmuş mərasimdə söz deməyi özüm üçün böyük şərəf sayır bu imkanı yaradanlara dərin təşəkkürümü bildirir və Azərbaycan Respublikası Prezidenti möhtərəm İlham Əliyevin rəhbərliyi altında ölkəmizin xarici siyasət kursunun həyata keçirilməsini təmin edən bütün həmkarlarımı bu tarixi gün münasibətilə ürəkdən təbrik edirəm.

Qədim və dinamik keçmişə malik Azərbaycan xalqının diplomatiya tarixi illərlə deyil

əsrlərlə ölçülür. Yerləşdiyi coğrafi məkanın strateji geosiyasi əhəmiyyəti və zəngin təbii sərvətləri böyük siyasət oyunçularının ölkəmizə münasibətdə həmişə xüsusi marağına səbəb olmuşdur. Məhz bunun nəticəsində, milli maraqlarımızın keşiyində duran Azərbaycan diplomatlarının peşəkarlığının cilalanmasına, çeviklik və balans hissi kimi mühüm keyfiyyətlərə yiyələnməsinə daima böyük ehtiyac duyulmuşdur.

Şərqin ilk demokratik dövləti olan Azərbaycan Demokratik Respublikası qurulduqdan sonra Azərbaycan diplomatiyası çoxsaylı nailiyyətlər əldə etmiş, Respublikanın beynəlxalq aləmdə tanınması və güclü siyasi-mənəvi təzyiqlərə tab gətirərək ayaq üstə dura bilməsi, eyni zamanda xarici siyasətin sülhpərvərlik və humanistlik ideyalarını rəhbər tutaraq həyata keçirilməsi istiqamətində mühüm işlər görmüşdür.

Odur ki, biz bu gün Azərbaycan Demokratik Respublikasının diplomatiya sahəsindəki fəaliyyətini ehtiram və qürur hissi ilə yad edir və onu müasir xarici siyasətimizin uğurlarının başlanğıc mərhələsi kimi qiymətləndiririk.

Diplomatiyamızın müasir tarixinin ən məsuliyyətli sınağı SSRİ-nin süqutundan sonra olmuşdur. Bu zaman dünya siyasi və iqtisadi sistemində, habelə Azərbaycanın yerləşdiyi regionda baş verən köklü dəyişikliklər, yaranmaqda olan yeni formasiya, ictimai-siyasi vəziyyət Azərbaycan diplomatiyasından qətiyyətli və çevik olduğu qədər tarazlaşdırılmış qərarlar tələb edirdi. Aydındır ki, müstəqil, siyasi və iqtisadi cəhətdən özünü təmin edəcək bir dövlətin qurulması çox çətin prosesdir. Bu baxımdan, Azərbaycandakı vəziyyət SSRİ-nin çökməsi ilə tənəzzülə uğramış iqtisadiyyat, Ermənistanın təcavüzü, siyasi-ideoloji boşluq, ordu sıralarında mövcud olan problemlər, vətəndaş qarşıdurması qorxusu və bu kimi başqa amillərlə son dərəcə gərginləşmiş və ciddiləşmişdi. Yaranmış bu ağır durum güclü nüfuza, siyasi dühaya və dərin analitik təfəkkürə malik milli rəhbərə ehtiyac yaratmışdır və Azərbaycanın tarixinin bu taleyüklü anında həmin ulu öndər Heydər Əliyev olmuşdur. Bu gün dönüb o illərə nəzər saldıqda Heydər Əliyev dühasının bəhrəsi olan müasir Azərbaycanın inkişaf kursunun mahir siyasi xadim, böyük diplomat tərəfindən müəyyən edildiyi daha aydın görünür.

Prezident İlham Əliyev tərəfindən uğurla davan etdirilən Azərbaycan Respublikasının xarici siyasət kursu özünün tarazlığı, dinamikası və əhatə vüsəti ilə seçilir. Müstəqilliyimizi qazandığımız vaxtdan indiyədək ötən müddət ərzində dövlətçiliyimizin, suverenliyimizin və ərazi bütövlüyümüzün möhkəmləndirilməsi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli və Ermənistanın təcavüzünün nəticələrinin aradan qaldırılması, Azərbaycan dövlətinin münaqişəsiz və təhlükəsiz mühitdə mövcudluğunu təmin etmək üçün əlverişli beynəlxalq vəziyyətin yaradılması yönündə çox mühüm addımlar atılmışdır.

Təbiidir ki, qeyd edilən məsələlərin icrası üçün Azərbaycan Respublikasının güclü milli diplomatik xidmət orqanlarının yaradılması və tam fəaliyyət göstərməsi zəruridi. Fərəhli haldır ki, Respublika rəhbərliyinin müdrikliyi və yorulmaz səyləri ilə Azərbaycan buna çox qısa müddət ərzində nail ola bildi. Bu istiqamətdə həqiqətən də çox mühüm işlər görülmüş, müvafiq qanunverici baza yaradılmış, az bir müddətdə xarici ölkələrdə 60-a yaxın diplomatik nümayəndəliklərimiz təsis edilmiş, diplomatiya sahəsində milli kadrların hazırlanması üzrə ixtisaslaşmış elm-təhsil ocağı fəaliyyətə başlamışdır. Bütün bunlar effektiv xarici siyasət kursunun gələcəkdə də həyata keçirilməsinin təmin edil-

məsinə, ardıcıllığın əmələ gəlməsi və ənənələrin zənginləşməsi son nəticədə isə dövlətçiliyimizin möhkəmlənməsi və milli maraqlarımızın qorunması üçün güclü və sağlam zəmin yaratmışdır.

Xanımlar və cənablar,

Müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin başlıca xarakterik cəhəti onun tarazlı və çox-vektorlu olmasında, müasir beynəlxalq aləmdə mövcud vəziyyətin milli maraqlarımız baxımından dəyərləndirilərək buna uyğun hərəkət edilməsidir. Respublika rəhbərliyinin şəxsi səyləri nəticəsində Ermənistan istisna olmaqla Rusiya və keçmiş SSRİ respublikaları ilə münasibətdə toplanmış nəhəng potensial və təcrübə qorunub saxlanmış və müstəqillik şəraitində yeni məna kəsb edərək daha da dolğunlaşmışdır. Eyni zamanda, ABŞ və Avropa İttifaqı ölkələri ilə əməkdaşlıqda yüksək səviyyəli əlaqələrin qurulmasına nail olunmuşdur. Respublikamız avroatlantika tərəfdaşlıq strukturlarına və təhlükəsizlik sisteminə inteqrasiya siyasəti həyata keçirməklə bərabər post-sovet məkanından İslam Konfransı Təşkilatına tamhüquqlu üzv qəbul edilmiş ilk dövlətdir. Diplomatiya sahəsində topladığım yarıməsrlik təcrübəyə əsaslanaraq tam məsuliyyətlə bildirirəm ki, bu gün Azərbaycan dünya dövlətləri tərəfindən ciddi tərəfdaş kimi qəbul olunur və Respublikamızla bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr qurulur. Bütün bunlar xarici siyasətimizin uğurları olmaqla yanaşı xalqımızın firavan gələcəyinə yönəlmiş müdrik siyasətin təzahürüdür.

Hörmətli tədbir iştirakçıları,

Sözümün sonunda, Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illik yubileyinin və diplomatik xidmət əməkdaşlarının peşə bayramının belə təntənəli surətdə qeyd edilməsinə və tədbirlərin yüksək səviyyədə təşkil edilməsinə imkan yaratmış Azərbaycan Respublikası rəhbərliyinə, Xarici İşlər Naziri cənab Elmar Məmmədyarova və onun müavinlərinə, tədbirlərin hazırlanması və həyata keçirilməsində iştirak etmiş bütün şəxslərə öz dərin təşəkkürümü bildirir və hamınızı bir daha ürəkdən təbrik edirəm.

Diqqətinizə görə minnətdaram.

* * *

Mərasim konsert proqramı ilə davam etdirilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzəni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİ KATİBİNİN BİRİNCİ MÜAVİNİ CEYMS STAYNBERQİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da ABŞ Dövlət Departamenti katibinin birinci müavini Ceyms Staynberqi qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və energetika sahələrində uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu. Bundan əlavə, görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Ceyms Staynberq Birləşmiş Ştatların dövlət katibi Hillari Klintonun salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev xanım Klintonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını ABŞ-ın dövlət katibinə çatdırmağı xahiş etdi.

Sonra görüş nümayəndə heyətinin iştirakı ilə davam etdirildi. ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Filip Qordon da nümayəndə heyətinin tərkibində idi.

DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMLANMASI İLƏ BAĞLI DANIŞIQLAR YENİ MƏRHƏLƏYƏ QƏDƏM QOYMUŞDUR

ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzə (ABŞ), Bernar Fasye (Fransa), Yuri Merzlyakov (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşik iyulun 10-da Rusiyanın ölkəmizdəki səfirliyində Azərbaycana səfərlərinin yekunlarına dair mətbuat konfransı keçirmişlər.

Həmsədrlər Bakıya gəlməzdən əvvəl Yerevanda olmuş və Ermənistan rəsmiləri ilə Dağlıq Qarabağ münaqişəsinin həllinə dair növbəti danışıqlar aparmışlar.

Rusiyalı həmsədr Y.Merzlyakov bildirmişdir ki, səfərin əsas məqsədi Azərbaycan və Ermənistan prezidentlərinin Moskvada keçiriləcək görüşünü hazırlamaqdır.

Həmsədrlər həm Ermənistanda, həm də Azərbaycanda apardıqları danışıqların çox konstruktiv keçdiyini vurğulamış, prezidentlərin qarşıdakı Moskva görüşünün tərəqqiyə səbəb olacağına və baza prinsiplərinə dair ən azı iki vacib məsələnin razılaşdırılacağına ümid etdiklərini bildirmişlər.

Fransalı həmsədr B.Fasye cari ilin sonunadək ümumilikdə bütün baza prinsipləri ilə bağlı razılığın əldə olunacağına da inandıqlarını söyləmişdir. Onun sözlərinə görə, bu halda gələn il bu prinsiplərin sülh müqaviləsi layihəsinə transformasiyasına imkan yaranacaqdır.

Amerikalı diplomat M.Brayzə isə danışıqların yeni mərhələyə qədəm qoyduğunu vurğulayaraq demişdir: "Hər iki prezidentin qarşıdakı görüşdə nəticə əldə olunacağı barədə hazırlıqlı olduqları hiss olunurdu. Biz, həmçinin baza prinsiplərinin razılaşdırılması prosesində bu görüşün irəliyə doğru atılmış bir addım olacağını gözləyirik. Hazırda müzakirələr konsepsiya və təfərrüatları ətrafında aparılır. Bu yeni mərhələ bizə ümid etməyə

imkan verir ki, tərəflər danışıqlarda getdikcə irəliləyirlər".

Güc tətbiqi ilə bağlı təhdiddən imtina edilməsi, ərazi bütövlüyünə əməl olunması və xalqların öz müqəddəratını təyin etmək hüququ haqda Helsinki Yekun Aktının üç prinsipinin birləşdirilməsi məsələsini şərh edən natiq demişdir ki, bu, mümkündür, lakin mürəkkəbdir. M.Brayzə qeyd etmişdir ki, bu prinsiplərin birləşdirilməsinin mümkünlüyünü onların arasında balansın tapılmasında görür.

Dağlıq Qarabağ bölgəsinin Azərbaycan icmasının danışıqlar prosesinə qoşulmasının mümkünlüyü barədə sualı cavablandıran Y.Merzlyakov bildirmişdir ki, əgər Azərbaycan tərəfi öz tərkibinə Dağlıq Qarabağın Azərbaycan icmasının nümayəndələrini daxil etmək istəsə, bu, mümkündür. Hazırda prezidentlər arasında danışıqlar gedir. Lakin ərazi̇yə dair sazişin hissəsinin hazırlanması üçün hansısa mərhələdə danışıqlara Dağlıq Qarabağın icmaları da qoşulmalıdır.

ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşik isə son vaxtlar Dağlıq Qarabağ münaqişə zonasının təmas xəttində qurbanların sayının xeyli azaldığını qeyd etmişdir: "Bu, danışıqların elə mərhələdə olmasından xəbər verir ki, heç kim sülh prosesini pozmaq istəmir".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞINA RƏSMİ SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 12-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına rəsmi səfərə gəlmişdir.

Londonun "Stansted" hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Böyük Britaniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.

Azərbaycan Prezidentinin xanımına gül dəstələri təqdim edildi.

Dövlətimizin başçısı fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BÖYÜK BRİTANİYANIN BAŞ NAZİRİ QORDON BRAUNUN GÖRÜŞÜ

İyulun 13-də Azərbaycan Prezidenti İlham Əliyevin və Böyük Britaniyanın Baş naziri Qordon Braunun görüşü olmuşdur.

Britaniyanın Baş naziri Azərbaycan Prezidentini ölkəmizdə əldə olunan iqtisadi uğurlar münasibətilə təbrik etdi. O, Azərbaycanla müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı.

Azərbaycanın antiterror koalisiyasında iştirakına toxunan Qordon Braun ölkəmizin bu istiqamətdə fəaliyyətinin Böyük Britaniya hökuməti tərəfindən yüksək qiymətləndirildiyini bildirdi.

Prezident İlham Əliyevi demokratiya sahəsində əldə edilmiş uğurlar münasibətilə də təbrik edən Q.Braun Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsini müsbət hal kimi dəyərləndirdi. Bildirdi ki, Böyük Britaniya bundan sonra da Azərbaycanı beynəlxalq aləmdə müxtəlif sahələrdə dəstəkləyəcəkdir. "Biz Azərbaycanla siyasi, iqtisadi və digər sahələrdə əlaqələri genişləndirmək əzmindəyik", - deyən Baş nazir Azərbaycanda iqtisadi inkişaf proseslərinin gedişini xəbər aldı və bunun Böyük Britaniyada da maraqla izlənildiyini vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlər siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf edir. Enerji sahəsi qarşılıqlı əlaqələrin çox mühüm istiqamətlərindən biridir. Uzun illərdir Azərbaycanla bp arasında əməkdaşlıq sürətlə inkişaf edir. Əlaqələrin digər sahələrdə də inkişafı üçün yaxşı perspektivlər var.

Prezident İlham Əliyev Azərbaycanda iqtisadi sahədə, enerji və qeyri-neft sektorunda əldə edilən uğurlardan danışdı. Azərbaycanın Avropa ailəsinə sürətlə inteqrasiya etdiyini bildirən dövlətimizin başçısı bu baxımdan Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın yeni mərhələyə daxil olduğunu vurğuladı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünün regional inkişafa böyük əngəl törətdiyini bildirdi. Azərbaycanın antiterror koalisiyasında iştirakı ilə bağlı dövlətimizin başçısı dedi ki, ölkəmiz bu işdə fəal iştirak edir, regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verir. Azərbaycan Prezidenti Avropanın enerji təhlükəsizliyində ölkəmizin rolundan da danışdı və vurğuladı ki, bu rol getdikcə daha da artır.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

* * *

Görüşdən sonra Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Böyük Britaniyanın bp şirkəti arasında qarşılıqlı anlaşma memorandumu imzalandı.

Sənədi Azərbaycan tərəfdən Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və bp şirkətinin hasilat üzrə prezidenti Endi İnqlis imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN İCRAÇI DİREKTORUNU QƏBUL ETMİŞDİR

İyulun 13-də Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda bp şirkətinin icraçı direktoru Toni Hayvordu qəbul etmişdir.

Söhbət zamanı bp şirkəti ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə davam etdirildiyi bildirildi, əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə "Şahdəniz" layihəsinin işlənilməsinin gedişi və perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.

KRAL BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA GÖRÜŞ

İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Londonda məşhur siyasətçilərin, diplomatların, mətbuat nümayəndələrinin, Avropanın tanınmış publisistləri və ictimai xadimlərinin üzvü olduqları Kral Beynəlxalq Münasibətlər İnstitutunda görüş keçirmişdir.

Prezident İlham Əliyevi binanın önündə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ser Brayn Fol qarşıladı.

Ser Brayn Fol görüşü açaraq, Azərbaycan Prezidentini təqdim etdi.

Azərbaycan Prezidentini burada görməkdən məmnun olduğunu bildirən Brayn Fol dedi ki, Prezident İlham Əliyev Azərbaycanın xarici siyasətindən danışacaq və görüş iştirakçılarını maraqlandıran suallara cavab verəcəkdir.

Prezident İlham Əliyev görüşdə "Azərbaycan üçün xarici siyasət çağırışları" ("Foreign policy challenges for Azerbaijan") mövzusunda çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Çox sağ olun.

Hörmətli xanımlar və cənablar!

Dəvətə görə minnətdaram. Burada yenidən olmağımdan şərəf hissi duyuram. Xatirimdədir, təxminən beş il bundan əvvəl mən Chatham House-da olmuşam. Həmin vaxt mən, əsasən, planlarımız haqqında danışırdım, çünki ilk dəfə prezident seçildiyim vaxtdan cəmi bir il ötürdü. Hazırda, beş ildən sonra biz artıq nailiyyətlər haqqında danışa bilərik. Lakin ölkəmizdə görüləcək işlər hələ də çoxdur. Hesab edirəm ki, son beşillik dövr ölkənin, onun gələcəyinin inkişafı üçün olduqca mühüm olmuşdur.

Həmin illər göstərdi ki, Azərbaycan müstəqil ölkə kimi uğurla inkişaf edə bilər, öz milli maraqlarını qorumağa, tərəfdaş ölkələrlə səmərəli münasibətlər qurmağa qadirdir. Xüsusən də, maliyyə və iqtisadi böhran zamanı. Cari il bir daha nümayiş etdirdi ki, iqtisadiyyatımız davamlı və şaxələndirilmiş formadadır. Son beş il ərzində biz əsas diqqətimizi ölkə daxilindəki məsələlərə və xarici siyasətə aid olan məqamların həllinə yönəltmişdik. Lakin əlbəttə ki, güclü iqtisadiyyat, siyasi sabitlik və cəmiyyətdə birlik olmadan xarici siyasətdə tam müstəqilliyə nail olmaq çox çətindir. Əsas diqqət məhz iqtisadi islahatlara, iqtisadi inkişafa, enerji siyasətinə yönəlibdir. Bildiyiniz kimi, enerji siyasəti iqtisadiyyatımızın böyük hissəsidir və bu səylərin nəticələri nailiyyətlərimiz barədə bəzi rəqəmlərdə görünə bilər.

Son beş il ərzində iqtisadiyyatımız 2,6 dəfə artmışdır. Üç il ərzində isə Azərbaycan dünyada ən sürətlə inkişaf edən iqtisadiyyat hesab edilmişdir. Sənaye istehsalı 2,5 dəfə, büdcə xərcləri 12 dəfə artmışdır. Yoxsulluğun səviyyəsi 4 dəfə azalmışdır. Son beş il ərzində təhsil və səhiyyə sahəsində böyük işlər görülmüşdür. Azərbaycanda 1600 məktəb tikilmişdir. İqtisadi inkişaf nəinki paytaxtı, rayonlarımızı da inkişaf etdirməyə imkan yaradır. Azərbaycanın rayonlarında sürətli inkişaf gedir.

Bəzən iqtisadi göstəricilərimizi neftə və neft qiymətlərinə bağlayırlar. Lakin bu, belə

deyil, çünki neft digər ölkələrdə də hasil olunur. Qonşularımızdan bir neçəsi bizdən də çox neft hasil edir. Eyni zamanda, əgər siz rayonlarımızın iqtisadi inkişafına nəzər yetirsəniz, eyni vəziyyəti görəcəksiniz. Neft rayonlarımızda deyil, Bakıda, Xəzərdə hasil edilir. Buna görə də, iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığa dəstək və iqtisadi islahatlar yalnız neftdən asılılığı aradan qaldırır. Bu, bizim əsas məqsədlərimizdən biri olmuşdur: neftdən asılılığı azaltmaq, böhran və aşağı neft qiymətləri, hətta hasilatın azalması zamanı sabit olacaq güclü iqtisadiyyat yaratmaq.

Sosial məsələlər ciddi şəkildə həll olunur. Qeyd etdiyim kimi, yoxsulluğun azaldılması, fikrimcə, Azərbaycanda ən böyük nailiyyətlərdən biridir. Bu, həmçinin onu göstərir ki, neft gəlirləri ədalətli şəkildə bölüşdürülür. Belə olmasaydı, yoxsulların sayı azalmazdı, əksinə, çoxalardı. Biz neft hasil edən bəzi digər ölkələrin təcrübəsini də bilirik. Bütün qeyd edilən amillər Azərbaycanda çox yaxşı mühit yaratmışdır. Azərbaycanın həyata keçirdiyi islahatlar Dünya Bankı tərəfindən də qeyd edilmişdir. Bu təşkilat Doing Business hesabatında 2008-ci ildə Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi elan etmişdir. Bu, həmçinin gündəliyimizi çox aydın şəkildə nümayiş etdirir. Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə həyata keçirilir. Hesab edirəm ki, bu, ölkədə islahatların aparılması üçün yeganə mümkün formatdır. 18 il bundan öncə ölkəmiz Sovet İttifaqının hissəsi olmuşdur. Bazar iqtisadiyyatı sıfır səviyyəsində idi. Bu gün iqtisadiyyatımızın 85 faizini bazar iqtisadiyyatı təşkil edir.

Müstəqillikdən öncə tariximizdə bizim siyasi sistemimiz olmamışdır. Lakin bu gün siyasi sistem inkişaf edir. Buna görə də, diqqət yetirdiyimiz daxili məsələlər regionda özümüzü rahat hiss etməyə, müstəqil siyasət aparmağa imkan verir. Çünki siz heç kəsdən asılı olmayanda, müstəqil siyasəti rahat həyata keçirə bilirsiniz. Belə halda, siz xalqınızın maraqlarından irəli gələn siyasəti, qarşıdurmaya deyil, əməkdaşlığa, tərəfdaşlığa, qonşularla və ənənəvi tərəfdaşlarla normal əlaqələrə yönəlmiş siyasəti həyata keçirirsiniz.

Enerji siyasəti bizim mövqeyimizin mühüm hissəsi olub və ola bilsin ki, bu amil artıq nəinki Azərbaycanda, o cümlədən bölgədə mühüm rolunu davam etdirəcəkdir. Həyata keçirdiyimiz neft və qaz layihələri bu gün dünyada gələcək enerji inkişafının möhkəm bünövrəsidir. Azərbaycan Xəzər dənizinə xarici sərmayədarları dəvət edən ilk ölkə oldu. Strateji tərəfdaşımız BP şirkəti bizim üçün ən mühüm layihələrdə və regional inkişaf məsələlərində liderdir. Hazırda neft və qaz yataqlarında hasilatın artması, sərmayələr nəticəsində yaratdığımız boru kəmərləri, Azərbaycandakı əlverişli sərmayə mühiti və qeyri-enerji sektoruna sərmayələrin cəlb edilməsi kimi məsələlər ümummilli lider Heydər Əliyevin müdrikliyi sayəsində baş tutmuşdur. O, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ideyasını irəli sürdü. Bu gün isə bizim şaxələndirilmiş təchizat infrastrukturumuz var. 7 boru kəmərinə malikik. Onlardan 3-ü nefti, 4-ü isə qazı müxtəlif istiqamətlərdə nəql edir. Hasilata milyardlarla dollar sərmayə qoyulmuşdur. Bu il neft hasilatı 50 milyon tona yaxın olacaq, qaz hasilatı isə 25-27 milyard kubmetrə çatacaqdır. Aşkar olunmuş ehtiyatlar ən azı 100 il ərzində Azərbaycana beynəlxalq bazarlarda etibarlı qaz təchizatçısı olmağa imkan verəcəkdir. Yeni sərmayələr, o cümlədən BP ilə ARDNŞ arasında bu gün səhər imzalanmış Anlaşma memorandumu Azərbaycanın hətta böhran illərində, neftin qiymətlərinin aşağı düşdüyü dövrdə nə dərəcədə cəlbedici olduğunu nümayiş etdirir. Bu, onunla bağlıdır ki, ölkəmizdə çox proqnozlaşdırılan və-

ziyyət, siyasi sabitlik mövcuddur və bütün sərmayələrin qorunması təmin edilir. Neft şirkətləri ilə enerji əməkdaşlığımızı başladığımız vaxtdan etibarən heç vaxt hər hansı hüquqi çəkişmə və ya mübahisə, yaxud şərtləri dəyişdirmək cəhdi olmamışdır. Biz müqavilə şərtlərinə sadiqik və bütün əsas neft müqavilələri parlamentdə ratifikasiya edilməndən sonra Prezident tərəfindən imzalanır və qanun qüvvəsi alır. Beləliklə, onları heç kəs dəyişə bilməz. Bu, etimad deməkdir və həmin etimad digər sahələrə də sərmayələr cəlb etməyə imkan yaradır. Azərbaycan kimi gənc müstəqil ölkələrə sərmayələri cəlb etmək məqsədi ilə biz etimadı davamlı şəkildə möhkəmləndirməli, lazımi siyasi və iqtisadi mühit yaratmalıyıq.

Əvvəllər xülya kimi görünən Bakı-Tbilisi-Ceyhan artıq reallığa çevrilmişdir. Artıq 3 ildir, həmin boru kəməri uğurla istismar olunur və böyük həcmdə neft nəql edir. Boru kəməri işə düşdükdən sonra onunla nəinki Azərbaycan, həm də Qazaxıstan nefti nəql olunur. Bu, o deməkdir ki, gələn illər ərzində nəql olunan həcmlər artacaqdır. Belə olan halda, boru kəmərinin buraxıcılıq qabiliyyəti, ola bilsin, gündə 1,6 milyon barreldən 1,8 milyon barrelə çatdırılacaqdır. Hətta yenisi də layihələndirilib tikilə bilər. Azərbaycan Xəzərin digər sahilində yerləşən qonşuları üçün artıq tranzit ölkəyə çevrilmişdir. Biz nəhəng qaz yataqlarını aşkar etdikdən sonra qonşu ölkələrə ixraca başladıq. Bunun vacibliyi get-gedə artır və Avropa üçün hər hansı mümkün gələcək artırma və ya şaxələndirmə layihəsi Azərbaycanda yaratdığımız və qazımızı Avropa bazarlarına çıxaran mövcud infrastruktura söykənir. Üstünlüyümüz ondan ibarətdir ki, biz bir təchizat marşrutu ilə məhdudlaşmırıq. Bizim müxtəlif istiqamətlərdə gedən 4 qaz kəmərimiz var: Avropaya uzadıla biləcək Bakı-Tbilisi-Ərzurum kəməri, bizi Gürcüstanla birləşdirən boru kəməri, Rusiyaya və İrana gedən boru kəmərləri, demək olar ki, hazırda onların hamısı istismar olunur, ya da ediləcəkdir. Azərbaycan özünü etibarlı təchizatçı, hüquqi öhdəliklərinə hörmətlə yanaşan tərəf və hər zaman öz vəzifələrini yerinə yetirən ölkə kimi göstərmişdir.

İndi enerji siyasətinin əhəmiyyəti daha da artır. Qeyd etmək istəyirəm ki, enerji bazarında olan vəziyyəti regionda ümumi siyasi inkişafdan ayırmaq mümkün deyil, çünki enerji məsələləri siyasi inkişafa təsir göstərir. Bəzən enerji siyasəti məsələləri prosesin siyasiləşdirilməsinə aparır. Biz bu yanaşmanın əleyhinəyik. Hesab edirik ki, hər bir iş milli maraqlara, kommersiya şərtlərinə və azad bazar prinsiplərinə, azad rəqabətə əsaslanmalıdır. Bu, bizim yanaşmamızdır. Fikrimcə, vəziyyəti təhlil etməkdə yeganə yanaşma belədir. Eyni zamanda, potensial diktə hallarının qarşısını almaq üçün hasilatçı, tranzit ölkələr və istehlakçıların maraqları arasında tarazlıq olmalıdır. Diktə etmə nəinki hasilatçı, bəzən tranzit ölkələrə və ola bilsin, istehlakçılara da aid ola bilər. Buna görə də enerji formatının bütün iştirakçıları vahid heyət kimi çalışmalıdır. Yalnız bu halda biz uğura nail ola bilərik.

Əminəm ki, gələn illər ərzində Azərbaycan öz enerji potensialını artıracaqdır. Çünki mövcud potensial və həyata keçirilən kəşfiyyat layihələri 3-5 il ərzində yeni ehtiyatların tapılması ilə nəticələnəcəkdir. Bu isə enerji potensialımızı ciddi şəkildə artıracaqdır. Coğrafi mövqeyimiz və artıq mövcud olan infrastruktur bütün tərəfdaşlarımız üçün vacib olacaqdır.

Biz həmçinin nəqliyyat infrastrukturuna böyük sərmayələr yatırırıq. Coğrafi mövqeyi-

mizi nəzərə alsaq, bu, tamamilə məntiqlidir. O cümlədən, Azərbaycanın maliyyələşdirdiyi, Avropa ilə Asiyanı birləşdirən dəmir yolu xəttinin çəkilməsi regional əməkdaşlıq məsələlərində və bölgəmizdə biznes mühitinin və imkanlarının yaxşılaşdırılmasında olduqca mühüm rol oynayacaqdır. Bizi qonşularımızla birləşdirən infrastruktura böyük sərmayələr qoyuruq. Artıq bu gün Azərbaycan nəinki neft və qaz ixracatçısına, o cümlədən qonşu ölkələrə elektrik enerjisi təchizatçısına çevrilmişdir. Bir daha qeyd etmək istəyirəm ki, bütün bu məsələlər bir-biri ilə bağlıdır və nailiyyətlərimiz özümüzü təhlükəsiz, rahat və etibarlı hiss etməyə imkan verir. Eyni zamanda, biz hər zaman qonşularımız və tərəfdaşlarımızla əməkdaşlıq etməyə, işgüzar münasibətlər qurmağa hazırıq.

Azərbaycanın xarici siyasəti olduqca aydın və proqnozlaşdırılandır. Biz bütün ölkələrlə səmərəli ikitərəfli münasibətlərin tərəfdarıyıq. Qarşılıqlı maraqlar, ortaq dəyərlər, qarşılıqlı hörmət, daxili işlərə müdaxilə etməmək prinsipinə əsaslanan və tərəfdaşlıq ruhunda olan münasibətlərin qurulması bizim üçün vacibdir. Hesab edirəm ki, bu yanaşma artıq müsbət nəticələrini nümayiş etdirmişdir. Bir daha qeyd etmək istəyirəm ki, xarici siyasətimiz müstəqildir. Bu siyasətə heç bir xarici amil təsir göstərmir. O, iqtisadi potensiala və müstəqilliyə əsaslanır.

Böyük Britaniya ilə münasibətlərimiz uğurla inkişaf edir. Bu, mənim ölkənizə ikinci rəsmi səfərimdir. Bu gün səhər Baş nazir Braun ilə səmərəli müzakirələrim oldu. İkitərəfli, regional məsələləri, eləcə də sülhməramlı əməliyyatlarda göstərdiyimiz səyləri müzakirə etdik. Biz lap ilk günlərdən İraq və Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak etməyə başlamışıq. Əfqanıstana gəldikdə, koalisiya qüvvələrinə dəstək olaraq, biz hərbçilərimizin sayını iki dəfə artırmışıq. Biz həmçinin enerji siyasətinə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə aid məsələləri müzakirə etdik. Birləşmiş Krallıq bizim üçün strateji tərəfdaş, mühüm ölkə və Azərbaycanda ən böyük sərmayədarlardan biridir. Biz münasibətlərimizi yüksək dəyərləndiririk və əminəm ki, bu əlaqələr daha geniş gündəliyi əhatə edəcəkdir: siyasi əlaqələr, iqtisadi əməkdaşlıq, informasiya texnologiyaları və təhsil sahələri. Azərbaycan gənclərinin dünyanın aparıcı universitetlərində təhsili üçün böyük təhsil proqramını həyata keçiririk. Bu, Azərbaycan Dövlət Neft Fondundan maliyyələşdirilən xüsusi proqramdır. Adətən, bu Fondun vəsaitləri strateji məqsədlər üçün sərf edilir. Neft Fondundan ayrılan vəsaitlər qaçqınların və məcburi köçkünlərin yeni yerlərə köçürülməsi, su kəmərinin tikintisi, Ermənistanın işğalından əziyyət çəkmiş insanların probleminin həlli, təhsil məqsədləri üçün istifadə olunur. Həmin məsələlər bizim üçün çox önəmlidir. Hazırda biz bacarıqlı, gənc, yaxşı təlim və təhsilli, geniş dünyagörüşü olan və Azərbaycana, dövlətçiliyə və gələcəyimizə sadiq şəxslərə ehtiyac duyuruq.

Müstəqil olmaq bizim üçün böyük nailiyyətdir. Azərbaycan xalqı uzun əsrlər boyu müstəqillikdən məhrum olmuşdur. Buna görə də müstəqilliyin bizim üçün xüsusi mənası var. Biz müstəqilliyimizi gücləndirmək və sonrakı nəsillərə xoşbəxt gələcək təmin etmək üçün hər gün fəal çalışmalıyıq.

Birləşmiş Krallıqla əlaqələrimiz Avropa İttifaqı ilə tərəfdaşlıq məsələlərini də əhatə edir. Bu yaxınlarda Azərbaycan Avropa İttifaqının Şərq tərəfdaşlığı proqramına qoşulmuşdur. Üç il əvvəl Azərbaycan Avropa İttifaqının Yeni qonşuluq siyasətinə qoşulmuşdur. Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər çox müsbət və səmərəlidir. Bu, əsl tərəfdaşlar arasında olan münasibətlərdir. NATO ilə də əməkdaşlığımız uğurla

inkişaf edir. Azərbaycan Fərdi tərəfdaşlıq üzrə əməliyyat planının fəal iştirakçısıdır. Biz bu əməkdaşlığı gələcəkdə də inkişaf etdirəcəyik.

Xarici siyasətimizin əsas çağırışlarından biri və ümumiyyətlə, ölkəmizin qarşısında duran əsas vəzifə Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin həllidir. Artıq 15 ildir ki, biz nə hərb, nə sülh şəraitindəyik. 1994-cü ildə atəşkəs əldə edilib, lakin həmin vaxtdan etibarən beynəlxalq ictimaiyyətin müxtəlif səylərinə baxmayaraq, biz sülhə nail olmamışıq. Düzdür, hazırda danışıqlar prosesi daha fəal, vədedici şəkildə aparılır və artıq müəyyən nəticələr var. Lakin bu, beynəlxalq hüququn normaları və prinsiplərinə əsaslanan həllin tapılması və yekun razılaşma üçün kifayət deyildir.

Biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bu münaqişə yalnız beynəlxalq hüquq və beynəlxalq təşkilatların qərarları əsasında həll olunmalıdır. Ermənistan rəhbərliyi də buna hazırdır. Belə olmasaydı, onlar Moskva Bəyannaməsini imzalamazdılar. Orada aydın şəkildə deyilir ki, münaqişə beynəlxalq təşkilatların qətnamələri əsasında həll olunmalıdır. Həmin qətnamələrdə nə deyilir? Orada aydın şəkildə bildirilir ki, Ermənistan qüvvələri işğal olunmuş ərazilərdən qeyd-şərtsiz və dərhal çıxmalıdırlar. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bu barədə 4 qətnamə qəbul etmişdir. Həmçinin BMT-nin Baş Məclisinin qətnaməsi bu mövqeni dəstəkləyir. ATƏT-in, xüsusən də Lissabon zirvə görüşünün qərarlarında münaqişənin hansı yolla həll olunacağı aydın şəkildə göstərilir.

Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Ümumi ərazimizin 20 faizini təşkil edən zəbt olunmuş bütün torpaqlar erməni işğalından azad olunmalıdır. Ermənistanın etnik təmizləmə siyasətindən əziyyət çəkmiş bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz torpaqlarına qayıtmaq hüququ var. Biz hər zaman - həm 1990-cı illərdə də demişik və indi də deyirik ki, Dağlıq Qarabağa suveren Azərbaycan dövlətinin hüdudları daxilində mümkün qədər ən yüksək muxtariyyət statusu verməyə hazırıq. Bu, yeganə mümkün yanaşmadır. Hesab edirəm ki, əgər erməni tərəfi siyasi iradə göstərsə, münaqişə həll olunacaqdır. Eyni zamanda, biz Ermənistanın bəzi narahatlığını, Ermənistan ilə Dağlıq Qarabağ arasında yerüstü əlaqə məsələsi, təhlükəsizlik zəmanəti və sülhməramlı əməliyyatlar kimi məsələləri anlayırıq. Biz bu məsələləri konstruktiv şəkildə həll edə bilərik. Regionda sülh hamıya bir çox üstünlüklər gətirəcəkdir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və insanlarımız yenidən öz doğma yerlərində, ulu babalarının torpaqlarında yaşamaq imkanına malik olacaqlar. Ermənistan işğalçı siyasətinə son qoymalıdır. Ermənistan digər suveren ölkənin ərazisini zəbt edən ölkə imicinə son qoymalıdır. Eyni zamanda, Azərbaycanın daxilində yerləşən və Ermənistanla heç vaxt əlaqəsi olmamış Dağlıq Qarabağ Ermənistana dəhliz vasitəsilə çıxış əldə edə bilər. Regiondakı bütün kommunikasiyalar açılar və tammiqyaslı regional əməkdaşlıq baş tutar. Qafqazdakı bütün ölkələr və tərəflər bundan yalnız fayda görəcəkdir. Nə hərb, nə sülh vəziyyəti münaqişənin dondurulmuş olması haqda səhv mesaj göndərir. Bu, dondurulmuş münaqişə deyil, atəşkəs Ermənistan və Azərbaycan orduları tərəfindən təmin edilir. Burada heç bir sülhməramlı yoxdur. Sülh şəraiti çox kövrəkdir. Buna görə də hazırda irəliyə doğru getmək və artıq bəlli olan məsələlər üzərində razılığa gəlmək lazımdır. Çünki işğalçılıq siyasəti heç vaxt Dağlıq Qarabağın tanınmasına gətirib çıxarmayacaqdır. Dağlıq Qarabağ heç vaxt müstəqil ölkə kimi tanınmayacaqdır. Bunu gözləmək cəfəngiyatdır. Suveren Azərbaycan dövləti daxilində cəmi 60 min əhalisi

olan ərazi müstəqil ola bilməz. Fakt ondan ibarətdir ki, Dağlıq Qarabağ bu günə qədər heç bir ölkə tərəfindən, o cümlədən Ermənistan tərəfindən tanınmamışdır. Bu, aydın şəkildə onu göstərir ki, müstəqillik mümkün deyildir. Azərbaycan Dağlıq Qarabağın müstəqillik statusunu öncədən müəyyənləşdirən sülh planına heç vaxt razılaşmayacaqdır. Bu haqda söhbət belə gedə bilməz. ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən verilmiş və hazırda müzakirə etdiyimiz təkliflər aydın şəkildə göstərir ki, müstəqilliyə nail olmaq üçün mexanizmlər yoxdur. Nəyə nail olmaq olar? Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının sülh şəraitində birgə yaşamasına nail olmaq olar. Biz keçmişdə sülh şəraitində yaşamışıq və yenə də yan-yana yaşayacağıq. Biz coğrafiyanı dəyişə bilmərik. Ona görə də biz bu cür mühüm beynəlxalq məsələnin həllinə nail olmalıyıq. Bunun dünya üçün vacibliyi bizə yardım edən ölkələrin göstərdiyi diqqətdə əks olunubdur.

Mən giriş sözümü bununla yekunlaşdırıram ki, müzakirələr üçün də vaxt qalsın. Dövətə görə bir daha təşəkkürümü bildirmək istəyirəm.

"Chatham House"da görüş iştirakçılarının suallarına cavab verməyə hazıram. Hesab edirəm ki, sizin üçün də əhəmiyyətli olardı ki, regionumuza aid olan mühüm məsələlər haqqında məlumatı ilk mənbədən alasınız. Çox sağ olun.

* * *

Brayn Fol ətraflı məlumata görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı daha sonra görüş iştirakçılarının suallarına cavab verdi.

- Cənab Prezident, bildiyiniz kimi, bu gün səhər Türkiyədə Nabukko layihəsi ilə bağlı hökumətlərarası saziş imzalanmışdır. Azərbaycan bu tədbirdə energetika naziri ilə təmsil olunmuşdur. Azərbaycanın bu layihəyə münasibəti barədə fikirlərinizi bildirsəydiniz, minnətdar olardım. Çünki bilirik ki, ölkəniz bu yaxınlarda Rusiya ilə qaz müqaviləsi imzalamışdır.

- Bildiyiniz kimi, Azərbaycan həmişə Nabukko layihəsinin tərəfdarı olmuşdur. Artıq qeyd etdiyim kimi, Nabukko ideyası Azərbaycan ilə Türkiyə arasında çəkilmiş qaz boru kəmərinə əsaslanaraq layihə kimi irəli sürülmüşdür. Əgər Azərbaycan 1996-cı ildə BP və digər şirkətlərlə "Şahdəniz" qaz yatağında hasilatla bağlı saziş imzalamasaydı və tərəfdaşları ilə Bakı-Tbilisi-Ərzurum qaz kəmərini tikməsəydi, onda Nabukko ilə əlaqədar imzalanmış bugünkü razılaşma mümkün olmazdı. Reallıq bundan ibarətdir. Ona görə ki, biz bu işin nəinki başlanğıcında durmuşduq, eyni zamanda, bir ölkə kimi şaxələndirməni və nəql infrastrukturunun inkişafını fəal şəkildə dəstəkləmişik. Lakin Nabukko ideyası ortaya çıxanda, elan ediləndə Azərbaycan potensial təchizatçı hesab edilmirdi, çünki həmin vaxt bizim kifayət qədər qazımız yox idi. Digər ölkələr potensial təchizatçı hesab edilirdi. Lakin sonra Azərbaycan ixracatçıya çevrildi. Misal üçün, bu il Türkiyəyə 7 milyard kubmetr qaz ixrac etmək fikrindəyik. Biz tələbatdan asılı olaraq, Gürcüstana 1 milyard kubmetr qaz verməyi planlaşdırırıq. Türkiyə bizim göndərdiyimiz qazın müəyyən hissəsini yenidən Yunanıstana ixrac edir. Biz həmçinin mübadilə əsasında İrana qaz ötürürük. "Qazprom"la bu yaxınlarda imzalanmış müqavilə bizim təchizat imkanlarımızın tam şaxələndirilməsinə yönəldilibdir. Nə qədər çox bazar olsa, biz bir o qədər yaxşı kommersiya şərtləri əldə etmiş olarıq. "Qazprom"la Azərbaycan Respublikası Dövlət

Neft Şirkəti arasındakı müqavilə sırf iqtisadi, azad bazar prinsipləri və ədalətli qiymətlər əsasında imzalanmışdır və zənnimcə, bu, gələcək potensial sazişlər, razılaşmalar üçün yaxşı bir misaldır.

Mən çox şadam ki, tranzit ölkələr arasında saziş imzalanmışdır. Bu, vacibdir. Eyni zamanda, ümid edirəm ki, Azərbaycan ilə Türkiyə arasında tranzit haqqında saziş mümkün qədər tez imzalanacaqdır. Əfsuslar olsun, bu günə qədər həmin saziş imzalanmayıbdır. Təbii ki, bu gün imzalanmış saziş və gələcək sazişlər ədalətli şərtlərlə, azad iqtisadiyyat, rəqabət prinsiplərinə, eləcə də beynəlxalq səviyyədə tanınmış şərtlərə əsaslanmalıdır. Bu ilin may ayında Azərbaycan Nabukkonu dəstəkləyən siyasi bəyannaməni imzalayıb və əgər layihə həyata keçsə və bizə yaxşı kommersiya şərtləri təklif olunarsa, təbii ki, biz də həmin boru kəməri ilə qazımızı ixrac edərik. Nəzərə alsaq ki, bu gün Azərbaycanda aşkar edilmiş qaz ehtiyatlarının minimum həcmi 2 trilyon kubmetrdir, maksimum isə bu, 5 trilyon kubmetrə bərabərdir, yeni yataqlar aşkarlanacaq, zənnimcə, bizim istənilən istiqamətdə qaz ixrac etmək imkanımız olacaqdır.

- Mənim adım Tomas de Valdır. Dağlıq Qarabağ haqqında kitab yazmışam. Cənab Prezident, bu gün Sizin Dağlıq Qarabağla bağlı söylədiyiniz fikirləri diqqətlə dinlədim. Eyni zamanda, mövzu ilə bağlı Sizin son müsahibələrinizi də izləyirəm. Mən xüsusən də Sizin Rusiyanın "Vesti v subbotu" kanalına verdiyiniz müsahibəni nəzərdə tuturam. Keçmişdə Siz bəyan etmisiniz ki, nəzəri baxımdan gələcəkdə münaqişənin hərbi yolla həllini istisna etmirsiniz. Bilmək istərdim, danışıqların belə bir mühüm mərhələsində daha yaxşı etimad mühitini yaratmaq məqsədi ilə siz bəyan edə bilərsinizmi ki, hər hansı hərb variantı istisna olunur və Dağlıq Qarabağ münaqişəsinin həlli yalnız siyasi yolla ola bilər?

- Artıq qeyd etdiyim kimi, bilirsiniz ki, 15 ildir Azərbaycan danışıqlar prosesindədir. Hesab edirəm ki, bu, bizim sülhsevər siyasətimizin ən yaxşı göstəricisidir. Çünki 20 ilə yaxındır ki, bizim torpaqlarımız işğal altındadır, qaçqınlar və məcburi köçkünlər bu işğaldan əziyyət çəkir. Buna baxmayaraq, biz yenə də danışıqlar prosesindəyik. Bu, aydın şəkildə bizim yanaşmamızı göstərir.

Eyni zamanda, əfsuslar olsun ki, mən bu gün hərb variantını istisna edə bilmərəm. Çünki birincisi, Azərbaycan BMT-nin Nizamnaməsi əsasında özünü müdafiə etmək hüququna malikdir. Dünyanın istənilən digər ölkəsi kimi, Azərbaycanın da öz ərazi bütövlüyünü bərpa etmək hüququ var. Tarixdən də bilirik ki, bəzi hallarda ölkələr uzaq yerlərdəki ərazilərində də suverenliyini bərpa etmişlər. Zənnimcə, siz də bu təcrübəni bilirsiniz. Dağlıq Qarabağ Azərbaycanın daxilində yerləşir. Bu, Azərbaycanın tarixi torpağıdır. Dağlıq Qarabağa ermənilər XIX əsrin əvvəlində köçürülmüşlər. Onlar orada 1978-ci ildə ermənilərin İrandan Qarabağa köçmələrinin 150 illiyinə həsr olunmuş abidə qoymuşdular.

Danışıqlar prosesində irəliləyiş əldə etdikdən sonra, təbii ki, biz heç bir hərb yoluna əl atmayacağıq və üzərimizə siyasi öhdəliklər də götürəcəyik. Lakin indiki halda biz hərb yolunu istisna edə bilmərik. Əgər biz bunu etsək, ermənilər işğal olunmuş torpaqlardan, ümumiyyətlə, çıxmaq istəməyəcəklər.

Hazırda bizim əlimizdə iki mühüm alət var. Birincisi, Azərbaycanın ordusunun artan potensialıdır, o, ərazi bütövlüyümüzü bərpa etməyə qadir olan ordudur. Biz hərbi məq-

sədlər üçün Ermənistanın bütün büdcəsi qədər vəsait ayırmışıq. İkincisi isə iqtisadi məsələdir. Bəzi hallarda biz ittiham olunuruq ki, Ermənistanı təcrid edirik. Amma biz bunu etməyə məcburuq. Ermənilər işğal etdikləri ərazilərdəki dəmir yolu keçən yerlərdən öz qoşunlarını çıxarsalar, biz həmin dəmir yolunu açа bilərik. Əgər onlar Dağlıq Qarabağ ərazisindən cənub-şərqdə yerləşən beş rayondan çıxsalar, kommunikasiyalar dərhal açıla bilər.

Ona görə 2009-cu ilin reallığını və gələcəyi nəzərə alaraq bəyan edirəm ki, Ermənistanla Azərbaycan müqayisəedilməzdir. Onların tam fərqli iqtisadi, siyasi vəziyyəti var və əgər beş ildən, on ildən sonraya baxsanız, bu fərq daha da artacaqdır. Buna görə onlar onsuz da edəcəkləri seçimi etməlidirlər: öz qoşunlarını işğal olunmuş ərazilərdən çıxarmalıdırlar. Bundan sonra biz gücdən istifadə olunmaması haqqında öhdəlik götürə bilərik.

- Cənab Prezident, Dağlıq Qarabağ probleminin həllində Rusiyanın ciddi marağı varmı?

- Rusiya Prezidenti cənab Medvedev şəxsən bu prosesdə çox fəaldır, onun iştirakı ilə Ermənistan Prezidenti və mən siyasi bəyannaməyə imza atdıq. Mən öz çıxışımda bu bəyannaməni də xatırlatdım. Biz Sankt-Peterburqda görüşdük. Rusiya Prezidenti tərəfindən təklif olunan digər görüş bir həftədən də az vaxtda Moskvada baş tutacaqdır. Rusiya tərəfi prosesdə çox fəaldır və digər həmsədrlərlə birgə mühüm rol oynayır.

- Mən BBC World Service radiosunu təmsil edirəm. Siz ölkənizin Böyük Britaniya ilə əla münasibətlərini tam təfərrüatı ilə təsvir etdiniz. Ölkəniz ATƏT-in, Avropa Şurasının üzvüdür, Avropa İttifaqının tərəfdaşıdır. Britaniyanın ən nüfuzlu təsisatlarından biri sayılan BBC World Service radiosunun milli tezliklərdə yayımlanmaması faktının həmin münasibətlərə uyğun gəlməməsi ilə razılaşa bilərsinizmi?

- Siz bilirsiniz ki, hər bir ölkə öz qanunlarına hörmət etməlidir. Bizim ölkənin qanununa uyğun olaraq, xarici yayımçılar milli tezliklərdə yayım fəaliyyəti ilə məşğul ola bilməz. Əgər bu qanun mövcud olmasaydı, onda təbii ki, BBC, - söhbət təkcə BBC-dən getmir, - eləcə də Azadlıq, Amerikanın səsi, Rusiyanın Avropa plyus radiolarının fəaliyyəti mümkün olardı. Bütün bunlar hüquqi proseduralar əsasında baş vermişdir. Yəni biz BBC-nin yayımını qadağan etməmişik. Biz, sadəcə, hər hansı digər ölkədə olduğu kimi, öz qanunvericiliyimizə əməl edirik. Əgər həmin radiolarla Azərbaycan arasında əməkdaşlıq davam edərsə, biz bundan şad olarıq və yayımın başqa formalarını tapa bilərik: internet, qısa dalğalar və s. Biz Azərbaycanda azad mətbuatı məhdudlaşdırmırıq. Bu gün qeyd etdim ki, son beş il ərzində Azərbaycanda 1600 məktəb tikilmişdir və kompyuterlə təchiz olunub və onlar internetə çıxışa malikdir. Əgər biz mətbuatı məhdudlaşdırsaydıq, onları internetlə təchiz etməzdik. Biz, sadəcə, istəyirik ki, qanunvericiliyimizə əməl edilsin və işlər hər hansı digər inkişaf etmiş və demokratik ölkələrdə olduğu kimi tənzimlənsin.

- Çox sağ olun, cənab Prezident, əhatəli çıxışınıza görə Sizə olduqca minnətdaram. Mən London Universitetini təmsil edirəm. Sualım Türkmənistanla münasibətlərinizə, o cümlədən Xəzər dənizinə və bu ölkə ilə layihələrin həyata keçirilməsinə aiddir.

- Türkmənistanla münasibətlərimiz uğurla inkişaf edir. Bizim çox yaxşı siyasi əməkdaşlığımız var. Son vaxtlarda dövlət səfərləri - Türkmənistan Prezidentinin Azərbaycana və Azərbaycan Prezidentinin Türkmənistana səfərləri baş tutmuşdur. Biz iqtisadi, siyasi

əməkdaşlığın vacib məsələlərini, o cümlədən Xəzər dənizinin hüquqi statusu məsələsini nəzərdən keçirmişik. Prinsip etibarilə ziddiyyətlərimiz yoxdur. Yataqlarla bağlı - Türkmənistanla Azərbaycan arasındakı sərhəddə yerləşən yataqlarla bağlı məsələlər var. Biz bunu da konstruktiv yolla həll etməyə hazırıq. Hesab edirəm ki, əgər biz öz türkmən dostlarımızla bu məsələnin həllinə nail olsaq, onda ümumiyyətlə, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi daha asan olacaqdır.

- Mənim sualım əvvəlki sualın davamıdır. Mən "Sərdar-Kəpəz" yatağı ilə bağlı sual vermək istəyirəm. Siz bu yatağın birgə işlənilməsi ehtimalı haqqında son iki il ərzində bəyanat vermisiniz. Dövlət Neft Şirkəti ilə Türkmənistan tərəfinin bu yataqda birgə işlərin aparılması ehtimalı nə dərəcədə realdır?

- Bəli bu, bizim yanaşmamızdır və bu mövqeyimizi açıq şəkildə elan etmişik ki, biz qeyd etdiyiniz yatağın birgə işlənilməsinin tərəfdarıyıq. Yeri gəlmişkən deyim ki, sovet vaxtında həmin yatağın adı başqa idi, o, nə Kəpəz deyildi, nə də Sərdar adlanırdı. O, rus dilində, "Promejutoçnaya" adlanırdı. Rus dilini bilən insanlar başa düşür ki, onun mənası nədir. "Promejutoçnaya" aralıqda olan deməkdir. Əgər o, aralıqdadırsa, bu o deməkdir ki, mübahisə obyekti ola bilər. Biz öz türkmən dostlarımıza təklif etdik ki, bu yatağın işlənilməsi üçün birgə əməliyyat şirkətini yaradaq. Çünki bizim infrastrukturumuz və boru kəmərlərimiz bu yatağa çox yaxındır və əgər lazım gələrsə, birlikdə beynəlxalq əməliyyatçıları dəvət edək və onlar gəlib sərmayə qoya bilərlər. Biz payların da müxtəlif proporsiyalarına baxmağa hazırıq və bu da həmin yataqdan keçən sərhədə uyğun olan bir pay bölümü olacaqdır. Əgər türkmən dostlarımız bu yanaşmaya razılaşarsa, hesab edirəm ki, biz məsələnin, Xəzər dənizinin ümumi hüquqi statusunun müəyyən edilməsini daha da asanlaşdıracağıq.

- Mən "Chatham House"da Rusiya və Avrasiya proqramı çərçivəsində çalışıram. Sizin fikrinizcə, Buş administrasiyasından fərqli olaraq, ABŞ-ın yeni administrasiyası Cənubi Qafqazda daha fəal işləyirmi? Bir tərəfdən, regionun Rusiyanın təsiri altına düşməməsinə çalışır və digər tərəfdən, Rusiya ilə Qərb arasında münasibətləri tənzimləməyə cəhd edirmi?

- Təcrübəmizə əsaslanaraq biz görürük ki, yeni administrasiya Cənubi Qafqazın regional məsələlərində çox mühüm və fəal rol oynayır. İlk anlardan biz bir çox mesajlar almışıq. Eyni zamanda, mənimlə Prezident Obama və dövlət katibi xanım Klinton arasında bir neçə telefon danışıqları olubdur. Bu yaxınlarda dövlət katibinin birinci müavininin rəhbərliyi ilə yüksək səviyyəli nümayəndə heyəti Bakıya səfər etmişdir. Aldığımız mesajlar, ünsiyyət və danışıqlar aydın göstərir ki, yeni administrasiyanın regional məsələlərdə böyük marağı var. Ermənistan-Azərbaycan münaqişəsində sülh prosesinə güclü dəstək, enerji siyasəti, regional inkişaf və təhlükəsizlik məsələləri - bütün bunlar Birləşmiş Ştatlarla ikitərəfli münasibətlərimizin gündəliyindədir. Biz bu yanaşmanı görməyimizdən çox şadıq. Bu yanaşmanı gözləyirdik. Ümid edirik ki, Birləşmiş Ştatlarla Azərbaycan arasında strateji tərəfdaşlıq gələn illər ərzində daha da güclənəcəkdir.

- Cənab Prezident, mən Britaniya-Ermənistan parlament qrupunu təmsil edirəm. Zati-alilərı, icazənizlə, yenidən Dağlıq Qarabağ məsələsinə qayıdaq. Dağlıq Qarabağ məsələsinin sırf insan hüquqları məsələsi olmasına baxmayaraq, Azərbaycan bu problemi ərazi iddiası kimi təqdim etmək üçün əlindən gələni edir və münaqişənin digər əsas tə-

rəfi, Dağlıq Qarabağın özü ilə danışmaqdan imtina edir. Bu, Dağlıq Qarabağın münaqişə tərəfi kimi ATƏT-in sənədlərində tanınması faktına baxmayaraq baş verir. Azərbaycan Dağlıq Qarabağın seçilmiş nümayəndələrini danışıqlarda tərəf kimi tanımır. Əgər Azərbaycan həqiqətən sülhdə maraqlıdırsa, onda birbaşa Dağlıq Qarabağla danışmalı deyilmi? Sağ olun.

- Biz bu münaqişədə insan hüquqları barədə danışdıqda, ilk növbədə, qaçqınlar və məcburi köçkünlərin, Azərbaycan vətəndaşlarının həyatı haqqında danışmalıyıq. Bu vətəndaşlar Ermənistanın etnik təmizləmə siyasətinin qurbanına çevrilmişlər. Azərbaycanın rayonlarında - Dağlıq Qarabağ ərazisində, onun ətrafında yaşamış 700 min insanın hüquqları var. Onların əllərində olan hər bir şey itirilibdir. Onların mülkiyyətinin bir hissəsi dağıdılıb, bir hissəsi oğurlanmış, talan edilmişdir. Onlar öz torpaqlarını itirmiş, tarixi abidələr dağıdılıb, orada hər bir şey yerlə-yeksan olunmuşdur. Azərbaycanın zəbt olunmuş torpaqları ölü bir zonadır və bu ölü zona bizim tərəfimizdən yox, ermənilər tərəfindən yaradılmışdır. Bu yaxınlarda Azərbaycan və Ermənistanın ziyalılar və deputatlar qrupu Dağlıq Qarabağda, Şuşa, İrəvan və Bakıda olmuşlar. Onlar Şuşaya getdikdə Azərbaycan məscidini ziyarət etdilər. Bu məscid dağıdılıb və demək olar, 20 ildir ki, xarabalığa çevrilibdir. Lakin onlar Bakıya səfər etdikdə erməni kilsəsinə getdilər. O, bizim tərəfimizdən bərpa olunub və bir tarixi abidə kimi saxlanılıbdır. Ona görə bu münaqişəyə gəldikdə, insan hüquqları aspekti Ermənistanın xeyrinə işləmir. Digər aspektlər də Ermənistanın xeyrinə işləmir. Danışıqlar tərəflərindən söhbət açsaq, deyə bilərəm ki, Ermənistan Prezidenti Sarkisyan Moskva bəyannaməsini münaqişənin tərəfi kimi imzaladı. Əgər Dağlıq Qarabağ münaqişə tərəfi olsaydı, o, bunu imzalamazdı. Əgər Dağlıq Qarabağ münaqişə tərəfi olmaq istəyirsə, bunu etmək çox asandır. Birincisi, Ermənistan ordusu Dağlıq Qarabağdan çıxarılmalıdır. Bu gün tam aydındır ki, Ermənistan ordusu Dağlıq Qarabağda yerləşdirilibdir. Ermənistan prosesdən tamamilə çıxmalıdır. Sonra isə 60 min əhalisi olan Dağlıq Qarabağ və Azərbaycan nə etməli olduqlarını qərarlaşdıracaqlar. Danışıqlar Ermənistanla Azərbaycan arasında aparılır. Bu, beynəlxalq formatdır. Bizim üçün heç bir səbəb yoxdur ki, bu formatı dəyişək. Əgər Dağlıq Qarabağın erməni icması iştirak etmək istəyirsə, onda onlar Dağlıq Qarabağın azərbaycanlı icması ilə danışıqlara gedə bilərlər. O azərbaycanlı icması ki, zorakılıqla Dağlıq Qarabağdan qovulub və qeyd etdiyim kimi, onların bütün abidələri yerlə-yeksan edilibdir.

- Mən türkiyəliyəm, Şeffild Universitetində təhsil alıram. Cənab Prezident, Ermənistan-Türkiyə münasibətlərində baş vermiş son hadisələr barədə rəyinizi bilmək istərdim. Azərbaycanın həmin diplomatik addıma münasibəti necədir?

- Azərbaycan heç vaxt digər ölkələrin ikitərəfli münasibətlərinə müdaxilə etmir. Türkiyə ilə Ermənistan arasındakı münasibətlər həmin ölkələrə aid münasibətlərdir. Eyni zamanda, əlbəttə ki, Azərbaycan bəzi məsələlərə regional inkişaf nöqteyi-nəzərindən yenidən baxmaq hüququna malikdir. Siyasi baxımdan bu, bizim işimiz deyildir. Amma, eyni zamanda, bildiyiniz kimi, Türkiyə ilə Azərbaycan bir-birinə çox yaxın olan ölkələrdir, müstəqilliyimizin ilk vaxtlarından bir yerdə olublar. Kəlbəcərin Ermənistan tərəfindən işğalından sonra Ermənistanla Türkiyə arasındakı sərhəd bağlanmışdır. Bununla Türkiyə Azərbaycanla öz həmrəyliyini göstərir və bu, nəzərə alınmalıdır. Eyni zamanda, Baş nazir Ərdoğan Bakıda birgə mətbuat konfransımızdakı və parlamentdəki çıxışında bəyan etmişdir ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmadan Türkiyə Ermənistanla sərhədlərini heç vaxt açmayacaqdır. Bu, bir dövlət xadiminin, dostumuzun vanaşması

idi, mövqeyi idi. Biz bu cür yanaşmalarına görə Baş nazirə və eyni zamanda, Türkiyənin Prezidentinə çox minnətdarıq.

- Mən Ərəb-İran Tədqiqatlar Mərkəzinin təmsilçisiyəm. İranla bağlı rəyinizi bilmək istərdim. Xüsusən də İranın nüvə enerjisi sahəsində tədbirləri müəyyən narahatlıq doğurur. Bu məsələ Azərbaycanı da narahat edirmi? Əhmədinejadın yenidən Prezident seçilməsi ilə bağlı onu təbrik etmisinizmi?

- Mən Caspian and Gulf Consultants təşkilatını təmsil edirəm. Bu gün Nabukko layihəsinə dair hökumətlərarası saziş imzalandı. Bildiyiniz kimi, Türkmənistan qazının Rusiyaya nəqli aprelin 8-dən sonra dayandırılmışdı, 197 qaz quyusu bağlanmışdır. Hazırda Türkmənistan qazının yalnız 8 faizi Rusiyaya ötürülür. Cümə günü Aşqabadda Prezident Obamanın Xəzər dəniz regionu üzrə elçiləri Makfol, Börns və Morninqstar ölkə rəhbərliyi ilə görüşlər keçirmişlər. Onlar ARDNŞ-in prezidenti Abdullayevlə də görüşmüşlər. Bildiyiniz kimi, Almaniya şirkəti Türkmənistandan başlayaraq, Xəzər dənizinin dibi ilə qaz boru kəmərini tikmək istəyir. Bu baxımdan Transxəzər boru kəməri layihəsinin baş tutacağı barədə və cədvəli ilə bağlı nə deyərdiniz?

- Mən Avropa Bankını təmsil edirəm. İranla münasibətləriniz haqqında nə deyə bilərsiniz? Bu ölkə ilə münasibətlərinizin inkişaf perspektivlərini necə görürsünüz?

- Bizim İranla münasibətlərimizin çox uzun tarixi var, xalqlarımız bir-biri ilə çox yaxındır. Müstəqil ölkələr kimi müxtəlif məsələlərdə əməkdaşlıq edirik. İqtisadi əməkdaşlığımız, insanlar arasında ünsiyyət çox yaxşıdır. Enerji sahəsi münasibətlərimizin bir hissəsidir. Azərbaycan İrana neft məhsulları ixrac edir və qaz mübadiləsi əməliyyatlarında iştirak edir. Enerji əməkdaşlığının çox yaxşı gələcəyi var. Biz İranla Azərbaycan arasında elektrikötürmə xətlərinin tikintisi layihəsini yekunlaşdırırıq və bu, İrana 700 meqavat elektrik enerjisi ixrac etmək imkanı yaradır. Əlaqələrimiz dostluğa, bir-birimizin işlərinə qarışmamaq prinsipinə əsaslanır. Hesab edirəm ki, bu, qonşular arasında olan ən yaxşı bir yanaşmadır.

İranın nüvə proqramına gəldikdə, biz mövqeyimizi dəfələrlə bildirmişik. Hər bir ölkənin sülh məqsədləri üçün nüvə proqramını həyata keçirmək hüququ var. Lakin əgər beynəlxalq ictimaiyyəti narahat edən məsələlər varsa, onlar da öz həllini tapmalıdır.

Mənim iranlı həmkarıma təbrikim Azərbaycan mətbuatında çap edilmişdir. Mən onu seçkilərdə qalib gəlməsi ilə bağlı təbrik etdim və yeni prezidentlik dövründə ona uğurlar arzuladım.

Transxəzər layihəsinin reallaşdırılması ehtimalına və cədvəlinə gəldikdə, bunu demək çətindir, çünki bu, bizim layihəmiz deyildir. Azərbaycan tərəfindən başlanmış bütün layihələr, - bəziləri vaxtından gec olsa da, - həyata keçirilibdir. Hər halda olmaq, olmamaqdan daha yaxşıdır. Transxəzər layihəsinə gəldikdə, Azərbaycan bunu irəli sürən ölkə deyildir. Bu, Türkmənistan qazını Azərbaycandan keçməklə Avropaya çatdırmaq üçün nəzərdə tutulubdur. Ona görə bu baxımdan Azərbaycan yalnız tranzit ölkə kimi çıxış edə bilər. Tranzit ölkə kimi, o cümlədən Enerji Xartiyasını imzalayan ölkə kimi biz bütün lazımi icazələri verəcəyik və infrastrukturumuzu təqdim edəcəyik. Bildiyiniz kimi, Transxəzər layihəsi haqqında qərar hələ qəbul olunmayıbdır. Əgər qərar qəbul olunarsa, biz bunu dəstəkləyəcəyik. Amma biz özümüz təşəbbüs göstərməyəcəyik.

- Mənim qısa şəxsi sualım var. Cənab Prezident, Siz seçilən liderlər qrupuna aidsiniz, çünki Sizin kimi rəhbərlərin ataları vaxtilə dövlət sükanı arxasında olmuşdur. Bilmək istərdim, Siz ölkə rəhbəri kimi fəaliyyətə başlayanda sabitlik və davamlılıq baxımından hansı üstünlükləri hiss etdiniz? Atanızın Sizin üzərinizə qoyduğu xüsusi məsuliyyəti necə dərk edirsiniz?

- Sağ olun. Atamın başladığı bütün işlərin uğurla davam etməsindən qürur hissi keçirirəm. Sabitlik və davamlılıq Azərbaycana etimadı gücləndirdi. Atam tərəfindən həyata keçirilən siyasət Azərbaycanı fəlakətdən, böhrandan, müstəqilliyin itirilməsindən xilas etdi. Tarixdə acı təcrübəmiz olub: 1918-1920-ci illərdə Azərbaycan iki il ərzində müstəqil olmuşdu, lakin daxili və xarici amillərə görə o vaxt müstəqilliyi itirdik. Eyni ssenari 1993-cü ildə də baş verə bilərdi. Yəni ikiillik müstəqillikdən sonra ölkə dağılmaq təhlükəsi qarşısında idi. Müstəqillik sual altında idi. Heydər Əliyev müstəqilliyi möhkəmləndirdi, Azərbaycanda lazımi şəraiti yaratdı və Azərbaycan xalqı bunu heç vaxt yaddan çıxarmaz.

Bu, böyük məsuliyyətdir. Atamın oğlu kimi mən hər zaman bu məsuliyyəti dərk edirəm və 2003-cü ildə mənə etimad göstərən şəxsləri məyus etmərəm. 2003-cü ildə onlar Heydər Əliyevin siyasətinə, sabitliyə və davamlılığa səs verdilər. 2008-ci ildə onlar son beş il ərzində əldə edilmiş nailiyyətlərə əsaslanaraq səs verdilər. Fərəh hissi ilə deyə bilərəm ki, beş il ərzində planlaşdırılmış bütün işləri həyata keçirdik, ölkəmizi möhkəmləndirə, müasir Azərbaycanı yarada bildik. Azərbaycanda dünyəviliyi möhkəmləndirdik və müstəqilliyi qoruyub saxladıq. Zənnimcə, gələn illər ərzində, gələcəkdə biz bu uğurlu inkişafı davam etdirəcəyik, Azərbaycan regional və beynəlxalq işlərdə daha fəal rol oynayacaqdır.

* * *

İyulun 13-də Böyük Britaniya Hökuməti adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə şam yeməyi verilmişdir.

BÖYÜK BRİTANİYA PARLAMENTİNİN XARİCİ MÜNASİBƏTLƏR KOMİTƏSİNDƏ GÖRÜŞ

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev iyulun 14-də Böyük Britaniya parlamentinin Xarici münasibətlər komitəsinin üzvləri ilə görüşmüşdür.

Komitənin sədri Maykl Qeyps Azərbaycan Prezidentinin Britaniyaya rəsmi səfərinin ikitərəfli əlaqələrin inkişafı baxımından əhəmiyyətini vurğuladı və dövlətimizin başçısını yenidən Lordlar palatasında görməkdən məmnun olduqlarını dedi. Maykl Qeyps Azərbaycan Prezidenti ilə görüşün ölkəmizdə və regionda gedən proseslər, beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparmaq baxımından yaxşı imkan yaratdığını bildirdi. O, Azərbaycanın enerji sektorunda əldə etdiyi uğurların önəmini vurğulayaraq, bu sahədə də əlaqələrin perspektivləri baxımından Azərbaycan Prezidentinin fikirlərini öyrənmək istədiklərini söylədi.

Prezident İlham Əliyev iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi və Azərbaycanda gedən inkişaf prosesləri barədə danışdı. Eyni za-

manda, Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin daim genişləndiyini bildirdi.

Azərbaycanla Böyük Britaniya arasında siyasi dialoqun fəal aparıldığını deyən Prezident İlham Əliyev enerji və təhlükəsizlik, antiterror koalisiyasında iştirak və digər sahələrdə uğurlu əməkdaşlığın olduğunu vurğuladı. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolundan və perspektivlərindən danışan dövlətimizin başçısı dedi ki, Azərbaycan Avropa üçün mühüm enerji təchizatçısına çevrilmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev problemin həlli ilə bağlı aparılan danışıqlar prosesi barədə də məlumat verdi.

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABET İLƏ GÖRÜŞ

İyulun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bukingem sarayında Böyük Britaniya və Şimali İrlandiyanın kraliçası ülyahəzrət II Elizabet ilə görüşmüşlər.

***

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Yorq hersoqu şahzadə Endryu ilə birgə nahar etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BRITISH COUNCIL"İN HAZIRKI SƏDRİ SER CERARD LEMOS İLƏ GÖRÜŞMÜŞDÜR

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev iyulun 14-də Londonda "British Council"in hazırkı sədri ser Cerard Lemos ilə görüşmüşdür.

Prezident İlham Əliyev "British Council"in ölkəmizdəki işini müsbət qiymətləndirdi və təşkilatın Azərbaycanda fəaliyyətini davam etdirməsi üçün bütün imkanların olduğunu vurğuladı.

Ser Cerard Lemos "British Council"in Azərbaycandakı gələcək planları haqqında məlumat verdi və bildirdi ki, əsas fəaliyyət istiqaməti ingilis dilinin tədrisi olan "British Council" Azərbaycanda mədəniyyət sahəsində də layihələr həyata keçirməyi planlaşdırır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN ENERGETİKA VƏ ƏTRAF MÜHİT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ ED MİLİBƏND İLƏ GÖRÜŞÜ

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev iyulun 14-də Böyük Britaniyanın energetika və ətraf mühit məsələləri üzrə dövlət katibi Ed Milibənd ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə edildi.

Bildirildi ki, Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında rəsmi səfəri çərçivəsində Dövlət Neft Şirkəti ilə bp arasında sənədin imzalanması iki ölkənin energetika sahəsində əməkdaşlıqda etibarlı tərəfdaş olduğunu və işbirliyi üçün yaxşı perspektivlərin mövcudluğunu nümayiş etdirir.

Görüşdə energetika sahəsində əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

SƏFƏR BAŞA ÇATMIŞDIR

İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına rəsmi səfəri başa çatmışdır.

Azərbaycanın və Böyük Britaniyanın dövlət bayraqlarının dalğalandığı Londonun "Hitrou" hava limanında Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Böyük Britaniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.

AZƏRBAYCAN HÖKUMƏTİNİN TƏŞƏBBÜSÜ İLƏ BMT-NİN CENEVRƏDƏKİ OFİSİNDƏ TASİM LAYİHƏSİ MÜZAKİRƏ OLUNMUŞDUR

İyulun 14-də Azərbaycan hökumətinin təşəbbüsü ilə BMT-nin Cenevrədəki ofisində Transmilli Avrasiya Super İnformasiya Magistralı (TASİM) layihəsinə həsr olunmuş iclas keçirilmişdir. İclasa Azərbaycan Respublikasının BMT-nin Cenevrədəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi, ölkəmizin İsveçrədəki səfiri Elçin Əmirbəyov sədrlik etmişdir.

Müzakirələrdə Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev və Beynəlxalq Telekommunikasiya Birliyinin (BTB) baş katibi Həmədun Ture iştirak etmişdirlər.

Nazir Ə.Abbasov Avrasiya regionu ilə yüksək səviyyəli informasiya–kommunikasiya texnologiyaları infrastrukturuna malik Qərbi Avropa və Sakit okean hövzəsinin ölkələri arasında mövcud boşluqların aradan qaldırılmasına xidmət edəcək TASİM layihəsi barədə geniş məlumat vermişdir. Nazir təklif olunan layihənin məqsəd və vəzifələrindən də danışmış, onun Minilliyin İnkişaf Məqsədlərinin vaxtında həyata keçirilməsinə töhfə verə biləcəyini bildirmişdir.

M.Məmmədquliyev TASİM layihəsi üzrə BMT Baş Məclisinin 64-cü sessiyasında irəli sürüləcək qətnamə ilə bağlı Azərbaycan hökumətinin planları və nəzərdə tutulan sənədin məqsədi barədə məlumat vermişdir.

BTB-nin baş katibi H.Ture TASİM layihəsi ilə bağlı Azərbaycan hökumətinin təşəbbüsünü alqışlamış və vurğulamışdır ki, bu layihə vasitəsilə Avrasiyada bağlantının yaradılması səyləri təqdirəlayiqdir.

Azərbaycanın nümayəndə heyəti Cenevrəyə səfəri çərçivəsində TASİM layihəsi ilə bağlı bir neçə ikitərəfli görüşlər də keçirmiş, o cümlədən Dünya İqtisadi Forumunun Avropa və Mərkəzi Asiya regionu üzrə direktoru Stefen Kinnok ilə görüşmüşdür.

BRÜSSELDƏ AZƏRBAYCAN-NATO MƏSLƏHƏTLƏŞMƏLƏRİ KEÇİRİLMİŞDİR

İyulun 15-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti Brüsselə Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) mənzil qərargahına gəlmişdir.

Nazir E.Məmmədyarov NATO-nun rəhbərliyi ilə görüşmüş, Şimali Atlantika Şurası - Azərbaycan görüşündə iştirak etmişdir. NATO ilə aparılmış məsləhətləşmələrdə Azərbaycan-NATO münasibətləri, Azərbaycanın NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının (FTƏP) yerinə yetirilməsi, habelə regionda təhlükəsizlik, o cümlədən enerji təhlükəsizliyi məsələləri müzakirə edilmiş, ölkəmizin enerji resurslarının Avropa bazarlarına nəqlinə dəstək ifadə olunmuşdur.

NATO Azərbaycanın FTƏP vasitəsilə təhlükəsizlik sektorunda apardığı islahatları, qüvvələrin NATO ilə qarşılıqlı operativ uzlaşdırılmasını, Azərbaycanın Əfqanıstanda Beynəlxalq təhlükəsizliyə yardım qüvvələrinin (ISAF) əməliyyatlarına töhfəsi sahəsindəki uğurları yüksək qiymətləndirmişdir.

Bundan əlavə, NATO elm, təhsil, ətraf mühit və ictimaiyyətin məlumatlandırılması sahəsində ölkəmizlə əməkdaşlığından və milli tədbirlərdən məmnun qalmışdır.

Azərbaycan ilə NATO arasında bu cür məsləhətləşmələr ildə bir dəfə keçirilir və hazırda FTƏP-in 2008-2010-cu illəri əhatə edən ikinci mərhələsi gerçəkləşməkdədir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN BAŞ KATİBİ MARK PERRİN DE BRİŞAMBONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da ATƏT-in baş katibi Mark Perrin de Brişambonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla ATƏT arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına dair ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə olunmuşdur.

AVROPALI GƏNCLƏR DİPLOMATİK AKADEMİYADA OLMUŞLAR

Bakıda keçirilən "Mədəniyyətlərarası dialoqda gənclərin rolu" mövzusunda beynəlxalq konfransın iştirakçıları iyulun 17-də Azərbaycan Diplomatik Akademiyasında olmuşlar.

Avropanın 10-a yaxın ölkəsini təmsil edən gənclərlə görüşdə xarici işlər nazirinin müavini, akademiyanın rektoru Hafiz Paşayev Azərbaycan-Avropa əlaqələrinin tarixindən danışmışdır. Rektor bildirmişdir ki, 17 il əvvələ qədər Sovetlər Birliyinin qapalı rejimində yaşayan Azərbaycan Avropa dövlətləri ilə əməkdaşlıq edə bilməsə də, müstəqillik qazandıqdan sonra bu əlaqələr daim diqqət mərkəzində olmuşdur. Hazırda Azərbaycanın Avropa ailəsinin fəal üzvlərindən biri olması ölkəmizin hərtərəfli inkişafına böyük töhfə verir.

Konfrans iştirakçıları Diplomatik Akademiyada çalışan avropalı mütəxəssislərlə də tanış olmuş, təhsil ocağının perspektivlərinə və beynəlxalq əlaqələrinə dair filmə baxmışlar.

HAFİZ PAŞAYEVİN "BİR SƏFİRİN MANİFESTİ" KİTABININ RUS DİLİNDƏ NƏŞRİNİN TƏQDİMATI OLMUŞDUR

İyulun 17-də AMEA-nın "Akademiya" kitab mərkəzində Azərbaycanın ABŞ-da ilk səfiri olmuş xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru Hafiz Paşayevin "Bir səfirin manifesti" kitabının rus dilində nəşrinin təqdimatı olmuşdur.

Hafiz Paşayev demişdir ki, Azərbaycan dilində çıxmış bu kitabı rus dilində nəşr etmək fikri Moskvada Azərbaycan səfirliyinin yaxınlığındakı bir kitab mağazasına baş çəkərkən yaranmışdır. Orada Azərbaycana aid heç bir kitabın olmaması faktı məni bu qənaətə gəlməyə vadar etdi.

Kitabın rus dilində nəşrinin redaktoru Siyavuş Məmmədzadə "Bir səfirin manifesti"nin uzun illərin müşahidəsi və təcrübəsi əsasında meydana gəldiyini söyləyərək demişdir ki, 14 il xaricdə fəal diplomatik fəaliyyətlə məşğul olan müəllif əsərində zəmanəmizin siyasi ab-havasını məharətlə qələmə almışdır. Burada onun Azərbaycan ilə ABŞ arasında münasibətlərin yaranması və inkişafına, iki ölkənin əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə dair xatirə və mülahizələri toplanmışdır. Mən Hafiz Paşayevi alim-fizik kimi tanıyırdım, indi isə onu görkəmli diplomat kimi kəşf etdim.

Əsərin ictimai-siyasi əhəmiyyətindən danışan akademik Vasim Məmmədəliyev bildirmişdir ki, kitabda ümummilli lider Heydər Əliyevin xarici siyasətimizdə ABŞ ilə münasibətlərimizə mühüm qiymət verməsi, bu əlaqələrin durmadan inkişafı və möhkəmlənməsi yolunda ciddi səyləri konkret faktlarla oxuculara çatdırılır. Bu kitabı dolğun, zəngin faktlara əsaslanan toplu, mühüm tədqiqat işi adlandıran V.Məmmədəliyev onun diplomatların stolüstü kitabına çevriləcəyinə əminliyini vurğulamışdır.

Sənətşünaslıq elmləri doktoru, professor İlham Rəhimli əsərdə müəllifin səmimiyyətini, müstəqillik illərində ölkəmizin diplomatiyasını xüsusi baxış bucağından işıqlandırdığını bildirərək, kitabın təkcə peşəkar diplomatlarda deyil, həm də geniş oxucu kütləsində ciddi maraq doğuracağını söyləmişdir. Natiq kitabın dərslik kimi istifadəsinin vacibliyini də vurğulamışdır.

Həqiqətən də, bu kitab Azərbaycanı dünyaya bir az da yaxınlaşdırır. Ölkəmizin Vaşinqtondakı səfirliyinin təcrübəsi və müəllifin zəngin şəxsi təəssüratları əsasında yazılmış kitabda geniş spektrli mövzularla yanaşı mühüm siyasi, ictimai hadisələrin və cərəyanların maraqlı detalları işıqlandırılır. Kitab müasir diplomatiyanın incəliklərini əks etdirən fikirlərlə zənginliyi ilə də böyük maraq doğurur.

Təqdimatın sonunda professor Hafiz Paşayev kitabları imzalayaraq mərasim iştirakçılarına təqdim etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.

Azərbaycan dövlətinin başçısını Moskvanın "Vnukovo-2" hava limanında Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

MOSKVADA AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ OLMUŞDUR

İyulun 17-də Moskvada, "Prezident-otel"də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair görüşü olmuşdur.

Görüşdə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan, ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzə (ABŞ), Bernar Fasye (Fransa), Yuri Merzlyakov (Rusiya), habelə ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik iştirak etmişlər.

MOSKVADA AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

İyulun 18-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın üçtərəfli görüşü olmuşdur.

MOSKVADA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN GÖRÜŞÜ OLMUŞDUR

İyulun 18-də Moskvada Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edildi. Dövlət başçıları bu əlaqələrin gələcəkdə də genişlənəcəyinə əminliklərini bildirdilər.

Söhbət zamanı ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

MOSKVADA RUSİYA PREZİDENTİNİN MÜKAFATI UĞRUNDA CIDIR YARIŞLARI KEÇİRİLMİŞDİR

İyulun 18-də Moskva Mərkəzi cıdır meydanında "Rusiya Prezidentinin 2009-cu il üçün mükafatı" uğrunda cıdır yarışları keçirilmişdir.

Yarışı Rusiya Prezidenti Dmitri Medvedevlə birlikdə Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Moldova Prezidenti Vladimir Voronin, Tacikistan Prezidenti Emoməli Rəhmon və Ermənistan Prezidenti Serj Sarkisyan da izləmişlər.

"Rusiya Prezidentinin 2009-cu il üçün mükafatı" uğrunda cıdır yarışlarında Rostov vilayətindəki "Donskoy" atçılıq zavodunun "Monomax" ləqəbli kəhər ayğırı qalib gəlmişdir. Azərbaycan Respublikası Atçılıq Federasiyası həmin yarışlarda çıxış etmək üçün İrlandiyadan gətirilmiş "Leyk Poet" ləqəbli ayğırı göndərmişdi.

"Rusiya Prezidentinin 2009-cu il üçün mükafatı" uğrunda cıdır yarışları 2004-cü ildən başlayaraq hər il keçirilir. Bu tədbir həm də MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi ünsiyyəti üçün bir fürsətə çevrilmişdir.

Builki cıdır yarışları Moskva Mərkəzi cıdır meydanının 175 illik yubileyinə həsr edilmişdi.

"Rusiya Prezidentinin 2009-cu il üçün mükafatı" uğrunda cıdır yarışlarının ümumi mükafat fondu 7 milyon rubl idi. Bu məbləğin yarısı yarışların qalibinə çatmışdır.

SƏFƏR BAŞA ÇATMIŞDIR

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.

Moskvanın "Vnukovo-2" hava limanında Prezident İlham Əliyevi Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ KARL BİLDTİ VƏ ONUN BAŞÇILIQ ETDİYİ AVROPA İTTİFAQI ÜÇLÜYÜNÜN (TROYKA) NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də İsveç Krallığının xarici işlər naziri Karl Bildti qəbul etmişdir.

Görüşdə iki ölkə arasında münasibətlərin inkişafından məmnunluq ifadə olundu, siyasi dialoqun genişləndirilməsinin zəruriliyi, ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğu vurğulandı. Azərbaycan-İsveç ikitərəfli münasibətlərinin Avropa İttifaqı əməkdaşlığı çərçivəsində genişləndirilməsi baxımından vacibliyi bildirildi. İsveç Krallığının xarici işlər nazirinin Azərbaycana bu səfərinin iki ölkə arasında əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminlik ifadə olundu.

Sonra isə Prezident İlham Əliyev İsveç Krallığının xarici işlər naziri Karl Bildtin başçılıq etdiyi Avropa İttifaqı "Üçlüyü"nün (Troyka) nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı səviyyəsindən məmnun olduğunu deyən Prezident İlham Əliyev Şərq tərəfdaşlığı proqramının bu əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini vurğuladı və eyni zamanda, Proqramın Azərbaycanın Avropaya daha sıx inteqrasiyası üçün geniş imkanlar yaratdığını bildirdi. Avropaya inteqrasiya məsələsinin ölkəmizin strateji məqsədlərindən biri

olduğunu deyərək, bu siyasətin 15 ildir uğurla davam etdirildiyini vurğuladı. Dövlətimizin başçısı Avropa İttifaqı "Üçlüyü"nün nümayəndə heyətinin ölkəmizə bu səfərinin əməkdaşlığa dair bir çox məsələlər ətrafında fikir mübadiləsi aparılması baxımından əhəmiyyətli olduğunu söylədi.

Nümayəndə heyətini rəhbəri, İsveç Krallığının xarici işlər naziri Karl Bildt Avropa İttifaqının Azərbaycanla əməkdaşlığa maraqlı olduğunu bildirdi. Qonaq təmsil etdiyi təşkilatla ölkəmiz arasında enerji, terrorizmə qarşı mübarizə və digər sahələrdə əməkdaşlığın yüksək səviyyədə olduğunu və bu əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğuladı. Karl Bildt Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair aparılan danışıqlar prosesinin Avropa İttifaqı tərəfindən yaxından izləndiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LONDON SİTİNİN MERİ ALDERMAN İAN LUDERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də London Sitinin meri Alderman İan Luderin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Alderman İan Luder Azərbaycanda böyük qonaqpərvərliklə qarşılandığına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. Qonaq ölkəmizə səfəri zamanı müxtəlif dövlət strukturlarında keçirdiyi səmərəli görüşlər barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev ötən həftə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına uğurlu səfərini və orada keçirdiyi səmərəli görüşlərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı London Sitinin merinin ölkəmizə bu səfərinin Azərbaycanda gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq və Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin daha da genişləndirilməsi üçün imkanların öyrənilməsi baxımından əhəmiyyətli olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN ÖLKƏMİZDƏKİ SƏFİRİ ARTUR LENKİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də İsrailin fövqəladə və səlahiyyətli səfiri Artur Lenki Azərbaycanda diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Prezident İlham Əliyev iki ölkə arasında münasibətlərin inkişafından məmnunluğunu söylədi. Dövlətimizin başçısı ölkəmizdə fəaliyyəti dövründə Artur Lenkin Azərbaycan-İsrail əlaqələrinin genişlənməsi işinə öz töhfəsini verdiyini bildirdi və gələcək fəaliyyətində ona uğurlar arzuladı.

Artur Lenk ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyini, iqtisadi-ticarət əlaqələrinin daha da genişləndiyini vurğuladı, onun fəaliyyətinə verdiyi yüksək qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

BMT-NİN İNSAN HÜQUQLARI KOMİTƏSİNİN 96-CI SESSİYASI ÇƏRÇİVƏSİNDƏ "MÜLKİ VƏ SİYASİ HÜQUQLAR ÜZRƏ" BEYNƏLXALQ PAKTA DAİR AZƏRBAYCAN RESPUBLİKASININ ÜÇÜNCÜ DÖVRİ MƏRUZƏSİNƏ BAXILMIŞDIR

BMT-nin İnsan Hüquqları Komitəsinin Cenevrədə keçirilmiş 96-cı sessiyası çərçivəsində iyulun 20-21-də "Mülki və siyasi hüquqlar üzrə" Beynəlxalq Pakta dair Azərbaycan Respublikasının üçüncü dövri məruzəsinə baxılmışdır.

Məruzənin təqdimatında Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılığı ilə nümayəndə heyəti iştirak etmişdir.

X.Xələfov təqdimatda çıxış edərək, ölkəmizdə insan hüquqlarının və əsas azadlıqlarının təmin olunması üçün yaradılmış hüquqi əsaslar, insan hüquqlarının və əsas azadlıqlarının təşviqinin möhkəmləndirilməsinə yönəldilmiş səylər barədə ətraflı məlumat vermiş, bu il martın 18-də keçirilmiş referendum nəticəsində Azərbaycan Konstitusiyasına edilmiş düzəlişlərin insan hüquqları və azadlıqlarının daha da möhkəmləndirilməsi və inkişafı baxımından əhəmiyyətini vurğulamışdır.

X.Xələfov qanunvericiliyin təkmilləşdirilməsi və həyata keçirilməsi, məhkəmə-hüquq sistemində və penitensiar sistemdə aparılan islahatlardan, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının, gender bərabərliyinin təmin edilməsi, korrupsiyaya və insan alverinə qarşı mübarizə sahəsində görülən tədbirlərdən də danışmışdır.

Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra üzləşdiyi çətinliklərdən bəhs edən nazir müavini Ermənistanın ölkəmizə qarşı davam edən təcavüzü, onun ağır nəticələri barədə məlumat vermiş və qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində Azərbaycan hökuməti tərəfindən mühüm işlər görüldüyünü bildirmişdir.

Daha sonra nümayəndə heyətinin başçısı və üzvləri məruzə ilə bağlı sualları cavablandırmış, təfsilatlı şərhlər vermişlər.

Komitə üzvləri Azərbaycanda insan hüquqları sahəsində əldə olunmuş nailiyyətləri vurğulamaqla yanaşı, göstərilən səylərin daha da artırılması ilə bağlı tövsiyələrini söyləmişlər.

Müzakirələr interaktiv dialoq formasında davam etmiş, X.Xələfovun yekun çıxışı ilə başa çatmışdır.

AZƏRBAYCAN İLƏ İSRAİL ARASINDA İMZALANMIŞ SƏNƏDLƏR GƏLƏCƏK ƏMƏKDAŞLIQ ÜÇÜN ƏLVERİŞLİ ŞƏRAİT YARATMIŞDIR

Ölkəmizdə səfərdə olan İsrail-Azərbaycan parlament dostluq qrupunun rəhbəri Robert İlatov Milli Məclis sədrinin birinci müavini, parlamentin təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərovla görüşmüşdür.

Z.Əsgərov bildirmişdir ki, Azərbaycan-İsrail münasibətləri yüksələn xətt üzrə inkişaf etməkdədir. Bu inkişaf İsrail Prezidenti Şimon Peresin bu yaxınlarda Azərbaycana tarixi səfərindən sonra daha da intensivləşmişdir. Səfər zamanı imzalanmış sənədlər dövlət-

lərimizin gələcək əməkdaşlığı üçün əlverişli şərait yaratmışdır.

Hər iki ölkənin qarşılıqlı əməkdaşlığa ehtiyacı olduğunu vurğulayan Ziyafət Əsgərov Azərbaycan ilə İsrailin beynəlxalq aləmdə bir-birini dəstəkləməsindən məmnunluğunu ifadə etmişdir.

Ölkəsinin Azərbaycanla yaxın münasibətlərindən danışan Robert İlatov siyasi, iqtisadi, səhiyyə və digər sahələrdə qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar olduğunu bildirmişdir. O demişdir ki, İsrail bütün sahələrdə öz zəngin təcrübəsini Azərbaycanla bölüşməyə hazırdır və bundan sonra da Azərbaycanı dəstəkləyəcəkdir.

Görüşdə parlamentlərarası münasibətlərin inkişafı və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN MOSKVA GÖRÜŞÜ İLƏ ƏLAQƏDAR BƏYANAT YAYMIŞLAR

ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistan prezidentlərinin Moskva görüşü ilə əlaqədar bəyanat yaymışlar.

Bəyanatda deyilir ki, iyulun 17-də keçirilmiş görüşdə prezidentlər təkbətək müzakirələr aparmışlar. Danışıqlar ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Merzlyakov (Rusiya), Bernar Fasye (Fransa), ABŞ dövlət katibi müavininin köməkçisi Mətyu Brayzənin və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşikin iştirakı ilə aparılmışdır. İyulun 18-də isə danışıqlarda Rusiya Prezidenti Dmitri Medvedev də iştirak etmişdir.

Görüşdə tərəflərə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Əsas prinsiplərin hələ də razılaşdırılmamış bəzi elementlərini müzakirə etməyə şərait yaradılmışdır.

Həmsədrlər hər iki prezidentə bildirmişlər ki, onlar iyul ayının sonunda Polşanın Krakov şəhərində işçi iclası keçirəcəklər. Bu görüşün məqsədi prezidentlər Barak Obama, Dmitri Medvedev və Nikola Sarkozinin "L"aquila bəyannamələrinə" uyğun olaraq, Madrid sənədinin yenilənmiş versiyasını hazırlamaqdır.

Sənəddə o da bildirilir ki, sentyabrın sonu və ya oktyabrın əvvəllərində Ermənistan və Azərbaycan prezidentlərinin növbəti görüşünü razılaşdırmaq üçün həmsədrlər sentyabr ayında regiona səfər etmək niyyətindədirlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYANIN MALİYYƏ NAZİRİ EDUARD YANOTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Çexiyanın maliyyə naziri Eduard Yanotanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycan-Çexiya münasibətlərinin son vaxtlar dinamik inkişaf etdiyini, yüksək səviyyəli qarşılıqlı səfərlərin iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsi baxımından əhəmiyyətli olduğunu bildirdi. Dövlətimizin başçısı siyasi sahədə əlaqələrin inkişafından məmnunluğunu söylədi, eyni zamanda, iqtisadi əməkdaşlığın genişləndirilməsinin zəruriliyini vurğuladı. Prezident İlham Əliyev Çexiyanın maliyyə nazirinin Azərbaycana bu səfərinin iki ölkə arasında əlaqələrin daha da inkişafına xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Eduard Yanota ölkəsinin Azərbaycanla münasibətlərinin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayaraq, Çexiya ilə Azərbaycan arasında iqtisadi sahədə, o cümlədən maliyyə sektorunda əlaqələrin inkişafı üçün geniş potensialın olduğunu söylədi. O bildirdi ki, Bakıya səfərinin əsas məqsədlərindən biri bu sahədə əməkdaşlığın gələcək perspektivlərinə dair müzakirələr aparmaqdır.

AZƏRBAYCAN İLƏ ÇEXİYA MALİYYƏ NAZİRLİKLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANMIŞDIR

Azərbaycan-Çexiya əlaqələri strateji xarakter daşıyır və iki ölkənin maliyyə sahəsində də əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial vardır.

Bu fikir iyulun 24-də Azərbaycanın maliyyə naziri Samir Şərifovun ölkəmizdə rəsmi səfərdə olan Çexiyanın maliyyə naziri Eduard Yanota ilə görüşündə xüsusi vurğulanmışdır.

Görüşdən əvvəl Çexiyanın maliyyə naziri E.Yanotanın rəhbərlik etdiyi nümayəndə heyəti Fəxri xiyabanda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşdur.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də tər çiçəklər düzülmüşdür.

Nümayəndə heyəti Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anmış, "Əbədi məşəl" abidəsi önünə əklil qoymuşlar.

Azərbaycan ilə Çexiya arasında maliyyə sahəsində əməkdaşlığın genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparan nazirlər iki ölkənin maliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında memorandumu imzalamışlar.

İmzalanmadan sonra keçirilən mətbuat konfransında vurğulanmışdır ki, Azərbaycan-Çexiya əlaqələri strateji xarakter daşıyır, ölkələrimiz iqtisadi sahədə əməkdaşlığı əsaslı şəkildə genişləndirməkdə maraqlıdırlar. Çexiyanın maliyyə nazirinin Azərbaycana rəsmi səfəri, Prezident İlham Əliyevin E.Yanota ilə görüşü, eləcə də dövlət və hökumət rəsmiləri ilə aparılacaq müzakirələr ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə təkan verəcəkdir.

Memorandumun imzalanması ilə əməkdaşlıq üçün münbit hüquqi bazanın yarandığını vurğulayan nazir S.Şərifov bildirmişdir ki, sənədə əsasən Azərbaycan ilə Çexiya maliyyə nazirlikləri arasında büdcənin planlaşdırılması, xəzinədarlıq əməliyyatları, maliyyə nəzarəti, sosial sahələrin maliyyələşdirilməsi və digər sahələrdə qarşılıqlı əlaqələrin qurulması, təcrübə mübadiləsinin aparılması nəzərdə tutulmuşdur.

Nazir E.Yanota iqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycanda həyata keçirilən bir sıra layihələrə Çexiyanın qoşulmaq niyyətində olduğunu vurğulamışdır. O demişdir ki, Çe-

xiyanın EXSİMBANK-ı ölkəmizdə nəqliyyat infrastrukturu, avtomobil yollarının çəkilməsi, dəmir yolu və digər sahələrlə bağlı layihələri maliyyələşdirə bilər. EXSİMBANK-ın səhmlərinin 100 faizi dövlətə məxsus olduğundan imzalanacaq müqavilələrə Çexiyanın dövlət zəmanəti veriləcəkdir.

Mətbuat konfransında əməkdaşlığın digər sahələrinə dair suallara da aydınlıq gətirilmişdir.

CENEVRƏDƏ AZƏRBAYCANIN DÜNYA TİCARƏT TƏŞKİLATINA ÜZV OLMASI ÜZRƏ İŞÇİ QRUPUNUN İCLASI KEÇİRİLMİŞDİR

İyulun 24-də Cenevrədə Azərbaycanın Dünya Ticarət Təşkilatına (DTT) üzv olması üzrə işçi qrupunun 7-ci iclası keçirilmişdir.

İclasda Azərbaycanın Xarici İşlər, İqtisadi İnkişaf, Ədliyyə, Sənaye və Energetika, Maliyyə, Vergilər və Kənd Təsərrüfatı nazirliklərinin, o cümlədən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Əmlak Məsələləri Dövlət Komitəsi və Müəllif Hüquqları Agentliyinin nümayəndələri iştirak etmişlər.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev iclasda Azərbaycan hökumətinin davamlı sosial-iqtisadi inkişafa, ölkə iqtisadiyyatının şaxələndirilməsinə və qeyri-neft sektorunun inkişafı məsələlərinə mühüm əhəmiyyət verdiyini bildirmiş, bu istiqamətdə son dövrdə görülən işlərdən danışmışdır.

M.Məmmədquliyev Azərbaycanın milli iqtisadi maraqlarını özündə təsbit edən mallar və xidmətlər üzrə təkmilləşdirilmiş təkliflər və digər sənədlər hazırlanaraq DTT Katibliyinə və müvafiq ölkələrə təqdim olunduğunu, növbəti ikitərəfli danışıqların aparıldığını söyləmişdir. Bundan əlavə, Azərbaycanın milli qanunvericiliyinin DTT-nin sazişlərinə uyğunlaşdırılması sahəsində ölkədə son altı ayda görülmüş və gələcəkdə görüləcək işlərlə bağlı üzv ölkələrə məlumat verilmişdir.

İclasda iştirak edən bir sıra ölkələrin nümayəndələri - Afrika qrupu adından Misir, açıq dənizə çıxışı olmayan ölkələr adından Paraqvay, habelə Türkiyə, Çin, Braziliya, Pakistan, İordaniya təmsilçiləri çıxış edərək Azərbaycanın əlverişli şərtlərlə DTT-yə üzvlüyünü dəstəkləmiş, ölkəmiz tərəfindən bu istiqamətdə həyata keçirilmiş tədbirləri və onların nəticələrini müsbət qiymətləndirmişlər. Həmçinin ABŞ, Avropa Komissiyası, Kanada, Avstraliya, Koreya Respublikası və digər ölkələrin nümayəndələri Azərbaycanın DTT-yə üzvlüyünü prinsip etibarilə dəstəkləmişlər.

İclas çərçivəsində üzv ölkələr tərəfindən verilən əlavə suallar cavablandırılmış və tədbirin yekununda Azərbaycanın xarici ticarət rejiminə dair yeni sualların üzv ölkələr tərəfindən 2009-cu il sentyabrın 14-dək təqdim olunması, işçi qrupunun növbəti iclasının cari ilin sonunda və yaxud 2010-cu ilin ilk rübündə keçirilməsinə dair qərar qəbul edilmişdir.

Həmçinin cari il iyulun 21-22-də Azərbaycan bazarına girməkdə marağı olan mallar və xidmətlər üzrə müvafiq sorğu təqdim etmiş ABŞ və Avropa Komissiyası ilə ikitərəfli danışıqlar aparılmışdır.

Cari il iyulun 23-də isə ABŞ, Kanada, Avstraliya, Avropa Komissiyası, Türkiyə və di-

gər ölkələrin iştirakı ilə kənd təsərrüfatına daxili dəstək məsələləri üzrə aparılmış çoxtərəfli danışıqlar zamanı Azərbaycan tərəfindən təqdim olunmuş təkmilləşdirilmiş ACC/4 cədvəli, kənd təsərrüfatına daxili dəstəyin səviyyəsi və həcmi müzakirə olunmuşdur.

Səfər çərçivəsində M.Məmmədquliyev DTT, Dünya Bankı və BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) yüksək vəzifəli rəsmiləri və mütəxəssisləri ilə Azərbaycanın DTT-yə üzv olması ilə bağlı müzakirələr aparmışdır.

AZƏRBAYCAN HÖKUMƏTİ İLƏ DÜNYA BANKI ARASINDA NÖVBƏTİ İKİ SAZİŞ İMZALANMIŞDIR

İyulun 28-də Nəqliyyat Nazirliyində Azərbaycan hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında 63 milyon ABŞ dolları dəyərində II Magistral Yol Layihəsi üçün İkinci Əlavə Maliyyələşdirmə Sazişi, həmçinin Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında 112 milyon dollar dəyərində kredit sazişləri imzalanmışdır.

Sazişləri Azərbaycan Respublikası adından nəqliyyat naziri Ziya Məmmədov, Dünya Bankı tərəfindən isə qurumun Cənubi Qafqaz üzrə regional direktoru Əsəd Aləm imzalamışlar.

Ümumilikdə 258 milyon ABŞ dolları dəyərində olan kreditin Əlavə Maliyyələşdirilmə Sazişində nəzərdə tutulan 175 milyon dolları Hacıqabul-Bəhramtəpə regionunun əsas şəhər mərkəzləri ilə əlaqələrinin inkişaf etdirilməsinə sərf ediləcəkdir. Layihə çərçivəsində magistral yolun 116 kilometrlik hissəsi və 200 kilometr uzunluğunda yerli yollar yenidən qurulacaqdır.

Beynəlxalq İnkişaf Assosiasiyası tərəfindən kredit 10 ili güzəşt müddəti olmaqla 20 il müddətinə faizsiz verilmişdir. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının kredit müddəti isə 4 ili güzəşt dövrü olmaqla 17 ildir.

Sazişlər Dünya Bankının yol proqramlarının davamı olacaq və ölkənin tranzit imkanlarının gücləndirilməsinə xidmət edəcəkdir.

Layihənin icrasına 3 aydan sonra başlanacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYTİN ÖLKƏMİZDƏKİ SƏFİRİ FƏHD SAAD SƏİD ƏL-MEYİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Küveytin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fəhd Saad Səid əl-Meyi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Küveyt arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Küveytə rəsmi səfərini ikitərəfli münasibətlərimizin gözəl təzahürü kimi qiymətləndirən Prezident İlham Əliyev səfər çərçivəsində əldə edilən razılaşmaların və müzakirə edilən məsələlərin gələcəkdə də Azərbaycan-Küveyt münasibətlərinin inkişafına xidmət göstərəcəyinə əminliyini vurğuladı. Dövlətimizin başçısı səfirin Azər-

baycanda diplomatik fəaliyyəti müddətində ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmlənməsi işinə öz töhfəsini verdiyini bildirdi və gələcək fəaliyyətində ona uğurlar arzuladı.

Səfir Fəhd Saad Səid əl-Mey Küveyt Dövlətinin əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizdəki diplomatik fəaliyyəti müddətində səfirliyə yaradılan şəraitə görə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Fəhd Saad Səid əl-Mey Azərbaycanda üçillik fəaliyyəti dövründə sabitlik və əmin-amanlığın yüksək səviyyədə təmin edildiyinin şahidi olduğunu vurğulayaraq, ölkəmizdəki missiyasından məmnunluğunu bildirdi.

Dövlətimizin başçısı Küveyt əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Küveyt Dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN MÜDAFİƏ NAZİRİ ANATOLİ SERDYUKOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 1-də Rusiya Federasiyasının müdafiə naziri Anatoli Serdyukovu qəbul etmişdir.

Rusiya Federasiyasının müdafiə naziri Prezident Dmitri Medvedevin salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Rusiya Federasiyası və Azərbaycan Respublikası prezidentlərinin tapşırıqlarına əsasən ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq genişlənməkdədir. Anatoli Serdyukov səfərinin bu sahədə əməkdaşlığın perspektivlərinə dair səmərəli fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətini vurğuladı.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı hərbi və hərbi-texniki sahədə də əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev Rusiya Prezidenti ilə keçirdiyi görüşlər zamanı digər sahələr kimi, bu sahədə də əməkdaşlığa dair məsələlərin daim müzakirə olunduğunu dedi. Dövlətimizin başçısı Rusiya Federasiyasının müdafiə nazirinin ölkəmizə səfərinin hərbi və hərbi-texniki sahədə əməkdaşlığın daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Dmitri Medvedevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP-NİN AXTARIŞ-KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDİ İNQLİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da bp-nin axtarış-kəşfiyyat və hasilat işləri üzrə baş icraçı direktoru Endi İnqlisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə bp arasında uzun illər davam edən uğurlu əməkdaşlıqdan məmnunluq ifadə olundu. Əməkdaşlığın gələcəkdə də genişlənməsi üçün yaxşı imkanların mövcud olduğu vurğulandı.

Bp-nin axtarış-kəşfiyyat və hasilat işləri üzrə baş icraçı direktoru Endi İnqlis "bp-Azərbaycan" şirkətinin vəzifəsini başa vurmuş rəhbəri Bill Şreyderin yerinə Rəşid Cavanşirin təyin olunduğunu bildirərək, bu təyinatın azərbaycanlı kadrların bp-nin fəaliyyətində yaxından iştirakının yaxşı nümunəsi olduğunu dedi.

Dövlətimizin başçısı Bill Şreyderin ölkəmizlə bp arasında əməkdaşlığın genişlənməsindəki xidmətlərini vurğulayaraq, ona gələcək fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev azərbaycanlı kadrın "bp-Azərbaycan" şirkətinin prezidenti vəzifəsinə təyin olunmasını Azərbaycan ilə bp arasında səmərəli əməkdaşlıq əlaqələrinin təzahürü kimi qiymətləndirdi.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ ÖLKƏLƏRDƏKİ SƏFİRLİKLƏRİ, DAİMİ NÜMAYƏNDƏLİKLƏRİ VƏ KONSULLUQLARININ MÜHASİBLƏRİNİN MÜŞAVİRƏSİ KEÇİRİLMİŞDİR

Avqustun 6-7-də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlikləri, daimi nümayəndəlikləri və konsulluqlarının mühasiblərinin ikinci müşavirəsi keçirilmişdir.

Müşavirədə maliyyə işinin təşkili və mühasibat uçotunun aparılmasına dair məruzələr dinlənilmiş, cari və perspektiv məsələlərlə bağlı müzakirələr aparılmışdır.

Müşavirədə Azərbaycanın Maliyyə, Vergilər nazirliklərinin, Hesablama Palatasının, Dövlət Gömrük, Əmlak Məsələləri Dövlət komitələrinin əməkdaşları iştirak etmişdirlər.

Növbəti müşavirənin 2011-ci ildə keçirilməsi qərara alınmışdır.

LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Avqustun 9-da Latviya Respublikasının Prezidenti Valdis Zatlers Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Latviyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Latviya dövlətinin başçısını və xanımını hava limanında Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar Latviya Prezidentinə və xanımına gül dəstəsi təqdim etdilər.

Hava limanının ali qonaqlar üçün salonunda Prezident Valdis Zatlers və Baş nazirin birinci müavini Yaqub Eyyubov arasında qısa protokol söhbəti oldu.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Latviya Respublikasının Prezidenti Valdis Zatlersin avqustun 10-da rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Latviya Prezidenti Valdis Zatlersi və xanımı Lilita Zatlereni səmimiyyətlə qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Latviya Prezidentinə raport verdi.

Latviyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Valdis Zatlersə, Latviya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Prezidentlər və xanımları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN TƏKBƏTƏK GÖRÜŞÜ

Avqustun 10-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Latviya Respublikasının Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere ilə birgə görüşü olmuşdur.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Latviya Prezidenti Valdis Zatlersin təkbətək görüşü keçirilmişdir.

Görüşdə dövlət başçıları ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluqlarını ifadə etdilər. Yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin genişlənməsinə töhfə verdiyi vurğulandı. Azərbaycan ilə Latviya arasında əlaqələrin daha da dərinləşməsi üçün geniş potensialın olduğu bildirildi və əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

Görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər müzakirə edildi.

AZƏRBAYCAN VƏ LATVİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Avqustun 10-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Latviya Prezidenti Valdis Zatlersin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlamaq istəyirəm. Sizi ölkəmizdə görməkdən çox məmnunam. Ölkəmizə etdiyiniz rəsmi səfərə biz böyük önəm veririk. Əminəm ki, səfəriniz çox uğurlu olacaq və bu səfərdən sonra ölkələrimiz arasında əlaqələrin uğurlu inkişafı davam edəcəkdir. Ölkələrimiz arasındakı yüksək səviyyəli siyasi dialoqdan məmnunuq.

Ümid edirik ki, səfəriniz ölkələrimiz arasında iqtisadi əməkdaşlığa təkan verəcək, xüsusilə də sabah keçiriləcək və əyani nəticələrə gətirib çıxaracaq biznes forumdan böyük gözləntilərimiz vardır. Biz beynəlxalq təşkilatlarla uğurla əməkdaşlıq edirik. NATO və Avropa İttifaqı ilə əməkdaşlığımızda ölkənizin dəstəyini hiss edirik. Ümumiyyətlə, ölkələrimiz arasındakı əlaqələr hesab edirəm ki, çox yüksək səviyyədədir. Lakin biz əməkdaşlığımızı müxtəlif sahələrdə gücləndirmək və genişləndirmək üçün çox iş görməliyik və tərəfdaşlıq əlaqələrimizin inkişafını davam etdirməliyik. Əminəm ki, səfəriniz bu istiqamətdə önəmli bir addım olacaqdır.

Sizə və nümayəndə heyətinizə Bakıda uğurlu səfər arzulayıram.

Latviya Prezidenti Valdis ZATLERS səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Çox təşəkkür edirəm, cənab Prezident. Ölkənizə səfərə dəvətinizə görə Sizə çox minnətdaram. Bu, Azərbaycana ilk səfərimdir. Ümid edirəm ki, bu səfər çox uğurlu olacaqdır.

Azərbaycan və Latviya arasındakı ikitərəfli münasibətləri iki ölkənin əlaqələrinin gözəl nümunəsi kimi xarakterizə edərdim. Adətən, biz bir-birimizdən məsafəcə nə qədər uzaq olduğumuzu ölçürük. Ən yaxşı ölçü təyyarə ilə birbaşa uçuş məsafəsinin nə qədər olmasıdır. Bu, 3 saat yarıma bərabərdir, güclü külək əsdikdə isə 4 saatdır, deməli, çox yaxındır. Bildiyiniz kimi, səfərim zamanı məni işgüzar adamlardan ibarət böyük bir qrup müşayiət edir. Son iki-üç, dörd-beş il ərzində ölkələrimiz arasında biznes əlaqələri sürətlə inkişaf etmişdir. Qlobal iqtisadi böhrana baxmayaraq, Azərbaycan və Latviyanın işgüzar adamları arasındakı əlaqələr daha da səmərəli olmuşdur. Hesab edirəm ki, biz gələcək üçün, xalqlarımız, xalqlarımızın rifahı və dövlətlərimiz üçün fayda gətirəcək bir çox yolları müəyyənləşdirməliyik. Burada olmaqdan çox şadam və nümayəndə heyəti adından sizə bir daha təşəkkür edirəm.

AZƏRBAYCAN-LATVİYA SƏNƏDLƏRİNİN İMZALANMASI

Avqustun 10-da geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Latviya Prezidenti Valdis Zatlersin iştirakı ilə Azərbaycan-Latviya sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti Valdis Zatlers birgə Bəyannamə imzaladılar.

"Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Latviya Respublikasının Patent İdarəsi arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiyanın mübadiləsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov və Latviyanın Patent İdarəsinin direktoru Zigfrids Aumeistars imzaladılar.

"Azərbaycan Respublikasının Hökuməti və Latviya Respublikasının Hökuməti arasında gənclər və idman sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov və Latviyanın xarici işlər naziri Maris Riekstins imzaladılar.

"Azərbaycan Respublikasının Hökuməti və Latviya Respublikasının Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Latviyanın iqtisadiyyat naziri Artis Kampars imzaladılar.

ALİ ORDENLƏRLƏ TƏLTİF OLUNMA MƏRASİMİ

Avqustun 10-da Azərbaycan-Latviya sənədlərinin imzalanması mərasimindən sonra Latviya Prezidenti Valdis Zatlersin və Azərbaycan Prezidenti İlham Əliyevin ali ordenlərlə təltif olunma mərasimi keçirilmişdir.

Prezident İlham Əliyev Latviya Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə Prezident Valdis Zatlersə "Heydər Əliyev" ordenini təqdim etdi.

Prezident Valdis Zatlers ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafındakı müstəsna xidmətlərinə görə Prezident İlham Əliyevə "Üç ulduz" ordeninin "Böyük xaç kavaleri" dərəcəsini təqdim etdi.

AZƏRBAYCAN VƏ LATVİYA PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARI

Avqustun 10-da ali ordenlərlə təltif olunma mərasimi başa çatdıqdan sonra prezidentlər İlham Əliyev və Valdis Zatlers mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV bəyanatla çıxış edərək demişdir:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən Sizi - Latviya Prezidentini bir daha Azərbaycan Respublikasında salamlamaq istəyirəm. Bu gün bizim çox məhsuldar müzakirələrimiz və ölkələrimiz arasındakı münasibətlərlə bağlı danışıqlarımız oldu.

Biz Latviya Prezidentinin ölkəmizə səfərinə yüksək əhəmiyyət veririk və hesab edirəm ki, ikitərəfli münasibətlərimiz bu səfərdən sonra birmənalı olaraq ciddi şəkildə inkişaf edəcəkdir. Hazırda əlaqələrimiz bir çox sahələrdə inkişaf edir. Bizim yaxşı siyasi əməkdaşlığımız vardır. Məhsuldar dialoq gedir. Biz iqtisadi əməkdaşlığımızı artırırıq və əminəm ki, sabah keçiriləcək biznes forum hər iki ölkənin iş adamlarına bir-birilərini daha yaxşı tanımağa və birgə layihələri həyata keçirməyə imkan yaradacaqdır.

Bizim münasibətlərimiz bir çox digər sahələri də əhatə edir. Bu gün biz informasiya texnologiyaları, turizm, mədəniyyət, nəqliyyat, energetika sahələrində əməkdaşlığı da nəzərdən keçirdik və perspektivlər haqqında danışdıq. Bu gün imzaladığımız sənədlər əminəm ki, əməkdaşlığımızın böyük qanunverici əsaslarını daha da genişləndirəcəkdir. Başqa sözlə desək, Latviya ilə Azərbaycan arasındakı münasibətlər çox uğurla inkişaf edir. Əlaqələrimizin çox yaxşı gələcəyi vardır və əminəm ki, gələn illər ərzində bugünkü sazişlərin bir çox konkret nəticələrini görəcəyik.

Biz NATO və Avropa İttifaqı ilə apardığımız əməkdaşlığa Latviyanın verdiyi dəstəyə görə minnətdarıq. Azərbaycan NATO-nun Fərdi tərəfdaşlıq və əməkdaşlıq planında fəal iştirak edir. Biz, eyni zamanda, Avropa İttifaqının Şərq tərəfdaşlığı proqramının üzvüyük və təşkilatlar çərçivəsində ölkələrimiz arasındakı əməkdaşlıq, həmçinin, bizim

müxtəlif sahələrdəki əlaqələrimizin inkişafına yardım edəcəkdir. Energetika əməkdaşlığı bizim Avropa İttifaqı ilə münasibətlərimizin xüsusi bir hissəsini təşkil edir. Biz enerji məsələləri ilə bağlı yüksək səviyyəli müzakirələr aparırıq. Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Biz enerji ehtiyatlarımızı müxtəlif istiqamətlərdə nəql edən boru kəmərlərini çəkmişik, Avropa İttifaqının bazarlarına çıxışı əldə etmişik və gələcəkdə daşınan enerji ehtiyatlarının həcmi daha da artacaqdır. Bu, hər iki tərəfə imkan yaradacaq ki, bu məhsuldar əməkdaşlıqdan bəhrələnsin. Təbii ki, bütün bu sahələrdəki əməkdaşlıq tarazlı şəkildə aparılmalıdır və burada tranzit, istehlakçı və istehsalçı ölkələrin maraqları bərabər şəkildə təmin edilməlidir. Hesab edirəm ki, gələcəkdə Avropa İttifaqı ilə Azərbaycan arasında yeni əməkdaşlıq sahələri olacaqdır və Şərq tərəfdaşlığı buna zəmin yaradır. Əlbəttə ki, Latviya ilə Azərbaycan arasında ikitərəfli əlaqələr, o cümlədən Avropa təşkilatları ilə əməkdaşlıq çərçivəsindəki münasibətlərimiz uğurla davam edəcəkdir. Bu gün Prezidentin səfəri bu istiqamətdə atılan mühüm addımdır və əminəm ki, bu səfər gələcək əməkdaşlığımız üçün bir çox mühüm nəticələr verəcəkdir. Bir daha demək istəyirəm, cənab Prezident ölkəmizə xoş gəlmisiniz.

Latviya Prezidenti Valdis ZATLERS bəyanatla çıxış edərək dedi:

- Zati-aliləri!

Xanımlar və cənablar!

İlk öncə Azərbaycana səfər etmək məqsədi ilə səmimi dəvətinə görə mən Prezident Əliyevə minnətdarlığımı bildirmək istəyirəm. Apardığımız müzakirələr zamanı biz Latviya ilə Azərbaycan arasında münasibətlərin əla olduğunu qeyd etdik. Bu, həqiqətdir. Çünki hazırda qlobal və regional səviyyədə mövcud olan siyasi məsələlər üzrə mövqelərimiz üst-üstə düşür. Son 4-5 il ərzində iqtisadi münasibətlərimiz daha da genişlənib, ticarət dövriyyəsi 2 və hətta 3 dəfə artıb. Lakin hesab edirəm ki, xüsusən də böhran zamanı daha böyük işlər görmək üçün imkanlar vardır. Biz yaxşı tərəfdaş olmalı, faydalı müqavilələrdə iştirak etməli və beləliklə, ölkələrimiz arasında əməkdaşlığın möhkəm əsasını yaratmalıyıq.

Əlbəttə ki, biz Sizin ölkə ilə NATO və Avropa İttifaqının üzvü kimi də əməkdaşlıq edirik. Avropa İttifaqı ilə Azərbaycan arasında daha geniş inteqrasiyanın baş tutmasına yönəlmiş bu təşkilatın Şərq tərəfdaşlığı proqramına mümkün qədər dəstək verəcəyik. Biz istəyirik ki, ölkəniz bizim istədiyimiz qədər və Sizin maraqlarınıza uyğun şəkildə inteqrasiya etsin. NATO ilə tərəfdaşlığa gəldikdə, biz Əfqanıstanda İSAF missiyası çərçivəsində əməkdaşlıq edirik. Latviya Azərbaycanın bu missiyaya verdiyi dəstəyinə görə minnətdardır və bunu yüksək dəyərləndirir. Bu, Mərkəzi Asiyada sabitliklə bağlı olan məsələdir.

Mən Azərbaycanın Cənubi Qafqazda vəziyyətin sabitləşdirilməsində oynadığı rolu xüsusilə qeyd etmək istəyirəm. Bir il əvvəl vəziyyətin gərginləşdiyi dövrdə Sizin müdrik siyasətiniz sayəsində bir çox nəticələrə nail olmaq mümkün oldu. Belə halda, özümüzü Qafqazda daha təhlükəsiz hiss edirik. Gələcəkdə vəziyyətin yaxşılaşması üçün daha aydın planlarımız vardır.

Latviya Prezidenti Avropada enerji təhlükəsizliyinin təminatı məsələsinə də toxundu.

Bu baxımdan qitəyə enerji daşıyıcılarının çatdırılma yollarının şaxələndirilməsinin vacibliyini vurğuladı.

Nabukko layihəsinin əhəmiyyətindən danışan Valdis Zatlers bildirdi ki, bu cür layihələrin icrası nəql yollarının şaxələndirilməsinə xidmət edir. Bu, öz növbəsində, enerji sahəsində real bazarların yaranması, son nəticədə isə sabitləşdirici amil deməkdir.

Gələcək əməkdaşlıq üçün bir çox əlavə imkanlar vardır, - deyən Latviya Prezidenti bildirdi ki, müzakirələrimiz zamanı qeyd etdiyimiz kimi, hökumətlərarası komissiya bu gün bütün məqsədlərə nail olub. Demək, biz gələcək üçün yeni məqsədləri müəyyən etməliyik. Həmin işi sabah naminə bu gün görməliyik.

Bu, mənim Sizin gözəl ölkənizə səfərimin yekun məqsədini təşkil edir. Mən səmimi qəbula görə Sizin ölkənizə, Prezident Əliyevə olduqca minnətdaram. Hesab edirəm ki, xalqlarımızın və ölkələrimizin yaxşı gələcəyi vardır. Çox sağ olun.

***

Daha sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.

Ella Batmane ("Onlayn Media Apollo"): Mənim sualım Prezident Əliyevədir. Sizin fikrinizcə, Azərbaycanın iş adamları Latviyanın hansı sahələrinə sərmayə qoya bilərlər?

Prezident İlham ƏLİYEV: Bu, təbii ki, onlardan asılı olan bir qərar olacaq. Biz isə öz növbəmizdə ölkələrimizin işgüzar dairələrinə yardım etməyə çalışırıq ki, onlar bir-birini daha yaxşı tanısınlar, birgə layihələrdə iştirak etsinlər. Hesab edirəm ki, sabah keçiriləcək biznes forum bu cür imkanları yaradacaqdır.

Hökumətlərarası iqtisadi komissiya bu səyləri sadəcə əlaqələndirməlidir. Prioritetləri müəyyən etməli, hüquqi baza haqqında lazımi təqdimatları verməli, sərmayə imkanları və mühiti, vergilər haqqında məlumatı təqdim etməli və ümumi iqtisadi vəziyyəti təsvir etməlidir. Eyni zamanda, hər iki ölkə arasında iqtisadi əməkdaşlıq müxtəlif sahələrə aid olmalıdır. Çünki iqtisadiyyatlarımız bir-birini dəstəkləyir. Onlar bir-biri ilə rəqabət aparan iqtisadiyyatlar deyildir. Bu iqtisadiyyatlar bir-birini dəstəkləyən iqtisadiyyatlardır.

Əminəm ki, Azərbaycan və Latviya şirkətləri hər iki ölkədə uğurla işləyə bilərlər. Onlar hər iki ölkədə sərmayədar, podratçı kimi işləyə bilərlər. Sabah təşkil olunacaq geniş müzakirə zamanı hər iki ölkənin işgüzar dairələri üçün sərmayə imkanları açıqlanacaqdır. İşgüzar dairələr arasında təmaslar yaxşı siyasi münasibətlərimizə dəstək verəcək və ümumilikdə ölkələrimiz arasında əlaqələr özəl sektorun dəstəyi ilə uğurla inkişaf edəcəkdir.

Nəsib Muxtarov (Azərbaycan Televiziyası): Sualım Prezident Valdis Zatlersədir. Məlumdur ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional təhlükəsizliyə böyük maneədir. Avropa İttifaqının üzvü kimi ölkənizin münaqişənin nizamlanması istiqamətində mövqeyi nədən ibarətdir?

Prezident Valdis ZATLERS: Bu münaqişə beynəlxalq hüququn və Birləşmiş Millətlər Təşkilatının prinsipləri əsasında dinc yolla həll edilməlidir. Burada tələsmək olmaz. Müəyyən addımlar atılıbdır. ATƏT-in Minsk qrupunun işi və Madriddə müəyyən edilmiş prinsiplər nəzərə alınmalıdır. Səbirli və ehtiyatlı olmalıyıq, silahsızlaşmaya çalışmalıyıq. Biz sülhə müharibə ilə nail ola bilmərik. Sülh danışıqlar yolu ilə əldə olunmalıdır. Bəzi hallarda bu, darıxdırıcı görünür, lakin yekun nəticə uzunmüddətli və davamlı olmalıdır. Latviya hər hansı bu cür münaqişəyə, o cümlədən Dağlıq Qarabağ münaqişəsinə belə yanaşır.

Çox sağ olun!

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Latviya Respublikasının Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere avqustun 10-da Heydər Əliyev Fondunda olmuşlar.

Latviya dövlətinin başçısını və xanımını Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, Fond bütün sahələrdə genişmiqyaslı layihələr həyata keçirir. Xüsusilə, uşaq evləri və internat məktəblərinin yenidən qurulması, maddi-texniki bazanın yaxşılaşdırılması, diabet və talassemiyadan əziyyət çəkən insanlara hərtərəfli qayğı göstərilməsi, müasir tələblərə cavab verən yeni məktəblərin tikilib istifadəyə verilməsi, zəngin mədəniyyətimizin öyrənilməsi və təbliği Fondun əsas fəaliyyət istiqamətini təşkil edir.

Latviya Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlereyə ümummilli liderin iş otağının interyeri, müxtəlif dövrlərdə işlədiyi zaman aldığı fəxri fərman və sənədlər, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması ilə bağlı beynəlxalq təşkilatlarda çıxışlarını əks etdirən fotoşəkillər göstərildi.

Latviya Prezidenti və xanımı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimizə həsr olunmuş kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldular.

Prezident Valdis Zatlers və xanımı Lilita Zatlere Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdılar.

Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva Latviya Prezidentinə xatirə hədiyyəsi təqdim etdi.

Dövlət başçıları və xanımları Fondun fəaliyyəti haqqında filmə baxdılar.

Ali qonaq Fonddan zəngin təəssüratla ayrıldı.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Azərbaycanda rəsmi səfərdə olan Latviya Respublikasının Prezidenti Valdis Zatlers avqustun 10-da Fəxri xiyabana gəlmişdir.

Prezident Valdis Zatlers Azərbaycan xalqının görkəmli oğlu ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, ulu öndərin xatirəsini ehtiramla andı.

Latviya dövlətinin başçısı görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül qoydu.

Ali qonağa Fəxri xiyabanın tarixi barədə məlumat verildi.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Latviya Respublikasının Prezidenti Valdis Zatlers avqustun 10-da Şəhidlər xiyabanını ziyarət etmişdir.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Valdis Zatlers Azərbaycanın azadlığı və suverenliyi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsini yad etdi, "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Latviyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

Prezident Valdis Zatlers Azərbaycan paytaxtının mənzərəsini seyr etdi.

LATVİYA PREZİDENTİ İLƏ MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

Azərbaycanda rəsmi səfərdə olan Latviya Prezidenti Valdis Zatlers avqustun 10-da Milli Məclisə gəlmişdir.

Ali qonağı parlamentin binası önündə Milli Məclisin sədri Oqtay Əsədov və digər rəsmi şəxslər qarşıladılar.

Latviya dövlətinin başçısı Milli Məclisin iclas zalına baxdı, parlamentin binasındakı Heydər Əliyev Xatirə zalı ilə tanış oldu. Burada qonağa ümummilli liderin həyat və fəaliyyəti, xarici ölkə rəhbərlərinin, dövlət və hökumət üzvlərinin müxtəlif illərdə Azərbaycana səfərləri zamanı Heydər Əliyevlə görüşlərini əks etdirən fotoşəkillər, tarixi sənədlər, eləcə də Azərbaycan parlamentinin formalaşmasında və xarici ölkələrin parlamentləri ilə əlaqələrin qurulmasında ulu öndərin xidmətləri barədə məlumat verildi.

Latviya Prezidenti xatirə kitabına ürək sözlərini yazdı.

Sonra Milli Məclisin sədri Oqtay Əsədov ilə Latviya Prezidenti Valdis Zatlers arasında görüş oldu.

Milli Məclisin sədri Azərbaycan-Latviya dostluq münasibətlərindən danışdı, bu səfərin ölkələrimiz arasındakı əlaqələrin tarixində yeni səhifə açdığını bildirdi.

Səfər çərçivəsində imzalanmış sənədlərin gələcək əməkdaşlıq üçün möhkəm hüquqi baza yaratdığı vurğulandı, ölkələrimiz arasında münasibətlərin inkişafında dövlətlərimizin başçılarının rolu xüsusi qeyd edildi.

Dövlətlərarası əlaqələrin inkişafında parlamentlərin rolunu qeyd edən Milli Məclisin sədri, hər iki ölkənin qanunverici orqanında dostluq qruplarının yaradıldığını bildirdi, bu qrupların fəaliyyətinin daha da sürətləndirilməsinin vacibliyini diqqətə çatdırdı.

O.Əsədov Azərbaycanın iqtisadi inkişafından danışaraq, bu inkişafa maneə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə qonağa ətraflı məlumat verdi, rəsmi Bakının problemin sülh yolu ilə beynəlxalq hüquq prinsipləri əsasında həllinə ümidvar olduğunu bildirdi.

Latviya Prezidenti Valdis Zatlers onlara göstərilən qonaqpərvərliyə görə dövlətimizin başçısı İlham Əliyevə və Azərbaycan xalqına minnətdarlıq etdi. Ali qonaq bildirdi ki, son beş ildə münasibətlərimiz xeyli inkişaf etmişdir. Əlaqələrimizi daha da genişləndirmək üçün möhkəm baza vardır.

Latviya-Azərbaycan dostluğunun dərin kökləri olduğunu bildirən ali qonaq, dost ölkələrimiz arasında əlaqələrin inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini vurğulamışdır.

Latviya dövlətinin başçısı parlamentlərin rolundan danışaraq qanunverici orqanların əməkdaşlığının, xüsusilə də dostluq qruplarının fəaliyyətinin genişləndirilməsinin vacibliyini vurğuladı, Milli Məclisə gələcək fəaliyyətində uğurlar arzuladı.

MÜASİR İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞLIQ

Avqustun 10-da Latviya Prezidentinin xanımı Lilita Zatlere və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Müasir İncəsənət Muzeyində olmuşlar.

Latviyanın birinci xanımı YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış muzeyin ekspozisiyasına tamaşa etdi.

Muzeydə Azərbaycanın adlı-sanlı və gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının 1000-dək işi toplanmışdır.

Qonaq Azərbaycanın xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov, Nadir Əbdürrəhmanovun, adları Azərbaycan mədəniyyəti xəzinəsinə daxil olmuş bir çox fırça ustası və heykəltəraşların əsərlərinə maraqla tamaşa etmişdir.

Qərbi Avropa incəsənəti salonunda isə ümummilli lider Heydər Əliyevə, habelə Prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya hədiyyə olunmuş əsərlər nümayiş etdirilir.

Dizayn müəllifi tanınmış rəssam Altay Sadıqzadə olan yeni mədəniyyət məbədində uşaq incəsənəti salonu, kitabxana, videosalon, restoran və art-kafe də fəaliyyət göstərir.

Muzeydə 800-dək rəsm işi ilə yanaşı, 200-dən çox heykəltəraşlıq nümunələri də nümayiş olunur.

Latviyanın birinci xanımı Lilita Zatlere Mehriban xanım Əliyevaya təşəkkürünü bildirərək, muzeydən zəngin təəssüratlarla ayrıldı.

LATVİYA PREZİDENTİNİN XANIMI BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycanda rəsmi səfərdə olan Latviya Prezidenti Valdis Zatlersinin xanımı Lilita Zatlere avqustun 10-da Beynəlxalq Muğam Mərkəzində olmuşdur.

Latviya Prezidentinin xanımına dənizkənarı Milli Parkda yerləşən mərkəz haqqında ətraflı məlumat verildi.

Xanım Lilita Zatlere qaval daşlarına maraqla baxdı.

Bildirildi ki, Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı layihələr sırasında xüsusi əhəmiyyəti olan bu mərkəzin inşası Fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir. 2005-ci il aprelin 6-da Prezident İlham Əliyev Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında Sərəncam imzalamışdır. Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada YUNESKO-nun dünya qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.

Mərkəz ilə yaxından tanış olan xanım Lilita Zatlere burada Azərbaycanın görkəmli muğam ifaçılarının büstlərinə baxdı və ona musiqi alətləri barədə ətraflı məlumatlar verildi.

Latviya Prezidentinin xanımı beynəlxalq muğam müsabiqəsinin laureatı Vəfa Orucovanın ifasında Azərbaycan muğamlarını dinlədi.

Sonra hörmətli qonağa Heydər Əliyev Fondunun təşəbbüsü ilə çap edilmiş "Qarabağ xanəndələri" albomu, "Azərbaycan musiqi alətləri" kitabı və Bakıda keçirilmiş "Muğam aləmi" Beynəlxalq festivalının diskləri təqdim edildi.

Xanım Lilita Zatlere də Beynəlxalq Muğam Mərkəzinə "Latviya klassik musiqi albomu"nu və bu ölkədə 4 ildən bir keçirilən beynəlxalq musiqi festivalının diskini hədiyyə etdi.

LATVİYANIN BİRİNCİ XANIMI TALASSEMİYA MƏRKƏZİNDƏ OLMUŞDUR

Latviyanın birinci xanımı Lilita Zatlere avqustun 10-da Talassemiya Mərkəzində olmuşdur.

Mərkəzin direktoru Azər Kərimov müalicə ocağı barədə qonağa məlumat verdi. Bildirildi ki, Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa olunan və yenicə istifadəyə verilən mərkəz həmin xəstəliyə düçar olanlar üçün ümid yeridir. Burada gün ərzində 40-50 xəstə qəbul edilir.

Hazırda Azərbaycanda min nəfərə yaxın talassemiyalı xəstə vardır və onlardan 700 nəfərə yaxını daimi nəzarət altındadır. Mərkəzin üç regional şöbəsi də fəaliyyət göstərir.

Beynəlxalq standartlara tam cavab verən mərkəzin laboratoriyasında qan qrupunu avtomatik təyin edən aparat və digər lazımi avadanlıq quraşdırılmışdır. Qeyd olundu ki, burada donorlardan götürülən qan dərhal müayinə edilir.

Xanım Lilita Zatlere mərkəzin mərtəbələrini gəzərək konfrans zalına, yeməkxanaya, reanimasiya bölməsinə, manipulyasiya və transplantasiya, sterilləşdirmə otaqlarına baxdı. Bildirildi ki, mərkəzdə sümük iliyinin köçürülməsi üçün əməliyyat otağı fəaliyyət göstərir. Xəstələr xüsusi qapalı şəraitdə 100 gün ərzində müalicə alırlar.

Transfuziya zalı və 12 otaqdan ibarət klinika, manipulyasiya, ümumi laboratoriya, şüa diaqnostikası, əməliyyat otaqları, manipulyar-diaqnostik laboratoriya barədə də qonağa ətraflı məlumat verildi. Qeyd olundu ki, mərkəzdə xəstəliyin aşkar edilməsi üçün xüsusi poliklinika da fəaliyyət göstərir.

Çay süfrəsi arxasında davam edən söhbət zamanı xanım Lilita Zatlere ölkəmizdə irsi qan xəstəliyinin müalicəsi məqsədi ilə yaradılan Talassemiya Mərkəzinin fəaliyyətindən məmnun qaldığını bildirdi.

Qonaq mərkəzin birinci mərtəbəsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin portreti önündə xatirə şəkli çəkdirdi.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Avqustun 10-da "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Latviya Respublikasının Prezidenti Valdis Zatlersin və xanımı Lilita Zatlerenin şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli xanım Lilita Zatlere!

Xanımlar və cənablar!

Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və "Xoş gəlmisiniz!" deyirəm.

Bu gün Latviya ilə Azərbaycan arasında münasibətlərin yeni səhifəsi açılır, səmərəli siyasi dialoq aparılır. Mən Sizin Azərbaycana rəsmi səfərinizi yüksək qiymətləndirir, bu səfərin ölkələrimiz arasında münasibətlərin yeni mərhələsinə zəmin yaradacağına inanıram. Şübhə etmirəm ki, keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi, habelə imzalanmış sənədlər və iki ölkənin iş adamlarının sabah təşkil olunacaq biznes forumu qarşılıqlı fəaliyyət üçün yeni sahələri müəyyən edəcək, əlaqələrimizin gələcək inkişafına öz töhfəsini verəcəkdir.

Mən Latviya ilə Azərbaycan arasında münasibətlərin inkişaf edərək genişlənməsinin tərəfdarıyam. Düşünürəm ki, ölkələrimiz arasında ticarət-iqtisadi, sənaye və energetika, mədəniyyət və turizm, təhsil, informasiya texnologiyaları və digər sahələrdə yaxşı əməkdaşlıq imkanları vardır. Bu əməkdaşlığı həyata keçirmək üçün ölkələrimizdə səfirliklər açılmış, Azərbaycan-Latviya hökumətlərarası komissiyası yaradılmış, müqavilə-hüquq bazasını təmin edən sənədlər imzalanmışdır.

Latviya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın indiki göstəriciləri təəssüf olsun ki, ölkələrimizin potensialına cavab vermir. İki ölkə arasında ticarət dövriyyəsi və sərmayə qoyuluşunun həcmi daha da genişlənməlidir. Əminəm ki, biz birgə səylərimizlə iqtisadi əməkdaşlığın səmərəsini artırmağa nail olacağıq. Bu, indi - qlobal iqtisadi böhran şəraitində xüsusilə aktualdır.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, ölkələrimiz beynəlxalq terrorizmə, kütləvi qırğın silahlarının yayılmasına və müasir dövrün digər təhdid və təhlükələrinə qarşı mübarizə sahəsində uğurlu əməkdaşlıq edir. Beynəlxalq və regional təşkilatlar, o cümlədən Avropa İttifaqının Yeni Qonşuluq Siyasəti proqramı və NATO-nun Fərdi tərəfdaşlığın Fəaliyyət planı çərçivəsində əlaqələrimizdən razıyam. GUAM və Baltik dənizi Dövlətləri Şurası formatında əlaqələrimiz Xəzər, Qara dəniz, Baltik hövzəsi regionunda inteqrasiya proseslərini sürətləndirmək baxımından əhəmiyyətlidir. Avropa İttifaqının Şərq tərəfdaşlığı təşəbbüsü əməkdaşlığımız üçün yeni imkanlar açır və mən inanıram ki, ölkələrimiz həmin imkanlardan yetərincə istifadə edəcəklər.

Azərbaycan son illər ərzində sürətli inkişaf yolu keçmişdir. Ötən beş ildə ölkəmizin iqtisadiyyatı 2,6 dəfə artmışdır, eyni zamanda irimiqyaslı beynəlxalq layihələrin həyata keçməsi nəticəsində Böyük İpək yolunun bərpası, Şərq-Qərb nəqliyyat dəhlizinin yaradılması, eləcə də Avropanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində səylərimiz artıq öz bəhrəsini verməkdədir.

Azərbaycan regionda təhlükəsizliyin, sabitliyin təmin edilməsində və beynəlxalq əməkdaşlığın inkişafında mühüm rol oynayır. Lakin artıq 20 ildir ki, Azərbaycan Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır. Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal etmiş və etnik təmizləmə siyasəti aparmışdır. Nəticədə ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası Parlament Assambleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bu münaqişə yalnız beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, icazə verin, Azərbaycana rəsmi səfərinizə böyük əhəmiyyət verdiyimi bir daha ifadə edim və bu badəni Sizin sağlığınıza, xanımınızın sağlığına, Latviya ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafının şərəfinə qaldırım.

***

Latviya Prezidenti Valdis ZATLERS təşəkkür edərək dedi:

- Çox hörmətli cənab Prezident!

Hörmətli Mehriban xanım Əliyeva!

Zati-aliləri!

Xanımlar və cənablar!

Cənab Prezident, mən Sizin, eləcə də Sizin ölkənizin qonağı olmaqdan böyük sevinc və şərəf duyuram! İcazə verin, öz adımdan, eləcə də xanımım adından Bakıda - mədəniyyət və elm sahəsində uğurların əldə olunmasına ilham verən əsrarəngiz bir şəhərdə səmimi qəbula görə Sizə dərin təşəkkürümü bildirim.

XIX əsrin sonu-XX əsrin əvvəllərindəki milli dirçəliş, mətin mübarizə, müstəqilliyimizin və dövlətçiliyimizin itirilməsi və yenidən qazanılması kimi kəşməkəşli ümumi tarixi inkişaf yolumuz Latviya və Azərbaycanı bir-birinə sıx şəkildə bağlayır. Bildirmək istərdim ki, bir çox görkəmli latış mədəniyyət və incəsənət xadimlərinin həyatı məhz Azərbaycanla bağlıdır. Yazıçı Ernest Birzniek-Upit uzun müddət burada yaşamışdır. Yazıçılar Pavils Rozitis, Sudrabu-Ecus, Yanis Vainovskis və Auqusts Bertse burada yaşayıb yaratmışlar. Rəssam Yazeps Qrosvalds öz yaradıcılığında Şərq motivlərinə üstünlük vermişdir. Bundan əlavə, Azərbaycan Opera və Balet Teatrında böyük latış bəstəkarı Yazeps Mediņš dirijorluq etmişdir.

Latviya Prezidenti Valdis Zatlers onu da dedi ki, son on beş il Latviya-Azərbaycan münasibətlərində mühüm mərhələ olmuşdur. Bu müddətdə Latviya-Azərbaycan dostluq əlaqələri inkişaf etmişdir. Son illərdə fəal siyasi dialoqlar nəzərəçarpacaq dərəcədə böyümüşdür. Hər iki ölkənin məsul şəxslərinin, mütəxəssislərinin görüşləri və məsləhətləşmələri keçirilmiş, dövlətlərarası müqavilə-hüquq bazası inkişaf etdirilmiş, ticari-iqtisadi balans daha da təkmilləşdirilmişdir.

Latviya Prezidenti bildirdi:

- Biz əldə olunan nailiyyətlərlə kifayətlənmək niyyətində deyilik. Turizm, gənclər və idman sahəsində, eləcə də patent üzrə informasiya və sənədləşmə mübadiləsi buna misaldır.

İqtisadiyyat sahəsində də bir çox işlər görülmüşdür. Ondan çox Latviya-Azərbaycan müştərək müəssisəsi yaradılmışdır ki, bunlar da ölkələrimizə mənfəət və keyfiyyətli məhsullar gətirir. Hər iki ölkənin səfirliklərinin uğurlu fəaliyyəti, eyni zamanda Riqa ilə Bakı arasında birbaşa hava yolunun açılması işgüzar münasibətlərin əhəmiyyətli dərəcədə inkişafına təkan verir. Hazırkı səfər zamanı sahibkarlardan ibarət böyük nümayəndə heyətinin Bakıya gəlişi qlobal maliyyə böhranının mövcud olduğu bir dövrdə Latviya və Azərbaycanın iqtisadi potensialının inkişafında ciddi maraqların olduğunu sübut edir.

Latviya Prezidenti onu da qeyd etdi ki, beynəlxalq təşkilatlardakı sıx əməkdaşlıq, sülhün və stabilliyin qorunmasında göstərilən səylər dünyanın siyasi səhnəsində hər iki dövlətə eyni mövqedən çıxış etmək imkanı verir.

Bundan əlavə, Azərbaycanın təbii sərvətlərinin zənginliyi, bazar potensialının, Latviyanın Avropa İttifaqı ilə birgə bazarının mövcudluğu ikitərəfli əlaqələrin səmərəli inkişafına yol açır.

Valdis Zatlers bir daha əmin olduğunu bildirdi ki, dövlətlərimizin imkanları heç zaman tükənməyəcəkdir və bu səfər uzunmüddətli, sabit və inkişafda olan münasibətlərin təminatı olacaqdır.

Azərbaycan xalqına bolluq, firavanlıq və müvəffəqiyyətlər arzulayan Latviya Prezidenti dedi:

- Cənab Prezident, şəxsən Sizə cansağlığı və uğurlar arzu edirəm!

AZƏRBAYCAN-LATVİYA BİZNES FORUMU ÇƏRÇİVƏSİNDƏ TURİZM SAHƏSİNƏ HƏSR OLUNAN "DƏYİRMİ MASA" KEÇİRİLMİŞDİR

Avqustun 10-da "Excelsior" mehmanxanasında Azərbaycan-Latviya biznes forumu çərçivəsində İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Latviyanın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə turizm sahəsinə həsr olunan "dəyirmi masa" keçirilmişdir.

Hər iki ölkənin dövlət qurumlarının nümayəndələri ilə yanaşı, bir sıra turizm şirkətlərinin təmsilçilərinin iştirak etdiyi tədbirdə bu ölkələrin investisiya mühiti və biznes imkanları, turizm potensialı barədə məlumat verilmiş, əməkdaşlıq perspektivləri müzakirə edilmişdir. Bildirilmişdir ki, turizm sektoruna göstərilən dövlət qayğısı bu sahədə canlanmaya səbəb olmuşdur.

Azərbaycan və Latviya şirkətlərinin təqdimatları dinlənilmişdir.

Latviyanın turizm korporasiyasının rəhbəri Yurqis Abele bildirmişdir ki, iki ölkə arasında turizm sahəsində əməkdaşlıq yüksək səviyyədədir. Latviya Prezidentinin Azərbaycana səfəri iki ölkə arasında turizm sahəsində əməkdaşlığın daha da gücləndirilməsinə öz töhfəsini verəcəkdir. nBizim bir sıra turizm şirkətləri ilə görüşlərimiz olacaqdır. Hesab edirəm ki, bundan sonra turistlərin sayı qarşılıqlı surətdə daha da artacaqdır.

"DƏYİRMİ MASA"DA İKT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Avqustun 10-da Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində Azərbaycan- Latviya biznes forumu çərçivəsində İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Latviyanın Bakıdakı səfirliyinin təşkilatçılığı ilə informasiya-kommunikasiya texnologiyaları (İKT) üzrə "dəyirmi masa" keçirilmişdir.

"Dəyirmi masa"da Azərbaycan tərəfi "Sinam Ltd", "Azertelecom", "Azerfon" MMC, "Caspel" MMC, "AZEL" və "Bakcell" şirkətləri ilə təmsil olunmuşdur. Latviya tərəfindən isə tədbirdə Dövlət Radiostansiyası və Televiziya Mərkəzi, "TRIATEL", "TILDA", "RIX Texnologiyalari", "SWH SETS", "Nexum" Sığorta Texnologiyaları, "İntellegent Sistems", "Electronis Communications Offisse" və "Euragate Konsaltinq" şirkətlərinin rəhbərləri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan rabitə və informasiya texnologiyaları nazirinin müavini Elmir Vəlizadə son illərdə Azərbaycan ilə Latviya arasında digər sahələrdə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları sahəsində də əməkdaşlığın geniş vüsət aldığını vurğulamışdır. Nazir müavini, həmçinin, son 5 ildə ölkəmizdə İKT sahəsində həyata keçirilmiş genişmiqyaslı tədbirlər, qəbul olunmuş dövlət proqramları, qazanılmış uğurlar barədə ətraflı məlumat vermişdir.

Ümumiyyətlə, İKT sahəsində tətbiq olunan qabaqcıl texnologiyaların və yeniliklərin hərtərəfli təhlil edildiyi tədbirdə Azərbaycanın və Latviyanın müvafiq şirkətləri öz təcrübələrini bölüşmüş, əməkdaşlığın daha da genişləndirilməsi imkanları müzakirə olunmuşdur.

AZƏRBAYCAN İLƏ LATVİYA ARASINDA MALİYYƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNDİRİLƏCƏKDİR

Avqustun 10-da Azərbaycan İnvestisiya Şirkətində (AİŞ) Azərbaycan-Latviya biznes-forumu çərçivəsində İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Latviyanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə maliyyə sektoru üzrə "dəyirmi masa" keçirilmişdir.

Tədbirdə AİŞ və onun törəmə şirkətlərinin, Azərbaycan Banklar Assosiasiyasının (ABA) və bir sıra kommersiya banklarının, Latviya tərəfindən isə İnvestisiyalar və İnkişaf Agentliyinin (LİİA), "Maximus Capital", "BDO İnvest Riga", "BDO Zelimenis&Liberte", "AB Consulting" şirkətlərinin və kommersiya banklarının nümayəndələri iştirak etmişlər.

AİŞ-in icraçı direktoru Əfqan İsayev təmsil etdiyi qurumun yaranması, fəaliyyəti barədə qonaqlara ətraflı məlumat vermiş və bildirmişdir ki, AİŞ latviyalı səhmdarlarla əməkdaşlıqda maraqlıdır. Biz Azərbaycanın qeyri-neft sektoru, eləcə də digər sahələr üzrə layihələr təqdim etməyə hazırıq. Azərbaycan sərmayə qoyuluşu baxımından çox geniş imkanlara malikdir.

Görüşdə Azərbaycan və Latviyanın investisiya mühiti və biznes imkanları, maliyyə-bank sistemi barədə geniş məlumat verilmiş, bu sahələrdə işgüzar əlaqələrin daha da genişləndirilməsi imkanları müzakirə olunmuşdur.

Tədbirdə Latviya şirkətləri və kommersiya banklarının fəaliyyəti ilə bağlı ətraflı məlumat verilmiş, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN-LATVİYA BİZNES FORUMU

Avqustun 11-də Bakıda, "Hyatt Regency-Naxçıvan" mehmanxanasında Azərbaycan-Latviya biznes forumu keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və Latviya Prezidenti Valdis Zatlers forumun işində iştirak etmişlər. Dövlət başçıları Latviya iqtisadiyyatı məhsullarının nümayiş etdirildiyi sərgiyə də baxmışlar.

Biznes forumda Azərbaycandan 120-dək şirkətin nümayəndəsi və Latviyadan 75 iş adamı iştirak etmişdir.

Prezident İlham ƏLİYEV biznes forumda çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda salamlamaq istəyirəm. Latviya Prezidentinə və onun rəhbərlik etdiyi nümayəndə heyətinə, Latviyanın iş adamlarına Azərbaycana gəldikləri üçün minnətdarlığımı bildirirəm. Bu, bizim tərəfdaşlığımızın mühüm rəmzidir və münasibətlərimiz uğurla inkişaf edir. Ölkələrimiz arasında ikitərəfli əlaqələr davamlı şəkildə inkişaf edir. Latviya Prezidentinin Azərbaycana səfəri birmənalı olaraq münasi-

bətlərimizin gələcəkdə yeni səhifəsini açacaqdır. Dünən bizim çox məhsuldar danışıqlarımız və müzakirələrimiz oldu. Biz bir sıra hökumətlərarası sazişləri imzaladıq və bununla ölkələrimiz arasında münasibətlərin qanunverici əsaslarını genişləndirdik. Təbii ki, yaxşı siyasi münasibətlərin olması iki ölkənin işgüzar dairələri üçün də bir çox sahələrdə daha səmərəli şəkildə əməkdaşlıq etməyə imkan yaradır. Ona görə iqtisadi əməkdaşlığın çox yaxşı perspektivləri vardır. Son bir neçə il ərzində bizim iqtisadi əməkdaşlıq sahəsində artıq gözəçarpan nailiyyətlərimiz olubdur. Bizim birgə qarşılıqlı ticarət dövriyyəsinin rəqəmləri o qədər yüksək deyildir. Ancaq buna baxmayaraq, yenə də addım-addım irəliləyiş əldə olunur və ölkələrimiz arasında bu dövriyyənin həcmi artmaqdadır. Ümidvaram ki, ölkələrimizin iş adamlarının bu görüşü, ümumiyyətlə ölkələrimiz arasındakı münasibətlərin inkişafına töhfə verəcəkdir. Hesab edirəm ki, hökumətlərarası birgə iqtisadi komissiyanın rolu çox vacibdir. Çünki o, biznesmenlərə bir-biriləri ilə təmaslar qurmaq, müxtəlif layihələri əlaqələndirmək və sərmayələrin daha çox cəlbedici sektorlara qoyulmasına yardım edəcəkdir. Müxtəlif əməkdaşlıq formaları mövcuddur və əlbəttə ki, əməkdaşlığın hansı formasını seçmək barədə qərarları iş adamlarının özləri qəbul edə bilərlər. Amma vacib məsələ ondan ibarətdir ki, biz geniş biznes imkanları, hüquqi çərçivə, vergi, sərmayə mühiti və ümumiyyətlə iqtisadi inkişaf haqqında məlumatları verməliyik.

Dünən müzakirələrdən sonra belə bir qənaətə gəldik ki, bizim iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparan iqtisadiyyatlar deyildir. Biz bazar uğrunda rəqabət aparmırıq, əksinə iqtisadiyyatlarımız uğurlu şəkildə bir-birinə dəstək verə bilər. Burada söhbət nəinki iqtisadiyyatdan, o cümlədən mühitdən də, turizmin inkişafından da gedir. Dünən mən cənab Prezidentə məlumat verdim ki, biz çalışdıq burada elə bir iqlim zonası yaradaq ki, siz özünüzü evinizdəki kimi hiss edəsiniz. Çünki adətən avqustda Bakıda hava isti olur, yay havası çox qızmar olur və Azərbaycandakı insanlar bəzi hallarda elə bir yerə getməyə üstünlük verirlər ki, orada özlərini, necə deyərlər, daha sərin mühitdə hiss etsinlər.

Həmçinin, əminəm ki, Latviyadan gəlmiş qonaqlarımız çimərliklərimizdən, bütün digər imkanlardan bəhrələnəcəklər. Turizm, mədəni mübadilə, o cümlədən informasiya texnologiyaları sahəsində əməkdaşlıq, elm, təhsil üzrə işbirliyi vacibdir. Gündəliyimiz genişdir. Biz əlbəttə istərdik ki, şirkətlərimiz arasında iqtisadi fəaliyyət daha da artsın. Birgə iqtisadi komissiya buna dəstək verə bilər.

Eyni zamanda, qeyd edilməlidir ki, Azərbaycan İnvestisiya Şirkəti bir neçə il bundan əvvəl yaranmışdır və bu da potensial sərmayədarlara Azərbaycanda yardım edə bilər, o cümlədən müxtəlif layihələrdə həm də sərmayədar kimi iştirak edə bilər. Ümumiyyətlə ölkəmizdə yaxşı sərmayə mühiti vardır və on milyonlarla dollar birbaşa sərmayə buna yaxşı nümunədir. Bir çox digər yerlərlə müqayisədə regiona gəldikdə, ölkəmiz adambaşına düşən birbaşa xarici sərmayələr üzrə aparıcı ölkələr arasındadır. İqtisadi islahatlar, iqtisadi dəyişikliklər Azərbaycanda çox yaxşı sərmayə imkanları və ümumiyyətlə biznes mühiti yaratmışdır.

Bizim sürətli iqtisadi artımımız müxtəlif amillərin təzahürüdür. Enerji amili bizim üçün çox mühümdür. Neft və qaz hasilatının yüksəlməsi son beş il ərzində bizim üçün ÜDM-in daha çox artımına nail olmağa imkan yaratdı. Lakin, eyni zamanda, qeyri-neft

sektorunun inkişafı da böyük töhfə verir. Biz iqtisadi islahatlar siyasəti aparırıq. Biz Avropa strukturları ilə əməkdaşlıq edirik. Avropa İttifaqı da bu sahədə mühüm bir amildir və biz Avropa İttifaqına daha yaxın olmaq istəyirik. Bizim Şərq tərəfdaşlığı proqramında iştirakımız birmənalı olaraq Azərbaycanın iqtisadi inkişafına da töhfə verəcəkdir.

Ölkəmizdə özəl sektor ÜDM-in 85 faizini təşkil edir. Biz geniş özəlləşdirmə proqramını həyata keçirmişik və ümumi iqtisadi vəziyyət, Azərbaycandakı iqtisadi islahatlar, həmçinin Dünya Bankının qiymətləndirilməsində də əks olunubdur. Bu qurum ötən ilin "Doing Business" hesabatında Azərbaycanı ən islahatçı ölkə kimi tanımışdır və hesab edirik ki, bu illərdə, xüsusən də bu böhran dövründə biz əgər iqtisadi göstəricilərimizə baxsaq görərik ki, cari ilin ilk altı ayında iqtisadiyyatımız 3,6 faiz, sənaye istehsalı isə 4,1 faiz artmışdır. Biz infrastruktura, qeyri-enerji sektoruna böyük sərmayələr yatırmışıq. Dövlətimizin birbaşa qoyduğu sərmayələrin həcmi artmışdır və biz, eyni zamanda, yerli sahibkarlara da yardım etmişik. Biz onlara - yerli şirkətlərə güzəştli, yəni aşağı faizlə kreditlər ayırırıq ki, iqtisadiyyatımız daha şaxələnmiş olsun. Bu il biz öz ölkəmizi kənd təsərrüfatı malları ilə demək olar ki, yüz faiz təmin edəcəyik. Bu il Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından vacib bir ildir. Biz müxtəlif kənd təsərrüfatı mallarının həm ixracçısı, həm də keçmişdə idxalçısı olmuşduq. Bu il demək olar ki, biz bütün daxili tələbatlarımızı təmin edəcəyik. Bu isə öz növbəsində iqtisadiyyatın şaxələndirilməsinə imkan yaradır. Çünki bizim əhalinin yarısı kənd yerlərində yaşayır. Ona görə kənd təsərrüfatı işçiləri, fermerlər dövlətin kifayət qədər yardımından istifadə edərək, iqtisadiyyatın şaxələndirilməsinə şərait yaradacaqlar.

Təbii ki, gələn illərdə enerji amili davamlı surətdə bizim iqtisadiyyatın vacib hissəsi olacaq və biz artıq nəzərəçarpan nəticələri əldə etmişik. Azərbaycan o ölkədir ki, bütün dünyada ilk dəfə olaraq burada neft hasil edilmişdir. Sovet İttifaqı dağıldıqdan sonra bizim hasilatımız olduqca aşağı düşdü, infrastruktur demək olar ki, tam dağıldı. Böyük iqtisadi potensiala və ehtiyatlara malik olmuş ölkə çox çətin vəziyyətə düşdü. Biz ciddi iqtisadi böhranla üzləşdik. Biz çalışdıq ki, bir çox aparıcı enerji şirkətlərini Azərbaycana dəvət edək və buna nail olduq. Beləliklə, beynəlxalq səviyyədə vacib bir neft və qaz hasilatçısına çevrildik. Müstəqillik illəri ərzində bu hasilatın həcmi 5 dəfədən çox artmışdır və demək olar ki, bu il artıq 50 milyon tona çatır. Eyni zamanda, Azərbaycan çox vacib təbii qaz ixracçısına çevrilmişdir. Bu, son iki il ərzində baş vermişdir. 2007-ci ilə qədər biz qazı digər ölkələrdən idxal edirdik. Hazırda isə biz qazı ixrac edirik və ixrac coğrafiyası artır. Biz yaxın gələcəkdə digər qonşularımıza da təbii qaz çatdıracağıq. Bu da gələcəkdə bizə bir çox faydalar gətirəcək və eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə töhfə verəcəkdir.

2006-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa dair Memorandum imzalanmışdır və bu, münasibətlərimizin inkişafı deməkdir. Hazırda Avropanın müxtəlif strukturlarında müzakirə edilən enerji dəhlizləri bizim tərəfimizdən təşəbbüs kimi irəli sürülmüşdür. Xəzərdə hasil olunmuş neft dünya tarixində ilk dəfə boru kəməri vasitəsilə məhz Qara dənizdə yerləşən limanlara daşındı. Bu qapıları biz açdıq. İndi isə, qaz boru kəməri çəkiləndən sonra bizim təbii qazımız artıq qeyd etdiyim kimi, bütün istiqamətlərdə nəql edilir. İndi isə bizim dörd qaz boru kəmərimiz vardır. Onların ikisi Qərb istiqamətinə, biri Şimal, digəri isə Cənub istiqamətinə gedir. Təbii ki, enerji amili iqtisadiyyatın bir çox sahələrində vacib yer tutacaqdır. Lakin biz, eyni za-

manda, informasiya texnologiyaları, turizm, infrastruktur və ölkəmizin şaxələndirilmiş inkişafına sərmayələr qoyuruq. Dövlətin böyük yardımı ilə infrastruktur layihələri həyata keçirilir və biz nəticələri görürük. İnfrastruktur layihələrini həyata keçirdikdən, məsələn, şoselər çəkiləndən, elektrik stansiyaları, hava limanları tikiləndən sonra məhz işgüzar dairələr həmin yerlərə gəlirlər. Çünki nəzərəçarpan infrastruktur layihələri məhz paytaxt şəhərdən 100 kilometrlərlə məsafədə yaşayan insanlara fayda gətirir.

Hesab edirəm ki, bu baxımdan Azərbaycandakı və dost ölkələrdəki işgüzar dairələr əməkdaşlığı inkişaf etdirmək üçün bir-biri ilə görüşməlidirlər. Latviya bizim üçün dost ölkədir. Bu ölkə bizim tərəfdaşımızdır. Bizim çox yaxşı siyasi münasibətlərimiz vardır və bunu gördükdən sonra əminəm, işgüzar dairələrimiz də çalışacaqlar ki, onlar arasında olan əlaqələr eyni səviyyədə, yəni siyasi münasibətlər səviyyəsində olsun. Bunun üçün bütün imkanlar vardır. Artıq qeyd etdim ki, bizim yaxşı sərmayə mühitimiz, yaxşı sərmayə imkanlarımız vardır, liberal iqtisadiyyat qurulubdur, sabit siyasi vəziyyət mövcuddur, yüksək səviyyədə şəffaflıq vardır. Bu isə Birləşmiş Millətlər Təşkilatının Azərbaycana verdiyi mükafatda da öz təzahürünü tapmışdır.

Bir daha bildirmək istəyirəm ki, Latviya və Azərbaycanın iqtisadiyyatları bir-birini uğurla dəstəkləyə bilər. Əminəm ki, bugünkü biznes forumu bu istiqamətdə öz vacib rolunu oynayacaqdır.

Bir daha bütün qonaqları salamlayıram və biznes foruma uğurlar arzulayıram.

Diqqətinizə görə minnətdaram.

***

Latviya Prezidenti Valdis ZATLERS biznes forumda çıxış edərək dedi:

- Cənab Prezident!

Zati-aliləri!

Azərbaycan və Latviyanın iş adamları!

Xanımlar və cənablar!

Burada - Bakıda keçirilən Azərbaycan-Latviya biznes forumunda çıxış etməkdən olduqca məmnunam və şərəf hissi duyuram. Mən bu cür qarşılıqlı surətdə konstruktiv söylərə və göstərilmiş səmimi qonaqpərvərliyə görə tədbir təşkilatçılarına şəxsən öz adımdan və Latviyanın nümayəndə heyəti adından minnətdarlığımı bildirmək istəyirəm. Biz elə bir dövrdə görüşürük ki, hökumətlərimiz mürəkkəb məsələnin, maliyyə sabitliyinin qorunması ilə məşğuldur və çalışırlar biznes mühitini qısa müddət ərzində yaxşılaşdırsınlar.

Bu gün qlobal iqtisadiyyatda əsas struktur dəyişiklikləri müşahidə olunur və bizim üçün yeni imkanları müəyyən etmək və yeni çağırışları həll etmək vaxtı artıq yetişibdir. Keçmişə nəzər salmaq və bu günə qədər görülmüş işlərin nəticələrini qiymətləndirmək üçün münasib vaxtdır. Qlobal iqtisadi böhranın mürəkkəb nəticələrini nəzərə alaraq, hazırkı ən mühüm vəzifəmiz yeni imkanların tapılmasında səylərimizi və resurslarımızı səfərbər etməkdir. Ümidvaram ki, hökumətlərimiz biznes sahəsi üçün mümkün qədər faydalı şəraitlərin yaradılması məqsədi ilə əlindən gələni edəcəklər. Şirkətlərimiz və hökumətlərimiz arasında sıx əməkdaşlıq zəngin və davamlı iqtisadiyyata aparan yolda

mühüm amildir.

Xanımlar və cənablar!

Biznes tərəfdaşlığımızın daha da inkişaf etməsi üçün möhkəm bünövrə vardır. Əməkdaşlıq üçün səmərəli infrastruktur qurulmuşdur. Hazırda Latviyada 29 Latviya-Azərbaycan birgə müəssisəsi fəaliyyət göstərir. Ümid edirəm ki, bu rəqəm gələn bir neçə il ərzində nəzərəçarpan səviyyədə artacaqdır. Eyni zamanda, məmnunluqla qeyd etmək istəyirəm ki, ötən il ərzində ticarət dövriyyəmizə nəzər yetirsək, böhran sözündən istifadə etmək düzgün olmazdı. Baxmayaraq ki, rəqəmlər o qədər yüksək deyildir, lakin Latviyanın ixracı iki dəfə, Azərbaycandan idxal isə 30 faiz artmışdır. 2009-cu ilin birinci rübündə ölkələrimiz arasında ticarət dövriyyəsi artmaqda davam etmişdir. Bu isə, bizə məlum olan qlobal proseslərdən fərqlənir. Latviya iş adamlarının Azərbaycana marağı məni müşayiət edən böyük nümayəndə heyətinin olması ilə nümayiş etdirilir. Bu tərkibdə ərzaq sənayesi, nəqliyyat və logistika, informasiya texnologiyaları və telekommunikasiya, bank və konsaltinq xidmətləri, tikinti sənayesi, turizm, təhsil və digər sahələrin nümayəndələri vardır. Eyni zamanda, Azərbaycanda artıq uğurlu fəaliyyət göstərən şirkətlər də təmsil olunub - Riga Dairy, Laci, AirBaltic, Parex Bank, Baltikums Bank, BDO Invest Riga, Riqa Beynəlxalq hava limanı, Hava Dispetçer və Tədris Mərkəzi və bir çox digərləri.

Məmnunluqla qeyd etmək istəyirəm ki, həmin maraq sahələri strateji əhəmiyyət daşıyır və onların sayı da çoxdur. Biz iş adamları üçün qarşılıqlı surətdə faydalı imkanları nəzərdən keçirməliyik və bu halda, hökumətlərimizin vəzifəsi bütün səviyyələrdə həmin proseslərin uğurlu olmasını təşviq etməkdən ibarət olmalıdır.

Xanımlar və cənablar! Ölkələrimiz arasında hüquqi əsasların qurulması müxtəlif sahələrdə uğurlu və uzunmüddətli əməkdaşlıq üçün mühüm platformadır. Dünən Latviya Respublikası və Azərbaycan Respublikasının hökumətləri bir sıra sənədləri, o cümlədən idman və turizm sahələrində sazişləri imzalamışlar. Latviyanın Patent İdarəsi və Azərbaycanın Standartlaşdırma, Metrologiya və Patentlər üzrə Dövlət Komitəsi arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiya mübadiləsi haqqında Anlaşma Memorandumu imzalamışlar. Hesab edirəm ki, bu sazişlər iqtisadi münasibətlərimizin daha geniş şəkildə inkişafına yeni və yüksək keyfiyyətli təkan verəcəkdir.

Azərbaycan Latviya üçün çox mühüm və perspektivli tərəfdaşdır. Biz Avropa ölkələri ilə Azərbaycan, o cümlədən Xəzər regionunun digər ölkələri arasında sıx əməkdaşlığı təşviq etməyə hazırıq. Latviya sizin üçün nəinki ticari tərəfdaş, o cümlədən digər sahələrdə də mühüm rol oynaya bilər. Biz, həmçinin digər Avropa ölkələrində iş aparmaq üçün strateji keçid ölkəsi ola bilərik. Latviya Şərqi Avropa, Skandinaviya və Qərbi Avropanın kəsişdiyi yerdə yerləşir. Ölkəmiz əla quru və dəmir yolu infrastrukturuna, o cümlədən regionda mövcud olan əsas nəql dəhlizləri vasitəsilə tranzit malların daşınmasını mümkün edən limanlara malikdir. Siz Latviyadakı tərəfdaşlarınızın təcrübəsindən istifadə edə bilərsiniz, çünki Avropa İttifaqının iqtisadi və inzibati məkanına daxil olursunuz. Riqa ilə Bakı arasında birbaşa uçuşlar biznes tərəfdaşlığının inkişafında mühüm elementdir. Mən sizi Skandinaviya və Mərkəzi Avropaya səfəriniz zamanı Riqa hava limanından tranzit kimi istifadə etməyə dəvət edirəm. Mən qeyd etmək istəyirəm ki, Latviya şərqi tərəfdaşlar ilə ticari münasibətlərinin möhkəmlənməsini ənənəvi ola-

raq dəstəkləmişdir. Biz istəyirik ki, Şərq tərəfdaşlığı iqtisadi inteqrasiya üçün əlavə təkan versin və Avropa İttifaqı ilə Azərbaycan arasında əhatəli və dərin azad ticarət zonasının yaranması ilə nəticələnsin. Biz Azərbaycanın mümkün qədər qısa müddətdə Dünya Ticarət Təşkilatına üzv qəbul olunmasını dəstəkləyirik. Beynəlxalq ticarət sisteminə inteqrasiya Azərbaycana öz ixrac strukturunu şaxələndirməyə imkan yaradacaqdır.

Xanımlar və cənablar! Qeyd etmək istəyirəm ki, ölkələrimiz enerji təhlükəsizliyi ilə bağlı çətinliklərə aid adekvat cavab tədbirlərini görməyə çalışır. Əminəm ki, Avropa İttifaqı ilə Xəzər dənizi regionu arasında yalnız sıx əməkdaşlıq vətəndaşlar üçün sabit və davamlı enerji təhlükəsizliyini təmin edə bilər. Latviya Avropanın enerji ehtiyatları ilə təchiz edilməsində Qara dəniz-Xəzər regionunda Azərbaycanı əsas ölkə hesab edir. Ümid edirik ki, gələcəkdə, Azərbaycanın təbii qaz ehtiyatları Nabukko boru kəməri ilə Avropaya çatdırılacaqdır. Latviya nəinki təbii qaz, o cümlədən neft sahəsində çatdırılma marşrutlarının və mənbələrin şaxələndirilməsində Avropanın səylərini dəstəkləyir. Brodını və Plotsku keçərək, Odessadan Qdanska qədər gedən neft boru kəməri Avropada enerji resurslarının şaxələndirilməsi sahəsində risklərin azaldılmasına mühüm töhfə ola bilərdi. Latviya Baltik dənizi-Qara dəniz-Xəzər dənizi regionu vasitəsilə tranzit konsepsiyasını dəstəkləyir və bu, Mərkəzi Asiyadan Avropaya enerji resurslarının daşınmasında gözəçarpan əlavə tranzit marşrutu ola bilər.

Xanımlar və cənablar!

Cəsarət, möhkəm iradə və təşəbbüskarlıq biznesdə uğurun əsas meyarlarıdır. Əminəm ki, burada iştirakınız bir daha sübut edir ki, siz yeni imkanların tapılmasına açıq və fəal olmağa hazırsınız. Ümidvaram ki, rəsmi səfər yeni təmasların qurulmasında sizi çox həvəsləndirəcək və bu biznes forum cari davamlı əməkdaşlıq və qarşılıqlı surətdə faydalı layihələr üçün uğurlu istinad nöqtəsinə çevriləcəkdir.

Xanımlar və cənablar, sizə uğurlar arzulayıram. Diqqətinizə görə minnətdaram.

LATVİYA PREZİDENTİ VALDİS ZATLERS AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda səfərdə olan Latviya Prezidenti Valdis Zatlers avqustun 11-də onun üçün ayrılmış iqamətgahda ölkəmizin Baş naziri Artur Rasizadə ilə görüşmüşdür.

Latviya dövlətinin başçısı bu səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə aparılmış danışıqları yüksək qiymətləndirərək vurğulamışdır ki, həmin danışıqlar bütün sahələrdə ikitərəfli əlaqələrin genişlənməsinə xidmət edəcəkdir. Prezident Valdis Zatlers iqtisadi sahədə Latviya-Azərbaycan əməkdaşlığının perspektivlərindən bəhs edərək, səfər zamanı imzalanmış ikitərəfli sənədlərin qarşılıqlı faydalı münasibətlərin daha da inkişaf etdirilməsi üçün əhəmiyyətini vurğulamışdır.

Baş nazir Artur Rasizadə Prezident Valdis Zatlersə son illərdə Azərbaycanda həyata keçirilmiş iqtisadi islahatlar barədə məlumat vermişdir. O, əmin olduğunu bildirmişdir ki, Latviya dövlətinin başçısının Azərbaycana rəsmi səfəri iki ölkə arasında iqtisadi əməkdaşlığın dərinləşməsinə təkan verəcəkdir.

LATVİYA PREZİDENTİ VALDİS ZATLERS SƏNGƏÇAL NEFT TERMİNALI İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycanda rəsmi səfərdə olan Latviya Prezidenti Valdis Zatlers və onu müşayiət edən nümayəndə heyəti avqustun 11-də Səngəçal neft terminalında olmuşdur.

Xəzər Enerji Mərkəzindən başlanmış tanışlıq zamanı "Əsrin müqaviləsi"nə əsasən neft-qaz layihələrinin qovuşduğu neft terminalının rəhbərləri və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə qonaqlara mərkəz barədə ətraflı məlumat verdilər. Azərbaycanın neft və qaz hasilatının tarixini əks etdirən film nümayiş olundu.

Bildirildi ki, inşasına 2001-ci ildən başlanmış terminalda tutumu 880 min barrel olan 3 xam neft çəni, baş nasos stansiyası, separatorlar, emal qurğuları və idarəetmə məntəqəsi vardır. Buraya fiber-optik rabitə kabelləri, sahildən 187 kilometr aralıda yerləşən dəniz yataqlarından sualtı neft və qaz kəmərləri çəkilmişdir.

Sonra latviyalı qonaqlar avtobusla terminalın ərazisini gəzdilər. Onlara buradakı texnoloji proseslər barədə də ətraflı məlumat verildi.

BAKIDA AZƏRBAYCAN-LATVİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ ÜÇÜNCÜ İCLASI KEÇİRİLMİŞDİR

Avqustun 11-də Bakıda Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın üçüncü iclası keçirilmişdir.

Komissiyanın Azərbaycan tərəfdən həmsədri, nəqliyyat naziri Ziya Məmmədov latviyalı qonaqlara ölkəmizdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında inamla davam etdirilən iqtisadi inkişaf strategiyasının uğurları, bu siyasətin respublikamızı regionun lider dövlətinə çevirməsi barədə geniş məlumat vermişdir. Hökumətlərarası komissiyanın üçüncü iclasının Latviya Respublikası Prezidentinin Azərbaycana səfəri ilə eyni vaxta təsadüf etməsini xoş hadisə kimi dəyərləndirən Ziya Məmmədov, son illər ölkələrimiz arasında əməkdaşlığın geniş vüsət almasında dövlətlərimizin başçılarının qarşılıqlı səfərlərinin əhəmiyyətini xüsusi vurğulamışdır. Bildirmişdir ki, son illər ölkələrimiz arasında ticarət dövriyyəsinin 2 dəfə artması, nəqliyyat, telekommunikasiya, elm, təhsil, turizm və digər sahələrdə əlaqələrin yüksələn xətt üzrə inkişaf etməsi, münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsinə çatması Prezidentlərin qarşılıqlı səfərləri zamanı imzalanmış sənədlərin mühüm əhəmiyyət kəsb etməsini bir daha təsdiqləyir.

Z.Məmmədov Latviya Respublikasının Prezidentinin ölkəmizə hazırda davam edən səfərinin, yüksək səviyyədə Azərbaycan-Latviya danışıqlarının, dövlətlərimizin başçıları İlham Əliyevin və Valdis Zatlersin imzaladıqları mühüm sənədlərin, o cümlədən hökumətlərarası komissiyanın üçüncü iclasının yekunlarının əməkdaşlıq əlaqələrinin daha da genişlənməsinə şərait yaradacağına əmin olduğunu bildirmişdir.

Komissiyanın Latviya tərəfdən həmsədri, bu ölkənin nəqliyyat naziri Kaspars Gerhards Latviya Respublikasının Prezidenti Valdis Zatlersin Bakıya səfərinin, Azərbaycan

Respublikasının Prezidenti İlham Əliyevlə aparılan danışıqların təmsil etdiyi dövlət üçün son dərəcə mühüm əhəmiyyətini vurğulayaraq münasibətlərimizin inkişafından məmnunluğunu bildirmişdir.

Azərbaycanın son illər qazandığı uğurlara, xüsusilə regionun aparıcı dövlətinə çevrilməsinə bir dost kimi sevindiklərini deyən latviyalı nazir ölkəsinin NATO-nun və Avropa İttifaqının üzvü kimi respublikamızın beynəlxalq təşkilatlara daha sıx inteqrasiyasını, o cümlədən Dünya Ticarət Təşkilatına üzvlüyünü dəstəklədiyini və bu istiqamətdə köməyini əsirgəməyəcəyini söyləmişdir.

Kaspars Gerhards, eyni zamanda, Latviyanın Avropa İttifaqının üzvü kimi öz ərazisindən Azərbaycana məhsullarını Aİ ölkələri bazarlarına çıxarmaq üçün nəqliyyat dəhlizi verməyə hazır olduğunu bildirmişdir. Komissiyanın Latviyadan olan həmsədri ötən il ölkələrimiz arasında ticarət dövriyyəsinin 2007-ci ilə nisbətən 60,1 faiz artmasını müsbət məqam kimi qiymətləndirməklə yanaşı, bu sahədə potensial imkanların böyük olduğunu vurğulamış, eyni zamanda, yanacaq-energetika, nəqliyyat, kimya sənayesi, turizm və başqa sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin mövcudluğunu diqqətə çatdırmışdır.

İşgüzar fikir mübadiləsi şəraitində davam edən iclasda Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın növbəti - dördüncü iclasının Latviyada keçirilməsi qərara alınmışdır.

İclasın sonunda tərəflər arasında Avropa İttifaqı çərçivəsində əməkdaşlığı, iqtisadiyyat, kənd təsərrüfatı, ekologiya, metrologiya, standartlaşdırma, sənaye və energetika, nəqliyyat və tranzit, turizm, təhsil, gənclər və idman, informasiya və kommunikasiya, səhiyyə və bank sahələrini əhatə edən protokol imzalanmışdır. Sənədi Azərbaycan tərəfdən Ziya Məmmədov, Latviya tərəfdən Kaspars Gerhards imzalamışlar.

ZAQATALA ŞƏHƏRİ İLƏ TANIŞLIQ

Latviya Prezidenti Valdis Zatlers Azərbaycana rəsmi səfəri çərçivəsində avqustun 11-də respublikamızın şimal-qərb bölgəsində olmuşdur.

Latviya dövlətinin başçısının respublikamızın şimal-qərb bölgəsinə səfəri Zaqatala rayonundan başlamışdır.

Zaqatala hava limanında Prezident Valdis Zatlersi və xanımı Lilita Zatlereni böyük səmimiyyətlə qarşıladılar.

Məlumat verildi ki, Zaqatala hava limanı 2008-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilmişdir. Şəhərdən 5 kilometr məsafədə yerləşən hava limanının müasir üslubda inşa edilmiş dördmərtəbəli binası birinci dərəcəlidir və saatda 120 sərnişinə xidmət göstərir. Hava limanının uçuş-enmə zolaqlarının uzunluğu 2200 metrdir.

Daha sonra Latviya Prezidenti və onu müşayiət edən nümayəndə heyəti avtobusla Zaqatala şəhərinin görməli yerləri ilə tanış oldular. Bildirildi ki, Zaqatala rayonu Böyük Qafqaz sıra dağlarının cənub yamacında, Azərbaycan Respublikasının şimal-qərbində yerləşir. Şimaldan Rusiya Federasiyası, cənubdan Gürcüstan ilə həmsərhəddir. Əhalisi 118

min nəfərdir. Rayonda azərbaycanlılarla yanaşı, ruslar, avarlar, ləzgilər, tatarlar, saxurlar, ingiloylar, ümumilikdə 20-dən çox millətin nümayəndəsi əmin-amanlıq şəraitində yaşayır. Ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlar nəticəsində Zaqatala rayonu da sürətlə inkişaf edir. Rayonda yeni istehsal və infrastruktur obyektləri inşa olunur. 2004-2008-ci illərdə rayonda 11.100 yeni iş yeri açılmışdır ki, onun da 7.100-ü daimidir.

Sonra Latviya Prezidenti və xanımı Zaqatalanın ən iri və qədim Tala məscidi ilə tanış oldular. Bildirildi ki, inşasına 1903-cü ildə başlanan və 1908-ci ildə istifadəyə verilən bu ibadət ocağı Tala kənd sakini hacı Əhməd əfəndinin təşəbbüsü ilə tikilmişdir. Hacı Əhməd əfəndi məscidin layihəsini İstanbuldan gətirtmişdir. Məscidin dam örtüyünün materialını Bakı milyonçusu, xeyriyyəçi hacı Zeynalabdin Tağıyev vermişdir. Sahəsi 2500 kvadratmetr olan məsciddə eyni vaxtda 1000-1500 dindar ibadət edə bilir. Tala məscidi tarixi mədəniyyət abidəsi kimi dövlət tərəfindən qorunur.

Qonaqlar Zaqatala Olimpiya İdman Kompleksi ilə də tanış oldular. Məlumat verildi ki, bu kompleksin tikintisinə 2003-cü ildə başlanmışdır. 2006-cı ildə idman kompleksinin açılışında Prezident İlham Əliyev iştirak etmişdir. Ərazisi 4,5 hektar olan kompleksə əsas korpus, futbol stadionu, mehmanxana daxildir. Mehmanxana kompleksi 16 kottecdən ibarətdir. Əsas korpusda 1200 tutumu olan oyun zalı, üzgüçülük hovuzu, məşq zalı yerləşir. Hazırda idman kompleksinin xidmətindən 1000-dən çox gənc istifadə edir. Burada respublika miqyaslı yarışlar da keçirilir.

Latviya Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere daha sonra Zaqatala müalicə-diaqnostika mərkəzinə gəldilər. Qonaqlar burada xəstələrlə görüşdü, həkimlərlə söhbət etdilər. Mərkəzin baş həkimi Nəriman Əfəndiyev qonaqlara məlumat verdi ki, müalicə ocağının tikintisinə 2006-cı ildə başlanmış və 2008-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilmişdir. Mərkəzin ərazisi 1,8 hektar, binanın ümumi sahəsi isə 10 min kvadratmetrdir. Müəssisədə 200 nəfərə yaxın tibbi heyət çalışır. Diaqnostika mərkəzinin 6 şöbəsi vardır və bu şöbələr Almaniyanın Siemens firmasından alınmış ən müasir avadanlıqla təchiz olunmuşdur. Burada Zaqatala ilə yanaşı, qonşu rayonların əhalisinə də yüksək tibbi xidmət göstərilir. Cari ilin may ayında burada Heydər Əliyev Fondu və Neft Şirkətinin təşəbbüsü ilə Mərkəzi Neftçilər Xəstəxanasının yüksək ixtisaslı həkimlərindən ibarət briqada 5 xəstə üzərində ilk dəfə açıq ürək əməliyyatı keçirmişdir.

Ali qonaq mərkəzin işindən razılığını bildirdi.

Elə həmin gün nümayəndə heyəti Şəkiyə yola düşdü.

ŞƏKİ İLƏ TANIŞLIQ

Avqustun 11-də Zaqatala şəhəri ilə tanışlıqdan sonra Latviya Prezidenti Valdis Zatlers və onu müşayiət edən şəxslər Şəki şəhərinə gəlmişlər.

Şəki ilə tanışlıq Azərbaycan memarlığının şah əsərlərindən olan Xan sarayından başladı. Qonaqlara məlumat verildi ki, Şəki xan sarayı XVIII əsrə aid olan dünya əhəmiyyətli nadir tarixi-memarlıq abidəsidir. Şərq memarlığının nadir incisi hesab olunan saray Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan hacı Çələbi xanın nəvəsi Hüseyn xan

Müştaqın dövründə, təqribən 1761-1762-ci illərdə tikilmişdir. Saray 1300 metr uzunluğunda qala divarları ilə əhatə olunmuşdur. Üç yüz kvadratmetr ərazisi olan ikimərtəbəli sarayda 6 otaq, 4 dəhliz və 2 güzgülü eyvan vardır. Xan sarayının divar rəsmləri əsasən həndəsi və nəbati naxışlardan ibarətdir.

Latviya dövlətinin başçısı və xanımı sarayın eyvanından Şəkinin qədim məhəllələrinin mənzərəsini seyr etdilər.

Sonra qonaqlar Kiş kəndində yerləşən alban məbədini ziyarət etdilər. Latviya Prezidentinə və xanımına məlumat verildi ki, bu məbəd eramızın birinci əsrində Qafqaz Albaniyasında geniş yayılan Ay məbədinin özülü üzərində qurulmuşdur. Kiş məbədi nəinki Qafqaz Albaniyasında, eləcə də bütün Qafqazda təqribən iki min il bundan əvvəl xristianlığın yayıldığını rəmzləşdirən məşhur tarixi abidədir. Qeyd olundu ki, əhəng daşından tikilən bu abidə erkən orta əsrlərdə yaranan ilk gümbəzli, zal tipli məbəddir. 2001-ci ilin may ayında burada Azərbaycan-Norveç birgə "Kiş" layihəsi üzrə bərpa işlərinə başlanmış, 2003-cü ilin sentyabr ayında məbədin açılışı olmuşdur. Layihə Norveç hökuməti tərəfindən maliyyələşdirilmiş və məşhur alim Tur Heyerdalın dəstəyi ilə həyata keçirilmişdir. Alimin xatirəsinin əbədiləşdirilməsi üçün məbədin qarşısında onun büstü ucaldılmışdır. Məbəd tarixi-memarlıq abidəsi kimi dövlət tərəfindən qorunur.

Qonaqlar buradan bölgənin ən iri sənaye müəssisəsi olan "Şəki-İpək" Açıq Səhmdar Cəmiyyətinə gəldilər və müəssisədə istehsal olunan müxtəlif ipək, xalça, kələğayı və digər məhsullardan ibarət sərgi ilə tanış oldular.

Müəssisənin baramaaçan istehsalatı və toxuculuq sexi ilə tanış olan qonaqlara məlumat verildi ki, "Şəki-İpək" ASC 1931-ci ildə təbii ipək sap istehsalı ilə fəaliyyətə başlamışdır. Keçmiş SSRİ-nin ən qabaqcıl istehsalatlarından biri olan bu müəssisə ittifaq dağılandan sonra fəaliyyətini dayandırmışdır. 2002-ci ildə ümummilli liderimiz Heydər Əliyevin Şəkiyə səfərindən sonra ulu öndərin köməyi sayəsində müəssisə fəaliyyətini yenidən bərpa etmişdir. Müəssisədə istehsal sexləri əsaslı şəkildə yenidən qurulmuş, müasir texnologiyalar tətbiq edilmiş, məhsuldar dəzgah və avadanlıq işə salınmış, işçilərin sosial müdafiəsini gücləndirmək üçün əlavə tədbirlər görülmüşdür. 2008-ci ildə müəssisənin baramaaçan istehsalatında Çin istehsalı olan 493,7 min avro dəyərində dörd baramaaçan, 4 baramasarıyan, barama buğaverən dəzgahlar, habelə vakuum aparatı və laboratoriya avadanlığı quraşdırılmışdır. Yeni dəzgahların quraşdırılması nəticəsində sexdə əmək məhsuldarlığı 6-7 dəfə, istehsal gücü isə 2,5 dəfə artmışdır. Bundan əlavə, işçilərin əl əməyi xeyli yüngülləşmiş, buraxılan məhsulun keyfiyyəti daha da yaxşılaşmış, dünya standartları səviyyəsinə çatdırılmışdır.

Qonaqlara müəssisənin iqtisadi göstəriciləri barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, 2008-ci ildə müəssisədə 1270 nəfər çalışmış, 43,1 ton xam ipək, 15 ton bişmiş sap, 497 min kvadratmetr təbii ipək parça, 105,5 min kvadratmetr güllü pambıq parça, 138,4 kvadratmetr təbii ipək xalça, 180 min 822 ağ rəngli kələğayı, 8128 güllü kələğayı, 23 min 926 kip şal dəsti, təbii ipəkdən 32 min 199 şərf və digər məhsullar istehsal olunmuşdur. İstehsal olunan məhsulun ümumi dəyəri 4 milyon 681,9 min manat təşkil etmişdir.

Prezident Valdis Zatlers müəssisənin xatirə kitabına ürək sözlərini yazdı.

Latviya Prezidenti və xanımı "Yuxarı karvansara" mehmanxana kompleksinin qarşısında şəhər ictimaiyyətinin nümayəndələri ilə söhbət etdilər. Prezident Valdis Zatlers Azərbaycana səfərindən məmnun qaldığını və hər iki ölkə arasında dostluq əlaqələrinin daha da inkişaf etdirilməsinin vacibliyini bildirdi. Qeyd edildi ki, bu səfər ikitərəfli münasibətlərdə yeni mərhələ olacaqdır.

Sonra qonaqlar mehmanxana kompleksi ilə tanış oldular. Məlumat verildi ki, XVIII əsrin sonu-XIX əsrin əvvəllərində inşa edilmiş "Yuxarı karvansara" mehmanxana kompleksi "Yuxarı baş" Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşir, ümumi sahəsi 6 min kvadratmetrdir. Karvansara Şərq memarlıq üslubunda tikilmişdir. Kompleks 300-ə qədər otaq və zirzəmidən ibarətdir. XVIII-XIX əsrlərdə Yaxın və Orta Şərq ölkələrindən gələn tacirlər əsasən bu karvansarada ticarətlə məşğul olardılar. Hazırda bu tarixi abidə mehmanxana kompleksi kimi fəaliyyət göstərir.

Şəkiyə səfərini başa çatdıran Latviya Prezidenti həmin gün Qəbələyə yola düşmüşdür.

QƏBƏLƏ İLƏ TANIŞLIQ

Latviya Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere avqustun 12-də Qəbələ rayon tarix diyarşünaslıq muzeyi ilə tanış olmuşlar.

Qonaqlara məlumat verilmişdir ki, 1980-ci ildən fəaliyyət göstərən bu muzeyin əsas fondunda Qəbələnin 2500 illik tarixini əks etdirən 12 mindən çox eksponat mühafizə olunur. On üç ekspozisiya zalı, Heydər Əliyev xatirə otaqları, zəngin kitabxanası, şəkil qalereyası, açıq səma altında qədim daş abidələrin sərgiləndiyi meydança və 2 filialı vardır. Ali qonaq Qafqaz Albaniyasının 900 il paytaxtı olmuş qədim Qəbələ şəhərinin və onun bu günə gəlib çatmış möhtəşəm qala divarının, bürc və darvazasının maketinə maraqla baxdı, aparılmış arxeoloji qazıntılar zamanı tapılmış maddi mədəniyyət nümunələri ilə tanış oldu. Eksponatlar içərisində qədim Latviya əskinasları Prezident Valdis Zatlersin diqqətini cəlb etdi və o, muzeyə ölkənin yeni milli pul vahidini hədiyyə etdi.

Latviya Prezidenti muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

Muzeydən xoş təəssüratla ayrılan Prezident Valdis Zatlers Qəbələ şəhərini gəzdi, ictimaiyyətin nümayəndələri ilə görüşərək səmimi söhbət etdi. Azərbaycana və bölgələrə səfərindən məmnun qaldığını deyən ali qonaq, ölkəmizin gözəlliklər diyarı olduğunu vurğuladı.

Sonra Prezident Valdis Zatlers və xanımı Lilita Zatlere "Gilan Holdinq"in Qəbələ konserv zavoduna gəldilər. Qonaqlar zavodun ayrı-ayrı sexlərini, laboratoriyalarını gəzdilər, məhsulların emalı, qablaşdırılması və saxlanması prosesi ilə maraqla tanış oldular.

Məlumat verildi ki, istehsal gücünə və texnoloji avadanlığına görə Cənubi Qafqazda analoqu olmayan bu müəssisə 12 hektar ərazidə yerləşir. Zavod fasiləsiz rejimdə fəaliyyət göstərir və burada 350 nəfər daimi işçi çalışır. Müəssisədə məhsulların qablaşdırılması üçün avtomatlaşdırılmış 8 axın xətti işləyir. Bütün istehsal prosesi kameralar vasitəsilə izlənilən bu müəssisədə 30 çeşiddə məhsul buraxılır. Zavodun illik istehsal gücü 250 min tondur. Məhsullar daxili bazara çıxarılmaqla yanaşı, 14 xarici ölkəyə də ixrac edilir. Xarici ölkələrə hazır məhsullarla yanaşı, 15 çeşiddə yarımfabrikat da göndərilir.

Müəssisənin laboratoriyası, anbarı və məhsulların sərgisi ilə tanış olan Latviya Prezidenti dequstasiya mərkəzində müxtəlif meyvə şirələrinin dadına baxdı. Ali qonaq zavodun fəaliyyətini, məhsulların keyfiyyətini yüksək qiymətləndirdi.

Daha sonra Prezident Valdis Zatlers və onu müşayiət edən nümayəndə heyəti Qəbələ Müalicə-Diaqnostika Mərkəzinə gəldilər.

Müalicə-Diaqnostika Mərkəzinin hemodializ, anesteziologiya və reanimasiya şöbələrinə, əməliyyat blokuna, laboratoriyalarına baş çəkən Latviya Prezidentinə məlumat verildi ki, Qəbələ ilə yanaşı ətraf rayonların əhalisinə də xidmət göstərən bu tibb ocağı kompyuter şüa diaqnostikası, rəqəmsal rentgen və ultrasəs müayinə aparatları, kompyuter endeskopiya, strestest, kolonoskopiya, spirometriya, elektrokardioqrafiya və digər müasir tibbi avadanlıqlarla təchiz olunmuşdur. Yüksək ixtisaslı həkimlərin çalışdığı bu səhiyyə ocağında xəstələrin müayinə və müalicəsi üçün son illər tibb sahəsində əldə olunan yeniliklər uğurla tətbiq edilir.

Prezident Valdis Zatlers diaqnostika mərkəzində müalicə olunan xəstələrlə görüşərək səmimi söhbət etdi. Səhiyyə ocağı ilə tanışlıqdan məmnun qaldığını bildirən Latviya Prezidenti Valdis Zatlers kollektivlə xatirə şəkli çəkdirdi.

Həmin gün Latviya Prezidenti Bakı şəhərinə qayıtdı.

***

Latviya Prezidenti Valdis Zatlersi respublikamızın şimal-qərb bölgəsinə səfərdə Azərbaycan Prezidenti Administrasiyasının regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Zeynal Nağdəliyev, xarici işlər nazirinin müavini Vafiq Sadıqov və digər rəsmi şəxslər müşayiət etmişlər.

AZƏRBAYCAN İLƏ LATVİYA ARASINDA İKT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

Avqustun 12-də rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov Azərbaycan ilə Latviya arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın Latviya tərəfdən həmsədri, bu ölkənin nəqliyyat naziri Kaspars Gerhards ilə görüşmüşdür.

Azərbaycan ilə Latviya arasında rabitə və informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində əməkdaşlığın hazırkı vəziyyətinin və perspektiv inkişaf məsələlərinin müzakirə olunduğu görüşdə nazir Əli Abbasov son illər ölkəmizdə İKT sektorunun inkişafı istiqamətində reallaşdırılan mühüm layihələr, qazanılan uğurlar barədə məlumat vermişdir.

Hər iki ölkə prezidentinin qarşılıqlı səfərləri, o cümlədən Latviyanın dövlət başçısının Azərbaycana budəfəki gəlişi zamanı imzalanmış sənədlərin ölkələrimiz arasında rabitə və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığın sürətli inkişafına stimul verəcəyinə əminliyini bildirən Ə.Abbasov əlaqələrin genişlənməsi üçün böyük imkanların olduğunu diqqətə çatdırmışdır.

Nazir dost Latviyanı Azərbaycanın təşəbbüsü ilə reallaşdırılması nəzərdə tutulan

Şərq-Qərb informasiya supermagistralı layihəsində fəal iştiraka dəvət etmişdir. O, bu layihənin olduqca geniş bir coğrafi ərazini əhatə edəcəyini bildirmiş, Avropa İttifaqının üzvü olan Latviyanın həmin ideyaya dəstək verməsinin Azərbaycan və digər Şərq ölkələri ilə Aİ dövlətləri arasında İKT sahəsində əlaqələrin genişlənməsinə şərait yarada biləcəyini vurğulamışdır. Ə.Abbasov, eyni zamanda, Azərbaycanın və Latviyanın informasiya texonolgiyaları ilə məşğul olan şirkətləri arasında əməkdaşlığın daha da genişlənməsi üçün real imkanların mövcud olduğunu söyləmişdir.

Kaspars Gerhards qaldırılan təşəbbüsləri, irəli sürülən təklifləri tamamilə dəstəklədiyini bildirmişdir. Avqustun 11-də Bakıda keçirilmiş hökumətlərarası komissiyanın üçüncü iclasına toxunan qonaq tədbirin yekunlarına dair imzalanmış protokolda Azərbaycan ilə Latviya arasında kommunikasiya və informasiya texnologiları sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı ayrıca müddəanın yer aldığını xüsusi vurğulamışdır. Demişdir ki, hazırda "Elektron hökumət"in formalaşdırılması istiqamətində fəal iş aparan Azərbaycan tərəfi bu sahədə, həmçinin elektron imza, elektron ticarət və s. sahələrdə Latviyanın təcrübəsindən yararlana bilər. Kaspars Gerhards ölkəsinin bütün sahələrdə, o cümlədən İKT sektorunda dost Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bir daha bəyan etmiş və bildirmişdir ki, bütün bu istəklər Latviyanın dövlət başçısı Valdis Zatlersin Bakıya indiki səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə aparılan danışıqlarda və tərəflərin imzaladıqları sazişlərdə öz əksini tam dolğunluğu ilə tapmışdır.

Görüşdə Azərbaycan rabitə nazirinin müavini Elmir Vəlizadə, Latviya Nəqliyyat Nazirliyi dövlət katibinin müavini Uidas Reimanis, nəqliyyat naziri ofisinin rəhbəri Emis Yarkins, "Eurogate Consulting" şirkəti idarə heyətinin sədri xanım İna Gudell çıxış edərək ölkələrimiz arasında İKT sahəsində əməkdaşlığın inkişafının zəruriliyini vurğulamaqla yanaşı, bununla bağlı rəy və təkliflərini də bildirmişlər.

Görüşün sonunda nazir Əli Abbasov Latviya tərəfinə yaxın vaxtlarda Bakıda keçirilməsi nəzərdə tutulan "BakuTel" beynəlxalq konfransına qatılmağı təklif etmişdir.

LATVİYA PREZİDENTİ VALDİS ZATLERS İŞ ADAMLARI İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda rəsmi səfərini başa vuran Latviya Prezidenti Valdis Zatlers avqustun 12-də "Qafqaz Point" mehmanxanasında ölkəmizdə fəaliyyət göstərən, eləcə də onunla birlikdə respublikamıza gəlmiş latviyalı iş adamları ilə görüşmüşdür.

Tədbirdə Latviya Prezidenti Valdis Zatlers Azərbaycan Prezidenti İlham Əliyevlə görüşlərindən, ümumiyyətlə səfərinin nəticələrindən böyük məmnunluğunu bildirmiş, hökumətlərimiz arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiyanın mübadiləsi haqqında Anlaşma Memorandumunun, gənclər və idman, eləcə də turizm sahələrində əməkdaşlıq haqqında sazişlərin imzalandığını diqqətə çatdırmışdır. Avqustun 11-də hər iki ölkə Prezidentinin iştirakı ilə keçirilmiş Azərbaycan-Latviya biznes forumunun iqtisadi və ticarət əlaqələrinin genişlənməsinə töhfə verəcəyinə əminliyini vurğulayan Valdis Zatlers, latviyalı iş adamlarını onlar üçün yaradılmış bu imkanlardan yararlanmağa dəvət etmişdir.

AZƏRBAYCAN XALÇALARI LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİ VƏ XANIMI LİLİTA ZATLERENİ VALEH ETMİŞDİR

Latviya Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere avqustun 12-də "Azərilmə" Məhdud Məsuliyyətli Cəmiyyətdə olmuşlar.

Ali qonağa məlumat verilmişdir ki, xalçaçılıq Azərbaycan xalqının ən qədim el sənətlərindən biridir, xalı və xalçalarımız dünyanın bir çox muzeylərinin nadir eksponatlarından sayılır.

1996-cı ildən fəaliyyətə başlayan bu müəssisənin məhsulları ABŞ, Almaniya, Avstriya, İngiltərə, İtaliya, Yaponiya və Rusiyada keçirilən satış-sərgilərdə *xüsusi mükafatlara* layiq görülmüşdür. Naxışların incəliyi və ilmələrinin yüksək sıxlığı, tərtibatın orijinallığı ilə seçilən xalçaların istehsal prosesi beynəlxalq standartlara tam cavab verir. İplər ancaq təbii rənglərlə boyanır, eskizlər milli naxış və çeşnilərdən götürülür.

Müəssisədə toxunmuş "Şeyx Səfi" xalısı qonaqların diqqətini daha çox cəlb etmişdir. Vurğulanmışdır ki, əsli Londonda saxlanılan və Təbriz xalçaçılıq məktəbinə aid olan 37 kvadratmetrlik "Şeyx Səfi" xalısına 9,25 milyon ilmə vurulmuşdur.

Qonaqlar toxuma prosesini maraqla izləmiş, qalereyanın açıq səma altında nümayiş etdirilən zəngin eksponatlarına baxmışlar.

Latviya Prezidenti Valdis Zatlers "Azərilmə"nin xatirə kitabına ürək sözlərini yazmışdır.

Sonra çay süfrəsi arxasında Azərbaycan xalçaçılıq sənətinə dair söhbət davam etdirilmişdir.

LATVİYA PREZİDENTİ VALDİS ZATLERS TƏZƏPİR MƏSCİD KOMPLEKSİNDƏ OLMUŞDUR

Avqstun 12-də Latviya Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere Təzəpir məscid kompleksində olmuşdur.

Prezident Valdis Zatlers Təzəpir məscidi ilə tanış oldu. Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə ali qonağa məlumat verərək demişdir ki, Prezident İlham Əliyevin göstərişi əsasında 2005-ci ildə məscidin bərpası və ətraf ərazilərin yenidən qurulması layihəsi hazırlanmışdı. Layihədə Təzəpir məscidinin ilkin görkəminə qaytarılması məqsədi ilə yenidən bərpası və əzəli memarlığına xələl gətirməyən elementlərin əlavə edilməsi öz əksini tapmışdı. Məscidin bərpasında Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq oriyentalistikasının nadir nümunələrindən istifadə olunmuşdur.

Təzəpir məscidinin tamamlayıcı dekorativ elementlərinin üstü, minarələrin başı və kəmərbənd yazıları ən yüksək əyarlı qızıl lövhələrdəndir. Yuxarı hissədə "La İlahə-İlləllah" kəlməsi 6 dəfə təkrar olunmuş günbəzin tən ortasında Qurani-Kərimdən "Nas", dairələrdə "Ayətül-kürsü", kiçik gümbəzlərdə isə "Həmd" surələri həkk edilmişdir.

Bildirilmişdir ki, kompleksdə Bakı İslam Universitetinin tədris korpusu yerləşir. Korpusun hər mərtəbəsində 10 sinif otağı olmaqla, 250 tələbənin təhsil alması üçün hər cür şərait yaradılmışdır.

Qafqaz Müsəlmanları İdarəsinin konfrans zalına baxan ali qonaq 6 min ədəbiyyatın mühafizə edildiyi kitabxana ilə də tanış olmuşdur. Latviya dövlətinin başçısı kitabxanaya Qurani-Kərimin latış dilinə tərcümə olunmuş nüsxəsini hədiyyə etmişdir.

Prezident Valdis Zatlers burada nümayiş olunan qədim kitablara baxdı, xatirə kitabına ürək sözlərini yazdı.

Təzəpir məscid kompleksi ilə tanışlıqdan sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin və Latviya Prezidenti Valdis Zatlers görüşü olmuşdur.

Görüşdə ikitərəfli münasibətlər, dini məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

Ali qonağa xatirə hədiyyələri təqdim olunmuşdur.

İÇƏRİŞƏHƏRLƏ TANIŞLIQ QONAQLARDA XOŞ TƏƏSSÜRAT DOĞURMUŞDUR

Latviya Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere avqustun 12-də İçərişəhərlə tanış olmuşlar.

Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Mikayıl Cabbarov Azərbaycan Prezidentinin Sərəncamı ilə yaradılmış idarənin fəaliyyətindən, ötən əsrlərin yadigarı olan abidələrin qorunması və bərpasına göstərilən dövlət qayğısından danışmışdır.

Karvansarada çay süfrəsinə dəvət edilən qonaqlar burada Azərbaycan muğamlarını dinləmiş və onlara xatirə hədiyyələri təqdim edilmişdir.

Sonra ali qonaq İçərişəhərin baş planı, Bazar meydanı və Qız qalası ilə tanış olmuşdur. Ona Qız qalasının tarixi barədə ətraflı məlumat verilmişdir.

İçərişəhərlə tanışlıq Latviya Prezidentində və xanımında xoş təəssürat doğurmuşdur.

SƏFƏR BAŞA ÇATDI

Avqustun 12-də Latviya Respublikasının Prezidenti Valdis Zatlersin Azərbaycana səfəri başa çatmışdır.

Azərbaycanın və Latviyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Milli geyimli uşaqlar ali qonağa və xanımına gül dəstəsi verdilər.

Latviya dövlətinin başçısını və xanımını Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Vaqif Sadıqov və digər rəsmi şəxslər yola saldılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ MÜŞAVİRİ, ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də ABŞ dövlət katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya regionu üzrə müşaviri, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Mətyu Brayzəni qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqlar, Azərbaycan-ABŞ ikitərəfli münasibətləri, energetika sahəsində əməkdaşlıq, regional və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN BADEN-VÜRTEMBERQ FEDERAL TORPAĞININ BAŞ NAZİRİ GÜNTER OETTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Almaniyanın Baden-Vürtemberq federal torpağının Baş naziri Günter Oettingerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan Prezident İlham Əliyev həm siyasi, həm də iqtisadi sahələrdə əlaqələrimizin uğurlu inkişafından məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Baden-Vürtemberq federal torpağının Baş nazirinin böyük tərkibdə nümayəndə heyəti ilə Azərbaycana səfəri səmərəli olacaq və Azərbaycan-Almaniya ikitərəfli münasibətlərinin daha da möhkəmlənməsi işinə öz töhfəsini verəcəkdir.

İki il əvvəl Berlində Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayan Günter Oettinger siyasət, iqtisadiyyat, mədəniyyət və digər sahələri təmsil edən rəsmilərdən ibarət nümayəndə heyəti ilə Azərbaycana gəldiyini deyərək, ölkəmizə bundan sonra da inkişaf perspektivləri arzuladı.

BAKIDA 10-CU ALMAN-AZƏRBAYCAN İQTİSADİ FORUMU KEÇİRİLMİŞDİR

Avqustun 12-də "Park INN-Azərbaycan" mehmanxanasında Alman-Azərbaycan İqtisadi Birliyinin (DAWF) təşkilatçılığı ilə 10-cu Alman-Azərbaycan iqtisadi forumu keçirilmişdir.

Tədbirdə Almaniyanın Baden-Vürtemberq əyaləti tərəfdən Baş nazir Günter Oettinger, eləcə də neft-qaz, tikinti, maşınqayırma, elektronika, kimyəvi məhsullar, ətraf mühitin mühafizəsi texnikası, metalın cilalanması, kənd təsərrüfatı və yüksək keyfiyyətli məhsulların istehsalı sahələrini təmsil edən müəssisələrdən 10-dan çox iş adamı, Azərbaycan tərəfdən isə müvafiq sahələrdə fəaliyyət göstərən 100-dək sahibkar iştirak etmişdir.

İqtisadi forumu DAWF-ın idarə heyətinin sədri Marko Qraff açaraq, Almaniya və Azərbaycan iş adamlarının son zamanlar tez-tez keçirilən görüşlərinin əhəmiyyətindən danışmış, dünyanı bürümüş iqtisadi və maliyyə böhranı şəraitində Azərbaycanın sürətli iqtisadi inkişafı, alman şirkətlərinin, eləcə də DAWF-ın ölkəmizdəki fəaliyyəti haqqında qısa məlumat vermişdir.

Baden-Vürtemberq əyalətinin Baş naziri Günter Oettinger belə tədbirlərin iş adamları arasında əlaqələrin daha da genişləndirilməsində mühüm rol oynadığını diqqətə çatdırmış, Azərbaycan ilə Almaniya arasında iqtisadi əlaqələrin yüksələn xətlə inkişaf etməsindən məmnunluğunu bildirmişdir. Əyalətlə respublikamız arasında iqtisadi əlaqələrdən danışan Baş nazir demişdir ki, bizim ticarətimizdə enerji daşıyıcıları əsas yer tutur, Azərbaycan bu sahədə çox keyfiyyətli məhsullar təqdim edir. Əyalətin sənaye müəssisələri məhsullarını ixrac etmək üçün yeni bazarlar axtarışındadır, ona görə də onların nümayəndələri bu gün buradadır və azərbaycanlı həmkarları ilə əlaqələr qurmağa hazırdırlar. Beləliklə də, yeni strategiyalar, yeni ideyalar təklif oluna bilər. Əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanlar vardır.

Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayev Azərbaycanın xarici iqtisadi əlaqələrində Avropa İttifaqının, o cümlədən Almaniya ilə əməkdaşlığın genişləndirilməsinin mühüm yer tutduğunu və son illərdə bu əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini söyləmişdir.

Bildirmişdir ki, Prezident İlham Əliyevin Almaniyaya və Almaniyanın yüksək səviyyəli dövlət rəsmilərinin Azərbaycana səfərləri çərçivəsində indiyədək iqtisadi sahədə 27 sənəd imzalanmışdır və beləliklə, tam əsasla demək olar ki, əməkdaşlığımızın etibarlı hüquqi bazası yaradılmışdır. Təqdirəlayiq haldır ki, əlaqələrimiz yalnız ticarət əməliyyatları ilə məhdudlaşmır, investisiya, maliyyə-texniki əməkdaşlığı və digər sahələri əhatə edir.

Ş.Mustafayev son dövrlərdə formalaşan yeni əməkdaşlıq sahəsinə misal kimi Almaniya Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyinin dəstəyi ilə bu yaxınlarda Azərbaycan sahibkarları arasında seçimin keçirildiyini və bu ilin sentyabrında ilk qrupun Almaniyaya ixtisasartırma kurslarına göndərilməsinin planlaşdırıldığını diqqətə çatdırmışdır. İş adamlarımızın əlaqələri də intensivləşir və son bir neçə ildə həm Azərbaycanda, həm də Almaniyada 10-dan artıq biznes forumu keçirilmiş, müxtəlif sərgilər təşkil olunmuşdur. Bu işlərin nəticəsi olaraq ölkələrimiz arasında ticarət dövriyyəsi son illərdə artmaqdadır. Lakin bütün sahələrdə müşahidə olunan müsbət dinamikaya baxmayaraq, əməkdaşlığın daha da genişləndirilməsi, xüsusilə sənaye, kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları və digər sahələrdə ciddi sərmayələrə əsaslanan səmərəli biznes layihələrinin həyata keçirilməsi ilə bağlı böyük imkanlar mövcuddur və biz onlardan istifadə etməliyik. Bunun üçün Azərbaycanda siyasi və makroiqtisadi sabitlik, xarici investorlara bütün zəruri təminatları verən qanunvericilik bazası, davamlı olaraq sadələşən inzibati prosedurlar, əlverişli vergi və xarici ticarət rejimi, inkişaf etmiş nəqliyyat infrastrukturu, münasib iqlim şəraiti, yüksək ixtisaslı kadrlar, tamamilə təhlükəsiz ictimai asayiş - bir sözlə, münbit investisiya mühiti vardır.

Kənd təsərrüfatı naziri İsmət Abasov Almaniya hökumətinin, onun müxtəlif qurumlarının Azərbaycanda aparılan genişmiqyaslı iqtisadi islahatların, o cümlədən aqrar islaha-

tın həyata keçirilməsində, mütərəqqi texnologiyaların aqrar-sənaye kompleksində tətbiqində yaxından iştirakını vurğulamışdır. Bildirmişdir ki, Almaniya Texniki Əməkdaşlıq Təşkilatının təşəbbüsü ilə respublikamızda "Kənd təsərrüfatında özəl təşəbbüslərin dəstəklənməsi", "İnteqrə edilmiş ərzaq təhlükəsizliyi proqramı", "Aqrar siyasət məsləhəti" və "Aqrar iqtisadiyyat sahəsində təlim və təkmilləşdirmənin, habelə Cənubi Qafqaz ölkələrində kənd yerlərinin inkişafının dəstəklənməsi" kimi layihələr həyata keçirilmişdir. Son üç ildə nazirliyin rəhbərliyi və mütəxəssisləri, həmçinin aqrar emal sahəsində fəaliyyət göstərən tanınmış iri şirkətlər Berlində keçirilmiş "Beynəlxalq Yaşıl Həftə" sərgisində, sərgi çərçivəsində təşkil olunmuş "dəyirmi masa"larda, konfranslarda, Alman-Azərbaycan aqrar forumunda iştirak etmişlər.

Kənd təsərrüfatı sahəsində təhsillə bağlı əlaqələrimizdən danışan nazir diqqətə çatdırmışdır ki, 2003-cü ildən indiyədək Almaniyanın Vaynştefan Universitetinə 50 tələbə göndərilmiş, 2005-ci ildən hər il alman proqramı ilə Azərbaycan Dövlət Aqrar Universitetində "aqrar menecmenti" ixtisası üzrə mütəxəssislər hazırlanır və həmin ixtisas üzrə hazırda 109 nəfər təhsil alır.

Məlumat verilmişdir ki, 2008-ci ildə Almaniya ilə aqrar məhsulların ticarət dövriyyəsi 112 milyon 958 min ABŞ dolları təşkil etmişdir. Ölkəmizdən Almaniyaya əsasən nərə balıqlarının kürüsü, meşə fındığı, meyvə və tərəvəz şirələri, meyvələrdən hazırlanmış un ixrac edilmişdir. Respublika əhalisinin heyvandarlıq məhsulları ilə təminatını yaxşılaşdırmaq məqsədi ilə Almaniyadan 763 baş südlük mal gətirilərək fermerlərə paylanmışdır.

Çıxışının sonunda İsmət Abasov bu mötəbər tədbirin Azərbaycanda aqrar istehsal və emal sənayesinə investisiya qoyuluşu imkanlarının genişləndirilməsinə, aqrobiznes sektorunun inkişaf etdirilməsinə təkan verəcəyinə əminliyini bildirmişdir.

Sonra iqtisadi forum öz işini Azərbaycan və Baden-Vürtemberq iş adamlarının ikitərəfli görüşləri ilə davam etdirmişdir.

MOSKVADA MDB XİN-LƏRARASI MƏSLƏHƏTLƏŞMƏLƏR APARILMIŞDIR

BMT Baş Məclisinin bu il sentyabrın 15-də başlanacaq 64-cü sessiyası ərəfəsində Rusiya XİN-də MDB çərçivəsində Xarici İşlər Nazirlikləri arasında 2009-cu il üçün Çoxsəviyyəli Məsləhətləşmələr Planına uyğun olaraq, avqustun 13-də MDB iştirakçısı olan dövlətlərin nümayəndələri arasında ənənəvi məsləhətləşmələr aparılmışdır.

Tədbirdə Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Ermənistan, habelə MDB İcraiyyə Komitəsinin nümayəndələri iştirak etmişdir. Azərbaycan Respublikasının və Ukraynanın təmsilçiləri məsləhətləşmələrdə müşahidəçi qismində iştirak etmişlər.

Konstruktiv ruhda keçən fikir mübadiləsi BMT-nin fəaliyyətinin əsas istiqamətləri barədə MDB ölkələrinin mövqelərinin üst-üstə düşməsini və ya yaxın olmasını, beynəlxalq məsələlərdə bu təşkilatın mərkəzi rolunun artırılmasında hamının marağı olmasını təsdiq etmişdir. Məsləhətləşmələrin iştirakçılarının yekdil fikrinə görə, BMT Baş Məclisinin qarşıdakı sessiyası böyük əhəmiyyət kəsb edir. O, qlobal təhdid və təhlükələrə

qarşı mübarizədə beynəlxalq birliyin səylərini cəmləşdirməli, BMT-nin kollektiv təhlükəsizlik sisteminin səmərəsinin artırılmasına, qlobal maliyyə böhranı şəraitində aktual sosial-iqtisadi problemlərin həllinə və ətraf mühitin qorunması sahəsində çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsinə kömək etməlidir.

Tədbirdə qarşıdakı sessiyanın gündəliyinə daxil edilmiş, Birlik üçün ən aktual məsələlərin bir qismi barədə MDB üzvü olan dövlətlərin praktiki qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi və daha da dərinləşdirilməsi zərurəti vurğulanmışdır. Regional təhlükəsizlik üçün təhdidlərə, beynəlxalq terrorizmə qarşı mübarizəni genişləndirmək, eləcə də MDB məkanında iqtisadi inkişafa kömək göstərmək üçün kollektiv mexanizmlərdən və BMT-nin potensialından maksimum istifadə etməyin vacibliyi qeyd edilmişdir. Müzakirə iştirakçıları MDB ölkələrinin birgə təşəbbüsü çərçivəsində İkinci Dünya Müharibəsinin başa çatmasının 65-ci ildönümü haqqında BMT-nin Baş Məclisinin qətnamə layihəsinin qəbul edilməsinin zəruri olduğunu vurğulamışlar. Məsləhətləşmələr konstruktiv və işgüzar şəraitdə keçmişdir. MDB üzvü olan dövlətlərin nümayəndə heyətləri arasında müntəzəm əlaqələrin BMT-nin Baş Məclisinin 64-cü sessiyası dövründə də davam etdirilməsi haqqında razılıq əldə edilmişdir.

STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNDƏ MARK QROSMAN İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzindən (SAM) bildirmişlər ki, qurumun dəvəti ilə Azərbaycanda səfərdə olan ABŞ dövlət katibinin siyasi məsələlər üzrə sabiq müşaviri Mark Qrosman avqustun 24-də SAM-ın qonağı olmuşdur.

Xarici İşlər Nazirliyinin və Azərbaycan Diplomatik Akademiyasının məsul əməkdaşları, Milli Məclisin deputatları, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, regional və beynəlxalq münasibətlər üzrə mütəxəssislərin iştirakı ilə "XXI əsrdə diplomatiyanın çağırışları" mövzusunda "dəyirmi masa" keçirilmişdir. Tədbirdə bir sıra qlobal, regional və milli meyillər və proseslər haqqında fikir mübadiləsi aparılmışdır. İştirakçılar XXI əsrdə diplomatiya qarşısında dayanan əsas çağırışlar - qloballaşma, ekstremizm və terrorizmə qarşı birgə mübarizə, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, ətraf mühitin qorunması və s. məsələləri nəzərdən keçirmişlər.

Səfir M.Qrosman məruzəsində diplomatların bilik və bacarıqlarının artırılması məsələsinə toxunmuş, XXI əsrdə yuxarıda qeyd olunan çağırışları dəf etməyə qadir olan yeni diplomat korpusunun hazırlanması istiqamətində səylərin daha da artırılmasının vacibliyini diqqətə çatdırmışdır. Son dövrlərdə ABŞ-da bu sahəyə büdcədən daha çox vəsait ayrılmasını müsbət qiymətləndirən natiq Azərbaycanda da bu istiqamətdə çox uğurlu addımlar atıldığını xüsusi vurğulamışdır. Qeyd etmişdir ki, diplomatiya mədəniyyəti beynəlxalq məfhumdur, eyni zamanda, hər bir ölkənin spesifik xüsusiyyətləri onu təmsil edən diplomatların fəaliyyətində mühüm rol oynayır.

Səfir enerji təhlükəsizliyi məsələləri və Nabukko layihəsi, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində diplomatların fəaliyyətlərinin qiymətləndirilməsi, ABŞ və müsəlman dünyası arasında mövcud vəziyyət və perspektivlər, demokratiya və insan hüquqları ilə bağlı iştirakçıların suallarını da cavablandırmışdır.

Tədbirin sonunda səfir Qrosman ona göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirmiş, keçirdiyi görüşlərdən razılığını ifadə etmişdir.

Qeyd edək ki, Azərbaycana səfəri çərçivəsində Mark Qrosman SAM-ın direktoru Elxan Nuriyev, eləcə də Azərbaycan Prezidenti Administrasiyasının siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanov, xarici işlər nazirinin müavini, Azərbaycan Diplomatik Akademiyasının rektoru Hafiz Paşayev, Milli Məclisin sədrinin müavini Valeh Ələsgərov, Prezident Administrasiyasının xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovla görüşmüşdür. Bu görüşlərdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ AZƏRBAYCANDAKI NÜMAYƏNDƏSİ ALAN VADDAMSI DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI MÜNASİBƏTİLƏ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da Avropa Komissiyasının Azərbaycandakı nümayəndəsi Alan Vaddamsı diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa Komissiyası arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, Praqa sammitinin münasibətlərin möhkəmlənməsinə müsbət təsiri qeyd olundu və əlaqələrimizin gələcəkdə də tərəqqi edəcəyinə əminlik bildirildi.

Dövlətimizin başçısı Alan Vaddamsın Azərbaycan ilə Avropa Komissiyası arasında əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verdiyini vurğulayaraq, gələcək fəaliyyətində ona uğurlar arzuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİL DÖVLƏTİNİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MİXAEL LAVON-LOTEMİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da İsrail dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixael Lavon-Lotemin etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin önündən keçdi. Mixael Lavon-Lotem etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə xatirə şəkli çəkdirdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Görüşdə Azərbaycan və İsrail arasında ikitərəfli münasibətlərin səviyyəsindən razılıq ifadə edildi, ölkələrimizin iqtisadi, ticari, səhiyyə, turizm, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrinin inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, həmin sahələrdə əməkdaşlığın yaxşı perspektivlərinin olduğu vurğulandı.

AZƏRBAYCAN VƏ QAZAXISTAN FÖVQƏLADƏ HALLAR NAZİRLİKLƏRİ ARASINDA PROTOKOL İMZALANMIŞDIR

Ölkəmizdə səfərdə olan Qazaxıstanın fövqəladə hallar naziri Vladimir Bojkonun başçılıq etdiyi nümayəndə heyəti avqustun 26-da Fəxri xiyabana gələrək, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin əziz xatirəsini anmış, məzarı önünə əklil qoymuşdur.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı önünə də gül dəstələri düzülmüşdür.

Qazaxıstanlı qonaqlar Şəhidlər xiyabanını da ziyarət etmiş, Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman oğul və qızların məzarı üzərinə güllər düzmüş, "Əbədi məşəl" abidəsi önünə əklil qoymuşlar.

Qonaqlar buradan Bakının mənzərəsini seyr etmişlər.

Həmin gün Azərbaycanın fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov qazaxıstanlı həmkarı Vladimir Bojko ilə görüşmüşdür.

Kəmaləddin Heydərov müstəqillik bərpa edildikdən sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə əldə olunmuş nailiyyətlər və ölkədə aparılan islahatlar barədə qonağa ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin tarixi çox qədim dövrlərə təsadüf edir. Hər iki ölkə müstəqilliyini bərpa etdikdən sonra siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələr getdikcə inkişaf edir.

Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan K.Heydərov, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində ölkələr arasında əməkdaşlığın əhəmiyyətini də qeyd etmişdir.

K.Heydərov demişdir ki, bu səfər ölkələrimizin Fövqəladə Hallar nazirlikləri arasında əməkdaşlıq əlaqələrinin daha sürətlə inkişafına təkan verəcəkdir. Azərbaycan fövqəladə hallar sahəsində təcrübəsini Qazaxıstanla bölüşməyə hazırdır. Nazir K.Heydərov bildirmişdir ki, Azərbaycan da, əsasən, toz burulğanları, sellərin və daşqınların qarşısının alınması sahəsində qonşu dövlətin təcrübəsindən yararlanmaqda maraqlıdır.

Bildirilmişdir ki, Qazaxıstan və Azərbaycan Fövqəladə Hallar nazirlikləri arasında ilk dəfədir ki, Bakıda bu səviyyədə görüş keçirilir. Hər iki ölkə Xəzəryanı dövlət olduğundan, bir sıra ortaq problemlərimiz də vardır. Ölkələrimiz neft-qaz hasilatı və ixracı ilə məşğul olan dövlətlərdir.

Qazaxıstanın fövqəladə hallar naziri Vladimir Bojko demişdir ki, dinamik inkişaf edən Xəzər regionu ölkələrinin fövqəladə hallar sahəsində birgə əməkdaşlığına ehtiyac vardır. Bizim region, əsasən, neft-qaz ehtiyatları ilə zəngindir. Xəzərin karbohidrogen ehtiyatlarının daşınması zaman baş verə biləcək müxtəlif hadisələrin, məsələn, neftin dənizə dağılmasının nəticələrinin aradan qaldırılması, Xəzərin bioloji resurslarının qorunması və s. məsələlər müzakirə obyektidir. Bu baxımdan səfərin böyük əhəmiyyəti vardır.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Sonra Kəmaləddin Heydərov və Vladimir Bojko Fövqəladə Hallar nazirlikləri arasında əməkdaşlıq haqqında protokol imzalamışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də ABŞ-ın Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında energetika sahəsində əməkdaşlıq, Avropanın enerji təhlükəsizliyi və regional əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN "RWE" ŞİRKƏTİNİN PREZİDENTİ YURGEN QROSSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Almaniyanın "RWE" şirkətinin prezidenti Yurgen Qrossmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Almaniyanın "RWE" şirkəti arasında energetika sahəsində həyata keçirilən əməkdaşlığın hazırkı vəziyyəti ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmış, Azərbaycanın karbohidrogen ehtiyatlarının Avropaya nəql edilməsi istiqamətində ölkəmizlə "RWE" şirkətinin birgə fəaliyyətinin perspektivləri müzakirə edilmişdir.

Görüşdə Almaniya Federativ Respublikasının keçmiş xarici işlər naziri - *vitse*-kansleri Yoşka Fişer iştirak etmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Avqustun 28-də Turkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Dövlətimizin başçısı və Türkiyə Respublikasının Baş naziri Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə inkişafından və əlaqələrin daha da möhkəmlənməsindən məmnunluq ifadə etmişlər.

Telefon söhbəti zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı proseslər, regional münasibətlərlə əlaqədar vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ FERİDUN SİNİRLİOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Türkiyənin xarici işlər nazirinin birinci müavini Feridun Sinirlioğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Türkiyənin xarici işlər nazirinin birinci müavini Feridun Sinirlioğlu Türkiyə Prezidenti Abdullah Gülün və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Sonuncu dəfə 2001-ci ildə Azərbaycanda səfərdə olduğunu bildirən qonaq ötən dövr ərzində ölkəmizdə çox böyük inkişaf proseslərinin şahidi olduğunu dedi.

Görüşdə ikitərəfli münasibətlər, beynəlxalq aləmdə birgə əməkdaşlıq, regional məsələlərə dair fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Abdullah Gülün və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI

Sentyabrın 3-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Türkmənistan Prezidenti dövlətimizin başçısını və Azərbaycan xalqını müqəddəs Ramazan ayı münasibətilə təbrik etmişdir. Prezident İlham Əliyev minnətdarlığını bildirmiş, Türkmənistan dövlətinin başçısına və Türkmənistan xalqına bu münasibətlə təbriklərini çatdırmışdır.

Prezidentlər ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Dövlət başçıları ölkələrimiz arasında münasibətlərin bundan sonra da möhkəmlənməsi üçün geniş potensialın mövcud olduğunu vurğulamışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR RUSİYA MÜĞƏNNİSİ ALLA PUQAÇOVANIN KONSERTİNDƏ OLMUŞDUR

Sentyabrın 4-də Heydər Əliyev Sarayında Rusiya estradasının ulduzu, SSRİ-nin və Rusiya Federasiyasının xalq artisti Alla Puqaçovanın konserti olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva konsertdə olmuşlar.

Saraya toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.

Müğənni dəfələrlə uğurla çıxış etdiyi ölkəmizin möhtəşəm sarayında "Apreldən-aprelə" dünya turnesi çərçivəsində "Məhəbbət haqqında röyalar" adlı konsertində repertuarındakı həm retro, həm də yeni mahnıları ifa etdi.

Bakıya növbəti səfərinə görə hədsiz xoşbəxt olduğunu deyən müğənni paytaxtımızda gəzintiyə çıxdığını, şəhərimizin daha da gözəlləşdiyini söylədi. "Siz xoşbəxtsiniz ki, Bakınız belə inkişaf edir, gözəlləşir. Bakıda müsbət mənada baş verən dəyişikliklər məni ürəkdən sevindirir. Vurğunu olduğum Bakının inkişafına görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm", - deyən müğənni bu konsertin onun Bakıda pərəstişkarları ilə sonuncu görüşü olduğunu bir daha bəyan etdi. Dedi ki, gələcəkdə fəaliyyətini kino, teatr və radioda davam etdirəcəkdir.

Bənzərsiz ifası, səmimi ünsiyyəti ilə tamaşaçıları həmişə məftun edən Alla Puqaçovanın budəfəki çıxışı da konsert boyu dəfələrlə alqışlarla qarşılandı.

Konsertdən sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Alla Puqaçova ilə görüşdü.

Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında mədəni əlaqələrin inkişafında xüsusi xidmətlərinə görə Alla Puqaçovaya respublikamızın ali mükafatını - "Dostluq" ordenini təqdim etdi.

Konsertin maraqlı keçdiyini qeyd edən dövlətimizin başçısı Alla Puqaçovaya gələcək fəaliyyətində yeni-yeni uğurlar və can sağlığı arzuladı.

Məşhur müğənni ordenə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi.

Alla Puqaçova yenidən Azərbaycanda, Bakı şəhərində olmağından böyük məmnunluq hissi keçirdiyini bildirdi.

AZƏRTAC İLƏ "XOVAR" ARASINDA SAZİŞ İMZALANMIŞDIR

Sentyabrın 1-də Dövlət Teleqraf Agentliyi (AzərTAc) ilə Tacikistanın "Xovar" Milli İnformasiya Agentliyi arasında informasiya mübadiləsi barədə Saziş imzalanmışdır.

İnformasiya-analitik imkanların genişləndirilməsi və zənginləşdirilməsi, Tacikistanda və Azərbaycanda baş verən hadisələr barədə müntəzəm informasiyaların əldə olunması məqsədi ilə imzalanan Sazişə əsasən, tərəflər öz ölkələrinin daxili və beynəlxalq həyatının aktual hadisələri barədə rus və ingilis dillərində müntəzəm surətdə operativ və dəqiq informasiya materiallarının ödənişsiz mübadiləsini aparacaqlar.

Rəsmi nümayəndə heyətlərinin qarşılıqlı səfərləri zamanı informasiya dəstəyi təminatının, qabaqcıl təcrübənin öyrənilməsi və ixtisasartırma məqsədi ilə jurnalistlərin, fotomüxbirlərin və digər mütəxəssislərin mübadiləsinin nəzərdə tutulduğu sənədi AzərTAc-ın Baş direktoru Aslan Aslanov və "Xovar"ın direktoru Sadriddin Şamsuddinov imzalamışlar.

Tərəflər özlərinə məxsus veb-portallarda, veb-saytlarda və digər mümkün informasiya resurslarında banner mübadiləsi də aparacaqlar.

MDB İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK ORQANLARI VƏ KƏŞFİYYAT XİDMƏTLƏRİ RƏHBƏRLƏRİ MÜŞAVİRƏSİNİN NÖVBƏTİ İCLASI GƏLƏN İL BAKIDA KEÇİRİLƏCƏKDİR

Milli Təhlükəsizlik Nazirliyi ictimai əlaqələr mərkəzindən bildirmişlər ki, nazir general-leytenant Eldar Mahmudovun rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 2-dən 4-dək Moskvada MDB iştirakçısı olan dövlətlərin Təhlükəsizlik Orqanları və Kəşfiyyat Xidmətləri Rəhbərləri Müşavirəsinin 10-cu iclasında iştirak etmişdir.

İclasda transmilli mütəşəkkil cinayətkarlıq, onun müxtəlif təzahürləri, xüsusilə də getdikcə daha geniş miqyas və təhlükəli xarakter alan beynəlxalq terrorçuluqla mübarizə sahəsində əməkdaşlığın yeni reallıqlara uyğun təkmilləşdirilməsi və inkişafı məsələləri müzakirə olunmuşdur. Qeyd edilmişdir ki, kəşfiyyat və xüsusi xidmət orqanları arasında əməkdaşlığın inkişafı dövlətlərarası münasibətlərin vacib hissəsi olmaqla, MDB ölkələrinin təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Tədbirin sonunda iclasın nəticələri üzrə Memorandum qəbul olunmuşdur. Memorandumda bundan sonra da iştirakçı dövlətlərin həyati əhəmiyyətli maraqlarına qarşı yönəlmiş beynəlxalq terrorçuluqla, ekstremizmlə, narkotiklərin qanunsuz dövriyyəsi, habelə dünya maliyyə böhranı ilə əlaqədar mənfi təsirlərlə və digər təhdidlərlə mübarizədə səylərin artırılmasının vacibliyi qeyd olunmuşdur.

İclasda, həmçinin məlumat mübadiləsinin, iki və çoxtərəfli əməkdaşlığın hüquqi bazasının inkişaf etdirilməsi məqsədilə tərəfdaşlığın yeni, daha səmərəli forma və metodlarının işlənib hazırlanmasının zəruriliyi vurğulanmışdır. Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Mixail Fradkov müşavirənin növbəti il üçün daimi forumunun sədri seçilmişdir. Nümayəndə heyətlərinin rəhbərlərini Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev qəbul etmişdir.

Tədbir çərçivəsində nazir Eldar Mahmudovun tərəfdaş xüsusi xidmət orqanlarının nümayəndələri ilə keçirdiyi ikitərəfli görüşlərdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

MDB iştirakçısı olan dövlətlərin Təhlükəsizlik Orqanları və Kəşfiyyat Xidmətləri Rəhbərləri Müşavirəsinin növbəti iclasının gələn il Bakıda keçirilməsi qərara alınmışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLİYİ PAKİSTAN, ƏFQANISTAN VƏ TACİKİSTANDAKI VƏZİYYƏTLƏ BAĞLI VƏTƏNDAŞLARA XƏBƏRDARLIQ ETMİŞDİR

Sentyabrın 7-də Azərbaycanın Xarici İşlər Nazirliyi Pakistanda, Əfqanıstanda və Tacikistanda yaranmış vəziyyətlə bağlı vətəndaşları xəbərdar etmişdir.

Pakistanda son vaxtlar terrorçuluq və dini qruplaşmalar arasında toqquşmalar güclənmişdir. Dövlət rəsmilərinə, xüsusilə də xarici ölkələrin vətəndaşlarına qarşı çoxlu hücumlar və sui-qəsdlər törədilmişdir. Bu ölkədə terrorçu qruplaşmalar tərəfindən xarici vətəndaşların qaçırılması və girov götürülməsi halları artmışdır.

Əfqanıstanla bağlı xəbərdarlıqda bildirilir ki, bu ölkə də xarici ölkələrin vətəndaşları üçün olduqca təhlükəlidir. Mehmanxanalar, hökumət binaları, beynəlxalq institutlara

məxsus obyektlər potensial hədəflər sırasındadır. Onların heç biri hücum təhlükəsindən sığortalanmamışdır. Əfqanıstanın paytaxtı Kabildəki hava limanına və xarici pilot heyətinə qarşı hücumlar olmuşdur. Aeroporta gedən və onun ətrafında yerləşən yollar da olduqca təhlükəlidir. Quru yolu ilə Kabil ətrafında yerləşən ərazilərə səfərlər xüsusilə təhlükəlidir. Bu ərazilərə səfərlər Əfqanıstan hökuməti tərəfindən qadağan edilmişdir. Ölkənin bir çox ərazilərində minalar basdırılmışdır. Buna görə də heç bir ərazi təhlükəsiz hesab olunmur.

Tacikistana dair xəbərdarlıqda deyilir ki, bu ölkədə təhlükəsizliklə bağlı ümumi vəziyyət sabit olsa da, Əfqanıstan, Qırğızıstan və Özbəkistan ilə sərhəd ərazilərinə səfərlər çox təhlükəlidir. Paytaxt Düşənbə təhlükəsiz olsa da, Əfqanıstanla sərhəd ərazilərdə tez-tez narkotik alverçiləri və sərhədçilər arasında silahlı toqquşmalar olur.

Xəbərdarlıqlarda Pakistan, Əfqanıstan və Tacikistana səfər edən vətəndaşlara tövsiyə olunur ki, Azərbaycanın həmin ölkələrdəki səfirlikləri ilə əlaqə saxlasınlar və konsulluq qeydiyyatına düşsünlər.

GÜRCÜSTANDA AZPROMO-NUN NÜMAYƏNDƏLİYİ AÇILMIŞDIR

Sentyabrın 8-də Gürcüstanın paytaxtı Tbilisi şəhərində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) nümayəndəliyi açılmışdır.

Tədbirdə iştirak etmək məqsədi ilə iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov, nazirliyin əməkdaşları, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Milli Məclisin deputatı Qənirə Paşayeva, AZPROMO-nun prezidenti vəzifəsini icra edən Fəridə Axundova və bir qrup iş adamı Gürcüstana səfər etmişlər.

Açılış mərasimindən əvvəl Azərbaycan nümayəndə heyəti ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək büstünün qarşısına əklil qoymuşlar.

İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş mərasimdə Azərbaycan və Gürcüstan tərəfdən rəsmi şəxslərlə yanaşı, sənaye, kənd təsərrüfatı, informasiya texnologiyaları, turizm, tikinti və nəqliyyat sahələrində fəaliyyət göstərən 30-a yaxın iş adamı iştirak etmişdir.

Tədbirdə iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən sosial-iqtisadi siyasət nəticəsində əldə edilmiş uğurlar barədə məlumat vermişdir. Qeyd etmişdir ki, həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda əlverişli biznes mühiti formalaşmış, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, bir sıra ölkələrlə, o cümlədən Gürcüstanla ikitərəfli əlaqələrin inkişaf etdirilməsi sahəsində ciddi irəliləyişlərə nail olunmuşdur. AZPROMO-nun Gürcüstanda nümayəndəliyinin yaradılması da iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətlidir.

Gürcüstanın iqtisadi inkişaf naziri Zurab Polelikaşvili çıxışında ölkələr arasında iqtisadi əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri barədə ətraflı məlumat vermiş, AZPROMO-nun Gürcüstanda nümayəndəliyinin açılmasının əlaqələrin daha da inkişaf etdirilməsində rolunu qeyd etmişdir.

Azərbaycanın Gürcüstandakı səfiri Namiq Əliyev və Gürcüstanın Azərbaycandakı səfiri Nikoloz Natbiladze ölkələr arasında əməkdaşlığın inkişaf etdiyini, AZPROMO-nun Gürcüstanda nümayəndəliyinin açılmasının əlaqələrin daha da intensivləşməsinə töhfə verəcəyini vurğulamışlar. Namiq Əliyev Azərbaycanın Gürcüstandakı səfirliyi tərəfindən nümayəndəliyə lazımi dəstək göstəriləcəyini də bildirmişdir.

Mili Məclisin deputatı Qənirə Paşayeva iki ölkə arasında tarixi dostluq əlaqələrinin inkişaf etdiyini vurğulamış, AZPROMO-nun Gürcüstanda nümayəndəliyinin açılmasının iqtisadi əməkdaşlığın genişləndirilməsində faydalı olacağını qeyd etmişdir.

AZPROMO-nun prezidenti vəzifəsini icra edən Fəridə Axundova tədbir iştirakçılarına qurumun Gürcüstan nümayəndəliyinin məqsəd və vəzifələri haqqında ətraflı məlumat vermişdir.

Sonra tədbir iştirakçıları AZPROMO-nun Gürcüstandakı nümayəndəliyinin ofisi ilə yaxından tanış olmuşlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ CAN LUİCİ MAŞANI DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da İtaliya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Can Luici Maşanı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Prezident İlham Əliyev İtaliyaya uğurlu səfərlərini, orada Baş nazir və Prezidentlə keçirdiyi görüşləri məmnunluqla xatırladı. Dövlətimizin başçısı ölkələrimizin gələcək illərdə də uğurla əməkdaşlıq edəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev Can Luici Maşanın ölkəmizdə səfir kimi fəaliyyəti dövründə Azərbaycan-İtaliya ikitərəfli əlaqələrinin inkişafı işinə öz töhfəsini verdiyini qeyd etdi və gələcək fəaliyyətində ona uğurlar arzuladı.

Səfir İtaliyanın Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini vurğuladı, ölkələrimiz arasında münasibətlərin bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etdi. Can Luici Maşa Prezident İlham Əliyevə onun səfir kimi fəaliyyətinə verdiyi yüksək qiymətə görə minnətdarlığını bildirdi.

AZƏRBAYCAN VƏ TUVALU RESPUBLİKALARI ARASINDA DİPLOMATİK ƏLAQƏLƏRİN QURULMASI HAQQINDA BİRGƏ RƏSMİ SƏNƏD İMZALANMIŞDIR

Sentyabrın 9-da ölkəmizin BMT yanında daimi nümayəndəliyində Azərbaycan Respublikası və Tuvalu Respublikası arasında diplomatik əlaqələrin qurulması haqqında Birgə Rəsmi Sənəd imzalanmışdır.

Nümayəndəlikdən bildirmişlər ki, sənədi Azərbaycan Respublikası Hökuməti adından ölkəmizin BMT yanında daimi nümayəndəsi səfir Aqşin Mehdiyev, Tuvalu Hökuməti adından Tuvalunun BMT yanında daimi nümayəndəsi səfir Afelee Pita imzalamışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ERICSSON ŞİRKƏTİNİN BİRİNCİ VİTSE-PREZİDENTİ HANS VESTBERQİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Ericsson şirkətinin birinci vitse-prezidenti Hans Vestberqi qəbul etmişdir.

Görüşdə Ericsson şirkətinin uzun illər Azərbaycanda uğurla fəaliyyət göstərdiyi qeyd olundu, ölkəmizin informasiya texnologiyaları sahəsindəki inkişafına görə keçmiş sovet ölkələri arasında ön sıralarda olduğu bildirildi. Vurğulandı ki, bu cür yüksək göstəricilərə dünya miqyasında da nail olmaq üçün Azərbaycanın böyük potensialı vardır.

Söhbət zamanı ölkəmiz ilə Ericsson şirkəti arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

MACARISTAN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ DƏSTƏKLƏYİR VƏ SUVERENLİYİNƏ HÖRMƏTLƏ YANAŞIR

Sentyabrın 10-da Milli Məclis sədrinin birinci müavini, parlamentin təhlükəsizlik və müdafiə məsələləri komitəsinin sədri Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Macarıstan Respublikası Müdafiə Nazirliyinin dövlət katibi xanım Aqneş Vadainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaqları Azərbaycan parlamentində salamlamaqdan məmnunluq duyduğunu bildirən Ziyafət Əsgərov demişdir ki, ölkəmiz müstəqillik qazandıqdan sonra bir çox dövlətlər, o cümlədən Macarıstan ilə diplomatik münasibətlər qurmuş, ikitərəfli əlaqələr yaratmışdır. Hazırda ölkələrimiz arasında əməkdaşlıq əlaqələri yüksələn xətt üzrə inkişaf edir. İndiki şəraitdə dövlətlərarası əməkdaşlığı daha dərinləşdirmək üçün hər iki ölkənin böyük potensialı vardır.

Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana və Macarıstanın Baş nazirinin ölkəmizə səfərlərini xatırladan Milli Məclis sədrinin birinci müavini qarşılıqlı səfərlər zamanı imzalanmış sənədlərin ikitərəfli əlaqələrin inkişafına mühüm töhfələr verdiyini söyləmişdir. Qeyd etmişdir ki, ölkələrimiz arasında münasibətlər beynəlxalq hüquq normalarının prinsiplərinə əsaslanır.

Daha sonra Z.Əsgərov Azərbaycan-NATO əlaqələrindən söhbət açmış və bildirmişdir ki, ölkəmizin silahlı qüvvələri NATO ilə imzalanmış proqramlara uyğun olaraq ordu quruculuğu sahəsində islahatları davam etdirir. Azərbaycan ordusu NATO standartlarına uyğunlaşdırılır.

Görüşdə Milli Məclis sədrinin birinci müavini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də söhbət açmışdır. Vurğulamışdır ki, Ermənistan beynəlxalq hüquq normalarını kobud surətdə pozaraq hələ də Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlayır, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün həyatı yaşayır. Təəssüf ki, beynəlxalq ictimaiyyət təcavüzkar dövlətin bu antibəşəri hərəkətlərini sadəcə seyr edir. İstərdik ki, NATO Parlament Assambleyası bu məsələ ilə bağlı qəti mövqeyini nümayiş etdirsin.

Macarıstan nümayəndə heyətinin rəhbəri xanım Aqneş Vadai səmimi görüş üçün minnətdarlığını bildirərək, Azərbaycana bu səfərin əsas məqsədinin ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın genişləndirilməsi olduğunu diqqətə çatdırmışdır. Qonaq Macarıstanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və suverenliyinə hörmətlə yanaşdığını xüsusi vurğulamışdır. O, Azərbaycan və Ermənsitan prezidentlərinin görüşlərini diqqətlə izlədiklərini bildirmiş, belə təmasların Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə nizamlanmasına müsbət təsir göstərəcəyinə inamını ifadə etmişdir.

Xanım Aqneş Vadai ölkəsinin Azərbaycan ilə əməkdaşlığın getdikcə daha da dərinləşməsinə böyük əhəmiyyət verdiyini vurğulamış, 2007-ci ildə Macarıstan parlamentində Macarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun yaradıldığını buna bariz nümunə olduğunu söyləmiş, elə həmin ildən etibarən Azərbaycanda Macarıstanın səfirliyinin fəaliyyət göstərdiyini diqqətə çatdırmışdır. Qonaq ölkəsinin Azərbaycan ilə hərbi sahədə əməkdaşlıqda da maraqlı olduğunu bildirmişdir.

Görüşdə, həmçinin parlamentlərarası və hərbi sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafı, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

KİYEVDƏ GUAM-IN MİLLİ ƏLAQƏLƏNDİRİCİLƏR ŞURASININ XVII İCLASI KEÇİRİLMİŞDİR

Sentyabrın 10-11-də Kiyevdə Demokratiya və İnkişaf Uğrunda Təşkilatın - GUAM-ın Milli Əlaqələndiricilər Şurasının (MƏŞ) XVII iclası olmuşdur.

İki gün davam etmiş iclasda ölkəmizi Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov təmsil etmişdir.

Ukrayna paytaxtında yerləşən GUAM Katibliyinin rəsmi saytında verilən məlumata görə, müşavirədə Təşkilatın Xarici İşlər Nazirləri Şurasının bu il sentyabrın 25-də BMT Baş Assambleyasının 64-cü sessiyası çərçivəsində Nyu-Yorkda keçiriləcək növbəti iclasının proqram layihəsi və gündəliyi müzakirə edilmiş, müvafiq sənədlərin layihələri razılaşdırılmışdır.

Tərəflər GUAM formatında əməkdaşlıq məsələlərinin geniş spektrinə dair fikir mübadiləsi aparmış, zəruri tövsiyələr hazırlamış və MƏŞ-in növbəti iclasının bu il noyabrın ortalarında Kiyevdə keçirilməsi barədə razılığa gəlmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA SƏFƏRİ

Sentyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana səfərə gəlmişdir.

Azərbaycan dövlətinin başçısını Aktau beynəlxalq hava limanında Qazaxıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

Milli geyimli qız Azərbaycan Prezidentinə gül dəstəsi təqdim etdi.

Sonra Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Dmitri Medvedev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovla birgə Aktau beynəlxalq hava limanının yeni istifadəyə verilmiş binası ilə tanış oldular.

AZƏRBAYCAN, QAZAXISTAN, RUSİYA VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

Sentyabrın 11-də Qazaxıstanın Aktau şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin, Rusiya Prezidenti Dmitri Medvedevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun görüşü olmuşdur.

Əvvəlcə görüş iştirakçıları xatirə şəkli çəkdirdilər.

Qazaxıstan Prezidenti Nursultan NAZARBAYEV görüşü açaraq dedi:

- Çox təşəkkür edirəm ki, Siz bu gün, cümə günü Qazaxıstanın Xəzər dənizinin yaxınlığında yerləşən daha bir guşəsini sizə qeyri-rəsmi şəraitdə göstərə bilmək, istirahət günlərini burada keçirmək, işlərimiz, ölkələrimiz arasında ticarət barədə söhbət etmək üçün mənim təklifimi qəbul etdiniz. Bu da çox vacibdir ki, Qazaxıstan buradan, Aktau ərazisindən Bakı, Mahaçqala, Türkmənbaşı ilə ticarət edir və biz dövlətlərimizin hamısının rifahı naminə bu işi gücləndirə bilərik. Bu gün biz Xəzər dənizi problemini müzakirə etmirik - təbii ki, bu, başqa mövzudur. Biz həmin mövzunu axırıncı dəfə Tehranda müzakirə etdik, növbəti görüşü Bakıda keçirmək qərara alındı. Ümid edirik ki, yaxın gələcəkdə biz hamımız, Tehran tərəfinin də iştirakı ilə, bir yerə toplaşacaq və hamımız üçün vacib olan bu məsələni müzakirə edəcəyik. Buna görə bu məsələ bizim bugünkü gündəlikdə yoxdur. Bu görüş qeyri-formal görüşdür. Biz burada ikitərəfli, çoxtərəfli məsələləri müzakirə edə və Xəzər sahilində vaxtımızı xoş keçirə bilərik. Sağ olun.

* * *

Sonra Rusiya Federasiyasının Prezidenti Dmitri MEDVEDEV çıxış edərək dedi:

- Hörmətli həmkarlar, mən Sizin hamınızın yanında Nursultan Abişeviçə bizi burada vaxtımızı keçirməyə dəvət etdiyinə görə təşəkkür etmək istərdim. Hər halda bura mənim üçün tamam təzə yerdir. Mən Aktauya və gedəcəyimiz başqa yerlərə məmnuniyyətlə tamaşa edəcəyəm. Söhbət üçün mövzular isə kifayət qədərdir. İndicə biz Orenburqda ikitərəfli görüş keçirdik. Bizim hamımızın ikitərəfli layihələrimiz vardır. Onları inkişaf etdirmək lazımdır, söhbət üçün mövzu da vardır.

Mən hesab edirəm ki, əlbəttə, Xəzər mövzusu bu məsələyə aidiyyəti olan bütün dövlətlərin iştirakı ilə müzakirə olunmasını tələb edir. Buna görə də təklif edilən ideya - burada müzakirələr aparmaq və sonra Tehran görüşünün qərarına əsasən Bakıda keçiriləcək Sammitə hazırlaşmaq səmərəli ideyadır. Əlbəttə, İlham Heydər oğlu bizi öz Vətəninə qonaq çağıracaqdır. Lakin əsas məsələ, əlbəttə, o vaxta qədər bu və ya digər baza parametrləri barəsində razılığa gəlməkdir.

Bugünkü görüşün gündəliyinə gəldikdə isə, zənnimcə, həqiqətən kifayət qədər məsələ vardır. Bunlar həm ikitərəfli, həm də çoxtərəfli məsələlərdir. Qarşıda BMT-nin Baş Məclisi kimi bir neçə iri beynəlxalq tədbir gözlənilir. Biz həmin tədbirdə bu və ya digər qisimdə iştirak edəcəyik. Baş Məclisdən sonra dünyanın ən iri iqtisadiyyata malik olan 20 ölkəsinin liderlərinin görüşü keçiriləcəkdir. Bu məsələyə dair Rusiyanın mövqeyi, bizim nə təklif etməyə hazırlaşmağımız, hansı mərhələdə olmağımız barədə sizə yoldaşcasına məlumat vermək istərdim. Görünür, iqtisadiyyatlar gərgin vəziyyətdən çıxmağa başlayır. Lakin arxayınlaşmaq hələ tezdir və çox vacibdir ki, dünya birliyi, ən iri

iqtisadiyyatlar beynəlxalq maliyyə sistemində islahatlar və onun yenidən qurulması istiqamətində növbəti addımlar atsınlar.

Mən hiss edirəm ki, bu gün heç də hamı buna çalışmır. Bəziləri istəyir ki, bütün bu vəziyyəti olduğu kimi dondurub və deyək ki, hər şey yaxşı idi. Deməli, heç kəsin heç bir təqsiri yoxdur və gələcəkdə daha yaxşı olacaqdır. Əslində isə, heç də belə deyildir. Beynəlxalq maliyyə sisteminin əsaslı şəkildə yenidən qurulmasına bizim hamımızın ehtiyacı var və dünya maliyyə böhranının təsirini ölkələrimiz, ümumiyyətlə, öz üzərlərində hiss edirlər. Hamımızın çətinlikləri vardır. Buna görə də mən məsələyə öz yanaşmalarımızı sizinlə müzakirə etmək və ola bilsin ki, müəyyən ümumi mandata malik olub, iyirmilərin görüşündə bu mövqeyi müdafiə etmək istərdim. Əlbəttə, başqa məsələləri də imkan daxilində müzakirə etmək lazımdır. Sağ olun.

* * *

Türkmənistan Prezidenti Qurbanqulu BERDİMƏHƏMMƏDOV dedi:

- Nursultan Abişeviç, dəvətinizə görə, bu gün gözəl Qazaxıstan torpağında olmağımıza görə sağ olun. Həqiqətən, burada çox düzgün olaraq deyildi ki, Xəzər dənizi məsələlərini beştərəfli formatda, yəni İranın iştirakı ilə nəzərdən keçirmək yaxşı olardı. Onu da düzgün dedilər ki, bizim aramızda həm dövlətdaxili, həm də regional xarakterli çoxlu məsələlər yığılıb qalmışdır. Mənim fikrimcə, bizim görüşümüz prinsip etibarilə əməkdaşlıq məsələlərində çox yaxşı nəticələr verəcəkdir. Sağ olun.

* * *

Daha sonra Azərbaycan Prezidenti İlham ƏLİYEV çıxış edərək dedi:

- Hörmətli Nursultan Abişeviçə bizi qardaş Qazaxıstana dəvət etdiyi üçün təşəkkürümü bildirmək istərdim. Mən Sizin ölkəyə gələrkən, - həm ünsiyyətdə olmaq, həm də yeni şəhərlərlə tanışlıq imkanına görə, - həmişə çox yaxşı hisslər keçirirəm. Biz müxtəlif tədbirlərdə, o cümlədən MDB-nin formal və qeyri-formal sammitlərində tez-tez görüşürük. Buna görə bizim ünsiyyətimiz təbii prosesdir və Sizin təşəbbüsünüzlə keçirilən bugünkü görüş də qarşılıqlı maraq doğuran məsələlərə dair, qeyri-formal şəraitdə, gündəliyi təsdiq edilməmiş, istər çoxtərəfli, istərsə də ikitərəfli formatda, sadəcə, fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaradacaqdır. Ölkələrimiz arasında çox yaxşı münasibətlər vardır. Təbii ki, biz Xəzəryanı dövlətlərin Tehranda keçirilmiş axırıncı sammitində qərara alındığı kimi, növbəti sammiti Bakıda keçirməyə hazırlaşırıq. Fəal iş gedir, ekspertlər işləyir və əlbəttə, istərdik ki, biz Bakıda keçiriləcək sammitə konkret qərarlarla gedək, elə edək ki, bu sammit də Tehran sammiti kimi irəliyə doğru böyük bir addım olsun. Tehran sammitinin qərarları çox vacibdir və əminəm ki, həmin qərarların həyata keçirilməsi nəticəsində Xəzər dənizinin delimitasiyası məsələləri dostluq, mehriban qonşuluq zəminində uğurla həll ediləcəkdir. Bu gün ölkələrimiz arasında başqa sahələrdə də mövcud olan məsələləri müzakirə etmək üçün, sadəcə yaxşı imkan yaranmışdır.

Mən hörmətli həmkarlarımı bir daha salamlamaq və Nursultan Abişeviç, Sizə təşəkkür etmək istərdim ki, Siz, adətən olduğu kimi ünsiyyət üçün bu cür gözəl şərait yaradırsınız.

***

Nursultan NAZARBAYEV təşəkkür edərək dedi:

- Əziz dostlar! İndicə Dmitri Anatolyeviçlə Orenburqdan, ikitərəfli regional görüşdən gəlmişik. Bizim Rusiya ilə, Türkmənistanla, Azərbaycanla çox səmimi, etimada əsaslanan münasibətlərimiz vardır. Bizim aramızda ciddi, böyük problem yoxdur. Yaranan digər problemləri danışıqlar yolu ilə həll edə bilərik və biz hamımız belə də edirik. Bu söhbət, sərbəst fikir mübadiləsi bizim hamımızın xeyrinə, xalqlarımızın xeyrinə olacaqdır! Çox sağ olun ki, buradasınız. Təşəkkür edirəm.

SƏFƏR BAŞA ÇATDI

Sentyabrın 11-də Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri başa çatmışdır.

Azərbaycan dövlətinin başçısını Aktau beynəlxalq hava limanında Qazaxıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

AZƏRBAYCAN İLƏ AVROPA ŞURASI ARASINDA ÇOX GÖZƏL MÜNASİBƏTLƏR FORMALAŞMIŞDIR

Sentyabrın 11-də Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin sədri vəzifəsini icra edən Yan Mikallefin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaqları Azərbaycan parlamentində salamlamaqdan məmnun olduğunu bildirən Z.Əsgərov, ölkəmizlə Avropa Şurası arasında çox gözəl münasibətlərin formalaşdığını vurğulamış, bu səfərin ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinə təkan verəcəyini söyləmişdir.

Azərbaycanın hakimiyyət orqanlarının, o cümlədən parlamentin yerli demokratiyanın inkişafına mühüm əhəmiyyət verdiklərini diqqətə çatdıran Milli Məclis sədrinin birinci müavini, cari ilin dekabrında ölkəmizdə keçiriləcək bələdiyyə seçkilərinin bu istiqamətdə uğurlu addım olacağını bildirmişdir.

Milli Məclis sədrinin birinci müavini Azərbaycanda bu il martın 18-də keçirilmiş referendumun nəticələrinə uyğun olaraq, Konstitusiyaya bir sıra əlavələrin və dəyişikliklərin edildiyini avropalı qonaqların diqqətinə çatdırmışdır. Vurğulamışdır ki, bunlardan biri yerli demokratiyanın inkişafı məsələsi ilə bağlıdır. Konstitusiyaya edilmiş dəyişikliklərə əsasən, bundan sonra bələdiyyələr ölkənin qanunverici orqanı olan Milli Məclis qarşısında hesabat verəcəklər. Eyni zamanda, referendumun nəticələrinə uyğun olaraq, ölkədə bələdiyyələrin birləşdirilməsi prosesi gedir. Biz hesab edirik ki, kiçik bələdiyyələrin böyük yerli özünüidarəetmə orqanlarına birləşdirilməsi ölkədə yerli demokratiyanın daha da inkişafına təkan verəcəkdir.

Ziyafət Əsgərov demişdir ki, Azərbaycan Avropa Şurasına üzv qəbul olunarkən bu nüfuzlu beynəlxalq qurum qarşısında götürdüyü öhdəliklərin böyük əksəriyyətini artıq yerinə yetirmişdir. Qalan bəzi öhdəliklərin reallaşdırılması istiqamətində fəal iş aparıldığını deyən Z.Əsgərov, buna bariz nümunə kimi "Alvernativ xidmət haqqında" qanun layihəsini göstərmişdir. Bildirmişdir ki, artıq bu qanun layihəsinə bir sıra əlaqədar yerli orqanlar müsbət rəy vermişlər və yaxın vaxtlarda sənəd münasibət bildirmək üçün Avropa Şurasının Venesiya komissiyasına göndəriləcəkdir.

Milli Məclis sədrinin birinci müavini Azərbaycanın qarşıdakı parlament seçkilərində Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyələrini yerinə yetirməyə hazır olduğunu vurğulamışdır.

Nümayəndə heyətinin rəhbəri Yan Mikallef səmimi görüşə görə minnətdarlığını bildirərək təmsil etdiyi qurumun Azərbaycanda yerli demokratiyanın inkişafı istiqamətində atılan addımları yüksək qiymətləndirdiyini söyləmişdir. Qonaq Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin Azərbaycanda bu ilin sonunda keçiriləcək bələdiyyə seçkilərini izləmək niyyətində olduğunu diqqətə çatdırmışdır. Vurğulamışdır ki, əgər Azərbaycanın hakimiyyət orqanlarının müsbət rəyi olsa, təmsil etdiyi qurum seçkiqabağı proseslərdə iştirak etməyə də hazırdır.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər aktual məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI

Sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevə telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Dmitri Medvedevi ad günü münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.

Prezident Dmitri Medvedev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirmişdir.

Dövlət başçıları Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə etmiş, iki ölkə prezidentləri arasında keçirilən mütəmadi görüşlərin münasibətlərimizin daha da möhkəmlənməsi baxımından əhəmiyyətini vurğulamışlar. Prezidentlər ölkələrimiz arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əmin olduqlarını bildirmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI ANDRİS PİEBALQSI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Andris Piebalqsı qəbul etmişdir.

Andris Piebalqs "Əsrin müqaviləsi"nin 15-ci ildönümü münasibətilə dövlətimizin başçısını təbrik etdi və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Bu gün Azərbaycan Prezidentinin Bakıda məktəb binasının açılışı ilə bağlı tədbirdə işti-

rakından məlumatlı olduğunu bildirən qonaq, ölkədə məktəblərin tikintisinə qoyulan vəsaitin gələcək üçün ən yaxşı investisiya olduğunu dedi. Avropa komissarı Avropa İttifaqının Azərbaycan ilə əməkdaşlığının yüksək səviyyədə olduğunu bildirərək, təmsil etdiyi qurumun bu münasibətlərin genişlənməsində maraqlı olduğunu qeyd etdi.

"Əsrin müqaviləsi"nin əhəmiyyətinə toxunan dövlətimizin başçısı ötən 15 il ərzində ölkəmizin böyük inkişaf yolu keçdiyini və energetika sahəsindəki nailiyyətlərin bu uğurların əldə edilməsində önəmli rol oynadığını vurğuladı. Avropa Komissiyasına sonuncu səfərini xatırlayan dövlətimizin başçısı, bu səfərin uğurlu və faydalı olduğunu dedi. Prezident İlham Əliyev əməkdaşlıq çərçivəsində gələcəkdə də birgə işlərin həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Avropa qonşuluq siyasəti və Avropa İttifaqının Şərq tərəfdaşlığı proqramı, eləcə də enerji dialoqu bir-biri ilə sıx bağlı olan məsələlərdir və bütün bu istiqamətlərdə yaxşı nəticələr əldə olunmuşdur. Prezident İlham Əliyev əminliklə bildirdi ki, Avropa İttifaqı ilə əlaqələrimiz daha da möhkəmlənəcək və yeni sahələri əhatə edəcəkdir.

Dövlətimizin başçısı Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa Komissiyasının sədrinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ QRİQOL VAŞADZENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadzeni qəbul etmişdir.

Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadze Gürcüstan Prezidenti Mixail Saakaşvilinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin ayrı-ayrı istiqamətlərdə inkişaf etdiyi vurğulandı, münasibətlərin genişlənməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd edildi, Gürcüstanın xarici işlər nazirinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.

Dövlətimizin başçısı Gürcüstan Prezidenti Mixail Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "ƏSRİN MÜQAVİLƏSİ"NİN 15-Cİ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Sentyabrın 15-də "Buta" sarayında "Əsrin müqaviləsi"nin 15-ci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

On beş il əvvəl - 1994-cü il sentyabrın 20-də Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında" Azərbaycan Dövlət

Neft Şirkəti ilə dünyanın inkişaf etmiş ölkələrinin tanınmış neft şirkətləri arasında müqavilə imzalanmışdır. Müstəqil ölkəmizin bu günü və gələcəyi üçün böyük əhəmiyyəti olan, xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış bu sənəd beynəlxalq aləmdə yüksək qiymətləndirilərək "Əsrin müqaviləsi" adını almışdır. Bu müqavilə müstəqil respublikamızın salnaməsinə qızıl hərflərlə həkk olunmuş və müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin neft strategiyasının şanlı səhifəsini açmışdır. "Əsrin müqaviləsi"ndə dünyanın səkkiz ölkəsinin 13 ən məşhur neft şirkəti iştirak etmişdir. "Əsrin müqaviləsi" sonrakı illərdə dünyanın 19 ölkəsinin 40-dan çox neft şirkəti ilə 30-dək sazişin imzalanmasına imkan yaratdı. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının həcminə, həm də qoyulan sərmayələrin məbləğinə görə dünyada bağlanan ən böyük sazişlər siyahısına daxil olmuşdur.

"Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında dönüş yaranmış və böyük işlərə başlanmışdır. Birinci növbədə, 1995-ci ildə ilkin neft hasilatı layihəsi çərçivəsində "Çıraq-1" özülü Qərb standartlarına uyğun olaraq bərpa edilmişdir. 1997-ci ildə "Çıraq" yatağından ilk neftin hasilatına başlanmışdır. Mənfəət neftinin satışından əldə edilən valyuta ümummilli liderimiz Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil olur və xalqımıza böyük fayda verir.

1999-cu ilin noyabrında ATƏT-in İstanbul sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) əsas neft ixrac kəmərinin çəkilməsi haqqında dövlətlərarası Müqavilə imzalanmışdır. 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında ümummilli liderimiz Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyulmuş və tikintisinə başlanmışdır.

Ulu öndər bu hadisəni belə xarakterizə etmişdi: "Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".

Yeddi il sonra - 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirilmişdir.

Prezident İlham Əliyev XVI Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransındakı nitqində demişdir: "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanda yeni neft strategiyasının başlanması demək idi. Bu gün uğurla icra edilən neft siyasətimiz həm Azərbaycanın enerji təhlükəsizliyini təmin etdi, Azərbaycanı dünya birliyinə çox etibarlı ölkə və etibarlı tərəfdaş kimi təqdim etdi və eyni zamanda, bu gün bizim ölkəmiz və neft-qaz imkanlarımız geniş mənada qitənin enerji təhlükəsizliyi üçün əvəzolunmaz funksiyalar daşıyır".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Əsrin müqaviləsi"nin 15-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişlər.

Salona toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizi və bütün Azərbaycan xalqını "Əsrin müqaviləsi"nin 15-ci ildönümü münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

On beş il bundan əvvəl müstəqil Azərbaycanın tarixində çox əlamətdar və böyük dərəcədə həlledici hadisə baş vermişdir. "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan qarşısında yeni imkanlar, yeni üfüqlər açmışdır. Azərbaycan o vaxt öz müstəqilliyinin üçüncü ilini yaşayırdı. Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçirdi. Ölkə 1991-93-cü illərdə demək olar ki, total böhran yaşayırdı. İqtisadi, siyasi, hərbi böhran Azərbaycanı çox ağır vəziyyətə salmışdı və daxili çəkişmələr, özbaşınalıq, anarxiya və xaos demək olar ki, Azərbaycanın gələcəyini də şübhə altına qoyurdu. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasından sonra vəziyyət sabitləşməyə başladı, bütün xoşagəlməz halların qarşısı alındı və Azərbaycan uğurla inkişaf yoluna qədəm qoydu. Bu hadisə - "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın uzunmüddətli uğurlu inkişaf imkanlarını gücləndirdi. Azərbaycan özünü dünyaya təqdim etdi. İlk dəfə olaraq dünyada böyük transmilli konsorsium yaradıldı. Konsorsiumun iştirakçıları - müxtəlif ölkələri təmsil edən şirkətlər və Azərbaycan Dövlət Neft Şirkəti uğurlu əməkdaşlığa başlamışdır. İlk dəfə olaraq Xəzər dənizi beynəlxalq əməkdaşlıq üçün açıldı və bunu Azərbaycan etdi. "Əsrin müqaviləsi"nin imzalanması imkan verdi ki, Xəzərin neft-qaz ehtiyatları dünyada ilk dəfə olaraq Qara dəniz və Aralıq dənizləri ilə beynəlxalq bazarlara nəql edilsin.

Yəni "Əsrin müqaviləsi"nin çox böyük tarixi əhəmiyyəti vardır.

Azərbaycana böyük investisiya axını başlamışdır. O vaxt Azərbaycan böyük maliyyə imkanlarına malik deyildi. Bizim maliyyə imkanlarımız çox məhdud idi. Bizim imkanımız yox idi ki, "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərin hissəsini özümüz işləyək, özümüz investisiyalar qoyaq. Ona görə xarici kapitalın Azərbaycana gəlməsini təmin etmək çox mühüm bir vəzifə idi. O da həqiqətdir ki, o vaxt Azərbaycan çox riskli bir ölkə kimi tanınırdı. Azərbaycanda daxildə gedən xoşagəlməz hadisələr, vətəndaş müharibəsi, Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti Azərbaycanı çox riskli bir ölkə kimi dünyaya təqdim edirdi. Bunun qarşısını almaq, Azərbaycanı informasiya blokadasından çıxarmaq, ölkəmizi olduğu kimi dünya birliyinə təqdim etmək üçün "Əsrin müqaviləsi"nin əvəzsiz rolu olmuşdur.

Mən o günləri çox yaxşı xatırlayıram. 1994-cü ildə danışıqların son mərhələsi gedirdi və Azərbaycan tərəfi çalışırdı ki, Azərbaycanın milli maraqları maksimum dərəcədə təmin olunsun və Azərbaycana böyük investisiya axını təşkil edilsin. Bu gün, 15 il keçəndən sonra deyə bilərəm ki, bu 15 il ərzində Azərbaycanın milli maraqları tam şəkildə təmin olunmuşdur. Azərbaycan bu kontraktın icrası nəticəsində böyük və uğurlu yol keçmişdir. Bizim uğurlu gələcəyimiz böyük dərəcədə 15 il bundan əvvəl imzalanmış kontrakta söykənir. Eyni zamanda, bizimlə bərabər işləyən və o vaxt bizi yaxşı tanımayan xarici şirkətlər də gördülər ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan sərmayə qoyuluşu üçün çox gözəl bir ölkədir, Azərbaycanla işləmək xeyir gətirir. Onlar qoyduqları investisiyaları mənfəətlə qaytardılar. Bu gün də əminəm ki, əməkdaşlıqdan həm biz, həm də ki, bizim xarici tərəfdaşlar razıdırlar. Bu, əslində beynəlxalq əməkdaşlığın çox gözəl nümunəsidir.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycanda xarici investisiyalar çox güclü qorunur. "Əsrin müqaviləsi" və ondan sonra imzalanan bütün kontraktlar parlamentdə ratifikasiyadan keçərək Prezident tərəfindən qanun şəklində imzalanmışdır və nə biz, nə xarici tərəfdaşlar kontraktın mətnində bir cümləni belə dəyişə bilməzlər. Bu, həm bizə rahatlıq verir, həm də xarici neft şirkətləri özlərini Azərbaycanda tam arxayın və əmin hiss edirlər. Kontraktın icrası nəticəsində Azərbaycan investisiya qoyuluşu üçün çox vacib ölkəyə çevrilmişdir. Kontrakt çərçivəsində 20 milyard dollardan çox investisiyaların qoyuluşu, eyni zamanda, qeyri-neft sektorunun inkişafına da böyük təkan verdi. Azərbaycanda yerli şirkətlər kontraktın icrasında fəal iştirak etməyə başlamışdır.

Kontraktın şərtlərinə əsasən Azərbaycan kadrlarının sayı da faiz etibarilə müəyyən edilmişdi. Azərbaycan mütəxəssislərinin sayı tədricən artdı. Bu gün bu layihədə iştirak edən mütəxəssislər, fəhlələr arasında Azərbaycan mütəxəssisləri, fəhlələri əksəriyyət təşkil edir.

Böyük investisiya layihələri Azərbaycanı dünya birliyinə tanıtdı. Ondan sonrakı dövrdə xarici neft şirkətləri ilə imzalanmış digər layihələr də Azərbaycana böyük uğurlar gətirdi.

Kontraktın müsbət nəticələri haqqında çox danışmaq olar. Mən qeyd etmək istəyirəm ki, bizim bugünkü inkişafımız, bugünkü nailiyyətlərimiz, Azərbaycanın həqiqətən müstəqil ölkə kimi dünya birliyinə qədəm qoyması böyük dərəcədə "Əsrin müqaviləsi"nin imzalanması ilə bağlıdır. Bu, çox cəsarətli və müdrik addım idi. Ulu öndər Heydər Əliyev tərəfindən atılan bu addım Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, Azərbaycanın hərtərəfli inkişafına xidmət edir. O çətin və ağır şəraitdə həm ölkə daxilində gedən çox mürəkkəb proseslər, eyni zamanda, Azərbaycanın ətrafında cərəyan edən mənfi meyillər Azərbaycanı çox ağır bir vəziyyətə qoya bilərdi. Əgər Heydər Əliyev cəsarət, uzaqgörənlik, müdriklik göstərməsə idi, Azərbaycan çox ağır vəziyyətə düşə bilərdi. Əgər kontrakt imzalanmasaydı indi təsəvvür etmək çətindir ki, Azərbaycanın bugünkü vəziyyəti necə ola bilərdi. Tam qətiyyətlə deyə bilərəm ki, bu gün biz indiki uğurlardan danışa bilməzdik.

Kontraktın icrası nəticəsində Azərbaycana dediyim kimi, milyardlarla, on milyardlarla xarici sərmayə qoyulmağa başlamışdı. Bizim bütün neft-qaz infrastrukturumuz yeniləşdi. Vaxtilə - 1970-ci illərdə Heydər Əliyev tərəfindən göstərilən təşəbbüslər nəticəsində yaradılmış infrastruktur kontraktın sürətlə icra olunmasına xidmət göstərirdi. Əgər vaxtilə dərin özüllər zavodu tikilməsə idi, kontraktın icrası çox yubana bilərdi. Deyə bilərəm ki, tarixdə ilk dəfə olaraq belə böyük, nəhəng investisiya qoyuluşunu tələb edən kontraktın imzalanmasından ilkin neftin hasilatına qədər cəmi 3 ildən az vaxt keçdi. Hesab edirəm ki, bu, dünya miqyasında misli görünməmiş sürətdir. Azərbaycanın coğrafi vəziyyəti belədir ki, bizim dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Belə olan halda neft kəmərlərinin tikintisi gündəlikdə birinci yeri tuturdu. Ancaq əlbəttə ki, neft kəmərlərinin tikintisinə investisiyaların qoyuluşu ancaq hasilatın artırılmasından sonra ola bilərdi. Bu iki prosesi paralel şəkildə aparmaq böyük məharət, böyük diplomatiya və bö-

yük siyasi təcrübə tələb edirdi. Mən şadam ki, bu gözəl ənənələr bu gün də davam edir. Azərbaycan Dövlət Neft Şirkətinin və bp şirkətinin rəhbərliyi altında Beynəlxalq Konsorsium vahid komanda şəklində fəaliyyət göstərmiş və bütün prosesləri ardıcıllıqla və uğurla icra etməyi bacarmışdır.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə düşməsi, istismara verilməsi ikinci tarixi hadisədir. Bu tarixi hadisə artıq təkcə Azərbaycan üçün deyil, region ölkələri üçün də böyük əhəmiyyət daşıyır. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin əhəmiyyəti daha da artır. Çünki artıq Xəzər dənizinin şərq hissəsindən çıxarılan neft Bakı-Tbilisi-Ceyhan kəməri ilə Aralıq dənizinə nəql edilir. Artıq Azərbaycan başqa ölkələr üçün tranzit ölkəyə çevrilibdir. Düzdür, bizim çox böyük neft-qaz ehtiyatlarımız vardır. Biz Bakı-Tbilisi-Ceyhan kəmərini öz neftimizlə tam şəkildə doldura bilərik və bunu edirik. Amma bununla bərabər, gələcəkdə kəmərin genişləndirilməsi də mümkündür və bunu etmək üçün indidən praktiki işlər aparılır. Artıq Azərbaycan etibarlı tranzit ölkə kimi də dünya birliyinə özünü təqdim edə bilibdir.

Bakı-Tbilisi-Ceyhan neft kəməri ətrafında çoxlu spekulyasiyalar, çoxlu söhbətlər gəzirdi. Kəmərin çəkilməsini istəməyən tərəflər var gücü ilə çalışırdılar ki, biz buna nail ola bilməyək. Müxtəlif yerlərdə, internet saytlarında kampaniyalar aparılırdı. Xatırlayıram, "Bakı-Tbilisi-Ceyhan kampaniyası" adlı bir hərəkat da başlamışdı və buna ekoloji nöqteyi-nəzərdən yanaşmaq istəyənlər də az deyildi. Biz əlbəttə ki, bütün ekoloji məsələləri təmin edirik. Ancaq ekologiya adı altında kəmərin tikintisinə gizli və açıq şəkildə müxalif mövqedə dayanan tərəflər bu amildən istifadə etmək istəyirdilər və hətta onların səyləri müəyyən dərəcədə, müvəqqəti olaraq nəticə də vermişdi. Çünki Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi böyük dərəcədə xarici maliyyə qurumlarının resurslarından asılı idi. Bizim o qədər imkanımız yox idi ki, bu kəməri özümüz maliyyələşdirək. Belə olan halda müəyyən müddətdə yubanma da olmuşdur. Mən bunu da çox yaxşı xatırlayıram. Amma buna baxmayaraq, Azərbaycan dövlətinin iradəsi, xarici neft şirkətlərinin uğurlu fəaliyyəti, beynəlxalq dəstək nəticəsində Bakı-Tbilisi-Ceyhan neft kəməri müvəffəqiyyətlə tikildi, istismara verildi və bu gün Azərbaycan neftinin dünya bazarlarına çatdırılmasında mühüm rol oynayır.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə qədər Azərbaycan nefti iki başqa istiqamətlə beynəlxalq bazarlara nəql edilməyə başlamışdı. Bakı-Novorossiysk neft kəmərinin istiqamətinin dəyişdirilməsi və Bakı-Supsa neft kəmərinin tikilməsi nəticəsində bizim neft ixracımız çoxşaxəli şəkildə dünya bazarlarına çıxarılır. Bu gün həm Bakı-Tbilisi-Ceyhan, həm Bakı-Supsa, həm Bakı-Novorossiysk Azərbaycan neftini müxtəlif istiqamətlərlə dünya bazarlarına çıxarır. Beləliklə, Azərbaycanın enerji təhlükəsizliyi tam şəkildə təmin olunub, Azərbaycan öz neft resurslarını çoxşaxəli əsaslarla dünya bazarlarına çıxarır. Şübhə yoxdur ki, əgər "Azəri-Çıraq-Günəşli" yataqlar bloku üzrə kontrakt imzalanmasaydı və Bakı-Tbilisi-Ceyhan neft kəməri tikilməsəydi, Bakı-Tbilisi-Ərzurum qaz kəməri haqqında, ümumiyyətcə, söhbət belə gedə bilməzdi. 1996-cı ildə - "Əsrin müqaviləsi"nin imzalanmasından iki il sonra "Şahdəniz" qaz yatağı üzrə kontrakt imzalanmışdır və beləliklə, Azərbaycanın böyük qaz potensialına malik olduğu təsdiq edilmişdir. Bizim geoloqlarımız, təcrübəli mütəxəssislərimiz həmişə deyirdilər və bu gün də həyat onların haqlı olduğunu bir daha sübut edir ki, Azərbaycanın neftlə bərabər böyük, zəngin qaz ehtiyatları vardır. "Şahdəniz" yatağının işlənilməsi və böyük ehtiyatların üzə çıxması onu təsdiqləyir. "Şahdəniz" yatağının işlənilməsi nəticəsində Bakı-Tbilisi-Ərzurum qaz kəməri tikildi. Azərbaycan öz qazını bu kəmər vasitəsilə dünya bazarlarına ixrac edir. Onu da qeyd etməliyəm ki, Bakı-Tbilisi-Ərzurum qaz kəməri ilə bərabər, bizim əlavə üç qaz kəmərimiz vardır. Biri Rusiya istiqamətinə, biri Gürcüstan istiqamətinə, biri isə İran istiqamətinə. Bütün bu kəmərlərdən biz səmərəli şəkildə istifadə edə bilərik və beləliklə, qaz ixracatımızı çoxşaxəli şəkildə, Azərbaycanın milli maraqlarına uyğun olan formada dünya bazarına nəql edə bilərik. Beləliklə, bizim artıq yeddi neft-qaz kəmərimiz vardır. Bizim neft-qaz hasilatımız artır. Bu il neft hasilatı 45 milyon tondan çox olacaq, qaz hasilatı 30 milyard kubmetrə yaxın olacaqdır. Nəzərə alsaq ki, Azərbaycan artıq özünü tranzit ölkə kimi də təsdiqləyib, bu vaxta qədər bizim qarşımızda duran bütün vəzifələr uğurla icra edilib, gələcək illərdə bu rəqəmlər artacaqdır. Elə məsələ yoxdur ki, biz onu etmək istəyirdik, edə bilmədik. Bu gün Azərbaycanın enerji siyasəti artıq regional müstəvidən çıxıb qlobal müstəviyə daxil olubdur.

Azərbaycan neft-qaz ixrac edən etibarlı ölkə kimi dünya birliyi üçün daha önəmli olubdur. Biz bu gün enerji təhlükəsizliyi məsələlərində çox fəal iştirak edirik. Ötən əsrin 90-cı illərində, hətta 2000-ci ilin birinci yarısında enerji təhlükəsizliyi məsələləri haqqında o qədər də söz-söhbət yox idi. Son illər ərzində bütün dünya və Avropa gördü ki, bu məsələlər nə dərəcədə böyük əhəmiyyət kəsb edir. Azərbaycan öz tərəfindən bütün lazımi tədbirləri gördü, bütün neft-qaz infrastrukturunu xarici tərəfdaşlarla bərabər yaratdı və bu gün aparılan əlavə qazma işləri bizə böyük ümidlər verir. Müqavilənin icrası nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti beynəlxalq şirkətə çevrildi. Şirkətin çox böyük imkanları vardır. Artıq Azərbaycan Dövlət Neft Şirkəti özü dənizin dərin laylarında qazma işləri aparır və əminəm ki, növbəti kəşfiyyat işini də biz görəcəyik.

Xarici şirkətlərlə uğurlu əməkdaşlığımız bu gün də davam edir və çox əlamətdar haldır ki, bu yaxınlarda üç yeni yataq üzrə yeni kontraktlar imzalanmışdır. "Abşeron", "Asiman", "Şəfəq" yataqları artıq işə salınır və xarici şirkətlər Azərbaycanın neft-qaz potensialına öz diqqətini əsirgəmir. Azərbaycan dövləti isə öz növbəsində, xarici şirkətlərlə hər iki tərəf üçün səmərəli əməkdaşlığı davam etdirir. Azərbaycan Dövlət Neft Şirkəti öz imkanlarını ortaya qoyur və beləliklə, mən əminəm ki, növbəti illərdə Azərbaycanın neft-qaz potensialı haqqında yeni ümidverici rəqəmlər də səslənəcəkdir.

Qeyd etmək istəyirəm ki, bizim neft-qaz siyasətimiz 1994-cü ildə başlamışdır. Heydər Əliyevin neft strategiyası bu gün də davam edir. Dediyim kimi, biz artıq bu gün regional müstəvidən çıxıb qlobal məsələlərlə məşğuluq. Bununla bərabər, Azərbaycan öz islahatlarını bütün başqa sahələrdə davam etdirir. Əlbəttə ki, bizim maliyyə resurslarımız öz imkanlarını ortaya qoyur və beləliklə, mən əminəm ki, növbəti illərdə Azərbaycanın neft-qaz potensialı haqqında yeni ümidverici rəqəmlər də səslənəcəkdir.

Qeyd etmək istəyirəm ki, bizim neft-qaz siyasətimiz 1994-cü ildə başlamışdır. Heydər Əliyevin neft strategiyası bu gün də davam edir. Dediyim kimi, biz artıq bu gün regional müstəvidən çıxıb qlobal məsələlərlə məşğuluq. Bununla bərabər, Azərbaycan öz islahatlarını bütün başqa sahələrdə davam etdirir. Əlbəttə ki, bizim maliyyə resurslarımız və təbii ehtiyatlarımız islahatların aparılması üçün daha da əlverişli şərait yaradır.

1994-cü ildə Azərbaycan kasıb bir ölkə idi. Bizim valyuta ehtiyatlarımız sıfır dərəcəsində idi. Bu gün Azərbaycanın valyuta ehtiyatları 18 milyard dollardan çoxdur. Son beş il ərzində Azərbaycanın dövlət büdcəsi 10 dəfədən çox artıbdır. 2003-2008-ci illərdə Azərbaycanda iqtisadiyyat, ümumi daxili məhsul 2,6 dəfə artıbdır. Bu, dünyada misli görünməmiş bir nəticədir. Son beş il ərzində Azərbaycanda 800 minə qədər yeni iş yeri açılmışdır ki, onların tam əksəriyyəti qeyri-neft sektorundadır. Yoxsulluq şəraitində yaşayanların sayı beş il ərzində 49 faizdən 13 faizə düşmüşdür. Bu da onu göstərir ki, Azərbaycanda neftdən əldə olunan gəlirlər ədalətli şəkildə bölünür. Azərbaycanda tam şəkildə şəffaflıq təmin edilibdir. 1999-cu ilin sonunda yaradılmış Azərbaycan Dövlət

Neft Fondu çox müasir qurumdur, çox şəffaf təşkilatdır. Təsadüfi deyildir ki, Azərbaycan Dövlət Neft Fondu BMT-nin şəffaflıq üzrə mükafatı ilə təltif edilmişdir və Hasilat Sənayelərində Şəffaflıq Təşəbbüsünün fəal üzvüdür. Azərbaycan Dövlət Neft Fondunun təcrübəsi bir çox hallarda başqa yerlərdə də öyrənilir.

Azərbaycanda aparılan köklü islahatlar, eyni zamanda, beynəlxalq qurumların hesabatlarında da öz əksini tapır. 2008-ci ildə Dünya Bankı Azərbaycanı dünyada bir nömrəli islahatçı ölkə kimi tanıdı. Bu il Dünya İqtisadi Forumu rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 51-ci yerə layiq gördü. Bu da çox böyük nailiyyətdir. Bu onu göstərir ki, - biz bu məqsədə çatacağıq, - məqsədimiz inkişaf etmiş ölkələrin sırasına daxil olmaqdır. Bunu etmək üçün islahatlarımız davam etdirilməlidir. Neftdən əldə olunan gəlirlər təhsilə, səhiyyə məsələlərinin həllinə, qaçqınların yeni evlərə köçürülməsinə sərf olunur. Yeni müasir infrastruktur, sahibkarlığa kömək, güzəştli kreditlərin verilməsi, hərtərəfli inkişaf - budur Azərbaycanın reallıqları. Baxmayaraq ki, dünyada hökm sürən maliyyə böhranı Azərbaycandan da yan keçməyib, bu ilin səkkiz ayında Azərbaycan iqtisadiyyatı 5 faiz artıbdır. Baxmayaraq ki, neftin qiyməti kəskin şəkildə aşağı düşüb, bu onu göstərir ki, Azərbaycan iqtisadiyyatı neft-qaz amilindən öz asılılığını artıq böyük dərəcədə aşağı sala bilibdir.

Bugünkü Azərbaycan müasir ölkədir, güclü iqtisadiyyata malik ölkədir, sabit ölkədir, investisiyalar üçün çox məqbul ölkədir. Xarici tərəfdaşlarla bizim əməkdaşlığımız davam edir və bu, çox sevindirici haldır. Biz öz sözümüzə həmişə sadiq olmuşuq, sözümüzlə əməlimiz arasında heç vaxt fərq olmamışdır. Ona görə Azərbaycan dünyada etibarlı tərəfdaş və dost ölkə kimi tanınır.

Mən bu gün bir daha bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Azərbaycan neftçilərini qarşıdan gələn peşə bayramları münasibətilə təbrik etmək istəyirəm. Bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir. İlk dəfə olaraq dünyada sənaye üsulu ilə neft məhz Azərbaycanda çıxarılıbdır. İlk dəfə olaraq dünyada dənizdə neft məhz Azərbaycan neftçiləri tərəfindən çıxarılıbdır. Yəni Azərbaycan neftçilərinin çox böyük tarixi var, şanlı tarixi var, çox böyük təcrübəsi vardır. Ancaq neftçilər günü Azərbaycanda sentyabrın 20-də qeyd olunur. Bu, "Əsrin müqaviləsi"nə dövlət tərəfindən verilən qiymətdir. Çünki "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın neft sənayesinin qarşısında yeni imkanlar açmışdır.

Mən bu gün həm Azərbaycan neftçilərinə öz minnətdarlığımı bildirmək istəyirəm, onları təbrik etmək istəyirəm. Həm də bizim xarici tərəfdaşlarımıza, beynəlxalq konsorsiumun üzvlərinə və xüsusilə bp şirkətinin bütün əməkdaşlarına Azərbaycana verdikləri töhfələrə görə, Azərbaycana inandıqlarına, sərmayə qoyduqlarına və uzun illər ərzində səmərəli əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, Azərbaycan Neft Şirkətinin gələcəkdə bütün xarici şirkətlərlə əməkdaşlığı uğurla davam edəcək, Azərbaycana yeni imkanlar açacaq, ölkəmiz güclənəcək, qüdrətlənəcək və uğurla irəliyə gedəcəkdir.

***

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq ABDULLAYEV regionumuzun geosiyasi simasını dəyişən "Əsrin müqaviləsi"nin bölgə dövlətləri tərəfindən həmişə xatırlanacağını bildirdi və bu layihənin reallaşmasında ulu öndər Heydər Əliyevin xidmətlərini xatırladaraq dedi:

- Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini bu əlamətdar gündə sonsuz ehtiram və minnətdarlıq duyğuları ilə yad edirik. On beş il öncə bu dahi şəxsiyyətin siyasi uzaqgörənliyi, gərgin səyləri və dönməz qətiyyəti sayəsində dünyanın tanınmış neft şirkətləri ilə "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında" Saziş imzalandı. Bununla da müstəqil Azərbaycanın yeni neft strategiyasının etibarlı təməli qoyuldu.

Əziz dostlar, bu əlamətdar gündə müqavilənin hazırlanmasında, imzalanmasında və bugünkü səviyyəyə çatdırılmasında ulu öndərin ən yaxın silahdaşı olmuş, həmin kursu indi də dönmədən davam etdirən cənab İlham Əliyevin xidmətlərini də xüsusi qeyd etmək lazımdır. Mən bütün neftçilər adından möhtərəm Prezidentimizə dərin minnətdarlığımızı bildirirəm.

Rövnəq Abdullayev bildirdi ki, "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan iqtisadiyyatının, ilk növbədə, neft sənayesinin çoxşaxəli inkişafına güclü təkan verdi. Yeni texnologiyaların, müasir avadanlığın, maşın-mexanizmlərin istehsalatda tətbiqinə, yeni idarəetmə metodlarının mənimsənilməsinə, ən əsası isə Dövlət Neft Şirkətinin fəaliyyətinin beynəlxalq standartlar səviyyəsində qurulmasına imkan yaratdı.

"İndi Dövlət Neft Şirkəti 14 saziş üzrə işlər aparır ki, bu layihələrdə dünyanın 14 ölkəsini təmsil edən 24 şirkət iştirak edir", - deyən Rövnəq Abdullayev bildirdi ki, "Əsrin müqaviləsi" bütün dünya dövlətlərinin Azərbaycana inamını artırdı, ölkəmizi neft-qaz sənayesində aparılan işlərdə böyük təcrübəsi və səriştəsi olan tərəfdaş kimi tanıtdı və iri, tanınmış neft şirkətlərinin ölkəmizə sərmayə qoyması üçün şərait yaratdı.

R.Abdullayev daha sonra dedi: Bu illərdə Azərbaycanın neft sektoruna 37,5 milyard ABŞ dolları məbləğində sərmayə qoyulmuş, neft və qaz hasilatında rekord nəticələr əldə olunmuşdur. Hazırda "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda "Tammiqyaslı işlənilmə layihəsi" həyata keçirilir. Saziş sahəsində işlənilmənin əvvəlindən 170 milyon tona qədər neft və 38 milyard kubmetr qaz hasil edilmişdir. "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarının, eləcə də Xəzərin Azərbaycan sektorunda açıla biləcək neft və qaz-kondensat yataqlarının imkanları bizə əsas verir ki, ölkə üzrə neft-qaz hasilatının ilbəil artmaqda davam edəcəyini söyləyək və 2015-ci ildə neft hasilatının 60 milyon ton, qaz hasilatının isə 35-40 milyard kubmetrə çatdırılacağını proqnozlaşdıraq.

Dövlət Neft Şirkətinin prezidenti şaxələndirilmiş ixrac neft kəmərləri sisteminin ölkəmizə böyük mənfəət gətirdiyini, Azərbaycan qarşısında yeni perspektivlər açdığını da dedi. Qeyd etdi ki, neft-qaz sektorunun inkişafı Azərbaycanın neft və qaza olan tələbatını tam ödəyir. Xəzərin Azərbaycan sektorunda ən böyük "Şahdəniz" qaz-kondensat yatağının işlənilməsi üzrə layihənin müvəffəqiyyətlə həyata keçirilməsi respublikanın daxili tələbatını ödəməyə və xaricdən qaz idxalına son qoymağa imkan yaratmışdır. "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarından qaz hasilatının artırılması, eləcə də şirkətimiz tərəfindən həyata keçirilən "Qaz proqramı" çərçivəsində görülən tədbirlər bütövlükdə respublika üzrə qaz hasilatı dinamikasını dəyişmiş və nəticədə hasilat 2004-2008-ci illərdə 5 dəfəyə yaxın artaraq 5 milyard kubmetrdən 24 milyard kubmetrə çatdırılmışdır.

R.Abdullayev dedi ki, xarici tərəfdaşlarla səmərəli əməkdaşlıq şəraitində qazanılan zəngin təcrübə, maddi, texnoloji və intellektual potensial Dövlət Neft Şirkətinin inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoyması üçün əsas olmuşdur. Yeni layihələrin həyata keçirilməsi, Xəzər Dəniz Neft Donanmasının gəmi parkının genişləndirilməsi bu sırada mühüm əhəmiyyət kəsb etdi.

Məhz ötən illərdə qazanılmış təcrübə və inkişaf etdirilmiş infrastruktura arxalanaraq, perspektivli strukturların müstəqil işlənilməsi xətti götürülmüşdür. Bu il biz 20 illik fasilədən sonra ilk dəfə olaraq daxili resurslar hesabına "Ümid" strukturunda kəşfiyyat işlərinə başlamışıq. Hazırda strukturda platforma tikilmişdir və artıq ilk quyunun qazılmasına başlanılmışdır. Digər perspektivli sahələr üzrə də yeni layihələr nəzərdə tutulmuşdur. Aparılan hesablamalara əsasən, Azərbaycanın təsdiq olunmuş karbohidrogen ehtiyatları şərti yanacaqla 5 milyard ton, proqnoz karbohidrogen resursları isə 8-10 milyard ton həcmində qiymətləndirilir.

* * *

"bp-Azərbaycan" şirkətinin prezidenti Rəşid CAVANŞİR isə qeyd etdi ki, 15 il öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən "Əsrin müqaviləsi" öz nəticələrini verir və xalqımız bundan bəhrələnir.

Rəşid Cavanşir demişdir ki, bu müqavilənin qiymətini verəndə 3 amildən danışmaq olar. Birinci növbədə, bunun çox böyük siyasi əhəmiyyəti vardır. Bu müqavilə ilk növbədə Azərbaycanın müstəqilliyini möhkəmləndirdi. Azərbaycan siyasi güc topladı. Azərbaycan beynəlxalq aləmdə dəstək aldı. Azərbaycan dünya inteqrasiyasına qoşuldu və regional liderə çevrildi. Böyük iqtisadi nəticələr əldə olundu. Təkcə "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsinə 20 milyard dollardan artıq xarici sərmayə qoyulmuşdur. Hazırda milyardlarla gəlir əldə olunur və bu, davam etməkdədir.

"bp-Azərbaycan" şirkətinin prezidenti bildirdi ki, bundan əlavə, "Əsrin müqaviləsi"nin icrası nəticəsində Azərbaycana ən müasir, yeni texnologiyalar gətirilmiş, çox zəngin və nadir infrastruktur yaradılmışdır. İndi dünyanın ən müasir dəniz platformaları Azərbaycandadır. Dünyanın ən zəngin neft və qaz quyuları Xəzərdə fəaliyyətdədir. Azərbaycanda dünyanın ən böyük terminallarından sayılan Səngəçal terminalı fəaliyyət göstərir. Bakı-Tbilisi-Ceyhan neft kəməri Azərbaycanı dünya bazarlarına bağlayıb və hazırda sutkada bir milyon barrel neft bu marşrutla Aralıq dənizinə nəql olunur.

R.Cavanşir dedi ki, Azərbaycanda çox bacarıqlı və müasir kadrlar yetişib, hazırda şirkətimizin əməkdaşları həm dənizdə, həm qurudakı müəssisələrdə rəhbər vəzifələri də tutmağa başlayıblar. Azərbaycanda yerli şirkətlər də çox inkişaf edib. Hazırda bizim keçirdiyimiz tenderlərdə yerli şirkətlər böyük uğurla iştirak edirlər və xarici şirkətlərə qalib gələ bilirlər. Bunlar gözəl nailiyyətlərdir və ümidvaram ki, bu, gələcəkdə də belə olacaqdır.

Layihənin bu cür uğurlu olmasının bir neçə əsas səbəbi vardır. Birinci növbədə, bu səbəb Azərbaycan xalqının, hökumətinin böyük və gündəlik dəstəyidir. Azərbaycan hökumətinin müqavilənin şərtlərinə sadiq qalması və ona hörmət olunması çox vacib amildir. Ən vacibi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu müqaviləyə birbaşa marağı və şəxsi rəhbərliyi, eləcə də bizim mərhum Prezidentimiz

Heydər Əliyevin böyük marağı və rəhbərliyi olubdur.

* * *

ABŞ dövlət katibinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsinin müavini Daniel ŞTAYN Birləşmiş Ştatların dövlət katibi Hillari Klintonun təbrik məktubunu mərasim iştirakçılarının diqqətinə çatdırdı. Məktubda deyilir:

"Hörmətli cənab Prezident!

Sizi və Azərbaycan xalqını 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin 15 illiyi münasibətilə təbrik etmək istəyirəm. "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarının işlənilməsini və nəticədə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yaranmasını təmin edən bu müqavilə beynəlxalq neft və qaz sahəsinin inkişafında mühüm hadisə və beynəlxalq enerji diplomatiyasında böyük uğur oldu. Beynəlxalq enerji təhlükəsizliyinin gücləndirilməsi Avrasiya regionu üçün mühüm məsələ olaraq qalmaqdadır. Bu baxımdan iyulun 13-də hökumətlərarası Nabukko razılaşmasının imzalanması Xəzər qazını Avropaya daşıyacaq "Cənub dəhlizi"nin açılmasında bizim birgə səylərimizin çox önəmli mərhələsinə çevrildi.

Biz ümid edirik ki, Azərbaycan, Türkiyə və digər maraqlı ölkələr bu təkanverici addımı davam etdirəcək və "Cənub dəhlizi"ni gerçəkləşdirərək digər qalan məsələləri razılaşdıracaqlar. Azərbaycan enerji inkişafının yeni və daha perspektivli bir mərhələsinin astanasındadır. Biz Sizinlə və bu bölgədəki digər liderlərlə yeni neft və qaz ehtiyatlarının işlənilməsini və bu ehtiyatları bazara çıxarmaq üçün yeni marşrutların açılması məqsədi ilə əməkdaşlığı səmimiyyətlə arzulayırıq.

Səmimiyyətlə, sizin

Hillari Rodam Klinton

dövlət katibi".

Daniel Ştayn çıxışında Azərbaycan-ABŞ əməkdaşlığının uğurlarından danışaraq dedi ki, Birləşmiş Ştatlar Azərbaycanı strateji tərəfdaş hesab edir və bu, Avrasiya məkanında xüsusi əhəmiyyət daşıyır. 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan demokratiya və bazar iqtisadiyyatı yoluna qədəm qoymuşdur. Bütün bu işlər məhz Prezident Heydər Əliyev tərəfindən aparılmışdır və onun siyasəti sayəsində Azərbaycana bir çox xarici sərmayələr yatırılmağa başlandı və Azərbaycan artıq qlobal enerji təchizatçısına çevrildi.

Siz bilirsiniz ki, ABŞ uzun müddət ərzində Azərbaycanın bir çox strateji enerji layihələrində tərəfdaşı olmuşdur və Qərblə Şərq arasında layihələrin həyata keçirilməsinə töhfə vermişdir. Azərbaycanın apardığı enerji siyasəti uğurlu olmuşdur və ABŞ administrasiyasının da bu sahədə həyata keçirdiyi siyasət ardıcıl olmuşdur.

Daniel Ştayn dedi ki, "Əsrin müqaviləsi"nin həyata keçirilməsində ABŞ-ın məşhur enerji şirkətləri də iştirak etmişlər. Birləşmiş Ştatlar Bakı-Tbilisi-Ceyhan boru kəmərinə də böyük siyasi və maliyyə dəstəyi verib. Cənubi Qafqaz qaz boru kəmərinin reallaşmasında Heydər Əliyevin müdrik addımlarını xatırladan Daniel Ştayn dedi ki, bu layihə hazırda Xəzər dənizindəki zəngin neft resurslarını bütün dünyaya açıq elan etmişdir. Bu, eyni zamanda, Azərbaycan xalqı üçün müstəqil iqtisadi həyatı təmin etmişdir. Hazırda

Avrasiya regionu yeni inkişaf mərhələsinə qədəm qoyur. Yeni neft və qaz yataqları gələn illər ərzində işlənilməkdir.

Eyni zamanda, biz əminliklə inanırıq ki, həmin bu resurslar müxtəlif istiqamətlərdə nəql ediləcəkdir və bir çox ölkələrin ərazilərindən keçərək yubanmadan, dayanmadan istehlakçılara çatdırılacaqdır. Bu baxımdan biz hesab edirik ki, Azərbaycan və Xəzər hövzəsi regionunda yerləşən digər dövlətlər bu sahədə öz səylərini davam etdirməlidirlər.

DanielŞtayn Azərbaycan Dövlət Neft Fondunun fəaliyyətinin dünyada təqdir olunduğunu, bu qurumun şəffaflığın təmin edilməsində həqiqətən aparıcı rol oynadığını diqqətə çatdırdı.

Bu, Azərbaycanı qlobal səviyyədə əsl şəffaf ölkə kimi nümayiş etdirdi. Bu, sözün əsl mənasında, böyük bir nailiyyətdir. Birləşmiş Ştatlar Azərbaycanla sıx işləməyi davam etdirəcək və regionda onun fəal tərəfdaşı olaraq enerji nəqlinin şaxələndirilməsinə, ölkənin müstəqilliyinə öz dəstəyini davam etdirəcəkdir. Sağ olun.

* * *

Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Andris PİEBALQS "Əsrin müqaviləsi"nin imzalanmasının Azərbaycan üçün yeni imkanlar açdığını və ölkəmizi dünyanın enerji səhnəsində aparıcı iştirakçıya çevirdiyini bildirərək dedi: Heydər Əliyevin uzaqgörənliyi ölkənin iqtisadi rifahını təmin etdi. Bu siyasət Azərbaycan xalqına xidmət etdi. Bu addım böyük imkanlar yaratdı.

"Əsrin müqaviləsi" eyni zamanda, bizim hamımıza çox uğurlu keçdiyimiz şanlı yolu xatırladır. Yəni bu, bir günün ərzində əldə olunmuş nailiyyətlər deyildir. Çox ciddi səylər tələb olundu. Çox səylər göstərildi, müzakirələr aparıldı. 1990-cı illərdə Azərbaycan bütün dünyaya sübut etməli idi ki, tarixi nailiyyətlər əldə edibdir və indi bu nailiyyətlər davam etdirilməlidir. Beləliklə, ölkənin potensialının gücləndirilməsi üçün bu addımın atılması vacib idi. 15 il əvvəl atılmış bu addım Azərbaycanı həm hasilatda, həm tranzit məsələsində, ümumiyyətlə neft və qaz sahəsində etibarlı tərəfdaşa çevirdi.

Andris Piebalqs Azərbaycanın Avropa üçün böyük və etibarlı tərəfdaş olduğunu, ölkəmizin yerləşdiyi regionda öz infrastrukturundan istifadə edərək, enerji ehtiyatlarının Qərb istiqamətində nəqlinə sadiq qaldığını vurğulayaraq dedi: Azərbaycan regionda strateji tərəfdaşlığın etibarlı subyektidir və bu tərəfdaşlığın gücləndirilməsi çox vacibdir. Bu məqsədlə biz Azərbaycana "Şərq tərəfdaşlığı" təşəbbüsünü təklif etdik. Bunun məqsədi bu ölkə ilə tərəfdaşlığın daha da dərinləşdirilməsi və genişləndirilməsidir. Bir çox sahələrdə Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq davam etdiriləcəkdir. Biz ticarət, iqtisadiyyat, sosial məsələlər və insan amilinin inkişafı sahələrində əməkdaşlığı davam etdirəcəyik. Biz Azərbaycan ilə Avropa İttifaqı arasında hərtərəfli dialoqun aparılmasının, mühüm siyasi addımların atılmasının tərəfdarıyıq.

* * *

Daha sonra "Əsrin müqaviləsi"nin 15 illiyinə həsr olunan filmin nümayişi oldu.

Sonda "Əsrin müqaviləsi"nin 15-ci ildönümünə həsr olunmuş konsert proqramı təqdim edildi.

MOSKVADA MDB ÖLKƏLƏRİ MALİYYƏ NAZİRLƏRİNİN MÜŞAVİRƏSİ KEÇİRİLMİŞDİR

Azərbaycanın maliyyə naziri Samir Şərifov MDB ölkələri maliyyə nazirlərinin daimi müşavirəsinin iclasında iştirak etmişdir. Bu, MDB məkanında dünya iqtisadi böhranı ilə mübarizə, həmin istiqamətdə görülən tədbirlər, habelə böhrandan sonrakı dövrdə maliyyə nazirlərinin fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı məsələlərə həsr olunmuş üçüncü görüşdür.

MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev görüşü açaraq MDB ölkələri iqtisadiyyatlarının vəziyyətini səciyyələndirən statistik məlumatları diqqətə çatdırmışdır. O bildirmişdir ki, Birlik ölkələri maliyyə nazirlərinin dünya iqtisadi böhranı şəraitində maliyyə-iqtisadi sahə ilə bağlı aktual məsələlərin müzakirəsinin nəticələri Rusiya hökuməti sədrinin müavini, maliyyə naziri Aleksey Kudrinin MDB ölkələri Dövlət Başçıları Şurasının növbəti iclasında təqdim edəcəyi məruzənin əsasını təşkil edəcəkdir.

Sonra müşavirəyə sədrlik edən Rusiyanın maliyyə naziri Aleksey Kudrin çıxış edərək iqtisadi böhranın nəticələrinin aradan qaldırılması sahəsində MDB ölkələrinin qarşılıqlı fəaliyyətinə qiymət vermişdir. Rusiyanın maliyyə naziri vurğulamışdır ki, MDB ölkələrinin ümumiləşdirilmiş mövqeyi və onların maliyyə böhranından çıxış yollarına baxışı "böyük iyirmiliyin" maliyyə nazirlərinin ABŞ-da keçiriləcək zirvə görüşündə Rusiya tərəfindən bütün MDB ölkələri adından təqdim olunacaqdır.

Azərbaycanın maliyyə naziri Samir Şərifov müşavirənin yekunlarını şərh edərək bildirmişdir ki, MDB ölkələri maliyyə nazirlikləri başçılarının bu cür görüşləri artıq ənənəyə çevrilmişdir. Müşavirədə əsasən davam edən maliyyə böhranı şəraitində Birlik dövlətlərində maliyyə-iqtisadi vəziyyət və böhranla mübarizə tədbirlərinə dair məsələlər müzakirə olunmuşdur. S.Şərifov əlavə etmişdir ki, gündəliyə daxil edilən məsələlərdən biri də "böyük iyirmiliyin" maliyyə nazirlərinin zirvə görüşü ərəfəsində Rusiya hökumətinin Birlik iştirakçılarının bu problemə baxışını ümumiləşdirən sənədin hazırlanması olmuşdur.

S.Şərifov müşavirənin əhəmiyyətini yüksək qiymətləndirərək vurğulamışdır ki, tədbir konstruktiv xarakter daşıyırdı. Müşavirədə bildirilmişdir ki, ayrı-ayrı ölkələrdə böhranla müxtəlif cür mübarizə aparılır. Bir çox ölkələrdə iqtisadi tənəzzüldən çıxış imkanları xeyli genişlənmişdir, bu sahədə dirçəliş nəzərə çarpır. Nazir demişdir: "Müşavirədə xüsusi vurğulanmışdır ki, böhran vəziyyətinə baxmayaraq, Azərbaycan ÜDM-nın artım göstəricisinə görə müsbət nəticələr nümayiş etdirir. Azərbaycanda ÜDM-nin artımı davam edir, söhbət cari ilin 8 ayı ərzində 5 faiz artımdan gedir".

Azərbaycanın maliyyə naziri bildirmişdir ki, tədbirdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə olunmuşdur. Böhranla mübarizə tədbirləri planı üzərində işləri davam etdirmək qərara alınmışdır. Bu işlərin nəticəsi MDB Dövlət Başçıları Şurasının iclasında təqdim olunacaqdır. Samir Şərifov demişdir: "Bununla əlaqədar, bir sıra təkliflər nəzərdən keçirilmiş, onların bəziləri Azərbaycan tərəfindən qəbul olunmuşdur. Bu istiqamətdə işlər davam etdirilir".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRƏN SƏFİRLƏRİNİ MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da müsəlman ölkələrinin Azərbaycanda fəaliyyət göstərən səfirlərini müqəddəs Ramazan bayramı münasibətilə qəbul etmişdir.

Prezident İlham ƏLİYEV səfirləri salamlayaraq dedi:

- Hörmətli səfirlər, mən sizi ürəkdən salamlayıram və sizi qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm. Xahiş edirəm ki, mənim səmimi təbriklərimi təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Mən çox şadam ki, Azərbaycanda müsəlman ölkələrini təmsil edən səfirliklərin sayı artır. Bu çox gözəl, əlamətdar bir haldır. Azərbaycan da öz növbəsində müsəlman ölkələrində səfirliklərinin sayını artırır və bu proses davam edir. Ölkələrimiz arasında əlaqələr çox sürətlə inkişaf edir. Əlaqələr yüksək səviyyədədir və biz çalışmalıyıq ki, bu əlaqələri növbəti illərdə də hərtərəfli inkişaf etdirək, aramızdakı münasibətlər daha da güclü olsun. Həm siyasi və humanitar əlaqələrin, həm iqtisadi sahədə əməkdaşlığın dərinləşməsi bizim maraqlarımıza cavab verir.

Bildiyiniz kimi, bu il Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur. Bu, bizim üçün böyük şərəfdir. Mən çox şadam ki, Bakı bu şərəfli adı uğurla daşıyır. Bu müddət ərzində Bakıda İslam dünyasının həmrəyliyinin gücləndirilməsi üçün çoxsaylı tədbirlər keçirilmişdir.

Qeyd etdiyim kimi, ölkələrimiz arasında əlaqələr ikitərəfli formatda uğurla inkişaf edir. Eyni zamanda, biz beynəlxalq təşkilatlarda da səmərəli əməkdaşlıq edirik. Xüsusilə, BMT-də və İslam Konfransı Təşkilatında əməkdaşlığımız bizim üçün çox önəmlidir. Biz müsəlman ölkələrinin dəstəyini daim hiss edirik. Bildiyiniz kimi, keçən il BMT Baş Məclisində Dağlıq Qarabağda yaranmış vəziyyətlə bağlı qətnamənin qəbul edilməsi müsəlman ölkələrinin böyük dərəcədə dəstəyi hesabına baş vermişdir.

Biz də öz növbəmizdə bütün beynəlxalq tədbirlərdə, bütün beynəlxalq təşkilatlarda İslam həmrəyliyinin gücləndirilməsi üçün addımlarımızı atırıq. Bizim üçün qardaş olan İslam ölkələrini bütün məsələlərdə dəstəkləyirik və bunu gələcəkdə də edəcəyik. İslam həmrəyliyinin gücləndirilməsi bizim üçün çox vacibdir. Azərbaycan ayrı-ayrı vaxtlarda İslam həmrəyliyinin gücləndirilməsinə xidmət göstərən müxtəlif tədbirlər keçirmişdir və biz bunu gələcəkdə də edəcəyik.

Çalışmalıyıq ki, ölkələrimizin qarşısında duran vəzifələri birgə səylərlə həll edək və müsəlman ölkələri arasında əməkdaşlığı, həmrəyliyi, qarşılıqlı dəstəyi daha da gücləndirək.

Azərbaycan xalqı hər birimiz üçün doğma, müqəddəs olan Ramazan bayramını bütün dövrlərdə qeyd edirdi. Ancaq Ramazan bayramı ölkəmiz müstəqilliyini əldə etdikdən sonra rəsmi bayram kimi qeyd olunur. Azərbaycan xalqı müstəqilliyini əldə etdikdən sonra öz taleyinin sahibi oldu. Azərbaycanın müstəqilliyi bu gün daha da möhkəmlənir və ölkə qarşısında duran bütün məsələlər uğurla həll edilir. Mən çox şadam ki, Azərbaycan müstəqillik dövründə qardaş müsəlman ölkələri ilə çox səmərəli və qarşılıqlı surətdə faydalı əlaqələr qura bilmişdir. Əminəm ki, bu əlaqələr gələcəkdə daha da güclənəcəkdir.

İkitərəfli münasibətlərdə səfirlərin rolu çox əhəmiyyətlidir, çox böyükdür. Mən sizin fəaliyyətinizi yüksək qiymətləndirirəm və Azərbaycan ilə ölkələriniz arasında ikitərəfli münasibətlərin inkişafı işinə verdiyiniz töhfələrə görə sizə öz minnətdarlığımı bildirirəm.

Bir daha sizi bu gözəl bayram münasibətilə təbrik edirəm və dünyada yaşayan bütün müsəlman bacı-qardaşlarımıza öz səmimi təbriklərimizi göndəririk.

* * *

İraqın Azərbaycandakı səfiri Ərşad Ömər İsmayıl müsəlman ölkələrinin səfirləri adından dövlətimizin başçısını təbrik etmək üçün sözü Özbəkistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İsmatilla Erqaşevə verdi.

Səfir İsmatilla ERQAŞEV Azərbaycan Prezidenti İlham Əliyevi müqəddəs Ramazan bayramı münasibətilə müsəlman ölkələrinin səfirləri adından təbrik edərək dedi:

- Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev!

Bismillahir-rəhmanir-rəhim!

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasında akkreditə olunmuş müsəlman dövlətlərinin səfirlərinin, nümayəndəliklərinin rəhbərləri adından və şəxsən öz adımdan Sizi müqəddəs Ramazan ayı və Qədr-fitr bayramı münasibətilə təbrik etmək istərdim. Hamımız üçün müqəddəs olan bu ayda müsəlman dövlətlərinin səfirləri adından Sizə və Azərbaycan xalqına Tanrının göndərdiyi bütün nemətləri və həmçinin sülh və çiçəklənmə arzulayıram.

Fürsətdən istifadə edərək, bu müqəddəs bayram münasibətilə Sizinlə görüşmək imkanı yaratdığınıza görə Sizə dərin minnətdarlığımızı bildirmək istəyirəm. Çox xoşdur ki, belə tədbirlər ənənə halını alıb. Müsəlman dövlətlərinin builki tədbirdə iştirak edən nümayəndələrinin sayının artması diqqətəlayiqdir.

Bizim üçün müasir Azərbaycan qədim tarixə, zəngin mədəniyyətə və ənənələrə malik olan, eyni zamanda, gələcəyə yönəlmiş, sürətlə inkişaf edən, böyük imkanlara sahib, perspektivlərini aydın görən ölkədir.

Müasir Azərbaycan yalnız böyük iqtisadi nailiyyətləri, beynəlxalq aləmdə artmaqda olan nüfuzu ilə güclü deyildir. Azərbaycan həm də ilk növbədə çoxmillətli xalqının birliyi və əlbəttə ki, zəngin mədəni, intellektual və yaradıcı potensialı sayəsində qüdrətli dövlət olub və olmaqdadır.

Əminəm ki, Azərbaycanın əldə etdiyi bütün əhəmiyyətli və nəzərəçarpan nailiyyətlərin əsasında Azərbaycan xalqının ümummilli lideri, bütün dünyada tanınan siyasi xadim Heydər Əliyevin əvəzsiz rolu olduğunu söyləməklə hamımızın ümumi fikrini bildirmiş olaram. Biz Azərbaycanda iqtisadi və sosial sahələrdə aparılan dinamik islahatların gedişini, uğurlu dəyişiklikləri böyük maraq və rəğbətlə izləyirik.

Hörmətli cənab İlham Əliyev!

Məhz Sizin düşünülmüş, varislik kursuna əsaslanan siyasətiniz sayəsində Azərbaycan asan olmayan şəraitlərdə əminliklə öz gələcəyini qurur, müstəqilliyinin və dünyada nüfuzunun möhkəmləndirilməsində böyük uğurlar qazanır. Bu gün Azərbaycan Cənubi Qafqaz regionunda sabitliyi və inkişafı təmin edən dövlətdir. Biz müsəlman dünyasının nümayəndələri olaraq Dağlıq Qarabağa qarşı təcavüz nəticəsində ağır sınaqlara, çətinliklərə və itkilərə məruz qalmış azərbaycanlı qardaşlarımızın dərdlərini bölüşürük. Müsəlman dövlətlərinin əksəriyyətinin Qarabağ məsələsinin sülh yolu ilə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun, qaçqınların doğma torpaqlarına qayıtması əsasında həllinin tərəfdarı olması və Azərbaycanı dəstəkləməsi razılıq doğurur.

İslam Konfransı Təşkilatının əksər üzvləri bizim kimi hər zaman Dağlıq Qarabağ məsələsində BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilməsini dəstəkləyib və dəstəkləməkdə davam edir. Hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan tərəfinin təklif etdiyi həll modeli hər bir cəhətdən optimal və məqbuldur. Sizin müdrik rəhbərliyiniz sayəsində Azərbaycan dini tolerantlığın və sivilizasiyalararası dialoqun parlaq nümunəsi olub. Biz buna şahidik. Biz, həmçinin Azərbaycan Respublikasının müsəlman dövlətləri ilə əməkdaşlığının dərinləşməsi istiqamətində göstərdiyi səylərin, o cümlədən İKT-nin fəaliyyətində fəal iştirakının şahidiyik. Bilirik ki, yalnız dostluğu və əməkdaşlığı möhkəmləndirərək müasir dünyanın çağırışlarına müqavimət göstərmək olar.

2009-cu ildə İSESKO tərəfindən Bakının İslam mədəniyyətinin paytaxtı elan edilməsi Azərbaycanın dünya sivilizasiyasına və İslam mədəniyyətinin inkişafına verdiyi böyük töhfəyə parlaq dəlildir.

Cənab Prezident, icazə verin, Sizə bir daha xoş və səmimi arzularımızı çatdıraq və hamımız üçün müqəddəs olan Ramazan bayramı münasibətilə bugünkü görüşə görə öz minnətdarlığımızı bildirək. Sizə məsul dövləti işinizdə uğurlar arzulayırıq, Allahdan qardaş Azərbaycan xalqına və dünya müsəlmanlarına tərəqqi, əmin-amanlıq və sülh diləyirik.

Əssəlamu-aleykum və rəhmətullahu.

***

Prezident İlham ƏLİYEV: Sağ olun, təşəkkür edirəm. Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ LORD HANTIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Böyük Britaniyanın enerji məsələləri üzrə dövlət naziri Lord Hantın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlət naziri Lord Hant "Əsrin müqaviləsi"nin 15-ci ildönümü münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı və bu müqavilənin Azərbaycanın gələcək inkişafının

təminatında önəmli rol oynadığını dedi. Lord Hant Azərbaycan Prezidenti İlham Əliyevin bu il iyul ayında Londona rəsmi səfərinin Böyük Britaniya hökuməti tərəfindən yüksək qiymətləndirildiyini qeyd etdi.

Ölkəmizdə əldə olunan inkişaf proseslərinin başlanğıcında "Əsrin müqaviləsi"nin dayandığını deyən dövlətimizin başçısı bildirdi ki, 15 il bundan əvvəl imzalanan bu kontrakt bir çox enerji təşəbbüslərinin, o cümlədən bu gün Avropada ciddi müzakirə olunan enerji təhlükəsizliyi ilə bağlı təşəbbüslərin meydana gəlməsinə səbəb olmuşdur. Prezident İlham Əliyev Azərbaycanın Böyük Britaniya ilə energetika sahəsində əməkdaşlığa və bp-nin bu əməkdaşlıqda oynadığı rola önəm verdiyini vurğuladı. Dövlətimizin başçısı bp şirkəti ilə yeni layihələr üzrə aparılan işləri ötən dövr ərzində inkişaf edən əlaqələrimizin yaxşı göstəricisi olduğunu dedi. Londona sonuncu rəsmi səfəri zamanı Azərbaycan Dövlət Neft Şirkəti ilə Böyük Britaniyanın bp şirkəti arasında imzalanan qarşılıqlı Anlaşma Memorandumuna toxunan Prezident İlham Əliyev gələcəkdə də birgə layihələr üzərində işlərin davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Böyük Britaniyanın enerji məsələləri üzrə dövlət naziri Lord Hant dedi: " Biz Sizin bp şirkəti ilə strateji tərəfdaşlıqla bağlı söylədiyiniz fikirləri yüksək qiymətləndiririk və bu əməkdaşlığa bundan sonra da dəstək verəcəyik." Bu tərəfdaşlığın dünyada bir nümunə ola biləcəyini vurğulayan Lord Hant əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi.

AZƏRBAYCAN-HİNDİSTAN: HÜQUQİ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

İki ölkə arasında hüquqi yardıma dair sənəd layihələrinin razılaşdırılması məqsədi ilə Hindistanın Hüquq və Ədliyyə, Xarici və Daxili İşlər nazirliklərini təmsil edən geniş tərkibli nümayəndə heyəti sentyabrın 13-dən 16-dək Azərbaycanda səfərdə olmuşlar.

Səfər zamanı Azərbaycan Respublikası ilə Hindistan Respublikası arasında Mülki və ticarət işləri üzrə hüquqi yardım, Cinayət işlərində qarşılıqlı hüquqi yardım və Ekstradisiya haqqında müqavilə layihələri üzrə danışıqlar aparılaraq müvafiq razılaşma protokolu imzalanmışdır.

Qonaqlar, həmçinin respublikamızın ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovla görüşmüşlər.

Ölkəmizin Hindistan Respublikası ilə əlaqələrinin genişləndiyini bildirən nazir dövlətlərimiz arasında mövcud müqavilə-hüquq bazasının inkişaf etdirilməsinin hər iki tərəf üçün faydalı olduğunu, razılaşdırılmaya çıxarılan sənədlərin imzalanmasının ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edəcəyini vurğulamışdır.

Azərbaycanla ikitərəfli əlaqələrin inkişaf etdirilməsində ölkəsinin maraqlı olduğunu bildirən nümayəndə heyəti, qeyd olunan müqavilələrin iki dövlət arasında əməkdaşlığa töhfə olacağını söyləmiş, ölkələrimizin beynəlxalq təşkilatlar daxilində qarşılıqlı fəaliyyətinin əhəmiyyətini vurğulamışdır.

Hindistanın ölkəmizdəki səfiri Debnat Şounun iştirak etdiyi görüşdə əməkdaşlığın perspektivlərinə dair səmərəli fikir mübadiləsi aparılmışdır.

Sonra qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşlar.

NATO AZƏRBAYCANDA SU RESURSLARININ İDARƏ OLUNMASI ÜZRƏ MÖVCUD PROBLEMLƏRİN HƏLLİNDƏ ƏMƏKDAŞLIĞA HAZIRDIR

Sentyabrın 14-15-də Xarici İşlər Nazirliyinin Təlim-Tədris Mərkəzində "Azərbaycanda su resurslarının idarə olunması" mövzusunda seminar keçirilmişdir.

Seminarda NATO-nun Sülh Naminə Elm Komitəsi, Macarıstan və Slovakiyadan bu sahə üzrə ixtisaslaşmış ekspertlər iştirak etmişlər.

Seminarda şirin yeraltı sular, transsərhəd su resursları, mineral suların dayanıqlı idarə edilməsi, Kür çayı hövzəsində yerləşən şəhərlərdə tullantı sularının tənzimlənməsi və Avropada su resurslarının idarə edilməsi üzrə qanunvericiliyə dair müzakirələr aparılmışdır.

Tədbirdə ölkəmizi Azərbaycan Milli Elmlər Akademiyası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Azərsu" ASC, "Azərenerji" ASC və bu sahə üzrə ixtisaslaşmış digər ekspertlər təmsil etmişlər.

Seminarda Azərbaycanda su resurslarının idarə olunması üzrə mövcud problemlərin həlli istiqamətində təkliflər irəli sürülmüşdür. NATO-nun Sülh Naminə Elm Komitəsinin eksperti bildirmişdir ki, sözügedən təkliflər istiqamətində Azərbaycan ilə əməkdaşlıq edilməsi nəzərdən keçiriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKSOY-UN BAŞ DİREKTORU DÜSEN KASEİNOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də TÜRKSOY-un baş direktoru Düsen Kaseinovu qəbul etmişdir.

Baş direktor TÜRKSOY ilə ölkəmiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi. O dedi ki, "Bakı İslam mədəniyyətinin paytaxtıdır" proqramı çərçivəsində TÜRKSOY-un hazırladığı layihəyə əsasən "Üzeyir musiqi günü" münasibətilə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Koroğlu" operasının sentyabrın 18-də Bakıda səhnəyə qoyulacağı planlaşdırılır. Qonaq bu əsərin Türkiyədə, Qazaxıstanda və Qırğızıstanda çox böyük maraqla qarşılandığını vurğuladı.

Dövlətimizin başçısı bu layihənin xalqların bir-birinə daha da yaxınlaşması, ölkələr arasında mədəni əlaqələrin möhkəmləndirilməsi baxımından yaxşı imkan yaradacağını qeyd etdi və onun əhəmiyyətini yüksək qiymətləndirdi.

Görüşdə Azərbaycan ilə TÜRKSOY arasında geniş perspektivlərə malik əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ BÖYÜK BRİTANİYADA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR

Sentyabrın 16-17-də xarici işlər nazirinin müavini Vaqif Sadıqov bu ölkədə işgüzar səfərdə olmuşdur.

Səfər çərçivəsində V.Sadıqov Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin Rusiya, Cə-

nubi Qafqaz və Mərkəzi Asiya İdarəsinin rəisi Maykl Devenport ilə görüşmüşdür. Görüşdə ölkələrimiz arasındakı münasibətlərin müxtəlif aspektləri və əlaqələrin genişləndirilməsi imkanları ətrafında fikir mübadiləsi aparılmışdır. İki ölkə arasındakı mövcud münasibətlərin səviyyəsindən məmnunluq bildirilmiş və müxtəlif sahələr üzrə, o cümlədən təhsil, humanitar sahələrdə əməkdaşlıq imkanları müzakirə olunmuşdur. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunulmuş və münaqişənin regionda sülh və sabitliyin bərqərar olmasına və regionun Avropaya inteqrasiyasına əngəl törətdiyi vurğulanmışdır.

Vaqif Sadıqov səfər zamanı Kral Birləşmiş Xidmətlər İnstitutu (RUSİ) və Avropa-Azərbaycan Cəmiyyətinin birgə təşkilatçılığı və səfirliyin dəstəyi ilə "Cənubi Qafqazda təhlükəsizlik: Avropanın təhlükəsizlik strukturları ilə əməkdaşlığın genişləndirilməsi" mövzusunda keçirilən konfransda çıxış etmişdir.

Konfransda ATƏT, Avropa İttifaqı və NATO-nun Cənubi Qafqaz üzrə nümayəndələri, region ölkələrinin Londonda akkreditə olunmuş səfirləri, çoxsaylı tədqiqat mərkəzlərinin təmsilçiləri, region üzrə tanınmış ekspertlər iştirak etmişlər.

Tədbirdə Cənubi Qafqazda təhlükəsizlik məsələləri, beynəlxalq təşkilatların region ölkələri ilə əməkdaşlığı və Avrasiya məkanında enerji təhlükəsizliyi məsələləri müzakirə olunmuşdur.

BAKIDA QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN FÖVQƏLADƏ HALLAR ÜZRƏ QURUMLARI RƏHBƏRLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Sentyabrın 18-də Bakıda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) üzvü olan dövlətlərin fövqəladə hallar nazirlərinin və müvafiq qurumlarının rəhbərlərinin görüşü keçirilmişdir.

Görüşdə Ermənistan və Albaniya istisna olmaqla, QİƏT-in üzvü olan ölkələrin - Azərbaycan, Türkiyə, Gürcüstan, Yunanıstan, Rumıniya, Serbiya, Rusiya Federasiyası, Ukrayna, Bolqarıstan və Moldovanın fövqəladə hallar nazirləri və müvafiq qurumlarının rəhbərləri iştirak etmişlər.

Tədbirin əsas məqsədi QİƏT-ə üzv dövlətlərin fövqəladə hallar nazirlikləri və müvafiq qurumları arasında təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlığın cari vəziyyətini və perspektiv planlarını müzakirə etməkdən, bu sahədə milli və beynəlxalq potensialın imkanlarından daha səmərəli yararlanmaqdan, fövqəladə vəziyyətlərdə region ölkələrin qarşılıqlı yardımının təşkilindən ibarət olmuşdur.

Görüşü giriş sözü ilə Azərbaycanın fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov açaraq qonaqları salamlamış, ölkəmizin iqtisadi inkişafından, fövqəladə halların aradan qaldırılması istiqamətində görülən işlərdən danışmışdır. K.Heydərov tədbir iştirakçılarına Fövqəladə Hallar Nazirliyinin (FHN) fəaliyyətinin əsas prioritetləri barədə məlumat verərək bildirmişdir ki, bu qurumun yaradılmasından qısa müddət keçməsinə baxmayaraq, xeyli iş görülmüşdür. Nazirliyin bütün strukturları, eləcə də regional mərkəzləri qarşıya qoyulan əsas vəzifənin - ölkə vətəndaşlarının normal həyat

fəaliyyətinin təmin edilməsi üçün təhlükəsizlik şəraitinin yaradılması vəzifəsinin öhdəsindən layiqincə gəlmək istiqamətində gündəlik gərgin iş aparırlar. K.Heydərov bildirmişdir ki, nazirliyin strukturları və regional mərkəzləri hər cür fövqəladə halların, texnogen qəzaların qarşısını almağa qadirdirlər.

Nazir Azərbaycan FHN-nin beynəlxalq əməkdaşlıq sahəsində təcrübəsini əsas götürərək, QİƏT-ə üzv dövlətlərdə fövqəladə halların nəticələrini birgə səylərlə aradan qaldırmaq üçün böyük potensialın mövcud olduğunu vurğulamış, tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsinin vacibliyini diqqətə çatdırmışdır. Nazir son vaxtlar Qara dəniz hövzəsi ölkələrində - Türkiyədə, Gürcüstanda, Yunanıstanda, Rusiya Federasiyasında təbii fəlakətlərin və texnogen qəzaların ağır fəsadlar verdiyini xatırladaraq, region dövlətlərinin müvafiq qurumlarının bu hadisələrdən ciddi nəticə çıxaracaqlarına əmin olduğunu bildirmişdir.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı sədrinin nümayəndəsi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin iqtisadi əməkdaşlıq və inkişaf departamentinin rəhbəri Altay Əfəndiyev demişdir ki, dünyanı, o cümlədən Qara dəniz hövzəsini təbii fəlakətlərin və digər kataklizmlərin bürüdüyü indiki şəraitdə QİƏT-ə üzv dövlətlərin fövqəladə halların nəticələrinin aradan qaldırılması və texnogen problemlərin həlli istiqamətində səylərini birləşdirməyə ciddi ehtiyac vardır. Bunun üçün QİƏT ölkələrinin böyük potensialının olduğunu bildirən A.Əfəndiyev, son vaxtlar Türkiyənin İstanbul şəhərində baş verən daşqınların və Yunanıstandakı meşə yanğınlarının mövcud imkanlardan heç də səmərəli istifadə edilmədiyini ortaya qoyduğunu tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

QİƏT-in Daimi Beynəlxalq Katibliyinin icraçı direktoru Yevgeni Kozi iştirakçıları salamlamış, fövqəladə hallar üzrə qurumların rəhbərlərinin Bakı görüşünün səmərəli keçəcəyinə inamını ifadə etmişdir.

Rusiya Federasiyası fövqəladə hallar nazirinin müavini Vladimir Puçkov çıxışında bildirmişdir ki, Qara dəniz hövzəsində texnogen halların qarşısını birgə səylərlə almaq bu günün prioritet vəzifələrindən biri olmalıdır. Qonaq demişdir ki, son 3 ildə Rusiya Federasiyası FHN-nin xilasediciləri dünyanın 30-dan artıq ölkəsində, o cümlədən QİƏT-ə üzv dövlətlərin ərazilərində fövqəladə halların nəticələrinin aradan qaldırılmasında, xüsusilə xilasetmə tədbirlərində fəal iştirak etmişlər.

Sonra ümumi iclas olmuşdur. İclasda çıxış edənlər də bu sahədə QİƏT-ə üzv dövlətlərin səylərinin birləşdirilməsinin vacibliyini vurğulamış, əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsinə xidmət edən təkliflər irəli sürmüş, Bakı görüşünün əhəmiyyətini diqqətə çatdırmış, fövqəladə halların aradan qaldırılması ilə bağlı qarşıda duran vəzifələrin detalları müəyyənləşdirilmişdir.

Müzakirələrin yekunu ilə bağlı keçirilən mətbuat konfransında jurnalistlərin çoxsaylı sualları cavablandırılmışdır.

Daha sonra tədbir iştirakçıları Fövqəladə Hallar Nazirliyinin mərkəzi aparatında Böhranlı Vəziyyətlərdə İdarəetmə Mərkəzinə baxış keçirmişlər.

Qonaqlara mərkəzin fəaliyyət prinsipləri barədə ətraflı məlumat verilmişdir. Bildirilmişdir ki, FHN tərəfindən irimiqyaslı fövqəladə halların idarə edilməsi üçün nəzərdə tutulmuş bu mərkəzdə xüsusi təyinatlı 17 iş yeri yaradılmışdır. Burada quraşdırılmış xüsusi kameraların və ən müasir rabitə vasitələrinin köməyi ilə nazirliyin bütün strukturlarının rəhbərləri Azərbaycanın istənilən nöqtəsində baş verən fövqəladə halları izləmək, idarə etmək və xilasetmə tədbirlərini həyata keçirmək imkanına malikdirlər.

Mərkəzin iş prinsipləri və buradakı nadir texnoloji proseslərlə tanışlıq qonaqlarda xoş təəssürat yaratmış, onlar Azərbaycan FHN-nin fəaliyyətini yüksək qiymətləndirmişlər.

İclasın sonunda Bakı Bəyannaməsi qəbul edilmişdir. Sənədi Azərbaycan tərəfdən fövqəladə hallar naziri Kəmaləddin Heydərov və QİƏT-ə üzv dövlətlərin müvafiq qurumlarının rəhbərləri imzalamışlar.

AZƏRBAYCAN VƏ UKRAYNANIN FÖVQƏLADƏ HALLAR NAZİRLİKLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA KOMPLEKS TƏDBİRLƏR PLANI İMZALANMIŞDIR

Azərbaycanın fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov sentyabrın 18-də Ukraynanın fövqəladə hallar və əhalinin Çernobıl fəlakətinin nəticələrindən müdafiəsi üzrə naziri Vladimir Şandra ilə görüşmüşdür.

Kəmaləddin Heydərov Azərbaycanda bütün sahələrdə əldə olunmuş nailiyyətlər və ölkədə aparılan islahatlar barədə qonağa ətraflı məlumat vermişdir. Bildirmişdir ki, Azərbaycan ilə Ukrayna arasında bütün sahələrdə əlaqələr getdikcə inkişaf edir və genişlənir.

Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan K.Heydərov, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində dövlətlər arasında əməkdaşlığın əhəmiyyətini də qeyd etmişdir.

Rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə qonağa ətraflı məlumat verən nazir bildirmişdir ki, artıq Azərbaycan Fövqəladə Hallar Nazirliyinin akademiyası yaradılmışdır. Orada nazirliyin müxtəlif strukturları üçün mütəxəssislər hazırlanacaqdır.

Azərbaycanda əlaqədar nazirliyin formalaşmasının sürətlə getdiyini vurğulayan Ukraynanın fövqəladə hallar və əhalinin Çernobıl fəlakətinin nəticələrindən müdafiəsi üzrə naziri Vladimir Şandra əmin olduğunu bildirmişdir ki, bugünkü görüş və imzalanacaq sənəd qarşılıqlı əlaqələri daha da intensivləşdirəcək, ikitərəfli münasibətlərin uğurlu inkişafına müsbət təsir göstərəcəkdir.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Sonra Kəmaləddin Heydərov və Vladimir Şandra Azərbaycan və Ukraynanın Fövqəladə Hallar nazirlikləri arasında əməkdaşlıq haqqında kompleks tədbirlər planını imzalamışlar. Sənəd 2009-2011-ci illəri əhatə edir.

BAKIDA "YENİ GEOSİYASİ REALLIQLAR PRİZMASINDAN XƏZƏR DƏNİZİ REGİONUNDA TƏHLÜKƏSİZLİK VƏ SABİTLİK" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR

Sentyabrın 18-də Bakıda "Yeni geosiyasi reallıqlar prizmasından Xəzər dənizi regionunda təhlükəsizlik və sabitlik" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) və Fransanın "Avrasiya-yeni üfüqlər" qurumunun birgə təşkil etdikləri konfransı Prezident Administrasiyasının Siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanov açaraq bildirmişdir ki, Azərbaycanın regionda inkişaf edən, geniş hərbi potensiala və enerji resurslarına malik geostrateji tərəfdaş kimi əhəmiyyəti durmadan artır. Artıq Azərbaycan regionda lider dövlətdir və bu, güclər tarazlığının yeni konfiqurasiyasının formalaşmasına təsir edən bir amildir. Ölkəmiz güc resurslarını təsir vasitəsinə çevirmək iqtidarındadır. Təsadüfi deyildir ki, Dünya Bankının hazırladığı "Doing Business" hesabatlarında Azərbaycan, bir qayda olaraq, islahatçı lider ölkələr sırasındadır.

Xəzər regionunda ictimai-siyasi vəziyyətdən danışan AVCİYA-nın vitse-prezidenti Vəli Əlibəyov vurğulamışdır ki, bu regionda bir sıra münaqişələr mövcuddur və onlar təhlükəsizliyi təhdid edir.

Konfransın Fransadan olan sədri, bu ölkənin Milli Assambleyasının deputatı, "Avrasiya - yeni üfüqlər" təşkilatının prezidenti Tierri Mariani beynəlxalq geosiyasi təhlükəsizlik məsələlərinin həyata keçirilməsində Azərbaycanın rolunu yüksək qiymətləndirmişdir. O demişdir ki, münaqişələr hər vaxt böyük təhlükə mənbəyidir. Azərbaycan Qafqazda sülhün təminatçısı rolunu oynaya bilər. Biz də Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq. Çünki heç bir ölkə digər ölkənin 20 faiz ərazisini zorla işğal edə bilməz.

T.Mariani Xəzər regionunda zəngin neft-qaz yataqlarının olması səbəbindən dünyanın diqqətinin bu bölgəyə yönəldiyini və buna görə də regionun təhlükələrə daha həssas olduğunu vurğulamışdır.

Sonra konfrans öz işini sessiyalarda davam etdirmişdir.

"Xəzər dənizi ətrafında təhlükəsizliyin bugünkü vəziyyəti" mövzusunda birinci sessiyanın sədri, Avropa Şurasının Monitorinq Komitəsinin Böyük Britaniyadan olan üzvü Mayk Hankok bildirmişdir ki, münaqişələrin həlli və gələcəkdə yenidən alovlanmaması üçün düzgün siyasət aparılmalıdır. Erməniləri başa salmaq lazımdır ki, azərbaycanlılarla qonşuluq şəraitində yaşamağa məhkumdurlar. Azərbaycanın işğal olunmuş 20 faiz torpaq, 1 milyon qaçqın və məcburi köçkünlər problemi həll olunmalıdır ki, bölgədə təhlükəsizlik tam təmin edilsin.

İngiltərə Müdafiə Forumunun təsisçisi Robin Aşbay və Avropa Şurası Parlament Assambleyasının xarici əlaqələr üzrə komitəsinin sədri Tadeuş İvinski bildirmişlər ki, regionda böyük terrorizm təhlükəsi vardır. Vurğulanmışdır ki, yeni çəkilən neft-qaz kəmərləri ilə əlaqədar bu təhlükələr daha da artmışdır.

Prezident Administrasiyasının şöbə müdiri Elnur Aslanov "Qafqaz münaqişələri və onların qlobal təhlükəsizliyə təsiri" mövzusunda çıxış edərək diqqətə çatdırmışdır ki, qlobal təhlükəsizlik ölkə və onun əhalisinə qarşı müxtəlif təhdid və riskləri nəzərdə tutur. Bu gün hərbi və qeyri-hərbi təhdidlər dövlətin təsir imkanlarını məhdudlaşdırır və qlobal səviyyədə müvafiq tədbirlərin görülməsini şərtləndirir. Buna görə də təhlükəsizlik dövlətlərin və beynəlxalq təşkilatların birgə səyləri nəticəsində təmin edilməlidir. Bu nöqteyi-nəzərdən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional sülh və sabitlik üçün əsas təhlükədir. 1990-cı illərin əvvəllərində Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal etmiş və hələ də bu torpaqlar işğal altında saxlanılır. Bunun

nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. XXI əsrin əvvəlində, əlbəttə, belə bir vəziyyət nə hüquqi, nə də siyasi baxımdan heç bir çərçivəyə sığmır. Bir dövlətin ərazi bütövlüyünə qarşı digər dövlətin gücdən istifadə etməsi təcavüzdür və bu, öz növbəsində, sülhə qarşı cinayət kimi dəyərləndirilir, təcavüzkar dövlətin beynəlxalq məsuliyyətini ortaya qoyur.

Şöbə müdiri bildirmişdir ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Millətlərin öz müqəddəratını təyinetmə prinsipi Dağlıq Qarabağa şamil edilə bilməz. Münaqişənin həlli yolunda Dağlıq Qarabağa Azərbaycanın tərkibində muxtariyyət statusu verilə bilər. Bunun üçün də 7 rayon qaytarılmalıdır. Yalnız bundan sonra muxtariyyət məsələsi müzakirə oluna bilər.

E.Aslanov vurğulamışdır ki, münaqişənin nizamlanması prosesinin uzadılması Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə bağlıdır. Ermənilər başa düşməlidirlər ki, vaxt onların xeyrinə işləmir.

Konfransın "Enerji resursları və iqtisadi böhran: onların təhlükəsizliyə təsiri" adlı üçüncü sessiyasında çıxış edən geosiyasət üzrə belçikalı ekspert Tanquy Struye de Svilande və ispaniyalı deputat, senator Antonio Peral enerji resursları mənbələrinin şaxələnməsi baxımından Xəzər dənizinin böyük əhəmiyyətə malik olduğunu vurğulamışlar.

Avropanın, eləcə də ABŞ-ın Azərbaycanın enerji siyasətini tam dəstəklədiyini deyən məruzəçilər iqtisadi baxımdan getdikcə daha da inkişaf edən Azərbaycanın son dövrlərdə regionda əsas güc sahibinə çevrildiyini xüsusi qeyd etmişlər.

"NATO və Avropa İttifaqı ilə əməkdaşlığın gücləndirilməsinə doğru" adlı dördüncü sessiyada çıxış edən belçikalı general Patrik Nopens və beynəlxalq siyasət üzrə ekspert, almaniyalı professor Hannes Adomeyt Azərbaycanın Xəzər regionunda ən cəlbedici ölkə olduğunu vurğulamış, enerji sahəsində ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığını yüksək qiymətləndirmişlər.

Konfrans iştirakçıları regionda sabitliyin bərqərar olmasının vacibliyini qeyd etmiş, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin həllində konstruktiv mövqe nümayiş etdirməsi üçün Ermənistana təzyiq etməyə çağırmışlar. Vurğulanmışdır ki, Dağlıq Qarabağ münaqişəsi həll edilmədən Avropada sabitlik tam bərqərar olunmayacaq və bu, gələcəkdə daha böyük təhlükələrin yaranmasına səbəb olacaqdır.

Beynəlxalq konfransda Milli Məclisin deputatları, Fransa, Böyük Britaniya, İspaniya, Belçika, Almaniya və Polşadan olan siyasətçilər, ekspertlər, tədqiqatçılar, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər.

ABŞ-IN CORCTAUN UNİVERSİTETİ AMERİKA-AZƏRBAYCAN STRATEJİ TƏRƏFDAŞLIQ MÜNASİBƏTLƏRİNƏ HƏSR EDİLMİŞ KONFRANS KEÇİRMİŞDİR

Vaşinqtonda işgüzar səfərdə olan Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov Obama hakimiyyətinin yüksək səviyyəli nümayəndələri ilə ABŞ-ın Xəzər hövzəsi və Qafqaz bölgəsinə dair siyasətini müzakirə etmişdir. A.Əzimov ikitərəfli əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsini ABŞ müdafiə nazirinin beynəlxalq siyasət üzrə

müavini Sendi Vebşou, dövlət katibinin Avropa və Avrasiya siyasəti üzrə müavini Nesi Makeldauni və siyasi-hərbi məsələlər üzrə müavini Endru Şapiro, eləcə də Konqresin Nümayəndələr Palatasında Avropa üzrə altkomitənin sədri Robert Uekslerlə söhbətləri zamanı diqqətdə saxlamışdır.

Nazir müavini Araz Əzimov, həmçinin sentyabrın 18-də Vaşinqtonun nüfuzlu Corctaun Universitetində keçirilən konfransda Azərbaycan diplomatik xidmətinin yaradılmasının 90 illiyinə həsr edilmiş "ABŞ-Azərbaycan strateji tərəfdaşlığı: yeni ikitərəfli və regional meyarlar" mövzusunda çıxış etmişdir. Ölkəmizin Vaşinqtondakı səfirliyi və universitetin Avrasiya, Rusiya və Şərqi Avropa Araşdırmaları Mərkəzi tərəfindən birgə təşkil edilən konfransı giriş sözü ilə Azərbaycanın Vaşinqtondakı səfiri Yaşar Əliyev açmışdır. O qeyd etmişdir ki, illik ənənəvi foruma çevrilən bu konfrans ABŞ-ın yeni siyasi mövsümündə ölkəmizin vacibliyini xatırlatmaq, yaşadığımız mürəkkəb və dinamik bölgənin reallıqlarını və potensialını çatdırmaq üçün gözəl imkan idi.

Konfransda mövzu üzrə ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Uilyam Berns, Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov, dövlət katibinin demokratiya və insan haqları üzrə sabiq müavini Deyvid Kremer, eləcə də Senatın Xarici Münasibətlər üzrə Komitəsinin sabiq üzvü Chak Heyqlz çıxış etmişlər.

Natiqlər ABŞ-Azərbaycan münasibətlərinin cəmləşdiyi əsas üç sahə - enerji, təhlükəsizlik, iqtisadi və demokratik islahatlar üzrə əməkdaşlığa nəzər salmış, yeni siyasi tövsiyələrlə çıxış etmişlər.

Dövlət katibinin müavini Uilyam Berns vurğulamışdır ki, Azərbaycan Birləşmiş Ştatlar üçün əhəmiyyət kəsb edən, Avropa, Asiya və Yaxın Şərq bölgələrinin kəsişməsində duran strateji tərəfdaşdır. Ölkələrimiz antiterrordan tutmuş, qlobal maliyyə böhranının nəticələrinin aradan qaldırılması da daxil olmaqla, geniş mövzular üzrə əməkdaşlıq edir. Sabit və inkişaf edən Azərbaycan sabit və çiçəklənən Qafqaz bölgəsi deməkdir. O qeyd etmişdir ki, Birləşmiş Ştatlar Azərbaycanın bazar iqtisadiyyatı yolu ilə gedən demokratik dövlət kimi müvəffəqiyyət qazanmasını, qonşuları ilə sülh şəraitində yaşamasını arzu edir. Bu, təkcə Azərbaycanın deyil, ABŞ-ın da marağındadır. Cənab Berns bildirmişdir ki, ABŞ Azərbaycanın Dağlıq Qarabağla bağlı təhlükəsizlik narahatçılığını yaxşı anlayır. Prezident Barak Obama və dövlət katibi Hillari Klinton münaqişənin dinc yolla həll edilməsini dəstəkləmək üçün əllərindən gələni etməyə hazırdırlar. Prezident İlham Əliyev və Prezident Sarkisyan arasında sülhməramlı danışıqların son mərhələsini xatırladan dövlət katibinin müavini, bu səylərin növbəti görüş zamanı konkret nəticələrə gətirəcəyinə ümid bəslədiyini bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYA PARLAMENTİ SENATININ SƏDRİ PRŞEMISL SOBOTKANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Çexiya Respublikası Parlamenti Senatının sədri Prşemisl Sobotkanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Çexiya Parlamenti Senatının sədrinin böyük nümayəndə heyəti ilə Azərbaycana səfəri-

nin önəmini qeyd edən Prezident İlham Əliyev ölkəmizlə Çexiya Respublikası arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu bildirdi. Dövlətimizin başçısı bu məsələlərin Çexiya Prezidenti və Baş naziri ilə keçirdiyi görüşlər zamanı da müzakirə olunduğunu dedi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin geniş sahələri əhatə etdiyini vurğulayaraq, eyni zamanda "Şərq tərəfdaşlığı" Proqramında ölkəmizin iştirakının əhəmiyyətini də qeyd etdi. Dövlətimizin başçısı Çexiya Respublikası Parlamenti Senatının sədrinin səfəri zamanı həm ikitərəfli, həm də Azərbaycan-Avropa İttifaqı əməkdaşlığına dair məsələlərlə bağlı məhsuldar müzakirələrin keçiriləcəyinə əmin olduğunu bildirdi.

Prşemisl Sobotka Azərbaycanın Çexiya üçün strateji tərəfdaş ölkə olduğunu vurğuladı. O, Çexiyanın region ölkələri ilə əlaqələrinin inkişafında Azərbaycanın mühüm rolunu qeyd etdi. Ölkəsinin Azərbaycanla bütün sahələrdə əməkdaşlığa maraqlı olduğunu deyən qonaq, ikitərəfli münasibətlərimizin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini bildirdi.

BAKIDA AZƏRBAYCAN-ÇEXİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Sentyabrın 24-də "Park INN-Azərbaycan" mehmanxanasında İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Çexiyanın Ticarət və Sənaye Palatasının təşkilatçılığı ilə Azərbaycan-Çexiya biznes forumu keçirilmişdir.

Biznes forumda Çexiya Parlamenti Senatının sədri Prşemisl Sobotkanın başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir. Tədbirdə Çexiyanın dövlət rəsmiləri ilə yanaşı, bu ölkənin turizm, maliyyə, kimya, yüngül sənaye, inşaat, daşınmaz əmlak, maşınqayırma, konsaltinq və digər sahələri təmsil edən müəssisələrdən 40-a yaxın, Azərbaycan tərəfdən isə müvafiq sahələrdə fəaliyyət göstərən 100-ə qədər sahibkar iştirak etmişdir.

Biznes forumda Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən layihələr, sahibkarlığın inkişafı istiqamətində görülən tədbirlər, son illər qazanılmış nailiyyətlər barədə ətraflı məlumat vermişdir.

Bildirilmişdir ki, 2004-2008-ci illərdə ümumi daxili məhsul (ÜDM) 2,6 dəfə, sənaye istehsalı 2,8 dəfə artmışdır. Dünyanı bürümüş iqtisadi və maliyyə böhranına baxmayaraq, cari ilin səkkiz ayında ölkədə ÜDM 5 faiz, sənaye istehsalı 6,8 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 3,8 faiz, əhalinin gəlirləri isə 12,6 faiz artmışdır. Vurğulanmışdır ki, Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması, yerli və xarici investorlar üçün əlverişli şəraitin yaradılması ölkə rəhbərliyi tərəfindən həyata keçirilən iqtisadi siyasətin üstün istiqamətlərindən biridir. Təsadüfi deyildir ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan iqtisadiyyatına 65 milyard ABŞ dollarına yaxın məbləğdə investisiya yatırılmışdır ki, onun da yarıdan çoxu xarici sərmayədir.

Ş.Mustafayev Azərbaycanın xarici iqtisadi əlaqələrində Avropa İttifaqının, o cümlədən Çexiya ilə əməkdaşlığın genişləndirilməsinin mühüm yer tutduğunu və bu əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini söyləmişdir. Nazir 2008-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin 21 milyon dollar təşkil etdiyini, lakin bu əlaqələrin daha da

genişləndirilməsi üçün böyük imkanların olduğunu iş adamlarının diqqətinə çatdırmışdır.

Çexiya Parlamenti Senatının sədri Prşemısl Sobotka ölkələrimiz arasında iqtisadi, siyasi, mədəni əlaqələrin inkişaf etdiyini, əməkdaşlığın genişləndirilməsində sahibkarların rolunu vurğulamış, iş adamlarını bu tədbirdə fəal iştiraka dəvət etmişdir. Bildirmişdir ki, ölkəsinin yaxın zamanlarda Azərbaycanda açılacağı səfirliyi də sahibkarların əməkdaşlığına kömək edəcəkdir.

Tədbirdə AZPROMO-nun prezidenti vəzifəsini icra edən Fəridə Axundova Azərbaycanın biznes mühiti və investisiya imkanları barədə danışmışdır.

Sonra Naxçıvan Muxtar Respublikasında əlverişli investisiya şəraiti və sahibkarlığın geniş imkanlarına dair film nümayiş etdirilmiş, bu qədim məkanın tarixi, təbii şəraiti və iqtisadi imkanları barədə çexiyalı qonaqlara geniş məlumat verilmişdir.

Çexiyanın Ticarət və Sənaye Palatasının MDB ölkələri üzrə icraçı direktoru Masopust Frantişek "Çexiya şirkətlərinin Azərbaycanda maraqları" mövzusunda, Azərbaycan İnvestisiya Şirkətinin icraçı direktoru Əfqan İsayev isə qurumun fəaliyyəti ilə bağlı qısa təqdimatlarla çıxış etmişlər.

Sonra tədbir iş adamları arasında ikitərəfli görüşlərlə davam etmişdir.

VYANADA DİPLOMATİYA AKADEMİYALARI VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTLARI RƏHBƏRLƏRİNİN 37-Cİ KONFRANSI KEÇİRİLMİŞDİR

Sentyabrın 23-dən 25-dək Vyanada Diplomatik Treninq üzrə Beynəlxalq Forumun təşkilatçılığı ilə diplomatiya akademiyaları və beynəlxalq əlaqələr institutları rəhbərlərinin 37-ci konfransı keçirilmişdir.

Ölkəmizi bu tədbirdə Azərbaycan Diplomatiya Akademiyasının xarici siyasət proqramının direktoru Fariz İsmayılzadə təmsil etmişdir.

F.İsmayılzadə konfransın yekunları ilə bağlı bildirmişdir ki, dünyanın müxtəlif ölkələrindən 120-dən artıq diplomatiya akademiyası bu mötəbər forumun üzvüdür və artıq dördüncü dəfədir ki, Azərbaycan da forumun illik konfranslarında təmsil olunur.

Konfransın əsas məqsədi qurumlar arasında təcrübə mübadiləsi, əməkdaşlıq ideyaları, birgə layihələr, qloballaşan dünyada müasir diplomatiyanın qarşısında duran vəzifələr, yeni tendensiyalar, tədris proqramının müasir tələblərə uyğunlaşdırılması və digər məsələlər ətrafında müzakirələr aparmaqdır.

Bu platforma, eyni zamanda, Azərbaycana tədbir iştirakçılarına öz mövqeyini çatdırmaq, regiondakı xarici siyasət problemləri və münaqişələr, görülən işlər və perspektivlər barədə məlumat vermək üçün geniş şərait yaradır. Müsbət hal kimi qeyd edilməlidir ki, Azərbaycan Diplomatiya Akademiyası növbəti konfranslardan birinə ev sahibliyi etmək istiqamətində uğurlu iş aparır. Azərbaycan Diplomatiya Akademiyasının inşa edilməkdə olan yeni tədris kompleksi də konfransın Bakıda keçirilməsi üçün şansları artıracaqdır.

Diplomatiya sahəsi üzrə 83 ali təhsil ocağının qatıldığı builki konfransın əsas mövzusu isə "Avropa İttifaqının daxili strukturları ilə diplomatik münasibətlərin inkişaf etdirilməsi" olmuşdur.

Konfransda Avstriya Federal Xarici İşlər Nazirliyinin xarici siyasət üzrə baş katibi, səfir Yohannes Kirle, Avropa İttifaqı strukturlarının təmsilçiləri və diplomatiya akademiyaları rəhbərləri müasir diplomatiya və beynəlxalq əlaqələrə həsr edilmiş məruzələrlə çıxış etmişlər.

Qeyd edilməlidir ki, MDB ölkələrindən bu forumda yalnız Azərbaycan, Rusiya və Ukrayna təmsil olunurlar. Azərbaycanda Diplomatiya Akademiyasının yaradılması, uğurlu fəaliyyəti, genişmiqyaslı layihələri və xarici əlaqələri digər postsovet ölkələrində də belə bir qurum yaratmağa marağı artırmışdır.

Konfransda Azərbaycan diplomatik xidmətinin 90 illiyinə həsr olunmuş "Azərbaycan qlobal siyasətdə: xarici siyasətin formalaşması" kitabının nüsxələri iştirakçılara paylanmışdır. Azərbaycan diplomatiyasının tarixi, xarici siyasətin prioritetləri, Dağlıq Qarabağ münaqişəsi və digər mövzuları əhatə edən kitab iştirakçılar tərəfindən maraqla qarşılanmışdır.

Beynəlxalq forumun növbəti konfransı gələn il Malayziyada keçiriləcəkdir.

AVROPA İTTİFAQI - AZƏRBAYCAN ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN 10-CU İCLASI KEÇİRİLMİŞDİR

Sentyabrın 25-də Bakıda Avropa İttifaqı - Azərbaycan Əməkdaşlıq Komitəsinin 10-cu iclası keçirilmişdir.

İclasa Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev, Avropa İttifaqı tərəfindən isə Avropa Komissiyasının Xarici Əlaqələr Baş Direktorluğunun Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə müdiri Qunnar Viqand həmsədrlik etmişlər.

İclasda Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər, ikitərəfli əməkdaşlığın müxtəlif sahələr üzrə inkişaf perspektivləri müzakirə olunmuş, "Şərq tərəfdaşlığı" proqramına dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ MƏHMƏT ƏLİ ŞAHİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Türkiyə Böyük Millət Məclisinin sədri Məhmət Əli Şahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Türkiyə parlamentinin sədri Məhmət Əli Şahin Prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Avqust ayının 5-dən Türkiyə Böyük Millət Məclisinin sədri seçildiyini vurğulayan Məhmət Əli Şahin ilk xarici səfərlərindən birini Azərbaycana etməsindən məmnunluğunu bildirdi.

Türkdilli Ölkələrin Parlament Assambleyasının Bakıda keçiriləcək birinci toplantısına toxunan qonaq parlamentlərarası münasibətlərin xalqlar arasında əlaqələrin inkişafındakı önəmini qeyd etdi.

Dövlətimizin başçısı Türkiyə Böyük Millət Məclisinin sədri kimi Məhmət Əli Şahinin ilk xarici səfərlərindən birini Azərbaycana etməsinin önəmli olduğunu dedi. Prezident İlham Əliyev bildirdi ki, dövlət başçıları tərəfindən əsası qoyulan bu ənənənin parlament rəhbərləri tərəfindən davam etdirilməsi ölkələrimiz arasında olan münasibətlərin yüksək göstəricisidir. Türkdilli Ölkələrin Parlament Assambleyasının Bakıda keçiriləcək birinci toplantısının əhəmiyyətindən danışan dövlətimizin başçısı əlaqələrimizin bu formatda da uğurlu olacağını dedi. Bir neçə gündən sonra Naxçıvanda keçiriləcək türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşünə toxunan Prezident İlham Əliyev bir-birinin ardınca bu cür əhəmiyyətli tədbirlərin keçirilməsini türkdilli xalqlar arasında dostluq və həmrəyliyin möhkəmlənməsi işinə xidmət edəcəyini vurğuladı.

Məhmət Əli Şahin Türkiyə-Ermənistan münasibətlərindən danışaraq dedi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmayana qədər razılaşmaya dair protokollar Türkiyə Böyük Millət Məclisindən keçməyəcəkdir.

Prezident İlham Əliyev bu mövqeyə görə təşəkkür etdi.

Dövlətimizin başçısı Prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ABŞ-A SƏFƏRİ

Nyu-Yorka səfəri çərçivəsində sentyabrın 23-də nazir Elmar Məmmədyarov israilli həmkarı Aviqdor Liberman ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə İsrail arasında əlaqələrin hazırki vəziyyəti və inkişaf perspektivləri, regional məsələlər müzakirə olunmuşdur.

Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi və münaqişənin həlli ilə bağlı ölkəmizin mövqeyi barədə məlumat vermişdir.

Görüşdə, həmçinin ABŞ-dakı Azərbaycan və yəhudi icmaları arasında əməkdaşlığın indiki vəziyyətinə və inkişaf istiqamətlərinə dair fikir mübadiləsi aparılmışdır.

Həmin gün nazir E.Məmmədyarov Avropa İttifaqının xarici əlaqələr və Avropa qonşuluq siyasəti üzrə komissarı xanım Benita Ferrero-Valdner ilə görüşmüşdür.

Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın hazırki vəziyyəti və gələcək inkişafı məsələlərinin müzakirə olunduğu görüşdə B.Ferrero-Valdner Avropa İttifaqının ölkəmizlə münasibətlərin dərinləşməsinə böyük önəm verdiyini vurğulamış, respublikamızla mövcud əməkdaşlıq proqramlarının, xüsusilə də "Şərq tərəfdaşlığı" təşəbbüsü çərçivəsində əlaqələrin hər iki tərəfə böyük fayda gətirdiyini bildirmişdir.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində vacib rol oynadığını qeyd edən B.Ferrero-Valdner Aİ-Azərbaycan əməkdaşlığında energetika sektorunun əhəmiyyətini vurğulamışdır. Komissar bildirmişdir ki, Avropa Komissiyası Azərbaycan ilə assosiativ müqaviləni imzalamaq qərarını vermiş və bu yaxınlarda müvafiq mandat hazır olacaqdır.

Nazir E.Məmmədyarov ölkəmizin Aİ ilə əməkdaşlığının gündən-günə daha da səmərəli xarakter aldığından məmnunluğunu bildirmiş, mövcud və nəzərdə tutulan təşəbbüslərin əlaqələrin genişləndirilməsinə töhfə verəcəyini vurğulamışdır. Regional təhlükəsizlik məsələlərinə toxunan nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini bildirmiş, nizamlanma prosesinin hazırkı vəziyyəti və Azərbaycanın mövqeyi barədə məlumat vermişdir.

Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasının vacibliyini bildirən B.Ferrero-Valdner Avropa Komissiyasının bu istiqamətdə töhfə verməyə hazır olduğunu vurğulamışdır.

Bundan əlavə, sentyabrın 23-də E.Məmmədyarov Avstriyanın xarici işlər naziri Mixael Şpindelegger ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın hazırkı vəziyyəti müzakirə olunmuş, habelə, siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələrin daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparılmışdır.

Avstriyalı nazir ölkəsinin Azərbaycan ilə əməkdaşlığa böyük önəm verdiyini və Avstriya hökumətinin Azərbaycanda səfirlik açmaq qərarının bunun göstəricisi olduğunu demişdir.

Əməkdaşlıqda energetika sektorunun vacibliyini vurğulayan M.Şpindelegger, Avstriyanın ölkəmizlə mütəmadi siyasi dialoqun aparılmasında, Cənubi Qafqazda gedən proseslərlə daha yaxından tanış olmaqda, əlaqələrin qeyri-enerji sektorunda da inkişaf etdirilməsində maraqlı olduğunu bildirmişdir.

Nazir E.Məmmədyarov əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayaraq bildirmişdir ki, Azərbaycanda Avstriyanın diplomatik nümayəndəliyinin, habelə bu ölkənin nüfuzlu "AMV" şirkətinin təmsilçiliyinin açılması onu göstərir ki, Avstriya əlaqələrin inkişafında maraqlıdır.

E.Məmmədyarov ölkələrimizin Xarici İşlər Nazirlikləri arasında mütəmadi siyasi məsləhətləşmələrin aparılmasının vacibliyini vurğulamışdır.

Görüşdə Azərbaycan ilə Avstriya arasında beynəlxalq təşkilatlar, o cümlədən BMT çərçivəsində əməkdaşlıq və maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

Müxtəlif beynəlxalq tədbirlərdə olduğu kimi, BMT Baş Məclisinin sessiyası çərçivəsində də Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov türkiyəli həmkarı Əhməd Davutoğlu ilə də görüşmüşdür.

Ölkələrimiz arasında əməkdaşlığın bütün istiqamətlərinin müzakirə olunduğu görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının hazırki vəziyyəti barədə fikir mübadiləsi aparılmışdır.

Həmin gün E.Məmmədyarovun Portuqaliyanın Xarici İşlər Nazirliyinin dövlət katibi

Joao Qomes Kravinyo ilə görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Portuqaliya arasında əlaqələrin inkişaf etdirilməsi üçün Xarici İşlər Nazirlikləri arasında təmasların daha da intensivləşdirilməsi, o cümlədən mütəmadi siyasi məsləhətləşmələrin aparılması, iki ölkə arasında müqavilə-hüquq bazasının gücləndirilməsi, Azərbaycanla Aİ arasında əlaqələrin genişləndirilməsinə Portuqaliyanın verə biləcəyi töhfə, "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

Səfər çərçivəsində nazir E.Məmmədyarov Estoniyanın xarici işlər naziri Urmas Paetlə də görüşmüş, ölkələrimiz arasında əməkdaşlığın cari vəziyyətini və inkişaf perspektivlərini müzakirə etmişdir. Tərəflər siyasi əlaqələrin yüksək səviyyədə olduğunu bildirərək, yüksək səviyyəli qarşılıqlı səfərlərin davam etdirilməsinin əhəmiyyətini vurğulamışlar. Görüşdə "Azərbaycan Respublikası Hökuməti ilə Estoniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında saziş" də imzalanmışdır. Bu sənədin ölkələrimiz arasında İKT sektorunda əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açdığını bildirən tərəflər, bu istiqamətdə konkret layihələrin müzakirəsi, ümumilikdə iqtisadiyyatın müxtəlif sektorlarında əməkdaşlıq imkanlarının araşdırılması üçün qarşılıqlı biznes missiyalarının əhəmiyyətini qeyd etmişlər. Nazirlər iki ölkə arasında müxtəlif sahələr üzrə hüquq-müqavilə bazasının gücləndirilməsi üçün sənəd layihələrinin mübadiləsi üzrə də razılığa gəlmişlər.

Nyu-Yorka səfəri çərçivəsində nazir E.Məmmədyarov ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi səfir Riçard Morninqstarla da görüşmüşdür. Görüşdə Azərbaycan ilə ABŞ arasında enerji sahəsində əməkdaşlıq məsələləri, habelə regional enerji layihələri ətrafında fikir mübadiləsi aparılmışdır.

Həmin gün E.Məmmədyarovun son görüşü Kubanın xarici işlər naziri Bruno Eduardo Rodriges Parrilya ilə olmuşdur. Tərəflər ölkələrimiz arasında əməkdaşlığın hazırki vəziyyətindən məmnunluqlarını bildirmiş, əlaqələrin daha da möhkəmləndirilməsi üçün siyasi məsləhətləşmələrin davam etdirilməsi, iqtisadi əməkdaşlıq imkanlarının müzakirəsi, mədəni tədbirlərin həyata keçirilməsi, humanitar təhsil sahəsində, iki ölkənin diplomatik akademiyaları arasında əməkdaşlığın həyata keçirilməsi ətrafında fikir mübadiləsi aparmışlar. Nazirlər ölkələrin beynəlxalq təşkilatlar, xüsusilə də BMT çərçivəsində əməkdaşlığının davam etdirilməsinin vacibliyini bildirmişlər.

Sentyabrın 24-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ABŞ-dakı yəhudi təşkilatlarının rəhbərləri ilə görüşmüşdür.

Azərbaycanda yüksək tolerantlıq şəraitindən məmnunluğunu bildirən yəhudi təşkilatlarının nümayəndələri İsrail Prezidenti Şimon Peresin ölkəmizə uğurlu səfərini, eləcə də Prezident İlham Əliyevin yəhudi xalqının milli yeni il bayramı - Roş-Haşana münasibətilə yəhudi icmasına ünvanladığı təbriki yüksək qiymətləndirmişlər.

Nazir E.Məmmədyarov bildirmişdir ki, dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq insanlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, nümunəvi tolerantlıq mühitinin hökm sürdüyü müasir Azərbaycan cəmiyyətində etnik-mədəni müxtəliflik milli dövlətçiliyimizin əsas sərvətlərindən biridir.

Vətənimizdə tarixən yəhudilərin sülh içində yaşadığını vurğulayan nazir, hazırda Azərbaycan ilə İsrail arasında səmərəli münasibətlərin inkişaf etdiyini və İsrail Prezidenti Şimon Peresin ölkəmizə səfərinin əməkdaşlığın inkişafına təkan verdiyini qeyd etmişdir.

Görüşdə regional məsələlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, Azərbaycanın regional və qlobal proseslərə münasibəti ətrafında fikir mübadiləsi aparılmışdır.

Həmin gün nazir E.Məmmədyarov İsveçrə Konfederasiyasının Federal Xarici İşlər Departamentinin rəisi xanım Mişlin Kalmi-Rey ilə görüşmüşdür.

Ölkələrimiz arasında münasibətlərin hazırkı vəziyyətinin və inkişaf perspektivlərinin, regional enerji layihələri və təhlükəsizlik məsələlərinin müzakirə olunduğu görüşdə əməkdaşlığın genişləndirilməsi üçün mövcud imkanlardan daha səmərəli şəkildə faydalanmağın əhəmiyyəti vurğulanmışdır.

M.Kalmi-Rey Azərbaycanın Avropanın enerji təhlükəsizliyində vacib rol oynadığını demişdir.

E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tənzimlənmədən regionda sülhün və təhlükəsizliyin təmin edilməsinin mümkünsüz olduğunu bildirmiş, problemin həlli ilə bağlı Azərbaycanın mövqeyi barədə ətraflı məlumat vermişdir.

Sentyabrın 24-də E.Məmmədyarovun növbəti görüşü İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğlu ilə olmuşdur.

Görüşdə Azərbaycan-İKT əlaqələri yüksək qiymətləndirilmiş və əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

E.Məmmədyarov İslam dünyası ilə əməkdaşlığın Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən olduğunu vurğulamış və bu istiqamətdə İKT-nin rolunun vacibliyini qeyd etmişdir.

Ölkəmizin İKT ilə əməkdaşlığından məmnunluğunu bildirən E.İhsanoğlu, xüsusilə də Azərbaycanın sivilizasiyalararası dialoqun təşviq edilməsindəki rolunu və bu istiqamətdə həyata keçirdiyi tədbirləri təqdirəlayiq hesab etmişdir.

Görüşdə, həmçinin regional təhlükəsizlik məsələləri müzakirə olunmuşdur. Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı çərçivəsində həllini dəstəkləyən İKT qətnamələrini və BMT çərçivəsində bu məsələyə İslam ölkələri tərəfindən verilən dəstəyi yüksək qiymətləndirmişdir.

Nazir E.Məmmədyarovun livanlı həmkarı Fauzi Sallux ilə görüşündə ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, Yaxın Şərq və Cənubi Qafqazdakı vəziyyət və birgə maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ölkəmizin mövqeyi barədə məlumat vermiş və bu problem həll olunmadan regionda sülhün və təhlükəsizliyin təmin edilməsinin mümkünsüzlüyünü bildirmişdir.

Həmin gün nazir E.Məmmədyarovun son görüşü Qazaxıstanın dövlət katibi-xarici işlər

naziri Kanat Saudabayev ilə olmuşdur. Nazirlər Azərbaycan ilə Qazaxıstan arasında əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivlərini, nəzərdə tutulan yüksək səviyyəli səfərlər, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, regional təhlükəsizlik məsələlərini müzakirə etmişlər.

Nazir E.Məmmədyarov K.Saudabayevə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi və nizamlanmaya dair ölkəmizin mövqeyi barədə məlumat vermişdir.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Nyu-Yorka səfəri çərçivəsində sentyabrın 25-də GUAM Xarici İşlər Nazirləri Şurasının 10-cu iclasında iştirak etmişdir.

GUAM-ın katibliyindən verilən məlumata görə, nazirlər BMT Baş Məclisinin 63-cü sessiyasında "Abxaziyadan, Gürcüstandan və Cənubi Osetiyanın Sxinvali rayonundan olan köçkün və qaçqınların vəziyyəti haqqında" qətnamə qəbul edilməsini alqışlamışlar.

Bundan əlavə, iclasda sədrlik edən tərəfin BMT Baş Məclisinin 63-cü sessiyası çərçivəsində GUAM-ın təklif etdiyi "GUAM məkanında uzanan münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün doğurduğu nəticələr" adlı qətnamə layihəsinin müzakirəsi ilə əlaqədar iş barədə məlumatı üzrə fikir mübadiləsi aparılmışdır.

Görüş iştirakçıları BMT Baş Məclisinin 64-cü sessiyasının gündəliyinə müvafiq bənd daxil edilməsinin vacibliyini və BMT-nin 64-cü sessiyasının gündəliyindəki müvafiq bənd çərçivəsində təşkilatın üzvü olan bütün dövlətlərin informasiya işinin intensivləşdirilməsinin, habelə qətnamə layihəsinin qəbul edilməsini sürətləndirməyə yönəlmiş səyləri fəallaşdırmağın zəruriliyini qeyd etmişlər.

Bununla əlaqədar, XİNŞ Milli Əlaqələndiricilər Şurasına (MƏŞ) GUAM-ın milli əlaqələndiriciləri səviyyəsində tərəfdaş ölkələrlə növbəti məsləhətləşmələrin təşkili üzrə işi davam etdirməyi tapşırmışdır.

XİNŞ GUAM-ın digər dövlətlər və beynəlxalq təşkilatlarla əməkdaşlığı məsələlərini müzakirə etmiş, GUAM-ın ABŞ və Yaponiya ilə qarşılıqlı əlaqələrində əldə edilmiş səviyyədən razı qaldığını bildirmiş, GUAM-ın Polşa və Çexiya ilə əməkdaşlığını konkret layihələrlə zənginləşdirməyin zəruri olması fikri ilə razılaşmışdır.

Nazirlər sədrlik edən tərəfin GUAM ilə Baltikyanı ölkələr arasında parlamentlərarası əməkdaşlığı icra hakimiyyəti orqanları səviyyəsində müvafiq münasibətlər yaradılması hesabına zənginləşdirmək təşəbbüsünü dəstəkləmişlər.

Bundan əlavə, XİNŞ GUAM Şurasının GUAM-ın işçi orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair qərarlarının yerinə yetirilməsinin gedişi haqqında sədrlik edən tərəfin məlumatını dinləmiş və MƏŞ-ə bu işi davam etdirməyi tapşırmışdır.

XİNŞ yeni bir layihəni - "GUAM nəqliyyat dəhlizində sərhəd nəzarəti metodologiyasının və texnologiyasının beynəlxalq standartlara və praktikaya uyğun təkmilləşdirilməsi: nəqliyyat vasitələrinin yoxlanılması" adlı GUAM-ABŞ çərçivə proqramı layihəsini təsdiq etmiş, Gürcüstanın təşkilatda sədrlik müddətinin 2009-cu ilin sonuna qədər uzadılmasını, habelə GUAM-ın 2010-cu il üçün büdcəsinin təsdiq edilməsini qərara almışdır.

XİNŞ-in növbəti iclasını ATƏT XİNŞ-in 2009-cu ilin dekabrında Afinada baş tutacaq forumu çərçivəsində keçirmək qərara alınmışdır.

Sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Məclisinin 64-cü sessiyası çərçivəsində GUAM Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) "GUAM+Çexiya" formatında görüşü olmuşdur.

Tərəflər 2008-ci ilin iyul ayında Batumidə, ötən ilin dekabrında Helsinkidə, habelə GUAM-ın baş katibinin sentyabr ayında Praqaya işgüzar səfəri gedişində keçirilmiş əvvəlki görüşlərin nəticələrindən razı qaldıqlarını bildirmişlər. GUAM Baş katibinin Praqaya səfəri çərçivəsində "GUAM+Çexiya" formatında əməkdaşlığa dair məsələlər müzakirə olunmuşdur.

GUAM Xarici İşlər Nazirləri Şurasının görüşündə tərəflər əməli tərəfdaşlığın və əməkdaşlığın inkişaf etdirilməsinə hazır olduqlarını təsdiq etmiş, qarşılıqlı maraq doğuran sahələrdə birgə layihələrin həyata keçirilməsinə dair təkliflər ətrafında fikir mübadiləsi aparmışlar.

Nazirlər GUAM-ın Vışeqrad qrupu (Polşa, Çexiya, Slovakiya, Macarıstan) ölkələri və Avropa İttifaqı ilə münasibətlərinin inkişaf etdirilməsinin vacibliyini bir daha vurğulamışlar. Çexiya Avropaya inteqrasiya edilməsi sahəsində əldə etdiyi təcrübəni GUAM-ın üzvü olan dövlətlərlə bölüşməyə hazır olduğunu bildirmiş, GUAM və Vışeqrad qrupu arasında əməkdaşlığın başlanmasını alqışlamış, habelə GUAM və Aİ arasında əməkdaşlığın fəallaşmasına tərəfdar olduğunu təsdiq etmişdir.

Görüşdə, həmçinin BMT Baş Məclisinin 64-cü sessiyasının gündəliyinə daxil edilmiş "GUAM regionunda uzun sürən münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün fəsadları" bəndi müzakirə olunmuşdur.

Nazirlər belə bir inam ifadə etmişlər ki, beynəlxalq birlik GUAM regionunda uzun sürən münaqişələrin GUAM-ın üzvü olan dövlətlərin suverenliyinin, dünya ölkələri tərəfindən tanınmış ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığı əsasında nizama salınması məqsədi ilə səylərin birləşdirilməsini davam etdirməlidir.

Həmin gün nazir E.Məmmədyarov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) xarici işlər nazirlərinin işgüzar görüşündə iştirak etmişdir. Tədbir hazırda QDİƏT-ə sədrlik edən Azərbaycan tərəfindən təşkil edilmişdir. Görüşdə açılış nitqi söyləyən nazir E.Məmmədyarov təşkilatın məqsədləri və fəaliyyət istiqamətlərinə münasibətdə ölkəmizin mövqeyi barədə məlumat vermişdir.

Həmin gün nazir E.Məmmədyarov BMT-nin Baş Assambleyasının 64-cü sessiyası zamanı təşkil olunmuş Müqavilə Tədbiri çərçivəsində "İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakta dair fakültativ protokolu" imzalamışdır.

Həmin gün nazir E.Məmmədyarov İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin İllik Toplantısında çıxış etmişdir.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN İKT-NIN ÜZV DÖVLƏTLƏRİNİN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN İLLİK ƏLAQƏLƏNDİRİCİ GÖRÜŞDƏ ÇIXIŞI

- Zati-alilər,

Əziz dostlar,

Mən bu tədbirdə iştirak edən bütün qardaşlarımı salamlayıram və müzakirələrimizin real nəticələr verəcəyinə inamımı bildirmək istəyirəm.

Bir sıra İKT dövlətlərdəki mövcud vəziyyət bizdə dərin narahatlıq doğurur. İKT-nin on illik Fəaliyyət proqramına uyğun olaraq, təşkilata üzv dövlətlər islam həmrəyliyini bir daha təsdiqləməli və köməyə ehtiyac duyanlara dəstəklərini artırmalıdırlar.

Fələstindəki vəziyyət və Əl-Qüds Əl-Şərif məsələsi İslam cəmiyyəti üçün hələ də vacib olaraq qalır və İKT-yə üzv dövlətlərin beynəlxalq aləmdə birgə mövqedən çıxış etmələrini tələb edir. Azərbaycan qardaş Fələstin xalqının sülh və stabilliyə nail olması və Əl-Qüds paytaxt olmaqla müstəqil, suveren Fələstin dövlətinin yaradılması sahəsində səylərini dəstəkləyir.

Son illər bir sıra ölkələrdə İslama qarşı ciddi təhdidlər, dözümsüzlük və diskriminasiya halları dinlər arasında böhran və dini nifrətin aradan qaldırılmasına yönəlmiş mübarizənin birgə səylər və dialoq vasitəsilə həyata keçirilməsinin vacibliyini təsdiq etmişdir. İslamın düzgün təhlil edilməməsi ilə bağlı mövcud vəziyyət bizim islamofobiyaya qaşı müqavimətimizin gücləndirilməsinin vacibliyini göstərir. Bu baxımdan biz bu gün ekstremizm, onunla sıx bağlı olan terrorçuluq və dini fanatiklik kimi çağırışlara cavab verməyə hazır olmalıyıq. İslam haqqında düzgün və həqiqi təsəvvürün formalaşdırılmasına, onun dəyərlərinin qeyri-müsəlman aləminə çatdırılmasına istiqamətlənmiş cəhdlər İKT-nin müvafiq strukturları vasitəsilə uzlaşdırılmalı və ayrı-ayrı ölkələr və beynəlxalq təşkilatlarla daha fəal dialoq aparılmalıdır.

Zati-alilər,

Azərbaycan təşkilatın məqsəd və vəzifələrinin, o cümlədən qardaş islam dövlətləri ilə əməkdaşlığın inkişaf etdirilməsinin tərəfdarıdır. Mənim ölkəm İKT-nin bir sıra mühüm tədbirlərinə ev sahibliyi etmişdir. Bunların arasında 2008-ci il 6-8 oktyabr tarixli Ali təhsil və elmi tədqiqatlar nazirlərinin 4-cü İslam Konfransı və 2009-cu ilin 21-22 aprel tarixində Hüquq-mühafizə orqanlarının rəhbərlərinin 1-ci İslam Konfransını qeyd etmək olar. İKT-nin müvafiq qərarı ilə Azərbaycanın paytaxtı Bakı 2009-cu il üçün İslam mədəniyyətinin paytaxtı elan edilmiş və qərara əsasən bu ilin 13-15 oktyabr tarixində Bakıda Mədəniyyət nazirlərinin İslam Konfransının keçirilməsi planlaşdırılmışdır. Mən bu gün böyük şərəflə İKT-yə üzv dövlətləri bu konfransa dəvət edirəm. Bu il Bakıda İKT çərçivəsində keçiriləcək digər mühüm tədbirlərdən biri də 11-12 noyabrda İslam Konfransı Təşkilatının 40-cı ildönümünə həsr olunmuş "Sivilizasiyalar arasında dialoq: Azərbaycandan baxış" adlı konfrans olacaqdır.

Azərbaycan son illər ərzində İKT və BMT vasitəsi ilə həyata keçirilən humanitar proqramlarda fəal iştirakını davam etdirib və gələcəkdə də edəcəkdir.

Azərbaycan 2012-2013-cü illərdə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olmaq məqsədi ilə öz namizədliyini irəli sürüb. Üzvlük məsələsi ilə bağlı seçkilər 2011-ci ildə BMT-in Baş Assambleyasının 66-cı sessiyası zamanı olacaq. İKT-nin BMT-nin Təhlükəsizlik Şurasında təmsil olunmasının vacibliyini nəzərə alaraq, biz üzv ölkələr tərəfindən Azərbaycanın namizədliyinin davamlı dəstəklənəcəyinə ümid edirik.

Zati-alilər,

Mən bir daha bütün İslam cəmiyyəti və İKT-nin baş katibinə Ermənistanla uzun sürən münaqişədə Azərbaycanın tutduğu ədalətli mövqeyinə və Ermənistanın hərbi təcavüzünün nəticələrinin aradan qaldırılmasına dair verilən dəstəyə görə ölkəm adından səmimi təşəkkürümü bildirirəm. Bu təcavüz nəticəsində Azərbaycan torpaqlarının təxminən 20%-i ermənilər tərəfindən işğal edilmiş, etnik təmizləmələr nəticəsində 1 milyona yaxın azərbaycanlı öz doğma torpaqlarından didərgin düşmüş, minlərlə tarixi və mədəni, o cümlədən İslam irsinə aid abidələr qarət edilmiş və dağıdılmışdır.

Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı İKT-nin çoxsaylı qərar və qətnamələri və təşkilata üzv dövlətlərin bu məsələdə verdiyi dəstək, beynəlxalq aləmin, xüsusən də BMT-nin Baş Assambleyası və Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin işğalı məsələsinə yanaşmasının formalaşmasında çox faydalı olub. 2008-ci ilin 18 mart tarixində Baş Assambleya özünün 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair" adlı qətnaməni qəbul etmişdir. Biz əksər İKT-yə üzv ölkələrin bu qətnaməyə verdikləri dəstəyi, həmçinin bir sıra İKT-yə üzv dövlətlərin BMT Baş Katibinin qətnamənin həyata keçirilməsinə dair hesabatla bağlı göndərdikləri yazılı cavabları yüksək qiymətləndiririk.

Azərbaycan bu uzun sürən münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, BMT və İKT-nin müvafiq qətnamələrinin həyata keçirilməsinə və o cümlədən, ATƏT-in aidiyyəti üzrə sənəd və qərarlarına əsaslanan sülh yolu ilə həllinin tərəfdarı olaraq qalır. Bu səbəbdən biz Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət ilə bağlı məsələyə BMT çərçivəsində baxılmasına xüsusi önəm veririk. Güc tətbiq etməklə suveren dövlətlərin torpaqlarının zəbt edilməsi və bunun nəticəsində yaranmış vəziyyətin heç zaman qanuni hesab olunmayacağına dair aydın xəbərdarlıq vermək bu universal təşkilatın səlahiyyətindədir. Buna görə də, Azərbaycan İKT-yə üzv dövlətlərinin ölkəmizin atdığı addımlarını və irəli sürdüyü təşəbbüslərini daima dəstəkləyəcəyinə inanır.

Zati-alilər,

Mən həmçinin bildirmək istəyirəm ki, Azərbaycan 13-cü İslam Konfransı Sammitinin 2014-cü ildə Bakıda keçirilməsi ilə əlaqədar İKT-nin Baş Katibliyinə rəsmi müraciət etmişdir. Azərbaycan İKT-nin bir sıra tədbirlərini, o cümlədən Xarici işlər nazirlərinin Şurası və bir neçə sahələr üzrə nazirliklərin görüşlərini uğurla həyata keçirdiyini və ölkəmizin təşkilatın məqsəd və vəzifələrinə sadiq olduğunu nəzərə alaraq, mən bu fürsətdən istifadə edərək dövlətlərinizi bizim namizədliyimizi dəstəkləməyi xahiş edirəm.

Və sonda mən İKT-nin baş katibi professor Ekmeleddin İhsanoğluya İslam cəmiyyətinin inkişafına yönəlmiş dəyərli işlərinə görə öz dərin təşəkkürümüzü bildirirəm.

Çox sağ olun!

***

Nazir E.Məmmədyarov Nyu-Yorka səfəri çərçivəsində sentyabrın 25-də ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşmüşdür. Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi ətrafında fikir mübadiləsi aparılmışdır.

Həmin gün nazir E.Məmmədyarov ABŞ-ın dövlət katibi Hillari Klintonla görüşmüşdür. Mehriban və konstruktiv şəraitdə keçən görüşdə Azərbaycan-ABŞ əməkdaşlığının bütün istiqamətləri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və digər regional məsələlər ilə bağlı ətraflı fikir mübadiləsi aparılmışdır.

Tərəflər iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olmasından məmnunluqlarını ifadə etmişlər.

Görüşdə əsas etibarilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi müzakirə olunmuşdur. Dövlət katibi H.Klinton azərbaycanlı həmkarı ilə cari ilin may ayında Vaşinqtonda keçirdiyi görüşündə olduğu kimi bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı status-kvonun yolverilməz olduğunu və ABŞ-ın yeni administrasiyasının bu münaqişəsinin tezliklə nizamlanması ilə bağlı öhdəliyini təsdiq etmişdir.

Öz tərəfindən, ABŞ administrasiyasının məsələyə göstərdiyi diqqətə görə təşəkkür edən nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yalnız ölkəmizin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı çərçivəsində nizamlanması şəraitində Cənubi Qafqaz regionunda sülh və sabitliyin təmin edilməsinin mümkünlüyünü bildirmişdir.

Görüşdə ABŞ-Azərbaycan arasında enerji sahəsində əməkdaşlıqdan məmnunluq ifadə edilmiş, regional enerji layihələri ətrafında fikir mübadiləsi aparılmış və Azərbaycanın dünya bazarlarına enerjidaşıyıcıların təchizatındakı əhəmiyyətli rola malik olması vurğulanmışdır.

Görüşdə habelə, iki ölkə arasında təhlükəsizlik sahəsində əməkdaşlıq, Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvi, regional məsələlər, demokratiya və insan hüquqları və digər birgə maraq kəsb edən mövzular müzakirə olunmuşdur.

Nazir E.Məmmədyarov BMT-nin Baş Assambleyasının 64-cü sessiyasının Ümumi Müzakirələrində çıxış etmişdir.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ ASSAMBLEYASININ 64-CÜ SESSİYASININ ÜMUMİ MÜZAKİRƏLƏRİNDƏ ÇIXIŞI

- Zati-aliləri,

Xanımlar və cənablar,

Məndən əvvəl çıxış edənlərin fikirlərinə qoşularaq BMT Baş Assambleyasının 64-cü sessiyasının prezidenti postuna seçilməsi münasibətilə liviyalı cənab Ali Abdussalam Trekini təbrik edir və ona uğurlar arzu edirəm və onun sələfi cənab Miguel d'Escoto Brockmanna işlərinə görə təşəkkür edirəm.

Həmçinin BMT-nin baş katibi cənab Ban Ki-muna dünyada daha firavan yaşayışı təmin etmək məqsədilə beynəlxalq ictimaiyyəti bir araya topladığına görə öz dərin təşəkkürümü izhar edirəm.

Cənab Prezident,

Bizlər dünyadakı hər bir dövlətin təhlükəsizliyinin çoxtərəfli təhlükəsizlik sistemi vasitəsilə daha yüksək səviyyədə təmin edilməsi və sığortalanması hüququnu tanıyırıq. Bu paradiqma BMT-nin timsalında kollektiv təhlükəsizlik sisteminin yaradılmasının əsas prinsipial səbəbi idi.

BMT-nin yaradılmasından 60 ildən çox vaxt keçməsinə baxmayaraq, müasir beynəlxalq təhlükəsizlik arxitekturasının müasir dünyanın bu gün üzləşdiyi çoxtərəfli və bir-biri ilə sıx bağlılığı olan çağırış və hədələrə vaxtı-vaxtında və effektiv yanaşması sualı hələ də gündəmdədir.

Bu gün bizə məlum olan hədələr milli sərhədləri və bütövlükdə qitələri aşdığından, çoxtərəfli təhlükəsizlik sisteminin formalaşması prosesində hazırkı çağırış və hədələrin qlobal xarakterli olması coğrafi məsafələri əhəmiyyətsiz edir. Hədələrin dolayı təsiri birbaşa təsirlər kimi dağıdıcı ola bilər. Hədələrin bir-biri ilə sıx bağlılığı təhlükəsizliyə daha geniş anlamda baxmağı tələb edir, çünki artıq təhlükəsizlik anlayışı ənənəvi hərbi təhlükəsizliklə məhdudlaşmır, həmçinin siyasi, iqtisadi, mədəni, informasiya, enerji və başqa sahələri də özündə ehtiva edir.

Hər bir dövlətin təhlükəsizliyi və daha geniş anlamda beynəlxalq sülh və təhlükəsizlik, dövlətlərin özlərinin xarici və təhlükəsizlik siyasətlərində beynəlxalq hüququn norma və prinsiplərinə nə dərəcədə əməl etməsindən asılı olacaqdır. Beynəlxalq arenada ümumi norma və qaydaların əməl olunması dövlətlərin davranışlarında şəffaflığın və qabaqcadan məlumluğun yaranmasına kömək edəcək və nəticə etibarı ilə beynəlxalq sülhün və təhlükəsizliyi möhkəmləndirəcək.

Əfsuslar olsun ki, güc tətbiq etməyin qeyri-qanuniliyi hələ də beynəlxalq əlaqələr mündəricəsindən çıxarılmayıb. Bəzi dövlətlərin öz əsas vəzifələrinin yerinə yetirməsində uğursuzluğu ucbatından mülki əhali dünyanın bir çox yerlərində hələdə əziyyət çəkir. Ən ciddi beynəlxalq cinayətlər də daxil olmaqla, silahlı münaqişələr, hərbi təcavüz və xarici işğal beynəlxalq hüququn norma və prinsiplərinin dövlətlər tərəfindən pozulmasının acı nəticələrinə dair müasir tarixdən canlı misallardır. Beynəlxalq hüququn norma və prinsiplərinə əməl etməyi rədd edən hökumətlər demokratik inkişafı sarsıtmaqla, öz ölkələrində insan hüquq və azadlıqlarını ləbüddən pozurlar.

Xanımlar və cənablar,

Beynəlxalq hüququn norma və prinsiplərinin kobudcasına pozulmasının ən canlı nümunəsi, demək olar ki, 20 ildir davam edən və hələ də həll olunmamış vəziyyətdə qalan, beynəlxalq və regional sülh və təhlükəsizlik üçün ciddi təhlükə olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Ermənistan tərəfindən həyata keçirilən təcavüzün nəticəsi olaraq, Azərbaycan ərazilərinin 1/5-i zəbt olunmuş, etnik təmizlənməyə məruz qalmış təqribən 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün olmuş, Azərbaycanın minlərlə tarixi-mədəni irsi dağıdılmış və qarət edilmişdir.

Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə bir daha

başqa bir dövlətin ərazisinin güc tətbiq etmək yolu ilə əldə edilməsinin yolverilməməzliyi və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi öz əksini tapmışdır. Həmçinin Dağlıq Qarabağ Azərbaycanın bir hissəsi kimi tanınmış və zəbt olunmuş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin qeyd-şərtsiz, tamamilə və dərhal çıxması çağırışı qətnamədə öz əksini tapmışdır. BMT Baş Assambleyasının 14 mart 2008-ci il tarixli, 62/243 saylı "İşğal olunmuş Azərbaycan torpaqlarında vəziyyətə dair" adlı qətnaməsində beynəlxalq səviyyədə tanınmış Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək və hörmət bir daha öz əksini tapmışdır.

BMT-in Təhlükəsizlik Şurasının və Baş Aasambleyasının qeyd olunmuş qətnamələrində əks edilən yanaşma Azərbaycanın tutduğu mövqe ilə tamamilə üst-üstə düşür. Azərbaycan ilk gündən münaqişənin mərhələli həllinin yeganə mümkün yol olduğunu deyib. İşğal olunmuş bütün ərazilərdən erməni silahlı qüvvələrinin çıxarılması, həmin ərazilərin bərpası və məcburi köçkünlərin doğma yurdlarına – Dağlıq Qarabağ və ətrafa rayonlara geri qayıtması, qarşılıqlı istifadə üçün bütün kommunikasiyaların açılması kimi bir sıra vacib işlər görülməlidir. Bu, müharibənin nəticələrini aradan qaldırmağa və regionun azərbaycanlı və erməni icmalarının qarşılıqlı razılığı nəzərə alınmaqla Azərbaycan daxilində Dağlıq Qarabağ regionunun hüquqi statusunun işlənib hazırlanması regionda davamlı sülhün və sabitliyin təşəkkül tapmasına zəmin yaradacaqdır.

Hazırkı danışıqlar prosesi münaqişənin həll olunmasında pat vəziyyətin aradan qalxmasına ümidləri artırmış olur. 2008-ci ilin noyabr ayında Azərbaycan, Ermənistan və Rusiya Federasiyası prezidentləri tərəfindən Moskvada imzalanmış Birgə Bəyannamədə əksinin tapmış Ermənistan tərəfinin münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında mərhələli həlli yanaşmanın qəbul etməsi yaxşı əlamətdir.

Azərbaycan Cənubi Qafqaz və ondan kənarda təhlükəsizlik və sabitlik naminə Ermənistan rəhbərliyi ilə danışıqları davam etdirməyə hazırdır və bu da gələcəkdə geniş regional imkanları bütün tərəflərin faydası üçün istifadə etməyə şərait yaradacaq.

Zati-aliləri,

Regionda əvvəl qeyd etdiyim mənfi inkişaf tendensiyalar ilə yanaşı ölkəmdə gedən müsbət iqtisadi göstəricilər haqqında sizlərə məlumat verməyimə icazə verin. Azərbaycan öz iqtisadiyyatında qlobal iqtisadi böhranın təsirini minimuma endirməyə və hətta iqtisadi artıma nail ola bilmişdir. 2009-cu ildə milli iqtisadiyyat öz dinamikasını saxlamış və hazırda ÜDM-in artımı 4% olmuşdur. 2003-cü ildən bəri yoxsulluğun səviyyəsini 44%-dən 13%-ə endirməyə nail olmuşuq. Azərbaycan Hökuməti xüsusilə qeyri-neft sektorunda özəl sektorun inkişafına stimul yaradılması və ölkənin beynəlxalq bazarlarda rəqabət imkanlarının möhkəmləndirilməsi istiqamətində ticarət və investisiya mühitini davamlı inkişaf etdirmişdir. Qeyri-neft sektoru son 5 ildə ən yüksən həddə - 16% artmışdır. Düşünülmüş iqtisadi siyasət və real nəticələrə yönəlmiş islahatlar Azərbaycanın Dünya Bankı tərəfindən dünyanın aparıcı islahatçı dövlətlərindən biri kimi müəyyən olunmasına səbəb olmuşdur.

Strateji baxımdan Azərbaycan gənc, peşəkar əhalisi, zəngin təbii sərvətlər və dinamik inkişafı ilə qaçılmaz olaraq regionda aparıcı rola yiyələnir və regiondan kənarda daha da etibarlı aktor və mərkəzi oyunçuya çevrilir.

Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərləri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi infrastruktur layihələrinin uğurla həyata keçirilməsi nəinki bizim iqtisadiyyatımızın, həmçinin qonşu ölkələrin də inkişafı üçün zəmin yaratmışdır. Müasir enerji infrastrukturu və zəngin enerji ehtiyatları Azərbaycanı beynəlxalq əhəmiyyətli enerji mərkəzə çevirir. Azərbaycan Avropa və digərləri üçün zəruri, etibarlı enerji mənbəyi və sadiq partnyor olduğunu artıq sübut etmişdir.

Azərbaycanın şərqlə qərbin, şimalla cənubun əsas nəqliyyat yollarının kəsişdiyi məkanda yerləşməsi və regional avtomobil və dəmir yol şəbəkəsinə birləşən sürətlə inkişaf edən milli nəqliyyat infrastrukturu ölkənin strateji əhəmiyyətini artırır. Bakı-Tbilisi-Qars dəmir yolunun və Xəzər dənizinin Azərbaycan hissəsində Ələt adlı yeni dəniz limanının tikintisinin başa çatması Azərbaycanın Asiya ilə Avropanı birləşdirən kommunikasiya mərkəzi rolunu daha da artıracaq.

Azərbaycan həmçinin Şərq-Qərb nəqliyyat dəhlizinin əsas hissəsi olacaq və iyirmiyədək ölkəni internet, telekommunikasiya sistemləri, elektron informasiya resursları ilə təmin etməyə qadir olan Trans-Avrasiya Super İnformasiya Magistralı yaratmaq təşəbbüsü ilə çıxış etmişdir.

Xanımlar və cənablar,

Bu gün biz bəzən müxtəlif təhlükəli forma alan etnik və dini təhdidlərin geniş yayıldığı bir dövrdə yaşayırıq və onlar müxtəlif şəraitdə şişirdilmiş forma alaraq etnik, dini və mədəniyyət sahəsində münaqişələrin yaranması üçün yanacaq kimi istifadə olunurlar. BMT-nin üzv dövlətləri tərəfindən sivilizasiyalar arasında dialoqun rolunun qəbul olunması və əlaxsus beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində dinlərarası və mədəniyyətlərarası harmoniya yalnız alqışlana bilər.

Biz Baş Katibliyin dərsliklərdən və digər maarifçi media vasitələrindən mənfi meyllərin və rəylərin, təhrifləri və ikrah yaradıcı çağırışların çıxarılması və dünya mədəniyyətləri, sivilizasiya və dinləri haqqında ilkin təsəvvürün formalaşdırması istiqamətində təhsilin rolunun artırılmasının vacibliyinə dair verdiyi tövsiyələri tamamilə dəstəkləyirik.

Mədəniyyətin ayrılmaz tərkib hissəsinə çevrilən, əsrlərcə müxtəlif etnik və dini qruplar arasında dinc yanaşı yaşama və tolerantlıq ənənələrinin formalaşdığı bir ölkə kimi, Azərbaycan müxtəlif dinlərə və mədəniyyətlərə məxsus insanları anlamaq və qarşılıqlı hörmət yolu ilə dinlərarası və mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi istiqamətində müxtəlif mədəniyyət, sivilizasiya və qitələri bir araya gətirmək üçün təbii körpü rolu oynamağa sadiq olduğunu dəfələrlə nümayiş etdirmişdir.

Azərbaycan Türkiyə və İspaniyanın təşəbbüsü ilə baş tutan Sivilizasiyalararası Alyansa qoşulan ilk ölkələr arasında olmuşdur. BMT baş katibi tərəfindən təyin olunmuş Yüksək Səviyyəli Qrupun "Sivilizasiyaların Alyans"dakı məruzəsində əks olunmuş rəylərin həyata keçirilməsi nöqteyi-nəzərindən, ötən il Azərbaycan bir neçə vacib tədbirlərə ev sahibliyi etmişdir. Ən son tədbir kimi biz mədəniyyətlərarası dialoqda qadınların rolunun artırılmasında öz töhfəsini verəcəyinə ümid etdiyimiz Mədəniyyətlərarası Dialoqda Qadınların Rolunun Genişləndirilməsi adlı Bakı Forumunu həyata keçirmişik. 2008-ci ilin dekabrında Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin

konfransına ev sahibliyi etmişik. İlk dəfə olaraq Avropa Şurasının tarixində ISESCO və ALESCO-ya üzv ölkələrin nazirləri də bu tədbirə qoşulmuşdur. Qəbul edilmiş Bakı Bəyannaməsi yeri gəlmişkən Avropa və qonşu ölkələr arasında mədəniyyətlərarası dialoqu da nəzərdən keçirir. İslam Konfransı Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin 5-ci konfransında Azərbaycanın paytaxtı Bakı 2009-cu il üçün İslam Mədəniyyətinin Mərkəzi elan olunmuşdur. Bu payız biz İKT-yə üzv ölkələrin mədəniyyət nazirlərinin 6-cı konfransına ev sahibliyi edəcəyik və biz burada sivilizasiyalararası dialoqu dəstəkləmək məqsədilə gələcək planlarımızın müzakirəsini davam etdirəcəyik.

Cənab Prezident,

Birləşmiş Millətlər Təşkilatı ilə çoxtərəfli sistem onun gücünü, həyati vacibliyini və əhəmiyyətini yoxlayan ciddi dəyişikliklərə məruz qalır. Bu, BMT-nin daha da möhkəmləndirilməsinə və onun qərar və qətnamələrinin həyata keçirilməsi yolu ilə təşkilatın effektivliliyinin artırılmasına istiqamətlənmiş ciddi tədbirlərin həyata keçirilməsini tələb edir.

Azərbaycan inanır ki, yeganə həqiqətən universal təşkilat kimi BMT hər bir üzv ölkənin maraq və arzularını cavab verməyək və dünyanın hər bir hissəsində qlobal məsələlərə təsir gücündə və bacarığına malik olmaq üçün daha da güclü və bacarıqlı olmalıdır. Biz təşkilatda gedən islahatları dəstəkləməkdə davam edirik ki bu zaman BMT daha məsuliyyətli, yeniləşmiş olar bilsin.

Çox sağ olun!

***

Nazir Elmar Məmmədyarov sentyabrın 26-da türkiyəli həmkarı Əhməd Davudoğlu ilə görüşmüşdür.

Görüşdə Azərbaycan və Türkiyə arasında bütün sahələr üzrə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılmışdır.

Nazirlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı son vəziyyəti müzakirə etmişlər. Nazir E.Məmmədyarov nizamlanmaya dair ölkəmizin mövqeyini diqqətə çatdırmış və problem həll edilmədən regionda sülh və sabitliyin təmin olunmasının qeyri-mümkünlüyünü bildirmişdir.

Görüşdə qardaş ölkənin NTV kanalının jurnalistlərinin Azərbaycanın işğal olunmuş ərazilərinə getməsi məsələsi də müzakirə edilmiş və nazir Əhməd Davudoğlu artıq Türkiyə Xarici İşlər Nazirliyi tərəfindən bu hərəkətlərin qeyri-qanuni olması ilə bağlı rəsmi açıqlama verildiyini qeyd etmişdir.

BAKIDA TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASININ ŞURA İCLASI KEÇİRİLMİŞDİR

Türkdilli Ölkələrin Parlament Assambleyasının Bakıda keçiriləcək sammitində iştirak etmək üçün Azərbaycanda səfərdə olan Türkiyə Böyük Millət Məclisinin sədri Məhmət Əli Şahin, Qazaxıstan Parlamenti Məclisinin sədri Oral Muxamedjanov və Qırğızıstan parlamentinin sədri Aytibay Taqayev sentyabrın 28-də Milli Məclisə gəlmişlər.

Əvvəlcə qonaqlarla Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov arasında təkbətək görüş olmuşdur.

Sonra Assambleya Şurasının iclası keçirilmişdir.

Milli Məclisin sədri Oqtay Əsədov qonaqları səmimiyyətlə salamlamış və həmkarlarını əlamətdar hadisə münasibətilə təbrik etmişdir.

Milli Məclisin sədri demişdir ki, 2008-ci il noyabrın 21-də İstanbuldakı Dolmabağça sarayında Türkiyə Böyük Millət Məclisinin ev sahibliyi ilə Türkdilli Ölkələrin Parlament Assambleyasının I konfransı keçirilmişdir. Bununla da dili, dini, adət-ənənələri, müştərək keçmişi olan xalqların daha da yaxınlaşması istiqamətində yeni bir addım atılmışdır.

Həmin iclasda Assambleyanın birinci sammitinin Bakıda keçirilməsi qərara alınmışdır. Sammitin Bakıda keçirilməsi bizim üçün mühüm əhəmiyyət kəsb edir.

Görüşdə bildirilmişdir ki, türkdilli ölkələrin yerləşdiyi coğrafiya dünyanın siyasi və iqtisadi həyatında olduqca əhəmiyyətlidir. Bu qurum türkdilli ölkələr, eləcə də onların qanunverici orqanları arasında əməkdaşlığın möhkəmləndirilməsi, mühüm məsələlərdə ortaq mövqedən çıxış edilməsi baxımından çox əhəmiyyətlidir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMİNİYAYA RƏSMİ SƏFƏRİ

Sentyabrın 28-də Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyaya rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Rumıniyanın dövlət bayraqları ilə bəzədilmiş Henri Koande adına Buxarest Beynəlxalq hava limanında Azərbaycan dövlətinin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Rumıniyanın yüksək vəzifəli rəsmi şəxsləri qarşıladılar.

Mehriban xanıma gül dəstəsi təqdim edildi.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Sentyabrın 28-də Buxarestdə Rumıniya Prezidentinin iqamətgahında - "Kotroçen" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Rumıniyanın və Azərbaycanın dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rumıniya Prezidenti Trayan Besesku və xanımı Mariya Besesku Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı sarayın önündə səmimiyyətlə qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Hərbi orkestrin ifasında Azərbaycanın və Rumıniyanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Prezident İlham Əliyev rumın əsgərlərini salamladı.

Rumıniyanın dövlət və hökumət nümayəndələri Azərbaycan Prezidentinə, ölkəmizin nümayəndə heyətinin üzvləri Rumıniya Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜ

Sentyabrın 28-də Buxarestdə Rumıniya Prezidentinin iqamətgahında - "Kotroçen" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan və Rumıniya arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın uğurlu inkişafından danışıldı. Münasibətlərimizin Avropa İttifaqı çərçivəsində genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu. Həyata keçirilən yüksək səviyyəli səfərlərin əlaqələrimizin inkişafına təkan verdiyi vurğulandı. Enerji sahəsində davam edən əməkdaşlığımızın geniş perspektivləri olduğu bildirildi.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Sentyabrın 28-də Buxarestdə Rumıniya Prezidentinin iqamətgahında - "Kotroçen" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun təkbətək görüşü başa çatdıqdan sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Rumıniya Prezidenti Trayan BESESKU dövlətimizin başçısını salamlayaraq dedi:

- Cənab Prezident, əvvəlcə mənim dəvətimi qəbul etdiyinizə və ölkəmizə rəsmi səfərə gəldiyinizə görə Sizə və nümayəndə heyətinizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, bildirmək istəyirəm ki, bu günə qədər iki ölkənin hökumətləri çox yaxşı iş aparmışdır və bundan məmnunam. Bunun nəticəsində ölkələrimiz arasında bu gün bir neçə vacib sənəd imzalanacaqdır. Mən Sizə, Sizin həyat yoldaşınıza və nümayəndə heyətinizə bir daha ölkəmizə "Xoş gəlmisiniz!" deyirəm.

Azərbaycan Prezidenti İlham ƏLİYEV qonaqpərvərliyə görə təşəkkür edərək dedi:

- Çox sağ olun, cənab Prezident. İlk növbədə mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz təşəkkürümü bildirirəm. Mən çox şadam ki, yenidən sizin gözəl ölkənizdəyəm və bu gün imzalanacaq sənədlər ikitərəfli münasibətlərimizin inkişafı üçün çox böyük əhəmiyyətə malikdir. Mən çox şadam ki, Rumıniya-Azərbaycan münasibətləri çox sürətlə inkişaf edir, yüksək səviyyədədir və gələcək inkişaf üçün də çox gözəl imkanlar vardır. Onu da qeyd etmək istəyirəm ki, mən son 4-5 ildə beşinci dəfədir ki, Rumıniyadayam və bu, özlüyündə çox gözəl göstəricidir.

AZƏRBAYCAN-RUMİNİYA SƏNƏDLƏRİNİN İMZALANMASI

Sentyabrın 28-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun iştirakı ilə sənədlərin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılması razılaşması haqqında Birgə Bəyannamə"ni Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Trayan Besesku imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında transsərhəd mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın daxili işlər naziri Ramil Usubov və Rumıniya Xarici İşlər Nazirliyinin dövlət katibi Boqdan Mazuru imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Rumıniya Xarici İşlər Nazirliyinin dövlət katibi Boqdan Mazuru imzaladılar.

"Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Rumıniyanın Rabitə və İnformasiya Cəmiyyəti Nazirliyi arasında rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Rumıniyanın rabitə və informasiya cəmiyyəti naziri Qabriel Sandu imzaladılar.

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Rumıniyanın Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Rumıniyanın Ətraf Mühit Nazirliyinin dövlət katibi Dan Kırlan imzaladılar.

BİRGƏ MƏTBUAT KONFRANSI

Sentyabrın 28-də Buxarestdə Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun iştirakı ilə sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra dövlət başçılarının birgə mətbuat konfransı olmuşdur.

Prezidentlər əvvəlcə bəyanatla çıxış etdilər.

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN BƏYANATI

- Əvvəlcə sizin hamınızı salamlamaq istəyirəm. Mən hörmətli cənab Prezident Əliyevə, onun xanımına və onları müşayiət edən nümayəndə heyətinə ölkəmizə səfər etdiklərinə görə öz minnətdarlığımı bildirmək istəyirəm. Mən, eyni zamanda, cənab Prezidentə minnətdaram ki, dəvətimi qəbul edib ölkəmizə rəsmi səfərə gəlmişdir.

Mən hesab edirəm ki, cənab Prezidentin budəfəki səfəri bizim dörd ildən çox müddət ərzində gördüyümüz böyük işlərin bir növ yekunlaşdırıcı səfəridir. Eyni zamanda, qeyd etmək istəyirəm ki, son illər ərzində ölkələrimiz arasında prezidentlər və hökumətlər səviyyəsində görülmüş bir çox işlər Azərbaycan ilə Rumıniya arasında ikitərəfli əlaqə-

lərin daha da möhkəmləndirilməsinə xidmət etmişdir.

Bu gün biz çox vacib bir sənədi imzaladıq. Bu, strateji tərəfdaşlığın yaradılması razılaşması haqqında Birgə Bəyannamədir. Bundan əlavə, hökumətlər arasında digər mühüm sazişlər imzalandı. Bu sazişlər bizim siyasi dialoqumuza, həmçinin enerji sahəsində əməkdaşlığımıza, iqtisadi sahədə işbirliyimizə, sərmayə qoyuluşuna, təhlükəsizliklə bağlı əməkdaşlığımıza və eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı yardıma aiddir. Bizim enerji sahəsindəki əməkdaşlığımız təkcə Nabukko layihəsinin həyata keçirilməsi istiqamətində atılan addımlarla məhdudlaşmır. Biz, eyni zamanda, Rumıniyanın Konstansa limanında maye qaz terminalının yaradılması ilə də bağlı bir çox işbirliyi qurmuşuq və əməkdaşlıq edirik.

Eyni zamanda, biz regional məsələlərə də toxunduq. Biz regionda dondurulmuş münaqişələr, xüsusən də Dağlıq Qarabağ münaqişəsi məsələsini nəzərdən keçirdik. Biz bir daha bildirmək istəyirik ki, bununla bağlı Rumıniyanın mövqeyi dəyişməz olaraq qalır. Rumıniya hesab edir ki, dondurulmuş münaqişələrin həlli yalnız və yalnız dinc yolla, mövcud beynəlxalq hüquq norma və prinsipləri əsasında, dövlətlərin ərazi bütövlüyünə hörmətlə yanaşma əsasında baş tutmalıdır. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, məni Rumıniyaya dəvət etdiyinizə görə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz təşəkkürümü bildirirəm. Rumıniya ilə Azərbaycan arasında ikitərəfli münasibətlər çox uğurla inkişaf edir və bu gün imzalanmış strateji tərəfdaşlıq haqqında bəyannamə, deyə bilərəm ki, son illər ərzində görülmüş işlərin məntiqi nəticəsidir. Mən əminəm ki, bu gün imzalanmış bütün sənədlər gələcək əməkdaşlığın uğurlu inkişafı üçün də yaxşı əsas yaradır. İkitərəfli münasibətlərin inkişafı üçün çox gözəl imkanlar, çox böyük potensial vardır və biz gələcək illərdə bu potensialdan səmərəli şəkildə istifadə edəcəyik.

Bu gün həm təkbətək görüşdə, eyni zamanda, nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş görüşdə bütün vacib məsələlər müzakirə edildi və gələcək əməkdaşlıq haqqında çox vacib qərarlar qəbul edildi. Siyasi əlaqələr, qeyd etdiyim kimi, çox yüksək səviyyədədir. Əminəm ki, iqtisadi sahədə yeni, gözəl layihələr icra olunacaqdır. Neft-qaz sahəsində əməkdaşlıq uğurludur və bu əməkdaşlığın gələcəyi daha da uğurlu olacaqdır. Azərbaycanın çox zəngin neft-qaz yataqları vardır və Azərbaycanın resursları dünya və Avropa bazarlarına uğurla çıxarılır. Əgər tezliklə tranzit ölkələrlə beynəlxalq təcrübəyə əsaslanmış müqavilələr imzalanarsa, gələn ildən başlayaraq Azərbaycan qazı Avropa İttifaqının bazarına çıxarıla bilər.

Enerji resurslarının şaxələndirilməsi həm istehlakçılar, həm də istehsalçılar üçün vacibdir və bizim maraqlarımız bu işdə üst-üstə düşür. Əminəm ki, Nabukko və digər layihələr uğurla icra olunacaqdır. Neft-qaz sahəsində əməkdaşlıq, eyni zamanda, Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Memorandumda da öz əksini tapıb və Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrdə enerji amili çox

mühüm yer tutur. Mən fürsətdən istifadə edərək, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin inkişafında xüsusi rol oynadığına görə Rumıniyaya və cənab Prezident, şəxsən Sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda, Siz qeyd etdiyiniz kimi, bütün dondurulmuş münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq prinsiplərin rəhbər tutulması və ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşılması mövqeyi çox böyük əhəmiyyətə malikdir və buna görə mən Sizə minnətdaram. Dünyada bütün məsələlər, o cümlədən münaqişələr ancaq beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Əminəm ki, əgər bütün tərəflər beynəlxalq hüquq normalarına riayət etsələr, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə ədalətli həll oluna bilər və Azərbaycanın işğal olunmuş bütün torpaqları işğalçı qüvvələrdən tezliklə təmizlənə bilər.

Cənab Prezident, göstərdiyiniz qonaqpərvərliyə görə bir daha Sizə minnətdaram və əminəm ki, gələcək əməkdaşlığımız da çox uğurlu olacaqdır.

Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar:

YUNİS ORUCOV (Azərbaycan Televiziyası): Mənim sualım Rumıniya Prezidentinədir. Cənab Prezident, Siz bu gün azərbaycanlı həmkarınızla strateji tərəfdaşlığın yaradılması razılaşması haqqında Birgə Bəyannaməni imzaladınız. Sizcə bu sənəd ikitərəfli münasibətlərimizə hansı töhfəni verəcək? Bu sənədin ümumilikdə perspektivlərini nədə görürsünüz? Təşəkkür edirəm.

TRAYAN BESESKU: Bildirmək istəyirəm ki, bizim strateji tərəfdaşlıq haqqında bu cür razılaşmamız cəmi iki ölkə ilə vardır. Yəni, bu strateji tərəfdaşlıq siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə aparılır. Onlardan biri Birləşmiş Ştatlar, ikincisi isə Fransadır. Mən bununla bağlı qeyd etmək istəyirəm ki, bu gün cənab Prezidentlə imzaladığımız bu bəyannamə əsasında, o cümlədən digər mühüm razılaşmaları nəzərə alaraq, bundan sonra bizim hökumətlərimiz iki ölkə arasında qəbul olunacaq siyasi qərarların həyata keçirilməsi üzrə planı tərtib edəcəklər. Bir növ yol xəritəsi. Bu yol xəritəsinin gələcəkdə həyata keçirilməsini təhlil etdikdən sonra biz belə bir qənaətə gələcəyik ki, atılmış bu addımlar uğurlu oldu, yoxsa yox?!

Mən burada həddindən artıq nikbin sözlərlə çıxış etmək istəməzdim. Sadəcə, deyə bilərəm ki, bu gün Prezident Əliyevlə bizim imzaladığımız strateji tərəfdaşlıq haqqında bu bəyannamədə əks olunmuş müddəalar bir növ göstərici, bələdçi xarakteri daşıyır. Qeyd etmək istəyirəm ki, həmin sənəddə əks olunmuş müddəalar çox real müddəalardır və onlar hər iki ölkənin milli maraqlarına, o cümlədən Avropa İttifaqının maraqlarına uyğun gəlir. Hesab edirəm ki, əgər biz həmin prioritetləri həyata keçirə bilsək, iki ölkə arasında strateji tərəfdaşlıq böyük uğura çevriləcəkdir. Eyni zamanda, orada təcəssüm olunmuş prinsipləri Rumıniya nəinki öz milli maraqları prizmasından görür, eyni zamanda, Rumıniya hesab edir ki, bu sənəd Avropa İttifaqının enerji və xarici siyasətinə də töhfə verir, Avropa İttifaqının Qara dəniz regionundakı, o cümlədən "Şərq tərəfdaşlığı" təşəbbüslərinə də xidmət edir.

Çox sağ olun. Mən bir daha Prezident Əliyevə bu bəyannaməni imzaladığına görə minnətdarlığımı bildirmək istəyirəm.

MÜXBİR (Rumıniya): Mənim sualım Prezident Əliyevədir. Siz mətbuat üçün bəyanatınızda Azərbaycanın neft və qaz ehtiyatlarının daşınmasında tranzit məsələlərini də qeyd etdiniz. Mən bilmək istərdim, Sizin fikrinizcə, Nabukko layihəsinin həyata keçirilməsi Konstansa-Triest layihəsinin reallaşmasına nə kimi töhfə verə bilər?

İLHAM ƏLİYEV: Bilirsiniz, bizim təcrübəmiz onu göstərir ki, Azərbaycan tərəfindən irəli sürülmüş və həyata keçirilmiş layihələr gələcəkdə başqa layihələrin icrasına da gətirib çıxarır. Əgər Bakı-Tbilisi-Ceyhan neft kəməri tikilməsəydi və bir sözlə, əgər bu dəhliz açılmasaydı, yəqin ki, Bakı-Tbilisi-Ərzurum qaz kəməri də tikilməzdi. Əgər Bakı-Tbilisi-Ərzurum qaz kəməri tikilməsəydi, bu gün Nabukko haqqında, ümumiyyətlə, söhbət aparmağa dəyməzdi. Çünki Nabukko layihəsinin icrası ancaq Azərbaycanın bu gün mövcud olan qaz infrastrukturunu işə salması ilə bağlıdır. Beləliklə, biz görürük ki, bir uğurlu layihə o biri layihənin icrasına gətirib çıxarır. Şübhə yoxdur ki, əgər Nabukko layihəsi uğurla icra olunarsa, regionda şaxələndirmə məqsədilə tikiləcək digər kəmərlərin inşasına da gətirib çıxaracaqdır. Bugünkü danışıqlarda həm Nabukko layihəsi, eyni zamanda, Konstansa-Triest layihəsi müzakirə olundu. Azərbaycan tərəfi hər iki layihəyə öz dəstəyini vermişdir və mən bu gün də bunu bir daha təsdiq etdim.

TRAYAN BESESKU: İcazənizlə, mən bu cavaba da əlavə olaraq öz şərhlərimi vermək istərdim. Azərbaycanın Dövlət Neft Şirkəti Avropa İttifaqı ölkələrində öz fəaliyyətini Rumıniya vasitəsilə genişləndirmək fikrindədir. Burada, bu layihənin həyata keçirilməsində Dövlət Neft Şirkəti hesab edir ki, Konstansada hazırda xam neftin saxlanılması üçün bizim tutumların genişləndirilməsi imkanı mövcuddur. Dövlət Neft Şirkəti bu sahədə işləmək arzusunu bildirmişdir. Beləliklə, Dövlət Neft Şirkəti öz resurslarını mövcud iki mümkün yol ilə nəql edə biləcəkdir. Bu yollardan bir variant o ola bilər ki, Azərbaycan Dövlət Neft Şirkəti Kontansada özü, yəni artıq tranzit olunmuş enerji daşıyıcılarının emalı üzrə Rumıniyadakı emal zavodlarında emal prosesləri ilə özü məşğul ola bilər və bunu rumın həmkarları ilə həyata keçirə bilər. Bu, birinci variant. İkinci variant isə Dövlət Neft Şirkəti Konstansa vasitəsilə, Konstansada xam neftin saxlanılma tutumu həcminin daha da artırılması yolu ilə tranzit edib, daha sonra isə onu Triestə istiqamətləndirə bilər.

Eyni zamanda bildirmək istəyirəm ki, Gürcüstanda - Supsa limanında böyük bir terminal vardır. Hazırda həmin terminalda yüksək tonnajlı tankerlər lövbər sala bilir. Mən şəxsən özüm xam neftin həmin tankerlərə doldurulmasını görmüşəm. Xam neft həmin tankerlərlə Bosfor və Dardanel boğazlarından keçməklə Avropa bazarlarına çatdırılır. Hesab edirəm ki, bu da düzgün bir yoldur.

NAMƏLUM ƏSGƏRİN MƏZARINI ZİYARƏT

Rumıniyada rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 28-də Buxarestdəki "Karol-1" xiyabanına gələrək, naməlum əsgərin məzarını ziyarət etmişdir

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycanın və Rumıniyanın dövlət himnləri səsləndirildi.

Prezident İlham Əliyev naməlum əsgərin məzarı önünə əklil qoydu və İkinci Dünya

müharibəsi zamanı həlak olmuş rumın əsgərlərinin xatirəsini yad etdi.

Dövlətimizin başçısı xatirə kitabını imzaladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMİNİYANIN BAŞ NAZİRİ EMİL BOK İLƏ GÖRÜŞÜ

Sentyabrın 28-də Buxarestdə Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyanın Baş naziri Emil Bok ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Rumıniya arasında iqtisadi, həmçinin energetika sahəsində ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olundu. Qeyd edildi ki, ölkələrimiz arasında bu istiqamətdə əlaqələrin inkişafı üçün böyük potensial vardır.

Görüşdə Azərbaycan-Rumıniya iqtisadi əməkdaşlığının ölkəmizin Avropa İttifaqı ilə iqtisadi əlaqələri baxımından əhəmiyyəti vurğulandı.

Tərəflər əmin olduqlarını bildirmişlər ki, ölkələrimizin iqtisadi əlaqələri bundan sonra da inkişaf edəcəkdir.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BUXARESTDƏKİ LULİA HAŞDEU ADINA MİLLİ KOLLECDƏ OLMUŞDUR

Sentyabrın 28-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Buxarestdəki Lulia Haşdeu adına Milli Kollecdə olmuşdur.

Məktəbin kollektivi, Təhsil Nazirliyinin, Buxarestin ikinci sektoru meriyasının nümayəndələri binanın qarşısında Mehriban xanımı səmimiyyətlə qarşıladılar.

Məktəbli qızlar Azərbaycanın birinci xanımına gül dəstəsi təqdim etdilər. Şagirdlər Azərbaycanın və Rumıniyanın dövlət himnlərini oxudular.

Heydər Əliyev Fondunun prezidenti məktəblilərlə xatirə şəkli çəkdirdi.

Sonra Mehriban xanım Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin dəstəyi ilə təşkil edilmiş kompyuter otağına baxdı.

Qeyd edək ki, Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyi Lulia Haşdeu adına Milli Kollecə 30 kompyuter dəsti və bir proyektor hədiyyə etmişdir. Kompyuterlərin hamısının internetə çıxışı vardır. Kompyuter otağı Azərbaycana aid əyani vəsaitlə təmin edilmişdir.

Məktəbin kollektivini kompyuter otağının istifadəyə verilməsi münasibətilə təbrik edən Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun Azərbaycanda və xaricdə müxtəlif istiqamətlərdə, o cümlədən təhsil sahəsində həyata keçirdiyi layihələr haqqında məlumat verdi. Mehriban xanım dedi ki, Fondun dəstəyi ilə Azərbaycanda 300-dən çox məktəb binası tikilmişdir. Lulia Haşdeu adına Milli Kollecdə yaradılmış kompyuter otağı Heydər Əliyev Fondunun beynəlxalq sahədə fəaliyyətinin daha bir göstəricisidir.

Mehriban xanım Əliyeva diqqətə çatdırdı ki, bu, Heydər Əliyev Fondunun Rumıniyada təhsillə bağlı həyata keçirdiyi sonuncu layihə deyildir. Fondun təşkilatçılığı ilə yaxın

vaxtlarda bir neçə rumın məktəbli Azərbaycana səfər edəcək, ölkəmizin mədəniyyəti ilə yaxından tanış olacaqdır. Azərbaycana səfər edəcək məktəblilər arasında Lulia Haşdeu adına Milli Kollecin şagirdləri də vardır. Eyni qaydada, bir neçə azərbaycanlı məktəbli Rumıniyaya səfər edəcəkdir.

Təhsil ocağının kollektivi adından Mehriban xanım Əliyevaya xatirə hədiyyəsi təqdim edildi.

Göstərdiyi dəstəyə görə Mehriban xanıma minnətdarlıq edən məktəbin direktoru və Rumıniya Təhsil Nazirliyinin nümayəndəsi Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin fəaliyyətini yüksək qiymətləndirdilər. Məhz Heydər Əliyev Fondunun dəstəyi nəticəsində Lulia Haşdeu adına Milli Kollec Buxarestdə ən müasir kompyuter sinfi olan məktəbdir.

Onlar ümidvar olduqlarını bildirdilər ki, Heydər Əliyev Fondu Rumıniyada təhsillə bağlı layihələrini davam etdirəcəkdir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Buxarestə yenidən səfər etməyindən məmnunluğunu bildirərək, qonaqpərvərliyə, xoş münasibətə görə təşəkkür etdi. Azərbaycanın birinci xanımı əmin olduğunu bildirdi ki, dost ölkələrimiz və xalqlarımız arasında əlaqələr bundan sonra da inkişaf edəcəkdir.

Mehriban xanıma bir daha minnətdarlıq edən məktəblilər dedilər ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılmış kompyuter otağı onların təhsildə yeni-yeni uğurlar qazanmalarına kömək edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVA BUXARESTDƏKİ "DOİNA LEVİNTZA" SƏRGİ SALONUNDA OLMUŞDUR

Sentyabrın 28-də Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Buxarestdə "Doina Levintza" sərgi salonunda olmuşdur.

Burada Mehriban xanımı yaradıcılıq evinin kollektivi səmimiyyətlə qarşıladı.

Sərgi salonu ilə yaxından tanış olan Mehriban xanıma məlumat verildi ki, 1987-ci ildən fəaliyyət göstərən bu sənət ocağında Rumıniyanın tanınmış dizaynerlərinin, moda ustalarının, rəssamların və digər sənətkarların əl işləri nümayiş olunur. Eyni zamanda, yaradıcılıq mərkəzi kimi fəaliyyət göstərən salonda teatr tamaşaları, kinofilmlər və müxtəlif mərasimlər üçün kostyumlar hazırlanır. Salonun zəngin ekspozisiyasına qədim və yeni ev əşyaları, çantalar, ayaqqabılar, bəzək ləvazimatı, aksessuarlar daxildir.

Çay süfrəsi arxasında söhbət zamanı Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyəti, o cümlədən incəsənəti haqqında danışdı.

Mehriban xanım yaradıcılıq evinin xatirə kitabına ürək sözlərini yazdı.

Azərbaycanın birinci xanımına yaradıcılıq evinin kataloqları hədiyyə edildi.

Rumıniya Prezidentinin xanımı Mariya Besesku sərgi salonu ilə tanışlıq zamanı Mehriban xanım Əliyevanı müşayiət etmişdir.

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ

Sentyabrın 28-də Buxarestdə Rumıniya Prezidenti Trayan Besesku və xanımı Mariya Beseskunun adından Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi ziyafət verilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.

Əvvəlcə Azərbaycanın və Rumıniyanın dövlət himnləri səsləndirildi.

Rumıniya Prezidenti Trayan BESESKU ziyafətdə çıxış edərək dedi:

- Hörmətli cənab Prezident,

Nazirlər,

Hörmətli qonaqlar,

Prezident İlham Əliyevi və onu ölkəmizə rəsmi səfəri çərçivəsində müşayiət edən digər qonaqları Buxarestdə salamlamaqdan olduqca məmnunam. Keçirdiyimiz görüşlər, daimi siyasi dialoq Rumıniya-Azərbaycan əlaqələrinin ən yüksək səviyyədə olmasını və yeni mərhələyə qədəm qoyduğunu əks etdirir. Dekabrın 11-də ikitərəfli münasibətlərimizin yeni ildönümünü qeyd edəcəyik. Hesab edirəm ki, əlaqələrimizin son 18 ili ərzində biz ölkələrimizin rifahı naminə bütün təmasları qurmuş və istənilən ümumi layihələrdə iştirak etmişik. Bu səbəbdən biz əməkdaşlığımızı dərinləşdirərək, tərəfdaşlığımızı gücləndirərək və ona yeni çalarlar gətirərək yeni mərhələyə çıxmaq qərarına gəldik. Rumıniya ilə Azərbaycan arasındakı strateji tərəfdaşlıq aparılan xarici siyasətin uğurudur, Azərbaycan ilə Avropa və Avratlantik strukturlar arasında əlaqələrin gücləndirilməsinə töhfə verir.

Region dövlətləri ilə əla münasibətlərə malik olan Rumıniya öz təcrübəsinə əsaslanaraq Avropanın regionda daha qətiyyətli olmasına böyük səylər göstərmiş, region dövlətlərinin Avropaya inteqrasiyası perspektivlərini genişləndirmişdir. Eyni zamanda, qeyd etməliyəm ki, regionda dondurulmuş münaqişələrin olması həm regional səviyyədə, həm də Avropa səviyyəsində təhlükə mənbəyidir.

Prezident Trayan Besesku bildirdi ki, Rumıniya ərazisində həll edilməmiş münaqişələr olan dövlətlərin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə dəstək verir. Trayan Besesku Rumıniya ilə Azərbaycan arasında gözəl münasibətlərin olmasını onunla əlaqələndirdi ki, regionda aktual məsələlərlə bağlı ölkələrimizin ümumi siyasi baxışları var və siyasi mövqelərimiz üst-üstə düşür.

Rumıniya Prezidenti dedi:

- Enerji təhlükəsizliyi, enerji daşıyıcılarının nəqli və Avropaya müxtəlif nəql marşrutlarının olması ilə bağlı rəylərimiz eynidir. Aydın faktdır ki, Avropa İttifaqı region ölkələri ilə enerji sahəsində əməkdaşlığını gücləndirərək, siyasi münasibətlərə və qonşuluq siyasətinə təkan vermişdir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Rumıniya və Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa söykənən strateji tərəfdaşlıq və əla siyasi işbirliyi Avropa İttifaqının həmin region dövlətləri ilə münasibətlərini daha da möhkəmləndirəcəkdir.

Xanımlar və cənablar, ümid edirəm ki, Azərbaycan və Rumıniya digər region dövlətləri ilə birgə vətəndaşlarımızın rifahına xidmət edəcək və regiona təraqqi gətirəcək mühüm layihələrin həyata keçirilməsinə çalışacaqlar. Azərbaycan dünya ictimaiyyətinə dəfələrlə nümayiş etdirib ki, o, etibarlı tərəfdaşdır. Biz Azərbaycanın beynəlxalq terrorçuluğa qarşı mübarizəyə və təhlükəsizliyin təmin edilməsinə verdiyi töhfəni yüksək qiymətləndiririk. NATO-nun Əfqanıstandakı əməliyyatlarına verdiyi dəstək rəsmi Bakının bu istiqamətdə apardığı işlərin konkret nümunəsidir. Orada Rumıniya və Azərbaycan əsgərləri təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsinə töhfə verirlər.

Rumıniya Prezidenti bir daha əmin olduğunu bildirdi ki, ölkələrimiz arasındakı münasibətlər və bu səfər çərçivəsində imzalanan sənədlər əlaqələrimizə daha zəngin məzmun vermiş, regional səviyyədə apardığımız dialoqa töhfə olmuşdur.

* * *

Prezident İlham ƏLİYEV ziyafətdə çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli xanım Besesku!

Xanımlar və cənablar!

İlk növbədə cənab Prezident, məni ölkənizə rəsmi səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür edir, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

Bu, mənim son beş ildə Rumıniyaya beşinci səfərimdir. Siz də cənab Prezident, son üç ildə Azərbaycana dörd dəfə səfər etmisiniz. Belə səfərlər gözəl bir ənənənin əsasını qoyaraq, ölkələrimiz arasındakı münasibətlərin nə qədər dinamik inkişaf etdiyini göstərir. Rumıniya-Azərbaycan münasibətlərinin çox böyük əhəmiyyəti vardır. İnanıram ki, ölkənizə rəsmi səfərim, səfər zamanı ikitərəfli əməkdaşlıq, regional və beynəlxalq məsələlər ətrafında apardığımız danışıqlar və imzalanmış sənədlər münasibətlərimizin gələcək inkişafına təkan verəcəkdir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Rumıniya bizi tanıyan ikinci dövlət olmuşdur. Elə o vaxtdan ikitərəfli münasibətlər qarşılıqlı anlaşma, dostluq prinsipləri əsasında inkişaf etməyə başlamışdır. Müxtəlif sahələrdə əlaqələrimizin inkişafını təmin edən 40-dan çox sənəd imzalanmışdır. Bu gün imzalanmış strateji tərəfdaşlıq haqqında bəyannamə demək olar ki, son illər ərzində görülən işlərin zirvəsi və məntiqi nəticəsidir. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. İqtisadi sahədə əməkdaşlığın dərinləşməsi üçün çox gözəl perspektivlər vardır. Regional əməkdaşlıq baxımından, Xəzər dənizi-Qara dəniz əməkdaşlığı baxımından Rumıniya-Azərbaycan əlaqələrinin çox böyük əhəmiyyəti vardır. BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində və GUAM formatında əməkdaşlığımız böyük məmnunluq doğurur. Böyük İpək yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması istiqamətində səylərimiz bizi daha da yaxınlaşdırır. Avratlantik təsisatlara inteqrasiyada, "Şərq tərəfdaşlığı" təşəbbüsü və NATO-nun Fərdi Tərəfdaşlığın Əməliyyat Planı çərçivəsində əməkdaşlıqda Rumıniyanın Azərbaycana dəstəyi əsl dostluq münasibətidir. Neft-qaz sahəsində əməkdaşlığımız dərinləşir və mən çox şadam ki, bu gün

keçirdiyimiz danışıqlar zamanı gələcək əməkdaşlıq haqqında konkret qərarlar verilmişdir.

Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyi məsələlərinin həlli işində öz səylərini göstərir və gələcəkdə də bu səylər göstəriləcəkdir. Azərbaycanın təşəbbüsü ilə 1990-cı illərin ortalarında başlanmış və uğurla icra edilən böyük transmilli layihələr, neft-qaz kəmərlərinin inşası bu gün yeni kəmərlərin, yeni layihələrin icrasına təkan verir. Nabukko layihəsinin icrası, şübhəsiz, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsindən sonra daha da real layihə kimi təqdim edilir. Bu gün biz Azərbaycanın neft-qaz resurslarının Avropa bazarlarına çıxarılmasına dair öz fikirlərimizi, öz qəti mövqeyimizi bir daha bildirdik. Bir daha bildirdik ki, Azərbaycan şaxələndirmə ilə bağlı bütün layihələrə öz siyasi və praktiki dəstəyini göstərir.

Ölkəmizdə əsaslı siyasi, iqtisadi və sosial islahatlar aparılır. Aparılan islahatlar nəticəsində son beş ildə Azərbaycan iqtisadiyyatı 2,6 dəfə artmışdır. Hətta bu il, baxmayaraq ki, dünyada qlobal maliyyə böhranı hökm sürür, Azərbaycan iqtisadiyyatı inkişaf edir.

Lakin əfsuslar olsun ki, regionumuzda təhlükələr də mövcuddur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması regionun inkişafı yolunda böyük maneə olaraq qalır. Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun olaraq ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası Parlament Assambleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq prinsiplərinə uyğun həll olunmalıdır. Bu baxımdan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində Rumıniyanın mövqeyi xüsusi əhəmiyyət daşıyır. Bu gün, cənab Prezident, Siz bir daha Rumıniyanın ədalətli mövqeyini öz çıxışımızda qeyd etdiniz. Buna görə mən Sizə minnətdarlığımı bildirirəm.

Hörmətli cənab Prezident, dost ölkənizə səfərimdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram. Bu badəni Sizin sağlığımıza, xanımınızın sağlığına, Rumıniya ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafının şərəfinə qaldırıram.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

Rumıniyada rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 29-da Buxarestdəki "Tey" parkında ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişlər.

Burada dövlətimizin başçısını və xanımını Buxarest şəhərinin 2-ci sektorunun meri Nikolay Ontsyanu qarşıladı.

Mehriban xanıma gül dəstəsi təqdim olundu.

Parka toplaşmış yüzlərlə şəhər sakini, məktəblilər, Azərbaycan diasporunun fəalları, Rumıniyada təhsil alan azərbaycanlı tələbələr dövlətimizin başçısını və xanımını alqışlarla qarşıladılar.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin parkdakı abidəsi önünə gül dəstələri qoydular.

Uşaqlarla xatirə şəkli çəkdirən dövlətimizin başçısı və xanımı "Tey" parkını gəzdilər, sakinlərlə və Azərbaycan diasporunun fəalları ilə söhbət etdilər.

PREZİDENT İLHAM ƏLİYEV RUMİNİYA SENATININ SƏDRİ MİRÇA COANA İLƏ GÖRÜŞMÜŞDÜR

Sentyabrın 29-da Prezident İlham Əliyev Rumıniya Senatının sədri Mirça Coana ilə görüşmüşdür.

Mirça Coana bildirdi ki, ölkəsi Azərbaycan ilə ikitərəfli münasibətlərə böyük önəm verir və əlaqələrimiz strateji xarakter daşıyır. Azərbaycan Prezidentinin Rumıniyaya rəsmi səfərinin əhəmiyyətinin vurğulayan Senatın sədri dedi ki, Azərbaycan bütün sahələrdə mühüm dövlətdir, bizə dost ölkədir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanın inkişafında əvəzsiz xidmətlərini xüsusi qeyd edən Mirça Coana ölkəsinin Azərbaycan ilə əlaqələrinin bundan sonra da daim inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

Prezident İlham Əliyev Azərbaycan-Rumıniya ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini dedi. Siyasi, iqtisadi əlaqələrimizin genişləndiyini, enerji sahəsində əməkdaşlığın yaxşı perspektivlərinin olduğunu bildirən dövlətimizin başçısı, səfər çərçivəsində prezidentlərin imzaladığı "Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılması razılaşması haqqında Birgə Bəyannamə"nin əhəmiyyətinə toxunaraq qeyd etdi ki, bu sənəd geniş sahələri əhatə edir, əlaqələrimizin ruhunu əks etdirir. Prezident İlham Əliyev Bəyannamənin əlaqələrimizin bundan sonra da genişlənməsinə öz töhfəsini verəcəyini bildirdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlər baxımından qarşıda böyük birgə layihələrin olduğunu dedi və bildirdi ki, Avropaya inteqrasiya məsələlərində Rumıniya Azərbaycana dəstək verir.

Görüşün sonunda Mirça Coana Rumıniya Senatının 140 illiyinə həsr olunmuş xatirə medalını Prezident İlham Əliyevə təqdim etdi.

Azərbaycan Prezidenti Senatın xatirə kitabına ürək sözlərini yazdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYA DEPUTATLAR PALATASININ SƏDRİ XANIM ROBERTA ANASTASE İLƏ GÖRÜŞMÜŞDÜR

Sentyabrın 29-da Prezident İlham Əliyev Rumıniya Deputatlar Palatasının sədri xanım Roberta Anastase ilə görüşmüşdür.

Xanım Roberta Anastase dedi ki, ikitərəfli əməkdaşlığımız inkişaf edir, getdikcə genişlənən parlamentlərarası əlaqələr isə bu münasibətlərə töhfə verir. Ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir.

Deputatlar Palatasının sədri Azərbaycan Prezidentinin Rumıniyaya rəsmi səfərinin əhə-

miyyətini qeyd etdi. O, Heydər Əliyev Fondunun Rumıniyadakı fəaliyyətini yüksək qiymətləndirdi, bildirdi ki, ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlığı daha da inkişaf etdirmək lazımdır.

Prezident İlham Əliyev dedi ki, əlaqələrimiz bütün sahələrdə uğurla inkişaf edir. Parlamentlərarası əlaqələrin əhəmiyyətinə toxunan dövlətimizin başçısı bildirdi ki, bu sahədə də əməkdaşlığımız tərəqqi edir. İkitərəfli münasibətlərin inkişafı üçün möhkəm hüquqi baza vardır. Dünən imzalanmış "Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılması razılaşması haqqında Birgə Bəyannamə" ikitərəfli əlaqələrimizin müxtəlif sahələrini əhatə edir və bu sənəd münasibətlərimizin inkişafına töhfə verəcəkdir.

Heydər Əliyev Fondunun Rumıniyadakı fəaliyyətinə toxunan Prezident İlham Əliyev dedi ki, bu, əməkdaşlığımızın intensivliyinin göstəricisidir.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində Rumıniyanın mövqeyini xüsusi vurğuladı.

Azərbaycan Prezidenti ölkələrimizin iqtisadi, o cümlədən energetika sahəsində əməkdaşlığına toxundu, Rumıniyanın Avropaya inteqrasiya məsələlərində ölkəmizə verdiyi dəstəyi qeyd etdi.

Əlaqələrimizin möhkəm siyasi əsasının olduğunu vurğulayan Prezident İlham Əliyev diqqətə çatdırdı ki, bu da ölkələrimiz arasında müxtəlif istiqamətlərdə əlaqələrin inkişafına təkan verir.

SƏFƏR BAŞA ÇATDI

Sentyabrın 29-da Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya rəsmi səfəri başa çatmışdır.

Azərbaycanın və Rumıniyanın dövlət bayraqları ilə bəzədilmiş Henri Koande adına Buxarest Beynəlxalq hava limanında Azərbaycan dövlətinin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Rumıniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

BAKIDA TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASININ BİRİNCİ SAMMİTİ KEÇİRİLMİŞDİR

Sentyabrın 29-da Milli Məclisdə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÖPA) birinci ümumi iclası keçirilmişdir. İştirakçılar əvvəlcə Milli Məclisdəki Heydər Əliyev xatirə zalına baxmışlar. Burada qonaqlara ümummilli liderin həyat və fəaliyyəti, xarici ölkələrin, dövlət və hökumət nümayəndələrinin müxtəlif illərdə Azərbaycana səfərləri zamanı Heydər Əliyevlə görüşlərini əks etdirən fotoşəkillər, tarixi sənədlər, eləcə də Azərbaycan parlamentinin formalaşmasında və xarici ölkələrin parlamentləri ilə əlaqələrin qurulmasında ulu öndərin xidmətləri barədə məlumat verilmişdir.

Türkiyə, Qazaxıstan və Qırğızıstan parlamentlərinin rəhbərləri xatirə kitabına ürək söz-

lərini yazmışlar.

Sonra sammit öz işinə başlamışdır.

Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədov tədbiri açaraq iştirakçıları salamlamış, səmərəli və uğurlu iş arzulamışdır. O ümidvar olduğunu bildirmişdir ki, toplantıda aparılacaq fikir mübadiləsi, veriləcək tövsiyələr, qəbul ediləcək qərarlar ilk addımlarını atan təşkilatın səmərəli fəaliyyəti üçün möhkəm təməl yaradacaqdır.

O.Əsədov demişdir ki, müasir dünyada regional inteqrasiya prosesləri getdikcə daha geniş vüsət alır. Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması və fəaliyyətə başlaması xalqlarımızın tarixində son dərəcə mühüm bir hadisədir. Əslində, bölgələrimizin dünya siyasətində və iqtisadiyyatında artan rolu türkdilli xalqlar ailəsinin bütün üzvləri arasında sıx birliyin və əməkdaşlığın vacibliyini ön sıraya çıxarmışdır. İndiyədək ölkələrimiz arasında siyasi dialoqun ən mühüm platforması türkdilli dövlət və hökumət başçılarının mütəmadi keçirilən zirvə toplantıları olmuşdur. Bu toplantılar bölgələrimizin siyasi, iqtisadi, mədəni və digər problemlərinin həllinə, türk birliyi ideyasının gerçəkləşməsinə mühüm töhfələr vermişdir.

Eyni kökdən olan, ortaq milli mədəni dəyərləri bölüşən dost və qardaş xalqlarımızın parlament məclisi də ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, humanitar münasibətlərin genişlənməsinə kömək göstərəcək, ölkələrimiz üçün ümumi olan bir çox problemlərin həllinə yol açacaqdır. Təşkilatımızın fəaliyyəti bölgələrimizin hərtərəfli inkişafına, dövlətlər arasında inteqrasiyanın dərinləşməsinə yönələn işlərə dəstək verəcəkdir.

Milli Məclisin sədri bildirmişdir ki, müasir dünyada parlament diplomatiyasının əhəmiyyəti və rolu xeyli artmışdır. Parlamentlərarası əməkdaşlığın keyfiyyətcə yeni mərhələsi olan parlament diplomatiyası dövlətlər arasında siyasi dialoqun inkişafına sanballı töhfələr verir. Hesab edirəm ki, TÖPA-nın fəaliyyəti bu baxımdan da səmərəli olacaqdır.

Bu Assambleya parlamentlərarası ünsiyyətin demokratik forumu kimi təşəkkül tapacaq, bölgələrimizin əmin-amanlıq və inkişaf ərazilərinə çevrilməsi məqsədi ilə müxtəlif təşəbbüslərin irəli sürülməsinə və həyata keçirilməsinə əlverişli şərait yaradacaqdır. Hazırda ölkələrimizin yerləşdiyi bölgələrdə Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə sıx bağlayan nəhəng iqtisadi layihələr həyata keçirilməkdədir. Xəzər neftini və qazını dünya bazarlarına çıxaran Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kəmərləri uğurla fəaliyyət göstərir, digər enerji-nəqliyyat layihələrinin tamamlanacağı gün uzaqda deyildir. Regional əməkdaşlığın gözəl nümunələri olan bu layihələr bölgələrimizin xalqlarına tərəqqi və inkişaf gətirəcəkdir.

O.Əsədov vurğulamışdır ki, uğurlardan və nailiyyətlərdən danışarkən problemləri də yada salmaq lazımdır. Mən ilk növbədə Azərbaycanın qarşılaşdığı davakar millətçilik və etnik separatizm problemini nəzərdə tuturam. Bizim zorla cəlb edildiyimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyədək həll olunmaması nəinki ölkəmizin inkişafını ləngidir, həm də regionda və ümumən dünyada sülh və sabitlik üçün ciddi təhlükə törədir. Azərbaycan bu münaqişənin hamılıqla tanınmış beynəlxalq hüquq prinsipləri və normaları, o cümlədən dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipi əsasında dinc vasitələrlə həll edilməsi yoluna sadiqdir. Ölkəmizə qarşı təcavüzün nəticələrinin aradan qaldırılması regional əməkdaşlığın inkişafı üçün tamamilə yeni perspektivlər açacaqdır. İnanıram ki, bölgələrimizin sülh və sabitlik zonasına çevrilməsi burada yaşayan bütün xalqların mənafelərinə cavab verəcəkdir.

Qazaxıstan Parlament Məclisinin sədri Oral Muxamedjanov bugünkü tədbiri türkdilli ölkələrin birliyi istiqamətində atılan mühüm hadisə kimi qiymətləndirmişdir. O demişdir ki, müstəqilliyimizi bərpa etdikdən sonra əlaqələrimiz bütün sahələrdə, yeni müstəvidə inkişaf etməyə başlamışdır. Biz müxtəlif beynəlxalq təşkilatlarda faydalı əməkdaşlıq edirik. İslam Konfransı Təşkilatı, ATƏT, Avropa Şurası və digər nüfuzlu təşkilatların üzvləriyik. Lakin Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması bizim birliyimiz istiqamətində çox mühüm addımdır. İlk dəfə 2006-cı ildə türkdilli ölkələrin dövlət başçılarının sammitində Prezident Nursultan Nazarbayev Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması ideyasını irəli sürmüşdür. Bu ideyanı dəstəklədiklərinə görə başda Azərbaycan Prezidenti İlham Əliyev olmaqla digər türkdilli ölkələrin dövlət başçılarına minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, TÖPA gələcəkdə çox böyük nüfuza malik olacaqdır və biz digər türkdilli dövlətlərin parlamentlərini də üzv qəbul edəcəyik. O.Muxamedjanov türkdilli ölkələr arasında iqtisadi və ticarət əlaqələrinin daha da genişləndirilməsinin, sərmayə qoyuluşunun artırılmasının vacibliyini vurğulamışdır.

Qırğızıstan Parlamentinin sədri Aytibay Taqayev çıxışa başlamazdan əvvəl bu yaxınlarda İstanbulda baş vermiş təbii fəlakət zamanı çoxsaylı insan tələfatı ilə əlaqədar Türkiyə nümayəndə heyətinə başsağlığı vermişdir.

O demişdir ki, ötən müddət ərzində həyata keçirdiyimiz işlər nəticəsində zəngin təcrübə toplamışıq. Ortaq mədəni irsə, dinə, dilə malik olan dövlətləri bir araya gətirdiyi üçün Assambleya böyük əhəmiyyətə malikdir. Bu baxımdan TÖPA-nın gələcəkdə nümunəvi bir təşkilata çevriləcəyinə heç bir şübhəm yoxdur. Keçən ilin noyabrında İstanbulda Assambleyanın yaradılmasının razılıq sazişini imzalamışıq və həmin vaxtdan bütün dünyada sosial vəziyyət baxımından çox ciddi dəyişikliklər baş vermişdir. Dünyada yaşanan maliyyə böhranı bütün ölkələrdə olduğu kimi, bizim ölkələrimizin iqtisadiyyatına da öz mənfi təsirini göstərmişdir. TÖPA-ya üzv olan ölkələrin qarşılıqlı ticarət və iqtisadi əlaqələrinin genişləndirilməsi bizim fəaliyyət istiqamətimizin ən mühüm tərəfi olmalıdır. Müsbət nəticələr əldə etmək üçün səylərimizi birləşdirməli və ümumi şəkildə ortaq hərəkətlər etməliyik. Çoxsahəli ticarət, iqtisadi və investisiya əməkdaşlığımızı artırmaq üçün türkdilli dövlətlərin potensialından geniş istifadə edilməlidir.

A.Taqayev zəngin təbii və insan sərvətləri olan türkdilli dövlətlərin potensialına və inkişafına görə dünyanın çox vacib bir hissəsi olduğunu bildirmiş, gələcəkdə tranzit sisteminin yaradılması, kommunikasiya xətlərinin birləşdirilməsi, regionda ekoloji, təbii, texnogen və təhlükəsizlik problemlərinin həlli ilə bağlı rəy və təkliflərini bildirmişdir.

Türkiyə Böyük Millət Məclisinin sədri Məhmət Əli Şahin Assambleyanın Bakı sammitinin keçirilməsi üçün yaradılmış şəraitə və yüksək təşkilatçılığa görə Azərbaycan rəhbərliyinə minnətdarlığını bildirmişdir. O demişdir ki, əsrlər boyu bizim ortaq dəyərlərimiz olmuşdur, lakin bir sıra siyasi səbəblər üzündən təəssüf ki, 1992-ci ilə qədər arzu edildiyi şəkildə bir araya gələ bilməmişik. Türk dilində danışan dövlətlərin başçıları 17

il bundan əvvəl bir araya gəlmişlər. Həmin vaxtdan aramızdakı ortaq dəyərlərdən güc alan əlaqələrimiz inkişaf etməyə başlamış, bütün sahələrdə çox gözəl münasibətlər qurmuşuq. Bu əlaqələrimiz yerləşdiyimiz ərazinin də beynəlxalq aləmdə əhəmiyyətini artırmışdır. 2006-cı ildə Antalyada keçirilən zirvə toplantısında türkdilli dövlətlərin parlamentlərinin də bir araya gəlməsi ideyası irəli sürülmüşdür. Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin irəli sürdüyü bu təklifi dəstəklədiklərinə görə cənab İlham Əliyev və Kurmanbek Bakiyevə təşəkkürümü bildirirəm. Çünki bu dəstək olmasaydı, TÖPA-nı yarada bilməzdik.

TBMM-in sədri demişdir ki, Assambleyanın yaranması digər təşkilatların və birliklərin də formalaşmasına təkan verəcəkdir. Kənd təsərrüfatı, ticarət, enerji sahələri əsas olmaqla, iqtisadi əlaqələrimiz də genişlənəcəkdir.

M.Ə.Şahin demişdir ki, TÖPA-nın ikinci ümumi iclası 2010-cu ilin oktyabrında Qazaxıstanın Astana şəhərində keçiriləcəkdir. Bu toplantılar əlaqələrimizi daha da inkişaf etdirəcək və biz daha yaxın təmasda işləyəcək, bir-birimizin problemlərinə daha yaxından və həssas şəkildə yanaşacağıq. Bir araya gəlməkdən bir sıra vəzifələr irəli gəlir ki, biz onları mütləq yerinə yetirməliyik. Biz hər birimizin problemlərinə daha həssaslıqla yanaşmalıyıq. Eyni zamanda, parlamentlərimizin TÖPA çərçivəsində bir araya gəlməsi çox ciddi təcrübə mübadiləsini də ortaya çıxaracaqdır.

Daha sonra iclasda qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmış, Assambleyanın Nizamnaməsi, Katibliyinin Əsasnaməsi, təşkilatın büdcəsi təsdiqlənmiş, baş katib və onun müavinləri seçilmişdir.

Assambleyanın növbəti, ikinci ümumi iclasının 2010-cu ilin oktyabrında Qazaxıstanın Astana şəhərində keçirilməsi qərara alınmışdır. Həmin iclasda təşkilata sədrlik Azərbaycandan Qazaxıstana keçəcəkdir.

Sammitdə birinci ümumi iclasın Bakı Bəyannaməsi qəbul olunmuşdur.

TÖPA-nın ümumi iclasının sonunda Türkdilli Ölkələrin Parlament Assambleyasına üzv dövlətlərin parlamentlərində akkreditə olunmuş Jurnalistlər Assosiasiyası yaradılmışdır.

Bununla da sammit öz işini başa çatdırmışdır.

Tədbir başa çatdıqdan sonra Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan parlamentlərinin sədrləri mətbuat nümayəndələri üçün brifinq keçirmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin müxtəlif istiqamətləri, o cümlədən energetika sahəsində əməkdaşlıq, regional və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdı.

AZƏRTAC İLƏ YUNESKO ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏ İMZALANMIŞDIR

YUNESKO-nun Moskva ofisinin Rusiya, Azərbaycan, Belarus və Moldova üzrə kommunikasiya müşaviri Marius Lukaşiunas və Azərbaycan Respublikasının YUNESKO üzrə Milli Komissiyasının birinci katibi Günay Əfəndiyeva sentyabrın 30-da Azərbaycan Dövlət Teleqraf Agentliyində (AzərTAc) olmuşlar.

AzərTAc-ın tarixi və keçdiyi inkişaf yolu barədə ətraflı məlumat verən Baş direktor Aslan Aslanov ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətdə olduğu illərdə respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatında baş verən tərəqqinin agentliyin fəaliyyətində və maddi-texniki bazasının genişlənməsində mühüm rol oynadığını qeyd etmişdir. AzərTAc-ın dünyanın iki böyük regional informasiya qurumunun üzvü olduğu və mötəbər beynəlxalq tədbirlərdə ölkəmizi uğurla təmsil etdiyi diqqətə çatdırılmışdır. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Prezident seçildikdən sonra Fransaya etdiyi ilk rəsmi səfəri çərçivəsində YUNESKO-nun Parisdə yerləşən mənzil-qərargahında keçirdiyi görüş məmnunluqla xatırlanmışdır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yüksək səyləri sayəsində bu təşkilat ilə Azərbaycan arasında son illər sıx əlaqələrin yarandığı xüsusi vurğulanmışdır. Diqqətə çatdırılmışdır ki, YUNESKO-nun ölkəmizdə həyata keçirdiyi tədbirlər AzərTAc tərəfindən geniş işıqlandırılır.

Marius Lukaşiunas YUNESKO-nun müxtəlif sahələrdə həyata keçirdiyi proqram və layihələrin təbliğində və dünya ictimaiyyətinə çatdırılmasında informasiya agentliklərinin rolunu qeyd etmiş, bu işdə AzərTAc-la da əməkdaşlığa xüsusi önəm verdiklərini bildirmişdir. Müşavir YUNESKO tərəfindən bu ilin noyabr ayında Bakıda keçiriləcək seminarın təşkilində AzərTAc-ın dəstəyindən yararlanmaq niyyətində olduqlarını bildirmişdir.

Bununla əlaqədar AzərTAc ilə YUNESKO arasında Azərbaycanda jurnalistlərin peşəkarlığını artırmaq və iqlim dəyişikliyinin təsiri ilə bağlı məsələlər haqqında ictimaiyyəti məlumatlandırmaq məqsədi ilə seminarın təşkili barədə müqavilə imzalanmışdır.

Sonda qonaqlara xatirə hədiyyələri təqdim olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ DAVAMLI İNKİŞAF SEKTORUNUN DİREKTORU PİTER TOMSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Dünya Bankının Avropa və Mərkəzi Asiya Regionu üzrə Davamlı İnkişaf Sektorunun direktoru Piter Tomsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ MARTİN BARTAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Çexiyanın Baş nazirinin müavini, müdafiə naziri Martin Bartakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan-Çexiya ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı.

Prezident İlham Əliyev Çexiyadan mütəmadi olaraq müxtəlif səviyyəli nümayəndə heyətlərinin ölkəmizə səfərlərini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı bu il Çexiyaya səfərini xatırlatdı və ölkələrimiz arasında intensiv dialoqun aparılmasının əhəmiyyətini qeyd etdi.

Azərbaycan Prezidenti əmin olduğunu bildirdi ki, Çexiyanın Baş nazirinin müavini, müdafiə nazirinin ölkəmizə bu səfəri də Azərbaycan ilə Çexiya arasında münasibətlərin daha da möhkəmlənməsi işinə xidmət edəcəkdir.

Ölkələrimiz arasında əlaqələrin daha sıx xarakter aldığını müsbət hal kimi qiymətləndirən Martin Bartak dedi ki, biz bu regionda Azərbaycana çox sabit bir ölkə kimi baxırıq. Qonaq ölkəsinin Azərbaycan ilə münasibətlərə böyük önəm verdiyini vurğuladı və ümid etdiyini bildirdi ki, digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığımız daha da genişlənəcəkdir.

AZƏRBAYCAN-QAZAXISTAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ VI İCLASI KEÇİRİLMİŞDİR

Oktyabrın 1-də Bakıda Azərbaycan-Qazaxıstan hökumətlərarası komissiyasının VI iclası keçirilmişdir.

Komissiyanın Azərbaycan tərəfindən həmsədri, sənaye və energetika naziri Natiq Əliyev qeyd etmişdir ki, iki ölkə arasındakı siyasi-iqtisadi əlaqələr çox yüksək səviyyədədir. Bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün hər iki ölkənin geniş potensialı və münbit şərait var.

Ötən il Qazaxıstanla Azərbaycan arasında əmtəə dövriyyəsinin 490,3 milyon manat təşkil etdiyini nəzərə çatdıran nazir, bu rəqəmin kifayət qədər böyük olmadığını qeyd etmişdir.

Komissiyanın Qazaxıstan tərəfindən həmsədri, energetika və minerał ehtiyatlar naziri Sauat Mınbayev də öz növbəsində, iki ölkə arasında mövcud əlaqələrin inkişafı üçün böyük potensialın olduğunu vurğulamışdır.

İclasda ticarət-iqtisadi, yanacaq-energetika, aqrarsənaye kompleksi, nəqliyyat və rabitə, humanitar sahələrdə qarşılıqlı fəaliyyətin perspektivləri nəzərdən keçirilmiş, müvafiq tövsiyələr razılaşdırılmışdır.

Hökumətlərarası komissiyanın VI iclasının yekun protokolu imzalanmışdır.

AZƏRBAYCAN VƏ ÇEXİYA MÜDAFİƏ NAZİRLİKLƏRİ ARASINDA "MÜDAFİƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ" İMZALANMIŞDIR

Oktyabrın 1-də ölkəmizdə rəsmi səfərə gələn Çexiya Respublikası Baş nazirinin müavini, müdafiə naziri Martin Bartak Azərbaycanın müdafiə naziri, general-polkovnik Səfər Əbiyev ilə görüşmüşdür.

Ümummilli lider Heydər Əliyevin məzarını, Şəhidlər Xiyabanını ziyarət etdikdən sonra çexiyalı qonağın Müdafiə Nazirliyində təntənəli qarşılanma mərasimi keçirilmişdir.

Hər iki ölkənin dövlət himnləri səsləndikdən sonra nümayəndə heyətlərinin geniştərkibli görüşündə Çexiya ilə Azərbaycan arasında hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, Cənubi Qafqazda mövcud vəziyyət və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə edilmişdir.

Münaqişənin aradan qaldırılması ilə əlaqədar 15 ildən artıq Minsk qrupu tərəfindən aparılan danışıqların konkret nəticə verməliyini çexiyalı həmkarının diqqətinə çatdıran nazir Səfər Əbiyev bildirmişdir ki, Azərbaycanın güc yolu ilə də olsa öz torpaqlarını erməni işğalından azad etməkdən başqa yolu qalmır. Çünki təcavüzkar Ermənistan münaqişənin dinc yolla nizamlanmasını arzulamır.

Sonda Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Çexiya Respublikasının Müdafiə Nazirliyi arasında ilk dəfə olaraq "Müdafiə sahəsində əməkdaşlıq haqqında saziş" imzalanmışdır.

BAKIDA "MÜDAFİƏ SİYASƏTİ VƏ STRATEGİYASI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR

Oktyabrın 1-də Bakıda Azərbaycanın Xarici İşlər Nazirliyinin və NATO-nun birgə təşkilatçılığı ilə "Müdafiə siyasəti və strategiyası" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Konfransı xarici işlər nazirinin müavini Araz Əzimov açaraq bildirmişdir ki, NATO müasir dövrdə yalnız üzvlərinə deyil, tərəfdaşlarına da təhlükəsizlik təminatları verməlidir. Avratlantik məkanda təhlükəsizlik üzvlərin tərəfdaşlarla birgə fəaliyyətindən asılıdır. Biz tərəfdaş ölkə olaraq NATO ilə birgə siyasətimiz üzərində işləyirik.

A.Əzimov ölkəmizin NATO-ya inteqrasiya prosesindəki rolundan danışaraq demişdir ki, Azərbaycan Kosovoda və İraqda sülhyaratma əməliyyatlarında fəal iştirak etmişdir. Əfqanıstanda olan sülhməramlı qüvvələrin sayı isə artır.

Nazir müavini bəyan etmişdir ki, Azərbaycan NATO ilə ikitərəfli əməkdaşlığın konseptual istiqamətinə yenidən baxmağa hazırdır. Biz ikitərəfli proqramlarda qarşılıqlı fəaliyyətin keyfiyyətini artırmalıyıq. Strateji tərəfdaşlıq və NATO arasında əməkdaşlıq qarşılıqlı etimad əsasında qurulmalıdır.

NATO baş katibinin müdafiə siyasəti və planlaşdırılması üzrə köməkçisi Yuri Sediv isə Alyansın təhlükəsizlik siyasətindən danışaraq demişdir ki, son 10 ildə baş verən hadisələr Şimali Atlantika Alyansının təhlükəsizliklə bağlı konsepsiyasının yenidən işlənməsinə səbəb olmuşdur.

Kollektiv müdafiə və təhlükəsizlik NATO-nun əsas məqsədlərindən biri olduğunu deyən Alyansın rəsmisi qeyd etmişdir ki, qurum eyni vaxtda tərəfdaşlarla siyasətini yenidən nəzərdən keçirir.

Y.Sediv vurğulamışdır ki, NATO-nun yeni strateji konsepsiyası hazırlanır. Konsepsiya Şimali Atlantika Alyansının yeni hədəflərini və inkişaf perspektivlərini əhatə edəcəkdir. Sənəd gələn il NATO-nun Lissabon sammitində müzakirəyə çıxarılacaqdır. Hazırda bu çərçivədə açıq məsləhətləşmələr aparılır.

Beynəlxalq konfransda NATO-nun transformasiyası, tərəfdaşlarla gələcək siyasəti, yeni müdafiənin planlaşdırılması prosesi, tərəfdaş ölkələrin sülhyaratma əməliyyatlarında rolu və digər mövzularda məruzələr dinlənilmişdir.

Konfransda Azərbaycanın güc strukturlarının nümayəndələri ilə yanaşı, NATO-nun mütəxəssisləri və ölkəmizdə akkreditə olunmuş xarici hərbi attaşelər iştirak etmişlər.

DÖVLƏT İNVESTİSİYALARI ÜZRƏ KADR POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ LAYİHƏSİ İLƏ BAĞLI MALİYYƏ SAZİŞİ İMZALANMIŞDIR

Oktyabrın 1-də Təhsil Nazirliyində Azərbaycan Hökuməti ilə Dünya Bankı arasında ölkəmizdə Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsinin həyata keçirilməsi ilə bağlı maliyyə sazişi imzalanmışdır.

Sazişdə Azərbaycan Respublikasına 8 milyon ABŞ dolları ekvivalentində Beynəlxalq İnkişaf Assosiasiyası kreditinin ayrılması nəzərdə tutulur. Layihənin ümumi dəyərini 10 milyon ABŞ dolları təşkil edir. Qalan 2 milyon ABŞ dolları Azərbaycan Hökuməti tərəfindən maliyyələşdiriləcəkdir.

İmzalanma mərasimində təhsil naziri Misir Mərdanov rəhbərlik etdiyi qurum ilə Dünya Bankı arasında son 10 il ərzində təhsil sahəsi üzrə birgə layihələrin həyata keçirildiyini bildirmişdir.

Nazir qeyd etmişdir ki, yeni layihənin əsas məqsədi prioritet sektorlarda, xüsusilə infrastruktur sektorunda investisiya layihələrinin hazırlanması, onların icra keyfiyyətinin və səmərəliliyinin artırılmasıdır.

Layihə yol, su təchizatı və kanalizasiya xidmətləri sahələri üzrə xüsusi texniki təhsilin təmin edilməsini, layihə idarəetməsi üzrə təlimlərin keçirilməsini nəzərdə tutur.

2010-2013-cü illərdə həyata keçiriləcək layihə dörd komponentdən ibarətdir.

M.Mərdanov layihənin respublikamızda ali təhsilin inkişafına da müsbət təsir göstərəcəyini diqqətə çatdırmışdır.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Əsəd Alam layihənin əhəmiyyətini vurğulamış, onun uğurla həyata keçiriləcəyinə əminliyini qeyd etmişdir.

Sonra maliyyə sazişi imzalanmışdır. Sənədi M.Mərdanov və Ə.Alam imzalamışlar.

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Oktyabrın 2-də Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycana rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Qazaxıstanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan dövlətinin başçısını Baş nazirin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar Prezident Nursultan Nazarbayevə gül dəstəsi təqdim etdilər.

Beynəlxalq hava limanının ali qonaqlar üçün salonunda Prezident Nursultan Nazarbayev və Baş nazirin birinci müavini Yaqub Eyyubov arasında qısa protokol söhbəti oldu.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Azərbaycanda rəsmi səfərdə olan Qazaxıstan Prezidenti Nursultan Nazarbayev oktyabrın 2-də Fəxri xiyabana gəlmişdir.

Prezident Nursultan Nazarbayev Azərbaycan xalqının görkəmli oğlu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla andı, ulu öndərin məzarı önünə əklil qoydu.

Qazaxıstan dövlətinin başçısı görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə güllər düzdü.

Ali qonağa Fəxri xiyabanın tarixi barədə məlumat verildi.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev oktyabrın 2-də Şəhidlər xiyabanını ziyarət etmişdir.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Nursultan Nazarbayev Azərbaycanın azadlığı və suverenliyi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsini yad etdi, "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Qazaxıstanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezident Nursultan Nazarbayev Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr etdi.

Ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Oktyabrın 2-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Qazaxıstan Prezidentinə raport verdi.

Qazaxıstanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Qazaxıstan Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Nursultan Nazarbayevə, Qazaxıstan nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

Oktyabrın 2-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin təkbətək görüşü olmuşdur.

Görüşdə dövlət başçıları ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə etdilər. Yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı və bu səfərin də əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyi bildirildi.

Qazaxıstan Prezidenti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətlərindən danışarkən dedi ki, Heydər Əliyev Azərbaycanı sabit inkişaf yoluna çıxardı. Siz isə yeni və müasir Azərbaycan yaratdınız.

Nursultan Nazarbayev Bakı şəhərində gedən sürətli yeniləşməyə toxunaraq bildirdi ki, indi Azərbaycan paytaxtı ənənələri və müasirliyi özündə birləşdirən Avropa şəhərinə çevrilmişdir.

Dövlət başçıları ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi apardılar.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Oktyabrın 2-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Hörmətli Nursultan Abişeviç!

Hörmətli qonaqlar!

Bir daha Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Əminəm ki, səfər uğurlu olacaq və onun nəticələri münasibətlərimizin gələcək inkişafına çox müsbət təsir göstərəcəkdir. Bizim aramızda çox möhkəm tarixi əlaqələr vardır. Ölkələrimiz beynəlxalq aləmdə uğurlu qarşılıqlı fəaliyyət göstərir. İkitərəfli münasibətlər çox uğurla inkişaf edir. Həyata keçirdiyimiz konkret layihələr, həmçinin gələcəyə yaxşı perspektivlər vardır. Əminəm ki, ölkəmizə səfəriniz, qəbul edəcəyimiz qərarlar və imzalayacağımız sənədlər münasibətlərimizin inkişafı, regional əməkdaşlığın möhkəmlənməsi, nəzərdə tutduqlarımızın hamısının uğurla həyata keçirilməsi üçün çox böyük praktiki əhəmiyyət kəsb edəcəkdir. Mən çox şadam ki, Sizi böyük nümayəndə heyəti müşayiət edir, bizim tərəfdən də nümayəndə heyəti böyükdür. Əminəm ki, Sizin səfəriniz müddətində nümayəndə heyətlərinin üzvləri də qəbul edilmiş qərarların həyata keçirilməsi naminə hər bir istiqamətdə konkret addımların atılması üçün fəal işləyəcəklər.

Sizi bir daha ürəkdən salamlayıram. Sizi Azərbaycanda görməyimə çox şadam. Əminəm ki, səfər uğurlu keçəcək və Sizin burada olmağınız bizə də çox xoşdur.

Qazaxıstan Prezidenti Nursultan NAZARBAYEV Azərbaycan dövlətinin başçısına minnətdarlığını bildirərək dedi:

- İlham Heydər oğlu, dəvət üçün, daimi ənənəvi qonaqpərvərlik, bizə qardaş münasibəti üçün çox sağ olun.

Həqiqətən biz buraya nazirliklərin və idarələrin rəhbərlərindən ibarət böyük nümayəndə heyəti ilə gəlmişik ki, ilk növbədə ölkələrimizin böhrana qarşı iş sahəsində təcrübə mübadiləsi aparaq, hələ həll edilməmiş məsələləri həll edək. Biz bütün zəruri əməkdaşlıq sahələrini Sizinlə ətraflı müzakirə etdik, hökumətlərarası komissiya da işlədi. İndicə mənə məruzə etdilər ki, artıq həll edilməmiş, razılaşdırılmamış heç bir məsələ qalmamışdır. Biz deməliyik ki, Qazaxıstan-Azərbaycan münasibətləri yüksək səviyyədədir. Sizinlə görüşlərimizin dinamikası buna dəlalət edir. Harada olursa-olsun, hər yerdə, Siz həmişə gəlmisiniz və mən də buna hazıram. Bu ənənənin əsası hələ Sizin atanız, mənim dostum və böyük qardaşım Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bizim aramızda heç bir anlaşılmazlıq, həll edilməmiş məsələ, siyasi problem olmamışdır. Biz bunu bilirik, Sizin uğurlarınıza sevinirik, şadıq ki, Azərbaycan bu regionun şəksiz liderinə çevrilmişdir və hətta bu şəraitdə də nümunə göstərir. Dörd il Bakıda olmamışam, bu gün Bakı, əlbəttə, tamamilə başqa, müasir və gözəl şəhərdir. Mən təzə paytaxt tikmiş bir adam kimi, bunun nə demək olduğunu bilirəm. Möhtəşəm iş görülmüşdür. Hətta təyyarədən baxanda Bakının sənaye görkəmi tamam başqadır. Sovet dövründə mən burada tez-tez olurdum, köhnə şəhərin vəziyyəti yadımdadır. Əlbəttə, köhnə şəhərin köhnə

dərd-səri olur: sınıq-salxaq evlər, palçıq, his-pas... Bu gün, xüsusən mərkəzin bu cür olması bizi sevindirir və mən Sizi təbrik edirəm. Hər halda paytaxt ölkənin güzgüsüdür, ona baxıb hər şey barədə mühakimə yürüdürlər və regionlar da özlərini necə aparmağı ondan öyrənirlər.

AZƏRBAYCAN-QAZAXISTAN SƏNƏDLƏRİNİN İMZALANMASI

Oktyabrın 2-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Sumqayıt şəhəri (Azərbaycan Respublikası) və Aktau şəhəri (Qazaxıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə"ni Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Vaqif Əliyev və Aktau şəhərinin akimi Salimgerey Bakbergenov imzaladılar.

"Qazaxıstanın karbohidrogen yataqlarının işlənməsi zamanı Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin neft-qaz infrastrukturunun obyektlərinin birgə istifadəsi haqqında Memorandum"u, "Transxəzər layihəsi üzrə texniki-iqtisadi əsaslandırmanın işlənib hazırlanması ilə əlaqədar birgə fəaliyyət haqqında Müqavilə"ni, "Kazmunayqaz" Milli Şirkəti Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Bakı-Qara dəniz neft kəməri üzrə əməkdaşlığa dair Niyyət Memorandumu"nu ARDNŞ-in prezidenti Rövnəq Abdullayev və "Kazmunayqaz" Milli Şirkəti Səhmdar Cəmiyyətinin sədri Kairgeldi Kabıldin imzaladılar.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Qazaxıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın kənd təsərrüfatı naziri İsmət Abasov və Qazaxıstanın kənd təsərrüfatı naziri Akılbek Kurişbayev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında 1992-1993-cü illər ərzində müxbir hesabları üzrə hesablaşmalara keçidə kimi və ondan sonra ticarət-iqtisadi münasibətlər nəticəsində yaranmış borcun ödənilməsi haqqında Saziş"i Azərbaycanın maliyyə naziri Samir Şərifov və Qazaxıstanın maliyyə naziri Bolat Jamişev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Qazaxıstanın dövlət katibi, xarici işlər naziri Kanat Saudabayev imzaladılar.

AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARI

Oktyabrın 2-də sənədlərin imzalanması mərasimindən sonra prezidentlər İlham Əliyev və Nursultan Nazarbayev mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV Qazaxıstan dövlətinin başçısını Azərbaycan dilində salamlayaraq dedi:

- Hörmətli Nursultan Abişeviç!

Hörmətli qonaqlar!

Mən Sizi Azərbaycanda ürəkdən salamlayıram. Sizi yenidən görməyimə çox şadam və sevinirəm ki, bu gün aparılmış danışıqlar çox yaxşı nəticələr verir. Biz gündəliyi çox diqqətlə nəzərdən keçirdik. Bizim münasibətlərimizin əhatə dairəsi çox genişdir. O, inkişaf edir, çox sahələri əhatə edir və bizim bütün istiqamətlər üzrə fəxr etməyə haqqımız vardır. Siyasi münasibətlər çox yüksək səviyyədədir. İqtisadi böhrana və əmtəə dövriyyəsinin səviyyəsinin müəyyən qədər azalmasına baxmayaraq, əvvəlki illərin təcrübəsi göstərir ki, iqtisadi əlaqələr dinamik inkişaf etmişdir və mən əminəm ki, bu müvəqqəti azalma yaxın vaxtlarda aradan qaldırılacaqdır. Xüsusən ona görə ki, bizim nəzərdə tutduğumuz və bu gün imzalanmış sənədlərdə öz əksini tapmış layihələr, ilk növbədə energetika sahəsində layihələr nəzərə alınmaqla əminəm ki, ölkələrimiz arasında qarşılıqlı ticarətin səviyyəsi yaxın vaxtlarda əhəmiyyətli dərəcədə artacaqdır.

Energetika sahəsində biz müttəfiqlərik, Xəzərdə qonşuyuq və bu sahədə münasibətlərin inkişaf etdirilməsi üçün gözəl potensial imkanlar vardır. Mən əminəm ki, bu gün imzalanmış sənədlər böyük yolun yalnız başlanğıcıdır. Hərçənd, deməliyəm ki, elə bu gün də yaxşı nəticələrimiz vardır. Qazaxıstan nefti bizim ölkəmizin ərazisindən müxtəlif yollarla - həm dəmir yolu, həm də Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə dünya bazarlarına nəql edilir. Gələcəkdə yeni boru kəmərlərinin, Azərbaycanın digər nəqliyyat imkanlarının işə salınması ölkələrimiz arasında daha artıq inteqrasiyaya gətirib çıxaracaqdır.

Nəqliyyat sahəsində yaxşı perspektivlər vardır. Əminəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi başa çatandan sonra bizim Qazaxıstandakı dostlarımız da bu dəmir yolundan istifadə etmək imkanına malik olacaqlar. Bu yol, sözün geniş mənasında, Avropanı Asiya ilə birləşdirəcəkdir.

Bu gün biz kənd təsərrüfatında münasibətlərin inkişaf etdirilməsinin konkret yollarını müəyyən etdik. Bu sahədə əmtəə dövriyyəsinin artırılması da böyük əhəmiyyətə və böyük potensiala malikdir.

Əminəm ki, nümayəndə heyətlərinin üzvləri də bu günü çox səmərəli keçirəcək və münasibətlərimizin inkişaf etdirilməsinin gələcək yollarını müəyyən edəcəklər.

Nursultan Abişeviç, ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmlənməsi, habelə Xəzərdə, Qafqaz regionunda səmərəli əməkdaşlıq üçün əlverişli mühit yaradılması, təhlükəsizlik tədbirlərinin və qarşılıqlı etimadın möhkəmlənməsi sahəsində səylərinizə görə Sizə çox minnətdaram. Bizim dəvətimizi qəbul etdiyinizə və bu gün səfərə gəldiyinizə görə, bir daha təşəkkürümü bildirmək, Sizə və Sizin bütün nümayəndə heyətinə uğurlar diləmək istərdim.

Biz bu gün və sabah Naxçıvanda hələ işləməliyik. Bu iş bizim ikitərəfli münasibətlərə yaxşı təsir göstərəcəkdir.

* * *

Qazaxıstan Prezidenti Nursultan NAZARBAYEV Azərbaycan dövlətinin başçısını qazax dilində salamlayaraq dedi:

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar!

Azərbaycana, Bakıya səfərə dəvət olunduğumuza görə Sizə ürəkdən minnətdarıq. Biz bunu böyük sevinclə edirik. Qazaxıstanın bir sıra nazirlərindən, müvafiq şirkətlərin rəhbərlərindən ibarət sanballı nümayəndə heyəti səmərəli danışıqlar aparmışdır. Hökumətlərarası komissiyanın birgə iclası keçirilmiş, gündəlikdə nəzərdə tutulan bütün məsələlər üzrə uğurlar əldə edilmiş, sənədlər imzalanmışdır.

Nəticədə biz energetika sahəsində əməkdaşlığı gücləndirmək barədə razılığa gəlmişik. Azərbaycanın neft-qaz infrastrukturundan istifadə edilməsinə, ölkələrimiz arasında nəqliyyat kommunikasiyalarına, neftin emal edilməsi üzrə birgə iş və kadrların hazırlanması sahəsində təcrübə mübadiləsinə, araşdırmalara, gələcək hasilata və nəqletməyə dair sənədlər imzalanmışdır. Bunlar bizim əməkdaşlığımızın, necə deyərlər, əsas hissəsidir.

Bundan əlavə, biz kənd təsərrüfatında - həm baytarlıq sahəsində, həm də qarşılıqlı malgöndərmələr üzrə əməkdaşlıq haqqında razılıq əldə etmişik. Qazaxıstan ərzaq taxılı satmaqda maraqlıdır. Biz ölkəmizin Xəzəryanı regionlarının faraş tərəvəz və meyvə ilə təchiz olunmasında maraqlıyıq. Biz hərbi-siyasi əməkdaşlıqda, dənizçi kadrların Azərbaycan məktəblərində təhsil almasında və əlbəttə, mədəni-humanitar əlaqələrdə maraqlıyıq. Hər halda Qazaxıstan vətəndaşları olan 100 mindən çox azərbaycanlı bizim ölkədə yaşayır, işləyir, öz həyatlarından razıdırlar. Bu, ölkələrimiz arasında əməkdaşlıq üçün bir körpüdür.

Dünya siyasəti məsələlərində Qazaxıstan və Azərbaycan həmişə vahid mövqedən çıxış edir. Biz Birləşmiş Millətlər Təşkilatının mövqeyinin möhkəmlənməsinə, beynəlxalq qanunvericiliyə riayət edilməsinə tərəfdarıq. Biz terrorizmin, ekstremizmin hər hansı təzahürlərinə qarşı mübarizədə əməkdaşlıq edirik. Biz həmişə mövcud sərhədlərin toxunulmazlığından, dövlətlərin suverenliyindən danışırıq. Bu zəmində deyə bilərik ki, biz həqiqətən, təkcə tərəfdaşlar deyil, həm də bütün istiqamətlər üzrə müttəfiqlərik.

Mən əminəm ki, bizim münasibətlərin çox böyük perspektivləri vardır. Ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi böhranla əlaqədar bir qədər azalsa da, 670 milyon dollara çatmışdır. Bu, necə deyərlər, son həddeyil. Bizim bu vəziyyəti düzəltməyə imkanımız vardır. Əminəm ki, bu səfər, razılaşmalarımız əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldıracaqdır.

İlham Heydər oğlu, bu əməkdaşlığı daha da möhkəmlətmək üçün mən Sizi, özünüz üçün münasib olan istənilən vaxtda ölkəmizə rəsmi səfərə dəvət etmişəm. Görüşlərin yüksək səviyyəsi və dinamikası ölkələrimiz arasında həqiqətən qardaşlıq münasibətlərinin mövcud olmasına zəmanət verir.

Sizə təşəkkür edirəm.

QAZAXISTAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ NAHAR

Oktyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyevin adından Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin şərəfinə rəsmi nahar verilmişdir.

Dövlət başçıları naharda çıxış etmişlər.

Prezident İlham ƏLİYEV ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulamış, əlaqələrin bugünkü səviyyəsinin əsasının ümummilli lider Heydər Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tərəfindən qoyulduğunu bildirərək demişdir:

- İki müstəqil dövlət məhz sizin birgə səylərinizin nəticəsində müstəqilliyin ilkin mərhələsinin bütün çətinliklərini və mürəkkəbliklərini aradan qaldıra bilmiş, özünü təmin edən, uğurlu, müasir dövlət kimi inkişaf etmişdir. Əminəm ki, gələcəkdə tarixi baxımdan ölkələrimizin inkişaf yolu fəaliyyətini öz ehtiyatları, öz xalqının istedadı, öz ölkəsinin potensialı əsasında quran müasir müstəqil dövlətlərin tarixi kimi öyrəniləcəkdir. Münasibətlərimizin bugünkü inkişafı 90-cı illərdə görülən işlərin məntiqi davamıdır.

Prezident İlham Əliyev bu gün Azərbaycan ilə Qazaxıstan arasındakı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatdığını vurğuladı. Əmin olduğunu bildirdi ki, bu gün imzalanan sənədlər ölkələrimiz arasında əlaqələrin inkişafına, regional proseslərə təsir edəcəkdir.

Ölkələrimizin Xəzər dənizi regionunda əməkdaşlığının mühüm beynəlxalq əhəmiyyət kəsb etdiyini vurğulayan Prezident İlham Əliyev demişdir:

- Siyasi baxımdan, iqtisadi inkişaf, sosial məsələlərin həlli baxımından ölkələrimiz dünyanın ən sabit ölkələri kimi səciyyələndirilir. Bu sabitlik uğurumuzun təminatıdır. Bu sabitlik məhz xalqın birliyinə, məqsədlərin birliyinə, ölkələrimizin qarşısında duran vəzifələrin tam anlaşılmasına əsaslanır. Əlbəttə ki, ölkələrimiz arasında səmərəli qarşılıqlı fəaliyyət dövlətlərimizin xeyrinədir, habelə regional əməkdaşlıq daha tammiqyaslı olacaqdır.

Əminəm ki, bu gün bütün nəzərdə tutduqlarımızı yerinə yetirəcəyik. Bu, həmişə belə olmuşdur. Danışıqlarda razılığa gəldiyimiz bütün məsələlərə əməl etmişik. Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın əsası 2006-cı ildən, ilk sənəd imzalandığı vaxtdan qoyulmuşdur. Bu gün biz həmin sahədə münasibətlərimizin tamamilə yeni, keyfiyyətcə yeni səviyyəsinə yüksəlirik. Əminəm ki, bütün digər sahələrdə də bizi uğur müşayiət edəcəkdir.

* * *

Sonra Qazaxıstan Prezidenti Nursultan NAZARBAYEV çıxış etmişdir.

Ali qonaq Azərbaycana səfərindən məmnunluğunu bildirmişdir.

Qazaxıstan Prezidenti ölkəmizin inkişafında Azərbaycanın ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətlərini vurğulayaraq demişdir:

- Faktiki olaraq, onun gəlişi ilə bugünkü Azərbaycanın təməli qoyuldu. O, müharibəni dayandırdı, ərazini bir əldə cəmləşdirdi. Hər bir rayonun özünü ayrıca knyazlıq saydığı,

demək olar ki, Azərbaycanın praktiki olaraq parçalandığı bir vaxtda o, yenilməz iradəsi ilə bu prosesləri qarşısını aldı, dövlət, özü də nüfuzlu dövlət yaratdı, onu dünyada məşhur etdi. Azərbaycanın təbii ehtiyatlarının dünya bazarlarına çıxarılması da onun xidmətləridir. Bakı-Ceyhan onun şəxsi xidmətidir.

Nursultan Nazarbayev Azərbaycan xalqının ümummilli liderinin əsasını qoyduğu siyasətin indi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini və bunun nəticəsində Azərbaycanın sürətlə inkişaf etdiyini vurğulayaraq demişdir:

- Mən dörd ildir ki, Azərbaycanda olmamışam və buradakı yenilikləri görürəm. Bakının siması tamamilə dəyişmişdir. Mən Azərbaycanın iqtisadi göstəricilərindən xəbərdaram, Azərbaycanın postsovet ölkələrində, habelə digər ölkələrdə necə nüfuza malik olduğunu bilirəm. Bu gün Azərbaycan, Azərbaycan xalqı dünyada tanınır.

Qazaxıstan Prezidenti Azərbaycan və qazax xalqlarının ümumi köklərə malik olduğunu vurğuladı. "Qazaxıstan Azərbaycanın yaxın qonşusudur", - deyən ali qonaq ölkələrimiz arasında bir çox sahələrdə uğurlu əməkdaşlığın səmərəli nəticələrindən də danışmışdır.

Nursultan Nazarbayev əlaqələrin daha da möhkəmləndirilməsi və genişləndirilməsi üçün hər iki ölkənin böyük potensiala malik olduğunu bildirmişdir.

AZƏRBAYCAN İLƏ QAZAXISTAN ARASINDA TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ MÜHÜM MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR

Oktyabrın 2-də Qazaxıstanın Milli Təhlükəsizlik Komitəsinin sədri general-leytenant Amangeldi Şabdarbayevin başçılıq etdiyi nümayəndə heyəti və Azərbaycanın milli təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov başda olmaqla nazirliyin bir qrup əməkdaşı fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də gül dəstələri düzülmüşdür.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən övladlarının da xatirəsi yad edilmiş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulmuşdur.

Milli Təhlükəsizlik Nazirliyinin ictimai əlaqələr mərkəzindən bildirmişlər ki, həmin gün iki ölkənin müvafiq qurumlarının rəhbərləri arasında görüş keçirilmişdir. Nazir Eldar Mahmudov qazaxıstanlı həmkarının Azərbaycana səfərini hər iki ölkənin müvafiq strukturları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində atılan növbəti addım kimi qiymətləndirmişdir.

Görüşdə tərəflər arasında transmilli mütəşəkkil cinayətkarlıq, hazırda ən aktual problem olan terrorçuluqla mübarizə sahəsində görülən işlər, narkotiklərin qanunsuz dövriyyəsi, miqrasiya prosesləri və bundan irəli gələn məsələlər müzakirə edilmiş, həmçinin enerji və Xəzər hövzəsi bioresurslarının təhlükəsizliyi ilə bağlı fikir mübadiləsi aparılmış, Azərbaycan və Qazaxıstan xüsusi xidmət orqanları arasında bütün bu sahələr üzrə informasiya və ekspert mübadiləsinin intensivləşdirilməsinin vacibliyi qeyd olunmuşdur.

Nazir Eldar Mahmudov mövcud əməliyyat şəraiti və ona təsir göstərən amillər, beynəlxalq terrorçuluqla mübarizə sahəsində, ümumən təhlükəsizlik problemləri ilə əlaqədar Azərbaycanın həyata keçirdiyi tədbirlər, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin doğurduğu, eləcə də onun nəticəsində yaranmış nəzarət olunmayan ərazilərin mövcudluğundan irəli gələn fəsadlar barədə ətraflı məlumat vermişdir.

Göstərilən yüksək qonaqpərvərliyə, geniş və dolğun məlumata görə təşəkkürünü bildirən Amangeldi Şabdarbayev, hər iki ölkənin təhlükəsizlik maraqlarının təmin olunması sahəsində aktuallıq kəsb edən məsələlər ətrafında aparılan müzakirələrin nəticələrindən razı qaldığını bildirmiş, Qazaxıstan və Azərbaycan, həmçinin müvafiq strukturlar arasında münasibətlərin inkişafından məmnun olduğunu qeyd etmişdir.

İşgüzar və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə tərəfləri maraqlandıran digər məsələlər üzrə də fikir mübadiləsi aparılmışdır.

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV NAXÇIVANA GƏLMİŞDİR

Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün oktyabrın 2-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

Qazaxıstan Prezidentinin şərəfinə Naxçıvan Beynəlxalq hava limanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Nursultan Nazarbayevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov qarşıladı.

Milli geyimli qız Qazaxıstan Prezidentinə gül dəstəsi təqdim etdi.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IX ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN NAXÇIVANA GƏLMİŞDİR

Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gül Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün oktyabrın 2-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

Türkiyə Prezidentinin şərəfinə Naxçıvan Beynəlxalq hava limanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Abdullah Gülü Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov qarşıladı.

Milli geyimli qız Türkiyə Prezidentinə gül dəstəsi təqdim etdi.

QIRĞIZISTAN PREZİDENTİ KURMANBEK BAKİYEV NAXÇIVANA GƏLMİŞDİR

Qırğızıstan Respublikasının Prezidenti Kurmanbek Bakiyev Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün oktyabrın 2-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

Qırğızıstan Prezidentinin şərəfinə Naxçıvan Beynəlxalq hava limanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Kurmanbek Bakiyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov qarşıladı.

Milli geyimli qız Qırğızıstan Prezidentinə gül dəstəsi təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QIRĞIZISTAN PREZİDENTİ KURMANBEK BAKİYEVİN GÖRÜŞÜ

Oktyabrın 2-də Prezident İlham Əliyevin Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına gələn Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev ilə görüşü olmuşdur.

Prezident İlham Əliyev bu zirvə görüşünün əhəmiyyətini vurğulayaraq bildirdi ki, Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü xalqlarımız və ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir.

Ölkələrimiz arasında ikitərəfli məsələlərə toxunan dövlətimizin başçısı əlaqələrimizin dinamik inkişaf etdiyini, iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirdi. Qeyd etdi ki, Qırğızıstan Prezidentinin ölkəmizə bu səfəri ikitərəfli münasibətlərin möhkəmlənməsi baxımından da əhəmiyyətlidir.

Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün əhəmiyyətini qeyd etdi. Bildirdi ki, bu görüş türkdilli ölkələr arasında əlaqələrin genişlənməsinə töhfə verir.

Kurmanbek Bakiyev Azərbaycana ilk səfərini Naxçıvana etdiyini vurğuladı və xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinin daim əziz tutulduğunu dedi.

Qırğızıstan dövlətinin başçısı bildirdi ki, onun bu səfəri ikitərəfli əlaqələrin genişlənməsinə xidmət edəcəkdir.

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI NAXÇIVANDA ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞLƏR

Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün Naxçıvanda səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Abdullah Gül, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev oktyabrın 2-də türk dünyasının böyük oğlu, ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsini ziyarət etmişlər.

Dövlət başçılarının hər birinin adından abidənin önünə əklil qoyulmuşdur.

IX ZİRVƏ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARI HEYDƏR ƏLİYEV MUZEY-KOMPLEKSİ İLƏ TANIŞ OLMUŞLAR

Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün Naxçıvana gələn Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Abdullah Gül, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev oktyabrın 2-də Naxçıvan şəhərindəki Heydər Əliyev muzey-kompleksi ilə tanış olmuşlar.

Ali qonaqlara məlumat verildi ki, burada ulu öndərə aid mindən artıq şəxsi əşya saxlanılır. Geniş sahəsi olan muzey ekspozisiya salonu, kitabxana və fonddan ibarətdir.

Prezidentlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətini, onun xalqımızın tarixinə, mədəniyyətinə, incəsənətinə göstərdiyi diqqət və qayğını əks etdirən fotoşəkillər, habelə ulu öndər haqqında yazılmış kitablarla tanış oldular. Ümummilli liderin xarici ölkələrə və muxtar respublikaya səfərlərini əks etdirən materiallar diqqəti cəlb edir. Buradakı kompyuterlər vasitəsilə ulu öndər Heydər Əliyevlə bağlı istənilən məlumatı əldə etmək mümkündür. Muzeydə dahi şəxsiyyətə aid bir çox məktub, teleqram, rəsmi sənəd də saxlanılır.

Muzeydəki "Yüksəlişə doğru həyat yolu" adlı xalça da kompozisiyası və nəfis toxunuşu ilə diqqəti çəkir. Ekspozisiyaya Heydər Əliyevin 1991-1993-cü illərdə Naxçıvan Ali Məclisinin sədri olduğu dövrü əks etdirən eksponatlar, eləcə də həmin vaxt imzaladığı sənədlər daxildir. Ümummilli liderin Naxçıvanda işlədiyi dövrdə iş otağında istifadə etdiyi çıraq, telefon, qələmdan, habelə o vaxtkı geyim əşyaları, saatı, həmçinin 1930-cu ildə çəkilmiş ailə fotosu əsasında 2000-ci ildə toxunan "Tarix" xalçası da maraq doğurdu.

Türkiyə, Qazaxıstan və Qırğızıstan prezidentləri Heydər Əliyev muzey kompleksinin xatirə kitabına ürək sözlərini yazdılar.

"ƏCƏMİ" SEYRƏNGAHI İLƏ TANIŞLIQ

Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün oktyabrın 2-də Naxçıvana gələn Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Abdullah Gül, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev muxtar respublikanın paytaxtındakı "Əcəmi" seyrəngahı ilə tanış olmuşlar.

Dövlət başçıları əvvəlcə burada ulu öndər Heydər Əliyevin büstünü ziyarət etdilər.

Sonra prezidentlər "Əcəmi" seyrəngahında açıq səma altındakı muzeyin eksponatlarına baxdılar.

Məlumat verildi ki, 2002-ci ildə yaradılmış muzeydə əsasən Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı yaşayış məntəqələrindən tapılan müxtəlif dövrlərə aid, o cümlədən Gəmiqaya arxeoloji ərazisində aşkar edilən maddi-mədəniyyət nümunələri - daşdan düzəldilmiş qoç heykəlləri, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr nümayiş olunur. Muzeydəki 5 min il tarixi olan eksponat qonaqlarda daha çox maraq doğurmuşdur. Bütövlükdə, eksponatlar Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın tarixinin qədimliyindən xəbər verir.

Daha sonra dövlət başçıları Mömünəxatın türbəsi ilə tanış oldular.

Məlumat verildi ki, Əcəmi Naxçıvaninin dövrümüzə qədər gəlib çatan ən gözəl əsəri olan və Naxçıvan memarlıq məktəbinin bədii memarlıq səviyyəsinin şahidi kimi Mömünəxatın türbəsi Azərbaycanın çoxsaylı qədim abidələrindən biridir. Abidənin üzərindəki kitabədən türbənin 1186-cı ildə Məhəmməd Cahan Pəhləvanın həyat yoldaşı Mömünəxatının şərəfinə tikildiyi məlum olur. Monumental, əzəmətli bir tikili olan Mömünəxatın türbəsi Naxçıvana gələn səyyah və tacirlərin diqqətini ta qədimdən bəri özünə cəlb etmiş və abidə bir çox əsərlərdə öz əksini tapmışdır. Mömünəxatın türbəsi bürcvari Azərbaycan türbələrinin ən gözəl nümunələrindəndir. Qeyd edilmişdir ki, kərpicdən tikilən türbənin memarlıq sxemi olduqca zəngin bir üslubda işlənmişdir.

Qonaqlara Azərbaycanın bütün tarixi abidələri kimi, Mömünəxatın türbəsinin də qorunması və bərpasına göstərilən dövlət qayğısı barədə məlumat verildi.

Dövlət başçıları türbənin önündə xatirə şəkli çəkdirdilər.

TÜRKDİLLİ XALQLARIN MİLLİ MUSİQİSİNDƏN İBARƏT KONSERT

Oktyabrın 2-də Naxçıvandakı Heydər Əliyev Sarayında Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün iştirakçılarının şərəfinə konsert proqramı təşkil edilmişdir.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyevi və Türkiyə Prezidenti Abdullah Gülü hərarətlə qarşılamışlar.

Konsertdə Naxçıvanın incəsənət ustaları türkdilli xalqların milli musiqisi və rəqslərini ifa etmişlər.

Görkəmli müğənni Müslüm Maqomayevin "Azərbaycan" mahnısının ifası ilə başlanan konsert tamaşaçılarda böyük maraq doğurmuşdur.

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI BİRGƏ ŞAM ETMİŞLƏR

Oktyabrın 2-də Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına gələn Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Abdullah Gül, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev birgə şam etmişlər.

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİ BİRGƏ SƏHƏR YEMƏYİNDƏ GÖRÜŞMÜŞLƏR

Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün Naxçıvanda olan Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Abdullah Gül oktyabrın 3-də birgə səhər yeməyində görüşmüşlər.

NAXÇIVANDA TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IX ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Oktyabrın 3-də Azərbaycan Respublikasının Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zirvə görüşünün keçirildiyi "Duzdağ" mehmanxanasının konfrans salonunun qarşısında Türkiyə Prezidenti Abdullah Gülü, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyevi və Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyevi böyük hörmət və ehtiramla qarşıladı.

Zirvə görüşünün iştirakçıları əvvəlcə rəsmi foto çəkdirdilər.

Prezident İlham ƏLİYEV zirvə görüşünü açaraq dedi:

- Hörmətli prezidentlər,

Hörmətli qonaqlar,

Xanımlar və cənablar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Azərbaycana, Azərbaycanın qədim torpağı olan Naxçıvana xoş gəlmisiniz. Bugünkü zirvə görüşümüz çox gözəl və əlamətdar bir hadisədir. Əminəm ki, zirvə görüşünün nəticələri gözəl olacaq, çox səmərəli işləyəcəyik və qəbul ediləcək qərarlar bizim birliyimizi daha da gücləndirəcəkdir. Mən çox şadam ki, Siz mənim dəvətimi qəbul edib bu gün buradasınız, Naxçıvandasınız. Naxçıvan qədim Azərbaycan torpağıdır, qədim tarixə və mədəniyyətə malikdir. Naxçıvanın tarixi abidələri Azərbaycan xalqının böyük istedadının nümunələridir. Dünən biz Naxçıvanla bir daha tanış olduq. Mən çox şadam ki, mənim hörmətli qonaqlarım da bu fürsəti əldə etdilər və dünən axşam gözəl konserti bərabər dinlədik. Əslində o konsert bizim birliyimizin təntənəsi idi, dostluq, qardaşlıq konserti idi. Mən əminəm ki, bizim birliyimiz bundan sonra daha da güclənəcəkdir. Bunu etmək üçün bütün imkanlar vardır. Ölkələrimiz arasında əlaqələr ikitərəfli formatda çox yüksək səviyyədədir, çox güclü siyasi dialoq aparılır. Biz beynəlxalq təşkilatlarda əməkdaşlıq edirik. BMT-də, İslam Konfransı Təşkilatında, ATƏT-də və digər təşkilatlarda bizim ölkələrimiz bir-birinə həmişə dəstək verir və bu, belə də olmalıdır. Çünki, bizi müştərək tarix birləşdirir, tarixi-mədəni köklər birləşdirir. Dünən bütün türkdilli ölkələrin istedadını və incəsənətini təmsil edən konsertdə səslənən mahnılar bir daha onu göstərir ki, bizim xalqlarımız bir-birinə nə qədər yaxındır. Biz öz işimizi bu möhkəm təməl üzərində qururuq. Bizim birliyimiz təkcə ölkələrimizi gücləndirmir, bizim birliyimiz böyük mənada regional əməkdaşlığın da çox vacib amilidir.

Biz çox istəyirik ki, aramızda olan iqtisadi əlaqələr daha da sürətlə inkişaf etsin. Bunu etmək üçün yaxşı imkanlar vardır. Bizim iqtisadiyyatlarımız bir-birini tamamlayır. Bizim iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparmır, bu da çox önəmlidir. Gələcək illərdə iqtisadi sahədə yeni layihələrin həyata keçirilməsi əlbəttə ki, bizi daha da yaxınlaşdıracaqdır. Ölkələrimiz arasında ticarət dövriyyəsi artmalıdır. Hələ ki, ticarət dövriyyəsinin səviyyəsi bizi qane edə bilməz. Biz qarşılıqlı investisiya layihələrində iştirak etmək arzusundayıq və bu da qarşılıqlı maraq doğura biləcək layihələr ola bilər.

Humanitar sahədə də çox gözəl perspektivlər vardır. Mədəniyyətlərimiz bir-birinə çox bağlı olduğuna görə humanitar sahədə əməkdaşlıq daha da sürətlə inkişaf etməlidir. Bu sahədə TÜRKSOY təşkilatının fəaliyyətini mən yüksək qiymətləndirmək istəyirəm. Gələcək illərdə TÜRKSOY-un fəaliyyətini biz daha da gücləndirməliyik. Biz təklif edirik ki, TÜRKSOY Fondu yaradılsın. Fondun maliyyə təminatı təşkil edilsin və bu Fond bütün türk dövlətlərində və eyni zamanda bütün türk diyarlarında tarixi abidələrin bərpası, mədəniyyətlərarası əlaqələrin inkişafı ilə məşğul olsun. Bir sözlə, Fond praktiki cəhətdən səmərəli işlərlə xalqlarımızı daha da sıx birləşdirsin. Dünyada türkdilli xalqlar çoxdur və türkdilli xalqlar arasında dostluq, qardaşlıq ölkələrimizi də gücləndirəcəkdir.

Biz böyük məmnunluq hissi ilə deyə bilərik ki, ölkələrimiz tərəfindən təşəbbüslə başlanan və uğurla icra edilən böyük layihələr öz səmərəsini verir. Bu gün neft-qaz sahəsində yaranmış əməkdaşlıq bizim dostluğumuzun nümunəsidir, eyni zamanda, regional əməkdaşlığın uğurlu nəticəsidir. Neft-qaz sahəsində Azərbaycan ilə Türkiyə, Azərbaycan ilə Türkmənistan, Azərbaycan ilə Qazaxıstan çox səmərəli əməkdaşlıq edir. Bu əməkdaşlığın praktiki nəticələri vardır. Xəzər dənizinin neft-qaz ehtiyatlarının dünya və Avropa bazarlarına çıxarılması üçün əməli işlər görülmüşdür, böyük investisiyalar qoyulmuşdur, neft kəmərləri inşa edilmişdir və bu proses davam edir.

Vaxtilə əfsanə hesab olunan Bakı-Tbilisi-Ceyhan neft kəməri artıq üç ildir ki, fəaliyyətdədir və bütün bölgəyə fayda gətirir. Eyni zamanda, bu kəmərin əsasında Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi də böyük uğurumuzdur. Bu gün Azərbaycanın neft-qaz resursları dünya və Avropa bazarlarına əmniyyətli yollarla nəql edilir. Dünən Bakıda Qazaxıstan ilə Azərbaycan arasında çox önəmli sazişlər bağlanmışdır. Bu sazişlər gələcəkdə Qazaxıstanın neft-qaz resurslarının şaxələndirmə yolu ilə Azərbaycan ərazisindən dünya bazarlarına çıxarılmasına gözəl şərait yaradır. Bu, hamımızın marağındadır. Biz hamımız istəyirik ki, iqtisadiyyatlarımız inkişaf etsin, çoxşaxəli olsun. Neft-qaz sahəsində şaxələndirmə prosesləri həm istehsalçılar, həm tranzit ölkələr, həm də istehlakçılar üçün çox böyük əhəmiyyət daşıyır. Bütün tərəflərin maraqları əlbəttə ki, beynəlxalq təcrübəyə uyğun olaraq qorunmalıdır və müdafiə olunmalıdır.

Biz nəqliyyat sahəsində konkret layihələr üzərində işləyirik. Həm Xəzər dənizində əməkdaşlıq davam edir, eyni zamanda, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası uğurla gedir. Bu dəmir yolu çəkiləndən sonra Avropa ilə Asiya arasında çox əhəmiyyətli və yeni yol açılacaqdır. Biz yeni İpək Yolunun bərpasını təşkil edirik. Əlbəttə ki, bunlar böyük yatırımlar, investisiyalar və eyni zamanda, böyük siyasi iradə tələb edən layihələrdir. Bizim həm investisiya imkanlarımız, həm də siyasi iradəmiz vardır.

Bir sözlə, bu konkret layihələr bizi daha da birləşdirəcək, ölkələrimizə əlavə maliyyə resursları gətirəcək və beləliklə bölgədə sülhün, sabitliyin, təhlükəsizliyin təmin edilməsi üçün də gözəl imkanlar yaradacaqdır. Biz bunu istəyirik, buna çalışırıq.

Baxmayaraq ki, ərazi bütövlüyü pozulub, Azərbaycanın son illər ərzindəki uğurlu inkişafı, həmçinin regional əməkdaşlığın dərinləşməsinə yönəldilib. Bizim torpaqlarımızın 20 faizi işğal altındadır. Bu işğal nəticəsində və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq Azərbaycan vətəndaşı öz doğma torpağından didərgin salınıb. Buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. 2004-2008-ci illərdə Azər-

baycan iqtisadiyyatı 2,6 dəfə artmışdır. Bu artım əlbəttə ki, ölkə qarşısında duran bütün iqtisadi və sosial məsələlərin həllində bizə kömək göstərir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı uzun illərdir ki, danışıqlar aparılır. Ancaq əfsuslar olsun, hələ ki, biz heç bir nəticəyə gəlməmişik. Düzdür, danışıqlar prosesində müsbət dinamika müşahidə olunur. Danışıqlar prosesi deyə bilərəm ki, artıq sonuncu mərhələsindədir. Müzakirə olunan məsələlər münaqişənin həllinə kömək göstərə bilər. Müzakirə edilən məsələlər münaqişənin ərazi bütövlüyü əsasında həll olunmasını təmin edir.

Azərbaycanın tarixi torpağı olan Qarabağ bölgəsi 20 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra olunmur. O qətnamələrdə erməni qoşunlarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması nəzərdə tutulurdu. Digər beynəlxalq təşkilatlar buna bənzər qərarlar qəbul etmişlər. Ancaq əfsuslar olsun ki, Ermənistan tərəfi bu vaxta qədər beynəlxalq normalara məhəl qoymur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Azərbaycanın prinsipial və dəyişməz mövqeyi bundan ibarətdir və bir daha demək istəyirəm ki, bu mövqe beynəlxalq prinsiplərə əsaslanır. Xalqların isə öz müqəddəratlarını təyinetmə prinsipləri ölkələrin ərazi bütövlüyü çərçivəsində uğurla həll oluna bilər və bundan kənarda heç bir başqa variant müzakirə oluna bilməz. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi nəinki Azərbaycan üçün, bütün region üçün böyük problemdir, regional əməkdaşlığı əngəlləyən ən başlıca amildir.

Regionun çox böyük imkanları vardır. Regional əməkdaşlıq daha da hərtərəfli aparıla bilər. Bütün yollar, bütün kommunikasiyalar açıla bilər, regionda yerləşən bütün ölkələr qarşılıqlı maraqlar əsasında əməkdaşlıq edə bilər.

Ancaq o da həqiqətdir ki, torpaqlarımız işğal altında qaldığı bir dövrdə Ermənistan ilə Azərbaycan arasında heç bir əməkdaşlıq mümkün deyildir. Azərbaycan gələcəkdə də öz coğrafi, iqtisadi, siyasi və başqa imkanlarından istifadə edərək Qarabağ məsələsinin, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunmasına çalışacaqdır.

Əziz dostlar, bu yaxınlarda Bakıda bizim birliyimizi daha da möhkəmləndirən önəmli hadisə baş vermişdir. Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci toplantısı keçirilmişdir. Bu da çox önəmli hadisədir. Bizim qanunvericilik orqanlarımız da bir-biri ilə daha sıx əlaqədə olacaqlar. Düzdür, ölkələrimizi təmsil edən deputatlar bu vaxta qədər də bir-biri ilə sıx əlaqədə olmuşlar, müxtəlif beynəlxalq qurumlar çərçivəsində əməkdaşlıq etmişlər. Ancaq Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması tam başqa bir hadisədir. Bunun çox böyük mənası vardır. Bu onu göstərir ki, türkdilli ölkələr arasında əlaqələr geniş formatda daha da sürətlə inkişaf edir. Biz buna çox sevinirik, buna çox böyük dəstəyimizi veririk. Əgər gələcəkdə bütün siyasi məsələlərdə, beynəlxalq təşkilatlarda, beynəlxalq müstəvidə biz bir-birimizə öz dəstəyimizi verməyə davam etsək, iqtisadi sahədə əməkdaşlığımızı konkret layihələrlə zənginləşdirsək, humanitar və mədəniyyət sahəsində TÜRKSOY vasitəsilə, konkret layihələr vasitəsilə bu birliyi daha da gücləndirsək bizim xalqlarımız bundan ancaq fayda götürəcəkdir.

Biz çox istəyirik ki, türkdilli xalqlar, ölkələr arasında birlik daha da güclənsin. Bu, bizim tariximizdir, bizim mədəniyyətimizdir, bizim köklərimizdir. Eyni zamanda, bu, bugünkü vəziyyətin reallıqlarıdır.

Biz bilirik ki, beynəlxalq müstəvidə öz mövqeyini müdafiə etmək bəzi hallarda o qədər də asan olmur. Biz birlikdə olsaq, müəyyən məsələlərdə vahid mövqedən çıxış etsək və bu birliyi mütəmadi işlərlə möhkəmləndirsək, bizim beynəlxalq mövqelərimiz daha da güclü olacaqdır. Çünki türkdilli ölkələrdə bütün imkanlar vardır - təbii sərvətlər, neft-qaz yataqları, əlverişli coğrafi vəziyyət, güclü iqtisadiyyatlar, insanların istedadı, mövcud olan yeni infrastruktur. Bütün bu imkanları biz əgər bir yerə toplasaq və bir yerdə cəmləşdirsək türkdilli ölkələr dünya miqyasında böyük gücə çevriləcəkdir. Bu gücə çevrilmək üçün biz səmərəli işləməliyik. Bu, bizim əlimizdədir, bizim iradəmizdən asılıdır. Mən çox şadam ki, bizim aramızda olan birlik son illər ərzində daha da güclənir. Dünən və bu gün hesab edirəm ki, türkdilli ölkələrin daha da sıx birləşməsi üçün çox vacib addımlar atılmışdır. Bizim bir yerdə olmağımız, qədim Azərbaycan torpağı olan Naxçıvanda yığışmağımız, ikitərəfli formatda aparılan danışıqlar, bugünkü zirvə görüşü və zirvə görüşünün nəticəsi olan imzalanacaq vacib sənədlər bizim birliyimizi daha da gücləndirəcəkdir. Bu, bizim arzumuzdur və mən əminəm ki, biz bütün arzularımıza çatacağıq.

Bir daha Sizə mənim dəvətimi qəbul edərək Naxçıvana gəldiyinizə görə təşəkkürümü bildirmək istəyirəm və bu zirvə görüşünə uğurlar arzulamaq istəyirəm.

***

Qazaxıstan Prezidenti Nursultan NAZARBAYEV Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün Naxçıvanda keçirilməsini tədbirin əsas özəlliyi kimi xarakterizə etdi. O, dahi şəxsiyyətlər - Heydər Əliyevin və Mustafa Kamal Atatürkün türkdilli xalqların birliyi barədə arzularını xatırladaraq vurğuladı ki, Qazaxıstan da bu ideyanın reallaşdırılması mövqeyindən çıxış edir. Bu səbədən də türk dövlətləri arasında siyasi əlaqələr zamanın tələblərinə uyğun olaraq yeni mərhələyə qədəm qoymalıdır. Qazaxıstan dövlətinin başçısı dedi:

- Türkdilli xalqların mədəniyyəti böyük bir okeana oxşayır və bu okean hələ ki, tədqiq olunmamışdır. Biz hesab edirik ki, türkdilli dövlətlərin xalqlarının tarixi bundan sonra daha təfərrüatı ilə tədqiq edilməlidir.

Bizim ulu babalarımız Aralıq dənizindən Altaya qədər geniş düzənliklərdə hökmdar olmuşlar və onlar bizə çox böyük dəyərlər qoyub getmişlər. Biz hesab edirik ki, yurta, yay, ox və s. bu kimi bir çox vacib mədəniyyət dəyərlərini qoyub getmişlər. Hesab edirik ki, artıq bunları bütün dünya ictimaiyyəti qarşısında tanıtmaq vaxtı gəlib çatmışdır.

Bizim hörmətli qardaşımız İlham Əliyevin dediyi kimi, mən də bunu tam dəstəkləyirəm ki, biz TÜRKSOY təşkilatı yanında bir fond yaratmalıyıq. Həmin fond çərçivəsində Türkdilli Akademiyanı da yaratmaq məqsədəuyğun olardı. Akademiya türkdilli xalqların dilinin, mədəniyyətinin araşdırılması və öyrənilməsi ilə məşğul olacaqdır. Bu, bizim ümumi vəzifəmizdir. Əgər hər hansı bir türkdilli dövlət öz yardımını göstərəcəksə, hesab edirik ki, bu akademiyanı türkdilli aləmin çox müqəddəs torpağı - Türküstanda yerləşdirmək olardı və yaxud bu akademiya Astanada təsis oluna bilərdi. Bu baxımdan indi

Xoca Əhməd Yasəvi adına Universitet böyük işləri həyata keçirir. Hesab edirik ki, biz TÜRKSOY çərçivəsində təşəbbüsü öz əlimizə götürüb regional işlərdə daha fəal iştirak etməliyik. Daha sonra isə biz Mərkəzi Asiya ilə Avropa arasında çox vacib bir körpü rolunu oynamalıyıq. ATƏT, İqtisadi İnkişaf Təşkilatı, İslam Konfransı Təşkilatı və bir çox digər təşkilatlarla, o cümlədən "Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə" ilə də sıx əməkdaşlıq etməliyik və bir mövqedən çıxış etməliyik. Həmin təşkilat çərçivəsində sədrliyi gələn ildən etibarən biz qardaş Türkiyə Respublikasına təhvil verəcəyik. Biz bu baxımdan irəli sürülən məsələlər üzrə bütünlüklə öz dəstəyimizi verməyə hazırıq. Hesab edirik ki, biz tərəfdaşlıq münasibətlərimizi Asiya və Avropa strukturlarında daha da möhkəmləndirməliyik.

Qazaxıstanın 2010-cu ildə ATƏT-də və 2011-ci ildə İslam Konfransı Təşkilatında sədrliyi zamanı bir çox yeni təşəbbüslər irəli sürməsi gözlənilir. Xüsusən də bu, türkdilli dövlətlər ilə sıx münasibətlərə əsaslanan birliyimiz xüsusi qeyd olunmalıdır ki, üçüncü dövlətlərə qarşı olmayacaqdır. Biz hədələrə qarşı ümumi mübarizə aparmalıyıq və bu gün tam aydındır ki, qlobal sabitliyə hədə və təhdidlər mövcuddur. Qlobal silahsızlaşdırma, kütləvi qırğın silahlarının yayılmaması sahəsində beynəlxalq səviyyədə müəyyən problemlər yaranmışdır. Qazaxıstanın silahsızlaşdırmaya ən böyük töhfə verdikdən sonra - Sovet İttifaqının süqutundan sonra bu sahədə daha fəal tədbirlərin görülməsini tələb etmək hüququ vardır. Həmin vaxtdan etibarən, eyni zamanda, Qafqazda da sabitlik pozulmuşdur. Bu baxımdan biz qardaş Azərbaycan xalqının əzab-əziyyətlərinə şərik çıxırıq. Hesab edirik ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişə yalnız dinc yolla həll olunmalıdır. Biz buna öz dəstəyimizi verməyi bundan sonra da davam etdirəcəyik.

Hörmətli həmkarlar, xanımlar və cənablar!

Şübhəsiz ki, bu zirvə görüşü çərçivəsində əldə edilmiş razılaşmalar bizim ölkələrdə çox mühüm bir hadisəyə çevriləcək, bizim türkdilli xalqlar üçün vacib bir nəticə olacaqdır.

***

Qırğızıstan Prezidenti Kurmanbek BAKİYEV çıxış edərək dedi ki, türkdilli ölkələr arasında həlli mümkün olmayan məsələ yoxdur. Dövlət başçısı bildirdi:

- Qırğızıstanın türkdilli dövlətlərlə ümumi, tarixi, mədəni və dil birliyinə arxalanan əlaqələri səmimi və etibarlı xarakter daşıyır. Ölkəmiz bütün məsələlərdə qardaşlıq, bərabər hüquqluluq, qarşılıqlı hörmət əsasında fəal iştirak edir. Bu, artıq sayca doqquzuncu sammitdir. Türkdilli ölkələrin dövlət başçılarının, liderlərinin forumu çərçivəsində əməkdaşlığımız üçün bizim artıq böyük təcrübəmiz, potensialımız və imkanlarımız vardır.

Vaxt göstərmişdir ki, bizim tərəfdaşlığımız, ilk növbədə, hər bir ölkənin maraqlarının və məqsədlərinin uzlaşması sayəsində davam edir. Bu da bizim uzunmüddətli əməkdaşlığımızın tələblərinə uyğundur. Türkdilli dövlətlərin mənafelərinin yaxınlığı həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə əməkdaşlığa xidmət edir. Bugünkü müzakirələr qloballaşma və dinamik dəyişən presedentlər şəraitində qarşılıqlı və faydalı əməkdaşlığın daha da möhkəmləndirilməsi zərurətini təsdiq edir.

Hörmətli dövlət başçıları və tədbir iştirakçıları!

Mən hesab edirəm ki, Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında saziş türkdilli dövlətlərin birləşməsi üçün nadir şans verir. Mən əminəm ki, belə bir təşkilatın yaradılması bizim həmrəyliyimizi möhkəmləndirəcək və bu da hərtərəfli münasibətlərin inkişafına təkan verəcəkdir.

Türk dünyası beynəlxalq siyasətdə böyük rol oynamalıdır. Hazırda Qırğızıstan ilə türkdilli dövlətlər arasında həll olunmayan məsələlər yoxdur. Çünki müstəqillik illərində siyasi, iqtisadi, ticari, elmi-texniki və mədəni-humanitar əlaqələrimiz strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır. Ümumi dəyərlərə arxalanaraq və təcrübədən yararlanaraq, ölkələrimizdə sabitliyin təmin edilməsinə öz töhfəmizi verə bilərik. Onu da qeyd etmək vacibdir ki, ölkələrimiz arasında parlamentlərarası əlaqələr də möhkəmlənməyə və təkmilləşməyə başlamışdır. Bu da səmimi xarakter daşıyır. Bakı şəhərində sentyabrın 28-29-da Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci iclası buna sübutdur.

İqtisadi əlaqələrimizdən danışdıqda mən deməliyəm ki, bu sahədə əməkdaşlığımız getdikcə inkişaf edir. Biz bu məsələyə diqqətimizi azaltmamalıyıq və ticari-iqtisadi əlaqələrimizin genişləndirilməsi üçün tədbirlər görməliyik. Bu mənada bütün ölkələrin potensialını nəzərə alaraq, Qırğızıstan Respublikası iri iqtisadi layihələrin, xüsusilə də energetika, nəqliyyat və turizm sahəsində böyük layihələrin yaradılmasında ümumi səylərimizin möhkəmlənməsini təklif edir. Bu istiqamətlərdə ümumi layihələrin icra edilməsi bizim ümumi ticarət dövriyyəmizi artıracaq və ixrac-idxal strukturunu genişləndirəcək, ölkələrimizin investisiya imkanlarını bir araya gətirəcəkdir.

Unutmamalıyıq ki, bizim insanların mentaliteti, bizim keçmişimiz və gələcəyimiz, tarixin dərki və xalqlarımızın dünya mədəniyyətinin xəzinəsinə töhfə verdiyi mənəvi dəyərlərin anlaşması ilə müəyyən edilir. Bu kontekstdə mən türk mədəniyyəti və incəsənətinin inkişafı üzrə TÜRKSOY təşkilatının rolunu müsbət qiymətləndirirəm. Bu təşkilat cari ilin sentyabrında Ankarada və Bakıda Qırğız Milli Akademik Opera və Balet Teatrının ifasında Azərbaycan musiqisinin klassiki Üzeyir Hacıbəylinin "Koroğlu" operasının beynəlxalq premyerasını təşkil etmişdir.

Bundan başqa, mən terrorçuluq, dini ekstremizm və narkotiklərin qanunsuz dövriyyəsi kimi transsərhəd təhdidlərə qarşı birgə mübarizədə türkdilli dövlətlər arasında əməkdaşlığın rolunu qeyd etmək istərdim. Bu mənada mən sizə məlumat vermək istəyirəm ki, 2009-cu ilin sentyabrında Bişkek şəhərində türkdilli dövlətlərin xüsusi xidmət idarələrinin növbəti - XII konfransı keçirilmişdir. Biz bu konfransda terrorçu qruplaşmaların müəyyən olunması və onların məhv edilməsi sahəsində birgə fəaliyyətimizi müzakirə etmişik.

Mən əminəm ki, bu zirvə görüşünün nəticələri sülhün, sabitliyin və regionda təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verəcəkdir.

Qırğızıstan Prezidenti çıxışının sonunda bundan sonra türkdilli ölkələr arasında əməkdaşlığın daha da artacağına, Azərbaycanda keçirilən bu zirvə görüşünün isə səmərəli nəticələr verəcəyinə əminliyini bildirdi.

***

Türkiyə Prezidenti Abdullah GÜL Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə top-

lantısını Naxçıvanda yüksək səviyyədə təşkil etdiyinə görə Prezident İlham Əliyevə təşəkkür etdi. Bildirdi ki, "dünyanın görüntüsü" mənasını verən Naxçıvan Azərbaycan qədər Türkiyə üçün də əziz və doğmadır. Türkiyə dövlətinin başçısı dedi:

- Naxçıvanın Türkiyə üçün çox böyük əhəmiyyəti vardır. Naxçıvan bölgəsindəki Azərbaycan və Türkiyə arasındakı sərhəd xətti məsafəcə kiçik olsa da, siyasi mənada çox böyük əhəmiyyət daşıyır. 10-12 kilometrlik bir sərhəd xəttinin siyasi əhəmiyyəti olduqca böyükdür. Bu sərhədimiz Türkiyənin türk respublikaları ilə coğrafi birliyini də əlaqələndirən çox rəmzi bir keçiddir. İkinci tərəfdən, Azərbaycanın digər torpaqlarından ayrı olması nəticəsində Naxçıvan ilə qonşuluq və qardaşlıq münasibətlərindən əlavə, sıx əlaqələrimiz vardır. Buna görə də şəxsən öz adımdan, mənimlə bərabər olan türk heyəti adından Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyevə bu zirvə görüşünü Naxçıvanda təşkil etdiyi üçün ən səmimi təşəkkürlərimi bir daha bildirmək istəyirəm.

Dəyərli prezidentlər və hörmətli iştirakçılar!

1992-ci ildə başladığımız türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərinin bu günə gəlib çatmasında hamımızın əməyi və siyasi iradəsi müəyyənedici rol oynamışdır. 1992-ci ildən bu günə qədər keçən zamanda dünyamız siyasi, iqtisadi və təhlükəsizlik sahəsində bir sıra qlobal sınaqlarla üz-üzə qalmışdır və indi də qarşı-qarşıyadır. Bu problemlər Avrasiya coğrafiyasına da təsir etmişdir. Qafqazda və Orta Asiyada başda təhlükəsizlik məsələsi olmaqla, müxtəlif təhdidlərə rast gəlindiyi bir zamanda mühüm həmrəylik və məsləhətləşmə platforması olaraq zirvə görüşləri bizə həm qardaş ölkələr arasındakı münasibətləri, həm də qlobal problemləri müzakirə etmək imkanı verir.

Qardaş ölkələrimiz arasındakı siyasi, ticari, iqtisadi, mədəni və sosial məsələlər başda olmaqla, bütün sahədəki əlaqələrimizin dərinləşməsi, gələcəyə istiqamətlənmiş proqnoz, təxminlər və müzakirələr zirvə görüşlərinin gündəmində təbii ki, çox mühüm yer tutur. Zirvə görüşlərinin bəyanatlarında da əksini tapan qərarlarımızı həyata keçirmək məqsədilə böyük səy göstəririk.

Qarşımızda qət edilməli xeyli məsafənin olmasına rəğmən hazırda topladıqlarımız və əldə etdiklərimizi də diqqətdən qaçırmamalıyıq. İnanıram ki, keçən vaxt ərzində çox böyük bir məsafəni qət etdik, müvəffəqiyyətlər də əldə etdik. Bu gün imzalayacağımız Naxçıvan bəyannaməsi ilə türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərini təşkilatlandırmaq sahəsində həqiqətən də çox qiymətli və tarixi bir addım atmaqdayıq. Əslində biz bu gün bir yuxunu gerçəkləşdiririk və buna ən çox özünü türk hiss edən bütün insanlar ürəkdən sevinəcək və çox məmnun olacaqlar.

Bununla bağlı onu da demək istəyirəm ki, türklər çox böyük bir coğrafiyaya yayılmışlar və özlərini türk hiss edən milyonlarla insan vardır. Böyük millətlər içərisində bu gün ayrı-ayrı müstəqil dövlətlərimizin olması çox böyük bir xoşbəxtlikdir. Bu müstəqil dövlətlərimizin hər biri çox böyük məsafələr qət etməkdə, müvəffəqiyyətlər əldə etməkdədir və hər birinin də başı çox ucadır. Bu müstəqil dövlətlər arasında qarşılıqlı hörmət və bərabərliyə söykənərək əməkdaşlıq etmək bizim haqqımızdır. Özünü türk hiss edən hər kəs bu həyəcanı hiss edər.

Keçən ilin oktyabrında İstanbulda imzalanan müqavilə ilə qurulan Türkdilli Ölkələrin

Parlament Assambleyasının ilk toplantısı ötən həftə Bakıda müvəffəqiyyətlə baş tutdu. Onun katibliyi Bakıda yerləşəcəkdir. Bu qurumun TÜRKSOY ilə bərabər ölkələrimizdə çox güclü bir təşkilatı əməkdaşlığın əsasını təşkil edəcəyinə inanıram. Hörmətli Prezident İlham Əliyevin TÜRKSOY mövzusunda fikirlərini də dəstəkləyirik.

Qardaş ölkələrimiz arasındakı əməkdaşlığın siyasi, iqtisadi və mədəni miqyası qədər ictimai miqyası da əhəmiyyətlidir. Xalqlarımız arasındakı əlaqələri gücləndirmək məqsədilə böyük kütlələrə istiqamətlənmiş bəzi tədbirlər də həyata keçirə bilərik. Bu çərçivədə müəyyən edilmiş vaxtlarda Olimpiya oyunlarına bənzər ənənəvi türk idman növlərinin də yer aldığı idman tədbirlərinin təşkil olunmasının müzakirəsini təklif edirəm. İdman gəncləri, yeni nəsilləri bir-birinə qaynadıb-qovuşduran çox böyük bir fəaliyyət sahəsidir. Bu sahədə türk idman növləri də vardır. Olimpiya oyunlarının təşkil olunduğu şəkildə tədbirlər həyata keçirə bilərik.

"XXI əsrin müharibələr deyil, sülh, rifah əsri olması üçün hər birimizin üzərinə vəzifələr düşür", - deyən Türkiyə Prezidenti ölkəsinin türkdilli dövlətlər arasında iqtisadi işbirliyinə daha çox önəm verdiyini, təcrübə mübadiləsinin aparılmasını, qarşılıqlı investisiyaların həyata keçirilməsinin vacibliyini diqqətə çatdırdı.

Abdullah Gül bu baxımdan Asiyanı Avropa ilə birləşdirəcək Bakı-Tbilisi-Qars layihəsinin önəmli olduğunu dedi. "Hədəflərimiz birliyimizin dünyada sülhə töhfə verməsinə nail olmaqdır", - deyən Türkiyə dövlətinin başçısı bildirdi ki, ölkəsi Qafqaz regionunda sülhün tezliklə bərqərar olmasına çalışır. Türkiyə Prezidenti dedi:

- Ermənistan-Azərbaycan münaqişəsi başda olmaqla, Cənubi Qafqazdakı digər münaqişələrin də bölgə ölkələrinin ərazi bütövlüyü çərçivəsində daimi həll olunmasının vaxtı çatmışdır. Xüsusilə, Azərbaycanın ərazi bütövlüyünə çox əhəmiyyət veririk. Azərbaycanın işğal altındakı torpaqlarında bu işğala tezliklə son qoyulmasının vacibliyinə çox inanırıq. Bunun üçün vaxtın çatdığına inanırıq. Əminik ki, Qarabağ problemi dialoq, müzakirə və diplomatiya yolu ilə həll ediləcək və bu yolla bütün Qafqazda sülh təmin olunacaqdır. Şübhəsiz ki, bu, ancaq işğala son qoyulması ilə reallaşa bilər.

Türkiyənin sülh, təhlükəsizlik və sabitlik baxışlarının bölgəmizdə və Avrasiya coğrafiyasında hakim olduğu təqdirdə xroniki problemlərin qısa vaxt ərzində həll olunacağına inanırıq.

Hörmətli prezidentlər, dəyərli iştirakçılar!

Türkiyənin həyata keçirdiyi xarici siyasətin ilham qaynağı türkçülüyün ənənəvi anlayış və dəyərlərinə söykənməkdir. Çünki xarici siyasətimizin ilham aldığı xeyirxahlıq, mehriban qonşuluq, qarşılıqlı hörmət kimi bu əsas prinsiplər türk dünyasının formalaşdırdığı ortaq dəyərlərin əsasını təşkil edir. Bu prinsipləri yüksək səviyyədə həyata keçirə bilsək, həm türk respublikaları arasında ikitərəfli məsələlərin həllinə, həm də regional əməkdaşlıqda müsbət irəliləyişlərə nail ola biləcəyimizə inanıram. Bu məqsədlə ölkələrimizdə bütün bu işlərə çox böyük səy göstərən qüdrətli prezidentlər olmuşdur. Onların xatirəsini rəhmətlə anıram. 1992-ci ildə bu işlərin başlamasında mühüm əməyi olan Türkiyə Prezidenti Turqut Özalın, bu məsələyə xüsusi dəstək verən hörmətli Heydər Əliyevin, hörmətli Türkmənbaşının və digər türk respublikalarının həyatdan getmiş dövlət başçılarının, bu məsələlərdə əmək sərf etmiş, səy göstərmiş hər kəsin xatirəsini

rəhmətlə anıram. Həyatda olanlara da çox təşəkkür edirəm, onlara da təbii ki, sonsuz minnətdarlıq duyğularımız vardır.

Bizlərə bu imkanı verdiyi üçün dəyərli dostumuz, hörmətli Prezident İlham Əliyevə bir daha təşəkkür edirəm və bu xeyirli hərəkətin bütün türk dünyasına, bütün dünya türklərinə də xeyirli olmasını diləyirəm.

* * *

Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır SAPARLIYEV Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü münasibətilə Türkmənistan Prezidentinin salamlarını çatdırdı. O, bu görüşün türkdilli xalqların yeni tarixində mühüm yer tutacağını qeyd etdi.

Xalqlarımızın bir çox amillərlə sıx bağlı olduğunu bildirən Xıdır Saparlıyev, bu gün türkdilli ölkələrin beynəlxalq siyasətdə mühüm yer tutduğunu, iqtisadiyyat və mədəniyyət sahəsində əməkdaşlıq etdiklərini söyləyərək dedi:

- Dövlət başçılarının yüksək səviyyədə görüşləri, eyni zamanda, iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyaların görüşü, yüzlərlə imzalanmış sənədlər bizim faydalı əməkdaşlığın qurulmasında, artıq mövcud olan qardaşlıq və dostluq münasibətlərinin gücləndirilməsində mühüm əhəmiyyət kəsb edir.

Türkdilli ölkələrin dövlət başçılarının dostluq və mehribanlıq şəraitində keçən bu görüşü türkdilli xalqların sıx münasibətlərinin gələcək inkişafına da töhfə verəcəkdir.

Biz eyni köklərə malikik, bizim eyni taleyimiz vardır. Biz fərəh hissi ilə qeyd edirik ki, əsrlər boyu formalaşmış dostluq və qardaşlıq ənənələrini bu gün də qoruyub saxlayırıq. Bu qardaşlıq münasibətlərini bundan sonra da daim saxlayacağıq.

Biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə səmimi minnətdarlığımızı bildiririk ki, Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünü çox yüksək səviyyədə təşkil etmişdir.

Əminik ki, bu görüş türkdilli xalqların əməkdaşlığının dərinləşməsinə, humanitar və mədəniyyət sahələrində əlaqələrin genişlənməsinə imkan yaradacaqdır.

* * *

Prezident İlham ƏLİYEV zirvə görüşünə yekun vuraraq dedi:

- Əziz dostlar, əziz qardaşlar!

Sizin dəyərli çıxışlarınız çox böyük maraq doğurur. Dünən və bu gün səslənən fikirlər, aparılmış fikir mübadiləsi, şübhəsiz türkdilli ölkələrin gələcək fəaliyyəti üçün başlıca istiqamətdir. Mən əminəm ki, növbəti aylarda, illərdə bizim əməkdaşlığımız bütün sahələrdə daha da dərinləşəcəkdir. Bu gün qəbul ediləcək qərarlar uğurla icra ediləcəkdir. Bu gün iki vacib sənəd imzalanacaqdır. Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası yaradılacaq və Naxçıvan bəyannaməsi qəbul ediləcəkdir. Bu sənədlər gələcək fəaliyyətimiz üçün əsas gündəliyi təşkil edəcəkdir.

Mənim dəvətimi qəbul edib Naxçıvana gəldiyinizə görə Sizə bir daha öz təşəkkürümü bildirmək istəyirəm. Naxçıvanın türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçı-

van çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim böyük dəyərimizdir, böyük sərvətimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. vaxt, hələ Sovet İttifaqının zamanında Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda, burada görülən işlər bütövlükdə Azərbaycanın müstəqilliyi üçün çox böyük əhəmiyyət daşıyırdı. Azərbaycanın üç rəngli milli bayrağı böyük fasilədən sonra hələ Sovet İttifaqı zamanında ilk dəfə olaraq məhz Naxçıvanda ucaldılmışdır. Ondan sonrakı illərdə Azərbaycanın müstəqil ölkə kimi formalaşmasında ulu öndər Heydər Əliyevin çox böyük xidmətləri olmuşdur. Bu gün Azərbaycan müstəqil ölkə kimi yaşayır, güclənir, qarşıda duran bütün vəzifələri uğurla icra edir.

Naxçıvan, eyni zamanda, Azərbaycanın yeganə bölgəsidir ki, Türkiyə ilə həmsərhəddir. Vaxtilə Azərbaycanın tarixi torpağı, əzəli torpağı Zəngəzur bölgəsinin Azərbaycandan ayırıb Ermənistana birləşdirilməsi demək olar ki, böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Yəni türk dünyasının vahid bir ailə kimi, vahid bir qüvvə kimi fəaliyyəti on illiklər ərzində dayandırılmışdır. Ancaq biz bu gün qəbul edilmiş qərarlarla, atılmış addımlarla bu bağlantını daha da gücləndiririk.

Düzdür, coğrafi baxımdan bu gün bizim aramızda Azərbaycanın indi Ermənistanın tərkibində olan qədim diyarı - Zəngəzur bölgəsi yerləşir. Ancaq mənəvi baxımdan, siyasi baxımdan və iqtisadi layihələrin həyata keçirilməsi nəticəsində türk dünyasının birləşməsi və bir qüvvə kimi fəaliyyət göstərməsi bu gün reallıqdır, həqiqətdir. Bu həqiqəti biz yaradırıq və bizdən asılıdır ki, bu birlik davam etsin, güclənsin və bizim xalqlarımıza yeni imkanlar yaratsın.

Türkiyədən başqa, bütün digər türkdilli ölkələr müstəqil ölkələr kimi gəncdir, müstəqilliyimizin gənclik illərini yaşayırıq. Bu müstəqilliyin formalaşması, güclənməsi hər bir ölkə üçün böyük çətinliklərlə müşayiət olunurdu. Bu çətinlikləri aşmaq, bu çətinlikləri aradan qaldırmaq böyük səylər, böyük siyasi iradə, dünyagörüşü və cəsarət tələb edirdi. Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, bütün türkdilli ölkələrdə vəziyyət çox müsbətdir, siyasi vəziyyət sabitdir, iqtisadi böhran bizə o qədər də çox böyük təsir göstərməmişdir. Gənc müstəqil ölkələr öz müstəqilliyini təsdiq etdilər. Təsdiq etdilər ki, onlar öz taleyinin sahibləridir, müstəqil ölkələr kimi yaşaya və uğurla inkişaf edə bilərlər. Bu gün bu gözəl formatda bizim əməkdaşlığımızın çox yaxşı perspektivləri vardır. Bir daha demək istəyirəm ki, bu gün imzalanacaq sənədlər gələcək fəaliyyətimiz üçün praktiki əhəmiyyət daşıyır. Bizim səmərəli işimiz gələcəkdə bizi daha da birləşdirəcək, beynəlxalq mövqelərimizi daha da gücləndirəcək və ölkələr qarşısında duran bütün problemlərin uğurlu həlli üçün də yaxşı imkanlar yaradacaqdır. Bu gün biz bu barədə geniş danışdıq, dünən ikitərəfli formatda və birlikdə bu məsələləri müzakirə etdik. Bir daha görürük ki, çox böyük potensial, böyük imkanlar və güclü siyasi iradə vardır.

Beləliklə bizim toplantımız başa çatır. Növbəti zirvə görüşünün təşkili ilə bağlı əziz dostum Qırğızıstan Prezidenti Kurmanbek Saliyeviç Bakiyev təşəbbüs göstərmişdir ki, növbəti zirvə görüşü gələn ilin avqustunda Qırğızıstanda keçirilsin. Biz də böyük minnətdarlıqla və məmnuniyyət hissi ilə bu təşəbbüsü dəstəkləyirik. Çox vacibdir ki, zirvə görüşləri mütəmadi qaydada keçirilsin. Əminəm ki, hər bir görüş yeni imkanların açılmasına gətirib çıxaracaqdır.

Beləliklə, bizim görüşümüz başa çatır. İndi isə, sənədlərin imzalanma mərasiminə başlayırıq.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev və Türkiyə Prezidenti Abdullah Gül Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişini imzaladılar.

Daha sonra prezidentlər Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün yekunu olaraq Naxçıvan bəyannaməsini imzaladılar.

Bununla da, Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü başa çatmışdır.

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IX ZİRVƏ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

Oktyabrın 3-də Azərbaycan Prezidenti İlham Əliyevin adından Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Rəsmi qəbulda Türkiyə Prezidenti Abdullah Gül, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev iştirak etmişlər.

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN NAXÇIVANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasında səfərdə olan Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev oktyabrın 3-də vətənə yola düşmüşdür.

Qazaxıstan Prezidentini Naxçıvan Beynəlxalq hava limanında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov yola saldı.

QIRĞIZISTAN PREZİDENTİ KURMANBEK BAKİYEVİN NAXÇIVANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasında səfərdə olan Qırğızıstan Respublikasının Prezidenti Kurmanbek Bakiyev oktyabrın 3-də vətənə yola düşmüşdür.

Qırğızıstan Prezidentini Naxçıvan Beynəlxalq hava limanında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov yola saldı.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN NAXÇIVANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasında səfərdə olan Türkiyə Respublikasının Prezidenti Abdullah Gül oktyabrın 3-də vətənə yola düşmüşdür.

Türkiyə Prezidentini Naxçıvan Beynəlxalq hava limanında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov yola saldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN BİRLƏŞMİŞ QƏRARGAHLAR KOMİTƏSİNİN SƏDRİ GENERAL TARİQ MƏCİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Pakistan Silahlı Qüvvələrinin Birləşmiş Qərargahlar Komitəsinin sədri general Tariq Məcidin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycana ilk dəfə gəldiyini, səfəri zamanı yüksək qonaqpərvərliklə qarşılandığını deyən Tariq Məcid Azərbaycanın gözəl bir ölkə olduğunu, burada qardaşlıq hissləri keçirdiyini dedi.

Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirdi, Azərbaycan ilə Pakistanın yaxın tərəfdaş və müttəfiq ölkələr olduğunu vurğuladı. Pakistanın Azərbaycan üçün dost və qardaş ölkə olduğunu deyən Prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da bütün istiqamətlərdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində genişlənəcəyinə ümidvar olduğunu qeyd etdi. Dövlətimizin başçısı Pakistan Silahlı Qüvvələrinin Birləşmiş Qərargahlar Komitəsinin sədrinin ölkəmizə səfərinin münasibətlərimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ENERGETİKA NAZİRİNİN MÜAVİNİ DANİEL PONEMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də ABŞ-ın energetika nazirinin müavini Daniel Ponemanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, bu əlaqələrimizin gələcəkdə də genişlənəcəyinə əminlik ifadə olundu. ABŞ-ın energetika nazirinin müavininin ölkəmizə səfərinin bu sahədə əməkdaşlığımızın möhkəmlənməsi baxımından əhəmiyyəti vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkeni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

MƏRKƏZİ BANK İLƏ DÜNYA BANKI ARASINDA ƏMƏKDAŞLIQ PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Mərkəzi Bankın sədri Elman Rüstəmov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Əsəd Alamın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Dünya Bankı və Azərbaycan hökuməti tərəfindən bu il sentyabrın 30-da keçirilmiş Azərbaycanda Portfelin Səmərəliliyinin Birgə İcmalı üzrə Toplantının nəticələri və Dünya Bankının Azərbaycanda həyata keçirdiyi proqram və layihələrin səmərəliliyi müzakirə edilmişdir.

Ə.Alam Dünya Bankının yaxın gələcəkdə həyata keçirməyi planlaşdırdığı proqramlarla bağlı da məlumat vermişdir.

İki qurum arasında gələcək əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.

PREZİDENT İLHAM ƏLİYEV BAKIDA "CASPIAN AGRO-2009" KƏND TƏSƏRRÜFATI VƏ ƏRZAQ MƏHSULLARININ İSTEHSALI, EMALI VƏ QABLAŞDIRILMASI BEYNƏLXALQ SƏRGİSİ İLƏ TANIŞ OLMUŞDUR

Oktyabrın 6-da Prezident İlham Əliyev Heydər Əliyev adına İdman-Konsert Kompleksində "Caspian Agro-2009" kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı, emalı və qablaşdırılması beynəlxalq sərgisi ilə tanış olmuşdur.

İqtisadi İnkişaf və Kənd Təsərrüfatı nazirliklərinin rəsmi dəstəyi, Ticarət və Sənaye Palatasının təşkilatçılığı ilə keçirilən sərgi ilə tanışlıq zamanı məlumat verildi ki, belə bir beynəlxalq tədbirin keçirilməsinin başlıca məqsədi ölkəmizdə istehsal olunan kənd təsərrüfatı və emal sənayesi məhsullarının nümayişi ilə yanaşı, bu sahələrin daha da inkişafı üçün xarici şirkət və sərmayədarların diqqətini cəlb etmək, Azərbaycanda son illər baş verən sürətli inkişaf və tərəqqinin təbliği ilə bərabər, aqrar elmin qabaqcıl nailiyyətlərini və təcrübəsini öyrənməkdir. Ərzaq bolluğunun yaradılması və əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi dünya ölkələri, o cümlədən Azərbaycan üçün prioritet istiqamətlərdən biridir. Sərgi ölkəmizdə kənd təsərrüfatının inkişafının dövlətin prioritet istiqamətlərindən biri olduğunu, Azərbaycanda bu sahədə maksimum nəticələrin qazanılmasına yönələn siyasətin uğurla davam etdirildiyini bir daha göstərir. Son illərdə ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunmasına xüsusi diqqət göstərilməsi, bu sahədə dövlət proqramlarının icrasının sürətləndirilməsi Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalında ciddi inkişafın əldə olunması ilə nəticələnir.

Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə keçirilən sərgidə Azərbaycan ilə yanaşı, ABŞ, Almaniya, Türkiyə, İtaliya, Belarus, Suriya, İsrail, Litva, Latviyanın 80-dən artıq şirkəti təmsil olunmuşdur.

Dövlətimizin başçısı əvvəlcə kompleksin həyətində Minsk və Gəncə avtomobil zavodlarının, habelə dünyanın nüfuzlu şirkətlərinin kənd təsərrüfatı texnikasına baxdı. Bildirildi ki, Minsk və Gəncə avtomobil zavodları arasında bağlanan müqaviləyə əsasən artıq ölkəmizdə də kənd təsərrüfatı texnikasının istehsalına başlanmışdır.

Prezident İlham Əliyev Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin pavilyonu ilə tanış oldu. Burada ölkəmizdə kənd təsərrüfatının inkişafını əks etdirən sənədlər, cədvəllər,

ulu öndər Heydər Əliyevin ölkəmizdə aqrar sahənin, emal sənayesinin inkişafı istiqamətində gördüyü işləri əks etdirən müxtəlif materiallar, habelə fotoşəkillər vardır. Kənd təsərrüfatı naziri İsmət Abasov ölkəmizdə kənd təsərrüfatı sahəsində əldə edilmiş uğurlar barədə məlumat verdi.

Naxçıvan Muxtar Respublikasının pavilyonunda muxtar respublikada istehsal olunan kənd təsərrüfatı və emal sənayesi məhsulları nümayiş olunurdu.

Prezident İlham Əliyev Azərbaycan Dövlət Aqrar Universitetinə aid pavilyona baxdı.

Şərabçılıq və quşçuluq müəssisələrinin pavilyonları ilə tanışlıq zamanı bildirildi ki, burada yerli şirkətlərlə yanaşı, xarici ölkələrin qabaqcıl müəssisələri də təmsil olunur. Diqqətə çatdırıldı ki, ölkəmizdə quşçuluq fabriklərinin yaradılması və onların ixrac qabiliyyətinin artırılması diqqətdə saxlanılır. Bununla yanaşı, Azərbaycanda həm də şərabçılığın inkişafı istiqamətində mühüm nəticələr əldə olunur. Ölkəmizdə üzüm sahələrinin yaradılması və genişləndirilməsi nəticə etibarilə şərabçılığın və şərab istehsal edən yeni modern müəssisələrin yaradılmasına imkan verir. İndi Azərbaycan istehsalı olan şərablar müxtəlif ölkələrə ixrac edilir və onlar dünya bazarında kifayət qədər yüksək reytinq toplaya bilmişdir.

Dövlətimizin başçısı "Caspian Agro-2009" beynəlxalq sərgisində iştirak edən xarici ölkələrin pavilyonları ilə də tanış oldu.

Litva Ticarət Evinin təşkil etdiyi pavilyonda bu ölkədə istehsal olunan kənd təsərrüfatı və emal sənayesi məhsulları nümayiş olunurdu.

Latviya şirkətləri sərgidə müxtəlif qida məhsulları, kənd təsərrüfatı sahəsində istifadə olunan yardımçı vasitələrlə təmsil olunur. Bununla yanaşı, Latviya mütəxəssisləri kənd təsərrüfatı sahəsində Azərbaycan ilə əməkdaşlığa böyük maraq göstərir və sərgi bu baxımdan onlar üçün geniş imkanlar açır.

Dünyada aqrar ölkə kimi tanınan İsrail də "Caspian Agro-2009" sərgisinin əsas iştirakçılarından biridir. İsraildə istehsal olunan kənd təsərrüfatı məhsullarının və texnikasının bu sərgidə nümayiş etdirilməsi beynəlxalq təcrübə mübadiləsinin aparılması və ikitərəfli əlaqələrin qurulması baxımından mühüm imkanlar yaradır.

Dövlətimizin başçısı Suriya Ərəb Respublikasında istehsal edilən kənd təsərrüfatı məhsullarının sərgisi ilə də tanış oldu. Bildirildi ki, yerləşdiyi regionda Suriya əsas aqrar ölkələrdən biri kimi tanınır.

Prezident İlham Əliyev "Caspian Agro-2009" beynəlxalq sərgisində böyük heyətlə təmsil olunan Belarusun milli pavilyonuna da baxdı.

Burada dövlətimizin başçısını milli geyimli belaruslu qız duz-çörəklə qarşıladı.

Belarusun kənd təsərrüfatı və ərzaq nazirinin birinci müavini Nadejda Katkovets və bu ölkənin sənaye nazirinin birinci müavini İvan Demidoviç Belarus milli pavilyonunda nümayiş olunan məhsullar haqqında ətraflı məlumat verdilər. Bildirildi ki, dünyada aqrar sektorun inkişaf etdiyi ölkələrdən biri kimi tanınan Belarus bu sərgiyə böyük maraq göstərir və ölkə şirkətləri gələcəkdə də Azərbaycanda təşkil olunan bu cür sərgilərdə iştirak edəcəkdir. Budəfəki sərgidə Belarus daha çox qida məhsulları və yeni texnologi-

yalarla təmsil olunmuşdur.

Prezident İlham Əliyev "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin ölkəmizin meliorasiya və irriqasiya sisteminin müasirləşdirilməsini əks etdirən ekspozisiyası ilə də tanış oldu. Qeyd edildi ki, hazırda respublikada onlarla beynəlxalq səviyyəli hidrotexniki qurğunun inşası davam etdirilir.

Dövlətimizin başçısı sərgidə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, yerli və xarici şirkətlərin pavilyonları ilə də tanış oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVAKİYANIN KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ İVETTA MATSEJKOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Slovakiyanın Konstitusiya Məhkəməsinin sədri İvetta Matsejkovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Slovakiya arasında münasibətlərin bütün istiqamətlərdə genişlənməsinin zəruri olduğunu vurğuladı. Ölkələrimiz arasında əlaqələrin bu gün o qədər də intensiv xarakter daşımadığını qeyd edən Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Slovakiyanın Konstitusiya Məhkəməsinin sədrinin Azərbaycana səfəri uğurlu nəticələr verəcək və əməkdaşlığımızın daha da inkişafına xidmət edəcəkdir.

İvetta Matsejkova Slovakiyanın Konstitusiya Məhkəməsi ilə Azərbaycanın Konstitusiya Məhkəməsi arasında beynəlxalq səviyyədə uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi və bu iki qurumun mütəmadi olaraq məhsuldar təcrübə mübadiləsi apardığını dedi. Qonaq ölkəsində Azərbaycanda gedən böyük inkişaf proseslərinin maraqla izləndiyini vurğuladı.

ARAZ ƏZİMOV: AZƏRBAYCAN PRİNSİPİAL MÖVQEYİNDƏ DURARAQ HANSISA KOMPROMİSƏ GETMƏYƏ HAZIRDIR

Oktyabrın 6-da xarici işlər nazirinin müavini Araz Əzimov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair fikirlərini jurnalistlərlə bölüşərkən demişdir ki, vəziyyət sadə deyildir. Heç bir münaqişənin yüz faizli həlli yoxdur. Amma münaqişələrin kompromislər, qarşılıqlı əsaslarla həll edilməsi prosesi mövcuddur. Nəyi isə kompromisə gedib, müqabilində nəyi isə alırsan. Bu səbəbdən Azərbaycan prinsipial mövqeyində duraraq hansısa kompromisə getməyə hazırdır. Azərbaycan bildirir ki, Dağlıq Qarabağa, orada yaşayacaq iki icmaya Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yüksək səviyyəli idarəetmə statusu verməyə hazırdır. Bu o deməkdir ki, Azərbaycan artıq öz yolunu keçib və körpünün ortasında dayanıb, Ermənistan da maksimalist mövqeyindən çəkinməli və körpünün ortasına gəlməlidir. Məsələlərin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli üçün razılıq bildirməlidir.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ "AZƏRBAYCAN RESPUBLİKASI DAĞLIQ QARABAĞ BÖLGƏSİ AZƏRBAYCANLI İCMASI" İCTİMAİ BİRLİYİ İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞLƏR

Oktyabrın 6-da ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Merzlyakov (Rusiya), Bernar Fasye (Fransa) və Robert Bratke (ABŞ) Xarici İşlər Nazirliyində "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsi azərbaycanlı icması" İctimai Birliyi idarə heyətinin üzvləri ilə görüşmüşlər.

Yuri Merzlyakov bildirmişdir ki, görüşün məqsədi Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi ətrafında müzakirə aparmaq, problemin həlli ilə bağlı azərbaycanlı icmanın fikrini öyrənməkdir.

"Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsi azərbaycanlı icması" İctimai Birliyinin rəhbəri Bayram Səfərov icma üzvlərinin fikrini ifadə edərək demişdir ki, Qarabağda mehriban qonşuluq prinsipi əsasında yaşamaq mümkündür. Lakin bundan ötrü vaxtilə oradakı yurd-yuvasından didərgin düşmüş azərbaycanlılar doğma ocaqlarına qayıtmalıdırlar. Bundan sonra hər iki icmanın üzvlərinə birgə yaşayıb fəaliyyət göstərmək üçün bərabərhüquqlu şərait yaradılmalıdır.

İdarə heyətinin üzvləri - Milli Məclisin deputatları Həvva Məmədova, Rövşən Rzayev, AMEA-nın vitse-prezidenti Vaqif Fərzəliyev, akademik Cəlal Allahverdiyev, Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli, Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Şuşa mərkəzi rayon xəstəxanasının baş həkimi Ramiq Məhərrəmov və başqaları da öz mövqelərini ifadə etmişlər. Ermənistan prezidenti Serj Sarkisyanın məcburi köçkünlər geriyə Dağlıq Qarabağın statusu müəyyənləşdirildikdən sonra qayıda biləcəyi barədə sərsəm bəyanatına natiqlərin münasibəti yekdil olmuşdur: Dağlıq Qarabağın Azərbaycan Respublikası tərkibində statusu azərbaycanlılar doğma yurdlarına qayıdandan, hər iki icmanın üzvlərinə bərabər şərait yaradıldıqdan sonra müəyyənləşdirilə bilər.

İcma üzvləri xüsusi vurğulamışlar ki, Qarabağsız Azərbaycan yoxdur. İşğal olunmuş yeddi rayonun qaytarılması belə azərbaycanlılar Dağlıq Qarabağa dönməyincə elə bir əhəmiyyət kəsb etmir. Başlıca şərt məcburi köçkünlərin Dağlıq Qarabağdakı doğma ocaqlarına qayıdıb məskunlaşmasıdır.

Həmsədrlər görüşdən razı qaldıqlarını bildirmişlər.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BRİFİNQ KEÇİRMİŞLƏR

Oktyabrın 6-da ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Merzlyakov (Rusiya), Bernar Fasye (Fransa) və Robert Bratke (ABŞ) Xarici İşlər Nazirliyində "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsi azərbaycanlı icması" İctimai Birliyi idarə heyətinin üzvləri ilə görüşdən sonra yerli və xarici KİV nümayəndələri üçün brifinq keçirmişlər.

Yuri Merzlyakov bildirmişdir ki, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 8-də Kişinyovda Ermənistan Prezidenti Serj Sarkisyanla görüşməyə razılıq vermişdir. Diplomat qeyd etmişdir ki, MDB ölkələri dövlət başçılarının sammiti ərəfəsində keçiriləcək görüşdə bu il iyulun 18-də İlham Əliyevin və Serj Sarkisyanın Moskva görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar aparılmış müzakirələr davam etdiriləcəkdir. Y.Merzlyakov demişdir: "Prezident İlham Əliyev bu yaxınlarda danışıqlar prosesində müsbət dinamikanın olduğunu qeyd etmişdir və biz ümid edirik ki, Kişinyov görüşündə bu dinamika davam etdiriləcəkdir".

Robert Bratke Kişinyovda böyük tərəqqi əldə ediləcəyinə ümidvar olduğunu bildirmişdir.

Həmsədrlər qeyd etmişlər ki, Kişinyov görüşünün yekununda hər hansı bir sənədin imzalanması gözlənilmir.

"Həmsədrlər tərəflərə imzalamaq üçün hər hansı bir sənəd təklif etməmişlər. Biz Moskva görüşündə nəzərdən keçirilən prinsiplərin müzakirəsinin davam etdirilməsini istəyirik", - deyə Y.Merzlyakov vurğulamışdır. O açıqlamışdır ki, söhbət nizamlanmanın həmsədrlər tərəfindən 2007-ci ilin payızında ATƏT-in Madrid sammiti zamanı Azərbaycana və Ermənistana təqdim olunmuş baza pinsiplərindən gedir.

Həmsədrlər və "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsi azərbaycanlı icması" İctimai Birliyi idarə heyətinin üzvləri - icmanın rəhbəri Bayram Səfərov, AMEA-nın vitse-prezidenti Vaqif Fərzəliyev, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, SSRİ xalq artisti Fərhad Bədəlbəyli və başqaları jurnalistlərin suallarını cavablandırmışlar.

DÖVLƏT KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ ÜMUMDÜNYA ƏQLİ MÜLKİYYƏT TƏŞKİLATININ BAŞ MƏCLİSİNDƏ İŞTİRAK ETMİŞDİR

Oktyabrın 6-da Cenevrə şəhərində Dünya Əqli Mülkiyyət Təşkilatının (DƏMT) Baş Məclisi keçirilmişdir. Tədbirdə ölkəmizi Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir.

Sentyabrın 22-dən oktyabrın 1-dək təşkil olunan məclis çərçivəsində Ramiz Həsənov DƏMT-in baş direktoru Frensis Qarri ilə də görüşmüşdür. Görüşdə patent sahəsində əməkdaşlığın daha da təkmilləşdirilməsi məsələləri, tədris mərkəzinin yaradılması, məlumat axtarışı sisteminin avtomatlaşdırılması prosesinin sona çatdırılması, baş direktorun yaxın zamanlarda Azərbaycana mümkün səfəri barədə müzakirələr aparılmışdır.

Tədbir çərçivəsində "Dünyada bas verən qlobal hadisələr və bu hadisələrin tənzimlənməsində əqli mülkiyyətin rolu" mövzusunda rəhbər şəxslərin konfransı da keçirilmişdir. Bununla yanaşı, Mərkəzi Avropa və türkdilli dövlətlərin patent qurumlarının rəhbərləri ilə görüşlər olmuş və bu sahədə ölkələrarası əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.

AZƏRBAYCAN VƏ AVSTRİYA ARASINDA MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 5-6-da Avstriyada səfərdə olmuşdur.

Nümayəndə heyəti səfərin ilk günü Krems şəhərində İMC Krems Tətbiqi Elmlər Universitetinin yaradılmasının 15 illiyi münasibətilə keçirilən təntənəli yubiley mərasimində iştirak etmişdir.

Oktyabrın 6-da isə Vyanada Əbülfəs Qarayev Avstriyanın təhsil, incəsənət və mədəniyyət üzrə federal naziri Klaudia Şmidtlə görüşmüşdür. Görüşdə iki ölkə arasında mədəniyyət əlaqələrinin tarixi, hazırkı vəziyyəti və gələcək imkanlar barəsində fikir mübadiləsi aparılmışdır. Qeyd edilmişdir ki, 2009-cu ildə Avstriyanın Lints şəhəri Avropanın mədəniyyət paytaxtı və Azərbaycanın Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilməsi bu sahədə qarşılıqlı təcrübə mübadiləsi geniş imkanlar açır.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Avstriya Respublikasının Təhsil, İncəsənət və Mədəniyyət üzrə Federal Nazirliyi arasında mədəniyyət və incəsənət sahələrində 2009-2012-ci illəri əhatə edən əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Sənədi Əbülfəs Qarayev və Klaudia Şmidt imzalamışlar. Memorandumda növbəti illərdə iki ölkə arasında mədəniyyət və incəsənət sahələrində əlaqələri dərinləşdirmək, muzeylər, ictimai-kütləvi kitabxanalar arasında təcrübə mübadiləsi aparmaq, incəsənət xadimləri və ekspertlər arasında təlim kursları keçirmək, hər iki ölkədəki mədəniyyət tədbirlərini təşviq etmək və informasiya mübadiləsi aparmaq barədə müddəalar öz əksini tapmışdır.

Görüşdə Azərbaycanın Avstriyadakı səfiri Fuad İsmayılov, Avstriyanın ölkəmizdəki səfiri Marius Kalliqaris, Xarici İşlər Nazirliyi mədəniyyət siyasəti departamentinin baş direktoru Emil Briks, Federal Təhsil, İncəsənət və Mədəniyyət Nazirliyinin xarici ölkələrlə ikitərəfli və çoxtərəfli mədəni əlaqələr və Avropa İttifaqı ilə mədəni əlaqələr şöbələrinin rəhbəri Norbert Ridl iştirak etmişlər.

ASTANADA AZƏRBAYCANLA QAZAXISTAN ARASINDA KONSULLUQ ÜZRƏ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR

Oktyabrın 5-6-da Astanada Azərbaycanla Qazaxıstan arasında konsulluq üzrə məsləhətləşmələr aparılmışdır. Danışıqlarda Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyi Konsulluq idarəsi rəisinin müavini Mehriban Nəcəfova, Qazaxıstan tərəfinə isə Xarici İşlər Nazirliyi Konsulluq Xidməti Departamentinin direktoru Baqdat Seitbatalov başçılıq etmişlər.

Görüşdə Azərbaycan və Qazaxıstan vətəndaşlarının hüquq və maraqları, hüquqi-normativ bazanın genişləndirilməsi, hər iki ölkə ərazisində miqrasiya prosesləri və digər məsələlər müzakirə edilmiş, niyyət protokolu imzalanmışdır.

Danışıqlar zamanı Azərbaycan tərəfinin qaldırdığı bütün məsələlər protokolda öz əksini tapmışdır.

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ RUSİYA HÖKUMƏTİ SƏDRİNİN TELEFON DANIŞIQLARI

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası hökumətinin sədri Vladimir Putinə telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Vladimir Putini ad günü münasibətilə təbrik etmiş, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.

Vladimir Putin göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirmişdir.

XARİCİ İŞLƏR NAZİRİ İTALİYANIN AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Oktyabrın 7-də xarici işlər naziri Elmar Məmmədyarov İtaliyanın Azərbaycana yeni təyin olunmuş səfiri Mario Baldini etimadnamələrinin surətinin təqdim olunması ilə əlaqədar qəbul etmişdir

M.Baldi Azərbaycana səfir təyin olunduğundan və ölkəmizdə fəaliyyətə başlamasından məmnun olduğunu bildirmişdir. Özü haqqında məlumat verən qonaq İtaliyanın Rusiyadakı Səfirliyində işlədiyi müddətdə regionumuzda gedən prosesləri yaxından izlədiyini qeyd etmişdir. Bakıda qısa müddət ərzində olduğunu qeyd edən italiyalı diplomat Azərbaycanda gedən inkişaf prosesinin şahidi olduğunu, ölkəmizdə geniş əhatəli diplomatik korpusun olmasından heyrətləndiyini vurğulamış və bunu beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana göstərilən diqqət kimi səciyyələndirmişdir. İtaliya və Azərbaycan arasındakı münasibətlərin yüksək səviyyədə olmasından məmnunluğunu bildirən M.Baldi fəaliyyət göstərəcəyi müddətdə ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin daha da genişləndirilməsi istiqamətində çalışacağını bildirmişdir.

Öz növbəsində, nazir E.Məmmədyarov yeni təyinat ilə əlaqədar səfir Mario Baldini təbrik etmişdir. Nazir E.Məmmədyarov Azərbaycan-İtaliya əlaqələrinin intensivləşdirilməsi üçün mövcud geniş imkanlardan daha səmərəli şəkildə istifadə olunmasının məqsədəmüvafiqliyini qeyd etmişdir.

Görüşdə ikitərəfli əlaqələrin perspektivləri, Azərbaycanın xarici siyasət prioritetləri, regional məsələlər, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında fikir mübadiləsi aparılmışdır. Nazir E.Məmmədyarov münaqişənin nizamlanması ilə əlaqədar Azərbaycanın mövqeyi barəsində məlumat vermişdir.

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ TACİKİSTAN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

"Əbu Hənifənin irsi və onun sivilizasiyalararası dialoqda rolu" mövzusunda Beynəlxalq simpoziumda iştirak etmək üçün Düşənbədə səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə oktyabrın 7-də Tacikistan Prezidenti Emoməli Rəhmon ilə görüşmüşdür.

Allahşükür Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin salamını və xoş arzularını Tacikistan Prezidentinə çatdırmışdır.

Ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi ilə əlaqədar fikir mübadiləsinin aparıldığı görüşdə qeyd olunmuşdur ki, xalqlarımızın tarixən yaranmış dostluq əlaqələri müstəqilliyimizi bərpa etdikdən sonra daha da möhkəmlənmişdir.

QMİ sədri A.Paşazadə Əbu Hənifə təliminin əhəmiyyətindən danışmış, Tacikistan Pre-

zidenti Emomәli Rəhmonu ad günü münasibətilə təbrik etmişdir.

Tacikistanın dövlət başçısı öz növbəsində salamlarını və xoş arzularını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırmağı xahiş etmişdir.

AZƏRBAYCAN İLƏ KOREYA RESPUBLİKASI ARASINDA AQRAR SEKTOR ÜZRƏ ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

Oktyabrın 8-də Bakıda Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Koreya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq Sənayesi və Balıqçılıq Nazirliyi arasında əməkdaşlıq barədə Anlaşma Memorandumu imzalanmışdır.

Kənd təsərrüfatı naziri İsmət Abasov Bakıda böyük uğurla keçən "Caspian Agro" sərgisində Koreya Respublikası şirkətlərinin iştirakından və ölkələrimiz arasında aqrar sektor sahəsində əməkdaşlıq barədə sənədin imzalanacağından məmnunluğunu bildirmiş, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın son illər qazandığı böyük uğurları qonaqların diqqətinə çatdırmışdır. Vurğulamışdır ki, əsası ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qoyulmuş və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən iqtisadi islahatlar nəticəsində Azərbaycan sürətli inkişaf yoluna çıxmış, dünyanın qabaqcıl ölkələri ilə əlaqələri möhkəmləndirmişdir. Sevindirici haldır ki, beynəlxalq əlaqələrin genişləndirilməsinə Kənd Təsərrüfatı Nazirliyi də öz töhfəsini verir.

İsmət Abasov demişdir ki, bir neçə gün əvvəl nazirlikdə Koreya Respublikasının Azərbaycandakı səfiri ilə görüşmüşdür. Görüşdə səfir ölkəsinin iş adamlarının Azərbaycanın kənd təsərrüfatına maraqlarını və aqrar sahəyə sərmayə yatırmaq istəklərini diqqətə çatdırmışdır. Biz onların bu niyyətlərini yüksək qiymətləndirir və Azərbaycana dəvət edirik.

Koreya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq Sənayesi və Balıqçılıq Nazirliyinin baş direktoru Kim Jong Jin son illər ölkələrimiz arasında bir çox sahələr üzrə əlaqələrin sürətlə inkişaf etdiyini söyləmişdir. O, imzalanacaq sənədin aqrar sektorda da əməkdaşlığın genişlənməsinə xidmət edəcəyini əminliklə vurğulamışdır. Koreya tərəfi Azərbaycanın kənd təsərrüfatı sahəsində böyük imkanlara malik olduğunu görür. Aqrar sektorun texniki avadanlıqla təchizatı və sərmayə yatırımı sahəsində mübadilə üzrə əməkdaşlığımızın böyük potensialı vardır.

Koreyalı qonaq "Caspian Agro" sərgisində iştirak etməyə imkan yaradıldığına görə minnətdarlığını bildirmişdir.

Aqrar sektor sahəsində əməkdaşlıq barədə "Anlaşma Memorandumu"nu Azərbaycan tərəfdən kənd təsərrüfatı naziri İsmət Abasov, Koreya Respublikası tərəfdən Kənd Təsərrüfatı, Ərzaq Sənayesi və Balıqçılıq Nazirliyinin baş direktoru Kim Jong Jin imzalamışlar.

Sənəddə əməkdaşlığın sahələri, kənd təsərrüfatı üzrə Əməkdaşlıq Komitəsinin yaradılması, özəl sektorda əməkdaşlığın, ticarətin və investisiyaların təşviqi, maliyyələşmə və digər məsələlər öz əksini tapmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVAYA SƏFƏRİ

Oktyabrın 8-də Azərbaycan Prezidenti İlham Əliyev Moldova paytaxtına gəlmişdir.

MDB üzvü olan ölkələrin dövlət bayraqları ilə bəzədilmiş Kişinyov hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan dövlətinin başçısını Moldovanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, MDB İcraiyyə Komitəsinin rəsmi şəxsləri qarşıladılar.

Milli geyimli oğlan və qızlar dövlətimizin başçısına duz-çörək təqdim etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ

Oktyabrın 8-də Kişinyovda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun, Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın və ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratke (ABŞ), Bernar Fasye (Fransa), Yuri Merzlyakovun (Rusiya) və ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi Anji Kaspşikin iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

KİŞİNYOVDA AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Oktyabrın 9-da Kişinyovda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMİŞDİR

Oktyabrın 9-da Azərbaycan Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Kişinyovda keçirilən iclasında iştirak etmişdir.

Prezident İlham Əliyev və digər dövlət başçıları MDB Dövlət Başçıları Şurasının iclasının keçirildiyi Respublika sarayına gəldilər.

Moldova parlamentinin sədri, Prezidentin vəzifəsini icra edən Mixay Qimpu və digər yüksək vəzifəli şəxslər Prezident İlham Əliyevi sarayın önündə hörmət və ehtiramla qarşıladılar.

Dövlət başçıları xatirə şəkli çəkdirdilər.

Sonra MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi.

Moldova Prezidentinin vəzifəsini icra edən Mixay Qimpu iclasın gündəliyini elan etdi.

İclasda dünya maliyyə böhranının nəticələrinin aradan qaldırılması, təhlükəsizliyin tə-

min olunması, habelə MDB qurumlarının fəaliyyətinin optimallaşdırılması qaydalarına dair Birlik dövlətlərinin əməkdaşlığının fəallaşdırılması ilə əlaqədar sənəd layihələri müzakirə edildi. Daha sonra MDB çərçivəsində çoxsahəli əməkdaşlığın, o cümlədən, iqtisadiyyat, enerji, miqrasiya məsələlərində işbirliyinin genişləndirilməsinə dair qəbul olunan qərarların səmərəliliyinin artırılması ilə bağlı təkliflər ətrafında fikir mübadiləsi aparıldı. Dövlət başçıları fövqəladə halların nəticələrinin aradan qaldırılmasında birgə fəaliyyət, humanitar sahədə inteqrasiya proseslərinin dərinləşdirilməsi, 1941-1945-ci illər müharibəsində Qələbənin 65 illiyinin qeyd olunmasına hazırlıq və yubileylə əlaqədar dünya ölkələrinə müraciətin qəbul olunması, 2010-cu ilin Müharibə Veteranları İli elan edilməsi məsələlərini də nəzərdən keçirdilər.

Şuranın geniş tərkibdə iclası oldu. Müzakirələrdən sonra iclasın yekun sənədləri imzalandı.

Daha sonra mətbuat konfransı keçirildi. Bildirildi ki, MDB-də sədrlik gələn ilin yanvarında Rusiya Federasiyasına keçəcəkdir. MDB Dövlət Başçıları Şurasının növbəti iclası isə 2010-cu ilin dekabrında Moskvada keçiriləcəkdir.

Bununla da iclas işini yekunlaşdırdı.

PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCAN TELEVİZİYASINA MÜSAHİBƏSİ

Kişinyovda MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə vermişdir.

- Cənab Prezident, Ermənistan prezidenti ilə növbəti görüşünüz oldu. Naxçıvanda türkdilli ölkələrin dövlət başçılarının sammitində qeyd etdiniz ki, hazırda danışıqlar son mərhələsindədir. Bu baxımdan bugünkü görüşün nəticələri barədə nə deyə bilərsiniz?

- Bildiyiniz kimi, danışıqlar uzun illərdir ki, aparılır. Əfsuslar olsun ki, hələ heç bir nəticə yoxdur. Mən qeyd etmişdim ki, artıq danışıqlar son mərhələsindədir və bu mərhələdə həlledici qərarlar qəbul edilməlidir. Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Erməni silahlı qüvvələri bizim işğal olunmuş bütün torpaqlardan çıxarılmalıdır. Bizim məcburi köçkün soydaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar. Bizim mövqeyimiz, eyni zamanda, bütün beynəlxalq hüquq normalarına əsaslanır. Bildiyiniz kimi, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul edilibdir. Digər beynəlxalq təşkilatların qərarları və qətnamələri vardır. Bir sözlə, beynəlxalq hüquq baxımından bizim mövqeyimiz çox güclüdür.

Danışıqlara gəldikdə, deyə bilərəm ki, müsbət dinamika vardır. Əgər bu olmasaydı, indiyə qədər bu danışıqlar aparılmazdı. Danışıqlara bizim sadiq qalmağımızın əsas səbəbi ondan ibarətdir ki, danışıqlar prosesində çətin də olsa, irəliləyiş vardır. Son 5-6 il ərzində çox vacib məsələlər razılaşdırılıb. İlk növbədə, Ermənistan qüvvələri Dağlıq Qarabağın ətrafında yerləşən bütün işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Bu, deyə bilərəm ki, danışıqlar prosesində böyük irəliləyişdir. Çünki 4-5 il bundan əvvəl 4 rayonun, ondan sonra 5 rayonun boşaldılmasından söhbət gedirdi. Ancaq danışıqlar prosesində atılan addımlar nəticəsində bu gün artıq deyə bilərəm ki, bu, razılaşdırılıbdır.

Danışıqların xüsusiyyəti ondan ibarətdir ki, hər şey razılaşdırılmayana qədər heç nə razılaşdırılmır. Bu o deməkdir ki, biz bütün məsələləri həll etməliyik. Ancaq biz o halda böyük sülh müqaviləsinə yaxınlaşa bilərik. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunmalıdır və Dağlıq Qarabağda yaşayan ermənilər və Dağlıq Qarabağa qayıdacaq azərbaycanlılar gələcəkdə yüksək muxtariyyət şəraitində yaşamalıdırlar. Bu da, eyni zamanda, dünyanın ən müsbət təcrübəsini özündə ehtiva edən bir yanaşmadır. Çox demokratik yanaşmadır və məsələ ancaq bu yolla öz həllini tapa bilər.

Kişinyov danışıqlarına dünyada və bölgədə çox böyük maraq var idi. Çünki artıq hamıya bəllidir ki, danışıqlar son mərhələsindədir və xüsusilə ermənilər konstruktiv mövqe tutarlarsa bu, danışıqlarda müsbət nəticəyə gətirib çıxara bilər. Bir daha demək istəyirəm ki, bizim mövqeyimiz dəyişməz olaraq qalır. Biz bütün proseslərdə öz mövqeyimizi müdafiə etmişik. Ancaq əfsuslar olsun ki, Kişinyov görüşü nəticəsiz qaldı. Bəli, yenə də qeyd etməliyəm ki, müəyyən məsələlərdə müəyyən, o qədər də böyük olmayan tərəqqi vardır. Ancaq əfsuslar olsun ki, tərəflər müzakirə edilən əsas məsələlərdə razılığa gələ bilməyiblər. Bunun da səbəbi, bir daha demək istəyirəm ki, Ermənistanın qeyri-konstruktiv mövqeyidir. Biz danışıqlarda həm beynəlxalq hüquq normalarına əsaslanırıq, eyni zamanda, danışıqları konstruktiv şəkildə aparırıq. Biz başqa tərəfin narahatlığını başa düşməyə çalışırıq. Biz başa düşürük ki, bu gün Dağlıq Qarabağda yaşayan əhali təhlükəsizlik təminatını almalıdır. Eyni zamanda, işğaldan sonra öz torpaqlarına qayıdacaq Azərbaycan əhalisi də təhlükəsizlik təminatı almalıdır. Dağlıq Qarabağa, Şuşaya qayıdacaq azərbaycanlılar da təhlükəsizlik təminatı almalıdırlar. Yəni bu proses paralel şəkildə aparılmalıdır və bölgədə yaşayan bütün insanların təhlükəsizliyi eyni dərəcədə vacibdir. Belə olan halda, bir daha demək istəyirəm ki, bizim prinsipial mövqeyimiz, danışıqlarda nümayiş etdirilən yanaşmamız beynəlxalq hüquqa əsaslanır. Ümid edirəm ki, Ermənistan tərəfi nəhayət konstruktivlik nümayiş etdirərək, çox vacib addımlar atacaq, işğal edilmiş torpaqlardan öz qoşunlarını çıxaracaq və beləliklə bölgədə sülh təmin olunacaq, bütün kommunikasiyalar açılacaq və geniş mənada əməkdaşlıq başlanacaqdır.

Dağlıq Qarabağ münaqişəsi həll edilməmiş bölgədə heç bir müsbət meyil gözlənilmir. Əgər kimsə fikirləşir ki, bölgədəki mövcud problemlərin bəzilərini asanlıqla həll etmək olar, mən buna şübhə ilə yanaşıram. Çünki bölgənin əsas problemi, əsas məsələsi Dağlıq Qarabağ münaqişəsidir. İlk növbədə bu münaqişə öz həllini tapmalıdır. Bundan sonra bütün başqa məsələlər də öz həllini tapa bilər.

- Cənab Prezident, oktyabrın 10-da Türkiyə ilə Ermənistan arasında münasibətlərin nizamlanmasını nəzərdə tutan protokolların imzalanması planlaşdırılır və məlumdur ki, Dağlıq Qarabağ məsələsi bu protokollarda öz əksini tapmayıb. Bununla bağlı Azərbaycanın mövqeyi necədir?

- Azərbaycan öz mövqeyini dəfələrlə bəyan edib. Bu məsələ hələ aprel ayında gündəliyə salınanda Azərbaycan öz mövqeyini bildirmişdi. Mən də öz çıxışlarımda bu məsələyə toxunmuşdum. Xarici İşlər Nazirliyi rəsmi bəyanatla çıxış etmişdir. Mövqeyimiz ondan ibarətdir ki, biz başqa ölkələr arasında yaranan, yaxud da ki, yarana biləcək münasibətlərə müdaxilə etmirik. Bunu yolverilməz sayırıq. Eyni qaydada, biz öz daxili işlərimizə kiminsə qarışmasını da arzulamırıq və buna imkan vermirik. Azərbaycan heç vaxt başqa ölkələrin nə daxili işlərinə, nə də ölkələr arasında münasibətlərə qarışıb. Bu, birinci məsələdir.

Heç kəs üçün sirr deyil ki, Türkiyə-Ermənistan sərhədinin bağlanmasının başlıca səbəbi və tək səbəbi Kəlbəcər rayonunun işğal altına düşməsi olmuşdur. Yəni məhz buna görə Türkiyə-Ermənistan sərhədi bağlandı və bu günə qədər belə vəziyyətdə qalır. Təbii ki, səbəb aradan qaldırılandan sonra sərhəd açıla bilər. Bu, bizim mövqeyimizdir. Eyni zamanda, Türkiyə rəhbərləri də bu məsələ ilə əlaqədar dəfələrlə öz mövqelərini bildirmişlər. Mən ümid edirəm ki, bu mövqe üstünlük təşkil edəcək və protokollarda, onların praktiki icrasında bu amil nəzərə alınacaqdır.

Siz qeyd etdiniz və bizdə olan məlumata görə bu protokollarda Dağlıq Qarabağ məsələsinin həlli nəzərdə tutulmur. Ancaq bununla bərabər, Türkiyənin rəhbərləri rəsmi bəyanatlarda və şəxsi görüşlər əsnasında dəfələrlə bizə bildirmişlər ki, Dağlıq Qarabağ məsələsi həll olunmayana qədər Türkiyə-Ermənistan protokolları məclis tərəfindən təsdiqlənməyəcək və beləliklə sərhədlər açılmayacaqdır. Bunu Türkiyənin Prezidenti demişdir, Baş naziri demişdir, Türkiyə parlamentinin sədri demişdir, Türkiyənin xarici işlər naziri demişdir və biz buna inanırıq. İnanırıq ki, belə də olacaqdır. Belə olan halda bölgəyə sülh gələ bilər. Belə olan halda bölgədəki bütün ölkələr bu vəziyyətdən uğurla istifadə edib öz aralarında bütün məsələləri həll edə bilərlər. Ancaq bu halda bölgədə genişmiqyaslı əməkdaşlıq yarana bilər.

Bəzən belə fikirlər də səslənir ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması, sərhədlərin açılması gələcəkdə Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək göstərə bilər. Mən bu fikirləri bölüşmürəm. Çünki mən hesab edirəm ki, əgər Türkiyə-Ermənistan münasibətləri Dağlıq Qarabağ məsələsinin həllindən əvvəl tənzimlənərsə, o zaman Ermənistanın mövqeyi danışıqlar prosesində daha da sərtləşə bilər. Ermənistan bunu bir növ öz siyasi və diplomatik uğuru kimi təqdim etməyə çalışacaq və çox güman ki, danışıqlarda daha da sərt və qəbulolunmaz mövqe tutacaqdır. Bunu deməyə kifayət qədər əsas vardır. Danışıqlar prosesi və danışıqlar prosesində müxtəlif mərhələlərdə yaşanan hadisələr bunu deməyə əsas verir.

Mən tam əminəm ki, iki proses - Dağlıq Qarabağ münaqişəsinin həlli və Türkiyə-Ermənistan sərhədlərinin açılması prosesləri paralel şəkildə getməlidir. Bu proseslər arasında rəsmi də olmasa, qeyri-rəsmi bağlantı vardır. Bu bağlantı saxlanılmalıdır və iki məsələ paralel şəkildə eyni anda həll olunmalıdır. Əks təqdirdə bölgədə status-kvo mənfi tərəfə dəyişə bilər. Status-kvonun dəyişməsi çox vacibdir. Çünki bizim torpaqlarımız uzun illərdir ki, işğal altındadır. Biz buna nə vaxta qədər dözəcəyik?! Ancaq status-kvo əgər mənfi tərəfə dəyişərsə, bölgədə xoşagəlməz proseslərin başlanmasına gətirib çıxara bilər. Hələ ümid edirik ki, Dağlıq Qarabağ məsələsini biz danışıqlar yolu ilə həll edə bilərik. Əgər bu ümidlər tükənsəydi, biz bir dəqiqə də danışıqlarda iştirak etməzdik. Ancaq bölgədə gedən proseslər və böyük dövlətlərin bu məsələyə qoşulması, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsinin həllinə öz müsbət təsirini göstərməlidir. Mən inanıram ki, belə də olacaqdır.

Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri çox yüksək səviyyədədir və bir daha demək istəyirəm ki, mən verilən sözlərə inanıram. Türkiyə rəhbərləri tərəfindən verilən açıqlamalara inanıram və əminəm ki, Dağlıq Qarabağ məsələsi həll olunmayana qədər Türkiyə-Ermənistan sərhədləri açılmayacaqdır.

- Cənab Prezident, Ermənistan prezidenti bu yaxınlarda xarici ölkələrə səfər edərkən

erməni diasporunun təhqir və təzyiqləri ilə üzləşib. Sizcə bunun səbəbi nədədir?

- Bilirsiniz, bir daha qeyd etmək istəyirəm ki, biz bu bölgədə yaşayırıq, bölgənin bütün problemlərini yaxşı bilirik. Həm tarixini, həm bugünkü reallıqlarını bilirik və əlbəttə ki, bizim üçün nəyisə proqnozlaşdırmaq, təxmin etmək daha asandır, nəinki bölgədə yaşamayan siyasətçilər, yaxud da ki, dövlət xadimləri üçün. Dediyiniz kimi, Ermənistan prezidenti bu xarici səfərdə böyük təzyiqlərlə üzləşmişdir. Sözün düzü, bu səfərin mənasını biz axıra qədər anlamırıq. Çünki, bildiyiniz kimi, uzun müddətdir ki, Türkiyə ilə Ermənistan arasında protokolların imzalanma günü təyin edilmişdir və bu tarix Türkiyə və Ermənistan tərəfindən razılaşdırılmışdır. Belə olan halda bu ərəfədə diaspor nümayəndələri ilə görüş, məncə, formal xarakter daşıyırdı. Çünki, artıq tarix bəlli, protokolların mətni bəlli və onların dəyişməsinə heç bir imkan yox. Sadəcə olaraq bu, formal xarakter daşıyırdı. Amma özlüyündə bir göstəricidir. Baxın, bu normallaşma prosesi nəyə gətirib çıxarır.

Ermənistanda demək olar ki, siyasi böhran yaşanır. Ermənistanda koalisiya dağıldı, Ermənistanın diaspor ilə əlaqələri sarsıldı. İlk dəfə olaraq Ermənistan prezidentini öz soydaşları xaricdə belə qarşılayırlar. Eyni zamanda, bu normallaşma əlbəttə ki, Azərbaycan cəmiyyətində də birmənalı qarşılanmır. Bu da həqiqətdir. Azərbaycan cəmiyyəti, cəmiyyətin mütləq əksəriyyəti o fikirdədir ki, ancaq Dağlıq Qarabağ məsələsinin həlli ilə bərabər Türkiyə-Ermənistan sərhədləri açılmalıdır. Eyni zamanda, Türkiyədə də bu məsələ geniş diskussiyalara gətirib çıxarıb və bu diskussiyalar bəzi hallarda çox gərgin keçir. Yəni ortalıqda hələ heç nə yoxdur. Ancaq artıq, görün, nə qədər mənfi fəsadlar yaşanır. Ermənistanda bu məsələyə böyük etiraz vardır. Azərbaycanın da ictimai fikri bizim üçün bəllidir. Türkiyənin özündə bu məsələ birmənalı qarşılanmır. Amma hələ ki, ortalıqda bir şey yoxdur. İmzalanacaq protokolların məclis tərəfindən təsdiqi də qeyri-müəyyəndir. Ona görə bölgədə hər bir addım ölçülüb-biçilməlidir, çox böyük təhlillər aparılmalıdır, proqnozlar verilməlidir. Proqnozlar reallıqlar əsasında verilməlidir. Biz elə etməliyik ki, bölgənin problemləri həll olunsun. Ancaq, bəzi hallarda biz görürük ki, bölgədə yaşanan problemlər daha da dərinləşir. Ancaq bir şey də var, o da ondan ibarətdir ki, ilk dəfə hələ fevral ayında Ermənistan mətbuatında Türkiyə-Ermənistan münasibətlərinin normallaşması ilə əlaqədar dərc edilən məqalələr bir məqsədi güdürdü: Türkiyə-Azərbaycan münasibətlərinə xələl gətirilsin. Ancaq bu gün Türkiyə-Ermənistan prosesinin davamı artıq Ermənistanda çox ciddi fəsadlara gətirib çıxarıb. Dediyim kimi, daxili vəziyyət gərginləşib, Ermənistan-diaspor münasibətləri pozulub.

- Cənab Prezident, məlumdur ki, Ermənistan işğalçı siyasətinə görə təcrid olunmuş vəziyyətdədir və əgər Ermənistan-Türkiyə sərhədləri açılarsa, Sizcə bu, Ermənistanda iqtisadi canlanmaya gətirib çıxara bilərmi?

- Bilirsiniz, Ermənistan iqtisadiyyatı hələ böhrandan əvvəl də çətin vəziyyətdə idi. Orada iqtisadi perspektivlər də o qədər ürəkaçan deyildir. Həm bazarın məhdud olması, həm yerli istehsalın o qədər də inkişaf etməməsi və həm də investisiya baxımından Ermənistan o qədər də cəlbedici ölkə deyildir. Coğrafi vəziyyət, xüsusilə Azərbaycan və Türkiyə sərhədlərinin bağlı olması əlbəttə ki, çox böyük iqtisadi çətinliklər yaratmışdır. Böhranlı vəziyyətdə isə bu, özünü daha da qabarıq şəkildə büruzə verir. Rəsmi statistikaya görə, bu il Ermənistan iqtisadiyyatı təxminən 20 faiz aşağı düşübdür. Ona görə, bir o qədər də yaxşı vəziyyətdə olmayan iqtisadiyyatı canlandırmaq çox çətin olacaqdır.

Türkiyə-Ermənistan sərhədlərinin açılması daha çox mənəvi xarakter daşıyır. Eyni zamanda, müəyyən dərəcədə, əlbəttə, iqtisadiyyatın fəallaşmasına gətirib çıxara bilər. Ancaq belə deyərdim, bu, elə bil ki, bir oksigen maskasıdır. Oksigen maskası kömək edə bilər, oksigen maska ilə nəfəs almaq olar, ancaq normal yaşamaq mümkün deyildir.

- Cənab Prezident, bu sualımız mövzuya aid olmasa da, böyük maraq doğurur. Sualımız Türkiyə ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıqla bağlıdır. Bildiyiniz kimi, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan may ayında Bakıda səfərdə olarkən qeyd etmişdi ki, hazırda mövcud qaz qiymətləri ədalətli deyildir. Bu qiymətlərin ədalətli olması üçün hansı işlər görülüb?

- Bəli, siz düzgün deyirsiniz. Hörmətli cənab Baş nazir Bakıda olarkən belə də dedi. Dedi ki, qiymətlər ədalətli deyil və biz çalışırıq ki, bu qiymətləri normal səviyyəyə gətirək. Bizim istəyimiz və danışıqlarda tutduğumuz mövqe beynəlxalq təcrübəyə əsaslanır. Bölgədə, yaxud da ki, dünyada başqa ölkələr arasında bu alqı-satqı məsələləri necə həll olunursa, bizim aramızda da eyni qaydada öz həllini tapmalıdır. Əfsuslar olsun ki, hələ bir nəticə yoxdur. Qaz alqı-satqısı və qaz tranziti ilə bağlı danışıqlarda üç əsas məsələ vardır. Birinci məsələ qiymətdir, hansı ki, ədalətli olmalıdır. Biz bunu gözləyirik ki, ədalətli qiymət haqqında razılaşma tezliklə öz həllini tapacaqdır. İkinci məsələ gələcəkdə Türkiyəyə veriləcək qazın miqdarıdır. Bildiyiniz kimi, bu il Türkiyəyə təqribən 7 milyard kubmetr Azərbaycan qazı ixrac edilib. Hələ ki, ədalətli olmayan qiymətlə.

"Şahdəniz" layihəsinin ikinci fazasından çıxarılacaq qazın, eyni zamanda, Dövlət Neft Şirkəti tərəfindən digər yataqlardan çıxarılan və çıxarılacaq qazın hansı hissəsi Türkiyə bazarına çatdırılacaqdır? Biz bunu da müəyyən etməliyik. Bizim üçün, hər bir başqa ölkə üçün, eyni qaydada ixracımızın şaxələndirilməsi çox vacibdir. Biz neft sahəsində buna nail ola bilmişik. Ona görə bizim neftimiz müxtəlif yollarla dünya və Avropa bazarlarına çıxarılır. Biz qaz sahəsində də mövcud olan bütün qaz kəmərlərimizdən istifadə etməliyik. Əlbəttə, Türkiyə bazarı bizim üçün çox maraqlıdır.

Bildiyiniz kimi, Rusiya ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq başlanır və əminəm ki, gələcəkdə bu, çox uğurlu əməkdaşlıq ola bilər. İran tərəfindən verilən təkliflər əsasında danışıqlar aparılır. İran bazarı da bizim üçün çox maraqlıdır. Azərbaycan qazının Türkiyə ərazisindən Avropa İttifaqı bazarına çıxarılması üçün də səylər göstərilir - həm Azərbaycan, həm Avropa ölkələri tərəfindən. Avropa İttifaqına üzv olan ölkələrlə ikitərəfli əsasda çox ciddi danışıqlar aparılır. Yunanıstan, İtaliya, Rumıniya, Bolqarıstan, Macarıstan və digər ölkələrlə danışıqlar aparılır. Yəni Azərbaycanda kifayət qədər qaz resursları vardır. Bu, bizim böyük sərvətimizdir. Ancaq minimum təsdiq edilmiş qaz resurslarımız 2 trilyon kubmetr səviyyəsindədir. Amma real miqdar ondan ən azı 2 dəfə çoxdur.

Biz gərək bu qazı ixrac edək. Bunu ixrac etmək üçün gərək, çox böyük investisiyalar qoyulsun. "Şahdəniz" layihəsinin ikinci fazasına nəzərdə tutulmuş investisiyaların həcmi təxminən 20 milyard dollar səviyyəsindədir. Bu investisiyaları qoymaq üçün biz və bizim tərəfdaşlarımız, konsorsiumun üzvləri bilməliyik ki, bu qazı hara satacağıq. Tarif şərtləri necə olacaq, qiymət necə olacaq, biz bunu hansı miqdarda satacağıq.

Üçüncü məsələ isə, - yəni birinci qiymət, ikinci miqdar, üçüncü tarif haqlarıdır. Qiymət kimi tarif haqları da ədalətli olmalıdır və bölgədə mövcud olan bütün başqa tarif haqları

ilə uzlaşmalıdır. Bax, bu üç məsələdə əfsuslar olsun ki, biz hələ Türkiyə tərəfi ilə danışıqlarda bir nəticəyə gələ bilməmişik. Mən bir daha demək istəyirəm ki, biz danışıqları xoş niyyətlə aparırıq. Ancaq bununla bərabər, danışıqlarda müzakirə edilən məsələlər beynəlxalq təcrübəyə uyğun şəkildə öz həllini tapmalıdır. Belə olan halda Azərbaycan qazı Türkiyəyə daha da böyük həcmdə ixrac ediləcəkdir.

- Təşəkkür edirik, cənab Prezident!

- Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ

Oktyabrın 9-da Kişinyovda Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun görüşü olmuşdur.

Dövlət başçıları ikitərəfli münasibətlərin müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparmışlar.

SƏFƏR BAŞA ÇATDI

Oktyabrın 9-da MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya səfəri başa çatmışdır.

AZƏRBAYCAN YUNESKO-NUN SƏMƏRƏLİ FƏALİYYƏTİNƏ ÖZ TÖHFƏSİNİ VERMƏYƏ HAZIRDIR

Parisdə, YUNESKO-nun iqamətgahında qurumun ali orqanı Baş Konfransın 35-ci sessiyası öz işinə başlamışdır.

Tədbirdə təşkilatın üzvü olan 193 ölkənin nümayəndəsi iştirak edir. Ölkəmiz təhsil naziri Misir Mərdanovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunur. Nümayəndə heyətinə Təhsil, Xarici İşlər, Mədəniyyət və Turizm nazirliklərinin əməkdaşları daxildir.

Oktyabrın 8-də Baş Konfrans çərçivəsində nazir və nazir müavinləri səviyyəsində forum keçirilmişdir. Forumu Baş Konfransa yeni sədr seçilmiş Davidson Xepbern (Baham adaları) açaraq yığıncaqda iştirak edən Türkiyə Prezidenti Abdullah Gülü salamlamış, dünya siyasətində mədəniyyətlər və dinlərarası dialoqun mühüm rolunu qeyd etmiş, iqlim dəyişikliyinin yer kürəsi üçün böyük təhlükə doğuracağını bildirmiş və maliyyə böhranının törətdiyi ağır fəsadlardan danışmışdır.

YUNESKO-nun baş direktoru Koişiro Matsuura çıxışını, əsasən, dünyanı bürümüş maliyyə böhranı üzərində qurmuşdur. O, bu böhranın bütün sahələrə, o cümlədən elm, təhsil və mədəniyyətə ağır təsirindən danışmışdır. Qeyd etmişdir ki, böhran yoxsulluğun son həddində yaşayan milyonlarla insanın vəziyyətini daha da ağırlaşdırmış, Afrika qitəsində dövlətlər ciddi fəsadlarla üzləşmişlər. Baş direktor təhlükəli vəziyyət yaratmış maliyyə böhranından çıxmaq və gələcək inkişaf naminə varlı ölkələrin donor kimi çıxış etmələrinin vacibliyini vurğulamış, YUNESKO-nun da gələcək fəaliyyətini bu is-

tiqamətdə quracağını, yeni 10 illik proqram tərtib etdiyini bildirmişdir.

Türkiyə Prezidenti Abdullah Gül YUNESKO-nun ölkələr arasında körpü rolunu oynadığını xatırlatmış, xalqları bir-birinə yaxınlaşdırmaqda mühüm işlər gördüyünü qeyd etmiş, nazir və nazir müavinləri səviyyəsində keçirilən forumun dünyanı bürümüş maliyyə böhranından elm, təhsil və mədəniyyət sahələrindəki problemlərin aradan qaldırılmasında mühüm rol oynayacağına şübhə etmədiyini diqqətə çatdırmışdır.

Hər bir dövlətin iqtisadi böhrana baxmayaraq elm, təhsil , mədəniyyət sahələrinin inkişafına, xalqa məxsus mədəni irslərin qorunub saxlanmasına xüsusi diqqətlə yanaşmasının vacibliyinə toxunan Abdullah Gül ölkəsində bu istiqamətlərdə gedən işlərdən bəhs etmiş, bu sahədə YUNESKO-nun rolunu yüksək qiymətləndirmiş, gender probleminin həlli ilə bağlı görülən işlər barədə məlumat vermişdir.

Azərbaycanın təhsil naziri Misir Mərdanov forumdakı çıxışında demişdir: Qlobal xarakter almış maliyyə böhranı YUNESKO və onun prioritet istiqamətlərindən yan keçməmiş, qurumun dünya əhəmiyyətli proqramlarının həyata keçirilməsində müəyyən çətinliklər yaratmışdır. Ölkəmizə gəldikdə, Azərbaycan öz iqtisadiyyatına bu böhranın təsirini azaltmağa müvəffəq olmuş, hətta iqtisadi artım əldə edilmişdir. Milli iqtisadiyyatını dinamik inkişaf etdirmiş Azərbaycanda ümumi daxili məhsulun artımı 4 faizə çatmışdır. Son iki ildə istər elm, təhsil və mədəniyyət, istərsə də informasiya və kommunikasiya sahələrində çox işlər görülmüş, YUNESKO ilə əlaqələr yüksək səviyyədə inkişaf etdirilmişdir. Güclü iqtisadiyyat nəticəsində təhsil sahəsində genişmiqyaslı islahatlar həyata keçirilmiş, təhsil dövlət büdcəsindəki xərclər siyahısında birinci yerə çıxmış, dövlət təhsilin inkişafına 238 milyon manatdan (298 milyon dollar) çox vəsait ayırmışdır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın rəhbərliyi və qayğısı sayəsində respublikada yüzlərlə müasir tələblərə cavab verən məktəb binaları tikilərək istifadəyə verilmiş, yaxud əsaslı şəkildə təmir edilmişdir. Elm və mədəniyyət sahələrində də son illər təqdirəlayiq işlər görülmüş, onların inkişafı ilə bağlı Milli Strategiya və Dövlət Proqramı qəbul edilmiş, Bakıda "Strabon yolu Böyük İpək Yolunun bir hissəsi kimi", "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzularında beynəlxalq konfranslar, Birinci Beynəlxalq Muğam festivalı kimi yüksək səviyyəli tədbirlər keçirilmişdir. Maliyyə böhranının qlobal xarakter alması mövcud problemlərin həllinin ayrı-ayrı dövlətlər səviyyəsində deyil, dünya səviyyəsində yanaşmanı tələb edir. Yüksək səviyyəli mütəxəssislərin, texniki yardımın, elmi və pedaqoji kadrların hazırlanması, qlobal layihələrdə iştirak etmək potensialından bəhrələnmək imkan verən YUNESKO-nun üzərinə bu sahədə böyük yük düşür. Məhz belə bir dövrdə qurumun büdcəsinin sabit saxlanmasının və əsas sahələr üzrə öz dəstəyini davam etdirməsinin tərəfdarıyıq. Təşkilatın vəsaitlərindən minilliyin inkişaf məqsədlərinə nail olunması istiqamətində istifadə edilməli, yoxsulluğun aradan qaldırılması, zəif inkişaf etmiş ölkələrdə təhsil səviyyəsinin yüksəldilməsi, mədəni irsin qorunmasına yardım göstərilməsi kimi sahələrdə fəal iş aparılmalıdır. Bunlarla yanaşı, təşkilatın inzibati xərclərinin azaldılması məsələsini də nəzərdən keçirmək olar. Məhz bu hallarda YUNESKO-nun səmərəli fəaliyyətinin davam etdirilməsinə nail olmaq mümkündür. Hər bir dövlət bu istiqamətdə səylərini əsirgəməməlidir. Azərbaycan bu mühüm işə öz töhfəsini verməyə hazırdır.

Azərbaycanlı nazirin çıxışı maraqla qarşılanmışdır.

Baş konfrans çərçivəsində Misir Mərdanov İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlu və İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri ilə görüşmüşdür. Görüşdə elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılmışdır.

Azərbaycanın YUNESKO yanındakı daimi nümayəndəliyinin rəhbəri, səfir Eleonora Hüseynova forumun işində və görüşlərdə iştirak etmişdir.

YUNESKO-nun 2010-2011-ci illər büdcəsinin və proqram layihəsinin müzakirəsi zamanı Azərbaycan tərəfi müəyyən təklif və düzəlişlər irəli sürmüşdür.

YUNESKO AZƏRBAYCANIN ƏSAS TƏRƏFDAŞLARINDAN BİRİDİR

YUNESKO Baş Konfransının 35-ci sessiyası çərçivəsində oktyabrın 9-da günün birinci yarısında təhsil nazirlərinin "dəyirmi masa"sı keçirilmişdir. Təhsillə bağlı "dəyirmi masa"da təhsil naziri Misir Mərdanov bildirmişdir ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkədə siyasi və sosial-iqtisadi sahələrdə olduğu kimi, təhsil sistemində də köklü islahatlar keçirir, Avropa təhsil məkanına müvəffəqiyyətlə inteqrasiya edir. Azərbaycan islahatların həyata keçirilməsində müxtəlif beynəlxalq təşkilatlarla, o cümlədən YUNESKO ilə sıx əməkdaşlıq edir. Bu qurum əsas tərəfdaşlarımızdan biridir. Son iki ildə dünya təhsil sisteminin prioritet inkişaf istiqamətlərinin, habelə inklüziv təhsil, davamlı inkişaf naminə təhsil, ali təhsilin əsas məqsədləri və "təhsil hamı üçün" kimi məsələlərin müzakirə olunduğu mühüm beynəlxalq forumlar keçirilmişdir. Azərbaycan bu forumlarda daim iştirak etmişdir.

Azərbaycanda "Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsilin inkişafı üzrə Dövlət Proqramı" həyata keçirilir. Proqramın əsas məqsədi inteqrasiyalı təlimə keçidin reallaşdırılması, məktəblərdə uşaqlara təhsil üçün bərabər imkanların yaradılması, eləcə də sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb edilməsidir. Bundan əlavə, YUNESKO-nun dəstəyi ilə Azərbaycanda inklüziv təhsil sahəsində irimiqyaslı layihə həyata keçirilir.

Ölkəmizdə təhsilin inkişafına böyük diqqət göstərildiyini diqqətə çatdırmış nazir Avropa Şurası, Avropa Komissiyası və YUNESKO-nun dəstəyi ilə Bolonya prosesinin tələblərini nəzərə almaqla, ali təhsil sistemində islahatların davam etdirildiyini, tələbələrin biliklərinin qiymətləndirilməsi üzrə kredit sisteminin tətbiq olunduğunu, ali məktəblərin fəaliyyətinin daxili və xarici qiymətləndirilməsi əsasında onların akkreditasiyası üzrə yeni formanın tətbiq edildiyini bildirmiş, ölkəmizdə beynəlxalq forumların təşkil olunduğunu, buna misal olaraq, 2008-ci ilin mayında Bakıda təşkil olunmuş Dünyada Savadlılığın Dəstəklənməsi üzrə YUNESKO-nun regional konfransını xatırlatmışdır.

Günün ikinci yarısında siyasi debatlardakı çıxışında Misir Mərdanov 2009-cu ilin Dövlət büdcəsində təhsil sektoruna ayrılan vəsaitin ötən ilə nisbətən 21 faiz artdığını, son iki ildə müasir avadanlıqla təchiz olunmuş 500 yeni məktəbin tikilib istifadəyə verildiyini, şagirdlərin pulsuz dərsliklərlə tamamilə təmin olunduğunu, internetə qoşulmuş məktəblərin sayının 20 dəfə artdığını qeyd etmişdir.

Nazir YUNESKO-nun dəstəyi ilə "Hamı üçün təhsil" proqramı çərçivəsində ömürboyu təhsil, yaşlıların təhsili, ixtisasartırma təhsil layihələrinin uğurla həyata keçirildiyini qeyd etmiş, savadsızlığın ləğv edilməsi ilə əlaqədar BMT-nin regional konfranslarından birinin 2008-ci ildə Bakıda baş tutduğunu bildirmişdir.

Mədəniyyət məsələlərinə toxunmuş M.Mərdanov Azərbaycanın aşıq sənəti və Novruz bayramının bu yaxınlarda YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsindən qürur hissi keçirdiyini vurğulamış, ölkəmizin Afrika regionunda Benin Mədəni İrs Məktəbinin layihəsinə maliyyə yardımı göstərdiyini açıqlamışdır.

Nazir YUNESKO ilə Azərbaycan arasında sıx əməkdaşlıqdan danışarkən Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətlərini xüsusi vurğulamış, fondun ölkə daxilində və xaricdə təhsil, mədəniyyət, elm, İKT, səhiyyə, idman və digər sahələrdə həyata keçirdiyi layihələr nəticəsində yeni məktəblər, uşaq evləri, idman kompleksləri, tibb ocaqları inşa edildiyini, fondun dəstəyi ilə 2009-cu ildə Bakıda inşa edilmiş yeni Muğam Mərkəzində YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına salınmış qədim muğama həsr olunmuş Birinci Beynəlxalq Festivalı, Fransanın Versal qəsrində iki abidənin və Strasburqdakı kilsənin bərpa işlərində fondun yaxından iştirakını diqqətə çatdırmışdır.

Misir Mərdanov Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycanın zəngin musiqi mədəniyyətini və tarixi şəxsiyyətlərini tanıtmaq məqsədilə YUNESKO-nun mənzil-iqamətgahında keçirilmiş çoxsaylı tədbirləri qeyd etmişdir.

Ölkəmizin 20 il ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə üzləşməsindən bəhs etmiş nazir bunun xalqımız üçün ağrılı problem olmasından, ərazilərimizin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsindən, 20 mindən artıq azərbaycanlının həlak olmasından və bir milyon soydaşımızın isə qaçqın və məcburi köçkün düşməsindən, ölkəmizə 60 milyard dollardan çox ziyan dəyməsindən söhbət açmışdır.

Misir Mərdanov erməni işğalçıları tərəfindən 900-dan artıq kitabxananın, 700 təhsil ocağının, 600-dən çox səhiyyə müəssisəsinin, 26 muzey və 9 məscidin dağıdıldığını qeyd etmişdir.

Nazir sonda bildirmişdir ki, YUNESKO-nun ideallarına sadiq olan Azərbaycan ümidvardır ki, təşkilat yeni humanizm konsepsiyasını rəhbər tutaraq, dünyada sülh və sabitlik, ümumbəşəri dəyərlərin bərqərar edilməsinə öz layiqli töhfəsini verəcəkdir.

ALMATIDA "NEFT VƏ QAZ - KIOGE 2009" BEYNƏLXALQ SƏRGİSİ VƏ KONFRANSI KEÇİRİLMİŞDİR

Oktyabrın 6-dan 8-dək Almatıda keçirilən "Neft və qaz - KIOGE 2009" adlı 17-ci Beynəlxalq sərgi və konfransı keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və "Bakı fəhləsi" Maşınqayırma Zavodu, ABŞ, Almaniya, Böyük Britaniya, Hollandiya, İtaliya, Kanada, Fransa, Norveç, Çin, ümumiyyətlə dünyanın 30 ölkəsindən gəlmiş 520 neft-qaz şirkəti iştirak etmişdir.

Bunların arasında neft, neft-kimya sənayesi üçün maşın və avadanlıq istehsalı, neft-qaz

sənayesinin məhsulları, müxtəlif xidmətlər, texniki təhlükəsizlik və ətraf mühitin mühafizəsi sahəsində çalışan şirkətlər də var idi.

Ölkəmizdən gəlmiş nümayəndə heyətinə Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti Muxtar Babayev rəhbərlik edirdi.

Azərbaycan Dövlət Neft Şirkətinə ayrılmış pavilyonda ümummilli lider Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının uğurlu nəticələri, ölkəmizdə həyata keçirilən neft-qaz layihələrini əks etdirən şəkillər, elektron tablolar şirkətin son illərdə genişlənən beynəlxalq əlaqələri barədə videokadrlar nümayiş etdirilmiş və maraqla qarşılanmışdır.

Konfransda çıxış edən Muxtar Babayev, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin icraçı direktoru İlham Nəsirov ölkəmizin neft-qaz sahəsində əldə etdiyi nailiyyətlərdən danışmışlar.

Konfransda dövlət strukturlarının nümayəndələri, alimlər, ekoloqlar və digər sahələrin təmsilçiləri də iştirak etmişlər.

YAPONİYA HÖKUMƏTİNİN AZƏRBAYCANDA HƏYATA KEÇİRƏCƏYİ LAYİHƏLƏRİN ÜMUMİ DƏYƏRİ 556 MİN DOLLARDIR

Yaponiya hökumətinin "Ot kökləri və insan təhlükəsizliyi" və "Mədəniyyət üzrə ot kökləri" qrant proqramları çərçivəsində oktyabrın 9-da bu ölkənin Azərbaycandakı səfiri Masamitsu Okinin iqamətgahında 6 layihənin imzalanması mərasimi keçirilmişdir.

Tədbiri açan səfir M.Oki Azərbaycanın son illərdə sürətlə tərəqqi etdiyini, yollar, xəstəxanalar, məktəblər və digər infrastruktur obyektlərinin, həmçinin insan resurslarının inkişafının həyata keçirildiyini bildirmiş və Yaponiya hökuməti tərəfindən ölkəmizdə həyata keçirilən layihələrin ümumi sayının 126-ya çatdığını diqqətə çatdırmışdır.

Azərbaycan gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov və "Azərsu" Səhmdar Cəmiyyətinin beynəlxalq əlaqələr və inkişaf idarəsinin rəisi İlqar Tağıyev çıxış edərək ölkəmizdə idman və su təchizatı sahəsində həyata keçirdiyi uğurlu layihələrə görə Yaponiya hökumətinə minnətdarlıqlarını bildirmişlər.

Sonra "Ot kökləri və insan təhlükəsizliyi" qrant proqramı çərçivəsində "Qax rayonu Qorağan kəndində tibb məntəqəsinin tikintisi layihəsi"nə 85.931, "Saatlı rayonu Varxan kəndində tibb məntəqəsinin tikintisi layihəsi"nə 96.805, "Kürdəmir rayonu Şahbəyli kəndində tibb məntəqəsinin tikintisi layihəsi"nə 84.475, "Şamaxı rayonu Məlikçobanlı kəndində su təchizatı sisteminin yaxşılaşdırılması layihəsi"nə 96.682, "Füzuli rayonu Böyük Bəhmənli kəndində içməli su təchizatı vasitələrinin tikintisi və suvarma kanalının yaxşılaşdırılması layihəsi"nə 97.000 və "Mədəniyyət üzrə ot kökləri" qrant proqramı çərçivəsində "Biləsuvar rayonunda karate və cüdo idman qurğularının təkmilləşdirilməsi layihəsi"nə 95.375 ABŞ dolları məbləğində vəsait ayrılmasını nəzərdə tutan müqavilələr imzalanmışdır.

Layihələrə ayrılan ümumi qrant yardımının məbləği 556.268 ABŞ dollarına bərabərdir.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT ÜÇÜN BƏYANATI

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi cari ilin 10 oktyabr tarixində İsveçrədə Türkiyə Respublikası ilə Ermənistan Respublikası arasında diplomatik münasibətlərin qurulması və münasibətlərin inkişaf etdirilməsi haqqında protokolların imzalanması ilə əlaqədar aşağıdakıları bildirməyi məqsədəuyğun hesab edir.

Məsələ ilə bağlı Azərbaycan tərəfinin mövqeyi birmənalıdır. Türkiyə 1993-cü ildə Ermənistanla sərhədlərini Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalına və Azərbaycana qarşı həyata keçirilən təcavüzə etiraz əlaməti olaraq bağlamışdır. Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş, etnik təmizlənməyə məruz qalmış 1 milyona yaxın Azərbaycan vətəndaşları öz doğma torpaqlarından qaçqın və məcburi köçkün düşmüş və işğal olunmuş ərazilərdə Azərbaycanın tarixi-mədəni irsi məhv edilmişdir. Bu müddət ərzində BMT-nin Təhlükəsizlik Şurası və Baş Assambleyası, ATƏT, AŞPA, İKT və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş Ermənistanın təcavüzkar siyasətini pisləyən, Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasını tələb edən çoxsaylı qətnamələrə və sənədlərə Ermənistan məhəl qoymamış və bu təcavüzün nəticələrinin aradan qaldırılması istiqamətində heç bir irəliləyiş əldə olunmamışdır.

Azərbaycan tərəfi məsələ ilə bağlı Türkiyə Respublikasının yüksək rəsmilərinin, həmçinin Baş nazir cənab Rəcəb Tayyib Ərdoğanın çoxsaylı açıqlamalarına, xüsusilə də onun 14 may 2009-cu il tarixində Azərbaycan Respublikası Milli Məclisində "Türkiyə Ermənistan ilə sərhədləri Azərbaycan torpaqları Ermənistan tərəfindən işğal edildikdən sonra bağlamışdır. Bu işğal ortadan qalxandan sonra sərhədlər açıla bilər. Biz azərbaycanlı qardaşlarımız razı qalmadığı müddətdə bu nöqtədən irəli bir addım atmarıq. Bunlar bir-biri ilə bağlıdır, ayrı salına bilməz", habelə 17 sentyabr 2009-cu il tarixində Türkiyə kütləvi informasiya vasitələrinin nümayəndələri ilə iftar süfrəsində "Azərbaycan-Ermənistan arasındakı sıxıntılar aşılmadığı müddətdə biz qapıları açа bilmərikE Bu problemi həll etmədən bizim o addımı atmağımız mümkün deyil" kimi səsləndirdiyi fikirlərə əsaslanır.

Bakı, 10 oktyabr 2009-cu il.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ KOREYA RESPUBLİKASI XARİCİ İŞLƏR VƏ TİCARƏT NAZİRLİYİ ARASINDA SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏR ÜZRƏ İKİNCİ İCLAS KEÇİRİLMİŞDİR

Oktyabrın 10-da Seulda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi (XİN) və Koreya Respublikası Xarici İşlər və Ticarət Nazirliyi arasında siyasi məsləhətləşmələr üzrə ikinci iclas keçirilmişdir.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, xarici işlər nazirinin müavini Xələf Xələfov siyasi məsləhətləşmələr çərçivəsində Koreyanın xarici işlər və ticarət nazirinin birinci müavini Kvon Conq-rak, müavin Li Yonq Jun, Koreya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Suh Byonq-su və Koreya Beynəlxalq Əməkdaşlıq

Agentliyinin (KOICA) prezidenti Park De Vonla görüşmüşdür.

Azərbaycanın və Koreyanın səfirləri Rövşən Cəmşidov və Li Ci-hanın da iştirak etdiyi siyasi məsləhətləşmələrdə siyasi məsələlər üzrə iki ölkə arasında əməkdaşlıq məsələləri müzakirə olunmuş, yüksək səviyyəli rəsmi səfərlərin təşkili, ikitərəfli, həmçinin, beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlıq barədə fikir mübadiləsi aparılmışdır.

Eyni zamanda, məsləhətləşmələrdə iqtisadi məsələlər üzrə ikitərəfli əməkdaşlığa toxunulmuş, hazırkı münasibətlərin səviyyəsi qiymətləndirilmiş, ölkələrimiz arasında enerji, təbii ehtiyatlar, informasiya texnologiyaları, tikinti, nəqliyyat, turizm və kənd təsərrüfatı sahələrində əməkdaşlıq imkanları da diqqət mərkəzində olmuşdur.

Ölkələrimiz arasında elm, təhsil və mədəniyyət sahələri üzrə əməkdaşlığın perspektivlərinin də müzakirə olunduğu məsləhətləşmələrdə bu istiqamətdə lazımi addımların atılmasının vacibliyi qeyd edilmişdir. Həmçinin hər iki ölkənin yerləşdiyi regionlar üzrə müzakirələr aparılmış, regional və qlobal təhlükəsizliyin təmin edilməsində beynəlxalq ictimaiyyətin ədalətli mövqe nümayiş etdirməkdə qətiyyətli olmasının zəruriliyi vurğulanmışdır.

PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN BELARUS RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

Belarusda rəsmi səfərdə olan Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti oktyabrın 12-də Belarus Prezidenti Aleksandr Lukaşenko ilə görüşmüşdür.

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə Prezident Aleksandr Lukaşenkoya minnətdarlığını bildirən Oqtay Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını çatdırmışdır. Milli Məclisin sədri demişdir ki, Azərbaycan Belarus ilə hərtərəfli əməkdaşlığa böyük önəm verir. Dövlət başçılarının qarşılıqlı səfərləri ikitərəfli münasibətlərin inkişafını sürətləndirir. Sədr qeyd etmişdir ki, diplomatik əlaqələrimiz 1993-cü ildən başlamışdır və hər iki ölkədə səfirliklərimizin fəaliyyət göstərməsi Azərbaycan-Belarus əlaqələrinin yüksək səviyyədə olduğunun bariz nümunəsidir.

Görüşdə qeyd olunmuşdur ki, ölkələrimiz arasında iqtisadi münasibətlərin daha da dərinləşməsi üçün böyük potensial mövcuddur. 2008-ci ildə Azərbaycan ilə Belarus arasında mal dövriyyəsi təxminən 95 milyon ABŞ dolları məbləğində olmuşdur. Energetika, kənd təsərrüfatı, turizm, nəqliyyat, kommunikasiya, digər sənaye sahələri üzrə əməkdaşlığın bütün imkanlarından istifadə olunması hər iki ölkənin xalqlarının mənafeyinə xidmət edir.

Parlamentlərarası əlaqələrimizin inkişafından danışan Oqtay Əsədov bu əlaqələrin dövlətlərarası münasibətlərin dərinləşməsinə böyük töhfə verdiyini, parlamentlərimiz arasında imzalanması nəzərdə tutulan Əməkdaşlıq Haqqında Sazişin bu sahədə hüquqi bazanın möhkəmləndirilməsinə xidmət edəcəyini bildirmişdir. Milli Məclisin sədri beynəlxalq təşkilatlarda da əməkdaşlığımızın möhkəm əsaslara söykəndiyini vurğulamışdır.

Belarus Prezidenti Aleksandr Lukaşenko salamlarına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirmiş və onun da salamlarını Azərbaycan dövlətinin başçısına çatdırmağı xahiş etmişdir.

Prezident A.Lukaşenko bu cür səfərləri yüksək qiymətləndirərək bildirmişdir ki, qanunvericiorqanlar dövlətin və cəmiyyətin həyatında çox mühüm rol oynayırlar. Onların arasındakı əlaqələr münasibətlərin inkişafında vacib məqamlardandır. Belarus Prezidenti hər iki ölkənin qanunvericilik orqanları arasında imzalanacaq sənədi yüksək dəyərləndirmişdir.

Görüşdə iqtisadi, siyasi, mədəni, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Oktyabrın 12-də Azərbaycan parlament nümayəndə heyəti Belarus Milli Məclisinin Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenko ilə görüşmüşdür.

Milli Məclisin sədri Oqtay Əsədov səmimi qəbula və səfərin yaxşı təşkilinə görə V.Andreyçenkoya minnətdarlığını bildirmişdir. O.Əsədov demişdir ki, bu səfər parlamentlərarası əlaqələrimizin daha da dərinləşməsində yeni mərhələ açacaq və bu əlaqələrin inkişafı Azərbaycanla Belarus arasında fəal siyasi dialoqa öz töhfəsini verəcəkdir. Azərbaycan ilə Belarus arasında müxtəlif sahələrdə sıx əməkdaşlıq hələ keçmiş sovetlər dövründən mövcud olmuş, dövlətlərimiz arasındakı bu dostluq və tərəfdaşlıq ənənələri müstəqillik dövründə daha da dərinləşmişdir. Münasibətlərimiz dövlətlərimizin başçılarının səyləri nəticəsində gündən-günə yüksəlməkdədir.

Azərbaycan parlament nümayəndə heyətinin Belarusa səfərini yüksək qiymətləndirən Vladimir Andreyçenko demişdir ki, bu cür səfərlər ölkələrarası münasibətlərin inkişafında, xüsusilə parlamentlərarası əlaqələrin daha da dərinləşməsində mühüm rol oynayır. İqtisadi, siyasi, mədəni və həyatın digər sahələrində yaxşı ikitərəfli əməkdaşlığın mövcud olduğunu vurğulayan Nümayəndələr Palatasının sədri ölkələrimizin hərtərəfli əməkdaşlıq üçün daha böyük potensiala malik olduğunu bildirmişdir. Qeyd olunmuşdur ki, müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin qarşılıqlı səfərləri ölkələrimiz arasında əlaqələrin daha da inkişafına öz töhfəsini verir. Ali qanunverici orqanlarımız arasında imzalanacaq Əməkdaşlıq Haqqında Saziş münasibətlərimizin hüquqi bazasının daha da möhkəmləndirilməsinin bir nümunəsinə çevriləcəkdir.

Sonra Azərbaycan parlament nümayəndə heyəti Belarus Milli Məclisinin Nümayəndələr Palatasının iclas zalı ilə tanış olmuş, birgə fotoşəkil çəkdirilmişdir.

Nümayəndə heyətimizin növbəti görüşü Belarus Milli Məclisi Respublika Şurasının sədri Boris Batura ilə olmuşdur. Bu görüşdən məmnunluğunu ifadə edən Milli Məclisin sədri Oqtay Əsədov müstəqilliyimizi bərpa etdikdən sonra ölkələrimiz arasında olan əlaqələrin daha geniş və hərtərəfli inkişaf etdiyini diqqətə çatdırmışdır. Milli Məclisin sədri qeyd etmişdir ki, Azərbaycan rəhbərliyi dövlətlərimiz və xalqlarımız arasında əlaqələrin inkişafına böyük önəm verir. Təsadüfi deyildir ki, bizim Belarusda yaşayan həmvətənlərimiz bu ölkənin ictimai və iqtisadi həyatında fəal iştirak edirlər. Bu baxımdan 2003-cü ilin oktyabrında Minsk şəhərində "Azərbaycan İcması Konqresi" Beynəlxalq İctimai Birliyinin yaradılması təqdirəlayiq haldır və bu birlik Azərbaycan diasporunu Belarusda rəsmi təmsil edir.

Milli Məclisin sədri bildirmişdir ki, qarşılıqlı səfərlər və görüşlər əlaqələrimizin möhkəmlənməsində xüsusi rol oynayır. 2006-cı ildə Prezident İlham Əliyevin Belarus Respublikasına, 2007-ci ildə isə Prezident Aleksandr Lukaşenkonun Azərbaycana rəsmi səfərləri və bu səfərlər çərçivəsində aparılmış danışıqlar, imzalanmış sənədlər iqtisadiyyat, elm, mədəniyyət və humanitar sahələrdə əlaqələrimizin perspektivlərini müəyyənləşdirmiş, möhkəm hüquqi baza yaratmışdır.

Azərbaycan parlament nümayəndə heyətinin Belarusa səfərini yüksək qiymətləndirən Şuranın sədri Boris Batura parlamentlərimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulamışdır. O qeyd etmişdir ki, ölkələrimiz arasında hərtərəfli münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasına və mövcud potensial imkanlardan daha səmərəli istifadə edilməsinə parlamentlərarası əlaqələr böyük töhfələr verə bilər. Bu mənada Azərbaycan parlamenti ilə Belarus parlamenti arasında əməkdaşlığın genişləndirilməsi vacib şərtlərdəndir. Hər iki ölkə parlamentində fəaliyyət göstərən dostluq qruplarının işinin intensiv xarakter alması bu sahədə böyük rol oynayır.

Görüşdə deputatların beynəlxalq təşkilatlarda birgə fəal əməkdaşlığı məsələsi diqqət mərkəzində olmuş, bu əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanmış, iqtisadi, siyasi, mədəni, humanitar, turizm və digər sahələrdə qarşılıqlı maraq doğuran məsələlərə toxunulmuşdur.

Görüşdən sonra Belarus Respublikası Milli Məclisi və Azərbaycan Respublikası Milli Məclisi arasında Əməkdaşlıq Haqqında Saziş imzalanmışdır. Sənədi Azərbaycan Respublikasının Milli Məclisi adından sədr Oqtay Əsədov, Belarus Respublikası Milli Məclisi adından Respublika Şurasının sədri Boris Batura və Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenko imzalamışlar.

İmzalanma mərasimindən sonra Milli Məclisin sədri Oqtay Əsədov, Respublika Şurasının sədri Boris Batura və Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenko mətbuat nümayəndələri önündə çıxış edərək, sənədin mahiyyəti və əhəmiyyəti barədə fikirlərini açıqlamışlar. Qeyd olunmuşdur ki, bu Saziş ölkələrimiz arasında əlaqələrin daha da dərinləşməsinə, parlamentlərarası münasibətlərin möhkəmlənməsinə təkan verəcəkdir.

Azərbaycan parlament nümayəndə heyətinin Belarusa səfəri çərçivəsində həyata keçirilən bütün görüşlərdə və danışıqlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ətraflı fikir mübadiləsi aparılmışdır. Azərbaycan parlament nümayəndə heyəti bu məsələ ilə əlaqədar Belarus tərəfinə ətraflı məlumat vermiş, Ermənistanın beynəlxalq hüquq normalarına əməl etmədiyini, BMT Təhlükəsizlik Şurası və digər beynəlxalq qurumların qəbul etdiyi qətnamə və qərarlara məhəl qoymadığını, işğalçılıq siyasətindən əl çəkmədiyini diqqətə çatdırmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRLİYİ İLƏ ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL İQTİSADİYYAT VƏ TEXNOLOGİYALAR NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

Oktyabrın 12-də Bakıda "Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Azərbaycan Respublikasının İqtisadi İnkişaf

Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyi arasında əməkdaşlıq haqqında" Anlaşma Memorandumu imzalanmışdır.

Sənədi Azərbaycan tərəfdən iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov, Almaniya tərəfdən Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyinin departament direktoru Andreas Oberşteller imzalamışlar.

Memorandum əsasən, Azərbaycanın özəl sektorunda biznesin idarə olunması sahəsində fəaliyyət göstərən kadrların "Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan ikitərəfli Proqramı" çərçivəsində Almaniyada tədris və təcrübə keçməsi nəzərdə tutulur.

Almaniya tərəfdən proqramın icrası "InWent" təşkilatına, Azərbaycan tərəfdən isə İqtisadi İnkişaf Nazirliyinin Bakı Biznes Tədris Mərkəzinə həvalə edilmişdir.

İyulun 22-23-də almaniyalı mütəxəssislərlə birlikdə proqramda iştirak edəcək menecerlər üçün müsahibə keçirilmişdir. 65 nəfər namizədin iştirak etdiyi müsahibədən 22 nəfər keçmişdir. Seçilən namizədlər üçün Bakıda ingilis dili və idarəetmə kadrlarının hazırlığı üzrə treninqlər təşkil edilmişdir.

Növbəti mərhələdə bu ilk pilot layihəsinin iştirakçıları Almaniyada bir aylıq tədris kursu və müəssisələrdə təcrübə keçəcəklər.

AFİNADA ATƏT PARLAMENT ASSAMBLEYASININ PAYIZ SESSİYASI KEÇİRİLMİŞDİR

Afinada ATƏT Parlament Assambleyasının payız sessiyası keçirilmişdir. Milli Məclis sədrinin müavini, ölkəmizin bu təşkilatdakı nümayəndə heyətinin rəhbəri Bahar Muradovanın başçılığı ilə Azərbaycan nümayəndə heyətinin də iştirak etdiyi parlament konfransı "Enerji təhlükəsizliyi və ətraf mühit" mövzusuna həsr olunmuşdur. Toplantıda "Regional əməkdaşlıq və enerji təhlükəsizliyi", "İqlim və ətraf mühit sahəsinə dair siyasət - Kopenhagenə doğru", "İnsanın təhlükəsizliyinin təmin edilməsi üçün təbii ehtiyatlardan optimal istifadə" mövzuları ətrafında müzakirələr aparılmışdır. "Enerji təhlükəsizliyi və ətraf mühit" mövzusunda müzakirələrdə Milli Məclis sədrinin müavini Bahar Muradova da çıxış etmişdir.

Daimi komitənin iclasında isə ATƏT-in Aralıq dənizi regionuna münasibətində perspektivlər və çağırışlar, həmçinin həmin bölgədə ticarət və iqtisadi əməkdaşlıq məsələlərinə baxılmışdır.

Toplantıda Azərbaycan Milli Məclisinin deputatları çıxış edərək ölkəmizin bu məsələlərə dair mövqeyini çatdırmışlar. Sessiya çərçivəsində Cənubi Qafqaz ölkələri parlamentarilərinin ayrıca üçtərəfli görüşü keçirilmişdir.

ATƏT PA-nın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkerin də iştirak etdiyi görüşdə Cənubi Qafqaz regionunda münaqişələrin həlli və təhlükəsizlik məsələləri müzakirə olunmuşdur.

AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN AUDİTORLAR PALATALARI ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR

Oktyabrın 13-də Bakıda Azərbaycan və Özbəkistan Auditorlar palataları arasında əməkdaşlıq haqqında saziş imzalanmışdır.

Azərbaycan Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzov Prezident İlham Əliyevin bazar infrastrukturunun çox mühüm sahəsi kimi auditə verdiyi böyük əhəmiyyəti və bu sahəyə göstərdiyi gündəlik qayğını qonaqların diqqətinə çatdırmış, hazırda Azərbaycanda auditin mükəmməl qanunvericilik bazası əsasında inkişafını vurğulamışdır. Bildirmişdir ki, son 10 ildə qurum 13 ölkənin audit və mühasibat təşkilatları ilə ikitərəfli əməkdaşlıq haqqında 17 saziş və niyyət protokolu imzalamışdır.

V.Novruzov dost, qardaş ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni əlaqələrin yüksək səviyyədə olduğunu xatırlatmış, müxtəlif beynəlxalq təşkilatlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ilə bağlı keçirilən müzakirələrdə Özbəkistanın ölkəmizin ədalətli mövqeyini daim dəstəklədiyini diqqətə çatdırmışdır.

Məlumat verilmişdir ki, imzalanacaq sənəddə işçilərin ixtisasartırma proqramlarında iştirak etməsinə qarşılıqlı yardım etmək, bir-birinin təcrübəsinin öyrənilməsi, peşə üçün vacib olan müxtəlif məsələlərlə bağlı məsləhətləşmələr aparmaq, mühasiblərin və auditorların xarici, beynəlxalq peşə birlikləri ilə qarşılıqlı fəaliyyət göstərməsi və digər məsələlər əksini tapmışdır. Audit sahəsində Özbəkistan təcrübəsinin öyrənilməsinin vacibliyi də vurğulanmışdır.

Özbəkistan Auditorlar Palatasının sədri Rövşən Xaydarov ölkələrimiz arasında hərtərəfli əlaqələrin dinamik inkişaf etdiyini söyləmiş, rəhbərlik etdiyi qurumun vəzifələri və fəaliyyətinin əsas istiqamətləri, audit sahəsində təcrübə mübadiləsinin vacibliyi haqqında danışmışdır.

Əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Vahid Novruzov, Özbəkistan tərəfdən isə onun həmkarı Rövşən Xaydarov imzalamışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İORDANİYAYA RƏSMİ SƏFƏRİ

Oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İordaniya Haşimilər Krallığına rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və İordaniyanın dövlət bayraqları ilə bəzədilmiş Əmmanın Kraliça Alia Beynəlxalq hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı İordaniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

Mehriban xanıma gül dəstəsi təqdim edildi.

ƏMMANDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QARŞILANMA MƏRASİMİ OLMUŞDUR

Oktyabrın 12-də İordaniyada rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyevin Əmmanın Al Hummar sarayında rəsmi qarşılanma mərasimi olmuşdur.

İordaniyanın və Azərbaycanın dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İordaniya Kralı II Abdullah və kraliça Raniyə Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı sarayın önündə qarşıladılar.

İordaniyanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycanın nümayəndə heyətinin üzvləri Kral II Abdullaha təqdim olundu.

Hərbi orkestrin ifasında Azərbaycanın və İordaniyanın dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN GÖRÜŞÜ

Oktyabrın 12-də Al Hummar sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın İordaniya Kralı II Abdullah və xanımı Raniyə ilə birgə görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Dövlət başçıları yüksək səviyyəli qarşılıqlı səfərlərin mühüm əhəmiyyətini qeyd etdilər.

Prezident İlham Əliyevin İordaniyaya növbəti rəsmi səfərinin əməkdaşlığın möhkəmləndirilməsinə xidmət etdiyi bildirildi.

Prezident İlham Əliyev və Kral II Abdullah ölkələrimiz arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliklərini ifadə etdilər.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Oktyabrın 12-də Al Hummar sarayında Prezident İlham Əliyevin və Kral II Abdullahın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Görüşdə Kral II Abdullah Azərbaycan ilə İordaniya arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı.

İordaniya dövlətinin başçısı ölkəsinin Azərbaycan ilə əlaqələrinə mühüm əhəmiyyət verdiyini qeyd etdi.

Kral II Abdullah Azərbaycan Prezidenti İlham Əliyevin İordaniyaya rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə daha da genişlənməsinə təkan verəcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında güclü siyasi əlaqələrin ikitərəfli əməkdaşlığı genişləndirməyə hərtərəfli zəmin yaratdığını vurğuladı.

Dövlətimizin başçısı İordaniya Kralı II Abdullahın Azərbaycana rəsmi səfərinin əlaqələrin inkişafında vacib rol oynadığını dedi. Prezident İlham Əliyev İordaniyanın beynəlxalq təşkilatlarda Azərbaycana verdiyi dəstəyi yüksək qiymətləndirdi, səfər zamanı imzalanacaq sənədlərin əlaqələrimizin möhkəmlənməsinə əlavə imkanlar açacağını söylədi.

İki ölkənin iqtisadi əməkdaşlığının genişləndirilməsinin vacibliyini qeyd edən Prezident İlham Əliyev, bu baxımdan hökumətlərarası iqtisadi komissiyasının işinin əhəmiyyətini vurğuladı.

Azərbaycan dövlətinin başçısı səfər çərçivəsində həyata keçiriləcək konkret layihələrlə bağlı faydalı müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İORDANİYANIN BAŞ NAZİRİ NADER DƏHƏBİ İLƏ GÖRÜŞÜ

Oktyabrın 12-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İordaniya Haşimilər Krallığının Baş naziri Nader Dəhəbi ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsi üçün potensial imkanlar barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ

Oktyabrın 12-də Əmmanda İordaniya Kralı II Abdullah və kraliça Raniyə tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə nahar verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İORDANİYAYA RƏSMİ SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Oktyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İordaniya Haşimilər Krallığına rəsmi səfəri başa çatmışdır.

Azərbaycan-İordaniya əlaqələrinin uğurlu inkişafında Prezident İlham Əliyev ilə Kral əlahəzrət II Abdullah ibn əl-Hüseynin şəxsi dostluğu da mühüm rol oynayır. Məhz Azərbaycan Prezidenti ilə şəxsi dostluğuna, eləcə də Azərbaycan-İordaniya əməkdaşlığına verdiyi yüksək önəmin bariz nümunəsi olaraq Kral əlahəzrət II Abdullah ibn əl-Hüseyn Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Vətənə yola salmaq üçün dövlətimizin başçısına ayrılmış iqamətgaha gəldi.

Kral Azərbaycanın dövlət başçısını hava limanına özü maşının sükanı arxasına keçərək müşayiət etdi.

Azərbaycanın və İordaniyanın dövlət bayraqları ilə bəzədilmiş Əmmanın Marka Beynəlxalq hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim edildi.

Prezident İlham Əliyevi və xanımını İordaniya Kralı II Abdullah yola saldı.

BAKIDA İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN VI KONFRANSI İŞƏ BAŞLAMIŞDIR

Oktyabrın 13-də "Gülüstan" sarayında "Bakı-İslam Mədəniyyətinin Paytaxtı-2009" mədəniyyət ili çərçivəsində Bakıda İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransı işə başlamışdır.

Dünyanın 45-dən çox ölkəsindən, eləcə də İSESKO, İRSİKA, Avropa Şurası, TÜRKSOY və digər təşkilatlardan 200-dən çox iştirakçının qatıldığı tədbirdə əvvəlcə "Qurani-Kərim"dən ayələr oxunmuşdur.

Baş nazirin müavini Elçin Əfəndiyev Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına təbrikini oxumuşdur.

İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri konfransı açaraq, təşkilatçılığa və qonaqpərvərliyə görə başda Prezident İlham Əliyev olmaqla Azərbaycan xalqına təşəkkür etmiş, mədəniyyətlərin qovuşuğunda yerləşən Azərbaycanın sivilizasiyalararası dialoqa böyük töhfələr verdiyini demişdir. Ölkəmizin İSESKO ilə əməkdaşlığını yüksək qiymətləndirən Əbdüləziz bin Osman əl-Tuveycri ümidvar olduğunu bildirmişdir ki, Azərbaycan müdrik rəhbəri ilə daha böyük uğurlar qazanacaqdır.

İKT-yə üzv ölkələrin mədəniyyət istiqamətində əlaqələrinin daha dərinləşməsi üçün bir neçə proqram hazırlandığını diqqətə çatdıran baş direktor, eyni zamanda turizm sahəsində də əməkdaşlığı genişləndirməyin əhəmiyyətini vurğulamışdır.

Əbdüləziz bin Osman əl-Tuveycri İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransının mədəniyyət sahəsində əməkdaşlığı dərinləşdirmək baxımından əhəmiyyətini vurğulamışdır.

İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət Nazirlərinin V Konfransına sədrlik etmiş Liviyanın mədəniyyət naziri Nouri Habeidi ötən müddətdə görülmüş işlər haqqında danışmışdır.

İSESKO-nun nümayəndəsi Abdel Moez Bouxari çıxışında bildirmişdir ki, Azərbaycanın İslam mədəniyyətinin tarixində özünəməxsus yeri vardır. Milli və müasir sivilizasiyaların qovuşuğunda yerləşən bu diyar İslam mədəniyyətinə əvəzsiz töhfələr vermişdir.

Natiq təhsil sahəsində əməkdaşlığa diqqətin artırılmasının vacibliyini vurğulamışdır.

İSESKO-nun nümayəndəsi demişdir ki, Bakı konfransında mədəniyyət, mədəniyyətlərarası dialoq, mədəni turizm, incəsənət, mədəni irs və digər sahələrdə regional və beynəlxalq layihələrin həyata keçirilməsinə təşəbbüs göstərməli və bu sahələrdə olan

problemlərimizin həlli istiqamətində konkret addımlar atmalıyıq.

* * *

Tədbirdə İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransına sədrlik Azərbaycana keçmişdir.

Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirmişdir ki, 2007-ci ilin noyabrında Liviyanın Tripoli şəhərində keçirilən İslam ölkələrinin Mədəniyyət Nazirlərinin V Konfransında Bakı şəhərinin 2009-cu il üçün "İslam Mədəniyyətinin Paytaxtı" elan olunması və nazirlərin VI Konfransının Bakıda keçirilməsi qərara alınmışdı. Bununla əlaqədar olaraq "Bakı-İslam Mədəniyyətinin Paytaxtı-2009" mədəniyyət ilinin proqramına 100-dən artıq milli və beynəlxalq miqyaslı tədbir daxil edilmişdir.

Nazir "Bakı-İslam Mədəniyyətinin Paytaxtı-2009" çərçivəsində keçirilmiş tədbirlər haqqında məlumat vermişdir.

Ə.Qarayev İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransının təşkilinə göstərdiyi diqqətə görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirmişdir ki, Azərbaycan hazırda böyük inkişaf yolunu yaşayır. Azərbaycan dövləti öz imkanlarından istifadə edərək başqa istiqamətlərdə olduğu kimi, mədəniyyət sahəsində islahatlar, proqramlar həyata keçirir. Ölkəmizin bütün mədəniyyət müəssisələrində yenidənqurma və bərpa işləri aparılır, onlar ən müasir texnologiyalarla təmin edilir. Bu istiqamətdə həm Avropa, həm də İslam ölkələrinin mütərəqqi təcrübəsindən istifadə olunur.

Nazir Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın mədəniyyət sahəsinə göstərdiyi diqqəti xüsusi vurğulamışdır.

Azərbaycan dövlətinin İslam mədəniyyətinə aid abidələrin, tarixi irs nümunələrinin qorunması və mühafizəsi istiqamətində ən yüksək səviyyədə tədbirlər keçirdiyini diqqətə çatdıran Ə.Qarayev təəssüflə bildirmişdir ki, Ermənistanın işğalı altında olan ərazilərimizdə mədəniyyət ocaqları, dini abidələr, məscidlər dağıdılmışdır.

Nazir ümidvar olduğunu bildirmişdir ki, Bakı konfransı əməkdaşlığımızın genişləndirilməsinə müsbət təsir göstərəcəkdir.

* * *

Konfrans işini "Dialoq və mədəni müxtəlifliyin təşviqi" mövzusunda "dəyirmi masa" ilə davam etdirmişdir.

Bildirilmişdir ki, "dəyirmi masa" 2008-ci ildə Bakıda keçirilmiş Avropa ölkələrinin mədəniyyət nazirlərinin konfransında əsası qoyulan "Mədəniyyətlərarası dialoqa dair Bakı prosesi" çərçivəsində həyata keçirilir.

Diqqətə çatdırılmışdır ki, bu konfransdan əvvəl Bakıda İslam dünyasının mədəni strategiyasının yerinə yetirilməsinə dair məşvərətçi şuranın IX iclası olmuşdur. İclasda bugünkü konfransda qəbul ediləcək sənədlər müzakirə edilmişdir. Bildirilmişdir ki, oktyabrın 16-17-də Bakıda TÜRKSOY mədəniyyət nazirlərinin daimi Şurasının 26-cı

toplantısı keçiriləcəkdir.

"Dəyirmi masa"da Liviya, Mərakeş, Fələstin, Bolqarıstan, Suriya, Sudan, Polşa, Gürcüstan, Avstriya, Malayziya, Misir, Səudiyyə Ərəbistanı və digər ölkələrin təmsilçiləri çıxış etmişlər.

Vurğulanmışdır ki, bu "dəyirmi masa"nı "Bakı prosesi: sivilizasiyalararası dialoqa yeni çağırış" kimi qiymətləndirmək olar.

Çıxışlarda müxtəlif təkliflər səsləndirilmiş, mövcud problemlər və onların həlli yollarından danışılmışdır.

Bildirilmişdir ki, müzakirələrdə irəli sürülən fikirlər müxtəlif mədəniyyətlərarası dialoqun təşviqinə töhfəsini verəcəkdir. Bunun üçün real işlər və konkret təkliflər irəli sürülməlidir.

"Dəyirmi masa"ya yekun vuran Əbülfəs Qarayev demişdir ki, biz artıq "Dialoq paytaxtı" ideyası üzərində düşünməliyik. Bakı şəhəri "Dialoq paytaxtı" statusunu ilk olaraq öz üzərinə götürə bilər. Bu, olduqca böyük məsuliyyətdir. İnanıram ki, bu təklif iştirakçılar tərəfindən müsbət qiymətləndiriləcəkdir.

Nazir vurğulamışdır ki, 2011-ci ildə Azərbaycanda "Ümumdünya mədəniyyətlərarası dialoq forumu" təşkil ediləcəkdir. Bu forum Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə reallaşacaqdır.

Sonra konfransın gündəliyi təsdiq edilmişdir.

Konfrans işini İslam dünyası üçün mədəni strategiyanın həyata keçirilməsi sahəsindəki səylər ətrafında müzakirələrlə davam etdirmişdir.

PREZİDENT İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN VI KONFRANSININ NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR

Oktyabrın 14-də Prezident İlham Əliyev "Bakı - İslam Mədəniyyətinin Paytaxtı-2009" mədəniyyət ili çərçivəsində Bakıda keçirilən İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransının nümayəndələrini qəbul etmişdir.

Prezident İLHAM ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Əziz qonaqlar!

Hörmətli nazirlər!

Sizi Azərbaycanda ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

İslam Konfransı Təşkilatına üzv olan ölkələrin mədəniyyət nazirlərinin dünən və bu gün Bakıda keçirilən konfransı çox böyük əhəmiyyətə malik olan bir hadisədir. Əminəm ki, dünən və bu gün aparılan müzakirələr, qəbul edilən qərarlar ölkələrimiz arasında birliyi daha da möhkəmləndirəcək və İslam həmrəyliyinin gücləndirilməsi üçün çox önəmli bir addım olacaqdır. Təmsil etdiyiniz ölkələrlə Azərbaycan arasında münasibətlər çox yüksək səviyyədədir. Biz bu münasibətlərin inkişafına öz tərəfimizdən töhfəmizi veririk. Mən tam əminəm ki, müsəlman ölkələri arasında olan dostluq, qardaşlıq münasibətləri hər bir ölkənin beynəlxalq mövqelərini də gücləndirir.

Biz İslam Konfransı Təşkilatının xətti ilə Bakıda keçirilən çoxsaylı tədbirlərə böyük önəm veririk və son illər ərzində Bakıda müxtəlif səviyyəli tədbirlər keçirilmişdir. Bu tədbirlərin hər biri bizim aramızda olan birliyi daha da gücləndirmişdir. Bir tərəfdən bu, praktik cəhətdən çox böyük əhəmiyyətə malikdir. Digər tərəfdən qardaş, dost ölkələrdən gəlmiş qonaqlar Azərbaycanda olarkən, bizim tariximizlə, mədəniyyətimizlə tanış olarkən və bir-biriləri ilə şəxsi münasibətləri daha da möhkəmləndirərkən, təbii ki, ölkələr arasında əlaqələr də bundan ancaq fayda götürür.

Azərbaycan təmsil etdiyiniz ölkələrlə, eyni zamanda, beynəlxalq arenada çox uğurlu əməkdaşlıq edir. Biz bir-birimizi beynəlxalq təşkilatlarda da dəstəkləyirik və bu dəstəyin çox böyük əhəmiyyəti vardır. Xüsusilə keçən il Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində Azərbaycanın təşəbbüsü ilə müzakirə edilən Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyətlə bağlı məsələlərdə biz müsəlman ölkələrindən böyük dəstək aldıq. Bu dəstək bizim marağımızı təmin edən və ədaləti özündə əks etdirən qətnamənin qəbul edilməsində həlledici rol oynamışdır. Bu, dostluğun, qardaşlığın nümunəsidir. Bu, bir daha onu göstərir ki, biz birlikdə olanda, bütün məsələlərə vahid ailə kimi yanaşanda və xüsusilə beynəlxalq müstəvidə bir-birimizə dəstək verəndə bizim mövqelərimiz daha da güclənir. Mən əminəm ki, həm İslam Konfransı Təşkilatı çərçivəsində, həm Birləşmiş Millətlər Təşkilatında və digər beynəlxalq təşkilatlarda biz qarşılıqlı dəstəyi bundan sonra da verəcəyik. Bu dəstək bizi daha da möhkəmləndirəcək və eyni zamanda, bizim aramızda münasibətlərin dərinləşməsinə xidmət göstərəcəkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi uzun illərdir ki, həll olunmamış qalır. Mən bilirəm ki, konfrans zamanı bu məsələ də müzakirə edildi. Çox geniş, ətraflı müzakirələr aparıldı və çox vacib bəyanatlar verildi, qərarlar qəbul edildi. Buna görə mən bütün konfrans iştirakçılarına öz minnətdarlığımı bildirmək istəyirəm.

Uzun illərdir ki, bizim torpaqlarımız işğal altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından didərgin düşüb. Bizim işğal edilmiş ərazilərimizdə bütün tarixi abidələrimiz dağıdılıbdır.

Azərbaycan xalqının istedadı və zəhməti hesabına yaradılmış bütün infrastruktur, bütün binalar yerlə-yeksan edilib. Bizim dini abidələrimiz, məscidlərimiz, əcdadlarımızın qəbirləri dağıdılıb. Bu ədalətsizlik artıq 20 ilə yaxındır ki, davam edir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasına dair dörd qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, Ermənistan bunlara məhəl qoymur və bu qətnamələr icra olunmur.

Bayaq qeyd etdiyim kimi, BMT Baş Məclisində buna oxşar qətnamələr qəbul edilmişdir. İslam Konfransı Təşkilatı, ATƏT, Avropa Şurası, GUAM və digər təşkilatlar Azərbaycanın işğal edilmiş torpaqlarından Ermənistan qoşunlarının çıxarılmasına dair çoxsaylı qətnamələr və qərarlar qəbul etmişlər. Ancaq əfsuslar olsun ki, onlara məhəl qoyulmur. Biz bu vəziyyətlə barışa bilmərik. Çünki Azərbaycanın beynəlxalq birlik tərəfindən qəbul edilmiş ərazi bütövlüyü pozulub.

Qeyd etdiyim kimi, bu işğaldan əziyyət çəkən bir milyondan artıq Azərbaycan vətəndaşı bu günə qədər də öz doğma torpaqlarına qayıda bilmir. Bizim mövqeyimiz ondan iba-

rətdir və beynəlxalq hüquq normaları da bunu təsdiq edir ki, bu məsələ ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. İşğal edilmiş bütün torpaqlardan Ermənistanın işğalçı qüvvələri çıxarılmalıdır. Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar. Ondan sonra bölgədə sülh təmin oluna bilər. Ondan sonra bölgədə tammiqyaslı əməkdaşlıq yarana bilər. Ancaq ondan sonra bölgədə irəli sürülmüş yeni təşəbbüslər reallaşa bilər. Dağlıq Qarabağ münaqişəsinin həlli bölgədə sülhün təmin edilməsi üçün birinci və başlıca şərtdir. Bu məsələ həll olunmadan bölgədə heç bir başqa məsələ öz həllini tapa bilməz.

Bir daha bu fürsətdən istifadə edib bütün müsəlman ölkələrində yaşayan bacı-qardaşlarımıza bizə daim dəstək verdiklərinə görə öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycanın çox zəngin tarixi, çox zəngin mədəniyyəti vardır. Biz 18 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Ancaq müxtəlif dövrlərdə başqa ölkələrin tərkibində yaşamağımıza baxmayaraq, öz mədəni irsimizi, tarixi irsimizi saxlaya bilmişik, qoruya bilmişik. Abidələri qoruya bilmişik, ana dilimizi qoruya bilmişik, milli və dini adət-ənənələri qoruya bilmişik. Bu gün Azərbaycanın uğurlu inkişafı üçün bizim milli-mənəvi dəyərlərimiz çox böyük rol oynayır.

Müstəqilliyimizin ilk illərindən biz müstəqil ölkə kimi dünya birliyinə inteqrasiya etməklə, eyni zamanda, bizim üçün dost, qardaş olan müsəlman ölkələri ilə də çox sıx əlaqələr qurduq. Bu əlaqələrin müxtəlif istiqamətləri vardır və bu günlərdə Bakıda keçirilən konfrans bir daha onu vurğulayır.

Azərbaycanda mədəniyyət sahəsində çox böyük işlər görülür. Bütün mədəniyyət ocaqları təmir olunur, bərpa edilir. Yeni muzeylər, teatrlar tikilir, əvvəllər tikilmiş mədəniyyət infrastrukturu yeniləşir, müasirləşir.

Bildiyiniz kimi, Bakı bu il İslam mədəniyyətinin paytaxtı şəhəri seçilmişdir. Bu, bizim üçün böyük şərəfdir. Biz bu şərəfli adı çox böyük qürur hissi ilə daşıyırıq. Bu il Bakı İslam mədəniyyətinin paytaxtı olmaqla bərabər, ölkəmizdə müxtəlif beynəlxalq tədbirlər də keçirilir.

Azərbaycan sivilizasiyalararası dialoqun gücləndirilməsinə öz töhfəsini verir. Çünki bizim coğrafi vəziyyətimiz və eyni zamanda, Avropa təşkilatlarına üzv olmağımız bu unikal imkanları yaradır. Biz çalışacağıq öz səylərimizi bundan sonra da qoyaq ki, mədəniyyətlərarası dialoqun gücləndirilməsinə daha da böyük töhfə verək.

Mən bir daha sizi Bakıda ürəkdən salamlayıram. Mən çox şadam ki, siz ölkəmizə səfər edirsiniz. Xahiş edirəm ki, mənim salamlarımı və ən xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız. Eyni zamanda, mən konfransda iştirak etmiş bütün beynəlxalq təşkilatların nümayəndələrini də salamlayıram. Mən Azərbaycanın böyük dostu cənab əl-Tüveycrini xüsusilə salamlayıram. İSESKO ilə Azərbaycan arasında çox uğurlu əməkdaşlıq aparılır və bu əməkdaşlığın çox praktiki gözəl nəticələri vardır.

Mən sizi bir daha salamlayıram və sizə ən xoş arzularımı bildirmək istəyirəm.

***

İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) baş direktoru ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ konfrans nümayəndələrinə göstərilən böyük diqqətə və bütövlükdə İKT-nin və İSESKO-nun fəaliyyətinə verdiyi dəstəyə görə Azərbaycan dövlətinin başçısına görüş iştirakçıları adından minnətdarlığını bildirərək dedi:

- İSESKO bu gözəl ölkə ilə çox yaxşı münasibətlər qurmuşdur. Son bir neçə il ərzində sizin rəhbərliyiniz, dəstəyiniz və qayğınız sayəsində bu gözəl ölkənin bir neçə təşkilatı ilə İSESKO çox yaxşı əməkdaşlıq etmişdir, faydalı tədbirlər və konfranslar keçirmişdir.

Bu il İslam mədəniyyətinin paytaxtı elan olunduqdan sonra Bakı özünü nümunəvi şəhər kimi göstərmişdir. Burada bir çox tədbirlər, konfranslar keçirilmişdir. Mədəniyyət Nazirlərinin Konfransı bu proseslərə əlavə töhfə verir və bir daha onu göstərir ki, Sizin gözəl ölkə və bu ölkənin gözəl milləti öz mədəniyyəti və irsi ilə fəxr edir ki, bu mədəniyyətləri, bütün müsəlman ölkələrini birləşdirir.

Sizə və Azərbaycanın birinci xanımı, bizim xoşməramlı səfirimiz Mehriban Əliyevaya bizə göstərdiyiniz dəstəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Mən ümid edirəm ki, biz hamımız öz işimizi, xoşməramlı fəaliyyətimizi rəhbərlərimizin, prezidentlərimizin, baş nazirlərimizin, krallarımızın rəhbərliyi altında davam etdirəcəyik. Biz İsrail hərbi qüvvələrinin təcavüzü altında olan məscidlərimizi yadımızdan çıxarmayacağıq. Biz Dağlıq Qarabağı yadımızdan çıxarmayacağıq. Biz Azərbaycan üçün, onun ərazi bütövlüyünün bərpası üçün dəstəyimizi göstərməkdə davam edəcəyik ki, Sizin ölkənin bu gözəl ərazisinə sülh gəlsin.

Cənab Prezident, bizi qəbul etdiyinizə görə çox sağ olun. Ölkənizə Sizin rəhbərliyiniz altında inkişaf arzulayırıq.

***

Səudiyyə Ərəbistanı Krallığının mədəniyyət və informasiya naziri ƏBDÜLƏZİZ XOCA MÜHİDDİN Səudiyyə Ərəbistanının Kralı, İki Müqəddəs ocağın xadiminin salamlarını Azərbaycanın dövlət başçısına çatdırdı. O, Bakıda keçirilən konfransın yüksək səviyyədə təşkili ilə bağlı görüş iştirakçılarının təəssüratlarını bildirərək dedi:

- Mən bu səfəri böyük tarixi bir səfər hesab edirəm. Təbii ki, biz bu səfərimizlə nümayiş etdiririk ki, İslam necə böyük dindir, necə əzəmətli bir dindir. Bu dində milli ayrı-seçkilik, heç bir fərqlilik yoxdur. Ola bilsin ki, mədəniyyətlər arasında fərqlər vardır. Lakin bütün mədəniyyətlər, eyni zamanda, bir-biri ilə əlaqələrə əsaslanır.

Cənab Prezident, biz Azərbaycanın ərazi bütövlüyünü, onun suverenliyini dəstəkləyirik, onun tərəfindəyik. İslam Konfransı Təşkilatının bütün üzvləri kimi, Azərbaycanın suverenliyini və onun tarixi ərazilərinin bütövlüyünü dəstəkləyir və Sizə bütün iştirakçıların adından minnətdarlığımızı bildirmək istərdik. Cənab Prezident, çox sağ olun.

***

Əlcəzairin mədəniyyət naziri xanım XALİDA TOUMİ də konfransın yüksək səviyyədə təşkilinə görə İslam Konfransı Təşkilatının və tədbirdə iştirak edən digər beynəlxalq təşkilatların nümayəndələri adından Azərbaycan Prezidentinə təşəkkürünü bildirdi:

- Cənab Prezident, Sizin Vətəniniz, Sizin camaatınız bizim üçün bir fəxrdir. Çünki onlar

bu gün qüdrətli bir xalq olduğunu sübut etmişdir. Bu xalq öz mədəniyyətini qorumaq, İslam mədəniyyətini inkişaf etdirmək üçün böyük qüdrəti, imkanları olduğunu sübut etmişdir. Mən burada demək istərdim və biz şübhə etmirik ki, Sizin probleminiz, Sizin ərazi problemi ilə bağlı olan məsələniz ədalətli həllini tapacaq və İslam ölkələri tərəfindən dəstəklənəcəkdir. Təbii ki, bu problem öz ədalətli həllini tapmalıdır.

***

Suriyanın mədəniyyət naziri RİYAD NAASSAN AĞA bir neçə il əvvəl Bakıda olduğunu xatırlatdı və ötən dövrdə paytaxtımızda çox böyük dəyişikliklərin baş verdiyini diqqətə çatdıraraq dedi:

- Bakıda böyük dəyişikliklər baş vermişdir və Siz burada böyük işlər, böyük tikinti işləri görmüsüz. Təbii ki, Bakı dünyanın qədim, gözəl paytaxtlarındandır, İslam dünyasının ən qədim mədəniyyətə malik olan paytaxtlarındandır. Bu şəhər İslam mədəniyyətinin Şərqdən Qərbə doğru getməsində sanki böyük bir dayanacaq, körpü rolunu oynamışdır.

Təbii ki, bu qısa müddət ərzində Sizin həyata keçirdiyiniz və xüsusən mənim qeyd etdiyim bu iki il ərzində həyata keçirdiyiniz nəhəng, əzəmətli planlar diqqəti cəlb edir. Bu məsələlər sübut edir ki, Sizin həyata keçirdiyiniz tədbirlər məhz ölkənizin dünya birliyində möhkəm, qüdrətli yer tutmasına səbəb olmuşdur.

Bakı təkcə Xəzər neftindən gələn zənginliyə malik deyildir. Bakı böyük, qədim mədəniyyətə malik bir şəhərdir. Bu şəhərin insanlığın inkişafında, İslam mədəniyyətinin inkişafında böyük rolu vardır. Təbii ki, burada İslam ədəbiyyatının, ərəb ədəbiyyatının öyrənilməsi ilə bağlı məsələlər də öz əksini tapmışdır. Bütün bunların hamısı İslam aləmində xoş hisslər oyadır ki, Azərbaycan öz tarixinə sadiq bir ölkədir və bu ölkənin böyük və qədim bir tarixi vardır.

Qonaq Bakıda tez-tez mühüm tədbirlərin keçirilməsini Azərbaycanın dünya birliyində layiqli yer tutması ilə əlaqələndirdi.

Nazir Suriya Prezidenti Bəşşar əl-Əsədin salamlarını Azərbaycan dövlətinin başçısına çatdırdı.

***

Prezident İLHAM ƏLİYEV görüşə yekun vuraraq dedi:

- Çox sağ olun, əziz dostlar. Azərbaycan haqqında, Bakı haqqında dediyiniz bütün xoş sözlərə görə mən sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Bu günlər həqiqətən bir dostluq günləridir, qardaşlıq günləridir. Mən təəssüf edirəm ki, konfransın açılışında iştirak edə bilməmişəm. Mən çox istəyirdim ki, açılışda sizinlə görüşüm. Amma bunun səbəbi də ondan ibarətdir ki, mən xaricdə idim, rəsmi səfərdə idim. Bizim üçün dost, qardaş ölkə olan İordaniyaya səfər edirdim. Bu, bir daha onu göstərir ki, Azərbaycan müstəqil ölkə kimi İslam ölkələri ilə, müsəlman ölkələri ilə münasibətlərin qurulmasında çox fəaldır və bizim xarici siyasətimizin bu istiqaməti deyə bilərəm ki, prioritet xarakter daşıyır. Çünki bizi bir-birimizlə bağlayan ancaq ortaq maraqlar deyildir. Bizi bağlayan bizim müştərək tariximizdir, mədəniyyətimizdir, aramızda olan tarixi bağlardır. Azərbaycan müstəqilliyinin ilk illərindən başlayaraq bu günə qə-

dər öz xarici siyasətində İslam həmrəyliyi prinsiplərini həmişə uca tutmuşdur.

Qeyd etdiyim kimi, biz çox zəngin mədəniyyətə malikik. Ancaq 18 ildir müstəqil ölkə kimi yaşayırıq. Biz müxtəlif dövrlərdə başqa ölkələrin tərkibində yaşamışıq. Ancaq buna baxmayaraq, öz milli mənliyimizi saxlaya bilmişik, öz tariximizi qoruya bilmişik və bu gün müstəqil ölkə kimi uğurla inkişaf edirik. Bunun səbəblərindən biri də ondan ibarətdir ki, biz tarixi köklərimizə, dəyərlərimizə, müqəddəs İslam dininə həmişə sadiq olmuşuq.

Bildiyiniz kimi, Sovet İttifaqı zamanında ümumiyyətlə dinə qadağa qoyulmuşdu. Azərbaycanda məscidlər dağıdılmışdı və Azərbaycan vətəndaşları öz vicdan azadlığını ifadə edə bilmirdilər. Azərbaycanda bir neçə məscid qalmışdı. Onlar da sadəcə olaraq bir tarixi abidə kimi saxlanılmışdı. Müstəqillik dövründə, Azərbaycanın taleyi öz xalqının əlində cəmləşdiyi bir zamanda Azərbaycanda mindən artıq məscid tikilmişdir. Bu, bizim mənəvi dəyərlərimizdir. Bu, bizim keçmişimizdir və bizim gələcəyimizdir.

Azərbaycan xalqı indi öz taleyini özü həll edir. Bu, bizim üçün tarixi əhəmiyyətdir. Biz bu gün dünya birliyində öz müstəqil siyasətimizi aparırıq. Bizim üçün dost, qardaş ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələr qururuq və biz görürük beynəlxalq təşkilatlarda kimlər bizi dəstəkləyir. Bu, çox önəmlidir. Əlbəttə, biz çalışırıq ki, bütün ölkələrlə yaxşı münasibətlər quraq və buna nail oluruq. Ancaq ölkəmiz üçün həlledici məqamlarda bizim yanımızda olan ölkələr müsəlman ölkələri olmuşdur. Beynəlxalq təşkilatlarda bizə ən çox dəstək verən ölkələr müsəlman ölkələridir. Biz də öz növbəmizdə, bütün beynəlxalq təşkilatlarda həmişə müsəlman ölkələrinin təşəbbüslərini dəstəkləyirik.

Ölkələr arasında həm iqtisadi, həm də siyasi əlaqələr daha da sürətlə inkişaf etməlidir. Mədəni əlaqələrin inkişafı üçün böyük imkanlar vardır. Biz öz imkanlarımızı paylaşmalıyıq və elə etməliyik ki, İslam dünyasında həmrəylik daha da yüksək səviyyəyə qalxsın, biz bütün tədbirlərdə vahid bir ailə kimi çıxış edək.

Yenə də demək istəyirəm ki, Azərbaycan gənc müstəqil dövlətdir və İslam Konfransı Təşkilatında bizim üzvlük müddətimiz o qədər də böyük deyildir. Ancaq bu qısa müddət ərzində biz çalışmışıq və çalışırıq ki, İslam həmrəyliyinin gücləndirilməsinə öz töhfəmizi verək.

Mən bayaq qeyd etdim ki, Azərbaycanda nazirlər - xarici işlər, təhsil, turizm nazirləri səviyyəsində çoxsaylı tədbirlər keçirilmişdir. Bu gün isə Bakıda mədəniyyət nazirlərinin konfransı keçirilir. Bir neçə gün bundan əvvəl Bakıda böyük elmi-praktiki konfrans keçirilmişdir. Bir neçə gün ərzində ərəb ədəbiyyatının öyrənilməsi və tədqiqi üçün çox önəmli beynəlxalq konfrans keçirilmişdir. Yəni bu, bir daha onu göstərir ki, bizim niyyətimiz nədən ibarətdir.

Mən bugünkü görüşə çox böyük əhəmiyyət verirəm. Mən sizi ürəkdən salamlayıram və bir daha xahiş edirəm ki, mənim səmimi salamlarımı ölkələrinizin rəhbərlərinə çatdırasınız. Biz istəyirik ki, belə tədbirlər Bakıda tez-tez keçirilsin. Biz çox şadıq ki, Azərbaycanın paytaxtı Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı seçilmişdir. Bu, bizim üçün böyük şərəfdir. Bu, İslam dünyasının Azərbaycana verdiyi qiymətdir. Biz bundan sonra da çalışacağıq ki, bu həmrəyliyi praktiki işlərimizlə daha da gücləndirək.

Mən bir daha sizə öz təşəkkürümü bildirmək istəyirəm ki, siz Azərbaycana gəlmisiniz,

bu konfransda yüksək səviyyədə iştirak edirsiniz. Əminəm ki, Bakıda keçirdiyiniz günlər sizin üçün xoşdur və burada müzakirə olunan məsələlər, aparılan söhbətlər, danışıqlar gələcəkdə bizim birliyimizi daha da gücləndirəcəkdir.

Sağ olun.

***

Azərbaycan Prezidentinə İKT və İSESKO adından xatirə hədiyyəsi təqdim edildi.

Sonda Prezident İlham Əliyev görüş iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

TÜRKİYƏ PARLAMENTİNİN SƏDRİ AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Oktyabrın 14-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Məhmət Əli Şahin Ankarada səfərdə olan Azərbaycan Milli Məclisinin nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycanın Türkiyədəki səfiri Zakir Həşimovun iştirak etdiyi görüşdən sonra jurnalistlərə açıqlama verən Milli Məclisin xarici əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirmişdir ki, Azərbaycanın işğal olunmuş torpaqları azad olunmadan Ermənistan ilə sərhədlərin açılması ortaya problemlər çıxara bilər. Bu proseslər paralel aparılmalıdır ki, bölgədə sülh bərqərar olsun və bütün dövlətlər arasında yaxşı dostluq münasibətləri qurulsun. İşğal məsələsi, Dağlıq Qarabağ problemi aradan qalxmayana qədər bölgədə sülh olmayacaqdır. Biz, qardaş Türkiyədən ədalətli qərar gözləyirik və əminəm ki, TBMM ədalətli qərar qəbul edəcəkdir.

Azərbaycan Milli Məclisinin nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir.

TÜRKİYƏNİN BAŞ NAZİRİ AZƏRBAYCAN PARLAMENTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Oktyabrın 14-də Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Ankarada səfərdə olan Azərbaycan Milli Məclisinin nümayəndə heyətini və ölkəmizin Türkiyədəki səfiri Zakir Həşimovu qəbul etmişdir.

Rəcəb Tayyib Ərdoğanla görüşdən sonra jurnalistlərə açıqlama verən Milli Məclisin xarici əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirmişdir ki, Türkiyə hökumətinin başçısı ilə iki ölkə arasında əlaqələrin inkişafı, birgə görüləcək işlər, iqtisadi məsələlər, bölgənin təhlükəsizliyi məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır. Baş nazir Azərbaycan parlamentində söylədiyi fikirləri bir daha təkrar etmişdir. Azərbaycanın parlament nümayəndə heyəti bölgədəki ölkələr arasında əlaqələrin inkişafına qarşı deyildir. Biz, sadəcə bu əlaqələrin qurulmasının Dağlıq Qarabağ probleminin həlli ilə paralel aparılmasını istəyirik.

Səməd Seyidov qeyd etmişdir ki, Azərbaycan-Türkiyə əlaqələri "bir millət, iki dövlət" fəlsəfəsi əsasında qurulmuş, indiyədək bu təməldə inkişaf etmiş və bundan sonra da bu cür davam edəcəkdir. Heç bir qüvvə ikitərəfli münasibətlərimizi poza bilməz. Bizim qəlbimizdə bir Türkiyə sevgisi, məhəbbəti vardır. Türkiyədə də Azərbaycan, Dağlıq Qarabağ sevgisi vardır. Biz bir millətik, eyni istiqamətdə fəaliyyət göstərən və siyasət

yürüdən iki dövlətik. Bu görüşdə hörmətli Baş nazirdən eşitdiyimiz sözlər ümidlərimizi daha da artırdı.

İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN VI KONFRANSI BAŞA ÇATMIŞDIR

Bakının 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilməsi çərçivəsində burada keçirilən İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransına oktyabrın 14-də yekun vurulmuşdur.

Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin sədrlik etdiyi konfransda üzv dövlətlərin nümayəndə heyətlərinin bəyanatları və onların islam dünyası üçün mədəni strategiyasının tətbiqi sahələri barədə fikirləri dinlənilmişdir. Qeyd edilmişdir ki, burada qəbul olunan sənədlər anlaşma və dialoq üçün mühüm rol oynayacaqdır.

Tədbirdə "Mədəniyyət və kommunikasiya sahəsində İSESKO-nun fəaliyyəti", "Dialoq və mədəni müxtəliflik və İslama və Müsəlmanlara KİV tərəfindən ləkə yaxma kampaniyalarının təkzib edilməsi" mövzuları barədə qətnamə layihələri müzakirə olunmuş və qəbul edilmişdir.

İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) Baş Direktoru Əbdüləziz bin Osman əl-Tüveycrinin "İSESKO-nun İslam Mədəniyyəti Paytaxtları Proqramının həyata keçirilməsinin davam etdirilməsi üzrə sahələri haqqında" hesabatı dinlənilmişdir. O, 2009-cu ildə Bakının - islam mədəniyyətinin paytaxtı olduğunu xatırlatmış, bu çərçivədə İslam dünyasının həmrəyliyinin gücləndirilməsi üçün bir sıra mühüm tədbirlərinin keçirildiyini demişdir. Natiq bu ilin fevralında "Bakı - İslam Mədəniyyətinin Paytaxtı – 2009" mədəniyyət ilinin təntənəli açılış mərasimində Prezident İlham Əliyevin iştirakını xüsusi vurğulamışdır. Demişdir ki, keçirilən tədbirlər islam ölkələrinin həmrəyliyinə töhfə verəcəkdir. Baş direktor İSESKO ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olduğunu, birgə çoxsaylı proqramlar həyata keçirildiyini vurğulamışdır.

2015-ci ildən 2024-cü ilədək İslam Mədəniyyətinin paytaxt şəhərlərinin müəyyənləşdirilməsi üçün verilən təkliflər müzakirə edilmişdir. Naxçıvan şəhərinin 2018-ci ildə İslam Mədəniyyətinin paytaxtı seçilməsi təsdiq olunmuşdur.

Konfransda Ermənistanın işğalı nəticəsində Azərbaycan abidələrinin dağıdılması İSESKO-nun qətnaməsinə daxil edilmişdir. Dağlıq Qarabağdakı abidələrin dağıdılmasının araşdırılması ilə bağlı İSESKO-da xüsusi komitə yaradılması, İslam Ölkələri mədəniyyət nazirlərinin 7-ci Konfransının 2011-ci ilin oktyabr ayında Əlcəzairin Klemsan şəhərində keçirilməsi qərara alınmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN İCRA APARATININ RƏHBƏRİ İSFƏNDİYAR RƏHİM MƏŞAYİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də İran İslam Respublikası Prezidentinin İcra Aparatının rəhbəri İsfəndiyar Rəhim Məşayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı İran Prezidentinin İcra Aparatının rəhbəri İsfəndiyar Rəhim Məşayinin Azərbaycana səfərinin münasibətlərimizin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətini vurğuladı. Azərbaycan ilə İran arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd edən Prezident İlham Əliyev bu səfərin və səfər zamanı keçirilən görüşlərin əlaqələrimizin daha da möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

İsfəndiyar Rəhim Məşayi İran Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdıraraq, İran Prezidentinin məktubunu Prezident İlham Əliyevə təqdim etdi.

Məktuba görə təşəkkür edən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, məktubda qeyd olunan vacib məqamlar əməkdaşlığımızı gələcəkdə də gücləndirəcəkdir.

Dövlətimizin başçısı İran Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

XARİCİ İŞLƏR NAZİRİ LİTVANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 15-də ölkəmizdə səfərdə olan Litvanın xarici işlər nazirinin müavini Evaldas İqnataviçusla görüşmüşdür.

Tərəflər Azərbaycan ilə Litva arasındakı münasibətlərin cari vəziyyəti, mövcud və perspektiv layihələr ətrafında fikir mübadiləsi aparmışlar. Ölkələrimiz arasındakı əlaqələrin intensivləşdirilməsi üçün geniş potensialın olduğu xüsusi vurğulanmışdır.

Görüşdə, həmçinin birgə maraq kəsb edən ikitərəfli, regional və qlobal məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN DÖVLƏT BAYRAĞINA HÖRMƏTSİZLİK EDİLMƏSİ İLƏ ƏLAQƏDAR TÜRKİYƏYƏ RƏSMİ ETİRAZ BİLDİRİLMİŞDİR

Oktyabrın 15-də Azərbaycanın xarici işlər nazirinin müavini Araz Əzimov Türkiyənin Bakıdakı səfirliyinin müvəqqəti işlər vəkili Nihat Civaneri Xarici İşlər Nazirliyinə dəvət etmişdir.

Görüşdə cari il oktyabrın 14-də Türkiyənin Bursa şəhərində keçirilmiş Türkiyə-Ermənistan futbol oyunu əsnasında Azərbaycan Respublikasının dövlət bayrağına hörmətsizlik edilməsi ilə əlaqədar rəsmi etiraz bildirilmişdir.

XARİCİ İŞLƏR NAZİRİ QƏTƏRİN MƏDƏNİYYƏT, İNCƏSƏNƏT VƏ İRS NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Qətər Dövlətinin mədəniyyət, incəsənət və irs naziri Hamad əl-Kavari ilə görüşmüşdür.

Hamad əl-Kavari Bakıda iştirak etdiyi İslam Konfransı Təşkilatının Mədəniyyət Nazirlərinin VI konfransının işini yüksək qiymətləndirərək, belə tədbirlərin ölkələr arasında

mədəniyyət sahəsində münasibətlərin inkişafına gözəl şərait yaratdığını demişdir.

Qətər Dövləti ilə Azərbaycan arasında sıx əlaqələrin mövcudluğunu qeyd edən qonaq mədəniyyətin xalqlarımızın bir-biri ilə daha yaxın olmasında xüsusi rol oynadığını da vurğulamışdır.

Nazir E.Məmmədyarov ölkələrimiz arasında siyasi sahədə münasibətlərin yüksək səviyyədə olduğunu və bu vəziyyətin digər, o cümlədən iqtisadiyyat, mədəniyyət sahələrinə şamil edilməsinin vacibliyini demişdir.

Mədəniyyət, adət-ənənələr xalqları birləşdirən amillərdən biri olduğunu söyləyən nazir E.Məmmədyarov İslam ummasında bu sahədə birlik nümayiş etdirilməsi zəruriliyini də vurğulamışdır.

Görüşdə Yaxın Şərq və Cənubi Qafqaz bölgələrində, həmçinin beynəlxalq aləmdə cərəyan edən proseslər ətrafında fikir mübadiləsi aparılmışdır.

BUXARESTDƏ AVROPA KONSTİTUSİYA MƏHKƏMƏLƏRİNİN QARŞISINDA DURAN MÜHÜM VƏZİFƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin rəhbərliyi ilə nümayəndə heyəti cari il oktyabr ayının 14-dən 16-dək Rumıniya Respublikası Konstitusiya Məhkəməsinin sədri İon Vidanın dəvəti ilə Avropa Konstitusiya Məhkəmələri Konfransı Təşkilatı Sədrlərinin görüşündə iştirak etmək üçün Buxarest şəhərində işgüzar səfərdə olmuşdur.

Rumıniya Prezidenti Troyan Besesku tədbiri açaraq qonaqları salamlamış, Avropa Konstitusiya məhkəmələri arasında beynəlxalq əməkdaşlığı yüksək qiymətləndirmişdir. Rumıniya dövlətinin başçısı bu əməkdaşlığın məhkəmə praktikasının daha da təkmilləşdirilməsinə töhfə verəcəyinə əmin olduğunu bildirmişdir.

Sonra iclasda Avropa Konstitusiya Məhkəmələri Konfransı Təşkilatının növbəti XV Konqresində müzakirə olunacaq vətəndaşların Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ, Konstitusiya ədalət mühakiməsi sisteminin inkişafı və məhkəmə qərarlarının icrası məsələləri müzakirə edilmişdir. Həmçinin müzakirə olunan mövzulardan biri Dünya Konstitusiya Məhkəmələri Konfransı Təşkilatının Nizamnaməsinin layihəsi olmuşdur.

Səfər çərçivəsində nümayəndə heyəti Heydər Əliyev Fondunun Rumıniyadakı nümayəndəliyində olmuş, Buxarestin mərkəzində yerləşən və ümummilli lider Heydər Əliyevin adını daşıyan parka gələrək ulu öndərin abidəsi önünə əklil qoymuşdur.

BAKIDA TÜRKSOY DAİMİ ŞURASININ 26-CI TOPLANTISI KEÇİRİLMİŞDİR

Oktyabrın 16-17-də "Qafqaz Point" otelində "Bakı-İslam Mədəniyyətinin Paytaxtı-2009" mədəniyyət ili çərçivəsində TÜRKSOY Daimi Şurasının 26-cı toplantısı keçirilmişdir.

Toplantı iştirakçılarını salamlayan Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs

Qarayev bildirmişdir ki, bu günlərdə Naxçıvan şəhərində keçirilmiş Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü TÜRKSOY-un fəaliyyətinə böyük dəstək göstərmiş və türk dünyasının mədəniyyət sahəsində əməkdaşlığına yeni yollar açmışdır.

Nazir demişdir ki, toplantının gündəliyinə ötən müddət ərzində təşkilatın fəaliyyəti, TÜRKSOY-un hüquqi sənədlərinə düzəlişlər və əlavələr, eləcə də qurumun 2010-cu il üçün fəaliyyət proqramının müzakirəsi və təsdiqi daxildir.

Bildirilmişdir ki, TÜRKSOY-un əsası 1992-ci ilin yazında İstanbulda türkdilli dövlətlərin mədəniyyət nazirlərinin birinci görüşü zaman qoyulmuşdur. Beynəlxalq təşkilat olan TÜRKSOY Avrasiyanın türkdilli arealı çərçivəsində milli dil, tarix, mənəvi irs, mədəniyyət və incəsənət yaxınlığı ilə birləşən ölkə və xalqların regional mədəni əməkdaşlığını həyata keçirir. Təşkilatın əsas məqsədlərinə beynəlxalq dialoqun təşkili və inkişafı, TÜRKSOY üzv dövlətlərinin mədəni oxşarlığının dəstəklənməsi, türkdilli xalq və ölkələr arasında dost münasibətlərin və qarşılıqlı anlaşmanın qurulması, türkdilli xalqların etnogenezi, gerçək tarixi, ədəbiyyat, mədəniyyət və incəsənətinin öyrənilməsi sahəsində elmi araşdırmaların intensivləşdirilməsi və bu kimi mühüm məsələlər daxildir.

Vurğulanmışdır ki, Bakıda keçirilmiş İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransı çərçivəsində İSESKO ilə TÜRKSOY arasında əlaqələrin qurulması və genişləndirilməsi məsələləri müzakirə edilmişdir.

Nazir demişdir ki, qarşıdakı illərdə TÜRKSOY-un fəaliyyəti daha da genişləndiriləcək və "Şərq-Qərb" Bakı beynəlxalq kinofestivalı çərçivəsində türkdilli ölkələrdə çəkilmiş filimlər də nümayiş etdiriləcəkdir.

TÜRKSOY-un baş direktoru Düsen Kaseinov qurumun türk xalqlarının daha da yaxınlaşması istiqamətində həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat vermişdir.

Bildirmişdir ki, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Koroğlu" operası artıq 5 ölkədə böyük, uğurla nümayiş etdirilmişdir. 6 ölkədən 250 incəsənət ustasının iştirakı və TÜRKSOY-un sponsorluğu ilə həyata keçirilən bu mədəniyyət layihəsi müştərək türk mədəni irsinin təbliği, gələcək nəsillərə çatdırılması baxımından olduqca əhəmiyyətlidir. Dünyanın ən böyük operalarından olan "Koroğlu"nun türk xalqlarının teatr səhnəsində oynanılması bu xalqların mədəni həyatında böyük hadisədir. Biz bundan sonra da türk dünyasının tanınmış operalarına müraciət etmək fikrindəyik.

Azərbaycan Prezidenti İlham Əliyevin TÜRKSOY-un fəaliyyəti, genişlənməsi istiqamətində göstərdiyi təşəbbüsləri yüksək qiymətləndirən baş direktor vurğulamışdır ki, yaxın vaxtlarda qurumun akademiyası yaradılacaqdır.

Novruz bayramının YUNESKO-nun qeyri-maddi irs siyahısına daxil edilməsini xüsusi vurğulayan natiq bildirmişdir ki, 2010-cu ildə TÜRKSOY bu bayramı Parisdə YUNESKO-nun qərargahında qeyd etməyi planlaşdırır və bununla bağlı razılıq əldə edilmişdir.

Açılış mərasimində TÜRKSOY-un üzvü olan Türkiyə, Qazaxıstan, Qırğızıstan, Tatarıstan, Başqırdıstan, Qaqauz Yeri və digər ölkələrdən gəlmiş nümayəndələr təbrik nitqi söyləmiş və toplantının işinə uğurlar arzulamışlar.

Sonra toplantı işçi qrupunun iclası ilə davam etdirilmişdir.

Oktyabrın 17-də TÜRKSOY Daimi Şurasının müvəqqəti əlaqələndiricisi, Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirmişdir ki, bu gündən etibarən qurumun fəaliyyət dairəsi genişlənəcək və təşkilat beynəlxalq status daşıyacaqdır. Bu səbəbdən də qurum Türk Mədəniyyəti Beynəlxalq Təşkilatı (TÜRKSOY) adlanacaqdır. Beynəlxalq qanun və nizamnamələrə uyğun fəaliyyət göstərəcək təşkilatın baş direktoru isə baş katib statusunu yerinə yetirəcəkdir. Təşkilatın beynəlxalq qurumlar tərəfindən tanınması və əlaqələrinin genişləndirilməsi üçün ardıcıl addımlar atılacaqdır.

Nazir vurğulamışdır ki, bu dəyişikliklər Naxçıvan şəhərində keçirilmiş Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü zamanı nəzərdə tutulmuş məsələlərin bir növ davamıdır.

Bildirilmişdir ki, iki gün davam edən toplantıda ötən müddət ərzində təşkilatın fəaliyyəti təhlil edilmiş, TÜRKSOY-un hüquqi sənədlərinə düzəlişlər və əlavələr olunmuş, eləcə də qurumun 2010-cu il üçün fəaliyyət proqramının müzakirəsi aparılmışdır.

Toplantıda türk mədəni irsinin qorunması və inkişaf etdirilməsi ilə bağlı birgə tədbirlərin həyata keçirilməsi, türkdilli xalqların tarixi-mədəni əlaqələrinin gücləndirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsinin vacibliyi və digər bu kimi məsələlər müzakirə edilmişdir.

TÜRKSOY-un baş katibi Düsen Kaseinov qurumun türk xalqlarının daha da yaxınlaşması istiqamətində həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat vermiş və Bakıda yekunlaşan toplantının əhəmiyyətindən danışmışdır.

Natiq vurğulamışdır ki, qurumun növbəti toplantısı 2010-cu il mayın 6-8-də Moldovanın tərkibinə daxil olan Qaqauz Yeri Muxtar Respublikasında təşkil ediləcəkdir. TÜRKSOY Daimi Şurasının müvəqqəti əlaqələndiricisi vəzifəsini isə muxtar bölgənin mədəniyyət naziri Dmitri Kambur daşıyacaqdır.

Sonra TÜRKSOY Daimi Şurasının 26-cı toplantısının yekun sənədi - Bakı Bəyannaməsi imzalanmışdır.

Sənəddə Azərbaycanın təklifi nəzərə alınaraq, TÜRKSOY-un təşkilatçılığı ilə "Ümumtürk mədəniyyətinin inkişafı strategiyası"nın hazırlanması, dünya sivilizasiyasının inkişafına əhəmiyyətli töhfə vermiş zəngin türk mədəni irsinin qorunması və dəstəklənməsi üzrə TÜRKSOY Fondunun yaradılması, qurumun Avropa Şurası, İSESKO və bir sıra digər beynəlxalq təşkilatlarla əməkdaşlıq qurması və mədəniyyətlərarası dialoqun təşviqinə dair "Bakı Prosesi"ndə fəal iştirak etməsinin vacibliyi öz əksini tapmışdır. Sənəddə, həmçinin Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ və ətraf rayonlarda türk mədəni irsinin məhv edilməsinin pislənilməsi ilə bağlı məsələlər də yer almışdır. Bəyannamədə TÜRKSOY-un Avropa Şurasının "Sənətçilər Dialoq naminə" layihəsində iştirak etməkdə maraqlı olduğu da qeyd edilmişdir.

Tədbirdə iştirak edən TÜRKSOY-un üzvü olan Türkiyə, Qazaxıstan, Qırğızıstan, Tatarıstan, Başqırdıstan, Qaqauz Yeri və digər ölkələrdən gəlmiş nümayəndələr biri-birilərinə xatirə hədiyyələri təqdim etmişlər.

BEYNƏLXALQ DƏNİZ TƏŞKİLATININ ABŞ-DA KEÇİRİLMİŞ TƏDBİRİNDƏ İQLİM DƏYİŞİKLİKLƏRİNİN YÜKDAŞIMALARA TƏSİRİ MÖVZUSU MÜZAKİRƏ OLUNMUŞDUR

ABŞ Sahil Mühafizə Qüvvələri və Beynəlxalq Dəniz Təşkilatı (BDT) tərəfindən oktyabrın 15-dən 19-dək Nyu-York şəhərində Dünya Dənizçilik günü münasibətilə keçirilmiş konfransda dünya dövlətlərinin dəniz administrasiyalarının başçıları, BDT baş katibi admiral Eftimios Mitropoulos və digər yüksək səviyyəli nümayəndə heyətləri iştirak etmişlər.

Dünyada baş verən iqlim dəyişikliklərinin yük daşımalarının 80 faizini əhatə edən dəniz nəqliyyatına təsiri mövzusuna həsr olunmuş tədbirdə Azərbaycanı Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov təmsil etmişdir.

Konfransda ABŞ Prezidenti Administrasiyasının Ətraf Mühitin Mühafizəsi Məsələləri üzrə nümayəndəsinin, Beynəlxalq Dəniz Təşkilatının baş katibi admiral E.Mitropoulosun, ABŞ Sahil Mühafizə Qüvvələrinin Kommandanı admiral Ted Allenin və digərlərinin məruzələri dinlənilmişdir.

Eyni zamanda, ABŞ Sahil Mühafizə Qüvvələri və dəniz nəqliyyatı sahəsində qabaqcıl texnologiyaların tətbiqi ilə məşğul olan elmi-layihə institutları tərəfindən təşkil olunmuş sərgi nümayiş etdirilmiş, müxtəlif növ gəmilər üçün hibrid mühərriklərin, eləcə də zərərli qazların atmosferə atılmasının qarşısının alınması məqsədi ilə hazırlanan yeni qurğuların təqdimat mərasimi keçirilmişdir.

Konfransın yekununda dəniz nəqliyyatı sahəsində ümumbəşəri problemə çevrilmiş iqlim dəyişiklərinin qarşısının alınması istiqamətində elmi-layihə institutlarının köməyi ilə qısa müddətdə əməli və təxirəsalınmaz tədbirlərin görülməsi zərurəti bir daha vurğulanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ RƏSMİ SƏFƏRİ

Oktyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsveçrə Konfederasiyasına rəsmi səfərə gəlmişdir.

Sürix şəhərinin Beynəlxalq hava limanında Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı İsveçrənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

Mehriban xanıma gül dəstəsi təqdim olundu.

Prezident İlham Əliyev və xanımı Sürixdən paytaxt Bernə yola düşdülər.

İSVEÇRƏ KANTONLAR ŞURASININ SƏDRİ ALAİN BERSET İLƏ GÖRÜŞ

İsveçrədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Alain Berset ilə görüşmüşdür.

Azərbaycan ilə əlaqələrin əhəmiyyətinə toxunan Alain Berset dedi ki, İsveçrə parlamentində Azərbaycan üzrə parlamentlərarası dostluq qrupu fəaliyyət göstərir. Bu qrupun fəaliyyəti əlaqələrimizin intensivləşdiyindən xəbər verir. Parlamentlərarası münasibətlərin çox yaxşı səviyyədə olduğunu deyən Alain Berset hökumətlərarası və dövlətlərarası münasibətlərin də inkişaf etdiyini bildirdi.

İsveçrədə keçirilən Azərbaycan günlərinin əhəmiyyətinə toxunan Kantonlar Şurasının sədri dedi ki, bu cür tədbirlər bir-birimiz haqqında məlumatları genişləndirir.

Prezident İlham Əliyev dedi ki, əlaqələrimiz çoxşaxəlidir və müxtəlif sahələr üzrə irəliləyişlər vardır. Azərbaycan Milli Məclisində də İsveçrə üzrə dostluq qrupu fəaliyyət göstərir və ölkəmiz parlamentlərarası əlaqələrə böyük əhəmiyyət verir.

Dövlətimizin başçısı bildirdi ki, hökumətlərarası münasibətlər yaxşı səviyyədədir. Keçən il İsveçrə Prezidentinin Azərbaycana, indi isə Azərbaycan Prezidentinin İsveçrəyə səfəri əlaqələrimizi daha da möhkəmləndirir. Son illərdə münasibətlərimizin inkişafında sürətli dinamika vardır ki, bu da hər iki tərəfin maraqlarına cavab verir.

Azərbaycan Prezidenti iqtisadi münasibətlərin inkişaf etdiyini, bu sahədə qarşılıqlı maraqlar əsasında yeni layihələrin həyata keçirildiyini qeyd etdi və ikitərəfli münasibətlərimizi yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev İsveçrədə keçirilən Azərbaycan günlərinin əhəmiyyətini qeyd etdi və bildirdi ki, ölkələrimiz haqqında məlumatlar daha da çox olmalıdır.

Görüşdən sonra Prezident İlham Əliyev Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Oktyabrın 19-da İsveçrədə rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyevin Berndə rəsmi qarşılanma mərasimi olmuşdur.

Azərbaycanın və İsveçrənin dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi İsveçrə Prezidenti Hans-Rudolf Merts qarşıladı.

İsveçrənin dövlət və hökumət nümayəndələri Azərbaycan Prezidentinə, Azərbaycan nümayəndə heyətinin üzvləri İsveçrə Prezidentinə təqdim olundu.

Hərbi orkestrin ifasında Azərbaycanın və İsveçrənin dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Prezidentlər rəsmi foto çəkdirdilər.

GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Hans-Rudolf Mertsin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident Hans-Rudolf Merts bildirdi ki, həm dövlət başçıları səviyyəsində, həm də digər səviyyələrdə intensiv əlaqələrimiz vardır. Parlamentlərarası qruplar əlaqələrimizin daha da dərinləşməsinə xidmət edir.

İsveçrədə keçirilən Azərbaycan Mədəniyyət Günlərinin əhəmiyyətinə toxunan Hans-Rudolf Merts dedi ki, bu cür tədbirlər xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır. İqtisadi sahədə əlaqələrin sürətlə inkişaf etdiyini diqqətə çatdıran İsveçrə Prezidenti bildirdi ki, energetika sahəsində əməkdaşlığımız genişlənir, qeyri-enerji sektorunda da layihələrimiz vardır. İsveçrə dövlətinin başçısı alternativ enerji sahəsində də əməkdaşlığın inkişafının əhəmiyyətinə toxundu, ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığını bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev dedi ki, onun İsveçrəyə rəsmi səfəri əlaqələrimizin genişlənməsinə xidmət edir.

Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın sürətlə inkişaf etdiyini, bu sahədə geniş potensialın olduğunu deyən Prezident İlham Əliyev güclü siyasi əlaqələrimizin mövcudluğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı dedi ki, enerji sahəsində əməkdaşlığımız uğurla gedir, qeyri-enerji sahəsində yaxşı imkanlar vardır və bunu inkişaf etdirmək lazımdır.

Prezident İlham Əliyev İsveçrədə Azərbaycan Mədəniyyət Günlərinin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı ikitərəfli və regional məsələlərlə bağlı siyasi məsləhətləşmələrin bundan sonra da davam etdirilməsinin əhəmiyyətinə toxundu.

Görüşdə ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİ RƏSMİ NAHAR ETMİŞLƏR

Oktyabrın 19-da geniş tərkibdə görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İsveçrə Konfederasiyasının Prezidenti Hans-Rudolf Merts rəsmi nahar etmişlər.

AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSI

Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Hans-Rudolf Mertsin mətbuat konfransı olmuşdur.

Əvvəlcə İsveçrə Prezidenti Hans-Rudolf Merts və Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış etdilər.

İSVEÇRƏ PREZİDENTİ HANS-RUDOLF MERTSİN BƏYANATI

- Xanımlar və cənablar, sizi salamlayıram.

Mən böyük məmnuniyyətlə və şərəf hissi ilə İsveçrəyə rəsmi səfərə gəlmiş Zati-alilərı Azərbaycan Prezidentinə, onu müşayiət edən üç nazirə və digər mühüm iştirakçılara "Xoş gəlmisiniz" deyirəm.

İki ölkə arasında bir çox oxşarlıqlar vardır. Birincisi, onlar Şərq ilə Qərbin kəsişməsində, müxtəlif mentalitetlərin və dillərin qovuşduğu məkanda yerləşir. Hər iki ölkə siyasi və iqtisadi sahələrdə müstəqillik və sabitlik uğrunda mübarizə aparır. Bunları nəzərə alaraq, biz sıx təmaslar qurmuşuq. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra həmin əlaqələri möhkəmləndirməyə başlamışıq. Azərbaycan da İsveçrə kimi, heç bir hərbi təşkilat və ya ittifaqda iştirak etmir.

Digər tərəfdən, ölkələrimiz beynəlxalq təşkilatlarda, xüsusən də Beynəlxalq Valyuta Fondunda əməkdaşlıq edir. Azərbaycan İsveçrənin bu təşkilatda sədrlik etdiyi mühüm qrupun üzvüdür.

Bu gün biz bir sıra məsələləri müzakirə etdik. Nəzərə alsaq ki, əlaqələrimiz artıq təşəkkül tapmışdır, münasibətlərimizi bundan sonra da möhkəmləndirməli və dərinləşdirməliyik. Mədəniyyət sahəsinə gəldikdə, bu axşam Berndə rəsmən açılışı olacaq İsveçrədə Azərbaycan Mədəniyyət Günlərini səbirsizliklə gözləyirik. İqtisadiyyatlarımızın, iqtisadi münasibətlərimizin inkişafı bizim üçün vacibdir. Məsələn, enerji sahəsində iş birliyimiz vardır. Miqrasiya sahəsində də danışıqlar davam edir.

Başqa sözlə desək, ölkələrimiz arasında problem yoxdur. Bizim aramızda dostluq vardır. Biz bu gün səhər görüşlərimizi bu ruhda keçirdik və ölkələrimiz arasında əlaqələrimizi eyni tərzdə inkişaf etdirmək əzmindəyik. Bu sözləri söyləyərək, cənab Prezident, mən Sizi ölkəmizdə bir daha səmimi qəlbdən salamlayıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Çox sağ olun, cənab Prezident.

Hörmətli cənab Prezident,

Hörmətli xanımlar və cənablar,

Əvvəlcə, cənab Prezident, gözəl ölkənizə səfər etmək üçün mənə göndərdiyiniz dəvətə, mənə, o cümlədən nümayəndə heyətimin üzvlərinə göstərilmiş qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Mən Azərbaycan Prezidentinin İsveçrəyə ilk rəsmi səfərini ikitərəfli əlaqələrimizin inkişafı istiqamətində atılmış mühüm addım hesab edirəm. Münasibətlərimiz çox uğurla inkişaf edir. Bu ilin əvvəlində biz Sizinlə Davosda görüşdük və maraqlı müzakirələrimiz oldu. Bu gün isə, biz dialoqumuzu davam etdiririk.

Bu dialoq bir çox sahələri əhatə edir. Artıq bir çox yaxşı nəticələr vardır və bu, gələcəkdə də belə ola bilər. Münasibətlərimizin gələcəyi çox perspektivlidir. Qeyd etmək istərdim ki, son bir neçə il ərzində əlaqələrimiz dinamik şəkildə inkişaf etmişdir. Prezidentlərin səfərləri, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, İsveçrə və Azərbaycan parlamentlərində dostluq qruplarının yaradılması, İsveçrədə Azərbaycanın Mədəniyyət Günləri ikitərəfli əlaqələrin çox mühüm elementləridir.

İsveçrə bizim üçün yaxın tərəfdaş, dost ölkədir. Bu gün, cənab Prezident, yaratdığımız mühit əsl dostluq mühitidir. Biz ikitərəfli əlaqələrə aid bir çox mühüm məsələləri müzakirə etdik. Onların inkişaf yollarını araşdırdıq. İsveçrə və Azərbaycanda qarşılıqlı sərmayə layihələrinin həyata keçirilməsi ətrafında fikir mübadiləsi apardıq. Ticarət dövriyyəmiz sürətlə artır. Beynəlxalq maliyyə böhranına baxmayaraq, iqtisadi münasibət-

lərimiz uğurla inkişaf edir.

Bu gün biz regional inkişafın mühüm məsələlərini, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını müzakirə etdik. Mən cənab Prezidentə danışıqlar prosesində baş verən son hadisələr haqqında məlumat verdim.

Enerji əməkdaşlığımıza aid məsələləri cari ilin əvvəlində müzakirə etmişdik. Bu mövzu bu gün və sabah da nəzərdən keçiriləcəkdir. Bu sahədəki əlaqələrimizin böyük potensialı vardır. Avropada enerji təhlükəsizliyi ilə bağlı ümumi baxışlarımız mövcuddur. Nəhəng neft və qaz ehtiyatlarına malik olan Azərbaycan öz enerji daşıyıcılarını Avropadakı tərəfdaşlarına tezliklə çatdırmağa hazırdır. Bu məsələdə ölkələrimizin qarşılıqlı maraqları "Cənub dəhlizi" adlanacaq yeni nəql marşrutunun formalaşmasına yardım edə bilər.

Əminəm ki, gələn illər ərzində münasibətlərimiz uğurla inkişaf edəcəkdir. Onlar bir çox sahələrdə öz əksini tapacaqdır. Çünki bunun üçün hər bir şərait vardır. Siyasi iradə, güclü siyasi təmaslar, iqtisadiyyatlarımızın bir-birinə cəlbedici olması və münbit sərmayə şəraiti mövcuddur. Müstəqil siyasətə qəti sadiqliyimiz, müstəqil siyasəti aparmaq bacarığı, coğrafi mövqeyimiz, xalqlarımızın və ölkələrimizin rifahı naminə daha sıx əlaqələri qurmaq arzusu vardır.

Mən aparılmış müzakirələrdən çox məmnunam. Bir neçə saatlıq söhbətimiz oldu. Görüşümüz olduqca faydalı idi. Bu görüş danışıqların ənənəvi mövzusu olan məsələlərə diqqət yönəltməyə və gələcəkdə həll edəcəyimiz yeni vəzifələrə nəzər salmağa imkan verdi.

Cənab Prezident, dəvətinizə və qonaqpərvərliyinizə görə bir daha minnətdaram.

* * *

Şahin Cəfərov (AzərTAc-ın müxbiri): Sualım hər iki Prezidentədir. İki ölkə arasında hansı qeyri-enerji layihələri həyata keçirilə bilər?

Hans-Rudolf MERTS: Əvvəlcə, qeyd etmək lazımdır ki, Azərbaycan bizim üçün mühüm enerji mənbəyidir. Bu, ən mühüm mənbələrdən biridir. Demək olar ki, təchiz edilən həcm o qədər çox deyildir. Lakin bu, sabit təchizat mənbəyidir. Çünki bu sahədə əlaqə qurulan ölkə sabit və addımları gözlənilən ölkə olmalıdır. Azərbaycan həmin ölkələrdən biridir. Azərbaycan İsveçrə üçün enerji təchizatçısı ola bilər. Təbii ki, biz enerjinin nəqli yolları məsələsini həll etməliyik. Bəzi məsələlər vardır ki, onlar hələ də həll olunmayıb. Məsələn, Azərbaycandan Aralıq dənizinə gedən boru kəməri. Bu sahədə Türkiyə ilə də razılıq olmalıdır ki, layihə davam etdirilsin. Bununla belə, biz əminik ki, çıxış yolu tapılacaqdır.

Digər tərəfdən, İsveçrə alternativ enerji texnologiyalarını ixrac edə bilər. Bu sahə İsveçrədə yüksək səviyyədə inkişaf etmişdir. Belə texnologiya Azərbaycan tərəfindən istifadə edilə bilər. Hesab edirəm ki, Azərbaycan böhrandan sonrakı vəziyyət haqqında düşünməlidir, çünki neft ilə qaz vaxt keçdikcə tükənəcəkdir. Ölkəmiz bu sahədə Azərbaycanı dəstəkləyə bilər. Öz növbəmizdə isə, biz enerji daşıyıcılarına çıxış əldə etməkdə çox maraqlıyıq. Hesab edirəm ki, bu cür mübadilə istənilən vaxt çox cəlbedici ola bilər.

İlham ƏLİYEV: Gələcəkdə enerji sektorunda qarşılıqlı maraq doğuran əməkdaşlıq məsələlərini müzakirə etdik. Bu vacib məsələ üzərində işləmək üçün imkan vardır. Azər-

baycan artıq bir neçə müddətdir ki, öz enerji resurslarını müxtəlif boru kəmərləri şəbəkəsi ilə ixrac edir. Dünya və Avropa bazarlarına çıxış bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki biz bunun sayəsində böyük enerji potensialımızdan istifadə edə biləcəyik. İsveçrə ilə ikitərəfli əsaslarla müzakirə etdiyimiz enerji əməkdaşlığının xüsusi yeri vardır. Bu cür məsələləri biz hər zaman görüşəndə nəzərdən keçiririk. Hesab edirəm ki, qonşu ölkələrlə bütün tranzit məsələlərinin həlli Azərbaycana böyük həcmdə enerji resurslarını Avropa bazarlarına çıxarmaq imkanı yaradacaqdır və bunu etməklə biz ixrac marşrutlarımızı, Avropa isə, təchizat yollarını müxtəlifləşdirəcəkdir. Bu, birmənalı şəkildə xeyir gətirən haldır və qarşılıqlı surətdə faydalıdır. Planlaşdırdığımız bütün işləri yerinə yetirmək məqsədi ilə biz öz tərəfdaşlarımızla həm ikitərəfli, həm də çoxtərəfli əsaslarla işimizi davam etdirəcəyik.

Qeyri-neft sektoruna gəldikdə, ölkələrimizin şirkətləri maraq göstərir ki, sərmayələr qoysun və birgə biznes yaratsın. Biz İsveçrənin "Holsim" qrupunun Azərbaycanın qeyri-enerji sektoruna böyük yatırımlarında maraqlıyıq. Hazırda, bu şirkət ölkəmizdə yeni sement zavodunu tikməkdədir. Bu məsələ yanvar ayında cənab Prezidentlə görüşümüz zamanı müzakirə olunmuşdur. Mən Bakıda tikiləcək yeni sement zavodunun təməlqoyma mərasimində iştirak etməkdən məmnun oldum. Zavodun tikintisi artıq başlanıb. Çox vacibdir ki, sərmayələr yaxşı nüfuza malik olan və beynəlxalq səviyyədə tanınan şirkət tərəfindən qoyulur. Bu, beynəlxalq maliyyə böhranı ili sayılan 2009-cu ildə qeyri-enerji sektoruna qoyulan sərmayədir. Bu, onu göstərir ki, Azərbaycan nəinki enerji sektorunda, o cümlədən qeyri-enerji sahəsində fəaliyyət göstərən şirkətlər üçün cəlbedici ölkə olaraq qalır. Azərbaycan sərmayədarları müxtəlif sahələrə dəvət etmək və onlar üçün mümkün qədər ən yaxşı şərait yaratmaqda maraqlıdır. Hesab edirəm ki, bu nümunə şirkətlərimizin müxtəlif sahələrə marağına müsbət təsir göstərəcək və gələn illər ərzində biz bir neçə oxşar layihənin şahidi olacağıq.

BERN ŞƏHƏRİ İLƏ TANIŞLIQ

İsveçrə Konfederasiyasına rəsmi səfəri çərçivəsində Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 19-da Bern şəhər meriyasında olmuşlar.

Şəhərin meri Aleksander Çeppet İsveçrənin paytaxtı Bernin tarixi və bu günü haqqında ətraflı məlumat verdi. Bildirildi ki, Bern İsveçrənin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayır.

Meriyada Azərbaycan Prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim olundu.

Azərbaycan Prezidenti və xanımı Bern şəhər meriyasının fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bern şəhərinin meri Aleksander Çeppetin müşayiəti ilə şəhəri gəzdilər.

İsveçrə paytaxtının tarixi memarlıq abidələri ilə zəngin hissəsinə gələn Azərbaycan Prezidenti və xanımı "Münster" kilsəsində oldular.

Bildirildi ki, XVI əsrdə inşa olunan bu tarixi abidə dövlət tərəfindən memarlıq incisi ki-

mi qorunur. Bu, İsveçrədə mövcud olan ən böyük kilsələrdən biridir.

Daha sonra Azərbaycan Prezidenti və xanımı Albert Eynşteynin ev-muzeyi ilə tanış oldular. Ömrünün bir hissəsini bu mənzildə keçirən məşhur alim, nisbilik nəzəriyyəsinin banisi Eynşteynin şəxsi əşyaları burada etibarla qorunur.

Şəhərlə tanışlıq zamanı dövlətimizin başçısı və xanımı paytaxtdakı saat qülləsinin önünə gəldilər.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada xatirə şəkli çəkdirdilər. Qüllə ilə tanışlıq zamanı bildirildi ki, Bernə xüsusi yaraşıq verən bu tarixi abidə XVI əsrin birinci yarısında inşa olunmuşdur. İsveçrə paytaxtına gələn turistlərin diqqətini daha çox çəkən bu tarixi məkan qədim Bernin rəmzlərindən biridir.

İSVEÇRƏDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏT GÜNLƏRİNİN RƏSMİ AÇILIŞI

Oktyabrın 19-da İsveçrənin paytaxtı Berndə Azərbaycan Mədəniyyət Günlərinin rəsmi açılışı olmuşdur. İsveçrə paytaxtının Konsert Zalında keçirilən mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev və xanımı, İsveçrə Prezidenti Hans-Rudolf Merts və xanımı iştirak etmişlər.

Mərasimdən əvvəl iştirakçılara ölkəmiz və onun mədəniyyəti, incəsənəti haqqında məlumat verilərək bildirildi ki, Odlar yurdu kimi tanınmış Azərbaycan həm də mədəniyyətinin qədimliyi ilə fəxr edə bilər. Dünyada geniş şöhrət qazanmış muğamlarımızı xüsusi qeyd edən natiq məşhur xanəndə Alim Qasımovun bu ölkədə verdiyi konsertlərin böyük əks-səda doğurduğunu xatırladı.

Qeyd olundu ki, Azərbaycan təkcə musiqidə deyil, incəsənətin digər sahələrində də gözəl ənənələrə malikdir. XX əsrin 30-cu illərində Hollivudla yanaşı Bakı tammetrajlı ağ-qara filmlərlə dünya arenasına çıxmış ilk şəhərlərdən biridir. Bu filmlərdən biri azərbaycanlı caz ustası Salman Qənbərovun müşayiəti ilə Mədəniyyət Günlərində nümayiş etdiriləcəkdir.

Tamaşaçılara Mədəniyyət Günlərinin proqramı barədə də məlumat verildi. Bildirildi ki, altı həftə ərzində İsveçrədə Azərbaycanın 200-dən çox incəsənət ustası 80 tədbirdə iştirak edəcək və musiqinin klassik, ənənəvi və caz janrlarında bacarıqlarını nümayiş etdirəcəklər. Həmçinin Dövlət Pantamim və Kukla teatrlarının çıxışları, Azərbaycan filmlərinin nümayişi, sərgilərin təşkili də Mədəniyyət Günlərinin proqramına daxildir.

İsveçrədə keçiriləcək Azərbaycan Mədəniyyət Günləri mədəniyyətlər arasında körpü yaratmaq və ümumiyyətlə ölkəmizin mədəniyyəti ilə yaxından tanış olmaq baxımından çox mühüm hadisə kimi dəyərləndirildi.

Sonra dövlət başçıları mərasimdə çıxış etdilər.

İSVEÇRƏ PREZİDENTİ HANS-RUDOLF MERTSİN ÇIXIŞI

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev,

Hörmətli xanım Əliyeva,

Zati-aliləri,

Xanımlar və cənablar,

İlk baxışda İsveçrə ilə Azərbaycan arasında çox xırda oxşarlıqlar müşahidə oluna bilər. Lakin əgər siz təfərrüatlara varsanız və daha dərin nəzər yetirsəniz, iki ölkə arasında paralel olan bir çox xətləri görə bilərsiniz. Onların hər ikisi sivilizasiyaların qovuşduğu yerdə yerləşən ölkələrdir. Azərbaycan Şərq ilə Qərbin, dinlərin və mədəniyyətlərin qovuşuğunda yerləşir. İsveçrə isə Avropanın mərkəzində, bir çox yolların kəsişdiyi yerdə yerləşir. Burada bir çox dillər, mentalitetlər və dinlər bir-biri ilə qovuşur. Hər iki ölkədə dağlar vardır. Hər iki ölkənin düzənlikləri vardır. Hər iki ölkədə siyasi vəziyyət sabitdir. Hər iki ölkə müstəqillik uğrunda mübarizə aparıb və onu hazırda möhkəmləndirir.

Buna görə, ölkələrimiz arasında münasibətlərin dərinləşməsi faydalı olardı. Azərbaycan müstəqilliyini 1991-ci ildə bərpa etdikdən sonra ölkələrimiz arasında diplomatik münasibətlər qurulmuşdur. İsveçrə Azərbaycanda öz diplomatik nümayəndəliyini açmışdır. İqtisadi sahəyə gəldikdə, bilirik ki, son bir neçə il ərzində Azərbaycan iqtisadiyyatı üç dəfə artıb. Münasibətlərimiz bir çox sahələrdə inkişaf edib və bu günlərdə dərinləşməkdədir.

Lakin burada çatışmayan bir element vardır. O, mədəniyyət sahəsidir. Buna görə, bu axşam burada olmağımdan və münasibətlərimizə yeni sahəni əlavə etməkdən olduqca məmnunam. Mədəniyyət sahəsindəki əlaqələrimiz uzun tarixi olan zəngin mədəniyyətə, adət-ənənələrə əsaslanır. Biz Azərbaycan mədəniyyəti ilə İsveçrədə növbəti həftələr ərzində geniş tanış olacağıq. Mən bu tədbir münasibətilə bütün təşkilatçıları səmimi qəlbdən təbrik etmək istəyirəm. Sizin hamınıza xoş axşam arzulayıram. Bu tədbirə gəlmiş şəxslərə, xüsusən də Sizə, cənab Prezident, İsveçrəyə etdiyiniz səfərə görə dərin minnətdarlığımı bildirirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Hörmətli birinci xanım!

Xanımlar və cənablar!

Əvvəlcə, mən cənab Prezidentə İsveçrəyə rəsmi səfərə dəvətə və göstərilmiş səmimi qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm. Mən Sizin gözəl ölkənizdə bir neçə dəfə olmuşam. Lakin bu səfər xüsusi əhəmiyyət daşıyan səfərdir. Çünki o, diplomatik münasibətlərin qurulmasından sonra Azərbaycan Prezidentinin ilk rəsmi səfəridir. Bu, aydın şəkildə onu göstərir ki, ölkələrimiz arasında münasibətlər çox uğurla və sürətlə inkişaf edir. Deyərdim ki, biz son illər ərzində bir çox sahələrdə münasibətlərimizi intensivləşdirməyə nail olmuşuq. Ötən il İsveçrə Prezidenti Azərbaycanda səfərdə oldu. Ölkələrimiz arasında nümayəndə heyətləri geniş şəkildə qarşılıqlı səfərlərdə olur. Hər iki ölkənin parlamentlərində İsveçrə-Azərbaycan dostluq qrupları fəaliyyət göstərir. Hazırda biz regionumuzun bir çox digər ölkələrini də əhatə edəcək qarşılıqlı maraq doğuran məsələləri müzakirə edirik.

Ölkələrimiz arasında iqtisadi və siyasi əlaqələr çox yüksək səviyyədədir. Bu gün bütün

həmin məsələlər müzakirə olundu. Biz mövcud irəliləyişi qarşılıqlı məmnunluq hissi ilə görürük və perspektivləri müəyyən edirik. Əminəm ki, gələcək əlaqələrimiz daha gözəl olacaqdır. Çünki biz bir-birimizin imkanlarını yalnız indi kəşf etməyə başlamışıq. Biz bir-birimizə real tərəfdaş kimi baxmağa başlamışıq. Son iki-üç il ərzində əlaqələrimizin intensiv xarakter alması qarşılıqlı ticarət dövriyyəsinin artmasına, yeni birgə layihələrin həyata keçirilməsinə aparır. İsveçrə şirkətləri Azərbaycanı sərmayələr üçün etibarlı ölkə hesab edirlər. Hətta beynəlxalq maliyyə və iqtisadi böhran ili olan 2009-cu ildə İsveçrə şirkətləri Azərbaycan iqtisadiyyatına yüz milyonlarla vəsaitləri sərmayə kimi yatırırlar. Ən vacibi isə budur ki, sərmayələr iqtisadiyyatın qeyri-enerji sektoruna qoyulur. Bu, bizim bir-birimiz üçün nə dərəcədə vacib olduğunu göstərir. Əminəm ki, Azərbaycan şirkətləri də İsveçrədə sərmayə qoyacaqlar, birgə layihələrlə məşğul olacaqlar və bu, bizi daha da birləşdirəcəkdir.

Möhkəm siyasi əlaqələrin, qarşılıqlı iqtisadi maraqların olmasını və iqtisadiyyatlarımızın bir-biri ilə rəqabət aparmayan, əksinə bir-birini dəstəkləyən iqtisadiyyatlar kimi mövcudluğunu nəzərə alaraq, biz böyük uğurları əldə edə bilərik.

Azərbaycan müstəqil ölkə kimi nisbətən gəncdir. Müstəqil ölkə kimi biz yalnız 18 ildir ki, yaşayırıq. Cənab Prezidentin qeyd etdiyi kimi, ölkələrimiz arasında bir çox oxşarlıqlar vardır. Ölkələrimizdə dövlətçiliyin tarixi və təkamül yolu eyni olmuşdur. Fikrimcə, ən mühüm oxşarlıqlardan biri isə, müstəqillikdir. Biz ölkələrimiz üçün müstəqillik kimi ən böyük nailiyyəti yüksək qiymətləndiririk. Müstəqil olmaq, özünü dərk etmək, getdiyin yolu qavramaq və müstəqil siyasət aparmaq qabiliyyəti çiçəklənmə və uğurlara aparan yoldur. İqtisadi və sosial inkişaf, yaşayış standartları baxımından Sizin ölkə dünyada aparıcı ölkələrdən biridir. Müstəqillik, ləyaqət, neytrallıq, daxili məsələlərə diqqət və insanların həyatının yaxşılaşdırılması baxımından Sizin ölkəniz nümunə ola bilər.

Biz müstəqil ölkə kimi gəncik. Müstəqilliyimizi on səkkiz il bundan əvvəl bərpa etmişik. Lakin böyük keçid mərhələsini qət etmişik. Tam mənada planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına, birpartiyalı sistemdən demokratik inkişafa, yoxsulluq və xaos vəziyyətindən iqtisadi və siyasi sabitliyə doğru getmişik. Bu gün Azərbaycan dünyada nadir ölkələrdən biridir ki, böhrana baxmayaraq iqtisadiyyatı artır.

Lakin biz bir-birimizi daha yaxşı tanımalıyıq. Daha çox təmaslar və səfərlər olmalıdır. Təbii ki, bir-birimizi daha yaxşı tanımaq mədəniyyətdən keçir. Hər bir ölkə öz mədəni və tarixi irsi ilə fəxr edir. Biz müstəqil ölkə və beynəlxalq ictimaiyyətin üzvü kimi gənc dövlətik. Lakin bizim böyük tariximiz, ənənələrimiz, mədəniyyətimiz vardır. Biz özünəməxsusluğumuzu bunların sayəsində qoruyub saxlamışıq. Əsrlər boyu xalqımız digər dövlətlərin və imperiyaların tərkibində yaşamışdır. Lakin biz özünəməxsusluğumuzu, milli qürurumuzu və mədəniyyətimizi itirmədik. Musiqimizi, poeziyamızı, dilimizi və ənənələrimizi qoruyub saxladıq. Bu, hər hansı ölkənin inkişafı üçün ən mühüm əsasdır. Hazırda biz inkişaf etmiş ölkəyə çevrilməliyik və dünyanın inkişaf etmiş ölkələri sırasında olmalıyıq. Əminəm ki, bu məqsədə nail olacağıq.

Biz tam dağılmış iqtisadiyyatdan yalnız on səkkiz il ərzində iqtisadi rəqabət qabiliyyətinə görə bu gün dünya reytinqində 51-ci yerə çıxmışıq. Gələcəkdə görəcəyimiz işlər daha çoxdur. Bəli, bizim təbii sərvətlərimiz vardır. Lakin müasirləşmə də gedir. Biz Avropaya inteqrasiya xəttinə sadiqik və gələcəkdə inkişafı mümkün edəcək bütün mütərəqqi

qayda və qanunları Azərbaycanda tətbiq edirik.

Bu gün çox vacib gündür: mənim İsveçrəyə rəsmi səfərim və Azərbaycan Mədəniyyət Günlərinin açılışıdır. Bu tədbir İsveçrədə yaşayanlara Azərbaycanı və onun mədəniyyətini, ənənələrimizi daha yaxşı tanımaq və bir-birimizə daha yaxın olmaq imkanını yaratdacaqdır. Mən İsveçrədə bu cür mühüm mədəni tədbiri təşkil edən bütün şəxslərə minnətdaram. Cənab Prezident, mühüm tədbirdə iştirak etdiyinizə görə Sizə minnətdaram. Bu gün Azərbaycan mədəniyyətinin yalnız kiçik bir hissəsi ilə tanış olmaq üçün buraya gəlmiş şəxslərə təşəkkürümü bildirirəm. Çox sağ olun. Mən, həmçinin Sizin hamınızı Azərbaycana səfərə dəvət edirəm və istəyirəm ki, dostluğumuz davam etsin.

* * *

Sonra Azərbaycan Mədəniyyət Günlərinin açılış mərasiminin bədii hissəsi başladı.

Azərbaycanın tanınmış incəsənət xadimlərinin, musiqiçilərinin ifasında bir-birindən rəngarəng musiqi çələngindən ibarət kompozisiya alqışlarla qarşılandı.

Konsertdə səslənən maraqlı musiqi nömrələri Azərbaycan mədəniyyətinin zənginliyini, dövlətimizin incəsənətin, mədəniyyətin inkişafına göstərdiyi diqqət və qayğısını bir daha nümayiş etdirdi. Xüsusilə son illər dövlət səviyyəsində və Heydər Əliyev Fondu tərəfindən milli musiqimizə, bütövlükdə mədəniyyətimizə göstərilən dəstək Azərbaycan musiqi mədəniyyətinin dünyada daha yaxından tanınmasına geniş imkanlar açmışdır.

Azərbaycan musiqiçilərinin ifasında Avropa tamaşaçısına təqdim olunan Qərb ilə Şərqin sintezindən doğan rəngarəng musiqi nömrələri maraqla qarşılandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏNİN ENERJİ, NƏQLİYYAT, KOMMUNİKASİYA VƏ ƏTRAF MÜHİT ÜZRƏ FEDERAL MÜŞAVİRİ MORİTS LEUENBERGER İLƏ GÖRÜŞMÜŞDÜR

İsveçrə Konfederasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də İsveçrənin enerji, nəqliyyat, kommunikasiya və ətraf mühit üzrə federal müşaviri Morits Leuenberger ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə İsveçrə arasında energetika sahəsində əməkdaşlığın hazırkı vəziyyəti barədə fikir mübadiləsi aparıldı. Bu sahədə gələcək əlaqələrin daha da genişlənməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi.

Görüşdə, eyni zamanda, bərpa olunan və alternativ enerji mənbələri sahəsində əməkdaşlıqla bağlı imkanların öyrənilməsi ətrafında fikir mübadiləsi aparıldı.

SƏFƏR BAŞA ÇATDI

Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasına rəsmi səfəri başa çatmışdır.

Bern şəhərinin hava limanında Azərbaycan dövlətinin başçısını və xanımını İsveçrənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

AZƏRBAYCANDA DİPLOMATİK XİDMƏTİN YARANMASININ 90 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ QAHİRƏDƏ KONFRANS KEÇİRİLMİŞDİR

Azərbaycanda Diplomatik Xidmətin yaranmasının 90 illik yubileyi münasibətilə oktyabrın 20-də Qahirədə Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı səfirliyi və Misirin Ayn-Şəms Universitetinin Yaxın Şərq Tədqiqatları və Gələcək Araşdırmaları Mərkəzinin birgə təşkilatçılığı ilə "Misir və Azərbaycan: Dostluq və əməkdaşlığın bu günü və sabahı" mövzusunda konfrans keçirilmişdir.

Konfransda Misirin səhiyyə, xarici işlər nazirlərinin müavinləri, hökumət və parlamentin üzvləri, diplomatik korpusun nümayəndələri, Ərəb Dövlətləri Liqasının təmsilçiləri, Səudiyyə Ərəbistanı Krallığının Yaxın Şərq Hüquqi və Strateji Araşdırmalar Mərkəzinin direktoru, hakim Milli Demokratik Partiyasının nümayəndələri, Misirin aparıcı universitetlərinin rəhbərləri, tədqiqatçı alimlər, politoloqlar, ekspertlər və mətbuat təmsilçiləri - ümumilikdə 450 nəfərə yaxın nümayəndə tədbirdə iştirak etmişdir.

Konfrans iştirakçılarına səfirliyin sifarişi ilə hazırlanmış Azərbaycan Diplomatik Xidmətinin 90 illiyi ilə bağlı müxtəlif xatirə hədiyyələri, Dağlıq Qarabağ münaqişəsi haqqında kitab və broşürlər, Azərbaycanla bağlı müxtəlif sahələri əhatə edən sənədli filmlərin DVD nüsxələri təqdim olunmuşdur.

Konfrans Azərbaycan Respublikası və Misir Ərəb Respublikasının dövlət himnlərinin səsləndirilməsi ilə başlanmışdır. Mərasimdə çıxış edən Ayn-Şəms Universitetinin Yaxın Şərq Tədqiqatları və Gələcək Araşdırmaları Mərkəzinin müdiri professor Camal Şaqra "Mədəniyyətlərarası dialoq: Misir və Azərbaycan" mövzusunda çıxış etmişdir.

Misir-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri professor Əhməd Omar Həşim çıxışında ölkələrimiz arasındakı dostluq əlaqələrindən, hər iki xalqın eyni mədəni, tarixi və dini köklərə malik olmasından bəhs etmişdir.

Səfir Faiq Bağırov çıxışında Azərbaycan-Misir əlaqələrinin inkişaf tarixindən, hazırkı səviyyəsindən və bu istiqamətdə görülən işlərdən danışmışdır. Universitetin rektoru professor Əhməd Zəki Bədr Azərbaycan Prezidenti İlham Əliyevin 2007-ci ilin mayında Misirə səfərini xatırlatmış və bu səfərin ölkələrimiz arasında əlaqələrin inkişafına verdiyi töhfələr barədə danışmışdır.

Fasilədən sonra konfrans işini sessiyalarda davam etdirmişdir. Birinci sessiyada Səudiyyə Ərəbistanı Krallığının Yaxın Şərq Hüquqi və Strateji Araşdırmalar Mərkəzinin direktoru, professor Ənvər Məcid Eşqi "Bölgədə baş verən geostrateji proseslər fonunda Azərbaycanın yeri" mövzusunda çıxış etmişdir.

Daha sonra Ayn-Şəms Universitetinin professoru Məhəmməd Həvari "Azərbaycanda mədəniyyətlərin rəngarəngliyi" mövzusunda çıxış etmişdir.

Misirdə ərəb dilində nəşr edilən "Azərbaycan" qəzetinin baş redaktoru Məhəmməd Sələminin çıxışı isə "Mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun canlandırılmasında Azərbaycanın rolu" mövzusuna həsr edilmişdir.

Asiya Araşdırmaları İnstitutunun tədqiqatçı-alimi Əhməd Əbdül-Vahhab əl-Şərqavi "Dağlıq Qarabağ münaqişəsi: Başlanğıcdan sülh prosesinə qədər" adlı məruzəsində

münaqişənin tarixi kökləri, səbəbləri, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını qeyd-şərtsiz azad etməsi barədə BMT Təhlükəsizlik Şurasının, İKT və digər nüfuzlu beynəlxalq təşkilatların məlum qətnamələrinə məhəl qoymaması və problemin həlli istiqamətində tərəflər arasında aparılan danışıqlar barədə məsələlərə toxunmuşdur.

Professor Nəgi Hadhud "Dağlıq Qarabağ tarixən və coğrafi baxımdan Azərbaycana məxsusdur" adlı məruzəsində Dağlıq Qarabağın tarixi və etnik mənşəyi, Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini zəbt etməsi və bu işğal nəticəsində 1 milyondan çox azərbaycanlının qaçqın və köçkün vəziyyətinə düşməsi barədə konfrans iştirakçılarına geniş məlumat vermişdir.

Professor xanım Hoda Məhmud Nayilin məruzəsi "Azərbaycan və Xəzər dənizinin sərvətləri", MƏR parlamentində təhsil və elmi-tədqiqat komissiyasının sədri Camal Həsənin çıxışı isə "Azərbaycan ilə Misir arasında əməkdaşlıq perspektivləri" mövzularına həsr edilmişdir.

Sessiyalarda və "dəyirmi masa"da çıxış edən 15 məruzəçi Azərbaycanın 1991-2009-cu illərdə keçdiyi inkişaf yolu, müxtəlif sahələrdə əldə olunmuş nailiyyətlər, həyata keçirilmiş iqtisadi layihələr, Azərbaycanın Yaxın Şərq ölkələri ilə əlaqələri, Misir-Azərbaycan münasibətlərinin əhəmiyyəti, Qafqaz və Yaxın Şərq bölgələri arasında tarixi bağlar, Qafqazda sabitlik, Xəzər dənizində təhlükəsizlik, Azərbaycanda ədəbi hərəkat, Azərbaycan cəmiyyətində qadınların mövqeyi və bir sıra digər aktual mövzulara toxunmuşlar.

Konfransın sonunda məruzəçilər sualları cavablandırmışlar. Ekspertlərin müzakirə edilmiş mövzularla bağlı rəyləri nəzərə alınaraq, iki ölkə arasında iqtisadiyyat, ticarət, mədəniyyət, təhsil və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsinə dair tövsiyələr qəbul olunmuşdur.

AZƏRBAYCAN İLƏ UKRAYNA ARASINDA ƏLAQƏLƏRİN DAHA DA GENİŞLƏNDİRİLMƏSİ ÜÇÜN YAXŞI İMKANLAR VARDIR

Azərbaycan ilə Ukrayna arasındakı dostluq və qardaşlıq əlaqələri çox yüksək səviyyədədir. Münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsinə çatmasında dövlətlərimizin başçılarının xüsusi rolu olmuşdur.

Bu fikirlər Milli Məclis sədrinin birinci müavini, parlamentin təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərovun oktyabrın 20-də Ukraynanın Sum vilayətinin ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüşündə səsləndirmişdir.

Z.Əsgərov Milli Məclisin fəaliyyəti, ölkəmizdə həyata keçirilən islahatlar, regionda Azərbaycanın birbaşa iştirakı ilə reallaşdırılan layihələr barəsində ətraflı məlumat vermişdir. O demişdir ki, ölkələrimiz arasındakı əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanlar vardır. Dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri zamanı imzalanmış çoxsaylı sənədlər münasibətlərimizin hərtərəfli inkişafı üçün möhkəm hüquqi baza və zəmin yaratmışdır. Parlamentlərimiz də bu imkandan yüksək səviyyədə istifadə etməlidir.

Ukraynanın Sum Vilayət Sovetinin sədri Vladimir Tokar demişdir ki, onun ölkəsi də

Azərbaycan ilə əlaqələrin inkişafında maraqlıdır. Səfərin əsas məqsədi də ikitərəfli, qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsi, iqtisadi, mədəni, ticarət əlaqələrinin inkişafına dair fikir mübadiləsi aparmaqdır. Nümayəndə heyəti artıq Mingəçevirdə olmuş, bir sıra səmərəli görüşlər keçirmişdir.

Azərbaycanda orta təhsil aldığını qeyd edən V.Tokar demişdir ki, ötən müddət ərzində Bakı, eləcə də respublikamız sürətlə inkişaf etmişdir. Ölkənin hər yerində tikinti-quruculuq işləri həyata keçirilir. Bu, güclü iqtisadi inkişafdan xəbər verir. Təbiidir ki, bu cür inkişaf diqqətdən kənar qala bilməz. Ukraynanın, eləcə də Sum vilayətinin rəhbərliyi Azərbaycanla müxtəlif sahələrdə əlaqələri genişləndirmək istəyir. Sum vilayəti ilə Mingəçevir arasında qarşılıqlı faydalı əməkdaşlığa dair müqavilə imzalanacaqdır.

Görüşdə hər iki ölkənin ayrı-ayrı regionları arasında əlaqələrin inkişafının, qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyi xüsusi qeyd olunmuş, qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ SƏRƏNCAMÇI DİREKTORU NQOZİ OKONCO-İVEALANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Dünya Bankının sərəncamçı direktoru Nqozi Okonco-İvealanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Dünya Bankı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Bu yaxınlarda Dünya Bankının nümayəndə heyəti ilə görüşünü xatırlayan Prezident İlham Əliyev həmin görüş zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlərin müzakirə olunduğunu qeyd etdi.

Azərbaycan ilə Dünya Bankı arasında məhsuldar əməkdaşlığın gələcəkdə də müvəffəqiyyətlə davam edəcəyinə ümidvar olduğunu vurğulayan dövlətimizin başçısı bu baxımdan Dünya Bankının sərəncamçı direktoru Nqozi Okonco-İvealanın ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirdi.

Azərbaycana səfəri çərçivəsində Bakı şəhəri ilə yaxından tanış olmaq fürsəti əldə etdiyini bildirən Dünya Bankının sərəncamçı direktoru Nqozi Okonco-İveala paytaxtımızın çox gözəl şəhər olduğunu, Bakı ilə tanışlığın onda xoş təəssürat oyatdığını vurğuladı. Azərbaycan Prezidentinin Dünya Bankı ilə əməkdaşlığa dair fikirlərinə toxunan qonaq dedi: "Sizin Dünya Bankı ilə əməkdaşlıqdan necə razı qaldığınızı eşitməkdən çox şadam. Dünya Bankının Azərbaycanın tərəfdaşı ola bilməsindən böyük şərəf hissi duyuruq".

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI

Oktyabrın 21-də Türkiyə Respublikasının Prezidenti Abdullah Gül Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Telefon söhbəti zamanı Azərbaycan-Türkiyə ikitərəfli münasibətləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, Türkiyə-Ermənistan münasibətləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Türkiyə Prezidenti Abdullah Gül bildirmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmayana qədər Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması mümkün deyildir.

Dövlətimizin başçısı bu mövqeyə görə minnətdarlığını bildirmişdir.

BAKIDA AZƏRBAYCANIN UZUNMÜDDƏTLİ İQTİSADİ İNKİŞAFI ÜZRƏ FORUM KEÇİRİLMİŞDİR

Oktyabrın 21-də Bakıda, "Gülüstan" sarayında Azərbaycanın uzunmüddətli iqtisadi inkişafı üzrə forum keçirilmişdir.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə və Dünya Bankının sərəncamçı direktoru xanım Nqozi Okonco-İvealanın sədrlik etdikləri tədbirdə hökumətin, Prezident Administrasiyasının və Milli Məclisin yüksək səviyyəli nümayəndələri, həmçinin Avropa ölkələrinin və ABŞ-ın tanınmış iqtisadçıları iştirak etmişlər.

Forumu giriş sözü ilə açan Baş nazirin müavini Abid Şərifov ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə başlanmış və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi islahatlar, müxtəlif sahələrdə həyata keçirilən irimiqyaslı layihələr, sahibkarlığın inkişafı istiqamətində görülən tədbirlər barədə ətraflı məlumat vermişdir.

Bildirilmişdir ki, son beş ildə ümumi daxili məhsul (ÜDM) 2,6 dəfə, sənaye istehsalı 2,8 dəfə artmışdır. Dünyadakı qlobal maliyyə böhranına və bir sıra xarici ölkələrdə iqtisadi artım tempinin enməsinə baxmayaraq, Azərbaycanda bu ilin doqquz ayında ÜDM 6,1 faiz, sənayedə məhsul istehsalı 5 faiz, kənd təsərrüfatında isə 3 faiz artmışdır. Əhalinin gəlirləri təxminən 10 faiz çoxalmış, orta aylıq əmək haqqı 15 faiz artmış, inflyasiya isə cəmi 2,1 faiz olmuşdur. Aparılan düzgün siyasət nəticəsində manatın məzənnəsi sabit saxlanılmış, bu siyasət nəticəsində əhalinin banklarda qoyduğu əmanətin məbləği 11 faiz artmışdır.

A.Şərifov diqqətə çatdırmışdır ki, Dünya Bankının ötən il dərc etdiyi hesabata görə, Azərbaycan 181 ölkə arasında 97-ci yerdən 33-cü yerə yüksəlmiş, biznes mühitinin yaxşılaşdırılması üzrə dünyada lider ölkə adını qazanmışdı. Belə mühüm nailiyyətlər isə respublikanın iqtisadi və sosial həyatında son illərdə islahatların aparılması, qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq aləmdə əldə edilən uğurlar və s. nəticəsində mümkün olmuşdur.

Tədbirin iştirakçıları son illərdə Azərbaycanın orta gəlirli ölkəyə çevrilməsini və yoxsulluğun azaldılması istiqamətində əldə etdiyi əhəmiyyətli tərəqqini vurğulamışlar. Onlar, həmçinin Azərbaycanın infrastrukturun təkmilləşdirilməsi sahəsində əldə etdiyi uğurları qeyd etmiş və bildirmişlər ki, bu uğurlar ölkənin gələcək inkişafında böyük əhəmiyyətə malik olacaqdır.

Azərbaycanın qlobal miqyasda rəqabətə davamlı iqtisadiyyata malik olan yuxarı orta gəlirli ölkəyə çevrilməsi üçün görülən tədbirlər barədə fikir mübadiləsi aparılmışdır.

İqtisadiyyatın şaxələndirilməsi, iqtisadi artım və iş yerlərinin yaradılmasında qeyri-neft

özəl sektorun rolunun artırılması məsələləri, Azərbaycanın insan kapitalının şaxələndirmə strategiyasında mühüm rolu nəzərə alınaraq onun genişləndirilməsi, yerli və xarici investisiya təşəbbüslərinin təşviqində və tarazlaşdırılmış regional sosial-iqtisadi inkişafın təmin olunmasında hökumətin rolunun gücləndirilməsi, qeyri-neft büdcə kəsirinin tədricən azaldılması və dayanıqlı səviyyəyə çatdırılmasına şərait yaratmaq üçün fiskal siyasətin davamlılığı və səmərəliliyə diqqət yetirilməsi məsələləri də müzakirə edilmişdir.

Xanım Nqozi Okonco-İveala bildirmişdir ki, forum Azərbaycanın sosial-iqtisadi inkişafını davam etdirmək üçün zəruri olan iqtisadi siyasət və institusional islahatların prioritetlərini açıq şəkildə müzakirə etmək üçün əla imkan yaratmışdır. Əsas prioritetlər isə infrastrukturun yaxşılaşdırılmasının davam etdirilməsi və regional inkişaf, insan kapitalına sərmayələr və qeyri-neft sektoruna xarici birbaşa investisiyaların cəlb olunmasıdır. Bu addımlar iqtisadiyyatın şaxələndirilməsinə və qlobal iqtisadiyyatda Azərbaycanın mövqeyini qorumaq üçün zəruri olan bünövrəni formalaşdırmağa gətirib çıxaracaqdır. Forum, həmçinin Dünya Bankının Azərbaycanla 2011-2014-cü illər üzrə Tərəfdaşlıq Strategiyasının elementlərini müəyyənləşdirməyə də kömək etmişdir.

DÖVLƏT DUMASINDA RUSİYA, AZƏRBAYCAN VƏ ERMƏNİSTAN DEPUTATLARININ GÖRÜŞÜ OLMUŞDUR

Oktyabrın 22-də Rusiya, Azərbaycan və Ermənistan deputatları RF Dövlət Dumasında parlamentlərarası əməkdaşlıq, humanitar məsələlər, iqtisadi-ticari əməkdaşlığın spektrinin deputatların iştirakı ilə genişləndirilməsi, miqrasiya prosesləri ilə bağlı mövzuları geniş müzakirə etmişlər.

"Dəyirmi masa" qapalı keçmişdir. Dövlət Dumasının MDB İşləri və Həmvətənlərlə Əlaqələr Komitəsinin məlumatına görə, görüşdə RF Federal Məclisi ilə Azərbaycan və Ermənistan parlamentləri arasında əməkdaşlıq üzrə parlamentlərarası komissiyaların işinin təkmilləşdirilməsi məsələləri geniş müzakirə olunmuşdur. Komitə aparatından bildirmişlər ki, müxtəlif beynəlxalq qurumlarda deputatların fəaliyyətinin əlaqələndirilməsi məsələsinin ətraflı müzakirə olunduğu görüşdə Dağlıq Qarabağ mövzusu da kənarda qalmamışdır.

Görüşü açan Dövlət Duması sədrinin müavini Valeri Yazev ("Yedinaya Rossiya") xalqlar və mədəniyyətlərarası ixtilafları dəf etməyin, mövcud beynəlxalq və daxili münaqişələrin sülh yolu ilə həllinin vacib olduğunu vurğulamışdır.

"Dəyimi masa"da Dövlət Dumasının MDB İşləri və Həmvətənlərlə Əlaqələr Komitəsinin sədri Aleksey Ostrovski, Azərbaycan Milli Məclisinin insan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanova, Ermənistan parlamentinin iqtisadi məsələlər üzrə daimi komissiyasının üzvü Ermine Nağdalyan, Azərbaycanın və Ermənistanın Rusiyadakı səfirləri Polad Bülbüloğlu və Armen Smbatyan iştirak etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTANIN XARİCİ İŞLƏR NAZİRİ XANIM RUMYANA JELEVANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Bolqarıstanın xarici işlər naziri xanım Rumyana Jelevanı qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da möhkəmlənməsi üçün yaxşı potensialın olduğu qeyd edildi və münasibətlərimizin gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə olundu.

Görüşdə, həmçinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının Bakıda keçirilən XXI görüşünün əhəmiyyəti vurğulandı və bu görüşün ölkələr arasında əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyi bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ SƏFƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də İran İslam Respublikası xarici işlər nazirinin müavini Mehdi Səfərini qəbul etmişdir.

Mehdi Səfəri İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.

Seçkilərdən əvvəl Azərbaycanda olduğunu vurğulayan qonaq, ötən dövr ərzində ölkəmizdə, xüsusilə Bakı şəhərində çoxlu müsbət dəyişikliklərin baş verdiyini dedi və əldə olunan yüksək nailiyyətlərə görə dövlətimizin başçısını təbrik etdi.

Ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı gələcək əməkdaşlıq üçün də yaxşı perspektivlərin olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq münasibətlərinin bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi.

Dövlətimizin başçısı Prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran İslam Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlunu qəbul etmişdir.

Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu Türkiyə Prezidenti Abdullah Gülün salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan-Türkiyə münasibətləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, Ermənistan-Türkiyə münasibətləri ilə bağlı gedən proseslər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Abdullah Gülün salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.

BAKIDA QİƏT-İN ÜZVÜ OLAN DÖVLƏTLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR

Oktyabrın 22-də Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) üzvü olan dövlətlərin Xarici İşlər Nazirləri Şurasının 21-ci iclası keçirilmişdir.

QİƏT-in üzvü olan ölkələrin nümayəndə heyətlərinin iştirak etdiyi Şura iclasını Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov giriş sözü ilə açmışdır. Azərbaycanın regionda lider dövlət olduğunu, iqtisadi cəhətdən dinamik inkişaf etdiyini vurğulayan E.Məmmədyarov demişdir ki, ölkəmiz QİƏT-də sədrlik etdiyi müddətdə nəzərdə tutulmuş planları reallaşdırmağa nail olmuşdur. Bir çox sahələrdə mühüm işlər görülmüş, maliyyə, ticarət, nəqliyyat, enerji və digər istiqamətlərdə ikitərəfli və çoxtərəfli əməkdaşlıq faydalı olmuşdur.

Nazir bildirmişdir ki, bu cür əlaqələr Qara dəniz hövzəsi və geniş mənada Avropa İttifaqı ölkələri ilə münasibətlərin genişlənməsinə şərait yaradır, regional layihələrin reallaşmasına öz təsirini göstərir.

Azərbaycanın QİƏT-də sədrliyi müddətdə informasiya-kommunikasiya texnologiyaları və fövqəladə halların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlığın inkişafının da prioritet məsələlərdən olduğunu söyləyən E.Məmmədyarov bölgədəki təhdidlərdən danışaraq regional əməkdaşlığa mane olan münaqişələrin həllinin vacibliyini vurğulamışdır.

O, daha sonra demişdir ki, Azərbaycan hökuməti QİƏT-in üzvü olan ölkələr arasında iqtisadi əlaqələrin daim genişlənməsini, yeni əməkdaşlıq imkanlarının tapılmasını və bu istiqamətdə atılan hər bir addımı dəstəkləyir.

İclasda çıxış edənlər QİƏT-in getdikcə artan nüfuzunu, təşkilat çərçivəsində müxtəlif sahələr üzrə layihələrin həyata keçirilməsini, Avropa İttifaqı ilə münasibətlərin inkişafını, təşkilatın üzvü olan ölkələr arasında xüsusilə enerji və nəqliyyat sahələrində əməkdaşlığın gücləndirilməsində mühüm rolunu və potensialını vurğulamışlar. Bundan əlavə, iclasda Qara dəniz regionunda ticarət, telekommunikasiyalar və ekologiya sahələrində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Vurğulanmışdır ki, QİƏT çərçivəsində aparılan islahatlar və qurumun Beynəlxalq Katibliyinin fəaliyyətinin genişlənməsi üzv ölkələr arasında əməkdaşlıqdan irəli gələn yeni vəzifələrin daha səmərəli surətdə həyata keçirilməsinə zəmin yaradacaqdır.

İclasın sonunda QİƏT-də növbəti sədrlik Azərbaycandan Bolqarıstana keçmişdir.

AZƏRBAYCAN QİƏT-DƏ SƏDRLİK ETDİYİ DÖVRDƏ SƏMƏRƏLİ FƏALİYYƏT GÖSTƏRMİŞDİR

Azərbaycan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında (QİƏT) sədrlik etdiyi dövrdə çox səmərəli fəaliyyət göstərmişdir.

Bu fikir oktyabrın 22-də Bakıda QİƏT-in üzvü olan dövlətlərin Xarici İşlər Nazirləri Şurasının XXI iclasının yekunlarına dair keçirilmiş mətbuat konfransında səslənmişdir.

Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev məlumat vermiş-

dir ki, iclas çərçivəsində QİƏT-də sədrlik ölkəmizdən Bolqarıstana keçmişdir. Bolqarıstan noyabrın 1-dən gələn il mayın 31-dək QİƏT-də sədrlik edəcəkdir.

M.Məmmədquliyev bildirmişdir ki, iclas iştirakçıları Azərbaycanın QİƏT-də sədrliyini müsbət qiymətləndirmiş, həmçinin təşkilatın fəaliyyətinin səmərəliliyini artırmağın zəruriliyini vurğulamışlar. Nazir müavininin sözlərinə görə, Azərbaycan bu istiqamətdə fəaliyyətini davam etdirir və cari il noyabrın əvvəllərində Bakıda Bolqarıstanın sədrliyi ilə QİƏT-in üzvü olan ölkələrin rabitə və informasiya texnologiyaları nazirlərinin görüşü keçiriləcəkdir.

Mətbuat konfransında çıxış edən Bolqarıstanın xarici işlər naziri Rumyana Jeleva bildirmişdir ki, ölkəsinin QİƏT-də sədrliyi dövründə əsas prioritetləri təşkilatın fəaliyyətinin səmərəliliyi və QİƏT-Avropa İttifaqı münasibətlərinin genişləndirilməsi olacaqdır. Bu istiqamətdə Avropa Komissiyasının QİƏT-in işinə cəlb olunması, həmçinin təşkilatda müşahidəçi statusu ilə təmsil olunmuş Avstriya, Almaniya, Fransa və Çexiya ilə münasibətlərin genişləndirilməsi nəzərdə tutulur.

QİƏT-in baş katibi Leonidas Xrizantopulos demişdir ki, Bakıda QİƏT-in üzvü olan dövlətlərin Xarici İşlər Nazirləri Şurasının XXI iclası uğurla keçmişdir. Ümidvaram ki, bu iclas təşkilatın daha da inkişafına müsbət təsir göstərəcəkdir. Azərbaycan təşkilata sədrlik etdiyi dövrdə çox səmərəli fəaliyyət göstərmişdir. Azərbaycan qurumun fəaliyyətinin səmərəliliyini artırmaq üçün təkliflər irəli sürmüşdür və Bolqarıstanın QİƏT-də sədrliyi dövründə bu təkliflər müzakirə olunacaqdır.

BAKIDA XƏZƏR DƏNİZİNİN TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ KONFRANS İŞİNƏ BAŞLAMIŞDIR

Oktyabrın 22-23-də Bakıda Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İranın xarici işlər nazirlərinin müavinlərinin iştirakı ilə Xəzər dənizinin təhlükəsizlik məsələlərinin müzakirəsinə həsr olunmuş konfrans keçirilmişdir. İki gün davam edəcək tədbirdə ilk dəfə olaraq "Xəzər hövzəsində təhlükəsizliyin təmin olunmasına dair Saziş Layihəsi"nin əsas prinsipləri müzakirə olunmuşdur.

Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov görüşü açaraq demişdir ki, Xəzərin hüquqi statusunun tam müəyyənləşdirilməsi ilə bağlı regional perspektivlərin müzakirəsi baxımından bu konfrans mühüm əhəmiyyət kəsb edir. Xəzər hövzəsində təhlükəsizliyin təminatına dair Saziş Layihəsinin Azərbaycanın təşəbbüsü ilə hazırlandığını vurğulayan X.Xələfov dənizin su səthinin beynəlxalq hüquq normaları çərçivəsində bölünməsinin layihənin əsas tərkib hissələrindən biri olduğunu qeyd etmişdir. Region dövlətlərinin xarici siyasətdə ümumi razılığa gəlmələrinə imkan yaradan amillərdən biri də son illər Xəzər regionunda həyata keçirilən Qərbyönümlü beynəlxalq əməkdaşlıq layihələrinin çoxalmasıdır.

X.Xələfov saziş layihəsi çərçivəsində qarşılıqlı əməkdaşlığın əsas prinsiplərinin artıq razılaşdırıldığını vurğulamış və qeyd etmişdir ki, bugünkü görüş bu istiqamətdə keçiriləcək tədbirlərin birincisidir. Nazir müavini iclasın sonunda yekun layihənin əldə olunacağına ümidvar olduğunu bildirmişdir.

Bildirilmişdir ki, Xəzər dənizinin təhlükəsizlik məsələsi sonuncu dəfə 2007-ci ildə ke-

çirilmiş Tehran sammitində müzakirə olunmuşdur. Həmin toplantıda qəbul olunmuş qərarlar əsasında bugünədək xeyli iş görülmüş, beynəlxalq layihələr həyata keçirilmişdir.

İşçi qrupun gündəliyinə Xəzərin ekologiyası, su resurslarının qorunması, nəqliyyat və digər iqtisadi layihələrin gücləndirilməsi kimi məsələlər daxil edilmişdir.

Daha sonra görüş mətbuat üçün qapalı davam etdirilmişdir.

Oktyabrın 23-də Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov tədbirin yekunlarına dair keçirdiyi mətbuat konfransında bildirmişdir ki, budəfəki iclasın əsas məqsədi beş ölkə arasında çoxtərəfli formatda əməkdaşlığın qurulması idi. 2007-ci ildə keçirilmiş Tehran sammitində Xəzərin təhlükəsizliyinin təmin olunması sahəsində əməkdaşlıq layihələrinin hazırlanması və bu iclasın keçirilməsi Azərbaycan hökumətinə həvalə olunmuşdu. İkigünlük danışıqlarda ilk dəfə olaraq "Xəzər hövzəsində təhlükəsizliyin təmin olunmasına dair Saziş Layihəsi"nin əsas prinsipləri müzakirə olunmuşdur. Müzakirələr zamanı layihəyə dair təkliflər dinlənildi, ümumiləşdirildi. Danışıqların yekun nəticəsi kimi saziş birinci oxunuşdan keçdi. Gələcək görüşlərdə yekun nəticə əldə olunacaqdır.

Qeyd olunmuşdur ki, sözügedən layihədə Xəzər dənizi hövzəsində qeyri-qanuni daşımaların, narkotiklərin qanunsuz dövriyyəsinin, qeyri-qanuni miqrasiyanın, insan və silah alverinin, terrorizmin və sair qanunsuzluqların qarşısının alınması istiqamətində beş ölkənin fövqəladə hallar, gömrük, sərhəd və daxili işlər orqanlarının birgə fəaliyyətini əks etdirən müddəalar öz əksini tapmışdır.

Xələf Xələfov bildirmişdir ki, bu istiqamətdə növbəti tədbir 2010-cu ilin ilk rübündə Bakıda keçiriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ XANIM TİNA KAYDANOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri xanım Tina Kaydanovu qəbul etmişdir.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MARİO CORCO STEFANO BALDİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də İtaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mario Corco Stefano Baldinin etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Mario Corco Stefano Baldi etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan ilə İtaliya arasında münasibətlərin inkişafından məmnunluğunu bildirən dövlətimizin başçısı əlaqələrimizin müxtəlif sahələri əhatə etdiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında siyasi sahədə yaxşı qarşılıqlı anlaşmanın və dəstəyin olduğunu dedi. İtaliya şirkətlərinin Azərbaycandakı fəaliyyətinə toxunan dövlətimizin başçısı iqtisadi sahədə əməkdaşlığımızı daha da inkişaf etdirmək üçün yaxşı potensialın mövcudluğunu qeyd etdi. İtaliyanın ölkəmiz üçün Avropada və dünyada ən mühüm tərəfdaşlardan biri olduğunu vurğulayan Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Mario Corco Stefano Baldi səfirlik fəaliyyəti müddətində əlaqələrimizin daha da möhkəmlənməsi işinə öz töhfəsini verəcəkdir.

Səfir Mario Corco Stefano Baldi ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladı. Azərbaycanın və İtaliyanın işgüzar dairələri arasında yaxşı əməkdaşlığın mövcudluğunu bildirən səfir siyasi sahədə əlaqələri daha da inkişaf etdirmək üçün qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Mario Corco Stefano Baldi diplomatik fəaliyyəti müddətində əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİDERLAND KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ JAN LUKAS İNAYAT VAN HOORNUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Jan Lukas İnayat van Hoornun etimadnaməsini qəbul etmişdir.

Səfir Jan Lukas İnayat van Hoorn fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Diplomat etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev əlaqələrimizin müxtəlif istiqamətlərdə - siyasi, iqtisadi və mədəni sahələrdə genişləndirilməsi üçün böyük potensialın olduğunu dedi. Praqada Şərq Tərəfdaşlığı sammitində Niderland Krallığının Baş naziri ilə uğurlu görüşünü xatırlayan dövlətimizin başçısı görüşün ikitərəfli münasibətlərimizin inkişaf etdirilməsi baxımından önəmini vurğuladı. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin inkişafının Avropa İttifaqı çərçivəsində əməkdaşlığın genişləndirilməsi baxımından da əhəmiyyətli olduğunu qeyd etdi.

Jan Lukas İnayat van Hoorn ölkəmizdə səfir kimi fəaliyyətə başlamasından şərəf duyduğunu dedi. Qarşısına ölkəsinin Azərbaycan ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsi vəzifəsinin qoyulduğunu bildirən Jan Lukas İnayat van Hoorn diplomatik fəaliyyəti müddətində bu istiqamətdə səylərini əsirgəməyəcəyini vurğuladı.

BELARUS PREZİDENTİ AZƏRBAYCANIN BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİN QƏBUL ELƏMİŞDİR

Oktyabrın 23-də Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubovla görüşdə bildirmişdir ki, Belarus ilə Azərbaycanın münasibətlərində qapalı mövzu yoxdur.

Prezident qeyd etmişdir ki, Belarus və Azərbaycan xalqları arasında qardaşlıq və dostluq münasibətləri mövcuddur. Çünki belarusların azərbaycanlılara qarşı heç bir iddiası olmadığı kimi, azərbaycanlıların da belaruslara qarşı heç bir iddiası yoxdur.

O, həmçinin bildirmişdir ki, Azərbaycanla əməkdaşlıq etmək Belarus üçün çox sərfəlidir, çünki bu iki ölkənin iqtisadiyyatları kəsişmir və bir-birini tamamlayır. O demişdir: "Biz xarici iqtisadi fəaliyyətimizi şaxələndirməyə və Azərbaycana istiqamətlənməyə məmnuniyyətlə hazırıq və artıq bu yöndə iş aparırıq".

Belarus lideri Azərbaycan Prezidenti İlham Əliyevlə onun arasında sıx dostluq münasibətləri olmasına toxunaraq vurğulamışdır: "Biz onun atası Heydər Əliyevlə də yaxın dost idik. Onunla çox səmimi münasibətlərimiz vardı".

Prezident vurğulamışdır ki, Belarusun Azərbaycanla əməkdaşlıq etməsi təkcə Azərbaycanın böyük potensiala malik olması ilə deyil, həm də onunla əlaqədardır ki, Azərbaycan rəhbərliyinin də bu cür əməkdaşlığa maraq göstərməsi göz qabağındadır. Aleksandr Lukaşenko demişdir: "Azərbaycanın problemləri olduğunu bilirəm, onun əsas problemlərinin nədən ibarət olduğunu da bilirəm, lakin zənnimcə, onların hamısı həll ediləcəkdir. Sizin malik olduğunuz potensial hər hansı problemləri həll etməyinizə imkan verir".

Prezident onu da qeyd etmişdir ki, Yaqub Eyyubovun Belarusa səfəri bir sıra mühüm layihəni araşdırmağa imkan verəcəkdir.

Yaqub Eyyubov bildirmişdir ki, regionda böyük nüfuza malik olan Belarus Azərbaycan üçün mühüm strateji tərəfdaşdır. Belarusda istehsal edilən kənd təsərrüfatı texnikasının keyfiyyəti barədə yüksək fikir söyləyən Baş nazirin birinci müavini Azərbaycanda MTZ traktorlarının yığılmasını xatırladaraq demişdir: "Biz çalışırıq ki, əməkdaşlığımız daha da dərinləşsin, əmtəə dövriyyəsinin həcmi artsın". Yaqub Eyyubov daha sonra demişdir: "Belarusda istehsal edilən texnika sayəsində biz məhsulun həcmini artırmağa nail olmuşuq, bu gün biz üçüncü ölkələrdə satılmaq üçün həmin texnikanı birgə istehsal etmək barədə razılığa gələcəyik".

XARİCİ İŞLƏR NAZİRİ MOLDOVANIN DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 23-də Moldova Respublikasının dövlət naziri Viktor Bodiu ilə görüşmüşdür.

Görüşdə tərəflər ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu və əlaqələrin daha da inkişaf etdirilməsi üçün mövcud potensialdan daha səmərəli istifadə edilməsinin vacibliyini bildirmişlər. GUAM çərçivəsində həyata keçirilən layihələrin daha da intensivləşdirilməsinin vacibliyi və təşkilatın işinin real müsbət nəticə verdiyi vurğulanmışdır.

Moldova ilə Azərbaycanın oxşar problemlərlə üzləşdiyi və mövcud münaqişələrin qısa müddətdə beynəlxalq hüququn norma və prinsipləri əsasında ölkələrin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllinin vacibliyi xüsusi qeyd edilmişdir.

Sonra tərəflər qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

XARİCİ İŞLƏR NAZİRİ MİSİRİN XARİCİ İŞLƏR NAZİRİNİN KÖMƏKÇİSİ İLƏ GÖRÜŞMÜŞDÜR

Oktyabrın 23-də xarici işlər naziri Elmar Məmmədyarov Misir Ərəb Respublikasının xarici işlər nazirinin köməkçisi, səfir Mohamed əl-Orabi ilə görüşmüşdür.

Görüşdə tərəflər bir gün əvvəl Bakıda keçirilmiş Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurası iclasının nəticələrini müzakirə etmiş, təşkilatın fəaliyyəti və gələcək planlarına dair fikir mübadiləsi aparmışlar.

Qeyd olunmuşdur ki, Azərbaycan ilə Misir arasındakı münasibətlərin yüksək səviyyədə olması əlaqələrimizin daha da genişləndirilməsinə və dərinləşdirilməsinə yeni imkanlar açır. Hər iki ölkə enerji hasilatı və emalı sahəsində böyük təcrübəyə malik olduğundan bu və digər sahələrdə qarşılıqlı mübadilələrin ön plana çəkilməsi məqsədəuyğun olardı.

Tərəflər Cənubi Qafqazda və Orta Şərqdə gedən proseslər ətrafında da müzakirələr aparmışlar.

XARİCİ İŞLƏR NAZİRİ YUNANISTANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Oktyabrın 23-də xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Yunanıstanın xarici işlər nazirinin müavini Spiridon Kuvelisi ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Yunanıstan arasında əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır. Yüksək səviyyəli səfərlərin və siyasi dialoqun davam etdirilməsinin vacibliyini vurğulayan tərəflər, iqtisadi əməkdaşlığın genişləndirilməsi məqsədi ilə hökumətlərarası komissiya çərçivəsində konkret əməkdaşlıq imkanlarının müzakirəsinin, habelə biznes forumların keçirilməsinin əhəmiyyətini qeyd etmişlər.

Tərəflər Azərbaycan ilə Yunanıstan arasında neft-qaz, xüsusilə bərpa olunan enerji sahəsində əməkdaşlığın perspektivləri, həmçinin regional enerji layihələri ətrafında fikir mübadiləsi aparmışlar.

Humanitar və təhsil sahəsində, xüsusilə iki ölkənin diplomatik akademiyaları çərçivəsində müxtəlif layihələrin həyata keçirilməsinin Azərbaycan ilə Yunanıstan arasında münasibətlərin daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəyi vurğulanmışdır. Həmçinin mədəniyyətin xalqları birləşdirən bir amil olduğunu qeyd edən tərəflər bu sahədə müxtəlif tədbirlərin həyata keçirilməsi ətrafında fikir mübadiləsi aparmışlar.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunmuşdur.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ NÖVBƏTİ BƏYANAT YAYMIŞLAR

Oktyabrın 23-də ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Merzlyakov (Rusiya), Bernar Fasye (Fransa) və Robert Bratke (ABŞ) növbəti bəyanat yaymışlar.

Bəyanatda bildirilir ki, ATƏT-in Münaqişələrin Qarşısının Alınması Mərkəzinin təşkilatçılığı ilə oktyabrın 22-23-də baş tutan DATƏT-in vasitəçilik fəaliyyətləri" adlı qeyri-formal müzakirələrdə iştirak etmək üçün Vyanada səfərdə olan həmsədrlər danışıqların gedişi barədə məlumat vermək məqsədi ilə ATƏT-in Minsk qrupuna üzv olan ölkələrin təmsilçiləri üçün ənənəvi rüblük brifinq keçirmişlər.

Həmsədrlər, həmçinin fərdi qaydada bir sıra ikitərəfli görüşlər (ATƏT-ə sədrlik edən Yunanıstanın təşkilat yanında daimi nümayəndəsi səfir Mara Marinaki, ATƏT-in baş katibi Perren de Brişambo, Azərbaycanın ATƏT yanında daimi nümayəndəsi Fuad İsmayılov, Ermənistanın daimi nümayəndəsi Hovakimyan və s.) keçirmişlər.

Bəyanatın sonunda qeyd edilir ki, həmsədrlər Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan arasında görüşdə iştirak etmək üçün oktyabrın 25-27-də Lüksemburqda səfərdə olacaqlar. Burada həmsədrlərin noyabr ayında Bakı və Yerevana səfərinin planı və ATƏT-in Nazirlər Şurasının 2009-cu ilin dekabrında keçiriləcək toplantısında Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair müzakirələrə hazırlıq barədə fikir mübadiləsi aparılacaqdır.

LÜKSEMBURQDA AVROPA İTTİFAQI-AZƏRBAYCAN ƏMƏKDAŞLIQ ŞURASININ 10-CU İCLASI KEÇİRİLMİŞDİR

Xarici işlər naziri Elmar Məmmədyarov Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Şurasının 10-cu iclasında iştirak etmək üçün oktyabrın 26-da Lüksemburqa gəlmişdir.

Nazir E.Məmmədyarov səfər çərçivəsində əvvəlcə İsveçin xarici işlər naziri Karl Bildt, İspaniyanın Avropa məsələləri üzrə dövlət katibi Dieqo Lopez Qarrido, Avropa İttifaqının Ümumi Xarici və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana, Avropa Komissiyasının nümayəndələri və Cənubi Qafqaz ölkələrinin xarici işlər nazirlərinin görüşündə iştirak etmişdir.

Görüşdə Avropa İttifaqı ilə Cənubi Qafqaz ölkələri arasında münasibətlərin indiki vəziyyəti və inkişaf perspektivləri, Şərq Tərəfdaşlığı Təşəbbüsü çərçivəsində əməkdaşlıq, xüsusilə də Aİ ilə assosiativ sazişlərin hazırlanması, habelə Cənubi Qafqaz regionunda mövcud münaqişələrin nizamlanması ətrafında fikir mübadiləsi aparılmışdır. Nazir E.Məmmədyarov Azərbaycanın müxtəlif sahələrdə Aİ ilə əməkdaşlığın dərinləşməsində maraqlı olduğunu, bu istiqamətdə ölkəmizin Şərq Tərəfdaşlığı Təşəbbüsünə böyük önəm verdiyini bildirmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına toxunan nazir E.Məmmədyarov bu prosesdə irəliləyişin əldə edilməsi üçün, ilk növbədə, Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan qoşunlarının çıxarılmasının vacibliyini bildirmişdir.

Növbəti görüş Avropa İttifaqının Ümumi Xarici və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana ilə olmuşdur. Görüşdə Avropa İttifaqı-Azərbaycan əməkdaş-

lığı, regional məsələlər, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi ətrafında fikir mübadiləsi aparılmışdır. E.Məmmədyarov münaqişənin nizamlanması ilə bağlı danışıqlar prosesi, məsələyə dair ölkəmizin mövqeyi barədə məlumat vermişdir. Nazir E.Məmmədyarov bildirmişdir ki, Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan qoşunlarının çıxarılması bölgədə bütün kommunikasiyaların açılmasına, sülhün və təhlükəsizliyin bərqərar olunmasına, regional inkişaf və əməkdaşlığa imkan yaradacaqdır. Xavyer Solana münaqişənin həlli üçün danışıqlarda dinamikliyin vacibliyini vurğulamış və Avropa İttifaqının nizamlanma prosesinin müsbət inkişafı üçün mümkün addımlar atmağa hazır olduğunu bildirmişdir.

Sonra Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Şurasının 10-cu iclası keçirilmişdir. İclasda Avropa İttifaqını hazırda bu quruma sədrlik edən İsveçin xarici işlər naziri Karl Bildt, 2010-cu ilin yanvar-iyun aylarında Aİ-yə sədrlik edəcək İspaniyanın Avropa məsələləri üzrə dövlət katibi Dieqo Lopez Qarrido və Xarici Əlaqələr və Avropa Qonşuluq Siyasəti üzrə Avropa komissarı xanım Benita Ferrero-Valdner təmsil etmişlər. İclasda Avropa İttifaqı-Azərbaycan münasibətlərinin ölkələrin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət əsasında inkişaf etdirilməsinin vacibliyi vurğulanmışdır. Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə səfərinin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığına böyük təkan verdiyi xüsusi qeyd olunmuşdur. Şərq Tərəfdaşlığı Təşəbbüsü alqışlanaraq, bu proqramın Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsinə təkan verəcəyi bildirilmişdir. Tərəflər əməkdaşlığın daha da dərinləşməsi üçün assosiativ sazişin əhəmiyyətini vurğulamışlar.

İclasda Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesi ətrafında son vəziyyət müzakirə olunmuşdur. Münaqişənin nizamlanması prosesi barədə ətraflı məlumat verən nazir E.Məmmədyarov bildirmişdir ki, işğal olunmuş ərazilərdən Ermənistan qoşunları çıxarılmadan sərhədlərin açılması və kommunikasiyaların bərpası regiona davamlı sülh və sabitlik gətirməyəcəkdir. Çünki problemin mahiyyətini təşkil edən Azərbaycanın ərazilərinin işğalı faktı hələ də aradan qaldırılmamışdır.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq məsələsi də müzakirə olunmuş, Avropanın enerji təhlükəsizliyi, enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsində Azərbaycanın rolu qeyd edilmişdir. İclasda BMT-nin Baş Məclisində Azərbaycanın təklif etdiyi "Transmilli Avrasiya super informasiya magistralı" qətnamə layihəsinə Avropa İttifaqı tərəfindən dəstək veriləcəyi qeyd olunmuş, habelə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasında Avropa Tədqiqatları Mərkəzinin yaradılması barədə razılıq əldə edilmişdir. Görüşdə, həmçinin demokratik islahatlar prosesinin Azərbaycanın suverenliyinin gücləndirilməsi üçün əhəmiyyəti vurğulanmışdır.

Sonra Avropa İttifaqı Şurasının, Avropa Komissiyasının nümayəndələri, həmçinin Azərbaycan, Gürcüstan və Ermənistan xarici işlər nazirlərinin birgə mətbuat konfransı keçirilmişdir.

Səfər çərçivəsində nazir E.Məmmədyarov ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi ilə görüşmüşdür. Tərəflər Azərbaycan və Ermənistan prezidentlərinin Kişinyov görüşü, danışıqların hazırkı mərhələsi və həmsədrlərin regiona növbəti səfəri məsələ-

lərini müzakirə etmişlər.

Səfər çərçivəsində nazir E.Məmmədyarov Lüksemburqun Deputatlar Palatasının sədri Laurent Mosar ilə görüşmüşdür. Görüşdə Azərbaycan-Lüksemburq əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır. Tərəflər iki ölkə arasında münasibətlərin dinamik şəkildə inkişafından, xidmətlər, xüsusilə də, maliyyə-bank və nəqliyyat sahələrində uğurlu əməkdaşlıq nümunələrindən məmnunluqlarını bildirmişlər. Təmasların daha da genişləndirilməsi üçün qarşılıqlı səfərlərin intensivləşdirilməsi, ölkələrin mövcud iqtisadi imkanlarından daha səmərəli istifadə edilməsi, habelə mədəniyyətlərin qarşılıqlı təşviqi üçün müxtəlif tədbirlərin keçirilməsinin məqsədəuyğunluğu bildirilmişdir. Tərəflər parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsinin və bu istiqamətdə qarşılıqlı səfərlərin təşkilinin də vacibliyini vurğulamışlar. Nazir E.Məmmədyarov ölkəmizdə gedən inkişaf prosesi, Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu strateji layihələr, ölkəmizin regional əhəmiyyəti barədə ətraflı məlumat vermişdir. L.Mosar Azərbaycanda gedən inkişaf proseslərini diqqətlə izlədiyini, ölkəmizin düzgün istiqamətdə irəlilədiyini və əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirdiyini demişdir. Görüşdə, həmçinin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı, habelə regional vəziyyət, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ətrafında da fikir mübadiləsi aparılmışdır.

Səfər çərçivəsində nazir E.Məmmədyarovun son görüşü Fransanın xarici işlər naziri Bernar Kuşner ilə olmuşdur. Görüşdə Azərbaycan-Fransa əməkdaşlığının mövcud vəziyyəti və inkişaf perspektivləri, regional vəziyyət, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

BAŞ NAZİRİNİN MÜAVİNİ İRAN PREZİDENTİNİN MÜŞAVİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Oktyabrın 26-da Baş nazirin müavini Elçin Əfəndiyev İran Prezidentinin müşaviri, Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Mehdi Mustafəvinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

İşgüzar şəraitdə keçən görüşdə Azərbaycan-İran mədəni əlaqələrinin daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə olunmuş, bir sıra konkret tədbirlər müəyyənləşdirilmişdir.

Tərəflər son dövrdə Azərbaycan-İran mədəni əlaqələrinin inkişafından razılıqlarını bildirmişlər.

AZƏRBAYCAN İLƏ BOLQARISTAN ARASINDA TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ İKİTƏRƏFLİ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Oktyabrın 27-də Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov Bolqarıstan Respublikasının Milli Kəşfiyyat Xidmətinin direktoru general-mayor Kirço Kirovun dəvəti ilə bu ölkədə səfərdə olmuşdur.

Bolqarıstanın Milli Kəşfiyyat Xidmətinin direktoru bu səfərin ölkələrimizin müvafiq

qurumları arasında təhlükəsizlik sahəsində münasibətlərin daha da inkişaf etməsində böyük önəm daşıdığını vurğulamışdır. O, Azərbaycanın təhlükəsizlik orqanlarının yaranmasının 90 illik yubileyi ilə əlaqədar bu ilin aprelində Bakıya səfəri zamanı paytaxtımızda gördüklərindən, xüsusən də dövlətimizin başçısı İlham Əliyevlə görüşdən aldığı dərin təəssüratları diqqətə çatdırmışdır.

Nazir Eldar Mahmudov ölkəmizdə təhlükəsizliyin təmin olunması, o cümlədən enerji və nəqliyyat infrastrukturlarının təhdidlərdən qorunması, beynəlxalq terrorçuluqla, narkotiklərin qanunsuz dövriyyəsi, qanunsuz miqrasiya və transmilli mütəşəkkil cinayətkarlığın digər təhlükəli təzahürləri ilə mübarizə sahəsində görülmüş işlər, eləcə də regionda gedən proseslər barədə danışmışdır. E.Mahmudov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun ağır nəticələri barədə ətraflı məlumat vermiş, bu problemin nəinki Cənubi Qafqaz, habelə bütün Avropa üçün də ciddi təhdid doğurduğunu vurğulamış, münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinin vacibliyini bildirmişdir.

Görüşdə təhlükəsizlik sahəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsi istiqamətində müzakirələr aparılmış, qarşılıqlı maraq doğuran məsələlər üzrə informasiya və ekspert mübadiləsinin intensivləşdirilməsinə dair razılıq əldə olunmuşdur.

Səfər çərçivəsində Azərbaycanın milli təhlükəsizlik naziri Eldar Mahmudov Bolqarıstanın vitse-prezidenti Anqel Marin və Baş nazirinin müavini, daxili işlər naziri Tsvetan Tsvetanov ilə görüşmüşdür. Görüşlərdə Bolqarıstan və Azərbaycan arasında bir çox sahələrdə əməkdaşlıq səviyyəsinin, həmçinin dostluq və işgüzar münasibətlərin inkişaf etdirilməsinin hər iki ölkənin rəhbərləri tərəfindən yüksək qiymətləndirildiyi xüsusi vurğulanmış, əlaqələrin bütün istiqamətlərdə, ilk növbədə təhlükəsizlik sahəsində genişləndirilməsi mövzusunda faydalı fikir mübadiləsi aparılmışdır.

DAŞKƏNDDƏ MDB VƏ BALTİKYANI ÖLKƏLƏRİN DƏMİR YOLU NƏQLİYYATI ŞURASININ 51-Cİ İCLASI KEÇİRİLMİŞDİR

Oktyabrın 28-də Daşkənddə MDB və Baltikyanı ölkələrin Dəmir yolu Nəqliyyatı Şurasının 51-ci iclası keçirilmişdir.

Tədbirdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Əsgərovun başçılığı ilə nümayəndə heyəti də iştirak etmişdir.

Özbəkistan Baş nazirinin müavini B.Xocayev dövlət başçısı İslam Kərimovun tədbirin iştirakçılarına təbrikini oxumuşdur.

İclasda bildirilmişdir ki, mütəxəssislərin müntəzəm görüşləri bu ölkələr arasında iqtisadi, maliyyə, hüquqi və başqa məsələlərin həllində qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə kömək edir. Əldə edilən razılaşmalar daşıma prosesinin daha dəqiq təşkil olunmasına, qatarların hərəkəti zamanı təhlükəsizliyin təmin edilməsinə, tarif siyasətinin həllinə, mövcud nəqliyyat dəhlizlərindən səmərəli istifadəyə imkan yaradır.

Tədbirdə dəmir yollarında qatarların hərəkət cədvəli və hərəkətinin tənzimlənməsi planları, qarşılıqlı hesablamalar sisteminin təkmilləşdirilməsi, yük vaqonlarının təmiri zamanı yeni texnologiyalardan istifadə məsələləri və bu ilin 9 ayında görülən işlərin nəticələri müzakirə edilmişdir. İclasda 2010-2011-ci illərdə qatarların normativ cədvəli-

nin müəyyənləşdirilməsi, yük vaqonlarının və konteynerlərin qeydiyyatı, beynəlxalq daşımalarda tarif siyasəti, marşrutlarda sərnişin qatarlarının təhlükəsizliyinin təminatında maddi məsuliyyətin artırılması məsələləri də diqqət mərkəzində olmuşdur.

Sonda MDB və Baltikyanı ölkələrin Dəmir yolu Nəqliyyatı Şurasının 51-ci iclasının protokolu imzalanmışdır.

Şuranın növbəti iclası 2010-cu ilin mayında Latviyada keçiriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN XARİCİ ƏLAQƏLƏR KOMİSSİYASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin ölkəmizdə səfərdə olan xarici əlaqələr komissiyasının üzvlərini qəbul etmişdir.

Dövlətimizin başçısı İlham ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Xoş gəlmisiniz. Sizi Bakıda salamlayıram. Çox şadam ki, siz belə böyük tərkibdə Azərbaycana səfər edirsiniz. Bunun böyük əhəmiyyəti vardır və bir müddət bundan əvvəl Azərbaycandan da bir qrup deputat Türkiyəyə səfər etmiş, sizlərlə görüşmüşdür. Belə qarşılıqlı səfərlərin böyük faydası vardır. Çünki hər bir görüş yeni imkanlar açır, hər bir görüş imkan verir ki, biz həmişə olduğu kimi, bir-birimizlə səmimi söhbət edək, öz fikirlərimizi bölüşək. Hesab edirəm ki, belə görüşlər mütəmadi qaydada keçirilməlidir. Xüsusilə indiki şəraitdə, xüsusilə bölgədə yaşanan prosesləri nəzərə alaraq belə görüşlərin çox böyük əhəmiyyəti vardır. Çünki məlumatı mənbədən əldə etmək, səmimi, açıq şəkildə bölgədə gedən proseslər haqqında bir-birimizi bilgiləndirmək çox önəmlidir.

Azərbaycanda gedən proseslər, Türkiyədə gedən proseslər, bölgədə yaşanan hadisələr, müəyyən yeniliklər - bütün bunlara biz həmişə olduğu kimi, vahid mövqedən yanaşmalıyıq. Türkiyə-Azərbaycan münasibətlərinin inkişafı bütün dövrlərdə məhz bu amillər üzərində qurulmuşdur. Müstəqilliyimizi bərpa etdikdən sonra bizi ilk tanıyan ölkə Türkiyə olmuşdur və o gündən bu günə qədər bütün dövrlərdə biz beynəlxalq məsələlərdə deyə bilərəm ki, əksər hallarda vahid mövqedən çıxış etmişik. İkitərəfli münasibətlərin nə qədər önəmli olduğunu həmişə vurğulamışıq. Siyasi əlaqələr, deyə bilərəm ki, ən yüksək səviyyədə idi və bu gün də bu davam edir. Bəlkə də dünyada ikinci belə ölkələr yoxdur ki, bir-biri ilə bütün sahələrdə belə əməkdaşlıq etsinlər, səmimi və faydalı əməkdaşlıq etsinlər.

Son illər ərzində iqtisadi sahədə böyük uğurlar əldə edilmişdir. Qarşılıqlı ticarət dövriyyəsinin həcmi daim artmaqdadır. Biz mədəniyyət sahəsində çox uğurlu əməkdaşlıq edirik. Bu yaxınlarda türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşündə məhz mədəni əlaqələrin inkişafına dair çox önəmli qərarlar qəbul edilmişdir. Azərbaycan Naxçıvanda keçirilən zirvə görüşündə TÜRKSOY Fondunun yaradılması haqqında təşəbbüs irəli sürdü və bu təşəbbüs dəstəkləndi.

Ona görə bütün dövrlərdə Türkiyə-Azərbaycan münasibətləri həm iki ölkə üçün, həm

də bölgə üçün çox önəmli rol oynamışdır. Bölgədə Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi olmadan heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz. Məhz Türkiyə və Azərbaycanın səyləri nəticəsində bu gün həm nəqliyyat, həm energetika, həm də siyasi sahədə başlanan bütün təşəbbüslər uğurla gerçəkləşdi. Əlbəttə ki, bu müsbət meyillər gələcəkdə də davam etməlidir, daha da gücləndirilməlidir. Bunun həm ölkələrimiz, həm xalqlarımız üçün və bölgə üçün çox böyük faydası olacaqdır.

Bu il əlbəttə ki, başqa illərdən bir qədər fərqli ildir. İlk növbədə dünyada yaşanan iqtisadi böhran demək olar ki, bütün ölkələrə öz mənfi təsirini göstərdi. Kiməsə daha çox, kimsə daha az. Amma bütün ölkələr bundan əziyyət çəkir. Bu, bir qlobal mənzərədir. Eyni zamanda, bizim bölgədə yaşanan hadisələr bir daha onu göstərir ki, biz daim təmasda olmalıyıq, ola biləcək anlaşılmazlıqları tezliklə aradan qaldırmalıyıq. İmkan verməməliyik ki, bu anlaşılmazlıqlar ikitərəfli münasibətlərə təsir göstərsin. Bunu təmin etmək üçün ilk növbədə daim təmaslar olmalıdır. Dövlət, hökumət səviyyəsində bu təmaslar həmişə olduğu kimi lazımi səviyyədədir və çox yaxşıdır ki, parlamentlərarası əlaqələr də məhz bu zəmində qurulur.

Bu ilin əvvəlində bizə Türkiyə-Ermənistan münasibətlərinin normallaşması haqqında məlumat daxil olmuşdur. Daha dəqiq desəm, fevral ayının əvvəlində bu məlumat bizə rəsmi qaydada bildirildi. Bildirildi ki, artıq ilyarımdır Türkiyə ilə Ermənistan arasında danışıqlar aparılır və bu danışıqlar artıq sona yaxınlaşır, yekunlaşır. Beləliklə, Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşması haqqında sənəd imzalanacaqdır. Əlbəttə ki, o vaxt və bu gün bizim buna münasibətimiz birmənalı olmuşdur. Heç vaxt Azərbaycan başqa ölkələr arasında münasibətlərə qarışmayıb, qarışmır və qarışmayacaqdır. Yəni Türkiyə ilə Ermənistan arasında olan ilişkilər iki ölkəyə aiddir və bizim ümumiyyətlə mövqeyimiz ondan ibarətdir ki, hər bir ölkə öz daxili işləri ilə məşğul olsun. Əgər bütün ölkələr ancaq öz işləri ilə məşğul olsaydılar dünyada nə müharibə, nə münaqişə, nə də qovğa olardı. Təəssüf ki, biz hələ buna nail ola bilməmişik. Amma Azərbaycan bütün dövrlərdə bu mövqedən çıxış edib. Heç vaxt heç bir başqa ölkənin nə daxili işinə qarışıb, nə də ki, ölkələr arasında münasibətlərə müdaxilə edibdir.

Ancaq, eyni zamanda heç kimə sirr deyil ki, 20 ilə yaxındır Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlayır və bu işğal nəticəsində bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın vəziyyətinə düşübdür. Ermənistan tərəfindən azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıbdır və nəinki Dağlıq Qarabağdan, Dağlıq Qarabağın ətrafında yerləşən 7 rayondan bütün Azərbaycan əhalisi çıxarılmışdır. O rayonlarda ermənilər ümumiyyətlə heç vaxt yaşamamışlar. Dağlıq Qarabağda azərbaycanlıların say etibarilə tərkibi haradasa 30 faizə yaxın idi. Ətraf bölgələrdə isə əhalinin təxminən 100 faizi azərbaycanlılardan ibarət idi. Bu işğal bu gün də davam edir. Ermənilər tərəfindən Xocalı soyqırımı törədildi, 600-dən çox günahsız insan qətlə yetirildi, onların içərisində uşaqlar, qadınlar, qocalar vardı. Danışıqlar davam edir, ancaq heç bir nəticə yoxdur.

Ona görə təbii ki, Ermənistanla münasibətlərdə Azərbaycan ictimaiyyəti çox həssasdır. Biz uzun illərdir beynəlxalq birlikdən tələb edirik ki, Ermənistana öz təsirini, təzyiqini göstərərək onları işğal edilmiş torpaqlardan çıxmağa məcbur etsinlər. Əgər belə olarsa, onda Ermənistan ilə Azərbaycan arasında münasibətlər normallaşa, bütün kommunikasiyalar açıla, bölgədə əməkdaşlıq, işbirliyi başlana bilər və bundan bütün ölkələr ancaq faydalana bilərlər. Əgər Dağlıq Qarabağ münaqişəsi yenə də belə dondurulmuş vəziy-

yətdə qalacaqsa, o zaman bölgədə hərtərəfli əməkdaşlıqdan söhbət gedə bilməz. Çünki bölgənin əsas məsələsi, əsas problemi məhz Azərbaycan torpaqlarının işğal altında qalmasıdır. Bu, böyük ədalətsizlikdir. Çünki XXI əsrdə bir ölkə o biri ölkənin torpaqlarını işğal etsin və heç kim buna reaksiya verməsin, heç kim öz təsirini göstərməsin, yəni dünya dövlətləri, böyük dövlətlər öz münasibətini bildirməsin. Bu, dözülməz bir haldır.

Bununla bərabər bu, bütün beynəlxalq normaları kobudcasına pozan bir məsələdir. Çünki Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edibdir. Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasına dair qətnamələr qəbul edilib. Ermənistan onları icra etmir və beynəlxalq birlik buna biganə qalır. Ona görə, bu məsələ həll olunmadan əlbəttə ki, bölgədə genişmiqyaslı əməkdaşlığın yaranması üçün heç bir əsas yoxdur. Beynəlxalq birlik və bu məsələ ilə məşğul olan dövlətlər bizə tövsiyə edirlər ki, məsələni sülh yolu ilə, yəni barış yolu ilə çözmək lazımdır. Biz də bunun tərəfdarıyıq. Biz də istəyirik ki, bu məsələ sülh yolu ilə çözülsün, amma çözülmür. Biz nə etməliyik? Minsk qrupunun artıq 20 ilə yaxındır ki, fəaliyyəti nəticəsizdir. Qeyd etməliyəm ki, son bir neçə il ərzində, haradasa 3-4 il ərzində Minsk qrupu öz fəaliyyətini daha da sürətləndirib, yeni təkliflər irəli sürür. Bu təkliflər prinsip etibarilə qəbuledilən təkliflərdir. Çünki o təkliflərin mahiyyəti ondan ibarətdir ki, Ermənistanın silahlı qüvvələri işğal edilmiş bütün torpaqlardan çıxarılır, bölgəyə sülhməramlı qüvvələr yerləşdirilir, yəni bütün tərəflərə təhlükəsizlik zəmanəti verilir. Dağlıq Qarabağda yaşayan insanlar - ermənilər və ora qayıdacaq azərbaycanlılar müvəqqəti, keçici status şəraitində yaşayacaqlar.

Gələcəkdə isə, nə vaxt ki, tərəflər razılaşar, - bu bir ildən, yüz ildən sonra ola bilər, - Dağlıq Qarabağın yekun statusu haqqında Ermənistan və Azərbaycan - iki tərəf müzakirələr apararaq bir qərara gələcəklər. Qərara gəlsələr, Dağlıq Qarabağın hüquqi statusu müəyyənləşər, qərara gəlməsələr bu məsələ açıq qalacaqdır. Yəni bu gün danışıqlar masası üzərində olan təkliflər demək olar ki, bundan ibarətdir.

Eyni zamanda, bildiyiniz kimi, Dağlıq Qarabağla Ermənistan arasında sərhəd yoxdur. Dağlıq Qarabağ Azərbaycanın içində yerləşən bir ərazidir, əzəli Azərbaycan torpağıdır. Amma buna baxmayaraq, biz razıyıq ki, Ermənistanla Dağlıq Qarabağın əlaqəsinin pozulmaması üçün dəhliz verilsin, yəni biz buna da razıyıq. Ancaq Ermənistan tərəfi məsələni süni şəkildə uzadır və əfsuslar olsun ki, Kişinyovdakı son görüş - bu ayın 8-də baş tutan görüş nəticəsiz qaldı.

Ermənistan öz mövqeyini daha da sərtləşdirir və bunun müxtəlif səbəbləri ola bilər. Səbəblərin biri də ondan ibarət ola bilər ki, Ermənistan tərəfi fikirləşir, Türkiyə-Ermənistan sərhədləri açılacaq, Ermənistan bu ağır, kritik iqtisadi durumdan çıxacaq və beləliklə, Dağlıq Qarabağ məsələsi hələ həll olunmamış qalacaqdır.

Mən iqtisadi böhrandan danışarkən qeyd etdim ki, bütün ölkələr zərər çəkdi, ancaq ən çox zərər çəkən bəlkə də Ermənistandır. Çünki bu ilin 9 ayında Ermənistanın iqtisadiyyatı təxminən 20 faiz aşağı düşüb. Onsuz da zəif olan iqtisadiyyat 20 faiz aşağı düşməklə, əlbəttə ki, Ermənistanı çox ağır bir duruma saldı. Böhran Azərbaycana da mənfi təsir göstərmişdir. Ancaq buna baxmayaraq, 9 ayda Azərbaycanda iqtisadiyyat 6 faiz artdı. Ona görə Ermənistanın bax belə, təcrid edilmiş, yəni izolə edilmiş vəziyyətdə qalması, bizim fikrimizə görə Dağlıq Qarabağ məsələsinin həllinə, yəni onların məsələyə müs-

bət yanaşmalarına təkan verə bilər. Yəni onların əsas məqsədi təcrid olunmuş vəziyyətdən çıxmaqdır. İndi Azərbaycan sərhədi təbii ki, bağlıdır. Türkiyə sərhədi bağlıdır. Gürcüstan-Rusiya müharibəsindən sonra Gürcüstan üzərindən Ermənistan Rusiya ilə irtibat saxlaya bilmir. Yəni bir İran sərhədi qalıb. O da böyük sərhəd deyil və o, hündür dağlardan keçir. Nə dəmir yolu var, nə də etibarlı bir avtomobil yolu. Böyük, uca dağlardan keçən yol dünyaya çıxış üçün yetərli deyildir. Bəli, Ermənistan bu gün blokadada deyildir. Çünki Gürcüstan limanlarından dünyaya çıxışı vardır. Ancaq bu sərhədlərin bağlı qalması əlbəttə ki, onları daha da realist olmağa təhrik etməlidir, sövq etməlidir.

Beləliklə, fevral ayında bizə məlumat daxil olanda, özümüzü çox təmkinlə aparmışdıq. Ancaq yəqin, bilirsiniz, təxminən o dövrdə Ermənistan mətbuatında məqalələr çıxdı ki, Türkiyə və Ermənistan öz münasibətlərini normallaşdırır və imzalanacaq protokollarda Dağlıq Qarabağa aid heç bir maddə yoxdur. Əlbəttə ki, bizim mətbuat da o məqalələri dərc etdi və Azərbaycanda suallar meydana çıxdı. Əcəba, doğrudan da belədir, yoxsa yox? Əfsuslar olsun ki, fevral, mart və aprel ayları ərzində bu suallara cavab verilmədi. Mən hesab edirəm ki, bax, bu narahatlığın və lazım olmayan gərginliyin əsas səbəbi məhz bunda idi. Çünki əgər o vaxt - fevralda, ya martda, ya apreldə rəsmi qaydada bir məlumat verilsəydi ki, - necə ki, indi bu məlumat verilir, - Dağlıq Qarabağ məsələsi həll olunmadan Türkiyə-Ermənistan sərhədləri açılmayacaq, heç nə olmazdı. İndi də heç nə yoxdur.

Amma sirr deyil ki, son aylar ərzində müəyyən gərginlik də baş verdi. Ancaq may ayında Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Bakıya səfəri zamanı verdiyi açıqlamalardan sonra Azərbaycan ictimaiyyəti və Azərbaycan xalqı bildi ki, Dağlıq Qarabağ məsələsi həll olunmayana qədər Türkiyə-Ermənistan sərhədləri açılmayacaqdır. Bunu hörmətli Baş nazir bu binada, bizim mətbuat konfransımızda söylədi, eyni zamanda, Milli Məclisdə çıxışı zamanı da bunu söylədi. Beləliklə ondan sonrakı dövr çox normal keçirdi. Bildiyiniz kimi, ondan sonra həm Türkiyənin Prezidenti, həm yenə Baş naziri, Türkiyə parlamentinin sədri, Türkiyənin xarici işlər naziri dəfələrlə rəsmi şəkildə və şəxsi görüşlər əsnasında bildirmişlər ki, baxmayaraq, protokollarda Dağlıq Qarabağa heç bir reverans yoxdur, bu məsələ həll olunmalıdır, ondan sonra sərhədlər açılmalıdır. Yaxşı xatırlayıram, hörmətli Baş nazir vurğulamışdır ki, Türkiyə Ermənistanla sərhədini Azərbaycan torpaqlarının işğalından sonra bağladı. Yəni daha dəqiq desək, 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğalından sonra Türkiyə Ermənistanla sərhədini bağladı. O, səbəb oldu. O səbəb aradan qalxmadan əlbəttə ki, hər hansı bir addım atılmamalıdır. Beləliklə, mən də öz növbəmdə, may ayında keçirilmiş həmin mətbuat konfransında Azərbaycan xalqına üz tutub dedim ki, bu sözlərə inanıram və artıq bu mövzu qapadılmalıdır. Bu mövzu ətrafında spekulyasiyalara son qoyulmalıdır.

Protokolların imzalanması ərəfəsində, bu ayın 8-də dediyim kimi, Kişinyovda mənim Sarkisyanla görüşüm oldu. Qeyd etdiyim kimi, təəssüf ki, görüş nəticəsiz qaldı. Ancaq buna baxmayaraq, mən ayın 8-də Azərbaycan Televiziyasına geniş müsahibə verdim və orada həm Ermənistan-Azərbaycan münaqişəsinə toxundum və həm də Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasına dair öz fikrimi bildirdim. Söylədim ki, mən verilən sözlərə inanıram. Türkiyə rəhbərlərinin sözlərinə inanıram və əminəm ki, onlar verdikləri sözlərə sadiq qalacaqlar. Mən bu müsahibəni qəsdən protokolların imzalanmasından bir neçə gün əvvəl verdim. Çünki mən bilirdim ki, Azərbaycan ictimaiyyəti-

nin, Azərbaycan xalqının bu mənzərəyə - protokolların imzalanma mərasiminə münasibəti necə olacaq. Çünki bu, çox həssas məsələdir və Azərbaycan cəmiyyətində bu məsələ ilə bağlı fikir ayrılığı yoxdur. Deyə bilərəm ki, bütün cəmiyyət bir mövqedən çıxış edir və mən də cəmiyyətin bir üzvü kimi həmçinin. Ona görə mən başa düşürdüm ki, o görüntülər, o mərasim, yaşanan o sevinc burada başqa hisslər oyadacaqdır. O da təbiidir.

Ona görə mən söylədim ki, verilən sözlərə inanıram və Azərbaycan xalqına dolayı yolla bir mesaj göndərdim ki, siz də mənə inanın, mənə verilən sözlərə inanın, o görüntüyə yox. Bax, qısaca desək, bu ilin tarixçəsi bundan ibarətdir. Əlbəttə ki, biz gələcək əməkdaşlıqda da bu işlərdə koordinasiya məsələlərini daha da gücləndirməliyik. Bu, həm də parlamentlərarası münasibətlərə aiddir.

Türkiyədə və Azərbaycanda mətbuat, yəni söz azadlığı vardır. Yəni bizdə yüzlərlə qəzet vardır. Sizdə bəlkə minlərlə qəzet vardır. Özəl televiziya kanalları vardır. Yəni onlara nə biz təlimat verə bilərik, nə də sizin iqtidar. Ancaq onlar da daha da həssas, daha da diqqətli olmalıdırlar. Onlar anlamalıdırlar ki, Türkiyə-Azərbaycan münasibətləri xüsusi münasibətlərdir. Bu münasibətləri hər bir vətəndaş - həm Türkiyə vətəndaşı, həm Azərbaycan vətəndaşı öz əməli işləri ilə gücləndirməlidir. Əgər hər hansı bir həssaslıq, hər hansı bir narahatlıq varsa, o, aradan qaldırılmalıdır. O, daha da şişirdilməməlidir.

Əfsuslar olsun ki, həm Türkiyədə, həm Azərbaycanda bəzi mətbuat orqanlarında bu həssas dönəmdə vəziyyəti daha da gərginləşdirmək üçün xoşagəlməz yazılar dərc edilmişdir və bu yazılar insanların fikrinə istər-istəməz mənfi təsir göstərmişdir. Ona görə mən hesab etdim, bu müddətdə çox vacibdir ki, ölkələrimizin parlamentləri arasında əlaqələr daha da sıx olsun. Yəni məlumatları biz qəzet vasitəsilə yox, bir-birimizdən eşidək. Bizim nümayəndə heyəti də Türkiyədə yüksək səviyyədə qəbul edildi və mənə verilən məlumata görə çox səmimi söhbət aparıldı. Bu gün biz görüşürük. Mən bilirəm ki, sizin bu gün də, sabah da görüşləriniz olacaqdır və həm məlumatı mənbədən alacaqsınız, həm də Azərbaycan xalqının ovqatını duyacaqsınız.

Bir daha demək istəyirəm ki, bu görüşlər vəziyyətdən asılı olmayaraq mütəmadi qaydada keçirilməlidir və əgər belə olarsa, bundan sonra da Türkiyə-Azərbaycan münasibətləri həmişə olduğu kimi, ancaq və ancaq inkişaf edəcəkdir.

***

Türkiyə Böyük Millət Məclisinin xarici əlaqələr komissiyasının sədri, Ədalət və İnkişaf Partiyasından olan millət vəkili Murad MƏRCAN görüşdə çıxış edərək dedi:

- Hörmətli Prezident, sözlərimə başlamazdan əvvəl Türkiyə Respublikasının Prezidenti cənab Abdullah Gülün, Baş nazir cənab Rəcəb Tayyib Ərdoğanın, Türkiyə Böyük Millət Məclisinin sədri cənab Məhmət Əli Şahinin xüsusi salamlarını Sizlərə çatdırmaq istəyirəm. Qeyd etmək istəyirəm ki, üç il əvvəl Azərbaycana gəlmişdim və Bakıdakı bu inkişafı xüsusilə qeyd etmək istəyirəm. Hər gün Bakı daha da inkişaf edir, gözəlləşir, yeni binalar tikilir, yeni yollar çəkilir. Bu da təbii ki, bizi daha da sevindirir.

Demək istəyirəm ki, bizim üçün Türkiyə bayrağı nə qədər əzizdirsə, Azərbaycan bayrağı da bir o qədər əzizdir. Türkiyə Respublikası vətəndaşları nə qədər bizim vətəndaşlarımızdırsa, azərbaycanlı qardaşlarımız da bir o qədər bizim qardaşlarımızdır. Sizin də bildirdiyiniz kimi, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər dünyada başqa heç

bir iki dövlət arasında mövcud deyildir. Bu, sadəcə sözdə qalmamışdır, eyni zamanda, əlaqələrdə, dialoqlarda hər vaxt belə olmuşdur. Təbii ki, burada bu qarşılıqlı münasibətlərin təməlini qoyan rəhmətlik atanız, hörmətli Prezident Heydər Əliyevi xatırlamaq lazımdır. İnşallah, bu görüşlərdən sonra məzarını ziyarət edib, xatirəsini ehtiramla anacağıq.

Sizin də bildirdiyiniz kimi, istər Prezident, istər Baş nazir, istərsə də TBMM sədri Türkiyə-Azərbaycan münasibətlərinin nə qədər önəmli olduğunu dəfələrlə qeyd etmişlər. Biz də nümayəndə heyəti olaraq bunu Sizə bildirmək arzusundayıq və bunu söyləməyi özümüzə borc bilirik.

Murad Mərcan Azərbaycan və Türkiyə deputatlarının Avropa Şurasında və digər beynəlxalq təşkilatlarda məhsuldar əməkdaşlıq qurduqlarını dedi. O, Prezident İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etdiyi vaxtları xatırladaraq bildirdi ki, Türkiyə və Azərbaycan deputatlarının birgə fəaliyyəti həmin vaxtlar Ermənistanın Avropa Şurası tərəfindən işğalçı dövlət kimi tanınmasında mühüm rol oynamışdır.

Murad Mərcan Azərbaycan ilə Türkiyə arasında tarixi dostluq və qardaşlıq münasibətlərinə toxunaraq dedi: Bizlər TBMM üzvləri olaraq, Azərbaycanın həssaslığını və şərəfini öz həssaslığımız və şərəfimiz bilirik.

Daha sonra Murad Mərcan Türkiyə ilə Ermənistan arasında imzalanan protokollara toxunaraq bildirdi: Bu mövzuda bunu açıq söyləyə bilərəm ki, bu protokolların nəinki bizim komissiyamızda müzakirəsi, hətta gündəmə gətirilməməsi məsələsində bizə güvənə bilərsiniz. Çünki Sizin də dediyiniz kimi, Azərbaycan ictimaiyyəti bu məsələdə nə qədər həssasdırsa, əmin olun ki, türk xalqı da bir o qədər həssasdır. TBMM heç vaxt öz xalqının maraqlarına zidd hərəkət etməmişdir və Azərbaycan xalqının, Zati-alilləri, Sizin arzu etmədiyiniz bir məsələdə nə qərar qəbul etməz, nə bir fikir bildirməz, nə də bir mövqe tuta bilməz. Zati-alilləri, bu məsələ ilə əlaqədar hörmətli Prezidentimiz, Baş nazirimiz və xarici işlər nazirimiz Sizinlə dəfələrlə görüşmüşlər.

Bu mərhələdə protokollar bizim komissiyada olduğuna görə Sizi və Azərbaycan xalqını birbaşa məlumatlandırmağı və həmin məsələ barədə fikirlərimizi Sizə bildirməyi lazım bildik. Bu məsələdə Sizin şəxsinizdə bildirmək istəyirəm ki, Azərbaycan xalqının hər hansı formada tərəddüd etməsinə və əndişə duymasına ehtiyac yoxdur. Çünki biz bir millət, iki dövlətik. Azərbaycandakı qardaşlarımızın barmağına tikan batsa, biz bunu qəlbimizdə hiss edirik. Bu mənada tərəddüd edilməməsində Zati-alilərinizin rəhbərliyinə ehtiyac duyduğumuzu, iki ölkə arasındakı münasibətlərin yüksək səviyyədə olmasının bəzi dairələrin qısqanclığına səbəb olduğunu, bəzən anlaşılmazlıqlara səbəb ola biləcək yazıların məhz bu səbəbdən ortaya çıxdığını Sizlərə təkrar söyləmək arzusundayam.

Murad Mərcan Azərbaycan-Türkiyə parlamentlərarası əməkdaşlığının bundan sonra da möhkəmlənməsinin vacib olduğunu vurğulayaraq, iki ölkə parlamentləri xarici əlaqələr komissiyalarının ildə iki dəfə görüşməsi təklifini verdi. Bildirdi ki, bu çərçivədə dostluq qruplarının da görüşlərinin mütəmadi xarakter alması zəruridir. Türkiyə nümayəndə heyətinin rəhbəri bir müddət öncə Naxçıvanda türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirərək dedi: Naxçıvanda keçirilən toplantını hörmətli Prezidentimiz təqdirlə qarşıla-

dı. Türk soylarının parlamentlərarası dialoqunun qurulması işinə rəhbərliyinizə, verdiyiniz töhfəyə və toplantının möhtəşəmliyinə görə həm Prezidentimiz, həm də xalqımız adından Sizlərə çox-çox təşəkkürümüzü bildirirəm. Həqiqətən də Türkiyə-Azərbaycan qardaşlığı olmasa, bölgədəki sabitliyin təmin edilməsi mümkün olmayacaqdır.

***

Sonra Türkiyə Böyük Millət Məclisinin xarici əlaqələr komissiyasının üzvü, Milliyyətçi Hərəkat Partiyasından olan deputat Dəniz BÖLÜKBAŞI çıxış edərək dedi:

- Hörmətli Prezident, bizi Bakıda qəbul etdiyiniz üçün Sizə dərindən təşəkkür etmək istəyirəm. Mən də Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalının ən xoş arzularını, hörmət və salamlarını sizə çatdırmaq istəyirəm.

Türkiyə üçün Azərbaycanın və azərbaycanlı qardaşlarımızın xüsusi yeri olduğu bir həqiqətdir. Bizim üçün heç bir siyasi layihə, düşüncə, mülahizə, xarici siyasət amili azərbaycanlı qardaşlarımızın dostluğundan vacib deyildir. Azərbaycan Türkiyənin türk dünyası ilə münasibətlərinə rəhbərlik edir. Azərbaycanın itirilməsi kimi fikirlər Türkiyədə heç kəsdə ola bilməz.

Dəniz Bölükbaşı Türkiyə ilə Ermənistan arasında imzalanan protokollara toxunaraq dedi: Milliyyətçi Hərəkat Partiyası iki səbəbdən protokolların əleyhinədir. Birincisi Türkiyəni maraqlandıran səbəblərdir. Öz Konstitusiyasında və İstiqlaliyyət Bəyannaməsində Türkiyənin ərazi bütövlüyünə iddia edən və qondarma "soyqırımı" əsasında beynəlxalq kampaniya təşkil edən ölkə ilə beynəlxalq hüquqa uyğun olaraq, öz mövqeyindən əl çəkməyənə qədər protokolların imzalanmasının əleyhinəyik.

İkinci əsas səbəb də Dağlıq Qarabağ və yeddi rayonun işğalının davam etməsidir. Bizim bu protokollara olan baxışımız hörmətli Baş nazirimizin burada ifadə etdiyi kimi, yeddi rayonun işğaldan azad edilmədən, Laçın dəhlizi məsələsində və Dağlıq Qarabağın yekun statusu ilə bağlı azərbaycanlı qardaşlarımızın qəbul edəcəyi razılaşma əldə olunmadan bu protokolların TBMM-nin və bizim komissiyamızın gündəminə gəlməyəcəyidir. Dağlıq Qarabağın işğalı həll olsa belə Milliyyətçi Hərəkat Partiyası Türkiyəni maraqlandıran səbəblərə görə bu protokolların əleyhinə olmağa davam edəcəkdir.

***

Prezident İlham ƏLİYEV şəxsi salamlarını Türkiyə Prezidentinə, Baş nazirinə, parlament sədrinə və Milliyyətçi Hərəkat Partiyasının sədrinə çatdırmağı nümayəndə heyətinin üzvlərindən xahiş etdi. Eyni zamanda, Prezident İlham Əliyev Milliyyətçi Hərəkat Partiyasının tutduğu prinsipial mövqeyə görə, şəxsən minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin əhəmiyyətinə toxundu. Dövlətimizin başçısı bölgədə təhlükəsizlik məsələlərindən danışarkən qeyd etdi ki, Ermənistan-Azərbaycan və Türkiyə-Ermənistan münasibətləri öz həllini eyni vaxtda tapmalıdır.

Parlamentlərarası əlaqələrdən danışan Prezident İlham Əliyev Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılmasının əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı qeyd etdi ki, türkdilli ölkələrin dövlət başçılarının qədim Azərbaycan torpağı Naxçıvanda keçirilən zirvə görüşü, orada qəbul edilən qərarlar və imzalanan

sənədlər türkdilli ölkələr arasında əməkdaşlığın daha da möhkəmlənməsi baxımından böyük önəm daşıyır.

Dövlətimizin başçısı bildirdi ki, bu zirvə görüşünün mənəvi əhəmiyyəti də vardır. Sammitin gedişində Naxçıvanda hökm sürən ab-havanın ölkələrimiz arasında dostluq və qardaşlığın təzahürü olduğunu vurğulayan Prezident İlham Əliyev dedi ki, bizi birləşdirən ortaq keçmişimiz, tariximiz, mənşəyimiz, kökümüz və dilimizdir.

Azərbaycan Prezidenti parlament nümayəndə heyətlərinin ildə iki dəfə görüşməsi təklifini bəyəndiyini deyərək bildirdi ki, bu görüşlər yalnız paytaxtlarda deyil, eyni zamanda, bölgələrdə də keçirilə bilər.

Avropa Şurasında Azərbaycan və Türkiyə nümayəndə heyətlərinin əməkdaşlığına toxunan dövlətimizin başçısı həmin qurumun Parlament Assambleyasında Dağlıq Qarabağ münaqişəsinə dair məsələnin müzakirəsində və Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən qətnamənin qəbul edilməsində iki ölkə deputatlarının birgə fəaliyyətinin mühüm rol oynadığını diqqətə çatdırdı. Digər beynəlxalq qurumlarda, o cümlədən İslam Konfransı Təşkilatında ölkəmizin fəaliyyətinə toxunan Prezident İlham Əliyev bu təşkilatda Azərbaycanın mövqelərinin xeyli dərəcədə gücləndiyini dedi. Bildirdi ki, Azərbaycanda İslam Konfransı Təşkilatının mühüm tədbirləri keçirilmişdir. Bu il Bakı İslam mədəniyyətinin paytaxtı elan edilmiş, 2018-ci ildə isə Naxçıvan İslam mədəniyyətinin paytaxtı olacaqdır. Bütün bunlar mühüm hadisələrdir.

Prezident İlham Əliyev bir daha ölkələrimiz arasında əməkdaşlığın möhkəmlənməsinin əhəmiyyətinə toxunaraq, parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin gələcəkdə də davam etdirilməsinin zəruriliyini qeyd etdi.

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə telefonla zəng etmişdir. Dövlətimizin başçısı Abdullah Gülə ad günü münasibətilə, eyni zamanda, Türkiyənin milli bayramı - Respublika Günü münasibətilə təbriklərini çatdırmışdır. Prezident İlham Əliyev Türkiyə Prezidentinə cansağlığı, fəaliyyətində uğurlar və Türkiyə xalqına firavanlıq arzulamışdır.

Türkiyə Prezidenti təbriklərə və göstərdiyi diqqətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmiş, Azərbaycan xalqına ən xoş arzularını çatdırmışdır.

Telefon söhbəti zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ LİTVANIN XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA ƏLAQƏLƏRİNİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Oktyabrın 29-da Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov Litva Respublikasının Dövlət Təhlükəsizlik Departamentinin baş direktoru Povilas Malakauskasın dəvəti ilə bu ölkədə rəsmi səfərdə olmuşdur.

Litva təhlükəsizlik xidmətinin rəhbəri azərbaycanlı həmkarının bu səfərinin təhlükəsizlik sahəsində ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində atılmış növbəti addım kimi qiymətləndirmişdir. P.Malakauskas Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarının yaranmasının 90 illik yubileyi ilə əlaqədar nazir Eldar Mahmudovun dəvəti ilə bu ilin aprel ayında Bakıya etdiyi səfər zamanı göstərilən qonaqpərvərliyin, xüsusən də dövlətimizin başçısı İlham Əliyevin qəbulunda aldıqları təəssüratın unudulmaz olduğunu bildirmişdir.

Litvada ona göstərilən yüksək qonaqpərvərliyə, keçirilən görüşlərin səmərəli nəticələrinə görə təşəkkürünü bildirən nazir Eldar Mahmudov, transmilli mütəşəkkil cinayətkarlığın müxtəlif təzahürlərinə, xüsusən terrorçuluğa qarşı mübarizə, enerji və nəqliyyat təhlükəsizliyi sahəsində görülən işlər barədə danışmışdır.

E.Mahmudov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional və beynəlxalq təhlükəsizlik üçün ciddi təhdid doğurduğunu qeyd etmiş, bu problemin tezliklə həll olunmasının vacibliyini və bunun üçün tərəfdaş dövlətlər tərəfindən də səylərin artırılması zərurətini vurğulamışdır.

Görüşdə Litva və Azərbaycan xüsusi xidmət orqanlarının əməkdaşlıq əlaqələrinin yüksələn xətlə inkişafından razılıq bildirilmiş, perspektiv planlar barədə müzakirələr aparılmış, habelə təcrübə və məlumat mübadiləsinin bundan sonra da genişləndirilməsinin vacibliyi qeyd edilmişdir.

Səfər zamanı Litva Respublikasının Baş naziri Andrius Kubilius Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Eldar Mahmudovu qəbul etmişdir. Görüşdə Litva və Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinin hər iki dövlətin başçıları tərəfindən yüksək qiymətləndirildiyi xüsusi vurğulanmış, ölkələrimizin bütün istiqamətlərdə, o cümlədən xalqlarımız arasında tarixi-mədəni əlaqələrin, həmçinin təhlükəsizlik sahəsində tərəfdaşlığın daha da genişləndirilməsi mövzusunda faydalı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FƏLƏSTİN MUXTARİYYƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ RİYAD ƏL-MALKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Fələstin Muxtariyyətinin xarici işlər naziri Riyad Əl-Malkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Xarici işlər naziri Riyad Əl-Malki Fələstin Muxtariyyətinin rəhbəri Mahmud Abbasın salamlarını və məktubunu dövlətimizin başçısına çatdırdı. O, Fələstin Muxtariyyəti rəhbərliyinin Azərbaycanda səfirliyin açılması barədə qərar qəbul etdiyini bildirdi.

Görüşdə münasibətlərimizin müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı İlham Əliyev Mahmud Abbasın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Fələstin Muxtariyyətinin rəhbərinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUS RESPUBLİKASININ MİLLİ DÖVLƏT TELERADİO ŞİRKƏTİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Belarus Respublikasının Milli Dövlət Teleradio Şirkətinin müxbirinə müsahibə vermişdir.

Dövlətimizin başçısı Azərbaycanda iqtisadi və sosial sahələrdə həyata keçirilən işlər, Azərbaycan-Belarus iqtisadi əlaqələri, ölkəmizin qeyri-neft sektorunda əldə etdiyi uğurlar və digər məsələlərlə bağlı suallara cavab vermişdir.

AZƏRBAYCAN VƏ ÇEXİYA ARASINDA SAZİŞ İMZALANMIŞDIR

Oktyabrın 31-də Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında saziş imzalanmışdır. Sənədi Azərbaycan Hökuməti adından iqtisadi inkişaf naziri Şahin Mustafayev, Çexiya Hökuməti adından bu ölkənin Azərbaycandakı səfiri Radek Matula imzalamışlar.

Şahin Mustafayev əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilməsi nəticəsində ölkəmizin hərtərəfli inkişaf etdiyini, dünyanın aparıcı dövlətlərinin əsas tərəfdaşına çevrildiyini, respublikamızda beynəlxalq iqtisadi əməkdaşlığın genişləndirilməsinə xüsusi əhəmiyyət verildiyini vurğulamışdır.

Ş.Mustafayev Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin mayında Praqaya işgüzar səfərinin və Çexiya Respublikasının Prezidenti Vatslav Klausla aparılan danışıqların iki ölkə arasında əməkdaşlığın inkişafına böyük imkanlar açdığını diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, Çexiya ilə mövcud iqtisadi əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensial vardır və bu imkanlardan səmərəli istifadə etməklə ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafına nail olmaq mümkündür. İmzalanan saziş də bu məqsədlərə xidmət edir və əlaqələrin genişlənməsində əhəmiyyətli olacaqdır.

Sazişdə iqtisadi, elmi-texniki və mədəni, o cümlədən maşınqayırma, nəqliyyat, energetika, neft-qaz, kimya, metallurgiya, dağ-mədən sənayesi, kənd təsərrüfatı, standartlaşdırma, tikinti və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri əksini tapmışdır. Bu məqsədlər üçün Azərbaycan ilə Çexiya arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın yaradılması nəzərdə tutulur. Komissiyanın yaradılması iqtisadi əlaqələrin genişləndirilməsi üçün mövcud potensialdan səmərəli istifadə imkanlarını daha da artıracaqdır.

Çexiyanın Azərbaycandakı səfiri Radek Matula ölkəsinin Azərbaycanla iqtisadi əlaqələrin genişləndirilməsində maraqlı olduğunu vurğulamış, imzalanmış sənədin Çexiya-Azərbaycan əlaqələrinin genişlənməsində əhəmiyyətli olacağını qeyd etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI İŞIK KOŞANERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkiyənin Quru Qoşunları Komandanı İşık Koşanerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə olduğu kimi, hərbi sahədə də uğurla davam edəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Türkiyənin Quru Qoşunları Komandanı İşık Koşanerin Azərbaycana səfəri bu sahədə əməkdaşlığımızın perspektivləri ilə bağlı məhsuldar müzakirələr aparılması baxımından əhəmiyyətli olacaqdır.

Quru Qoşunları Komandanı İşık Koşaner qeyd etdi ki, Türkiyə və Azərbaycan silahlı qüvvələri arasında əməkdaşlıq dünyaya nümunə olacaq səviyyədədir. İşık Koşaner bu əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YALTA ŞƏHƏRİNİN BAŞÇISI SERGEY BRAYKONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Yalta şəhərinin başçısı Sergey Braykonu qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlər çərçivəsində Yalta və Xaçmaz şəhərlərinin uğurlu əməkdaşlığından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, qonağın ölkəmizə səfəri bu əlaqələrin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəkdir.

Yalta şəhərinin başçısı Sergey Brayko ölkəmizdə olduğu müddətdə Bakıda və Xaçmazda çox böyük inkişaf proseslərinin getdiyinin, geniş abadlıq və quruculuq tədbirlərinin həyata keçirildiyinin şahidi olduğunu vurğuladı.

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI

Noyabrın 2-də Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Telefon söhbəti zamanı dövlət başçıları ikitərəfli görüşlərin gələcək planları və Azərbaycan-Rusiya əməkdaşlığının müxtəlif sahələrinə dair məsələləri müzakirə etdilər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV KOREYA RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ LÜ KVANQ ÇULU DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lü Kvanq Çulu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Lü Kvanq Çulun ölkəmizdəki səfirlik fəaliyyəti müddətini Azərbaycan ilə Koreya arasında əməkdaşlığın fəal dövrü kimi qiymətləndirən dövlətimizin başçısı səfirin ikitərəfli münasibətlərimizin inkişafına öz töhfəsini verdiyini vurğulamışdır. Azərbaycan ilə Koreya arasında əməkdaşlığın yaxşı səviyyədə olduğunu qeyd edən Prezident İlham Əliyev iqtisadi sahədə əlaqələrimizin geniş perspektivlərə malik olduğunu demişdir. Dövlətimizin başçısı ötən dövrdə ölkələrimizin səfirliklərinin açılmasını münasibətlərimizin daha da möhkəmlənməsi işində önəmli rol oynadığını vurğulamışdır. Gələcək fəaliyyətində səfirə müvəffəqiyyətlər arzulayan Prezident İlham Əliyev Azərbaycan-Koreya əlaqələrinin bundan sonra da uğurla davam edəcəyinə ümidvar olduğunu bildirmişdir.

Lü Kvanq Çul səfirliyin fəaliyyətinə göstərdiyi yüksək diqqətə görə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir. O, ölkəmizdə fəaliyyəti müddətində Azərbaycan ilə Koreya arasında yaxşı əlaqələr yaradıldığını, səfir kimi isə bu işdə səylərini əsirgəmədiyini demişdir. Ölkələrimiz arasında əlaqələri daha da inkişaf etdirmək üçün böyük imkanların olduğunu deyən diplomat, əməkdaşlığımızın gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirmişdir.

XARİCİ İŞLƏR NAZİRİ AVSTRİYANIN İQAMƏTGAHI VYANADA OLAN SƏFİRİ MARİUS KARİQALİSİ AZƏRBAYCANDA FƏALİYYƏT MÜDDƏTİNİN BİTMƏSİ İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Noyabrın 3-də xarici işlər naziri Elmar Məmmədyarov Avstriyanın iqamətgahı Vyanada olan səfiri Marius Kariqalisi Azərbaycanda fəaliyyət müddətinin bitməsi ilə əlaqədar qəbul etmişdir.

Görüş zamanı səfir Marius Kariqalis Azərbaycanda Avstriyanın səfiri olmasından məmnun olduğunu bildirmişdir. İşlədiyi dövrdə ölkələr arasındakı münasibətlərin daha da genişlənməsi və inkişafı istiqamətdə fəaliyyət göstərdiyini söyləyən Səfir bu istiqamətdə XİN ilə faydalı əməkdaşlığı qeyd etmişdir. Azərbaycandan xoş xatirələrlə ayrıldığını vurğulayan səfir, fəaliyyəti zaman göstərilən dəstək və diqqətə görə minnətdarlığını bildirmişdir.

Öz növbəsində nazir E.Məmmədyarov səfir M.Kariqalisə xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

BAKIDA İKT-NİN GƏNCLİYİN İNKİŞAFINDA ROLU ÜZRƏ I BEYNƏLXALQ KONFRANS BAŞA ÇATMIŞDIR

Noyabrın 2-3-də Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏİKGF) Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birgə təşkil etdiyi "Rəqəmsal texnologiyalar dövrü və yeni nəsil: informasiya kommunikasiya texnologiyaları (İKT) sahəsində gənclərin biliklərinin artırılması" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Konfransda İslam Konfransı Təşkilatı, Avropa ölkələrindən yüzə yaxın gənc ekspert, o cümlədən İKT sahəsində ixtisaslaşmış aparıcı şirkət, elmi institut və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər. İşçi qruplarda "Gənc iş adamları on-line

rejimində", "Gənclər təşkilatları - özəl sektor əməkdaşlığı", "Beynəlxalq kampaniyaların həyata keçirilməsində İKT-nin rolu" və başqa mövzular üzrə keçirilən müzakirələrdə iştirak edən gənclərin irəli sürdükləri ideya və təkliflər "İKT sahəsində gəncliyin inkişafı" üzrə Bakı Bəyannaməsində öz əksini tapmışdır.

Konfransın bağlanış mərasimində dünyanın İKT üzrə aparıcı mütəxəssislərindən olan professor Peter Bruk media və biznes sahəsində informasiya texnologiyaları, xüsusilə internetin artmaqda olan rolu haqqında məruzə ilə çıxış etmişdir.

DƏİKGF-nin baş katibi Elşad İsgəndərov, Qətər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndəsi Məhəmməd Əl-Tani, BMT İnkişaf Proqramının xüsusi müşaviri Şəid Hüseyn yekun nitqlərində konfransda qəbul edilən Bakı Bəyannaməsində öz əksini tapan məqsəd və vəzifələrin həyat keçiriləcəyinə ümidvar olduqlarını bildirmişlər.

Konfransın plenar iclaslarının biri DƏİKGF-nın mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülən "Xocalıya ədalət" kampaniyası çərçivəsində görülən işlərin müzakirəsi ilə bağlı olmuşdur. Leyla Əliyevanın başçılığı altında keçirilən kampaniya üzrə dünyanın 20-dən çox ölkəsindən gəlmiş milli əlaqələndiricilərin iştirakı ilə təşkil olunan bu iclasda kampaniyanın 2010-2011-ci ildə daha səmərəli keçirilməsi üçün konkret təkliflər ətrafında müzakirələr aparılmışdır.

Konfransda DƏİKGF və Azərbaycan Respublikası İnformasiya və Texnologiyaları Nazirliyinin Avropa və Yaxın Şərq ölkələri gəncləri arasında sivilizasiyaların dialoqu üzrə proqramının yayımlanmasını nəzərdə tutan "Körpü" internet-televiziyasının təqdimatı keçirilmişdir.

Konfransın son günü tədbir iştirakçılarının qəbul etdiyi "İKT sahəsində gəncliyin inkişafı" üzrə Bakı Bəyannaməsinin işçi sənəd kimi Qara Dəniz Hövzəsi Ölkələri və İslam Konfransı Təşkilatı ölkələri kommunikasiya texnologiyaları nazirlərinin iştirak edəcəyi konfransa göndərilməsi qərara alınmışdır.

Konfrans həm də gənc iş adamlarına kompyuter texnologiyaları sahəsində gələcəkdə birgə layihələrin həyata keçirilməsi üzrə tərəfdaş və investorların tapılması baxımından imkanlar yaratmışdır.

BEYNƏLXALQ TƏDBİRDƏ AQUPDK-NIN SƏDRİ HİCRAN HÜSEYNOVANIN İRƏLİ SÜRDÜYÜ TƏKLİFLƏR YEKDİLLİKLƏ QƏBUL EDİLMİŞDİR

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Hicran Hüseynova noyabrın 2-4-də İsveçrənin Cenevrə şəhərində keçirilmiş "BMT-nin Avropa üzrə İqtisadi Komissiyası regionda gender bərabərliyi üçün yeni çağırış və imkanlar: əsas məsələlər və tədbirlər proqramı" mövzusunda regional görüşdə iştirak etmişdir.

Səfərin əsas məqsədi gender bərabərliyi üçün imkanların genişləndirilməsi sahəsində təcrübə mübadiləsi, eyni zamanda regional əməkdaşlığın genişləndirilməsi olmuşdur.

Tədbir zamanı AQUPDK-nın sədri H.Hüseynova Pekin+15 regional toplantısı çərçivəsində "UNECE regionunda gender bərabərliyi üzrə yeni çağırış və imkanlar: əsas məsələlər və tədbirlər proqramı" mövzusu üzrə Azərbaycanda əldə olunan nailiyyətlərə dair geniş məzmunlu məruzə etmişdir. Məruzədə qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu siyasət sayəsində ölkəmizdə istər sosial, istərsə də iqtisadi baxımdan əhəmiyyətli dərəcədə yüksəliş bərqərar olmuşdur. Bu siyasətin təsdiqi olaraq Azərbaycanda son illər gender bərabərliyinin təmin edilməsi istiqamətində bir sıra mühüm addımlar atılmış və dövlət proqramları qəbul edilmişdir.

H.Hüseynova son illər ölkəmizdə gender bərabərliyinin təmin edilməsi istiqamətində qəbul olunmuş dövlət proqramları barədə ətraflı məlumat verməklə yanaşı, Ermənistanın Azərbaycana təcavüzü, onun nəticəsi olaraq respublikamızda qaçqın və məcburi köçkünlərin problemlərinə toxunmuşdur. Bildirmişdir ki, münaqişənin ölkəmizdə qadınların hüquqlarının müdafiəsi sahəsində mövcud olan problemlərin həllinə ciddi maneələr yaratmasına baxmayaraq, Azərbaycanda bütün bu çətinliklərin aradan qaldırılması istiqamətində böyük işlər görülməkdədir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr, onun dövlət qadın siyasəti yönümündəki çoxşaxəli fəaliyyəti, bu sahədə respublikada mövcud problemlərin həllinə təkan verilməsi də xüsusi vurğulanmışdır.

H.Hüseynova ölkəmizdə 2008-2015-ci illərdə Azərbaycan Respublikasında "Yoxsulluğun azaldılması və davamlı İnkişaf Dövlət Proqramı"na gender siyasəti ilə bağlı ayrıca bölmənin daxil edildiyini xüsusi qeyd etmişdir. Bu proqramda zorakılıq, erkən nikahlar, qadınların qərar qəbul etmədə iştirakının artırılması və digər məsələlərin öz əksini tapdığını bildirmişdir. AQUPDK sədrinin Azərbaycanda qadın məsələləri istiqamətində aparılan dövlət siyasətinin həyata keçirilməsi zamanı əldə olunmuş nailiyyətlər barədə ətraflı məlumatı tədbir iştirakçılarının böyük marağına səbəb olmuşdur.

Dünya Bankının nümayəndəsi xanım Mayra Buviniçin çıxışından sonra H.Hüseynova əməkdaşlığın regional səviyyədə inkişaf etdirilməsinin vacibliyini vurğulamaqla yanaşı, qadınların iqtisadi sahədə fəaliyyətinə dair məlumat bankının yaradılması təklifi ilə çıxış etmişdir.

Tədbirə sədrlik edən Fransa Xarici İşlər Nazirliyinin təmsilçisi Mark Jiakomini tərəfindən təklif və tövsiyələr irəli sürülmüşdür. Tövsiyələrin birində məişət zorakılığının qarşısının alınması ilə bağlı yeni qanunvericiliyin icrası, zorakılıq qurbanlarının müdafiəsinin təmin olunması və onlara zəruri köməyin göstərilməsi ilə yanaşı, bu cinayəti törədənlərə qarşı bir sıra sanksiyaların tətbiq olunması da nəzərdə tutulurdu. H.Hüseynova sözügedən tövsiyələrə dair hərbi münaqişə qurbanlarının hüquqlarının müdafiəsi və təmin olunması, onlara zəruri köməyin göstərilməsi ilə yanaşı, bu cinayəti törədənlərə qarşı bir sıra sanksiyaların tətbiq edilməsi təklifini irəli sürmüşdür. AQUPDK sədrinin təklifi yekdilliklə qəbul edilmişdir.

H.Hüseynova noyabrın 4-də SPEKA Gender Bərabərliyi və İqtisadiyyatı üzrə Layihə İşçi Qrupunun iclasına sədrlik etmişdir.

Həmin tədbirdə SPEKA-a üzv olan ölkələrdə "Minilliyin İnkişaf Məqsədlərinin əldə edilməsi üçün genderin iqtisadi siyasətə yönəldilməsi" mövzusunda İnkişaf Layihəsi

üzrə meydana çıxan əsas problemlərə dair müzakirələr aparılmışdır.

H.Hüseynova iclasda "Azərbaycanda qadınların iqtisadi sahədə fəaliyyəti üzrə əldə olunan nailiyyətlər" mövzusunda məruzə ilə çıxış etmişdir. Eyni zamanda, AQUPDK-nın sədri Mərkəzi Asiya və Qafqaz regionunda "Ekologiyanın qadınların reproduktiv sağlamlığına təsiri" mövzusunda tədqiqatların aparılması təklifini irəli sürmüşdür. Digər təkliflərlə yanaşı, H.Hüseynova kənd təsərrüfatı sahəsində çalışan qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması ilə bağlı onlara hüquqi yardımın göstərilməsi zərurətini vurğulamaqla iştirakçıları bu məsələyə daha həssas yanaşmağa çağırmışdır.

Tədbirdə qarşıya çıxan problemlərin sadalanması ilə yanaşı, onların həlli yolları da geniş müzakirələrə səbəb olmuşdur.

Hicran Hüseynova səfər çərçivəsində Polşanın əmək və sosial siyasət naziri İolanta Fedak, İsveçin inteqrasiya və gender bərabərliyi naziri Nyuamko Sabuni, Litvanın sosial müdafiə və əmək nazirinin katibi Audrone Morkunene, Gürcüstan parlamentinin vitse-spikeri Rusudan Kervalişvili, Fransa Xarici İşlər Nazirliyinin təmsilçisi Mark Jiakomini, Norveç Krallığı nümayəndə heyətinin başçısı - Xarici İşlər Nazirliyinin gender bərabərliyi və qadın hüquqları İdarəsinin rəisi Fredrik Artur, Belarus Respublikası əmək və sosial müdafiə nazirinin müavini Mariyanna Şotkina, BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibi Yan Kubişlə və UNİFEM-in nümayəndəsi ilə görüşlər keçirmişdir.

UNİFEM-in nümayəndəsi ilə görüşdə regionlarda qadın sahibkarlığının dəstəklənməsi üzrə layihənin həyata keçirilməsi məsələləri əsas müzakirə mövzusu olmuşdur.

Regional görüşlər zamanı iştirakçılar tərəfindən ikitərəfli və çoxtərəfli əlaqələrin qurulması, gələcək əməkdaşlıq üçün geniş imkanların açılması baxımından belə tədbirlərin əhəmiyyəti xüsusi vurğulanmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ HAMADUN TURENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Hamadun Tureni qəbul etmişdir.

Baş katib Hamadun Ture ölkəmizdə keçirilən Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisində yenidən iştirakından məmnunluğunu bildirmişdir. O, Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları sahəsində inkişafa nail olunduğunun əhəmiyyətini qeyd etmişdir. Hamadun Ture bu sektorda ölkəmizin həyata keçirdiyi işlərin gələcəkdə də uğurlu nəticələr verəcəyinə əminliyini bildirmişdir.

Dövlətimizin başçısı qeyd etmişdir ki, informasiya və kommunikasiya texnologiyaları sahəsi Azərbaycanda nisbətən yaxın zamanlarda inkişafa başlasa da, bu sektorda artıq böyük irəliləyişlər əldə edilmişdir. "BAKUTEL-2009" 15-ci yubiley Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisinin əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev sərgiyə marağın getdikcə artdığını və ildən-ilə daha da genişləndiyini bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PATRİARX KATALİKOSU II İLYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Gürcüstan Patriarx Katalikosu II İlyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin bütün istiqamətlərdə uğurlu inkişafından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev nüfuzlu din xadimlərinin iştirakı ilə regionumuzda həyata keçirilən dinlərarası dialoqun önəmini vurğuladı və bunun regionda qarşılıqlı anlaşmaya, əməkdaşlığa və təhlükəsizliyin bərqərar olunması baxımından böyük imkanlar yaratdığını qeyd etdi. Dövlətimizin başçısı Gürcüstan Patriarx Katalikosu II İlyanın Bakıda keçiriləcək "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" beynəlxalq konfransında iştirakının əhəmiyyətini vurğuladı və onun ölkəmizə səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi.

Gürcüstan Patriarx Katalikosu II İlya gürcü Pravoslav kilsəsi, gürcü xalqı və şəxsən öz adından dövlətimizin başçısını salamlayaraq dedi: "Bir daha demək istəyirəm ki, Gürcüstanda Sizi yaxşı tanıyırlar və yaşadığımız mürəkkəb dövrdə yeritdiyiniz müdrik siyasətə görə Sizi sevirlər."

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNSK VƏ SLUTSK MİTROPOLİTİ, BELARUS ÜZRƏ PATRİARX EKZARXI FİLARETİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Minsk və Slutsk Mitropoliti, Belarus üzrə Patriarx Ekzarxı Filaretin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Mitropolit Filaretin ölkəmizə səfərinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Bakıda keçirilən "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" Beynəlxalq konfransda qonağın iştirakının önəmini qeyd etmişdir. Prezident İlham Əliyev Mitropolit Filaretin ölkəmizə səfərinin, həmçinin konfransda aparılacaq müzakirələrin xalqlarımız arasında münasibətlərin inkişafı və eləcə də dinlərarası dialoqun möhkəmlənməsi baxımından faydalı olacağına əminliyini bildirmişdir.

Ölkələrimiz arasında mövcud olan qədim dostluğun yeni inkişafa kömək edəcəyini vurğulayan Mitropolit Filaret münasibətlərimizin möhkəm əsaslara malik olduğunu qeyd etmişdir.

XARİCİ İŞLƏR NAZİRİ KOREYA RESPUBLİKASININ SƏFİRİ LÜ KVANQ ÇULU AZƏRBAYCANDA FƏALİYYƏT MÜDDƏTİNİN BİTMƏSİ İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Noyabrın 4-də xarici işlər naziri Elmar Məmmədyarov Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfiri Lü Kvanq Çulu ölkəmizdə fəaliyyət müddətinin bitməsi ilə əlaqədar qəbul etmişdir.

Görüş zamanı səfir L.Kvanq Çul Azərbaycanda Koreyanın səfiri olmasından məmnun olduğunu bildirmişdir. İşlədiyi dövrdə ölkələr arasındakı iqtisadiyyat, təhsil, mədəniyyət, humanitar və digər sahələrdə ikitərəfli münasibətlərin daha da genişlənməsi və inkişafı üçün fəaliyyət göstərdiyini söyləyən səfir bu istiqamətdə XİN ilə faydalı əməkdaşlığını qeyd etmişdir. Azərbaycandan xoş xatirələrlə ayrıldığını vurğulayan səfir fəaliyyəti zaman göstərilən dəstək və diqqətə görə minnətdarlığını bildirmişdir.

Öz növbəsində nazir E.Məmmədyarov səfir L.Kvanq Çula xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

XARİCİ İŞLƏR NAZİRİ AVROPA İTTİFAQININ NÜMAYƏNDƏLİYİNİN AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ RƏHBƏRİNİ QƏBUL ETMİŞDİR

Noyabrın 4-də xarici işlər naziri Elmar Məmmədyarov Avropa İttifaqının Nümayəndəliyinin Azərbaycana yeni təyin olunmuş rəhbəri, səfir Rolan Kobianı qəbul etmişdir.

Etibarnamənin surətini təqdim edən səfir Azərbaycana təyin olunmasından şad olduğunu və fəaliyyəti dövründə Azərbaycan-Aİ arasındakı münasibətlərin daha da inkişaf və genişlənməsinə xidmət edəcəyini söyləmişdir.

Öz növbəsində nazir Məmmədyarov cənab Kobian Azərbaycana səfir təyin edilməsi münasibətilə ürəkdən təbrik etmiş və Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələrin yüksək səviyyədə olmasından məmnunluğunu bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya), Robert Bradkeni (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ABŞ DÖVLƏT KATİBİNİN SİYASİ VƏ HƏRBİ MƏSƏLƏLƏR ÜZRƏ KÖMƏKÇİSİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov noyabrın 4-də Vaşinqtonda öz işinə başlamış 11-ci ikitərəfli təhlükəsizlik dialoqu çərçivəsində ABŞ dövlət katibinin siyasi və hərbi məsələlər üzrə köməkçisi Endryü Şapiro ilə görüşmüşdür. Tərəflər 2007-ci ilin iyul ayında keçirilmiş sonuncu dialoqun uğurunu xüsusi vurğulamışlar.

Dialoqun əsas müzakirə mövzusu beynəlxalq və regional təhlükəsizlik məsələləri, dəniz təhlükəsizliyi, terrorizm və narkomaniya ilə mübarizə, sərhəd təhlükəsizliyi və nüvə silahının yayılmaması olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLLİ QƏBUL ETMİŞDİR

Noyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirilli qəbul etmişdir.

Prezident İlham Əliyev pravoslav kilsəsinin başçısını salamlayaraq dedi:

- Zati-müqəddəsləri, Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Bu, dövlətlərimiz arasında əlaqələri möhkəmləndirmək, habelə dinlərarası dialoqu inkişaf etdirmək üçün çox yaxşı imkandır. Sizin bugünkü tədbirlərdə iştirak etməyiniz onlara xüsusi önəm verir və biz çox qiymətləndiririk ki, Siz gərgin iş cədvəlinizə baxmayaraq, bu səfər üçün vaxt tapmısınız. Əminəm ki, bu səfər dövlətlərimiz arasında çox dinamik və səmərəli inkişaf edən, ölkələrimizə və xalqlarımıza fayda gətirən münasibətlərin dərinləşməsinə kömək edəcəkdir. Bir daha xoş gəlmisiniz.

Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill Azərbaycan dövlətinin başçısına təşəkkürünü bildirərək dedi:

- Cənab Prezident, mən qonaqpərvər, gözəl Azərbaycan torpağına qədəm qoyan kimi Sizinlə - Azərbaycan xalqının görkəmli lideri ilə görüşmək imkanına və dinlərarası münasibətlərin səviyyəsinə, Azərbaycanda pravoslav kilsəsinin vəziyyətinə, müsəlmanlar və xristianlar arasında əməkdaşlığa görə Sizə ürəkdən təşəkkürümü bildirirəm. Bu baxımdan, Azərbaycan örnək ölkədir. Gündəlikdə heç bir problem yoxdur. Bu, çox az təsadüf edilən haldır. Mən təyyarədə olarkən düşünürdüm ki, hər halda hansısa problemlər olmalıdır. Lakin həmkarlarım məni inandırdılar ki, gündəlikdə heç bir problem yoxdur. Bu, əlbəttə, Sizin qayğınızdan, hökumətinizin qayğısından, dinlərarası, mədəniyyətlərarası dialoqun səviyyəsindən xəbər verir. Bu, praktik dialoqdur. Bu, insan qəlblərinin dialoqudur. Bu, cəmiyyəti, insanları birləşdirir və bunu qeyd etmək mənim üçün çox xoşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEÇENİSTAN PREZİDENTİ RAMZAN KADIROVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Çeçenistan Respublikasının Prezidenti Ramzan Kadırovu qəbul etmişdir.

Prezident Ramzan Kadırovun Bakıda keçirilən tədbirlərdə iştirakından məmnunluğunu bildirən dövlətimizin başçısı onun Azərbaycana səfərinin əlaqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını demişdir. Azərbaycan və çeçen xalqlarının əsrlər boyu davam edən dostluq münasibətlərini yüksək qiymətləndirən Prezident İlham Əliyev Çeçenistanda aparılan bərpa, yenidənqurma işlərinin və inkişafın ölkəmizdə izlənildiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Çeçenistan arasında qarşılıqlı fəaliyyət və iqtisadi əlaqələrin inkişafı üçün yeni yolların müəyyənləşdirilməsinin zəruriliyini vurğuladı. Prezident İlham Əliyev Ramzan Kadırovun rəhbərliyi ilə Çeçenistanın bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini diqqətə çatdırmışdır.

Xalqının ən çətin vaxtlarında Azərbaycanın onun həmvətənlərinə sığınacaq verdiyini və yüksək qayğı göstərdiyini yada salan Prezident Ramzan Kadırov öz adından və çeçen

xalqı adından dövlətimizin başçısına minnətdarlığını bildirmiş və çeçen xalqının bunu heç vaxt unutmayacağını demişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTAN PREZİDENTİ MUXU ƏLİYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan-Rusiya arasında ikitərəfli münasibətlərin, o cümlədən Dağıstan Respublikası ilə əlaqələrin inkişaf etdiyini vurğulamışdır. Əməkdaşlıq imkanlarını daha da genişləndirməyin zəruriliyini bildirən Prezident İlham Əliyev Dağıstan Prezidenti Muxu Əliyevin ölkəmizə səfərinin əlaqələrimizin perspektivlərini müzakirə etmək baxımından yaxşı fürsət yaratdığını qeyd etmişdir.

Prezident Muxu Əliyev bildirmişdir ki, yenidən qardaş Azərbaycana baş çəkmək imkanının yaranması onun üçün çox xoşdur. O, Dağıstan ilə Azərbaycan arasında ən səmimi əlaqələrin olduğunu vurğulamışdır.

BAKIDA "DİNLƏRARASI DİALOQ: QARŞILIQLI ANLAŞMADAN BİRGƏ ƏMƏKDAŞLIĞA DOĞRU" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR

Noyabrın 6-da Bakıda, "Gülüstan" sarayında Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 60 və şeyxülislamlıq fəaliyyətinin 30 illiyinə həsr olunmuş "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusunda Beynəlxalq konfransın açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak etmişlər.

Dövlətimizin başçısı İlham Əliyev tədbirdə çıxış etmişdir.

PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli şeyx həzrətləri,

Hörmətli qonaqlar,

Xanımlar və cənablar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bütün qonaqlara Azərbaycana xoş gəlmisiniz deyirəm.

Bu gün Bakıda çox əlamətdar hadisə baş verir, dinlərarası dialoq mövzusunda çox önəmli və mötəbər konfrans öz işinə başlayır. Bu, çox əlamətdar hadisədir. İlk növbədə ona görə ki, bu hadisə Bakıda baş verir. Bakı və Azərbaycan dinlərarası dialoqun inkişafı üçün həmişə çox fəal işləyir, öz fəal rolunu oynayır. Ölkəmizdə bu mövzu ilə əlaqədar keçirilən müxtəlif beynəlxalq konfranslar dinlərarası dialoqun inkişafına çox böyük

töhfələr verir.

Digər tərəfdən, bu konfransın özəlliyi və önəmi ondan ibarətdir ki, qonaqlarımızın arasında dünya miqyaslı şəxsiyyətlər vardır. Dünyada çox böyük nüfuza malik olan şəxsiyyətlər bizim qonaqlarımızdır. Eyni zamanda, konfrans hörmətli şeyx həzrətlərinin 60 illik yubileyinə həsr edilir. Yəni, bütün bu amillər konfransın önəmini böyük dərəcədə artırır. Əminəm ki, Bakıda bu gün və sabah aparılan müzakirələr, fikir mübadiləsi, qəbul ediləcək qərarlar dünyada dinlərarası dialoqun inkişafına çox böyük töhfə verəcəkdir.

Azərbaycan əsrlər boyu dinlərarası münasibətlərin inkişafında öz rolunu oynamışdır. İctimai-siyasi quruluşundan asılı olmayaraq bütün dövrlərdə Azərbaycanda dini və milli dözümlülük, tolerantlıq çox yüksək səviyyədə olub. Bu, Azərbaycan xalqının duyğularıdır, eyni zamanda, müstəqil Azərbaycan dövlətinin siyasətidir və Azərbaycanda fəaliyyət göstərən dini qurumların əməyinin praktiki nəticəsidir.

Bu, doğrudan da hesab edirəm ki, dünyada çox nadir hallarda rast gəlinən bir fenomendir. Azərbaycanda bütün millətlər bir ailə kimi yaşayır. Heç vaxt Azərbaycanda nə milli, nə dini zəmində heç bir münaqişə və qarşıdurma olmamışdır və əminəm ki, olmayacaqdır. Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar, Azərbaycanın inkişafı üçün fəal çalışırlar. Onlar Azərbaycanın layiqli və dəyərli vətəndaşları kimi ölkəmizin hərtərəfli inkişafına öz töhfələrini verirlər.

Coğrafi vəziyyəti, tarixi, bugünkü inkişaf templəri və xüsusilə sivilizasiyalararası münasibətlərə verdiyimiz önəm Azərbaycanı bu mövzu ilə əlaqədar keçirilən və keçiriləcək tədbirlərin qeyri-rəsmi paytaxtı elan edir. Azərbaycan İslam dünyasının bir parçasıdır. Azərbaycan xalqı öz dini və milli ənənələrinə çox sadiqdir. Biz İslamın bir parçası olaraq İslam Konfransı Təşkilatının üzvüyük. Eyni zamanda, Azərbaycan coğrafi vəziyyətinə görə bəzi Avropa təşkilatlarının da üzvüdür. Yəni, dünyada çox nadir hallarda biz bu mənzərə ilə üzləşirik ki, bir ölkə öz dini və milli ənənələrinə sadiq olmaqla bərabər, bölgədə bütün millətlərin nümayəndələrinin yaşaması, normal fəaliyyəti üçün əlindən gələni edir.

Biz hamımız bu nadir imkanlardan səmərəli şəkildə istifadə etməliyik. Çünki bugünkü zamanda dünyada sülhün, əmin-amanlığın təmin edilməsi, asayişin qorunması üçün mütləq dinlərarası dialoq gücləndirilməlidir.

Sivilizasiyalararası dialoqla bağlı müxtəlif tədbirlər keçirilir, müxtəlif bəyanatlar verilir. Bunların hamısı çox vacib məsələlərdir. Ancaq biz çalışmalıyıq ki, bu dialoqun gözəl nəticələrini real həyatda görək, nəinki görək, bu nəticələri əldə edək. Biz birgə fəaliyyətimiz nəticəsində buna nail ola bilərik. Əgər biz buna nail olsaq, onda dünyada sülhün bərqərar olması daha da sürətli templərlə gedəcəkdir. Buna həm dünyada, həm yaşadığımız bölgədə, həm də Qafqazda böyük ehtiyac vardır. Mən həmişə demişəm ki, Qafqaz vahid bir orqanizmdir. Şimali Qafqazda baş verən proseslər, Cənubi Qafqazda baş verən proseslərlə sıx bağlıdır. Biz hamımız çalışmalıyıq ki, bölgəmizdə, bu gözəl Qafqaz bölgəsində sülh, əmin-amanlıq, tərəqqi təmin edilsin, insanlar sülh, rifah şəraitində yaşasınlar və ölkələrimiz inkişaf etsin, çiçəklənsin. Biz buna ancaq birlikdə nail ola bilərik. Birgə səylərimizlə, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında, bir-birimizə kömək etməklə biz buna nail ola bilərik. Azərbaycan öz tərəfindən bu istiqamətdə

üzərinə düşən vəzifələrini, hesab edirəm ki, ləyaqətlə icra edir.

Biz çalışmalıyıq ki, bütün dünyada dinlərarası münasibətlər yeni müstəviyə qalxsın. Bu gün buna böyük ehtiyac vardır. Bunu reallaşdırmaq üçün bizdə bütün imkanlar vardır. Bu gün Azərbaycanda bu gözəl tədbirin keçirilməsi, müxtəlif dinlərin nümayəndələrinin bu tədbirdə iştirakı və birgə fəaliyyəti, qarşılıqlı anlaşma, hətta qeyri-formal və qeyri-rəsmi təmaslar əminəm ki, bu amala çatmaq üçün bizə yaxşı imkanlar yaradacaqdır.

Mən əminəm ki, növbəti illərdə də Azərbaycan dinlərarası dialoqun gücləndirilməsi üçün öz rolunu oynayacaq. Bu il Azərbaycanın paytaxtı Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilmişdir. Bu, bizim üçün böyük şərəfdir. Mən ümid edirəm ki, gələcək illərdə Bakı, eyni zamanda, Avropa mədəniyyətinin paytaxtı elan ediləcəkdir.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə bütün azadlıqlar yaradıldı, o cümlədən vicdan azadlığı, dini azadlıqlar. Müstəqillik dövründə ölkəmizdə mindən çox məscid tikildi, yüzlərlə tarixi, dini abidələrimiz bərpa edildi. Bununla bərabər, Azərbaycanda pravoslav və katolik kilsələri, sinaqoqlar tikilir və təmir edilir. Bu, bizim siyasətimizin çox vacib bir hissəsidir. Düzdür, ölkəmizdə gedən iqtisadi inkişaf qarşıda duran əsas iqtisadi və sosial problemlərin həlli üçün bizə gözəl şərait yaradır. Ancaq əgər ölkəmizdə inkişaf yalnız iqtisadi göstəricilərlə ölçüləcəksə, hesab edirəm ki, biz bu vəziyyətlə kifayətlənə bilmərik.

Eyni zamanda, bütün siyasi proseslərdə, dinlərarası, millətlərarası münasibətlərdə daim dövlət dəstəyi olmalıdır. Azərbaycan dövlətinin bu məsələlərlə əlaqədar çox düşünülmüş siyasəti vardır və ölkəmizin hərtərəfli inkişafı məhz bu şəkildə mümkün olacaqdır. Hər bir vətəndaş eyni hüquqlara malikdir. Biz bunu təkcə rəsmi qanunlarla yox, Konstitusiya ilə yox, gündəlik fəaliyyətlə hər gün təsdiq etməliyik. Elə etməliyik ki, ölkələrimizdə yaşayan bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq özlərini tamhüquqlu vətəndaşlar kimi hiss etsinlər. Ölkələrimizin ictimai, siyasi, iqtisadi həyatında fəal rol oynasınlar.

Azərbaycan çoxmillətli ölkədir və biz bu amillə fəxr edə bilərik. Əsrlər boyu ölkəmizdə, Azərbaycanda müxtəlif xalqların nümayəndələri yaşayıblar, yaradıblar. Azərbaycanın bu gün müstəqil ölkə kimi inkişafında ölkəmizdə yaşayan bütün xalqların nümayəndələrinin çox böyük rolu vardır. Biz çalışırıq ki, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri üçün öz praktiki işlərimizlə, konkret proqramlarımızla çox gözəl şərait yaradaq. Bütün bölgələrdə olduğu kimi, milli azlıqların yaşadığı bölgələrdə də sürətli inkişaf gedir, sosial və iqtisadi problemlər uğurla həll edilir. Bunun nəticəsində Azərbaycan hətta 2009-cu ilin böhran ili olmasına baxmayaraq, iqtisadi artım templərini saxlayır.

Bizim iqtisadi inkişafımız, eyni zamanda, ölkənin müstəqil siyasətini də şərtləndirir. Çünki müstəqil siyasətə malik olmayan ölkələr bəzi hallarda asılı vəziyyətə düşürlər. Siyasi müstəqilliyi təmin etmək üçün mütləq iqtisadi müstəqillik də lazımdır. Azərbaycanın iqtisadi göstəriciləri, son 5 il ərzindəki göstəricilər dünya miqyasında seçilir. Son beş ildə iqtisadiyyatımız 2,6 dəfə artmışdır. Sənaye istehsalı 2,5 dəfə artmışdır. Ölkə qarşısında duran əsas iqtisadi vəzifələr icra edilib.

Bununla bərabər, vətəndaş cəmiyyətinin formalaşması, ölkəmizdə sabitliyin bərqərar

olunması, millətlərarası münasibətlərin yüksək səviyyədə təşkil olunması və dövlət tərəfindən bu məsələyə daim diqqətin göstərilməsi, dini qurumların fəaliyyəti bütün bu uğurlu inkişaf dinamikasını təmin edir.

Bu münasibətlə mən bu gün hörmətli şeyx həzrətlərinin fəaliyyətini bir daha yüksək qiymətləndirmək istəyirəm. Çünki şeyx həzrətləri uzun illər öz praktiki işləri ilə, Azərbaycan xalqı qarşısında gördüyü işlərlə, çəkdiyi zəhmətlə ölkəmizin inkişafına dəyərli töhfəsini verir. Ağsaqqal sözü, dini rəhbərlərin sözləri hər zaman çox böyük əhəmiyyətə malik olubdur. Bu gün xüsusilə əhəmiyyətlidir. Çünki bugünkü dünyada görürük ki, bəzi bölgələrdə dini zəmində qarşıdurmalar baş verir. Dinlərarası dialoqun gücləndirilməsi əvəzinə, əksinə, dinlərarası qarşıdurmaya təkan olan hadisələr baş verir. Hətta bəzi hallarda bir dinin içində xoşagəlməz proseslər müşahidə olunur. Din rəhbərlərinin müdrikliyi, onların qətiyyəti, cəsarəti, əlbəttə ki, ölkə daxilindəki nüfuzu bütün xoşagəlməz halların aradan qaldırılmasında çox mühüm rol oynayır. Mən çox şadam ki, biz Azərbaycanda məhz bu mənzərəni yaşayırıq. Əminəm ki, bundan sonra uzun illər ərzində Azərbaycanda dini və milli dözümlülük yüksək səviyyədə olacaqdır. Hörmətli şeyx həzrətlərinin bu işlərdə fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Mən Prezident kimi bir daha bu məsələyə öz münasibətimi bildirmək istəyirəm.

Şeyx həzrətləri otuz ildir ki, bu böyük vəzifədə Azərbaycan naminə çalışır, həm Sovet İttifaqı zamanında, həm müstəqil Azərbaycanda. Əlbəttə ki, bu dövrlərin arasında çox böyük fərq vardır. Amma buna baxmayaraq, şeyx həzrətləri hətta çox çətin ideoloji çərçivələr içində həmişə öz ədalətli sözünü demişdir. Ölkəmiz üçün ən çətin anlarda o, birinci sıralarda idi. Müstəqilliyimizin ərəfəsində Azərbaycanda yaşanan çox ağır hadisələr zamanı şeyx həzrətlərinin müdrik sözü, onun vətəndaş mövqeyi Azərbaycanı daha da böyük bəlalardan qurtara bilmişdir. Müstəqillik dövründə, Azərbaycan gənc müstəqil dövlət kimi inkişaf etməyə başlayanda bizim vəziyyətimiz çox ağır idi. Həm iqtisadi, həm siyasi böhran, iqtisadiyyatın çökməsi, sənaye sahəsində ümumiyyətlə tamamilə durğunluq yaranmışdı. İqtisadi inkişafla, islahatlarla, siyasi islahatlarla bərabər dini sahədə də aparılan islahatlar və atılan addımlar Azərbaycanı hərtərəfli inkişaf etdirməyə imkan yaratdı.

Şeyx həzrətləri, eyni zamanda, dünyada çox böyük nüfuza malik olan bir şəxsiyyətdir. Bu gün şeyx həzrətlərinin dəvəti ilə Bakıya gəlmiş yüksək vəzifəli şəxslərin, din xadimlərinin burada bizimlə bərabər iştirakı bunu bir daha göstərir. Onun dəvətini qəbul edib bu gün bizə dünya miqyaslı şəxsiyyətlər təşrif buyurublar.

Şeyx həzrətləri, eyni zamanda, Azərbaycan xalqının ümummilli lideri, mənim atam Heydər Əliyevlə də çox yaxın dostluq əlaqələri saxlamışdır. Bu səmimi dostluq münasibətləri Azərbaycanda dini məsələlərin düzgün istiqamətdə həlli üçün çox mühüm rol oynamışdır. Mən həmişə deyirdim ki, bu şəxsi dostluq ölkəmiz üçün, ölkə əhalisi üçün də çox vacibdir. Mən çox şadam ki, Azərbaycanda bu gözəl ənənələr hər sahədə olduğu kimi, bu sahədə də davam edir. Bu gün mənimlə hörmətli şeyx həzrətləri arasında münasibətlər çox səmimidir, dostluq münasibətləridir. Biz bu dostluqdan çox məmnunuq. Bu dostluq həm bizim üçün, həm də, eyni zamanda, ölkəmiz üçün lazımdır.

Azərbaycanda din ilə dövlət ayrıdır. Azərbaycan dünyəvi dövlətdir. Ancaq bununla bərabər din ilə dövlət birdir. Bu birlik bizi qarşımızda duran amallar ətrafında birləşdirir. O

da Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirmək, Azərbaycanda sabitliyi daim yüksək səviyyədə saxlamaq, Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün əməli tədbirlər görmək, Azərbaycanda dinlərarası münasibətlərin həmişə müsbət istiqamətdə inkişaf etməsini təmin etmək, Azərbaycanda yaşayan bütün xalqların hüquqlarını qorumaq amallarıdır. Baxmayaraq rəsmi qaydada dövlət dindən ayrıdır, mən hesab edirəm ki, bu məsələlərlə bağlı din ilə dövlət birdir.

Necə ki, bizim hörmətli şeyx həzrətləri ilə dostluğumuz sarsılmazdır, elə də Azərbaycanda din ilə dövlət arasında münasibətlər də sarsılmazdır. Mən bir daha əziz dostum hörmətli şeyx həzrətlərini bu gözəl yubiley münasibətilə təbrik etmək istəyirəm. Bir müddət bundan əvvəl şeyx həzrətləri Azərbaycan dövlətinin yüksək mükafatı ilə təltif edilmişdi. Bundan əvvəlki illərdə də şeyx həzrətləri Azərbaycan dövlətinin yüksək ordenləri ilə təltif edilmişdi. Bu gün isə mən əziz dostumu, hörmətli şeyx həzrətlərini nisbətən bu yaxınlarda təsis edilmiş "Şərəf" ordeni ilə təltif etmək istəyirəm. Bu ordeni ona təqdim etmək istəyirəm və ona öz nəcib fəaliyyətində yeni-yeni uğurlar, cansağlığı arzulayıram.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev "Şərəf" ordenini şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.

* * *

Moskvanın və Bütün Rusiyanın Patriarxı KİRİLL hazırkı dövrdə istənilən cəmiyyətin müasirləşdirilməsi ilə yanaşı, əsrlərin sınağından çıxan milli mənəvi, o cümlədən dini dəyərlərə də həssaslıqla yanaşmağın vacibliyini vurğulayaraq söylədi:

- Xalqın əsas dəyərlərinə məhəl qoymayan hər bir islahat çox vaxt zamanın sınağından çıxa bilmir. Rusiyada həmin bazis dəyərlərinə yenidən nəzər salmaqla, onlardan imtina etməklə bu cür islahatlar aparmaq cəhdləri çox olmuşdur. I Pyotrun islahatları və çarizm dövründəki islahatların bəzi şaxələri və əlbəttə, oktyabr inqilabından sonra ölkədə baş verənlər bu qəbildəndir. Qəribədir, bütün bu modernləşmələrin nəticələrini təhlil etsək, nəyin baş tutmasına və nəyin baş tutmamasına nəzər salsaq, çox maraqlı nəticəyə gəlmək olar. Yalnız xalqın fundamental, dərin, mədəni, əxlaqi və mənəvi dəyərlərinə zidd olmayanlar xalqın həyatında qalmış və onun rifahına xidmət etmişdir.

Mən cənab Prezidentin indicə dediyi sözləri çox yüksək qiymətləndirdim. Çünki bu sözlər o sintezin ifadəsidir ki, inkişaf meyli, təkmilləşmə meyli xalqın mənəvi, mədəni, əxlaqi dəyərlərindən, o cümlədən həmin dəyərlərin dini ənənələrdəki təzahüründən imtina edilməsi ilə bağlı olmadıqda ölkənin real modernləşdirilməsi və real islahatlar keçirilməsi mümkün deyildir.

Cənab Prezident, mən Sizi öz qəlbimə, bu gün dünyanın necə inkişaf etməsi barədə anlayışıma çox yaxın olan baxışlarınızla əlaqədar təbrik etmək istərdim.

Zati-müqəddəsləri Kirill dinlərarası dialoqda Qafqaz Müsəlmanları İdarəsinin oynadığı mühüm rolu da xüsusi vurğuladı:

- 1944-cü ildə yaradılmış Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin hüquqi varisi olmuş Sizin dini idarə öz sərhədlərini nəinki qoruyub saxlamış, hətta genişləndirmiş,

postsovet məkanında yeganə dövlətlərarası islam strukturu kimi qalmışdır. Buna görə də sizin şəxsiyyətinizlə əlaqədar uğurların əksəriyyəti çox cəhətdən xidmətlərinizin nəticəsidir. Qafqaz müsəlman icmasının qardaşlıq münasibətləri zəminində dinamik inkişafını davam etdirməsini görmək xoşdur. 2004-cü ildə sizin fəal iştirakınızla yaradılmış MDB Dinlərarası Şurası postsovet məkanında ən iri dinlərarası quruma çevrilmişdir. Bu ilin iyun ayında isə siz Məşvərət Şurasına başçılıq etməklə Birlik müsəlmanlarını sıx birləşdirməyə nail ola bildiniz.

Moskvanın və Bütün Rusiyanın Patriarxı Azərbaycanda bütün dinlərin nümayəndələrinə, eləcə də provaslavlara qarşı heç vaxt ayrı-seçkilik edilmədiyini bildirdi:

- Azərbaycanda pravoslav xristianlar heç vaxt təqib edilməmişdir. Buradakı ruslar heç vaxt həyati təhlükə ilə üzləşib öz evlərini tərk etməmişlər. Tarixi vərəqləyəndə məlum olur ki, əcdadlarımız ümumi təhlükələrə qarşı çiyin-çiyinə vuruşmuşlar. 1905-ci ildə müsəlman və pravoslav ruhaniləri millətlərarası və dinlərarası ayrı-seçkiliyin qızışdırılmasına qarşı birgə çıxış etmişdilər.

Onların davamçıları isə asayişi qorumaq üçün dinlərarası drujinalar yaratmışlar. 90 ildən sonra, SSRİ-nin dağılmaqda olduğu qarışıq dövrdə isə siz rus kilsəsi ilə dostluğa sadiq qalaraq onun ölkənizdəki dindarlarını dəstəkləmisiniz. Buna görə sizə çox təşəkkür edirik.

Artıq 30 ildən çox müddətdə sizi tanıdığımdan demək istəyirəm ki, möhtərəm şeyx, siz yüksək mənəvi prinsiplərə sadiq insan, öz ölkəsinin ardıcıl vətənpərvəri və müdrik diplomat kimi parlaq nümunəsiniz. Siz pravoslav kilsəsinin ali mükafatlarına layiq görülmüş ilk müsəlman lideri kimi tarixə düşmüsünüz. Burada ali qonaqların və onlarca ölkənin nümayəndələrinin iştirak etməsi aydın şəkildə göstərir ki, siz dünya miqyaslı din xadimisiniz, dinindən və etiqadından asılı olmayaraq, xoşməramlı insanların ehtiram bəslədiyi liderə çevrilmisiniz.

Əlamətdar tarixlər münasibətilə sizi ürəkdən təbrik edirəm, nəcib əməllər üçün sizə yeni qüvvə, ruhən və cismən möhkəm olmağınızı arzu edirəm. Səmimi qəlbdən inanıram ki, biz hələ sizin həyatınızın əlamətdar tarixlərini dəfələrlə birlikdə bayram edəcəyik.

Şeyxülislam Allahşükür Paşazadənin 60 illiyi ilə əlaqədar Fərmanı elan etmək istərdim: "Qafqaz Müsəlmanları İdarəsinin başçısı şeyxülislam Allahşükür Paşazadə dinlərarası əməkdaşlığa, xalqlar arasında sülhün və dostluğun möhkəmlənməsi işinə verdiyi töhfələrə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar Rus Pravoslav Kilsəsinin birinci dərəcəli "Şöhrət və şərəf" ordeni ilə təltif edilir".

* * *

Patriarx Kirill ordeni şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.

* * *

Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill dedi: - Mən sevgimin, səmimi hisslərimin ifadəsi kimi bu şamdanları da sizə təqdim etmək istərdim. Şam rəmzdir. Şamsız, xüsusən qədim dövrlərdə insanlar qaranlıqda məkanı görə bilmirdi. Allahdan arzum budur ki, ibadətiniz sizin sözünüzü eşidən, sözünüzə inanan və öz həyatını sizin müdrik məsləhətlərinizə uyğun qurmağa hazır olan insanların yoluna həmişə işıq saçsın.

* * *

Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill Qafqaz Müsəlmanları İdarəsinin sədrinə hədiyyəni təqdim etdi.

* * *

Gürcü xalqı adından şeyxülislam Allahşükür Paşazadəyə təbriklərini çatdıran Gürcüstan Patriarx Katolikosu II İLYA yubilyarın fəaliyyətini yüksək qiymətləndirərək dedi:

- Əlahəzrətlər cənab Prezident!

Hörmətli Mehriban xanım!

Əlahəzrət şeyxülislam Allahşükür Paşazadə!

Əlahəzrət Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill!

Sizin hamınızı Gürcüstan kilsələri adından, gürcü xalqı adından ürəkdən salamlayıram. Biz buraya ondan ötrü toplaşmışıq ki, dostumuz və qardaşımız - Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri şeyxülislam Allahşükür Paşazadənin 60 illiyini təbrik edək. Siz təkcə Azərbaycan deyil, bütün Qafqaz üçün çox işlər görmüsünüz. Hələ sovet dövründə biz dəfələrlə görüşmüşdük, bundan başqa birgə konfranslarda iştirak etmişdik. Siz bu tədbirlərdə həmişə həqiqəti danışırdınız. Sizin həqiqəti danışmaq qabiliyyətiniz bu gün də davam edir. Mən əminəm ki, bu həqiqət həmişə davam edəcəkdir.

II İlya Azərbaycan-Gürcüstan əlaqələrinin yüksək səviyyəyə çatması və regionun inkişafı üçün böyük işlər görən Prezident İlham Əliyevə xüsusi minnətdarlığını bildirdi. Bölgədə sülhün, əmin-amanlığın təmin olunması, iqtisadi inkişafın sürətləndirilməsi üçün Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünün bərpa edilməsinin zəruriliyini vurğuladı. Qloballaşmanın müsbət və mənfi tərəflərinə toxunan II İlya, milli mənəvi dəyərlərə daim hörmətlə yanaşmağın vacibliyini qeyd etdi. Bu baxımdan gürcü və Azərbaycan xalqları arasında səmimi münasibətlərin hökm sürdüyünü diqqətə çatdıraraq bildirdi:

- Mən elə bir ailədə böyümüşəm ki, bizim ən çox qonağımız məhz müsəlmanlar olurdu. Mən öz uşaqlıq illərimi yada salıb onların bizə təşrif buyurduqlarını xatırlayıram. Bizim böyüklərimiz dost müsəlmanlar üçün ən gözəl qonaq otaqlarını hazırlayırdılar. Orada xalçalar döşəyirdilər ki, qonaqlar burada öz müsəlman qaydaları ilə ibadətlərini etsinlər.

Mən böyük sevgi və fərəhlə Azərbaycana səfər etdim ki, bir daha sizə dost və qardaş sözlərimi deyim.

Gürcüstan Patriarx Katolikosu II İlya şeyxülislam Allahşükür Paşazadəni bir daha təbrik etdi və ən xoş arzularını çatdırdı.

* * *

Gürcüstan Prezidenti Mixail Saakaşvilinin adından yubilyara təbriklərini çatdıran Gürcüstan Parlamentinin vitse-spikeri Pridon Todua hədiyyələrini təqdim edərək dedi:

- İcazə verin, Gürcüstan Prezidentinin tapşırığı ilə sizə sülhün və xalqlarımız arasında dostluğun möhkəmləndirilməsinə verdiyiniz töhfəyə görə ölkəmizin ali dövlət mükafatı - "Qoyunun qızıl dərisi" ordenini təqdim edim.

* * *

Qırx ildir ki, şeyxülislam Allahşükür Paşazadə ilə dostluq etdiklərini vurğulayan İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İHSANOĞLU yubilyarın insani keyfiyyətlərini və İslam dini qarşısında xidmətlərini geniş təhlil etdi. O, tədbir iştirakçılarının diqqətini dinlərarası dialoqla bağlı mühüm məqamlara yönəltdi.

Ekmələdddin İhsanoğlu dinlərarası dialoqun fikir mübadiləsindən konkret işə keçmək mərhələsinə yetişdiyini hərtərəfli əsaslandıraraq dedi:

- Mənim belə bir fikrim var ki, bu dialoqlar dialoq üçün deyil, vahid hədəfə çatmaq üçün aparılmalıdır. Çünki əgər biz bir hədəf müəyyən etməsək və bu hədəfə nail olmaq üçün əlimizdən gələni etməsək bizdən sonra gələn nəsil də dialoq aparacaqdır. Bəs biz nə qədər yol qət etdik? Biz üç dinin mənsubu olaraq həzrəti İbrahimin gətirdiyi vəhylərə əsaslanırıq. Onun qurduğu təməllər üzərində inşa edirik. Aramızda fərqlər vardır, eyni zamanda, daha çox ortaq cəhətlərimiz də vardır. Dünya, axirətin varlığı, əxlaqi məsuliyyət məsələsi və bir çox ortaq dəyərlərimiz vardır.

Ancaq tarixi münasibətlərə baxarkən bu ortaq cəhətlərin yanında bir sıra həssas nöqtələrin olduğunu görürük. Tarixdəki müharibələr də bundan irəli gəlir. Əgər biz daha yaxşı gələcək istəyiriksə başqa cür hərəkət etməliyik. Bu həssas nöqtələr hansılardır və biz bunları necə həll edə bilərik?! 1960-cı illərdə xristianlıqla yəhudilik arasında çox böyük tarixi uzlaşma oldu. Bu iki din arasında Vatikan başda olmaqla, yəhudi dini alimləri bir araya gələrək bu sahədə tarix boyu mövcud olan gərginliyi həll etdilər. Bu, müsbət bir hadisədir.

Mən hesab edirəm ki, müsəlmanlar olaraq bizim xristianlıqla belə bir tarixi uzlaşmaya ehtiyacımız vardır. Bunu artıq həyata keçirmək lazımdır. Ona görə də dialoqun dəqiq müəyyən edilmiş bir hədəfi və gündəliyi olmalıdır. Bunun arxasında siyasi iradənin olması çox vacibdir. Belə olmadığı təqdirdə bu tarixi dialoqlar mehriban münasibətlərin və xoş niyyətlərin ifadəsi olaraq qalacaqdır.

Bundan başqa, bu mövzuda daha bir mülahizəm vardır. Hörmətli Prezident, Sizinlə görüşümüzdə bu məsələyə toxundunuz: din və siyasət arasındakı münasibət.

On il əvvəl burada - o zaman mən İstanbuldakı İslam Tarixi, Mədəniyyəti və İncəsənəti Araşdırmalar Mərkəzinin direktoru vəzifəsində işləyirdim - əziz dostum şeyxülislam və Elmlər Akademiyası ilə bərabər təşkil etdiyimiz "Qafqazdakı İslam mədəniyyətinin birinci beynəlxalq simpoziumu"nu həyata keçirdik. Simpoziumda böyük lider Heydər Əliyev bir saat çıxış etdi. Qafqaza İslamın gəlişi, inkişafı, mövcud vəziyyəti və gələcəyinin necə olmalı olduğunu bir saat müddətində izah etdi. Həqiqətən də böyük bir dövlət xadimi kimi görüşlərini, təcrübəsini və biliyini nümayiş etdirdi.

İslamda kilsə olmadığı üçün xristianlıqdakı kimi kilsə və din münasibətləri yoxdur. Amma hər dində olduğu kimi din və siyasət münasibəti vardır. Din və siyasət münasibəti arasındakı məsafəni biz doğru müəyyən etməsək hər zaman çətinliklər ortaya çıxacaqdır. Bir çox İslam cəmiyyətində bu sıxıntılar vardır. Bunun ideal halı, mükəmməl forması bir tərəfin digərinə qarışmamasıdır. Sizin burada dediyiniz dünyəvilik, tarazlıq çox vacibdir. Bu tarazlığın burada çox həssas şəkildə Sizin dövrünüzdə də saxlanması hörmətə və təqdirəlayiqdir.

İslam Konfransı Təşkilatının baş katibi şeyxülislam Allahşükür Paşazadəyə ən xoş arzularını çatdıraraq bildirdi:

- Sonda təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, bizim təşkilatın ordeni yoxdur. Amma mən qiymətli qardaşıma bir hədiyyə gətirmişəm, onu sizin hüzurunuzda təqdim etmək istəyirəm. Mən ona artıq bundan sonra "İslamın ulduzu" deyəcəyəm. Çünki o, tək Qafqazın deyil, bütün İslam dünyasının ulduzudur. Bu hədiyyə də Məkkə və Mədinədəki müqəddəs diyarın yüksək ustalıqla qiymətli daşlardan hazırlanmış bir modelidir. Onu sizə təqdim etsəm özümü çox xoşbəxt hiss edərəm.

* * *

İKT-nin baş katibi Ekmələddin İhsanoğlu hədiyyəni şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.

* * *

Roma Papası XVI Benediktin adından konfransda iştirak etmək üçün Azərbaycana gəlmiş Vatikanın nümayəndəsi kardinal Salvatore DE CORCİ Papanın xüsusi salamlarını Prezident İlham Əliyevə və Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadəyə çatdırdı, tədbir iştirakçılarını Papanın məktubunun mətni ilə tanış etdi.

Azərbaycanda bütün millətlərə və dinlərə eyni münasibətin Vatikanda da böyük razılıq doğurduğunu qeyd edən Salvatore De Corci dedi:

- Zati-müqəddəsləri Roma Papası xüsusilə vurğuladı ki, bu gün sizin ölkəniz dinlər arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə xüsusi diqqət yetirir.

Eyni zamanda, dövlət katibi kardinal Bertoni məndən xahiş etmişdir ki, onun da xoş sözlərini, təbriklərini sizə çatdırım. Çünki o, Azərbaycana 2008-ci ilin mart ayında səfər etmiş və Bakıda yenicə tikilmiş katolik kilsəsinin açılış mərasimində iştirak etmişdi.

O, zati-müqəddəsləri Roma Papasının adından, eyni zamanda, Azərbaycanın bütün katolik icması adından hörmətli cənab Prezidentə və şeyx həzrətlərinə Azərbaycanda müxtəlif dinlər arasında bu cür nümunəvi əlaqələrin və münasibətlərin olmasını nəzərə alaraq öz dərin minnətdarlığını bildirir və Roma Papası şəxsən öz tərəfindən sizi əmin edir ki, bundan sonra da Tanrıya üzünü tutaraq, sizin ölkənizə, bütün cəmiyyətinizə və Azərbaycan xalqına Allah-Təaladan ən yaxşı arzularını diləyəcəkdir.

* * *

Vatikanın nümayəndəsi kardinal Salvatore De Corci Allahşükür Paşazadəyə hədiyyə təqdim etdi.

* * *

Sonra Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Muxu ƏLİYEV çıxış edərək dedi:

- Hörmətli Prezident,

Hörmətli şeyxülislam Allahşükür Paşazadə,

Hörmətli azərbaycanlı dostlar, respublikanın qonaqları!

Biz qonaqpərvər Azərbaycana, onun gözəl paytaxtına çox xoş bir missiya ilə - dostumuz, Qafqazın, Müstəqil Dövlətlər Birliyinin çox hörmətli və fəal ruhanilərindən biri, MDB-də və onun hüdudlarından kənarda geniş tanınan Allahşükür Paşazadənin anadan olmasının 60 illik və şeyxülislamlıq fəaliyyətinizin 30 illiyinin qeyd olunması ilə əlaqədar tədbirlərdə iştirak etmək üçün gəlmişik.

Hörmətli şeyxülislam, dəvətə və şəxsən öz adımdan, bütün dağıstanlılar adından ikiqat yubileyiniz münasibətilə təbrik etmək imkanına görə Sizə təşəkkürümü bildirirəm. Uzun illər Qafqaz müsəlmanlarının ruhanisi, Qafqaz Müsəlmanları İdarəsinin başçısı kimi siz təkcə öz respublikanızda dini ənənələrin və konfessiyalararası razılığın qorunub saxlanması üçün deyil, müsəlmanların birliyinin möhkəmləndirilməsi, onların beynəlxalq əlaqələrinin genişləndirilməsi, dünyada ənənəvi islam ruhaniliyinin nüfuzunun artırılması üçün çox işlər görmüsünüz.

Hörmətli İlham Heydər oğlu, əsasən, Sizin və şeyxülislamın səyləri sayəsində Azərbaycan bu gün dünyada sivilizasiyalararası, mədəniyyətlərarası dialoq məkanı, konfessiyalararası razılığın və tolerantlığın ictimai həyatın adi vəziyyətinə çevrildiyi ölkə kimi qəbul olunur. Hesab edirik ki, Bakı İslam Konfransı Təşkilatı tərəfindən haqlı olaraq 2009-cu ilin İslam mədəniyyəti paytaxtı elan olunmuşdur və bu işdə Sizin xidmətləriniz böyükdür.

Məlumdur ki, son zamanlar dünyanın bəzi kütləvi informasiya vasitələrində İslamı zorakılığı təbliğ edən, azadlıq, insan hüquqları və demokratiya ideyaları ilə antaqonizm təşkil edən fanatik din kimi səciyyələndirməyə cəhd göstərirlər. Onu terrorizm və siyasi zorakılıq ilə əlaqələndirməyə çalışırlar. İslam aləmində baş verən proseslər sosial və siyasi kontekst nəzərə alınmadan şərh edilir. Beləliklə, dünya birliyinə belə bir fikir aşılanır ki, sivilizasiyalararası böhran qaçılmazdır.

Hörmətli şeyxülislam, bilirik ki, siz bu cür streotiplərin dünyada yayılmasına qarşı fəal və uğurla mübarizə aparan din xadimlərindən birisiniz.

Muxu Əliyev Rusiyada da etiqad azadlığına hörmətlə yanaşıldığını söylədi:

- Bizim ölkəmiz - Rusiya İslam ilə xristianlığın əsrlər boyunca sülh şəraitində yaşaya bilməsinin nümunəsidir. Bu yaxınlarda ölkəmizin Prezidenti Dmitri Anatolyeviç Medvedev bildirmişdir ki, Rusiya Federasiyasında yaşayan 182 etnosdan 57-si özünü islamla bağlayır. Ölkənin müsəlman icması təxminən 20 milyon nəfərdir. Odur ki, Rusiya özünü tam əsasda təkcə xristian sivilizasiyasına deyil, islam sivilizasiyasına da aid edir.

Qonaq Rusiya rəhbərliyinin ölkədə islam dəyərlərinin möhkəmləndirilməsi və təbliği üçün həyata keçirdiyi tədbirlərə toxundu. O, bu baxımdan Dağıstanda görülən işlərdən də danışdı:

- Ölkənin hər yerində dini dirçəliş gedir. Respublikamız Dağıstan buna parlaq misaldır. Bizdə 2 mindən çox islam birliyi, onlarca ali və orta təhsil müəssisəsi fəaliyyət göstərir, 8 dildə islam qəzetləri nəşr olunur, respublika, dövlət kanallarında və digər kanallarda islam verilişləri yayımlanır. On minlərlə dağıstanlı həcc ziyarətinə getmişdir, məscidlər, mədrəsələr tikilir.

Muxu Əliyev gənclərin həqiqi islami dəyərlərə yiyələnməsi üçün yüksək səviyyəli dini təhsilə xüsusi diqqət yetirilməsinin, onların bu baxımdan maarifləndirilməsinin vacibli-

yini bildirdi. Məhz bu halda gənc nəslin dözümlülük, tolerantlıq ruhunda yetişəcəyini söylədi. Qonaq hazırkı qloballaşma dövründə əksər dövlətlərin dini ekstremizm problemi ilə üzləşdiyini vurğuladı və bu məsələyə münasibətini bildirdi:

- Sizin dini təhsil müəssisələrində dövrümüzün tələblərinə və çağırışlarına uyğun hərtərəfli biliklərə malik din xadimlərinin yetişdirilməsi üçün dünyəvi elmlərin öyrənilməsinə münasibətinizi də yüksək qiymətləndiririk. Sizin fikrinizlə tamamilə şərikik.

Bu gün qloballaşma şəraitində keçmiş SSRİ-nin bir çox dövlətləri, o cümlədən Rusiya Federasiyası da güclü dini ekspansiya problemləri, öz mədəni və mənəvi dəyərlərini müdafiə etmək, yalançı dini ekstremizmlə mübarizə aparmaq zəruriyyəti ilə üzləşmişlər. Uzun illər Rusiya Federasiyası, Şimali Qafqaz respublikaları, o cümlədən Dağıstan siyasi məqsədləri islam şüarları ilə ört-basdır edən dini-siyasi ekstremizm ilə mübarizə aparmaq məcburiyyətində qalmışlar.

Cari ilin sentyabrında biz 1999-cu ildə Dağıstana soxulmuş quldur dəstələrinin darmadağın edilməsinin 10 illiyini qeyd etdik. Məlumdur ki, beynəlxalq ekstremistlərin Dağıstanı Rusiyadan ayırmaq, respublikada xalis islam adlanan rejim qurmaq layihəsi tamamilə iflasa uğradı. Ekstremistlər Dağıstan müsəlmanlarının dəstəyinə ümid bəsləyirdilər. Lakin islam ruhaniləri xalqla birlikdə respublikada Konstitusiya quruluşunun müdafiəsinə qalxdılar. Əsasən onların prinsipial mövqeyi sayəsində təkcə Dağıstan deyil, dünya ictimaiyyəti də basqının təşkilatçılarının əsl məqsədini anladı.

Təəssüf ki, islamın müdafiəsinə qalxmış, ondan fırıldaqların və qətllərin ört-basdır edilməsi üçün istifadə olunmasına yol verməyən müsəlman ruhaniləri və hüquq mühafizə orqanlarının işçiləri ölkənin dinc əhalisinə qarşı terror törədən cinayətkarların hədəfinə çevrildi. Terrorçuların hərəkətləri heç bir dini çərçivəyə sığmır. Lakin ekstremizm ideoloqları, əvvəlki kimi, belə bir rəyi sırımağa çalışırlar ki, guya onların məqsədi dini xarakter daşıyır. Bu gün onlar gənclərimizi çoxəsrlik mədəni və dini ənənələrdən qoparmağa, onlara yad dəyərləri və idealları aşılamağa, gəncləri hüquqazidd fəaliyyətə, terrora cəlb etməyə çalışırlar.

Rusiya Prezidenti Dmitri Anatolyeviç Medvedevin Şimali Qafqaz regionlarının müftiləri və rəhbərliyi ilə bu yaxınlarda Soçidə keçirilən görüşündə gənclərin ekstremist ideologiyasının təsirindən müdafiəsi probleminə, ənənəvi islamın, dini təşkilatların gənclərin dini-mənəvi inkişafı istiqamətində fəaliyyətinin dəstəklənməsinin zəruriliyinə xüsusi diqqət yetirilmişdir.

Muxu Əliyev dinlərarası dialoqun mühüm əhəmiyyəti barədə də fikirlərini bölüşdü:

- Dağıstan Respublikası ilə Azərbaycan Respublikasını üç dinin - islamın, xristianlığın və iudaizmin nümayəndələrinin əsrlər boyunca dinc yanaşı yaşaması kimi nadir təcrübə birləşdirir. Bu təcrübə özlüyündə etnik və dini ekstremizm təzahürlərinə qarşı güclü arqumentdir. Lakin məlumdur ki, təcrübədə tətbiq olunan, gələcək inkişaf üçün zəminə çevrilən təcrübə xüsusilə dəyərlidir. Buna görə də biz ənənəvi konfessiyaların nümayəndələrinin məsuliyyətini yaxşı başa düşür və onların belə çoxmillətli regionlarda konfessiyalararası sülhün və razılığın qorunub saxlanması istiqamətində səylərini yüksək qiymətləndiririk.

Bu yaxınlarda Dağıstanda və Azərbaycanda respublikalarımızın pravoslav dindarlarını

birləşdirən Xəzəryanı və Bakı yeparxiyalarının dirçəlməsinin 10 illiyini qeyd etdik. Bu gün Dağıstan Respublikasında 18 pravoslav kilsəsi fəaliyyət göstərir. Bakının və Xəzəryanı bölgənin yepiskopu Aleksandrın qeyd etdiyi kimi, 2004-cü ildən Dağıstanda pravoslav dini birliklərin xeyli artması müşahidə olunur. Yeparxiyanın yubileyinin qeyd olunması tolerantlığın və xalqlarımıza məxsus dəyərin dini dözümlülük və mehriban qonşuluq ənənələrini, habelə ənənəvi konfessiyaların nümayəndələri arasında etimadın və qarşılıqlı anlaşmanın yüksək səviyyəsini bir daha təsdiq etdi

Sonda demək istəyirəm ki, həmişə olduğu kimi, bu gün də əhali arasında böyük nüfuza və etimada malik, ictimai rəyi, sonradan bu və ya digər siyasi qərarların qəbul edildiyi mənəvi zəmini formalaşdıran ayrı-ayrı şəxsiyyətlərin səylərindən çox şey asılıdır.

Hörmətli şeyxülislam, şübhəsiz ki, siz məhz belə bir şəxsiyyətsiniz. Bir daha sizi yubiley münasibətilə təbrik edir, cəmiyyətdə razılığa və qarşılıqlı anlaşmaya nail olunması naminə çoxşaxəli fəaliyyətinizdə və dini xidmətinizdə səmimi qəlbdən uğurlar arzulayıram. Sizə və sizin bütün yaxınlarınıza xoşbəxtlik və cansağlığı, qardaş Azərbaycan xalqına sülh və firavanlıq diləyirəm.

Hörmətli şeyxülislam, icazə verin, bugünkü görüşümüzdən xatirə olaraq sizə üz qabığı Dağıstanın məşhur Kubaçi ustaları tərəfindən hazırlanmış Quran hədiyyə edim.

* * *

Sonra Muxu Əliyev hədiyyəni şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.

* * *

Rusiya Federasiyası Çeçenistan Respublikasının Prezidenti Ramzan KADIROV konfransın mövzusu ilə bağlı fikirlərini bildirdi:

- Müasir dünya çoxsaylı lokal, regional və beynəlxalq münaqişələrin mövcudluğu ilə fərqlənir. Bu münaqişələrin çoxunun kökləri bir neçə onillik tarixə malikdir. Qan axıdılmasına nə vaxt son qoyulacağını, xalqların nə vaxt rahatlıq tapacağını, sülh və həmrəylik şəraitində yaşaya biləcəyini heç kəs qabaqcadan söyləyə bilməz. Nümunə üçün uzağa getmək lazım deyil, bu cür nümunələr lap yaxındadır - Əfqanıstan, Pakistan, İraq, Yaxın Şərq və təəssüf ki, həm də Qafqaz.

Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqı, dünyanın böyük dövlətləri elə təsəvvür yaradırlar ki, guya bu vəziyyət onları narahat edir. Əslində isə Əfqanıstanda baş verənlər onların sanksiyası ilə cərəyan edir, özü də təkcə Əfqanıstanda yox. Ölkə dağıdılmışdır, xalq müharibədən başqa heç nə görmür. Güclü dövlətlər özlərinin başqa ölkələrə və xalqlara qarşı yönəlmiş hər hansı fəaliyyətini sivilizasiyaların münaqişəsi, dinlər arasında ziddiyyət kimi qələmə verirlər. Lakin əslində belədirmi?

Mən qəti əminəm ki, dinlər arasında münaqişə yoxdur. Dindar adamlar heç vaxt bir-birinə pislik etməz, kiminsə şəxsi əşyasını və ya başqa dövlətə məxsus olan şeyləri qəsb etməzlər. Dünyada tanınmış din xadimləri bizi sülh və həmrəylik şəraitində yaşamağa çağırırlar. Bu çağırışlar Məkkədən, Vatikandan, Moskvadan və digər dünya dinlərinin mərkəzlərindən eşidilir. Biz qanlı münaqişələrin əsasında dinlərin mübarizəsi deyil, dünyaya, dünyanın sərvətlərinə və təbii ehtiyatlara sahib olmaq cəhdi, bütöv ölkələri və çoxmilyonlu xalqları diz çökdürmək arzusu dayandığını etiraf etməyincə, ədalətə və

bütün ölkələrin mənafelərinə hörmətə əsaslanan dünya qurmağın real mexanizmlərini yaratmayınca müharibələr davam edəcəkdir.

Rusiyada real dini etiqad azadlığı mövcuddur. Ölkədə minlərlə məscid və pravoslav məbədləri tikilir. Müxtəlif dinlər arasında bu gün haqqında danışdığımız real dialoq aparılır. Fərəhlə qeyd edə bilərəm ki, din xadimləri ilə iqtidar arasında da daim dialoq aparılır. Ölkə rəhbərləri patriarx və müftilərlə görüşürlər. Rusiya liderləri başqa dinlər kimi, İslamı da dəstəkləyir, taleyüklü qərarlar qəbul edərkən müsəlmanların fikrini dinləyir, onlarla məsləhətləşirlər.

Ramzan Kadırov Çeçenistandakı hadisələrlə bağlı vəziyyətə toxunaraq dedi:

- Məlumdur ki, terrorçular Çeçenistanda baş verən hadisələri dinlərarası münaqişə kimi, dini etiqad uğrunda, İslam uğrunda müharibə kimi qələmə verməyə çalışırdılar. Lakin bu belə deyildir. Qərb terrorçuların əli ilə Rusiyanı dağıtmaq istəyirdi. Bizim ilk prezidentimiz hacı Əhməd Kadırov bütün dünyada tanınmış İslam alimi və əsl dindar adam kimi müharibəni başlayanların öz qarşısına hansı məqsədlər qoyduğunu başa düşürdü. O, xalqa izah edə bilmişdi ki, terrorçular İslam uğrunda və İslam ideyalarının təntənəsi uğrunda döyüşmürlər. Onlar öz hərəkətləri ilə bütün müsəlmanlara qara yaxmağa, bütün Rusiyanı hərc-mərcliyə sürükləməyə, onu dağıtmağa çalışırlar. Xalq və ölkə rəhbərliyi onu dəstəklədi və biz terrorçuları məhv edərək Rusiyanın bütövlüyünü qoruyub saxladıq.

Qeyd etmək istəyirəm ki, Rusiyada, Çeçenistan Respublikasında dinlərarası həmrəylik bizim üçün əzizdir və onu qoruyub saxlayacağıq. Bizim respublikada müxtəlif millətlərin və məzhəblərin nümayəndələri ilə real dialoq mövcuddur. Biz vahid mehriban ailə kimi yaşayırıq və bu münasibətləri inkişaf etdirməyə çalışacağıq.

Çeçenistan Prezidenti konfrans iştirakçılarına dinlərarası dialoqun daha da möhkəmləndirilməsi istiqamətində qərar qəbul edilməsi işində uğurlar arzulayaraq bildirdi:

- Allahdan arzum budur ki, bizim bütün təşəbbüslərimiz uğurla başa çatsın, burada əyləşənlər sadəcə görüşüb evlərinə dağılışmasınlar, vəziyyəti öyrənərək dünyada əslində, nələr baş verdiyini, bu şərin arxasında hansı qüvvələr dayandığını və xalqların necə əziyyət çəkdiyini başa düşsünlər. Təhqirlərə, insanların alçaldılmasına, qadınların, qocaların, uşaqların öldürülməsinə dözmək mümkün deyildir. Bizim bu sahədə kədərli təcrübəmiz vardır və biz bunu başqalarından eşitməmişik.

Bizi günahlandırırlar ki, Çeçenistanda müharibə gedir. Deyirlər ki, çeçenlər banditlərdir, terrorçulardır. Lakin bu, əsla belə deyildir. Çeçenlər çox sülhsevər, səmimi xalqdır. Bizi bu müharibəyə zorla cəlb ediblər, bizdən suveren dövlətə - Rusiyaya qarşı münasibətlərin ayırd edilməsində vasitə kimi istifadə ediblər. Lakin biz başa düşmüşük ki, bu bəlanı dayandırmaq və atalarımızın yaşadığı kimi hamı ilə dinc, dostcasına yaşamaq lazımdır.

Əgər bugünkü konfransı təməl hesab etsək və bu istiqamətdə fəaliyyətimizi inkişaf etdirsək, hamı ilə dialoq aparsaq, düşünürəm ki, müharibəni dayandırmaq mümkün olacaqdır və dünyada adamları öldürməyəcəklər, partlayışlar törətməyəcəklər və bunda İslamı günahlandırmayacaqlar.

Mən bir dindar müsəlman kimi İslam dininin insanları nəyə çağırdığını bilirəm və televizorda haradasa partlayış baş verməsini göstərib bunun islamçı ekstremistin, banditin əməli olduğunu deyəndə, hər bir müsəlmanı təhqir edirlər. Buna görə də mən dini mənsubiyyətindən asılı olmayaraq bütün dindarları haqqın-ədalətin təntənəsi naminə şər qüvvələrə qarşı birləşməyə çağırıram.

Allah işimizi avand etsin. Mən bugünkü tədbirə görə, şeyxülislamı dəstəklədiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür etmək istəyirəm. O, həqiqətən Qafqazın hüdudlarından kənarda da hörmət edilən şəxsdir, onu hamı sevir. Bugünkü tədbir də bu fikri bir daha təsdiq edir. Bu gün mən şeyxülislamın ali ordenlə - "Kadırov ordeni" ilə təltif edilməsi haqqında Fərman imzalamışam. Bu orden bizdə çox qiymətlidir. Mən bilirəm ki, bu orden şeyxülislam üçün də çox qiymətlidir.

* * *

Ramzan Kadırov şeyxülislam Allahşükür Paşazadəyə ordeni təqdim etdi.

Sonra o, şeyxülislama xəncər hədiyyə edərək dedi:

- Biz bunu istəsək də, istəməsək də qafqazlılar döyüşçülərdir. O isə bizim ən əsas döyüşçümüzdür.

* * *

Konstantinopol Patriarxı Varfolomeyin nümayəndəsi EMANUEL həzrətləri Azərbaycana səmimi münasibətlərini ifadə edərək bildirdi:

- Cənab Prezident, zati-aliləri və zati-həzrətləri!

Sizin nitqinizə, davam edən əməkdaşlıq haqqındakı sözlərinizə görə minnətdaram. Bu ölkədəki inkişaf mərhələləri bizim üçün çox vacibdir. Bu inkişafın bütün Qafqaz regionundakı vəziyyətə çox böyük və müsbət təsiri vardır. Sizin mərhum atanızın xatirəsi də çox yüksək qiymətləndirilir. Tanrı Sizə xeyir-dua versin və Sizin bu uğurlu fəaliyyətinizə bizim dualarımız kömək olsun.

Planetdə dinlərarası dialoqun gücləndirilməsinin və sıx birgə praktiki əməkdaşlığa başlanmasının vacibliyini əsaslandıran Emanuel həzrətləri, Azərbaycanın tolerantlıq baxımından dünyada nümunə rolu oynadığını, sivilizasiyalararası və dinlərarası dialoqa böyük töhfələr verdiyini xüsusi vurğulayaraq dedi:

- Cənab Allahşükür Paşazadə, siz insansevər rəhbərsiniz. Siz İslama xristianlıq və yəhudi dinləri ilə bir sırada baxaraq, onların arasında dostluq münasibətlərini dəstəkləyirsiniz. Həqiqi dəyərlərə qiymət vermək, bütün imanlıların, möminlərin bir araya gəlib ümumi inkişafa nail olması sizin fəaliyyətinizin gözəl nümunəsidir. Bizim bu konfransın missiyası da buna aiddir. Bu, bizi ilhamlandırır. Biz yubiley tədbirinə görə Allaha minnətdarlığımızı bildiririk.

Sizə möhkəm cansağlığı və uğurlar arzu edirik.

* * *

Emanuel həzrətləri Konstantinopol Patriarxı Varfolomeyin adından hədiyyəni şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.

* * *

Minsk və Slutsk Mitropoliti, Belarus üzrə Patriarx Ekzarxı FİLARET Bakıda keçirilən konfransın məramına müvafiq qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru konkret addımlar atmaq üçün etimadın zəruriliyini diqqətə çatdıraraq dedi:

- Düşünürəm ki, konfessiyalararası səmərəli dialoq həmişə, xalqlarımızın həqiqəti anlaması və bu ümumi məqsədə aparan yolun müxtəlif olmasına baxmayaraq, hamımızın xilası vasitələrinin axtarışıdır.

Bu gün mənim ürəyimdə çox böyük fərəh hissi vardır. Çünki biz qarşılıqlı anlaşmaya nail olaraq, əməkdaşlığımızın üsullarını və formalarını tapmağa çalışırıq. Forumumuzun yekunları barədə əvvəlcədən danışmaq və nəticələr çıxarmaq istəmirəm. Lakin planlarımızın və ümidlərimizin yerinə yetməsinin yeganə doğru yolu kimi dua etmək istərdim. Xristianlar Tanrıya dualarında "Otçe naş" deyirlər. Müsəlmanlar Allahın böyüklüyünü "Allahu əkbər" kəlməsi ilə ifadə edirlər. Yəhudilər Allahın varlığını "Yaxvı salom" kəlməsi ilə təsdiq edirlər. Bu müraciətlər, müxtəlif, bəzən tamamilə müxtəlif insanların duaları bütün dövrlərdə və bütün xalqlar üçün yeganə olan Tanrıya - yeri-göyü yaradan o bir Allaha ünvanlanmışdır.

Allah hamımızı qorusun, amin.

Bu xeyir-dualı torpaqda bizə göstərilən diqqətə görə təşəkkürümü bildirirəm. Azərbaycanın Prezidentinə, əziz qardaşımız və dostumuz şeyxülislama təşəkkür edir və müqəddəs "Yefrosiniya Polotskaya" xaçını ona təqdim edirəm. Allah Sizə ömür versin, işinizdə sizə kömək olsun, xalqınıza yar olsun! Siz xalqınızın əsl oğlusunuz.

* * *

Minsk və Slutsk Mitropoliti, Belarus üzrə Patriarx Ekzarxı Filaret hədiyyəni şeyxülislama təqdim etdi.

* * *

Daha sonra konfransda bir sıra ölkələrin dövlət başçılarının ikiqat yubiley münasibətilə şeyxülislam Allahşükür Paşazadəyə təbrik məktubları oxundu.

Belarusun Azərbaycandakı səfiri Nikolay PASTKEVİÇ Prezident Aleksandr Lukaşenkonun təbrik məktubunu oxumuşdur.

Məktubda deyilir: "Zati-müqəddəsləri, sizin 60 illik yubileyiniz və şeyxülislam rütbəsinə ucalmağınızın 30-cu ildönümü münasibətilə səmimi təbriklərimi qəbul edin. Belarus Respublikasında və xaricdə sizi təkcə nüfuzlu din xadimi kimi deyil, həm də konfessiyalararası konstruktiv ünsiyyətin fəal tərəfdarı kimi yaxşı tanıyırlar. Siz Müstəqil Dövlətlər Birliyi ölkələri müsəlmanlarının Məşvərət Şurasının sədri kimi vətəndaş həmrəyliyinin və xalqlar arasında qarşılıqlı anlaşmanın bərqərar olmasına böyük töhfə verirsiniz.

Əminəm ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri vəzifəsində fəaliyyətiniz bundan sonra da mədəniyyətlərin dialoquna, cəmiyyətin mənəvi-əxlaqi əsaslarının möhkəmlənməsinə xidmət edəcəkdir.

Zati-müqəddəsləri, sizə səmimi qəlbdən möhkəm cansağlığı, uzun ömür, bütün təşəbbüslərinizdə mənəvi qüvvə və uğurlar arzulayıram.

Hörmətlə,

Aleksandr Lukaşenko

Belarus Respublikasının Prezidenti".

* * *

İordaniya Kral Akademiyasının baş katibi Səid ƏL-HİCCARİ Kral II Abdullahın məktubunu oxudu. Məktubda müstəqil Azərbaycanın və onun Prezidentinin dinlərarası dialoqa, eləcə də İslam həmrəyliyinə verdiyi töhfələr razılıq hissi ilə təqdir olunur. Kral II Abdullah məktubunda İslamın elmi əsaslarının mənimsənilməsində və ümumiyyətlə bu dinin dünyəvi və əxlaqi mahiyyətinin təbliğində şeyxülislam Allahşükür Paşazadənin yorulmaz fəaliyyətinə yüksək qiymət verərək yazmışdır:

- Bütün İslam dünyasının əxz edilməsində fəaliyyətinizə və xidmətlərinizə, gələcəyi görmənizə və İslam dünyasının qarşılaşdığı problemləri həll etmək istiqamətindəki səylərinizə və ortaq məxrəcə gəlməyə, ədalətə çalışdığınıza və İslam dünyası alimləri arasında xoş fikir yaratdığınıza, müsəlmanların problemlərini dünyaya tanıtdığınıza görə bu məktub sizə ünvanlanıb. Arzumuz budur ki, bütün bu cür məktublar müsəlmanlara gələcəkdə öz töhfəsini versin.

Şeyxülislamlığınızın 30 illiyinə, eyni zamanda Qafqaz və dünya müsəlmanlarına göstərdiyiniz xidmətlərə görə, 60 illik yubileyiniz münasibətilə sizə cansağlığı, uzun ömür arzulayıram. Tanrıdan arzu edirəm ki, Allahın buyruqlarını yerinə yetirməkdə işiniz həmişə uğurlu olsun, müsəlmanların vəziyyətinin yaxşılaşdırılmasına öz töhfənizi verəsiniz.

Biz sizə İordaniya Kral Akademiyasının fəxri ordenini təqdim edirik. Allah sizdən razı olsun.

* * *

Sonra Səid əl-Hiccari İordaniya Kral Akademiyasının fəxri ordenini şeyxülislama təqdim etdi.

* * *

İran İslam Respublikası Prezidentinin müşaviri Əli ƏKBƏRİ Prezident Mahmud Əhmədinejadın təbrik məktubunu oxudu. Məktubda deyilir:

"Dinlərarası dialoq mövzusunda keçiriləcək konfransda iştirakla əlaqədar cənabınız tərəfindən ünvanlanmış dəvətnaməni sevinc və məmnunluq hissləri ilə aldım. Bu konfransda şəxsən iştirak etməkdən şad və məmnun olardım. Lakin öncədən planlaşdırılmış proqramlar mənə belə bir imkan vermədi. Bununla da öz təşəkkür və təbriklərimi yaxın dostum və müşavirim hacı Əli Əkbərinin vasitəsilə sizə çatdırıram. Əminəm ki, belə təşəbbüslər təkallahlı dinlərin rəhbərlərinin və ardıcıllarının bir-birilərini daha yaxşı başa düşmələrinə, eləcə də qlobal məsələlərin və bəşəriyyətin qarşısında duran problemlərin həlli istiqamətində birgə məsuliyyətlərini daha yaxşı dərk etmələrinə yardım edəcəkdir.

Bu gün böyük proseslərin ərəfəsində və bəşəriyyət üçün çoxlu ziyanlara, müharibələrə, yoxsulluğa və məsafələrin yaranmasına səbəb olan qeyri-əxlaqi və materialist sistemlərin hökm sürdüyü uzun bir dövrün sonunda insanlar arasında münasibətlərin tənzimlənməsində, ədalət və insan kəramətinə əsaslanan daha yaxşı dünyanın yaradılmasında mənəviyyat, əxlaq və dini təlimlərə əvvəlkindən çox ehtiyac vardır. Belə düşünürəm ki, qlobal münasibətlər və dövlətlərarası əlaqələr nə qədər ilahi dinlərin insanpərvər təlimləri və əxlaqı ilə qidalanarsa, dünya bir o qədər müharibə və terror, zorakılıq və ayrı-seçkilik, zülm və ədalətsizlikdən təmizlənmiş olar. Xoşbəxtlikdən iki dövlətin - İran və Azərbaycanın iradəsi sayəsində xalqlarımız arasında qardaşlıq əlaqələri genişlənməkdədir.

Cənabınıza, konfransın təşkilatçılarına və bütün iştirakçılarına bu mübarək məqsədlərə çatmaq istiqamətində səmimi qəlbdən müvəffəqiyyət arzulayıram.

Mahmud Əhmədinejad

İran İslam Respublikasının Prezidenti".

***

Latviyanın Azərbaycandakı səfiri Mixail POPKOVS Prezident Valdis Zatlersin təbrik məktubunu oxumuşdur. Məktubda deyilir:

"Zati-müqəddəsləri,

Sizin 60 illiyiniz və ali vəzifəyə seçilməyinizin 30 illiyi şərəfinə 2009-cu il noyabrın 6-da və 7-də keçiriləcək tədbirlərə dəvət olunduğuma görə sizə ürəkdən minnətdar olduğumu bildirmək istəyirəm. İcazə verin, sizi səmimi qəlbdən təbrik edim və yubileyiniz günündə sizə səadət arzulayım.

Sizə möhkəm cansağlığı, dözüm və firavanlıq, gələcək fəaliyyətinizdə tükənməz qüvvə və böyük uğurlar diləyirəm.

Fürsətdən istifadə edib, Latviya və Azərbaycan xalqları arasında dostluq əlaqələrinə görə sevincimi bildirmək istəyirəm. Əminəm ki, mənim Azərbaycana bu yaxınlarda baş tutmuş səfərim də Azərbaycan ilə Latviya arasında, o cümlədən mədəni və mənəvi sahələrdə fəal ikitərəfli dialoqu möhkəmləndirməyə kömək edəcək əməkdaşlıq üçün yeni imkanlar açmışdır.

Sizin məni şəxsən dəvət etməyiniz mənim üçün böyük şərəfdir. Lakin bayram tədbirlərinin vaxtı mənim daha əvvəl öz üzərimə götürdüyüm və təəssüf ki, imtina edə bilmədiyim başqa öhdəliklərlə eyni vaxta düşür. Buna görə də təəssüf ki, bu imkandan istifadə edib sizin səmimi dəvətinizə əməl edə bilməyəcəyəm.

Yubiley şənliklərində sizə unudulmaz anlar arzulayıram. Qoy bu bayram sizə nikbinlik, gələcək işləriniz üçün qüvvə və ilham versin.

Səmimi hörmətlə,

Valdis Zatlers

Latviya Respublikasının Prezidenti".

***

Özbəkistanın Azərbaycandakı səfiri İsmətilla İRQAŞEV Prezident İslam Kərimovun təbrik məktubunu oxumuşdur:

"Möhtərəm şeyxülislam,

Sizin 60 illik yubileyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bizim ölkədə sizi uzun illər boyu Özbəkistanla ayrılmaz bağlı olan, müqəddəs dinimizin həqiqi dəyərlərini uğurla təbliğ edən, sülhsevər, maarifpərvər və tolerant İslamın məna və məzmununu təhrif edən yabançı və düşmən ideologiyalara qarşı hər vasitə ilə mübarizə aparan, mömin müsəlmanları düz yola yönəldən görkəmli din xadimi kimi tanıyırlar.

Cəmiyyətdə şəfqət və dini dözümlülük kimi yüksək hisslərin tərbiyə edilməsində, konfessiyalararası və millətlərarası dialoqun genişlənməsində, habelə ən mühüm sosial və maarifçilik məsələlərinin həllində sizin sanballı xidmətlərinizi xüsusi vurğulamaq istərdim.

Qafqaz Müsəlmanları İdarəsinin sədri vəzifəsində çoxillik səmərəli fəaliyyətiniz sizə təkcə Azərbaycan Respublikasında deyil, onun hüdudlarından uzaqlarda da haqlı olaraq nüfuz və hörmət qazandırmışdır.

Möhtərəm şeyxülislam, bu xoş fürsətdən istifadə edib sizə möhkəm cansağlığı, uzun ömür, bütün nəcib təşəbbüslərinizdə uğurlar diləyirəm.

Hörmətlə,

İslam Abduqəniyeviç Kərimov

Özbəkistan Prezidenti".

***

Rusiya Federasiyasının Prezidentinin MDB dövlətləri ilə əlaqələr üzrə xüsusi nümayəndəsi, Xaricdə yaşayan həmvətənlərlə işlər və beynəlxalq humanitar əməkdaşlıq üzrə Federal Agentliyin rəhbəri Fərid MUXAMETŞİN Prezident Dmitri Medvedevin təbrik məktubunu oxumuşdur:

"Möhtərəm şeyxülislam,

Sizin 60 illik yubileyiniz və şeyxülislamlığınızın 30 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz uzun illər boyu Qafqaz Müsəlmanları İdarəsinə başçılıq etməklə maarifçilik və mənəvi tərbiyə işinə böyük şəxsi töhfə verirsiniz. Siz Rusiyada və Azərbaycanda, bütün MDB məkanında haqlı olaraq hörmət və nüfuz qazanmısınız.

Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə sizin töhfənizi qiymətləndiririk. Ölkələrimizi təkcə məzmunlu siyasi dialoq və səmərəli qarşılıqlı iqtisadi fəaliyyət deyil, həm də qədimdən yaranmış dostluq və mehriban qonşuluq ənənələri birləşdirir. Sülh və tərəqqi naminə, gələcək nəsillərin rifahı naminə bundan sonra da həmin ənənələri qoruyacaq və artıracağıq.

Sizinlə görüşlərimizi, səmimi və maraqlı söhbətlərimizi hərarətlə xatırlayıram. Ümid edirəm ki, qarşılıqlı faydalı, dostcasına dialoq davam edəcəkdir. Sizə möhkəm cansağlı-

ğı, firavanlıq və nəcib fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

Dmitri Medvedev

Rusiya Federasiyasının Prezidenti".

* * *

Türkiyənin Azərbaycandakı səfiri Hulusi KILIÇ Türkiyə Prezidentinin və Baş nazirinin təbrik məktublarını oxudu. Məktublarda deyilir:

"Hörmətli sədr, əziz qardaşım!

60-cı doğum gününüzü və şeyxülislamlıq fəaliyyətinizin ildönümünü ürəkdən təbrik edir, cansağlığı və işlərinizdə uğurlar diləyirəm.

Şeyxülislamlıq fəaliyyətinizin 30-cu ildönümü münasibətilə 2009-cu il noyabrın 6-7-də təşkil olunacaq tədbirlərdə və "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusundakı konfransda iştirak etmək üçün göndərdiyiniz səmimi dəvətə görə təşəkkür edirəm.

İş cədvəlimin gərginliyi və əvvəlcədən nəzərdə tutulmuş işlər səbəbindən bu konfransda təəssüf ki, iştirak edə bilməyəcəyəm. Mühüm vəzifənizin icrasındakı uğurlu fəaliyyətinizi eyni əzm və qətiyyətlə davam etdirəcəyinizə şübhə etmirəm. Bu günə qədər olduğu kimi, bundan sonra da "bir millət" şüarından vaz keçilməsi əsla mümkün olmayan Türkiyə və Azərbaycan xalqları arasındakı möhkəm birlik və həmrəylik hissləri ilə ortaq mənəviyyatın daha da sıxlaşması istiqamətində səy göstərə biləcəyinizə qəlbən inanıram.

Bu fürsətdən istifadə edərək, əziz qardaşıma uzun ömür diləyirəm, dost və qardaş Azərbaycan xalqını məhəbbətlə salamlayıram.

Allah köməyiniz olsun.

Abdullah Gül

Türkiyə Respublikasının Prezidenti".

* * *

"Hörmətli sədr, əziz qardaşım!

Anadan olmağınızın 60-cı və şeyxülislamlıq fəaliyyətinizin 30-cu ildönümünü ən səmimi diləklərimlə təbrik edirəm.

Doğum gününüzün və şeyxülislamlıq fəaliyyətinizin ildönümləri münasibətilə 2009-cu il noyabrın 6-7-də təşkil olunacaq yubiley tədbirlərində, həmçinin "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusundakı konfransda iştirak etmək üçün göndərdiyiniz səmimi dəvətə görə təşəkkür edirəm.

Gərgin iş proqramım səbəbindən qeyd olunan konfransda iştirak edə bilməyəcəyimi təəssüf hissi ilə bildirirəm. Bu konfransın müvəffəqiyyətlə keçməsini arzu edirəm.

Vəzifənizin icrası zamanı göstərdiyiniz uğurlu fəaliyyətinizin davam etməsini diləyirəm, sizə və ailənizə cansağlığı və xoşbəxtlik arzu edirəm.

Rəcəb Tayyib Ərdoğan

Türkiyə Respublikasının Baş naziri".

* * *

Konfransda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür PAŞAZADƏ yubiley münasibətilə onu təbrik etmək üçün Bakıya gəlmiş Türkiyə, İran, İordaniya, Səudiyyə Ərəbistanı, Küveyt dövlətlərinin, Mərkəzi Asiya və MDB-nin üzvü olan ölkələrin, həmçinin İslam Konfransı Təşkilatı və digər beynəlxalq qurumların nümayəndələrinə minnətdarlığını bildirdi. Bütün Qafqazın şeyxi ona göstərilən hörmət və ehtiramı doğrultmaq üçün bacarıq və təcrübəsini əsirgəməyəcəyini söyləyərək dedi:

- Bayaqdan mən özüm-özümə qulaq asıram, özüm-özümə kənardan baxıram ki, görüm mən bu tərifləro layiqəmmi? Fikirləşirəm və özümdə daha çox məsuliyyət hiss edirəm. Çətinliklərim də olub, başa düşməzlik də olub. Mən xalqıma tam xidmət edə bildimmi? Xalqımın qarşımda qoyduğu vəzifəni mən tam yerinə yetirə bildimmi? Baxıb görürəm ki, hələ yerinə yetirə bilməmişəm. Baxmayaraq ki, mənim ustadım, müəllimim, mənəvi rəhbərim Heydər Əliyev olub. Ulu öndər kimi bir mənəvi rəhbərim var idi. Xalqa xidmət yolunu biz ondan öyrənmişik. Mən əvvəl istərdim ki, Əliyevlər ailəsinə minnətdarlığımı bildirim. Bu gün bütün müvəffəqiyyətlərimə görə bu ailəyə borcluyam, bu ilhamı mən oradan almışam. Əgər səhv etməmişəmsə və məni qəbul ediblərsə Azərbaycan xalqına minnnətdarlığımı bildirirəm. Bu, xalqın zəhmətidir. Xalq məni böyüdüb. Bu xalq mənə etimad göstərib, bu imkanı yaradıb və bu gün məni təbrik edirlər.

Ona görə də bu gün mənim başımı ucaldan və iki gündür ki, bütün işlərini atıb qonaqlarımla məşğul olan Prezidentimizə, İlham Əliyev həzrətlərinə cansağlığı arzulayır və minnətdarlığımı bildirirəm.

Allahşükür Paşazadə təkcə Azərbaycanın dini rəhbəri kimi deyil, həm də bütün Qafqazın şeyxi kimi yerinə yetirdiyi missiyanın məsuliyyətindən də danışdı:

- Mən Qafqazın şeyxiyəm, məsuliyyət daşıyıram. Həm Çeçenistanın, həm Dağıstanın, həm də Kabarda-Balkarın, həm İnquşetiyanın şeyxiyəm. Eyni zamanda, məni Rusiya cəmiyyətində bütün müsəlmanların rəhbəri seçiblər. Bunların da qarşısında məsuliyyət daşıyıram.

Mənim bundan sonra da görəcəyim bütün işlər və atacağım bütün addımlar xalqlar arasında dostluq yaratmağa xidmət edəcəkdir. Əlbəttə, mən çox istərdim ki, bizim ən böyük problemimiz - Qarabağ münaqişəsi sülh yolu ilə həll edilsin. Əminəm ki, Prezidentimiz İlham Əliyev həzrətlərinin rəhbərliyi ilə, inşallah, bu məsələ tezliklə həllini tapacaqdır. Buna inanıram. Mən istərdim ki, bu işə dindarlarımız, din xadimlərimiz yaxından kömək etsinlər.

Siz Azərbaycana diqqətlə baxın. Bu gün Azərbaycan tolerantlıq beşiyidir. Tarixən belə olub, bu gün də belədir. Azərbaycanda dinlər, millətlər sülh şəraitində, vahid ailə kimi yaşayıb. Bu birlik, bu vəhdət gücümüzün göstəricisidir. Azərbaycan dünyada tolerantlığın örnəyidir.

Buna görə və mənə fəaliyyətim üçün yaradılan şəraitə görə bütün dindarlar - istər müsəlman, istər xristian, istərsə də yəhudilər adından bir daha Prezident həzrətlərinə və

dövlət xadimlərinə minnətdarlığımı bildirirəm. Allah-Təala bütün insanlara dünyada sülhü bərqərar etsin, o cümlədən bizim üçün, Azərbaycan üçün və Qafqaz üçün də.

Mən bu gün çox sevinirəm. Əhməd Kadırov mənim dostum, qardaşım olub. Hər bir çətinliyi biz birlikdə adlamışıq, məsləhətləşmişik, yaxşı günlərdə də, yaman günlərdə də bərabər olmuşuq. Bu gün o, mənimlə bərabər deyil. On il əvvəl rəhmətlik Heydər Əliyevin rəhbərliyi ilə keçirilən 50 illik yubileyimdə o, iştirak etmişdi, mənə "Çeçenistanın qəhrəmanı" ordenini vermişdi. Bu gün mən çox sevinirəm ki, onun oğlunun, davamçısının əlindən "Əhməd Kadırov" ordenini aldım. Ona görə də dərin minnətdarlığımı bildirirəm və gələcəyə inanıram.

Mənə "İstiqlal" ordenini ulu öndərimiz Heydər Əliyev təqdim etmişdi. Bu gün Prezident İlham Əliyev mənə "Şərəf" ordeni verdi. Bu, mənim üçün çox böyük şərəfdir. Bu, həm də inamdır. Həyat davam edir və gələcəkdə də inşallah davam edəcəkdir.

Şeyxülislam Allaşükür Paşazadə yubiley mərasimində iştirak etmək üçün Tbilisi, Moskva, Ər-Riyad, Dərbənd, Ankara, Ufa, Kazan, Tehran və digər şəhərlərdən gəlmiş qonaqlara, həmçinin onu şəxsən təbrik etmiş dövlət başçılarına təşəkkürünü bildirərək dedi:

- Onu da qeyd edim ki, bu gün mən Rusiya nümayəndə heyətinə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Çünki onlar həqiqətən bu işdə çox yaxından iştirak ediblər. Bu gün saat 2-nin yarısında Rusiyanın Prezidenti Medvedev həzrətləri telefonla zəng edərək məni təbrik etdi. Mən istərdim ki, burada Rusiyanın səfirinə və gələn qonaqlara da minnətdarlığımı bildirim ki, onlar bu mərasimdə yaxından iştirak edirlər.

Türkiyədən qardaşlarımız gəliblər. Türkiyədən mən iki təbrik almışam. Hədiyyələrini də göndərmişdilər. Bu diqqətə və qayğıya görə minnətdarlığımı bildirirəm. Onlara Allahdan cansağlığı arzulayıram.

Bizim konfransımız sabah işini Təzəpir məscidində davam etdirəcəkdir. Gəlib görəcəksiniz. Biz çox istərdik ki, siz Təzəpirin konfrans zalındakı tədbirdə iştirak edəsiniz, görəsiniz ki, mənim Prezidentim bizim üçün, dindarlar üçün nə cür gözəl şərait yaradıb. İnşallah sabah konfransımız saat 10-da orada işini davam etdirəcəkdir. Bir daha "çox sağ olun" deyirəm, minnətdaram.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA GÜRCÜSTANIN PATRİARX KATOLİKOSU II İLYA İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 6-da Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Azərbaycanda səfərdə olan Gürcüstanın Patriarx Katolikosu II İlya ilə görüşmüşdür.

Qonağı səmimi salamlayan Mehriban xanım Heydər Əliyev Fondunun fəaliyyəti haqqında məlumat vermişdir.

Fondun yaxın zamanlarda Gürcüstanda bir neçə layihə həyata keçirməyə hazırlaşdığını bildirən Mehriban xanım bu layihələr çərçivəsində qonşu ölkədə yeni təhsil ocaqlarının inşasının nəzərdə tutulduğunu söyləmişdir.

Azərbaycanın tolerantlıq baxımından nümunə sayılacaq ölkə olduğunu deyən Mehriban xanım xüsusi vurğuladı ki, müxtəlif dinlərə mənsub olan insanlar əsrlər boyu Azərbaycanda dostluq şəraitində yaşamışlar. Azərbaycanda insanlara dininə, dilinə, milliyyətinə, irqinə görə fərq qoyulmur. Bu, həm Azərbaycan xalqının, həm də dövlətin digər dinlərə və millətlərə olan münasibətidir.

Fond "Tolerantlığın ünvanı Azərbaycan" layihəsi çərçivəsində dünyada bir sıra məbədlərin yenidən qurulması və əsaslı təmirində yaxından iştirak edir. Bu il Fond tərəfindən Gürcüstanda yenidən qurularaq istifadəyə verilən məscid də layihə çərçivəsində görülən işlərin tərkib hissəsidir.

Gürcüstanın Patriarx Katolikosu II İlya Heydər Əliyev Fondunun reallaşdırdığı layihələr haqqında məlumatlı olduğunu bildirərək, bu qəbildən olan işlərin Gürcüstanda da həyata keçirilməsindən məmnunluğunu bildirmişdir.

Görüşün sonunda möhtərəm qonaq Mehriban xanım Əliyevaya xatirə hədiyyəsi təqdim etmişdir.

NYU-YORKDA AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ KONFRANS KEÇİRİLMİŞDİR

Noyabrın 5-də Nyu-Yorkdakı Kolumbiya Universitetində Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinin və Harriman İnstitutunun təşkilatçılığı ilə Azərbaycan diplomatiyasının 90 illik yubileyinə həsr edilmiş "Azərbaycan 21-ci əsrdə: Perspektivlər və çağırışlar" mövzusunda konfrans keçirilmişdir.

Konfransda xarici işlər nazirinin müavini Araz Əzimov, Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi səfir Aqşin Mehdiyev, ölkəmizin ABŞ-dakı səfiri Yaşar Əliyev, professor Timoti Frye, beynəlxalq diplomatiya üzrə professor, səfir Stefen Sestanoviç iştirak etmişlər.

Tədbirdə "Dəyişən mühitdə Azərbaycanın təhlükəsizlik siyasəti", "Müstəqil, bütöv, çiçəklənən və demokratik Azərbaycana aparan yol", "Azərbaycan-ABŞ əlaqələri" mövzularında məruzələr dinlənilmişdir.

Tədbirin sonunda azərbaycanlı diplomatlar iştirakçıların suallarını cavablandırmış, şərhlər vermişlər.

Sonda iştirakçılara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən hazırlanmış BMT-nin sənədlər toplusu və kitablar təqdim edilmişdir.

AŞQABADDA XƏZƏRİN STATUSUNUN MÜƏYYƏN EDİLMƏSİ İLƏ BAĞLI KONVENSİYANIN HAZIRLANMASI ÜZRƏ XÜSUSİ İŞÇİ QRUPUNUN 26-CI İCLASI KEÇİRİLMİŞDİR

Noyabrın 5-də Aşqabadda Xəzərin statusunun müəyyən edilməsi ilə bağlı Konvensiyanın hazırlanması üzrə xüsusi işçi qrupunun 26-cı iclası keçirilmişdir.

Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılığı ilə nümayəndə he-

yətinin də qatıldığı iclasda Rusiya, İran, Qazaxıstan və Türkmənistan nümayəndələri iştirak etmişlər.

Müzakirələrin səmərəliliyini qeyd edən nümayəndə heyətlərinin rəhbərləri Konvensiya layihəsinin ayrı-ayrı maddələrində irəliləyişlərin olduğunu və mövqelərin daha da yaxınlaşdığını bildirmişlər. Deyilmişdir ki, razılıq əldə edilməmiş bəzi məqamlara baxmayaraq, danışıqlarda Xəzərin statusu məsələsinin optimal həlli, dənizin zəngin ehtiyatlarından səmərəli istifadə yollarının tapılacağına inanırlar.

İclasda Xəzərin statusu ilə əlaqədar yaxın zamanlarda həllini gözləyən bir çox məsələlər müzakirə olunmuşdur. Bunların arasında nəqliyyat kommunikasiyalarının inkişafı, dənizdə təhlükəsizliyin təmin edilməsi, Xəzərin ekoloji vəziyyəti, dənizin bioloji ehtiyatlarının qorunması və ondan səmərəli istifadə edilməsi və digər məsələlər vardır.

İclasda deyilmişdir ki, xüsusi işçi qrupunun 27-ci iclası gələn ilin birinci kvartalında Tehranda keçiriləcəkdir.

VAŞİNQTONUN HÜQUQ MÜTƏXƏSSİSLƏRİ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HÜQUQİ ASPEKTLƏRİNİ İŞIQLANDIRAN HESABATLA TANIŞ OLMUŞLAR

Vaşinqtonun hüquq mütəxəssisləri Dağlıq Qarabağ münaqişəsinin hüquqi aspektlərini işıqlandıran hesabatla tanış olmuşlar.

Vaşinqtonda keçirilən "Azərbaycan-ABŞ: 11-ci təhlükəsizlik dialoqu" çərçivəsində Azərbaycan tərəfi Birləşmiş Ştatlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hüquqi aspektlərini əks etdirən hesabat təqdim etmişdir. Xarici işlər nazirinin müavini Araz Əzimov bu barədə ABŞ-ın Milli Mətbuat Mərkəzində dialoqun nəticələrinə həsr edilən brifinqdə bildirmişdir.

1996-cı ildən başlanan Azərbaycan-ABŞ təhlükəsizlik dialoqu çərçivə mexanizmi kimi xidmət edərək tərəflərə hərbi və təhlükəsizlik sahəsində əməkdaşlıq istiqamətlərini müəyyənləşdirməyə yardım edir. Dialoqun builki raundu zamanı Araz Əzimov və ABŞ dövlət katibinin siyasi və hərbi məsələlər üzrə müavini Əndrü Şapironun həmsədrliyi altında nümayəndə heyətləri bölgədə kütləvi qırğın silahlarının, narkotik maddələrin dövriyyəsinin yayılmasının qarşısının alınması, terrorla mübarizə, Xəzər hövzəsinin təhlükəsizliyinin möhkəmləndirilməsi, ABŞ-ın bölgədəki maraqları və digər məsələləri müzakirə etmiş, bu sahədə ikitərəfli əməkdaşlıq imkanlarının genişləndirilməsi yollarına dair fikir mübadiləsi aparmışlar.

Nazir müavini bildirmişdir ki, Vaşinqtonun hüquq ekspertləri Xarici İşlər Nazirliyinin hazırladığı Dağlıq Qarabağ münaqişəsinin hüquqi tərəfini açıqlayan hesabatla tanış olmuşlar. Onlar yekdilliklə münaqişənin ərazi bütövlüyü prinsipi əsasında nizama salınmalı olduğunu bildirmişlər. Araz Əzimov vurğulamışdır ki, Ermənistan tərəfinin danışıqlarda əsas gətirdiyi "öz müqəddəratını təyin etmə" prinsipi "ərazi bütövlüyü" ilə ziddiyyət təşkil etməməlidir. Azərbaycan tərəfi güzəşt kimi öz dövlət sərhədləri daxilində Dağlıq Qarabağ bölgəsində yaşayan erməni icmasının statusunun müəyyən edilməsi məsələsinə baxmağa hazırdır. Lakin bu proses bölgədən didərgin salınan 70 min nəfər azərbaycanlı icmasının iştirakı olmadan baş tuta bilməz.

Xarici işlər nazirinin müavini Minsk qrupunun həmsədri kimi ABŞ-ın münaqişənin həll edilməsi üçün daha çox səy göstərəcəyinə ümidvar olduğunu bildirərək demişdir: "Biz, bölgənin sabitliyi və təhlükəsizliyi üçün nəticələrin tələb olunduğu bir anda yaşayırıq". Araz Əzimov həmçinin Türkiyə-Ermənistan sərhədlərinin açılmasının Dağlıq Qarabağ münaqişəsinə aid olmadığını düşünənlərə bölgədəki proseslərə ehtiyatla yanaşmağı tövsiyə etmişdir.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ARAZ ƏZİMOV MEKSİKADA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR

Noyabrın 5-6-da Azərbaycanın xarici işlər nazirinin müavini Araz Əzimov Meksika Birləşmiş Ştatlarında işgüzar səfərdə olmuşdur.

Azərbaycanın Meksikadakı səfirliyindən bildirmişlər ki, səfər çərçivəsində nazir müavini bu ölkənin Xarici İşlər Nazirliyində BMT ilə əlaqələr üzrə idarənin rəisi Pablo Mascdo və xarici işlər nazirinin müavini Mariya de Lourdes Aranda ilə görüşmüşdür.

Siyasi məsləhətləşmələr zamanı ikitərəfli münasibətlər, regional təhlükəsizlik və transmilli cinayətkarlıq, narkotik maddələrin qanunsuz daşınması və insan alverinə qarşı mübarizə, qarşılıqlı informasiya mübadiləsi, enerji və qeyri-neft sektorunda, həmçinin BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Tərəflər siyasi əlaqələrin uğurla inkişaf etdiyini qeyd edərək, eyni zamanda ölkələrimiz arasında hüquqi bazanın, o cümlədən iqtisadi, ticarət, informasiya texnologiyaları, elm və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulamışlar.

A.Əzimov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, problemin həlli istiqamətində aparılan danışıqlar prosesi barədə müvafiq sənəd və xəritələr əsasında ətraflı məlumat vermişdir. O bildirmişdir ki, Ermənistanın beynəlxalq hüququn norma və prinsipləri ilə ziddiyyət təşkil edən qeyri-konstruktiv mövqeyi münaqişənin həllinə və regionda davamlı sülhün bərqərar olmasına maneələr törədir.

Nazir müavini BMT Baş Məclisinin növbəti iclasında Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı qətnamənin müzakirələri zamanı Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsinin ölkəmiz üçün vacib olduğunu vurğulamışdır.

Sonra A.Əzimov Meksika XİN-nin konfrans salonunda Mexikoda akkreditə olunmuş bir sıra diplomatik nümayəndəliklərin rəhbərləri, o cümlədən Türkiyənin, Rusiyanın, Ukraynanın, Serbiyanın və Bolqarıstanın səfirləri, Meksika Diplomatik Akademiyasının (Matias Romero İnstitutu) tələbələri və XİN-nin əməkdaşları üçün "Azərbaycan və regional təhlükəsizlik" mövzusunda təqdimatla çıxış etmişdir.

O, Azərbaycanın enerji və regional təhlükəsizlik siyasəti, terrorizm və narkotik maddələrin qanunsuz daşınmasına qarşı mübarizə sahələrində beynəlxalq əməkdaşlıq, Azərbaycan iqtisadiyyatının inkişaf templəri, həmçinin Ermənistanın Azərbaycana qarşı davam edən işğalçılıq siyasəti, problemin həlli istiqamətində aparılan danışıqlar və münaqişə ilə bağlı ölkəmizin mövqeyi barədə məlumat vermiş, dinləyicilərin suallarını cavablandırmışdır.

Görüşdə Azərbaycanın Meksikadakı səfiri İlqar Muxtarov və Matias Romero İnstitutunun rektoru Mariya Selia Toro Ernandes də iştirak etmişlər.

Nazir müavini A.Əzimov Meksikanın ən nüfuzlu mətbuat orqanlarından biri olan "Reforma" qəzeti və "Mexico Al Dia" televiziya kanalına müsahibə vermişdir. Mətbuat nümayəndələrinə səfərin məqsədi, ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri, Ermənistanın Azərbaycana qarşı təcavüzü, etnik təmizləmə siyasəti və beynəlxalq terrorizmə göstərdiyi dəstəyin tarixi həqiqətləri barədə məlumat verilmişdir.

Bundan əlavə, noyabrın 6-da A.Əzimov Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında, həmçinin Latın Amerikası regionunda ilk səfirliyinin rəsmi açılış mərasimində iştirak etmişdir.

Mərasimdə nazir müavini A.Əzimov, səfir İ.Muxtarov və Meksikanın Xarici İşlər Nazirinin müavini M.Aranda çıxış edərək ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyini məmnunluqla qeyd etmiş, Azərbaycan ilə Meksika arasında nəzərdə tutulan bir sıra potensial sahələrdə əlaqələrin genişləndirilməsinin zəruriliyini bildirmişlər.

Açılış mərasimində Meksikada akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri və əməkdaşları, bu ölkənin XİN-nin və dövlət qurumlarının rəsmiləri, həmçinin Meksikada yaşayan Azərbaycan, Türkiyə, Ukrayna və Rusiya diasporlarının təmsilçiləri iştirak etmişlər.

Tədbirdə hər iki ölkənin dövlət himnləri, Azərbaycan bəstəkarlarının klassik musiqi əsərləri canlı olaraq səsləndirilmiş, ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən və ölkəmizin tarixindən bəhs edən sənədli filmlər nümayiş etdirilmişdir.

AZƏRBAYCAN "ÇİNİN XARİCƏ İNVESTİSİYA SƏRGİSİ"NDƏ İŞTİRAK ETMİŞDİR

Çinin iqtisadiyyatının əsas planlaşdırıcısı və tənzimləyicisi qurumu olan Milli İnkişaf və İslahatlar Komissiyasının dəstəyi ilə Çin Sənayesinin Xaricdə İnkişafı və Planlaşdırılması Assosiasiyası, Çin İnkişaf Bankı noyabrın 3-4-də Pekində birinci "Çinin Xaricə İnvestisiya Sərgisi"ni keçirmişlər.

Sərginin məqsədi Çin hökuməti tərəfindən yerli şirkətlərin xaricə investisiya yatırması prosesini asanlaşdırmaq və onlara bu istiqamətdə kömək etməkdən ibarət idi.

Sərgiyə Çinin və xarici ölkələrin hökumət rəsmiləri, beynəlxalq sənaye və kommersiya liderləri, ticarət palataları, şirkətlər, audit və hüquq kimi sahələrdə ixtisaslaşmış peşəkar xidmət agentlikləri və s. dəvət olunmuşdular. Tədbirdə 122 ölkədən 1100-ə yaxın nümayəndə, o cümlədən 60-a yaxın xarici ölkənin Çin Xalq Respublikasında fəaliyyət göstərən səfirləri iştirak etmişlər.

Çinli mütəxəssislərin sözlərinə görə, bu günədək xaricə investisiya yatırmaq niyyətində olan yerli şirkətlər üçün bu səviyyədə tədbir keçirilməmişdir. Çin hökuməti son bir neçə il ərzində yerli şirkətləri xaricə investisiya yatırmağa tələsdirir və bu baxımdan tədbir mütəxəssislər tərəfindən başlanğıc nöqtəsi kimi dəyərləndirilir.

Tədbir investisiya sahəsinə həsr olunmuş iki hissədən - Forum və Sərgidən ibarət olmuşdur.

Forumda "Çinin xaricə investisiyalarının təşviqi", "Çinin xaricə investisiyalarının strategiyası və planları", "Maliyyə böhranının inkişaf meyilləri", "Beynəlxalq siyasətin, mədəniyyətin investisiyaya təsiri", "İnvestisiya qoyuluşu zamanı mövcud risklər" və s. mövzular müzakirə olunmuşdur.

Forum və Sərgi zamanı müxtəlif sahələrdə, o cümlədən enerji, neft-kimya, sənaye, kənd təsərrüfatı, infrastruktur, maliyyə, informasiya və kommunikasiya texnologiyaları, xidmət və s. sahələrə həsr olunmuş 2000-ə yaxın investisiya layihəsi nümayiş etdirilmiş, xarici ölkələr üzrə (ABŞ, Avstraliya, Fransa, Kanada, Meksika, Türkiyə, İsrail və s.) 20-yə yaxın xüsusi sessiyalar təşkil olunmuşdur.

Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini Gülməmməd Cavadovun rəhbərliyi ilə nümayəndə heyəti sərgidə iştirak etmək üçün Pekində olmuşdur. Nümayəndə heyəti bu ölkədəki səfirliyimizin təşkilatçılığı ilə iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən alternativ enerji, elektrik enerjisi, kənd təsərrüfatı, informasiya və kommunikasiya texnologiyaları və s. sahələrdə həyata keçirilməsi nəzərdə tutulan yeni layihələrə investisiyaların cəlb olunması, bu sahələrdə yeni əməkdaşlıq əlaqələrinin qurulmasına dair Çin tərəfi ilə müvafiq görüşlər keçirmiş, danışıqlar aparmışdır.

Səfir Yaşar Əliyev tədbirlərdə çıxış etmiş və ölkəmizin iqtisadiyyatı, investisiya mühiti, bu sahədə əldə edilmiş nailiyyətlər və planlar, eləcə də respublikamızın iştirakı ilə həyata keçirilmiş regional layihələr barədə ətraflı məlumat vermişdir.

Sərgidə səfirlik tərəfindən Azərbaycana məxsus stend hazırlanmış, ölkəmizin iqtisadiyyatının müxtəlif sahələrinə dair məlumatlar nümayiş etdirilmiş və sərgi iştirakçıları arasında yayılmışdır.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ REGİONA SƏFƏRLƏRİNİN YEKUNU İLƏ BAĞLI BƏYANAT YAYMIŞLAR

Noyabrın 7-də ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Merzlyakov (Rusiya), Bernar Fasye (Fransa) və Robert Bradke (ABŞ) regiona səfərlərinin yekunu ilə bağlı bəyanat yaymışlar.

ATƏT-in rəsmi saytında yerləşdirilmiş bəyanatda deyilir ki, Minsk qrupunun həmsədrləri noyabrın 4-6-da Azərbaycan və Ermənistanda səfərdə olmuşlar. Onlar noyabrın 5-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə, noyabrın 6-da isə Yerevanda Ermənistan prezidenti Serj Sərkisyanla görüşmüşlər. Həmsədrlər noyabrın 6-da Prezident İlham Əliyevlə ikinci dəfə görüşmək üçün Bakıya qayıtmışlar.

Prezidentlər Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün baza prinsiplərinin razılaşdırılması istiqamətində müzakirələri davam etdirməyə hazır olduqlarını bir daha bəyan etmişlər. Dövlət başçıları həmsədrlərin növbəti görüşü təşkil etmək təklifini qəbul etmişlər.

AZƏRBAYCAN İKT-YƏ ÜZV ÖLKƏLƏRLƏ İQTİSADİ ƏMƏKDAŞLIĞI BUNDAN SONRA DA İNKİŞAF ETDİRƏCƏKDİR

Noyabrın 9-da Azərbaycanın Baş nazirinin müavini Abid Şərifov İstanbulda İslam Konfransı Təşkilatı İqtisadi və Ticarət Daimi Komitəsinin (COMCEC) 25-ci sessiyası çərçivəsində keçirilmiş zirvə toplantısında çıxış etmişdir.

Baş nazirin müavini ilk olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COMCEC-in yaradılmasının 25-ci ildönümü münasibətilə təbriklərini və səmimi salamlarını Türkiyə Prezidenti Abdullah Gülə və İKT-nin baş katibi Ekmələddin İhsanoğluna çatdırmışdır.

Abid Şərifov bildirmişdir ki, Azərbaycan COMCEC-in fəaliyyətinə böyük əhəmiyyət verir və onu yüksək qiymətləndirir. Xüsusilə dünyanı bürümüş dərin maliyyə böhranı şəraitində bu komitə müsəlman ölkələri arasında iqtisadi əməkdaşlığın genişlənməsində böyük rol oynayır.

Müstəqilliyinin ilk illərindən qardaş müsəlman ölkələri ilə əməkdaşlığı inkişaf etdirən Azərbaycan müxtəlif layihələrin həyata keçirilməsində fəal iştirak edir. Xalqımızın ümummilli lideri Heydər Əliyev İKT-nin xidmətlərini yüksək qiymətləndirdi və bu təşkilatın fəaliyyətinin nə qədər mühüm olduğunu dəfələrlə vurğulamışdır. Ulu öndərin siyasətini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin səyləri nəticəsində son illər İKT ilə əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Dövlətimizin başçısı təşkilatın 2005-ci ildə Məkkədə keçirilmiş zirvə görüşündə İKT-nin bütün təşəbbüslərini dəstəklədiyimizi bildirmiş, əməkdaşlığın möhkəmlənməsinə dair yeni təkliflər irəli sürmüşdür.

A.Şərifov daha sonra bildirmişdir ki, ölkəmiz bölgədə həyata keçirilən layihələrdə fəal iştirak etməklə, onların bir çoxuna liderlik edir. Böyük İpək Yolunun bərpasında mühüm əhəmiyyət kəsb edən TRASECA layihəsinin baş katibliyi Bakıda yerləşir. Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizi çərçivəsində kommunikasiya layihələrində də mühüm rola malikdir. Türkiyə və Gürcüstanla birlikdə həyata keçirilən Bakı-Tbilisi-Qars dəmiryolu xətti bü cür önəmli layihələrdəndir.

Abid Şərifov təəssüflə bildirmişdir ki, nəqliyyat dəhlizləri, digər mühüm layihələrin önündə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi kimi ciddi əngəl vardır. İşğal nəticəsində ərazilərimizin 20 faizi zəbt olunmuş, 1 milyondan çox insanımız qaçqın və köçkün vəziyyətində yaşamaqda davam edir, minlərlə tarixi abidələr, sosial və iqtisadi obyektlər dağıdılmışdır. Biz Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyən İKT üzvü olan ölkələrə təşəkkürümüzü bildiririk. BMT Baş Məclisinin və Təhlükəsizlik Şurasının Azərbaycanın lehinə qəbul etdiyi qətnamələrdə də İslam ölkələrinin mühüm rolu vardır.

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ DANİLO TÜRKÜN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Noyabrın 8-də Sloveniya Respublikasının Prezidenti Danilo Türk Azərbaycana rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Sloveniyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına

Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Sloveniya dövlətinin başçısını və xanımını hava limanında Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar Sloveniya Prezidentinə və xanımına gül dəstəsi təqdim etdilər.

Hava limanının ali qonaqlar üçün salonunda Prezident Danilo Türk və Baş nazirin birinci müavini Yaqub Eyyubov arasında qısa protokol söhbəti oldu.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Noyabrın 9-da Azərbaycan Respublikasında rəsmi səfərdə olan Sloveniya Respublikasının Prezidenti Danilo Türkün rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Sloveniya Prezidenti Danilo Türkü və xanımı Barbara Mikliç Türkü səmimiyyətlə qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Sloveniya Prezidentinə raport verdi.

Sloveniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Sloveniya Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Danilo Türkə, Sloveniya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər və xanımları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SLOVENİYA PREZİDENTİ DANİLO TÜRKÜN TƏKBƏTƏK GÖRÜŞÜ

Noyabrın 9-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Sloveniya Respublikasının Prezidenti Danilo Türk və xanımı Barbara Mikliç Türk ilə birgə görüşü olmuşdur.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Sloveniya Prezidenti Danilo Türkün təkbətək görüşü keçirilmişdir.

Görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olundu. Ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial imkanların olduğu vurğulandı.

Yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinin qeyd edildiyi görüşdə Sloveniya Prezidenti Danilo Türkün Azərbaycana rəsmi səfərinin də ikitərəfli əlaqələrin inkişafına töhfə verəcəyinə əminlik bildirildi.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ SLOVENİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI

Noyabrın 9-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Sloveniya Prezidenti Danilo Türkün nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Cənab Prezident!

Mən Sizi Azərbaycanda bir daha salamlayıram. Sizi görməyimə çox şadam. Bu, Sloveniya Prezidentinin ölkəmizə ilk rəsmi səfəridir. Əminəm ki, bu səfər uğurlu olacaqdır. Biz ikitərəfli münasibətlərə dair məsələləri müzakirə edəcəyik və onların daha da inkişaf etdirilməsi yollarını araşdıracağıq. Potensial çox böyükdür və əminəm ki, Azərbaycana səfərinizin praktiki nəticələrini gələcəkdə görəcəyik.

Bu gün bizim ikitərəfli münasibətlər və regional inkişafla bağlı artıq müəyyən müzakirələrimiz oldu. Sabah işgüzar dairələr görüşəcək. Bir sözlə, hesab edirəm ki, səfərinizin əməkdaşlığımızda praktiki nəticələrini görəcəyik. Apardığımız fəal siyasi dialoq gələcəkdə də davam edəcəkdir.

Azərbaycanda Sizi bir daha salamlayıram və uğurlu səfər arzulayıram.

Sloveniya Prezidenti Danilo TÜRK səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Çox sağ olun, cənab Prezident.

Burada olmağımızdan çox şadam. Şəxsən mən Azərbaycanda olmağımdan çox məmnunam. Hətta, Sloveniya Prezidenti seçildiyim ilk günlərdən Azərbaycana səfər etmək istəyirdim. Nəhayət, çox şadam ki, bu səfər artıq baş tutub.

Cənab Prezident, bildiyiniz kimi, Sloveniya ilə Azərbaycanın yaxın keçmişdəki tarixi oxşar olub. Hər iki ölkə gənc müstəqil dövlətdir. Xalqlarımız çətin siyasi sınaqlardan keçib. Hər iki ölkə daha geniş Avropanın formalaşmasına çalışır. Budəfəki səfərimiz Berlin divarının yıxılması tarixinə təsadüf edir. Həmin tarixi hadisə Avropada böyük dəyişikliklərə səbəb oldu və qarşımızda geniş imkanlar açdı.

Təbii ki, bizim münasibətlərimiz müstəqillik dövrü ilə məhdudlaşmır. Biz yaxşı bilirik ki, Azərbaycanın qəhrəman oğulları İkinci Dünya müharibəsi dövründə Sloveniya torpağında faşizmə qarşı mübarizə aparıblar. Biz həmin faktları ölkələrimizin ictimaiyyətinin diqqətinə geniş çatdırmalıyıq. Çünki bu, ortaq tariximizin ən mühüm hissələrindən biridir. Bu cür hadisələr tədqiq edilməli və daimi olaraq öyrənilməlidir. Hesab edirəm ki, biz belə bir bünövrə əsasında münasibətlərimizi daha da inkişaf etdirə bilərik.

AZƏRBAYCAN-SLOVENİYA SƏNƏDLƏRİNİN İMZALANMASI

Noyabrın 9-da geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Sloveniya Prezidenti Danilo Türkün iştirakı ilə Azərbaycan-Sloveniya sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Sloveniya Prezidenti Danilo Türk "Azərbaycan

Respublikası və Sloveniya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyanat"ı imzaladılar.

"Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyi (ANAMA) və Sloveniya Respublikası Minatəmizləmə və Minalardan Zərər Çəkmiş İnsanlara Yardım üzrə Beynəlxalq Etimad Fondu arasında Əməkdaşlıq Memorandumu"nu Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin direktoru Nazim İsmayılov və Sloveniya Respublikası Minatəmizləmə və Minalardan Zərər Çəkmiş İnsanlara Yardım üzrə Beynəlxalq Etimad Fondunun direktoru Qoran Qaçnik imzaladılar.

"Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Sloveniya Respublikasının İqtisadiyyat Nazirliyi arasında sənaye və energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev və Sloveniyanın inkişaf və Avropa işləri üzrə naziri Mitya Qaspari imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Sloveniya Respublikasının İqtisadiyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayev və Sloveniyanın inkişaf və Avropa işləri üzrə naziri Mitya Qaspari imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında diplomatik pasportlara malik vətəndaşlara viza tələbinin ləğv olunması haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Sloveniyanın inkişaf və Avropa işləri üzrə naziri Mitya Qaspari imzaladılar.

DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Noyabrın 9-da sənədlərin imzalanması mərasimi başa çatandan sonra prezidentlər İlham Əliyev və Danilo Türk mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV bəyanatla çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, Sizi ölkəmizdə bir daha salamlayıram. Sizi görməyimə çox şadam. Bu gün bizim ikitərəfli münasibətlərimizdə çox mühüm bir gündür. Bu, Sloveniya Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Bu gün ikitərəfli münasibətlərimizin gələcək inkişafı, regional və qarşılıqlı maraq doğuran məsələlərlə bağlı çox yaxşı müzakirələrimiz baş tutdu.

Mən Sizə deyə bilərəm ki, ölkələrimiz arasında əlaqələrin perspektivlərinə dair yaxşı qarşılıqlı anlaşmamız vardır. Bizim çox yaxşı siyasi münasibətlərimiz mövcuddur.

Əminəm ki, Sizin, cənab Prezident, ölkəmizə səfəriniz nəticəsində iqtisadi əlaqələrimizi genişləndirəcəyik.

Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafı üçün yaxşı potensial vardır və Sloveniyadan Sizi müşayiət etmək məqsədi ilə gəlmiş iş adamlarının burada olması bizim ikitərəfli iqtisadi münasibətlərə göstərdikləri maraqdan irəli gəlir. Bu, eyni zamanda bizim birgə iqtisadi fəaliyyətimizin potensialını göstərir. Bizim iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparmır, onlar bir-birini dəstəkləyən iqtisadiyyatlardır. İqtisadi sahədə nə qədər çox təmaslarımız olarsa, biz özümüzü bir o qədər yaxşı tanıyacağıq və bu əməkdaşlığın praktiki nəticələrinin şahidi olacağıq. İqtisadi fəaliyyət çərçivəsində bir çox sahələr mövcuddur ki, onlar bizim sərmayələr üçün cəlbedici ola bilər. Eyni zamanda, biz turizm, infrastruktur, informasiya-kommunikasiya texnologiyaları, sənaye, energetika və digər sahələrdə sərmayə imkanlarını araşdırdıq. Biz bütün sahələrdə əməkdaşlıq edə bilərik və əminəm ki, bunun yaxşı nəticələrini görəcəyik.

Əməkdaşlığımızın mühüm sahələrindən biri, həmçinin energetika sahəsidir və hesab edirik ki, bu baxımdan Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər mühüm əhəmiyyət kəsb edir. Çünki biz artıq bir neçə ildir ki, enerji təhlükəsizliyi məsələləri, enerji nəqlinin şaxələndirilməsi sahəsində avropalı tərəfdaşlarımızla işləyirik. Azərbaycan nəhəng neft və qaz yataqlarına və çox müasir nəqletmə infrastrukturuna malik olan ölkə kimi enerji təchizatının şaxələndirilməsində artıq mühüm rol oynayır. Ümidvaram ki, biz gələcək illərdə bu istiqamətdə daha mühüm addımlar atacağıq. Bu həm Avropanın, həm də Azərbaycanın marağındadır. Ona görə enerji amili bizim münasibətlərimizdə çox mühüm önəm daşıyır.

Eyni zamanda, bu gün biz humanitar sahədəki əlaqələrimizi çox geniş şəkildə müzakirə etdik. Xüsusən də, biz mədəni dialoqa toxunduq və ötən cümə günü Lyublyanada mühüm bir beynəlxalq konfransın keçirilməsini bilmək çox maraqlı oldu. Eyni vaxtda, Bakıda da elə bir tədbir keçirilmişdir. Bu tədbir mədəni dialoqa, mədəni mübadiləyə aid olan dini dialoqa və sivilizasiyaların dialoquna həsr olunmuş tədbir idi. Hesab edirik ki, biz belə bir formatda ölkələrimiz arasında bu baxımdan çox möhkəm əlaqələr qura bilərik. Siz Balkan, biz isə Qafqaz regionunda yerləşirik. Bunu nəzərə alaraq, biz xalqların bir-birini yaxşı tanıması və sivilizasiyalararası dialoqun və dinlərarası münasibətlərin praktiki nəticələrini görmək üçün daha yaxşı mühit yarada bilərik.

Bu gün müzakirə etdiyimiz məsələlərdən biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi idi. Ümumiyyətlə, regional hadisələr nəzərdən keçirildi. Təbii ki, dondurulmuş münaqişələr bu proseslərə təsir göstərir. Uzun illərdir ki, torpaqlarımız işğal altındadır. 1994-cü ildən etibarən biz atəşkəs rejimində yaşayırıq. Nə hərb, nə sülh vəziyyətidir. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri pozulub. Ölkəmiz Ermənistanın təcavüzü və işğalından əziyyət çəkir. Bunun nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin aparılması nəticəsində ölkəmizdə bir milyondan artıq qaçqın və məcburi köçkün vardır. BMT-nin Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Eyni zamanda, BMT-nin Baş Məclisində və digər beynəlxalq təşkilatlarının iclaslarında bu cür qətnamələr qəbul olunub. Lakin bunlara baxmayaraq, əfsuslar olsun ki, münaqişə hələ də həll olunmayıb və işğal davam edir. Ermənistan-Azərbaycan münaqişəsinin həlli regiona sülh gətirə bilər, əməkdaşlıq və təhlükəsizliyi təmin edər. Bu əsas maneə aradan qaldırılmalıdır. Ümidvarıq ki, gələn aylar ərzində biz bu sahədə daha çox irəliləyişin şahidi olacağıq. Ümumiyyətlə, regional vəziyyət də müzakirə olunmuşdur. Regionun inkişafı ilə bağlı bizim baxışlarımız üst-üstə düşür. Avropa İttifaqı ilə region dövlətləri arasında əməkdaşlıq və bu yaxınlarda başlanmış "Şərq tərəfdaşlığı" Proqramı əməkdaşlıq üçün yeni imkanlar açır. Mən, yekun olaraq onu bildirmək istəyirəm ki, biz münasibətlərimizdən və onların inkişafından çox məmnunuq. Ümidvaram ki, cənab Prezidentin səfəri qarşılıqlı əməkdaşlıq üçün çox imkanlar açacaqdır.

***

Sloveniya Prezidenti Danilo TÜRK bəyanatla çıxış edərək dedi:

- Çox sağ olun, cənab Prezident!

Siz müzakirələrimizi o qədər dəqiq və düzgün şəkildə təsvir etdiniz ki, mən hesab edirəm, bunun üçün heç bir əlavəyə ehtiyac qalmadı. Hesab edirəm ki, münasibətlərimiz keyfiyyəti və potensialı haqqında söylədiyiniz fikirlər tam yerinə düşür. Biz bundan sonra da çalışmalıyıq ki, əlaqələrimiz daha geniş şəkildə inkişaf etsin. Mən sadəcə onu deməliyəm ki, siyasi əlaqələrimiz sayəsində biz bir-birimizi daha yaxşı anlayırıq. Biz bir-birinə oxşar ölkələrik. Bizim mədəniyyətimizdə, adət-ənənələrimizdə də oxşarlıqlar vardır. Təbii ki, eyni zamanda, suverenlik və müstəqillik uğrunda siyasi tariximizdə də oxşarlıqlar mövcuddur və bu da tariximizin vacib hissələridir. Biz bir-birimizi yaxşı tanıyırıq, anlayırıq və çox şadam ki, bu anlaşma əlaqələrimizin inkişaf etdirilməsi üçün yaxşı çərçivəni təmin edir.

Bu gün məlumat aldıq ki, ötən həftə mədəniyyət sahəsində, ölkələrimizin mədəni həyatında mühüm tədbirlər keçirilib. Sloveniya mədəni irsin qorunmasına xüsusi diqqət yetirir.

Bizim kimi ölkələrdə və yerləşdiyimiz regionlarda bu addımları atmalıyıq ki, Avropa Şurasının və Avropa İttifaqının amalları daha lazımi şəkildə tətbiq edilsin. Biz bu regiondakı mədəni irsdən xəbərdar olmalıyıq. Fəaliyyətimizi təkcə bununla məhdudlaşdırmalı deyilik. Biz mədəni irsin qorunması və inkişaf etdirilməsində iştirak etməliyik. Bu, eyni zamanda, sülhün möhkəmləndirilməsinə də xidmət edə bilər. Əminik ki, gələcəkdə bu münasibətlər daha geniş şəkildə inkişaf edəcəkdir.

Avropa İttifaqına gəldikdə, Siz bildiyiniz kimi, Avropa İttifaqı nəinki iqtisadi bir klubdur, iqtisadi məkan və ya sırf iqtisadi sistemdir. Bu təşkilat, eyni zamanda, yeni mədəniyyətin formalaşmasına və mədəni adət-ənənələrinin bu tərzdə təşviq edilməsinə xidmət edən bir təşkilatdır. Ona görə də, bu baxımdan biz qarşımızda duran həmin məqsədlərə doğru getməliyik. Bir çox iqtisadi və praktiki məsələlər var ki, biz bugünkü görüşlərimizdə onları nəzərdən keçirdik və gələcəkdə də bu cür müzakirələr davam edə bilər.

Ümid edirik ki, biz artıq vacib əməkdaşlığımızın çərçivəsi üzərində razılığa gəldik. Biz, cənab Prezident, Sizinlə Birgə Bəyanatı imzaladıq. Mən bunu xüsusilə qeyd edirəm ki, bu bəyanat bizim gələcək əməkdaşlığa dair gündəliyimizin konkret mexanizmlərini əks etdirir. Bu gün biz digər mühüm sənədləri imzaladıq. Burada energetika sahəsində, iqtisadi nazirliklərimiz arasında əməkdaşlıq nəzərdə tutulur. Hesab edirik ki, bu, bizim gələcəkdə işlərimizə kifayət dərəcədə yardım edəcəkdir.

Siz qeyd etdiyiniz kimi, mən Bakıya böyük biznes nümayəndə heyəti ilə gəlmişəm. Bu-

rada, eyni zamanda, biz həm hökumət rəsmiləri, həm də iş adamları ilə təmaslarımızın genişləndirilməsində maraqlıyıq. Əminəm ki, onlar nəinki yeni təmaslar quracaq, o cümlədən gələcək üçün konkret addımlar atacaqlar. Siz burada bir sıra sahələri xatırlatdınız. Fikrimcə, biz həmin sahələrdə çalışa bilərik. Energetika və enerji nəqlinin şaxələndirilməsi sahələri gələcəkdə nəzərə alına bilər. Biz bilirik ki, Azərbaycanda su elektrik stansiyalarının inkişafı gündəlikdədir və bizim bu sahədə yaxşı təcrübəmiz vardır. Bu sahədə işləyən şirkətlərimizin əməkdaşları nümayəndə heyətində təmsil olunub və mənimlə buraya gəliblər. Əminəm ki, onlar faydalı təmaslar quracaqlar və bu istiqamətdə əməkdaşlığı genişləndirəcəklər. Eyni zamanda, telekommunikasiya, informasiya texnologiyaları, əczaçılıq və digər sahələrdə də işbirliyi qurula bilər.

Çıxışımı yekunlaşdırmazdan əvvəl mən, həmçinin onu qeyd etməliyəm ki, Sloveniya Qafqaz regionunu xarakterizə edən həssas məsələləri yaxşı bilir. Qafqaz regionunda təhlükəsizlik məsələləri, eyni zamanda, Avropada təhlükəsizlik və əməkdaşlığa təsir göstərən məsələlərdir. Biz heç də məmnun deyilik ki, dondurulmuş münaqişələr bu cür uzun müddətdə davam edir. Dağlıq Qarabağ demək olar ki, ən uzun çəkən münaqişələrdən biridir və bu illər ərzində biz həll olunma sahəsində istənilən irəliləyişi görmədik. Münaqişənin həlli prinsipləri artıq keçmişdə müəyyən olunub və onlar çox aydındır. Bu prinsiplər ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və münaqişənin sülh yolu ilə həll olunma prinsipləridir. Hesab edirik ki, keçmişdə müəyyən irəliləyiş əldə olunub, yəni həll variantının konkret məsələləri müəyyən edilib. İndi bilirik ki, sülh yolu ilə nizamlanma üçün hansı addımların atılması zəruridir. Hazırda güclü siyasi iradəyə ehtiyac duyulur. Mən Bakıda bu tribunadan çıxış edərək demək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində artıq müəyyən edilmiş prinsiplər əsasında problemin yekun və birmənalı həlli məqsədi ilə ATƏT-in Minsk qrupu və digər iştirakçıların daha güclü səylər göstərməsinə dəstək veririk. Hesab edirəm ki, biz hamımız, Avropa bu nizamlamada maraqlıyıq və bizim hamımız çoxdan gözlənilən daha güclü səylərin olmasını dəstəkləyirik.

Cənab Prezident, Siz burada əməkdaşlığımızın bütün sahələrinə toxundunuz. Mən onların bir neçəsinə toxunmaq istərdim. Hesab edirəm ki, bu bizim münasibətlərimizdə yeni mərhələnin başlanğıcıdır. Bu fürsətdən istifadə edərək ictimaiyyət qarşısında bəyan edirəm ki, biz də çox istərdik, Siz yaxın zamanda vaxt tapıb Sloveniyaya səfər edəsiniz. Biz dialoqumuzu davam etdirək və müzakirə etdiyimiz bütün əməkdaşlıq sahələrini inkişaf etdirək.

AZƏRBAYCAN XALÇALARININ GÖZƏLLİYİ SLOVENİYANIN BİRİNCİ XANIMINI HEYRAN ETMİŞDİR

Sloveniya Respublikası Prezidentinin xanımı Barbara Mikliç Türk noyabrın 9-da "Azərilmə" Məhdud Məsuliyyətli Cəmiyyətində olmuşdur.

Burada qonağı milli geyimli qızlar gül-çiçəklə qarşıladılar.

Xanım Barbara Mikliç Türk qalereyanın zəngin eksponatlarına baxdı, boyama, toxuma prosesini izlədi.

"Azərbaycan xalçası qalereyası"nda nümayiş etdirilən "Azərbaycanın tarixi xalçaçılıq

məktəbləri" ipək xalı-xəritəsi də yüksək bədii tərtibatı ilə qonağı məftun etdi.

Qonağa məlumat verildi ki, 1996-cı ildən fəaliyyətə başlamış və hazırda 400 nəfərin çalışdığı "Azərilmə"nin məhsulları ABŞ, Almaniya, Avstriya, İngiltərə, İtaliya, Yaponiya, Rusiyada keçirilən satış sərgilərində xüsusi mükafat və sertifikatlara layiq görülmüşdür. Müəssisədə yun və ipək saplardan toxunan, incəliyi, ilmələrin yüksək sıxlığı, çeşnilərin orijinallığı ilə seçilən xalçalar ən yüksək tələblərə cavab verir. Burada müxtəlif çeşnilər hazırlanır və onların eskizləri əsasında Azərbaycanın bütün klassik xalçaçılıq məktəblərinə aid xalçalar toxunur. Sapların boyanmasında Azərbaycanda istehsal olunan təbii boyalardan istifadə olunur. Azərbaycan xalçaçılıq məktəbinin ənənələrinin saxlanılması, xalça toxuma sənətinin sirlərinin uşaq və yeniyetmələrə öyrətmək məqsədi ilə "Azərilmə" MMC-nin nəzdində kurslar da təşkil olunmuşdur.

Toxuma prosesini maraqla izləyən xanım Barbara Mikliç Türk toxunmaqda olan xalıya bir neçə ilmə də vurdu, toxucu qızlarla səmimi söhbət etdi.

Bildirildi ki, "Azərilmə"də toxunan xalçalar beynəlxalq ictimaiyyət tərəfindən də layiqli qiymətini almışdır. "Azərilmə" Avropanın Biznes Assambleyasının "United Europe" və "XXI əsrin liderləri" beynəlxalq imic proqramının "European Quality" (Avropa keyfiyyəti) nüfuzlu mükafatına layiq görülmüşdür. Beynəlxalq mükafatlar ötən ay Böyük Britaniyada Liderlərin Oksford Sammiti çərçivəsində keçirilmiş "Socrates Award" XIV təntənəli mərasimdə təqdim olunmuşdur.

Azərbaycan xalçalarının gözəlliyinə valeh olduğunu bildirən xanım Barbara Mikliç Türk, burada gördüklərindən xoş təəssürat aldığını söylədi.

Qonağa gözəl kompozisiyalı xalça, Şəki kələğayısı və "Azərbaycan xalçaları" kitabı hədiyyə olundu.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Noyabrın 9-da Azərbaycanda rəsmi səfərdə olan Sloveniya Respublikasının Prezidenti Danilo Türk Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşdur.

Daha sonra görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üstünə gül dəstələri düzülmüşdür.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Azərbaycanda rəsmi səfərdə olan Sloveniya Prezidenti Danilo Türk noyabrın 9-da Şəhidlər xiyabanını ziyarət etmişdir.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Danilo Türk Azərbaycanın azadlığı və suverenliyi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsini yad etdi, "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Sloveniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

Prezident Danilo Türk Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr etdi.

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

Noyabrın 9-da Sloveniya Respublikasının Prezidenti Danilo Türk Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə uğurla inkişafı barədə fikir mübadiləsi aparılmış, Sloveniya Prezidentinin Azərbaycana ilk rəsmi səfərinin ikitərəfli əlaqələrdə yeni mərhələ açdığı qeyd olunmuşdur.

Bildirilmişdir ki, artıq səfərin ilk günü ölkələrimiz arasında beş mühüm sənəd imzalanmışdır.

Ölkələrimizin coğrafi mövqeyinin əlverişli olduğunu söyləyən Milli Məclisin sədri, Azərbaycanın Cənubi Qafqaz, Sloveniyanın isə Balkan regionunun inkişafında mühüm rol oynadığını vurğulamışdır. Sədr demişdir ki, Azərbaycan bir sıra regional layihələrin həm təşəbbüskarı, həm də icraçısıdır. Ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir. Sloveniyanın Avropa İttifaqına üzvlüklə əlaqədar keçdiyi yol bizim üçün maraqlıdır və yaxşı təcrübə ola bilər.

Milli Məclisin sədri ötən il Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan "Şərq Tərəfdaşlığı" Proqramının uğurla icra edildiyini diqqətə çatdırmışdır.

Parlamentlərimiz arasında əlaqələrdən danışan O.Əsədov bildirmişdir ki, hər iki ölkənin qanunverici orqanında dostluq qrupları fəaliyyət göstərir və bu yaxınlarda bizim dostluq qrupunun üzvləri Sloveniyaya səfər etmişlər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional inkişafa yeganə və ciddi təhlükə olduğunu bildirən sədr, Ermənistanın BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən 4 qətnaməyə indiyədək məhəl qoymadığını və Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxladığını diqqətə çatdırmışdır.

Sloveniya Prezidenti Danilo Türk Azərbaycana ilk rəsmi səfərinin onda böyük təəssürat oyatdığını bildirmişdir.

Yeni müstəqil ölkələr olan Sloveniya ilə Azərbaycan arasında tarixi inkişaf baxımından oxşarlıqların olduğunu qeyd edən Prezident Danilo Türk bu səfərinin ölkələrimizin mövcud əlaqələrinin daha da inkişafına yaxşı töhfələr verəcəyinə əminliyini bildirmişdir.

Sloveniya Prezidenti Milli Məclisin əsas iclas zalına baxmış, deputatlar üçün yaradılmış iş şəraiti ilə tanış olmuşdur. Ali qonaq parlament binasının yüksək mərtəbəsindən şəhərimizin mənzərəsini seyr etmişdir.

Sonra Heydər Əliyev muzeyi ilə tanış olan Sloveniya dövlətinin başçısı xatirə kitabına ürək sözlərini yazmışdır.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Sloveniya Respublikasının Prezidenti Danilo Türk və xanımı Barbara Mikliç Türk noyabrın 9-da Heydər Əliyev Fondunda olmuşlar.

Sloveniya Prezidentini və xanımını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.

Ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədləri və fəaliyyəti barədə məlumat verildi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Sloveniya Prezidentini və xanımını ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar və fotoşəkillərlə tanış etdilər.

Dövlətimizin başçısı bildirdi ki, bugünkü qüdrətli və zəngin Azərbaycan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yol ilə uğurla irəliləyir. Müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev azərbaycanlıların milli qürur və iftixar mənbəyinə çevrilmiş, xalqımızın ümummilli lideri adını qazanmışdır. Ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixində ən şərəfli səhifələrdən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

Sloveniya Prezidenti və xanımı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin verdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldular, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdılar.

Prezident Danilo Türk Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Qarşılıqlı hədiyyələr təqdim olundu.

Dövlət başçıları və xanımları Heydər Əliyev Fondunun fəaliyyəti haqqında filmə baxdılar.

Ali qonaq Fonddan zəngin təəssüratla ayrıldı.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Noyabrın 9-da "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Sloveniya Prezidenti Danilo Türkün və xanımı Barbara Mikliç Türkün şərəfinə rəsmi ziyafət verilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli xanım Barbara Mikliç Türk!

Xanımlar və cənablar!

Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və "Xoş gəlmisiniz!" deyirəm. Bu gün Sloveniya ilə Azərbaycan arasında münasibətlərin yeni səhifəsi açılır. Sizin Azərbaycana ilk səfəriniz ikitərəfli münasibətlərimizdə mühüm hadisədir. Mən bu səfəri yüksək qiymətləndirir və onun ölkələrimiz arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin yeni mərhələsinə zəmin yaradacağına inanıram. Şübhə etmirəm ki, keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi, habelə imzalanmış sənədlər və iki ölkənin iş adamlarının sabah təşkil olunacaq biznes forumu qarşılıqlı fəaliyyət üçün yeni sahələri müəyyən edəcək, əlaqələrimizin gələcək inkişafına öz töhfəsini verəcəkdir.

Qeyd etmək istəyirəm ki, Sloveniya Avropa ölkələri arasında Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Tarixdə bizim xalqları birləşdirən ümumi məqamlar çoxdur. İkinci dünya müharibəsi illərində - alman faşizminə qarşı mübarizədə sloveniyalılarla birlikdə Azərbaycan xalqının qəhrəman övladları da fəal iştirak etmişlər. Sloveniyalılarla çiyin-çiyinə vuruşmuş Azərbaycanın qəhrəman oğlu Mehdi Hüseynzadə Sloveniyada həlak olmuş və onun şərəfinə orada abidə ucaldılmışdır.

Sloveniya ilə Azərbaycanın müstəqillik tarixi də oxşardır. Uzun müddət başqa dövlətlərin tərkibində olmuş və dövlət müstəqilliyini təxminən eyni vaxtda qazanmış ölkələrimiz son illərdə böyük sınaqlardan uğurla çıxmışlar. Əlamətdar haldır ki, artıq münasibətlərimiz möhkəmlənir və genişlənir. Ölkələrimiz arasında ticarət-iqtisadi, sənaye və energetika, mədəniyyət və turizm, təhsil, informasiya texnologiyaları, sərmayə qoyuluşu və digər sahələrdə yaxşı əməkdaşlıq imkanları vardır. Düşünürəm ki, biz birgə səylərimizlə bu imkanları reallaşdıra bilərik.

Azərbaycan Sloveniya ilə həm ikitərəfli əsasda, həm də beynəlxalq və regional təşkilatlar, eləcə də Avropa İttifaqı, ATƏT və NATO çərçivəsində sıx əməkdaşlığa xüsusi əhəmiyyət verir. Avropa İttifaqının "Şərq tərəfdaşlığı" təşəbbüsü əməkdaşlığımız üçün yeni perspektivlər açır.

Azərbaycan son illər ərzində sürətli inkişaf yolu keçmişdir. Ötən beş ildə iqtisadiyyatımız 2,6 dəfə artmışdır. Bunun nəticəsidir ki, dünyada hökm sürən maliyyə böhranına, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, bu ilin 9 ayı ərzində Azərbaycan iqtisadiyyatı 6,1 faiz artmışdır. Eyni zamanda, irimiqyaslı beynəlxalq layihələrin həyata keçirilməsi nəticəsində Böyük İpək Yolunun bərpası, Şərq-Qərb nəqliyyat dəhlizinin yaradılması, eləcə də Avropanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində səylərimiz artıq öz bəhrəsini verməkdədir.

Bütün bunlar sübut edir ki, regionumuzun dinamik inkişafı üçün hər cür şərait vardır. Lakin təəssüf olsun ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də davam etməsi regionun çiçəklənməsi yolunda böyük maneə olaraq qalır. Belə ki, Ermənistanın hərbi təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə 1 milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır, münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası Parlament Assambleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bu münaqişə yalnız beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident,

İcazə verin, Azərbaycana rəsmi səfərinizə böyük əhəmiyyət verdiyimi bir daha ifadə edim və bu badəni Sizin sağlığınıza, xanımınızın sağlığına, Sloveniya ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafının şərəfinə qaldırım.

***

Sloveniya Prezidenti Danilo TÜRK təşəkkür edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Xanımlar və cənablar!

Əziz dostlar!

Bizi salamlamaq üçün söylədiyiniz xoş sözlərə görə çox sağ olun. İcazə verin, sizin XII əsrdə yaşamış məşhur şairiniz Nizami Gəncəvidən bir sitat gətirim: "Qəlbdən deyilən söz qəlbə yol tapır". Azərbaycan Respublikasına rəsmi səfər etmək üçün dəvət almağımdan yüksək dərəcədə məmnun oldum. İcazə verin, nümayəndə heyətimlə birlikdə gözəl paytaxtınız Bakıda qaldığım müddətdə bizə göstərilən səmimi münasibətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirim. Bizim üçün bu səfər ölkənizin əldə etdiyi qeyri-adi təroqqi ilə birbaşa tanışlıq üçün nadir fürsətdir. Bu tərəqqi sadəcə böyük təbii sərvətlərə əsaslanmır, o həm də xalqınızın xüsusi novatorluq və yaradıcılıq bacarıqlarının, eyni zamanda, cənab Prezident, Sizin sələfiniz, müasir Azərbaycanın qurucusu mərhum Prezident Heydər Əliyevin baxışının nəticəsidir.

Sloveniya Prezidenti Danilo Türk dedi ki, xalqlarımızın oxşar tarixi qarşılıqlı anlaşma və əməkdaşlıq üçün böyük əhəmiyyət kəsb edir. "Sloveniya və Azərbaycan təkcə iki dost ölkə deyildir. Demək olar ki, onlar müəyyən cəhətdən həmyaşıddırlar", - deyən Danilo Türk bu il ölkələrimizin müstəqilliklərinin 18-ci ildönümünün qeyd edildiyini bildirdi. Ali qonaq dedi ki, xalqlarımız arasındakı əlaqələrin uzun tarixi kökləri vardır. İkinci Dünya müharibəsinin ağır illərində Sloveniya xalqı sloven torpağında faşizmə qarşı mübarizə apararaq həyatını qurban vermiş azərbaycanlı döyüşçülərin göstərdiyi şücaəti xüsusi minnətdarlıqla xatırlayır. Sloveniya Prezidenti ölkəsinin Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq sahəsindəki inkişafa dostluq və hörmət hissi ilə yanaşdığını da diqqətə çatdıraraq bildirdi:

- Sloveniya Azərbaycan rəhbərliyinin Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi, Fəaliyyət Planı, Avropa Qonşuluq Siyasəti və "Şərq tərəfdaşlığı"nın əsas məqsədlərinin həyata keçirilməsindən irəli gələn çağırışların həllində və zəruri islahatların həyata keçirilməsində tutduğu qətiyyətli mövqeyini alqışlayır. Sloveniya və Avropa İttifaqı Qafqazdakı qonşularla daha yaxın əməkdaşlığa çalışır. Bu məqsədlə biz qitəmizdə davamlı sülh, sabitlik, təhlükəsizlik və rifahı təmin edəcək bu əməkdaşlığın təşviqini intensivləşdirməliyik. Həm Sloveniya, həm Azərbaycan ölkələrimiz və xalqlarımız arasında yaxşı qonşuluq əlaqələrini, təhlükəsizliyi və əməkdaşlığı, eləcə də qarşılıqlı hörməti gücləndirmək üçün əlindən gələn səyləri göstərir. Biz ölkənizin həmin məqsədlərin həyata keçi-

rilməsinə verdiyi töhfəni yüksək qiymətləndiririk. Regionda mühüm rol oynayan sabit və müvəffəqiyyətli Azərbaycan Avropa və bütün dünya üçün müstəsna əhəmiyyət kəsb edir.

Biz, həmçinin ölkənizin müasir tarixində üzləşdiyi faciəli hadisələrlə tanışıq. Lakin əminik ki, Azərbaycan yaradıcı və açıq dialoq vasitəsilə bu günə qədər göstərdiyi eyni əzmkarlıqla mürəkkəb və ağrılı Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə ədalətli həllinə töhfəsini davam etdirəcəkdir. Biz inanırıq ki, beynəlxalq hüquqa əsaslanan ədalətli həll variantına nail olunacaq və qaçqınlar öz evlərinə qayıtmaq imkanı əldə edəcəklər.

Danilo Türk ümidvar olduğunu bildirdi ki, Sloveniya ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlıq ən qısa vaxtda daha da inkişaf edəcək və zənginləşəcəkdir.

Sloveniya Prezidenti ölkələrimizin mədəniyyət və iqtisadiyyat sahələrində əməkdaşlığının daha da gücləndirilməsinin əhəmiyyətini vurğuladı. Bildirdi ki, iqtisadi əməkdaşlıq baxımından ölkələrimizin potensialı böyükdür. "Səfər çərçivəsində məni müşayiət edən sloveniyalı iş adamları ölkənizin etimadına və dəstəyinə arxalanır", - deyən Sloveniyanın dövlət başçısı yüksək qonaqpərvərliyə görə təşəkkür edərək bildirdi ki, qarşılıqlı əməkdaşlıq sülh, təhlükəsizlik, sabitlik və inkişaf kimi ortaq məqsədlərə nail olmağa və xalqlarımızın rifahının təmin olunmasına töhfə verəcəkdir.

ƏFSANƏVİ PARTİZAN MEHDİ HÜSEYNZADƏNİN ABİDƏSİNİ ZİYARƏT

Noyabrın 10-da Sloveniya Respublikasının Prezidenti Danilo Türk və xanımı Barbara Mikliç Türk İkinci Dünya müharibəsində partizan dəstələrində faşizmə qarşı döyüşmüş Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Bakıdakı abidəsini ziyarət etmişlər.

Sloveniya dövlətinin başçısı Azərbaycanın igid oğlunun xatirəsini yad edərək abidəsi önünə əklil qoymuşdur.

Mehdi Hüseynzadə İkinci Dünya müharibəsinin gedişində Yuqoslaviya və İtaliya partizanları ilə birlikdə faşizmə qarşı mübarizədə igidlik göstərmişdir. O, Sloveniyada milli müqavimət hərəkatının qəhrəmanı olmuşdur.

1944-cü il noyabrın 16-da Sloveniya torpağında düşmənlə döyüşdə qəhrəmancasına həlak olmuş M.Hüseynzadə Sloveniyanın Çepovan kəndində qardaşlıq qəbiristanlığında dəfn olunmuşdur.

Sloveniya xalqı bu gün də M.Hüseynzadənin qəhrəmanlığını ehtiramla yad edir.

SLOVENİYA PREZİDENTİ DANİLO TÜRK AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda rəsmi səfərdə olan Sloveniya Prezidenti Danilo Türk noyabrın 10-da onun üçün ayrılmış iqamətgahda Baş nazir Artur Rasizadə ilə görüşmüşdür.

Sloveniya dövlətinin başçısı səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə aparılmış danışıqları yüksək qiymətləndirərək vurğulamışdır ki, həmin danışıqlar bütün sahələrdə ikitərəfli əlaqələrin genişlənməsinə xidmət edəcəkdir.

Prezident Danilo Türk Sloveniya-Azərbaycan əməkdaşlığının perspektivlərindən bəhs edərək, səfər zamanı imzalanmış ikitərəfli sənədlərin qarşılıqlı faydalı münasibətlərin daha da inkişaf etdirilməsi üçün əhəmiyyətini vurğulamışdır.

Baş nazir Artur Rasizadə ali qonağa son illərdə Azərbaycanda həyata keçirilmiş iqtisadi islahatlar barədə məlumat vermiş, siyasi və iqtisadi sabitlikdən danışmışdır. Azərbaycan hökumətinin başçısı əmin olduğunu bildirmişdir ki, Sloveniya dövlətinin başçısının Azərbaycana rəsmi səfəri ölkələrimiz arasında bir çox sahələrdə əməkdaşlığın genişləndirilməsinə təkan verəcəkdir.

BAKIDA AZƏRBAYCAN-SLOVENİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Noyabrın 10-da Bakıda Azərbaycan Prezidenti İlham Əliyevin və Sloveniya Prezidenti Danilo Türkün iştirakı ilə Azərbaycan-Sloveniya biznes forumu keçirilmişdir.

Biznes forumda Sloveniya tərəfdən 70 nəfərlik heyət, Azərbaycan tərəfdən isə 90-dək iş adamı iştirak etmişdir.

Dövlət başçıları forumda çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab Prezident,

Hörmətli qonaqlar,

Xanımlar və cənablar!

Mən cənab Prezidenti Azərbaycanda bir daha salamlamaq istəyirəm. Dünən bizim ikitərəfli münasibətlərimizin gələcək inkişafı ilə bağlı çox uğurlu görüşlərimiz, müzakirələrimiz baş tutdu. Səfərin vacibliyi ondan ibarətdir ki, bu, Sloveniya Prezidentinin Azərbaycana ilk səfəridir və dünən imzaladığımız sazişlər, o cümlədən siyasi bəyanat, sözün əsl mənasında, ikitərəfli münasibətlərin bir çox istiqamətlərini əhatə edir. Zənnimcə, bu, həmçinin işgüzar dairələrə çox yaxşı bir siqnaldır ki, onlar müxtəlif birgə layihələri həyata keçirsinlər.

Güclü siyasi münasibətlər, o cümlədən, iqtisadi əməkdaşlığın yaxşı potensialı ikitərəfli münasibətlərimizdə çox yaxşı bir mühit yaradır. Buna görə də mən Sloveniyanın işgüzar dairələrini bugünkü biznes forumda görməkdən çox şadam. Həmçinin bilirəm ki, dünən bizim iş adamları çox yaxşı, faydalı birgə görüşlər keçirmişlər. Bu cür biznes forumlar əməkdaşlığımızın inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaradır. Çünki güclü siyasi iradə vardır. Hesab edirəm ki, iqtisadiyyatlarımızın bizim və Sloveniyanın işgüzar adamları üçün cəlbedici olması göz qabağındadır. Ona görə biz indi ölkələrimiz arasında əməkdaşlığın gücləndirilməsi üçün praktiki nöqteyi-nəzərdən nəyin edilməsi üzərində düşünməliyik.

Hesab edirəm ki, bu tədbir əsnasında qarşılıqlı maraq doğuran məsələlər müəyyən ediləcəkdir. Çünki işgüzar dairələr özləri üçün müəyyən edəcəklər ki, hansı sahəyə sərmayələr yatırmalıdırlar. Eyni zamanda, hesab edirəm ki, hökumətlər mütləq bu insanlara yardım etməlidirlər və müəyyən məsləhətləri, təlimatları verməlidirlər. Təbii ki, hər

bir ölkənin hansı sahəni özünə vacib hesab etdiyi müəyyən olunmalıdır. Biz xarici sərmayələrə açığıq. Hesab edirəm ki, müstəqillik dövründən etibarən Azərbaycan adambaşına birbaşa xarici sərmayələrin həcminə görə regionda aparıcı dövlətlərdən birinə çevrilmişdir. Bizim ölkədə münbit sərmayələr mühiti vardır, xarici sərmayələr lazımi səviyyədə qorunur. Həmçinin enerji sektorunda əsas kommersiya müqavilələri parlamentimiz tərəfindən ratifikasiya edilib və artıq qanun formasını alıb. Yəni heç kim həmin müqavilədə heç bir sözü dəyişə bilməz. Bu da sərmayədarların əlavə etimadına səbəb olur. Biz, eyni zamanda, qeyri-enerji sektoruna da sərmayələr yatırılmasında maraqlıyıq. Çünki enerji sektorunda bir çox işlər artıq görülüb. İqtisadiyyatımızın şaxələndirilməsi birnömrəli prioritetdir.

Fikrimcə, bizim yaxşı nəticələrimiz vardır. Hazırda iqtisadiyyatımız yalnız enerji amillərindən asılı deyildir.

Əməkdaşlığın potensial və maraqlı sahələri özlüyündə çox genişdir. Kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları, bərpa olunan enerji mənbələri və bir çox digər sahələr mövcuddur. Ona görə, hesab edirəm ki, biznes dairələri nəyin edilməsi barədə özləri qərar qəbul etməlidirlər və biz, ölkələrin rəhbərləri yalnız onlara yardım etməkdən çox şad olardıq.

Azərbaycan iqtisadiyyatı əvvəllər, Sovet İttifaqının süqutundan öncə yüz faiz planlı iqtisadiyyat idi. Lakin biz islahatlar apardıq və bizdə ümumi daxili məhsulun 85 faizi artıq özəl sektor tərəfindən təmin olunur. Özəl sektor ölkəmizin iqtisadiyyatının şaxələndirilmiş inkişafında mühüm rol oynayır. Hökumətimiz Azərbaycanda qeyri-enerji sektoruna öz yardımını göstərir və bu sektorun inkişafını stimullaşdırır. Son beş il ərzində - 2004-cü ildən 2008-ci ilə qədər iqtisadiyyatımız 2,6 dəfə artmışdır. Hesab edirəm ki, bu, dünyada ən yüksək göstəricidir. Hətta bu gün böhran ilində - gördüyünüz kimi, neftin qiymətinin kəskin aşağı düşməsinə baxmayaraq, iqtisadiyyatımız yenə də artır. Bu ilin 9 ayında ümumi daxili məhsulun artımı 6,1 faiz olmuşdur. Lakin dünən verilmiş məlumata görə, 10 ay ərzində ümumi daxili məhsulun artımı 8,3 faiz təşkil etmişdir. Sənaye artımı isə 7,4 faiz olmuşdur. Bu, bizim iqtisadiyyatımızın davamlı xarakterindən xəbər verir. İqtisadi böhrana baxmayaraq, Azərbaycanın iqtisadi inkişafı davam edir və uğurla həyata keçirilir.

Azərbaycan İnvestisiya Şirkəti kifayət qədər yaxın zamanlarda yaradılmış bir təsisatdır. Zənnimcə, bu haqda məlumat veriləcək və yaxud da artıq rəsmilər tərəfindən məlumat verilmişdir. Bu şirkətin əsas məqsədi xarici sərmayələri hökumətimiz üçün, prioritet sahələr üçün cəlb etməkdir. Çünki biz hər hansı bir sahədə, hər hansı bir sərmayəni alqışlayırıq. Artıq qeyd etdiyim kimi, hər bir ölkənin özünün prioriteti vardır. Ona görə biz bilməliyik ki, sərmayələri hansı istiqamətə yönəltməliyik. Azərbaycan hökuməti xarici və yerli sərmayədarların stimullaşdırılması və müxtəlif layihələrdə iştirakı ilə bu işi irəliyə doğru aparmalıdır.

Bu günə qədər beynəlxalq sərmayədarlar tərəfindən Azərbaycan İnvestisiya Şirkətinə təqdim edilmiş layihələr çox uğurlu olmuşdur. Onlardan bir çoxu hazırda həyata keçirilmək üzrədir. Bu şirkətin ilkin kapitalının həcmi təxminən 100 milyon dollar idi və bu vəsaitlər artıq müxtəlif layihələrə sərf olunmuşdur. Biz gələn il ərzində gözəçarpan vəsaiti Azərbaycan İnvestisiya Şirkətinə öz büdcəmizdən ayrılmasını planlaşdırırıq ki, maraq doğuran sahələrdə ölkəmiz və sərmayədarlar üçün yeni layihələr həyata keçirilsin.

Fikrimcə, bu biznes forumun da vacibliyi onunla izah olunur ki, sloveniyalı iş adamları Azərbaycanda nəyin baş verdiyini, ümumi iqtisadi vəziyyəti, qanunverici əsasları, vergilər haqqında məlumatı öyrənmək imkanını əldə edirlər və eyni zamanda, sərmayə imkanlarını araşdırırlar. Onlar artıq planlaşdırılan layihələri də nəzərdən keçirə bilərlər. Bu bizim əməkdaşlığımızın bir forması ola bilər.

Yəni, bu, iqtisadiyyatımıza birbaşa yatırılan sərmayə, yaxud, ikitərəfli formada Azərbaycan İnvestisiya Şirkətinin iştirakı ilə həyata keçirilə bilər. Yaxud üçüncü forma podratçı qismində Azərbaycanda həyata keçirilən layihələrdə iştirak ola bilər. Biz məhz əsasən infrastruktur sahəsində bir çox layihələri həyata keçiririk. Biz ölkəmizdə mövcud olan bütün infrastrukturu yeniləşdirmək fikrindəyik. Çünki Sovet İttifaqı dövründə yaradılmış bütün infrastruktur təbii ki, bizim müstəqil ölkə kimi inkişafımıza yardım etdi. Amma bu gün biz onu da deməliyik ki, bu infrastruktur bizim tələbatlarımıza tam cavab vermir.

Ona görə, hesab edirik ki, infrastruktur sahəsində işlərə, məsələn, yollar, elektrik stansiyaları, kanalizasiya xətləri, su təchizatı, qazlaşdırma, sosial obyektlər, məktəblər, xəstəxanalar və digər bu kimi layihələrə dövlət büdcəsindən vəsait ayrılır, sərmayələr qoyulur. Hesab edirəm ki, bu günlərdə biz potensial layihələrin mümkünlüyünü qiymətləndirə və beləliklə işimizi dərhal başlaya bilərik.

Biz birgə layihələrin dərhal başlanmasının tərəfdarıyıq. Çünki artıq qeyd etdiyim kimi, bütün zəruri elementlər masa üzərindədir. Siyasi münasibətlər, güclü siyasi iradə və iqtisadi təkanlar vardır. Sloveniya bizim üçün həmçinin böyük əhəmiyyət kəsb edən ölkədir. Ona görə hesab edirəm ki, bizim biznesmenlər də vaxt tapıb Sloveniyaya səfər etməlidirlər və orada sərmayə imkanlarını araşdırmalıdırlar. Hazırda Azərbaycan şirkətləri xaricdə fəal şəkildə sərmayə yatırırlar. Əsasən bu, qonşu ölkələrdə baş verir. Lakin qeyd etmək istəyirəm ki, sərmayələr olduqca böyükdür, yəni bir neçə il ərzində milyardlarla dollar sərmayə yatırılıb. Tamamilə aydındır ki, sərmayədarlar öz vəsaitlərini tanıdıqları ölkələrə yatırırlar.

Ona görə də biz bir-birimizi daha yaxşı tanımalıyıq, daha çox təmaslarımız olmalıdır və birgə iqtisadi əməkdaşlığın başlanılması üçün daha nəyin edilməsi üzərində düşünməliyik. Azərbaycan böyük enerji potensialı olan bir ölkə kimi enerji təhlükəsizliyi məsələlərində mühüm rol oynayır.

Biz cənab Prezidentlə görüşümüz zamanı Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətləri də müzakirə etdik. Çünki Sloveniya Avropa İttifaqının üzvü kimi Avropa İttifaqı ilə onun qonşuları arasında inteqrasiya prosesində mühüm rol oynayır. Azərbaycan artıq üç ildir ki, Avropa İttifaqının Yeni Qonşuluq Proqramının üzvüdür və bir neçə ay bundan əvvəl ölkəmiz "Şərq tərəfdaşlığı" proqramına qoşulmuşdur. Bu proqram qarşımızda yeni imkanlar açır və biz Avropa təsisatları ilə təmaslarımızı daha da sıxlaşdırmalıyıq. Əməkdaşlığımızı sırf enerji məsələləri ilə məhdudlaşdırmalı deyilik. Baxmayaraq ki, bu məsələlər vacibdir. Biz bir neçə il ərzində neft və qaz yataqlarının işlənilməsinə böyük sərmayələrin yatırılmasına nail olduq, boru kəmərlərini çəkdik, çünki biz hər tərəfdən quru ilə əhatə olunan ölkəyik. Yeri gəlmişkən onu da deyim ki, biz qazı hasil edən yeganə ölkəyik ki, bazarlara açıq çıxışa malik deyilik. Ona görə də biz neft və qazın nəqli üçün digər ölkələrin ərazisindən keçən boru kəmərlərinə ehtiyac duyuruq.

Son on il ərzində bizim bütün əsas enerji layihələrimiz həyata keçirilmişdir. Bu gün ar-

tıq bizim şaxələndirilmiş neft və qaz boru kəmərlərinin şəbəkəsi mövcuddur və bu bizim bir marşrutdan asılılığımızı aradan qaldırır. Bu il Azərbaycanda neft hasilatı gündə təxminən 1 milyon barrel təşkil edəcəkdir və qaz hasilatına gəldikdə isə, 25 milyard kubmetr həcmində olacaqdır. Biz qazı qonşu ölkələrə nəql edirik, çatdırırıq və istəyirik ki, bu həcm daha da artsın. Bu təchizatın coğrafiyasını da genişləndirmək fikrindəyik. Məhz ona görə enerji daşıyıcılarının nəqli yollarının şaxələndirilməsi olduqca vacib məsələdir. Bu, nəinki istehlakçılar, o cümlədən hasilatçılar üçün də vacibdir. Çünki bəzi hallarda hasilatçılar da, - xüsusən də əgər onlar tranzit ölkələrdən asılıdırlarsa, - problemlər və çətinliklər görürlər.

Bəzi hallarda bu tranzit ölkələrlə danışıqlarda hasilatçılar həmin ölkələr tərəfindən qəbul oluna biləcək kommersiya təkliflərinə nail olmurlar. Amma əgər biz Azərbaycan qazının ixracına, onun Avropa bazarına çıxarılmasına dair tranzit məsələlərində razılığa gələ bilsək, onda Avropa İttifaqının bazarında yeni qaz mənbəyi olacaqdır.

Əfsuslar olsun ki, artıq iki ildir bu məsələnin həlli istiqamətində beynəlxalq normalara və mövcud kommersiya tarifləri çərçivəsinə əsaslanan səylərimiz hər hansı bir nəticə verməmişdir. Amma biz yenə də ümidvarıq ki, tranzit məsələləri öz həllini tapacaqdır. Əgər bu baş verərsə, onda Azərbaycandan hasil edilən qaz Avropa bazarına çıxarılacaqdır. Bu da bizim maraqlarımıza və əminəm ki, Avropa İttifaqının da maraqlarına cavab verəcəkdir Başqa sözlə, biz Sloveniya ilə əməkdaşlığımızı çox vacib hesab edirik. Bu, ilk növbədə, ikitərəfli əsaslarla aparılır.

Bildiyiniz kimi, bizim birgə biznes aparmaq imkanlarımız vardır. Ona görə də Sloveniyadan iş adamlarının bu cür çox sayda gəlməsi həmin marağı bir daha nümayiş etdirir. Eyni zamanda, siyasi, iqtisadi, mədəni və "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində əməkdaşlığımızın da böyük potensialı vardır. Biz hər zaman Avropa İttifaqı ilə inteqrasiya fəaliyyətimizdə Sloveniyanın dəstəyini hiss edirik. Biz demək olar ki, eyni vaxtda müstəqilliyimizi qazandıq. Hər iki ölkə digər ölkələrin tərkibində yaşamışdır. Həmin dövrdə bizim dövlətçiliyimiz olmayıb, biz sadəcə, daxildə olan respublikalar idik. Biz müstəqil dövlət deyildik, biz bu müstəqilliyi qazandıq. Bu müstəqillik Balkanlarda və keçmiş SSRİ-də 1991-ci ildə baş vermiş geosiyasi proseslər nəticəsində əldə olundu və həmin dövrdə həm Sloveniya, həm Azərbaycan bir çox çətinliklər və problemlərlə üzləşdi, lakin onları uğurla həll etdi. Siz NATO-nun, o cümlədən Avropa İttifaqının üzvüsünüz. Sizin şaxələndirilmiş və rəqabətqabiliyyətli iqtisadiyyatınız vardır.

Azərbaycanın da çətin vaxtları olubdur və həmçinin biz də əsas iqtisadi və sosial problemlərin həllinə nail olduq. Biz olduqca ciddi iqtisadi islahatlar həyata keçirdik. 2008-ci ildə Dünya Bankı özünün "Doing business" hesabatında Azərbaycanı islahatlarına görə dünyada birinci yerdə elan etmişdir.

Hasilat sənayesində şəffaflığa gəldikdə, Neft Fonduna da bütün digər suveren neft fondları arasında birinci yer verilmişdir. Bu qiymət həmin təsisatın olduqca şəffaf şəkildə fəaliyyət göstərməsi ilə bağlıdır. Qlobal rəqabətqabiliyyətlilik göstəricisinə görə keçmiş SSRİ məkanında bizim iqtisadiyyatımız birinci yerdə gedir. Yəni ölkələrimiz arasında bir çox oxşarlıqlar vardır. Bəli, biz müxtəlif regionlarda yerləşirik. Lakin hesab edirəm ki, bu, heç də bizim güclü siyasi və iqtisadi münasibətin inkişafına mane olmamalıdır. Ona görə mən bir daha cənab Prezidenti salamlamaq istərdim. Sözün əsl mənasında, məmnunluğumu bildirirəm ki, bizim uğurlu danışıqlarımız və müzakirələrimiz

oldu, sənədlər imzalandı. Ümid edirik ki, bu biznes forumun praktiki nəticələri olacaq və işgüzar dairələr arasında əlaqələr uğurla davam edəcəkdir.

Çox sağ olun.

SLOVENİYA PREZİDENTİ DANİLO TÜRKÜN ÇIXIŞI

- Cənab Prezident Əliyev!

Həvəsləndirici sözlərinizə, xoş qonaqpərvərliyə və verdiyiniz geniş təhlilə görə olduqca minnətdaram. Siz siyasi əməkdaşlığımızın əsaslarını, onun mühüm cəhətlərini izah etdiniz. Qeyd etdiniz ki, iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparmır, əksinə bir-birinə yardım edir. Qarşımızda yaxşı imkanlar vardır. Münasibətlərimizin kifayət dərəcədə geniş təhlili Sizin tərəfinizdən verildi. Bunu nəzərə alaraq, verəcəyim şərhlər qısa olacaqdır. Sizin istinad etdiyiniz aspektləri mən burada təkrar etmək istəməzdim, çünki onların hamısı ilə tam şəkildə razıyam.

Mən biznes forumun təşkil olunmasına görə, cənab Prezident, Sizə və Azərbaycanın Ticarət və Sənaye Palatasına minnətdarlığımı bildirmək istəyirəm. Bu tədbir ikitərəfli səfərlərin mühüm nəticəsidir. Mən ümumiyyətlə, Sloveniyanın iş adamları ilə səfər etməyi xoşlayıram. Ona görə yox ki, onlar yaxşı insanlardır. Onlar, eyni zamanda, praktiki baxımdan çox işgüzar şəxslərdir. Onlar ikitərəfli münasibətlərimizin inkişafında əlavə rol oynayırlar.

Cənab Prezident, Siz qeyd etdiniz ki, ölkələrimiz müstəqillik baxımından gəncdir. Bizim uzunmüddətli suveren dövlətçilik tariximiz olmayıb. Lakin bizim zəngin mədəni tariximiz vardır. Xalqlarımızın tarix boyu çətinliklərlə üzləşdiyi anlarda da bir çox oxşarlıqlar olub. Suverenliyimiz gəncdir. Hər iki ölkə böyük sınaqlardan keçib. Bu proses getdikcə iqtisadi özünəməxsusluğumuzu da təyin edib. Mən əldə edilmiş nailiyyətlərə görə Azərbaycanı təbrik etmək istəyirəm. Biz Sloveniyada yaxşı anlayırıq ki, ölkənizin enerji təchizatı sahəsində qlobal səviyyəyə çıxması Sizin böyük iqtisadi nailiyyətinizdir. Eyni zamanda, anlayırıq ki, hazırda Azərbaycan iqtisadiyyatını şaxələndirir. İqtisadiyyat inkişaf edir, müasirləşir və ölkə əhalisinin bütün tələbatlarının ödənilməsinə yönəlib. Bütün bunlar Azərbaycan xalqının, o cümlədən regionun perspektivli gələcəyini təmin edir.

Sloveniya öz gələcəyini Avropaya inteqrasiyada görür. Biz nəinki Avropa İttifaqının, o cümlədən avro zonasının üzvüyük. Bu bizə valyuta sabitliyini vəd edir. Baxmayaraq ki, həmin zonaya qoşulmaq müəyyən mənada valyuta suverenliyini məhdudlaşdırır. Lakin biz bunu qəbul edirik. Çünki bilirik ki, bu, iqtisadiyyatımızın sabitliyinə, eləcə də tərəfdaşlarımızla iqtisadi əməkdaşlığın aparılmasına şərait yaradır. Bir sözlə qarşımızda duran üstünlüklərə nəzər yetirməli, yaradıcı və məqsədyönlü olmalıyıq.

Dünən axşam məmnunluqla öyrəndim ki, bizim iş adamları ölkənizin müxtəlif nazirlikləri və həmkarları ilə artıq təmaslar qurublar. Bu, davam etməlidir. Elə indicə gündəliyə nəzər saldım və gördüm ki, eyni sahədə işləyən şirkətlər vardır. Cənab Prezident, Siz onlara öz çıxışınızda istinad etdiniz. Həqiqətən gələcək iqtisadi əməkdaşlığımızda biz bir çox maraqlı variantları işləyə bilərik. İcazə verin üç-dörd misal gətirim. Onlardan biri bərpa edilən enerji mənbələrinə aiddir. Biz yaxşı anlayırıq ki, Azərbaycan karbohid-

rogen hasilatından başqa, digər sahələri də inkişaf etdirmək fikrindədir. Elə bir vəziyyət yaranmalıdır ki, iqtisadiyyatın bütün sahələri ölkənin ümumi inkişafında iştirak etsin. Sloveniyanın su elektrik stansiyalarının tikintisi sahəsində böyük təcrübəsi vardır. Biz bütün ölçülərdə, növlərdə və coğrafi şəraitlərdə su elektrik stansiyalarını tikmişik. Bütün bunlar, keçmişdə əldə etdiyimiz təcrübəmiz bu istiqamətdə inkişafı bölüşmək imkanı yaradır.

Cənab Prezident, əslində bu məsələ Sizin ətraf mühitin qorunması sahəsinə də göstərdiyiniz qayğı ilə bir araya gəlir. Hazırda ekologiya məsələləri qlobal səviyyədə müzakirə olunan məsələlərdəndir. Biz bərpa olunan enerji mənbələrindən getdikcə daha çox istifadə etməliyik və bunlardan ən mühüm mənbə su elektrik stansiyalarıdır. Hesab edirəm ki, bu sahədə ümumi layihələr həyata keçirilə bilər və həmin layihələrdə Sloveniya şirkətləri sizə yardımçı ola bilər. Biz də həmin əməkdaşlıqdan faydalana və yararlana bilərik.

Telekommunikasiya və informasiya texnologiyaları sahəsinə gəldikdə biz bir-birimizi tamamlayırıq. Ölkəmiz keçid dövründə informasiya cəmiyyətinin qurulması sahəsində diqqətəlayiq nailiyyətlər əldə etmişdir. İnternetdən istifadə sahəsində yaxşı təcrübəmiz vardır. Bu sahədə təcrübə mübadiləsi ola bilər və bu, iqtisadi əməkdaşlığımızın mühüm hissəsinə çevrilər. Məsələn, yolların çəkilməsinə gəldikdə Sloveniya magistral yolların tikintisi və yol qovşaqlarının inşası sahəsində zəngin təcrübə toplayıb. Təcrübəmiz bu sahədə də faydalı ola bilər. Ümumiyyətlə, inşaat sahəsi əməkdaşlıq sahəsi ola bilər və biz ümumi inşaat layihələrini həyata keçirə bilərik. Siz burada turizmi qeyd etdiniz. Fikrimcə, bu sahə iqtisadi özünəməxsusluğun mühüm bir elementidir. Turizm, eyni zamanda, insanları bir-biri ilə yaxınlaşdırır, onları bir-biri ilə tanış edir. Bu sahədə əməkdaşlıq mümkündür və bizim ümumi iqtisadi əməkdaşlığımızı tamamlaya bilər.

Cənab Prezident, mən burada bu məsələlərin təfərrüatlı təhlilini aparmaq istəməzdim. Lakin, onu deyə bilərəm ki, qarşımızdakı mövcud vəziyyət olduqca faydalıdır. Hətta deyərdim ki, həmin vəziyyət bizi həvəsləndirir. Nikbinlik də vardır. Siz qeyd etdiniz ki, Azərbaycan uzun müddət ərzində çox yüksək templərlə inkişaf edib. Əvvəla hazırkı qlobal tənəzzül və böhran şəraitində sizin inkişaf etmək təcrübənizi öyrənmək bizim üçün çox maraqlı olardı. Dünya iqtisadi böhranı Sloveniyaya böyük təsir göstərmişdir. Çünki Sloveniya iqtisadiyyatı ixracyönümlü iqtisadiyyatdır və biz müəyyən mənada xarici tərəfdaşlarımızdan asılıyıq. Lakin bu dövr bitmək üzrədir. Gələn 2010-cu ildən etibarən iqtisadi inkişaf bərpa olunacaq və sabit templə irəliyə doğru gedəcəyik. Buna görə də biz gələcəyə son çətinliklər prizmasından deyil, qarşımızda duran perspektivlər baxımından nəzər yetirməliyik. Mən bu fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, biz gələcəkdə Sloveniya ilə Azərbaycan arasında tammiqyaslı əməkdaşlığın quruləcağına əminik. Biz əməkdaşlığımızı yalnız iqtisadi sahə ilə məhdudlaşdırmalı deyilik.

Mədəniyyət sahəsində əməkdaşlıq üçün böyük imkanlar mövcuddur. Sloveniya Cənubi-Şərqi Avropada mədəni irsin qorunması sahəsində mühüm rol oynamışdır. Bilirik ki, Azərbaycan da öz regionunda oxşar proqramları həyata keçirir. Biz bu sahədə tərəfdaşlığı daha da inkişaf etdirmək fikrindəyik. İstərdik ki, mədəniyyət sahəsi xalqlarımızın görüşdüyü və əməkdaşlıq etdiyi yerə çevrilsin.

Çox şadam ki, biz müəyyən sazişləri imzaladıq və onlardan bəziləri burada toplaşan iş

adamları üçün faydalı olacaqdır. Sizlərdən bəzilərinin diplomatik pasportları vardır. Həmin şəxslərə bildirmək istəyirəm ki, onlar bundan sonra ölkələrimizə vizasız səfər etmək imkanına malik olacaqlar. Bu sahədəki irəliləyiş daha da möhkəmlənəcəkdir. Çünki Avropa İttifaqı qonşuluqda olan ölkələrlə əməkdaşlıq sahəsində yeni addımların atılmasını istəyir. Lakin biz praktik olmalıyıq və işləri mümkün qədər tez yerinə yetirməliyik.

Cənab Prezident, hazırda söyləyəcəyim şərhlər bu qədərdir. Ölkələrimizin iş adamları qarşısında çıxış etmək imkanı yaratdığınıza görə minnətdarlığımı bildirmək istəyirəm. Ümidvaram ki, gələcəkdə bizim nəinki çıxış edən qismində, o cümlədən qeyri-formal şəraitdə adi iştirakçılar kimi görüşmək imkanımız olacaqdır.

Çox sağ olun.

* * *

İqtisadi İnkişaf Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə keçirilən biznes forumda Sloveniyanı sənaye, maşınqayırma, informasiya-kommunikasiya texnologiyaları, inşaat, ticarət, xidmət, turizm, maliyyə, təhlükəsizlik və bir sıra digər sahələr üzrə iş adamları təmsil edirdilər.

Forumda çıxış edən Azərbaycanın iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasət nəticəsində ölkəmizin dinamik inkişaf etdiyini vurğulamış, bu nailiyyətləri əks etdirən iqtisadi göstəricilər, həyata keçirilən irimiqyaslı layihələr və dövlət proqramları barədə məlumat vermişdir. Nazir müavini Sloveniya ilə əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu diqqətə çatdırmış, sloveniyalı sahibkarları Azərbaycanda yaradılmış əlverişli investisiya mühitindən yararlanmağa dəvət etmişdir.

Sloveniyanın iqtisadiyyat nazirinin müavini xanım Darya Radiç ölkəsində Azərbaycana böyük maraq göstərildiyini, biznes forumun iqtisadi əlaqələrin daha da genişlənməsində əhəmiyyətini vurğulamışdır. O, Sloveniya iqtisadiyyatının əsas inkişaf istiqamətləri barədə ətraflı məlumat vermişdir.

Sloveniya Ticarət Palatasının baş direktoru Samo Hribar Miliç ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdiyini, əməkdaşlığın genişləndirilməsində özəl bölmənin xüsusi rolunu vurğulamış, iş adamlarına bu sahədə daha fəal olmağı tövsiyə etmişdir.

Forumda Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) icraçı direktoru Əfqan İsayev ölkəmizin investisiya mühiti və biznes imkanları, AİŞ tərəfindən həyata keçirilən layihələr, Naxçıvan Muxtar Respublikasının İqtisadi İnkişaf Nazirliyinin nümayəndəsi Orxan Novruzov muxtar respublikada yaradılmış əlverişli biznes mühiti, potensial investisiya imkanları, Sloveniyanın Sahibkarlığın və Xarici İnvestisiyaların İnkişafı Agentliyinin rəhbəri İqor Plestenjak isə ölkəsində sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər və bu sahədə rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə danışmışlar.

Biznes forum çərçivəsində Azərbaycan və Sloveniya iş adamları arasında ikitərəfli görüşlər keçirilmiş, işgüzar əlaqələrin genişləndirilməsi imkanları müzakirə olunmuşdur.

SƏFƏR BAŞA ÇATDI

Noyabrın 10-da Sloveniya Respublikasının Prezidenti Danilo Türkün Azərbaycana rəsmi səfəri başa çatmışdır.

Azərbaycanın və Sloveniyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Sloveniya dövlətinin başçısını və xanımını Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola saldılar.

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI BMT-NİN İŞGƏNCƏLƏRƏ QARŞI KOMİTƏSİNİN 43-CÜ SESSİYASINDA MƏRUZƏ ETMİŞDİR

Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə qarşı Komitəsinin noyabrın 9-10-da Cenevrədə keçirilmiş 43-cü sessiyası çərçivəsində qurumun "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiyası üzrə Azərbaycan Respublikasının üçüncü dövri məruzəsinə baxılmışdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq xarici işlər nazirinin müavini X.Xələfovun başçılıq etdiyi nümayəndə heyəti məruzənin təqdim edilməsində və müzakirəsində iştirak etmişdir.

Tədbirdə X.Xələfov çıxış edərək, ölkəmizdə insan hüquq və azadlıqlarının təmin olunması üçün yaradılmış hüquqi əsaslar, insan hüquqlarının və əsas azadlıqların qorunmasına və təşviqinin möhkəmləndirilməsinə yönəldilmiş səylər barədə ətraflı məlumat vermişdir. Natiq 2009-cu il martın 18-də keçirilmiş referendum nəticəsində Azərbaycan Respublikasının Konstitusiyasına edilmiş düzəlişlərin insan hüquq və azadlıqlarının daha da möhkəmləndirilməsi və inkişafı baxımından əhəmiyyətini vurğulamış, dəyişikliklərin məhkəmə ədaləti və məhkəmələrin müstəqilliyinin möhkəmləndirilməsinə yönəldiyini bildirmişdir.

Nümayəndə heyətinin başçısı hökumət tərəfindən beynəlxalq və regional təşkilatlarla, o cümlədən Avropa Şurası və ATƏT ilə Konvensiyanın müddəalarının həyata keçirilməsi üzrə görülən birgə tədbirlər barədə məlumat vermişdir. Bu istiqamətdə ölkəmizin qarşılaşdığı çətinlik və problemləri şərh edən X.Xələfov Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş ərazilərdən Azərbaycan vətəndaşlarının zorla qovulması, eləcə də əsir və girov götürülmüş şəxslərə qarşı işgəncə, digər qəddar, qeyri-insani, insan ləyaqətini alçaldan rəftar və cəzaların verilməsi barədə yüzlərlə fakt haqqında məlumat vermiş, 552 nəfərin işgəncə ilə qətlə yetirildiyini komitə üzvlərinin nəzərinə çatdırmışdır.

Sonra nümayəndə heyəti komitə üzvləri tərəfindən məruzə üzrə verilən sualları və şərhləri ətraflı cavablandırmış, Azərbaycanda ardıcıl və sistemli şəkildə görülmüş işlərin mahiyyəti və nəticələri haqqında ətraflı məlumat vermişlər.

Komitə üzvləri çıxışlarında Azərbaycan ilə Avropa Şurasının İşgəncələrin qarşısının alınması üzrə Komitəsi arasında davam edən əməkdaşlığı və məhkəmə, hüquq, penitensiar xidməti sahəsində aparılan islahatları yüksək qiymətləndirmiş, bir sıra tövsiyələr vermişlər.

PREZİDENT İLHAM ƏLİYEV GÜRCÜSTANIN AZƏRBAYCANDAKI SƏFİRİ NİKOLOZ NATBİLADZENİ FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Gürcüstanın ölkəmizdəki səfiri Nikoloz Natbiladzeni fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Səfir Nikoloz Natbiladze Gürcüstan Prezidenti Mixail Saakaşvilinin ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, səfirliyin fəaliyyəti üçün yaradılan şəraitə görə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Diplomat bu müddət ərzində Azərbaycan xalqının xoş münasibətini həmişə yaxından hiss etdiyini dedi.

Dövlətimizin başçısı səfirin Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirdi. Prezident İlham Əliyev Nikoloz Natbiladzenin ölkəmizdəki diplomatik fəaliyyət müddətinin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi baxımından mühüm dövrü əhatə etdiyini dedi. Prezident İlham Əliyev gələcək fəaliyyətində ona uğurlar arzuladı.

Dövlətimizin başçısı Gürcüstan Prezidenti Mixail Saakaşvilinin xoş arzularına görə minnətdarlığını bildirdi, onun da xoş arzularını Gürcüstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir.

Ekmələddin İhsanoğlu yenidən Azərbaycana səfərindən məmnunluğunu bildirdi. O, Bakıda keçirilən "Sivilizasiyalararası dialoq: Azərbaycandan baxış" beynəlxalq konfransının əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı bu mövzu ilə bağlı ölkəmizdə mütəmadi olaraq mötəbər konfransların keçirilməsinin önəmini qeyd etdi.

Görüşdə Azərbaycan ilə İslam Konfransı Təşkilatı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi və bu əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ HAYATİ YAZICİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Türkiyənin dövlət naziri Hayati Yazıcının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan-Türkiyə ikitərəfli münasibətləri, iqtisadi əlaqələr, regional əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ SURİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 11-də xarici işlər naziri Elmar Məmmədyarov Suriya Ərəb Respublikasının xarici işlər nazirinin müavini Feysal Əl-Miqdad ilə görüşmüşdür.

Görüşdə Azərbaycan və Suriya arasında əlaqələrin yüksək səviyyədə olmasında ölkə rəhbərlərinin şəxsi münasibətlərinin əhəmiyyəti vurğulanmışdır.

Siyasi əlaqələrin inkişafından danışan tərəflər, iqtisadi sahədə də əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirmişlər. Bu məqsədlə qarşılıqlı səfərlərin və iş adamlarının görüşlərinin təşkilinin zəruriliyi qeyd olunmuşdur.

Regiondakı proseslərə toxunan Suriya xarici işlər nazirinin müavini F.Əl-Miqdad İslam dünyası birliyinin vacibliyini qeyd etmiş və müsəlman ölkələrinin birgə maraq kəsb edən məsələlərdə həmrəylik göstərməsinin zəruriliyini vurğulamışdır.

Xarici işlər naziri E.Məmmədyarov Azərbaycanın İslam dünyası ilə həmrəy olduğunu bildirmişdir. Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünə toxunan nazir münaqişənin nizamlanması ilə bağlı ölkəmizin mövqeyi barədə məlumat vermişdir.

Tərəflər Yaxın Şərqdə və Cənubi Qafqaz regionunda baş verən proseslər ətrafında fikir mübadiləsi aparmışlar.

XARİCİ İŞLƏR NAZİRİ TACİKİSTAN XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 11-də xarici işlər naziri Elmar Məmmədyarov Tacikistan xarici işlər nazirinin birinci müavini Abdullo Yuldaşevlə görüşmüşdür.

Görüşdə Azərbaycan-Tacikistan münasibətlərinin mövcud durumu müzakirə edilmiş, əlaqələrin inkişaf etdirilməsi istiqamətində atılacaq addımlar ətrafında fikir mübadiləsi aparılmışdır.

Tərəflər ölkələrimiz arasında sıx siyasi və iqtisadi əlaqələrin mövcud olduğunu bildirmiş və bu münasibətlərin daha da genişləndirilməsinin vacibliyini qeyd etmişlər.

İki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın davam etdirilməsi və gücləndirilməsinin zəruriliyinə də xüsusi önəm verilmişdir. Bu məqsədlə 2010-cu ildə Azərbaycan və Tacikistan Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr məqsədi ilə görüş keçirilməsinə hazırlıq görülməsi qərara alınmışdır.

Sonra tərəflər Orta Asiya, Əfqanıstan və Cənubi Qafqazda gedən proseslər, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

BAKIDA "SİVİLİZASİYALARARASI DİALOQ: AZƏRBAYCANDAN BAXIŞ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR

Noyabrın 11-də Bakıda Azərbaycan Diplomatik Akademiyasının (ADA) İslam Konfransı Təşkilatının (İKT) Baş Katibliyi ilə birgə təşkil etdiyi "Sivilizasiyalararası dialoq: Azərbaycandan baxış" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Konfrans İKT-nin 40 illik yubileyinə həsr olunmuşdur.

Konfransda 41 ölkədən və 3 beynəlxalq təşkilatdan 200-dək elm xadimi, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri və bir çox ölkələrin yüksək səviyyəli dövlət məmurları iştirak etmişlər.

Tədbirdə giriş nitqi ilə çıxış edən Azərbaycan Diplomatik Akademiyasının rektoru Hafiz Paşayev Azərbaycanın mədəniyyətlərarası və xalqlararası dialoq sahəsində xeyli iş gördüyünü söyləmişdir. Belə tədbirlərin paytaxtımızda keçirilməsi də əhəmiyyətlidir. Bakı bu sahədə önəmli rol oynayır.

İKT-nin BMT-dən sonra dünyada ən böyük təşkilat olduğunu vurğulayan Hafiz Paşayev bildirdi ki, təşkilat dünyada ədalətsizliyə son qoymaq üçün böyük işlər görür.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, şeyxülislam Allahşükür Paşazadə çıxışında bildirmişdir ki, humanist İslam dəyərləri və zəngin milli ənənələrimizdən formalaşan nadir Azərbaycan modeli müasir dünya üçün qiymətli örnək ola bilər. QMİ sədri bu məsələdə Heydər Əliyev Fondunun gördüyü işləri xüsusi qeyd etmişdir.

O demişdir ki, Azərbaycan İslam dünyasının ayrılmaz hissəsidir və İslam Konfransı Təşkilatına (İKT) daxil olduğu vaxtdan qurumun layiqli üzvlərindən biri olduğunu sübut etmişdir.

Azərbaycan təşkilatın üzvü olduğu vaxtdan Dağlıq Qarabağ məsələsi ilə bağlı İKT-nin daimi dəstəyini hiss edir. Azərbaycan rəhbərliyi İKT-nin üzvü olan ölkələrlə yaxınlaşma kursunu aparır və bu qurum çərçivəsində keçirilən tədbirlərdə fəal iştirak edir.

Beynəlxalq konfransda çıxış edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bildirmişdir ki, ölkəmiz İKT-yə daxil olduğu vaxtdan öz xarici siyasətində bu təşkilatın böyük töhfəsini görmüşdür. Dağlıq Qarabağ məsələsi hər zaman təşkilatın gündəliyində olmuşdur. Təşkilat müntəzəm olaraq Azərbaycanın işğal olunmuş ərazilərində mədəni-dini abidələrin məhv edilməsi məsələsini qaldırır.

Azərbaycanın 2014-cü ildə İslam Konfransı Təşkilatının növbəti sammitinin Bakıda keçirilməsi təşəbbüsü ilə çıxış etdiyini xatırladan E.Məmmədyarov vurğulamışdır ki, ölkəmiz İKT çərçivəsində əməkdaşlığın möhkəmləndirilməsinə öz töhfəsini vermək üçün əlindən gələni edəcəkdir.

Azərbaycanın Avrasiyada xüsusi geosiyasi mövqe tutduğunu qeyd edən nazir demişdir ki, bu, ölkəmizin sivilizasiyalararası dialoqa töhfəsində mühüm rol oynamışdır.

İKT-nin baş katibi Ekməleddin İhsanoğlu Azərbaycanın böyük sivilizasiyalar arasında əməkdaşlıq sahəsində simvola çevrildiyini vurğulayaraq bildirmişdir ki, bu amil ölkəmizin yerləşdiyi coğrafi məkan, həm də burada müxtəlif mədəniyyətlərin qovuşması ilə əlaqədardır.

E.İhsanoğlu təşkilatın tarixi haqda danışaraq bildirmişdir ki, İKT-nin 57 üzvü, 4 müşahidəçi üzvü vardır və qurum 1 milyarddan çox müsəlman əhalisini əhatə edir.

O demişdir ki, İKT müasirliyə, tolerantlığa çox fikir verir. Təşkilatımız sivilizasiyalar arasında dialoqun inkişaf etdirilməsi, insan hüquqlarının qorunması uğrunda durmadan iş aparır.

Beynəlxalq tədbirdə dini və mədəni müxtəliflik, bu sahədə Azərbaycanın təcrübəsi,

dinlərarası dialoqun qarşılaşdığı problemlər və İslam geosiyasəti kimi mövzular üzrə elmi müzakirələr aparılmışdır.

"SİVİLİZASİYALARARASI DIALOQ: AZƏRBAYCANDAN BAXIŞ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN YEKUNLARINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSI KEÇİRİLMİŞDİR

Noyabrın 11-də İslam Konfransı Təşkilatının (İKT) 40 illik yubileyinə həsr olunmuş "Sivilizasiyalararası dialoq: Azərbaycandan baxış" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın yekunları ilə bağlı mətbuat konfransı olmuşdur.

Azərbaycan xarici işlər nazirinin müavini Vaqif Sadıqov konfrans haqqında məlumat verərək bildirmişdir ki, maraqlı müzakirələrlə yadda qalan tədbirdə bir çox ölkələrdən, o cümlədən İKT-nin üzvü olmayan Koreya Respublikası və Argentinadan nümayəndələr iştirak etmişlər. V.Sadıqov konfransın XİN Diplomatik Akademiyası və İKT Baş katibliyi tərəfindən təşkil olunduğunu diqqətə çatdırmışdır.

İKT-nin baş katibi Ekmələddin İhsanoğlu konfransın yüksək səviyyədə təşkil edildiyindən məmnunluğunu bildirmişdir. Bakının son dövrlərdə bir çox vacib beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini vurğulayan E.İhsanoğlu bu cür tədbirlərin keçirilməsinin böyük əhəmiyyətə malik olduğunu bildirmişdir.

Dünyada fərqli mədəniyyətlərin mövcud olduğunu bildirən E.İhsanoğlu "sivilizasiyalararası toqquşma" kimi yanlış bir fikrin qarşısının alınması baxımından dialoqun zəruri olduğunu qeyd etmişdir. O, Bakıda keçirilən konfransın bu baxımdan böyük əhəmiyyətə malik olduğunu xüsusi vurğulamışdır. E.İhsanoğlu konfrans zamanı dinlər arasında dialoqun qurulması istiqamətində çox maraqlı fikirlərin səsləndiyini qeyd etmişdir.

Baş katib, həmçinin sivilizasiyalararası dialoqun aparılmasında və bu sahədə uğurların əldə edilməsində medianın və qeyri-hökumət təşkilatlarının üzərinə mühüm vəzifələr düşdüyünü bildirmişdir.

ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ BAĞLI DANIŞIQLAR PROSESİ YENİDƏN İNTENSİVLƏŞİB

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqlar prosesi yenidən intensivləşib.

Bu sözləri noyabrın 11-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov söyləmişdir. Nazir qeyd etmişdir ki, növbəti müzakirələrdə də Azərbaycan tərəfinin əsas tələbi Ermənistan qoşunlarının tez bir zamanda işğal altındakı ərazilərindən çıxarılmasıdır.

E.Məmmədyarov bildirmişdir ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin regiona sonuncu səfərində də Azərbaycan öz mövqeyini bir daha ortaya qoydu. Ermənistan istəyir ki, qoşunları Azərbaycan ərazisindən çıxmamış Dağlıq Qarabağın statusuna baxılsın, bu, qeyri-konstruktiv mövqe razılığa gəlinən bəzi məsələləri yenidən müzakirəyə qaytarır. İlk növbədə, Ermənistan qoşunları işğal olunmuş Azərbaycan torpaqlarından çıxmalı, sonra kommunikasiya bərpa olunmalı, məcburi köçkünlər qaytarılmalı, sülh və sabitlik yaradılmalı, iqtisadiyyat inkişaf etdirilməli, yalnız bundan sonra Dağlıq Qarabağın

statusu müəyyənləşdirilməlidir. Azərbaycan tərəfi hər zaman Dağlıq Qarabağa yüksək status verməyə hazır olduğunu bəyan edib. Lakin bu status bütün hallarda Azərbaycanın ərazi bütövlüyü çərçivəsində müəyyənləşəcək.

Dağlıq Qarabağa Azərbaycanın ərazi bütövlüyü çərçivəsində status verilməsi təklifi ilə bağlı dünya təcrübəsində kifayət qədər misalların olduğunu qeyd edən xarici siyasət idarəsinin rəhbəri vurğulamışdır ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi ancaq onun özünə ziyandır.

Nazir həmçinin ATƏT xarici işlər nazirlərinin Afinada keçiriləcək toplantısında tərəflərin növbəti görüşünün gözlənildiyini bildirmişdir.

DÜŞƏNBƏDƏ MDB MÜDAFİƏ NAZİRLƏRİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR

Noyabrın 11-də Tacikistanın paytaxtı Düşənbə şəhərində Müstəqil Dövlətlər Birliyi (MDB) Müdafiə Nazirləri Şurasının növbəti iclası keçirilmişdir.

İclasda Azərbaycanın müdafiə naziri Səfər Əbiyevin başçılığı ilə ölkəmizin nümayəndə heyəti də iştirak etmişdir.

Müdafiə nazirləri 2015-ci ilə qədərki dövrdə hərbi əməkdaşlıq Konsepsiyasını bəyənmiş, Şuranın 2010-cu il üçün iş planını təsdiqləmiş, MDB ölkələri birgə hava hücumundan müdafiə sisteminin 2015-ci ilədək əsas inkişaf istiqamətlərini müzakirə etmişlər.

İclas iştirakçıları MDB hava hücumundan müdafiə qüvvələri strukturunda dəyişikliklər etmiş, 2010-cu ildə MDB hava hücumundan müdafiə qüvvələrinin birgə tədbirlərinin keçirilməsini müəyyənləşdirmişlər.

Şuranın iclasında hava məkanından istifadə qaydaları üzərində nəzarət sisteminin təkmilləşdirilməsi, uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlığın inkişafı problemləri də müzakirə olunmuşdur.

Müdafiə nazirləri ekoloji təhlükəsizliyin təmin olunması üçün informasiya-sorğu sisteminin yaradılmasını qərara almış, Şuranın yeni işçi orqanı-texniki təminat üzrə Əlaqələndirmə Komitəsinin yaradılması haqqında Əsasnaməni təsdiq etmişlər.

İclasda ümumilikdə 20 məsələyə baxılmışdır.

Tacikistan prezidenti Emoməli Rəhmon müdafiə nazirlərini qəbul etmişdir.

TACİKİSTAN PREZİDENTİ AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

MDB Müdafiə Nazirləri Şurasının Düşənbədə keçirilən iclası başa çatdıqdan sonra Azərbaycanın müdafiə naziri Səfər Əbiyevin Tacikistana səfəri başlanmışdır.

Tacikistan Prezidenti mətbuat xidmətinin verdiyi məlumata görə, dövlət başçısı Emoməli Raxmonun Səfər Əbiyevin görüşündə iki ölkə arasında hərbi və hərbi-texniki sahədə əlaqələrin inkişafı və genişləndirilməsi məsələləri müzakirə edilmişdir.

Emoməli Raxmon Tacikistan-Azərbaycan münasibətlərinin bütün sahələrdə dinamik

inkişafını qeyd etmiş, iki ölkənin müdafiə idarələri arasında əlaqələrin inkişafından məmnun olduğunu bildirmişdir.

Tərəflər ölkələr arasında hərbi kadrların hazırlanması və hərbi qüvvələrin peşəkarlığının yüksəldilməsinə xüsusi diqqət yetirmişlər.

Görüşdə regional təhlükəsizlik məsələləri, Əfqanıstanda vəziyyət də müzakirə edilmişdir.

AZƏRBAYCAN VƏ TACİKİSTANIN MÜDAFİƏ NAZİRLƏRİ HƏRBİ VƏ HƏRBİ-TEXNİKİ SAHƏDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİNİ MÜZAKİRƏ ETMİŞLƏR

Tacikistanda səfərdə olan Azərbaycanın müdafiə naziri Səfər Əbiyev noyabrın 12-də bu ölkənin müdafiə naziri Şirəli Xeyrullayevlə görüşmüşdür.

Nazirlər həm ikitərəfli, həm də regional təşkilatlar çərçivəsində ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq məsələlərini müzakirə etmişlər. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər üzrə də fikir mübadiləsi aparılmışdır.

Danışıqların yekununda Səfər Əbiyev və Şirəli Xeyrullayev 2010-cu il üçün Azərbaycan və Tacikistanın müdafiə nazirlikləri arasında hərbi əməkdaşlıq Planını imzalamışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELARUSA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Belarus Respublikasına rəsmi səfərə gəlmişdir.

Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş Minsk milli hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Milli geyimli qızlar dövlətimizin başçısına duz-çörək və gül dəstəsi təqdim etdilər.

Prezident İlham Əliyevi Belarus Respublikasının Baş naziri Sergey Sidorski və digər rəsmi şəxslər qarşıladılar.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Noyabrın 12-də Belarusda rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyevin Minskdə, Prezident İqamətgahında rəsmi qarşılanma mərasimi olmuşdur.

Azərbaycanın və Belarusun dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Belarus Prezidenti Aleksandr Lukaşenko qarşıladı.

Hərbi orkestrin ifasında Azərbaycanın və Belarusun dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Belarusun dövlət və hökumət nümayəndələri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Belarus Prezidenti Aleksandr Lukaşenkoya təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü olmuşdur.

Prezident Aleksandr LUKAŞENKO Azərbaycan dövlətinin başçısına müraciət edərək dedi:

- İlham Heydər oğlu, Sizinlə yenidən bu cür rəsmi şəraitdə görüşürük. Mən bunu ona görə xüsusi vurğulayıram ki, bizim işgüzar görüşlərimizin sayı kifayət qədər çoxdur. Biz tez-tez ünsiyyətdə oluruq və bu, sadəcə dostcasına ünsiyyət deyildir. Bu, bizim görüşlərə xas olan cəhətdir. Belarusda bunu hamı bilir. Lakin bu həm də çox cəhətdən işgüzar danışıqlardır. Qeyd etmək istərdim ki, Sizin gəlişinizə hazırlaşarkən mən görüşlərimizin xüsusiyyətinin nədən ibarət olması barədə düşünürdüm. Axı Siz də dövlət rəhbərləri, dövlət başçıları ilə görüşürsünüz, mən də. Bilirsiniz, bizim razılaşmaların yüksək səmərəliliyini görmək mənə xoş idi - əvvəllər mən bu barədə fikirləşməmişdim. Praktik olaraq biz nə barədə razılığa gəlmişiksə, hamısı həll olunub. Son dövrlərdə ticarət dövriyyəsinin 11 dəfə artması bunun nəticəsidir. Lakin Sizin Baş nazirin birinci müavini Belarusda səfərdə olarkən biz həmin problemi müzakirə etdik və birmənalı şəkildə qeyd etdik ki, bu, bizi təmin edən əmtəə dövriyyəsi deyildir. Bizim kimi ölkələr iki-üç il müddətində beş yüz milyonluq həddi asanlıqla aşa bilər. Bunun rəhni odur ki, maliyyə-iqtisadi böhran şəraitində hər yerdə əmtəə dövriyyəsinin azaldığı bir vaxtda, bizdə əmtəə dövriyyəsinin həcmi keçənilki səviyyə ilə müqayisədə təqribən 110 faiz olmuşdur. Yaxşı dinamikadır. Bu, birincisi.

İkincisi, biz bu gün hansı istiqamətlər üzrə irəliləmək mümkün olacağını müəyyənləşdirə bilmişik. Bildiyiniz kimi, qarşılıqlı münasibətlərdə, ticarət-iqtisadi münasibətlərdə bu, əsas məsələdir. Bəzən hər iki tərəfin potensial imkanları olur. Lakin onlar həmin potensialı cəmləşdirə bilmirlər. Biz dəqiq razılığa gəlmişik və müasir metodlarla işləyirik. Biz müştərək istehsalatlar yaradırıq. Biz daxili bazarlarımız üçün işləyirik və kifayət qədər məhsul istehsal etdiyimiz təqdirdə üçüncü dövlətlərin bazarlarına çıxırıq. Bu, yaxşı perspektivdir. Ona görə də biz bu istiqamətdə hərəkət etmək əzmindəyik. Biz görürük ki, razılaşdırdığımız layihələri Siz Azərbaycanda dəstəkləyirsiniz. Bu, bizi qane edir və razı salır. Buna görə də Siz əmin ola bilərsiniz ki, razılığa gəldiyimiz bütün məsələlər sözsüz yerinə yetiriləcəkdir.

Yəqin ki, biz başqa məsələləri də müzakirə edəcəyik. Mən Sizə Ukrayna rəhbərliyi ilə

mənim son görüşüm barədə məlumat vermək istəyirəm. Bizim ümumi layihələrimiz ola bilər. Ona görə mən bu gün Sizi özünüzə doğma saydığımız şəhərdə böyük məmnuniyyətlə qəbul edirəm. Görürəm ki, bu şəhər Sizin xoşunuza gəlir. Siz yaxşı dincəlmisiniz. Buna görə biz yaxşı işləyə bilərik.

Azərbaycan Prezidenti İlham ƏLİYEV səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Çox sağ olun, hörmətli Aleksandr Qriqoryeviç. İlk növbədə, Sizin ölkəyə yenidən rəsmi səfərə dəvətə görə sağ olun. Mən yenidən qonaqpərvər Belarus torpağında olmağıma və fəal dialoqumuzu davam etdirməyə görə şadam. Ölkələrimiz arasında münasibətlər güclü, dinamik və Sizin qeyd etdiyiniz kimi, çox səmərəli inkişaf edir. Çox mühüm nəticələr əldə edilmişdir. Nisbətən qısa müddətdə biz rəsmi səfərlər etmişik. Bu yaxınlarda, səfər ərəfəsində mən də materiallara baxmışam. Son bir neçə ildə hökumətlərimizin başçıları müvafiq surətdə Belarusa və Azərbaycana üç dəfə səfər etmişlər. Beləliklə, çox səmərəli dialoq aparılır və qərarlar praktiki olaraq həyata keçirilir.

Bizim aramızda ortaq cəhətlər çoxdur və bu keyfiyyətlərdən biri məhz qəbul edilmiş qərarların yerinə yetirilməsində məsuliyyət hissidir. Mən də çox şadam ki, razılığa gəldiyimiz bütün məsələlər uğurla, özü də qısa müddətdə və keyfiyyətlə həyata keçirilir. Bu, əlbəttə, ölkələrimiz arasında etimad səviyyəsini qat-qat artırır və həm də yeni perspektivlər açır. Nisbətən yaxın vaxtlarda, cəmi üç il bundan əvvəl Belarusda Azərbaycan və Azərbaycanda Belarus səfirlikləri açılmışdır. Lakin bu müddət ərzində biz çox böyük yol keçmişik. Böhranlı ildə əmtəə dövriyyəsinin artırılması barədə Sizin qeyd etdiyiniz fakt yəqin ki, təsadüfi deyil, tərəqqi prosesi gedən nadir hallardan biridir. Bütün bunlar nikbinlik doğurur. Əminəm ki, biz birgə fəaliyyətimizi səylə davam etdirəcək, qarşılıqlı siyasi əlaqələri gücləndirəcək, yeni iqtisadi layihələri həyata keçirəcəyik.

Mən buraya bizim iqtisadiyyatın demək olar ki, bütün sektorlarını əhatə edən nazirlərdən və Baş nazirin müavinindən ibarət böyük bir nümayəndə heyəti ilə gəlmişəm. Ümid edirəm ki, bu səfərin yekunlarına əsasən biz yeni konkret qərarlar qəbul edəcək, yeni layihələri daha səmərəli şəkildə həyata keçirəcək, köhnə layihələri davam etdirəcək, tərəfdaşlığı möhkəmləndirəcəyik. Sizinlə şəxsi planda görüşlərimiz, həmçinin mənə də çox xoşdur. Sizin qeyd etdiyiniz kimi, biz beynəlxalq tədbirlərdə tez-tez görüşürük, ünsiyyət saxlamağa həmişə vaxt tapırıq. Lakin rəsmi səfər tamam başqa formatdır. O, həm də bizim ikitərəfli əlaqələrin inkişafına verdiyimiz əhəmiyyəti vurğulayır.

Qonaqpərvərliyə görə, Sizə bir daha təşəkkür edirəm. Minskin sürətlə inkişafını görməyə çox şadam. Mən burada üç il bundan əvvəl olmuşam və bu gözəl şəhərin, Sizin ölkənin necə dinamik inkişaf etdiyini görürəm. Bu münasibətlə Sizi ürəkdən təbrik edirəm.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Noyabrın 12-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident Aleksandr LUKAŞENKO Azərbaycan nümayəndə heyətini Belarus torpağında bir daha salamlayaraq dedi:

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar!

Sizi Belarus torpağında bir daha salamlamağa şadam. Siz bizim üçün həmişə arzuedilən, hörmətli adamlarsınız, siz, sadəcə olaraq, bizim adamlarsınız. Prezidentlə mən öz münasibətlərimizi qurarkən bunu əsas götürürük. Azərbaycanın nümayəndə heyətinin 2006-cı ildə Minskə yüksək səviyyəli axırıncı səfərindən sonra ikitərəfli münasibətlərin fəallaşdırılması üçün çox böyük işlər görülmüşdür.

Bu gün inamla deyə bilərik ki, ölkələrimiz arasında münasibətlər həqiqətən strateji xarakter kəsb etmişdir. Zaman bizim əvvəllər qəbul etdiyimiz qərarların düzgün olmasını təsdiq etmişdir. Həm sahələr səviyyəsində, həm də iki ölkənin hökumətləri xətti üzrə daimi qarşılıqlı fəaliyyət mexanizmi tənzimlənmişdir, geniş əhatəli məsələlər üzrə əməkdaşlıq intensiv genişlənir. Bu halda Belarus-Azərbaycan münasibətlərinin fərqləndirici cəhəti ondan ibarətdir ki, bu münasibətlər dostluq, qarşılıqlı hörmət, etimad prinsipləri üzərində qurulmuşdur. Bizim münasibətlərdə heç bir qapalı mövzu yoxdur. Bu gün Prezidentlə bərabər qeyd etdik ki, ən yüksək etimad dərəcəsi və əldə etdiyimiz razılaşmaların yerinə yetirilməsi də bizim münasibətlərin fərqləndirici xüsusiyyətidir.

Siyasi sahədə bizdə bütün məsələlər çoxdan həll edilmişdir. Mədəniyyət, təhsil sahələrində möhkəm əlaqələr qurulmuşdur. Biz yüksək səviyyədə ikitərəfli danışıqların növbəti raundu barədə razılığa gələrkən, ilk növbədə, ticarət-iqtisadi münasibətlərin yeni, perspektivli istiqamətlərini müəyyən etmək vəzifəsini qarşıya qoymuşduq.

Son beş ildə ölkələrimiz arasında əmtəə dövriyyəsi 11 dəfə artmışdır. Lakin bu, yəqin ki, bu gün əldə edə biləcəyimizin yalnız beşdəbir hissəsidir. Əgər İlham Heydər oğlu razılaşarsa, biz öz hökumətlərimiz üçün təqribən yarım milyard dollar həcmində əmtəə dövriyyəsini oriyentir kimi müəyyən edə bilərdik. Bu, tamamilə təbiidir, bu, normal haldır, biz əmtəə dövriyyəsini iki-üç il müddətində asanlıqla bu həddə çatdıra bilərik.

İndiki mürəkkəb şəraitdə, dünyada maliyyə-iqtisadi böhran şəraitində dəqiq qarşılıqlı fəaliyyət və görülmüş birgə tədbirlər sayəsində biz həm ikitərəfli əmtəə dövriyyəsinin azalmasını dayandırmışıq, həm də sentyabrdan sonra müsbət dinamikaya nail olmuşuq. Cari mərhələdə strateji vəzifə bu şəraitdə bəzən qeyri-standart qərarlar qəbul etməklə həm Azərbaycanda, həm də Belarusda daha genişmiqyaslı müştərək layihələr həyata keçirməkdən ibarətdir. Bunun üçün artıq təməl yaradılmışdır. 2006-cı ildə İlham Əliyevlə razılaşmışdıq ki, Azərbaycanda Belarus texnikası buraxılan müştərək istehsalat təşkil edilsin. Bu gün Gəncə avtomobil zavodunun bazasında Belarus traktorları və "MAZ" markalı yük avtomobilləri yığılır. Lakin daha irəli getmək, Azərbaycanda avtokranlar, lift avadanlığı, kənd təsərrüfatı texnikası buraxılışı üzrə müştərək istehsalatlar yaradılması ideyalarını praktikada həyata keçirmək lazımdır. Bizdə sənayenin modernləşdirilməsi üzrə böyük təcrübə toplanmışdır. Biz bu təcrübəni dostlarımızla bölüşməyə hazırıq.

Biz indicə razılığa gəldik ki, ticarətin sadə formalarından burada, Belarusda və orada, Azərbaycanda müştərək istehsalatlar yaradılmasına doğru hərəkət etməliyik. Biz bu is-

tiqamətdə daha geniş, daha əhatəli fəaliyyət göstərməyə hazırıq.

Belarus-Azərbaycan münasibətləri ötəri prinsiplər üzərində qurulmur. Biz münasibətlərimizi həqiqətən ciddi və uzun dövr üçün qururuq. Buna görə də ikitərəfli əlaqələrin institusional, əlaqələndirmə mexanizmlərini möhkəmlətməliyik. Bununla əlaqədar, mən bizim hökumətlərarası komissiyanın da səmərəli işini qeyd etmək istəyirəm. Çox yaxşı haldır ki, komissiya çərçivəsində həm hökumət rəhbərləri səviyyəsində, həm də sahəvi nazirliklər və konsernlər səviyyəsində məsələləri operativ həll etmək olar. Məncə, müştərək biznes mərkəzləri, iqtisadi əməkdaşlıq şuraları, qeyri-hökumət təşkilatları yaradılması məsələlərinə baxmaq olardı. Bu cür diskussiya formaları əlverişli biznes şəraiti formalaşması üzərində həm hökumətin, həm də biznesin məqsədyönlü şəkildə işləməsinə kömək edər.

Bizim indiki görüşümüzlə əlaqədar hökumət başçıları, dövlət idarəetmə orqanlarının rəhbərləri bir sıra mühüm sənədləri imzalanmaq üçün hazırlamışlar. Prezidentlə biz ikitərəfli münasibətlərə aid geniş əhatəli məsələləri müzakirə etmişik. İndi isə, əgər prezidentlər üçün məsələlər qalmışdırsa, onları, bizim gələcək strateji əməkdaşlıq məsələlərini geniş tərkibdə iclasda daha müfəssəl nəzərdən keçirmək istərdik. Əgər prezidentlərin qərar qəbul etməsi tələb olunan bu cür məsələlər yoxdursa, bu da pis deyildir. Belə hesab edərik ki, biz razılığa gəlmişik.

Buna görə də, hörmətli İlham Heydər oğlu, mən əminəm ki, Sizin bu səfəriniz də əvvəlki kimi səmərəli olacaq və Belarus-Azərbaycan münasibətlərində keyfiyyətcə yeni səhifə açacaqdır.

Əziz dostlar, bir daha vurğulamaq istəyirəm: əgər müəyyən problemli məsələlər varsa, gəlin, həmin məsələləri bu cür dostluq, əlbirlik şəraitində, bu masa arxasında əyləşənləri Azərbaycan və Belarus tərəflərinə bölmədən nəzərdən keçirək və həll edək. Lakin mən Prezidentlə prinsipial razılığa gəlmişəm ki, bu gün bizdə mövcud olan bütün niyyətləri və layihələri burada mən, Azərbaycanda isə İlham Heydər oğlu tamamilə dəstəkləyəcəyik.

Prezident İlham ƏLİYEV rəsmi səfər zamanı ona və Azərbaycan nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkürünü bildirərək dedi:

- Hörmətli Aleksandr Qriqoryeviç, hörmətli dostlar, çox sağ olun.

Əvvəla, bir daha ölkənizə gəlmək və ikitərəfli əməkdaşlığa dair bir çox məsələləri müzakirə etmək imkanına görə Sizə təşəkkürümü bildirmək istərdim. Siz düzgün qeyd etdiniz ki, ölkələrimiz arasında münasibətlər çox dinamik, fəal inkişaf edir. Bunun əsas göstəricisi odur ki, hətta böhran ilində ölkələrimiz arasında ticarət-iqtisadi əlaqələr artır. Bu, bizim iqtisadi sahədə qarşılıqlı fəaliyyət, konkret layihələrin həyata keçirilməsi çərçivəsində son illər gördüyümüz işlərin nəticəsidir. 2006-cı ildə burada, Minskdə və 2007-ci ildə Sizin rəsmi səfəriniz zamanı Bakıda razılığa gəldiyimiz layihələrin operativ, səmərəli və keyfiyyətlə həyata keçirilməsi onu göstərir ki, siyasi əzmkarlıq olduqda hər şeyi həll etmək mümkündür. Bu siyasi əzmkarlıq vardır. Ölkələrimiz arasında siyasi münasibətlər çox yüksək səviyyədədir. Biz beynəlxalq təşkilatlar çərçivəsində də fəal qarşılıqlı fəaliyyət göstəririk. Fəal siyasi dialoq mövcuddur. Biz bütün beynəlxalq tədbirlərdə prezidentlər səviyyəsində mütəmadi olaraq görüşürük. Səfərlərimiz intensiv

xarakter daşıyır və hökumətlərimizin başçıları son bir neçə ildə üç səfər etmişlər, nazirlər səviyyəsində yaxşı əlaqələr mövcuddur. Biz praktikada bunun nəticələrini görürük.

Biz ikitərəfli münasibətlərimizin necə inkişaf etməsindən, qəbul edilən qərarların necə yerinə yetirilməsindən çox razıyıq. Bu baxımdan, Belarus ilə Azərbaycan arasında ümumi cəhətlər çoxdur. Qərarlar qəbul olunur, operativ yerinə yetirilir və biz yaxşı, keyfiyyətli nəticələr görürük. Bu gün birinci görüşümüzdə gələcək əməkdaşlığımızın konkret layihələrini birlikdə müəyyənləşdirdik. Onlar çox geniş istiqamətləri əhatə edir. Bu, kənd təsərrüfatı, maşınqayırma sahəsində yeni layihələr, birgə müəssisələrin yaradılmasıdır. Layihələr investisiya öhdəlikləri ilə əlaqədardır. Bu halda deməliyəm ki, Belarusun da, Azərbaycanın da yaxşı investisiya potensialı vardır. Mən əminəm ki, bu gün müəyyənləşdirdiklərimizin həyata keçirilməsi ticarət dövriyyəsinin həcmini daha da artıracaqdır. Mən Sizin o fikrinizlə razıyam ki, sürətli artıma baxmayaraq, bugünkü səviyyə dövlətlərimizin potensialına cavab vermir. Düşünürəm ki, yarım milyard tamamilə real rəqəmdir və biz onu müvəqqəti həddi kimi müəyyən edə bilərik. Gələcəkdə isə indi dediklərimizin həyata keçirilməsi nəticəsində, zənnimcə, bu, milyardlarla ölçüləcəkdir.

Belarusun iqtisadiyyatı çox səmərəlidir. Son illər Azərbaycan iqtisadiyyatının yüksəlişi iqtisadi və sosial xarakterli bir çox məsələləri həll etməyə imkan verir. Qeyd etdiyimiz kimi, iqtisadiyyatlarımız rəqabət aparan iqtisadiyyatlar deyildir. Onlar sanki bir-birini dəstəkləyirlər. Bütün bu ilkin şərtlər, möhkəm siyasi əlaqələr, iqtisadi baxımdan qarşılıqlı maraqlar, maşınqayırma sahəsində layihələrin gerçəkləşdirilməsindən konkret nəticələrin əldə edilməsi şəraitində çox böyük potensial görürük. Bu imkanlardan istifadə etməmək və münasibətlərimizi irəlilətməmək yolverilməz olardı. Əminəm ki, bunun üçün bütün imkanlarımız vardır. Biz gələcəkdə də bütün məsələlər üzrə səmərəli qarşılıqlı fəaliyyət göstərəcək, müəyyənləşdirdiklərimizi operativ həll etmək üçün daim əlaqə saxlayacağıq.

Bir daha qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Sizi bir daha görməyimə çox şadam. Bizi çox möhkəm dostluq münasibətləri bağlayır və əminəm ki, dövlətlərimiz arasında münasibətlərdə onlar da mühüm rol oynayırlar. Şadam ki, nümayəndə heyətlərimizin üzvləri arasında da dostluğa və qarşılıqlı anlaşmaya əsaslanan möhkəm münasibətlər vardır. Bütün bunlar münasibətlərimizin irəliləməsi üçün məhz həmin zəruri fonu yaradır. Bir daha qonaqpərvərliyə görə təşəkkür edir və fəal əməkdaşlığımızın davam edəcəyinə ümid bəsləyirəm.

AZƏRBAYCAN-BELARUS SƏNƏDLƏRİNİN İMZALANMASI

Noyabrın 12-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko Birgə Bəyannaməni imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Belarusun təhsil naziri Aleksandr Radkov imzaladılar.

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi arasında 2010-2011-ci illərdə təhsil sahəsində əməkdaşlıq üzrə sazişin həyata keçirilməsi barədə Protokol"u Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Belarusun təhsil naziri Aleksandr Radkov imzaladılar.

"Azərbaycan Dövlət Sərhəd Xidməti və Belarus Respublikası Dövlət Sərhəd Komitəsi arasında əməkdaşlığa dair Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Belarusun xarici işlər naziri Sergey Martınov imzaladılar.

"Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Belarus Respublikasının Ədliyyə Nazirliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Belarusun xarici işlər naziri Sergey Martınov imzaladılar.

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında məxfi informasiyanın mühafizəsinin təmin edilməsində qarşılıqlı əlaqələrə dair Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Belarus Dövlət Təhlükəsizlik Komitəsinin sədri Vadim Zaytsev imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Noyabrın 12-də Belarus Respublikası Prezidentinin iqamətgahında Prezident Aleksandr Lukaşenkonun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar təşkil olunmuşdur.

Belarus Prezidenti Aleksandr LUKAŞENKO dövlətimizin başçısını salamlayaraq dedi:

- Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

Bu gün əməkdaşlığımız haqqında çox danışılmışdır. İntensiv əlaqələrimiz təkcə dövlət başçıları səviyyəsində deyil, həm də ticarət-iqtisadi münasibətlərə, birgə müəssisələrin yaradılmasına, tam siyasi dəstəyə, dünyanın inkişafı gündəliyinə vahid baxışa əsaslanır. Deməli, bizim aramızda, dövlətlərimiz arasında strateji tərəfdaşlıq qurulmuşdur. Elə bir sual yoxdur ki, biz onu Azərbaycan tərəfi qarşısında qoyaq və İlham Heydər oğlunun, Azərbaycan Prezidentinin dəstəyini almayaq.

Bizim heç bir dövlətlə belə münasibətlərimiz olmamışdır və yoxdur ki, razılığa gələk və Azərbaycanla olduğu kimi, hər şey həyata keçsin.

Aleksandr Lukaşenko xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan-Belarus münasibətlərinin yüksək səviyyəyə qalxması sahəsindəki xidmətlərini xatırladaraq dedi ki, məhz görkəmli dövlət xadimi Heydər Əliyevin həyata keçirdiyi tədbirlər sayəsində ölkələrimiz arasında əməkdaşlıq daha da genişlənmişdir. Hazırda Prezident İlham Əliyev əməkdaşlıq əlaqələrimizin inkişafına öz töhfəsini verir. İkitərəfli münasibətlərin səviyyəsindən danışan Belarus Prezidenti ölkəsinin Azərbaycanda bir çox layihələrdə yaxından iştirak etdiyini bildirdi. "Bu, hər iki ölkə arasında olan qarşılıqlı anlaşmanın nəticəsidir",- deyən Belarusun dövlət başçısı bildirdi ki, dost Azərbaycan zəngin sər-

vətlərə malikdir və bu da ölkənin daha da güclənməsinə, xalqın rifah halının yaxşılaşmasına xidmət edir.

* * *

Azərbaycan Prezidenti İlham ƏLİYEV təşəkkür edərək dedi:

- Hörmətli Aleksandr Qriqoryeviç!

Əziz dostlar!

Bir daha gözəl Belarus torpağına dəvətə görə Aleksandr Qriqoryeviçə səmimi qəlbdən təşəkkürümü bildirmək istəyirəm. Mənim ünvanıma, Azərbaycanın, Azərbaycan xalqının ünvanına dediyiniz xoş sözlərə görə Sizə çox minnətdaram.

Prezident İlham Əliyev dedi ki, dövlət başçılarının mütəmadi görüşləri, qarşılıqlı səfərləri ikitərəfli münasibətlərin inkişafına təkan verir. Ulu öndər Heydər Əliyevin xatirəsinə göstərdiyi ehtirama görə, Belarus Prezidentinə təşəkkür edən Azərbaycan dövlətinin başçısı ölkələrimizin müstəqilliyinin ilk illərində çətin sınaqlardan çıxdığını və uğurlu inkişaf yoluna qədəm qoyduğunu diqqətə çatdıraraq dedı:

- 1993-cü ildən, Heydər Əlirza oğlu hakimiyyətə gələn kimi tərəqqi, inkişaf başlandı. Bu gün biz əminliklə gələcəyə baxa bilərik. Mən burada üç il əvvəl olmuşam. Mən dəyişiklikləri, qayda-qanunu, yaşayış səviyyəsini görürəm. Bizi çox şey birləşdirir. İlk növbədə, bu, öz xalqına sədaqət, gələcək nəsillər qarşısında məsuliyyət, qarşıda duran məqsəddir. Məqsəd dövlətin, ölkənin müstəqilliyinin möhkəmləndirilməsi, inkişaf etmiş, dinamik, yüksək səviyyəyə və yaşayış keyfiyyətinə malik cəmiyyət qurmaqdır.

Demək istəyirəm ki, münasibətlərimizə strateji tərəfdaşlıq kimi qiymət verməyinizlə tamamilə razıyam. Biz buna nisbətən qısa vaxtda nail olmuşuq. Bunu qeyd etmək mənə də çox xoşdur. Bizim ikitərəfli münasibətlərimiz nadir münasibətlərdir. Bütün məsələlər hər hansı bürokratiyasız, ləngiməsiz, operativ, səmərəli və etibarlı şəraitdə həll edilir. Mən çox şadam ki, bizim aramızda belə şəxsi dostluq münasibətləri yaranmışdır. Bu, ikitərəfli münasibətlərimizin bütün spektrinə sirayət edir. Biz ticarət dövriyyəsinin artmasını, siyasi sahədə qarşılıqlı fəaliyyəti, birgə həyata keçirdiyimiz layihələrin konkret nəticələrini görürük və artıq gələcək üçün perspektiv planlar qururuq.

Sonda Prezident İlham Əliyev dost Belarus xalqına rifah, əmin-amanlıq, sabitlik və çiçəklənmə arzuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNSKİN "QƏLƏBƏ" MEYDANINDAKI ABİDƏNİ ZİYARƏT ETMİŞDİR

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Minsk şəhərinin "Qələbə" meydanında azadlıq rəmzi kimi ucaldılmış abidəni ziyarət etmişdir.

Meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Azərbaycanın və Belarusun dövlət himnləri səsləndi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ BELARUS DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU ADI VERİLMİŞDİR

Noyabrın 12-də Belarusda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Dövlət Universitetində olmuşdur.

Salona toplaşanlar - Universitetin professor-müəllim heyəti və tələbələri Azərbaycan Prezidentini sürəkli alqışlarla qarşıladılar.

Elmi Şuranın iclasını açan Belarus Dövlət Universitetinin rektoru Sergey ABLAMEYKO dedi:

- İcazə verin, Belarus Dövlət Universitetinin müəllimləri, əməkdaşları və tələbələri adından Azərbaycan Respublikasının Prezidenti, siyasi elmlər doktoru, professor İlham Heydər oğlu Əliyevi universitetimizdə salamlayım. Bu gün mənə Azərbaycan Respublikasının Prezidentinə, qonaqlarımıza belə bir məlumat çatdırmaq şərəfi qismət olmuşdur ki, Belarus Dövlət Universitetinin Elmi Şurasının bu ilin 30 oktyabr tarixli qərarı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə Belarus Dövlət Universitetinin fəxri professoru adı verilmişdir.

İcazə verin, İlham Heydər oğlu Əliyevin qısa tərcümeyi-halını oxuyum.

***

Rektor dövlətimizin başçısının tərcümeyi-halını oxudu.

Sonra Belarus ilə Azərbaycan arasında münasibətlərin inkişafına, tarix və siyasi elmlərə töhfəsinə görə Prezident İlham Əliyevə Belarus Dövlət Universitetinin fəxri professoru adı verilməsi münasibətilə mərasim keçirildi.

Universitetin rektoru Sergey Ablameyko Azərbaycan Prezidenti İlham Əliyevə Belarus Dövlət Universitetinin fəxri professoru diplomunu, mantiyasını və digər nişanlarını təqdim etdi.

Milli geyimli qızlar Azərbaycan dövlətinin başçısına gül dəstələri təqdim etdilər

***

Prezident İlham ƏLİYEV universitetin professor-müəllim heyəti və tələbələri qarşısında mühazirə ilə çıxış edərək dedi:

- Əziz dostlar!

İlk növbədə, fəaliyyətimə verilən belə yüksək qiymətə, mənə BDU-nun fəxri professoru adı verilməsinə görə Belarus Dövlət Universitetinin rəhbərliyinə təşəkkürümü bildirmək istəyirəm. Bu, mənim üçün böyük şərəfdir. Buna görə, ölkələrimiz arasında ikitərəfli əlaqələri möhkəmləndirmək üçün gələcəkdə də fəal işləməyi özümə borc bilirəm.

Son bir neçə ildə Belarus ilə Azərbaycan arasında münasibətlər çox sürətlə inkişaf etmiş, qarşılıqlı iqtisadi fəaliyyətdə böyük uğurlar qazanılmış, ölkələrimizi bir-birinə daha da yaxınlaşdıran çoxlu müştərək layihələr həyata keçirilmişdir. Mən üç il bundan əvvəl sizin ölkənizə özümün ilk rəsmi səfərimi böyük səmimiyyətlə xatırlayıram. Həmin səfər vaxtı, habelə 2007-ci ildə Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenko-

nun Azərbaycana səfəri dövründə əldə etdiyimiz razılaşmalar uğurla həyata keçirili
Biz nəzərdə tutduqlarımızın hamısını yerinə yetirmişik. Bu gün, sizin ölkəyə məni
ikinci rəsmi səfərimin gedişində biz, bir tərəfdən, görülmüş işləri təhlil etdik, ən başl
cası isə, münasibətlərimizin gələcək inkişaf yollarını müəyyənləşdirdik.

Üç ildə Azərbaycan Prezidentinin Belarusa ikinci dəfə rəsmi səfər etməsi faktının öz
bizim münasibətlərin səviyyəsinə, xarakterinə, onların dinamizminə və intensivliyin
dəlalət edir. Təbii ki, bunlar ölkələrimiz arasında bütün sahələrdə fəal qarşılıqlı əlaq
lər fonunda baş verir. Çox fəal siyasi dialoq aparılır. Həm rəsmi səfərlər, həm də müxt
lif beynəlxalq forumlar çərçivəsində yüksək səviyyədə müntəzəm görüşlər keçirili
Hökumətlərarası komissiya ölkələrimiz arasında fəal iş aparır. Bu komissiya çərçivəsi
də iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinə dair çox mühüm məsələlər həll edili
Humanitar sahədə əməkdaşlıq çox intensiv inkişaf edir. Bu gün biz həm Belarusda, hə
də Azərbaycanda təhsil məsələlərinə çox böyük diqqət yetirildiyini nəzərə alaraq, hə
min sahədə münasibətlərin daha da inkişaf etdirilməsi imkanlarını müzakirə etmişik.

Beləliklə, biz ikitərəfli münasibətlərimizdə çox geniş spektrli məsələləri əhatə edir
və ən başlıcası, bütün qərarları operativ həyata keçiririk. Bu əməkdaşlığın əyani nümu
nələrindən biri kimi, Gəncədə traktor zavodu - Belarus ilə Azərbaycan arasında müşt
rək istehsalat yaradılmasını tez-tez misal çəkirik. Bu layihə barədə qərar qəbul edilmə
ilə onun həyata keçirilməsi cəmi bir neçə ay çəkmişdir. Artıq iki ildən çoxdur ki, zavo
uğurla fəaliyyət göstərir, gözəl məhsul istehsal edir, Azərbaycan fermerlərini zəru
kənd təsərrüfatı texnikası ilə təmin edir. Biz artıq, başqa ölkələrin bazarlarına birlikd
çıxmaq barədə də fikirləşirik.

Bu, xüsusi, lakin çox əyani misaldır. Bu misal, əvvələn, ölkələrimiz arasında iqtisa
münasibətlərin nə qədər əhəmiyyətli olmasını və ikincisi, hər iki ölkədə qərarın qəb
edilməsi ilə onun icrası arasında dəqiq əlaqə olmasını göstərir. Çox vaxt belə də olur k
yaxşı qərarlar qəbul edilir, lakin onların icrası ya illər boyu yubadılır, ya da ümumiyyə
lə, yerinə yetirilməmiş qalır. Bizə gəldikdə isə, nəzərdə tutduqlarımızın hamısını həy
ta keçirmişik.

Bu gün biz artıq mövcud olan bazada, habelə fəaliyyətimizin digər sahələrində, iqtis
diyyat sahəsində yeni layihələrdən danışırıq. Kənd təsərrüfatı, turizm, sənaye istehsal
nəqliyyat, energetika ilə bağlı məsələlər bu gün ətraflı müzakirə olunmuş, nümayənd
heyətlərimizin üzvlərinə müvafiq tapşırıqlar verilmişdir. Ümidvaram ki, Belarus Prez
dentinin Azərbaycana növbəti səfərinədək əldə edilmiş razılaşmalar çərçivəsində ye
nəticələrimiz olacaqdır. Başqa sözlə, münasibətlərimizin necə inkişaf etməsindən ço
razıyam. Onlar çox nümunəvidir. Onlar, həmçinin regional münasibətlərin inkişafına d
kömək edir. Biz bir-birimizə çox yaxın yerləşməsək də, Belarusun öz regionunda v
Azərbaycanın Cənubi Qafqaz və Xəzər regionunda fəal rolu həm siyasi sabitliyin, hə
də iqtisadi sahədə qarşılıqlı fəaliyyətin mühüm amilidir.

Beləliklə, bu gün ölkələrimiz arasında ikitərəfli münasibətlərdən danışarkən biz uğurla
görürük, nəticələr görürük, habelə perspektivləri dəqiq görürük. Bununla əlaqədar
ümidvar olduğumu bildirmək istəyirəm ki, ölkələrimiz arasında humanitar sahədə əla
qələr müvəffəqiyyətlə inkişaf edəcəkdir. Mən artıq qeyd etdim ki, bu gün biz həmi
mövzunu müzakirə etdik, habelə tələbələrimizin hər iki ölkənin ali məktəblərində təh

sil alması imkanlarını da müzakirə etdik.

Azərbaycanda tələbələrimizin dünyanın aparıcı ali məktəblərində təhsil almasına dair Dövlət Proqramı həyata keçirilir. Bu məqsədlər üçün Dövlət Fondundan vəsait ayrılır və beləliklə, ölkəmizin bir neçə min gənc vətəndaşı keyfiyyətli təhsil almaq imkanı qazanır. Bu, peşəkar kadrlar hazırlığı istiqamətində mühüm addımlardan biridir, lakin təbii ki, biz ölkəmizdə təhsilin səviyyəsinin ehtiyaclarımıza, Azərbaycanın inkişaf edən iqtisadiyyatının ehtiyaclarına, həmçinin dünya standartlarına uyğun olmasına çalışmalıyıq. Bu baxımdan, əlbəttə, ölkələrimiz arasında bu sahədə ikitərəfli münasibətlərin mühüm əhəmiyyəti vardır. Müəllimlik fəaliyyəti ilə bağlı olduğum üçün, - ömrümün çox hissəsi ali məktəblə bağlı olmuşdur, - mən ali məktəbin problemlərini, habelə hər bir ölkənin inkişafı üçün təhsilin əhəmiyyətini yaxşı bilirəm. Bu gün keyfiyyətli təhsil olmadan heç bir ölkənin uğurlu inkişafı mümkün deyildir. Çünki yaxşı biliklər, vərdişlər, peşəkarlıq olmadan, bu gün həyatda öz yerini tapmaq çətindir. Buna görə də dövlət yaxşı şərait yaratmağa, gənclər isə, əlbəttə, təhsilə məsuliyyətlə yanaşmağa çalışmalıdırlar. Çünki bu, təkcə diplom və ali təhsilli insanın hər hansı statusu deyildir, bu, zərurətdir, həyatda böyük uğurlar qazanmağın əsas şərtidir.

Biz Azərbaycanda bu məsələyə çox böyük diqqət yetiririk. Azərbaycanda təhsil üçün xərclər ilk yerlərdən birini tutur. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün də tədbirlər görülür, onun maddi-texniki bazası təkmilləşdirilir. Son beş ildə Azərbaycanda ən müasir standartlara uyğun 1800 yeni məktəb tikilmiş, onlar kompyuterləşdirilmiş, İnternet şəbəkəsinə qoşulması üçün fəal iş aparılır. Artıq virtual təhsilin yeni formaları tətbiq edilməyə başlanmışdır. Başqa sözlə desək, fikrimcə, ölkələrimiz arasında bu istiqamətdə müzakirələr aparmağa, təcrübə mübadiləsinə və gələcək qarşılıqlı fəaliyyətimizin yollarının müəyyən edilməsinə ehtiyac vardır.

Əlbəttə, bu barədə danışarkən ölkələrimizi bir-birinə bağlayan bütün başqa əməkdaşlıq sahələrini də yaddan çıxarmaq olmaz. Əməkdaşlıq olduqca çoxşaxəlidir və qeyd etməliyəm ki, biz nisbətən qısa müddətdə çox şeyə nail ola bilmişik. 2006-cı ilə qədər bizim Belarusda, Belarusun isə Azərbaycanda səfirliyi yox idi. 2006-cı il bizim münasibətlərin inkişafında bir növ dönüş ili oldu və biz qısa müddətdə dinamik inkişafın şahidi olduq. Bu gün Belarus Prezidenti ilə görüşdə də qeyd etdik ki, iqtisadi böhrana baxmayaraq, ölkələrimiz arasında əmtəə dövriyyəsi artır. Bu, çox nadir hallardan biridir: 2009-cu ildə ikitərəfli ticarətdə əmtəə dövriyyəsi azalmır, əksinə, artır. Bu, yaxşı potensial olduğunu göstərir.

Ümumiyyətlə, ölkəmiz haqqında danışarkən qeyd etməliyəm ki, son illərdə Azərbaycan böyük yol keçmişdir - modernləşmə yolu, inkişaf yolu, bu gün ölkəmizin gələcəyə inamla baxmasına imkan vermiş yol. Biz özümüzü təmin etmək iqtidarında olan ölkəyik. Son illərdə iqtisadi inkişaf bir sıra sosial problemləri həll etməyə imkan vermişdir. Qeyd etməliyəm ki, 2004-2008-ci illərdə Azərbaycanda iqtisadi artım göstəricisi dünyada bəlkə də ən yüksək göstərici olmuşdur. Ölkəmizin iqtisadiyyatı 2,6 dəfə, sənaye istehsalı 2,5 dəfə artmışdır. İşsizliyə demək olar ki, son qoyulmuşdur. Özəl sektor çox güclü inkişaf etmişdir və bu gün bizim iqtisadiyyatda özəl sektorun payı təxminən 85 faizə bərabərdir. Sosial infrastruktur, təhsil, səhiyyə üçün olduqca çox vəsait və sərmayə ayrılmışdır. Azərbaycan Ordusunun müdafiə qabiliyyətini möhkəmlətmək üçün olduqca çox

iş görülmüşdür. Başqa sözlə desək, güclü iqtisadi artım iqtisadiyyatı şaxələndirməyə və çox səmərəli sosial siyasət həyata keçirməyə, habelə, Azərbaycanın iqtisadi təhlükəsizliyini və iqtisadi müstəqilliyini tamamilə təmin etməyə imkan vermişdir.

Təbii ki, iqtisadi müstəqillik dövlətin milli mənafelərə əsaslanan müstəqil kurs, siyasə yeritməsinə imkan yaradan təməldir. Əlbəttə, iqtisadi nailiyyətlər regional əhəmiyyətl məsələləri həll etməyə imkan verir. Azərbaycan bir çox regional iqtisadi layihələrdə sərmayədar kimi iştirak edir. Artıq ölkəmizdən kənarda sərmayələr yatırırıq və bu gün müxtəlif sahələrə - nəqliyyat, energetika sahələrinə birgə sərmayələrin yatırılması im kanlarını müzakirə etmişik. Beləliklə, son illər görülən böyük işlər hətta böhran şəra itində 2009-cu il üçün nəzərdə tutulmuş bütün planları həyata keçirməyə imkan verir.

Əlbəttə, böhran hamıya təsir etmişdir. Buna baxmayaraq, deməliyəm ki, Azərbaycand bu il iqtisadiyyatın artımı təmin edilmişdir. 2009-cu ilin ilk on ayının yekunlarına görə ümumi daxili məhsul 8,4 faiz, sənaye istehsalı 7,3 faiz artmışdır. Əlbəttə, əvvəlki illəri artım sürəti ilə müqayisədə bu, xeyli azdır. Lakin böhran şəraitində yaşamağımızı nəzə rə alsaq, zənnimcə, bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir.

Biz iqtisadi islahatları, iqtisadiyyatımızın liberallaşmasına kömək edən islahatları fəa həyata keçiririk. Sahibkarlığa kreditlərin müxtəlif növləri ilə, biznesin yaradılması pro sedurlarının, müxtəlif icazələrin alınması prosedurlarının sadələşdirilməsi ilə yardım edilir. Azərbaycan iqtisadiyyatı artıq rəqabət qabiliyyətlidir və bu reytinqə görə, biz re gion ölkələri arasında ön mövqelərdəyik. Əlbəttə, ölkəmizin inkişafında neft-qaz amil mühüm rol oynamışdır. Azərbaycan XIX əsrdə neftin dünyada ilk dəfə sənaye üsulu ilə habelə dünyada ilk dəfə dəniz yataqlarında hasil edildiyi ölkədir. Bir neçə gün bundan əvvəl biz əlamətdar yubileyi - dənizdə, məşhur Neft daşlarında neft hasilatına başlan masının 60 illiyini qeyd etdik. Bu, dünyada dəniz yataqlarından çıxarılmış ilk neft id Ölkəmizin müstəqilliyinin ilk illərində vəziyyət çox çətin olsa da, iqtisadi, siyasi v hərbi sahələrdə total böhran müşahidə edilsə də, - vətəndaş müharibəsi gedirdi, əraz lərimiz Ermənistan tərəfindən işğal olunurdu, - 1990-cı illərin ortalarından başlayara həyata keçirilən fəal neft diplomatiyası və siyasəti, demək olar ki, bütün məsələlər özümüzün enerji təhlükəsizliyimizin, habelə qonşularımızın və tərəfdaşlarımızın ener təhlükəsizliyinin təmin edilməsi məsələlərini həll etməyə imkan verdi.

Bu gün bizim ən müasir nəqliyyat infrastrukturumuz, ən müasir neft və qaz kəmərlə şəbəkəmiz, ən müasir neft platformalarımız, neft terminallarımız vardır. "Azəri-Ç raq-Günəşli" yatağı ölkəmizin, habelə regionun ehtiyaclarını tam təmin edən dünyad ən böyük yataqdır. Bu il Azərbaycanda neft hasilatının həcmi təxminən 50 milyon ton qaz hasilatının həcmi 25 milyard kubmetr olacaqdır. Bu isə əhəmiyyətli iqtisadi re sursdur.

Təbii ki, biz nəql marşrutlarının şaxələndirilməsinin tərəfdarıyıq və praktiki olaraq b məsələni təmin etmişik. Bu gün neft və qaz ehtiyatlarımızı bütün istiqamətlərə nəq edən yeddi neft və qaz kəmərimiz vardır. Başqa sözlə desək, biz hər hansı bir bazardan yaxud hər hansı bir tranzit ölkədən asılı deyilik. Təbii ki, bizim tranzitə ehtiyacımız var dır. Çünki dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Lakin 1990-cı və 2000-ci illərd görülmüş işləri nəzərə alsaq, biz enerji nəqlinin tamamilə şaxələndirilməsini təmin e mişik. Bu da iqtisadiyyatı tamamilə şaxələndirməyimizə imkan vermişdir. Beləliklə

hətta son dövrdə neftin qiymətinin çox kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, bu il də Azərbaycan iqtisadiyyatının artımı kifayət qədər sanballı olmuşdur.

Başqa sözlə desək, iqtisadi islahatlar, fəal sosial siyasət, dövlətçiliyin möhkəmləndirilməsi, fəal diplomatiya bizə həm sosial-iqtisadi inkişaf baxımından, həm də xarici siyasətin prioritetləri baxımından nəzərdə tutduğumuz bütün məqsədlərə nail olmağa imkan vermişdir. Təbii ki, əgər ölkədə bütün məsələlərə dair vətəndaş konsensusu, sabitlik olmasaydı, hadisələrin gedişini qabaqcadan duymaq imkanı və bununla yanaşı, hər bir insanın istənilən sahədə öz bacarığını gerçəkləşdirməsi üçün imkan olmasaydı, bütün bunlar mümkün olmazdı.

Bizim qarşılaşdığımız problemlərə gəldikdə isə, iqtisadi və sosial problemlər dediyim kimi, uğurla həll edilir. Yaxın bir neçə ildə - 2013-cü ilə qədər biz ölkəmizdə mövcud iqtisadi və sosial problemlərin demək olar ki, hamısını həll etmək niyyətindəyik. Tammiqyaslı regional inkişaf üçün əsas manea, əlbəttə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməməsidir. Bizi bu münaqişəyə zorla cəlb ediblər. Bu münaqişəni bizə hələ Sovet İttifaqının dağılması ərəfəsində zorla qəbul etdiriblər. O vaxt Dağlıq Qarabağda separatçı meyillər təəssüf ki, üstün gəlmiş və Ermənistan tərəfindən fəal hərbi yardım göstərilməklə Azərbaycana qarşı müharibə başlanmış, azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, nəticədə bizim bir milyondan çox həmvətənimiz qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ərazimizin təqribən 20 faizi işğal altındadır. İşğal edilmiş ərazilərdə hər şey - evlər, məktəblər, xəstəxanalar, bizim qəbiristanlar, məscidlər dağıdılmışdır. Bütün tarixi abidələrimiz ya dağıdılmış, ya da oğurlanıb talan edilmişdir və bu, artıq 20 ilə yaxındır ki, davam edir. BMT-nin Təhlükəsizlik Şurası - bu ali beynəlxalq instansiya erməni işğalçı qüvvələrinin bizim ərazilərdən dərhal və danışıqsız çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq, - həmin qətnamələr 1990-cı illərin əvvəlində qəbul edilmişdir, - onlar yerinə yetirilmir. Beləliklə, beynəlxalq hüququn əsas prinsipi pozulur. Ölkəmizin ərazi bütövlüyü pozulmuşdur və bu məsələni dinc yolla həll etmək üçün göstərilən bütün cəhdlər təəssüf ki, nəticəsiz qalır. Bu məsələ ilə beynəlxalq vasitəçilər qrupu məşğul olur. Onların bütün fəallığına baxmayaraq, biz nəticə görmürük. Bizim insanlar isə öz yurdlarından məhrum olmuşlar. Onlar ən adi insan hüquqlarının pozulması şəraitində, işğalın, torpaqlarımızın qanunsuz işğalının davam etməsi şəraitində yaşayırlar.

Biz ədalətin, qanunçuluğun bərpa edilməsinə, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsinə nail olmaq və dövlətimizin ərazi bütövlüyünü təmin etmək üçün diplomatik, siyasi, iqtisadi və digər tədbirlərimizi davam etdiririk. Erməni tərəfinin tez-tez istinad etdiyi xalqların öz müqəddəratını təyin etmək hüququ məsələsinə gəldikdə isə, bu hüquq vahid Azərbaycan dövləti çərçivəsində, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi çərçivəsində uğurla həyata keçirilə bilər. Başqa sözlə desək, erməni xalqı öz müqəddəratını təyin etmişdir, müstəqil erməni dövləti vardır. Lakin əgər onlar erməni diasporunun yaşadığı yerlərin hamısında öz müqəddəratını təyin etmək istəsələr, onda yəqin ki, dünyada ən azı 20 erməni dövləti olar.

Beləliklə, ən böyük ədalətsizlik olan, yüz minlərlə həmvətənimizi əziyyətə salan bu məsələnin həll edilməsi Cənubi Qafqaz regionunda və daha geniş mənada bizim regionda bir çox məsələləri tənzimləməyə imkan verər. Bu məsələ tənzimlənmədən regional

və ya ikitərəfli xarakterli hər hansı başqa təşəbbüslərin gerçəkləşməsi mümkün dey
dir.

Mən bu mövzu üzərində ona görə bir qədər ətraflı dayandım ki, bir tərəfdən, bu məsəl
lər barəsində öz mövqeyimi və öz baxışımı ifadə edim, habelə bütün Qafqazda, büt
Qafqaz regionunda vəziyyətin sabitləşməsi üçün həmin məsələnin nə dərəcədə vac
olduğunu vurğulayım.

Gələcək planlarımızla əlaqədar deməliyəm ki, biz gələcəyə nikbin baxırıq. Dağlıq Q
rabağ məsələsinin həll ediləcəyinə mənim zərrə qədər şübhəm yoxdur. Sadəcə olar
bu, vaxt məsələsidir. Biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik. Biz sülhsev
dövlətik və bunun üçün mümkün olan hər şeyi edirik. Təbii ki, bununla bərabər, biz ba
düşürük ki, dövlət nə qədər güclü olsa, onunla bir o qədər çox hesablaşacaqlar, ona bi
qədər çox hörmət edəcəklər və bu dövlətin öz milli mənafelərini təmin etmək üçün bi
qədər çox imkanı olacaqdır. Buna görə də biz güclü dövlət yaratmaq üçün işləmişi
zəhmət çəkmişik. Bu məsələdə bizə heç kəs kömək etməmişdir. Yəqin ki, biz kənard
ciddi dəstəyə malik olmayan, - mən maliyyə dəstəyini nəzərdə tuturam, - azsaylı ölk
lərdən biriyik. Biz nəyə nail olmuşuqsa, Azərbaycan xalqının əməyi ilə nail olmuşuc

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa edəndə biz Sovet İttifaqı məkanında
pis vəziyyətdə idik. İqtisadiyyat tamamilə dağılmışdı. Neft hasilatının həcmi təxmin
10 milyon ton həddində idi. Sənaye praktik olaraq iflic vəziyyətinə düşmüşdü. Ölkə
vətəndaş müharibəsi gedirdi. İşğalçı erməni qüvvələri fürsətdən istifadə edərək Azə
baycanın əzəli torpaqlarını ələ keçirirdi. Siyasi hərc-mərclik, Konstitusiyaya zidd ol
qanunsuz silahlı dəstələrin özbaşınalığı hökm sürürdü. Mahiyyətcə vəziyyət idarəolu
maz idi.

Bu gün bizim dinamik inkişaf edən, özü-özünü təmin etməyə qadir olan, səmərəli iqtis
di islahatlar həyata keçirən, regionda, habelə dünya miqyasında yaxşı mövqelərə mal
olan, çoxlu dostları olan, - Belarus da bu dostlar sırasındadır, - gələcəyə nikbinliklə b
xan dövlətimiz vardır. Biz bir ölkədə yaşamışıq. Biz hamımız demək olar ki, eyni vaxt
müstəqil olmuşuq və hər şey bizdən, rəhbərlərin müdrikliyindən, xalqların iradəsind
və seçilmiş kursun düzgünlüyündən asılı idi. Bu gün biz Belarus və Azərbaycan tims
lində görürük ki, hər şey düzgün edilmişdir, hər şey necə lazımdırsa elə edilmişdir. Hə
çənd bəzən bunlar kimlərinsə xoşuna gəlməyə bilərdi. Bəzən biz müstəqil ölkələr ki
hələ lap gənc olarkən müəyyən tövsiyələr, müəyyən məsləhətlər eşidirdik. Lakin h
mişə onlara öz ölkələrimizin milli mənafeləri baxımından, məqsədəuyğunluq baxımı
dan yanaşırdıq. Biz heç vaxt hər hansı sərəncamlara və ya direktivlərə kor-koranə riay
etməmişik. Xalqlarımızın tarixində belə halların sayı təəssüf ki, hədsiz çox olmuşdu
Biz özü-özünü təmin etmək iqtidarında olan müasir dövlətlər yaradılması üzərində işl
mişik və mənim fikrimcə, Belarus ilə Azərbaycan arasında bu cür yüksək səviyyəli e
mad və qarşılıqlı rəğbətin olmasının bir səbəbi də ondan ibarətdir ki, biz müstəqilliyim
zi çox yüksək qiymətləndiririk və bu müstəqilliyi möhkəmlətmək üçün, o cümlədə
ikitərəfli əlaqələri inkişaf etdirməklə hər şeyi edirik.

Fürsətdən istifadə edib Belarus xalqına, ölkənizin bütün vətəndaşlarına firavanlıq, t
rəqqi, Belarus Dövlət Universitetinə yeni uğurlar arzulamaq istəyirəm. İndi mənim
bu ali məktəbə aidiyyətim olduğu üçün öz tərəfimdən bizim təhsil müəssisələri arası
da əlaqələrin möhkəmlənməsi, bizim insanların bir-birini daha yaxşı tanımaları, tez-t

bir-birinə qonaq getmələri, gənclərin bizim nəsildən nümunə götürərək dostluq etmələri üçün lazım olan hər şeyi etməyə çalışacağam.

Mənə verdiyiniz yüksək qiymətə görə bir daha sağ olun və sizə ən xoş arzularımı bildirirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

***

Sonra Azərbaycan dövlətinin başçısı Belarus Dövlət Universitetinin tələbələrinin suallarına cavab vermişdir.

SUAL: Cənab Prezident, mənim sualım belədir: bu gün Belarus iqtisadiyyatı xeyli dərəcədə enerji daşıyıcılarının bir mənbədən idxalından asılıdır. Bu isə dövlətin enerji təhlükəsizliyi üçün qorxuludur. Əbəs yerə deyildir ki, Belarus dövlətinin Prezidenti Lukaşenko enerji təhlükəsizliyi məsələlərini bilavasitə ölkəmizin suverenliyi və müstəqilliyi ilə bağlayırdı. Eyni zamanda, Azərbaycanın nəinki onun daxili tələbatını ödəməyə, həmçinin onu xarici bazara çıxarmağa imkan verən yanacaq-energetika xammalı ehtiyatları vardır. Zəhmət olsa deyin, Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında energetika sahəsində, hasilat, tranzit, yanacaq-energetika emalı məsələləri ilə bağlı əməkdaşlığın hansı perspektivləri vardır?

İLHAM ƏLİYEV: Biz bu gün və əvvəllər də bu mövzunu təbii ki, müzakirə etmişik və belə rəyə gəlmişik ki, energetika sahəsində əməkdaşlığı inkişaf etdirməliyik. Sizin dediyiniz kimi, tələbat da və təklif də vardır. Başlıca vəzifə əməkdaşlığın daha səmərəli olması üçün bu iki məqamı birləşdirməkdir. Mən çıxışımda qeyd etdim ki, bizim çox geniş neft və qaz kəmərləri şəbəkəmiz vardır. Neft kəmərlərinə gəldikdə isə, neftimiz xammal şəklində üç boru kəməri ilə nəql edilir. Onlardan ikisi Qara dənizə, biri isə Aralıq dənizinə gedir. Təbii ki, biz istehlakçılarımızın əhatə dairəsinin maksimum artmasının tərəfdarıyıq. Hazırda Azərbaycan nefti həm Asiyada, həm Latın Amerikasında, həm ABŞ-da, həm də onlara yaxın regionlarda satılır. Düşünürəm ki, səmərəlilik baxımından nəqliyyat şəbəkəsi bunu məqsədəuyğun edəcəkdir. Əgər biz Aralıq dənizinə, Amerika qitəsinə neft satırıqsa, onda, təbii ki, onu Qara dənizdən, Qara dənizdəki terminallarımızdan Avropa qitəsinə də səmərəli şəkildə sata bilərik. Avropanın bir çox ölkələri bizim istehlakçılarımızdır. Azərbaycan neftinin çox hissəsi Avropa İttifaqı ölkələrinə, Avropa ölkələrinə satılır.

Biz bu məsələni ətraflı müzakirə etdik və energetika nazirlərinə onun üzərində ətraflı işləmək və bu əməkdaşlığı hansı formada qurmağın mümkün olduğunu araşdırmaq barədə müvafiq tapşırıqlar verdik. Biz şaxələnmədə də maraqlıyıq. İstehlakçı bir mənbədən asılı olmaq istəmədiyi kimi, istehsalçı da bir tranzitçidən, yaxud bir yoldan asılı olmaq istəmir. Odur ki, burada əməkdaşlıq perspektivləri vardır və bu baxımdan, konkret tapşırıqlar verilmişdir. Biz nəticələri gözləyirik və düşünürəm ki, nəyə nail olduğumuz yaxın vaxtlarda bilinəcəkdir.

SUAL: Siz və ölkəniz "Şərq tərəfdaşlığı" Proqramının həyata keçirilməsindən nə gözləyirsiniz? "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Azərbaycan ilə Belarus hansı sahələrdə əməkdaşlıq edə bilər?

İlham ƏLİYEV: Düzdür, bu, nisbətən yeni təşəbbüsdür. Lakin Avropa İttifaqı ilə bizim

region arasında layihələrin həyata keçirilməsi meyilləri müəyyən müddət mövcud o muşdur. 2006-cı ildən Azərbaycan Avropa İttifaqının Yeni Qonşuluq Proqramının işt rakçısıdır. Beləliklə, "Şərq tərəfdaşlığı" Proqramı müəyyən mənada həmin meyilin d vamıdır. Biz onu alqışlayırıq. Artıq qeyd etdiyim kimi, bizim Avropa İttifaqı ölkələri i çox sıx iqtisadi əlaqələrimiz vardır. Onlar bizim enerji ehtiyatlarının neft sarıdan əsas i tehlakçılarıdır. Qaza gəldikdə isə, biz qaz nəqlinin də şaxələndirilməsi üzərində işləy rik və bu gün öz qazımızı xarici bazarlara satırıq. Lakin təbii ki, biz qazın nəqlini geni ləndirmək istəyirik, xüsusən ona görə ki, həm qonşu ölkələrdə, həm də Avropa İttifa ölkələrində bizim qaza tələbat vardır.

Avropa İttifaqına daxil olan bütün ölkələrlə münasibətlərimiz siyasi baxımdan çox ya şıdır, uzunmüddətli və səmərəlidir. Əlbəttə, "Şərq tərəfdaşlığı" Proqramının üzvü ola hər bir ölkənin nəticə kimi nə əldə etmək istədiyi barədə öz təsəvvürü və öz planla vardır. Bizə gəldikdə, mən belə deyərdim: bu, iqtisadi amillərlə bağlı deyildir, bizim iq tisadi köməyə ehtiyacımız yoxdur. Bizim ölkədə daxili siyasi vəziyyətə gəldikdə isə deyirəm, bu vəziyyət sabitdir, ölkəmizin inkişafı məsələsində cəmiyyətdə həmrəyli vardır.

Buna görə də biz məhz insanlar arasında əlaqələrin möhkəmlənməsində daha çox ma raqlıyıq. Əlbəttə, enerji amili həmişə mühüm rol oynayacaqdır və bu mənada da bizi maraqlarımız üst-üstə düşür. Çünki Avropa enerji ehtiyatlarının böyük istehlakçısıdı Azərbaycan çox böyük neft-qaz ehtiyatlarına malikdir. Bu ehtiyatlar ən azı yaxın yüz i də regionun enerji təhlükəsizliyini təmin edəcəkdir. Bu məlumatlar ehtiyatların təsdi lənmiş minimal həcminə əsaslanır. Buna görə də enerji amili mühüm rol oynayacaqdı Biz buna hazırıq və buna şadıq. Lakin biz istərdik ki, energetika çərçivələrindən kənar da inteqrasiya təşəbbüsləri ilə əlaqədar proseslər daha çox olsun. Buraya mədəni müba dilə, Avropa İttifaqı ölkələrinə gediş-gəlişin nisbətən asan olması, viza rejimi ilə bağ məsələlər daxildir. Hesab edirəm ki, həmin məsələlər artıq "Şərq tərəfdaşlığı" səviy yəsində daha fəal həll edilməlidir.

"Şərq tərəfdaşlığı" çərçivəsində bizim ölkələr arasında münasibətlərə və qarşılıqlı fə aliyyətə gəldikdə isə, mən elə güman etmirəm ki, "Şərq tərəfdaşlığı" ikitərəfli əlaqələ üçün ən mühüm formatdır. Hər halda biz "Şərq tərəfdaşlığı"nda iştirak məsələsin Azərbaycan ilə "Şərq tərəfdaşlığı"nın digər üzvləri arasında deyil, Azərbaycan ilə Av ropa İttifaqı arasında əməkdaşlıq imkanı hesab edirik. Bizim ikitərəfli münasibətlərimi isə hər hansı beynəlxalq təşkilatların hər hansı çərçivələri ilə məhdudlaşmamalıdı Mənim fikrimcə, ölkələrimiz arasında yaranmış siyasi və iqtisadi münasibətlərin səviy yəsi bu tezisin doğruluğunu sübut edir. Biz ikitərəfli planda işləməli, hər iki ölkənin mə nafelərini ikilikdə təmin etməli və ölkələrimizin daha da yaxınlaşması istiqamətində ça lışmalıyıq.

"AQAT" ELM-İSTEHSALAT BİRLİYİ İLƏ TANIŞLIQ

Noyabrın 12-də Belarus Dövlət Universitetində görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev Minsk şəhərindəki "Aqat" Elm-İstehsalat Birliyi ilə tanış ol muşdu

SƏFƏR BAŞA ÇATDI

Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasına rəsmi səfərini başa çatdıraraq Bolqarıstana işgüzar səfərə yola düşmüşdür.

Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş Minsk milli hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Belarusun Baş naziri Sergey Sidorski və digər rəsmi şəxslər yola saldılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTANA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Bolqarıstan Respublikasında işgüzar səfərdə olmuşdur.

Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş Sofiya Beynəlxalq hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdür.

Prezident İlham Əliyevi Bolqarıstan Respublikasının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN GÖRÜŞÜ

Noyabrın 13-də Sofiyada, Prezident Administrasiyasında Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pırvanovun görüşü olmuşdur.

Əvvəlcə prezidentlər İlham Əliyev və Georgi Pırvanov rəsmi foto çəkdirdilər.

Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu.

İqtisadi əlaqələrin, o cümlədən enerji sahəsində əməkdaşlığın perspektivləri müzakirə edildi. Dövlət başçıları Azərbaycan-Bolqarıstan münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə əmin olduqlarını bildirdilər.

Görüşdə, həmçinin regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN-BOLQARISTAN SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Noyabrın 13-də Sofiyada prezidentlər İlham Əliyevin və Georgi Pırvanovun iştirakı ilə Azərbaycan-Bolqarıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Bolqarıstan Respublikasının İqtisadiyyat, Enerji və Turizm Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev və Bolqarıstanın iqtisadiyyat, enerji və turizm naziri Trayço Traykov imzaladılar.

"Bolqarıstanın "Bulqartransqaz" Şirkəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında təbii qazın nəqli sahəsində qarşılıqlı Anlaşma Memorandumu"nu "Bulqartransqaz"ın icraçı direktoru İvan Drenoviçki və ARDNŞ-in vitse-prezidenti Elşad Nəsirov imzaladılar.

BİRGƏ MƏTBUAT KONFRANSI

Noyabrın 13-də Sofiyada, Prezident Administrasiyasında Azərbaycan-Bolqarıstan sənədlərinin imzalanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun birgə mətbuat konfransı keçirilmişdir.

Bolqarıstan Respublikasının Prezidenti Georgi PIRVANOV bəyanatla çıxış edərək dedi

- Hörmətli xanımlar və cənablar!

Mən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə keçirdiyim görüşdən olduqca məmnun qaldığımı bildirmək istəyirəm. Mən onu deyə bilərəm ki, bu gün imzaladığımız iki sənəd əvvəlcə bu istiqamətdə göstərdiyimiz səylərin yekunudur. Biz bu gün buna nail olduq və münasibətlərimizə yeni keyfiyyət gətirdik. Aramızda fəal siyasi dialoq mövcuddur. Eyni zamanda, iqtisadi sahədə əməkdaşlıq meyillərini görürük. Biz beynəlxalq təşkilatlar, o cümlədən Avropa və Avratlantika təsisatları çərçivəsində fəal şəkildə əməkdaşlıq edirik.

Bolqarıstan Şərqi Avropada həyata keçirilən cari layihələrin tanıdılmasında səylərini əsirgəməyəcək, xüsusən də Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın dərinləşməsində və gücləndirilməsində fəal amil olaraq qalacaqdır.

Kütləvi informasiya vasitələrinin nümayəndələri yaxşı bilirlər ki, Azərbaycan energetika sahəsində bizim yaxın tərəfdaşımızdır. Bu gün biz olduqca mühüm sənədləri imzaladıq. Bu sənədlər əsasında nəinki Bolqarıstan, o cümlədən digər Şərqi Avropa ölkələri üçün təchizatın şaxələndirilməsi ilə bağlı yeni imkanlar açılır. Sazişdə qeyd olunduğu kimi, Bolqarıstana 1 milyard kubmetr həcmində təbii qaz nəql ediləcəkdir. Bu məsələ Bolqarıstanın qazpaylayıcı sistemi Yunanıstanın qazpaylayıcı sisteminə tam birləşdirilməndən sonra baş tutacaqdır.

Siz bildiyiniz kimi, indi biz çox səy göstəririk ki, Azərbaycanda hasil edilən qaz daha sonra sıxılmış formada Yunanıstan vasitəsilə Bolqarıstana da çatdırılsın. Bu layihə strateji əhəmiyyət daşıyır. Çünki bu layihənin həyata keçirilməsi bizim üçün çox vacib olan "Cənub dəhlizi"nin tam təmin edilməsinə töhfə verəcəkdir. Biz texniki əsaslandırma işlərinin olduqca qısa müddət ərzində və çevik surətdə həyata keçirilməsinin tərəfdarıyıq. Bilirik ki, bu baxımdan hər bir ölkə öz texniki əsaslandırma işlərini aparır. İndi isə istəyirik ki, bu işləri birgə aparaq.

Qeyd etdiyimiz bu layihə digər layihələrlə müqayisədə o qədər də bahalı deyildir, böyük xərclər tələb etmir. Eyni zamanda, qeyd etmək istəyirəm ki, bu layihə həm dinamik, həm də qısa müddət ərzində həyata keçirilə bilən layihədir. Mən Azərbaycan Respublikasının Prezidentinə bu işlərdə şəxsən iştirak etdiyinə görə dərin təşəkkürümü bildirirəm. Məhz bu layihənin həyata keçirilməsində cənab Prezidentin verdiyi dəstək bi-

zim üçün çox önəmlidir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV bəyanatla çıxış edərək dedi:

- Çox sağ olun, hörmətli cənab Prezident!

Mən, ilk növbədə, ölkənizə səfərə dəvət etdiyinizə görə Sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Bolqarıstanda olmağımdan çox məmnunam və xüsusilə bu gün apardığımız danışıqlar çox gözəl nəticələrə gətirib çıxarmışdır.

Bizim ikitərəfli münasibətlərimiz çox uğurla inkişaf edir. Bolqarıstan bizim üçün çox önəmli tərəfdaş və dost ölkədir. Qarşılıqlı səfərlərimizin də uğuru bir daha onu göstərir ki, biz bütün sahələrdə fəal əməkdaşlıq edirik.

Həmişə olduğu kimi, biz bu gün sizinlə ikitərəfli münasibətlərin gündəliyini müzakirə etdik və gələcək əməkdaşlıq haqqında praktiki addımları müəyyənləşdirdik. Siyasi əlaqələrin yüksək səviyyədə olması əlbəttə ki, bütün başqa sahələrə də öz müsbət təsirini göstərir. Eyni zamanda, Avropa İttifaqı ilə Azərbaycan arasındakı əməkdaşlıqda Bolqarıstanın çox önəmli rolu vardır. Azərbaycanın Avratlantika strukturlarına inteqrasiya prosesində Bolqarıstan bizə həmişə dəstək vermişdir və buna görə Sizə çox minnətdarıq. Bu yaxınlarda Azərbaycan Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının üzvü olmuşdur. Biz ümid edirik ki, bu proqram çərçivəsində Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq daha da genişlənəcəkdir.

Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əlaqələr 2006-cı ildən başlanmışdır. 2006-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında strateji enerji tərəfdaşlığı haqqında Memorandum imzalanmışdır. Bu gün imzalanmış sənədlər hesab edirəm ki, geniş əməkdaşlığın geniş çərçivələrinə daxil ediləcəkdir. Enerji təhlükəsizliyi məsələləri son illər ərzində dünya gündəliyinin ən önəmli yerlərinə çıxmışdır. Azərbaycan öz tərəfindən enerji təhlükəsizliyi və enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi məsələlərinin həlli işinə öz töhfəsini verir. Əminəm ki, bu gün imzalanmış sənədlər "Cənub dəhlizi"nin təşkil edilməsində öz müsbət rolunu oynayacaqdır.

İmzalanmış sənədlər ikitərəfli xarakter daşıyır. Əminəm ki, Bolqarıstan ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq çox uğurlu olacaqdır. Bu əməkdaşlıq gələcəkdə genişlənəcək və başqa ölkələri həmin müsbət təşəbbüsə cəlb edəcəkdir. Azərbaycan qazının Bolqarıstana çatdırılması nəticəsində Azərbaycan Avropa İttifaqının qaz sahəsində tərəfdaşına çevriləcəkdir. Əminəm ki, bu, Avropa İttifaqı üçün də, bizim üçün də vacibdir.

Azərbaycanın qaz ehtiyatları çox genişdir. Ən minimal hesablamalara görə təsdiq edilmiş ehtiyatlar təxminən 2 trilyon kubmetr ətrafındadır. Əlbəttə, biz istəyirik ki, bu qazı ixrac edək, resurslarımızı əmniyyətli və şaxələndirilmiş yollarla dünya bazarlarına çatdıraq. Hazırda Azərbaycan qazı müxtəlif istiqamətlərlə regional bazarlara çıxarılır və əlbəttə, biz istəyirik ki, tərəfdaşlarımızın sayı çoxalsın. Əminəm ki, Bolqarıstan bu işlərdə, Azərbaycan qazının Avropa qitəsinə idxal edilməsində çox önəmli rolunu oynayacaqdır. İmzalanmış sənədlər əsasında yaxın zamanlarda ikitərəfli işçi qrupu yaradılacaqdır. Əminəm ki, işçi qrupunun fəaliyyəti çox uğurlu olacaq və konkret layihələrin

həyata keçirilməsi haqqında bizə qısa müddət ərzində təkliflər veriləcəkdir.

Hörmətli cənab Prezident, məni ölkənizə dəvət etdiyinizə və göstərdiyiniz qonaqpər vərliyə görə Sizə bir daha təşəkkürümü bildirirəm.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.

Ceyhun QULİYEV (Azərbaycan Televiziyası): Mənim sualım hər iki Prezidentədir. Ölkələrimiz arasında qeyri-energetika sahəsində əməkdaşlığın perspektivləri barəsində nə deyə bilərsiniz?

İlham ƏLİYEV: Əlbəttə ki, bugünkü görüşdə biz gündəliyimizin bütün aspektlərini müzakirə etdik. İlk növbədə, energetika sahəsində əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Amma bununla bərabər qeyri-energetika sektorunun inkişafı üçün əməli tədbirlərin görülməsi də çox vacibdir. Prioritet sahələr çoxdur. Onların sırasında deyə bilərəm ki, turizm, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları sahələrində əməkdaşlıq, nəqliyyat və digər sahələr prioritet xarakter daşıyır və bütün bu istiqamətlərdə ölkələrimiz arasında sıx əməkdaşlıq aparılır. Əminəm ki, növbəti illərdə bu əməkdaşlıq daha sürətlə inkişaf edəcəkdir. Qarşılıqlı investisiya qoyuluşu üçün həm Bolqarıstanda, həm Azərbaycanda çox müsbət sərmayə mühiti mövcuddur və bizim biznes dairələrimiz bu gözəl imkanlardan istifadə etməlidirlər.

Biz iki dost ölkəyik. Bizim aramızda siyasi əlaqələrin yüksək səviyyədə olması, əlbəttə ki, biznes-iqtisadi sahədə də canlanma üçün yaxşı şərait yaradır. Ancaq mən hesab edirəm ki, energetika sahəsində əldə edilmiş razılaşmaların icrası nəticəsində qeyri-energetika sahəsində də əlaqələrin gücləndirilməsi təmin ediləcəkdir.

Georgi PIRVANOV: Mən cənab Prezidentlə tam razıyam ki, bizim enerji sahəsindəki əməkdaşlığımız bütün digər sahələrə yaxşı təkan olacaqdır. Biz hesab edirik ki, iqtisadi böhran şəraitində ölkəmiz üçün yeni bazarların açılması vacibdir. Buna görə də hesab edirik ki, Azərbaycan ilə qarşılıqlı ticarət dövriyyəsinin həcminin artırılması önəmlidir. Bu baxımdan hesab edirik ki, cənab Prezidentin burada sadaladığı həmin sahələr əməkdaşlığımızın genişləndirilməsi üçün əsas kimi xidmət edə bilər.

Olduqca vacibdir ki, ölkələrimiz arasındakı məsafəni daha da qısaldaq və bunun üçün ölkələrimiz arasında nəqliyyat-daşıma məsələlərini, problemlərini həll etməliyik. Hesab edirəm ki, bu baxımdan ölkələrimiz arasında nəinki ticarət dövriyyəsinin artırılması vacibdir, o cümlədən biz birgə, ümumi müəssisələr yaratmaqla üçüncü ölkələrin bazarlarına çıxa bilərik. Zənnimcə, bu gün görüşümüzdə iştirak edən nazirlər indi və gələcəkdə daha da sıx təmaslar quracaqlar ki, biz birgə konkret layihələr irəli sürək və həyata keçirək.

Vera ALEKSANDROVA (Bolqarıstan Televiziyası): İcazənizlə, mən yenidən enerji sahəsinə qayıdım. Sualım hər iki Prezidentədir. Bilmək istərdim, konkret olaraq Nabukko layihəsi nə vaxt həyata keçiriləcəkdir?

Georgi PIRVANOV: Mən burada konkret tarix söyləyə bilmərəm. Çünki layihə çoxtərəfli layihədir. Bu layihənin başlanması təkcə Bolqarıstan və Azərbaycandan asılı deyildir. Vacibi odur ki, biz – Bolqarıstan və Azərbaycan tərəfləri Avropa İttifaqı üçün mü-

hüm olan bu layihənin prioritet xarakter daşıdığını bəyan etdik. Hesab edirik ki, qazın nəqli ilə bağlı ikitərəfli razılaşmalar da Nabukko layihəsinin tərkib hissəsinə çevrilə bilər və bu baxımdan yalnız ümumi işin xeyrinə olar.

İlham ƏLİYEV: Biz Nabukko layihəsini həmişə dəstəkləmişik və bu gün də dəstəkləyirik. Bu ilin may ayında Avropa İttifaqı tərəfindən təşkil edilmiş enerji zirvəsində Azərbaycan Nabukko layihəsinin həyata keçirilməsinə öz töhfəsini vermişdir və məlum bəyannaməni imzalamışdır.

Nabukko layihəsinin həyata keçirilməsi üçün bir neçə önəmli məsələ öz həllini tapmalıdır. İlk növbədə, resurs bazası olmalıdır. Bu da vardır. Mən bayaq qeyd etdim ki, Azərbaycanın çox böyük qaz ehtiyatları vardır. Biz maraqlıyıq ki, öz resurslarımızı müxtəlif yollarla ixrac edək. Digər önəmli məsələ tranzit məsələsinin həll olunmasıdır. Əfsuslar olsun ki, biz bu vaxta qədər bu istiqamətdə irəliyə heç bir addım ata bilməmişik. Tranzit məsələlərinin həll olunmaması əslində, Nabukko layihəsinin həyata keçirilməsində əsas maneədir. Üçüncü vacib məsələ layihənin maliyyələşdirilməsi məsələsidir. Bu istiqamətdə müəyyən addımlar atılmışdır, ilkin ödənişlər ayrılmışdır. Ancaq bildiyiniz kimi, Nabukko layihəsinin həyata keçirilməsi üçün çox böyük vəsait lazımdır. Hələ ki, o vəsaitin məbləği dəqiqləşdirilir və ən önəmlisi, mənbəyi də dəqiqləşdirilməlidir.

Digər önəmli məsələlər də öz həllini tapmalıdır. Mən sadəcə olaraq əsas üç məsələni qeyd etdim. Üç məsələnin ancaq biri hazır vəziyyətdədir - o da Azərbaycanın resurs bazasıdır. Digər məsələlər əfsuslar olsun ki, hələ müzakirə mövzusudur. Ancaq onu da qeyd etməliyəm ki, biz bu məsələyə daha geniş aspektdən yanaşırıq. Biz bu məsələyə "Cənub dəhlizi" layihəsi kimi yanaşırıq. "Cənub dəhlizi" layihəsinin içində, o cümlədən Nabukko layihəsi də yer tutur. Bundan başqa, Trans Adriatik Kəməri (TAP) layihəsi, Türkiyə-Yunanıstan-İtaliya (TGİ) layihəsi də - onların hamısı "Cənub dəhlizi" layihəsinin içində olan layihələrdir. Bu gün imzalanmış sənədlər "Cənub" layihəsi adlandırdığımız böyük təşəbbüsün həyata keçirilməsində çox önəmli rol oynaya bilər. Çünki bu sənədlərdə iki tərəf iştirak edir. Bolqarıstan və Azərbaycan - iki dost ölkə, əminəm ki, imzalanmış sənədlərin yaxın zamanlarda həyata keçirilməsi üçün nə lazımdırsa onu da edəcəkdir.

AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN BİRGƏ NAHARI

Noyabrın 13-də Sofiyada, Prezident Administrasiyasında mətbuat konfransından sonra Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstan Prezidenti Georgi Pırvanov birgə nahar etmişlər.

SƏFƏR BAŞA ÇATDI

Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına işgüzar səfəri başa çatmışdır.

Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş Sofiya Beynəlxalq hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Bolqarıstan Respublikasının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ QLOBAL FORUMDA VƏ BMT-NİN KORRUPSİYAYA QARŞI KONVENSİYASININ KONFRANSINDA İŞTİRAK ETMİŞDİR

Noyabrın 7-13-də Qətərin paytaxtı Dohada Korrupsiyaya qarşı mübarizə üzrə 6-cı Qlobal Forum və BMT-nin Korrupsiyaya qarşı Konvensiyasının Konfransının 3-cü sessiyası keçirilmişdir.

Forumda və sessiyada Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvləri - Prezident Administrasiyasının hüquq mühafizə orqanları ilə işbəsinin müdiri Fuad Ələsgərov, Milli Məclisin deputatı Bəxtiyar Əliyev, həmçinin baş prokurorun müavini Namiq Əsgərov, Azərbaycanın Qətərdəki səfiri Eldar Səlimov, Baş Prokurorluğun beynəlxalq əlaqələr idarəsinin rəisi Ruslan Hacıyev, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi İnam Kərimov iştirak etmişlər.

Qlobal Forumda və BMT-nin Korrupsiyaya qarşı Konvensiyasının Konfransının sessiyasında korrupsiyanın qarşısının alınması, ona qarşı mübarizədə səmərəli və qabaqcıl təcrübə barədə müzakirələr aparılmış və fikir mübadiləsi olmuşdur. Azərbaycan nümayəndə heyəti tədbirlərdə müvafiq təkliflərlə çıxış etmiş, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə milli strategiya barədə iştirakçılara ətraflı məlumat vermişdir. Azərbaycan Respublikasının siyasi, sosial, iqtisadi inkişafı, hüquqi islahatlar, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ölkəmiz haqqında digər məlumatları, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirləri əks etdirən müxtəlif sənədlər iştirakçılara təqdim olunmuşdur. Qlobal Forumun bəyannaməsi və BMT-nin Korrupsiyaya qarşı Konvensiyasının Konfransının sessiyasında müvafiq qətnamələr və qərarlar qəbul edilmişdir.

Səfər çərçivəsində Qətər Dövlətinin vəliəhdi Şeyx Təmin bin Hamad bin Xəlifə Al Təni Azərbaycan nümayəndə heyətini qəbul etmişdir. Şeyx Təmin Qətər və Azərbaycan xalqları, dövlətlərimizin başçıları arasında səmimi dostluğun olduğunu bildirmiş, Qətər Dövləti Əmirinin və şəxsən özünün hörmət və ehtiramının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çatdırılmasını xahiş etmişdir. Görüşdə ölkələrimiz arasında əlaqələrin intensiv inkişaf etdiyi qeyd olunmuşdur.

Azərbaycan nümayəndə heyəti ikitərəfli görüşlər çərçivəsində Qətərin baş prokuroru və ədliyyə naziri, o cümlədən digər dövlətlərin nümayəndələri ilə görüşlər keçirmişdir. Görüşlərdə ikitərəfli hüquqi əməkdaşlığın istiqamətləri müzakirə olunmuş, bu sahədə əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanmışdır. Həmçinin bir sıra beynəlxalq təşkilatlar, o cümlədən Transparency International təşkilatının rəhbəri və Parlament üzvlərinin korrupsiyaya qarşı Qlobal Təşkilatının (GOPAC) icraçı direktoru ilə görüşlər keçirilmiş, Azərbaycan ilə həmin təşkilatlar arasında birgə tədbirlərin təşkili, əməkdaşlığın gücləndirilməsi istiqamətində danışıqlar aparılmışdır.

GUAM ÜZVÜ OLAN DÖVLƏTLƏRİN HÜQUQ-MÜHAFİZƏ ORQANLARININ QARŞILIQLI FƏALİYYƏTİNİN ƏLAQƏLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ DİQQƏT MƏRKƏZİNDƏDİR

Noyabrın 11-12-də Tbilisidə terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı mübarizə üzrə İşçi Qrupun (İQ) nazirlik və idarə rəhbərlərinin müavinləri səviyyəsində 12-ci iclası keçirilmişdir.

İclasda Gürcüstanın daxili işlər naziri İ.Merabişvili, onun müavini Q.Lordkipanidze (İQ-nin sədri), GUAM-ın baş katibi V.Çeçelaşvili, GUAM üzvü olan dövlətlərin və bu qurumun katibliyinin rəhbərləri və nümayəndə heyətlərinin üzvləri iştirak etmişlər.

Tədbirdə Azərbaycanı daxili işlər nazirinin müavini V.Eyvazov təmsil etmişdir.

İclas iştirakçıları İşçi Qrupun 2009-cu ildə gördüyü işlər barədə əlaqələndirici ölkənin hesabatını dinləmiş, 2010-cu il üçün iş planını razılaşdırmış, GUAM üzvü olan dövlətlərin hüquq-mühafizə orqanlarının narkotiklərin qanunsuz dövriyyəsinə qarşı keçirdikləri "Narkostop-2009" əməliyyatının yekunlarını və insan alverinə qarşı mübarizə sahəsində "Perexvat-2009" birgə əməliyyatının gedişini müzakirə etmişlər.

Tədbirdə GUAM üzvü olan dövlətlərin hüquq-mühafizə sahəsində qanunvericiliyinin ahəngdarlığı və onun həyata keçirilməsi mexanizmlərinin təkmilləşdirilməsi, o cümlədən informasiyanın qorunması məsələlərinə dair 2008-ci il dekabrın 4-də Helsinkidə imzalanmış protokolun ratifikasiyası və ya konfirmasiyası, ikitərəfli əməkdaşlığın müqavilə-hüquqi bazasının inkişaf etdirilməsi və digər məsələlər müzakirə edilmişdir.

GUAM üzvü olan dövlətlərin hüquq-mühafizə orqanları arasında qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi məsələlərinə xüsusi diqqət yetirilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYTİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ĞƏSSAN YUSUF ƏL-ZƏVAVİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Küveyt Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ğəssan Yusuf əl-Zəvavinin etimadnaməsini qəbul etmişdir.

Ğəssan Yusuf Əl-Zəvavi fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladı. Prezident İlham Əliyev Küveytə uğurlu səfərini və Küveyt əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah ilə keçirdiyi görüşləri xatırlayaraq həmin səfər zamanı əldə olunan razılaşmaların həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı iki ölkə arasında mövcud dostluq münasibətlərinin bundan sonra da davam edəcəyinə və ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini gələcəkdə də dəstəkləyəcəklərinə əminliyini ifadə etdi.

Ğəssan Yusuf əl-Zəvavi Küveytin əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın s
lamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin Azərbaycan ilə münasibətlərin
bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi. Ğəssan Yusuf əl-Zəvavi ö
kəmizdəki diplomatik fəaliyyəti müddətində Azərbaycan tərəfinin ona dəstək göstər
cəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Küveytin əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın salar
larına görə minnətdarlığını bildirdi, onun da salamlarını Küveytin əmirinə çatdırma
xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ AZƏRBAYCAN RESPUBLİKASINDAKI NÜMAYƏNDƏLİYİNİN RƏHBƏR SƏFİR ROLAND KOBİANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Avropa Komiss
yasının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri səfir Roland Kob
anın etimadnaməsini qəbul etmişdir.

Roland Kobia fəxri qarovul dəstəsinin qarşısından keçdi.

O, etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin hazırkı vəziyyəti v
perspektivləri, ölkəmizin Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığı və digər m
sələlərə dair geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ Cə NUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇ LIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Avropa İttifaqın
Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayənd
heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin hazırkı vəziyyəti, "Şərq tə
rəfdaşlığı" Proqramı çərçivəsində əməkdaşlığın perspektivləri, Ermənistan-Azərbay
can, Dağlıq Qarabağ münaqişəsinin həlli və bir sıra digər regional məsələlər ətrafınd
fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ KÜVEYT DÖVLƏTİNİN AZƏRBAYCANA YENİ TƏ YİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Noyabrın 16-da xarici işlər naziri Elmar Məmmədyarov Küveyt Dövlətinin Azərbayca
na yeni təyin olunmuş səfiri Ğəssan Yusuf əl-Zəvavini qəbul etmişdir.

Etibarnamənin surətini təqdim edən səfir Azərbaycana təyin olunmasından məmnun o
duğunu demişdir. Səfir fəaliyyəti dövründə Azərbaycan-Küveyt arasındakı münasibə

lərin inkişaf və genişlənməsinə xidmət edəcəyini və bunun üçün böyük potensial olduğunu söyləmişdir.

Öz növbəsində nazir E.Məmmədyarov Ğəssan Yusuf əl-Zəvavinin Azərbaycana səfir təyin edilməsi münasibətilə ürəkdən təbrik etmiş, Küveyt ilə Azərbaycan arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu və yüksəliş istiqamətdə inkişaf etdiyini bildirmişdir.

Sonra tərəflər Yaxın Şərqdə və Cənubi Qafqazda gedən proseslər o cümlədən qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

NORVEÇİN VƏ ALMANİYANIN ÖLKƏMİZDƏKİ MÜVƏQQƏTİ İŞLƏR VƏKİLLƏRİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLİYİNƏ DƏVƏT OLUNMUŞLAR

Noyabrın 16-da Norveç Krallığının Azərbaycandakı müvəqqəti işlər vəkili Lars Hansen və Almaniya Federativ Respublikanın Azərbaycandakı müvəqqəti işlər vəkili Peter Zigler Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə dəvət olunmuşlar.

Xarici işlər nazirinin müavini Vaqif Sadıqov ilə keçirilmiş görüşlərin mövzusu Emin Abdullayev və Adnan Hacızadə barəsində qaldırılmış cinayət işi üzrə Səbail rayon məhkəməsinin qəbul etdiyi qərar ilə bağlı Norveçin Azərbaycandakı səfirliyinin 11 noyabr tarixli bəyanatı və Almaniyanın Azərbaycandakı səfirliyinin 12 noyabr tarixli mətbuat üçün məlumatı olmuşdur.

Nazir müavini V.Sadıqov xarici səfirliklərin sənədlərində əks olunmuş fikirlərin Azərbaycan tərəfindən təəccüblə qarşılandığını və böyük təəssüf doğurduğunu diplomatların nəzərinə çatdırmışdır. Bildirilmişdir ki, məhkəmə prosesinin keçirilməsi Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun və prosessual qaydalara riayət edilərək həyata keçirilmiş, o cümlədən məhkəmənin işinin şəffaflığı təmin edilmiş və onun mətbuat tərəfindən işıqlandırılması üçün bütün şərait yaradılmışdır.

Səfirliklərin qeyd olunmuş sənədlərində yer tapmış fikirlər tam əsassız, ölkələrimiz arasındakı münasibətlərin səviyyəsinə uyğun olmayan və onların inkişafına təsirə edə bilən, Azərbaycanın daxili işlərinə qarışmaq cəhdi və qəbulolunmaz kimi qiymətləndirilmişdir.

Öz növbəsində hər iki diplomat görüşlərdə qaldırılmış məsələyə dair Azərbaycan tərəfinin mövqeyini öz rəsmi qurumlarına çatdıracaqlarını bildirmişdirlər.

AZƏRBAYCAN İLƏ MOLDOVA ARASINDA HÜQUQİ SAHƏDƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

Azərbaycanda səfərdə olan Moldovanın ədliyyə naziri Aleksandru Tanase noyabrın 16-da respublikamızın ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov ilə görüşmüşdür.

Azərbaycan ilə Moldova arasında ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin dinamik inkişafını vurğulayan nazir Fikrət Məmmədov zəngin müqavilə-hüquq bazası-

nın, həmçinin Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında sazişin qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsinə mühüm zəmin yaratdığını söyləmiş, ölkəmizdə ədliyyə və məhkəmə sistemində aparılan uğurlu islahatlardan ətraflı danışmışdır.

Ölkələrimiz arasında hərtərəfli əlaqələrin yüksələn xətt üzrə inkişafından məmnunluğunu ifadə edən nazir A.Tanase, respublikamızda baş verən sürətli iqtisadi tərəqqi barədə məlumatı olduğunu bildirmiş, məhkəmə-hüquq, o cümlədən penitensiar sistemin müasirləşdirilməsi üzrə aparılan islahatlara maraq göstərərək, əldə olunmuş yüksək nailiyyətləri alqışlamışdır. Qonaq təcrübə mübadiləsinin səmərəsini qeyd edərək Milli Məclisdə yuvenal ədliyyə üzrə keçirilən beynəlxalq konfransın əhəmiyyətini vurğulamışdır.

Görüşdə əməkdaşlığın perspektivləri, korrupsiya ilə mübarizə sahəsində Azərbaycan təcrübəsi və digər məsələlər müzakirə olunmuş, faydalı fikir mübadiləsi aparılmışdır.

Qonaq, həmçinin nazirlikdə Heydər Əliyev və Ədliyyə tarixi muzeyləri ilə tanış olmuşdur.

Həmin gün Moldovanın ədliyyə naziri ölkəmizdə penitensiar sahədə aparılan islahatlarla yaxından tanış olmaq üçün beynəlxalq standartlara uyğun inşa olunmuş yeni Bakı istintaq təcridxanasına baş çəkmişdir. Noyabrın 17-də isə qonaq Ali Məhkəmənin fəaliyyəti və müasir binası ilə tanış olacaqdır.

DİPLOMATİK AKADEMİYADA "DÜNYANIN ENERJİ MƏNZƏRƏSİ-2009" ADLI KONFRANS KEÇİRİLMİŞDİR

Noyabrın 17-də Azərbaycan Diplomatik Akademiyasında "Dünyanın enerji mənzərəsi-2009" adlı konfrans keçirilmişdir.

Bakıda səfərdə olan Beynəlxalq Enerji Agentliyinin icraçı direktorunun müavini Riçard Cons konfransda çıxış edərək enerji siyasətindən, ölkələr arasındakı enerji resursları uğrunda rəqabətdən danışmışdır. R.Cons qeyd etmişdir ki, dünyada baş verən iqtisadi böhran alternativ enerjidən istifadəyə marağı artırır. Buna görə də, dünya dövlətləri siyasi mövqelərinə yenidən baxmalıdır.

Azərbaycanın dünyanın enerji təhlükəsizliyində oynadığı rola toxunan qonaq ölkə rəsmiləri ilə görüşündə bir sıra təkliflərlə çıxış etdiyini bildirmişdir. Beynəlxalq Enerji Agentliyinin icraçı direktorunun müavini Azərbaycanın enerji layihələrindəki rolunu əhəmiyyətini xüsusi vurğulamışdır.

R.Cons qeyd etmişdir ki, Azərbaycanda zəngin neft və qaz ehtiyatları vardır və bu resurslardan səmərəli istifadə olunur. Eyni zamanda, Azərbaycanın NABUKKO layihəsində iştirakı Avropa üçün əhəmiyyətlidir.

BMT BAŞ MƏCLİSİNİN İKİNCİ KOMİTƏSİ AZƏRBAYCANIN TƏŞƏBBÜSÜ İLƏ QƏTNAMƏ LAYİHƏSİ QƏBUL ETMİŞDİR

Noyabrın 17-də Nyu-Yorkda BMT Baş Məclisinin İkinci Komitəsinin (İqtisadi və Maliyyə) növbəti iclasında Azərbaycan tərəfindən irəli sürülmüş Trans-Avrasiya İnform

siya Super Magistralı (TASİM) təşəbbüsünə dair qətnamə layihəsi yekdilliklə qəbul edilmişdir.

Azərbaycanın Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin təklifi əsasında TASİM-ə aid qətnamə layihəsi BMT Baş Məclisinin 64-cü sessiyasında Azərbaycan tərəfindən irəli sürülmüşdür. Cari ilin sentyabrından isə Azərbaycanın nümayəndə heyəti tərəfindən qətnamə layihəsi üzrə ikitərəfli və çoxtərəfli danışıqlar müvəffəqiyyətlə aparılmışdır.

Qətnamə layihəsində dünyada iqtisadi artım və sosial inkişaf üçün informasiya və kommunikasiya texnologiyalarının vacibliyi etiraf olunmaqla yanaşı, Avrasiya regionunda "rəqəmsal uçurum"un aradan qaldırılması baxımından TASİM-in mühüm rolu vurğulanmışdır. Bu təşəbbüsün həyata keçirilməsi istiqamətində regional səylərin əlaqələndirilməsinə dair Azərbaycan hökumətinin təklifi alqışlanır.

TASİM kimi yeni və qabaqcıl təşəbbüsü təqdim edən qətnamə layihəsi müxtəlif regionlar tərəfindən dəstəklənmiş və BMT-nin üzvü olan bir sıra nüfuzlu ölkələr bu təşəbbüsə müəllif kimi qoşulmuşlar.

Onların sırasında ABŞ, Almaniya, Avstraliya, Belarus, Bolqarıstan, Əfqanıstan, Çin, Hindistan, Gürcüstan, İsveçrə, İsrail, İraq, Kanada, Koreya Respublikası, Küveyt, Litva, Lüksemburq, Qazaxıstan, Qətər, Moldova, Pakistan, Portuqaliya, Rusiya, Sloveniya, Suriya, Tacikistan, Türkiyə, Ukrayna, Yaponiya və digərləri vardır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN FRANSA SAHİBKARLAR TƏŞKİLATININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Noyabrın 18-də Prezident İlham Əliyev Azərbaycanda səfərdə olan Fransa Sahibkarlar Təşkilatının (MEDEF) nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev görüş iştirakçılarına Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri barədə məlumat verdi. Dövlətimizin başçısı uzun illərdir, Fransa ilə Azərbaycan arasında yaxşı iqtisadi əlaqələrin olduğunu, fransız şirkətlərinin ölkəmizdə uğurlu fəaliyyət göstərdiyini dedi.

Azərbaycan Prezidenti Fransaya səfərləri zamanı bir neçə dəfə Fransa Sahibkarlar Təşkilatında görüşlər keçirdiyini xatırladaraq onların səmərəli olduğunu bildirdi.

Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini, son bir neçə ildir, ölkəmizin iqtisadi inkişaf tempinə görə dünyada lider olduğunu da görüş iştirakçılarının diqqətinə çatdıraraq dedi:

- İqtisadiyyatımız əvvəlki illə müqayisədə daha çox şaxələndirilib. İqtisadiyyatımızın rəqabət qabiliyyəti bizim üçün prioritetdir. Biz çox məmnunuq ki, rəqabət qabiliyyətinə görə, Dünya İqtisadi Forumunun hesabatında Azərbaycan dünyada 51-ci, MDB-də isə birinci yeri tutub. Bu, bizim iqtisadi siyasətimizin və islahatlarımızın, şaxələndirilmənin və dəyişikliklərin bariz nümunəsidir. Həmçinin şəffaflıq sahəsində yüksək nailiyyətlərimiz "Doing business" hesabatında xüsusilə qeyd edilib. Bütün bunlar münbit sərmayə şəraitini yaradır.

Prezident İlham Əliyev adambaşına düşən birbaşa xarici sərmayələrin məbləğinə gö ölkəmizin dünyada aparıcı yerlərdən birini tutduğunu dedi. "Məqsədimiz inkişaf etm ölkəyə çevrilməkdir", - deyən dövlətimizin başçısı Azərbaycanın Fransa şirkətləri əməkdaşlığının uğurlu olduğunu diqqətə çatdıraraq bildirdi:

- Bu gün aparılan işlərin səviyyəsi qənaətbəxşdir. Lakin bizim gördüyümüz işlər, pla laşdırdığımız tədbirlər və sərmayə imkanları barədə məlumat mübadiləsi vacibdir. C lən il üçün geniş həcmdə sərmayələrin qoyuluşu nəzərdə tutulub. Gələn il dövlət sə mayələrinin həcmi təxminən 4,5 milyard dollar olacaqdır. Burada söhbət hələ ki, döv sərmayələrindən gedir. Lakin əgər biz bu rəqəmə özəl sektorun sərmayələrini də da etsək, zənnimcə, özəl sərmayələrin də həcmi elə o qədər olacaqdır. Hazırda ümumi ç xili məhsulun həcmində özəl sektorun payı 85 faiz təşkil edir. Əvvəlcə, qeyd etdiyim mi, biz qeyri-enerji və infrastruktur sahələrinə yatırılan sərmayələr nəticəsində iqti diyyatımızı şaxələndirə bilmişik.

Prezident İlham Əliyev neftin qiymətinin aşağı düşməsinin ölkəmizin iqtisadi inkişafı ciddi təsir etmədiyini dedi. "Azərbaycan xarici sərmayələri qoruyan ölkə imicinə n likdir", - deyən dövlətimizin başçısı bildirdi ki, Fransa şirkətləri ölkəmizdə bir çox la hələrdə fəal iştirak edə bilər. Bu yaxınlarda təməli qoyulan məişət tullantılarının em zavodu buna yaxşı nümunədir. Bu zavod paytaxtda ekoloji vəziyyətin yaxşılaşmas təsir edəcəkdir.

Prezident İlham Əliyev 2010-cu ilin Azərbaycanda "Ekologiya ili" elan edildiyini d qətə çatdıraraq növbəti illərdə Fransa şirkətlərinin Azərbaycanda müxtəlif tenderlər iştirak edəcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı dedi:

- Biz Fransa şirkətlərinin sərmayələrini alqışlayırıq. Bu, yalnız enerji sektoruna aid yildir. Baxmayaraq ki, bu sektorda da sərmayələr məmnunluq doğurur. Çox şadam "Total" şirkəti olduqca perspektivli yataqlardan birində işlərə başlayıbdır. Ümid edir ki, yaxın zamanlarda bunun müsbət nəticələri olacaqdır. Lakin hesab edirəm ki, q ri-enerji sektorunda da sərmayələr çox cəlbedicidir. Burada söhbət kənd təsərrüfat dan, informasiya texnologiyalarından gedə bilər. Biz informasiya texnologiyaları sek runun inkişafına böyük vəsaitlər ayırırıq. Kosmik sənayeyə xüsusi diqqət yetiririk. peykimizi buraxmağı planlaşdırırıq. Fikrimcə, bu, bir neçə ildən sonra baş verəcək Beləliklə, böyük müasirləşmə proqramı həyata keçirilməkdədir.

Dövlətimizin başçısı Azərbaycanın qeyri-neft sektorunun inkişafında daha çox mara olduğunu dedi. Bildirdi ki, bu sahədə əməkdaşlıq baxımından potensial böyükdür Azərbaycan İnvestisiya Şirkətinin fəaliyyəti uğurludur. Prezident İlham Əliyev so Fransa Sahibkarlar Təşkilatı nümayəndə heyətinin Azərbaycana səfərinin səmərəli çəcəyinə ümidvar olduğunu bildirdi.

Fransa Sahibkarlar Təşkilatı - MEDEF-in nümayəndə heyətinin rəhbəri, xanım Pas Janin Perez dövlətimizin başçısına ətraflı məlumata və dəyərli məsləhətlərə görə təş kür etdi. Bildirdi ki, MEDEF müxtəlif sahələrdə fəaliyyət göstərən Fransa şirkətlər birləşdirir və onların fəaliyyətini beynəlxalq səviyyədə təşviq edir. Azərbaycan əməkdaşlığın Fransa şirkətlərinin maraq dairəsində olduğunu deyən xanım Paskal Ja Perez bildirdi:

- Ölkələrimizin işgüzar dairələri arasında artıq möhkəm münasibətlər yaranıb. Budə

ki mühüm səfərimiz çərçivəsində nümayəndə heyətimizin tərkibində təmsil olunan Fransa şirkətləri enerji, nəqliyyat, bank xidmətlərini, hüquqi ekspertiza sahələrini əhatə edirlər. Bu şirkətlərdən bəziləri Sizin ölkədə artıq fəaliyyət göstərir. Siz burada onları xatırlatdınız. Fransa şirkətlərinin Azərbaycan bazarında payı ildən-ilə artır. Biz Azərbaycanda 4-cü sərmayədarıq. Neft və qaz sahəsində şirkətlərimiz artıq işləyir. Lakin istəyirik ki, digər sahələrdə də mövqelərimizi gücləndirək.

Paskal Janin Perez bu səfərin əməkdaşlığın ümumi mənzərəsini müəyyən etmək baxımından səmərəli olacağına əminliyini bildirdi.

XARİCİ İŞLƏR NAZİRİ ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİNİN BAŞ MÜŞAVİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 18-də xarici işlər naziri Elmar Məmmədyarov ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisinin baş müşaviri Daniel Steyn ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə ABŞ arasında geniş əlaqələrin olduğunu vurğulayan D.Steyn ölkələrimiz arasında enerji sahəsində uzunmüddətli uğurlu əməkdaşlığı xüsusi qeyd etmişdir. Həmçinin qonaq qlobal enerji təhlükəsizliyinin təmin edilməsi məsələsinin ABŞ-ın xarici siyasətinin prioritetlərindən biri olduğunu, ölkəsinin enerji daşıyıcılarının dünya bazarlarına çatdırılmasında çoxşaxəliliyi dəstəklədiyini bildirmişdir.

E.Məmmədyarov ölkələrimiz arasında enerji sahəsindəki əməkdaşlığı yüksək qiymətləndirmişdir. Azərbaycanın mühüm coğrafi məkanda yerləşdiyini deyən nazir ölkəmizin enerji daşıyıcılarının ixracatçısı olması ilə yanaşı, onların dünya bazarlarına çatdırılmasındakı tranzit imkanlarını da xüsusi vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

BİŞKEKDƏ SPECA İDARƏEDİCİ ŞURASININ DÖRDÜNCÜ İCLASI KEÇİRİLMİŞDİR

Noyabrın 18-də BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının təşkilatın Asiya və Sakit Okean üzrə Sosial və İqtisadi Komissiyası ilə birgə təsis etdiyi BMT-nin Azərbaycan, Əfqanıstan və Mərkəzi Asiya ölkələri üçün Xüsusi Proqramının (SPECA) İdarəedici Şurasının dördüncü iclası Bişkekdə keçirilmişdir.

İclasda Azərbaycanı milli əlaqələndirici qismində iqtisadi inkişaf naziri Şahin Mustafayev, milli əlaqələndiricinin müavini qismində isə xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev təmsil etmişlər.

İclasda proqramın 2007-2009-cu illər üzrə fəaliyyəti qiymətləndirilmiş və 2010-2011-ci illər üçün fəaliyyət istiqamətləri müəyyən edilmişdir. Bundan əlavə, qlobal iqtisadi böhranın SPECA-nın iştirakçısı olan ölkələrə təsirinə dair fikir mübadiləsi aparılmışdır.

Azərbaycan tərəfi SPECA-nın işinin səmərəliliyin artırılması məqsədilə proqram çərçivəsində fəaliyyət göstərən müvafiq İşçi Qruplarının işinin təhlilini, prioritet istiqamət-

lərin müəyyənləşdirilməsini və digər konkret tövsiyələr təklif etmişdir.

Qlobal iqtisadi böhranın SPECA-nın iştirakçısı olan ölkələrə təsirinin azaldılması məsədilə Azərbaycanın Ticarətə Yardım üzrə Yol Xəritəsi təşəbbüsü yüksək qiymətləndirilmiş və İdarəedici Şurada təsdiq edilmişdir.

Proqramın İdarəedici Şurası Azərbaycan tərəfindən xahiş etmişdir ki, bundan sonra bu təşəbbüsün həyata keçirilməsi üçün öz səylərini davam etdirsin.

Azərbaycanın SPECA-nın iştirakçısı olan ölkələr üçün Ticarətə Yardım üzrə Yol Xəritəsi təşəbbüsü cari il oktyabrın 26-27-də SPECA-nın Ticarət üzrə İşçi Qrupunun Cenevrədə keçirilmiş iclasında müzakirə edilmişdir. Bu təşəbbüs çərçivəsində BMT-nin İnkişaf Proqramı SPECA-nın iştirakçısı olan ölkələrdə ticarətin inkişafı məqsədilə müvafiq ehtiyacların qiymətləndirilməsini həyata keçirir. 2010-cu ilin fevralında Qırğızıstanda ekspertlərin görüşü, 2010-cu ilin iyununda isə Azərbaycanda SPECA-nın iştirakçısı olan ölkələrin müvafiq məsələlər üzrə məsul nazirlərinin görüşü nəzərdə tutulmuşdur.

BAKIDA NATO-NUN YENİ STRATEJİ KONSEPSİYASI İLƏ BAĞLI KONFRANS KEÇİRİLMİŞDİR

Noyabrın 19-da Bakıda Azərbaycanın Xarici İşlər Nazirliyi NATO-Azərbaycan Beynəlxalq Məktəbi ilə birgə təşkil etdiyi "NATO-nun yeni strateji konsepsiyası: tərəfdaş tərəfindən müzakirələrə töhfə" mövzusunda konfrans keçirilmişdir.

Konfransda Şimali Atlantika Alyansının sonuncu strateji konsepsiyasından sonra baş verən dəyişikliklər, müharibələrin dəyişən xarakteri, regional münaqişələr, terrorizm, Cənubi Qafqaz regionundakı vəziyyət və digər məsələlər müzakirə olunmuşdur.

Xarici işlər nazirinin müavini Araz Əzimov konfransı açaraq ölkəmizin NATO-ya inteqrasiya prosesindəki rolundan danışmışdır.

Nazir müavini bildirmişdir ki, Azərbaycan NATO-nun ən fəal tərəfdaşlarından biridir. Tərəfdaş ölkələr, o cümlədən Azərbaycan NATO üçün vacibdir. Ölkəmiz Şimali Atlantika məkanının ümumi təhlükəsizlik arxitekturası baxımından NATO üçün əhəmiyyət kəsb edir. Bu gün Azərbaycanın sərhədləri Avropanın sərhədləridir.

A.Əzimov Azərbaycanın Dövlət Sərhəd Xidmətinin və Milli Təhlükəsizlik Nazirliyinin terrorizmlə mübarizə işinə töhfələrini xüsusi qeyd etmişdir.

Nazir müavini vurğulamışdır ki, NATO-nun tərəfdaş ölkələrə təhlükəsizlik üçün zəmanətin verilməsi vacibdir. Bunun üçün NATO ilə tərəfdaş ölkələr arasında ikitərəfli müqavilələrin bağlanmasını təklif edirəm. Bu müqavilələr tərəflərin məsuliyyəti və öhdəlikləri ilə yanaşı, həm də tərəfdaş ölkələrin təhlükəsizliyinə zəmanəti nəzərdə tutur.

A.Əzimov mövqeyini onunla izah etmişdir ki, NATO-ya daxil olmaq istəyən ölkələr müəyyən təhdidlərlə üzləşirlər. O, buna misal kimi keçən ilin avqustunda Gürcüstanda baş vermiş hadisələri göstərmişdir.

Ölkəmizin və NATO-nun müvafiq qurumlarının təmsilçilərinin, beynəlxalq ekspertlərin, xarici ölkələrin diplomatik nümayəndəliklərinin rəhbərlərinin iştirak etdiyi konfransda Azərbaycan tərəfdaşlığının gələcəyi ilə bağlı da geniş fikir mübadiləsi aparılmışdır.

BAKIDA "CƏNUBİ QAFQAZDA TƏHLÜKƏSİZLİYƏ MANEƏLƏR: MÖVCUD REALLIQLAR VƏ REGİONAL İNKİŞAFIN PERSPEKTİVLƏRİ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR

Noyabrın 20-də Bakıda "Park INN" mehmanxanasında Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin və Böyük Britaniyanın Strateji Araşdırmalar üzrə Beynəlxalq İnstitutunun birgə təşkilatçılığı ilə "Cənubi Qafqazda təhlükəsizliyə maneələr: mövcud reallıqlar və regional inkişafın perspektivləri" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Dünyanın aparıcı elmi araşdırma mərkəzlərinin nümayəndələrinin də dəvət olunduğu konfransın məqsədi Cənubi Qafqaz dövlətlərinin mövcud reallıqlarını müzakirə etmək, regionun inkişaf perspektivlərinə, təhlükəsizlik məsələsinə, sülhə və əməkdaşlığa dair fikir mübadiləsi aparmaq olmuşdur.

Tədbirdə çıxış edən Prezident Administrasiyasının siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanov bildirmişdir ki, regional əməkdaşlıq və təhlükəsizlik məsələləri Azərbaycanın daim diqqət mərkəzindədir. Azərbaycan regionun nadir ölkələrindən biridir ki, çətin geosiyasi mühitdə müstəqil xarici siyasət yürüdür və bu siyasət ölkəmizə regional əməkdaşlığı daha da inkişaf etdirmək üçün yeni imkanlar verir. Azərbaycanın regional təhlükəsizlikdə rolu həm də onun regional layihələri inkişaf etdirmək bacarığı ilə bağlıdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi layihələr regional əməkdaşlığın inkişafını şərtləndirməklə yanaşı, təhlükəsizlik baxımından da mühüm rol oynayır. Azərbaycanın Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı olduğunu qeyd edən E.Aslanov ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib rol oynadığını vurğulamışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan şöbə müdiri bildirmişdir ki, münaqişə regional təhlükəsizlik üçün real təhdid, yeni dünya nizamı üçün çağırışdır. Avropa İttifaqı malik olduğu siyasi, iqtisadi və institusional vasitələrlə münaqişənin həll edilməsində fəal rol oynamalı, Ermənistanın konstruktiv mövqe tutması üçün səy göstərməlidir. Bu, eyni zamanda, Avropanın özünün marağındadır, çünki Dağlıq Qarabağın qeyri-qanuni fəaliyyət zonasına, nəzarətsiz əraziyə çevrilməsi bu ərazilərin narkotik maddələrin istehsalı və tranziti üçün istifadəsinə imkan yaradır.

Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov bildirmişdir ki, bu gün terrorun dövlət səviyyəsində himayə edildiyi Ermənistan Cənubi Qafqazın inkişafı üçün başlıca maneədir. Natiq Dağlıq Qarabağ münaqişəsinin regionun təhlükəsizliyi üçün ən böyük təhdid olduğunu vurğulamış, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq işğalçılıq siyasətini davam etdirən Ermənistanın cəzalandırılmamasından təəssüfləndiyini bildirmişdir. Z.Əsgərov, həmçinin, Azərbaycanın yürütdüyü balanslaşdırılmış xarici siyasətin ən optimal siyasət olduğunu qeyd etmişdir.

Prezident Administrasiyasının xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov demişdir ki, Azərbaycan postsovet məkanında Qərblə həqiqi mənada faydalı əməkdaşlıq edən yeganə dövlətdir. Lakin, təəssüflər olsun ki, ölkəmiz Qərbin ikili standartları ilə üzləşmişdir. İsveçrənin Sürix şəhərində Türkiyə və Ermənistan arasında protokolların imzalanması mərasimində iştirak edən Minsk qrupunun həmsədr dövlətlərinin xarici işlər nazirləri Dağlıq Qarabağ münaqişəsi ilə də bağlı belə bir konkret mövqe ortaya qoy-

malıdırlar.

Böyük Britaniyanın Strateji Araşdırmalar üzrə Beynəlxalq İnstitutunun baş elmi işçi Oksana Antonenko uzun sürən münaqişələrin Cənubi Qafqazda təhlükəli vəziyyət yaratdığını bildirmişdir. O, beynəlxalq ictimaiyyəti Dağlıq Qarabağ münaqişəsinin həll üçün səyləri daha da artırmağa çağırmışdır.

ABŞ-ın Ceymstaun Fondunun nümayəndəsi Vladimir Sokor Ermənistanın beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozaraq Azərbaycan torpaqlarını işğal etdiyini bildirmişdir. O, NATO-nun Balkanlarda və keçmiş Yuqoslaviyada münaqişələrin həlli istiqamətində atdığı addımları Dağlıq Qarabağa münasibətdə də tətbiq etməsinin zəruriliyini vurğulamışdır. V.Sokor, həmçinin bildirmişdir ki, Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesi münaqişənin həlli ilə paralel aparılmalıdır.

Konfransın "Şərq-Qərb enerji dəhlizi: çağırışlar və imkanlar" mövzusunda ikinci sessiyasında çıxış edən ABŞ-ın "Heritage" Fondunun nümayəndəsi Ariel Koen, Avropa Beynəlxalq Münasibətlər İnstitutunun prezidenti İrnerio Seminatore, ARDNŞ-nin vitse-prezidenti Elşad Nəsirov karbohidrogen resurslarının hasilatı və nəqlinə görə dünya dövlətləri arasında Azərbaycanın xüsusi mövqeyə malik olduğunu, Qərbin enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın vacib rol oynadığını vurğulamışlar.

Konfrans işini işçi qruplarda müzakirələrlə davam etdirmişdir.

MOSKVADA MDB DÖVLƏTLƏRİ NƏQLİYYATDA ƏLAQƏLƏNDİRMƏ MÜŞAVİRƏSİNİN XXIX İCLASI KEÇİRİLMİŞDİR

Noyabrın 19-20-də Moskvada Müstəqil Dövlətlər Birliyi dövlətləri Nəqliyyatda Əlaqələndirmə Müşavirəsinin növbəti XXIX iclası və Rusiya Federasiyasında nəqliyyat təsisatı yaradılmasının 200 illik yubileyinə həsr edilmiş təntənəli mərasim keçirilmişdir.

Tədbirlərdə Azərbaycan Respublikası nəqliyyat qurumlarının rəhbərləri də iştirak etmişlər.

Yubiley tədbirləri çərçivəsində "Nəqliyyat sahəsində elm və təhsil: təcrübə, problemlər və perspektivlər" mövzusunda elmi-praktiki konfrans, "Rusiya Federasiyasının nəqliyyat kompleksinin inkişafı", "Rusiya nəqliyyatı-gələcəyə baxış" mövzularında konfrans və müzakirələr keçirilmişdir.

Təntənəli mərasim zamanı Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov və Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov nəqliyyat kompleksinin inkişafı və nəqliyyat dəhlizləri üzrə yükdaşımaların həcminin artırılması istiqamətində səmərəli fəaliyyətlərinə görə Nəqliyyat Kompleksinin idarə edilməsinin 200 illik yubileyi münasibətilə təsis olunmuş xüsusi döş nişanları ilə təltif edilmişlər.

AZƏRBAYCANDA MÜASİR STANDARTLARA CAVAB VERƏN GƏMİQAYIRMA ZAVODU İNŞA EDİLƏCƏKDİR

Noyabrın 20-də İqtisadi İnkişaf Nazirliyində ARDNŞ prezidenti Rövnəq Abdullayev, Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) icraçı direktoru Əfqan İsayev və Sinqapurun "Keppel Offshore & Marine" şirkətinin icraçı direktoru Toinq Çoinq Honq Azərbaycan

da gəmiqayırma zavodunun inşası və istismarına dair Anlaşma Memorandumu imzalamışlar.

Mərasimdə iqtisadi inkişaf naziri Şahin Mustafayev layihənin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq həyata keçirildiyini vurğulamışdır. Qeyd edilmişdir ki, ölkədə aparılan uğurlu siyasət sayəsində Azərbaycanın iqtisadi qüdrəti artmış, iri layihələrin reallaşması üçün geniş imkanlar yaradılmışdır. Bakıda iri sərmayə qoyuluşuna əsaslanan gəmiqayırma zavodunun inşası da məhz belə layihələrdəndir.

Layihə barədə ətraflı məlumat verən Ş.Mustafayev Anlaşma Memorandumunun (Saziş başlıqlarının) Heydər Əliyev adına Bakı dərin özüllər zavodunun yaxınlığında gəmiqayırma zavodunun inşasını nəzərdə tutduğunu bildirmişdir. ARDNŞ-in və AİŞ-in birgə yaradacağı müştərək müəssisə həm sifarişçi, həm də zavodun mülkiyyətçisi kimi çıxış edəcəkdir. Layihədə ARDNŞ 70 faiz, AİŞ isə 30 faizlik paya malik olacaqdır. İmzalanmış sənədə əsasən, Sinqapurun "Keppel Offshore & Marine" şirkəti 10 faizlik iştirak payı əldə edə bilər. Bu halda iştirak payı ARDNŞ üçün 65 faiz, AİŞ üçün isə 25 faiz nisbətində dəyişə bilər. İlkin hesablamalara görə, layihənin dəyəri təxminən 300-350 milyon ABŞ dolları təşkil edəcəkdir. Zavodun tikintisinin 2,5-3 ilə başa çatdırılması nəzərdə tutulur. Xəzərdə ilk belə müasir zavodun tikintisi Azərbaycanın dəniz donanması üçün yeni gəmilərin tikintisində və mövcud gəmilərin təmirində (tankerlər, hərbi və sahil təhlükəsizliyi gəmiləri, bərələr, yaxtalar) xüsusi əhəmiyyətə malik olacaqdır. Zavodun tikintisinin ilkin mərhələsində 1000, sonrakı mərhələlərdə isə 1700 yeni iş yerinin açılması nəzərdə tutulur.

Nazir Şahin Mustafayev Azərbaycanda müasir standartlara cavab verəcək gəmiqayırma zavodunun tikintisinin yeni sənaye sahələrinin yaradılmasında, eləcə də mövcud sahələrin inkişafında əhəmiyyətli olacağını diqqətə çatdırmışdır. Zavodun inşası Azərbaycanda mövcud infrastrukturun inkişafı və ölkənin ixrac potensialının artırılmasında da xüsusi əhəmiyyət kəsb edəcəkdir. Gəmiqayırma zavodunun səmərəli fəaliyyətinin təmin edilməsi üçün işçilərin xaricdə təlim və təcrübə keçməsi, ixtisaslı kadr potensialının yaradılması da nəzərdə tutulmuşdur.

ARDNŞ-in prezidenti Rövnəq Abdullayev zavodun inşasının Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətindən danışmış, layihənin uğurlu icrası nəticəsində ölkəmizin tranzit və yükdaşıma imkanlarının daha da artacağını vurğulamışdır.

Mərasimin sonunda kütləvi informasiya vasitələri nümayəndələrinin sualları cavablandırılmışdır.

AZƏRBAYCANIN BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ YAQUB EYYUBOV YALTADA MOLDOVA HÖKUMƏTİNİN BAŞÇISI VLADİMİR FİLAT İLƏ DANIŞIQLAR APARMIŞDIR

Noyabrın 20-də Yaltada Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Hökumət Başçıları Şurasının iclasından öncə Azərbaycanın rəsmi nümayəndə heyətinin başçısı, respublika Baş nazirinin birinci müavini Yaqub Eyyubov Moldova tərəfinin xahişi ilə Moldovanın Baş naziri Vladimir Filatla görüşmüşdür.

Danışılar zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmişdir.

Moldova hökumətinin başçısı bundan əvvəl Ukraynanın Baş naziri Yuliya Timoşenk ilə görüşmüşdür.

MDB üzvü olan ölkələrin Hökumət Başçıları Şurasının iclası əvvəlcə məhdud formatd keçirilmiş, sonra geniş tərkibdə davam etdirilmişdir.

YALTADA MDB ÖLKƏLƏRİNİN HÖKUMƏT BAŞÇILARI ŞURASININ İCLA SI KEÇİRİLMİŞDİR

Noyabrın 21-də Yaltada Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Hökumə Başçıları Şurasının növbəti iclası olmuşdur.

Forumun işində Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubovun başçılı etdiyi Azərbaycan rəsmi nümayəndə heyəti də iştirak etmişdir.

İclasda dünya maliyyə böhranının mənfi nəticələrinin aradan qaldırılmasına dair birg tədbirlər planının Birlik liderlərinin bu il oktyabrın 9-da Kişinyovda keçirilmiş sammi də irəli sürdüyü təkliflər nəzərə alınmaqla tamamlanmış variantı təqdim edilmişdir.

Bundan əlavə, forum iştirakçıları Birlik üzvü olan dövlətlərin iqtisadi və humanitar sa hələrdə, energetika məsələləri, miqrasiya siyasəti, təhlükəsizliyin təmin edilməsi, in novasiya və digər sahələrdə əməkdaşlığının fəallaşdırılması və dərinləşdirilməsi il əlaqədar 20-dən çox sənəd layihəsini müzakirə etmişlər.

İclasda MDB ölkələrinin energetika sahəsində əməkdaşlığı konsepsiyası təsdiq edilmiş müvafiq qərar imzalanmış və onun həyata keçirilməsinə dair birinci dərəcəli tədbirlə planı müzakirə edilmişdir.

Forumda iqtisadiyyat, energetika, səhiyyə, təhsil və elmi-texniki əməkdaşlıq sahələrin də qarşılıqlı fəaliyyət məsələlərinə baxılmış, bəzi büdcə-maliyyə problemləri müzakir edilmişdir.

Birlik üzvü olan ölkələrin milli elektrik enerji sistemlərinin, dövlətlərarası elektrik ötür mə xətlərinin istismarı sahəsində əməkdaşlıq haqqında, Birlik dövlətlərinin ərazilərin dən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin razılaşdırılmış inkişafı haqqında sazişlə imzalanmışdır.

İnnovasiya və elmi-texniki sahələrdə qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi il bağlı məsələlərə də baxılmışdır. MDB iştirakçısı olan dövlətlərin innovasiya sahəsind uzunmüddətli əməkdaşlığının əsas istiqamətləri haqqında, elmi-texniki və innovasiy sahələrində MDB-nin sahəvi əməkdaşlıq orqanının yaradılması haqqında qərarlar MDB ölkələrinin müştərək elmi-texnoloji məkanının yaradılması barədə 1995-ci il noyabr tarixli Sazişə dəyişikliklər edilməsi haqqında Protokol imzalanmışdır.

Bundan əlavə, iclasda malların mənşə ölkəsinin müəyyən edilməsi Qaydaları haqqında məsələyə baxılmışdır. Müzakirələrin yekunlarına əsasən MDB-də malların mənşə öl kəsinin müəyyən edilməsi qaydaları haqqında Saziş və müvafiq Qərar imzalanmışdır.

Bununla bərabər, dövlətlərarası informasiya mübadiləsinin təşkili, müəllif hüququ və oxşar hüquqlar barədə milli məlumat bazalarının formalaşması sahəsində əməkdaşlı

haqqında Saziş, habelə MDB üzvü olan ölkələrin İCV/QİÇS-ə qarşı mübarizə sahəsində Birgə Fəaliyyət Proqramı qəbul edilmişdir.

Hökumət başçıları və nümayəndə heyətləri maliyyə təhqiqatları və miqrasiya siyasəti sahəsində qarşılıqlı fəaliyyət məsələlərini bütövlükdə müzakirə etmişlər. MDB üzvü olan ölkələrin dövlət hava gəmiləri ilə bağlı aviasiya qəzalarının təhqiqatı sahəsində əməkdaşlıq haqqında saziş imzalanmışdır.

Bundan əlavə, 2010-cu ildə müharibə veteranlarının, lokal münaqişələrin, sülhməramlı əməliyyatların iştirakçılarının və MDB dövlətlərində terrorizm qurbanlarının həyat keyfiyyətinin yaxşılaşdırılması və əmək qabiliyyətinin itirilməsinin profilaktikası Konsepsiyasının həyata keçirilməsinə dair tədbirlər planının maliyyələşdirilməsi, 2010-cu ildə MDB-nin birləşmiş hava hücumundan müdafiə sisteminin yaradılmasına və inkişaf etdirilməsinə maliyyə vəsaiti ayrılması haqqında qərarlar imzalanmışdır.

MDB Hökumət Başçıları Şurasının növbəti iclası 2010-cu il mayın 21-də Moskvada keçiriləcəkdir.

İclasın yekunlarına dair mətbuat konfransı keçirilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Almaniya Federativ Respublikasının Münxen şəhərinə işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYAN MÜNXENDƏ GÖRÜŞMÜŞLƏR

Noyabrın 22-də Fransanın Münxendəki baş konsulunun iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun və Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın, ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkenin (ABŞ), Bernar Fasyenin (Fransa), Yuri Merzlyakovun (Rusiya), habelə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşikin iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

SƏFƏR BAŞA ÇATMIŞDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına işgüzar səfərini başa çatdıraraq, noyabrın 23-də Bakıya qayıtmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.

Dövlətimizin başçısı Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkinin geniş səfər proqramı çərçivəsində keçirilən mühüm tədbirlərin ölkələrimiz arasında əlaqələrin gələcəkdə də uğurlu inkişafına xidmət edəcəyinə əmin olduğunu bildirdi.

Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkin dedi: "Bu gün həqiqətən də, çox dolğun və maraqlı bir gün olmuşdur. Mən "Rus kitabı evi"nin açılış mərasimində iştirak etdim, şərəfli və xoş bir missiyanı həyata keçirdim - Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadəyə dövlət mükafatı olan "Şərəf" ordenini təqdim etdim, Vneştorqbankın Azərbaycandakı filialının açılışında iştirak etdim".

Prezident İlham Əliyev görülən bu işlərin əlaqələrimizin müxtəlif istiqamətlərini, o cümlədən humanitar və iqtisadi sahələri əhatə etdiyini, həmçinin müxtəlif dini konfessiya nümayəndələri arasında əməkdaşlığın daha da möhkəmlənməsi baxımından əhəmiyyətli olduğunu vurğuladı.

Dövlətimizin başçısı bununla əlaqədar bu yaxınlarda Bakıda Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillin də iştirak etdiyi beynəlxalq tədbiri xatırladı. İqtisadi əməkdaşlıq məsələlərinə toxunan Prezident İlham Əliyev bu baxımdan Rusiya Federasiyasının ən iri banklarından olan Vneştorqbankın filialının açılmasının önəmini qeyd etdi və bunun müxtəlif birgə iqtisadi layihələrin həyata keçirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı bildirdi ki, Narışkinin səfər proqramının əhatə etdiyi tədbirlər bir daha onu göstərir ki, Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər çoxşaxəlidir və uğurla inkişaf edir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜDAFİƏ NAZİRİNİN RUSİYA, UKRAYNA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ XANIM SELEST VALLANDERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də ABŞ müdafiə nazirinin Rusiya, Ukrayna və Avrasiya məsələləri üzrə müşaviri xanım Selest Vallanderin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin hazırkı vəziyyəti və perspektivləri, habelə bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİN NÜMAYƏNDƏ HEYƏTİ QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIĞI PARLAMENT MƏCLİSİNİN 34-CÜ GENİŞ İCLASINDA İŞTİRAK ETMİŞDİR

Noyabrın 23-də Moskvada Qara Dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin (QİƏPM) 34-cü geniş iclası keçirilmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti iclasda iştirak etmişdir.

Noyabrın 23-də əvvəlcə QİƏPM-in daimi komitəsinin növbəti iclası keçirilmiş, ümumi iclas ilə bağlı bir sıra təşkilati məsələlər müzakirə olunmuşdur.

Fasilədən sonra 34-cü iclas öz işinə başlamışdır. İclası giriş sözü ilə açan Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Boris Qrızlov bu qurumun həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirmiş və müzakirəyə çıxarılan məsələlərin nəinki ayrı-ayrı ölkələr, region, ümumilikdə dünya üçün böyük əhəmiyyət daşıdığını söyləmişdir. B.Qrızlov iqtisadi, sosial, ekoloji, təbii sərvətlərdən səmərəli istifadə, bu kimi digər vacib sahələrdə hüquqi bazanın möhkəmləndirilməsi və əməkdaşlığın daha da dərinləşməsi məsələlərinə toxunmuşdur.

Dumanın sədri Rusiya Prezidenti Dmitri Medvedevin təbrik məktubunu iştirakçıların diqqətinə çatdırmışdır.

"Beynəlxalq nəqliyyat dəhlizi, Qara Dəniz İqtisadi Əməkdaşlığı ölkələrində və Avropada enerji təhlükəsizliyi" mövzusunda ümumi müzakirələr aparılmış, nümayəndə heyətləri başçılarının çıxışları dinlənilmişdir.

Milli Məclisin sədri Oqtay Əsədov çıxışında tədbir iştirakçılarını salamlamış, bu görüşü yüksək dəyərləndirmişdir. Sədr qloballaşan müasir dünyada enerji təhlükəsizliyinin çox vacib bir sahə olduğunu vurğulayaraq, bununla bağlı Azərbaycanda həyata keçirilən məqsədyönlü tədbirlərdən danışmışdır. O qeyd etmişdir ki, əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən neft və qaz strategiyası ölkə iqtisadiyyatının inkişafına təkan verməklə yanaşı, Avropada enerji təhlükəsizliyi məsələsində də mühüm rol oynayır.

Milli Məclisin sədri ölkəmizin bir sıra qlobal layihələrdə uğurlu iştirakından, beynəlxalq təşkilatlarla əməkdaşlıq məsələlərindən bəhs etmiş, dünyanın üzləşdiyi iqtisadi böhran şəraitində Azərbaycandakı inkişaf proseslərini konkret faktlarla əsaslandırmışdır. Spiker öz çıxışında ayrı-ayrı ölkələrin, eləcə də regionların inkişafına mane olan münaqişələrin dövlətlərin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipi əsasında tezliklə həll olunmasının vacibliyini qeyd etmişdir.

Nümayəndə heyətləri rəhbərlərinin çıxışlarından sonra müzakirələr ayrı-ayrı bölmələrdə davam etdirilmişdir.

BAKIDA "RUS KİTABI EVİ" AÇILMIŞDIR

Noyabrın 23-də Bakıda "Rus kitabı evi"nin təntənəli açılış mərasimi keçirilmişdir.

Mərasimdə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışki və Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak etmişlər

Qonaqlar əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Dmitri Medvedevin prezidentlik fəaliyyətini əks etdirən stendlərlə yaxından tanış olmuşlar.

Məlumat verilmişdir ki, "Rus kitabı evi"ndə 30 min nüsxədən çox kitab vardır. Burada oxucuların ixtiyarına tarix, detektiv, psixologiya, fəlsəfə, din, elmi, bədii və uşaq ədəbiyyatına dair nümunələr nümayiş olunur. İki həftədən bir kitab evindəki nəşrlər Moskvadan gətirilən kitablarla təzələnir. Buradakı kitabların qiyməti digər mağazalarla müqayisədə 15-20 faiz ucuzdur. "Rus kitabı evi"ndə Rusiya müəllifləri ilə yanaşı, xarici yazıçıların da əsərləri təqdim olunur. Gələcəkdə burada oxucuların yazıçılarla görüşlərinin keçirilməsi də nəzərdə tutulmuşdur.

Rusiya Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkin bildirmişdir ki, kitab evinin açılışı iki ölkə arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin inkişafına daha da təkan verəcəkdir. O, Azərbaycan hökumətinin rus dili və mədəniyyətinə xüsusi münasibətini vurğulayaraq qeyd etmişdir ki, bu ilin sonunadək Moskva Dövlət Universitetində MDB ölkələri üçün "Azərbaycan dili" kitabı nəşr olunacaqdır.

Rusiya Prezidenti Administrasiyasının rəhbəri demişdir:

- Azərbaycanın orta və ali məktəblərində 140 minə yaxın gənc rus dilində təhsil alır. Yaxın vaxtlarda burada Moskva Dövlət Universitetinin filialı açılmışdır. Həmin filialda 4 fakültə fəaliyyət göstərir. Rusdilli mətbuat və rusdilli proqramlar kütləvi informasiya vasitələri sektorunda mühüm yer tutur. Azərbaycan bazarında rusdilli 50 qəzet və jurnal nəşr edilir, 7 informasiya agentliyi fəal iş aparır.

Bakıda "Rus kitabı evi"nin açılışı ilə Azərbaycanın mədəni həyatında böyük hadisə baş vermişdir. Bu sözləri isə Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev demişdir. Ümummilli lider Heydər Əliyevin Rusiya-Azərbaycan əlaqələrinin inkişafına böyük önəm verdiyini xatırladan Ramiz Mehdiyev bildirmişdir ki, məhz ulu öndərin müdrik siyasəti nəticəsində bu əlaqələr yeni inkişaf mərhələsinə daxil olmuşdur. Sıx dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafında isə hazırki prezidentlər İlham Əliyev və Dmitri Medvedevin xüsusi rolu vardır.

Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri demişdir:

- Rusiya Prezidenti Dmitri Medvedevin Azərbaycana səfəri və Bakıda aparılmış danışıqların yekunları bir daha təsdiq etdi ki, bu gün Azərbaycan-Rusiya münasibətləri ən yüksək səviyyədədir və bu, hər iki ölkənin mənafelərinə uyğundur. İki ölkə liderlərinin Bakı Sammitinin ən mühüm yekunu dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamənin imzalanması olmuşdur. Bu Bəyannamədə iki dövlət arasında qarşılıqlı münasibətlərin strateji xarakteri və perspektivləri dəqiq qeyd edilmişdir. Üstəlik, Bakı Sammiti əyani şəkildə nümayiş etdirdi ki, ölkələrimiz arasında yaranmış münasibətlər regionda təhlükəsizliyin və sabitliyin təmin edilməsi üçün mühüm amildir.

Azərbaycanda rus dilinə və rus mədəniyyətinə böyük ehtiramla yanaşırlar. Bu məqam burada da qeyd edildi və tamamilə düzgündür. Əlamətdar haldır ki, Azərbaycanın 21 məktəbində tədris yalnız rus dilində, 335 məktəbdə isə iki dildə - Azərbaycan və rus dillərində aparılır.

Bu gün Azərbaycanda rus əhalisinin sayının 160 min nəfərdən çox olduğunu deyən Ramiz Mehdiyev bildirmişdir ki, onlar digər milli azlıqlar kimi ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayırlar.

Qeyd edək ki, "Rus kitabı evi"ndə toplanan 30 min nüsxədən çox kitab Rusiyanın "Astrel" nəşriyyatında çap olunmuşdur. "Astrel" nəşriyyatının rəsmisi Oleq Barsenyev layihənin həyata keçməsindən məmnunluğunu bildirərək, nəşriyyatın Azərbaycanın tanınmış yazıçısı Çingiz Abdullayevlə əməkdaşlıq etdiyini söyləmişdir.

"Bakinski raboçi" qəzetinin baş redaktoru Ağabəy Əsgərov, "Avrasiya Tədqiqatlar İnstitutu" İnkişaf Fondunun prezidenti Valeri Tursunov, Azərbaycan Yazıçılar Birliyinin katibi Çingiz Abdullayev, Bakı və Xəzəryanı mitropolit Aleksandr, "Kitab" Cəmiyyətinin idarə heyətinin sədri Zərifə Salahova "Rus kitabı evi"nin əhəmiyyətindən danışmışlar.

Zərifə Salahova hazırladığı xüsusi miniatür kitabları Sergey Narışkinə təqdim etmişdir.

Sonda Rusiya Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkin "Rus kitabı evi"nin xatirə kitabına ürək sözlərini yazmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Dmitri Medvedevin dəvəti ilə noyabrın 24-də Ulyanovsk şəhərinə işgüzar səfərə gəlmişdir.

Ulyanovskın "Vostok" Beynəlxalq hava limanında Azərbaycan Prezidenti İlham Əliyevi Rusiya Prezidenti Dmitri Medvedev qarşıladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ

Noyabrın 24-də Ulyanovskda Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin görüşü olmuşdur.

Rusiya Federasiyasının Prezidenti Dmitri MEDVEDEV Azərbaycan dövlətinin başçısına müraciətlə dedi:

- Hörmətli İlham Heydər oğlu!

Sizi bir daha salamlamaq istərdim. Az qala deyəcəkdim Moskvada. Amma biz Moskvada deyilik, Sizinlə bərabər bizim mərkəzlərin birində - Ulyanovskdayıq. Bu məkan bir tərəfdən ənənəvi Rusiya məkanıdır, digər tərəfdən, Heydər Əliyevin fəaliyyəti ilə görünməz tellərlə bağlıdır.

İndicə Sizinlə bərabər iki tədbirdə iştirak etdik, həmin tədbirlərlə əlaqədar Heydər Əliyevin adı, onun xatirəsi Ulyanovsk şəhərinin, Ulyanovsk vilayətinin sakinləri üçün çox dəyərlidir. O cümlədən təməli 25 il bundan əvvəl qoyulmuş, lakin müxtəlif səbəblər üzündən tikintisi çox uzanmış körpünün açılışında olduq. Çox sağ olun ki, gəlmisiniz, körpünün açılışında iştirak etdiniz. Heydər Əliyevin adını daşıyan meydan və onun abidəsi - bütün bunlar həqiqətən bizim dostluğumuzun rəmzləridir. İndicə biz Sizinlə bu barədə danışırdıq. Bunlar postsovet məkanında dövlətlərin münasibətlərini necə qurmaq lazım olmasının rəmzləridir. Məncə bu, çox yaxşı haldır ki, Sizinlə təkcə paytaxtlarda, təkcə Moskvada, Bakıda və ya hər hansı başqa iri şəhərlərdə deyil, həm də bizim ucqarlarda görüşə, dövlətlərarası iqtisadi münasibətlərimizi, regional problemləri, o cümlədən mürəkkəb regional problemləri müzakirə edə bilirik. Ulyanovsk böyük şəhərdir, bunu Sizinlə bərabər yəqin etdik. Buna görə də sağ olun ki, gəlmisiniz. Sizinlə təqdimat tədbirlərindən əlavə söhbətlər üçün daha bir ayrıca gündəlik vardır. Sizi bir daha salamlayıram.

* * *

Azərbaycan Prezidenti İlham ƏLİYEV təşəkkür edərək dedi:

- Çox sağ olun, Dmitri Anatolyeviç. İlk növbədə, məni Ulyanovska dəvət etdiyinizə görə, bugünkü günə görə sağ olun. Şübhəsiz, bu gün ölkələrimiz arasında münasibətlərin tarixinə daxil olacaqdır. Çünki bu gün biz həm Ulyanovsk sakinlərinə, həm də bizim vətəndaşlara çox əziz olan tədbirlərdə birgə iştirak etmişik.

Sovet dövlətinin inkişafının Heydər Əliyevin adı ilə bağlı səhifələri çoxdur. O, hökumət sədrinin müavini olduğu dövrdə dəfələrlə buraya gəlmişdir. Bu gün artıq dediyim kimi həm xoş günlərdə, həm də ağır günlərdə o, həmişə xalqın yanında idi. Burada onun xatirəsini əziz tuturlar. Mən bunu bu gün bu şəhərin vətəndaşları ilə, sakinlərlə ünsiyyət zamanı gördüm. Bu, çox dəyərli məqamdır. Bu, bizim münasibətlərin göstəricisi, bu münasibətlərin inkişaf səviyyəsinin göstəricisidir. Mənə çox xoşdur ki, bu münasibətlər olduqca dinamik, səmərəli inkişaf edir. Biz həm rəsmi səfərlər çərçivəsində, həm də bu cür qısa, lakin mahiyyətcə heç də az məhsuldar olmayan işgüzar səfərlərin gedişində tez-tez görüşürük. Mənim fikrimcə, bu gün biz ikitərəfli münasibətlərə, regional inkişafa dair bütün mühüm məsələləri, ölkələrimizin gələcək münasibətləri ilə bağlı məsələləri müzakirə edəcəyik. Ümidvaram ki, bizim tərəfdaşlıq, mehriban qonşuluq, dostluq əlaqələri kimi səciyyələndirdiyimiz bu əlaqələrin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi yollarını müəyyən edəcəyik. Bu gün şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdə dediyim kimi, əgər bütün qonşular arasında münasibətlər bu cür olsaydı, dünyada problemlər olmazdı. Buna görə də ümid edirəm ki, bu gün də səmərəli işləyəcək və irəliyə doğru gedəcəyik. Dəvət üçün bir daha sağ olun.

ULYANOVSKDA AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ADINI DAŞIYAN MEYDANIN AÇILIŞI OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev noyabrın 24-də Ulyanovsk şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan meydanın açılış mərasimində iştirak etmişlər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev vaxtilə bir neçə dəfə Ulyanovsk şəhərində olmuşdur. Sovetlər Birliyində ali rəhbər vəzifədə işləyərkən ulu öndər bu şəhərin inkişafı ilə bağlı mühüm qərarların qəbul edilməsində bilavasitə iştirak etmişdir. Şəhər sakinləri dünya şöhrətli siyasi xadimin xatirəsini daim əziz tuturlar. Məhz buna görə də Ulyanovskın mərkəzi meydanlarından birinə Heydər Əliyevin adı verilmişdir. Bu meydanda ulu öndərin əzəmətli heykəli ucaldılmışdır.

Mərasimə toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar. Prezidentlər ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoydular, xatirəsinə ehtiramlarını bildirdilər.

Daha sonra prezidentlər İlham Əliyev və Dmitri Medvedev Ulyanovskda yaşayan Azərbaycan diasporunun nümayəndələri ilə görüşüb söhbət etdilər.

Diasporun nümayəndəsi: Cənab Prezident, Sizi Ulyanovsk torpağında salamlamağa şadıq! Xoş gəlmisiniz!

Biz bu abidəni keçən il ucaltmışıq. Bu, xalqlarımız arasında, Rusiya ilə Azərbaycan arasında dostluğun rəmzidir. Əlbəttə, bu, ulu öndərə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə, habelə həyata keçirilən milli siyasətə böyük ehtiramın əlamətidir. Biz Ulyanovsk vilayətinin qubernatoru Sergey İvanoviç Morozovun köməyi sayəsində belə bir gözəl abidə yarada bilmişik, həmçinin Azərbaycan Tarixi və Mədəniyyəti Muzeyi açmışıq. Həmin muzeyin ayrıca bir stendi Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmişdir.

Dmitri MEDVEDEV: Bəs muzey haradadır?

Diasporun nümayəndəsi: 78 nömrəli məktəbdə, bura yaxındır, 200 metr aralıda yerləşir. Orada bazar günü məktəbi, yaradıcılıq dərnəkləri də vardır, folklor qrupları məşğələ keçirlər. Uşaqlar milli mədəniyyəti, bədii tikmə sənətinin, metal üzərində nəqqaşlığın sirrlərini öyrənirlər. Bizim hələ futbol komandamız da vardır - "Neftçi" adlanır.

Dmitri MEDVEDEV: Burada neft var?

Diasporun nümayəndəsi: Taparlar.

Dmitri MEDVEDEV: Afərin, yaxşı abidədir!

Diasporun nümayəndəsi: Heydər Əliyevin şərəfinə onun adını daşıyan bu meydan Ulyanovsk vilayət hökumətinin, şəhər merinin köməyi ilə yaradılmışdır. Bu torpağın hər qarışında həmvətənlərimizin əməyi vardır. Hətta buradakı ağacları da həmyerlilərimiz və yerli fəhlələr əkiblər. Burada Heydər Əliyevə abidə ucaldılmasına görə bütün azərbaycanlılar fəxr edirlər. Bu, azərbaycanlılara bəslənilən dostluq, mehriban qonşuluq münasibətlərinin parlaq nümunəsidir. Fəxr edirik ki, bizdə belə bir abidə vardır. Biz fəxr edirik ki, Siz bizə qonaq gəlmisiniz. Bu, bizim üçün bayramdır.

İlham ƏLİYEV: Sağ olun. Mən çox şadam ki, siz burada yaxşı, mehriban yaşayırsınız, şəhərin, vilayətin həyatında fəal iştirak edirsiniz. Şadam ki, siz Rusiyanın yaxşı vətəndaşlarısınız. İnsanın öz xalqını, mədəniyyətini, tarixi xadimlərini xatırlaması və eyni zamanda, yaşadığı ölkənin yaxşı, vicdanlı vətəndaşı olması çox vacibdir. Mən çox şadam ki, azərbaycanlılar burada yaxşı yaşayırlar. Şadam ki, siz burada çox əhəmiyyətli dəyərlər yaradırsınız. Mən həm də Heydər Əliyevin xatirəsinə bu cür münasibətə görə vilayətin, şəhərin rəhbərlərinə təşəkkür etmək istəyirəm. Məni hər bir azərbaycanlı üçün çox əhəmiyyətli olan bu mərasimə dəvət etdiyinə və özü də həmin mərasimdə iştirak etdiyinə görə Rusiya Prezidentinə təşəkkür etmək istəyirəm. Mən burada özümü evimdə olduğu kimi hiss edirəm. Mən sizi gördüm, bax, bu şəraiti gördüm. Bu, həqiqətən Rusiya-Azərbaycan dostluğu günüdür. Sağ olun və gələcək işlərinizdə sizə uğurlar arzulayıram.

Diasporun nümayəndəsi: Biz bunlarla kifayətlənməyəcəyik. Biz hələ inkişaf edəcək, münasibətlərimizi qoruyub saxlayacağıq.

İlham ƏLİYEV: Düzdür.

Dmitri MEDVEDEV: Həqiqətən, bununla kifayətlənmək lazım deyildir. Ona görə ki, bu, bizim dostluğumuzun rəmzidir, bizim birlikdə yaşamağımızın rəmzidir, Rusiyanın inkişafına azərbaycanlıların verdiyi töhfənin rəmzidir. Mənə belə gəlir ki, bu, çox vacibdir və bizim birlikdə yeni dövlət qurmağımızın əlamətdar göstəricisidir, eyni zamanda Rusiyada yaşayan azərbaycanlıların öz tarixi köklərini yadda saxlamalarının, liderlərini yadda saxlamalarının rəmzidir. Bu, həqiqətən vacibdir, xüsusən ona görə ki, Heydər Əliyev bizim birlikdə yaşadığımız dövlətdə işləmiş və o vaxtkı ortaq dövlətimizin inkişafı üçün olduqca çox iş görmüşdür. Bu gün biz 20 il müddətində yaradılmış, o vaxt SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olmuş Heydər Əlirza oğlu Əliyevin fəal iştirakı ilə yaradılmış körpünü açdıq. Ona görə də bunlar keçmişin şanlı səhifələri və bu günün əlamətdar səhifələridir.

İlham ƏLİYEV: Onu da demək istəyirəm ki, Azərbaycanda da rus icması mehriban yaşayır. Onlar Azərbaycanın layiqli vətəndaşlarıdır, ölkəmizin inkişafına çox böyük töhfə verirlər. Onlar əsrlər boyu Azərbaycanda yaşayırlar. Bu yaxınlarda mən rus vətəndaşlarımızın yaşadığı böyük bir kənddə - İvanovka kəndində olmuşam.

Dmitri MEDVEDEV: Kəndin adı da müvafiqdir.

İlham ƏLİYEV: Həmin kənddə Heydər Əliyev də olmuşdur, mən də dəfələrlə orada olmuşam, adamlarla ünsiyyət saxlamışam. Orada məhsul bayramı idi. Bu da bizim xalqlar arasında dostluq bayramı idi. Buna görə də insanlar arasında münasibətlər və başqa millətdən olan insanlara münasibət dövlətlərimizi birləşdirən amildir. Bizim dövlətlərin gücü bundadır.

Dmitri MEDVEDEV: Mən Sizə təşəkkür edirəm ki, Ulyanovska gəlmisiniz. Ona görə ki, biz həmişə Moskvada, Peterburqda, Soçidə, yaxud Bakıda görüşməyəcəyik ki. Başqa şəhərlərə də getmək lazımdır. Rusiya böyük ölkədir, üstəlik, burada Azərbaycanla və Azərbaycanın liderinin xatirəsi ilə bağlı yerlər çoxdur. Ona görə də sizə uğurlar arzulayıram!

Ulyanovsk sakini: Sağ olun, cənab İlham Heydər oğlu. Rusiya ilə münasibətləri atanızın sağlığında olduğu kimi saxlayın. Allah köməyiniz olsun!

İlham ƏLİYEV: Çalışırıq.

Ulyanovsk sakini: Əlbəttə, istərdik ki, bütün respublikalarla münasibətlər bu cür olsun.

Dmitri MEDVEDEV: Bizim münasibətlər məhz bu cür münasibətlərə nümunədir. Qoy

başqa respublikalar görsünlər.

İlham ƏLİYEV: Biz Dmitri Anatolyeviçlə həmişə deyirik ki, bütün qonşularla münasibətlər Rusiya ilə Azərbaycan arasındakı münasibətlər kimi olsaydı, dünyada problem olmazdı.

Dmitri MEDVEDEV: Düzdür. Sizə uğurlar arzulayıram!

Mərasim iştirakçıları: Sağ olun, xoşbəxt olun.

PREZİDENT İLHAM ƏLİYEV VOLQA ÇAYI ÜZƏRİNDƏ YENİ KÖRPÜ-KEÇİDİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Noyabrın 24-də Ulyanovskda işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Dmitri Medvedev Volqa çayı üzərində körpü-keçidin birinci hissəsinin - ikiyaruslu yeni körpünün təntənəli açılış mərasimində iştirak etmişlər.

Körpü "2002-2010-cu illər üçün Rusiyanın nəqliyyat sisteminin modernləşdirilməsi" məqsədli federal proqramına daxil edilmişdir və Rusiyanın Avropa hissəsini Ural, Sibir və Uzaq Şərqlə birləşdirən nəqliyyat dəhlizinin mühüm qovşağıdır. Tikintisi keçən əsrin 80-ci illərindən aparılan bu körpünün inşası barədə qərar o vaxt SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olan Heydər Əliyevin bilavasitə iştirakı ilə qəbul edilmişdir.

Mərasimə toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.

Prezidentlər mərasimdə çıxış etdilər.

Rusiya Prezidenti Dmitri MEDVEDEV çıxış edərək dedi:

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar!

Bu gün əlbəttə, çox xoş gündür. Biz bu günü çoxdan gözləyirdik. Tikinti işləri çox çəkmişdir. Bütün bunlar hələ 1980-ci illərin əvvəlində başlanmışdı. Bu barədə qərar qəbul edilməsi o vaxt hökumətin - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləmiş Heydər Əlirza oğlu Əliyev ilə bilavasitə bağlı idi. Əslində bu tikinti iyirmi il ərzində müxtəlif dərəcədə uğurla davam etmişdir. Lakin əsas məsələ odur ki, son vaxtlar biz bunun üçün vəsait tapmağa, qüvvələrimizi cəmləşdirməyə nail olmuşuq və bu gün burada iştirak edənlərin hamısı olduqca xoş bir hadisənin - yeni körpünün istifadəyə verilməsinin şahidləridir.

Əslində bu körpü bizim ucsuz-bucaqsız ölkəmizin hissələrini - bir tərəfdən Avropanı, digər tərəfdən Uralı və Sibiri birləşdirir. Bu, həm tikintisinə görə, həm də ölçülərinə görə misilsiz körpüdür. Onun yalnız körpü hissəsinin uzunluğu 5,8 kilometrdir. İndicə biz İlham Heydər oğlu ilə bu körpüdən keçdik. Biz maşınla gedirik, gedirik, söhbət edirik, körpü isə elə hey uzanır. Bu, sadəcə olaraq fantastikadır. Əlbəttə, bu, həm də bizim ölkədə həll etdiyimiz texnoloji məsələlərin miqyasını göstərir. Biz bəzən çətinliklərlə üzləşsək də, həmin məsələləri həll edirik və nəticə etibarilə çox yaxşı nailiyyətlər qazanırıq.

Mən ölkəmiz üçün çox gərəkli olan bu nadir və mürəkkəb obyektin inşasında iştirak

edənlərin hamısına səmimi təşəkkürümü bildirmək istərdim. Mən burada iştirak edən, bu obyektin yaradılmasının başa çatmasına və istifadəyə verilməsinə qüvvə sərf etmiş, can qoymuş inşaatçılara təşəkkür etmək istərdim. Müvafiq qərarlar qəbul edilməsində iştirak edənlərin hamısına, burada iştirak edən veteranlarımıza təşəkkür etmək istərdim.

Mən bu körpünün yaradılmasında aidiyyəti olanların hamısını, o cümlədən Heydər Əliyevi də xatırlamaq istərdim. Mən çox məmnunam ki, İlham Heydər oğlu burada iştirak edir. Bu, bizi çox sevindirir, xüsusən ona görə ki, həmin işlər barədə və ümumiyyətlə, Heydər Əliyevin iştirakı barədə xatirə burada ehtiramla qorunub saxlanılır. Ulyanovsk şəhərində Heydər Əliyevin adını daşıyan meydan vardır. Bu gün biz həmin meydana gedəcək, Heydər Əliyevin abidəsini ziyarət edəcəyik.

Ümumiyyətlə, bu gün bu vacib obyektin yaradılmasında iştirak etmiş çoxlu sayda insanları xatırlamaq üçün bir səbəbdir. Mən burada iştirak edənlərin hamısına, bu körpünü yaradanların hamısına səmimi təşəkkür edirəm. İnanıram ki, bu körpünün taleyi uğurlu olacaqdır. Çox sağ olun.

RUSİYA FEDERASİYASI NƏQLİYYAT KOMPLEKSİNİN İNNOVASİYA İNKİŞAFI SƏRGİSİ İLƏ TANIŞLIQ

Volqa çayı üzərində körpü-keçidin açılışından sonra Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Dmitri Medvedev "Rusiya Federasiyası nəqliyyat kompleksinin innovasiya inkişafı" mövzusunda sərgi ilə tanış olmuşlar.

Prezidentlər İlham Əliyev və Dmitri Medvedevə Rusiyanın nəqliyyat sisteminin müasir tələblərə uyğun inkişafına xidmət edəcək innovasiya layihələri nümayiş etdirilmişdir.

Sərgidə sürücülərin iş zamanı əmək və istirahətinə nəzarət terminalı, yüksəksürətli qatarların maketləri, qaz-turbin güc qurğulu lokomotivlər, qatarların avtomatlaşdırılmış idarəetmə sistemi və sair layihələrə yer verilmişdir.

Dövlət başçılarına bildirilmişdir ki, yüksək sürət qatarları Moskva ilə Sankt-Peterburq arasında məsafəni 3 saat 40 dəqiqəyə qət edə bilər.

Bundan başqa, Prezidentlər İlham Əliyev və Dmitri Medvedevə QLONASS texnologiyasına əsaslanan intellektual nəqliyyat sistemi layihəsi də göstərilmişdir.

Rusiya Prezidenti bir sıra layihələrin tezliklə reallaşdırılması və bazara çıxarılması barədə tapşırıqlarını vermişdir.

Dövlət başçıları Volqa üzərində körpünü tikən inşaatçılarla da söhbət etdilər.

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN BİRGƏ İŞÇİ NAHARI

Noyabrın 24-də Ulyanovsk şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin birgə işçi naharı olmuşdur.

PREZİDENT İLHAM ƏLİYEV ULYANOVSKDA NƏRİMAN NƏRİMANOVUN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Ulyanovskda işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 24-də Nəriman Nərimanovun abidəsini ziyarət etmişdir.

Dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoydu.

Prezident İlham Əliyev Ulyanovskda yaşayan soydaşlarımızla görüşüb, onlarla söhbət etdi.

Dövlətimizin başçısı dedi:

- Mənə verilən məlumata görə, Ulyanovsk vilayətində 20 minə qədər azərbaycanlı yaşayır. Bu, böyük icmadır. Bildiyimə görə, yaxşı da yaşayırsınız və Azərbaycanı təbliğ edirsiniz. Rusiya-Azərbaycan münasibətlərinin inkişafı üçün öz səylərinizi göstərirsiniz. Bu gün də hamımız üçün çox əlamətdar bir gündür. Ulu öndər Heydər Əliyevin adını daşıyan meydan açılıb. Rusiya Prezidenti və mən bu tədbirlərdə iştirak etmişik. Bu, Rusiya-Azərbaycan münasibətlərinin inkişafına çox dəyərli töhfədir. Eyni zamanda, burada yaşayan azərbaycanlılar üçün də əlamətdar hadisədir. Arzu edirəm ki, siz burada həmişə yaxşı yaşayasınız. Əlbəttə ki, Azərbaycan haqqında həmişə düşünəsiniz, əlaqələri heç vaxt itirməyəsiniz. Bilməlisiniz ki, Azərbaycan dövləti həmişə sizin arxanızdadır. Siz də burada, Rusiyada Azərbaycanı təmsil edirsiniz. Sizin buradakı fəaliyyətinizdən əlbəttə ki, Azərbaycan haqqında mühüm fikir formalaşacaqdır.

Sizə işinizdə uğurlar arzulayıram.

Azərbaycan diasporunun üzvü dövlətimizin başçısına minnətdarlıq edərək dedi:

- Hamımız Vətənimizi sevirik, Sizinlə fəxr edirik.

PREZİDENT İLHAM ƏLİYEV V.İ.LENİNİN EV-MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

Noyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev Ulyanovskda V.İ.Leninin ev-muzeyi ilə tanış olmuşdur.

Dövlətimizin başçısı burada Ulyanovlar ailəsinin şəxsi əşyalarına - fotoşəkillərə, kitablara, məişət ləvazimatına baxmışdır.

Azərbaycan Prezidentinə məlumat verilmişdir ki, uzun illər boyu bu evin müxtəlif sahibləri olmuşdur. 1923-cü ildə həmin ev milliləşdirilmişdir. Elə həmin il dekabrın 10-da burada Rusiyada ilk dəfə olaraq V.İ.Lenin adına İnqilab tarixi muzeyi açılmışdır. 1928-1929-cu illərdə muzeydə hərtərəfli bərpa işləri aparılandan sonra o, V.İ.Leninin memorial-məişət ev-muzeyinə çevrilmişdir. Muzeyin yaradılmasında Ulyanovlar ailəsinin üzvləri iştirak etmişlər. Muzey açılandan indiyə qədər buranı dünyanın yüzdən çox ölkəsindən 13,7 milyon nəfər ziyarət etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev V.İ.Leninin ev-muzeyinin xatirə kitabına ürək sözlərini yazdı.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Rusiya Federasiyasının Ulyanovsk şəhərinə işgüzar səfərini başa çatdıraraq Vətənə yola düşmüşdür.

Ulyanovsk şəhərinin "Vostok" Beynəlxalq hava limanında Prezident İlham Əliyevi Ulyanovsk vilayətinin yüksək vəzifəli hökumət nümayəndələri yola saldılar.

ƏDLİYYƏ NAZİRİ NORVEÇ ƏDLİYYƏ NAZİRLİYİNİN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 24-də Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Norveç Krallığı Ədliyyə Nazirliyinin baş katibi Morten Ruudun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ölkələrimiz arasında hüquqi əlaqələrin dinamik inkişaf etdiyini bildirən nazir iyun ayında Avropa ədliyyə nazirlərinin Norveçdə təşkil olunmuş konfransı çərçivəsində səmərəli ikitərəfli görüşlər keçirdiyini söyləmişdir. F.Məmmədov əməkdaşlıqla bağlı bu görüşlərdə aparılmış faydalı danışıqlar nəticəsində hazırkı səfərin gerçəkləşdirildiyini qeyd etmiş, norveçli həmkarını yenidən bu vəzifəyə təyin olunması münasibətilə təbrik etmişdir.

Görüşdə Azərbaycanda məhkəmə və ədliyyə sisteminin inkişafı üzrə görülən genişmiqyaslı işlərdən danışılmış, bu sahədə xarici dövlətlərlə əməkdaşlığın əhəmiyyəti vurğulanaraq, hakimliyə namizədlərin tədrisində norveçli ekspertlərin yaxından iştirakı təqdir edilmişdir.

Norveçin Azərbaycan ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi önəm verdiyini bildirən qonaq, ölkəmizdə aparılan hüquqi islahatların miqyasına heyran olduğunu bildirmiş, beynəlxalq təşkilatlar tərəfindən bu nailiyyətlərin yüksək qiymətləndirildiyini qeyd etmişdir.

Görüşdə əməkdaşlığın daha da inkişafı üçün geniş perspektivlərin olduğu vurğulanmış, Ədliyyə Akademiyasının potensialının gücləndirilməsi, hakimlərin və hakimliyə namizədlərin treninqi, o cümlədən Norveçə tədris səfərinin təşkili, habelə məhkəmə qərarlarının icrası və maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

Qonaqlar, həmçinin Ali Məhkəmənin fəaliyyəti, yeni möhtəşəm və müasir binası ilə tanış olmuşlar.

MİNSKDƏ MDB MİLLİ İNFORMASİYA AGENTLİKLƏRİNİN RƏHBƏRLƏRİ ŞURASININ X İCLASI OLMUŞDUR

Noyabrın 23-24-də Belarusun paytaxtında Müstəqil Dövlətlər Birliyi Milli İnformasiya Agentliklərinin Rəhbərləri Şurasının X iclası keçirilmişdir.

Belarus, Qazaxıstan, Rusiya Federasiyası, Ukrayna, Tacikistan və Ermənistan nümayəndə heyətlərinin qatıldıqları tədbirdə Azərbaycan Dövlət Teleqraf Agentliyinin - AzərTAc-ın Baş direktoru Aslan Aslanov və agentliyin xarici dillərdə informasiya baş redaksiyasının baş redaktoru Nazim Xıdırov iştirak etmişlər.

Noyabrın 23-də MDB-nin Minskdəki qərargahında işə başlamış iclası şuranın sədri, İTAR-TASS-ın Baş direktoru Vitali İqnatenko açmışdır.

MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Vladimir Qarkun iclasda çıxış etmişdir.

İclasda MDB üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Alyansının (ANİA) portalının yaradılması məsələsi müzakirə olunaraq, onun gələn ilin əvvəlində hazırlanması barədə qərar qəbul edilmişdir. Bundan başqa, xəbər agentliklərinin rəhbərləri iclasda Böyük Vətən müharibəsində Qələbənin 65 illiyinə həsr olunmuş fotomüsabiqənin keçirilməsi və təqvimin nəşri, MDB üzvü olan dövlətlərin informasiya agentlikləri üçün jurnalist kadrlarının hazırlanması məsələlərini müzakirə etmişlər.

Aslan Aslanov çıxış edərək, MDB Milli İnformasiya Agentliklərinin Rəhbərləri Şurasının XI iclasının AzərTAc-ın 90 illiyi ilə əlaqədar 2010-cu il martın əvvəlində Bakıda keçirilməsi təklifini irəli sürmüşdür. Təklif qəbul edilmişdir.

İclas iştirakçıları Belarus paytaxtında bir sıra görüşlər də keçirmişlər. Onlar Belarus Dövlət Universitetinin Jurnalistika İnstitutunun tələbə və müəllimləri ilə görüşmüş, Belarus Milli Kitabxanasında olmuşlar.

Noyabrın 24-də Belarus Prezidenti Aleksandr Lukaşenko iclasda iştirak edən milli informasiya agentliklərinin rəhbərlərini qəbul etmişdir.

Belarus Prezidenti kütləvi informasiya vasitələrinin xalqlar arasında münasibətlərin yaranmasında və möhkəmlənməsində vacib rol oynadığını vurğulamışdır.

Minskdə keçirilən iclasın əhəmiyyətini qeyd edən A.Lukaşenko bildirmişdir ki, bu cür tədbirlər MDB-nin üzvü olan ölkələr arasında əlaqələrin inkişafına müsbət təsir göstərir.

Belarus dövlətinin başçısı Azərbaycan ilə Belarus arasında sıx əlaqələrin, Prezident İlham Əliyev ilə səmimi münasibətlərinin olduğunu xüsusi qeyd etmişdir. A.Lukaşenko ölkəsinin Azərbaycan ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "AQO" MONİTORİNQ QRUPUNUN SƏDRİ, RUMINİYANIN AVROPA ŞURASI YANINDA DAİMİ NÜMAYƏNDƏSİ STELİAN STOYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də "Aqo" monitorinq qrupunun sədri, Rumıniyanın Avropa Şurası yanında daimi nümayəndəsi Stelian Stoyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Stelian Stoyan monitorinq qrupu üzvlərinin ölkəmizə zəngin səfər proqramının həyata keçirilməsinə yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Prezident İlham Əliyevin Avropa Şurasındakı məhsuldar fəaliyyətini xatırlayan qonaq təmsil etdiyi təşkilatın Azərbaycana yaxın münasibət bəslədiyini bildirdi. Avropa Şurasının növbəti illər üçün də Azərbaycanla əməkdaşlığının intensivləşdirilməsi imkanlarını araşdırmağı zəruri hesab etdiyini bildirən Stelian Stoyan Avropa Şurasına üzv olan ölkələrin bir-birilərinə dəstək vermələrinin vacibliyini qeyd etdi.

"Aqo" monitorinq qrupunun Azərbaycana geniş proqramla səfər etməsinin önəmini qeyd edən Prezident İlham Əliyev bildirdi ki, bu səfər ölkəmizlə yaxından tanış olmaq, insanlarla görüşüb müxtəlif fikirlər eşitmək, Azərbaycan haqqında həqiqətləri daha dolğun şəkildə öyrənmək üçün yaxşı imkan yaradır.

Görüşdə Azərbaycan ilə Avropa Şurasının "Aqo" monitorinq qrupu arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN MİLLİ MÜDAFİƏ NAZİRİ BOQDAN KLİXİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Polşanın milli müdafiə naziri Boqdan Klixin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Polşa arasında münasibətlərin uğurla inkişaf etdiyini, siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı. Dövlət başçılarının qarşılıqlı səfərlərinin və görüşlərinin intensiv və məhsuldar olduğunu qeyd edən Prezident İlham Əliyev bildirdi ki, hər iki tərəf ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlərdə genişləndirilməsində maraqlıdır. Prezident İlham Əliyev Polşanın milli müdafiə naziri Boqdan Klixin Azərbaycana səfərinin ölkələrimizin müdafiə nazirlikləri arasında əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Polşanın milli müdafiə naziri Boqdan Klix Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi işinə töhfə vermək üçün yaxşı fürsət yaratdığını dedi və ölkəmizdə olduğu müddətdə məhsuldar görüşlər keçirəcəyinə əminliyini ifadə etdi.

XARİCİ İŞLƏR NAZİRİ KOREYA RESPUBLİKASININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Noyabrın 25-də xarici işlər naziri Elmar Məmmədyarov Koreya Respublikasının Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Li Ci-Hanı qəbul etmişdir.

Etibarnamənin surətini təqdim edən səfir Azərbaycana təyin olunmasından məmnun olduğunu demişdir. Səfir fəaliyyəti dövründə Koreya-Azərbaycan arasında iqtisadi, siyasi, mədəni, təhsil, mətbuat və digər sahələrdə münasibətlərin inkişafına və genişlənməsinə xidmət edəcəyini və bunun üçün ölkələrimiz arasında böyük potensialın olduğunu söyləmişdir.

Öz növbəsində nazir E.Məmmədyarov səfir Li Ci-Hanı Azərbaycana səfir təyin edilməsi münasibətilə ürəkdən təbrik etmiş, Azərbaycan ilə Koreya arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu və Azərbaycan-Koreya əlaqələrinin intensivləşdirilməsi üçün mövcud geniş imkanlardan daha səmərəli şəkildə istifadə olunmasının məqsədəmüvafiqliyini qeyd etmişdir.

Həmçinin tərəflər qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

XARİCİ İŞLƏR NAZİRİ MOLDOVA RESPUBLİKASININ SƏFİRİ İON ROBUNU AZƏRBAYCANDA FƏALİYYƏT MÜDDƏTİNİN BİTMƏSİ İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Noyabrın 25-də xarici işlər naziri Elmar Məmmədyarov Moldova Respublikasının Azərbaycan Respublikasındakı səfiri İon Robunu ölkəmizdə fəaliyyət müddətinin bitməsi ilə əlaqədar qəbul etmişdir.

Görüş zamanı səfir İ.Robu Azərbaycanda Moldovanın səfiri olmasından məmnun olduğunu vurğulamışdır. İşlədiyi dövrdə ölkələr arasındakı bütün sahələrdə ikitərəfli münasibətlərin daha da genişlənməsi və inkişafı üçün fəaliyyət göstərdiyini söyləyən səfir bu istiqamətdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə faydalı əməkdaşlığını qeyd etmişdir. Azərbaycandan xoş xatirələrlə ayrıldığını vurğulayan səfir fəaliyyəti zamanı göstərilən dəstək və diqqətə görə minnətdarlığını bildirmişdir.

Öz növbəsində nazir E.Məmmədyarov səfir İ.Robuya xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

XARİCİ İŞLƏR NAZİRİ FİNLANDİYANIN AZƏRBAYCANDAKI SƏYYAR SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Noyabrın 25-də xarici işlər naziri Elmar Məmmədyarov Finlandiya Respublikasının Azərbaycan Respublikasındakı səyyar səfiri Petri Salonu qəbul etmişdir.

Görüş zamanı tərəflər hər iki ölkə arasındakı münasibətlərin cari vəziyyəti və perspektivləri haqqında fikir mübadiləsi aparmış, ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində qurulmuş əlaqələrin hazırkı durumunu yüksək qiymətləndirmişlər. Tərəflər Azərbaycan və Finlandiya arasındakı əlaqələrin inkişaf etdirilməsi və dərinləşməsi üçün geniş imkanların olduğunu və bu potensialdan səmərəli istifadə olunmasının vacibliyini qeyd etmişlər.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir E.Məmmədyarov Azərbaycan və Ermənistan prezidentlərinin Münhen görüşü barəsində məlumat vermiş və münaqişənin beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin mümkün olduğunu vurğulamışdır.

Həmçinin tərəflər qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ XARİCİ SİYASƏT PROQRAMININ İŞTİRAKÇILARINA SERTİFİKATLAR VERİLMİŞDİR

Bu il Azərbaycan Diplomatik Akademiyası (ADA) Xarici İşlər Nazirliyinin diplomatları və digər dövlət qurumlarının (Dövlət Gömrük Komitəsi, Dövlət Neft Şirkəti, Fövqəladə Hallar, Mədəniyyət və Turizm, İqtisadi İnkişaf nazirlikləri) 24 mütəxəssisi üçün xarici siyasət proqramı üzrə altı aylıq təlim kursu təşkil etmişdir.

Diplomatik xidmətin əsaslarını əhatə edən bu proqram beş tədris sahəsi üzrə (beynəlxalq münasibətlər, beynəlxalq iqtisadiyyat və ticarət, konsulluq işləri, ictimai diplomatiya, liderlik və kommunikasiya qabiliyyətləri və regionşünaslıq) keçirilmişdir.

Müəllim və təlimçilər Avropanın, ABŞ-ın və Asiyanın aparıcı universitetlərindən cəlb olunmuşlar.

Bundan əlavə, proqramın iştirakçıları üçün bölgələrə, qaçqın və məcburi köçkün şəhərciklərinə, hərbi hissələrə səfərlər, mədəni proqram, dövlət və diplomatik qurumlarda görüşlər və debat məşğələləri təşkil olunmuşdur.

Proqramın sonunda seçilmiş iştirakçılar Azərbaycanın ABŞ, Böyük Britaniya, Rusiya, Belçika, Avstriya və İsveçrədəki səfirliklərinə bir aylıq təcrübəyə göndərilmişlər.

Noyabrın 26-da Proqram iştirakçılarının sertifikatlarla təltifolunma mərasimində fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və xarici işlər nazirinin müavini Vaqif Sadıqov iştirak etmişlər.

Mərasimdə çıxış edən xarici işlər nazirinin müavini, ADA-nın rektoru Hafiz Paşayev demişdir ki, təlim proqramına cəlb olunmuş diplomatlar və dövlət qulluqçuları arasında yaranmış dostluq münasibətləri dövlət strukturları arasında gündəlik əməkdaşlığın səmərəliliyinin artmasına öz töhfəsini verəcəkdir.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov vurğulamışdır ki, ADA nisbətən cavan qurum olsa da, artıq ciddi uğurlara imza atmışdır.

Mərasimin sonunda tələbələrin tədris zamanı çəkdikləri sənədli filmlər göstərilmişdir.

AZƏRBAYCANIN GƏNCLƏR VƏ İDMAN NAZİRİ KUBADA RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR

Gənclər və idman naziri Azad Rəhimov noyabrın 25-dən 28-dək Kuba Respublikasında rəsmi səfərdə olmuşdur.

Səfər zamanı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Kubanın İdman və İstirahət İnstitutu (Nazirliyi) arasında əməkdaşlıq haqqında Saziş imzalanmışdır. Sənəd iki ölkənin idman sahəsində əməkdaşlığı üçün yeni imkanlar açacaqdır.

A.Rəhimov Kubanın idman sahəsindəki nailiyyətləri ilə tanış olmuş, Cubadeporte dövlət komitəsində, Antidopinq tibbi mərkəzində, yüksək səviyyəli idmançılar hazırlayan ali məktəbdə olmuşdur. Nazir mütəxəssislərlə görüşmüş, onların təcrübələri ilə tanış olmuş, əməkdaşlığa dair fikir mübadiləsi aparmışdır. Boks üzrə iki kubalı mütəxəssisin ölkəmizdə təlim keçməyə başlaması məmnunluqla qeyd edilmişdir.

A. Rəhimovun xarici işlər nazirinin müavini Daqoberto Rodrigeslə görüşündə Azərbaycan-Kuba münasibətləri təhlil olunmuşdur.

Azərbaycanlı nazir həm də bu ölkədə gənclərlə aparılan işlərlə tanış olmuş, yerli gənclər təşkilatında görüş keçirmiş, ölkəmizin bu sahədəki təcrübəsi və görülmüş işlər barədə məlumat vermişdir.

A. Rəhimov Kuba Baş nazirinin müavini, Milli Olimpiya Komitəsinin sədri Xose Ramon Fernandes Alvares ilə görüşmüş və Azərbaycan - Kuba münasibətlərini müzakirə etmişdir. Bu münasibətlərin dinamik və səmərəli inkişaf etdiyi vurğulanmışdır. Qeyd

edilmişdir ki, qısa müddətdə iki ölkə arasında perspektivli layihələr və planlar qəbul edilmişdir və onlar uğurla həyata keçirilir.

NİDERLANDDA AZƏRBAYCANIN DİPLOMATİK XİDMƏT ORQANLARININ 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ KONFRANS KEÇİRİLMİŞDİR

Noyabrın 30-da ölkəmizin Niderland Krallığındakı səfirliyi Avropanın ən tanınmış təhsil və elmi-tədqiqat mərkəzlərindən biri olan Klinqendal Beynəlxalq Əlaqələr İnstitutunda Azərbaycanın diplomatik xidmət orqanlarının 90 illik yubileyi münasibətilə konfrans keçirmişdir.

Konfransda bir sıra ölkələrin səfirləri və diplomatik korpusun əməkdaşları, Niderland hökumətinin, ölkədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının və elmi-tədqiqat mərkəzlərinin təmsilçiləri, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Konfransı Klinqendal İnstitutunun prezidenti professor Yaap de Zvan və Azərbaycan Respublikasının Niderland Krallığındakı səfiri Fuad İsgəndərov açmışlar. Professor Y.Zvan Azərbaycanın sürətli inkişafından, Cənubi Qafqaz regionunda artan nüfuzundan, ölkəmizin Avropanın enerji təhlükəsizliyi məsələsində vacib rolundan danışmışdır.

Səfir F.İsgəndərov Azərbaycanın diplomatik xidmət orqanlarının yaradılması haqqında iştirakçılara məlumat vermiş, müstəqil Azərbaycanın xarici siyasətinin formalaşmasında ümummilli lider Heydər Əliyevin böyük rolunu vurğulamışdır.

Konfransda əsas məruzəçi qismində çıxış edən Azərbaycan Diplomatik Akademiyasının professoru xanım Brenda Şaffer ölkəmizin xarici siyasətinin tarixi və hazırkı vəziyyəti haqqında danışmış, iştirakçıların suallarını cavablandırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN KEÇMİŞ BAŞ NAZİRİ TONİ BLEYERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Böyük Britaniyanın keçmiş Baş naziri Toni Bleyeri qəbul etmişdir.

Keçmiş Baş nazir Toni Bleyer Azərbaycan Prezidenti İlham Əliyevin ölkəsinə səfərlərini xatırladı. Böyük Britaniyanın ölkəmizdə nüfuzlu şirkətlər vasitəsilə təmsil olunduğunu deyən qonaq, Azərbaycan iqtisadiyyatının dünyada ən sürətli templərlə artdığı barədə də məlumatlı olduğunu vurğuladı.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin sürətlə inkişaf etdiyini, energetika ilə başlanan əməkdaşlığımızın hazırda müxtəlif sahələri əhatə etdiyini bildirdi. Böyük Britaniyaya son səfərini xatırlayan Prezident İlham Əliyev səfərin məhsuldar olduğunu və yaxşı nəticələr verdiyini dedi. Ölkəmizdə Böyük Britaniyanın çoxlu sayda şirkətlərinin fəaliyyət göstərdiyini deyən dövlətimizin başçısı bunların böyük sərmayədarlar olduqlarını qeyd etdi.

Sonra Prezident İlham Əliyevin adından Böyük Britaniyanın keçmiş Baş naziri Toni Bleyerin şərəfinə işçi nahar verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN YORQ HERSOQU, ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Böyük Britaniyanın Yorq Hersoqu, şahzadə Endryunu qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə inkişaf etdiyi vurğulandı, iqtisadi sahədə əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ AYIRDIĞI KREDİT ƏSASINDA AZƏRBAYCANDA 6 YENİ ZAVOD TİKİLƏCƏKDİR

Dekabrın 1-də Bakıda Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanın metanol şirkətinə (AzMeCo) 120 milyon dollar məbləğində kredit verilməsi haqqında müqavilənin imzalanma mərasimi keçirilmişdir.

"AzMeCo"nun idarə heyətinin sədri Nizami Piriyev bildirmişdir ki, müqavilə çərçivəsində şirkət ümumi layihə dəyəri 1,1 milyard dollar olan 6 zavodun tikintisini planlaşdırır. Bütün zavodlar 2013-cü ilə qədər istifadəyə veriləcəkdir. Layihənin həyata keçirilməsi üçün ABŞ-dan və Avropadan ən yeni texnologiyalar alınmış, metanol, ammonyak və karbamid istehsalı sahəsində dünya təcrübəsinə malik olan mütəxəssislər cəlb olunmuşdur.

Mərasimdə iştirak edən Böyük Britaniyanın keçmiş Baş naziri Toni Bleyer bildirmişdir ki, Azərbaycanda belə zavodların tikilməsi bir çox ölkələrin və beynəlxalq təşkilatların ölkəmizə olan etimadının bariz nümunəsidir. O qeyd etmişdir ki, zavodlar həm Azərbaycanın özü, həm də Avropa üçün yeni enerji mənbəyi baxımından böyük əhəmiyyətə malikdir.

Qeyd edək ki, kreditin iki formada verilməsi nəzərdə tutulmuşdur. Belə ki, 90 milyon dollar 9 il, qalan 30 milyon dollar isə 10 il müddətinə veriləcəkdir. Bu, AYİB-in tarixində heç bir dövlət və bank təminatı olmadan ölkəmizə ayırdığı ən iri kredit, təsisatın indiyə qədər maliyyələşdirdiyi yeganə metanol layihədir.

XARİCİ İŞLƏR NAZİRİ AFİNADA SƏFƏRDƏ OLMUŞDUR

Cari il dekabrın 1-2-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in Nazirlər Şurasının 17-ci iclasında iştirak etmək üçün Afinada səfərdə olmuşdur.

Səfərin ilk günü nazir E.Məmmədyarov Latviyanın xarici işlər naziri Maris Riekstinş ilə görüşmüşdür. Tərəflər Azərbaycan-Latviya əməkdaşlığının cari vəziyyətini yüksək qiymətləndirmiş, əlaqələrin daha da dərinləşdirilməsi üçün siyasi, iqtisadi, humanitar və digər sahələrdə təmasların intensivləşdirilməsinin vacibliyini qeyd etmişlər. İki ölkə arasında əməkdaşlığın Azərbaycan-Avropa İttifaqı münasibətləri çərçivəsində də inkişaf etdirilməsinin vacibliyini bildirən tərəflər bu xüsusda "Şərq Tərəfdaşlığı" təşəbbüsünün yaratdığı imkanlardan faydalanmağın məqsədəuyğunluğunu qeyd etmişlər. Nazir E.Məmmədyarov "Şərq Tərəfdaşlığı" təşəbbüsü üzrə vəzifələrimizin əsas etibarilə ölkəmizdəki həyat standartlarının Avropa səviyyəsinə qaldırılması ilə bağlı olduğunu bil-

dirmiş, bunun üçün birgə texniki proqramların həyata keçirilməsinin əhəmiyyətini vurğulamışdır. Görüşdə regional məsələlər, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına da toxunulmuşdur. Azərbaycanın heç zaman öz ərazilərinin işğalı ilə barışmayacağını bildirən nazir E.Məmmədyarov, münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin mümkünlüyünü bildirmişdir.

Nazir E.Məmmədyarov növbəti görüşü İsrailin xarici işlər naziri Aviqdor Liberman ilə keçirmişdir. Tərəflər Azərbaycan və İsrail xalqlarının dostluq münasibətlərinin ölkələrimiz arasında əməkdaşlığın yüksələn xətlə inkişafı üçün əhəmiyyətli zəmin olduğunu vurğulamışlar. Görüşdə, habelə, Yaxın Şərq və Cənubi Qafqazdakı vəziyyət ətrafında da fikir mübadiləsi aparılmışdır. Nazir E.Məmmədyarov israilli həmkarını Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlar prosesinin cari vəziyyəti, habelə nizamlanmaya dair ölkəmizin mövqeyi barədə məlumatlandırmışdır.

Xarici işlər naziri E.Məmmədyarovun növbəti görüşü ATƏT PA-nın Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkerlə olmuşdur. Görüşdə əsas etibarilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı cari vəziyyət ətrafında fikir mübadiləsi aparılmışdır. Münaqişənin nizamlanması ilə bağlı əsas maneənin Azərbaycan ərazilərinin işğalı faktının olduğunu bildirən nazir E.Məmmədyarov, münaqişənin nizamlanmasında müsbət irəliləyiş kimi ilkin mərhələdə Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının vacibliyini bildirmişdir. Bu fikrə tam şəkildə razılığını ifadə edən Q.Lenmarker Azərbaycan torpaqlarının işğaldan azad olunması və azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılmasının zəruriliyini qeyd etmişdir. Azərbaycanın getdikcə qüdrətləndiyini və regionun aparıcı dövlətinə çevrildiyini vurğulayan Q.Lenmarker, ümumilikdə regionun inkişafı və çiçəklənməsində Azərbaycanın müstəsna rolunu vurğulamışdır.

Sonra nazir E.Məmmədyarov Estoniyanın xarici işlər naziri Urmas Paet ilə görüşmüşdür. Görüşdə ölkələrimiz arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır. Əməkdaşlığın gücləndirilməsi üçün yüksək səviyyəli səfərlərin vacibliyini bildirən tərəflər habelə, iki ölkə arasında konkret layihələrin həyata keçirilməsi üçün Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" təşəbbüsünün faydalı imkanlar açdığını bildirmişlər. Nazir E.Məmmədyarov "Şərq Tərəfdaşlığı" təşəbbüsündən ölkəmizin gözlədiklərinin Azərbaycanda müxtəlif sahələr üzrə standartların Avropa səviyyəsinə qaldırılmasından ibarət olduğunu bildirmiş və bu məqsədə xidmət edə biləcək texniki yardım layihələrinin həyata keçirilməsində maraqlı olduğumuzu vurğulamışdır. Nazir E.Məmmədyarov Sovetlər İttifaqının dağılmasından sonra Estoniyanın Avropa standartlarının təmini isitiqamətində əldə etdiyi təcrübəsinin ölkəmiz üçün maraqlı olduğunu bildirmişdir. Nazir U.Paet Estoniya tərəfinin qeyd edilən sahələr üzrə əməkdaşlığa hazır olduğunu vurğulamışdır.

Nazir E.Məmmədyarov Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu ilə də görüşmüşdür. Görüşdə iki ölkə arasında münasibətlərin bütün istiqamətləri üzrə ətraflı fikir mübadiləsi aparılmışdır. Tərəflər həmçinin regional məsələlər, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistan-Türkiyə münasibətlərinin

normallaşdırılması, Əfqanıstan mövzuları ətrafında da fikir mübadiləsi aparmışlar. Nazir Ə.Davudoğlu regionda sülh və təhlükəsizliyin təmini üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının vacibliyini bildirmiş, yalnız Azərbaycanın əraziləri işğaldan azad olduqdan sonra Türkiyə və Ermənistan arasında imzalanmış protokolların ratifikasiyasının və icra edilməsinin mümkünlüyünü bildirmişdir. Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı aparılan danışıqlar prosesinin cari vəziyyəti və məsələyə münasibətdə ölkəmizin mövqeyi barədə məlumat vermişdir. Görüşün sonunda nazir Ə.Davudoğlu azərbaycanlı həmkarını Türkiyəyə rəsmi səfərə dəvət etmişdir. Dəvəti qəbul edən nazir E.Məmmədyarovun səfərin dekabr ayının ikinci yarısında həyata keçirilməsinin mümkünlüyünü bildirmişdir.

Nazir E.Məmmədyarov, həmçinin Slovakiyanın xarici işlər naziri Miroslav Lajcak ilə görüşmüşdür. Görüşdə iki ölkə arasında əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılmış, əlaqələrin ikitərəfli formatda, habelə Avropa İttifaqı çərçivəsində inkişaf etməsinin vacibliyi vurğulanmışdır. Əməkdaşlığın genişləndirilməsi üçün rəsmi səfərlərin vacibliyi qeyd olunmuşdur. Bu xüsusda, nazir E.Məmmədyarov slovakiyalı həmkarını Azərbaycana rəsmi səfərə dəvət etmişdir. Nazir M.Lajcak dəvəti qəbul etdiyini bildirmişdir. Tərəflər diplomatik kanallar vasitəsilə həmin səfərin tarixlərinin müəyyənləşdirilməsi barədə razılığa gəlmişlər. Əməkdaşlığın genişləndirilməsi üçün iki ölkə arasında hüquqi-normativ bazanın inkişaf etdirilməsinin vacibliyi bildirilmiş, bu istiqamətdə müzakirə mərhələsində olan sənəd layihələrinin razılaşdırılması prosesinin sürətləndirilməsinin əhəmiyyəti qeyd olunmuşdur. Görüşdə, habelə Avropanın təhlükəsizlik arxitekturası mövzusu müzakirə olunmuş, mövcud münaqişələrin yalnız beynəlxalq hüququn norma və prinsiplərinə əsasən həllinin vacibliyi bildirilmişdir.

Həmin gün Dağlıq Qarabağ münaqişəsinin həllinə dair 3+2 formatında görüş olmuşdur.

Görüşdə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və onun ermənistanlı həmkarı Edvard Nalbandyan, Rusiyanın xarici işlər naziri Sergey Lavrov, Fransanın xarici işlər naziri Bernar Kuşner, ABŞ dövlət katibinin müavini Ceyms Steynberq, habelə vasitəçilər Robert Bratke (ABŞ), Bernar Fasye (Fransa), Yuri Merzlyakov və digər şəxslər iştirak etmişlər.

Görüşdən sonra həmsədr ölkələrin XİN başçıları birgə bəyanatla çıxış etmişlər.

XİN başçıları bəyanatlarında Azərbaycan və Ermənistan prezidentlərinin apardığı danışıqlarda müsbət dinamikanın olduğunu bildirmiş, danışıqların intensivliyinin artırılmasına qərar vermişlər. Vurğulanmışdır ki, tərəflər arasında Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair Madrid təklifləri üzrə baza prinsiplərinin razılaşdırılması istiqamətində danışıqların daha da intensivləşdirilməsi vacibdir.

S.Lavrov, B.Kuşner və C.Steynberq ölkələrinin başçılarının cari il iyulun 10-da Akvildə verdikləri bəyanatı təkrarlayaraq, sabitliyə və sülhə imkan verəcək baza prinsipləri üzrə razılaşmanı başa çatdırmaq üçün Azərbaycanın və Ermənistanın dövlət başçılarına dəstək verməkdə davam edəcəklərini vurğulamışlar.

Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri də bu il ərzində danışıqlarda tərəqqi

əldə olduğunu bildirmişlər. Nazirlər nəticə əldə olunması üçün səyləri davam etdirmək arzusunda olduqlarını vurğulamışlar.

Səfərin ilk günü nazir E.Məmmədyarov GUAM Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) 12-ci iclasında da iştirak etmişdir.

Nazir demişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də Cənubi Qafqazın iqtisadi inkişafına, eləcə də Avropa və Avratlantika məkanına inteqrasiyaya əsas maneə olaraq qalır.

Nazir bildirmişdir ki, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanın 20 faizdən artıq ərazisi Ermənistan tərəfindən işğal edilmiş, etnik təmizləməyə məruz qalmış təxminən bir milyon azərbaycanlı məcburi köçkün və qaçqın vəziyyətinə düşmüş, işğal olunmuş ərazilərdə minlərlə tarixi-mədəni abidə dağıdılmışdır.

E.Məmmədyarov vurğulamışdır ki, bu il Azərbaycan və Ermənistan prezidentlərinin intensiv görüşləri və bu görüşlərdə həll edilməmiş məsələlərin dərindən və hərtərəfli müzakirəsi baxımından əlamətdar olmuşdur. Etiraf etməliyəm ki, son danışıqlarda müsbət dinamika müşahidə olunmuş və hər iki tərəf ATƏT-in Minsk qrupunun həmsədrləri ilə birlikdə danışıqları intensivləşdirmək barədə razılığa gəlmişlər. Azərbaycan öz konstruktiv mövqeyinə sadiq qalır və Dağlıq Qarabağ regionunun Ermənistan və Azərbaycan icmalarının sülh şəraitində birgə yaşamasını dəstəkləyir. Bu, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması üçün əsas yaradacaqdır.

Nazir demişdir ki, Dağlıq Qarabağın Azərbaycanın tərkibində özünüidarəetməsinin təmin edilməsi münaqişənin ədalətli və uzun sürən həllinə, gərginliyin və regionda sülh və sabitlik üçün maneə yaradan problemlərin azaldılmasına gətirib çıxaracaqdır. Biz qətiyyətlə inanırıq ki, Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan torpaqlarından müəyyən edilmiş vaxt çərçivəsində çıxarılması region üçün çox böyük imkanlar yaradacaqdır. Bu həm də bütün regionun inkişafı üçün faydalı olacaqdır.

XİNŞ GUAM üzvü olan dövlətlərin BMT-də qarşılıqlı əlaqələri məsələlərini müzakirə etmiş, BMT Baş Məclisinin 64-cü sessiyasının gündəliyinin "GUAM məkanında dondurulmuş münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün nəticələri" adlı 14-cü bəndi çərçivəsində səylərini daha da intensivləşdirməyin zəruri olmasını vurğulamışdır. Əməkdaşlıqla əlaqədar bir sıra məsələlər nəzərdən keçirilmiş, "GUAM+" formatında görüşlər olmuşdur.

İclasda GUAM-ın işçi orqanlarının fəaliyyəti barədə məlumat dinlənilmiş, GUAM-da sədrliyin 2010-cu ilin yanvarından etibarən bir il müddətində Ukraynaya keçməsi barədə qərar qəbul edilmişdir.

İclas çərçivəsində, həmçinin GUAM-Vişeqrad Dördlüyü formatında da görüş keçirilmişdir.

Dekabrın 2-də Afinada ATƏT-in baş katibi Mark Perren de Brişambo ölkəmizin xarici işlər naziri Elmar Məmmədyarov ilə görüşündə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlarda vasitəçilik edən dövlətlərin dəstəyini müsbət hal və mühüm element kimi qiymətləndirmişdir.

Görüşdə tərəflər Azərbaycan ilə ATƏT arasında təşkilatın fəaliyyətinin bütün istiqa-

mətləri üzrə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparmışlar.

Regiondakı mövcud münaqişələrin sabitlik, təhlükəsizlik və davamlı inkişafa başlıca təhdid olduğunu bildirən tərəflər, Avropanın təhlükəsizlik arxitekturasının təmin edilməsi üçün beynəlxalq hüququn normalarına və prinsiplərinə əməl olunmasının vacibliyini vurğulamışlar. Bildirilmişdir ki, bu istiqamətdə ATƏT-in fəaliyyətində səmərəliliyin artırılması xüsusi əhəmiyyət kəsb edir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı aparılan danışıqlar prosesi barədə məlumat verən nazir E.Məmmədyarov Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsinin problemin həllində əsas maneə olduğunu demişdir. Nazir münaqişənin həllində irəliləyişin əldə edilməsi üçün işğalın nəticələrinin aradan qaldırılmasının vacibliyini vurğulamışdır.

AZƏRBAYCAN VƏ İTALİYA XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA İŞGÜZAR VƏ SƏMƏRƏLİ ƏMƏKDAŞLIĞIN ƏMƏLİ İNKİŞAF PERSPEKTİVLƏRİ İSTİQAMƏTİNDƏ MÜZAKİRƏLƏR APARILMIŞDIR

Azərbaycanın milli təhlükəsizlik naziri, general-leytenant Eldar Mahmudov dekabrın 3-də ölkə miz də qısamüddətli səfərdə olan İtaliya Xarici Kəşfiyyat və Təhlükəsizlik Agentliyinin baş direktoru, vitse-admiral Bruno Brançiforte ilə görüşmüşdür.

Baş direktoru və onu müşayiət edən şəxsləri salamlayan nazir Eldar Mahmudov italiyalı həmkarı ilə əvvəlki görüşlərini və səmərəli söhbətlərini xatırladaraq, Bruno Brançiforteni ölkəmizdə yenidən görməkdən məmnun olduğunu bildirmişdir.

Görüşdə transmilli mütəşəkkil cinayətkarlıqla, eləcə də terrorizmlə mübarizə sahəsində görülən işlər və digər aktual məsələlər, habelə ölkələrimizin xüsusi xidmət orqanları arasında işgüzar və səmərəli əməkdaşlığın əməli inkişaf perspektivləri müzakirə edilmişdir.

Nazir Eldar Mahmudov mövcud əməliyyat şəraiti və ona təsir göstərən amillər, Azərbaycanda təhlükəsizlik problemləri ilə əlaqədar həyata keçirilən tədbirlər, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun nəticələri haqqında qonağa ətraflı məlumat vermişdir.

Qonaqpərvərliyə və hər iki ölkənin təhlükəsizlik maraqlarının təmin olunması sahəsində aktual məsələlər ətrafında aparılan müzakirələr üçün yaradılmış şəraitə görə təşəkkür edən Bruno Brançiforte milli təhlükəsizlik naziri Eldar Mahmudovla yenidən görüşmək imkanından, ümumilikdə İtaliya və Azərbaycan münasibətlərinin, eləcə də müvafiq strukturlar arasında əlaqələrin inkişafından məmnun qaldığını, keçirilmiş dialoqların və məlumat mübadilələrinin ölkələrimiz arasında əlaqələrinin daha da möhkəmlənməsi üçün faydalı olacağına əminliyini bildirmişdir.

İşgüzarlıq və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə maraq doğuran bir sıra digər məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

VI BEYNƏLXALQ ELM OLİMPİADASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR

Dekabrın 3-də Bakıda, "Buta" sarayında VI Beynəlxalq Elm Olimpiadasının təntənəli açılış mərasimi keçirilmişdir.

Mərasimdə Baş nazirin müavini Elçin Əfəndiyev, Milli Məclis sədrinin müavini Bahar Muradova, xarici işlər nazirinin müavini, Azərbaycan Diplomatik Akademiyasının rektoru, olimpiadaya hazırlıq məqsədi ilə yaradılmış Elm Komitəsinin rəhbəri Hafiz Paşayev, Milli Məclisin deputatları, tanınmış elm xadimləri, xarici ölkələrdən gəlmiş alimlər iştirak etmişlər.

İştirakçı dövlətlərin bayraqları səhnəyə gətirilmiş və elan edilmişdir ki, olimpiada 15 yaşlı yeniyetmələr arasında fizika, kimya və biologiya fənləri üzrə keçirilir. Olimpiadada 49 ölkədən 600-dən çox şagird və onların müəllimləri iştirak edirlər.

Olimpiada Heydər Əliyev Fondu, İJSO (International Junior Science Olympiad) və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) dəstəyi ilə keçirilir.

Tədbir Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın olimpiada iştirakçılarına ünvanladığı təbrik məktubunun oxunması ilə başlanmışdır.

Təbrik məktubunu Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov oxumuşdur.

Məktubda bildirilir ki, ölkəmizdə "Uşaq ili" elan edilmiş 2009-cu ilin belə nüfuzlu beynəlxalq tədbirlə yekunlaşması olduqca fərəhli bir hadisədir. Bizim üçün ən vacib meyarlardan biri uşaqların, yeniyetmələrin sağlamlığı, onların təhsili və layiqli vətəndaş kimi formalaşmasıdır. Elm və təhsil gələcək tərəqqinin ən mühüm amili kimi respublikamızda xüsusi dövlət qayğısı ilə əhatə olunmuşdur. Bu gün peşəkar milli kadrlarımızın bilik və bacarıqları sayəsində ölkəmizdə uğurlu islahatlar, yerli və beynəlxalq əhəmiyyətli layihələr həyata keçirilir. Gələcəkdə görəcəyimiz işlər də məhz bugünkü yeniyetmə və gənclərimizin əldə edəcəyi bilik, bacarıq, təcrübə və onların tətbiqi sayəsində mümkün olacaqdır.

Məktubda daha sonra deyilir ki, Şərq və Qərb mədəniyyətlərinin, müxtəlif sivilizasiyaların qovuşduğu coğrafi məkanda, qədim Bakı şəhərində elmin işığına toplaşmaq, fizika, kimya, biologiya elmləri üzrə bilgilərinizi sınamaq imkanı məhz siz yeniyetmələrə nəsib olmuşdur. Beynəlxalq Elm Olimpiadasında əldə edəcəyiniz qələbələr sizin üçün yaddaqalan hadisələrdən olacaqdır. Hər birinizə uğurlar, qələbə sevinçləri, yeni elmi nailiyyətlər arzulayıram.

Gənclər və idman naziri Azad Rəhimov bildirmişdir ki, tarixin müxtəlif dövrlərində görkəmli alimlərimiz, filosoflarımız dünya elminin inkişafına öz töhfələrini vermişlər. Müasir dövrdə də məşhur alimlərimiz öz elmi ixtiraları və kəşfləri ilə dünya elminə xidmət etməkdədirlər.

Prezident İlham Əliyevin yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasının keçirilməsi ilə bağlı imzaladığı müvafiq Sərəncamın əhəmiyyətini xüsusi vurğulayan nazir demişdir ki, ölkə rəhbərliyi bu sahəyə xüsusi diqqət yetirir. Dövlətimizin başçısı gənclərin elmə marağının artırılması, onların yaradıcılıq potensialının üzə çıxarılması və bu istiqamətdə beynəlxalq əməkdaşlığın genişləndirilməsinə daim önəm verir.

A.Rəhimov demişdir ki, ölkəmizdə olimpiadanın yüksək səviyyədə keçirilməsi üçün nizamnaməyə uyğun olaraq bütün işlər ardıcıllıqla həyata keçirilmişdir. Olimpiadanın təşkilat və elm komitələri yaradılmış, icra strukturu təsdiq edilmişdir. Daha sonra 60-dan artıq ölkəyə rəsmi dəvət məktubları göndərilmişdir. Olimpiada haqqında ətraflı məlumatlar əldə etmək məqsədi ilə rəsmi internet səhifəsi (www.ijso2009.az) hazırlanıb istifadəyə verilmişdir.

Aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə olimpiadaya yüksək səviyyədə hazırlıqla bağlı işçi qrupu yaradılmış, tədbirin loqotipi və şüarı təsdiq edilmişdir.

İl ərzində olimpiadaya gələn qonaqların qarşılanması, tədbir və gəzintilər zamanı müşayiət edilməsi üçün 100-dək könüllü müəyyənləşdirilmiş, onlar üçün xüsusi təlimlər təşkil olunmuşdur.

Azad Rəhimov demişdir ki, bu tədbirin Azərbaycanda keçirilməsi olduqca fərəhli haldır. Olimpiada ayrı-ayrı ölkələrdən gəlmiş yeniyetmələr arasında əsl elm və dostluq körpüsünə çevriləcəkdir. İştirakçılar Azərbaycanın tarixi, mədəniyyəti, mətbəxi və xalqımızın qonaqpərvərliyi ilə yaxından tanış olacaqlar.

Bakıda, gözəl məkanda gəncləri salamlamaqdan məmnunluğunu vurğulayan xarici işlər nazirinin müavini, Azərbaycan Diplomatik Akademiyasının rektoru, olimpiadaya hazırlıq məqsədi ilə yaradılmış Elm Komitəsinin rəhbəri Hafiz Paşayev demişdir ki, intellektli, savadlı yeniyetmələrin əhatəsində olmaq xoşdur. Bu gənclərin iştirakı ilə keçirilən belə möhtəşəm bilik yarışı xalqlar arasında dostluq əlaqələrinin inkişafına təkan verir. İnanıram ki, olimpiada iştirakçıları Azərbaycandan vətənlərinə çox böyük təəssüratla dönəcəklər.

H.Paşayev bildirmişdir ki, yeniyetmələr arasında elm olimpiadasının fizika, kimya və biologiya fənləri üzrə keçirilməsi təsadüfi deyildir. Biz bu fənləri fundamental elm olaraq müəyyənləşdirmişik. Çünki bu fənlər istənilən elm sahəsinin bünövrəsində durur. Hər bir millət, cəmiyyət bu sahələrə diqqət yetirməlidir.

Azərbaycan Prezidentinin elm sahəsinə, təhsilə, xüsusilə də gənclərin hərtərəfli inkişafına daim diqqətlə yanaşdığını deyən Hafiz Paşayev indiki yarışmanın bu cəhətdən son dərəcə əhəmiyyətli olduğunu vurğulamışdır. Bu olimpiada bilikli gənclərin üzə çıxarılmasında, onların inkişafında xüsusi əhəmiyyət kəsb edəcəkdir. İnanıram ki, bu gənclər olimpiada üçün seçilmiş elm sahələrinə töhfə verəcəklər. Bu olimpiada onların gələcək uğurları üçün də olduqca əhəmiyyətlidir.

Olimpiadanın Elm Komitəsinin rəhbəri kimi sizi əmin edə bilərəm ki, biz bu yarışmanı çox ciddi qəbul edirik. Azərbaycanın 30-dək tanınmış mütəxəssisinin iştirakı ilə yaradılmış Elm Komitəsi tərəfindən olimpiadanın fizika, kimya və biologiya fənləri üzrə test, nəzəri və eksperiment-təcrübə tapşırıqları hazırlanmışdır. Alimlərimiz tərəfindən 500-ə yaxın çalışma tərtib edilmişdir.

Hər bir iştirakçıya uğurlar arzulayan Hafiz Paşayev demişdir ki, burada qalib gəlmək məqsəd deyil, əsas məqsəd iştirak etmək, dostlar tapmaq və öz biliyini artırmaqdır.

VI Beynəlxalq Elm Olimpiadasının prezidenti Masna Gintinq tədbirin iştirakçı ölkələr arasında əlaqələrin inkişafı baxımından böyük əhəmiyyətə malik olduğunu qeyd etmişdir. O, əmin olduğunu bildirmişdir ki, olimpiadanın iştirakçıları Bakıdan öz vətənlərinə xoş təəssüratlarla qayıdacaqlar.

M.Gintinq Prezident İlham Əliyevin Azərbaycanda elm və təhsilə, eləcə də gənclərə göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirmişdir.

Natiq bildirmişdir ki, Azərbaycan bu tədbirə ev sahibliyi edən ilk Avropa ölkəsidir. Növbəti olimpiada Nigeriyada keçiriləcəkdir. Beləliklə, olimpiada bütün qitələri əhatə edəcəkdir. M.Gintinq iştirakçıların yaş həddinin 15 olmasına aydınlıq gətirərək vurğulamışdır ki, əsas məqsəd şagirdlərdə texniki fənlərə maraq oyatmaqdır. Yuxarı sinif şagirdləri bu olimpiadadan ali məktəblərə imtahansız daxil olmaq imkanı qazanmaq üçün istifadə edirdilər. Biz də iştirakçıların yaş həddini azaltmaq qərarına gəldik.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov bildirmişdir ki, bu olimpiada yeniyetmələr, gənclər və gənc alimlər üçün olduqca əhəmiyyətlidir. Bu elm olimpiadası iştirakçılara öz biliklərini sınamağa imkan yaradır və gələcəkdə ixtisaslı kadrların yetişməsinə təkan verir.

Şübhəsiz, bu olimpiadanın iştirakçıları olan yeniyetmələr həyatlarını elmə həsr edəcək və öz ölkələrinin tərəqqisi naminə yorulmadan fəaliyyət göstərəcəklər.

AMEA-nın prezidenti olimpiadanın Bakıda keçirilməsinin iştirakçıların Azərbaycanla yaxından tanışlığı, xüsusilə də dövlətlərarası əməkdaşlığın daha da inkişafı baxımından xüsusi əhəmiyyətə malik olduğunu vurğulamışdır.

Təhsil naziri Misir Mərdanov demişdir ki, olimpiadanın Azərbaycanda keçirilməsi ölkəmizdə mövcud olan sabitlik və dinamik iqtisadi inkişafın, xüsusilə də Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən elm və təhsilə göstərilən diqqət və qayğının nəticəsidir.

M.Mərdanov, həmçinin qeyd etmişdir ki, olimpiadada çoxsaylı nümayəndələrin iştirak etməsi Azərbaycanda gedən inkişaf proseslərinin bütün dünyada yayılması baxımından əhəmiyyətli rol oynayacaqdır.

Tədbir gənc musiqiçilərin geniş konsert proqramı ilə davam etmişdir.

BAKIDA DÜNYA GÖMRÜK TƏŞKİLATININ AVROPA ÜZRƏ REGİONAL TƏDRİS MƏRKƏZLƏRİNİN BİRİNCİ İCLASI KEÇİRİLMİŞDİR

Dekabrın 3-4-də Dünya Gömrük Təşkilatının (DGT) Bakıdakı Regional Tədris Mərkəzində bu qurumun Avropa üzrə regional tədris mərkəzlərinin birinci iclası keçirilmişdir. Tədbirdə Azərbaycan, Macarıstan, Makedoniya, Qazaxıstan, Rusiya gömrük xidmətlərinin, eləcə də DGT-nin məsul nümayəndələri iştirak etmişlər.

İclasın açılışında Dövlət Gömrük Komitəsinin (DGK) sədrinin müavini, gömrük xidməti general-leytenantı Rza Həsənəliyev DGT-nin Avropa üzrə regional tədris mərkəzlərinin əməkdaşlığına dair Bakıda keçirilən bu tədbirin qarşılıqlı maraq kəsb edən bir sıra mövzuların, o cümlədən regional səviyyədə tədris məsələlərinin müzakirə edilməsi-

nə geniş imkan yaradacağına əminliyini bildirmişdir. Vurğulanmışdır ki, bu ilin iyununda Budapeştdə DGT-nin regional tədris mərkəzlərinin əməkdaşlığına həsr olunmuş toplantısında irəli sürülən təşəbbüslərin davamı olaraq, Bakı görüşü Avropa üzrə regional tədris mərkəzləri arasında sıx əməkdaşlıq münasibətlərinin yaradılması və bu əməkdaşlığın əlaqələndirilməsi işinə öz töhfəsini verəcəkdir. Bu isə, öz növbəsində, Avropada potensialın gücləndirilməsini təmin edəcəkdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bütün sahələrdə təhsilə böyük əhəmiyyət verdiyini diqqətə çatdıran R.Həsənəliyev bu gün həmin kursu uğurla davam etdirən Prezident İlham Əliyevin daxili və xarici siyasəti nəticəsində ölkədə təhsil sahəsində mühüm addımların atıldığını və geniş islahatların aparıldığını söyləmişdir.

Qeyd edilmişdir ki, cari ilin noyabrında imzalanmış "Dünya Gömrük Təşkilatı və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında Azərbaycan Respublikasının Bakı şəhərində Potensialın Gücləndirilməsi üzrə Dünya Gömrük Təşkilatının Avropa Regional Ofisinin yaradılması ilə əlaqədar Anlaşma Memorandumu"na əsasən, tezliklə Azərbaycanda DGT-nin daha bir regional idarəsi fəaliyyətə başlayacaqdır. Bunu mühüm və əlamətdar hadisə kimi dəyərləndirən R.Həsənəliyev demişdir ki, ofisin yaradılması kadr potensialının gücləndirilməsində və regional tədris fəaliyyətinin imkanlarının daha da genişləndirilməsində əhəmiyyətli rol oynayacaqdır.

İclasda DGT Potensialın Gücləndirilməsi İdarəsinin əməkdaşı xanım Benedikt Meyll tədbirin Bakıda təşkilinə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirmişdir. Tədbirin səmərəli keçəcəyinə əminliyini ifadə edən DGT-nin nümayəndəsi gömrük sahəsində tədrisin inkişaf etdirilməsi işində regional tədris mərkəzlərinin əməkdaşlığının əhəmiyyətindən danışmış, bu prosesə təmsil etdiyi qurumun lazımi dəstək verəcəyini diqqətə çatdırmışdır.

Sonra iclas DGK Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi Şahin Bağırovun sədrliyi ilə işə başlamışdır. O bildirmişdir ki, iclasda regionda gömrük tədrisinin hansı standartlar və tələblər əsasında aparılması, bu sahədə əməkdaşlığın əsas istiqamətləri və prioritetləri müəyyənləşdirilməlidir. Eyni zamanda, tədris prosesinin təşkili və qiymətləndirilməsi məsələləri ətrafında rəy və təkliflərin öyrənilməsi də nəzərdə tutulmuşdur.

Bununla əlaqədar, iştirakçılar öz ölkələrində fəaliyyət göstərən regional tədris mərkəzlərinin təcrübəsi və imkanları barədə danışaraq, qarşıda duran problem və vəzifələrlə bağlı müzakirələr aparmışlar.

Sonra iclasda "Regional Texniki Tədris Dəstəyi Planının yenilənməsi", "Təlim üzrə Regional Koordinasiya Metodlarının müəyyənləşdirilməsi" mövzularında məruzələr dinlənilmişdir.

Dekabrın 4-də iclasda "Təlim üzrə regional koordinasiya metodlarının qəbulu", "Regional potensialın gücləndirilməsi", "Ekspertlərin səmərəli şəkildə dəyərləndirilməsi və onların himayə olunması", "Maraqlı tərəflər və tərəfdaşlarla birgə potensialın gücləndirilməsinin regional koordinasiyası", "Regionda potensialın gücləndirilməsi təşəbbüslərinin daha təsirli bir şəkildə idarə olunması" məsələləri nəzərdən keçirilmişdir.

ASTANADA MDB ÖLKƏLƏRİ BAŞ PROKURORLARI ƏLAQƏLƏNDİRMƏ ŞURASININ 18-Cİ İCLASI KEÇİRİLMİŞDİR

Dekabrın 4-də Astanada Müstəqil Dövlətlər Birliyi (MDB) Ölkələri Baş Prokurorları Əlaqələndirmə Şurasının 18-ci iclası keçirilmişdir.

Azərbaycanın Baş prokuroru Zakir Qaralovun da qatıldığı iclasda Rusiya, Belarus, Ukrayna, Qırğızıstan, Tacikistan, Ermənistan və Qazaxıstanın baş prokurorları iştirak etmişdirlər.

İclasda Birlik ölkələrində vətəndaşların hüquqlarının qorunmasının indiki vəziyyəti və perspektivlər, MDB ölkələrində cinayətkarlıq, terrorizm, ekstremizm, narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizə, həmçinin qeyri-qanuni miqrasiya və digər məsələlər müzakirə olunur.

Tədbirdə MDB ölkələri baş prokurorluqları arasında əlaqələrin daha da inkişaf etdirilməsi ilə əlaqədar saziş imzalanmışdır.

Sənədlə əlaqədar Qazaxıstan Baş Prokurorluğunun rəsmi məlumatında deyilir: "Baş prokurorların bu sənədi imzalamaq qərarına gəlmələri insan alveri, həmçinin insan orqanlarının və toxumalarının satılmasının geniş miqyas alması, belə hallara qarşı mübarizənin səmərəli yollarının axtarılıb tapılmasının zəruriliyi ilə bağlıdır. Bu sənədin müddəalarının həyata keçirilməsi MDB ölkələrindəki prokurorluq orqanlarına belə cinayətlərin qarşısının alınması üçün səmərəli tədbirlər görməyə və bu sahədə hüquqi bazanın təkmilləşdirilməsinə imkan yaradacaqdır".

AZƏRBAYCAN İLƏ HİNDİSTAN ARASINDA ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Azərbaycan xarici işlər nazirinin müavini Vaqif Sadıqov dekabrın 2-dən 4-dək Hindistanda işgüzar səfərdə olmuşdur.

V.Sadıqov Nyu-Dehlidə Azərbaycanın Hindistandakı səfirliyinin və Hindistanın Dünya Münasibətləri Şurasının birgə təşkil etdiyi Azərbaycanın diplomatik xidmət orqanlarının 90-cı ildönümünə həsr olunmuş "Azərbaycan-Hindistan əməkdaşlığı: perspektivlər və çağırışlar" adlı konfransda iştirak etmişdir.

Konfransda tədqiqatçılar, dövlət məmurları və diplomatlar "Hindistan və Azərbaycan arasında tarixi bağlılıqlar", "İqtisadi və enerji sektorunda Hindistan-Azərbaycan əməkdaşlığı" və digər mövzularda məruzələrlə çıxış etmişlər.

"Regional təhlükəsizlik, əməkdaşlıq naminə gələcək imkanlar" mövzusuna həsr olunmuş hissədə nazir müavini V.Sadıqov Azərbaycanın xarici siyasət prioritetləri, ölkəmizin beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyəti, həmçinin Dağlıq Qarabağ münaqişəsinin tarixi və nizamlanması prosesi barədə mühazirə ilə çıxış etmişdir.

Bundan əlavə, V.Sadıqov bir sıra işçi görüşlər də keçirmişdir. Hindistanın xarici işlər nazirinin müavini xanım Parbati Sen Vyasla ilə görüşdə tərəflər ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlərin hazırkı vəziyyətini müzakirə etmiş, əməkdaşlıq üçün geniş potensialın olduğunu və ondan səmərəli istifadə edilməsinin vacibliyini vur-

ğulamışlar.

V.Sadıqov Hindistan Parlamentinin baş katibi Şri Açari ilə də görüşmüşdür. Görüşdə Azərbaycan ilə Hindistan arasında əlaqələrin cari vəziyyəti və perspektivləri, parlamentlərarası münasibətlər və onların daha da fəallaşdırılması yolları müzakirə olunmuşdur.

Həmçinin nazir müavini Hindistanın neft və qaz nazirinin müavini R.Pandeya, bu ölkənin mədəniyyət nazirinin müavini J.Sirsar, turizm nazirinin müavini S.Banerci, İnformasiya Texnologiyaları Nazirliyinin katibi R.Singh, Telekommunikasiya Departamentinin katibi P.Tomas ilə də görüşmüşdür.

Görüşlərdə müvafiq sahələr üzrə münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunmuşdur.

ÇİKAQODA "XƏZƏR HÖVZƏSİNİN GEOSİYASİ DURUMU VƏ OBAMA ADMİNİSTRASİYASI DÖVRÜNDƏ ABŞ-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLMİŞDİR

Dekabrın 4-də ABŞ Azərbaycanlıları Şəbəkəsinin (USAN) təşkilatçılığı ilə Çikaqonun İllinoys Texnologiya İnstitutu nəzdində Kent Hüquq Kollecində "Xəzər hövzəsinin geosiyasi durumu və Obama Administrasiyası dövründə Amerika-Azərbaycan münasibətləri" mövzusunda konfrans keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) direktoru Elxan Nuriyev konfransda məruzə ilə çıxış etmişdir.

Tədbirdə Xəzər dənizi hövzəsində geosiyasi reallıqlar, zəngin enerji ehtiyatları və tranzit imkanları ilə Azərbaycanın regionda həlledici mövqeyə malik olması, qlobal enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həlli məsələsi, rəsmi Bakı və Vaşinqtonun strateji müttəfiqliyinin hər iki tərəf üçün vacibliyi və bölgənin digər təhlükəsizlik problemləri məsələlərindən danışılmışdır.

Konfransda Birləşmiş Ştatlardakı Azərbaycan diasporunun fəalları, Çikaqo Universitetinin aparıcı mütəxəssisləri və yerli rəsmilər də iştirak etmişlər.

BAKIDA AZƏRBAYCAN-NATO BEYNƏLXALQ MƏKTƏBİNİN QIŞ SESSİYASI KEÇİRİLİR

Dekabrın 7-də Bakıda Azərbaycan-NATO Beynəlxalq Məktəbinin (NİSA) qış sessiyası öz işinə başlamışdır.

NİSA-nın icraçı direktoru Mikayıl Yusifov bildirmişdir ki, "Kiber təhlükəsizlik" mövzusunda keçirilən sessiyada kiber hədələrinin təşkilatı və fərdi səviyyəsi, sərhədsiz dünyada milli təhlükəsizlik, NATO-nun kiber siyasəti və informasiya təhlükəsizliyi, Avropa İttifaqının təcrübəsi və digər məsələlər müzakirə olunacaqdır.

Sessiyada çıxış edən Azərbaycanın xarici işlər nazirinin müavini Araz Əzimov müasir dünyada kiber təhlükəsizlik məsələlərinə daha çox diqqət ayrılmasının vacibliyini vur-

ğulamışdır.

Kiber təhdidlərin müəyyənləşdirilməsi və onların qarşısının alınmasının əhəmiyyəti barədə danışan nazir müavini qeyd etmişdir ki, NATO kimi beynəlxalq təşkilatların kiber təhlükəsizliyinə diqqət yetirməsi də bu təhdidin necə böyük rola malik olduğunu göstərir.

A.Əzimov bildirmişdir ki, Azərbaycan NATO ilə imzalanmış Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planının (İPAP) növbəti ikiillik mərhələsinə başlamağa hazırlaşır. Bu, İPAP-ın 3-cü ikiillik mərhələsidir.

İPAP çərçivəsində nəzərdə tutulmuş planların 99 faizinin icra olunduğunu vurğulayan A.Əzimov qeyd etmişdir ki, növbəti ikiillik mərhələnin 2010-cu ilin iyununda başlanacağı gözlənilir. Bununla bağlı aprel-iyun ayları ərəfəsində Azərbaycan hökuməti və NATO tərəfindən ikiillik plan təsdiq olunacaqdır.

Sessiyada yerli və xarici tələbələr, xarici ölkələrin Azərbaycandakı səfirləri, tədqiqatçılar, hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edirlər.

Azərbaycan Xarici İşlər Nazirliyinin və NATO-nun İctimai Diplomatiya İdarəsinin dəstəyi ilə keçirilən sessiya dekabrın 13-dək davam edəcəkdir.

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ İSTANBULDA SEYSMİK RİSKİN AZALDILMASI MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR

Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərovun başçılıq etdiyi nümayəndə heyəti İstanbulda seysmik riskin azaldılması mövzusunda keçirilmiş beynəlxalq konfransda iştirak etmişdir.

Azərbaycanda zəlzələlər və digər təbii fəlakətlərə qarşı mübarizə sahəsində görülən tədbirlərdən ətraflı bəhs edən nazir konfransdakı çıxışında bildirmişdir ki, bu mübarizədə beynəlxalq təşkilatlar və ölkələrin əməkdaşlığı, habelə təcrübə mübadiləsi olduqca əhəmiyyətlidir. Azərbaycanın ərazisinin 60 faizi seysmik zonada yerləşir və əhalinin 50 faizi bu torpaqlarda məskunlaşmışdır. Bu, ölkəmizin seysmik baxımdan kifayət qədər riskli olduğunu göstərir. Həmin səbəbdən, digər ölkələrlə əməkdaşlıq və təcrübə mübadiləsi zəruridir.

Türkiyə Baş nazirinin müavini Cəmil Çiçək, BMT baş katibinin müavini Marqaret Vaşistrom və digər natiqlər hökumətlərin yalnız zəlzələləri nəticələrinin aradan qaldırılmasında deyil, həmçinin onların insanlara daha az zərər verməsi üçün görməli olduqları zəruri profilaktik tədbirlərdən, bu sahədə beynəlxalq əməkdaşlıqdan bəhs etmişlər.

AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ ABŞ-IN AVROPADAKI HƏRBİ HAVA QÜVVƏLƏRİNİN KOMANDANI İLƏ GÖRÜŞMÜŞDÜR

Dekabrın 8-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Səfər Əbiyev ABŞ-ın Avropadakı Hərbi Hava Qüvvələrinin Komandanı general Rocer Breyd ilə görüşmüşdür.

Görüşdə ABŞ ilə Azərbaycan arasında ikitərəfli hərbi əməkdaşlıq məsələləri, Cənubi

Qafqazda mövcud vəziyyət və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar fikir mübadiləsi aparılmışdır.

Müdafiə naziri münaqişənin həllinə dair Minsk qrupu çərçivəsində 15 ildən artıq aparılan danışıqların heç bir səmərə vermədiyini qonağın diqqətinə çatdırmışdır. Qeyd etmişdir ki, vəziyyətin belə hal alması Azərbaycanı torpaqlarını işğaldan azad etmək üçün başqa vasitələrə əl atmağa vadar edir.

XARİCİ İŞLƏR NAZİRİ BRÜSSELDƏ KEÇİRİLƏN ŞƏRQ TƏRƏFDAŞLIĞI XARİCİ İŞLƏR NAZİRLƏRİNİN 1-Cİ İCLASINDA İŞTİRAK ETMİŞDİR

Dekabrın 8-də Brüsseldə "Şərq tərəfdaşlığı" Proqramında iştirak edən ölkələrin xarici işlər nazirlərinin birinci iclası keçirilmişdir. İclasda Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarov təmsil etmişdir.

Hazırda Avropa İttifaqına sədrlik edən İsveçin xarici işlər naziri Karl Bildt iclasa sədrlik etmişdir.

İştirakçılar "Şərq tərəfdaşlığı"nın hazırkı vəziyyəti, cari il mayın 7-də Praqada keçirilmiş bu proqramın iştirakçılarının ilk zirvə görüşündən sonra görülmüş işlər və gələcək planlar, layihələr barədə fikir mübadiləsi aparmışlar. İclasda "Şərq tərəfdaşlığı"nın çoxtərəfli fəaliyyət göstərən dörd platformasının 2009-2011-ci illər üçün İşçi Proqramları təsdiq olunmuşdur.

İclasda Avropa İttifaqı ilə tərəfdaş ölkələr arasında münasibətlərin dərinləşməsində və güclənməsində, siyasi assosiasiyanın və iqtisadi inteqrasiyanın sürətlənməsində, tərəfdaş ölkələrdə siyasi və sosial-iqtisadi islahatların dəstəklənməsində "Şərq tərəfdaşlığı"nın strateji əhəmiyyəti vurğulanmışdır.

Nazir E.Məmmədyarov ölkəmizdə cəmiyyətin gündəlik həyatının bütün sahələrinin Avropa standartlarına, qanunvericiliyinə və qaydalarına uyğun səviyyəyə yüksəldilməsinin, bunun qanunvericilik qaydasında qəbul olunmasının və tətbiq olunmasının Azərbaycan üçün vacib olduğunu bildirmiş, "Şərq tərəfdaşlığı"nın bu istiqamətə yönəldilməsinin vacibliyini qeyd etmişdir. Nazir bu sahədə Avropa İttifaqının üzvü olmayan Avropa ölkələrinin təcrübəsini nümunə kimi göstərmiş və Azərbaycanın da bu ölkələr sırasında olmasını arzuladığını demişdir.

İclasda digər tərəfdaş ölkələrin nümayəndələri ilə yanaşı nazir E.Məmmədyarov da Avropa İttifaqı ölkələri ilə vizanın verilməsi prosedurunun asanlaşdırılmasının vacibliyini vurğulamış və Avropa İttifaqını bu sahədə ciddi addımlar atmağa çağırmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi barədə iştirakçılara məlumat verən nazir E.Məmmədyarov, münaqişənin və Azərbaycan ərazilərinin işğalının davam etməsinin "Şərq tərəfdaşlığı"nın çoxtərəfli səmərəli fəaliyyətinə və inkişafına manea törətdiyini bildirmişdir.

İclasda Avropa İttifaqının üzvü olan ölkələrin xarici işlər nazirləri, Avropa Komissiyası, Avropa İttifaqı Şurası, Avropa Parlamenti, Avropa Sərmayə Bankı, Avropa İttifaqının Regionlar, İqtisadi və Sosial komitələri, həmçinin Belarusun, Ermənistanın, Gürcüstanın, Moldovanın və Ukraynanın xarici işlər nazirləri iştirak etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Fransa Respublikasına rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Fransanın dövlət bayraqlarının dalğalandığı Parisin "Orli" Beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi Fransanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

Prezident İlham Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Hərbi orkestrin ifasında Azərbaycanın və Fransanın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Dövlətimizin başçısı fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GDF SUEZ ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ VƏ BAŞ ƏMƏLİYYATÇI DİREKTORU JAN-FRANSUA SİRELLİ İLƏ GÖRÜŞÜ

Fransada rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 8-də Parisdə onun üçün ayrılmış iqamətgahda GDF Suez Şirkətinin vitse-prezidenti və baş əməliyyatçı direktoru Jan-Fransua Sirelli ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə GDF Suez Şirkəti arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Qeyd edildi ki, bu şirkət artıq Azərbaycanda fəaliyyət göstərir, müəyyən layihələrdə digər şirkətlərlə birgə iştirak edir, eyni zamanda, yeni imkanlar da axtarır.

Görüşdə Nabukko layihəsi, təbii qaz sahəsində əməkdaşlıq ətrafında fikir mübadiləsi aparıldı.

MİLLİ ASSAMBLEYANIN SƏDRİ İLƏ GÖRÜŞ

Dekabrın 9-da Azərbaycan Prezidenti İlham Əliyev Fransa Milli Assambleyasına gəlmişdir.

Milli Assambleyanın binasının qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Fransa Milli Assambleyasının sədri Bernar Akoyer qarşıladı.

Prezident İlham Əliyev və Bernar Akoyer rəsmi foto çəkdirdilər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Fransa Milli Assambleyasının sədri Bernar Akoyerin görüşü oldu.

Bernar Akoyer bildirdi ki, Fransa Azərbaycana və şəxsən Sizin fəaliyyətinizə maraq göstərir. Parlamentlərarası əlaqələrin uğurla tərəqqi etdiyini bildirən Bernar Akoyer

parlamentlərarası əməkdaşlığın bundan sonra da inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi. Ölkələrimiz arasında dostluq əlaqələri mövcuddur. Bu, Sizin Fransa Prezidenti Nikola Sarkozi ilə şəxsi münasibətlərinizdə də özünü göstərir.

Ölkələrimiz arasında digər sahələrdə də əlaqələrin uğurla inkişaf etdiyini diqqətə çatdıran B.Akoyer bildirmişdir ki, dünya iqtisadi böhranı dövründə Fransanın Azərbaycan ilə əlaqələri xüsusi əhəmiyyət kəsb edir. Bizim Azərbaycan ilə iqtisadi əlaqələrimiz durmadan inkişaf edir. Fransa üçün Azərbaycan ilə iqtisadi əlaqələr böyük önəm daşıyır. Bu sahədə maraqlarımız bir-birini tamamlayır. İqtisadi sahədə möhkəm olan əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminəm.

Energetika sahəsində əlaqələri xüsusi qeyd edən Milli Assambleyanın sədri dedi ki, biz enerji təhlükəsizliyi məsələsinə böyük əhəmiyyət veririk və Azərbaycana bu sahədə fəaliyyət göstərən çox mühüm ölkələrdən biri kimi baxırıq.

Azərbaycan Prezidenti İlham Əliyev əmin olduğunu vurğuladı ki, bu səfər münasibətlərimizin inkişafında mühüm addım olacaqdır. Ölkələrimiz arasında münasibətlər dinamik inkişaf edir, geniş sahələri əhatə edir. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, əlaqələrimiz gələcəkdə də möhkəmlənəcəkdir. İkitərəfli münasibətlərimiz qarşılıqlı maraqlar üzərində qurulmuşdur və böyük perspektivlərə malikdir.

Siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu qeyd edən Prezident İlham Əliyev dedi ki, bu, mənim Fransaya üçüncü səfərimdir. Nəzərə alsaq ki, beş ildə bir dövlət və iki rəsmi səfər həyata keçirilib, bu da əlaqələrimizin yaxşı göstəricisidir.

Prezident İlham Əliyev dedi ki, ikitərəfli münasibətlərimiz çoxşaxəlidir. Siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrimiz güclənir. Parlamentlərarası əməkdaşlığa böyük əhəmiyyət veririk və bu səfər uğurla inkişaf edən ikitərəfli münasibətlərimizin perspektivlərini və həmin sahədə konkret addımları nəzərdən keçirmək üçün yaxşı imkan yaradır.

İqtisadi sahədə də əlaqələrimizin durmadan inkişaf etdiyini diqqətə çatdıran Prezident İlham Əliyev dedi ki, Fransa şirkətləri Azərbaycanda fəaldır. Fransa şirkətləri ilə neft-qaz, energetika və digər sahələrdə fəal əməkdaşlıq edirik.

Dövlətimizin başçısı energetika sahəsində görülən işlər, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminatında rolu və perspektivləri barədə danışdı.

Fransa Milli Assambleyasının sədri Bernar Akoyer Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə maraqlandı.

Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların vəziyyəti və perspektivləri barədə söhbət açdı.

Fransa Milli Assambleyasının sədri Bernar Akoyer dövlətimizin başçısını yola saldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ NİKOLA SARKOZİNİN GÖRÜŞÜ

Dekabrın 9-da Parisdə Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Nikola Sarkozinin görüşü olmuşdur.

Sarayın qarşısında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Fransa Prezidenti Nikola Sarkozi Azərbaycan Prezidenti İlham Əliyevi sarayın önündə qarşıladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Prezidenti Nikola Sarkozi ilə görüşü oldu. Fransa dövlətinin başçısı adından Azərbaycan Prezidentinin şərəfinə nahar verildi.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı. Fransa Prezidenti bildirdi ki, Azərbaycan yerləşdiyi regionda ən sabit, sürətlə inkişaf edən və gözəl perspektivləri olan ölkədir. Fransa belə bir dövlətlə əlaqələrini inkişaf etdirməkdə maraqlıdır.

Dövlət başçıları iqtisadi sahədə, energetika və qeyri-neft sektorlarında əməkdaşlıq məsələlərini müzakirə etdilər. Bu sahələrdə əməkdaşlığın genişlənəcəyinə əminlik ifadə olundu.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini diqqətə çatdırdı və münaqişənin həlli ilə əlaqədar aparılan danışıqlar prosesi haqqında məlumat verdi.

MEDEF-İN ÜZVÜ OLAN İŞ ADAMLARI İLƏ GÖRÜŞ

Fransada rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 9-da Parisdə Fransa Sahibkarlar Təşkilatına - MEDEF-ə üzv olan iş adamları ilə görüşmüşdür.

Görüşdə MEDEF-internesnlın rəhbəri Jan BÜREL çıxış edərək dedi:

- Hörmətli cənab Prezident,

Hörmətli səfirlər,

Xanımlar və cənablar, dostlar.

Sizi burada - Parisdə bir daha görməyimizə çox şadıq. İki il bundan əvvəl Siz Prezident Jak Şirakla görüşmüşdünüz. Bu dəfə isə Prezident Sarkozi ilə görüşəcəksiniz. Burada Siz MEDEF-ə üzv olan şirkətlərin nümayəndələri ilə görüşürsünüz. Bir azdan xanım Paskal Janin, - Siz onu tanıyırsınız, bir neçə həftə öncə ölkənizə səfər etmişdi, - Sizə suallarla müraciət edəcəkdir. Düşünürəm ki, söhbətimiz faydalı olacaqdır.

Burada iştirak edənlərin hamısının Azərbaycana marağı böyükdür. Sizi dinləməyə və Sizə suallar verməyə həddindən artıq maraqlıyıq.

İcazənizlə, fürsətdən istifadə edərək, diqqətinizə bir daha çatdırım ki, MEDEF Fransanın 800 min şirkətinin birləşdiyi bir qurumdur. Bu quruma müxtəlif sahələrdə çalışan şirkətlər, o cümlədən bank sektoru, sığorta, ərzaq sahələri daxildir. Bəzi şirkətlər təyyarə, bəziləri isə avtomobil istehsalı ilə məşğuldur. Mühəndislik, kimya texnologiyaları sahələrində ixtisaslaşan şirkətlər də vardır. Bizim üçün vaxt ayırdığınıza görə bir daha Sizə təşəkkürümü bildirmək istəyirəm. Sözü həmkarım xanım Paskal Janinə verirəm.

* * *

"Derişübörq poliurban" şirkətinin rəhbəri xanım Paskal Janin PERES çıxış edərək bildirdi:

- Təşəkkür edirəm. Cənab Prezident,

Hörmətli səfirlər,

Xanımlar və cənablar.

İlk növbədə Sizinlə Parisdə yenidən görüşməyimdən nə qədər məmnun olduğumu diqqətinizə çatdırmaq istəyirəm. Bir neçə həftə əvvəl bizi Bakıda qəbul etdiyiniz zaman göstərdiyiniz qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm. Son illər ərzində ölkənizdə baş verən inkişaf və yeniliklər bizi çox valeh edib. Xüsusilə də qlobal iqtisadi böhran zamanı Azərbaycan öz mövqeyini qoruyub saxlaya bilmişdir.

Biz Bakıda olarkən ölkənizdə iqtisadiyyatınızı şaxələndirmək və müasirləşdirmək, eyni zamanda, karbohidrogen ehtiyatlarının ixracından asılılığını azaltmaq və qeyri-enerji sektoruna sərmayə yatırmaq istəyinizi tam anladıq. Fransanın işgüzar adamları Azərbaycandan bu ölkənin inkişafına daha çox cəlb olunmaq arzusu ilə ayrıldılar. Cənab Prezident, biz Sizin səylərinizi dəstəkləyirik. Sizi əmin etmək istəyirik ki, Fransa şirkətləri Azərbaycanın inkişafında bütün istiqamətlərdə iştirak etmək arzusundadır. Biz, eyni zamanda, Sizin 2010-cu ildə ekologiyaya daha çox əhəmiyyət vermək niyyətlərinizə heyran olduq. Fransanın bir neçə şirkəti bu sahədə dünyanın aparıcı şirkətləridir və ekoloji məsələlərin həllində sizlər üçün faydalı iş görə bilər.

Cənab Prezident, indi isə biz Sizi və Azərbaycanın prioritetləri haqqında fikirlərinizi dinləməyə çox maraqlıyıq. Fransa şirkətlərinin layihələrinizin icrasına cəlb olunmaqla necə yardımçı ola biləcəyini bilmək istərdik. Bir daha Sizə təşəkkür edirəm, cənab Prezident.

* * *

Sonra Azərbaycan Prezidenti İlham ƏLİYEV görüşdə çıxış edərək dedi:

- Təşəkkür edirəm, əziz dostlar. Bu görüşə görə də minnətdarlığımı bildirirəm. Bu, bizim ilk görüşümüz deyildir. Xatirimdədir, mən Fransaya ilk dəfə rəsmi səfərə gələndə, - bu, 2004-cü ilin əvvəlində, seçkilərdən cəmi iki ay sonra baş tutmuşdu, - o zaman biz görüşdük. Hesab edirəm ki, həmin görüş aramızdakı iqtisadi əməkdaşlığın inkişafı üçün əhəmiyyətli rol oynadı. Çünki o zaman Azərbaycan beynəlxalq biznes dairələri üçün o qədər də tanınan ölkə deyildi. Eyni zamanda, mən iki il bundan öncə baş tutan görüşümüzü də xatırlayıram. Bu gün də biz görüşürük. Beləliklə, mən hər dəfə Fransaya səfər edəndə görüşümüz olur. Bu, ilk növbədə əlaqələrimizin, digər tərəfdən isə iqtisadi əməkdaşlığımızın qarşılıqlı əhəmiyyətini əks etdirir.

Son illər ərzində ölkələrimiz arasında iqtisadi əməkdaşlıq uğurla inkişaf edir. Fransanın bir çox şirkətləri artıq Azərbaycanda fəaliyyətə başlayıb. Bir çox şirkətlər ölkəmizə sərmayələr yatırıb. Bəzi şirkətlər ölkəmizdə müqavilə əsasında çalışıb və bu gün də çalışmaqda davam edir. Əgər iqtisadi əlaqələrimizin ümumi statistikasına nəzər salsaq, ölkələrimiz arasında qarşılıqlı iqtisadi dövriyyədə böyük artımın olduğunu görərik. Ötən il ticarət dövriyyəmiz 2,5 milyard dollara yaxın olub. Nəzərə alsaq ki, biz kiçik rəqəmlərlə başlamışdıq, hesab edirəm, indi bu, böyük rəqəmdir.

İqtisadi əməkdaşlığımızın inkişafının bu mərhələsində düşünürəm ki, ötən illərdən fərqli olaraq, indi bizim daha yaxşı imkanlarımız vardır. Çünki Azərbaycan son illər ərzində uğurla inkişaf edib. Biz əsas iqtisadi çətinlikləri dəf etməyə nail olmuşuq. Hesab edirəm ki, iqtisadiyyatımız artıq keçid iqtisadiyyatı deyildir. Baxmayaraq ki, keçid dövrü bir qədər çox vaxt apardı. Bu da təbii haldır, çünki bir sistemdən digərinə keçərkən, yəni planlaşdırılan iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid üçün çox vacib islahatlar aparılmalıdır. Artıq bütün zəruri islahatlar aparılıb. Hesab edirəm ki, növbəti illərdə Azərbaycan iqtisadiyyatının davamlı inkişafı qarşılıqlı iqtisadi əməkdaşlıq üçün daha yaxşı şərait yaradacaqdır.

Ümumiyyətlə biz həm ikitərəfli, həm iqtisadi sahədə əlaqələrimizin səviyyəsindən çox razıyıq. Hesab edirəm ki, biz bu cür qarşılıqlı maraqla uğurla irəliləyə bilərik. Düşünürəm ki, 2004-cü ildəki görüşümüz iqtisadi əlaqələrimizin sürətlə inkişafı üçün əhəmiyyətli rol oynadı. Ümid edirəm ki, bu görüşdən və MEDEF-in bu yaxınlarda Bakı görüşündən sonra biz ölkəmizə gələcək sərmayə yatırımları ilə bağlı yeni prioritetləri, əməkdaşlığın yeni sahələrini Fransa sərmayədarlarının maraqları və Azərbaycan hökumətinin prioritetlərinə uyğun olaraq müəyyənləşdirəcəyik.

Böyük işlər görülüb. Lakin görüləsi işlər hələ də çoxdur. Bizim konkret tədbirlər proqramımız vardır. Bu, artıq ikinci proqramdır. İlk proqram 2004-cü ildə qəbul olunub və 2008-ci ilə qədərki dövrü əhatə edib. Sizə deyə bilərəm ki, 2004-2008-ci illər ərzində, yəni son 5 il ərzində Azərbaycan iqtisadiyyatı dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatı olub. Ümumi daxili məhsul 2,6 dəfə, sənaye istehsalı isə 2,5 dəfə artıb. Bu, dünyanın ən sürətlə artan iqtisadiyyatı olub. Növbəti 5 il - 2009-2013-cü illər üçün bizim maliyyə və texniki imkanlarımıza və beynəlxalq biznes dairələri ilə artıq mövcud olan təcrübəmizə əsaslanan dəqiq tədbirlər proqramımız vardır.

Bu proqram əsasən ölkəmizin hələ də mövcud olan mühüm iqtisadi, sosial və infrastruktur layihələrinin həyata keçirilməsinə kömək edəcəkdir. Ümid edirəm ki, növbəti illərdə də Fransa şirkətləri müxtəlif əhəmiyyətli layihələrin həyata keçirilməsində bizim tərəfdaşlarımız olacaqdır. İqtisadiyyatımız hətta 2009-cu ildə, qlobal maliyyə böhranı zamanı da sürətlə inkişaf edir. İlin on ayının göstəricilərinə əsasən, iqtisadi artım 8,4 faiz, sənaye istehsalı artımı isə 7,3 faiz olub. Nəzərə alsaq ki, enerji sektoru hələ də ölkə iqtisadiyyatının əsas sektoru sayılır və neftin qiyməti son bir il ərzində kəskin şəkildə aşağı düşüb, bu, bizim ümumi iqtisadi inkişafımıza təsir göstərməyib. Bu da məhz iqtisadiyyatımızın şaxələndirilməsinin, qeyri-enerji sektoruna sərmayə qoyuluşu siyasətinin nəticəsidir. Həmin sərmayələr o sahələrə yatırılır ki, gələcəkdə əlavə gəlir gətirsin.

Bir daha qeyd etmək istəyirəm ki, növbəti illər üçün böyük planlarımız vardır və ümid edirəm ki, bütün bu planlar həyata keçiriləcəkdir. Müxtəlif layihələrə gəldikdə isə onu deyə bilərəm ki, sizin nümayəndələriniz Bakıda olarkən bir sıra görüşlər keçiriblər. Onlarda artıq bizim nə edəcəyimiz barədə məlumatlar vardır. 2010-cu ildə bizim həm dövlət büdcəsindən, həm də Neft Fondundan maliyyələşən dövlət investisiya proqramı 4,5–5 milyard dollara yaxın olacaqdır. Bu qədər vəsait iqtisadiyyatımızın müxtəlif sahələrinə yatırılacaqdır. Biz Fransa şirkətlərini bu layihələrdə iştirak etməyə dəvət edirik.

Bəzi şirkətlər artıq nəhəng və əhəmiyyətli infrastruktur və sənaye layihələrinin icrasına başlayıb. Biz bu işlərin gedişindən məmnunuq. Əminəm ki, sizin gələn və növbəti illər ərzində icra olunacaq konkret sahələr və layihələr haqqında məlumatınız vardır. Hansı sahəyə daha çox diqqət yetirmək – artıq şirkətlərin öz işidir. Bizim prioritetlərə gəldikdə isə, qeyd etdiyim kimi, bu, əsasən qeyri-neft sektorudur. Çünki biz neft və qaz sahəsində planlaşdırılan bütün işləri görməyə nail olmuşuq və növbəti illər ərzində indiyədək gördüyümüz işlərdən bəhrələnəcəyik.

İnformasiya texnologiyaları, kənd təsərrüfatı, infrastruktur, təhsil, səhiyyə, ekologiya sahələri indi prioritetdir. Təsadüfi deyildir ki, 2010-cu il Ekologiya ili elan olunub. Biz bu sahəyə daha çox diqqət yetirməliyik. Çünki Azərbaycanda neft hasilatına başlanan ilk dövrlərdən ekoloji məsələlərə fikir verilməyib. İndi isə bu sahədə böyük işlərin görülməsinə ehtiyac vardır. Biz çirklənmiş bütün əraziləri, torpağı, Xəzər dənizini təmizləməliyik və bu layihə üçün böyük vəsait ayrılacaqdır. Biz digər layihələri də dünyanın aparıcı şirkətləri ilə birgə həyata keçirməyi planlaşdırırıq. Bu təcrübə artıq vardır. 1990-cı illərin əvvəlində Azərbaycan hətta qeyri-mütəşəkkil, kasıb və iqtisadiyyatı tənəzzülə uğramış ölkə olarkən, biz böyük beynəlxalq şirkətləri ölkəmizə sərmayə qoymağa cəlb etməyə nail olduq. O da həqiqətdir ki, həmin sərmayələrin əksəriyyəti enerji sektoruna yatırılmışdı və bu, təbii bir hal idi. Bu il isə biz tərəfdaşlarımızı ölkəmizin həm enerji, həm də qeyri-enerji sektorlarına sərmayə yatırmağa dəvət edirik.

Etibarlılığı artırmaq üçün biz Dövlət İnvestisiya Şirkətini yaratdıq. Bu şirkət müxtəlif layihələrin icrasında artıq həm sərmayədar kimi çalışır və həm də çalışacaq ki, potensial investorlar üçün etimadı artırsın. Biz bu məsələni bu yaxınlarda Bakıda da müzakirə etdik. Biz Fransa şirkətləri tərəfindən yatırılacaq sərmayələri alqışlayırıq. Biz Fransa şirkətlərinin müqavilə əsasında və ya müxtəlif birgə müəssisələrin, qurumların üzvləri kimi fəaliyyətini müsbət qarşılayarıq. Biz uğurlu əməkdaşlığımızı davam etdiririk.

Bu gün bir daha sizinlə burada olmağımdan və bu vacib məsələləri sizinlə müzakirə etməkdən çox məmnunam. Ümid edirəm ki, bu görüşdən sonra biz görülən işlərin əyani nəticələrinin şahidi olacağıq. Çox sağ olun.

***

Sonra dövlətimizin başçısı dünya iqtisadi böhranı fonunda Azərbaycanın inkişaf prosesləri, ölkəmizin iqtisadi prioritetləri, qeyri-neft sektoru, respublikamızda çalışan Fransa şirkətlərinin fəaliyyəti, enerji sahəsində görülən işlər, Azərbaycanın regionda hazırkı vəziyyəti və gələcək rolu, 2010-cu ildə - Ekologiya ilində görüləcək işlər, nəqliyyat, aviasiya, səhiyyə və digər sahələrdə əməkdaşlıq mövzularında suallara ətraflı cavab verdi.

Prezident İlham Əliyev ölkəmizin gələcək planlarından, müstəqilliyin ilk illərində üzləşdiyimiz sınaqlardan, eləcə də Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsindən danışdı. Dövlətimizin başçısı qeyd etdi ki, bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan davamlı inkişaf yoluna qədəm qoydu. Hazırda sürətlə inkişaf edən Azərbaycan ümumi daxili məhsulun artım sürətinə görə dünyada lider ölkələrdən biridir.

FRANSA XARİCİ İŞLƏR NAZİRİ BERNAR KUŞNER İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Parisdə onun üçün ayrılmış iqamətgahda Fransa xarici işlər naziri Bernar Kuşner ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Fransa arasında müxtəlif sahələrdə, o cümlədən siyasi sahədə əlaqələrin yüksək səviyyədə olduğu bildirildi. Azərbaycan Prezidentinin Fransaya rəsmi səfərinin ikitərəfli münasibətlərin inkişafı baxımından xüsusi önəm daşıdığı qeyd olundu.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı proseslərin hazırkı vəziyyətindən söhbət açılan görüşdə, regional və bir sıra beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

PARLAMENTLƏRARASI ƏLAQƏLƏRİN MÖHKƏMLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİNDƏN DANIŞILMIŞDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Parisdə Fransa Senatının sədri Jerar Larşe ilə görüşmüşdür.

Senatın binası qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Fransa Senatının sədri Jerar Larşe qarşıladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Fransa Senatının sədri Jerar Larşenin görüşü oldu.

Görüşdə parlamentlərarası əlaqələrin genişlənməsinin Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin möhkəmlənməsi işinə töhfə verdiyi vurğulandı. Azərbaycan Prezidentinin Fransaya rəsmi səfərinin əlaqələrimizin daha da genişlənməsi baxımından böyük önəm daşıdığı bildirildi. Parlamentlərarası əlaqələrin möhkəmlənməsində dostluq qruplarının rolu qeyd edildi.

Ölkələrimizin qanunverici orqanlarının əməkdaşlığının əhəmiyyətindən danışılan görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Sonda dövlətimizin başçısı Senatın xatirə kitabına ürək sözlərini yazdı.

PARİSDƏ AZƏRBAYCAN-FRANSA İKİTƏRƏFLİ SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya rəsmi səfəri çərçivəsində dekabrın 9-da Parisdə Azərbaycan-Fransa ikitərəfli sənədləri imzalanmışdır.

"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında diplomatik pasportlara malik olan vətəndaşların qısamüddətli viza rejimindən qarşılıqlı azad olunması haqqında Saziş"i və "Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şərtləri haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Fransanın xarici işlər naziri Bernar Kuşner imzalamışlar.

"Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Fransa Respublikasının Dövlət Büdcəsi, Mühasibatı, Qulluğu və İslahatı Nazirliyinin Dövlət Maliyyə Baş İdarəsi arasında texniki əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Fransanın Vergilər İdarəsinin rəis müavini Filip Rambane imzalamışlar.

SƏFƏR BAŞA ÇATDI

Dekabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Respublikasına rəsmi səfəri başa çatmışdır.

Azərbaycanın və Fransanın dövlət bayraqlarının dalğalandığı Parisin "Orli" Beynəlxalq hava limanında Prezident İlham Əliyevi Fransanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

VYANADA AZƏRBAYCAN DİPLOMATİK XİDMƏTİNİN YARADILMASININ 90 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏDBİR TƏŞKİL EDİLMİŞDİR

Dekabrın 9-da Azərbaycanın Avstriyadakı səfirliyi Avstriya Beynəlxalq Siyasət İnstitutu və Sülh naminə Beynəlxalq İnstitut ilə birgə əməkdaşlıq şəraitində Vyana Diplomatiya Akademiyasında "Avropa və Xəzər dənizi regionu arasında inkişaf edən əlaqələrdə Azərbaycanın rolu" mövzusunda panel müzakirələr təşkil etmişdir.

Azərbaycan Diplomatik Xidmətinin yaradılmasının 90 illik yubileyi münasibətilə keçirilən müzakirələri giriş sözü ilə Vyana Diplomatiya Akademiyasının direktoru Hans Vinkler və Azərbaycanın xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev açmışdır.

M.Məmmədquliyev bildirmişdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xarici əlaqələrin qurulması, iqtisadiyyatın dirçəldilməsi məsələlərinə xüsusi diqqət yetirmişdir. Eyni zamanda, Avropaya inteqrasiya etmək, Avropa təsisatları ilə əməkdaşlıq daim diqqət mərkəzində olmuşdur. Avropa Şurası və ATƏT-in üzvü olan Azərbaycan Avropa Qonşuluq Siyasəti, Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizi - TRASEKA və digər proqramların fəal iştirakçısıdır. 1994-cü ildə Bakıda imzalanmış "Əsrin müqaviləsi" isə Xəzər dənizinin enerji resurslarının Avropa bazarına çıxarılmasını mümkün etmişdir.

Avropanın enerji təhlükəsizliyi və enerji marşrutlarının şaxələndirilməsində Azərbaycan mühüm rol oynayır və əməkdaşlığın genişləndirilməsinə tərəfdardır.

Avropa və Asiyanın qovuşuğunda yerləşən Azərbaycan, həmçinin mədəniyyətlər və dinlərarası dialoqun inkişaf etdirilməsində xüsusi rola malikdir. Məhz bu səbəbdən də İslam Konfransı Təşkilatı və Avropa Şurası ölkələrinin mədəniyyət nazirlərinin konfransı Bakıda keçirilmişdir.

"İqtisadi meyillər və təhlükəsizlik nəticələri" mövzusuna həsr olunmuş ilk paneldə Avstriya Parlamentinin üzvü, Avstriya İqtisadiyyat Palatasının vitse-prezidenti Kristof Matsnetter, Ziqmund Freyd Universitetinin Avropa Təhlükəsizlik Araşdırmaları Mərkəzinin direktoru Aleksandr Ziedşlaq, Milli Məclisin deputatı Gültəkin Hacıbəyli, ATƏT-in iqtisadiyyat və ekologiya üzrə əlaqələndiricisi Qoran Silvanoviç, Beynəlxalq Sülh üzrə

Avstriya İnstitutunun direktoru Otmar Höll iqtisadi inkişafın meyilləri, enerji daşıyıcıları sahəsində əməkdaşlıq, regional təhlükəsizlik və digər mövzularda çıxış etmişlər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının Azərbaycanın bir nömrəli prioriteti olduğunu qeyd edən Gültəkin Hacıbəyli vurğulamışdır ki, münaqişənin həlli Ermənistan hərbi qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazisindən çıxarılması, bu ərazilərdə Azərbaycanın suveren hüquqlarının bərpası, məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması şəraitində mümkündür. Çoxmillətli Qafqaz regionunda yeganə monoetnik dövlət olan Ermənistan işğal etdiyi torpaqlardan çəkildikdən sonra gələcəkdə Cənubi Qafqaz regionunda birgə qonşuluq mümkün olacaqdır.

İkinci paneldə isə Azərbaycan Respublikasının Diplomatik Xidmətinin 90 illiyinə həsr olunmuş "Azərbaycan qlobal siyasətdə: xarici siyasətin formalaşması" kitabının təqdimatı keçirilmişdir. Azərbaycanın Avstriyadakı səfiri Fuad İsmayılovun sədrliyi ilə keçən paneldə Azərbaycan Diplomatik Akademiyasının xarici siyasət proqramının direktoru Fariz İsmayılzadə kitabın əsas mahiyyəti barədə tədbir iştirakçılarına məlumat vermişdir. Bildirilmişdir ki, kitab yerli və xarici mütəxəssislərin məqalələri əsasında tərtib edilmişdir və bununla da Azərbaycanın diplomatik xidmətini müxtəlif perspektivlərdən nəzərdən keçirmək mümkündür.

Sülh naminə Beynəlxalq İnstitutun prezidenti Peter Şider, Avstriya Xarici İşlər Nazirliyi siyasət idarəsi müdirinin müavini Frants Kuqliç, ATƏT-in təmsilçisi Sergey Belyayev Azərbaycan ilə Avropa qurumları və eləcə də Azərbaycan-Avstriya arasında diplomatik əlaqələrdən bəhs etmiş, perspektivlərə toxunmuşlar.

Panel iştirakçıları yekunda dinləyiciləri maraqlandıran sualları cavablandırmışlar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV KOREYA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ Lİ Cİ-HANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Li Ci-Hanın etimadnaməsini qəbul etmişdir.

Li Ci-Han fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin son illər uğurla və dinamik inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, onun Koreya Respublikasına və Koreya Prezidenti mərhum Ro Mu Hyunun Azərbaycana səfəri ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətli rol oynamışdır. Ölkələrimiz arasında iqtisadi əməkdaşlığa toxunan dövlətimizin başçısı Azərbaycanda çoxlu sayda Koreya şirkətinin müxtəlif sahələrdə, o cümlədən nəqliyyat sahəsində, infrastruktur və bir sıra digər investisiya layihələrində iştirakını bu əlaqələrin yaxşı göstəricisi kimi qiymətləndirdi.

Li Ci-Han Koreya Prezidenti Li Men Bakın salamlarını, Azərbaycan xalqına firavanlıq

və ikitərəfli münasibətlərimizin bundan sonra da inkişaf etdirilməsi ilə bağlı arzularını dövlətimizin başçısına çatdırdı. Səfir kimi ölkəmizdə fəaliyyətə başlamasından şərəf duyduğunu deyən diplomat, Koreyanın ikitərəfli münasibətlərimizin inkişafından məmnun olduğunu bildirdi.

Dövlətimizin başçısı Prezident Li Men Bakın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ BOKS ASSOSİASİYASININ PREZİDENTİ ÇİNQ-KUO VUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Beynəlxalq Boks Assosiasiyasının prezidenti Çinq-Kuo Vunu qəbul etmişdir.

Çinq-Kuo Vu Prezident İlham Əliyev ilə Pekin Olimpiya Oyunları zamanı görüşünü məmnunluqla xatırladı. O, gələn il gənclər arasında boks üzrə dünya çempionatının Bakıda keçirilməsi ilə bağlı Beynəlxalq Boks Assosiasiyasının İcraiyyə Komitəsinin yekdilliklə qərar qəbul etdiyini dedi və bu münasibətlə təbriklərini çatdırdı. Çinq-Kuo Vu ölkəmizdə bu idman növünün inkişafı ilə bağlı Azərbaycan Boks Federasiyasının böyük səylər göstərdiyini vurğuladı.

Dövlətimizin başçısı gənclər arasında boks üzrə dünya çempionatının Bakıda keçirilməsi ilə əlaqədar Beynəlxalq Boks Assosiasiyasının İcraiyyə Komitəsinin qərarını yüksək qiymətləndirdi. Prezident İlham Əliyev mötəbər idman yarışlarının Azərbaycanda keçirilməsinin beynəlxalq idman aləmində ölkəmizin nüfuzunun getdikcə daha da artması baxımından əhəmiyyətini vurğuladı.

YENİYETMƏLƏRİN VI BEYNƏLXALQ ELM OLİMPİADASI BAŞA ÇATMIŞDIR

Dekabrın 10-da Bakıda Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadası başa çatmışdır. "Buta" sarayında olimpiadanın qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir

On beş yaşlı yeniyetmələr arasında fizika, kimya və biologiya fənləri üzrə keçirilmiş olimpiadada 49 ölkədən 600-dən çox şagird və onların müəllimləri iştirak etmişlər.

Heydər Əliyev Fondunun, IJSO (International Junior Science Olympiad) və Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə keçirilən olimpiadada dünyanın 5 qitəsindən 258 şagird 30 sualdan ibarət test, nəzəri və təcrübi tapşırıqları cavablandırmışdır. Cavabları olimpiadanın Elm Komitəsi tərəfindən seçilən 18 təcrübəli müəllim yoxlamışdır.

Tədbir iştirakçıları olimpiadanın gedişini əks etdirən videofilmə baxmışlar.

Gənclər və idman naziri Azad Rəhimov bildirmişdir ki, ölkəmizdə olimpiadanın yüksək səviyyədə keçirilməsi üçün nizamnaməyə uyğun olaraq bütün işlər ardıcıllıqla həyata keçirilmişdir.

Nazir demişdir ki, Azərbaycan bu tədbirə ev sahibliyi edən ilk Avropa ölkəsidir.

Bildirilmişdir ki, bu tədbirin Azərbaycanda keçirilməsi olduqca fərəhli haldır. Olimpiada ayrı-ayrı ölkələrdən gəlmiş yeniyetmələr arasında əsl elm və dostluq körpüsünə

çevrilmişdir. İştirakçılar Azərbaycanın tarixi, mədəniyyəti, mətbəxi və xalqımızın qonaqpərvərliyi ilə yaxından tanış olmuşlar.

Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasının iştirakçıları ümumilikdə 20 qızıl, 60 gümüş və 84 bürünc medal qazanmışlar.

Olimpiadada iştirak edən 12 azərbaycanlı məktəblidən 9-nun adı mükafatçılar sırasında olmuşdur. Onlardan 2-si gümüş, 7-si isə bürünc medal qazanmışdır.

Rusiya komandası 6 qızıl medalla birinci yerə çıxmışdır.

Qaliblərə mükafatları xarici işlər nazirinin müavini, Azərbaycan Diplomatik Akademiyasının rektoru, olimpiadaya hazırlıq məqsədi ilə yaradılmış Elm Komitəsinin rəhbəri Hafiz Paşayev, təhsil naziri Misir Mərdanov, gənclər və idman naziri Azad Rəhimov, VI Beynəlxalq Elm Olimpiadasının prezidenti Masna Gintinq, Azərbaycan Dillər Universitetinin rektoru, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və başqaları təqdim etmişlər.

Tədbir gənc musiqiçilərin geniş konsert proqramı ilə davam etmişdir.

VI BEYNƏLXALQ ELM OLİMPİADASI TƏKCƏ YENİYETMƏLƏR ÜÇÜN DEYİL, ÖLKƏMİZ ÜÇÜN DƏ OLDUQCA BÖYÜK ƏHƏMİYYƏT KƏSB EDİR

VI Beynəlxalq Elm Olimpiadası təkcə yeniyetmələr üçün deyil, ölkəmiz üçün də olduqca böyük əhəmiyyət kəsb edir. Ona görə ki, Azərbaycanda təhsilin, elmin inkişafı istiqamətində aparılan islahatlar belə möhtəşəm tədbirlər vasitəsilə dəstəklənir və gənclərin bu sahələrə marağının artmasına gətirib çıxarır.

Bu sözləri Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasının başa çatması ilə bağlı keçirilən tədbirdə iştirak edən xarici işlər nazirinin müavini, Azərbaycan Diplomatik Akademiyasının rektoru, olimpiadaya hazırlıq məqsədi ilə yaradılmış Elm Komitəsinin rəhbəri Hafiz Paşayev jurnalistlərin suallarını cavablandırarkən demişdir.

Rektor bildirmişdir ki, ötən 8 gündə gənclər öz biliklərini, bacarıqlarını nümayiş etdirə bilmişlər. Bu möhtəşəm bilik yarışı xalqlar arasında dostluq əlaqələrinin inkişafına təkan verəcəkdir. İnanıram ki, olimpiada iştirakçıları Azərbaycandan vətənlərinə çox böyük təəssüratla dönəcəklər.

H.Paşayev bildirmişdir ki, Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasının yüksək səviyyədə təşkil edilməsi üçün bütün işlər görülmüş və bunu iştirakçı dövlətlərin nümayəndələri də təsdiqləmişlər. İştirakçılarla söhbətlərimiz zamanı onlar olimpiadanın yüksək səviyyədə keçirilməsi üçün yaradılan şəraitdən razılıqla danışmışlar.

QAHİRƏ UNİVERSİTETİNİN PROFESSORU AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA ÇIXIŞ ETMİŞDİR

Dekabrın 10-da Qahirə Universitetinin ərəb dili və ədəbiyyatı professoru Hani As Sisi Azərbaycan Diplomatik Akademiyasında "Azərbaycan dilinin ərəb kökləri" adlı məruzə ilə çıxış etmişdir.

Professor bildirmişdir ki, VII əsirdən İslam dininin yayılması nəticəsində ərəb dili Azərbaycana gəlib çatmışdır. Nəticədə bu gün Azərbaycan dilində təxminən 10 minədək ərəb köklü söz vardır. Bundan əlavə, Azərbaycan dilində artıq ərəb dilində ölmüş hesab olunan sözlərə də rast gəlmək olar. Buna misal olaraq H.A.Sisi "cəsur", "mütəkkə" kimi sözləri göstərmiş və bildirmişdir ki, artıq bu ifadələr ərəb dünyasında istifadə olunmur.

Professor Azərbaycanda olduğu iki il ərzində böyük ədib Cəlil Məmmədquluzadənin tənqidi məqalələrini, yerli atalar sözlərini ərəb dilinə çevirmiş və Misirdə dərc etdirmişdir.

Tədbirdə ərəb ölkələrinin Azərbaycandakı səfirləri, Xarici İşlər Nazirliyinin əməkdaşları, şərqşünaslar iştirak etmişlər.

BMT-NİN CENEVRƏ BÖLMƏSİNDƏ TƏŞKİL OLUNMUŞ KONFRANSDA XOCALI QƏTLİAMI PİSLƏNİLMİŞDİR

BMT İnsan Haqları günü ilə əlaqədar Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) təşəbbüsü ilə dekabrın 10-da BMT-nin Cenevrədəki bölməsində - Millətlər Sarayında silahlı münaqişələr zamanı insan hüquqlarının kütləvi pozulması problemlərinə həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir.

Konfransda DƏ-İKGF mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə irəli sürülmüş "Xocalıya ədalət" beynəlxalq kampaniyasının nümayəndələri fəal iştirak etmişlər. Kampaniyanın məqsədi Xocalı şəhərində erməni-lər tərəfindən insanlığa qarşı törədilmiş cinayətin dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq aləmdə bu cinayətə hüquqi-siyasi qiymətin verilməsinə nail olmaqdır.

Cenevrədəki konfrans bir saat gec işə başlamışdır. Buna səbəb Ermənistanın BMT-nin Cenevrə bölməsindəki daimi nümayəndəliyinin bu qurumda fəaliyyət göstərən erməni lobbi kanallarından istifadə edərək tədbirin işini pozmaq cəhdləri olmuşdur. Konfrans ərəfəsində Ermənistan KİV-ləri qərəzli məlumatlar yayaraq tədbirin gözdən salınması kampaniyasına başlamışdılar. Ermənistan mətbuatının verdiyi məlumatlara istinad edən erməni diplomatlarının arqument olaraq əsas gətirdikləri səbəb guya konfransın formatının BMT-nin qaydalarına uyğun gəlməməsi olmuşdur. Bununla belə, konfrans təşkilatçılarının verdiyi izahatdan sonra, mötəbər qonaqların, nümayəndələrin konfransda iştirakı da nəzərə alınmaqla, tədbir planlaşdırıldığı kimi BMT-nin Millətlər Sarayında öz işinə başlamışdır.

Avropada fəaliyyət göstərən "COJEP International" tərəfindən təşkil edilmiş konfransın açılış mərasimində bir sıra diplomatlar, beynəlxalq insan hüquqları təşkilatlarının rəhbərləri, mətbuat nümayəndələri iştirak etmişlər. BMT-nin insan hüquqları üzrə baş komissarı xanım Navanethem Pilleyin videomüraciəti nümayiş olunmuşdur.

DƏ-İKGF baş katibi Elşad İskəndərov məruzə ilə çıxış edərək Ruanda və Srebrenitsa faciələri ilə yanaşı Xocalı qətliamının İslam Konfransı Təşkilatının (İKT) sənədlərində siyasi tanınması və bu məsələ ilə bağlı mədəniyyətlərarası dialoq çərçivəsində İKT və Avropa strukturlarının əməkdaşlığının vacibliyi haqda məlumat vermişdir.

E.İskəndərov demişdir ki, insan hüquqlarının kobud şəkildə pozulmasının tanınması

məsələsində "bizlər" və "onlar" bölgüsü düzgün deyildir. Kimlərin törətməsindən asılı olmayaraq, kütləvi qırğını həyata keçirənlər və səbəbkarlar layiqli cəzalarını almalıdırlar.

Konfransda Xocalı qətliamı II Dünya müharibəsi zamanı nasistlər tərəfindən törədilən, o cümlədən Srebrenitsa və Ruandada kütləvi qırğınlarla müşayiət olunan insan hüquqlarının pozulması kontekstində müzakirə edilmişdir.

"Xocalıya ədalət" kampaniyasının Litvadan olan əlaqələndiricisi Yeva Lukosevite Qarabağ müharibəsinin qanlı səhifəsi olan bu faciə haqqında kampaniyanın fəallarının hazırladığı multimedia təqdimatı ilə çıxış etmişdir.

Konfransın gedişi zamanı da erməni diplomatları tədbiri pozmağa cəhd etmişlər. Dinləmələrdə Ermənistan nümayəndəliyinin başçısı, baş nazirin müavininin köməkçisi bir neçə dəfə konfransı pozmağa cəhd etmişdir. Ermənistanın BMT-dəki nümayəndəliyində çalışan diplomat V.Qevorqyan müzakirəni Ermənistan silahlı qüvvələrinin bu qətliamda iştirakını inkar etmək istiqamətinə yönəltməyə cəhd etmişdir. Belə ki, o, Ermənistanı İKT ölkələrinə dost münasibət göstərən dövlət kimi təqdim etməklə, ərəb ölkələrində yerli əhali ilə dinc yaşayan erməni diasporunun fəaliyyət təcrübəsindən Avropa ölkələrində yaşayan müsəlman azlıqlarına qarşı həyata keçirilən siyasətdə istifadə etməyi təklif etmişdir.

DƏ-İKGF baş katibi E.İskəndərov cavab olaraq Ermənistan rəsmilərinin Xocalı faciəsi ilə bağlı hələ də beynəlxalq ictimaiyyəti aldatmaqda davam etdiyini bildirmişdir. Elşad İskəndərov demişdir: "Ermənistanda bu cinayətdə öz liderlərinin hansı rol oynadıqlarını yaxşı bilirlər. Məhz o zaman Dağlıq Qarabağda vuruşan erməni silahlı qüvvələrinin komandirlərindən olan, indi sizin ölkəyə başçılıq edən prezident Böyük Britaniyadan olan jurnalist T.De Vaala verdiyi müsahibədə etiraf etmişdi ki, Xocalıda erməni silahlılarının əsas məqsədi azərbaycanlılarda dinc əhalinin öldürülməsinin yolverilməzliyi ilə bağlı formalaşmış steorotipi məhv etmək olmuşdur.

Erməni icmalarının Yaxın Şərq ölkələrində mədəniyyətlərarası dialoqa verdiyi töhfəyə gəldikdə isə, biz onların dini və milli ənənələrin inkişaf etdirilməsinə şərait yaradılan bir cəmiyyətdə yaşaması faktının məmnunluqla qeyd edirik. Amma bu fakt həmin ölkələrdə yaşayan xalqların ermənilərə göstərdiyi qonaqpərvərliyi, o cümlədən İslam mədəniyyətinin tolerantlığı ilə izah edilə bilər. Əgər Ermənistan nümayəndəsi öz ölkəsinin təcrübəsindən yararlanmağı təklif edirsə, qoy o, hazırda bu dövlətdə yaşayan müsəlman azlığın say faizi barədə bizə məlumat versin. Bu faiz sıfır dərəcəsindədir, halbuki, keçən əsrin əvvəllərində təkcə Ermənistan paytaxtında yaşayan əhalinin yarısı azərbaycanlılardan ibarət idi. Ermənistan Respublikası yarananandan sonra yüz minlərlə azərbaycanlı dədə-baba torpaqlarından qovularaq kütləvi etnik təmizlənmə siyasətinin qurbanı olmuşdur. Beləliklə, Avropada erməni təcrübəsinin tətbiqi onlarla Srebrenitsa faciəsinin təkrarı demək olardı".

Konfransda iştirak edən Azərbaycanın BMT-nin Cenevrədəki daimi nümayəndəliyinin rəhbəri səfir Elçin Əmirbəyov demişdir: "Artıq birinci dəfə deyil ki, erməni diplomatları BMT tribunalarından insan hüquqları ilə bağlı müzakirə olunan məsələləri siyasiləşdirməyə cəhd edirlər. Erməni diplomatiyasının qeyri-hökumət təşkilatlarının təşəbbüslərinə mane olmaq, bu cür tədbirləri pozmaq praktikasına tez-tez rast gəlinir. Bu

konfransda Ermənistan nümayəndəsinin çıxışı müxtəlif ölkələrdən olan iştirakçıların Xocalı qırğını qurbanlarının hüquqlarının bərpa olunmasının zəruriliyi ilə bağlı söylədikləri mülahizələrlə daban-dabana ziddir. Lakin onlar "Xocalıya ədalət" kampaniyası təşkilatçılarının irəli sürdüyü əsaslandırılmış arqumentlərlə rastlaşdılar. Son illərdə Azərbaycanın fəal xarici siyasətinin nəticələrindən olan bu kampaniya müdafiə və öncədən perspektivsiz mövqe seçən rəsmi Yerevanı narahat etməkdədir".

Konfransın sonunda qəbul edilmiş xüsusi məruzə BMT-nin Nyu-York və Cenevrədəki bölmələrinə, o cümlədən digər beynəlxalq təşkilatlara tövsiyə qismində göndəriləcəkdir.

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ BMSİT-İN 13-CÜ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR

Dekabrın 7-11-də Vyanada BMT Sənaye İnkişafı Təşkilatının (BMSİT) Baş Konfransının 13-cü sessiyası keçirilirmişdir. Sessiyanın əsas mövzusu "yaşıl sənaye" və onun ölkələrin mövcud iqtisadi vəziyyəti üçün verə biləcəyi şanslara həsr olunmuşdur.

Təşkilata üzv olan 173 ölkənin nümayəndələrinin iştirak etdiyi sessiyanın işində Azərbaycanı xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdirlər.

Sessiyanın ilk günü təşkilatın baş direktoru Kandeh Yumkella ikinci müddətə tutduğu vəzifəyə seçilmişdir.

Sessiya çərçivəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri M.Məmmədquliyev K.Yumkella ilə görüşmüşdür. M.Məmmədquliyev BMSİT-in baş direktorunu yenidən bu vəzifəyə seçilməsi münasibətilə təbrik etmişdir.

Görüşdə təşkilatla Azərbaycan arasında mövcud əməkdaşlıq yüksək qiymətləndirilmiş, eyni zamanda, əlaqələrin gələcək prioritetlərinin müəyyənləşdirilməsi istiqamətində iş aparılmasının vacibliyi vurğulanmışdır.

Eyni zamanda, tərəflər arasında Azərbaycanda qeyri-neft sektorunun inkişafında BMSİT-in təcrübi və ekspertiza dəstəyindən geniş istifadə edilməsi barədə fikir mübadiləsi aparılmışdır. Təşkilatla əməkdaşlığı daha da gücləndirmək məqsədi ilə yeni çərçivə əməkdaşlıq proqramlarının işlənib hazırlanması məqsədi ilə məsləhətləşmələr aparılması qərara alınmışdır.

Tərəflər BMSİT baş direktorunun Azərbaycana səfərinin təşkil olunması və səfər zamanı ölkəmizdə BMSİT ilə birgə konfransın keçirilməsi perspektivlərini də müzakirə etmişlər.

Azərbaycan nümayəndə heyətinin rəhbəri M.Məmmədquliyev sessiyada çıxış etmişdir. Çıxışda Azərbaycanın mövcud iqtisadi durumundan, son illərdəki iqtisadi artımın səviyyəsindən, BMSİT ilə əməkdaşlıq şəraitində həyata keçirilən layihələrdən və perspektiv vəzifələrdən bəhs edilmişdir.

Xüsusi qeyd edilmişdir ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması nəticəsində bir milyondan artıq insan öz yurd-yuvasından didərgin düşmüşdür. Həmin qaçqın və məcburi köçkünlərin iş yerləri ilə təmin olunmasında BMSİT yaxından dəstək göstərə bilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradkeni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

DAĞLIQ QARABAĞ PROBLEMİ AŞPA-NIN BÜTÜN KOMİTƏLƏRİNDƏ MÜZAKİRƏ EDİLMƏLİDİR

Dekabrın 14-də Parisdə Avropa Şurası Parlament Assambleyası (AŞPA) bürosunun növbəti toplantısı keçirilmişdir. Büro üzvləri 2010-cu ilin qış sessiyasının gündəliyi, Avropada demokratik vəziyyət, oktyabr ayında demokratiyanın gələcəyinə dair Kiyevdə keçirilmiş forumun nəticələri, Ukraynada qarşıdakı prezident, Fələstində prezident və parlament seçkiləri, Gürcüstan və Rusiya münasibətləri, ATƏT-in Minsk qrupunun təklifi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 1416 saylı qətnamənin yerinə yetirilməsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Azərbaycanın AŞPA yanındakı daimi nümayəndə heyətinin rəhbəri, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov yığıncaqla bağlı müsahibəsində demişdir: Büroda ölkəmizlə bağlı birbaşa hər hansı məsələ gündəliyə salınmamışdır. Amma sadəcə, AŞPA-nın sədri Luis Maria de Puş Dağlıq Qarabağa dair AŞPA-nın alt komitəsinin fəaliyyətinin bərpa edilməsindən danışarkən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu həlli istiqamətində iki ölkə arasında danışıqların fəallaşdığını qeyd etmiş, rəhbərlik etdiyi qurumda bu məsələ ilə əlaqədar alt komitənin olduğunu, amma xeyli vaxtdır fəaliyyət göstərmədiyini xatırlatmış və Azərbaycan nümayəndə heyətinin rəhbərindən buna münasibətini bildirməsini xahiş etmişdir.

Mən çıxışımda bu məsələnin çox vacib olduğunu xüsusi vurğuladım. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi AŞPA-nın gündəliyindən çıxarılmamalıdır. Əksinə, problem alt və münaqişələrin qarşısını almaq komitələri ilə yanaşı, bütün komitələrdə daim qaldırılmalı, geniş müzakirə olunmalı və obyektiv şəkildə təqdim edilməlidir.

Büronun qərarına əsasən bu məsələdə hansısa dəyişiklik olmayacaq, sadəcə, müzakirələr fəallaşdırılmalıdır. Əminəm ki, münaqişə ilə bağlı müzakirələr bundan sonra daha da fəal şəkil alacaqdır.

AZƏRBAYCAN OMBUDSMANI POLŞADA ŞƏRQ ƏMƏKDAŞLIĞI ÇƏRÇİVƏSİNDƏ BEYNƏLXALQ TƏDBİRDƏ İŞTİRAK ETMİŞDİR

Dekabrın 14-də Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova Polşanın paytaxtı Varşavada Avropa İttifaqı tərəfindən dəstəklənən, Şərq əməkdaşlığı çərçivəsində Polşa və Fransa ombudsmanlarının təşəbbüsü ilə işlənən layihənin müzakirələrində iştirak etmişdir.

Ombudsman Aparatından bildirmişlər ki, layihə çərçivəsində Azərbaycan, Gürcüstan, Ermənistan, Polşa, Ukrayna, Moldova ölkələri ombudsmanlarının insan hüquqları üzrə regional əhəmiyyət kəsb edən problemlərə dair 2009-2013-cü illərdə əməkdaşlığı nəzərdə tutulmuşdur.

Azərbaycan ombudsmanı çıxışında Şərq əməkdaşlığı çərçivəsində layihənin yalnız qarşılıqlı etibar mühitində uğurla reallaşacağını diqqətə çatdırmışdır.

Müvəkkil Azərbaycan Ombudsman təsisatının fəaliyyəti haqqında ətraflı məlumat vermişdir.

E.Süleymanova Ermənistanın Azərbaycana uzun müddət davam edən təcavüzünün torpaqlarımızın 20 faizinin işğal olunması və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti ilə üzləşən ölkə əhalisinin bir milyon nəfərinin qaçqına və məcburi köçkünə çevrildiyini, soydaşlarımızın insan hüquqlarının kütləvi şəkildə və kobudcasına pozulduğunu diqqətə çatdırmışdır. O, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı BMT-nin məlum qətnamələrini xatırlatmış, dünya ictimaiyyətinin, nüfuzlu beynəlxalq qurumların, o cümlədən Avropa İttifaqının birgə səyləri ilə bu münaqişənin nizama salınacağına, torpaqlarımızın işğaldan azad ediləcəyinə inandığını vurğulamışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN TEHRANA RƏSMİ SƏFƏRİ

14 dekabr tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov rəhbərlik etdiyi nümayəndə heyəti İran İslam Respublikasında rəsmi səfərdə olmuşdur. Səfər çərçivəsində nazir Elmar Məmmədyarov İran İslam Respublikasının xarici işlər naziri Mənuçehr Möttəki, İran İslam Respublikasının Təhlükəsizlik Şurasının sədri Səid Cəlili, İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad və İran İslam Respublikasının Parlamentinin sədri Əli Laricani ilə görüşlər keçirmişdir.

Dekabrın 14-də İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov iranlı həmkarı Mənuçehr Möttəki ilə görüşmüşdür.

Tərəflər Azərbaycan ilə İran arasında əməkdaşlığın yüksək səviyyədə olmasından məmnunluqlarını bildirmiş və dövlət başçıları arasında münasibətlərin bu prosesin daha sürətlə inkişaf etməsinə təkan verdiyini vurğulamışlar.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran bir sıra ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Görüşdən sonra keçirilmiş birgə mətbuat konfransında İranın xarici işlər naziri Mənuçehr Möttəki demişdir ki, İran Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına hər cür kömək etməyə hazırdır.

M.Möttəki bildirmişdir ki, görüşdə Azərbaycan-İran əməkdaşlığının bütün aspektləri, Şimal-Cənub dəhlizi ilə tranzit məsələsi müzakirə olunmuş, iqtisadi sahədə əməkdaşlığı genişləndirmək təklif edilmiş, Astara (Azərbaycan) - Astara (İran) dəmir yolunun inşasına dair fikir mübadiləsi aparılmışdır. Qərara alınmışdır ki, Azərbaycandan Fars körfəzinə və əks istiqamətdə daşınan malların həcmi artırılacaqdır.

Ölkələrimiz arasında sərhədyanı əlaqələrə toxunan iranlı nazir gediş-gəlişin asanlaşdırılmasının vacibliyini vurğulamışdır. Onun sözlərinə görə, İran ilə Azərbaycan hərtərəfli əməkdaşlıq edir və bu əlaqələr regionda böyük əhəmiyyətə malikdir.

M.Möttəki demişdir ki, görüşdə ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq məsələsi də müzakirə olunmuş, İranın Azərbaycan vasitəsilə MDB-nin enerji sisteminə qoşulacağı vurğulanmışdır.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov iranlı həmkarı ilə görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar sahələrdə əməkdaşlığa dair ətraflı fikir mübadiləsinin aparıldığını demişdir.

E.Məmmədyarov vurğulamışdır ki, İran regionun sabit ölkəsidir və bu sabitlik Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar üçün çox vacibdir. Bu münaqişə nə qədər tez həll olunsa, bölgə üçün o qədər yaxşı olar.

Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığa toxunan E.Məmmədyarov bildirmişdir ki, hazırda Azərbaycan ilə İranın neft-qaz şirkətləri arasında danışıqlar aparılır.

E.Məmmədyarov ölkələrimiz arasında mədəni sahədə əməkdaşlığın vacibliyindən danışaraq bildirmişdir ki, Tehranda və İranın digər şəhərlərində Azərbaycan Mədəniyyəti Günləri keçiriləcəkdir.

Dekabrın 14-də E.Məmmədyarov İran Prezidenti Mahmud Əhmədinejad ilə görüşmüşdür.

Görüşdə E.Məmmədyarov dövlətimizin başçısı İlham Əliyevin səmimi salamlarını Prezident Mahmud Əhmədinejada çatdırmış, ölkələrimiz arasında bütün sahələrdə sıx əməkdaşlıq əlaqələrinin olduğunu və bunun yüksələn xətlə inkişaf etdiyini vurğulamışdır.

Nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar prosesi barədə ətraflı məlumat vermiş, beynəlxalq müstəvidə Azərbaycanın mövqeyini dəstəklədiyinə görə İran tərəfinə minnətdarlığını bildirmişdir.

İran Prezidenti Mahmud Əhmədinejad Azərbaycan Prezidenti İlham Əliyevə salamlarını çatdırmağı xahiş etmişdir. Mahmud Əhmədinejad ölkələrimiz arasında əməkdaşlığın sıx və dərin tarixi köklərə söykəndiyini qeyd edərək, beynəlxalq təşkilatlar çərçivəsində İrana göstərdiyi dəstəyə görə Azərbaycana minnətdarlıq etmiş, bunun əsl qardaşlıq nümunəsi olduğunu vurğulamışdır.

İranın regionda sülhün bərqərar olmasına dəstək verməyə hazır olduğunu deyən Mahmud Əhmədinejad Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll edilməsini arzulamışdır.

E.Məmmədyarovun İranın Təhlükəsizlik üzrə Ali Şurasının baş katibi Səid Cəlili ilə

görüşündə Azərbaycan-İran əməkdaşlığının bütün sahələrinə dair fikir mübadiləsi aparılmışdır.

Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, ölkəmizin danışıqlarda tutduğu mövqe barədə məlumat vermişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini regionun təhlükəsizliyinə ciddi təsir edən amil kimi qiymətləndirən nazir, problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə həll edilməsinin regionun bütün dövlətlərinin marağında olduğunu vurğulamışdır.

S.Cəlili bu məsələnin sülh yolu ilə həllində ölkəsinin mümkün olan bütün dəstəyi verməyə hazır olduğunu demişdir.

Nazir E.Məmmədyarov səfər çərçivəsində İran İslam Şurası Məclisinin sədri Əli Laricani ilə də görüşmüşdür.

Görüşdə tərəflər parlamentlərarası dostluq qruplarının işindən razılıqlarını bildirmişlər. Nazir E.Məmmədyarov parlament diplomatiyasının dövlətlərarası münasibətlərin inkişafında mühüm rol oynadığını demiş və bu istiqamətdə fəallığın artırılmasına çağırmışdır.

Ə.Laricani Azərbaycan ilə İran arasında münasibətlərin yalnız parlamentlərarası dostluq qrupu səviyyəsində yox, müxtəlif komitələr səviyyəsində də inkişaf etdirilməsinin vacibliyini vurğulamışdır.

Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovun İrana dəvət olunduğunu qeyd edən Ə.Laricani vurğulamışdır ki, bu cür səfərlər parlamentlər arasında münasibətlərin daha da möhkəmlənməsinə zəmin yaradır.

Səfər çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə İran Milli Qaz İxrac Şirkəti arasında iki sənəd imzalanmışdır.

"Məxfilik haqqında Saziş"ə əsasən tərəflər sənəd imzalandığı tarixdən iki həftə ərzində Azərbaycanın İrana beş il ərzində təbii qazın satışına dair danışıqlara başlayacaqlar.

İkinci sənədə əsasən, 2010-cu ilin qış mövsümündə Azərbaycan İranın şimal bölgələrinə təbii qaz satacaqdır.

Hər iki sənədi Azərbaycan tərəfindən Dövlət Neft Şirkətinin vitse-prezidenti Elşad Nəsirov, İran tərəfindən isə Milli Qaz İxrac Şirkətinin baş meneceri S.Kasacizadeh imzalamışlar.

Bununla Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun İrana bir günlük səfəri başa çatmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KONQRESİNƏ MÜRACİƏTİ

Hörmətli həmkarlar,

Bu günlərdə ABŞ Konqresi tərəfindən 2010-cu maliyyə ili üçün Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə 8 milyon dollar maliyyə vəsaiti ayrılmasına dair qərar

qəbul edilməsi barədə aldığımız xəbər bizi son dərəcə narahat edir. Ölkəmizin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş bölgəsindəki qanunsuz rejimin simasında separatizmin dəstəklənməsi kimi qiymətləndirilə biləcək bu qərar Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında təşəkkül tapmış strateji tərəfdaşlıq münasibətlərinin ruhuna və məntiqinə ziddir.

Bildiyiniz kimi, ötən əsrin 90-cı illərinin əvvəllərində qonşu Ermənistan Respublikasının Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək niyyəti ilə başladığı işğalçılıq müharibəsi və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı daha yeddi rayon - Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonları işğal olunmuş, Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən 1 milyondan çox azərbaycanlı qovulub didərgin salınmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına gətirib çıxarmış işğalın nəticələrini təsbit etmək üçün zəbt olunmuş ərazidə dünyanın heç bir dövləti tərəfindən tanınmayan oyuncaq rejim qurulmuşdur. Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı yeddi rayon müxtəlif beynəlxalq terror təşkilatlarının fəaliyyət zonasına çevrilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məqsədi ilə 1994-cü ildə Minsk qrupunun həmsədrləri simasında münaqişənin nizama salınması mexanizmi təsbit edilmiş, Amerika Birləşmiş Ştatları, Fransa Respublikası və Rusiya Federasiyası Minsk qrupunun həmsədrləri təyin edilmişlər. Bir sıra beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT, Avropa Şurası müvafiq qətnamələri qəbul edərək işğalçılıq və etnik təmizləmə siyasətini pisləmiş, zəbt olunmuş Azərbaycan torpaqlarının qeyd-şərtsiz geri qaytarılmasını tələb etmişlər.

Təəssüf ki, mötəbər beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qətnamələrinin və qərarlarının həyata keçirilməsi indiyədək təmin edilməmiş, Minsk qrupunun fəaliyyəti ona bəslənən ümidləri doğrultmamışdır. Vəziyyətin bu cür qalmasının nə qədər təhlükəli olduğunu izah etməyə ehtiyac yoxdur.

Ermənistan dövlətinin sülh danışıqları prosesində tutduğu qeyri-konstruktiv mövqe, Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəməməsi, öz ərazisində xarici hərbi bazalar yerləşdirməsi, ordusunu ən müasir dağıdıcı hücum silahları ilə təmin etməsi, atəşkəs rejimini tez-tez pozması müharibə tonqalının yenidən alovlanması təhlükəsini daha da artırır.

Azərbaycan cəmiyyətində belə bir fikir kök salmışdır ki, Dağlıq Qarabağ probleminin həllinə mane olan ən böyük amil dünyanın nüfuzlu dövlətlərinin münaqişəyə ikili standartlarla yanaşması, təcavüzkarın öz adı ilə çağırılmaması və cəzasız qalması, işğalçı ilə işğalın qurbanının bərabər tutulmasıdır.

Məhz bütün bunlara görə, hörmətli həmkarlar, ABŞ Konqresinin separatçı rejimə maliyyə yardımı ayırmaq qərarını biz həyəcan və təşviş hissi ilə qarşılayırıq. Mahiyyətcə o qədər də böyük olmayan bu maliyyə vəsaitinin ayrılmasını humanitar yardım kimi deyil, separatçılığa, torpaqların işğalına verilən mənəvi dəstək kimi qiymətləndiririk. Əgər bunun sırf humanitar yardım olmasında təkid edilirsə, bu halda qarşıya belə bir məsələ çıxır: madam ki, Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasının ərazi

bütövlüyünü tanıyır, onun ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa ayrılan maliyyə vəsaiti də Azərbaycana ayrılan yardımın tərkibinə daxil edilməli idi. Belə halda həmin vəsaitin sonrakı təyinatı göstərilə bilərdi. Bu cür yanaşma sülh danışıqları prosesinə də müsbət təsir göstərərdi.

Ayrılan maliyyə vəsaitinin hansı məqsədlərə yönəldilə biləcəyi başqa bir məsələdir. Amma bütün hallarda bu dəstək ona dəlalət edir ki, Ermənistan rəhbərliyi arxayınlaşaraq, münaqişənin həllini bir qədər də uzatmağa səy göstərəcək, danışıqlar prosesinə əngəllər törətməkdə davam edəcəkdir.

Bir məqam da təəccüb və təəssüf doğurur. Obama administrasiyası tərəfindən təqdim edilən 2010-cu ilin büdcə layihəsində Dağlıq Qarabağa yardım göstərilməsi nəzərdə tutulmamışdı. Belə bir vəsait ABŞ Senatının qəbul etdiyi layihədə də yox idi. Həmin yardımla bağlı müddəalar ABŞ Nümayəndələr Palatasında fəaliyyət göstərən erməni lobbisinin səyləri nəticəsində qanun layihəsinin son variantına daxil edilmişdir. Bu isə onu sübut edir ki, müəyyən hallarda erməni lobbisi ABŞ-ın milli maraqlarına uyğun olmayan qərarları qəbul etdirmək iqtidarındadır. Doğrudur, bilirik ki, ABŞ Nümayəndələr Palatasında Azərbaycanın haqq işini dəstəkləyən konqresmenlər də vardır və biz onlara minnətdarıq.

Ümid edirik ki, bu yaxınlarda Nobel sülh mükafatı almış ABŞ Prezidenti Barak Obama özünün veto hüququndan istifadə edərək, Cənubi Qafqazda sülh və əmin-amanlıq yaradılması səylərinə mane ola biləcək 2010-cu ilin dövlət büdcəsi haqqında qanunun Dağlıq Qarabağa birbaşa yardım göstərilməsinə dair müddəalarının qüvvəsini dayandıracaqdır.

Bir daha qeyd etmək istəyirik ki, Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları strateji tərəfdaşdırlar. Bu tərəfdaşlığın hər iki tərəfə nə qədər fayda gətirdiyini ötən illər göstərmişdir. Əməkdaşlıq etdiyimiz sahələr beynəlxalq terrorizmə qarşı mübarizədən başlamış Avropanın və dünyanın enerji təhlükəsizliyinə qədər bir çox sahələri əhatə edir. Amerika Birləşmiş Ştatları ilə bərabərhüquqlu münasibətlərin inkişaf etdirilməsi Azərbaycan dövlətinin xarici siyasətinin üstün istiqamətlərindən biridir. Bu cür halların bir daha təkrarlanmaması arzumuzu ifadə edərək, əmin olduğumuzu bildiririk ki, daim rastlaşdığımız ikili standartların tətbiqi ikitərəfli münasibətlərimizə xələl gətirməyəcəkdir.

(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2009-cu il 15 dekabr tarixli iclasında qəbul edilmişdir).

AZƏRBAYCAN-KOREYA ƏLAQƏLƏRİ MÜXTƏLİF SAHƏLƏRDƏ UĞURLA İNKİŞAF EDİR

Dekabrın 15-də Milli Məclisin sədri Oqtay Əsədov Koreya Respublikası Milli Məclisinin Koreya-Azərbaycan dostluq qrupunun üzvləri ilə görüşmüşdür.

Sədr demişdir ki, belə səfərlər ölkələrimiz arasında əlaqələrin inkişafına töhfəsini verir. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı bir sıra mühüm sənədlər imzalanmış, Azərbaycan-Koreya və Koreya-Azərbaycan biznes forumları keçirilmişdir. Koreyanın bir neçə iri şirkəti Azərbaycanda bu gün uğurla fəaliyyət göstərir. Hyundai, Samsung,

LG şirkətlərini buna misal göstərmək olar. Ölkələrimiz arasında ticarət dövriyyəsi ildən-ilə artır. Bu, yaxın gələcəkdə iqtisadi əlaqələrimizin daha da inkişaf edəcəyinə əminlik yaradır. Ölkələrimiz arasında tranzit əlaqələri tarixi köklərə əsaslanır. Belə ki, Koreyadan başlayan qədim və böyük "İpək yolu" Azərbaycandan keçməklə Şərqlə Qərbi birləşdirir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan sədr diqqətə çatdırmışdır ki, Ermənistan qoşunlarının işğal olunmuş torpaqlardan qeyd-şərtsiz çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurasının və digər beynəlxaq qurumların qətnamə və qərarlarına bədnam qonşularımız məhəl qoymurlar.

Koreya-Azərbaycan dostluq qrupunun sədri, Koreya Milli Məclisinin deputatı Suh Byunq Soo bildirmişdir ki, 1990-cı illərin əvvəllərindən başlayan diplomatik əməkdaşlığımız genişlənməkdədir. Prezidentlərin və hökümət nümayəndələrinin qarşılıqlı səfərləri siyasi, iqtisadi və digər sahələrdə əlaqələrimizin uğurla inkişafına xidmət edir. Azərbaycanın və Koreyanın özəl şirkətləri arasında əlaqələrin inkişafı da məmnunluq doğurur.

Dostluq qruplarının Azərbaycan-Koreya əlaqələrinin, o cümlədən parlamentlərarası əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə əminlik ifadə olunmuşdur.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN ABŞ-A NOTA VERMİŞDİR

Dekabrın 17-də Azərbaycanın Birləşmiş Ştatlardakı səfiri Yaşar Əliyev ABŞ Konqresində Dağlıq Qarabağa 8 milyon dollar yardım ayrılmasını nəzərdə tutan qanun layihəsinin qəbulu ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin rəsmi notasını Dövlət Departamentinə təqdim etmişdir.

Diplomat bununla bağlı Azərbaycan tərəfinin dərin narahatlığını ifadə etmişdir.

Səfir Y.Əliyev vurğulamışdır ki, Azərbaycanın Dağlıq Qarabağ regionu ətraf rayonlarla birlikdə Ermənistanın işğalı altındadır. ABŞ hökumətinin Dağlıq Qarabağ və Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş digər ərazilərində rəsmi Bakı ilə məsləhətləşmədən istənilən proqram və fəaliyyət həyata keçirmək niyyəti Birləşmiş Ştatların Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suverenliyini və ərazi bütövlüyünü dəstəkləməsi barədə rəsmi bəyanatlarına ziddir.

Bununla bağlı Azərbaycan tərəfi ABŞ hökumətindən bu məsələ ilə əlaqədar açıqlama verməyi xahiş etmişdir.

Notada qeyd olunmuşdur ki, rəsmi Bakının razılığı olmadan bu proqramların həyata keçirilməsi ABŞ hökumətinin işğal altında olan Azərbaycan ərazilərində yaradılmış separatçı rejimə dəstəyi kimi qiymətləndiriləcək, işğalın davamına səbəb olacaq, münaqişənin nizamlanması istiqamətində səylərə mənfi təsir göstərəcək və ABŞ-ın ATƏT-in Minsk qrupunun həmsədri kimi ədalətli, tərəfsiz vasitəçi imicini sarsıdacaqdır.

ABŞ tərəfi notaya ən qısa müddətdə cavab verəcəyini bildirmişdir.

RUSİYANIN HƏŞTƏRXAN VİLAYƏTİ AZƏRBAYCAN İLƏ İQTİSADİ ƏLAQƏLƏRİN GENİŞLƏNDİRİLMƏSİNDƏ MARAQLIDIR

Dekabrın 18-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Həştərxan vilayətinin vitse-qubernatoru, vilayət hökumətinin sədri Konstantin Markelovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

A.Rasizadə Azərbaycan və Rusiya arasında qədim tarixi olan hərtərəfli əlaqələri diqqətə çatdıraraq demişdir ki, məqsədimiz bütün sahələrdə əməkdaşlığımızı genişləndirməkdir. Ticarət sahəsində Rusiyanın bölgələri ilə yaxşı əlaqələr qurulmuşdur. Həştərxan vilayəti nümayəndə heyətinin ölkəmizə səfəri əməkdaşlığımızın genişləndirilməsinə yeni təkan verəcəkdir. Biznes strukturları arasında əlaqələrin genişləndirilməsinə hərtərəfli imkan yaratmaq lazımdır.

Baş nazir dünyanı bürümüş iqtisadi və maliyyə böhranının Azərbaycana cüzi təsir etdiyini, milli valyuta olan manatın məzənnəsinin sabit qaldığını, ölkənin elektrik enerjisi ilə özünü tam təmin etməsini diqqətə çatdırmışdır. Aqrar sektorda qazanılmış nailiyyətlər, sosial sahədə görülən işlər barədə danışmış, son bir neçə ildə 1500-dən çox məktəb binasının inşasını qeyd etmişdir.

Qonaqları xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlandıran Baş nazir bildirmişdir ki, beynəlxalq qurumların səylərinə baxmayaraq, təcavüzkar Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından problem hələ də həllini tapmamışdır.

Həştərxan vilayətinin vitse-qubernatoru, vilayət hökumətinin sədri Konstantin Markelov səfər çərçivəsində keçirilən görüşlər barədə məlumat vermişdir. Azərbaycan və Həştərxan vilayəti arasında tarixi əlaqələr diqqətə çatdırılmış, hazırda iqtisadiyyat, o cümlədən biznes sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanmışdır.

Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxinin də iştirak etdiyi görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN HÖKUMƏTİ İLƏ DÜNYA BANKI ARASINDA YENİ KREDİT SAZİŞİ İMZALANMIŞDIR

Dekabrın 18-də Nəqliyyat Nazirliyində Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) arasında "Dəmir yolu ticarətinin və nəqliyyatının dəstəklənməsi" layihəsinin maliyyələşdirilməsi üzrə Kredit Sazişinin və BYİB ilə "Azərbaycan Dəmir Yolları" QSC arasında həmin layihə üzrə Layihə Sazişinin imzalanması mərasimi keçirilmişdir.

Mərasimi açan nəqliyyat naziri Ziya Məmmədov bildirmişdir ki, bu gün imzalanacaq sazişlər Azərbaycan dəmir yolunda aparılacaq yenidənqurma işləri ilə bağlıdır. Layihənin məqsədi Azərbaycanda dəmir yolu xidmətlərinin təkmilləşdirilməsi, habelə "Azərbaycan Dəmir Yolları" QSC-nin Şərq-Qərb dəhlizi boyu rəqabət qabiliyyətinin artırılması, əməliyyat və iqtisadi səmərəliliyinin təmin edilməsindən ibarətdir.

Layihənin həyata keçirilməsi nəticəsində Şərq-Qərb magistral xətti yenidən qurulacaq,

yeni lokomotivlər alınacaq və "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən göstərilən xidmətlərin keyfiyyəti müasir dünya tələbləri səviyyəsinə qaldırılacaqdır. Kredit məbləğinin ümumilikdə 450 milyon ABŞ dollarına bərabər olduğunu diqqətə çatdıran nazir qeyd etmişdir ki, bu məbləğ 4 komponent hissəyə bölünmüşdür. Ayrılacaq məbləğin ölkənin dəmir yolunun bütünlüklə yenidən qurulmasına kifayət etmədiyini deyən nazir əminliklə bildirmişdir ki, Prezident İlham Əliyevin Azərbaycanda yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində həyata keçirilən tapşırıq və göstərişləri bu sahənin də inkişafına mühüm təsir göstərəcəkdir.

Maliyyə naziri Samir Şərifov demişdir ki, bu gün imzalanan sazişlər Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi altında nəqliyyat-yol kompleksinin təkmilləşdirilməsi istiqamətində atılan növbəti addımdır. Dəmiryolçuları əlamətdar hadisə münasibətilə təbrik edən nazir əmin olduğunu bildirmişdir ki, həyata keçiriləcək layihə ölkə nəqliyyatının inkişafı üzrə proqramın reallaşmasına, daşımaların keyfiyyətinin yüksəldilməsinə mühüm təsir göstərəcəkdir. Qarşıdakı ildə nəqliyyat-yol kompleksinin inkişafına təqribən 1 milyard dollar vəsaitin ayrıldığını vurğulayan S.Şərifov, layihənin uğurla başa çatacağına əmin olduğunu bildirmişdir.

Mərasimdə çıxış edən Dünya Bankının Azərbaycan üzrə meneceri Qreqori Yedjeyçak bu gün icrasına başlanan layihənin həcminə görə təmsil etdiyi qurumun regionda ikinci, Azərbaycanda isə birinci ən böyük layihəsi olduğunu vurğulamışdır. Dünya Bankı ilə Azərbaycan hökuməti arasında faydalı əməkdaşlıq münasibətlərinin formalaşdığını deyən menecer qeyd etmişdir ki, layihənin əhəmiyyəti ayrılan maliyyə vəsaitində deyil, dəmir yolunun təkmilləşdirilməsi üçün nəzərdə tutulan proqramların reallaşdırılmasındadır. Layihənin xüsusiyyətlərindən danışan Q.Yedjeyçak onun kompleks xarakter daşıdığını, burada həm texnologiyanın, həm də idarəetmənin təkmilləşdirilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırmışdır. Azərbaycanın son illər iqtisadiyyatın şaxələndirilməsi istiqamətində uğurlu addımlar atdığını vurğulayan menecer, yeni layihənin bu işə böyük töhfə olduğunu qeyd etmişdir.

Sonra sənədlərin imzalanması mərasimi olmuşdur. Kredit sazişini Azərbaycan tərəfdən maliyyə naziri Samir Şərifov və Dünya Bankının Azərbaycan üzrə meneceri Qreqori Yedjeyçak imzalamışlar.

Layihə Sazişini isə nəqliyyat naziri Ziya Məmmədov və Qreqori Yedjeyçak imzalamışlar.

"BAKI İSLAM MƏDƏNİYYƏTİNİN PAYTAXTI-2009" MƏDƏNİYYƏT İLİNİN RƏSMİ BAĞLANIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR

Dekabrın 18-də Heydər Əliyev Sarayında "Bakı İslam mədəniyyətinin paytaxtı-2009" Mədəniyyət ilinin rəsmi bağlanış mərasimi keçirilmişdir.

Sarayın foyesində Mədəniyyət ili çərçivəsində keçirilmiş tədbirləri əks etdirən fotosərgi təşkil edilmişdir.

Tədbirdə Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev, Baş nazirin müavini Elçin Əfəndiyev, Milli Məclisin deputatları, nazirlər, dövlət komitələrinin rəhbərləri, tanınmış elm adamları, mədəniyyət xadimləri iştirak etmişlər.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev demişdir ki, İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin 2007-ci il noyabrın 21-23-də Liviyanın Tripoli şəhərində "İslam dünyasında mədəniyyət siyasətləri: keçmişə əsaslanaraq gələcəyin formalaşdırılması" mövzusunda keçirilmiş V konfransının qərarı ilə Bakı şəhəri 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilmişdir.

Nazir vurğulamışdır ki, bu ada namizəd şəhərin öz regionu və ölkəsi səviyyəsində zəngin tarixi olmalı, elmin, incəsənətin və ədəbiyyatın inkişafına xüsusi töhfə verməli, həm İslam mədəniyyətinə, həm də bütövlükdə dünya mədəniyyətinə xüsusi münasibətilə seçilməlidir. Bundan əlavə, İslam mədəniyyətinin paytaxtı seçilməyə namizəd şəhərin elmi mərkəzləri, əlyazma kitabxanaları, arxeoloji təhsil qurumları, həm fərdi, həm də kütləvi-mədəni tədbirlər təşkil edən təsisatları olmalıdır. Azərbaycanın paytaxtı Bakı öz qədimliyi və müasirliyi ilə bütün bu qayda və prinsiplərə cavab verdiyindən İslam mədəniyyətinin növbəti paytaxtı elan edilmişdir.

Mədəniyyət və turizm naziri demişdir ki, paytaxtımızın belə yüksək adı daşımasına Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın elmə, təhsilə, mədəniyyətə göstərdiyi qayğı və diqqət sayəsində nail olmuşuq.

"Bakı İslam mədəniyyətinin paytaxtı-2009" Mədəniyyət ilinin təntənəli açılış mərasimində Avropa və İslam ölkələrinin mədəniyyət nazirləri, onların müavinləri, İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri və digər şəxslər qatılmışlar. Mədəniyyət ili çərçivəsində ölkəmizdə ümumilikdə 500-dən çox tədbir keçirilmişdir. Bu tədbirlər sırasında Azərbaycana həsr olunmuş sənədli filmin nümayişi, "Qədim Bakı" kitabının təqdimatı, Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsertlər, Beynəlxalq Muğam Festivalı və digər tədbirlər mühüm yer tutur.

Cari ildə Azərbaycanda doqquz ölkənin mədəniyyət günlərinin təşkil edildiyini diqqətə çatdıran nazir vurğulamışdır ki, dünyanın bir çox ölkələrində Azərbaycan mədəniyyətinin, incəsənətinin təbliği ilə bağlı layihələr həyata keçirilmişdir. "Bakı İslam mədəniyyətinin paytaxtı-2009" internet saytının açılışı isə bu möhtəşəm tədbirlərin bütün dünyaya çatdırılmasına xidmət etmişdir. Hazırda Bakı şəhərinə "Dialoq paytaxtı" statusu verilməsi üzərində işləyirik.

Tədbirdə çıxış edən İSESKO-nun baş direktorunun mədəniyyət məsələləri üzrə müavini Hadi Azizzadeh demişdir ki, "Bakı İslam mədəniyyətinin paytaxtı-2009" Mədəniyyət ili çərçivəsində keçirilmiş silsilə tədbirlər Azərbaycanı bütün dünyada bir daha tanıtmışdır. Bu tədbirlər yüksək səviyyədə təşkil olunmuşdur və İSESKO bunu yüksək qiymətləndirir. Bu tədbirlərdə, demək olar, bütün İslam ölkələri yaxından iştirak etmişdir.

Bakıda İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransının əhəmiyyətindən danışan qonaq bildirmişdir ki, bu tədbir müsəlman ölkələri arasında mədəni əlaqələrin daha da genişləndirilməsinə, gələcək inkişafına xüsusi təkan verəcəkdir.

Azərbaycanda mədəniyyət ocaqlarının müasir üslubda yenidən qurulmasını xüsusi qeyd edən Hadi Azizzadeh demişdir ki, bütün bunlar Prezident İlham Əliyevin mədəniyyət sahəsinə göstərdiyi diqqətin göstəricisidir.

Tədbir geniş musiqi proqramı ilə davam etmişdir.

Gecədə "Bakı-2009" filmi nümayiş etdirilmişdir.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA "ENERJİ İXRACÇILARI: SİYASƏT, CƏMİYYƏT VƏ İQTİSADİYYAT" MÖVZUSUNDA SİMPOZİUM KEÇİRİLMİŞDİR

Dekabrın 14-də Azərbaycan Diplomatik Akademiyasında (ADA) doktorantların "Enerji ixracçıları: siyasət, cəmiyyət və iqtisadiyyat" mövzusunda 2-ci simpoziumu açılmışdır.

Tədbiri açan Azərbaycan xarici işlər nazirinin müavini, ADA-nın rektoru Hafiz Paşayev bildirmişdir ki, ikigünlük simpozium dünyanın elmi dairələrində Azərbaycan haqqında biliklərin səviyyəsini artırmaq, müxtəlif ölkələrin alimləri arasında əlaqələr yaratmaq, ölkəmizdə təhsil islahatlarını dəstəkləmək üçün əlaqələri möhkəmləndirmək məqsədi ilə keçirilir.

H.Paşayev vurğulamışdır ki, simpozium sosial elmlər, beynəlxalq münasibətlər, iqtisadiyyat, politologiya, ekologiya sahələrində tədqiqatlar aparan yerli və xarici alimləri bir araya gətirmişdir.

Sonra Con Hopkins Universitetinin professoru Frederik Starr, Hayfa Universitetinin və ADA-nın professoru Brenda Şaffer çıxış edərək bildirmişlər ki, hazırda ADA regionda elmi mediator və özünəməxsus beyin mərkəzi rolunu yerinə yetirir.

F.Starr demişdir: "Mən təkcə regionda deyil, bütün dünyada böyük əks-səda doğurmuş Diplomatik Akademiyanın fəaliyyətinə heyranam".

Alimlər, o cümlədən Avropanın və ABŞ-ın aparıcı universitetlərinin doktoranturalarında təhsil alanlar enerji resurslarını ixrac edən ölkələrin fərqli xüsusiyyətlərini müzakirə etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN "VESTİ" TELEVİZİYA KANALINA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Rusiyanın "Vesti" televiziya kanalına müsahibə vermişdir.

- Cənab Prezident, 2009-cu il başa çatmaq üzrədir. Bu il Azərbaycan üçün hansı əsas və mühüm hadisələrlə əlamətdar olmuşdur?

- 2009-cu il adi il olmamışdır. Qlobal maliyyə böhranının nəticələrini bütün ölkələr bu və ya digər dərəcədə öz üzərlərində hiss etmişlər. O cümlədən Azərbaycan da. Biz bu mürəkkəb vəziyyətdən minimum itki ilə çıxmağa nail olmuşuq. Bütövlükdə iqtisadiyyat dinamik inkişaf etmişdir. 2009-cu ildə iqtisadi artım 9 faizdən çox olmuşdur. Zənnimcə, maliyyə böhranı şəraitində bu, çox yaxşı göstəricidir. Sənaye istehsalı təqribən 9 faiz artmışdır. İnflyasiya 2 faizdən az olmuşdur. Əhalinin gəlirləri xeyli artmışdır. Bir sözlə, ilin əsas sosial-iqtisadi göstəriciləri sübut edir ki, Azərbaycan uğurlu inkişafını davam etdirmişdir.

Bizim bu cür ciddi artım nümayiş etdirməyimiz birinci il deyildir. 2004-2008-ci illərdə iqtisadiyyatın həcmi bütövlükdə 2,6 dəfə artmışdır. Biz əsas infrastruktur layihələrini həyata keçirməyə nail olmuşuq. Bütün sosial proqramlar yerinə yetirilmişdir. İqtisadiyyatımızın müəyyən dərəcədə enerji ehtiyatlarından asılı olmasına və bu il neftin qiymətinin xeyli aşağı düşməsinə baxmayaraq, biz bütün sosial proqramları həyata keçirmişik. Beləliklə, biz bu ili də yaxşı əhval-ruhiyyə ilə başa vururuq və gələcəyə nikbin baxırıq, çünki ölkəni tamamilə modernləşdirmək üçün hələ çox işlər görülməlidir.

- Onda bəs bu uğurların sirri nədədir? Neft həqiqətən ucuzlaşırdı.

- Bilirsiniz, mənim fikrimcə, uğurlarımızın sirri ondadır ki, biz iqtisadiyyatı kifayət qədər qısa müddətdə şaxələndirməyə və çox ciddi iqtisadi islahatlar aparmağa nail olmuşuq. Təsadüfi deyil ki, aparıcı beynəlxalq maliyyə təsisatları bu baxımdan uğurlarımızı qeyd edirlər. Ölkənin çox davamlı beynəlxalq reytinqi vardır, bütün reytinq agentlikləri uğurlarımızı çox yüksək qiymətləndirirlər. 2008-ci ildə Dünya Bankı biznes fəaliyyəti proqramında dünyada birinci yeri Azərbaycana vermişdir. Bu onu göstərir ki, biz iqtisadiyyatımızı əhəmiyyətli dərəcədə liberallaşdırmağa, özəl sektor üçün yaxşı şərait yaratmağa nail olmuşuq.

Kənd təsərrüfatında böyük uğurlar qazanılmışdır. Rekord miqdarda kənd təsərrüfatı məhsulları yığılmışdır. Bizim ixracla əlaqədar problemlərimiz də yoxdur. Bütün istiqamətlər bizim üçün açıqdır. Buna görə də düşünürəm ki, hətta böhran ilində də uğurla inkişaf etməyimizin əsas səbəbi bundadır.

- Hazırda neft-qaz sahəsinin inkişafından əlavə, daha hansı sahələr Sizin üçün prioritet sayılır və Siz iqtisadiyyatın şaxələndirilməsi dedikdə, hansı sahələrin inkişafını nəzərdə tutursunuz?

- Biz ilk növbədə təbii ehtiyatlarımıza və xammal ehtiyatlarına, eləcə də qonşu dövlətlərin bazarlarından istifadə imkanlarına əsaslanmışıq. Buna görə də kənd təsərrüfatı prioritet sahələrdən biridir. Bu il biz özümüzü, əslində, daxili istehsal hesabına əsas qida məhsulları ilə demək olar ki, tam təmin edirik. Əvvəllər heç vaxt belə olmamışdı.

Digər mühüm sahə informasiya-kommunikasiya texnologiyalarıdır. Biz bu sahədə çox irəliləmişik və iki ildən sonra ilk süni peykimizi buraxmağı planlaşdırırıq. Yəni kosmik sənaye yaradırıq və bu baxımdan da Azərbaycanın dünyada reytinqi durmadan artır.

İnfrastrukturla əlaqədar layihələr bizə çox güclü nəqliyyat bazası yaratmaq imkanı verir. Əlbəttə, coğrafi mövqeyimiz çox əlverişlidir, lakin nəqliyyata sanballı investisiyalar qoyulmasa, bunun əhəmiyyəti azdır. Buna görə də magistral yolların çəkilişi, dəmir yollarının təmir edilməsi, Xəzər donanmasının bazasının möhkəmləndirilməsi, tanker donanmasının yaradılması, aviadaşımalar - bütün bunlar tranzit üçün gözəl şərait yaratmışdır. Bu gün biz Asiyadan Avropaya və əks istiqamətdə daşınan böyük həcmdə yük üçün tranzit ölkəyə çevrilmişik və əlbəttə, gələcəkdə bu, iqtisadiyyatın daha çox şaxələndirilməsinə və daha çox qazanc əldə olunmasına kömək edəcəkdir.

- Qeyd etmək lazımdır ki, bütün Xəzəryanı dövlətlər arasında ən güclü tanker donanması Azərbaycandadır.

- Bəli, yeri gəlmişkən deməliyəm ki, son bir neçə ildə biz hər birinin yükgötürmə qabiliyyəti 13 min ton olan 8 tanker almışıq. Bunlar Xəzərdə hərəkət edə biləcək ən böyük

tankerlərdir. Bu da ölkələrimiz arasında əməkdaşlığın yaxşı cəhətlərindən biridir, çünki biz həmin tankerləri Rusiya müəssisələrindən alırıq. Hazırda malik olduğumuz tanker donanması Xəzərdə ən azı 20 milyon ton neft və neft məhsulları daşımağa imkan verir, bu isə yüklərin indiki həcmindən qat-qat artıqdır.

- Perspektivdə bu donanma hətta boru kəməri sisteminin alternativi ola bilər?

- Əlbəttə, ümumiyyətlə elədir. Ola bilər. Bu, təbiidir, hərçənd biz öz boru kəmərlərimizin hamısını çəkmişik. Azərbaycanın yeni boru kəmərləri tikməsinə ehtiyac yoxdur, çünki neftin nəql edilməsi üçün müxtəlif istiqamətlərdə üç boru kəməri vardır. Qazın nəql edilməsi bizi qonşu ölkələrlə birləşdirən dörd boru kəməri ilə həyata keçirilir. Buna görə də regionda boru kəmərləri siyasətinin gələcəyi, yəqin ki, buna daha çox ehtiyacı olan dövlətlər tərəfindən müəyyən ediləcəkdir.

Biz özü özünü təmin edən dövlətik, biz öz enerji potensialımızı tamamilə reallaşdırmışıq və mövcud boru kəmərləri bizim üçün kifayətdir.

- Belə çıxır ki, Siz gələcəkdə Nabukko kimi qlobal layihələri tranzit ölkə olaraq dəstəkləməklə kifayətlənməyi nəzərdə tutursunuz?

- Zərurət yaranarsa.

- Siz bu layihəni indi necə qiymətləndirirsiniz?

- Demək çətindir, bəyanatlar çoxdur. Bu və digər layihələr ətrafında siyasi spekulyasiyalar hədsiz dərəcədə çoxdur. Lakin fəaliyyət çox cüzidir. Təbii ki, biz təchizatın bundan sonra da şaxələndirilməsində maraqlıyıq. Çünki bu gün bizim qaz ixracımız regionla məhdudlaşır. Lakin bizim potensialın çox böyük olmasını, – Azərbaycanda qaz ehtiyatlarının təsdiq edilmiş minimal həcmi 2 trilyon kubmetr, real ehtiyatlar isə təqribən 5 trilyon kubmetrdir, - nəzərə alsaq, yeni satış bazarlarına çıxmaq imkanı hər bir ölkə üçün cəlbedici məqamdır.

- Siz burada Rusiya ilə münasibətləri inkişaf etdirmək imkanlarını nədə görürsünüz?

- Energetika sahəsində bizim münasibətlərin kifayət qədər böyük tarixi və yaxşı nəticələri vardır. Biz uzun illərdir ki, Bakı-Novorossiysk neft kəməri ilə nefti Rusiya ərazisindən keçməklə nəql edirik. Onu da deməliyəm ki, bu il daşımaların həcmi xeyli artmışdır. Biz bundan razıyıq və gələcəkdə də bu istiqamətdə daşımaların həcmini artırmaq üçün iş aparmaq fikrindəyik. Elektroenergetika sahəsində fəal əməkdaşlıq edirik. İndi Azərbaycan Rusiyadan idxal etdiyi elektrik enerjisindən xeyli çox elektrik enerjisini bu ölkəyə ixrac edir. Qaz sahəsində biz 2007-ci ilə qədər Rusiya qazının alıcısı idik. Çünki o vaxt bizim öz resurslarımız çatışmırdı. Gələn ilin əvvəlindən isə biz ixracatçıya çevriləcəyik.

Bunun da müəyyən rəmzi mənası vardır. Bu da dövlətlərimiz arasında münasibətlərin xarakterini əks etdirir. Bizə qaz lazım olanda onu Rusiyadan alırdıq. Qaz ixrac etmək imkanımız yarandıqda isə, Rusiya tərəfi ixrac üçün daha çox qaz sərbəstləşdirmək məqsədi ilə özünün cənub regionlarını təmin etməkdən ötrü bizim qazdan istifadə etməyi üstün tutmuşdur. Təbii ki, bu, qarşılıqlı faydalı layihədir və biz onu çox operativ surətdə həyata keçirdik. Artıq gələn ilin əvvəlindən malgöndərmələr başlanacaqdır. Biz layihədə bəyan edilmiş həcmlərlə kifayətlənmək fikrində deyilik. Çünki hər halda bu, birinci

ildir və həm Rusiya tərəfi, həm də biz bu məsələdə bir-birimizə uyğunlaşmalıyıq. Bu səbəbdən layihədə sifariş edilmiş həcmlər o qədər də çox deyildir. Lakin əgər qarşılıqlı razılaşma əldə edilsə, bizim real potensialımız əvvəl nəzərdə tutulan həcmi azı iki dəfə artırmağa imkan verəcəkdir. Əgər Rusiya tərəfi buna hazır olsa, biz həcmi artırmaq fikrindəyik. Yəqin ki, Rusiya tərəfi üçün Azərbaycan qazından istifadə etmək imkanı vacib olduğu kimi, bizim üçün də Rusiya bazarına çıxmaq vacibdir.

- Neft emalının inkişaf etdirilməsi üçün hansı imkanlar vardır? Axı hasilat, hər halda, həm də xammal asılılığıdır...

- Düzdür, bizim neft emalı zavodlarını tamamilə modernləşdirmək üçün əlbəttə, işləmək lazımdır. Bizim emal zavodlarının gücü kifayət qədərdir. Hazırda Azərbaycanda emal zavodlarının gücü təqribən 20 milyon ton təşkil edir. Amma biz 6 milyon tondan bir qədər çox neft emal edirik. Yəni biz nefti xam şəkildə nəql etməyi üstün tuturuq və bu il neft ixracının həcmi 40 milyon tondan çox olacaqdır. Gələn il isə yəqin ki, bu, 50 milyon tona yaxınlaşacaqdır. Yəni, bu sahədə çətinliklərimiz azdır, çünki biz nefti müxtəlif istiqamətlərə üç boru kəməri ilə nəql edirik. Neft emalı məhsullarının satılması isə daha mürəkkəbdir.

- 2010-cu ildən etibarən Rusiya, Qazaxıstan və Belarus arasında ticarətin xüsusi qaydalarına əsaslanan vahid gömrük ittifaqı fəaliyyətə başlayacaqdır. Azərbaycan belə bir zonanın yaradılmasında, bəlkə də, postsovet ölkələrinin inteqrasiyasının növbəti mərhələsi olacaq vahid iqtisadi məkanda bu cür layihədə iştirak etməkdə maraqlıdırmı?

- Bilirsinizmi, müxtəlif birliklərdə iştirak etmək məsələlərində biz həmişə məqsədəuyğunluq mövqeyindən çıxış edirik. Əlbəttə, indi üç ölkə arasında yaradılan ittifaqın təcrübəsi öyrənilməlidir. Bu günə qədər biz fövqəlmilli xarakter daşıyan orqanlarda iştirak etməmişik və ümumiyyətlə, iştirak etmək niyyətində deyilik. Hətta bizim MDB-də kifayət qədər səmərəli və fəal iştirakımız çərçivəsində də fövqəlmilli qurumlarda iştirak etmirik. Buna görə də həmin təcrübəni öyrənmək lazımdır və bundan sonra nəticə çıxarmaq olar.

Bizim ölkənin inkişafının bugünkü səviyyəsi ciddi birləşmə proseslərinə qoşulmadan da uğurla inkişaf etməyimizə imkan verir.

- Dağlıq Qarabağ münaqişəsi Azərbaycan üçün əvvəlki kimi ağrılı olan kəskin siyasi mövzudur. Xoşbəxtlikdən, bu il fəal müzakirələrlə əlamətdar olmuşdur. Sizinlə Ermənistan prezidenti arasında bir neçə görüş olmuşdur. Siz Ermənistanla mövqeləri yaxınlaşdıra bilmisinizmi?

- Bəzi məsələlərdə mövqelər yaxınlaşır, digərlərində yox. Buna görə də mən bu ili münaqişənin tənzimlənməsi baxımından müsbət səciyyələndirərdim. Lakin o, daha müsbət ola bilərdi. Ona görə ki, hələ 2008-ci ildə Ermənistan və Azərbaycan prezidentləri arasında danışıqlar aparılmış və münaqişənin tənzimlənməsi haqqında birgə bəyannamə, o cümlədən Rusiya Federasiyası tərəfindən də imzalanmışdır. Həmin sənəddə dəqiq müəyyən edilmişdir ki, münaqişə beynəlxalq hüququn prinsipləri və normaları, beynəlxalq təşkilatların qərarları və qətnamələri əsasında tənzimlənməlidir. Bunlar hansı qərar və qətnamələrdir? Təbii ki, Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazisindən dərhal çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi-

dir. Artıq iyirmi ilə yaxındır ki, bu qətnamələr yerinə yetirilmir. Yəni əsas məsələ budur - Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğaldan azad olunması, köçkünlərin və qaçqınların öz torpaqlarına qayıtması üçün imkan yaradılması. Təəssüf ki, 2009-cu ilə bəslənilən ümidlər bizim güman etdiyimiz dərəcədə doğrulmadı.

Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin birgə bəyanatı, ümumiyyətlə, əlamətdar hadisə idi. 1994-cü ildə atəşkəs haqqında saziş imzalanandan sonra bu, ilk birgə sənəd idi. Yəni 2009-cu ildə məsələni həll edəcəyimizə, heç olmasa, baza prinsiplərini razılaşdıracağımıza ümid var idi. Lakin bu ümidlər doğrulmadı. Özü də bizim günahımız üzündən yox. Buna görə də 2010-cu il üçün müəyyən nikbinlik vardır. Bu onunla bağlıdır ki, Qarabağ münaqişəsinin tənzimlənməsi mövzusu beynəlxalq gündəliyin əsas mövzularından birinə çevrilmişdir. Ola bilsin ki, əvvəllər bunu tam anlamayanların çoxuna aydın oldu ki, Ermənistan-Azərbaycan münaqişəsi tənzimlənmədən digər regional problemlərin heç birini həll etmək mümkün olmayacaqdır. Yəni, bu, əsas səbəbdir. Bu səbəb aradan qaldırılmadan regionda əlverişli əməkdaşlıq şəraiti yaradılması, təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi mümkün deyildir. Bu münaqişəni tənzimləmək üçün isə sadəcə olaraq Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməli, işğalçı qüvvələrini Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş ərazilərdən çıxarmalıdır. Bundan sonra regionda sülh və əməkdaşlıq bərqərar ola bilər.

Ümidvarıq ki, 2010-cu ildə əsas mövqeləri razılaşdıra biləcəyik. Lakin biz danışıqların permanent prosesə çevrilməsinin qəti əleyhinəyik. Danışıqlar 1992-ci ildən - ATƏT-in Minsk qrupu yaradılan vaxtdan aparılır. 1994-cü ildə atəşkəs haqqında saziş bağlanmışdır. On beş il keçmişdir, irəliləyiş var, lakin nəticə yoxdur. Buna görə də biz bu münaqişənin, sözün tam mənasında, dondurulmuş prosesə çevrilməsinə yol verə bilmərik. Onilliklər boyu davam edən başqa münaqişələrin taleyi təkrarlanmamalıdır. Biz buna heç vaxt razı olmayacağıq. Buna görə də hesab edirəm ki, əgər Ermənistan tərəfindən konstruktivizm və ən başlıcası, sağlam düşüncə nümayiş etdirilsə, gələn il biz irəliləyə bilərik.

- Söhbətimizi dinc və nikbin bir mövzu ilə bitirməyi təklif edirəm. Bilirəm ki, güləşin bütün növləri, şahmat Azərbaycanda idmanın ən populyar növləridir. Rusiyada olduğu kimi, Sizdə də futbolu sevirlər. Hərçənd, onu da demək lazımdır ki, bu növdə heç də həmişə parlaq nəticələr göstərmirlər. Ölkədə sağlam həyat tərzi və idman fəal təbliğ edilir. Bunu demək kifayətdir ki, sizdə respublikanın 60 rayonuna artıq yeni tikilmiş 30 olimpiya mərkəzi düşür. Siz Vankuver Qış Olimpiadasına nə ilə gedəcəksiniz və idmanın təbliğini necə dəstəkləyirsiniz?

- Biz Qış Oyunlarına gedirik, lakin bu, daha çox "əsas məsələ - iştirak etməkdir" prinsipi üzrə olur.

- Yəqin ki, bu, dağ xizək idmanı olmayacaqdır?

- Elədir, lakin bu yaxınlarda biz Bakıdan iki yüz kilometr məsafədə iri beynəlxalq dağ xizək kurortunun tikintisinə başlamışıq. Şaquli kanat yollarının, mehmanxanaların tikintisi başlanmışdır. Ona görə də, mənim fikrimcə, bir ildən, il yarımdan sonra Azərbaycanda dağ xizək idmanı ilə məşğul olmaq və idmanın bu növünü inkişaf etdirmək mümkün olacaqdır. Lakin bizim əsas ümidlərimiz, əlbəttə, yay oyunları ilə bağlıdır. Son Olimpiya oyunlarında biz yaxşı çıxış etdik, yeddi medal qazandıq. 2009-cu ildə də bir neçə idmançımız dünya və Avropa çempionu olmuşdur. Bizim şahmatçılardan ibarət

komandamız Avropa çempionatında birinci yeri tutmuşdur. Bu, ciddi nailiyyətdir, xüsusən ona görə ki, bizim şahmatçıların hamısı gənclərdir. Mən onlarla görüşəndə demişdim ki, siz hamınız müstəqillik şəraitində formalaşmısınız. Onların hərəsinin təxminən 20-22 yaşı vardır. Güləşdə, əlbəttə çox böyük nailiyyətlər qazanmışıq. Güləş üzrə dünya çempionatında komanda hesabında birinci yeri tutmuşuq. Bu, çox ciddi nailiyyətdir. Rusiyada, region ölkələrində, digər ölkələrdə də güclü güləşçilər çoxdur.

İdman sağlam həyat tərzinin təbliği vasitəsi kimi, insanın sağlamlığının şərti kimi Azərbaycanda bizim həyatımızın mühüm amilidir. Siz olimpiya komplekslərini qeyd etdiniz. Bu, heç də təsadüfi deyildir. Biz bu prosesə kifayət qədər çoxdan başlamışdıq və bu gün həmin komplekslər regionlarda idmanın inkişafı üçün bazalara çevrilmişdir. Mən özüm də imkan daxilində onu təbliğ etməyə çalışıram.

- Cənab Prezident özü şəxsi nümunə göstərməklə Azərbaycan idmanını dəstəkləməyi planlaşdırmır ki?

- Bacardığım qədər dəstəkləyirəm. Mən 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentiyəm. Mən öz münasibətimlə, eləcə də sağlam həyat tərzi nümayiş etdirməklə çalışıram...

- Yəni Prezidenti xizək sürəndə, krossda görmək olar?

- Prinsip etibarilə əlbəttə, olar. Lakin mən bunu, kameraların qarşısında etmirəm.

- Müsahibəyə görə Sizə təşəkkür edirəm. Azərbaycana və şəxsən Sizə uğurlar arzulayıram.

- Sağ olun. Suallarınıza görə də sağ olun. Sizin suallarınız mənə ölkəmiz haqqında, görülmüş işlərin əsas istiqamətləri haqqında, nə etməyi planlaşdırdığımız barədə danışmağa imkan verdi. Mən bu fürsətdən istifadə edərək, Rusiyanın bütün vətəndaşlarına yeni ildə sülh, firavanlıq və əmin-amanlıq arzulamaq istəyirəm. Əminəm ki, ölkələrimiz arasında münasibətlər 2010-cu ildə və sonrakı illərdə ölkələrimizin və xalqlarımızın rifahı naminə uğurla inkişaf edəcəkdir.

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Gürcüstan Prezidenti Mixail Saakaşviliyə telefonla zəng etmişdir.

Prezident İlham Əliyev Mixail Saakaşvilini doğum günü münasibətilə təbrik etmiş, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.

Mixail Saakaşvili göstərilən diqqətə və təbrikə görə dövlətimizin başçısına minnətdarlığını bildirmişdir.

AZƏRBAYCAN İLƏ TÜRKİYƏ ARASINDA DÖVLƏT QULLUĞU SAHƏSİNDƏ "2010-2011-Cİ İLLƏR ÜÇÜN FƏALİYYƏT PROQRAMI" İMZALANMIŞDIR

Dekabrın 21-də Bakıda Azərbaycan ilə Türkiyə arasında dövlət qulluğu sahəsində "2010-2011-ci illər üçün Fəaliyyət Proqramı" imzalanmışdır.

Sənədi Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri Bəhram Xəlilov və Türkiyə Respublikasının Dövlət Kadrlar İdarəsinin rəhbəri Məhmət Təkinarslan imzalamışlar.

Bildirilmişdir ki, Fəaliyyət Proqramında qarşılıqlı səfərlərin təşkili, təlim kurslarının, seminarların keçirilməsi, informasiya mübadiləsi və dövlət qulluğu sahəsində qarşılıqlı maraqlara uyğun olan digər məsələlər əksini tapmışdır.

AZƏRTAC BEYNƏLXALQ ƏLAQƏLƏRİNİ GENİŞLƏNDİRİR NÖVBƏTİ TƏRƏFDAŞ KOREYA RESPUBLİKASININ YONHAP AGENTLİYİDİR

Dekabrın 21-də Beynəlxalq əlaqələrini genişləndirən Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) ilə Koreya Respublikasının Yonhap Agentliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır.

İndiyədək Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatı (OANA) çərçivəsində əməkdaşlıq edən AzərTAc və Yonhap bundan belə birbaşa əlaqə saxlayacaq, informasiya və təcrübə mübadiləsi aparacaqlar. Bundan əlavə, tərəflər arasında multimedia sahəsində, video-xəbər xidməti ilə bağlı əməkdaşlığın genişləndirilməsi də nəzərdə tutulur.

Sənədə əsasən, tərəflər öz ölkələrində baş verən mühüm hadisələrin qarşılıqlı surətdə işıqlandırılmasında bir-birinə kömək göstərəcək, müntəzəm xəbər mübadiləsi edəcəklər.

Azərbaycan həqiqətlərinin dünya informasiya məkanında daha geniş yayılmasını təmin etmək üçün Avropanın və Asiyanın müxtəlif ölkələrinin aparıcı xəbər agentlikləri ilə birbaşa əlaqələrin qurulması və bu əməkdaşlığın daha da genişləndirilməsi AzərTAc-ın fəaliyyətinin əsas istiqamətlərindən biridir. Dünyanın ən nüfuzlu agentliklərindən olan Yonhap ilə imzalanmış Memorandum da bu baxımdan faydalı olacaqdır. Yonhap da, AzərTAc da xarici tərəfdaşları ilə informasiya mübadiləsinə xüsusi əhəmiyyət verir. Hər iki agentliyin Vaşinqtonda, Parisdə, Moskvada, Vyanada, Berlində, Ankarada və bir sıra digər şəhərlərdə müxbir məntəqələri fəaliyyət göstərir.

BAKIDA AZƏRBAYCAN-RUSİYA PARLAMENTLƏRARASI KOMİSSİYANIN 8-Cİ İCLASI KEÇİRİLMİŞDİR

Dekabrın 22-də Bakıda Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisinin əməkdaşlıq üzrə ikitərəfli parlamentlərarası komissiyasının 8-ci iclası keçirilmişdir.

Milli Məclis sədrinin müavini, komissiyanın Azərbaycan tərəfindən həmsədri Valeh Ələsgərov bildirmişdir ki, iclasda ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafı və möhkəmləndirilməsi məsələləri müzakirə olunacaqdır.

V.Ələsgərov əvvəlki iclaslar kimi, 8-ci iclasın da səmərəli olacağına əminliyini ifadə etmiş və demişdir ki, bu tədbir ölkələrimiz arasında əlaqələrin inkişafına xidmət edəcəkdir.

Rusiya Federasiyası Federal Məclisi sədrinin müavini, komissiyanın həmsədri Svetlana Orlova demişdir ki, bu cür tədbirlər ölkələrimizin əlaqələrinin genişləndirilməsi baxımından olduqca vacibdir. Bu günə qədər keçirilmiş toplantılarımızda, eləcə də hökumətlərarası komissiyanın iclaslarında ölkələrimiz arasında mövcud olan bir sıra problemlər aradan qaldırılmış, lakin bəzi məsələlər hələ də həll olunmamışdır. Rusiya Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdardır. Rusiya Prezidenti Dmitri Medvedev bu məsələdə səylərini əsirgəmir.

S.Orlova Rusiyada Azərbaycana böyük rəğbət bəslədiyini, xalqımızın ümummilli lideri Heydər Əliyevin fəxrlə xatırlandığını bildirmişdir. O qeyd etmişdir ki, Rusiya ilə Azərbaycan arasında əlaqələrin daha da genişləndirilməsi üçün hər iki ölkənin müxtəlif regionları arasında münasibətlərin qurulması olduqca vacibdir.

Rusiya nümayəndə heyətinin rəhbəri hər iki ölkənin gənclər təşkilatları arasında qarşılıqlı səfərlərin, görüşlərin intensivləşdirilməsinin vacibliyini vurğulamışdır.

Sonra iclasın gündəliyi təsdiqlənmiş, komissiyanın tərkibində dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov Rusiya ilə Azərbaycan arasında ticarət-iqtisadi əməkdaşlığın perspektivləri və qanunvericilik bazasının vəziyyəti barədə məruzə ilə çıxış etmişdir.

Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatlar nəticəsində Azərbaycanın sürətlə inkişaf etdiyini vurğulayan Niyazi Səfərov demişdir ki, 9 ayda ölkəmizdə ümumi daxili məsul istehsalı 9 faiz artmışdır. Sənaye istehsalında 8 faiz, kənd təsərrüfatında isə 3 faizə qədər artım müşahidə olunmuşdur.

Sənaye istehsalının və xidmətlərin 85 faizi özəl sektorun payına düşmüşdür. Nazir müavini bildirmişdir ki, ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlıq uğurla inkişaf edir. Bu sahədə əlaqələrimizin daha da möhkəmləndirilməsi və inkişafına dair 100-dən çox sənəd imzalanmışdır. Bunlardan da ən vacibi uzunmüddətli əməkdaşlığa dair proqramdır. Bu proqram da uğurla icra olunur.

Niyazi Səfərov bildirmişdir ki, bu gün Azərbaycanda Rusiya kapitalı ilə işləyən 334 müəssisə fəaliyyət göstərir. Ticarət dövriyyəmiz son 11 ayda 1,5 milyard dollar təşkil etmişdir. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə az olsa da, həmin sahədə dinamika müsbətdir. İnamla deyə bilərik ki, gələcəkdə bu rəqəm daha da artacaqdır.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur. Çıxışlarda Rusiya və Azərbaycanın milli qanunvericilik və normativ hüquqi bazalarının dünya təcrübəsi normalarına uyğun təkmilləşdirilməsi və səmərəliliyinin artırılması sahəsində komissiyanın fəaliyyətinin davam etdirilməsinin vacibliyi vurğulanmışdır.

İclasda, həmçinin Moskvada keçirilmiş 7-ci iclasın qərarlarının yerinə yetirilməsi barədə məlumat dinlənilmiş, Azərbaycan ilə Rusiya arasında ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlığın qanunvericilik baxımından təmin edilməsinin perspektivləri nəzərdən keçirilmişdir.

İclasın sonunda ikitərəfli parlamentlərarası komissiyanın 8-ci iclasının protokolu imzalanmışdır.

Sonda iclasın yekunlarına dair Rusiya Federasiyası Federal Məclisi sədrinin müavini,

komissiyanın həmsədri Svetlana Orlova və Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə

işçi qrupunun rəhbəri Arif Rəhimzadənin iştirakı ilə iclasın yekunlarına dair brifinq keçirilmişdir.

Bildirilmişdir ki, iclasda komissiyanın miqrasiya problemləri ilə məşğul olacaq işçi qrupunun yaradılması və komissiyanın həmsədrlərinin hökumətlərarası komissiyanın iclaslarında iştirakı barədə qərarlar qəbul olunmuşdur.

Komissiyanın növbəti 9-cu iclası Rusiyanın regionlarının birində keçirilməsi qərara alınmışdır.

Bununla da ikitərəfli parlamentlərarası komissiyanın iclası başa çatmışdır.

PARLAMENTLƏR SƏVİYYƏSİNDƏ MÜNASİBƏTLƏRİMİZİN DAHA DA DƏRİNLƏŞMƏSİ HƏR İKİ XALQIN MƏNAFEYİNƏ XİDMƏT EDİR

Dekabrın 22-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov Rusiya Federasiyası Federal Məclisinin sədr müavini, ikitərəfli parlamentlərarası komissiyanın həmsədri Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

O.Əsədov bu səfərin və parlamentlərarası komissiyanın Bakıda keçirilmiş 8-ci iclasının əlaqələrimizin inkişafına müsbət təsir göstərəcəyinə inamını ifadə etmişdir. Bildirilmişdir ki, Azərbaycan ilə Rusiya strateji tərəfdaşdırlar. Heç də təsadüfi deyildir ki, Azərbaycanın ticarət dövriyyəsində Rusiya birinci yerdə durur.

Mili Məclisin sədri münasibətlərimizin yüksək səviyyəyə çatmasında dövlətlərimizin başçılarının rolunu xüsusi qeyd etmişdir. O, belə bir fikri vurğulamışdır ki, bu gün keçmiş İttifaq məkanında elə bir ölkə tapmaq mümkün deyildir ki, rus dilinə və mədəniyyətinə münasibət Azərbaycandakı səviyyədə olsun. Müstəqil Azərbaycanda rusdilli məktəblər, ali təhsil müəssisələrində fakültələr fəaliyyət göstərir, qəzet və jurnallar dərc olunur. Azərbaycan ilə Rusiya arasında heç bir problemli məsələ yoxdur. Qarşıya çıxan bir sıra məsələlər isə danışıqlar yolu ilə öz müsbət həllini tapır.

Milli Məclisin sədri sürətlə inkişaf edən Azərbaycanın Dağlıq Qarabağ kimi problemi olduğunu diqqətə çatdırmışdır. Münaqişənin həlli ilə məşğul olan Minsk qrupunun həmsədri kimi, Rusiyanın bu sahədə son dövrdə atdığı addımları yüksək dəyərləndirmiş və ümidvar olduğunu bildirmişdir ki, problem tezliklə beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllini tapacaqdır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Svetlana Orlova həmsədri olduğu komissiyanın Bakıda keçirilmiş 8-ci iclasının yekunlarından razı qaldığını dilə gətirmişdir. Qeyd edilmişdir ki, indiyədək komissiya çərçivəsində hər iki tərəfi maraqlandıran bir çox iqtisadi və hüquqi məsələlər müzakirə olunmuş, bu sahələr üzrə əməli addımlar atılaraq müvafiq qərarlar qəbul edilmişdir.

Federal Məclisin sədr müavini Azərbaycan və Rusiya prezidentlərinin yüksək səviyyəli münasibətlərinin dövlətlərarası əlaqələrə də öz müsbət təsirini göstərdiyini bir daha vurğulamışdır. Qonaq bildirmişdir ki, həmsədri olduğu komissiyada aparılan müzakirə-

lər və Bakıda keçirdiyi görüşlər belə bir fikri söyləməyə əsas verir ki, parlamentlər səviyyəsində münasibətlərimizin daha da dərinləşməsi hər iki xalqın mənafeyinə xidmət edir.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN VƏ KOREYA ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏ İMZALANMIŞDIR

Dekabrın 22-də Azərbaycan Dillər Universitetində (ADU) bu ali məktəb ilə Koreya Respublikasının Soongsil Universiteti arasında akademik və təhsil əməkdaşlığı haqqında müqavilə imzalanmışdır.

Beş il müddətinə qarşılıqlı əməkdaşlığın əsas prinsiplərini özündə əks etdirən müqaviləyə əsasən, fakültələrarası mübadilə, elmi tədqiqatlar və inzibati səviyyədə əlaqələrin qurulması, tələbə mübadiləsi, qarşılıqlı dərəcə (bakalavr və magistr) proqramları, həmçinin birgə elmi simpozium və müzakirələrin təşkili nəzərdə tutulur.

Müqaviləni ADU–nun rektoru, professor Səməd Seyidov və Koreyanın Soongsil Universitetinin rektoru, professor Dae Keun Kim imzalamışlar.

Bu əməkdaşlıq çərçivəsində Soongsil Universitetinin tələbəsi Chung Eun Ah 2010-cu ilin yaz semestrində təhsilini ADU-nun fransız dili fakültəsində davam etdirəcəkdir.

Eyni zamanda, imzalanmış müqaviləyə uyğun olaraq növbəti tədris ilində ADU-nun iki tələbəsinin adıçəkilən universitetdə təhsilini davam etdirmək məqsədi ilə Koreya Respublikasına göndərilməsi nəzərdə tutulur.

ADU-da Koreya dili xeyli müddətdir ki, tədris olunur və burada Koreya Dili Mərkəzi fəaliyyət göstərir.

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN AVROPA PARLAMENTİNƏ MÜRACİƏTİ

Hörmətli həmkarlar,

Avropa Parlamentinin bu il dekabrın 17-də Azərbaycana dair qəbul etdiyi qətnamə ölkəmizdə təəssüf və narahatlıq hissləri doğurmuşdur.

Azərbaycan Respublikası ölkəmizdə ümumbəşəri dəyərlərin bərqərar edilməsi işində nüfuzlu beynəlxalq təşkilatlar ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Avropa İttifaqı, o cümlədən Avropa Parlamenti ilə əlaqələrin inkişaf etdirilməsi dövlətimizin xarici siyasətinin üstün istiqamətlərindən biridir. Azərbaycan ilə Avropa İttifaqı arasında 1996-cı ildə imzalanmış və 1999-cu ildə qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ölkəmizin bu nüfuzlu qurumla münasibətlərinin hüquqi bazasını təşkil etmişdir. 2004-cü ildə Azərbaycanın Avropa İttifaqı tərəfindən "Avropa qonşuluq siyasəti"nə daxil edilməsi qarşılıqlı iqtisadi inteqrasiyanın və siyasi əməkdaşlığın daha da genişlənməsinə təkan vermişdir. Qonşuluq siyasəti çərçivəsində ikitərəfli fəaliyyət planı imzalanmış və Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın əsas istiqamətləri mü-

əyyənləşdirilmişdir. 2009-cu ilin may ayından Azərbaycan Avropa İttifaqı ilə "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində də əməkdaşlıq etməyə başlamışdır.

y Biz Avropa İttifaqı ilə əməkdaşlığın parlament ölçüsünə də xüsusi əhəmiyyət veririk. Hesab edirik ki, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsi Avropa Parlamenti ilə əlaqələrin intensivləşdirilməsi üçün yaxşı imkanlar yaradır.

Hazırda Milli Məclis Avropa İttifaqının Tvininq layihəsini həyata keçirməkdədir. Layihənin ümumi məqsədləri Azərbaycan Respublikasında demokratiyanın və qanunun aliliyinin möhkəmlənməsinə töhfə vermək, xüsusən qanunvericiliyin Avropa İttifaqı qanunvericiliyinə yaxınlaşdırılmasına kömək göstərməkdir.

Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün səylərini artırır, bu məqsədlə mövcud layihələrdə fəal iştirak edir, gələcəkdə yarana biləcək layihələrdə isə iştirakını təmin etməyə çalışır. Qeyd etmək yerinə düşər ki, 2006-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır.

Ötən əsrin sonlarına yaxın dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikası demokratiyaya doğru uzun və çətin bir yol keçməkdədir. Təqribən 16 il bundan əvvəl vətəndaş müharibəsi təhlükəsinin, daxili çəkişmələrin ölkəni məhv olmaq həddinə gətirdiyi Azərbaycan bu gün iqtisadi tərəqqi, demokratik inkişaf sahəsində qazandığı uğurları ilə dünyanın diqqətini özünə cəlb edən bir dövlətdir. Qeyd etmək maraqlıdır ki, 1993-cü ildən bəri ölkədə ümumi daxili məhsul 4,7 dəfə artmışdır. Son 6 ildə Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələri sırasındadır. 2008-ci ilin yekunlarına görə Azərbaycan Dünya Bankının "Doing business" proqramında bir nömrəli islahatçı ölkə kimi tanınmış, Dünya İqtisadi Forumunun reytinqində rəqabət qabiliyyətinə görə dünyanın 133 ölkəsi arasında 51-ci, MDB məkanında isə 1-ci olmuşdur.

Demokratik, hüquqi dövlət quruculuğu, qanunun aliliyinin təmin edilməsi, insan hüquqlarının və azadlıqlarının, o cümlədən ifadə və informasiya azadlığının möhkəmləndirilməsi üçün müntəzəm genişmiqyaslı işlər həyata keçirilir. Bu sahədə vəziyyəti təsəvvür etmək üçün bircə faktı qeyd etmək kifayətdir ki, bu gün 9 milyona qədər əhalisi olan bir ölkədə 4113 mətbu nəşr, 35 televiziya kanalı, 11 radio, 56 informasiya agentliyi fəaliyyət göstərir.

İnsan hüquqlarının bütün kompleksinin təmin edilməsi, xüsusən Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində yerindən-yurdundan olmuş 1 milyona qədər qaçqın və məcburi köçkün vətəndaşlarımızın hüquq və azadlıqlarının qorunması üçün lazımi tədbirlər görülür, əhalinin aztəminatlı hissəsinin qayğısına qalınır. Son 8 ildə yoxsulluq səviyyəsi 3,7 dəfə azalaraq, 2001-ci ildəki 49 faizdən 13,2 faizə düşmüşdür. Gender bərabərliyinin təmin edilməsi, qadınların cəmiyyətdə özünəməxsus yer tutması, milli azlıqların hüquqlarının qorunması, uşaqların hüquqlarının müdafiəsi, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün zəruri işlər həyata keçirilir.

Lakin biz yaxşı başa düşürük ki, əldə etdiyimiz nailiyyətlər ilə yanaşı, görüləsi işlər hələ çoxdur. Axı demokratiyanın imkanları tükənməzdir, demokratik dəyərlər sistemi hər gün daha da zənginləşir, zaman yeni-yeni problemləri qarşıya çıxarır. Bunların öhdəsindən gəlmək üçün yeni demokratik formaların işlənib hazırlanması tələb olunur. Bu sa-

hədə beynəlxalq təşkilatların göstərə biləcəyi köməyin əhəmiyyəti çox böyükdür. Amma bu məsələdə ən az lazım olan bir şey varsa, o da qeyri-obyektivlik və qərəzdir. Baş verən ayrı-ayrı halları ümumiləşdirərək, Azərbaycanda həyata keçirilən demokratik prosesləri gözdən salmağa, xüsusi məsələləri ümumi inkişaf meyli kimi təqdim etməyə cəhd göstərilməsi Avropa Parlamenti qətnaməsinin layihəsini hazırlayan şəxslərin məsələlərə birtərəfli yanaşdıqlarını və qərəz güddüklərini nümayiş etdirir.

Azərbaycan Respublikası demokratiyanın şəksiz üstünlüklərini gerçəkləşdirərək, insan hüquqlarına və azadlıqlarına hörmətə əsaslanan demokratik, hüquqi dövlət quruculuğu yolunu şüurlu surətdə və qəti olaraq seçmişdir. Bu yolda qarşıya çıxan çətinliklər bizi qorxutmur. Biz bilirik ki, Avropa demokratiyaları da müxtəlif problemləri dəf edə-edə bu səviyyəyə gəlib çıxmışlar. Müasir dünyanın bir hissəsi olmaq istəyən hər bir dövlət bu yolu keçməlidir.

Məhz buna görə də biz Avropa Parlamentinin qətnaməsini demokratik dövlət olan Azərbaycanın nüfuzuna xələl gətirmək cəhdi kimi qiymətləndiririk. Qətnamədə qaldırılan məsələlərə ötəri nəzər salınması belə onun nə qədər qərəzlə hazırlandığını sübut edir. Bircə faktı qeyd edək. Azərbaycanda üçpilləli məhkəmə sistemi fəaliyyət göstərir. Qətnamədə göstərilən məhkəmə hökmü hələ birinci instansiyada qəbul edildiyi halda, son qərar kimi təqdim edilərək, əsassız nəticələr çıxarılmışdır.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra heç bir bloka daxil olmadan, öz milli mənafelərinə uyğun siyasət yeridir. Həm də elə bir vəziyyətdə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi ağrılı problemlə qarşılaşmışıq, ölkə əhalisinin hər 9 nəfərindən biri qaçqın və məcburi köçkündür. Təəssüf doğuran hal budur ki, işğalın qurbanının Azərbaycan Respublikası, işğalçının isə qarşı tərəf olduğunu hamı bilsə də, Avropa İttifaqı indiyədək birmənalı seçimini etməmişdir.

Nə qədər ki sülh imkanları tükənməyib, biz bu problemi dinc vasitələrin köməyi ilə nizama salmağa çalışırıq. Amma Avropa Parlamentinin adı çəkilən qətnaməsinin qəbul edilməsi bizdə belə təəssürat yaradır ki, hər bir demokratik dövlətin praktikasında ola biləcək xırda problemləri bu cür nüfuzlu beynəlxalq təşkilatın qətnaməsinə çıxarmaqla bəzi qüvvələr Azərbaycanı ədalətli mövqeyindən çəkindirmək istəyirlər.

Azərbaycan Respublikasının Konstitusiyasına görə, insan hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. Bizi bu yoldan heç kəs çəkindirə bilməz. Gələcəyimiz demokratik inkişafla bağlıdır. Ümid etmək istəyirik ki, gələcəkdə Avropa Parlamenti Azərbaycan ilə bağlı məsələlərə baxarkən ölkəmizdə hökm sürən əsas meyilləri kənarda qoyaraq, ayrı-ayrı istisna halları ümumiləşdirmək yoluna düşməyəcəkdir.

(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2009-cu il dekabrın 25-də keçirilmiş iclasında qəbul edilmişdir).

XARİCİ İŞLƏR NAZİRİNİN TÜRKİYƏYƏ SƏFƏRİ

Dekabrın 25-də Türkiyə Prezidenti Abdullah Gül Çankaya köşkündə Ankarada rəsmi səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri Prezident İlham Əliyevin səmimi salamlarını Türkiyənin dövlət başçısına çatdırmışdır. Abdullah Gül də onun səmimi salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunması, Türkiyə-Azərbaycan əlaqələrinin perspektivləri və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Həmin gün Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və türkiyəli həmkarı Əhməd Davudoğlu Ankaranın Batıkənt rayonunda Azərbaycan xalqının ümummilli lideri, türk dünyasının dahi şəxsiyyəti Heydər Əliyevin adını daşıyan parka gələrək, ulu öndərin xatirəsini ehtiramla anmış, abidəsi önünə tər gül dəstələri qoymuşlar.

Sonra Türkiyə Xarici İşlər Nazirliyində Elmar Məmmədyarov və Əhməd Davudoğlunun təkbətək görüşü olmuşdur.

Görüşdən sonra nazirlər mətbuat konfransı keçirmişlər.

Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu demişdir ki, ikitərəfli və heyətlərarası danışıqlarda qardaş ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin perspektivləri müzakirə olunmuşdur. Yeni ilin ilk aylarında Türkiyə-Azərbaycan birgə iqtisadi komissiyasının iclasının Bakıda keçirilməsi qərara alınmışdır. Bundan başqa, yaxın vaxtlarda dövlət naziri Zəfər Çağlayanın başçılıq etdiyi nümayəndə heyəti də iqtisadi əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün Azərbaycana səfər edəcəkdir.

Türkiyəli nazir bildirmişdir ki, müzakirələr zamanı Dağlıq Qarabağ münaqişəsinin nizama salınması və ATƏT-in Minsk qrupunun bu istiqamətdə fəaliyyətinin detalları ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Türkiyə bu məsələdə son zamanlar atılmış addımları tam dəstəkləyir və Azərbaycan torpaqlarının işğaldan azad olunmasının Ermənistan-Azərbaycan, Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasında mühüm rol oynayacağına inanır. İndi bölgədə sülhə daha yaxınıq və bu fürsət əldən buraxılmamalıdır. Ermənistanla imzalanmış protokolların ratifikasiyasının Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən sonra mümkün olduğuna dair mövqe Ankaranın rəsmi mövqeyidir.

Əhməd Davudoğlu danışıqlar zamanı beynəlxalq məsələlərin, habelə enerji sahəsində əməkdaşlığın da müzakirə olunduğunu əlavə etmişdir. Avrasiya məkanında Türkiyə və Azərbaycan strateji baxımından vahid mövqedən çıxış edəcəklər.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov demişdir ki, Azərbaycan-Türkiyə münasibətləri çox yüksək səviyyədədir. İkitərəfli iqtisadi komissiyanın Bakıda keçiriləcək iclasında əməkdaşlığın yeni perspektivləri müzakirə olunacaqdır. Nümayəndə heyətimizdə ARDNŞ-in vitse-prezidenti də təmsil olunub. Bizim təbii qaz məsələsində danışıqlarımız davam edir. Biz Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrində olduğu kimi, gələcəkdə də karbohidrogen ehtiyatlarının nəqli məsələsində uğurlu əməkdaşlığımıza inanırıq. Əlbəttə, danışıqlar zamanı əsas müzakirə mövzusu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli olmuşdur. Rəsmi Bakı inanır ki, stabilliyə və regionun iqtisadi inkişafına ən böyük maneə Azərbaycanın işğal olunmuş torpaqları və məcburi köçkünlərdir. Əgər torpaqların 20 faizi işğal altındadırsa, heç bir

sülhdən və təhlükəsizlikdən söhbət gedə bilməz. Biz regionda güclü ölkə kimi Türkiyənin dünya ictimaiyyətini bu barədə məlumatlandırmasını istəyirik. Öz növbəmizdə isə, biz bu məsələləri tezliklə həll edəcəyimizə inanırıq.

Elmar Məmmədyarov türkiyəli həmkarı ilə beynəlxalq məsələləri, dünyada və Avropada gedən prosesləri də müzakirə etdiklərini söyləmişdir. O vurğulamışdır ki, Türkiyə və Azərbaycanın bu məsələlərdə mövqeyi üst-üstə düşür. Nazir onu da əlavə etmişdir ki, iki ölkə arasında viza rejiminin ləğv olunmasına dair saziş bəzi hüquqi məsələlərin həll olunmaması səbəbindən imzalanmamışdır.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun başçılıq etdiyi nümayəndə heyəti dekabrın 25-də bu ölkənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və parlamentin sədri Məhmət Əli Şahinlə görüşmüşdür.

Görüşlərdə qardaş ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə olunmuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, beynəlxalq və regional əməkdaşlıq, enerji təhlükəsizliyi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN DAXİLİ İŞLƏR ORQANLARI ARASINDA ƏMƏKDAŞLIQ YÜKSƏLƏN XƏTLƏ İNKİŞAF EDİR

Azərbaycanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov dekabrın 27-də Gürcüstanın daxili işlər naziri İvane Merabişvili ilə görüşmüşdür.

Nazir R.Usubov ölkələrimizin daxili işlər orqanları arasında əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini, xüsusilə də transmilli cinayətkarlıqla mübarizə sahəsində qarşılıqlı əlaqələrin, təcrübə mübadiləsinin, ilk növbədə, dost və qardaş xalqlarımızın mənafelərinə xidmət etdiyini vurğulamışdır.

General-polkovnik Ramil Usubov ölkələrimizin daxili işlər nazirlikləri arasında yaranmış belə səmərəli işgüzar əlaqələrin Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin səmimi dostluq münasibətlərinə, strateji tərəfdaşlıq kursuna əsaslandığını və bunun əsrlər boyu mehriban qonşuluq, əmin-amanlıq şəraitində yaşamış xalqlarımızın tarixin sınaqlarından çıxmış ənənlərinin qorunmasına, inkişafına xidmət etdiyini diqqətə çatdırmışdır.

Qeyd olunmuşdur ki, ötən illər ərzində nazirliklər arasında imzalanmış sənədlər, xüsusilə 2002-ci ilin aprelində Azərbaycan, Gürcüstan və Türkiyə respublikaları arasında terrorçuluq, mütəşəkkil cinayətkarlıq və ağır cinayətlərin digər növlərinə qarşı mübarizə sahəsində əməkdaşlığa dair bağlanmış müqavilə həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar səviyyəsində əlaqələrin inkişafına təkan vermişdir.

Daha sonra nazir Ramil Usubov ölkədəki kriminogen durum, bugünkü ictimai-siyasi sabitliyin dönməzliyinin təmin olunması üçün ötən dövr ərzində görülən işlər və həyata keçirilən islahatlar barədə qısa məlumat vermişdir.

Gürcüstanın daxili işlər naziri İvane Merabişvili səmimi qəbula və əməkdaşlığın möhkəmlənməsinə göstərilən səylərə görə minnətdarlıq etmiş, əlaqələrimizin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini bildirmişdir.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə bir sıra digər məsələlər də müzakirə olunmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN 2009-CU İL ÜÇÜN YEKUN MƏTBUAT BURAXILIŞI

2009-cu ildə baş verən beynəlxalq proseslər yüksək dinamikliyi və qloballaşma çağırışlarının kəskinləşməsi ilə səciyyələnmişdir. Dünya siyasətinin ümumi vəziyyəti qeyri-sabitliyi ilə xarakterizə olunmuş, belə ki, qeyd olunan zaman kəsiyində qlobal maliyyə-iqtisadi böhranın ən yüksək fazası qeydə alınmış, həmçinin ötən ildə beynəlxalq aləmdə güc və təsir mərkəzlərinin yenidən qruplaşmasına yönələn tendensiyalar özünü daha qabarıq şəkildə biruzə vermişdir. Maraqların nisbi balansını təmin edən Azərbaycan ətrafındakı geosiyasi durum ciddi çağırışlara məruz qalmışdır.

Belə bir şəraitdə Azərbaycan mənfi xarici təsirlərin kifayət qədər azaldılmasına şərait yaradan çevik praqmatik davranış modelinə üstünlük vermişdir. Əsasını varislik ilə yenilik arasındakı tarazlıq təşkil edən bu model mövcud konyunkturanın dəyişikliklərinə əməli surətdə cavab verməyə, eyni zamanda ölkənin davamlı inkişafını təmin etmək üçün əlverişli xarici şəraitin yaradılmasına yönələn diplomatik strategiyanın saxlanılmasına imkan yaratmışdır.

2009-cu il Azərbaycanın xarici siyasəti üçün də mühüm məqamlarla yadda qalmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin cənablarının rəhbərliyi ilə həyata keçirilən fəal və çevik xarici siyasətimiz ölkəmizin milli maraqlarının təmini, beynəlxalq mövqelərinin daha da möhkəmlənməsi və regional lider kimi qüdrətinin güclənməsini şərtləndirmişdir.

Əsas etibarilə milli maraqlarımızın təminə söykənmiş balanslaşdırılmış xarici siyasət kursumuz yaxın və uzaq ölkələrlə bərabərhüquqlu, mehriban və qarşılıqlı səmərəli əməkdaşlığın inkişafı və dərinləşməsinə xidmət göstərmişdir. Bu istiqamətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin il ərzində Macarıstan, İsveçrə, Küveyt, Yunanıstan, İran, Rusiya, Belçika, Çexiya, Böyük Britaniya, Qazaxıstan, Rumıniya, Moldova, Belarus, Bolqarıstan, Almaniya və Fransaya dövlət, rəsmi və işgüzar səfərləri, eyni zamanda, Rusiya, İsrail, Ukrayna, Polşa, Latviya, Suriya, Sloveniya, Estoniya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan və Bolqarıstan prezidentlərinin Azərbaycana həyata keçirdikləri səfərlər mühüm əhəmiyyət kəsb etmiş və Azərbaycanla həmin ölkələr arasında siyasi dialoqun gücləndirilməsinə, iqtisadi-ticarət əlaqələrinin təşviqinə, humanitar sahələrdə əməkdaşlığın intensivləşməsinə, xalqlararası təmasların dərinləşməsinə və ümumilikdə, ölkəmizin beynəlxalq təbliğinə böyük töhfə vermişdir.

Çoxtərəfli müstəvidə xüsusilə ərazi bütövlüyü ilə öz müqəddəratını təyinetmə prinsiplərinin hüquqi tətbiq edilməsində kolliziyanın aradan qaldırılması məsələsində taktiki hücum fəaliyyətinə keçid əldə olunmuşdur. Ənənəvi yanaşma və situativ maraqları özündə əks etdirən praqmatizm əməkdaşlıq və çevik ixrac siyasətinin həyata keçirilməsi xətti yürüdən Azərbaycanın enerji-nəqliyyat daşımalarında aparıcı regional rolunun daha da möhkəmlənməsinə imkan yaratmışdır. Ölkənin qlobal çağırış, təhdid və risklərə qarşı aparılan beynəlxalq səylərə töhfəsi davam etdirilmişdir. Avropa İttifaqı və Şimali Atlantika Alyansı ilə tərəfdaşlıq əlaqələrinin inkişafı və genişlənməsi, habelə bu

strukturlara gələcək inteqrasiya üçün mövcud əsaslar möhkəmləndirilmişdir. Azərbaycanın İslam dünyasında olan siyasi nüfuzu və əhəmiyyəti artmış, türkdilli dövlətlərlə münasibətlər daha da sıx olmuşdur. Sivilizasiyalararası dialoq, mədəniyyətlərarası münasibətlər və qeyri-maddi irs sahəsində fəaliyyət əhəmiyyətli dərəcədə aktivləşmişdir. 2009-cu il ərzində Azərbaycanın bu sahədə irəli sürdüyü yeni təşəbbüslər geniş beynəlxalq dəstək qazanmışdır.

2009-cu ildə Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi üzrə aparılan danışıqlar intensivliyi ilə səciyyələnmişdir. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin iştirakı ilə Ermənistan və Azərbaycan Prezidentləri arasında il ərzində altı, xarici işlər nazirləri arasında isə bir neçə dəfə görüşün keçirilməsi buna dəlalət edir. Eyni zamanda, il ərzində beynəlxalq ictimaiyyətin də münaqişəyə diqqəti kifayət qədər yüksək olmuşdur.

Beynəlxalq birlik münaqişədə status-quo-nun saxlanılmasının yolverilməzliyini və münaqişənin tezliklə həllinin zəruriliyini dərk edir. Bu xüsusda, cari ilin 10 iyul tarixində Böyük Səkkizliyin İtaliyanın L'Akuila şəhərində keçirilmiş sammitində ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin prezidentlərinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı birgə bəyanatının, habelə 1 dekabr tarixində ATƏT-in Afina Nazirlər Şurası çərçivəsində ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin nümayəndə heyətlərinin rəhbərləri olan Rusiya və Fransa xarici işlər nazirləri və ABŞ dövlət katibinin müavininin, Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin birgə bəyanatının qəbul olunması münaqişənin nizamlanmasına münasibətdə ən yüksək səviyyədə diqqətin olduğunu göstərir.

Münaqişənin nizamlanmasında Azərbaycanın tutduğu mövqe birmənalıdır. Münaqişə yalnız Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində öz həllini tapmalıdır. Bu mövqe beynəlxalq hüququn prinsip və normaları, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və münaqişənin tənzimlənməsi çərçivəsində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədlərə əsaslanır. Münaqişənin sülh yolu ilə tənzimlənməsi üzrə aparılan danışıqlar məhz bu prinsiplərdən irəli gələn detalların razılaşdırılmasına yönəlmişdir.

Ötən il Azərbaycan Respublikasının diplomatik xidmətinin yaradılmasının 90 illiyinin qeyd olunması ilə əlamətdar olmuşdur. Bu yubiley ilində milli diplomatiyamızın tarixi və dövlət müstəqilliyimizin bərpasından sonrakı dövr ərzində xarici siyasət idarəsinin fəaliyyətinin nəticələrinə yüksək maraq müşahidə olunmuşdur. Bu münasibətlə beynəlxalq ekspertlərin iştirakı ilə Bakı, Naxçıvan, Gəncə şəhərlərində, habelə diplomatik nümayəndəlik və konsulluqlarımızın yerləşdiyi ölkələrdə müxtəlif konfranslar və tədbirlər təşkil olunmuş, diplomatiyamızın tarixi, prioritet istiqamətləri, ona təsir edən amillər və başlıca vəzifələri ilə bağlı hərtərəfli müzakirələr aparılmışdır. Diplomatiyamızın keçdiyi yola dair bir sıra materiallar nəşr olunmuş, habelə bu mövzu kütləvi informasiya vasitələrinin böyük marağına səbəb olmuşdur. Azərbaycan diplomatiyası ötən illər ərzində Azərbaycanın ərazi bütövlüyünün bərpasının başlıca yer tutduğu əsas prioritetlərlə yanaşı, dünyada baş verən sürətli dəyişikliklərin tələblərinə cavab verməyə qadir olduğunu təsdiq etmişdir.

Müasir dövrün hədə və təhdidlərinin əlaqələndirilmiş şəkildə aradan qaldırılması və qarşısının alınması üçün beynəlxalq birliyin səylərini səfərbər etmək məqsədilə, Azərbaycan Respublikası mötəbər qlobal və regional təşkilatların işində fəal iştirak etmişdir. Azərbaycan bəşəri sülh və təhlükəsizliyin təminatında universal beynəlxalq təşkilat ki-

mi BMT-nin mərkəzi rolunun daha da artırılması istiqamətində atılan səyləri dəstəkləmiş və təşkilatın müxtəlif qurumları və ixtisaslaşdırılmış təsisatlarında təmsilçiliyini artırmışdır. Azərbaycan nümayəndələri BMT-nin Miqrant işçilərin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Komitəsi, İnsan Hüquqları Şurasının Məşvərətçi Komitəsi və Ümumdünya Səhiyyə Təşkilatının Avropa Bürosunun Regional Komissiyasının Daimi Komitəsinin üzvlüyünə seçilmiş, həmçinin ölkənin namizədliyi Beynəlxalq Telekommunikasiya İttifaqı Şurasına irəli sürülmüşdür.

Regionlararası inteqrasiyanın təşviqinə yönələn kommunikasiya infrastrukturunun inkişafına töhfə qismində Azərbaycanın irəli sürdüyü Trans-Avrasiya İnformasiya Super Magistralı (TASİM) təşəbbüsünə dair qətnamə layihəsi BMT Baş Assambleyasında yekdilliklə qəbul edilmişdir.

Qlobal və regional məsələlərin həllində Azərbaycan İslam Konfransı Təşkilatı (İKT) ilə sıx əməkdaşlığını inkişaf etdirərək, onun siyasi rolunun artırılması, beynəlxalq problemlərin həllində təsiri və iştirakının gücləndirilməsi istiqamətində apardığı fəal siyasətini davam etdirmişdir. Terrorizm, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, insan alveri və digər qeyri-qanuni fəaliyyətə qarşı beynəlxalq mübarizəyə töhfə çərçivəsində Azərbaycan göstərilən məsələlər üzrə İslam ölkələri arasında müvafiq əməkdaşlığın gücləndirilməsi təşəbbüsü ilə çıxış etmişdir. Bu kontekstdə İKT çərçivəsində ilk dəfə keçirilmiş və qeyd olunan sahələr üzrə birgə fəaliyyətin gücləndirilməsinə dair Bakı Bəyannaməsinin qəbul edildiyi İKT üzv dövlətlərinin hüquq-mühafizə orqanları rəhbərlərinin konfransına Azərbaycan tərəfinin ev sahiblik etdiyini qeyd etmək olar.

2009-cu ildə Bakının islam dünyasının mədəniyyət paytaxtı elan edilməsi çox əlamətdar və mühüm hadisə olaraq, Azərbaycanın İKT ilə apardığı səmərəli və faydalı əməkdaşlığın və bütövlükdə ölkənin İslam ümməti arasında qazandığı nüfuzunun mühüm göstəricisi olmuşdur. Bu yüksək etimadı doğrultmağa çalışaraq, Azərbaycan mədəniyyətlər və dinlərarası dialoqun təşviqi, müxtəlif millətlər və dinlər arasında dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafı, etnik və dini dözümsüzlük əleyhinə səmərəli ölçülərin hazırlanması, beynəlxalq ictimaiyyətdə, və ilk növbədə Avropada islamın, onun mədəniyyət, dəyər və fəlsəfəsinin düzgün dərk edilməsi məqsədilə fəal səylər göstərmiş, geniş tərkibli bir sıra iri beynəlxalq təşəbbüslər həyata keçirmişdir.

Ötən illərdə olduğu kimi, Avropa və Avro-Atlantik ölçüsü Azərbaycan xarici siyasətinin mühüm istiqamətini təşkil etmişdir. İl ərzində Avropa İttifaqı ilə münasibətlər keyfiyyətcə yeni müstəviyə çıxmış, habelə NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının ikinci mərhələsi uğurla başa çatmışdır. Şərq Tərəfdaşlığı üzrə Praqa Zirvə görüşünün Birgə Bəyannaməsinin imzalanması Azərbaycan ilə Avropa İttifaqı arasında gələcək yaxınlaşma və əməkdaşlığın inkişafına yeni təkan vermişdir. Bəyannamə dörd əsas platforma üzrə qarşılıqlı fəaliyyəti nəzərdə tutur: demokratiya, məsuliyyətli idarəetmə və sabitlik; iqtisadi inteqrasiya və siyasətin sektor elementləri ilə konvergensiya; enerji təhlükəsizliyi; insanlar arasında təmaslar. Burada zirvə görüşü çərçivəsində trans-Xəzər enerji daşıyıcıları layihələrini dəstəkləyən və dövlətimizin enerji təhlükəsizliyinin təminatına yönələn maraqları əks etdirən "Cənubi Dəhliz - Yeni İpək Yolu" Bəyannaməsinin qəbul edilməsini qeyd etmək lazımdır. Eyni zamanda, ötən ilin sonunda, dekabr ayında Avropa İttifaqının bir sıra ölkələr, o cümlədən Azərbaycanla assosi-

asiya sazişi ilə bağlı danışıqların başlanması niyyətində olduğunu bəyan etməsi xüsusi diqqətə layiqdir.

Xarici siyasətin Avro-Atlantik istiqaməti çərçivəsində Azərbaycanın NATO ilə tərəfdaşlıq əlaqələrinin inkişafı üçün irəliləyən proses davam etmişdir. Azərbaycan Avropa və beynəlxalq təhlükəsizliyə öz töhfəsini verməkdə davam etmiş, tərəfdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və əsaslarının möhkəmləndirilməsi təşəbbüslərini fəal həyata keçirmişdir. Azərbaycanın NATO-nun Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin tərkibindəki hərbçilərinin sayının iki dəfə artırması ilə 90 nəfərə çatdırması onun Avro-Atlantik məkanında təhlükəsizlik və sabitliyin əldə edilməsi sahəsində daha böyük məsuliyyəti öz üzərinə götürmək əzmindən irəli gəlir. NATO ilə fəal siyasi dialoq qarşılaşdığımız birgə çağırışlar üzrə ortaq anlayışın yaradılması və möhkəmləndirilməsinə imkan yaradır.

Beynəlxalq əməkdaşlığımız digər beynəlxalq və regional təşkilatlar çərçivəsində də davamlı olaraq inkişaf etmişdir. Xüsusilə də, ATƏT, Avropa Şurası, MDB, GUAM, QDİƏT, İƏT və sair təşkilatlarla əməkdaşlığımızın gücləndirilməsi bu qurumlar çərçivəsində ölkəmizin maraqlarının təşviqi ilə yanaşı, onlara üzv ölkələrlə münasibətlərimizin fərqli prizmadan inkişafı üçün faydalı olmuşdur.

Azərbaycan Respublikası silahlara nəzarət, tərksilah və yayılmama sahəsində həm çoxtərəfli və beynəlxalq, həm də regional və ikitərəfli əsasda əməkdaşlığını intensiv qaydada davam etdirmişdir. Azərbaycanın Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Müdirlər Şurasına üzv seçilməsi bu istiqamətdə aparılan uğurlu fəaliyyətin təzahürü olmuşdur.

Ötən il ikitərəfli diplomatiyanın inkişafı üzrə aparılan fəaliyyət davam etmişdir. İkitərəfli əsasda çoxsaylı səfər və görüşlərin baş tutması ölkəmizin beynəlxalq aləmdə tutduğu mövqeyinin daha da möhkəmlənməsi, nüfuzunun artması, siyasi və iqtisadi maraqlarının, xüsusilə ölkəmizdə istehsal olunan məhsulların və xidmətlərin xaricdə təşviqi, qeyri-neft sektorunun inkişafı və ixracın diversifikasiyası, xarici sərmayələrin ölkəmizə cəlb edilməsi və işgüzar dairələr arasında təmasların təmin edilməsində vacib əhəmiyyət kəsb etmişdir.

İl ərzində ikitərəfli münasibətlər çərçivəsində müvafiq hüquq-müqavilə bazası da olduqca zənginləşmişdir. Prezident cənab İlham Əliyevin xarici dövlətlərə dövlət, rəsmi və işgüzar səfərləri, habelə xarici dövlət başçılarının Azərbaycan Respublikasına rəsmi səfərləri zamanı siyasi, iqtisadi, rabitə, nəqliyyat, humanitar, turizm elm və mədəniyyət sahələrinə dair 90-a yaxın ikitərəfli beynəlxalq sənəd imzalanmışdır. İl ərzində 15-ə yaxın birgə hökumətlərarası komissiyanın və işçi qrupunun iclasları keçirilmişdir.

Cari ildə beynəlxalq əlaqələrimizin coğrafiyasının genişlənməsi və diplomatik təmsilçiliyimizin sayının artırılması prosesi davam etmişdir. Belə ki, 2009-cu ildə Meksikada səfirliyimiz, Yekaterinburqda baş konsulluğumuz fəaliyyətə başlamış, Estoniya, Oman, Livan, Liviya, Serbiyada səfirliklərimizin və Batumidə isə baş konsulluğumuzun təsis edilməsi barədə qərarlar qəbul olunmuşdur.

Habelə, 2009-cu il ərzində Braziliya, Niderland, Çexiya, Mərakeş, Avstriyanın Azərbaycanda diplomatik nümayəndəlikləri açılmışdır ki, bu da ölkəmizə münasibətdə dünya ictimaiyyəti tərəfindən marağın yüksəldiyini göstərir.

Eyni zamanda, ölkəmizin iqtisadi qüdrətinin və maliyyə imkanlarının artması Azərbaycanın potensial donor ölkəsinə çevrilməsinə gətirib çıxarmışdır. Mövcud vəziyyətdə təbii fəlakətlərlə bağlı və inkişafa dəstək çərçivəsində müxtəlif ölkələrə hökumətimiz tərəfindən birbaşa və ya beynəlxalq təşkilatlar vasitəsilə maliyyə və texniki yardımların həcmi artırılmışdır. Qlobal iqtisadi böhranın mövcudluğu şəraitində ölkəmiz tərəfindən edilən yardımlar Azərbaycan iqtisadiyyatının dinamikliyini dünya ictimaiyyətinə nümayiş etdirməklə yanaşı, ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsinə müstəsna təsir göstərmişdir.

Ötən il ərzində Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası (ADA) diplomatik xidmət orqanlarının yüksək səviyyəli kadr potensialı ilə təmin edilməsi və diplomatlarımızın peşəkar qabiliyyətinin davamlı olaraq inkişaf etdirilməsi istiqamətdə fəaliyyətini davam etdirmişdir. ADA-nın fəaliyyəti ölkəmizdə diplomatiya elminin tədrisi və müvafiq təlimlərin təşkili ilə yanaşı, təhsil sisteminə və dövlət idarəetməsinə müasir və innovativ texnologiyaların tətbiqində önəmli yeniliklərlə yadda qalmışdır. Akademiyanın bu istiqamətdə fəaliyyəti və günü-gündən genişlənən beynəlxalq əlaqələri ölkəmizin insan resurslarına sərmayə yatıran və təhsil sahəsinin inkişafına xüsusi önəm verən ölkə imicinin təşviqinə töhfə vermişdir.

2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş, milli maraqlarımızın təminə, beynəlxalq aləmlə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığa, tarazlığa və praqmatizmə əsaslanan xarici siyasət və diplomatik fəaliyyətimiz intensiv, olduqca zəngin və məhsuldar olmuşdur.

Azərbaycan öz geosiyasi və geoiqtisadi xüsusiyyətlərini nəzərə alaraq, əsas diqqətini transregional layihələrin həyata keçirilməsində əməkdaşlıq etdiyi Avropa, Yaxın və Mərkəzi Asiya dövlətləri üzərində cəmləşdirmişdir. Göstərilən ölkələrlə yüksək səviyyədə səmərəli təmaslar və imzalanmış müqavilələr siyasi, ticari-iqtisadi, enerji-daşınma və mədəni-humanitar sahələrdə Azərbaycanın ikitərəfli beynəlxalq əməkdaşlıq bazasını möhkəmləndirmişdir.

Azərbaycan regional və qlobal səviyyələrdə gözəçarpacaq dərəcədə öz mövqelərini möhkəmləndirmiş, milli maraqlarının irəliləməsi və müdafiə olunmasında hücum vurğusunu gücləndirmiş, ənənəvi və yeni təhdidlərə qarşı mübarizədə rolunun artmasına nail olmuş, əməkdaşlıq coğrafiyasını genişləndirmiş, regionlararası iqtisadi əlaqələr və sivilizasiyalararası dialoqun inkişafında özünün əhəmiyyətli rolunu təsdiq etmişdir.

Ötən il üzrə diplomatiyamızın nəticələri bərabərhüquqlu və qarşılıqlı faydalı əlaqələrə əsaslanan konstruktiv beynəlxalq əməkdaşlığın gələcək inkişafı, həmçinin sülh, təhlükəsizlik və mehriban qonşuluq strategiyasına yönəlmiş milli xarici siyasət vəzifələrinin 2010-cu il və daha uzaq perspektivdə həllinə zəmin yaratmışdır. Əsas vəzifə Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması və dövlətimizin ərazi bütövlüyünün bərpa edilməsidir. Azərbaycanın Cənubi Qafqazda lider rolunun gücləndirilməsi, bərabər və sabit ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf etdirilməsi, Avro-Atlantik inteqrasiya proseslərində iştirak və dünyanın enerji bazarlarında ixracat və tranzit imkanlarının genişləndirilməsi ilə bağlı məsələlər də prioritet olaraq qalır.

PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

- Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Mən sizin hamınızı Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm. Yeni ildə sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

2009-cu il tarixdə qalır. 2009-cu il bütün ölkələr üçün sınaq ili olmuşdur. 2009-cu ildə dünyanı bürümüş maliyyə və iqtisadi böhran demək olar ki, bütün ölkələrə öz mənfi təsirini göstərmişdir. 2009-cu ildə ölkələr öz imkanları, öz təbii ehtiyatları, apardıqları islahatlar hesabına nəyə qadir olduqlarını nümayiş etdirmişlər.

Azərbaycan 2009-cu ildə bütün çətinliklərə baxmayaraq, uğurlu inkişafı davam etdirmişdir. 2009-cu ildə ölkəmizdə iqtisadi artım 9 faizdən çox olmuşdur. Bu, böhranlı ildə çox böyük göstəricidir. Bütün bölgədə yaşanan böhran və bölgədə müxtəlif istiqamətlərdə aparılan islahatlar hər bir ölkənin iqtisadi və siyasi potensialını ortaya qoydu. Böhran ili kimin nəyə qadir olduğunu çox açıq və aydın şəkildə göstərdi. Azərbaycan o ölkələrdəndir ki, öz hesabına yaşayır. Biz xalqımızın istedadına arxalanırıq, aparılan islahatlara arxalanırıq, Azərbaycan xalqının iradəsinə arxalanırıq.

2009-cu ildə Azərbaycanda bütün istiqamətlərdə irəliləyiş, inkişaf müşahidə olundu. Dediyim kimi, iqtisadi artım 9 faizdən çox olmuşdur, sənaye istehsalı təxminən 9 faiz artmışdır. Ölkəmizdə inflyasiya 2 faizdən aşağı səviyyədədir. Yəni, iqtisadi inkişafın təmin edilməsinə dair əsas göstəricilər ən yüksək səviyyədədir. Bütün bunlara biz sizinlə bərabər düşünülmüş siyasət aparmaqla, islahatlar aparmaqla buna nail ola bilmişik. Təsadüfi deyil ki, beynəlxalq maliyyə qurumları Azərbaycanın bu istiqamətdə - iqtisadi və siyasi islahatların aparılması istiqamətində gördüyü işləri yüksək qiymətləndirir. 2008-ci ildə Dünya Bankı Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi qəbul etdi və bunu bəyan etdi. 2009-cu ildə Dünya İqtisadi Forumu - çox mötəbər beynəlxalq təşkilat - Azərbaycanı iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə dünyada 51-ci yerə layiq gördü. Azərbaycan MDB məkanında bu parametrlər üzrə lider ölkədir.

2009-cu ildə bütün planlar, nəzərdə tutulmuş bütün tədbirlər icra edildi. Regionların inkişafı sürətlə davam etdi. Son 6 il ərzində Azərbaycanda 800 mindən çox yeni iş yerləri açılmışdır. Bütün bölgələrdə canlanma vardır, abadlıq, quruculuq işləri aparılır. Ölkəmizdə regionların sosial-iqtisadi inkişafına dair ikinci proqram icra olunur. Bu proqram çox müfəssəl proqramdır və proqramın icrası nəticəsində, demək olar ki, 2013-cü ilə qədər ölkə qarşısında duran əsas iqtisadi və sosial məsələlər öz həllini tapmalıdır. Biz görürük ki, bu proqram 2009-cu ilin yekunlarına görə uğurla icra edilir.

Azərbaycanda böyük abadlıq-quruculuq işləri aparılır. Böhran ilinə baxmayaraq, bütün infrastruktur layihələri icra edilir. Yeni yollar çəkilir. Həm Bakıda, həm bizi qonşu ölkələrlə birləşdirən magistral yollar salınır və bu yollar ən yüksək standartlara cavab verir. Elektrik stansiyalarının tikintisi uğurla davam edir. Bunu etməklə Azərbaycan öz enerji təhlükəsizliyini tam şəkildə təmin edib və biz gələcək illərdə diqqətimizi daha çox bərpa olunan enerji növlərinin yaradılmasına yönəldəcəyik. Azərbaycanda bütün

bölgələrin qazlaşdırılması prosesi davam etdirilir. Əhali təmiz içməli su ilə təmin edilir. Görülən təxirəsalınmaz tədbirlər nəticəsində yüz minlərlə vətəndaş içməli su ilə təmin edilibdir. Bu proses davam edir və nəhəng infrastruktur layihələrinin həyata keçirilməsi bizə imkan verəcək ki, Azərbaycan əhalisi içməli su ilə Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun şəkildə təmin edilsin.

Bütün sosial proqramlar icra edilir. Sirr deyil ki, iqtisadiyyatımızın müəyyən hissəsi neftdən əldə olunan gəlirlər hesabına formalaşır və 2009-cu ildə neftin qiyməti dünyada kəskin şəkildə aşağı düşmüşdür. Buna baxmayaraq, bütün sosial proqramlar vaxtında icra edilir. Ünvanlı sosial yardım proqramı aparılır və bu proqram gələcəkdə də davam etdiriləcəkdir. Hər yerdə yeni məktəblər, tibbi mərkəzlər, idman kompleksləri, mədəniyyət ocaqları yaradılıb. Yəni ki, 2008-ci ilin sonunda bu il üçün - 2009-cu il üçün dövlət büdcəsində nəzərdə tutulmuş bütün sosial proqramlar icra edildi.

Erməni işğalından əziyyət çəkən soydaşlarımızın yaşayış səviyyəsinin yaxşılaşdırılması və onların məşğulluğunun artırılması işində əməli addımlar atılmışdır. Yeni qəsəbələr salınır, gözəl evlər, hündürmərtəbəli binalar tikilir. Yəni, bu onu göstərir ki, Azərbaycan iqtisadiyyatı öz resurslarına arxalanır. Biz bəzi başqa ölkələr kimi xarici yardım hesabına yaşamırıq. Biz müstəqil siyasət aparırıq, ləyaqətli siyasət aparırıq, öz resurslarımıza arxalanırıq, öz hesabımıza yaşayırıq və ölkəmizi gücləndiririk, abadlaşdırırıq. Ölkəmizin beynəlxalq müstəvidə daha da güclü olması üçün əlimizdən gələni edirik.

2009-cu ildə kənd təsərrüfatının inkişafı sahəsində böyük işlər görülübdür. Üç milyon ton taxıl yığılıbdır. Bu, rekord göstəricidir. Azərbaycan tarixində bu günə qədər heç vaxt bu qədər taxıl istehsal olunmurdu. Bütün başqa kənd təsərrüfatı məhsullarının istehsalı üçün də praktiki işlər görülür, subsidiyalar, kreditlər verilir, soyuducu anbarlar, taxıl anbarları tikilir, suvarma tədbirləri görülür. Yəni, kənd təsərrüfatını daha da inkişaf etdirmək üçün bizim düşünülmüş proqramımız vardır və bunun nəticəsində Azərbaycanda kənd təsərrüfatı məhsulları artır. Biz bu gün özümüzü demək olar ki, əsas kənd təsərrüfatı məhsulları ilə təmin edirik. Gələcəkdə bu, daha da böyük həcmlə təşkil ediləcəkdir. Həm öz daxili tələbatımızı ödəmək üçün, həm də ixrac potensialımızı artırmaq üçün gələcəkdə əlavə imkanlar yaradılacaqdır. Ölkəmiz üçün həm iqtisadi, həm sosial baxımdan çox vacib olan bu sahənin inkişafı kompleks tədbirlər nəticəsində təmin edilir.

Azərbaycanda sahibkarlığın inkişafı üçün gözəl şərait vardır. Sahibkarlar dövlət tərəfindən həm mənəvi, həm siyasi və həm də iqtisadi dəstək alırlar. Əgər Azərbaycan dövləti tərəfindən kreditlər təşkil edilməsəydi, kənd təsərrüfatının inkişafı üzrə bizim böyük problemlərimiz ola bilərdi. Amma kreditlərin vaxtında verilməsi və sahibkarlığın inkişafı üçün görülən bütün tədbirlər, əlbəttə, sahibkarlara da çox gözəl şərait yaradır. Gələcəkdə Azərbaycanın iqtisadiyyatı daha çox sahibkarlığın fəaliyyətindən asılı olacaqdır. Bütün infrastruktur layihələri həyata keçirilir, elektrik stansiyaları, yollar tikilir, - mən artıq bu barədə danışdım, - bunlar, eyni zamanda, sahibkarlığın inkişafı üçün də başlıca şərtdir. Azərbaycanın şəhərləri abadlaşır, gözəlləşir. Sahibkarlığın inkişafı bizim üçün həmişə olduğu kimi prioritet məsələdir və bu istiqamətdə növbəti illərdə də lazımi tədbirlər görüləcəkdir.

Azərbaycan enerji təhlükəsizliyi məsələlərini tam şəkildə təmin edib. Qarşıda duran bütün neft-qaz layihələri icra edilib. Biz nəzərdə tutulmuş bütün məsələləri həll etmi-

şik, ixracımızı şaxələndirə bilmişik. Azərbaycan nefti və qazı dünya bazarlarına müxtəlif yollarla çıxarılır və ixrac coğrafiyası gələn ildən başlayaraq daha da genişlənəcəkdir.

2009-cu ildə Azərbaycanda 50 milyon ton neft, 25 milyard kubmetr qaz hasil edilibdir. Gələn il bu rəqəmlər daha da artacaq və beləliklə, ölkəmizə əlavə maliyyə resursları gələcək, eyni zamanda, ixrac imkanlarımız genişlənəcəkdir. Azərbaycan ilə enerji sahəsində əməkdaşlıq etmək istəyən ölkələrin sayı gündən-günə artmaqdadır.

Xarici siyasətə gəldikdə, bu istiqamətdə çox vacib addımlar atılmışdır. 2009-cu ildə Azərbaycan bu istiqamətdə çox vacib işlər görmüşdür. Mənim müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə apardığım danışıqlar, keçirdiyim görüşlər Azərbaycanın dünyadakı mövqeyini daha da gücləndirmişdir. Azərbaycanla dost olmaq istəyən ölkələrin sayı artır. Bizim strateji tərəfdaşlarımızın sayı artır. Sirr deyil ki, bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkədir. Bizim xarici siyasətimiz Azərbaycanın milli maraqlarının tam şəkildə müdafiə edilməsinə yönəldilibdir. Bütün qonşu ölkələrlə qarşılıqlı surətdə faydalı və qarşılıqlı hörmət əsasında qurulmuş münasibətlər mövcuddur. Azərbaycan bütün başqa ölkələrlə öz fəaliyyətini ancaq və ancaq dostluq, əməkdaşlıq şəraitində qurur.

Biz xarici siyasətimizin əsas problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzərində çox fəal işləyirik. Deyə bilərəm ki, 2009-cu ildə məsələnin həlli üçün çox vacib addımlar atılmışdır. Artıq bütün dünya birliyi və bu məsələ ilə birbaşa məşğul olan tərəflər problemin hansı yollarla həll olunması haqqında öz iradələrini ortaya qoyurlar. Çox sevindiricidir ki, Azərbaycanın uzun illərdir müdafiə etdiyi mövqe üstünlük təşkil edir. Yəni ki, məsələ öz həllini beynəlxalq hüquq əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində tapmalıdır. Bizim həmişə ortaya qoyduğumuz prinsiplər məhz bunlardır.

Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir, olmayıbdır və heç vaxt olmayacaqdır. Dağlıq Qarabağ heç vaxt müstəqil ölkə olmayacaqdır, Azərbaycanın razılığı olmadan bu, mümkün deyildir. Azərbaycan isə buna heç vaxt öz razılığını verə bilməz. Dağlıq Qarabağda yaşayan ermənilər və orada yaşayacaq azərbaycanlılar muxtariyyət statusu çərçivəsində yaşamalıdırlar və bu sahədə dünyanın ən qabaqcıl təcrübəsi tətbiq edilməlidir. Bizim prinsipial mövqeyimiz bundan ibarətdir və biz bu mövqedən bir addım geri atmayacağıq. Çalışacağıq bütün imkanları - həm siyasi, həm iqtisadi, həm diplomatik, həm başqa imkanları - işə salaraq, bu məsələni tezliklə, ədalətli, beynəlxalq hüquq normalarına uyğun şəkildə həll edək ki, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına tezliklə qayıda bilsinlər.

Amma bununla bərabər Azərbaycan öz hərbi potensialını da gücləndirir. Bu, bizim suveren hüququmuzdur və biz bu hüquqdan istifadə edirik. Nəzərə alaq ki, Azərbaycan ordu quruculuğu prosesini daxili imkanları hesabına aparır. Təbii ki, bu, bizim daxili işimizdir. Azərbaycan Ordusu son illər ərzində böyük və uğurlu yol keçmişdir. Bu gün ordumuz qarşıda duran bütün vəzifələri icra etməyə qadirdir. Torpaqları işğaldan azad etmək üçün bütün imkanlarımız vardır. Həm döyüş qabiliyyəti, həm vətənpərvərlik ruhu, həm silah-sursat baxımından imkanlarımız genişlənir. Azərbaycanda müdafiə sənayesi artıq dörd ildir ki, fəaliyyət göstərir və bu istiqamətdə böyük uğurlar əldə etmişik. Bizim hərbi potensialımız gündən-günə artır və artacaqdır. 2010-cu ildə bu məqsədləri təmin etmək üçün əlavə böyük vəsait nəzərdə tutulur. Biz Dağlıq Qarabağ məsələsini, Ermə-

nistan-Azərbaycan münaqişəsini həll etmək üçün bütün imkanlardan istifadə edə bilərik.

Əziz həmvətənlər, əziz dostlar!

Bu gün, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bütün azərbaycanlılar bu günü qeyd edirlər. Mən dünyada yaşayan bütün azərbaycanlılara uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram. Onlar bilməlidirlər və bilirlər ki, arxalarında qüdrətli Azərbaycan dövləti dayanır. Eyni zamanda, onların uğuru, yaşadıqları ölkələrdə səmərəli fəaliyyəti Vətənimizi - Azərbaycanı daha da gücləndirir. Mən çox şadam ki, bu gün müxtəlif ölkələrdə, dünyanın demək olar ki, əksər bölgələrində güclü Azərbaycan təşkilatları formalaşıb, fəaliyyət göstərir. Onlar həm biznesle məşğul olurlar, eyni zamanda, müxtəlif vəzifələrdə, dövlət vəzifələrində çalışırlar, artıq qanunvericilik orqanlarına seçilirlər. Bu da çox vacibdir. Belə mütəşəkkil Azərbaycan icmaları Azərbaycanı gücləndirirlər və yaşadıqları ölkələrdə onların həyat səviyyəsi daha da artır. Bu, çox müsbət haldır.

Dünyada yaşayan azərbaycanlıların sayı çoxdur və bizim fəallığımız, mütəşəkkil qaydada fəaliyyətimiz bizi gücləndirir. Son vaxtlar Azərbaycana qarşı ədalətsiz qərarlar çıxarılarkən Azərbaycanın diaspor nümayəndələri öz güclərini göstərdilər, kütləvi aksiyalarda iştirak etdilər, müxtəlif etiraz aksiyalarına əl atdılar, mədəni, sivil qaydada öz etiraz səslərini ucaltdılar. Bax, budur Azərbaycanın qüdrəti, budur azərbaycançılıq fəlsəfəsinin təntənəsi.

Mən bu əziz gündə dünyada yaşayan bütün azərbaycanlıları ürəkdən təbrik edirəm. Onların hər biri bizim üçün əzizdir, doğmadır. Onlar bilirlər ki, həmişə doğma Vətənə arxalana bilərlər.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Əziz həmvətənlər!

Bir daha sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2009-CU İLDƏ DÖVLƏT, RƏSMİ VƏ İŞGÜZAR SƏFƏRLƏRİN SİYAHISI

26-27 yanvar	Macarıstanda işgüzar səfərdə olmuşdur.
28 yanvar -1 fevral	İsveçrədə işgüzar səfərdə olmuşdur.
10-11 fevral	Küveytdə rəsmi səfərdə olmuşdur.
15-17 fevral	Yunanıstanda dövlət səfərində olmuşdur.
10-12 mart	İran İslam Respublikasında rəsmi səfərdə olmuşdur.
16-19 aprel	Rusiya Federasiyasında işgüzar səfərdə olmuşdur.
27-29 aprel	Belçika Krallığında işgüzar səfərdə olmuşdur.
6-8 may	Çexiya Respublikasında səfərdə olmuşdur.
4-5 iyun	Rusiya Federasiyasında işgüzar səfərdə olmuşdur.
12-15 iyul	Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında rəsmi səfərdə olmuşdur.
17-18 iyul	Rusiya Federasiyasında işgüzar səfərdə olmuşdur.
11 sentyabr	Qazaxıstanda səfərdə olmuşdur.
28-29 sentyabr	Rumıniyada rəsmi səfərdə olmuşdur.
8-9 oktyabr	MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Kişinyovda səfərdə olmuşdur.
12-13 oktyabr	İordaniya Haşimilər Krallığında rəsmi səfərdə olmuşdur.
18-20 oktyabr	İsveçrə Konfederasiyasında rəsmi səfərdə olmuşdur.
11-13 noyabr	Belarus Respublikasında rəsmi səfərdə olmuşdur.
13 noyabr	Bolqarıstanda işgüzar səfərdə olmuşdur.
21-23 noyabr	Almaniya Federativ Respublikasının Münxen şəhərində işgüzar səfərdə olmuşdur.
24 noyabr	Rusiyanın Ulyanovsk şəhərində işgüzar səfərdə olmuşdur.
8-9 dekabr	Fransa Respublikasında rəsmi səfərdə olmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2009-CU İLDƏKİ GÖRÜŞLƏRİ BARƏDƏ MƏLUMAT

Yanvar 2009

13 yanvar 2009

Prezident İlham Əliyevin və Estoniya Prezidenti Toomas Hendrik İlvesin təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyev ilə Estoniya Prezidenti Toomas Hendrik İlves arasında geniş tərkibdə görüş keçirilmişdir.

22 yanvar 2009

Prezident İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pırvanovun təkbətək görüşü olmuşdur.

26 yanvar 2009

Prezident İlham Əliyev Budapeştdə Avropa İnvestisiya Bankının prezidenti ilə görüşmüşdür.

Prezident İlham Əliyev Budapeştdə Bolqarıstanın Baş naziri Sergey Stanişev ilə görüşmüşdür.

Prezident İlham Əliyev Budapeştdə Çexiyanın Baş naziri Mirek Topolanek ilə görüşmüşdür.

Prezident İlham Əliyev Budapeştdə Macarıstanın Baş naziri Ferents Dyurçan ilə görüşmüşdür.

27 yanvar 2009

Budapeştdə Prezident İlham Əliyevin və Macarıstanın prezidenti Laslo Şoyomun görüşü olmuşdur.

Prezident İlham Əliyev Budapeştdə Avropa Komissiyasının energetika məsələləri üzrə komissarı Andris Piebalqs ilə görüşmüşdür.

28 yanvar 2009

Sürixdə Prezident İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.

Prezident İlham Əliyev Davosda Polşa Nazirlər Şurasının sədri Donald Tusk ilə görüşmüşdür.

Prezident İlham Əliyev Davosda "Statoil-Hydro" şirkətinin baş icraçı direktoru Helge Lund ilə görüşmüşdür.

Prezident İlham Əliyev Davosda Böyük Britaniyanın hersoqu Endryu ilə görüşmüşdür.

Davosda Prezident İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.

29 yanvar 2009

Prezident İlham Əliyev Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının Prezidenti Tomas Mirov ilə görüşmüşdür.

Davosda Prezident İlham Əliyevin və Litva Prezidenti Valdas Adamkusun görüşü olmuşdur.

Prezident İlham Əliyev Davosda "Microsoft" korporasiyasının baş vitse-prezidenti Jan-Filip Kurtua ilə görüşmüşdür.

Prezident İlham Əliyev Davosda Albaniya Nazirlər Şurasının sədri Sali Berişa ilə görüşmüşdür.

30 yanvar 2009

Prezident İlham Əliyev Davosda bp şirkətinin prezidenti Toni Heyvord ilə görüşmüşdür.

Davosda Prezident İlham Əliyevin və İsrail Prezidenti Şimon Peresin görüşü olmuşdur.

Davosda Prezident İlham Əliyevin və Latviya Prezidenti Valdis Zatlersin görüşü olmuşdur.

Fevral 2009

10 fevral 2009

Prezident İlham Əliyev Küveyt Ticarət və Sənaye Palatası idarə heyətinin sədri ilə görüşmüşdür.

Prezident İlham Əliyev Küveyt Milli Məclisinin sədri Casim Məhəmməd əl-Xərafi ilə görüşmüşdür.

Prezident İlham Əliyev Küveyt Dövlətinin Baş naziri şeyx Nasir əl-Məhəmməd əl-Əhməd əs-Sabah ilə görüşmüşdür.

Əl-Küveytdə Prezident İlham Əliyevin və Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın görüşü olmuşdur.

13 fevral 2009

Prezident İlham Əliyev Çexiyanın Baş naziri Mirek Topolanek ilə görüşmüşdür.

16 fevral 2009

Afinada Prezident İlham Əliyevin və Yunanıstan Prezidenti Karolos Papulyasın təkbətək görüşü olmuşdur.

Afinada Prezident İlham Əliyev ilə Yunanıstan Prezidenti Karolos Papulyas arasında geniş tərkibdə görüş keçirilmişdir.

Prezident İlham Əliyev Afinada Ümumyunanıstan Sosialist Hərəkatının sədri Georgios Papandreu ilə görüşmüşdür.

Prezident İlham Əliyev "Vardinoyannis Group"un idarə heyətinin sədri Vardis Vardinoyannis ilə görüşmüşdür.

17 fevral 2009

Prezident İlham Əliyev Afinada Yunanıstan parlamentinin sədri Dimitris Siufas ilə görüşmüşdür.

Prezident İlham Əliyev Afinada Yunanıstan Baş naziri Kostas Karamanlis ilə görüşmüşdür.

Mart 2009

10 mart 2009

Tehranda Prezident İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejadın təkbətək görüşü olmuşdur.

Tehranda Prezident İlham Əliyev ilə İran Prezidenti Mahmud Əhmədinejad arasında geniş tərkibdə görüş keçirilmişdir.

Tehranda Prezident İlham Əliyevin və İranın ali rəhbəri Seyid Əli Xameneinin görüşü olmuşdur.

11 mart 2009

Tehranda Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün görüşü olmuşdur.

Aprel 2009

9 aprel 2009

Prezident İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü olmuşdur.

17 aprel 2009

Moskvada Prezident İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin görüşü olmuşdur.

18 aprel 2009

Prezident İlham Əliyev Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşmüşdür.

28 aprel 2009

Prezident İlham Əliyev Brüsseldə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşmüşdür.

Prezident İlham Əliyev Brüsseldə Belçika Krallığının Baş naziri Herman Van Rompey ilə görüşmüşdür.

Prezident İlham Əliyev Brüsseldə Avropa Siyasi Mərkəzinin nümayəndələri ilə görüşmüşdür.

29 aprel 2009

Prezident İlham Əliyev Brüsseldə NATO-nun baş katibi Yaap de Hoop Sxeffer ilə görüşmüşdür.

Prezident İlham Əliyev Brüsseldə NATO-nun üzvü olan dövlətlərin daimi nümayəndələri və səfirləri ilə görüşmüşdür.

Prezident İlham Əliyev Brüsseldə Avropa İttifaqı Nazirlər Şurasının baş katibi Xavyer Solana ilə görüşmüşdür.

May 2009

6 may 2009

Prezident İlham Əliyev Praqada İsrail Dövlətinin xarici işlər naziri Aviqdor Liberman ilə görüşmüşdür.

Prezident İlham Əliyev Praqada Çexiya Prezidenti Vatslav Klaus ilə görüşmüşdür.

7 may 2009

Praqada Prezident İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü keçirilmişdir.

Praqada Prezident İlham Əliyev Niderland Krallığının Baş naziri Yan Peter Balkenende ilə görüşmüşdür.

Praqada Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün görüşü olmuşdur.

Praqada Prezident İlham Əliyev Fransanın Baş naziri Fransua Fiyon ilə görüşmüşdür.

Praqada Prezident İlham Əliyev Böyük Britaniyanın xarici işlər naziri Devid Milibend ilə görüşmüşdür.

8 may 2009

Praqada Prezident İlham Əliyev ABŞ-ın Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstar ilə görüşmüşdür.

13 may 2009

Prezident İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyevlə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan arasında geniş tərkibdə görüş keçirilmişdir.

20 may 2009

Prezident İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyevlə Gürcüstan Prezidenti Mixail Saakaşvili arasında geniş tərkibdə görüş keçirilmişdir.

İyun 2009

4 iyun 2009

Sankt-Peterburqda Prezident İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin

görüşü olmuşdur.

Sankt-Peterburqda Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin birgə görüşü olmuşdur.

Sankt-Peterburqda Prezident İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü keçirilmişdir.

28 iyun 2009

Prezident İlham Əliyevin və İsrail Prezidenti Şimon Peresin təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyevlə İsrail Prezidenti Şimon Peres arasında geniş tərkibdə görüş keçirilmişdir.

29 iyun 2009

Prezident İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyevlə Rusiya Prezidenti Dmitri Medvedev arasında geniş tərkibdə görüş keçirilmişdir.

İyul 2009

2 iyul 2009

Prezident İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyevlə Polşa Prezidenti Lex Kaçinski arasında geniş tərkibdə görüş keçirilmişdir.

8 iyul 2009

Prezident İlham Əliyevin və Suriya Prezidenti Bəşşar əl-Əsədin təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyevlə Suriya Prezidenti Bəşşar əl-Əsəd arasında geniş tərkibdə görüş keçirilmişdir.

13 iyul 2009

Londonda Prezident İlham Əliyevin və Böyük Britaniyanın Baş naziri Qordon Braunun görüşü olmuşdur.

Londonda Prezident İlham Əliyevin Kral Beynəlxalq Münasibətlər İnstitutunda görüşü olmuşdur.

Prezident İlham Əliyev Londonda Böyük Britaniya və Şimali İrlandiyanın kraliçası ülyahəzrət II Elizabet ilə görüşmüşdür.

14 iyul 2009

Prezident İlham Əliyev Böyük Britaniya parlamentinin Xarici münasibətlər komitəsinin üzvləri ilə görüşmüşdür.

Prezident İlham Əliyev Londonda "British Council"in hazırkı sədri ser Cerard Lemos ilə görüşmüşdür.

Prezident İlham Əliyev Böyük Britaniyanın energetika və ətraf mühit məsələləri üzrə dövlət katibi Ed Milibənd ilə görüşmüşdür.

17 iyul 2009

Moskvada Prezident İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü keçirilmişdir.

18 iyul 2009

Moskvada Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin üçtərəfli görüşü olmuşdur.

Moskvada Prezident İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin görüşü olmuşdur.

Avqust 2009

10 avqust 2009

Prezident İlham Əliyevin və Latviya Prezidenti Valdis Zatlersin təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyevlə Latviya Prezidenti Valdis Zatlers arasında geniş tərkibdə görüş keçirilmişdir.

Sentyabr 2009

11 sentyabr 2009

Aktauda Prezident İlham Əliyevin Qazaxıstan, Rusiya və Türkmənistan Prezidentləri ilə görüşü olmuşdur.

28 sentyabr 2009

Buxarestdə Prezident İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun təkbətək görüşü olmuşdur.

Buxarestdə Prezident İlham Əliyevlə Rumıniya Prezidenti Trayan Besesku arasında geniş tərkibdə görüş keçirilmişdir.

Buxarestdə Prezident İlham Əliyev Rumıniyanın Baş naziri Emil Bok ilə görüşmüşdür.

29 sentyabr 2009

Prezident İlham Əliyev Buxarestdə Rumıniya Senatının sədri Mirça Coana ilə görüşmüşdür.

Prezident İlham Əliyev Buxarestdə Rumıniya Deputatlar Palatasının sədri xanım Roberta Anastase ilə görüşmüşdür.

Oktyabr 2009

2 oktyabr 2009

Prezident İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyevlə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev arasında geniş tərkibdə görüş keçirilmişdir.

Naxçıvanda Prezident İlham Əliyevin və Qırğızıstan Prezidenti Kurmanbek Bakiyevin görüşü olmuşdur.

3 oktyabr 2009

Prezident İlham Əliyev Naxçıvanda keçirilən Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmişdir.

8 oktyabr 2009

Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.

9 oktyabr 2009

Kişinyovda Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir.

Prezident İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun görüşü olmuşdur.

12 oktyabr 2009

Prezident İlham Əliyevin və İordaniya Kralı II Abdullahın görüşü olmuşdur.

Prezident İlham Əliyevin və Kral II Abdullahın geniş tərkibdə görüşü olmuşdur.

Prezident İlham Əliyev İordaniya Haşimilər Krallığının Baş naziri Nader Dəhəbi ilə görüşmüşdür.

19 oktyabr 2009

Prezident İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Hans-Rudolf Mertsin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident İlham Əliyev İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri ilə görüşmüşdür.

20 oktyabr 2009

Prezident İlham Əliyev İsveçrənin enerji, nəqliyyat, kommunikasiya və ətraf mühit üzrə federal müşaviri ilə görüşmüşdür.

Noyabr 2009

9 noyabr 2009

Prezident İlham Əliyevin və Sloveniya Prezidenti Danilo Türkün təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyevin və Sloveniya Prezidenti Danilo Türkün geniş tərkibdə görüşü olmuşdur.

12 noyabr 2009

Prezident İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun geniş tərkibdə görüşü olmuşdur.

13 noyabr 2009

Prezident İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pırvanovun görüşü olmuşdur.

22 noyabr 2009

Prezident İlham Əliyev və Ermənistan prezidenti Serj Sarkisyan Münxendə görüşmüşlər.

24 noyabr 2009

Prezident İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin təkbətək görüşü olmuşdur.

Dekabr 2009

8 dekabr 2009

Prezident İlham Əliyev GDF Seuz Şirkətinin baş əməliyyatçı direktoru ilə görüşmüşdür.

9 dekabr 2009

Prezident İlham Əliyev Fransa Sahibkarlar Təşkilatına - MEDEF-ə üzv olan iş adamları ilə görüşmüşdür.

Prezident İlham Əliyev Fransa Milli Assambleyasının sədri ilə görüşmüşdür.

Prezident İlham Əliyevin və Fransa Prezidenti Nikola Sarkozinin görüşü olmuşdur .

Prezident İlham Əliyev Fransa xarici işlər naziri Bernar Kuşner ilə görüşmüşdür.

Prezident İlham Əliyev Fransa Senatının sədri ilə görüşmüşdür.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2009-CU İLDƏKİ QƏBULLARI BARƏDƏ MƏLUMAT

Yanvar 2009

19 yanvar 2009

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir.

21 yanvar 2009

Prezident İlham Əliyev Avropa İttifaqının xarici əlaqələr və Avropa qonşuluq siyasəti üzrə komissarı xanım Benita Ferrero-Valdnerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Fevral 2009

6 fevral 2009

Prezident İlham Əliyev Hindistanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Estoniyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Anqolanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Yəmənin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Nigeriyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Beninin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Vyetnamın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Cənubi Afrika Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Zimbabvenin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Şri-Lankanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

9 fevral 2009

Prezident İlham Əliyev Türkiyənin xarici işlər naziri Əli Babacanı qəbul etmişdir.

13 fevral 2009

Prezident İlham Əliyev ATƏT Parlament Assambleyası sədrinin xüsusi nümayəndəsi Qoran Lenmarkeri qəbul etmişdir.

18 fevral 2009

Prezident İlham Əliyev İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul etmişdir.

Prezident İlham Əliyev İslam Konfransı Təşkilatının Baş katibinin müavini Atta əl-Mənnanı qəbul etmişdir.

19 fevral 2009

Prezident İlham Əliyev İranın xarici işlər naziri Mənuçehr Mottəkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

23 fevral 2009

Prezident İlham Əliyev Gürcüstan parlamenti sədrinin müavini Pridon Toduanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

27 fevral 2009

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir.

Prezident İlham Əliyev "Total" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti İv Lui Darrikarreri qəbul etmişdir.

Prezident İlham Əliyev Kikboksinq Təşkilatları Dünya Assosiasiyasının prezidenti Ennio Falsonini qəbul etmişdir.

Prezident İlham Əliyev Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.

Mart 2009

2 mart 2009

Prezident İlham Əliyev Gürcüstanın Acarıstan MR hökumətinin başçısı Levan Varşalomidzeni qəbul etmişdir.

3 mart 2009

Prezident İlham Əliyev İtaliya xarici işlər nazirinin müavini Alfredo Mantikanı qəbul etmişdir.

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir.

5 mart 2009

Prezident İlham Əliyev BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Bruno Puezanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

6 mart 2009

Prezident İlham Əliyev Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Çjan Xayçjounu qəbul etmişdir.

9 mart 2009

Prezident İlham Əliyev Almaniyanın "RWI" energetika şirkətinin prezidenti Yurgen Qrossmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Türkiyə Respublikasının Jandarm Qüvvələri komandanı, ordu generalı Atilla İşıkı qəbul etmişdir.

12 mart 2009

Prezident İlham Əliyev Rusiya xarici işlər naziri Sergey Lavrovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

13 mart 2009

Prezident İlham Əliyev Qırğızıstan parlamenti sədrinin birinci müavini Çolpon Bayekovanı qəbul etmişdir.

Prezident İlham Əliyev Rusiya Federasiyasının ölkəmizdəki səfiri Vasili İstratovu qəbul etmişdir.

16 mart 2009

Prezident İlham Əliyev Fransa Senatının keçmiş sədri, senator Kristian Ponsöleni qəbul etmişdir.

Prezident İlham Əliyev Konstitusional referendumun müşahidə olunması üzrə xüsusi komitənin üzvlərini qəbul etmişdir.

18 mart 2009

Prezident İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin müavini Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

19 mart 2009

Prezident İlham Əliyev Fransa-Azərbaycan Birgə İqtisadi Komissiyasının həmsədri xanım Ann-Mari İdrakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev YUNESKO-nun baş direktoru Koişiro Matsuuranı qəbul etmişdir.

Aprel 2009

2 aprel 2009

Prezident İlham Əliyev Bolqarıstanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Rusiyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Mərakeşin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Çinin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Xəzəryanı ölkələrin nəqliyyat nazirlərini qəbul etmişdir.

Prezident İlham Əliyev Almaniya xarici işlər nazirinin müavini Gernot Erlerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev OPEK-in Beynəlxalq İnkişaf üçün Fondunun baş direktorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

3 aprel 2009

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Metyu Brayzanı qəbul etmişdir.

7 aprel 2009

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernar Fasyeni qəbul etmişdir.

Prezident İlham Əliyev Litvanın xarici işlər naziri Viqaudas Uşatskasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev güləş üzrə milli komandanın üzvlərini və məşqçilərini qəbul etmişdir.

8 aprel 2009

Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Avropa Şurası Monitorinq Komitəsinin həmməruzəçilərini qəbul etmişdir.

13 aprel 2009

Prezident İlham Əliyev bp-Azərbaycan şirkətinin prezidenti Bill Şrederin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

14 aprel 2009

Prezident İlham Əliyev İsveçrənin Holsim Group şirkətinin baş direktoru Markus Akermanı qəbul etmişdir.

15 aprel 2009

Prezident İlham Əliyev İraqın turizm və tarixi abidələr naziri Kahtan Abbas Noman Əl-Cuburi Alavadinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Metyu Brayzanı qəbul etmişdir.

16 aprel 2009

Prezident İlham Əliyev Latviyanın xarici işlər naziri Maris Riekstinşin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev İsveçrənin iqtisadi məsələləri üzrə dövlət katibi Jan-Daniel Gerberi qəbul etmişdir.

20 aprel 2009

Prezident İlham Əliyev İranın ölkəmizdəki səfiri Nəsir Həmidi Zareni qəbul etmişdir.

21 aprel 2009

Prezident İlham Əliyev İKT-nın üzvü olan dövlətlərin hüquq mühafizə orqanları rəhbərləri Konfransının iştirakçılarını qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycan-ABŞ Ticarət Palatası idarə heyətinin həmsədri Ceyms Beykeri qəbul etmişdir.

Prezident İlham Əliyev BƏƏ-nin iqtisadiyyat naziri Sultan bin Səid Al Mənsurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

24 aprel 2009

Prezident İlham Əliyev İran Sərhəd Polisinin komandanı general-mayor Qasım Rzayini qəbul etmişdir.

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir.

Prezident İlham Əliyev Rusiya Sərhəd Xidmətinin rəhbəri Vladimir Proniçevi qəbul etmişdir.

May 2009

4 may 2009

Prezident İlham Əliyev ATƏT-in Bakı ofisinin yeni təyin olunmuş rəhbəri Bilge Cankoreli qəbul etmişdir.

5 may 2009

Prezident İlham Əliyev ABŞ müdafiə nazirinin Avropa və NATO siyasəti məsələləri üzrə müşaviri xanım Meri Varlikin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

8 may 2009

Praqada Prezident İlham Əliyev ABŞ-ın Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstar ilə görüşmüşdür.

13 may 2009

Prezident İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyevlə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan arasında geniş tərkibdə görüş keçirilmişdir.

12 may 2009

Prezident İlham Əliyev ABŞ-ın Xarici Əlaqələr Şurasının üzvlərini qəbul etmişdir.

Prezident İlham Əliyev Slovakiyanın ədliyyə naziri Ştefan Harabini qəbul etmişdir.

Prezident İlham Əliyev Türkiyə Ali Məhkəməsinin sədri Hasan Gerçəkəri qəbul etmişdir.

Prezident İlham Əliyev Gürcüstan Ali Məhkəməsinin sədri Konstantin Kublaşvilini qəbul etmişdir.

Prezident İlham Əliyev "TeliaSonera" şirkətinin prezidenti və baş icraçı direktoru Lars Niberqi qəbul etmişdir.

15 may 2009

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Bernar Fasyeni qəbul etmişdir

Prezident İlham Əliyev Avropa Ədalətli Oyunlar Hərəkatının İcraçı Komitəsinin nümayəndə heyətini qəbul etmişdir.

18 may 2009

Prezident İlham Əliyev İsveçrə Konfederasiyasının xarici işlər üzrə dövlət katibi Mixael Ambülü qəbul etmişdir.

Prezident İlham Əliyev İranın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Estoniyanın sabiq Prezidenti Arnold Rüyteli qəbul etmişdir.

19 may 2009

Prezident İlham Əliyev Pakistanın müdafiə sənayesi federal naziri Əbdül Qəyyum Xan Catoyu qəbul etmişdir.

Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Macarıstan Parlamentinin Avropa İşləri üzrə komitəsinin sədri Matyas Eörşinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

21 may 2009

Prezident İlham Əliyev ABŞ-ın Avropadakı Silahlı Qüvvələrinin komandanı General Bants Kraddokun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

22 may 2009

Prezident İlham Əliyev bp şirkətinin vitse-prezidenti Endryu İnqlisi qəbul etmişdir.

26 may 2009

Prezident İlham Əliyev Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlunu qəbul etmişdir.

Prezident İlham Əliyev BƏƏ Krallığının energetika naziri Məhəmməd Dhaen Əl-Hamilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Əsəd Ələmin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

29 may 2009

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir.

Prezident İlham Əliyev Rusiyanın energetika naziri Sergey Şmatkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İyun 2009

1 iyun 2009

Prezident İlham Əliyev ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi səfir Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Gürcüstanın Baş naziri Nika Qilaurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

2 iyun 2009

Prezident İlham Əliyev Norveçin dövlət katibi Robin Martin Kaasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Böyük Britaniyanın York hersoqu şahzadə Endryunu qəbul etmişdir.

3 iyun 2009

Prezident İlham Əliyev Suriyanın xarici işlər naziri Valid əl-Muallemin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

22 iyun 2009

Prezident İlham Əliyev Braziliyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri xanım Ann Dersi qəbul etmişdir.

23 iyun 2009

Prezident İlham Əliyev Serbiyanın xarici işlər naziri Vuk Yeremiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

25 iyun 2009

Prezident İlham Əliyev Latviyanın ətraf mühit naziri Raymonds Veyonisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İyul 2009

1 iyul 2009

Prezident İlham Əliyev Fransanın MDB ölkələrində akkreditə olunan səfirlərini qəbul etmişdir.

2 iyul 2009

Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri xanım Dora Bakoyannini qəbul etmişdir.

Prezident İlham Əliyev Rumıniyanın iqtisadiyyat naziri Adriyan Vidyanunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

3 iyul 2009

Prezident İlham Əliyev Azərbaycan və Ermənistanın bir qrup ziyalısını qəbul etmişdir

6 iyul 2009

Prezident İlham Əliyev xarici ölkələrin din xadimlərini qəbul etmişdir.

7 iyul 2009

Prezident İlham Əliyev Belarusun Baş naziri Sergey Sidorskini qəbul etmişdir.

9 iyul 2009

Prezident İlham Əliyev BƏƏ-nin xarici işlər naziri şeyx Abdulla bin Zaid al-Nəhəyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

10 iyul 2009

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir.

Prezident İlham Əliyev ABŞ Dövlət Departamenti katibinin birinci müavini Ceyms Staynberqi qəbul etmişdir.

13 iyul 2009

Prezident İlham Əliyev Londonda BP şirkətinin icraçı direktoru Toni Hayvordu qəbul etmişdir.

16 iyul 2009

Prezident İlham Əliyev ATƏT-in baş katibi Mark Perrin de Brişambonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

20 iyul 2009

Prezident İlham Əliyev İsveç Krallığının xarici işlər naziri Karl Bildtin başçılıq etdiyi Avropa İttifaqı "Üçlüyü"nün nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev London Sitinin meri Alderman İan Luderin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

21 iyul 2009

Prezident İlham Əliyev İsrailin ölkəmizdəki səfiri Artur Lenki qəbul etmişdir.

23 iyul 2009

Prezident İlham Əliyev Çexiyanın maliyyə naziri Eduard Yanotanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

30 iyul 2009

Prezident İlham Əliyev Küveytin ölkəmizdəki səfiri Fəhd Saad Səid əl-Meyi qəbul etmişdir.

Avqust 2009

1 avqust 2009

Prezident İlham Əliyev Rusiya Federasiyasının müdafiə naziri Anatoli Serdyukovu qəbul etmişdir.

6 avqust 2009

Prezident İlham Əliyev BP-nin axtarış-kəşfiyyat və hasilat işləri üzrə baş icraçı direktoru Endryu İnqlisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

12 avqust 2009

Prezident İlham Əliyev Almaniyanın Baden-Vürtemberq federal torpağının Baş naziri Günter Oettingeri qəbul etmişdir.

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Metyu Brayzanı qəbul etmişdir.

26 avqust 2009

Prezident İlham Əliyev Avropa Komissiyasının Azərbaycandakı nümayəndəsi Alan Vaddamsı qəbul etmişdir.

Prezident İlham Əliyev İsrail dövlətinin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir.

27 avqust 2009

Prezident İlham Əliyev Almaniyanın "RWE" şirkətinin prezidenti Yurgen Qrossmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev ABŞ-ın Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

29 avqust 2009

Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirinin birinci müavini Feridun Sinirlioğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Sentyabr 2009

9 sentyabr 2009

Prezident İlham Əliyev İtaliyanın ölkəmizdəki səfiri Can Luici Maşanı qəbul etmişdir.

10 sentyabr 2009

Prezident İlham Əliyev Ericsson şirkətinin birinci vitse-prezidenti Hans Vestberqi qəbul etmişdir.

14 sentyabr 2009

Prezident İlham Əliyev Azərbaycanın cüdo üzrə milli komandasının üzvlərini qəbul etmişdir.

15 sentyabr 2009

Prezident İlham Əliyev Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadzeni qəbul etmişdir.

Prezident İlham Əliyev Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Andris Piebalqsı qəbul etmişdir.

16 sentyabr 2009

Prezident İlham Əliyev Böyük Britaniyanın enerji məsələləri üzrə dövlət naziri Lord Hantı qəbul etmişdir.

Prezident İlham Əliyev müsəlman ölkələrinin Azərbaycanda fəaliyyət göstərən səfirlərini qəbul etmişdir.

17 sentyabr 2009

Prezident İlham Əliyev TÜRKSOY-un baş direktoru Düsen Kasçinovu qəbul etmişdir.

24 sentyabr 2009

Prezident İlham Əliyev Çexiya Parlamenti Senatının sədri Prşemısl Sobotkanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

26 sentyabr 2009

Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Məhmət Əli Şahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

30 sentyabr 2009

Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebini qəbul etmişdir.

Oktyabr 2009

1 oktyabr 2009

Prezident İlham Əliyev Çexiyanın Baş nazirinin müavini Martin Bartakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Dünya Bankının Avropa və Mərkəzi Asiya Regionu üzrə Davamlı İnkişaf Sektorunun direktoru Piter Tomsonu qəbul etmişdir.

5 oktyabr 2009

Prezident İlham Əliyev Pakistan Silahlı Qüvvələrinin Birləşmiş Qərargahlar Komitəsinin sədri general Tariq Məcidi qəbul etmişdir.

Prezident İlham Əliyev ABŞ-ın energetika nazirinin müavini Daniel Ponemanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir.

6 oktyabr 2009

Prezident İlham Əliyev Slovakiyanın Konstitusiya Məhkəməsinin sədri İvetta Matsejkovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

14 oktyabr 2009

Prezident İlham Əliyev İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransının nümayəndələrini qəbul etmişdir.

15 oktyabr 2009

Prezident İlham Əliyev İran İslam Respublikası Prezidentinin İcra Aparatının rəhbərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

21 oktyabr 2009

Prezident İlham Əliyev Dünya Bankının sərəncamçı direktorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

22 oktyabr 2009

Prezident İlham Əliyev Bolqarıstanın xarici işlər nazirini qəbul etmişdir.

Prezident İlham Əliyev İran İslam Respublikası xarici işlər nazirinin müavini qəbul etmişdir.

Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul etmişdir.

23 oktyabr 2009

Prezident İlham Əliyev ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşavirini qəbul etmişdir.

Prezident İlham Əliyev Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev İtaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul etmişdir.

28 oktyabr 2009

Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin xarici əlaqələr komissiyasının üzvlərini qəbul etmişdir.

30 oktyabr 2009

Prezident İlham Əliyev Fələstin Muxtariyyətinin xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Noyabr 2009

2 noyabr 2009

Prezident İlham Əliyev Yalta şəhərinin başçısını qəbul etmişdir.

Prezident İlham Əliyev Türkiyənin Quru Qoşunları Komandanının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

3 noyabr 2009

Prezident İlham Əliyev Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

4 noyabr 2009

Prezident İlham Əliyev Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibini qəbul etmişdir.

Prezident İlham Əliyev Gürcüstan Patriarx Katalikosu II İlyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

5 noyabr 2009

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini VƏ ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir.

Prezident İlham Əliyev Minsk və Slutsk Mitropoliti, Belarus üzrə Patriarx Ekzarxı Filaretin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

6 noyabr 2009

Prezident İlham Əliyev Dağıstan Respublikasının Prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Moskvanın və Bütün Rusiyanın Patriarxını qəbul etmişdir.

Prezident İlham Əliyev Çeçenistan Respublikasının Prezidentini qəbul etmişdir.

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir.

10 noyabr 2009

Prezident İlham Əliyev Gürcüstanın ölkəmizdəki səfiri Nikoloz Natbiladzeni səlahiyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir .

11 noyabr 2009

Prezident İlham Əliyev Türkiyənin dövlət nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev İslam Konfransı Təşkilatının baş katibini qəbul etmişdir.

16 noyabr 2009

Prezident İlham Əliyev Küveytin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Avropa Komissiyasının ölkəmizdəki nümayəndəliyinin rəhbərinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul etmişdir .

18 noyabr 2009

Prezident İlham Əliyev Fransa Sahibkarlar Təşkilatının (MEDEF) nümayəndə heyətini qəbul etmişdir.

23 noyabr 2009

Prezident İlham Əliyev Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbərini qəbul etmişdir.

Prezident İlham Əliyev ABŞ müdafiə nazirinin Rusiya, Ukrayna və Avrasiya məsələləri üzrə müşavirini qəbul etmişdir.

25 noyabr 2009

Prezident İlham Əliyev "Aqo" monitorinq qrupunun sədrini qəbul etmişdir.

Prezident İlham Əliyev Polşanın milli müdafiə nazirini qəbul etmişdir.

Dekabr 2009

1 dekabr 2009

Prezident İlham Əliyev Böyük Britaniyanın keçmiş Baş naziri Toni Bleyeri qəbul etmişdir.

Prezident İlham Əliyev Böyük Britaniyanın Yorq Hersoqu, şahzadə Endryunu qəbul etmişdir.

10 dekabr 2009

Prezident İlham Əliyev Koreyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Beynəlxalq Boks Assosiasiyasının prezidentini qəbul etmişdir.

11 dekabr 2009

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir.

MÜNDƏRİCAT

RUSİYANIN AZƏRBAYCANDAKI SƏFİRİ XARİCİ İŞLƏR NAZİRLİYİNƏ DƏVƏT EDİLMİŞDİR ... 3
ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ... 3
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ... 3
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM ... 3
RƏSMİ QARŞILANMA MƏRASİMİ ... 4
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN TƏKBƏTƏK GÖRÜŞÜ ... 4
AZƏRBAYCAN VƏ ESTONİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ ... 5
AZƏRBAYCAN VƏ ESTONİYA PREZİDENTLƏRİ BİRGƏ BƏYANNAMƏ İMZALAMIŞLAR ... 6
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI ... 6
ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN BƏYANATI ... 7
AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVANIN VƏ ESTONİYA PREZİDENTİNİN XANIMI EVELİN İLVESİN GÖRÜŞÜ ... 9
ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN VƏ AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏNİN BİRGƏ İŞGÜZAR NAHARI ... 9
PREZİDENT İLHAM ƏLİYEV VƏ PREZİDENT TOOMAS HENDRİK İLVES BAKIDA KEÇİRİLMİŞ AZƏRBAYCAN-ESTONİYA BİZNES FORUMUNDA İŞTİRAK ETMİŞLƏR ... 9
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI ... 9
ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN ÇIXIŞI ... 12
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ ... 14
ALİ QONAĞIN ŞƏRƏFİNƏ ... 15
ESTONİYA PREZİDENTİ İCTİMAİ TELEVİZİYAYA MÜSAHİBƏ VERMİŞDİR ... 15
ESTONİYA PREZİDENTİ AZƏRBAYCANIN SƏNAYE VƏ ENERGETİKA NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR ... 17
SƏNGƏÇAL NEFT TERMİNALI İLƏ TANIŞLIQ ... 17
ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVES QALA ARXEOLOJİ-ETNOQRAFİK MUZEY KOMPLEKSİNDƏ OLMUŞDUR ... 18
ESTONİYA PREZİDENTİ CAZ MUSİQİSİ KONSERTİNDƏ OLMUŞDUR ... 19
ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATMIŞDIR ... 19
AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI ... 19
AZƏRBAYCANIN VƏ RUSİYANIN XİN RƏHBƏRLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR ... 20
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR ... 20
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ XARİCİ ƏLAQƏLƏR VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI XANIM BENİTA FERRERO-VALDNERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 21

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOV AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR 21
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN TƏKBƏTƏK GÖRÜŞÜ 21
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 22
SƏFƏR BAŞA ÇATDI 22
RUSİYA TƏRƏFİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLİYİNİN RƏSMİ NOTASINA CAVAB NOTASI TƏQDİM ETMİŞDİR 22
AZƏRBAYCANIN ABŞ-DAKI SƏFİRİ HİLLARİ KLİNTONU DÖVLƏT KATİBİ TƏYİN OLUNMASI MÜNASİBƏTİLƏ TƏBRİK ETMİŞDİR 22
AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ KEYPTAUNDA KEÇİRİLƏN BEYNƏLXALQ FORUMDA İŞTİRAK ETMİŞDİR 23
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTANA İŞGÜZAR SƏFƏRİ 23
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTAN TELEQRAF AGENTLİYİNƏ VƏ DUNA TELEVİZİYASINA MÜSAHİBƏ VERMİŞDİR 24
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BLOOMBERG NEWS TELEVİZİYASINA MÜSAHİBƏ VERMİŞDİR 24
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA İNVESTİSİYA BANKININ PREZİDENTİ İLƏ GÖRÜŞÜ 24
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTANIN BAŞ NAZİRİ SERGEY STANİŞEV İLƏ GÖRÜŞÜ 24
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇEXİYANIN BAŞ NAZİRİ MİREK TOPOLANEK İLƏ GÖRÜŞÜ 25
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇAN İLƏ GÖRÜŞÜ 25
NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN ŞƏRƏFİNƏ 26
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MACARISTAN PREZİDENTİ LASLO ŞOYOMUN GÖRÜŞÜ 26
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ ENERGETİKA MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI ANDRİS PİEBALQS İLƏ GÖRÜŞÜ 26
BUDAPEŞTDƏ NABUKKO LAYİHƏSİNƏ DAİR ENERJİ SAMMİTİ KEÇİRİLMİŞDİR 26
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 28
AZƏRBAYCAN PREZİDENTİNİN MACARISTANA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATDI 31
İSTANBULDA QAFQAZDA SABİTLİK VƏ ƏMƏKDAŞLIQ PLATFORMASI İLƏ BAĞLI GÖRÜŞ KEÇİRİLMİŞDİR 31
YAPONİYANIN GUNMO UNİVERSİTETİ İLƏ BAKI DÖVLƏT UNİVERSİTETİ ARASINDA ƏMƏKDAŞLIĞA DAİR MÜQAVİLƏ İMZALANMIŞDIR 32
XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ İŞƏ QƏBULLA BAĞLI KEÇİRİLƏN İMTAHAN NƏTİCƏSİNDƏ 26 NƏFƏR STAJ KEÇMƏK İMKANI QAZANMIŞDIR 33
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI BİNASININ TİKİNTİSİNƏ BAŞLANILMIŞDIR 33
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ RƏHBƏRİNİN TƏKLİFLƏRİ İKT ÜZVÜ OLAN DÖVLƏTLƏRİN İNFORMASİYA NAZİRLƏRİNİN RABATDA KEÇİRİLƏN 8-Cİ KONFRANSININ YEKUN QƏTNAMƏSİNƏ DAXİL EDİLMİŞDİR 34

SÜRİXDƏ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 35
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ 35
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ SÜRİXDƏ BİRGƏ BƏYANAT YAYMIŞLAR 35
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "WALL STREET JOURNAL" QƏZETİNƏ MÜSAHİBƏ VERMİŞDİR 36
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA NAZİRLƏR ŞURASININ SƏDRİ DONALD TUSK İLƏ GÖRÜŞÜ 40
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "STATOIL-HYDRO" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜ 40
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CNBS TELEVİZİYA KANALINA MÜSAHİBƏ VERMİŞDİR 40
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN HERSOQU ENDRYU İLƏ GÖRÜŞÜ 44
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ 44
PREZİDENT İLHAM ƏLİYEV "ENERGY OUTLOOK-2009" MÖVZUSUNDA İCLASDA İŞTİRAK ETMİŞDİR 44
PREZİDENT İLHAM ƏLİYEV "BÖYÜK OYUN TƏKRARLANIR" DEVİZİ İLƏ KEÇİRİLƏN İCLASDA İŞTİRAK ETMİŞDİR 50
PREZİDENT İLHAM ƏLİYEV "NEFT-QAZ SİYASƏTİ - XƏRİTƏ DƏYİŞİKLİYİ" MÖVZUSUNDA İCLASDA İŞTİRAK ETMİŞDİR 59
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 60
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ TOMAS MİROV İLƏ GÖRÜŞÜ 60
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV REUTERS AGENTLİYİNƏ MÜSAHİBƏ VERMİŞDİR 60
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN GÖRÜŞÜ 63
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "MICROSOFT" KORPORASİYASININ BAŞ VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞÜ 63
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALBANİYA NAZİRLƏR ŞURASININ SƏDRİ SALİ BERİŞA İLƏ GÖRÜŞÜ 64
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CNN TELEVİZİYA KANALINA MÜSAHİBƏ VERMİŞDİR 64
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN bp ŞİRKƏTİNİN PREZİDENTİ TONİ HEYVORD İLƏ GÖRÜŞÜ 66
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN GÖRÜŞÜ 67
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSRAİL PREZİDENTİ ŞİMON PERESİN GÖRÜŞÜ 67
DAVOSDA AZƏRBAYCAN ÜZRƏ QARŞILIQLI BİZNES ƏLAQƏLƏRİ QRUPUNUN FORUMU KEÇİRİLMİŞDİR 67
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 68

XARİCİ İŞLƏR NAZİRİ ESTONİYA RESPUBLİKASININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİ AİVO ORAVI ETİMADNAMƏLƏRİNİN SURƏTİNİ TƏQDİM ETMƏSİ İLƏ BAĞLI QƏBUL ETMİŞDİR 73

XARİCİ İŞLƏR NAZİRİ POLŞANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 74

AZƏRBAYCAN HÖKUMƏTİNİN UNİVERSAL DÖVRİ İCMAL MEXANİZMİ ÜZRƏ HAZIRLADIĞI MİLLİ MƏRUZƏ YÜKSƏK QİYMƏTLƏNDİRİLMİŞDİR 74

XARİCİ İŞLƏR NAZİRİ YƏMƏN, NİGERİYA, BENİN, CƏNUBİ AFRİKA RESPUBLİKASI, VYETNAM, ZİMBABVE VƏ ŞRİ LANKANIN EYNİ ZAMANDA AZƏRBAYCANA YENİ TƏYİN OLUNMUŞ SƏFİRLƏRİNİ ETİMADNAMƏLƏRİNİN SURƏTİNİ TƏQDİM ETMƏLƏRİ ÜÇÜN QƏBUL ETMİŞDİR 76

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HİNDİSTAN RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DEBNAD ŞOUNUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 78

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ AİVO ORAVIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 78

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ANQOLA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ SAMUEL TİTU ARMANDUNUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 79

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YƏMƏN RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ CƏMAL ABDULLAH ƏL-CƏLALİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 79

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİGERİYA FEDERATİV RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ABUBAKAR SİKANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 80

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BENİN RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ VASSİNTO AYİ D'ALMEİDİANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 80

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VYETNAM SOSİALİST RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ BUY DİN DİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 81

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏNUBİ AFRİKA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TEBOGO SEOKOLONUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 81

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ZİMBABVE RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ FELEKEZELA MFOKONUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 82

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ MOHAMED MOHAMED ZUHAİRİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 82

ALMANİYADA AVROPANIN TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİNƏ HƏSR EDİLƏN 45-Cİ BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR 83

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏLİ BABACANI QƏBUL ETMİŞDİR 83

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜVEYTƏ RƏSMİ SƏFƏRİ 84

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜVEYT TİCARƏT VƏ SƏNAYE PALATASI İDARƏ HEYƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞÜ 84

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜVEYT MİLLİ MƏCLİSİNİN SƏDRİ İLƏ GÖRÜŞÜ 84

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜVEYT DÖVLƏTİNİN BAŞ NAZİRİ İLƏ GÖRÜŞÜ 85

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHIN GÖRÜŞÜ 85

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 86

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 86

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜVEYTƏ RƏSMİ SƏFƏRİ BAŞA ÇATMIŞDIR 86

ÇEXİYANIN BAŞ NAZİRİ MİREK TOPOLANEKİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 87

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 87

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 87

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYANIN BAŞ NAZİRİ MİREK TOPOLANEK İLƏ GÖRÜŞMÜŞDÜR 87

ÇEXİYA BAŞ NAZİRİNİN ŞƏRƏFİNƏ 88

AZƏRBAYCAN VƏ ÇEXİYA BAŞ NAZİRLƏRİNİN GÖRÜŞÜ 88

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ İLƏ TANIŞLIQ 89

AZƏRBAYCAN İLƏ ÇEXİYA ARASINDA MÜNASİBƏTLƏRİN İNKİŞAFINDA MÜHÜM ROL OYNAMIŞ ŞƏXSLƏRƏ "KAREL KRAMARJ" XATİRƏ MEDALI TƏQDİM EDİLMİŞDİR 89

SƏFƏR BAŞA ÇATDI 90

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ QORAN LENMARKERİ QƏBUL ETMİŞDİR 90

XARİCİ İŞLƏR NAZİRİ BÖYÜK BRİTANİYA KRALLIĞININ XARİCİ VƏ BİRLİK OFİSİNİN SİYASİ İDARƏSİNİN BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR 90

XARİCİ İŞLƏR NAZİRİ NİDERLAND KRALLIĞININ XARİCİ SİYASƏT İDARƏSİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR 91

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YUNANISTANA DÖVLƏT SƏFƏRİ 91

PREZİDENT SARAYI ÖNÜNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ 91

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYASIN GÖRÜŞÜ 92

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 92

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 93

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI 93

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 94

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTAN PARLAMENTİNDƏ ƏSAS MÜXALİFƏT PARTİYASININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 95

"VARDINOYANNIS GROUP"UN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ "MOTOR OIL HELLAS"IN PREZİDENTİ İLƏ GÖRÜŞ 95

AZƏRBAYCANIN BİRİNCİ XANIMI YUNANISTAN MİLLİ QALEREYASINDA OLMUŞDUR 95
MİLLİ ARXEOLOJİ MUZEY İLƏ TANIŞLIQ 95
AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ 96
YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYASIN NİTQİ 96
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 97
NAMƏLUM ƏSGƏRİN MƏZARINI ZİYARƏT 98
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTAN PARLAMENTİNİN SƏDRİ DİMİTRİS SİUFASLA GÖRÜŞMÜŞDÜR 99
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN BAŞ NAZİRİ KOSTAS KARAMANLİS İLƏ GÖRÜŞMÜŞDÜR 100
PREZİDENT İLHAM ƏLİYEV VƏ BAŞ NAZİR KOSTAS KARAMANLİS MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 101
YUNANISTANIN BAŞ NAZİRİ KOSTAS KARAMANLİSİN BƏYANATI 101
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 101
BİRGƏ İŞÇİ NAHAR 104
AZƏRBAYCAN-YUNANISTAN BİZNES FORUMU 104
YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYASIN ÇIXIŞI 105
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 105
YUNANISTANIN BAŞ NAZİRİ KOSTAS KARAMANLİSİN ÇIXIŞI 109
AZƏRBAYCANIN BİRİNCİ XANIMI AFİNADA XƏRÇƏNG XƏSTƏLİYİNƏ TUTULAN UŞAQLARIN DOSTLUQ ASSOSİASİYASINDA OLMUŞDUR 110
AZƏRBAYCANIN BİRİNCİ XANIMI YUNANISTAN MİLLİ QALEREYASINDA OLMUŞDUR 110
YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MARİANNA VARDİNOYANNİSİN ADINDAN AZƏRBAYCANIN BİRİNCİ XANIMININ ŞƏRƏFİNƏ NAHAR VERİLMİŞDİR 111
SƏFƏR BAŞA ÇATDI 111
MİLLİ MƏCLİSİN NÜMAYƏNDƏ HEYƏTİ SLOVENİYADA SƏFƏRDƏ OLMUŞDUR 111
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSESKO-NUN BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİNİ QƏBUL ETMİŞDİR 114
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİNİN MÜAVİNİ ATTA ƏL-MƏNNANI QƏBUL ETMİŞDİR 115
TOKİODA GUAM + YAPONİYA FORMATINDA MİLLİ ƏLAQƏLƏNDİRİCİLƏRİN İCLASI KEÇİRİLMİŞDİR 115
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİ, AZƏRBAYCAN-İRAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ HƏMSƏDRİ MƏNUÇEHR MOTTƏKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 116
BAKIDA AZƏRBAYCAN-İRAN DÖVLƏTLƏRARASI MÜŞTƏRƏK KOMİSSİYANIN YEDDİNCİ İCLASI KEÇİRİLMİŞDİR 116
AZƏRBAYCAN VƏ İRAN ARASINDA DÖVLƏTLƏRARASI KOMİSSİYANIN YEDDİNCİ İCLASININ NƏTİCƏLƏRİ BARƏDƏ MEMORANDUM İMZALANMIŞDIR 117
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI MOSKVADA BİR SIRA TƏDBİRLƏR KEÇİRMİŞDİR 117

ATƏT-İN MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİNİN HƏRBİ YOLLA MÜMKÜNSÜZLÜYÜNƏ DAİR BƏYANATLARI ERMƏNİSTANA YÖNƏLMƏLİDİR 118
AZƏRBAYCAN 2010-CU İLƏDƏK QANUNVERİCİLİYİN DTT STANDARTLARINA UYĞUNLAŞDIRILMASI ÜZRƏ FƏALİYYƏT PLANINI YERİNƏ YETİRMƏK NİYYƏTİNDƏDİR 119
XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ XƏZƏR İŞGÜZAR KLUBUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 119
AZƏRBAYCAN "ŞƏRQ TƏRƏFDAŞLIĞI" PROQRAMINA QOŞULMAQLA BAĞLI AVROPA İTTİFAQININ TƏKLİFİNİ ÖYRƏNİR 120
AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI 120
MOSKVADA AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ PROQRAMININ TƏQDİMATI KEÇİRİLMİŞDİR 120
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ PRİDON TODUANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 121
BAKIDA AZƏRBAYCAN RESPUBLİKASI VƏ RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA KONSULLUQ MƏSƏLƏLƏRİ İLƏ BAĞLI NİYYƏT PROTOKOLU İMZALANMIŞDIR 122
AZƏRBAYCAN VƏ UKRAYNA XARİCİ İŞLƏR NAZİRLƏRİ ÖLKƏLƏRİMİZ ARASINDA BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ ƏLAQƏLƏRİ MÜZAKİRƏ ETMİŞLƏR 122
AZƏRBAYCAN RESPUBLİKASI VƏ İORDANİYA HAŞİMİLƏR KRALLIĞI ARASINDA TİCARƏT, İQTİSADİ VƏ TEXNİKİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ BİRİNCİ İCLASI KEÇİRİLMİŞDİR 123
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR 124
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 124
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN "TOTAL" ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT ÜZRƏ PREZİDENTİ İV LUİ DARRİKARRERİ QƏBUL ETMİŞDİR 125
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KİKBOKSİNQ TƏŞKİLATLARI DÜNYA ASSOSİASİYASININ PREZİDENTİ ENNİO FALSONİNİ QƏBUL ETMİŞDİR 125
KİYEVDƏ GUAM KATİBLİYİ BİNASININ AÇILIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR 125
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ REKTORU HAFİZ PAŞAYEV PAKİSTANA DƏVƏT EDİLMİŞDİR 126
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN ACARISTAN MR HÖKUMƏTİNİN BAŞÇISI LEVAN VARŞALOMİDZENİ QƏBUL ETMİŞDİR 127
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ALFREDO MANTİKANİ QƏBUL ETMİŞDİR 127
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 127
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN AZƏRBAYCANDAKI REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ VƏ BMT-NİN İNKİŞAF PROQRAMININ RƏHBƏRİ BRUNO PUEZANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 128

MİLLİ MƏCLİSİN NÜMAYƏNDƏ HEYƏTİ İSVEÇRƏDƏ SƏFƏRDƏ OLMUŞDUR 128
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİN XALQ RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ÇJAN XAYÇJOUNU QƏBUL ETMİŞDİR 129
ATƏT-İN MİNSK QRUPU HƏMSƏDRLƏRİ BÖLGƏYƏ SƏFƏRLƏRİNİN YEKUNLARINA DAİR BƏYANAT VERMİŞLƏR 129
AMSTERDAMDA BENİLÜKS AZƏRBAYCANLILARI KONQRESİNİN II QURULTAYI KEÇİRİLMİŞDİR 130
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN JANDARM QÜVVƏLƏRİ KOMANDANI, ORDU GENERALI ATİLLA İŞIKI QƏBUL ETMİŞDİR 133
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN "RWI" ENERGETİKA ŞİRKƏTİNİN PREZİDENTİ VƏ İDARƏ HEYƏTİNİN SƏDRİ YURGEN QROSSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 134
TEHRANDA İƏT XARİCİ İŞLƏR NAZİRLƏRİNİN 18-Cİ İCLASI KEÇİRİLMİŞDİR 134
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANA RƏSMİ SƏFƏRİ 135
PREZİDENT SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ 135
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ 135
AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN İŞTİRAKI İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 135
SƏNƏDLƏRİN İMZALANMASI 136
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 137
İMAM XOMEYNİNİN MƏQBƏRƏSİNİ ZİYARƏT 137
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRANIN ALİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİNİN GÖRÜŞÜ 137
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ 138
TEHRANDA İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ 10-CU ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 138
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 140
MOSKVADA HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR 144
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 144
NİDERLANDIN HAARLEM ŞƏHƏRİNDƏ "MƏDƏNİYYƏTLƏRARASI DİALOQDA QADINLARIN ROLU" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLMİŞDİR 145
HAFİZ PAŞAYEVİN "YÜKSƏKLİYƏ DOĞRU" KİTABININ TƏQDİMATI OLMUŞDUR 146
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZISTAN PARLAMENTİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ ÇOLPON BAYEKOVANI QƏBUL ETMİŞDİR 147
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ VASİLİ İSTRATOVU FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 148
XARİCİ İŞLƏR NAZİRİ BOLQARISTANIN AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR 148

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA SENATININ KEÇMİŞ SƏDRİ, SENATOR KRİSTİAN PONSÖLENİ QƏBUL ETMİŞDİR 148
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA UĞRUNDA LİBERALLAR VƏ DEMOKRATLAR ALYANSININ NÜMAYƏNDƏSİ POL UİLİN BAŞÇILIQ ETDİYİ KONSTİTUSİONAL REFERENDUMUN MÜŞAHİDƏ OLUNMASI ÜZRƏ XÜSUSİ KOMİTƏNİN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR 149
NİDERLANDIN BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA AZƏRBAYCAN HAQQINDA KİTABLARIN TƏQDİMATI KEÇİRİLMİŞDİR 149
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 150
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNESKO-NUN BAŞ DİREKTORU KOİŞİRO MATSUURANI QƏBUL ETMİŞDİR 151
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN XARİCİ TİCARƏT ÜZRƏ DÖVLƏT KATİBİ, FRANSA-AZƏRBAYCAN BİRGƏ İQTİSADİ KOMİSSİYASININ HƏMSƏDRİ ANN-MARİ İDRAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 151
YUNESKO ÜZRƏ AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ KOMİSSİYASI "DƏYİRMİ MASA" GÖRÜŞÜ KEÇİRMİŞDİR 151
BAKIDA AZƏRBAYCAN-FRANSA HÖKUMƏTLƏRARASI İQTİSADİ KOMİSSİYANIN 5-Cİ İCLASI KEÇİRİLMİŞDİR 152
XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ARAZ ƏZİMOV BÖYÜK BRİTANİYADA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR 154
XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ARAZ ƏZİMOVUN BBC-NİN AZƏRBAYCAN XİDMƏTİNƏ MÜSAHİBƏSİ 155
AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 156
AZƏRBAYCAN İLƏ ÖZBƏKİSTAN ARASINDA HƏRBİ-TEXNİKİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR 157
ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏ AZƏRBAYCANA GƏLMİŞDİR 158
MİLLİ MƏCLİS ÜZVLƏRİ ALMANİYADA SƏFƏRDƏ OLMUŞLAR 158
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ TƏLƏBƏLƏRİ VƏ XARİCİ İŞLƏR NAZİRLİYİNİN GƏNC DİPLOMATLARI QUBADAKI KÜTLƏVİ MƏZARLIĞI ZİYARƏT ETMİŞLƏR 159
XARİCİ İŞLƏR NAZİRİ RUSİYA FEDERASİYASININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR 160
XARİCİ İŞLƏR NAZİRİ MƏRAKEŞ KRALLIĞININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR 160
AZƏRBAYCAN AUDİTORLAR PALATASI İLƏ RUSİYA AUDİTORLAR KOLLEGİYASI ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR 161
BAKIDA AZƏRBAYCAN-ALMANİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 162
XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ XƏLƏF XƏLƏFOV ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QERNOT ERLERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 163
XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ XƏLƏF XƏLƏFOV ÇİN XALQ RESPUBLİKASININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR 163

BAKIDA AVROPA İTTİFAQI İLƏ AZƏRBAYCAN ARASINDA İMZALANMIŞ TƏRƏFDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ SAZİŞİ ÇƏRÇİVƏSİNDƏ ALT KOMİTƏNİN IV İCLASI KEÇİRİLMİŞDİR 164
AZƏRBAYCAN İLƏ OPEC-İN BEYNƏLXALQ İNKİŞAF FONDU ARASINDA ƏMƏKDAŞLIQ UĞURLA DAVAM EDİR 165
XARİCİ İŞLƏR NAZİRİNİN GÜRCÜSTANA SƏFƏRİ 166
BAKIDA XƏZƏRYANI ÖLKƏLƏRİN NƏQLİYYAT NAZİRLƏRİNİN BİRİNCİ İCLASI KEÇİRİLMİŞDİR 169
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 170
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 170
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRAKEŞ KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 171
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİNİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 172
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XƏZƏRYANI ÖLKƏLƏRİN NƏQLİYYAT NAZİRLƏRİNİ QƏBUL ETMİŞDİR 172
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ GERNOT ERLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 173
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV OPEC-İN BEYNƏLXALQ İNKİŞAF ÜÇÜN FONDUNUN BAŞ DİREKTORU SÜLEYMAN ƏL-HERBİŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 173
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ MÜŞAVİRİ, ATƏT-İN MİNSK QRUPUNUN ABŞ-DAN OLAN HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR 173
AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI 173
VATİKAN DÖVLƏTİNDƏ AZƏRBAYCAN GÖMRÜYÜNÜN FƏALİYYƏTİNƏ HƏSR OLUNMUŞ SƏRGİ VƏ KİTABLARIN TƏQDİMATI KEÇİRİLMİŞDİR 174
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ VİQAUDAS UŞATSKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 175
AZƏRBAYCAN VƏ LİTVANIN XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA SİYASİ DİALOQUN GÜCLƏNDİRİLMƏSİNƏ DAİR MEMORANDUM İMZALANMIŞDIR 176
AZƏRBAYCAN VƏ ABŞ PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI 177
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİ BERNAR FASYENİ QƏBUL ETMİŞDİR 177
AZƏRBAYCAN İLƏ BOLQARISTAN VƏ MACARISTAN XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 178
LEYLA XANIM ƏLİYEVA İSTANBULDA İSESKO-NUN BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR 179
BAKIDA AZƏRBAYCAN-LİTVA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 179

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ ANDRES HERKELİN VƏ XANIM YEVGENİYA JİVKOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 180
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQI ŞURASININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 180
XARİCİ İŞLƏR NAZİRİ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİ FƏHD BİN ƏLİ ƏL-DUSƏRİNİ ETİMADNAMƏLƏRİNİN SURƏTİNİ TƏQDİM ETMƏSİ İLƏ BAĞLI QƏBUL ETMİŞDİR 181
AZƏRBAYCAN İLƏ ÖZBƏKİSTAN VƏ BELARUS XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 181
LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 183
HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA LİTVANIN ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 183
TBİLİSİDƏ "AZƏRBAYCAN, TÜRKİYƏ VƏ GÜRCÜSTAN ENERJİ KÖRPÜSÜ" LAYİHƏSİNƏ DAİR MEMORANDUM İMZALANMIŞDIR 184
AZƏRBAYCAN İLƏ LİTVA ARASINDA TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ QARŞILIQLI MARAQ DOĞURAN MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR 184
AZƏRBAYCAN İLƏ NATO ARASINDA FAYDALI ƏMƏKDAŞLIQ İNKİŞAF EDİR 185
BAKIDA "NATO - TAM SİYASİ KAMİLLİK ALYANSI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR 185
UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 187
RƏSMİ QARŞILANMA MƏRASİMİ 187
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ 188
UKRAYNA VƏ AZƏRBAYCAN PREZİDENTLƏRİ ŞURASININ İLK İCLASI 188
SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 189
DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 190
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 190
UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN BƏYANATI 191
MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ İLƏ TANIŞLIQ XOŞ TƏƏSSÜRAT DOĞURMUŞDUR 193
UKRAYNA PREZİDENTİNİN XANIMI HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR 194
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 195
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 195
UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN ÇIXIŞI 196
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 198
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 199
PREZİDENTLƏR İLHAM ƏLİYEV VƏ VİKTOR YUŞŞENKO 1919-1920-Cİ İLLƏRDƏ UKRAYNANIN AZƏRBAYCANDAKI XÜSUSİ DİPLOMATİK MİSSİYASININ YERLƏŞDİYİ BİNADA XATİRƏ LÖVHƏSİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞLƏR 199
UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO MİLLİ MƏCLİSDƏ OLMUŞDUR 200

UKRAYNA PREZİDENTİ BSU-NUN MÜƏLLİM VƏ TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 200
UKRAYNA KİV-LƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSI 202
UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO BÖYÜK KOBZAR TARAS ŞEVÇENKONUN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR 202
AZƏRBAYCAN XALÇALARININ NÜMUNƏLƏRİ ZƏNGİN TƏƏSSÜRAT DOĞURMUŞDUR 202
UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ İLƏ TANIŞ OLMUŞDUR 203
AZƏRBAYCAN VƏ UKRAYNA XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 203
SƏFƏR BAŞA ÇATDI 204
AŞQABADDA MDB XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR 204
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp-AZƏRBAYCAN ŞİRKƏTİNİN PREZİDENTİ BİLL ŞREDERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 205
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏNİN HOLSİM GROUP ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ BAŞ DİREKTORU MARKUS AKERMANI QƏBUL ETMİŞDİR 206
BAKIDA "İNTERSPUTNİK" TƏŞKİLATININ SESSİYALARI KEÇİRİLİR 206
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ FƏHD BİN ƏLİ ƏL-DÜSƏRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 207
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAQIN TURİZM VƏ TARİXİ ABİDƏLƏR NAZİRİ KAHTAN ABBAS NOMAN ƏL-CUBURİ ALAVADİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 208
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN MÜŞAVİRİ, ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR 208
XƏZƏRİN STATUSUNA DAİR DANIŞIQLARIN MOSKVA RAUNDU KEÇİRİLMİŞDİR 208
AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ İORDANİYA HAŞİMİLƏR KRALLIĞINDA RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR 209
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏNİN İQTİSADİ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ JAN-DANİEL GERBERİ QƏBUL ETMİŞDİR 210
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN XARİCİ İŞLƏR NAZİRİ MARİS RİEKSTİNŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 210
XARİCİ İŞLƏR NAZİRİ ATƏT-İN BAKI OFİSİNİN YENİ RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 210
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ 211
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ 211
AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSI 212
RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN BƏYANATI 212
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 214

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN APARICI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 218
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYANIN "VESTİ" KANALINA VƏ İTAR-TASS AGENTLİYİNƏ MÜSAHİBƏSİ 218
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYAYA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR 224
MÜDAFİƏ NAZİRİ ABŞ-IN AVROPA ÜZRƏ QURU QOŞUNLARIN KOMANDANI İLƏ GÖRÜŞMÜŞDÜR 224
BAKIDA AZƏRBAYCAN-LATVİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 225
XARİCİ ÖLKƏLƏRİN AZƏRBAYCAN RESPUBLİKASINDAKI SƏFİRLƏRİ AZƏRBAYCANIN CƏNUB BÖLGƏLƏRİNƏ SƏFƏR ETMİŞLƏR 226
MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRİ QƏTƏRİN DAXİLİ İŞLƏR NAZİRLİYİ ÜMUMİ TƏHLÜKƏSİZLİK BAŞ İDARƏSİNİN BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR 227
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN İQTİSADİYYAT NAZİRİ, FEDERAL NƏQLİYYAT VƏ FEDERAL MÜLKİ AVİASİYA QURUMLARININ SƏDRİ SULTAN BİN SƏİD AL MƏNSURİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 228
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN-ABŞ TİCARƏT PALATASI İDARƏ HEYƏTİNİN HƏMSƏDRİ CEYMS BEYKERİ QƏBUL ETMİŞDİR 228
PREZİDENT İLHAM ƏLİYEV İKT-NİN ÜZVÜ OLAN DÖVLƏTLƏRİN HÜQUQ MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİNİN BAKIDA KEÇİRİLƏN KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 229
İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV OLAN DÖVLƏTLƏRİN HÜQUQ MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİ KONFRANSININ İŞTİRAKÇILARINA 234
BAKIDA İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN HÜQUQ MÜHAFİZƏ ORQANLARININ RƏHBƏRLƏRİNİN KONFRANSI KEÇİRİLMİŞDİR 235
XARİCİ İŞLƏR NAZİRİ İRAN İSLAM RESPUBLİKASININ SƏFİRİNİ QƏBUL ETMİŞDİR 238
İKT-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN HÜQUQ MÜHAFİZƏ ORQANLARININ RƏHBƏRLƏRİNİN KONFRANSI CİNAYƏTKARLIQLA BİRGƏ MÜBARİZƏDƏ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNMƏSİNƏ XİDMƏT EDƏCƏKDİR 238
AZƏRBAYCAN NƏQLİYYAT NAZİRLİYİ İLƏ BƏƏ-NİN İQTİSADİYYAT NAZİRLİYİ ARASINDA İKİTƏRƏFLİ ƏMƏKDAŞLIĞA DAİR PROTOKOL İMZALANMIŞDIR 239
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI ABŞ UNİVERSİTETLƏRİ İLƏ ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRİR 240
MİNSKDƏ MDB-NİN FƏALİYYƏTİNİN İNFORMASİYA DƏSTƏYİNİN GÜCLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 241
AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI 243
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ SƏRHƏD POLİSİNİN KOMANDANI GENERAL-MAYOR QASIM RZAYİNİ QƏBUL ETMİŞDİR 243
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 243
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ FEDERAL TƏHLÜKƏSİZLİK XİDMƏTİ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ - SƏRHƏD XİDMƏTİNİN RƏHBƏRİ, ORDU GENERALI VLADİMİR PRONİÇEVİ QƏBUL ETMİŞDİR 243

AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ ANKARADA GÖRÜŞLƏR KEÇİRMİŞDİR 244
BAKIDA AZƏRBAYCAN-AVSTRİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 244
TÜRKMƏNİSTANIN DÖVLƏT BAŞÇISI AŞQABADDA İŞGÜZAR SƏFƏRDƏ OLAN ARDNŞ-NİN PREZİDENTİ RÖVNƏQ ABDULLAYEVİ QƏBUL ETMİŞDİR 245
AZƏRBAYCAN İLƏ BELÇİKA-LÜKSEMBURQ İQTİSADİ İTTİFAQI ARASINDA PROTOKOL İMZALANMIŞDIR 246
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRİ 246
PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZU İLƏ GÖRÜŞÜ 246
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZUNUN BİRGƏ MƏTBUAT KONFRANSI 247
AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZUNUN ÇIXIŞI 247
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 248
PREZİDENT İLHAM ƏLİYEVİN BELÇİKANIN BAŞ NAZİRİ HERMAN VAN ROMPEY İLƏ GÖRÜŞÜ 252
AVROPA SİYASİ MƏRKƏZİNDƏ GÖRÜŞ 252
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI 253
PREZİDENT İLHAM ƏLİYEVİN NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFER İLƏ GÖRÜŞÜ 265
ŞİMALİ ATLANTİKA ŞURASINDA GÖRÜŞ 266
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFERİN BİRGƏ MƏTBUAT KONFRANSI 266
NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFERİN BƏYANATI 266
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 267
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA İTTİFAQI NAZİRLƏR ŞURASININ BAŞ KATİBİ, ÜMUMİ XARİCİ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ XAVYER SOLANA İLƏ GÖRÜŞÜ 268
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ AVROPA İTTİFAQI NAZİRLƏR ŞURASININ BAŞ KATİBİ, ÜMUMİ XARİCİ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ XAVYER SOLANA MƏTBUAT NÜMAYƏNDƏLƏRİ QARŞISINDA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 268
AVROPA İTTİFAQI NAZİRLƏR ŞURASININ BAŞ KATİBİ, ÜMUMİ XARİCİ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ XAVYER SOLANANIN BƏYANATI 269
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 269
SƏFƏR BAŞA ÇATDI 270
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ PRAQADA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR 270
BAŞ NAZİR ESTONİYA VERGİ VƏ GÖMRÜK ŞURASININ BAŞ DİREKTORU QƏBUL ETMİŞDİR 270
DÖVLƏT GÖMRÜK KOMİTƏSİNDƏ GÜRCÜSTANLI HƏMKARLARLA GÖRÜŞ KEÇİRİLMİŞDİR 271
BAKIDA GUAM TİCARƏT VƏ NƏQLETMƏYƏ YARDIM LAYİHƏSİNİN HƏYATA KEÇİRİLMƏSİ ÜZRƏ RƏHBƏR KOMİTƏNİN 10-CU İCLASI KEÇİRİLMİŞDİR 272

BAKI DÖVLƏT UNİVERSİTET VƏ YUNİSEF ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 273
AZƏRBAYCAN İLƏ AVROPA ŞURASI ARASINDA ƏMƏKDAŞLIĞIN İNKİŞAFI ÜÇÜN GENİŞ İMKANLAR VAR 273
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN BAKI OFİSİNİN YENİ TƏYİN OLUNMUŞ RƏHBƏRİ BİLGE CANKORELİ QƏBUL ETMİŞDİR 274
TÜRKİYƏNİN YENİ XARİCİ İŞLƏR NAZİRİ İLK GÖRÜŞÜNÜ AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ KEÇİRMİŞDİR 274
AZƏRBAYCAN VƏ TÜRKİYƏ ÖZ MARAQLARINI BİRGƏ QORUMALIDIR 274
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜDAFİƏ NAZİRİNİN AVROPA VƏ NATO SİYASƏTİ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ XANIM MERİ VARLİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 275
BAKIDA "NATO-AZƏRBAYCAN: KEÇMİŞİ QİYMƏTLƏNDİRƏRƏK GƏLƏCƏYƏ BAXIŞ" ADLI BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR 275
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ABŞ-A SƏFƏRİ 277
AZƏRBAYCAN AUDİTORLAR PALATASI İLƏ RUMİNİYA MALİYYƏ AUDİTORLARI PALATASI ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 278
BELARUS-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN BEŞİNCİ İCLASI KEÇİRİLMİŞDİR 279
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇEXİYA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏRİ 280
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUSUN GÖRÜŞÜ 280
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSRAİLİN BAŞ NAZİRİNİN MÜAVİNİ VƏ XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMAN İLƏ GÖRÜŞÜ 281
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ 281
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ YAN PETER BALKENENDE İLƏ GÖRÜŞÜ 281
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ 282
AVROPA İTTİFAQININ "ŞƏRQ TƏRƏFDAŞLIĞI" SAMMİTİ KEÇİRİLMİŞDİR AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SAMMİTDƏ İŞTİRAK ETMİŞDİR 282
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN BAŞ NAZİRİ FRANSUA FİYON İLƏ GÖRÜŞÜ 282
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN XARİCİ İŞLƏR NAZİRİ DEVİD MİLİBEND İLƏ GÖRÜŞÜ 283
PRAQADA "CƏNUB DƏHLİZİ - YENİ İPƏK YOLU" SAMMİTİ KEÇİRİLMİŞDİR 283
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTAR İLƏ GÖRÜŞÜ 284
SƏFƏR BAŞA ÇATDI 284
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BİRGƏ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR 285

YUNANISTAN PARLAMENTİNİN NÜMAYƏNDƏLƏRİ AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA OLMUŞLAR 285
BAKI DÖVLƏT UNİVERSİTETİ İLƏ KOREYA POLİTEXNİK UNİVERSİTETİ ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 286
AZƏRBAYCAN MİQRASİYA SAHƏSİNDƏ UĞURLAR ƏLDƏ ETMİŞDİR 287
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ TƏLƏBƏLƏRİ VƏ QONAQLARI HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR 288
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN XARİCİ ƏLAQƏLƏR ŞURASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR 288
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVAKİYANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, ƏDLİYYƏ NAZİRİ ŞTEFAN HARABİNİ QƏBUL ETMİŞDİR 289
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ ALİ MƏHKƏMƏSİNİN SƏDRİ HASAN GERÇƏKƏRİ QƏBUL ETMİŞDİR 290
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN ALİ MƏHKƏMƏSİNİN SƏDRİ KONSTANTİN KUBLAŞVİLİNİ QƏBUL ETMİŞDİR 290
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TELIASONERA" ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU LARS NİBERQİ QƏBUL ETMİŞDİR 290
XARİCİ İŞLƏR NAZİRİ YUNANISTANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QƏBUL ETMİŞDİR 291
AZƏRBAYCAN VƏ SLOVAKİYA ƏDLİYYƏ NAZİRLİKLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANMIŞDIR 291
AZƏRBAYCANIN MÜDAFİƏ SƏNAYESİ NAZİRİ İSRAİLİN KEÇMİŞ SƏHİYYƏ NAZİRİ VƏ MÜDAFİƏ NAZİRİNİN KEÇMİŞ MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 292
ATƏT-İN HAZIRKI SƏDRİ AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA ATƏŞKƏS ELAN OLUNMASININ 15 İLLİYİ MÜNASİBƏTİLƏ BƏYANATLA ÇIXIŞ ETMİŞDİR 292
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA ATƏŞKƏS ELAN OLUNMASININ 15 İLLİYİ MÜNASİBƏTİLƏ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR 293
FRANSANIN XARİCİ İŞLƏR VƏ AVROPA MƏSƏLƏLƏRİ NAZİRLİYİ AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA ATƏŞKƏS ELAN OLUNMASININ 15-Cİ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BƏYANAT YAYMIŞDIR 293
BAKIDA AZƏRBAYCAN-YUNANISTAN BİZNES FORUMU KEÇİRİLMİŞDİR 294
AZƏRBAYCAN-TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ İLƏ YUNANISTAN SAHİBKARLAR FEDERASİYASI ARASINDA SƏNƏD İMZALANMIŞDIR 295
TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN AZƏRBAYCANA SƏFƏRƏ GƏLMİŞDİR 296
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 296
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 296
TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN MİLLİ MƏCLİSDƏ OLMUŞDUR 296
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ 297
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 298
BİRGƏ MƏTBUAT KONFRANSI 299
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 299

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI 300
TÜRKİYƏ BAŞ NAZİRİNİN ŞƏRƏFİNƏ 303
SƏFƏR BAŞA ÇATDI 303
MOSKVADA AZƏRBAYCAN-RUSİYA ƏLAQƏLƏRİNİN İNKİŞAFI İLƏ BAĞLI MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR 304
HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA TƏŞKİLATIN XOŞMƏRAMLI SƏFİRLƏRİNİN İLLİK TOPLANTISINDA İŞTİRAK ETMİŞDİR 304
HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI 305
AZƏRBAYCAN PARLAMENTİNİN ÜZVLƏRİ SANKT-PETERBURQDA MDB PA-NIN TƏDBİRLƏRİNDƏ İŞTİRAK ETMİŞLƏR 307
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİ BERNAR FASYENİ QƏBUL ETMİŞDİR 309
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ƏDALƏTLİ OYUNLAR HƏRƏKATININ İCRAÇI KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 309
AZƏRBAYCAN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN LİTVAYA RƏSMİ SƏFƏRİ 312
XARİCİ İŞLƏR NAZİRİ İRAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİ MƏHƏMMƏDBAQİR BƏHRAMİNİ ETİMADNAMƏLƏRİNİN SURƏTİNİ TƏQDİM ETMƏSİ İLƏ BAĞLI QƏBUL ETMİŞDİR 313
MİLLİ MƏCLİSİN NÜMAYƏNDƏ HEYƏTİ İKİNCİ BEYNƏLXALQ MOSKVA KONQRESİNİN İŞİNDƏ İŞTİRAK ETMİŞDİR 313
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA GENİŞMİQYASLI LAYİHƏLƏRƏ BAŞLANILMIŞDIR 314
PREZİDENT YANINDA STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNİN RƏHBƏRİ ABŞ-DA SƏFƏRDƏDİR 315
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN SABİQ PREZİDENTİ ARNOLD RÜYTELİ QƏBUL ETMİŞDİR 315
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏ KONFEDERASİYASININ XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT KATİBİ MİXAEL AMBÜLÜ QƏBUL ETMİŞDİR 316
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 316
AZƏRBAYCAN İLƏ BÖYÜK BRİTANİYA ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 317
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ SƏNAYESİ FEDERAL NAZİRİ ƏBDÜL QƏYYUM XAN CATOYU QƏBUL ETMİŞDİR 317
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQI ŞURASININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 317
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTAN PARLAMENTİNİN AVROPA İŞLƏRİ ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ MATYAS EÖRŞİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 318
XARİCİ İŞLƏR NAZİRİ SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QƏBUL ETMİŞDİR 318

AZƏRBAYCAN İLƏ KUBA ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZIŞ İMZALANMIŞDIR 319
AZƏRBAYCAN İLƏ KUBA ARASINDA ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN İKİNCİ İCLASI KEÇİRİLMİŞDİR 320
GÜRCÜSTAN PREZİDENTİ MIXAIL SAAKAŞVİLİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 321
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 321
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 321
RƏSMİ QARŞILANMA MƏRASİMİ 322
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 322
AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 322
DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 323
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 325
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 325
GÜRCÜSTAN PREZİDENTİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR 328
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞÜ 329
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA GÜRCÜSTANIN BİRİNCİ XANIMI SANDRA ELİZABET RULOFS İLƏ GÖRÜŞMÜŞDÜR 329
BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ İLƏ TANIŞLIQ 329
MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN ZƏNGİN EKSPONATLARI GÜRCÜSTAN PREZİDENTİNDƏ BÖYÜK MARAQ DOĞURMUŞDUR 330
ALİ MƏHKƏMƏNİN YENİ BİNASI İLƏ TANIŞLIQ 330
BAKI-BATUMİ-BAKI AVİAREYSİ AÇILMIŞDIR 331
SƏFƏR BAŞA ÇATDI 333
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN AVROPADAKI SİLAHLI QÜVVƏLƏRİNİN KOMANDANI GENERAL BANTS KRADDOKUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 333
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ ENDİ İNQLİSİ QƏBUL ETMİŞDİR 333
ASTANADA MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ HÖKUMƏT BAŞÇILARI ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR 334
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV GƏNC DİPLOMATLARLA GÖRÜŞMÜŞDÜR 334
OMBUDSMAN ANKARADA KEÇİRİLMİŞ BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR 335
AZƏRBAYCAN VƏ TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA KONSULLUQ MƏSƏLƏLƏRİNƏ DAİR NÖVBƏTİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR 335
DƏMƏŞQDƏ İKT XARİCİ İŞLƏR NAZİRLƏRİNİN KONFRANSI KEÇİRİLMİŞDİR 336
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLUNU QƏBUL ETMİŞDİR 337

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ KRALLIĞININ ENERGETİKA NAZİRİ MƏHƏMMƏD DHAEN ƏL-HAMİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 338
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU ƏSƏD ALƏMİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 338
ABŞ KONQRESİNİN NÜMAYƏNDƏLƏRİ AZƏRBAYCANDAKI İNKİŞAFI YÜKSƏK QİYMƏTLƏNDİRMİŞLƏR 338
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 339
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ ENERGETİKA NAZİRİ, MDB-NİN ELEKTROENERGETİKA ŞURASININ SƏDRİ SERGEY ŞMATKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 339
AZƏRBAYCAN İLƏ RUSİYA ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN 12-Cİ İCLASI KEÇİRİLMİŞDİR 340
BAKIDA MDB DÖVLƏTLƏRİ ELEKTROENERGETİKA ŞURASININ 35-Cİ İCLASI KEÇİRİLMİŞDİR 340
BAKIDA MDB DÖVLƏTLƏRİ ELEKTROENERGETİKA ŞURASININ 35-Cİ İCLASININ YEKUNLARINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSI KEÇİRİLMİŞDİR 342
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ NİKA QİLAURİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 342
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ SƏFİR RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 343
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR 343
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN DÖVLƏT KATİBİ, NEFT VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ ROBİN MARTİN KAASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 344
BAKIDA XVI BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSI İŞƏ BAŞLAMIŞDIR AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR 344
VI BEYNƏLXALQ XƏZƏR NEFT-QAZ, SƏRGİ VƏ KONFRANSININ AÇILIŞINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 345
BRÜSSELDƏ "AZƏRBAYCANIN AVROPA VƏ AVRATLANTİK MƏKANA İNTEQRASİYASI: GƏLƏCƏK TENDENSİYA VƏ PERSPEKTİVLƏR" ADLI ELMİ-PRAKTİK KONFRANS KEÇİRİLMİŞDİR 351
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SURİYANIN XARİCİ İŞLƏR NAZİRİ VALİD ƏL-MUALLEMİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 351
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ MƏRAKEŞDƏ AKKREDİTƏ OLUNMUŞ BİR SIRA DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 352
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ 352

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ 353
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ 354
AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ 354
AZƏRBAYCANIN VƏ ERMƏNİSTANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ MƏTBUATA AÇIQLAMA VERMİŞLƏR 354
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BƏYANAT YAYMIŞLAR..... 355
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR..... 355
BAKIDA TÜRKDİLLİ DÖVLƏTLƏRİN PARLAMENT ASSAMBLEYASINA ÜZV ÖLKƏLƏRİN PARLAMENT APARATLARI RƏHBƏRLƏRİNİN TOPLANTISI KEÇİRİLMİŞDİR 356
MDB ÖLKƏLƏRİ DİN-İN BAŞÇILARI YALTADA TOPLAŞMIŞLAR 356
TÜRKDİLLİ DÖVLƏTLƏRİN PARLAMENT ASSAMBLEYASI TÜRK XALQLARININ MƏNAFELƏRİNİN BEYNƏLXALQ MİQYASDA QORUNMASI BAXIMINDAN BÖYÜK ÜMİDLƏR VƏD EDİR 357
AZƏRBAYCANIN BAŞ NAZİRİ MİNSK TRAKTOR ZAVODUNUN BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR..... 358
BAKIDA TÜRKDİLLİ DÖVLƏTLƏRİN PARLAMENT ASSAMBLEYASINA ÜZV ÖLKƏLƏRİN PARLAMENT APARATLARI RƏHBƏRLƏRİNİN TOPLANTISI KEÇİRİLMİŞDİR 358
İCTİMAİ TELERADİO İLƏ TÜRKMƏNELİ TELEVİZİYASI ARASINDA NİYYƏT PROTOKOLU İMZALANMIŞDIR 359
XARİCİ İŞLƏR NAZİRİ QƏTƏRİN MƏDƏNİYYƏT, İNCƏSƏNƏT VƏ İRS MİLLİ ŞURASININ BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 359
XARİCİ İŞLƏR NAZİRİ RUMİNİYANIN XARİCİ İŞLƏR NAZİRLİYİNİN STRATEJİ İŞLƏR ÜZRƏ DÖVLƏT KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR 360
BERLİNDƏ BEYNƏLXALQ HÜQUQA DAİR YÜKSƏK SƏVİYYƏLİ KONFRANS KEÇİRİLMİŞDİR 360
XARİCİ İŞLƏR NAZİRİ POLŞANIN KEÇMİŞ BAŞ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 361
BAKIDA NATO HƏFTƏSİ ÇƏRÇİVƏSİNDƏ "ENERJİ TƏHLÜKƏSİZLİYİ: ÇAĞIRIŞLAR VƏ YENİ İMKANLAR" MÖVZUSUNDA SEMİNAR KEÇİRİLİR..... 362
BMT İNSAN HÜQUQLARI ŞURASININ SESSİYASI ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN HÖKUMƏTİNİN MƏRUZƏSİNƏ DAİR YEKUN SƏNƏD QƏBUL OLUNMUŞDUR..... 363
XARİCİ İŞLƏR NAZİRİ ABŞ DÖVLƏT KATİBİNİN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 364
AVROPA İTTİFAQI-AZƏRBAYCAN TİCARƏT, İQTİSADİ VƏ ƏLAQƏDAR HÜQUQİ MƏSƏLƏLƏR ÜZRƏ ALTKOMİTƏNİN VIII İCLASI KEÇİRİLMİŞDİR 364
XARİCİ İŞLƏR NAZİRİ YAPONİYANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 365
XARİCİ İŞLƏR NAZİRİ YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR ... 366
AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLMUŞDUR 368
VYANADA AVROPA ŞURASI ÖLKƏLƏRİNİN AİLƏ MƏSƏLƏLƏRİ ÜZRƏ NAZİRLƏRİNİN KONFRANSI KEÇİRİLMİŞDİR..... 368

AVROPA ƏDLİYYƏ NAZİRLƏRİNİN 29-CU KONFRANSI KEÇİRİLMİŞDİR 369
MOSKVADA AZƏRBAYCANIN DİPLOMATİK XİDMƏTİNİN 90 İLLİYİNƏ HƏSR EDİLMİŞ ELMİ KONFRANS KEÇİRİLMİŞDİR 370
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN YAPONİYAYA SƏFƏRİ BAŞA ÇATMIŞDIR 372
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ÖLKƏMİZDƏKİ SƏFİRİ XANIM ANN DERSİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI MÜNASİBƏTİLƏ QƏBUL ETMİŞDİR..... 373
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ PAULO ANTONİONUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR..... 373
AVROPA İTTİFAQI AZƏRBAYCAN İLƏ ƏMƏKDAŞLIĞA BÖYÜK ÖNƏM VERİR..... 374
AZƏRBAYCAN İLƏ İNDONEZİYA ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 375
İSTANBULDA TÜRKİYƏ VƏ AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ OLMUŞDUR..... 376
BAKIDA AZƏRBAYCAN NATO BEYNƏLXALQ MƏKTƏBİNİN "BÖHRANLARIN İDARƏ EDİLMƏSİNDƏ VƏTƏNDAŞ CƏMİYYƏTİNİN ROLU" MÖVZUSUNDA YAY SESSİYASI KEÇİRİLİR 376
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SERBİYANIN XARİCİ İŞLƏR NAZİRİ VUK YEREMİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 377
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN ƏTRAF MÜHİT NAZİRİ RAYMONDS VEYONİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR..... 377
ASTANADA AVRATLANTİK TƏRƏFDAŞLIQ ŞURASININ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİNƏ DAİR 3-CÜ FORUMU KEÇİRİLMİŞDİR..... 378
VYANADA ATƏT MƏKANINDA TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR..... 379
DÖVLƏT MİQRASİYA XİDMƏTİNİN RƏİSİ ALMANİYANIN DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 379
PARİSDƏ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 380
AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA NEFT VƏ QAZ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR..... 380
İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ŞİMON PERESİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 381
RƏSMİ QARŞILANMA MƏRASİMİ 381
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSRAİL PREZİDENTİ ŞİMON PERESİN TƏKBƏTƏK GÖRÜŞÜ 381
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ..... 382
AZƏRBAYCAN-İSRAİL SƏNƏDLƏRİNİN İMZALANMASI..... 382
DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR..... 383
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 385
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 385

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 388
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 388
AZƏRBAYCAN-İSRAİL BİZNES FORUMU 388
İSRAİL PREZİDENTİ ŞİMON PERES AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİNDƏ OLMUŞDUR 392
İSRAİL PREZİDENTİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATDI 393
RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ 393
PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT DMİTRİ MEDVEDEVİN TƏKBƏTƏK GÖRÜŞÜ 393
AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 393
AZƏRBAYCAN-RUSİYA SƏNƏDLƏRİNİN İMZALANMASI 394
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN BİRGƏ MƏTBUAT KONFRANSI 395
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 395
RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN BƏYANATI 396
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 400
RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATDI 401
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA DÖVLƏT TELEVİZİYA KANALININ "VESTİ V SUBBOTU" VERİLİŞİNİN APARICISINA MÜSAHİBƏ VERMİŞDİR 401
FRANSANIN XARİCİ İŞLƏR VƏ AVROPA MƏSƏLƏLƏRİ NAZİRLİYİ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN PARİS GÖRÜŞÜ BARƏDƏ BƏYANAT YAYMIŞDIR 407
DÜNYA GÖMRÜK TƏŞKİLATININ AVROPA ÜZRƏ REGİONAL OFİSİ AZƏRBAYCANDA AÇILACAQDIR 408
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN MDB ÖLKƏLƏRİNDƏ AKKREDİTƏ OLUNAN SƏFİRLƏRİNİ QƏBUL ETMİŞDİR 409
"AZERBAIJAN INTERNATIONAL" JURNALININ TƏSİSÇİSİNƏ HAFİZ PAŞAYEV ADINA MÜKAFAT TƏQDİM OLUNMUŞDUR 413
AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN ARASINDA 2009-2010-CU İLLƏRDƏ GƏNCLƏR SİYASƏTİ SAHƏSİNDƏ TƏDBİRLƏR PLANI TƏSDİQ OLUNMUŞDUR 414
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYANIN İQTİSADİYYAT NAZİRİ, AZƏRBAYCAN-RUMİNİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİ ADRİYAN VİDYANUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 414
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN XARİCİ İŞLƏR NAZİRİ, ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ XANIM DORA BAKOYANNİNİ QƏBUL ETMİŞDİR 415
AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ: TƏSİR EDƏN AMİLLƏR VƏ PRİORİTETLƏR 415
POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 422
RƏSMİ QARŞILANMA MƏRASİMİ 422
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 423

AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 423
AZƏRBAYCAN-POLŞA SƏNƏDLƏRİNİN İMZALANMASI 424
POLŞA PREZİDENTİ "HEYDƏR ƏLİYEV" ORDENİ İLƏ TƏLTİF EDİLMİŞDİR 424
DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI 425
AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVANIN VƏ POLŞA PREZİDENTİNİN XANIMI MARİYA KAÇİNSKANIN GÖRÜŞÜ 428
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 429
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 431
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 432
POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR 432
POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN BAŞ NAZİR ARTUR RASİZADƏ İLƏ GÖRÜŞÜ 433
POLŞA PREZİDENTİNİN XANIMI BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ İLƏ TANIŞ OLMUŞDUR 433
POLŞA PREZİDENTİ LEX KAÇİNSKİYƏ BAKI SLAVYAN UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMİŞDİR 434
SƏFƏR BAŞA ÇATDI 435
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN VƏ ERMƏNİSTANIN BİR QRUP ZİYALISINI QƏBUL ETMİŞDİR 436
AZƏRBAYCAN-RUMİNİYA HÖKUMƏTLƏRARASI MÜŞTƏRƏK KOMİSSİYANIN DÖRDÜNCÜ İCLASI KEÇİRİLMİŞDİR 436
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI NÖVBƏTİ YAY MƏKTƏBİNDƏ "ENERJİ SİYASƏTİ VƏ İQTİSADİYYAT" MÖVZUSUNU MÜZAKİRƏ EDİR 438
"AZƏRBAYCAN DİPLOMATİYASININ TARİXİ" FİLMİ ÇƏKİLMİŞDİR 438
GƏNCƏDƏ AZƏRBAYCANDA DİPLOMATİK XİDMƏTİN YARADILMASININ 90 İLLİYİ QEYD EDİLMİŞDİR 439
XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ÇIXIŞI 440
AZƏRBAYCAN RESPUBLİKASININ MACARISTANDAKI SƏFİRİ HƏSƏN HƏSƏNOVUN ÇIXIŞI 443
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN BAŞ NAZİRİ SERGEY SİDORSKİNİ QƏBUL ETMİŞDİR 447
NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK XİDMƏTİNİN 90 İLLİYİ MÜNASİBƏTİLƏ KONFRANS KEÇİRİLMİŞDİR 448
NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOVUN ÇIXIŞI 448
XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ÇIXIŞI 452
AZƏRBAYCAN DİPLOMATİK XİDMƏTİNİN 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ "AZƏRBAYCAN QLOBAL SİYASƏTDƏ: XARİCİ SİYASƏTİN FORMALAŞMASI" ADLI BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR 456
BAKIDA MDB ÖLKƏLƏRİ DAXİLİ İŞLƏR NAZİRLİKLƏRİNİN MÜHAFİZƏ XİDMƏTİ RƏHBƏRLƏRİNİN İŞTİRAKI İLƏ BEYNƏLXALQ KONFRANS KEÇİRİLİMİŞDİR 458
AZƏRBAYCAN HÖKUMƏTİ İLƏ AVROPA İTTİFAQI ARASINDA HAVA XİDMƏTLƏRİNƏ DAİR SAZİŞ İMZALANMIŞDIR 459

BAKIDA "AZƏRBAYCAN-AVROPA ŞURASI MƏDƏNİ ƏMƏKDAŞLIĞI: İMKANLAR VƏ PERSPEKTİVLƏR" MÖVZUSUNDA MƏRASİM KEÇİRİLMİŞDİR 460
SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ BƏŞŞAR ƏL-ƏSƏDİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 461
RƏSMİ QARŞILANMA MƏRASİMİ 461
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SURİYA PREZİDENTİ BƏŞŞAR ƏL-ƏSƏDİN TƏKBƏTƏK GÖRÜŞÜ 462
AZƏRBAYCAN VƏ SURİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 462
AZƏRBAYCAN-SURİYA SƏNƏDLƏRİNİN İMZALANMASI 463
DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI 463
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA VƏ SURİYANIN BİRİNCİ XANIMI ƏSMA ƏL-ƏSƏD "AZƏRİLMƏ"DƏ OLMUŞLAR 466
BİRİNCİ XANIMLAR TALASSEMİYA MƏRKƏZİNDƏ OLMUŞLAR 467
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 468
MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN EKSPOZİSİYASI SURİYA PREZİDENTİNİN MARAĞINA SƏBƏB OLMUŞDUR 468
SURİYA PREZİDENTİ BƏŞŞAR ƏL-ƏSƏD TƏZƏPİR MƏSCİD KOMPLEKSİNDƏ OLMUŞDUR 469
AZƏRBAYCAN İLƏ SURİYA ARASINDA DAHA 14 HÖKUMƏTLƏRARASI SƏNƏD İMZALANMIŞDIR 470
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 471
AZƏRBAYCAN-SURİYA BİZNES FORUMU 475
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 479
SURİYA PREZİDENTİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR 479
SURİYA PREZİDENTİ BƏŞŞAR ƏL-ƏSƏD AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞMÜŞDÜR 480
SƏFƏR BAŞA ÇATDI 481
ATƏT PARLAMENT ASSAMBLEYASININ 18-Cİ İLLİK SESSİYASI AZƏRBAYCAN ÜÇÜN UĞURLU OLMUŞDUR 481
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR NAZİRİ ŞEYX ABDULLA BİN ZAİD AL-NƏHƏYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 482
XARİCİ İŞLƏR NAZİRLİYİNİN ƏMƏKDAŞLARI ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI VƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİRLƏR 482
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLİYİNİN MUZEYİ YARADILMIŞDIR 483
BAKIDA 1918-1919-CU İLLƏRDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ İŞLƏR NAZİRLİYİNİN YERLƏŞDİYİ BİNADA XATİRƏ LÖVHƏSİ AÇILMIŞDIR 483
AZƏRBAYCANIN DİPLOMATİK XİDMƏTİNİN 90 İLLİYİ MÜNASİBƏTİLƏ MƏRASİM KEÇİRİLMİŞDİR 484
XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ÇIXIŞI 484
BAKIDAKI DİPLOMATİK KORPUSUN DUAYENİ NIKOLAE UREKENİN ÇIXIŞI 485
AZƏRBAYCAN RESPUBLİKASININ İORDANİYA HAŞİMİLƏR KRALLIĞINDAKI SƏFİRİ ELMAN ARASLININ ÇIXIŞI 486

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 488
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİ KATİBİNİN BİRİNCİ MÜAVİNİ CEYMS STAYNBERQİ QƏBUL ETMİŞDİR 489
DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMLANMASI İLƏ BAĞLI DANIŞIQLAR YENİ MƏRHƏLƏYƏ QƏDƏM QOYMUŞDUR 489
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞINA RƏSMİ SƏFƏRİ 490
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BÖYÜK BRİTANİYANIN BAŞ NAZİRİ QORDON BRAUNUN GÖRÜŞÜ 490
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN İCRAÇI DİREKTORUNU QƏBUL ETMİŞDİR 491
KRAL BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA GÖRÜŞ 492
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 492
BÖYÜK BRİTANİYA PARLAMENTİNİN XARİCİ MÜNASİBƏTLƏR KOMİTƏSİNDƏ GÖRÜŞ 503
BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABET İLƏ GÖRÜŞ 504
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BRITISH COUNCIL"İN HAZIRKI SƏDRİ SER CERARD LEMOS İLƏ GÖRÜŞMÜŞDÜR 504
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN ENERGETİKA VƏ ƏTRAF MÜHİT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ ED MİLİBƏND İLƏ GÖRÜŞÜ 504
SƏFƏR BAŞA ÇATMIŞDIR 505
AZƏRBAYCAN HÖKUMƏTİNİN TƏŞƏBBÜSÜ İLƏ BMT-NİN CENEVRƏDƏKİ OFİSİNDƏ TASİM LAYİHƏSİ MÜZAKİRƏ OLUNMUŞDUR 505
BRÜSSELDƏ AZƏRBAYCAN-NATO MƏSLƏHƏTLƏŞMƏLƏRİ KEÇİRİLMİŞDİR 506
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN BAŞ KATİBİ MARK PERRİN DE BRİŞAMBONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 506
AVROPALI GƏNCLƏR DİPLOMATİK AKADEMİYADA OLMUŞLAR 506
HAFİZ PAŞAYEVİN "BİR SƏFİRİN MANİFESTİ" KİTABININ RUS DİLİNDƏ NƏŞRİNİN TƏQDİMATI OLMUŞDUR 507
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ 508
MOSKVADA AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ OLMUŞDUR 508
MOSKVADA AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 508
MOSKVADA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN GÖRÜŞÜ OLMUŞDUR 508
MOSKVADA RUSİYA PREZİDENTİNİN MÜKAFATI UĞRUNDA CIDIR YARIŞLARI KEÇİRİLMİŞDİR 508
SƏFƏR BAŞA ÇATMIŞDIR 509

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ KARL BİLDTİ VƏ ONUN BAŞÇILIQ ETDİYİ AVROPA İTTİFAQI ÜÇLÜYÜNÜN (TROYKA) NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 509
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LONDON SİTİNİN MERİ ALDERMAN İAN LUDERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 510
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN ÖLKƏMİZDƏKİ SƏFİRİ ARTUR LENKİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 510
BMT-NİN İNSAN HÜQUQLARI KOMİTƏSİNİN 96-CI SESSİYASI ÇƏRÇİVƏSİNDƏ "MÜLKİ VƏ SİYASİ HÜQUQLAR ÜZRƏ" BEYNƏLXALQ PAKTA DAİR AZƏRBAYCAN RESPUBLİKASININ ÜÇÜNCÜ DÖVRİ MƏRUZƏSİNƏ BAXILMIŞDIR 511
AZƏRBAYCAN İLƏ İSRAİL ARASINDA İMZALANMIŞ SƏNƏDLƏR GƏLƏCƏK ƏMƏKDAŞLIQ ÜÇÜN ƏLVERİŞLİ ŞƏRAİT YARATMIŞDIR 511
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN MOSKVA GÖRÜŞÜ İLƏ ƏLAQƏDAR BƏYANAT YAYMIŞLAR 512
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYANIN MALİYYƏ NAZİRİ EDUARD YANOTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 512
AZƏRBAYCAN İLƏ ÇEXİYA MALİYYƏ NAZİRLİKLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANMIŞDIR 513
CENEVRƏDƏ AZƏRBAYCANIN DÜNYA TİCARƏT TƏŞKİLATINA ÜZV OLMASI ÜZRƏ İŞÇİ QRUPUNUN İCLASI KEÇİRİLMİŞDİR 514
AZƏRBAYCAN HÖKUMƏTİ İLƏ DÜNYA BANKI ARASINDA NÖVBƏTİ İKİ SAZİŞ İMZALANMIŞDIR 515
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYTİN ÖLKƏMİZDƏKİ SƏFİRİ FƏHD SAAD SƏİD ƏL-MEYİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 515
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN MÜDAFİƏ NAZİRİ ANATOLİ SERDYUKOVU QƏBUL ETMİŞDİR 516
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP-NİN AXTARIŞ-KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDİ İNQLİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 516
AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ ÖLKƏLƏRDƏKİ SƏFİRLİKLƏRİ, DAİMİ NÜMAYƏNDƏLİKLƏRİ VƏ KONSULLUQLARININ MÜHASİBLƏRİNİN MÜŞAVİRƏSİ KEÇİRİLMİŞDİR 517
LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 517
RƏSMİ QARŞILANMA MƏRASİMİ 517
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN TƏKBƏTƏK GÖRÜŞÜ 518
AZƏRBAYCAN VƏ LATVİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 518
AZƏRBAYCAN-LATVİYA SƏNƏDLƏRİNİN İMZALANMASI 519
ALİ ORDENLƏRLƏ TƏLTİF OLUNMA MƏRASİMİ 520
AZƏRBAYCAN VƏ LATVİYA PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARI 520
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 523
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 523

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 524
LATVİYA PREZİDENTİ İLƏ MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 524
MÜASİR İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞLIQ 525
LATVİYA PREZİDENTİNİN XANIMI BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ İLƏ TANIŞ OLMUŞDUR 526
LATVİYANIN BİRİNCİ XANIMI TALASSEMİYA MƏRKƏZİNDƏ OLMUŞDUR 526
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 527
AZƏRBAYCAN-LATVİYA BİZNES FORUMU ÇƏRÇİVƏSİNDƏ TURİZM SAHƏSİNƏ HƏSR OLUNAN "DƏYİRMİ MASA" KEÇİRİLMİŞDİR 530
"DƏYİRMİ MASA"DA İKT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 530
AZƏRBAYCAN İLƏ LATVİYA ARASINDA MALİYYƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNDİRİLƏCƏKDİR 531
AZƏRBAYCAN-LATVİYA BİZNES FORUMU 531
LATVİYA PREZİDENTİ VALDİS ZATLERS AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞMÜŞDÜR 536
LATVİYA PREZİDENTİ VALDİS ZATLERS SƏNGƏÇAL NEFT TERMİNALI İLƏ TANIŞ OLMUŞDUR 537
BAKIDA AZƏRBAYCAN-LATVİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ ÜÇÜNCÜ İCLASI KEÇİRİLMİŞDİR 537
ZAQATALA ŞƏHƏRİ İLƏ TANIŞLIQ 538
ŞƏKİ İLƏ TANIŞLIQ 539
QƏBƏLƏ İLƏ TANIŞLIQ 541
AZƏRBAYCAN İLƏ LATVİYA ARASINDA İKT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 542
LATVİYA PREZİDENTİ VALDİS ZATLERS İŞ ADAMLARI İLƏ GÖRÜŞMÜŞDÜR 543
AZƏRBAYCAN XALÇALARI LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİ VƏ XANIMI LİLİTA ZATLERENİ VALEH ETMİŞDİR 544
LATVİYA PREZİDENTİ VALDİS ZATLERS TƏZƏPİR MƏSCİD KOMPLEKSİNDƏ OLMUŞDUR 544
İÇƏRİŞƏHƏRLƏ TANIŞLIQ QONAQLARDA XOŞ TƏƏSSÜRAT DOĞURMUŞDUR 545
SƏFƏR BAŞA ÇATDI 545
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ MÜŞAVİRİ, ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR 546
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN BADEN-VÜRTEMBERQ FEDERAL TORPAĞININ BAŞ NAZİRİ GÜNTER OETTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 546
BAKIDA 10-CU ALMAN-AZƏRBAYCAN İQTİSADİ FORUMU KEÇİRİLMİŞDİR 546
MOSKVADA MDB XİN-LƏRARASI MƏSLƏHƏTLƏŞMƏLƏR APARILMIŞDIR 548
STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNDƏ MARK QROSMAN İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR 549

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ AZƏRBAYCANDAKI NÜMAYƏNDƏSİ ALAN VADDAMSI DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI MÜNASİBƏTİLƏ QƏBUL ETMİŞDİR 550

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİL DÖVLƏTİNİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MİXAEL LAVON-LOTEMİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 550

AZƏRBAYCAN VƏ QAZAXISTAN FÖVQƏLADƏ HALLAR NAZİRLİKLƏRİ ARASINDA PROTOKOL İMZALANMIŞDIR 551

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 552

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN "RWE" ŞİRKƏTİNİN PREZİDENTİ YURGEN QROSSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 552

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 552

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ FERİDUN SİNİRLİOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 553

AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI 553

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR RUSİYA MÜĞƏNNİSİ ALLA PUQAÇOVANIN KONSERTİNDƏ OLMUŞDUR 553

AZƏRTAC İLƏ "XOVAR" ARASINDA SAZİŞ İMZALANMIŞDIR 554

MDB İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK ORQANLARI VƏ KƏŞFİYYAT XİDMƏTLƏRİ RƏHBƏRLƏRİ MÜŞAVİRƏSİNİN NÖVBƏTİ İCLASI GƏLƏN İL BAKIDA KEÇİRİLƏCƏKDİR 555

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLİYİ PAKİSTAN, ƏFQANISTAN VƏ TACİKİSTANDAKI VƏZİYYƏTLƏ BAĞLI VƏTƏNDAŞLARA XƏBƏRDARLIQ ETMİŞDİR 555

GÜRCÜSTANDA AZPROMO-NUN NÜMAYƏNDƏLİYİ AÇILMIŞDIR 556

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ CAN LUİCİ MAŞANI DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 557

AZƏRBAYCAN VƏ TUVALU RESPUBLİKALARI ARASINDA DİPLOMATİK ƏLAQƏLƏRİN QURULMASI HAQQINDA BİRGƏ RƏSMİ SƏNƏD İMZALANMIŞDIR 557

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ERICSSON ŞİRKƏTİNİN BİRİNCİ VİTSE-PREZİDENTİ HANS VESTBERQİ QƏBUL ETMİŞDİR 558

MACARISTAN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ DƏSTƏKLƏYİR VƏ SUVERENLİYİNƏ HÖRMƏTLƏ YANAŞIR 558

KİYEVDƏ GUAM-IN MİLLİ ƏLAQƏLƏNDİRİCİLƏR ŞURASININ XVII İCLASI KEÇİRİLMİŞDİR 559

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA SƏFƏRİ 559

AZƏRBAYCAN, QAZAXISTAN, RUSİYA VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ 560

SƏFƏR BAŞA ÇATDI 562

AZƏRBAYCAN İLƏ AVROPA ŞURASI ARASINDA ÇOX GÖZƏL MÜNASİBƏTLƏR FORMALAŞMIŞDIR 562

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI 563

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI ANDRİS PİEBALQSI QƏBUL ETMİŞDİR 563

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ QRİQOL VAŞADZENİ QƏBUL ETMİŞDİR 564

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "ƏSRİN MÜQAVİLƏSİ"NİN 15-Cİ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR 564

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 566

MOSKVADA MDB ÖLKƏLƏRİ MALİYYƏ NAZİRLƏRİNİN MÜŞAVİRƏSİ KEÇİRİLMİŞDİR 575

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRƏN SƏFİRLƏRİNİ MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ QƏBUL ETMİŞDİR 576

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ LORD HANTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 578

AZƏRBAYCAN-HİNDİSTAN: HÜQUQİ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR 579

NATO AZƏRBAYCANDA SU RESURSLARININ İDARƏ OLUNMASI ÜZRƏ MÖVCUD PROBLEMLƏRİN HƏLLİNDƏ ƏMƏKDAŞLIĞA HAZIRDIR 580

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKSOY-UN BAŞ DİREKTORU DÜSEN KASEİNOVU QƏBUL ETMİŞDİR 580

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ BÖYÜK BRİTANİYADA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR 580

BAKIDA QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN FÖVQƏLADƏ HALLAR ÜZRƏ QURUMLARI RƏHBƏRLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 581

AZƏRBAYCAN VƏ UKRAYNANIN FÖVQƏLADƏ HALLAR NAZİRLİKLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA KOMPLEKS TƏDBİRLƏR PLANI İMZALANMIŞDIR 583

BAKIDA "YENİ GEOSİYASİ REALLIQLAR PRİZMASINDAN XƏZƏR DƏNİZİ REGİONUNDA TƏHLÜKƏSİZLİK VƏ SABİTLİK" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR 583

ABŞ-IN CORCTAUN UNİVERSİTETİ AMERİKA-AZƏRBAYCAN STRATEJİ TƏRƏFDAŞLIQ MÜNASİBƏTLƏRİNƏ HƏSR EDİLMİŞ KONFRANS KEÇİRMİŞDİR 585

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYA PARLAMENTİ SENATININ SƏDRİ PRŞEMISL SOBOTKANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 586

BAKIDA AZƏRBAYCAN-ÇEXİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 587

VYANADA DİPLOMATİYA AKADEMİYALARI VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTLARI RƏHBƏRLƏRİNİN 37-Cİ KONFRANSI KEÇİRİLMİŞDİR 588

AVROPA İTTİFAQI - AZƏRBAYCAN ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN 10-CU İCLASI KEÇİRİLMİŞDİR 589

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ MƏHMƏT ƏLİ ŞAHİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 589
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ABŞ-A SƏFƏRİ 590
XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN İKT-NIN ÜZV DÖVLƏTLƏRİNİN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN İLLİK ƏLAQƏLƏNDİRİCİ GÖRÜŞDƏ ÇIXIŞI 596
XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ ASSAMBLEYASININ 64-CÜ SESSİYASININ ÜMUMİ MÜZAKİRƏLƏRİNDƏ ÇIXIŞI 598
BAKIDA TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASININ ŞURA İCLASI KEÇİRİLMİŞDİR 602
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMİNİYAYA RƏSMİ SƏFƏRİ 603
RƏSMİ QARŞILANMA MƏRASİMİ 603
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜ 604
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 604
AZƏRBAYCAN-RUMİNİYA SƏNƏDLƏRİNİN İMZALANMASI 605
BİRGƏ MƏTBUAT KONFRANSI 605
RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN BƏYANATI 605
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 606
NAMƏLUM ƏSGƏRİN MƏZARINI ZİYARƏT 608
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMİNİYANIN BAŞ NAZİRİ EMİL BOK İLƏ GÖRÜŞÜ 609
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BUXARESTDƏKİ LULİA HAŞDEU ADINA MİLLİ KOLLECDƏ OLMUŞDUR 609
AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVA BUXARESTDƏKİ "DOİNA LEVİNTZA" SƏRGİ SALONUNDA OLMUŞDUR 610
AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ 611
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT 613
PREZİDENT İLHAM ƏLİYEV RUMİNİYA SENATININ SƏDRİ MİRÇA COANA İLƏ GÖRÜŞMÜŞDÜR 614
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYA DEPUTATLAR PALATASININ SƏDRİ XANIM ROBERTA ANASTASE İLƏ GÖRÜŞMÜŞDÜR 614
SƏFƏR BAŞA ÇATDI 615
BAKIDA TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASININ BİRİNCİ SAMMİTİ KEÇİRİLMİŞDİR 615
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 618
AZƏRTAC İLƏ YUNESKO ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏ İMZALANMIŞDIR 619

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ DAVAMLI İNKİŞAF SEKTORUNUN DİREKTORU PİTER TOMSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 619
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ MARTİN BARTAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 620
AZƏRBAYCAN-QAZAXISTAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ VI İCLASI KEÇİRİLMİŞDİR 620
AZƏRBAYCAN VƏ ÇEXİYA MÜDAFİƏ NAZİRLİKLƏRİ ARASINDA "MÜDAFİƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ" İMZALANMIŞDIR 621
BAKIDA "MÜDAFİƏ SİYASƏTİ VƏ STRATEGİYASI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR 621
DÖVLƏT İNVESTİSİYALARI ÜZRƏ KADR POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ LAYİHƏSİ İLƏ BAĞLI MALİYYƏ SAZİŞİ İMZALANMIŞDIR 622
QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 623
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 623
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 623
RƏSMİ QARŞILANMA MƏRASİMİ 624
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN TƏKBƏTƏK GÖRÜŞÜ 624
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 625
AZƏRBAYCAN-QAZAXISTAN SƏNƏDLƏRİNİN İMZALANMASI 626
AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARI 626
QAZAXISTAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ NAHAR 629
AZƏRBAYCAN İLƏ QAZAXISTAN ARASINDA TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ MÜHÜM MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR 630
QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV NAXÇIVANA GƏLMİŞDİR ... 631
TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IX ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN NAXÇIVANA GƏLMİŞDİR 631
QIRĞIZISTAN PREZİDENTİ KURMANBEK BAKİYEV NAXÇIVANA GƏLMİŞDİR 632
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QIRĞIZISTAN PREZİDENTİ KURMANBEK BAKİYEVİN GÖRÜŞÜ 632
TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI NAXÇIVANDA ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞLƏR 632
IX ZİRVƏ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARI HEYDƏR ƏLİYEV MUZEY-KOMPLEKSİ İLƏ TANIŞ OLMUŞLAR 633
"ƏCƏMİ" SEYRƏNGAHI İLƏ TANIŞLIQ 633
TÜRKDİLLİ XALQLARIN MİLLİ MUSİQİSİNDƏN İBARƏT KONSERT 634
TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI BİRGƏ ŞAM ETMİŞLƏR 634
AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİ BİRGƏ SƏHƏR YEMƏYİNDƏ GÖRÜŞMÜŞLƏR 634

NAXÇIVANDA TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IX ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 635
TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IX ZİRVƏ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL 645
QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN NAXÇIVANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR 645
QIRĞIZISTAN PREZİDENTİ KURMANBEK BAKİYEVİN NAXÇIVANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR 645
TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN NAXÇIVANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR 645
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN BİRLƏŞMİŞ QƏRARGAHLAR KOMİTƏSİNİN SƏDRİ GENERAL TARİQ MƏCİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 646
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ENERGETİKA NAZİRİNİN MÜAVİNİ DANİEL PONEMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 646
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 646
MƏRKƏZİ BANK İLƏ DÜNYA BANKI ARASINDA ƏMƏKDAŞLIQ PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 647
PREZİDENT İLHAM ƏLİYEV BAKIDA "CASPIAN AGRO-2009" KƏND TƏSƏRRÜFATI VƏ ƏRZAQ MƏHSULLARININ İSTEHSALI, EMALI VƏ QABLAŞDIRILMASI BEYNƏLXALQ SƏRGİSİ İLƏ TANIŞ OLMUŞDUR 647
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVAKİYANIN KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ İVETTA MATSEJKOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 649
ARAZ ƏZİMOV: AZƏRBAYCAN PRİNSİPİAL MÖVQEYİNDƏ DURARAQ HANSISA KOMPROMİSƏ GETMƏYƏ HAZIRDIR 649
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ "AZƏRBAYCAN RESPUBLİKASI DAĞLIQ QARABAĞ BÖLGƏSİ AZƏRBAYCANLI İCMASI" İCTİMAİ BİRLİYİ İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞLƏR 650
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BRİFİNQ KEÇİRMİŞLƏR 650
DÖVLƏT KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ ÜMUMDÜNYA ƏQLİ MÜLKİYYƏT TƏŞKİLATININ BAŞ MƏCLİSİNDƏ İŞTİRAK ETMİŞDİR 651
AZƏRBAYCAN VƏ AVSTRİYA ARASINDA MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 651
ASTANADA AZƏRBAYCANLA QAZAXISTAN ARASINDA KONSULLUQ ÜZRƏ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR 652
AZƏRBAYCAN PREZİDENTİNİN VƏ RUSİYA HÖKUMƏTİ SƏDRİNİN TELEFON DANIŞIQLARI 652
XARİCİ İŞLƏR NAZİRİ İTALİYANIN AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR 653
QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ TACİKİSTAN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 653

AZƏRBAYCAN İLƏ KOREYA RESPUBLİKASI ARASINDA AQRAR SEKTOR ÜZRƏ ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 654
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVAYA SƏFƏRİ 655
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ 655
KİŞİNYOVDA AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 655
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMİŞDİR 655
PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCAN TELEVİZİYASINA MÜSAHİBƏSİ 656
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ 661
SƏFƏR BAŞA ÇATDI 661
AZƏRBAYCAN YUNESKO-NUN SƏMƏRƏLİ FƏALİYYƏTİNƏ ÖZ TÖHFƏSİNİ VERMƏYƏ HAZIRDIR 661
YUNESKO AZƏRBAYCANIN ƏSAS TƏRƏFDAŞLARINDAN BİRİDİR 663
ALMATIDA "NEFT VƏ QAZ - KIOGE 2009" BEYNƏLXALQ SƏRGİSİ VƏ KONFRANSI KEÇİRİLMİŞDİR 664
YAPONİYA HÖKUMƏTİNİN AZƏRBAYCANDA HƏYATA KEÇİRƏCƏYİ LAYİHƏLƏRİN ÜMUMİ DƏYƏRİ 556 MİN DOLLARDIR 665
AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT ÜÇÜN BƏYANATI 666
AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ KOREYA RESPUBLİKASI XARİCİ İŞLƏR VƏ TİCARƏT NAZİRLİYİ ARASINDA SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏR ÜZRƏ İKİNCİ İCLAS KEÇİRİLMİŞDİR 666
PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN BELARUS RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ 667
AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRLİYİ İLƏ ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL İQTİSADİYYAT VƏ TEXNOLOGİYALAR NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 669
AFİNADA ATƏT PARLAMENT ASSAMBLEYASININ PAYIZ SESSİYASI KEÇİRİLMİŞDİR 670
AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN AUDİTORLAR PALATALARI ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR 671
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İORDANİYAYA RƏSMİ SƏFƏRİ 671
ƏMMANDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QARŞILANMA MƏRASİMİ OLMUŞDUR 672
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN GÖRÜŞÜ 672
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 672
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İORDANİYANIN BAŞ NAZİRİ NADER DƏHƏBİ İLƏ GÖRÜŞÜ 673
AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ 673

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İORDANİYAYA RƏSMİ SƏFƏRİ BAŞA ÇATMIŞDIR 673
BAKIDA İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN VI KONFRANSI İŞƏ BAŞLAMIŞDIR 674
PREZİDENT İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN VI KONFRANSININ NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR 676
TÜRKİYƏ PARLAMENTİNİN SƏDRİ AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 682
TÜRKİYƏNİN BAŞ NAZİRİ AZƏRBAYCAN PARLAMENTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 682
İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN VI KONFRANSI BAŞA ÇATMIŞDIR 683
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN İCRA APARATININ RƏHBƏRİ İSFƏNDİYAR RƏHİM MƏŞAYİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 683
XARİCİ İŞLƏR NAZİRİ LİTVANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 684
AZƏRBAYCANIN DÖVLƏT BAYRAĞINA HÖRMƏTSİZLİK EDİLMƏSİ İLƏ ƏLAQƏDAR TÜRKİYƏYƏ RƏSMİ ETİRAZ BİLDİRİLMİŞDİR 684
XARİCİ İŞLƏR NAZİRİ QƏTƏRİN MƏDƏNİYYƏT, İNCƏSƏNƏT VƏ İRS NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 684
BUXARESTDƏ AVROPA KONSTİTUSİYA MƏHKƏMƏLƏRİNİN QARŞISINDA DURAN MÜHÜM VƏZİFƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR 685
BAKIDA TÜRKSOY DAİMİ ŞURASININ 26-CI TOPLANTISI KEÇİRİLMİŞDİR 685
BEYNƏLXALQ DƏNİZ TƏŞKİLATININ ABŞ-DA KEÇİRİLMİŞ TƏDBİRİNDƏ İQLİM DƏYİŞİKLİKLƏRİNİN YÜKDAŞIMALARA TƏSİRİ MÖVZUSU MÜZAKİRƏ OLUNMUŞDUR 688
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ RƏSMİ SƏFƏRİ 688
İSVEÇRƏ KANTONLAR ŞURASININ SƏDRİ ALAİN BERSET İLƏ GÖRÜŞ 688
RƏSMİ QARŞILANMA MƏRASİMİ 689
GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR 689
AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİ RƏSMİ NAHAR ETMİŞLƏR 690
AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSI 690
İSVEÇRƏ PREZİDENTİ HANS-RUDOLF MERTSİN BƏYANATI 690
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 691
BERN ŞƏHƏRİ İLƏ TANIŞLIQ 693
İSVEÇRƏDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏT GÜNLƏRİNİN RƏSMİ AÇILIŞI 694
İSVEÇRƏ PREZİDENTİ HANS-RUDOLF MERTSİN ÇIXIŞI 694
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 695
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏNİN ENERJİ, NƏQLİYYAT, KOMMUNİKASİYA VƏ ƏTRAF MÜHİT ÜZRƏ FEDERAL MÜŞAVİRİ MORİTS LEUENBERGER İLƏ GÖRÜŞMÜŞDÜR 697

SƏFƏR BAŞA ÇATDI 697
AZƏRBAYCANDA DİPLOMATİK XİDMƏTİN YARANMASININ 90 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ QAHİRƏDƏ KONFRANS KEÇİRİLMİŞDİR 698
AZƏRBAYCAN İLƏ UKRAYNA ARASINDA ƏLAQƏLƏRİN DAHA DA GENİŞLƏNDİRİLMƏSİ ÜÇÜN YAXŞI İMKANLAR VARDIR 699
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ SƏRƏNCAMÇI DİREKTORU NQOZİ OKONCO-İVEALANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 700
AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI 700
BAKIDA AZƏRBAYCANIN UZUNMÜDDƏTLİ İQTİSADİ İNKİŞAFI ÜZRƏ FORUM KEÇİRİLMİŞDİR 701
DÖVLƏT DUMASINDA RUSİYA, AZƏRBAYCAN VƏ ERMƏNİSTAN DEPUTATLARININ GÖRÜŞÜ OLMUŞDUR 702
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTANIN XARİCİ İŞLƏR NAZİRİ XANIM RUMYANA JELEVANI QƏBUL ETMİŞDİR 703
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ SƏFƏRİNİ QƏBUL ETMİŞDİR 703
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLUNU QƏBUL ETMİŞDİR 703
BAKIDA QİƏT-İN ÜZVÜ OLAN DÖVLƏTLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR 704
AZƏRBAYCAN QİƏT-DƏ SƏDRLİK ETDİYİ DÖVRDƏ SƏMƏRƏLİ FƏALİYYƏT GÖSTƏRMİŞDİR 704
BAKIDA XƏZƏR DƏNİZİNİN TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ KONFRANS İŞİNƏ BAŞLAMIŞDIR 705
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ XANIM TİNA KAYDANOVU QƏBUL ETMİŞDİR 706
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MARİO CORCO STEFANO BALDİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 706
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİDERLAND KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ JAN LUKAS İNAYAT VAN HOORNUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 707
BELARUS PREZİDENTİ AZƏRBAYCANIN BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİN QƏBUL ELƏMİŞDİR 708
XARİCİ İŞLƏR NAZİRİ MOLDOVANIN DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 708
XARİCİ İŞLƏR NAZİRİ MİSİRİN XARİCİ İŞLƏR NAZİRİNİN KÖMƏKÇİSİ İLƏ GÖRÜŞMÜŞDÜR 709
XARİCİ İŞLƏR NAZİRİ YUNANISTANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 709
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ NÖVBƏTİ BƏYANAT YAYMIŞLAR 710
LÜKSEMBURQDA AVROPA İTTİFAQI-AZƏRBAYCAN ƏMƏKDAŞLIQ ŞURASININ 10-CU İCLASI KEÇİRİLMİŞDİR 710
BAŞ NAZİRİNİN MÜAVİNİ İRAN PREZİDENTİNİN MÜŞAVİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 712

AZƏRBAYCAN İLƏ BOLQARISTAN ARASINDA TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ İKİTƏRƏFLİ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 712
DAŞKƏNDDƏ MDB VƏ BALTİKYANI ÖLKƏLƏRİN DƏMİR YOLU NƏQLİYYATI ŞURASININ 51-Cİ İCLASI KEÇİRİLMİŞDİR 713
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN XARİCİ ƏLAQƏLƏR KOMİSSİYASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR 714
AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI 721
AZƏRBAYCAN İLƏ LİTVANIN XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA ƏLAQƏLƏRİNİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 721
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FƏLƏSTİN MUXTARİYYƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ RİYAD ƏL-MALKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 722
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUS RESPUBLİKASININ MİLLİ DÖVLƏT TELERADİO ŞİRKƏTİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ VERMİŞDİR 723
AZƏRBAYCAN VƏ ÇEXİYA ARASINDA SAZİŞ İMZALANMIŞDIR 723
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI IŞIK KOŞANERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 724
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YALTA ŞƏHƏRİNİN BAŞÇISI SERGEY BRAYKONU QƏBUL ETMİŞDİR 724
AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI 724
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV KOREYA RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ LÜ KVANQ ÇULU DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 724
XARİCİ İŞLƏR NAZİRİ AVSTRİYANIN İQAMƏTGAHI VYANADA OLAN SƏFİRİ MARİUS KARİQALİSİ AZƏRBAYCANDA FƏALİYYƏT MÜDDƏTİNİN BİTMƏSİ İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 725
BAKIDA İKT-NİN GƏNCLİYİN İNKİŞAFINDA ROLU ÜZRƏ I BEYNƏLXALQ KONFRANS BAŞA ÇATMIŞDIR 725
BEYNƏLXALQ TƏDBİRDƏ AQUPDK-NIN SƏDRİ HİCRAN HÜSEYNOVANIN İRƏLİ SÜRDÜYÜ TƏKLİFLƏR YEKDİLLİKLƏ QƏBUL EDİLMİŞDİR 726
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ HAMADUN TURENİ QƏBUL ETMİŞDİR 728
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PATRİARX KATALİKOSU II İLYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 729
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNSK VƏ SLUTSK MİTROPOLİTİ, BELARUS ÜZRƏ PATRİARX EKZARXI FİLARETİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 729
XARİCİ İŞLƏR NAZİRİ KOREYA RESPUBLİKASININ SƏFİRİ LÜ KVANQ ÇULU AZƏRBAYCANDA FƏALİYYƏT MÜDDƏTİNİN BİTMƏSİ İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 729
XARİCİ İŞLƏR NAZİRİ AVROPA İTTİFAQININ NÜMAYƏNDƏLİYİNİN AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ RƏHBƏRİNİ QƏBUL ETMİŞDİR 730

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 730
AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ABŞ DÖVLƏT KATİBİNİN SİYASİ VƏ HƏRBİ MƏSƏLƏLƏR ÜZRƏ KÖMƏKÇİSİ İLƏ GÖRÜŞMÜŞDÜR 730
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLLİ QƏBUL ETMİŞDİR 731
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEÇENİSTAN PREZİDENTİ RAMZAN KADIROVU QƏBUL ETMİŞDİR 731
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTAN PREZİDENTİ MUXU ƏLİYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 732
BAKIDA "DİNLƏRARASI DİALOQ: QARŞILIQLI ANLAŞMADAN BİRGƏ ƏMƏKDAŞLIĞA DOĞRU" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR 732
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI 732
HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA GÜRCÜSTANIN PATRİARX KATOLİKOSU II İLYA İLƏ GÖRÜŞMÜŞDÜR 752
NYU-YORKDA AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ KONFRANS KEÇİRİLMİŞDİR 753
AŞQABADDA XƏZƏRİN STATUSUNUN MÜƏYYƏN EDİLMƏSİ İLƏ BAĞLI KONVENSİYANIN HAZIRLANMASI ÜZRƏ XÜSUSİ İŞÇİ QRUPUNUN 26-CI İCLASI KEÇİRİLMİŞDİR 753
VAŞİNQTONUN HÜQUQ MÜTƏXƏSSİSLƏRİ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HÜQUQİ ASPEKTLƏRİNİ İŞIQLANDIRAN HESABATLA TANIŞ OLMUŞLAR 754
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ARAZ ƏZİMOV MEKSİKADA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR 755
AZƏRBAYCAN "ÇİNİN XARİCƏ İNVESTİSİYA SƏRGİSİ"NDƏ İŞTİRAK ETMİŞDİR 756
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ REGİONA SƏFƏRLƏRİNİN YEKUNU İLƏ BAĞLI BƏYANAT YAYMIŞLAR 757
AZƏRBAYCAN İKT-YƏ ÜZV ÖLKƏLƏRLƏ İQTİSADİ ƏMƏKDAŞLIĞI BUNDAN SONRA DA İNKİŞAF ETDİRƏCƏKDİR 758
SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ DANİLO TÜRKÜN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 758
RƏSMİ QARŞILANMA MƏRASİMİ 759
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SLOVENİYA PREZİDENTİ DANİLO TÜRKÜN TƏKBƏTƏK GÖRÜŞÜ 759
AZƏRBAYCAN VƏ SLOVENİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI 760
AZƏRBAYCAN-SLOVENİYA SƏNƏDLƏRİNİN İMZALANMASI 760
DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 761
AZƏRBAYCAN XALÇALARININ GÖZƏLLİYİ SLOVENİYANIN BİRİNCİ XANIMINI HEYRAN ETMİŞDİR 764
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 765
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 765
MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 766

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 767
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 767
ƏFSANƏVİ PARTİZAN MEHDİ HÜSEYNZADƏNİN ABİDƏSİNİ ZİYARƏT 770
SLOVENİYA PREZİDENTİ DANİLO TÜRK AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞMÜŞDÜR 770
BAKIDA AZƏRBAYCAN-SLOVENİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 771
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 771
SLOVENİYA PREZİDENTİ DANİLO TÜRKÜN ÇIXIŞI 775
SƏFƏR BAŞA ÇATDI 778
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI BMT-NİN İŞGƏNCƏLƏRƏ QARŞI KOMİTƏSİNİN 43-CÜ SESSİYASINDA MƏRUZƏ ETMİŞDİR 778
PREZİDENT İLHAM ƏLİYEV GÜRCÜSTANIN AZƏRBAYCANDAKI SƏFİRİ NİKOLOZ NATBİLADZENİ FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 779
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLUNU QƏBUL ETMİŞDİR 779
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ HAYATİ YAZICİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 779
XARİCİ İŞLƏR NAZİRİ SURİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 780
XARİCİ İŞLƏR NAZİRİ TACİKİSTAN XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 780
BAKIDA "SİVİLİZASİYALARARASI DİALOQ: AZƏRBAYCANDAN BAXIŞ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR 780
"SİVİLİZASİYALARARASI DIALOQ: AZƏRBAYCANDAN BAXIŞ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN YEKUNLARINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSI KEÇİRİLMİŞDİR 782
ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ BAĞLI DANIŞIQLAR PROSESİ YENİDƏN İNTENSİVLƏŞİB 782
DÜŞƏNBƏDƏ MDB MÜDAFİƏ NAZİRLƏRİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR 783
TACİKİSTAN PREZİDENTİ AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 783
AZƏRBAYCAN VƏ TACİKİSTANIN MÜDAFİƏ NAZİRLƏRİ HƏRBİ VƏ HƏRBİ-TEXNİKİ SAHƏDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİNİ MÜZAKİRƏ ETMİŞLƏR 784
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELARUSA RƏSMİ SƏFƏRİ 784
RƏSMİ QARŞILANMA MƏRASİMİ 784
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ 785
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 786
AZƏRBAYCAN-BELARUS SƏNƏDLƏRİNİN İMZALANMASI 789
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 790
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNSKİN "QƏLƏBƏ" MEYDANINDAKI ABİDƏNİ ZİYARƏT ETMİŞDİR 791

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ BELARUS DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU ADI VERİLMİŞDİR 792
"AQAT" ELM-İSTEHSALAT BİRLİYİ İLƏ TANIŞLIQ 799
SƏFƏR BAŞA ÇATDI 800
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTANA İŞGÜZAR SƏFƏRİ 800
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN GÖRÜŞÜ 800
AZƏRBAYCAN-BOLQARISTAN SƏNƏDLƏRİ İMZALANMIŞDIR 800
BİRGƏ MƏTBUAT KONFRANSI 801
AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN BİRGƏ NAHARI 804
SƏFƏR BAŞA ÇATDI 804
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ QLOBAL FORUMDA VƏ BMT-NİN KORRUPSİYAYA QARŞI KONVENSİYASININ KONFRANSINDA İŞTİRAK ETMİŞDİR 805
GUAM ÜZVÜ OLAN DÖVLƏTLƏRİN HÜQUQ-MÜHAFİZƏ ORQANLARININ QARŞILIQLI FƏALİYYƏTİNİN ƏLAQƏLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ DİQQƏT MƏRKƏZİNDƏDİR 806
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYTİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ĞƏSSAN YUSUF ƏL-ZƏVAVİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 806
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ AZƏRBAYCAN RESPUBLİKASINDAKI NÜMAYƏNDƏLİYİNİN RƏHBƏRİ SƏFİR ROLAND KOBİANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 807
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 807
XARİCİ İŞLƏR NAZİRİ KÜVEYT DÖVLƏTİNİN AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR 807
NORVEÇİN VƏ ALMANİYANIN ÖLKƏMİZDƏKİ MÜVƏQQƏTİ İŞLƏR VƏKİLLƏRİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLİYİNƏ DƏVƏT OLUNMUŞLAR 808
AZƏRBAYCAN İLƏ MOLDOVA ARASINDA HÜQUQİ SAHƏDƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR 808
DİPLOMATİK AKADEMİYADA "DÜNYANIN ENERJİ MƏNZƏRƏSİ-2009" ADLI KONFRANS KEÇİRİLMİŞDİR 809
BMT BAŞ MƏCLİSİNİN İKİNCİ KOMİTƏSİ AZƏRBAYCANIN TƏŞƏBBÜSÜ İLƏ QƏTNAMƏ LAYİHƏSİ QƏBUL ETMİŞDİR 809
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN FRANSA SAHİBKARLAR TƏŞKİLATININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 810
XARİCİ İŞLƏR NAZİRİ ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİNİN BAŞ MÜŞAVİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 812
BİŞKEKDƏ SPECA İDARƏEDİCİ ŞURASININ DÖRDÜNCÜ İCLASI KEÇİRİLMİŞDİR 812
BAKIDA NATO-NUN YENİ STRATEJİ KONSEPSİYASI İLƏ BAĞLI KONFRANS KEÇİRİLMİŞDİR 813

BAKIDA "CƏNUBİ QAFQAZDA TƏHLÜKƏSİZLİYƏ MANEƏLƏR: MÖVCUD REALLIQLAR VƏ REGİONAL İNKİŞAFIN PERSPEKTİVLƏRİ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR 814
MOSKVADA MDB DÖVLƏTLƏRİ NƏQLİYYATDA ƏLAQƏLƏNDİRMƏ MÜŞAVİRƏSİNİN XXIX İCLASI KEÇİRİLMİŞDİR 815
AZƏRBAYCANDA MÜASİR STANDARTLARA CAVAB VERƏN GƏMİQAYIRMA ZAVODU İNŞA EDİLƏCƏKDİR 815
AZƏRBAYCANIN BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ YAQUB EYYUBOV YALTADA MOLDOVA HÖKUMƏTİNİN BAŞÇISI VLADİMİR FİLAT İLƏ DANIŞIQLAR APARMIŞDIR 816
YALTADA MDB ÖLKƏLƏRİNİN HÖKUMƏT BAŞÇILARI ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR 817
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA İŞGÜZAR SƏFƏRİ 818
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYAN MÜNXENDƏ GÖRÜŞMÜŞLƏR 818
SƏFƏR BAŞA ÇATMIŞDIR 818
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR 819
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜDAFİƏ NAZİRİNİN RUSİYA, UKRAYNA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ XANIM SELEST VALLANDERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 819
AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİN NÜMAYƏNDƏ HEYƏTİ QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIĞI PARLAMENT MƏCLİSİNİN 34-CÜ GENİŞ İCLASINDA İŞTİRAK ETMİŞDİR 820
BAKIDA "RUS KİTABI EVİ" AÇILMIŞDIR 821
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYAYA İŞGÜZAR SƏFƏRİ 822
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ 822
ULYANOVSKDA AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ADINI DAŞIYAN MEYDANIN AÇILIŞI OLMUŞDUR 823
PREZİDENT İLHAM ƏLİYEV VOLQA ÇAYI ÜZƏRİNDƏ YENİ KÖRPÜ-KEÇİDİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR 826
RUSİYA FEDERASİYASI NƏQLİYYAT KOMPLEKSİNİN İNNOVASİYA İNKİŞAFI SƏRGİSİ İLƏ TANIŞLIQ 827
AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN BİRGƏ İŞÇİ NAHARI 827
PREZİDENT İLHAM ƏLİYEV ULYANOVSKDA NƏRİMAN NƏRİMANOVUN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR 828
PREZİDENT İLHAM ƏLİYEV V.İ.LENİNİN EV-MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR 828
SƏFƏR BAŞA ÇATDI 829
ƏDLİYYƏ NAZİRİ NORVEÇ ƏDLİYYƏ NAZİRLİYİNİN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR 829
MİNSKDƏ MDB MİLLİ İNFORMASİYA AGENTLİKLƏRİNİN RƏHBƏRLƏRİ ŞURASININ X İCLASI OLMUŞDUR 829

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "AQO" MONİTORİNQ QRUPUNUN SƏDRİ, RUMİNİYANIN AVROPA ŞURASI YANINDA DAİMİ NÜMAYƏNDƏSİ STELİAN STOYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 830
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN MİLLİ MÜDAFİƏ NAZİRİ BOQDAN KLİXİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 831
XARİCİ İŞLƏR NAZİRİ KOREYA RESPUBLİKASININ AZƏRBAYCANA YENİ TƏYİN EDİLMİŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR 831
XARİCİ İŞLƏR NAZİRİ MOLDOVA RESPUBLİKASININ SƏFİRİ İON ROBUNU AZƏRBAYCANDA FƏALİYYƏT MÜDDƏTİNİN BİTMƏSİ İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 832
XARİCİ İŞLƏR NAZİRİ FİNLANDİYANIN AZƏRBAYCANDAKI SƏYYAR SƏFİRİNİ QƏBUL ETMİŞDİR 832
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ XARİCİ SİYASƏT PROQRAMININ İŞTİRAKÇILARINA SERTİFİKATLAR VERİLMİŞDİR 832
AZƏRBAYCANIN GƏNCLƏR VƏ İDMAN NAZİRİ KUBADA RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR 833
NİDERLANDDA AZƏRBAYCANIN DİPLOMATİK XİDMƏT ORQANLARININ 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ KONFRANS KEÇİRİLMİŞDİR 834
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN KEÇMİŞ BAŞ NAZİRİ TONİ BLEYERİ QƏBUL ETMİŞDİR 834
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN YORQ HERSOQU, ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR 835
AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ AYIRDIĞI KREDİT ƏSASINDA AZƏRBAYCANDA 6 YENİ ZAVOD TİKİLƏCƏKDİR 835
XARİCİ İŞLƏR NAZİRİ AFİNADA SƏFƏRDƏ OLMUŞDUR 835
AZƏRBAYCAN VƏ İTALİYA XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA İŞGÜZAR VƏ SƏMƏRƏLİ ƏMƏKDAŞLIĞIN ƏMƏLİ İNKİŞAF PERSPEKTİVLƏRİ İSTİQAMƏTİNDƏ MÜZAKİRƏLƏR APARILMIŞDIR 839
VI BEYNƏLXALQ ELM OLİMPİADASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR 840
BAKIDA DÜNYA GÖMRÜK TƏŞKİLATININ AVROPA ÜZRƏ REGİONAL TƏDRİS MƏRKƏZLƏRİNİN BİRİNCİ İCLASI KEÇİRİLMİŞDİR 842
ASTANADA MDB ÖLKƏLƏRİ BAŞ PROKURORLARI ƏLAQƏLƏNDİRMƏ ŞURASININ 18-Cİ İCLASI KEÇİRİLMİŞDİR 844
AZƏRBAYCAN İLƏ HİNDİSTAN ARASINDA ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 844
ÇİKAQODA "XƏZƏR HÖVZƏSİNİN GEOSİYASİ DURUMU VƏ OBAMA ADMİNİSTRASİYASI DÖVRÜNDƏ ABŞ-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLMİŞDİR 845
BAKIDA AZƏRBAYCAN-NATO BEYNƏLXALQ MƏKTƏBİNİN QIŞ SESSİYASI KEÇİRİLİR 845
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ İSTANBULDA SEYSMİK RİSKİN AZALDILMASI MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR 846
AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ ABŞ-IN AVROPADAKI HƏRBİ HAVA QÜVVƏLƏRİNİN KOMANDANI İLƏ GÖRÜŞMÜŞDÜR 846

XARİCİ İŞLƏR NAZİRİ BRÜSSELDƏ KEÇİRİLƏN ŞƏRQ TƏRƏFDAŞLIĞI XARİCİ İŞLƏR NAZİRLƏRİNİN 1-Cİ İCLASINDA İŞTİRAK ETMİŞDİR 847
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA RƏSMİ SƏFƏRİ 848
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GDF SUEZ ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ VƏ BAŞ ƏMƏLİYYATÇI DİREKTORU JAN-FRANSUA SİRELLİ İLƏ GÖRÜŞÜ 848
MİLLİ ASSAMBLEYANIN SƏDRİ İLƏ GÖRÜŞ 848
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ NİKOLA SARKOZİNİN GÖRÜŞÜ 849
MEDEF-İN ÜZVÜ OLAN İŞ ADAMLARI İLƏ GÖRÜŞ 850
FRANSA XARİCİ İŞLƏR NAZİRİ BERNAR KUŞNER İLƏ GÖRÜŞ 854
PARLAMENTLƏRARASI ƏLAQƏLƏRİN MÖHKƏMLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİNDƏN DANIŞILMIŞDIR 854
PARİSDƏ AZƏRBAYCAN-FRANSA İKİTƏRƏFLİ SƏNƏDLƏRİ İMZALANMIŞDIR 854
SƏFƏR BAŞA ÇATDI 855
VYANADA AZƏRBAYCAN DİPLOMATİK XİDMƏTİNİN YARADILMASININ 90 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏDBİR TƏŞKİL EDİLMİŞDİR 855
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV KOREYA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ Lİ Cİ-HANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 856
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ BOKS ASSOSİASİYASININ PREZİDENTİ ÇİNQ-KUO VUNU QƏBUL ETMİŞDİR 857
YENİYETMƏLƏRİN VI BEYNƏLXALQ ELM OLİMPİADASI BAŞA ÇATMIŞDIR 857
VI BEYNƏLXALQ ELM OLİMPİADASI TƏKCƏ YENİYETMƏLƏR ÜÇÜN DEYİL, ÖLKƏMİZ ÜÇÜN DƏ OLDUQCA BÖYÜK ƏHƏMİYYƏT KƏSB EDİR 858
QAHİRƏ UNİVERSİTETİNİN PROFESSORU AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA ÇIXIŞ ETMİŞDİR 858
BMT-NİN CENEVRƏ BÖLMƏSİNDƏ TƏŞKİL OLUNMUŞ KONFRANSDA XOCALI QƏTLİAMI PİSLƏNİLMİŞDİR 859
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ BMSİT-İN 13-CÜ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR 861
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 862
DAĞLIQ QARABAĞ PROBLEMİ AŞPA-NİN BÜTÜN KOMİTƏLƏRİNDƏ MÜZAKİRƏ EDİLMƏLİDİR 862
AZƏRBAYCAN OMBUDSMANI POLŞADA ŞƏRQ ƏMƏKDAŞLIĞI ÇƏRÇİVƏSİNDƏ BEYNƏLXALQ TƏDBİRDƏ İŞTİRAK ETMİŞDİR 863
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN TEHRANA RƏSMİ SƏFƏRİ 863
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KONQRESİNƏ MÜRACİƏTİ 865
AZƏRBAYCAN-KOREYA ƏLAQƏLƏRİ MÜXTƏLİF SAHƏLƏRDƏ UĞURLA İNKİŞAF EDİR 867
AZƏRBAYCAN ABŞ-A NOTA VERMİŞDİR 868

RUSİYANIN HƏŞTƏRXAN VİLAYƏTİ AZƏRBAYCAN İLƏ İQTİSADİ ƏLAQƏLƏRİN GENİŞLƏNDİRİLMƏSİNDƏ MARAQLIDIR 869
AZƏRBAYCAN HÖKUMƏTİ İLƏ DÜNYA BANKI ARASINDA YENİ KREDİT SAZİŞİ İMZALANMIŞDIR 869
"BAKI İSLAM MƏDƏNİYYƏTİNİN PAYTAXTI-2009" MƏDƏNİYYƏT İLİNİN RƏSMİ BAĞLANIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR 870
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA "ENERJİ İXRACÇILARI: SİYASƏT, CƏMİYYƏT VƏ İQTİSADİYYAT" MÖVZUSUNDA SİMPOZİUM KEÇİRİLMİŞDİR 872
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN "VESTİ" TELEVİZİYA KANALINA MÜSAHİBƏ VERMİŞDİR 872
AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN TELEFON DANIŞIQLARI 877
AZƏRBAYCAN İLƏ TÜRKİYƏ ARASINDA DÖVLƏT QULLUĞU SAHƏSİNDƏ "2010-2011-Cİ İLLƏR ÜÇÜN FƏALİYYƏT PROQRAMI" İMZALANMIŞDIR 877
AZƏRTAC BEYNƏLXALQ ƏLAQƏLƏRİNİ GENİŞLƏNDİRİR NÖVBƏTİ TƏRƏFDAŞ KOREYA RESPUBLİKASININ YONHAP AGENTLİYİDİR 878
BAKIDA AZƏRBAYCAN-RUSİYA PARLAMENTLƏRARASI KOMİSSİYANIN 8-Cİ İCLASI KEÇİRİLMİŞDİR 878
PARLAMENTLƏR SƏVİYYƏSİNDƏ MÜNASİBƏTLƏRİMİZİN DAHA DA DƏRİNLƏŞMƏSİ HƏR İKİ XALQIN MƏNAFEYİNƏ XİDMƏT EDİR 880
AZƏRBAYCAN VƏ KOREYA ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏ İMZALANMIŞDIR 881
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN AVROPA PARLAMENTİNƏ MÜRACİƏTİ 881
XARİCİ İŞLƏR NAZİRİNİN TÜRKİYƏYƏ SƏFƏRİ 883
AZƏRBAYCAN VƏ GÜRCÜSTAN DAXİLİ İŞLƏR ORQANLARI ARASINDA ƏMƏKDAŞLIQ YÜKSƏLƏN XƏTLƏ İNKİŞAF EDİR 885
AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN 2009-CU İL ÜÇÜN YEKUN MƏTBUAT BURAXILIŞI 886
PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ 891
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2009-CU İLDƏ DÖVLƏT, RƏSMİ VƏ İŞGÜZAR SƏFƏRLƏRİN SİYAHISI 895
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2009-CU İLDƏKİ GÖRÜŞLƏRİ BARƏDƏ MƏLUMAT 896
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2009-CU İLDƏKİ QƏBULLARI BARƏDƏ MƏLUMAT 904
MÜNDƏRİCAT 917

"Qoliaf Nəşriyyat Evi" MMC

T.: 994 12 - 510 24 65
F.: 994 12 - 510 24 87
e/p.:info@qoliafqrup.com

Yığılmağa verilmişdir	: 10.03.2010
Çapa imzalanmışdır	: 02.04.2010
Format	: 70x100 1/16
Fiziki ç.v.	: 61
(Rəngli şəkillər)	: 1
Tirajı	: 500